ODLAR YURDU UNİVERSİTETİ

Prof. Sabir Allahverdiyev

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ HÜQUQ KURSU

I cild
Ümumi hissə
II nəşr

(15 noyabr 2008-ci il tarixədək olan əlavə və dəyişikliklərlə)

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən «hüquqşünas» ixtisası üzrə təhsil alan ali təhsil müəssisələrinin tələbələri üçün dərslik kimi təsdiq edilmişdir.

~~«Digesta»~~ ~~nəşriyyatı~~

Redaktorlar: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Dövlət idarəçiliyinin hüquqi təminatı» kafedrasının müdiri, **h.e.n., dos. S. Səlimov;** Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi hüquq» kafedrasının baş müəllimi **N. Əhmədov**; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının «Mülki hüquq» kafedrasının müdiri, polis polkovniki **M. Məmmədov**

Rəyçilər: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının **«Dövlət idarəçiliyinin hüquqi təminatı» kafedrası**;

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının **«Mülki hüquq» kafedrası**

Sabir Salman oğlu Allahverdiyev (*Odlar Yurdu Universitetinin professoru*).
Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild. (II nəşr).
«Digesta» nəşriyyatı. Bakı, 2008. 944 səh.

Kitab ali məktəblər üçün mülki hüquq üzrə nümunəvi proqama uyğun olaraq hazırlanmışdır. Burada mülki hüququn ümumi hissəsinin institutları işıqlandırılır. Kitabda həmin institutların məna və mahiyyətinə bütün detal və parametrləri ilə aydınlıq gətirilir.

Kitab özündə, birincisi, dərsliyin, ikincisi, monoqrafiyanın, üçüncüsü MM-in kommentariyasının elementlərini birləşdirir. Ona görə də ondan müəllimlər, tələbələr, aspirantlar, elmi işçilər, hakimlər, vəkillər, notariuslar, prokurorluq orqanlarının əməkdaşları, sahibkarlar və praktiki işçilər istifadə edə bilərlər.

Lisenziya: A - 060
№ 022060
Kod: 102

© Sabir Allahverdiyev, 2008
© Digesta, 2008

İKİNCİ NƏŞRƏ ÖN SÖZ

Oxucu auditoriyasına təqdim olunan dərsliyin birinci nəşri 2003-cü ildə çap olunmuşdur. Həmin vaxtdan etibarən mülki qanunvericilik sisteminə daxil olan aktlara, xüsusən də Azərbaycan Respublikasının Mülki Məcəlləsinə bir sıra əlavə və dəyişikliklər edilmişdir: bəzi aktlar qüvvədən düşmüş, yeniləri qəbul olunmuşdur. Dərsliyin ikinci nəşri bu dəyişiklik və əlavələri özündə əks etdirir.

Mülki hüquq ən fundamental hüquq sahələrindən biridir. O, cəmiyyətdəki ictimai münasibətlərin mühüm və vacib sahəsini tənzimləyir. Təsadüfi deyildir ki, hər bir dövlətdə hüquqi-iqtisadi mədəniyyətin inkişaf səviyyəsi məhz bu hüquq sahəsi ilə müəyyən edilir. Buna görə də «hüquqşünaslıq» ixtisası üzrə təhsil alan hər bir tələbə mülki hüquq barədə biliklərə yiyələnməlidir. Bu hüquq sahəsinə dair zəruri biliklərə malik olmadan bacanqlı və savadlı hüquqşünas olmaq qeyri-mümkündür. Yazılmış dərslik də oxucu auditoriyasını belə biliklərlə təmin etmək məqsədinə xidmət edir.

Müəllif dərsliyi yazarkən və mülki hüquqa aid məsələlərin mahiyyətinə aydınlıq gətirərkən Sovet dövrünün sivilistika məktəbinin parlaq nümayəndələrinin (M.M. Aqarkovun, O.S. İoffenin, S.N. Bratusun, V.P. Qribanovun, O.A. Krasavçikovun və digərlərinin), habelə müasir tanınmış Rusiya müəlliflərinin (S.P. Sergeyevin, Y.K. Tolstoyun, Y.A. Suxanovun və başqalarının) sivilisttikaya dair elmi fikirlərinə istinad edir. Bunlardan əlavə, Avropa alimlərinin — Fransa müəllifi Jüllio de la Moranderin («Гражданское право Франции. Часть 1». M, 1958), Almaniya alimi L. Ennekserusun (Курс Германского гражданского права. Том 1. M., 1949), ABŞ sivilisti L. Laskın (Гражданское право США. M., 1961), eləcə də Yaponiya alimləri Sakae Vaqasuma və Toru Aridzuminin mülki hüquq barədə yazdığı kitablardan (Гражданское право Японии. Книга I. M., 1983) istifadə olunmuşdur.

Kitabın həcmi onu göstərir ki, müəllif mülki hüquqi məsələləri hərtərəfli izah etməyə təşəbbüs göstərmişdir. Müəllif həm də çalışmışdır ki, kitabın dili başa düşülən, oxunaqlı və sadə olsun.

Müəllif

İXTİSARLA VERİLMİŞ ŞƏRTİ İŞARƏLƏRİN ADI

AR QK — Azərbaycan Respublikasının Qanunlar Külliyyatı
MM — Azərbaycan Respublikasının Mülki Məcəlləsi
AM — Azərbaycan Respublikasının Ailə Məcəlləsi
CM — Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
MPM — Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi
TGM — Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsi
HM — Azərbaycan Respublikasının Hava Məcəlləsi
VM — Azərbaycan Respublikasının Vergi Məcəlləsi
İXM — Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
TM — Azərbaycan Respublikasının Torpaq Məcəlləsi
Almaniya MQ — Almaniya Mülki Qanunnaməsi
Yaponiya MM — Yaponiya Mülki Məcəlləsi
ГК — Гражданский Кодекс РФ
БВС — Бюллетень Верховного Суда РФ
БНА — Бюллетень нормативных актив министерств и ведомств

I BÖLMƏ
ÜMUMİ MÜDDƏALAR

MÜLKİ HÜQUQUN ÜMUMİ HİSSƏSİ

(ALLGEMEINER TEIL DES BÜRGERLICHEN RECHTS)

I FƏSİL
MÜLKİ HÜQUQ VƏ XÜSUSİ HÜQUQ

§ 1. Mülki hüquq xüsusi hüququn bir sahəsi kimi

1. «Mülki hüquq» termininin tarixi mənbəyi

Bir çox qabaqcıl və inkişaf etmiş ölkələrin (Almaniyanın, Fransanın, İtaliyanın, Yaponiyanın, ABŞ-ın və s.) daxili milli hüquq sistemləri ayrı-ayrı hüquq sahələrindən — konstitusiya hüququndan; cinayət hüququndan; əmək hüququndan; inzibati hüquqdan və s. ibarətdir[1]. Bu hüquq sahələrindən biri mülki hüquq adlanır. Mülki hüquq hər bir ölkənin dövlətdaxili milli hüquq sisteminin ən geniş, əsas və başlıca sahələrindən biri hesab olunur.

Hər bir hüquq sahəsi ictimai münasibətlərin müəyyən bir sferasını tənzimləyir. Bəs mülki hüquq nəyi nizama salır? Hansı növ ictimai münasibətlər onun nizamasalma predmetinə daxildir? Hər gün insanlar özlərinə mağazadan, dükandan və bazardan ərzaq məhsulları, geyim şeyləri, ev avadanlıqları, məişət predmetləri və s. alırlar. Bu kimi hallarda alqı-satqı münasibətləri yaranır. Bakı şəhərində tikinti təşkilatları bizim gözlərimiz önündə hər gün bir-birindən yaraşıqlı və uca binalar tikir. Tikinti təşkilatları ilə həmin binaların tikilməsini sifariş edən şəxslər arasında münasibətlər podrat münasibəti adlanır. Hər gün işçilər (həkimlər, mühəndislər və s.), müəllimlər və tələbələr müxtəlif ictimai nəqliyyat vasitələrindən istifadə etməklə iş yerlərinə, ali təhsil müəssisələrinə gəlirlər. Belə halda sərnişinlərlə ictimai nəqliyyat vasitələri arasında daşıma münasibətləri əmələ gəlir. Ədliyyə orqanlarında öz nizamnaməsini dövlət qeydiyyatından keçirən və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyətində olan müəssisə (firma) kommersiya bankında hesablaşma hesabı açır. Müştəri (müəssisə) ilə bank arasında ictimai münasibət meydana gəlir. Universitetə dərsə gələn tələbələr paltolarını saxlamaq üçün qarderoba verirlər. Bu cür halda saxlama (saxlanc) münasibətləri göz qabağındadır. Kəndli (fermer) təsərrüfatı sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün kredit təşkilatından kredit alır. Belə halda kredit münasibətləri yaranır. Vətəndaş öz yaşayış evini yanğından sığortalamaq üçün sığorta təşkilatı ilə əlaqəyə girir. Göstərilən hal isə sığorta münasibətinin əmələ gəlməsinə dəlalət edir. Ata ölür və onun əmlakı vərəsələrə keçir. Bununla vərəsəlik münasibəti yaranır. Bax, bütün bu və digər münasibətlər mülki hüquqla tənzimlənir və nizama salınır.

Müasir xarici ölkələrin (məsələn, Almaniyanın, Fransanın, İtaliyanın, Hollandiyanın, İspaniyanın və s.) **milli mülki hüquq sistemlərində mülki hüquq dedikdə,** əsasən ictimai həyatda və cəmiyyətdə əmələ gələn əmlak münasibətlərini tənzimləyən hüquq sahəsi başa düşülür. Mülki hüquq sahəsi **sivilis-**

[1] bax: *Давид Р., Жоффре-Спинози К.* Основные правовые системы современности. М., 1999, с. 62, 227, 286; Правовые системы стран мира. Энциклопедический справочник / Ответ. ред. *А.Я.Сухарев.* М., 2001; *Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1, 2. М.,1983; *Dieter Schwab.* Einführung in das Zivilrecht. Heidelberg: C.F. Müller. Verlag. 1997.

tika da adlanır. Sivilistika sahəsinə, bir qayda olaraq, əmlak münasibətlərini nizama salan hüquq normaları daxildir. «Sivilistika» termininin tarixi mənşəyi və kökü isə çox qədim dövrlərə və əyyamlara gedib çıxır. Bu termin «**ius civile**» anlayışı ilə bağlıdır. «Ius civile» Roma hüququ tərkibində ayrıca sistem kimi yaranmışdı. Roma hüququnda bir neçə sistem fərqləndirilirdi. Bu hüquq sistemləri birdən-birə eyni vaxtda yaranmamışdı. Onlar tarixi inkişafın müxtəlif dövrlərində tədricən bir-birinin ardınca təşəkkül tapmışdı. «Ius civile» Roma hüququnun tarixi sistemləri arasında xüsusi yer tuturdu.

«Ius civile» «mülki hüquq» mənasını ifadə edir. Belə ki, latın dilində mülki sözünə, ümumiyyətlə desək, «civilis» ifadəsi uyğun gəlir[1]. Latınca «ius» sözü isə «hüquq» mənasını bildirir. Amma Roma hüququnun tarixi sistemlərindən biri olan sivil hüququ (ius civile) müasir mənada mülki hüquq anlayışına uyğun gəlmir. Roma mülki hüququnun nizamasalma predmeti sivil hüququn (o cümlədən müasir mülki hüququn) nizamasalma predmetindən daha geniş idi[2]. Belə ki, Roma mülki hüququna üç hüquq sisteminin məcmusu uyğun gəlirdi:

- sivil hüququ (ius civile);
- xalqlar hüququ (ius gentium);
- pretor hüququ (ius praetorium və ya honorarium; «honores» - fəxri vəzifə deməkdir).

Sivil hüququ kvirit hüququ da adlandırılır. **Kvirit hüququ (ius quiritium)** qədim milli Roma hüququ idi. Bu hüququn adı Roma vətəndaşları olan qədim kvirit qəbilələrinin adı ilə bağlıdır. Kvirit hüququ yalnız Roma vətəndaşları olan kviritlərə şamil edilirdi. Bu hüquq sistemi sonralar sivil hüququ adını aldı. Sivil hüququ Roma vətəndaşlarının və şəhər-dövlətlərin (civitas) hüquqlarının milli xaraktere malik olmasını ifadə edirdi. O, qədim milli Roma hüququ kimi qəbul olunmuşdu.

Roma hüququna daxil olan sistemlərdən biri **xalqlar hüququ (ius gentium)** adlanırdı. Sivil hüququ bu hüquq sisteminə qarşı qoyulurdu. Xalqlar hüququnun yaranması Roma hüququnda mühüm hadisə idi[3]. Belə ki, sivil hüququ yalnız Roma vətəndaşlarına tətbiq edilirdi. Yalnız bu vətəndaşlar tam hüquqlu subyektlər hesab olunurdular. Roma icmasına daxil olmayan insanlar prinsip etibarilə hüquqsuz sayılırdılar. Onlar «düşmənlər» (hostes) hesab olunurdular və hər hansı bir müdafiədən istifadə etmirdilər. Bu cür vəziyyət qədim icmanın malik olduğu qapalı təsərrüfat sistemi üçün xarakterik idi. İstehsal

[1] Sivil sözü «civis» və «civitas» kimi ifadələrlə bağlıdır. Civis Roma vətəndaşına, civitas isə Roma vətəndaş icmasına, şəhər-dövlətə deyilirdi. Romada mülki hüquq münasibətlərinin əsas və başlıca subyektləri Roma vətəndaşları (civis) və Roma vətəndaş icmasının üzvləri (civitas üzvləri) idilər. Civis dedikdə, qədim Roma vətəndaşları olan kviritlər başa düşülürdü. Qədim dövrlərdə romalılar özlərini kviritlər (quirites) adlandırırdılar. Civis (vətəndaş) ifadəsi bir çox Avropa ölkələrinin müasir hüquqi terminologiyasında saxlanılmışdır. Belə ki, mülki hüquq almanca «Zivilrecht», fransızca «droit civil» ingiliscə «civil law», rusca «гражданское право» və s. adlanır.

[2] Buna görə «Roma mülki hüququ» adının qüsurlu olması fikri irəli sürülür (bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. XII).

[3] Roma hüququnda xalqlar hüququ adlı sistemin yaradılmasını zərurətə çevirən amillər barədə bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 5-6, с. 21-22.

və mübadilənin inkişafı, qonşu xarici ölkələrlə ticarət dövriyyəsinin genişlənməsi, əyalətlərin, icmaların, koloniyaların və s. Roma imperiyasına birləşdirilməsi, Roma vətəndaşlığının öz əvvəlki məhdud milli xarakterini itirməsi və digər amillər Roma vətəndaşları olmayanlar (pereqrinlər) üçün əsas hüquqların (mülkiyyət hüququnun, müqavilə bağlamaq hüququnun) tanınmasını zərurətə çevirdi. Belə bir şəraitdə xalqlar hüququ (ius gentium) adlı hüquq sistemi yarandı.

Xalqlar hüququ özündə müxtəlif normaları birləşdirmişdi. Onun tərkibinə həm qədim Roma hüququndan, həm də başqa xalqların hüququndan, xüsusən də yunan hüququndan götürülmüş normalar daxil idi. Beləliklə, qədim Roma hüququ olan sivil hüququ ilə xalqlar hüququnun dualizmi (ikiliyi) yarandı. Bizim eranın birinci əsrində xalqlar hüququ milli Roma hüququ olan sivil hüququ üzərində, necə deyərlər, «qələbə çaldı». Ona görə ki, o, universal hüquq sistemi sayılırdı. Bu hüquq vətəndaşlığından asılı olmayaraq ticarət dövriyyəsinin bütün iştirakçılarına şamil edilirdi. Xalqlar hüququnun təsir dairəsi pereqrin adlandırılanlar da daxil olmaqla bütün Roma əhalisini əhatə edirdi. Belə ki, bu hüquq sistemi həm Roma vətəndaşları arasında, həm pereqrinlər arasında, həm də onların özlərinin arasında əmələ gələn əmlak münasibətlərini tənzimləyirdi. Xalqlar hüququna daxil olan normalar Roma pretorları tərəfindən Romada tətbiq olunurdu. Ona görə də həmin hüquq Roma hüququnun ayrıca bir sistemi hesab edilirdi.

Roma hüququna daxil olan üçüncü hüquq sistemi **pretor hüququ** adlanırdı. Xüsusi xarakterli bu hüquq sistemi tədricən yaranmışdı. Pretor hüququnun əmələ gəlməsi iqtisadiyyatın inkişafı, qul sahiblərinin artması, iri torpaq sahələrinin və ticarət (və ya sələm) kapitalının quldarlar sinfinin yuxarı təbəqəsinin əlində cəmləşməsi ilə bağlı idi. Yeni sosial-iqtisadi şərait yaranmışdı. Sivil hüququnun normaları bu yeni şəraitə uyğun gəlmirdi. Yeni sosial-iqtisadi şəraiti qaydaya salmaq üçün sivil hüququ kifayət etmirdi. Zəruri idi ki, sivil hüququ tamamlansın və ona əlavələr edilsin. Bu iş məhkəmə magistratları, xüsusən pretorlar tərəfindən yerinə yetirilirdi. Pretorların verdiyi ediktlər böyük əhəmiyyətə malik idi. Bunun nəticəsində pretorlar tərəfindən işlənib hazırlanan bir sıra institutlar yarandı. Bu institutlar müdafiənin yeni vasitələri ilə təmin olundu. Beləliklə, sivil hüququna paralel olaraq pretor hüququ yarandı. Pretor ediktləri bu hüququn əmələ gəlməsinin əsasını təşkil edirdi.

Söylədiklərimizdən belə bir nəticəyə gəlmək mümkündür ki, Roma hüququ müasir mənada və geniş məzmunda sivil hüququna uyğun gəlmirdi. Bax, yuxarıda göstərdiyimiz üç sistemin — sivil hüququnun, xalqlar hüququnun və pretor hüququnun məcmusu müasir və geniş mənada Roma mülki hüququ ilə müəyyən dərəcədə üst-üstə düşürdü. Göstərilən üç hüquq sistemini vahid anlayışla əhatə və ifadə etmək lazım idi. Bu məqsədlə **xüsusi hüquq (ius privatum)** kateqoriyasından istifadə olundu. Göstərilən üç sistemi cəm halında ifadə etmək üçün «ius privatum» ən münasib, ən əlverişli və ən uğurlu termin və anlayış idi. Ona görə ki, xüsusi hüquq ayrı-ayrı şəxslərin maraq və mənafelərini qoruyan hüquq normalarından təşkil olunmuşdu. Həmin üç hüquq sisteminə daxil olan normalar da ayrı-ayrı şəxslər arasında — Roma vətəndaşları arasında, pereqrinlər (qeyri-Roma vətəndaşları) arasında, həmçinin onların öz aralarında yaranan əmlak münasibətlərini nizama salırdı. Deməli,

müasir və geniş mənada Roma mülki hüququ xüsusi hüquq anlayışı ilə əhatə olunmuşdu. Məhz bu səbəbdən «Roma xüsusi hüququ» və «Roma mülki hüququ» kimi iki anlayışın fərqləndirilməsi qeyri-prinsipial xarakter daşıyır. Belə ki, hər iki halda söhbət mahiyyətcə Roma hüququnun institusiyalarından gedir[1].

Beləliklə, mülki hüquq (sivilistika) termini öz başlanğıcını Roma sivil hüququndan götürsə də, «Roma mülki hüququ», «Roma sivil hüququ» anlayışının sinonimi deyil. Roma mülki hüququna, mahiyyətcə müəyyən dərəcədə, qeyd etdiyimiz kimi, Roma xüsusi hüququ uyğun gəlir.

2. Ümumi və xüsusi hüquq

Dünya təcrübəsinin təhlili göstərir ki, xüsusi hüquq cəmiyyətdə ictimai mənafelərin münasib balansının saxlanılmasında, insan hüquq və azadlıqlarının müdafiə edilməsində və həyata keçirilməsində həmişə müsbət rol oynamışdır. Xüsusi hüquq bazar iqtisadiyyatının, sahibkarlığın əsasıdır.

Tarixən bütün hüquq sistemləri şərti olaraq özündə **ümumi və xüsusi adlı iki hissəsini birləşdirmişdir**. Hüququn ümumi və xüsusi hüquqa bölünməsini dünya hüquq elmi və praktikası zəruri hesab edir. Bu, böyük və prinsipial əhəmiyyətə malikdir. Bu cür bölgünü hələ lap köhnə əyyamlarda Roma hüquqşünasları da aparmışlar. Qədim Romada hüququn ümumi hüquq (ius publicum) və xüsusi hüquq (ius privatum) adlı iki sahəsi fərqləndirilirdi. Qədim Roma hüquqşünası Ulpian (b.e. 170-228) belə hesab edirdi ki, ümumi hüquq Roma dövlətinin vəziyyətinə aid olan hüquq, xüsusi hüquq isə ayrı-ayrı şəxslərin mənafeyinə aid olan hüquqdur. Ümumi hüquq dövlət işləri sahəsinə, xüsusi hüquq xüsusi işlər sahəsinə aiddir[2]. Bizim eranın birinci əsrində Tit Liviy göstərirdi ki, XII cədvəl qanunu ümumi və xüsusi hüququn mənbəyidir. Roma xüsusi hüququ qanunvericiliyin və hüquqi təlimlərin sonrakı inkişafına güclü təsir göstərmişdir. Bu hüquq ən vacib tarixi hüquqi hadisələrdən biridir. Hüququn bu cür «iki yerə» bölünməsini fransız sosioloqu Şarl Lui Monteskye (1689-1755) «Qanunların ruhu» (1748) adlı məşhur əsərində nəzəri cəhətdən əsaslandırmağa çalışmışdır. Daha sonra bir çox mütəfəkkirlər (Hegel, Hobs), habelə rus hüquqşünasları (D.D.Qrim, P.İ.Novqorodtsev, N.M.Korkunov, L.İ.Petrajitski, G.F.Şerşeneviç) öz əsərlərində bu fikrin əsaslı olmasını sübut etməyə cəhd göstərmişlər.

Müasir dövrdə bütün inkişaf etmiş və sivil hüquq sistemlərində hüququn ümumi və xüsusi hüquqa bölünməsi bu və ya digər formada mövcuddur. Lakin bəzi ölkələrdə hüququn bölgüsü başqa formada ifadə edilir. Məsələn, ingilis hüququnda ümumi və ədalət hüququ kimi hissələr fərqləndirilir. ABŞ hüquq

[1] Müasir romanistlərin fikrincə, Roma xüsusi hüququ dedikdə, Roma dövləti hüdudlarında ayrı-ayrı şəxslər arasında yaranan münasibətləri tənzimləyən Roma hüquq normalarının məcmusu başa düşülür. Roma xüsusi hüququ kimi anlayış özündə həm Roma sivil hüququnun, həm xalqlar hüququnun, həm də pretor hüququnun normalarını birləşdirir. Roma mülki hüququ dedikdə də bu normaların kompleksi başa düşülür (bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. XI). Qərbi Avropa ölkələrinin hüquq fakültələrində «Roma huququnun institusiyası» adlı kursdan mühazirələr oxunur. Çox vaxt bu kurs, bir qayda olaraq, «Roma mülki hüququ» və ya «Roma xüsusi hüququ» adı altında nəzərdə tutulur.

[2] Ulpianın bu barədə fikri ilə tanış olmaq üçün bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən tərcümə. Bakı. 1999, s. 4.

elmində hüququn bölgüsü bir o qədər də dəqiq ifadə edilmir. Lakin hüququn iki yerə bölünməsi ideyası bütün ölkələrdə saxlanılır.

Hüququn bölgüsünü şərtləndirən cəhət ondan ibarətdir ki, ictimai həyatda qüvvədə olan bir qrup hüquq normaları cəmiyyət və dövlət mənafeyi (ümumi əhəmiyyətli ictimai mənafe) ilə bağlı məsələləri nizama salır[1]. Məsələn, konstitusiya, cinayət və inzibati hüquq normaları bu qəbildən olan normalardır. Digər qrup hüquq normaları isə ayrı-ayrı şəxslərin mənafeyi ilə bağlı olan münasibətləri qaydaya salır. Məsələn, mülki hüquq normaları bu cür normalara misal ola bilər.

Ümumi hüquq dövlət hakimiyyəti ilə bilavasitə əlaqədardır. Bu hüquqa daxil olan normalar bilavasitə dövlətin mənafeyini qoruyur, dövlətin və dövlət orqanlarının hüquqi vəziyyətini müəyyənləşdirir. Buraya aiddir: dövlət orqanlarının quruluşu; dövlət təşkilatlarının və vəzifəli şəxslərin səlahiyyətləri; dövlət hakimiyyətini ifadə edən aktlar (vergilərin yığılması, cinayətkarların cəzalandırılması və s.). Qədim Roma hüquqşünaslarının fikrincə, ümumi hüquq normaları şərtsiz məcburi xarakterə malik olub ayrı-ayrı şəxslərin razılığı ilə dəyişdirilə bilməzdi. Bu normalara həmişə əməl olunmalıdır. Roma hüquqşünası Papinian göstərirdi ki, ümumi hüququn ayrı-ayrı şəxslərin sazişi əsasında dəyişdirilməsi qeyri-mümkündür. Ümumi hüquq normaları, bir qayda olaraq, dispozitiv yox, imperativ xarakter daşıyır.

Beləliklə, dövlət hakimiyyəti ilə bağlı olan münasibətləri nizama salan hüquq normalarının məcmusuna **ümumi hüquq** deyilir. Ümumi hüquqa daxildir:

- konstitusiya (dövlət) hüququ;
- inzibati hüquq;
- maliyyə hüququ;
- cinayət hüququ;
- cinayət-prosessual hüququ;
- mülki-prosessual hüquq;
- ekologiya hüququ.

Xüsusi hüquq əsasən hakimiyyət səlahiyyətlərinə malik olmayan, azad və bərabər hüquqlu mülkiyyətçi kimi çıxış edən şəxslərin - fiziki və hüquqi şəxslərin mənafeyinə xidmət edərək, onların tələbatını ödəyir və təmin edir. Bu hüquqa istehsal və mübadilə prosesində xüsusi mülkiyyətçilərin münasibətlərini və mənafelərini qoruyan, nizama salan hüquq normaları daxildir. Xüsusi hüquq azad bazar münasibətlərinin mənafeyini müdafiə edir. Ümumi hüquq isə dövlət hakimiyyət və icra orqanlarının fəaliyyət qaydasını, parlamentlərin, digər nümayəndəlik və hökumət orqanlarının təşkilini və işini, ədalət mühakiməsinin həyata keçirilməsini, mövcud quruluşa qarşı edilən qəsdlərlə mübarizəni nizama salan normalardan ibarətdir. Əgər bütün hüquq münasibətlərində tərəflərdən biri kimi dövlət çıxış edərsə, burada söhbət ancaq ümumi hüquqdan gedə bilər. Ümumi hüquq hakimiyyət və tabeçilik sahəsinə aid olan hüquqdur.

[1] Hüququn ümumi və xüsusi hüquq adlı sahələrinin fərqləndirilməsini şərtləndirən meyarlar barədə xarici və rus sivilist doktrinasında müxtəlif cür baxışlar yaranmışdır. Bu baxışlar barədə ətraflı məlumat almaq üçün bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 75-81; *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 37-46.

Xüsusi hüquq isə azad təşəbbüskarlıq sahəsini ifadə edir.

Xüsusi hüquq, hər şeydən əvvəl, xüsusi mülkiyyət institutunun yaranması və inkişafı ilə, habelə bu institut əsasında yaranan münasibətlərin inkişafı ilə bağlıdır. Tarixən «xüsusi hüquq xüsusi mülkiyyətlə eyni vaxtda inkişaf edir»[1]. Bazar sistemi subyektlərinin ümumi bərabərliyi və hüquqi müdafiəsi, sahibkarlıq, iqtisadi azadlıq, xüsusi mülkiyyət sivil dünyanın tanıdığı və qəbul etdiyi vətəndaş cəmiyyətinin ayrılmaz atributlarıdır. Bu atributlar, ələlxüsus da xüsusi mülkiyyət xüsusi hüquqla bilavasitə bağlı və əlaqəlidir. Xüsusi hüquq istehsal vasitələri və üsulları üzərində xüsusi mülkiyyətə və əmtəə təsərrüfatına əsaslanır. Bu hüquq mülkiyyətçilərin xüsusi mənafeyini, müstəqilliyini və təşəbbüskarlığını təmin edir.

Ümumi və xüsusi hüququ bir-birindən ayırmaq olmaz. Hüquq sistemində onlar bir-biri ilə sıx surətdə birləşmiş əlaqədədir. Xüsusi hüquq ümumi hüquqa əsaslanır və ona söykənir. Ümumi hüquq olmadan xüsusi hüquq fəaliyyət göstərə bilməz. O, xüsusi hüququ müdafiə etmək və qorumaq məqsədinə xidmət edir. Onlar bir-biri ilə üzvi surətdə qarşılıqlı əlaqədə olub, hüquq sistemini təşkil edir.

Xüsusi və ümumi hüquq arasındakı münasibətlərin xüsusi aspektləri sovet dövrünün tanınmış alimi M.M.Aqarkov tərəfindən 1920-ci ildə nəşr edilən geniş məqalədə əsaslı surətdə işıqlandırılmışdır. Bu məqalə 1992-ci ildə «**Правоведение**» jurnalının birinci və ikinci nömrələrində yenidən dərc edilmişdir[2]. M.M.Aqarkov göstərirdi ki, ümumi hüquq dövlət hakimiyyəti ilə, xüsusi hüquq isə xüsusi təşəbbüskarlıqla bağlı olan hüquqdur.

Hüququn bu cür iki sahəsinin fərqləndirilməsinə dəlalət edən meyarların müəyyənləşdirilməsinə o dövrdə sovet hüquq ədəbiyyatında xüsusi cəhd göstərilirdi. Müəlliflərdən B.B.Çerepaxin qeyd edirdi ki, tənzim olunan münasibətə hüququn göstərdiyi təsirin üsul və xarakteri ümumi hüququ xüsusi hüquqdan fərqləndirməyə imkan verən əsas meyardır[3]. Dövlət idarəçiliyi sahəsində yaranan münasibətlər iyerarxiya (aşağıdakıların yuxarılara tabeçiliyi) prinsipinə əsaslanır. Ona görə də bu münasibətlər ümumi hüququn nizamasalma predmetinə daxildir. İqtisadiyyat, hər şeydən əvvəl əmtəə-mal mübadiləsi sahəsində yaranan münasibətlər isə iştirakçıların müstəqilliyi və sərbəstliyi prinsipi üzərində qurulur. Ona görə də bu münasibətlər xüsusi hüquqla qaydaya salınır və tənzimlənir.

Müəlliflərdən S.S.Alekseyevin fikrincə, hüquqi inkişafda əsas rolu xüsusi hüquq oynayır. Xüsusi hüquq bu sahədə ümumi hüquq institutlarını üstələyir. O qeyd edir ki, xüsusi hüquq əsasən «bazar hüququdur». Ona görə də bu hüquq MDB çərçivəsində vahid hüquqi məkan yaradılmasında vacib rol oynaya bilər. Belə ki, bazar prinsip etibarilə dövlətlərarası sərhədlər tanımır[4].

Xüsusi hüquq təsərrüfatın bazar iqtisadiyyatı qaydasında təşkilinə əsaslanan hüquq sisteminin bazasını təşkil edir. Bu hüquq bütün sivil və qabaqcıl hüquq sistemlərində əmlakın mənsubiyyəti və ya əmlakdan istifadə edilməsi

[1] *Маркс К., Энгельс Ф.* Соч. Т. 3, с. 63.
[2] *Агарков М.М.* Ценность частного права // Правоведение. 1992. №1, с. 31-41; №2, с.39.
[3] *Черепахин Б.Б.* К вопросу о частном и публичном праве. Иркутск. 1926; М., 1994.
[4] bax: *Алексеев С.С.* Теория права. М., 1994, с. 124.

üzrə müxtəlif münasibətləri (mülkiyyət, icarə, kirayə, lizinq və s. münasibətləri), yəni əmlak münasibətlərini nizama salır. Bu münasibətlərdə iştirak edən **subyektlər hüquq bərabərliyinə malikdirlər**. Həmin münasibətlər iyerarxiya (yunanca hierarchia — «hieros» müqəddəs + «arche» hakimiyyət) tabeçiliyi, hakimiyyət-tabeçilik prinsipi üzrə qurulmur. İştirakçıları bərabər hüquqa malik olmayan əmlak münasibətləri xüsusi hüququn nizamasalma predmetini təşkil etmir. Məsələn, hüquq pozuntusuna görə cərimənin alınması və ya vergi yığılması yolu ilə dövlət büdcəsinin formalaşdırılması zamanı da əmlak münasibətləri yaranır. Bu münasibətlərdə çıxış edən iştirakçılar bərabər hüquqa malik deyillər. Burada tərəflərin iradə azadlığını istisna edən hakimiyyət — tabeçilik münasibətləri var. Belə ki, cərimə alınması əsasında yaranan əmlak münasibətində dövlət yol polisi və yol hərəkəti qaydalarını pozan sürücü çıxış edir. Vergi yığılması ilə əlaqədar yaranan əmlak münasibətinin iştirakçıları isə dövlət və vergi ödəyiciləridir (fiziki və hüquqi şəxslərdir). Bu cür əmlak münasibətləri hakimiyyət-iyerarxiya tabeçiliyinə əsaslanır. Tərəflər arasında hakimiyyət-iyerarxiya tabeçiliyinə əsaslanan bu cür münasibətlər, həmçinin digər vergi və ya başqa maliyyə münasibətləri xüsusi hüququn yox, inzibati və maliyyə hüququnun, başqa sözlə desək, ümumi hüququn nizamasalma predmetini təşkil edir. Deməli, iştirakçıları bərabər hüquqa malik olan əmlak münasibətləri xüsusi münasibətlər hesab olunur. Bu münasibətlər xüsusi hüququn nizamasalma predmetinə daxildir. Dəyişmə, alqı-satqı, daşıma, podrat, icarə, kirayə və digər müqavilələrdə tərəflər bərabər hüquqlara malikdirlər. Bu müqavilələrlə əlaqədar yaranan əmlak münasibətləri xüsusi hüquq münasibətləri sayılır.

Qədim Romada xüsusi hüquq dedikdə, ayrı-ayrı şəxslərin digər şəxslərlə qarşılıqlı münasibətlərində onların mənafeyini müdafiə edən hüquq normalarının sistemi başa düşülürdü. Xüsusi hüquq sahəsinə mülkiyyət, vərəsəlik, öhdəlik, ailə və digər münasibətlər daxil idi. XII cədvəl qanunlarında göstərilirdi ki, şəxs borc müqaviləsi bağladığı və mülkiyyətçi olduğu hallarda, onun şifahi sərəncamı hüquq norması kimi qəbul edilir. Roma hüquqşünaslarına görə, xüsusi hüquq üç sahəyə bölünür[1]: Roma dövlətində yaşayan şəxslər arasında şəxsi hüquqları və şəxsi münasibətləri tənzimləyən hüquq normalarına; şəxslər arasında əmlak münasibətlərini nizama salan hüquq normalarına; şəxsi və əmlak xarakterli subyektiv hüquqların müdafiəsini təmin edən hüquq normalarına. Roma xüsusi hüququ bir az əvvəldə göstərdiyimiz kimi, üç tarixi hüquq sistemini əhatə edirdi[2]: sivil hüququnu; pretor hüququnu; xalqlar hüququnu. Bu hüquq, ələlxüsus bizim eradan əvvəl axırıncı əsrlərdə və bizim eranın II-III əsrlərində daha intensiv surətdə inkişaf etmişdir. Roma xüsusi hüququ sözün əsl mənasında hüquqi möcüzə idi. O, bütün zamanlarda hüquq mədəniyyətinin və incəsənətinin öz əhəmiyyətini itirməyən böyük əsəridir. Roma hüququ

[1] bax: *Пухан И., Полянак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с.2.
[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. XI; Римское частное право. Учебник / Под ред. *И.Б. Новицкого, И.С. Перетерского.* М., 1999, с. 19-22. Roma xüsusi hüququnun əsas müddəaları VI əsrdə Bizans imperatoru Yustinianın qanunlar külliyyatında cəmlənmişdi. Bu külliyyat b.e. 529-534-cü illərdə hüquqşünas Tribonian tərəfindən 16 əməkdaşın iştirakı ilə hazırlanmışdı. Külliyyatın əsas hissəsini digestlər (50 kitab) və institusiya (hüquq üzrə qədim Roma dərsliyi, b.e.ə. II əsr) təşkil edirdi. Həmin sənədin bir hissəsi Roma və Bizans imperatorlarının, o cümlədən Yustinianın özünün qərarlarını birləşdirirdi.

müəyyən mənada bəşəriyyətin hüquqi tərəqqisini təyin edir və şərtləndirir. O, dünyanın şah əsəri olmaqla insan ağlı və zəkasının nəticəsidir[1].

Beləliklə, **xüsusi hüquq** odur ki, bu hüquq özündə fiziki və ya hüquqi şəxslər arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir. Bu hüquq müstəqil bazar subyektlərinin mənafeyini müdafiə edir. Əmtəə istehsalı və mübadiləsi prosesində xüsusi mülkiyyətçilər arasında əmələ gələn münasibətləri qaydaya salan və tənzimləyən hüquq normaları xüsusi hüququn əsasını təşkil edir. Onun əsas funksiyası maddi və qeyri-maddi (ideal) nemətləri bölüşdürməkdən, bu nemətlərin müəyyən subyektlərə verilməsini hüquqi cəhətdən təmin etməkdən ibarətdir.

3. Xarici hüquq sistemlərində xüsusi hüquq

Qədim Roma hüquqşünasları tərəfindən hüququn ümumi və xüsusi hüquq sahələrinə bölünməsi müasir xarici hüquq sistemlərinin çoxu tərəfindən qəbul edilmişdir. Bir çox dövlətlərin qanunvericiliyində Roma hüquqşünasları tərəfindən işlədilən «xüsusi hüquq» termini indi də saxlanılır. Xüsusi hüquq kontinental Avropa ölkələrinin hüquq sistemi (roman-german hüquq ailəsi) üçün xarakterikdir. Almaniya milli hüquq sistemi xüsusi hüququ özünün bir sahəsi hesab edir[2]. Hamıya məlumdur ki, XII əsrdən başlayaraq bütün feodalizm dövrünün ən vacib tarixi proseslərindən biri olan Roma hüququnun resepsiyası (latınca receptio — qəbul etmək, qəbul) başlayır. **Roma hüququnun resepsiyası** dedikdə, Roma hüququnun bu və ya digər dövlət tərəfindən qüvvəyə malik olan hüquq kimi qəbul olunması, tanınması və mənimsənilməsi başa düşülür. XVII əsrdə Roma hüququ rəsmi surətdə Almaniyanın qüvvədə olan hüququ kimi qəbul edilmişdir. Aralıq dənizi sahillərində məskunlaşan xalqlar arasında iqtisadi əlaqələri tənzimləmək üçün yaradılan Roma hüququ bütün müasir Avropa xalqlarının mülki hüquq tarixində misilsiz və qeyri-adi rol oynamışdır[3]. Bu hüquq müəyyən mənada bütün antik dünyanın ümumi hüququna çevrilmişdi. Müxtəlif xalqların təsərrüfat-ticarət dövriyyəsini tənzimləmək üçün Roma xüsusi hüququ qanun qüvvəsinə malik idi. Təsadüfi deyildir ki, görkəmli və məşhur alman hüquqşünası Rudolf fon İeriŋ Roma xüsusi hüququnun bir sahəsi olan xalqlar hüququnu «beynəlxalq ticarət hüququ» adlandırırdı[4].

XIX əsrdə alman hüquqşünasları Roma hüququ ehkamlarının (doqmalarının) hazırlanmasında xeyli iş gördülər. Roma hüquq institutlarının öyrənilməsi onlar üçün vacib və zəruri idi. Belə ki, Almaniyada Roma hüququ qüvvədə olan hüquq kimi qəbul edilmiş və tanınmışdı. Brints, Vindşayd, Dernburq və digər tanınmış hüquqşünaslar «Pandektlər» adlı çoxcildlik kurs yaratdılar. Dünya elminin irsi hesab olunan bu əsərlə onlar xüsusi hüquq barədə müasir nəzəriyyənin təməlini qoydular.

[1] bax: *Алексеев С.С.* Право. М., 1999, с. 42-43.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 22.

[3] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 50. Bu əsərdə alman hüququ tərəfindən Roma hüququnun resepsiyası ətraflı nəzərdən keçirilmişdir (bax, s. 51-58).

[4] bax: *Тыниль А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 11.

Almaniyada (o cümlədən bəzi Qərbi Avropa ölkələrində, məsələn, Fransada, İspaniyada, habelə Çexiyada və s.) **xüsusi hüquq (privatrecht) başlıca olaraq iki sahəni birləşdirir: mülki hüququ (Bürgerliches Rechts, Zivilrecht); ticarət hüququnu (Handelsrecht)**[1]. Mülki hüquq qeyri-ticarət dövriyyəsinin müstəqil subyektləri arasındakı əmlak münasibətlərini, habelə ailə münasibətlərini və bəzi şəxsi hüquqları tənzimləyən normaları birləşdirir. Ticarət hüququ isə tacirlər arasında xüsusi qarşılıqlı münasibətləri və ticarət əqdlərini nizama salan hüquq normalarından ibarətdir. Bu hüquqla ticarət xarakterli münasibətlər qaydaya salınır. Ticarət hüququ ticarət dövriyyəsi ilə yaxından təmasda olan xüsusi hüquq normalarının məcmusudur[2].

Fransada həm 1804-cü il Mülki Məcəlləsi, həm də 1807-ci il Ticarət Məcəlləsi qüvvədədir. Almaniyada dövriyyə subyektlərinin əmlak münasibətləri (ticarət hüququ ilə qaydaya salınan ticarət xarakterli münasibətlər istisna olmaqla) Almaniya Mülki Qanunnaməsi ilə (1896), ticarət dövriyyəsi və ticarət əqdləri isə Almaniya Ticarət Qanunnaməsi ilə (1897) tənzimlənir[3]. Beləliklə, Almaniya, Fransa və s. xarici dövlətlərin hüquq sistemlərində iki məcəllənin - Mülki Məcəllənin və Ticarət Məcəlləsinin olması xüsusi hüququn dualizmini (latınca dua - ikilik) yaradır. Bu məcəllələrin münasibəti məsələsi xüsusi hüququn dualizm problemini ifadə edir[4]. Kontinental (roman-german) hüquq sistemində bu problemin genezisi (əmələ gəlmə mənbəyi və mənşəyi) orta əsrlərə gedib çıxır. İngilis-amerikan hüquq sistemində isə xüsusi hüququn dualizmi problemi mövcud deyil. Ona görə ki, bu hüquq sistemi, kontinental (roman-german) hüquq sisteminə məxsus olan qaydada, hüququn ümumi və xüsusi hüquq adlı iki sahəyə bölünməsini tanımır.

Bununla belə, bəzi ölkələrin hüququ xüsusi hüququn dualizminə yox, monist sistemə - monizm (latınca mono — tək, vahid) prinsipinə əsaslanır. **Monizm dedikdə**, ticarət dövriyyəsi normalarının mülki hüquqa tabe olması və onun sistemində qurulması, yəni ticarət münasibətlərinin mülki hüquq normaları ilə tənzimlənməsi başa düşülür. Məsələn, İtaliya, Hollandiya və digər xarici ölkələrdə hüququn monist sistemi qəbul edilmişdir. İtaliyada həm Mülki Məcəllə (1865), həm də Ticarət Məcəlləsi (1865) qüvvədə olmuşdur. Ticarət Məcəlləsi 1882-ci ildə mühüm dərəcədə yenidən işlənilmişdir. 1942-ci ildə yeni Mülki Məcəllə qəbul edildi. Bununla mülki və ticarət hüququ birləşdirildi. Belə-

[1] *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München.1999; *Baumbach, Hopt.* Gemeinschafts-Kommentar zum HGB. München.1999.

[2] bax: *Шершеневич Г.Ф.* Торговое право. М., 1908. Том 1, с. 18-19.

[3] Fransa Mülki Məcəlləsi (Napoleon Məcəlləsi) hüquqi təfəkkürün ən böyük yaradıcılıq məhsuludur. 3 kitabdan ibarət olan həmin Məcəllə bütün dünyada mülki hüququn sonrakı inkişafına ciddi təsir göstərmişdir. Fransa Ticarət Məcəlləsi isə əvvəlce dörd kitabdan ibarət idi. Sonralar kitablardan biri tamamilə öz qüvvəsini itirdi. Digər kitablar isə qısaldılmış formada öz əhəmiyyətini saxlamışdır. Almaniya Mülki Qanunnaməsi müasir dövrün ən mükəmməl mülki məcəllələrindən biridir. O, beş kitabdan ibarətdir. Almaniya Ticarət Qanunnaməsi də özündə beş kitabı birləşdirir. Bu hüquqi sənədlərin quruluşu barədə ətraflı məlumat almaq üçün bax: Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование / Под ред. *В.В. Залесского.* М., 1999, с. 3-7.

[4] Xüsusi hüququn dualizmi və onun doktrinal ifadəsi barədə bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // Гражданское право. Избранные труды. М., 2000, с. 73.

liklə, dualizm hüququn monist sistemi (monizm) ilə əvəz edildi.

Hollandiyanın 1807-ci ildə hazırlanmış Mülki Məcəlləsinin layihəsi monizm prinsipi əsasında qurulmuşdu. Amma o dövrdə Fransadan siyasi asılılıq Hollandiya hüququnun Fransa xüsusi hüququnun dualist sistemini qəbul etməsini şərtləndirdi. 1838-ci ildə həm Mülki Məcəllə, həm də Ticarət Məcəlləsi qəbul edildi ki, bu sənədlərdə Fransa hüququnun güclü təsiri hiss olunurdu. 1947-ci ildə Hollandiyada yeni Mülki Məcəllənin layihəsinin hazırlanmasına başlandı. 1976-cı ildə bu iş əsasən başa çatdı. Həmin məcəllə artıq 25 ildir ki, hissə-hissə qüvvəyə minməkdə davam edir. Bu proses hələ də başa çatmamışdır. Beləliklə, Hollandiya xüsusi hüququn dualist sistemindən imtina etmiş, monizm prinsipi əsasında qurulmuşdur.

Avropa hüquq elmində və sivilistika doktrinasında xüsusi hüququn dualizmi dedikdə, kommersiya (ticarət) fəaliyyətini tənzimləyən normaların mülki hüquqdan ayrılması, yəni ticarət-kommersiya münasibətlərinin ayrıca olaraq ticarət hüquq normaları ilə tənzimlənməsi başa düşülür[1]. Belə təsəvvür yaranır ki, xüsusi hüququn dualizmi problemi təkcə mülki və ticarət məcəllələrinin münasibəti məsələsi deyildir. Yalnız bu məcəllələrin qüvvədə olması və mövcudluğu həmin problemin — dualizm məsələsinin əmələ gəlməsinə dəlalət etmir. Elə hallar yarana bilər ki, Mülki Məcəllə və Ticarət Məcəlləsi mövcud olsun, amma xüsusi hüququn dualizmi problemi əmələ gəlməsin. Bu, o deməkdir ki, Mülki Məcəllənin və Ticarət Məcəlləsinin qüvvədə olması şəraitində də hüququn monist sisteminin (monizmin) yaranmasından söhbət etmək olar. Belə hal mümkündür. Məsələn, 1838-ci ildə Hollandiyada həm Mülki Məcəllə, həm də Ticarət Məcəlləsi qüvvədə olmuşdur. Ticarət Məcəlləsinin birinci maddəsində göstərilirdi ki, Ticarət Məcəlləsinin müvafiq normasında birbaşa nəzərdə tutulduğu hal istisna olmaqla, Mülki Məcəllə, Ticarət Məcəlləsi ilə tənzimlənən bütün münasibətlərə tətbiq edilə bilər. Bu göstərişin Hollandiya xüsusi hüququnun mülki və ticarət hüququnun birləşdirilməsi istiqamətində inkişafı üçün mühüm əhəmiyyəti oldu. Bunun nəticəsində faktiki olaraq dualizmdən hüququn monist sisteminə (monizmə) keçilməsinin başlanğıcı qoyuldu.

Beləliklə, dualizmin müəyyən edilməsində təkcə Mülki Məcəllənin və Ticarət Məcəlləsinin mövcudluğu kifayət etmir. Mülki hüquq xüsusi xarakterli münasibətləri tənzimləyir. Bu münasibətlərdə iştirak edən subyektlər hüquq bərabərliyinə malikdirlər. Ticarət hüququ da xüsusi hüquq münasibətlərini qaydaya salır. Bu münasibətlər də subyektlərin hüquq bərabərliyi prinsipi üzərində qurulur. Eyni növlü (cinsli) elə xüsusi hüquq münasibətləri vardır ki, həmin münasibətləri tənzimləyən normalar qrupu həm Mülki Məcəllədə, həm də Ticarət Məcəlləsində vardır. Məsələn, alqı-satqı, saxlama və s. haqqında normalara həm Almaniya Mülki Qanunnaməsində, həm də Ticarət Qanunnaməsində rast gəlmək olar. Əqd, nümayəndəlik, borc müqaviləsi, icarə müqaviləsi və s. institutları həm mülki hüquq, həm də ticarət hüququ tanıyır. Bu cür klassik mülki hüquq institutları ticarət hüququnun əsas institutları rolunda çıxış edir.

[1] bax: *Jean-Pierre Le Gall.* Droit commercial. Paris: Dalloz (7-eme edition). 1987. P.3; Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование / Под ред. *В.В. Залесского.* М., 1999, с. 1.

Müxtəlif qrup normalar eynicinsli (növlü) xüsusi münasibətləri tənzimləyir ki, bu münasibətlər həm mülki hüququn, həm də ticarət hüququnun nizamasalma predmetinə daxildir. Bax, bu normaların sistem aidiyyəti və tabeçiliyi xüsusi hüququn dualizminin müəyyən edilməsində mühüm və əsas rol oynayır.

Xüsusi hüququn dualizminin əmələ gəlməsi, yəni kommersiya (ticarət) fəaliyyətini tənzimləyən normaların mülki hüquqdan ayrılması müəyyən səbəblə əlaqədar idi. Hər şeydən əvvəl, bunun əsas və başlıca səbəbi tacir silkinin həyata keçirdiyi professional fəaliyyətlə bağlı idi[1]. Ticarət dövriyyəsinin inkişafı və güclənməsi, ticarətin canlanması tacir silkinin həyata keçirdiyi fəaliyyətin ayrıca və xüsusi olaraq tənzimlənməsini zərurətə çevirdi. Orta əsrlərdə İtaliya, Fransa, İngiltərə, Almaniya və digər dövlətlərin hər bir şəhərində bütün tacirlər, bir qayda olaraq, korporasiyalarda (ticarət gildiyalarında, yeni tacirlər ittifaqında) birləşirdilər. Bu cür birləşmə olmadan tacirlərin fəaliyyət göstərməsi və onların hüquqlarının müdafiə edilməsi mümkün deyildi. Tacirlər arasında mübahisə ticarət gildiyasında baxılırdı. Hər bir ticarət gildiyası üçün adət hüququ yaranmışdı. Bu hüquq oxşar işlərə baxılarkən tətbiq edilirdi. Həmin hüquq yazılmağa başladı. Yazılmış adətlər ticarət hüququnun mənbəyi rolunu oynayırdı. Beləliklə, tacir silkinin ayrıca hüququ yarandı[2]. Bu hüququn yaranmasına belə bir fakt da təsir göstərmişdi ki, o dövrdə mülki hüquq ticarət fəaliyyətini və dövriyyəsini lazımınca tənzimləmək və rəsmiləşdirmək iqtidarında deyildi. Tacirlərin həyata keçirdikləri professional ticarət fəaliyyəti prosesində meydana gələn adətlər ticarət hüququnun formalaşmasına güclü təsir göstərdi.

Nə qədim Romada, nə də erkən feodalizm dövründə Avropada ümumi mülki dövriyyə subyektləri ilə ticarət dövriyyə subyektlərinə fərq və təfavüt qoyulurdu. Roma hüququ dövriyyə subyektlərinin həyata keçirdikləri fəaliyyətin əlamətinə görə onları ayrı-ayrı kateqoriyalara (tacirlərə, qeyri-tacirlərə, sənətkarlara) bölmürdü. Ümumi mülki təsərrüfat və ticarət dövriyyəsi subyektlərinin hamısı eyni statusa malik idilər. Bu, onunla izah olunurdu ki, qədim Romada ticarət fəaliyyəti ilə məşğul olan subyektlərə çox da hörmətlə yanışılmırdı. Ticarət fəaliyyəti hörmətə malik deyildi. Ona görə də qədim Romada tacir silki yaranmadı. Tacir silkinin yaranmaması isə öz növbəsində ticarət hüququnun, şübhəsiz ki, əmələ gəlməsinə səbəb ola bilməzdi[3].

Bir çox Avropa dövlətləri, o cümlədən ticarət hüquqununun yarandığı və qüvvədə olduğu Hollandiya və İtaliya kimi ölkələr xüsusi hüququn dualizmin-

[1] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А. Васильева.* М., 1993, с. 17-18; Основные институты гражданского права / Под ред. *В.В. Залесского.* М., 1999, с. 2.

[2] Ticarət hüququnun, o cümlədən beynəlxalq ticarət hüququnun (ius mercatorum) yaranmasını zərurətə çevirən tarixi amillər barədə ətraflı məlumat almaq üçün bax: *Тынец А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 8-18.

[3] Bununla belə, Roma xüsusi hüququnun tarixi sistemlərindən biri olan xalqlar hüququnu (ius gentium) beynəlxalq ticarət hüququnun qismən proobrazı hesab edirlər. Ius gentium beynəlxalq hüquq yox, milli hüquq sayılırdı. Bundan əlavə, Bizans imperatoru Yustinianın dövründə (b.e. VI əsrinin ortalarında) sivil hüququ ilə xalqlar hüququ Roma mülki hüququ adı altında vahid hüquq sistemində birləşdirildi (bax: *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı, 1999, s. 9; *Тынец А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 11).

dən imtina etmişdir[1]. Bu, onunla izah olunur ki, cəmiyyətdə sitki ayrı-seçkilik halları silinib aradan çıxmışdır. Ticarət hüququnun bir çox norma və prinsipləri mülki hüquq tərəfindən qəbul edilmişdir. Ticarət hüququnun və mülki hüququn çoxsaylı normaları bir-biri ilə tamamilə qovuşmuşdur[2]. 1865-ci ildə Kvebek əyalətinin (Kanada) Mülki Məcəlləsində ticarət hüququnun bir çox məsələlərini tənzimləyən normalar birləşdirildi. Bu əyalət Ticarət Məcəlləsi qəbul etməkdən imtina etdi. 1881-ci ildə İsveçrə özünün konstitusiya qaydasına görə Mülki Məcəllə yox, Öhdəlik Məcəlləsi qəbul etdi. Bu Məcəllədə həm mülki hüquq, həm də ticarət hüquq öhdəlikləri birləşdirildi. 1907-ci ildə İsveçrədə Mülki Məcəllə qəbul edildi. Bu sənəd mülki hüququn qalan bütün digər məsələlərini federal səviyyədə tənzimlədi. Beləliklə, İsveçrə də xüsusi hüququn dualizmindən imtina etdi.

Söylədiklərimizdən belə nəticəyə gələ bilərik ki, müxtəlif ölkələrin xüsusi hüquq sahəsi daxili sistem və tərkib baxımından yekcins olmayıb, bir-birindən fərqlənir. Bütün ölkələrin xüsusi hüququ daxili sistem və tərkib etibarilə üst-üstə düşmür. Bu həmin ölkələrin tarixi-ictimai və sosial-iqtisadi inkişafı ilə bağlıdır. Müasir qanunvericiliyin inkişaf tendensiyası **xüsusi hüququn dualizm məsələsindən imtina etmək və monizm - vahid xüsusi hüquq yolu ilə irəliləmək prinsipindən ibarətdir**. 90-cı illərin əvvəllərindən başlayaraq öz mülki qanunvericiliyini dəyişən və təzələyən ölkələrdən heç biri Ticarət Məcəlləsi qəbul etməmiş və ticarət hüququnu ayırmamışdır. İndiki qanunvericilik vahid xüsusi hüquq yolu ilə inkişaf edir. Bununla belə, indiki dövrdə mülki hüquqda ticarət (kommersiya) dövriyyəsini və sahibkarlıq fəaliyyətini tənzimləyən normalar meydana gəlir. Mülki hüquq həmin bu normaların təsiri altında inkişaf edir. Bu cür tendensiya (meyl) və təmayül mülki hüququn «kommersiyalaşdırılması» adlanır. **Mülki hüququn «kommersiyalaşdırılması» dedikdə,** mülki hüquqda ticarət (kommersiya) dövriyyəsini və sahibkarlıq fəaliyyətini tənzimləyən normaların əmələ gəlməsi və nəzərdə tutulması başa düşülür.

Ümumi hüquq (ingilis-amerikan) hüquq sisteminə (ailəsinə) gəldikdə isə qeyd etmək lazımdır ki, bu sistem, bir az əvvəldə göstərdiyimiz kimi, kontinental (roman-german) hüquq sistemində (ailəsində) mövcud olan qaydada formal cəhətdən hüququn xüsusi və ümumi hüquqa bölünməsini tanımır. Bildiyimiz kimi, müasir dövrdə ümumi hüquq (ingilis-amerikan) hüquq sistemi ilə kontinental hüquq sistemi arasında yaxınlaşma prosesi gedir. Bu yaxınlaşma prosesi ingilis-amerikan hüquq sistemində faktiki cəhətdən (formal cəhətdən yox) ümumi və xüsusi hüququn fərqləndirilməsini şərtləndirir. Amma ingilis-amerikan ailəsindəki xüsusi hüququn daxili sistemi kontinental hüquq ailəsi üzrə xüsusi hüququn daxili sisteminə uyğun gəlmir və üst-üstə düşmür. Belə ki, ingilis-amerikan hüquq ailəsində xüsusi hüquq sahəsinə bir neçə müstəqil hissə daxildir: mülkiyyət hüququ; müqavilə hüququ; müəlliflik hüququ; patent hüququ; kompaniya (şirkət) hüququ; zərərin əvəzinin ödənilməsi hüququ və s. Bundan fərqli olaraq, kontinental hüquq ailəsində xüsusi hüquq sferasına əşya hüququ, öhdəlik hüququ və müstəsna hüquqlar kimi konstruksiyalar aid edilir.

[1] Buna baxmayaraq, həmin ölkələrdə mülki və ticarət hüququ universitetlərdə müstəqil fənlər kimi tədris olunur. Özü də həmin fənlər üzrə mühazirəni müxtəlif ixtisaslara malik olan hüquqşünaslar söyləyirlər.

[2] Tanınmış fransız alimi Rene David dualizm fenomenindən imtinanın iki səbəbini göstərir. Birinci səbəb mülki və ticarət hüququnun qanunvericilik qaydasında unifikasiyasından (vahid şəklə salınmasından) ibarətdir. İkinci səbəbə görə milli məcəllələşdirmə ticarət hüququnun öz beynəlxalq xarakterini itirməsi üçün əsas olmuşdur. Ticarət hüququnun beynəlxalq xarakteri əvvəllər ticarət hüququnu mülki hüquqdan fərqləndirməyə imkan verirdi (bax: *Давид Р., Жоффре-Спинози К.* Основные правовые системы современности. М., 1999, с. 68).

4. Sovet hüquq doktrinası və xüsusi hüquq konsepsiyası

İnqilabaqədərki çar Rusiyasında da xüsusi hüququn dualizmi yaranmışdı. Tarixən xüsusi hüququn dualizmi həmişə iki halda təzahür etmişdir. Birinci hal iki məcəllələşdirilmiş aktın (Ticarət Məcəlləsinin və Mülki Qanunnamənin) paralel mövcud olmasından ibarətdir[1]. Almaniya və Fransa kimi dövlətlərdə xüsusi hüququn dualizmi bu halda ifadə olunur. Biz, onun barəsində danışmışıq. İkinci hal ticarət hüquq normalarının xüsusi qanunvericilik aktlarına daxil edilməsindən ibarətdir. Göstərilən bu hal məcəllələşdirilməmiş hüquq sistemi şəraitinə uyğun gəlir. Axı, xüsusi hüququn dualizmi məcəllələşdirilməmiş hüquq sistemi şəraitində də mövcud ola bilər[2]. Bundan əvvəldə qeyd etdiyimiz kimi, təkcə Mülki Məcəllənin (və ya Qanunnamənin) və Ticarət Məcəlləsinin (və ya Qanunnaməsinin) mövcud olub-olmaması xüsusi hüququn dualizminin yaranması üçün kifayət etmir. İnqilabaqədərki Rusiyada dualizm ikinci halda, yəni ticarət hüququ normalarının xüsusi qanunvericilik aktlarına daxil edilməsində ifadə olunmuşdu[3]. İnqilabaqədərki Rusiyada ticarət hüququ ticarət dövriyyəsi ilə yaxından təmasda olan xüsusi hüquq normalarının məcmusunu ifadə edirdi[4]. Beləliklə, 1917-ci il Oktyabr inqilabına kimi Rusiyada xüsusi hüquq həm mülki hüquqla, həm də ticarət hüququ ilə təmsil olunmuşdu[5]. Ticarət dövriyyəsinin normaları mülki hüquqa yox, ticarət hüququna tabe edilmişdi. Ayrıca olaraq ticarət hüququ mövcud idi.

1917-ci ildən sonra kontinental hüquq sistemi üçün xarakterik olan hüququn dualizmindən, yəni hüququn ümumi və xüsusi hüquqa bölünməsindən sovet hüquq elmi imtina etmişdir. Rəsmi sovet hüquq doktrinası (elmi) hüqu-

[1] Xüsusi hüququn dualizminin ifadə olunduğu həmin hallar barədə bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // Труды Киргизского госуд. университ. Серия юридических наук. Вып. 8. Фрунзе. 1972; В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 73-74.

[2] bax: Основные институты гражданского право зарубежных стран/ Под ред. *В.В Залесского.* М., 1999, с. 1.

[3] bax: *Ioffe O.S.* İstinad edilən əsər, s. 73-74.

[4] bax: *Шершеневич Г.Ф.* Торговое право. Том 1. 1908, с. 18-19.

[5] İnqilabaqədərki Rusiyada xüsusi hüququn dualizmi barədə başqa fikir də söylənilir. Prof. Y.A. Suxanov göstərir ki, 1917-ci il inqilabına kimi xüsusi hüququn dualizmi mövcud olmamışdır. Müəllif qeyd edir ki, Rusiyada xüsusi hüquq müstəsna dərəcədə, istinasız olaraq, mülki hüquqla təmsil olunmuşdu. O, bu fikrini həm də onunla əsaslandırır ki, Rusiyanın Mülki Qanunnaməsinin o dövrdəki layihəsi xüsusi hüququn vahidliyi prinsipinə əsaslanırdı. Daha sonra görkəmli alim yazır ki, Rusiyanın dövlət quruluşu həmişə silki ayrı-seçkiliyin və bütövlükdə xüsusi hüquq ənənələrinin mövcud olmasını istisna etmişdir. Bizim zənnimizcə, inqilabaqədərki dövrdə Rusiya hüququnda ayrıca olaraq ticarət hüququ yaranmışdı. Hətta tanınmış kommersalist G.F. Şerşeneviç ticarət hüququnu işıqlandıran dərslik də yazmışdır (bax: *Шершеневич Г.Ф.* Учебник торгового права. По изданию 1914 г., М., 1994). Y.A. Suxanovun daqiq olmayan mövqeyi barədə bax: Гражданское право. Учебник. Том 1/ Под ред. *Е.А. Суханова.* А., 1998, с. 16).

qun xüsusi və ümumi hüquqa bölünməsi ideyasını qəbul etməmişdir. Sovet hüquq elmi belə hesab etmişdir ki, istehsal vasitələri və üsulları üzərində ictimai mülkiyyətə və planlı təsərrüfata əsaslanan sosializm cəmiyyətində hüquq ümumi və xüsusi hüquq adlı sahələrə bölünə bilməz[1]. Sovet hüquq elminə görə hüququn ümumi və xüsusi hüquqa bölünməsi ideyası guya süni-qondarma xarakter daşıyır və burjua quruluşunun mahiyyətini maskalamaq və pərdələmək məqsədi güdür. Bununla belə, sovet hüququnun bu cür bölgünü tanımamasının başlıca və əsas səbəbi hüquq sisteminin xüsusiyyəti ilə yox, xüsusi mülkiyyət institutunun mövcud olmaması ilə bağlı idi.

Sovet hüququnda nəinki ümumi və xüsusi hüququn dualizmi, hətta xüsusi hüququn dualizmi də mövcud deyildi. Ona görə ki, sovet hüquq doktrinası xüsusi hüquq konsepsiyasını tanımayaraq qəbul etməmiş, ümumiyyətlə, xüsusi hüquq anlayışına mənfi münasibət bəsləmişdir. Xüsusi hüquq konsepsiyasını tənqid edən rəsmi sovet doktrinası belə hesab etmişdir ki, dövlət və ictimai mülkiyyətin hökm sürdüyü, planlı iqtisadiyyatın fəaliyyət göstərdiyi sosialist quruluşu ilə xüsusi hüquq bir araya sığa bilməz.

1920-ci ildə sivilist alimlərdən M.M.Aqarkov inqilabdan sonrakı yeni şəraitdə xüsusi hüquqdan istifadə edilməsi barədə məsələ qaldırmağa təşəbbüs göstərdi[2]. O, hesab edirdi ki, xüsusi hüquq vətəndaşların subyektiv hüquqlarının həyata keçirilməsi sahəsində lazımi qədər olmasa belə, amma nə sovet qanunvericiliyində, nə də hüquq doktrinasında tanınmış alimin mövqeyi öz əksini tapdı. Yuxarıda qeyd etdiyimiz kimi, sovet sivilistika doktrinası xüsusi hüquq konsepsiyasına mənfi münasibət bəsləmişdir.

Rəsmi sovet hüquq doktrinasının xüsusi hüquq ideyasını qəbul etməməsi və tanımaması Sovet hökumətinin başçısı Xalq Komissarları Sovetinin sədri V.İ.Leninin mövqeyi ilə bağlı idi. V.İ.Lenin 1922-ci ildə birinci sovet Mülki Məcəlləsinin layihəsinin hazırlığı ilə əlaqədar olaraq Xalq Ədliyyə komissan D.İ.Kurskiyə yazdığı məktubda göstərirdi ki, biz xüsusi hüququ tanımırıq, təsərrüfat sahəsində bizim üçün xüsusi hüquq yox, ümumi hüquq mövcuddur. Daha sonra V.İ.Lenin tapşırırdı ki, xüsusi hüquq münasibətlərinə dövlət müdaxiləsinin tətbiq olunmasını, habelə dövlətin xüsusi müqavilələri ləğv etmək hüququnu genişləndirin[3]. Sovet dövlətinin banisinin irəli sürdüyü bu müddəa hüquq nəzəriyyəsi və təcrübəsi

[1] Müəlliflərdən Y.F. Mikolenko sovet hüququnu başqa ad altında ümumi və xüsusi hüquqa bölməyə cəhd göstərmişdir. O, göstərirdi ki, sovet hüququnun iki qanadı var: mülki hüquq; dövlət hüququ. Mülki hüquq sistemini və dövlət hüquq sistemini təşkil edən normaların xarakteri bu iki qanadı bir-birindən fərqləndirməyə imkan verir (bax: *Миколенко Я.Ф.* О предмете и принципах социалистического гражданского права // Проблемы социалистического права. 1938. №5, с. 49). Sovet alimi S.Bratus sovet hüququnun ümumi və mülki hüquqa bölünməsi fikrini irəli sürürdü. O, ictimai və ya şəxsi mənafeyin birinci planda çıxış etməsindən asılı olaraq bu cür bölgü aparırdı (bax: *Братусь С.* О предмете советского гражданского права// Советское государство и право. 1940. № 11, с. 86). Onun irəli sürdüyü konsepsiya tənqid olundu. Ədəbiyyatda göstərilirdi ki, S.Bratus sovet hüququnun bölünməsini Roma hüquqşünası Ulpian kimi əsaslandırır (bax: *Амфитеатров Г.* К вопросу о понятии советского гражданского права// Советское государство и право. 1940. №11, с. 86).

[2] bax: *Агарков М.М.* Ценность частного права // Правоведение. 1992. №1; № 2.

[3] bax: *Ленин В.И.* Полн. собр. соч. Том 44, с. 398.

üçün uzun müddət metodoloji əsas rolunu oynamışdır[1].

Hal-hazırda yaşadığımız müasir cəmiyyətdə iqtisadi-siyasi sistem köklü surətdə yenidən qurulur. Çoxukladlı iqtisadiyyat yaranır. İnzibati-amirlik sistemi aradan qaldırılır. Demokratik proseslər inkişaf edir. Əmrə əsaslanan komanda iqtisadiyyatından — sovet iqtisadiyyatından, yəni istehsal və bölgü haqqında bütün qərarların dövlət tərəfindən qəbul edilməsinə əsaslanan iqtisadiyyatın təşkili formasından imtina edilmişdir[2]. Qanunvericilik qaydasında xüsusi mülkiyyət rəsmən tanınır. Bazar iqtisadiyyatı kimi iqtisadiyyatın yeni təşkili forması yaranır və inkişaf edir. Bu, dövlət təsiri və ya müdaxiləsi olmayan azad bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatı, iqtisadiyyatın təşkilinin elə bir formasıdır ki, bu forma istehsal və istehlak haqqında əsas qərarları qəbul edən ayrı-ayrı şəxslərin və xüsusi müəssisələrin fəaliyyətini əhatə edir və nəzərdə tutur. Bax, qeyd etdiyimiz bütün bu amillər xüsusi hüququn leqallaşdırılmasının təbiiliyini, labüdlüyünü və mütləqliyini şərtləndirir. Xüsusi hüquq konsepsiyasını rəsmən tanımadan və qəbul etmədən vətəndaş cəmiyyətinin formalaşması, hüquqi dövlətin yaradılması və inkişafı, xüsusi sahibkarlıq fəaliyyətinin genişlənməsinə rəvac verilməsi mümkün deyil.

Keçən əsrin 90-cı illərinin əvvəllərində xüsusi hüquq üzrə Tədqiqat Mərkəzi «Rusiyada xüsusi hüququn təşəkkülü və inkişafı» adlı Proqram işləyib hazırladı. Bu proqram RF Prezidentinin 7 iyun 1994-cü il tarixli Fərmanı ilə bəyənilmişdir[3]. Bununla xüsusi hüquq RF-də rəsmən tanınmış və qəbul edilmişdir. Azərbaycan Respublikasında da xüsusi hüquq konsepsiyasının və ideyasının rəsmən tanınmasını günün ən vacib məsələlərindən biri hesab edirik. Ona görə ki, xüsusi hüquq olmadan sabit bazar iqtisadiyyatının inkişafı, əsl və həqiqi xüsusi mülkiyyət institutunun yaranması, insanın təbii azadlıq və hüquqlarının həyata keçirilməsi mümkün deyil.

Xüsusi hüququn tanınması dövlətin ali məqsədinin, yəni insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinin (Konstitusiyanın 12-ci maddəsi) həyata keçirilməsi üçün hüquqi zəmin yaradır. Bu hüquq sahəsinin rəsmən qəbul edilməsi onu ifadə edir ki, onunla dövlətin və dövlət orqanlarının müdaxilə etməsinə hüquqi qadağa qoyulduğu və ya qanunla məhdudlaşdırıldığı ictimai həyat sahələri müəyyənləşdirilir. Bunun nəticəsində vətəndaşların və şəxslərin azadlıq sferasına dövlətin özbaşına qarışmağ imkanı hüquqi cəhətdən aradan qaldırılır. Xüsusi hüquq imkan verir ki, dövlət və onun orqanlarının

[1] Xüsusi hüquqa V.İ.Leninin münasibəti barədə bax: *С.М.Салимов.* Создание гражданского законодательства Азербайджанской ССР (1920-1923). Автореферат диссертации на соискание ученной степени к. ю. н. Баку. 1970, с. 44.

[2] Komanda iqtisadiyyatı iqtisadiyyatın təşkilinin bir formasıdır. Sovet iqtisadiyyatı komanda iqtisadiyyatı hesab olunurdu. Sovet iqtisadiyyatında istehsal amillərinin - torpağın (təbii resurslann) və kapitalın əsas hissəsi dövlətə məxsus idi. Sovet dövləti həmçinin bir çox sənaye müəssisələrinin mülkiyyətçisi idi. Komanda iqtisadiyyatında dövlət cəmiyyətdəki bütün məhsulların müxtəlif növ əmtəə və xidmətlər arasında bölünmə qaydasını müəyyən edir (bax: *П.А. Самуэлсон, В.Д. Нордхаус.* Экономикс. Dərslik / Dərsliyin əsas iqtisadi anlayışlarının Azərbaycan-ingilis dilində izahlı lüğəti. Bakı. 2001, s. 6).

[3] bax: Программа «Становление и развитие частного права в России» разраб. Исследовательским центром частного права и одобр. указом президента Российской Федерации от 7 июля 1994 г. (Собрание законодательства РФ. 1994. № 11, ст. 1191).

«birbaşa əmr verməsinin» həddi və dərəcəsi hüquqi cəhətdən qanuniləşsin, mülkiyyət azadlığı və xüsusi təşəbbüskarlıq arasında sərhədlər açılsın.

Uzun müddət cəmiyyətdə dövlət paternalizminin hər şeyə ixtiyarı çatmasına və qadir olmasına inanmaq kimi ictimai düşüncə formalaşmışdır. Bu, ağır sosioloji yükdür. Postsosialist keçid dövrü şəraitində bu cür yükdən azad olunmaqda xüsusi hüququ tanımağın böyük əhəmiyyəti vardır. Elə dövlətlər vardır ki, bu dövlətlərdə hakim elita özlərini dövlətlə eyniləşdirir və ona bərabər tutur. Bununla onlar öz iradələrini zorla bütün cəmiyyətə qəbul etdirirlər. Bu dövlətlərdə hüquqa etatik yanaşma mövcuddur. Bu cür halların aradan qaldırılmasında hüququn ümumi və xüsusi hüquqa bölünməsinin, xüsusi hüququn tanınmasının böyük əhəmiyyəti vardır.

5. Xüsusi hüquq sistemi

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi qəbul edilmişdir. Vacib rola malik olan bu hüquqi sənəddə xüsusi hüquq qəti olaraq rəsmən tanınmış və qanunvericilik qaydasında ifadə olunmuşdur. Mülki Məcəllədə nəzərdə tutulan anlayışlar məhz belə fikir söyləməyə əsas verir. Belə halda xüsusi hüquq və dövətdaxili hüquq arasındakı münasibəti aydınlaşdırmaq məsələsi ortaya çıxır. Şübhəsiz, Azərbaycan Respublikasının milli hüquq sistemində xüsusi hüququn yerinin müəyyən edilməsinin böyük nəzəri və təcrübi əhəmiyyəti vardır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının milli hüquq sistemi bəzi kontinental Avropa ölkələrinin hüquq sistemindən fərqli olaraq **xüsusi hüququn dualizmi problemini tanımır və qəbul etmir**. Azərbaycan Respublikasının hüququ monizm prinsipi — **monist sistemi üzrə qurulur**. Bütün bunlar o deməkdir ki, kommersiya (ticarət) fəaliyyətini tənzimləmək üçün müvafiq normalar mülki hüquqdan ayrılmamış və ticarət hüququnu yaratmamışdır. Kommersiya (ticarət) fəaliyyətini və dövriyyəsini nizama salan normalar mülki hüquqa tabe olmaqla, onun sisteminə daxildir. Yeni Mülki Məcəllə rəsmi surətdə sahibkarlıq (o cümlədən ticarət-kommersiya) fəaliyyətini mülki hüququn nizamasalma predmetinə daxil edir (13-cü maddə). Bu məcəllədə pərakəndə ticarət dövriyyəsini rəsmiləşdirən pərakəndə alqı-satqı müqaviləsi, topdansatış ticarət dövriyyəsini nizama salan mal göndərmə (tədarük) müqaviləsi, ticarət vasitəçiliyini tənzimləyən ticarət agenti müqaviləsi (o cümlədən broker, komissiya, konsessiya müqavilələri) kimi hüquqi konstruksiyalar nəzərdə tutulur. Yeni Mülki Məcəllə beynəlxalq ticarət dövriyyəsində geniş surətdə tətbiq edilən faktoring, maliyyə lizinqi və françayzinq kimi müqavilələri tənzimləyir[1]. Bunlar onu nümayiş etdirir və təsdiqləyir ki, **ölkəmizin müasir qanunvericiliyi vahid xüsusi hüquq yolu ilə inkişaf edir, mülki hüquq isə kommersiyalaşdırılır (kommersiyalaşdırma),** yəni özündə ticarət (kommersiya) dövriyyəsini tənzimləyən normaları birləşdirir. Həmin normaların məcmusu kommersiya hüququ adlanır.

Xüsusi hüququn sistemi dedikdə, onun tərkibinə daxil olan hüquq sahələrinin məcmusu və birliyi başa düşülür. Şübhəsiz ki, xüsusi hüquqa xüsusi münasibətləri qaydaya salan hüquq sahələri aiddir. Qeyd etmək lazımdır ki, hər bir ölkədə xüsusi hüququn sistemi tarixi-ictimai, sosial-siyasi, ictimai-iqtisadi, hüquq sisteminin milli xüsusiyyətləri və digər amillərdən asılı olaraq müəyyən edilir. Heç kəsə sirr deyildir ki, təmiz şəkildə və mütləq xarakterli ümumi hüquq sahəsi və ya xüsusi hüquq sahəsi yoxdur. Ümumi hüququn elementləri xüsusi hüquqa daxil olan sahələrdə təzahür edə bilər və yaxud əksinə, xüsusi hüququn elementlərinə ümumi hüquqa şamil edilən sahələrdə rast gəlmək olar. Məsələn, mülki hüququn tərkib hissəsi olan ailə hüququ xüsusi hüquqa daxil edilir (şübhəsiz ki, birbaşa yox, mülki hüququn vasitəsi ilə). Amma ailə hüququnda məhkəmə qaydasında nikahın pozulması, məhkəmə qaydasında valideynlik hüququndan məhrumetmə, məhkəmə qaydasında aliment alma kimi elementlər ümumi hüquq elementləri hesab olunur. Ekologiya hüququnu biz ümumi hüquq sahəsinə aid etmişik. Lakin torpağın alqı-satqısı, bağışlanması, vərəsəlik üzrə keçməsi, icarəyə verilməsi, girov qoyulması və digər əqdlər xüsusi hüquq elementləri hesab olunur. Bu cür münasibətlər xüsusi (mülki) hüquqla tənzimlənir. Söylədiklərimizdən belə nəticə çıxara bilərik ki, bu və ya digər hüquq sahəsini mütləq qaydada və təmiz şəkildə ümumi və yaxud xüsusi hüquqa daxil etmək mümkün deyil. Ümumi hüququn elementləri ilə xüsusi hüququn elementləri arasındakı münasibət təsərrüfat şəraitindən və həmin şəraitin (dövrün) psixologiyasından asılıdır[1]. Xüsusi hüquqla ümumi hüquq arasında sərhədlər tarixən dəyişkən və dinamikdir. Məsələn, RF-də sovet dövründə torpaq hüququ ümumi hüquq sferasına daxil idi. Həmin dövrdə torpaq üzərində dövlətin müstəsna mülkiyyət hüququ vardı. Buna görə də torpaq dövriyyədən çıxarılmışdı və müxtəlif əqdlərin (alqı-satqının, bağışlamanın, vəsiyyətin, girovun, icarənin və s.) predmeti ola bilməzdi. RF-də keçən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq yaranan bazar iqtisadiyyatı şəraitində, habelə həyata keçirilən torpaq islahatı nəticəsində dövlətin torpaq üzərində müstəsna mülkiyyət hüququ ləğv edilmişdir. İndi RF-in qanunvericiliyinə görə torpaq həm də vətəndaşların və hüquqi şəxslərin xüsusi mülkiyyətində ola bilər. Onlar öz mülahizələri üzrə torpaq üzərində qanunla qadağan edilməyən istənilən mülki-hüquqi əqdlər bağlaya bilərlər. Beləliklə, RF-də torpaq üzərində xüsusi mülkiyyət hüququnun təsbit olunması torpaq hüququnun xarakterinə prinsipial təsir göstərmişdir. Belə ki, RF-in torpaq hüququ özünün ümumi hüquq elementlərini saxlamasına baxmayaraq, müasir dövrdə xüsusi hüquqa şamil edilir[2].

Tarixi inkişafın gedişində bəzi sahələrdə ümumi hüquqla xüsusi hüquq arasında sərhədlər silinib aradan çıxır. Bunun nəticəsində qarışıq ümumi hüquq münasibətləri (və ya institutları) və ya xüsusi hüquq münasibətləri (və ya institutları) yaranır. Bundan əlavə, ümumi hüququn və xüsusi hüququn sistemi

[1] Bu müqavilələrin beynəlxalq ticarət dövriyyəsində tətbiq olunması barədə bax: *Тынел А., Функ Я., Хеалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000; *Шмиттгофф К.* Экспорт: право и практика международной торговли. М., 1993; Международная торговля: финансовые операции, страхование и другие услуги. М., 1994.

[1] bax: *Агарков М.М.* Ценность частного права // Правоведение. 1992. № 1, с. 31-41.

[2] Nəzəri ədəbiyyatda RF-in torpaq hüququnun xüsusi hüquq sferasına aid edilməsi göstərilir (bax: Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 218). Amma Y.A.Suxanov bunun əksi olan fikir irəli sürür. O göstərir ki, RF-in torpaq hüququ özünün ümumi hüquq təbiətinə malik olmasını büruzə verir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 9).

dövlətin hüquqyaratma fəaliyyəti kimi subyektiv faktordan da müəyyən dərəcədə asılıdır. Bu faktor ümumi və xüsusi hüquq arasındakı münasibətə əhəmiyyətli dərəcədə təsir göstərir. Ona görə də həm ümumi hüquqa, həm də xüsusi hüquqa daxil olan hüquq sahələrinin qəti formada təsnifini vermək qeyri-mümkündür.

Beləliklə, yuxarıda söylədiyimiz fikirləri nəzərə alaraq Azərbaycan Respublikasının xüsusi hüququnun sistemini müəyyənləşdirə bilərik. Söhbət xüsusi hüquqa daxil olan müstəqil hüquq sahələrindən gedir. **Xüsusi hüququn sisteminə aid olunan başlıca və əsas hüquq sahəsi mülki hüquqdur**. Mülki hüquq xüsusi hüququn özəyini, təməlini, bünövrəsini, necə deyərlər, cövhərini təşkil edir. O, xüsusi hüququn aparıcı, baza sahəsi hesab olunur. Sivil və qabaqcıl hüquq sistemlərində (məsələn, Almaniya, İtaliya, Fransa, Hollandiya və s. dövlətlərin hüquq sistemlərində) də mülki hüquq xüsusi hüquq sferasının əsasını təşkil edir[1]. Qədim Romada «xüsusi hüquq» və «mülki hüquq» identik (eyni) anlayışlar hesab olunurdu[2]. Qeyd etdiyimiz kimi, Romada mülki hüquq (müasir mənada) xüsusi hüquq anlayışı ilə əhatə olunmuşdu[3].

Müstəqil hüquq sahəsi olan **əmək hüququna** gəldikdə, qeyd etmək lazımdır ki, bu sahə xüsusi hüquqa şamil olunur[4]. Bu, kontinental Avropa hüququ ənənələrinə uyğun gəlir. Belə ki, kontinental Avropa hüququnda, hər şeydən əvvəl, bu hüququn alman qolunda (hissəsində) əmək hüququ xüsusi-hüquqi təbiətə malikdir. Əmək hüququnun əmək müqaviləsi, əmək haqqı, iş vaxtı, istirahət vaxtı, əmək intizamı kimi institutları xüsusi hüquq institutlarıdır. Bununla belə, əmək hüququ ümumi hüquq münasibətlərindən və elementlərindən məhrum deyil. Məsələn, əmək hüququnun sosial təminat münasibətləri ümumi-hüquqi təbiətə malikdir.

Beynəlxalq xüsusi hüquq xüsusi hüquq sisteminin bir hissəsini təşkil edir. O, daxili milli hüququn spesifik sahəsidir[5]. Beynəlxalq xüsusi hüquq beynəlxalq xarakterli mülki (əmlak), ailə-nikah və əmək münasibətlərini tənzimləyən hüquq normalarının məcmusudur. Üstünlük təşkil edən mövcud konsepsi-

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 3-13.

[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. XII.

[3] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 4.

[4] Nəzəri ədəbiyyatda əmək hüququ xüsusi hüquqa aid edilir (bax: Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 218, с. 222; Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 403). Prof. Y.A.Suxanov göstərir ki, indiki vaxtda əmək hüququnun təbiəti birmənalı deyil. Müəllif qeyd edir ki, bu hüquq sahəsində həm xüsusi hüquq, həm də ümumi hüquq münasibətləri ilə rastlaşmaq olar. Alim əmək hüququnun ümumi və ya xüsusi hüquqa daxil olmasını müəyyən etmakda çətinlik çəkir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 9). Almaniya hüquq ədəbiyyatında əmək hüququ xüsusi hüquqa aid edilir (*Greifelds.* Rechtswörterbuch. München.1999, s. 275; *Kaiser.* Bürgerliches. Recht. Heidelberg: C.F. Müller.1997, s. 15).

[5] Beynəlxalq xüsusi hüququn beynəlxalq hüququn tərkibinə və ya daxili milli hüquqa aid edilməsi barədə sovet hüquq ədəbiyyatında müxtəlif fikirlər söylənilmişdir. Bunlar barədə bax: *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994, с. 23-28.

yaya görə, bu sahə hər bir dövlətin daxili hüquq sisteminin tərkib hissəsidir[1]. Beynəlxalq xüsusi hüququn nizamasalma predmetini beynəlxalq həyatda yaranan mülki xarakterli münasibətlər təşkil edir. Bunu bəzən beynəlxalq mülki münasibətlər də adlandırırlar[2]. Sovet dövründə «xarici elementli» xüsusi münasibətləri tənzimləmək məqsədi ilə beynəlxalq xüsusi hüququn ayrılmasına təşəbbüs göstərilmişdir. O, sovet sivilistikasının «ailəsinə» daxil idi. Bundan əlavə, nəzəriyyədə bəzi vaxtlarda beynəlxalq xüsusi hüquq mülki hüququn tərkib hissəsi (yarımsahəsi) kimi nəzərdən keçirilirdi. Kontinental Avropa hüququnda beynəlxalq xüsusi hüquq mülki hüququn tərkib hissəsi (yarımsahəsi) sayılır.

Beynəlxalq xüsusi hüquq adının (private international law) işlədilməsini ilk dəfə olaraq 1834-cü ildə Con Stori təklif etmişdir. XX əsrdə ingilis-amerikan doktrinasında bu terminlə bərabər, həm də «münaqişə hüququ» (conflict of law) terminindən istifadə olunur. Avropa dövlətlərində XIX əsrin 40-cı illərindən başlayaraq hər yerdə «beynəlxalq xüsusi hüquq» termini (fransızca droit international prive, almanca internationales privatrecht və s.) tətbiq edilir.

Əvvəllər sovet hüququ ədəbiyyatında «beynəlxalq xüsusi hüquq» terminindən istifadə olunması əleyhinə fikirlər söylənilirdi. Bu fikrin doğru və inandırıcı olmaması hüququn ümumi və xüsusi hüquqa bölünməməsi ilə izah olunur və əsaslandırılırdı.

Beynəlxalq xüsusi hüquq özünün əsas hüquqi parametrlərinə görə həmişə xüsusi hüquq xarakterinə və təbiətinə malik olmuşdur. Qabaqcıl və sivil hüquq sistemlərində də heç bir vaxt beynəlxalq xüsusi hüquq özünün xüsusi hüquq xarakterini itirməmişdir. Biz beynəlxalq xüsusi hüququ mülki hüququn yarımsahəsi hesab edirik. Odur ki, o, mülki hüququn tərkib hissəsi kimi xüsusi hüquqa aiddir.

Ailə hüququnun xüsusi hüquqa daxil olmasına gəldikdə isə göstərmək istəyirik ki, bir çox müəlliflər hüququn müstəqil bir sahəsi kimi ailə hüququnu xüsusi hüquq sferasına daxil edirlər[3]. Qabaqcıl, sivil və inkişaf etmiş hüquq sistemlərində ailə hüququ xüsusi-hüquqi xarakterə malikdir. Amma biz, ailə hüququnu müstəqil hüquq sahəsi yox, mülki hüququn yanmsahələrindən biri hesab edirik. Bu, kontinental Avropa hüququ ənənələrinə uyğun gəlir. Belə ki, bir çox Avropa ölkələrində ailə hüququ mülki hüququn tərkib hissələrindən (yarımsahələrindən) biri kimi tanınır. Ona görə də ailə hüququ hüququn müstəqil sahəsi kimi yox, mülki hüququn vasitəsilə onun tərkib hissəsi (yarımsahəsi) kimi xüsusi hüquq sferasına şamil olunur. Müstəqil olmayan ailə hüququ Azərbaycan Respublikasının xüsusi hüquq sistemində mülki hüququn vasitəsilə təmsil olunur. Bununla belə, mülki hüququn ailə hüququ adlı yarımsahəsində

[1] bax: *Лебедев С.Н.* О природе международного частного права // Сов. ежегод. меж. права. М., 1979, с. 61-80; *Брагинский М.И.* О природе международного частного права // Проблемы соверш. сов. зако. труды ВНИИСЗ—24—М., 1982, с. 146-180; *Маковский А.Л.* Проблемы природы международного частного права в советской науке // Труды ВНИИСЗ—29—М., 1984, с. 206-224.

[2] Bu fikri söyləyən müəllif İ.S.Pereterski olmuşdur (bax: *Перетерский И.С., Крылов С.Б.* Международное частное право. М., 1959, с. 5-19).

[3] Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с .9; Теория государства и право. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В. Малько*. М., 2000, с. 403; Общая теория права и государства. Учебник / Под ред. *В.В. Лазарева*. М., 2001, с. 218.

dövlətin bəzi ailə hüquq münasibətlərinə qarışmasının şahidi oluruq. Dövlətin həmin müdaxiləsi əsasən yetkinlik yaşına çatmayan uşaqların, əmək qabiliyyəti olmayan ərin (arvadın) mənafeyini müdafiə etmək məqsədini güdür. Məsələn, himayələrində azyaşlı uşaq olan ərlə arvad arasında nikaha məhkəmə qaydasında xitam verilir. Bu, onu göstərir ki, mülki hüququn ailə hüququ yarımsahəsində ümumi-hüquqi xarakterli elementlər və münasibətlər var.

Ticarət (kommersiya) hüququna gəldikdə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının daxili milli hüquq sistemində müstəqil hüquq sahəsi kimi bu cür hüquq ayrılmadığına və fərqlənmədiyinə görə onun xüsusi hüquqa aid edilməsi barədə söhbət gedə bilməz. Azərbaycan Respublikasında xüsusi olaraq ticarət (kommersiya) hüququnun ayrılması üçün hər hansı bir amil, sosial-siyasi, ictimai-iqtisadi, milli-tarixi və digər əsaslar yoxdur. Ölkəmizdə xüsusi olaraq ayrıca ticarət (kommersiya) hüququnun yaranması və inkişafı üçün hər hansı bir tarixi genezis (kök, mənbə) mövcud deyil[1].

Bəzi müəlliflər **korporativ hüququnu**, habelə müqavilə hüququnu müasir xüsusi hüququn növləri hesab edirlər[2]. İnkişaf etmiş xarici hüquq sistemlərində hüquqi şəxslər haqqında mülki hüquq normalarının bazası əsasında, bir qayda olaraq, adətən, kommersiya təşkilatlarının (hüquqi şəxslərin bir növünün) statusu haqqında qayda müəyyən edirlər[3]. Bu qaydaların məcmusu və birliyi **«kompaniya hüququ» («şirkət hüququ»)** anlayışı ilə əhatə olunur. Kompaniya hüququna korporativ hüququ da deyilir[4]. Korporativ hüququ hüququn müstəqil sahəsi hesab edilmir. O, qeyri-müstəqil hüquqi qurumdur. Bu hüquqi qurum ya mülki hüququn hissəsi kimi, ya da ticarət hüququnun hissəsi kimi xüsusi hüquqa daxil edilir.

Müqavilə hüququ da müstəqil hüquqi qurum sayılmır[5]. O, mülki hüququn,

[1] Əmali-tətbiqi xarakterli konkret tələbatı ödəmək və təmin etmək üçün şərti olaraq sığorta sahəsində sığorta hüququnu, nəqliyyat sahəsində nəqliyyat hüququnu, bank fəaliyyəti sahəsində bank hüququnu, habelə kommersiya (ticarət) fəaliyyəti sahəsində kommersiya hüququnu ayırmaq mümkündür. Bu hal hüquqların, o cümlədən kommersiya hüququnun qanunvericilik massivi kimi və ya tədris fənni kimi ayrılmasını ifadə edir. Belə halda müstəqil hüquq sahəsinin ayrılmasından söhbət gedə bilməz. Haqlı olaraq kommersiya hüququna mülki hüququn bir sahəsi kimi baxılır (bax: Коммерческое право. Учебное право. СПб., 1993; Коммерческое право. Учебник / Под ред. *В.Ф. Попондопуло, В.Ф. Яковлевой.* СПб., 1997, с. 4-5).

[2] bax: *Кулагин М.И.* Предпринимательство: опыт Запада. М., 1992; *Кашанина Т.В.* Предпринимательство. Правовые вопросы. М., 1994; Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 405.

[3] Almaniya hüquq ədəbiyyatında korporativ hüquq «birlik hüququ» (Gesellschaftsrecht) anlayışı ilə əhatə olunur. «Birlik hüququ» elə bir hüquq sahəsidir ki, o özündə birliklərin (yəni səhmdar cəmiyyətlərin, kommandit cəmiyyətlərin, məhdud məsuliyyətli cəmiyyətlərin və s.) yaradılmasını, fəaliyyət göstərməsini və xitam olunmasını tənzimləyən hüquq normalarını birləşdirir (*Kraft A., Kreutz P.* Gesellschaftsrechl. Berlin. 2000, s. 1; *Steding R.* Gesellschaftsrechl. 1997, s. 17; *Huck G.* Gesellschaftsrechl. München. 1991).

[4] Sovet hüquq sistemində hüquqi şəxslər haqqında mülki hüquq normaları əsasında əvvəlcə kolxoz hüququ, sonra isə kooperativ hüququ adlı müstəqil hüquq sahəsi ayırmağa təşəbbüs göstərilmişdir. İndiki dövrdə kooperativ hüququnu xüsusi hüquqa aid edən müəlliflər də var (bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 403).

[5] Müqavilə hüququ barədə monoqrafiya yazılması müqavilə hüququ adlı ayrıca və müstəqil hüquq sahəsinin fərqləndirilməsinə dəlalət etmir (bax: *Брагинский М.И., Витрянский В.В.* Договорное право. Общие положения. М., 1997).

daha doğrusu, onun ən böyük və iri yarımsahəsi olan öhdəlik hüququnun əsas institutudur. Müqavilə hüququ öhdəlik hüququnda üstün mövqe tutur. Bu institut normal iqtisadi dövriyyəni və mübadilə münasibətlərini tənzimləyir. O, öhdəlik hüququnun aparıcı hissəsidir. Müasir müqavilə hüququ kommersiyalaşdırılır (kommersiyalaşdırma). Belə ki, müqavilə hüququnda sahibkarlıq (kommersiya) fəaliyyətini tənzimləyən normalar nəzərdə tutulmuşdur. Məsələn, sahibkarlıq sferasında tətbiq edilən françayzinq, faktorinq, lizinq və digər müqavilələr barədə normalar bütövlükdə mülki (əmlak) dövriyyəyə güclü təsir göstərir. Söylədiklərimizdən belə təsəvvür yaranır ki, müqavilə hüququnun normaları xüsusi-hüquqi təbiətə malikdir. Lakin o, müstəqil hüquqi qurum kimi yox, mülki hüququn tərkib hissəsi (institutu) kimi xüsusi hüquq sisteminə daxildir.

Torpaq hüququ xüsusi hüququn sisteminə daxil olan sahələrdən biridir. Torpaq üzərində şəxslərin xüsusi mülkiyyət hüququnun qanunvericilik qaydasında rəsmən tanınması torpaq hüququnun xüsusi hüququn bir hissəsi kimi çıxış etməsini şərtləndirir. Bu, təbiidir. Belə ki, xüsusi hüquq, hər şeydən əvvəl, xüsusi mülkiyyət institutunun yaranması və inkişafı ilə bağlıdır. Bununla belə, torpaq hüququnda ümumi-hüquqi xarakterli münasibətlər və elementlər vardır. Amma bunlar torpaq hüququnun xüsusi-hüquqi təbiətini və xarakterini dəyişdirmir.

Beləliklə, Azərbaycan Respublikasının xüsusi hüquq sisteminə daxil olan hüquq sahələrini müəyyənləşdirmək olar. Özü də ümumi hüquqa aid edilən hüquq sahələrinə nisbətən həmin sahələrin dairəsi məhduddur:

- mülki hüquq;
- əmək hüququ;
- torpaq hüququ.

Müasir dövrdə hüququn aqrar hüquq adlı müstəqil sahəsi ayrılmışdır. Müəlliflərin fikrincə, aqrar hüququ xüsusi, kompleks xarakterli hüquq sahəsidir. Hüquq ədəbiyyatında «aqrar hüququ» termini əvəzinə, «kənd təsərrüfatı hüququ» terminindən də istifadə olunur.

Müstəqil aqrar hüququ konsepsiyasının tərəfdarları belə hesab edirlər ki, kənd təsərrüfatında müxtəlif ictimai münasibətlər yaranır və bu münasibətlərin hamısını məcmu halında götürəndə o, ənənəvi hüquq sahələrindən hər hansı birinin nizamasalma predmetinə daxil olmur. Bu münasibətlər aqrar münasibətləri adlanır ki, o, müxtəlif növ ictimai əlaqələrin mürəkkəb kompleksində ibarətdir. Göstərilən konsepsiya tərəfdarlarının fikrincə, bax, həmin münasibətlər aqrar hüququnu müstəqil hüquq sahəsi kimi ayırmağa və fərqləndirməyə imkan verən meyar rolunu oynayır[1].

Düzdür, bir çox qabaqcıl və inkişaf etmiş xarici dövlətlərdə (məsələn, Almaniyada, ABŞ-da, İngiltərədə, İtaliyada, Yaponiyada, Fransada və s.) artıq altmış ilə yaxındır ki, kənd təsərrüfatının hüquqi problemləri üzrə intensiv tədqiqatlar aparılır və «Aqrar hüquq» adlı kurs tədris olunur. Kənd təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsini öyrənmək üçün tədris fənni kimi aqrar hüququnun ayrılması mümkündür. Amma hüququn müstəqil sahəsi kimi aqrar hüququn ayrılmasının və fərqləndirilməsinin heç bir əsası yoxdur. Bu cür «qondarma» müstəqil hüquq sahəsinin yaranması üçün əsas

[1] bax: Аграрное право. Учебник / Под ред. *Г.Е.Быстрова, М.И.Козыря.* М., 1998, с. 6-7.

meyarlar — hüquqi tənzimetmə predmeti və metodu mövcud deyildir.

6. Xüsusi hüquq və təsərrüfat (sahibkarlıq) hüququ

Xüsusi hüquq və təsərrüfat hüququ, habelə xüsusi hüquqla sahibkarlıq hüququ arasında münasibət məsələsi mühüm əhəmiyyət kəsb edir. Təsərrüfat hüququ ilə və ya sahibkarlıq hüququ ilə xüsusi hüquq arasında əlaqənin xarakteri və təbiəti necədir? Bu iki anlayışı xüsusi hüquq sahəsinə aid etmək olarmı? Nəzəri ədəbiyyatda sahibkarlıq hüququnun xüsusi hüquqa aid edilməsi barədə fikirlər səslənir[1].

Təsərrüfat hüququ konsepsiyası XX əsrin əvvəllərində Qərb hüquq elmində əmələ gəlmişdir. Həmin dövrdə fransız hüquqşünası Dyuqinin adı ilə bağlı olan sosial funksiya nəzəriyyəsi yaranmışdı[2]. Bu nəzəriyyə ilə bağlı olaraq Qərb hüquq elmində ilk dəfə olaraq kapitalist dövlətinin hüquq sistemi daxilində və çərçivəsində hüququn ümumi və xüsusi hüquqa bölünməsinə mənfi münasibət ifadə olundu və bu cür bölgü ideyası tənqid edildi. Dyuqinin sosial funksiya nəzəriyyəsinə görə hüquq yox, yalnız sosial funksiya tanıyan müasir cəmiyyətə subyektiv hüquq yaddır və bu subyektiv hüquq öz yerini sosial funksiyaya verməlidir. Madam ki, subyektiv hüquq öz yerini sosial funksiyaya verir, onda hüququn ümumi və xüsusi hüquq adlı iki yerə bölünməsinin yerini vahid «sosial hüquq» tutmalı və əvəz etməlidir[3].

Vahid «sosial hüquq» yaradılması ideyası kapitalist təsərrüfatının hüquqi tənzimlənməsi sahəsində ifadə olunmağa başladı. Birinci dünya müharibəsi azad sahibkarlıq fəaliyyətini — xüsusi hüquq münasibətlərinin əhatə dairəsini məhdudlaşdırdı. Təsərrüfat işlərinə birbaşa dövlət müdaxiləsi qaydası müəyyənləşdirildi. Bu hal isə kapitalist müəssisələrinin təsərrüfat fəaliyyətinin hüquqi tənzimlənməsinin imperativliyini (məcburiliyini) xeyli genişləndirdi. Bunun nəticəsində müəssisələrin xüsusi mülkiyyət hüququ və müqavilə azadlığı prinsipi mühüm dərəcədə məhdudlaşdırıldı. Belə bir şəraitdə Almaniyada müharibə və müharibədən sonrakı dövrdə təsərrüfat hüququ nəzəriyyəsi irəli sürüldü. Bu nəzəriyyə ənənəvi olaraq xüsusi hüququ ümumi hüquqa qarşı qoymağın ziddinə olaraq yaranmışdı. Təsərrüfat hüququ nəzəriyyəsinin yaradıcıları XX əsrin 20-ci illərinin alman sivilistikasının tanınmış nümayəndələri (Gedeman, Rumpf, Nussbaum, Holdşmitd və s.) idilər. Bu nəzəriyyə Qərb hüquq ədəbiyyatının səhifələrində çox geniş surətdə işıqlandırılmışdı.

Təsərrüfat hüququ nəzəriyyəsi dövlətin xüsusi hüquq münasibətlərinə qarışmasının və müdaxiləsinin güclənməsini ifadə edirdi. Həmin nəzəriyyənin müəllifləri təsdiq edirdilər ki, bu cür müdaxilə nəticəsində guya ümumi hüquq ilə xüsusi hüquq arasında sərhədlərin silinməsi prosesi, habelə yeni hüququn yaranması prosesi gedir. Yaranan bu yeni hüquq sahəsi nə xüsusi hüquq, nə də ki ümumi hüquq sferasına şamil edilir. Həmin hüquq təsərrüfat hüququ adlandırıldı. Təsərrüfat hüququ qanunvericiliyin spesifik qanadı, hüquq sisteminin xüsusi sahəsi hesab edildi. Bu nəzəriyyə alman sivilisti Gedemanın 1910-cu ildə çapdan çıxmış kitabçasında əsaslandırılmışdı. Onun Almaniyada yaratdığı təsərrüfat hüququ nəzəriyyəsi bəzi kontinental Avropa ölkələrində, o cümlədən SSRİ-də, hər şeydən əvvəl, sovet Rusiyasında özünə dəstək tapdı. 1924-cü ildə Gedemanın bir sıra məqalələri rus dilinə tərcümə olunaraq Xarkovda nəşr edildi. Xüsusilə onun rus dilinə tərcümə olunmuş və çap edilmiş «Təsərrüfat hüququnun əsas cəhətləri» adlı məqaləsi daha geniş maraq doğurdu.

XX əsrin 20-ci illərində təsərrüfat hüququ nəzəriyyəsi bir sıra sovet alimləri tərəfindən qəbul edildi. Sovet müəllifi A.Q.Hoyxbarq həmin dövrdə nəşr etdirdiyi əsərində təsərrüfat hüququ ideyasını və konsepsiyasını ifadə edirdi[1]. O, fransız hüquqşünası Dyuqinin ardınca subyektiv hüquqla sosial funksiyanı eyniləşdirirdi. Müəllif yazırdı ki, burjua hüququnda olduğu kimi, sosialist hüququnda da ümumi hüquqla xüsusi hüquq arasındakı fərqlər itir. A.Hoyxbarq burdan belə bir nəticə çıxarırdı ki, bundan sonra mülki hüquq sahəsini saxlamağın heç bir əsası və mənası yoxdur. Onun fikrincə, mülki hüquq həmişə və hər yerdə xüsusi hüquq kimi çıxış etmişdir və o, yalnız ümumi hüquqa qarşı qoyulmaq üçün mövcud olmuşdur. Müəllif belə hesab edirdi ki, əgər ümumi hüquqla xüsusi hüquq arasında sərhədlər itirsə, onda mütləq və hökmən mülki hüququn mövcudluğuna da son qoyulmalı, onun yerini təsərrüfat hüququ tutmalıdır. Təsərrüfat hüququnun işıqlandırılmasına kifayət qədər geniş hüquq ədəbiyyatı həsr edildi[2]. Müasir dövrdə də bu iş davam edir[3].

Beləliklə, sovet dövründə təsərrüfat hüququ adlı yeni hüquq sahəsi əmələ gəldi. Sovet təsərrüfat hüququ təsərrüfat qanunvericilik normalarından ibarət idi. Bu normalar sovet hüququnun əsasən iki sahəsi — inzibati hüquq və mül-

---

[1] bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 403.

[2] *L.Duquit*. Les transformations du droit public. Paris. 1913; Les transformations qenerale du droit civil olepuis Le code Napoleon. Paris. 1912.

[3] *Дюги*. Социальное право. Индивидуальное право. Преобразование государства. СПб., 1909.

[1] *Гойхбарг А.Г.* Хозяйственное право РСФСР. М., 1921. Ümumiyyətlə, təsərrüfat hüququ nəzəriyyəsi bundan sonra iki formada ifadə olundu. Birinci forma «iki sektorlu hüquq» nəzəriyyəsi adlanır. Bu nəzəriyyəni P.İ.Stuçka əsaslandırmışdır (bax: Курс советского гражданского права. М., Том 3. 1931). Müəllifin fikrince, keçid dövrünün iqtisadiyyatında iki sektor var: sosialist sektoru, xüsusi sektor. Buna uyğun olaraq hüquq da iki sektordan ibarət olmalıdır: xüsusi (ayrı-ayrı) şəxslər üçün mülki hüquq; sosialist təşkilatları üçün təsərrüfat hüququ. 30-cu illərin əvvəllərində bu nəzəriyyəyə qarşı vahid təsərrüfat hüquq nəzəriyyəsi qoyuldu. Bu nəzəriyyənin tərəfdarlarından biri L.Y.Ginsburq idi (bax: Курс советского хозяйственного права. М., 1935. Том 1). П.И. Stuçkanın mövqeyini tənqid edən müəllif göstərdi ki, mülki hüquq yox, yalnız təsərrüfat hüququ mövcud olmalıdır. Bu nəzəriyyənin nəticəsində elm və tədris fənni kimi mülki hüquq ləğv edildi. Tədris planından inzibati hüquq da götürüldü. Bu vəziyyət 1938-ci ilə kimi davam etdi. Həmin vaxt keçirilmiş elmi işçilərin hüquq sahəsi üzrə müşavirəsində vahid təsərrüfat hüququ konsepsiyası tənqid edildi. Bu müşavirə sovet hüquq sistemində mülki hüququn və inzibati hüququn mövcud olmasını tanıdı. Bundan sonra həmin hüquq sahələri bərpa olundu.

[2] *Аскназий С.И.* Очерки хозяйственного права СССР. Л., 1926; Курс советского хозяйственного права. Под ред. *Л.Я. Гинцбурга и Е.Б. Пашуканиса, М.Н. Доценко*. М., 1935; *Магазинер Я.М.* Советское хозяйственное право. Л., 1928; *Рубенштейн Б.М.* Советское хозяйственное право. М., 1936; Хозяйственное право. Под ред. *В.В. Лаптева*. М., 1967; *В.В. Лаптев*. О советском хозяйственном праве // Советское государство и право. 1950. № 4 və s.

[3] bax: Круглова Н.Ю. Хозяйственное право. Учебник. М., 1997; *Мартемьянов В.С.* Хозяйственное право. Курс лекций. Том 1. М., 1994; *Дойников И.В.* Предпринимательское (хозяйственное) право. М., 1998.

ki hüquq adlı sahələri arasında bölüşdürülmüşdü. Belə ki, sovet inzibati hüququ sosialist təsərrüfatını idarə edən orqanların fəaliyyət qaydasını, quruluşunu və səlahiyyətlərini müəyyən edirdi. Sovet mülki hüququ isə sosialist təsərrüfat təşkilatları arasında müqavilə və digər əmlak münasibətlərini tənzimləyirdi. Şübhəsiz ki, sovet dövlətinin təsərrüfat fəaliyyəti ilə bağlı olan normalarının çoxu əsasən bu iki sovet hüquq sahəsində cəmləşmişdi. Bu cür normaların mövcudluğu isə sosialist tipli sovet dövlətinin xüsusi funksiyası — təsərrüfat-təşkilati funksiyaya malik olması ilə izah edilirdi. Beləliklə, sovet hüququnun hər iki sahəsi sosialist təşkilatlarının təsərrüfat fəaliyyətini (inzibati hüquq idarəçilik sahəsində, mülki hüquq isə dəyər xarakterli əmlak münasibətləri sahəsində) nizama salırdı. Bax, təsərrüfat fəaliyyəti haqqında inzibati hüquqla mülki hüquq arasında bölüşdürülmüş normalar birləşdirilərək, onlardan sovet hüququnun təsərrüfat hüququ adlı müstəqil sahəsi yaradıldı.

Təsərrüfat hüququ ideyası və konsepsiyası hələ sovet dövründə hüquq ədəbiyyatında kəskin tənqid edilmişdir[1]. 1959-cu ilin may ayında SSRİ Elmlər Akademiyasının Hüquq İnstitutu bütövlükdə təsərrüfat hüququna həsr edilmiş elmi sessiya keçirdi[2]. Sessiyanın bəzi iştirakçıları təsərrüfat hüququ ideyası əleyhinə çıxdılar. Məcəllələşdirmə məsələləri üzrə respublikalararası müşavirə (1959) iştirakçılarının çoxu bu nəzəriyyəyə mənfi münasibət bəslədilər. Diskussiya ümumi mətbuat səhifələrinə də keçdi. 8 mart 1959-cu ildə «**Известия**» qəzetində bir qrup sivilist alim (B.S. Antimonov, S.N. Bratus və başqaları) çıxış edərək təsərrüfat hüququ nəzəriyyəsini tənqid etdilər.

Təsərrüfat hüququ konsepsiyasını kəskin tənqid edən tanınmış alim O.S. İoffe göstərirdi ki, nə sovet hüququ sisteminin qurulması prinsipi, nə sovet hüquq elmi sisteminin təşkili forması, nə qanunvericilik, arbitraj və təsərrüfat praktikası nəinki təkcə təsərrüfat hüququ konsepsiyasına əsas vermir, habelə, əksinə, onun nəzəri cəhətdən səhv və elmi baxımdan nəticəsi olmayan nəzəriyyə olmasını açıq-aşkar müəyyən edir[3]. Müəllif təsərrüfat hüququ nəzəriyyəsi tərəfdarlarına haqlı olaraq məsləhət görürdü ki, onlar qondarma, uydurma və süni məsələlərlə məşğul olmayıb, öz yaradıcılıq güc və səylərini həqiqətən

[1] bax: *Иоффе О.С.* Правовое регулирование хозяйственной деятельности в СССР. Л., 1959; Развитие цивилистической мысли. Часть 1. Л., 1975. Bu əsərlər kitabda verilmişdir: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 695-740. Görkəmli alimin bu əsəri yazmasının əsas səbəbi 1956-cı ildə başlayan diskussiya ilə bağlı idi. Belə ki, həmin vaxt «Советское государство и право» jurnalının səhifələrində sovet hüququnun sistemi məsələsi üzrə diskussiya başladı. Bu diskussiyanın təşəbbüskarlarından biri səriştəsiz və diletant V.S. Tadevosyan idi. O, həmin jurnalda çap olunan məqalədə yenidən təsərrüfat hüququ ideyasını irəli sürdü (bax: *Тадевосян В.С.* Некоторые вопросы системы советского права // Советское государство и право. 1956. № 8, с. 99-108). Diskussiya gedişində bu ideya kifayət qədər geniş dəstək tapdı.

[2] bax: Научная сессия по проблемам советского хозяйственного права (тезиси докладов) М., 1959. Elmi sessiyada əsas məruzə ilə çıxış edən Q.M.Sverdlov təsərrüfat hüququ konsepsiyasını ifadə edərək SSRİ-də təsərrüfat hüququ adlı müstəqil hüquq sahəsinin olmasını əsaslandırdı. O, göstərdi ki, guya Mülki Məcəllə heç bir vaxt təsərrüfat orqanları arasında münasibətləri tənzimləməmişdir. Q.M.Sverdlov təsərrüfat hüququ nəzəriyyəsini əsaslandırmaq üçün digər arqumentlər də gətirdi.

[3] bax: *Иоффе О.С.* Правовое регулирование хозяйственной деятельности в СССР// Гражданское право. Избранные труды. М., 2000, с. 740-741.

vacib və həyati əhəmiyyəti olan problemlərin tədqiqinə yönəltsinlər.

Təsərrüfat hüququ ideyasını və konsepsiyasını keçmiş sovet iqtisadi quruluşu doğurmuşdu. Bazar iqtisadiyyatına keçid komanda iqtisadiyyatının, əmrə əsaslanan sovet təsərrüfat sisteminin mövcudluğuna son qoymuşdur. Buna görə də təsərrüfat hüququ nəzəriyyəsini doğuran sosial-iqtisadi əsaslar da yox olub getmişdir. Belə vəziyyətdə bu nəzəriyyənin nəzəri cəhətdən əsaslandırılması elə bir ciddi məsələyə çevrilmir.

Bununla bərabər, qeyd etmək lazımdır ki, təsərrüfat hüququ ideyası tamamilə «ölüb getməmişdir». Elə bil ki, bu ideya «mürgüləməkdəymiş». Belə ki, bazar iqtisadiyyatı şəraitində təsərrüfat hüququ konsepsiyası başqa formada özünü göstərməyə başlayır. Söhbət bəzi müəlliflərin (V.S.Martemyanov, V.V.Laptev, N.Y.Kruqlova, V.K.Mamutov və b.) təsərrüfat hüququnun varisi kimi xüsusi olaraq müstəqil sahibkarlıq (təsərrüfat) hüququ yaratmağa cəhd göstərmələrindən gedir[1]. Sahibkarlıq (təsərrüfat) hüququ konsepsiyasının tərəfdarları belə hesab edirlər ki, xüsusi-hüquqi yanaşma iqtisadiyyata hər hansı bir dövlət müdaxiləsini aradan qaldırır, bu cür müdaxiləyə yol vermir və həmin səbəbdən də sahibkarlıq (təsərrüfat) dövriyyəsini qaydaya salmaq üçün göstərilən yanaşma qəbuledilməzdir. Onların fikrincə, sahibkarlıq (təsərrüfat) hüququ çərçivəsində xüsusi və ümumi hüquq elementlərinin «yeni birliyi»ni yaratmaq lazımdır. Həmin müəlliflər sahibkarlıq (təsərrüfat) hüququ konsepsiyasını kapitalist bazar təsərrüfatının dövlət tənzimlənməsinin xüsusiyyəti ilə əsaslandırırlar.

Bizim fikrimizcə, **sahibkarlıq (təsərrüfat) hüququ kimi müstəqil hüquq sahəsinin ayrılması qondarılmış, uydurulmuş, qeyri-təbii və süni məsələdir.** Bunun heç bir elmi və praktiki əsası yoxdur. Bir neçə arqumentə görə sahibkarlıq (təsərrüfat) hüququ konsepsiyası qəbuledilməzdir. Birincisi, dünya təcrübəsi göstərir ki, ümumi hüquq normalarından (elementlərindən) və xüsusi hüquq normalarından (elementlərindən) ibarət müstəqil hüquq sahəsi yaratmaq olmaz. Hələ XX əsrin 40-cı illərində fransız hüquqşünası N.Savatye təsərrüfat hüququ nəzəriyyəsini tənqid edərək ümumi hüquq normalarının «əzəli və qədim» xüsusi hüquq sferasına «girməsinə» qarşı özünün kəskin etiraz səsini ucaltmışdı[2]. Xüsusi hüquq xüsusi işlərə özbaşına dövlət müdaxiləsini istisna edir, buna yol vermir. Ümumi hüquq qaydaları və normaları isə öz hüquqi təbiətinə görə xüsusi hüquqi əsasları məhdudlaşdırır və özünə tabe etdirir, onları üstələyir. Buna görə də ümumi və xüsusi hüquq elementlərinin müstəqil ayrıca bir hüquq sahəsində birləşdirilməsi qeyri-mümkündür.

İkincisi, hüquq sistemi obyektiv xarakter daşıyır. Bu, o deməkdir ki, hüquq sistemi müəyyən sahələrə bölünməsində ifadə olunan obyektiv quruluşa malikdir. O, subyektiv xarakter daşımır. Bu, onu ifadə edir ki, hüquq sisteminə daxil olan hər hansı bir sahəni bu və ya digər nəzəri konstruksiyanın köməyi ilə uydurmaq, qondarmaq və yaratmaq olmaz. Elm yalnız müəyyən hüquq sa-

[1] bax: Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Под ред. *О.Н. Олейника*. М., 1999; *Мартемьянов В.С.* Хозяйственное право. Том 1; *Дойников И.В.* Предпринимательское (хозяйственное) право. М., 1998; *Лаптев В.В.* Предпринимательское право: понятие и субъекты. М., 1997.

[2] bax: *H.Savatie.* Du droit civil au droit public. Paris. 1945.

həsinin mövcud olma faktını müəyyənləşdirə və aşkar edə bilər[1]. Müstəqil sahibkarlıq (təsərrüfat) hüququnun mövcudluğunu sahibkarlıq fəaliyyəti üzrə qanunvericilik kimi subyektiv fakt əsasında sübut etmək olmaz. Belə ki, qanunvericilik sahibkarlıq (təsərrüfat) fəaliyyətindən başqa, həm də müxtəlif məsələlər üzrə mövcuddur. Məsələn, hərbi qanunvericilik, vergi qanunvericiliyi, qiymətli kağızlar haqqında qanunvericilik, nəqliyyat qanunvericiliyi, elmi qanunvericilik, pensiya qanunvericiliyi və s[2]. Buradan belə bir nəticə çıxarmaq olmaz ki, qanunvericiliyin hər qolu özündə hüququn müvafiq sahəsini ifadə edir. Müəyyən məsələlər üzrə qanunvericilik və hüquq sahəsi — bir-biri ilə üst-üstə düşməyən anlayışlardır. Hüquq sistemi və qanunvericilik sistemi elə anlayışlardır ki, onlar bir-biri ilə üst-üstə düşmür[3]. Fəlsəfi planda hüququn sistemi ilə qanunvericilik sistemi arasındakı münasibət məzmunla forma arasındakı münasibət kimidir. Qanunvericilik sahəsi hüquq sisteminin xaricən ifadəsidir, onun obyektivləşmiş formasıdır. Onların sayı hüquq sahələrindən xeyli çoxdur. Məsələn, RF-də 48 qanunvericilik sahəsi var. Hərbi qanunvericiliyin olması o demək deyildir ki, hüququn hərbi hüquq adlı sahəsi də mövcuddur. Və yaxud ticarət haqqında qanunvericiliyin ayrılması onu ifadə etmir ki, ticarət hüququ adlı müstəqil hüquq sahəsi əmələ gəlmişdir. Vergi qanunvericiliyinin ayrıca olaraq nəzərdə tutulması ona dəlalət etmir ki, hüquq sistemində vergi hüququ adlı müstəqil sahə yaranmışdır. Bununla belə, hüquq sahəsini məcəllə ilə də eyniləşdirmək olmaz. Məsələn, Vergi Məcəlləsinin olması ona dəlalət etmir ki, hüququn vergi hüququ adlı müstəqil sahəsi ayrılmalıdır. Və nəhayət, sahibkarlıq (təsərrüfat) fəaliyyəti haqqında qanunvericiliyin olması sahibkarlıq (təsərrüfat) hüququ kimi müstəqil və ayrıca hüquq sahəsinin fərqləndirilməsinə əsas vermir. Beləliklə, hüquq sisteminin obyektivliyi imkan vermir ki, sahibkarlıq (təsərrüfat) hüququ kimi müstəqil hüquq sahəsi ayrılsın və fərqləndirilsin. Sahibkarlıq haqqında qanunvericilik isə subyektiv xarakter daşıyır.

Bununla bərabər, sahibkarlıq (təsərrüfat) hüququnu iki baxımdan ayırmaq və fərqləndirmək olar. Özü də dərhal qeyd etməliyik ki, hüquq sisteminə daxil olan müstəqil hüquq sahəsi kimi yox. Birincisi, **qanunvericilik sahəsi (massivi) kimi sahibkarlıq (təsərrüfat) hüququnun fərqləndirilməsi və ayrılması mümkündür**. Belə ki, sahibkarlıq (təsərrüfat) fəaliyyəti hüquqi tənzimetmənin obyektidir. Bu cür fəaliyyət hüququn müxtəlif sahələri — mülki, inzibati, maliyyə, əmək və digər sahələri tərəfindən hüquqi cəhətdən nizama salınır və tənzimlənir. Belə təsəvvür yaranır ki, sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsi və nizama salınması qarışıq və kompleks xarakterə malikdir. Bu cür qarışıq məsələyə yaxından bələd olmaq üçün sahibkarlıq fəaliyyəti barədə mülki hüquq aktları, inzibati hüquq aktları, maliyyə hüquq aktları və s. sahibkarlıq (təsərrüfat) qanunvericiliyi adı altında birləşdirilə bilər. Belə halda burada həm xüsusi hüququn (mülki hüququn və s.), həm də ümumi hüququn (maliyyə, inzibati və s. hüquq sahələrinin) elementləri və institutları əhatə olunur.

İkincisi, **tədris fənni kimi sahibkarlıq (təsərrüfat) hüququ ayrıla bilər**. Bu cür ayrılmanın əsas məqsədi sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsini dərindən mənimsəmək və əhatəli öyrənməkdən ibarətdir. Məsələn, magistratura pilləsində oxuyan tələbələr «Sahibkarlıq hüququ» adlı tədris fənni öyrənirlər. Son zamanlar biz «Sahibkarlıq (təsərrüfat) hüququ» adlı dərsliklərin və mühazirə kursunun nəşr edilməsinin şahidi oluruq[1].

Beləliklə, hüquq sistemində sahibkarlıq (təsərrüfat) hüququ adlı müstəqil xüsusi hüquq sahəsinin yaradılması üçün hər hansı bir nəzəri-praktiki əsas yoxdur. **Sahibkarlıq fəaliyyəti əsasən mülki hüquqla tənzimlənir**. Mülki hüquqda elə xüsusi normalar vardır ki, bu normalar yalnız sahibkarların iştirak etdiyi münasibətlərə tətbiq olunmaq üçün nəzərdə tutulmuşdur. Həmin normalara aiddir:

- sahibkarlıq fəaliyyəti haqqında norma (MM-in 13-cü maddəsi);
- kommersiya təşkilatları haqqında normalar (MM-in 64-114-cü maddələri);
- kommersiya təmsilçiliyi (nümayəndəliyi) haqqında norma (MM-in 361-ci maddəsi);
- ümumi müqavilə haqqında normalar (MM-in 400-cü maddəsi);
- sahibkarlıq fəaliyyəti ilə bağlı öhdəliyin icrasından birtərəfli imtina və ya bu öhdəliyin şərtlərinin birtərəfli dəyişdirilməsi haqqında norma (MM-in 430-cu maddəsinin 2-ci bəndi) və s.

Bundan əlavə, mülki hüququn əqdlər, hüquqi şəxslər, müddətlər, əşya hüququ, öhdəlik və digər məsələlər barədə müddəaları sahibkarların iştirak etdikləri münasibətlərə tətbiq edilə bilər. Ona görə ki, həmin müddəalar ümumi xarakterə malik olub, bütün dövriyyə iştirakçılarının hamısının — həm sahibkarların, həm də qeyri-sahibkarlann iştirak etdikləri münasibətlərə eyni dərəcədə və bərabər qaydada şamil olunur. Mülki hüquqda sahibkarlıq fəaliyyətini tənzimləyən və qaydaya salan kifayət qədər yetərli normalar vardır. Bu, o deməkdir ki, həmin fəaliyyəti qaydaya salmaq və rəsmiləşdirmək üçün hüquq sistemində sahibkarlıq (təsərrüfat) hüququ adlı xüsusi olaraq müstəqil hüquq sahəsinin ayrılmasına ehtiyac yoxdur. Sahibkarlıq (təsərrüfat) fəaliyyətini nizama salmaq üçün mülki hüquq normaları kifayətdir. Ona görə də üzümüzü sahibkarlıq (təsərrüfat) hüququ konsepsiyasının və ideyasının tərəfdarlarına[2] tutub, İ.O. Ioffenin təbirincə, demək istəyirik ki, qondarma, uydurma və süni məsələlərlə məşğul olmayın (O.S.İoffe bu cür məsləhəti təsərrüfat hüququ ideyasının tərəfdarlarına görmüşdü).

7. Xüsusi hüququn əsas cəhətləri və prinsipləri

Qeyd etdiyimiz kimi, xüsusi hüquq bazar iqtisadiyyatının fundamentini və

[1] bax: *Иоффе О.С.* Правовое регулирование хозяйственной деятельности в СССР // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 708.

[2] bax: Законодательство о торговле. М., 1990; Sahibkarlıq fəaliyyəti haqqında. Normativ aktlar toplusu. Bakı. 1998. Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu / Tərtibatçı *A.H.Abbasovdur*. Bakı. 2000; Vergi qanunvericiliyi. Bakı. 1999; Hərbi qanunvericilik. Tərtib edəni *N.Əliyev*. Bakı. 1998 və s.

[3] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А. Суханова*. М., 1998, с. 19.

[1] bax: Хозяйственное право. В 2-х т. Том 2 / От ред. *В.С.Мартемьянов*. М., 1994. Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Под ред. *О.Н.Олейника*. М., 1999; Предпринимательское право. Курс лекций / Под ред. *Н.И.Клейна*. М., 1993.

[2] bax: *Лаптев В.В.* Хозяйственное право - право предпринимательской деятельности // Государство и право. 1993. № 1; *Быков А.Г.* Предпринимательское право: проблемы формирования и развития // Вестник Московского Университета. Право. 1993. № 6.

əsasını təşkil edir. Bu hüquq iqtisadiyyatın təşkilinin bazar iqtisadiyyatı adlı forması ilə sıx surətdə bağlıdır. Komanda (sovet) iqtisadiyyatından fərqli olaraq, iqtisadiyyatın təşkilinin bu forması, yəni bazar iqtisadiyyatı dövlət təsiri və müdaxiləsi olmayan azad bazar iqtisadiyyatıdır. Bu iqtisadiyyat hər hansı xüsusi işə — istehsal və istehlak haqqında əsas qərarları qəbul edən ayrı-ayrı şəxslərin və xüsusi müəssisələrin fəaliyyətinə dövlətin özbaşına qarışmasını istisna edir. Xüsusi hüquq da xüsusi işlərə özbaşına müdaxilə olunmasını qəbul etmir. Xüsusi hüquq olmadan bazar iqtisadiyyatının və təsərrüfatının normal və əsl inkişafından söhbət gedə bilməz. Deməli, xüsusi hüquq iqtisadiyyatın təşkilinin forması olan bazar iqtisadiyyatı üçün xarakterikdir. Odur ki, **xüsusi hüquq bazar hüququdur**.

Xüsusi hüquq sahibkarlığın əsası və bünövrəsidir. Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) bazar iqtisadiyyatının əsas və fərqləndirici əlamətlərindən biridir. Bu fəaliyyətin həyata keçirilməsinin əsas məqsədi gəlir (qazanc) və mənfəət əldə etməkdən ibarətdir. Sahibkarlıq fəaliyyəti əsasən iqtisadi cəhətdən azad olan insanların əməyinə əsaslanır. Özünün hər bir üzvü üçün iqtisadi azadlığı təmin edən cəmiyyətdə bu fəaliyyət özünün ən yüksək tərəqqi səviyyəsinə çatır. Ümumi mənada iqtisadi azadlıq dedikdə, insanın malik olduğu iqtisadi resurslar (kapital, iş qüvvəsi), habelə hazır məhsullar üzərində sərbəst surətdə sərəncam vermək hüququ başa düşülür[1]. Xüsusi hüquq insanları iqtisadi azadlıq hüququ ilə təmin edir. Bu hüquq öz hüquqi təbiətinə görə normal sahibkarlıq dövriyyəsi və fəaliyyəti üçün nəzərdə tutulmuşdur. Əsl və həqiqi sahibkarlıq fəaliyyəti xüsusi hüquq olmadan həyata keçirilə bilməz. Buna görə də **xüsusi hüquq sahibkarlıq hüququdur**.

Xüsusi hüquq ayrı-ayrı şəxslər arasında, onların şəxsi-fərdi maraqları ilə bağlı olan əmlak münasibətlərini tənzimləyir[2]. Bu hüquq fərdlərin öz aralarındakı münasibətləri müəyyənləşdirir[3]. Xüsusi hüquq ayrı-ayrı şəxslərin — əmtəə istehsalçılarının, sahibkarların, mülkiyyətçilərin, biznesmenlərin, kommersantların və s. fəaliyyət sferasına aid olan hüquqdur. Bu elə bir sahədir ki, dövlətin tənzimləyici fəaliyyətinin həmin sahəyə bilavasitə müdaxiləsi məhdudlaşır. Xüsusi hüquq ayrı-ayrı şəxslərə öz istək və mülahizələrinə uyğun istənilən istiqamətdə hərəkət etmək ixtiyarı verir. Bu hüquq azadlıq və xüsusi təşəbbüskarlıq hüququdur[4]. Onun əsas məqsədini, qayəsini və leytmotivini ayrı-ayrı şəxslərin maraq və mənafeyini təmin etmək təşkil edir. Buna görə də **xüsusi hüquq şəxsi-azadlıq və fərdi-müstəqillik hüququdur**.

Xüsusi hüquq, bir qayda olaraq, əsasən üç xüsusiyyətlə xarakterizə olunur. Həmin bu üç xüsusiyyət onu hüququn digər sferasından — ümumi hüquqdan fərqləndirməyə imkan verir. Qeyd etdik ki, xüsusi hüquq ayrı-ayrı şəxslər (fərdlər) arasında yaranan əmlak münasibətlərini tənzimləyir. Bu münasibətlərdə iştirak edən subyektlərin hüquqi statusu (vəziyyəti) xüsusi hüququn üç

[1] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyevin, Ə.P.Babayevin, M.X.Məybullayevin* ümumi red. altında. Bakı. 1999, s. 268.

[2] bax: *H.Burkhardt.* Methode und System des Rechts. Zurich. 1936, s. 196.

[3] bax: *P.Voirin.* Manuee de droit civil. Paris. 1958, p. 1.

[4] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1914 г.), с. 40.

cür xüsusiyyətə malik olmasına dəlalət edir.

Xüsusi hüququn **birinci xüsusiyyəti** ondan ibarətdir ki, bu hüquqla tənzimlənən əmlak münasibətlərində iştirak edən **subyektlər hüquq bərabərliyinə malikdirlər**. Ümumi hüquq subordinasiya (tabeçilik) sistemidir, hakimiyyət və tabeçilik sahəsidir[1]. Xüsusi hüquqla tənzimlənən münasibətlərdə çıxış edən tərəflər isə hüquqi cəhətdən bərabərdirlər. Onlar arasında hakimiyyət və tabeçilik əlaqələri yoxdur. Bu cür əlaqələr ümumi hüquq üçün xarakterikdir. Fransız hüquqşünası Vuaren yazır ki, ümumi hüquq fərdlə dövlət arasında münasibəti tənzim edir[2]. Əgər münasibətə girən tərəflər arasında hakimiyyət və tabeçilik əlaqəsi olarsa, onda həmin münasibətin xüsusi hüquqla tənzimlənməsindən və onun xüsusi hüquq münasibəti olmasından söhbət gedə bilməz.

Xüsusi hüququn **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, bu hüquqla nizama salınan münasibətlərdə çıxış edən **tərəflər iradə müstəqilliyinə və sərbəstliyinə malikdirlər**. Xüsusi hüquq ayrı-ayrı şəxslərin — bazarda öz məhsulunu satan əmtəə istehsalçılarının, mülkiyyətçilərin sərbəstliyi üçün geniş imkanlar verir. Xüsusi hüquq münasibətində iştirak edən tərəflər müqavilə bağlayıb-bağlamamasını, müqavilə bağlanan zaman hansı müqabil tərəfi seçib-seçməməyi, müqaviləni hansı şərtlərlə bağlayıb-bağlamamasını, öz mülkiyyət hüququnu müdafiə edib-etməməsini, məhkəməyə iddia verib-verməməsini, əmlak dövriyyəsində iştirak edib-etməməsini və s. öz arzu, istək və iradələri əsasında müəyyənləşdirir və həll edirlər. Heç kəsin ixtiyarı çatmır ki, əmlak dövriyyəsində çıxış edərkən, müqavilə bağlayarkən, müqavilə üzrə tərəf müqabili (kontragent) seçərkən, öz əmlakı üzrə sərəncam verərkən, vəsiyyətnamə tərtib edərkən və s. xüsusi hüquq subyektinə onun iradəsinin ziddinə olaraq təsir göstərsin.

Xüsusi hüququn **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, bu hüquqla nizama salınan münasibətlərdə iştirak edən **subyektlər əmlak müstəqilliyinə malikdirlər**. Əmlak müstəqilliyi normal sahibkarlıq və ya təsərrüfat fəaliyyəti üçün əsas və vacib şərtdir. Bunsuz xüsusi hüquq münasibəti iştirakçısı əmlak dövriyyəsində çıxış edə bilməz. Belə ki, o, əmlak hesabına mənfəət və gəlir (qazanc) götürür. Bununla belə, bu tərəf özünün tərəf müqabili (kontragenti) qarşısında üzərinə götürdüyü öhdəliyə görə öz əmlakı ilə məsuliyyət daşıyır.

Xüsusi hüququn mahiyyəti onun **prinsiplərində** ifadə olunur. Bu hüququn əsas prinsipləri yeni Mülki Məcəllədə qanunvericilik qaydasında təsbit olunmuşdur. Xüsusi hüququn əsas və başlıca prinsipləri bunlardır:

- xüsusi hüquq subyektlərinin hüquq bərabərliyi prinsipi;
- mülkiyyət toxunulmazlığı prinsipi;
- müqavilə azadlığı prinsipi;
- xüsusi işlərə kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipi və s.

Xüsusi hüququn prinsipləri bütün sivil dünyanın qəbul etdiyi vətəndaş cəmiyyəti ilə sıx surətdə bağlıdır. Bu cəmiyyət ayrılmaz atributlarla xarakterizə olunur: iqtisadi azadlıq; xüsusi mülkiyyət; sahibkarlıq; bazar subyektlərinin hüquq bərabərliyi və müdafiəsi. Xüsusi hüququn prinsipləri bu atributlara əsaslanaraq onlarla vəhdətdə və qarşılıqlı əlaqədədir.

[1] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1914 г.), с. 40.

[2] bax: *P.Voirin.* Manuee de droit civil. Paris. 1958, p. 1.

8. Mülki hüquq xüsusi hüququn əsası kimi

Cəmiyyətin inkişaf tarixinə məlum olan ictimai təsərrüfat formalarından biri bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatı ideologiya olmayıb, zamanın təcrübəsindən çıxmış iqtisadi münasibətlərin məcmusudur. Bu iqtisadiyyata əsaslanan hüquq sisteminin əsasını xüsusi hüquq təşkil edir. Xüsusi hüquq bəşər sivilizasiyasının ən mühüm nailiyyətlərindən biri olan bazarla sıx surətdə bağlıdır.

Almaniya hüquq doktrinasında göstərilir ki, mülki hüquq xüsusi hüququn bir hissəsidir[1]. Professor Karl Larens yazır ki, xüsusi hüququn daxilində biz ümumi xüsusi hüquq kimi mülki hüququ və bir neçə xüsusi sahəni fərqləndiririk[2].

Xüsusi hüququn özünün əsasını və bazasını mülki hüquq təşkil edir. O, xüsusi hüququn aparıcı — baza sahəsidir. Dünyanın bütün milli hüquq sistemlərində mülki hüquq əsasən, bir qayda olaraq, əmlak münasibətlərini tənzimləyir. Bu cür münasibətlər əmlakın subyektə məxsusluğu ilə bağlı və ya əmlakdan istifadə ilə əlaqədar yarana bilər. Həmin münasibətlər iqtisadi (əmlak) dövriyyə subyektləri arasında əmələ gəlir. Mülki (xüsusi) hüquq iqtisadi (əmlak) dövriyyəni tənzimləyərək, ona mülki hüquqi forma verir. Daha doğrusu, o, əmtəə-pul mübadiləsini hüquqi cəhətdən rəsmiləşdirir.

Mülki (xüsusi) hüquq bazarı, bazar əmtəə dövriyyəsini qaydaya salır. Bu dövriyyə əmtəənin bir şəxsdən digər şəxsə keçməsi prosesində əmələ gəlir. İqtisadi dövriyyə mülki hüququn materiyasını təşkil edir[3]. Əmlak münasibətlərindən başqa, mülki (xüsusi) hüququn hüquqi nizamasalma predmetinə bəzi qeyri-əmlak münasibətləri də daxildir. Beləliklə, **mülki hüquq dedikdə, iqtisadi (əmlak) dövriyyə subyektləri — ayrı-ayrı şəxslər (fiziki və ya hüquqi şəxslər) arasında yaranan xüsusi münasibətləri (əmlak münasibətlərini və qeyri-əmlak münasibətlərini) tənzimləyən müstəqil hüquq sahəsi başa düşülür.**

Almaniya hüquq doktrinasında xüsusi hüquq baxımından mülki hüquqa belə anlayış verilir: mülki hüquq xüsusi hüququn bir hissəsi olub bütün vətəndaşların hamısına şamil edilən xüsusi-hüquqi qaydaları əhatə edir[4].

Bir çox dövlətlərin (məsələn, Almaniyanın, Fransanın, İsveçrənin, Avstriyanın və s.), o cümlədən Azərbaycan Respublikasının mülki (xüsusi) hüququnun əsasını, bünövrəsini və təməlini Roma mülki (xüsusi) hüququ təşkil edir. Roma dühası və zəkası dünyada presedenti (oxşarı və tayı-bərabəri) olmayan hüquqi sistem yaratmışdı[5]. Roma mülki (xüsusi) hüququ sözün əsl mənasında hüquqi möcüzə idi[6]. Bu hüquq əmtəə sahibləri, mülkiyyətçilər və mal istehsalçıları arasında (satıcı - alıcı, borc verən - borc alan, saxlanca verən - saxlamaya qəbul edən və s.) yaranan bütün mühüm münasibətləri misilsiz dəqiqliklə

[1] *Köhler H.* Einführung // BGB. München. 1991. s. 7-8; *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München.1999, s. 1.

[2] *Larenz K.* Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989, s. 5.

[3] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1914 г.), с. 40.

[4] *Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München.1999, s. 1.

[5] bax: *Рене Д., Жоффре-Спинози К.* Основные правовые системы современности. М., 1999, с. 31.

[6] bax: *Алексеев С.С.* Право. Опыт комплексного исследования. М., 2000, с. 42.

rəsmiləşdirirdi. Formulların dəqiqliyi, səlisliyi və aydınlığı ilə seçilən Roma hüququ bir çox hüquqi konstruksiyalar və anlayışlar müəyyən etmişdi ki, onlar dünyanın, demək olar, bütün sivil və qabaqcıl mülki (xüsusi) hüquq sistemləri tərəfindən qəbul edilmişdir. F.Engels yazırdı ki, Roma hüququ xüsusi mülkiyyətin hökmran olduğu cəmiyyətin ziddiyyətlərini və həyat şəraitini hüquqi cəhətdən klassik formada ifadə etmişdi və buna görə ondan sonrakı qanunvericiliklər bu hüquqa elə bir mühüm dəyişiklik edə bilmədi[1]. Ona görə də dünyanın, o cümlədən Azərbaycan Respublikasının mülki (xüsusi) hüququ bəşəriyyətdə hüquqi inkişafı əsasən müəyyənləşdirdiyinə görə «hüquqi incəsənətin və mədəniyyətin şah əsəri olan Roma mülki (xüsusi) hüququna»[2], necə deyərlər, minnətdar olmalıdır.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Римское частное право. Учебник / Под ред. И.Б. **Новицкого, И.С. Перетерского.** М., 1999.

Дождев Д.В. Римское частное право. Учебник. М., 1999.

Novitski İ.B. Roma hüququ. Dərslik / Rus dilindən M.P. Əsgərovanın tərcüməsi. Bakı. 1999.

Основные институты гражданского право зарубежных стран / Под ред. **В.В. Залесского.** М., 1999.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А. Суханова.** М., 1999.

Каминка А.И. Очерки торгового права. СПб., 1912.

Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. **Е.А.Васильева.** М., 1993.

Жамен С., Лакур Л. Торговое право. М., 1993.

Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. **К.К. Яичкова**. М., 1966.

Гражданское и торговое право капиталистических стран. Учебник / Под ред. **В.П. Мозолина, М.И. Кулагина.** М., 1980.

С.М.Салимов. Создание гражданского законодательства Азербайджанской ССР (1920-1923). Автореферат диссертации на соискание ученой степени к. ю. н. Баку. 1970.

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

[1] bax: *Маркс К., Энгельс Ф.* Сочинения. 2-е изд. Том 21, с. 412.

[2] bax: *Алексеев С.С.* Право. М., 2000, с. 41.

II FƏSİL
MÜLKİ HÜQUQ MÜSTƏQİL HÜQUQ SAHƏSİ KİMİ

§ 1. Mülki hüququn anlayışı, ümumi xarakteristikası və əsas cəhətləri

1. Mülki hüququn anlayışı. Obyektiv mənada mülki hüquq. Subyektiv mənada mülki hüquq

Mülki hüquq Azərbaycan Respublikasının hüquq sistemində mərkəzi yerlərdən birini tutur. O, hüquq sisteminin vacib, böyük və fundamental sahəsidir. Cəmiyyətdə yaranan münasibətlərin böyük əksəriyyətini bu hüquq sahəsi tənzimləyir və qaydaya salır.

Əvvəlki fəsildə qeyd etdiyimiz kimi, «mülki hüquq» termininin özü çox köhnə əyyamlarda və zamanlarda yaranmışdır. Bu termin qədim Roma hüququna məlum idi. «Mülki hüquq» termini mənşə etibarilə latınca «ius civile» ifadəsindən götürülmüşdür. «Ius civile» dedikdə, Roma vətəndaşlarının hüququ başa düşülürdü. Sonralar bu termin dünyanın bütün hüquq sistemləri tərəfindən qəbul edildi. Xarici ölkələrin hamısının hüquq qaydaları «mülki hüquq» terminini işlədir. Almaniyanın hüquq sistemi «mülki hüquq» terminin qarşılıqlı əvəzi və ekvivalenti kimi «zivilrecht»[1], Fransanın hüquq sistemi «droit civil»[2], İngiltərə və ABŞ hüququ «civil law»[3], Rusiya Federasiyasının hüququ «гражданское право»[4] kimi ifadələrdən istifadə edir.

Azərbaycan Respublikasının müasir hüququnda «mülki hüquq» termini müxtəlif mənalarda işlədilir. Bu, çoxmənalı termindir. **«Mülki hüquq» termini ilə**, bir qayda olaraq, dörd cür məna əhatə və ifadə olunur:

- müstəqil hüquq sahəsi mənası;
- mülki qanunvericilik mənası;
- elm mənası;
- tədris fənni və kursu mənası.

Müstəqil hüquq sahəsi mənasında mülki hüquq dedikdə, hüquq normalarının məcmusu və sistemi başa düşülür. Bu baxımdan o, hüquq sisteminə daxil olan müstəqil hüquq sahələrindən biri kimi çıxış edir. Bu cür müstəqil sahələr isə çoxdur: konstitusiya hüququ; cinayət hüququ; əmək hüququ; maliyyə hüququ; inzibati hüquq və s.

Mülki qanunvericilik mənasında mülki hüquq dedikdə, normativ hüquqi aktların sistemi başa düşülür. O normativ hüquqi aktların ki, həmin aktlar mülki hüququn mənbəyi kimi çıxış edir və özündə mülki hüquq normaları ifadə edir. Söhbət Mülki Məcəllədən, Azərbaycan Respublikasının qanunlarından, qanun qüvvəli aktlardan (prezident fərmanlarından, Nazirlər Kabinetinin qərarlarından) və digər aktlardan gedir.

Elm mənasında mülki hüquq dedikdə, mülki hüquq haqqında müddəalar başa düşülür. Söhbət mülki hüquq elmindən və ya sivilistikadan gedir. Mülki hüquq elmi mülki hüquq hadisələri və halları barədə anlayışların, mühakimələrin, görüşlərin, baxışların, nəticələrin və müddəaların — biliklərin sistemidir. Mülki hüquq sahəsi, bu hüquqla tənzimlənən münasibətlər, mülki qanunvericiliyin tarixi, onun inkişafı perspektivləri və tətbiqi təcrübəsi bu elmin predmetini təşkil edir.

Tədris fənni və kursu mənasında mülki hüquq dedikdə, hüquq sahəsi mənasında, hüquq (sivilistika) elmi mənasında mülki hüquq haqqında, onun postulat və kateqoriyaları haqqında sistemləşdirilmiş informasiya başa düşülür. Tədris fənni və kursu mənasında mülki hüquq «mülki hüquq kursu» anlayışı ilə əhatə olunur. **Mülki hüquq kursu** mülki hüquq hadisələri, anlayışları və kateqoriyaları barədə ümumiləşdirilmiş və sistemləşdirilmiş məlumat verir.

«Mülki hüquq» termininin ifadə etdiyi əsas və başlıca məna ondan ibarətdir ki, bu termin hüquq normalarının sistemi və məcmusundan ibarət olan hüquq sahəsi kimi başa düşülür və işlədilir. Hüquq sahəsi kimi mülki hüquq cəmiyyətdəki ictimai münasibətləri tənzimləyir. Bu münasibətlərin dairəsi olduqca geniş və əhatəlidir. Mülkiyyət, alqı-satqı, icarə, kirayə, vərəsəlik, daşıma, dəyişmə və digər ictimai münasibətlər mülki hüquqla nizama salınır. Bu baxımdan mülki hüquq dövlətin hüquq sisteminin vacib və zəruri tərkib hissəsi kimi çıxış edir.

Mülki hüquqla tənzimlənən ictimai münasibətlər ictimai həyatın əsas həlqəsi və hissəsidir. Bu münasibətlər real həyatda əsas və mühüm yer tutur. Həmin münasibətlər yaşadığımız cəmiyyətin əsasını təşkil edir. Mağazadan özü üçün zəruri olan ərzaq və ya sənaye malları alarkən, vətəndaş ictimai münasibətdə iştirak edir. Bu münasibətə mülki hüquq normaları şamil edilir. Ümumi istifadədə olan nəqliyyat vasitəsilə işə gedən mühəndis nəqliyyat təşkilatı ilə ictimai münasibətə girir. Həmin münasibət də mülki hüquq normaları ilə tənzimlənir. Əqli mülkiyyət obyektlərinin, yəni əsərlərin, ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin və s. istifadəsi ilə bağlı yaranan münasibətlər mülki hüququn nizamasalma predmetinə daxildir. Borc, kredit, sığorta, podrat, bank hesabı, bank əmanəti, turist xidməti haqqında, lizinq, françayzinq və digər müqavilələr bağlayanda əmələ gələn münasibətlərə mülki hüquq normaları tətbiq edilir. Bu müqavilələrin sayı kifayət qədər çoxdur. Onların hüquqi parametrləri Mülki Məcəllədə göstərilmişdir. Vurulmuş əmlak zərərinin və ya mənəvi ziyanın əvəzinin ödənilməsi də mülki hüquq normaları ilə qaydaya salınır. Vətəndaşın şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayıldığı halda o, həmin məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər. Göstərilən vəziyyətdə vətəndaşın şərəfi, ləyaqəti və ya işgüzar nüfuzu mülki hüquqla müdafiə olunur. Belə təsəvvür yaranır ki, mülki hüquq yaşadığımız həyatın ən vacib, özü də çox geniş ictimai münasibətlər sahəsini tənzimləyir. **Mülki hüquq normaları praktiki olaraq ölkənin**

[1] *Эннекцерус Л., Кипп Т., Вольф М.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949; *Dieter Schwab.* Einführung in das Zivilrecht. Heidelberg: C.F. Müller. Verlag. 1997.

[2] bax: *Морандьер де ла Жюллио.* Гражданское право Франции. М., Часть 1, 1958.

[3] *Дженкс Э.* Английское право. М., 1947; *Ласк Г.* Гражданское право США. М., 1961.

[4] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Пластиновой.* М., 1998.

ictimai-iqtisadi və sosial həyatının bütün sferalarına nizamlayıcı təsir göstərir.

İqtisadi münasibətlər olmazsa, onda insanlar, sadəcə olaraq, yaşaya bilməzlər. Bu münasibətlər həyatın vacib və zəruri şərti, onun əsasıdır. Bax, mülki hüquq insanın yaşamasını təmin edən iqtisadi münasibətləri tənzimləyir. Mülki hüququn qaydaya saldığı münasibətlər iqtisadi sferaya aiddir. O, iqtisadi dövriyyə münasibətlərinin ən lazımlı, ən gərəkli və ən vacib, özü də çox geniş sahəsini nizama salır. Mülki hüququn əsas işi istehsal, bölgü, mübadilə və istehlak ilə əlaqədar yaranan münasibətlərdir ki, bu, öz ifadəsini iradəvi əlaqələrdə tapır. Bu, onu göstərir ki, həmin hüquq sahəsi bazis hallarına hüquqi forma verir. Belə təsəvvür yaranır ki, **mülki hüquq iqtisadi münasibətlərin hüquqi formasıdır**. Mülki hüququn vasitəsi ilə əmlak və digər maddi nemətlər istehsal sferasından dövriyyə sferasına, dövriyyədən isə istehsal istehlakına və ya şəxsi istehlaka keçir. Onun qaydaya saldığı iqtisadi dövriyyə münasibətləri həmişə pul, əşya, iş görülməsi, xidmət göstərilməsi və s. şəklində maddi nemətlərin yerdəyişməsi (mübadiləsi) ilə bu və ya digər dərəcədə bağlı olur. Məsələn, alqı-satqı nəticəsində satılmış əşya satıcıdan alıcıya keçir. Podratçı rolunda çıxış edən tikinti təşkilatı gördüyü işin nəticəsini — tikdiyi çoxmərtəbəli yaşayış binasını sifarişçiyə təhvil verir. Daşıyıcı (nəqliyyat təşkilatı) dəmir-beton məmulatı zavodu üçün tikinti materialları (qum, şəben, keramzit, sement, çınqıl və s.) daşıyır və bununla ona xidmət göstərir.

Çox zəngin ictimai-iqtisadi və sosial-siyasi məzmuna malik olan mülkiyyət dövlətin, şəxsin, qrupun, kollektivin və bütünlüklə cəmiyyətin həyat məsələsidir. Mülkiyyət istehsal münasibətlərinin, hətta cəmiyyətin bütün ictimai-iqtisadi münasibətlərinin əsasıdır. Bu iqtisadi kateqoriya cəmiyyətin iqtisadi bazisini xarakterizə edir. O, istehsalın bütün formalarını əlaqələndirir. Mülkiyyət cəmiyyətdə faktiki olaraq mövcud olan mülkiyyət münasibətlərinin təzahürüdür. Mülkiyyət münasibətləri isə maddi, iqtisadi münasibətlərdir. Bu cür münasibətlər mülki hüquqla nizamlanır və qorunur. Mülki hüquq normaları **istehsal vasitələri və məhsulları üzrə mülkiyyət münasibətlərini** təsbit edir, mülkiyyətçinin əmlak üzərində sahiblik, əşyadan istifadə və onun üzərində sərəncam vermək səlahiyyətlərini təmin edir, mülkiyyət hüququnun əmələ gəlmə və həyata keçirilmə qaydalarını müəyyən edir.

Fiziki cəhətdən əbədi və daimi olmayan insan ömrü müəyyən müddətdə sona çatır. Belə halda onun əmlakı vərəsələrə keçir. Əmlakın vərəsələrə keçməsi vərəsəlik adlanır. Mülki hüquq **vərəsəlik münasibətlərini** də tənzimləyir. Ölən vətəndaşın hüquq və vəzifələrinin digər şəxslərə (vərəsələrə) keçmə prosesinin nizama salınması bu hüquq sahəsinin tənzimləmə predmetinə aiddir.

Mülki hüquqla tənzimlənən ictimai münasibətlər mülki (əmlak) dövriyyənin əsas iştirakçıları (subyektləri) arasında yaranır. Söhbət fiziki və hüquqi şəxslərdən gedir. Onlar mülki hüquqla qaydaya salınan münasibətlərin əsas iştirakçılarıdır. Bu münasibətlərdə dövlət və yerli özünüidarə orqanları (bələdiyyələr) da çıxış edə bilər. Məsələn, dövlət və ya bələdiyyələr əmlak üzərində mülkiyyət hüququna malik ola bilərlər. Belə halda onlar mülkiyyət hüquq münasibətinin iştirakçısı kimi çıxış edirlər. Dövlət öz mülkiyyətində olan binanı icarəyə verir. O, icarə münasibətinin iştirakçısına çevrilir və s. Mülki hüququn əsas vəzifələrindən biri mülki (əmlak) dövriyyənin iştirakçılarının — hüquqi şəxslərin, fiziki şəxslərin, bələdiyyələrin və dövlətin hüquqi statusunu (vəziyyətini) müəyyən etməkdən ibarətdir. Özü də həmin iştirakçılar hüquq bərabərliyinə, əmlak müstəqilliyinə, iradə sərbəstliyinə və azadlığına malikdirlər. Onlar arasında subordinasiya (tabeçilik) münasibətləri yoxdur.

Mülki hüquqla tənzimlənən iqtisadi dövriyyə münasibətləri (əşya, pul, iş görülməsi, xidmət göstərilməsi şəklində maddi nemətlərin bir şəxsdən digərinə keçməsi, mülkiyyət münasibətləri, vərəsəlik münasibətləri və s.) öz sosial təbiətinə görə əmlak münasibətləridir. **Əmlak münasibətləri** maddi nemətlərin (əmlakın) mənsubiyyəti və ya onun bir şəxsdən digərinə keçməsi (ondan istifadə olunması) ilə bağlı olaraq yaranır. Məsələn, vətəndaşın minik avtomobilinə, ev avadanlığına, məişət predmetlərinə və s. malik olması əmlakın mənsubiyyəti (yəni avtomobilin, ev avadanlığının və s. vətəndaşa məxsus olması) ilə bağlı əmlak — mülkiyyət münasibəti əmələ gətirir. Başqa bir misalda kəndli (fermer) təsərrüfatı başçısı sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün böyük torpaq sahəsini kənd sakinindən icarəyə götürür. Bu cür halda əmlakdan (torpaq sahəsindən) istifadə etmək üzrə, onun bir şəxsdən (kənd sahibindən) digər şəxsə (fermer təsərrüfatı başçısına) keçməsi ilə bağlı olaraq əmlak münasibəti yaranır.

Bununla belə, mülki hüquq normaları təkcə əmlak münasibətlərini qaydaya salmır və tənzimləmir. Mülki hüququn nizamasalma predmetinə həm də **qeyri-əmlak münasibətləri** daxildir. Bu cür münasibətlərdə iştirak edən subyektlər də hüquq bərabərliyinə, iradə azadlığına malikdirlər. Özü də həmin münasibətlər şəxsi xaraktere malikdir. Qeyri-əmlak münasibətlərinə misal olaraq əqli mülkiyyət obyektlərindən (yaradıcılıq fəaliyyətinin nəticələrindən), yəni elm, ədəbiyyat və incəsənət əsərlərindən, ixtiralardan və s. istifadə üzrə münasibətləri göstərmək olar. Məsələn, yazıçı əsər yazır, mühəndis ixtira edir və s. Bunlar şəxsi qeyri-əmlak münasibətidir.

Beləliklə, **mülki hüquq dedikdə, iradəvi azadlığa, əmlak müstəqilliyinə və hüquq bərabərliyinə malik olan mülki (əmlak) dövriyyə iştirakçıları (subyektləri) arasında yaranan əmlak münasibətlərini və şəxsi qeyri-əmlak münasibətlərini tənzim edən hüquq normalarının məcmusu başa düşülür**[1]. Bu, obyektiv mənada mülki hüquqa verilən anlayış və tərifdir. Obyektiv mənadan savayı, mülki hüquq həm də subyektiv mənada işlədilir.

Bildiyimiz kimi, çoxdan bəridir ki, elmdə obyektiv mənada hüquq və subyektiv mənada hüquq kimi iki anlayış bir-birindən fərqləndirilir. Hələ Roma hüquq elmində bu cür fərqləndirməyə yol verilirdi. Həmin fərqləndirməyə kontinental Avropa hüquq sistemlərində, o cümlədən ABŞ hüquq sistemində də rast gəlmək olur. Bu konsepsiya xüsusən XIX əsrdə Almaniya hüquq elmində əsaslandırılmış və daha da inkişaf etdirilmişdir. Həmin konsepsiya inqilabaqədərki rus hüquqşünaslarının işlərində də öz ifadəsini tapmışdı[2].

Beləliklə, **obyektiv mənada mülki hüquq** dedikdə, hüquq normalarının

[1] Almaniya hüquq doktrinasında mülki hüquq belə xarakterizə olunur: mülki hüquq elə bir gündəlik hüquqdur ki, o, hər bir şəxsin daxil olduğu xüsusi hüquq münasibətinə toxunur (*Medicus D.* Bürgerliches Recht. Berlin. 1999).

[2] bax: *Шершеневич Г.Ф.* Общая теория права. М., 1912, с. 600.

sistemi başa düşülür. Bu normalar müvafiq normativ aktlarda (qanunlarda, məcəllələrdə, prezident fərmanlarında, hökumətin qərarlarında və s.) ifadə olunur. Özü də bu normalar ayrıca hər bir fərddən asılı deyil.

Subyektiv mənada mülki hüquq dedikdə, subyektlərin konkret olaraq malik olduqları səlahiyyətlərin (hüquqi imkanların) sistemi başa düşülür. Onlar müəyyən hədlərdə subyektlərin iradə və şüurundan asılı olur. Məsələn, əşya üzərində şəxsin mülkiyyət hüququ, vəsiyyət etmək hüququ, əşyanı satmaq, bağışlamaq və girov qoymaq hüququ, vərəsənin miras əmlaka vərəsəlik hüququ, müəllifin etdiyi ixtiraya patent hüququ, yazıçının yazdığı dram əsərinə müəlliflik hüququ və s. subyektiv mənada mülki hüquqlardır. Subyektiv mülki hüquq subyektin (şəxsin) qanunla yol verilən mümkün davranış ölçüsüdür.

2. Mülki hüquq müstəqil hüquq sahəsi kimi. Mülki hüququn əsas xüsusiyyətləri

Mülki hüququn **ən başlıca xüsusiyyəti** ondan ibarətdir ki, o, xüsusi-hüquqi tənzimetmənin əsasını təşkil edir. Bu hüquq sahəsi əmlak müstəqilliyinə, iradə azadlığına və hüquq bərabərliyinə malik olan ayrı-ayrı şəxslər arasında yaranan münasibətləri tənzimləyir. Mülki hüququn tənzimlədiyi münasibətlər **xüsusi münasibətlərdir**. Həmin münasibətlər hüquqi cəhətdən bir-birindən asılı olmayan, bərabərhüquqlu subyektlər arasında əmələ gəlir. Onlar azad bazarın müstəqil subyektləridir. Mülki hüquq istehsal və mübadilə prosesində ayrı-ayrı mülkiyyətçilərin, əmtəə sahiblərinin, mal istehsalçılarının daxil olduqları münasibətləri rəsmiləşdirir.

Mülki hüququn **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, o, **ən vacib, ən zəruri və ən mühüm hüquq sahəsidir**. Aydın bir həqiqətdir ki, ictimai münasibətlərə göstərilən təsir prosesindəki roluna, əhəmiyyətə görə bütün hüquq sahələri eyni və bərabər sosial qiymətə malik deyil. Belə hal onunla izah olunur ki, bu münasibətlərin müxtəlif sahələri öz roluna, öz əhəmiyyətinə və öz tərkibinə görə eyni olmaqdan çox uzaqdır.

Mülki hüququn ən vacib hüquq sahəsi olması onunla bağlıdır ki, o, **vətəndaş cəmiyyətinin əsasını təşkil edən ictimai münasibətləri tənzimləyir**. Yaşadığımız ölkədə həyata keçirilən islahatın əsas məqsədlərindən biri vətəndaş cəmiyyəti qurmaqdır. Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq niyyəti Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır. Vətəndaş cəmiyyəti açıq, azad, sivil, demokratik, antitotalitar, öz-özünə inkişaf edən cəmiyyətdir. Vətəndaş cəmiyyəti haqqında Hegel təliminin əsas elementi kimi insan, onun rolu, funksiya və vəziyyəti başa düşülür[1]. Marks belə hesab edirdi ki, vətəndaş cəmiyyəti dövlətin mövcud olmasının ilk şərtidir[2]. K.Marksa görə, insan haqları dedikdə, vətəndaş cəmiyyətinin üzvünün hüquqları başa düşülür. O, bu hüquqlar içərisində şəxsi azadlıq hüququnu xüsusi olaraq ayırırdı. Marksın fikrincə, şəxsi azadlıq hüququ xüsusi mülkiyyət hüququ deməkdir[3].

Xüsusi mülkiyyət vətəndaş cəmiyyətinin əsas fenomenidir. O, vətəndaş cəmiyyətinin məhvərini təşkil edir[1]. Bu cür cəhətə malik olan xüsusi mülkiyyət mülki hüququn əsas anlayışlarından biridir. Belə ki, mülki hüququn nizamasalma predmetinə daxil olan mühüm məsələlərdən biri **xüsusi mülkiyyət** münasibətləridir.

Vətəndaş cəmiyyəti adı altında münasibətlərin xüsusi sferası, başlıca olaraq əmlak, bazar münasibətləri başa düşülməyə başladı. Bu cəmiyyət sivil, xüsusi və qeyri-məcburi cəmiyyət hesab edildi. Çox vaxt vətəndaş cəmiyyəti bazar münasibətlərinin sinonimi kimi dərk olundu.

Marks yazırdı ki, vətəndaş cəmiyyəti fərdlərin bütün maddi əlaqə və vasitələrinin hamısını əhatə edir. «Maddi əlaqə və vasitə» bazar münasibətlərinin bütün spektrini özündə birləşdirir: xüsusi sahibkarlığı, biznesi, kommersiyanı, gəliri, mənfəəti, rəqabəti; istehsalı və bölgünü; kapitalın hərəkətini, iqtisadi stimulu və mənafeləri. Sahibkarlıq vətəndaş cəmiyyətinin əsas atributlarından biridir. Sahibkarlıq fəaliyyəti, bazar dövriyyə münasibətləri mülki hüququn nizamasalma predmetinə daxildir. **Vətəndaş cəmiyyətinə mülki hüquq kimi yaxın olan ikinci bir hüquq sahəsi yoxdur**.

İkinci tərəfdən, mülki hüquq ona görə ən vacib hüquq sahəsidir ki, o, iqtisadi münasibətləri nizama salır. Əvvəldə qeyd etdiyimiz kimi, bu cür münasibətlər olmadan insanların yaşaması, sadəcə olaraq, mümkün deyil. Mülki hüquqla qaydaya salınan və tənzimlənən münasibətlər, bir qayda olaraq, istehsal vasitələri və ya istehsal məhsulları ilə bağlıdır[2]. Bu tənzimləmənin əsas məqsədi cəmiyyətdə normal iqtisadi münasibətləri təşkil etməkdən ibarətdir. **Mülki hüququn toxunduğu sahələr bazis hallarına aiddir**. Belə ki, onun nizama saldığı münasibətlər istehsal, bölgü, mübadilə və istehlakla bağlı olaraq yaranır. Beləliklə, göstərdiyimiz əsas xüsusiyyət və cəhətlər mülki hüquqa ən vacib hüquq sahəsi kimi status verir.

Mülki hüquq müstəqil hüquq sahəsidir. Müstəqil hüquq sahəsi yaratmaq üçün bir neçə şərtin (meyarın) olması zəruridir. Müstəqil hüquq sahəsi kimi mülki hüququn ayrılması və fərqləndirilməsi üçün tələb olunan həmin şərtlər (meyarlar) mövcuddur. Bu şərtləri (meyarları) iki yerə bölmək olar: əsas şərtlər (meyarlar); əlavə şərtlər (meyarlar). **Əsas şərtlər (meyarlar)** həlledici xarakterə malikdir. Həmin şərtlərdən (meyarlardan) biri və başlıcası **hüquqi tənzimetmənin müstəqil predmetinin, yəni ictimai münasibətlərin xüsusi sahəsinin olmasıdır**. Mülki hüququn müstəqil sahə kimi fərqləndirilməsi üçün tələb edilən və zəruri olan bu cür ictimai münasibətlər vardır. Qeyd etdik ki, cəmiyyətdə insanın yaşamasını təmin edən əsas münasibətlər (iqtisadi dövriyyə münasibətləri, mülkiyyət münasibətləri və s.) mülki hüququn nizamasalma predmetinə daxildir.

Əsas şərtlərin (meyarların) ikincisi **hüquqi tənzimetmə metodunun, yəni həmin qrup ictimai münasibətlərə göstərilən təsir vasitələri və üsullarının olmasıdır**. Xüsusi tənzimetmə metodunun tətbiq edilməsi zərurəti müstəqil hüquq sahəsinin ayrılmasında böyük rola və əhəmiyyətə malikdir. Mülki hüququn müstəqil sahə kimi fərqləndirilməsinə dəlalət edən bu cür tənzimetmə

[1] *Гегель.* Философия права. М., 1990, с. 228.
[2] *Маркс К., Энгельс Ф.* Соч. Том 1, с. 224.
[3] *Маркс К., Энгельс Ф.* Соч. Том 1, с. 400-401.

[1] *Кара-Мурза.* Интеллигенция на пепелище России. М., 1997, с. 244-245.
[2] бах: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В кн: Гражданское право. Избранные труды. М., 2000, с. 259.

metodu vardır. Bu sahə üçün onun nizamasalma predmetinə uyğun gələn hüquqi tənzimetmə (nizamasalma) metodu xarakterikdir.

Əsas şərtlərə (meyarlara) nisbətən **əlavə şərtlər (meyarlar)** yardımçı və köməkçi xarakterə malikdir. Ona görə də bu şərtlərə (meyarlara) **yardımçı şərtlər (meyarlar)** deyilir. Əlavə şərtlərdən (meyarlardan) biri **müvafiq hüquq sahəsinin özünün xüsusi prinsiplərə malik olmasıdır**. Söhbət hüququn bütün sahələrinə şamil olunan ümumi prinsiplərdən yox, yalnız ayrıca müəyyən hüquq sahəsi üçün əhəmiyyət kəsb edən xüsusi xarakterli prinsiplərdən gedir. Xüsusi prinsiplərə sahəvi prinsiplər də deyilir. Mülki hüquq onun müstəqil hüquq sahəsi kimi ayrılmasına dəlalət edən xüsusi prinsiplərə malikdir.

Əlavə şərtlərdən (meyarlardan) biri hüquq sahəsinin **xüsusi, müstəqil funksiya daşımasından ibarətdir**. Mülki hüquq onun özünə xas olan xüsusi funksiyalar yerinə yetirir. Bu funksiyaların olması onun müstəqil hüquq sahəsi kimi ayrılmasına təsir göstərir. Xüsusi və ayrıca funksiya yerinə yetirməyən müstəqil hüquq sahəsindən danışmaq olmaz.

Mülki hüququn müstəqil hüquq sahəsi kimi ayrılmasına əsas verən əlavə şərtlərdən (meyarlardan) biri müvafiq **hüquq sahəsinin ümumi müddəalara malik olmasından** ibarətdir. Söhbət hüquq sahəsinin quruluş (struktur) etibarı ilə özündə ümumi hissə adlı bölməni birləşdirməsindən gedir. Ümumi hissənin müəyyən etdiyi müddəalar və qaydalar xüsusi hissənin bütün və ya demək olar ki, əksəriyyət institutlarına şamil edilir. Mülki hüquqda bu cür ümumi müddəalar (ümumi hissə) vardır.

Əlavə şərtlərdən biri **yaranan ictimai münasibətləri başqa hüquq sahələrinin normalarının vasitəsi və köməyi ilə tənzim etməyin qeyri-mümkünlüyündən** ibarətdir. Cəmiyyət·ləki əmlak münasibətlərinin hüququn müxtəlif hüquq sahələri (məsələn, inzibati, maliyyə və digər hüquq sahələri) tərəfindən də tənzimlənməsi mümkündür. Lakin dəyər xarakterli, tərəfləri hüquq bərabərliyinə malik olan əmlak münasibətlərini yalnız mülki hüquq tənzimləyə bilər. Hüququn digər sahələrinin (maliyyə hüququnun, inzibati hüququn və s.) nizama saldığı əmlak münasibətləri dəyər xarakterinə malik deyil. Həmin münasibətlərin iştirakçıları hüquqca qeyri-bərabər tərəflərdir.

Hüququn müstəqil sahəsi kimi mülki hüquq sadalanan həm əsas, həm də əlavə şərtlərə (meyarlara) uyğun gəlir. Özü də mülki hüququn müstəqil sahə kimi ayrılması obyektiv zərurətdən irəli gəlmişdir. Qanunverici yalnız bu zərurəti dərk etmiş və onu rəsmiləşdirmişdir. Deməli, mülki hüququn müstəqil sahə kimi fərqləndirilməsi subyektiv xarakter daşımır, yəni bu, mülahizələrlə, konsepsiyalarla, nəzəriyyələrlə, ideyalarla bağlı deyil.

§ 2. Mülki hüququn predmeti

1. Mülki hüququn predmetinin anlayışı

Qeyd etdik ki, mülki hüququn müstəqil sahə kimi ayrılmasını və fərqləndirilməsini şərtləndirən əsas, başlıca və mühüm meyar onun hüquqi nizamasalma predmetidir. Bu, hamılıqla qəbul edilmiş və ümumtanınmış meyardır. Hüquqi nizamasalma predmeti mülki hüququn ayrılmasına əsas verən ən vacib, ən zəruri meyardır. Bu, digər meyarlardan fərqli olaraq maddi meyardır. Mülki hüququn predmeti obyektiv məzmuna malik olub, ictimai münasibətlərin özünün xarakteri ilə müəyyən edilir. O, qanunvericinin iradəsindən prinsip etibarilə asılı deyildir.

Mülki hüququn predmeti dedikdə, onun nizama saldığı ictimai münasibətlər başa düşülür. Predmet mülki hüququn mahiyyətini və mənasını açmağa imkan verən əsas anlayışdır. Bu anlayış belə bir suala cavab verir: **«mülki hüquq nəyi tənzim edir və nizama salır?»** Bax, bu suala cavab verərək mülki hüquqla tənzimlənən ictimai münasibətlərin dairəsini müəyyənləşdirsək, onda onun predmet tərkibini açıqlaya bilərik. Axı, mülki hüququn predmet tərkibi (predmeti) onunla tənzimlənən ictimai münasibətlərdən ibarətdir. O, iki tərkib hissəsindən ibarətdir:

- əmlak münasibətlərindən;
- şəxsi qeyri-əmlak münasibətlərindən.

Mülki hüququn predmetinə daxil olan əmlak münasibətlərinin dairəsi kifayət qədər genişdir. Bu cür münasibətlərə çoxlu misallar çəkə bilərik. Məsələn, vətəndaşla yaşayış evi (əmlak) barəsində əhatə dairəsi bilinməyən şəxslər arasında münasibət əmələ gəlir. Bu, mülkiyyət münasibətidir. O, əmlak münasibətinin bir növü hesab edilir. Başqa bir misalda mülkiyyətçi musiqi alətini (əmlakı) istifadə məqsədilə öz qonşusuna kirayəyə verir. Bu isə qeyri-mülkiyyət, yəni öhdəlik münasibətidir. Həmin münasibət də əmlak münasibətinin bir növü sayılır. Digər bir misalda ölmüş vətəndaşın bankdakı əmanəti, yəni pul vəsaiti (əmlakı) vərəsəlik qaydasında onun vəsiyyət üzrə vərəsəsinə keçir. Bu, vərəsəlik münasibətidir. Bu münasibət də əmlak münasibətlərinin dairəsinə şamil edilir. Söylədiklərimizdən belə təsəvvür yaranır ki, əmlak münasibətləri **konkret subyektlər arasında konkret əmlak barəsində** əmələ gəlir. Bu isə onu göstərir ki, əmlak münasibətləri anlayışı əmlak anlayışı ilə sıx surətdə bağlıdır. Mülki hüquqda əmlak anlayışı isə çoxcəhətli və çoxmənalı anlayışdır[1]. Əmlak dedikdə başa düşülür:

- **ayrı-ayrı əşya və yaxud əşyaların və maddi sərvətlərin məcmusu mənasında** (məsələn, vətəndaşın mülkiyyətində olan yaşayış evinin, qarajın, minik avtomobilinin, ev avadanlıqlarının, məişət predmetlərinin, geyim şeylərinin, torpaq sahəsinin və digər nemətlərin məcmusu);
- **əşyaların, pulların, qiymətli kağızların məcmusu mənasında** (məsələn, vətəndaşın yaşayış evinə, minik avtomobilinə, torpaq sahəsinə, beş min manat məbləğində pula, qiymətli kağıza — sertifikata, səhmə, istiqraz vərəqəsinə və s. malik olması);
- **əşyaların, pulların, qiymətli kağızların, əmlak hüquqlarının məcmusu mənasında** (məsələn, vətəndaşın yaşayış evinə, iki min manat məbləğində əmanətin verilməsini tələb etmək hüququna, yəni əmlak hüququna malik olması): buna **aktiv** deyilir.
- **əşyaların, pulların, qiymətli kağızların, əmlak hüquqlarının və vəzifələrinin məcmusu mənasında** (məsələn, ölən vətəndaşın yaşayış evi, dörd min manat nağd pulu, üç min manat məbləğində istiqraz vərəqəsi, qonşusuna

[1] Əmlak anlayışı dərsliyin «Mülki hüquq münasibətlərinin obyektləri» adlı fəslində nəzərdən keçirilir. Ona görə də burada bu anlayışı ətraflı və geniş surətdə işıqlandırmağı lazım bilmirik.

verdiyi iyirmi min manat məbləğində borcun qaytarılmasını tələb etmək hüququ, yəni əmlak hüququ, habelə aldığı əlli min manat məbləğində krediti banka qaytarmaq vəzifəsi, yəni əmlak vəzifəsi onun vərəsələrinə keçir): buna **aktiv və passiv** deyilir.

Mülki hüququn predmetini təşkil edən **əmlak münasibətləri** əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam verməklə bağlı olaraq yaranan (məsələn, mülkiyyət münasibətləri), habelə əmlakın bir şəxsdən digərinə keçməsi və verilməsi ilə əlaqədar olaraq əmələ gələn münasibətlərdir (məsələn, alqı-satqı, icarə, kredit və s. münasibətlər).

Əmlak münasibətləri ilə bərabər, **şəxsi qeyri-əmlak münasibətləri** də mülki hüququn predmeti kimi çıxış edə bilər. Özü də qeyd etmək lazımdır ki, bu cür münasibətlərin dairəsi əmlak münasibətlərinə nisbətən xeyli dərəcədə məhduddur. Həmin münasibətlərin özünü iki yerə bölmək olar:

- əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri;
- əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri.

Əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri qeyri-maddi nemətlərlə bağlı olaraq əmələ gəlir. Bu münasibətlər, baxmayaraq ki, əmlak münasibətləri ilə bağlıdır, iqtisadi məzmuna malik deyil. Həmin münasibətlər əqli mülkiyyət obyektlərinin (yəni əqli fəaliyyət nəticələrinin, yaradıcı fəaliyyət obyektlərinin, intellektual yaradıcılıq məhsullarının, mənəvi yaradıcılıq məhsullarının)[1] yaradılması ilə əlaqədar olaraq əmələ gəlir. Söhbət elm, ədəbiyyat və incəsənət əsərlərindən, ixtiralardan və digər əqli mülkiyyət obyektlərindən istifadə edilməsi ilə bağlı olan münasibətlərdən gedir. Məsələn, mühəndis (ixtiraçı müəllif) ixtira (məsələn, yeni təyinatlı soyuducu) edir. Bununla şəxsi qeyri-əmlak münasibəti əmələ gəlir. Bu münasibət iqtisadi məzmuna malik deyil. Özü də o, qeyri-maddi nemət — ixtira ilə bağlı olaraq yaranır. İxtiradan istifadə edilməsi zərurəti yaranır. Müəllifin (ixtiraçının) icazəsi ilə ixtira sənaye müəssisəsində tətbiq olunur. Buna görə, yəni yaradıcılıq fəaliyyətinin obyekti olan ixtiradan istifadəyə görə müəllif haqq almaq kimi əmlak hüququ əldə edir. Deməli, bu cür əlaqə əmlak münasibəti ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətidir.

Əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri də iqtisadi məzmuna malik deyil. Bu münasibətlər qeyri-maddi nemətlər ilə bağlı olaraq yaranır ki, həmin nemətləri insanın özündən ayırmaq olmaz. Buna görə də mülki qanunvericilik onları insanın özgəninkiləşdirilməyən hüquq və azadlıqları adlandırır (MM-in 2-ci maddəsinin 4-cü bəndi). Bu cür qeyri-maddi nemətlərə fiziki şəxsin həyat və sağlamlığını, şərəf və ləyaqətini, işgüzar nüfuzunu və s. misal göstərmək olar. Qeyri-maddi nemətlər müəyyən hallarda mülki hüquqla müdafiə olunur.

Beləliklə, yeni mülki qanunvericilik mülki hüququn predmetinin strukturuna (tərkib hissəsinə) üç növ münasibətin şamil olunmasını nəzərdə tutur (MM-in 2-ci maddəsinin 2-ci və 4-cü bəndləri). Həmin münasibətlərə aiddir: əmlak münasibətləri; əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri; əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərin özgəninkiləşdirilməyən hüquq və azadlıqlarının, digər qeyri-maddi nemətlərin gerçəkləşdirilməsi və müdafiəsi ilə bağlı münasibətlər)[1].

Mülki hüququn predmet komponentlərindən biri **sahibkarlıq fəaliyyəti üzrə münasibətlərdir (sahibkarlıq münasibətləridir).** Yeni Mülki Məcəllə sahibkarlıq münasibətlərini mülki hüququn predmet tərkibinə aid edir (MM-in 13-cü maddəsi). Bu hal MM-in böyük nailiyyətidir. Bununla mülki qanunvericilik hüquqların dualizmi barədə çoxdankı mübahisəni həll etmişdir[2]. **Hüquqların dualizmi** dedikdə, mülki hüquqla bərabər, onunla paralel olaraq təsərrüfat (sahibkarlıq) hüququnun mövcud olması başa düşülür. Belə ki, dualizm təsərrüfat (sahibkarlıq) dövriyyəsini tənzimləyən normaların ayrılaraq təsərrüfat (sahibkarlıq) hüququ adlı müstəqil hüquq sahəsinə daxil edilməsini ifadə edir. Sahibkarlıq münasibətlərinin mülki hüququn predmetinə daxil edilməsi onu göstərir ki, mülki hüquqla qaydaya salınan və rəsmiləşdirilən ictimai münasibətlərin massivi (sahəsi) genişlənir.

Sovet hüquq ədəbiyyatında təşkilati münasibətlərin mülki hüququn predmet tərkibinə daxil edilməsinə təşəbbüs göstərilmişdir. Bu konsepsiyanı XX əsrin 60-cı illərində professor O.A.Krasavçikov əsaslandırmışdır[3]. O, mülki xarakterli təşkilati münasibətləri dörd qrupa bölürdü: əmlak münasibətlərinin başlanğıcı və ya inkişafı üçün zəmin yaradan təşkilati münasibətlər (məsələn, naviqasiya müqaviləsi); müəyyən hərəkət etmək üçün bir şəxsin digər şəxsə səlahiyyət verməsi üzrə təşkilati münasibətlər (məsələn, etibarnamə verilməsi və s.); nəzarət-yoxlama üzrə təşkilati münasibətlər (məsələn, podrat müqaviləsi üzrə sifarişçinin podratçının gördüyü işi yoxlaması və s.); informasiya üzrə təşkilati münasibətlər (məsələn, görülən işin yararlı olub-olmaması barədə

[1] Bu ifadələrin hamısı mənaca bir-birinə yaxın olan sözlərdir. Onlar arasında elə də prinsipial fərq yoxdur. Həmin ifadələr mənaca üst-üstə düşür.

[1] Azərbaycan Respublikasının mülki hüququ ilə tənzimlənən ictimai münasibətlərin dairəsini sovet sivilist alimləri müəyyən etmişlər (bax: Гражданское право. Учебник для юридических ВУЗов / Под ред. *М.Агаркова и Д.Генкина*. Том 1. М., 1944, с. 10-11; *Генкин Д.* Предмет советского гражданского права // Советское государство и право. 1939. № 4, с. 28-40; *Венедиктов А.В.* О системе гражданского кодекса СССР // Советское государство и право. 1954. № 2, с. 25-33; *Алексеев С.С.* О предмете советского гражданского права и методе гражданско-правового регулирования // Советское государство и право. 1955. № 2, с. 114-118; *Генкин Д.М.* О предмете советского гражданского права // Советское государство и право. 1955. № 1, с. 106; *Дозорцев А.В.* О предмете советского гражданского права и системе гражданского кодекса СССР // Советское государство и право. 1954. № 8, с. 86; О предмете советского гражданского права (к итогам дискуссии) // Советское государство и право. 1955. № 5, с. 72; *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Том 1. Л., 1958, с. 6-7 və s.

[2] Mülki hüququn predmeti barədə iki nəzəri konsepsiya yaranmışdı: vahid hüquq nəzəriyyəsi; mülki hüquqdan ayrılmış hüquq sahəsi kimi təsərrüfat hüququ nəzəriyyəsi. Sovet hüquq elmində bu iki konsepsiya ətrafında uzun müddət diskussiya getmişdir (bax: *Иоффе О.С.* Развитие цивилистической мысли. Часть 1 // Гражданское право. Избранные труды. М., 2000, с. 211-217).

[3] bax: *Красавчиков О.А.* Гражданские организационно-правовые отношения // Советское государство и право. 1966. № 10, с. 50-57; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1968, с. 13. RSFSR-in əməkdar elm xadimi, hüquq elmləri doktoru Oktyabr Alekseyeviç Krasavçikov (1923-1984) — Ural sivilist məktəbinin yetişdirməsi və tanınmış sovet sivilist alimlərindən biri idi. 1954-cü ildən Sverdlovsk Hüquq İnstitutunun mülki hüquq kafedrasına rəhbərlik etmişdir.

podratçının sifarişçiyə məlumat vermək vəzifəsi). **Təşkilati münasibətlər** dedikdə, subyektlərin öz əsas əmlak münasibətlərini qaydaya salmaq üçün daxil olduğu əlaqələr başa düşülür. Bu cür münasibətlər real həyatda mövcuddur. Lakin buna baxmayaraq, O.A.Krasavçikovun irəli sürdüyü konsepsiya qanunvericilik səviyyəsində dəstək almadı. Bu konsepsiya ədəbiyyatda tənqidə məruz qaldı[1].

2. Əmlak münasibətləri mülki hüququn predmetinin əsas tərkib hissəsi kimi

Mülki hüququn predmetini təşkil edən ictimai münasibətlərin əsas və çox böyük hissəsini əmlak münasibətləri təşkil edir. Bu münasibətlərin xüsusi çəkisi mülki hüququn digər tərkib hissəsindən, yəni şəxsi qeyri-əmlak münasibətlərindən çoxdur. Bu, kompleks münasibətlərdir. Özü də həmin münasibətlər obyekt (predmet) tərkibinə görə mülki hüquqla tənzimlənən digər münasibətlərdən ayrılır və fərqləndirilir. Belə ki, əmlak münasibətləri mülki (əmlak) dövriyyənin iştirakçıları arasında maddi nemətlər barəsində və bu nemətlərlə bağlı olaraq əmələ gəlir. Bu cür münasibətlərin obyekti (predmeti) qismində əşyalar və əşyaların kompleksi, pul, qiymətli kağızlar, digər əmlak növləri, xidmət, iş və onun nəticəsi çıxış edə bilər. Həmin münasibətlər istehsal vasitələri, istehsal məhsulları və istehlak predmetləri ilə bağlı olaraq yarana bilər. Əmlak hüquqlarının əmlak münasibətlərinin obyekti (predmeti) rolunda iştirak etməsi istisna olunmur, bu mümkündür. Qədim Roma hüququ bu cür hüquqları (yəni əmlak hüquqlarını) «res incorporales» anlayışı ilə əhatə etmişdi[2]. Roma hüququna görə, res incorporales qeyri-maddi xarakterli əşya sayılırdı. Xüsusən tələb hüquqları («res incorporales»in bir növü), yəni nəyinsə verilməsini başqa şəxsdən tələb etmək hüquqları alqı-satqı müqaviləsinin predmeti (obyekti) ola bilərdi[3].

Müasir cəmiyyətdə predmeti (obyekti) maddi nemətlərdən ibarət olan əmlak münasibətləri çox və müxtəlifdir. Vətəndaş öz mülkiyyətində olan minik avtomobilini qonşusuna satır. Bu, alqı-satqıdan əmələ gələn əmlak münasibətidir. Həmin münasibətin obyekti (predmeti) əşyadır, yəni minik avtomobilidir. Kənd sakini öz tanışlarından birinə borc pul verir. Bu da əmlak münasibətidir. Onun predmetini (obyektini) pul təşkil edir. Səhmdar cəmiyyətinin səhmdarı öz səhmini (səhmlərini) digər səhmdara satır. Başqa bir misalda vətəndaş ona məxsus olan dövlət özəlləşdirmə payını satır. Səhm və dövlət özəlləşdirmə payı qiymətli kağızların ayrı-ayrı növləridir. Buna görə də onların satılmasından əmələ gələn əmlak münasibətlərinin obyekti (predmeti) qismində qiymətli kağızlar çıxış edir. Tikinti təşkilatı (podratçı) vətəndaşa (sifarişçiyə) qaraj

[1] O.A.Krasavçikov tərəfindən irəli sürülən bu ideya O.S.İoffe tərəfindən tənqid olunmuşdur (bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // Гражданское право. Избранные труды. М., 2000, с. 258-260).

[2] Məşhur və tanınmış Roma hüquqşünası Qay əşyaları iki yerə bölürdü: maddi əşyalara (corporales); qeyri-maddi əşyalara (incorporales). Maddi əşyalar gözə çarpan, toxunmaqla hiss edilən, qeyri-maddi əşyalar isə gözə görünməyən, toxunmaqla hiss olunmayan əşyalar sayılırdı. Qay vərəsəliyi, öhdəliyi və uzufruktu «res incorporales»ə misal kimi çəkirdi (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 147).

Novitski I.B. Roma hüququ. Dərslik / M.P. Əsgərovanın rus dilindən tərcüməsi. Bakı. 1999, s. 158.

tikir. Bununla əmlak münasibəti yaranır. Onun predmeti (obyekti) isə görülən işdən (işin nəticəsindən) ibarətdir. Daşıyıcı yükü (məsələn, ərzaq məhsullarını) təyinat yerinə çatdırır. Belə halda da əmlak münasibəti əmələ gəlir. Həmin münasibətin obyektini (predmetini) yük göndərənə daşıyıcının göstərdiyi xidmət təşkil edir. Vətəndaş podrat haqqını qabaqcadan ödəməklə yaşayış evi tikilməsi barədə tikinti təşkilatına (podratçıya) sifariş verir. Yaşayış evini qəbul etməmiş vətəndaş (sifarişçi) onun verilməsini tələb etmək hüququnu öz dostuna satır. Bu cür əlaqə də əmlak münasibəti hesab edilir. Həmin münasibətin predmeti (obyekti) kimi əmlak hüququ (tələb etmək hüququ) çıxış edir. Söylədiklərimizdən belə nəticəyə gəlmək mümkündür ki, **əmlak münasibətləri əmlakla (əşya, pul, qiymətli kağızlar, əmlak hüquqları və s.) bağlı olaraq əmələ gəlir**. Bundan əvvəlki yanmbaşlıqda toxunduğumuza görə əmlak anlayışını yenidən nəzərdən keçirməyə ehtiyac duymuruq. Amma əmlak münasibətləri insanın (subyektin) əşyaya, əmlaka olan münasibətlərini ifadə etmir. Bununla belə, bu münasibətlər əşyalar arasındakı münasibətlər də demək deyildir.

Əmlak münasibətləri **hüquqi kateqoriya hesab edilmir**. O, **iqtisadi anlayışdır.** Mülki qanunvericilikdə həmin münasibətlərə leqal anlayış verilmir. Bu, qanunun yox, mülki hüquq elminin vəzifəsidir. Buna uyğun olaraq mülki hüquq elmində (sivilistika doktrinasında) əmlak münasibətləri barədə nəzəriyyə işlənib hazırlanmışdır. Müəlliflərdən V.Q.Verdnikov əmlak münasibətlərini ictimai istehsal münasibətlərinin iradəvi ifadəsi hesab edir. O, əmlak münasibətlərini istehsal münasibətləri ilə eyniləşdirmir, bu anlayışları fərqləndirir. Müəllif yazır ki, əmlak münasibətləri konkret iradəvi iqtisadi münasibətlərdir[1]. Bununla V.Q.Verdnikov istehsal münasibətləri ilə konkret iqtisadi münasibətləri bir-birindən ayırır və əmlak münasibətlərinin iradə nəzəriyyəsinə tərəfdar çıxmış olur.

Professor O.A. Krasavçikov əmlak münasibətlərini və istehsal münasibətlərini bir-birinin eyni olan anlayışlar kimi işlədir. Onun fikrincə, əmlak münasibətləri dedikdə, istehsal vasitələri və istehsal predmetləri barəsində sahiblik, istifadə etmək və sərəncam vermək üzrə elə ictimai-iqtisadi münasibətlər başa düşülür ki, bu münasibətlər konkret olaraq ayrı-ayrı şəxslər arasında əmələ gəlir. Bu anlayışda iradə məsələsinə toxunulmur. Bundan sonra müəllif əmlak münasibətlərinin iradə nəzəriyyəsini tənqid edir. O göstərir ki, bütün ictimai münasibətlər iradəvidir və buna görə də bunu əmlak münasibətləri üçün spesifik əlamət hesab etmək olmaz[2]. Əmlak və istehsal münasibətlərinin eyniməna lı anlayışlar olması konsepsiyası Y.K.Tolstoy tərəfindən inkişaf etdirilmişdir[3].

Müəlliflərdən O.S.İoffe göstərir ki, iqtisadi qiymətə malik olmaq kimi əlamət, əmlak münasibətlərinin spesifikasını təşkil edir. Sivilist alim göstərir ki,

[1] bax: Советское гражданское право. Учебник для юридических вузов. Том 1 / Под ред. *В.А.Рясенцева*. М., 1965, с. 3-4 (fəslin müəllifi - *V.Q.Verdnikov*).

[2] bax: Советское гражданское право. Учебник. Том 1/ Под ред. *О.А.Красавчикова*. М., 1968, с. 8-11 (fəslin müəllifi - *O.A.Krasavçikov*). Dərsliyin ikinci nəşrində (M., 1972, s. 6-10) O.A.Krasavçikov öz səhvini düzəltmişdir. O belə hesab etmişdir ki, əmlak münasibətləri bütün istehsal münasibətlərinin hamısı ilə yox, yalnız konkret iqtisadi münasibətlərlə eyniməna lıdır.

[3] bax: *Толстой Ю.К.* Кодификация гражданского законодательства в СССР (1961-1965). Автореф. докт. дис. Л., 1970; *Толстой Ю.К.* Понятие права собственности // В кн: Проблемы гражданского и административного права. Л., 1962, с. 143.

nəinki əşyalar, hətta belə ictimai münasibətlər də qiymətə malikdir. Əmtəə ona görə iqtisadi qiymətə malikdir ki, o, müəyyən ictimai münasibətlərin əşya daşıyıcısı kimi çıxış edir. Əşyanın əmtəə olması, əşya barəsində ictimai münasibətlər yarandığı halda, müəyyən edilir. İctimai münasibət əmələ gəlməsə, onda əşyanın əmtəə olmasını necə müəyyən etmək olar? Əgər əmlak münasibətləri əvəzli, ekvivalentli və dəyər formasındadırsa, onda bu, o deməkdir ki, həmin münasibətlər iqtisadi qiymətə malikdir[1]. O.S.İoffenin fikrincə, əmlak münasibətləri dedikdə, istehsal münasibətlərinin iradəvi ifadəsi olan elə ictimai münasibətlər başa düşülür ki, bu münasibətlər istehsal vasitələri, istehsal predmetləri və ya insan əməyinin digər məhsulları ilə bağlı olduğuna görə iqtisadi qiymətə malikdir[2]. Bu anlayış tənqid olundu. İqtisadi qiymət konsepsiyasını tənqid edənlər göstərirdilər ki, yalnız əmək məhsullan, əmək məhsulları barəsində əmələ gələn ictimai münasibətlər yox, iqtisadi məzmuna malik ola bilər.

Tanınmış alimlərdən S.N.Bratus əmlak münasibətlərini istehsal münasibətlərindən fərqləndirir. O göstərir ki, istehsal münasibətləri obyektiv maddi münasibətlər olub, insanın şüur və iradəsindən asılı deyildir. Lakin həmin münasibətlər insan fəaliyyəti nəticəsində yaranır ki, bu, iradəvi xarakter daşıyır. İnsanın istehsal münasibətləri yaradan fəaliyyəti konkret iradəvi münasibətlərdə ifadə olunur. Bu cür konkret iradəvi münasibətlər istehsal (maddi) münasibətləri ilə üst-üstə düşmür. Həmin münasibətlər maddi (istehsal) münasibətlərin təzahür forması kimi çıxış edir. Onlar konkret-iqtisadi aktlar olub, iradəvi məzmuna malikdir. Müəllifin fikrincə, əmlak münasibətləri dedikdə, ictimai istehsal münasibətlərinin forması kimi çıxış edən elə münasibətlər başa düşülür ki, onlar konkret iradəvi iqtisadi münasibətlərdir[3].

Müasir müəlliflərdən Y.A.Suxanov göstərir ki, əmlak münasibətləri əmtəə xarakterli konkret maddi nemətlər — konkret əmlak barəsində yaranır[4]. Peterburq alimlərindən N.D.Yeqorovun fikrincə, əmlak münasibətləri dəyər xarakterli münasibətlərdir[5].

Beləliklə, qeyd etmək lazımdır ki, müasir sivilistika doktrinasında əmlak münasibətləri barədə bir neçə nəzəri konsepsiya yaranmışdır. Bu konsepsiyalardan hansının üstün mövqeyə malik olması və ön planda çıxış etməsi haqqında fikir irəli sürmək olmaz. Həmin nəzəri konsepsiyalardan hər birinin özünün güclü, üstün və zəif cəhətləri var. Əsas və vacib məsələ odur ki, göstərilən nəzəri konsepsiyalar əsasında əmlak münasibətlərinə əhatəli anlayış verilsin və onların əsas xüsusiyyətləri müəyyənləşdirilsin.

Əmlak münasibətlərinin birinci xüsusiyyəti ondan ibarətdir ki, onlar istehsal (maddi) münasibətləri yox, **konkret iqtisadi münasibətlərdir**. İstehsal

[1] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В кн: Гражданское право. Избранные труды. М., 2000, с. 255-256.

[2] *Иоффе О.С.* Советское гражданское право и социалистическая экономика // В кн: Актуальные проблемы советского государства и права в период строительства коммунизма. Л., 1967, с. 233; *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 7-10.

[3] *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963, с. 12-13.

[4] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 26 (fəslin müəllifi - *E.A.Suxanov*).

[5] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998. с.9; с. 11.

münasibətləri dedikdə, maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində insanlar arasındakı münasibətlər başa düşülür[1]. Bu münasibətlər cəmiyyətin iqtisadi bazisidir. İstehsal münasibətləri obyektiv xarakterə malik olub, obyektiv qanunlar əsasında inkişaf edir. İnsanlar artıq yaranmış və əmələ gəlmiş istehsal münasibətlərinə daxil olurlar. Bu münasibətlər insanın şüur və iradəsindən asılı deyil. Bununla belə, istehsal münasibətləri ictimai həyatda öz ifadəsini tapır. Şüur və iradə əsasında şəxslər bu münasibətlərə girirlər. Belə ki, konkret şəxslər öz iqtisadi ehtiyac və tələbatlarını ödəmək məqsədilə əmlakın mənsubiyyəti barədə və ya əmlakın bir şəxsdən digərinə keçməsi barədə münasibətlərə girirlər. Bu münasibətlər olmazsa, insanlar yaşaya bilməzlər. Həmin münasibətlər insan həyatının mövcudluğunu təmin edir. Özlərinin həyati əhəmiyyəti olan müxtəlif cür iqtisadi ehtiyaclarını ödəmək üçün insanlar cürbəcür münasibətlərə daxil olurlar. Məsələn, onlar bazardan ərzaq məhsulları, geyim şeyləri, məişətdə işlənən predmetlər, ev avadanlıqları və s. alırlar, minik avtomobilini mənzilə dəyişdirirlər, öz yaxınlarına borc pul və ya əmlak (məsələn, taxıl, un, benzin, ərzaq məhsulları və s.) verirlər və s. İnsanın iqtisadi ehtiyaclarının ödənilməsinə yönələn bu münasibətlər konkret iqtisadi münasibətlər kimi çıxış edir. Konkret iqtisadi münasibətlər istehsal vasitələri və məhsullannın (maddi nemətlərin) istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində əmələ gəlir və buna görə də onlar istehsal münasibətlərinin ictimai həyatdakı ifadə və təzahür formalarıdır. Bax, həmin konkret iqtisadi münasibətlər əmlak münasibətləri adlanır. Deməli, **əmlak münasibətləri istehsal münasibətlərinin ictimai həyatdakı ifadə formalarıdır**. Obyektiv xarakterə malik olan istehsal münasibətləri hüquq norması ilə tənzim edilə bilməz. Bundan fərqli olaraq konkret iqtisadi münasibətlər kimi çıxış edən əmlak münasibətləri hüquqi nizamasalmanın predmeti ola bilər.

Əmlak münasibətlərinin ikinci xüsusiyyəti ondan ibarətdir ki, onlar **iradəvi münasibətlərdir**. Konkret iqtisadi münasibətlər, istehsal münasibətlərindən fərqli olaraq, insanın iradəsi əsasında yaranır. Bu münasibətlər obyektiv yox, subyektiv xarakter daşıyır. Məsələn, alıcı öz iradəsi ilə bazardan ərzaq məhsulları alır, satıcı öz iradəsi əsasında geyim şeylərini alıcıya satır və s. K.Marks yazırdı ki, bir əmtəə sahibi yalnız digərinin iradəsi əsasında özgəsinin əmtəəsini əldə edə, öz əmtəəsini isə özgəninkiləşdirə bilər[2]. İnsanların ictimai istehsal fəaliyyəti iradəvi xarakter daşıyır. Deməli, istehsal münasibətləri ictimai həyatda həm də konkret iradəvi münasibətlər formasında ifadə olunur.

Beləliklə, **əmlak münasibətləri dedikdə, maddi nemətlərin məxsusluğu və ya mübadiləsi barədə müəyyən şəxslər arasında yaranan elə konkret iradəvi-iqtisadi münasibətlər başa düşülür ki, onlar istehsal münasibətlərinin ictimai həyatdakı ifadə formalarıdır**. Bu münasibətlər konkret əmlak — maddi nemət barəsində əmələ gəlir. Müəyyən əmlakın şəxsə məxsus olması və ya onun bir şəxsdən digərinə keçməsi (mübadiləsi) nəticəsində əmlak münasibətləri yaranır.

Əmlak münasibətlərinin əhatə dairəsi kifayət qədər geniş və müxtəlifdir. Bu

[1] bax: Qısa iqtisadi lüğət / Tərtibçilər *Q.İ.Libman, O.K.Filotov*. Rus dilindən *K.A.Sanyəvin, S.L.İbadovun, X.Ş.Kərimovun* tərcüməsi. Bakı 1989, s. 123.

[2] *Маркс К., Энгельс Ф.* Сочинения. Том 23, с. 94.

münasibətlər **kompleks (qarışıq) xarakterə malikdir**. Ona görə də əmlak münasibətləri hüququn müxtəlif sahələri tərəfindən tənzimlənə bilər. Məsələn, rayon icra hakimiyyətinin qərarı ilə müharibə iştirakçısı olan vətəndaşa mənzil verilir. Bu, əmlak münasibətidir. Özü də həmin münasibət mülki hüquqla yox, inzibati hüquqla tənzimlənir. Başqa bir misalda vətəndaş inzibati hüquq pozuntusuna, inzibati xətaya yol verir. Buna görə ona inzibati tənbeh — cərimə (pul məbləği) tətbiq edilir. Bu da əmlak münasibəti sayılır. Amma həmin münasibət inzibati hüquq normaları ilə qaydaya salınır və tənzimlənir. Başqa bir misalda müəssisə dövlət büdcəsinə mənfəətdən vergi verir. Bu, əmlak münasibətidir. Lakin həmin münasibət maliyyə hüququ ilə nizama salınır. Belə təsəvvür yaranır ki, əmlak münasibətləri təkcə mülki hüquqla yox, hüququn digər sahələri ilə də, məsələn, inzibati hüquqla, maliyyə hüququ ilə də və s. tənzimlənə bilər. Bu cür halda, şübhəsiz ki, mülki hüquqla nizama salınan əmlak münasibətlərinin hüququn digər sahələri ilə qaydaya salınan əmlak münasibətlərindən ayırmağa və fərqləndirməyə imkan verən əsas əlamət və meyarları müəyyənləşdirməyə ehtiyac yaranır. Qüvvədə olan mövcud qanunvericilik bu cür əlamətləri nəzərdə tutmur. Mülki hüquqla tənzimlənən əmlak münasibətlərinin spesifik əlaməti barədə müəlliflər müxtəlif cür fikirlər söyləyirlər. Dəyər qanununun qüvvədə olması[1], əvəzlilik[2], əmtəə-pul forması[3], iqtisadi qiymət meyarı[4], dəyər xarakteri[5], subyektin əmlak-sərəncam müstəqilliyi[6], əmlak müstəqilliyi[7], dövriyyə əlaməti[8] və digər əlamətlər hüquq ədəbiyyatında mülki hüquqla tənzimlənən əmlak münasibətlərinin əsas və fərqləndirici əlamətləri kimi göstərilir. Bu əlamətlərin biri digərini tamamlayır. Özü də onlar bir-biri ilə qarşılıqlı əlaqədədir. Həmin əlamətlərdən hər hansı birinin üstünlüyə malik olması barədə fikir söyləmək olmaz. Onların hamısı bu və ya digər dərəcədə əhəmiyyətlidir.

Birincisi, mülki hüquqla tənzimlənən əmlak münasibətləri **iqtisadi qiymətə malik olub, dəyər formalı münasibətlərdir**. Bu münasibətlərin obyekti (predmeti) kimi, bir qayda olaraq, **əmtəə** çıxış edir. Mübadilə üçün istehsal olunan spesifik iqtisadi nemətə əmtəə deyilir. Nemətin mübadilə üçün, satılmaq üçün istehsal olunması həmin nemətı əmtəəyə çevirir. Xidmət də əmtəə kimi çıxış edir. Məsələn, yüklərin daşınması üzrə xidmət də əmtəədir. Başqa bir misalda sərnişin ona məxsus olan yükü dəmir yolu vağzalındakı saxlama kamerasında saxlamaya verir. Saxlama kamerası vətəndaşa saxlama xidməti göstərir ki, bu xidmət əmtəə hesab edilir. Deməli, satılmaq, mübadilə olunmaq üçün istehsal olunan maddi nemətlər və xidmətlər əmtəədir.

Əmtəə dəyərə malikdir. Əmtəədə təcəssüm olunan və mübadilə zamanı təzahür edən ictimai əməyə **əmtəənin dəyəri** deyilir[1]. Dəyər əmtəə istehsalçılarının əmtəədə maddiləşmiş ictimai əməyidir. O, əmtəənin daxili xassəsidir. Lakin əmtəənin dəyəri yalnız o, mübadilə ediləndə təzahür edir və ifadə olunur. Məsələn, əmtəə istehsalçısı hazırladığı məhsulları alıcılara satır, tikinti təşkilatı tikdiyi mənzilləri sifarişçiyə verir, nəqliyyat təşkilatı yükləri təyinat yerinə çatdırır, lombard vətəndaşın qızıl məmulatlarını saxlayır və s. Bu isə əmlak münasibətlərinin — konkret iqtisadi münasibətlərin yaranmasına gətirib çıxarır. Belə təsəvvür yaranır ki, əmtəənin dəyərini təzahür və ifadə etmək üçün onun mübadilə olunması (satılması) tələb olunur və bu cür mübadilə prosesində əmlak münasibətləri əmələ gəlir. Deməli, **mülki hüquqla tənzimlənən münasibətlər dəyər formalı əmlak münasibətləridir**. Əmtəə istehsalı şəraitində əmlak münasibətləri dəyər forması alır.

Qeyd etmək lazımdır ki, əmtəə dəyərinin kəmiyyətini (miqdarını) müəyyənləşdirmək[2] üçün o, mübadilə olunur. Əmtəənin dəyəri istehsal prosesində əmək vasitəsi ilə yaradılırsa, mübadilə prosesində onun dəyər kəmiyyəti müəyyənləşdirilir və təzahür edir[3]. Mübadilə prosesi elə bir aktdır ki, bu akta görə bir tərəf digər tərəfdən arzu etdiyi əmtəəni alıb, onun əvəzində və müqabilində başqa bir əmtəə verir, yəni bir əmtəə o birisi ilə dəyişdirilir. Başqa sözlə desək, mübadilə aktı istehsalçının hazırladığı əmtəənin ümumi ekvivalent rolunu oynayan xüsusi bir əmtəəyə — pula dəyişdirilməsidir. Pul ümumi ekvivalent rolunu oynayan spesifik əmtəədir. Pulun ümumi ekvivalent rolu oynaması o deməkdir ki, əmtəə xüsusi əmtəəyə (pula) dəyişdirilir. Məsələn, satıcı əmtəəni alıcıya verib, onun əvəzində xüsusi (spesifik) əmtəə — pul alır. Daşıyıcı (nəqliyyat təşkilatı) sərnişini təyinat məntəqəsinə çatdırıb, göstərdiyi daşıma xidməti adlı əmtəənin müqabilində daşıma haqqı, yəni müəyyən pul məbləği alır. Tikinti təşkilatı tikdiyi əmtəəni — yaşayış evini sifarişçiyə verib, onun əvəzində podrat haqqı — müəyyən pul məbləği alır və s. Deməli, əmtəələrin dəyəri pul formasında ifadə olunur. Əmtəənin dəyərinin pulla ifadəsinə **qiymət** deyilir. Pul vasitəsi ilə əmtəələr mübadilə edilir və dəyişdirilir. O, dəyər ölçüsü funksi-

[1] bax: *Генкин Д.М.* Предмет советского гражданского права // Советское государство и право. 1955. № 1, с.106.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979; Советское гражданское право. Учебник. Часть1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко*. Л., 1982.

[3] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985; Гражданское право. Учебник. Том1 / Под ред. *Е.А.Суханова*. М., 1998.

[4] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 7-10.

[5] bax: Гражданское право. Учебник. Часть1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 11.

[6] bax: *Алексеев С.С.* Предмет советского социалистического гражданского права // Учен. труды. Свердлов. Юрид. ин-та. 1959, с. 266-269.

[7] bax: *Братусь С.Н.* Предмет и система советского гражданского права. М.,1963, с. 36-71. 104-124.

[8] bax: *Дозорцев А.В.* О предмете советского гражданского права и системе гражданского кодекса СССР // Советское государство и право. 1954. № 7, с. 106; *Халфина Р.О.* О предмете советского гражданского права // Советское государство и право. 1954. № 8, с. 86.

[1] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyev, Ə.P.Babayev, M.X.Məbudlayev* ümumi red. Bakı. 1999.

[2] İqtisadi ədəbiyyatda əmtəə dəyərinin kəmiyyəti haqqında fikirlər mübahisəlidir. Məsələn, A.Smit dəyərin ölçü vahidi kimi bəzən onun istehsalına sərf olunan iş vaxtını, bəzən əməyin özünün dəyərini götürürdü. D.Rikardo isə istehsalın ən pis şəraitində sərf olunan iş vaxtını dəyərin ölçü vahidi kimi götürürdü.

[3] Əmtəənin iki cür dəyərini bir-birindən fərqləndirmək lazımdır: istehlak dəyərini; mübadilə dəyərini. İnsanın bu və ya başqa bir tələbatını ödəmək xassəsi əmtəənin istehlak dəyəri adlanır. Mübadilə prosesində bir əmtəənin digər əmtəəyə dəyişdirilməsində təzahür edən dəyərə mübadilə dəyəri deyllir. Bu iki kateqoriyanı elmi ədəbiyyata Aristotel, A.Smit, D.Rikardo, K.Marks gətirmişdir.

yasını yerinə yetirir. Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, mülki hüquqla tənzimlənən əmlak münasibətləri (məsələn, yuxarıda misal kimi çəkdiyimiz alqı-satqı, daşıma və podrat münasibətləri) **əmtəə-pul münasibətləridir**. Əmtəə-pul münasibətləri bilavasitə pul dövriyyəsi ilə bağlı olub, əmtəələrin xüsusi əmtəəyə (pula) dəyişdirilməsini ifadə edir. Bu münasibətlər dəyər formalı əmlak münasibətlərinə daxildir. Hüququn digər sahələri ilə — **inzibati hüquqla, maliyyə hüququ ilə və s. tənzimlənən əmlak münasibətləri isə dəyər formalı münasibətlər hesab edilmir** və əmtəə-pul xarakterinə malik deyil.

İkincisi, mülki hüquqla tənzimlənən əmlak münasibətləri, bir qayda olaraq, **əvəzlilik — ekvivalentlilik xarakterinə malikdir**[1]. Məsələn, satıcı satdığı əşyanın əvəzində, daşıyıcı sərnişinə göstərdiyi daşıma xidmətinin əvəzində, borc verən verdiyi borcun əvəzində və s. müəyyən pul məbləği alır. Pul satılan əşyanın, göstərilən xidmətin, görülən işin və s. ekvivalenti kimi çıxış edir. Əvəzlilik — ekvivalentlilik kimi əlamət mülki hüquqla tənzimlənən əmlak münasibətlərinin dəyər forması, bu münasibətlərin əmtəə-pul xarakterinə malik olması ilə izah olunur. Hüququn digər sahələri (məsələn, maliyyə hüququ, inzibati hüquq və s.) ilə tənzimlənən əmlak münasibətləri bu cür əlamətdən məhrumdur. Məsələn, müəssisə mənfəətdən vergi, işçi isə gəlir vergisi verdiyi hallarda, onlarla dövlət arasında əmlak münasibəti əmələ gəlir. Bu münasibət əvəzlilik — ekvivalentlilik kimi xüsusiyyətə malik deyil. Ona görə ki, ödənilən verginin əvəzində dövlət müəssisə və işçiyə ekvivalent rolunu oynayan hər hansı bir pul məbləği vermir. Buna görə də həmin münasibət mülki hüquqla yox, maliyyə hüququ ilə tənzimlənir. Vergi münasibətləri maliyyə hüququnun nizamasalma predmetinə daxildir[2].

Bununla belə, mülki hüquqla tənzimlənən elə əmlak münasibətləri vardır ki, bu cür münasibətlər əvəzlilik — ekvivalentlilik kimi əlamətə əsaslanmır. Söhbət **əvəzsiz əmlak münasibətlərindən gedir**. Həmin münasibətlər, əvəzsiz olmasına baxmayaraq, mülki hüquqla tənzimlənir. Bu, o deməkdir ki, bəzi əvəzsiz əmlak münasibətləri mülki hüququn nizamasalma predmetinə daxildir. Məsələn, əvəzsiz istifadə, bağışlama, əvəzsiz borc, mülkiyyət münasibətləri və s. əvəzsiz əmlak münasibətlərinə misal ola bilər. Bu cür əmlak münasibətləri dəyər xarakterinə malik deyil. Onlar əmtəə-pul münasibətləri hesab edilmir. Mülkiyyət münasibətləri də əvəzlilik — ekvivalentlilik əsasları üzərində qurulmur. Bu münasibətlər əsasında yeni, öhdəlik hüquq münasibətləri əmələ gələ bilər[3]. Məsələn, vətəndaş öz mülkiyyətində olan əmlakı satdıqda (belə halda öhdəlik münasibəti əmələ gəlir), əvəzli əmlak münasibəti yaranır.

[1] Müəlliflərdən D.M.Genkin göstərirdi ki, mülki hüquqla tənzimlənən əmlak münasibətləri ekvivalentlilik kimi əsas üzərində qurulur (bax: *Генкин Д.М.* Предмет советского гражданского права // Советское государство и право. 1955. № 1, с. 106). O.S.Ioffe bu konsepsiyanı tənqid edərək göstərirdi ki, mülki hüquqla tənzimlənən əmlak münasibətləri, əvəzli olsa da, həmişə ekvivalent münasibətlər kimi çıxış etmir (bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1. Л., 1975. гл. 2. § 2).

[2] Müəlliflərdən N.Q.Mrevlişvili göstərir ki, vergi münasibətlərini mülki hüququnun predmetinə daxil etmək lazımdır (bax: *Мревлишвили И.Г.* Предмет и система советского социалистического гражданского права // Советское государство и право. 1945. № 7, с. 109-111). Bu cür mövqeyin heç bir əsası yoxdur.

[3] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 7-10.

Bağışlama, əvəzsiz istifadə, mülkiyyət və digər münasibətlər əvəzsiz əmlak münasibətləri olsa da, onlar mülki hüquqla tənzimlənir. Bu, onunla izah olunur ki, mülki hüquqla nizama salınan əmlak münasibətləri bərabər hüquqa malik olan konkret şəxslər arasında maddi nemətlərin məxsusluğu (məsələn, mülkiyyət münasibətləri) və ya maddi nemətlərin bir şəxsdən digərinə keçməsi (məsələn, bağışlama münasibətləri) ilə bağlı olaraq yaranır. Həmin münasibətlər əvəzsiz olsa da, tələb olunan digər əlamətlərə uyğun gəldiyinə görə mülki hüququn nizamasalma predmetinə daxildir.

Qeyd etmək lazımdır ki, mülki hüquqla qaydaya salınan əmlak münasibətləri əvəzlilik — ekvivalentlilik kimi əsaslar üzərində qurulan əmtəə münasibətləridir. Bununla belə, bu cür əsaslar qeyri-əmtəə münasibətlərində də mövcud ola bilər. Məsələn, əmlakın rekvizisiya (həcz) edilməsi halında, yəni təbii fəlakətlər, epidemiyalar baş verdikdə və s. müvafiq dövlət orqanının qərarı ilə mülkiyyətçidən əmlakın dəyəri ödənilməklə onun cəmiyyətin mənafeyi üçün alınması halında qeyri-əmtəə xarakterli münasibət yaranır. Lakin həmin münasibət ekvivalentlidir. Özü də mülki hüquqla tənzimlənir (MM-in 209-cu maddəsi).

Üçüncüsü, mülki hüquqla tənzimlənən əmlak münasibətləri **hakimiyyət — tabeçilik əlaqələri üzərində qurulmur.** Bu cür əlaqələr üzərində qurulan əmlak münasibətləri mülki hüquqla yox, hüququn digər sahələri (məsələn, inzibati, maliyyə, ekologiya və s. hüquq sahələri) tərəfindən tənzimlənir. Mülki hüquq normaları inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilmir (MM-in 2-ci maddəsinin 5-ci bəndi). Məsələn, vergi ödənilməsi üzrə əmələ gələn əmlak münasibəti vətəndaşla (və ya müəssisə ilə) dövlət arasında yaranır. Bu münasibət, söz yox ki, hakimiyyət — tabeçilik prinsipinə əsaslanır. Burada bir tərəfdə hakimiyyət funksiyasını həyata keçirən dövlət iştirak edir. Ona görə də həmin əmlak münasibəti maliyyə hüququ ilə tənzimlənir. İnzibati hüquqla tənzimlənən əmlak münasibətləri də hakimiyyət — tabeçilik prinsipi üzərində qurulur.

Bunlardan fərqli olaraq, mülki hüquqla tənzimlənən əmlak münasibətlərində tərəflər bir-birindən asılı olmurlar. Onlar müstəqil əmtəə sahibləridirlər. Həmin münasibətlərdə iştirak edən tərəflər hüquq bərabərliyinə malikdirlər. Məsələn, alqı-satqı münasibətlərində satıcı-alıcı, kredit münasibətlərində bank-müştəri, sığorta münasibətlərində sığortaçı-sığorta olunan, borc münasibətlərində borc alan-borc verən, icarə münasibətlərində icarəyə verən-icarəçi və s. bərabər hüquqludur. Bəzi müəlliflər belə hesab edirlər ki, tərəflərin hüquq bərabərliyi mülki hüquqla tənzimlənən əmlak münasibətlərini ayırmağa və fərqləndirməyə imkan verən əsas əlamətdir[1].

Beləliklə, göstərilən bu üç əsas əlamət mülki hüquqla tənzimlənən əmlak münasibətlərini xarakterizə edir. Bu əlamətlərə cavab verməyən əmlak münasibətləri mülki hüququn nizamasalma predmetinə daxil edilmir. Söhbət maliyyə, inzibati, ekologiya və digər münasibətlərdən gedir. Bu cür münasibətlər mülki hüquqla yox, maliyyə, inzibati və digər hüquq sahələri ilə tənzimlənir.

[1] bax: *Толстой Ю.К.* Кодификация гражданского законодательства в СССР (1961-1965). Автореф. докт. дисс. Л.,1970, с. 6.

Qeyd etdik ki, ictimai həyatda mövcud olan əmlak münasibətlərinin dairəsi kifayət qədər geniş və əhatəlidir. Onları müxtəlif əlamətlərə görə təsnif etmək olar. **Əmlakın hərəkət edib-etməməsi kimi əlamətə** görə onların iki növü fərqləndirilir:

- statik xarakterli əmlak münasibətləri (statika münasibətləri);
- dinamik xarakterli əmlak münasibətləri (dinamika münasibətləri).

Statik xarakterli əmlak münasibətləri dedikdə, maddi nemətlərin məxsusluğu ilə, onlara sahibliklə bağlı əmələ gələn iqtisadi münasibətlər başa düşülür. Məsələn, mülkiyyət münasibətləri bu cür münasibətlərə misal ola bilər. Əgər şəxsin mülkiyyətində yaşayış evi, minik avtomobili, məişət predmeti, ev avadanlıqları varsa və həmin şəxs onlardan istifadə edirsə, onda belə halda statik xarakterli əmlak münasibətləri yaranır. Statik xarakterli əmlak münasibətləri maddi nemətlərin bir şəxsdən digərinə keçməsi prosesini yox, həmin nemətlərə sahiblik və yiyəlik prosesini ifadə edir. Bu cür münasibətlər maddi nemətlərin sükut (tarazlıq, yəni bir yerdə durmaq) vəziyyəti ilə əlaqədardır. Ona görə də onlar statika (yunanca statos — bir yerdə durmaq) münasibətləri adlanır.

Dinamik xarakterli əmlak münasibətləri odur ki, bu münasibətlər maddi nemətlərin bir şəxsdən digərinə keçməsi ilə bağlı olaraq yaranır. Həmin münasibətlər əmtəələrin (əşyaların, işlərin, xidmətlərin) mübadilə prosesini ifadə edir. Məsələn, müqavilədən əmələ gələn öhdəlik münasibətləri — alqı-satqı, icarə, kirayə, borc, kredit, podrat, daşıma münasibətləri və s. dinamik xarakterli əmlak münasibətlərinə misal ola bilər. Vərəsəlik münasibətləri də dinamik xarakterli əmlak münasibətləri hesab edilir.

Dinamik xarakterli əmlak münasibətləri maddi nemətlərin tarazlıq (sükut) vəziyyəti ilə yox, onların bir şəxsdən digərinə keçməsi ilə, deməli, hərəkəti ilə bağlıdır. Ona görə də bu münasibətlər dinamika (yunanca dynamikos — qüvvəyə aid olan)[*] münasibətləri adlanır. Bir sözlə desək, daha doğrusu, bu münasibətlər əmtəələrin (əşyaların, xidmətlərin, işlərin) mübadilə prosesi üzrə yaranan münasibətlərdir.

Statik xarakterli əmlak münasibətləri dinamik xarakterli əmlak münasibətləri ilə sıx surətdə bağlıdır. Onlar bir-birini şərtləndirir. Real həyatda bu münasibətlərin qarşılıqlı əlaqədə olması müşahidə olunur. Statik xarakterli münasibətlər dinamika əmlak münasibətlərinin yaranması üçün zəmin yaradır. Belə ki, şəxs öz mülkiyyətində olan əmlak üzərində sərəncam səlahiyyətini həyata keçirir (yəni satır, dəyişdirir, icarəyə verir, saxlanca verir, girov qoyur, borc verir və s.) və bunun nəticəsində dinamik xarakterli əmlak münasibətləri yaranır. Məsələn, mülkiyyətçi öz yaşayış evini satır. Bununla yaşayış evi mülkiyyətçidən (satıcıdan) alıcıya keçir. Belə halda dinamik xarakterli əmlak münasibəti yaranır. Statika münasibətləri olmadan əmtəə mübadilə prosesi (dinamika münasibətləri) yarana bilməz. Axı, şəxsin mülkiyyətində əmlak olmadığı halda, o, necə və hansı qaydada onun barəsində sərəncam verə, yəni sata, dəyişdirə, saxlanca verə, girova qoya və s. bilər?

[*] Həm statika, həm də dinamika kimi ifadələr fizika elmində işlədilir. Fizikanın dinamika və statika adlı bölmələri vardır.

Öz növbəsində dinamika münasibətləri statika münasibətlərinə təsir göstərir. Çox vaxt biz real həyatda statika münasibətlərinin dinamika münasibətlərinin nəticəsi kimi yaranmasının canlı şahidi oluruq. Belə ki, dinamika münasibətləri nəticəsində statika münasibətləri yaranır. Məsələn, alqı-satqı münasibətləri nəticəsində alıcı satılmış əşyanın mülkiyyətçisi olur və bununla mülkiyyət münasibəti yaranır. Bu isə statik xarakterli əmlak münasibətidir.

Məzmun əlamətinə görə əmlak münasibətlərinin bir neçə növü fərqləndirilir:

- əşya münasibətləri;
- öhdəlik münasibətləri;
- vərəsəlik münasibətləri;
- korporativ münasibətlər.

Əşya münasibətləri əşyaların (maddi obyektlərin) subyektlərə məxsusluğu ilə bağlı olaraq yaranan münasibətlərdir. Bu münasibətlər statik xarakterlidir. Əşya münasibətləri əşyanın sahibi ilə (əşyanın məxsus olduğu şəxslə) əhatə dairəsi məlum olmayan kənar şəxslər arasında yaranır. Deməli, əşya münasibətləri əşya barəsində şəxslər arasında yaranan münasibətlər deməkdir. Bu münasibətlərin bir tərəfində əşyanın sahibi, digər tərəfində isə qeyri-müəyyən dairəli şəxslər durur. Əhatə dairəsi məlum olmayan həmin şəxslər əşyadan istifadə etməkdə əşya sahibinə mane olmamalıdırlar. Əşya sahibi ona məxsus olan əşyadan müstəqil surətdə öz mənafeyi üçün istifadə etmək imkanı qazanır.

Əşya münasibətləri üç yerə ayrılır:

- mülkiyyət münasibətləri;
- məhdud əşya münasibətləri;
- sahiblik münasibətləri.

Mülkiyyət münasibətləri dedikdə, maddi nemətlər barədə şəxslər arasında yaranan elə iqtisadi (əmlak) münasibətlər başa düşülür ki, bu münasibətlər mülkiyyətçi tərəfindən həmin nemətlərə tam sahiblik edilməsini, bu nemətlərdən istifadə olunmasını və onlar üzərində sərəncam verilməsini təmin edir. Bu münasibətlər əşya münasibətlərinin əsas və mərkəzi hissəsini təşkil edir.

Mülkiyyət münasibətləri səlahiyyətli şəxsə — mülkiyyətçiyə ona məxsus olan maddi nemətlərdən (əşyadan) maksimum dərəcədə istifadə etmək imkanı verir. Mülkiyyətçi əşya üzərində tam yiyəliyi və sahibliyi həyata keçirir. O, əşyaya sahiblik, əşyadan istifadə və onun barəsində sərəncam verilməsi üzrə çox geniş imkanlara malik olur. Mülkiyyət münasibətləri nisbətən sabit və uzunmüddətli iqtisadi (əmlak) münasibətlərdir. Bu münasibətlər cəmiyyətin və mülki (əmlak) dövriyyənin əsasını təşkil edir.

Məhdud əşya münasibətləri dedikdə, başqasına (özgəsinə) məxsus olan maddi nemət (əşya) ilə bağlı yaranan münasibətlər başa düşülür. Bu cür münasibətlər əşyanın, həmin əşyanın mülkiyyətçisi olmayan şəxsdə olması ilə əlaqədar əmələ gəlir. Mülkiyyətçi olmayan şəxs (qeyri-mülkiyyətçi) əşyadan istifadə edilməsində mülkiyyətçi qədər, mülkiyyətçi kimi geniş imkanlara malik deyil. Bu münasibətlərin özü bir neçə növə ayrılır:

- superfitsi (tikiliyə vərəsəlik) münasibətləri;
- servitut münasibətləri;
- uzufrukt münasibətləri;

• girov münasibətləri;
• ipoteka münasibətləri.

Superfitsi münasibətlərinə əsasən şəxs özgəsinin mülkiyyətində olan torpaq sahəsində bina (yaşayış evi) və digər tikili ucaldır. Həmin şəxs yaşayış evindən və digər tikililərdən yalnız istifadə edə, onları vərəsəlik üzrə verə və özgəninkiləşdirə (sata, dəyişdirə və s.) bilər. Amma tikili ucaldan şəxs bu tikili üzərində mülkiyyət hüququ qazanmır. Superfitsi müqaviləsinin qüvvədə olma müddəti başa çatdıqda tikililər torpaq sahəsinin mülkiyyətçisinin (sahibinin) mülkiyyətinə keçir. Mülkiyyətçi tikili ucaldan şəxsə kompensasiya ödəyir.

Servitut münasibətləri daşınmaz əşyanın digər daşınmaz əşya mülkiyyətçisinin xeyrinə yüklü edilməsi ilə bağlı olaraq yaranır. Belə halda şəxsə əşyadan istifadə etməyə icazə verilir. Məsələn, vətəndaş öz qonşusundan ona məxsus olan torpaq sahəsindən piyada və ya avtomobillə keçid üçün icazə alır. Bu cür halda torpaq sahəsinin mülkiyyətçisi kimi yenə də qonşu qalır. Vətəndaş yalnız bu torpaq sahəsindən öz ehtiyaclarını təmin etmək üçün məhdud dərəcədə istifadə edir. Başqa bir misalda vətəndaş öz qonşusunun həyətindəki quyudan su çəkir (və yaxud elektrik, rabitə xətti çəkir və s.).

Uzufrukt münasibətləri şəxsin özgəsinin mülkiyyətində olan əşyadan istifadə etməsi və fayda götürməsi nəticəsində yaranır. Məsələn, çoban öz yaxın tanışı olan kənd sakininə (uzufruktuara) iyirmi ədəd qoyun verir. Kənd sakini həmin qoyunların yununda, südündən istifadə edir, habelə bəhər (quzuları) əldə etməklə fayda götürür. Başqa bir misalda torpaq sahəsinin mülkiyyətçisi bu sahəni sahibkara uzufrukta verir. Sahibkar həmin sahədən daş, qum, keramzit və digər tikinti materialları çıxarır. Çobanla kənd sakini, torpaq sahəsinin mülkiyyətçisi ilə sahibkar arasındakı münasibətlər uzufrukt münasibətləri adlanır.

Girov münasibətləri girov qoyanın (borclunun) girov saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasını təmin etməsi məqsədi ilə yaranır. Məsələn, vətəndaş bankdan kredit alır. Krediti qaytarmaq öhdəliyinin icrasını təmin etmək məqsədi ilə bankın tələbi ilə vətəndaş öz minik avtomobilini girov qoyur. Əgər o, krediti qaytarmazsa, onda bank öz tələbini girov qoyulmuş minik avtomobilinin hesabına təmin edir. Girov münasibətlərinin obyekti kimi yalnız daşınar əşyalar çıxış edə bilər. Özü də bu münasibət ikili təbiətə malikdir. O, həm məhdud əşya münasibəti, həm də öhdəlik münasibətidir[1].

İpoteka münasibətləri də, girov münasibətləri kimi, ipoteka qoyanın (borclunun) ipoteka saxlayan (kreditor) qarşısında əsas öhdəliyinin icrasının təmin edilməsi məqsədi ilə yaranır. Hər şeydən əvvəl, onu qeyd edək ki, bu münasibətlər girov münasibətlərinə çox yaxın olan, «qohum» münasibətlərdir. İpoteka münasibətlərinin obyektini yalnız daşınmaz əşyalar (mənzillər, torpaq sahəsi, müəssisələr və s.), habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalar (məsələn, mülki hava gəmiləri) təşkil edə bilər[2].

Sahiblik münasibətləri sahibin əşyaya fiziki (faktiki) nəzarət və yiyəlik etməsi ilə bağlı olaraq yaranır. Söhbət sahiblik faktından gedir. Bu münasibətlər xüsusi xaraktere malikdir. Özü də həmin münasibətlərin əmələ gəlməsi şəxsin əşyaya sahiblik hüququ olmasından asılı deyildir. Məsələn, vətəndaş zənn edir ki, bağ evinin mülkiyyətçisi yoxdur və o, özbaşına buraxılmışdır. Vətəndaş bağ evinə girərək, orada yaşayır. Sahiblik münasibəti (sahiblik faktı) göz qabağındadır. Belə halda onun bağ evinə sahiblik hüququ yox, fakt mənasında sahibliyi yaranır.

Əmlak münasibətlərinin bir növü öhdəlik münasibətləri adlanır. **Öhdəlik münasibətləri dedikdə**, maddi nemətlərin bir şəxsdən digərinə keçməsi ilə bağlı əmələ gələn münasibətlər başa düşülür. Bu münasibətlər dinamik xarakterli əmlak münasibətləridir. Öhdəlik münasibətləri əmtəə-pul əlaqələri ilə, bazar əmtəə dövriyyəsi ilə bağlıdır. Bu münasibətlər iqtisadi (əmlak) dövriyyəni ifadə edir. Əgər iqtisadi dövriyyə münasibətlərini canlı orqanizmə oxşatsaq, onda öhdəlik münasibətləri bu orqanizmin qan damalarıdır. Bu münasibətlər əsasən əmtəə mübadiləsi prosesində əmələ gəlir.

Öhdəlik münasibətlərinin üç növü fərqləndirilir:
• müqavilə öhdəlik münasibətləri;
• hüquqqoruyucu öhdəlik münasibətləri;
• birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəlik münasibətləri.

Müqavilə öhdəlik münasibətləri odur ki, bu münasibətlər müqavilələrdən əmələ gəlir. Məsələn, alqı-satqı müqaviləsindən alqı-satqı münasibətləri, icarə müqaviləsindən icarə münasibətləri, podrat müqaviləsindən podrat münasibətləri, daşıma müqaviləsindən daşıma münasibətləri və s. yaranır. K.Marks yazırdı ki, öz əmtəəsini özgəninkiləşdirən əmtəə sahibləri ilə başqasının əmtəəsini əldə edən digər əmtəə sahibləri arasında, yəni xüsusi mülkiyyətçilər arasındakı münasibətlər müqavilə forması alır. Bu münasibətlər iqtisadi münasibətlərin ifadə olunduğu iradəvi əlaqələrdir[1]. Müqavilə öhdəlik münasibətləri iqtisadi dövriyyənin əsasını təşkil edir.

Hüquqqoruyucu öhdəlik münasibətləri müqavilə əsasında əmələ gəlmir. Bu cür münasibətlər zərər vurmaqdan, ziyan yetirməkdən və ya əsassız varlanmadan əmələ gəlir. Həmin münasibətlər iki cür olur: delikt öhdəlik münasibətləri; əsassız varlanma ilə bağlı olan öhdəlik münasibətləri. **Delikt öhdəlik münasibətləri** zərər vurmaq nəticəsində əmələ gəlir. Məsələn, sürücü idarə etdiyi ağır yük maşını ilə səkidə dayanmış minik avtomobilini tamamilə əzərək, onu istifadə üçün yararsız hala salır. Bununla o, minik avtomobilinin sahibinə əmlak zərəri vurur. Belə halda delikt münasibətləri göz qabağındadır. **Əsassız varlanma münasibətləri** şəxsin hüquqi əsas olmadan, yəni qanunsuz əmlak əldə etməsidir. Məsələn, ata öz qonşusundan borc pul alır. O, ölməmişdən qabaq aldığı borcu qonşuya qaytarır. Bundan onun oğlunun (vərəsənin) xəbəri olmur. O, borc məbləğini ikinci dəfə qonşuya qaytarır. Qonşu puldan imtina etməli olduğu halda, onu qəbul edir. Bununla o, hüquqi əsas olmadan pul (əmlak) əldə edir. Belə halda əsassız varlanma münasibəti yaranır. Ona **kondikasiya münasibəti** də deyilir.

Birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəliklərin əhatə da-

[1] Girovun ikili təbiətə malik olması mülki hüquqda mübahisəli məsələlərdən biridir (bu barədə dərsliyin «Öhdəliklərin icrasının təmin edilməsi» adlı fəslinə bax).

[2] Girovla ipoteka arasındakı fərqli cəhətlər bu dərsliyin «Öhdəliklərin icrasının təmin edilməsi» adlı fəslində nəzərdən keçirilmişdir.

[1] bax: *K.Marks.* Kapital. Том 1. M., 1931.

irəsi genişdir. Bu cür münasibətlərə daxildir:

- xüsusi mükafatlandırma münasibətləri;
- müsabiqə münasibətləri;
- tapşırıqsız fəaliyyət münasibətləri;
- oyunlar və mərclər üzrə münasibətlər.

Xüsusi mükafatlandırma münasibəti hər hansı hərəkəti yerinə yetirməyə, müəyyən nəticəyə nail olmağa görə açıq elan vasitəsilə (mətbuatda, radioda, televiziyada və s.) mükafat təyin etmiş şəxslə həmin hərəkəti yerinə yetirmiş şəxs arasında yaranır. Məsələn, ata televiziya vasitəsi ilə çıxış edərək onun itmiş oğlunu tapan şəxsə mükafat verilməsini vəd edir. Uşağı bir nəfər vətəndaş tapır. Bu vətəndaşla uşağın atası arasında xüsusi mükafatlandırma münasibəti yaranır.

Müsabiqə münasibətləri müəyyən hərəkəti yerinə yetirməyə görə mükafatlandırma barədə açıq elan verən şəxslə həmin hərəkəti yerinə yetirən şəxs — müsabiqə qalibi arasında yaranır. Məsələn, ən yaxşı dram əsəri yazmağa görə mükafatlandırma barədə mətbuatda açıq elan verilir. Müsabiqədə iştirak etməkdən ötrü işlər təqdim edilir. Müsabiqə keçirilir və bunun nəticəsində müsabiqə qalibi müəyyənləşdirilir. Müsabiqə elan etmiş şəxslə müsabiqə qalibi arasındakı münasibət müsabiqə münasibətidir.

Tapşırıqsız fəaliyyət münasibətləri və ya özgə işlərini tapşırıqsız aparma münasibətləri özgəsinin işlərini tapşırıq və ya digər əsas olmadan aparan şəxslə həmin özgə şəxs arasında yaranır. Roma hüququ özgə şəxsi dominus, onun işlərini tapşırıqsız aparan şəxsi isə qestor adlandırırdı. Onlar arasında yaranan əlaqələr tapşırıqsız fəaliyyət münasibətləri adlanır. Məsələn, məzuniyyətdə olan vətəndaşın yaşayış evinin qapısını əsən güclü külək sındırır. Qonşu qapını təmir etmək üçün usta çağırır və müvafiq xərclər çəkir. Məzuniyyətdə olan vətəndaş həmin xərci ödəməlidir. Bu, tapşırıqsız fəaliyyət münasibətidir.

Oyunların və mərclərin keçirilməsi üzrə münasibətlər oyun (və ya mərc) təşkilatçısı ilə oyunu (və ya mərci) udan şəxs arasında əmələ gəlir. Oyunlar (və ya mərclər) dedikdə, qeyri-təsərrüfat müqavilələri başa düşülür. Moskva telekanallarında göstərilən «Поле чудес», «Что? Где? Когда?», «О, счастливчик», bizim telekanallarda nümayiş etdirilən «Ailə sevinci» və s. oyunların, lotereyaların keçirilməsi göstərilən münasibətlərə misal ola bilər.

Vərəsəlik münasibətləri əmlak münasibətlərinin bir növüdür. Bu münasibətlər ölən fiziki şəxsin malik olduğu əmlakın vərəsəlik yolu ilə vərəsələrə keçməsi ilə bağlı olaraq əmələ gəlir. Bu cür münasibətlər dinamik xarakterli əmlak münasibətlərinə şamil edilir. Belə ki, vərəsəlik zamanı miras qoyan şəxsin hüquq və vəzifələri vərəsələrə keçir. Özü də vərəsəlik münasibətləri miras qoyan şəxsin ölümü ilə əmələ gəlir.

Hüquqi şəxslər yenidən təşkil edilərkən, hüquqi şəxsin əmlakı (hüquq və vəzifələri) hüquq varisliyi qaydasında keçir. Bu cür halda da dinamik xarakterli əmlak münasibətləri yaranır. Məsələn, iki hüquqi şəxs («Şərq» Universiteti ilə «Şimal» Universiteti) birləşdikdə onların hər birinin əmlakı (hüquq və vəzifələri) yeni yaradılmış hüquqi şəxsə («Qərb» Universitetinə) keçir. Hüquqi şəxs (məsələn, «Şərq» Universiteti) digər hüquqi şəxsə (məsələn, «Şimal» Universitetinə) qoşulduqda qoşulan hüquqi şəxsin («Şərq» Universitetinin) əmlakı (hüquq və vəzifələri) o biri hüquqi şəxsə («Şimal» Universitetinə) keçir.

Əmlak münasibətlərinin bir növü korporativ münasibətlərdir. **Korporativ münasibətlər** dedikdə, kommersiya təşkilatlarının malik olduğu əmlakın idarə edilməsi üzrə münasibətlər başa düşülür. Söhbət təsərrüfat cəmiyyətlərindən və ortaqlıqlarından, habelə kooperativlərdən gedir. Bu münasibətlər yalnız konkret kommersiya təşkilatının iştirakçıları arasında əmələ gəlir.

Təsərrüfat cəmiyyətləri (məsələn, səhmdar cəmiyyətləri və s.) və təsərrüfat ortaqlıqları (məsələn, tam ortaqlıq, yəni şərikli müəssisələr) kimi kommersiya təşkilatları əmlak dövriyyəsində kollektiv sahibkarlıq forması kimi çıxış edir. Bu cür hüquqi şəxsləri, adətən, sahibkarlar yaradırlar. Avropa hüququnda bu kimi hüquqi şəxslər **kompaniya və ya firma**, Amerika hüququnda isə **korporasiya** (latınca corpus — bədən) adlanır. Korporasiyaların malik olduğu əmlakın idarə olunması nəticəsində korporativ münasibətlər yaranır. Bu münasibətlər müxtəlif əsaslara görə əmələ gəlir: səhm almaq; kooperativə daxil olmaq; təsis müqaviləsində iştirak etmək və s.

Korporasiya iştirakçıları onun nizamnamə (şərikli) kapitalına maya qoyurlar. Maya puldan, qiymətli kağızlardan, digər əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər. Onlar korporasiyanın əmlakının və işlərinin idarə olunmasında müxtəlif formalarda iştirak edirlər: müvafiq qərar qəbul edilərkən ümumi iclasda səs vermək; korporasiyanın fəaliyyətinə dair məlumat almaq; mənfəət bölgüsündə iştirak etmək; korporasiya ləğv edildiyi halda kreditorlar ilə hesablaşmalardan sonra əmlakdan qalan hissəni və ya onun dəyərini almaq və s[1].

3. Əmlak münasibətləri ilə bağlı şəxsi qeyri-əmlak münasibətləri mülki hüququn predmetinin tərkib hissəsi kimi

Əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri mülki hüququn nizamasalma predmetinə daxil olan sahədir. Amma mülki hüquqla tənzimlənən əmlak münasibətlərinə nisbətən bu münasibətlər həlledici rol oynamır. Əsas və başlıca rolu əmlak münasibətləri oynayır. Əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərinin mülki hüquqla qaydaya salınması və nizamlanması qanunun birbaşa göstərişi ilə şərtlənir. Qanun göstərir ki, mülki qanunvericilik əmlak münasibəti ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir (MM-in 2-ci maddəsinin 2-ci bəndi).

«Şəxsi qeyri-əmlak münasibətləri» termininin özü XX əsrin 50-ci illərində sovet hüquq ədəbiyyatında əmələ gəlmişdir. O, bilavasitə mülki hüquq haqqında keçirilən diskussiya (1954-1955) ərəfəsində meydana gəlmiş, diskussiya gedişində isə təsdiq olunmuşdur[2]. Özü də həmin vaxtlara kimi ancaq şəxsi hüquqlardan söhbət açılırdı. Bu hüquqların real ictimai münasibətlər yaratmasından danışılmırdı. Ədəbiyyatda yalnız «insan şəxsiyyətindən ayrılmaz ne-

[1] Korporativ münasibətlərin əsas cəhətləri barədə bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 29-30.

[2] bax: *Халфина Р.О.* О предмете советского гражданского права // Советское государство и право. 1954. № 8, с. 86.

mətlərə olan hüquqlar» kimi ifadələr işlədilirdi[1].

XX əsrin 50-ci illərinin ortalarından başlayaraq şəxsi qeyri-əmlak münasibətlərinə ictimai münasibət kimi anlayış verilir. Bir çox müəlliflər göstərirdilər ki, bu münasibətlər insanın fərdiləşdirilməsində və ona sovet cəmiyyəti tərəfindən mümkün mənəvi-siyasi qiymət verilməsində təzahür edir. Özü də qeyd edildi ki, mülki-hüquqi tənzimetmənin predmetinə yalnız əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri daxil ola bilər. Bu konsepsiya 60-cı illərin sovet qanunvericiliyi tərəfindən nəzərə alınmadı. Müttəfiq respublikaların mülki məcəllələri və SSRİ Mülki Qanunvericiliyinin Əsasları mülki hüququn predmetinə əmlak münasibətlərini və şəxsi qeyri-əmlak münasibətlərini daxil etdi. Əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri xüsusi və ayrıca olaraq mülki hüququn predmet tərkibi hesab edilmədi. Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi, yuxarıda qeyd etdiyimiz kimi, bu münasibətləri ayrıca olaraq mülki hüququn predmet tərkibinə aid edir. Bu, XX əsrin 50-ci illərinin ortalarında sovet sivilistlərinin işləyib hazırladıqları konsepsiyaya uyğun gəlir.

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri bəzi xüsusiyyətlərə malikdir. Onların ən başlıca və əsas xüsusiyyəti ondan ibarətdir ki, **bu münasibətlərdə əmlak münasibətləri qeyri-əmlak münasibətləri ilə vahid kompleks halında birləşir**. Məsələn, elə götürək müəlliflik münasibətlərini. Bu münasibət əsərin yaradıldığı andan əmələ gəlir. Həmin münasibətin bir tərəfində müəllif durur. O, yaratdığı əsərə münasibətdə bəzi hüquqlar əldə edir. Bunların ən vacibi müəlliflik hüququ, yəni yaratdığı əsərin müəllifi kimi tanınmaq hüququdur. Bu hüquq və müəllifin digər hüquqları **şəxsi xarakterə malik olub, qeyri-əmlak təbiətlidir**. Müəlliflik münasibətinin ikinci tərəfində əhatə dairəsi məlum olmayan qeyri-müəyyən şəxslər çıxış edir. Həmin şəxslərin borcudur ki, müəllifin yaratdığı əsərə olan hüquqlarını həyata keçirməkdə ona mane olmasınlar, bu hüquqları pozmasınlar. Göründüyü kimi, əsərin yaranması ilə müəlliflə əhatə dairəsi məlum olmayan şəxslər arasında əsərlə bağlı olaraq münasibət yaranır ki, bu, müəlliflik münasibəti adlanır[1]. Həmin münasibəti pulla qiymətləndirmək olmaz. Ona görə də o, qeyri-əmlak münasibəti hesab olunur. Həm də bu münasibət şəxsi xarakterlidir. Bununla belə, müəllifin əsərdən istifadəyə müstəsna hüquqları (əsərin surətini çıxarmaq hüququ, əsərin nüsxələrini, yəni əsərin maddi obyekti və daşıyıcısı olan kitabları satmaq, kirayəyə vermək hüququ və s.) vardır. Bu, iqtisadi məzmuna malik olan əmlak hüquqlarıdır. Məsələn, əsərin nüsxələrini (kitabları) müəllif oxucuya satır. Bu isə əmlak münasibətidir. Yuxarıda qeyd etdiyimiz şəxsi qeyri-əmlak münasibəti (yəni müəllifin əsər yaratması ilə əmələ gələn münasibət) bu əmlak münasibəti ilə bağlıdır. Ona görə də həmin münasibət (müəlliflik münasibəti) əmlak münasibəti ilə bağlı olan şəxsi qeyri-əmlak münasibəti adlanır. Bu sözləri ixtira münasibətləri haqqında da demək olar. Başqa bir misalda sahibkar öz istehsal etdiyi malları (əmtəələri) digər sahibkarın əmtəələrindən (mallarından) fərqləndirmək üçün hər hansı bir əmtəə nişanı seçir. Bu nişan səlahiyyətli dövlət orqanları tərəfindən (Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi tərəfindən) qeydə alınır. Bununla sahibkarla əhatə dairəsi məlum olmayan kənar şəxslər arasında qeydə alınmış əmtəə nişanı barəsində şəxsi qeyri-əmlak münasibəti yaranır: heç kəs bu əmtəə nişanından istifadə edə bilməz. Sahibkar bazarda məşhurlaşan öz əmtəə nişanından istifadə hüququnu lisenziya müqaviləsi əsasında başqa sahibkara verir. Bunun əvəzində o, haqq alır. Bu isə əmlak münasibəti hesab edilir. Bax, əmtəə nişanı münasibəti bu münasibətlə bağlıdır. Ona görə də həmin münasibət əmlak münasibəti ilə bağlı olan şəxsi qeyri-əmlak münasibəti adlanır.

Qeyd etdiklərimizdən və söylədiklərimizdən belə məlum olur ki, **əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərinin iki tərəfi (cəhəti) vardır: bu münasibətlərin qeyri-əmlak tərəfi; bu münasibətlərin əmlak tərəfi**. Özü də həmin münasibətlərin qeyri-əmlak tərəfi onların ikinci tərəfini — əmlak tərəfini şərtləndirir. Onlar bir-biri ilə bağlıdır. Əmlak tərəfi həmi-

[1] bax. *Флейшиц Е.А.* Личные права в гражданском праве СССР и капиталистических стран. М., 1941; Гражданское право. Учебник для юридических вузов / Под ред. *М.Агаркова и Д.Генкина*. М., Том 1. 1944, с. 10-11. Mülki hüquq barədə 1954-1955-ci illərdə keçirilən diskussiyada iştirak edən V.A.Tarxov təklif etdi ki, şəxsi qeyri-əmlak münasibətləri mülki hüququn predmetinə daxil edilməsin. Onun fikrince, bu münasibətlər hüquqi tənzimetmənin müstəqil predmetidir (bax: Советское государство и право. 1955. № 5, с. 60). V.Tarxovun bu ideyası kəskin tənqidlə üzləşdi. S.S.Alekseyev çox haqlı olaraq göstərdi ki, həqiqətən müstəqil surətdə tənzimlənməyi tələb edən ictimai münasibətlər ayrıca və müstəqil hüquq sahəsinin yaranmasına gətirib çıxarar (bax: *Алексеев С.С.* Предмет советского социалистического гражданского право // Учен. труды. Свердловск. юрид. ин-та. 1959, с. 149-150).

[1] Bu cür münasibətlərin yaranması adama qəribə gəlir. Təsəvvürə gətirmək olmur ki, müəllifin əsər yaratması ilə necə münasibət əmələ gələ bilər. Axı, münasibətin yaranması üçün heç olmazsa, ən azı iki tərəfin olması gərəkdir. Tərəf (subyekt) öz-özü ilə necə münasibətə girə bilər? Məsələn, alqı-satqı münasibətində alıcı-satıcı, icarə münasibətində icarəçi-icarəyə verən, borc münasibətində borc alan-borc verən, bank münasibətlərində bank-müştəri və s. tərəflərdir. Bu cür münasibətlərdə tərəflər dəqiq olaraq məlumdur. Bunlara nisbi (öhdəlik) münasibətlər deyilir. Bəli, həqiqətən də müəllifin əsər yaratması ilə də münasibət meydana gəlir. Amma bu münasibətin yalnız bir tərəfi, yəni müəllif məlumdur. Bəs digər tərəf? Bu münasibətin digər tərəfi isə dəqiq və konkret olaraq məlum deyil. O tərəf əhatə dairəsi naməlum olan şəxslərdir. Müəlliflik münasibəti də müəllifle bu şəxslər arasında əmələ gəlir. Həmin münasibət mütləq münasibət adlanır. Əşya münasibətləri, o cümlədən mülkiyyət münasibətləri də mütləq münasibətlər hesab edilir. Məsələn, özünə yaşayış evi tikən vətəndaşla əhatə dairəsi məlum olmayan şəxslər arasında mülkiyyət münasibətləri yaranır. Münasibətin tərəfləri hüquq və vəzifələrə malikdirlər. Müəlliflik münasibətində müəllifin əsas hüququ müəlliflik hüquqlarını həyata keçirməkdən, əhatə dairəsi məlum olmayan şəxslərin vəzifəsi isə bu hüquqları həyata keçirməkdə müəllifə mane olmamaqdan ibarətdir.

şə və bütün hallarda bu münasibətlərdən asılı olub, ondan törəyir[1]. Müəllif əsəri yaratmasaydı, onun nüsxələrini (kitabları) necə satmaq olardı? İxtira edilməsə, onda onu təsərrüfat dövriyyəsində necə tətbiq etmək olar? Belə təsəvvür yaranır ki, əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri ümumən və bütövlükdə qeyri-əmlak xarakterinə və təbiətinə malikdir. Bütün hallarda həmin münasibətlər bu xüsusiyyətini saxlayır, onu itirmir.

Əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərinin ikinci xüsusiyyəti ondan ibarətdir ki, **bu münasibətlərin obyekti rolunda qeyri-maddi (ideal) nemətlər** çıxış edir. Belə ki, həmin münasibətlərin obyektini əqli (intellektual) mülkiyyət obyektləri — yaradıcılıq fəaliyyətinin nəticələri təşkil edir. Onlara **müstəsna hüquqların obyektləri** də deyilir. **Əqli mülkiyyət obyektləri** dedikdə, əqli fəaliyyətin nəticələri, əqli əməyin məhsulları başa düşülür. Həmin münasibətlər də məhz bu nəticələrin (məhsulların) yaradılması və onlardan istifadə olunması ilə bağlı olaraq yaranır.

Əqli mülkiyyət obyektləri əsasən beş qrupa bölünür:

• elm, ədəbiyyat və incəsənət əsərləri: bunlar **müəlliflik münasibətlərinin obyektləri** hesab olunur;

• ifalar, fonoqramlar, efir və ya kabel yayımı təşkilatlarının verilişləri: bunlara **əlaqəli münasibətlərin obyektləri** deyilir;

• sənaye mülkiyyəti obyektləri — ixtiralar, faydalı modellər və sənaye nümunələri: bunlar **patent münasibətlərinin obyektləri** adlanır;

• əmtəə nişanları, firma adları: bunlara **fərdiləşdirmə vasitələri** deyilir. Əmtəə nişanı müəssisənin buraxdığı malları (əmtəələri), firma adı isə müəssisənin özünü fərdiləşdirir.

• seleksiya nailiyyətləri, elmi kəşflər, səmərələşdirici təkliflər, qulluq və kommersiya sirlərindən ibarət olan informasiya və s.: bunlara **xüsusi və ya qeyri-ənənəvi obyektlər** deyilir[2].

Göstərilən bu obyektlərin maddi, əşyalaşmış forması yoxdur. Onları əllə toxunmaqla hiss etmək, gözlə görmək və s. mümkün deyil. Ona görə ki, əqli mülkiyyət obyektləri ədəbi-bədii obrazlardan, elmi-texniki ideyalardan, simvollardan və s. ibarətdir. Onlar isə qeyri-maddi nemətlərdir. Məsələn, elə götürək əsəri. Əsər müəllifin yaradıcılıq fəaliyyəti nəticəsində əmələ gələn ideyaların, fikirlərin və obrazların məcmusudur[3]. O, ideya və obrazlarn kompleksi olub, mahiyyətcə qeyri-maddidir. Əsər onu yaradan müəlliflə sıx surətdə bağlıdır. O, həmişə müəllifin beynində qalır. Əsərin özünü müəllif istəsə də, geri qaytarılmadan özgəninkiləşdirə bilməz. Amma onun maddi daşıyıcısını (obyektini) özgəninkiləşdirmək olar. Belə ki, əsər müəyyən formada ifadə oluna bilər. Əsərin özü ilə onun ifadə olunduğu forması bir-birindən fərqləndirmək lazımdır. Əsərin ifadə forması dedikdə, onun əşya (maddi) forması alması başa düşülür. Əlyazma onun ifadə olunduğu formadır. Sonra isə əlyazmadan istifadə olunmaqla əsər kitab halında çap olunur. Kitab əsərin maddi daşıyıcısıdır (maddi obyektidir). O, çoxsaylı oxuculara satılır. Belə təsəvvür yaranır ki, əsərin maddi daşıyıcısı (obyekti) olan kitab əmtəə kimi, kitabın satış yolu ilə mülki dövriyyəyə buraxılması isə əmlak münasibəti kimi çıxış edir. Lakin əsərin kitab halında dərc olunmuş nüsxələri üzərində alıcıların (oxucuların) mülkiyyət hüququ yaransa da, əsərin müəllifi kimi tanınmaq hüququ yenə də müəllifə məxsus olur. Çünki əsərin müəllifi kimi tanınmaq hüququ (müəlliflik hüququ) və digər şəxsi (qeyri-əmlak) müəlliflik hüquqları bölünməz və özgəninkiləşdirilməz olub, müəllifə məxsusdur. Bu hüquqlar, əmlak (iqtisadi) xarakterli müəlliflik hüquqları başqalarına verildiyi hallarda da müəllifdə qalır. Məsələn, dünya ədəbiyyatının korifeylərindən olan dahi və ölməz Nizaminin «İsgəndərnamə», «Yeddi gözəl», «Sirlər xəzinəsi» və s. kimi sənət incilərinin kitab halında çap olunmuş nüsxələrini neçə-neçə milyon oxucu almışdır! Amma XII əsrdən bu günə kimi həmin əsərlərin müəllifi kimi yenə də ölməz Nizami tanınır. Onun göstərilən əsərlərə müəlliflik hüququ heç kəsə keçməmiş və keçə də bilməz.

Beləliklə, əqli mülkiyyət obyektləri qeyri-maddi (ideal) xarakterli nemətlər olsa da, bu obyektlərdən əmtəə kimi istifadə etmək mümkündür. Bu cür istifadə ilə bağlı olaraq yaranan münasibətlər də əmtəə forması alır. Ona görə də həmin münasibətlər əmlak münasibətləri kimi çıxış edir. Müasir bazar əmtəə mübadiləsi, iqtisadi (əmlak) dövriyyə münasibətləri əmtəə nişanlarından, firma adlarından, sənaye nümunələrindən və ixtiralarından istifadə hüququ ilə sıx surətdə bağlıdır. Məsələn, dünya bazarında məşhur olan və tanınan firma başqa bir müstəqil müəssisəyə onun firma adı və ya kommersiya işarəsi altında fəaliyyət göstərməsinə, onun əmtəə və ya xidmət nişanı altında məhsul istehsal etməsinə və ya xidmət göstərməsinə icazə verir. «Lemonti» (hazır paltar), «Ribok» (idman ayaqqabısı), «Soni» (müasir elektron aparatları), «Makdonalds» (qəlyanaltı), «Xilton» (mehmanxana xidməti), «Mersedes» (avtomobil), «Koka-Kola» (içki) və s. bu cür firmalara misal ola bilər. Bu firmalarla onun fərdiləşdirmə vasitələri (əmtəə nişanları, xidmət nişanları, firma adları, kommersiya işarələri) altında fəaliyyət göstərən firma arasındakı münasibətlər frančayzinq adlanır[1]. Frančayzinq qoşa biznes deməkdir. Ümumiyyətlə, biznes işini, kommersiya dövriyyəsini və sahibkarlıq fəaliyyətini əqli mülkiyyət obyektlərindən istifadəsiz təsəvvür etmək çətindir.

Qeyd etmək lazımdır ki, obyekti əqli mülkiyyət obyektlərindən ibarət olan şəxsi qeyri-əmlak münasibətlərinin məhz əmlak münasibətləri ilə bağlılığı həmin münasibətlərin mülki hüquqla tənzimlənməsinə əsas olmuşdur. Bu, mülki hüquqda mübahisə doğuran məsələlərdəndir. Hüquq ədəbiyyatında şəxsi qeyri-əmlak münasibətlərinin mülki hüququn predmetinə daxil edilməsi müxtə-

[1] O.S.Ioffe bu məsələ barədə başqa fikir söyləyir. O göstərir ki, «bağlılıq» termini şəxsi münasibətlərin əmlak münasibətlərinə tabe olmamasını yox, onların vahid ictimai münasibətlər kompleksində birləşməsini ifadə edir. Bu fikir bir o qədər də dəqiq deyil. Düzdür, həmin münasibətlər kompleks halında birləşmişdir. Lakin bu cür birləşmədə əmlak münasibətləri şəxsi münasibətlərə tabedir, ondan asılıdır. Bax, «bağlılıq» termini də bu tabeçiliyi ifadə edir (bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В кн: Гражданское право. Избранные труды. М., 2000, с. 256).

[2] Əqli mülkiyyət obyektləri barədə bax: *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı. 2000, s. 25-26; *Сергеев А.П.* Право интеллектуальной собственности Российской Федерации. Учебник. М., 1999 (гл. 3. гл. 10, 17, 18, 19, 20 və s.).

[3] bax: *Серобровский В.И.* Вопросы советского авторского права. М., 1956, с. 32.

[1] Frančayzinq münasibətlərinin əsas cəhətləri ilə tanış olmaq istəyirsinizsə, bu dərsliyin ikinci cildinin «Frančayzinq müqaviləsi» adlı fəslinə baxın.

lif cür izah edilir. Sovet sivilistlərini həmişə belə bir məsələ maraqlandırmışdır: əmlak münasibətləri ilə şəxsi qeyri-əmlak münasibətlərinin hər ikisi üçün ümumi olan hansı əlamət onları mülki hüququn vahid predmetinə daxil etməyə əsas verir? Müəlliflərdən S.S.Alekseyev belə hesab edir ki, həm şəxsi, həm də əmlak münasibətləri bu münasibətlərdə iştirak edən subyektlərin müəyyən vəziyyətini ifadə edir. Bu, şəxsin ictimai vəziyyəti və ya onun əmlak müstəqilliyinin vəziyyətidir[1]. Peterburq alimi professor Y.K. Tolstoy göstərir ki, həm əmlak-dəyər münasibətlərində, həm də şəxsi qeyri-əmlak münasibətlərində iştirak edən tərəflər bərabər hüquqlara malikdirlər. O, tərəflərin hüquq bərabərliyini həmin münasibətləri mülki hüququn vahid predmetində birləşdirməyə imkan verən əsas əlamət kimi nəzərdə tutur[2]. N.D.Yeqorov qeyd edir ki, həm əmlak münasibətləri, həm də qeyri-əmlak münasibətləri qarşılıqlı qiymətləndirmə xarakterlidir. Bu xüsusiyyət həmin münasibətləri eyni bir hüquq sahəsinin — mülki hüququn predmetinə daxil etməyə imkan verir[3]. Bir qrup müəlliflərin mövqeyinə görə, **əmlak münasibətləri ilə bağlılıq kimi əlamət şəxsi qeyri-əmlak münasibətlərinin mülki hüquqla tənzimlənməsinə dəlalət edir**[4]. Bizim fikrimizcə, sonuncu müəlliflərin mövqeyi daha inandırıcı və həqiqətə yaxındır. Doğrudan da şəxsi qeyri-əmlak münasibətlərinin əmlak münasibətləri ilə bağlı olması kimi əlamət həmin münasibətləri mülki hüququn predmetinə daxil etməyi şərtləndirir.

Bununla belə, hüquq ədəbiyyatında belə bir konsepsiya irəli sürülür ki, guya şəxsi qeyri-əmlak münasibətləri mülki hüquq üçün tipik münasibətlər deyil. Bu münasibətlər mülki-hüquqi tənzimləmə sferasına zorla cəlb edilmişdir[5]. Çətin ki, bu cür əsassız fikirlə razılaşmaq mümkün olsun. Şəxsi qeyri-əmlak münasibətlərinin mülki hüququn predmetinə daxil edilməsi üçün kifayət qədər yetərli arqumentlər vardır.

4. Əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri

Mülki hüququn toxunduğu məsələlərdən biri əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləridir. Onların bilavasitə hər hansı əmlak münasibəti ilə bağlılığı yoxdur. Bu cür münasibətlər şəxsi qeyri-maddi nemətlər barəsində əmələ gəlir. Həmin nemətlər vətəndaş cəmiyyətinin hər bir iştirakçısına məxsusdur. Şəxsi qeyri-maddi nemətlərin iki əsas xüsusiyyəti vardır. Birincisi, bu nemətlər **iqtisadi, maddi (əmlak) məzmuna malik deyil**.

[1] bax: *Алексеев С.С.* Предмет советского социалистического гражданского права // Учен. труды. Свердловск. юрид. ин-та. 1959, с. 149-150.

[2] bax: *Толстой Ю.К.* Кодификация гражданского законодательства в СССР (1961-1965 г. Автореф. докт. дис. Л., 1970, с. 8-9).

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1997, с. 12.

[4] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В кн: Гражданское право. Избранные труды. М., 2000, с. 241; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева.* М., 1979, с. 14; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 31.

[5] bax. *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963, с. 83, *Алексеев С.С.* Структура советского права. М., 1975, с. 172.

Onlar pulla qiymətləndirilmir. İkincisi, həmin nemətlər bu **nemətlərin sahibinin özündən ayrılmazdır, onu özgəninkiləşdirmək olmaz**. Yeni mülki qanunvericilik bu cür nemətləri **«insanın özgəninkiləşdirilməyən hüquq və azadlıqları»** adı altında nəzərdə tutur. Həmin nemətlərin dairəsi geniş və müxtəlifdir: həyat və sağlamlıq; şəxsiyyətin toxunulmazlığı; insanın şərəf, ləyaqət və işgüzar nüfuzu; fəaliyyət növü seçmək azadlığı; şəxsi həyatın toxunulmazlığı; yaşayış yeri seçmək və sərbəst hərəkət etmək; sağlam ətraf mühitdə yaşamaq; mənzil toxunulmazlığı; şəxsi ünsiyyət vasitələrinin (poçt yazışması, telefon danışıqları, teleqraf məlumatları və s.), şəxsi-xüsusi sənədlərin (məktubların, gündəliklərin, yol qeydlərinin və s.) toxunulmazlığı və s. Şəxsi qeyri-maddi nemətlər vətəndaşların (fiziki şəxslərin) həm fiziki cəhətdən, həm də sosial cəhətdən mövcud olmasını təmin edir. Bu nemətlər cəmiyyətdə insanın vəziyyətini, bələləklə də, bütövlükdə cəmiyyətin özünün inkişaf səviyyəsini müəyyən edir və şərtləndirir.

Cəmiyyətdə yaşayan hər bir fiziki şəxsin məxsus olduğu şəxsi qeyri-maddi nemətlər barədə müəyyən münasibətlərin bir tərəfində həmin nemətlərin sahibi çıxış edir. Həmin münasibətin digər tərəfi isə əhatə dairəsi məlum olmayan şəxslərdən ibarətdir. Bununla da onlar arasında münasibət yaranır ki, bu, şəxsi qeyri-əmlak münasibəti sayılır. O, **mütləq münasibətdir**. Özü də həmin münasibətin hər hansı bir əmlak münasibəti ilə bağlılığı və əlaqəsi yoxdur. Ona görə də obyekti şəxsi qeyri-maddi nemətlər olan bu cür münasibətlər əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri adlanır. Bu münasibətlərin mülki hüquqla tənzimlənməsi və ya müdafiə edilməsi mülki hüquq elmində (doktrinasında) mübahisə doğuran məsələlərdən biridir. Bu mübahisənin tarixi XX əsrin 60-cı illərinə gedib çıxır.

Tanınmış sivilist alimlərdən O.S. İoffe həmin dövrdə belə bir nəzəri konsepsiya irəli sürdü ki, əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri mülki hüquqla yalnız qorunur və müdafiə edilir. Onun fikrincə, bu cür münasibətlər mülki hüquqla tənzimlənmir[1]. O.S. İoffe öz mövqeyini əsaslandırmaq üçün kifayət qədər tutarlı arqumentlər gətirdi[2]. O, göstərdi ki, hüquqi tənzimetmə (məhdud mənada) normal vəziyyət yaratmaq üçün ictimai münasibətlərin normallaşdırılmasıdır. Hüquqi qoruma (mühafizə) isə pozulmuş münasibətlərin bərpa edilməsinə yönəlir. Eyni zamanda qeyd edildi ki, hüquq sahəsi hüquqi mühafizə etmə (qoruma) predmeti ilə yox, hüquqi tənzimetmə predmeti ilə müəyyən edilir. Belə ki, məsələn, cinayət hüququ sosialist əmlak münasibətlərini mühafizə edir (qoruyur). Amma o, bu münasibətləri tənzim etmir. Cinayət hüququ cinayətin baş verməsi və cinayətkara cəza verilməsi ilə bağlı yaranan münasibətləri tənzimləyir, yəni mühafizə etdiyi (qoruduğu) əmlak münasibətlərini tənzimləmir. Daha sonra alim göstərirdi ki, əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri əmələ gəlmə əsaslarına və subyekt tərkibinə görə əmlak münasibətlərindən fərqlənir. Ona görə də bu münasibətlərlə əmlak münasibətləri eyninövlü (eynicinsli) münasibətlər

[1] bax: *Иоффе О.С.* Охрана чести и достоинства граждан // Советское государство и право. 1962. № 7, с. 62.

[2] Bu arqumentlər barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 256-257.

hesab edilmir. Bu səbəbə görə də əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri mülki hüququn nizamasalma predmetinə daxil edilmir. O.S. İoffenin mövqeyinə görə, amma bu münasibətlər mülki-hüquqi mühafizə ilə təmin edilə bilər.

Müəllif belə qənaətə gəlir ki, müvafiq normaların məzmunu, habelə əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərinin təbiəti bu münasibətlərin mülki hüquqla tənzimlənməsini yox, yalnız qorunmasını (mühafizə edilməsini) sübut edir və təsdiqləyir. Onun fikrincə, şərəf və ləyaqəti hüquqi cəhətdən tənzimləmək olmaz[1].

O dövrün qanunvericiliyi O.S.İoffenin mövqeyini nəzərə aldı. SSRİ Mülki Qanunvericiliyinin Əsaslan (1961) və müttəfiq respublikaların mülki məcəllələri sovet mülki qanunvericiliyi tarixində ilk dəfə olaraq əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərinin (şərəf, ləyaqət və s.) mülki hüquqla mühafizə edilməsi (qorunması) haqqında qayda nəzərdə tutdu. Azərbaycan Respublikasının köhnə 1964-cü il MM-i şərəf və ləyaqət kimi şəxsi qeyri-maddi nemətlərin mülki hüquqla müdafiə edilməsi haqqında göstəriş ifadə etdi. Bu cür göstəriş bəzi dəyişiklik və əlavələrlə yeni qanunvericilikdə də saxlanılır (MM-in 23-cü maddəsi).

O.S. İoffenin irəli sürdüyü konsepsiyanı RF-in yeni mülki qanunvericiliyi də nəzərə almışdır. Belə ki, RF-in MM-in 2-ci maddəsinin 2-ci bəndinə görə insanın özgəninkiləşdirilməyən hüquq və azadlıqları, digər qeyri-maddi nemətləri mülki qanunvericiliklə müdafiə olunur. Bundan fərqli olaraq, Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi şəxsi maddi nemətlərin gerçəkləşdirilməsi və müdafiəsi ilə bağlı münasibətlərin mülki qanunvericiliklə tənzimlənməsi barədə göstəriş ifadə edir (MM-in 2-ci maddəsinin 4-cü bəndi).

Konsepsiya irəli sürüldüyü andan O.S.İoffenin mövqeyi ədəbiyyatda tənqidlə üzləşdi[2]. Bu mövqeyi tənqid edən müəlliflər öz fikirlərini əsaslandırmaq üçün müxtəlif dəlillər gətirirdilər. Bir qrup müəlliflər göstərirdilər ki, hüquqi mühafizə etmə hüquqi tənzimetmədən ayrılmazdır, şərəf və ləyaqətin hüquqla tənzimlənməsi mümkündür, bu, istisna edilmir[3]. Y.K.Tolstoy belə hesab edirdi

[1] Əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərinin (ad, şərəf, ləyaqət və s.) mühafizə edilməsinin (qorunmasının) vacibliyi və zəruriliyi sovet sivilistləri tərəfindən əsaslandırılırdı. Tanınmış alimlərdən E.A.Fleyşits bu məsələyə xüsusi diqqət yetirirdi (bax: *Флейшиц Е.А.* Личные права в гражданском праве СССР и капиталистических стран. М., 1941). Lakin A.V. Venediktov bu cür hüquqi mühafizənin müəyyənləşdirilməsinin zəruriliyini inkar edirdi. O göstərirdi ki, belə mühafizə sovet hüququnun digər sahələri ilə kifayət qədər təmin edilir.

[2] O.S.İoffenin konsepsiyasına tərəfdar çıxan müasir müəlliflərdən biri Y.A.Suxanovdur. O, bu konsepsiyanı əsaslı hesab edir (Гражданское право. Учебник. Том 1 /Под ред. *Е.А.Суханова*. М., 1998, с. 32-33). M.İ.Braginski də O.S.İoffenin konsepsiyasını dəstəkləyir (bax: Комментарий части первой Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1995, с. 18-19). O.N.Sadikov da bu cür mövqedədir (bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой /Под ред. *О.Н.Садикова*. М., 1999, с. 8).

[3] *Флейшиц Е.А., Маковский А.Л.* Теоретические вопросы кодификации республиканского гражданского законодательства //Советское государство и право. 1963. №1, с.87; *Вердников В.Г.* Вопросы гражданского права в совете решений XXII съезда КПСС. М., 1964, с. 11-12.

ki, şərəf və şəxsi nemətlərə qəsd nəticəsində əmələ gələn münasibətlər, şübhəsiz, mülki hüquqla tənzimlənir[1]. N.D.Yeqorovun fikrincə, şəxsi qeyri-əmlak münasibətləri əmlak münasibətləri ilə bağlılığından asılı olmayaraq, mülki hüquqla tənzimlənir[2]. Bəzi müəlliflər göstərirlər ki, müdafiə (qorumaq) ictimai münasibətləri hüquqi tənzimetmə formalarından biri olub, onun ayrılmaz hissəsidir. Ona görə də əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri mülki hüquqla həm müdafiə olunur, həm də tənzimlənir[3]. T.İ.İlarionovanın fikrincə, həmin növ münasibətlər mülki hüquqi tənzimetmənin predmetinə daxildir. O, belə hesab edir ki, müdafiə tənzimetmənin formasıdır[4]. Demək olar ki, müasir müəlliflərin çoxu bu cür mövqedə dururlar[5].

Bizim fikrimizcə, **əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri mülki hüquqla həm tənzimlənir, həm də qorunur (müdafiə edilir).** Qeyd etdiyimiz kimi, bu münasibətlərin obyektləri şəxsi qeyri-maddi nemətlərdir (həyat, sağlamlıq, şərəf, ləyaqət və s.). Vətəndaş bu nemətlərə malik olduğu andan onunla əhatə dairəsi məlum olmayan şəxslər arasında münasibət yaranır. Aydın bir həqiqətdir ki, münasibətdə iştirak edən tərəflər hüquq və vəzifələrə malikdirlər. Belə ki, vətəndaş şəxsi qeyri-maddi nemətlərdən istifadə etmək hüququna malikdir. Əhatə dairəsi məlum olmayan şəxslər, yəni münasibətin ikinci tərəfi vətəndaşın qeyri-maddi nemətlərdən istifadə etməsinə mane olmamaq vəzifəsini daşıyır. Tərəflərin hüquq və vəzifələri mülki hüquqla müəyyən edilir. Mülki hüquq onların davranışını müəyyənləşdirir. Əgər mülki hüquq şəxsi qeyri-maddi nemətlərin sahibinin və digər qarşı tərəfin — münasibət iştirakçılarının (tərəflərinin) hüquq və vəzifələrini müəyyən edirsə, onda bu, o deməkdir ki, mülki hüquq həmin münasibəti tənzimləyir. Tənzimləmək müəyyən etmək deməkdir[6]. Hüquqi tənzimetmə hüquqi vasitələr sisteminin (hüquq normalarının, hüquq münasibətlərinin, hüquqi göstərişlərin və s.) köməyi ilə həyata keçirilən elə bir aktdır ki, bununla ictimai münasibətlər qaydaya salınır.

Beləliklə, əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri mülki hüququn predmetinə daxildir. Mülki hüquq həmin münasibətləri

[1] bax: *Толстой Ю.К.* Кодификация гражданского законодательства в СССР (1961-1965). Автореф. докт. дис. Л., 1970.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю. К.Толстого*. М., 1997, с. 7.

[3] bax: Гражданское право. Учебник. Часть 1 /Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 13-14.

[4] bax: Гражданское право. Учебник. Часть 1 /Под ред. *Т.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 7.

[5] bax: Советское гражданское право. Учебник Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986; Гражданский кодекс Российской Федерации. Часть 1. Научно-практический комментарий / Под ред. *Т.Е.Абова, А.Ю.Кабалкина, В.П.Мозолина*. М., 1996, с. 14; *Дозорцев В.А.* Тенденции развития Российского гражданского права при переходе к рыночным экономике / Международная научно-практическая конференция. М., 1994, с. 17-18; *Красавчикова Л.О.* Понятие и система личных неимущественных прав граждан (физических лиц) в гражданском праве Российской Федерации. Екатеринбург. 1994, с. 4-57; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 726 и др.

[6] bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношений // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 651.

nəzərə alaraq tənzimləmək, nizamlamaq və qaydaya salmaq iqtidarındadır.

§ 3. Mülki hüququn metodu və funksiyaları

1. Mülki hüququn metodu

Mülki hüququn metodu, mülki hüququn müstəqil hüquq sahəsi kimi fərqləndirilməsinə dəlalət edən əsas əlamətlərdən (meyarlardan) biridir. Bu əlamət predmetlə birlikdə hüquq sistemində mülki hüququn ayrılmasını şərtləndirir[1]. Qeyd etdik ki, mülki hüququn predmeti maddi, iqtisadi, bununla belə, mülki hüququn metoduna nisbətən həm də əsas və mühüm əlamətdir (meyardır). Bu əlamət obyektiv məzmuna malik olub, prinsip etibarilə qanunvericinin iradəsindən asılı deyil. Mülki hüququn metoduna (yunanca methodos — üsul) gəldikdə isə göstərmək lazımdır ki, o, mülki hüququn predmetinə münasibətdə əlavə, törəmə əlamət hesab edilir. O, **hüquqi əlamətdir (meyardır)**. Özü də metod müstəqil əhəmiyyətə malik deyil. Dediklərimizdən belə çıxır ki, mülki hüququn metodunun mahiyyəti onun predmeti ilə şərtlənir, ikinci dərəcəli əhəmiyyət kəsb edir, **predmetdən asılı olub, ondan törəyir**[2]. O, predmetdən fərqli olaraq **subyektiv xarakter daşıyır**. Belə ki, nizama salınan münasibətlərin xarakteri və təbiəti bu və ya digər metoddan istifadə olunmasına əsas verir. Metod mühüm dərəcədə **qanunvericinin iradəsindən asılıdır.** Amma hüquqi tənzimetmənin effektiv olması, qarşıya qoyulan məqsədə nail olunması mühüm dərəcədə mülki hüququn metodundan asılıdır. Metod predmetlə birlikdə mülki hüququn müstəqil hüquq sahəsi kimi ayrılması üçün əsas rol oynayır. Axı, əmlak və şəxsi qeyri-əmlak münasibətlərinin olması hələ özlüyündə avtomatik olaraq mülki hüquq sahəsini yaratmır.

Mülki hüququn predmeti təkcə və ayrılıqda bu hüququn müstəqil sahə kimi ayrılmasına əsas vermir. Belə ki, real ictimai həyatda hüququn müxtəlif sahələri ilə tənzimlənən əmlak münasibətləri vardır. Məsələn, bütün formalarda mülkiyyət münasibətləri hüququn dörd sahəsi — mülki hüquq, cinayət hüququ, inzibati hüquq və konstitusiya hüququ kimi sahələri tərəfindən tənzimlənir. Bu halda hüquqi tənzimetmə metodu köməyə gəlir. Belə ki, hər bir hüquq sahəsinin özünəməxsus hüquqi tənzimetmə metodu vardır. Metod tətbiq edilir və həmin hüquq sahələri bir-birindən fərqləndirilir.

Həm predmet, həm də metod mülki hüquq sisteminin qurulmasında və yaranmasında vacib rol oynayır. Onlar bir-biri ilə sıx surətdə bağlı olub, qarşılıqlı

[1] Hüquq sistemində mülki hüquq müstəqil sahə kimi ayrılarkən hüquqi tənzimetmə metodu və predmeti kimi iki meyarın məcmu halında tətbiq edilməsi ideyasının ən fəal tərəfdarlarından biri tanınmış alim S.S.Alekseyevdir. O, göstərir ki, bu və ya digər ictimai münasibəti mülki hüquq sferasına daxil edərkən hər iki meyardan istifadə etmək lazımdır. Düzdür, bəzi çıxışlarında S. Alekseyev hüquqi tənzimetmə metodunu hədsiz dərəcədə şişirdir. Onun fikrincə, metod nizama salınan münasibətlərin özünü dəyişmək iqtidarına malikdir. Bu fikir, şübhəsiz ki, dəqiqlikdən uzaqdır (bax: *Алексеев С.С.* О предмете советского гражданского права и методе гражданско-правового регулирования // Советское государство и право. 1955 № 2, с. 114-118).

[2] bax: *Генкин Д. М.* Предмет советского гражданского права // Советское государство и право. 1955. № 1, с. 106.

əlaqədədir[1].

Mülki hüququn metodu dedikdə, mülki hüququn tənzimlədiyi ictimai münasibətlərə etdiyi hüquqi təsir üsullarının, yollarının və vasitələrinin məcmusu başa düşülür. O, hüquqi alətlərin elə bir toplusu və komplektidir ki, bunun vasitəsi ilə mülki hüquq subyektlərinin — mülki dövriyyə iştirakçılarının davranışına və iradəvi ictimai münasibətlərinə zəruri təsir göstərilir. Mülki hüququn metodu bu cür suallara cavab verir: **«mülki hüquq necə tənzim edir?»; «mülki hüquq öz tənzimetmə və nizamasalma rolunu necə həyata keçirir?»; «mülki hüququn ictimai münasibətlərə göstərdiyi təsir necə yerinə yetirilir?»**. Belə təsəvvür yaranır ki, metodun vasitəsi ilə mülki hüquq ictimai münasibətlərin tənzimləyicisi kimi bu münasibətlərə normativ qaydada təsir edir. Metod spesifik üsulların, vasitələrin və yolların sistemidir[2].

Mülki hüququn metodu bir neçə spesifik xüsusiyyətə malikdir. Bu xüsusiyyətlər mülki hüququn metodunu digər hüquq sahələrinin metodundan fərqləndirməyə imkan verir.

Mülki hüququn metodunun **birinci xüsusiyyəti** bu hüquqla tənzimlənən münasibətlərdə çıxış edən **subyektlərin hüquqi vəziyyətinin xarakteri ilə** bağlıdır. Mülki hüququn toxunduğu sahə iqtisadi (əmlak) dövriyyə münasibətləridir. Onun əsas işi əmtəə dövriyyəsi ilə — mübadilə prosesi ilə bağlıdır. Əmtəə mübadiləsi iqtisadi dövriyyənin əsas münasibətləridir. Bu əsas münasibətlərin vacib və zəruri şərti tərəflərin bərabərliyindən ibarətdir. Mülki hüququn toxunduğu sahə — əmtəə mübadiləsi tərəflərin, yəni bu mübadilə münasibətlərində iştirak edən subyektlərin bərabər olmalarını şərtləndirir. Tərəflərin bərabərliyi əmtəə dövriyyəsi iştirakçısının digər iştirakçıya öz iradəsini diktə edə bilməməsini ifadə edir. Ona görə də mülki hüququn metodunun xarakterik cəhəti bu hüquq sahəsi ilə tənzimlənən **münasibətlərdə iştirak edən tərəflərin (subyektlərin) bərabərliyindən** ibarətdir. Söhbət onların iqtisadi (faktiki) bərabərliyindən yox, hüquq bərabərliyindən gedir. Aydın bir həqiqətdir ki, çox vaxt təcrübədə iqtisadi dövriyyə iştirakçıları — tərəflər iqtisadi cəhətdən bərabər olmurlar. Amma onlar hüquqi cəhətdən həmişə və bütün hallarda bərabərdirlər. Tərəflərin hüquq bərabərliyi subyektlərin cəmiyyətin iqtisadi (əmlak) dövriyyə, yaradıcılıq fəaliyyəti və digər sahələrində bərabər imkanlara malik olmalarının normativ (qanunvericilik) qaydada ifadəsidir.

Bununla belə, tərəflərin hüquq bərabərliyi o demək deyil ki, konkret müna-

[1] Mülki hüququn predmeti və metodu kimi iki əlamət vahiddir. Onların vahidliyi yalnız mülki hüquqa xasdır. Belə vahidliyi əmlak münasibətlərini tənzimləyən hər hansı bir hüquq sahəsi tanımır (bax: *Иоффе О.С.* Развитие цивилистической мысли . Часть 1 // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 226).

[2] Mülki hüququn metoduna həsr edilmiş elmi yazıları bir o qədər də geniş və əhatəli hesab etmək olmaz. Sovet sivilistika ədəbiyyatında bu məsələyə toxunan yalnız bir monoqrafiya əsərinə rast gəlirik. Bu, V.F.Yakovlevin yazdığı monoqrafiyadır (bax: *Яковлев В.Ф.* Гражданско-прававой метод регилирования общественных отношений. Свердловск. 1972). Bundan əlavə, mülki hüququn metodu barədə bax: *Алексеев С.С.* Предмет советского социалистического гражданского права // Учен. тр. Свердловск. Юрид. Ин-та, 1959; *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963; *Яковлев В.Ф.* О некоторых вопросах приминения части первой гражданского кодекса арбитражными судами// ВВАС РФ. 1995.

sibətlərdə iştirak edən subyektlərdən hər biri bərabər hüquqlara malikdir. Məsələn, bank əmanəti (depozit) müqaviləsi üzrə bank yalnız vəzifə daşıyır (əmanəti faizi ilə birlikdə əmanətçiyə qaytarmaq vəzifəsi), onun demək olar ki, huququ yoxdur. Renta müqaviləsi üzrə renta ödəyicisi rentanı ödəmək kimi vəzifə daşıyır. Onun hər hansı bir hüquqa malik olmasından danışmaq olmaz.

Çox vaxt tərəflərin hüquq bərabərliyi metodu əmlak münasibətlərinin hansı hüquq sahəsi ilə tənzimlənməsini və bu münasibətlərin hansı hüquq sahəsinin predmetinə daxil edilməsini müəyyənləşdirməyə imkan verir. Axı, real ictimai həyatda əmlak münasibətləri mülki hüquqdan savayı, digər hüquq sahələri ilə də (məsələn, konstitusiya hüququ ilə, maliyyə hüququ ilə, inzibati hüquq ilə, cinayət hüququ ilə) tənzimlənə bilər. Bu cür hallarda metod köməyə gəlir. Məsələn, müəssisə öz mənfəətindən dövlət büdcəsinə vergi verir. Bu, əvvəllərdə qeyd etdiyimiz kimi, əmlak münasibətidir. Bu münasibətdə iki tərəf — müəssisə və dövlət çıxış edir. Tərəflərin hüquq bərabərliyi metodunu tətbiq etsək görərik ki, həmin münasibətdə iştirak edən tərəflər bir-biri ilə hakimiyyət-tabeçilik əlaqəsindədir. Bu münasibətdə tərəflərin hüquq bərabərliyindən söhbət gedə bilməz. Deməli, həmin əmlak münasibəti mülki hüquqla yox, maliyyə hüququ ilə tənzimlənir. Hüquq ədəbiyyatında bu metoda bəzi müəlliflər xüsusi diqqət yetirirlər. Bəzi halda tərəflərin hüquq bərabərliyinə mülki hüququn təsir sferasının müəyyənləşdirilməsinə imkan verən və bu hüquqla tənzimlənən əmlak münasibətlərinin özünün xarakteri ilə şərtlənən metod kimi[1], bəzi halda mülki hüququn spesifik metodu kimi[2], bəzi halda hüquq sistemində mülki hüququn ayrılmasına əsas olan metodu xarakterizə edən yeganə xüsusiyyət (xassə) kimi[3], digər halda mülki hüququn metoduna verilən xarakteristikanın əsasi kimi qiymət verilir[4].

Mülki hüququn tənzimetmə metodunun **ikinci xüsusiyyəti** tərəflər arasında **hüquqi əlaqənin əmələ gəlmə cəhəti** ilə bağlıdır. Mülki münasibətlərdə iştirak edən tərəflərin arasındakı hüquqi əlaqə onların iradə azadlığına və sərbəstliyinə əsaslanır. **Tərəflərin iradə azadlığı və sərbəstliyi mülki hüququn metodunun ikinci xüsusiyyətini təşkil edir.** Bu, mülki münasibət iştirakçılarının öz iradələrini formalaşdırmaqda və təzahür etdirmələrində onların müstəqilliyini, heç kəsdən asılı olmamalarını ifadə edir. Çox vaxt və əksəriyyət hallarda mülki hüquq subyektləri arasında münasibətlər həmin subyektlərin razişinə (razılaşmasına) əsaslanır. Bu saziş isə hüquqi cəhətdən **mülki-hüquqi müqavilə ilə** rəsmiləşdirilir. Mülki-hüquqi müqavilə konstruksiyası tərəflərin iradə azadlığının və sərbəstliyinin ifadə olunmasını təmin edir, hakimiyyət səlahiyyətlərinin tətbiq edilməsinə yol vermir.

Müqavilə konstruksiyası imkan verir ki, tərəflər öz aralarındakı qarşılıqlı münasibətləri öz istəkləri, iradələri və mülahizələri əsasında müəyyənləşdirsinlər.

[1] bax: *Генкин Д.М.* Предмет советского гражданского права // Советское государство и право. 1955. №1, с. 106.

[2] bax: *Толстой Ю.К.* Кодификация гражданского законадательства в СССР (1961-1965 гг.). Автореферр. докт. дисс. Л., 1970, с. 9.

[3] bax: Гражданское право. Учебник. Часть 1 // Под ред. *А.А.Сергеева, Ю.К.Толстого*, М., 1998, с.12.

[4] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 34.

Belə təsəvvür yaranır ki, mülki hüquq subyektlərinə aralarındakı qarşılıqlı münasibətləri və bu münasibətlərin məzmununu müqavilə əsasında özlərinin müəyyən etmələrinə ixtiyar verilmişdir.

Tərəflərə öz aralarındakı qarşılıqlı münasibətləri müəyyənləşdirmək üçün verilən ixtiyar dispozitivlikdə (latınca «disponore»-malikəm, sərəncam verirəm) ifadə olunur. Mülki hüquqda **dispozitivlik** tərəfin müstəqil olaraq mümkün olan davranış variantını seçməsini bildirir. Tərəf onun üçün sərfəli və məqsədəuyğun olan davranış alternativindən birini seçir. Deməli, tərəflərin iradə azadlığı dispozitivlikdə ifadə olunur. Nəzəri ədəbiyyatda dispozitivlik mülki hüququn əsas metodu hesab edilir[1].

Tərəflərin iradə azadlığı və sərbəstliyi **təşəbbüskarlıqla** bağlıdır. Mülki hüququn subyekti müstəqil olub, heç kəsdən asılı deyil. Qərar qəbul etmək cəhdi, bu qərarları həyata keçirmək təşəbbüsü ona məxsusdur. Təşəbbüskarlıq subyektin öz ehtiyacını təmin etmək məqsədilə müxtəlif münasibətə girməsinə yönələn atdığı ilk addımdır. Məsələn, mülki hüquq subyekti müqavilə bağlamaq niyyəti ilə digər tərəfə təklif göndərir və yaxud öz əmlakı barəsində vəsiyyət sərəncamı verir. O, bu cür hərəkətləri öz təşəbbüsü ilə edir. Özü də müvafiq tərəfin göstərdiyi təşəbbüs onun iradəsinə uyğun olmalıdır. Subyektin iradəsinə zidd olan təşəbbüskarlıqdan söhbət gedə bilməz.

Mülki hüququn metodunun **üçüncü xüsusiyyəti** tərəflər arasında əmələ gələn **mübahisə və ixtilafların həll edilməsinin spesifikliyi** ilə bağlıdır. Bu xüsusiyyət mübahisəli məsələlərin həll edilməsindən, pozulmuş mülki hüquqların müdafiə edilməsindən ibarətdir. Müxtəlif mülki münasibətlərdə iştirak edən tərəflərə mülki hüquq bərabər hüquqlu, bir-birindən asılı olmayan subyektlər kimi baxır. Ona görə də həmin tərəflər arasında əmələ gələn mübahisəyə onlarla hər hansı bir asılılıq-tabeçilik münasibətlərində olmayan üçüncü şəxs, marağı olmayan şəxs və ya orqan baxır. Asılılıq-tabeçilik münasibətlərində olmamaq dedikdə əmlak, hakimiyyət-tabeçilik, təşkilati-hakimiyyət, subordinasiya, inzibati tabeçilik, şəxsi və digər münasibətlərdə olmamaq başa düşülür. Məhkəmə orqanları məhz bu cür münasibətlərə yer olmadığı ədalət mühakiməsi orqanıdır. Ona görə də pozulmuş mülki hüquqların müdafiə edilməsində o, əsas və başlıca rol oynayır. Tərəflər arasında yaranan mübahisəli məsələlər əsasən, bir qayda olaraq, məhkəmə vasitəsilə həll edilir. Buna mülki hüquqların **məhkəmə yolu ilə müdafiəsi** deyilir. Məhkəmə yolu ilə müdafiədən o halda istifadə olunur ki, pozulmuş mülki hüquqları digər qarşı tərəf könüllü surətdə bərpa etməsin. Məsələn, borc münasibəti üzrə borc alan müddət başa çatmasına baxmayaraq, aldığı borc məbləğini könüllü surətdə geri qaytarmır. Hüququ pozulmuş borc verən məhkəməyə müraciət edir. Başqa bir misalda, zavod aldığı tikinti materiallarının pulunu könüllü surətdə ödəmir. Hüququ pozulmuş tərəf (yəni tikinti materialları göndərən müəssisə) məhkəmə müdafiəsindən istifadə edir. Mülki hüquqların məhkəmə ilə müdafiəsini rayon (şəhər) məhkəmələri, yerli iqtisad məhkəmələri, münsiflər məhkəməsi və s. həyata keçirir. Məhkəmə müdafiəsinin əsas vasitəsi iddiadır. Ona görə də bu

[1] bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 409; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 216.

cür müdafiə **iddia qaydasında müdafiə** də adlanır.

Mülki hüquqda məhkəmə müdafiəsindən savayı, inzibati yolla müdafiədən də istifadə olunur. Buna **mülki hüquqların xüsusi qaydada** və ya **inzibati qaydada** müdafiəsi deyilir. Bu müdafiə pozulmuş mülki hüquqları bərpa etmək üçün və ya mübahisəli hüququ müdafiə etmək üçün müvafiq tərəfin yuxarı instansiya orqanına və ya vəzifəli şəxsə müraciət etməsini nəzərdə tutur. İnzibati qaydada müdafiədən yalnız qanunda nəzərdə tutulduğu hallarda istifadə olunur. Məsələn, torpaq üzrə mübahisələrə müvafiq icra hakimiyyəti və ya bələdiyyə baxır (Torpaq Məcəlləsinin 103-cü maddəsinin 5-ci bəndi)[1]. Bununla bağlı mübahisələr yarandığı halda məhkəmə müdafiəsindən istifadə olunmur. Lakin inzibati qaydada müdafiə yolu mülki hüquq üçün tipik və xarakterik deyil. Mülki hüquqda mübahisələrin məhkəmə qaydasında müdafiəsi başlıca və əsas yer tutmaqla, müqayisə edilməz dərəcədə üstünlüyə malikdir. Ayrı və başqa cür də ola bilməz. Axı, mülki hüquq subyektləri (tərəfləri) öz aralarındakı münasibətlərdə hüquqca bərabər olub, bir-birindən asılı deyillər.

Mülki hüququn metodunun **dördüncü xüsusiyyəti** hüquq pozuntusu törədən şəxsə tətbiq edilən **məcburiyyət tədbirləri** ilə əlaqədardır. Mülki dövriyyənin normal inkişafı üçün vacib və zəruridir ki, bu dövriyyənin iştirakçıları öz öhdəliklərini və vəzifələrini lazımınca icra etsinlər. Bəzi hallarda müqavilə öhdəlikləri (alqı-satqı, daşıma, podrat, icarə, kredit, kirayə, borc və s.) lazımınca yerinə yetirilmir və ya ümumiyyətlə yerinə yetirilmir. Subyektin mülkiyyət hüququ pozulur. Vətəndaşın malik olduğu əmlak zədələnir və istifadə üçün yararsız hala düşür. Bu cür hallarda mülki hüquq pozuntusu əmələ gəlir. Gələcəkdə belə mənfi halların baş verməsinin qarşısını almaq və onun yaratdığı nəticələri aradan qaldırmaq üçün tərədilmiş hüquq pozuntusuna görə sanksiya kimi mülki hüquq məsuliyyəti müəyyən edilir.

Mülki hüquqda sanksiya dedikdə, hüquq pozuntusu törədən şəxs üçün qanunda və ya müqavilədə müəyyən nəticələr nəzərdə tutulması başa düşülür. Onlar iki qrupa bölünür: müdafiə tədbirləri; məsuliyyət tədbirləri. **Müdafiə tədbirlərinin** tətbiq edilməsi, bir qayda olaraq, hüquq pozuntusu törədən şəxs üçün əmlak xarakterli mənfi nəticələr yaratmır. Məsələn, vətəndaş bağ evi tikir. O, öz qonşusunu köməyə çağırır. Ev tikilib qurtardığı zaman qonşu iddia edir ki, bağ evi ona məxsusdur. Mübahisə yaranır. Vətəndaş bağ evinə özünün mülkiyyət hüququnun tanınması üçün məhkəməyə müraciət edir. Məhkəmə iddiaya baxaraq vətəndaşın bağ evinə mülkiyyət hüququnun tanınması barədə qərar qəbul edir. Deməli, belə halda hüququn tanınması kimi müdafiə tədbiri tətbiq olunur. Göründüyü kimi, bu tədbirin tətbiqi qonşu üçün əmlak xarakterli mənfi nəticə yaratmır. Müdafiə tədbirlərinin digər növləri (məsələn, əvvəlki vəziyyəti bərpa etmək, hüquq münasibətlərinə xitam verilməsi, vəzifənin icrasının natura ilə müəyyən edilməsi və s.) də vardır.

Məsuliyyət tədbirləri isə, bir qayda olaraq, hüquq pozuntusu törədən şəxs üçün əmlak xarakterli nəticələr yaradır. Mülki hüququn dördüncü xüsusiyyəti də məhz hüquq pozuntusuna görə məsuliyyət tədbiri növündə müvafiq şəxsə tətbiq edilən **sanksiyanın əmlak xarakterli olması ilə bağlıdır.** Deməli, mülki hüquq məsuliyyəti əmlak xarakterlidir. Bu, onu ifadə edir ki, şəxs törətdiyi hüquq pozuntusu nəticəsində vurulmuş zərərin (itkinin) əvəzini ödəmək və ya zərəri kompensasiya etmək vəzifəsini daşıyır. O, həmin şəxsin əmlak sferasında əlavə yük yaradır.

Mülki qanunvericilik mülki hüquq məsuliyyətinin müxtəlif formalarını nəzərdə tutur. Bu, formalar içərisində **zərərin (itkinin) əvəzinin ödənilməsi** xüsusi rol oynayır. Zərər (itki) **iki hissədən ibarətdir: real zərər; əldən çıxmış fayda.** Məsələn, kirayəyə götürülmüş taxtadan tikilmiş bağ evinin xeyli hissəsi yanır. Kirayə verən şəxs bağ evini iki ay təmir-bərpa etdirir. Təmir-bərpa işinə çəkilən xərc real zərəri (itkini) ifadə edir. Təmir-bərpa işlərinin həyata keçirildiyi iki ay müddətində o, iki aylıq kirayə haqqından məhrum olur və bununla zərərə düşür. Bu isə zərərin əldən çıxmış fayda adlı ikinci hissəsini təşkil edir. Kirayəçi həm təmir-bərpa işlərinə çəkilən xərci (real zərəri), həm də iki aylıq kirayə haqqını (əldən çıxmış faydanı) ödəməlidir. Deməli, belə halda zərərin əvəzinin ödənilməsi formasında mülki məsuliyyət forması tətbiq olundu. O, şübhəsiz, əmlak xarakterlidir.

Dəbbə pulu (cərimə, penya) mülki hüquq məsuliyyətinin xüsusi xarakterli formasıdır. Bu məsuliyyət forması da əmlak xarakterlidir. Məsələn, bank və kredit alan firma kredit müqaviləsində belə bir şərt nəzərdə tutur ki, əgər kreditin qaytarılmasını gecikdirərsə, onda firma hər gecikdirilən gün üçün kredit məbləğinin bir faizi həcmində dəbbə pulu versin.

Mülki hüquqda mənəvi zərərin kompensasiya edilməsi də əmlak xarakterlidir. Bu cür zərərin pulla qiymətləndirilməsi məhkəmə tərəfindən həyata keçirilir.

Mülki hüquq elmində mülki hüququn predmeti ilə bərabər, mülki hüququn metodu məsələsi də mübahisə doğurur. Ədəbiyyatda belə bir fikir irəli sürülür ki, mülki hüququn metodu yalnız bir xüsusiyyətlə xarakterizə oluna bilər. Bu cür xüsusiyyət rolunda tərəflərin hüquq bərabərliyi çıxış edir[1]. Belə mövqe ilə çətin ki, razılaşmaq olar. Qeyd etdiyimiz kimi, mülki hüququn metodu dörd əsas xüsusiyyətlə xarakterizə edilir.

2. Mülki hüququn funksiyaları[2]

Mülki hüququn funksiyaları (latınca functio – fəaliyyət, həyata keçirmə)[3] onun ictimai həyatda və cəmiyyətdə yerinə yetirdiyi sosial rolu xarakterizə edir. Bu hüquq sahəsinin mahiyyəti və sosial təyinatı onun funksiyalarında konkretləşir və açıqlanır.

Mülki hüququn funksiyaları dedikdə onun ictimai münasibətlərə göstərdiyi təsirin əsas istiqamətləri başa düşülür ki, bununla mülki hüququn təbiəti və sosial rolu müəyyənləşir. Bu, ümumiləşdirilmiş anlayışdır. O, özündə üç məənanı birləşdirən kateqoriya kimi çıxış edir:

- birincisi, mülki hüququn **sosial təyinatı** mənasında;

[1] bax: Azərbaycan Respublikasının Torpaq Qanunvericiliyi. Bakı, 2000, s. 72.

[1] Гражданское право. Часть 1 / Под ред *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с.12.

[2] Hüquq nəzəriyyəsində mübahisə doğuran məsələlərdən biri hüququn funksiyası anlayışıdır. İndiyə kimi bu məsələ barəsində vahid baxış formalaşmamışdır. Həmin anlayışa müxtəlif münasibət bəslənir. Hüququn funksiyası gələcəkdə etrafı surətdə öyrənilməsini və tədqiq olunmasını gözləyir, tələb edir.

[3] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 755.

• ikincisi, ictimai münasibətlərə göstərilən **hüquqi təsirin əsas istiqaməti** mənasında;

• üçüncüsü, birlikdə həm mülki hüququn **sosial təyinatı mənasında,** həm də ictimai münasibətlərə göstərilən **hüquqi təsirin əsas istiqaməti mənasında.**

Mülki hüququn funksiyaları belə suallara cavab verir: «mülki hüququn sosial təyinatı necə həyata keçirilir?»; «mülki hüququn ictimai münasibətlərə göstərdiyi təsirin əsas istiqamətləri hansılardır?». O, mülki hüququn mahiyyətindən irəli gəlir və onun cəmiyyətdəki təyinatı ilə müəyyən olunur. Mülki hüququn funksiyası dedikdə, mülki hüququn mahiyyətinin ictimai münasibətlərdə «işıqlanması» başa düşülür[1].

Hüquq ədəbiyyatında mülki hüququn funksiyaları müxtəlif əsaslara görə təsnif edilərək ayrı-ayrı növlərə bölünür. **İctimai münasibətlərə göstərilən təsirin xarakteri kimi meyara** görə hüququn funksiyasının iki növü fərqləndirilir:

• nizamasalma (tənzimləmə) funksiyası;

• qoruyucu (mühafizəedici) funksiya[2].

Göstərilən təsnifi mülki hüququn həll etdiyi əsas vəzifələrdən asılılıq kimi əlamətə görə də aparmaq olar. **Mülki hüququn vəzifələri** dedikdə, onun həll etməli olduğu, qarşısında durduğu iqtisadi-sosial problem başa düşülür. O, mülki hüququn məqsədini müəyyənləşdirməyə imkan verir. **Mülki hüququn məqsədi** iqtisadi (əmlak) dövriyyənin — mülki dövriyyənin sərbəstliyini təmin etməkdən ibarətdir (MM-in 1-ci maddəsinin 1-ci bəndi).

Mülki hüququn vəzifələri və mülki hüququn funksiyaları kimi iki anlayış bir-biri ilə bağlıdır. Mülki hüququn funksiyaları onun vəzifələrindən asılıdır. Belə ki, mülki hüququn vəzifələri bilavasitə onun funksiyalarının mövcudluğuna dəlalət edir, onların məzmununu müəyyənləşdirir, habelə onların həyata keçirilmə forma və metoduna təsir göstərir. Funksiya həyata keçirilmədən mülki hüququn qarşısında duran hər hansı vəzifənin həll edilməsindən söhbət gedə bilməz. Mülki hüququn funksiyası həmişə onun qarşısında duran vəzifələrin həll edilməsinə yönəlir və səmtlənir. Ona görə də demək olar ki, mülki hüququn müəyyən vəzifələrinə onun müəyyən funksiyaları uyğun gəlir.

Mülki hüquq əsasən, iki cür vəzifə daşıyır ki, bu vəzifələr qanunda göstərilmişdir (MM-in 1-ci maddəsinin 2-ci bəndi). Həmin vəzifələrə aiddir:

• əmlak və şəxsi qeyri-əmlak münasibətlərini **tənzimləmək vəzifəsi**;

• subyektlərin hüquqlarını **müdafiə etmək**, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu və digər şəxsi qeyri-maddi nemətləri **qorumaq vəzifəsi.**

Mülki hüququn daşıdığı bu cür iki əsas vəzifəyə mülki hüququn tənzimləmə və qoruyucu kimi funksiyaları uyğun gəlir. Mülki hüququn ən əsas, ən başlıca və ən mühüm vəzifəsi, istənilən sivil və qabaqcıl ölkələrdə olduğu kimi, ictimai həyatda və cəmiyyətdə əmlak münasibətlərini tənzimləməkdən ibarətdir. Bu vəzifəni o, özünün tənzimləmə (nizamasalma) funksiyası vasitəsilə həll edir. Mülki hüququn tənzimləmə (nizamasalma) funksiyası digər funksiyasına — qoruyucu (qoruma) funksiyasına münasibətdə daha önəmli və əhəmiyyətlidir. Ona görə ki, mülki hüququn əsas işi insan həyatı və cəmiyyəti üçün vacib olan normal iqtisadi (əmlak) dövriyyə münasibətlərini rəsmiləşdirməkdən və qaydaya salmaqdan ibarətdir. Bu münasibətlərin xüsusi çəkisi böyükdür. Həmin münasibətlər çərçivəsində vətəndaş cəmiyyətinin iştirakçıları (üzvləri) öz mənafe və ehtiyaclarını təmin edirlər. Nəzəriyyədə çox vaxt bu münasibətləri pozitiv münasibətlər adlandırırlar. Mülkiyyət münasibətləri, dövriyyə (mübadilə, yəni əmlakın bir şəxsdən digərinə keçməsi üzrə münasibətlər) münasibətləri və s. bu cür münasibətlərə misal ola bilər. Anomal (qeyri-adi, qeyri-normal) əmlak münasibətləri mülki hüquq üçün xarakterik və tipik hal hesab olunmur.

Mülki hüququn tənzimləmə (nizamasalma) funksiyası dedikdə, mülki hüququn özünəməxsus hüquq vasitələrinin köməyi ilə iqtisadi (əmlak) münasibətləri qaydaya salması və normal məcraya yönəltməsi başa düşülür. Bu funksiyanın vasitəsi ilə mülki hüquq adi əmlak münasibətlərini təşkil edir. Həmin münasibətlər vətəndaş cəmiyyətinin əsasıdır.

Qeyd etdik ki, mülki hüquq özünün tənzimləmə (nizamasalma) funksiyasını hüquqi vasitələrdən istifadə etməklə həyata keçirir. Hüquqi vasitələr dedikdə, hüquq normaları, hüquq münasibətləri, hüquqi göstərişlər, hüquq institutları və s. başa düşülür. Məsələn, mülki hüququn öhdəlik adlı yarımsahəsinə daxil olan normalar bazarı, bazar əmtəə dövriyyəsini, yəni əmtəələrin bir şəxsdən digərinə keçməsi üzrə iqtisadi prosesləri tənzimləyir. Başqa sözlə desək, bu normalar əmtəə-pul mübadiləsini — qarşılıqlı bazar əlaqələrini rəsmiləşdirir. Bazar adlı iqtisadi anlayış konkret mübadilə subyektləri arasında yaranan əmtəə-pul əlaqələrindən ibarətdir. Bu əlaqələr çoxsaylı və cürbəcürdür. Bax, öhdəlik hüquq normaları həmin əlaqələri tənzimləyir. Onların vasitəsi ilə bazar subyektləri sahibkarlıq, təsərrüfat, kommersiya (ticarət) və digər fəaliyyət növlərini müstəqil surətdə özləri təşkil edirlər.

Mülki hüquq normaları tənzimləyici rola və əhəmiyyətə malikdir. Belə ki, bu normalar bazar subyektlərinə **öz fəaliyyətlərini müstəqil surətdə özözünə təşkil etmək, öz-özünə tənzimləmək imkanı verir.** Mülki hüququn tənzimləmə (nizamasalma) funksiyasının əsas mahiyyəti də məhz bundan ibarətdir.

Mülki hüququn qoruyucu (mühafizəedici) funksiyasına gəldikdə isə qeyd etmək lazımdır ki, tənzimləmə funksiyasından fərqli olaraq bu funksiya normal həyat üçün xarakterik olmayan anomal (qeyri-normal) əmlak münasibətləri ilə bağlıdır. Mülki hüququn bu funksiyasının əsas istiqaməti hüquqa

---

[1] Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 156.

[2] Müasir dərsliklərin çoxunda hüququn funksiyasının bu kimi iki növə ayrılması halına rast gəlirik (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 20, Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 35-36; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В. А.Плетневой*. М., 1998, с. 16). Bu barədə başqa mövqedə duran müəlliflər də var. Bəzi müəlliflər göstərirlər ki, hüququn funksiyalarının nizamasalma və qoruyucu kimi iki funksiyaya bölünməsi ilə razılaşmaq olmaz. Onların fikrincə, hüquqla qorumaq mühüm dərəcədə lazımınca hüquqi tənzimləməni ifadə edir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 13). Bu fikirlə çətin razılaşmaq olar. Hüquqi qoruma (mühafizə) pozulmuş münasibətlərin bərpa edilməsinə yönəlir. Hüquqi tənzimləmə iki mənada işlədilir: geniş mənada; məhdud mənada. Geniş mənada hüquqi tənzimləmə özündə həm də hüquqi mühafizəni (qorumanı) əhatə edir və birləşdirir. Məhdud mənada hüquqi tənzimləmə isə normal vəziyyət yaratmaq məqsədi ilə ictimai münasibətləri normallaşdırmaq, qaydaya salmaqdır. Mülki hüququn tənzimləmə (nizamasalma) funksiyası məhz məhdud mənada hüquqi tənzimləmə ilə bağlıdır.

zidd davranışın qarşısının alınmasına və aradan qaldırılmasına yönəlmişdir. Onun başlıca məqsədi iqtisadi (əmlak) dövriyyə subyektlərinin pozulmuş hüquqlarını və ya əmlak mənafelərini müdafiə etməkdən ibarətdir. Məsələn, borc alan aldığı borc məbləğini qaytarmaqdan imtina edir. Borc verənin əmlak hüququ pozulur. Daşıyıcı nəqliyyat vasitəsini çox aşağı sürətlə idarə etdiyinə görə ərzaq məhsullarını təyinat yerinə vaxtında çatdıra bilmir və buna görə də həmin məhsullar yolda xarab olur. Bununla yük göndərənə əmlak zərəri vurulur. Vətəndaş məzuniyyətdən qayıdanda görür ki, onun evində qonşusu yaşayır. Bu halda onun mülkiyyət hüququ pozulur. Sahibkar müəssisəsi ağac emalı müəssisəsinə taxta-şalban materialları göndərmir. Həmin zavoda zərər vurulur. Topdansatış ticarət müəssisəsi pərakəndə satış obyektinə malları göndərmir. Bu cür hallarda hüququ pozulmuş şəxsin əmlak mənafeyi mülki hüququn qoruyucu funksiyasının vasitəsi ilə müdafiə olunur.

Əgər mülki hüququn tənzimləmə funksiyası pozitiv münasibətlərlə əlaqədardırsa, onun qoruyucu funksiyası neqativ münasibətlərlə bağlıdır. Mülki hüquq özünün qoruma funksiyasının köməyi ilə cəmiyyət üçün pozitiv münasibətləri (mülkiyyət münasibətlərini, əmtəə-pul, yəni dövriyyə münasibətlərini və s.) mühafizə edir, neqativ münasibətləri isə sıxışdırıb aradan çıxarır. Neqativ münasıbətlər dedikdə, zərər vurmaq nəticəsində əmələ gələn (delikt) münasibətlər, həmçinin əsassız varlanma münasibətləri başa düşülür. Məsələn, vətəndaş dalaşma zəmnində öz qonşusuna xəsarət yetirir və buna görə də qonşunun sağlamlığı pozulur. O, üç ay işə çıxmır və əmək haqqı (qazanc) almaqdan məhrum olur. Bundan əlavə, zərərçəkən qonşu müaliceyə, dava-dərman alınmasına xeyli xərc çəkir. Bununla ona zərər vurulur. Zərər vuran vətəndaşla zərər çəkən qonşu arasında zərər vurmaq nəticəsində əmələ gələn (delikt) münasibət yaranır. Vətəndaş vurulan zərərin əvəzini könüllü surətdə ödəməkdən imtina etdikdə, qonşu əmlak mənafeyini müdafiə etmək məqsədi ilə məhkəməyə müraciət edir. Başqa bir misalda dağda güclü tufan qopur, qatı duman ətrafı bürüyür. Çobanın sürüsündən əlli ədəd qoyun kənd sakininin qoyun sürüsünə keçir. Çoban ilə kənd sakini arasında əsassız varlanma münasibəti yaranır. Bu münasibətə görə, kənd sakini əlli ədəd qoyunu çobana qaytarmalıdır. Əgər o, qoyunları könüllü surətdə qaytarmazsa, onda çoban öz əmlak mənafeyini müdafiə etmək üçün məhkəməyə müraciət edir. Göstərilən hər iki halda hüququ pozulmuş şəxslərin əmlak mənafeləri mülki hüququn qoruma funksiyası sayəsində müdafiə olunur. Belə təsəvvür yaranır ki, müqavilədən kənar (delikt, əsassız varlanma) münasibətlərin, yəni müqavilədənkənar öhdəliklərin başlıca funksiyası qoruma funksiyadır.

Mülki hüququn qoruma funksiyasının əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri sahəsində də əhəmiyyəti və rolu vardır. Xüsusən fiziki şəxsin şərəfi, ləyaqəti və işgüzar nüfuzu və s. bu funksiya vasitəsilə müdafiə olunur. Belə ki, fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayıldığı hallarda, onda o, bu məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər (MM-in 23-cü maddəsi). Bu halda fiziki şəxsə dəymiş mənəvi (qeyri-maddi) zərər kompensasiya edilir, yəni zərərin əvəzi pul (əmlak) formasında ödənilir. Bu isə qoruyucu xarakterli tədbirdir.

Mülki hüququn qoruyucu funksiyası qadağan etmək, mülki hüquq sanksiyaları və mülki hüquq məsuliyyəti kimi anlayışlarla sıx surətdə bağlıdır. Bu funksiya onda ifadə olunur ki, birincisi, **qanun mülki hüquq subyektlərinə hüquqazidd hərəkətlər etməyi qadağan** edir. İkincisi, bu cür hərəkətlərin edilməsinə görə **mülki hüquq sanksiyaları** nəzərdə tutulur. Mülki hüquq sanksiyaları, bundan əvvəlki paraqrafda qeyd etdiyimiz kimi, məsuliyyət tədbirləri və müdafiə tədbirləri kimi iki qrupa bölünür. Bu cür sanksiyalar hüquq pozuntusu törədən şəxs üçün müəyyən nəticələr yaradır. Üçüncüsü, hüquq pozuntusu törədən şəxsə mülki hüquq sanksiyaları tətbiq olunması və bununla onun **mülki hüquq məsuliyyətinə cəlb edilməsi müəyyənləşdirilir**. Bax, bu cür hüquqi vasitələrin köməyi ilə ictimai münasibətlər qorunur və müdafiə edilir.

Bununla belə, qeyd etmək lazımdır ki, mülki hüququn qoruma funksiyasının rolu onun digər funksiyasına — tənzimləmə funksiyasına nisbətən böyük deyil. Bu, onunla izah olunur ki, mülki hüququn əsas və başlıca vəzifəsi mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etməkdən, habelə şəxsi qeyri-maddi nemətləri (şərəfi, ləyaqəti, işgüzar nüfuzu və s.) qorumaqdan çox, onların subyektlərinin iştirak etdikləri əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləməklə, cəmiyyətdəki normal iqtisadi (əmlak) münasibətləri nizama salmaqla bağlıdır. Qoruma funksiyası hüququn cinayət hüququ sahəsi üçün xarakterik və tipikdir. Ona görə ki, bu hüquq sahəsinin əsas vəzifəsi ölkənin ictimai quruluşunu, onun siyasi və iqtisadi sistemini, mülkiyyəti, şəxsiyyəti və s. cinayət xarakterli qəsdlərdən qorumaqdan ibarətdir. Cinayət hüququ öz spesifik vasitələri ilə (əsasən cəza və onun tətbiq olunması hədəsi ilə) şəxsiyyəti, cəmiyyəti və dövləti cinayət xarakterli qəsdlərdən müdafiə edir. Bu vəzifəyə uyğun olaraq, cinayət hüququnun qoruyucu funksiyası ön plana keçir[1].

Cinayət hüququnun tənzimləyici funksiyası şəxsiyyətin, onun hüquq və azadlıqlarının mühafizəsinə, cəmiyyətin və dövlətin cinayət xarakterli qəsdlərdən qorunmasına yönəlmiş ictimai münasibətləri nizama salmaqdan ibarətdir. Bu hüquq sahəsi, hər bir hüquq sahəsi kimi, ona həvalə olunmuş vəzifələri həmin münasibətləri tənzimləmək yolu ilə yerinə yetirə bilər. Cinayət hüququnda tənzimləyici funksiya onun öz qoruma (mühafizə) funksiyasını ifadə edir. Bu funksiya qoruma (mühafizə) funksiyasını həyata keçirməyin forma və üsulu kimi çıxış edir[2]. Belə təsəvvür yaranır ki, mülki hüquqdan fərqli olaraq, cinayət hüququnda tənzimləyici funksiya onun öz mühafizə (qoruma) funksiyası vasitəsilə əhatə olunur.

Mülki hüququn tənzimləmə funksiyasının pozitiv münasibətlər, onun qoruma funksiyasının neqativ (mənfi) münasibətlər sahəsinə aid olmasına baxma-

[1] Müəlliflərdən N.D.Durmanov göstərir ki, cinayət hüquq normaları, digər hüquq sahələrinin tənzimlədiyi bütün ictimai münasibətləri qorumaq vasitəsidir. Onun bununla cinayət hüququnun qoruma funksiyasının rolunu həddən ziyadə şişirtməsi göz qabağındadır. Cinayət hüququnun bu funksiyası, bizim zənnimizcə, şəxsiyyətin daha mühüm hüquq və azadlıqlarını, cəmiyyət və dövlətin daha vacib maraqlarını müdafiə etməkdən ibarətdir (bax: *Дурманов Н.Д.* Советский уголовный закон. М., 1967, с. 96.).

[2] *Naumov A.V.* Cinayət hüququ. Mühazirə kursu / Rus dilindən tərcümə. Bakı. 1998, s. 23.

yaraq, bu iki funksiyanı qarşı-qarşıya qoymaq olmaz. Bu funksiyaların hər ikisi, özünəməxsus hüquqi vasitə və üsullarla, şəxsiyyətin hüquqlarını qorumaq, cəmiyyətdə normal iqtisadi (əmlak) münasibətləri inkişaf etdirmək, mülki dövriyyənin sabitliyini təmin etmək və azad bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq kimi vacib vəzifələri yerinə yetirir, həyata keçirir. Onlar bir-biri ilə sıx surətdə bağlıdır.

Bunlardan əlavə, **yaratdığı nəticəyə görə** mülki hüququn üç funksiyası fərqləndirilir:

- kompensasiya etmə funksiyası;
- bərpa etmə funksiyası;
- qarşısını alma — tərbiyə etmə (preventiv) funksiyası.

Kompensasiya funksiyası mülki hüququn ən vacib və zəruri funksiyalarından biridir[1]. Hüququn, o cümlədən, mülki hüququn əsas xüsusiyyəti ondan ibarətdir ki, o, sosial ədalət naminə pozulmuş hüquqları bərpa etmək aləti və vasitəsi kimi çıxış edir. Kompensasiya funksiyasının mahiyyəti də məhz bununla bağlıdır. Bu funksiyanın əsas mənası və cəhəti mənfi əmlak nəticələrini aradan qaldırmaq vəzifəsinin həll edilməsindən ibarətdir. Həmin nəticələr müxtəlif əsaslara görə yarana bilər. Məsələn, şəxsin hüquqazidd hərəkəti (başqa şəxsin əmlakını zədələmə, məhv etmə, korlama, fiziki şəxsin sağlamlığını pozma və s.) bu cür əsaslara misal ola bilər. Daha doğrusu, mənfi nəticələr delikt (zərər vurmaq nəticəsində əmələ gələn) münasibətləri və ya əsassız varlanma münasibətləri ilə bağlı olaraq yaranır.

Delikt münasibətləri ilə bağlı yaranan mənfi nəticələr (əmlakın zədələnməsi, korlanması, xarab olması, məhv edilməsi və s.) vurulmuş zərərin əvəzinin ödənilməsi yolu ilə, əsassız varlanma münasibətindən əmələ gələn mənfi nəticələr (səhvən pul, əmlak verilməsi və s.) isə qanunsuz əldə edilmiş əşyanın zərərçəkənə qaytarılması yolu ilə aradan qaldırılır. Bununla zərərçəkənin əmlak sahəsi kompensasiya edilir.

Kompensasiya etmə funksiyası mənəvi zərər sahəsində də hüquqi əhəmiyyətə malikdir. Belə ki, mənəvi zərər də kompensasiya edilir. Bundan əlavə, digər münasibətlər sferasında kompensasiya funksiyası böyük rol oynayır. Məsələn, behin yerinə yetirdiyi funksiyalardan biri kompensasiya funksiyasıdır[2]. Behin kompensasiya funksiyasının mahiyyəti ondan ibarətdir ki, müqavilənin icra edilməməsi üçün məsuliyyət daşıyan tərəf, beh məbləği nəzərə alınmaqla (yəni hesaba alınmaqla), zərərin əvəzini digər tərəfə ödəyir (MM-in 492-ci maddəsinin 2-ci bəndi).

Mülki hüququn bərpa etmə funksiyası kompensasiya etmə funksiyasına olduqca yaxındır. Bunlar bir-birinə o qədər oxşayırlar ki, hətta hüquq ədəbiyyatında həmin funksiyaları eyniləşdirirlər. Kompensasiya etmə funksiyası pozulmuş hüquqları bərpa edir. Ona görə bu funksiya bərpa etmə funksiyası ilə sıx surətdə bağlıdır.

Bununla bərabər, həmin funksiyalar eyni funksiyalar hesab edilmir. Onlar bir-birindən həyata keçirilmə formalarına, metodlarına və hüquqi nəticələrinə görə fərqlənir. Kompensasiya funksiyasının həyata keçirilməsi nəticəsində vurulmuş zərərin əvəzi ödənilir. Bərpa etmə funksiyasının yerinə yetirilməsi isə çox vaxt zərərin əvəzinin ödənilməsi ilə nəticələnmir.

Bərpa etmə funksiyasının mahiyyəti ondan ibarətdir ki, onun vasitəsi ilə hüquqların pozulmasınadək mövcud olan vəziyyət bərpa edilir və bu hüquqları pozan hərəkətlərin qarşısı alınır. Bu funksiyadan o halda istifadə olunur ki, bir tərəf hüquqazidd hərəkətlər edir və bunun nəticəsində digər tərəfin əmlak vəziyyəti dəyişir. Hüquq pozuntusunun nəticəsinin aradan qaldırılması yolu ilə pozulmuş hüquq bərpa edilir. Məsələn, rəssam vətəndaşa şəklin əsli əvəzinə, onun çox məharətlə işlənmiş surətini satır və bununla onu aldadır. Vətəndaş öz hüququnun pozulmasını bilən kimi, pozulmuş hüququnu müdafiə etmək üçün şəklin surətini geri qaytarır. O, verdiyi pulu rəssamdan alır. Beləliklə də hüququn pozulmasınadək mövcud olan vəziyyət bərpa edilir. Bərpa etmə funksiyası əqdlərin etibarsız hesab edildiyi və tərəflərin öz əvvəlki vəziyyətlərinə qayıtdığı hallarda (bunlara restitusiya deyilir) vacib rol oynayır.

Mülki hüququn qarşısını alma — tərbiyə etmə (preventiv) funksiyasının əsas təyinatlarından biri vətəndaşlarda yüksək hüquq düşüncəsi tərbiyələndirməkdən, hüquqi davranış üçün onlarda stimul yaratmaqdan ibarətdir.

Qarşısını alma — tərbiyə etmə funksiyasının mahiyyəti mülki hüquq pozuntusunun qarşısını almaqla, qarşısını kəsməklə və aradan qaldırmaqla şərtlənir. Hüquq pozuntusu törədən şəxsə tətbiq edilən mülki hüquq sanksiyaları onu lazımınca davranmaq, öz öhdəliklərinə vicdanla yanaşmaq və qanunlara dürüst əməl etmək ruhunda tərbiyələndirir. Buna **xüsusi prevensiya** (latınca praeventio — qabağını alma, qarşısını alma) deyilir. Bundan əlavə, tətbiq edilən mülki hüquq sanksiyaları həm hüquq pozuntusu törədən şəxs tərəfindən, həm də digər cəmiyyət üzvləri tərəfindən yeni mülki hüquq pozuntusu törədilməsinin qarşısını alır. Buna **ümumi prevensiya** deyilir.

Bundan əlavə, ədəbiyyatda ictimai münasibətlərin təşkili və yenidən təşkili funksiyası[1], qarantiya və müdafiə funksiyası[2] kimi funksiyalar da fərqləndirilir. Bu cür bölgü aparılmasının heç bir hüquqi mənası və əhəmiyyəti yoxdur.

Beləliklə, mülki hüququn ictimai həyatdakı rolu onun funksiyalarında təzahür edir. Mülki hüququn funksiyalarında mülki hüququn özünün xidməti (qulluq) rolu, onun sosial təyinatı ifadə olunur.

§ 4. Mülki hüququn prinsipləri

1. Mülki hüququn prinsiplərinin anlayışı, əhəmiyyəti və sistemi

Mülki hüququn mahiyyətini və sosial təyinatını ifadə edən, onları konkretləşdirən məsələlərdən biri mülki hüququn prinsipləridir (latınca principium – əsas)[3]. Mülki hüquq, digər hüquq sahələri kimi, onun mənasını və sosial rolu-

[1] Mülki hüququn bu funksiyası barədə ətraflı məlumat almaq istəyirsənsə, bax: *Рыженков А.Я.* Компенсационная функция советского гражданского права. Саратов. 1983.

[2] bax: Гражданское право. Учебник. Часть 2 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 616.

[1] Актуальные вопросы советской юридической науки. Часть 2. Саратов. 1978, с. 6.

[2] bax: Правовые проблемы управления качеством продукции на базе стандартизации и метрологического обеспечения. Свердловск. 1978, с. 273.

[3] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова.* М., 1954, с. 563.

nu əks etdirən müəyyən prinsiplər əsasında qurulur və fəaliyyət göstərir. Prinsiplər mülki hüququn başlıca cəhətlərini və əsas xüsusiyyətlərini ifadə edir.

Mülki hüququn prinsipləri dedikdə, mülki-hüquqi tənzimətmənin mülki hüquq normalarında ifadə olunan, ona görə də ümumi məcburi xarakter kəsb edən əsas ideyaları və rəhbər başlanğıcları başa düşülür. Prinsiplər özlərində mülki hüququn nisbətən daha xarakterik cəhətlərini ehtiva edir, onun hüquqi təbiətini müəyyənləşdirir. Mülki hüququn hər bir subyektinin vəzifəsi və borcudur ki, bu prinsiplərə əməl etsin. Bu prinsiplər konkret hüquqi məsələlərin həllində qanunun məcburi tələbi və göstərişi kimi çıxış edir. Ona görə ki, mülki hüququn prinsipləri qanunvericilik qaydasında və səviyyəsində möhkəmləndirilmişdir, yəni mülki hüquq normalarında ifadə olunmuşdur. Deməli, bu prinsiplər **ümumi məcburi xarakterə** malikdir. Bu, mülki hüququn prinsiplərinin əsas xüsusiyyətlərindən biridir. Məhz bu səbəbdən ictimai münasibətlər mülki hüquqla tənzimlənərkən mülki hüququn prinsipləri əsas kimi götürülür.

Mülki hüququn prinsiplərinin əhəmiyyəti və rolu böyükdür. Həmin prinsiplərin **birinci əhəmiyyəti** bundan ibarətdir ki, onlar mülki hüququn mahiyyətinin dərindən dərk olunmasına, mülki qanunvericilik normalarının düzgün təfsir edilməsinə və tətbiq olunmasına imkan verir. Mülki hüququn prinsiplərini nəzərə almadan və onlara diqqət yetirmədən mülki hüququn mənasını yaxşı başa düşmək, mülki qanunvericilik normalarını düzgün təfsir etmək, habelə bu normaları düzgün tətbiq etmək olmaz. Ona görə ki, prinsiplər mülki hüququn sosial yönümünü, mahiyyətini və əsas sahəvi xüsusiyyətlərini ifadə edir.

Mülki hüququn prinsiplərinin **ikinci əhəmiyyəti** ondan ibarətdir ki, mülki qanunvericilikdə boşluq olduğu və hüququn anologiyasını tətbiq etmək zərurəti yarandığı hallarda, həmin prinsiplər subyektin köməyinə gəlir, onlardan istifadə olunur. Belə ki, bəzi hallarda yaranmış konkret hüquqi məsələni həll etmək üçün mülki qanunvericilikdə müvafiq hüquq norması, habelə oxşar münasibəti qaydaya salan hüquq norması olmur. Bu cür vəziyyətdə **hüququn anologiyasından istifadə olunur, yəni mülki hüququn prinsipləri tətbiq edilməklə həmin hüquqi məsələ özünün həllini tapır**.

Müsəlman hüquq sistemləri üçün qanunvericilikdə boşluq olduqda işlərin məhkəmə tərəfindən şəriət prinsiplərinə uyğun olaraq həll edilməsi qaydası xarakterikdir. Şəriət prinsipləri hüququn əsas mənbəyi kimi tanınır və qəbul edilir. Bəzi ölkələrin qanunları, məsələn, Misirin Mülki Məcəlləsi (1948), Əlcəzairin Mülki Məcəlləsi (1975) və İraqın Mülki Məcəlləsi (1951) hakimlərin müsəlman hüququ prinsiplərinə əməl etməklə qanundakı boşluğu doldurmaq vəzifəsini nəzərdə tutur[1].

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərdə tətbiq olunan prinsiplər dörd qrupa bölünür:

- hüququn ümumi prinsipləri;
- sahəvi prinsiplər;
- sahələrarası prinsiplər;
- sahədaxili prinsiplər.

[1] bax: *Давид Р., Жоффре-Спиноси К.* Основные правовые системы современности. М., 1999, с. 318.

Bütövlükdə hüququn ən mühüm xüsusiyyətlərini, onun məzmununu və əsas cəhətlərini müəyyənləşdirən, hüququn bütün sahələrinə şamil edilən əsas ideyalara və rəhbər başlanğıclara **hüququn ümumi prinsipləri** deyilir. Bu prinsiplər hər bir hüquq sahəsinə sirayət və nüfuz edərək, həmin sahələrdə eyni dərəcədə hüquqi rol oynayır, həmin sahələri birləşdirir, necə deyərlər, «sementləşdirir» və bütövlükdə hüquqa aid olur. Hüququn ümumi prinsipləri hüququn bütün sahələrində eyni və bərabər qaydada hüquqi əhəmiyyət kəsb edir. Bu prinsiplər hüququn **əsas prinsipləri** də adlanır. Həmin prinsiplərə aiddir; humanizm prinsipi; qanun qarşısında vətəndaşların bərabərliyi prinsipi; demokratizm prinsipi; ədalət prinsipi; sosial azadlıq prinsipi; hüquq və azadlıqların vəhdəti prinsipi; qanunçuluq prinsipi; təqsirə görə məsuliyyət prinsipi və s[1]. Onlarda cəmiyyətin sosial-iqtisadi əsası, mənəvi-əxlaqi fundamenti, habelə ümumi bəşəri dəyərlər ifadə olunur.

Hüququn ümumi (əsas) prinsiplərinin əhəmiyyəti və rolu böyükdür. Dünyanın demək olar ki, əsas hüquq sistemlərinə — həm ingilis-amerikan (ümumi hüquq), həm də roman-german (kontinental) hüquq sisteminə daxil olan ölkələrin qanunvericiliyi və yaranmış hüquqi ənənə (praktika) qanunda konkret hüquqi göstəriş, habelə hüquqi adət və ya presedent olmadığı hallarda, hüquq tətbiqetmə fəaliyyəti prosesində hüququn ümumi prinsiplərinə istinad edilməsinə yol verir.

Mülki hüququn nisbətən daha mühüm xüsusiyyətlərini və əsas cəhətlərini, onun spesifikasını müəyyənləşdirən əsas ideyalar və ümumi müddəalar **mülki hüququn sahəvi prinsipləri** adlanır. Bu prinsiplər yalnız xüsusi olaraq, mülki hüququn mahiyyətini, hüquqi təbiətini, sosial səmtini və başlıca sahəvi xüsusiyyətlərini ifadə edir. Ona görə də həmin prinsiplərə **mülki hüququn xüsusi prinsipləri** də deyilir. Mülki hüququn sahəvi (xüsusi) prinsipləri yalnız mülki hüquqa aid olub, onun spesifikasını müəyyənləşdirir. Bu prinsiplərin əhatə dairəsi kifayət qədər genişdir:

- mülki hüquq subyektlərinin bərabərliyi prinsipi;
- mülki hüquq subyektlərinin iradə azadlığı və sərbəstliyi prinsipi;
- mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi prinsipi;
- mülkiyyət toxunulmazlığı prinsipi;
- müqavilə azadlığı prinsipi;
- şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasına yol verilməməsi prinsipi;
- mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması prinsipi;
- pozulmuş hüquqların bərpasının təmin edilməsi prinsipi;
- mülki hüquqların məhkəmə müdafiəsi prinsipi.

Mülki hüququn bu prinsipləri normativ qaydada, qanunvericilik səviyyəsində müəyyənləşdirilmiş, müvafiq hüquq normasında ifadə olunmuşdur. Belə ki, MM-in 6-cı maddəsinin 1-ci bəndi həmin prinsiplərin siyahısını verir. Amma bu, **prinsiplərin qəti yox, təxmini siyahısıdır**. Bu, o deməkdir ki, prinsiplərin

[1] Bu prinsiplər barədə ətraflı məlumat almaq üçün bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 152-156; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 153-136; *Хропанюк В.Н.* Dövlət və hüquq nəzəriyyəsi. Rus dilindən tərcümə. Bakı. 1995, s. 106.

həmin siyahısını xeyli dərəcədə daha da genişləndirmək olar. Başqa sözlə desək, mülki hüququn elə prinsipləri vardır ki, həmin siyahıya düşməmişdir və orada göstərilmir. Məsələn, sahibkarlıq azadlığı prinsipi, hüquqdan sui-istifadənin qadağan edilməsi prinsipi, bütün mülkiyyət formalarının bərabərliyi prinsipi, mülki hüquq subyektlərinin şəxsi hüquq və azadlıqlarının toxunulmazlığı prinsipi və s. bu cür prinsiplərə misal ola bilər.

Sahələrarası prinsiplər odur ki, bu cür prinsiplər həm mülki hüquq sahəsi üçün, həm də hüququn digər sahələri üçün xarakterikdir. Bu prinsiplər bir neçə hüquq sahəsinin əsas xüsusiyyətlərini və başlıca cəhətlərini ifadə edir. Məsələn, məsuliyyətin labüdlüyü prinsipi, məsuliyyətin fərdiləşdirilməsi kimi iki prinsip həm cinayət hüququ üçün, həm də mülki hüquq üçün xarakterikdir. Şəxsiyyət toxunulmazlığı prinsipi həm mülki hüquqda, həm də cinayət-prosessual hüquqda mühüm əhəmiyyətə malikdir.

Sahədaxili prinsiplər odur ki, bu prinsiplər mülki hüququn yanmsahələrinin və institutlarının əsas xüsusiyyətlərini əks etdirir. Bu prinsiplər əsasən, mülki hüququn yarımsahələrinin və institutlarının mahiyyətini və hüquqi təbiətini açıqlayır, daha da konkretləşdirir. Məsələn, əqli mülkiyyət toxunulmazlığı prinsipi yalnız mülki hüququn əqli mülkiyyət hüququ (müstəsna hüquqlar) adlı yarımsahəsi üçün xarakterikdir. Vəsiyyət azadlığı prinsipi mülki hüququn yarımsahələrindən biri olan vərəsəlik hüququnun mahiyyətini müəyyənləşdirir. Yaradıcılıq azadlığı prinsipi, müəllifin şəxsi mənafeyi ilə cəmiyyətin mənafeyinin uyğunlaşdırılması prinsipi yalnız müəlliflik hüququ institutu üçün əhəmiyyət kəsb edir[1]. Patent sahibinin patentləşdirilmiş obyektdən istifadə etməyə olan müstəsna hüquqlarının tanınması prinsipi patent hüququ institutunun əsas prinsiplərindən biridir[2].

2. Mülki hüquq subyektlərinin hüquq bərabərliyi prinsipi

Mülki hüquq subyektlərinin hüquq bərabərliyi prinsipi birbaşa müvafiq hüquq normasında nəzərdə tutulmuşdur (MM-in 6-cı maddəsinin 1-ci bəndi). Əvvəlki 1964-cü il MM-i bu prinsipi normativ qaydada nəzərdə tutmurdu.

Hüquq bərabərliyi prinsipi mülki hüquqla tənzimlənən əmtəə xarakterli iqtisadi (əmlak) dövriyyə münasibətlərinin öz təbiətindən irəli gəlir. Bu, dəyər formalı əmlak münasibətləri və əmtəə-pul əlaqələri olub, dəyər qanununun təsiri altındadır. Şübhəsiz ki, bu cür münasibətlər, həmin münasibətlərdə iştirak edən subyektlərin bərabərhüquqlu olmalarını tələb edir və şərtləndirir. Ona görə də mülki hüquq özünün nizama saldığı münasibətlərin xarakterini və təbiətini nəzərə alaraq subyektlərin hüquq bərabərliyi prinsipini təsbit edir. Çünki əmlak-dəyər, əmtəə-pul münasibətlərində tərəflər yalnız hüquqca bərabər olmalıdırlar.

Hüquq bərabərliyi prinsipinin mahiyyəti ondan ibarətdir ki, mülki hüququn hər bir subyekti mülki (əmlak) dövriyyədə, əqli fəaliyyət (yaradıcılıq fəaliyyəti) sferasında və ictimai həyatın digər sahələrində iştirak etməkdə bərabər hüquqi imkanlara malikdirlər. Bu subyektlərdən birinin digərinə öz iradəsini

[1] Bu prinsiplər barədə bax: *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı. 1999.

[2] Yenə orada.

dikte edə bilmək ixtiyarı çatmır. Həmin prinsipə görə, subyektlər maddi (iqtisadi) və sosial vəziyyətindən (bərabərsizliyindən), habelə təşkilati-hakimiyyət münasibətlərindən asılı olmayaraq mülki hüquqlar əldə edə, bu hüquqları dəyişdirə və ya onları ləğv edə bilərlər. Onlar mülki hüquq pozuntusuna görə bərabər əsaslarla məsuliyyət daşıyırlar. Söhbət mülki hüquq münasibətləri iştirakçılarının **ümumi hüquqi vəziyyətinin (statusunun) bərabərliyindən** gedir. Deməli, subyektlərin hüquq bərabərliyi prinsipi həmin iştirakçıların hüquqi vəziyyətini (statusunu) xarakterizə edir. Bu prinsip imkan verir ki, mülki hüquq münasibətlərində iştirak edən tərəflərin vəziyyəti hüquqi cəhətdən bərabərləşsin. Məsələn, müəyyən təyinat yerinə getmək istəyən vətəndaş təbii inhisar mövqeyinə malik olan dəmir yolu ilə daşıma münasibətinə girir. Bu münasibətlərdə iştirak edən tərəflərin — vətəndaşla dəmir yolunun iqtisadi gücünün eyni və bərabər olmaması hamıya məlumdur. Hətta onların iqtisadi güclərini müqayisə etmək belə düzgün olmaz. Amma onlar arasında daşıma müqaviləsi bağlananda mülki hüquq mexanizmi işə düşür. Bu isə vətəndaşla dəmir yolunun vəziyyətini hüquqi cəhətdən eyniləşdirməyə və bərabərləşdirməyə imkan verir. Belə təsəvvür yaranır ki, mülki hüququn hər hansı bir subyekti digər subyekt qarşısında üstünlüyə malik deyil.

Subyektlərin hüquq bərabərliyi prinsipi **tərəflərin bir-birindən iqtisadi cəhətdən asılı olmamasını və müstəqilliyini şərtləndirir,** onlar arasında hakimiyyət-tabeçilik əlaqələrini, subordinasiya (aşağıların yuxarılara tabeçiliyi) münasibətlərini istisna edir, aradan qaldırır. Bu prinsip mülki hüquq münasibətlərində iştirak edən tərəflərdən birinin digəri üzərində hakimiyyət funksiyasına və səlahiyyətlərinə malik olmamasına dəlalət edir. Hakimiyyət funksiyasını yerinə yetirən, hakimiyyət daşıyıcısı kimi çıxış edən dövlət mülki hüquq münasibətlərinə girdiyi hallarda, həmin münasibətlərin digər iştirakçısı ilə eyni və bərabər hüquqi imkanlara malik olur.

Bu cür münasibətlərə eyni və həmin mülki hüquq normaları şamil olunur. Məsələn, vətəndaş dövlətin buraxdığı istiqraz vərəqəsini aldıqda, borc münasibəti yaranır. Bu münasibətdə dövlət borc alan, vətəndaş isə borc verən rolunda çıxış edir. Başqa bir misalda dövlət iri sənaye obyektinin tikilməsini tikinti firmasına (podratçıya) sifariş verir. Bu halda onlar arasında podrat münasibəti yaranır. Həmin münasibətdə dövlət sifarişçi kimi, firma isə podratçı kimi iştirak edir. Göstərilən hər iki hal — həm borc münasibəti, həm də podrat münasibəti mülki hüquq normaları ilə (borc və podrat müqaviləsi haqqında normalarla) tənzimlənir. Özü də dövlət həmin münasibətlərin digər iştirakçıları ilə eyni və bərabər hüquqlara malik olur, hakimiyyət səlahiyyətindən istifadə etmir. Amma belə hallarda dövlət özünün əsas cəhətlərindən birini — hakimiyyət funksiyasını saxlayır, bu funksiyadan məhrum olmur.

Subyektlərin hüquq bərabərliyi prinsipinin əsasını fiziki şəxsin hüquq qabiliyyəti haqqında müddəa təşkil edir. Bu müddəaya görə, bütün fiziki şəxslərin mülki hüquq və vəzifələrə malik olma qabiliyyəti (mülki hüquq qabiliyyəti) eyni dərəcədə və bir bərabərdə tanınır (MM-in 25-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, yaşından, cinsindən, sosial-iqtisadi vəziyyətindən və s. asılı olmayaraq bütün fiziki şəxslər qanuna uyğun olaraq, xüsusi mülkiyyətdə əmlaka, bu əmlakdan istifadə etmək hüququna, əmlakı miras almaq və əmlakı ve-

siyyət etmək hüququna, əsərlərin və ya ixtiraların müəllifi olmaq hüququna və s. malik ola bilərlər. Bu prinsip mülki hüququn bəzi institutlarına xüsusi tərzdə şirayət və nüfuz edir. Məsələn, mülkiyyət hüququ institutunda bu prinsip belə ifadə olunur ki, bütün mülkiyyətçilərin hüquqları eyni və bərabər qaydada müdafiə olunur (MM-in 153-cü maddəsinin 4-cü bəndi).

Subyektlərin hüquq bərabərliyi prinsipi mülki hüququn mütləq xarakterli prinsiplərindən hesab edilmir. Bu, o deməkdir ki, həmin prinsipdən müəyyən hallarda istisnalara yol verilə bilər. Məsələn, hüquq bərabərliyi prinsipinə görə, bütün subyektlər mülki hüquq pozuntusuna görə bərabər və eyni əsaslarla məsuliyyət daşıyırlar. Belə ki, mülki hüququn bütün subyektləri yalnız təqsiri olduqda məsuliyyətə cəlb edilirlər (MM-in 448-ci maddəsinin 2-ci bəndi). Amma bundan fərqli olaraq yüksək gərginlikli elektrik enerjisindən istifadə nəticəsində başqasına zərər vuran şəxslər təqsirdən asılı olmayaraq məsuliyyət daşıyırlar (MM-in 1108-ci maddəsinin 1-ci bəndi).

Hüquq bərabərliyi prinsipi onu ifadə etmir ki, subyektlərə məxsus olan subyektiv mülki hüquqların məzmunu və həcmi eynidir, bərabərdir. Belə ki, konkret münasibətin tərəfləri qeyri-bərabər hüquqlara malik ola bilərlər. Həcm və məzmun baxımından şəxslərin subyektiv mülki hüquqları fərqlənə bilər. Bu isə təbiidir. Axı, mülki hüququn bütün subyektləri iqtisadi-maddi və əmlak cəhətdən müxtəlif imkanlara malikdirlər. Onların həyat və təsərrüfat mənafeyi fərqlənir. Məsələn, mülkiyyətçi mənzilə sahiblik, mənzildən istifadə və onun barəsində sərəncam vermək kimi əşya hüququna malikdir. Uzufruktuarın isə mənzildən yalnız istifadə hüququ vardır. O, mənzili sata, bağışlaya, dəyişdirə və s. bilməz. Göründüyü kimi, mülkiyyətçi ilə məhdud əşya subyektinin (uzufruktuarın) mənzilə olan əşya hüquqları məzmun və həcm etibarilə üst-üstə düşmür, bir-birindən fərqlənir.

3. Mülki hüquq subyektlərinin iradə azadlığı və sərbəstliyi prinsipi

Mülki hüquq subyektlərinin iradə azadlığı və sərbəstliyi prinsipi qanunvericilik qaydasında möhkəmləndirilməklə konkret hüquq normasında ifadə edilmişdir (MM-in 6-cı maddəsinin 1-ci bəndi). Bu prinsipə **dispozitivlik və ya sərbəstlik prinsipi** də deyilir[1]. Bəzən bu prinsip **mülki hüquqla tənzimetmənin ixtiyarverici yönümlü prinsipi** də adlanır[2].

İradə azadlığı (dispozitivlik) prinsipi onu ifadə edir ki, mülki hüquq subyektləri mülki hüquq münasibətlərinə girərkən müstəqil surətdə, öz mülahizələri əsasında, özlərinin istək və mənafeyini nəzərə almaqla onlar üçün sərfəli olan davranış variantlarından birini seçmək imkanına malikdirlər. Bu prinsipə görə subyektlər qanunla qadağan edilməyən istənilən hərəkəti edə bilərlər. Dispozitivlik prinsipinin əsasını prinsipial əhəmiyyətə malik olan belə bir Konstitusiya müddəası təşkil edir ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər (Konstitusiyanın 59-cu maddəsi)[1]. Bu prinsip bazar iqtisadiyyatı üçün xarakterik olan belə bir ümumi qayda ilə bağlıdır: «qanunla qadağan edilməyən hər şeyə icazə verilir». Bu ümumi qayda vətəndaş cəmiyyətinin əsas şüarlarından biridir. Həmin qayda dünya praktikasında ümumi hüquqi liberal-demokratik prinsip kimi tanınır[2]. Vətəndaşlar üçün hüquq odur ki, o, qanunla qadağan edilməyən hər şeyi etməyə icazə verir (L.Tolstoy). Azadlıq qanunla qadağan edilməyən hər şeyi etmək hüququdur (Monteskye). Azadlıq bütün hamının hər şeyi etmək hüququdur, amma o, başqasına zərər vurmamalıdır (K.Marks).

Dispozitivlik prinsipi mülki hüquq subyektinə ixtiyar verir ki, o, öz iradəsi əsasında əqd bağlayıb-bağlamamasını, əmlakı vəsiyyət edib-etməməsini, pozulmuş hüququnu bərpa etmək üçün müdafiə tədbirlərindən istifadə edib-etməməsini, subyektiv mülki hüquq əldə edib-etməməsini, əmlaka malik olub-olmamasını, hərəkətləri ilə özü üçün mülki vəzifələr yaradıb-yaratmamasını, elm, ədəbiyyat və incəsənət əsərlərinin, ixtiraların və s. müəllifi olub-olmamasını, öhdəliyin icrasını digər qarşı tərəfdən tələb edib-etməməsini və s. həll etsin. Fiziki şəxslər, həmçinin hüquqi şəxslər mülki hüquqlarını öz istədikləri kimi, öz mənafelərinə və iradələrinə uyğun olaraq əldə edir və həyata keçirirlər (MM-in 6-cı maddəsinin 2-ci bəndi). Mülki dövriyyə iştirakçıları hər hansı bir mülki hüquq münasibətinə girərkən öz iradələrini bildirməkdə və ifadə etməkdə azad və sərbəstdirlər. Onlar arasında münasibətlər **təşəbbüslə bağlı olan iradəvi akt - müqavilə (saziş) əsasında** əmələ gəlir. Mülki dövriyyə iştirakçıları öz tələbat və ehtiyaclarını ödəmək üçün müxtəlif müqavilələr — alqı-satqı, icarə, kirayə, françayzinq, bank hesabı, bank əmanəti, kredit, podrat və digər müqavilələr bağlaya bilərlər. Bu müqavilələri bağlayarkən və digər əqdləri həyata keçirərkən onların əmlak və başqa mənafeyi əsas kimi götürülür. Mənafe — vətəndaş cəmiyyəti üzvlərini bir-biri ilə sıx surətdə bağlayır[3]. Heç kəs mülki hüquq münasibətlərində çıxış edən subyektlərə diktə edə bilməz ki, həmin subyektlər özlərinə məxsus olan hüquqları necə həyata keçirsinlər.

Bununla belə, dispozitivlik prinsipi bəzi hallarda məhdudlaşa bilər. Bu prinsipin sərhədləri və hüdudları sonsuz deyildir. Həmin prinsip yalnız müəyyən hüquqi çərçivədə mövcud ola bilər. Məsələn, mülki hüquqlardan sui-istifadə olunması qadağandır (MM-in 16-cı maddəsinin 1-ci bəndi). Mülkiyyətdən başqalarına ziyan vurmaq məqsədi ilə istifadə etmək yolverilməzdir. Dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması və s. zəruri olduqda mülki hüquqlar qanunla məhdudlaşdırıla bilər. Bu cür hallarda mülki hüquq subyektlərinin iradə azadlığına yer qalmır. Həmin məqamlarda subyektin iradə azadlığı ön plana keçmir və məhdudlaşır.

4. Mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi prinsipi

Əmlak müstəqilliyi prinsipi mülki hüququn əsas və mühüm prinsiplərindən biridir. Bu prinsip də qanunvericilik qaydasında formulə edilmişdir (MM-in 6-cı

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 40.
[2] bax: Гражданское право. Учебник. Часть 1 /Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 17.

[1] bax: AR QK, II cild, s. 581.
[2] Bu prinsipin əsas cəhətləri barədə bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 214-235.
[3] *Маркс К, Энгельс Ф.* Соч. Том 2, с.134.

maddəsinin 1-ci bəndinin 3-cü yarımbəndi).

Qeyd etdik ki, mülki hüquqla tənzimlənən münasibətlərin təbiəti bu münasibətlərdə subyekt rolunda çıxış edən şəxslərin hüquqi statusunu (vəziyyətini) müəyyənləşdirir. Həmin subyektlər bərabər hüquqlara malikdirlər. Bununla bərabər, həmin münasibətlərin xarakteri subyektlərin əmlak (iqtisadi) vəziyyətini də şərtləndirir. Mülki hüquqla rəsmiləşdirilən və qaydaya salınan əmlak münasıbətləri digərlərinə nisbətən üstünlüyə malik olub, həlledici əhəmiyyət kəsb edir. Bundan əlavə, həmin münasibətlər əmtəə-pul, dəyər xarakterlidir. Bax, bu xüsusıyyətlər subyektlərin əmlak müstəqilliyini şərtləndirir. Əmlak müstəqilliyi olmadan normal və sivil iqtisadi (əmlak) münasibətlər yarana və inkişaf edə bilməz.

Mülki (əmlak) dövriyyədə iştirak etmək üçün zəruri və vacibdir ki, subyektin maddi bazası olsun. Bu bazanı onun malik olduğu əmlak təşkil edir. İstənilən praktiki fəaliyyət əmlak olmadan həyata keçirilə bilməz. Bunu adam təsəvvürünə belə gətirə bilmir. Əmlak dedikdə, müxtəlif istehsal vasitələri, predmetlər, pul, qiymətli kağızlar, tələb (öhdəlik) hüquqları, digər əmlak hüquqları başa düşülür. Normal təsərrüfat, sahibkarlıq və digər iqtisadi fəaliyyət növləri üçün əsas şərt təkcə əmlakın olmasından ibarət deyil. Vacib və zəruri şərtlərdən biri həm də ondan ibarətdir ki, mülki dövriyyə iştirakçıları əmlak müstəqilliyinə malik olsun. Yalnız belə halda təsərrüfat fəaliyyəti normal və səmərəli olar.

Əmlak müstəqilliyi dedikdə, təsərrüfat fəaliyyəti üçün ayrılmış əmlaka sahiblik və yıyəlik edənlərin həmin əmlak barəsində heç kəsdən asılı olmadan, sərbəst surətdə sərəncam vermələri başa düşülür. Bu, mülki hüquq münasibəti iştirakçılarının əmlak cəhətdən heç kəsdən asılı olmamalarını ifadə edir. Ümumi qaydaya görə onlar öz əmlakının mülkiyyətçiləridirlər. Yalnız mülkiyyətçilərin sözün əsl mənasında əmlak müstəqilliyi vardır. Onlar qanunla müəyyən edilmiş həddə əmlaka sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam vermək ixtiyarına malikdirlər. Mülkiyyətçilərin öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etmək (satmaq, bağışlamaq, dəyişmək, girov qoymaq, icarəyə vermək, vəsiyyət etmək, kirayəyə vermək və s.) hüququ vardır. Onlar malik olduqları əmlakdan hər hansı sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilərlər. Bu cür məqsədlərlə istifadə nəticəsində məhsul və gəlir əldə edilir. Onlar həmin əmlakın mülkiyyətçisinə məxsusdur.

Mülkiyyətçilər öz öhdəlikləri üçün onlara məxsus olan əmlakı ilə cavabdehdirlər. Onlar kreditorların tələblərini ödəyə bilmədikdə, onda tələblər mülkiyyətçinin əmlakına yönəlir. Kreditorların tələbləri həmin əmlakın hesabına təmin edilir. Deməli, mülkiyyətçi öz əmlakı hesabına mümkün olan zərərə düşmək risqini daşıyır.

Əmlak müstəqilliyinə qeyri-mülkiyyətçilər də malik ola bilərlər. Söhbət titul (hüquqi əsası olan) sahibliyindən gedir. Titul sahiblik odur ki, əmlak qanun əsasında mülkiyyətçinin sərəncamından digər (qeyri-mülkiyyətçi olan) şəxsin faktiki sahibliyinə keçir. Belə halda titul sahib mülkiyyətçi statusu əldə etmir. Əmlakın mülkiyyətçisi kimi yenə də əvvəlki şəxs qalır. Titul sahibliyi müxtəlif əqdlər nəticəsində əmələ gəlir. Məsələn, kəndli (fermer) təsərrüfatı əmtəəlik (satış üçün) məqsədi ilə məhsul yetişdirmək üçün böyük torpaq sahəsini icarəyə götürür və icarə müqaviləsi bağlayır. Belə halda həmin torpaq sahəsi kəndli (fermer) təsərrüfatının titul sahibliyinə keçir. Bu, əqddən, yəni icarə müqaviləsindən əmələ gəlir. Kəndli (fermer) təsərrüfatı mülkiyyətçi olmasa da, torpaq sahəsindən müstəqil surətdə istifadə edib, zəruri məhsullar istehsal edir.

5. Mülkiyyət toxunulmazlığı prinsipi

Azərbaycan Respublikasında həyata keçirilən islahatların güddüyü əsas məqsədlərdən biri vətəndaş cəmiyyəti qurmaqdan ibarətdir.

Vətəndaş cəmiyyəti bütün sivil dünya tərəfindən qəbul edilən ayrılmaz atributlara malikdir. İqtisadi azadlıq, sahibkarlıq, bazar sistemi subyektlərinin hüquq bərabərliyi və onların hüquqi cəhətdən müdafiə olunması həmin cəmiyyətin atributları hesab edilir. İstənilən vətəndaş cəmiyyətinin əsasını müəyyən ümumi ideya və prinsiplər təşkil edir. Müxtəlif formalı mülkiyyət bu cəmiyyətin ayrılmaz atributlarından, əsas ideya və prinsiplərindən biridir. Mülkiyyət vətəndaş cəmiyyətinin başlıca leytmotividir. Bu cəmiyyətin əsas məhvərini xüsusi mülkiyyət təşkil edir.

Mülkiyyət mürəkkəb, çoxcəhətli münasibətlər sistemidir. Cəmiyyətdəki istehsal münasibətləri mülkiyyətin formaları ilə xarakterizə olunur[1]. O, iqtisadi kateqoriyadır. Mülkiyyət əşya barəsində şəxslər arasında ictimai, iqtisadi (əmlak) münasibətlərdir. Əşyalar, maddi predmetlər, maşınlar, avadanlıqlar, müxtəlif istehsal vasitələri və s. yalnız spesifik ictimai xarakter aldığına görə mülkiyyət olurlar. Bazar iqtisadiyyatının, prinsip etibarilə istənilən iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün vacib və zəruridir ki, şəxsin öz mülkiyyətində olan əmlaka sahiblik, əmlakdan istifadə və onun barəsində sərəncam vermək hüququnu sabit surətdə, normal qaydada həyata keçirməsi imkanına təminat verilsin. Mülki hüquq mülkiyyət toxunulmazlığı prinsipi vasitəsi ilə mülkiyyətçinin həmin hüquqlarının reallaşdırılmasına zəmanət verir. Bütün qabaqcıl, inkişaf etmiş və sivil ölkələrin mülki hüquq sahələri, demək olar ki, çox zəngin ictimai-iqtisadi və sosial-siyasi məzmuna malik olan, bütövlükdə cəmiyyətin həyati məsələsinə çevrilən mülkiyyət məsələsinin əhəmiyyətini və rolunu nəzərə alaraq mülkiyyət toxunulmazlığı prinsipini müəyyənləşdirir.

Ölkəmizin müasir mülki qanunvericiliyi mülkiyyət toxunulmazlığı prinsipini mülki hüququn **ən vacib və mühüm, fundamental prinsipi kimi təsbit edir** (MM-in 6-cı maddəsinin 1-ci bəndinin 4-cü yarımbəndi). Əmlak dövriyyəsinin təşkilində bu prinsipin əhəmiyyəti əvəzedilməzdir. **Həmin prinsipin əsas məqsədi** əmlak (mülki) dövriyyəsinin bazasını təşkil edən mülkiyyət münasibətlərini sabitləşdirməkdən ibarətdir. Mülkiyyət toxunulmazlığı prinsipi imkan verir ki, mülkiyyətçi ona məxsus olan əmlakdan öz mənafeyi üçün lazımınca maksimum dərəcədə istifadə etsin. Bu prinsipin mövcud olması və hüquqi rol oynaması mülkiyyətçilərdə belə təsəvvür yaradır və ümid oyadır ki, onların mülkiyyətində olan əmlak özbaşına olaraq məcburi surətdə alına bilməz və yaxud əmlakdan istifadə olunması qadağan edilə və məhdudlaşdırıla bilməz.

Mülkiyyət toxunulmazlığı prinsipi mülki hüquq subyektlərinin malik olduqları əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam ver-

[1] Краткий философский словарь. Под ред. *М.Розенталя* и *П.Юдина*. М., 1952, с.34.

mək hüququnun sabit surətdə həyata keçirilməsinə hüquqi təminat verilməsini ifadə edir. Bu prinsipin təməlini və bünövrəsini Konstitusiyada (13-cü maddə) ifadə edilən belə bir vacib və mühüm müddəa təşkil edir: **Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır.**

Mülkiyyət toxunulmazlığı prinsipinin üç əsas cəhəti vardır. Bu prinsipin **birinci cəhəti** ondan ibarətdir ki, **mülkiyyətin heç bir növünə üstünlük verilmir.** Mülkiyyətin növləri dedikdə, dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti başa düşülür (Konstitusiyanın 13-cü maddəsinin 1-ci bəndi)[1]. Bazar iqtisadiyyatına keçilməsi, komanda iqtisadiyyatı adlı sovet iqtisadlyyatından imtina edilməsi əvvəllər mövcud olmuş dövlət mülkiyyəti inhisarına, bu mülkiyyətin üstünlüyü konsepsiyasına son qoymuşdur. Sovet dövründə torpaq kimi əsas istehsal vasitəsi dövlətin müstəsna mülkiyyətində idi. Müasir dövrdə torpaq ayrı-ayrı şəxslərin xüsusi mülkiyyət hüququnun obyekti ola bilər. Xüsusi mülkiyyət hüququ rəsmən qanunvericilik səviyyəsində normativ qaydada təsbit olunmuşdur. İndiki dövrdə həm dövlət mülkiyyəti, həm də xüsusi mülkiyyət eyni və bərabər qaydada tanınır. Onlardan hər hansı birinə üstünlük verilmir.

Mülkiyyət toxunulmazlığı prinsipinin **ikinci cəhəti** ondan ibarətdir ki, **mülkiyyət hüququ qanunla qorunur və dövlət tərəfindən müdafiə olunur.** Dövlətin və hüququn ən vacib və mühüm vəzifələrindən biri mülkiyyət münasibətlərini qorumaqdan (mühafizə etməkdən) ibarətdir. Bu münasibətlər hüququn bütün sahələri tərəfindən qorunur. Həmin münasibətlərin hüquqi tənzimlənməsində konstitusiya, inzibati, maliyyə, əmək və cinayət hüququnun xüsusilə rolu böyükdür. Mülkiyyət münasibətlərinin nizama salınmasında mülki hüququn mühüm əhəmiyyəti vardır. Pozulmuş mülkiyyət hüququnu bərpa etmək və ya mülkiyyətçilərin əmlak mənafelərini müdafiə etmək məqsədi ilə mülki qanunvericilik hüquqi vasitələr müəyyən edir. Bu vasitələrin məcmusuna **əşya-hüquqi müdafiə vasitələri** deyilir. Həmin vasitələrə aiddir: vindikasiya iddiası (özgənin qanunsuz sahibliyindən əmlakın tələb edilməsi barədə iddia); neqator iddia (mülkiyyətçinin hüquqlarının sahiblikdən məhrum edilməklə əlaqədar olmayan pozuntulardan müdafiə barədə iddia); hüquqlann tanınması barədə iddia və s. Özü də bütün mülkiyyətçilərin hüquqları eyni və bərabər qaydada müdafiə olunur (MM-in 153-cü maddəsinin 4-cü bəndi). Bununla sovet dövründəki dövlət mülkiyyətinin müdafiəsinə üstünlük verilməsi prinsipinə son qoyuldu. Mülki dövriyyə iştirakçıları ümid edir və bel bağlayır ki, mülkiyyət hüququ pozularsa, onda əşya-hüquqi müdafiə vasitələri onun köməyinə gələcəkdir.

Mülkiyyət toxunulmazlığı prinsipinin **üçüncü cəhəti** ondan ibarətdir ki, **heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz.** Bu, o deməkdir ki, məhkəmənin müvafiq qərarı olmasa, mülki hüquq subyektinin əmlak üzərində mülkiyyət hüququna xitam verilə bilməz. Bununla bərabər, şəxsin mülkiyyət hüququ müəyyən əsaslara görə məcburi surətdə ləğv edilə bilər. Həmin əsasların dairəsi qanunda göstərilmişdir. Belə ki, Mülki Məcəllənin 203-cü maddəsi mülkiyyət hüququnun ləğv edilməsinin məcburi əsaslarının qəti və dəqiq siyahısını verir. Bu siyahı təxmini xarakterə malik deyil. Ona görə də həmin siyahını genişləndirici təfsir etmək olmaz. Mülkiyyət hüququnun ləğv edilməsinin məcburi əsasları dedikdə, mülkiyyətçinin iradəsi olmadan onun əmlak üzərində mülkiyyət hüququna xitam verilməsinə dəlalət edən hüquqi faktlar başa düşülür. Bu əsaslardan biri **rekvizisiya (həcz)** adlanır. Rekvizisiya (həcz) müvafiq dövlət orqanlarının qəran ilə dəyəri ödənilməklə əmlakın cəmiyyətin mənafeləri üçün mülkiyyətçidən alınmasıdır. Məsələn, ölkədə milli-etnik münaqişə yarandığına görə DİN-in sərəncamı ilə əhalidən mülki silah yığılır və s. Digər əsas **müsadirədir.** Müsadirə mülkiyyətçidən əmlakın, törədilmiş cinayətə görə sanksiya kimi məhkəmənin hökmü ilə əvəzsiz alınmasıdır. Bunlardan əlavə, **milliləşdirmə** nəticəsində də şəxslərin mülkiyyət hüququ məcburi surətdə ləğv edilə bilər. Amma bundan ötrü mülkiyyət hüququna xitam verən qanun qəbul edilməlidir (MM-in 210-cu maddəsi). Amma özəlləşdirməni isə bu prinsipin tətbiqini istisna edən və məhdudlaşdıran hal hesab etmək olmaz. Özəlləşdirmə əmlakın dövlət mülkiyyətindən xüsusi mülkiyyətə keçməsinin xüsusi xarakterli üsuludur. Bu üsulu mülkiyyət hüququn ləğv edilməsinin məcburi əsası hesab etmək olmaz. Ona görə ki, özəlləşdirmə mülkiyyətçinin (dövlətin) özünün iradəsi əsasında həyata keçirilir.

Beləliklə, qanunda nəzərdə tutulan əsaslara (həcz, müsadirəyə və s.) görə əmlakın mülkiyyətçidən məcburi alınmasına yol verilir. Bu, mülkiyyət toxunulmazlığı prinsipinin tətbiqini istisna edir, məhdudlaşdırır. Amma buna baxmayaraq, mülkiyyət hüququnu xitam edən dövlət və yerli özünüidarə orqanlarının aktlarından məhkəmə qaydasında şikayət verilə bilər (MM-in 19-cu maddəsi, 209-cu maddəsinin 2-ci bəndi). Mülkiyyət hüququna xitam verilməsi nəticəsində mülkiyyətçiyə dəyən zərərin dövlət tərəfindən ödənilməsinə dair mübahisələri məhkəmə həll edir (MM-in 208-ci və 210-cu maddələri).

Mülkiyyət toxunulmazlığı prinsipində mütləq hüquq kimi əşya hüququnun xarakteristikası ifadə olunur. Belə ki, əvvəllər də qeyd etdiyimiz kimi, mülkiyyət münasibətlərində iki tərəf iştirak edir. Bu tərəflərdən biri məlumdur. O, mülkiyyətçidir. Həmin münasibətin digər tərəfi isə əhatə dairəsi məlum olmayan şəxslərdən («hamıdan və hər kəsdən») ibarətdir. Həmin şəxslərin vəzifəsi və borcudur ki, mülkiyyətçinin mülkiyyət hüququnu pozmasınlar. Bax, bu hal mülkiyyət toxunulmazlığı prinsipini ifadə edir.

6. Müqavilə azadlığı prinsipi

Mülki hüququn prinsiplərindən biri müqavilə azadlığı prinsipi adlanır. MM-in müvafiq norması bu prinsipi mülki qanunvericiliyin mühüm prinsipləri dairəsinə daxil edir (MM-in 6-cı maddəsinin 1-ci bəndinin 5-ci yarımbəndi).

Mülki-hüquqi müqavilə ən geniş yayılmış hüquqi fakt — əqd növüdür. O, iki və ya daha çox şəxsin iradəsini ifadə edir. Müqavilələr hüquqi fakt kimi müxtəlif əmlak xarakterli hüquq münasibətləri yaradır, dəyişdirir və ya ləğv edir. Onlar öhdəliklərin (alqı-satqı, icarə, kirayə, daşıma, kredit və s. öhdəliklərin) ən vacib və mühüm əmələ gəlmə əsaslarından biridir.

Müqavilələr mülki (əmlak) dövriyyədə böyük əhəmiyyətə və rola malikdir. Bazar münasibətlərinin inkişafına onun mühüm təsiri vardır. Belə ki, həmin münasibətlərin tənzimlənməsində müqavilələr əsas vasitəyə çevrilir. Bazar iqtisadiyyatı şəraitində istehsal olunan məhsullar (mallar), göstərilən xidmətlər, görülən işlər əmtəəyə çevrilir. Əmtəə bazarda mübadilə üçün, satılmaq üçün

[1] bax: AR QK II cild, s.572.

istehsal olunan və hazırlanan nemətdir. Əmtəənin satılması dedikdə, onun pula və ya digər əmtəəyə dəyişdirilməsi (mübadiləsi) başa düşülür. Bununla əmtəə-pul münasibətləri yaranır, əmtəə mübadiləsi baş verir. Əmtəə mübadiləsi iqtisadi (əmlak) dövriyyə münasibətləridir. Bu münasibətlərin dairəsi isə kifayət qədər genişdir: alqı-satqı münasibətləri; icarə münasibətləri; daşıma münasibətləri; kredit münasibətləri; podrat (tikinti) münasibətləri və s. Bax, müqavilələr hüquqi cəhətdən bu münasibətləri rəsmiləşdirir. Deməli, onlar **iqtisadi (əmlak) dövriyyə münasibətlərinin hüquqi forması, hüquqi rəsmiləşdirmə vasitəsidir**.

Müqavilələr sahibkarlıq fəaliyyətinin tənzimlənməsində vacib rol oynayır. Bu hüquqi vasitə imkan verir ki, sahibkarlar bir-biri ilə əmtəə mübadiləsi üzrə işgüzar əlaqələr yaratsınlar, özlərinin iqtisadi mənafeyini nəzərə alsınlar, məhsullara, xidmətlərə, işlərə olan ictimai tələbatı müəyyənləşdirsinlər. Dediklərimizdən belə təsəvvür yaranır ki, ölkəmizin bazar iqtisadiyyatına keçməsi ilə mülki-hüquqi müqavilələrin əhəmiyyəti xeyli dərəcədə artmışdır. Müasir dövrdə onlar mülki (əmlak) dövriyyə iştirakçıları arasında münasibətləri qaydaya salmaq üçün ən mühüm hüquqi vasitəyə çevrilmişdir. Bazar iqtisadiyyatı şəraitində müqavilələrin rolunun artmasını nəzərə alaraq mülki qanunvericilik müqavilə azadlığı prinsipini formulə edir: **fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər** (MM-in 390-cı maddəsinin 1-ci bəndi). Bu prinsip mülki (əmlak) dövriyyənin inkişafının əsasıdır.

Müqavilə azadlığı prinsipinin bir neçə ifadə forması vardır. **Birincisi**, bu prinsip şəxslərə (fiziki və hüquqi şəxslərə) müstəqil surətdə, heç kəsdən asılı olmadan, öz istək və mülahizələri əsasında, mənafelərinə **uyğun olaraq müqavilə bağlamağın zəruriliyi** haqqında məsələni həll etmək imkanı verilməsində ifadə olunur. İstənilən şəxslər onların **mənafeyini** ödəyən, onlara lazım və gərək olan hər hansı müqavilə bağlaya bilərlər. Mülki dövriyyə iştirakçıları müqavilə üzrə tərəfdaşlar seçməkdə sərbəstdirlər. Vətəndaşlar və hüquqi şəxslər müqavilə bağlamaqda heç kəsin iradəsindən asılı deyillər. Onlar müqavilə şərtlərini (müddət, qiymət və s.) müəyyənləşdirməkdə azaddırlar. Subyektlər sərbəst surətdə müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyən edirlər. Bununla belə, müqavilə bağlayan şəxslər mülki hüquq subyektliyinə malik olmalıdırlar. Mülki hüquq subyektliyi şəxsin mülki hüquq münasibətlərində iştirak etmək imkanı və ya qabiliyyətidir. Əgər şəxs mülki hüquq subyektliyinə malik deyilsə, onda onun müqavilə bağlamaq ixtiyarı yoxdur. Həmin şəxslər müqavilə bağladığı hallarda, bu müqavilənin etibarsız əqd kimi hüquqi əhəmiyyəti olmur. Məsələn, on dörd yaşınadək azyaşlılar xırda məişət xarakterli müqavilələr istisna olmaqla, müqavilə bağlamaq hüququna malik deyillər. Ruhi xəstəlik və ya ağıl zəifliyi nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən və buna görə də məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılan fiziki şəxs də mülki hüquq subyektliyindən məhrumdur. Ona görə də həmin şəxslər müqavilə bağlaya bilməzlər. Belə təsəvvür yaranır ki, müqavilə bağlayan **subyektlər mülki hüquq subyektliyi haqqında müddəaya cavab verməlidirlər**.

İkincisi, müqavilə azadlığı prinsipi onda ifadə olunur ki, mülki dövriyyə iştirakçısını onun **iradəsi ziddinə olaraq müqavilə bağlamağa məcbur etmək olmaz**. Subyektin müqavilə bağlamağa vadar edilməsi yolverilməzdir, qadağandır. Məsələn, vətəndaşı məcbur etmək olmaz ki, o, ərzaq məhsulları almaq üçün filan dükanla alqı-satqı müqaviləsi bağlasın. Başqa bir misalda sərnişini vadar etmək olmaz ki, o, təyinat yerinə getmək üçün filan nəqliyyat təşkilatı ilə daşıma müqaviləsi bağlasın. Daha başqa bir misalda kənd sakinini məcbur etmək olmaz ki, o, torpaq sahəsi icarəyə götürmək üçün filan fermerlə icarə müqaviləsi bağlasın. Bununla belə, qanunda nəzərdə tutulan hallarda subyekti müqavilə bağlamağa məcbur etmək olar. Şəxslərlə müqavilə bağlamaq həmin subyekt üçün məcburidir. Onun müqavilə bağlamaqdan boyun qaçırmağa və imtina etməyə ixtiyarı çatmır. Məsələn, əgər müqavilə tərəflərindən biri bazarda üstün mövqe tutursa, şəxslərlə müqavilə bağlamaqdan əsassız imtina edə bilməz (MM-in 400-cü maddəsinin 1-ci bəndi). Göründüyü kimi, **qanun bəzi hallarda subyekti müqavilə bağlamağa məcbur etmək barədə qayda müəyyən edir**. Bu isə müqavilə azadlığı prinsipinin tətbiqini istisna edir və məhdudlaşdırır.

Üçüncüsü, müqavilə azadlığı prinsipi onda ifadə olunur ki, mülki (əmlak) dövriyyə iştirakçılarına **azad surətdə həm də Mülki Məcəllədə nəzərdə tutulmayan müqavilə bağlamaq imkanı verilir** (MM-in 390-cı maddəsinin 1-ci bəndi). Əmlak dövriyyəsində çoxsaylı müqavilələrdən istifadə edilir. Çoxnövlü olan həmin müqavilələrin əhatə dairəsi kifayət qədər genişdir. Onları əsasən, dörd qrupda yerləşdirmək olar: əmlakın mülkiyyətə verilməsi (əmlakın realizə edilməsi) üzrə müqavilələr (məsələn, alqı-satqı müqaviləsi, dəyişmə müqaviləsi və s.); əmlakın sahibliyə və istifadəyə verilməsi üzrə müqavilələr (icarə müqaviləsi, kirayə müqaviləsi, lizinq müqaviləsi və s.); iş görülməsi üzrə müqavilə (podrat müqaviləsi); xidmət göstərilməsi üzrə müqavilələr (sığorta, saxlama, daşıma, kredit, bank hesabı, bank əmanəti, tapşırıq və s. müqavilələr). Bu müqavilələrin hüquqi parametrləri MM-də göstərilmişdir. Lakin elə müqavilə növləri vardır ki, onları MM tənzimləmir. Axı, MM bütün müqavilələri nəzərə almaq və onları nizama salmaq imkanında deyildir. Bunlar **MM-də nəzərdə tutulmayan müqavilələr** adlanır. Müqavilə azadlığı prinsipinə görə mülki dövriyyə subyektlərinin bu cür müqavilələr bağlamaq ixtiyarı vardır. Amma bir şərlə ki, həmin müqavilələr qanuna zidd olmasın. Məsələn, Azərbaycan Respublikasının yeni MM-i nəqliyyat-ekspedisiya, əmlakın etibarlı idarəçiliyə verilməsi barədə, sadə ortaqlıq barədə, kommersiya nümayəndəliyi haqqında, informasiya xidməti, tibbi xidmət, hüquqi xidmət, auditor xidməti, rabitə xidməti, mehmanxana xidməti və s. xidmət göstərilməsi üzrə müqavilə növlərini tənzimləmir. Mülki hüquq subyektləri zərurət olduqda öz ehtiyac və mənafelərini təmin etmək üçün bu hüquqi konstruksiyalardan istifadə edə bilərlər.

Dördüncüsü, müqavilə azadlığı prinsipi onda ifadə olunur ki, mülki dövriyyə iştirakçıları **qarışıq (mürəkkəb və ya kompleks) müqavilə növündən istifadə etmək hüququna malikdirlər** (MM-in 390-cı maddəsinin 4-cü bəndi). Qarışıq müqavilə MM-də nəzərdə tutulmuş müxtəlif müqavilələrin elementlərini (ünsürlərini) özündə birləşdirən müqavilədir. Məsələn, istehsal müəssisəsi üçün xammal göndərən sahibkar müəssisəsinin özü xammal materiallarını həm saxlayır, həm daşıyır, həm sığorta edir. Bu münasibət dörd müxtəlif mü-

qavilənin elementini əhatə edir: mal göndərmə müqaviləsinin; saxlama müqaviləsinin; daşıma müqaviləsinin; sığorta müqaviləsinin. Ona görə də həmin konstruksiya qarışıq müqavilə hesab edilir.

Mülkiyyət toxunulmazlığı prinsipi təkcə MM-də yox, həm də digər qanunlarda nəzərdə tutulur. Məsələn, Azərbaycan Respublikasında hər kəsin və qeyri-dövlət hüquqi şəxslərinin varidatının toxunulmazlığına, məcburi surətdə və zərərin əvəzi ödənilmədən dövlətin xeyrinə özgəninkiləşdirilməyəcəyinə, müsadirə olunmayacağına tam təminat verilir[1]. Sahibkarın əmlakı toxunulmazdır[2].

7. Xüsusi işlərə (şəxsi və ailə həyatına) kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipi

Xüsusi işlərə (şəxsi və ailə həyatına) kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipinin müasir dövrdə əhəmiyyəti və rolu böyükdür. Belə ki, bazar münasibətləri əsasında iqtisadiyyatın yaranması və inkişafı şəraitində biz bazar sistemi subyektlərinin — sahibkarların, kommersantların, biznesmenlərin, iş adamlarının, özəl sektorların, sahibkar statuslu vətəndaşların, bankların, sığorta təşkilatlarının və s. fəaliyyətinə dövlət orqanlarının və onların vəzifəli şəxslərinin tez-tez əsassız olaraq müdaxilə etmələrinin şahidi oluruq. Bu cür müdaxilə nəticəsində onların hüquqları pozulur, fəaliyyətin səmərəli həyata keçirilməsinə maneələr yaradılır, bazar subyektlərinə ziyan vurulur. Əsassız olaraq tez-tez yoxlamalar keçirən dövlət orqanları və onların vəzifəli şəxslərinin xüsusi işlərə özbaşına müdaxilə etməsinin qarşısının alınmasında mülki qanunvericiliyin nəzərdə tutduğu bu prinsip ən etibarlı sipər rolunu oynayır. Həmin prinsip mülki hüququ xüsusi hüquq kimi xarakterizə etməyə imkan verir. Ona görə ki, xüsusi hüquq dövlətin tənzimləmə fəaliyyətinin bilavasitə məhdud dərəcədə müdaxilə etdiyi sferaları tənzimləyir[3].

Xüsusi işlərə (şəxsi və ailə həyatına) kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipi onu ifadə edir ki, əmlak dövriyyəsi iştirakçılarının və bazar sistemi subyektlərinin xüsusi işlərinə, o cümlədən, onların həyata keçirdikləri sahibkarlıq, kommersiya, təsərrüfat və ya qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növlərinə dövlət və yerli özünüidarə orqanlarının özbaşına müdaxiləsi yolverilməzdir. Həmin orqanların sahibkarlıq fəaliyyətini həyata keçirən subyektlərə hansı malı (işi, xidməti) istehsal etmək, hansı şərtlərlə və hansı qiymətlə onları realizə etmək (satmaq) barədə göstəriş verməyə ixtiyarı çatmır. Onlarla müqavilə münasibətlərində olmayan hər hansı istənilən üçüncü şəxs də bu cür hüquqa — müdaxilə etmək, qarışmaq hüququna malik deyil.

Göstərilən prinsipin əsasını və təməlini Konstitusiyada ifadə edilən müddəa təşkil edir: **şəxsi həyata müdaxilə etmək qadağandır.** Şəxsi həyat dedikdə, təkcə şəxsi-ailə həyatını başa düşmək düzgün olmaz. Bu anlayışı genişləndirici təfsir etmək lazımdır. O, özündə həm də subyektin həyata keçirdiyi müxtəlif fəaliyyət növlərini (sahibkarlıq, kommersiya, təsərrüfat və digər iqtisadi fəaliyyət növlərini) əhatə edir[1]. Dövlətin vətəndaşların xüsusi işlərinə (şəxsi həyatına) müdaxilə etməməsi vətəndaş cəmiyyətinin əsasını təşkil edən ümumi ideya və prinsiplərdən biridir[2]. Vətəndaş cəmiyyəti siyasi-dövlət təsisatlarının üstün və hökmran olduğu cəmiyyət deyildir. Bu cəmiyyət sosial-iqtisadi amillərin başlıca rol oynadığı cəmiyyətdir. Həmin cəmiyyət subyektlərin həyat fəaliyyətinin xüsusi (şəxsi) sahəsinin birinci cərgədə və ön planda olduğu cəmiyyətdir. Vətəndaş cəmiyyəti şəxsi hakimiyyət rejimi ilə, totalitarizmlə, insanlar üzərində zorakılıqla və volyuntarist idarə metodları ilə bir araya sığa bilməz. Dövlətin bu cəmiyyətdə tənzimləyici rolu vacib məsələləri əhatə edir: hüquq qaydasının qorunmasını; cinayətkarlıqla mübarizəni; mülkiyyətçilərin maneəsiz olaraq fəaliyyət göstərmələrinə, öz hüquqlarını həyata keçirmələrinə normal şərait yaratmağı. K.Marksın dili ilə desək, dövlət əsasən ümumi işlərin aparılması funksiyasını yerinə yetirməlidir. Onun vəzifəsi iqtisadi həyatın normal axımına «mane olmamaqdan» ibarətdir. Söhbət, hər şeydən əvvəl, əmtəə sahiblərinin, mülkiyyətçilərin, mal istehsalçılarının, sahibkarların, bir sözlə, iqtisadi (əmlak) dövriyyə iştirakçılarının xüsusi işlərinə özbaşına qarışmamaqdan gedir.

Özbaşına qarışmamaq prinsipinin fundamentini təşkil edən Konstitusiya müddəası həm ümumi mülki, həm də xüsusi qanunvericilikdə konkretləşir. Məsələn, bank müştərinin (firmanın, müəssisələrin və s.) öz pul vəsaitindən istifadə etməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz. Bankın ixtiyarı yoxdur ki, o, müştərinin pul vəsaitinə öz istədiyi kimi sərəncam vermək işinə qarışsın və müdaxilə etsin (MM-in 954-cü maddəsinin 3-cü bəndi). Bank özünün müştərisi olan müəssisənin subyektlərlə müqavilə münasibətlərinə qarışa və müdaxilə edə bilməz[3]. Vətəndaşların, idarə, müəssisə və təşkilatların qanuni maraqlarının qorunması məqsədi ilə bəzi informasiyaların məxfiliyinin təmin olunması zərurəti yaranır. Bu cür informasiyalar dövlət sirrinə aid edilmir və konfidensial xarakter daşıyır. Bax, həmin konfidensial informasiyaların istifadəsinə və yayılmasına yol verilmir[4]. Xüsusi xarakterli bu cür işlərə yalnız informasiya ehtiyatlarının mülkiyyətçilərinin icazəsi ilə qarışmaq olar. Prezidentin müvafiq fərmanı ilə hüquq-mühafizə orqanlarının kommersiya strukturlarını yoxlaması yolverilməzdir.

Özbaşına qarışmamaq prinsipi dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və ya həmin orqanların vəzifəli şəxslərinin fiziki və ya hüquqi şəxslər barəsində qanunsuz hərəkətləri ilə, o cümlədən həmin orqanların bu şəxslər haqqında qanunvericiliyə uyğun gəlməyən qeyri-normativ akt qəbul etməsi ilə bir araya sığmır. Əgər bunların nəticəsində fiziki və ya hüquqi şəxslərə zərər dəyərsə, onda həmin zərərin əvəzi dövlətin (Azərbaycan Respublikasının) və ya müvafiq bələdiyyənin hesabına ödənilir (MM-in 21-ci maddəsi). Göstərilən

[1] bax: «Varidata təminat verilməsi haqqında» 15 yanvar 1993-cü il tarixli Konstitusiya Qanunu (AR QK III cild, s. 30).

[2] bax: «Sahibkarlıq fəaliyyəti haqqında» 15 dekabr 1992-ci il tarixli qanunun 12-ci maddəsinin 5-ci hissəsi (AR QK, I cild, s.830).

[3] bax: Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 212.

[1] Buna görə «şəxsi və ailə həyatı» «xüsusi işlər» kimi anlayışla əvəz olunmalıdır.

[2] Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 206.

[3] bax: Nağdsız hesablaşmaların ayrılması qaydaları haqqında təlimat. Bu təlimat Milli Bankın İdarə Heyətinin qərarı ilə təsdiq edilmişdir.

[4] bax: «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» 3 aprel 1998-ci il tarixli Qanunun 10-cu maddəsinin 4-cü abzası. (AR QK, V cild, s. 341).

orqanların mülki qanunvericiliyə uyğun gəlməyən, şəxslərin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli aktı məhkəmə tərəfindən etibarsız sayıla bilər (MM-in 19-cu maddəsi). Özbaşına qarışmamaq prinsipinin pozulmasının doğurduğu nəticə bax, bundan ibarətdir.

Dövlət orqanlarının və onların vəzifəli şəxslərinin sahibkarların işlərinə və fəaliyyətinə qarışması nəticəsində onların hüquqları pozula bilər. Bu halda sahibkara dəyən zərərin, o cümlədən əldən çıxan gəlirlərin əvəzini həmin orqanlar və vəzifəli şəxslər ödəyirlər[1]. Elə hallar da olur ki, dövlət orqanları və bu orqanların vəzifəli şəxsləri sahibkarların işinə müdaxilə edərək onların fəaliyyətini yoxlayırlar. Onlar yoxlamanı qanuni əsaslarla aparmalıdırlar. Əgər yoxlama qaydaları pozularsa, sahibkara dəyən zərərin əvəzi ödənilir. Buraya daxil edilir: yoxlamaya bilavasitə cəlb olunmuş işçilərin yoxlama müddətindəki əmək haqqı; yoxlama ilə bağlı istehsalın məcburi dayandırılması müddətində işçilərin əmək haqqı; əldən çıxmış gəlirlərin əvəzi[2].

Bununla bərabər, qanunda nəzərdə tutulduğu hallarda, bu prinsipdən imtinaya yol verilir, yəni mülki (əmlak) dövriyyə subyektlərinin xüsusi işlərinə müdaxilə olunur. Məsələn, dövlət nəzarətini həyata keçirmək üçün müvafiq orqanlar (vergi, antiinhisar, sanitariya, ekologiya və s. orqanlar) sahibkarların fəaliyyətinə qarışa bilərlər. Belə halda onlar yoxlamaları yalnız öz səlahiyyətlərinə müvafiq surətdə həyata keçirirlər[3].

8. Mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması prinsipi

Bütün hüquqlar, o cümlədən mülki hüquqlar yalnız həyata keçirildikdə sosial qiymətə malik olur. Mülki hüquqları həyata keçirmək nəticəsində mülki dövriyyə iştirakçıları qarşılarına qoyduğu məqsədə nail olurlar. Qarşıda qoyulan məqsəd iki cür olur: hüquqi məqsəd; sosial-iqtisadi məqsəd. **Hüquqi məqsədə** nail olduqda subyekt üçün hüquqi nəticə yaranır, yəni mülki hüquq münasibətləri əmələ gəlir, dəyişir və ya xitam olunur. **Sosial-iqtisadi məqsəd** isə subyekt üçün hüquqi nəticə yaratmır. Məsələn, alıcı sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün (sərnişin daşımaqla gəlir əldə etmək məqsədi ilə) minik avtomobili alır. Minik avtomobilinə onun mülkiyyət hüququ yaranır. Bu, mülki hüququn həyata keçirilməsinin hüquqi məqsədini təşkil edir. Ona görə ki, alıcı üçün mülkiyyət hüquq münasibəti yaranır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq isə bu hüquqların həyata keçirilməsinin sosial-iqtisadi məqsədini təşkil edir. Bax, hüquqi və sosial-iqtisadi məqsədə çatmaq üçün vacibdir ki, mülki hüquqların maneəsiz həyata keçirilməsi üçün şərait yaradılsın. Bu niyyətlə mülki qanunvericilik mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması kimi mühüm prinsip müəyyən edir (MM-in 6-cı maddəsinin 1-ci bəndinin 7-ci yarımbəndi).

Mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması prinsipi mülki hüquqların gerçəkləşdirilməsinə və reallaşdırılmasına təminat verilməsini ifadə edir. Bu təminatı üç qrupa bölmək olar:

- iqtisadi təminat;
- siyasi təminat;
- hüquqi təminat.

Göstərilən təminat növlərinin inkişaf səviyyəsi mülki hüquqların həyata keçirilməsinin reallığına dəlalət edir.

İqtisadi təminat dedikdə, bazar münasibətlərinə, iqtisadi azadlığa, mülkiyyətin müxtəlif formalarına və sahibkarlığa əsaslanan sivil iqtisadi sistem başa düşülür. **Siyasi təminat** dedikdə, dünyəvi, demokratik və hüquqi dövlət yaradılması başa düşülür. Yalnız bu cür dövlət insanların layiqli həyat səviyyəsini, ictimai sabitliyi, bütün cəmiyyət üzvlərinin mənafeyini təmin edə bilər. **Hüquqi təminat** dedikdə, əqli yaradıcılıq fəaliyyəti sferasında və iqtisadi (əmlak) dövriyyədə subyektlərin imkanlarını maksimum dərəcədə genişləndirən hüquqi institutların qəbulu və tətbiq edilməsi başa düşülür.

Mülki hüquqların maneəsiz olaraq həyata keçirilməsinə şərait yaradılması prinsipi **hüquqi mədəniyyət** anlayışı ilə sıx surətdə bağlıdır. Hüquqi mədəniyyət xüsusi xarakterli sosial hadisə olub, həm cəmiyyətin, həm də şəxsiyyətin keyfiyyət vəziyyətini ifadə edir. Hüquqi mədəniyyət hüququ bilmək və başa düşmək, hüquqi göstərişlərin icra olunmasını dərk etmək deməkdir. Söz yox ki, hüquqi mədəniyyəti yüksək olan cəmiyyətdə mülki hüquqların maneəsiz həyata keçirilməsi həll olunması çətin olan problemə və müşkül məsələyə çevrilmir. Hüquqi mədəniyyəti yüksək olan vətəndaş mülki hüquqların həyata keçirilməsinə əngəl ola bilməz.

Mülki hüquqların maneəsiz olaraq həyat keçirilməsinə şərait yaradılması prinsipi mülki (əmlak) dövriyyənin inkişafına mane olan bütün əsassız halların aradan qaldırılmasını nəzərdə tutur. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, hər bir kəs öz qabiliyyətindən, imkanlarından, habelə əmlakından sərbəst surətdə istifadə edərək azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər (Konstitusiyanın 59-cu maddəsi)[1]. Bununla belə, qanunvericilikdə nəzərdə tutulan hallarda, mülki hüquqların həyata keçirilməsi məhdudlaşdırıla bilər (MM-in 16-cı və 560-cı maddələri). Bu cür hallara aiddir:

- mülki hüquqların həyata keçirilməsindən **sui-istifadəyə yol verildiyi hallarda** (məsələn, vətəndaşın öz qonşusuna aylıq 15 faizlə borc pul verməsi);
- mülki hüquqların həyata keçirilməsindən **haqsız rəqabətə yol vermək məqsədi ilə istifadə edildiyi hallarda** (məsələn, qiymətlərin süni surətdə artmasına şərait yaratmaq məqsədi ilə əmtəənin — malların təsərrüfat dövriyyəsindən çıxarılması və ya dövriyyəyə buraxılmaması)[2];
- mülki hüquqların həyata keçirilməsindən **başqa şəxsə yalnız ziyan vurmaq niyyəti ilə istifadə olunduğu hallarda** (məsələn, kənd sakininin qəsdən öz qonşusunun yaşadığı evin pəncərəsindən gün düşməsinin qarşısını

[1] bax: «Sahibkarlıq fəaliyyəti haqqında» 15 dekabr 1992-ci il tarixli Qanunun 12-ci maddəsi (AR QK, I cild, s. 829-830).

[2] bax: həmin qanunun 13-cü maddəsinin 2-ci hissəsi.

[3] bax: həmin qanunun 13-cü maddəsinin 1-ci hissəsi.

[1] bax: AR QK, II cild, s. 581.

[2] Haqsız rəqabətin formaları «Haqsız rəqabət haqqında» 2 iyun 1995-ci il tarixli Qanunda göstərilmişdir. Bu qanunun haqsız rəqabətin qarşısının alınmasında və aradan qaldırılmasında, sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla həyata keçirilməsinə hüquqi zəmin yaratmaqda rolu böyükdür (bax: AR QK, II cild, s. 467).

alan tikili ucaltması);

• mülki hüquqların həyata keçirilməsi subyektin **bazarda hakim və üstün mövqeyindən sui-istifadə etməsinə (inhisarçılıq fəaliyyətinə) yönəldiyi hallarda** (məsələn, bazarda hökmran mövqe tutan təsərrüfat subyektinin müqavilə bağladığı digər tərəfə — kontragentə sərfəli olmayan müqavilə şərtinin ona məcburi qəbul etdirməsi).

9. Pozulmuş hüquqların bərpasının təmin edilməsi prinsipi

Mülki hüququn vacib və əsas prinsiplərindən biri pozulmuş hüquqların bərpasının təmin edilməsi prinsipi adlanır. Mülki-hüquqi mühafizə tədbirləri bərpa etmə funksiyasını yerinə yetirir[1].

Bərpa etmə funksiyası mülki hüququn başlıca və əsas funksiyalarından biri hesab edilir. Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, müxtəlif müdafiə üsullarından istifadə etməklə **mülki hüquq subyektlərinin pozulmuş hüquqları bərpa edilir**. Hüququn, o cümlədən onun fundamental sahələrindən biri olan mülki hüququn sosial ədalətin bərpasını təmin edən alət kimi mühüm xüsusiyyəti məhz həmin funksiyada təzahür edir. Adı çəkilən prinsip də mülki hüququn bərpa etmə funksiyası ilə bağlıdır.

Pozulmuş hüquqların bərpasının təmin edilməsi prinsipinə görə müxtəlif müdafiə üsullarının köməyi və vasitəsi ilə mülki hüquq subyektlərinin hüquqları bərpa edilir. İstifadə olunan müdafiə tədbirlərinin əsas məqsədi mülki hüquqların həyata keçirilməsinə mane olan halları aradan qaldırmaq və pozulmuş vəziyyəti bərpa etməkdən ibarətdir. Bu tədbirlərdən biri **hüquqların pozulmasınadək mövcud olan vəziyyətin bərpa edilməsi** adlanır. Məsələn, on iki yaşlı azyaşlı müstəqil surətdə baha qiymətə olan televizoru qonşuya satır. Həmin azyaşlının xırda məişət əqdləri istisna olmaqla, bu cür müqavilə bağlamağa ixtiyarı çatmır. Həmin müqaviləni azyaşlının əvəzinə onun adından valideynləri bağlamalıdırlar. Azyaşlı və qonşu arasında bağlanmış müqavilə etibarsız hesab edilir. Buna görə tərəflər ilkin, yəni hüququn pozulmasınadək mövcud olan vəziyyətə qayıdırlar. Başqa sözlə desək, tərəflərdən hər biri müqavilə üzrə aldıqlarını digər tərəfə qaytarır, yəni qonşu televizoru azyaşlıya, azyaşlı isə pulu qonşuya qaytarır. Bununla pozulmuş hüququn bərpası təmin edilir.

Bəzən müqavilə (əqd) üzrə alınan əmlakı eyni ilə qaytarmaq mümkün olmur. Belə halda onun dəyəri pulla ödənilir (MM-in 337-ci maddəsinin 5-ci bəndi). Məsələn, fəaliyyət qabiliyyəti olmayan vətəndaş (onun müstəqil surətdə müqavilə bağlamaq hüququ yoxdur, onun əvəzinə müqaviləni qəyyumları bağlayırlar) minik avtomobilini qonşuya məxsus mebellə dəyişdirir. Qonşu avtomobili dəyişdirən kimi onu oğurlayırlar. Onlar arasında bağlanan dəyişmə müqaviləsi etibarsız hesab edilir. Qonşu avtomobilin özünü qaytarmaq mümkün olmadığına görə onun dəyərini pulla ödəyir.

Pozulmuş hüquqların bərpa edilməsinə yönələn müdafiə üsullarından biri **vindikasiya iddiası** adlanır. Bu üsuldan subyektin mülkiyyət hüququ pozulduğu halda istifadə edilir. Bu iddianın vasitəsi ilə mülkiyyətçi, başqasının qanunsuz sahib olduğu öz əmlakını tələb edir və bununla onun pozulmuş hüququnun bərpası təmin olunur. Məsələn, vətəndaş öz qonşusunun əmlakını oğurlayır və onu kənd sakininə satır. Vətəndaş əmlakı kənd sakinində görür və tanıyır. Vindikasiya iddiası verməklə o, pozulmuş mülkiyyət hüququnu bərpa edir.

[1] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // Гражданское право. Избранные труды. М., 2000, с. 240.

Mülkiyyətçinin hüquqları sahiblikdən məhrum edilmədən də pozula bilər. Belə halda o, pozulmuş hüquqlarını bərpa etmək üçün **neqator iddiası** verir. Məsələn, şəhər sakini səhər tezdən işə gedəndə görür ki, onun qarajının qabağına həmin yerin yaxınlığında tikinti işi aparan təşkilat ağır beton məmulatları düzmüşdür. O, qarajın qapısını açıb oradan avtomobili çıxara bilmir. Bununla şəhər sakininin mülkiyyət (minik avtomobilindən istifadə) hüququ pozulur. O, tikinti təşkilatına neqator iddiası verir və pozulmuş hüququnu bərpa edir.

Elə hallar da yaranır ki, mülkiyyət hüququ ilə bağlı yaranan münasibətləri nə vindikasiya iddiası ilə, nə də neqator iddia ilə müdafiə etmək mümkün olur. Məsələn, vətəndaş öz qonşusunun evinə girib, evin ona məxsus olmasını iddia edir. Belə halda **hüququn tanınması üsulundan** istifadə etməklə mülkiyyət hüququ müdafiə edilir. Söylədiklərimizdən belə bir nəticəyə gələ bilərik ki, mülkiyyət hüququ pozulduğu hallarda, vindikasiya iddiası, neqator iddia və mülkiyyət hüququnun tanınması kimi üsullardan istifadə olunur. Bunlar **əşya-hüquqi müdafiə üsulları** adlanır.

Pozulmuş hüquqlar **öhdəlik-hüquqi müdafiə üsulları vasitəsi** ilə də bərpa oluna bilər. Bu üsul ilə öhdəlik hüquq münasibətləri müdafiə olunur. Belə ki, subyektlərin mülki hüquqları öhdəlik hüquq münasibətləri (öhdəliklər) çərçivəsində pozula bilər. Məsələn, biz alqı-satqı, kirayə, icarə, podrat, daşıma, saxlama, kredit, borc və s. öhdəlik hüquq münasibətlərində tez-tez kreditorun (öhdəlik hüquq münasibətində iştirak edən tərəfin) hüquqlarının pozulmasının şahidi oluruq. Belə hallarda öhdəlik-hüquqi müdafiə üsulları tətbiq edilir və kreditorun pozulmuş hüquqları bərpa olunur. Zərərin əvəzinin ödənilməsi, dəbbə pulu (cərimə, penya) alınması və s. kimi üsullar da geniş surətdə tətbiq olunur.

Mülki hüquqla tənzimlənən əmlak münasibətləri və əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri digər münasibətlərə nisbətən, həlledici üstünlüyə malikdir. Bu münasibətlərin xarakteri elədir ki, onlar pozulduqdan sonra **bərpa olunmaq** xüsusiyyətinə malikdir. Pozulmuş bu cür münasibətlərə müdafiə üsulları tətbiq olunanda hüquq pozuntusu faktına qədər mövcud olan əmlak vəziyyəti bərpa olunur. Bununla belə, əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri də öz xarakterinə görə bərpa olunmaq xüsusiyyətinə malikdir[1]. Söhbət şərəf, ləyaqət, işgüzar nüfuzdan və digər şəxsi qeyri-maddi nemətlərdən gedir. Belə halda bu cür nemətlər doğru olmayan, şəxsi ləkələyən məlumatları təkzib etmə yolu ilə bərpa edilir. Bundan əlavə, həmin məlumatların təkzibi ilə yanaşı, fiziki şəxs, onların yayılması nəticəsində vurulmuş mənəvi zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Mülki hüquq üzrə mənəvi zərər pul (əmlak) formasında kompensasiya edilir. Belə təsəvvür yaranır ki, şərəf, ləyaqət, işgüzar nüfuz və digər şəxsi qeyri-

[1] bax: Советское государство и право. 1956. №2, с.62-66; *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // Гражданское право. Избранные труды. М., 2000, с.240.

maddi nemətlər pozulduğu hallarda şəxsi-hüquqi vəziyyət bərpa olunur. Mülki hüquq üçün cərimə tədbirləri yox, hüquq pozuntusu faktına kimi mövcud olan əmlak vəziyyətinin və ya şəxsi-hüquqi vəziyyətin bərpa edilməsi vacibdir.

10. Mülki hüquqların məhkəmə müdafiəsi prinsipi

Mülki hüquqların məhkəmə müdafiəsi prinsipi qanunda birbaşa formulə edilmişdir (MM-in 6-cı maddəsinin 1-ci bəndinin 9-cu yarımbəndi). Bu prinsipin əsasını və təməlini mühüm əhəmiyyətə malik olan belə bir Konstitusiya müddəası təşkil edir ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir (Konstitusiyanın 60-cı maddəsinin 1-ci hissəsi)[1]. Heç kəs məhkəmə müdafiəsi hüququndan məhrum edilə bilməz[2].

Mülki hüquqların məhkəmə müdafiəsi prinsipinin mahiyyəti subyektin hüquqları və qanunla qorunan mənafeyi pozulduqda, onun müdafiə üçün ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanlarına müraciət etməsindən ibarətdir. Bu orqanların pozulmuş hüquqları bərpa etmək və hüquq pozuntusunu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək hüququ vardır. Məhkəmələrin fəaliyyəti ədalət mühakiməsinin həyata keçirilməsinə yönəldilmişdir. Azərbaycan Respublikasında mülki hüquqların müdafiəsi **rayon (şəhər) məhkəmələri**, yerli iqtisad məhkəmələri, beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəmələri tərəfindən həyata keçirilir. Subyektlər arasında yaranan mülki hüquq mübahisələrinin çox hissəsinə rayon (şəhər) məhkəmələri baxır. Bu məhkəmələrin birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş mülki işlərə baxmaq ixtiyarı vardır.

Məhkəmə hakimiyyətini həyata keçirən orqanlardan biri **yerli iqtisad məhkəmələri** hesab edilir. Bu məhkəmələr birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş iqtisadi mübahisələrə dair işlərə baxır. **Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəmələrinin** səlahiyyətlərinə də iqtisadi mübahisələrə dair işlər daxil idi. İndi isə Azərbaycan Respublikasının məhkəmə orqanları sistemində belə məhkəmə növü nəzərdə tutulmur.

Bununla belə, tərəflər onlar arasında baş vermiş hər hansı mübahisəni **münsiflər məhkəməsində** baxılmağa verə bilərlər[3]. Bu halda münasibətlər mübahisənin münsiflər məhkəməsində baxılmağa verilməsi haqqında müqavilə ilə rəsmiləşdirilir. Müqavilə yazılı formada bağlanır.

Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsində **Konstitusiya Məhkəməsinin** böyük rolu vardır. Konstitusiya Məhkəməsi öz fəaliyyətində insan hüquqlarını, o cümlədən mülki hüquqları müdafiə edir. Belə ki, mülki hüquq subyektinin hüquqları qanunvericilik və icra hakimiyyəti orqanlarının qüvvədə olan normativ aktları ilə, habelə bələdiyyə və məhkəmə aktları ilə pozula bilər. Bu kimi vəziyyətdə subyekt həmin aktlardan Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş hüquqların bərpa edilməsi məqsədilə şikayət verə bilər[1]. Konstitusiya Məhkəməsi mülki-hüquqi məsələyə baxaraq müvafiq qərar çıxarır.

Mülki hüquqlar məhkəmə yolu ilə müdafiə edilərkən istifadə olunan əsas vasitə **iddiadır**. Bəzi hallarda, xüsusən də xüsusi icraatlı işlər üzrə məhkəmə müdafiəsində şikayət kimi vasitədən də istifadə olunur. Konstitusiya Məhkəməsinə yazılı surətdə şikayət verilir; şikayət vətəndaşların pozulmuş hüquqlarını bərpa etməyin əsas vasitəsidir.

Mülki hüquqların məhkəmə müdafiəsi çox vaxt **iddia qaydasında müdafiə** də adlanır. Bu cür müdafiədən bütün hallarda istifadə olunur. Məhkəmə, dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının aktının etibarsız sayılması barədə işlərə də baxa bilər (MM-in 19-cu maddəsi). Belə ki, həmin orqanlar bəzi hallarda mülki qanunvericiliyə zidd olan, şəxslərin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli akt qəbul edirlər. Həmin akt məhkəmə tərəfindən etibarsız sayıla bilər.

Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, məhkəmə, **mülki hüquqların müdafiəsinin ən universal xarakterli yoludur**. Bu yol **birtərəfli mövqe tutan, heç kəsdən asılı olmayan və yalnız qanuna tabe olan məhkəmələr** tərəfindən mülki-hüquqi mübahisələr barəsində ədalətli və düzgün qərar qəbul edilməsinə imkan verir. Bununla belə, qanunda xüsusi olaraq göstərildiyi hallarda məhkəmə müdafiəsi həyata keçirilmir. Bu cür hallarda mülki hüquqlar **inzibati (xüsusi) qaydada** müdafiə olunur. Amma inzibati (xüsusi) qaydada qəbul edilmiş qərardan şəxsin ixtiyarı var ki, məhkəməyə şikayət versin. Məsələn, ixtira ictimai mənafeyə, humanizm və əxlaq prinsiplərinə zidd olduqda, istənilən şəxs patent barəsində məlumatın dərc edildiyi tarixdən 6 ay ərzində patentin verilməsinə qarşı əsaslandırılmış etirazla Apellyasiya Komissiyasına müraciət edə bilər. Apellyasiya Komissiyasının çıxardığı qərardan şəxs razı qalmazsa, o, məhkəməyə şikayət edə bilər[2].

11. Hüquqdan sui-istifadənin qadağan edilməsi prinsipi

Qeyd edək ki, mülki hüquqda hüquqi tənzimləmənin əsas metodu dispozitivlik metodudur[3]. Bu metoda görə mülki hüquq subyektləri bu və ya digər davranış variantını seçməkdə müstəqildirlər. Həmin davranış variantını seçmək təşəbbüsü onlara məxsusdur. Bu metod subyektlərə imkan verir ki, onlar hərəkətlərini öz istədikləri kimi nizama salsınlar. Dispozitivlik metodunun əsasını mülki hüquq münasibətlərində iştirak edən bir tərəfin digər tərəfə tabe olmaması təşkil edir. Müqavilə bu cür münasibətlərin yaranmasının əsas mən-

[1] bax: AR QK, II cild, s. 582.

[2] «Məhkəmələr və hakimlər haqqında» 10 iyun 1997-ci il tarixli Qanunun 10-cu maddəsinin 1-ci hissəsi (AR QK, III cild, s. 672).

[3] Münsiflər məhkəməsinin fəaliyyəti yaxın vaxtlara kimi «Münsiflər məhkəməsi haqqında əsasnamə» ilə tənzimlənirdi (bax: Azərbaycan Respublikasının Mülki-Prossesual Məcəlləsinə 2 №-li əlavəyə. Bu Məcəllə 1964-cü ildə qəbul edilmiş, indi isə qüvvədən düşmüşdür). Bu Əsasnamə qüvvəsini itirmişdir. Yeni Əsasnamə isə qəbul olunmamışdır.

[1] bax: «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanununun 34-cü maddəsi.

[2] bax: «Patent haqqında» Azərbaycan Respublikasının 25 iyul 1997-ci il tarixli Qanununun 34-cü maddəsi (AR QK, III cild, s. 803).

[3] bax: Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 149; Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., с. 409.

bəyi kimi çıxış edir. Mülki hüquq subyektləri özlərinə məxsus olan mülki hüquqları öz istədikləri kimi, öz iradələri əsasında və öz mənafelərinə uyğun olaraq həyata keçirirlər. Bu, mülki hüququn «yol vermək», «icazə vermək», «qadağan etməmək», «məcbur etməmək» kimi anlayışları ilə izah olunur. Mülki hüququn subyektləri bir-birindən asılı olmayaraq, müstəqildirlər. Onlar hüquqda təsbit və ifadə olunan iqtisadi və digər sosial imkanlardan öz ehtiyac və mənafelərini təmin etmək üçün istifadə edirlər.

Amma bu, o demək deyildir ki, mülki hüquq subyektlərinin özlərinə məxsus olan hüquqları həyata keçirmələri sərhəd tanımır. Əksinə, onlar bu hüquqları yalnız müəyyən sərhədlər daxilində gerçəkləşdirirlər. Bu sərhədləri mülki hüquq özünün prinsipial əhəmiyyətə malik olan mühüm qaydası ilə — hüquqdan sui-istifadənin qadağan edilməsi prinsipi ilə müəyyənləşdirir ki, həmin prinsip qanunvericilik qaydasında birbaşa formulə edilmişdir (MM-in 560-cı maddəsi). Mülki hüquq bu prinsip vasitəsi ilə mülki hüquq münasibəti iştirakçılarının azadlığının hüdudlarını təyin edir. Məsələn, hər kəs faizi ilə borc pul verə bilər. Bu, onun hüququdur. Amma vətəndaş bu hüquqdan istifadə edərək yuxarı, məsələn, ayı 10-15 faizlə borc pul verə bilməz. Bu, hüquqdan sui-istifadədir.

Hüquqdan sui-istifadənin qadağan edilməsi prinsipinin mahiyyəti ondan ibarətdir ki, mülki hüquq subyektləri özlərinə məxsus olan hüquqlardan istifadə etməkdə ucsuz-bucaqsız, sonsuz, hədsiz, intəhasız və sərhədlər tanımayan azadlıqlara malik deyillər. Hər bir mülki hüquq subyektinin hüquqlardan istifadə etmək azadlığı vardır. Lakin bu azadlığın həmişə öz sərhədləri olur. Mülki hüquqlardan istifadə etmək azadlığı sərhədlər tanımasa, onda anarxiya, xaos, özbaşınalıq yaranar. Həmin sərhədlər qanunla müəyyən edilir. «Azadlıq o yerdə olur ki, orada özbaşınalıq yox, qanun hökm sürür» (Hegel)[1]. Marks yazırdı ki, hər kəsin başqasına zərər vurmadan etdiyi hərəkətlərin sərhədləri qanunla müəyyən edilir, necə ki, iki sahə arasında sərhədlər mərz (sərhəd) direkləri ilə təyin olunur[2].

Göstərilən prinsipə görə mülki hüquq subyektinin özünün malik olduğu hüquqlardan sui-istifadə etməyə ixtiyarı çatmır. **Sui-istifadə etmə** dedikdə, hər şeydən əvvəl, hüquqi imkanlardan başqa şəxslərə və ətrafdakılara zərər vurmaq niyyəti ilə istifadə olunması başa düşülür. Fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə hərəkətlərə yol verməsi hüquqdan sui-istifadə etmənin formasıdır (MM-in 16-cı maddəsinin 1-ci bəndi). Hüququn yeganə bir məqsədlə — başqa şəxsə ziyan vurmaq məqsədi ilə həyata keçirilməsi halları şikana adlanır[3]. Şikana hüquqdan sui-istifadədir. Onun klassik nümunəsi vətəndaşın yeganə məqsədlə hasar çəkməklə qonşunun öz sahəsinə olan yaxın yolunu kəsməsi halıdır. Başqa bir misalda vətəndaş öz qonşusunun istirahət etməsi üçün dözülməz şərait yaratmaq məqsədi ilə radioəbuledicini həddən ziyadə ucadan səsləndirir.

K.Marksın fikrincə, hüququn cəmiyyət üzvlərinə ziyan vurmaq niyyəti ilə həyata keçirilməsi hüquqdan sui-istifadədir. O, yazırdı ki, azadlıq hamının və hər kəsin başqa şəxslərə zərər vurulmasına yönəlməyən hər şeyi etmək hüququdur[1]. Hüquqlardan istifadə yalnız minimum insan azadlığıdır[2].

Sui-istifadə dedikdə, ikincisi, hüquqi imkanlardan rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə olunması başa düşülür. Sui-istifadənin bu formasına haqsız rəqabət anlayışının əlamətlərinə uyğun gələn hərəkətləri misal göstərmək olar. Haqsız rəqabətin əsas cəhətləri «Haqsız rəqabət haqqında» qanunla müəyyən edilir[3]. Məsələn, bazar subyekti digər tərəflə müqavilə bağlayır və bu müqavilədə əsassız birtərəfli üstünlüklər nəzərdə tutur. Başqa bir misalda qiymətlərin artmasına şərait yaratmaq məqsədi ilə bazar subyekti malları təsərrüfat dövriyyəsindən çıxarır.

Sui-istifadə dedikdə, üçüncüsü, subyektin bazarda öz hakim və üstün mövqeyindən sui-istifadə etməsi başa düşülür. Hüquqdan sui-istifadənin bu formasına inhisarçılıq fəaliyyəti anlayışının əlamətlərinə uyğun gələn hərəkətləri misal göstərmək olar[4]. Məsələn, bazarda hökmran mövqe tutan təsərrüfat subyekti bazarda əlavə üstünlük əldə etmək məqsədilə qiymətlərdə manipulyasiya edir, yəni onları yüksəldir, azaldır və ya bir səviyyədə saxlayır. Başqa bir misalda bazarda hökmran mövqe tutan təsərrüfat subyekti digər qarşı tərəfi (kontragenti) əvvəlcədən xəbərdar etmədən və onunla razılaşdırmadan təsərrüfat əlaqələrini pozur. Daha başqa bir misalda maliyyə-kredit təşkilatı kredit ehtiyatları bazarında süni qıtlıq yaratmaq, həmçinin kredit dərəcələrini yüksəltmək məqsədi ilə kredit verilməsini azaldır və ya dayandırır.

Beləliklə, hüquqdan sui-istifadənin qadağan edilməsi prinsipinə görə mülki hüquq subyekti yeganə məqsədlə — başqa şəxsə ziyan vurmaq niyyəti ilə hərəkətlər edə, mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə edə və bazarda hakim mövqeyindən sui-istifadə edə bilməz.

12. Malların, xidmətlərin və maliyyə vəsaitinin ölkə ərazisində sərbəst hərəkət etməsi prinsipi

Mülki hüququn bazar münasibətlərinin inkişafına yönələn prinsiplərindən biri malların, xidmətlərin və maliyyə vəsaitinin ölkə ərazisində sərbəst hərəkət etməsi prinsipi hesab edilir. Bu prinsip MM-in 6-cı maddəsinin 4-cü bəndində formulə edilmişdir.

Əhalinin ehtiyac və tələbatını ödəmək iqtisadiyyatın əsas və başlıca məqsədidir. Bu məqsədi həyata keçirmək üçün istehsal olunmuş və hazırlanmış malları, xidmətləri istehlakçılara çatdırmaq zərurəti yaranır. Maddi nemətlərin dövriyyəsi prosesi baş verir. Bu proses nəticəsində mallar və xidmətlər bilavasitə əhaliyə və digər son istehlakçılara satılır. Bu, malların, xidmətlərin istehsal sferasından istehlak sferasına çatdırılması, yeridilməsi prosesidir. Həmin pro-

[1] *Гегель.* Философия права. М., 1990, с. 28.
[2] *Маркс К., Энгельс Ф.* Соч. Том 1, с. 400.
[3] Bəzi Avropa ölkələrinin qanunvericiliyində hüquqdan sui-istifadənin bu forması şikana adlanır. Almaniya Mülki Qanunnaməsinin 226-cı paraqrafı şikanaya anlayış verir (bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 437). Həm RF-in qanunvericiliyi, həm də bizim qanunvericilik şikanaya verdiyi anlayışı Almaniya qanunvericiliyindən iqtibas etmişdir.

[1] *Маркс К., Энгельс Ф.* Соч. Том 1, с. 400.
[2] *Бердяев Н.А.* Философия неравенства. М., 1990, с. 90.
[3] bax: AR QK, II cild, s. 467.
[4] İnhisarçılıq fəaliyyətinin əlamətləri «Antiinhisar fəaliyyəti haqqında» 4 mart 1993-cü il tarixli qanunla müəyyən edilir (bax: AR QK, II cild, s. 40).

sesin son məqsədi malları, xidmətləri son istehlakçılara, o cümlədən əhaliyə çatdırmaqdan ibarətdir. Bu isə malların, xidmətlərin hərəkət etməsini tələb edir, pul tədavülünün normal fəaliyyət göstərməsinə, tədavüldə buraxılan pulun müəyyən edilməsinə, tədavüldə olan pulun banklar ilə əhali arasında normal hərəkətinin təmin edilməsinə təsir göstərir və i.a. İstehsal və istehlakçılar arasında iqtisadi əlaqə və uyğunluq yaratmaq üçün mülki hüquq malların, xidmətlərin və maliyyə vəsaitinin ölkənin bütün ərazisində sərbəst hərəkət etməsi prinsipini müəyyənləşdirir. Bu prinsip əmlak (mülki) dövriyyəsinin sərbəstliyini xarakterizə edir. Həmin prinsip mülki hüquqların həyata keçirilməsi prinsipini konkretləşdirir[1].

Malların, xidmətlərin və maliyyə vəsaitinin ölkə ərazisində sərbəst hərəkət etməsi prinsipi hər hansı bir maneənin — gömrük sərhədlərinin, rüsumun və yığımın müəyyən olunmasını istisna edir. Bu prinsipə görə, ölkənin bölgələri arasında malların (xidmətlərin) hərəkətləri əsassız olaraq qadağan edilə bilməz. Bu cür qadağan etmə dövlət inhisarçılığı (inhisarçılıq fəaliyyəti) anlayışının əlamətinə uyğun gələn hərəkət hesab edilir[2]. Göstərilən prinsip mülki (əmlak) dövriyyə iştirakçılarına onların öz mallarını (xidmətlərini) daxili bazarda vahid iqtisadi məkanda sərbəst surətdə realizə etmək imkanı verir. Malların (xidmətlərin) və maliyyə vəsaitinin hərəkəti daxili bazarda hər hansı bir sərhəd və maneə tanımır. Əmtəə istehsalçıları, mülkiyyətçilər ölkə daxilində öz istədikləri kimi mallarını (xidmətlərini) sata bilərlər. Kapitalın bir sahədən digər sahəyə sərbəst axını qarşısında əsassız maneələr qoyulması bu prinsiplə bir araya sığmır. Bu cür maneələr qoyulması inhisarçılıq fəaliyyəti hesab edilir[3].

Bununla bərabər, bəzi hallarda bu prinsipin tətbiqi məhdudlaşdırıla bilər. Qanun bu cür halların dairəsini müəyyən edir (MM-in 6-cı maddəsinin 4-cü bəndi). Malların və xidmətlərin hərəkəti üçün məhdudiyyətlər qoyulur:

- insanların təhlükəsizliyinin təmin edilməsinə zərurət yarandığı hallarda;
- insan həyatının və sağlamlığının müdafiə olunması lazım olan hallarda;
- təbiətin və mədəniyyət sərvətlərinin qorunması üçün zərurət yarandığı hallarda.

Məsələn, mal (iş, xidmət) istehlakçının həyatına, sağlamlığına və ya ətraf mühitə zərər vurduqda və ya zərər vura bilərsə, zərərin səbəblərini aradan qaldırmaq mümkün deyilsə, müvafiq dövlət nəzarət orqanlarının qərarı ilə mallar (işlər, xidmətlər) istehsaldan çıxarılır, dövriyyədən yığılır və istehlakçılardan geri alınır[4]. İstifadə olunması vətəndaşların həyatına, sağlamlığına və əmlakına, habelə ətraf mühitə zərər vura bilən malın satışı, işin görülməsi və xidmət göstərilməsi dərhal dayandırılır[5]. Təsərrüfatda mal-qaranın və digər heyvanların yoluxucu xəstəlikləri aşkar edildikdə, rayonun baş dövlət baytar müfəttişinin təqdimatı əsasında həmin xəstəliklərin yayılmasının qarşısının alınması üçün rayon (şəhər) icra hakimiyyəti orqanlarının qəran ilə karantin və ya məhdudiyyət qoyulur. Karantin müddətində bazarların, heyvan qəbulu məntəqələrinin və müəssisələrinin, həmçinin yarmarkaların, hərraclarının fəaliyyəti müvəqqəti dayandırılır[1]. Heyvanların xüsusi təhlükəli xəstəlik mənbələrinin ləğvi zamanı Azərbaycan Respublikası baş dövlət baytar müfəttişinin qəran ilə heyvanlar müsadirə və heyvandarlıq məhsulları məhv oluna (zərərsizləşdirilə) bilər[2].

[1] bax: Гражданское право. Учебник. Том 1/Под ред. *Е.А.Суханова* М., 1998, с. 41.

[2] bax: «Antiinhisar fəaliyyəti haqqında» Qanunun 5-ci maddəsinin 4-cü bəndi (AR QK, II cild, s. 43).

[3] «Antiinhisar fəaliyyəti haqqında» Qanunun 6-cı maddəsinin 7-ci bəndi (AR QK, II cild, s. 44).

[4] bax: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» 19 sentyabr 1995-ci il tarixli qanunun 10-cu maddəsinin 5-ci bəndi (AR QK, II cild, s.555).

[5] bax: həmin qanunun 10-cu maddəsinin 1-ci bəndi (AR QK, II cild, s. 554).

§ 5. Mülki hüququn sistemi və quruluşu

1. Mülki hüququn sistemi anlayışı və əhəmiyyəti

Hər bir ölkənin daxili milli hüquq sistemi (yunanca «sistema» — tam, hissələrdən ibarət olan) müstəqil hüquq sahələrindən ibarətdir. **Daxili milli hüquq sistemi** dedikdə, bütövlükdə cəmiyyətin hüquqi təşkili, dövlətin daxilində mövcud olan və fəaliyyət göstərən bütün hüquq vasitələrinin və institutlarının məcmusu başa düşülür. Müstəqil hüquq sahələri bu hüquq sisteminin mərkəzi elementi (tərkib hissəsi) kimi çıxış edir. Daxili milli hüquq sisteminə daxil olan hüquq sahələrindən biri mülki hüquqdur. Mülki hüququn özü müəyyən sistemə malikdir. Özü də o, kifayət qədər mürəkkəb sistemə malik olan hüquq sahəsidir.

Mülki hüququn sistemi nədir? Bu məsələni aydınlaşdırmaq üçün, heç olmazsa, ən azı iki suala cavab vermək lazımdır: birincisi, mülki hüquq hansı hissələrdən ibarətdir?; ikincisi, bu hissələr bir-birilə necə qarşılıqlı əlaqədədir?

Birinci suala cavab verərək qeyd etmək lazımdır ki, mülki hüquq dövlət tərəfindən yaradılan və müəyyən edilən, əmlak münasibətlərini və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarından ibarətdir. Hüquq normaları mülki hüququn «atomlarıdır». Bu «atomlar» mexaniki kütlə kimi düzülmür. Onlar yığın, təsadüfi, xaotik, qarma-qarışıq, hərc-mərclik və nizamsız halda yerləşmir. Belə məlum olur ki, əksinə, həmin hüquq normaları müəyyən bir sistem halında yerləşir və düzülürlər. Deməli, hüquq normaları mülki hüquq adlı materiyanın «canlı» hüceyrələridir. Onlar mülki hüququn hissələri, elementləridir.

İkinci suala cavab verərək göstərə bilərik ki, mülki hüququn elementi olan hüquq normaları bir-birindən ayrı mövcud deyildir. Əksinə, həmin normalar qarşılıqlı surətdə bir-birindən asılı olub, biri digərini şərtləndirir və tamamlayır, həmçinin biri digəri ilə uzlaşır. Onlar daxili vəhdətdə olub, bir-birinə uyğun gəlir. Ayrı-ayrı normalar arasında obyektiv olaraq əlaqə və münasibətlər yaranır. Bu əlaqə və münasibətlər hüquq normalarının quruluşca (struktur baxımından) vahid olmalarına dəlalət edir. Belə ki, mülki hüquq normaları öz predmet təyinatına görə birləşərək nisbətən daha ümumi hissələri — mülki hüquq institutlarını əmələ gətirir. Məsələn, mülkiyyət münasibətlərini tənzimləyən hüquq normaları qruplaşaraq mülkiyyət hüquq institutunu, elm, ədəbiyyat və incəsənət əsərlərinin yaradılması və istifadəsi ilə bağlı meydana gələn ictimai müna-

[1] bax: «Baytarlıq təbabəti haqqında» 17 iyun 1994-cü il tarixli qanunun 18-ci maddəsinin 5-ci və 9-cu hissələri (AR QK, II cild, s. 270).

[2] bax: həmin qanunun 17-ci maddəsinin 1-ci hissəsi (AR QK, II cild, s.17).

sibətləri nizama salan normalar birləşərək müəlliflik hüquq institutunu, ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin istifadəsi ilə bağlı münasibətləri qaydaya salan normalar sistemləşərək patent hüquq institutunu, əqd haqqında normalar əqd institutunu və i.a. yaradır. Mülki hüquq institutları öz növbəsində birləşərək daha ümumi hissələri — mülki hüququn yarımsahələrini əmələ gətirir. Bu yarımsahələr birləşərək mülki hüququ yaradır. Beləliklə, **hüquq normaları hüquq institutlarında, hüquq institutları yarımsahələrdə, yarımsahələr isə öz növbəsində birləşərək mülki hüquq adlı müstəqil hüquq sahəsini əmələ gətirir.** Həmin hissələrin vahid halda birliyi mülki hüququn sistemi deməkdir. Mülki hüququn sistemi onu ifadə edir ki, mülki hüquq hansı hissələrdən, elementlərdən ibarətdir və bu hissələr, elementlər arasında qarşılıqlı əlaqə necə qurulmuşdur. Başqa sözlə desək, mülki hüququn sistemi anlayışı onu göstərir ki, tam və bütöv sahə kimi mülki hüquq öz aralarında müəyyən əlaqədə olan (funksional asılılıq, tabeçilik, uyğunluq və s. əlaqələr) çoxsaylı elementlərdən ibarətdir.

Mülki hüququn sistemi dedikdə, mülki hüququn daxili strukturu (quruluşu), onun yarımsahələrə, hüquq institutlarına və normalara bölünməsi başa düşülür. Bu anlayış hüquq normalarının hüquq institutları üzrə, hüquq institutlarının yarımsahələr üzrə, yarımsahələrin isə mülki hüquq üzrə müəyyən ardıcıllıqla — nizamla düzülməsini və qruplaşmasını ifadə edir. Buna uyğun olaraq mülki hüququn sisteminin bir neçə elementdən ibarət olmasını müəyyənləşdiririk: hüquq normalarından; hüquq institutlarından; yarımsahələrdən.

Mülki hüququn sistemi, hər şeydən əvvəl, **obyektiv xarakterə malikdir.** O, obyektiv olaraq mövcuddur. Ona görə ki, mülki hüququn sistemi mülki hüquqla tənzimlənən real ictimai münasibətləri ifadə edir. Məhz bu münasibətlər onun obyektiv xarakterə malik olmasını şərtləndirir. F. Engels yazırdı ki, hüquq ümumi iqtisadi vəziyyətə uyğun olub, onu ifadə edir[1]. Mülki hüququn sistemi qanunvericinin özbaşına gördüyü işin nəticəsi deyil. O, obyektiv həqiqətin və gerçəkliyin ifadəsi, bir növ surətidir.

Lakin mülki hüququn obyektiv təbiətə malik olması o demək deyildir ki, qanunvericinin iradəsi burada nəzərə alınmır. Onun iradəsi burada müəyyən mənada rol oynaya bilər. Belə ki, qanunverici mülki hüquq sistemində düzəlişlər, təshihlər, dəyişikliklər edə bilər. Məsələn, o, bu və ya digər mülki hüquq institutu müəyyənləşdirə, bu və ya digər hüquq normasi və aktı qəbul edə və s. bilər. Amma prinsip etibarilə mülki hüququn sistemi **qanunvericinin iradəsindən asılı deyil**. Mülki hüquq sistemini qanunverici yarada, ləğv edə və yenidən qura bilməz. Qanunverici mülki hüquq normalarını sistemləşdirə bilər. Sistemləşdirmə dedikdə, praktikada rahat istifadə etmək məqsədi ilə qüvvədə olan mövcud hüquq normalarının şüurlu surətdə qaydaya salınması başa düşülür. O, subyektiv xarakterə malik olub, dövlət iradəsindən asılıdır. Sistemləşdirmə aparılmaya da bilər[2]. Lakin harda ki, mülki hüquq vardır, orada hökmən onun müəyyən sistemi də mövcuddur. Belə təsəvvür yaranır ki, obyektivlik mülki hüququn sisteminin vacib xüsusiyyətidir.

[1] *Маркс К., Энгельс Ф.* Соч. Том 37, с. 418.

[2] Dediklərimiza subut olaraq Böyük Britaniyanın hüquq sistemini misal göstərə bilərik. Bu ölkədə hüquq müəyyən sistemə malikdir. Amma Böyük Britaniyada hüquq sistemləşdirilməyib.

Mülki hüquq sisteminin, əsas və başlıca xüsusiyyətlərindən biri onun **vahid olmasından ibarətdir**. Bu, o deməkdir ki, mülki hüququ təşkil edən hüquq normaları vahiddir. Mülki hüquq normalarının vahidliyi, birincisi, mülki hüquqi tənzimetmənin məqsəd və vəzifələrinin vahidliyi ilə, ikincisi, mülki hüququn mahiyyətini müəyyənləşdirən sahəvi prinsiplərin vahidliyi ilə, üçüncüsü, tənzim olunan münasibətlər sisteminin vahidliyi ilə bağlıdır.

Mülki hüquq sisteminin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, **differensiasiya** (ayrılma, fərqlənmə, xüsusiləşmə, təklənmə) əlamətinə malikdir[1]. Bu, o deməkdir ki, mülki hüququ təşkil edən hüquq normaları vahid olmaqla bərabər, həm də bir-birindən fərqlənir. Mülki hüquq normaları öz konkret məzmununa, təsir sahəsinə, ifadə etdiyi göstərişin xarakterinə, tənzimetmə predmetinə görə (yəni tənzim olunan ictimai münasibətin növünə görə) və s. bir-birindən fərqlənir və ayrılır. Ona görə də daxili vahidliyə və bütövlüyə malik olan mülki hüquq müəyyən hissələrə — yarımsahələrə və institutlara bölünür. Bu hissələrdən hər biri mülki hüquqi tənzimetmə mexanizmində müstəqil rol oynayır. Deməli, **mülki hüquq sisteminin differensiasiyası dedikdə**, mülki hüququn hissələrə — yarımsahələrə, institutlara və normalara bölünməsi başa düşülür.

Mülki hüququn tərkibinə daxil olan elə normalar vardır ki, onlar ümumi xarakterli müddəalar ifadə edir. Həmin normalar, demək olar ki, bütün mülki hüquq münasibətlərinin tənzimlənməsində istifadə oluna bilər. Bundan fərqli olaraq, mülki hüququn tərkibinə elə hüquq normaları da daxildir ki, həmin normalar xüsusi xarakterə malik olub, yalnız konkret mülki hüquq münasibətlərinin qaydada salınmasında tətbiq edilir. Bax, mülki hüquq normalarının ümumi və ya xüsusi təbiətə malik olması baxımından da mülki hüququn quruluşunu differensiasiya etmək (ayırmaq, fərqləndirmək) olar. O, özündə iki hissəni birləşdirir:

- ümumi hissəni;
- xüsusi hissəni.

Ümumi hissəyə ümumi müddəalar ifadə edən elə hüquq institutları daxildir ki, onlar xüsusi hissənin bütün və ya əksər institutlarına «xidmət edir». **Xüsusi hissəyə** ümumi xarakterə malik olmayan elə hüquq institutları aiddir ki, onlar ümumi hissənin institutlarını konkretləşdirir.

Ümumi hissə normaları bütün mülki hüquq münasibətlərinə şamil olunur. Xüsusi hissə normaları isə yalnız konkret mülki hüquq münasibətlərinə tətbiq edilir. Məsələn, hüquqi şəxslər haqqında normalar ümumi hissəyə daxil edilən normalar hesab edilirsə, vərəsəlik münasibətlərini tənzimləyən normalar isə xüsusi hissəyə şamil edilən normalar sayılır.

Mülki hüquq normalarının müəyyən sistem halında düzülməsinin və yerləşdirilməsinin böyük əhəmiyyəti vardır. Qarma-qarışıq, hərc-mərclik və yığın halında olan hüquq normalarından istifadə etməyi adam təsəvvürünə belə gətirə bilmir. Mülki hüquq normalarının sistem halında yerləşməsi hüquqtətbiqetmə orqanlarına imkan verir ki, onlar öz fəaliyyətlərində bu normalardan normal,

[1] Mülki hüququn vahidliyi və differensiasiyası barədə geniş məlumat almaq üçün bax: *Егоров Н.Д.* Гражданско-правовое регулирование общественных отношений: единство и дифференциация. Л.,1998; *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963.

rahat və münasib qaydada istifadə etsinlər. Bu, hüquqyaradıcı orqanların da asan işləməsinə şərait yaratmış olur. Belə ki, ictimai münasibətlər dinamik surətdə və durmadan inkişaf edir. Buna uyğun olaraq özündə mülki hüquq normaları ifadə edən yeni normativ hüquqi aktlar qəbul olunur. Bu vəziyyətdə yeni normaların mövcud olan hüquq normalarına nə dərəcədə uyğun gəlib-gəlməməsini müəyyənləşdirmək zərurəti yaranır. Hamıya açıq-aşkar aydındır ki, əgər hüquq normaları qarma-qarışıq yox, sistem halında yerləşmişsə, onda bu işi həll etmək qəliz və müşkül məsələyə çevrilmir. Bir də görürsən ki, həll olunması tələb edilən konkret hüquq münasibətinə tətbiq etmək üçün müvafiq mülki hüquq normasını axtarıb tapmaq zərurəti əmələ gəlir. Söz yox ki, əgər mülki hüquq normaları müəyyən bir sistem halında düzülmüşsə, müvafiq hüquq normasını axtarıb tapmaq çətinlik törətmir. Praktiki əhəmiyyətdən savayı, mülki hüquq normalarının sistem halında yerləşdirilməsinin həm də sivilistika doktrinasında nəzəri-konseptual əhəmiyyəti vardır.

2. Mülki hüququn ümumi hissəsi

Mülki hüquqla tənzimlənən istənilən növ ictimai münasibətə tətbiq olunan hüquq normalarının məcmusuna və sistem halında birləşməsinə **mülki hüququn ümumi hissəsi deyilir**[1]. Söhbət mülki hüququn predmetini təşkil edən əmlak münasibətlərini, eləcə də şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının sistemindən gedir. Bu normalar, demək olar ki, bütövlükdə mülki hüququn predmetinə şamil olunur. Mülki hüququn ümumi hissəsi özündə elə hüquq normaları birləşdirir ki, həmin normalardan, bir qayda olaraq, bütün mülki hüquq münasibətlərinin qaydaya salınmasında istifadə edilir. Bu normaların konkret hüquq münasibətlərinin tənzimlənməsində əhəmiyyəti böyükdür.

Ümumi hissə ideyası qanunvericilik qaydasında ilk dəfə olaraq 1858-ci ildə Braziliyada qanun külliyyatı hazırlanarkən əmələ gəlmişdir. 1916-cı il Braziliya Mülki Məcəlləsi bu ideyanı daha da möhkəmləndirdi.

1896-cı ildə qəbul edilmiş Almaniya Mülki Qanunnaməsi əvvəlki məcəllələrdən fərqli olaraq özündə «Ümumi hissə» adlı bölmə ayırdı. Burada mülki hüququn müxtəlif bölmələri üçün əhəmiyyətə malik olan hüquq normaları cəmləşmişdi. Almaniyanın arxasınca bir çox ölkələr (məsələn, Yunanıstan, Polşa, Çexoslovakiya, keçmiş SSRİ respublikaları) özlərinin mülki məcəllələrində ayrıca olaraq «Ümumi hissə» adlı bölmə nəzərdə tutdular. Bəzi ölkələrin — İsveçrənin, Meksikanın, İtaliyanın, Macarıstanın mülki məcəllələri alman modelindən imtina edərək «Ümumi hissə» ideyasını qəbul etmədilər. Hollandiya MM-i də «Ümumi hissə» ideyasını tanımır. Bu məcəllənin yalnız üçüncü kitabı əmlak hüquqlarının ümumi müddəalarından söhbət açır[2]. Belə təsəvvür yaranır ki, Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi əvvəlki 1964-cü il Mülki Məcəlləsi kimi özündə Ümumi hissə ayırmaqla alman modeli və ənənələrini qəbul etmişdir. Özü də hüquq ədəbiyyatında mülki hüququn ümumi hissəsi kimi əlamət dünyanın iki müxtəlif hüquq ailəsini — ingilis-amerikan və roman-german hüquq ailələrini bir-birindən fərqləndirməyə imkan verən meyarlardan biri kimi götürülür[1].

Mülki hüququn ümumi hissəsi özündə elə normaları birləşdirir ki, bu normaların mülki hüququn xüsusi hissəsinin bütün və ya bir çox institutları üçün hüquqi əhəmiyyəti vardır. Burada mülki hüququn predmeti və prinsipləri barədə, mülki hüquqların əmələ gəlməsi, həyata keçirilməsi və müdafiəsi haqqında, mülki hüquq subyektləri və obyektləri barədə, müddətlər və ümumi xarakterli digər məsələlər barədə normalarla rastlaşırıq. Ümumi hissə müxtəlif növ hüquq institutlarından ibarətdir. Onlara aiddir:

- fiziki şəxslərin mülki hüquq subyektliyi institutu;
- hüquqi şəxs institutu;
- dövlət və bələdiyyələrin mülki hüquq subyektliyi institutu;
- əqd institutu;
- nümayəndəlik (təmsilçilik) institutu;
- mülki hüquq obyektlərinin hüquqi rejimi institutu;
- müddətlər institutu;
- mülki hüquqların həyata keçirilməsi və müdafiəsi institutu.

Fiziki şəxslərin mülki hüquq subyektliyi institutu özündə mülki hüququn əsas subyektlərindən biri olan fiziki şəxslərə həsr edilmiş normaları birləşdirir. Bu normalar fiziki şəxslərin mülki hüquq subyektliyinin əsas elementləri olan mülki hüquq və fəaliyyət qabiliyyətini, fəaliyyət qabiliyyətinə görə fərqlənən müəyyən kateqoriya şəxslərin hüquqi vəziyyətini, qəyyumluq və himayəçilik məsələlərini, fiziki şəxsin xəbərsiz itkin düşmüş sayılması və ya ölmüş elan edilməsi münasibətlərini qaydaya salır.

Hüquqi şəxs institutu mülki hüququn əsas subyektlərindən biri olan hüquqi şəxslərə həsr edilmiş normaları əhatə edir. Bu institutа daxil olan normalar hüquqi şəxsin hüquq və fəaliyyət qabiliyyəti, hüquqi şəxsin yaradılması, yenidən təşkil olunması və ləğv edilməsi qaydası, hüquqi şəxslərin növlərinin — kommersiya təşkilatlarının (təsərrüfat ortaqlıqlarının, təsərrüfat cəmiyyətlərinin), qeyri-kommersiya təşkilatlarının (ictimai birliklərin, fondların, hüquqi şəxslərin ittifaqlarının, dini qurumların) hüquqi statusu ilə bağlı münasibətləri nizama salır.

Dövlət və bələdiyyələrin mülki hüquq subyektliyi institutu mülki hüququn subyekti kimi dövlət və bələdiyyələrin hüquqi statusunun müəyyən edilməsinə həsr edilmiş normalardan ibarətdir. Bu normalar dövlətin və bələdiyyələrin ayrı-ayrı mülki hüquq münasibətlərində — əşya, korporativ, öhdəlik, müstəsna (əqli mülkiyyət) və vərəsəlik hüquq münasibətlərdə iştirakı qaydalarını müəyyənləşdirir. Həmin normalar dövlətin xarici (beynəlxalq) mülki dövriyyədə çıxış etməsini qaydaya salır, onun məhkəmə immunitetinə (toxunulmazlığına) malik olması prinsipini möhkəmləndirir.

Əqd institutuna mülki hüquq münasibətlərinin əmələ gəlməsi və ləğv edilməsinin ən geniş yayılmış, başlıca əsası olan əqdlərə həsr edilmiş normalar

[1] Almaniya mülki hüququ da ümumi hissəni nəzərdə tutur (*Larenz K.* Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989).

[2] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 10.

[1] bax: *Рене Давид, Камилла Жоффре-Спинози*. Основные правовые системы современности. М., 1999, с. 67.

daxildir. Həmin normalar əqdin növlərini, formalarını və bağlanma qaydalarını müəyyən edir, əqdlərin etibarsızlığını şərtləndirən hallarla əlaqədar münasibətləri tənzimləyir. Bu normalar etibarsız əqdlərin əmələ gətirdiyi hüquqi nəticələri və restitusiyanı (əvvəlki vəziyyəti bərpa etməni) müəyyənləşdirir.

Nümayəndəlik institutu əqdlərin bağlanması və həyata keçirilməsinə xidmət edir. Bu instituta şamil olunan normalar nümayəndəlik münasibətlərinin əmələ gəlmə əsaslarını, nümayəndəliyin subyektlərini və onların hüquq və vəzifələrini, nümayəndəliyin növlərini, nümayəndəliklə bağlı əmələ gələn münasibətlərin dairəsini müəyyən edir. Nümayəndəlik institutuna aid olan normalar üçüncü şəxslər qarşısında təmsil olunmaq üçün nümayəndəyə verilmiş etibarnamənin növlərini və formalarını, onun müddətini və xitam olunmasını, etibarnamənin ləğv edilməsinin nəticələrini qaydaya salır.

Mülki hüquq obyektlərinin hüquqi rejimi institutuna daxil olan normalar mülki hüquq münasibətlərinin obyektləri qismində çıxış edən maddi nemətləri (iqtisadi təbiətinə görə əmtəələri) və qeyri-maddi nemətləri (iqtisadi formalı əmtəələri), habelə iqtisadi məzmunu olmayan şəxsi qeyri-maddi nemətləri hüquqi cəhətdən rəsmiləşdirir. Bu normalar mülki hüquq münasibətlərinin obyekti kimi əmlakın, əşyanın, qiymətli kağızların, pulun, əqli mülkiyyət nemətlərinin, hərəkətlərin (işlərin və xidmətlərin) hüquqi rejimini müəyyənləşdirir[1]. Həmin normalar əşyaların geniş hüquqi təsnifatını (növlərə bölünməsini) verir.

Müddətlər institutu mülki hüququn ümumi hissəsinin vacib və mühüm institutlarından biridir. Bu instituta daxil olan normalar mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxt kimi müddətlərin hesablanması qaydalarını və növlərini, iddia müddətinin əsas cəhətlərini, habelə bu müddətin axımının dayandırılmasını və kəsilməsini, iddia müddətinin bərpasını və digər məsələləri müəyyənləşdirir və tənzimləyir.

Mülki hüquqların həyata keçirilməsi və müdafiəsi institutuna daxil olan normalar mülki hüquqların həyata keçirilməsi, hüquqdan sui-istifadə, mülki hüquqların müdafiəsi üsul və formaları, özünümüdafiə və digər məsələləri qaydaya salır[2]. Həmin normalar mülki hüquqların özünü müdafiəsinin iki mühüm üsulunu — zəruri müdafiəni və son zərurət vəziyyətini nizama salır.

Mülki hüququn ümumi hissəsi böyük əhəmiyyətə malikdir. Onun həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Mülki hüququn ümumi hissəsi onu ifadə edir ki, bütün mülki hüquq normalarının hüquqi məzmunu ümumi xarakterə malikdir. O, mülki hüquqla tənzimlənən ictimai münasibətlərin eyni növlü olmasını əks etdirir. Ümumi hissə bütün mülki hüquq normalarını birləşdirən əsas rolunu oynayır. Ümumi hissə, ondan istifadə üçün xüsusi olaraq yaradılmış hüquqi-texniki aparatdır. Onun hüquqtətbiqetmə əhəmiyyəti də vardır. Belə ki, ümumi hissə mülki qanunvericiliyin praktiki olaraq tətbiqini asanlaşdırır[1].

3. Mülki hüququn xüsusi hissəsi

Mülki hüququn xüsusi hissəsi odur ki, o, özündə ümumi xarakter daşımayan, bütün mülki münasibətlərə və yaxud onların əksəriyyətinə eyni dərəcədə tətbiq edilməyən, yalnız müəyyən növ konkret münasibətləri tənzimləyən normaları birləşdirir. Ümumi hissənin institutları xüsusi hissənin institutlarında konkretləşir. Başqa sözlə desək, ayrı-ayrı növ mülki münasibətləri (məsələn, mülkiyyət münasibətlərini, iqtisadi dövriyyə münasibətlərini, əqli mülkiyyət obyektlərindən istifadə ilə bağlı olan münasibətləri, ailə münasibətlərini, vərəsəlik münasibətlərini) nizama salan normalar mülki hüququn xüsusi hissəsini təşkil edir.

Amma qeyd etmək lazımdır ki, mülki hüquqa münasibətdə xüsusi hissə anlayışından, yəni mülki hüququn xüsusi hissəsi anlayışından, adətən, istifadə olunmur. Hüquq ədəbiyyatında **biz nadir hallarda mülki hüququn xüsusi hissəsindən söhbət açılmasının şahidi oluruq**[2]. Bu, onunla izah olunur ki, xüsusi hissədə yerləşən normalar kifayət qədər çoxdur. Normaların çox olması isə xüsusi hissənin yenidən differensiasiyasını (sistemləşdirilməsini, ayrılmasını, bölünməsini) tələb edir. Belə ki, mülki hüququn xüsusi hissəsinin özü yanmsahələrə bölünür. Ona görə də **xüsusi hissə əvəzinə, mülki hüququn yarımsahələri anlayışının işlədilməsi qəbul olunmuşdur**[3]. Belə təsəvvür yaranır ki, mülki hüquq elmində «mülki hüququn xüsusi hissəsi» anlayışı «mülki hüququn yarımsahələri» anlayışı ilə əhatə edilmişdir.

Mülki hüququn yarımsahələri dedikdə, eyni növlü ictimai münasibətləri tənzimləyən bir neçə mülki hüquq institutunun birləşməsi başa düşülür. Məsələn, mülki hüququn yarımsahələrindən biri olan əqli mülkiyyət hüququ özündə

[1] Qiymətli kağızlar mülki hüquq münasibətlərinin obyektlərindən biridir. Mülki hüquq münasibətlərinin obyekti mülki hüququn ümumi hissəsinə daxil olan məsələdir. Ona görə də qiymətli kağızların Azərbaycan Respublikasının yeni MM-nin xüsusi hissəsində nəzərdə tutulması bizdə təəccüb doğurur. Bəzi ölkələrin, məsələn, RF-in MM-də qiymətli kağızlar xüsusi hissəyə daxil edilir (bax: Комментарий к Гражданскому кодексу, часть первой / Под ред. *О.Н.Садикова*. М., 1999. глава 7, с.142-149).

[2] Bu institutun mülki hüququn ümumi hissəsinə daxil edilməsi hər hansı mübahisə doğura bilməz. Bəzi ölkələrin, məsələn, Almaniyanın Mülki Qanunnaməsinin ümumi hissəsi özündə həmin institutu da birləşdirir. Həmin qanunnamənin ümumi hissəsi yeddi bölmədən ibarətdir. Altıncı bölmə «Hüquqların həyata keçirilməsi. Özünümüdafiə. Özünəyardım» adlanır (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6).

[1] Mülki hüququn ümumi hissəsinin əhəmiyyəti barədə ətraflı tanış olmaq üçün bax: *Иоффе О.С.* Вопросы кодификации советского права. Вып. 1. Л. 1957; *Яковлев В.Ф.* Общая часть гражданского права в современном законодательстве и юридической практике. Свердловск. 1979, с. 3-10; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А. П. Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 22-23; Гражданское право. Учебник. Часть 1/Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 22.

[2] Mülki hüququn xüsusi hissəyə malik olması göstərilir: Гражданское право. Учебник. Том 1/Под ред. *Е.А.Суханова*. М., 1998, с. 11; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999; Гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1968. Xüsusi hissə anlayışından istifadə edilmir: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 22-24; Гражданское право. Учебник. Часть 1/ Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 21- 22. Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., с. 15-16 və b.

[3] Almaniya mülki hüququnda yalnız ümumi hissə və mülki hüququn yarımsahələrindən (ayrı-ayrı hissələrindən) söhbət açılır. Almaniya Mülki Qanunnaməsinin 1-ci kitabı ümumi hissəni, qalan kitabları mülki hüququn yanmsahələrini əhatə edir. Burada xüsusi hissə anlayışına rast gəlinmir (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6; Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева*. М., 2001, с. 161; *Эннекцерус Л.* Курс германского права. Том 1. Полутом 1. М., 1949).

müəlliflik hüququ, patent hüququ və digər mülki hüquq institutlarını birləşdirir. Mülki hüququn hər bir yarımsahəsi ictimai münasibətlərin özlərinin spesifikliyi ilə fərqlənən və növ xüsusiyyətləri ilə seçilən ayrı-ayrı massivlərini (sahələrini) nizama salır. Məsələn, vərəsəlik hüququ adlı yarımsahə vərəsəlik münasibətlərini, əşya hüququ adlı yarımsahə əşya münasibətlərini, əqli mülkiyyət hüququ adlı yarımsahə yaradıcı fəaliyyətin nəticələrinin (əsərlərin, ixtiraların və s.) yaradılması və istifadəsi ilə bağlı əmələ gələn ictimai münasibətləri tənzimləyir.

Mülki hüququn yarımsahələri barədə mülki hüquq elmində müəlliflərin fikirləri üst-üstə düşmür. Bəzən iki yarımsahənin[1], bəzən dörd yarımsahənin[2], bəzi halda beş yarımsahənin[3], digər halda isə altı yarımsahənin[4] olması göstərilir. Biz elə hesab edirik ki, yarımsahələrin dairəsini və sayını müəyyənləşdirmək üçün **mülki hüquqla tənzimlənən ictimai münasibətlərin spesifik xüsusiyyətlə fərqlənməsi və növ əlaməti ilə seçilməsi kimi meyarı əsas götürmək lazımdır.** Mülki hüququn predmetinə daxil olan ictimai münasibətlər bir-birindən spesifik xüsusiyyəti ilə seçilirlər. Onları növ əlamətinə görə fərqləndirmək mümkündür, yəni həmin münasibətləri ayrı-ayrı növlərə bölmək olar. Özü də həmin növ münasibətlər spesifik xüsusiyyətlərinə görə mülki-hüquqi tənzimetmənin xarakterinə kifayət qədər nəzərə çarpacaq dərəcədə təsir göstərir. Mülki hüquqla nizama salınan ictimai münasibətlərə diqqətlə fikir versək, görərik ki, bu münasibətlər yeddi növə bölünür: əşya münasibətləri; öhdəlik münasibətləri; şəxsi qeyri-əmlak münasibətləri; əqli mülkiyyət obyektləri ilə bağlı olaraq yaranan münasibətlər; ailə münasibətləri; vərəsəlik münasibətləri; beynəlxalq mülki münasibətlər.

Bax, mülki hüququn nizamasalma predmetinə daxil olan hər bir münasibət müvafiq hüquq norma və institutları ilə tənzimlənir. Bu norma və institutlarının məcmusu, sistemi və birləşməsi mülki hüququn yarımsahələrini əmələ gətirir. Buna uyğun olaraq Azərbaycan Respublikasının mülki hüququnun daxilində yeddi yarımsahəni ayırmaq və fərqləndirmək olar:

- əşya hüququnu;
- öhdəlik hüququnu;
- şəxsi qeyri-əmlak hüququnu;
- əqli mülkiyyət hüququnu;
- ailə hüququnu;

[1] bax: Гражданское право. Учебник. Часть 1/ Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с.15. Burada «Mülkiyyət hüququ» və «Öhdəlik hüququ» adlı 2 yarımsahənin ayrılması göstərilir.

[2] Гражданское право. Учебник. Часть1 /Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 22-23. Burada «Mülkiyyət hüququ və digər əşya hüquqları», «Öhdəlik hüququ», «Yaradıcılıq fəaliyyətinin nəticələrinə olan hüquq» və «Vərəsəlik hüququ» adlı dörd yarımsahə ayrılır.

[3] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с.11-12 («Əşya hüququ», «Öhdəlik hüququ», «Müstəsna hüquqlar», «Vərəsəlik hüququ», «Qeyri-maddi nemətlərin müdafiəsi»); Гражданское право. Учебник. Под ред. С.П.Гришаева. М., 1999, с.16 («Mülkiyyət hüququ və digər əşya hüquqları», «Öhdəlik hüququ», «Şəxsi qeyri-əmlak hüquqları», «Yaradıcı fəaliyyətin nəticələrinə olan hüquq», «Vərəsəlik hüququ»).

[4] bax: Гражданское право. Учебник. Часть 1/Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 23-24 («Mülkiyyət hüququ və digər əşya hüquqları», «Öhdəlik hüququ», «Şəxsi-qeyri əmlak hüquqları», «Yaradıcı fəaliyyətin nəticələrinə olan hüquq», «Ailə hüququ», «Vərəsəlik hüququ»).

- vərəsəlik hüququnu;
- beynəlxalq mülki (xüsusi) hüquq.

Bundan əlavə, nəzəri ədəbiyyatda mülki hüquqda müəlliflik hüququ, mənzil hüququ və arbitraj hüququ kimi yanmsahələrin mövcud olması fikrini irəli sürürlər[1]. Heç bir əsası olmayan bu mövqe qeyri-inandırıcı olub, həqiqətdən və dəqiqlikdən uzaqdır. Onlara mülki hüququn yarımsahəsi kimi status vermək olmaz.

Hər bir yarımsahənin özününün nizamasalma predmeti və metodu vardır. Bundan əlavə, yarımsahələrdən hər biri **ümumi müddəalara** malikdir. Məsələn, əşya hüququnun ümumi müddəaları MM-in 5-ci fəslində (135-151-ci maddələrdə), vərəsəlik hüququnun ümumi müddəaları MM-in 62-ci fəslində (1133-1158-ci maddələrdə) və s. ifadə olunmuşdur. Onların arasında elə mülki hüquq yarımsahəsi (yəni öhdəlik hüququ) vardır ki, bu yarımsahənin özü ümumi və xüsusi hissə adlı iki yerə bölünür. Hər bir yarımsahəyə **spesifik prinsiplər** xasdır. Məsələn, əqli mülkiyyət hüququ yarımsahəsində əqli mülkiyyət toxunulmazlığı, vərəsəlik hüququ yarımsahəsində vəsiyyət azadlığı prinsipi, əşya hüququ yarımsahəsində bütün mülkiyyət formalarının bərabərliyi və s. prinsiplər fəaliyyət göstərir.

Əşya hüququ mülki hüququn ən böyük və iri yarımsahələrindən biridir. Hüquq ədəbiyyatında bu yarımsahə çox vaxt «mülkiyyət hüququ və digər əşya hüquqları» adı altında nəzərdə tutulur[2]. Azərbaycan Respublikasının MM-də isə o, «əmlak və əşya hüququ» adlanır. Bu, dəqiq olmayan və qeyri-münasib termindir.

Əşya hüququ dedikdə, mülki hüququn elə bir yarımsahəsi başa düşülür ki, o, özündə əşyanın mülki hüquq subyektlərinə məxsusluğu ilə bağlı yaranan münasibətləri tənzimləyən normaları birləşdirir. Bu normalar əşya hüququnun obyektlərinin (əşyaların) hüquqi rejimini, mülkiyyət hüququnun əldə edilməsi və itirilməsinin (ləğv edilməsinin) əsaslarını və üsullarını, mülkiyyət hüququnun xüsusi növlərini, məhdud əşya hüquqlarını, mülkiyyət hüququnun və digər əşya hüquqlarının müdafiə üsullarını, habelə fakt mənasında sahibliyi (faktiki sahiblik münasibətlərini) və onun müdafiəsini tənzimləyir və müəyyənləşdirir. Əşya hüququnun predmetini maddi nemətlərin mənimsənilməsi prosesini ifadə edən münasibətlər təşkil edir. Özü də bu münasibətlər əmlak münasibətlərinin statikasını ifadə edir. Səlahiyyətli şəxsə (məsələn, mülkiyyətçiyə) tam əmlak-sərəncam müstəqilliyi vermək bu yarımsahənin əsas nizamasalma metodunu təşkil edir.

Əşya hüququnun özü üç institutdan ibarətdir: mülkiyyət hüququ institutundan; məhdud əşya hüququ institutundan; sahiblik institutundan .

Mülkiyyət hüququ dedikdə, maddi nemətlərin konkret şəxsə məxsus olmasını möhkəmləndirən, nizama salan və müdafiə edən hüquq normalarının

[1] bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с.397; Общая теория права и государства. Учебник/Под ред *В.В.Лазарева.* М., 2001, с. 211.

[2] bax: Гражданское право. Учебник. Часть 1/ Под ред. *А.П.Сергеева, Ю.К.Толстого* М., 1998, с. 23; Гражданское право. Учебник. Часть1 /Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 22; Гражданское право. Учебник /Под ред. *С.П.Гришаева.* М., 1999, с.16.

məcmusu başa düşülür. Bu hüquq normaları əsasında şəxs (mülkiyyətçi) əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnu həyata keçirir.

Məhdud əşya hüququ dedikdə, özgəsinə məxsus olan əşyadan mülkiyyətçi olmayan şəxslərin öz mənafeyi üçün istifadə etməsi ilə bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Məhdud əşya hüququna daxildir: tikiliyə vərəsəlik hüququ (superfitsi) subinstitutu; servitut hüququ subinstitutu; uzufrukt hüququ subinstitutu; girov hüququ subinstitutu; ipoteka hüququ subinstitutu.

Sahiblik institutu əşyaya faktiki sahiblik və yiyəlik münasibətlərini (fakt mənasında sahibliyi, yəni sahiblik faktını) tənzimləyən hüquq normalarını əhatə edir. Bu institut bizim ölkə qanunvericiliyi üçün yeni olub, Almaniya Mülki Qanunnaməsindən iqtibas olunmuşdur.

Əşya hüququ[1] Roma xüsusi hüququnun iri bölmələrindən biri hesab olunurdu. Bu hüquq mülkiyyət hüququnu, məhdud əşya hüququnu (özgə əşyalarına hüququ) — girov hüququnu, superfitsi hüququnu, ipoteka hüququnu, uzufrukt hüququnu tanıyırdı[2].

Mülki hüququn həcm etibarilə ən böyük və işlənmiş yarımsahəsi öhdəlik hüququ hesab edilir. Roman-german (kontinental) ailəsinə daxil olan bütün hüquq sistemləri üçün öhdəlik hüququ ən mühüm bölmələrdən biri hesab olunur[3]. Roman-german ailəsi ölkələrində öhdəlik hüququ mülki hüququn mərkəzi və əsas hissəsi, hüquq elminin başlıca obyekti kimi çıxış edir. Həmin ölkələrin doktrinası öhdəlik hüququnu yaradarkən Roma xüsusi hüququna əsaslanmışdır. Öhdəlik hüququ Roma xüsusi hüququnun vacib və mühüm bölməsi

[1] Azərbaycan Respublikasının yeni MM-də «Əşya hüququ» adlı yarımsahə həmin məcəllənin ümumi hissəsinə daxil edilmişdir. Bu, bizdə çox təəssüf doğurur. Belə işi ancaq sərişləsiz, naşı və diletant hüquqşünaslar edə bilər. Qeyd etmək lazımdır ki, mülki hüququn sistemi obyektiv xarakterə malikdir. O, qanunvericinin iradəsindən asılı deyil. Sivil ölkələrin mülki hüququnda «Əşya hüququ» xüsusi hissəyə daxil edilir. Məsələn, elə götürək Almaniya Mülki Qanunnaməsini. Bu qanunnamənin ümumi hissəsinə (birinci kitabına) daxil edilmişdir: I bölmə «Şəxslər»; II bölmə «Əşyalar»; III bölmə «Əqdlər»; IV bölmə «Müddətlər»; V bölmə «İddia müddəti»; VI bölmə «Hüquqların həyata keçirilməsi. Özünümüdafiə. Özünəyardım»; VII bölmə «Zaminlik». Yerdə qalan kitablar mülki hüququn xüsusi hissəsini — yarımsahələri əhatə edir. İkinci kitab «Öhdəlik hüququ»; üçüncü kitab «Əşya hüququ»; dördüncü kitab «Ailə hüququ»; beşinci kitab «Vərəsəlik hüququ». (bax: Основные институты гражданского права зарубежных стран. Под ред. *В..В.Залесского*. М., 1999, с.6; Гражданское и торговое право капиталистических государств. Учебник. Под ред. *Е.В.Васильева*. М., 1993; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949. Германское право. Часть 1. Гражданское упожение. М.,1996). Əşya hüququnun mülki hüququn xüsusi hissəsinə daxil olması RF-də yazılan dərsliklərdə göstərilmişdir (bax: Гражданское право. Учебник. Том 1/ Под ред. *Е.А.Суханова*. М., 1998, с.11, с. 475; Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с.16).

[2] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi.Bakı. 1999, s. 64-98.

[3] bax: *Рене Давид, Камилла Жоффре-Спиноси*. Основные правовые системы современности. М., 1999, с. 64.

sayılırdı[1]. Roma öhdəlik hüququ sadə əmtəə-mal mülkiyyətçiləri arasında əmələ gələn alqı-satqı, xidmət, borc və digər öhdəliklər üzrə bütün mövcud münasibətləri dəqiqliklə formulə etmişdi[2].

Öhdəlik hüququ dedikdə, əmlak verilməsi, xidmət göstərilməsi, iş görülməsi, zərər vurulması, əsassız varlanma və s. ilə bağlı olaraq yaranan əmlak münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu yarımsahə iqtisadi (əmlak) dövriyyə münasibətlərinin ən vacib və geniş sahəsini — alqı-satqı, daşıma, icarə, kredit, podrat (təmir-tikinti), sığorta, pərakəndə ticarət, topdansatış ticarət və digər münasibətləri tənzimləyir. Öhdəlik hüququ bazarı, bazar əmtəə dövriyyəsini qaydaya salır. Onun əsas işi əmtəələrin bir əmtəə sahibindən digərinə keçəməsini nizama salmaqdan ibarətdir. Belə təsəvvür yaranır ki, **iqtisadi (əmlak) dövriyyə münasibətləri öhdəlik hüququnun predmetini** təşkil edir. Bu münasibətlər əmlak formalı maddi nemətlərin (əmlakın, işlərin, xidmətlərin və s.) yerdəyişməsi və bir şəxsdən digərinə keçməsi prosesini ifadə edir. Deməli, öhdəlik hüququ **əmlak münasibətlərinin dinamikasını** əks etdirən münasibətləri rəsmiləşdirir. **Səlahiyyətli şəxsə (kreditora) öz xeyrinə müəyyən fəal hərəkətlər edilməsini tələb etmək imkanının verilməsi** öhdəlik hüququnun başlıca nizamasalma **metodudur**.

Öhdəlik hüququ özü iki hissədən ibarətdir: ümumi hissədən; xüsusi hissədən. **Ümumi hissə** odur ki, o, bir qayda olaraq, özündə öhdəliklərin bütün növlərinə tətbiq edilən normaları birləşdirir. Buraya öhdəliklərin əmələ gəlməsini, öhdəlik iştirakçılarının hüquq və vəzifələrini, öhdəliklərin icrasının təmin edilməsi üsullarını, öhdəliklərin icra edilməsinə görə məsuliyyət və öhdəliklərə xitam verilməsinin əsaslarını (üsullarını) tənzimləyən normalar daxildir.

Öhdəlik hüququnun xüsusi hissəsi dedikdə, öhdəliklərin ayrı-ayrı konkret növlərini nizama salan hüquq normalarının birləşməsi başa düşülür. O, özü iki instituta bölünür: müqavilə öhdəlikləri institutuna[3]; müqavilədənkənar öhdəlik institutuna.

Müqavilə öhdəliyi institutu dedikdə, ayrı-ayrı müqavilə öhdəliklərini nizama salan hüquq normalarının məcmusu başa düşülür. Müqavilə öhdəlikləri dörd qrupa bölünür:

- **əmlakın mülkiyyətə verilməsi üzrə öhdəliklər** (alqı-satqı, mal göndərmə, dəyişmə, renta, borc, bağışlama və s. öhdəlikər);
- **əmlakın istifadəyə verilməsi üzrə öhdəliklər** (kirayə, icarə, lizinq, əvəzsiz istifadə və s. öhdəliklər);
- **iş görülməsi üzrə öhdəliklər** (məsələn, podrat öhdəliyi);
- **xidmət göstərilməsi üzrə öhdəliklər** (daşıma, saxlama, tapşırıq, bro-

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 470-622 (bəlmə VIII); Римское частное право. Учебник. Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М.,1999, с. 251-536 (bəlmə VII,VIII,IX); *Иво Пухан, Миряна Поленак-Акимовская*. Римское право. Учебник. М., 2000, с. 195-309; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı 1999 (IV bölmə).

[2] *Маркс К., Энгельс Ф.* Соч.Том 14, с. 672.

[3] Moskva alimlərindən Y.A.Suxanov göstərir ki, öhdəlik hüququ müqavilə və delikt hüququ adlı iki yarımsahəyə ayrılır. Müəllifin bu fikri ilə çətin ki, razılaşmaq olar. Axı, özü yarımsahə olan öhdəlik hüququnun tərkibində necə ikl yarımsahə ayırmaq olar (bax: Гражданское право. Учебник. Том I / Под ред. *Е.А.Суханова*. М., 1998, с.11).

ker, sığorta və s. öhdəliklər).

Müqavilədənkənar öhdəlik institutu dedikdə, müqavilədənkənar öhdəlikləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Müqavilədənkənar öhdəliklərin üç qrupu fərqləndirilir:

- **delikt öhdəlikləri** (zərər vurmaq nəticəsində əmələ gələn öhdəliklər);
- **əsassız varlanma öhdəlikləri** (kondikasiya öhdəlikləri);
- **birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəliklər** (xüsusi mükafatlandırma öhdəlikləri, müsabiqə öhdəlikləri, tapşırıqsız fəaliyyətdən əmələ gələn öhdəliklər, oyunlardan və mərclərdən əmələ gələn öhdəliklər).

Şəxsi qeyri-əmlak hüququ mülki hüququn yarımsahələrindən biri sayılır. Bu hüququn yarımsahə kimi ayrılması üçün kifayət qədər yetərli əsaslar vardır. Belə ki, mülki hüququn nizamasalma predmetinə daxil olan münasibətlərin bir qismi əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləridir. Bu münasibətlər şəxsi qeyri-maddi nemətlərlə (insanın həyatı və sağlamlığı, şəxsiyyət toxunulmazlığı, şərəf və ləyaqət və s.) bağlı olaraq yaranır. Həmin münasibətlər bu nemətlərin sahibi ilə əhatə dairəsi bilinməyən cəmiyyət üzvləri («hamı və hər kəs») arasında əmələ gəlir: bu nemətlərə qəsd etmək və onları pozmaq olmaz. Deməli, cəmiyyət üzvlərinə qadağan olunur ki, onlar mülki dövriyyə subyektlərinin şəxsi qeyri-maddi nemətlərinə qəsd etsinlər. Bu, o deməkdir ki, **hamıya (hər kəsə) qadağan etmək metodu** tətbiq edilir.

Şəxsi qeyri-əmlak hüququ dedikdə, şəxsi qeyri-maddi nemətlər barəsində yaranan münasibətləri — əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının sistemi başa düşülür[1]. Bu yarımsahənin predmetini şəxsi qeyri-əmlak münasibətləri təşkil edir. Ədəbiyyatda həmin yarımsahə «Qeyri-maddi nemətlərin müdafiəsi hüququ» adı altında da nəzərdə tutulur[2].

Şəxsi qeyri-əmlak hüququnun rolu və əhəmiyyəti böyükdür. Belə ki, mülki hüququn bu yarımsahəsi cəmiyyətdə şəxsiyyətin sosial-hüquqi vəziyyətini xarakterizə edən şəxsi qeyri-maddi nemətləri (şərəf və ləyaqəti, işgüzar nüfuzu, şəxsi toxunulmazlığı və s.) qoruyur və müdafiə edir.

Mülki hüququn yarımsahələrindən biri əqli mülkiyyət hüququ adlanır. Bu yarımsahə müxtəlif adlar — «Müstəsna hüquqlar»[3], «Yaradıcı fəaliyyətin nəticələrinə olan hüquq»[4], «İntellektual mülkiyyət hüququ»[5] və digər ad altında nəzərdə tutulur. O, mülki hüququn xüsusi xarakterli yarımsahəsidir.

Əqli mülkiyyət hüququ dedikdə, əqli mülkiyyət obyektlərinin, yəni yaradıcı fəaliyyətin nəticələrinin yaradılması, istifadəsi və qorunması ilə bağlı əmələ gələn münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür[1]. Bu hüquq özündə dörd müstəqil institutu birləşdirir:

- **müəlliflik hüququ və əlaqəli hüquqlar institutunu**. Bu institut elm, ədəbiyyat və incəsənət əsərlərinin (yəni müəlliflik hüququnun obyektlərinin), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (yəni əlaqəli hüquqların obyektlərinin) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri nizama salır.
- **patent hüququ institutunu**. Bu institut ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir.
- **fərdiləşdirmə vasitələri institutunu.** Bu institut fərdiləşdirmə vasitələrinin (firma adlarının, əmtəə nişanlarının və s.) qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir. Bu institut özü iki subinstituta ayrılır:
- **mülki dövriyyə iştirakçılarını fərdiləşdirmə vasitəsi** subinstitutuna (firma adlarından istifadə və bu adların qorunması ilə bağlı münasibətləri tənzimləyir); **mülki dövriyyə iştirakçılarının istehsal etdiyi malları fərdiləşdirmə vasitəsi subinstitutuna** (əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir);
- **qeyri-ənənəvi əqli mülkiyyət obyektlərinin qorunması institutunu**. Bu institut qeyri-ənənəvi, qeyri-standart və xüsusi xarakterli əqli mülkiyyət obyektlərinin (elmi kəşflərin, qulluq və kommersiya sirlərinin, seleksiya nailiyyətlərinin, inteqral mikrosxemlərin, səmərələşdirici təkliflərin) qorunması və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir.

Əqli mülkiyyət hüququnun predmetinə həm əmlak, həm də şəxsi qeyri-əmlak münasibətləri daxildir. Bu yarımsahə həm statik münasibətləri (hüquqların məxsusluğu və həyata keçirilməsi, müdafiəsi), həm də dinamik münasibətləri (əqli mülkiyyət obyektlərindən istifadə hüququnun verilməsi üzrə öhdəlikləri) tənzimləyir.

Ailə hüququ mülki hüququn yarımsahələrindən biridir. **Ailə hüququ** dedikdə, nikahın bağlanma və pozulması qaydalarını, ər-arvad, valideynlər-uşaqlar arasındakı münasibətləri, övladlığa götürmə, qəyyumluq və himayəçilik məsələlərini, ailə üzvlərinin qarşılıqlı hüquq və vəzifələrini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu hüququn predmetinə ailə qurulması və onun mövcud olması prosesində əmələ gələn ictimai münasibətlər daxildir. Bu münasibətlər həm əmlak münasibətləri, həm də şəxsi qeyri-əmlak münasibətləri növündə ola bilər.

Tərəflərin bərabərliyi və dispozitivlik ailə hüququnun əsas nizamasalma metodu hesab edilir. Əsas prinsipləri bunlardır: ailənin möhkəmləndirilməsi prinsipi; ailədə ər-arvadın hüquq bərabərliyi prinsipi; nikahın könüllülüyü prinsipi; ailə həyatına və işinə kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipi; dini nikahın (kəbinin) dövlət tərəfindən tanınmaması prinsipi və s.

---

[1] Bəzi müəlliflər şəxsi qeyri-əmlak hüququnu mülki hüququn yarımsahəsi yox, onun bir institutu kimi tanıyırlar (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с.133; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М,1998, с. 15).

[2] bax: Гражданское право. Учебник. Том 1/Под ред. *Е.А.Суханова*. М., 1998, с.11.

[3] bax: yenə orada, s.10.

[4] Гражданское право. Учебник. Под ред. *С.П.Гришаева*. М.,1999, с.16; Гражданское право. Учебник. Часть 1/Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М.,1998, с. 24.

[5] bax: *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник М., 1999, с.19.

[1] O.S.Ioffe bu yanmsahənin əhatə etdiyi sferanı «Yaradıcı fəaliyyətin məhsulları ilə bağlı olan hüquq münasibətləri» adlandırırdı (bax: *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 3. Л. 1965).

Ailə hüququnun hüquq sistemində tutduğu yer uzun müddətdir ki, mübahisə predmetinə çevrilmişdir. Bu barədə müxtəlif fikirlər var. Növbəti paraqrafda həmin məsələyə aydınlıq gətirdiyimizə görə burada onu nəzərdən keçirməyi lazım bilmirik.

Mülki hüququn altıncı yarımsahəsi vərəsəlik hüququ adlanır. Bu yarımsahə mülki hüquq sistemində xüsusi yer tutur. Vərəsəlik hüququ qədim Roma xüsusi hüququnun vacib bölmələrindən biri sayılırdı[1]. **Vərəsəlik hüququ** dedikdə, ölmüş fiziki şəxsin hüquq və vəzifələrinin (əmlakının) digər şəxslərə — həm qanun üzrə vərəsələrə, həm də vəsiyyət üzrə vərəsələrə keçməsi prosesini nizama salan hüquq normalarının məcmusu başa düşülür. Vərəsəlik kimi mürəkkəb sosial məsələ onun əsas və mərkəzi anlayışı hesab edilir. Vərəsəlik dedikdə, elə bir ictimai münasibət başa düşülür ki, bu münasibət əsasında ölmüş şəxsin əmlakı (hüquq və vəzifələri) onun vərəsələrinə keçir. Bu, vərəsəlik münasibətləri adlanır. Həmin münasibətlər də vərəsəlik hüququnun nizamasalma predmetini təşkil edir. **Universal hüquq varisliyi** metodu onun əsas və başlıca metodudur. Vərəsəlik hüququnun əsas prinsipləri bunlardır: vəsiyyət azadlığı prinsipi; mirasın qəsdlərdən qorunması prinsipi; məcburi vərəsələrin **hüquq və mənafeyinin** təmin edilməsi prinsipi və s.[2]. Nəhayət, beynəlxalq mülki (xüsusi) hüquq mülki hüququn axırıncı yarımsahəsidir. Bu yarımsahə özündə beynəlxalq mülki münasibətləri tənzimləyən hüquq normalarını birləşdirir.

4. Mülki hüquq institutları və normaları

Mülki hüququn həm ümumi hissəsi, həm də xüsusi hissəsi, yəni yarımsahələr ayrı-ayrı hüquq institutlarına (latınca institutum – müəyyənləşdirmə, təsisat[3]) bölünür. Məsələn, mülki hüququn ümumi hissəsində əqd institutuna, müddətlər institutuna, nümayəndəlik institutuna, hüquqi şəxs institutuna və s. rast gəlirik. Ayrı-ayrı mülki hüquq yarımsahələri də özündə müxtəlif institutları birləşdirir. Məsələn, əşya hüququ yarımsahəsində mülkiyyət hüququ institutu ilə, əqli mülkiyyət hüququnda müəlliflik hüququ və əlaqəli hüquqlar institutu ilə, vərəsəlik institutunda vəsiyyət üzrə vərəsəlik institutu ilə və s. rastlaşırıq. Bəs mülki hüquq institutu nə deməkdir?

Mülki hüquq institutu dedikdə, mülki hüquq sisteminin elə bir əsas elementi başa düşülür ki, o, özündə məcmu halında eyni növlü (cinsli) mülki münasibətləri tənzim edən hüquq normalarını birləşdirir. Hüquq institutu mülki hüququn ayrıca bir bloku, dəstəsi, tərkib hissəsi olub, ictimai həyatın ayrı-ayrı sahələrini, fraqmentlərini və tərəflərini qaydaya salır. Onun üç əsas xüsusiyyəti vardır. Birincisi, mülki hüquq institutu onunla xarakterizə olunur ki, **bu institutа daxil olan normalar hüquqi cəhətdən vahiddirlər**. Belə ki, hüquq institutuna aid edilən normalar vahid kompleks yaradır. İkincisi, hər bir mülki hüquq institutu **nisbi müstəqilliyə malikdir**. Belə ki, onlar müstəqil, nisbətən ayrıca (ələhiddə) münasibətlər qrupunu və məsələləri nizama salır. Üçüncüsü, mülki hüquq institutları **normativ mənada da nisbi müstəqilliyə malikdir**. Bu, o deməkdir ki, hüquq institutuna daxil olan normalar qanunun və ya digər normativ hüquqi aktların ayrı-ayrı fəsillərində, bölmələrində və digər tərkib hissələrində yerləşdirilir, yəni hüquq institutlarından hər birinə ayrıca olaraq fəsil, bölmə və hissə həsr edilir. Məsələn, MM-in 4-cü fəsli hüquqi şəxs institutuna, V bölməsi müddətlər institutuna, 16-cı fəsli nümayəndəlik institutuna və s. həsr edilmişdir.

Mülki hüquq institutları müxtəlif əsaslara görə ayrı-ayrı növlərə bölünür və təsnif edilir. **Sahəvi aidiyyət kimi əlamətə görə** onların iki növü fərqləndirilir: sahəvi hüquq institutu; sahələrarası hüquq institutu. Yalnız mülki hüquq sahəsi üçün xarakterik olan instituta **sahəvi hüquq institutu** deyilir. Ona digər hüquq sahəsində rast gəlinmir. Məsələn, vəsiyyət üzrə vərəsəlik institutu (MM-in 64-cü fəsli), nikahın pozulması institutu (AM-in IV fəsli), alqı-satqı institutu (MM-in 29-cu fəsli), oyunların və mərclərin keçirilməsi institutu (MM-in 56-cı fəsli) və s. bu cür instituta misal ola bilər. Sahəvi instituta **xüsusi hüquq institutu** da deyilir.

İki və daha artıq hüquq sahəsi üçün xarakterik olan instituta **sahələrarası hüquq institutu** deyilir. Bu cür hüquq institutuna müxtəlif hüquq sahələrində rast gəlinir. Məsələn, mülkiyyət institutu konstitusiya, mülki, inzibati, ekologiya, cinayət və digər hüquq sahələri üçün əhəmiyyətə malikdir. Zəruri müdafiə institutu həm mülki, həm cinayət, həm də inzibati hüquq sahələri üçün xarakterikdir. Şəxsi qeyri-maddi nemətlərin qorunması institutu həm konstitusiya, həm cinayət, həm də mülki hüquq sahəsində mövcuddur. Sahələrarası hüquq institutuna **qarışıq və ya kompleks hüquq institutu** da deyilir[1].

Həyata keçirdiyi funksiyaya görə mülki hüquq institutu iki cür olur: tənzimləyici hüquq institutu; qoruyucu hüquq institutu. Müvafiq mülki münasibəti nizama salmağa, tənzimləməyə yönələn instituta **tənzimləyici hüquq institutu** deyilir. Məsələn, müqavilə öhdəliyi institutu, nümayəndəlik institutu, əqd institutu, hüquqi şəxs institutu və s. bu cür instituta misaldır. Mülki hüquq üçün tənzimləyici institutlar xarakterikdir.

Qoruyucu institut odur ki, o, müvafiq mülki münasibəti qorumağa, mühafizə və müdafiə etməyə yönəlir. Məsələn, delikt hüququ institutu, şəxsi qeyri-maddi nemətlərin qorunması institutu, zəruri müdafiə institutu və s. buna misal kimi göstərilə bilər. Qoruyucu institut mülki hüquq üçün yox, cinayət hüquq sahəsi üçün tipikdir. Buna **mühafizəedici institut** da deyilir.

---

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М.,1999, с.625-679 (IX bölmə); *Иво Пухан, Мирьяна Поленак-Акимовская.* Римское право. Учебник. М., 2000, с. 312 (III bölmə); Римское частное право. Учебник / Под ред. *Н.Б.Новицкого, И.С.Перетерского.* М., 1999. VI bölmə; *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999 (VIII bölmə).

[2] Mülki hüququn yarımsahələri,bax, bunlardan ibarətdir. Müasir dövrdə «Sahibkarlıq hüququ», «Səhmdar hüququ», «Mənzil hüququ», «Sığorta hüququ», «Nəqliyyat hüququ» və s. kimi yarımsahələrin fərqləndirilməsi barədə fikirlər səslənir. Belə mövqeyin heç bir əsası yoxdur. Əvvəllərdə qeyd etdiyimiz kimi, bu, mülki qanunvericiliyin sistemi məsələsi, mülki hüquq elminin sistemi məsələsi və nəhayət, mülki hüquq ixtisası üzrə tədris kurslarının sistemi məsələsidir.

[3] bax: Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина.* М., 1985, с. 195.

[1] Hüquq ədəbiyyatı səhifələrində kompleks (qarışıq) hüquq institutuna iki və daha artıq hüquq sahəsinin normalarını özündə birləşdirən kateqoriya kimi anlayış verilir. Kompleks hüquq sahəsi konsepsiyası kimi, kompleks hüquq institutu ideyası da həqiqətə uyğun deyil. Ayrı-ayrı müxtəlif hüquq sahələrinə aid edilən hüquq normalarından hüquq institutu yaratmaq olmaz.

Tərkib hissəsinə (elementinə) görə mülki hüquq institutunun iki növü fərqləndirilir: sadə hüquq institutu; mürəkkəb hüquq institutu. **Sadə institut** odur ki, o, həcm etibarilə böyük olmayıb, özündə hər hansı bir digər bölmə (hissə) birləşdirmir. Məsələn, beh institutu, zaminlik institutu, nümayəndəlik institutu, ipoteka institutu, girov institutu və s. sadə hüquq institutuna misal ola bilər.

Mürəkkəb institut odur ki, o, həcm etibarilə daha böyük olub, öz tərkibində nisbətən müstəqil hissələri birləşdirir. Məsələn, alqı-satqı institutu, renta institutu və s. bu cür instituta misal ola bilər. Alqı-satqı institutu öz tərkibində pərakəndə alqı-satqı, mal göndərmə, sınama üçün alqı-satqı, faktorinq və s. institutları, renta institutu isə ömürlük renta və daimi renta kimi institutları birləşdirir.

Mürəkkəb institutun nisbətən daha kiçik hissələrinə **subinstitut** deyilir. Deməli, mürəkkəb institut subinstitutlardan ibarətdir. Məsələn, məhdud əşya hüququ özündə superfitsi, servitut, uzufrukt kimi subinstitutları birləşdirir. Həm mülki hüquq institutları, həm də subinstitutlar özlərinin ümumi müddəalarına malikdir. Bu, onu sübut edir ki, institutlara və subinstitutlara daxil olan normalar hüquqi cəhətdən eyni növlüdür.

Hüquq institutları və subinstitutlar mülki hüquq normalarından ibarətdir. Mülki hüquq normaları mülki hüquq sisteminin ilkin elementidir (tərkib hissəsidir). O, mülki hüquq adlı «maddənin bölünməz atomlarıdır». Mülki hüquq normaları hüquqi materiyanın «canlı hüceyrələridir»[1].

Mülki hüquq normaları müxtəlif əsaslara görə ayrı-ayrı növlərə bölünür. Bu normaları təsnif etməyin böyük əhəmiyyəti vardır. Belə ki, mülki hüquq normalarının təsnifi, birincisi, hər bir növ normanın mülki hüquq sistemindəki yerini dəqiq müəyyən etməyə, ikincisi, hüquq normalarının həyata keçirdiyi funksiya və rolu düzgün aydınlaşdırmağa, üçüncüsü, hüquq normalarının ictimai münasibətlərə göstərdiyi tənzimləyici təsirin hədlərini müəyyənləşdirməyə imkan verir.

Həyata keçirdiyi funksiyaya görə mülki hüquq normaları iki cür olur: tənzimləyici norma; qoruyucu norma. **Tənzimləyici norma** odur ki, o, mülki hüquq subyektlərinin davranışını nizamlayır və qaydaya salır. Əslinə baxsan, bu normanı **hüquq müəyyənedici** norma adlandırsaq, daha düzgün və münasib olar. Belə ki, bu növ hüquq norması mülki hüquq münasibəti iştirakçılarına hüquq vermək və onlara vəzifə həvalə etmək barədə göstəriş ifadə edir. Məsələn, MM-in 724-cü və 725-ci maddələri tənzimləyici normaya misal ola bilər. Bu maddələr françayzinq müqaviləsi üzrə tərəflərin — françayz verənin və françayz alanın vəzifələrini müəyyən edir.

Qoruyucu norma odur ki, bu norma mülki hüquq məsuliyyəti və digər məcburi müdafiə tədbirləri müəyyən edir. Bu norma da subyektlərin davranışını tənzimləyir. Amma dolayı yolla. Axı, geniş mənada hüquqi tənzimləmə hüquqi qorumanı da özündə birləşdirir[2]. Qoruyucu normaya MM-in 1097-ci maddəsinin 1-ci bəndini misal göstərmək olar. Orada göstərilir ki, fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə

[1] bax: *Алексеев С.С.* Структура советского права. М., 1975, с.119.

[2] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1//В книге.*Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 256.

ödənilməlidir. Şərəfi, ləyaqəti və ya işgüzar nüfuzu ləkələyən məlumatların yayılması nəticəsində fiziki şəxsə vurulmuş zərərin əvəzinin ödənilməsi barədə başqa bir norma da qoruyucu normaya misal ola bilər (MM-in 23-cü maddəsinin 4-cü bəndi).

İfadə etdiyi göstərişin xarakterinə görə mülki hüquq normaları üç növə bölünür: imperativ normalar; dispozitiv normalar; həvəsləndirici normalar. **İmperativ normalar** odur ki, bu normalar qəti formada məcburi göstəriş ifadə edir. Bu göstərişdən kənara çıxmaq olmaz. Onun tərəflərin razılığı ilə dəyişdirilməsi qeyri-mümkündür. Məsələn, faktorinq müqaviləsinin yazılı formada bağlanması barədə norma imperativ normaya misaldır (MM-in 655-ci maddəsinin 5-ci bəndi). Bu müqavilə tərəflərin razılığı ilə şifahi formada bağlana bilməz. İddia müddətləri barədə norma da imperativ normaya misal ola bilər. Belə ki, iddia müddətləri və onların hesablanma qaydası MM ilə nəzərdə tutulur və tərəflərin razılaşması ilə dəyişdirilə bilməz (MM-in 374-cü maddəsinin 1-ci bəndi). Lakin həmin maddədə dəyişiklik edilməsi ilə bağlı olaraq iddia müddətləri və onların hesablanma qaydası barədə tərəflər müqavilədə başqa hal nəzərdə tuta bildiklərinə görə o, artıq imperativ norma sayılır.

Dispozitiv norma odur ki, o, mülki mülki hüquq münasibəti iştirakçılarına mümkün olan davranış variantlarından birini seçmək imkanı verir. Bu norma tərəflərə imkan verir ki, onlar öz aralarındakı münasibətləri qanun çərçivəsində öz istədikləri kimi tənzimləsinlər. Dispozitiv norma tərəflərə öz qarşılıqlı hüquq və vəzifələri barədə razılığa gəlmək şansı verir. Məsələn, öhdəliklərin icrası yeri haqqında norma dispozitiv normaya misal ola bilər (MM-in 426-cı maddəsinin 1-ci bəndi). Bu normaya görə öhdəliklərin (alqı-satqı, mal göndərmə, dəyişmə, icarə və s. öhdəliklərin) icrası, qanunda ayrı qayda müəyyənləşdirməyibsə və ya öhdəliyin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, tərəflərin iradəsi ilə müəyyənləşdirilir. Dispozitiv normaya alqı-satqı müqaviləsi üzrə satıcının lazımi keyfiyyətli olmayan əşyanı alıcıya satması barədə norması da misal göstərmək olar (MM-in 587-ci maddəsinin 1-ci bəndi). Bu halda alıcıya üç variantdan birini seçmək ixtiyarı verilir: satılmış əşyanın qiymətini mütənasib surətdə azaltmağı tələb etməyi; əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırmasını tələb etməyi; əşyanın qüsurlarının aradan qaldırılması üçün özünün çəkdiyi xərclərin əvəzinin ödənilməsini tələb etməyi.

Mülki hüquqda dispozitiv normaların xüsusi çəkisi imperativ normalara nisbətən böyükdür. Bu, onunla izah edilir ki, mülki hüquqda dispozitivlik prinsipi fəaliyyət göstərir. Mülki hüquq **subyektlərə icazə vermək, yol vermək, qadağan etməmək kimi xüsusiyyətlərə malikdir.**

Həvəsləndirici norma odur ki, bu norma hər hansı hərəkəti yerinə yetirməyə və müəyyən nəticəyə nail olmağa görə həvəsləndirici tədbirlər (mükafat, priz və s.) görülməsini nəzərdə tutur. Bu normada subyektin müvafiq hərəkəti yerinə yetirən şəxsə mükafat və priz vermək vədi ifadə olunur. Məsələn, hər hansı hərəkəti yerinə yetirməyə görə mükafat ödənilməsi barədə norma həvəsləndirici normaya misal ola bilər (MM-in 1079-cu maddəsi). Bu norma əsasında, məsələn, cinayət törətmiş şəxsi tapmaqda kömək edən vətəndaşlara Daxili İşlər Nazirliyi mükafat verməsi barədə televiziya vasitəsi ilə elan verir və həmin köməkliyi göstərən vətəndaşa mükafat ödənilir, taksidə vacib

sənədlərini itirən vətəndaş onu tapan şəxsə pul mükafatı verir və s. Müsabiqə qalibinə mükafat verilməsi barədə norması da həvəsləndirici normaya şamil etmək olar (MM-in 1082-ci maddəsinin 1-ci bəndi).

Mülki hüquq münasibəti iştirakçılarına göstərilən təsirin xarakterinə görə mülki hüquq normaları üç cür olur: məcburedici normalar; qadağanedici normalar; səlahiyyətverici normalar.

Məcburedici normalar odur ki, onlar subyektlərin fəal davranışını tənzimləyir və qəti formada müəyyən hərəkəti yerinə yetirmək göstərişi ifadə edir. Məsələn, podrat müqaviləsi üzrə sifarişçinin işi qəbul etdikdə podratçıya haqq ödəməsi barədə norma (MM-in 770-ci maddəsi), satıcının alıcıya keyfiyyəti alqı-satqı müqaviləsinə uyğun gələn əşya verməyə borclu olması barədə norma (MM-in 581-ci maddəsinin 1-ci bəndi) və s. məcburi normalara misal ola bilər. Bir qayda olaraq, bu cür normaların mətnində «borcludur», «vəzifəsidir», «olmalıdır», «etməlidir», «yerinə yetirməlidir» və s. ifadələrə rast gəlmək olur. Məcburedici mülki hüquq normaları, bir qayda olaraq, imperativ təbiətə malik olur.

Qadağanedici mülki hüquq normaları odur ki, bu normalar subyektlərin passiv davranışını tənzimləyir və mülki hüquqları pozan hərəkətlər etməmək barədə göstəriş ifadə edir. Məsələn, uzufruktuar uzufrukta götürülümüş əşyanı girov qoya, özgəninkiləşdirə və ya vərəsəlik üzrə verə bilməz (MM-in 263-cü maddəsinin 1-ci bəndi). Başqa bir misalda servitut almış şəxs servitutu müstəqil olaraq sata, girova qoya və icarəyə verə bilməz (MM-in 255-ci maddəsinin 3-cü bəndi). Nümayəndə təmsil edilən adından şəxsən özü barəsində əqdlər (müqavilələr) bağlaya bilməz (MM-in 359-cu maddəsinin 3-cü bəndi). Kreditorun şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblərin, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin güzəşt edilməsinə yol verilmir (MM-in 194-cü maddəsinin 3-cü bəndi).

Qadağanedici normalar,, bir qayda olaraq, imperativ normalar hesab edilir. Bu normaların mətnində «yolverilməzdir», «qadağandır», «olmaz», «edə bilməz», «hüququ yoxdur», «ixtiyarı çatmır», «hüquqa malik deyil» və s. ifadələrə rast gəlirik.

Səlahiyyətverici mülki hüquq normaları odur ki, bu normalar mülki hüquq münasibətləri iştirakçılarına müəyyən hərəkətlər etməyə ixtiyar verir. Bu normalar, bir qayda olaraq, dispozitiv norma kateqoriyasına aiddir. Bazar münasibətlərinin yaranması şəraitində səlahiyyətverici normaların əhəmiyyəti və rolu artmışdır. Bu normalar subyektlərə imkan verir ki, onlar özləri öhdəliklərin icrası yollarını seçsinlər. Onların sayı kifayət qədər çoxdur. Məsələn, müqavilə bağlayan tərəflərə ixtiyar verilir ki, onlar müqavilə şərtlərini öz istədikləri kimi müəyyənləşdirsinlər (MM-in 390-cı maddəsinin 5-ci bəndi). Həmin normaların mətnində bu cür ifadələrə tez-tez rast gəlirik: «ixtiyarı vardır», «hüquqa malikdir», «tərəflərin istəyi ilə müəyyənləşdirilir» və s.

Beləliklə, **mülki hüquq sisteminin struktur elementləri bunlardır: mülki hüquq norması**; **subinstitut**; **mülki hüquq institutu**; **mülki hüququn yarımsahəsi**; **mülki hüquq**. Məhz onlar mülki hüquq sisteminin «hüquqi toxumalarını» təşkil edirlər. Hüquq sahəsi kimi mülki hüququn sistemi həmişə sabit və dəyişməz qalmır. Belə ki, ictimai münasibətlərin hüquqi tənzimlənməsi

bir yerdə durmur, o, həmişə inkişaf edir. Bunun nəticəsində müvafiq hüquq normaları ayrılır. Bu normalar birləşərək mülki hüququn yuxarıda göstərilən struktur bölmələri çərçivəsində yeni institutların əmələ gəlməsinə səbəb olur.

Yeri gəlmişkən qeyd edək ki, «hüquq sahəsi kimi mülki hüququn sistemi» anlayışını «mülki hüquq tədris kursunun (fənninin) sistemi» və «mülki qanunvericiliyi sistemi» kimi iki anlayışdan fərqləndirmək lazımdır. Onlar bir-birləri ilə üst-üstə düşməyən anlayışlardır. Onlar arasındakı fərqi müəyyən etmək üçün sonrakı fəsilləri izləyin.

§ 6. Mülki hüquq və əlaqəli hüquq sahələri. Mülki hüququn hüquq sahələri sistemində yeri

1. Konstitusiya hüququ və mülki hüquq

Azərbaycan Respublikasının daxili milli hüquq sistemi bir neçə müstəqil hüquq sahəsindən ibarətdir. Mülki hüquq onlar arasında əsas və mərkəzi yerlərdən birini tutur. Mülki hüquq barəsində tam və ətraflı təsəvvürə malik olmaq üçün vacib və zəruridir ki, onun hüquq sistemində tutduğu yer müəyyənləşdirilsin və əlaqəli hüquqlardan fərqli cəhətləri aydınlaşdırılsın. Hüquq sisteminə daxil olan əsas hüquq sahələri ilə mülki hüquq arasında qarşılıqlı münasibətləri nəzərdən keçirmədən onun məna və mahiyyətinə aydınlıq gətirmək olmaz.

Milli hüquq sisteminə daxil olan bütün hüquq sahələri bir-biri ilə qarşılıqlı surətdə fəaliyyət göstərir. Onlar bir-birindən nizamasalma predmetinə və metoduna görə, müəyyən dərəcədə həyata keçirdikləri funksiyaya görə fərqlənir. Onları hüququn ümumi prinsipləri və dövlət quruluşu birləşdirir[1].

Azərbaycan Respublikasının daxili milli hüquq sisteminə aid olan sahələri, hüququn ümumi və xüsusi hüquqa bölünməsi konsepsiyasından fərqli olaraq, üç qrupa bölmək olar: dövlət hüquq qrupu; mülki hüquq qrupu; cinayət hüquq qrupu. **Dövlət hüquq qrupuna** konstitusiya, inzibati, maliyyə hüquq sahələri daxildir. **Mülki hüquq qrupu** özündə mülki, mülki proses, əmək kimi sahələri birləşdirir. **Cinayət hüquq qrupuna** cinayət, cinayət prosesi, kriminalistika, kriminologiya kimi sahələr aiddir.

Dövlət hüquq qrupunda **konstitusiya hüququ** mühüm yer tutur. O, milli hüquq sisteminin aparıcı sahəsidir. Konstitusiya hüququ ölkənin konstitusiya quruluşunun əsaslarını, vətəndaşların hüquqi vəziyyətini müəyyənləşdirən, dövlət quruluşunu, dövlət hakimiyyət və yerli özünüidarə sistemini möhkəmləndirən hüquq normalarının məcmusundan ibarətdir. Mülki hüquq konstitusiya hüququ ilə sıx surətdə bağlıdır. Mülki hüquq normalarının əsasını Konstitusiya normaları təşkil edir. Onun bir sıra maddələrində mülki hüquq üçün prinsipial əhəmiyyətə malik olan ümumi müddəalar ifadə olunmuşdur.

Konstitusiyanın mülkiyyət haqqında (13-cü maddə), azad sahibkarlığa təminat verilməsi, iqtisadi münasibətlərdə inhisarçılığın və haqsız rəqabətin qadağan edilməsi haqqında (15-ci maddənin 2-ci hissəsi), yaşamaq hüququ haqqında (27-ci maddə), mülkiyyət hüququ haqqında (30-cu maddə), təhlükə-

[1] bax: *Братусь С.Н.* Отрасль советского права: понятие, предмет и метод // Советское государство и право. 1979. № 11.

siz yaşamaq hüququ haqqında (31-ci maddə), şəxsi toxunulmazlıq hüququ haqqında (32-ci maddə), şərəf və ləyaqətin müdafiəsi hüququ haqqında (46-cı maddə) və digər məsələlər barəsində normalarının mülki hüquq üçün böyük rola malik olması heç kəsdə şübhə doğura bilməz.

Mülki hüquq da öz növbəsində Konstitusiyada təsbit olunan hüquq və azadlıqları konkretləşdirir. O, Konstitusiyada möhkəmləndirilən mülkiyyət münasibətlərini, müxtəlif obyektlərin hüquqi rejimini qaydaya salır. Konstitusiya hüququnun başlıca və mərkəzi subyekti olan dövlət tez-tez mülki hüquq münasibətlərində çıxış edir. Biz, onun mülkiyyət, öhdəlik, vərəsəlik və digər hüquq münasibətlərdə iştirak etməsinin şahidi oluruq. Bax, həmin münasibətlər mülki hüquq normaları ilə tənzimlənir.

Mülki hüquq **cinayət hüquq qrupu ilə, xüsusən də cinayət hüququ sahəsi ilə sıx surətdə bağlıdır.** Cinayət hüququnun əsas funksiyası qoruyucu (mühafizəedici) funksiyadır. O, həm də mülki hüquq münasibətlərini qoruyur. Mülki hüquq kimi cinayət hüququ da hüquq pozuntusu törədilməsinin qarşısını almaq məqsədi daşıyır. Mülki hüquq da qoruyucu funksiyanı həyata keçirir. Törədilmiş cinayət nəticəsində əmlak zərəri vurulduqda mülki hüquq tətbiq edilir. Bu halda vurulmuş zərərin əvəzi mülki hüquq normaları əsasında ödənilir. Cinayət hüququnda olduğu kimi mülki hüquqda da son zərurət və zəruri müdafiə vəziyyətində edilən hərəkətlər hüquqi məsuliyyəti aradan qaldırır, istisna edir.

Mülki hüququn **cinayət prosesi ilə** də müəyyən əlaqəsi vardır. Belə ki, cinayət prosesinin iştirakçıları (subyektləri) — təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları qanunsuz hərəkətlərə yol verə bilərlər. Məsələn, məhkəmə qanunsuz hökm çıxarır və ya müstəntiq qanunsuz olaraq cinayət məsuliyyətinə cəlb etmə barədə qərar qəbul edir və ya təhqiqat orqanı qətimkan tədbiri kimi həbsəalmanı qanunsuz tətbiq edir və s. Bu cür qanunsuz aktların nəticəsində fiziki şəxslərə zərər vurulur. Vurulmuş həmin zərərə görə mülki hüquq məsuliyyəti nəzərdə tutulur (MM-in 1101-ci maddəsi). Belə ki, zərərin əvəzini dövlət (Azərbaycan Respublikası) tam həcmdə ödəyir.

Mülki hüququn **mülki proseslə** sıx münasibəti və əlaqəsi vardır. Onlar arasındakı münasibət forma ilə məzmun kimi kateqoriyalar arasındakı əlaqənin eynidir. Belə ki, əgər mülki hüquq məzmundursa, mülki proses formadır. Mülki proses mülki hüququn mövcud olma formasıdır. Mülki hüquq maddi hüquqdursa, mülki proses prosessual hüquqdur. Mülki prosesin predmetinin əsasını mülki hüquq münasibətlərindən yaranan mübahisələrə məhkəmədə baxılması təşkil edir.

Mülki hüquq əlaqəli hüquqlar adlı hüquq qrupu ilə də bağlıdır. **Əlaqəli hüquqlar** dedikdə, hüquq sistemində bir-birinə yaxın və bağlı olan müstəqil hüquq sahələri başa düşülür. Onlara aid edilir:

- maliyyə hüququ;
- inzibati hüquq;
- əmək hüququ.

Mülki hüququ bu hüquq sahələri ilə bağlayan müəyyən cəhətlər vardır. Bu cəhətlər onları bir-biri ilə əlaqələndirir. Bununla bərabər, həmin sahələri bir-birindən fərqləndirən əlamətlər də vardır. Bu əlamətlər göstərilən sahələri bir-birindən ayırmağa imkan verir.

2. Mülki hüquq və maliyyə hüququ

Mülki hüququn yaxın olduğu sahələrdən biri maliyyə hüququ sayılır. Müstəqil hüquq sahəsi kimi maliyyə hüququnun hüquq sistemində tutduğu yer bir müddət mübahisə predmetinə çevrilmişdi. Bu barədə iki konsepsiya yaranmışdı. Birinci konsepsiya tərəfdarları belə hesab edirdilər ki, maliyyə hüququ hüququn müstəqil sahəsi olub, dövlət və inzibati hüquq sahələrindən ayrılmışdır[1]. İkinci konsepsiya tərəfdarlarının mövqeyinə görə, maliyyə hüququ müstəqil hüquq sahəsi olub, hər hansı hüquq sahəsindən ayrılmamışdır. O, müstəqil hüquq sahəsi kimi yaranmışdır[2]. Bizim fikrimizcə, ikinci konsepsiya tərəfdarlarının mövqeyi həqiqətə daha yaxındır. Belə ki, dövlət hakimiyyətinin saxlanması və fəaliyyət göstərməsi üçün vergi, dövlət gəliri, dövlət xərci və xəzinə (büdcə) kimi maliyyə institutları dövlət yarandığı andan mühüm rol oynamışdır. Xəzinə (büdcə) və vergi münasibətləri dövlətin maliyyə fəaliyyətində böyük əhəmiyyətə malikdir. Göstərilən və digər münasibətləri hüquqla tənzimləmək zərurəti maliyyə hüququnun müstəqil hüquq sahəsi kimi əmələ gəlməsinə dəlalət etmişdir. XX əsrin 60-cı illərinin axırlarında — 70-ci illərin əvvəllərində müstəqil hüquq sahəsi kimi maliyyə hüququ rəsmən tanınmışdır.

Maliyyə hüququ dedikdə, dövlətin maliyyə fəaliyyəti prosesində əmələ gələn münasibətləri tənzim edən hüquq normalarının məcmusu başa düşülür[3]. Dövlətin maliyyə fəaliyyəti isə dövlət üçün lazım olan pul vəsaiti fondlarının əmələ gəlməsi, bölüşdürülməsi və bu fondlardan istifadə edilməsi üzrə fəaliyyətdir. Deməli, söylədiklərimizdən belə təsəvvür yaranır ki, maliyyə hüququnun predmetini dövlət pul fondlarının yaranması, bölüşdürülməsi və onlardan istifadə olunması prosesində əmələ gələn münasibətlər təşkil edir. Öz maddi məzmununa görə bu münasibətlər müxtəlif növlərdə ola bilər: büdcə münasibətləri; vergi münasibətləri; pul dövriyyə münasibətləri; dövlət xərci üzrə münasibətlər və s. Həmin münasibətlərin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, bu münasibətlər həmişə və bütün hallarda pul vəsaiti barəsində yaranır[4].

---

[1] bax: *Халфина Р.О.* Вопросы советского административного и финансового права. М., 1952, с. 194-195; *Иванов Б.Н.* О системе советского финансового права // Труды ВЮЗИ. Том 9. 1967, с. 40-41; *Пискотин М.И.* Советское бюджетное право. М.,1971, с. 49; *Цыпкин С.Д.* Доходы государственного бюджета СССР. М., 1973, с.14-15.

[2] bax: *Ровинский Е.А.* Основные вопросы теории советского финансового права. М., 1960, с. 64; *Гурвич М.А.* Советское финансовое право. М., 1954, с.36; *Вильнянский С.И.* К вопросу о системе советского права // Советское государство и право. 1957. №1. с.107; Основы теории государства и права. М., 1963, с. 494; *Химичева Н.И.* Субъекты бюджетного права. Саратов 1978; *Бесчеревных В.В.* Компетенция СССР в области бюджета. М., 1976, с. 30.

[3] bax: Финансовое право. Учебник / Под ред. *О.Н.Горбунова*. М., 1996, с. 28.

[4] Büdcə münasibətləri dövlət və yerli (bələdiyyə) pul fondlarının yaranması, bölgüsü və istifadəsi ilə bağlı olaraq yaranır. Bu münasibətlər maliyyə hüququnun ən böyük institutu olan büdcə hüququ ilə tənzimlənir. Vergi münasibətləri vergilərin, rüsumların, yığımların və digər məcburi ödənişlərin müəyyən edilməsi və alınması prosesində əmələ gəlir. Bu münasibətlər isə maliyyə hüququnun digər vacib institutu olan vergi hüququ ilə tənzimlənir (bax: *Химичева Н.И.* Налоговое право. М., 1997).

Bu cür pul münasibətləri, şübhəsiz ki, əmlak münasibətləridir[1]. Deməli, **maliyyə hüququnun predmetini əmlak (pul) xarakterli münasibətlər təşkil edir**. Bax, bu cəhət maliyyə hüququ ilə mülki hüququ bir-birinə yaxınlaşdırır, onların əlaqəli hüquq sahələri olmasına dəlalət edir. Axı, ictimai həyatdakı əmlak münasibətlərini mülki hüquq da nizama salır. Onda, təbii ki, belə bir sual meydana gəlir: maliyyə hüququ ilə tənzimlənən əmlak münasibətlərini mülki hüquqla nizama salınan əmlak münasibətlərindən necə ayırmaq və fərqləndirmək olar? Müvafiq əmlak münasibətinə mülki hüquq normalarının və ya maliyyə hüquq normaların tətbiq edilməsini necə təyin etmək və müəyyənləşdirmək olar? Məsələn, vətəndaş öz qonşusuna faizi ilə (sələmi ilə) borc pul verir. Bu, pul barəsində əmələ gələn əmlak münasibətidir. İkinci halda müəssisədə işləyən həmin vətəndaş aylıq əmək haqqından dövlət büdcəsinə gəlir vergisi ödəyir. Bu da pul ilə bağlı yaranan əmlak münasibətidir. Bu iki növ əmlak münasibətinə hansı hüquq sahəsinin normalarının tətbiq edilməsini müəyyənləşdirməyin çox mühüm praktiki əhəmiyyəti vardır. Hüququn müxtəlif sahələri (mülki, maliyyə, inzibati və s.) ilə tənzimlənən əmlak münasibətlərinin bir-birinə oxşaması real ictimai həyatdakı bu və ya digər faktiki münasibətin əsl hüquqi təbiətini aydınlaşdırmağa imkan vermir, onu çətinləşdirir. Bu isə bir sıra hallarda qanun pozuntusuna səbəb olur. Ona görə də oxşar əmlak münasibətlərinin hansı hüquq sahəsinin predmetinə aid olması məsələsini dəqiq olaraq müəyyənləşdirməyin çox mühüm praktiki əhəmiyyəti vardır.

Üç başlıca xüsusiyyət və cəhət göstərilən iki növ əmlak münasibətini fərqləndirməyə və ayırmağa imkan verir. **Birincisi, mülki hüquqla tənzimlənən əmlak münasibətləri dəyər xarakterli olub, əvəzlilik-ekvivalentlik kimi** prinsipə əsaslanır. Bu hüquqla nizama salınan münasibətlər, əvvəllərdə qeyd etdiyimiz kimi, əmtəə-pul münasibətləridir. Yuxarıdakı misalda vətəndaş verdiyi borca görə qonşudan əvəz-ekvivalent kimi faiz (sələm) alır. Bundan fərqli olaraq, **maliyyə hüququ ilə tənzimlənən əmlak münasibətləri dəyər xarakterindən məhrum olub, əvəzlilik-ekvivalentlik kimi prinsip üzərində qurulmur**. Bundan öncə çəkdiyimiz misalda vətəndaş dövlət büdcəsinə gəlir vergisini heç bir əvəz (ekvivalent) almadan ödəyir. Onun pul ödəməsinin dəyəri yoxdur. **Burada pul dəyər ölçüsü kimi yox, yığım vasitəsi kimi özünü göstərir**. O, ümumi ekvivalent rolunu yerinə yetirmir. Baxmayaraq ki, pulun yığılması ilə bağlı olaraq əmələ gələn ictimai münasibət əmlak xarakterlidir, bu münasibət dəyər əlamətindən məhrumdur.

İkincisi, əvvəllər də qeyd etdiyimiz kimi, mülki hüquqla tənzimlənən əmlak münasibətlərində çıxış edən tərəflər (məsələn, yuxarıdakı misalda vətəndaş — qonşu) **bərabər hüquqlu olub, bir-birindən asılı deyillər**. Bundan fərqli olaraq, maliyyə hüququ ilə qaydaya salınan əmlak münasibətlərində iştirak edən tərəflər isə bərabər hüquqlara malik olmayıb, **bir-birilə hakimiyyət-tabeçilik münasibətləri ilə bağlı olurlar**. Bu münasibətlərin ən spesifik cəhətlərindən biri ondan ibarətdir ki, həmin münasibətlərin bir tərəfində subyekt rolunda həmişə dövlət (daha doğrusu, dövlət adından onun səlahiyyətli maliyyə, kredit və s. orqanları) çıxış edir. Dövlət hakimiyyət funksiyasını həyata keçirən tərəf kimi o biri tərəflə bərabər hüquqlara malik deyil. Bu, hakimiyyət-tabeçilik münasibətləridir. Həmin münasibətlər hakimiyyət xarakterlidir. Yuxarıdakı misalda vergi ödəyən vətəndaşla dövlət bərabər hüquqlara malik deyil. Söylədiklərimizdən belə çıxır ki, maliyyə hüququ ilə tənzimlənən münasibətlər **əmlak-dəyər yox, əmlak-hakimiyyət münasibətləridir**[1].

Üçüncüsü, mülki hüquqla tənzimlənən **əmlak münasibətləri dövlətin maliyyə fəaliyyətindən əmələ gəlmir**. Bu münasibətlər dövlət fondları yaratmaq məqsədi daşımır. Maliyyə hüququ ilə rəsmiləşdirilən əmlak münasibətləri isə **dövlətin maliyyə fəaliyyətindən əmələ gəlir** və pul fondları yaratmaq məqsədi güdür. Bu cür fəaliyyət pula və pul dövriyyəsinə əsaslanır.

Maliyyə hüququ ümumi hüquqa aiddir[2]. Onun əsas funksiyası pul vəsaitlərini yığmaqdan və toplamaqdan, bu vəsaiti normativ akt əsasında dövlətin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə yönəltməkdən ibarətdir. Əmlak münasibətlərini maliyyə hüququ ilə tənzim etmənin əsas aspekti bu funksiya ilə bağlıdır. Ona görə də qanun müəyyən edir ki, mülki qanunvericilik vergi və maliyyə münasibətlərinə tətbiq edilmir (MM-in 2-ci maddəsinin 5-ci bəndi).

Bununla bərabər, qeyd etmək lazımdır ki, mülkiyyətçilərə iqtisadi (maliyyə) xarakterli sanksiyalar tətbiq edilə bilər. Məsələn, mülkiyyətçi (fiziki və ya hüquqi şəxs) özünün dövlət qarşısında hər hansı öhdəliyini icra etmir. Vergi müfəttişləri və digər nəzarət orqanlarının qərarı ilə onun bank hesabındakı pul vəsaiti mübahisəsiz qaydada büdcəyə silinir. Bu münasibətlər, söz yox ki, maliyyə hüquq normaları ilə tənzimlənir. Həmin pul vəsaiti ola bilər ki, qanunvericiliyin tələbləri pozulmaqla silinsin. Belə halda şəxsin ixtiyarı var ki, büdcədən pul vəsaitinin qaytarılması barədə iddia versin. Bu cür iddianın verilməsi mülki-hüquqi müdafiə üsulundan istifadə olunmasını nümayiş etdirir. Həmin iddiaya məhkəmədə baxılır[3].

Maliyyə hüququnun subyekti (məsələn, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və s.) vergi ödənilməsi barədə qanunvericiliyə uyğun gəlməyən, mülkiyyətçinin hüquqlarını pozmaqla qeyri-normativ xarakterli akt verə bilər. Bu halda həmin akt məhkəmə tərəfindən etibarsız sayıla bilər. Maliyyə və ya vergi orqanının qeyri-normativ aktı qəbul etməsi nəticəsində mülkiyyətçiyə vurulan zərərin əvəzi ödənilir. Bu münasibət isə maliyyə hüququ ilə yox, mülki hüquqla qaydaya salınır. Belə ki, vurulmuş zərərin əvəzini Azərbaycan Respublikası (dövlət) ödəyir (MM-in 19-cu və 22-ci maddələri).

Beləliklə, göstərdiyimiz hallar onun sübut edir ki, real ictimai həyatda yaranan əmlak münasibətləri həm maliyyə hüququ tərəfindən, həm də mülki hüquq tərəfindən qaydaya salınır və tənzimlənir. Amma onlardan hər biri bu münasibətləri həyata keçirdikləri funksiyaya uyğun olaraq tənzim edir.

---

[1] bax: Советское финансовое право. Учебник. М., 1987; Финансовое право. Учебник /Под ред. *О.Н.Горбуновой*. М., 1996, с. 43; Общая теория права и государства. Учебник /Под ред. *В.В.Лазарева*. М., 2001, с. 220.

[1] bax: Финансовое право. Учебник / Под ред. *О.Н.Горбуновой*. М., 1996, с.43.

[2] bax: *Годме Поль Мари*. Финансовое право. М., 1978, с. 38.

[3] bax: Постановление Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ от 18 августа 1992 г. «О некоторых вопросах подведомственности дел судам и арбитражным судам» (ВВАС РФ. 1993. №12).

3. Mülki hüquq və inzibati hüquq

Mülki hüquqa yaxın olan müstəqil hüquq sahələrindən biri inzibati hüquqdur. İnzibati hüquq dedikdə, dövlət icra hakimiyyət orqanlarının fəaliyyəti və təşkili prosesində əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu hüquq sahəsi ilə tənzimlənən ictimai münasibətlərin dairəsi kifayət qədər genişdir. Onların dairəsini müəyyənləşdirmək çətin məsələdir[1].

Mülki hüquqla inzibati hüququ bir-birinə yaxınlaşdıran əsas cəhət ondan ibarətdir ki, həm mülki hüquq, həm də inzibati hüquq əmlak münasibətlərini tənzimləyə bilər. Məsələn, sürücü yol hərəkəti qaydalarını pozur. Dövlət yol polisi tərəfindən o, inzibati cərimə ödəyir. Belə halda pulun ödənilməsi ilə bağlı olaraq əmlak münasibəti yaranır. Bu münasibət dövlət icra hakimiyyət orqanının fəaliyyəti prosesində əmələ gəlir və inzibati hüquqla tənzimlənir. Başqa bir misalda təhsil sahəsində mərkəzi icra hakimiyyət orqanı olan Təhsil Nazirliyi Azərbaycan Dövlət İqtisad Universitetinə onun maddi-texniki bazasını gücləndirmək məqsədi ilə tədris avadanlıqları və predmetləri, çoxsaylı kitab nüsxələri verir. Başqa bir misalda iqtisadiyyat sahəsində mərkəzi icra hakimiyyət orqanı olan İqtisadi İnkişaf Nazirliyi öz tabeçiliyində olan sənaye müəssisəsinə müxtəlif istehsal dəzgahları, avadanlıqlar, cihazlar və s. verir. Göstərilən hallarda da əmlak münasibətləri əmələ gəlir. Daha başqa bir misalda istehsal müəssisəsi ilə bu müəssisənin tabe olduğu nazirlik arasında onun hazırladığı məhsulların satılması və bölgüsü üzrə əmlak münasibəti yaranır. Bu cür əmlak münasibətləri inzibati hüquqla tənzimlənir. Belə təsəvvür yaranır ki, inzibati hüquqla tənzimlənən həmin münasibətlər əmlak xarakterli olub, təşkilati münasibətlərdir. Onlar **idarəçilik sahəsində əmələ gəlir. Bu münasibətlərə əmlak-təşkilati münasibətlər** deyilir[2]. Mülki hüquqla tənzimlənən əmlak münasibətləri isə bundan fərqli olaraq, **əmlak-dəyər münasibətləridir**. Bu, inzibati hüquqla nizama salınan əmlak münasibətlərini mülki hüquqla rəsmiləşdirilən əmlak münasibətlərindən fərqləndirməyə imkan verən **birinci əlamətdir**.

Həmin münasibətləri bir-birindən ayırmağa imkan verən **ikinci əlamət** bu münasibətlərdə iştirak edən **tərəflərin hüquqi vəziyyəti (statusu)** ilə bağlıdır. Belə ki, inzibati hüquqla nizama salınan münasibətlərin bir tərəfində hökmən və mütləq **hakimiyyət-dövlət səlahiyyətləri ilə təmin olunan icra hakimiyyət orqanları (və ya vəzifəli şəxslər)** çıxış edirlər. Həmin orqanlar dövlətin təsərrüfat-təşkilat funksiyasını yerinə yetirir, onun icra-sərəncamvermə fəaliyyətini həyata keçirir. Məsələn, yuxarıdakı misalda İqtisadi İnkişaf Nazirliyinin öz tabeçiliyində olan müəssisəyə zəruri əmlak (avadanlıq, cihaz, dəzgah və s.) verməsi onu ifadə edir ki, o, təsərrüfat-təşkilat funksiyasını icra edir. Dediklərimizdən belə təsəvvür yaranır ki, inzibati hüquqla rəsmiləşdirilən əmlak münasibətləri bir tərəfin digər tərəfin inzibati və digər hakimiyyət tabeliyinə

[1] bax: Советское административное право. М., 1990; *Bəxrəx D.N.* Административное право. М., 1996; *Abdullayev E.* İnzibati hüquq. Dərslik. Bakı.

[2] bax: Гражданское право. Учебник. Часть 1/Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 25.

əsaslanır. Bu, hakimiyyət-tabeçilik, subordinasiya münasibətləridir. Başqa sözlə desək, inzibati hüquq hakimiyyət-tabeçilik əsasında təsərrüfat sahəsində idarəçilik münasibətlərini tənzimləyir. Ona görə də bu münasibətlər **şaquli xətt üzrə qurulur**. Mülki hüquq isə təsərrüfat sahəsində əmlak münasibətlərini tərəflərin hüquq bərabərliyi, iradə azadlığı və əmlak müstəqilliyi əsasında nizama salır. Ona görə bu münasibətlər **üfüqi xətt üzrə** qurulur[1].

Həmin münasibətləri bir-birindən fərqləndirməyə dəlalət edən **üçüncü əlamət** bu münasibətlərin **əvəzli-ekvivalentli** olub-olmamasındadır. Mülki hüququn tənzim etdiyi əmlak münasibətləri dəyər xarakterinə malik olduğu üçün onlar, bir qayda olaraq, əvəzli-ekvivalentli münasibətlərdir. İnzibati hüquqla tənzimlənən əmlak-təşkilati münasibətlər isə öz mahiyyətinə görə **əvəzsiz münasibətlərdir**. Belə ki, bu münasibətlərdə tərəf rolunda çıxış edən inzibati hüquq subyekti icra-sərəncamvermə və təşkilati-təsərrüfat fəaliyyətini həyata keçirərkən hər hansı bir əvəz almır. Məsələn, bundan öncə çəkdiyimiz misalda İqtisadi İnkişaf Nazirliyinin müəssisəyə verdiyi avadanlıqların, dəzgahların əvəzində pul ödənilmir. Amma həmin nazirlik öz binasını tikinti firmasına təmir etdirdikdə (bu halda podrat münasibətləri əmələ gəlir) və ya başqa nazirliyə tabe olan bazadan avadanlıqlar aldıqda (bu halda alqı-satqı münasibətləri) əmələ gələn münasibətlər əvəzli olur. Ona görə də bu münasibətlər inzibati hüququn yox, mülki hüququn nizamasalma predmetinə daxildir.

Həmin münasibətləri bir-birindən fərqləndirməyə imkan verən **dördüncü əlamət hüquqi məsuliyyətin həyata keçirdiyi funksiyadan** ibarətdir. Mülki hüquq məsuliyyəti üçün əsas və başlıca funksiya kimi **kompensasiya etmə və bərpa etmə funksiyaları** xarakterikdir. Bu funksiyalar nəticəsində zərərçəkən üçün əmələ gələn mənfi nəticələr hüquq pozuntusu törədənin hesabına **kompensasiya olunur** (zərərin əvəzi ödənilir) və ya hüquq pozuntusu törədilənə kimi mövcud olan əvvəlki vəziyyət **bərpa edilir**. İnzibati hüquq məsuliyyəti üçün **cərimə funksiyası** xarakterikdir. Bu funksiya nəticəsində inzibati hüquq pozuntusuna (inzibati xətaya) yol verən şəxsdən cərimə alınır.

Mülki hüquqla inzibati hüquq bir-biri ilə qarşılıqlı əlaqədə olan hüquq sahələridir. Bu, onda ifadə olunur ki, bəzi inzibati aktlar mülki hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması kimi çıxış edir. Məsələn, kəndli (fermer) təsərrüfatının mülkiyyətində olan torpaq sahəsindən neft fontan vurur. İqtisadi İnkişaf Nazirliyi həmin torpaq sahələrinin məcburi olaraq alınması barədə akt qəbul edir. Bu akt əsasında kəndli (fermer) təsərrüfatının torpaq üzərində mülkiyyət hüququ ləğv edilir. Başqa bir misalda rayon icra hakimiyyəti orqanlarının qərarı ilə vətəndaşa dövlət fondundan mənzil verilir. Bu akt əsasında kirayə münasibətləri (mülki hüquqla tənzimlənən münasibətlərin bir növü) əmələ gəlir.

Mülki hüquq üçün lisenziyalaşdırma institutu böyük əhəmiyyətə malikdir. İnzibati hüququn institutu olan lisenziyalaşdırma **inzibati qaydada** həyata keçirilir. **Lisenziyalaşdırma** dedikdə, xüsusi razılıq (lisenziya) tələb olunan ayrı-ayrı fəaliyyət növlərinin həyat keçirilməsinə müvafiq dövlət icra hakimiyyəti or-

[1] bax: *Иоффе О.С.* Правовое регулирование хозяйственной деятельности в СССР // В книге: Гражданское право. Избранные труды. М., 2000, с. 697.

qanları tərəfindən icazə verilməsi başa düşülür. Həmin fəaliyyət növlərinin siyahısı prezidentin fərmanı ilə təsdiq olunmuşdur[1]. Burada həm də lisenziya (xüsusi razılıq) vermək səlahiyyəti olan dövlət hakimiyyət orqanlarının adı göstərilir. Məsələn, inşaat fəaliyyəti üçün Dövlət Tikinti və Arxitektura Komitəsi, ali təhsil üçün Təhsil Nazirliyi, bank fəaliyyəti üçün Milli Bank, sığorta fəaliyyəti üçün Maliyyə Nazirliyi və s. lisenziya verir. Hər bir fəaliyyət növü üzrə lisenziyanın verilməsi Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş Qaydalar əsasında həyata keçirilirdi[2]. Bu Qaydalar qüvvədən düşmüşdür. İndi lisenziya prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş vahid Qaydalar əsasında verilir[3]. Lisenziya aldıqdan sonra **təşkilat** hüquqi şəxs kimi mülki (əmlak) dövriyyədə çıxış edir. Hüquqi şəxslər mülki hüququn ən fəal subyektlərindən biridir. Hüquqi şəxs vacib və zəruri mülki hüquq institutudur. Məsələn, banklar kredit, faktoring, lizinq, bank hesabı və bank əmanəti kimi mülki-hüquqi müqavilələrdə tərəf rolunda çıxış edir. Bu cür mülki hüquq münasibətlərində yalnız o banklar iştirak edə bilər ki, onlar Milli Bankdan lisenziya alsın və hüquqi şəxs statusu əldə etsin. Lisenziya almaq isə bundan öncə qeyd etdiyimiz kimi, inzibati qaydada həyata keçirilir. Lisenziya (xüsusi razılıq) hüquqi şəxslərin fəaliyyət göstərmələri üçün əsasdır.

4. Mülki hüquq və əmək hüququ

Əmək hüququ mülki hüquqla əlaqəli və bağlı olan hüquq sahələrindəndir. Əmək hüququ dedikdə, müəssisələrdə, təşkilatlarda və idarələrdə əməyin tətbiqi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. İş prosesində işçi ilə işverən arasında əmək barəsində əmələ gələn münasibətlər əmək hüququnun predmetini təşkil edir. Bu hüquq sahəsi ilə əməyin təşkili forması, əmək haqqı, iş vaxtı, işə qəbul və işdən azad etmə, məzuniyyət, əmək müqaviləsinin bağlanması və digər məsələlər nizama salınır[4].

Əmək hüququ tarixən mülki hüquqdan ayrılmışdır. 1917-ci il Oktyabr inqilabına kimi əmək münasibətlərinin tənzimlənməsi ənənəvi olaraq xüsusi (mülki) hüquq sahəsinə aid edilirdi. Daha doğrusu, əmək münasibətləri xüsusi (mülki) hüquqla nizama salınırdı. Əmək müqaviləsinə sadəcə olaraq əmlak xarakterli

[1] bax: Azərbaycan Respublikası prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 saylı fərmanı ilə təsdiq edilmiş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri və onları verən icra hakimiyyəti orqanlarının siyahısı»na (AR QK, V cild, s. 23-28). Bu siyahı öz qüvvəsini itirmişdir. Prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə yeni siyahı təsdiq olunmuşdur (3 sentyabr 2002-ci il tarixli «Respublika» qəzeti).

[2] Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş bu Qaydaların sayı 60-a yaxın idi. Onlarla ətraflı tanış olmaq üçün bax: Sahibkarlıq fəaliyyəti haqqında normativ aktların toplusu. Bakı. 1998.

[3] «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar» (3 sentyabr 2002-ci il tarixli «Respublika» qəzeti).

[4] Əmək hüququnun predmeti barədə bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 408; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 222; *İsmayılov İ., Rəsulov M., Qasımov A.* Əmək hüququ. Darslik. Bakı. 1996, s. 11-17; Трудовое право России. Учебник / Под ред. *А.С.Пашкова*. СПб. 1994, с.10-12; Трудовое право Российской Федерации. СПб. 1993; *Сыроватская Л.А.* Трудовое право. Учебник. М., 1995.

əqd kimi baxırdılar. Oktyabr inqilabından sonra bu münasibətlərin tənzimlənməsi xüsusi (mülki) hüquqdan ayrıldı. 1918-ci ilin ikinci yarısında dərhal Əmək Qanunları Məcəlləsi qəbul edildi. Yeni şəraitdə əmək müqaviləsi əmlak xarakterli əqd hesab edilmədi. Əmək hüququnun həyata keçirilməsi ilə bağlı olaraq əmələ gələn əmlak münasibətləri — əmək haqqı verilməsi, məzuniyyətlərin ödənişi, sanatoriyalardan və istirahət evlərindən istifadə olunması və digər münasibətlər mülki hüququn predmetindən ayrılıb, yeni müstəqil hüquq sahəsi olan əmək hüququnun predmetinə daxil edildi. Bundan əlavə, sovet dövründə əmək və iş qüvvəsi əmtəə kimi tanınmadı və qəbul edilmədi. Əmək və iş qüvvəsi ilə bağlı əmələ gələn münasibətlər öz dəyər xarakterini itirdi. Buna görə həmin münasibətləri xüsusi müstəqil hüquq sahəsi ilə — əmək hüququ ilə tənzimləmək zərurətə çevrildi. Axı, mülki hüquq dəyər xarakterinə malik olmayan əmlak münasibətlərini nizama salmaq iqtidarında və imkanında deyildi. Bu hal həmin münasibətləri tənzimləmək üçün yeni sahənin — əmək hüququnun ayrılmasını şərtləndirdi.

Əmək hüququ ilə mülki hüquq bir-biri ilə sıx surətdə bağlı və əlaqədardır. Bu bağlılıq onunla izah olunur ki, əməyin tətbiqi və təşkili üzrə yaranan münasibətlərin bir qismi mülki hüquqla, digər qismi isə əmək hüququ ilə qaydaya salınır[1]. Həmin münasibətləri qaydaya salmaq üçün hər iki hüquq sahəsi **əmeklə bağlı olan müqavilə konstruksiyasından** istifadə edir. Mülki hüquqda podrat müqaviləsi institutu, əmək hüququnda isə əmək müqaviləsi institutu böyük rol oynayır.

Bununla belə, həmin institutlar bir-birindən fərqli cəhətlərə malikdir. **Birinci fərqli cəhət** ondan ibarətdir ki, əmək müqaviləsinin predmeti kimi **işçinin canlı əməyi və əmək prosesi** çıxış edir. Bu müqavilə əməyin nəticəsinin verilməsini nəzərdə tutmur. Podrat müqaviləsinin predmetini isə **əməyin maddiləşmiş (əşya forması almış) müəyyən son nəticəsi** təşkil edir. Məsələn, vətəndaş öz mənzilini təmir etmək üçün tikinti təşkilatı (podratçı) ilə podrat müqaviləsi bağlayır. Bu müqavilənin predmeti təmir olunmuş mənzildən (təmirin nəticəsindən) ibarətdir. Başqa bir misalda şəhər sakini qaraj tikdirmək üçün tikinti təşkilatı ilə podrat müqaviləsi bağlayır. Belə halda müqavilənin predmeti kimi tikilmiş qaraj çıxış edir. Özü də əmək müqaviləsindən fərqli olaraq podrat müqaviləsi əməyin (işin) nəticəsinin verilməsini nəzərdə tutur. Məsələn, yuxarıdakı misalda tikinti təşkilatı (podratçı) tikilmiş qarajı, təmir olunmuş mənzili sifarişçiyə (şəhər sakininə, vətəndaşa) verir.

İkinci fərqli cəhət ondan ibarətdir ki, əmək müqaviləsi əsasında işləyən işçi əmək münasibətlərində müdiriyyətə (işəgötürənə) tabedir. O, işlədiyi müəssisənin əmək kollektivinin bir üzvünə çevrilir. İşçi öz əmək fəaliyyətini müəssisədə müəyyən edilmiş **daxili əmək nizam qaydalarına tabe olmaqla həyata keçirir.** Onun borcudur ki, əmək normasını yerinə yetirsin. İşçinin vəzifəsidir ki, müəssisənin **iş rejiminə əməl etsin**. Bu vəzifənin pozulmasına görə o, əmək hüquq normaları ilə nəzərdə tutulmuş qaydada intizam məsuliy-

[1] Əməyin tətbiqi və təşkili üzrə yaranan münasibətlər çoxcəhətli anlayış olub, kompleks (mürəkkəb) xarakterə malikdir. Bu münasibətlərin hamısı təkcə əmək hüququ ilə tənzimlənmir. Mülki hüquq, konstitusiya hüququ, inzibati hüquq, sosial təminat hüququ həmin münasibətlərin qaydaya salınmasında yaxından iştirak edir.

yətinə cəlb oluna bilər. Podrat müqaviləsi əsasında işləyən şəxs (podratçı) isə **müqavilədə tərəf qismində iştirak edən sifarişçiyə tabe olmayıb, ondan asılı deyildir.** O, müəssisənin əmək kollektivinin üzvü hesab edilmir, daxili əmək nizam qaydalarına tabe olmur. Müəssisənin iş rejiminə əməl etmək, əmək normasını yerinə yetirmək podratçının borcu deyildir. O, özünün xüsusi qaydaları üzrə işləyir. O, işi özü təşkil edir. Podratçı təşkilati müstəqilliyə malikdir. İşçinin əməyini təşkil etmək vəzifəsi isə müdiriyyətə həvalə olunur. Məsələn, müəssisə bərpa-təmir işləri ilə məşğul olan vətəndaşla (podratçı ilə) podrat müqaviləsi bağlayır. Söz yox ki, podratçı həmin müəssisənin əmək kollektivinə aid edilmir və onun iş rejiminə tabe olmur. Podrat müqaviləsi əsasında işləyən şəxs (podratçı) bu müqaviləni bağlayan tərəflə hüquq bərabərliyinə malikdir. Əmək müqaviləsi əsasında işləyən işçi qarşı tərəflə — işə götürənlə müqavilə bağlanan anda bərabərliyə malik olsa da, onun müəyyən etdiyi daxili əmək nizam qaydalarına tabedir. Məsələn, bənna ev tikməklə məşğul olan tikinti idarəsinə işə girir. Bu halda o, həmin təşkilatla əmək müqaviləsi bağlayır. Həmin bənna bağ evi tikmək barədə vətəndaşla podrat müqaviləsi bağlayır. Bu halda həmin münasibətlər mülki hüquqla tənzimlənir.

Üçüncü fərqli cəhət ondan ibarətdir ki, əmək müqaviləsi əsasında işləyən şəxs, yəni işçi rolunda **yalnız fiziki şəxslər** (Azərbaycan Respublikasının vətəndaşları, xarici ölkə vətəndaşları, yəni əcnəbilər və vətəndaşlığı olmayan şəxslər) çıxış edə bilərlər. Podrat müqaviləsi əsasında işəyən şəxs, yəni podratçı qısmində isə **həm fiziki şəxslər, həm də hüquqi şəxslər** (müəssisələr, firmalar, təşkilatlar və s.) iştirak edə bilərlər.

Dördüncü fərqli cəhət ondan ibarətdir ki, əmək müqaviləsi əsasında işləyən işçinin əməyinin bazasını təşkil edən əmlak işə götürənə (müəssisəyə) məxsusdur. O, əmək predmetinin (nəticəsinin) — əmlakın təsadüfən məhv olması və ya zədələnməsi risqinə görə, bir qayda olaraq, məsuliyyət daşımır. Podrat müqaviləsi əsasında işləyən şəxsə gəldikdə isə göstərmək lazımdır ki, o, tapşırılmış işi həm özünün əmlakından (materiallarından), həm də sifarişçinin verdiyi materiallardan istifadə etməklə görə bilər. Görülmüş işin nəticəsinin təsadüfən məhv olması və ya zədələnməsi risqi həmin nəticənin sifarişçiyə verildiyi vaxtadək podratçının üzərinə düşür (MM-in 772-ci maddəsinin 1-ci bəndi). Podratçıya haqq, işin nəticəsinə görə ödənilir. Əmək müqaviləsi üzrə işləyən işçinin aldığı aylıq əmək haqqı, bir qayda olaraq, işin nəticəsindən asılı olmur. Əmək haqqının miqdarı sərf olunan canlı əməklə ölçülür[1].

Beşinci fərqli cəhət ondan ibarətdir ki, əmək müqaviləsi üzrə işləyən işçi ona həvalə olunmuş işi (əmək vəzifəsini) şəxsən özü icra edir. Əmək müqaviləsində nəzərdə tutulmuş və şərtləşdirilmiş işi o, şəxsən yerinə yetirməlidir. Podrat müqaviləsi üzrə işləyən podratçı isə işi şəxsən yalnız o halda yerinə yetirməyə borcludur ki, bu, müqavilədə nəzərdə tutulsun, yaxud konkret hallardan irəli gəlsin və yaxud da işin xarakterindən irəli gəlsin (MM-in 755-ci maddəsi). Bununla belə, o, işin görülməsini başqa şəxslərə də tapşıra bilər. Məsələn, sifariş edilmiş iş mürəkkəb olduqda, podratçının ixtiyar var ki, işin yerinə yetirilməsinə digər podratçıları da cəlb etsin. Bu halda onlar arasında subpodrat müqaviləsi bağlanır. XIX əsrin axırlarında rus müəlliflərindən D.Meyer haqlı olaraq göstərirdi ki, podrat müqaviləsi üzrə podratçı işi şəxsən özü görməyə borclu deyildir. O, sifariş edilmiş işi başqalarının vasitəsi ilə də görə bilər[2].

Əmək müqaviləsi mülki-hüquqi müqavilələrin bir növü olan tapşırıq müqaviləsi ilə həm oxşar, həm də fərqli cəhətlərə malikdir. Tapşırıq müqaviləsi Roma hüququ dövründən fidusiar əqd (şəxsi-etibar xarakterli) növünə şamil edilir. Bu müqavilə üzrə vəkalət olan tərəf, bəzi istisnalarla, tapşırığı şəxsən özü icra etməlidir (MM-in 780-ci maddəsinin 1-ci bəndi). Bundan öncə qeyd etdiyimiz kimi, əmək müqaviləsi də şəxsi xarakter daşıyır. Belə ki, bu müqavilədə nəzərdə tutulan və işçiyə həvalə edilən işi şəxsən o, özü yerinə yetirməlidir.

Əmək müqaviləsi ilə tapşırıq müqaviləsi arasındakı fərqlər də vardır. Əmək müqaviləsindən irəli gələn hüquq münasibətləri, bir qayda olaraq, uzanan, davam edən münasibətlərdir. Tapşırıq müqaviləsindən əmələ gələn münasibətlər isə bu xüsusiyyətdən məhrumdur[2].

Əmək müqavilələri ilə müəlliflik müqavilələri arasında sıx qarşılıqlı əlaqə vardır. Müəlliflik müqaviləsi mülki-hüquqi müqavilənin xüsusi növüdür[3]. Xüsusən müəlliflik müqaviləsinin bədii sifariş adlı müqavilə növü əmək müqaviləsinə yaxındır. Məsələn, bədii sifariş müqaviləsinə əsasən, heykəltəraş (müəllif) tanınmış şairin heykəlini ucaldır. Başqa bir misalda rəssam sifarişçinin şəklini çəkir. Yaradılan heykəl də, çəkilən şəkil (portret) də yaradıcı fəaliyyətin və əqli əməyin maddiləşmiş (əşya forması alan) nəticəsidir. Onlar əsərin ifadə edildiyi maddi obyektdirlər[4]. Əmək müqaviləsinin predmetinin isə maddiləşmiş nəticəsi yoxdur[5].

Əsərin müəllifi müəlliflik hüququnun əsas subyektidir. Onun yaradıcı əməyi əmək hüquq münasibətinin (əmək müqaviləsinin) predmeti ola bilər[6]. Məsələn, müəssisənin ştatında olan işçisi (müəllif) xidməti vəzifəni, yaxud müəssisənin (işəgötürənin) xidməti tapşırığını yerinə yetirmək qaydasında öz əmək vəzifəsini icra etməklə əsər yaradır. Bu cür əsərlərə misal olaraq müəssisənin (işəgötürənin) ştatında olan rəssamın (daha doğrusu, müəssisə ilə əmək münasibətində olan şəxsin) yaratdığı dekorativ-tətbiqi incəsənət əsərlərini, qəzet və jurnallarda işləyən jurnalistlərin yazdıqları əsərləri və s. göstərmək olar.

Əmrə əsaslanan və komanda iqtisadiyyatı adlanan sovet iqtisadiyyatı dövründə əmək və iş qüvvəsi əmtəə hesab edilmirdi. Onlar dəyər xarakterini itirmişdi. Bu isə sovet istehsalının lazımınca səmərə verməməsinə dəlalət etmişdi.

[1] bax: *Qasımov A.* Əmək və bəzi mülki hüquq münasibətlərinin oxşar və fərqli cəhətləri. Dərs vəsaiti. Bakı. 1994, s. 52

[1] bax: *Мейер Д.И.* Русское гражданское право. СПб. 1897, с.528.

[2] Əmək hüquq münasibətlərinin tapşırıq müqaviləsi ilə oxşar və fərqli cəhətləri barədə ətraflı məlumat almaq üçün bax: *Qasımov A.* Əmək və bəzi mülki hüquq münasibətlərinin oxşar və fərqli cəhətləri. Dərs vəsaiti. Bakı. 1994, s. 64-74.

[3] bax: *Гаврилов Э.П.* Закон об авторском праве: каким ему быть // Советское государство и право. 1990. №12, с. 69-78; *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı 2000, s. 163.

[4] bax: *Allahverdiyev S.S.* Göstərilən əsər, s. 178.

[5] Müəlliflik müqavilələri ilə əmək hüquq münasibətləri arasında əlaqə barədə geniş məlumat almaq üçün bax: *Qasımov A.* Göstərilən əsər, s. 75-90.

[6] bax: *Генкин Д.М.* Предмет и система советского трудового права // Советское государство и право. 1940. № 2, с. 54.

Son məqamda komanda-sovet iqtisadiyyatı müvəffəqiyyətsizliyə düçar oldu.

Müasir dövrdə bazar iqtisadiyyatının yaranmasına doğru müəyyən addımlar atılır. Əmək bazarı formalaşır. Buna uyğun olaraq əmək və iş qüvvəsi əmtəə xarakteri alır. Ona görə də hüquq ədəbiyyatında bəzi müəlliflər belə bir nəzəri konsepsiya irəli sürürlər ki, əmtəə xarakterli, dəyər formalı əmlak münasibətləri əmək hüququ ilə yox, mülki hüquqla tənzimlənməlidir. Bunun üçün də, yəni həmin münasibətləri tənzimləmək məqsədi ilə mülki qanunvericilikdə müvafiq struktur bölməsi yaratmaq lazımdır[1]. Bizim zənnimizcə, bu müəlliflər öz mövqelərinin həqiqiliyini sübut etmək üçün kifayət qədər tutarlı və yetərli arqumentlər gətirirlər. Artıq bazar münasibətlərinə keçid dövründə **əməyə və iş qüvvəsinə əmtəə kimi, dəyəri olan xüsusi növ mal kimi, əmək müqavilələrinə adi mülki-hüquqi (əmlak) əqd kimi, əmək hüququna isə hüququn müstəqil sahəsi kimi yox, mülki hüququn struktur bölməsi kimi baxmaq vaxtı gəlib çatmışdır.**

5. Mülki hüquq və beynəlxalq xüsusi hüquq

Hüquq ədəbiyyatında göstərilir ki, mülki hüququn yaxın və əlaqəli olduğu müstəqil hüquq sahələrindən biri beynəlxalq xüsusi hüquqdur. Onlar arasında təmas nöqtəsi vardır. **Beynəlxalq xüsusi hüquq** müxtəlif xarici ölkələrin fiziki və hüquqi şəxsləri arasında yaranan mülki (əmlak), ailə-nikah və əmək münasibətlərini tənzimləyir. Üstün və geniş yayılmış konsepsiyaya görə, o, dövlətin daxili milli hüququnun müstəqil, özü də spesifik, xüsusi xarakterli sahəsidir[2]. Ona görə də Almaniya beynəlxalq xüsusi hüququndan, İngiltərə beynəlxalq xüsusi hüququndan, Azərbaycan beynəlxalq xüsusi hüququndan və s. danışmaq olar.

Qeyd etmək lazımdır ki, hüququn ümumi və xüsusi hüquq adlı iki yerə bölünməsi beynəlxalq hüquqda da saxlanılır[3]. Beynəlxalq ümumi hüquq hər hansı bir ölkənin daxili milli hüquq sisteminə daxil edilmir. Ona görə də dünyanın hər hansı dövləti onu özününkü saya bilməz. Beynəlxalq ümumi hüquq xüsusi yer tutaraq dövlətdaxili yox, dövlətlərarası münasibətləri rəsmiləşdirir. Buna görə də ingilis beynəlxalq hüququndan, İspaniya beynəlxalq hüququndan, Azərbaycan beynəlxalq hüququndan və s. danışmaq olmaz. O, dövlətlər, beynəlxalq təşkilatlar və beynəlxalq əlaqələrin digər iştirakçıları arasında əmələ gələn münasibətləri tənzimləyir. **Beynəlxalq ümumi hüquq** konvensiyalarda, beynəlxalq müqavilələrdə, beynəlxalq təşkilatların nizamnamə və aktlarında ifadə olunan norma və prinsiplərin məcmusundan ibarətdir.

Beynəlxalq ümumi hüquq beynəlxalq xüsusi hüquqdan əsasən iki əlamətə görə fərqlənir. Birinci fərq ondan ibarətdir ki, beynəlxalq ümumi hüququn əsas subyekti dövlətdir. Bununla belə, dövlətlərarası beynəlxalq təşkilatlar, habelə

[1] bax: *Савникова Л.В.* Проблемы правового регулирования отношений найма труда (цивилистический аспект). Автореф. канд. дисс. Томск. 1986; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 13-14.

[2] Beynəlxalq xüsusi hüquq normalarının təbiəti və onun hüquq sistemində tutduğu yer ədəbiyyatda geniş mübahisə doğuran məsələlərdəndir. Bu barədə üç konsepsiya vardır. Həmin konsepsiyaların təhlili verilmişdir: *Богуславский М.М.* Международное частное право. М., 1994, с. 22-28.

[3] bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 410.

öz azadlıqlan uğrunda mübarizə aparan millətlər bu hüququn subyekti kimi tanınır və qəbul edilir[1].

Beynəlxalq xüsusi hüququn subyektlərinə gəldikdə isə göstərmək lazımdır ki, burada əsas və başlıca subyekt rolunda dövlət yox, ayn-ayrı fiziki və hüquqi şəxslər çıxış edirlər. Fiziki şəxslər dedikdə, müxtəlif dövlətlərin vətəndaşları və vətəndaşlığı olmayan şəxslər başa düşülür. Hüquqi şəxslər isə xarici ölkələrin müxtəlif dövlət təşkilatları, xüsusi firmalar, şirkətlər (kompaniyalar), korporasiyalar, müəssisələr, elmi-tədqiqat və digər təşkilatlardır.

Dövlət də beynəlxalq xüsusi hüququn subyekti ola bilər. Məsələn, xarici dövlət ərazisində yaşayan vətəndaşın miras əmlakı (yaşayış evi, minik avtomobili, villası, bank hesabındakı pul vəsaiti və s.) vərəsəlik yolu ilə dövlətə keçir. Bu vərəsəlik münasibəti beynəlxalq xüsusi hüquqla tənzimlənir. Dövlət burada subyekt qismində iştirak edir. Başqa bir misalda vətəndaş xarici dövlətin buraxdığı istiqraz vərəqəsini alır. Bu, borc münasibətidir və beynəlxalq xüsusi hüquqla nizama salınır. Biz burada dövlətin beynəlxalq xüsusi hüququn subyekti kimi çıxış etməsinin şahidi oluruq. Daha başqa bir misalda dövlət xarici ölkədəki səfirliyi üçün xarici vətəndaşdan bina kirayəyə götürür. Bu, kirayə münasibəti olub, beynəlxalq xüsusi hüquq normaları ilə qaydaya salınır. Dövlət burada subyekt kimi çıxış edir. Lakin bunlara baxmayaraq, dövlətin hüquq subyektliyi beynəlxalq xüsusi hüquq üçün tipik və xarakterik hal deyildir. Beynəlxalq xüsusi hüquqla tənzimlənən münasibətlərin müqayisəedilməz dərəcədə əsas iştirakçıları — subyektləri müxtəlif dövlətlərin vətəndaş və hüquqi şəxsləridir. Onlar isə istisnasız olaraq beynəlxalq ümumi hüququn subyekti qismində çıxış edə bilməzlər. Fiziki və hüquqi şəxslərin bu hüquqla tənzimlənən münasibətlərdə subyekt kimi iştirakı mümkün olan hal deyil.

Beynəlxalq ümumi hüququ xüsusi hüquqdan fərqləndirməyə imkan verən ikinci əsas əlamət onların tənzimlədiyi münasibətlərin məzmunu ilə bağlıdır. Beynəlxalq ümumi hüququn nizamasalma predmetində dövlətlər arasındakı qarşılıqlı siyasi münasibətlər başlıca yer tutur. Onun əsas işi dünyada sülhü, əmin-amanlığı, beynəlxalq təhlükəsizliyi, dövlətlərin suverenliyini və dinc yanaşı yaşamasını təmin etməkdən ibarətdir. Beynəlxalq ümumi hüququn demokratik xarakterli norma və prinsipləri sülhsevər xalqların əlində elə bir güclü vasitədir ki, o, təcavüzkarlığa qarşı mübarizədə mühüm rol oynayır. O, yer kürəsində sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir. Bununla belə, beynəlxalq ümumi hüquq normaları dövlətlər arasında siyasi münasibətlərdən savayı, həm də ictimai-iqtisadi, elmi-texniki, mədəni və digər münasibətləri də tənzimləyir. Beynəlxalq ümumi hüquq dövlətlərarası hüquqdur. O, mülki-hüquqi xarakterli münasibətləri qaydaya salmaqdan çox uzaqdır.

Beynəlxalq xüsusi hüququn predmetinə gəldikdə isə qeyd edə bilərik ki, burada əsas yeri dövlətlərarası siyasi-iqtisadi, mədəni-siyasi və elmi-texniki münasibətlər yox, mülki münasibətlər tutur. Beynəlxalq xüsusi hüquqla tənzimlənən münasibətlər içərisində mülki münasibətlər müqayisəedilməz dərəcədə üstünlük təşkil edir. Bax, bu münasibətlər mülki hüququ beynəlxalq xüsusi hüquqa yaxınlaşdıran, onları bir-biri ilə «əkiz qardaş» edən, bu iki sahə-

[1] bax: *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994, с. 10.

nin ümumiliyinə və əlaqəli olmasına dəlalət edən təmas nöqtəsidir. Beynəlxalq xüsusi hüquq beynəlxalq həyatda yaranan mülki münasibətlərin məcmusudur. Onun predmetini beynəlxalq sahədə əmələ gələn mülki-hüquqi xarakterli münasibətlər təşkil edir. Bəzi hallarda bu münasibətlər **beynəlxalq mülki münasibətlər** anlayışı ilə əhatə olunur.

Beynəlxalq mülki münasibətlərin əsas qrupunu əmlak münasibətləri təşkil edir. Buraya aiddir: mülkiyyət münasibətləri; yüklərin və sərnişinlərin daşınması münasibətləri; kredit-hesablaşma münasibətləri; podrat münasibətləri; alqı-satqı münasibətləri; ziyan vurmaqdan əmələ gələn münasibətlər (delikt öhdəlikləri); vərəsəlik münasibətləri və s[1]. Beynəlxalq xüsusi hüququn nizamasalma predmetinə ailə-nikah münasibətləri də (məsələn, Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkə vətəndaşları ilə nikaha girmələri, nikaha xitam verilməsi, ər-arvad arasında, valideynlərlə uşaqlar arasında münasibətlər və s.) daxildir[2].

Beynəlxalq mülki münasibətlərin digər qrupunu şəxsi qeyri-əmlak münasibətləri təşkil edir. Bu münasibətlər beynəlxalq həyatda əqli mülkiyyət obyektlərinin, yəni əsərlərin, ixtiraların, fərdiləşdirmə vasitələrinin (əmtəə nişanlarının, firma adlarının və s.) yaradılması, istifadəsi və qorunması ilə bağlı olaraq yaranır[3]. Bunlar müəlliflik hüququnun, patent hüququnun və s. obyektləridir. Məsələn, Fransa vətəndaşı olan mühəndisin həmin ölkədə etdiyi ixtiradan Azərbaycan Respublikasında istifadə edilməsi, ingilis yazıçısının əsərinin bizim ölkəmizdə tərcümə edilib, nəşr olunması, xarici firmanın əmtəə nişanı altında Azərbaycan Respublikasının müəssisəsinin məhsul istehsal etməsi və s. münasibətlər.

Söylədiklərimiz bizə belə bir nəticəyə gəlmək imkanı verir ki, mülki hüquqa yaxın olan ən yaxın və əlaqəli hüquq sahəsi, mübahisəsiz olaraq, beynəlxalq xüsusi hüquq sayılır. Onlar bir-biri ilə «qan qohumluğu» münasibətlərindədirlər. Şişirtmə olmadan deyə bilərik ki, onlar «əkiz qardaşlardır». Zənnimizcə, bunu sübut etmək və təsdiqləmək üçün biz kifayət qədər tutarlı və yetərli arqumentlər gətirə bildik.

Bununla bərabər, mülki hüquqla beynəlxalq xüsusi hüquq arasında fərqli cəhətlər də vardır. Ən başlıca və əsas fərq ondan ibarətdir ki, **beynəlxalq xüsusi hüquq xarici elementli mülki münasibətləri** tənzimləyir. Xarici elementli mülki münasibətlər dedikdə, beynəlxalq xarakterli, beynəlxalq həyatda əmələ gələn münasibətlər başa düşülür. Bu elə münasibətlərdir ki, onlar bir dövlətin sərhədlərindən və hüdudlarından kənara çıxıb, iki və ya bir neçə dövlətə bağlı olur. Bax, bu münasibətlərin beynəlxalq xarakterə malik olması da mülki hüququ beynəlxalq xüsusi hüquqdan fərqləndirməyə imkan verir.

Xarici (beynəlxalq) elementli mülki münasibətlərin üç qrupu fərqləndirilir. Birinci qrupa o münasibətlər şamil edilir ki, həmin münasibətlərin subyektlərindən biri öz təbiəti etibarilə xarici olsun. Bu deməkdir ki, mülki münasibətlərdə tərəf rolunda ya xarici ölkə vətəndaşı və ya xarici ölkənin hüquqi şəxsi, ya da xarici dövlət çıxış edir. Məsələn, Azərbaycan Respublikasının vətəndaşı xarici ölkə vətəndaşı ilə hər hansı müqavilə bağlayır. Azərbaycan Respublikası (dövləti) xarici dövlətin kommersiya bankından kredit alır. Başqa bir misalda Azərbaycan Respublikasının hüquqi şəxsi (müəssisəsi) xarici firmaya mal satır. Daha başqa bir misalda azərbaycanlı qız Türkiyə Respublikasının vətəndaşı ilə nikaha girir və s.

İkinci qrupa o münasibətlər daxil edilir ki, həmin münasibətlərin əmələ gəlməsinə əsas olan obyekt xarici dövlətin ərazisində yerləşir, amma bu münasibətlərin iştirakçıları (subyektləri) eyni bir dövlətdə olurlar. Məsələn, ölmüş Azərbaycan Respublikası vətəndaşının xarici ölkə ərazisində yerləşən miras əmlakı onun vərəsələrinə keçir. Başqa bir misalda Azərbaycan Respublikasının tikinti firması həmin respublikanın vətəndaşına xarici ölkədə (məsələn, RF-in Sankt-Peterburq şəhəri yaxınlığındakı Razliv gölü ətrafında) bağ evi tikir.

Üçüncü qrupa o münasibətlər aiddir ki, həmin münasibətlərin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına əsas olan və dəlalət edən hüquqi fakt xarici dövlət ərazisində baş verir. Məsələn, Azərbaycan Respublikasının iki ticarət firması Fransanın Paris şəhərində müqavilə bağlayırlar. Başqa bir misalda ABŞ-a müalicəyə getmiş Azərbaycan Respublikasının vətəndaşı xəstəxanada ölür. Bununla vərəsəlik açılır və vərəsəlik münasibəti yaranır. Daha başqa bir misalda xarici ölkəyə turist kimi gəzməyə gedən iki vətəndaş orada dalaşaraq biri digərinə sağlamlığın pozulmasına səbəb olan xəsarət yetirir. Bununla zərər vurmaq üzrə münasibət (delikt öhdəliyi) əmələ gəlir. Bu üç misalda göstərilən və xarici ölkə ərazisində baş verən hüquqi faktlar — müqavilə bağlamaq, ölüm və zərər vurmaq kimi həyati hallar mülki hüquq münasibətlərinin əmələ gəlməsinə əsas olur. Beləliklə, xarici elementli mülki münasibətlərin, birincisi, subyekt tərkibi, ikincisi, obyekt tərkibi, üçüncüsü bu münasibətlərin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına əsas olan hüquqi fakt beynəlxalq xüsusi hüquqla tənzimlənən mülki münasibətləri mülki hüquqla nizama salınan münasibətlərdən dəqiq olaraq fərqləndirməyə imkan verir.

Hüquq ədəbiyyatında belə bir fikir səslənir ki, beynəlxalq xüsusi hüquq mahiyyətcə nə beynəlxalq hüquq, nə də xüsusi hüquqdur. O, mülki hüququn iki məsələsinin birləşməsidir: birincisi, qanunların məkana görə qüvvəsi barədə məsələnin; ikincisi, xaricilərin mülki-hüquqi vəziyyəti barədə məsələnin[1].

[1] Bu münasibətlər barədə bax: *Перетерский И.С., Крылов С.Б.* Международное частное право. М., 1959; *Лунц Л.А.* Международное частное право. М., 1970; *Лунц Л.А. , Марышева Н.И., Садиков О.Н.* Международное частное право. М., 1984; *Галенская Л.Н.* Международное частное право. Л., 1983; Международное частное право / Под ред. *Г.К.Матвеева*. Киев 1985; *Иссад М.* Международное частное право / Пер. с француск., М., 1989; *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994 и др.

[2] bax: *Лунц Л.А.* Курс международное частное права. Особенная часть. М., 1975, с. 441-485; *Орлова Н.В.* Брак и семья в международном частном праве. М., 1966.

[3] bax: Международные конвенции об авторском праве. Комментарий. М., 1982; *Богуславский М.М.* Вопросы авторского право в международных отношениях. М., 1973; *Матвеев Ю.Г.* Международная охрана авторских прав. М., 1987; *Богуславский М.М.* Патентные вопросы в международных отношениях. М., 1962; *Боденхаузен Г.* Парижские конвенции по охране промышленной собственности. Комментарий. М., 1977; *Штумпф Г.* Лицензионный договор. / Пер. с нем. М., 1988.

[1] bax: Советское государство и право. 1940. №8-9. с.71; *Маковский А.Л.* Проблема природы международного частного права в советской науке // Проблемы совершенствования советского законодательства. М., 1984. Вып. 29, с. 222; *Садиков О.Н.* Гражданское право и регулирование внешнеэкономических связей СССР // Советское государство и право. 1986. №11, с. 11.

Kontinental Avropa hüququnda beynəlxalq xüsusi hüquq, bir qayda olaraq, mülki hüququn tərkib hissəsi (yarımsahəsi) kimi tanınır və qəbul edilir. Məsələn, Almaniya Mülki Qanunnaməsinin 6-cı kitabı («Xarici qanunların tətbiqi») beynəlxalq xüsusi hüquqa aid idi. O, indi həmin qanunnaməyə əlavə edilmiş giriş qanununa daxildir[1]. Hollandiya Mülki Məcəlləsinin 10-cu kitabı «Beynəlxalq xüsusi hüquq» adlanır[2]. Bizim fikrimizcə, beynəlxalq xüsusi hüququn mülki hüququn yarımsahəsi olması barədə fikir həqiqətə daha yaxındır.

6. Mülki hüquq və ailə hüququ

Hüquq elmində ən geniş və kəskin mübahisə doğuran məsələlərdən biri ailə hüququnun milli hüquq sistemində tutduğu yer problemidir. Bu barədə uzun müddətdir ki, diskussiya gedir. Həmin diskussiya bu gün də davam edir. Bu məsələ indiyədək öz qəti həllini tapmamışdır.

Ailə hüququnun milli hüquq sistemində tutduğu yer barədə bir-birindən fərqli üç konsepsiya yaranmışdır. Birinci konsepsiya tərəfdarları belə hesab edirlər ki, ailə hüququ kompleks hüquq sahəsidir[3]. Ümumiyyətlə, kompleks hüquq sahəsi ideyası ağlabatan fikir deyil. Hüquq sisteminin tərkib hissəsi kimi kompleks sahələrin mövcudluğu konsepsiyasının heç bir əsası yoxdur. Ona görə ki, hüquq sistemi obyektiv xarakterə malikdir. Ayrı-ayrı hüquq sahələrinə aid olan müxtəlif hüquq normalarından şüurlu surətdə kompleks hüquq sahəsi yaratmaq olmaz. Bizim fikrimizcə, hüquq sisteminin yox, qanunvericilik sisteminin tərkib hissəsi kimi kompleks sahələrdən söhbət açmaq olar[4]. Ona görə ki, qanunvericilik sistemi subyektiv xarakter daşıyır. O, qanunverici tərəfindən şüurlu surətdə hüquq normalarının qaydaya salınması və sistemləşdirilməsidir. Buna görə də kompleks hüquq sahəsi kimi ailə hüququnun mövcudluğundan heç söhbət gedə bilməz. Hələ o vaxtlar — keçən əsrin 60-cı illərinin axırlarında kompleks hüquq sahəsi kimi ailə hüquq konsepsiyası haqlı olaraq tənqid olunurdu[5].

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949.

[2] Правовые системы мира / Ответ. ред. *А.Я.Сухарев*. М., 2001, с. 466.

[3] bax: *Толстой Ю.К.* О теоретических основах кодификации гражданского законодательства // Правоведение. 1957. №1, с. 44-46. Yeri gəlmişkən, qeyd edək ki, hüquqda kompleks sahələrin mövcudluğu ideyasının müəllifi V.K.Rayxer olmuşdur. Onun fikrincə, hüquq sistemi həm əsas sahələrdən, həm də kompleks sahələrdən ibarətdir (bax: *Райхер В.К.* Общественно-исторические типы страхования. М., 1947, с.189-190). Kompleks hüquq sahələri ideyasını dəstəkləyən müəlliflərdən biri Y.K.Tolstoydur. O, ailə hüququnu kompleks hüquq sahəsi hesab edir. Kompleks hüquq sahəsinə aqrar hüququ və təsərrüfat hüququ kimi sahələr də şamil olunur (bax: Аграрное право. Учебник / Под ред. *Г.Е.Быстрова, М.И.Козыря*. М., 1998, с. 9; *Круглов Н.Ю.* Хозяйственное право. Учебник. М., 1995).

[4] Bir çox müəlliflər də bu mövqedə dayanırlar. Bax: *Красавчиков О.А.* Советская наука гражданского права (понятие, предмет, состав и система) // Учен. труды. Свердловск. Юрид. Инст-та. 1961, с. 263; *Алексеев С.С.* Общая теория социалистического права. Вып 1. Сверд. 1963, с. 231; *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1// В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 232. Sonradan S.S.Alekseyev mövqeyini dəyişərək kompleks hüquq sahəsi (hüquq sisteminin tərkib hissəsi) ideyasını dəstəkləmişdir (bax: *Алексеев С.С.* Об отраслях права // Советское государство и право. 1973. № 3, с.14).

[5] bax: *Ворожейкин Е.М.* Семейное право как самостоятельная отрасль права // Советское государство и право. 1967. № 4.

İkinci konsepsiya tərəfdarları belə hesab edirlər ki, ailə hüququ müstəqil hüquq sahəsidir[1]. Bu konsepsiyanın yaranma tarixi sovet sosializm cəmiyyəti ilə bağlıdır. Həmin dövrlərdə ailə hüququ tədqiqatçılarının əksəriyyət çoxluğu arasında belə bir fikir yaranmışdı ki, guya ailə üzvləri arasında əmələ gələn şəxsi qeyri-əmlak münasibətlərinin ailə hüququ ilə tənzimlənməsi əsas mövqeyə malik olub üstünlük təşkil edir[2]. Onların fikrincə, ailədəki əmlak münasibətlərinin hüquqi tənzimlənməsinə gəldikdə isə bu, arxa planda olub, tabeçilik xarakteri daşıyır. Ailədəki şəxsi qeyri-əmlak münasibətlərinin təsiri altında əmlak münasibətləri dəyər xarakterini itirir, bu münasibətlər son dərəcədə şəxsi xarakterli olduğu üçün dəyər əlamətindən məhrum olur. Buna görə də həmin münasibətlər mülki hüququn hüdudlarından kənara çıxır. Bu cür münasibətlər mülki hüquqla tənzimlənə bilməz. Ailədəki münasibətlər müstəqil hüquq sahəsinin — ailə hüququnun predmetini təşkil edir.

Qeyd etmək lazımdır ki, ailə hüququnun müstəqil sahə olması və mülki hüquqdan onun fərqləndirilməsi təkcə ailə hüququ elmində yox, həm də mülki hüquq nəzəriyyəsində müzakirə olunurdu. Tanınmış sivilist alim O.A.Krasavçikov göstərirdi ki, ailə münasibətləri xüsusi xarakterli münasibətlər olub, mülki hüquqla tənzimlənən şəxsi qeyri-əmlak və əmlak münasibətlərindən mühüm dərəcədə fərqlənir. Bu münasibətlərin mülki hüququn nizamasalma predmetinə heç bir aidiyyəti və dəxli yoxdur. Onun fikrincə, ailə münasibətləri hüquqi tənzimetmənin müstəqil xüsusi sahəsini təşkil edir[3].

Sivilist müəlliflərdən V.A. Dozortsev də müstəqil ailə hüququ sahəsi konsepsiyasını dəstəkləyirdi. Onun fikrincə, ailə hüququ əsasən, qeyri-əmlak münasibətlərini tənzimləyir. Bu isə onu göstərir ki, ailə münasibətləri mülki hüququn çərçivəsindən və hüdudlarından kənara çıxır. Müəllif qeyd edir ki, ailə hüququnun predmetinə daxil olan əmlak münasibətləri əmtəə-pul münasibətləri olmayıb, iqtisadi dövriyyəyə xidmət etmir. Bu, mülki hüquq üçün xarakterikdir. Ailə üzvləri arasındakı əmlak münasibətləri əsas və həlledici xarakter daşımır[4].

Bu cür mövqeyi başqa bir müəllif — V.Q.Verdnikov da müdafiə edirdi. O, belə hesab edirdi ki, ailə hüququ nikah-ailə məsələləri ilə bağlı münasibətləri tənzimləyir, bu münasibətlər həm şəxsi qeyri-əmlak, həm də əmlak münasibətləri növündə ola bilər. Həmin münasibətlər ictimai münasibətlərin xüsusi qrupunu — ailə münasibətlərini təşkil edir. Müəllifin fikrincə, ailə münasibətləri sovet mülki hüququ ilə tənzimlənən əmlak və şəxsi qeyri-əmlak münasibətlərindən mühüm dərəcədə fərqlənir. Ailə münasibətlərində əsas və mərkəzi yeri

[1] bax: *Свердлов Г.М.* Советское семейное право. М., 1958, с..23; *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963, с.110; *Тархов В.А.* Советское семейное право. Саратов 1963, с.11; *Матвеев Г.К.* Советское семейное право. М., 1985, с. 34-37; *Рясенцев В.А.* Семейное право. М., 1971, с. 16-20; Советское семейное право. Под ред. *В.Ф.Чигира*. Минск. 1989, с.14-16.

[2] bax: *Ворожейкин Е.М.* Семейные провоотношения в СССР. М., 1972, с.12; *Рясенцев В.А.* Семейное право. М., 1971, с. 9; *Матвеев Г.К.* Советское семейное право. М., 1985.

[3] O.A.Krasavçikovun mövqeyi barədə bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 35-36.

[4] V.A.Dozortsevin mövqeyi barədə bax: Советское гражданское право. Учебник / Под ред. *О.Н.Садикова*. М., 1983, с. 8-9.

ər-arvad, valideynlər, uşaqlar və digər ailə üzvləri arasındakı əlaqələr tutur

Müasir müəlliflərin çoxu ailə hüququna müstəqil hüquq sahəsi kimi yanaşırlar[2]. Onlar göstərirlər ki, özünün ayrıca hüquqi nizamasalma predmeti və metodu olduğuna görə ailə hüququ müstəqil hüquq sahəsidir. Bəzi müəlliflər ailə hüququnu təkcə müstəqil hüquq sahəsi kimi qəbul etmirlər. Onlar həm də ailə hüququnu qanunvericilik sahəsi kimi tanıyırlar[3].

Müasir müəlliflər göstərirlər ki, ailə hüququnun spesifik predmeti vardır və bu, mülki hüququn predmeti ilə üst-üstə düşmür. Onların fikrincə, ailə hüququnun spesifik cəhətləri onları mülki hüquq münasibətlərindən ayırmağa imkan verir. Ailə hüququnun xüsusi predmeti vardır. Qan qohumluğu və ya nikahdan əmələ gələn şəxsi qeyri-əmlak münasibətləri onun predmetinin əsasını təşkil edir. Əmlak münasibətləri bu cür şəxsi münasibətlərə əsaslanır və söykənir. Mülki-hüquqi əqd anlayışı nikah kontraktına şamil edilə bilməz. Ailədə əsas yeri şəxsi münasibətlər tutur. Mülki hüquqla tənzimlənən şəxsi qeyri-əmlak münasibətləri şəxsə ictimai qiymət verməklə bağlıdır. Ailə hüququnda bu cür bağlılıq yoxdur. Ailə hüququ üçün icazə vermək — imperativ metod xarakterikdir. Göründüyü kimi, müstəqil ailə hüququ konsepsiyası tərəfdarları öz fikirlərini əsaslandırmaq üçün müxtəlif arqument və dəlillər gətirirlər. Beləliklə, bu konsepsiyaya görə ailə üzvləri arasında əmələ gələn əmlak münasibətləri son dərəcə şəxsi xarakterə malik olub, dəyər əlamətini itirdiyi üçün mülki hüquqla yox, ailə hüququ adlı müstəqil xüsusi hüquq sahəsi ilə tənzimlənməlidir.

Üçüncü konsepsiya tərəfdarları bu mövqedə dayanırlar ki, ailə hüququ müstəqil hüquq sahəsi olmayıb, mülki hüququn daxili struktur bölməsi, onun bir hissəsidir[4]. İnqilabaqədərki bəzi rus sivilistləri də ailə hüququnun mülki hüququn tərkib hissəsi olması ideyasını irəli sürmüşlər[5]. G.F. Şerşeneviç yazırdı ki, ailə hüququ mülki hüququn tərkibinə daxil edilməlidir. Digər tanınmış inqilabaqədərki rus sivilisti D.İ.Meyer isə göstərirdi ki, mülki hüquqa ailə münasibətlərinin yalnız əmlak tərəfi daxildir[6].

Üçüncü konsepsiya tərəfdarları öz mövqelərinin əsaslı olması üçün kifayət

[1] V.Q.Verdnikovun mövqeyi barədə bax: Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 19-20.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И. Маслявва*. М., 1997, с. 26; Гражданское право. Учебник. Том 1/Под ред. *Е.А. Суханова*. М., 1998, с. 9; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 17; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А. Плетневой*. М., 1998, с. 17; Гражданское право России. Часть 1. Курс лекций / Под ред. О.Н.Садикова. М., 1996, с.9; *Пчелинцева Л.М.* Семейное право России. Учебник. М., 1999, с.18.

[3] bax: *Нечаева А.М.* Семейное право. Курс лекций. М., 1998, с. 5, 11-21.

[4] bax: *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 3. Л., 1965; Советское семейное право. Учебник / Под ред. *В.Ф.Маслова, А.А.Пушкина*. Киев. 1982, с. 18; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 15; *Антокольская М.В.* Семейное право. Учебник. М., 2000, с.13-21.

[5] bax: *Шершеневич Г.Ф.*Учебник русского гражданского право (по изданию 1907 г.). М., 1995, с.11-13; *Покровский И.А.* Основные проблемы гражданского права (по изданию 1917 г.). М., 1998, с. 162.

[6] bax: *Мейер Д.И.* Русское гражданское право. Часть 1 (по изданию1902 г.). М., 1997, с. 33-34.

qədər tutarlı arqumentlər və dəlillər gətirirlər. Bizim fikrimizcə, onların gəldikləri nəticə daha inandırıcı və ağlasığandır. Şübhə yoxdur ki, onların söylədikləri fikir həqiqətə daha yaxındır.

Birincisi, ailə münasibətləri ənənəvi olaraq **hələ qədim Roma hüququ dövründən bəri xüsusi (mülki) hüquqla tənzimlənir.** Roma xüsusi (mülki) hüququ nikahın bağlanma qaydasını və şərtlərini, ər-arvad arasında şəxsi və əmlak münasibətlərini, nikahın pozulma qaydasını, valideynlər və uşaqlar arasındakı əlaqələri və digər məsələləri nizama salırdı. Ailə hüququ Roma xüsusi (mülki) hüququnun bir hissəsi idi[1].

İkincisi, Azərbaycan Respublikasının qarşısında duran vəzifələrdən biri qanunvericiliyi, o cümlədən mülki qanunvericiliyi sivil, qabaqcıl və demokratik ölkələrin qanunvericiliyinə yaxınlaşdırmaqdan, necə deyərlər, «Avropa standartlarına» uyğunlaşdırmaqdan ibarətdir. Kontinental Avropa ölkələrinin hüququnda ailə hüququna mülki hüququn tərkib hissəsi (yarımsahəsi) kimi baxılır. Məsələn, Almaniya Mülki Qanunnaməsini nəzərdən keçirdikdə görərik ki, onun dördüncü kitabı «Ailə hüququ» adlanır. O, özündə üç bölməni birləşdirir: «Mülki nikah»; «Qohumluq»; «Qəyyumluq»[2]. Hollandiya Mülki Məcəlləsinin 1970-ci ildə qüvvəyə minən birinci kitabı «Şəxslər və ailə» adlanır. Bu kitab fiziki şəxslərin hüquqi vəziyyətinin bütün məsələlərini tənzimləyir və ailə hüquq normalarını birləşdirir. Bu normalar nikahın bağlanma və pozulma qaydalarını, ər-arvad arasında əmlak münasibətlərini, övladlığa götürməni qaydaya salır[3].

Fransa Mülki Məcəlləsinin birinci kitabı 12 bölmədən ibarətdir. 3-cü bölmə «Vətəndaşlıq vəziyyəti aktları haqqında», 6-cı bölmə «Nikah haqqında», 7-ci bölmə «Boşanma barədə», 8-ci bölmə «Uşaqların mənşəyi haqqında», 9-cu bölmə «Övladlığa götürmə haqqında» və s. adlanır[4]. İtaliya Mülki Məcəlləsinin birinci kitabı «Şəxslər və ailə» adlanır[5]. Burada bəzi bölmələr nikah, qohumluq, uşaqların mənşəyi, valideynlik, qəyyumluq, himayəçilik, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və digər məsələləri qaydaya salır.

Dediklərimiz bizə belə bir nəticəyə gəlmək imkanı verir ki, ailə-nikah münasibətlərini müstəqil ailə hüququnun iştirakı olmadan da tənzimləmək olar. Bunun üçün, kontinental Avropa ölkələrinin hüququnda olduğu kimi, mülki hüququn tərkibində ailə hüququ adlı bölmənin (hissənin) — yarımsahənin ayrılması kifayətdir. Bunun mümkün olmasını yuxarıda nəzərdən keçirdiyimiz ölkələrin mülki hüquq təcrübəsi və ənənələri təsdiqləyir və sübut edir. Madam ki, ailə münasibətlərini mülki hüquqla qaydaya salmaq mümkündür, bəs onda ailə hüququ adlı müstəqil hüquq sahəsinin ayrılmasının və fərqləndirilməsinin nə mənası vardır?

Üçüncüsü, ailə hüququ nəzəriyyəsində ailə hüququnun demək olar ki, bü-

[1] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P. Əsgərovanın* tərcüməsi. Bakı 1999, s. 54-59; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 308-325; *Пухан И., Полевак-Акимовсая. М.* Римское право. Учебник. М., 2000, с. 96-127; Римское частное право. Учебник/Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 121-143.

[2] bax: Правовые системы мира / Под ред. *А.Я.Сухарева*. М., 2001; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6.

[3] bax: Основые институты гражданского права зарубежных стран. М., 1999, с.10.

[4] Yenə orada, s.3.

[5] Yenə orada, s.8.

tün normalarının imperativ-məcburi xarakterə malik olması kimi əlamət bu hüququ mülki hüquqdan ayırmağa imkan verən əsas meyar kimi götürülürdü. Məsələn, ailə hüququnun müstəqil sahə olmasını əsaslandıran S.İ.Rayeviç belə hesab edirdi ki, sosializm dövründə ailə hüququ ümumi hüquq elementləri ilə doludur. Onun fikrincə, ailə hüquq normaları dispozitiv (qeyri-məcburi, sərbəst) xarakter daşımır. Ailə münasibətlərinə mülki hüquq normaları tətbiq edilə bilməz.

Ənənəvi olaraq belə hesab edilirdi ki, ailə münasibətləri imperativ metodla, mülki hüquq münasibətləri isə dispozitiv metodla tənzimlənir. Düzdür, Azərbaycan Respublikasının 2000-ci ilin iyun ayının 1-dən qüvvəyə minmiş Ailə Məcəlləsi qəbul olunana kimi bütün ailə qanunvericiliyi imperativ xarakter daşıyırdı. Bu məcəllənin qüvvəyə minməsindən sonra mənzərə tamamilə dəyişdi. Ailə Məcəlləsi ailə münasibətləri iştirakçılarına imkan verir ki, onlar aralarındakı münasibətlərin məzmununu öz istədikləri kimi müəyyənləşdirsinlər. Əvvəlki qanunvericilik ailə münasibətlərini imperativ qaydada nizama salırdı. Ailə hüquq münasibətləri iştirakçılarının hüquq və vəzifələri qanunla müəyyən edilirdi və tərəflərin razılığı ilə dəyişdirilə bilməzdi. Məsələn, ər-arvadın əmlakının hüquqi rejimini nikah kontraktının köməyi ilə dəyişdirmək mümkün deyildi.

Yeni Ailə Məcəlləsində isə dispozitiv normaların sayı xeyli artmışdır. Düzdür, ailə hüququnda imperativ normalar da kifayət qədərdir: nikaha girmək haqqında norma; nikahın pozulması haqqında norma; nikahın etibarsız hesab edilməsi barədə norma; valideynlər və uşaqlar arasındakı şəxsi münasibətlər haqqında norma; övladlığa götürmə barədə norma və s. Lakin buna baxmayaraq ailə hüququnda əsas yeri imperativ yox, dispozitiv metod tutur. Ailə qanunvericiliyində ixtiyarverici-imperativ metod öz yerini dispozitiv metoda vermişdir[1]. Xüsusən ər-arvadın əmlakının hüquqi rejimi nikah kontraktının köməyi ilə dəyişdirilə bilər. Deməli, beləliklə, **madam ki, ailə hüququnda, mülki hüquqda olduğu kimi, əsas yeri dispozitiv metod tutur, bəs onda ailə hüququnu mülki hüquqdan ayırmağa nə ehtiyac vardır?**

Dördüncüsü, ailə hüququnu mülki hüquqdan ayırmağa dəlalət edən əlamətlərdən biri sovet ideologiyası və prinsipi ilə bağlı idi. Belə ki, **sovet sosializm dövründə ailə münasibətlərinin nizama salınması kapitalist (burjua) ölkələrində bu münasibətlərin tənzimlənməsinə qarşı qoyulurdu**. Belə hesab olunurdu ki, kapitalist ölkələrində ailə münasibətləri mülki hüququn predmetinə daxildir. Belə ki, orada əmlak elementləri üstünlük təşkil edir. Ona görə də sosializm cəmiyyətində, burjua (kapitalist) cəmiyyətində olduğu kimi, ailə münasibətləri mülki hüquqla tənzimlənə bilməz. Sosializm cəmiyyətində ailə münasibətləri yalnız ayrıca hüquq sahəsi ilə nizama salına bilər. Sovet ailə münasibətlərinin iqtisadi məzmunu yoxdur, onlar dəyər xarakterini itirmişdir.

Yaşadığımız indiki dövrdə artıq sovet ideologiyası və prinsipi mövcud deyil. Madam ki, ailə hüququnun müstəqil hüquq sahəsi kimi ayrılmasına dəlalət edən bu cür əsas silinib aradan çıxmışdır, bəs onda müstəqil ailə hüququnun

[1] bax: *Антокольская М.В.* Семейное право. Учебник. М., 1996, с. 26. M.V.Antokolskayanın mövqeyi ilə razılaşmayan L.M. Pçelintseva bu barədə başqa fikir yürüdür. O, göstərir ki, ailə hüququnda əsas yeri ixtiyarverici-imperativ metod tutur, amma ixtiyarverici əsaslar gücləndirilmişdir (bax: *Пчелинцева Л.М.* Семейное право России. Учебник. М., 1999, с. 14)

fərqləndirilməsinə nə zərurət vardır?

Beşincisi, ailə hüququnun müstəqil hüquq sahəsi kimi ayrılması üçün bu cür dəlillər-amillər gətirilirdi: şəxsi ailə münasibətlərini tənzimləmək ailə hüququnun başlıca məqsədini təşkil edir; bu münasibətlər ailə hüququ *ilə* tənzimlənən bütün münasibətlərin əsasıdır; bu münasibətlər həlledici rola malik olub daha mühüm əhəmiyyət kəsb edir; ailədə əmələ gələn əmlak münasibətləri ikinci dərəcəlidir və onların nizamlanması müvafiq olaraq şəxsi münasibətlərin nizamlanmasından asılıdır; əmlak münasibətləri ilə şəxsi münasibətlər arasında əlaqə o qədər güclüdür ki, onlar (yəni əmlak münasibətləri) şəxsi münasibətlərin təsiri altında xüsusi cəhətlərə və təbiətə malik olur, mülki hüquqla tənzimlənən əmlak münasibətləri bu cür cəhətlərdən çox uzaqdır; şəxsi münasibətlər üstünlük təşkil edir.

Zənnimizcə, bu kimi səbəb-amillərin və arqumentlərin heç bir əsası yoxdur. Hər şeydən əvvəl, birincisi, mülki hüquqda elə institutlar vardır ki, onlarda şəxsi münasibətlər üstünlük təşkil edir[1]. Məsələn, mülki hüququn əqli mülkiyyət hüququ və şəxsi qeyri-maddi nemətlər hüququ adlı iki yarımsahəsinə daxil olan hüquq institutları (müəlliflik hüququ, patent hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ və s.) ilə tənzimlənən şəxsi qeyri-əmlak münasibətləri üstünlüyə malik olub, mühüm rol oynayır. Müəllif əsər yaratmasaydı (şəxsi qeyri-əmlak münasibəti), bəs onda onu nəşr edib nüsxələrini geniş oxucu auditoriyası arasında necə yaymaq olardı (əmlak münasibəti)[2].

Aydın bir həqiqətdir ki, ailə hüququ ilə tənzimlənən şəxsi qeyri-əmlak münasibətlərinin əmlak münasibətlərinə nisbətən üstünlük təşkil etməsi barədə fikir kifayət qədər şişirdilmişdir və həqiqətdən uzaqdır[3]. Bunu sübut etmək məqsədi ilə Ailə Məcəlləsini nəzərdən keçirək. Belə məlum olur ki, şəxsi ailə münasibətlərini tənzimləyən ailə hüquq normalarının xüsusi çəkisi nisbətən azdır. Həmin Məcəllədə ər-arvad arasındakı şəxsi münasibətlərin tənzimlənməsinə vur-tut iki maddə (29-cu və 30-cu maddələr) həsr edilmişdir. Onlar arasındakı əmlak münasibətlərini qaydaya salan maddələrə gəldikdə isə qeyd etməliyik ki, bu cür maddələrin sayı o birinə nisbətən çoxdur (31—41-ci maddələr). Deməli, ailə hüquq normaları ilə nizama salınan şəxsi münasibətlər heç də, əmlak münasibətlərinə nisbətən üstünlüyə malik deyil.

Bu, onunla izah olunur ki, ailədə mövcud olan şəxsi qeyri-əmlak münasibətlərinin çoxu hüquqla qaydaya salınmır və ümumiyyətlə, qaydaya salına bilməz. İntim-şəxsi münasibətlərin hüquqla necə tənzimlənməsini adam təsəvvürünə belə gətirə bilmir. Hüquq ailədəki şəxsi-intim münasibətlərin hamısına

[1] bax: *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 3. Л., 1965, с. 183.

[2] O.S.Ioffe məsləhət görürdü ki, ailə hüququ ilə tənzimlənən şəxsi münasibətlərlə əmlak münasibətləri arasındakı əlaqəni təbəqəlik və ya asılılıq münasibəti kimi izah etmək olmaz. O, haqlı olaraq göstərir ki, həmin münasibətlərin yalnız bir-birinə uyğun gəlməsindən və uzlaşmasından (təbəqəliliyindən və ya asılılığından yox) söhbət etmək və danışmaq olar (bax: *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Л., 1965, с.183).

[3] Ailə həm sosial, həm də hüquqi kateqoriyadır. Sosial kateqoriya kimi ailə həyatında şəxsi münasibətlər əmlak münasibətlərindən üstündür. Bu, mübahisə doğura bilməz. Hüquqi kateqoriya kimi ailə, ailə hüququ anlayışı ilə əhatə olunur. Ailə hüququnda isə vəziyyət tamamilə başqadır (bax: *Антокольская М.В.* Семейное право. Учебник. М., 2000, с.14).

qarışmaq və müdaxilə etmək iqtidarında deyil. Bu cür münasibətlər yalnız əxlaq normaları ilə nizama salına bilər. G.Q. Şerşeneviç haqlı olaraq göstərirdi ki, hüququn işi insanın mənəvi-daxili dünyası ilə yox, xarici aləmlədir. Onun fikrincə, ailə üzvləri arasındakı şəxsi münasibətlərə hüququn təsir göstərməsi mənasız və əlçatmaz bir işdir. Hüquq ailə üzvlərinin əmlak münasibətlərini tənzimləmək üçün vacib və məqsədəuyğundur[1]. Digər sivilist alim D.Meyer belə hesab edirdi ki, ailə münasibətlərinin yalnız əmlak tərəfi mülki hüquqa aiddir; ailə münasibətlərinin digər tərəfi isə ancaq ehtiyac və zərurət olduqda, onun əmlak tərəfini anlamaq və başa düşmək üçün nəzərə alınır[2].

Beləliklə, ailə həyatında yaranan əmlak münasibətləri hüquqla lazımınca tənzim olunmaq xüsusiyyətinə malikdir. Şəxsi münasibətlərə gəldikdə isə qeyd etmək lazımdır ki, bu münasibətlərin çoxu hüquqi tənzimetmənin təsiri altına düşmür. Ümumiyyətlə, yuxarıda göstərdiyimiz kimi, ailə həyatında yaranan şəxsi-intim münasibətlər hüquqla tənzimlənmir. Bütün bunlar hamısı onu sübut edir ki, mülki hüquq kimi ailə hüququnun da tənzim etdiyi münasibətlər içərisində əmlak münasibətləri üstünlük təşkil edir. Ailə hüquq normaları ilə nizama salınan münasibətlərin əsas qrupu əmlak münasibətlərindən ibarətdir. Mülki hüquq normaları ilə qaydaya salınan münasibətlərin böyük hissəsini əmlak münasibətləri təşkil edir. Madam ki, bu, belədir, bəs onda müstəqil ailə hüququnun ayrılmasına nə zərurət vardır?

Altıncısı, ailə cəmiyyətin ilkin özəyi, necə deyərlər, ilkin «hüceyrəsidir». Hegelin fikrincə, ailə dövlətin birinci bazisidir[3]. K. Marks ailəni vətəndaş cəmiyyətinin zəruri elementi hesab edirdi[4]. Marks göstərirdi ki, ailə dövlətin mövcud olmasının zəruri şərtlərindən biridir[5]. F.Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» adlı əsərində yazırdı ki, ailənin inkişafı tamamilə maddi nemətlərin istehsal üsulu ilə müəyyən edilir[6]. Buna görə də komanda (sovet) iqtisadiyyatından bazar iqtisadiyyatına keçid, şübhəsiz ki, ailə əmlak münasibətlərinin mahiyyətinə təsir göstərməyə bilməz.

Komanda (sovet) iqtisadiyyatından fərqli olaraq bazar iqtisadiyyatı əmtəə istehsalına əsaslanır. Bu cür istehsal isə söz yox ki, ailə əmlak münasibətlərinin əmtəə xarakterli olmasına dəlalət edir. Cəmiyyətin bütün üzvləri (o cümlədən cəmiyyət üzvləri olan ər-arvad, digər ailə üzvləri) arasında əmtəə xarakterli əmlak münasibətlərini tənzimləmək üçün mülki hüquq sahəsindən istifadə olunur. Madam ki, bu, belədir, onda ailə hüququ kimi müstəqil sahənin ayrılması nəyə gərəkdir? Bundan əlavə, mülki hüquq vətəndaş cəmiyyətinin əsasını təşkil edən əmlak münasibətlərini tənzim edir. Ailə münasibətləri isə bu cəmiyyətin məhək daşlarından və fundamental sərvətlərindən biridir[7].

[1] *Шершеневич Г.Ф.* Русское гражданское право. СПб. 1894, с. 455-457; *Шершеневич Г.Ф.* Учебник русского гражданского права (по изданию 1907 г.). М., 1995, с. 406.

[2] *Мейер Д.И.* Русское гражданское право. Часть 1 (по изданию 1902 г.). М., 1997, с. 33-34.

[3] *Гегель.* Сочинения. Том 7. М., 1934.

[4] *Marks K. Engels F.* Seçilmiş məktublar. Bakı. 1955, s. 26.

[5] *Маркс К., Энгельс Ф.* Сочинения. Том 1, с. 224.

[6] *Marks K., Engels F.* Seçilmiş əsərləri. I cild. Bakı. 1953, s. 189-219.

[7] bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 210.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Алексеев С.С. Предмет советского социалистического гражданского права // Учен. труд. сер. граждан. право. Свердловск. 1959.

Братусь С.Н. Предмет и система гражданского права. М., 1963.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1998 (гл.1).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Мясляева.** М., 1997 (гл. 1).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.** М., 1998 (гл.1).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл.1).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998 (гл. 2).

Гражданское право России. Часть 1. Курс лекций / Под ред. **О.Н.Садикова.** М., 1996 (гл. 1).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева.** М., 1999 (гл. 1, §. 1).

Садиков О.Н. Принципы нового гражданского законодательства СССР // Советское государство и право. 1991. № 10.

Свердлык Г.А. Принципы советского гражданского права. Красноярск. 1995.

Толстой Ю.К. Принципы гражданского права // Правоведение. 1992. №2.

Яковлев В.Ф. Гражданско-правовой метод регулирования общественных отношений. Свердловск.

Иоффе О.С. Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 1. Л., 1958 (гл.1).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова.** М., 1985 (гл.1).

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

III FƏSİL
MÜLKİ HÜQUQUN MƏNBƏLƏRİ

§ 1. Mülki hüququn mənbələri anlayışı və növləri

1. Mülki hüququn mənbəyi anlayışı

Qeyd etmək lazımdır ki, mülki hüququn sistemi mahiyyətcə mülki hüquq normalarının obyektiv cəhətdən mövcud olan qarşılıqlı əlaqəsidir. Belə ki, bu normalar məcmu halında birləşərək mülki hüquq institutlarını (subinstitutlarını), mülki hüququn yarımsahələrini və nəhayət, mülki hüquq sahəsinin özünü yaradır. Onlar **mülki hüquq sisteminin ilkin (birinci) elementi, onun «atomudur»**. Mülki hüquq normalarını mülki hüquq adlı materiyanın «canlı hüceyrələri» hesab etsək, yanılmarıq. Onlar dövlət iradəsini ifadə edir və hakimiyyət xarakterli, ümumi məcburi davranış qaydaları müəyyənləşdirir.

Söylədiklərimizdən belə bir nəticəyə gələ bilərik ki, mülki hüququn sistemi hüquq normalarından ibarət olub, ondan qurulmuşdur. Bu normalar bilavasitə öz ifadəsini müxtəlif normativ hüquqi aktların, yəni qanunların, prezident fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının və s. maddələrində tapır.

Bax, bu qanunları, fərmanları, bir qayda olaraq, mülki hüququn mənbələri adlandırırlar. Deməli, mülki hüququn mənbələri hüquq normalarının forma cəhətdən ifadə olunduğu rəsmi dövlət sənədləridir. Bu sənədlərdə müvafiq dövlət orqanları davranış qaydalan müəyyənləşdirir. Həmin qaydalar hüquq normalarında ifadə olunur və hüquqi əhəmiyyət kəsb edir.

Belə məlum olur ki, mülki hüququn mənbələri mülki hüququn özünün xaricən ifadə formalarıdır. Söhbət mülki hüquq normalarının xaricən ifadə formalarından gedir. Bu ifadə formalarının əsas məqsədi və təyinatı həmin normalara dövlət-hakimiyyət xarakteri verməkdən ibarətdir. Axı, mülki hüquq normaları dövlət iradəsini ifadə etməzsə, onda bu normalar ümumi məcburi qüvvəyə malik ola, hüquqi məna və əhəmiyyət kəsb edə bilməz. Bu cür normalardan müvafiq mülki münasibətləri tənzimləmək üçün istifadə etmək olmaz. Ona görə də vacib və zəruridir ki, mülki hüquq normaları rəsmi dövlət sənədlərində (qanunlarda, prezidentin fərmanlarında, hökumətin qərarlarında və s.) xaricən (zahirən) ifadə olunsun. Bu baxımdan «mülki hüququn mənbələri» və «mülki hüququn formaları» kimi iki anlayış sinonim, eynimənalı anlayışlardır.[1] Belə ki, «mülki hüququn mənbələri» anlayışı mülki hüquq normalarının xaricən ifadə formalarını bildirmək üçün işlədilən anlayışdır. «Mülki hüququn mənbələri» və ya «mülki hüququn formaları» termininin hansından istifadə edilməsi alimlər arasında tez-tez terminoloji mübahisə və diskussiyalara səbəb olur. Alimlərin bir qismi «mülki hüququn mənbələri» terminini, digərləri isə «mülki hüququn formaları» terminini üstünlük verirlər. Bunların heç bir hüquqi əhəmiyyəti yoxdur. Burada hüququn mənbəyi» anlayışı «hüququn forması» kimi ifadənin sinonimi kimi nəzərdən keçiriləcəkdir. Onlara prinsipial fərq qoyulmayacaqdır[1].

«Hüququn mənbələri» terminini müasir sivilistika elmi icad etməmişdir. Onun tarixi kökü çox qədim dövrlərə gedib çıxır. Bu termini hələ Roma hüququ da tanıyırdı[2].

Roma hüququna dair çoxsaylı hüquq ədəbiyyatında «hüququn mənbəyi» termini ilə əsasən üç məna ifadə edilməsi[3] göstərilir. Birinci mənada bu terminlə hüquq normalarının məzmununun mənbəyi ifadə olunur. Bu normaların məzmununun mənbəyini cəmiyyətin maddi həyat şəraiti, mülkiyyət münasibətləri təşkil edir.

İkinci mənada «hüququn mənbəyi» termini ilə Roma hüququnu öyrədən, onun haqqında məlumat verən məxəzlər anlayışı əhatə olunur. Söhbət Roma hüququ ilə yaxından tanış olmağa imkan verən hüquqi abidələrdən (məsələn, Bizans imperatoru Yustinianın məcəllələşdirməsindən), Roma hüquqşünaslarının əsərlərindən, papiruslardan və s. gedir. Bu cür mənbə növləri Roma hüququnu öyrənməyin qiymətli məxəzləridir. Deməli, ikinci mənada «hüququn mənbəyi» termini qaynaq, məxəz mənalarını bildirir.

Üçüncü mənada «hüququn mənbəyi» termini belə bir suala cavab verilməsini nəzərdə tutur: bu və ya digər hüquq norması hansı yollarla əmələ gəlir? bu normalar hansı formalarda ifadə olunur? Bu baxımdan «hüquq mənbəyi» termini hüquq normasının əmələ gəlmə (bu normaları yaratma) formaları və ya hüquq normalarının ifadə formaları mənasında işlədilir. Roma hüququna görə adət hüququ, qanun, magistratların ediktləri, hüquqşünasların fəaliyyəti (yurisprudensiya) hüquq yaratmanın formaları – hüququn mənbələri hesab olunurdu.

Sovet mülki hüquq elmində hüququn mənbəyi əsasən üç mənada işlədilirdi: sosial-iqtisadi mənada; dövlət-siyasi mənada; xüsusi (hüquqi) mənada[4].

Sosial-iqtisadi mənada hüququn mənbəyi dedikdə, hüququn mahiyyəti-

[1] Ümumiyyətlə, «hüququn forması» və «hüququn mənbəyi» anlayışları bir-biri ilə qarşılıqlı əlaqədə olan, lakin üst-üstə düşməyən anlayışlardır. «Hüququn forması» onu göstərir ki, hüququn məzmunu necə təşkil olunmuşdur və xaricən necə ifadə edilmişdir. «Hüququn mənbəyi» isə hüququn yaranmasının kökünü, onun məzmununu və ifadə formalarını müəyyənləşdirən faktorların başlanğıcını bildirir (bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 375).

[1] Inqilabaqədərki rus sivilistlərindən G.F.Şerşeneviç «hüququn mənbəyi» terminini dörd mənada işlədilməsini göstərirdi: birincisi, hüququ yaradan qüvvə mənasında (məsələn, «Allahın iradəsini, xalqın iradəsini, ədalət ideyasını, dövlət hakimiyyətini, hüquq düşüncəsini» hüququn mənbəyi hesab edirlər); ikincisi, bu və ya digər qanunvericiliyin əsasını təşkil edən material mənasında (məsələn, Almaniya Mülki Qanunnaməsi hazırlanarkən Roma hüququ mənbə rolunu oynamışdır və ya Fransa Mülki Məcəlləsi, yəni Napaleon Məcəlləsi işlənarkən, Potenin əsərlərindən mənbə kimi istifadə edilmişdir); üçüncüsü, nə vaxtsa qüvvədə olub, hüquqi əhəmiyyətə malik olan tarixi abidə mənasında (məsələn, Corpus juris sivils, Russkaya pravda və s. hüquqi abidələrdən tədqiqat işlərində mənbə kimi istifadə olunur); dördüncüsü, qüvvədə olan hüququ öyrənmək vasitəsi mənasında. G.Şerşeneviç göstərirdi ki, «hüququn mənbəyi» çox məna ifadə edir, bu termindən istifadə etmək olduqca yararsızdır. Ona görə də alim bu termini «hüququn forması» termini ilə əvəz etməyi təklif edirdi (bax: Шершеневич Г.Ф. Общая теория права. Том 2. СПб. 1912, с. 368-369).

[2] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 2000, с. 24-28; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 83-96; *Пухан И. Поленак-Акимовская.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 39-44.

[3] *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı, 1999, s. 10-11.

[4] Советское гражданское право. Учебник / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 46-49.

nı müəyyən edən sosial-iqtisadi faktorların (başlıcası mülkiyyət forması) məcmusu başa düşülür. **Dövlət-siyasi mənada hüququn mənbəyi** hüquq normalarında ifadə olunan dövlət iradəsini bildirir.

Xüsusi (hüquqi) mənada hüquq mənbəyi dedikdə, dövlət iradəsinin ifadə aktı (forması) başa düşülür. Lakin dövlət iradəsini ifadə edən hər bir aktı mülki hüququn mənbəyi hesab etmək olmaz. Bunun üçün üç şərtin olması gərəkdir:

- birincisi, dövlət iradəsini ifadə edən aktlar **müəyyən davranış qaydası (hüquq norması) müəyyənləşdirməlidir.** Onlar ümumməcburi qüvvəyə malikdir.
- ikincisi, müvafiq aktı qəbul edən orqanın **bu cür akt verməyə səlahiyyəti və ixtiyarı çatmalıdır;**
- üçüncüsü, həmin aktın qəbul edilməsi gedişində **qanunla müəyyənləşdirilən qayda (prosedura) gözlənilməlidir.**

Göstərilən üç şərt əsasında qəbul edilən akt dövlət iradəsini ifadə etmiş sayılır. Buna görə də həmin akt mülki hüququn mənbəyi kimi tanınır və qəbul edilir. Bu fəsildə söhbət məhz xüsusi (hüquqi) mənada hüququn mənbəyindən gedəcəkdir. Həmin aspektdən də mülki hüququn mənbələrinə anlayış verə bilərik.

Beləliklə, **mülki hüququn mənbələri dedikdə, dövlət iradəsinin ifadə forması olan elə normativ aktlar başa düşülür ki, bu aktlar səlahiyyəti çatan müvafiq dövlət orqanları tərəfindən qanunla nəzərdə tutulmuş prosedurada qəbul edilir və mülki hüquq normaları müəyyənləşdirir.** Bu anlayışdan belə təsəvvür yaranır ki, **mülki hüququn mənbəyi mülki hüquq norması yaratmaq üzrə dövlət fəaliyyətidir**[1]. O, mülki hüquq normasının ifadə edilməsi və mövcud olması üsuludur. Mahiyyətcə söhbət mülki hüququn xaricən formasından gedir ki, o, dövlət iradəsini ifadə edir.

2. Mülki hüququn mənbə növləri

Sivilistika elmində mülki hüququn müxtəlif mənbə növləri fərqləndirilir. Bu mənbə növlərinin və onlar arasında qarşılıqlı münasibətlərin müəyyən edilməsinin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Ona görə ki, yalnız hüquq mənbəyində ifadə olunan mülki hüquq norması müvafiq münasibəti nizama salmaq üçün tətbiq edilə bilər. Mənbə növü kimi tanınmayan və qəbul edilməyən norma hüquqi (ümumməcburi) əhəmiyyətə malik deyil. Bu normaların praktikada tətbiqi hüquqi qüvvə kəsb etmir.

Hər bir ölkənin mülki hüquq mənbələrini, onların tərkibini və əhəmiyyətinə görə bu tərkiblər arasındakı münasibəti bilmək mühüm rola malikdir. Ona görə ki, bunlar dünya ölkələrinin mülki hüquq ailələrini (sistemlərini) bir-birindən fərləndirməyə imkan verən və kömək edən əsas amillərdən, başlıca komponentlərdən biridir[2]. Məsələn, digər amillərlə birlikdə mənbələrinə görə müəyyən etmək olur ki, bu ölkənin mülki hüququ dünyanın hansı hüquq ailəsinə (sisteminə) — roman-german ailəsinəmi, yoxsa ingilis-amerikan ailəsinəmi və yaxud başqa birisinəmi daxildir. Ələlxüsus da dünyanın mülki hüquq ailələrini (sistemlərini) bir-birindən fərqləndirmək üçün hüquq mənbələri içərisində normativ aktların, o cümlədən məcəllələşdirilmiş aktların xüsusi çəkisi, məhkəmə praktikasının əhəmiyyəti, dini normalar və s. nəzərə alınır və mühüm rol oynayır. Bəzi ölkələrdə parlamentin qəbul etdiyi hüquqi aktlar, digər ölkələrdə məhkəmə presedenti və qərarları, bir qrup ölkələrdə hüquqi akt qəbul etmək üçün səlahiyyət verilən dövlət idarə orqanlarının normativ aktları, digər ölkələrdə isə dini normalar hüquq mənbələri arasında üstün mövqeyə malik olub, digərlərinə nisbətən daha vacib əhəmiyyət kəsb edir. Ona görə də Azərbaycan Respublikasının mülki hüququnun əsas mənbə növlərini müəyyənləşdirmək lazımdır. Bizim ölkədə mülki hüququn hansı mənbə növləri mövcuddur? Bu növlər arasında münasibət necə qurulur?

Bütün sivil və inkişaf etmiş dövlətlərdə hüququn müasir mənbələri arasında **normativ hüquqi aktlar aparıcı yer tutur**. Mütərəqqi və qabaqcıl xarici hüquq sistemlərində **onlar üstün və əsas mənbə növü hesab edilir**. Bu mənbə növü roman-german hüquq ailəsində və ona yaxın olan hüquq sistemlərində geniş yayılmışdır. Normativ aktlar həmin ailədə və sistemlərdə əsas və başlıca rol oynayır. İngilis-amerikan (ingilis-sakson) hüquq ailəsində isə həmin aktlar əsas mənbə növü kimi tanınmır və qəbul edilmir.

Azərbaycan Respublikasında da normativ aktlar əsas, başlıca və daha mükəmməl mənbə növü hesab edilir. O, digər mənbə növlərinə nisbətən üstün mövqeyə malik olmaqla, mühüm rol oynayır. Onların xüsusi çəkisi digərləri ilə münasibətdə daha çoxdur.

Bu isə təsadüfi deyildir. Axı, mülki hüququn digər mənbələrindən fərqli olaraq, normativ aktlar ictimai inkişafın dəyişən dinamik tələbatını daha tam və operativ surətdə nəzərə almaq, əks etdirmək iqtidarındadır. Onlar mülki-hüquqi tənzimetmənin səmərəliliyini və sabitliyini təmin etmək imkanında olan mənbə növüdür. Normativ aktlar müxtəlif münasibətləri mərkəzləşdirilmiş qaydada nizama salmaq, ictimai inkişafın dəyişməsinə cəld və tez cavab vermək, özündə təsbit olunan hüquqi göstərişləri dəqiq, sadə və anlaşılan tərzdə ifadə etmək qabiliyyətinə və xüsusiyyətinə malikdir. Bu aktların yazılı sənəd formasında mövcudluğu onların məzmunu ilə əhalinin bilavasitə və operativ surətdə tanış olmasına imkan verir.

Bundan əlavə, normativ aktlar bütün dövlət miqyasında **məhkəmə və ya inzibati praktikanın vahidliyini təmin edir**. Belə ki, qanunverici, yəni dövlət hakimiyyət orqanı ictimai münasibəti dərk edərək, sosial praktikanı ümumiləşdirir, təkrar olunan halları tipləşdirir (tiplərə ayırır). Sonra isə o, vətəndaş və hüquqi şəxslər üçün hüquq və vəzifələrin ümumi modelini müəyyən etmək və yaratmaq üçün normativ aktlar qəbul edir. Məhkəmə və dövlət icra hakimiyyəti orqanları konkret məhkəmə və inzibati məsələlərin həlli zamanı həmin normativ aktlarda nəzərdə tutulan hüquq normalarını tətbiq edirlər.

Normativ hüquqi akt dedikdə, səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilmiş, göstərişləri ümumi məcburi xarakter daşıyan, hüquq normaları müəyyən edən, dəyişdirən və ya xitam edən, dəfələrlə tətbiq olunmaq üçün nəzər-

[1] Ümumiyyətlə, hüquq ədəbiyyatında hüququn mənbəyi eyni mənada müəyyən edilmir. Bəzən ona hüquq norması yaratmaq üzrə dövlət fəaliyyətinin nəticəsi kimi də baxırlar. Hüququn mənbəyinin ifadə etdiyi bu və ya digər məna barədə bax: *Разумович Н.Я.* Источники формы права // Советское государство и право. 1988. № 3.

[2] *Рене Давид, Камилла Жоффре-Спинози.* Основные правовые системы современности / Перевод с франс. М., 1999; *М.Н.Марченко.* Правовые системы современного мира. М., 2001.

də tutulmuş rəsmi yazılı sənəd başa düşülür[1]. Bu aktlarda hüquqi qayda (norma) formulə edilir ki, onlar hüququn əsas mənbəyi kimi **çıxış** edir. Mülki hüquq sahəsində normativ hüquqi aktlar ənənəvi olaraq **mülki qanunvericilik kateqoriyası** ilə əhatə edilir. Belə ki, özündə mülki hüquq normaları ifadə edən normativ hüquqi aktlar məcmu halında birləşərək mülki qanunvericiliyi yaradır.

Mülki qanunvericilik həm məhdud, həm də geniş mənada işlədilir. **Məhdud mənada mülki qanunvericilik dedikdə**, yalnız qanunlar başa düşülür. **Geniş mənada mülki qanunvericilik aktları** isə odur ki, onlar özlərində bütün normativ hüquqi aktları – həm qanunları, həm də qanun qüvvəli aktları məcmu halında birləşdirir. Bu fəsildə biz «mülki qanunvericilik» kateqoriyasından geniş mənada istifadə edəcəyik[2].

Azərbaycan Respublikasının mülki hüququnun mənbə növlərindən biri **beynəlxalq hüququn hamılıqla qəbul edilmiş (ümumtanınmış) prinsipləri və normalarıdır**. Yaşadığımız məmləkətin əsas məqsədlərindən biri dünya dövlətləri ilə sülh və əmin-amanlıq şəraitində yaşamaqdan və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdən ibarətdir. O, digər dövlətlərlə siyasi-iqtisadi, mədəni və s. münasibətləri beynəlxalq hüququnun hamılıqla qəbul edilmiş prinsipləri əsasında qurur. Bu prinsiplər ölkəmizin milli qanunvericiliyində nəzərə alınır. Xüsusən dövlətlərin suveren bərabərliyi, dövlətlərin əməkdaşlığı, qarşılıqlı fayda və s. prinsiplər mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq hüququn bu və ya digər prinsipi BMT-nin Nizamnaməsində və nisbətən geniş surətdə Beynəlxalq hüququn prinsipləri haqqında Deklarasiyada (1970) formulə edilmişdir. BMT Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsində göstərilir ki, məhkəmələr «sivil millətlər tərəfindən tanınan hüququn ümumi prinsipləri»ni hüququn mənbəyi kimi tətbiq edə bilərlər. Almaniya hüquqşünası Q.Fişer göstərir ki, başqa dövlətlərin hüquq subyektləri ilə dövlətin bağladığı müqavilədə onlar arasında mübahisə yaranacağı təqdirdə beynəlxalq hüququn prinsiplərinin tətbiq edilməsi nəzərdə tutula bilər.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq (dövlətlərarası) müqavilələr mülki hüququn mənbə növlərindən biri kimi qəbul edilir və tanınır. Müasir dünya təsərrüfatının obyektiv surətdə beynəlmiləlləşdirilməsi prosesi gedir. Bu, dövlətlərarası çoxtərəfli iqtisadi münasibətlərin yeni səviyyədə qurulmasını tələb edir. Bundan əlavə, Azərbaycan Respublikasında iqtisadiyyat bazar münasibətləri əsasında inkişaf edir, təsərrüfat münasibətləri bazar prinsipləri və qaydaları üzərində qurulur. Bunlar ölkəmizin dünya təsərrüfat sistemi ilə inteqrasiya proseslərinin gücləndirilməsini tələb edir. Bu cür şəraitdə isə dövlətlərarası münasibətlərin hüquqi rəsmiləşdirmə vasitəsi kimi beynəlxalq müqavilələrin rolu artır. Həmin sənədlərin beynəlxalq iqtisadi münasibətlər rejimi müəyyən etməkdə əhəmiyyəti böyükdür.

Azərbaycan Respublikası xarici dövlətlərlə müxtəlif xarakterli və məzmunlu müqavilələr bağlayır. Bu müqavilələr **ölkəmizin qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir**. Onlar mülki hüququn mənbəyi rolunda çıxış edir. Həmin sənədlər mənbə növü kimi nəzərə alınır.

Müasir əmlak (mülki) dövriyyəsində **hüququn mənbəyi kimi adətlərin** rolu artır[1]. Adətlər sosial normaların ən qədim növlərindən biridir. Dövlətəqədərki cəmiyyətdə, yəni icma quruluşu şəraitində münasibətlər əsasən onların vasitəsi ilə tənzimlənirdi.

Sosialist dövlətlərində hüququn mənbəyi kimi adətlərdən bəzi hallarda istifadə edilirdi. Sovet mülki hüququ onları hüququn mənbəyi kimi qəbul etmirdi və tanımırdı. Onlar hüququn mənbəyi kimi, demək olar ki, hər hansı rola malik deyildi. Lakin adətlər öz rolunu bütünlüklə itirməmişdi. Sovet mülki qanunvericiliyi bəzi məqamlarda adətlərə əhəmiyyət verir və onlan nəzərə alırdı. Məsələn, Azərbaycan Respublikasının köhnə 1964-cü il MM-in 160-cı maddəsində göstərilirdi ki, qanunda, plan aktında, yaxud müqavilədə sair hal nəzərdə tutulmazsa, öhdəlik adi tələblərə uyğun olaraq icra edilməlidir. «Adi tələblər» mahiyyətcə, hüquqi adətləri ifadə edirdi.

Müasir dövrdə komanda (sovet) iqtisadiyyatından bazar iqtisadiyyatına keçilməsi və əmlak dövriyyəsinin canlanması adətlərin rolunu yenidən artırmışdır. Bunu nəzərə alaraq Azərbaycan Respublikasının mülki hüququ adətlərə hüququn mənbə növlərindən biri kimi əhəmiyyət verir. Mülki qanunvericilik bir çox hallarda münasibətlərin adətlərlə tənzimlənməsi və nizama salınması barədə göstəriş ifadə edir.

Beləliklə, əmlak dövriyyəsində tətbiq edilən adətlər mülki hüququn mənbə növlərindən biridir. Bu, həm roman-german, həm də ingilis-amerikan hüquq ailəsi ənənələrinə uyğundur. Belə ki, həmin ailələr (sistemlər) adətləri hüququn mənbəyi hesab edir[2].

Hüquqi presedent (latınca praecedentis - əvvəlki, qabaqcadan gələn) müasir dünyada hüququn nisbətən geniş yayılmış mənbə növlərindən biridir. **Hüquqi presedent** dedikdə, dövlətin ümumi məcburi qüvvə və əhəmiyyət verdiyi dövlət orqanlarının elə qərarları başa düşülür ki, bu qərarlar sonrakı konkret analoji işlərə baxılması zamanı nümunə (qayda) kimi tətbiq olunur. Bunun əsas mahiyyəti ondan ibarətdir ki, konkret iş üzrə dövlət orqanının əvvəllər çıxardığı qərar sonradan analoji (oxşar) işlər həll edilərkən hüquq norması qüv-

[1] «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli qanununun 2-ci maddəsinə bax //Biznesmenin bülleteni. Bakı. 2000. 2 (278).

[2] Müəlliflərdən prof. M.M.Semyakin və dos. T.İ.Xmelyova göstərirlər ki, RF-in Konstitusiyasının 71-ci maddəsinə uyğun olaraq mülki qanunvericilik anlayışı ilə yalnız federal qanunlar əhatə olunur. Onların fikrincə, digər normativ aktlar mülki qanunvericiliyə daxil deyildir (bax: *Гражданское право. Учебник. Часть 1 /Под ред. Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* M., 1998, с. 21-22; *Гражданское право. Учебник. Часть 1 /Под ред. З.И.Цыбуленко.* M., 1998, с. 28-29). Bu müəlliflərin fikirləri həqiqətdən çox uzaqdır. Onа görə ki, onlar qanunu hərfi mənada təfsir edərək, mülki qanunvericiliyi məhdud mənada işlədirlər. Düzdür, RF-in 71-ci maddəsində göstərilir ki, mülki qanunvericilik RF-in səlahiyyətlərinə aiddir. Həmin müəlliflər burdan bir nəticə çıxarırlar ki, mülki qanunvericilik yalnız federal qanunlardan ibarətdir. Hörmətli alimlərin nəzərinə çatdırıram ki, qanunu hərfi yox, genişləndirici təfsir etmək lazımdır. Belə ki, geniş mənada mülki qanunvericilik özündə həm qanunları, həm də qanunqüvvəli aktları birləşdirir. Qanunu da bu aspektdən izah etmək gərəkdir.

[1] *Свечникова Л.Г.* Понятие обычая в современном науке: подходы, традиции, проблемы (на материалах юридической и этнологической науке) // Государство и право. 1998. № 9, с. 98-102.

[2] *Рене Давид, Камилла Жоффре-Спинози.* Основные правовые системы современности. М., 1999, с. 93-94, 262-263; *Марченко М.Н.* Правовые системы современного мира. М., 2001, с. 67, 183.

vəsinə (ümumi məcburi qüvvəyə) malik olur. Hüquqi presedentin köməyi ilə hər hansı bir analoji (oxşar) fakt və ya hal təsdiq oluna və ya izah edilə bilər[1].

Hüquqi presedent qədim Roma hüququna da məlum idi. Belə ki, qədim Romada oxşar işlərə baxıldıqda pretorların və digər magistrlərin qərarları məcburi sayılırdı[2]. Roma hüququnun bir çox institutları presedent əsasında yaranmışdır.

Hüquqi presedentin iki növü fərqləndirilir: məhkəmə presedenti; inzibati presedent. **Məhkəmə presedenti** odur ki, o, konkret iş üzrə məhkəmə orqanının əvvəllər çıxardığı qərarın sonrakı oxşar (analoji) işlərin həlli zamanı tətbiq edilməsini nəzərdə tutur. **İnzibati presedentin** mahiyyəti isə ondan ibarətdir ki, konkret iş üzrə dövlət inzibati orqanının əvvəllər çıxardığı qərar sonradan oxşar işlərin həlli zamanı məcburi hüquq norması qüvvəsinə malik olur.

Hüquqi presedent ingilis-amerikan hüquq ailəsində hüququn əsas və başlıca mənbəyi hesab edilir. Hüququn mənbəyi kimi o, Böyük Britaniya, ABŞ, Kanada və Avstraliya hüququnda nisbətən daha geniş yayılmışdır. Bu ölkələrin hüquq sistemində hüquqi presedent qanunvericilik aktı qüvvəsinə malikdir. Presedent hüququnun vətəni Böyük Britaniyadır[3].

Hazırkı dövrdə Böyük Britaniya məhkəmələri hüquq normaları yaradır. Məhkəmə qərarlarında müəyyən edilən qaydalar, məcburi xarakterli normalar kimi sonralar da tətbiq edilir. Beləliklə, hüquqi presedent ingilis-amerikan hüquq ailəsində qanunlara nisbətən əsas, başlıca və həlledici hüquq mənbəyi kimi dəstəklənir, qəbul edilir və tanınır.

Sovet hüquq elmi hüquq presedentini hüququn mənbəyi kimi qəbul etməmişdi. Rəsmi sovet doktrinası belə hesab etmişdir ki, presedent hüququn mükəmməl mənbəyi ola bilməz və onun əsas rolu təfsir prosesində hüquq normalarını konkretləşdirməkdən, qanunun mənasını izah etməkdən ibarətdir[4].

Roman-german (kontinental) hüquq ailəsində hüququn mənbəyi kimi presedentin statusu qeyri-müəyyən və daxilən ziddiyyətlidir. Belə ki, bu ailəyə daxil olan bir qrup ölkələrdə presedent hüququn mənbəyi kimi tanınır və ondan geniş surətdə istifadə edilir, digər qrup ölkələrdə isə presedent hüququn mənbəyi sayılmır və olduqca məhdud dairədə tətbiq olunur. Məsələn, İspaniyada məhkəmə presedentinin hüquq norması yaratmaq rolu rəsmi surətdə tanınır. İsveçrədə presedent hüququn mənbəyi kimi rəsmən tanınır və qanunvericilik qaydasında təsdiqlənir. Almaniya, Danimarka, İtaliya, Norveç, Finlandiya, İsveç, Hollandiya, Yunanıstan və digər roman-german hüququ ölkələrində presedent hüququn mənbəyi kimi qanunvericilik qaydasında təsdiqlənmir və təmin edilmir, yəni formal olaraq tanınmır, lakin faktiki cəhətdən mövcud olub tətbiq edilir[1].

Azərbaycan Respublikasının mülki hüququ presedenti hüququn mənbəyi hesab etmir və tanımır. Bizim ölkə hüququnda presedent hüququ mövcud deyil. O, mənbə kimi nə qanunvericilik qaydasında rəsmən möhkəmləndirilir, nə təmin olunur, nə formal olaraq tanınır, nə də ki faktiki olaraq tətbiq edilir. Məhkəmə presedentindən – konkret iş üzrə qəbul edilən qərardan buna oxşar işlərin həlli zamanı məcburi xarakterli hüquq norması kimi istifadə olunmur. Azərbaycan Respublikasının qanunvericiliyinə görə bu cür qərar yalnız həmin işdə iştirak edən şəxslər üçün məcburidir. Bu cür qərar həmin işə oxşar (analoji) olan işlərə baxan hakimlər üçün məcburi qüvvəyə malik deyil.

Məhkəmə presedentini məhkəmə təcrübəsindən fərqləndirmək lazımdır[2]. Bu iki anlayış identik (eyni mənalı) və sinonim deyil. Lakin bir çox tədqiqat işlərində onlar identik və bir-birini qarşılıqlı surətdə əvəz edən anlayışlar kimi işlədilir[3].

Məhkəmə praktikası məhkəmələr tərəfindən müəyyən dərəcədə hamılıqla qəbul edilən və məcburi olan qayda, prinsip, göstəriş formasında **ümumi hüquqi müddəalar formulə edilməsidir**[4].

Məhkəmə presedenti isə məhkəmə fəaliyyətinin nəticəsidir, yəni **məhkəmə fəaliyyətinin işləyib hazırladığı ümumi prinsiplərin özüdür. Məhkəmə təcrübəsi** dedikdə, məhkəmənin eyni kateqoriya işlər üzrə dəfələrlə bir (eyni) cür qaydada qərar çıxarması başa düşülür. Məhkəmə presedenti isə, yuxarıda qeyd etdiyimiz kimi, məhkəmənin konkret iş üzrə çıxardığı qərardır. **Azərbaycan Respublikasının mülki hüququ məhkəmə presedenti kimi məhkəmə təcrübəsini (praktikasını) də hüququn mənbəyi hesab etmir**[5].

Yaranmış məhkəmə təcrübəsi eyni kateqoriya işlərə baxan məhkəmələr üçün məcburi qüvvəyə malik deyil. Hakim məhkəmə təcrübəsindən fərqli qərar da qəbul edə bilər. Məsələn, onun ixtiyarı çatır ki, yaranmış məhkəmə təcrübəsi qanuna zidd olduğu hallarda, başqa qərar çıxartsın. Yaranmış məhkə-

[1] *Кросс Р.* Прецедент в английском праве. М., 1985, с. 8.

[2] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 111; Римское частное право. Учебник /Под ред. *Б.Новицкого, И.С. Перетерского* М., 1999, с. 28.

[3] İngiltərədə presedent aşağıdakı qaydada hüquqi qüvvəyə malikdir: a) Lordlar palatası tərəfindən çıxarılmış qərarlar bütün məhkəmələr üçün və bu palatanın özü üçün məcburi presedentdir; b) Apellyasiya məhkəməsi tərəfindən qəbul edilmiş qərarlar Lordlar Palatasından başqa, bütün məhkəmələr üçün məcburidir; c) Ali Ədalət Mühakiməsi məhkəməsinin qəbul etdiyi qərarlar aşağı məhkəmələr üçün məcburidir.

[4] Bəzi müəlliflər qəti olaraq göstərirlər ki, roman-german hüquq ailəsində presedent hüququn mənbəyidir (bax: *Рене Давид, Камилла Жоффре-Спинози.* Основные правовые системы современности. М., 1999, с. 96). Bəzi müəlliflər isə qeyd edirlər ki, presedentin rolu, əsasən, qanunun təfsiri (izahı) ilə bağlıdır. O, hüququn mənbəyi ola bilməz (bax: *Xropanyuk V.N.* Dövlət və hüquq nəzəriyyəsi / Rus dilindən tərcümə. Bakı. 1995, s. 96).

[1] Bu barədə ətraflı məlumat almaq üçün bax: *Marçenko M.N.* Pravovie sistemı sovremennoqo mira. M., 2001, s. 104-112. Məhkəmə presedentinin hüququn mənbəyi olması Almaniya alimlərində mübahisə doğuran məsələlərdəndir. «AFR-in mülki hüquq kursu»nun müəllifləri göstərirlər ki, məhkəmə presedenti hüququn mənbəyi hesab edilmir (bax: *Enneccerus L., Nipperdey H.* Lehrbuch des bürgerlichen Rechts Bd. 1. Bonn. 1959, s. 268-284). Bu konsepsiyanın kifayət qədər xeyli tərəfdarları vardır.

[2] Bəzi müəlliflər bu iki anlayışı eynimənalı anlayışlar kimi işlədirlər. Məsələn, bax: *Xropanyuk V.N.* Dövlət və hüquq nəzəriyyəsi /Rus dilindən tərcümə. Bakı. 1995, s. 95.

[3] *Cross R.* Precedent of English L aw. L., 1990. p. 25-33; *Кросс Р.* Прецедент в английском праве. М., 1985, с. 28-37.

[4] bax: *Туманов В.А.* Роль судебной практики в развитии советского права //СССР-Франция: социологический и международно-правовой аспект сравнительного правоведения. М., 1987, с. 36-37.

[5] Müəlliflərdən V.L. Kulapov göstərir ki, qanunlar tam və ya aydın olmadıqda, məhkəmə təcrübəsindən əlavə, ikinci dərəcəli hüquq mənbəyi kimi istifadə edilir. Bu cür istifadə prosesində qanunlar konkretləşir, mübahisəli məsələlərin həll edilməsi üzrə təcrübə qazanılır (bax: Теория государства и права. Курс лекций /Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 882). Onun məhkəmə təcrübəsinin hüququn mənbəyi olması barədə yürütdüyü fikir, şübhəsiz ki, həqiqətdən uzaqdır.

mə təcrübəsinin mülki hüququn mənbəyi olmamasına baxmayaraq, o, böyük əhəmiyyətə və rola malikdir. Məhkəmə təcrübəsi cəmiyyətdə hüquq qaydasının və qanunçuluğun təmin edilməsinə xidmət edir. Məhz onun köməkliyi və vasitəsi ilə mülki hüquq normaları bir (eyni) cür qaydada başa düşülür və tətbiq edilir.

Mülki hüquq elmini Azərbaycan Respublikasının mülki hüququ mənbə növü kimi qəbul etmir. Xaricdə mülki hüquq elmini **mülki hüquq doktrinası və ya sivilistika doktrinası** adlandırmaq dəb və adət halını almışdır. Sivilistika doktrinası hüquq elmlərinin bir sahəsi olub, mülki hüquq hadisələri (hüquq normaları, mülki hüquq münasibətləri, hüquqi faktlar, mülki hüquqla tənzimlənən ictimai münasibətlər və s.) haqqında anlayışların, müddəaların və nəticələrin – biliklərin sistemidir. Bu cür biliklər hüquq normalarının (mülki qanunvericiliyin) doktrinal (elmi) təfsiri (izahı) nəticəsində yaranır. **Doktrinal (elmi) təfsir** qeyri-rəsmi təfsirin mühüm növüdür. Bu cür təfsir sivilist alimlər, praktiki işçilər (hüquqşünaslar), xüsusi elmi tədqiqat müəssisələri tərəfindən mülki qanunvericiliyə verilən şərhlərdə, elmi əsərlərdə, monoqrafiyalarda, dərsliklərdə, dərs vəsaitlərində, mühazirə kurslarında, məqalələrdə, mühazirə və çıxışlarda əmələ gəlir.

Qədim Romada hüquqşünaslarının fəaliyyəti hüququn mənbəyi hesab olunurdu. Qanunları şərh etməklə Roma hüquqşünasları ayrı-ayrı normalara müəyyən məna verirdilər. Bu cür fəaliyyətlə onlar həqiqətən faktiki olaraq məcburi qüvvəyə malik olan hüquq norması yaradırdılar. Qədim Roma hüquqşünaslarının fəaliyyətinin əsl məqsədi qüvvədə olan hüquq normalarının tətbiqinə kömək etməkdən ibarət idi. Həmin fəaliyyət əslində hüquq yaradıcılığının müstəqil forması sayılırdı. Roma hüquqşünaslarının hüquq norması yaratmaq üzrə fəaliyyəti formal cəhətdən də etiraf edildi. Beləliklə, qədim Romada mahir hüquq bilicilərinin yaradıcı fəaliyyəti (responsa prudentium) normativ, hüquqyaradıcı xarakterə malik olub, məcburi davranış qaydası müəyyən edirdi və bununla hüququn mənbə növü rolunu oynayırdı[1].

Roman-german hüquq ailəsində doktrina hüququn mənbə növlərindən biri hesab edilir[2]. Presedent kimi doktrina da hüququn formal mənbəyi kimi tanınmır. O, faktiki və real olaraq mövcud olan hüquq mənbəyi kimi qəbul edilir[3].

[1] Hüququn mənbəyi – hüquq norması yaratmanın forması kimi Roma hüquqşünaslarının fəaliyyəti (yurisprudensiya) barədə ətraflı məlumat almaq üçün bax: *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.N.Əsgərovanın tərcüməsi. Bakı, 1999, s. 10, 11, 19-23; Дождев Д.В. Римское частное право. Учебник. М., 1999, с. 99, 101-103; Римское частное право. Учебник /Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 32-35; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 42.

[2] Roman-german hüquq mənbələrinin təhlilinə həsr edilmiş ədəbiyyatda «doktrina» termininin geniş mənada işlədilməsinə rast gəlirik. Belə ki, bu termin işlədilir: fəlsəfi-hüquqi nəzəriyyə, təlim mənasında; hüquqşünas alimlərin müxtəlif hüquqi aktların mahiyyəti və məzmunu barədə, hüquqyaratma və hüquqtətbiqetmə məsələləri üzrə fikirləri mənasında; nüfuzlu və tanınmış tədqiqatçıların elmi əsərləri və işləri mənasında; müxtəlif məcəllələrə, ayrı-ayrı qanunlara verilən kommentariya, müxtəlif normativ aktlar barədə elmi fərziyyələr mənasında. Doktrina latınca «doctrina» ifadəsindən olub, təlim, elmi və ya fəlsəfi nəzəriyyə, siyasi sistem deməkdir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н. Петрова*. М., 1954, с. 241).

[3] bax: *Марченко М.Н.* Правовые системы современного мира. М., 2000, с. 111-112.

İngilis-amerikan hüquq ailəsində də hüquq doktrinası hüququn mənbəyi kimi mühüm rol oynayır[1].

Beləliklə, **sivilistika doktrinası bizim ölkədə mülki hüququn mənbəyi hesab edilmir**. Onun məcburi qüvvəsi yoxdur. O, ümumməcburi davranış qaydası müəyyən etmir. Lakin onun verdiyi biliklər qanunun, digər normativ aktların mənasının dərin və hərtərəfli başa düşülməsinə kömək edir. Hüquq normalarının təcrübədə dəqiq və düzgün tətbiq edilməsində mülki hüquq doktrinasının müəyyən etdiyi hüquqi konsepsiyalar və müddəalar böyük əhəmiyyətə malik olur. Sivilist fikir çox vaxt müşkül, çətin və qəliz işlərin düzgün həll edilməsində təcrübi işçilərin və hüquqtətbiqetmə orqanlarının köməyinə gəlir.

Əqdlərin bir növü olan mülki-hüquqi müqavilələri (məsələn, müxtəlif cür təsis müqavilələrini və s.) Azərbaycan Respublikasının hüquq doktrinası mənbə növü kimi qəbul etmir və tanımır. Ona görə ki, həmin müqavilələr ümumməcburi davranış qaydaları (hüquq norması) müəyyən etməyərək, **fərdi-birdəfəlik və lokal xarakterə malikdir**. Mülki-hüquqi müqavilələr dedikdə, iki və ya daha çox tərəfin mülki hüquq və vəzifələrinin yaranmasına, dəyişməsinə, yaxud xitam edilməsinə yönəldilmiş sazişi başa düşülür. Onlar iqtisadi mübadilə münasibətlərinin hüquqi formasıdır. Bazar təsərrüfatı şəraitində müqavilə hüquqi konstruksiyası iqtisadi əlaqələri nizama salmağın ən əsas üsullarından biridir. O, təsərrüfat fəaliyyətini təşkil etməyin nisbətən daha səmərəli vasitəsidir. Müqavilə, onu bağlayan tərəflər üçün hüquq və vəzifələr müəyyən edir, həmin tərəflər arasındakı qarşılıqlı münasibətləri tənzimləyir. O, hər iki tərəf üçün ümumi məcburi hüquqi qüvvəyə malikdir. Təsadüfi deyildir ki, Fransa Mülki Məcəlləsinin 1134-cü maddəsinin 1-ci hissəsi qanuni əsaslarla bağlanmış müqaviləni (sazişi) onu bağlayanlar üçün qanun hesab edir[2]. Beləliklə, müqavilələr mülki hüququn mənbəyi olmasa da, o, tərəflərin qarşılıqlı münasibətlərini təşkil etməyin ən effektli üsulu kimi çıxış edir.

Əqdlərin növü kimi müqavilələrdən fərqli olaraq, **normativ məzmunlu (normativ) müqavilələr hüququn mənbə növlərindən** biri hesab edilir[3]. Bu cür müqavilələr ümumi xarakterli məcburi davranış qaydası (hüquq norması) müəyyən edir. Normativ müqavilələr konstitusiya, əmək, mülki və beynəlxalq hüquq sahələrində getdikcə daha geniş surətdə yayılmaqdadır. Onlara misal olaraq RF-in subyektləri ilə federal hakimiyyət arasında bağlanan Federativ müqaviləni (o, konstitusiya hüququnun mənbəyidir), müəssisələrdə bağlanan kollektiv müqaviləni (o, əmək hüququnun mənbəyidir), beynəlxalq müqaviləni (o, mülki hüququn, beynəlxalq ümumi və ya beynəlxalq xüsusi hüququn mənbəyi ola bilər) göstərmək olar.

Fərdi aktlar mülki hüququn mənbə növü kimi qəbul edilmir. Bu aktlar nisbətən tipik, kütləvi, sosial cəhətdən əhəmiyyətli münasibətləri yox, yalnız

[1] bax: *Marçenko M.N.* Göstərilən əsər, s. 201-205.

[2] bax: Французский Гражданский Кодекс 1804 г. /Перевод *И.С.Перетерского*. М., 1941; *Марандьер Л.Ж.* Гражданское право Франции. Кн. 2. М., 1961.

[3] Normativ müqavilənin əsas cəhətləri barədə məlumat almaq üçün bax: *Тихомиров Ю.А.* Публичное право. М., 1995; Теория государства и права. Курс лекций /Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 378-379; Общая теория права и государства. Учебник /Под ред. *В.В.Лазарева*. М., 2001, с. 179-181.

konkret münasibətləri tənzimləyir. Onlar ümumməcburi davranış qaydaları (hüquq normaları) müəyyən etmir. Həmin aktlar yalnız onu bağlayan tərəflər üçün məcburidir. Fərdi aktlara lokal aktlar da deyilir. Bu cür aktlara müxtəlif cür hüquqi şəxslərin (məsələn, səhmdar cəmiyyətlərinin, istehsal kooperativlərinin, məhdud məsuliyyətli müəssisələrin və s.) nizamnamələrini misal göstərmək olar. Onlar konkret qarşılıqlı münasibətləri tənzimləsə də, mülki hüququn mənbə növü kimi çıxış etmir. Fərdi hüquqi aktlar konkret hüquq subyektlərinə aid olur. Onlar birdəfəlik tətbiq olunmaq üçün nəzərdə tutulur, müəyyən şəxslərə şamil olunur. Bu cür aktlar konkret hüquq və ya vəzifənin realizə edilməsi ilə öz qüvvəsini itirir. Hüquq normalarından fərqli olaraq fərdi aktlar konkret şəxslərə və konkret həyati hallara aid olur. Məsələn, vətəndaş öz qonşusuna borc müqaviləsi əsasında borc pul verir. Müddət başa çatdıqda qonşu borcu qaytarmır. Vətəndaş məhkəməyə müraciət edir. Məhkəmə borcun məcburi surətdə qaytarılması barədə qərar qəbul edir. Bu fərdi akt olub, hüququn mənbəyi sayılmır.

Beləliklə, apardığımız araşdırmalar, gəldiyimiz nəticələr Azərbaycan Respublikasının mülki hüququnun mənbə növlərini dəqiq olaraq müəyyən etməyə imkan verir. Onlara aiddir:

- normativ hüquqi aktlar (mülki qanunvericilik);
- əmlak dövriyyə adətləri;
- beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri;
- beynəlxalq dövlətlərarası müqavilələr (konvensiyalar).

3. Mülki qanunvericiliyin anlayışı və xüsusiyyətləri

Azərbaycan Respublikasının mülki hüququnun əsas və başlıca mənbə növü normativ hüquqi aktlardır. Bu, roman-german hüquq ailəsi ənənələrinə uyğundur. Normativ hüquqi aktlar (enacted law) bu ailə ölkələrində hüququn ilkin və birinci dərəcəli mənbə növü hesab edilir[1]. Qərb hüquq ədəbiyyatında çox vaxt onları **yazılı aktlar** və ya **formal aktlar** və yaxud **sözün geniş mənasında qanunlar** (qanunvericilik orqanı tərəfindən qəbul edilən qanunlar, reqlament aktları, ordonanslar, hökumət dekretləri, prezident dekretləri və s.), **yazılı hüquq** (dövlətin qanunvericilik aktlarında formulə edilən hüquq qaydaları və normaları) adlandırırlar.

Normativ hüquqi aktlar ingilis-amerikan hüquq ailəsi ölkələrində də geniş surətdə inkişaf edir. Bu ölkələrdə presedentlərdən sonra əsas yeri qanunlar və digər normativ aktlar tutur. Onların məcmusuna «Statute law», yəni statut hüququ (latınca statuo - qərara alıram) deyilir. Normativ aktlar Roma hüququnda hüququn mənbəyi hesab olunurdu. Yustinianın institusiyalarında o, yazılı hüquq (ius scriptum) adı altında nəzərdə tutulmuşdu[2].

[1] Qərb hüquq ədəbiyyatında hüququn ilkin (əsas) və əlavə (ikinci dərəcəli) mənbələri kimi iki növü fərqləndirilir. Normativ aktlar, adətlər, bəzi hallarda hüququn ümumi prinsipləri ilkin (əsas) mənbə növlərinə aid edilir. Əlavə (ikinci dərəcəli) mənbə növlərinə məhkəmə presedenti və tanınmış alim hüquqşünasların elmi əsərləri daxildir. Onlar, ilkin (əsas) mənbə növləri olmadıqda və ya tam olmadıqda və yaxud da ki aydın olmadıqda hüquqi qüvvəyə malik olur.

[2] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 24.

Azərbaycan Respublikasının mülki hüququnun mənbə növü rolunda çıxış edən normativ hüquqi aktlar mülki qanunvericilik kateqoriyası ilə əhatə olunur. **Mülki qanunvericilik dedikdə, səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilən, mülki hüquq normaları yaradan, dəyişdirən, yaxud da ki ləğv edən bütün normativ hüquqi aktların məcmusu başa düşülür**. O, mülki hüququn bütün mənbə növlərini yox, onun yalnız normativ hüquqi aktlar adlı növünü – hissəsini özündə birləşdirir. Bu, o deməkdir ki, mülki hüququn adətlər, beynəlxalq müqavilələr kimi növləri mülki qanunvericilik kateqoriyasına şamil edilmir. Bu, mülki qanunvericiliyi mülki hüquqdan fərqləndirməyə imkan verən xüsusiyyətlərdən biridir.

Əgər mülki hüquq sahəsi hüquq normalarının sistemi və birləşməsidirsə, **mülki qanunvericilik normativ hüquqi aktların məcmusudur.** O normativ aktların ki, mülki hüquq normaları həmin aktlarda öz rəsmi ifadəsini tapır. Ədəbiyyatda «mülki hüquq» termininin bəzən «normativ aktların sistemi kimi mülki qanunvericilik» mənasını bildirməsi fikri irəli sürülür[1]. Lakin hüquq sahəsi olan mülki hüquq və mülki qanunvericilik kimi iki məsələ identik (eynimənalı) və sinonim anlayışlar deyildir. Bunları bir-birindən fərqləndirmək lazımdır[2].

Mülki qanunvericiliyi mülki hüquq sahəsindən fərqləndirən əsas və başlıca cəhət ondan ibarətdir ki, **o, kompleks və qarışıq xarakterə malikdir.** Bu, o deməkdir ki, mülki qanunvericiliyə daxil olan bir çox normativ aktlar özündə eyni zamanda həm də müxtəlif hüquq sahələrinin (məsələn, konstitusiya hüququnun, inzibati hüququn, maliyyə hüququnun, ekologiya hüququnun və s.) normalarını əks etdirir. Məsələn, «Sahibkarlıq fəaliyyəti haqqında», «Sığorta haqqında», «Banklar və bank fəaliyyəti haqqında» və digər normativ aktlarda mülki hüquq normalarından əlavə, konstitusiya, inzibati, maliyyə və s. hüquq normalarına da rast gəlmək olar. Deməli, hər hansı bir normativ aktda öz hüquqi təbiətinə görə bir-birindən fərqlənən mülki, cinayət, konstitusiya, ekologiya və digər hüquq normaları mövcud ola bilər. Ona görə də eyni bir akt həm mülki qanunvericiliyə, həm maliyyə qanunvericiliyinə, həm inzibati qanunvericiliyə və s. daxil ola bilər. Bu isə təsadüfi deyildir. Axı, normativ hüquqi akt qəbul edərkən, səlahiyyətli dövlət orqanını maraqlandıran əsas cəhət müəyyən etdiyi ümumməcburi davranış qaydasının (hüquq normasının) hüquqi təbiəti yox, onun mahiyyətidir. Belə təsəvvür yaranır ki, mülki qanunvericiliyə həm mülki-hüquqi yönümlü, həm də qeyri-mülki hüquqi yönümlü normativ aktlar daxildir. Bu isə onu göstərir ki, mülki qanunvericilik, yuxarıda qeyd etdiyimiz kimi, kompleks (qarışıq) xarakterə malikdir. Həmin sözləri hüquq sahəsi kimi mülki hüquq haqqında demək olmaz. Belə ki, **mülki hüquq sahəsinin, ümumiyyətlə, hər hansı bir hüquq sahəsinin kompleks təbiətli olmasından**

[1] bax: Гражданское право. Учебник. Часть 1 /Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 11; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 26; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А. Суханова*. М., 1998, с. 45.

[2] Ümumiyyətlə, «mülki hüquq» termini dörd mənada işlədilir və onları bir-biri ilə qarışdırmaq olmaz: hüquq sahəsi mənasında; tədris fənni mənasında; elm mənasında; nəhayət, mülki qanunvericilik mənasında. Bu dörd anlayış bir-biri ilə sıx surətdə bağlı olsa da, onlar tamamilə üst-üstə düşmür. Bunlar müxtəlif predmet və metoda, habelə uyğun gəlməyən struktura malikdir.

danışmaq qeyri-rasional fikir yürütmək deməkdir[1].

Göründüyü kimi, mülki qanunvericiliyə daxil olan eyni bir normativ akt öz məzmununa görə müxtəlif olan ictimai münasibətləri (maliyyə, inzibati, əmək və digər münasibətləri) də tənzimləyə bilər. Bu, onunla izah olunur ki, eyni bir normativ aktla bir ictimai münasibəti deyil, bütöv münasibətlər qrupunu tənzimləmək lazım gəlir. Ona görə də **bu normativ aktların vahid hüquqi nizamasalma predmeti və metodu yoxdur. Mülki hüquq sahəsi isə eyni növlü ictimai münasibətləri nizama salır.** Onun vahid nizamasalma predmeti və metodu vardır. Mülki hüquq sahəsinin ibarət olduğu hüquq normaları müxtəlif ictimai münasibətləri yox, eyni növ, həmcins münasibətləri nizama salır. Mülki hüquq sahəsi ilə mülki qanunvericilik arasındakı nisbət fəlsəfi kateqoriyalar olan məzmun və forma kimidir. Əgər mülki hüquq sahəsi məzmundursa, onda mülki qanunvericilik onun formasıdır. Mülki qanunvericilik mülki hüququn xaricən mövcud olma, təzahür etmə, ifadə olunma formasıdır.

Mülki qanunvericiliyin mühüm xüsusiyyəti ondan ibarətdir ki, onda nəzərdə tutulan **dispozitiv normaların xüsusi çəkisi imperativ normalardan çoxdur**. Dispozitiv normalar odur ki, bu normalar subyektlərə mümkün olan davranış variantlarından birini seçmək, aralarındakı münasibətləri qanuni vasitələr çərçivəsində öz istədikləri kimi tənzimləmək şansı verir. Bu normalar mülki hüquq subyektlərinə imkan verir ki, onlar hüquq normasında nəzərdə tutulmuş davranış alternativini özləri seçsinlər, aralarındakı qarşılıqlı hüquq və vəzifələr haqqında özləri razılığa gəlsinlər. Əgər bunu etməsələr, onda onlar müəyyənləşdirilmiş məcburi davranış qaydasına əməl etməyə borcludurlar. Dispozitiv normalar müqavilə münasibətlərinin tənzimlənməsində üstünlüyə malikdir. Beləliklə, dispozitiv normaların vasitəsi ilə subyekt onun üçün sərfəli olan davranış variantını seçmək imkanı əldə edir.

İmperativ normalar qəti formada məcburi göstəriş ifadə edir. Mülki hüquq subyektinin bu göstərişindən kənara çıxmağa ixtiyarı çatmır. Hər hansı kənara çıxma halı yolverilməzdir. İmperativ normalar subyektin davranışını konkret və dəqiq olaraq müəyyən edir.

Hər bir mülki-hüquqi hadisə kimi mülki qanunvericilik də müəyyən bir funksiya (vəzifə) yerinə yetirir. Onun iki cür əsas funksiyası fərqləndirilir: tənzimləyici funksiya; qoruyucu funksiya. **Mülki qanunvericiliyin tənzimləmək funksiyasının** mahiyyəti ondan ibarətdir ki, o, subyektlərin hüquqi vəziyyətini, mülki hüquqların əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını müəyyənləşdirir, əmlak münasibətlərini və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir. Mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu və s. müdafiə etmək isə **onun qoruyucu funksiyasının** əsas mahiyyətini təşkil edir.

[1] Tanınmış və görkəmli sivilist alimlər O.S.İoffe və O.A.Krasavçikov hüquq sahəsinin yox, qanunvericilik sahəsinin kompleks xarakterə malik olmasını qəbul edən müəlliflərin mövqeyini rasional və həqiqətə uyğun hesab edirdilər (bax: *Красавчиков О.А.* Советская наука гражданского права. Свердловск. 1962, с. 263; *Иоффе О.С.*Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.*Избранные труды по гражданскому праву. М., 2000, с. 232). Kompleks hüquq sahələrinin mövcudluğu konsepsiyasını ilk dəfə olaraq sovet sivilist alimi V.K.Rayxer əsaslandırmışdır. O, göstərirdi ki, hüquq sistemi həm əsas, həm də kompleks hüquq sahələrindən ibarətdir (bax: *Райхер В.К.* Общественно-исторические типы страхования. М., 1947, с. 189-190.

§ 2. Mülki qanunvericiliyin tərkibi

1. Mülki qanunvericiliyin sistemi anlayışı

Qeyd etdik ki, ənənəvi olaraq mülki qanunvericilik kateqoriyası özündə mülki hüquq normaları nəzərdə tutan bütün normativ hüquqi aktların məcmusunu ifadə edir. Bu aktlar bir-biri ilə qarma-qarışıq, xaotik, nizamsız və qaydasız halda birləşməmişdir. Nəzərdən keçirdikdə görürük ki, onlar müəyyən bir sistem halında yerləşir və düzülür. Söhbət normativ hüquqi aktların müəyyən ardıcıllıqla birləşməsindən gedir. Ardıcıllıq normativ aktın hüquqi qüvvəsi ilə müəyyən edilir: əvvəlcə hüquqi qüvvəsi nisbətən yüksək olan normativ akt yerləşir. Sonra isə bunun ardınca hüquqi qüvvəsi nisbətən aşağı olan normativ aktlar düzlənir. Özü də bu aktlar daxili vəhdətdə olub, bir-biri ilə sıx surətdə bağlıdır. Dediklərimizdən belə təsəvvür yaranır ki, müəyyən ardıcıllıqla düzlənən normativ hüquqi aktlardan mülki qanunvericilik sistemi formalaşır və yaranır.

Mülki qanunvericiliyin sistemi dedikdə, özündə mülki hüquq normaları əks etdirən normativ hüquqi aktların onların malik olduğu hüquqi qüvvəsindən asılı olaraq müəyyən ardıcıllıqla yerləşməsi və düzlənməsi başa düşülür. Bu sistemin tərkibinə müxtəlif cür normativ aktlar daxildir. Onları əsasən iki yerə bölmək olar: qanunlar; qanun qüvvəli aktlar. Buraya həm qanunverici (nümayəndəli), həm də icra hakimiyyəti orqanlarının hüquqi aktları daxildir. **Mülki hüququn adətlər və beynəlxalq müqavilə kimi mənbə növləri mülki qanunvericilik sisteminə daxil edilmir.**

Mülki qanunvericilik sistemi və ona daxil olan normativ hüquqi aktlar Konstitusiyanın normaları ilə müəyyən edilir (148-ci maddə)[1]. Bu normalar Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktların dairəsini nəzərdə tutur. Buna uyğun olaraq ölkə qanunvericilik sisteminin bir hissəsi olan mülki qanunvericilik sisteminin tərkibini müəyyənləşdirə bilərik. Söhbət mülki qanunvericilik sisteminə şamil edilən normativ aktlardan gedir[2].

- Konstitusiya;
- referendumla qəbul edilmiş aktlar;
- qanunlar;
- fərmanlar;
- Nazirlər Kabinetinin qərarları;
- mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

Belə təsəvvür yaranır ki, Azərbaycan Respublikasının mülki qanunvericilik sistemi yalnız normativ hüquqi aktlardan — qanunlardan və qanunqüvvəli aktlardan ibarətdir. Bu, o deməkdir ki, qeyri-normativ aktlar qanunvericilik sisteminə aid oluna bilməz. Normativ xarakterli aktlar isə (Konstitusiya Məhkəmə-

[1] bax: AR QK, II cild, s. 611.

[2] Konstitusiyanın 148-ci maddəsinin 2-ci hissəsinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Mülki qanunvericilik sisteminə münasibətdə bu göstəriş əhəmiyyət kəsb etmir. Belə ki, beynəlxalq müqavilələr mülki qanunvericilik anlayışına daxil deyildir. O, mülki hüququn müstəqil və ayrıca mənbə növlərindən biri hesab olunur.

sinin müvafiq qərarları, yerli icra hakimiyyəti orqanlarının, Milli Bankın qərarları) mülki qanunvericilik sisteminə daxil edilir[1]. Ona görə ki, bu cür aktlar normativ təbiətə malik olub, mülki hüquq norması müəyyən edir, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur. Onların göstərişləri ümumməcburi xarakter daşıyır.

Göründüyü kimi, Milli Məclisin qərarları da mülki qanunvericilik sisteminə aid edilmir. Lakin qanunun göstərişini hərfi mənada təfsir etmək olmaz. Belə ki, Milli Məclisin müvafiq qərarları normativ hüquqi aktın üç əsas əlamətinə uyğun gəldikdə və cavab verdikdə, mülki qanunvericilik sisteminə daxil ola bilər. Bu əlamətlərə aiddir: hüquq norması müəyyən etməsi, dəyişdirilməsi və ya xitam etməsi; onun göstərişlərinin ümumi xarakterə malik olması; dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulması. Biz, elə hesab edirik ki, Milli Məclisin bu üç əlamətə cavab verən qərarları mülki qanunvericilik sisteminə şamil oluna və bununla mülki hüququn mənbəyi kimi çıxış edə bilər[2].

Mülki qanunvericiliyin sistemi müəyyən xüsusiyyətlərə malikdir. **Ən birinci xüsusiyyət** odur ki, **mülki qanunvericilik sistemi subordinasiya və iyerarxiya prinsipi əsasında qurulur**. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, mülki qanunvericilik sistemində əvvəlcə daha yüksək hüquqi qüvvəsi olan normativ hüquqi akt yerləşir, sonra isə bunun ardınca həmin akta nisbətən daha aşağı hüquqi qüvvəsi olan digər normativ hüquqi akt gəlir və yer tutur. Belə ki, əvvəlcə ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiya yerləşir, sonra Konstitusiyaya nisbətən daha aşağı hüquqi qüvvəyə malik olan referendumla qəbul edilmiş aktlar gəlir, daha sonra ardıcıllıqla aşağı hüquqi qüvvəyə malik olan digər normativ hüquqi aktlar (qanunlar, fərmanlar və s.) düzlənir. Bu, onu ifadə edir ki, mülki qanunvericilik sistemində **normativ hüquqi aktlar özlərinin hüquqi qüvvəsindən asılı olaraq yer tuturlar**. Normativ aktın hüquqi qüvvəsi nə qədər yüksəkdirsə, onun bu sistemdə tutduğu yer də bir o qədər yuxarı olacaqdır.

İkinci xüsusiyyət ondan ibarətdir ki, **mülki qanunvericilik sistemində aşağı yer tutan normativ hüquqi akt özündən yuxarı yer tutan normativ hüquqi akta uyğun gəlməlidir**. Belə ki, qanunlar Konstitusiyaya, fərmanlar Konstitusiyaya və qanunlara, Nazirlər Kabinetinin qərarları Konstitusiyaya, qanunlara və fərmanlara və s. zidd olmamalıdır. Normativ hüquqi aktlar tətbiq edilərkən əgər, müxtəlif hüquqi qüvvəyə malik olan aktlar bir-birinə zidd gələrsə və uyğun olmazsa, onda daha yüksək hüquqi qüvvəyə malik olan akt tətbiq olunur[3].

Üçüncü xüsusiyyət ondan ibarətdir ki, **mülki qanunvericiliyin sistemi obyektiv yox, subyektiv xarakterə malikdir**. O, qanunvericinin (hüquqyaratma orqanının) iradəsindən asılıdır. Mülki qanunvericilik sistemi qanunvericinin (hüquqyaratma orqanının) «məhsuludur», «bəhrəsidir», necə deyərlər, «yetişdirməsidir». Bu xüsusiyyəti ilə mülki qanunvericilik sistemi hüquq sahəsi kimi mülki hüququn sistemindən fərqlənir. Bildiyimiz kimi, mülki hüququn sistemi ictimai həyatın ümumi qanunauyğunluqları əsasında formalaşaraq obyektiv xarakter daşıyır. O, qanunvericinin iradəsi və mülahizələri əsasında deyil, obyektiv gerçəklik əsasında qurulur. Hüquqyaratma orqanının (qanunvericinin) iradəsindən asılı olmayaraq mülki hüquq normaları obyektiv surətdə müəyyən normalar qrupunda birləşir və düzlənir. Lakin bu, o demək deyildir ki, burada qanunverici mütləq dərəcədə tamamilə iradəsizdir. Hüquq normaları onların subyektiv, şüurlu və iradəvi fəaliyyətinin məhsuludur. Lakin buna baxmayaraq prinsip etibarilə mülki hüququn sistemi qanunvericinin (hüquqyaratma orqanlarının) iradəsindən asılı deyil. Bu sistem qanunvericinin özbaşına hərəkəti nəticəsində qurula bilməz. Mülki hüququn sistemi cəmiyyətin iqtisadi bazisi ilə şərtlənir.

Fəlsəfi planda mülki hüququn sistemi ilə mülki qanunvericilik arasında nisbət forma və məzmun kimidir. Mülki hüquq sistemi əgər mülki hüquq sahəsinin məzmununu ifadə edirsə, mülki qanunvericilik sistemi onun formasını əks etdirir. Mülki hüququn sistemi mülki hüququn bu sahə ilə tənzimlənən ictimai münasibətlərin xarakterinə uyğun gələn daxili strukturudur. **Mülki qanunvericilik sistemi isə mülki hüququn xarici ifadə forması, özü də onu dərk etməyə imkan verən obyektiv (maddi obyekt) formasıdır**. O, obyektiv olaraq mövcud olan mülki hüququn strukturunun xarici ifadə formasıdır[1].

Mülki hüquq sisteminin ilkin elementi mülki hüquq normasıdır. Mülki qanunvericilik sisteminin ilkin elementi isə normativ hüquqi aktdır[2]. Bu akt isə maddələrdən təşkil edilmişdir. Əgər hüquq norması mülki hüququn məzmununa aid edilirsə, normativ aktın maddəsi mülki hüququn xarici ifadə forması hesab olunur. Hüquq norması isə bəzi hallarda normativ aktın maddəsi ilə uyğun gəlmir.

Mülki qanunvericilik sistemi öz şaquli strukturuna görə mülki hüququn şaquli strukturundan fərqlənir. Belə ki, mülki qanunvericilik sisteminin şaquli strukturu normativ hüquqi aktların hüquqi qüvvəsinə uyğun olaraq qurulur. Mülki hüququn sisteminin şaquli strukturu isə belədir: mülki hüquq normaları, hüquq institutları və yarımsahələr.

Mülki hüququn sistemi ilə mülki qanunvericilik sistemi müstəqil kateqoriyalar olsa da, onlar bir-biri ilə sıx surətdə bağlıdır. Onlar mülki hüquq adlı eyni bir hadisənin (mülki hüquq sahəsinin) iki tərəfi və aspektidir: biri onun məzmunu, digəri isə formasıdır. Fəlsəfə elmi öyrədir ki, dünyada müxtəlif formalarda təzahür etməyən, ifadə olunmayan məzmun yoxdur. Dünyada həm də elə forma da mövcud deyil ki, o, özündə məzmun haqqında bu və ya digər məlumat verməsin. Formasız məzmun yoxdur. Forma məzmunun dərk olunması üçün zəruridir[3]. Buna görə də deyə bilərik ki, mülki hüquq mülki qanunvericilik ol-

[1] Normativ xarakterli aktların dairəsi «Normativ hüquqi aktlar haqqında» qanunun 3-cü maddəsi ilə müəyyən edilir // Biznesmenin bülleteni. 2000. 2 (278).

[2] Yeri gəlmişkən, «Normativ hüquqi aktlar haqqında» 6 sentyabr 1994-cü il tarixli əvvəlki qanun normativ hüquqi aktların əlamətlərinə uyğun gəldiyi hallarda Milli Məclisin (Ali Sovetin) qərarlarının normativ hüquqi akt hesab edilməsi barədə göstəriş ifadə edirdi (bax: AR, QK. II cild, s. 345).

[3] bax: «Normativ hüquqi aktlar barədə» qanunun 7-ci maddəsi (Biznesmenin bülleteni. 2000, s. 3).

[1] bax: *Алексеев С.С.* Структура советского права. М., 1975, с. 61.

[2] Bu barədə başqa fikir də söylənilir. Müəlliflərdən V.N.Xropanyuk göstərir ki, qanunvericilik sisteminin ilkin elementini normativ hüquqi aktın maddəsi təşkil edir. Bu fikirlə çətin ki, razılaşmaq olar. Ona görə ki, qanunvericilik sistemi normativ hüquqi aktların məcmusundan ibarətdir (bax: *Xropanyuk V.N.* Dövlət və hüquq nəzəriyyəsi / Rus dilindən tərcümə. Bakı. 1995, s. 146).

[3] bax: Краткий философский словарь /Под ред. *М.Розенталя и П.Юдина* М., 1952, с. 562-563; *Maqsud Fərhadoğlu.* Fəlsəfənin əsasları. Dərs vəsaiti. Bakı. 1998, s. 245.

madan mövcud ola bilməz. Mülki qanunvericilik isə sözün geniş mənasında mülki hüquq deməkdir.

Bununla belə, mülki qanunvericilik sistemi «mülki hüquq elminin (sivilistika elminin) sistemi» və «mülki hüquq tədris kursunun (tədris fənninin) sistemi» ilə üst-üstə düşmür. Mülki hüquq elminin sistemi, habelə mülki hüquq tədris kursu (tədris fənni) elə bölmələr tanıyır ki, mülki qanunvericilik sistemində bu cür bölmələr yoxdur və ola da bilməz. Məsələn, mülki hüququn anlayışı, mülki hüququn mənbələri, mülki hüquq münasibətləri və digər bölmələr mülki qanunvericilik sistemində nəzərdə tutulmur.

Mülki qanunvericilik sisteminin həm nəzəri, həm də mühüm praktiki əhəmiyyəti vardır. Ələlxüsus da normativ hüquqi aktların tətbiqi zamanı bu sistem vacib rol oynayır. Belə ki, hüquqtətbiqetmə təcrübəsində eyni cür məsələni bir-birindən fərqli qaydada həll edən, biri digəri ilə ziddiyyət təşkil edən müxtəlif normativ aktlara rast gəlinir. Qanunvericilik texnikasının qeyri-mükəmməl, mülki qanunvericilik aktlarının çoxsaylı olduğu bir şəraitdə bu cür hallarla qarşılaşmaq mümkündür. Onda belə bir sual meydana çıxır: müvafiq hüquqi məsələyə aralarında ziddiyyət olan iki müxtəlif normativ hüquqi aktdan hansı tətbiq ediləcəkdir? Bu cür halda mülki qanunvericilik sistemi bizim köməyimizə gəlir. Belə ki, dərhal bu sistemə bir daha diqqət və nəzər yetirmək lazımdır. Göstərilən məqamda həmin məsələni düzgün həll etmək üçün mülki qanunvericilik sistemində şaquli istiqamətdə daha yuxarıda yer tutan normativ hüquqi aktdan istifadə olunacaqdır. Ona görə ki, yuxarıda yer tutan normativ akt özündən sonra gələn akta nisbətən daha yüksək hüquqi qüvvəyə malikdir.

2. Qanunlar (qanunvericilik aktları) mülki qanunvericilik sisteminin əsas tərkib hissəsi (elementi) kimi

Qanun müasir qabaqcıl, mütərəqqi, demokratik və inkişaf etmiş dövlətlərin əsas və başlıca normativ hüquqi aktıdır. Hələ XX əsrin əvvəllərində tanınmış rus sivilist alimi G.F.Şerşeneviç yazırdı ki, indiki vaxtda bütün sivil xalqların hamısı hüququn mənbəyi (forması) kimi qanuna üstünlük verirlər. Qanun hüququn digər mənbələrini (formalarını) tamamilə arxa plana keçirmişdir. Normal cəmiyyətin hamı üçün məcburi olan davranış qaydası yaratmaq imkanı məhz qanunvericilik fəaliyyətində ifadə olunur[1]. K.Marks belə hesab edirdi ki, qanunlar külliyyatı azadlıq bibliyasıdır[2].

Qədim Roma hüququ qanunları (leges) hüququn əsas mənbəyi hesab edirdi. O, yazılı hüququn əsası sayılırdı. Roma tarixçisi Tit Livi XII cədvəl qanunlarını bütün ümumi və xüsusi hüququn mənbəyi sayırdı[3].

Həyatın sonrakı inkişafı hüququn mənbə növləri arasında qanunları birinci yerə çıxardı.

Qanunlar roman-german hüquq ailəsi ölkələrində hüququn əsas və mühüm mənbə növü kimi tanınır. Onlar normativ aktların başında durur. Həmin ölkələrdə «yazılı hüquq» normaları müəyyən iyerarxiya sistemi halında birləşir. Daha doğrusu, qanunlar bütün roman-german hüquq ailəsinin «skeletini», həmin ailəyə daxil olan bütün ölkələrin milli qanunvericiliyinin əsasını və bünövrəsini təşkil edir.

İngilis-amerikan hüquq ailəsi ölkələrində, presedentlə bərabər, qanunlar hüququn əsas mənbələrindən biri kimi çıxış edir. Onlar hüququn mənbələri arasında vacib yer tutur. İngiltərə və Kanadada onları statut (statute), digər əksər ölkələrdə isə sadəcə olaraq qanun adlandırırlar[1].

Azərbaycan Respublikasında qanunlar vacib normativ hüquqi akt kimi mülki qanunvericilik sistemində başlıca və əsas yer tuturlar. Onların bu sistemdə aparıcı rola malik olması bir sıra amillərlə bağlıdır. Birincisi, **qanunlar yalnız qanunverici (nümayəndəli) dövlət hakimiyyət orqanı (Milli Məclis) tərəfindən qəbul edilir**. Onlar bilavasitə xalq tərəfindən referendum qaydasında da qəbul edilə bilər. Başqa bir orqanın qanun qəbul etmək səlahiyyəti yoxdur[2].

İkincisi, **qanunlar yüksək hüquqi qüvvəyə malikdir.** Bütün digər normativ aktlar qanunlara zidd olmamalıdır. Qanunu qəbul edən orqandan savayı, digər hər hansı orqanın onu ləğv etmək və ya dəyişdirmək ixtiyarı yoxdur.

Üçüncüsü, **qanunlar ictimai həyatın əsas, ən mühüm məsələləri üzrə qəbul edilir**. Onlar cəmiyyətin nisbətən daha vacib sahələrini tənzimləyir. Qanunlar elə məsələləri qaydaya salır ki, bu məsələlər vətəndaşların və hüquqi şəxslərin maraq və mənafeləri ilə bilavasitə bağlı olur. Mülki-hüquqi xarakterli və yönümlü qanunlar əmlak dövriyyəsi iştirakçılarının hüquqi vəziyyətini, əsas hüquq və vəzifələrini, onların əmələ gəlməsi əsaslarını, mülki hüquqların müdafiəsi qaydasını və digər məsələləri nizama salır.

Dördüncüsü, **qanunlar özündə əsas və başlanğıc xarakterli hüquq normalarını birləşdirir**. Bütün digər hüquqi aktlar qanun normalarını (normativ göstərişləri) detallaşdırır və konkretləşdirir.

Beşincisi, **qanunlar xüsusi prosessual qaydada qəbul edilir**. Daha doğrusu, onlar xüsusi qanunvericilik qaydasında qəbul olunur. Qanunların qəbul edilməsi bir neçə mərhələni əhatə edir ki, bu mərhələlər bir-biri ilə sıx surətdə bağlıdır.

Beləliklə, **qanun dedikdə, ali qanunverici (nümayəndəli) dövlət hakimiyyət orqanı tərəfindən xüsusi qaydada qəbul edilən elə bir normativ**

[1] bax: *Шершеневич Г.Ф.* Общая теория права. Том 2. СПб., 1912, с. 381.

[2] *Маркс К., Энгельс Ф.* Сочинения. Том 1, с. 62-63.

[3] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 27; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı, 1999, s. 13-14; *Пухан И., Поленак-Акимовская* М. Римское право. Учебник. М., 2000, с. 40-41; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 85.

[1] Roman-german və ingilis-amerikan hüquq ailələrində hüququn mənbəyi kimi qanun barədə geniş məlumat almaq üçün bax: *Рене Давид, Камилла Жоффре-Спинози.* Основные правовые системы современности. М., 1999, с. 78-80, с. 259-261. *Марченко М. Н.* Правовые системы современного мира. М., 2001, с. 73-83, с. 167-183.

[2] «Normativ hüquqi aktlar haqqında» qanunun 6-cı maddəsi normativ hüquqi aktlar qəbul etmək səlahiyyətinin aşağı orqanlara verilməsi qaydasını müəyyən edir. Bu göstərişdən belə çıxır ki, qanunları qəbul etmək səlahiyyətini Milli Məclisin digər orqanlara verməsi prinsip etibarı ilə mümkündür. Milli Məclisin Konstitusiyanın 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərini başqa orqanlara verməsi yolverilməzdir. Bu cür səlahiyyətlərə mülki hüquq obyektləri, mülki müqavilələr, nümayəndəlik, vərəsəlik, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, əşya hüququ, öhdəlik hüququ, ailə münasibətləri, himayəçilik, qəyyumluq, kimi mülki hüquq hadisələri ilə bağlı səlahiyyətlər də daxildir. Deməli, bu məsələlər barədə qanun qəbul etmək səlahiyyətlərini Milli Məclis digər orqanlara verə bilməz.

hüquqi akt başa düşülür ki, o, yüksək hüquqi qüvvəyə malik olub, daha vacib ictimai münasibətlərin tənzimlənməsinə yönəlir. Qanunlar ictimai həyatın ən mühüm cəhətlərini nizama salan hüquq normalarını özündə əks etdirir. Onların vasitəsi və köməyi ilə mülki hüquq normalarının əsas massivi və kütləsi yaranır.

Qanunlar müxtəlifdir. Onları ayrı-ayrı meyarlar və əlamətlərə görə (hüquqyaratma subyekti, qüvvədə olduğu ərazi, aid olduğu şəxslər və digər əsaslara görə) təsnifləşdirmək olar. **Mülki qanunvericilik sistemində malik olduğu əhəmiyyətə görə** qanunların təsnifi xüsusi maraq doğurur. Bu əsasa və meyara görə qanunların iki növü fərqləndirilir: konstitusiya qanunları; adi qanunlar. **Konstitusiya qanunları** dövlət və ictimai quruluşun əsaslarını, vətəndaşların və hüquqi şəxslərin hüquqi vəziyyətini müəyyən edir. Məsələn, «Azərbaycan SSR-in suverenliyi haqqında» 23 sentyabr 1989-cu il tarixli qanun Konstitusiya qanununa misal ola bilər. Bu qanunda mülki hüququn subyektlərindən biri olan dövlətin mülkiyyət hüququna aid normalar əks olunur[1]. «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» 18 oktyabr 1991-ci il tarixli Konstitusiya aktını da bu qanuna şamil etmək olar. Bu qanunda mülki hüququn əsas anlayışlarından biri olan mülkiyyət münasibətlərinə toxunan xeyli hüquq normaları vardır: mülkiyyətin dövlət mülkiyyəti, xüsusi mülkiyyət və kollektiv mülkiyyət kimi növləri vardır; xüsusi və kollektiv mülkiyyətə qanunla icazə və təminat verilir; xüsusi və kollektiv mülkiyyət məcburi surətdə özgəninkiləşdirilə bilməz; əmlakın tam müsadirəsinə yol verilmir; bütün təbii ehtiyatlar Azərbaycan Respublikasına (dövlətə) məxsusdur[2].

Konstitusiya qanunları arasında Konstitusiya (latınca contitutio — quruluş, təsisat) vacib yer **tutur**[3]. O, dövlətin ən mühüm normativ aktı, əsas qanunudur. Konstitusiya xalqın iradəsini əks etdirir, ictimai quruluşun və dövlət quruluşunun əsaslarını təsbit edir. O, ali hüquqi qüvvəyə malik olub, bütün cari qanunvericiliyin normativ bazasını təşkil edir. Bu, o deməkdir ki, bütün normativ hüquqi aktlara, o cümlədən qanunlara nisbətən Konstitusiyanın ali hüquqi qüvvəsi vardır, cari qanunvericiliyin bütün normaları və institutları konstitusiya normalarına və institutlarına uyğun olmalıdır. Normativ hüquqi aktların bütün sistemi Konstitusiya qaydaları əsasında qurulur.

Mülki qanunvericilik Konstitusiyaya əsaslanır (MM-in 2-ci maddəsinin 1-ci bəndi). O, mövcud qanunvericiliyin bütün sisteminin, o cümlədən mülki qanunvericilik sisteminin başında durur.

Konstitusiya bütün hüquq sahələrinin əsası və mənbəyidir. O, özündə müxtəlif hüquq sahələrinin — konstitusiya, inzibati, maliyyə, cinayət, əmək və digər sahələrin normalarını birləşdirir. Bunların arasında mülki hüquq normalarına da rast gəlmək mümkündür. Konstitusiyada mülki-hüquqi tənzimetmə üçün böyük əhəmiyyətə malik olan normalar vardır.

Konstitusiya normaları, hər şeydən əvvəl, mülkiyyət hüququnun forma və

[1] bax: «Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında» Konstitusiya Qanununun 10-cu maddəsi (AR, QK, I cild, s. 9).

[2] bax: «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının 20-ci və 22-ci maddələri (AR, QK, I cild, s. 75-76).

[3] Konstitusiyanın tam mətni verilmişdir: AR, QK, II cild, s. 568-616.

məzmununu müəyyən edir. Onun 13-cü, 29-cu maddələri mülkiyyət münasibətlərinin tənzimlənməsinə həsr edilmişdir. Konstitusiyanın 30-cu maddəsi əqli mülkiyyət münasibətlərinə aid vacib müddəa ifadə edir. Onun şəxsi qeyri-maddi nemətlər hüququ (yaşamaq hüququ, azadlıq hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, mənzil toxunulmazlığı hüququ, şəxsi-ailə həyatının sirrini saxlamaq hüququ, sağlamlığın qorunması hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ və s.) ilə bağlı əmələ gələn münasibətləri (yəni əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərini) qaydaya salan normaları prinsipial əhəmiyyətə malikdir. Burada mülki hüquq qabiliyyətinin (əmlaka malik olma, əmlakdan istifadə etmə, əmlakı vərəsəlik üzrə vermə, əqli mülkiyyət obyektlərinin müəllifi olmaq, özünə fəaliyyət növü, peşə, məşğuliyyət, iş və yaşayış yeri seçmək və s. hüquqlara malik olma qabiliyyətini) müəyyən edən normalara rast gəlmək olur. Konstitusiyanın 68-ci maddəsi delikt məsuliyyətinin, yəni zərər vurmaqla bağlı yaranan mülki hüquq məsuliyyətinin əsaslarını nəzərdə tutur. Onun 59-cu maddəsi azad sahibkarlıq hüququnu təsbit edir.

Beləliklə, Azərbaycan Respublikasında normativ hüquqi aktlar sistemində, o cümlədən mülki qanunvericilik sistemində Konstitusiya mühüm və vacib yer tutur. Bu, roman-german hüquq ailəsi ölkələrində yaranan ənənəyə uyğundur. Belə ki, həmin ölkələrin iyerarxiya prinsipinə əsaslanan normativ aktlar sistemində Konstitusiya və Konstitusiya qanunları ən yuxarı pillədə dayanır[1].

Adi qanunlar odur ki, onlar Konstitusiya qanunlarının əsasında və həmin qanunların icrası üçün qəbul edilir, ictimai həyatın müəyyən və məhdud sahələrini tənzimləyir. Bu cür qanunlar **cari qanunvericiliyi** təşkil edir. Ona görə də həmin qanunları çox vaxt **cari qanunlar** da adlandırırlar. Adi qanunlar ölkənin iqtisadi, ictimai, mədəni və s. həyatının müxtəlif tərəflərini və cəhətlərini qaydaya salır. Əsasən kompleks xarakterə malik olan həmin qanunlarda, adətən, mülki hüquq normaları, hətta mülki hüquq institutları formulə edilir. Bu qanunlara «Sahibkarlıq fəaliyyəti haqqında», «İcarə haqqında», «Torpaq icarəsi haqqında», «Qiymətli kağızlar haqqında», «Torpaq islahatının əsasları haqqında», «Sığorta haqqında», «Banklar və bank fəaliyyəti haqqında», «Patent haqqında», «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında», «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» və digərlərini misal çəkə bilərik[2]. Həmin qanunlar Konstitusiya müddəalarını konkretləşdirir. Bu qanunların əksəriyyəti xüsusi qanunlar hesab edilir. **Xüsusi qanunlar** mülki hüququn predmetinə daxil olan ictimai münasibətlərin ayrıca növlərini nizama salır. Məsələn. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanun elm, ədəbiyyat və incəsənət əsərlərinin, habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. «Patent haqqında» qanun ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin yaradılması, hüquqi mühafizəsi və istifadəsi ilə əlaqədar yaranan əmlak münasibətlərini və onlarla bağlı şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanun isteh-

[1] bax: *Рене Давид, Камилла Жоффре-Спиноза.* Основные правовые системы современности. М., 1999, с. 78.

[2] bax: AR, QK. I , II, III və V cildlər.

lakçı vətəndaşlara mal satılması, iş görülməsi, xidmət göstərilməsi üzrə sahibkarlıq münasibətlərinin geniş sahəsini nizama salır. «Sığorta haqqında» qanun sığorta münasibətlərini qaydaya salır.

Üzvi qanunlar cari (adi) qanunların xüsusi xarakterli yarım növü hesab edilir. Onlara **məcəllələşdirilmiş qanunlar** da deyilir. **Üzvi (məcəllələşdirilmiş) qanunlar** dedikdə, hüquqi cəhətdən tam, daxilən uyğun gələn elə qanunlar başa düşülür ki, həmin qanunlar ictimai həyatın müəyyən sahəsini kompleks surətdə tənzimləmək məqsədinə xidmət edir. Bu cür qanunlara misal olaraq Mülki Məcəlləni göstərmək olar. Üzvi qanunlar normativ ümumiləşdirmənin yüksək səviyyəsi ilə fərqlənir.

3. Mülki Məcəllə

Mülki Məcəllə məcəllələşdirilmiş qanun kimi mülki qanunvericilikdə xüsusi mövqeyə malikdir. Sahəvi məcəllələşdirilmiş normativ akt olan Mülki Məcəllə mülki qanunvericilik sistemində mərkəzi yer tutur. O, öz əhəmiyyətinə görə Konstitusiyadan sonra ikinci qanunvericilik aktıdır, ölkənin iqtisadi Konstitusiyasıdır, hamı üçün qanundur[1]. Professor K.Larens yazır ki, mülki hüquq sahəsində və ümumiyyətlə, xüsusi hüquq sahəsində Mülki Məcəllə hüququn vacib mənbəyi hesab edilir[2].

Roman-german hüquq ailəsində əsas normativ akt Mülki Məcəllə hesab edilir. O, mülki qanunvericiliyin əsas məcəllələşdirilmiş aktı kimi tanınır və qəbul edilir. XIX əsrdə bir sıra kontinental Avropa ölkələrində mülki qanunvericiliyin məcəllələşdirilməsi həyata keçirildi. Bu məqsədlə vahid ümumiləşdirici qanun formasında Mülki Məcəllə qəbul edildi. Qəbul edilən həmin məcəllələr mülki hüququn iki cür sistemi əsasında qurulurdu: institusiya sistemi əsasında; pandekt sistemi əsasında[3]. Bu sistemlər qədim Roma hüququ ilə bağlı idi.

İnstitusiya sistemi öz başlanğıcını Roma hüququ üzrə ibtidai dərslikdən götürmüşdü. Bu dərslik İnstitusiya adlanırdı. Onun müəllifi klassik dövrün tanınmış hüquqşünası Qay idi. Bu dərslik Yustinianın məcəllələşdirməsinin bir hissəsini təşkil edirdi. Qay həmin dərslikdə mülki hüququ üç əsas bölməyə ayırırdı[4]: «şəxslər» (subyektlərin hüquqi vəziyyəti); «əşyalar» (obyektlər) və «əşya hüquqları»; «iddialar». Fransanın 1804-cü il Mülki Məcəlləsi (Napoleon Məcəlləsi) bu sistem əsasında quruldu[5]. O, üç kitabdan ibarətdir: birinci kitab «Şəxslər haqqında», ikinci kitab «Əmlak və mülkiyyət hüququnun dəyişməsi barədə», üçüncü kitab «Mülkiyyət hüququnun əldə edilməsi haqqında» adlanır. Dünyada Fransa MM-i kimi beynəlxalq təsirə malik olan başqa hər hansı məcəllə yoxdur[1].

Bununla roman-german mülki hüquq ailəsi tərkibində roman qrupunun (sisteminin, qanadının) əmələ gəlməsinin təməli qoyuldu. Mülki Məcəllənin Fransa modeli tam və ya qismən, bəzi dəyişikliklərlə Avropanın bir çox ölkələrində (İtaliya, İspaniya, Portuqaliya və s.), Mərkəzi və Cənubi Amerikanın bəzi dövlətlərində, Luiziana ştatında (ABŞ), Kvebek əyalətində (Kanada), Misirdə, Həbəşistanda və s. qəbul edildi.

Pandekt sistemi Yustinian məcəllələşdirməsinin Diqestasına (latınca digesta — toplu) və Pandektinə (latınca pandectae — geniş tutumlu) əsaslanırdı. Bildiyimiz kimi, bizim eranın VI əsrində (533-cü ildə) klassik Roma hüquqşünaslarının əsərlərindən gətirilən sitatlar (tutalqalar) Diqesta (toplu) və ya Pandekt (geniş tutumlu) adı altında məcmuə halında nəşr olundu. Məcburi qüvvəyə malik olan bu məcmuə 50 kitabdan ibarət idi[2].

Bunun əsasında alman hüquqşünasları XVIII-XIX əsrlərdə pandekt sistemi yaratdılar. Almaniyanın 1896-cı il Mülki Qanunnaməsi bu sistem üzrə quruldu. Bu qanunnamə beş kitabdan ibarətdir: birinci kitab «Ümumi hissə» (§ 1-240), ikinci kitab «Öhdəlik hüququ» (§ 241-853), üçüncü kitab «Əşya hüququ» (§ 854-1296), dördüncü kitab «Ailə hüququ» (§ 1297-1921), beşinci kitab «Vərəsəlik hüququ» (§ 1922-2385) adlanır[3]. Burada «Ümumi hissə» kimi struktur bölməsinin ayrılması hüquqi təfəkkürün mühüm nailiyyəti idi[4]. Dörd yarımsahə (əşya hüququ, öhdəlik hüququ, ailə hüququ, vərəsəlik hüququ) qanunnamənin «Xüsusi hissəsi»ni təşkil edir. Bununla roman-german mülki hüquq ailəsi daxilində german sisteminin (qanadının, qrupunun) yaranmasının başlanğıcı qoyuldu.

Mülki Məcəllənin alman modeli bir çox ölkələrin, hər şeydən əvvəl, Yaponiya və Tailandın qanunvericiliyinə mühüm təsir göstərdi. Bu ölkələrin qəbul etdikləri mülki məcəllələr həmin modelin resepsiyasıdır (iqtibasıdır). Alman modelinin əsas müddəaları Avstriya, Argentina, Braziliya, Yunanıstan, Peru, Skandinaviya ölkələri, İsveçrə, Rusiya Federasiyası, müstəqil MDB dövlətlərinin çoxu tərəfindən qəbul edilmişdir. Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi də alman modelinə əsaslanır. Alman modelinin bu məcəlləyə güclü təsiri hiss olunmaqdadır.

Azərbaycan Respublikasının yeni MM-i 28 dekabr 1999-cu ildə təsdiq edilmiş, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir. Ölkəmizin tarixində bu, hesabla üçüncü MM-dir. İlk MM Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 16 iyun 1923-cü il tarixli qərarı ilə qəbul edilmiş, 8 sentyabr 1923-cü ildən

---

[1] bax: *Яковлев В.В.* Вступительная статья // Гражданский кодекс Российской Федерации. Часть первая. М., 1995, с. XXV-XXVI.

[2] *Larenz K.* Allgemeiner Teil des deutschen bürgerlichen Rechts. München. 1989, s. 15.

[3] Bu barədə ətraflı məlumat almaq üçün bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права (по изданию 1907 г.). М., 1995, с. 53-54; *Райхер В.К.* Гражданско-правовые системы антагонистических формаций //Проблема гражданского и административного права. Л., 1962, с. 280-310.

[4] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik/ Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 7.

[5] Fransa MM-in sistemi barədə bax: Основные институты гражданского права зарубежных стран. /Под ред. *В.В.Залесского.* М., с. 3; Правовые системы мира. /Под ред. А.Я. Сухарева, М., 2001.

[1] *Энneкцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 92.

[2] bax: Римское частное право. Учебник /Под ред. *М.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 41-44; *Novitski İ.B.* Roma hüququ. Dərslik /Rus dilindən M.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 24-27.

[3] Almaniya Mülki Qanunnaməsinin sistemi barədə bax: Основные институты гражданского права зарубежных стран /Под ред. *В.В.Залесского.* М., 1999, с.6; Правовые системы мира. Под ред. *А.Я. Сухарева.* М., 2001.

[4] Шапп Ян. Основы гражданского права Германии. Учебник. М., 1996; *Köhler H.* BGB. Allgemeiner Teil. München.1998; *Brehm W.* Allgemeiner Teil des BGB. 1997; *Brox H.* Allgemeiner Teil des Bürgerlichen Gesetzbuches. 1997.

qüvvəyə minmişdir[1].

Bildiyimiz kimi, 1920-ci illərdə hərbi kommunizm siyasətindən yeni iqtisadi siyasətə keçildi. Bu, əmtəə-pul münasibətlərinin geniş səviyyədə inkişaf etməsinə güclü təsir göstərdi. Bu münasibətlər gənc sovet dövlətinin qəbul etdiyi birinci respublika mülki məcəllələrində öz hüquqi ifadəsini tapdı. Beləliklə, 1922-28-ci illərdə sovet mülki qanunvericiliyinin məcəllələşdirilməsi həyata keçirildi. Azərbaycan SSR-in ilk MM-i RSFSR-in V.İ.Leninin rəhbərliyi ilə hazırlanmış 1922-ci il məcəlləsinin (ilk sovet məcəlləsinin) bütün müddəalarını tamamilə əks etdirirdi. 1923-cü il MM-i Azərbaycan Respublikasında yeni sovet sosialist quruluşunun iqtisadi əsaslarını möhkəmləndirirdi.

Azərbaycan Respublikasının sayca ikinci MM-i Azərbaycan SSR Ali Soveti tərəfindən 1964-cü il sentyabrın 11-də qəbul edilmiş, 1965-ci ilin martın 1-dən qüvvəyə minmişdir[2]. Bu Məcəllə sovet mülki qanunvericiliyinin ikinci məcəllələşdirilməsi zamanı (1961-64-cü illər) qəbul olunmuşdu. O, əmrə əsaslanan komanda (sovet) iqtisadiyyatı şəraitində meydana gəlmişdi. Buna görə də həmin məcəllədə o dövrkü cəmiyyətin dövlət mülkiyyəti inhisarı, planlı iqtisadiyyat, inzibati-amirlik metodları, mərkəzləşdirilmiş təsərrüfat idarəçiliyi və digər xüsusiyyətləri ifadə olunmuşdu.

90-cı illərin əvvəllərindən başlayaraq ölkəmizdə komanda (sovet) iqtisadiyyatının əvəzinə bazar iqtisadiyyatı yaranmağa başladı. Daim təkrar olunan alqı-satqı aktlarının və mübadilə prosesində sosial-iqtisadi münasibətlərin məcmusu olan bazarın əsası qoyuldu. Bazar prinsipləri əsasında təşəkkül tapan və bazar qanunlarına uyğun olaraq inkişaf edən iqtisadiyyatın yaranması prosesi başladı. Şübhəsiz ki, köhnə 1964-cü il MM-i formalaşmaqda olan bazar iqtisadiyyatının inkişaf edən tələbatına cavab verə bilməzdi. Bazar iqtisadiyyatı özünün qanunvericilik qaydasında rəsmiləşdirilməsini tələb edirdi. Bunu nəzərə alaraq ölkənin ali qanunverici orqanı olan Milli Məclis yeni Mülki Məcəllə qəbul etdi.

Yeni MM-in **əsas məqsədi** əmlak dövriyyəsinin sərbəstliyini təmin etməkdən ibarətdir. Özü də əmlak dövriyyəsi iştirakçılarının hüquq bərabərliyi əsasında və üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən. Onun **əsas və başlıca vəzifəsi (funksiyası) isə** bazar təsərrüfatı şəraitində ölkə ərazisində mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləməkdən **(tənzimləyici funksiya),** onların hüquq və qanuni mənafelərini müdafiə etməkdən, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu qorumaqdan **(qoruyucu funksiya)** ibarətdir. O, demək olar ki, mülki hüququn predmetinə daxil olan bütün münasibətlərin tənzimlənməsinə yönələn nisbətən vacib və prinsipial əhəmiyyətli müddəaları təsbit edir.

Mülki Məcəllənin əsas vəzifələrindən biri **sahibkarlıq fəaliyyətini dəstəkləməkdən** ibarətdir. Burada sahibkarlıq fəaliyyətinə anlayış verilir, bu sahədə münasibətlərin tənzimlənməsinə həsr olunan bir sıra normalar ifadə edilir. O, azad sahibkarlıq fəaliyyətinin inkişafını təmin etmək məqsədi güdür.

Qeyd etdik ki, MM mülki qanunvericilik sistemində mərkəzi və xüsusi yer tutur. O, mülki qanunvericiliyin özək, təməl və bünövrə aktıdır. Ona görə ki, burada əmlak (mülki) dövriyyəsi üçün normativ bazanın əsası qoyulmuşdur. MM Konstitusiya qanunları istisna olmaqla, bütün digər qanunlara (yəni adi, cari qanunlara) münasibətdə «bərabərlər arasında birinci» yer tutur[1]. Bu, o deməkdir ki, məcəllə mülki qanunlar arasında ən yüksək hüquqi qüvvəyə malikdir. Özündə mülki hüquq normaları ifadə edən bütün qanunlar, o cümlədən mülki yönümlü qanunlar (mülki qanunlar) MM-ə uyğun gəlməli və ona zidd olmamalıdır[2]. Əgər MM-də və mülki qanunlarda ifadə olunan normalar arasında ziddiyyət (kolliziya) yaranarsa, onda hüquqtətbiqetmə orqanı MM normalarına üstünlük verir, yəni müvafiq hüquqi məsələni həll etmək üçün bu normalardan istifadə edir[3].

Yeni Mülki Məcəllə özünün daxili strukturuna malikdir. Onun strukturu müəyyən dərəcədə mülki hüququn obyektiv olaraq mövcud olan sisteminə əsaslanır. Bununla belə, **mülki hüququn sistemi ilə MM-in sistemi (strukturu) üst-üstə düşmür.** Çox vaxt MM-in sistemi eyni zamanda mülki hüququn sistemi kimi nəzərdə tutulur. Lakin onları bir-biri ilə qarışdırmaq olmaz. Həmin anlayışlar üst-üstə düşmür. **Mülki hüququn sistemi obyektiv xarakter daşıyır. Mülki Məcəllənin sistemi isə qanunvericinin (hüquqyaratma orqanının) iradəsi və mülahizələrinə əsaslanır.** Burada subyektiv amil başlıca rol oynayır. Mülki hüququn sistemi, ikinci, Mülki Məcəllənin sisteminə nisbətən daha əhatəlidir. Məsələn, əqli mülkiyyət hüququ yarımsahə kimi mülki hüququn sisteminə daxildir. MM-in sistemində isə əqli mülkiyyət hüququ nəzərdə tutulmur. Ümumiyyətlə, MM-in sistemi mülki hüququn bəzi institutları barədə müddəaları əhatə etmir.

Bəzi hüquq sistemlərində Mülki Məcəllə yoxdur. Məsələn, İngiltərədə yazılı hüquq olsa da, burada Mülki Məcəllə mövcud deyil[4]. Lakin bu, o demək deyildir ki, mülki hüququn sistemi də yoxdur.

Mülki Məcəllənin sistemi dedikdə, mülki-hüquqi normativ materialın orada yerləşdirilməsinin daxili sistemi başa düşülür. Mülki hüquq kimi o

[1] Bu Məcəllənin qəbul edilməsi barədə bax: *Халафов М.С.* Гражданское право Азербайджанской ССР в период строительства социализма (1920-1935). Баку. 1977.

[2] Azərbaycan SSR Ali Sovetinin məlumatı. 1964. № 26. M. 121.

[1] bax: Комментарий части первой Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1995, с. 32.

[2] MM-in 2-ci maddəsinin 6-cı bəndində göstərilir ki, qanundan aşağı qüvvəli normativ hüquqi aktlar, MM-ə uyğun gəldiyi və ona zidd olmadığı hallarda tətbiq edilir. Bu, məlum məsələdir. Belə ki, Konstitusiyanın 149-cu maddəsinə görə, habelə «Normativ hüquqi aktlar haqqında» qanunun 7-ci maddəsinə görə normativ hüquqi aktlar onlardan daha yüksək hüquqi qüvvəsi olan başqa normativ hüquqi aktlara uyğun olmalıdır. MM-in həmin göstərişini hərfi mənada yox, genişləndirici təfsir etmək lazımdır. Bu, onu ifadə edir ki, mülki qanunlar MM-ə zidd olarsa, MM tətbiq edilir.

[3] Azərbaycan Respublikasının mülki qanunvericiliyi sisteminə daxil olan, lakin MM-ə uyğun olmayan normativ hüquqi aktlar, habelə mülki hüquq normaları müəyyənləşdirən başqa normativ aktlar həmin məcəlləyə uyğunlaşdırılanadək tətbiq edilə bilməz (bax: «Azərbaycan Respublikası Mülki Məcəllələrinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» 28 dekabr 1999-cu il tarixli qanunun 5-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 238).

[4] bax: *Рене Давид, Камилла Жоффре-Спиноси.* Основные правовые системы современности. М., 1999, с. 265.

da iki hissədən ibarətdir: ümumi hissədən; xüsusi hissədən[1].

Ümumi hissədə qanunverici nisbətən ümumi xarakter daşıyan, mülki hüquq normalarının inkişafı və tətbiqi təcrübəsi üçün son dərəcə prinsipial əhəmiyyətə malik olan müddəalar təsbit etmişdir. Burada Mülki Məcəllənin xüsusi hissəsi üçün mühüm rol oynayan hüquqi göstərişlər cəmlənmişdir. Yeri gəlmişkən, qeyd edək ki, ümumi hissəni ilk dəfə olaraq 1896-cı il tarixli Almaniya Mülki Qanunnaməsi nəzərdə tutmuşdu. Bundan sonra bir çox dövlətlər alman modelinə uyğun olaraq öz mülki məcəllələrində ümumi hissə ayırdı və fərqləndirdi. Braziliya, Yunanıstan, keçmiş sovet respublikalarının, Polşa və Çexoslovakiyanın mülki məcəllələrində ümumi hissəyə rast gəlmək mümkündür. Azərbaycan Respublikasının yeni MM-i bu ənənəyə uyğun olaraq öz sistemində ümumi hissə adlı struktur bölməsi nəzərdə tutur.

Ümumi hissədə mülki qanunvericiliyin vəzifə və məqsədləri, mülki qanunvericiliklə tənzim olunan ictimai münasibətlərin dairəsi, mülki hüququn prinsipləri, mülki qanunvericiliyin zamana, məkana və şəxslərə görə qüvvəsi, mülki hüquq və vəzifələrin əmələ gəlməsi əsaslan, mülki hüquqların müdafiəsi barədə hüquqi göstərişlər ifadə olunur. Burada mülki hüququn iki kateqoriya subyekti — fiziki şəxslər və hüquqi şəxslərin hüquqi statusunu müəyyən edən normalara rast gəlirik. Ümumi hissə normaları mülki hüquq subyekti haqqında vacib göstərişlər formulə edir. O, əqdlər, müddətlər və s. barədə müddəalar ifadə edir.

Ümumi hissə özündə əşya hüququna və öhdəlik hüququnun ümumi hissəsinə daxil olan normaları birləşdirir. Qanunvericinin (hüquqyaratma orqanının) bu cür mövqeyini qüsurlu hesab etmək olar. Belə mövqe bizdə təəccüb və anlaşılmazlıq doğurur. Ona görə ki, hüquc doktrinasına görə **MM-in strukturu mülki hüquq sahəsinin obyektiv olaraq mövcud olan sisteminə əsaslanır**[2].

Əvvəllər də qeyd etdiyimiz kimi, fəlsəfi planda əgər mülki hüququn sistemi mülki hüquq adlı hüquqi hadisənin məzmunudursa, onda mülki qanunvericilik sistemi, o cümlədən MM-in sistemi bu hadisənin təzahür, ifadə formasıdır[3].

Fəlsəfi kateqoriyalar olan məzmun və forma bir-biri ilə vəhdətdədir. Lakin

[1] Əslində, «Ümumi hissə» ideyası ilk dəfə olaraq 1858-ci ildə Braziliyada qəbul edilmiş «Consolidacao das leyis cives» qanun külliyyatında qanunvericilik qaydasında ifadə edilmişdi (bax: *Рене Давид, Камилла Жоффре-Спиноси.* Основные правовые системы современности. М., 19997, с. 67).

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К. Толстого.* М., 1998, с. 29; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И. Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 22.

[3] Nəzəri ədəbiyyatda «hüquq sistemi» ilə «qanunvericilik sistemi» arasındakı nisbətin məzmun və forma kimi olması fikri irəli sürülür. Məsələn, bax: Теория государства и права. Курс лекций / Под ред *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 418; Общая теория права и государства. Учебник. / Под ред. *В.В.Лазарева.* М., 2001, с. 223; *Хропанюк V.N.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, s. 146. (rus dilindən tərcümə).

onların vəhdətində məzmun əsas və apancı yer tutur[1]. Bu, onu ifadə edir ki, mülki qanunvericilik sistemi, o cümlədən MM-in sistemi (strukturu) mülki hüququn sistemi ilə şərtlənir və ona əsaslanır. Əgər MM-in strukturu mülki hüququn sistemi üzrə qurulmalıdırsa, onda nə üçün əşya hüququ və öhdəlik hüququ MM-in ümumi hissəsinə daxil edilməlidir? Axı, əşya hüququ və və öhdəlik hüququ mülki hüququn ümumi hissəsinə yox, onun xüsusi hissəsinə aiddir. Düzdür, mülki hüququn xüsusi hissəsi anlayışını işlətmək dəb deyil. Xüsusi hissə əvəzinə, mülki hüququn yarımsahələri kateqoriyasından istifadə olunur. Ona görə də təklif edirik ki, qanunverici əşya hüququnu və öhdəlik hüququnun ümumi hissəsini MM-in xüsusi hissəsində yerləşdirsin.

MM-in xüsusi hissəsində ayrı-ayrı xüsusi xarakterli münasibətləri tənzimləyən maddələr birləşdirilmişdir. Buraya müqavilə öhdəliklərinin ayrı-ayrı növlərini (alqı-satqı, kirayə, icarə, bağışlama, dəyişmə, podrat, tapşırıq, komissiya, sığorta, kredit, borc, əvəzsiz istifadə, bank əmanəti, bank hesabı və s. müqavilələrdən əmələ gələn öhdəlikləri), birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəlikləri (xüsusi mükafatlandırma, tapşırıqsız fəaliyyət, müsabiqə, oyunlann və mərclərin keçirilməsi ilə bağlı öhdəlikləri), habelə müqavilədənkənar (hüquqqoruyucu) öhdəlikləri (delikt və ya zərər vurmaq nəticəsində əmələ gələn öhdəlikləri və əsassız varlanma öhdəliyini) nizama salan maddələr daxildir.

Mülki Məcəllənin xüsusi hissəsi özündə vərəsəlik münasibətlərini qaydaya salan maddələri də birləşdirmişdir. Bu maddələrdə mülki hüququn əsas anlayışlarından biri olan vərəsəlik hüququna aid qaydalar ifadə olunmuşdur.

Qiymətli kağızlar haqqında müddəaları əks etdirən maddələr də xüsusi hissəyə daxil edilmişdir. Bu, qanunvericinin qüsurlarından biridir. Ona görə ki, mülki hüququn obyektləri ümumi xarakterli məsələdir və bu obyektlər barədə normalar mülki hüququn ümumi hissəsinə şamil olunur. Qiymətli kağızlar isə mülki hüququn obyekt növlərindən biridir. Ona görə də təklif edirik ki, qiymətli kağızlar barədə müddəalan əks etdirən maddələr MM-in ümumi hissəsində yerləşdirilsin.

MM-in sistemini (strukturunu) nəzərdən keçirdikdə görürük ki, o, mülki hüququn bütün institutlan haqqında müddəaları özündə əks etdirməmişdir. Məsələn, mülki hüququn əsas institutlarından biri olan müəlliflik hüququ və əlaqəli hüquqlar institutu, fərdiləşdirmə vasitələri institutu və s. MM-də ifadə olunmamışdır. Deməli, mülki hüququn sistemi ilə MM-in sistemi arasında uyğunsuzluq, düz gəlməmə, üst-üstə düşməmə halı yaranmışdır. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri vardır. Həmin hal müasir sivilistikanın problemlərindən biridir. Bütün mülki hüquq institutlan və ya bu institutlann əksəriyyəti barədə müddəalan əks etdirən maddələri MM-in sisteminə daxil etməklə qanunverici bu problemi həll etməlidir. Bu, müasir məcəllələşdirmənin

[1] Fəlsəfə elmi öyrədir ki, cəmiyyətdə və təbiətdə mövcud olan hər hansı bir predmet və hadisə öz məzmununa və öz formasına malikdir. Dialektik materializm məzmun və formaya birbiri ilə vəhdətdə olan fəlsəfi kateqoriyalar kimi baxır. Özü də onların vəhdətində əsas yeli məzmun tutur. Məzmun formanı müəyyənləşdirmək üçün əsasdır. Məzmun yoxdursa, onda onun forması da mövcud deyil. Məzmun yalnız forma vasitəsi ilə təzahür edir və ifadə olunur (Краткий философский словарь / Под ред. М., *Розенталя, П.Юдина.* М., 1952, с. 562).

qarşısında duran məsələlərdən biridir.

Beləliklə, **Mülki Məcəllə dedikdə elə bir sahəvi məcəllələşdirilmiş qanunvericilik aktı başa düşülür ki, o, özündə mülki dövriyyə üçün normativ bazanın əsası rolunu oynayan, əmlak münasibətlərini və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının əks olunduğu maddələri birləşdirir**. O, 10 bölmə, 74 fəsil, 1325 maddədən ibarətdir.

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi ölkəmizin mülki qanunvericiliyini sivil və mütərəqqi ölkələrin qanunvericiliyinə xeyli dərəcədə yaxınlaşdırır. O, qabaqcıl xarici ölkələrin qanunvericilik ənənələrini və vərdişlərini ifadə edir. MM-ə ictimai münasibətləri sivil qaydada tənzimləyən hüquq normalarının əks olunduğu maddələr daxildir.

MM ölkənin ikinci — «iqtisadi Konstitusiyası» rolunu oynayır. O, vətəndaş cəmiyyəti ideyasını ifadə edir. Burada bu cəmiyyətin əsasını təşkil edən xüsusi mülkiyyət, bazar münasibətləri, iqtisadi azadlıq, sahibkarlıq və digər atributlar öz əksini tapmışdır. Bunlar vətəndaş cəmiyyətinin elə ayrılmaz atributlarıdır ki, onları bütün sivil dünya qəbul edir və tanıyır.

Mülki Məcəllənin **əsas istiqaməti, yönümü və səmti bazar münasibətlərinə doğrudur**. O, əmrə-plana əsaslanan komanda (sovet) iqtisadiyyatının yerinə və əvəzinə formalaşan bazar iqtisadiyyatı əlaqələrini qanunvericilik qaydasında rəsmiləşdirir. Yeni MM sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmağı özünün daşıdığı əsas vəzifələrdən biri kimi bəyan edir. (MM-in 1-ci maddəsinin 2-ci bəndi). Burada bütün mülkiyyət formalarının bərabərliyi prinsipi əks olunmuşdur.

Mülki Məcəllədə **xüsusi hüquq konsepsiyası qəti olaraq rəsmən qanunvericilik qaydasında tanınmışdır.** Bunsuz nə bazarın sabit inkişafı, nə əsl mülkiyyət institutu, nə də vətəndaş cəmiyyətinin formalaşması mümkündür.

Professor E.Klyunsinger Mülki Məcəllədən başqa bir sıra əlavə qanunları da mülki hüququn mənbəyi hesab edir[1].

4. Qanun qüvvəli normativ aktlar

Mülki qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktların hüquqyaratma subyektlərinə görə iki növü fərqləndirilir: ali qanunverici (nümayəndəli) dövlət hakimiyyət orqanlarının aktları; ali icraedici dövlət hakimiyyət orqanlarının aktları. **Ali qanunverici (nümayəndəli) dövlət hakimiyyət orqanlarının aktları** qanunlardır. Biz bu barədə danışdıq. **Ali icraedici (sərəncamverici) dövlət hakimiyyət orqanlarının aktları dedikdə** isə qanun qüvvəli normativ hüquqi aktlar başa düşülür. Ümumiyyətlə, ali dövlət (istər ali qanunverici, istərsə də ali icraedici) hakimiyyət orqanlarının qəbul etdiyi və mülki qanunvericilik sisteminə daxil olan bütün normativ aktları öz hüquqi qüvvəsinə görə iki yerə bölmək olar: qanunlar; qanun qüvvəli normativ aktlar. Qanun qüvvəli normativ aktlar öz hüquqi qüvvəsinə görə qanunlara nisbətən aşağı hüquqi qüvvəyə malikdir. Buna görə də onlar mülki qanunvericiliyin iyerarxiya prinsipi əsasında qurulan sistemində şaquli istiqamətdə qanunlardan sonra yer tutur.

Qanun qüvvəli normativ hüquqi aktlar dedikdə, prezident fərmanları və

[1] *Klünzinger E.* Einführung in das bürgerliche. München. 1993. s. 11; *А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. М., 2001, с. 292.

hökumət qərarları başa düşülür. Onların mülki qanunvericilik sistemində müəyyən rolu vardır. Özlərində mülki hüquq normaları ifadə edən bu aktlar qanunlarla yanaşı, əmlak (mülki) dövriyyəsini müəyyənləşdirir və qaydaya salır.

Qanun qüvvəli aktlar spesifik tənzimləmə və nizamasalma funksiyasını yerinə yetirir. Bu aktlarda əks olunan hüquq normaları çox vaxt qanunlardakı hüquqi göstərişləri və müddəaları konkretləşdirir. Bundan əlavə, elə qanunlar var ki, onlar digər hüquqi aktlara birbaşa istinad edilməsi haqqında qayda nəzərdə tutur. Burada söhbət qanun qüvvəli normativ aktlara əsaslanmaqdan gedir. Belə halda müvafiq münasibətlər bilavasitə həmin aktlarla tənzimlənməlidir. Dediklərimiz belə bir nəticəyə gəlməyə əsas verir ki, əmlak dövriyyəsini hüquqi cəhətdən rəsmiləşdirməkdə və təmin etməkdə qanun qüvvəli aktların müəyyən rolu və əhəmiyyəti vardır.

Mülki qanunvericilik sisteminə daxil olan qanun qüvvəli normativ aktlar içərisində **prezident fərmanları** xüsusi rol oynayır və aparıcı yer tutur. O, həmin aktlar arasında ən yüksək hüquqi qüvvəyə malikdir. Prezident fərmanları **prezident hakimiyyəti aktları** da adlanır. Bu aktlar prinsip etibarilə icra xarakteri daşıyır. Özü də dərhal qeyd etməliyik ki, yalnız **prezidentin normativ fərmanları** mülki hüquq normaları yarada və bununla mülki hüququn mənbəyi kimi çıxış edə bilər. **Prezidentin hüquqtətbiqetmə fərmanları** (məsələn, vəzifəyə təyin edilməsi, fəxri ad verilməsi və s.) idarəçiliyin konkret məsələləri haqqında qəbul edilir və fərdi-birdəfəlik xarakter daşıyır. Bu fərmanlar özlərində hüquq norması ifadə etmir. Dövlət idarəçiliyinin müxtəlif operativ məsələləri barəsində qəbul edilən **prezident sərəncamları** (ehtiyat fondundan regionlara vəsait ayrılması barədə, müavinətlər barədə) da özündə hüquq norması əks etdirmir. Bu sərəncamlar normativ xarakterə malik deyil.

Prezidentin hüquqtətbiqetmə fərmanları və qeyri-normativ sərəncamlarından fərqli olaraq onun qəbul etdiyi normativ fərmanlar ictimai həyatın müxtəlif məsələlərini tənzimləyir, özündə mülki hüquq normaları ifadə edir və beləliklə, mülki hüququn mənbəyi kimi çıxış edir. Onlar ümumi məcburi təbiətə malikdir. Prezident xüsusilə iqtisadiyyat sahəsində münasibətləri tənzimləmək üçün çoxlu fərmanlar verir. Onun özəlləşdirmə, sahibkarlıq fəaliyyəti, investisiyalar, qiymətli kağızlar və digər məsələlər barəsində müxtəlif cür fərmanlar qəbul etdiyinin şahidi olmuşuq. Bəzən bu fərmanlar müxtəlif məzmunlu siyahıların, əsasnamələrin, proqramların təsdiqi ilə müşayiət edilir. Məsələn, prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında»[1], 24 iyun 1997-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)»[2], 19 dekabr 1997-ci il tarixli fərmanı ilə «Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydaları haqqında Əsasnamə»[3], 19 may 1998-ci il tarixli fərmanı ilə «Dövlət mülkiyyətinin özəlləşdirilməsi zamanı yaradılan açıq tipli səhmdar cə-

[1] «Respublika»qəzeti, 3 sentyabr 2002-ci il

[2] bax: Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı. 1999. 4-cü buraxılış (kiçik və orta sahibkarlıq kitabxanası).

[3] bax: AR, QK, V cild, s. 114.

miyyətlərinin səhmlərinin buraxılışı və qeydiyyatı haqqında Əsasnamə»[1], 28 sentyabr 1998-ci il tarixli fərmanla «İnvestisiya müsabiqəsi haqqında Əsasnamə»[2] və s. təsdiq olunmuşdur.

Dövlət əmlakının icarəyə verilmə mexanizmini təkmilləşdirmək və ondan effektli istifadə olunmasını təmin etmək həmişə prezident fərmanlarının diqqət mərkəzində olmuşdur. Bu məqsədlə prezident 6 sentyabr 1997-ci il tarixində «İcarə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında» fərman qəbul etmişdir. Bu fərmanın icarə münasibətlərini tənzimləməkdə əhəmiyyəti böyükdür.

Özəlləşdirmə münasibətlərinin nizama salınmasında prezident fərmanları müəyyən rola malikdir. Bu fərmanlar təsərrüfat subyektləri üçün bazar iqtisadiyyatı mühitinin yaradılması, xalq təsərrüfatı strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, iqtisadi prosesə bütün növ istifadə olunmamış ehtiyatların cəlb edilməsi və digər məsələlərin həllinə tənzimləyici təsir göstərir. Prezident bu məqsədlə qanunla onun səlahiyyətinə aid edilən müəssisə və obyektlərin özəlləşdirilməsi barədə qərarlar qəbul edir[3]. Məsələn, 2 dekabr 1997-ci tarixli «Tikinti kompleksinin inhisarsızlaşdırılması və özəlləşdirilməsi tədbirləri haqqında» prezident fərmanı özəlləşdirmə prosesinə toxunur[4].

Bu fərmanların özəlləşdirmə zamanı yaranmış borc münasibətlərinin qaydaya salınmasında da rolu böyükdür. Məsələn, prezidentin 13 dekabr 1997-ci il tarixli «Dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində təşkilati-hüquqi formasını dəyişmiş müəssisələrin vaxtında ödənilməmiş borclarının ödənilməsi haqqında» fərmanı bu münasibətləri tənzimləmək məqsədini güdür[5].

Prezidentin normativ fərmanları qanunlara və MM-ə uyğun olmalıdır. Əgər onlar qanunlara (o cümlədən, MM-ə) zidd olarsa, onda qanunlar tətbiq edilir. Ona görə ki, mülki qanunvericiliyin iyerarxiya sistemində prezident fərmanları qanunlardan sonra yer tutur və buna görə də nisbətən aşağı hüquqi qüvvəyə malikdir.

Qanun qüvvəli aktların digər növü hökumət qərarlarıdır. **Hökumət qərarları** Nazirlər Kabinetinin qəbul etdiyi normativ aktlardır. Həmin aktlar **qərar formasında** verilir. Bu qərarlar normativ olub, ümumməcburi xarakter daşıyır. Nazirlər Kabineti özünün qərarlarını prezident fərmanlarının kontekstində qəbul edir. O, iqtisadi-sosial inkişafın daha konkret məsələlərini tənzimləməyə və nizama salmağa yönəlir. Həmin qərarlar özlərində mülki hüquq normaları ifadə edərsə, onlar mülki qanunvericilik sisteminə daxil olur və mülki hüququn mənbəyi kimi çıxış edir. Bir qayda olaraq, hökumət qərarları özündən nisbətən daha yuxarı hüquqi qüvvəyə malik olan normativ aktların (xüsusən də prezident fərmanlarının) əsasında və onların icrası məqsədilə qəbul edilir.

Hökumət qərarları öz məzmununa görə çox vacib münasibətləri, o cümlədən mülki münasibətləri operativ surətdə tənzimləyir. Özündə mülki hüquq normaları ifadə edən hökumət qərarlarına misal olaraq «Vergi tutulmalı olan müəlliflik haqqı məbləğlərinin alınması ilə bağlı xərclərin sənədli təsdiqi olmadıqda, bu xərclərin müəyyənləşdirilməsi qaydası haqqında» 10 avqust 1992-ci il tarixli[1] qərarı, «Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilməsi qaydaları haqqında» 27 dekabr 1993-cü il tarixli[2] qərarı və digər qərarları göstərmək olar.

Bəzi hallarda prezident fərmanları kimi hökumət qərarları da müxtəlif qaydaların, nizamnamələrin, əsasnamələrin təsdiq edilməsi ilə müşayiət edilir. Məsələn, onun 6 mart 2000-ci il tarixli qərarı ilə «İxtiraların, faydalı modellərin və sənaye nümunələrinin patentləşməsi, əmtəə nişanlarının və xidmət nişanlarının qeydiyyata alınması və mühafizə sənədlərinin qüvvədə saxlanılması üçün rüsum alınması qaydaları» və s. təsdiq edilmişdir.

5. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları

Mülki qanunvericilik sisteminə daxil olan aktlardan biri mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarıdır. Bu cür aktların özündə mülki hüquq normaları ifadə etməsi mümkündür.

Mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları dedikdə, nazirliklərin, dövlət komitələrinin və baş idarələrin qəbul etdikləri təlimat və əmrlər başa düşülür. Özü də dərhal qeyd edirik ki, qeyri-normativ əmrlər mülki hüquq norması yaratmır. Buna görə də onlar mülki hüququn mənbəyi hesab edilmir.

Təlimatlara gəldikdə isə qeyd etmək lazımdır ki, onlar ictimai münasibətlərin müxtəlif sahəsini tənzim edir və həmişə normativ məzmuna malik olur. Bu cür təlimatlar, bir qayda olaraq, nazirin əmri ilə təsdiq olunur.

Göstərilən təlimatlar, adətən, idarədaxili münasibətləri tənzimləyir. Buna görə onlara **idarəvi normativ aktlar** da deyilir. Onların mülki qanunvericiliyin iyerarxiya sisteminə daxil olan digər normativ aktlara nisbətən aşağı hüquqi qüvvəsi vardır. Buna görə də idarəvi normativ aktları qəbul edərkən mərkəzi icra hakimiyyəti orqanlarının idarə mənafeyi və maraqlan nə qədər üstün olsa da, onlar daha yüksək hüquqi qüvvəsi olan başqa normativ hüquqi aktların, yəni qanunların, prezident fərmanlannın və hökumət qərarlarının məzmununa uyğun olmalıdır. Başqa sözlə desək, onlar iyerarxiya sistemində özündən yuxarı pillədə duran bütün normativ aktların məzmununa zidd olmamalıdır. Belə

[1] bax: AR, QK, V cild, s. 426.

[2] bax: AR, QK, V cild, s. 706. Mülki qanunvericiliyə daxil edilən prezident fərmanlanna aiddir: prezidentin 2000-ci il 10 avqust tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»; prezidentin 2000-ci il 23 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Açıq tipli səhmdar cəmiyyətinə çevrilən dövlət müəssisələrinin əmək kollektivinə güzəştli satışı haqqında Əsasnamə»; həmin tarixli fərmanla təsdiq edilmiş «İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə»; həmin tarixli fərmanla təsdiq edilmiş «Dövlət özəlləşdirmə opsionlan haqqında Əsasnamə»; həmin tarixli fərmanla təsdiq edilmiş «Dövlət müəssisələrinin fərdi layihələr üzrə özəlləşdirilməsi Qaydaları»; «Dövlət əmlakının hərraclar vasitəsilə satışı Qaydaları»; «Dövlət əmlakının ixtisaslaşdırılmış çek və pul harraclarında satışı Qaydaları»; «Dövlət müəssisələrinin müflis elan olunma yolu ilə özəlləşdirilməsi Qaydaları» // AR QK, III xüsusi buraxılış.

[3] Prezidentin qəran ilə özəlləşdirilən müəssisə və obyektlərin dairəsi 28 sentyabr 1995-ci il tarixli «Azərbaycan Respublikasında 1995-98-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» adlı qanunla müəyyən edilir (bax: Sahibkarlığa kömək və özəlləşdirmə programları. Bakı. 1994. Buraxılış 4, s. 43-44).

[4] bax: AR, QK, V cild, s. 113-114.

[5] bax: AR, QK, V cild, s. 114.

[1] bax: AR, QK, IV cild, s. 138.

[2] bax: AR, QK, IV cild, s. 140.

halda **idarəvi normativ aktların məzmununun qanuni olması üzərində nəzarətin həyata keçirilməsi zərurəti yaranır**. Bu cür nəzarəti təmin etmək üçün qanun mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının **Ədliyyə Nazirliyində məcburi dövlət qeydiyyatına alınması qaydasını müəyyən edir**[1].

Bu qaydaya görə, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının bütün normativ aktları dövlət qeydiyyatı üçün Ədliyyə Nazirliyinə təqdim edilir. Məsələn, Prezident yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 01 saylı 3 yanvar 2000-ci il tarixli əmri ilə təsdiq edilmiş «Bütün növ qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəliklərinin girovunun dövlət qeydiyyatına alınması qaydaları» 11 yanvar 2000-ci il tarixində (qeydiyyat № 207)[2], 80 saylı 21 dekabr 1999-cu il tarixli «Azərbaycan Respublikasında bütün növ lotereyaların buraxılışı, təşkili və keçirilməsi qaydaları» 29 dekabr 1999-cu il tarixində (qeydiyyat № 204) Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır[3].

Mərkəzi icra hakimiyyəti orqanlarına Ədliyyə Nazirliyini, Kənd Təsərrüfatı Nazirliyini, İqtisadi İnkişaf Nazirliyini, Maliyyə Nazirliyini, Dövlət Tikinti və Arxitektura Komitəsini, Müəllif Hüquqları Agentliyini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini və s. misal göstərmək olar. Bunların qəbul etdikləri normativ aktlar özündə kifayət qədər xeyli mülki hüquq normaları ifadə edir. Onlara çoxlu misallar çəkə bilərik. Mülki hüquq normaları əks etdirdiyinə görə həmin aktlar mülki qanunvericilik sisteminə daxildir.

6. Keçmiş SSRİ normativ aktları mülki hüququn mənbəyi kimi

Keçmiş SSRİ-nin normativ aktları Azərbaycan Respublikasının mülki qanunvericilik sisteminə daxil edilmir. Lakin buna baxmayaraq, həmin aktlardan bəziləri bizim ölkəmizdə öz əhəmiyyətini tam itirməmişdir. Özündə mülki hüquq normaları ifadə edən bir neçə bu cür akt hüququn mənbəyi kimi müəyyən rola malikdir.

«Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» 18 oktyabr 1991-ci il tarixli Konstitusiya aktı qəbul edilən kimi SSRİ normativ aktları Azərbaycan Respublikasının ərazisində öz qüvvəsini dərhal avtomatik olaraq itirmədi. Həmin aktda müəyyən əhəmiyyətə malik olan belə bir göstəriş ifadə olunur ki, Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək SSRİ qanunları Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini saxlayır və həmin qanunların siyahısını Azərbaycan Respublikasının parlamenti müəyyən edir[4].

[1] bax: «Normativ hüquqi aktlar haqqında» qanunun 51-ci maddəsinin 1-ci bəndi (Biznesmenin bülleteni, Bakı, 2000, Buraxılış 2, s. 16).

[2] bax: Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu /Tərtib edəni *A.H.Abbasov*, Bakı, 2000, s. 78.

[3] Yenə orada, s. 243. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnaməyə görə həmin komitə qiymətli kağızlarla fəaliyyət, o cümlədən, qiymətli kağızlar bazarının formalaşdırılması sahəsində dövlət siyasətini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

[4] bax: «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının 4-cü maddəsi. Burada xüsusi olaraq göstərilir ki, Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək qüvvədə olmuş, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə zidd olmayan, milli dövlət quruluşunun dəyişdirilməsinə yönəldilməmiş aktların hamısı Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır (AR QK, I cild, s. 71).

Parlament (Milli Məclis) 28 oktyabr 1992-ci il tarixində «Azərbaycan Respublikasının ərazisində hüquqi qüvvəsini müvəqqəti olaraq saxlayan keçmiş SSRİ qanunları və onların tətbiqi haqqında» qanun qəbul etdi[1]. Burada qüvvəsini itirməyən keçmiş SSRİ qanunlarının adları sadalanırdı.

«Normativ hüquqi aktlar haqqında» 6 sentyabr 1994-cü il tarixli qanunun (hal-hazırda bu qanun qüvvədən düşmüşdür) 9-cu maddəsi, müəyyən şərtlərlə, keçmiş SSRİ normativ aktlarının Azərbaycan Respublikasında hüquqi qüvvəyə malik olmasını nəzərdə tuturdu[2]. «Normativ hüquqi aktlar haqqında» yeni qanunda da bu cür göstəriş ifadə olunur: **Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edilənədək qüvvədə olmuş aktlar Azərbaycan Respublikasında hüquqi qüvvəsini saxlayır**[3]. Burada əsasən söhbət keçmiş SSRİ-nin normativ aktlarından gedir. Lakin bu aktların hamısı yox, yalnız qanunla müəyyən edilən şərtlərə cavab verən bəzi aktlar hüquqi qüvvəsini itirmir. Birinci şərt ondan ibarətdir ki, **həmin aktlar sonradan ləğv edilməsin.** Əgər keçmiş SSRİ aktlarından hər hansı birinin hüquqi qüvvəsinə xitam verilərsə, onda onun Azərbaycan Respublikasında hüquqi qüvvəyə malik olmasından söhbət gedə bilməz. İkinci şərt isə ondan ibarətdir ki, keçmiş SSRİ aktları **Azərbaycan Respublikasının Konstitusiyasına və normativ aktlarına zidd olmamalıdır**. Əgər ziddiyyət və uyğunsuzluq olarsa, onda keçmiş SSRİ aktları tətbiq edilmir.

Göstərilən hər iki şərtə cavab verən keçmiş SSRİ aktları özündə mülki hüquq normaları ifadə edərsə, mülki hüququn mənbəyi kimi çıxış edir. Məsələn, firma adı əqli mülkiyyət hüququnun əsas subinstitutlarından biridir, yəni fərdiləşdirmə vasitəsi institutunun subinstitutudur. Firma kommersiya təşkilatı olan hüquqi şəxsin adıdır (MM-in 50-ci maddəsinin 2-ci bəndi). Firma adı mülki dövriyyədə konkret müəssisəni fərdiləşdirməyə, onu eyni növdən olan müəssisələrdən ayırmağa imkan verir. O, sahibkarın kommersiya adı olub, onun işgüzar nüfuzu isə sıx surətdə bağlıdır. 1922-23-cü illərin, habelə 1964-65-ci illərin sovet mülki məcəllələri təsərrüfat təşkilatlarının firma adına malik olması hüququnu nəzərdə tuturdu. Lakin firma adı subinstitutunu həmin məcəllələr nizama salmırdı. Bu təşkilatların firma adından istifadə etməklə əlaqədar olan hüquq və vəzifələri «Firma haqqında Əsasnamə» ilə tənzimlənirdi. Bu Əsasnamə 22 iyun 1927-ci il tarixində SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti tərəfindən təsdiq edilmişdir[4]. O, firma adı hüququna bilavasitə həsr edilən ilk ümumi normativ akt idi, Sovet qanunvericiliyində ilk dəfə olaraq bu akt firma anlayışını, ona olan hüququn əldə edilməsi əsaslarını və qaydasını, bu hüququn məzmununu və digər məsələləri açıqlayırdı.

Firma adı kateqoriyası yeni MM-də də nəzərdə tutulur. Lakin o, əvvəlki sovet məcəllələri kimi bu subinstitutu tənzimləmir. Firma adları barədə ölkəmizdə xüsusi qanun da qəbul edilməmişdir. Belə bir vəziyyətdə «Firma haqqında

[1] bax: AR QK, I cild, s. 729-731.

[2] bax: AR QK, II cild, s. 346.

[3] bax: «Normativ hüquqi aktlar haqqında» 28 noyabr 1999-cu il tarixli qanunun 8-ci maddəsi (Biznesmenin bülleteni. Bakı. 2000. № 2, s. 3).

[4] bax: СЗ СССР. 1927. № 40, с. 395.

Əsasnamə» kimi normativ aktı bir kənara tullamaq mənasız şey olardı[1].

Düzdür, 14 maddədən ibarət olan Əsasnamənin bəzi maddələri tamamilə və ya qismən öz qüvvəsini itirmiş və yaxud müəssisələrin öz təşkilati-hüquqi formasını dəyişməsinə görə aktuallığını saxlamamışdır. Lakin buna baxmayaraq, həmin aktda ifadə olunan bəzi mühüm hüquqi göstərişlər müasir dövrdə də müəyyən əhəmiyyətə malikdir[2]. Ona görə də «Firma haqqında Əsasnamə» mülki hüququn mənbəyi kimi çıxış edir. Onun normalarından hüquqi təcrübədə istifadə etmək olar. Onun bir sıra normaları müasir dövrdə tətbiq olunmaq üçün əhəmiyyətlidir.

Hal-hazırda nəqliyyat qanunvericiliyinin bəzi məcəllələşdirilmiş aktları öz hüquqi qüvvəsini saxlayır. Söhbət, hər şeydən əvvəl, SSRİ Nazirlər Soveti tərəfindən 15 oktyabr 1955-ci ildə təsdiq olunmuş «SSRİ Daxili Su Nəqliyyatı Nizamnaməsi»ndən gedir[3]. Bu, daxili su nəqliyyatında yük daşınması ilə bağlı münasibətləri nizama salan normativ aktdır. «SSRİ Dəmir Yolları Nizamnaməsi» mülki hüququn mənbəyi kimi mühüm əhəmiyyətə malikdir. Bu normativ akt SSRİ Nazilər Soveti tərəfindən 6 aprel 1964-cü il tarixində təsdiq edilmişdir[4]. O, ümumi istifadədə olan dəmir yolu nəqliyyatında yük daşınması ilə bağlı münasibətləri tənzimləyir.

Azərbaycan Respublikasında «Dəmiryolu nəqliyyatı haqqında» 1991-ci il 15 aprel tarixli Qanun öz hüquqi qüvvəsini saxlayır. Bu qanunda ifadə olunan bəzi hüquqi göstərişlərin yük daşıma münasibətlərinin qaydaya salınmasında əhəmiyyəti böyükdür.

Mülki hüququn mənbəyi kimi «SSRİ və müttəfiq respublikaların Mülki Qanunvericilik Əsaslan»nın müəyyən rolu vardır. O, sahəvi məcəllələşdirilmiş normativ aktdır. Bu akt SSRİ Ali Soveti tərəfindən 31 may 1991-ci ildə təsdiq olunmuşdur[5]. O, SSRİ ərazisində 1 yanvar 1992-ci il tarixindən qüvvəyə minməli idi. Lakin həmin vaxta kimi SSRİ bir neçə müstəqil dövlətə parçalandı. Buna görə də bizim ölkə ərazisində həmin akt qüvvəyə minmədi. Amma buna baxmayaraq, Əsaslarda nəzərdə tutulan bəzi vacib müddəalar öz əhəmiyyətini itirməmişdir. Məsələn, Əsasların 131-ci maddəsində mənəvi ziyanın ödənilməsi barədə göstəriş ifadə edilmişdir. Bu normada ilk dəfə olaraq mənəvi ziyana anlayış verilməyə təşəbbüs göstərilmişdir. Burada mənəvi zərərin əvəzinin ödənilməsi qaydası və şərtləri müəyyənləşdirilir. Əsaslar mənəvi ziyana (zərərə) vətəndaşa fiziki və ya mənəvi iztirablar verilməsi kimi anlayış verir. Bu anlayışdan məlum olur ki, mənəvi zərər yalnız fiziki şəxslərə (hüquqi şəxslərə yox) vurula bilər. Bizim yeni MM mənəvi ziyana anlayış vermir və onu tənzimləmir. Bu cür vəziyyətdə, söz yox ki, Əsasların mənəvi zərər barədə göstərişləri mühüm əhəmiyyət kəsb edir.

[1] bax: *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с. 49-50; Гражданское право. Учебник. Часть 3 /Под ред. *А.П. Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 45.

[2] «Firma haqqında Əsasnamə»nin öz qüvvəsini saxlaması məsələsi hüquq doktrinasında mübahisə doğuran məsələlərdəndir. Bəzi müəlliflər göstərirlər ki, həmin əsasnaməyə xitam verilmişdir (bax: Патентное законодательство и практика: 100 вопросов - 100 ответов // Интеллектуальная собственность. 1993. № 5-6, с. 59 və s.). Ümumiyyətlə, «Firma haqqında Əsasnamə»nin bütünlüklə hüquqi qüvvəsinə xitam verilməsi barədə bu cür fikrin heç bir əsası yoxdur.

[3] Сборник законодательства по внутренному водному транспорту. М., 1964.

[4] СП СССР. 1964, с. 36.

[5] Ведомости СССР. 1991. № 26, с. 733.

§ 3. Mülki hüququn digər mənbə növləri

1. Beynəlxalq müqavilələr mülki hüququn mənbəyi kimi

Yeni Mülki Məcəllə beynəlxalq hüquq aktlarını mülki hüququn mənbə növlərindən biri kimi nəzərdə tutur. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən gedir. Bu müqavilələr mülki hüququn mənbələri arasında xüsusi mövqeyə malikdir. Onların adı və forması müxtəlif ola bilər: konvensiya; pakt; müqavilə; saziş; nizamnamə; statut; protokol məktublarla və ya notalarla mübadilə və s. Lakin bu cür adlar müqavilənin mahiyyətinə təsir göstərmir.

Beynəlxalq müqavilə dedikdə, Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla qanunda nəzərdə tutulmuş qaydada yazılı şəkildə bağlandığı razılaşma başa düşülür[1]. Müqavilə bağlamaq proseduras «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icras və ləğv edilməsi qaydaları haqqında» 13 iyun 1995-ci il tarixli qanunla müəyyənləşdirilir[2]. Deməli, beynəlxalq müqavilə dövlətlər və beynəlxalq hüququn digər subyektləri arasında bağlanan saziş deməkdir. O, müqavilə iştirakçılar üçün hüquq və vəzifələr əmələ gətirir. Beynəlxalq müqavilələr onları bağlayar orqanlardan asılı olaraq üç cür olur: dövlətlərarası beynəlxalq müqavilələr; hökumətlərarası beynəlxalq müqavilələr; idarələrarası beynəlxalq müqavilələr.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələr mülki hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərə birbaşa (bilavasitə) tətbiq edilir (MM-in 3-cü maddəsinin 1-ci bəndi) Ona görə ki, bu müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sistem minin ayrılmaz hissəsidir[3].

Özü də mülki hüququn mənbəyi kimi beynəlxalq müqavilələr mülki qanun vericilik aktlarından daha yüksək hüquqi qüvvəyə malikdir. Bu, onu ifadə edi ki, əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir (MM-in 3-cü maddəsinin 2-ci bəndi). Bu qayda mülki qanunvericilik sisteminə daxil olan bəzi normativ hüquqi aktlara münasibətdə rol oynamır. Söhbət mülki qanunvericilik sisteminin tərkib hissələri olan Konstitusiyadan və referendumla qəbul edilən aktlardan gedir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq (dövlətlərarası) müqavilələr həmin aktlardan yüksək hüquqi qüvvəyə

[1] bax: «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında» qanunun 1-ci maddəsi. Beynəlxalq müqavilələrə «Beynəlxalq müqavilə hüququ haqqında» Vyana konvensiyasının 2-ci maddəsində də anlayış verilir müqavilə dedikdə, dövlətlər arasında yazılı formada bağlanan beynəlxalq saziş başa düşülü (BBC CCP. 1986. № 37, c. 772).

[2] bax: AR, QK, II cild, s. 474.

[3] bax: Konstitusiyanın 148-ci maddəsinin 2-ci bəndi (AR, QK, II cild, s. 612).

malik deyil. Belə ki, ziddiyyətli məqamlarda, müvafiq münasibətə beynəlxalq müqavilələr yox, Konstitusiya və referendumla qəbul edilən aktlar tətbiq edilir[1].

Yerdə qalan normativ aktlarla — milli qanunvericiliklə beynəlxalq müqavilələr arasında ziddiyyət (kolliziya) əmələ gələrsə, onda **beynəlxalq müqavilələr prioritetə (üstünlüyə, birinciliyə) malikdir.**

Bununla belə, bir çox hallarda Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələr mülki hüquqla tənzimlənən ictimai münasibətlərə bilavasitə, yəni birbaşa tətbiq edilmir. Bu müqavilələrin tətbiq olunması üçün **dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi** lazım gəlir. Buna **transformasiya** və ya **implementasiya aktı** deyilir. Məsələn, Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının saziş-ləri və konvensiyalarının normaları Azərbaycan Respublikasının bütün ərazisində 19 avqust 1992-ci il tarixli qanuna[2] uyğun olaraq tətbiq edilir.

Azərbaycan Respublikası böyük əhəmiyyəti olan bir **çox beynəlxalq konvensiyalara** (latınca conventio — razılaşma, saziş) qoşulmuşdur[3]. Söhbət Ümumdünya İntellektual Mülkiyyət Təşkilatını təsis edən konvensiyadan (1967), Müəlliflik hüququ haqqında Ümumdünya Cenevrə konvensiyasından (1952), Sənaye mülkiyyətinin qorunması üzrə Paris konvensiyasından (1883), Ədəbi- bədii əsərlərin qorunması haqqında Bern konvensiyasından (1886) gedir. Azərbaycan Respublikası bu dörd mühüm konvensiyanın iştirakçısı və üzvüdür. Həmin konvensiyaların əqli mülkiyyət obyektlərinin, yəni yaradıcı fəaliyyətin nəticələrinin istifadəsi və qorunması ilə bağlı əmələ gələn ictimai münasibətlərin tənzimlənməsində rolu böyükdür. Bu konvensiyalar mülki hüququn mənbəyi hesab edilir[4].

Ölkəmizin tərəfdar çıxdığı beynəlxalq nəqliyyat saziş və konvensiyaları mülki hüququn mənbəyidir. Söhbət, hər şeydən əvvəl, Beynəlxalq yük daşıması müqaviləsi haqqında konvensiyadan (1956, Cenevrə), Beynəlxalq hava daşımalarına aid konvensiyadan (1929, Varşava) və digərlərindən gedir[5].

Beynəlxalq müqavilələrin əksər müddəaları Azərbaycan Respublikasının MM-i və digər mülki qanunvericilik aktları tərəfindən qəbul və iqtibas olunmuşdur. Belə ki, Beynəlxalq mal alqı-satqı müqaviləsi barədə Vyana konvensiyasının (1980) normaları MM-in «Alqı-satqı haqqında» 29-cu fəslinin 1-ci §-da, Beynəlxalq faktorinq haqqında Ottava konvesiyasının (1988) qaydaları MM-in 29-cu fəslinin «Faktorinq» adlı 7-ci §-da, Beynəlxalq maliyyə lizinqi haqqında Ottava konvensiyasının (1988) müddəaları MM-in «Lizinq» adlı 38-ci fəslində Sənaye mülkiyyətinin qorunması haqqında Paris konvensiyasının normaları «Patent haqqında» qanunda, Ədəbi-bədii əsərlərin qorunması barədə Bern konvensiyası və Müəlliflik hüququ haqqında Ümumdünya Cenevrə konvensiyasının qaydaları «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunda ifadə olunmuşdur. Konosament haqqında bəzi qaydaların unifikasiya edilməsi barədə Brüssel konvensiyasının (1924), dənizlə yük daşınması haqqında Hamburq konvensiyasının (1978) əsas müddəaları Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəllələrində nəzərə alınmışdır. Bütün bunlar onu göstərir ki, Azərbaycan Respublikasının mülki qanunvericiliyi sivil və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşır və yaxınlaşır.

2. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları mülki hüququn mənbəyi kimi

İctimai həyatın müxtəlif sahələrində beynəlxalq əməkdaşlığın genişlənməsi, xalqlar arasında həyatın və təsərrüfat əlaqələrinin beynəlmiləl xarakter alması, beynəlxalq münasibətlərin rolunun artması və digər amillər beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının əhəmiyyətini xeyli dərəcədə yüksəltmişdir. Bu prinsip və normalar ümumi bəşəri dəyərləri ifadə edən universal tənzimləyici vasitə və alət kimi çıxış edir. Buna görə də Konstitusiya prinsipial əhəmiyyətə malik olan belə bir mühüm müddəa irəli sürür: **Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş və beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur**[1].

Azərbaycan Respublikasının dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması, bütövlükdə xarici iqtisadi əlaqələrin (o cümlədən xarici ticarətin) sərbəstləşdirilməsi, «açıq qapı» siyasətinin həyata keçirilməsi, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi və dünya ölkələrinin beynəlxalq iqtisadi inteqrasiyasının güclənməsi şəraitində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş (ümumtanınmış) prinsip və normaları hüququn, o cümlədən mülki hüququn mənbəyi kimi tanınır»[2].

Beynəlxalq hüququn prinsipləri dedikdə, beynəlxalq hüquq subyektləri tərəfindən rəhbər tutulan elə davranış qaydaları başa düşülür ki, bu prinsiplər beynəlxalq təcrübə nəticəsində yaranır və hüququn əsasları kimi çıxış edir. Onlar beynəlxalq hüququn təməlini və bünövrəsini təşkil edir. Özü də beynəlxalq hüququn prinsipləri məcburi xarakter daşıyır. Bu, o deməkdir ki, beynəlxalq hüququn bütün subyektləri öz fəaliyyətində həmin prinsiplərə dönməden

[1] bax: Konstitusiyanın 151-ci maddəsi (AR, QK, I cild, s. 613).

[2] bax: «Azərbaycan Respublikasında Beynəlxalq Valyuta Fondunun, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının və onlarla bağlı təşkilatların sazişlərinin və konvensiyalarının tətbiqi qaydası haqqında» qanun (AR, QK, I cild, s. 569). Bu qanunda «İnvestisiyaların hərtərəfli Təminatı Agentliyi və Beynəlxalq İnvestisiya Mübahisələrinin həlli Mərkəzinin Əsasları haqqında» konvensiyaların normalarının Azərbaycan Respublikasının bütün ərazisində tətbiq edilməsi nəzərdə tutulur. Özü də ziddiyyət yarandıqda müvafiq məsələyə həmin saziş və konvensiyaların normalarının tətbiq edilməsi göstərilir.

[3] Beynəlxalq müqavilənin adlarından biridir. Onlar ikitərəfli və ya çoxtərəfli ola bilər. Konvensiyalarda dövlətlərlə yanaşı, beynəlxalq təşkilatlar da iştirak edə bilər.

[4] Göstərilən konvensiyaların əsas cəhətləri və mətni ilə tanış olmaq üçün bax: Права на результаты интеллектуальной деятельности. Сборник нормативных актов / Сост. *В.А.Дозорцев*. М., 1994; *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı. 2000; *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999.

[5] bu barədə bax: *Əliyev E.Ə.* Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı. 2002. Azərbaycan müəlliflərindən olan E.Əliyev beynəlxalq nəqliyyat saziş və konvensiyaların ətraflı və geniş surətdə işıqlandırılmasına xüsusi təşəbbüs göstərir. Onun bu sahədə apardığı doktrinal tədqiqat işlərini Azərbaycan Respublikasının nəqliyyat hüququna verilən layıqli elmi töhfələr hesab etmək olar.

[1] bax: Konstitusiyanın 10-cu maddəsi (AR, QK, II cild, s. 10).

[2] Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələr sistemində iştirakı barədə bax: *Şəkərəliyev A.Ş.* Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Dərs vəsaiti. Bakı. 1999, s. 243.

əməl etməlidirlər. Onlar həm də universal xarakterli prinsiplərdir.

Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri bir çox beynəlxalq hüquqi sənədlərdə təsbit edilmişdir. Bu prinsiplər, hər şeydən əvvəl, universal beynəlxalq aktda — BMT-nin Nizamnaməsində, Baş Məclisin qətnamə və bəyannamələrində, digər təşkilatların beynəlxalq hüquq qaydalarının ən qlobal və ümumi məsələləri üzrə qəbul etdikləri sənədlərdə ifadə olunmuşdur. Onlar bir çox beynəlxalq aktlarda inkişaf etdirilmişdir. Bu aktlar içərisində BMT Baş Məclisi tərəfindən qəbul edilmiş «Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamə (1970) və «Avropada Təhlükəsizlik və Əməkdaşlıq haqqında Müşavirənin Yekun Aktı» (1975) xüsusi yer tutur[1].

Beynəlxalq hüququn **dövlətin öz xarici iqtisadi əlaqələrinin təşkili formasını seçmək müstəqilliyi kimi prinsipi** mülki hüquq üçün müəyyən əhəmiyyətə malikdir[2]. Belə ki, bu prinsip mülki hüququn subyektlərindən biri olan dövlətin xarici (beynəlxalq) əmlak dövriyyəsində hüquqi vəziyyətini müəyyən etməyə imkan verir. Həmin prinsip «Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyası»nda (1974) formulə edilmişdir[3]. Xartiyanın dördüncü maddəsində göstərilir ki, beynəlxalq ticarəti və iqtisadi əməkdaşlığın digər formalarını həyata keçirərkən hər bir dövlət xarici iqtisadi münasibətlərin təşkili formalarını seçməyi və beynəlxalq iqtisadi əməkdaşlıq sazişləri bağlamağı özləri sərbəst olaraq həll edir.

Dövlətin öz təbii və digər resursları və iqtisadi fəaliyyəti üzərində ayrılmaz suverenliyi prinsipi beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Bu prinsip dövlət suverenliyi prinsipindən irəli gələrək mahiyyətcə onu konkretləşdirir[4]. 1970-ci il Deklarasiyasında və 1974-cü il Xartiyasında ifadə olunan həmin prinsipin mahiyyəti ondan ibarətdir ki, hər bir dövlət özünün bütün təbii və digər resursları və sərvətləri üzərində tam və daimi suverenliyə malik olub, bu resurslardan istifadə rejimini (xarici şəxslərə konsessiyaya və icarəyə verməyi, birgə müəssisələr yaratmağı və s.) özü müəyyən edir, onun iqtisadi fəaliyyəti həyata keçirməkdə suveren hüququ vardır. Hər bir dövlətin xarici investisiyaları tənzimləməyə və ona nəzarət etməyə ixtiyarı çatır. İnvestisiyaların rejimini dövlət özü müəyyən edir. Hər bir dövlətin milliləşdirmə hüququ vardır[5]. Belə halda o, öz qanunları əsasında müvafiq kompensasiya ödəyir. İstənilən hər hansı bir dövlətə onun öz təbii resurslarına olan hüquqlarının həyata keçirilməsinə maneçilik törədilə bilməz. Hər bir dövlətin təbii və digər resurslardan istifadə etməyə görə tam kompensasiya almaq, habelə bu resurslara vurulan zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Göstərilən prinsipin əsas cəhətləri bunlardan ibarətdir. Onun mülki hüquq normalarının tətbiqi üçün böyük rola malik olması hər hansı mübahisə doğura bilməz.

Diskriminasiyaya (ayrı-seçkilik salmaya, hüququ tapdalamaya) yol verməmək prinsipinin mülki hüquq üçün əhəmiyyəti böyükdür. Bu prinsip dövlətlərin bərabərliyi və əməkdaşlığı prinsipindən irəli gəlir. Həmin prinsip 1970-ci il Deklarasiyasında və 1974-cü il Xartiyasında öz əksini tapmışdır. Diskriminasiyaya yol verməmək prinsipinin mahiyyəti ondan ibarətdir ki, xarici fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətinin milli hüququn subyektlərinə nisbətən pisləşdirilməsi hüquqazidd əməldir. Helsinki Yekun aktı da (1975) bu prinsipdən çıxış edir[1].

Diskriminasiyaya yol verməmək prinsipi ümumi məcburi xarakterli normadır. O, beynəlxalq hüquqda uzun müddət tətbiq olunma nəticəsində yaranmışdır.

İnsan hüquq və azadlıqlarına hörmət etmək beynəlxalq hüququn prinsiplərindən biridir. Bu prinsip 20 dekabr 1948-ci ildə qəbul edilmiş «İnsan hüquqlarının Ümumi Bəyannaməsi»ndə ifadə olunmuşdur[2]. Göstərilən həmin prinsip mülki hüquq üçün böyük əhəmiyyət kəsb edir.

Təbii ki, beynəlxalq hüququn prinsiplərinin hamısı mülki hüquqda eyni dərəcədə tətbiq edilə bilməz. Qeyd etdiyimiz prinsiplərin xüsusilə mülki hüquq üçün vacib əhəmiyyət kəsb etməsi şəksizdir.

3. Hüquqi adətlər mülki hüququn mənbə növlərindən biri kimi

Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi hüquqi adətləri mülki hüququn mənbə növlərindən biri kimi tanıyır və qəbul edir. Qədim Roma hüququ adətləri hüququn əsas mənbəyi sayırdı[3]. Dünyanın, demək olar ki, bütün hüquq ailələri (sistemləri), yəni roman-german, ingilis-amerikan, dini (müsəlman, indus) və s. ailələr müasir dövrdə onlara hüququn mənbəyi kimi əhəmiyyət verir[4].

Hüquqi adətlər hüququn ən qədim mənbəyidir. O, tarixən qanunların «sələfi» olmuşdur. Hüquqi adətlər sosial cəhətdən əhəmiyyəti olan elə münasibətləri tənzimləyirdi ki, qanunverici bu münasibətlərin qaydaya salınmasını ya vaxtı çatmamış hesab edirdi, ya da ki həmin münasibətlərin nizama salınmasını özü istəmirdi.

Öz təbiətinə görə hüquqi adətlər konservativ (mühafizəkar, yeniliyə zidd) xarakter daşıyır. Belə ki, onlar ictimai cəhətdən əhəmiyyəti olan insan davranışının daha rasional variantlarının dəfələrlə təkrar olunması, ümumiləşdirilməsi və nəsildən-nəslə verilməsi nəticəsində yaranır.

---

[1] bax: Организаций Объединенных Наций. Сборник документов. М., 1981.

[2] Bu prinsip barədə bax: *Богуславский М. М.* Международное экономическое право. М., 1986, с. 107-109.

[3] Xartiyanın tam mətni ilə tanış olmaq üçün bax: Организация Объединенных Наций. Сборник документов. М., 1981.

[4] Bu prinsipin əsas cəhətləri ilə tanış olmaq üçün bax: *Богуславский М.М.* Международное экономическое право. М., 1986, с. 109-113.

[5] bax: *Вилкс Г.Е.* Национализация и международное право. М., 1962.

[1] Bu prinsip barədə bax: *Почкаева М.* Дискриминация в торговле и международное право //Внешняя торговля. 1968. №9, с. 20-21; *Шабан И.С.* Принцип недискриминации в международных экономических отношениях // В книге: Международное право на службе мира и сотрудничество. М., 1981, с. 143-144; *Богуславский М.М.* Международное экономическое право М., 1986, с. 103-107.

[2] bax: «Qanun» jurnalı. №1. Bakı. 1992, s. 23-31.

[3] bax: *Novitski I.B.* Roma hüququ. Dərslik /rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 12-13; Римское частное право. Учебник /Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 25; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 83; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 21. Yustinianın institusiyalarında hüququn iki mənbə forması fərqləndirilirdi: yazılı mənbə forması (yazılı hüquq); şifahi mənbə forması (yazılı olmayan hüquq). Adət hüququn şifahi mənbə formasına daxil idi.

[4] *Рене Давид, Кэмилл Жоффре-Спиноси.* Основные правовые системы современности. М., 1999; *Марченко М.Н.* Правовые системы современного мира. М., 2001.

Adətlər və hüquqi adətlər (adət hüququ) kimi iki anlayışı qarışdırmaq olmaz. **Adətlər** insanlar tərəfindən müəyyən hərəkətlərin uzun zaman dəfələrlə təkrarlanması nəticəsində faktiki olaraq yaranan davranış qaydasıdır. Adətlər hüququn mənbəyi hesab edilmir. Əgər bu adətlər dövlət tərəfindən sanksiyalaşdırılarsa, yəni qanunla rəsmi surətdə ümumi məcburi qayda kimi tanınarsa və müdafiə olunarsa, onda onlara **hüquqi adətlər** deyilir. Dövlətin sanksiyalaşdırdığı adətlər ümumməcburi davranış qaydasına çevrilir. Buna görə də hüquqi adətlər hüququn mənbəyi kimi çıxış edir. Hüquqi adətlər ona görə hüquqi adlanır ki, onlar hüquqda ifadə edilir, hüquqla qorunur və müdafiə edilir və bununla hüquqi qüvvə alır[1].

Mülki dövriyyədə adətlər əmlak dövriyyə adətləri anlayışı ilə əhatə olunur. **Əmlak dövriyyə adətləri** dedikdə, mülki (əmlak) dövriyyədə faktiki olaraq dəfələrlə təkrar olunmaq nəticəsində yaranan davranış qaydaları başa düşülür[2]. Bu qaydalar ümumi məcburi xarakterə malik deyil. Ona görə də onlar özlüyündə mülki hüququn mənbəyi kimi çıxış edə bilmir. Əmlak dövriyyə adətlərinə misal olaraq öhdəliklərin icrası zamanı subyektin «adətən irəli sürülən tələblərə» müvafiq surətdə hərəkət etməsini göstərmək olar (MM-in 425-ci maddəsinin 1-ci bəndi). Başqa bir misalda satılan əşyanın komplektliyi «adətən irəli sürülən tələblə» müəyyənləşdirilə bilər (MM-in 590-cı maddəsi). Alıcı satılmış əşyanı qəbul edərkən adətən irəli sürülən tələblərə uyğun olaraq hərəkət etməyə borcludur (MM-in 596-cı maddəsi). «Adətən irəli sürülən tələblər» dedikdə, mülki dövriyyədə yaranan davranış qaydası başa düşülür[3]. Deməli, bu cür tələblər əmlak dövriyyə adətləri hesab olunur.

Qeyd etdik ki, əmlak dövriyyə adətləri («adətən irəli sürülən tələblər») mülki hüququn mənbəyi kimi tanınmır və qəbul edilmir. Bu adətlərin mülki hüququn mənbəyi kimi çıxış etməsi üçün gərəkdir ki, onlar **dövlət tərəfindən hüquqi aktla birbaşa sanksiyalaşdırılsın**. Belə halda həmin adətlər hüquqi qüvvəyə malik olur və ümumməcburi xarakter daşıyır. Buna görə də onlar mülki hüququn mənbəyi kimi çıxış edir. Dövlət tərəfindən sanksiyalaşdırılan əmlak dövriyyə adətləri hüquqi adətlər adlanır.

Əmlak dövriyyə adətləri içərisindən işgüzar adətlər xüsusi olaraq ayrılır (MM-in 10-cu maddəsi). **İşgüzar dövriyyə adətləri** dedikdə, yazılı sənəddə ifadə edilməsi məcburi olmayan elə bir davranış qaydası başa düşülür ki, bu qayda sahibkarlıq fəaliyyətinin hər hansı bir sahəsində yaranaraq geniş surətdə tətbiq edilir. Bu adətlər bir neçə əlamətlə xarakterizə edilir:

- birincisi, bu adətlər məzmunca müəyyən və sabit olmalıdır;
- ikincisi, bu adətlər mülki hüquq münasibətlərinin kifayət qədər çoxsaylı və əhatəli iştirakçılarına aid olub, geniş surətdə tətbiq edilməlidir;
- üçüncüsü, bu adətlər yalnız sahibkarlıq münasibətləri sahəsində tətbiq olunmalıdır;
- dördüncüsü, bu adətlər qanunvericilikdə nəzərdə tutulmamalıdır;
- beşincisi, bu adətlərin hər hansı bir sənəddə qeyd edilib-edilməməsi məcburi deyil.

Beləliklə, mülki qanunvericilik işgüzar dövriyyə adətlərinə sahibkarlıq fəaliyyəti sahəsində hüququn mənbəyi kimi əhəmiyyət verir. Mülki Məcəllə rəsmi surətdə onu mənbə kimi qəbul edir və tanıyır. O, mülki hüququn **yardımçı, əlavə mənbə növüdür**. Belə ki, mülki hüququn predmetinə daxil olan münasibətlər mülki qanunvericiliklə və ya tərəflərin sazişi ilə tənzimlənmədiyi hallarda, işgüzar adətlər hüquqi qüvvəyə malik olur, yəni onlardan istifadə olunur. Məsələn, satılan əşyanın keyfiyyətinin yoxlanılması qanunvericilikdə, dövlət standartlarının məcburi tələblərində və ya alqı-satqı müqaviləsində nəzərdə tutula bilər. Əgər nəzərdə tutulmazsa, onda əşyanın keyfiyyəti işgüzar dövriyyə adətlərinə müvafiq surətdə yoxlanılır (MM-in 586-cı maddəsinin 2-ci bəndi). Başqa bir misalda mal göndərmə müqaviləsi üzrə alıcı (mal alan) qəbul etdiyi malları müqavilədə göstərilən müddətdə gözdən keçirməlidir.

İşgüzar dövriyyə adətləri qanunvericiliyə və ya müqaviləyə uyğun olmalıdır. Əgər bu adətlər qanunvericiliyə və ya müqaviləyə zidd olarsa, onda onlar tətbiq edilmir (MM-in 10-cu maddəsi)[1].

4. Mülki hüquq və əxlaq normaları

Əxlaq mühüm və vacib sosial institutdur. O, ictimai şüurun formalarından biridir. Əxlaq normaları cəmiyyətdə insanların xeyir və şər, haqq və haqsızlıq, ədalət və ədalətsizlik, borc, şərəf, ləyaqət, vicdan, düzlük, mənəvi təmizlik barədə əxlaqi təsəvvürlərinə uyğun olaraq müəyyən edilir. Hüquq normaları ilə birlikdə bu normalar cəmiyyətin əsas və başlıca davranış qaydası kimi çıxış edir. Hələ qədim filosoflar (Platon, Demokrit, Siseron, Aristotel) hüquq və əxlaq kimi iki məsələnin böyük əhəmiyyətə malik olmasını göstərirdilər.

Əxlaq və hüquq arasındakı münasibət mürəkkəb xarakter daşıyır. Hər şeydən əvvəl, onlar vahiddirlər. Bu, o deməkdir ki, əxlaq və hüquq arasında onları birləşdirən ümumi cəhətlər vardır. Həm hüquq, həm də əxlaq eyni məqsəd güdür və eyni vəzifə daşıyır: ictimai həyatı qaydaya salmaq, insan hüquqlarını müdafiə etmək, ədaləti və humanizm ideallarını bərqərar etmək, xaosun, anarxiyanın, qarma-qarışıqlığın, hərc-mərcliyin qarşısını almaq, qayda yaratmaq. Onların hər ikisi sosial normaların ayrı-ayrı növləridir. Bundan əlavə, həm hüququn, həm də əxlaqın nizamasalma obyekti eynidir ki, bu, ictimai münasibətlərdən ibarətdir. Daha sonra hüquq və əxlaq fəlsəfi planda iqtisadi amillərlə şərtlənən üstqurum kateqoriyalarıdır.

Hüquq cəmiyyətdəki əxlaqi-humanist ideallarn həyata keçirilmə vasitəsidir. O, hüquqi cəhətdən rəsmiləşdirilən əxlaqdır. Hələ qədim zamanlarda Siseron yazırdı ki, hüququn əsas məqsədi əxlaqsızlığın kökünü kəsib, xeyiri bərqərar etməkdən ibarətdir.

[1] bax: *Сергеева Т.В.* Обычай как источник права // Правоведение. 1997. № 2.

[2] Bəzən müasir rus ədəbiyyatında «əmlak dövriyyə adətləri» anlayışı «işgüzar qaydalar» («деловые обыкновения») anlayışı ilə əhatə olunur. Məsələn, bax: Гражданское право. Учебник. Часть 1/Под ред. *А.П.Сергеева, Ю.К.Толстого* М., 1998, с. 36; Гражданское право. Учебник. Часть 1/Под ред. *Т.И.Илларионовой. Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 29.

[3] bax: Комментарий к Гражданскому кодексу РФ, части первой /Под ред. *О.Н.Садикова.* М., 1999, с. 55.

[1] Almanlıya qanunvericilliyində «mülki dövriyyə adətləri» (Verkehrssitte) anlayışından istifadə edilir. Bu adətlər hüquqi adət (adət hüququ) hesab edilmir və buna görə də onlar hüquq norması (hüququn mənbəyi) sayılmır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 151).

Əxlaqla, xüsusən mülki hüquq arasında qarşılıqlı təsir daha dərindir. İctimai münasibətləri nizama salmaqda onlar bir-birini dəstəkləyir. Ümumi məqsədə nail olmaqda onlar bir-birinə kömək və yardım edir.

Mülki hüquq tərədilən hüquq pozuntusuna görə məsuliyyət nəzərdə tutur. Əxlaq da bu cür pozuntu törədilməsinə mənfi münasibət bəsləyir və onu pisləyir. Hüquq pozuntusuna qiymət verməkdə əxlaq və mülki hüquq vahid mövqedən çıxış edir. Hegel göstərirdi ki, əxlaq, hər şeydən əvvəl, hüquqa əməl olunmasını tələb edir, əxlaq qaydaları və normaları isə yalnız hüququn imkanları tükəndiyi hallarda işə düşür[1].

Əxlaqla mülki hüquq arasında nə qədər ümumi cəhətlər olsa da, **əxlaq norma və qaydaları özlüyündə mülki hüququn mənbəyi kimi tanınmır və qəbul edilmir**. Ona görə ki, əxlaq normaları mülki hüquq normaları kimi dövlət tərəfindən yaradılmır və ümumməcburi xarakterə malik deyil. Onlar xüsusi aktlarda — rəsmi dövlət aktlarında (qanunlarda, fərmanlarda, qərarlarda və s.) ifadə olunmur. Onlar insanların şüurunda əks olunur. Əxlaq normaları cəmiyyətdə xeyir və şər, düzlük, pislik, vicdan, ədalət, şərəf haqqında insanların təsəvvürləri əsasında yaranır, cəmiyyət üzvləri tərəfindən dərk edildikdən və tanındıqdan sonra əhəmiyyət kəsb edir. Lakin buradan belə bir nəticə çıxarmaq olmaz ki, əxlaq normalarının mülki qanunvericilik üçün rolu yoxdur.

Aydın bir həqiqətdir ki, mülki qanunvericilik əxlaqa əsaslanır və ona söykənir. Əxlaq normaları olmadan mülki qanunvericiliyin mövcudluğunu adam təsəvvürünə belə gətirə bilmir. O, sözün əsl mənasında, mülki qanunvericiliyin etalonu, məhək daşıdır. Ona görə ki, əxlaqa əsaslanan qanunvericilik aktlarının nüfuzu sonsuz dərəcədə böyükdür[2]. Elə bil ki, mülki qanunvericilik, necə deyərlər, əxlaqdan yoğrulmuşdur.

Əxlaq qayda və prinsipləri mülki hüquq normalarının yaradılmasına fəal təsir göstərir. Heç kəsə sirr deyildir ki, mülki hüquq normaları yaradarkən dövlətin hüquqyaratma orqanları (qanunverici) əxlaq normalarını nəzərə alır. Təsadüfi deyildir ki, hüququn çox vaxt əxlaqı, onun norma və prinsiplərini hüquqi rəsmiləşdirmə vasitəsi kimi təsəvvür edirlər. Hələ qədim Roma hüquqşünasları hüququ xeyir və ədalət sənəti adlandırırdılar.

Mülki qanunvericilik sisteminə daxil olan normativ akt **əxlaq qayda və prinsiplərini möhkəmləndirdikdə, həmin qayda və prinsiplər ümumməcburi xarakterə malik olub, hüquq normasına çevrilir**. Bununla onlar mülki hüququn mənbəyi kimi çıxış edirlər. Məsələn, vicdanlı olmaq əxlaq normasıdır. Vicdan insanın öz-özünə qiymət vermə, öz-özü üzərində nəzarət etmə, özözünü mühakimə etmək qabiliyyətidir. Kant vicdanı «insanın daxili qanunvericiliyi» kimi təsəvvür edirdi. O, yazırdı ki, bizim öz içimizdə fəaliyyət göstərən və yaşayan qanuna vicdan deyilir; vicdan bizim əməllərimizə həmin qanunun münasibəti deməkdir[3]. Qədim filosof Siseron vicdana insanın əsas zinət və yaraşığı kimi baxırdı. Vicdan bizim daxilimizdəki əxlaq qanunudur[4]. O, əxlaq imperatividir. Mülki Məcəllə bu cür əxlaq normasını 425-ci maddəsində möhkəmləndirmişdir: öhdəliyi icra etdikləri vaxt subyektlər vicdanlı olmalıdırlar. MM-in 157-ci maddəsi özgəsinin qanunsuz sahibliyinə vicdan kimi əxlaq imperativindən yanaşır: vicdansız sahiblik; vicdanlı sahiblik; vicdansız sahib, vicdanlı sahib; vicdanlı əldə edən; vicdansız əldə edən. Yalnız daşınar əşyaya beş il vicdanla sahiblik edən şəxs əldə etmə müddəti qaydasında həmin əşyaya mülkiyyət hüququ əldə edə bilər (MM-in 181-ci maddəsinin 4-cü bəndi). Yalnız vicdanlı əldə edən ani müddət qaydasında daşınar əşyanın mülkiyyətçisi ola bilər (MM-in 181-ci maddəsinin 1-ci bəndi). Ancaq vicdanlı sahib özgəsinin əşyasından götürdüyü faydanın (bəhərin) əvəzini ödəmir (MM-in 157-ci maddəsinin 5-ci bəndi).

Mülki Məcəllənin bir çox maddələrini nəzərdən keçirdikdə bizə məlum olur ki, bu maddələrin məzmun və mahiyyətinə əxlaq normaları necə sirayət və nüfuz etmişdir. Həmin maddələr müxtəlif xarakterli bu cür əxlaq qaydalarını ifadə edir: düzgün ol; öz üzərinə götürdüyün öhdəliyi lazımınca yerinə yetir; vəzifənin icrasını gecikdirmə; aldatma, zorakılıq, hədə təsiri altında, uydurma və yalan əqd bağlama; tapdığın əşyanın sahibinə qaytar və s. Məsələn, itirilmiş əşyanı tapan şəxs, onun mülkiyyətçisinə, səlahiyyətli şəxsə və ya əgər mülkiyyətçi məlum deyilsə, polisə dərhal xəbər verməli və həmin əşyanı qaytarmalıdır (MM-in 186-cı maddəsinin 1-ci bəndi). Bu maddənin əsasını təmizlik və düzlük barədə əxlaq imperativi təşkil edir. Bu əxlaq imperativi həmin maddədə hüquqi cəhətdən möhkəmləndirilmiş və mülki hüquq normasına çevrilmişdir.

Əxlaq normaları təkcə hüquq normalarının yaradılmasına yox, həm də bu normaların tətbiqinə və həyata keçirilməsinə fəal təsir göstərir. Bu normaların mülki qanunvericiliyin məna və məzmununun aydınlaşdırılmasında əhəmiyyəti böyükdür. Əxlaq qayda və prinsiplərinin mülki hüquq normalarının düzgün tətbiq edilməsində mühüm rolu vardır. Onlar konkret mülki hüquqi məsələlərin həlli zamanı hüquqtətbiqetmə orqanlarına lazım və gərək olur. Çox vaxt həmin məsələlərin düzgün hüquqi həlli əxlaq normalarının nə dərəcədə nəzərə alınmasından asılı olur. Ona görə də hüquqtətbiqetmə orqanlarının iş stollarının üstündə təkcə hüquqi məcəllə yox, həm də «Əxlaq Məcəlləsi» olmalıdır. Məsələn, vətəndaş kənd sakininin minik avtomobilini oğurlayır. O, vicdansız əldə edəndir (sahibdir). O, avtomobilə ondan ayrıla bilməyən yaxşılaşdırmalar edir. Avtomobilin mülkiyyətçisi avtomobilin vətəndaşda olmasını öyrənir və onu qanunsuz sahiblikdən tələb edir. Belə halda vətəndaş minik avtomobilini yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilərmi? Bu məsələni MM-in 157-ci maddəsi tənzimləmir. Ona görə də onun düzgün hüquqi həllini tapmaq üçün əxlaq normasından istifadə olunur. Belə ki, vətəndaş vicdanlı olmaq kimi əxlaq normasını pozduğuna görə, qeyri-əxlaqi hərəkət etdiyi üçün mülkiyyətçidən çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilməz.

Elə hallar yaranır ki, bu və ya digər mülki məsələni həll etmək üçün müvafiq norma, habelə oxşar məsələni tənzimləyən norma olmur. Bu cür məqamlarda həmin məsələni düzgün həll etmək üçün ədalət, insaf, mənəviyyat kimi əxlaq kateqoriyaları əsas götürülür (MM-in 11-ci maddəsi). Mülki hüquq və əxlaq bir-birinə qarşılıqlı təsir göstərirlər. Bu təsirin formulası belədir ki, əxlaq mülki hüquq normalarının pozulmasını tələb edə, mülki hüquq normaları isə qeyri-əxlaqi əməlləri rəsmiləşdirə bilməz. Məsələn, mülki qanunvericilik əxlaq

[1] *Гегель.* Работа разных лет. Том 2. М., 1973, с. 32.
[2] *Гегель.* Сочинения. Том 6. М., 1934, с. 182.
[3] Кант И. Метафизика нравов. Сочинения. Том 4. Часть 2. М., 1965, с. 329.
[4] Yenə orada, s. 376

prinsiplərinə zidd olan ixtiranı, faydalı modeli və sənaye nümunəsini patentlə mühafizə etmir[1]. Əxlaqa zidd ifadələrdən ibarət nişanların əmtəə nişanı kimi qeydə alınmasını qanun qadağan edir[2].

5. Normativ xarakterli aktlar mülki hüququn mənbəyi kimi

Hər şeydən əvvəl, normativ xarakterli aktlar və normativ hüquqi aktlar kimi iki anlayışı bir-birindən fərqləndirmək lazımdır. Bunlar həmin aktları qəbul edən orqanlara görə fərqlənir. Belə ki, normativ xarakterli aktlar nə ali qanunverici, nə ali icra-sərəncamverici, nə də ki mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul edilir. Həmin aktları qəbul edən subyektlər ya mərkəzi icra hakimiyyəti orqanları sırasına daxil edilməyən dövlət orqanları (Konstitusiya Məhkəməsi, Milli Bank), ya da yerli orqanlardır. Yerli orqanlar dedikdə, yerli icra hakimiyyəti orqanları və yerli özünüidarə orqanları (bələdiyyələr) başa düşülür.

Normativ xarakterli aktların dairəsi «Normativ-hüquqi aktlar haqqında» qanunun 3-cü maddəsi ilə müəyyən edilir. Buraya daxildir:

- Konstitusiya Məhkəməsinin qərarları;
- yerli icra hakimiyyəti orqanlarının qərarları[3];
- yerli özünüidarə orqanlarının qərarları;
- Milli Bankın qərarları.

Normativ-hüquqi aktlar kimi, **normativ xarakterli aktlar da ümummecburi göstərişlər ifadə edir, hüquq normalarını dəyişdirir, yaradır və ya ləğv edir.** Buna görə də onlar **mülki hüququn mənbəyi hesab edilir.**

Konstitusiya Məhkəməsi[4] Konstitusiyanın 130-cu maddəsinin 3-cü hissəsinin 1-6 və 8-ci bəndlərinə əsasən aşağı qüvvəli normativ aktların (bələdiyyə aktlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının, Nazirlər Kabinetinin qərarlarının, prezident fərmanlarının, qanunların, qüvvəyə minməmiş beynəlxalq dövlətlərarası müqavilələrin) daha yüksək hüquqi qüvvəsi olan Konstitusiyaya uyğunluğu, habelə aşağı qüvvəli normativ aktların onlardan daha yüksək hüquqi qüvvəsi olan normativ aktlara uyğunluğu barədə qəbul etdiyi qərarlar normativ xarakterli aktlardır. Bundan əlavə, Konstitusiya Məhkəməsi Konstitusiya və qanunların şərhi barədə qərarlar qəbul edir. Bu qərarlar da normativ xarakterli aktlar hesab edilir.

Milli Bank Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas funksiyası pul-kredit və valyuta münasibətləri sahəsində dövlət siyasəti yeritməkdən, valyuta tənzimlənməsini həyata keçirməkdən, hesablaşmaların aparılması və ödəmə sisteminin sabit işləməsi üçün şərait yaratmaqdan və s. ibarətdir. Milli Bank öz funksiyalarını həyata keçirərkən bank fəaliyyəti sahəsində normativ xarakterli aktlar (qaydalar, təlimatlar) qəbul edir[1]. Bu aktlar Milli Bankın İdarə Heyətinin müvafiq qərarı ilə rəsmiləşdirilir. Xüsusən Milli Bankın nağdsız hesablaşmaların aparılması qaydaları haqqında Təlimatının mülki hüququn mənbəyi olmaq baxımından rolu böyükdür.

Yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr yerli özünüidarə orqanlarıdır. Onlar müxtəlif məsələlər, o cümlədən mülki hüququn nizamasalma predmetinə aid olan mülkiyyət münasibətləri haqqında aktlar qəbul etmək ixtiyarına malikdir. **Bələdiyyə aktları** qərar formasında rəsmiləşdirilir. Bu qərarlar iclasda bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Onlar normativ məzmuna malik olub, mülki hüququn mənbəyi kimi çıxış edir. Bələdiyyə aktları qanun qüvvəli yerli aktlar hesab edilir. Özü də bu aktların yalnız yerli şəxslər üçün məcburi hüquqi qüvvəsi vardır.

Öz səlahiyyətləri daxilində **yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktlar qəbul etmək hüququ vardır.** Bu aktların toxunduğu və əhatə etdiyi məsələlər olduqca müxtəlifdir: rayon mənzil təsərrüfatı; nəqliyyat xidmətləri; dövlət əmlakının icarəyə verilməsi; mülkiyyət münasibətləri və s. Həmin aktlar qərar formasında ifadə olunur. Özü də bu qərarlar qanunvericilik sisteminə daxil olan normativ aktlara zidd ola bilməz. Həmin qərarlar **qanun qüvvəli yerli aktların bir növü** hesab edilir.

Həm yerli özünüidarə (bələdiyyə) orqanlarının, həm də yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları müxtəlif münasibətləri tənzim edir. Bu münasibətlər regional xarakterli münasibətlərdir. Ona görə də həmin münasibətləri qaydaya salan yerli hakimiyyət orqanlarının aktları **lokal aktlar kateqoriyasına** şamil edilir. Onlar müvafiq ərazidə yerləşən müəssisələr, təşkilatlar və idarələr, habelə vəzifəli şəxslər və vətəndaşlar üçün məcburi qüvvəyə malikdir[2].

6. Hüququn prinsipləri mülki hüququn mənbəyi kimi

Qeyd etdik ki, mülki hüquqda həm hüququn ümumi prinsipləri, həm də mülki hüququn xüsusi (sahəvi) prinsipləri böyük rol oynayır. **Hüququn ümumi prinsipləri hüququn mənbəyi hesab edilir**[3].

Dünyanın demək olar ki, bütün hüquq ailələrində bu prinsiplər hüququn mənbəyi kimi qəbul edilir. Həm roman-german hüququ, həm də ingilis-amerikan hüququ ölkələrinin qanunvericiliyi və yaranmış hüquqi ənənə hüquqtətbiqetmə fəaliyyəti prosesində hüququn ədalət, vicdanlılıq və digər bu cür ümumi prinsiplərindən istifadə etməyin mümkünlüyünü nəzərdə tutur. Belə ki, qanun-

---

[1] bax: «Patent haqqında» qanunun üçüncü maddəsi // Mass-media və intellektual mülkiyyət. Bakı. 1998, s. 174.

[2] bax: «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» 19 avqust 1998-ci il tarixli qanunun 5-ci maddəsi (AR, QK, V cild, s. 477).

[3] Yerlərdəki hakimiyyət orqanlarının hüquq yaradıcılığı qabiliyyəti və imkanı barədə bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 415.

[4] Konstitusiya Məhkəməsinin mülki hüququn mənbəyi kimi çıxış edən qərarlarına misal göstərmək olar: Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair 27 dekabr 2001-ci il tarixli qərar // KMM. Bakı. 2002. №2; Azərbaycan Respublikası Mülki Məcəlləsinin 179-cu maddəsinin şərh edilməsinə dair 28 yanvar 2002-ci il tarixli qərar // KMM. Bakı. 2002. №2; Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21-ci və 23-cü maddələrinin şərh edilməsinə dair 31 may 2002-ci il tarixli qərar // «Qanun» jurnalı. 2002. №6-7.

[1] bax: «Azərbaycan Respublikasının Milli Bankı haqqında» 10 dekar 2004-cü il tarixli qanunun 8-ci maddəsi.

[2] Yerli hakimiyyət və icra orqanlarının qəbul etdikləri normativ aktların mülki hüququn mənbəyi olması barədə bax: Советское гражданское право. Том 1/Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 57; Теория государства и права. Курс лекций /Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 389.

[3] bax: Общая теория права и государства. Учебник /Под ред. *В.В.Лазарева.* М., 2001, с. 136.

da konkret hüquqi göstəriş, hüquqi adət və ya hüquqi presedent olmadıqda, hüququn ümumi prinsiplərinin hüquqi məsələni həll etmək üçün tətbiq edilməsinə yol verilir.

Bəzi ölkələrin qanunvericiliyində hüququn ümumi prinsiplərinin hüququn mənbələrinə aid edilməsi barədə birbaşa göstəriş nəzərdə tutulur. İspaniya Mülki Məcəlləsinin 6-cı maddəsi hüququn mümkün olan mənbələri arasında *ümumi prinsipləri* də sadalayır[1]. Misir, Əlcəzair və İraq kimi ölkələrin mülki məcəllələri hakimlərə ixtiyar verir ki, onlar müsəlman hüququ prinsiplərinə əsaslanmaqla qanundakı boşluğu doldursunlar[2].

Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi göstərir ki, mülki münasibəti, habelə buna oxşar münasibəti tənzimləyən norma olmadığı hallarda, həmin münasibəti nizama salmaq üçün mülki hüququn prinsipləri əsas kimi götürülür, ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınır (MM-in 11-ci maddəsinin 2-ci bəndi). Burdan belə bir nəticəyə gələ bilərik ki, bizim ölkə qanunvericiliyi hüququn ümumi prinsiplərini və mülki hüququn xüsusi (sahəvi) prinsiplərini hüququn mənbə növü kimi qəbul edir. Axı, həmin prinsiplərin tətbiqi nəticəsində müvafiq mülki münasibəti tənzimləyən yeni mülki hüquq norması yaranır.

7. Ali Məhkəmə Plenumu qərarlarının hüquqi təbiəti

Ali məhkəmə orqanlarının ixtiyarı var ki, qanunvericiliyin tətbiqi məsələləri üzrə **«rəhbər izahatlar»** versin. Konstitusiyanın 131-ci maddəsinin 1-ci bəndinə görə, Azərbaycan Respublikasının Ali Məhkəməsi ali məhkəmə orqanı olub, məhkəmə təcrübəsinə aid məsələlər üzrə izahatlar verir[3]. Bu cür izahatlar, bir qayda olaraq, **«məhkəmə təfsiri qaydasında» Ali Məhkəmə Plenumu qərarları formasında** qəbul edilir və ümumiləşdirilmiş materiallara əsaslanır[4].

Hüquq ədəbiyyatında Ali Məhkəmə Plenumu qərarlarının hüquqi təbiəti uzun müddət mübahisə predmeti olmuşdur. Bu diskussiya indi də davam edir. Həmin mübahisə və diskussiyaların mahiyyəti plenum qərarlarının mülki hüququn mənbəyi kimi tanınıb-tanınmaması məsələsindən ibarətdir. Xeyli vaxtdır ki, hüquq ədəbiyyatında bu məsələ barədə iki konsepsiya yaranmışdır.

[1] bax: *Рене Давид, Камилла Жоффре-Спиноси.* Основные правовые системы современности. М., 1999, с. 111.

[2] Yenə orada, s. 318.

[3] bax: AR QK, II cild, s. 606. **«Məhkəmələr və hakimlər haqqında»** qanunun 79-cu maddəsində göstərilir ki, Ali Məhkəmə Plenumu məhkəmə təcrübəsinə dair məsələlər üzrə məhkəmələrə izahlar verir (AR, QK, II cild, s. 698).

[4] bax: Постановление Пленума Верховного Суда РФ №3 от 28 апреля 1994 г. «О судебной практике по делам о возмещении вреда, причиненного повреждением здоровья» (Бюллетень ВС РФ 1994. №7); Постановление Пленума Верховного Суда РФ № 7 от 29 сентября 1994 г. «О практике рассмотрения судами дел о защите прав потребителей» (Бюллетень ВС РФ, 1995. № 1); Постановление Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданкого кодекса Российской Федерации» (Вестник ВАС РФ. 1996. № 9); Постановление Пленума Высшего Арбитражного Суда РФ от 22 октября 1997 г. № 18 «О некоторых вопросах, связанных с применением положений Гражданского кодекса Российской Федерации о договоре поставки» (Вестник ВАС РФ. 1998. № 3).

Birinci konsepsiya tərəfdarları belə hesab edirlər ki, plenum qərarları mülki hüququn mənbəyidir[1]. Onlar öz fikirlərinin əsaslı və həqiqətə uyğun olmasını sübut etmək üçün müxtəlif cür tutarlı *dəlillər və arqumentlər gətirirlər.* Həmin müəlliflər göstərirlər ki, plenum qərarları hüquq normalarının məzmununu təfsir edir. Bu, müvafiq məhkəmə sistemi üçün, bununla da müxtəlif mübahisə iştirakçıları (tərəfləri) üçün məcburidir. Bu qərarlar qüvvədə olan qanunvericiliyin mənasını izah edərkən faktiki olaraq yeni qayda, ümumi xarakterli hüquqi müddəa formulə edir. Bu qayda və müddəalar dövlət iradəsini ifadə edir, icra üçün məcburidir, normativ aktda ifadə olunan normadan fərqlənmir. Məhkəmələr hüquq norması yaratmaq səlahiyyətinə malik olmasa da, onun bəzi izahatları bu cür, yəni hüquq norması kimi qəbul edilir[2].

İkinci konsepsiya tərəfdarları bunun əksi olan mövqe tuturlar[3]. Onların fikrincə, **plenum qərarlarını mülki hüququn mənbəyi hesab etmək olmaz.** Bu mövqeyi dəstəkləyən müəlliflər də özlərinin haqlı olmasını əsaslandırmaq üçün kifayət qədər ağlabatan və inandırıcı arqumentlər irəli sürürlər. Bizim zənnimizcə, ikinci konsepsiya tərəfdarlarının mövqeyi həqiqətə daha yaxındır. Bu mövqeyin əsaslı olması üçün bir neçə arqument gətirə bilərik.

Birincisi, plenum qərarları qanunvericilik tərəfindən **rəsmi surətdə formal olaraq mülki hüququn mənbəyi kimi tanınmır.** Konstitusiyanın 147-151-ci maddələrini, «Normativ hüquqi aktlar haqqında» qanunun 2-3-cü maddələrini, habelə MM-i nəzərdən keçirdikdə bizə məlum olur ki, qanunvericiliyin rəsmən mülki hüququn mənbəyi kimi qəbul etdiyi aktlar sırasında plenum qərarlarının adı çəkilmir.

İkincisi, Ali Məhkəmənin hüquq yaradıcılığı qabiliyyəti və imkanı yoxdur. Hüquq yaradıcılığı dedikdə, dövlət fəaliyyətinin hüquq normalarının yaradılmasına, dəyişdirilməsinə və ya ləğv edilməsinə yönələn xüsusi forması başa düşülür. O, cəmiyyətin obyektiv sosial ehtiyac və mənafelərinin öyrənilməsinə əsaslanır. Ali Məhkəmə hüquq yaradıcılığı fəaliyyətinin subyekti kimi tanınmır və qəbul edilmir. Bu ali məhkəmə orqanına hüquq norması yaratmağa, dəyişdirməyə və ya ləğv etməyə səlahiyyət və ixtiyar verilməmişdir. Onun bu cür fəaliyyətə hüququ çatmır. Ali Məhkəmənin hüquq norması yaratması hakimiyyətin bölgüsü prinsipinə ziddir. Onların fəaliyyəti hüquq norması yaratmaq-

[1] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967; *Братусь С.Н., Венгеров А.Б.* Понятие, содержание и формы судебной практики // В книге: Судебная практика в советской правовой системе М., 1975; *Новицкий И.Б.* Источники советского гражданского права. М., 1959; *Тёмушкин О.П.* Толкование закона Пленумом Верховного Суда СССР // Советское государство и право. 1976. № 12; Гражданское права. Учебник. Часть 1 / Под ред. *З.И. Цыбуленко.* М., 1998; *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999; Гражданское право. Учебник. Часть 3 / Под ред. *А.П. Сергеева, Ю.К.Толстого.* М., 1998; *Xrapaнyuk N.V.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, s. 122-123.

[2] Бюллетень Верховного Суда СССР. 1984. № 5, с. 30.

[3] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 57; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 61; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каплина, А.И.Масляева.* М., 1997, с. 38; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 30; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П. Сергеева, Ю.К. Толстого.* М., 1998, с.38.

dan yox, hüquq normasını tətbiq etməkdən ibarətdir.

Üçüncüsü, plenum qərarlarının əksəriyyətində **qüvvədə olan qanunvericilik təfsir olunur**, yəni qanunvericiliyin mənası aydınlaşdırılır və izah edilir. Bu qərarlar öz hüquqi təbiətinə görə təfsir aktlarıdır. Onlar hüquqi aktların bir növüdür. Təfsir aktları hüquqi əhəmiyyəti olan elə bir rəsmi sənəddir ki, o, hüquq normasının əsl məna və məzmununun müəyyən edilməsinə yönəlir[1].

Plenum qərarları **təfsir aktlarının rəsmi təfsir aktları (interpretasiya aktları)** kimi növünə şamil edilir. Bu cür aktlar təfsiri verilmiş hüquq normasını tətbiq edən bütün şəxslər üçün məcburi xarakterə malikdir. Plenum qərarları həm də **normativ təfsir aktları** hesab olunur. Normativ təfsir aktları qüvvədə olan qanunvericiliyin yalnız mənasını izah edir. Bu cür aktlara aid edilən plenum qərarları ümumi xarakterli olub, ümumi məcburi qüvvəyə malikdir, yəni bütün müvafiq məhkəmə orqanları sistemi üçün hüquq normasını başa düşmək və anlamaq mənasında məcburidir. Bu qərarlar hüquqtətbiqetmə prosesində ümumi rəhbərlik üçündür, qeyri-məhdud hallara aiddir, həmçinin əhatə dairəsi geniş olan subyektlərə şamil edilir.

Plenum qərarları **leqal təfsir aktlarıdır**. Əgər hüquq normasını təfsir etmək üçün səlahiyyət və icazə verilmiş, tapşırıq almış subyekt təfsir edərsə, buna leqal təfsir aktları deyilir. Ali Məhkəməyə qanunları təfsir etmək üçün icazə verilmişdir.

Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, rəsmi, normativ və leqal təfsir aktı hesab olunan plenum qərarları müstəqil əhəmiyyətə malik deyildir. Bu qərarlar yalnız təfsiri verilmiş hüquq normasını ifadə edən normativ aktlarla birlikdə məna kəsb edərək fəaliyyət göstərirlər. Onların hüquqi taleyi və müqəddəratı normativ aktlarla bağlı olub, bu aktlardan asılıdır. Normativ aktın ləğv edilməsi və ya dəyişdirilməsi çox vaxt təfsir aktının da ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb olur. Plenum qərarları əhatə dairəsi geniş olan bütün məhkəmə orqanlarına şamil edilir. Bu qərarlardan istifadə olunması təfsiri verilən normanın tətbiq edildiyi hər bir hal üçün nəzərdə tutulur və hesablanır. Bu baxımdan onlar ümumi məcburi xarakterə malikdir.

Plenum qərarları hüquq normasının məhkəmələr tərəfindən düzgün və bir mənalı başa düşülüb tətbiq edilməsini təmin edir. Onlar mülki hüquq normalarının aşağı məhkəmə orqanları tərəfindən düzgün tətbiq edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu qərarlar mülki hüquq (sivilistika) elmi tərəfindən işlənib hazırlanmış nəzəriyyələri, postulatları, konsepsiyaları və ideyaları qəbul etməklə kifayətlənmir. Onlar da öz növbəsində hüquqtətbiqetmə praktikasının sabitliyini və vahidliyini təmin etmək məqsədi ilə müxtəlif ümumiləşdirmələr ifadə edir. Plenum qərarlarında bəzi hallarda nəzəri mühakimələrlə üzləşirik: müvafiq hüquq norması necə və nə üçün məhz belə tətbiq olunmalıdır?

[1] Nəzəri ədəbiyyatda təfsir aktlarının hüquqi təbiəti barədə müxtəlif fikirlər söylənilir. Müəlliflərdən bir qrupu, məsələn, N.V.Xropanyuk göstərir ki, bəzi təfsir aktları hüquqyaratma xarakterinə malik olub, özündə hüquq normalarını əks etdirir. Ona görə də bu aktlar hüququn mənbəyi hesab olunur. (bax: *Xropanyuk N.V.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, s. 140). Digər qrup alimlər bunun əksi olan mövqedə dayanırlar. Onlar göstərirlər ki, təfsir aktları hüquq norması yaratmır, dəyişdirmir və ya ləğv etmir. Ona görə də bu aktlar hüququn mənbəyi sayılmır (bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 487). Bizim fikrimizcə, ikinci qrup müəlliflərin mövqeyi daha inandırıcı görünür.

Məhkəmə təcrübəsində yaranan müddəalar bəzən sonralar mülki qanunvericilikdə nəzərə alınır (məsələn, üzrlü səbəblərə görə ötürülən iddia müddətinin uzadılması və s.)[1].

Lakin bunlara baxmayaraq, plenum qərarları özündə ümumi məcburi davranış qaydası (hüquq norması) müəyyən etmir. Bu qərarlar yalnız hüquq normalarının məzmun və mənasını təfsir edir, aydınlaşdırır, izah edir. **Ali Məhkəmənin** yeni hüquq norması yaratmağa ixtiyarı çatmır. Ona görə də onun **qəbul etdiyi qərarlar mülki hüququn mənbəyi rolunda çıxış edə bilməz**. Ali Məhkəmə konkret işlər üzrə məhkəmə təcrübəsini öyrənir və onları ümumiləşdirərək qərarlar qəbul edir. Əgər qüvvədə olan qanunvericiliyə əlavələr və dəyişikliklər edilməsi qənaətinə gələrsə, onda o, qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək təqdimatla Milli Məclisə müraciət edir (Konstitusiyanın 96-cı maddəsi).

§ 4. Mülki qanunvericiliyin hüquqi qüvvəsi

1. Mülki qanunvericiliyin qüvvəsi anlayışı və əhəmiyyəti

Həyatda elə hallarla rastlaşırıq ki, mülki qanunvericilik aktlarının tətbiqi zamanı müxtəlif hüquqi qüvvəyə malik olan normativ aktlar arasında kolliziya (ziddiyyət) əmələ gəlir. Bu cür kolliziya (ziddiyyət) eyni qüvvəyə malik olan normativ aktlar arasında da yarana bilər. Normativ aktlar vaxtaşırı olaraq müntəzəm surətdə təzələnir, yeni mülki hüquq normaları əmələ gəlir, köhnə normalar qüvvədən düşür. Göstərilən halda belə bir sual meydana çıxır: müvafiq münasibətə hansı normativ akt tətbiq edilməlidir? Mülki qanunvericilik aktları nə vaxt qüvvəyə minir və nə vaxt qüvvədən düşür? Bundan əlavə, mülki hüququn predmetinə daxil olan ictimai münasibətlər özlərinin yüksək dinamizmi ilə fərqlənir. Bu, o deməkdir ki, mülki hüquqla tənzimlənən ictimai münasibətlər durmadan inkişaf edir. Xüsusən ictimai-iqtisadi dəyişikliklər dövründə və şəraitində mülki hüquqla rəsmiləşdirilən və nizama salınan əmlak və şəxsi qeyri-əmlak münasibətlərinin yeni növləri əmələ gəlir. Bu münasibətlər öz əlamətinə görə mülki hüququn predmetinə daxil edilir. Bu cür halda belə bir sual yaranır: mülki qanunvericilik aktları nə vaxtdan həmin münasibətlərə şamil edilir? Bu aktlar hansı mülki münasibətlərə tətbiq olunur? Həmin aktlar sonradan əmələ gəlmiş münasibətlərə tətbiq edilirmi? Daha sonra, mülki qanunvericilik aktlarının Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı inzibati-ərazi vahidinin ərazisində qüvvədə olmasını, habelə bu aktların Azərbaycan Respublikasının bütün vətəndaşlarına, əcnəbilərə və yaxud hüquqi şəxslərə və s. şamil edilməsini müəyyənləşdirmək vacib əhəmiyyətə malik olur.

Göstərilən bu və ya digər suallara cavab vermək üçün zaman (vaxt), məkan (ərazi), predmet və şəxslər (subyektlər) kimi amillər baxımından qanunvericilik aktlarının hüquqi qüvvəsinin hədlərini dəqiq olaraq müəyyən etmək zərurəti yaranır. Bu, mülki hüquq normalarının düzgün tətbiqi və həyata keçirilməsi üçün olduqca vacibdir. Normativ aktların hüquqi qüvvəsinin hüquqi prak-

[1] bax: Судебная практика в советской правовой системе. М., 1975.

tika üçün birbaşa əhəmiyyəti vardır.

Mülki qanunvericilik aktlarının hüquqi qüvvəsi dedikdə, bu aktların müəyyən zaman (vaxt, müddət) ərzində, müəyyən ərazi (məkan) hüdudlarında konkret şəxslər (subyektlər) dairəsinin və kateqoriyasının iştirak etdiyi münasibətləri tənzimləməsi başa düşülür. O, özündə dörd məsələni birləşdirir:

- mülki qanunvericilik aktları hansı münasibətlərə şamil edilir **(mülki qanunvericiliyin predmetə görə hüquqi qüvvəsi)**;
- hansı vaxtdan (müddətdən) hansı vaxta kimi qanunvericilik aktları hüquqi qüvvəyə malikdir **(mülki qanunvericiliyin zamana görə hüquqi qüvvəsi)**;
- mülki qanunvericilik aktları hansı ərazidəki münasibətləri tənzimləyir **(mülki qanunvericiliyin əraziyə görə qüvvəsi)**;
- mülki qanunvericilik aktları hansı şəxslər dairəsinə və kateqoriyasına ünvanlanmışdır **(mülki qanunvericiliyin şəxslərə görə hüquqi qüvvəsi)**.

Dediklərimizdən belə bir nəticəyə gələ bilərik ki, mülki qanunvericilik aktları yalnız müəyyən müddət (zaman) ərzində, yalnız müəyyən ərazi (məkan) sərhədləri daxilində və nəhayət, yalnız konkret subyektlər (şəxslər) dairəsinə ünvanlandıqda, hüquqi əhəmiyyət kəsb edir, hüquqi qüvvəyə malik olur və məcburi olaraq icra edilir. Bu, o deməkdir ki, qüvvədən düşmüş aktlar tətbiq oluna bilməz; bu aktlar yalnız qüvvəyə mindikdən sonra tənzimləyici rol oynayır; müəyyən inzibati-ərazi vahidi üçün nəzərdə tutulan normativ akt ölkənin bütün ərazisinə şamil edilə bilməz; konkret şəxslər dairəsinə ünvanlanan aktlar digər kateqoriya subyektlərə aid olunmur və s.

2. Mülki qanunvericiliyin predmetə görə hüquqi qüvvəsi

Mülki qanunvericiliyin predmetə görə hüquqi qüvvəsi dedikdə, mülki qanunvericilik aktlarının mülki hüququn predmetinə daxil olan münasibətləri tənzimləməsi başa düşülür. Mülki hüququn predmetinə şamil edilməyən münasibətlərə mülki qanunvericilik aktları tətbiq olunmur. Bu münasibətlər barəsində həmin aktlar hüquqi qüvvəsini itirir.

Mülki hüququn predmetinə əsasən əmlak münasibətləri daxildir. Əmlak münasibətləri mülki hüquqla tənzim olunan münasibətlərin əsas qrupunu təşkil edir[1]. Başqa sözlə desək, mülki hüququn tənzim etdiyi münasibətlər içərisində əmlak münasibətləri üstünlük təşkil edir[2].

Cəmiyyətdə və real ictimai həyatda yaranan əmlak münasibətləri təkcə mülki hüquqla nizama salınmır. Bu münasibətlər əvvəllər qeyd etdiyimiz kimi, hüququn digər sahələri tərəfindən də qaydaya salınır. Söhbət inzibati, maliyyə, konstitusiya və başqa hüquq sahələrindən gedir. İnzibati hüququn predmetinə də əmlak münasibətləri daxildir. Məsələn, nazirlik onun tabeçiliyində olan müəssisə və təşkilatları zəruri əmlakla təmin edir. Mülki hüquqla tənzimlənən əmlak münasibətlərindən fərqli olaraq bu cür əmlak münasibəti əmlak-təşkilati, hakimiyyət-tabeçilik, qeyri-əvəzli, qeyri-ekvivalent, subordinasiya münasibətidir. Bu münasibət inzibati hüquqla tənzimlənir. Əmlak münasibətləri maliyyə hüququnun da predmetinə daxildir. Məsələn, işçinin aylıq əmək haqqından dövlət büdcəsinə gəlir vergisi tutulur. Bu, pul baxımından yaranan əmlak münasibətidir. Mülki hüquqla tənzimlənən əmlak münasibətlərindən fərqli olaraq bu münasibətlər dövlətin maliyyə fəaliyyəti prosesində yaranır. Özü də onlar qeyri-əvəzli, qeyri-ekvivalent, hakimiyyət-tabeçilik münasibətləridir.

Şübhəsiz ki, mülki qanunvericilik aktları hüququn digər sahələri tərəfindən tənzimlənən əmlak münasibətlərini nizama salmaqdan çox uzaqdır. Bu aktlar həmin münasibətlər barəsində hüquqi qüvvəyə malik deyildir. Onlar yalnız mülki hüquqla tənzimlənən əmlak münasibətləri barəsində hüquqi əhəmiyyət kəsb edir. Buna görə də mülki hüquqla rəsmiləşdirilən əmlak münasibətlərini hüququn digər sahələri tərəfindən tənzimlənən əmlak münasibətlərindən ayırmaq və fərqləndirməyə imkan verən spesifik əlamətləri müəyyən etmək zərurəti yaranır. Bunun çox vacib və mühüm əhəmiyyəti vardır. Belə ki, məhz bu spesifik əlamətlər olmasaydı, təcrübədə bu və ya digər əmlak münasibətinin əsl hüquqi təbiətini müəyyənləşdirmək, yəni hansı hüquq sahəsinin predmetinə daxil olmağı təyin etmək müşkül və qəliz bir işə çevrilərdi. Bu isə öz növbəsində bir sıra hallarda qanunun pozulmasına gəlib çıxarardı.

Sivilistika doktrinası (mülki hüquq elmi) mülki hüquqla tənzimlənən əmlak münasibətlərini digər xarakterli əmlak münasibətlərindən ayırmağa imkan verən fərdiləndirici əlamətlər müəyyən etmişdir. Biz əvvəlki fəsillərin birində bu barədə danışmışıq. Ona görə də bu məsələyə bir daha toxunmağı lazım bilmirik. Qısaca olaraq onu deyə bilərik ki, mülki hüququn predmetinə daxil olan əmlak münasibətləri dəyər münasibətləridir, əmtəə-pul münasibətləridir, əvəzli-ekvivalentli münasibətlərdir və nəhayət, tərəflərin hüquq bərabərliyinə əsaslanan münasibətlərdir. Bundan belə nəticəyə gələ bilərik ki, **mülki qanunvericilik aktları** dəyər formalı, əmtəə-pul xarakterli, əvəzli-ekvivalentli, tərəfləri hüquqi bərabər olan əmlak münasibətlərini tənzimləyir və bu münasibətlər barəsində hüquqi qüvvəyə malik olur. Mülki qanunvericiliyin predmetə görə hüquqi qüvvəsinin mahiyyəti də məhz bundan ibarətdir.

3. Mülki qanunvericiliyin zamana (vaxta, müddətə) görə qüvvəsi

Mülki qanunvericilik aktlarının hüquqi təcrübədə düzgün tətbiq edilməsi, hər şeydən əvvəl, onların zamana (vaxta, müddətə) görə hüquqi qüvvəsi məsələsindən asılıdır. Bu məsələni bilmək olduqca vacib və zəruridir. Bu, hüquq normalarının düzgün həyata keçirilməsi üçün son dərəcədə mühüm əhəmiyyətə malik olan məsələdir.

Mülki qanunvericiliyin zamana görə hüquqi qüvvəsi dedikdə, mülki qanunvericilik aktlarının qüvvəyə minməsi müddəti, bu aktların qüvvədə olma müddəti və onların qüvvədən düşmə müddəti başa düşülür. Bu, qanunda nəzərdə tutulan qaydalarla müyyənləşdirilir. Həmin qaydalar konstitusiyada, Mülki Məcəllədə və «Normativ hüquqi aktlar haqqında» qanunda əks olunmuşdur.

Mülki qanunvericiliyin zamana görə hüquqi qüvvəsini müəyyənləşdirən həmin qayda əsasən üç məsələni əhatə edir:

[1] bax: Советское гражданское право. Учебник. Том 1 /Под ред. *В.П.Грибанова и С.М.Корнеева*. М., 1979, с. 6.

[2] bax: *Яковлев В.Ф.* Гражданско-правовой метод регулирования общественных отношений. Свердловск. 1972, с. 48-49.

• mülki qanunvericilik aktı nə vaxt qüvvəyə minmişdir **(aktın qüvvəyə minmə müddəti)**;

• mülki qanunvericilik aktı nə vaxta kimi qüvvədə olacaqdır **(aktın qüvvədə olma müddəti)**;

• mülki qanunvericilik aktı nə vaxt qüvvədən düşəcəkdir **(aktın qüvvədən düşmə müddəti).**

Mülki qanunvericilik aktının qüvvəyə minmə müddəti odur ki, məhz həmin müddətdən etibarən o, məcburi olaraq icra olunmalıdır. Bu aktlar məhz həmin müddətdən sonra tətbiq olunmağa başlayır.

Mülki qanunvericilik aktlarının qüvvəyə minməsinin dəqiq müddətinin müəyyən edilməsi çox vacib məsələdir. Ona görə ki, **bu aktlar həmin müddətdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilir** (MM-in 7-ci maddəsinin 1-ci bəndi). Bu qayda mülki dövriyyənin sabitliyini və möhkəmliyini təmin etmək məqsədini güdür. Belə ki, o, mülki hüquq subyektləri arasında münasibətlərdə sabitlik, vətəndaşlarda öz hüquqi vəziyyətlərinin dəyişməzliyinə, hüquq qaydasının möhkəmliyinə inam yaradır. Buradan belə bir nəticə çıxara bilərik ki, **normativ aktlar hüquqi qüvvəyə minmə müddətindən əvvəl yaranan və mövcud olan ictimai münasibətlərə şamil olunmur.** Bu isə onu ifadə edir ki, mülki qanunvericilik aktlarının geriyə qüvvəsi yoxdur (MM-in 7-ci maddəsinin 1-ci bəndi). Bu işdə özbaşınalığa yol vermək olmaz. Deməli, normativ aktların geriyə qüvvəsinin olmaması o deməkdir ki, bu aktlar hüquqi qüvvəyə mindikdən əvvəl meydana gəlmiş münasibətlərə şamil edilmir. Məsələn, iki müəssisə arasında topdansatış ticarət münasibətləri yaranır. Bundan sonra bu cür münasibətləri tənzimləyən qanun qəbul edilir. Bu qanun həmin münasibətlərə tətbiq olunmayacaqdır. Qanunda birbaşa göstəriş nəzərdə tutulsa belə, mülki qanunvericilik aktlarının geriyə qüvvəsi yoxdur (MM-in 7-ci maddəsinin 2-ci bəndi)[1].

Mülki qanunvericilik aktlarının geriyə qüvvəsinin olmaması prinsipindən qanunda nəzərdə tutulan hallarda müəyyən istisnaya yol verilir[2]. Bu, onu ifadə edir ki, həmin hallarda müvafiq normativ akt qüvvəyə minəndən əvvəl əmələ gəlmiş münasibətlərə tətbiq edilir:

• əgər həmin akt fiziki və hüquqi şəxslərin **hüquqi vəziyyətini yaxşılaşdırırsa**;

• əgər həmin akt **mülki hüquq məsuliyyətini aradan qaldırırsa;**

• əgər həmin akt **mülki hüquq məsuliyyətini yüngülləşdirirsə.**

Söylədiklərimizdən belə təsəvvür yaranır ki, əgər mülki qanunvericilik şəxslərin hüquqi vəziyyətini pisləşdirərsə və ya onlara zərər vurarsa, onda onun geriyə qüvvəsindən söhbət gedə bilməz. Məsələn, şəxs bankdan kredit alır. Kredit müqaviləsində kreditin qaytarılmasının hər gecikdirilən günü üçün kredit məbləğinin 0,2 faizi həcmində dəbbə pulu (penya) ödənilməsi nəzərdə tutulur. Bundan sonra Milli Bank tərəfindən qəbul edilən normativ aktda (təlimatda) penya (qanuni dəbbə pulu) 0,7 faiz məbləğində müəyyənləşdirilir. Bu təlimat kredit müqaviləsindən əmələ gələn münasibətə tətbiq edilməyəcəkdir. Ona görə ki, o, şəxsin vəziyyətini pisləşdirir.

Mülki qanunvericilik aktlarının qüvvəyə minməsinin əsas iki qaydası və yolu vardır:

• normativ aktın **dərc olunduğu gündən qüvvəyə minməsi qaydası;**

• normativ aktın **özündə və ya bu aktın qüvvəyə minməsinə dair xüsusi aktda göstərildiyi andan qüvvəyə minməsi qaydası**..

Normativ aktların qüvvəyə minməsinin əsas yolu və qaydası **onların dərc olunması ilə qüvvəyə minməsi yoludur**. Bu, nisbətən daha geniş yayılmış yoldur. Konstitusiyaya görə qanunun, Milli Məclisin qərarlarının, prezidentin fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, **onlar dərc edildiyi gündən qüvvəyə minir**[1]. Analoji göstəriş, yəni bu cür oxşar göstəriş «Normativ hüquqi aktlar haqqında» qanunun 41-ci maddəsinin 1-ci bəndində də ifadə olunmuşdur[2].

Müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları, yerli icra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və Milli Bankın normativ aktları əvvəlcə müəyyən edilmiş qaydada Ədliyyə Nazirliyində müəyyən edilmiş qaydada **məcburi dövlət qeydiyyatından keçir**. Bundan sonra həmin aktların özündə başqa qayda nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir[3].

Konstitusiya Məhkəməsi qərarlarına gəldikdə isə qeyd etmək lazımdır ki, onun yalnız qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü, Konstitusiyanın və qanunların şərh edilməsi barədə qərarları dərc olunduğu gündən hüquqi qüvvəyə malik olur[4]. Konstitusiya Məhkəməsinin normativ xarakterli digər aktları isə başqa yolla qüvvəyə minir. Belə ki, AR Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlər üzrə qəbul olunmuş qərarlar onların özündə göstərilən vaxtdan, digər məsələlər barədə isə qərarlar elan olunduğu andan qüvvəyə minir.

Qanunlar və prezident fərmanları **«Azərbaycan»** qəzeti və **«Azərbaycan Respublikasının qanunvericilik toplusu»** kimi rəsmi nəşrlərdə, Milli Məclisin qərarları **«Azərbaycan»** qəzetində, və **«Azərbaycan Respublikasının Milli Məclisinin məlumatı»**nda, Nazirlər Kabinetinin qərarları rəsmi nəşr sayılan **«Azərbaycan Respublikası qanunvericilik toplusu»**nda və **«Respublika»** qəzetində, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları rəsmi nəşr hesab edilən **«Azərbaycan Respublikası mərkəzi icra hakimiy-**

[1] Qanunda birbaşa nəzərdə tutulmuş hallarda mülki qanunvericiliyin geriyə qüvvəsinin olmaması barədə göstərilən maddə MM-in 390-cı maddəsi ilə daban-daban ziddiyyət təşkil edir. Belə ki, MM-in 390-cı maddəsinin 2-ci bəndinə görə qanunda onun qüvvəsinin əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil olunması müəyyənləşdirilə bilər. Ümumiyyətlə, MM-in 7-ci maddəsinin 2-ci bəndində ifadə olunan hüquq norması qüsurludur. Nə üçün qanunda mülki qanunverciliyin onun hüquqi qüvvəyə minəndən əvvəlki münasibətlərə tətbiq edilməsi barədə göstəriş ifadə olunmasın? Yeri gəlmişkən, qeyd edək ki, RF-in MM-nin 4-cü maddəsinin 1-ci bəndində bunun əksi olan norma təsbit edilmişdir: qanunda birbaşa nəzərdən tutulduğu hallarda qanun qüvvəyə minəndən əvvəl yaranan münasibətlərə tətbiq edilir (bax: Комментарий к ГК РФ, части первой /Отв. ред. *О.Н.Садиков*. М., 1999, с. 14).

[2] bax: Konstitusiyanın 149-cu maddəsinin VII hissəsi (AR QK, II cild, s. 612).

[1] bax: Konstitusiyanın 98-ci, 113-cü və 120-ci maddələri (AR QK, II cild, s. 593, 599, 601).

[2] бах: Бизнесменин бүллетени. Бакы. 2000. № 2 (278), с. 13.

[3] bax: «Normativ hüquqi aktlar haqqında» qanunun 41-ci maddəsinin 2-ci bəndi.

[4] bax: «Konstitusiya Məhkəməsi haqqında» qanunun 67-ci maddəsi.

yeti orqanlarının normativ aktlarının bülleteni»ndə (Ədliyyə Nazirliyinin nəşri), Konstitusiya Məhkəməsinin qərarları **«Azərbaycan»** qəzetində və **«Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məlumatı»**nda dərc olunur.

Milli Bankın normativ aktları da dərc edilmək yolu ilə qüvvəyə minir. «Normativ hüquqi aktlar haqqında» qanun bu aktların dərc edildiyi nəşrlərin dairəsini müəyyənləşdirmir. Elə nəsab edirik ki, Milli Bankın normativ aktları istənilən rəsmi nəşrdə dərc olunduqda hüquqi qüvvəyə minir.

Normativ hüquqi aktların dərc olunmasını onların təkcə hüquqi qüvvəyə minməsi variantı və yolu hesab etmək olmaz. Dərc olunma həm də normativ aktlarda ifadə edilən qaydaların məzmunu ilə mülki (əmlak) dövriyyə iştirakçılarını tanış etmək məqsədi güdür. Bundan əlavə, o, həmçinin bu aktın rəsmi mətnini əks etdirir. Buna görə də normativ hüquqi aktlar onu qəbul etmiş orqanlar və ya Ədliyyə Nazirliyi tərəfindən lazımi tirajda dərc olunur. Özü də istənilən kütləvi informasiya vasitəsinin və nəşriyyatın ixtiyarı var ki, mülki qanunvericilik aktlarını dərc etsin. Bunu qanun yasaqlamır və qadağan etmir.

Mülki qanunvericilik aktının bütövlükdə qüvvəyə minməsi müddətini bu aktın hissəsinin qüvvəyə minməsi müddətindən fərqləndirmək lazımdır. **Normativ aktın hissəsi** dedikdə, onun fəsil, maddəsi, bəndi başa düşülür. Bəzi hallarda bu müddətlər üst-üstə düşmür, yəni fərqli müddət müəyyən edilə bilər. Məsələn, nəzərdə tutula bilər ki, normativ aktın filan maddəsi və ya filan bəndi normativ aktın özünün qüvvəyə minməsi müddətindən bir il keçəndən sonra qüvvəyə minəcəkdir.

Bəzi məqamlarda normativ hüquqi aktın qüvvəyə minmə müddəti xüsusi rola malik olur. Belə ki, müəyyən hallarda mülki qanunvericiliyin iyerarxiya sistemində eyni hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlar arasında kolliziya (latınca collisio - toqquşma), ziddiyyət yaranır. Sual olunur: müvafiq münasibətə hansı normativ akt tətbiq olunacaqdır? Göstərilən vəziyyətdə həmin münasibəti qaydaya salmaq üçün daha sonra qüvvəyə minmiş normativ aktdan istifadə edilir[1].

Mülki qanunvericilik aktının qüvvəyə minməsinin ikinci yolu **aktın özündə və ya bu aktın qüvvəyə minməsinə dair digər xüsusi aktda göstərildiyi vaxtdan onun qüvvəyə minməsi yoludur**. Normativ aktlar (qanunlar, prezident fərmanları, hökumət qərarları və s.) bəzi hallarda bu aktların özündə göstərildiyi andan qüvvəyə minir. Özündə bir sıra mülki (mülkiyyət) hüquq normaları əks etdirən «Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında» 23 sentyabr 1989-cu il tarixli qanunun özündə bu qanunun 1989-cu il sentyabrın 25-dən qüvvəyə minməsi göstərilir[2]. Konstitusiya Məhkəməsinin normativ aktların bir-birinə uyğunluğu barədə (Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş hallarda) qəbul etdiyi qərarlar həmin qərarların özündə göstərilən vaxtdan qüvvəyə minir[3].

[1] bax: «Normativ hüquqi aktlar haqqında» qanunun 7-ci maddəsi //Biznesmenin bülleteni. Bakı, 2000. № 2 (278), s. 7.
[2] bax: AR QK, I cild, s. 11.
[3] bax: «Konstitusiya Məhkəməsi haqqında» qanunun 67-ci maddəsi.

Mülki qanunvericilik aktı bu aktın qüvvəyə minməsinə dair digər xüsusi aktda göstərildiyi vaxtdan da qüvvəyə minə bilər. Məsələn, «Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» 28 dekabr 1999-cu il tarixli qanun Mülki Məcəllənin qüvvəyə minməsi vaxtını müəyyən edir. Normativ aktın qüvvəyə minmə müddəti Milli Məclisin qərarında da göstərilə bilər. Məsələn, «Sahibkarlıq fəaliyyəti haqqında» qanunun qüvvəyə minməsi barədə Milli Məclisin qərarında həmin qanunun 1993-cü ilin yanvarın 1-dən qüvvəyə minməsi müəyyən edilir[1].

Elə hallar da olur ki, xüsusi aktda normativ aktın qüvvəyə minməsinin konkret müddəti göstərilmir. Normativ aktın qüvvəyə minmə müddəti onun dərc olunması anı ilə əlaqələndirilir. Məsələn, «Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında» 30 dekabr 1997-ci il tarixli qanunda[2], «Su Məcəlləsinin təsdiq edilməsi haqqında» 26 dekabr 1997-ci il tarixli qanunda[3] həmin məcəllələrin dərc edildiyi gündən qüvvəyə minməsi müəyyənləşdirilir. Bəzən də normativ aktın özündə onun **imzalandığı gündən qüvvəyə minməsi göstərilir**. Məsələn, «İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında» 6 sentyabr 1997-ci il tarixli prezident fərmanında nəzərdə tutulur ki, bu fərman imzalandığı gündən qüvvəyə minir[4].

Elə aktlar vardır ki, bu aktlar barədə dərhal məlumat vermək üçün onların mətninin təxirə salınmadan müvafiq və əlaqədar təşkilatlara göndərilməsi tələb olunur. Normativ aktın ifadə olunduğu mətnin həmin **təşkilatlar tərəfindən alındığı an onun qüvvəyə mindiyi vaxt hesab ediləcəkdir**, bir şərtlə ki, normativ aktda onun qüvvəyə minmə müddəti göstərilməsin[5]. Kredit təşkilatlarının fəaliyyəti ilə əlaqədar Milli Bankın normativ aktları xüsusən bu qayda ilə qüvvəyə minir. Poçt və ya başqa rabitə vasitələri ilə həmin aktların mətni dərhal məlumat üçün kredit təşkilatlarına göndərilir.

Mülki qanunvericiliyin zamana görə qüvvəsinin əhatə etdiyi ikinci məsələ normativ aktların qüvvədə olma müddətidir. **Normativ aktların qüvvədə olma müddəti** dedikdə, müvafiq münasibətlərə onların tətbiq olunma vaxtı başa düşülür. Bu elə bir müddətdir ki, həmin müddət ərzində normativ akt hüquqi əhəmiyyətə malik olmaqla icra edilir.

Müddət kimi meyara görə mülki qanunvericilik aktlarını iki yerə bölmək olar: müvəqqəti normativ aktlar; müddətsiz normativ aktlar. **Müvəqqəti normativ aktlar** odur ki, bu aktlar yalnız müəyyən bir müddət ərzində qüvvədə olur. Normativ aktda onun qüvvədə olma müddəti göstərilir. Bu müddət başa çatan kimi avtomatik olaraq normativ akt qüvvədən düşür. **Belə hallarda onun qüvvəsini itirməsi barədə hər hansı bir xüsusi akt verilməsinə ehtiyac yoxdur**. Bununla belə, əgər zəruret olarsa, müvəqqəti normativ aktın qüvvədə olma müddəti uzadıla və ya ona müddətsiz xarakter verilə bilər. Bu cür halda

[1] bax: AR QK, I cild, s. 832.
[2] bax: AR QK, V cild, s. 158.
[3] bax: AR QK, V cild, s. 118.
[4] bax: AR QK, V cild, s. 5.
[5] bax: Теория государства и права. Курс лекций /Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 391.

normativ akt qəbul etmiş orqan xüsusi akt qəbul edir. Xüsusi aktı normativ aktın qüvvədə olma müddəti başa çatanadək qəbul etmək lazımdır. Müvəqqəti normativ aktlara «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» 7 yanvar 1993-cü il tarixli qanunu[1], «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» qanunu[2], habelə «Azərbaycan Respublikasında 1995-98-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»[3] kimi qanunları misal göstərmək olar. Bu qanunların məna və mahiyyətindən onların müvəqqəti qanunlar olması irəli gəlir.

Müddətsiz normativ aktlar odur ki, bu aktlarda onların hansı müddətə qüvvədə olması göstərilmir. Əgər normativ hüquqi aktın özündə ayrı qayda müəyyənləşdirilməyibsə, onda həmin akt müddətsiz qüvvədə olur. Normativ aktların çoxu müddətsiz normativ aktlardır. Bu cür aktlara Mülki Məcəlləni, «Sığorta haqqında», «Qiymətli kağızlar haqqında» və s. qanunları misal çəkmək olar.

Mülki qanunvericiliyin zamana görə qüvvəsinin əhatə etdiyi üçüncü məsələ normativ aktların öz hüquqi qüvvəsini itirməsidir. **Normativ hüquqi aktların qüvvəsini itirməsi** dedikdə, bu aktlann fəaliyyət göstərmələrinə xitam verilməsi, onların ləğv edilməsi və qüvvədən düşməsi başa düşülür. Normativ aktlar qüvvədən düşdükdən sonra bir daha öz tənzimləyici rolunu yerinə yetirmir və müvafiq münasibətlərə tətbiq olunmur.

Mülki qanunvericilik aktları müxtəlif üsullar əsasında öz qüvvələrini itirir. **Üsullar** dedikdə, mülki qanunvericilik aktlarının qüvvədən düşməsinə dəlalət edən hüquqi faktlar başa düşülür. Bu üsullara **mülki qanunvericilik aktlarının qüvvəsinə xitam verilməsi əsasları** da deyilir.

Müddətin başa çatması mülki qanunvericilik aktlarının öz qüvvəsini itirməsinə əsas olan birinci üsuldur. Bu üsulla yalnız müvəqqəti normativ aktların hüquqi qüvvəsinə xitam verilə bilər. Belə ki, müvəqqəti aktın qüvvədə olma müddəti qurtarır və başa çatır. Bununla da o, qüvvədən düşmüş hesab edilir. Müddətsiz aktların bu üsulla ləğv edilməsi istisna edilir. **İxtiyarı çatan orqanın qəbul etdiyi xüsusi akt normativ** aktlann öz qüvvəsini itirməsinə dəlalət edən ikinci üsuldur. İxtiyarı çatan orqan dedikdə, normativ aktı qəbul etmiş və ya qanunla müəyyən edilmiş qaydada müvafiq səlahiyyət almış orqan başa düşülür. Həmin orqan tərəfindən normativ aktın qüvvədən düşməsi barədə xüsusi akt qəbul edilir. Bununla akt öz hüquqi qüvvəsini itirir[4].

Yeni normativ aktın qəbul edilməsi normativ aktların öz qüvvəsini itirməsini şərtləndirən üçüncü üsuldur. Bu üsul eyni qrup münasibəti və eyni məsələni tənzim edən əvvəlki köhnə aktın yeni aktla faktiki olaraq əvəz edilməsini nəzərdə tutur. Əvvəlki aktın əsas müddəaları ilə yeni qəbul edilmiş aktın müəyyənləşdirdiyi qaydalar arasında ziddiyyət yaranır. Bu hal isə köhnə aktın tətbiq edilməsini istisna edir. Bununla həmin akt qüvvədən düşür. Məsələn,

[1] bax: AR QK, II cild, s. 20.
[2] bax: AR QK, II cild, s. 33.
[3] bax: Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı. 1999. Buraxılış 4, s. 27.
[4] Normativ hüquqi aktların öz qüvvələrini itirmələrinin üsulları «Normativ hüquqi aktlar haqqında» qanunun 44-cü maddəsində göstərilmişdir (bax: Biznesmenin bülleteni. Bakı. 2000. № 2, s. 44).

«Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» 14 iyun 1996-cı il tarixli qanunun qüvvəyə minməsi ilə 1992-ci ildə qəbul edilmiş eyni adlı qanun, 16 yanvar 2004-cü ildə qəbul olunmuş «Banklar haqqında» qanunun qüvvəyə minməsi ilə əlaqədar 1996-cı il 14 iyun tarixli «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında qanun», «Girov haqqında» 3 iyul 1998-ci il tarixli qanunun qüvvəyə minməsi ilə 1994-cü ildə qəbul edilmiş eyni adlı qanun, «Sığorta haqqında» 25 iyun 1999-cu il tarixli qanunun qüvvəyə minməsi ilə 1993-cü il tarixli «Sığorta haqqında» qanun və s. öz qüvvəsini itirmişdir.

Beynəlxalq müqavilələrin qüvvəyə minməsi normativ aktların qüvvədən düşməsinə dəlalət edən dördüncü üsuldur. Söhbət Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquqi aktlardan (müqavilə, saziş, konvensiya, pakt, protokol və s.) gedir. Bu aktlar dövlətlərarası müqavilələrdir. Həmin müqavilələr mülki hüquqla tənzimlənən münasibətlərə birbaşa tətbiq edilir. Bəzi hallarda isə onlar birbaşa yox, dövlətdaxili normativ aktın qəbul edilməsi (implementasiya) ilə tətbiq olunur.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə mülki qanunvericilik aktları arasında ziddiyyət yarana bilər. Belə ki, beynəlxalq müqavilələrdə nəzərdə tutulan qaydaların mülki qanunvericilikdə ifadə olunan normalardan fərqlənməsi hallarına rast gəlmək olar. Bu cür ziddiyyətli məqamlarda beynəlxalq müqavilənin normalan tətbiq edilir. Ona görə ki, mülki qanunvericilik aktlarına münasibətdə beynəlxalq müqavilələr üstün qüvvəyə malikdir (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla). Bununla normativ akt və ya aktın hissəsi öz qüvvəsini itirir.

Konstitusiya Məhkəməsinin qərarı mülki qanunvericilik aktlarının qüvvədən düşməsinə əsas olan beşinci üsuldur. Belə ki, əsas məqsədi Konstitusiyanın aliliyini təmin etməkdən ibarət olan bu orqan qanunvericilik sisteminə daxil olan aşağı qüvvəli aktların daha yüksək qüvvəli aktlara uyğun gəlib-gəlməməsi məsələsini həll edərək müvafiq qərar qəbul edir. Bu qərar uyğun gəlməyən və ziddiyyət təşkil edən normativ hüquqi aktın qüvvəsinə xitam verilməsi üçün əsasdır. Həmin akt qərarda müəyyən edilən müddətdə qüvvədən düşür[1].

4. Mülki qanunvericiliyin məkana görə qüvvəsi

Azərbaycan Respublikasının hüquqyaratma orqanlarının qəbul etdikləri normativ aktlar hansı məkanda qüvvəyə malikdir? Bu aktlann qüvvəsi məkan kateqoriyası ilə məhdudlaşırmı? Onların təsiri yarandığı Azərbaycan Respublikasının dövlət sərhədlərini aşıb keçirmi? Normativ aktların qüvvəsi Azərbaycan dövlətinin sərhədlərini tanıyırmı? Yerli dövlət hakimiyyət orqanının müəyyən inzibati-ərazi vahidinin ərazisində tətbiq olunmaq məqsədi ilə qəbul etdiyi normativ akt digər inzibati-ərazi vahidlərinin ərazisində qüvvəyə malikdirmi? Bu və ya digər sullara cavab vermək üçün mülki qanunvericiliyin məkana görə qüvvəsi məsələsi olduqca vacib və mühüm rol oynayır. Bu məsələnin əsl mahiyyətini başa düşmədən həmin suallara cavab tapmaq son dərəcə çətin bir iş

[1] bax: «Konstitusiya Məhkəməsi haqqında» qanunun 66-cı maddəsinin 3-cü bəndi.

olardı.

Mülki qanunvericiliyin məkana görə qüvvəsi normativ aktların müəyyən ərazidə tətbiq edilməsini ifadə edir. O, iki prinsip əsasında həyata keçirlir: ərazi prinsipi əsasında; eksterritorial prinsip əsasında.

Ərazi prinsipinə əsasən mülki qanunvericiliyin məkana görə qüvvəsi dedikdə, normativ aktların müvafiq olaraq Azərbaycan Respublikasının bütün dövlət ərazisində və ya hər hansı inzibati-ərazi vahidinin ərazisində qüvvədə olması başa düşülür. Dövlət ərazisinə quru sahəsi, daxili sular və ərazi suları, onun üzərindəki hava sahəsi, həmin ərazinin yeraltı hissəsi (yerin təki), həmçinin dəniz, çay və hava gəmiləri və s. daxildir[1]. **Dövlət ərazisi** Yer kürəsinin dövlətin suverenliyində olan hissəsidir. O, dövlətin maddi bazasıdır. **İnzibati-ərazi vahidləri** isə dövlətin ərazisinin bölündüyü ayrı-ayrı hissələridir. Məsələn, Azərbaycan Respublikasının rayonları (Quba, Xaçmaz, Ağcəbədi, Qazax, Tovuz, Beyləqan və s.) inzibati-ərazi vahidləri hesab olunur. Ölkəmizin inzibati-ərazi vahidləri bunlardır: rayon; şəhər; şəhər rayonları; qəsəbə yaşayış mənətəqələri; kənd yaşayış məntəqələri.

Normativ aktlar, bir qayda olaraq, bu aktları qəbul etmiş orqanın (ali qanunverici, ali icra-sərəncamverici dövlət hakimiyyət orqanının, mərkəzi icra hakimiyyəti orqanının) aidiyyətində olan ərazidə hüquqi qüvvəyə malikdir. Məsələn, ali qanunverici orqan olan Milli Məclisin qəbul etdiyi qanunların, ali icra hakimiyyəti orqanı olan prezident hakimiyyəti aktlarının, fərmanların və s. Azərbaycan Respublikasının bütün ərazisində hüquqi qüvvəsi vardır. Konstitusiya Məhkəməsinin normativ xarakterli qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir[2]. Dediklərimizdən belə çıxır ki, **normativ aktların hüquqi qüvvəsi məkan kateqoriyası baxımından dövlətin ərazisi ilə məhdudlaşır**. Bu ərazidən kənarda həmin aktlar öz qüvvələrini itirir, yəni müvafiq münasibətlərə tətbiq olunmur. Bu isə dövlətin suverenliyini və onun yurisdiksiyasını ifadə edir.

Yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının (bələdiyyələrin) normativ xarakterli aktlarının müvafiq olaraq inzibati-ərazi vahidləri ərazisində hüquqi qüvvəsi vardır. Həmin aktlar Azərbaycan Respublikasının bütün dövlət ərazisinə şamil edilmir. Məsələn, Bakı şəhər icra hakimiyyəti orqanının qəbul etdiyi aktların yalnız Bakı şəhəri ərazisində qüvvəsi vardır. Onların Azərbaycan Respublikasının digər inzibati-ərazi vahidinin ərazisində məcburi qüvvəsi yoxdur. Deməli, yerli dövlət orqanlarının normativ xarakterli aktları yalnız müvafiq rayonun, şəhərin və s. ərazisində mövcud olan münasibətləri tənzimləmək üçün tətbiq edilə bilər.

Eksterritorial prinsip əsasında normativ aktların məkana görə qüvvəsi dedikdə, müəyyən bir dövlətdə yaranan mülki hüquq normasının başqa xarici dövlətin ərazisində hüquqi qüvvəyə malik olması başa düşülür. Söhbət müəyyən dövlətin qanunvericilik sisteminə daxil olan normativ aktın xarici

[1] bax: «Azərbaycan Respublikasının dövlət sərhədi haqqında» 9 dekabr 1991-ci il tarixli qanun (AR QK, I cild, s. 178). Konstitusiyanın 11-ci maddəsi dövlət ərazisinin tərkib hissəsini müəyyənləşdirir: daxili sular; Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsi; Azərbaycan Respublikasının üzərindəki hava məkanı.

[2] bax: «Konstitusiya Məhkəməsi haqqında» qanunun 66-cı maddəsinin 1-ci bəndi.

dövlət ərazisində yaranan münasibətləri tənzimləmək üçün tətbiq edilməsindən gedir. Xarici qanun konkret dövlətin ərazisində yalnız o halda tətbiq edilə bilər ki, həmin konkret dövlətin hüququ ümumi formada buna yol versin. Xarici qanunvericiliyin tətbiqi beynəlxalq saziş və müqavilələrdə də nəzərdə tutula bilər. Bu müqavilə və sazişlərin normativ aktların eksterritorial qüvvəsinin tənzimlənməsində rolu böyükdür. Belə ki, onlarda müəyyən dövlətin qanunvericiliyinin həmin dövlətin ərazisindən kənarda tətbiq edilməsi qaydası müəyyənləşdirilir, yəni başqa dövlətin ərazisində olan vətəndaş və hüquqi şəxslərə münasibətdə hüquqi qüvvəyə malik olması göstərilir. Bu cür müqavilələrə Azərbaycan Respublikasının RF, Türkiyə və digər dövlətlərlə bağladığı hüquqi yardım haqqında beynəlxalq hüquqi aktları misal göstərmək olar. MDB ölkələri üzrə hüquqi yardım haqqında 7 oktyabr 2002-ci il tarixli Kişinyov çoxtərəfli konvensiyası bu sahədə mühüm rol oynayır. Burada normanın eksterritorial qüvvəsini nizama salan bir sıra müddəalar vardır: fiziki şəxslərin fəaliyyət qabiliyyəti onların vətəndaşı olduğu ölkənin qanunvericiliyi ilə müəyyən edilir; hüquqi şəxslərin hüquq qabiliyyəti onların təsis olunduğu ölkənin qanunvericiliyi ilə müəyyən edilir. Mülkiyyət, vərəsəlik, xarici ticarət əqdləri və digər məsələlər həll edilərkən eksterritorial prinsipdən istifadə olunur. Xarici qanunvericiliyin Azərbaycan Respublikasının ərazisində tətbiq olunması «Beynəlxalq xüsusi hüquq haqqında» qanunla tənzimlənir[1].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasına məxsus hava gəmilərinin başqa dövlətdə olduğu zaman həmin gəmilərlə bağlı yaranan münasibətlərə aviasiya haqqında qanun tətbiq edilir (həmin qanunun 3-cü maddəsi). Analoji göstəriş TGM-də nəzərdə tutulmuşdur.

5. Mülki qanunvericiliyin subyektlərə görə qüvvəsi

Mülki qanunvericiliyin hüquqi qüvvəsinin əhatə etdiyi məsələlərdən biri onun subyektlərə görə qüvvəsi məsələsidir. **Mülki qanunvericiliyin subyektlərə görə qüvvəsi** dedikdə, normativ aktların mülki hüququn müəyyən kateqoriya subyektlərinin, yəni fiziki şəxslərin, bələdiyyələrin, dövlətin və hüquqi şəxslərin iştirak etdiyi münasibətlərə tətbiq edilməsi başa düşülür.

Ümumi qayda belədir ki, mülki qanunvericilik aktlarının subyektlərə görə hüquqi qüvvəsi bu aktların məkana (ərraziyə) görə hüquqi qüvvəsi ilə üst-üstə düşür. Bu, o deməkdir ki, mülki qanunvericilik Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslər üçün qüvvədədir (MM-in 9-cu maddəsinin 1-ci bəndi). O, qüvvədə olduğu Azərbaycan Respublikasının ərazisində yaşayan fiziki şəxslərə, habelə işlər görən, xidmətlər göstərən, mal istehsal edən və s. hüquqi şəxslərə aid edilir. Dövlət ərazisində qüvvədə olan mülki qanunvericilik aktları demək olar ki, həmin ərazidə fəaliyyət göstərən mülki hüququn bütün subyektlərinə münasibətdə hüquqi qüvvəyə malikdir. Bu aktlann hüquqi qüvvəsi apatridlərin (vətəndaşlığı olmayan şəxslərin), əcnəbilərin (xarici ölkə vətəndaşlarının), bipatridlərin (ikiqat vətəndaşlığı olan şəxslərin), habelə xarici hüquqi şəxslərin (korporasiya, firma, kompaniya və digərlərinin) iştirak etdiyi münasibətlərə də şamil edilə bilər, bu

[1] Bu qanunun mətni ilə tanış olmaq üçün bax: AR QK, III xüsusi buraxılış.

şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın. Dediklərimizdən belə çıxır ki, ümumi qaydaya görə mülki qanunvericilik Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərə ünvanlanır.

Bununla belə, mülki qanunvericiliyin subyektlərə görə qüvvəsi barədə ümumi qaydadan iki halda istisnaya yol verilə bilər. Bu, o deməkdir ki, həmin hallarda mülki qanunvericilik aktlarının şəxslərə görə qüvvəsi onların məkan (ərazi) üzrə qüvvəsi ilə üst-üstə düşmür. Birinci hal ondan ibarətdir ki, **normativ aktın özündə birbaşa bu aktda ifadə olunan hüquq normalarının aid edildiyi və ünvanlandığı şəxslərin dairəsi göstərilir.** Məsələn, normativ aktda konkret olaraq göstərilə bilər ki, bu akt yalnız vətəndaşların iştirak etdiyi münasibətlərə və yaxud yalnız hüquqi şəxslərin iştirak etdiyi münasibətlərə şamil olunur. Bu göstəriş belə bir formada da ifadə oluna bilər: bu qanun hüquqi şəxslərin iştirak etdiyi münasibətlərə tətbiq edilmir.

İkinci istisna hal qanunun öz məzmunundan irəli gəlir. Belə ki, normativ aktın özündə onun ünvanlandığı subyektlər göstərilmir. Aktın aid edildiyi şəxslərin dairəsi onun məzmunu əsasında müəyyənləşdirilir. Məsələn, qüvvədən düşmüş «Kəndli (fermer) təsərrüfatı haqqında» qanunun mahiyyətindən bu qanunun kəndli (fermer) təsərrüfatına şamil olunduğu müəyyənləşdirilirdi[1]. «Xarici investisiyanın qorunması haqqında» qanunun məzmunu bu qanunun xarici investorlara (xarici hüquqi şəxslərə, xarici dövlətlərə, beynəlxalq təşkilatlara, təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış xarici vətəndaşlara və s.) aid edilməsini nümayiş etdirir[2]. «Sahibkarlıq fəaliyyəti haqqında» qanunun məzmunu onun sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərə (sahibkarlara) ünvanlandığını göstərir[3]. «Dövlət borcu haqqında» qanunun mahiyyəti açıq-aşkar onu sübut edir ki, bu qanun mülki hüququn subyektlərindən biri olan Azərbaycan Respublikasına (dövlətə) aiddir[4]. Qüvvədən düşmüş «Müəssisələr haqqında» qanunun məzmunundan görünürdü ki, bu qanun mülki hüququn subyektlərindən biri olan müəssisələrə həsr edilmişdi[5]. «Bələdiyyələrin statusu haqqında», «Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında», «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında», «Bələdiyyələrin maliyyəsinin əsaslan haqqında» və digər qanunların məzmunundan açıq-aşkar görünür ki, onlar mülki hüququn subyektlərindən biri olan bələdiyyələrə həsr edilmişdir.

§ 5. Mülki hüquqda boşluq. Analogiyanın tətbiqi

1. Mülki hüquqda boşluq. Analogiyanın anlayışı

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin dairəsi kifayət qədər genişdir. Onun nizamasalma predmetinə olduqca müxtəlif və cürbəcür münasibətlər daxildir. Bundan əlavə, ictimai həyatda həmişə yeni ictimai münasibətlər yaranır. Bu münasibətlər öz əlamətinə görə mülki hüququn predmetinə daxil ola bilər. Onlar mülki hüquq tərəfindən tənzimlənməyi tələb edir. Mülki hüquq isə, necə deyərlər, bu münasibətləri nizama salmağa «borcludur».

Şübhəsiz ki, mülki hüquq ictimai münasibətlərin bu cür müxtəlifliyini, genişliyini, mürəkkəbliyini və rəngarəngliyini nəzərə almaq iqtidarında deyildir. Aydın bir həqiqətdir ki, mülki hüququn özündə birləşdirdiyi normaların tənzimlənməyi tələb edən bütün ictimai münasibətlərin hamısını nizama salmaq və rəsmiləşdirmək imkanı yoxdur. Söhbət mülki hüquqla tənzimlənməli olan ictimai münasibətin qaydaya salınması üçün konkret mülki hüquq normasının olmamasından gedir. Başqa sözlə desək, hüquqtətbiqetmə praktikasında mülki-hüquqi xarakterli müəyyən elə məsələlər və hallar yarana bilər ki, onlar mülki hüquqla tənzimlənə bilməsin. Bu isə o deməkdir ki, konkret ictimai münasibəti nizama salmaq, hüquqi məsələni həll etmək üçün mülki hüquq norması olmur. Göstərilən hala mülki hüquqda boşluq və ya çatışmazlıq deyilir. Mülki hüquqda boşluq o deməkdir ki, konkret ictimai münasibətə və hala tətbiq ediləcək mülki hüquq normasını seçərkən və tətbiq edərkən, müvafiq norma olmur.

Mülki hüquqda boşluq dedikdə, mülki hüquqla nizama salınmağı tələb edən ictimai münasibəti tənzimləmək üçün müvafiq hüquq normasının mövcud olmaması başa düşülür. Bu norma mövcud olmadığına görə mülki qanunvericilikdə xaricən ifadə edilmir. Bu isə onu göstərir ki, belə halda mülki qanunvericilikdə də boşluq yaranır.

Mülki hüquqda boşluğun olması arzuolunmaz və xoşagəlməz haldır. Bu, mülki hüquq sisteminin müəyyən dərəcədə qüsurlu olmasına dəlalət edir. Mülki hüquqda boşluq həm obyektiv, həm də subyektiv səbəblərdən yaranır. Bəzi hallarda onun olması labüddür, yəni boşluqdan qaçmaq olmaz. Mülki hüquqda boşluğun yaranmasının bir neçə səbəbi vardır.

Mülki hüquqda boşluğun əmələ gəlməsinə səbəb olan birinci hal qanunvericinin (hüquqyaratma subyektinin) **bütün ictimai münasibətləri normativ aktda formullarla əhatə edə bilməməsindən, yəni bu münasibətlərin hamısını hüquqi cəhətdən formulə edə bilməməsindən ibarətdir.** Belə ki, normativ akt işlənib hazırlandıqda bu və ya digər ictimai münasibət nəzərə alınmır. Ümumiyyətlə, heç bir qanunvericilik bütün ictimai münasibətlərin hamısını hüquqi cəhətdən rəsmiləşdirmək, qaydaya salmaq və nəzərə almaq gücündə deyildir.

Mülki hüquqda boşluğun yaranmasına dəlalət edən ikinci hal **mülki hüquqla tənzimlənməli olan ictimai münasibətlərin həmişə durmadan dinamik surətdə inkişaf etməsindən ibarətdir.** Bəzi hallarda müvafiq mülki qanunvericilik aktı qəbul edildikdən sonra əmlak və şəxsi qeyri-əmlak münasibətləri yaranır. Bu münasibətlərin hüquqi təbiəti və əlamətləri onların mülki hüququn nizamasalma predmetinə aid edilməsini şərtləndirir. Həmin münasibətlər mülki hüquq normaları ilə tənzimlənməyi tələb edir. Bu cür normalar isə yoxdur. Deməli, mülki hüquqda boşluq göz qabağındadır.

Mülki hüquqda boşluğun əmələ gəlməsini şərtləndirən üçüncü hal **hüquq texnikasının qüsurlu olmasından ibarətdir.** Hüquq texnikası dedikdə, hüquq normalarının, normativ aktların hazırlanması zamanı, habelə anlayışların formulə edilməsində və s. istifadə olunan üsulların, vasitələrin və qaydaların məcmusu başa düşülür. Hüquqi texnikanın vasitəsi ilə mülki hüquq normaları

[1] bax: AR QK, I cild, s. 390.
[2] bax: AR QK, I cild, s. 244.
[3] bax: Sahibkarlıq fəaliyyəti haqqında. Normativ aktlar toplusu. Bakı. 1998, s. 3.
[4] bax: AR QK, I cild, s. 835.
[5] bax: AR QK, II cild, s. 280.

normativ hüquqi aktın maddələrində əks olunur. O, əsasən hüquqi materialın təşkili ilə, onun xaricən ifadələr olunması ilə bağlıdır. Mülki hüquq normaları normativ aktda elə təzahür etməlidir ki, o, hüquqyaratma subyektinin aydın və başa düşülən iradəsini ifadə edə bilsin. Hüquq normasının əsl məzmunu onun normativ aktın mətnindəki formulasına uyğun gəlməlidir. Onlar arasında ziddiyyət ola bilməz. Göstərilən tələblər pozularsa, onda bu, hüquqi texnikanın qüsurlu, qeyri-mükəmməl olmasını göstərir.

Mülki hüquqda boşluğu aradan qaldırmağın yeganə üsulu səlahiyyətli dövlət orqanı tərəfindən lazım olan hüquq normasının qəbul edilməsindən ibarətdir. Müvafiq orqan, hüquqi məsələni həll etdiyi zaman hüquqda boşluq müəyyənləşdirdikdə, o, dərhal norma yarada bilmədiyinə görə bu boşluğu doldura bilməz. Bu normanın yaradılması üçün hüquqyaratma subyektlərinin fəaliyyət göstərmələri tələb edilir. Amma bu üsulla tez bir zamanda operativ surətdə mülki hüquqda boşluğu aradan qaldırmaq çox vaxt və əksəriyyət hallarda mümkün olmur. Belə ki, zəruri hüquq normasının qəbul edilməsi norma yaradıcılığı (hüquq yaradıcılığı) prosesi ilə bağlıdır. Norma yaradıcılığı (hüquq yaradıcılığı) xüsusi növ fəaliyyət olub, normativ hüquqi akt kimi «məhsul» hazırlayır.

Amma müvafiq hüquqi məsələ tənzimlənməyi, qaydaya salınmağı və həll olunmağı tələb edir. Hüquqtətbiqetmə orqanının (məhkəmənin və s.) ixtiyarı yoxdur ki, müvafiq hüquq normasının olmamasına görə həmin məsələni həll etməkdən imtina etsin və boyun qaçırsın. Bu orqan həm də durub gözləməli deyil ki, yeni mülki hüquq norması yaradılsın. Belə halda çıxış yolu nədədir?

Göstərilən vəziyyətdə konkret hüquqi məsələni və işi analogiya institutunun köməyi ilə həll etmək mümkün olur. Bu institutu dünyanın demək olar ki, bütün, hər şeydən əvvəl, roman-german və ingilis-amerikan mülki hüquq ailələri tanıyır. Analogiya anlayışı qədim Roma hüququna da məlum idi.

Dediklərimizdən belə bir nəticəyə gələ bilərik ki, mülki hüquqda boşluq yarandıqda, yəni müəyyən konkret məsələ mülki hüquq vasitəsilə həll edilməli olduqda, lakin qanunvericilikdə onun hüquqi cəhətdən həlli nəzərdə tutulmadığı hallarda, onda həmin məsələ analogiyanın köməyi ilə qaydaya salınır. **Analogiya** (yunanca analogia - uyğunluq, oxşarlıq) dedikdə həyati halların və hüquq normalarının oxşarlığı, uyğunluğu başa düşülür.

Hüququ tətbiq edən orqanın analogiyadan istifadə etməsi hüquqda boşluğun aradan qaldırılmasına səbəb olmur. Analogiya ancaq konkret məsələnin öhdəsindən gəlir, maneəni aşır və dəf edir. O, həm də yeni mülki hüquq normasının yaradılmasına dəlalət etmir. Analogiya tətbiq edildikdə hər bir konkret iş üzrə fərdi qərar qəbul edilir. Bu qərar oxşar münasibətlər üçün məcburi qüvvəyə malik deyildir. Analogiya hüquqda boşluğu aradan qaldırmasa da, o, gələcəkdə oxşar işlərin həllinə kömək edə bilər.

Analogiyanın tətbiq edilməsi konkret işin özbaşına həll edilməsi demək deyil. Belə ki, bu institutun vasitəsi ilə hüquqi məsələ həll edilərkən qanunçuluq və ədalət kimi prinsiplər əsas götürülür. Burada ümumən bütövlükdə hüquq sistemində və ya oxşar münasibəti tənzimləyən ayrı-ayrı hüquq normalarında ifadə olunan dövlət iradəsi mühüm rol oynayır.

Sivilistika elmində və qanunvericilikdə analogiyanın iki növü tərəfləndilər: qanunun analogiyası; hüququn analogiyası. Bunlar tənzimlənməyi və həll edilməyi tələb edən konkret məsələni qaydaya salmağın iki cür operativ metodudur.

Analogiya institutuna münasibət birmənalı deyil. Belə ki, bu institutdan bütün hüquq sahələrində eyni qaydada və dərəcədə istifadə olunmur. Elə hüquq sahəsi vardır ki, burada analogiyanın tətbiqi istisna edilir. Məsələn, cinayət hüququnda analogiyadan istifadə edilməsi yolverilməzdir. Bu hüquq sahəsində «qanunda göstərilməyən və nəzərdə tutulmayan cinayət yoxdur» kimi dönməz prinsip fəaliyyət göstərir. Bu prinsip şəxsin müdafiəsi üçün təminat rolunu oynayır. Cinayət hüququndan fərqli olaraq mülki hüquq analogiyadan istifadə olunmasını yasaqlamır, əksinə, qanunvericilik qaydasında onu möhkəmləndirir (MM-in 11-ci maddəsi).

2. Qanunun analogiyası

Elə hallar yaranır ki, mülki hüquqla tənzimlənməli olan konkret ictimai münasibəti nizama salmaq üçün müvafiq hüquq norması olmur. Belə vəziyyətdə həmin münasibəti tənzimləmək üçün bu münasibətə oxşar olan münasibəti qaydaya salan hüquq normasından istifadə olunur. Oxşar münasibəti qaydaya salan həmin norma tətbiq edilir və bununla nizamlanması tələb edən müvafiq ictimai münasibət tənzimlənir. Bu cür operativ üsula qanunun analogiyası deyilir.

Qanunun analogiyası dedikdə, konkret ictimai münasibətlərin dəqiq müəyyən olunmuş mülki hüquq norması əsasında deyil, bunlara oxşar münasibətləri nizama salan hüquq norması vasitəsilə tənzimlənməsi başa düşülür. Bu institut mülki qanunvericilikdə müvafiq münasibəti rəsmiləşdirən birbaşa konkret normanın ifadə edilməməsi üzündən həmin münasibətə oxşar münasibəti nizama salan normanın tətbiq edilməsini nəzərdə tutur. Hüquqtətbiqetmə orqanı oxşar münasibəti rəsmiləşdirən mülki hüquq normasını tətbiq etməklə mülki qanunvericilikdəki boşluğun yerini doldurur. Qanunun analogiyası hüquqda boşluğun tamamlanmasına və doldurulmasına yönələn operativ xarakterli müstəsna vasitə və üsuldur.

Qanunun analogiyası yalnız müəyyən şərtlər əsasında tətbiq edilə bilər. Bu şərtlər ondan düzgün istifadə olunmasını təmin edir. Qanunda həmin şərtlərə əməl olunması nəzərdə tutulur (MM-in 11-ci maddəsi). Əgər nəzərdə tutulan şərtlərdən biri pozularsa, qanunun analogiyasının tətbiqindən söhbət gedə bilməz.

Birinci şərt ondan ibarətdir ki, tənzimlənməli olan **ictimai münasibət mülki-hüquqi xarakterə malik olmalıdır.** Bu, o deməkdir ki, hüquqi cəhətdən nizama salınmağı tələb edən ictimai münasibət öz əlamətinə görə mülki hüququn predmetinə daxil olmalıdır. Daha doğrusu, bu münasibət ya dəyər xarakterli əmlak münasibəti, ya da ki şəxsi qeyri-əmlak münasibəti olmalıdır.

İkinci şərt ondan ibarətdir ki, hüquqi cəhətdən nizama salınmağı tələb edən **ictimai münasibət mülki qanunvericilikdə və ya tərəflərin sazişi (razılaşması) ilə birbaşa tənzimlənməlidir.** Mülki qanunvericilikdə həmin münasibəti rəsmiləşdirən konkret və dəqiq müəyyən olunmuş mülki hüquq norması ifadə edilmir. Bu münasibətin qaydaya salınması yolları həmin münasibətdə iştirak edən tərəflərin öz aralarında bağladıqları müqavilələrdə göstərilmir. Tərəflər üçün qanun rolunu oynamasına baxmayaraq, müqavilələrdə müvafiq münasibətin tənzimlənməsi qaydası nəzərdə tutulmur. Göstərilən hallar

heç bir şübhə yeri qalmadan müəyyənləşdirmək lazımdır.

Üçüncü şərt ondan ibarətdir ki, hüquqi cəhətdən tənzimlənməyi tələb edən müvafiq **ictimai münasibətə tətbiq oluna bilən işgüzar dövriyyə adəti olmamalıdır**. Söhbət sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində yaranan və geniş tətbiq edilən, qanunvericilikdə nəzərdə tutulmayan davranış qaydasından gedir. Əgər müvafiq münasibəti bu davranış qaydası ilə tənzimləmək mümkün olarsa, onda qanunun analogiyasından istifadə olunmur.

Dördüncü şərt ondan ibarətdir ki, hüquqi cəhətdən tənzimlənməyi tələb edən **ictimai münasibətə oxşayan münasibət və bu münasibəti tənzimləyən mülki hüquq norması mövcud olmalıdır**. Məsələn, kredit müqaviləsini yeni MM tənzimləmir. Bu müqaviləyə oxşar olan borc müqaviləsidir. Borc müqaviləsinin tənzimlənməsinə MM bir sıra hüquq norması həsr etmişdir. Ona görə də kredit müqaviləsini qaydaya salmaq tələb olunan hallarda, borc müqaviləsi haqqında normalardan istifadə etmək olar.

Biz mülki qanunvericilik aktlarında tez-tez göndərici maddələrə rast gəlirik. **Göndərici maddələr** müvafiq münasibətin buna oxşar olan münasibət kimi tənzimlənməsi haqqında göstəriş ifadə edir. Məsələn, MM-in 662-ci maddəsinin 2-ci bəndində göstərilir ki, dəyişmə müqaviləsinə alqı-satqı haqqında göstərişlər müvafiq surətdə tətbiq edilir. MM-in 787-ci maddəsinə görə broker müqaviləsinə tapşırıq müqaviləsi haqqında qaydalar tətbiq edilir. Onun başqa bir maddəsində (maddə 700) qeyd edilir ki, icarəyə əmlak kirayəsi haqqında müddəalar müvafiq surətdə tətbiq edilir. Burada söhbət mülki qanunvericilikdəki boşluqdan getmir. Bunlar müvafiq məsələni tənzimlənməyin üsulu, xüsusi xarakterli hüquqi-texniki vasitəsidir. Ona görə də göstərilən hallar qanunun analogiyası hesab olunmur[1].

Beşinci şərt ondan ibarətdir ki, oxşar münasibəti tənzimləyən **mülki hüquq norması hüquqi cəhətdən tənzimlənməyi tələb edən ictimai münasibətin mahiyyətinə zidd olmamalıdır**. Tətbiq edilməli olan hüquq norması öz hüquqi təbiətinə və xarakterinə görə müvafiq münasibətə uyğun gəlməlidir. Əgər onlar arasında ziddiyyət olarsa, onda qanunun analogiyası tətbiq edilmir. Məsələn, mülkiyyət hüquq normalarını qanunun analogiyası qaydasında şəxsi qeyri-maddi nemətlərlə bağlı əmələ gələn münasibətlərin hamısına tətbiq etmək olmaz.

Qanunun analogiyası institutunu bir sıra qabaqcıl və sivil ölkələrin qanunvericiliyi də tanıyır. Biz ona Almaniya, Fransa, Hollandiya, İsveçrə, Avstriya və digər ölkələrin qanunvericiliyində rast gələ bilərik.

Qanunun anologiyasına müəssisələrin alqı-satqı müqaviləsini misal göstərmək olar. Belə ki, bu konstruksiyanı Mülki Məcəllə tənzimləmir. Ona görə də həmin konstruksiya alqı-müqaviləsi haqqında normalarla nizama salınır[2].

[1] bax: Гражданское право. Учебник. Том 1 /Под ред. *Е.А.Суханова*. М., 1998, с. 86. Tanınmış alim O.A.Krasavçikov qeyd edirdi ki, bu cür hallarda qanunun analogiyasının tətbiqini qanunvericinin özü göstərir (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 65). Müəllifin mövqeyi, söz yox ki, həqiqətdən uzaqdır. Əgər qanunun analogiyasının tətbiqini qanunverici konkret olaraq göstərirsə, onda bunun nəyi hüquqda boşluq oldu.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 68.

3. Hüququn analogiyası

Bəzi hallarda elə vəziyyət yaranır ki, hüquqi cəhətdən tənzimlənməyi tələb edən ictimai münasibəti qanunun analogiyası əsasında nizama salmaq mümkün olmur. Belə ki, müvafiq münasibətə tətbiq edilə bilən və mülki qanunvericilikdə oxşar münasibəti qaydaya salan norma mövcud olmur. Buna görə də qanunun analogiyasından istifadə etmək imkanı əldən çıxır. Bu cür halda hüququn analogiyası kimi operativ üsulu tətbiq etməklə vəziyyətdən çıxış yolu tapmaq mümkün olur.

Hüququn analogiyası dedikdə, hüquqi cəhətdən tənzimlənməyi tələb edən ictimai münasibəti qanunun analogiyası əsasında nizama salmaq mümkün olmadıqda, yəni oxşar münasibəti rəsmiləşdirən mülki hüquq norması olmadıqda, həmin münasibətin mülki hüququn prinsiplərinə istinad etməklə nizamlanması başa düşülür. Bununla müvafiq münasibətdə iştirak edən tərəflərin hüquq və vəzifələri hüquqi cəhətdən qaydaya salınır.

Mülki hüququn prinsipləri qanunda birbaşa və konkret olaraq formulə edilmişdir (MM-in 6-cı maddəsi). Bu prinsiplər əsasında mülki hüquq subyektlərinin hərəkətlərindən hüquqi nəticə yaranır. Söhbət həmin prinsiplərə istinad olunmaqla tərəflər üçün mülki hüquq və vəzifələrin əmələ gəlməsindən gedir. Mülki qanunvericilik bu cür hüquq və vəzifələri rəsmi surətdə tanıyır (MM-in 14-cü maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, mülki hüququn prinsipləri əsasında hərəkətlərdən yaranan mülki hüquq və vəzifələr hüquqi əhəmiyyətə malikdir.

Hüquqtətbiqetmə orqanı hüququn analogiyasından istifadə zamanı təkcə mülki hüququn prinsiplərini əsas götürməməlidir. O, həm də **ədalət, mənəviyyat, vicdan, insaf, mürvət kimi mənəvi-əxlaqi dəyərlərə istinad etməlidir**. Onun hüququn analogiyası əsasında müvafiq münasibəti tənzimləməsi və qaydaya salması ağlabatan olmalıdır.

Hüququn analogiyası institutunu bir sıra ölkələrin (məsələn, Almaniyanın, Böyük Britaniyanın, Hollandiyanın, Fransanın, İspaniyanın və s.) qanunvericiliyi də tanıyır. İspaniya MM-in 6-cı maddəsi hüququn prinsiplərini hüququn mənbə növlərindən biri kimi müəyyənləşdirir. Misirin, İraqın və Əlcəzairin mülki məcəllələri hakimlərə müsəlman hüququ prinsiplərini əsas götürməklə qanundakı boşluğu doldurmaq hüququ verir.

§ 6. Mülki qanunvericiliyin sistemləşdirilməsi

Mülki hüququn nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin əhatə dairəsi son dərəcə genişdir. Bu, həmin münasibətlərin çoxsaylı normativ aktlarla tənzimlənməsini şərtləndirir. Həmin aktlar dövlətin müxtəlif hüquqyaratma orqanları (ali qanunverici dövlət hakimiyyət orqanı, prezident hakimiyyəti, hökumət, mərkəzi icra hakimiyyət orqanları və s.) tərəfindən qəbul edilir. Onlar eyni və bərabər hüquqi qüvvəyə malik deyil, vaxt və zaman baxımından üst-üstə düşmür, müxtəlif münasibətləri tənzimləyir, ayrı-ayrı subyektlərə ünvanlanır. Zaman keçdikcə mülki qanunvericilik sisteminə daxil olan həmin aktlar arasında ziddiyyətlər yaranır. Normativ aktların sayı durmadan günbəgün artır. Göstərilən bu cür hallar, şübhəsiz ki, qüvvədə olan mövcud mülki

qanunvericilikdən istifadə olunmasını qəlizləşdirir, vacib və lazım olan normativ aktın axtarılıb tapılmasını çətinləşdirir. Bəs belə mürəkkəb vəziyyətdən necə çıxmalı?

Göstərilən vəziyyətdən çıxış yolu mülki qanunvericiliyi sistemləşdirməkdən ibarətdir. **Mülki qanunvericiliyin sistemləşdirilməsi dedikdə, bu qanunvericilik sisteminə daxil olan normativ aktlardan təcrübədə münasib, rahat və əlverişli qaydada istifadə etmək məqsədi ilə həmin aktların nizama salınması başa düşülür.** Bu cür nizama salınmaya həm qanunvericinin, həm hüquqtətbiqetmə orqanının, həm də bütün vətəndaşların maraq və ehtiyacı vardır. Mülki qanunvericiliyin sistemləşdirilməsi nəticəsində hüquq normaları arasında ziddiyyətlər aradan qaldırılır, köhnəlmiş normalar ləğv edilir və ya dəyişdirilir, yeni normalar sistemə daxil edilir, köhnəlmiş aktlardan qanunvericilik azad olur, normativ materialdan istifadə asanlaşır. Sistemləşdirmə mülki qanunvericilik üçün mühüm əhəmiyyəti olan məsələdir.

Mülki qanunvericilik üç üsulla sistemləşdirilir. Buna sistemləşdirmənin növləri də deyilir:

- inkorporasiya;
- konsolidasiya;
- məcəllələşdirmə.

İnkorporasiya dedikdə, hüquqi materialın, yəni qüvvədə olan normativ hüquqi aktların məcmuələrdə, toplularda və ya külliyyatlarda müəyyən qaydada elə birləşdirilməsi başa düşülür ki, bu zaman aktların normativ məzmunu mahiyyətcə dəyişdirilmir. Sistemləşdirmənin bu üsulu nəticəsində **qanunvericilik xaricən işlənilir və yeniləşdirilir**. Belə ki, inkorporasiya nəticəsində normativ aktların xarici cəhətdən qaydaya salınmasına nail olunur: bu aktlar əlifba sırası, xronoloji adricilliq və ya tənzimlədiyi ictimai münasibətlər (sahə) kimi əlamətlərə görə birləşdirilir. Əvvəlcə normativ aktın mətnində rəsmi dəyişikliklər edilir. Sonra qanuni qaydada ləğv edilmiş və ya qüvvəsini itirmiş normaların ifadə olunduğu maddələr və bəndlər mətndən çıxarılır, yəni mətnə onlar daxil edilmir.

İnkorporasiya məsələləri ilə həm dövlət orqanları, həm ictimai təşkilatlar, həm qeyri-dövlət təşkilatları, həm də ayrı-ayrı vətəndaşlar məşğul ola bilərlər. Onlar yalnız hüquqyaratma orqanının normativ aktlarda etdiyi dəyişikliyi və əlavələri inkorporativ toplularda (məcmuələrdə, külliyyatlarda) əks etdirirlər. Buna görə də inkorporasiyanın iki növü fərqləndirilir: rəsmi inkorporasiya; qeyri-rəsmi inkorporasiya.

Normativ hüquqi aktların rəsmi məcmuə, toplu və ya külliyyatlarda həmin aktları qəbul edən orqanlar, yaxud onların tapşırığı ilə başqa səlahiyyətli orqanlar tərəfindən dərc edilməsinə **rəsmi inkorporasiya** deyilir. Bu yolla normativ aktlar qaydaya və sistemə salınır. Göstərilən inkorporasiya rəsmi xarakter daşıyır. O, hüquqi nizamasalmanın məzmununu dəyişdirmir. Rəsmi inkorporasiyaya misal olaraq «Azərbaycan SSR Qanunlar Toplusu»[1]nu, «Azərbaycan SSR Hökumətinin Qərarlar Külliyyatı»[2]nı, «Собрание законодательства СССР» və s. misal göstərmək olar. 1977-ci ildə SSRİ-nin qüvvədə olan qanunvericilik külliyyatının nəşri başa çatdırılmışdır[3].

Rəsmi inkorporasiyanın iki növü fərqləndirilir: xronoloji inkorporasiya; predmet üzrə inkorporasiya. Normativ hüquqi aktlar onların dərc olunduğu və qüvvəyə mindiyi vaxta görə qaydaya və sistemə salınırsa, bu cür sistemləşdirməyə **xronoloji inkorporasiya** deyilir. Bu növ sistemləşdirmədə hər bir normativ akta sıra nömrəsi verilir, onun adı, nəşr olunduğu il, ay, gün, həmçinin maddənin nömrəsi göstərilir. Bu, lazım olan normativ aktın vaxt itkisinə yol vermədən axtarılıb tapılması, həmin aktlarda ifadə olunan normaların tez müəyyənləşdirilib tətbiq edilməsi işini olduqca asanlaşdırır. Xronoloji inkorporasiyaya «Azərbaycan Respublikasının qanunvericilik Toplusu»nu, «Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının bülleteni»ni misal göstərmək olar.

Predmet inkorporasiyası qüvvədə olan normativ hüquqi aktların predmet əlaməti üzrə, yəni mülki hüququn yarımsahələrinə, institutlarına görə qaydaya salınmasıdır. Məsələn, mülki-hüquqi məsuliyyəti və ya əqli mülkiyyət hüququnu və yaxud mülkiyyət hüquq institutunu və s. tənzim edən normativ aktların birləşdirilməsi bu inkorporasiyaya misal ola bilər. Predmet inkorporasiyası nisbətən daha mürəkkəb sistemləşdirmə növüdür. O, normativ materialı mülki-hüquqi nizamasalma sferalarına görə yerləşdirir. Bu cür sistemləşdirmə hüquqtətbiqetmə orqanlarına onlara lazım olan hüquq normalarından tez və operativ istifadə etməyə imkan verir. Predmet inkorporasiyası **sistemli inkorporasiya** da adlanır. Bizans imperatoru Yustinianın Qanunlar Külliyyatı sistemli xarakterdə olmuşdur.

Qeyri-rəsmi inkorporasiya dedikdə, hüquqyaradıcı orqanın nəzarəti və xüsusi tapşırığı olmadan qanunvericiliyin ayrı-ayrı təşkilatlar, elmi idarələr, təhsil müəssisələri, alimlər, praktiki işçilər, vətəndaşlar və s. tərəfindən qaydaya salınması və xaricən işlənilməsi başa düşülür. Bu cür inkorporasiya **rəsmi xarakter daşımır**. Ona görə də onlara **qanunvericiliyin mənbəyi kimi baxmaq olmaz**. Hüquq yaradıcılığı və hüquqtətbiqetmə prosesində bu növ inkorporasi-

[1] «Azərbaycan SSR Qanunlar Toplusu» Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il 5 oktyabr tarixli «Azərbaycan SSR Qanunlar Toplusunun hazırlanması və nəşr edilməsi haqqında» və 1978-ci il 12 dekabr tarixli «Azərbaycan SSR Qanun Toplusunun məsələləri barəsində» iki qərarına uyğun nəşr edilmişdir (bax: «Azərbaycan SSR Ali Sovetinin məlumatı», 1976. №19-20. m. 128; 1979. № 1-2. m. 1). Toplunun nəşrinə 1978-ci ildə başlanıldı. Onun 8 cilddə Azərbaycan və rus dillərində nəşr edilməsi nəzərdə tutulmuşdu. Toplunun 1-ci cildi 1984-cü ildə buraxılmışdır.

[2] «Azərbaycan SSR Hökumətinin Qərarlar Külliyyatı» Nazirlər Sovetinin rəsmi nəşri idi. 1939-cu ildən nəşr olunurdu.

[3] «Собрание законодательства СССР», SSRİ Ali Soveti Rəyasət Heyətinin və SSRİ Nazirlər Sovetinin rəsmi nəşri idi. 11 cildən ibarət olan toplunun nəşrinə 1980-ci ildə başlanılmışdı. 1986-cı ildə onun nəşri başa çatdırılmışdır. Toplu Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Sovetinin 1976-cı il 2 sentyabr tarixli və 1978-ci il 23 mart tarixli iki qərarı əsasında nəşr edilmişdi (bax: Ведомости Верховного Совета СССР. 1976. № 37, ст. 515; 1978. № 15, ст. 239).

yaya istinad etmək olmaz. Burada material inkorporatorun müstəsna dərəcədə istək və mülahizələri əsasında yerləşdirilir. Qeyri-rəsmi inkorporasiya müəssisələrin, təşkilatların, ayrı-ayrı mütəxəssislərin normativ materiala olan ehtiyac və tələbatını ödəyir. Bu cür inkorporasiyaya «Qanun», «Digesta», «Hüquq ədəbiyyatı» kimi nəşriyyatların dərc etdiyi «Azərbaycan Respublikasının Qanunlar Külliyyatı»nı misal göstərmək olar[1].

Sistemləşdirmənin növbəti üsulu konsolidasiya adlanır. Onun əsas məqsədi normativ aktların çoxsaylı olmasını aradan qaldırmaqdan və onları unifikasiya etməkdən ibarətdir. **Konsolidasiya dedikdə, eyni növ münasibətlər sferasını tənzimləyən bir sıra normativ hüquqi aktların onların normativ məzmunu dəyişilmədən vahid normativ hüquqi aktda birləşməsi başa düşülür.** Onun iki xüsusiyyəti vardır. Birinci xüsusiyyət ondan ibarətdir ki, konsolidasiya hüquqi nizamasalmanın məzmununu dəyişdirmir, yeni hüquqi tənzimetmədə mühüm dəyişiklik etmir. Bu baxımdan o, predmet inkorporasiyasına çox oxşayır. İkinci xüsusiyyət isə ondan ibarətdir ki, konsolidasiya vahid normativ hüquqi aktda birləşmə olub, toplu xarakterinə malikdir. Belə ki, konsolidasiya prosesində bir neçə normativ akt bir aktda birləşir. Bu cəhətdən o, məcəllələşdirməyə oxşayır. Dediklərimiz onu sübut edir ki, konsolidasiya inkorporasiyanın və məcəllələşdirmənin bəzi xüsusiyyətlərini özündə əks etdirir. Konsolidasiya üsulundan o halda istifadə olunur ki, məcəllələşdirməyə zərurət yaranmasın və ya məcəllələşdirmə üçün, ümumiyyətlə, imkan olmasın. Bu cür vəziyyətdə konsolidasiya ən səmərəli sistemləşdirmə üsulu kimi çıxış edir. Konsolidasiya nəticəsində normativ aktların sayı azalır, eyni normativ material birləşdirilir. Bu cür sistemləşdirməyə Milli Bankın nağdsız hesablaşmaların aparılması barədə normativ aktını misal çəkmək olar.

Sistemləşdirmənin əsas və mühüm üsulu məcəllələşdirmədir. O, ən yüksək və mükəmməl, bununla belə, daha mürəkkəb sistemləşdirmə formasıdır. **Məcəllələşdirmə dedikdə, dövlətin hüquqyaratma orqanlarının elə bir fəaliyyəti başa düşülür ki, bu fəaliyyət nəticəsində qüvvədə olan mövcud qanunvericilik hərtərəfli, köklü surətdə, həm xaricən, həm də daxilən yenidən işlənir, həmin qanunvericiliyə yeni, mühüm dəyişikliklər edilir və bu yolla vahid sistemləşdirilmiş normativ akt — qanun yaranır.** Məcəllələşdirmə gedişində normativ aktlar təsnifləşdirilir, onların məzmununa mühüm dəyişiklik və əlavələr olunur, köhnəlmiş prinsip və normalar ləğv edilir, yeni normalar yaradılır. Onun əsaslar, məcəllə, nizamnamə, əsasnamə və s. kimi əsas formaları vardır.

Məcəllələşdirmənin üç növü fərqləndirilir: ümumi məcəllələşdirmə; sahəvi məcəllələşdirmə; xüsusi məcəllələşdirmə. Əsas qanunvericilik sahələri üzrə toplu halında məcəllələşdirilmiş aktın yaradılmasına **ümumi məcəllələşdirmə** deyilir. Müəyyən bir hüquq sahəsinə aid olan bütün hüquq norma və institutlarını əhatə edən və birləşdirən məcəllələşdirməyə **sahəvi məcəllələşdirmə deyilir.** Mülki hüquqdakı məcəllələşdirmə buna misal ola bilər.

Mülki hüquq üzrə sahəvi məcəllələşdirmə Mülki Məcəllənin qəbul edilməsində ifadə olunur. Mülki Məcəllə elə bir məcəllələşdirilmiş aktdır ki, o, özündə mülki hüququn predmetinə daxil olan cürbəcür ictimai münasibətləri (mülkiyyət münasibətlərini, vərəsəlik münasibətlərini, müqavilə münasibətlərini və s.) tənzim edən müxtəlif norma və instituları birləşdirir. Tamlıq, bütövlük və sabitlik kimi cəhətlər bu akta xüsusi hüquqi qüvvə verir. **Bütün cari mülki qanunvericilik MM-ə səmtlənir və ona tabedir.**

MM bütün məcəllələşdirmə aktları kimi müəyyən sistem üzrə qurulur. Onun quruluşunda ümumi hissə vardır. Bu hissə mülki hüququn xarakterini və məzmununu müəyyənləşdirən sahəvi (xüsusi) prinsipləri və ümumi müddəaları əks etdirir. Bu cəhət və xüsusiyyət MM-ə imkan verir ki, o, normativ aktların ümumi sistemində əsas və mərkəzi yer tutsun. Buna görə də MM mülki hüququn başlıca və mühüm mənbəyi hesab olunur. O, mülki qanunvericilik aktlarının əsasıdır. Dediklərimizdən belə bir düzgün nəticə çıxarmaq olar: **Konstitusiyadan və referendumla qəbul olunmuş qanunlardan başqa, Mülki Məcəllə bütün digər normativ aktlara münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir.** Əgər onlar arasında ziddiyyət olarsa, onda müvafiq münasibətə MM-in qaydaları tətbiq edilir.

Xüsusi məcəllələşdirmə odur ki, o, müəyyən yarımsahənin, hüquq institutunun və ya bir neçə hüquq institutunun normalarını birləşdirir. Söhbət ictimai münasibətlərin nisbətən məhdud qrupunu tənzimləyən hüquq normalarının sistemləşdirilməsindən gedir. Mülki hüquqda xüsusi məcəllələşdirmə qanun, o cümlədən məcəllə formasında qanun qəbul edilməsində ifadə olunur. Məsələn, xüsusi məcəllələşdirməyə Ailə Məcəlləsini, Ticarət Gəmiçiliyi Məcəlləsi, beynəlxalq xüsusi hüquq, müəlliflik hüququ, patent, aviasiya və digər məsələlər barədə qanunları misal göstərmək olar.

§ 7. Mülki hüquq normalarının təfsiri

1. Mülki hüquq normalarının təfsiri anlayışı

Mülki hüquq normalarının təfsiri hüquqtətbiqetmə prosesinin vacib və zəruri elementidir. Bu və ya digər hüquq normasını tətbiq etməmişdən əvvəl onun əsl və həqiqi mənasını başa düşmək, aydınlaşdırmaq, bəzi hallarda isə izah etmək lazımdır. **Mülki hüquq normalarının təfsiri dedikdə, müxtəlif subyektlərin bu normaların əsl mənasının, həqiqi məzmununun aydınlaşdırılmasına və izah edilməsinə yönələn əqli (intellektual) fəaliyyəti başa düşülür.** Təfsir nəticəsində mülki hüquq normalarının başlıca və əsas xüsusiyyətləri elmi baxımdan aydınlaşdırılır, bu normalarda ifadə olunan dövlət iradəsinin mahiyyəti izah olunur.

Ədəbiyyatda hüququn təfsiri anlayışına münasibət birmənalı deyil. Belə ki, ona üç müxtəlif mövqedən yanaşılır. Bir qrup müəlliflər belə hesab edirlər ki, hüququn təfsiri yalnız aydınlaşdırma mənasını ifadə edir. Digər qrup müəlliflər göstərirlər ki, hüququn təfsiri dedikdə, hüquq normalarının məzmununun izah edilməsi başa düşülür. Üçüncü qrup alimlərin fikrincə, hüququn təfsiri dedik-

[1] Qeyri-rəsmi inkorporasiyaya çoxlu misallar çəkmək olar: Нормативные материалы по гражданскому праву. М., 1965; Сборник нормативных актов по изобретательству и рационализации. М., 1985; Авторское право. Сборник нормативных актов. М., 1985; Права на результаты интеллектуальной деятельности. Сборник нормативных актов /Сост. *В.А.Дозорцев*. М., 1994. Sahibkarlıq fəaliyyəti haqqında. Normativ aktlar toplusu. Bakı. 1998; Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu / Tərtib edəni A.H.Abbasovdur. Bakı. 2000.

də, hüquq normalarının mənasının həm aydınlaşdırılması, həm də izah edilməsi başa düşülür. Bizim zənnimizcə, üçüncü qrup müəlliflərin mövqeyi həqiqətə daha yaxındır.

Hüququn təfsiri müxtəlif subyektlərin mürəkkəb və çoxtərəfli fəaliyyətidir. O, müəyyən bir əqli prosesdir. Bu prosesin özü iki elementdən ibarətdir: aydınlaşdırma (başa salma); izah etmə. Bu elementlər bir-biri ilə dialektik qarşılıqlı əlaqədədir.

Təfsir prosesinin birinci elementi **aydınlaşdırma** adlanır. O, təfsir subyektinin özü üçün və öz daxilində aydınlaşdırmadır. Belə ki, təfsir subyekti əvvəlcə mülki hüquq normasının məzmununu izah edir, bu normanın necə qüvvədə olmasını və fəaliyyət göstərməsini müəyyənləşdirir. Aydınlaşdırma daxili əqli-təfəkkür prosesidir. Özü də o, təfsir subyektinin özünə yönəlir, münasibətlərin digər iştirakçılarına isə ünvanlanmır. Buna görə də aydınlaşdırmanın xarici ifadə formaları yoxdur. Hüquq normasının mənası həmişə və bütün hallarda aydınlaşdırılır.

İzah etmə təfsir prosesinin ikinci elementidir. Təfsir subyekti özü üçün hüquq normasının məzmununu aydınlaşdırdıqdan sonra bu normanın eyni cür başa düşülməsi və tətbiq olunması üçün onun mənasını və məzmununu bütün maraqlı şəxslərə aydınlaşdırır. Deməli, mülki hüquq normasının aydınlaşdırılmasından sonra onun məzmununun izah edilməsi gəlir. Belə ki, çox vaxt aydınlaşdırma prosesində normanın məzmununun özü aydın olmur. Onun hərfi ifadəsi qeyri-dəqiq olur, yaxud təcrübədə düzgün tətbiq olunmur. Belə halda hüquq normasının həqiqi mənasının əlavə olaraq müəyyənləşdirilməsi — izah edilməsi zərurətə çevrilir və tələb olunur. Əgər aydınlaşdırma prosesində normanın özü aydın olarsa, onun hərfi ifadəsi dəqiq olarsa və ya təcrübədə düzgün tətbiq edilərsə, onda hüquq norması izah edilmir. Dediklərimiz onu sübut edir ki, hüquq normasının aydınlaşdırılmasından sonra onun məzmununun izah edilməsi heç də həmişə lazım gəlmir.

İzah etmə təfsir prosesinin elə bir elementidir ki, onun vasitəsilə hüquq normasında ifadə olunan dövlət iradəsinin mənası, mahiyyəti müəyyənləşdirilir. O, xarici ifadə formasına, yəni obyektiv (maddi) formaya malikdir. Çox vaxt izah etmə rəsmi sənədlərdə ifadə olunur.

Beləliklə, mülki hüquq normalarının təfsiri dedikdə, hüquq normasında ifadə olunan mənanın, göstərişin dəqiq olaraq müəyyən edilməsinə yönələn mürəkkəb iradəvi proses başa düşülür. Bu prosesin nəticələri maraqlı subyektlərin nəzərinə çatdırılmaqdan ötrü dərc oluna bilər.

Mülki hüquq normalarının təfsir edilməsini şərtləndirən hallar müxtəlifdir. Ən birinci hal ondan ibarətdir ki, hüquq normaları düsturların, formulların, sözlərin, cümlələrin vasitəsi ilə ifadə olunur. Belə halda onların məna və əhəmiyyətini başa düşmək üçün əqli-təfəkkür fəaliyyətinə ehtiyac yaranır.

İkincisi, hüquqyaratma subyekti (qanunverici) dövlət iradəsini rəsmiləşdirmək üçün nisbətən qısa formullardan istifadə edir. Belə halda, şübhəsiz ki, bu formulları açıqlamaq zərurəti yaranır.

Üçüncüsü, hüquqi texnikanın üsul və vasitələri mükəmməl deyil. Söhbət hüquqi konstruksiyalardan, spesifik terminlərdən, istinad sistemindən gedir. Bir sıra hallarda bu vasitə və üsulların başlıca xüsusiyyətlərini müəyyənləşdirmək zərurəti yaranır. Belə halda hüququn təfsiri köməyə gəlir.

Təfsirin subyektləri müxtəlifdir: səlahiyyətli dövlət orqanları; qeyri-dövlət təşkilatları; ictimai təşkilatlar; ayrı-ayrı vətəndaşlar. Onlara interpretator deyilir. **Təfsirin obyekti** mülki qanunvericilik sisteminə daxil olan qanunlar və qanun qüvvəli aktlardır. **Təfsirin predmeti** isə hüquq yaradan orqanın normativ aktda ifadə olunan tarixi iradəsindən ibarətdir.

2. Mülki hüquq normalarının təfsirinin növləri

Mülki hüquq normalarının təfsirini müxtəlif əsaslara görə ayrı-ayrı növlərə bölmək olar. **Təfsir edən subyektlərə görə** onun iki növü fərqləndirilir: rəsmi təfsir; qeyri-rəsmi təfsir.

Rəsmi təfsir odur ki, o, səlahiyyətli orqan tərəfindən verilir. Bu cür təfsir müvafiq hüquq normasını tətbiq edən şəxslər üçün məcburi xarakter daşıyır. O, hüquqi əhəmiyyətə malik olub, müəyyən hüquqi nəticə əmələ gətirir. Özü də bu cür təfsir hüquqtətbiqetmə praktikasında mülki hüquq normasının eyni cür başa düşülməsini və tətbiq olunmasını təmin edir. Rəsmi təfsir öz ifadəsini xüsusi aktda (sənəddə) tapır.

Rəsmi təfsirin özünün iki növü vardır: normativ (ümumi) təfsir; kazual (fərdi) təfsir. **Normativ təfsir** odur ki, bu cür təfsir ümumi məcburi xarakterə malik olub, qeyri-məhdud saylı hallara aid edilir və geniş dairəli subyektlərə şamil olunur. Özü də rəsmi təfsir yeni hüquq norması yaratmağa səbəb olmur.

Normativ təfsir özü iki cür olur: autentik (müəllif) təfsir; leqal (icazə verilmiş) təfsir. **Autentik (müəllif) təfsir** odur ki, bu cür təfsiri hüquq normasını qəbul edən orqan (hüquqyaratma orqanı) verir. Autenik təfsirin subyekti rolunda Milli Məclis, prezident, Nazirlər Kabineti və s. çıxış edə bilər. Məsələn, Milli Məclis özünün qəbul etdiyi Mülki Məcəlləni təfsir edərsə, buna autentik (müəllif) təfsir deyilir. Prezidentin öz verdiyi fərmanı izah etməsi də bu cür təfsirə misal ola bilər.

Təfsir etməyə ixtiyarı olmayan, amma bu məqsədlə müvafiq orqanlardan icazə almış orqanın etdiyi təfsirə **leqal təfsir** deyilir. Ali Məhkəmənin qanunları təfsir etməyə ixtiyan çatmır. Amma bu ali məhkəmə orqanına icazə verilmişdir ki, o, qanunvericiliyin tətbiqi məsələlərinə dair məhkəmələrə rəhbər izahatlar versin. Bu, leqal təfsirdir. Deməli, leqal təfsir normanı qəbul etməyən orqanın verdiyi izahatdır. Belə halda həmin orqanın rəsmi təfsir etmək üçün xüsusi səlahiyyəti olmalıdır.

Rəsmi təfsirin ikinci növü kazual təfsir adlanır. **Kazual təfsir** dedikdə, səlahiyyətli orqanın konkret hüquqi işlə bağlı olaraq hüquq normasının məzmununu izah etməsi başa düşülür. Bu cür təfsir həmin konkret iş üçün məcburidir. Onun başqa işlərin həlli zamanı əhəmiyyəti yoxdur. Kazual təfsir ümumməcburi xarakter daşımır. Bu təfsirin əsas məqsədi, müəyyən konkret hadisənin (halın) düzgün həll edilməsindən ibarətdir. Yalnız konkret hadisəyə aid edildiyinə görə o, kazual (latınca casus - hadisə) təfsir adlanır.

Məcburi hüquqi əhəmiyyətə malik olmayan, rəsmi xarakter daşımayan təfsirə **qeyri-rəsmi təfsir** deyilir. Bu cür təfsiri rəsmi statusu olmayan subyektlər verir. Qeyri-rəsmi təfsirin subyekti rolunda elmi idarələr, tədris müəssisələri, ictimai təşkilatlar, alimlər, mütəxəssislər, habelə praktiki işçilər çıxış edirlər.

Rəsmi təfsirdən fərqli olaraq qeyri-rəsmi təfsirin məcburi hüquqi qüvvəsi yoxdur. Lakin buna baxmayaraq, onun mülki hüquq normasının təcrübədə düzgün tətbiq edilməsində mühüm əhəmiyyəti vardır. Qeyri-rəsmi təfsir mülki qanunvericiliyin mənasının dərin və hərtərəfli başa düşülməsinə kömək edir.

Qeyri-rəsmi təfsir əsasən tövsiyə və məsləhət kimi formalarda ifadə olunur. Bu formalar hakimiyyət göstərişlərindən məhrum olub, məcburi hüquqi qüvvəyə malik deyil. Qeyri-rəsmi təfsir şifahi formada da ifadə oluna bilər. Məsələn, vəkilin, prokurorun vətəndaşları qəbul etdikləri zaman mülki hüquq normasının mənasını izah etməsi və s.

Qeyri-rəsmi təfsir üç cür olur: adi təfsir; professional təfsir; doktrinal təfsir. İstənilən hər hansı bir vətəndaşın mülki hüquq normasının məzmununu izah etməsinə **adi təfsir** deyilir. Hüquq sahəsi üzrə peşəkarların, mütəxəssislərin verdikləri təfsir **professional təfsir** adlanır. Məsələn, bu cür təfsirə hakimin, vəkilin, notariusun və s. vətəndaşların qəbulu zamanı hüquq normasını izah etməsini misal göstərmək olar.

Doktrinal təfsir odur ki, bu təfsir xüsusi elmi-tədqiqat müəssisələri, ayrı-ayrı alimlər tərəfindən monoqrafiyalarda, məqalələrdə, mühazirələrdə, çıxışlarda, konfranslarda, kommentariyalarda və s. verilir. O, qeyri-rəsmi təfsirin əsas və mühüm növü sayılır. Ona **elmi təfsir** də deyilir. Doktrinal təfsirin də məcburi hüquqi qüvvəsi yoxdur. Amma buna baxmayaraq, bu təfsir cəmiyyətin hüquqi həyatına mühüm təsir göstərir. Belə ki, doktrinal təfsirin verdiyi elmi tövsiyələr səlahiyyətli rəsmi orqanlara onların hüquqyaratma və hüquqtətbiqetmə fəaliyyətində kömək edir.

Hüquq normalarının təfsirini başqa, ikinci əlamətə — **həcmə və təfsirin nəticələrinə görə də** təsnifləşdirmək olar. Bu əlamətə görə təfsirin üç növü fərqləndirilir: hərfi təfsir; genişləndirici təfsir; məhdudlaşdırıcı təfsir[1].

Mülki hüquq normaları normativ aktın maddələrində əks olunur. Mülki hüquq mülki hüquq normalarından ibarətdir. Hüquq norması mülki hüququn əsas struktur elementidir. Normativ akt isə maddələrdən ibarətdir. Maddə isə normativ aktın struktur elementidir[2]. Bax, normativ aktın maddəsi hüquq normasının xarici təzahür, ifadə formasıdır. Əgər mülki hüquq norması məzmundursa, maddə formadır.

Mülki hüquq normasının məzmunu hüquqyaratma orqanının iradəsini ifadə edir. O, öz iradəsini söz vasitəsilə normativ aktın maddələrində əks etdirir. Əgər hüquqyaratma orqanının dövlət iradəsinin həqiqi məzmunu, yəni hüquq normasının əsas məzmunu onun normativ aktın maddəsində sözlə ifadəsinə uyğun gələrsə, üst-üstə düşərsə, buna **hərfi təfsir** deyilir. Bu, **adekvat təfsir** də adlanır.

Lakin həmişə belə olmur. Belə ki, obyektiv və ya subyektiv səbəblərə görə hüquq normasının məzmunu onun maddədə sözlə ifadəsinə uyğun gəlməyə də bilər. Əgər hüquq normasının məzmunu onun sözlə ifadəsindən geniş olarsa, onda **genişləndirici təfsirdən** istifadə olunur. Məsələn, MM-in 1130-cu maddəsində göstərilir ki, malın, işin və ya xidmətin qüsurları nəticəsində vurulan zərərin əvəzi, əgər zərər malın (işin, xidmətin) müəyyənləşdirilmiş yararlılıq müddəti ərzində əmələ gəlmişdirsə, ödənilməlidir. Burada «yararlılıq müddəti» kimi anlayışı genişləndirici təfsir etmək lazımdır. Belə ki, bu anlayış həm də özündə «xidmət müddəti» kimi anlayışı əhatə edir[1]. Başqa bir misal. MM-in 464-cü maddəsinin 2-ci bəndində göstərilir ki, əgər qanunla qadağan edilməyibsə, tərəflər qanun üzrə dəbbə pulunun (cərimənin, penyanın) miqdarını artıra bilərlər. Burda «qanun» dedikdə, bütün normativ hüquqi aktlar başa düşülür.

Əgər mülki hüquq normasının həqiqi məzmunu onun sözlə ifadəsindən geniş deyilsə, məhduddursa, onda **məhdudlaşdırıcı təfsirdən** istifadə olunur. Məsələn, MM-in 608-ci maddəsi heyvanların alqı-satqı müqaviləsini nəzərdə tutur. Burada «heyvan» dedikdə, yer kürəsində yaşayan bütün heyvanlar aləmi başa düşülmür. Axı, alimlərin hesablamalarına görə dünyada iki milyondən çox heyvan növü yaşayır. Həmin maddədə işlədilən «heyvan» anlayışını insanlar üçün faydalı və gərəkli olan, onlann müəyyən ehtiyaclarını ödəyən, əsasən məməlilər sinfinə aid edilən heyvanlar mənasında başa düşmək lazımdır.

3. Mülki hüquq normalarının təfsir üsulları

Mülki hüquq normaları müxtəlif üsullardan istifadə edilməklə təfsir olunur. **Təfsir üsulları** dedikdə, hüquq normasının məna və məzmununu aydınlaşdırmağa imkan verən vasitələrin məcmusu başa düşülür. Hər bir üsul spesifik xüsusiyyətə malikdir. Mülki hüquq normaları təfsir olunarkən bir neçə əsas üsul tətbiq edilir:

- qrammatik üsul;
- məntiqi üsul;
- sistemli üsul;
- tarixi-siyasi təfsir üsulu ;
- xüsusi-hüquqi təfsir üsulu.

Qrammatik təfsir üsulu odur ki, bu üsul hüquq normasının mətninin qrammatik təhlil yolu ilə aydınlaşdırılmasını nəzərdə tutur. Söhbət qrammatika qaydalarından istifadə olunmaqla hüquq normasının məzmununa aydınlıq gətirilməsindən gedir. Bu üsul əsasında normativ hüquqi aktın mətni morfoloji və sintaksis təhlil olunur. Bu təhlil ayrı-ayn söz və terminlərin, bütün cümlənin qrammatik mənasının aydınlaşdırılmasını əhatə edir. Cümlələrin mənası müəyyənləşdirilən zaman bağlayıcılar, durğu işarələri (nöqtə, vergül) mühüm rol oynayır. Qrammatik təfsir üsulu **filoloji və ya dil üsulu** da adlanır.

---

[1] Bəzi müəlliflər, məsələn, Y.A.Suxanov bu barədə başqa fikir irəli sürür. O, göstərir ki, məhdudlaşdırıcı və ya genişləndirici təfsir həqiqətdə ya məntiqi, ya sistematik və yaxud da təfsirin digər məlum üsullarına aid edilir. Ona görə də genişləndirici və məhdudlaşdırıcı kimi təfsir üsullarının ayrılmasının əsası yoxdur (bax: Гражданское право. Учебник. Том 1 /Под ред. *Е.А.Суханова*. М., 1998, с. 88). Bu cür mövqe ilə çətin ki, razılaşmaq olar.

[2] bax: «Normativ hüquqi aktlar haqqında» qanunun 23-cü maddəsi (Biznesmenin bülleteni. Bakı. № 2. 2000, s. 7).

[1] Məhkəmə qərarı da bu cür təfsirin düzgünlüyünü təsdiq edir. Bu barədə bax: n. 10 постановления Пленума Верховного Суда РФ от 17 января 1997 г. № 2 «О внесении изменений и дополнений в постановление Пленума Верховного Суда РФ от 29 сентября 1994 г. № 7 «О практике рассмотрения судами дел о защите прав потребителей» (с изменениями, внесенными постановлениями Пленума от 25 апреля 1995 г. № 6 и от 25 октября 1996 г. № 10) // Российская газета. 1997. 5 февраля.

MM-in 586-cı maddəsinin 1-ci bəndində göstərilir ki, qanunvericilikdə, dövlət standartlarının məcburi tələblərində və ya alqı-satqı müqavilələrində əşyanın keyfiyyətinin yoxlanılması nəzərdə tutula bilər. Burada «və ya» bağlayıcısına fikir vermək lazımdır. Bu bağlayıcı onu ifadə edir ki, əşyanın keyfiyyətinin yoxlanılması ya qanunvericilikdə, ya dövlət standartlarının məcburi tələblərində, ya da ki alqı-satqı müqavilələrində göstərilə bilər.

Məntiqi təfsir üsulu odur ki, bu üsul formal məntiqin qaydalarından istifadə etməklə hüquq normasının mənasına aydınlıq gətirilməsini nəzərdə tutur. Burada normativ aktın müəyyənləşdirdiyi müddəalar məntiq qaydaları baxımından tədqiq olunur, sözdə ifadəsini tapan anlayışlar, hadisələr təhlil edilir. MM-in 29-cu maddəsinin 2-ci bəndində göstərilir ki, 7 yaşından 14 yaşınadək olan şəxslərin xırda məişət əqdlərini və s. bağlamaq ixtiyarı vardır.Məntiq qaydalarına görə burada şəxs anlayışı ilə «hüquqi şəxslər» yox, yalnız «fiziki şəxslər» əhatə oluna bilər. Ona görə ki, ancaq fiziki şəxsin yaşı ola bilər. Hüquqi şəxs isə yaşa malik ola bilməz. Başqa bir misal. MM-in 1108-ci maddəsi nəqliyyat vasitələrindən istifadə edilməsini ətrafdakılar üçün yüksək təhlükə yaradan fəaliyyət kimi nəzərdə tutur[1]. Məntiqi qaydaya görə təkcə yük və minik avtomobili və s. yox, habelə velosiped də, at-araba nəqliyyatı da bu cür fəaliyyətə misal ola bilər.

Sistemli təfsir üsulu odur ki, bu üsul mülki hüquq normasının məzmununun bu normanın mülki hüquq sahəsində tutduğu yeri müəyyənləşdirmək yolu ilə aydınlaşdırılmasını nəzərdə tutur. Belə ki, mülki hüquq norması digər hüquq norması ilə müqayisə edilir və onların bir-biri ilə qarşılıqlı əlaqəsi müəyyənləşdirilir. Bu yolla müvafiq normanın məzmununa aydınlıq gətirilir. Hər hansı hüquq norması mülki hüquq sisteminə daxil olan hər bir norma ilə sıx surətdə bağlıdır. Buna görə də mülki hüquq normasının əsl mənasını başa düşmək üçün onun başqa norma ilə məntiqi əlaqəsini müəyyən etmək lazımdır. Xüsusən də təfsir edilən normanın onun məzmununa yaxın olan digər norma ilə müqayisə olunmasına ayrıca diqqət yetirilir. Qədim dünya mütəfəkkir-filosofları demişkən, həqiqət müqayisə nəticəsində aşkar olunur və üzə çıxır.

MM-in 665-ci maddəsində göstərilir ki, dəyişdirmə müqaviləsi üzrə dəyişdirilən mallara mülkiyyət hüququ tərəflərə, hər iki tərəf müvafiq malları vermək vəzifəsini icra etdikdən sonra eyni vaxtda keçir. Bu maddədə ifadə olunan hüquq normasının mənasını düzgün başa düşmək üçün onu MM-in 570-ci maddəsində əks edilən norma ilə müqayisə etmək lazımdır. Bu normaya görə əşyanı vermək vəzifəsinin icrası məqamları bunlardır: əşyanın alıcıya təhvil verildiyi məqam; alıcının ixtiyarına verilməsi məqamı; əşyanın daşıyıcıya və ya rabitə təşkilatına təhvil verilməsi məqamı. Başqa bir misal. MM-in 4-cü maddəsinə görə əmlak dəyəri olan qeyri-maddi nemətlər mülki hüquq münasibətlərinin obyekti hesab olunur. Bu maddədə ifadə olunan mülki hüquq normasının mənasını düzgün başa düşmək üçün MM-in 135-ci maddəsində (5-ci bənd) əks olunan hüquq normasına müraciət etmək lazımdır. Həmin maddədə göstərilir ki, başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləri hesab edilir.

Tarixi-siyasi təfsir üsulu odur ki, bu üsul mülki hüquq normasının qəbul olunduğu tarixi şəraitin təhlili yolu ilə həmin normanın məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. Mülki hüquq normasını bu normanın qəbul olunduğu tarixi şəraitlə tutuşdurmaqla həmin normanın məzmununun aydınlaşdırılması göstərilən üsulun mahiyyətini təşkil edir. Tarixi-siyasi təfsirin köməyi ilə əsasən iki məsələ həll olunur. Birincisi, bu üsul mülki hüquq normasının yaranmasının tarixi şəraitini dərindən öyrənməyə imkan verir. İkincisi, həmin üsulun vasitəsi ilə hüquqyaratma orqanının, bu normanı qəbul etməkdə güddüyü əsas sosial-siyasi məqsəd müəyyənləşdirilir. Məsələn, MM-in 153-cü maddəsinin 4-cü maddəsində göstərilir ki, bütün mülkiyyətçilərin (yəni dövlətin, vətəndaşların, bələdiyyələrin, hüquqi şəxslərin) hüquqları eyni, bərabər qaydada müdafiə edilir. Bu maddədə ifadə olunan hüquq normasının Konstitusiyasının 29-cu maddəsində əks edilən belə bir müddəaya uyğundur ki, mülkiyyətin heç bir növünə (dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti kimi növlərinə) üstünlük verilmir. Bütün mülkiyyətçilərin hüquqlarının bərabər qaydada müdafiə olunması prinsipi vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının ayrılmaz atributlarından biridir. Hal-hazırda yaşadığımız tarixi dövr vətəndaş cəmiyyətinin və bazar iqtisadiyyatının yaradılması ilə xarakterizə olunur. Komanda (sovet) iqtisadiyyatı şəraitində dövlət mülkiyyətinə üstünlük verilirdi. Bu iqtisadiyyat üçün dövlət mülkiyyəti inhisarı xarakterik idi.

Keçən əsrdə 90-cı illərin əvvəllərindən iqtisadiyyat bazar münasibətləri əsasında qurulmağa başladı. Xüsusi mülkiyyət qanunvericilik qaydasında rəsmən tanındı. Siyasi demokratikləşmə prosesləri cəmiyyətdə geniş vüsət aldı. İnzibati-amirlik sistemindən imtina olundu. Bu cür tarixi-siyasi və ictimai-iqtisadi şəraitə uyğun olaraq ölkə mülki qanunvericiliyi bütün mülkiyyətçilərin hüquqlarının eyni, bərabər qaydada müdafiə edilməsi barədə norma ifadə etdi. Bax, bu normanın mənasını tarixi-siyasi təfsir üsulu ilə aydınlaşdırarkən onun qəbul olunduğu şəraiti təhlil etmək lazımdır.

Başqa bir misal. MM-in 13-cü maddəsində sahibkarlıq fəaliyyətini rəsmiləşdirən norma ifadə olunur. Bu normanı tarixi-siyasi üsulla təfsir etdikdə müəyyənləşdiririk ki, həmin normanın qəbul edilməsi bazar iqtisadiyyatına keçmək kimi tarixi şəraitlə bağlıdır. Axı, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının formalaşmasında böyük rola malikdir[1]. Bu cür fəaliyyət olmadan bazar iqtisadiyyatı yarana bilməz. Həmin normanın sosial məqsədi sahibkarlıq fəaliyyətini dəstəkləməkdən və onu inkişaf etdirməkdən ibarətdir.

Xüsusi-hüquqi təfsir üsulu odur ki, bu üsul mülki hüquq (sivilistika) elminin və qanunvericilik texnikasının bilikləri əsasında hüquqi terminlərin, konstruksiyaların, kateqoriyaların, anlayışların mənasının və məzmununun aydınlaşdırılmasını nəzərdə tutur. Xüsusən də hüquqyaratma orqanı yeni hüquqi anlayış və kateqoriyalar formulə edəndə bu üsuldan daha geniş surətdə istifadə olunur. Məsələn, MM-in 1108-ci maddəsi «ətrafdakılar üçün yüksək təhlü-

[1] Yüksək təhlükə mənbəyi kimi nəqliyyat vasitələrinin əsas cəhətləri ilə ətraflı tanış olmaq üçün bax: *E.Ə.Əliyev*. Yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı, 2003.

[1] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyevin, Ə.A.Babayevin, M.X.Məybullayevin* Ümumi elmi redaktəsi ilə. Bakı. 1999, s. 270.

kə yaradan fəaliyyət» kimi anlayış işlədir. Bu anlayışın mahiyyət və məzmunu mülki hüquq elminin bilikləri əsasında aydınlaşdırılır. Mülki qanunvericilik «təqsir», «kobud ehtiyatsızlıq», «zəruri müdafiə», «son zərurət» və s. anlayışlar işlədir. Bunların da məzmununa mülki hüquq elminin verdiyi biliklər əsasında aydınlıq gətirilir.

Təfsir üsulları bir-biri ilə qarşılıqlı əlaqədədir. Onların hamısı birlikdə mülki hüquq normalarının məzmununun dəqiq müəyyənləşdirilməsində böyük rol oynayır.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1998. (гл. 2).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998 (гл. 4).

Гражданское право. Учебник. Часть / Под ред. **А.Г.Калпина, А.И.Масляева.** М., 1997 (гл. 2).

Гражданское право. Учебник. Часть 1/ Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.** М., 1998 (гл. 2).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл. 2).

Гражданское право. Учебник. / Под ред. **С.П.Гришаева.** М., 1999 (гл. 1, § 3).

Гусев С.И. Руководящие разьяснения Пленумов Верховных Судов — важное средство укрепления законности // Советское государство и право. 1985. № 10.

Зыкин И.С. Обычай в советской правовой доктрине // Советское государство и право. 1982. № 3.

Новицкий И.Б. Источники советского гражданского права. М., 1959.

Əliyev E. Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı. 2001.

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.

Köhler H. BGB. Allgemeiner Teil. München.1998.

Brehm W. Allgemeiner Teil des BGB. 1997.

Brox H. Allgemeiner Teil des Bürgerlichen Gesetzbuches.1997.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

IV FƏSİL
MÜLKİ HÜQUQ (SİVİLİSTİKA) ELMİ VƏ TƏDRİS KURSU

§ 1. Mülki hüquq (sivilistika) elmi

1. Mülki hüquq (sivilistika) elminin anlayışı və predmeti

Bundan əvvəlki fəsildə «mülki hüquq» termininin çoxmənalı və çoxcəhətli anlayış olmasını göstərdik. Bunu bir daha xatırladaraq qeyd edirik ki, bu terminlə əsasən üç məna ifadə olunur. **Birincisi, mülki hüquq dedikdə**, əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının məcmusundan ibarət **hüquq sahəsi** başa düşülür (obyektiv mənada hüquq). Bu baxımdan o, Azərbaycan Respublikasının daxili milli hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir.

İkinci mənada «mülki hüquq» termini ilə **tədris fənni anlayışı** əhatə olunur. Tədris fənni kimi mülki hüququn əsas vəzifəsi, hər şeydən əvvəl, mülki hüquq sahəsini təşkil edən normaların tətbiq olunma təcrübəsini öyrənməkdən ibarətdir. Bu baxımdan o, mülki hüququ və mülki hüquq elmini öyrənir, təlim edir[1]. Tədris fənni kimi mülki hüquq bu fəslin ikinci paraqrafında nəzərdən keçirilmişdir.

Üçüncü mənada «mülki hüquq» termini ilə **elm anlayışı** əhatə olunur. Elm mənasında mülki hüquq mühüm hüquq elmlərindən biri kimi çıxış edir. Ona **sivilistika elmi** də deyilir. Mülki hüquq (sivilistika) elmi mülki hüquq hadisələrini öyrənir. Əgər hüquq sahəsi kimi mülki hüquq dedikdə hüquq normalarının məcmusu başa düşülürsə, elm kimi mülki hüquq anlayışı biliklərin məcmusunu ifadə edir. Əgər hüquq sahəsi kimi mülki hüquq daxili milli hüquq sisteminin elementi kimi çıxış edirsə, elm mənasında mülki hüquq hüquq elmlərinin bir sahəsi kimi özünü göstərir.

Mülki hüquq elmi mülki hüquq barədə təlimdir. Bildiyimiz kimi, hüquq sahəsi kimi mülki hüquq əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir. Mülki hüquq elmi bu tənzimetmənin qanunauyğunluqlarını öyrənir. Bunun nəticəsində mülki hüquq barədə təlim yaranır. O, nəzəriyyələrdən, anlayışlardan, ideyalardan, baxışlardan və s. ibarətdir. Xaricdə mülki hüquq elmi, bir qayda olaraq, **mülki hüquq (sivilistika) doktrinası** adlandırılır.

Mülki hüquq (sivilistika) elmi dedikdə, mülki hüquq hadisələri barədə anlayışların, kateqoriyaların, ehkamların (doqmaların), postulatların, düsturların, formulların, mühakimələrin, baxışların, görüşlərin, ideyaların, nəzəriyyələrin, konsepsiyaların və nəticələrin sistemi başa düşülür. O, elmi biliklərin bir hissəsidir. Bu biliklər mülki hüquq hadisələri barəsində yaranır.

Mülki hüquq (sivilistika) elminin tarixi çox qədim zamanlara gedib çıxır. Bu hüquq elmi çoxəsrlik tarixə malikdir. Onun kökləri qədim Roma hüququ ilə

[1] bax: *Красавчиков О.А.* Советская наука гражданского права (понятие, состав, система). Свердловск. 1961.

bağlıdır. Romada hüquq elminə yurisprudensiya (jurisprudencia) deyilirdi[1]. Romada hüquq elmlərinin, o cümlədən mülki hüquq elminin inkişafı Roma xüsusi (mülki) hüququnun yüksək inkişaf səviyyəsinə uyğun gəlirdi. Qədim Roma hüquqşünaslarının yaradıcılığının (elmi əsərlərinin) mülki hüquq elmi üçün əhəmiyyəti və rolu böyük idi. Hüquqşünasların əsərlərində hüquqi anlayışların dəqiq tərifi verilirdi. Monoqrafiyalar, gənc tələbələri öyrətmək üçün pedaqoji məqsədlə dərsliklər yazılırdı. Roma hüquqşünaslarının əsərləri Romanın qiymətli hüquqi irsi, əsl elmi xəzinəsi idi. Onlar yaranan və inkişaf edən əmtəə-pul münasibətlərini rəsmiləşdirmək və tənzimləmək, habelə xüsusi mülkiyyəti qorumaq və möhkəmləndirmək məqsədi ilə hüquqi formullar və düsturlar, kateqoriya və konstruksiyalar işləyib hazırlayırdılar[2]. Bu formul, düstur, konstruksiya və kateqoriyaların çoxu qanunvericilik tərəfindən qəbul edildi. Əldə olunmuş nailiyyətlər müasir mülki hüquqda geniş surətdə istifadə edilir. Məhz Roma hüququnda işlənən bir çox anlayışlar və kateqoriyalar müasir dünyanın əksər dövlətlərinin hüquq sistemlərində özünə dərindən kök salmışdır. Həmin sistemlərdə Roma terminləri və anlayışları indi də saxlanılır.

Hər bir hüquq elminin öyrəndiyi sahə vardır. Bu sahə onun tədqiqat obyektidir. Elmin öyrəndiyi sahə — tədqiqat obyekti onun predmetini təşkil edir. Bu sözləri hüquq elminin bir qolu və sahəsi olan mülki hüquq elmi barədə də söyləmək olar. Deməli, **mülki hüquq elminin predmeti** dedikdə, onun tədqiq etdiyi obyekt, öyrəndiyi sahə başa düşülür. Mülki hüquq elminin predmeti belə bir suala cavab verir: **o, nəyi öyrənir? Onun tədqiq etdiyi obyekt nədən ibarətdir?**

Mülki hüquq elminin predmetini mülki hüquq hadisələri təşkil edir. Bu hadisələr barəsində mülki hüquq elmi yaranır və formalaşır. Əgər mülki hüquq hadisələri olmazsa, söz yox ki, mülki hüquq elmi də əmələ gələ bilməz. **Mülki hüquq hadisələri** dedikdə isə mülki hüquq normaları, mülki hüquq münasibətləri, mülki qanunvericilik, hüquqi faktlar və s. başa düşülür. Bunu nəzərə alaraq mülki hüquq elminin predmet tərkibini müəyyən edə bilərik. Buraya daxildir:

- hüquq sahəsi kimi mülki hüquq;
- mülki hüquq normaları;
- mülki qanunvericilik;
- mülki hüquq münasibətləri;
- mülki hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər;
- hüquqi faktlar;
- mülki hüquq normalarının tətbiqi təcrübəsi;
- mülki hüquq elminin inkişaf tarixi;
- xarici hüquq sistemlərində mülki-hüquqi inkişaf təcrübəsi.

Gördüyümüz kimi, mülki hüquq elminin sərhədləri və hüdudları kifayət qədər genişdir. O, ölkədə həyata keçirilən islahatların hüquqi aspektlərini öyrənir. Cəmiyyətdən kənarda olan, real ictimai həyatda baş verən prosesləri nəzərə almayan mülki hüquq mövcud ola bilməz.

[1] Klassik Romada hüquq elminin inkişafı barədə bax: *Пухан И., Полёнак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 36-39; Римское частное право. Учебник / Под ред. *Н.Б.Новицкого., И.С. Перетерского.* М., 1999, с. 31-37.

[2] *Иоффе О.С.* Из истории цивилистической мысли (юриспруденция Древнего Рима) // Проблемы гражданского и административного права. Л., 1962, с. 314-341.

Mülki hüquq elminin predmet tərkibində **hüquq sahəsi kimi mülki hüquq** (mülki hüquq sahəsi) əsas və mərkəzi yer tutur. Sivilistika elmi mülki hüquqa anlayış verir, onun hüquq sistemində tutduğu yeri, funksiya və vəzifələrini müəyyənləşdirir. Burada mülki hüququn sisteminə, mənşəyinə və onun inkişaf qanunauyğunluqlarına aydınlıq gətirilir, iqtisadi dövriyyənin hüquqi cəhətdən rəsmiləşdirilməsində onun oynadığı rol tədqiq edilir.

Mülki hüquq elminin predmet tərkibinə **mülki hüquq normalarının öyrənilməsi** də daxildir. Mülki hüquq normalarının məzmununu hərtərəfli və dərindən öyrənmədən təcrübədə onları düzgün və eyni qaydada tətbiq etmək olmaz. Ona görə də sivilistika mülki hüquq normalarının öyrənilməsinə xüsusi diqqət yetirir.

Mülki qanunvericiliyin öyrənilməsi mülki hüquq elminin predmet tərkibinə şamil olunan məsələlərdəndir. Sivilistika elmi mülki qanunvericiliyi öyrənərək, onun sistemini və bu sistemə daxil olan normativ aktların qanunlardan və qanun qüvvəli aktlardan ibarət olmasını müəyyənləşdirir, bu aktların və Mülki Məcəllənin hüquqi təbiətinə aydınlıq gətirir. Mülki hüquq elmi mülki qanunvericiliklə beynəlxalq hüquq normaları, işgüzar dövriyyə adətləri, məhkəmə plenumu qərarları, məhkəmə təcrübəsi, məhkəmə presendenti və əxlaq normaları arasındakı münasibətin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirir. Burada mülki qanunvericiliyin zamana, məkana və şəxslərə görə qüvvəsi öyrənilir. Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinin işlənilib hazırlanması və qəbul edilməsi sivilistika elminin mühüm nailiyyətidir. Sivilistika elmi həm də mülki qanunvericiliyin təkmilləşdirilməsi yollarını və üsullarını göstərir.

Sivilistika elminin predmet tərkibinə daxil olan məsələlərdən **biri mülki hüquq normaları ilə (mülki hüquq sahəsi) ilə tənzimlənən ictimai münasibətlərin öyrənilməsidir.** Mülki hüquq normaları ilə qaydaya salınan və tənzimlənən ictimai münasibətlərin mahiyyəti və məzmunu barədə düzgün təsəvvürə malik olmaq lazımdır. Həmin münasibətlərin mahiyyətini və əsas cəhətlərini dərindən dərk etmədən və başa düşmədən qanunvericilik və hüquqtətbiqetmə praktikasında bir çox qəliz, mürəkkəb məsələləri həll etmək olmaz. Mülki hüquq normaları ilə nizama salınan ictimai münasibətlər barədə dərin və düzgün biliklər olmazsa, onda real ictimai həyatda yaranan bu və ya digər faktiki münasibətin həqiqi, əsl hüquqi təbiətini aydınlaşdırmaq çətin və müşkül bir problemə çevrilərdi. Bu isə bir sıra hallarda qanunun pozulmasına gətirib çıxarardı. Axı, elə oxşar münasibətlər vardır ki, onlar hüququn bir sıra sahələri tərəfindən nizama salınır. Məsələn, əmlak münasibətləri bu qəbildən olan ictimai münasibətlərə misal ola bilər. Əvvəllər də qeyd etdiyimiz kimi, bu münasibətlər həm mülki hüquq, həm inzibati hüquq, həm də maliyyə hüququ ilə tənzimlənir. Əmlak münasibəti sivilistika elmində ən mürəkkəb və əsas kateqoriyadır. Mülki hüquqla tənzimlənən əmlak münasibətlərini hüququn digər sahələri ilə nizama salınan əmlak münasibətlərindən ayırmaq və fərqləndirmək üçün mülki hüquq elmi həmin münasibətlərin əsas cəhətlərini, spesifik əlamətlərini və başlıca xüsusiyyətlərini müəyyənləşdirir. Bundan əlavə, sivilistika elmi bu münasibətlərin ayn-ayrı növlərinin — əşya münasibətlərinin, öhdəlik münasibətlərinin, əqli mülkiyyət münasibətlərinin, vərəsəlik münasibətlərinin və s., həmçinin şəxsi qeyri-əmlak münasibətlərinin öyrənilməsinə xüsusi əhə-

miyyət verir. Bu, mülki hüquq normalarının məzmununun düzgün başa düşülməsi üçün olduqca vacibdir.

Mülki hüquq münasibətlərinin öyrənilməsi sivilistika elminin predmet tərkibinə daxil edilir. O, mülki hüquq münasibətlərini mülki hüquqla tənzimlənən ictimai münasibətlərin hüquqi forması kimi nəzərdə tutur, bu münasibətlərin xüsusiyyətlərini izah edir, mülki-hüquqi tənzimetmə mexanizmində həmin münasibətlərin vacib rolunu göstərir, onların elementlərini (məzmununu, subyektini və obyektini) müəyyənləşdirir. Bundan əlavə, mülki hüquq elmi mülki hüquq münasibətlərini ayrı-ayrı növlərə bölərək, onların təsnifini verir, bu növlərin əsas cəhət və xüsusiyyətlərini aydınlaşdırır. Mülki hüquq münasibətləri barədə təlim sivilistika elmində önəmli yerlərdən birini tutur.

Sivilistika elminin predmet tərkibində daxil olan məsələlərdən **biri hüquqi faktlardır**. Hüquqi faktların tədqiq edilməsi bu elm üçün xüsusilə vacibdir. Axı, mülki hüquq münasibətləri bu faktlar əsasında əmələ gəlir, dəyişir və ya xitam olunur. Sivilistika elmi hüquqi faktların elmi cəhətdən əsaslandırılmış təsnifini, mürəkkəb hüquqi tərkib nəzəriyyəsini işləyib hazırlamışdır. Burada hüquqi faktların bir növü olan əqdlər haqqında təlim mühüm yer tutur.

Sivilistika elminin predmet tərkibində **mülki hüquq normalarının tətbiqi təcrübəsinin öyrənilməsi** vacib rol oynayır. Məhkəmə, prokurorluq, notariat və digər orqanların borcudur ki, mülki hüquq normalarını düzgün tətbiq etsinlər. Bu cür hallarda mülki hüquq elminin işləyib hazırladığı şərhlər, tövsiyələr, izahatlar və nəzəri müddəalar həmin orqanların köməyinə gəlir. Bundan istifadə etməklə hüquqtətbiqetmə orqanları yaranmış mülki-hüquqi mübahisəni düzgün həll edirlər. Bununla belə, hüquqtətbiq olunma təcrübəsinin (praktikasının) materiallarından istifadə etmədən, onları tədqiq etmədən sivilistika elmi irəliyə doğru inkişaf edə bilməz. Məhz bu materialları elmi təhlil və analiz süzgəcindən keçirməklə o, müddəalar və təkliflər formulə edir. Bu müddəaların və təkliflərin hüquqtətbiqetmə təcrübəsində böyük əhəmiyyəti vardır. Onlar mülki qanunvericiliyin təkmilləşdirilməsində nəzərə alınır.

Mülki hüquq normalarının tətbiqi təcrübəsini öyrənmək sivilistika elminə mülki qanunvericiliyin qüsurlarını və çatışmazlıqlarını aşkar etməyə imkan verir. Bu, həm də sivilistika elminin özündəki qüsurların müəyyənləşdirilməsinə imkan yaradır.

Sivilistika elminin predmet tərkibinə **bu elmin inkişaf tarixinin tədqiq edilməsi** də daxildir. Ölkəmizdə mülki hüquq elminin yaranması və inkişaf tarixi keçmiş sovet dövrü ilə bağlıdır. Sovet dövrü alimlərinin irəli sürdükləri nəzəri konsepsiyalar, ideyalar və müddəalar mülki hüquq elminin inkişafı üçün, habelə mülki qanunvericiliyin təkmilləşdirilməsi üçün həmişə gərəkli və zəruri olmuşdur. Həll edilməsi mürəkkəb və çətin olan məsələlərə düzgün cavab axtarılan hallarda, sovet sivilist alimlərinin elmi fikirləri köməyə gəlmişdir. Xüsusən onların mülki hüquq məsuliyyəti barədə işləyib hazırladıqları təlimin müasir mülki hüquq elmi üçün əhəmiyyəti böyükdür[1]. Məsələn, görkəmli sivilist

[1] *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955; *Антимонов Б.С.* Гражданская ответственность за вред, причиненный источником повышенной опасности. М., 1952; *Тархов В.А.* Ответственность по советскому гражданскому праву. Саратов. 1973 и др.

alim S.N.Bratus XX əsrin 40-cı illərində hüquqi şəxsin öz işçisi tərəfindən törədilmiş mülki hüquq pozuntusuna görə məsuliyyət daşıması barədə konsepsiya irəli sürmüşdür[1]. Keçmiş SSRİ tərkibinə daxil olan müttəfiq respublikaların mülki qanunvericiliyi bu konsepsiyanı rəsmən qanunvericilik səviyyəsində qəbul etmişdi. Azərbaycan Respublikasının köhnə 1964-cü MM-nin 443-cü maddəsi bu nəzəri ideyanı tanımışdı. Ölkəmizin müasir MM-in 1099-cu maddəsi S.Bratusun irəli sürdüyü bu konsepsiyanı nəzərə alaraq qanunvericilik qaydasında rəsmiləşdirmişdir.

Başqa bir misalda Azərbaycan Respublikasının MM-in yaxın vaxtlara kimi qüvvədə olan 457-ci maddəsində (bu maddə qüvvədən düşmüşdür) göstərilirdi ki, öhdəliyin icra edilməməsinə görə üçüncü şəxslərin hərəkətləri üçün borclu məsuliyyət daşıyır. Məsələn, podratçı (tikinti təşkilatı) sifarişçi üçün çoxmərtəbəli yaşayış binası tikir. İş mürəkkəb olduğu üçün podratçı (borclu şəxs) dörd müxtəlif tikinti təşkilatı (üçüncü şəxslər) cəlb edir. Cəlb edilmiş üçüncü şəxslər təqsirli hərəkətlərə yol verirlər. Bunun nəticəsində podratçı (borclu şəxs) sifarişçinin qarşısında yaşayış evini tikmək öhdəliyini icra edə bilmir. Belə halda sifarişçi qarşısında üçüncü şəxslər yox, podratçı (borclu şəxs) məsuliyyət daşıyır. Bax, üçüncü şəxslərin hərəkətləri üçün borclunun məsuliyyət daşıması barədə nəzəri konsepsiyanı ilk dəfə olaraq keçən əsrin 50-ci illərində sovet sivilist alimi S.İ.Asknazi işləyib hazırlamış, digər sivilist alim E.A.Fleyşits isə onu inkişaf etdirmişdir[2]. Sovet alimlərinin irəli sürdükləri nəzəri konsepsiyaların mülki qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi üçün əhəmiyyətini nəzərə alaraq sivilistika elmi özünün inkişaf tarixinin öyrənilməsinə ciddi diqqət yetirir.

Qabaqcıl, sivil, mütərəqqi və inkişaf etmiş xarici ölkələrin mülki hüquq elminin təcrübəsini və əldə etdiyi nailiyyətləri nəzərə almadan sivilistika elmi irəliyə doğru inkişaf edə bilməz. Buna görə də **xarici ölkələrin mülki hüququnu və qanunvericiliyini öyrənməyi və tədqiq etməyi** o, özünün predmet tərkibinə daxil edir. Mütərəqqi və qabaqcıl xarici sivilist fikrin bizim mülki hüquq elminin inkişafı üçün əhəmiyyəti və rolu olduqca böyükdür. Xarici mülki hüquq dokrinasının işləyib hazırladığı bir çox hüquqi konstruksiyalar Azərbaycan Respublikasının yeni MM-i tərəfindən qəbul edilmişdir.

Beynəlxalq hüquqi sənədlərin məna və məzmununun öyrənilməsi də mülki hüquq elminin predmetinə şamil olunur. Beynəlxalq ticarət (kommersiya) dövriyyəsini tənzimləyən bir çox konvensiyalarda ifadə olunan qayda və müddəalar ölkəmizin yeni mülki qanunvericiliyində öz əksini tapmışdır. Söhbət Beynəlxalq mal alqı-satqı müqaviləsi haqqında Vyana (1980), Beynəlxalq faktorinq haqqında (1988), Beynəlxalq maliyyə lizinq haqqında (1988) konvensiyalarından və digər konvensiyalardan gedir. Sivilistika elmi bu konvensiyaların məzmununa aydınlıq gətirir.

[1] bax: *Братусь С.Н.* Некоторые вопросы учения о субъектах права // Советское государство и право. 1949. № 11, с. 78.

[2] bax: *Аскназий С.И.* Некоторые вопросы гражданско-правовой ответственности // Учен. зап. Ленинградского университета. 1951. вып. 3, с. 171-172. *Флейшиц Б.А.* Общие начала ответственности по основам гражданского законодательства Союза ССР и союзных республик // Советское государство и право. 1962. №3, с. 34-43.

Beləliklə, mülki hüquq elmi ictimai münasibətləri mülki-hüquqi tənzimətmə və nizamasalma haqqında, ümumiyyətlə, bir sözlə desək, mülki-hüquqi hadisələr barəsində biliklərin sistemləşdirilmiş məcmusudur. Bu biliklərin məcmusu **sivilistika elminin məzmunu** adlanır. O, hüquq sahəsi kimi mülki hüququn özü haqqında, mülki-hüquqi tənzimətmə mexanizminə daxil olan hüquqi anlayış, forma, kateqoriya və konstruksiyalar barədə məlumat verir. Sivilistika elminin verdiyi elmi anlayış nəticəsində bizə məlum olur ki, hüquq sahəsi kimi mülki hüquq dedikdə, tənzimedici və qoruyucu xarakterli hüquqi funksiyalara malik olan normaların, institutların və yarımsahələrin sistemi başa düşülür. Bu elm mülki hüquq sahəsini vətəndaş cəmiyyətindəki həyat şəraitindən, dövlətin apardığı hüquqi siyasətdən asılı olaraq öyrənir, tədqiq və analiz edir. Amma «hüquq sahəsi kimi mülki hüquq» anlayışı ilə «elm sahəsi kimi mülki hüquq», yəni «mülki hüquq elmi» anlayışı üst-üstə düşmür. Onlar bir-birindən, hər şeydən əvvəl, predmetlərinə və metodlarına görə fərqlənirlər.

2. Mülki hüquq elminin vəzifələri, sistemi və əhəmiyyəti

Hər bir elmin, o cümlədən hüquq elmlərinin qarşısında müəyyən vəzifələr durur. Bu sözləri mülki hüquq elmi barəsində də demək olar. Mülki hüquq elminin oynadığı rol onun qarşısında duran **vəzifələrlə** bilavasitə sıx surətdə bağlıdır.

Mülki hüquq elminin ən birinci və başlıca vəzifəsi **hüquq sahəsi kimi mülki hüququn əsas anlayış, kateqoriya və konstruksiyalarını işləyib hazırlamaqdan ibarətdir**. Onun «borcudur» ki, «hüquq sahəsi kimi mülki hüquq», «mülki hüquq sahəsi ilə tənzim olunan ictimai münasibətlər», «mülki qanunvericilik», «mülki hüquq münasibətləri», «hüquqi faktlar», «əqdlər», «əşya hüququ», «öhdəlik hüququ», «vərəsəlik hüququ», «ailə hüququ», «əqli mülkiyyət hüququ», «şəxsi qeyri-maddi nemətlər hüququ» və digər vacib anlayışların elmi izahını və şərhini versin. Bu işi əsasən sivilist alimlər öz elmi əsərələrində yerinə yetirirlər. Onlar mülki-hüquqi hadisələri nəzəri cəhətdən tədqiq edirlər. Bunun nəticəsində alimlər yeni anlayış və kateqoriyalar, ideya və konstruksiyalar işləyib hazırlayırlar. Onların məcmusu hüquqi alət rolunu oynayır. Bu cür alət olmadan mülki hüquq elmi fəaliyyət göstərə bilməz.

Mülki hüquq elminin ikinci vəzifəsi **qüvvədə olan mövcud qanunvericiliyin təkmilləşdirilməsinə yönələn təkliflər irəli sürməkdən ibarətdir**. Daha doğrusu, mülki hüquq elminin «borcudur» ki, ölkənin ictimai, iqtisadi və mədəni həyatı üçün, iqtisadi (əmlak) dövriyyəsi üçün vacib və zəruri olan qanun layihələrinin işlənib hazırlanmasında yaxından iştirak etsin. Mülki hüquq elminin müəyyən etdiyi müddəalar, onun gəldiyi nəticələr, habelə elmi tədqiqatlar normativ və ümumməcburi xarakterə yox, tövsiyə xarakterinə malikdir. Onların ümumməcburi qüvvəsi yoxdur. Lakin bu cür müddəaların və elmi tədqiqatların əhəmiyyəti böyükdür. Köhnə normativ aktlar təzələnərkən və ya yeni aktlar işlənib hazırlanarkən bunlardan istifadə edilir. Həmin müddəalar yeni mülki hüquq normalarının yaradılması üçün nəzəri baza rolunu oynayır. Sivilistika elminin bir çox müddəaları və hüquqi konstruksiyaları mülki qanunvericilikdə hüquqi cəhətdən möhkəmləndirilərək məcburi davranış qaydası statusu almışdır. Məsələn, bir qrup sivilist alim keçən əsrin 50-ci illərində «təqsirsiz mülki hüquq məsuliyyəti» adlı konsepsiya irəli sürmüşlər. Bu konsepsiyaya görə, cinayət hüququndan fərqli olaraq, mülki hüquqda şəxs təqsiri olmadan da mülki-hüquqi məsuliyyətə cəlb edilə bilər[1]. «Təqsirsiz mülki hüquq məsuliyyəti» konsepsiyasını keçmiş sovet məcəllələri rəsmən qanunvericilik qaydasında tanımışdı. Bu konsepsiya RF-in və Azərbaycan Respublikasının indiki yeni mülki məcəllələrində də öz hüquqi əksini tapmışdır. Həmin məcəllələrdə həm təqsirli, həm də təqsirsiz məsuliyyət tənzimlənir.

Keçən əsrin ortalarında bəzi sivilist alimlər əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyrri-əmlak münasibətlərinin (şərəfin, ləyaqətin, adın və s.) hüquqi mühafizə edilməsinin vacibliyi barədə ideya irəli sürmüşdülər[2]. Sovet mülki məcəllələri bu ideyanı qanunvericilik qaydasında təsbit etmişdir. RF-in və Azərbaycan Respublikasının indiki mülki qanunvericiliyi həmin ideyanı nəzərə alaraq şərəf və ləyaqətin müdafiəsi haqqında qayda müəyyən edir.

Beləliklə, sivilistika elminin müəyyən etdiyi müddəalardan mülki hüquq sahəsi üzrə hüquqyaratma fəaliyyətində (hüquq yaradıcılığında) geniş surətdə istifadə olunur. Bunun nəticəsində yeni mülki hüquq normaları əmələ gəlir.

Mülki hüquq elminin üçüncü vəzifəsi **mülki qanunvericilik normalarının düzgün tətbiq edilməsində məhkəmə, prokurorluq, notariat və digər hüquqtətbiqetmə orqanlarına kömək göstərməkdən ibarətdir.** Sivilistika elminin verdiyi tövsiyələrin, şərhlərin, elmi izahatların bu orqanların fəaliyyətində rolu və əhəmiyyəti böyükdür. Hüquqtətbiqetmə orqanları bunları nəzərə alaraq təcrübədə mülki hüquq normalarını düzgün tətbiq edirlər.

Sivilistika elminin əhəmiyyəti böyükdür. Bu elmin vacib rol oynaması onda ifadə olunur ki, o, qanunvericilikdə nəzərdə tutulmayan və əks edilməyən bir sıra kateqoriyalar işləyib hazırlamışdır. Məsələn, mülki dövriyyə və ya əmlak dövriyyəsi mülki hüquq elminin ən vacib və mərkəzi kateqoriyalarından biridir. **Mülki (əmlak) dövriyyə** dedikdə, hüquqauyğun hərəkətlərdən əmələ gələn və əmlak verilməsinə, iş görülməsinə, xidmət göstərilməsinə yönələn mülki-hüquqi öhdəliklərin məcmusu başa düşülür. Sivilistika elmi mülki dövriyyəyə bu cür anlayış verir. O, mülki dövriyyəni iqtisadi dövriyyədən fərqləndirir. İqtisadi dövriyyə mülki dövriyyədən daha geniş anlayışdır. İqtisadi dövriyyə münasibətlərini mülki hüquqdan başqa, digər hüquq sahələri (inzibati, əmək, maliyyə və s.) də tənzimləyə bilər. Maddi nemətlərin dövriyyəsi sahəsində (bölgü, mübadilə, yenidən bölgü) əmələ gələn iqtisadi münasibətlərin məcmusuna **iqtisadi dövriyyə** deyilir. Mülki hüquq iqtisadi dövriyyə münasibətlərinin yalnız bir qismini tənzim edir. İqtisadi dövriyyənin məhz mülki hüquqla tənzim olunan hissəsinə mülki dövriyyə deyilir. Beləliklə, sivilistika elmi bu iki kateqoriyanı bir-birindən fərqləndirir və onlar arasındakı münasibətə aydınlıq gətirir. Bununla bərabər, mülki hüquq elmi sahibkarlıq dövriyyəsinə də anlayış verir. **Sahibkarlıq dövriyyəsi** mülki (əmlak) dövriyyənin bir hissəsi olub, sahibkar

[1] bax: Советское гражданское право. Учебник. М., 1952, с. 521 (автор Серебровский В.И.); *Антимонов Б.С.* Значение вины потерпевшего при гражданском правонарушении М., 1950; *Яичков К.К.* Система обязательств из причинения вреда в советском гражданском праве // Вопросы гражданского права. М., 1957, с. 170.

[2] bax: *Флейшиц Е.А.* Личные права в гражданском праве. СССР и капиталистических стран. М., 1941.

statuslu şəxslərin iştirak etdikləri münasibətlərin məcmusu deməkdir.

Qeyd etdik ki, sivilistika elminin mülki hüquq hadisələri barəsində verdiyi biliklərin məcmusu **sivilistika elminin məzmunu** adlanır. Bu biliklər ayrı-ayrı bölmələr üzrə ardıcıl surətdə yerləşdirilir ki, buna sivilistika elminin sistemi deyilir. **Sivilistika elminin sistemi** bütün elmi materialın sivilistikanın müxtəlif bölmələri üzrə bölüşdürülməsini və qruplaşdırılmasını ifadə edir.

Sivilistika elminin sistemi əsasən hüquq sahəsi kimi mülki hüququn (mülki hüquq sahəsinin) sisteminə müəyyən mənada uyğun gəlir. Daha doğrusu, onların sistemi bir-birinə qismən uyğun gəlir. Burada tam uyğun gəlmədən və üst-üstə düşmədən söhbət gedə bilməz. Bu, onunla izah olunur ki, sivilistika elmində olan bölmələr mülki qanunvericiliyin sistemində yoxdur və ola da bilməz. Məsələn, mülki hüquq, mülki hüququn mənbələri, mülki hüquq münasibətləri və digər anlayışlara mülki qanunvericilikdə rast gəlmirik.

Mülki hüquq elmini də iki hissəyə bölmək olar: ümumi hissəyə; xüsusi hissəyə. Ümumi xarakterə malik olan və xüsusi sahələrə şamil edilə bilən elmi biliklər **ümumi hissədə** yerləşdirilir. Buraya daxildir:

- mülki hüququn anlayışı və onun mənbələri barədə təlim;
- mülki hüquq münasibətləri və bu münasibətlərin subyekti və obyekti barədə təlim;
- əqdlər haqqında təlim;
- iddia müddəti haqqında təlim;
- nümayəndəlik haqqında təlim;
- mülki hüquqların həyata keçirilməsi və müdafiəsi haqqında təlim.

Sivilistika elminin xüsusi hissəsinə ümumi xarakterə malik olmayan, yalnız konkret xüsusi sahələrə aid edilən biliklər daxildir. Buraya aiddir:

- əşya hüquqları barədə təlim;
- öhdəliklər haqqında təlim;
- əqli mülkiyyət obyektləri barədə təlim;
- vərəsəlik hüququ haqqında təlim;
- ailə hüququ barədə təlim;
- şəxsi qeyri-maddi nemətlər barədə təlim;
- beynəlxalq mülki (xüsusi) hüquq barədə təlim.

3. Mülki hüquq elminin digər hüquq elmləri ilə qarşılıqlı əlaqəsi

Mülki hüquq elmi digər hüquq elmləri ilə sıx surətdə qarşılıqlı əlaqədədir. Bu cür əlaqə olmazsa, mülki hüquq elminin, ümumiyyətlə, bütün hüquq elmlərinin inkişafından söhbət gedə bilməz. Onlar bir-biri ilə qarşılıqlı surətdə bağlıdır.

Mülki hüquq elmi, hər şeydən əvvəl, **dövlət və hüquq nəzəriyyəsi elmi** ilə qarşılıqlı əlaqədədir[1]. Onlar arasında ikitərəfli bağlılıq, sıx qarşılıqlı təsir mövcuddur. O, bir çox anlayışların məna və mahiyyətini izah edərkən, dövlət və hüquq nəzəriyyəsinin işləyib hazırladığı anlayış və kateqoriyalara istinad edir. Məsələn, sivilistika elmi mülki hüququn predmeti, metodu, mülki hüquq münasibətləri, hüquqi faktlar və digər anlayışların mahiyyətinə aydınlıq gətirərkən dövlət və hüquq nəzəriyyəsinin verdiyi bilikdən istifadə edir.

Dövlət və hüquq nəzəriyyəsi sahəvi hüquq elmlərinin, o cümlədən mülki hüquq elminin mövcud olması və inkişafı üçün ümumi-nəzəri baza və əsas olub, onlara münasibətdə metodoloji rol oynayır. O, həmin elmlərə münasibətdə istiqamətverici, metodoloji və rəhbərlik əhəmiyyətinə malik olan ümumiləşdirici elm kimi çıxış edir. O, hüquq elmləri, o cümlədən sivilistika elmi qarşısında duran məsələlərin həll edilməsi üçün gərəkdir. Onun çıxardığı nəticələr və ümumnəzəri müddəalar sivilistika elminin öz xüsusi məsələlərini həll etməsi üçün əsas rolunu oynayır. Digər hüquq elmləri kimi mülki hüquq elmi də dövlət və hüquq nəzəriyyəsinin hüququn mənbələri, hüququn funksiyaları, hüquq norması, normativ akt, hüquq sahəsi, hüquqi məsuliyyət, hüquq institutu, hüquq pozuntusu, subinstitut, hüquqtətbiqetmə aktı, hüquq münasibəti, subyektiv hüquq, hüquqi vəzifə və digər anlayışlar barədə işləyib hazırladığı müddəalara əsaslanır və söykənir. Bu, onu göstərir ki, dövlət və hüquq nəzəriyyəsi «xidmətedici» elmdir. Bununla belə, dövlət və hüquq nəzəriyyəsi də öz növbəsində hüquq elmlərinin, o cümlədən mülki hüquq elminin köməyinə bel bağlayır və ona arxalanır. Sivilistika və hüquq elmləri onu faktiki materiallarla «qidalandırır». O, sahəvi hüquq elmləri ilə birlikdə sivilistika elminin müəyyən etdiyi müddəaları təhlil edir, ümumiləşdirir, sistemləşdirir və onlardan ümumi nəticə çıxarır. Bununla dövlət və hüquq nəzəriyyəsi həmin nəticələrin hesabına elmi ideyalarla silahlanır, dərin nəzəri ümumiləşdirmələr aparır.

Mülki hüquq elmi ilə **dövlət və hüquq tarixi** arasında əlaqə mövcuddur. Dövlət və hüquq tarixi sivilistika elminin çoxəsrlik tarixi barədə bizə məlumat verir. O, hər şeydən əvvəl, bizi qədim Roma mülki (xüsusi) hüququ, bu hüququn Avropa ölkələri tərəfindən resepsiya olunması, Bizans imperatoru Yustinianın həyata keçirdiyi məcəllələşdirmə fəaliyyəti, bəzi qədim Roma hüquqşünaslarının elmi əsərlərinin əsas cəhətləri və digər tarixi hüquqi hadisələrlə tanış edir. Bizə məlumdur ki, qədim Roma hüquqşünasları böyük əhəmiyyətə malik olan elmi əsərlər yaratmışlar. Onlar bir çox hüquqi konstruksiya və kateqoriyalar yaratmış və əsaslandırmışlar. Bu konstruksiya və kateqoriyaların əksəriyyəti qanunvericilik tərəfindən rəsmən tanınmış və qəbul edilmişdir. Müasir mülki hüquqda onlardan geniş surətdə istifadə olunur. Bax, dövlət və hüquq tarixi sivilistika elmini bu cür konstruksiya və kateqoriyaların yaranması və inkişafı barədə biliklərlə zənginləşdirir.

Sivilistika elmi **sahəvi hüquq elmləri** ilə də sıx surətdə bağlıdır. Söhbət, hər şeydən əvvəl, **konstitusiya (dövlət), inzibati, maliyyə, cinayət və mülki-prosessual hüquq elmlərindən** gedir. Məsələn, sivilistika elmi ilə **cinayət hüququ elmi** arasındakı qarşılıqlı əlaqəni qısaca olsa da, nəzərdən keçirək. Mülki hüquq cinayət hüququ kimi əmələn hüquq pozuntusu olmasını aradan qaldıran zəruri müdafiə və son zərurət kimi iki hal tanıyır. Mülki qanunvericilikdə zəruri müdafiə və son zərurət institutlarına anlayış verilir (MM-in 563-cü və 564-cü maddələri). Amma sivilistika elmi onlar barədə müvafiq təlim işləyib hazırlamamışdır. Bu iş cinayət hüquq elmi tərəfindən görülmüşdür. Belə ki, o,

[1] Dövlət və hüquq nəzəriyyəsinin hüquq elmləri sistemində tutduğu yer barədə məlumat almaq üçün bax: *Хропанюк В.Н.* Dövlət və hüquq nəzəriyyəsi / Rus dilindən tərcümə. Bakı, 1995, s. 8-9; Теория государства и права. Курс лекций / Под ред. Н.И.Матузова, *А.В Малько*. М., 2000, с. 19-20; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*.М., 2001. с.12-16.

:əruri müdafiə və son zərurət vəziyyətlərində edilən hərəkətləri əməlin kriminal-:ğını aradan qaldıran hallar kimi tədqiq edərək geniş təlim yaratmışdır[1]. Ona gö-ə də son zərurət və zəruri müdafiə vəziyyətində vurulan ziyanın əvəzinin ödə-ilməsi barədə məsələni həll edərkən bu təlimə əsaslanmaq lazımdır.

Sivilistika elmi də öz növbəsində cinayət hüquq elmi üçün böyük əhəmiy-ətə malikdir. Məsələn, cinayət əməli nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi barədə cinayət hüquq elmi müvafiq qayda nəzərdə tutmur. Bu cür hallarda sivilistika elmi tərəfindən işlənib hazırlanmış delikt məsuliyyəti barədə müddəalar mühüm rol oynayır.

Sivilistika elmi ilə **konstitusiya hüququ** arasında da əlaqə mövcudur. Mə-ələn, mülki qanunvericilik dövlət orqanlarının və onların vəzifəli şəxslərin vur-duqları zərərə görə məsuliyyət nəzərdə tutur (MM-in 1100-cü maddəsi). Mülki hüquq elmi dövlət orqanlarının dairəsini müəyyənləşdirmir. Onlar konstitusiya hüququnda göstərilmişdir. Belə ki, Konstitusiyanın 6-cı maddəsi hakimiyyətin bölgüsü prinsipinə uyğun olaraq dövlət orqanlarına qanunvericI, icra və məh-kəmə hakimiyyəti orqanlarını şamil edir. Bununla belə, konstitusiya hüququ bəzi hallarda mülki hüquq elminin müəyyən etdiyi müddəalara əsaslanır. Mə-ələn, mülkiyyət hüququ kimi ümumi və kompleks kateqoriya konstitusiya hü-ququnda işlənib hazırlanmamışdır. O, bunu öyrənərkən mülki hüquq elminin mülkiyyət hüququ barədə işləyib hazırladığı təlimə əsaslanır.

Sivilistika elmi vəzifəli şəxs anlayışının da mənasını aydınlaşdırmır. Belə ıalda o, inzibati hüquq elminin (və ya cinayət hüquq elminin) vəzifəli şəxsə verdiyi anlayışdan istifadə edir. Bu isə onu göstərir ki, mülki hüquq elmi ilə **in-zibati hüquq** elmi arasında müəyyən əlaqə vardır. Mülki hüquq elmi də öz növbəsində inzibati hüquq elminə təsir göstərir. Məsələn, inzibati hüquq dövlət orqanları problemini həll edərkən, mülki hüququn işləyib hazırladığı dövlət hüquqi şəxsləri barədə hüquqi konsepsiyaya istinad edir.

Sivilistika elmi ilə **maliyyə hüququ** arasında təmas nöqtəsi vardır. Belə ki, bank fəaliyyəti, sığorta işi, hesablaşma münasibətləri, qiymətli kağızlar və di-gər məsələləri həm sivilistika elmi, həm də maliyyə hüququ öyrənir. Hər iki elm faktorinq və lizinq əməliyyatlarının məzmununa aydınlıq gətirir, hüquqi şəxslərin bankda hesab açma qaydalarını müəyyən edir, hesablaşma intizamını pozmağa görə məsuliyyət nəzərdə tutur.

Sivilistika elmi hüquq elmlərindən başqa, digər ictimai elmlərlə də sıx surətdə bağlıdır[2]. Söhbət fəlsəfə, politologiya, sosiologiya, tarix kimi elmlərdən gedir. Si-vilistika elmi bu elmlərin gəldiyi nəticələrə əsaslanır. Bəşər sivilizasiyasının ən böyük nailiyyəti, insan biliyinin ən qədim növlərindən biri olan **fəlsəfə** ilə mülki

[1] bax: *Домакин С.А.* Крайная необходимость по советскому уголовному праву. М., 955; *Козак В.Н.* Вопросы теории и практики крайней необходимости. Саратов. 1981; *Слуцкий И.И.* Обстоятельства, исключающие уголовную ответственность. Л., 1956; *ишкевич И.С.* Условия и пределы необходимой обороны. М., 1969; *Якубович М.И.* опросы теории и практики необходимой обороны. М., 1961; *Səməndərov F.Y.* Cinayət üququ. Dərslik. Bakı. 2007; Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. Bakı. «Digesta» nəşriyyatı. 2007.

[2] Sivilistika elminin psixologiya, məntiq, tarix və s. elmlərlə əlaqəsi barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* ражданское право. Избранные труды. М., 2000, с.188-190.

hüquq arasında möhkəm bağlılıq vardır. Mülki hüquq elmi öz nəzəri əsaslarını müəyyən edərkən fəlsəfəyə, onun nəzəri müddəalarına istinad edir. Bununla o, daha dolğun və məntiqi olur. Məsələn, sivilistika elmi səbəbli əlaqə nəzəriyyəsi işləyib hazırlamışdır. Bu nəzəriyyəyə görə hüquq pozuntusu törədən şəxsin hü-quqazidd əməli nəticəsində yaranmış mülki hüquq pozuntusu və zərərli nəticə arasında səbəbli əlaqə olduqda, şəxs mülki hüquq məsuliyyətinə cəlb edilir. Si-vilistika elminin işləyib hazırladığı nəzəriyyə səbəbiyyət haqqında ümumi-fəlsəfi təlimdən irəli gələn müddəalara əsaslanır. Fəlsəfə elmi müəyyən edir ki, həyatda-kı hadisələr arasında obyektiv səbəb-nəticə əlaqəsi mövcuddur: nəticə ilə bağlı olmayan heç bir səbəb yoxdur; onlar dialektik vəhdətdədirlər[1].

Bütün elmlərə, o cümlədən mülki hüquqa fəlsəfə hadisələrə yanaşma üsu-lu, dialektik metodologiya, fəlsəfi idrak metodları verir. Bununla bərabər, bütün elmlərlə və hüquq elmləri ilə birlikdə mülki hüquq fəlsəfəni konkret faktiki biliklərlə silahlandırır.

Sivilistika elmi **iqtisadi elmlərlə** sıx surətdə bağlıdır. Xüsusən onunla **iqtisadi nəzəriyyə** arasında qarşılıqlı əlaqə mövcuddur. Bu isə təsadüfi deyildir. Axı, mülki hüquq elminin predmetinə mülki hüquq sahəsi ilə tənzim olunan mülkiyyət, sahibkarlıq və digər ictimai münasibətlər daxildir. Bir sözlə, sivilisti-ka elmi ölkədəki iqtisadi dövriyyə münasibətlərini öyrənir. Hüquq sahəsi kimi mülki hüquq iqtisadi münasibətlərin hüquqi formasıdır. O, cəmiyyətin iqtisadi həyatını hüquqi cəhətdən rəsmiləşdirir. Sivilistika elminin öyrəndiyi əsas və başlıca məsələlərdən biri əmlak münasibətləridir. Əmlak münasibətlərinin an-layışı isə iqtisadi münasibətlərin anlayışı ilə bağlıdır. **İqtisadi nəzəriyyə** isə cəmiyyətin iqtisadi münasibətlərini və onların inkişaf qanunauyğunluqlarını öy-rənən elmdir[2]. Ona görə sivilistika elmi bir çox münasibətləri (mülkiyyət, mü-badilə, istehsal, sahibkarlıq və digər münasibətləri) izah edərkən iqtisadi nə-zəriyyənin müəyyən etdiyi müddəalara əsaslanır.

4. Sivilistika elminin inkişafı tarixindən

Azərbaycan iki yüz ildən çox Rusiyanın tərkibində olmuşdur. Ona görə də ölkəmizdə sivilistika elminin inkişafı inqilabaqədərki rus və sovet sivilistika el-mi ilə sıx surətdə bağlı olmuşdur.

1755-ci ildə Moskva Universitetinin yaranması rus hüquq elmlərinin forma-laşmasına və inkişafına güclü təsir göstərdi. XIX əsrin 30-cu illərində həmin universitetdə müstəqil tədris predmeti kimi mülki hüquqdan dərs verilməyə başlandı. Rusiya mülki hüquq elminin yaranması və təşəkkülü də məhz bu-nunla bağlı idi.

Təhkimçilik hüququnun ləğv edilməsi ilə bağlı olaraq XIX əsrin axırları-XX əsrin əvvəllərində Rusiyada əmtəə-pul münasibətlərinin inkişafı xeyli canlandı. Bu isə mülki hüquq barədə tədqiqat işlərinin genişləndirilməsinə səbəb oldu. Bundan əlavə, XIX əsrdə Rusiya imperiyasının qanunlar külliyyatı yaradıldı. Bütün bunların hamısı sivilistika elminin inkişafına güclü təsir göstərdi. Mülki hüquq barədə sivilist alimlərin apardığı tədqiqat işlərinin nəticələri mülki hüquq

[1] bax: *Məqsud Fərhadoğlu.* Fəlsəfənin əsasları. 1998, s. 250.

[2] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyevin, Ə.P.Babayevin, M.X. Meybullayevin* ümumi elmi redaktəsi ilə. Bakı. 1999, s.19.

haqqında mühazirə kurslarında və dərsliklərdə öz əksini tapırdı[1]. A.İ.Kaminka, G.F.Şerşeneviç, İ.A.Pokrovski, N.O.Nersesev, D.İ.Meyer, K.P.Pobedonostsev, L.A.Kasso, A.S.Zvonitski və başqaları inqilabaqədərki rus sivilistikasının parlaq nümayəndələri idilər[2]. Onlar mülki hüququn əsas institutlarını nəzəri cəhətdən işləyib hazırlamışdılar.

1917-ci il Oktyabr sosialist inqilabından sonra sivilistika elminin inkişaf tarixində sovet dövrü başlayır. Həmin dövrün sivilist alimlərinin apardığı elmi tədqiqat işləri, irəli sürdükləri nəzəri müddəalar sovet mülki hüquq elminin irəliləməsinə güclü təsir göstərirdi[3]. Onlar iqtisadi-sosial proseslərin mülki-hüquqi tənzimolunma mexanizmi sahəsində dərin elmi araşdırmalar aparırdılar. Xüsusilə mülki hüququn predmet və metoduna ciddi diqqət yetirilirdi. Əlbəttə, onlar ideologiyadan və dövlətin apardığı iqtisadi siyasətdən azad deyildilər.

1922-1928-ci illərdə sovet mülki qanunvericiliyinin birinci məcəllələşdirilməsi həyata keçirildi. Həmin dövrdə sovet respublikalarının ilk mülki məcəllələri qəbul edildi (RSFSR-də 1922-ci ildə, Az.SSR-də 1923-cü ildə). Həmin sənədlərin qəbul edilməsi sivilistika elminin inkişafına güclü təsir göstərdi. Sovet mülki hüququnun mahiyyəti məsələsi ciddi elmi tədqiqatların və araşdırmaların obyektinə çevrildi. Bu barədə çoxlu əsərlər (monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri və s.) yazıldı.

Həmin dövrlərdə mülki hüquq ilə bağlı olaraq bir neçə konsepsiya və nəzəriyyə yaranmışdı: mübadilə konsepsiyası; iki sektorlu hüquq nəzəriyyəsi; vahid təsərrüfat hüququ konsepsiyası.

Mübadilə konsepsiyası E.B.Paşukanis tərəfindən əsaslandırılmışdı[4]. Onun fikrincə, hüquq iqtisadiyyatla yox, istinasız olaraq və bütünlüklə mübadilə münasibətləri ilə şərtlənir və müəyyən edilir[5]. Buna görə də bu, mübadilə konsepsiyası adını aldı. Həmin konsepsiyaya görə, mülki hüquq mübadilə münasibətləri ilə bağlıdır.

Mübadilə konsepsiyası mülki hüququn xüsusi mülkiyyət, əmtəə (mübadilə) münasibətlərinin ifadə forması kimi izah edirdi. Mülki hüququn subyektləri ayrıca xüsusi şəxslərdir. Onun mərkəzi institutu müqavilədir. Bu konsepsiya göstərirdi ki, Marksın fikrincə, kapitalist istehsalı əmtəə istehsalının ən inkişaf etmiş formasıdır. Həmin konsepsiya tərəfdarları bundan belə bir nəticə çıxarırdılar ki, burjua hüququ ən inkişaf etmiş hüquq sistemidir. Burjua hüququ isə əmlak münasibətlərinə əsaslanır. Buradan belə bir nəticəyə gəlirdilər ki, ümumiyyətlə, hər hansı bir hüquq, o cümlədən sovet hüququ özünün mövcudluğuna görə əmtəə münasibətlərinə borcu olmalıdır. Əmtəə münasibətləri isə mülki hüquqla tənzimlənir. Hüquq da məhz mülki hüquqla məhdudlaşır, yəni hüquq dedikdə, yalnız və yalnız mülki hüquq başa düşülür. Ümumi hüquq adlı hüquq isə əsl və həqiqi hüquq deyil. Hüquq yalnız mülki hüquqla əhatə edilir və təmsil olunur. Ona görə ki, ümumi hüquq əmtəə istehsalı ilə bilavasitə bağlı deyil. Sosialist dövlətinin orqanları arasında münasibətlər əmtəə-pul xarakterini itirmişdir. Ona görə də bu münasibətlər hüquq münasibətləri yox, təşkilati münasibətlərdir. Sovet iqtisadiyyatında dəyər münasibətləri, xüsusi hüquq elementləri yox olub gedəcəkdir. Bu isə üstqurum olan hüququn, yəni mülki hüququn bütövlükdə öz əhəmiyyətini itirməsinə səbəb olacaqdır[1].

Mübadilə konsepsiyasının tərəfdarlarından biri S.İ.Asknazi isə göstərirdi ki, mübadilə, əmtəə-pul münasibətləri bütün hüququn yox, yalnız və təkcə mülki hüququn tənzimlədiyi münasibətlərdir[2]. Onun fikrincə, xüsusi əmtəə münasibətlərinin yox olması üstqurum kimi hüququn aradan çıxmasına səbəb olmayacaqdır. Hüquq qalacaq və saxlanacaqdır. Lakin o, yeni iqtisadi əsasa söykənəcəkdir. Hüquq yeni məzmuna malik olub, planlaşdırma orqanları ilə ona tabe olanlar, habelə tabe olanların özləri arasında yaranan plan münasibətlərini tənzim edəcəkdir. Bu münasibətlər xaricən əmtəə münasibətlərinə oxşasa da, həqiqətdə onlar əmtəə münasibətləri deyildir. Ona görə də həmin münasibətlər mülki hüququn yox, təsərrüfat hüququnun nizamasalma predmetinə daxil olmalıdır[3]. Onun fikrincə, sovet iqtisadiyyatı inkişaf etdikcə mülki hüquqla tənzimlənən münasibətlər daha da məhdudlaşaraq daralacaqdır, habelə dövlət-plan əsaslarının birbaşa təsiri altında yeni tip hüquqi tənzimetmə genişlənəcəkdir[4]. Alim göstərirdi ki, mülki hüquqla bərabər, təsərrüfat hüququ da fəaliyyət göstərməlidir[5]. Lakin hüquqi tənzimetmədə əsas yeri təsərrüfat hüququ tutur. Ona görə ki, o, sovet təsərrüfat sisteminin daha qiymətli elementi — sosialist planı ilə bağlıdır. 1931-ci ilin yanvar ayında marksistlərin ümumittifaq qurultayı mübadilə konsepsiyasını kəskin tənqid etmişdir.

İkisektorlu hüquq nəzəriyyəsi 20-ci illərin axırlarında P.B.Stuçka tərəfindən irəli sürülmüşdür[6]. Bu nəzəriyyə o dövrdə mövcud olan çoxukladlı iqtisadiyyat şəraitində yaranmışdı.

P.İ.Stuçka göstərirdi ki, sovet iqtisadiyyatında iki cür sektor vardır: xüsusi sektor; sosialist sektoru. Bu sektorlardan hər biri müxtəlif vəzifələr daşıyır. İqtisadiyyatın iki sektoruna müvafiq olaraq, P.İ.Stuçka hüququn iki sahəsini ayı-

[1] bax: *Гамбаров Ю.С.* Гражданское право. М., 1886-1887; Русское гражданское право. Чтение *Д.И.Мейера*. П., 1915; *Победоносцев К.П.* Курс гражданского права. П., 1868; *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1917; *Шершеневич Г.Ф.* Наука гражданского права в России. Казань. 1893; *Шершеневич Г.Ф.*Учебник русского гражданского права. М., 1911.

[2] bax: *Нерсесов Н.О.* Понятие добровольного представительства в гражданском праве. М., 1878; *Кассо Л.А.* Понятие о залоге в современном праве. М., 1898; *Звоницкий А.С.* О залоге по русскому праву. Киев. 1912.

[3] Sovet sivilist fikrin inkişafı barədə ətraflı məlumat almaq üçün bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1. Л., 1975; *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2. Л., 1978. Bu iki əsər çap olunmuşdur: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000.

[4] bax: *Пашуканис Е.Б.* Общая теория права и марксизм. Изд. 3-е. М., 1927

[5] Bu konsepsiyanın tənqidi təhlili verilmişdir: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1. Л. 1975// В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 205-210.

[1] *Пашуканис Е.Б.* Göstərilən əsər, s. 96.

[2] *Асknазий С.И.* Очерки хозяйственного права СССР. Л., 1926, с. 7.

[3] *Асknазий С.И.* Göstərilən əsər, s. 26.

[4] *Асknазий С.И.* Göstərilən əsər, s. 24.

[5] 20-ci illərin ədəbiyyatında «təsərrüfat hüququ» termini ya «mülki hüquq» termini ilə eynimənalı, ya da ki ondan fərqli termin kimi geniş surətdə istifadə olunurdu.

[6] *Стучка П.И.* Курс советского гражданского права. Том 1. М-Л., 1931. P.İ.Stuçka Xalq Ədliyyə Komissarı, Latviya hökumətinin sədri, RSFSR Ali Məhkəməsinin sədri idi. O, sivilistika elminin inkişafında mühüm rol oynamışdır. Göstərilən əsər üç cilddən ibarət olub, 1929-1931-ci illərdə nəşr olunmuşdu.

rır və fərqləndirirdi: mülki hüququ; inzibati-təsərrüfat hüququnu. Mülki hüquq xüsusi sektoru, inzibati-təsərrüfat hüququ isə sosialist sektorunu tənzimləyir. Müəllifin fikrincə, sovet dövlətinin apardığı siyasət xüsusi sektorun məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəlmişdir. Xüsusi mülkiyyətin ləğv edilməsi əsasında xüsusi sektor da yox olub gedəcəkdir. Bununla bərabər və eyni vaxtda mülki hüquq da öz əhəmiyyətini itirərək aradan qalxacaqdır. İnzibati-təsərrüfat hüquq isə, əksinə, inkişaf edərək möhkəmlənəcəkdir[1].

30-cu illərin əvvəllərində iki sektorlu hüquq nəzəriyyəsinə qarşı vahid təsərrüfat hüququ nəzəriyyəsi irəli sürüldü[2]. Bu nəzəriyyənin müəllifi L.Y.Ginsburq idi[3]. O, göstərirdi ki, sovet qanunvericiliyi sovet təsərrüfatının iki müxtəlif sektoruna bir-birindən fərqli qaydada yanaşır. İki sektorlu hüququn — mülki hüququn və təsərrüfat-inzibati hüququnun ayrılması da yalnız bu yanaşmadakı fərqlə bağlı olub, ona əsaslanır. Müəllif iki sektorlu hüquq nəzəriyyəsinə qarşı çıxaraq göstərirdi ki, bu nəzəriyyə SSRİ-nin sovet təsərrüfat sisteminin özünün vahidliyinə uyğun gələn vahid təsərrüfat siyasətini nəzərə almır. Daha sonra alim qeyd edirdi ki, əmlak münasibətləri sahəsində sovet qanunericiliyi vahiddir. Ona görə ki, bu qanunvericilik vahid mənbəyə, vahid məqsədə, vahid əsasa və bütün xalq təsərrüfatındakı münasibətlərin tənzimlənməsində vahid yanaşmaya malikdir. Buna görə də iki sektorlu hüquq (mülki və inzibati-təsərrüfat hüququ) yox, vahid təsərrüfat hüququ lazımdır. Təsərrüfat hüququ özündə əsasən sosialist təşkilatlarının təsərrüfat fəaliyyətini tənzimləyən normaları birləşdirir. Bəzi mülki hüquq institutları da bu hüquqa daxil edilir: mülkiyyət hüququ; vərəsəlik hüququ; müqavilə münasibətləri və s[4]. Beləliklə, bu nəzəriyyənin mahiyyəti «təsərrüfat hüququ» adı altında sovet mülki hüququnu nəzərdə tutmaqdan ibarət idi. Bu, terminologiya (terminoloji) dəyişikliyindən başqa ayrı bir şey deyildi[5].

Vahid təsərrüfat hüququ nəzəriyyəsi elmdə üstün mövqe tuturdu. Odur ki, «mülki hüquq» termini tədris planlarından götürüldü. Lakin bu hal çox uzun çəkmədi. 1938-ci ildə hüquq elmi işçilərinin birinci müşavirəsi oldu[6]. Müşavirədə əsas müzakirə predmeti sovet hüququnun sistemi və onun tərkib hissələri idi.

Müşavirədə həm iki sektorlu hüquq nəzəriyyəsi, həm də vahid təsərrüfat hüququ nəzəriyyəsi rədd edildi. Belə ki, həmin müşavirə sovet hüquq sahələrinin

[1] *Стучка П.И.* Курс советского гражданского права. Том 3. М., 1931, с. 10 и др. Bu nəzəriyyənin tənqidi təhlili verilib: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 214-217.

[2] Göstərilən nəzəriyyələr barədə ətraflı məlumat almaq üçün bax: *С.М.Салимов.* Создание гражданского законодательства Азербайджанской ССР (1920-1923). Автореферат диссертации на соискание ученой степени к. ю. н. Баку. 1970, с. 50.

[3] Сборник материалов по хозяйственно-административному праву. М., 1931; Курс советского хозяйственного права/Под ред. *Е.Б. Пашуканиса, Л.Я.Гинцбурга.* Том1. М., 1935.

[4] bax: Курс советского хозяйственного права. Том 1/Под ред. *Е.Б.Пашуканиса и Л.Я.Гинцбурга.* М., 1935, с. 36-37.

[5] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1//В книге:*Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 215. O.S.Ioffe həmin əsərində göstərirdi ki, bu nəzəriyyədə əsas yeri təsərrüfat məsələləri tutur. Burada sovet vətəndaşının şəxsiyyəti və onun müxtəlif mənafeləri arxa planda verilmişdir. Bu, həmin nəzəriyyənin mühüm qüsurudur.

[6] bax: Материалы первого совещания научных работников права. М., 1938.

siyahısını müəyyənləşdirdi. Bu siyahıya təsərrüfat hüququ yox, mülki hüquq daxil olundu. «Mülki hüquq» termini beləliklə, bərpa olundu. O, həm də tədris fənni kimi bərpa edildi. Mülki hüquq fənni ali təhsil məktəblərinin tədris planına daxil olundu. Həmin ildə «Mülki hüquq» adlı iki cildlik dərslik nəşr edildi[1].

50-ci illərin ikinci yarısında təsərrüfat hüququ ideyası yenidən dirçəldi. 1956-cı ildə «Советское государство и право» jurnalının səhifələrində sovet hüququnun sistemi məsələləri üzrə diskussiya başladı. Bu diskussiyanın təşəbbüskarlarından biri olan diletant və səriştəsiz V.S.Tadevosyan həmin jurnaldakı məqaləsində yenidən təsərrüfat hüququ ideyasını irəli sürdü[2]. Diskussiya gedişində bu ideyanın xeyli tərəfdarları meydana gəldi. Təsərrüfat hüququ ideyasını, İ.V.Pavlov, V.P.Efimoçkin, L.Y.Ginsburq, Q.M.Sverdlov, V.V.Laptev, V.K.Mamutov və digər alimlər dəstəkləyirdilər. Onlar təsərrüfat hüququ nəzəriyyəsini xeyli inkişaf etdirdilər[3].

Təsərrüfat hüququ nəzəriyyəsinin tərəfdarları belə hesab edirdilər ki, vətəndaşların iştirak etdiyi əmlak münasibətləri mülki hüquqla, təsərrüfat fəaliyyətinin həyata keçirilməsi və təşkili prosesində sosialist təşkilatları arasında əmələ gələn münasibətlər isə təsərrüfat hüququ adlı müstəqil hüquq sahəsi ilə tənzimlənməli və qaydaya salınmalıdır. Buna uyğun olaraq onlar təklif edirdilər ki, Mülki Qanunvericiliyin Əsasları və Mülki Məcəllə ilə bərabər, həm də Təsərrüfat Qanunvericiliyinin Əsasları və Təsərrüfat Məcəlləsi qəbul edilsin[4]. Bu nəzəriyyənin fəal tərəfdarlarının fikrincə, sovet dövləti təsərrüfat-təşkilati funksiya yerinə yetirir, təsərrüfat siyasətini həyata keçirir. Bu siyasətin həyata keçirilməsi üçün isə təsərrüfat hüququ lazım və gərəkdir[5]. Onlar belə hesab edirdilər ki, təsərrüfat hüququ dövlət sosialist təsərrüfatında yaranan ictimai münasibətləri tənzimləyir[6].

Vahid mülki hüquq nəzəriyyəsi tərəfdarları təsərrüfat hüququ nəzəriyyəsini qəbul etmədilər[7]. Onlar müxtəlif cür tutarlı arqumentlər gətirərək bu nəzəriyyə-

[1] Гражданское право. Учебник. Коллектив ВИЮН. В 2-х т. М., 1938.

[2] bax: *Тадевосян В.С.* Некоторые вопросы системы советского права // Советское государство и право. 1956. № 8, с. 99-108.

[3] bax: *Павлов И.В.* К вопросу о кодификации советского гражданского законодательства // Советское государство и право. 1959, с. 38-49; *Ефимочкин В.П.* К вопросу о принципах построения права // Советское государство и право. 1957. № 3, с. 86-92; *Гинцбург Л.Я.* К вопросу о хозяйственном праве // Советское государство и право. 1956. №8, с. 84-96; *Свердлов Г.М.* К истории гражданского и хозяйственного законодательства// Советское государство и право. 1959. №9, с. 39-44; *Мамутов В.К.* Хозяйственное право на службу коммунистическому строительству // Советское государство и право. 1959. №9, с. 37-43.

[4] *Лаптев В.В.* К вопросу о хозяйственном праве // Вопросы экономики. 1959. №12, с. 75-81.

[5] bax: Советское государство и право. 1958. № 11, с. 120.

[6] *В.В.Лаптев.* О советском хозяйственном праве // Советское государство и право. 1959. №4, с. 77.

[7] Təsərrüfat hüququ nəzəriyyəsinin geniş tənqidi təhlili verilib: *Иоффе О.С.* Правовое регулирование хозяйственной деятельности в СССР // В книге: *Иоффе. О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 703-740.

ni ciddi tənqid atəşinə tutdular[1]. Onlar göstərirdilər ki, təsərrüfat hüququ kimi müstəqil hüquq sahəsinin ayrılması üçün obyektiv əsas (hüquqi tənzimetmə predmeti olan ictimai münasibətlər) yoxdur; bütün əmlak münasibətləri vahid qaydada — mülki hüquqla tənzimlənməlidir, bu münasibətlərin subyekt tərkibindən və onların fəaliyyət göstərdikləri sahədən asılı olaraq ayrı-ayrı hüquq sahələri tərəfindən nizama salınması məntiqsizlikdir və s.

Qanunverici təsərrüfat hüququ nəzəriyyəsini rəsmən tanımadı. O, rəsmən vahid mülki hüquq nəzəriyyəsini qəbul etdi. Belə ki, 1961-1965-ci illərdə mülki qanunvericiliyin məcəllələşdirilməsi həyata keçirildi. 1961-ci ildə SSRİ və müttəfiq respublikaların Mülki Qanunvericiliyi Əsaslan və 1964—1965-ci illərdə sovet respublikalarının mülki məcəllələri qəbul edildi (Azərbaycan SSR-də 1964-cü ildə). Bu sənədlər **bütün əmlak münasibətlərinin mülki hüquqla vahid qaydada tənzimlənməsi barədə mülki hüquq konsepsiyası tərəfdarlarının nəzəri müddəalarını qanunvericilik səviyyəsində möhkəmləndirdi.**

1938-1955-ci illərdə sovet mülki hüququnun mahiyyəti (ümumiyyətlə, sovet hüququnun sistemi barədə) birinci ümumi diskussiya keçirildi. Bu diskussiya gedişində sovet mülki hüquq elmi mühüm nailiyyətlər əldə etdi. Onun gedişində mülki hüququn predmet tərkibi aydınlaşdırıldı. Müəyyən edildi ki, mülki hüququn predmetinə həm əmlak münasibətləri, həm də şəxsi qeyri-əmlak münasibətləri daxildir, özü də əmlak münasibətləri əmtəə münasibətləri olub, dəyər qanununa əsaslanır.

1950-ci illərin ortalarında sovet hüququnun sistemi barədə ikinci ümumi diskussiya keçirildi. Sovet hüquq sisteminin tərkibi problemi, onun daxili struktur bölmələrini təşkil edən hüquq sahələrini müəyyənləşdirmək problemi bu diskussiyanın əsas məsələsi idi. Mülki hüquq da iki istiqamətdə bu diskussiyanın predmetinə çevrilmişdi: birinci istiqamət mülki hüququn əmək, torpaq və ailə hüququ arasındakı münasibəti, ikinci istiqamət isə mülki hüquqla təsərrüfat hüququ arasındakı əlaqəni əhatə edirdi.

İkinci ümumi diskussiya gedişində sivilistika elmi sovet mülki hüququnun predmetinə daxil olan ictimai münasibətlərin dairəsini qəti olaraq müəyyənləşdirdi: əmlak münasibətləri; əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətləri; əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri (şəxsi qeyri-maddi nemətlər). Aydınlaşdırıldı ki, mülki hüquqla tənzimlənən əmlak münasibətləri konkret əmlak barəsində yaranan iradəvi-iqtisadi münasibətlərdir, dəyər formalı, əmtəə-pul münasibətləridir, bu münasibətlərdə iştirak edən tərəflər əmlak müstəqilliyinə, hüquq bərabərliyinə malikdirlər və s. Bütün bunlar mülki hüquq elminin inkişafında yeni mərhələ oldu. Belə ki, bu müddətdə mülki hüququn predmeti və metodu, onun sistemi, mülki hüquq institutları və s. barədə nəzəri müddəalar işlənib hazırlandı, mülki qanunvericiliyin məcəllələşdirilməsi üçün nəzəri baza yaradıldı, qızğın və geniş elmi diskussiyalar keçirildi.

1961-65-ci illərdə sovet mülki qanunvericiliyinin ikinci məcəllələşdirilməsi həyata keçirildi və başa çatdı. Mülki Qanunvericiliyin Əsaslarında və müttəfiq respublikaların sovet mülki məcəllələrində təsbit olunan hüquqi konsepsiyalar planlı — komanda iqtisadiyyatını, dövlət mülkiyyəti inhisarını, mülki hüquq subyektlərinin məhdud xarakterli təşəbbüskarlığını və s. ifadə edirdi. Həmin sənədlər hazırlanarkən sovet sivilistlərinin bir sıra ideyaları nəzərə alınmışdı.

Məcəllələşdirmədən sonra mülki hüquq elmi inkişaf etməkdə davam edir. Sovet sivilistləri mülki hüquq institutları barəsində fəal surətdə nəzəri araşdırmalar aparırlar. Bunların nəticəsi öz əksini çoxsaylı tədris və elmi işlərdə tapmışdır. Belə ki, sovet alimləri tərəfindən çoxlu dərsliklər, dərs vəsaitləri, kommentariyalar, monoqrafiyalar, mühazirə kursları və s. yazıldı[1]. Sovet dövrünün sivilist alimlərinin irəli sürdükləri nəzəri müddəalar sivilistika elminin irəliyə doğru inkişaf etməsində mühüm rol oynadı. Bu baxımdan B.B.Çerepaxin, S.N.Bratus, O.S.İoffe, R.O.Xalfina, E.A.Fleyşits, V.A.Ryasentsev, M.M.Aqarkov, A.V.Venediktov, V.P.Qribanov, O.A.Krasavçikov, İ.B.Novitski, Y.K.Tolstoy, V.A.Tarxov, S.S.Alekseyev, B.S.Antimonov, V.İ.Serebrovski və digər tanınmış, görkəmli alimlərin yaratdıqları əsərlər geniş maraq doğurur. Onlar sovet sivilistikasının ən parlaq nümayəndələri və təmsilçiləri hesab olunurlar. Həmin alimlərin mülki hüquq elminə verdiyi elmi töhvələr sivilist fikrin və təfəkkürün inkişafına və canlanmasına güclü təsir göstərmişdir. Bu alimlərin yaradıcı fəaliyyətinin nəticələrini sivilistikanın ən parlaq və gözəl əsərləri saymaq olar[2]. Mülki hüququn, deməli olar ki, əsas institutlarının nəzəri cəhətdən işlə-

[1] bax: *Братусь С.Н.* Имущественные отношения, регулируемые советским гражданским правом// Вопросы экономики. 1960. №9, с. 73-82; *Иоффе О.С.* К дискуссии о хозяйственном праве // Вопросы кодификации советского права. Л., вып. 1960, с. 38-45; *Матвеев Г.К.* О концепции хозяйственного права // Правоведение 1961. №1, с. 70-78; *Толстой Ю.К.* Теоретические проблемы кодификации гражданского законодательства // Вест. Ленинградского университета. 1961. №17, с. 108-119; *Денисов А.И., Бернштейн Н.И.* Основы гражданского законодательства и «хозяйственное право» // Советское государство и право. 1959. №5, с. 48-60.

[1] bax: *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 3. Л., 1965; *Иоффе О.С.* Советское гражданское право. М., 1967; Основы советского права. Учебное пособие для экон. Вузов / Под общ. ред. *О.С. Иоффе*. Минск. 1967; Советское гражданское право. Учебник. Том 1, 2 / Под ред. *О.С.Иоффе, Ю.К.Толстого, Б.Б.Черепахина*. Л., 1971; Советское гражданское право. Учебник. Том 1, 2 / Под ред. *О.А.Красавчикова*. М., 1969; Комментарий к Основам гражданского законодадельства Союза ССР и союзных республик / Под ред. *С.Н. Братуся и Б.А.Флейщиц*. М., 1962; Комментарий к ГК РСФСР / Под ред. *С.Н.Братуся и Е.А.Флейщиц*. М., 1965; Комментарий к ГК РСФСР / Под ред. *Е.А.Флейщиц и О.С.Иоффе*. М.,1970; Комметарий ГК РСФСР / Под ред. *О.А.Красавчикова* М., 1965 и др.

[2] bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949; *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955; *Иоффе О.С.* Обязательственное право. М., 1975; *Красавчиков О.А.* Советская наука гражданского право. Свердловск. 1961; *Красавчиков О.А.* Возмещение вреда, причиненного источником повышенной опасности. М., 1966; *Грибанов В.П.* Пределы осуществления и защита гражданских прав. М., 1972; *Толстой Ю.К.* Содержание и гражданско-проовая защита права собственности в СССР. Л., 1955; *Черепахин Б.Б.* Правопреемство по советскому гражданскому праву. М., 1962. *Халфина Р.О.* Общее учение о правоотношении. М., 1974; *Грибанов В.П.* Ответственность за нарушение гражданских прав и обязанности. М., 1973; *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940; *Антимонов Б.С.* Значение вины потерпевшего при гражданском правонарушении. М., 1950; *Антимонов Б.С.* Гражданская ответственность за вред причиненный источником повышенной опасности. М., 1952; *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1950; *Братусь С.Н.* Юридическая ответственность и законность. М., 1976; *Флейщиц Е.А.* Обязательства из причинения вреда и из неосновательного обогащения.М., 1951; *Серебровский В.П.* Очерки советского наследственного права. М., 1953 и *др.*

nilməsinə görə müasir sivilistika elmi həmin alimlərə minnətdar olmalıdır. RF-in, Azərbaycan Respublikasının, ümumiyyətlə, MDB respublikalarının çağdaş mülki hüquq elmi sovet dövrünün adlarını çəkdiyimiz həmin görkəmli və tanınmış sivilistlərinə borcludur.

Yaşadığımız ölkədə bazar iqtisadiyyatına uyğun gələn yeni Mülki Məcəllə qəbul edilmişdir. Bu, fundamental bir normativ aktdır. O, ölkəmizdə sivilist fikrin və təfəkkürün inkişafında əsaslı dönüşün başlanğıcını qoymuşdur. Şübhə yoxdur ki, Mülki Məcəllə hazırlanarkən sovet dövrünün alimlərinin irəli sürdükləri nəzəri konsepsiyalardan istifadə olunmuşdur. Məsələn, əmlak münasibətlərinin və şəxsi qeyri-əmlak münasibətlərinin mülki hüququn nizamasalma predmetinə daxil olması barədə qanunvericilik qaydasında möhkəmləndirilən müddəaları sovet sivilist alimləri formulə etmişlər. Bu barədə çoxsaylı misallar çəkmək olar.

5. Sivilistika elminin metodu

Sivilistika elminin predmeti bu elmin öyrənilməsi metodu ilə sıx əlaqədə olub, bir-birindən qarşılıqlı surətdə asılıdır. Əgər sivilistika elmi mülki hüquq hadisələrinin (proseslərinin) mahiyyətini, təbiətini və qanunauyğunluqlarını açırsa, metod həmin hadisələrin mahiyyətini, təbiətini və qanunauyğunluqlarını başa düşmək və təhlil etmək üçün müəyyən hərəkətə və üsula (yanaşmaya) səmtlənir, tuşlanır və istiqamətlənir. Sivilistika elminin predmeti əgər «sivilistika elmi nəyi öyrənir?» kimi suala cavab verirsə, onda **sivilistika elminin metodu «sivilistika elmi bunu necə edir?», «sivilistika elmi necə öyrənir?»** kimi sualların cavabını verir. Başqa sözlə desək, bu elmin mülki hüquq hadisələrini, yəni hüquq sahəsi kimi mülki hüququ, hüquq normalarını, mülki hüquq münasibətlərini, hüquqi faktları, mülki hüquqla tənzimlənən ictimai münasibətləri və s. necə, hansı yollarla, hansı vasitələrlə öyrənməsi sivilistika elminin metodunu təşkil edir.

Sivilistika elminin metodu dedikdə, mülki hüquq hadisələrinin təbiətini, mahiyyətini və qanunauyğunluqlarını öyrənməyə yönələn nəzəri prinsiplərin, üsulların, yolların və vasitələrin məcmusu başa düşülür. Bu elmin metodunun əsasını nəzəriyyə təşkil edir. Əgər nəzəriyyə yoxdursa, onda metod predmetsiz qalır, sivilistika elmi isə məzmunsuz bir şeyə çevrilir. Sivilistika elminin metodu tədqiqat praktikasına yönələn nəzəriyyə deməkdir. Metod bu elmin predmetini öyrənmək, təhlil etmək və lazımi elmi nəticəyə nail olmaq üçün gərəkdir. Ondan bu məqsəd üçün istifadə olunur. Özü də sivilistika elminin metodu həqiqi və elmi olmalıdır. O, praktikanın nailiyyətlərindən irəli gəlməlidir.

Metod anlayışını elmi dövriyyəyə yunanlar gətirmişlər (yunanca metodos — üsul, vasitə, yol). Onlar metoda həqiqətin elmi cəhətdən öyrənilməsi və müəyyənləşdirilməsi üçün ən vacib və zəruri vasitə, planlı yol, tədqiq olunan obyektin başa düşülməsi üçün ən mühüm üsul kimi baxırdılar. İngilis filosofu Frensis Bekon (1561-1626) metodu fanarla müqayisə edirdi.

Beləliklə, mülki hüquq sahəsini, hüquq normalarını, mülki hüquq münasibətlərini, hüquqi faktları və digər mülki hüquq hadisələrini elmi cəhətdən tədqiq etmək üçün metod vacibdir. Metodsuz sivilistika elmi bu hadisələri öyrənə və tədqiq edə bilməz, metod isə özündə, yuxarıda qeyd etdiyimiz kimi, öyrənmə vasitələrini, yollarını, üsullarını birləşdirir. Metod haqqında müddəalara **metodologiya** deyilir[1].

Sivilistikanın öyrənilməsində metodologiyanın əhəmiyyəti və rolu son dərəcə böyükdür. Metodologiyasız mürəkkəb xarakterli mülki hüquq hadisələrinin mahiyyətini tədqiq etmək qeyri-mümkündür. Bu hadisələrin əsl xarakterini və təbiətini öyrənməyin həqiqi şərti odur.

Sivilistika elmində iki cür metoddan istifadə olunur: ümumi elmi metodlardan; xüsusi elmi metodlardan. **Ümumi elmi metodlar** odur ki, bu metodlar bir çox elmlərə və həmin elmlərin bütün bölmə və hissələrinə şamil edilir. **Xüsusi elmi metodlar** dedikdə isə ayrı-ayrı konkret elmlərdə və ya həmin elmin bəzi bölmə və hissələrində istifadə olunan metodlar başa düşülür.

Sivilistika elmində tətbiq edilən ümumi elmi metodlar arasında aparıcı və əsas yeri **fəlsəfənin materialist dialektika metodu** tutur. Bu metod sivilistika elminin fəlsəfi metodoloji əsası kimi çıxış edir. Dialektika dedikdə, elə xüsusi fəlsəfi təlim başa düşülür ki, o, təbiətdə, cəmiyyətdə və təfəkkürdə baş verən dəyişmə, inkişaf və əlaqələrin ən ümumi səciyyəvi cəhətlərindən və qanunauyğunluqlarından bəhs edir[2]. Dialektika həqiqəti və real gerçəkliyin obyektiv qanunauyğunluqlarını dərk etmək, öyrənmək metodudur. Materialist dialektika metodunun sivilist analiz üçün ümumi əhəmiyyəti vardır[3].

Materialist dialektika metodu öyrədir ki, ayrı-ayrı konkret hadisələr, o cümlədən mülki-hüquqi hadisələr (hüquq sahəsi kimi mülki hüquq, mülki hüquq normaları, mülki hüquq münasibətləri və s.) arasında əlaqələr obyektivdir, bu əlaqələrdən kənarda heç bir hadisə mövcud deyildir, onların hamısı bir-biri üçün şərtdir. Əlaqələr çoxtərəfli xarakterə malikdir. Bütün mülki hüquq hadisələri yalnız əlaqədə deyil, həm də qarşılıqlı əlaqə və qarşılıqlı təsirdə mövcuddur. Heç bir hadisəni özlüyündə, təcrid olunmuş halda öyrənmək mümkün deyildir. Hər bir mülki hüquq hadisəsinə onun başqaları ilə sıx qarşılıqlı əlaqə və təsiri sistemində baxılmalıdır. «Heç bir fenomen özlüyündə və özündən çıxış edərək izah edilə bilməz» (Höte). Məsələn, mülki hüquq münasibəti kimi hadisə izah olunarkən onun mülki hüquq normaları, hüquqi faktlar, əmlak və şəxsi qeyri-əmlak münasibətləri və s. hadisələrlə qarşılıqlı əlaqəsi və təsiri nəzərə alınmalıdır.

Sivilistika elmində, bir qayda olaraq, fəlsəfi xarakterli ümumi elmi metodlardan istifadə olunur: analiz metodundan; sintez metodundan; induksiya metodundan; deduksiya metodundan; məntiqi metoddan; tarixi metoddan.

Analiz (yunanca analysis — ayırma) metodu öyrənən hadisələri daxili struktur hissələrinə bölüb, tədqiq etmək deməkdir. Bununla mülki hüquq hadisəsinin mahiyyətinə nüfuz edilir. Məsələn, mülki hüquq sistemi öyrənilərkən o, yarımsahələrə, hüquq institutlarına, hüquq normalarına və subinstitutlara bölünür. Başqa bir misalda mülki hüquq münasibətini tədqiq edərkən, o, quruluşca daxili hissələrə bölünür.

Sintez (yunanca synthesis — birləşmə) metoduna görə öyrənilən mülki

[1] Краткий философский словарь / Под ред. *М.Розенталя, П.Юдина*. М., 1952, с. 287.

[2] bax: *Məqsud Fərhadoğlu*. Fəlsəfənin əsasları. Dərs vəsaiti. Bakı. 1998, s. 225.

[3] bu barədə bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 189.

hüquq hadisəsinin ayrı-ayrı hissələri tam və bütöv halında birləşdirilir, vəhdət halında götürülür. Məsələn, mülki hüquq pozuntusunu, mülki hüquq məsuliyyətini, mülki hüquq münasibətini və s. hadisələri xarakterizə edən əsas əlamətlər, xüsusiyyətlər və cəhətlər birləşdirilir və ümumiləşdirilir və beləliklə, bununla onların ümumi anlayışı formulə edilir. Sintez analizi tamamlayır və onunla qırılmaz vəhdətdədir. Mülki hüquq hadisələrinin müxtəlif əlamət və xüsusiyyətlərinin yalnız analizi nəticəsində alınmış məlumatlar ümumiləşdirilir. Analiz vasitəsi ilə tam və bütöv olan mülki hüquq sahəsi ayrı-ayrı tərkib hissələrinə (hüquq normalarına, hüquq pozuntusuna, hüquqi faktlara və s.) bölünür, bunlardan hər biri müstəqil surətdə nəzərdən keçirilir. Sonra isə sintezin köməkliyi ilə bütün hissələr fikrən birləşdirilir.

Materialist dialektika öyrədir ki, analiz və sintez vahiddir, bir-biri ilə vəhdətdədir. F.Engels yazırdı ki, analizsiz sintez yoxdur. Dialektikanın elementlərindən biri analiz və sintezin birləşməsindən ibarətdir (V.İ.Lenin).

Mülki hüquq hadisələrinin tədqiqat metodlarından biri induksiyadır. **İnduksiya** (latınca inductio — salma, düzəltmə) metodu fikrin xüsusidən (təkcədən) ümumiyə, faktlardan ümumiləşdirməyə doğru inkişafını nəzərdə tutan tədqiqat üsuludur. Məsələn, kommersiya təşkilatlarının əlamətlərini aşkar etdikdən sonra kommersiya təşkilatlarının nə olduğu haqqında nəticə əldə olunur. Kommersıya təşkilatı haqqında anlayış verildikdən sonra hüquqi şəxslərin nə olması haqqında daha ümumiləşdirilmiş nəticə çıxarılır. Beləliklə, induktiv nəticə ayrı-ayrı faktların və əlamətlərin ümumiləşdirilməsi sayəsində alınır. F.Engels «Təbiətin dialektikası» adlı əsərində induksiyanı «düzgün, doğru olan metod» adlandırırdı.

Deduksiya (latınca deductio — nəticə çıxarma) metodu fikrin ümumidən xüsusiyə (təkcəyə), ümumi müddəalardan xüsusi nəticələrə doğru inkişafını nəzərdə tutan tədqiqat üsuludur. Məsələn, əvvəlcə öhdəliklərə ümumi anlayış verilir. Sonra müqavilə öhdəliklərinin mənasına aydınlıq gətirilir. Daha sonra əmlakın mülkiyyətə verilməsi (əmlakın realizə edilməsi) üzrə öhdəliklər öyrənilir. Bundan sonra isə alqı-satqı öhdəlikləri nəzərdən keçirilir. Nəhayət, alqı-satqı öhdəliyinin bir növü olan pərakəndə alqı-satqı öhdəliyi tədqiq olunur. Göstərilən hallarda deduksiya metodundan istifadə olunur.

Materialist dialektika induksiya və deduksiyanın vahidliyini nəzərdə tutur. Onlar bir-biri ilə bağlıdır. Deduksiya induksiyanı, induksiya da deduksiyanı tamamlayır.

Mülki hüquq hadisələrinin öyrənilməsi həm də **məntiqi və tarixi metodların** köməyi ilə həyata keçirilir. Bu metodlar vəhdət təşkil edir. Hegel vaxtilə onların vahidliyini əsaslandırmışdır. Məntiqi metod tarixi metodun başa düşmək dərəcəsini ifadə edir. Tarixi metod isə məntiqi metodun əsasını təşkil edir. Məntiqi metod olmadan tarixi metodun tətbiqi səmərəsizdir. **Tarixi metod** tədqiq olunan mülki-hüquqi hadisəni tarixi ardıcıllıqla izləmək, onun mənşəyi, hansı mərhələlərdən keçməsi, müasir vəziyyətini müqayisəli təhlil etmək, həmin hadisəni keçmiş və indiki baxımdan aydınlaşdırmaq, ona elmi qiymət vermək metodudur. **Məntiqi metod** isə bu cür təhlildən əldə edilmiş nəticələri ümumiləşdirmək, müəyyən məntiqi ideyalar irəli sürmək metodudur. Tarixi və məntiqi metodlar müstəqil əhəmiyyətə də malikdir.

Mülki hüquq elmində ümumi elmi metodlardan savayı, xüsusi elmi metodlardan da istifadə edilir. Bu cür metodlar tədqiq olunan hadisənin spesifik cəhət və tərəfləri ilə bilavasitə bağlıdır. Xüsusi elmi metodlara aiddir:

- konkret sosioloji tədqiqat metodu;
- müqayisəli hüquq metodu;
- sistemli yanaşma metodu;
- formal-hüquqi metod;
- funksional analiz metodu;
- statistik metod;
- kompleks analiz metodu.

Mülki-hüquqi hadisələrin öyrənilməsində tətbiq edilən xüsusi elmi metodlar arasında konkret sosioloji tədqiqat metodu mühüm yer tutur.

Konkret sosioloji tədqiqat metodunun mahiyyəti ondan ibarətdir ki, müəyyən nəzəri ümumiləşdirmələr aparmaq və müvafiq praktiki qərarlar qəbul etmək məqsədi ilə mülki hüquq institutlarının fəaliyyət göstərməsinin və inkişafının, hüquqi praktikanın vacib cəhətləri (tərəfləri) haqqında lazımi etibarlı məlumatlar təhlil edilir, yenidən işlənir və seçilir. Bu metodu müvəffəqiyyətlə tətbiq etmək üçün xüsusi elmi yollardan istifadə olunur; müşahidələr aparılır; arxiv və statistik məlumatlar, rəsmi informasiya və sənədlər, məhkəmə praktikası materiallan təhlil olunur; şifahi və yazılı sorğu (müsahibə almaq, söhbət aparmaq, anketləşdirmə) aparılır; ictimai fikir təhlil olunur. Bu yolların köməkliyi ilə hüquqi qərarların optimal variantı axtarılır.

Sivilistika elmində müqayisəli hüquq metodundan da istifadə olunur. Bu metodun hüquq elmləri metodologiyasında rolu və əhəmiyyəti böyükdür. Hələ qədim dünya mütəfəkkirləri göstərir və təsdiq edirdilər ki, həqiqət müqayisə nəticəsində məlum olur. **Müqayisəli hüquq metodunun** mahiyyəti ondan ibarətdir ki, oxşar və fərqli cəhətləri müəyyən etmək məqsədilə müxtəlif ölkələrin mülki hüquq sisteminə daxil olan eyni institutlar və kateqoriyalar yanaşı qoyularaq müqayisə edilir. Məsələn, mülkiyyət hüququ, girov hüququ, ipoteka hüququ, servitut və digər anlayışların xarici ölkələrin eyni adlı konstruksiyaları ilə yanaşı qoyulması və müqayisə edilməsi nəticəsində onların əsl cəhətləri və xüsusiyyətləri aşkar olunur. Bu sətirlərin müəllifi dərsliyi yazarkən həmin metoddan geniş istifadə etmişdir. Siz şahidi ola bilərsiniz ki, müəllif bizim ölkə qanunvericiliyinə məlum olan hüquqi konstruksiyaları və kateqoriyaları xarici mülki hüquq sistemlərinin eyni adlı konstruksiyaları və kateqoriyaları ilə tez-tez necə müqayisə etmişdir.

Tarixi-müqayisəli metod müqayisəli hüquq metodunun yarımnövü hesab edilir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, o, tarixi inkişafın müxtəlif mərhələlərində mövcud olan eyni mülki hüquq hadisələrinin bir-biri ilə müqayisə edilməsini nəzərdə tutur. Məsələn, bağışlama müqaviləsi və digər konstruksiyalar Roma hüququ dövründə, inqilabaqədərki rus mülki qanunvericiliyində, sovet mülki hüququnda və indiki qanunvericilikdə necə ifadə olunmuşdur?

Sistemli yanaşma metodu sivilistika elminin öyrənilməsində istifadə olunan ən səmərəli vasitələrdən biridir. Bu metod mülki hüquq hadisələrinin sistem kimi, sistem halında öyrənilməsini nəzərdə tutur. Sistem dedikdə, qarşılıqlı əlaqədə olan elementlərin bütöv və tam kompleksi, məcmusu başa düşülür.

Sistemli analiz metodunun mahiyyəti də bu kompleksi və məcmuyu təşkil edən elementləri və onlar arasındakı qarşılıqlı əlaqəni müəyyənləşdirməkdən ibarətdir. Məsələn, mülki hüquq münasibətini öyrənərkən onun elementlərini — bu münasibətin subyekt tərkibini, obyektini və məzmununu, eləcə də onlar arasındakı qarşılıqlı əlaqəni müəyyənləşdirmək lazımdır. Sistemli analiz metodunu **sistem-struktur metodu** da adlandırırlar.

Formal-hüquqi metod hüquq elmində tətbiq edilən ənənəvi metoddur. Bu metod onun öz təbiətindən irəli gəlir. Formal metod mülki hüquq hadisələrinin elmi cəhətdən öyrənilməsində vacib əhəmiyyətə malikdir. Bu metod alınmış biliyi ümumiləşdirməyə, sistemləşdirməyə, təsnifləşdirməyə imkan verir.

Funksional analiz mülki hüquq elmində istifadə olunan metodlardan biridir. O, sistemli yanaşma metodu ilə sıx surətdə bağlıdır. Funksional analiz metodunun mahiyyəti ondan ibarətdir ki, o, struktur hissələrinin, həmin hissələrin sosial təyinatı, rolu və funksiyaları baxımından ayrılmasında istifadə olunur. Bu metod mülki hüququn, mülki hüquq məsuliyyətinin, müəliflik hüququnun, patent hüququnun və digər hüquq institutlarının yerinə yetirdikləri funksiyaların öyrənilməsində tətbiq edilir.

Mülki hüquq elminin öyrənilməsində **statistik metoddan** da istifadə olunur. Bu metod kəmiyyət üsulu ilə məlumat alınmasına əsaslanır. Statistik tədqiqat rəqəmlərlə həyata keçirilir. O, çox vaxt sözə nisbətən daha etibarlı sübutedici əhəmiyyətə malik olur. Statistik metod bir neçə mərhələdən ibarətdir: statistik müşahidə mərhələsi; ümumi statistik məlumatların işlənilməsi mərhələsi; bu məlumatların təhlil edilməsi mərhələsi.

Mülki hüquq elmində istifadə olunan metodlardan biri kompleks analiz metodudur. **Kompleks analiz metodu** qarışıq və mürəkkəb münasibətlərin bir neçə müxtəlif elm sahəsində tətbiq olunan vasitələrdən eyni vaxtda istifadə edilməklə öyrənilməsini nəzərdə tutur. Bu metoddan mülki hüquq elminin predmetinə daxil olan qarışıq, kompleks və mürəkkəb hadisələrin tədqiqində istifadə olunur. Həmin hadisələri bir elmin mövqeyindən araşdırmaq lazımi nəticənin əldə edilməsinə səbəb olmur. Əksinə, göstərilən hadisələr müxtəlif elmlərin mövqeyindən hərtərəfli, kompleks qaydada təhlil edildikdə, həmin hadisələrin əsl mahiyyətinə nüfuz etmək mümkün olur. Məsələn, mülki hüquqla tənzimlənən əmlak münasibətləri əmlak-dəyər münasibətləri və ya əmtəə-pul münasibətləridir. Bu münasibətlər iqtisadi münasibətlərlə, istehsal münasibətləri ilə sıx surətdə bağlıdır. Əmlak-dəyər, əmtəə-pul, iqtisadi və ya istehsal münasibətləri iqtisadi nəzəriyyə elminin predmetinə daxildir. Ona görə də sivilistika elmi bu münasibətləri öyrənərkən iqtisadi nəzəriyyə elmində tətbiq olunan elmi vasitələrdən istifadə edir. Bu yolla əmlak münasibətləri hərtərəfli qaydada, kompleks yanaşma əsasında öyrənilir. Sivilistika elmi mülkiyyət münasibətlərini də öyrənərkən iqtisadi tədqiqat metodlarından istifadə edir. Bunsuz həmin münasibətlərin əsl təbiətini müəyyənləşdirmək mümkün deyil.

§ 2. Mülki hüquq tədris fənni kimi

1. Tədris fənni kimi mülki hüququn anlayışı və predmeti

Qeyd etdik ki, «mülki hüquq» termini ilə, birincisi, hüquq sahəsi kimi mülki

hüquq, ikincisi, elm sahəsi kimi mülki hüquq (sivilistika elmi) anlayışı əhatə olunur. Bu termin həm də üçüncü menada tədris fənni kimi mülki hüquq anlayışını ifadə edir. Əgər hüquq sahəsi kimi mülki hüquq dövlətdaxili milli hüquq sisteminə, elm kimi hüquq elmləri sahəsinə daxildirsə, tədris fənni kimi o, hüquq fənləri sisteminə aid edilir.

Hüquq sahəsi kimi mülki hüquq, hüquq elmi sahəsi kimi mülki hüquq (sivilistika elmi) və nəhayət, hüquq tədris fənni kimi mülki hüquq — üç müxtəlif anlayış özlərinin **predmetlərinə görə bir-birindən fərqlənir**. Əgər hüquq sahəsi kimi mülki hüququn **predmetini əmlak və şəxsi qeyri-əmlak münasibətləri,** hüquq elmi sahəsi kimi mülki hüququn (sivilistika elminin) **predmetini mülki hüquq hadisələri** (hüquq normaları, mülki hüquq sahəsi, hüquqi faktlar, mülki hüquq münasibətləri, mülki hüquqla tənzimlənən ictimai münasibətlər və s.) təşkil edirsə, onda tədris fənni kimi mülki hüququn **predmeti hüquq sahəsi kimi mülki hüquqdan və sivilistika elmindən (mülki hüquq elmindən) ibarətdir**. Əgər mülki hüquq sahəsi əmlak və şəxsi qeyri-əmlak münasibətlərini nizama salırsa, mülki hüquq elmi (sivilistika elmi) isə mülki hüquq hadisələrini öyrənir və tədqiq edirsə, onda tədris fənni kimi mülki hüquq tələbələrə **mülki hüquq sahəsini və sivilistika elmini (mülki hüquq elmini) öyrədir, təlim edir**. Tədris fənni kimi mülki hüquq «tədris kursu kimi mülki hüquq», «mülki hüquq kursu» anlayışları ilə əhatə olunur[1].

Beləliklə, **tədris fənni kimi mülki hüquq dedikdə, hüquq sahəsi kimi mülki hüquq barədə, həmçinin hüquq elmi kimi mülki hüquq barədə (sivilistika elmi haqqında), onun əsas postulat və kateqoriyaları barədə ümumiləşdirilmiş və sistemləşdirilmiş məlumat verən tədris kursu** başa düşülür. Biz onu öyrənməklə mülki-hüquqi tənzimləmənin məna, məzmun və mahiyyətini başa düşmək imkanı əldə edirik. O, bizə mülki hüquq hadisələri — mülki hüquq normaları, hüquqi faktlar, mülki hüquq münasibətləri, mülki hüquqla tənzimlənən ictimai münasibətlər, hüquq sahəsi kimi mülki hüquq, onun əsas anlayış və kateqoriyaları və digər məsələlər barədə məlumat verir. Burada mülki hüquq elminin müddəaları işıqlandırılır, nəzərdən keçirilir və öyrədilir. Bir sözlə, **tədris fənni kimi mülki hüquq sivilistika elminin və hüquq sahəsi kimi mülki hüququn məzmununa aydınlıq gətirir**.

Hər bir tədris fənni kimi mülki hüquq tədris kursunun da qarşısında müəyyən vəzifələr durur. Bunlar, hər şeydən əvvəl, tədris-metodik, nəzəri-idrak xarakterli vəzifələr olub, sivilistika biliklərinin əldə edilməsinə, mənimsənilməsinə və sistemləşdirilməsinə yönəlir.

Mülki hüquq kursunun **birinci və əsas vəzifəsi hüquq sahəsi kimi mülki hüququn öyrətməkdən ibarətdir**. Bu kursun verdiyi bilik və məlumat nəticəsində biz mülki hüquq sahəsini təşkil edən hüquq normalarının məna və mahiyyətini öyrənirik. Bununla yanaşı, mülki hüquq normalarının praktikada tətbiq

[1] *Иоффе О.С.* mülki hüquq dərsliyi ilə mülki hüquq kursu arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirməyə çalışaraq göstərir ki, onlann hər ikisi də ardıcıl olaraq mülki hüquq sahəsini tam həcmdə işıqlandırır. Bunlar arasında fərqli cəhət isə ondan ibarətdir ki, mülki hüquq kursunda monoqrafiyanın elementləri vardır (bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 168).

olunmasını də öyrətmək bu kursun vəzifəsinə daxildir.

Mülki hüquq kursunun **ikinci əsas vəzifəsi sivilistika elmini (mülki hüquq elmini) öyrətməkdən ibarətdir**. Biz onun vasitəsilə sivilistika elminin işləyib hazırladığı konsepsiyaları, ideyaları, nəzəriyyələri, konstruksiyaları, anlayışları və kateqoriyaları əxz edirik. Mülki hüquq kursu sivilistika biliklərinə, sivilistika elminin gəldiyi elmi nəticələrə əsaslanır. Yalnız bu halda səmərəli və müvəffəqiyyətli öyrətmədən, təlim verməkdən söhbət gedə bilər. Söylədiklərimizdən belə bir nəticəyə gələ bilərik ki, mülki hüquq tədris kursunun birinci və ikinci vəzifəsi tələbələri mülki hüquq sahəsinin və sivilistika elminin məzmunu ilə tanış etməkdən ibarətdir. Təkcə sivilistika biliklərini əldə etmək və mənimsəmək qarşıya qoyulan məqsədə çatmaq üçün kifayət etmir. Əsas və vacib məsələ mülki hüquq hadisələri barədə biliklərdən hüquqi işdə və təcrübədə istifadə etməkdən ibarətdir. Ona görə də **tələbələrdə praktikada işləmək vərdişləri aşılamaq mülki hüquq kursunun üçüncü əsas vəzifəsi hesab edilir**. Bu tədris kursunun «borcudur» ki, o, tələbələrdə mülki hüquq hadisələrinə təkcə nəzəri-elmi yanaşma vərdişləri yox, həm də həmin hadisələrdən hüquqi praktikada istifadə etmək bacarığı yaratsın. Onun vəzifəsidir ki, tələbələrə praktiki fəaliyyət vərdişləri öyrətsin. Bunun üçün müəyyən üsul və vasitələrdən istifadə edilir. Məsələn, bu sətirlərin müəllifi dərsliyin cildlərinin birində mülki-hüquqi müqavilələrin nümunələrini vermişdir.

2. Mülki hüquq tədris kursunun sistemi

Mülki hüquq sahəsi, sivilistika hüquq elmi və mülki hüquq tədris kursu kimi üç müxtəlif anlayış özlərinin predmetindən başqa, **həm də strukturuna görə bir-birindən fərqlənir**. Onlar müxtəlif predmetlərə, habelə üst-üstə düşməyən struktura malikdir. Bununla bərabər, mülki qanunvericilik sahəsi kimi mülki hüququn strukturu da mülki hüquq tədris kursunun strukturu ilə tam uyğun gəlmir. Bu, onunla izah edilir ki, mülki hüquq kursunda sivilistika elminin müddəaları öyrənilir və işıqlandırılır. Bu müddəalar isə çox vaxt qanunvericilikdə ifadə olunmur. Bax, buna görə də mülki qanunvericilik sahəsi kimi mülki hüququn strukturu mülki hüquq tədris kursu ilə üst-üstə düşmür. Mülki hüquq kursunda elə bölmələr var ki, onlar mülki qanunvericilikdə yoxdur. Məsələn, mülki hüququn predmeti, mülki hüququn mənbələri, mülki hüquq münasibətləri və s. adlı bölmələri mülki qanunvericilik tanımır.

Mülki hüquq tədris kursunun sistemi mülki hüquq sahəsinin (yəni hüquq sahəsi kimi mülki hüququn) və mülki qanunvericiliyin sistemi nəzərə alınmaqla qurulur. Burada metodoloji-tədris mülahizələri də mühüm rol oynayır. Belə ki, bütün tədris materialının bölünməsi bu mülahizələrlə bağlıdır. Lakin bu materialı qüvvədə olan mülki hüquqdan və onun sistemindən ayırmaqla öyrənmək olmaz.

Mülki hüquq tədris kursunun sistemi mülki hüququn sistemi ilə əsasən üst-üstə düşür. Belə ki, mülki hüquq sahəsinin yarımsahələrinə və institutlarına **mülki hüquq tədris kursunun həmin yarımsahə və institutları öyrənən bölmələri uyğun gəlir**. Məsələn, mülki hüquq sahəsinin «Əşya hüququ», «Öhdəlik hüququ», «Vərəsəlik hüququ», «Əqli mülkiyyət hüququ» və s. yarımsahələri mülki hüquq tədris kursunun eyni adlı bölmələrində öyrənilir və işıqlandırılır. Lakin onların sistemlərinin tam uyğun gəlməsindən və üst-üstə düşməsindən söhbət gedə bilməz. Bu, onunla bağlıdır ki, mülki hüquq tədris kursu həm mülki hüquq sahəsini, həm də sivilistika elmini əhatə edir. Sivilistika elmi isə elə sahələri öyrənir ki, həmin sahələr mülki hüquq sisteminə daxil deyil. Məsələn, mülki hüququn sistemi mülki hüququn anlayışı, mülki hüququn mənbələri, mülki hüququn predmeti, mülki hüququn metodu, mülki hüququn münasibətləri, mülki hüququn inkişafı və s. anlayışları tanımır. Lakin sivilistika elmi bu anlayışları öyrənir. Mülki hüquq kursu isə özünün müvafiq bölmələrini ayırmaqla həmin anlayışları tələbələrə öyrədir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Новицкий И.Б. История советского гражданского права. М.,1957.

Иоффе О.С. Развитие цивилистической мысли в СССР. Часть 1. Л., 1975.

Иоффе О.С. Развитие цивилистической мысли в СССР. Часть 2. Л., 1978. Hər iki əsər bu kitabda verilmişdir: **Иоффе О.С.** Гражданское право. Избранные труды. М., 2000.

Красавчиков О.А. Советская наука гражданского права (понятие, предмет, метод, состав и система) Свердловск., 1961.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Калпина, А.И.Масляева.** М., 1997 (гл. 1, § 6).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.** М., 1998. (гл. 1, § 4).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998 (гл. 3).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М.,1998 (гл.3).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл. 1, § 6).

Иоффе О.С. Советское гражданское право. Курс лекций. Учебное пособие. Л., 1958.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова.** М., 1985 (гл. 1, § 8).

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

V FƏSİL
MÜLKİ HÜQUQ MÜNASİBƏTLƏRİ

§ 1. Mülki hüquq münasibətinin anlayışı və əsas xüsusiyyətləri

1. Mülki hüquq münasibətinin anlayışı

İctimai həyatda və cəmiyyətdə yaşayan insanlar bir-birləri ilə müxtəlif cür münasibətlərə girir və qarşılıqlı fəaliyyət göstərirlər. Elə bil ki, insan cəmiyyətinin özü həmin münasibətlərin məcmusundan, bu cür qarşılıqlı fəaliyyətin məhsulundan ibarətdir. Cəmiyyətdəki münasibət və əlaqələrin əhatə dairəsi həddən ziyadə və son dərəcə geniş olub, kifayət qədər müxtəlif və rəngarəngdir. Onlara misal olaraq siyasi münasibətləri, dini münasibətləri, iqtisadi münasibətləri, əxlaqi münasibətləri, mədəni münasibətləri və s. göstərmək olar. Özü də bu münasibətlərin hamısı ictimai münasibətlərdir.

İnsan cəmiyyətində meydana gələn və fəaliyyət göstərən ictimai münasibətlərin müxtəlif növləri arasında hüquq münasibətləri mühüm yer tutur. Dövlət cəmiyyəti hüquq münasibətləri ilə əlaqələndirir və birləşdirir[1]. Hüquq münasibətləri mürəkkəb xarakterə malik olan məsələdir, çoxtərəfli hadisədir. Buna görə də həmin məsələ hüquq doktrinasında ən mübahisəli məsələlərdən biridir. Uzun müddətdir ki, hüquq münasibəti geniş və qızğın diskussiyaların predmetinə çevrilmişdir. Hüquq elmi bu məsələnin məna və mahiyyətinin aydınlaşdırılmasına xüsusi diqqət yetirir. Odur ki, hüquq münasibətinin işıqlandırılmasına çoxsaylı ədəbiyyat — məqalələr, monoqrafiyalar, tədris və nəzəri əsərlər və s. həsr edilmişdir[2]. Onun bir çox aspektləri hüquq elmində hələ də mübahisə predmeti olaraq qalır.

Mülki hüquq münasibəti sivilistika doktrinasının (mülki hüquq elminin) ən vacib və mühüm kateqoriyalarından biridir. Mülki qanunvericilik bu kateqoriyaya leqal definisiya (tərif) vermir. Bəs mülki hüquq münasibəti dedikdə, biz nə başa düşürük? Bu suala düzgün cavab vermək üçün, hər şeydən əvvəl, hüquq münasibətinin məna və məzmununu açmağa çalışaq. Yalnız bundan sonra mülki hüquq münasibətinin mahiyyətini başa düşə bilərik. Axı, mülki hüquq münasibəti hüquq münasibətinin bir növüdür. Hüquq münasibətinin isə müxtəlif növləri fərqləndirilir: konstitusiya hüquq münasibəti; inzibati hüquq münasibəti; maliyyə hüquq münasibəti; əmək hüquq münasibəti; cinayət hüquq münasibəti; cinayət-prosessual hüquq münasibəti və s.

[1] *Гегель.* Работа разных лет. М., 1973. Том 2, с. 49-50, 69.

[2] bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву / Отв. ред. *С.Н.Аскназий*. Л., 1949 (O.S.Ioffe 1947-ci ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir); *Иоффе О.С.* Спорные вопросы о правоотношении//Очерки по гражданскому праву: Сб. статей / Отв. ред. *О.С.Иоффе*. Л., 1957; *Толстой Ю.К.* К теории правоотношения. Л., 1959; *Халфина Р.О.* Общее учение о правоотношении. М., 1974; *Ткаченко Ю.Г.* Методологические вопросы правоотношений. М., 1980; *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993.

Hüquq münasibəti, hər şeydən öncə, **hüquqla üzvi surətdə bağlıdır.** Hüquqla əlaqədar olmayan hüquq münasibətinin mövcudluğundan söhbət gedə bilməz. Əgər hüquq, hüquq norması mövcud deyilsə, onda hüquq münasibəti də yoxdur. Dövlətəqədərki, yəni dövlətin meydana gəlməsinə kimi mövcud olan arxaik-ibtidai cəmiyyətdə hüquq münasibətləri yaranmamışdır. Ona görə ki, həmin cəmiyyətdə hüququn özü olmamışdır. Bu və ya digər münasibətin məhz hüquqla bağlılığı onu hüquq münasibəti adlandırmağa əsas verir. Məsələn, vergi münasibətləri maliyyə hüququ ilə, əmək münasibətləri əmək hüququ ilə, əmlak münasibətləri mülki hüquq ilə və s. bağlıdır. Ona görə də bunlar hüquq münasibətləri adlanır. Dediklərimizdən belə çıxır ki, **hüquq münasibətləri hüquqdan ayrı və ondan asılı olmadan mövcud ola bilməz.** Bu iki hüquqi hadisə arasında səbəbli nəticə əlaqəsi vardır.

Bəs hüquqla hüquq münasibəti arasında bağlılığın əsas cəhətləri nədən ibarətdir? Bu suala cavab vermək üçün hüququn sosial təyinatının nədən ibarət olmasını xatırlamaq lazımdır. Hüququn əsas və başlıca təyinatı ictimai münasibətləri qaydaya və nizama salmaqdan ibarətdir. Hüquq ictimai münasibətlərin xüsusi, rəsmi və dövlət tənzimləyicisidir. Məhz hüquq münasibətləri vasitəsilə hüquq öz məqsədinə çatır və nail olur. Məhz hüquq münasibətləri vasitəsilə hüququn real qüvvə və səmərəli alət olması müəyyənləşdirilir, ifadə edilir. Məsələn, maliyyə hüquq münasibətləri vasitəsilə maliyyə hüququ, əmlak hüquq münasibətlərinin vasitəsilə mülki hüquq, əmək hüquq münasibətləri vasitəsilə əmək hüququ və s. özlərinin tənzimləyici funksiyasını və rolunu yerinə yetirir. Deməli, **hüquq münasibəti ictimai münasibətin hüquqla tənzimolunma vasitəsidir.** Bu, hüquq münasibəti ilə hüququn bağlılığını sübut edən **birinci xüsusiyyətdir.**

Bəs müvafiq ictimai münasibət hüquqla tənzim edildikdə onun nəticəsi nə olur? Bu cür tənzimetmə nəticəsində nə yaranır? Qeyd etmək lazımdır ki, hüquq yaradıcı xüsusiyyətə malik deyil. O, yalnız ictimai münasibətlərin tənzimləyicisidir. K.Marksın sözləri ilə desək, hüquq özlüyündə heç nə yaratmır, o, yalnız ictimai münasibətləri sanksiyalaşdırır, protokollaşdırır, iqtisadi ehtiyacları ifadə edir[1]. Söhbət hüququn müxtəlif cür ictimai münasibətləri tənzimləməsindən gedir. Belə ki, vətəndaşlar, təşkilatlar, idarələr və müəssisələr öz müxtəlif tələbatlarını təmin etmək üçün cürbəcür ictimai münasibətlərə daxil olurlar. Əgər bu münasibətlər hüquqla tənzimlənərsə, onda hüquq münasibətləri yaranır. Məsələn, alıcı vətəndaş alqı-satqı müqaviləsi əsasında öz qonşusundan (satıcıdan) minik avtomobili alır. Bu, ictimai münasibətdir. Özü də o, mülki hüquqla tənzimlənir. Belə ki, həmin münasibətə alqı-satqı müqaviləsi haqqında mülki hüquq normaları tətbiq edilir. Bu cür tənzimetmə nəticəsində hüquq münasibəti yaranır. Deməli, **hüquq münasibəti hüquqla tənzimetmənin nəticəsidir.** Bu, hüquq münasibəti ilə hüququn bağlılığını sübut edən **ikinci xüsusiyyətdir.**

Amma bu, o demək deyildir ki, hüquq münasibətinin yaranmasına hüquq səbəb olur. Əslinə baxsan bu, belə deyildir. Onun əmələ gəlməsinə hüquq yox, həyati hallar əsas olur. Məhz həyati hallar insanlar arasında münasibətlər yaradır. Hüquq yalnız münasibət iştirakçılarının hüquq və vəzifələrinin əmələ gəlmə-

[1] *Маркс К., Энгельс Ф.* Сочинения. Том 2, с. 208; Том 4, с. 112.

sini bu hallarla bağlayır və əlaqələndirir. Bu yerdə K.Marksın ifadəsini işlətmək yerinə düşərdi. O yazırdı ki, yalnız mübadilənin özü faktiki münasibətlər yaradır[1].

Beləliklə, hüquq münasibəti hüququn yox, hüquqla tənzimetmənin nəticəsidir. Buna görə hüquq münasibətinin yaranmasına hüququn özü səbəb ola bilməz. Hüququn öz-özünə mövcud olması hüquq münasibətinin meydana gəlməsinə dəlalət etmir. Vacibdir ki, müvafiq ictimai münasibət hüquqla tənzimlənsin. Bu isə hüquq münasibətinə hüquq əsasında əmələ gələn ictimai əlaqə kimi anlayış verən müəlliflərin mövqeyinin qeyri-inandırıcı olmasını sübut edir[2].

Qeyd etdik ki, hüququn əsas təyinatı ictimai münasibətləri tənzimləməkdən ibarətdir. Bu və ya digər ictimai münasibəti tənzimləməklə hüquq həmin münasibətlərə hüquqi forma verir. Bunun nəticəsində bu münasibətlər yeni keyfiyyətə və xüsusi formaya malik olur. Bu, hüquq münasibəti formasıdır. Lakin ictimai münasibət itmir, tam saxlanılır. Daha doğrusu, **hüquqla tənzimlənərkən ictimai münasibətlərə hüquqi örtük və pərdə geydirilir.** Amma hüquqla tənzimetmə hər hansı bir yeni ictimai münasibətin yaranmasına səbəb olmur. O, yalnız artıq mövcud olan real və faktiki münasibətlərə müəyyən hüquqi forma verir. Deməli, **hüquq münasibəti hüquqla tənzimlənən real-faktiki münasibətin formasıdır.** O, bu cür **faktiki münasibətin forması kimi çıxış edir.** Bu, hüquq münasibəti ilə hüquq arasında bağlılığı sübut edən **üçüncü xüsusiyyətdir.** K.Marks yazırdı ki, mübadilə nəticəsində yaranan faktiki münasibətlər sonra müqavilə şəklində hüquqi forma alır[3]. Məsələn, yaşayış evi kənd sakininə kirayəyə verilir. Bu, real (faktiki) kirayə münasibətidir. Bununla əlaqədar olaraq kirayə müqaviləsi haqqında mülki hüquq normaları əsasında kirayə müqaviləsi bağlanır, yəni həmin kirayə münasibəti mülki hüquqla tənzimlənir. Bunun nəticəsində bu münasibət hüquqi forma alaraq hüquq münasibəti kimi çıxış edir.

Beləliklə, hüquq münasibəti, birincisi, ictimai münasibətlərin hüquqla tənzim olunması vasitəsi, ikincisi, hüquqla tənzimetmənin nəticəsi, üçüncüsü, faktiki və real münasibətin formasıdır.

Hüquq münasibəti üstqurum kateqoriyasına aiddir. «Siyasi iqtisadın tənqidinə dair» adlı əsərinə yazdığı ön sözdə K.Marks göstərirdi ki, istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi strukturunu, real bazisini təşkil edir ki, onların üzərində hüquqi və siyasi üstqurum yüksəlir. Bu üstqurum isə ictimai şüur və düşüncənin müvafiq formasına uyğun gəlir. Cəmiyyətin iqtisadi quruluşu bazis adlanır. O, istehsal münasibətləri ilə müəyyən edilir[4]. Üstqurum dedikdə cəmiyyətin siyasi, hüquqi, dini, fəlsəfi, estetik baxışları və bunlara uyğun gələn siyasi, hüquqi və digər təsisatlar başa düşülür.

Bazis cəmiyyətə iqtisadi cəhətdən xidmət göstərir. Üstqurum isə cəmiyyətə siyasi, hüquqi, estetik və başqa ideyalarla xidmət edir[5]. Deməli, üstqurumun cəmiyyətə hüquqi ideyalarla xidmət göstərməsi onu sübut edir ki, **hüquq ideoloji formadır.** Siyasi, dini və fəlsəfi formalar da ideoloji formalar hesab edilir.

[1] *Marks K., Engels F.* Soç. Tom 19, s. 393.
[2] bax: Qrajdanskoe pravo. Uçebnik. Tom 1 / Pod red. E.A.Suxanova. M., 1998, s. 89.
[3] Yenə orada.
[4] *Marks K., Engels F.* Soç. Tom XII. Çast 1, s. 6.
[5] *I.V.Stalin.* Marksizm i voprosı yazıkoznanie. M., 1952.

Hüququn ideoloji forma olması və ideologiya ilə bağlılığı onu sübut edir ki, **hüquq münasibəti ideoloji münasibətdir.** İdeoloji münasibət kimi o, cəmiyyətin iqtisadi bazisi üzərində yüksələn hüquqi və siyasi üstqurumun elementlərindən biri kimi çıxış edir[1]. Beləliklə, hüquq münasibəti **ideoloji üstqurum münasibətidir.** Bu, o deməkdir ki, hüquq münasibətləri insanların şüur və düşüncəsi vasitəsi ilə əmələ gəlir, dəyişir və ya xitam olunur. Müasir dövrdə ideologiyanın, yəni müəyyən baxış, ideya, anlayış və təsəvvürlərin müəyyən sisteminin yalnız xarakteri dəyişmişdir. Burada əsas yeri sinfi yanaşmanın əvəzinə, bazar münasibətlərinə və azad sahibkarlığa keçid ideyaları və baxışları tutur.

Söylədiklərimiz belə bir nəticə çıxarmağa imkan verir ki, bizim qabağımızda **əgər ideoloji münasibət olarsa, onda hüquq münasibəti bərabə yalnız hüquqi forma kimi,** yəni hüquqi forma mənasında danışmaq olar. Bu baxımdan o, hüquqi üstqurumu bütövlükdə özündə birləşdirir. Bu mənada hüquq münasibəti hüquq normaları ilə tənzimlənən ictimai münasibətin hüquqi forması kimi çıxış edir[2]. Daha doğrusu, hüquq münasibəti bu münasibətin, yəni bazis münasibətinin hüquqi formasıdır, yəni ideoloji münasibətdir. Fəlsəfi planda əgər bazis münasibəti (yəni hüquq norması ilə tənzimlənən ictimai münasibət) məzmundursa, ideoloji münasibət isə hüquqi formadır. Bazis münasibətləri (məzmun) bazisə, iedoloji münasibətlər (hüquqi forma) isə hüquqi üstquruma aiddir.

Dediklərimizdən belə məlum olur ki, əgər bazis münasibətləri hüquq normaları ilə tənzimlənərsə, bunun nəticəsində həmin münasibətlər ideoloji, yəni hüquq münasibətləri olur. Bu isə onu ifadə edir ki, bazis münasibətləri (hadisələri) üstqurum münasibətləri ilə dəyişdirilir və əvəz edilir. Bu isə mümkün olan hal deyil. Ona görə ki, fəlsəfi planda bazis münasibəti (məzmun) ideoloji münasibəti müəyyən edir. Dialektik metod öyrədir ki, formaya münasibətdə məzmun birincidir[3]. Buna görə də hüquq münasibətinə hüquq norması ilə tənzimlənən ictimai münasibət kimi anlayış verilməsi uğursuz anlayışdır[4]. Hüquq ədəbiyyatında bu cür anlayışdan istifadə etmək dəb və adət halını almışdır[5]. Müəlliflərin əksəriyyəti hüquq münasibətinə belə definisiya (tərif) verir.

Bundan əlavə, hüquq münasibətinə verilən anlayışdan məlum olur ki, hüquq ictimai münasibətləri tənzim edir. Belə çıxır ki, o, istənilən ictimai münasibəti, o cümlədən ictimai istehsal münasibətlərini də tənzim edir. Tənzim et-

[1] bax: *Ioffe O.S.* Pravootnoşenie po sovetskomu qrajdanskomu pravu // V knige: *Ioffe O.S.* Qrajdanskoe pravo. Izbrannıe trudı. M., 2000, s. 509; *Tolstoy Yu.K.* K teorii pravootnoşeniya. L., 1959, s. 22.
[2] bax: *Ioffe O.S.* Spornıe voprosı ucheniya o pravootnoşenii // V knige: *Ioffe O.S.* Qrajdanskoe pravo. Izbrannıe trudı. M., 2000, s. 653.
[3] Kratkiy filosofskiy slovarь. Pod red. *M.Rozentalya i P.Yudina*. M., 1952, s. 562.
[4] Hüquq münasibətinə bu cür tərif verilməsinin həm üstün, həm də çatışmayan cəhətləri vardır. Bu barədə bax: *Xalfina R.O.* Obşee uchenie o pravootnoşenii. M., 1974, s. 3-113.
[5] bax: Qrajdanskoe pravo. Uçebnik. Çast 1 / Pod red. *A.Q.Kalpina, A.I.Masteva*. M., 1997, s. 44; Qrajdanskoe pravo. Uçebnik. Çast 1 / Pod red. *A.P.Sergeeva, Yu.K.Tolstogo*. M., 1998, s. 80; Qrajdanskoe pravo. Uçebnik. Tom 1 / Pod red. *E.A.Suxanova*. M., 1998, s. 90; Qrajdanskoe pravo. Uçebnik. Çast 1 / Pod red. *T.I.Illarionovoy, B.M.Qonqalo, V.A.Plet'nevoy*. M., 1998. s.38; Qrajdanskoe pravo. Uçebnik / Pod red. *S.P.Qrişaeva*. M., 1999. s.17; Teoriya qosudarstva i prava. Kurs lekciy / Pod red. *N.I.Matuzova, A.V.Malько*. M., 2000, s. 509.

mək müəyyən etmək deməkdir. Onda belə təsəvvür yaranır ki, hüquq ictimai istehsal münasibətlərini müəyyən edir. Həqiqətdə isə belə deyildir. Hüquq (üstqurum) ictimai istehsal münasibətlərini (bazisi) müəyyən etmir. O, özü bu münasibətlərlə müəyyən edilir. Hüquq münasibətləri bilavasitə istehsal münasibətləri ilə şərtlənir (İ.V.Stalin)[1]. Marks göstərirdi ki, hüquq münasibətləri maddi həyat münasibətlərinə əsaslanır[2]. Belə halda ictimai istehsal münasibətlərinin hüquqla tənzimlənməsindən — müəyyən edilməsindən necə söhbət açmaq olar? Digər tərəfdən, ictimai istehsal münasibətləri obyektiv surətdə, insanların iradə və şüurundan asılı olmayaraq mövcuddur[3]. Hüququn işi isə insanların şüurlu, iradəvi fəaliyyəti ilə bağlıdır.

Dialektik materializm forma və məzmuna vəhdətdə baxır. İstənilən hər hansı bir hadisənin forma və məzmunu ayrılmaz və bölünməzdir. Bu, o deməkdir ki, hüquq münasibəti, forması kimi çıxış etdiyi, yəni forması olduğu faktiki-real ictimai münasibətlə (bazis münasibəti ilə, məzmunca) sıx surətdə bağlıdır. O, hüquqi cəhətdən rəsmiləşdirdiyi, ifadə etdiyi faktiki-real münasibətdən ayrılmır. Onlar birlikdə mövcuddur. Məsələn, satıcı əşyanı əvəzində müəyyənləşdirilmiş pul məbləği almaqla alıcıya verir. Bu, alqı-satqı münasibəti, özü də konkret faktiki ictimai münasibətdir. Bu münasibət hüquqi cəhətdən alqı-satqı müqaviləsinin vasitəsilə rəsmiləşdirilir. Alqı-satqı müqaviləsi hüquqi formadır. Real-faktiki alqı-satqı münasibəti ilə bu forma vəhdətdədir.

Deməli, hüquq münasibətindən təkcə və yalnız ideoloji üstqurum münasibəti kimi söhbət açmaq olmaz. Hüquq münasibətinə ideoloji münasibət (forma) kimi yanaşanda, onda forma məzmundan (faktiki ictimai münasibətdən, bazis münasibətindən) ayrılır. Hüquq münasibətinə həm də forma və məzmunun vəhdətindən ibarət olan kateqoriya kimi baxmaq olar. Belə halda o, həm bazis münasibətini (faktiki münasibəti), həm də üstqurum münasibəti (ideoloji münasibəti) əhatə edir. Daha doğrusu, bu baxımdan hüquq münasibəti özündə hüquqi üstqurumla iqtisadi bazisin birliyini əks etdirir. Hüquq münasibəti bu mənada hüquq norması ilə tənzimlənən faktiki-real münasibətin özüdür.

Lakin hüquqi forma ilə məzmunun vəhdəti olan hüquq münasibəti və faktiki-real münasibət kimi iki müxtəlif anlayış eyniləşdirilə bilməz. Onlar eynimənalı, üst-üstə düşən anlayışlar deyildir. Hüquq münasibətinə hüquq normaları ilə tənzimlənən ictimai münasibət kimi tərif verilməsi hüquq münasibətini (formasını) ictimai münasibətlə, yəni faktiki münasibətlə (məzmunla) eyniləşdirməyə səbəb olur. Buna görə də həmin tərifi münasib və uğurlu hesab etmək olmaz.

Beləliklə, hüquq münasibəti iki mənada işlədilən kateqoriyadır: məhdud mənada hüquq münasibəti; geniş mənada hüquq münasibəti. **Məhdud mənada hüquq münasibəti dedikdə,** faktiki real münasibətlərin hüquqi forması başa düşülür. Bu baxımdan o, ideoloji münasibət kimi çıxış edərək hüquqi üstqurumu əhatə edir. **Geniş mənada hüquq münasibəti** forma ilə (ideoloji münasibətlə) məzmunun (faktiki münasibətin, bazis münasibətinin) vəhdətini ifadə edir. Bu

[1] Sitat götürülmüşdür: Краткий философский словарь / Под ред. *М.Розенталя И.П. Юдина* М., 1952, с. 34.

[2] *Маркс К., Энгельс Ф.* Соч. Том 13, с. 6.

[3] bax: Qısa iqtisadi lüğət / S.A.İbadovun, X.Ş.Kərimovun. K.A.Sarıyevin rus dilindən tərcüməsi. Bakı. 1989, s. 123.

baxımdan hüquq münasibəti iqtisadi məzmunla hüquqi formanın, yəni iqtisadi bazisle hüquqi üstqurumun birliyi kimi çıxış edir. Lakin bu cür yanaşma hüquq münasibətinin əsl və həqiqi xüsusiyyətini müəyyən etməyə imkan vermir.

Bəs hüquq münasibətinə münasib necə anlayış vermək olar? Biz görürük ki, müəyyən hər hansı bir ictimai münasibətə girən tərəflər hüquqlar əldə edirlər, vəzifələr daşıyırlar. Əgər münasibətə daxil olan tərəflərin hüquq və vəzifələri hüquq normalarına əsaslanarsa, həmin normalarda nəzərdə tutularsa və müəyyənləşdirilərsə, onda bu, hüquq münasibəti hesab ediləcəkdir. Məsələn, vətəndaş tikinti təşkilatına (podratçıya) bağ evi tikməyi sifariş edir. Bu, ictimai münasibətlərin bir növü olan podrat münasibətidir. Bu münasibət hüquqi cəhətdən podrat müqaviləsi ilə rəsmiləşdirilir. Podrat müqaviləsi podrat münasibətinin hüquqi formasıdır. Podrat münasibətində iki tərəf (podratçı, sifarişçi) iştirak edir. Onlar hüquq və vəzifələrə malikdirlər: bağ evini tikib sifarişçiyə vermək vəzifəsi; podratçıya podrat haqqı ödəmək vəzifəsi; bağ evinin təhvil verilməsini tələb etmək hüququ; podrat haqqının ödənilməsini tələb etmək hüququ və s. Bax, bu hüquq və vəzifələr mülki hüquq normalarına əsaslanır, bu normalarda nəzərdə tutulur. Həmin normalar MM-in 39-cu fəslinə daxil olan 752-776-cı maddələrdə ifadə olunub. Deməli, göstərilən münasibət podrat hüquq münasibətidir. Alqı-satqı, kirayə, icarə, daşıma, borc və digər münasibətlərdə iştirak edən tərəflərin hüquq və vəzifələri də mülki hüquq normalarına əsaslanır.

Beləliklə, **hüquq münasibəti elə bir ictimai münasibətdir ki, bu münasibətdə iştirak edən tərəflərin hüquq və vəzifələri hüquq normalarına əsaslanır və həmin normalarla müəyyənləşdirilir.** Bir çox müəlliflər hüquq münasibətinə anlayış verərkən buna oxşar mövqe tuturlar[1].

Hüquq münasibətləri mürəkkəb xarakterə malik olan hadisədir. Onlar ictimai münasibətlərin xüsusi növüdür. Bəs hüquq münasibətlərinin xarakterik əlamətləri hansılardır? Hüquq elmi (doktrinası) onların bir sıra xarakterik əlamətlərini müəyyənləşdirir. **Birincisi,** hüquq münasibətləri həmişə və bütün hallarda istisnasız olaraq, **hüquq normaları ilə bağlı olur.** Əgər faktiki ictimai münasibətlər (məsələn, alqı-satqı, daşıma, icarə, kirayə və s. münasibətlər) hüquq normaları əsasında qurularsa, onda bu münasibətlər hüquq münasibətləri forması alır. Bu formanı yalnız o münasibətlər alır ki, həmin münasibətlər hüquq normaları ilə nizama salınır. Hüquq norması yoxdursa, onda hüquq münasibəti də mövcud deyil. Hüquq münasibəti elə bir formadır ki, burada mücərrəd xarakterli hüquq norması konkret olaraq ifadə edilir. Amma heç də bütün ictimai münasibətlər hüquq normalarının köməyi ilə tənzimlənmir. Bu münasibətlərin müəyyən qrupu axlaq, adət və s. normaların vasitəsi ilə nizama salınır. Belə halda, şübhəsiz ki, hüquq münasibətlərindən danışmaq olmaz. İctimai münasibət ona görə hüquq münasi-

[1] bax: *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993, с. 8; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 34 и др. Hüquq münasibətinə alman doktrinasında da anlayış verilir. L.Ennekserus yazır ki, hüquq münasibəti həyati münasibətin obyektiv hüquqla tənzimlənməsidir. Bu isə müəyyən şəxsin digər şəxsə münasibəti və ya şəxsin predmetə (əşyaya və hüquqa) münasibəti kimi hüquqi nəticəyə səbəb olur (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 238). Üstün konsepsiyaya görə, hüquq münasibəti dedikdə, müəyyən şəxsin digər şəxsə, habelə obyekte olan ayrı-ayrı (tək) münasibətinin obyektiv hüquqla tənzimlənməsi başa düşülür (*Жалинский А., Рёрихт А.* Введение в немецкое право. М., 2001, с. 304).

bəti adlanır ki, o, hüquq normaları ilə tənzimlənir[1].

İkincisi, hüquq münasibətləri **iradəvi xarakterə malikdir.** Bu, onunla izah olunur ki, hüquq münasibətləri ideoloji münasibətlərin bir növüdür. İdeoloji münasibətlər həmişə iradəvi xarakter daşıyır[2]. İdeoloji münasibət növü kimi hüquq münasibətləri insanların şüur və düşüncəsindən keçir və son məqamda başa düşülmüş, dərk edilmiş, beləliklə də, iradəvi münasibət kimi çıxış edir.

Hüquq münasibətlərinin iradəvi xarakter daşıması iki mənada başa düşülməlidir: geniş və ya obyektiv mənada; məhdud və ya subyektiv mənada. **Hüquq münasibətlərinin obyektiv və ya geniş mənada iradəvi xarakterə malik** olması onu ifadə edir ki, bu münasibətlərdə dövlət iradəsi əks olunur. Belə ki, dövlət iradəsi ümumməcburi davranış qaydalarında, yəni hüquq normalarında təzahür edir. Bu normalar hüquq münasibəti iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir. Həmin normalar onlar üçün məcburi qüvvəyə malikdir. Bu normalar vasitəsi ilə də dövlət iradəsi konkret hüquq münasibətlərində öz əksini tapır. Özü də dövlət iradəsi hüquq münasibəti iştirakçılarının iradəsindən asılı deyil. Bu mənada və baxımdan o, obyektiv iradədir.

Hüquq münasibətlərinin məhdud və ya subyektiv mənada iradəvi xarakterə malik olması onu ifadə edir ki, bu münasibətlərdə tərəflərin (iştirakçıların) subyektiv, fərdi-şəxsi və konkret iradələri əks olunur. Hüquq normasının mövcudluğu hələ özlüyündə avtomatik olaraq hüquq münasibətinin meydana gəlməsinə və sonra isə fəaliyyət göstərməsinə dəlalət etmir. Bunun üçün vacibdir ki, tərəflərdən heç olmazsa biri, öz iradəsini ifadə etsin və bildirsin. K.Marksın fikrincə, forması müqavilə olan hüquq münasibətləri elə iradəvi münasibətlərdir ki, burada iqtisadi münasibətlər ifadə olunur. Dahi alim göstərirdi ki, əmtəələrin mübadiləsi üzrə hüquq münasibətləri iradəvi akta əsaslanır. Bu cür münasibətlər iradəvi münasibətlərdir[3]. Hegel iradəni hüququn çıxış nöqtəsi adlandırırdı[4]. Engels belə hesab edirdi ki, insanı fəaliyyət göstərməyə vadar edən nə varsa, hamısı mütləq onun beyninə düşür və iradəsinə təsir edir[5]. O yazırdı ki, cəmiyyət tarixində düşüncəyə və şüura malik olan, qarşılarına müəyyən məqsəd qoyan, təfərrüatına qədər düşünən və ya ehtirasla hərəkət edən insanlar fəaliyyət göstərirlər. Burada dərk edilmədən, düşünülmədən və arzu olunmadan məqsədsiz heç nə edilmir[6].

Yaranmamışdan əvvəl hüquq münasibətləri əvvəlcə tərəflərin şüurundan və iradəsindən keçir. Sonra tərəflərin iradəvi aktı nəticəsində bu münasibətlərin əmələ gəlməsinin əsası və başlanğıcı qoyulur. Deməli, **hüquq münasibətləri şüurlu-iradəvi mahiyyətə malik olan hadisədir.**

Bir qayda olaraq, tərəflərin iradəsi hüquq münasibətinin yaranması və həyata keçirilməsi prosesinin bütün mərhələlərində təzahür edir. Məsələn, alqı-satqı, podrat, daşıma, kirayə, icarə, borc, kredit və digər müqavilələr əsasında

[1] bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 524.
[2] bax: *В.И. Ленин* Сочинения. Том 1, с. 61.
[3] *Маркс К., Энгельс Ф.* Том 23, с. 94; Капитал. Том 1. М., 1931, с. 41.
[4] *Гегель.* Соч. Том VII, с. 31.
[5] *Маркс К., Энгельс Ф.* Соч. Том. XIV, с. 671.
[6] *Маркс К., Энгельс Ф.* Соч. Том. XIV, с. 671.

yaranan hüquq münasibətlərində tərəflərin iradəsi prosesin bütün mərhələlərində ifadə olunur. İctimai münasibətlərin hərəkətini ifadə edən bu cür hüquq münasibətləri mübahisəsiz olaraq həmişə iradəvi münasibətlərdir. Burada tərəflərin iradəsi hüquq münasibətinin yaranmasından bu münasibətin həyata keçirilməsi başa çatanadək bütün mərhələlərdə ifadə olunur.

Amma elə hüquq münasibətləri vardır ki, burada tərəflərin iradəsi prosesin hüquq münasibətinin yaranması kimi mərhələsində təzahür etmir. Bu cür münasibətlər tərəflərin iradəsindən asılı olmadan əmələ gəlir. İradə yalnız hüquq münasibətlərinin həyata keçirilməsi və icrası mərhələsində ifadə olunur. Belə ki, tərəflərin iradələrindən asılı olmadan əmələ gələn qarşılıqlı hüquq və vəzifələr onlann iradələri əsasında həyata keçirilir, icra edilir. İctimai münasibətlərin qorunmasını və möhkəmləndirilməsini ifadə edən hüquq münasibətləri bu cür münasibətlərə misal ola bilər. Məsələn, vətəndaş minik avtomobilini sürərkən öz qonşusunun əmlakını zədələyərək, onu yararsız hala salır və zərər vurur. Bununla delikt öhdəliyi, yəni zərər vurmaq nəticəsində hüquq münasibəti yaranır. Bu münasibətə görə vətəndaş (zərərvuran) qonşunun (zərərçəkənin) əmlakına vurduğu zərərin əvəzini ödəyir. Prosesin bu mərhələsində, yəni zərərin əvəzini ödəmək vəzifəsinin icrası mərhələsində artıq iradə ifadə olunur. Belə ki, vətəndaş (zərərvuran) öz vəzifəsini başa düşərək icra edir. Baxmayaraq ki, burada prosesin bütün mərhələlərində tərəflərin iradəsi ifadə olunmur, bu cür münasibətləri iradəvi münasibətlər hesab etmək olar[1].

Üçüncüsü, hüquq münasibətləri **konkret şəxslər arasında mövcud olan ikitərəfli (qarşılıqlı) münasibətlərdir.** Onlar subyektsiz (şəxssiz) mücərrəd əlaqə deyildir. İstənilən hüquq münasibəti, heç olmazsa, iki subyekt arasında yaranır. Həmin münasibətlərdə tərəf rolunda çıxış edən subyektləri həmişə konkret olaraq müəyyən etmək mümkündür. Hətta belə onları adbaad çağırmaq da olar. Məsələn, alqı-satqı hüquq münasibəti alıcı-satıcı, icarə hüquq münasibəti icarəyə verən - icarəçi, daşıma hüquq münasibəti daşıyıcı - yük göndərən, mülkiyyət hüquq münasibəti mülkiyyətçi - əhatə dairəsi bilinməyən üçüncü şəxslər («hamı və hər kəs») və s. arasında əmələ gəlir. Özü də subyektlərdən (hüquq münasibəti iştirakçılarından) biri və hüquqlara malik olur, digəri isə vəzifə daşıyır, ya da ki hər iki subyekt eyni vaxtda və zamanda həm hüquqlara malik olur, həm də vəzifələr daşıyırlar. Məsələn, bank əmanəti müqaviləsindən əmələ gələn hüquq münasibətində bank yalnız vəzifə (əmanəti əmanətçiyə qaytarmaq vəzifəsi) daşıyır, əmanətçi ilə yalnız hüquqa (əmanətin faizi ilə verilməsini tələb etmək hüququna) malikdir. Alqı-satqı, icarə, podrat,

[1] O.S.Ioffe göstərir ki, ictimai istehsal münasibətlərinin qorunmasını ifadə edən hüquq münasibətləri (məsələn, delikt öhdəlikləri və s.) qeyri-iradəvi münasibətlərdir. Müəllif bunu onunla izah edir ki, həmin münasibətlər tərəflərin iradəsindən asılı olmadan əmələ gəlir. Bundan əlavə o, göstərir ki, K.Marks yalnız müqavilə münasibətlərini iradəvi münasibətlər hesab edir. Onun fikrincə, K.Marksın sözlərindən belə nəticə çıxarmaq olmaz ki, bütün hüquq münasibətləri iradəvi münasibətlərdir. Alimin irəli sürdüyü fikir və mülahizələr, şübhəsiz ki, həqiqətdən uzaq olub inandırıcı görünmür. O, Marksın fikrindən düzgün nəticə çıxarmır. Belə ki, Marks heç bir vaxt «yalnız müqavilə münasibətlərinin (hüquq münasibətlərinin) iradəvi münasibət olması barədə» fikir söyləmir. Marks, sadəcə olaraq, həmin münasibətlərin iradəvi olmasını göstərir (bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 571-576).

kirayə və s. müqavilələrdən yaranan münasibətlərdə çıxış edən tərəflər eyni vaxtda həm hüquqlara malik olur, həm də vəzifələr daşıyırlar.

Hüquq və vəzifələr hüquq münasibətlərində iştirak edən subyektləri qarşılıqlı surətdə bir-biri ilə bağlayır və əlaqələndirir. Hüquq elmi onları **subyektiv hüquq və subyektiv vəzifə** adlandırır. Bax, bu hüquq və vəzifələrin vasitəsi ilə hüquq münasibəti iştirakçıları arasında həmişə ikitərəfli əlaqə yaranır. Bu əlaqənin özü elə hüquq münasibəti deməkdir. Elə bir münasibət ki, bu münasibətdə iştirak edən **tərəflərdən birinin malik olduğu hüquq digər tərəfin daşıdığı vəzifəyə uyğun gəlir** və ya əksinə, əgər **tərəflərdən biri hər hansı müəyyən hüquqa malik olarsa, onda hökmən və mütləq digər tərəfin üzərinə bu hüquqa uyğun gələn vəzifə həvalə edilir və qoyulur.** Məsələn, banka əmanətə pul qoyan vətəndaş (əmanətçi) həmin pulun qaytarılmasını tələb etmək hüququna malikdir. Bankın üzərinə əmanəti qaytarmaq kimi vəzifə düşür ki, bu vəzifə vətəndaşın malik olduğu hüquqa uyğun gəlir.

Hüquq münasibəti həmişə ikitərəfli əlaqə deməkdir. Bu münasibətdə iştirak edən tərəflər bir-biri ilə qarşılıqlı hüquq və vəzifələrlə bağlıdırlar. Onların hərəkətləri əlaqələndirilir, uzlaşdırılır, idarə olunur. Göstərdiyimiz cəhət və xüsusiyyətlər digər ictimai münasibətlərdə (məsələn, siyasi, əxlaq, estetik və s. münasibətlərdə) müşahidə olunmur.

Dördüncüsü, **hüquq münasibətləri həyata keçirilərkən dövlətin məcburetmə qüvvəsi ilə təmin edilir, lazım gəldikdə isə qorunur.** İctimai münasibətlərin digər növləri, adətən, bu xüsusiyyətlərdən məhrumdur. Şübhəsiz ki, dövlət hüquq münasibətlərinin hamısını qorumur və təmin etmir. Məsələn, hüquq pozuntularından əmələ gələn münasibətləri dövlət mühafizə etməkdə maraqlı deyil.

Beləliklə, göstərilən əlamətlər birlikdə hüquq münasibətini ictimai münasibətin digər növlərindən ayırmağa və fərqləndirməyə imkan verir. Bu əlamətlər nəticəsində müəyyən olunur ki, hüquq münasibətləri **ictimai münasibətlərin xüsusi növüdür**. Mülki hüquq münasibətləri isə hüquq münasibətlərinin bir növüdür. Ona görə də hüquq münasibətlərinin əlamətləri mülki hüquq münasibətlərinə şamil edilir.

2. Mülki hüquq münasibətlərinin quruluşu

Mülki hüquq münasibəti mürəkkəb kateqoriyadır. O, həddən ziyadə qəliz xarakterə malik olan hüquq hadisəsidir. Bu, onunla izah edilir ki, mülki hüquq münasibətləri iki mənada başa düşülür:

- xüsusi ideoloji münasibət mənasında;
- mülki hüquq normaları ilə tənzimlənən faktiki-real ictimai münasibətin özü mənasında.

Xüsusi ideoloji münasibət mənasında mülki hüquq münasibəti dedikdə, mülki hüquq normaları ilə tənzimlənən faktiki-real ictimai münasibətin hüquqi forması başa düşülür. Bu baxımdan o, faktiki-real ictimai münasibətdən ayrılır və həmin münasibətlə yanaşı və bərabər mövcud olur. Fəlsəfi planda və aspektdə həmin faktiki münasibət məzmun kimi çıxış edir. Xüsusi ideoloji münasibət isə bu məzmunun təzahür forması, ifadə forması kimi özünü göstərir. Axı məzmun forma vasitəsilə təzahür edir, ifadə olunur. Konkret misal göstərməklə bu məsələləri aydınlaşdırmaq olar. Məsələn, satıcı alıcıya televizor satır. Bu, alqı-satqı münasibətidir. Özü də faktiki-real ictimai münasibətdir. Bu, məzmundur. Satıcı ilə alıcı arasındakı faktiki münasibəti hüquqi cəhətdən rəsmiləşdirmək, yəni ona müəyyən hüquqi forma vermək üçün alqı-satqı müqaviləsi bağlanılır. Bax, bu müqavilə məzmunun, yəni faktiki-real ictimai münasibətin (alqı-satqı münasibətinin) hüquqi formasıdır. Daha doğrusu, bu müqavilə (sənəd) xüsusi ideoloji münasibət mənasında mülki hüquq münasibətidir. Alqı-satqı hüquq münasibəti alqı-satqı müqaviləsi (sənəd) deməkdir.

İkinci mənada mülki hüquq münasibəti **mülki hüquq normaları ilə tənzimlənən faktiki-real ictimai münasibətin özü (yəni məzmun) deməkdir**[1]. Bu baxımdan o, maddi (iqtisadi) məzmunla hüquqi formanın vəhdətini və birliyini ifadə edir. Məsələn, yuxarıdakı misalda alqı-satqı hüquq münasibəti dedikdə, alqı-satqı münasibəti (maddi məzmun) ilə alqı-satqı müqaviləsinin (hüquqi formanın) vəhdəti başa düşülür. Biz mülki hüquq münasibətinə məhz bu nöqteyi-nəzərdən yanaşmalıyıq. Belə ki, dialektik materializm fəlsəfəsi məzmun və formanın dialektik vəhdətdə olmasını göstərir. Fəlsəfə öyrədir ki, «formasız məzmunun olması mümkün deyil»[2] və əksinə, məzmunsuz forma təsəvvürolunmazdır. Forma «məzmunlu forma», «canlı, real məzmunun forması» olmalıdır[3]. Ona görə də müasir sivilistika elmi və təcrübəsi həsab edir ki, **mülki hüquq münasibətlərinə maddi məzmunla hüquqi formanın vəhdəti kimi baxmaq lazımdır.** Hüquqi formaya (məsələn, yuxandakı misalda alqı-satqı müqaviləsinə) maddi (iqtisadi) məzmundan (yəni yuxarıdakı misalda alqı-satqı münasibətindən, faktiki-real ictimai münasibətdən) təcrid olunmuş və ayrılmış halda yanaşmaq olmaz.

Mürəkkəb kateqoriya olan mülki hüquq münasibətinin özünün müəyyən strukturu (quruluşu) vardır. **Mülki hüquq münasibətinin strukturu (quruluşu)** dedikdə, onun hansı elementlərdən ibarət olması başa düşülür. O, belə bir suala cavab verir: **mülki hüquq münasibəti əsasən hansı elementlərdən təşkil olunmuşdur?**

Mülki hüquq münasibətləri, hər bir hüquq münasibəti kimi, quruluşca üç əsas və vacib elementdən ibarətdir[4]:

---

[1] bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 653; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 83.

[2] *И.В.Сталин*. Соч. Том 1, с. 327.

[3] *В.И.Ленин*. Философские тетради. М., 1934, с. 93.

[4] Bəzi müəlliflər mülki hüquq münasibətinin üç elementdən (subyekt, məzmun və obyektdən) ibarət olmasını göstərirlər (məsələn, bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 66; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 40; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 90; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 231-239). Prof. N.D.Yeqorev bu üç elementdən başqa, formanı da mülki hüquq münasibətinin quruluşuna aid edir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 82). Mülki hüquq münasibətinin quruluşca dörd elementdən (subyektdən, subyektiv hüquqdan, hüquqi vəzifədən, obyektdən) ibarət olması fikrini irəli sürən müəlliflərə də rast gəlmək olur (bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 549; Теория государство и право. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 514; *Xropanyuk V.N.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, s. 150).

• mülki hüquq münasibətinin subyekt tərkibindən;
• mülki hüquq münasibətinin məzmunundan;
• mülki hüquq münasibətinin obyekt tərkibindən.

Elementlər mülki hüquq münasibətlərinin əsl mənada hüquqi xarakteristikasını müəyyənləşdirməyə imkan verir. Onları təhlil etmək elə mülki hüquq münasibətini təhlil etmək deməkdir. Elementlər bu münasibətin mahiyyətini dərk etməyə və başa düşməyə kömək edir.

Mülki hüquq münasibətinin subyekt tərkibi dedikdə, bu münasibətlərdə iştirak edən şəxslərin məcmusu başa düşülür. Onlar subyektiv hüquqlara malik olub, hüquqi vəzifələr daşıyırlar. Hər bir mülki hüquq münasibətində ən azı iki şəxs (subyekt) iştirak edir. Bu münasibət də məhz onlar arasında əmələ gəlir. Əgər əlaqə ən azı iki şəxs (subyekt) arasında yaranmazsa, onda ictimai münasıbətin, həmçinin bununla da hüquq münasibətinin əmələ gəlməsindən söhbət gedə bilməz. Məsələn, alqı-satqı hüquq münasibətində alıcı-satıcı, daşıma hüquq münasibətində daşıyıcı - yük göndərən, kirayə hüquq münasibətində kirayə verən - kirayəçi və s. həmin münasibətlərdə iştirak edən subyektlərdir.

Mülki hüquq münasibətinin məzmunu çoxcəhətli anlayışdır. O, üç mənada işlədilir:
• mülki hüquq münasibətinin maddi məzmunu;
• mülki hüquq münasibətinin ideoloji məzmunu;
• mülki hüquq münasibətinin hüquqi məzmunu[1].

Mülki hüquq münasibətinin maddi məzmunu dedikdə, bu münasibətin ifadə etdiyi real, yəni faktiki ictimai münasibətin özü başa düşülür. Ona **faktiki məzmun** da deyilir. Məsələn, yuxarıda misal çəkdiyimiz alqı-satqı hüquq münasibətində alqı-satqı münasibəti (alıcı ilə satıcı arasında əmələ gələn münasibət) həmin münasibətin maddi və ya faktiki məzmununu təşkil edir. Daşıma hüquq münasibətində daşıyıcı ilə yük göndərən arasında əmələ gələn real-faktiki ictimai münasibət onun maddi məzmunu deməkdir. Bu münasibətlər hüquqi cəhətdən rəsmiləşdirilərək, ona mülki hüquq normaları vasitəsi ilə hüquqi forma verilərək itmir. Axı, o, fəlsəfi planda məzmundur. Bu münasibətlər yalnız müəyyən hüquqi forma alır, yəni hüquqi formada təzahür edir, ifadə olunur.

Mülki hüquq münasibətinin ideoloji məzmunu dedikdə, iradəvi məzmun başa düşülür. Dövlətin və subyektlərin iradələri mülki hüquq münasibətinin iradəvi məzmununu təşkil edir. Bildiyimiz kimi, dövlət iradəsi hüquq normalarında ifadə olunur. Bu normalar onların müəyyənləşdirdiyi hüquq münasibətləri vasitəsi ilə həyata keçirilir. Həmin münasibətlər də, söz yox ki, dövlət iradəsini əks etdirir. İkinci tərəfdən, hüquq münasibətlərində bu münasibətlərdə iştirak edən subyektlərin fərdi, şəxsi iradəsi də ifadə olunur.

Mülki hüquq münasibətinin ideoloji məzmunu onunla şərtlənir ki, o, ideoloji münasibətdir. İdeoloji münasibət isə həmişə iradəvi xarakterə malikdir.

Mülki hüquq münasibətinin hüquqi məzmunu dedikdə, bu münasibətin yaranmasına dəlalət edən mülki hüquq və vəzifələr başa düşülür[1]. Məsələn, götürək elə borc hüquq münasibətini. Burada borc verən borcun qaytarılmasını tələb etmək hüququna malikdir. Borc alan isə aldığı borcu vaxtında qaytarmaq kimi vəzifə daşıyır. Borc verənin hüququ və borc alanın vəzifəsi borc hüquq münasibətinin hüquqi məzmununu təşkil edir. Daşıma hüquq münasibətində daşıyıcının yükün daşınmasına görə daşıma haqqı almaq hüququ vardır. O, həm də yükü vaxtında təyinat yerinə çatdırmaq vəzifəsi daşıyır. Yük göndərən isə yükün təyinat məntəqəsinə çatdırılmasını tələb etmək hüququna malikdir. Onun həm də daşıma haqqını ödəmək kimi vəzifəsi vardır. Daşıyıcı və yük göndərənin hüquq və vəzifələri daşıma hüquq münasibətinin hüquqi məzmununu təşkil edir.

Mülki hüquq elmini, təbii ki, mülki hüquq münasibətinin hüquqi məzmunu maraqlandırır. Ona görə ki, mülki hüquq münasibətlərinin məzmununu təşkil edən mülki hüquq və vəzifələr bu münasibətlərdə iştirak edən subyektləri bir-biri ilə bağlayır və onlar arasında əlaqə yaradır. Ona görə ki, həmin hüquq və vəzifələr mülki hüquq normaları ilə tənzimlənir.

Mülki hüquq münasibətinin hüquqi məzmunu müəyyən struktura malikdir. **Mülki hüquq münasibətinin hüquqi məzmununun strukturu (quruluşu)** dedikdə, bu məzmunun hansı elementlərdən ibarət olması və həmin elementlər arasında əlaqənin necə qurulması başa düşülür. O, iki elementdən ibarətdir:
• subyektiv hüquqdan;
• hüquqi vəzifədən.

Bax, bu iki element mülki hüquq münasibətinin hüquqi məzmununu yaradır. Mülki hüquq münasibətində iştirak edən subyektlərdən biri hüquqa malikdir, digər tərəfin üzərinə isə müəyyən vəzifə düşür. Özü də bir tərəfin müəyyən hərəkətlərin edilməsini tələb etmək hüququ digər tərəfin bu hərəkətləri etmək vəzifəsinə uyğundur. Hüquq vardırsa, onda hökmən ona uyğun gələn vəzifə də vardır və ya əksinə, harada ki vəzifə vardır, orada mütləq həmin vəzifəyə uyğun gələn hüquq da yaranır. Ona görə ki, «hüquqlarsız vəzifələr olmadığı kimi, vəzifələrsiz də hüquqlar yoxdur» (K.Marks). Məsələn, vətəndaş öz qonşusunun ot tayasını yandırır. Bununla onlar arasında mülki hüquq münasibəti yaranır. Bu, ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlik (hüquq münasibəti), yəni delikt öhdəliyi adlanır. Bu hüquq münasibətinə görə, vətəndaşın (zərərvuranın) üzərinə qonşusuna (zərərçəkənə) vurduğu zərərin əvəzini ödəmək vəzifəsi düşür. Bu münasibətin digər iştirakçısı olan qonşu isə hüquqa malikdir. Belə ki, qonşunun ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Onun bu hüququna digər tərəfin daşıdığı vəzifə uyğun gəlir.

[1] bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 665-666; Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 514.

[1] Müəlliflərdən M.M.Agarkov (*М.М.Агарков*. Обязательство по советскому гражданскому праву. М., 1940, с. 22-23), D.M.Genkin (Гражданское право. Учебник. Часть 1 / Под ред. *М.М.Агаркова и Д.М.Генкина*. М., 1944. Глава о правоотношении), V.P.Mozolin (О гражданско-процессуальном правоотношении // Советское государство и право. 1955. № 6, с. 52) bu barədə başqa mövqedə dururdular. Onların fikrinca, hüquq münasibətlərinin məzmununu bu münasibətlərdə iştirak edən subyektlərin davranışı təşkil edir. V.P.Mozolin göstərirdi ki, adamların hərəkəti, istisnasız olaraq, bütün hallarda ictimai münasibətin məzmununu təşkil edir. Bu cür fikirlər həqiqətdən uzaqdır. Yəni gəlmişkən, D.M.Genkin sonralar öz səhvini düzəldərək göstərmişdir ki, hüquq münasibətinin məzmunu subyektlərin hüquq və vəzifələrindən ibarətdir (bax: Гражданское право. Учебник. Часть 1. М., 1951, с. 106, 109).

Mülki hüquq münasibətinin obyekti odur ki, məhz onun barəsində həmin münasibət yaranır. Məhz obyekt barəsində və haqqında mülki hüququn subyektləri bir-biri ilə hüquq münasibətinə girirlər. Obyekt və subyekt — bunlar cüt kateqoriyalardır[1].

Hər bir mülki hüquq münasibətinin özünəməxsus obyekti vardır. Başqa sözlə desək, hər bir obyektə müəyyən növ mülki hüquq münasibəti uyğundur. Məsələn, mülkiyyət hüquq münasibətlərinin obyekti əşyalardan ibarətdir. Mülki hüquq münasibətinin digər növü olan öhdəlik hüquq münasibətlərində obyekt rolunda subyektin hərəkəti çıxış edir. Bunlar onu göstərir ki, mülki hüquq münasibətlərinin obyektləri çoxnövlüdür.

Obyektsiz mülki hüquq münasibəti ola bilməz. Əgər obyekt yoxdursa, onda mülki hüquq münasibətinin mövcudluğundan söhbət gedə bilməz. Ona görə ki, obyekt mülki hüquq münasibətinin strukturuna (quruluşuna) daxil olan elementlərdən biridir.

Hüquq və vəzifələr kimi elementlər yalnız hüquq münasibətləri üçün xarakterikdir. Digər ictimai münasibətlərə bu cür elementlər yaddır. Məhz həmin elementlər hüquq münasibətlərinə xüsusi xarakter verir.

3. Mülki hüquq münasibətlərinin xüsusiyyətləri

Mülki hüquq münasibəti hüquq münasibətinin bir növüdür. Ona görə də hüquq münasibətinin əsas cəhətləri mülki hüquq münasibətinə də şamil edilir. Bununla belə, mülki hüquq münasibəti özünəməxsus spesifik xüsusiyyət və əlamətlərə malikdir. Bu xüsusiyyət və əlamətlər onu hüquq münasibətinin digər növlərindən fərqləndirməyə imkan verir. Onlar mülki hüququn özünün xarakterik xüsusiyyətləri ilə şərtlənir.

Mülki hüquq münasibətlərinin ən **birinci xüsusiyyəti** ondan ibarətdir ki, bu münasibətlərdə iştirak edən **subyektlər hüquq bərabərliyinə malikdirlər.** Bu subyektlər arasında hakimiyyət-tabeçilik, inzibati-asılılıq münasibətləri yoxdur. Onlar həm əmlak, həm də təşkilati cəhətdən bir-birindən ayrılmışdırlar. Bu hal mülki hüquq münasibəti iştirakçılarının müstəqil olmalarına, bir-birindən asılı olmamalarına dəlalət edir. Məsələn, alqı-satqı, podrat, daşıma, sığorta, borc, kredit, icarə, kirayə və digər hüquq münasibətlərində iştirak edən subyektlər hüquq bərabərliyinə malik olub, müstəqildirlər, bir-birindən asılı deyillər, iradə sərbəstliyinə malikdirlər. Onlar arasında subordinasiya (tabeçilik) münasibətləri mövcud deyil.

[1] Xarici ələmin hansı hadisələrinin hüquq münasibətinin obyekti rolunda çıxış etməsi hüquq elmində ən kəskin diskussiya doğuran məsələlərdən biridir. Bu diskussiyalar barədə geniş təfsilatı ilə məlumat almaq üçün bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949, с. 581-604; *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении. Л., 1957, с. 673 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000; *Халфина Р.О.* Общее учение о правоотношении. М., 1974, с. 212-217; *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993, с. 100; *Толстой Ю.К.* К теории правоотношений. Л., 1959, с. 53-54. Müəlliflərdən bəzisi göstərir ki, hüquq ədəbiyyatında guya mülki hüquq münasibətinin obyekti anlayışı mübahisəlidir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 90). Bu fikirlə çətin ki razılaşmaq olar. Ona görə ki, müəlliflərin, demək olar ki, hamısı hüquq münasibətinin obyektinə eyni anlayış verirlər. Bu məsələ mübahisə doğurmur. Mübahisə doğuran hüquq münasibəti obyektlərinin təsnifi məsələsidir.

Özü də mülki hüquq münasibəti iştirakçılarından birinin vəzifə daşıması onun digər tərəfə tabe olmasını ifadə etmir. Bu vəzifə digər tərəfin malik olduğu konkret hüquqa (müəyyən hərəkətin edilməsini tələb etmək hüququna) uyğun gəlir. Məsələn, alqı-satqı hüquq münasibətində alıcının vəzifəsi aldığı əşyanın qiymətini ödəməkdən ibarətdir. Bu vəzifə satıcının əşyanın pulunun ödənilməsini tələb etmək hüququna uyğundur. Deməli, vəzifə daşımaq tabeçiliyi ifadə etmir. O, hüquqla birlikdə mülki hüquq münasibətlərinə girən subyektləri bir-biri ilə əlaqələndirir, bağlayır.

Mülki hüquq münasibətlərinin **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, bu münasibətlərdə iştirak edən **subyektlərin əhatə dairəsi həddən ziyadə genişdir.** Biz burada hüququn mümkün olan bütün subyektlərinin iştirak etməsinə rast gəlirik. Mülki hüquq münasibətlərində müxtəlif kateqoriya subyektlər — Azərbaycan Respublikasının vətəndaşları, xarici ölkə vətəndaşları, vətəndaşlığı olmayan şəxslər, firmalar, müəssisələr, təşkilatlar, idarələr, müxtəlif təsərrüfat subyektləri, dövlət, bələdiyyələr və s. çıxış edirlər. Demək olar ki, digər növ hüquq münasibətlərində iştirak edən subyektlərin əhatə dairəsi bu subyektlərin əhatə dairəsindən geniş və çoxsaylı ola bilməz. Aydın bir həqiqətdir ki, mülki hüquq münasibətlərində son dərəcə zəngin, olduqca rəngarəng, kifayət qədər çoxsaylı və müxtəlif subyekt kateqoriyası çıxış edir.

Mülki hüquq münasibətlərinin **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, bu münasibətlərdə **obyekt rolunda çıxış edən nemətlərin sayı kifayət qədər çoxdur.** Bu münasibətlər obyektlərin çoxsaylı olması ilə xarakterizə olunur. Biz maddi nemətlərin, əşyaların, pulun, qiymətli kağızların, işlərin, xidmətlərin, əqli mülkiyyət obyektlərinin (yaradıcılıq fəaliyyətinin nəticələrinin), informasiyasının mülki hüquq münasibətinin obyektləri olmasının tez-tez şahidi oluruq. Heç bir digər hüquq münasibətinin obyektləri bu qədər çoxsaylı ola bilməz.

Mülki hüquq münasibətlərinin **dördüncü xüsusiyyəti** ondan ibarətdir ki, bu münasibətlərin həyata keçirilməsi üçün **hüquqi təminat kimi əmlak xarakterli mülki-hüquqi sanksiyalar müəyyənləşdirilir və nəzərdə tutulur.** Söhbət mülki-hüquqi sanksiyaların müdafiə tədbirləri və məsuliyyət tədbirləri kimi iki növündən gedir. Xüsusən məsuliyyət tədbirləri geniş səviyyədə tətbiq edilir. Zərərin əvəzinin ödənilməsi və dəbbə pulu (cərimə, penya) alınması mülki hüquq münasibətlərinin həyata keçirilməsində mühüm rol oynayır. Məsələn, daşıma, icarə, kredit, podrat və digər hüquq münasibətlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə tərəflər müqavilədə dəbbə pulu (cərimə, penya) alınması barədə razılığa gələ bilərlər. Özü də mülki-hüquqi məsuliyyət tədbirləri üçün kompensasiya və bərpa etmək kimi iki funksiya xarakterikdir. Onlar mülki-hüquqi məsuliyyətin əsas və başlıca funksiyalarıdır.

Mülki hüquq münasibətlərinin **beşinci xüsuiyyəti** ondan ibarətdir ki, bu münasibətlər **qanunvericilikdə nəzərdə tutulmayan, lakin qanunvericiliyə zidd olmayan müqavilələrdən və digər əqdlərdən də yarana bilər** (MM-in 14-cü maddəsi). Mülki hüquq münasibətləri əsasən mülki-hüquqi müqavilələrdən əmələ gəlir ki, bu müqavilələrin hüquqi parametrləri MM-də göstərilmişdir. Bu münasibətlərin MM-də və digər mülki qanunvericilik aktlarında nəzərdə tutulmayan müqavilələr əsasında yaranması istisna edilmir. Məsələn, bizim mülki qanunvericilik xidmət (məsələn, vəkil xidməti, həkim xidməti, audit xidməti,

məsləhət xidməti və s.) göstərilməsi üzrə müqavilə növü tanımır. Amma buna baxmayaraq, həmin müqavilənin bağlanması mümkündür. Bu müqavilədən əmələ gələn hüquq münasibətlərinin əhəmiyyəti olacaqdır.

Mülki hüquq münasibətlərinin **altıncı xüsusiyyəti** ondan ibarətdir ki, bu münasibətlər **analogiya əsasında da yarana bilər.** Söhbət hüququn analogiyasından və qanunun analogiyasından gedir.

Mülki hüquq münasibətlərinin **yeddinci xüsusiyyəti** ondan ibarətdir ki, bu münasibətlərdə iştirak edən subyektlər **vəsiyyət sərəncamı etmək ixtiyarına malikdirlər**. Belə ki, mülkiyyət hüquq münasibətinin subyekti olan şəxs öz əmlakını istənilən şəxsə vəsiyyət edə bilər. Digər hər hansı bir hüquq sahəsi öz subyektlərinə bu cür imkan vermir.

§ 2. Mülki hüquq münasibətlərinin subyekt və obyektləri

1. Mülki hüquq münasibətlərinin subyektləri

Mülki hüquq münasibətlərinin subyektləri (latınca — sybjectum) bu münasibətlərdə çıxış edən iştirakçılardır[1]. Həmin münasibətlər ən azı iki subyekt arasında yaranır. Bu subyektlər mülki hüquq normalarına müvafiq olaraq subyektiv hüquq və vəzifələrin daşıyıcısıdırlar. Onlar qarşılıqlı hüquq və vəzifələrə malikdirlər.

Mülki hüquq münasibətlərində çıxış edən **subyektlərdən birinin hüquqları vardır.** Bu subyektə **səlahiyyətli şəxs** deyilir. Məsələn, bank əmanəti hüquq münasibətində öz sərbəst pul vəsaitini banka əmanətə qoyan vətəndaş (əmanətçi) səlahiyyətli şəxs hesab olunur. Ona görə ki, onun əmanətin verilməsini bankdan tələb etmək hüququ vardır. Başqa bir misalda delikt hüquq münasibətində (ziyan vurmaq nəticəsində əmələ gələn münasibətdə) zərərçəkən vətəndaş səlahiyyətli şəxs sayılır. Ona görə ki, o, zərərin əvəzinin ödənilməsini zərərvuran vətəndaşdan tələb etmək hüququna malikdir.

Mülki hüquq münasibətlərində çıxış edən **subyektlərdən digəri vəzifə daşıyır.** Bu subyektin üzərinə müəyyən hüquqi vəzifə düşür. O, həmin vəzifəni icra etməyə borcludur. Buna görə də həmin subyekt **borclu şəxs** adlanır. Məsələn, yuxarıda misal çəkdiyimiz bank əmanəti hüquq münasibətində bank, delikt hüquq münasibətində isə zərərvuran vətəndaş borclu şəxs hesab edilir. Ona görə ki, bank müəssisəsi əmanəti qaytarmaq kimi, zərərvuran vətəndaş isə vurulan zərərin əvəzini ödəmək kimi vəzifə daşıyır.

Elə mülki hüquq münasibətləri də vardır ki, bu münasibətlərdə iştirak edən **subyektlərdən hər biri eyni vaxtda və zamanda həm səlahiyyətli şəxs, həm də borclu şəxs sayılır.** Məsələn, alqı-satqı hüquq münasibətində satıcı səlahiyyətli şəxs hesab edilir. Ona görə ki, o, satdığı əşyanın pulunun ödənilməsini tələb etmək hüququna malikdir. Bununla bərabər, satıcı həm də borclu şəxs sayılır. Çünki onun üzərinə alqı-satqı müqaviləsində nəzərdə tutulan əşyanı alıcıya vermək vəzifəsi düşür. Alıcı borclu şəxsdir. Ona görə ki, o, satın aldığı əşyanın pulunu ödəmək vəzifəsini daşıyır. Alıcı həm də səlahiyyətli şəxsdir. Çünki o, alqı-satqı müqaviləsində nəzərdə tutulan əşyanın verilməsini satıcıdan tələb etmək hüququna malikdir. Deməli, satıcı eyni zamanda həm səlahiyyətli şəxs, həm də borclu şəxsdir. Alıcı da eyni vaxtda həm borclu, həm də səlahiyyətli şəxs hesab edilir. Bu sözləri icarə, kirayə, daşıma, podrat, kredit, borc və digər hüquq münasibətlərində iştirak edən subyektlər barədə də demək olar. Əksər mülki hüquq münasibətlərində səlahiyyətli şəxs eyni zamanda borclu şəxsdir, borclu şəxs isə eyni vaxtda səlahiyyətli şəxsdir.

Mülki hüquq münasibətlərinin bəzi növlərində səlahiyyətli şəxs və borclu şəxs başqa adla əvəz oluna bilər. Söhbət öhdəlik hüquq münasibətlərindən (məsələn, alqı-satqı, icarə, kirayə, daşıma, kredit, delikt və s. hüquq münasibətlərindən) gedir. Bu münasibətlərdə səlahiyyətli şəxs **kreditor** (latınca creditor — borc verən), borclu şəxs isə **debitor** (latınca debitor — borcu olan) adlanır[1].

Mülki hüquq münasibətlərində çıxış edən səlahiyyətli şəxs borclu şəxsə qarşı durur. Onların biri olmadan digəri bu münasibətlərdə subyekt kimi iştirak edə bilməz. Bir qayda olaraq, adətən, həm səlahiyyətli şəxs, həm də borclu şəxs tərəfində bir subyekt çıxış edir, yəni hüquq münasibətində bir səlahiyyətli şəxsə qarşı bir borclu şəxs durur. Məsələn, bank müəssisəyə kredit verirsə, onda burada bir səlahiyyətli və bir borclu şəxs iştirak edir.

Elə mülki hüquq münasibətləri də vardır ki, **bu münasibətlərdə həm səlahiyyətli şəxs tərəfində, həm də borclu şəxs tərəfində bir yox, bir neçə subyekt iştirak edir.** Belə halda münasibətlər mürəkkəb xarakter alır. Məsələn, yaşayış evi vərəsəlik yolu ilə atadan dörd qardaşa keçir. Bu qardaşlar həmin evi ər-arvada satırlar. Başqa bir misalda üç nəfər vətəndaş ümumi mülkiyyət hüququ əsasında beş nəfər vətəndaşa məxsus olan əmlakı yandırır və bununla onlar arasında delikt hüquq münasibəti əmələ gəlir.

Bəzi hüquq münasibətlərində borclu şəxs tərəfində əhatə dairəsi müəyyən edilməyən, yəni qeyri-müəyyən saylı borclu şəxslər çıxış edə bilərlər. Məsələn, mülkiyyət hüquq münasibətlərində belədir. Elə götürək müəlliflik hüquq münasibətlərini. Burada əsərin müəllifi (əsərə müəlliflik hüququnun subyekti) səlahiyyətli şəxsdir. Ona qarşı qeyri-müəyyən saylı, əhatə dairəsi bilinməyən borclu şəxslər dururlar: onlar müəllifin hüquqlarını pozmamaq kimi vəzifə daşıyırlar.

Səlahiyyətli şəxs və borclu şəxs mülki hüquq münasibətinin **tərəfləri** adlanır. Hər bir tərəfi, bir az əvvəldə qeyd etdiyimiz kimi, bir və ya bir neçə subyekt təmsil edə bilər. Müqavilə hüquq münasibətlərində tərəflərdən biri (qarşı tərəf) **kontragent** (lat. contrakens — razılığa gələn, müqavilə bağlayan) adlanır. Məsələn, alqı-satqı hüquq münasibətində alıcı kontragent hesab edilir və ya alıcıya qarşı duran satıcı kontragent sayılır və s.

Belə bir fikri söyləmək yersiz və artıqdır ki, mülki hüquq münasibətlərinin subyekti yalnız insanlar və ya insanların birliyinə əsaslanan qrupu (qurumu) ola bilər. Heyvanların bu münasibətlərdə subyekt qismində iştirak etməsi, istisnasız olaraq, mümkün deyil. Onlar mülki hüquq münasibətlərinin obyekti ola bilər. Məsələn, heyvanların alqı-satqı müqaviləsinin obyekti (predmeti) olması-

[1] Fəlsəfədə də subyekte anlayış verilir. Fəlsəfi nöqteyi-nəzərdən subyekt dedikdə şüura, düşüncəyə və iradəyə malik olan varlıq başa düşülür (bax: Краткий философский словарь / Под ред. *М.Розенталя и П.Юдина*. М., 1952, с. 506). Mülki hüquq elmində subyekt anlayışı tez-tez işlədilir. Amma hüquqi baxımdan onun öz spesifik cəhətləri vardır.

[1] Словарь иностранных слов. М., 1985, с. 148, с. 259.

nı mülki qanunvericilik ayrıca olaraq nəzərdə tutur (MM-in 608-613-cü maddələri). Bundan əlavə, mülki qanunvericilikdə heyvanlarla bağlı münasibətləri təznimləyən bir sıra normalar ifadə olunmuşdur. Məsələn, MM-in 192-ci maddəsi nəzarətsiz heyvanlarla əlaqədar məsələləri nizama salır. MM-in 135-ci maddəsinin 3-cü bəndində heyvanların əşya olması, onların hüquqi vəziyyətinin xüsusi qanunlarla müəyyənləşdirilməsi, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, əşyaların hüquqi rejiminin heyvanlara şamil edilməsi barədə göstəriş ifadə edilir.

Bununla belə, heyvanlar bəzi ölkələrdə «hüquq münasibətlərinin iştirakçısı» ola bilər. Məsələn, mətbuatın verdiyi məlumata görə, ABŞ-da heyvanlar «hüququn subyekti» kimi çıxış edə, «vərəsə» ola bilər və s[1]. Hələ inqilabaqədərki hüquq ədəbiyyatında müəlliflərdən L.Petrajitski at, ev itinin hüquq münasibətlərində iştirak etməsinin mümkünlüyü barədə fikir irəli sürürdü. O, göstərirdi ki, bu münasibətlərə görə heyvanın sahibləri heyvanlardan müəyyən işləri yerinə yetirməyi və ona qulaq asmağı tələb etmək, heyvanlar isə öz sahiblərindən onlarla lazımi qaydada davranmağı tələb etmək hüququna malikdir.

Mülki hüquq münasibətlərində iştirak edən subyektləri iki yerə bölmək olar:

- fərdi subyektlər;
- kollektiv subyektlər.

Fərdi subyektlər dedikdə, mülki hüquq münasibətlərində subyekt qismində çıxış edən fiziki şəxslər başa düşülür. Fiziki şəxslər kateqoriyasına aiddir:

- Azərbaycan Respublikasının vətəndaşları;
- xarici ölkə vətəndaşları (əcnəbilər);
- vətəndaşlığı olmayan şəxslər (apatridlər);
- ikiqat vətəndaşlığı olan şəxslər (bipatridlər)[2].

Mülki hüquq münasibətlərində subyekt qismində çıxış edən fiziki şəxslərin mütləq əksəriyyətini **Azərbaycan Respublikasının vətəndaşları** təşkil edirlər. Vətəndaşlıq Azərbaycan Respublikasının «Vətəndaşlıq haqqında» qanunu ilə müəyyən edilir.

Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan **əcnəbilər, apatridlər və bipatridlər** ölkəmizin vətəndaşlarının istifadə etdiyi mülki hüquqlardan istifadə edirlər. Qanun onlara geniş əmlak və şəxsi qeyri-əmlak hüquqları verir. Həmin şəxslər öz istək və mülahizələrinə görə istənilən hər hansı mülki hüquq münasibətinə girə və bu münasibətdə subyekt rolunda çıxış edə bilərlər. Amma bir şərtlə ki, qanun bunu qadağan etməsin. Əgər qanun qadağan edərsə, onda onlar mülki hüquq münasibətlərində subyekt qismində iştirak edə bilməzlər. Məsələn, əcnəbilərin və apatridlərin Azərbaycan Respublikasında torpağın mülkiyyətçisi olması yolverilməzdir[3].

Kollektiv subyektlər odur ki, onlar daimi qurumlar olub, vahid iradə və məqsədlə, habelə müəyyən daxili təşkilati quruluşla xarakterizə edilir. Bu subyektlər insanların birliyinə əsaslanan qruplarda birləşməsidir. Mülki hüquq münasibətlərinin kollektiv subyektlərinə aiddir:

- Azərbaycan Respublikası (dövlət);
- yerli özünüidarə orqanları (bələdiyyələr)[1];
- hüquqi şəxslər.

Dövlətin (Azərbaycan Respublikasının) iştirakçısı olduğu mülki hüquq münasibətləri müxtəlifdir. O, mülkiyyət, öhdəlik, vərəsəlik və digər hüquq münasibətlərində çıxış edə bilər. Dövlət mülki hüququn **xüsusi və spesifik xarakterli subyekti** hesab olunur. O, mülki hüquq münasibətlərində dövlət hakimiyyət orqanlarının vasitəsilə çıxış edir.

Dövlət hakimiyyət orqanları dedikdə, qanunverici, icra və məhkəmə hakimiyyət orqanları başa düşülür. Bir qayda olaraq, həmin orqanlar dövləti (Azərbaycan Respublikasını) təmsil edir. Məsələn, İqtisadi İnkişaf Nazirliyi icarə hüquq münasibətlərində dövlət adından çıxış edir. Belə ki, o, daşınmaz dövlət əmlakı icarəyə verilərkən dövlət adından icra müqavilələrini bağlayır. Bundan əlavə, dövlət hakimiyyət orqanları fiziki və ya hüquqi şəxslərə vurduqları zərərin əvəzinin ödənilməsi ilə bağlı yaranan delikt hüquq münasibətlərində iştirak edir (MM-in 1100-cü maddəsi).

Yerli özünüidarə orqanları (bələdiyyələr) da mülki hüquq münasibətlərində subyekt qismində iştirak edə bilər. Bələdiyyələr xüsusən mülkiyyət hüquq münasibətlərin ən fəal iştirakçılarından biridir. Onlar fiziki və ya hüquqi şəxslərə vurduqları zərərin əvəzinin ödənilməsi ilə əlaqədar yaranan delikt hüquq münasibətlərində iştirak edir (MM-in 1100-cü maddəsi).

Hüquqi şəxslər mülki hüquq münasibətlərində subyekt rolunda çıxış edən ən fəal subyektdir. Əmtəə istehsalına və təsərrüfatına əsaslanan mülki (əmlak) dövriyyəni, cəmiyyətin müasir həyatını hüquqi şəxslərsiz təsəvvür etmək qeyri-mümkündür. Hüquqi şəxslər elə bir subyektdir ki, onlar məhz xüsusi olaraq mülki dövriyyədə iştirak etmək məqsədi ilə yaradılmışdır. Onların subyekt kimi çıxış etdiyi mülki hüquq münasibətlərinin əhatə dairəsi kifayət qədər genişdir.

Hüquqi şəxslər insanların sadəcə olaraq birliyi, qrupu, ittifaqı, ümumiliyə əsaslanan qurumu deyildir. Onları insanların təsadüfi, müvəqqəti birliyi də hesab etmək olmaz. Hüquqi şəxslər əhəmiyyətli, möhkəm və daimi olan elə qurumdur ki, onlar məqsəd və iradənin vəhdəti, təşkilati quruluşun vahidliyi ilə xarakterizə olunur. Ailə ittifaqı, istehsal briqadaları, təhsil qurumları və insanların digər birlik və kollektivləri bu cür xüsusiyyətdən məhrum olduğuna görə hüquqi şəxs hesab edilmir və bunun üçün də mülki hüquq münasibətlərində iştirak edən subyekt kimi tanınmır.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olub-olmamasına görə mülki hüquq münasibətlərinin subyektləri iki cür olur:

- sahibkar statuslu subyektlər;

[1] bax: Тяжбу выграл пес // Советская Россия. 1990. 5 марта. Собачья жизнь по наследству // Российская газета. 1998. 5 июня.

[2] Qanun fiziki şəxslər anlayışına bipatridləri daxil etmir (MM-in 24-cü maddəsinin 2-ci bəndi). Amma qanunun bu göstərişini hərfi mənada yox, genişləndirici mənada başa düşmək lazımdır.

[3] bax: «Torpaq islahatı haqqında» qanun (AR QK, III cild); Torpaq Məcəlləsinin 48-ci maddəsinə (AR QK, III xüsusi buraxılış, s. 817).

[1] Mülki hüquq münasibətlərində iştirak edən kollektiv subyektlər kateqoriyasını ilk dəfə olaraq S.N.Bratus fərqləndirmişdir (bax: *С.Н.Братусь.* Юридические лица в советском гражданском праве. М., 1947. Курс гражданского права. Субъекты гражданского права. М., 1950; Советское гражданское право. Субъекты гражданского права / Под ред. *С.Н.Братуся.* М., 1984).

• qeyri-sahibkar statuslu subyektlər.

Mülki hüquq münasibətlərinin sahibkar statuslu subyektləri odur ki, onlar mənfəət əldə etmək məqsədi ilə müstəqil surətdə, öz riskləri əsasında əmlakdan istifadə edirlər, əmtəə (mal) satırlar, işlər görürlər və ya xidmətlər göstərirlər, yəni bir sözlə, sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Bu cür subyektlərə hüquqi şəxslərin kommersiya təşkilatlarını (tam şərikli müəssisələri, məhdud məsuliyyətli cəmiyyətləri, səhmdar cəmiyyətlərini və s.), habelə sahibkar statuslu vətəndaşları (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsləri) misal göstərmək olar.

Mülki hüquq münasibətlərinin qeyri-sahibkar statuslu subyektləri odur ki, onlar, bir qayda olaraq, sahibkarlıq fəaliyyəti ilə məşğul olmurlar. Bu cür subyektlərə hüquqi şəxslərin qeyri-kommersiya təşkilatlarını (ictimai təşkilatları, əmtəə birjalarını, dini təşkilatları, fondları və s.), habelə istehlakçı vətəndaşları misal göstərmək olar. Bununla belə, qeyri-sahibkar statuslu subyektlər, məsələn, qeyri-kommersiya təşkilatları sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər. Amma bir şərtlə ki, bu fəaliyyət onların qarşısına qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və həmin məqsədlərə uyğun gəlsin (MM-in 43-cü maddəsinin 6-cı bəndi).

Yeri gəlmişkən, «mülki hüququn subyektləri» və «mülki hüquq münasibətlərinin subyektləri» kimi iki anlayış arasındakı münasibətə aydınlıq gətirək. Prinsip etibarilə bunlar eyni mənalı anlayışlardır. Amma bu iki anlayış arasında əlaqənin müəyyən aspektləri və cəhətləri vardır. Belə ki, birincisi, mülki hüququn konkret **hər hansı bir subyekti eyni zamanda bütün hüquq münasibətlərinin subyekti ola bilməz.** İkincisi, elə kateqoriya şəxslər vardır ki, onlar mülki hüququn subyekti kimi tanınır. Amma həmin şəxslər **mülki hüquq münasibətlərinin əksəriyyətində subyekt qismində çıxış edə bilmirlər.** Söhbət yeni doğulanlardan, azyaşlılardan, ruhi xəstələrdən və digər kateqoriya şəxslərdən gedir. Məsələn, 12 yaşlı uşaq mağazaya gedərək, özü üçün dəftər, qələm və kitab alır, yəni xırda məişət xarakterli müqavilə hüquq münasibətinə girir. O, mülki hüququn subyektidir. Lakin həmin uşaq qeyri-xırda məişət xarakterli müqavilə hüquq münasibətlərinə (məsələn, özü üçün yaşayış evi, minik avtomobili almaq üçün alqı-satqı hüquq münasibətinə və s.) girə bilməz. Başqa bir misalda bağ evi vərəsəlik yolu ilə (vəsiyyət qaydasında) babadan 10 yaşlı nəvəyə keçir. Bununla nəvə bağ evi üzərində mülkiyyət hüququ əldə edir. O, mülkiyyətçi kimi mülki hüququn subyekti hesab olunur. Amma nəvə həmin bağ evini müstəqil surətdə sata, bağışlaya, kirayəyə verə, girov qoya, ümumiyyətlə, özgəninkiləşdirə bilməz. Üçüncüsü, **mülki hüququn subyektləri öz hüquqlarını təkcə mülki hüquq münasibətlərində iştirak etməklə həyata keçirmirlər.** Daha doğrusu, mülki hüquq münasibətləri mülki hüquqların həyata keçirilməsinin yeganə forması deyildir.

2. Mülki hüquq münasibətlərinin subyekt tərkibinin dəyişməsi

Bir qayda olaraq, mülki hüquq münasibətləri subyektləri əmələ gəlmiş hüquq və vəzifələri özləri gerçəkləşdirirlər. Belə ki, səlahiyyətli şəxs malik olduğu subyektiv hüquqları, borclu şəxs ilə daşıdığı vəzifələri özləri həyata keçirirlər. Başqa sözlə desək, çox vaxt və əksər hallarda mülki hüquq münasibətləri subyekt tərkibi dəyişmədən realizə olunur. Bəzən də həyatda elə hallar yaranır ki, bu hallar mülki hüquq münasibətlərinin subyekt tərkibinin dəyişilməsini tələb edir və şərtləndirir. Bu cür məqamlarda **köhnə subyekt yeni subyektlə əvəz olunur, mülki hüquq münasibətinin məzmunu isə dəyişmir, sabit qalır.** Daha doğrusu, subyektiv hüququ və ya hüquqi vəzifəni köhnə subyektin əvəzinə, yeni subyekt həyata keçirir.

Mülki hüquq münasibətlərinin subyekt tərkibinin dəyişilməsini şərtləndirən həyat halları kifayət qədər müxtəlifdir. Bu hallara misal olaraq **vətəndaşın ölümünü, hüquqi şəxslərin yenidən təşkil olunmasını, mülki-hüquqi əqdləri** (alqı-satqı, dəyişmə, bağışlama və s. müqavilələri) misal göstərmək olar. Məsələn, borc hüquq münasibətinin subyektləri — borc verən və borc alan qəflətən eyni vaxtda ölürlər. Bu cür halda həmin münasibət ləğv edilmir. Belə vəziyyətdə ölmüş borc verənin borcun qaytarılmasını tələb etmək hüququ onun vərəsəsinə keçir. Ölmüş borc alanın borcu qaytarmaq vəzifəsi də onun vərəsəsinə keçir. Bununla borc hüquq münasibətinin subyekt tərkibi dəyişir, köhnə subyektlərin yerini onların vərəsələri tuturlar. Başqa sözlə desək, subyektlərin hüquq və vəzifələri onlann vərəsələrinə keçir.

Başqa bir misalda müəssisə (məhdud məsuliyyətli cəmiyyət) bankdan kredit alır və onlar arasında kredit hüquq münasibəti yaranır. Məhdud məsuliyyətli cəmiyyət yenidən təşkil olunaraq səhmdar cəmiyyətinə çevrilir. Krediti qaytarmaq vəzifəsi, habelə digər vəzifə və hüquqlar səhmdar cəmiyyətinə keçir. Bununla kredit hüquq münasibətinin subyekt tərkibi dəyişir. Bu dəyişikliyə əsas olan hal isə hüquqi şəxsin (məhdud məsuliyyətli cəmiyyətin) yenidən təşkil olunmasıdır.

Daha bir misalda sifarişçi haqqını əvvəlcədən ödəyib özünə bağ evi tikdirmək barədə tikinti təşkilatı ilə podrat müqaviləsi bağlayır. Onlar arasında bununla podrat hüquq münasibəti yaranır. Evin hazırlanmasına iki ay qalmış sifarişçi həmin evi tikinti təşkilatından tələb etmək hüququnu alqı-satqı müqaviləsi əsasında öz qonşusuna satır. Beləliklə, sifarişçinin evi tələb etmək hüququ qonşuya keçir. Qonşu podrat hüquq münasibətində əvvəlki, köhnə subyekti — sifarişçini əvəz edir. Bununla həmin münasibətin subyekt tərkibi dəyişir. Bu cür dəyişikliyə əsas olan hal mülki-hüquqi əqddir, yəni alqı-satqı müqaviləsidir.

Subyektiv mülki hüquq və vəzifələrin bir şəxsdən digər şəxsə keçməsinə **hüquqi varislik** deyilir. Subyektiv mülki hüquq və vəzifələrin əvvəlki daşıyıcısına **hüquqi sələf** deyilir. Bu hüquq və vəzifələri qəbul edən şəxs isə **hüquqi varis** adlanır. Yuxarıda çəkdiyimiz misallarda ölən borcverən və borc alan vətəndaş, məhdud məsuliyyətli cəmiyyət, bağ evi tikməyi tapşıran sifarişçi hüquqi sələf hesab edilir. Ölənlərin vərəsələri, səhmdar cəmiyyəti, sifarişçinin qonşusu isə hüquqi varis sayılır. Hüquq və vəzifələr hüquqi varislik qaydasında hüquqi sələfdən hüquqi varisə keçməklə mülki hüquq münasibətlərinin subyekt tərkibi dəyişir. Hüquqi varislik hüquq və vəzifələrin mülki hüquq münasibətlərinin hər hansı bir subyektindən digər subyektlərə keçməsi üsuludur. Bu zaman mülki hüquq münasibətinin yeni subyekti əvvəlki köhnə subyekti əvəz edir. Amma ona keçmiş hüquq və vəzifələr dəyişmir, mülki hüquq münasibəti ləğv edilmir.

Hüquqi varislik qaydasında hüquqi sələfdən hüquqi varisə həm ayrı-ayrı hüquq və vəzifələr, həm də kompleks və məcmu halında hüquq və vəzifələr keçə bilər. Bu baxımdan mülki hüquqda hüquqi varisliyin iki növü fərqləndirilir:

- xüsusi (sinqulyar) hüquqi varislik;
- ümumi (universal) hüquqi varislik.

Xüsusi (sinqulyar) hüquqi varislik odur ki, bu varisliyə əsasən hüquqi sələfin yalnız bəzi hüquq və vəzifələri hüquqi varisə keçir. Bu zaman hüquqi varis bütün mülki hüquq münasibətlərində yox, ancaq bir və ya bir neçə mülki hüquq münasibətində hüquqi sələfini əvəz edir. Daha doğrusu, xüsusi (sinqulyar) hüquqi varislik qaydasında hüquqi sələfin bütün mülki hüquq münasibətləri üzrə hüquq və vəzifələri yox, yalnız bir və ya bir neçə mülki hüquq münasibəti üzrə hüquq və vəzifələri keçir. Bu növ hüquqi varisliyə misal olaraq öhdəlik hüquq münasibətində şəxslərin dəyişməsini (öhdəliklərin verilməsini) göstərmək olar (MM-in 26-cı fəsli)[1]. Əgər öhdəlik hüquq münasibətində səlahiyyətli şəxs (kreditor) başqa birisi ilə əvəz olunarsa, buna **tələbin güzəşti (verilməsi)** deyilir (MM-in 194-202-ci maddələri). Məsələn, yuxarıda çəkdiyimiz misalda sifarişçi podrat öhdəlik münasibətindən irəli gələn bağ evini tələb etmək hüququnu öz qonşusuna güzəşt etdi, yəni verdi. Başqa bir misalda sahibkar kənd sakininə borc pul verir və onlar arasında borc öhdəlik hüquq münasibəti yaranır. Sahibkar bu münasibətdən irəli gələn borcu tələb etmək hüququnu öz qardaşına bağışlama qaydasında güzəşt edir. Göründüyü kimi, bu münasibətdə sahibkarın (hüquqi sələfin, kreditorun) yerini onun qardaşı (hüquqi varis) tutur.

Əgər öhdəlik hüquq münasibətir də borclu şəxs əvəz olunarsa, buna **borcun köçürülməsi** deyilir. Məsələn, yuxarıda misal kimi çəkdiyimiz borc hüquq münasibətində sahibkar yox, borclu şəxs, yəni kənd sakini fermer təsərrüfat başçısı ilə dəyişdirilir. Bu zaman hüquq münasibətində kənd sakininin (hüquqi sələfin) yerini fermer təsərrüfatı başçısı (hüquqi varis) tutur. Onun sahibkara borcu qaytarmaq və ödəmək vəzifəsi hüquqi varisə keçir. Göründüyü kimi, belə halda hüquq yox, vəzifə bir şəxsdən digərinə keçir.

Hüquqi varis bir yox, bir neçə mülki hüquq münasibətində də öz hüquqi sələfini əvəz edə bilər. Məsələn, vətəndaş üç mülki hüquq münasibəti — kirayə hüquq münasibəti üzrə istifadə hüququnu, borc hüquq münasibəti üzrə borcu tələb etmək hüququnu, bank əmanəti hüquq münasibəti üzrə əmanətin faizini almaq hüququnu başqa şəxsə verir.

Elə hüquqlar da vardır ki, bu hüquqları xüsusi (sinqulyar) hüquqi varislik qaydasında vermək olmaz. Söhbət öhdəlik hüquq münasibətinin tərəflərindən biri olan səlahiyyətli şəxsin (kreditorun) şəxsiyyəti ilə qırılmaz bağlı olan tələb hüquqlarından gedir. Məsələn, şəxs öz portretinin hazırlanmasını rəssama sifariş edir. Onlar arasında mülki hüquq münasibəti əmələ gəlir. Aydın bir həqiqətdir ki, həmin şəxs göstərilən münasibət üzrə hüququnu başqa şəxslərə güzəşt edə bilməz. Bundan əlavə, alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblərin güzəşt edilməsinə

[1] Öhdəlik hüquq münasibətində şəxslərin dəyişməsi məsələsi dərsliyin «Öhdəlikdə şəxslərin dəyişməsi» adlı fəslində nəzərdən keçirilir.

yol verilmir (MM-in 194-cü maddəsinin 3-cü bəndi).

Ümumi (universal) hüquq varisliyi odur ki, bu varisliyə görə qanunun, ümumiyyətlə, hüquq varisliyinə yol vermədiyi hallar istisna olmaqla, bir hüquqi akt nəticəsində hüquqi varis bütün hüquq münasibətlərində öz hüquqi sələfinin yerini tutur və onu əvəz edir. Bu zaman hüquqi sələfin bütün hüquq münasibətləri üzrə hüquq və vəzifələri tam kompleks və məcmu halında hüquqi varisə keçir. Məsələn, vərəsəlik ümumi (universal) hüquq varisliyinə misaldır. Ata ölür. Onun bütün hüquq münasibətləri üzrə (alqı-satqı, kredit, podrat, sığorta, delikt, icarə, kirayə, bank hesabı, bank əmanəti, girov, daşıma, borc və s.) hüquq və vəzifələri vərəsəlik qaydasında vərəsələrə keçir. Vərəsələr ölmüş atanı bütün hüquq münasibətlərində əvəz edir və onun yerini tuturlar.

Ümumi (universal) hüquq varisliyinə hüquqi şəxslərin yenidən təşkil olunması da misal göstərmək olar (MM-in 56-cı maddəsi). Onların təşkil olunması yolları müxtəlifdir: birləşmə yolu; bölünmə yolu; ayrılma yolu; qoşulma yolu; çevrilmə yolu. Məsələn, iki özəl təhsil kolleci yenidən təşkil olunaraq universitet halında birləşir. Hər bir kollecin (hüquqi sələfin) hüquq və vəzifələri yeni yaradılmış universitetə (hüquqi varisə) keçir. Universitet onları bütün hüquq münasibətlərində əvəz edir. Belə halda, söz yox ki, ümumi (universal) hüquq varisliyi göz qabağındadır.

Qanun bəzi hüquqlann universal (ümumi) hüquq varisliyi qaydasında keçməsinə yol vermir. Bu cür hüquqlara aiddir: səlahiyyətli şəxsin (kreditorun) şəxsiyyəti ilə bağlı olan hüquqlar; alimentlər barədə tələblər; həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələblər.

3. Mülki hüquq münasibətlərinin obyektləri

Obyekt (lat. «objectum» - predmet) mülki hüquq münasibətinin elementlərindən biridir. Bu, fəlsəfə elmində də işlədilən anlayışdır, fəlsəfi kateqoriyadır. Fəlsəfi nöqteyi-nəzərdən obyekt dedikdə, subyektin fəaliyyət və şüurunun predmeti başa düşülür[1]. Obyekt odur ki, insanın idrak və digər fəaliyyəti məhz ona yönəlir. Fəlsəfədə obyekt subyektə qarşı qoyulur. Mülki hüquq elmində və qanunvericilikdə obyekt anlayışı kifayət qədər tez-tez işlədilir. Lakin hüquqi nöqteyi-nəzərdən onun özünəməxsus spesifik cəhətləri vardır. Obyekt mülki hüquq münasibətinin elementlərindən biri olmaqla hüquqi kateqoriya kimi çıxış edir.

Mülki hüquq münasibətinin obyekti odur ki, məhz onun barəsində mülki hüquq subyektləri hüquq münasibətinə girirlər, məhz onun haqqında bu münasibət yaranır, məhz onun barəsində subyektlərin hüquq və vəzifələri əmələ gəlir[2]. Obyektsiz mülki hüquq münasibəti yaranmır və mövcud olmur.

[1] Краткий философский словарь / Под ред. *М.Розенталя и П.Юдина*. М., 1952, с.506.

[2] Hüquq ədəbiyyatında, demək olar ki, mülki hüquq münasibətinin obyektinə bu cür və buna oxşar anlayışlar verilir (bax: *А.Голунский и М.Строгович*. Теория государства и права. М., 1940, с. 227; Советское гражданское право. Учебник / Под ред. *Д.М.Генкина*. М., Том 1. 1950, с. 109; Советское гражданское право. Под ред. *С.Н.Братуся*. М., 1950, с. 55; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.Ф.Маслова, А.А.Пушкина*. Киев. 1983, с. 89; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 50; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 50; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 40 и др.).

Nələr mülki hüquq münasibətinin obyekti ola bilər? Bu məsələ barəsində uzun müddətdir ki, alimlər arasında kəskin diskussiya gedir. Həmin məsələ haqqında diskussiya gedişində üç konsepsiya yaranmışdır:

- obyektin monist konsepsiyası (hərəkət nəzəriyyəsi);
- obyektin əşya nəzəriyyəsi;
- obyektin plüralist konsepsiyası.

Monist konsepsiyaya görə, yalnız subyektlərin hərəkəti hüquq münasibətlərinin obyekti ola bilər. Belə ki, ancaq insanların hərəkəti, əməlləri hüquqi tənzimlənməyə məruz qalır, yalnız insanın davranışı hüquqi təsirə cavab vermək iqtidarındadır. Maddi predmetlərə və əşyalara faktiki cəhətdən təsir etmək olar (istifadə etməklə, məhv etmək vasitəsilə), amma onlara hüquqi cəhətdən təsir göstərmək qeyri-mümkündür. Bu konsepsiya tərəfdarlarından biri olan O.S.İoffe göstərirdi ki, obyektin ümumi anlayışı fəlsəfədə verilmişdir: obyekt dedikdə, subyektə qarşı duran elə xarici predmet başa düşülür ki, subyektin fəaliyyəti və şüuru məhz ona yönəlir. Buna uyğun olaraq, o, mülki hüquq münasibətinin obyektinə anlayış verirdi: mülki hüquq münasibətinin obyekti odur ki, mülki subyektiv hüquq və mülki hüquqi vəzifə məhz ona yönəlir, daha doğrusu, ona təsir göstərir. Müəllif daha sonra göstərirdi ki, xarici aləmin bütün hadisələri arasında yalnız insanın davranışı subyektiv hüquq və vəzifələrin göstərdiyi təsirə cavab verə bilər. Nə əşyalar, nə şəxsi qeyri-maddi nemətlər bu cür təsirə cavab vermək iqtidarındadır. Ona görə də əşyalar, şəxsi qeyri-maddi nemətlər hüququn obyekti ola bilməz. O.S.İoffenin fikrincə, hüquq münasibətinin obyekti insanın davranışından, onların fəaliyyət və ya hərəkətlərindən ibarətdir[1].

Başqa bir müəllif N.Q.Aleksand ovun mövqeyincə, hüququn obyekti odur ki, məhz hüquq münasibəti ona təsir göstərir. Müəllif buradan belə nəticə çıxarırdı ki, hüquq münasibətinin obyekti həmin münasibətdə iştirak edən şəxslərin hərəkətindən ibarətdir[2]. Sovet müəlliflərindən Y.M.Maqaziner göstərirdi ki, hər bir hüququn obyekti başqa şəxsin hərəkətidir. Onun fikrincə, mülki hüquq münasibətinin obyektini insanın davranışı təşkil edir[3]. Öhdəlik hüquq münasibətində iştirak edən səlahiyyətli şəxsə başqa şəxsin (borclu şəxsin) hərəkətinə olan hüquq məxsusdur və bu, onu göstərir ki, öhdəlik hüquq münasibətinin obyekti yalnız hərəkətdən ibarət ola bilər[4].

Beləliklə, monist konsepsiyaya görə, bütün hüquq münasibətlərinin ümumi, vahid və yeganə obyekti vardır. Bu, insanın davranışından ibarətdir. Həmin obyekt təkdir. Ona görə də monist konsepsiya **obyektin təkliyi nəzəriyyəsi** də adlanır[1]

Obyektin əşya nəzəriyyəsi kifayət qədər geniş yayılmışdır. Bu nəzəriyyə hərəkəti hüquq münasibətinin obyekti kimi inkar edir və qəbul etmir. Həmin nəzəriyyənin fəal tərəfdarlarından biri M.Aqarkov olmuşdur. Onun fikrincə, hüquq münasibətinin obyekti əşyadır və ya hər ehtimala qarşı, hər şeydən əvvəl, əşyadır. Borclu şəxsin davranışı bu əşyaya yönəlir[2]. Əşya nəzəriyyəsi hüquq ədəbiyyatında tənqid olundu[3]. Bu nəzəriyyəyə qarşı çıxaraq O.S.İoffe göstərirdi ki, obyekt anlayışını elmi cəhətdən düzgün işıqlandırmaq üçün cinayət hüquq elminin obyektə verdiyi tərifdən istifadə etmək lazımdır. O qeyd edirdi ki, cinayət hərəkətlərinin obyektlərindən əşyalar çıxarılmışdır, çünki cinayət əməli həmin əşyalara hər hansı bir təsir göstərmir. Buna uyğun olaraq mülki hüquqda da əşyaları hüququn obyekti hesab etmək olmaz. Ona görə ki, əşyalar hüququn göstərdiyi təsirə cavab vermək qabiliyyətində deyil. Bu təsirə yalnız davranışın cavab verməyə qabiliyyəti çatır. Buna görə də mülki hüquqların obyekti əşyalar yox, davranışdır. O.S.İoffe məsləhət görürdü ki, mülki hüquqda obyektə tərif verərkən «cinayətin obyekti» və «cinayətin predmeti» kimi iki anlayışı bir-birindən fərqləndirən cinayət hüquq elminə müraciət edilsin. Belə çıxır ki, alim əşyaları mülki hüquq münasibətinin predmeti, davranışı isə bu münasibətlərin obyekti kimi qəbul etmək niyyətində olmuşdur.

O.S.İoffe əşyanı mülki hüquq münasibətinin maddi obyekti hesab edirdi. Davranış isə onun fikrincə, bu münasibətin hüquqi obyektini təşkil edir[4].

Plüralist konsepsiyaya görə, hüquqla tənzimlənən ictimai münasibətlər, həmçinin həyatın özü rəngarəng və cürbəcürdür. Buna uyğun olaraq hüquq münasibətlərinin obyektləri də müxtəlifdir. Belə ki, hüquq normaları təkcə insanlara təsir etmir. Bu normalar həm də insanlar vasitəsilə maddi dünyanın obyektlərinə, sosial birliklərə, təşkilatlara, idarələrə təsir göstərir. Səlahiyyətli şəxsə təkcə hərəkətə olan hüquq yox, həm də müəyyən nemətlərə olan hüquq məxsusdur. Hüquqi təsirə cavab verməyə gəldikdə isə onu həddindən ar-

[1] bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 588-589.

[2] Советское государство и право. 1950. № 9, с. 85. 1954-cü ildə N.Q.Aleksandrov özünün irəli sürdüyü fikrə qarşı çıxmışdır O, əmlakı hüququn obyekti hesab etmişdir (bax: Советское государство и право. 1954. № 6, с. 120).

[3] *Я.М.Магазинер.* Советское хозяйственное право. Л., 1928, с. 174; *Я.М.Магазинер.* Объект права // Очерки по гражданскому праву. Л., 1957, с. 66.

[4] bax: *Мейер Д.И.* Русское гражданское право. СПб., 1902, с. 344.

[1] Bu konsepsiyanı dəstəkləyirlər: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *Д.М.Генкина.* М., 1950, с. 110-111; *И.Б.Новицкий и Л.А.Лунц.* Общее учение об обязательстве. М., 1950, с. 44; *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении // Очерки по гражданскому праву. Л., 1957; Теория государства и права. Учебник / Под ред. *М.П. Каревой и Г.И. Федкина.* М., 1955, с. 417; *Хорəпуук N.V.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, s. 153 (rus dilindən tərcümə); Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 86.

[2] bax: *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940, с. 22. Bu nəzəriyyəni N.Q.Aleksandrov, S.N.Bratus, İ.V.Pavlov da dəstəkləmişlər (bax: Советское государство и право. 1954. № 6, с. 120; 1954. № 1; 1950. № 9, с. 86).

[3] O.S.İoffenin fikirləri ilə tanış olmaq üçün bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 585, с. 604. Tanınmış alimin fikirləri ilə çətin ki, razılaşmaq olar. Cinayət hüquq elminin obyektə verdiyi anlayışdan mülki hüquqda istifadə etmək bütün hallarda mümkün olan iş deyildir.

[4] O.S.İoffe hüquq münasibətinin üç cür məzmununu (maddi məzmunu, ideoloji məzmunu, hüquqi məzmunu) və bunlara uyğun olaraq həmin münasibətin üç cür obyektini fərqləndirirdi: maddi obyekt; hüquqi obyekt; ideoloji obyekt. Hüquq münasibəti iştirakçılarının iradəsi bu münasibətin ideoloji obyektini təşkil edir (bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 678-679). Bu cür yanaşmanın heç bir məntiqi və elmi mənası yoxdur.

tıq hərfi mənada başa düşmək lazım deyil. Hər bir hüquq münasibəti növündən və xarakterindən, onun məzmunundan (subyektiv hüquq və hüquqi vəzifədən) asılı olaraq özünün obyektinə malikdir. Ona görə də hüquq münasibətlərinin tək və yeganə yox, çoxlu və müxtəlif obyektləri vardır. Plüralist konsepsiya **obyektlər çoxluğu** nəzəriyyəsidir.

Plüralist konsepsiyaya görə, mülki hüquq münasibətlərinin obyektlərinə maddi nemətlər (əşyalar, əmlak növləri, pul, qiymətli kağızlar), şəxsi-qeyri maddi nemətlər (insanın həyatı, şərəfi, ləyaqəti, sağlamlığı, təhlükəsizliyi, toxunulmazlığı və s.), əqli mülkiyyət obyektləri, yəni yaradıcılıq fəaliyyətinin nəticələri (elm, ədəbiyyat, incəsənət əsərləri, ixtiralar, sənaye nümunələri, faydalı modellər və s.), subyektlərin hərəkəti (işlər, xidmətlər), informasiya daxildir. Özü də hüquq ədəbiyyatında bu konsepsiya tərəfdarlarının mövqeyi üstünlüyə malikdir[1]. Bizim fikrimizcə, plüralist nəzəriyyə tərəfdarlarının mövqeyi həqiqətə daha yaxındır.

RF-in müasir mülki qanunvericiliyi plüralist konsepsiya — obyektlər çoxluğu nəzəriyyəsi tərəfdarlarının mövqeyini nəzərə almışdır. Belə ki, bu qanunvericiliyə görə, mülki hüquq münasibətlərinin obyektlərinə əşyalar, pul, qiymətli kağızlar, əmlak hüquqları, digər əmlak növləri, işlər və xidmətlər, informasiya, əqli fəaliyyətin nəticələri, qeyri-maddi nemətlər daxildir (MM-in 128-ci maddəsi).

Ölkəmizin mülki qanunvericiliyi plüralist konsepsiyanı rəsmən dəstəkləyərək, mopist konsepsiyadan və əşya nəzəriyyəsindən imtina etmişdir. Azərbaycan Respublikası MM-in 4-cü maddəsi mülki hüquq münasibətlərinin obyektlərinin dairəsini müəyyən edir. Burada ümumi formada obyektlərin çoxluğu nəzəriyyəsi ifadə olunur:

- maddi nemətlər;
- əmlak dəyəri olan qeyri-maddi nemətlər;
- əmlak dəyəri olmayan qeyri-maddi nemətlər.

Göründüyü kimi, bizim ölkə qanunvericiliyi mülki hüquq münasibətləri obyektlərini üç növə bölür. Yeri gəlmişkən qeyd edək ki, mülki hüquq münasibətləri obyektlərinin təsnifatı, yəni növlərə bölünməsi sivilistika doktrinasında (elmində) mübahisə doğuran məsələlərdəndir. Bəzi müəlliflər dörd növlü təsnifata üstünlük verirlər: əmlak; hərəkət; əqli fəaliyyətin nəticələri; qeyri-maddi nemətlər[2]. Bəzi müəlliflər üç növlü təsnifatı daha ağlabatan sayırlar: əmlak (əşyalar, əmlak hüquqları, pul, qiymətli kağızlar); hərəkət; qeyri-maddi nemətlər[3]. Azərbaycan Respublikasının mülki qanunvericiliyi üç növlü təsnifatı nəzərdə tutur.

Maddi nemətlər mülki hüquq münasibətləri obyektlərinin əsas növüdür.

[1] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко*. Л., 1982, с. 73-74; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 82-83; Гражданское право.. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 40-41. Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 43-44; Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 530; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 237-238; Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 389.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 43.

[3] bax: *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993, с. 108-110.

İnsanların maddi ehtiyaclarını təmin edən müxtəlif əşyalar — torpaq, meşə, binalar, avadanlıqlar, geyim şeyləri, ərzaq məhsulları, nəqliyyat vasitələri və s. maddi nemətlər hesab olunur. Əşyalar, bir qayda olaraq, mülkiyyət hüquq münasibətlərinin obyekti olur.

Əmlak dəyəri olan qeyri-maddi nemətlər dedikdə, əqli fəaliyyətin — yaradıcılıq fəaliyyətinin nəticələri, yəni əqli mülkiyyət obyektləri başa düşülür. Söhbət müəlliflik hüququnun obyekti olan elm, ədəbiyyat və incəsənət əsərlərindən, patent hüququnun obyekti olan ixtiralardan, sənaye nümunələrindən, faydalı modellərdən və s. gedir. Onlar yalnız müəyyən obyektiv formada ifadə olunduqda, mülki hüquq münasibətlərinin obyektləri rolunda çıxış edir. Məsələn, alimin əsəri maddi daşıyıcıda (maddi obyektdə) — kitabda ifadə olunur. Nüsxələri oxuculara satılarkən kitab alqı-satqı hüquq münasibətinin obyekti olur.

Əmlak dəyəri olmayan qeyri-maddi nemətlər dedikdə, subyektin şəxsiyyətindən ayrılmayan, özgəninkiləşdirilməyən elə obyektlər başa düşülür ki, bu obyektlər cəmiyyətdə şəxsiyyətin sosial-hüquqi vəziyyətini xarakterizə edir və onu fərdiləşdirir. Bu nemətlər hər bir insanın şəxsiyyəti ilə qırılmaz surətdə bağlıdır. Bu cür nemətlərə misal olaraq insanın şərəf və ləyaqətini, şəxsi toxunulmazlığını, işgüzar nüfuzunu həyatı, sağlamlığı və s. göstərmək olar.

İnsan mülki hüquq münasibətinin obyekti ola bilməz. Bunu hüquq qadağan edir. Müasir dünya hüquq sistemlərində insanı hüquq münasibətinin obyekti kimi nəzərdə tutan normalara rast gəlinmir. Lakin buna baxmayaraq, bəzi ölkələrdə təcrübədə gənc qızların alqı-satqısı, uşaq ticarəti kimi hallarla rastlaşmaq mümkündür. İnsan qul kimi yalnız quldarlıq cəmiyyətində alqı-satqı hüquq münasibətinin obyekti ola bilərdi. Qul «danışan alət» adlanırdı.

Bəzi müəlliflər göstərirlər ki, boşanma zamanı valideynlər arasında uşağın kiminlə qalması barədə mübahisə yaranan hallarda, uşaq hüquq münasibətinin obyekti kimi çıxış edir. Bu fikir həqiqətdən uzaqdır. Bu cür hallarda uşağın özü yox, onun normal və düzgün tərbiyə edilməsi üçün vacib olan mənafe, habelə bununla bağlı olaraq yaranan kompleks hüquq və vəzifələr müvafiq hüquq münasibətinin obyekti olur.

§ 3. Mülki hüquq münasibətinin hüquqi məzmunu

1. Subyektiv mülki hüquq

Qeyd etdik ki, **mülki hüquq münasibətinin hüquqi məzmununun strukturu (quruluşu) iki elementdən ibarətdir: subyektiv mülki hüquqdan; subyektiv mülki-hüquqi vəzifədən**[1]. Bu elementlər birləşərək mülki hüquq münasibətinin hüquqi məzmununu təşkil edir.

[1] Subyektiv hüquqlar və hüquqi vəzifələr barədə ümumi müddəalar, əsasən alman sivilistika doktrinasında əsaslandırılır. L.Ennekserus subyektiv hüquqa obyektiv hüquqa qarşı qoyulan anlayış kimi baxırdı. Onun fikrincə, öz məqsədinə görə o, insan mənafelərini təmin etmək vasitəsidir. Hüquqi vəzifə isə hərəkət etməyə və ya hərəkət etməkdən çəkinməyə yönəlir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 239-251). Müasir alman doktrinasına görə, subyektiv hüquq öz mənafeyini təmin etmək üçün hüquq subyektinə mövcud hüquq qaydası tərəfindən verilən hüquqi hakimiyyətdir (*Жалинский А., Рёрихт А.* Введение в немецкое право. М., 2001, с. 304).

Fiziki şəxslər və təşkilatlar mülki hüquq münasibətlərinə girirlər. Bu, onu ifadə edir ki, onlar mülki hüquq və vəzifələr əldə edirlər. Mülki hüquq münasibəti subyektləri əldə etdikləri bu hüquq və vəzifələrə uyğun olaraq bir-biri ilə qarşılıqlı əlaqəyə girir, bir-birinə qarşılıqlı təsir göstərirlər. Məhz bu cür qarşılıqlı əlaqə və təsir nəticəsində mülki hüquq münasibəti yaranır. Məsələn, alqı-satqı hüquq münasibətində satıcı satdığı əmlakın pulunun ödənilməsini alıcıdan tələb etmək hüququ əldə edir. Satıcının üzərinə əmlakı alıcıya vermək vəzifəsi düşür. Alıcı üçün isə satın aldığı əmlakın pulunu ödəmək vəzifəsi yaranır. O, həm də əmlakın verilməsini satıcıdan tələb etmək hüququna malikdir. Sərnişin daşıma hüquq münasibətində daşıyıcı (nəqliyyat təşkilatı) sərnişindən gediş pulu almaq hüququna malikdir. Daşıyıcı üçün həm də sərnişini təyinat yerinə çatdırmaq vəzifəsi əmələ gəlir. Sərnişinin isə üzərinə gediş haqqını ödəmək vəzifəsi düşür. Sərnişin həm də onun təyinat yerinə çatdırılmasını tələb etmək hüququna malikdir. Borc hüquq münasibətində borc verən borcun geri qaytarılmasını tələb etmək hüququ qazanır. Borc alan isə borcu geri qaytarmaq vəzifəsini daşıyır.

Bax, satıcının, alıcının, daşıyıcının, sərnişinin və s. malik olduğu, əldə etdiyi bu cür hüquqlar subyektiv mülki hüquqlar adlanır. Bu hüquqlar ona görə «subyektiv» adlanır ki, birincisi, həmin **hüquqlar konkret olub, mülki hüquq münasibətlərinin konkret subyektlərinə məxsusdur.** İkincisi, həmin hüquqlar mülki hüquq münasibəti **subyektinin iradəsindən asılıdır və buna görə də subyektiv xarakterə malikdir.** Hüquq haqqında sərəncam vermək, ancaq subyektin iradəsindən asılıdır.

Subyektiv mülki hüquqdan fərqli olaraq obyektiv mülki hüquq (obyektiv mənada mülki hüquq) mülki hüquq münasibətində iştirak edən konkret subyektin iradəsindən asılı deyil. Bildiyimiz kimi, obyektiv mənada mülki hüquq dedikdə, mülki hüquq normalarının məcmusu başa düşülür. Deməli, obyektiv mənada mülki hüquq, elə müstəqil hüquq sahələrindən biri kimi mülki hüququn özü deməkdir. O, şəxsən heç kəsə (hər hansı subyektə) məxsus deyildir.

Satıcının, alıcının, daşıyıcının və s. yuxarıdakı müvafiq hüquq münasibətləri üzrə daşıdıqları vəzifələr isə subyektiv mülki-hüquqi vəzifələr adlanır. Bu vəzifələr ona görə «subyektiv» adlanır ki, həmin **vəzifələr konkret olub, mülki hüquq münasibətinin konkret subyektinin üzərinə qoyulur və bu subyektin iradəsindən asılı olur**.

Subyektiv mülki hüquq və subyektiv mülki-hüquqi vəzifə cüt kateqoriyalardır. Konkret hüquq münasibətləri çərçivəsində onlar bir-birinə uyğun gəlirlər: məsələn, alqı-satqı hüquq münasibətində satıcının əşyanın pulunu almaq kimi subyektiv hüququ alıcının əşyanın pulunu ödəmək kimi subyektiv hüquqi vəzifəsinə, sərnişin daşıma hüquq münasibətində daşıyıcının gediş haqqını almaq və tələb etmək kimi subyektiv hüququ sərnişinin gediş haqqını ödəmək kimi subyektiv vəzifəsinə və s. uyğundur. Əgər mülki hüquq münasibəti subyektlərindən biri (məsələn, satıcı, daşıyıcı, borc verən və s.) subyektiv mülki hüquqa malik olmazsa, onda o biri subyekt (məsələn, alıcı, sərnişin, borc alan və s.) üçün hər hansı bir hüquqi vəzifə əmələ gəlmir: satıcının əşyanın pulunu almaq hüququ yoxdursa, onda alıcının üzərinə əşyanın pulunu ödəmək vəzifəsi necə qoyula bilər? Subyektiv mülki hüquqsuz subyektiv vəzifə olmadığı kimi, subyektiv vəzifəsiz də subyektiv mülki hüquq yoxdur. Mülki hüquq münasibəti subyektlərindən birinin malik olduğu subyektiv hüquq yalnız o halda məna kəsb edə bilər ki, bu hüquqa uyğun gələn müvafiq vəzifə digər subyektin üzərinə qoyulsun və ona həvalə edilsin.

Dediklərimiz bizə belə bir nəticəyə gəlmək imkanı verir ki, cüt kateqoriyalar olan subyektiv mülki hüquq və subyektiv vəzifə bir-birilə qırılmaz surətdə bağlı olub, dialektik vəhdətdədir. Bu, öz ifadəsini, heç olmazsa, ən azı iki subyekt arasında əmələ gələn real ictimai münasibətlərdə tapır. **Subyektiv mülki hüquq və subyektiv vəzifə yalnız mülki hüquq münasibətlərində mövcud ola bilər**[1]. Özü də bu münasibətlərdə iştirak edən subyektlərdən biri — səlahiyyətli şəxs subyektiv mülki hüquqa malik olur, digər subyekt, yəni borclu şəxsin üzərinə isə vəzifə düşür. Bu hala sadə mülki hüquq münasibətlərində rast gəlirik. Məsələn, bank əmanəti hüquq münasibəti sadə mülki hüquq münasibətinə misal ola bilər. Burada səlahiyyətli şəxs (əmanətçi) subyektiv hüquqlara malikdir, borclu şəxs (bank) isə subyektiv hüquqi vəzifə daşıyır. Mürəkkəb hüquq münasibətlərində isə səlahiyyətli şəxs eyni zamanda və vaxtda həm subyektiv mülki hüquqlara malik olur, həm də subyektiv mülki-hüquqi vəzifələr daşıyır. Borclu şəxs eyni zamanda həm subyektiv mülki-hüquqi vəzifələr daşıyır, həm də subyektiv mülki hüquqlara malik olur. Mülki hüquq münasibətlərinin çoxu (məsələn, alqı-satqı, daşıma, podrat, sığorta, icarə, kirayə, kredit, bank hesabı və digər hüquq münasibətləri) mürəkkəb hüquq münasibəti növünə daxildir. Sadə mülki hüquq münasibətlərinin dairəsi isə olduqca məhduddur.

Mülki hüquq münasibətinin iştirakçısı olan səlahiyyətli şəxs, məsələn, alqı-satqı hüquq münasibətində satıcı, daşıma hüquq münasibətində daşıyıcı və s. hansı həddə və çərçivədə hərəkətlər edə, hüquqlara malik ola bilər? Səlahiyyətli şəxsin davranış imkanı məhdudlaşa bilərmi? Bu davranış imkanının müəyyən həddi və ölçüsü varmı? Yoxsa, səlahiyyətli şəxsin davranışı müəyyən ölçüyə sığmır, bu ölçünü aşıb keçir və heç nə ilə məhdudlaşmır?

Bu suallara düzgün cavab tapmaq üçün məsələyə diqqətlə yanaşmaq lazımdır. Məsələni dərindən nəzərdən keçirdikdə görürük ki, bu, heç də belə de-

[1] Hüquq nəzəriyyəsi sahəsində belə bir fikir irəli sürülür ki, subyektiv hüquqlar hüquq münasibətlərindən kənarda mövcud ola bilər və bu münasibətlər həmin hüquqların məcburi təzahür forması deyil. Bu konsepsiyanı mütləq mülki hüquqlara münasibətdə D.M.Genkin əsaslandırmışdır (bax: *Генкин Д.М.* Право собственности как абсолютное субъективное право // Советское государство и право. 1958. № 8, с. 92; *Генкин Д.М.* Право собственности в СССР. М., 1961, с. 32-46). Həmin konsepsiya ciddi və hərtərəfli tənqid olunduğu kimi (bax: *Флейшиц Е.А.* «Абсолютная» природа права собственности // В книге: Проблемы гражданского права. Л., 1962, с. 214), həm də bəzi müəlliflər tərəfindən müdafiə olunmuşdur (məsələn, bax: *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963, с. 189). Sivilist alimlərin əksəriyyəti hesab edirlər ki, subyektiv hüquq hüquq münasibətlərindən kənarda mövcud ola bilməz, hüquq münasibəti subyektiv hüquqların məcburi təzahür formasıdır. O.S.Ioffe göstərirdi ki, konkret şəxslər arasında hüquq münasibətləri yaranan kimi onlar üçün dərhal subyektiv hüquqlar əmələ gəlir (*Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 291). Bizim fikrimizcə, hüquq qabiliyyəti (hüquq əldə etmənin mücərrəd qabiliyyəti) hüquq münasibətindən kənardadır. Subyektiv hüquq isə hüquq qabiliyyətinin konkret təzahür formalarından biridir. O, yalnız özünü hüquq münasibətləri vasitəsilə ifadə edə bilər.

yildir. Belə ki, səlahiyyətli şəxsin, yəni satıcının da, daşıyıcının da və s. davranış imkanı məhduddur. Bu imkanın müəyyən ölçüsü vardır. Həmin ölçü isə mülki hüquq normaları ilə müəyyən edilir ki, bu normalar qanunlarda, prezident fərmanlarında, hökumət qərarlarında və digər aktlarda, bir sözlə, mülki qanunvericilik aktlarında ifadə olunur. Məsələn, alqı-satqı hüquq münasibətində satıcının necə davranması, hansı hərəkətlər etməsi, nə cür hüquqlara malik olması Mülki Məcəllənin 29-cu fəslində əks olunan mülki hüquq normaları ilə müəyyən edilir. Daşıma hüquq münasibətlərində daşıyıcının, icarə hüquq münasibətlərində icarəyə verənin, podrat hüquq münasibətlərində podratçının və s. davranış ölçüsü də Mülki Məcəllədə ifadə olunan mülki hüquq normaları ilə müəyyənləşdirilir. Deməli, səlahiyyətli şəxsin davranış imkanı mülki hüquq normaları çərçivəsindən kənara çıxa bilməz. Bu imkanın ölçüsü mülki hüquq normalarının yol verdiyi həddə olmalıdır. O, mümkün olan həddi aşa bilməz. Bax, səlahiyyətli şəxsin mümkün olan davranış imkanı, müəyyən hərəkətlər etmək imkanı subyektiv mülki hüquqdur.

Subyektiv mülki hüquq dedikdə, səlahiyyətli şəxsin mümkün olan və ya yol verilən elə bir davranış ölçüsü başa düşülür ki, bu ölçü mülki hüquq normaları ilə müəyyən edilir[1]. Söhbət mülki hüquq normaları ilə səlahiyyətli şəxsə verilən imkandan gedir. Bu hüquqi imkandan istifadə etməklə səlahiyyətli şəxs öz ehtiyac və mənafeyini təmin edir və qarşısına qoyduğu məqsədə nail olur. Buna görə də subyektiv hüquq nemətlərdən istifadəni təmin etmək vasitəsidir[2].

Subyektiv mülki hüququn əsasını mülki hüquq normaları ilə müəyyənləşdirilən və təmin edilən imkan təşkil edir. O, həm də borclu şəxsin müvafiq davranışı ilə təmin edilir. Onun mahiyyəti belədir: mülki hüquq normaları səlahiyyətli şəxsə hansı həddə davranmaq, yəni müəyyən hərəkətlər etmək imkanı verir. Odur ki, subyektiv mülki hüquq səlahiyyətli şəxsin mənafeyinin təmin edilməsinə xidmət edir[3].

Subyektiv mülki hüquq dedikdə, mülki hüquq normaları ilə səlahiyyətli şəxsə verilən bir neçə müəyyən hüquqi imkan başa düşülür. Bu hüquqi imkanların məcmu halında birləşməsinə **subyektiv mülki hüququn məzmunu** deyilir. Deməli, subyektiv mülki hüququn əsasını hüquqi imkanlar təşkil edir. İmkanlar ona görə «hüquqi» adlanır ki, onlar səlahiyyətli şəxsə hüquqla verilir və hüquqla təmin olunur. Subyektiv mülki hüququn məzmununu təşkil edən hüquqi imkanlar elementlərdir, yəni tərkib hissələridir. Bu elementlər vahid halda birləşərək **subyektiv mülki hüququn strukturunu (quruluşunu)** yaradır. Dörd cür hüquqi imkan fərqləndirilir.

Birinci hüquqi imkan onda ifadə olunur ki, səlahiyyətli şəxsə öz maraq və mənafeyini təmin etmək məqsədilə öz istəyinə uyğun olaraq müstəqil surətdə davranmaq imkanı, hüquq normalarında nəzərdə tutulan və qanunla qadağan edilməyən istənilən hərəkət etmək imkanı verilir. Bu, **səlahiyyətli şəxsin öz hərəkətlərinə olan hüququdur, davranmaq hüququdur, müəyyən hərəkət etmək hüququdur.** Məsələn, səlahiyyətli şəxsə — mülkiyyətçiyə hüquq (hüquqi imkan) verilir ki, o, özünə məxsus olan əmlaka öz mülahizəsinə görə sahiblik, ondan istifadə və onun barəsində sərəncam versin. Lakin mülkiyyətçinin həmin əmlak barəsində davranış imkanı, hərəkət etmək imkanı hüququn çərçivəsindən çıxa bilməz. Məsələn, o, əmlakdan başqalarına ziyan vurmaq məqsədi ilə istifadə edə bilməz (MM-in 152-ci maddəsinin 6-cı bəndi). Beləliklə, göstərdiyimiz birinci hüquqi imkan əsasında səlahiyyətli şəxs öz davranışı, öz hərəkətləri ilə özünün ehtiyac, tələbat və maraqlarını ödəyir.

İkinci hüquqi imkan onda ifadə edilir ki, səlahiyyətli şəxsə öz ehtiyac və mənafeyini təmin etmək məqsədi ilə **üzərinə vəzifə qoyulmuş borclu şəxsdən fəal hərəkətlər etməyi və ya hərəkətlərdən çəkinməyi tələb etmək imkanı verilir.** Daha doğrusu, səlahiyyətli şəxsə hüquqi imkan verilir ki, o, borclu şəxsdən həmin şəxsin öz vəzifəsini yerinə yetirməsini və icrasını tələb etsin. Bu, səlahiyyətli şəxsin **tələb etmək hüququ, özgəsinin (borclu şəxsin) hərəkətinə olan hüququdur**. Bu cür hüquqi imkanın verilməsi onunla izah edilir ki, bir çox hallarda səlahiyyətli şəxsin mənafe və ehtiyacını onun şəxsi — subyektiv hərəkəti ilə, davranışı ilə təmin etmək mümkün olmur. Məsələn, borc hüquq münasibətində borc verənin borcun qaytarılması üçün özünün şəxsi — subyektiv hərəkətləri kifayət etmir. Bunun üçün borc verənə imkan (hüquq) verilir ki, o, borcun qaytarılmasını borc alandan tələb etsin. Alqı-satqı müqaviləsində satıcıya hüquqi imkan (hüquq) verilir ki, o, satdığı əşyanın pulunun ödənilməsini alıcıdan tələb etsin. Podrat hüquq münasibətində podratçıya hüquqi imkan (hüquq) verilir ki, o, tikdiyi evin pulunun ödənilməsini sifarişçidən tələb etsin. Deməli, satıcının ehtiyacı alıcının öz vəzifəsini (əşyanın pulunu ödəmək vəzifəsini), podratçının ehtiyacı sifarişçinin öz vəzifəsini (podrat haqqını ödəmək vəzifəsini) və s. yerinə yetirməsi ilə təmin edilir.

Üçüncü hüquqi imkan onda ifadə edilir ki, səlahiyyətli şəxsə onun subyektiv mülki hüquqları pozulduğu hallarda, **öz pozulmuş hüquqlarını məhkəmə və ya inzibati qaydada müdafiə etmək imkanı verilir.** Söhbət səlahiyyətli şəxsin öz pozulmuş hüquqlarının müdafiəsi üçün səlahiyyətli dövlət orqanlarına müraciət etmək imkanından gedir. Bu hüquqi imkan **müdafiə hüququ adlanır.** Belə ki, əgər borclu şəxs onun üzərinə qoyulmuş vəzifəni icra etmirsə (məsələn, alqı-satqı hüquq münasibətində alıcı əşyanın pulunu ödəmir,

[1] Mülki hüquq elminda və sivilistika doktrinasında subyektiv mülki hüquqa, cüzi fərqlərlə bu cür qaydada anlayış verilir (Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясонцева*. М., 1986, с. 7; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 73; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 92 и др.). Bu sahədə tanınmış alim S.N.Bratusun xidmətləri böyükdür. O, yazırdı ki, subyektiv hüquq səlahiyyətli şəxs üçün obyektiv hüququn tanıdığı hüquqdur. Subyektə davranmağa icazə vermək, borclu şəxsə müəyyən hərəkəti qadağan etmək subyektiv hüququn məzmununu təşkil edir (*С.Н.Братусь*. Юридические лица в советском гражданском праве. 1947, с. 10-33). S.N.Bratus subyektiv hüquqa səlahiyyətli şəxsin qanunla və borclu şəxsin müvafiq davranışı ilə təmin edilən mümkün davranış ölçüsü kimi anlayış vermişdir (*С.Н.Братусь*. Субъекты гражданского права. М., 1950, с. 13). Görkəmli sivilist alimin subyektiv hüquqa verdiyi bu cür anlayış bir çox alimlər tərəfindən əsas kimi qəbul edilmişdir.

[2] bax:*Шершеневич Г.Ф.* Общая теория права. М., 1912, с. 613.

[3] Subyektiv hüququn anlayışını O.S.İoffe də verir. O, subyektiv hüququn anlayışını formulə edərkən hüquqla qorunan mənafeyi əsas kimi götürür. O.S.İoffe S.N.Bratusun verdiyi anlayışı tənqid edərək göstərir ki, S.N.Bratus mənafe kimi amili nəzərə almayaraq, onu subyektiv hüququn məzmunundan çıxarmışdır. Onun fikrincə, subyektiv mülki hüquq dedikdə, səlahiyyətli şəxsin mənafeyini təmin etmək məqsədilə vətəndaşların davranışını mülki hüquqla tənzim etmək vasitəsi başa düşülür (bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву // В книге: *Иоффе. О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 555, 561).

borc hüquq münasibəti üzrə borc alan aldığı pulu qaytarmır və s.), onda səlahiyyətli şəxs müvafiq dövlət orqanlarına (ələlxüsus da məhkəməyə) müraciət edərək, öz pozulmuş hüquqlarını müdafiə etmək imkanına malik olur. Məsələn, icarəçi icarə haqqını ödəmir, icarəyə götürdüyü əşyanı qaytarmır. Belə halda icarəyə verənin öz pozulmuş hüquqlarını müdafiə etmək üçün məhkəməyə iddia vermək hüququ (imkanı) vardır. Deməli, hüquq səlahiyyətli şəxsə məhkəməyə müraciət etmək və hüquq pozuntusu törədən şəxsə o, **dövlət məcburetmə qüvvəsi tətbiq olunmasını tələb etmək** imkanı verir

Dördüncü hüquqi imkan onda ifadə olunur ki, səlahiyyətli şəxsə **sosial nemətlərdən istifadə etmək imkanı** verilir. Bu hüquqi imkan istifadə hüququ adlanır[1].

Beləliklə, subyektiv mülki hüquq səlahiyyətli şəxsin, sözün əsl mənasında, **davranış hüququ, tələb etmək hüququ, müdafiə hüququ** və nəhayət, **istifadə hüququdur.** Bu dörd hüquqi imkan vahid halda birləşərək subyektiv mülki hüququn məzmununu və strukturunu təşkil edir.

Subyektiv mülki hüququn məzmununa və strukturuna element kimi daxil olan hər bir hüquqi imkana **səlahiyyət** deyilir[2]. Bu hüquqi imkanlara uyğun olaraq dörd cür səlahiyyət fərqləndirilir:

- davranış səlahiyyəti (öz hərəkətinə olan səlahiyyət);
- tələb etmək səlahiyyəti;
- müdafiə (iddia vermək) səlahiyyəti;
- istifadə səlahiyyəti.

Bəzi subyektiv mülki hüquqda iki səlahiyyətə, digər subyektiv mülki hüquqda üç səlahiyyətə və s. rast gəlmək olur. Məsələn, öhdəlik hüquq münasibətlərində (borc, alqı-satqı, kirayə, icarə, daşıma, kredit, sığorta, bank hesabı, bank əmanəti, delikt və s. hüquq münasibətlərində) subyektiv mülki hüququn məzmununa iki səlahiyyət daxildir: səlahiyyətli şəxsin tələb etmək səlahiyyəti; səlahiyyətli şəxsin müdafiə (iddia vermək) səlahiyyəti. Məsələn, şəhərdə yaşayan vətəndaş öz yaşayış evini kənd sakininə kirayəyə verir. Kirayəçi kənd sakini kirayə haqqını ödəmir. Səlahiyyətli şəxs, yəni kirayə verən öz mənafeyini təmin etmək məqsədi ilə borclu şəxsdən kirayə haqqının ödənilməsini tələb edir (tələb etmək səlahiyyəti). Borclu şəxs (kirayəçi) bu tələbi yerinə yetirmədikdə, səlahiyyətli şəxs öz pozulmuş hüququnu müdafiə etmək üçün iddia ilə məhkəməyə müraciət edir (müdafiə səlahiyyəti).

Mülkiyyət hüquq münasibətində subyektiv mülki hüququn məzmununa dörd səlahiyyət daxildir. Birinci səlahiyyət mülkiyyətçinin (səlahiyyətli şəxsin) özünə məxsus əmlakla istədiyi kimi davranmaq hüquqi imkanından (davranış səlahiyyətindən) ibarətdir. Bu, o deməkdir ki, mülkiyyətçi özünə məxsus olan əmlaka öz mülahizəsinə görə sahiblik, əmlak barəsində sərəncam vermək, qanuna zidd olmayan istənilən hərəkətləri etmək səlahiyyətinə malikdir.

İkinci səlahiyyət mülkiyyətçinin (səlahiyyətli şəxsin) tələb etmək imkanından ibarətdir. Mülkiyyətçiyə belə bir hüquqi imkan verilmişdir ki, o, bütün şəxslərdən («hamıdan və hər kəsdən») ona məxsus olan mülkiyyət hüququnu pozmamalarını tələb etsin.

Üçüncü səlahiyyət mülkiyyətçinin əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqları pozulduğu hallarda, onun məhkəməyə iddia vermək yolu ilə müdafiə imkanından ibarətdir. Bu, onun müdafiə imkanıdır.

Dördüncü səlahiyyət mülkiyyətçinin özünə məxsus olan əmlakdan istifadə imkanıdır. Mülkiyyətçiyə elə bir hüquqi imkan verilmişdir ki, o, əmlakdan öz mülahizəsinə görə hər hansı sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər fəaliyyət üçün istifadə etsin. O, əmlakdan təsərrüfat və digər məqsədlərlə istifadə etmək nəticəsində məhsul və gəlir götürmək səlahiyyətinə malikdir[1].

2. Subyektiv mülki-hüquqi vəzifə

Bir daha təkrar edərək göstəririk ki, dahi Marks demişkən, «hüquqlarsız vəzifələr olmadığı kimi, vəzifələrsiz də hüquqlar yoxdur». Harada subyektiv mülki hüquq yaranır, orada da mütləq hüquqi vəzifə vardır.

Subyektiv mülki hüquqi vəzifə subyektiv mülki hüququn korrelatıdır, yəni ondan asılı və onunla müəyyən münasibətdə olan anlayışdır[2]. Ona görə ki, məhz borclu şəxsin üzərinə qoyulan hüquqi vəzifə səlahiyyətli şəxsin subyektiv hüququnu təmin edir. Məsələn, alqı-satqı hüquq münasibətində borclu şəxsin (alıcının) əşyanın pulunu ödəmək vəzifəsi olmasaydı, onda satıcının əşyanın pulunu almaq kimi subyektiv hüququ necə həyata keçə bilərdi?

Subyektiv mülki hüquqa qarşı subyektiv hüquqi vəzifə durur. Bu hüquq hökmən özünün əksi olan subyektiv hüquqi vəzifənin yaranmasına səbəb olur. Subyektiv mülki hüququn özü hüquqi vəzifəsiz mövcud ola bilməz.

Səlahiyyətli şəxsin subyektiv mülki hüququ bu şəxsə qarşı duran borclu şəxsə həvalə edilən, onun üzərinə qoyulan vəzifəyə uyğun gəlir. Belə ki, səlahiyyətli şəxs nə tələb edirsə (subyektiv hüquq), borclu şəxs də bu tələbi yerinə yetirmək vəzifəsini daşıyır (subyektiv hüquqi vəzifə). Məsələn, borc hüquq münasibətində səlahiyyətli şəxs (borc verən) borcun qaytarılmasını tələb edirsə, onda borc alanın (borclu şəxsin) üzərinə borcu qaytarmaq vəzifəsi düşür.

Subyektiv mülki-hüquqi vəzifə dedikdə, borclu şəxsin lazımi və ya tələb olunan elə bir davranış ölçüsü başa düşülür ki, bu ölçü mülki hüquq

[1] Bəzi müəlliflər istifadə imkanı elementini subyektiv hüququn məzmununa daxil etmirlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 92). Hələ inqilabaqədərki rus hüquq elmində (doktrinasında) istifadə imkanı subyektiv hüququn elementlərindən biri hesab edilirdi (bax: *Гримм Д.Д.* Лекции по догме римского права. СПб., 1910, с. 175; *Коркунов Н.М.* Лекции по общей теории права. СПб., 1910, с. 1952).

[2] Müəlliflərdən C.Kərimov subyektiv hüququ səlahiyyətə qarşı qoyur (*Керимов Д.А.* Обеспечение законности в СССР. М., 1956, s. 26). Hörmətli alimin bu fikri ilə razılaşmaq olmaz.

[1] Mülkiyyət hüquq münasibətlərində subyektiv mülki (mülkiyyət) hüququn məzmununa daxil olan elementləri — səlahiyyətləri (hüquqi imkanları) müəyyənləşdirərkən məhz bu cür mövqedən yanaşmaq lazımdır. Bəzi müəlliflər göstərirlər ki, mülkiyyət hüququ sahiblik, istifadə və sərəncam səlahiyyətlərindən ibarətdir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбулянко*. М.,1998, с. 46; Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 526). Bu müəlliflər tələb etmək və müdafiə səlahiyyətlərini subyektiv mülkiyyət hüququnun məzmununa daxil etmirlər. Məgər bu, məsələyə birtərəfli yanaşma demək deyil?

[2] *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 568.

normaları ilə müəyyən edilir[1]. Onun əsasını hüquqi cəhətdən ifadə edilmiş zərurət təşkil edir. Əgər subyektiv mülki hüququn daşıyıcısı səlahiyyətli şəxsdirsə, subyektiv mülki-hüquqi vəzifənin daşıyıcısı borclu şəxsdir. Əgər subyektiv mülki hüquqdan imtina etmək, yəni ondan istifadə etməmək mümkünsə, hüquqi vəzifədən imtina etmək olmaz. Hüquqi vəzifənin daşıyıcısı həmin vəzifəni icra etməyə borcludur. Subyektiv mülki hüquq daşıyıcısı — səlahiyyətli şəxs başqa şəxslərdən müəyyən hərəkətlər etməyi tələb edirsə, üzərinə hüquqi vəzifə qoyulan borclu şəxs özgə şəxsin, yəni səlahiyyətli şəxsin tələbini yerinə yetirir. Subyektiv mülki hüquq həyata keçirilərkən səlahiyyətli şəxsin öz xüsusi mənafeyi təmin edilir. Hüquqi vəzifə icra edilərkən isə borclu şəxsin özünün mənafeyi yox, səlahiyyətli şəxsin mənafeyi təmin olunur.

Subyektiv mülki hüquq kimi hüquqi vəzifə də müəyyən məzmuna və struktura (quruluşa) malikdir. Əgər subyektiv mülki hüququn məzmunu hüquqi imkanların məcmusundan ibarətdirsə, **hüquqi vəzifənin məzmunu bir neçə hüquqi zərurətin birləşməsini əhatə edir.** Axı, subyektiv mülki hüququn əsasında hüquqi imkan, **mülki-hüquqi vəzifənin əsasında isə hüquqi zərurət durur.** Bu zərurət ona görə «hüquqi» adlanır ki, o, mülki hüquq normalarında nəzərdə tutulur və həmin normalarla müəyyənləşdirilir.

Subyektiv mülki-hüquqi vəzifənin məzmununa daxil olan hüquqi zərurətlər onun elementləridir. Bu elementlərin vahid halda birləşməsinə **hüquqi vəzifənin strukturu** deyilir.

Subyektiv hüquq və hüquqi vəzifə eynielementli kateqoriyalardır. Ona görə də hüquqi vəzifənin məzmununa və strukturuna, subyektiv hüquqda olduğu kimi, dörd element — hüquqi zərurət daxildir.

Birinci hüquqi zərurət ondan ibarətdir ki, hüquqi vəzifə daşıyıcısı olan şəxs (yəni borclu şəxs) lazımi və zəruri qaydada davranmağa borcludur **(davranış zərurəti).** Bu, **birincisi, borclu şəxsin səlahiyyətli şəxsin xeyrinə müsbət, fəal hərəkətlər etmək zərurətində ifadə olunur (fəal davranış).** Məsələn, alqı-satqı hüquq münasibətində alıcının borcudur ki, satıcının xeyrinə öz hüquqi vəzifəsini, yəni aldığı əşyanın pulunu ödəmək vəzifəsini icra etsin (MM-in 567-ci maddəsi). Podrat hüquq münasibətində podratçının borcudur ki, sifarişçinin xeyrinə öz vəzifəsini, yəni tapşırılan və nəzərdə tutulan işi icra etsin (MM-in 752-ci maddəsi). Yük daşınması hüquq münasibətində daşıyıcının borcudur ki, yük göndərənin xeyrinə yükü təyinat yerinə çatdırsın (MM-in 850-ci maddəsi). Borclu şəxsin səlahiyyətli şəxsin xeyrinə fəal, müsbət hərəkətlər etməyə borclu olmasına **fəal tipli mülki-hüquqi vəzifə** deyilir. Bu cür vəzifə subyektlərdə faydalı, müsbət hərəkətlər etməyə meyl oyadır. Yuxarıda çəkdiyimiz misallar həmin vəzifəyə misal ola bilər. Fəal tipli hüquqi vəzifələr borclu şəxsin səlahiyyətli şəxsin xeyrinə ya əmlak verməsini, ya iş görməsini, ya da xidmətlər göstərməsini nəzərdə tutur.

Davranış zərurəti, **ikincisi, üzərinə hüquqi vəzifə qoyulmuş şəxsin**

[1] Hüquq ədəbiyyatında subyektiv mülki vəzifəyə, adətən, bu cür anlayış verirlər. O.S.İoffe hüquqi vəzifəyə bundan fərqli tərif verir: mülki-hüquqi vəzifə dedikdə, vətəndaşların davranışının mülki hüquqla tənzimlənmə vasitəsi başa düşülür (bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 565).

(borclu şəxsin) mülki hüquq normaları ilə qadağan edilmiş mənfi, zərərli hərəkətlərdən çəkinmək zərurətində ifadə olunur (passiv davranış). Məsələn, kirayə hüquq münasibətində kirayəyə verənin icazəsi olmadan kirayəçinin kirayəyə götürdüyü əşyanı kirayəyə verənin ailəsinin tərkibinə daxil olmayan üçüncü şəxsin istifadəsinə verə, o cümlədən əşyanı ikinci əldən kirayəyə verə bilməz (MM-in 683-cü maddəsinin 1-ci bəndi). Kirayəçi bu cür hərəkətlərdən çəkinməlidir. Əvəzsiz istifadə müqaviləsi üzrə kirayəçi əşyadan müqavilənin şərtlərini pozmaqla istifadə edə bilməz, o cümlədən əşyanı üçüncü şəxslərin istifadəsinə verə bilməz (MM-in 737-ci maddəsi). Saxlama hüquq münasibəti üzrə saxlayıcının saxlamaya götürdüyü əşyadan tapşıranın (saxlanca verənin) qabaqcadan razılığı olmadan istifadə etmək hüququ yoxdur (MM-in 824-cü maddəsinin 2-ci bəndi). Mülki hüquq normaları ilə qadağan edilmiş mənfi, zərərli hərəkətlərdən çəkinməyi nəzərdə tutan vəzifəyə **passiv tipli mülki-hüquqi vəzifə** deyilir. Yuxarıda çəkdiyimiz misallar məhz bu vəzifəyə aiddir. Həmin vəzifə səlahiyyətli şəxsin mənafeyini pozan hərəkətləri etməyin hüquqi cəhətdən mümkün olmamasını ifadə edir.

İkinci hüquqi zərurət ondan ibarətdir ki, hüquqi vəzifə daşıyıcısı (borclu şəxs) **səlahiyyətli şəxsin irəli sürdüyü qanuni tələblərə cavab verməyə borcludur (cavab vermək zərurəti).** Bildiyimiz kimi, səlahiyyətli şəxsə hüquqi imkan verilir ki, o, öz mənafe və ehtiyacını təmin etmək üçün borclu şəxsdən müəyyən davranışı tələb etsin. Bax, borclu şəxs səlahiyyətli şəxsin verdiyi bu tələblərə cavab verməlidir. Məsələn, borc verən (səlahiyyətli şəxs) borcun qaytarılması barədə borc alana qarşı tələb irəli sürür. Borc alanın vəzifəsidir ki, həmin tələbə öz münasibətini bildirsin.

Üçüncü hüquqi zərurət ondan ibarətdir ki, hüquqi vəzifə daşıyıcısı (borclu şəxs) **səlahiyyətli şəxsin irəli sürdüyü tələbi yerinə yetirmədikdə, vurulmuş zərərin əvəzini ödəməyə borcludur (mülki hüquqi məsuliyyətə cəlb olunmaq zərurəti).** Borclu şəxs səlahiyyətli şəxsin irəli sürdüyü tələbi yerinə yetirmədikdə, səlahiyyətli şəxs ona verilmiş müddəfiə hüququ imkanından istifadə edərək iddia ilə məhkəməyə müraciət edir. Məsələn, vətəndaş öz qonşusuna faizsiz borc pul vermişdir. Qonşu müddət tamam olmasına baxmayaraq borcu qaytarmır, qanunsuz olaraq onu bir il saxlayır. Məhkəmə, borc məbləğini qanunsuz saxlamaqla borc verən vətəndaşa vurulan zərərin əvəzinin ödənilməsi barədə qərar qəbul edir. Həmin qərara görə, qonşunun borcudur ki, bank uçot dərəcəsi əsas götürülməklə (bu dərəcə Milli Bank tərəfindən müəyyənləşdirilir) borc verənə faiz ödəsin (MM-in 449-cu maddəsi).

Dördüncü hüquqi zərurət ondan ibarətdir ki, hüquqi vəzifə daşıyan şəxs **səlahiyyətli şəxsə öz əmlakından istifadə etməyə mane olmamağa borcludur (istifadəyə mane olmamaq zərurəti).** Məsələn, üçüncü şəxslərin («hamının və hər kəsin») borcudur ki, onlar mülkiyyətçiyə (səlahiyyətli şəxsə) öz əmlakından istifadə etməyə mane olmasınlar. Kirayə hüquq münasibətində kirayə verən əmlakdan istifadə etməkdə kirayəçiyə maneçilik yaratmamalıdır.

Beləliklə, subyektiv mülki-hüquqi vəzifənin məzmunu — strukturu dörd elementdən ibarətdir:

- davranış zərurətindən;
- cavab vermək zərurətindən;

- mülki-hüquqi məsuliyyətə cəlb olunmaq zərurətindən;
- əmlakdan istifadəyə mane olmamaq zərurətindən.

§ 4. Mülki hüquq münasibətlərinin növləri

1. Mülki hüquq münasibətlərinin təsnifi anlayışı və əhəmiyyəti

İnsan cəmiyyətinin özü elə bil ki, hüquq münasibətlərinin sonsuz zəncirlərindən ibarətdir[1]. Bu münasibətlərin geniş bir sahəsini mülki hüquq münasibətləri təşkil edir.

Cəmiyyətdə yaranan mülki hüquq münasibətləri son dərəcə müxtəlif və rəngarəngdir. Onların əhatə dairəsi kifayət qədər genişdir. Lakin mülki hüquq münasibətləri nə qədər müxtəlif olsa da, onları müvafiq qayda əsasında təsnifləşdirmək, yəni ayn-ayrı növlərə bölmək olar. Bu cür təsnifin, hər şeydən əvvəl, **nəzəri əhəmiyyəti** vardır. Mülki hüquq münasibətlərinin təsnifi imkan verir ki, onun ayrı-ayrı növləri nəzəri cəhətdən təhlil olunsun. Bununla belə, həmin təsnif **praktiki əhəmiyyətə** malikdir. Belə ki, o, həm də praktik məqsəd güdür.

Hər şeydən əvvəl, mülki hüquq münasibətlərinin hüquqi məzmunu, yəni subyektlərin hüquq və vəzifələri bu münasibətlərin növlərindən asılı olaraq müəyyən edilir. Bax, mülki hüquq münasibətlərinin təsnifi imkan verir ki, **həmin münasibətlərin hüquqi məzmunu aydınlaşdırılsın.**

İkincisi, mülki hüquq münasibətlərinin subyekt tərkibi bu münasibətlərin növlərindən asılı olaraq müəyyənləşdirilir. Mülki hüquq münasibətlərinin təsnifi həmin münasibətlərin **subyekt tərkibinin müəyyən edilməsinə imkan verir.** Məsələn, biz, bilirik ki, mütləq hüquq münasibətlərində iştirak edən subyektlərdən yalnız biri məlum olur. Digər tərəf isə naməlumdur. Nisbi hüquq münasibətlərində isə bundan fərqli olaraq, hər iki tərəf məlumdur.

Üçüncüsü, mülki hüquq münasibətləri subyektlərinin (səlahiyyətli şəxslərin) **hüquqlarının kimlərdən müdafiə olunması bu münasibətlərin növləri ilə şərtlənir.** Məsələn, mütləq hüquq münasibətində səlahiyyətli şəxsin hüququ istənilən hər hansı şəxs tərəfindən pozulmaqdan, nisbi hüquq münasibətində isə konkret müəyyən şəxs tərəfindən pozulmaqdan müdafiə edilir. Mülki hüquq münasibətlərinin təsnifi həmin məsələni müəyyən etməyə imkan verir.

Dördüncüsü, mülki hüquq münasibəti subyektləri hüquq pozuntusu törətdiyi hallarda, onlara tətbiq ediləcək **məsuliyyət tədbirinin forması həmin münasibətin növündən asılı olaraq müəyyən edilir.** Belə ki, mülki hüquq münasibətlərinin təsnifi hüquq pozuntusu törədən şəxsə tətbiq edilən məsuliyyət tədbirinin formasını müəyyən etməyə imkan verir. Məsələn, əmlak hüquq münasibətlərində hüquq pozuntusuna yol verən subyektə zərərin əvəzinin ödənilməsi formasında məsuliyyət tədbiri tətbiq edilir. Şəxsi qeyri-maddi nemətlərlə bağlı yaranan hüquq münasibətlərində (şəxsi qeyri-əmlak hüquq münasibətlərində) isə, şübhəsiz ki, bu cür formadan istifadə olunmur.

Beləliklə, mülki hüquq münasibətlərinin təsnifi imkan verir ki, mülki qanunvericilik praktikada bu münasibətlərin konkret növünə düzgün tətbiq edilsin, istifadə olunacaq mülki hüquq norması səhv seçilməsin. Onun güddüyü praktiki məqsəd də məhz bundan ibarətdir.

Mülki hüquq münasibətləri müxtəlif əsas və meyarlara görə təsnif edilir. Mülki hüquq elmi və sivilistika doktrinası bu əsas və meyarlara görə onların bir sıra növlərini ayırır və fərqləndirir[1]:

- əmlak və şəxsi qeyri-əmlak hüquq münasibətləri;
- mütləq və nisbi hüquq münasibətləri;
- əşya və öhdəlik hüquq münasibətləri;
- müddətli və müddətsiz hüquq münasibətləri;
- sadə və mürəkkəb hüquq münasibətləri.

2. Əmlak və qeyri-əmlak mülki hüquq münasibətləri

Obyekt kimi meyara və əlamətə görə bütün mülki hüquq münasibətləri iki yerə ayrılır:

- əmlak hüquq münasibətləri;
- qeyri-əmlak hüquq münasibətləri[2].

Əmlak hüquq münasibətləri odur ki, bu münasibətlərin obyekti maddi nemətlərdən (əmlakdan) ibarətdir. Onlar **iqtisadi məzmuna malikdir.**

Əgər mülki hüquq normaları ilə əmlak münasibətləri tənzimlənərsə, onda bunlara əmlak hüquq münasibətləri deyilir. Deməli, **əmlak hüquq münasibətləri əmlak münasibətlərinin hüquqi formasıdır.** Onlar əmlak münasibətlərinin hüquqi rəsmiləşdirmə forması və vasitəsidir.

Əmlak hüquq münasibətləri mülki hüquq münasibətlərinin əsas hissəsini təşkil edir. Onlar digər hüquq münasibətlərinə nisbətən üstünlüyə malikdir. Bu hüquq münasibətlərinin əhatə dairəsi kifayət qədər genişdir.

Əmlak hüquq münasibətlərinin iki əsas və başlıca qrupu fərqləndirilir:

[1] bax: *Иоффе О.С.* Правоотношение по гражданскому праву. Л., 1949; *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 1. Л., 1958; Советское гражданское право. Учебное пособие. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986; Гражданское право. Учебник. Том 1 / Под ред. *П.Е.Орловского и С.М.Корнеева*. М., 1969; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова и С.М.Корнеева*. М., 1979; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко*. Л., 1982; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997; Гражданское право. Учебник. Том 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.Илларионовой* и др. М., 1998; *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.Ф.Маслова, А.А.Пушкина*. Киев. 1983.

[2] Mülki hüquq münasibətlərinin bu cür iki növünün fərqləndirilməsi üçün əsas olan əlamət və meyar barədə müəlliflərin fikirləri üst-üstə düşmür. Məsələn, O.A.Krasavçikov **mülki hüquq münasibətlərinin sosial məzmunu kimi əlamətdən** çıxış edir (bax: Советское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 75). M.Y.Kirillova **tənzimetmə predmeti kimi meyara** görə mülki hüquq münasibətlərini əmlak və qeyri-əmlak hüquq münasibətlərinə bölür (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Т.И.Илларионовой* и др. М., 1998, с. 41). Bəzi müəlliflər isə bu bölgü üçün **mülki hüquq münasibətlərinin obyekti kimi meyara** üstünlük verirlər (Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 101). Bu cür fikir ayrılığının elə bir hüquqi əhəmiyyəti yoxdur. Onlar eyni bir məsələnin müxtəlif cəhətləridir.

• əşya hüquq münasibətləri;
• öhdəlik hüquq münasibətləri.

Əşya hüquq münasibətləri o münasibətlərdir ki, onlar əşyanın bu və ya digər şəxsə məxsus olmasını hüquqi cəhətdən rəsmiləşdirmə formasıdır. Məsələn, mülkiyyət hüquq münasibətləri əşya hüquq münasibətinə aiddir. Bundan əlavə, məhdud əşya hüquq münasibətləri (girov, servitut və digər hüquq münasibətləri) də bu növ hüquq münasibətinə daxildir.

Öhdəlik hüquq münasibətləri dedikdə isə əmlakın bir şəxsdən digərinə keçməsinin, yəni əmtəə-pul mübadiləsi prosesinin hüquqi cəhətdən rəsmiləşdirmə forması başa düşülür. Bu cür hüquq münasibətləri, bir qayda olaraq, mülki-hüquqi müqavilələrdən əmələ gəlir. Məsələn, alqı-satqı, icarə, kirayə, dəyişmə, daşıma, sığorta, bank əmanəti, podrat, borc, kredit və digər hüquq münasibətləri bunlara misaldır. Öhdəlik hüquq münasibətləri müqavilədənkənar (qeyri-müqavilə) yolla da yarana bilər. Məsələn, ziyan vurmaq nəticəsində əmələ gələn hüquq münasibətlərini (delikt hüquq münasibətlərini), əsassız varlanmadan yaranan hüquq münasibətlərini (kondikasiya hüquq münasibətlərini), müsabiqə hüquq münasibətlərini və s. bu cür öhdəlik hüquq münasibətinə misal kimi göstərə bilərik.

Qeyri-əmlak hüquq münasibətləri o hüquq münasibətləridir ki, qeyri-maddi nemətlər bu münasibətlərin obyekti qismində çıxış edir. Əgər mülki hüquq normaları ilə qeyri-əmlak münasibətləri tənzimlənərsə, belə halda qeyri-əmlak hüquq münasibətləri əmələ gəlir. Qeyri-əmlak hüquq münasibətləri qeyri-əmlak münasibətlərinin hüquqi cəhətdən rəsmiləşdirmə formasıdır. Özü də onlar əmlak hüquq münasibətlərindən fərqli olaraq, **iqtisadi məzmundan məhrumdur.** Qeyri-əmlak hüquq münasibətləri özləri iki cür olur[1]:

• əmlak hüquq münasibətləri ilə bağlı olan qeyri-əmlak hüquq münasibətləri;
• əmlak hüquq münasibətləri ilə bağlı olmayan qeyri-əmlak hüquq münasibətləri.

Əmlak hüquq münasibətləri ilə bağlı olan qeyri-əmlak hüquq münasibətləri o hüquq münasibətləridir ki, onların obyektini əqli mülkiyyət obyektləri, yəni yaradıcılıq fəaliyyətinin nəticələri (elm, ədəbiyyat və incəsənət əsərləri, ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları, firma adları, seleksiya nailiyyətləri, kəşflər və s.) təşkil edir. Məsələn, yazıçının əsər (şer, dram, faciə, komediya, hekayə və s.) yazması ilə müəlliflik hüquq münasibəti, mühəndisin ixtira (yeni təyinatlı saat, paltaryuyan maşın, tozsoran, soyuducu, kondisioner və s.) etməsi ilə patent (ixtira) hüquq münasibəti əmələ gəlir. Bunların iqtisadi məzmunu yoxdur. Ona görə ki, həmin hüquq münasibətləri pulla qiymətləndirilmir. Lakin iqtisadi məzmuna malik olmamalarına baxmayaraq, həmin hüquq münasibətləri əmlak hüquq münasibətləri ilə bağlıdır. Belə ki, əqli mülkiyyət obyektləri olan əsərlərdən, ixtiralardan və s. istifadə ilə əlaqədar yaranan münasibətlər əvəzli olub, əmlak xarakterlidir. Məsələn, əsərin maddi daşıyıcısı (maddi obyekti) olan kitablar oxuculara satılır və bununla alqı-satqı hüquq münasibəti əmələ gəlir. Bu isə əmlak hüquq münasibətidir. Başqa bir misalda mühəndis ixtiradan (məsələn, yeni təyinatlı soyuducudan) istifadə hüququnu sənaye müəssisəsinə satır. Belə halda onlar arasında alqı-satqı hüquq münasibəti yaranır. Bu isə əmlak hüquq münasibətidir. Deməli, əqli mülkiyyət obyektlərinin (əsərlərin, ixtiraların və s.) yaranması ilə bağlı olaraq yaranan qeyri-əmlak hüquq münasibətləri (müəlliflik, patent hüquq münasibətləri və s.) bu obyektlərdən istifadə olunması ilə əlaqədar yaranan əmlak münasibətləri ilə bağlıdır. Amma buna baxmayaraq, obyekti yaradıcılıq fəaliyyətinin nəticələri (əqli mülkiyyət obyektləri) olan hüquq münasibətləri qeyri-əmlak hüquq münasibətləri hesab edilir.

Əmlak hüquq münasibətləri ilə bağlı olmayan qeyri-əmlak hüquq münasibətləri odur ki, onların obyekti şəxsi qeyri-maddi nemətlərdən ibarətdir. Şəxsi qeyri-maddi nemətlər insanın özündən ayrılmaz olub, özgənkiləşdirilmir, digər şəxslərə verilmir. Bu cür nemətlərə, əvvəllərdə qeyd etdiyimiz kimi, insanın şərəf və ləyaqətini, işgüzar nüfuzunu həyatını, sağlamlığını və s. misal göstərə bilərik. Həmin nemətlər insana anadangəlmə və ya qanun əsasında məxsus olur. Göstərilən nemətlər qeyri-maddi, qeyri-əmlak təbiətinə malik olduqları üçün onlar barəsində əmələ gələn hüquq münasibətləri də qeyri-əmlak xarakterli olub, iqtisadi məzmundan məhrumdur, pulla ifadə edilmir və qiymətləndirilmir.

Bəs, mülki hüquq münasibətlərinin əmlak və qeyri-əmlak hüquq münasibətləri adlı iki növə bölünməsinin nə kimi praktiki əhəmiyyəti vardır? Bu cür bölgünün **birinci praktiki əhəmiyyəti** ondan ibarətdir ki, **əmlak hüquq münasibətlərindən yaranan hüquq və vəzifələr pozulduğu hallarda hüquq pozuntusu törədənə yalnız əmlak xarakterli sanksiyalar (məsuliyyət tədbirləri) tətbiq edilə bilər.** Bu cür pozuntu hallarında zərərin əvəzinin ödənilməsi formasında məsuliyyət tədbirindən (sanksiyadan) istifadə edilir və mülki-hüquqi məsuliyyət əmlak xarakterinə malik olur. Qeyri-əmlak hüquq münasibətlərindən irəli gələn hüquq və vəzifələr pozulduğu hallarda isə həm **mənəvi ziyanın ödənilməsi formasında əmlak sanksiyası, həm də digər spesifik tədbirlər tətbiq edilir**. Lakin mənəvi ziyanın ödənilməsi formasında əmlak sanksiyası pozulmuş hüquqların bərpa edilməsi üçün kifayət etmir. Belə halda spesifik tədbirlər həlledici və mühüm rol oynayır. Məsələn, kütləvi informasiya vasitəsində fiziki şəxsin şərəf və ləyaqətini ləkələyən, həqiqətə uyğun olmayan məlumat (məsələn, şəxsin guya tənbəl, müftəxor, əyyaş və dələduz olması barədə məlumat) dərc edilir. Vətəndaş bu məlumatların təkzib olunmasını məhkəmə qaydasında tələb edir. Məhkəmə qərarına əsasən, həqiqətə uyğun olmayan məlumat həmin kütləvi informasiya vasitəsində təkzib edilir. Təkzibetmə kimi spesifik müdafiə tədbirindən istifadə olunmaqla vətəndaşın qeyri-əmlak hüquq münasibətindən irəli gələn hüquqları müdafiə olunur və bərpa edilir. Əmlak hüquq münasibətlərindən irəli gələn hüquqların bu cür spesifik tədbir vasitəsilə müdafiə olunması qeyri-mümkündür. Başqa bir misalda nəşriyyat müəllifin (yazıçının) əsərini müəllifin icazəsi olmadan nəşr edərək yayır. Bununla o, yazıçının müəlliflik hüquq münasibətindən irəli gələn hüqu-

[1] Müəlliflərdən professor O.A.Krasavçikov qeyri-əmlak mülki hüquq münasibətinin üçüncü növü kimi təşkilati mülki hüquq münasibətini ayırır və fərqləndirir (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 80). Bu ideya bəzi müasir müəlliflər tərəfindən dəstəklənsə də (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 42), geniş səviyyədə yayılmamışdır. Müasir sivilistika elmi həmin ideyaya tərəfdar çıxmır.

qunu pozur. Həmin əsərin nüsxələri kontrafakt nüsxələr hesab edilir[1]. Kontrafakt (fransızca contrefaction — saxta; latınca contra əks, facare etmək) nüsxələr hesab etmək spesifik müdafiə tədbiridir.

Bu bölgünün **ikinci praktiki əhəmiyyəti** ondan ibarətdir ki, əmlak hüquq münasibətlərindən irəli gələn tələblərə, bəzi tələblər istisna olmaqla (məsələn, əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələbləri və s.) **iddia müddəti aid edilir**. Qeyri-əmlak hüquq münasibətlərindən irəli gələn qeyri-maddi nemətlərin müdafiəsi (məsələn, yazıçının yaratdığı əsərinin müəllifi kimi tanınması hüququnun müdafiəsi və s.) haqqında tələblərə **iddia müddəti şamil edilmir** (MM-in 384-cü maddəsi).

3. Mütləq və nisbi hüquq münasibətləri

Subyektlərin dəqiq olaraq müəyyən edilməsi və onlar arasında qarşılıqlı əlaqənin xarakteri kimi meyara görə mülki hüquq münasibətlərinin iki növü fərqləndirilir:

- mütləq hüquq münasibətləri;
- nisbi hüquq münasibətləri.

Mütləq hüquq münasibətləri odur ki, bu münasibətlərdə subyekt (tərəf) rolunda çıxış edən səlahiyyətli şəxsə qarşı əhatə dairəsi qeyri-müəyyən olan, qeyri-məhdud saylı borclu şəxslər («hamı və hər kəs») durur. Həmin münasibətlərin yalnız bir subyekti — səlahiyyətli şəxs (subyektiv mülki hüququn daşıyıcısı) konkret və dəqiq olaraq məlum olur. Münasibətin ikinci subyekti olan borclu şəxsi (üzərinə hüquqi vəzifə düşən şəxsi) isə konkret olaraq adbaad müəyyənləşdirmək qeyri-mümkündür. Ona görə ki, borclu şəxs rolunda əhatə dairəsi naməlum olan, qeyri-məhdud saylı şəxslər çıxış edir. Başqa sözlə desək, mütləq hüquq münasibətlərində borclu şəxs qismində səlahiyyətli şəxsi əhatə edən bütün digər şəxslər — «hər kəs və hamı» iştirak edirlər. Əhatə edən bütün şəxslər («hər kəs və hamı») **səlahiyyətli şəxsin hüquq və mənafeyini pozmamaq kimi vəzifə daşıyırlar**. Bu cür vəzifəyə passiv tipli vəzifə deyilir. Səlahiyyətli şəxs isə özü subyektiv mülki hüquqları həyata keçirir.

Mütləq hüquq münasibətlərinin üç əsas növü fərqləndirilir. Birincisi, **mülkiyyət hüquq münasibətləri** onların əsas hissəsini təşkil edir. Burada səlahiyyətli şəxsə (mülkiyyətçiyə) qarşı onu əhatə edən bütün şəxslər («hamı və hər kəs») durur[2]. Bu şəxslərin əhatə dairəsi və sayı məlum deyil. Onların üzərinə belə bir vəzifə düşür: mülkiyyətçiyə məxsus əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnun həyata keçirilməsində ona mane olan hər hansı hərəkət etməmək (passiv tipli vəzifə). Mülkiyyətçi (səlahiyyətli şəxs) isə bu cür hərəkətlər etməkdən çəkinməyi borclu şəxsdən - «hamıdan və hər kəsdən» tələb etmək hüququna malikdir.

İkincisi, mütləq hüquq münasibətlərinin digər hissəsini **əqli mülkiyyət hüquq münasibətləri** təşkil edir. Bu cür hüquq münasibətləri əqli mülkiyyət obyektlərinin (əsərlərin, ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin, kəşflərin, firma adlarının, əmtəə nişanlarının, seleksiya nailiyyətlərinin və s.) yaranması ilə əmələ gəlir. Əqli mülkiyyət hüquq münasibətləri yaradıcılıq fəaliyyəti nəticələri (əqli mülkiyyət obyektləri) ilə bağlı yaranan ictimai münasibətlərin hüquqi cəhətdən rəsmiləşdirmə formasıdır. Onların dairəsi kifayət qədər genişdir: müəlliflik hüquq münasibətləri; patent (ixtira, sənaye nümunəsi, faydalı model və s.) hüquq münasibətləri; kəşf hüquq münasibətləri; əmtəə nişanı ilə bağlı yaranan hüquq münasibətləri; firma adları ilə bağlı hüquq münasibətləri və s.

Əsərin yaradılması ilə müəlliflik hüquq münasibəti əmələ gəlir. Bu münasibətdə səlahiyyətli şəxs rolunda müəllif, borclu şəxs rolunda isə müəllifi əhatə edən bütün digər şəxslər («hamı və hər kəs») çıxış edirlər. Müəllif yaratdığı əsərə münasibətdə subyektiv müəlliflik hüquqlarına malikdir. Borclu şəxs («hamı və hər kəs»), yəni müəllifi əhatə edən qeyri-müəyyən saylı şəxslər belə bir vəzifə daşıyır: əsərə münasibətdə subyektiv müəlliflik hüquqlarını həyata keçirməkdə müəllifə mane olmamaq, buna əngəl olan hər hansı hərəkətə yol verməmək (passiv tipli vəzifə). Müəllif həmin şəxslərdən bu cür hərəkətlərdən çəkinməyi tələb etmək hüququna malikdir.

Əqli mülkiyyətin digər obyekti olan əmtəə nişanının qeydiyyata alınması ilə mülki hüquq münasibəti əmələ gəlir. Bu hüquq münasibəti əmtəə nişanını qeydiyyata aldıran müəssisə ilə həmin müəssisəni əhatə edən bütün digər şəxslər («hamı və hər kəs») arasında yaranır. Özü də əmtəə nişanı barədə. Göstərilən hüquq münasibətində borclu şəxs («hamı və hər kəs») belə bir vəzifə daşıyır: əmtəə nişanı barəsində müəssisənin malik olduğu hüquqları həyata keçirməkdə ona mane olmamaq.

Üçüncüsü, **mütləq hüquq münasibətlərinin başqa bir hissəsini əmlak hüquq münasibətləri ilə bağlı olmayan qeyri-əmlak hüquq münasibətləri** təşkil edir. Bu hüquq münasibətlərinin obyekti, qeyd etdiyimiz kimi, şəxsi qeyri-maddi nemətlərdən (şərəf və ləyaqət, işgüzar nüfuz, şəxsi həyatın sirri, şəxsi toxunulmazlıq, həyat və sağlamlıq və digər nemətlərdən) ibarətdir. Həmin nemətlərin sahibi səlahiyyətli şəxsdir. Bu nemətlərə malik olduğu andan səlahiyyətli şəxslə onu əhatə edən bütün digər şəxslər («hamı və hər kəs») arasında mülki hüquq münasibəti əmələ gəlir. Səlahiyyətli şəxsə qarşı duran borclu şəxslərin üzərinə belə bir vəzifə düşür: səlahiyyətli şəxsin şəxsi qeyri-maddi nemətlərə olan subyektiv hüququnu pozmamaq, bu hüququn həyata keçirilməsinə mane olan hər hansı hərəkətdən çəkinmək (passiv tipli vəzifə). Dediklərimizdən belə çıxır ki, mütləq hüquq münasibətlərində borclu şəxs aktiv yox, passiv vəzifə daşıyır.

Nisbi hüquq münasibətləri odur ki, burada müəyyən konkret səlahiyyətli

[1] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 44-cü maddəsinin 2-ci bəndi // Mass-media və intellektual mülkiyyət. Bakı. 1998, s. 171. **Kontrafaksiya** ədəbi saxtakarlıqdır, başqasının (özgəsinin) əsərini nəşr etməklə müəlliflik hüququnun pozulmasıdır (Словарь иностранных слов. М., 1985, с. 250).

[2] Müəlliflərdən D.M.Genkin göstərir ki, mülki hüquq münasibətləri mülkiyyətçi ilə üçüncü şəxslər (onu əhatə edən şəxslər) arasında yox, mülkiyyətçi ilə dövlət arasında yaranır. Dövlət mülkiyyətçiyə əşyaya sahiblik, əşyadan istifadə və onun üzərində sərəncam vermək kimi səlahiyyətlər verir və üçüncü şəxslər üzərinə mülkiyyətçinin subyektiv hüquqlarını pozmamaq kimi vəzifə qoyur. Mülkiyyət hüquq münasibətləri mülkiyyətçi və üçüncü şəxslərlə dövlət arasında yaranan hüquq münasibətləridir (bax: Советское государство и право. 1955. № 6, с. 139). Müəllifin mövqeyi həqiqətdən uzaqdır. Onu hələ 50-ci illərin axırlarında O.S.Ioffe haqlı olaraq tənqid etmişdir (bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении. Л., 1957 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 658).

şəxsə (şəxslərə) konkret müəyyən borclu şəxs (şəxslər) durur. Bu cür hüquq münasibətlərinin subyekt tərkibi — həm səlahiyyətli şəxs, həm də borclu şəxs adbaad, konkret və dəqiq olaraq məlumdur. Özü də borclu şəxs mütləq hüquq münasibətlərində olduğu kimi passiv yox, **aktiv vəzifə daşıyır**. Onun üzərinə səlahiyyətli şəxsin xeyrinə müsbət hərəkətlər etmək — ya istifadəyə və mülkiyyətə əmlak vermək, ya iş görmək, ya xidmət göstərmək, ya da ki pul ödəmək vəzifəsi düşür.

Nisbi hüquq münasibətlərinin əhatə dairəsi son dərəcə geniş və müxtəlifdir. Onlara öhdəlik hüquq münasibətlərini misal çəkmək olar. Söhbət həm müqavilədən (alqı-satqı, podrat, icarə, kirayə, daşıma, bank əmanəti, kredit və digər müqavilələrdən), həm də qeyri-müqavilədən (zərər vurmaqdan, əsassız varlanmadan, müsabiqə keçirməkdən, xüsusi mükafatlandırma vədindən və s.) əmələ gələn öhdəliklərdən (öhdəlik hüquq münasibətlərindən) gedir. Məsələn, alqı-satqı hüquq münasibəti alqı-satqı müqaviləsindən əmələ gəlmişdir. Burada hər iki tərəf (subyekt tərkibi) dəqiq və konkret olaraq adbaad məlumdur: satıcı və alıcı. Podrat hüquq münasibətində də hər iki tərəfi adbaad çağırmaq olar: podratçı və sifarişçi. Daşıma hüquq münasibətində də belədir: daşıyıcı və yük göndərən.

Bəs, mülki hüquq münasibətlərinin mütləq və nisbi hüquq münasibətləri adlı iki növə bölünməsinin nə kimi praktiki əhəmiyyəti və mənası vardır? Bu cür bölgünün praktiki əhəmiyyəti ondan ibarətdir ki, mütləq mülki hüquq münasibətlərində səlahiyyətli şəxsin hüquqları istənilən şəxs («hamı və hər kəs») tərəfindən pozula bilər. Ona görə də bu münasibətlərdə **səlahiyyətli şəxsin hüquqları istənilən şəxsdən müdafiə edilir.** Səlahiyyətli şəxsin hüquqları pozulduğu hallarda hüquq pozuntusu törədən istənilən şəxsə mülki-hüquqi sanksiyalar tətbiq olunur.

Nisbi mülki hüquq münasibətlərində isə səlahiyyətli şəxsin hüquqları həmin hüquq münasibətlərində iştirak edən konkret, dəqiq və müəyyən subyekt (borclu şəxs) tərəfindən pozula bilər. Ona görə də bu cür hüquq münasibətlərində **səlahiyyətli şəxsin hüquqları konkret və dəqiq olaraq müəyyən edilmiş şəxsin törətdiyi hüquq pozuntusundan müdafiə edilir.** Səlahiyyətli şəxsin hüquqları pozulduğu hallarda yalnız konkret şəxslər mülki-hüquqi məsuliyyətə cəlb edilirlər və onlara sanksiyalar (müdafiə və məsuliyyət tədbirləri) tətbiq olunur.

4. Əşya və öhdəlik mülki hüquq münasibətləri

Səlahiyyətli şəxsin — subyektiv mülki hüquq daşıyıcısının mənafe və maraqlarını təmin etmək üsulu kimi əlamətə və meyara görə mülki hüquq münasibətləri iki növə bölünür:

- əşya hüquq münasibətləri;
- öhdəlik hüquq münasibətləri.

Əşya hüquq münasibətlərində səlahiyyətli şəxsin mənafeyi əşya ilə bilavasitə qarşılıqlı təsir və əlaqədə olmaq yolu ilə həmin əşyanın fayda verməsi hesabına təmin edilir. Bu hüquq münasibətlərində **səlahiyyətli şəxsin ehtiyacı onun öz şəxsi-xüsusi (fərdi) hərəkətləri vasitəsilə ödənilir**[1]. Burada səlahiyyətli şəxs borclu şəxsin hərəkəti olmadan öz subyektiv hüquqlarını həyata keçirir. Borclu şəxsin (səlahiyyətli şəxsi əhatə edən bütün şəxslərin) üzərinə isə bu hüquqların həyata keçirilməsinə mane olan hər hansı hərəkətdən çəkinmək kimi passiv tipli vəzifə qoyulmuşdur. Bu passiv vəzifəyə əməl etmək səlahiyyətli şəxsin mənafeyinin təmin olunmasına dəlalət edir.

Əşya hüquq münasibətləri səlahiyyətli şəxsin əşyaya olan münasibətinin, onun əşya üzərində sahibliyinin və yiyəliyinin hüquqi cəhətdən rəsmiləşdirmə formasıdır. Bu münasibətlər əşya üzərində səlahiyyətli şəxsin hüququ ilə bağlıdır. Məsələn, yaşayış evi əşyadır. Onun fayda vermək xüsusiyyəti vardır. Belə ki, yaşayış evinin əsas təyinatı insanın yaşamasını təmin etməkdir. Yaşayış evinin mülkiyyətçisi (səlahiyyətli şəxs) öz ehtiyac və tələbatını ödəmək üçün yaşayış evindən istifadə edir, orada yaşayır. Beləliklə, mülkiyyətçinin yaşayış evinə olan mülkiyyət hüququ ilə bağlı olaraq əşya hüquq münasibəti əmələ gəlir. Bu hüquq münasibəti mülkiyyətçinin öz hərəkətləri ilə həyata keçirilir. Amma bir şərtlə ki, mülkiyyətçini əhatə edən şəxslər ona mane olmasınlar. Həmin şəxslər öz passiv vəzifəsini icra etsələr, mülkiyyətçinin mənafeyi təmin olunacaqdır.

Əşya hüquq münasibətlərində səlahiyyət şəxs (subyektiv hüququn daşıyıcısı), əgər əşya qanunsuz olaraq başqa şəxsin sahibliyinə keçərsə, onun əşya hüququ ləğv edilmir, əksinə saxlanılır, mövcud olmaqda davam edir. Məsələn, əşya öz mülkiyyətçisinin iradəsindən asılı olmayaraq oğurlanır. Mülkiyyətçinin bu cür halda əşya hüququ saxlanılır.

Əşya hüquq münasibətləri müxtəlifdir. Bu münasibətlər özü iki yerə ayrılır:

- mülkiyyət hüquq münasibətləri;
- məhdud əşya hüquq münasibətləri.

Mülkiyyət hüquq münasibətləri dedikdə, konkret mülkiyyətçinin özünə məxsus əmlaka (istehsal vasitələrinə və istehlak predmetlərinə) sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnu rəsmiləşdirən hüquqi forma başa düşülür. Bu münasibətlər əşya hüquq münasibətlərinin başlıca və əsas növüdür. Onun məzmunu məhdud əşya hüquq münasibətlərinin məzmunundan son dərəcə və olduqca genişdir.

Məhdud əşya hüquq münasibətləri odur ki, bu cür hüquq münasibətləri mülkiyyətçi olmayan şəxsin başqa şəxsin (mülkiyyətçinin) əmlakından öz mənafeyi üçün istifadə etməsi üzrə münasibətləri hüquqi cəhətdən rəsmiləşdirmə formasıdır. Bu hüquq münasibətlərinə aiddir:

- girov hüquq münasibətləri;
- ipoteka hüquq münasibətləri;
- servitut hüquq münasibətləri;
- superfitsi (tikiliyə vərəsəlik) hüquq münasibətləri;
- uzufrukt hüquq münasibətləri.

Girov hüquq münasibətləri ikili təbiətə malikdir. Onlar həm məhdud əşya hüquq münasibətləri, həm də öhdəlik hüquq münasibətləri (öhdəlik) kimi çıxış

[1] L.Ennekserus yazır ki, şəxs mənzildə yaşamaqla faydalanır və bununla o, fayda götürür. Bu, əşyadan bilavasitə istifadə faydasıdır. Məsələn, şəxs paltar geyməklə ondan faydalanır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 47).

edir[1]. **Girov (əşya) hüquq münasibətləri** odur ki, bu münasibətlər girov qoyanın daşınar əşyası barəsində girov saxlayanın məhdud əşya hüququnu rəsmiləşdirir. **Girov (öhdəlik) hüquq münasibətləri** borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üzrə münasibətlərin hüquqi rəsmiləşdirmə formasıdır.

İpoteka hüquq münasibətləri girov hüquq münasibətlərinə son dərəcə yaxındır. Bu münasibətlər də ikili təbiətə malikdir. Onlar həm də bir sıra fərqli cəhətlərə malikdir[2]. Girov hüquq münasibətlərinin obyekti yalnız daşınar əşyalardan ibarətdir. İpoteka hüquq münasibətlərinin obyektini isə daşınmaz əşyalar, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalar (məsələn, mülki hava gəmisi və s.) təşkil edir.

Servitut hüquq münasibətləri servitut münasibətlərinin hüquqi rəsmiləşdirmə formasıdır. Servitut münasibətinə misal olaraq qonşuya məxsus torpaq sahəsindən o biri qonşunun icazə əsasında piyada və avtomobillə keçməsi üzrə münasibəti göstərmək olar. Torpaq sahəsinin mülkiyyətçisi servitut verən, həmin sahədən keçid üçün istifadə edən qonşu isə servitut alan şəxsdir. Onlar arasında münasibətlər servitut verilməsinə dair müqavilə ilə rəsmiləşdirilir[3].

Superfitsi hüquq münasibətləri torpaq sahəsində mülkiyyətçinin razılığı əsasında tikili ucaldan şəxsin həmin tikilidən istifadə etməsi üzrə münasibətləri hüquqi cəhətdən rəsmiləşdirir. Məsələn, böyük torpaq sahəsinə malik olan kənd sakini şəhərdən gəlmiş vətəndaşa həmin torpaq sahəsində yaşayış evi (tikili) tikməyə icazə verir. Vətəndaş həmin evdən istifadə etmək, evi özgəninkiləşdirmək (satmaq, dəyişdirmək, bağışlamaq və s.) və onu vərəsəlik üzrə vermək hüququna malikdir. Amma vətəndaş həmin evə mülkiyyət hüququ əldə etmir. Superfitsi müddəti (həmin müddət tərəflərin razılığı ilə müəyyən edilir, amma 99 ildən çox ola bilməz) bitdikdə, yaşayış evi torpaq sahəsinin mülkiyyətçisinə keçir. Bax, bu münasibətlər superfitsi müqaviləsi ilə rəsmiləşdirilir[4]. Superfitsi hüquq münasibətləri **tikiliyə vərəsəlik hüquq münasibətləri** də adlanır (MM-in 250-ci maddəsi).

Uzufrukt hüquq münasibətləri mülkiyyətçinin razılığı ilə başqa şəxsin (uzufruktuarın) onun əşyasından istifadə etməsi və fayda götürməsi üzrə münasibətlərin hüquqi formasıdır. Məsələn, kəndli (fermer) təsərrüfatı başçısı torpaq sahəsini sahibkara uzufrukta verir. Sahibkar həmin sahədən istifadə edərək, oradan tikinti materialları — qum, daş, gil, çınqıl və s. çıxarır[5]. Mülki hüquq normaları ilə tənzimlənən bu cür münasibətlər uzufrukt hüquq münasibəti kimi hüquqi forma alır.

[1] Girovun əşya hüquq münasibəti və ya öhdəlik hüquq münasibəti olması uzun müddət nəzəri mübahisələrin predmeti olmuşdur (bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. По изданию 1907 г. М., 1995, с. 240; *Хвостов В.М.* Система римского права. Учебник. М., 1996, с. 329). Sivilistika doktrinasında bu mübahisə indi də davam edir. Azərbaycan Respublikasının yeni MM-nə görə, girov həm əşya hüquq münasibətidir, həm də öhdəlik hüquq münasibətidir (MM-in 269-cu maddəsi). Bu barədə dərsliyin müvafiq fəslinə bax.

[2] Bu barədə dərsliyin 24-cü fəslinə bax.

[3] Bu barədə dərsliyin 24-cü fəslinə bax.

[4] Superfitsi barədə dərsliyin 24-c fəslinə bax.

[5] Uzufrukt barədə dərsliyin 24-cü fəslinə bax.

Öhdəlik hüquq münasibətləri o münasibətlərdir ki, burada səlahiyyətli şəxsin mənafeyi borclu şəxsin müəyyən hərəkətlər etməsi hesabına təmin edilir. Borclu şəxsin hərəkətlər etməsi əmlak verilməsində, pul ödənilməsində, iş görülməsində, xidmətlər göstərilməsində ifadə olunur. Bu cür hüquq münasibətlərinə müqavilədən əmələ gələn hüquq münasibətlərini misal göstərmək olar. Məsələn, götürək alqı-satqı müqaviləsindən əmələ gələn öhdəlik hüquq münasibətini. Burada alıcı alqı-satqı müqaviləsində nəzərdə tutulan pul məbləğini ödəməklə satıcının (səlahiyyətli şəxsin) mənafeyini təmin edir. Podrat müqaviləsindən əmələ gələn hüquq münasibətində podratçı (borclu şəxs) tikdiyi yaşayış evini sifarişçiyə (səlahiyyətli şəxsə) verməklə onun ehtiyacını ödəyir. Deməli, öhdəlik hüquq münasibətlərində səlahiyyətli şəxsin maraqları borclu şəxsin fəal, müsbət hərəkətləri ilə təmin edilir.

Bəs mülki hüquq münasibətlərinin əşya və öhdəlik hüquq münasibətləri adlı iki yerə ayrılmasının nə kimi praktiki əhəmiyyəti vardır? Bu bölgünün praktiki əhəmiyyəti ondan ibarətdir ki, **əşya hüquq münasibətləri əşya-hüquqi iddiaların vasitəsi və köməyi ilə müdafiə edilir.** Söhbət vindikasiya, neqator və s. kimi iddialardan gedir. Həmin iddialar bilavasitə əşyaya yönəlir. Məsələn, vətəndaş öz qonşusunun əşyasını oğurlayır. Beləliklə, həmin əşya vətəndaşın qanunsuz sahibliyində olur. Əşyanın mülkiyyətçisi olan qonşu vindikasiya iddiası verərək, onu vətəndaşın qanunsuz sahibliyindən geri tələb edir.

Öhdəlik hüquq münasibətlərində isə **səlahiyyətli şəxsin hüquqları öhdəlik-hüquqi iddiaların vasitəsilə müdafiə olunur.** Söhbət, hər şeydən əvvəl, zərərin əvəzinin ödənilməsi barədə iddiadan gedir. Məsələn, şəhər sakini öz mənzilini tələbəyə kirayəyə verir və bununla kirayə hüquq münasibəti yaranır. Kirayəçi tələbənin təqsiri üzündən mənzilin bir hissəsi yanır. Kirayəyə verən ona vurulmuş zərərin əvəzinin ödənilməsi barədə kirayəçi tələbəyə qarşı iddia verir. Tələbə həm bərpa üçün təmirə çəkilən xərcləri ödəyir (buna real zərər deyilir), həm də mənzilin təmiri müddəti üçün kirayə haqqını verir (buna əldən çıxmış fayda deyilir).

Bəzən də elə olur ki, əşya hüquq münasibətlərində səlahiyyətli şəxsin hüququnu əşya-hüquqi iddianın köməyi ilə müdafiə etmək mümkün olmur. Məsələn, yuxarıdakı misalda öz qonşusunun əşyasını oğurlayan vətəndaşda həmin əşya müəyyən edilmir (məsələn, o, əşyanı naməlum şəxsə satır və s.). Belə halda qonşu (səlahiyyətli şəxs) öz pozulmuş hüququnu zərərin əvəzinin ödənilməsi kimi öhdəlik-hüquqi iddianın vasitəsi ilə müdafiə edir.

Əşya və öhdəlik hüquq münasibətləri konsepsiyası XIX əsrin axırlarında-XX əsrin əvvəllərində alman sivilistika doktrinasında əsaslandırılmışdır[1]. Bu konsepsiyanı bir çox fransız[2] və inqilabaqədərki rus hüquqşünasları da dəstəkləmişlər[3]. Həmin konsepsiyaya görə, əşya hüquq münasibətləri insanın əşyaya olan münasibəti olub, onun əşya üzərində sahibliyini hüquqi cəhətdən rəsmiləşdirir. Bu münasibətlərdə yalnız təkcə səlahiyyətli şəxs (əşya hüququnun daşıyıcısı) məlumdur. Öhdəlik hüquq münasibətləri ilə, heç olmazsa, iki

[1] *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949 (глава V).

[2] bax: *Aubry et Rau.* Cors du droit ciril francais. Paris. 1897, s. 72.

[3] *К.Победоносцев.* Курс гражданского права. Том 1. СПб., 1896. с. 4; *Д.Мейер.* Русское гражданское право. 1910, с. 179-180; *И.Трепицын.* Гражданское право. 1914, с. 4-5.

subyekt arasında yaranan münasibətlərdir.

Əşya və öhdəlik hüquq münasibətləri konsepsiyasına qarşı öhdəlik hüquq münasibətləri konsepsiyası qoyuldu. Bu konsepsiyaya görə, hüquq münasibətləri yalnız insanlar arasında yaranan münasibətlərdir. Hüquq ancaq bu və ya digər şəxs arasında mövcud ola bilər. Bütün hüquq münasibətləri öhdəlik hüquq münasibətləri ilə əhatə olunur[1].

Öz mənbəyini Roma hüququndan götürən əşya və öhdəlik hüquq münasibətləri konsepsiyasını kontinental ölkələrin qanunvericiliyi nəzərə almışdır. Pandekt modeli üzərində qurulan mülki məcəllələrdə (məsələn, Almaniya Mülki Qanunnaməsində, RF-in Mülki Məcəlləsində və s.) bu konsepsiya mühüm əhəmiyyət kəsb edir. İnstitusiya sisteminə əsaslanan mülki məcəllələrdə isə (məsələn, Fransa Mülki Məcəlləsində və s.) həmin konsepsiyaya bir o qədər də xüsusi diqqət yetirilmir. Burada o, özünü aydın şəkildə büruzə vermir.

Əşya və öhdəlik hüquq münasibətləri konsepsiyasını Azərbaycan Respublikasının yeni MM-i nəzərə almışdır. Bu məcəllədə əşya və öhdəlik münasibətlərini tənzimləyən çoxsaylı mülki hüquq normaları ifadə olunmuşdur.

5. Müddətli və müddətsiz mülki hüquq münasibətləri

Müddət kimi məyara və əlamətə görə mülki hüquq münasibətləri iki cür olur:

- müddətli mülki hüquq münasibətləri;
- müddətsiz (qeyri-müəyyən müddətli) mülki hüquq münasibətləri.

Müddətli mülki hüquq münasibətləri odur ki, onlar müəyyən müddətə qüvvədə olur. Bu hüquq münasibətlərinin qüvvədə olması müəyyən vaxtla məhdudlaşır. Həmin müddət ötüb keçdikdən sonra tərəflərin hüquq və vəzifələri ləğv edilir. Məsələn, müəlliflik hüquq münasibətləri əsərin yaradılması ilə yaranır, müəllifin bütün həyatı boyu, qanunda nəzərdə tutulan hallar istisna olmaqla, onun ölümündən sonra 50 il müddətində qüvvədə olur[2]. Superfitsi hüquq münasibətlərinin (tikiliyə vərəsəlik hüquq münasibətlərinin) qüvvədə olma müddəti doxsan doqquz ildən çox ola bilməz (MM-in 250-ci maddəsinin 3-cü bəndi). Patent hüquq münasibətləri ixtira üçün 20 il, faydalı model və sənaye nümunəsi üçün isə 10 il müddətində qüvvədə olur[3].

Müddətsiz mülki hüquq münasibətləri odur ki, bu münasibətlərin qüvvədə olması vaxt və zaman kateqoriyası ilə məhdudlaşdırılmır. Bu cür hüquq münasibətləri müddətsiz, yəni qeyri-müəyyən müddətə qüvvədə olurlar. Buna görə də onlar **qeyri-müəyyən müddətli mülki hüquq münasibətləri** də adlanır. Müddətsiz mülki hüquq münasibətlərinə misal olaraq mülkiyyət hüquq münasibətlərini göstərmək olar. Mülkiyyət son və axırıncı müddət kimi ideyanı qəbul etmir: müvəqqəti mülkiyyətin mövcudluğu qeyri-mümkündür. Bundan başqa, obyekti qeyri-maddi nemətlərdən (şərəfdən, ləyaqətdən, işgüzar nüfuzdan, şəxsi toxunulmazlıqdan və s.) ibarət olan mülki hüquq münasibətləri (yəni əmlak hüquq münasibətləri ilə bağlı olmayan qeyri-əmlak hüquq münasibətləri) də bu növ hüquq münasibətlərinə daxildir. Ona görə ki, qeyri-maddi nemətlərin mövcud olması müddətlə məhdudlaşdırılmır.

[1] Bu konsepsiyaya əsasən, fransız sivilistika doktrinasında əsaslandırılmışdır. Alman sivilistika ədəbiyyatında da həmin konsepsiyaya rast gəlmək olur. Onu inqilabaqədərki bəzi rus müəllifləri dəstəkləmişlər (bax: *Г.Шершеневич.* Учебник русского гражданского права. Том 1. 1914, с. 83; *В.Синайский.* Русское гражданское право, с. 134-135).

[2] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 25-ci maddəsi // Mass-media və intellektual mülkiyyət. Bakı. 1998, s. 158; AR QK, III cild.

[3] bax: «Patent haqqında» qanunun 10-cu maddəsi // Mass-media və intellektual mülkiyyət. Bakı. 1998, s. 178; AR QK, III cild.

6. Sadə və mürəkkəb mülki hüquq münasibətləri

Mülki hüquq münasibətləri **struktur (quruluş) kimi əlamətə** görə iki növə bölünür:

- sadə mülki hüquq münasibətləri;
- mürəkkəb mülki hüquq münasibətləri.

Sadə mülki hüquq münasibətləri odur ki, bu münasibətlərdə səlahiyyətli şəxs yalnız bir subyektiv mülki hüquqa malik olur, borclu şəxs isə yalnız bir hüquqi vəzifə daşıyır. Özü də səlahiyyətli şəxsin malik olduğu subyektiv hüquq, borclu şəxsin daşıdığı mülki-hüquqi vəzifəyə uyğun gəlir. Məsələn, vətəndaş özünün hüquqazidd təqsirli hərəkəti ilə qonşunun əmlakına zərər vurur. Onlar arasında ziyan vurmaq nəticəsində yaranan öhdəlik hüquq münasibəti (öhdəlik) əmələ gəlir. Bu hüquq münasibəti delikt hüquq münasibəti də adlanır. Həmin hüquq münasibətində zərərvuran vətəndaş borclu şəxs hesab edilir. Ona görə ki, onun üzərinə vurduğu zərərin əvəzini ödəmək vəzifəsi düşür. Özü də yalnız bir vəzifə. Ziyan çəkən qonşu isə səlahiyyətli şəxsdir (kreditordur). Ona görə ki, onun zərərvuran vətəndaşdan ziyanın əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Özü də yalnız bir hüquqa malikdir. Bank əmanəti hüquq münasibəti də sadə mülki hüquq münasibətinə misal ola bilər. Burada əmanətçinin əmanətin və ona hesablanmış faizlərin verilməsini bankdan tələb etmək kimi bir hüququ vardır. Bank isə əmanətin və ona hesablanmış faizlərin ödənilməsi kimi yalnız bir vəzifə daşıyır. Deməli, **sadə mülki hüquq münasibətləri öz strukturuna görə, bir subyektiv hüquqdan və bir subyektiv hüquqi vəzifədən ibarətdir.**

Mürəkkəb mülki hüquq münasibətləri odur ki, bu münasibətlərdə iştirak edən subyektlərdən hər biri eyni vaxtda subyektiv hüquqa malik olur və hüquqi **vəzifə daşıyır**[1]. Söhbət səlahiyyətli şəxsin eyni vaxtda subyektiv hüquqa malik olmasından və hüquqi vəzifə daşımasından, habelə borclu şəxsin eyni zamanda vəzifə daşımasından və hüquqa malik olmasından gedir. Başqa sözlə desək, **mürəkkəb mülki hüquq münasibətlərində hər iki tərəf eyni zamanda həm hüquqlara malikdirlər, həm də hüquqi vəzifələr daşıyırlar.** Özü də bu münasibətlərdə səlahiyyətli şəxs eyni vaxtda həm də borclu şəxsdir, borclu şəxs isə eyni vaxtda həm də səlahiyyətli şəxsdir. Məsələn, ələ götürək pəndlə hüquq münasibətini. Podratçı həm hüquqa (gördüyü işin haqqının ödənilməsini tələb etmək hüququna) malikdir, həm də vəzifə (tapşırılan işi icra etmək vəzifəsini) daşıyır. Sifarişçi həm vəzifə (görülən işin haqqını ödəmək vəzifəsini), həm də hüquqa (işin nəticəsinin verilməsini tələb etmək hüququ-

[1] Bəzi müəlliflər sadə və mürəkkəb hüquq münasibətlərinə başqa cür ünvan verirlər: ən azı iki subyekti olan hüquq münasibətinə sadə hüquq münasibəti deyilir, mürəkkəb hüquq münasibətində bir neçə və qeyri-məhdud sayda subyektlər çıxış edir (bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько.* М., 2000, с. 517).

na) malikdir.

Mürəkkəb mülki hüquq münasibətləri olduqca müxtəlif olub, son dərəcə geniş əhatə dairəsinə malikdir. Onların xüsusi çəkisi sadə mülki hüquq münasibətlərinə nisbətən müqayisəedilməz dərəcədə çoxdur. Alqı-satqı, daşıma, sığorta, bank hesabı, borc, kredit, icarə, kirayə, lizinq və digər mülki hüquq münasibətləri struktur (quruluş) etibarilə mürəkkəbdir.

7. Tənzimləyici və qoruyucu mülki hüquq münasibətləri

Həyata keçirdiyi funksiya və malik olduğu təyinata görə, mülki hüquq münasibətlərinin iki növü fərqləndirilir:

- tənzimləyici mülki hüquq münasibətləri;
- qoruyucu mülki hüquq münasibətləri.

Mülki hüquq münasibətlərinin bu iki növü mülki hüququn tənzimləyici və qoruyucu funksiyalarına (vəzifələrinə) uyğundur. Belə ki, mülki hüququn tənzimləyici funksiyası tənzimləyici mülki hüquq münasibətləri vasitəsilə, qoruyucu funksiyası ilə qoruyucu mülki hüquq münasibətləri vasitəsilə həyata keçirilir.

Tənzimləyici mülki hüquq münasibətləri odur ki, bu hüquq münasibətləri normal iqtisadi (əmlak) dövriyyəni hüquqi cəhətdən rəsmiləşdirir. Normal əmlak dövriyyəsi elə münasibətlərdir ki, bu münasibətlər subyektlərin razılaşmasına, iradə sərbəstliyinə, hüquq bərabərliyinə və əmlak müstəqilliyinə əsaslanır. Bu növ mülki hüquq münasibətləri bazar-mal dövriyyəsinin, əmtəə-pul mübadiləsinin hüquqi rəsmiləşdirmə formasıdır. Onların əsas məqsədi iqtisadi (əmlak) dövriyyə münasibətlərini tənzimləməkdən və nizama salmaqdan ibarətdir.

Tənzimləyici mülki hüquq münasibətlərinin əsasını müqavilə öhdəlikləri (müqavilə öhdəlik hüquq münasibətləri) təşkil edir. Müqavilə öhdəlikləri normal iqtisadi proseslərin hüquqi ifadəsidir[1]. Söhbət alqı-satqı, dəyişmə, icarə, sığorta, kredit, daşıma və digər öhdəliklərdən, yəni mülki öhdəlik hüquq münasibətlərindən gedir.

Qoruyucu mülki hüquq münasibətləri anomal (qeyri-normal) əmlak münasibətlərinin hüquqi rəsmiləşdirmə formasıdır. Onların əsas məqsədi əmlak (mülki) dövriyyə iştirakçılarının əmlak mənafeyini müdafiə etməkdən ibarətdir. Bu növ mülki hüquq münasibətlərinə delikt öhdəliklərini (ziyan vurmaq nəticəsində əmələ gələn öhdəlikləri), habelə əsassız varlanma öhdəliyini misal göstərmək olar.

8. Birtərəfli və ikitərəfli (qarşılıqlı) hüquq münasibətləri

Mülki hüquq münasibətlərində iştirak edən subyektlər arasında **hüquq və vəzifələrin bölgüsü əlamətinə** görə həmin münasibətlərin iki növü fərqləndirilir:

- birtərəfli mülki hüquq münasibətləri;
- ikitərəfli mülki hüquq münasibətləri.

Birtərəfli mülki hüquq münasibələri odur ki, bu münasibətlərdə iştirak edən subyektlərdən biri (səlahiyyətli şəxs) yalnız subyektiv hüquqa malik olur, digəri isə (borclu şəxs) yalnız vəzifə daşıyır. Bu növ mülki hüquq münasibətlərinə bank əmanəti hüquq münasibətlərini və delikt öhdəliklərini (ziyan vurmaq nəticəsində yaranan mülki hüquq münasibətlərini) misal göstərmək olar.

[1] *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 2 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 409.

İkitərəfli mülki hüquq münasibətləri odur ki, bu münasibətlərdə iştirak edən subyektlərdən hər biri eyni zamanda həm hüquqlara malikdir, həm də vəzifələr daşıyır. Bu cür münasibətlərdə səlahiyyətli şəxs eyni vaxtda həm borclu şəxs, borclu şəxs isə eyni zamanda həm də səlahiyyətli şəxs rolunda çıxış edir. Mürəkkəb quruluşlu bütün mülki hüquq münasibətləri (məsələn, alqı-satqı, podrat, daşıma, sığorta, icarə, kirayə və digər hüquq münasibətləri) ikitərəfli hüquq münasibətləri hesab edilir. Tərəflərin hüquq və vəzifələri qarşılıqlı surətdə bir-birinə uyğun gəldiyinə görə, onlar **qarşılıqlı mülki hüquq münasibətləri** də adlanır.

§ 5. Mülki hüquq münasibətlərinin yaranmasının zəmini

1. Mülki hüquq münasibətlərinin yaranmasının zəmini anlayışı

Mülki hüquq münasibətləri öz-özünə, avtomatik yaranmır. Satıcı və alıcı arasında alqı-satqı, daşıyıcı və yükgöndərən arasında daşıma, kirayə verən və kirayəçi arasında kirayə, borc verən və borc alan arasında borc, podratçı və sifarişçi arasında podrat, zərərvuranla zərərçəkən arasında delikt, sığortaçı ilə sığorta olunan arasında sığorta, müştəri ilə bank arasında bank hesabı, əmanətçi ilə kredit təşkilatı arasında bank əmanəti və digər hüquq münasibətləri özbaşına əmələ gəlmir. Bu münasibətlərin meydana gəlməsi üçün müəyyən zəmin lazımdır.

Mülki hüquq münasibətlərinin yaranmasının zəmini dedikdə, bu münasibətlərin əmələ gəlməsinə dəlalət edən qabaqcadan lazım olan ilkin şərtlər başa düşülür. Hüquq elmində bu şərtlər iki yerə bölünür:

- ümumi ilkin şərtlər;
- xüsusi ilkin şərtlər.

Ümumi ilkin şərtlər odur ki, onlar istənilən növ ictimai münasibətin (istehsal, iqtisadi, əxlaqi, siyasi, dini və digər münasibətlərin) yaranması üçün gərəkdir. Bu şərtlər özü iki cür olur. **Birincisi,** heç olmazsa, **ən azı iki subyektin olması.** Axı, yalnız bir subyekt öz-özü ilə necə münasibətə girə bilər? Bunu adam təsəvvürünə belə gətirə bilmir. Aydın bir həqiqətdir ki, subyekt özözü ilə hər hansı münasibətə daxil ola bilməz. Münasibətin yaranması üçün digər subyektin olması vacibdir. Hər bir ictimai münasibət, o cümlədən mülki hüquq münasibəti insanların qarşılıqlı münasibəti olub, heç olmazsa, ən azı iki subyekt arasında mövcud olur[1].

İkincisi, subyektlərin mənafe, məqsəd və ehtiyacları onları münasibətə girməyə məcbur edir. Məhz bu amillərin təsiri altında subyektlər müxtəlif münasibətlərə, o cümlədən hüquq münasibətlərinə daxil olurlar. Bu yerdə dahi Marksdan sitat (tutalqa) gətirmək yerinə düşərdi. O, yazırdı ki, mənafe vətən-

[1] *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 539.

daş cəmiyyəti üzvlərini bir-birilə bağlayır. Şəxs özünün hər hansı bir ehtiyacını nəzərə almadan heç nə edə bilməz[1]. Daha sonra Marks göstərirdi ki, tarixi inkişaf necə olursa-olsun, onun bütün mərhələlərində hər bir insan şəxsi məqsəd güdür[2]. Bu məqsədə nail olmaq üçün insanlar müəyyən hərəkət edərək müxtəlif münasibətlərə girirlər. Bunun nəticəsində onların mənafeyi təmin olunur.

İnsanları müxtəlif münasibətlərə girməyə məcbur edən ehtiyaclar məzmunca müxtəlifdir. Onlar əsasən iki cür olur: maddi ehtiyaclar; qeyri-maddi (mənəvi) ehtiyaclar. **Maddi ehtiyaclar** iqtisadi məzmuna malik olan ehtiyaclardır. Məsələn, alıcını alqı-satqı, sifarişçini podrat, yük göndərəni daşıma, kirayəçini kirayə və s. hüquq münasibətlərinə girməyə vadar edən maddi ehtiyaclardır. **Qeyri-maddi (mənəvi) ehtiyaclar** isə iqtisadi məzmundan məhrumdur. Məsələn, əsərin yaradılması ilə müəlliflik hüquq münasibəti əmələ gəlir. Bu münasibətin yaranması isə maddi ehtiyacla yox, mənəvi (qeyri-maddi) ehtiyacla şərtlənir. Bax, göstərilən ehtiyacları təmin etmək niyyəti insanları müvafiq hüquq münasibətlərinə daxil olmalarına vadar edir. Özü də insanlar, insan birlikləri (qrupları) və kollektivləri arasında yaranan münasibətlər cəmiyyətdə meydana gəlir və fəaliyyət göstərir. Buna görə də həmin münasibətlər, təbiətdəki münasibətlərdən (əlaqələrdən) fərqli olaraq, **ictimai və ya sosial münasibətlər** adlanır.

Amma təkcə ümumi ilkin şərtlər real hüquq münasibətlərinin yaranması üçün kifayət etmir. Bunun üçün həm də xüsusi şərtlərin olması gərəkdir. **Xüsusi ilkin şərtlər** odur ki, onlar bütün ictimai münasibətlərin yox, yalnız hüquq münasibətlərinin, o cümlədən mülki hüquq münasibətlərinin yaranması üçün zəmin rolunu oynayır. Bu şərtlər siyasi, əxlaqi, dini, istehsal, iqtisadi və s. münasibətlərin əmələ gəlməsi üçün əhəmiyyətə malik deyil. Onların yalnız hüquq münasibətlərinin meydana gəlməsi üçün rolu vardır. Buna görə də xüsusi ilkin şərtlərə **hüquqi ilkin şərtlər** də deyilir. Bax, xüsusi ilkin şərtlər ümumi ilkin şərtlərlə məcmu halında birləşərək hüquq münasibətlərinin, o cümlədən mülki hüquq münasibətlərinin əmələ gəlməsinə səbəb olur. Xüsusi ilkin şərtlərə aiddir:

- mülki hüquq norması;
- mülki hüquq subyektliyi;
- mülki-hüquqi faktlar.

Mülki hüquq münasibətləri yalnız **mülki hüquq normaları əsasında** yaranır və fəaliyyət göstərir. Axı, real-faktiki konkret ictimai münasibətlər (məsələn, alqı-satqı, daşıma, kredit, icarə və digər ictimai münasibətlər) ancaq mülki hüquq normaları ilə tənzimləndikdə mülki hüquq münasibətləri formasını alır. Mülki hüquq norması olmadan hər hansı bir mülki hüquq münasibətinin əmələ gəlməsindən söhbət gedə bilməz. **Əgər mülki hüquq norması yoxdursa** (əlbəttə, hüququn analogiyası istisna olmaqla), onda **mülki hüquq münasibəti də yarana bilməz.**

2. Mülki hüquq subyektliyi

Mülki hüquq subyektliyi mülki hüquq münasibətlərinin əmələ gəlməsinə dəlalət edən xüsusi (hüquqi) ilkin şərtlərdən biridir. Bu və ya digər subyektin

[1] *Маркс К., Энгельс Ф.* Сочинения. Том 18, с. 271; Том 3, с. 245.
[2] *Маркс К., Энгельс Ф.* Сочинения. Том XIV, с. 631.

mülki hüquq münasibəti iştirakçısı olmaq imkanı məhz mülki hüquq subyektliyi kimi anlayışla müəyyən olunur. Bu anlayış mülki hüquq münasibəti subyektini xarakterizə edir.

«Mülki hüquq subyektliyi» termini mülki hüquq elmi dövriyyəsində və sivilistika doktrinasında istifadə olunan termindir. Amma həmin termin Azərbaycan Respublikasının müasir mülki qanunvericiliyinə bəlli deyil. Azərbaycan Respublikasının mülki qanunvericiliyi bu cür termini işlətmir.

Lakin bunlara baxmayaraq, «hüquq subyektliyi» termini 50 ildən çoxdur ki, beynəlxalq aktlarda istifadə olunur. Belə ki, İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin (1948) 6-cı maddəsində göstərilir: harada olmasından asılı olmayaraq hər bir insanın özünün hüquq subyektliyinin tanınması hüququ var[1]. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktda (1966) da analoji göstəriş ifadə olunmuşdur[2].

Hüquq subyektliyi mülki hüquq elmində (sivilistika doktrinasında) mübahisə doğuran məsələlərdəndir. Hüquqşünas müəlliflərin hamısının bu məsələyə münasibəti birmənalı deyil. Onun barəsində hüquq elmində dörd cür konsepsiya yaranmışdır.

Birinci konsepsiyanı S.N.Bratus əsaslandırmışdır. Onun fikrincə, hüquq subyektliyi dedikdə, hüquq qabiliyyəti (hüquq və vəzifələrə malik olmaq qabiliyyəti) başa düşülür[3]. S.N.Bratus öz konsepsiyasının əsaslı olmasını belə izah edirdi: hüquq subyektləri hüquq və vəzifələrə malik olmaq qabiliyyətli şəxslərdir; hüquq və vəzifələrə malik olmaq qabiliyyəti isə hüquq qabiliyyəti adlanır; mülki hüquqların əksəriyyətini əldə etmək üçün təkcə hüquq qabiliyyətinin olması kifayət edir. Beləliklə, hüquq subyektliyi və hüquq qabiliyyəti eynimənalı anlayışlardır. Onun bu konsepsiyası bir çox alimlər tərəfindən dəstəklənmişdir[4].

S.N.Bratusun konsepsiyası natamam xarakterə malik olub, hüquq subyektliyi kateqoriyasının həqiqi mahiyyətini açıqlamağa imkan vermir. Bu konsepsiya məsələyə birtərəfli yanaşmanı ifadə edir. Hüquq subyektliyini yalnız hüquq qabiliyyəti ilə əhatə etmək və onları eynimənalı, sinonim, identik anlayışlar kimi işlətmək olmaz. Ona görə ki, bəzi kateqoriya şəxslər mülki hüquq qabiliyyətinə malik olsa da, bütün hüquq münasibətlərində subyekt kimi çıxış edə bilmirlər. Məsələn, ruhi xəstələrin mülki hüquq qabiliyyəti vardır, amma onlar mülki hüquq münasibətlərində subyekt kimi çıxış edə bilmirlər. Azyaşlılar mülki hüquq qabiliyyətinə malikdirlər, lakin xırda məişət xarakterli müqavilə münasibətlərindən (məsələn, kitab, dəftər, qələm, çörək, bulka və s. almaqdan) savayı, özləri müstəqil surətdə digər müqavilə münasibətlərinə daxil ola bilmirlər. Deməli, hüquq qabiliyyəti hüquq subyektliyi kateqoriyasının əsl sosial-hü-

[1] bax: СССР и международное сотрудничество в области прав человека. Документы и материалы. М., 1989, с. 415.
[2] bax: Права человека. Сборник международных документов. М., 1986; Права человека. Основные международные документы. М., 1995.
[3] bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 5. Bu əsər sovet hüquq ədəbiyyatında mülki hüquq subyektliyi problemini ümumiləşdirilmiş formada işıqlandıran ilk monoqrafiya idi.
[4] *Александров Н.Г.* Законность и правоотношения в советском обществе М., 1955, с. 14; Материалы дискуссии по вопросам правосубъектности // Вестник Ленинградского Университета. 1956, с. 58.

quqi mahiyyətini aydınlaşdırmağa imkan vermir[1].

İkinci konsepsiya O.S.İoffe tərəfindən irəli sürülmüşdür. Bu konsepsiyaya görə, hüquq qabiliyyəti yalnız bəzi mülki hüquqların əldə edilməsi üçün kifayət edir. Digər əksər hüquqların əldə edilməsi üçün hüquq qabiliyyəti yetərli deyil. Bunun üçün fəaliyyət qabiliyyətinin (yəni şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətinin) olması gərəkdir. Buradan O.S.İoffe belə bir nəticə çıxarırdı: hüquq subyektliyi hüquq qabiliyyətinin və fəaliyyət qabiliyyətinin birliyi deməkdir; hüquq subyektliyi hüquq qabiliyyəti ilə fəaliyyət qabiliyyətini əhatə edən kateqoriyadır; hüquq qabiliyyəti ilə fəlayyət qabiliyyətinin vəhdəti hüquq subyektliyi kateqoriyasını yaradır[2].

Şübhəsiz ki, O.S.İoffenin tezisində həqiqətə yaxın cəhətlər vardır. Amma bu konsepsiya da məsələyə birtərəfli yanaşmanı nümayiş etdirir. Belə ki, mülki hüquq subyektliyinə təkcə mülki hüquq qabiliyyəti və mülki fəaliyyət qabiliyyətinin birliyini və vəhdətini ifadə edən kateqoriya kimi baxmaq olmaz. Məsələ burasındadır ki, bəzi kateqoriya subyektlərin mülki hüquq və fəaliyyət qabiliyyəti olmasına baxmayaraq, onlar zərər vurmaq nəticəsində əmələ gələn öhdəlik hüquq münasibətinin (delikt hüquq münasibətinin) subyekti ola bilmirlər. Deməli, təkcə mülki hüquq və fəaliyyət qabiliyyətinin birliyi hüquq subyektliyi kateqoriyasını yaratmır.

Üçüncü konsepsiyaya görə, hüquq subyektliyi «özündə hüquq və fəaliyyət qabiliyyətindən əlavə, həm də delikt qabiliyyətini birləşdirir[3]. Bu konsepsiya tərəfdarları belə hesab edirlər ki, delikt hüquq münasibətinin subyekti olmaq üçün şəxsin hüquq və fəaliyyət qabiliyyətinə malik olması kifayət etmir. Bunun üçün həmin şəxsin həm də delikt qabiliyyətli olması gərəkdir. Məsələn, fəaliyyət qabiliyyətli fiziki şəxs öz hərəkətlərinin mənasını başa düşə və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə mülki hüquq pozuntusu törətdikdə, vurduğu zərər üçün məsuliyyət daşımır, yəni delikt hüquq münasibətinin subyekti hesab olunmur (MM-in 1107-ci maddəsi). Söhbət həm hüquq qabiliyyətinə, həm də fəaliyyət qabiliyyətinə malik olan fiziki şəxslərin zərər vurmasından və onların məsuliyyətə cəlb edilməməsindən gedir. Bu cür norma əvvəlki sovet mülki məcəllələrində də nəzərdə tutulmuşdu. RF-in yeni MM-i də belə norma ifadə edir. Deməli, hüquq subyektinin öz vurduğu zərərə görə məsuliyyət daşımaq, cavab vermək qabiliyyəti (delikt qabiliyyəti) olmalıdır.

[1] Hüquq subyektliyi məsələsinə alman sivilistika doktrinasında rast gəlirik. L.Ennekserus yazır ki, şəxs (Persönlichkeit) qismində tanınan hüquq subyektliyi subyektiv hüquq olmayıb, bütün hüquq və vəzifələrin hüquqi xüsusiyyət və zəminidir (*Эннекцерус Л.* Германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 251).

[2] bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении. Л., 1957 // В книге. *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 684-685; *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1. Л., 1975, с. 120-121 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 286-287. Burada İoffe O.S. S.N.Bratusun əsaslandırdığı konsepsiyanın tənqidi təhlilini vermişdir. Bu konsepsiyanın birtərəfli olmasını əsaslandırmaq üçün o, kifayət qədər tutarlı arqumentlər gətirmişdir.

[3] bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 525; Общая теория права и государства. Учебник / Под ред. *В.В.Лазарева*. М., 2001, с. 234; Гражданское право. Учебник. Часть 1/Под ред.*Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 38.

Üçüncü konsepsiya tərəfdarlarının mövqeyinə görə, hüquq subyektliyi təkcə hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti kimi iki anlayışı əhatə etmir. O, həm də delikt qabiliyyətini (vurduğu zərərə görə məsuliyyət daşımaq qabiliyyətini) özündə birləşdirir. Deməli, bu konsepsiyaya görə, hüquq subyektliyi hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti və delikt qabiliyyəti kimi üç anlayışı əhatə edən kateqoriyadır. Lakin bu konsepsiya da mülki hüquq subyektliyi kateqoriyasının əsl sosial-hüquqi təbiətini dərindən və hərtərəfli açmağa imkan vermir. Belə ki, bəzi kateqoriya subyektlər mülki hüquq qabiliyyətinə malik olsalar da, delikt qabiliyyətli subyektlər hesab olunmurlar. Məsələn, on dörd yaşına çatmamış azyaşlıların mülki hüquq qabiliyyəti vardır. Lakin bu cür kateqoriya şəxslər delikt qabiliyyətinə malik deyillər, yəni onlar vurduqları zərərin əvəzini ödəmirlər və ona görə də delikt hüquq münasibətlərinin subyekti kimi çıxış etmirlər.

Dördüncü konsepsiyaya görə, hüquq subyektliyi hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti və delikt qabiliyyəti kimi üç anlayışdan əlavə, həm də transfəaliyyət qabiliyyətini özündə birləşdirir[1]. Bizim zənnimizcə, bu konsepsiya tərəfdarlarının mövqeyi məsələyə daha dərindən və hərtərəfli yanaşmanı ifadə edir. Transfəaliyyət (latınca trans — vasitəsilə) qabiliyyəti, **birincisi, şəxsin hüquq qabiliyyətinin digər şəxsin fəaliyyət qabiliyyəti ilə tamamlanmasına imkan verir.** Məsələn, on dörd yaşına kimi azyaşlılar, MM-in 29-cu maddəsində göstərilmiş əqdlər (müqavilələr) istisna olmaqla, müstəqil surətdə əqd (müqavilə) bağlaya bilməzlər. Bu, o deməkdir ki, onlar mülki hüquq münasibətlərində subyekt rolunda iştirak edə bilməzlər. Bəs azyaşlılar necə, hansı qaydada və kimin vasitəsilə əqd (müqavilə) bağlaya və bununla mülki hüquq və vəzifələr əldə edə bilərlər? Başqa sözlə desək, azyaşlılar mülki hüquq münasibətlərində subyekt rolunda kimin vasitəsilə çıxış edə bilərlər? Mülki qanunvericilik müəyyən edir ki, on dörd yaşı tamam olmamış azyaşlıların əvəzinə, əqdləri (müqavilələri) onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər (MM-in 29-cu maddəsinin 1-ci bəndi). Fəaliyyət qabiliyyəti olmayan ruhi xəstələrin adından əqdləri (müqavilələri) onların qəyyumları bağlayırlar (MM-in 28-ci maddəsinin 8-ci bəndi). Belə təsəvvür yaranır ki, azyaşlıların, ruhi xəstələrin mülki hüquq qabiliyyəti digər şəxslərin — valideynlərin, övladlığa götürənlərin və ya qəyyumların fəaliyyət qabiliyyəti ilə tamamlanır, birləşir. Bununla azyaşlılar, ruhi xəstələr həmin şəxslərin vasitəsilə mülki hüquq münasibətlərində iştirak edir, mülki hüquq və vəzifələr əldə edir. Bu şəxslər öz hərəkətləri ilə azyaşlı və ruhi xəstələr üçün mülki hüquq və vəzifələr yaratmaq qabiliyyətinə malikdirlər. Bu, həmin şəxslərin transfəaliyyət qabiyyətinin birinci tərəfini ifadə edir. **Transfəaliyyət qabiliyyəti subyektin öz hərəkətləri ilə başqa şəxslər üçün hüquq və vəzifələr yaratmaq qabiliyyətidir.** Bax, hüquq subyektliyi bu qabiliyyətdə ifadə olunur.

İkincisi, transfəaliyyət qabiliyyəti şəxsin qeyri-delikt qabiliyyətinin digər şəxsin delikt qabiliyyəti ilə tamamlanmasına, birləşməsinə imkan verir. Məsələn, on dörd yaşına çatmamış azyaşlı və ya ruhi xəstə müəyyən bir vətəndaşın (zərərçəkənin) əmlakına zərər vurur. Onlar mülki hüquq qabiliy-

[1] Гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 287.

yətinə malik olmalarına baxmayaraq, vurulmuş zərərin əvəzini ödəmirlər. Ona görə ki, azyaşlılar və ruhi xəstələr qeyri-delikt qabiliyyətinə malikdirlər (MM-in 29-cu maddəsinin 3-cü bəndi və 1105-ci maddəsinin 1-ci bəndi).

Bu, o deməkdir ki, həmin kateqoriya şəxslər ziyan vurmaqla bağlı yaranan mülki (delikt) hüquq münasibətlərində subyekt rolunda çıxış etmirlər. Vurulmuş zərərin əvəzini ödəmək vəzifəsini mülki qanunvericilik azyaşlının valideynlərinin, övladlığa götürənlərin, qəyyumların və ruhi xəstələr üçün təyin edilmiş qəyyumların üzərinə qoyur. Azyaşlılar və ruhi xəstələr bu şəxslərin vasitəsilə delikt hüquq münasibətlərində çıxış edirlər. Həmin şəxslər azyaşlının və ruhi xəstələrin hərəkətləri nəticəsində əmələ gələn hüquq və vəzifələri öz üzərinə götürmək qabiliyyətinə malikdir. Bu, onların transfəaliyyət qabiliyyətinin ikinci tərəfidir. Deməli, **transfəaliyyət qabiliyyəti subyektin başqa şəxslərin hərəkətləri nəticəsində yaranan hüquq və vəzifələri öz üzərinə götürmək qabiliyyəti deməkdir.** Bax, hüquq subyektliyi bu qabiliyyətdə ifadə edilir.

Dediklərimizdən belə çıxır ki, mülki hüquq subyektliyi **mürəkkəb xarakterə malik olan sosial-hüquqi kateqoriyadır.** O, həm mülki hüquq qabiliyyətində, həm mülki fəaliyyət qabiliyyətində, həm delikt qabiliyyətində, həm də transfəaliyyət qabiliyyətində ifadə olunur və təzahür edir. Məhz mülki hüquq subyektliyi nəticəsində şəxslər mülki hüquq münasibətlərində subyekt rolunda çıxış edirlər. Axı, o, mülki hüquq münasibətlərinin yaranmasına dəlalət edən məcburi hüquqi (xüsusi) ilkin şərtlərdən biridir. Mülki hüquq subyektliyi mülki hüquq münasibətlərinin əmələ gəlməsi üçün hüquqi zəmin rolunu oynayır[1].

Mülki hüquq subyektliyi dedikdə, şəxsin mülki hüquq münasibətlərinin iştirakçısı olmaq imkanı və ya qabiliyyəti başa düşülür ki, o, hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, delikt qabiliyyəti və transfəaliyyət qabiliyyəti kimi anlayışlarda ifadə olunur. Yalnız bu dörd anlayışın birləşməsi və vəhdəti sosial-kateqoriya kimi mülki hüquq subyektliyini yaradır. Mülki hüquq subyektliyi qanun tərəfindən şəxslərə verilmiş hüquqi imkandır. Onu şəxsin özündən ayırıb, başqasına vermək və özgəninkiləşdirmək olmaz.

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin bütün iştirakçılan mülki hüquq subyektliyinə malikdirlər. Amma onlann mülki hüquq subyektliyi eyni deyil. Fiziki şəxslərin mülki hüquq subyektliyi **ümumi (universal) xarakter daşıyır.** Bu, o deməkdir ki, fiziki şəxslər istənilən mülki hüquq münasibətində iştirak etmək imkanına və ya qabiliyyətinə malikdir. Hüquqi şəxslərin kommersiya təşkilatlan kimi növləri də ümumi mülki hüquq subyektliyinə malikdir. Amma onların qeyri-kommersiya təşkilatı kimi növünün mülki hüquq subyektliyi **xüsusi xarakter daşıyır.** Bu, o deməkdir ki, həmin təşkilatlann yalnız nizamnamə məqsədləri ilə bağlı olan mülki hüquq münasibətlərində iştirak etmək qabiliyyəti vardır. Dövlətin mülki hüquq subyektliyi isə **məhdud (məqsədli) xarakterə** malikdir. Söz yox ki, onun hüquq subyektliyi ümumi (universal) xarakter daşıya bilməz[1]. Bu, onu ifadə edir ki, dövlətin istənilən mülki hüquq münasibətində iştirak etmək qabiliyyəti yoxdur. Məsələn, dövlət bank əmanəti, pərakəndə alqı-satqı, bank hesabı, sığorta, nəqliyyat-ekspedisiya, ticarət agenti, françayzinq və digər hüquq münasibətlərində iştirak etmək qabiliyyətinə malik deyil. Bələdiyyələr də məhdud (məqsədli) hüquq subyektliyinə malikdirlər. Deməli, mülki hüquqla rəsmiləşdirilən və tənzimlənən ictimai münasibətlərin bütün iştirakçılan — fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası (dövlət) mülki hüquq subyektliyinə malikdirlər.

Mülki hüquq subyektliyi mürəkkəb, çoxtərəfli və ümumiləşdirilmiş kateqoriya olub, qeyri-bəsit quruluşa (struktura) malikdir. O, bir-birilə qarşılıqlı əlaqədə olan dörd elementdən ibarətdir. Bu elementlərə daxildir:

- mülki hüquq qabiliyyəti;
- mülki fəaliyyət qabiliyyəti;
- mülki delikt qabiliyyəti;
- transfəaliyyət qabiliyyəti.

Subyektin mülki hüquqlara malik olmaq və mülki-hüquqi vəzifələr daşımaq qabiliyyətinə **mülki hüquq qabiliyyəti** deyilir. Subyektin öz hərəkətləri ilə özü üçün hüquqlar əldə etmək və özü üçün vəzifələr yaratmaq qabiliyyəti **mülki fəaliyyət qabiliyyəti** adlanır. Mülki hüquq pozuntusuna görə, şəxsin məsuliyyət daşımaq, cavab vermək qabiliyyətinə **delikt qabiliyyəti** deyilir. Subyektin öz hərəkətləri ilə başqa şəxslər üçün hüquq və vəzifələr yaratmaq, habelə şəxslərin hərəkətləri nəticəsində əmələ gələn hüquq və vəzifələri öz üzərinə götürmək qabiliyyəti **transfəaliyyət qabiliyyəti** adlanır.

3. Mülki-hüquqi faktlar

Qeyd etdik və göstərdik ki, mülki hüquq normaları və mülki hüquq subyektliyi mülki hüquq münasibətlərinin yaranmasının ilkin şərtləri hesab edilir. Mülki hüquq normaları kimi ilkin şərt mülki hüquq münasibətlərinin dinamikasının **normativ əsası,** mülki hüquq subyektliyi isə **subyekt əsası** sayılır. Normativ və subyekt kimi iki əsas konkret mülki hüquq münasibətlərinin yaranması üçün kifayət etmir. Mülki hüquq münasibətlərinin əmələ gəlməsi üçün həm də hüquqi faktların olması vacibdir.

Mülki hüquq faktları mülki hüquq münasibətlərinin yaranmasının ilkin şərtlərindən biridir. Onlara **hüquqi-faktiki** əsas deyilir. Mülki hüquq normaları və mülki hüquq subyektliyi kimi ilkin şərtlər bu münasibətlərin əmələ gəlməsi üçün yalnız imkan yaradır. Mülki-hüquqi fatklar isə bu imkanı gerçəkliyə çevirir və mülki hüquq münasibətləri yaradır, dəyişdirir və ya xitam edir. Ona görə də sivilistika elmində hüquqi faktlara **mülki hüquq münasibətlərinin əmələ gəlməsinin, dəyişməsinin və ya xitam olunmasının əsasları** deyilir. Məsələn, mülki qanunvericilik dəmir yolu ilə yük daşınması barədə mülki hüquq normaları ifadə edir (normativ əsas). Daşıyıcıya və yükgöndərənə qanunla daşıma

[1] Mülki hüquq subyektliyinin leqal anlayışının mülki qanunvericilikdə formulə edilməsini məqsədəuyğun sayırıq. İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin 6-cı maddəsində və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq paktın 16-cı maddəsində hüquq subyektliyi haqqında ifadə olunan norma, heç olmazsa, mülki qanunvericilikdə əks edilməlidir. Zənn edirik ki, qanunverici bu təklifi nəzərə alacaqdır.

[1] Professor O.A.Krasavçikovun belə bir fikri ilə razılaşmaq olmaz ki, dövlətin mülki hüquq subyektliyi universal xarakter daşıyır. Bu fikrin əsassız olmasını sübut və isbat etməyə elə bir ehtiyac görmürük (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. О.А.Красавчикова. М., 1985, с. 71).

münasibətinin iştirakçısı olmaq imkanı verilmişdir (subyekt əsası). Amma bu iki əsas özlüyündə daşıma hüquq münasibəti yaratmır. Lakin həmin əsaslar bu münasibətin əmələ gəlməsi üçün imkan yaradır. Daşıyıcı və yükgöndərən arasında yük daşıma müqaviləsi bağlanır. Bunun nəticəsində daşıma hüquq münasibəti əmələ gəlir. Bu münasibətin əmələ gəlməsi üçün daşıma müqaviləsi əsas rolunu oynayır. Deməli, daşıma müqaviləsi daşıma (mülki) hüquq münasibətinin əmələ gəlməsinə dəlalət edən hüquqi faktdır (hüquqi-texniki əsas).

Başqa bir misalda ata (miras qoyan) ölür. Bununla vərəsəlik (miras) açılır və hüquq münasibəti yaranır. Deməli, atanın ölümü vərəsəlik hüquq münasibətinin meydana gəlməsi üçün əsas rolunu oynayan hüquqi faktdır.

Mülki-hüquqi faktlar (sivilistikada hüquqi faktlar) dedikdə, real gerçəkliyin elə halları başa düşülür ki, mülki qanunvericilik bu halları mülki hüquq münasibətlərinin əmələ gəlməsinin, dəyişməsinin və ya xitam olunmasının əsası kimi nəzərdə tutur. Başqa sözlə desək, mülki hüquqda faktlar mülki-hüquqi nəticələrin baş verməsini, yəni mülki hüquq münasibətlərinin əmələ gəlməsini, dəyişməsini və ya xitam olunmasını mülki qanunvericiliyin əlaqələndirdiyi və bağladığı həyati hallardır. Hüquqi faktlar olmadan hər hansı bir mülki hüquq münasibətinin əmələ gəlməsindən, dəyişməsindən və ya xitam olunmasından söhbət gedə bilməz. Bu cür faktlar yoxdursa, mülki hüquq münasibətləri də mövcud deyil.

Mülki hüquqda faktlar sivilistika elminin ən başlıca və əsas məsələlərindən biridir. Bu məsələnin işıqlandırılmasına xüsusi monoqrafiya əsəri həsr edilmişdir[1]. Hüquq ədəbiyyatında həmin məsələnin öyrənilməsinə və tədqiq olunmasına kifayət qədər diqqət yetirilir[2].

Mülki-hüquqi faktlar üç başlıca xüsusiyyətə malikdir. Bu xüsusiyyətlər hüquqi fakt məsələsinin əsl və həqiqi mahiyyətini açmağa imkan verir.

Mülki-hüquqi faktlann **birinci xüsusiyyəti** ondan ibarətdir ki, onlar **real gerçəkliyin faktlarıdır. Fəlsəfi mənada faktlar** (latınca factum - edilmiş, baş vermiş) dedikdə, maddi dünyanın insan fəaliyyətinin və ya idrakının obyektini təşkil edən elə reallıqları, halları və hadisələri başa düşülür ki, onlar bizim şüurumuzdan kənarda və ondan asılı olmadan mövcuddur[3]. Faktlar rolunda çıxış edən müxtəlif həyati hallar, hər şeydən əvvəl, **təbiət sahəsinə** aiddir. Məsələn, insanın doğulması və ölümü, vaxtın keçməsi və s. bu cür faktlara misal ola bilər. Faktlar kateqoriyasına şamil olunan həyati hallar həm də **sosial (ictimai) həyat sahəsinə** aid ola bilər. Buna insanlann hərəkətlərini və əməllərini, məhkəmə qərarlarını, inzibati aktları misal göstərmək olar. Beləliklə, faktlar yalnız xarici aləmin və maddi dünyanın hallan ola bilər ki, bunlara **da həyati hallar** deyilir.

[1] *Красавчиков О.А.* Юридические факты в советском гражданском праве. М., 1958.

[2] bax: *Иоффе О.С.* Правоотношение по советскому гражданскому праву. Л., 1949; Гражданские правоотношения и их структурные особенности. Свердловск. 1975; *Менглиев Ш.* Восстановительные правоотношения в советском гражданском праве. Душанбе. 1985 и др.

[3] bax: Философский энсиклопедический словарь. М., 1975; Fəlsəfə ensiklopedik lüğəti. Bakı. 1997, s. 436.

Hüquqi faktların **ikinci xüsusiyyəti** ondan ibarətdir ki, onlar **dövlət tərəfindən rəsmən qanunvericilik qaydasında tanınan faktlardır, yəni həyati hallardır.** Qanunvericilik qaydasında rəsmən dövlət tərəfindən tanınmayan həyati hallar hüquqi fakt hesab edilmir. Başqa sözlə desək, dövlət həyati hallan özünün yaratdığı mülki hüquq normalarında nəzərdə tutmalıdır. Bu normalar isə mülki qanunvericilik aktlarında (qanunlarda, qanun qüvvəli normativ aktlarda və s.) ifadə olunmalıdır. Deməli, həyati hallar yalnız mülki hüquq normalarında nəzərdə tutulduqda hüquqi fakt kimi tanınır və qəbul edilir. Əgər həyati hallar mülki hüquq normalarında göstərilməyibsə, onda həmin hallar hüquqi fakt statusu qazanmır.

Həyat bir-birilə zəncir kimi bağlanan müxtəlif hərəkətlərdən, hadisələrdən, əməllərdən, hallardan, faktlardan və reallıqlardan ibarətdir. Şübhəsiz ki, dövlət onlann hamısını hüquqi fakt kimi tanımır. Dövlət yalnız o həyati hallara hüquqi fakt kimi əhəmiyyət verir ki, onlar cəmiyyətin nisbətən daha mühüm mənafelərinə toxunsun, hüquqi tənzimetmə sferasına daxil olsun və müəyyən hüquqi nəticəyə gətirib çıxarsın. Bu isə onu göstərir ki, bu və ya digər **həyati halın hüquqi fakt kimi tanınması tamamilə dövlətin hüquqyaratma orqanının (qanunvericinin), rəsmi hakimiyyətin iradəsindən asılıdır.** Lazım gələrsə, onlar hər hansı bir həyati hala hüquqi fakt kimi əhəmiyyət verə bilərlər, zəruri olmazsa, yox. Buna görə də həyati halın hüquqi fakt kimi tanınması həyati prosesdə iştirak edənlərin iradəsindən asılı deyil.

Eyni bir həyati hal dövlətin tanınmasından və münasibətindən asılı olaraq ayrı-ayn müxtəlif dövrlərdə həm hüquqi fakt statusu əldə edə bilər, həm də etməyə bilər. Məsələn, Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi qüvvəyə minənə kimi daşınmaz əmlakın mülkiyyətçisi olmayan şəxsin həmin əmlaka öz əmlakı kimi vicdanla, açıq və fasiləsiz sahibliyi (həyati hal) hüquqi fakt hesab edilmirdi. Belə ki, dövlət bu cür həyati halı hüquqi fakt kimi tanımırdı. Yeni MM qüvvəyə minəndən sonra dövlət ona hüquqi əhəmiyyət verdi. Belə ki, yeni MM-in 179-cu maddəsinin 1-ci bəndinə görə, daşınmaz əmlakın mülkiyyətçisi olmayan şəxs, əgər on il ərzində ona öz əmlakı kimi vicdanla, açıq və fasiləsiz sahiblik edərdisə, bu əmlaka mülkiyyət hüququ əldə edirdi. Deməli, dövlət göstərilən həyati halı mülki hüquq normasında nəzərdə tutmaqla onu hüquqi fakt kimi tanıyırdı. Bu hüquqi fakt isə mülkiyyət hüquq münasibətinin əmələ gəlmə əsası kimi çıxış edirdi. Hal-hazırda göstərdiyimiz maddə (179.1) MM-dən çıxarılmışdır və buna görə də həmin həyati hal dövlət tərəfindən tanınmır. İndi dövlət bu halı daşınar əmlaka münasibətdə tanıyır (MM-in 181-ci maddəsinin 4-cü bəndi).

Mülki-hüquqi faktlann **üçüncü xüsusiyyəti** ondan ibarətdir ki, onlar mülki hüquq normaları əsasında müəyyən hüquqi nəticəyə səbəb olur. Hüquqi nəticəsi olmayan həyati hallar hüquqi fakt hesab edilmir. Yuxarıda çəkdiyimiz misalda daşıma müqaviləsinin bağlanması kimi hüquqi fakt hansı hüquqi nəticəyə səbəb olur? Bu hüquqi fakt nəticəsində daşıma hüquq münasibəti və tərəflərin hüquq və vəzifələri yaranır. Çəkdiyimiz ikinci misalda atanın ölümü ilə vərəsəlik hüquq münasibəti və bununla vərəsələrin hüquq və vəzifələri əmələ gəlir. Hüquqi fakt nəticəsində mülki hüquq münasibəti xitam da oluna bilər. Məsələn, müvafiq dövlət orqanının qərarı ilə (hüquqi fakt) mülkiyyətçidən əm-

lak cəmiyyətin mənafeyi üçün alınır (MM-in 209-cu maddəsi). Bunun nəticəsində mülkiyyət hüquq münasibətinə xitam verilir. Hüquqi fakt nəticəsində mülki hüquq münasibətləri dəyişə də bilər. Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, hüquqi faktların hüquqi nəticəsi mülki hüquq münasibətlərinin yaranmasından, dəyişməsindən və ya xitam olunmasından ibarətdir.

Hüquqi nəticə dedikdə, mülki hüquq münasibətinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması və bu münasibəti təşkil edən subyektiv hüquq və vəzifələr başa düşülür. Mülki hüquq münasibətinin yaranması, dəyişməsi və xitam olunması bu münasibətin dinamikasının, yəni hərəkətinin ayrı-ayrı mərhələləridir.

4. Hüquqi faktlar mülki hüquq münasibətlərinin hüquqi-faktiki əsası kimi

Qeyd etdik ki, hüquqi faktlar mülki hüquq münasibətlərinin hüquqi-faktiki əsasıdır. Hüquqi-faktiki əsas kimi mülki hüquqda faktlar iki yerə bölünür:

- sadə hüquqi faktlar;
- mürəkkəb hüquqi faktlar.

Əgər mülki hüquq münasibətlərinin yaranması, dəyişməsi və ya xitam olunması üçün hüquqi-faktiki əsas kimi təkcə bir hüquqi fakt çıxış edərsə, buna **sadə hüquqi faktlar** deyilir. Məsələn, daşıma müqaviləsi daşıyıcı ilə yükgöndərən arasında daşıma hüquq münasibətinin, podrat müqaviləsi podratçı ilə sifarişçi arasında podrat hüquq münasibətinin, kirayə müqaviləsi kirayəyə verənlə kirayəçi arasında kirayə hüquq münasibətinin və s. əmələ gəlməsi üçün hüquqi fakt rolunu oynayır. Əsər barəsində müəlliflik hüquq münasibətinin əmələ gəlməsi üçün əsəri yaratmaq kimi fakt kifayət edir. Təkcə bir hüquqi fakt olduğu üçün onlar sadə hüquqi faktlar adlanır.

Mürəkkəb hüquqi faktlar dedikdə, mülki hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunmasının hüquqi-faktiki əsası kimi bir yox, iki və ya daha artıq hüquqi faktın çıxış etməsi başa düşülür. Bu cür hüquqi faktlar həm də hüquqi tərkib adlanır. **Hüquqi tərkib dedikdə, mülki hüquq münasibətlərinin hüquqi-faktiki əsası kimi hüquqi faktların məcmusu başa düşülür.** Buraya daxil olan hər bir hüquqi fakt müstəqil əhəmiyyətə malik ola bilər. Məsələn, mühəndis ixtira edir. İxtira (patent) hüquq münasibətinin əmələ gəlməsi üçün mühəndisin ixtiranı yaratması kimi təkcə bir fakt kifayət etmir. Bunun üçün ikinci bir hüquqi faktın, yəni səlahiyyətli dövlət orqanının (Patent İdarəsinin) həmin həlli (yəni ixtira kimi təklif olunan texniki nailiyyəti) təsdiqləmək və tanımaq kimi aktının olması vacibdir. Bax, ixtira yaratmaq, dövlət orqanının həmin həlli təsdiqləmək və tanımaq kimi iki hüquqi faktın məcmusu hüquqi tərkibi əmələ gətirir. Hüquqi tərkiblərin özləri də iki cür olur[1]:

- sadə hüquqi tərkiblər;
- mürəkkəb hüquqi tərkiblər.

Sadə hüquqi tərkiblər odur ki, bu tərkiblərə daxil olan hüquqi faktlar yalnız birlikdə götürülmüş halda, əmələ gəlmə ardıcıllığından asılı olmayaraq mül-

[1] Проблемы теории государства и права. М., 1979, с. 261-262; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслаева*. М., 1997, с 145; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с 328.

ki hüquq münasibətinin əsası kimi çıxış edir, yəni hüquqi nəticəyə səbəb olur. Burada hüquqi faktların hansı ardıcıllıqla əmələ gəlməsinin təfavütü və əhəmiyyəti yoxdur. Özü də həmin faktlar arasında qəti asılılıq əlaqələri mövcud deyil. Əsas və zəruri odur ki, **həmin faktların hamısı eyni vaxtda kompleks halında birləşərək, mülki hüquq münasibətlərinin hüquqi-faktiki əsası kimi çıxış etsin.** Məsələn, iddiaçı və ya cavabdeh hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olduqda iddia müddətinin axımı dayandırılır (MM-in 379-cu maddəsinin 1-ci bəndinin 1-ci yarımbəndi). Burada iki hüquqi faktın məcmusu iddia müddətinin axımının dayandırılmasına səbəb olur: birinci hüquqi fakt iddiaçı və ya cavabdehin silahlı qüvvələrin tərkibində olmasından ibarətdir; silahlı qüvvələrin hərbi vəziyyətə keçirilməsi isə ikinci hüquqi faktdır. Bu iki hüquqi fakt birlikdə müvafiq hüquqi nəticəyə səbəb olur. Həmin faktların hansı ardıcıllıqla əmələ gəlməsinin hüquqi nəticənin meydana gəlməsi üçün əhəmiyyəti və təfavütü yoxdur. Belə ki, ola bilər, əvvəlcə silahlı qüvvələr hərbi vəziyyətə keçirilsin və bundan sonra iddiaçı və ya cavabdeh silahlı qüvvələrin tərkibinə çağırılsın və yaxud iddiaçı (və ya cavabdeh) silahlı qüvvələrin tərkibində olsun, sonra isə silahlı qüvvələr hərbi vəziyyətə keçirilsin.

Mürəkkəb hüquqi tərkiblər dedikdə, hüquqi faktların elə bir məcmusu başa düşülür ki, bir-birilə qəti asılılıq əlaqəsində olan və dəqiq olaraq müəyyən ardıcıllıqla yaranan hüquqi faktlar birləşərək, mülki hüquq münasibətinin əsası kimi çıxış edir, yəni hüquqi nəticənin yaranmasına səbəb olur. Burada **hüquqi faktların hansı ardıcıllıqla yaranmasının əhəmiyyəti və təfavütü vardır.** Özü də **bu faktlar bir-birindən qəti surətdə asılıdır.** Məsələn, təsərrüfatsızcasına saxlanan mədəni sərvətlər barəsində mülkiyyət hüquq münasibətinə xitam verilməsi üçün dəqiq olaraq müəyyən ardıcıllıqla yaranan bir neçə hüquqi faktın olması lazımdır: birincisi, mülkiyyətçinin mədəni sərvətləri təsərrüfatsızcasına saxlaması; bu sərvətlərin öz əhəmiyyətini itirmək təhlükəsinin yaranması; həmin sərvətlərin dövlətə satılması barədə məhkəmə qərarının qəbul edilməsi; mədəni sərvətlərin dövlət tərəfindən satın alınması (MM-in 208-ci maddəsi). Başqa bir misalda fiziki şəxsin ölmüş elan edilməsi üçün müəyyən ardıcıllıqla yaranan bir neçə hüquqi faktın məcmusu və kompleksi gərəkdir (MM-in 41-ci maddəsinin 1-ci bəndi). Birincisi, fiziki şəxsin yaşayış yerində olmaması; ikincisi, fiziki şəxsin harada olması barədə məlumatın olmaması; üçüncüsü, həmin şəxsin harada olması barədə alınan axırıncı məlumatdan beş il müddətinin keçməsi; dördüncüsü, məhkəmənin həmin şəxsin ölmüş hesab edilməsi barədə qərar çıxartması; beşincisi, VVAQ orqanının qeydiyyat aktı. Bu hüquqi faktlar birləşərək, ölmüş elan edilmiş fiziki şəxsin iştirak etdiyi nikah-ailə hüquq münasibətinə, müxtəlif qeyri-əmlak və əmlak hüquq münasibətlərinə xitam verilməsinə səbəb olur. Başqa bir misalda mülkiyyətçinin çıxış etdiyi mülkiyyət hüquq münasibətinə müsadirə yolu ilə xitam vermək üçün bir neçə hüquqi faktın olması tələb edilir: mülkiyyətçinin cinayət etməsi; törədilmiş cinayətə görə sanksiya kimi məhkəmənin hökm çıxartması; əmlakın mülkiyyətçidən əvəzsiz alınması, yəni müsadirə etmək (MM-in 212-ci maddəsi).

Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, mülki hüquq normasına uyğun olaraq mülki hüquq münasibətləri iki və daha artıq hüquqi fakt əsasında yaranarsa, dəyişərsə və ya ləğv edilərsə, bu cür faktların məcmusu və komp-

leksi hüquqi tərkib adlanır. **Hüquqi tərkib dedikdə, mülki qanunvericilikdə nəzərdə tutulan hüquqi nəticənin yaranması üçün kifayət edən və lazım olan hüquqi faktların məcmusu başa düşülür.**

Mülki hüquq münasibətlərinin əsası kimi hüquqi faktların dairəsi kifayət qədər müxtəlifdir. Mülki qanunvericilik onların siyahısını verir (MM-in 14-cü maddəsi). Özü də dərhal qeyd etməliyik ki, **bu, dəqiq, qəti xarakterli siyahı yox, təxmini siyahıdır.** Ona görə ki, mülki hüquq münasibətləri mülki qanunvericilikdə nəzərdə tutulmayan hüquqi faktlardan da əmələ gələ, dəyişə və ya xitam oluna bilər (MM-in 14-cü maddəsinin 1-ci bəndi). Belə təsəvvür yaranır ki, mülki qanunvericilik özündə birbaşa nəzərdə tutulmayan hüquqi faktlardan mülki hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitam olunmasına yol verir (icazə verir). Amma yaranan hüquqi nəticə mülki hüququn prinsiplərinə zidd olmamalıdır. Söhbət hüququn analogiya üzrə tətbiqindən gedir. Deməli, **mülki qanunvericilikdə birbaşa nəzərdə tutulmayan hüquqi faktlardan hüquqi nəticə yarana bilər.**

Mülki qanunvericiliyin müəyyən etdiyi bu qaydanın müasir iqtisadi (əmlak) dövriyyənin inkişafı üçün böyük əhəmiyyəti vardır. Komanda (sovet) iqtisadiyyatından bazar iqtisadiyyatına keçid dövrü üçün həmin qaydanın rolu xüsusilə vacib və mühüm xarakter daşıyır. Müasir dövr zəruri sosial-iqtisadi dəyişikliklərin və islahatların həyata keçirilməsi ilə xarakterizə olunur. Məhz kəskin dəyişikliklərlə müşayiət edilən bu cür şəraitdə iqtisadi (əmlak) dövriyyə, bazar əmtəə-pul münasibətləri ilə bağlı olan bütün hüquqi faktları, istisnasız olaraq, mülki qanunvericilik nəzərə almaq iqtidarında deyil. Aydın bir həqiqətdir ki, ölkə iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün lazım olan bütün mümkün hüquqi faktları mülki qanunvericilik qabaqcadan nəzərdə tuta bilməz. Təxirəsalınmaz elə bir şərait yaranar ki, bu şərait yeni hüquqi faktların dövlət tərəfindən rəsmən tanınmasını, yəni qanunvericiliyə müvafiq dəyişiklik və ya əlavələr edilməsini tələb etsin. Məlumdur ki, qanunvericiliyə birdən-birə dərhal, avtomatik olaraq bu cür dəyişiklik və ya əlavələr etmək mümkün deyil. Bu, müəyyən vaxt müddəti tələb edir. Belə bir vəziyyətdə mülki qanunvericiliyin müəyyən etdiyi, barəsində söhbət açdığımız müvafiq qaydanın əvəzedilməz rolu və əhəmiyyəti vardır.

5. Mülki-hüquqi faktların təsnifi

Mülki-hüquqi faktlar kifayət qədər çoxsaylı və müxtəlifdir. Bu hüquqi faktlar sivilistika elmində müxtəlif əsas və meyarlara görə təsnif edilir.

Mülki-hüquqi faktların təsnifinin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Bu, hər şeydən əvvəl, mülki-hüquqi faktların ayrı-ayrı növlərinin əsas xüsusiyyətlərinin müəyyən edilməsinə, onların dərindən başa düşülməsinə və hərtərəfli tədqiq olunmasına imkan verir. Bununla məhz hansı növ mülki hüquq münasibətinin yaranması, dəyişməsi və ya xitam olunması müəyyənləşdirilir, bu münasibət iştirakçılarının hansı hüquqlara malik olması və hansı vəzifələr daşıması aydınlaşdırılır. Bununla mülki hüquq münasibətləri bir-birindən fərqləndirilir. Bu da öz növbəsində mülki qanunvericiliyin düzgün tətbiq olunmasına imkan verir.

Yaratdığı və doğurduğu hüquqi nəticənin növü kimi məyara və əlamətə görə hüquqi faktlar üç cür olur:

- hüquqyaradıcı mülki-hüquqi faktlar;
- hüquqdəyişdirici mülki-hüquqi faktlar;
- hüquq xitamedici mülki-hüquqi faktlar;
- hüquq bərpaedici mülki-hüquqi faktlar.

Hüquqyaradıcı mülki-hüquqi faktlar odur ki, mülki qanunvericilik mülki hüquq münasibətlərinin əmələ gəlməsini bu cür faktların olması ilə əlaqələndirir və bağlayır. Başqa sözlə desək, əgər mülki qanunvericilik hüquqi faktı mülki hüquq münasibətlərinin əmələ gəlməsinin hüquqi-faktiki əsası kimi nəzərdə tutarsa, onda bu cür faktlar hüquqyaradıcı mülki-hüquqi faktlar adlanır. Bu cür hüquqi faktlara çoxlu misallar çəkə bilərik. Məsələn, alqı-satqı müqaviləsi əsasında alıcı satın aldığı əşya üzərində mülkiyyət hüququ əldə edir. Bununla, mülkiyyət hüquq münasibəti yaranır ki, alqı-satqı müqaviləsi bu münasibətin yaranması üçün hüquqi fakt rolunu oynayır.

Yazıçının əsər yazması müəlliflik hüquq münasibətinin meydana gəlməsinə əsas olan hüquqi faktdır. Zərər vurmaq delikt hüquq münasibətinin yaranmasına dəlalət edən hüquqi fakt sayılır. Mühəndisin ixtira etməsi və onun Patent İdarəsi tərəfindən təsdiq edilməsi (patent verilməsi) ixtira (patent) hüquq münasibətinin əmələ gəlməsi üçün hüquqi tərkib kimi çıxış edir.

Hüquqdəyişdirici mülki-hüquqi faktlar odur ki, mülki qanunvericilik mülki hüquq münasibətlərinin dəyişməsini məhz bu cür faktların olması ilə əlaqələndirir və bağlayır. **Mülki hüquq münasibətlərinin dəyişməsi** dedikdə, onun subyekt tərkibinin və ya hüquqi məzmununun dəyişməsi başa düşülür. **Subyekt tərkibinin dəyişməsi** səlahiyyətli şəxsin və ya borclu şəxsin başqa şəxslə əvəz olunmasını ifadə edir. **Tələbin güzəşti (verilməsi)** zamanı öhdəlik mülki hüquq münasibətlərində subyekt qismində iştirak edən köhnə səlahiyyətli şəxs (kreditor) yeni səlahiyyətli şəxslə əvəz olunur (MM-in 194-cü maddəsinin 1-ci bəndi). Bu cür hallarda tələbin güzəşti öhdəlik mülki hüquq münasibətinin subyekt tərkibinin dəyişməsinə əsas olan hüquqi fakt kimi çıxış edir. Məsələn, bank əmanəti hüquq münasibəti üzrə səlahiyyətli şəxs (kreditor, əmanətçi) bankdan (borclu şəxsdən) əmanəti tələb etmək hüququnu öz qonşusuna (yeni səlahiyyətli şəxsə, yeni kreditora) güzəşt edir.

Borcun köçürülməsi zamanı (ona öhdəliyin verilməsi də deyilir) öhdəlik hüquq münasibətlərində subyekt rolunda iştirak edən borclu şəxs başqası ilə (yeni borclu şəxslə) əvəz edilir (MM-in 522-ci maddəsi 1-ci bəndi). Məsələn, səxavətli sahibkar kredit hüquq münasibəti üzrə kredit alan şəxsi əvəz edir və bununla krediti ödəmək vəzifəsi ona keçir (borcun köçürülməsi). Burada borcun köçürülməsi hüquqi fakt rolunu oynayır.

Mülki-hüquqi faktlar əsasında **hüquq münasibətlərinin hüquqi məzmunu (subyektiv hüquq və hüquqi vəzifələr) də dəyişə bilər.** Məsələn, vətəndaş taxtadan tikilmiş bağ evini öz qonşusuna kirayəyə verir. Qonşunu təqsirli hərəkəti nəticəsində həmin ev yanır. Vətəndaş, şübhəsiz ki, artıq yanmış bağ evinin özünü qaytarmaq vəzifəsini icra edə bilməz. O, vurulmuş zərərin əvəzini qonşuya ödəyir. Bununla qonşunun bağ evinin özünü qaytarmaq vəzifəsi vurulmuş zərərin əvəzinin ödənilməsi vəzifəsi ilə əvəz olunur.

Hüquq xitamedici mülki-hüquqi faktlar odur ki, mülki qanunvericilik mül-

ki hüquq münasibətlərinə xitam verilməsini məhz bu cür faktlarla bağlayır və əlaqələndirir. Əgər mülki qanunvericilik mülki-hüquqi faktları mülki hüquq münasibətlərinə xitam verilməsinin əsası kimi nəzərdə tutarsa, onda belə halda hüquq xitamedici hüquqi faktlar göz qabağındadır. Bu kimi faktlara kifayət qədər çoxlu misallar çəkə bilərik. Məsələn, borc alan aldığı pul məbləğini nəzərdə tutulan müddətdə qaytarır. Bununla borc hüquq münasibətinə xitam verilir. Borcu qaytarmaq hüquqi faktdır. Alqı-satqı müqaviləsi üzrə satıcı əşyanı alıcıya verir. Bununla onun əşya üzərində mülkiyyət hüququna (mülkiyyət hüquq münasibətinə) xitam verilir. Alqı-satqı müqaviləsi bağlamaq hüquqi faktdır. Daşınar əşya məhv olur və bununla mülkiyyət hüquq münasibətinə xitam verilir. Əşyanın məhv olması hüquqi faktdır. Rəssamla vətəndaş arasında onun portretinin (təsviri sənət əsərinin) yaradılması barədə bədii sifariş müqaviləsi (müəlliflik müqaviləsi) bağlanır. Müqavilə bağlanan müddətdən bir az keçmiş rəssam ölür. Bununla hüquq münasibətinə xitam verilir. Rəssamın ölümü hüquqi faktdır.

Hüquq bərpaedici mülki-hüquqi faktlar odur ki, mülki qanunvericilik subyektin əvvəllər itirdiyi hüquq və vəzifələrin bərpa edilməsini məhz bu faktların olması ilə bağlayır və əlaqələndirir. Bu kimi faktlar yeni mülki hüquq münasibəti yaratmır, yalnız əvvəllər mövcud olmuş və sonradan xitam edilmiş mülki hüquq münasibətini əvvəlki çərçivədə və hüdudlarda bərpa edir. Məsələn, məhkəmə qaydasında ölmüş elan edilmiş şəxs gəldikdə, onun iştirak etdiyi ailə-nikah, mülkiyyət və s. hüquq münasibətləri bərpa edilə bilər (MM-in 42-ci maddəsi).

Subyektlərin iradəsindən asılı olması kimi meyara görə mülki-hüquqi faktların iki növü fərqləndirilir[1]:

- hüquqi hadisələr;
- hüquqi hərəkətlər.

Hüquqi hadisələr dedikdə, real gerçəkliyin elə hüquqi faktları başa düşülür ki, onlar insan iradəsindən asılı olmayaraq baş verir. İnsanın doğulmasını və ölməsini, təbii fəlakəti, insanın yetkinlik yaşına çatmasını, müddətin keçməsi və s. hüquqi hadisələrə misal göstərə bilərik. Məsələn, insanın ölümü bir neçə hüquqi nəticə, o cümlədən vərəsəlik hüquq münasibəti əmələ gətirir. Zəlzələ kimi hüquqi hadisə nəticəsində yaşayış evinin xeyli hissəsi dağılır. Baş verən bu cür hadisə sığortalının sığorta ödənişi almaq hüququnu yaradan hüquqi fakt rolunu oynayır. Ara vermədən yağan güclü və şiddətli yağış nəticəsində kənd çayı aşıb-daşır, çobanın qoyun-quzusunu sel aparır. Bununla çobanın qoyun-quzu üzərində mülkiyyət hüququna xitam verilir.

Belə təsəvvür yaranır ki, mülki qanunvericilik mülki hüquq münasibətlərinin əmələ gəlməsini, dəyişməsini və ya xitam olunmasını hadisələrin baş verməsi ilə bağlayır və əlaqələndirir. Hadisələr isə, gördüyümüz kimi, insan iradəsindən asılı olmayaraq yaranır və inkişaf edir. **Lakin bəzi hallarda hadisələr iradəvi mənşəyə malik olur.** İradəvi mənşəyə malik olma hadisələrin əmələ gəlməsinin **insanın iradəvi fəaliyyəti** ilə bağlılığını və şərtlənməsini ifadə edir. Elə hadisələr vardır ki, həmin hadisələrin yaranması və baş verməsi insanın iradəvi fəaliyyəti ilə, onun iradəsi ilə bilavasitə bağlı olur. Məhz bu baxımdan, yəni hadisələrin baş verməsinin insanların iradəvi fəaliyyəti ilə bilavasitə əlaqədar olması kimi əlamətdən asılı olaraq hüquqi hadisələr özü iki yerə bölünür:

- mütləq hadisələr;
- nisbi hadisələr.

Mütləq hadisələr odur ki, bu cür hadisələrin baş verməsi, yaranması və inkişafı insanın iradəvi fəaliyyətindən bilavasitə asılı olmur. Buraya aiddir: təbii fəlakət (zəlzələ, qar uçqunları, daşqın, tufan, qasırğa, şiddətli külək, ildırım və s.); fəslin dəyişməsi faktı; zamanın (vaxtın) keçməsi faktı; insanın təbii-bioloji ölümü. Mütləq hadisələr **təbii-obyektiv təbiət hadisələri ilə bağlı olur.** Bunların meydana gəlməsində insanın iradəvi fəaliyyəti, iradəsi, istisnasız olaraq, hər hansı rol oynamır. Zəlzələ baş verir və vətəndaşın yaşayış evini yerlə yeksan edərək dağıdır. Bununla onun həmin evə olan mülkiyyət hüququna xitam verilir. İldırım kənd sakininin bir baş inəyini məhv edir. Bunun nəticəsində onun mülkiyyət hüququ xitam edilir. Yaz fəsli gəlir, çayların donu açılır və nəqliyyat təşkilatı həmin çaylarda gəmi ilə yük daşıyır. Bununla daşıma hüquq münasibəti yaranır.

Nisbi hadisələr odur ki, bu cür hadisələr şəxsin (subyektin) hərəkətləri və fəaliyyəti nəticəsində baş verir, amma onlar şəxsin (subyektin) hərəkətindən asılı olmayaraq inkişaf edir. **Nisbi hadisələr iradəvi mənşəyə malikdir.** Məsələn, qısas almaq məqsədi ilə vətəndaş kənd sakininin taxtadan tikilmiş yaşayış evinə və ot tayasına qəsdən bilə-bilə od vurur və bunun nəticəsində yanğın baş verir. Yanğın həmişə bütün hallarda hadisə kateqoriyasına şamil edilir. Ona görə ki, yanğının gedişi prosesinin özü insan iradəsindən, yəni insanın iradəvi fəaliyyətindən asılı deyildir. Amma yanğın insanın qəsdən bilə-bilə od vurması kimi iradəvi hərəkəti nəticəsində baş verərsə, onda bu, o deməkdir ki, yanğın iradəvi mənşəyə malikdir. Buna görə də şəxsin od vurmaq kimi iradəvi hərəkəti nəticəsində baş verən yanğın nisbi hadisə hesab edilir. Əgər yanğın ildırım nəticəsində baş verərsə, onda bu cür yanğın mütləq hadisəyə aid ediləcəkdir. Ona görə ki, belə halda yanğının insanın iradəvi hərəkəti nəticəsində baş verməsindən söhbət gedə bilməz.

Başqa bir misalda dalaşma zəmisində vətəndaş öz qonşusunun başına küt alətlə zərbələr vuraraq onu öldürür. Bununla bioloji ölüm hadisəsi baş verir. Bioloji ölüm bütün hallarda, həmişə hadisə kateqoriyasına aid olunur. Ona görə ki, bioloji ölüm insan orqanizmində geriyə dönməz proseslərlə və patoloji dəyişikliklərlə müşayiət edilir. Bu proses və dəyişikliklərin qarşısını almaq isə qeyri-mümkün olub, insan iradəsindən asılı deyil. Amma hadisə olan bioloji ölüm iradəvi mənşəyə malik ola bilər. Yuxarıda çəkdiyimiz misalda qonşunun bioloji ölümü vətəndaşın cinayət hərəkəti nəticəsində baş verir. Ona görə də bu ölüm nisbi hadisə hesab edilir. Klinik ölüm halı isə hadisə kateqoriyasına şamil edilmir. Ona görə ki, bu cür ölümdə öz fəaliyyətini müvəqqəti dayandırmış ayrı-ayrı orqanların (ürəyin, böyrəklərin, baş beynin və s.) işini və orqanizmin yaşamaq qabiliyyətini bərpa etmək mümkündür. İnsanın doğulması iradə-

[1] İradə meyarına görə bəzi müəlliflər hüquqi faktları dörd yerə bölürlər: hadisələr; hərəkətlər, müddətlər; vəziyyət (bax: *Синюков В.И.* Юридические факты в системе общественных отношений. Свердловск. 1984, с. 8.). Müəlliflərdən L.S.Yaviç isə hüquqi faktların üç növünü fərqləndirir: hərəkətlər; hadisələr; vəziyyət (bax: *Явич Л.С.* Право и социализм. М., 1982, с. 167). Bu cür bölgünün heç bir elmi-hüquqi əsası yoxdur.

vi mənşəyə malik olduğu üçün nisbi hadisə hesab edilir.

Müddət kateqoriyası nisbi hadisələrə şamil olunur. Ona görə ki, müddət obyektiv kateqoriyadır. Belə ki, müddətin keçməsi vaxtın (zamanın) ötməsi kimi obyektiv qanunlara tabedir. Vaxtın (zamanın) ötməsini hər hansı bir insan öz iradəvi fəaliyyəti və hərəkəti ilə dayandıra bilməz. Bununla belə, müddət haqqında danışanda burada, ümumiyyətlə, insanın iradəvi fəaliyyəti və hərəkəti kimi məsələni inkar etmək və nəzərə almamaq mümkün deyil. **Müddət əmələ gəlmə mənşəyinə görə iradəvi xarakter daşıyır.** Belə ki, müddət və onun sərhədləri mülki qanunvericiliklə, tərəflərin sazişi ilə və ya məhkəmə tərəfindən müəyyən edilir. Dediklərimiz onu sübut edir ki, müddət nisbi hadisə olub, hüquqi faktların hər hansı bir xüsusi növü hesab edilmir[1].

Mülki qanunvericilik mülki hüquq münasibətlərinin əmələ gəlməsini, dəyişməsini və ya xitam olunmasını müddətlə bağlaya və əlaqələndirə bilər (MM-in 367-ci maddəsi). Məsələn, beş il ərzində mülkiyyətçi olmayan şəxs daşınar əmlaka öz əmlakı kimi vicdanla, açıq və fasiləsiz sahiblik edərsə, o, bu əmlaka mülkiyyət hüququ əldə edir (MM-in 181-ci maddəsinin 4-cü bəndi). Bu halda beş il müddətin keçməsi mülkiyyət hüquq münasibətinin əmələ gəlməsi üçün hadisə rolunu oynayır. Müəllifin ölümündən sonra əlli il müddətin keçməsi ilə müəlliflik hüquq münasibətinə xitam verilir. Doxsan doqquz il müddət başa çatdıqda superfitsi (tikiliyə vərəsəlik) hüquq münasibəti xitam olunur (MM-in 250-ci maddəsinin 3-cü bəndi).

Hüquqi hərəkətlər dedikdə, fiziki və hüquqi şəxslərin elə bir iradəvi hərəkəti başa düşülür ki, mülki qanunvericilik mülki hüquq münasibətlərinin əmələ gəlməsini, dəyişməsini və ya xitam olunmasını bu cür hərəkətlərlə bağlayır və əlaqələndirir. Hüquqi hərəkətlərin edilməsi **insanların şüurundan və iradəsindən asılıdır.** Onlarda insanların iradəsi təzahür edir və ifadə olunur. Hüquqi hərəkətlərə çoxlu misallar çəkə bilərik: müqavilə (alqı-satqı, dəyişmə, icarə, podrat, sığorta, bank əmanəti, borc, kredit və digər müqavilələr) bağlamaq; başqasının əmlakına ziyan vurmaq; elm, ədəbiyyat və incəsənət əsərləri yaratmaq; əsassız varlanma; dövlət orqanlarının aktları; məhkəmə aktları və s.

Fəlsəfi planda və mənada hərəkət materiyanın mühüm atributu, mövcudluq üsulu olub, təbiətdə və cəmiyyətdə baş verən bütün prosesləri əhatə edir. Fəlsəfə öyrədir ki, aləmdə hərəkətsiz materiya ola bilmədiyi kimi, materiyasız da hərəkət yoxdur[2]. **Hüquqi mənada və planda hərəkət dedikdə** isə insanların (subyektlərin, fiziki şəxslərin) və hüquqi şəxslərin hüquqi nəticə əldə olunmasına, yəni hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam edilməsinə yönələn iradəvi fəaliyyəti başa düşülür. Məsələn, alqı-satqı müqaviləsi bağlamaq hüquqi hərəkətdir. Ona görə ki, bu cür hərəkət nəticəsində satıcı üçün mülkiyyət hüquq münasibətinə xitam verilir, alıcı üçün isə mülkiyyət hüquq münasibəti əmələ gəlir. Hərəkət ona görə «hüquqi» adlanır ki, mülki hüquq bu hərəkəti hüquqi nəticənin yaranması, yəni mülki hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitam edilməsinin əsası kimi

[1] Müəlliflərdən tanınmış alim professor V.P.Qribanov müddəti hüquqi faktların müstəqil növlərindən biri hesab edir (bax: *Грибанов В.П.* Сроки в гражданском праве. М., 1967, с. 8-9). Bu barədə dərsliyin «Müddətlər» fəslinə bax.

[2] bax: Fəlsəfə ensiklopedik lüğəti. Bakı. 1997, s. 478.

nəzərdə tutur. Onları, sadəcə olaraq, mexaniki-fiziki hərəkətlər hesab etmək olmaz.

Hüquqi nəticə yaratmaq üçün lazımdır ki, subyektin buna arzu və niyyəti olsun. Bu cür arzu və niyyət subyektin hüquqi hərəkətlərində ifadə olunur. Deməli, **hərəkətlər subyektin daxili iradəsini xaricən ifadə edən formadır.** Subyektin daxili iradəsi xaricən onun hərəkətlərində ifadə olunmazsa, mülki qanunvericilik bu cür hərəkətləri nəzərə almır və həmin hərəkətlər hüquqi fakt kimi çıxış etmir.

Mülki-hüquqi faktların əsas hissəsini hüquqi hərəkətlər təşkil edir. Onlar hüquqi faktların ən geniş yayılmış növü hesab olunur. Onların xüsusi çəkisi hüquqi hadisələrə nisbətən müqayisəedilməz dərəcədə çoxdur. Mübahisəsiz olaraq göstərə bilərik ki, mülki hüquqda hüquqi faktların əsas kütləsini subyektlərin hərəkətləri təşkil edir. Bütün hüquqi hərəkətləri onların iradəvi xarakterə malik olması birləşdirir. Lakin onlar son dərəcə müxtəlifdir. Buna görə də sivilistika elmi mülki-hüquqi hərəkətlərin təsnifini verir.

Mülki qanunvericilik aktlarının tələblərinə uyğun gəlib-gəlməməsi kimi əlamətə görə mülki hüquq elmi hüquqi hərəkətlərin iki cür növünü fərqləndirir[1]:

- hüquqauyğun hərəkətlər;
- hüquqauyğun olmayan hərəkətlər.

Mülki qanunvericilik aktlarının tələblərinə uyğun olaraq edilən hərəkətlərə **hüquqauyğun hərəkətlər** deyilir. Bu cür hərəkətlər Konstitusiyanın, qanunların, prezident fərmanlarının, hökumət qərarlarının, bir sözlə, mülki qanunvericilik sisteminə daxil olan bütün normativ hüquqi aktların müəyyən etdiyi qayda və göstərişlərə zidd olmur. Onlar hüquqi hərəkətlərin mütləq çoxluğunu təşkil edir. Hüquqauyğun hərəkətlərə bütün mülki-hüquqi müqavilələri (məsələn, alqı-satqı, daşıma, faktorinq, françayzinq, komissiya, tapşırıq, konsessiya və digər müqavilələri), əqdləri (məsələn, vəsiyyəti, etibarnamə verməyi və s.) və s. misal çəkə bilərik. Belə təsəvvür yaranır ki, hüquqauyğun hərəkətlər mülki qanunvericilik aktlarının yol verdiyi, qadağan etmədiyi və yasaqlamadığı hərəkətlərdir.

Bəzi hallarda şəxslərin etdiyi hərəkətləri mülki qanunvericilik birbaşa nəzərdə tutmur. Onda, şübhəsiz ki, bu hərəkətlərin hüquqauyğun hərəkətlər kateqoriyasına aid edilib-edilməməsini müəyyənləşdirmək xeyli mürəkkəbləşir və qəliz xarakter alır. Belə halda yaranmış vəziyyətdən çıxmaq üçün lazımdır ki, **həmin hərəkətlərin mülki hüququn prinsiplərinə uyğun gəlib-gəlməməsi müəyyənləşdirilsin.** Əgər müəyyən edilsə ki, həmin hərəkətlər mülki hüququn prinsiplərinə zidd deyildir, deməli, onlar hüquqauyğun hərəkətlərdir. Bu, onunla izah edilir ki, mülki hüquq münasibətləri fiziki və hüquqi şəxslərin mülki qanunvericilikdə nəzərdə tutulmayan hərəkətlərindən də əmələ gələ bilər. Amma bir şərtlə ki, həmin hərəkətlər mülki hüququn prinsiplərinə zidd ol-

[1] Nəzəri ədəbiyyatda bəzən hüquqi vəziyyət hüquqi faktların müstəqil növü kimi ayrılır (bax: Теория государства и права. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 531). Bizim zənnimizcə, hüquqi faktların hüquqi vəziyyət kimi müstəqil növünün (nikahda olmaq, qohumluq əlaqəsində olmaq, hərbi xidmətdə olmaq və s.) ayrılmasına heç bir zərurət yoxdur. Belə ki, hüquqi vəziyyət kimi hüquqi faktlar hərəkətlər və ya hadisələr anlayışı ilə əhatə etmək mümkündür. Belə ki, öz hüquqi xarakterinə görə vəziyyət ya hadisə, ya da ki hərəkət kateqoriyasına şamil edilir.

masın (MM-in 14-cü maddəsinin 1-ci bəndi).

Öz hüquqi əhəmiyyətinə görə bütün hüquqauyğun hərəkətlər sivilistika elmi tərəfindən iki yerə bölünür:

- hüquqi əməllər;
- hüquqi aktlar.

Hüquqi əməllər elə hüquqauyğun hərəkətlərdir ki, şəxslər bu hərəkətləri xüsusi olaraq müəyyən hüquqi nəticə yaratmaq məqsədi olmadan etsələr də, həmin hərəkətlər hüquqi nəticəyə səbəb olur. Daha doğrusu, əgər hər hansı bir şəxs özü üçün hüquqi nəticə yaratmağı (mülki hüquq münasibətinin əmələ gəlməsini, dəyişdirilməsini və ya xitam olunmasını) xüsusi olaraq qarşısına məqsəd kimi qoymadan hərəkət edərsə, lakin bu hərəkət hüquqi nəticəyə səbəb olarsa (yəni mülki hüquq münasibəti yaradarsa, dəyişərsə və ya xitam edərsə), onda həmin hərəkət hüquqi əməl hesab ediləcəkdir. Deməli, xüsusi olaraq hüquqi nəticəyə — mülki hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitam olunmasına yönəlməsə də, hüquqi nəticəyə səbəb olan hüquqauyğun hərəkətlərə hüquqi əməllər deyilir. Misala müraciət edək. Traktorçu yaz aylarında kəndli (fermer) təsərrüfatına məxsus torpaq sahəsini şumlayarkən dəfinə aşkar edir. Torpağa basdırılmış qızıl-zinət məmulatları onunla kəndli (fermer) təsərrüfatı arasında yarı bölünür. Traktorçu dəfinənin yan hissəsinə mülkiyyət hüququ əldə edir. Lakin o, torpağı şumlayarkən bu cür hüquqi nəticənin yaranmasını qarşısına xüsusi olaraq məqsəd kimi qoymamışdı. Deməli, onun həmin hərəkəti hüquqi əməldir.

Başqa bir misalda kimyaçı alim laboratoriyada kimyəvi reaksiya aparır və təsadüfən elmə məlum olmayan yeni bir kimyəvi element kəşf edir. Bununla kəşf hüquq münasibəti əmələ gəlir. Deməli, alimin hərəkəti hüquqi əməldir. Ona görə ki, o, reaksiya apararkən yeni element kəşf etməyi öz qarşısına məqsəd kimi qoymamışdı.

Daha başqa bir misalda gənc bir oğlan öz nakam məhəbbəti barədə rayon qəzetlərində silsilə şerlər dərc etdirir. Həmin oğlanın şerlər yazması müəlliflik hüquq münasibətinin əmələ gəlməsinə səbəb olur. Belə ki, onun həmin şerlərə müəlliflik hüququ yaranır. Amma öz nakam məhəbbəti barədə şer yazan zaman gənc oğlan öz qarşısına bu cür məqsəd qoymamışdı. Ona görə də onun şer yazmaq kimi hərəkəti hüquqi əməl hesab edilir.

Subyektlərin xüsusi olaraq müəyyən hüquqi nəticəyə — mülki hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitam olunmasına yönələn hüquqauyğun hərəkətlərinə **hüquqi aktlar** (latınca actus — hərəkət) deyilir. Hüquqi aktların əhatə dairəsi həddən ziyadə genişdir. Hüquqi əməllərə münasibətdə onların xüsusi çəkisi müqayisəedilməz dərəcədə çoxdur. Sivilistika elmi və mülki qanunvericilik hüquqi aktların üç növünü fərqləndirir:

- əqdlər;
- inzibati aktlar;
- məhkəmə aktları.

Əqdlər dedikdə, mülki hüquq subyektlərinin elə hüquqauyğun iradəvi hərəkətləri başa düşülür ki, bu hərəkətlər müəyyən mülki-hüquqi nəticə əldə olunmasına yönəlir. Onlar mülki hüquq subyektlərinin iradəvi aktıdır. Əqdlər yalnız mülki-hüquqi nəticəyə nail olunması məqsədini güdür.

Əqdlər mülki-hüquqi aktların əsas növünü təşkil edir. Onların dairəsi son dərəcə genişdir. Əqdlərə misal olaraq müqavilələri, vəsiyyət etməyi, etibarnamə verməyi, müsabiqə elan etməyi, hər hansı bir hərəkəti yerinə yetirməyə görə xüsusi mükafat verməyi və s. göstərmək olar. Onlar hüquqi aktların ən geniş yayılmış növüdür.

Hüquqi aktların ikinci növünü inzibati aktlar təşkil edir. **İnzibati aktlar** odur ki, onlar, bir qayda olaraq, inzibati hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitam olunmasına yönəlir. Bu cür aktların verilməsinin əsas məqsədi, adətən, inzibati-hüquqi nəticə doğurmaqdan ibarətdir. Məhz buna görə də inzibati aktların çoxu mülki hüquq münasibətlərinin yox, inzibati hüquq münasibətlərinin əsası kimi çıxış edir. Bu isə o deməkdir ki, **inzibati aktlar mülki-hüquqi faktlar kateqoriyasına daxil edilmir.**

İnzibati aktlar dövlət orqanları və yerli özünüidarə orqanları (bələdiyyələr) tərəfindən verilir. Özü də bu aktlar **ümumməcburi davranış qaydası müəyyən etmir.** Ona görə ki, həmin aktlar öz təbiətlərinə görə **qeyri-normativ aktlar hesab edilir.** Məhz bu səbəbdən də inzibati aktlar konkret subyekt üçün inzibati hüquq münasibəti yaradır, dəyişdirir və ya xitam edir.

Bununla belə, bəzi inzibati aktlar təkcə inzibati hüquqi nəticə doğurmaq niyyəti ilə yox, həm də **mülki-hüquqi nəticə yaratmaq məqsədilə verilir və qəbul edilir.** Bu cür aktlar mülki hüquq münasibətlərinin əsası kimi çıxış edir. Başqa sözlə desək, həmin aktlar nəticəsində mülki hüquq münasibətləri əmələ gəlir, dəyişir və ya xitam olunur. Özü də mülki qanunvericilik inzibati aktların mülki hüquqi nəticə doğurmaq imkanını və qabiliyyətini rəsmi surətdə nəzərdə tutur. Belə ki, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının aktları mülki hüquq və vəzifələrin əmələ gəlmə əsası, yəni mülki hüquq münasibətlərinin əsası kimi çıxış edə bilər (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi).

Hər şeydən əvvəl, **inzibati aktlar mülki hüquq münasibətlərinin əmələ gəlmə əsası kimi çıxış edə bilər.** Məsələn, şəhər icra hakimiyyəti orqanı vətəndaşa yaşayış evi üçün order verir. Bu, birincisi, həmin orqanla müvafiq mənzil-istismar sahəsi (MİS) arasında inzibati hüquq münasibəti əmələ gətirir; ikincisi, order almış vətəndaşla MİS arasında kirayə müqaviləsi bağlamaq üzrə mülki hüquq münasibəti (kirayə hüquq münasibəti) yaradır.

Bəzi hallarda **inzibati akt mülki hüquq münasibətinin xitam olunmasına səbəb olur.** Məsələn, müvafiq dövlət icra hakimiyyəti orqanının qərarı ilə torpaq sahəsi mülkiyyətçidən dövlət ehtiyacları üçün alına bilər (MM-in 246-cı maddəsi). Bu akt nəticəsində mülkiyyətçinin torpaq sahəsi üzərində mülkiyyət hüququna xitam verilir. Başqa bir misalda təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda müvafiq dövlət orqanın rekvizisiya (həcz) barədə qərarı ilə əmlak dəyəri ödənilməklə mülkiyyətçidən cəmiyyətin mənafeyi üçün məcburi surətdə alına bilər (MM-in 209-cu maddəsinin 1-ci bəndi). Bu qərar vətəndaşın əmlak üzərində mülkiyyət hüququna xitam verilməsinə səbəb olur.

Mülki qanunvericilik **dövlət və ya bələdiyyə orqanının aktını öhdəlik hüquq münasibətlərinin (öhdəliklərin) xitam olunmasının əsası** kimi nəzərdə tutur (MM-in 557-ci maddəsinin 1-ci bəndi). Məsələn, tərəflər alqı-satqı

müqaviləsi bağlayırlar. Onlar arasında öhdəlik hüquq münasibəti (alqı-satqı öhdəliyi) əmələ gəlir. Lakin əşya alıcıya verilməmiş onun dövriyyədən çıxarılması barədə dövlət orqanı akt qəbul edir. Bununla alqı-satqı öhdəliyinə xitam verilir.

Bəzi mülki hüquq münasibətlərinin əmələ gəlməsi **müvafiq dövlət orqanının qabaqcadan icazəsi olmadan,** ümumiyyətlə, mümkün deyil. Məsələn, qəyyumluqda və himayədə olanın əmlakı özgəninkiləşdirilərkən, icarəyə və əvəzsiz istifadəyə verilərkən qəyyumluq və himayəçilik kimi dövlət orqanın qabaqcadan icazə verməsi tələb olunur (MM-in 36-cı maddəsinin 2-ci bəndi). Bu cür icazə verilməsini nəzərdə tutan müvafiq akt qəbul edilməsə, alqı-satqı, dəyişmə, bağışlama, icarə və digər mülki hüquq münasibətlərinin əmələ gəlməsindən söhbət gedə bilməz.

Dövlət orqanlarının mülki hüquq münasibətlərinin əsası kimi çıxış edən aktları arasında **sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növləri üçün xüsusi icazə (razılıq) verilməsi barədə qaydalar** mühüm yer tutur. Bu qaydalar Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunmuşdu[1]. İndi isə xüsusi icazənin (lisenziyanın) verilməsi prezidentin təsdiq etdiyi vahid qaydalar əsasında həyata keçirilir[2]. Bu icazə (lisenziya) əsasında mülki hüququn subyekti olan hüquqi şəxs fəaliyyət qabiliyyətini həyata keçirir, ona müəyyən fəaliyyətlə (məsələn, daşıma, sığorta, bank, inşaat, beynəlxalq turizm və digər fəaliyyət növləri ilə) məşğul olmağa hüquq verilir. Məsələn, Milli Bank tərəfindən verilən müvafiq xüsusi icazə (lisenziya) əsasında fəaliyyət göstərən banklar kredit, bank əmanəti, bank hesabı, lizinq və digər mülki hüquq münasibətlərində iştirak edir. Nəqliyyat Nazirliyi hava yolu ilə sərnişin daşınması üçün nəqliyyat müəssisəsinə xüsusi icazə (lisenziya) verir. Daşımanı həyata keçirərkən həmin müəssisə ilə sərnişinlər arasında yaranan münasibətlər daşıma müqaviləsi (daşıma hüquq münasibəti) ilə rəsmiləşdirilir. Bəzi hallarda **inzibati aktlar mülki hüquq münasibətlərinin əmələ gəlməsi anını şərtləndirir.**

Dövlət qeydiyyatına almaq kimi akt bu cür inzibati aktlara misal ola bilər. Həmin akt olmazsa, mülki hüquq münasibəti əmələ gəlmir. Mülki qanunvericilik göstərir ki, dövlət qeydiyyatına alınmalı olan mülki hüquq münasibətləri onların qeydə alındığı andan əmələ gəlir (MM-in 14-cü maddəsinin 3-cü bəndi). Məsələn, daşınmaz əşya satılarkən həmin əşyaya mülkiyyət hüququ (əşya ilə bağlı risklər, xərclər və s.) alıcıya daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat anından keçir (MM-in 648-ci maddəsinin 2-ci bəndi). Belə təsəvvür yaranır ki, bəzi hallarda **hüquqi hərəkətlərin dövlət qeydiyyatına alınması kimi inzibati akt** mülki hüquqi nəticəyə səbəb olur.

Məhkəmə aktları mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına əsas olan hüquqi aktlardan biridir. Mülki qanunvericilik göstərir ki, məhkəmə aktları nəticəsində mülki hüquq münasibətləri əmələ gələ, dəyişə və ya xitam oluna bilər (MM-in 14-cü maddəsinin 2-ci bəndinin 3-cü yarımbəndi).

Məhkəmə aktları, hər şeydən əvvəl, xüsusi hüquqi akt kimi mülki hüquq münasibətlərinin əmələ gəlmə əsası kimi çıxış edir. Məsələn, vətəndaş özünəməxsus torpaq sahəsində özbaşına yaşayış evi tikir. Özbaşına tikilmiş həmin evə vətəndaşın mülkiyyət hüququ məhkəmə qərarı ilə tanına bilər (MM-in 180-ci maddəsinin 3-cü bəndi). Belə halda məhkəmə aktı nəticəsində yaşayış evi barəsində mülkiyyət hüquq münasibəti yaranır.

Məhkəmə aktları, mülki hüquq münasibətlərinə xitam verilməsi üçün də əsas ola bilər. Məsələn, məhkəmə hökmü əsasında törədilmiş cinayətə görə sanksiya kimi əmlak mülkiyyətçidən əvəzsiz alınır, yəni müsadirə edilir (MM-in 212-ci maddəsi). Belə halda mülkiyyətçinin əmlak üzərində mülkiyyət hüququna xitam verilir. Başqa bir misalda təsərrüfatsızcasına saxlanan mədəni sərvətlər məhkəmə qərarına əsasən dövlət tərəfindən satınalma yolu ilə mülkiyyətçidən alınır (MM-in 208-ci maddəsinin 1-ci bəndi).

Hüquqi hərəkətlərin ikinci növü hüquqauyğun olmayan hərəkətlərdir. Mülki qanunvericilik aktlarının tələblərinə zidd olan hüquqi hərəkətlərə **hüquqauyğun olmayan hərəkətlər** deyilir. Bu cür hərəkətləri **hüquqazidd hərəkətlər** və ya **hüquq pozuntuları** da adlandırırlar.

Hüquqazidd hərəkətlər odur ki, bu cür hərəkətlərin edilməsinə mülki qanunvericilik yol vermir, onu qadağan edir və yasaqlayır. Bu hərəkətlər mülki qanunvericilik aktlarında ifadə olunan hüquqi göstərişləri pozur. Əgər mülki qanunvericilik mülki hüquq münasibətlərinin əmələ gəlməsini, dəyişməsini və ya xitam olunmasını hüquqazidd hərəkətlə bağlayırsa və əlaqələndirirsə, onda həmin hərəkətlər hüquqi faktlar kimi çıxış edir. Hüquqi fakt qismində çıxış edən hüquqazidd hərəkətlər müxtəlifdir.

Zərər vurmaq hüquqazidd hərəkətin əsas hissəsini təşkil edir. Bunlara **deliktlər** deyilir. Söhbət fiziki şəxsin şəxsiyyətinə, əmlakına, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna zərər vurmaqdan gedir. Məsələn, sürücü minik avtomobilini yüksək sürətlə idarə edərkən səkidə dayanan vətəndaşı vurur və ona xəsarət yetirərək iki ayağını sındırır. Zərərçəkən vətəndaş işə çıxmır və əmək haqqından məhrum olur. Bundan savayı, o, sağlamlığının pozulması ilə bağlı əlavə xərclər, o cümlədən müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına və s. xərclər çəkir. Bununla zərərçəkən vətəndaş ziyana düşür. Zərərvuran sürücü həmin ziyanın əvəzini ödəməlidir. Sürücü ilə vətəndaş arasında ziyan vurmaqla bağlı mülki hüquq münasibəti (delikt hüquq münasibəti və ya delikt öhdəliyi) əmələ gəlir.

Əsassız varlanma hüquqazidd hərəkət kimi mülki hüquq münasibətlərinin əsası kimi çıxış edə bilər. Əsassız varlanma hüquqi əsas olmadan əmlak əldə etmədir, başqasının əmlakından nə isə götürməkdir. Bunun nəticəsində yaranan mülki hüquq münasibətinə görə hüquqi əsas olmadan varlanmış şəxs əldə etdiyi əmlakı mülkiyyətçinin özünə qaytarmalıdır (MM-in 1092-ci maddəsinin 1-ci bəndi). Məsələn, ata öz qonşusundan müəyyən məbləğdə borc pul alır və bir il keçdikdən sonra həmin pul məbləğini qaytarır. Bundan sonra o ölür. Vərəsə belə zənn edir ki, ata aldığı borc pulu qonşuya qaytarmamışdır. Ona görə də o, yenidən qonşuya pul verir. Qonşu əsassız varlanan, vərəsə isə məhrum olandır. Onlar arasında əsassız varlanmadan mülki hüquq

[1] Sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinə razılıq (lisenziya) verilməsi qaydaları ilə ətraflı tanış olmaq üçün bax: Sahibkarlıq fəaliyyəti haqqında normativ aktlar toplusu. Bakı. 1998.

[2] Prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar» («Respublika» qəzeti, 3 sentyabr 2002-ci il).

münasibəti yaranır. Bu münasibət üzrə qonşunun əsas vəzifəsi qanunsuz (hüquqi əsas olmadan) əldə etdiyini vərəsəyə qaytarmaqdan ibarətdir. Əsassız varlanmaya çoxlu misallar çəkə bilərik: alıcının səhvən ikinci dəfə satın aldığı əşyanın pulunu satıcıya ödəməsi; işçinin müəssisədən əzamiyyət pulu alması və əzamiyyətə getməməsi; kənddən gəlmiş valideynin şəhərdə təhsil alan oğlunun mənzilə görə kirayə haqqını səhfən ikinci dəfə ödəməsi və s.

Müqavilə öhdəliklərinin icra edilməməsi hüquqazidd hərəkətlər kateqoriyasına şamil olunur. Belə halda borclu şəxs onun üzərinə düşən vəzifəni (öhdəliyi) icra etmir və hüquq pozuntusuna, yəni hüquqazidd hərəkətə yol verir. Məsələn, alıcı alqı-satqı müqaviləsi üzrə aldığı əşyanın pulunu ödəmir, kirayəçi kirayə müqaviləsinin müddəti başa çatdıqda əmlakı kirayə verənə qaytarmır, daşıyıcı (nəqliyyat müəssisəsi) daşıma müqaviləsi üzrə yükü təyinat yerinə çatdırmır, borc alan borc müqaviləsi üzrə aldıcı borcu borc verənə qaytarmır, podratçı (tikinti təşkilatı) podrat müqaviləsi üzrə yaşayış evini tikmir və s.

Hüquqdan sui-istifadə hüquqazidd hərəkətdir, hüquq pozuntusudur. Bu cür hərəkəti edən şəxsə sanksiyalar tətbiq edilir. Bu isə məsuliyyət hüquq münasibətinin əmələ gəlməsinə səbəb olur. Məsələn, vətəndaş aylıq 15 faizlə öz qonşusuna borc pul verir. Vətəndaşın bu cür hərəkəti hüquqdan sui-istifadədir. Hüquq pozuntusu törədən vətəndaşa sanksiya tətbiq edilir: aldığı faizləri geri qaytarmaq; öz hərəkəti ilə qonşusuna vurduğu zərərin əvəzini ödəmək.

Cinayət də hüquqazidd hərəkətlərə (hüquq pozuntusuna) aiddir. Buna görə cinayət cəzası tətbiq edilir. Bununla bərabər, söz yox ki, cinayət nəticəsində vətəndaşın şəxsiyyətinə və ya əmlakına zərər vurulur. Belə halda mülki qaydada həmin zərərin əvəzi ödənilir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Иоффе О.С. Правоотношения по советскому гражданскому праву. Л., 1949 // В книге: Иоффе О.С. Гражданское право. Избранные труды. М., 2000.

Иоффе О.С. Спорные вопросы учения о правоотношении // Очерки по гражданскому праву. Сб. статей. Отв. ред. **О.С.Иоффе.** Л., 1957 // В книге: **Иоффе О.С.** Гражданское право. Избранные труды. М., 2000.

Иоффе О.С. Развитие цивилистической мысли в СССР. Часть 1. Л., 1975 (глава III - «Учение о гражданской правосубъектности» // В книге: **Иоффе О.С.** Гражданское право. Избранные труды. М., 2000).

Толстой Ю.К. К теории правоотношения. Л., 1959.

Халфина Р.О. Общее учение о правоотношении. М., 1974.

Тархов В.А. Гражданское правоотношение. Уфа. 1993.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **В.П.Грибанова, С.М.Корнеева. М., 1979.**

Советское гражданское право. Учебник. Часть 1 / Под ред. **В.Ф.Маслова** и **А.А.Пушкина.** Харков. 1983.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко.** Л., 1982.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. О.А.Красавчикова. М., 1985.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева.** М., 1997.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1998.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998.

Гражданское право. Учебник. Том 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Т.И.Илларионовой, В.М.Гонгало, В.А.Плетневой.** М., 1998.

Исаков В.Б. Юридические факты в советском праве. М., 1984.

Красавчиков О.А. Юридические факты в советском гражданском праве. М., 1958.

Черепахин Б.Б. Правопреемство по советскому гражданскому праву. М., 1962.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.

Dieter Schwab. Einführing in das Zivilrecht. Heidelberg: C. F. Müller. 1997.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

VI FƏSİL
FİZİKİ ŞƏXSLƏR MÜLKİ HÜQUQUN SUBYEKTİ KİMİ

§ 1. Fiziki şəxslərin mülki hüquq subyektliyi. Mülki hüquq qabiliyyəti

1. Fiziki şəxs anlayışı

Hər gün tələbələr avtobusdan, metrodan və digər nəqliyyat vasitəsindən istifadə etməklə təhsil aldıqları universitetə gəlirlər. Tələbələrlə nəqliyyat vasitələri (daşıyıcılar) arasında sərnişin daşıma münasibətləri yaranır. Neçə-neçə şəhər sakini öz ailə-məişət, şəxsi-maddi ehtiyaclarını təmin etmək məqsədi ilə geyim şeyləri, ərzaq məhsulları, ev avadanlıqları, məişət predmetləri və s. alır. Bununla alqı-satqı münasibətləri əmələ gəlir. Vətəndaş öz qonşusundan borc pul aldıqda isə borc münasibətləri meydana gəlir. Öz pulunu banka qoyan əmanətçi ilə həmin bank arasında əmanət münasibətləri əmələ gəlir. Ev sahibi yaşayış evini xarici ölkə vətəndaşına (əcnəbiyə) kirayəyə verir. Belə halda isə ev sahibi ilə əcnəbi arasında kirayə münasibəti yaranır. Kənd sakini torpağı sahibkar statuslu vətəndaşa icarəyə verir. Bu isə icarə münasibətidir. Vətəndaşlığı olmayan şəxs özünə məxsus pulları və qiymətli şeyləri qaldığı mehmanxananın sahibinə saxlanca verir. Bu cür halda saxlanc (saxlama) münasibəti göz qabağındadır. Sadaladığımız bütün bu münasibətlərin hamısı ictimai münasibətlər olub, mülki hüquqla tənzimlənir və mülki hüquq münasibətləri kimi hüquqi forma alır. Bax, bu hüquq münasibətlərində iştirak edən tələbə də, sahibkar da, vətəndaş da, əmanətçi də, xarici ölkə vətəndaşı da, vətəndaşlığı olmayan şəxs də fiziki şəxslər hesab olunurlar. Göstərdiyimiz hüquq münasibətlərində tərəf və subyekt rolunda məhz onlar çıxış edirlər. Fiziki şəxslər mülki hüquq münasibətlərinin iştirakçıları — subyektdirlər. Deməli, onlar həm də mülki hüququn subyekti hesab olunurlar.

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əsas iştirakçılarından biri fiziki şəxslərdir. **Fiziki şəxs mülki hüququn psixoloji-bioloji (fizioloji) varlıq, yəni insan kateqoriyasından olan subyektini ifadə etmək üçün işlədilən termindir.** Mülki hüquq insan cinsindən olmayan subyektlərini əhatə etmək üçün hüquqi şəxs anlayışından istifadə edir. Bəs fiziki şəxs nədir? Fiziki şəxs kateqoriyasının mənasını dərindən, hərtərəfli və düzgün başa düşmək üçün dörd kateqoriyanı yanaşı qoyub, onlar arasındakı münasibəti aydınlaşdırmaq lazımdır. Yalnız bu cür yanaşma fiziki şəxs kateqoriyasının mahiyyətini açmağa imkan verə bilər. Göstərdiyimiz həmin dörd kateqoriya bunlardır:

- vətəndaş kateqoriyası;
- şəxsiyyət kateqoriyası;
- insan kateqoriyası;
- fərd kateqoriyası.

Vətəndaş kateqoriyası ilə, hər şeydən əvvəl, Azərbaycan Respublikasının vətəndaşı anlayışı əhatə olunur. **Azərbaycan Respublikasının vətəndaşı** dedikdə, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs başa düşülür[1]. O, siyasi və hüquqi cəhətdən Azərbaycan dövlətinə mənsub olan şəxsdir. Buradan belə bir nəticəyə gələ bilərik ki, «Azərbaycan Respublikasının vətəndaşı», ümumiyyətlə, «şəxs» kateqoriyasına daxildir. Bəs «şəxs» kateqoriyası dedikdə, nə başa düşülür?

«Şəxslər» cinsi və ümumiləşdirilmiş kateqoriyadır. O, özündə iki anlayışı əhatə edir və birləşdirir: «fiziki şəxslər» anlayışını; «hüquqi şəxslər» anlayışını. Məntiqi təfsir üsulunun, yəni formal məntiq qaydalarının köməyi ilə müəyyənləşdirə bilərik ki, vətəndaş hüquqi şəxs — müəssisə, idarə və təşkilat ola bilməz. Ona görə ki, hüquqi şəxslər, vətəndaşlardan fərqli olaraq psixoloji (mənəvi) — bioloji (fizioloji) xüsusiyyətlərə malik olan ictimai varlıq deyil. Məhz buna görə də qanunun göstərişini genişləndirici yox, məhdudlaşdırıcı təfsir etmək lazımdır: vətəndaş fiziki şəxsdir. Qanunun göstərişini məhz bu mənada başa düşmək lazımdır. Amma «vətəndaş» və «fiziki şəxs» kimi iki anlayış eynimənalı, identik və sinonim anlayış deyildir. Məzmunca yaxın olmalarına baxmayaraq, onlar mühüm dərəcədə bir-birindən fərqlənirlər. Belə ki, mülki hüquq münasibətlərində vətəndaşlardan savayı, əcnəbilər (xarici dövlətin vətəndaşları) və vətəndaşlığı olmayan şəxslər də iştirak edə bilərlər. Əcnəbilər də, vətəndaşlığı olmayan şəxslər də fiziki şəxs anlayışına daxildir. Buradan belə bir nəticəyə gələ bilərik ki, **«fiziki şəxs» kateqoriyası özündə «vətəndaş», «xarici dövlət vətəndaşı» və «vətəndaşlığı olmayan şəxs» kimi üç cür anlayışı birləşdirir və əhatə edir.** Bu isə onu göstərir ki, «fiziki şəxs» məzmunca «vətəndaşa» nisbətən daha geniş anlayışdır. Belə ki, bütün vətəndaşlar həmişə fiziki şəxsdir, amma fiziki şəxs həmişə Azərbaycan Respublikasının vətəndaşı olmaya da bilər. Məsələn, əcnəbi fiziki şəxsdir, ancaq Azərbaycan Respublikasının vətəndaşı deyil.

Bax, buna görə mülki hüququn psixoloji-bioloji varlıq olan insan cinsindən subyektlərini vətəndaş anlayışı ilə əhatə etmək məsələyə birtərəfli, qeyri-düzgün, dəqiq olmayan yanaşmanı ifadə edir. Keçmiş qanunvericilik məhz uzun müddət «vətəndaş» anlayışından istifadə etmişdi.

«Fiziki şəxs» və «şəxsiyyət» kimi iki anlayış arasındakı münasibət haqqında nə demək olar? Fəlsəfi mənada şəxsiyyət ictimailəşmiş, ictimai münasibətlərin iştirakçısı olan, inkişaf etmiş fiziki şəxsdir. «Şəxsiyyət» anlayışı üçün başlıca cəhət bioloji, psixoloji-fizioloji mahiyyət yox, ictimai mahiyyətdir. **İctimai mahiyyətli fiziki şəxs şəxsiyyət adlanır.** Şəxsiyyət ictimai münasibətlərin məcmusu və daşıyıcısıdır, ictimai mənalı keyfiyyətlərə malik olan fiziki şəxsdir[2]. Əgər fiziki şəxs ictimai keyfiyyətlərə (fiziki şəxsin cəmiyyətdəki oynadığı rol, həyata keçirdiyi ictimai funksiyalar, daxili mənəvi potensialı, xarakter və iradəsi, mənlik şüuru və s.) malikdirsə, deməli, o, şəxsiyyətdir.

Aristotel şəxsiyyəti «ictimailəşmiş varlıq» kimi xarakterizə etmişdir. Alman klassik fəlsəfəsində Feyerbax şəxsiyyətə ictimai mahiyyət verməyə çalışmış-

[1] Konstitusiyanın 52-ci maddəsi (AR QK, II cild, s. 580; «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» 30 sentyabr 1998-ci il tarixli qanunun 1-ci maddəsi (AR QK, V cild, s. 715).

[2] bax: Краткий философский словарь / Под ред. *М.Розенталя и П.Юдина*. М., 1952, с. 232; Философский энциклопедический словарь. М., 1983, с. 314; А.Г.Спиркин. Основы философии. М., 1988, с. 462; *Maqsud Fərhadoğlu*. Fəlsəfənin əsasları. Dərs vəsaiti. Bakı. 1998, s. 318: Fəlsəfə ensiklopedik lüğəti. Bakı. 1997, s. 506.

dır. O, belə hesab edirdi ki, yalnız ictimai münasibətlərə girdikdə insan şəxsiyyət kimi çıxış edir[1].

Dediklərimizdən belə çıxır ki, yalnız ictimai məzmunlu keyfiyyətlərə malik olan fiziki şəxs şəxsiyyət kimi çıxış edə bilər. Fiziki şəxs anadan şəxsiyyət kimi doğulmur. Yalnız o, ictimai həyatda yaşamaqla, öz əməlləri ilə şəxsiyyət adını və statusunu qazana bilər. İctimai məzmunlu keyfiyyətlərdən məhrum olan fiziki şəxs şəxsiyyət kimi tanına bilməz. Beləliklə, fəlsəfə elmi baxımından hər bir fiziki şəxsi şəxsiyyət hesab etmək olmaz. Fiziki şəxs şəxsiyyət olmaqla ictimai mahiyyətə çevrilir. Şəxsiyyət həmişə ictimai inkişaf etmiş sosial münasibətlərin daşayıcısına çevrilmiş fiziki şəxsdir.

Psixologiya elmi baxımından şəxsiyyət müəyyən inkişaf və yaş səviyyəsinə çatan, psixi cəhətdən sağlam, əqli və mənəvi keyfiyyətlərə malik olan fiziki şəxsdir. Bu xüsusiyyət imkan verir ki, o, ictimai münasibətlərin iştirakçısı olsun, öz davranışına görə məsuliyyət daşısın və cavab versin, habelə öz mövqeyini formalaşdırsın. Belə çıxır ki, psixologiya elmi baxımından da hər bir fiziki şəxsi şəxsiyyət hesab etmək olmaz. Məsələn, mülki hüquq qabiliyyətinə malik olan, xırda məişət xarakterli müqavilələri (məsələn, dükandan çörək, bulka, dəftər, kitab, qələm və s. almaq kimi müqavilələri) müstəqil surətdə bağlayan və bununla mülki hüquq münasibətlərinin iştirakçısı olan azyaşlılar fiziki şəxslərdir, lakin şəxsiyyət deyildir. Başqa bir misalda mülki hüquq qabiliyyətli ruhi xəstələr yaşayış evi, geyim şeyləri, məişət predmetləri, ev avadanlıqları və digər əmlak növləri üzərində mülkiyyət hüququna malik ola bilərlər. Amma onlar fiziki şəxslər olsalar da, şəxsiyyət sayılmırlar.

Deməli, fəlsəfə və psixologiya elmi baxımından «fiziki şəxs» və «şəxsiyyət» kimi anlayış eyni mənalı, üst-üstə düşən anlayışlar deyildir. «Fiziki şəxs» anlayışının əhatə dairəsi daha genişdir. Belə ki, şəxsiyyət həmişə və bütün hallarda fiziki şəxsdir, amma hər bir fiziki şəxs şəxsiyyət statusu və adı ala bilməz. Şəxsiyyət hesab edilən də, şəxsiyyət hesab edilməyən də «fiziki şəxs» anlayışına aiddir. Odur ki, mülki hüququn fərdi subyektlərini «şəxsiyyət» anlayışı ilə əhatə etmək məsələyə qeyri-dəqiq və birtərəfli yanaşmanı ifadə edir.

«Fiziki şəxs» anlayışı ilə «insan» kateqoriyası arasında münasibətə gəldikdə isə qeyd etmək lazımdır ki, insan fəlsəfi anlayışdır. İnsan dedikdə, aydın nitqə, təfəkkür və şüura malik olan biososial varlıq başa düşülür. İnsanda təbii (bioloji), ictimai (sosial) və mənəvi (psixoloji) amillər qarşılıqlı vəhdətdə təzahür edir. Onun formalaşmasında bioloji, psixoloji və sosial amillər mühüm rol oynayır. Materialist fəlsəfə insana bioloji sosial varlıq kimi baxır, onu bəşər cəmiyyətinin yaratdığı ən qiymətli sərvət hesab edir.

İnsan ictimai münasibətlərin iştirakçısıdır. K.Marksın dediyi kimi, «insan ictimai münasibətlərin məcmusudur». İnsan həm də hüququn subyektidir. O, subyekt kimi çoxsaylı hüquq və vəzifələrin, o cümlədən mülki hüquqların daşıyıcısıdır. Buna görə də beynəlxalq sənədlərdə — «İnsan hüquqlarının ümumi Bəyannaməsi»nin (1948) 6-cı maddəsində və «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın (1966) 16-cı maddəsində hüququn subyekti kimi «insan» anlayışından istifadə olunur. Həmin maddələrdə göstərilir ki, harada

[1] *L.Feyerbax*. Seçilmiş fəlsəfi əsərləri. 1 cild, s. 190.

olmasından asılı olmayaraq hər bir insanın özünün hüquq subyektliyinin tanınması hüququ vardır[1].

İnsan ümumiləşdirilmiş fəlsəfi-mücərrəd anlayışdır. Ona görə də hüququn subyektini, o cümlədən mülki hüquq münasibətləri subyektini ifadə etmək üçün bu anlayışdan istifadə etmək münasib, əlverişli və məqsədəmüvafiq deyildir. Lazımdır ki, hüququn subyekti mənasında «insan» anlayışı konkret formada nəzərdə tutulsun. Bunun üçün bu anlayışın əhatə etdiyi məfhumları müəyyənləşdirmək lazımdır.

İnsan konkret fərdlərin məcmusudur. Fərd isə ayrıca götürülmüş insandır, insanın təkcə nümayəndəsidir. K.Marks yazırdı ki, fərd ictimai varlıqdır. Fiziki şəxs də ictimai varlıq olub, ayrıca götürülmüş insandır. Deməli, fiziki şəxs insan fərdidir. Dediklərimiz bizə belə bir nəticə çıxarmaq imkanı verir ki, «fiziki şəxs» və «insan fərdi» kimi iki anlayış eynimənalıdır.

Bir çox xarici ölkələrin qanunvericiliyi mülki hüququn insan kateqoriyasından olan subyektini ifadə etmək üçün məhz insani fərd kimi «fiziki şəxs» anlayışından istifadə edir. Məsələn, Hollandiya Mülki Məcəlləsinin «Şəxslər və ailə» adlı birinci kitabında fiziki şəxslərin hüquqi vəziyyətinin bütün məsələlərini tənzimləyən normalara rast gəlmək olur[2]. İtaliya Mülki Məcəlləsinin «Şəxslər və ailə» adlı birinci kitabının 1-ci bölməsi «Fiziki şəxslər» adlanır[3]. Almaniya Mülki Qanunnaməsinin «Ümumi hissə» adlı birinci kitabının birinci bölməsi «Şəxslər» (personen) adlanır. Bu bölməyə «Fiziki şəxslər» kimi fəsil daxildir[4].

Qeyd etmək lazımdır ki, roman-german (kontinental) hüquq sistemi «fiziki şəxs» termini ilə mülki hüququn əsas subyektlərindən birini ifadə edir. Bu sistemə daxil olan Fransa qanunvericiliyi bundan fərqli başqa termin tətbiq edir. Belə ki, bu ölkənin MM-i mülki hüququn fərdi subyektini ifadə etmək üçün «fransız» və «əcnəbi» kimi iki anlayışa üstünlük verir[5]. İngilis-amerikan hüquq ailəsi də «fiziki şəxs» anlayışını tanıyır və ondan istifadə edir.

«Fiziki şəxs» anlayışının tarixi Roma hüququ ilə bağlıdır. Roma hüququ qeyd etməliyik ki, hüquq qabiliyyətli varlığı, yəni hüququn subyektini persona (latınca) - şəxs adlandırdı[6]. Persona mülki dövriyyənin baza kateqoriyası hesab olunurdu[7].

Yeri gəlmişkən, qeyd edək ki, «persona» əvvəllər qədim yunan teatrlarında aktyorların geyindikləri maskaya verilmiş ad olmuşdur. O, ilk dəfə «teatr maskası» mənasını ifadə etmişdi. Sonralar Romada «persona» anlayışı ilə hüququn subyekti olan şəxslər anlayışı əhatə olunmuşdur. Roma hüququ

[1] bax: СССР и международное сотрудничество в области прав человека. Документы и материалы. М., 1989, с. 415; Права человека. Сборник международных документов. М., 1986; Qanun jurnalı. Bakı. 1992. № 1.

[2] bax: Гражданский кодекс Нидерландов / Пер. *М.Ферштмана*. Лейден. 1996.

[3] *Gazzetta ufficial. 5 agosto* 1985. № 183.

[4] Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6; *А.Жалинский, А.Рбрихт*. Введение в немецкое право. М., 2001, с. 297.

[5] bax: Французский гражданский кодекс / Перевод *И.С.Перетерского*. М., 1941.

[6] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 89; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 41.

[7] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 279.

«persona»nı iki yerə bölürdü[1]: «personae physicae» (fiziki şəxslərə); «personae morales» və ya «personae juridicae» (hüquqi şəxslərə). Sonradan «personae physicae» termini kontinental ölkələrin, ilk növbədə, Almaniyanın qanunvericiliyi tərəfindən qəbul olanaraq iqtibas edilmişdir[2].

Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi kontinental Avropa ölkələrinin qanunvericilik ənənələrinə əsaslanaraq mülki hüququn fərdi subyektini ifadə etmək üçün «fiziki şəxs» anlayışından istifadə edir. Bununla o, köhnə qanunvericiliyin «vətəndaş» kimi dəqiq olmayan, birtərəfli və qeyri-düzgün anlayış işlətmək tendensiyasından birdəfəlik imtina etmişdir.

MM-in 24-cü maddəsinin 1-ci bəndi fiziki şəxsin leqal anlayışını formulə edir. **Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir**. Özü də dərhal qeyd etməliyik ki, Azərbaycan Respublikasının qanunvericiliyi fiziki şəxsə anlayış verərkən Almaniya qanunvericilik təcrübəsini və ənənəsini olduğu kimi nəzərə almışdır. Daha doğrusu, Almaniya Mülki Qanunnaməsinin fiziki şəxsə verdiyi anlayış Azərbaycan Respublikasının yeni qanunvericiliyi tərəfindən qəbul edilmişdir. Beləliklə, bizim ölkə mülki qanunvericiliyi mülki hüququn fizioloji-psixoloji ictimai varlıq kimi insan cinsindən olan subyektlərini ifadə etmək üçün «insan», «şəxsiyyət», «vətəndaş» anlayışlarından istifadə etmir. Burada insani fərd olan «fiziki şəxs» anlayışının tətbiq edilməsinə üstünlük verilir.

2. Fiziki şəxslərin mülki hüquq qabiliyyəti

Fiziki şəxslərin mülki hüququn subyekti rolunda çıxış etməsi üçün onların qanunla müəyyənləşdirilən keyfiyyətlərə malik olması vacibdir. Bu keyfiyyətlərin məcmusu mülki hüquq subyektliyini yaradır. Mülki hüquq subyektliyi, qeyd etdik ki, mülki hüquq münasibətlərinin əmələ gəlməsinin və fəaliyyət göstərməsinin normativ zəminlərindən (ilkin şərtlərindən) biridir.

Mülki hüquq subyektliyi mürəkkəb, ümumiləşdirilmiş hüquqi kateqoriyadır. Bundan əvvəlki fəsildə qeyd etdiyimiz kimi, o, özündə bir neçə elementi birləşdirir. Həmin elementlərdən biri mülki hüquq qabiliyyəti adlanır.

«Hüquq qabiliyyəti» termininin ifadə etdiyi mənanın genezisi (əmələ gəlmə mənbəyi) qədim Roma hüququ ilə bağlıdır. Qədim Roma hüququ bu termini işlətmirdi. Hazırda işlədilən «hüquq qabiliyyəti» terminində Romada «caput» sözü uyğun gəlirdi. Daha doğrusu, Roma hüququ hüquq qabiliyyətini «caput» anlayışı ilə əhatə edirdi. Tam hüquq qabiliyyəti üç cür statusun (latınca status — vəziyyət) cəmindən ibarət idi: azadlıq statusu (status libertatis), yəni azad olmaq, qul olmaq yox; vətəndaşlıq statusu (status civitatis), yəni Roma vətəndaşı olmaq, yadelli, əcnəbi yox; ailə vəziyyəti (status familiae), yəni ata hakimiyyəti altında olmamaq[3].

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 70.

[2] Almaniya qanunvericiliyinə görə, fiziki şəxslər «natürlichen personen», hüquqi şəxslər «personnes morales» və ya «personnes civiles» anlayışı ilə əhatə olunur.

[3] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 274; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 90; *Пухан И., Поленак-Акимовская М.* Римское право. М., 2000, с. 70; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 41; Yeri gəlmişkən, qeyd edək ki, «caput» ifadəsinə ilk dəfə olaraq Yustinianın İnstitusiyasının məntələrinin birində rast gəlinir.

İlk dəfə olaraq hüquq qabiliyyəti anlayışı 1804-cü ildə qəbul edilmiş Fransa Mülki Məcəlləsində — Napoleon Məcəlləsində formulə edilmişdir[1]. Bunun ardınca, 1896-cı il tarixli Almaniya Mülki Qanunnaməsinin «Ümumi hissəsi» hüquq qabiliyyətinə müəyyən hüquq normaları həsr edərək bu kateqoriyanı daha da inkişaf etdirmişdir[2]. Həmin dövrdə hüquq qabiliyyəti kateqoriyasından İngiltərə mülki hüququnda da istifadə olunurdu[3]. Bu kateqoriya özünün yaranmasına görə əsasən Fransa və Almaniya kimi ölkələrin mülki qanunvericiliyinə «borclu» olmalıdır.

Mülki hüquq qabiliyyəti kateqoriyası roman-german (kontinental) hüquq ailəsi üçün xarakterikdir. İngilis-amerikan (ümumi) hüquq ailəsində hüquq qabiliyyəti kateqoriyasından istifadə olunmur. Burada vahid hüquq subyektliyi anlayışı (legal capacity) tətbiq edilir.

Mülki hüquq qabiliyyətinin leqal anlayışı MM-in 25-ci maddəsinin 1-ci bəndində formulə edilmişdir. **Mülki hüquq qabiliyyəti dedikdə, fiziki şəxsin mülki hüquqlara malik olmaq və mülki-hüquqi vəzifələr daşımaq qabiliyyəti başa düşülür**. Özü də buradaca dərhal qeyd etməliyik ki, mülki hüquq qabiliyyəti fiziki şəxslərin faktiki və real olaraq konkret subyektiv hüquqlar əldə etməsi, hüquqlar qazanması demək deyildir. Bu, o deməkdir ki, dövlət özünün yaratdığı mülki hüquq normaları ilə fiziki şəxslərə mümkün olan olan bütün mülki hüquq münasibətlərinin (şübhəsiz ki, qanunla qadağan olunan və yol verilməyən mülki hüquq münasibətləri istisna olmaqla) iştirakçısı olmağa, bununla isə konkret subyektiv hüquqlar əldə etməyə və konkret subyektiv vəzifələr daşımağa hüquqi imkan verir. Mülki hüquq qabiliyyəti faktiki olaraq hüquqlar əldə etmək üçün postulat (latınca postulatum - tələb)[4] kimi qabaqcadan qəbul olunmuş imkandır və ya qabiliyyətdir. O, hüquq və vəzifələrin daşıyıcısı olmaq qabiliyyətidir.

Qeyd etmək lazımdır ki, mülki hüquq qabiliyyətini, yəni mülki hüquqlar əldə etmək imkanını «bu hüquqların əldə edilməsinin özü» kimi anlayışla qarışdırmaq olmaz. Mülki hüquq qabiliyyəti özlüyündə hər hansı bir real maddi və qeyri-maddi nemət və yaxud faktiki konkret subyektiv hüquq yaratmır. Mülki hüquq qabiliyyətli olmaq hələ o demək deyildir ki, fiziki şəxs real surətdə, faktiki olaraq qanunda nəzərdə tutulan konkret mülki hüquqlara artıq malik olmuşdur. Məsələn, qanun hər kəsə və hamıya əsərin müəllifi olmaq və ya ixtiranın müəllifi olmaq kimi hüquqi imkan (qabiliyyət) vermişdir. Bu, mülki hüquq qabiliyyətidir. Lakin bu, onu ifadə etmir ki, artıq fiziki şəxs əsər yazmış və ya ixtira yaratmış, onlara müəlliflik hüququ əldə etmişdir. Başqa bir misalda qanun fiziki şəxslərə hüquqi imkan verir ki, onlar minik avtomobilinə, yaşayış evinə və digər əmlak növlərinə mülkiyyət hüququ əldə etsinlər. Bu da mülki hüquq qabiliyyətidir. Lakin bu, o demək deyildir ki, fiziki şəxs artıq özünə minik

[1] bax: Французский гражданский кодекс 1804 года / Пер. *И.С.Перетерского.* М., 1941.

[2] bax: *Рене Давид, Камилла Жоффре-Спинози.* Основные правовые системы современности. М., 1999, с. 67; Германское право. Часть 1. Германское гражданское уложение / Под ред. *В.В.Залесского.* М., 1996.

[3] bax: *Мицкевич. А.В.* Субъекты советского права. М., 1962, с. 19.

[4] Postulat dedikdə, sübutsuz olaraq əsas kimi götürülən və qəbul edilən müddəa başa düşülür.

avtomobili, yaşayış evi və s. almış, onlar üzərində mülkiyyət hüququ qazanmışdır. Bax, bunlar mülki hüquqların əldə edilməsinin özüdür. XX əsrin əvvəllərində rus hüquqşünas alimlərindən N.M.Korkunov yazırdı ki, hüquq qabiliyyəti yalnız şəxsin məlum hüquqlara malik ola bilməsini ifadə edir. Amma bu, hələ şəxsin həmin hüquqları həqiqətən əldə etməsi demək deyildir. Hər kəsin əmlak üzərində mülkiyyət hüququna malik olmaq qabiliyyəti vardır, lakin bu onu ifadə etmir ki, artıq əmlak üzərində mülkiyyət hüququ əldə olunmuşdur[1].

Mülki hüquq qabiliyyəti konkret mülki hüquqlar əldə etmək üçün yol açır. Bu anlayışın əsl məğzini və əsasını «hüquq» yox, bu hüququn əldə etmək üçün açar rolunu oynayan «qabiliyyət», yəni «hüquqi imkan» təşkil edir. Ona görə də hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, hüquq qabiliyyəti yalnız hüquq əldə etməyin əsasıdır, onun ilkin şərtidir[2]. Doğrudan da, hüquq qabiliyyəti konkret subyektiv hüquqların əmələ gəlməsi üçün zəmin rolunu oynayır. Əgər qanun fiziki şəxsə mülki hüquqlar qazanmaq üçün hüquqi imkan (hüquq qabiliyyəti) vermirsə, onda o, nə cür və hansı yolla konkret subyektiv mülki hüquqlar əldə edə bilər? Bunu adam təsəvvürünə belə gətirə bilmir.

Dediklərimizdən belə nəticə çıxır ki, mülki hüquq qabiliyyəti olmadan hər hansı bir konkret subyektiv mülki hüququn əmələ gəlməsi və yaranması mümkün deyil. Başqa sözlə desək, mülki hüquq qabiliyyəti olmadan fiziki şəxsin mülki hüquq münasibətlərinin iştirakçısı (subyekti) kimi çıxış etməsindən söhbət gedə bilməz. Bu kateqoriyanın sosial qiyməti, əhəmiyyəti və rolu məhz bununla bağlıdır. Belə ki, **yalnız mülki hüquq qabiliyyəti mövcud olduqda, konkret subyektiv hüquqlar əmələ gələ bilər**. Mülki hüquq qabiliyyəti konkret hüquq və vəzifələr yox, yalnız onların əldə edilməsinin mücərrəd və ümumi zəminidir[3].

Beləliklə, **mülki hüquq qabiliyyəti dedikdə, fiziki şəxsin qanunda nəzərdə tutulan mülki hüquqlara malik olmağın və vəzifələr daşımağın dövlət tərəfindən tanınan ümumi, mücərrəd imkanı, bu hüquq və vəzifələrin daşıyıcısı olmaq qabiliyyəti başa düşülür**. Mülki hüquq qabiliyyəti kateqoriyasının məna və mahiyyətinin aydınlaşmasında keçmiş sovet dövrünün görkəmli sivilist alimlərinin — O.S.Ioffenin, S.N.Bratusun, O.A.Krasavçikovun, E.A.Fleyşitsin və başqalarının böyük elmi əməyi olmuşdur. Onların irəli sürdükləri müddəalar bu kateqoriyanın əsl təbiətinin müəyyənləşdirilməsində böyük rol oynamışdır[4].

[1] bax: *Коркунов Н.М.* Лекции по общей теории права. СПб. 1909, с. 147.

[2] bax: Советское гражданское право. Субъекты гражданского права / Под ред. *С.Н.Братуся*. М., 1984, с. 16.

[3] *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1// В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 288

[4] Mülki hüquq elminin parlaq və tanınmış nümayəndələri olan alimlər bu məsələ barəsində öz fikirlərini əsaslandırmışlar: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1. Л., 1975; *С.Н.Братусь.* Субъекты гражданского права. М., 1950; *Красавчиков О.А.* Социальное содержание правоспособности граждан // Правоведение. 1960. № 1; *Флейшиц Е.А.* Соотношение правоспособности и субъективных прав // Вопросы общей теории советского права. М., 1960.

3. Mülki hüquq qabiliyyətinin əsas xüsusiyyətləri

Mülki hüquq qabiliyyəti fiziki şəxsin ictimai vəziyyətini hüquqi cəhətdən ifadə edən hüquqi hadisədir. O, hüquqi üstqurum kateqoriyasına şamil edilən məsələdir. Buna görə də o, cəmiyyətin bazisi ilə, yəni istehsal münasibətləri ilə müəyyən olunur.

Mülki hüquq qabiliyyəti fiziki şəxsin anadangəlmə təbii keyfiyyəti deyildir. O, fiziki şəxsə təbiət tərəfindən anadangəlmə verilmir. Mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı ona dövlət tərəfindən mülki hüquq normaları vasitəsi ilə verilir[1]. Nə vaxt ki, fiziki şəxs doğulur və yaşayır, dərhal da o, mülki hüquq qabiliyyətli olur. Harada ki, ümumiyyətlə, mülki hüquqi tənzimetmə və hüquqi mühit vardır, orada da mülki hüquq qabiliyyəti mövcuddur. Deməli, mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı fiziki şəxsə dövlət tərəfindən hüquq əsasında (daha doğrusu, hüququn xaricən ifadə olunduğu qanunvericilik aktlarının vasitəsi ilə) verilir. Bu fikrin doğru olması belə bir tarixi faktla təsdiqlənir və sübut olunur ki, quldarlıq cəmiyyətində qullar dövlət tərəfindən rəsmi olaraq hüquq əsasında hüquq qabiliyyətli hesab edilmirdi. Onlar yalnız hüququn obyekti — alqı-satqının predmeti kimi çıxış edə bilərdilər. Roma hüququ qullara «danışan alət», predmet, əşya kimi baxırdı. Həmin dövrdə Romada tam hüquq qabiliyyətli vətəndaşlar da yaşayırdı. Feodalizm dövründə təhkimli kəndlilər tam hüquq qabiliyyətli vətəndaşlar sayılmırdı. Feodal hüququ imtiyazlar hüququ idi. Bu hüquq vətəndaşların hüquqlara malik olmaq qabiliyyətini onların sosial mənşəyindən, mənsub olduğu silkdən, tutduğu vəzifədən, rütbədən və s. asılı olaraq müəyyən edirdi. Deməli, **mülki hüquq qabiliyyəti fiziki şəxsin görmə, eşitmə və sair kimi anadangəlmə təbii yox, ictimai-hüquqi keyfiyyət və xüsusiyyətdir**.

Mülki hüquq qabiliyyətinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, **real xarakterə malikdir**. Bu, onu ifadə edir ki, hər bir fiziki şəxsin mülki hüququn tanıdığı bütün hüquq və vəzifələrin subyekti olmaq, yəni qanunun yol verdiyi **bütün mülki hüquq münasibətlərinin iştirakçısı olmaq imkanına təminat verilir**. Hər bir dövlətin vəzifəsidir ki, fiziki şəxslərin hüquq qabiliyyətinə təminat versin və onu müdafiə etsin.

Azərbaycan Respublikası (dövləti) fiziki şəxslərin mülki hüquq qabiliyyətinə təminat verir. Mülki qanunvericilik göstərir ki, fiziki şəxs hüquq qabiliyyətindən məhrum edilə bilməz (MM-in 25-ci maddəsinin 4-cü bəndi). Bununla bərabər, fiziki şəxsin hüquq qabiliyyəti yalnız qanunla müəyyənləşdirilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər. Belə təsəvvür yaranır ki, fiziki şəxsi mülki hüquq qabiliyyətindən tamamilə və bütövlükdə məhrum etmək mümkün deyil. Ona görə ki, o, insan haqları barədə beynəlxalq paktlardan, ədalət, azadlıq və humanizm prinsiplərindən irəli gəlir.

Yaşadığımız ölkədə fiziki şəxslərin mümkün olan bütün hüquq və vəzifələrin subyekti olmaq imkanına Konstitusiya qaydasında və səviyyəsində təminat verilir: hər kəsin doğulduğu andan hüquqları vardır və bu hüquqları gözləmək, qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

[1] Alman professoru Helmut Haynriks göstərir ki, hüquq qabiliyyəti qanunverici tərəfindən göndərilmişdir.

Həmin hüquqların pozulması və vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur[1]. **Dövlət bütün fiziki şəxslərin hüquq qabiliyyətinin müdafiəsinə təminat verir.**

Mülki hüquq qabiliyyətinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, **ayrılmaz və özgəninkiləşdirilməz xarakterə** malikdir. O, fiziki şəxsin özünün mövcud olmasından ayrılmazdır. Nə vaxt ki, fiziki şəxs yaşayır, o zaman da həmin şəxs mülki hüquq qabiliyyətinə malik olur. Fiziki şəxslər doğulduğu andan ayrılmaz hüquqlara malik olub, bütün həyatı boyu sağlamlıq vəziyyətindən və yaşından asılı olmayaraq hüquq qabiliyyətli sayılır. O, mülki hüquq qabiliyyətindən tamamilə və ya qismən imtina edə bilməz. Bu cür imtinanın hüquqi əhəmiyyəti yoxdur və hüquqi nəticəsi olmur. Bununla belə, fiziki şəxsin ixtiyan yoxdur ki, o, öz mülki hüquq qabiliyyətini məhdudlaşdırsın. Fiziki şəxsin mülki hüquq qabiliyyətinin məhdudlaşdırılmasına yönələn hər hansı əqdin hüquqi əhəmiyyəti yoxdur. Bu cür əqd etibarsız sayılır və hüquqi nəticə doğurmur (MM-in 31-ci maddəsinin 3-cü bəndi). Məsələn, borc hüquq münasibəti üzrə borc verən verdiyi borcu borc alandan geri tələb etmək hüququndan imtina edə bilər. Bu, onun subyektiv hüququdur. Amma borc verən bu münasibətdən irəli gələn mübahisə üçün məhkəmələrə müraciət imkanından qabaqcadan imtina etmək barədə vəd verə bilməz. Bu cür vəd vermə əqdi hüquqi nəticəyə səbəb olmur. O, etibarsız əqdir. Ona görə ki, həmin əqd borc verənin mülki hüquq qabiliyyətinin məhdudlaşdırılmasına yönəlir.

Mülki hüquq qabiliyyətinin fiziki şəxsin özündən ayrılmaz olması (ayrıla bilməməsi) onun özgəninkiləşdirilməz olmasına (özgəninkiləşdirilə bilməməsinə) dəlalət edir. Mülki hüquq qabiliyyətinin başqa şəxslərə verilməsi tamamilə istisna edilir.

Hüquq və vəzifələrin bağlılığı mülki hüquq qabiliyyətinin əsas cəhətlərindən biridir. Bu kateqoriya təkcə fiziki şəxsin mülki hüquqlara malik olmaq qabiliyyətini ifadə etmir. O, həm də fiziki şəxsin mülki-hüquqi vəzifələr daşımaq qabiliyyətini əhatə edir. Buna görə də mülki hüquq qabiliyyəti fiziki şəxsin hüquqlara malik olmaq imkanı ilə vəzifələr daşımaq imkanını əlaqələndirən kateqoriyadır.

Mülki hüquq qabiliyyətinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, **o, bərabərlik prinsipinə əsaslanır.** Bu prinsipə görə, **bütün fiziki şəxslərin mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı eynidir.** Mülki qanunvericilik mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq üçün bütün fiziki şəxslərə bərabər və eyni dərəcədə hüquqi imkan verir. Bu, o deməkdir ki, bütün fiziki şəxslərin mülki hüquq qabiliyyəti eyni dərəcədə tanınır (MM-in 25-ci maddəsinin 1-ci bəndi). Odur ki, mülki hüquq qabiliyyətini xarakterizə edən bərabərlik prinsipi mülki hüquqlara malik olmaqda hər hansı bir fiziki şəxsə üstün və imtiyazlı imkan verilməsini qeyri-mümkün edir.

Bərabərlik prinsipi, hər şeydən əvvəl, beynəlxalq sənədlərdə öz ifadəsini tapır. «İnsan Hüquqlarının Ümumi Bəyannaməsi»nin 2-ci maddəsi hüquq qabiliyyətinin insanın irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən,

[1] bax: Konstitusiyanın 24-cü maddəsinin 1-ci hissəsi, 71-ci, 80-ci maddələri (AR QK, II cild, s. 574, s. 584, 586).

siyasi əqindəsindən, sosial mənşəyindən, milli mənsubiyyətindən, əmlakından və s. asılı olmayan bütün fiziki şəxslər üçün bir bərabərdə tanınmasını nəzərdə tutur[1]. Bu prinsip Azərbaycan Respublikasının Konstitusiyasında daha da inkişaf etdirilmişdir[2]. Belə ki, Konstitusiyada bütün fiziki şəxslərin (vətəndaşların) bərabər hüquqlu olması təsbit olunur. Bu, fiziki şəxslərin hüquq qabiliyyəti baxımından bərabər olmasını ifadə edir[3].

Bərabərlik prinsipi barədə Konstitusiya normasının mahiyyəti ondan ibarətdir ki, fiziki şəxslərin hüquqlara malik olmaq qabiliyyəti (imkanı) onun irqindən, milliyyətindən, dilindən, dinindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və s. asılı deyildir. Bu cür amillərə görə hüquq qabiliyyətini məhdudlaşdırmaq yolverilməzdir. Deməli, Konstitusiya hər hansı bir əlamətə fərq qoymadan və əhəmiyyət vermədən hər kəsin hüquq bərabərliyinə təminat verir.

Bərabərlik prinsipinin böyük əhəmiyyəti vardır. Belə ki, bu prinsip ictimai ayrı-seçkilik halının aradan qaldırılması üçün, habelə adicə hüquqi ədalətin müəyyən edilməsi üçün irəliyə doğru atılan addımdır. Bu yerdə XIX əsrdə alman müəlliflərindən birinin dediyi sözləri xatırlamaq yerinə düşərdi. O, yazırdı ki, real həyatda amansız qeyri-bərabərlik mövcuddur. Bütün insanlar — xəstələr və sağlamlar, qocalar və azyaşlılar, kasıblar və varlılar, kübarlar və kübar olmayanlar — ümumiyyətlə, bütün insanlar hüquq qabiliyyətli elan edildikdə, bu qeyri-bərabərlik bir az yüngülləşir[4].

4. Mülki hüquq qabiliyyəti və subyektiv mülki hüquq

Mülki hüquq qabiliyyəti və subyektiv mülki hüquq kimi iki kateqoriyanın arasındakı münasibət mülki hüquq elmində mübahisə doğuran məsələlərdəndir. Bu məsələnin aydınlaşdırılmasına xeyli əsərlər həsr edilmişdir[5]. Subyektiv hüquqla hüquq qabiliyyəti arasındakı münasibət problemi öz elmi əhəmiyyətini saxlayır. Bu problem haqqında elmi polemika və diskussiya indi də davam edir.

Mülki hüquq qabiliyyəti ilə subyektiv mülki hüquq kateqoriyaları arasındakı **birinci fərq** ondan ibarətdir ki, fəlsəfi planda və məzmunda əgər **hüquq qabiliyyəti mücərrəd və imkan kimi kateqoriyalara aiddirsə, subyektiv mülki hüquq isə konkret və gerçəklik kimi kateqoriyalara daxildir.** Onlar arasında əlaqə mücərrəd və konkret, imkan və gerçəklik kimi iki cür fəlsəfi kateqoriya arasındakı nisbət kimidir. Mülki hüquq qabiliyyəti hüquqi cəhətdən imkandır (hüquqi imkandır). Məsələn, mülkiyyət hüququna malik olmaq, əqli mülkiyyət hüququna malik olmaq, şərəf və ləyaqətin müdafiəsi hüququna ma-

[1] bax: СССР и международное сотрудничество а области прав человека. Документы и материалы. М., 1989; Права человека. Основные международные документы. М., 1995.

[2] bax: Konstitusiyanın 25-ci maddəsi (AR QK, II cild, s. 574).

[3] *Братусь С.Н.* Предмет и система советского гражданского права. М., 1963, с. 140; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 100.

[4] bax: *Регельсбергер Ф.* Общее учение о праве / Пер. с нем. М., 1897, с. 14.

[5] bax: *Юркевич Н.Г.* О соотношении правоспособности и субъективного права // Тезиси докладов 21 научной сессии. Белорусс. Ун-та. Минск. 1956, с. 39; *Флейшиц Е.А.* Соотношение правоспособности и субъективных прав // Вопросы общей теории советского права. М., 1960; *Матузов Н.И.* Личность. Права. Демократия. Саратов. 1972; *Иоффе О.С.* Развитие цивилистической мысли. Часть 1. Л., 1975.

lik olmaq və s. Mülki hüquq qabiliyyəti həm də mücərrəd kateqoriyadır. O, subyektiv mülki hüquqlara malik olmağın mücərrəd (ümumi) imkanıdır. Daha doğrusu, mülki hüquq qabiliyyəti mülki hüquq münasibətlərinin yaranmasının, yəni fiziki şəxslər üçün konkret subyektiv mülki hüquqların əmələ gəlməsinin **ümumi, mücərrəd zəminidir**. Lakin o, hələ subyektiv mülki hüquqların özü deyil, yalnız bu hüquqlara malik olmağın mücərrəd qabiliyyəti və imkanıdır. Bu mücərrəd imkan müəyyən hüquqi faktlar (hərəkətlər və hadisələr) əsasında gerçəkliyə çevrilir, konkretləşir, yəni konkret fiziki şəxslər üçün konkret subyektiv hüquqlar əmələ gəlir. Deməli, subyektiv mülki hüquq konkret və gerçəklik kateqoriyasına aiddir. Məsələn, Konstitusiya müəyyən edir ki, hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər[1]. Bu, bütün fiziki şəxslərə verilən mülkiyyət hüququna malik olmağın mücərrəd imkanı olub, mülki hüquq qabiliyyətini ifadə edir. Hər hansı konkret müəyyən vətəndaş bu hüquqi imkandan istifadə edərək alqı-satqı müqaviləsi əsasında özünə yaşayış evi alır. Həmin vətəndaşın bu ev üzərindəki mülkiyyət hüququ artıq subyektiv mülki hüquqdur, gerçəklikdir. Alqı-satqı müqaviləsi isə mücərrəd hüquqi imkanı konkret gerçəkliyə çevirən hüquqi fakt (hərəkət) rolunu oynayır. **Subyektiv mülki hüquq gerçəkliyə çevrilən imkandır**. O, konkret şəxsə məxsus olan artıq mövcud hüquqdur.

İkincisi, subyektiv mülki hüquqa münasibətdə **mülki hüquq qabiliyyəti ilkindir, əsasdır, çıxış və başlanğıc kateqoriyasıdır,** habelə **zəmin (ilkin şərt) rolunu oynayır**. Subyektiv hüquq isə özünün lazımi və vacib ümumi zəmini kimi mülki hüquq qabiliyyətinə əsaslanır[2].

Üçüncüsü, mülki hüquq qabiliyyəti **mülki hüquq subyektliyi kateqoriyasının elementlərindən biridir**. Artıq qeyd etdiyimiz kimi, o, fiziki şəxsin ictimai-hüquqi keyfiyyəti və xüsusiyyətidir. Subyektiv mülki hüquq isə mülki hüquq münasibətlərinin elementi hesab edilir.

Dördüncüsü, mülki hüquq qabiliyyəti bütün **fiziki şəxslər üçün bir bərabərdə və eyni dərəcədə tanınır**. Bu, o deməkdir ki, qanun mülki hüquqlar əldə etməkdə hamıya eyni və bərabər hüquqi imkan verir. Qadının və kişinin, xəstə və sağlamın, azyaşlı və yetkinin, varlı və kasıbın və digər kateqoriya şəxslərin mülki hüquqlara malik olmaqda hüquqi imkanı eynidir və bərabərdir. Daha doğrusu, bütün fiziki şəxslər eyni həcmdə mülki hüquq qabiliyyətinə malikdirlər. Subyektiv mülki hüquqların həcminə gəldikdə isə qeyd etməliyik ki, o, ayrı-ayrı subyektlərdə müxtəlif cür olur. Başqa sözlə desək, müxtəlif subyektlərin malik olduqları subyektiv mülki hüquqlar həcm etibarilə eyni və bərabər deyil. Ola bilsin ki, hər hansı bir müəyyən vətəndaşın konkret subyektiv hüququ (məsələn, minik avtomobili üzərində mülkiyyət hüququ) olmasın. Vətəndaşın biri bağ evi ala bilər, o biri isə yox. Qonşulardan biri qaraj tikdirə bilər, digər qonşu isə yox və s. Özü də subyektiv mülki hüquqların həcmi fiziki şəxsin necə işləməsindən və gəlir (qazanc) götürməsindən, hansı bacarıq və qabiliyyətə malik olmasından asılıdır. «İşləməyən dişləməz» kimi məşhur atalar sözünü burada işlətmək yerinə düşərdi.

[1] bax: Konstitusiyanın 29-cu maddəsinin 3-cü hissəsi (AR QK, II cild, s. 575).

[2] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 289.

Beşincisi, mülki hüquq qabiliyyətindən, yuxarıda qeyd etdiyimiz kimi, **fiziki şəxsi məhrum etmək olmaz**. Bu, yolverilməzdir. Qanun bu cür halı qadağan edir. Amma fiziki şəxsi ayrı-ayrı konkret subyektiv mülki hüquqlardan məhrum etmək olar. Məsələn, vəzifəli şəxs aldığı rüşvət hesabına özünə minik avtomobili alır və bununla həmin avtomobil üzərində mülkiyyət hüququ əldə edir. O, cinayət məsuliyyətinə cəlb edilir. Məhkəmə hökmü əsasında minik avtomobili törədilmiş vəzifə cinayətinə (rüşvət almaya) görə sanksiya kimi müsadirə edilir. Bu, vəzifəli şəxsin subyektiv mülki hüququdan — minik avtomobili üzərində mülkiyyət hüququndan məhrum edilməsini ifadə edir. Bu və ya digər şəxsin vərəsəlik hüququndan məhrum edilməsi də konkret subyektiv hüquqdan məhrum olunma deməkdir.

Altıncısı, qeyd etdiyimiz kimi, **mülki hüquq qabiliyyəti onun daşıyıcısı olan fiziki şəxsin özündən ayrılmazdır, onu özgəninkiləşdirmək olmaz**. Fiziki şəxsin mülki hüquq qabiliyyətindən tamamilə və ya qismən imtina edə bilməyə ixtiyarı çatmır. Bunu qanun qadağan edir. Amma fiziki şəxs konkret subyektiv hüquqdan imtina edə, onu başqa şəxslərə verə bilər[1].

Beləliklə, biz mülki hüquq qabiliyyəti və subyektiv mülki hüquq kimi iki müxtəlif kateqoriyanı bir-birindən ayırmağa və fərqləndirməyə əsas verən cəhətləri aydınlaşdırdıq. Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, **mülki hüquq qabiliyyəti konkret subyektiv mülki hüquqlar vasitəsi ilə həyata keçirilir**. Harada ki fiziki şəxs konkret subyektiv mülki hüquqlara malik olur və onları əldə edir, bu, mülki hüquq qabiliyyətinin həyata keçirilməsini ifadə edir. Onlar bir-birindən fərqli anlayışlardır. Bununla belə, söylədiklərimiz hüquq ədəbiyyatında irəli sürülən belə bir nəzəri konsepsiyanın əsassız olmasını sübut edir ki, guya hüquq qabiliyyəti hər bir konkret şəxsin müəyyən subyektiv hüququdur. Bu konsepsiya S.N.Bratus tərəfindən əsaslandırılmış və digər müəlliflər tərəfindən isə inkişaf etdirilmişdir[2]. S.N.Bratus yazırdı ki, hüquq qabiliyyəti hüquq və vəzifələrin subyekti olmaq hüququdur. Onun fikrincə, hüquq qabiliyyətinin istənilən təzahürü və ifadəsi subyektiv hüquqlardır.

S.N.Bratusun əsaslandırdığı konsepsiyanı dəstəkləyən müəlliflər öz fikirlərini əsaslandırmaq üçün müəyyən arqument və dəlillər gətirirlər. Onlar göstərirlər ki, bütün subyektiv hüquqlar üçün xarakterik olan cəhətlər müəyyən subyektiv hüquq mənasında çıxış edən hüquq qabiliyyətində vardır: birincisi, bu hüquqa qarşı hüquq qabiliyyətini pozmamaq kimi passiv vəzifə durur; ikincisi, bu hüquq müdafiədən istifadə edir.

Göstərilən nəzəri konsepsiya həqiqətdən uzaq olub, əsassızdır. Bu konsepsiya ilə çətin ki razılaşmaq olar. Ona görə ki, müəlliflərin mütləq çoxluğu subyektiv hüquqların hüquq münasibətlərindən kənarda mövcud olması ide-

[1] Hüquq subyektliyi kateqoriyası ilə subyektiv hüquq arasında münasibətin əsas cəhətləri sivilistika doktrinasında geniş surətdə işıqlandırılır (bax: *Иоффе О.С.* Спорные вопросы учения о правоотношении // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 685-690).

[2] bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 6; *Алексеев С.С.* Общая теория права. Том 2. М., 1982, с. 141; Советское гражданское право. Субъекты гражданского права / Под ред. *С.Н.Братуся.* М., 1984, с. 17-18; *Веберс Я.Р.* Правосубъектность граждан в гражданском и семейном праве. Рига. 1976, с. 51; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 215.

yasını qəbul etmirlər. Həmin müəlliflər belə hesab edirlər ki, hüquq münasibətləri subyektiv hüquqların əmələ gəlməsinin məcburi formasıdır: hüquq münasibəti yoxdursa, subyektiv hüquq da mövcud deyil. **Hüquq qabiliyyəti isə bu münasibətlərin ümumi zəmini, ilkin şərtidir**. Belə olan halda, hüquq qabiliyyətini subyektiv hüquq hesab etmək olarmı? Hüquqi faktlar olmazsa, ümumi mücərrəd zəmin rolunu oynayan mülki hüquq qabiliyyəti konkret subyektiv hüquqlar vasitəsi ilə həyata keçə bilməz[1].

5. Mülki hüquq qabiliyyətinin məzmunu

Qüvvədə olan mülki qanunvericiliyə görə, fiziki şəxslərin malik ola bildiyi mülki hüquq və vəzifələrin məcmusuna mülki hüquq qabiliyyətinin hüquqi məzmunu deyilir. Mülki hüquq qabiliyyətinin hüquqi məzmununu hüquqların özü yox, **bu hüquqlara malik olmaq imkanı** təşkil edir. Qüvvədə olan mülki qanunvericilik fiziki şəxslərə həm əmlak, həm də şəxsi qeyri-əmlak xarakterli hüquq və vəzifələrə malik olmaq imkanı verir.

Fiziki şəxslər mülki qanunvericilikdə nəzərdə tutulan əsaslardan (müqavilələrdən, əqdlərdən, dövlət orqanlarının və yerli özünüidarə orqanlarının aktlarından, məhkəmə aktlarından, başqa şəxsə zərər vurulmasından, əsassız varlanmadan, hadisələrdən və s.) əmələ gələn mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanına malikdirlər. Onların bununla belə, mülki qanunvericilikdə nəzərdə tutulmayan əsaslardan yaranan mülki hüquq və vəzifələrin daşıyıcısı olmaq qabiliyyəti də vardır, amma bir şərtlə ki, bu, mülki hüququn prinsiplərinə zidd olmasın. Söhbət, hər şeydən əvvəl qanunvericilikdə nəzərdə tutulmayan əqdlərdən və müqavilələrdən, habelə fiziki şəxslərin digər hərəkətlərindən əmələ gələn mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanından gedir. Məsələn, Azərbaycan Respublikasının qanunvericiliyi əmlakın etibarlı idarə olunması, sadə ortaqlıq, əvəzli xidmət (rabitə, tibb, informasiya, audit, məsləhət və s. xidmətlər) göstərilməsi və s. hüquqi konstruksiyalar (müqavilələr) tanımır və nəzərdə tutmur. Lakin buna baxmayaraq, fiziki şəxslər bu cür müqavilələr bağlamaq, bu müqavilələrdən əmələ gələn hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanına malikdir. Bir sözlə desək, Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, fiziki şəxslərin qanunla qadağan edilməyən və mülki hüququn prinsiplərinə zidd olmayan istənilən hər hansı mülki hüquqa (istər əmlak hüququ olsun, istərsə də şəxsi qeyri-əmlak hüququ olsun, fərqi yoxdur) malik olmaq və vəzifələr daşımaq qabiliyyəti vardır.

Dediklərimizdən belə məlum olur ki, **mülki qanunvericilik hüquq qabiliyyətinin məzmununa daxil olan mülki hüquq və vəzifələrin dəqiq və qəti yox, təxmini siyahısını verir**. Bu, onunla izah edilir ki, bazar münasibətləri əsasında iqtisadi dövriyyənin və əmtəə-pul əlaqələrinin inkişafı şəraitində mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əhatə dairəsi durmadan dinamik surətdə genişlənir və artır; bu münasibətlər, sözsüz, inkişaf edir.

Fiziki şəxslərin mülki hüquq qabiliyyətinə daxil olan əmlak və şəxsi qeyri-əmlak hüquqları Konstitusiyada nəzərdə tutulmuşdur. Özü də Konstitusiya əsasən beynəlxalq-hüquqi sənədlərdə göstərilən mülki hüquqları təsbit edir. Söhbət, hər şeydən əvvəl, «İnsan hüquqlarının ümumi Bəyannaməsi»ndən, «Mülki və siyasi hüquqlar barədə Beynəlxalq pakt»dan, «Uşaq hüquqları barədə Konvensiya»dan gedir.

Əmlak üzərində mülkiyyət hüququna malik olma qabiliyyəti mülki hüquq qabiliyyətinin məzmununa daxil olan ən vacib hüquqi imkandır. Bu hüquqi imkan «İnsan hüquqlarının ümumi Bəyannaməsi»nin 17-ci maddəsində nəzərdə tutulmuşdur: hər bir insanın həm şəxsən, həm də başqaları ilə birgə əmlaka malik olmaq hüququ var[1]. Həmin hüquqi imkan həm də Konstitusiyada formulə edilmişdir. Belə ki, Konstitusiyanın 29-cu maddəsinə görə hər kəs daşınar və daşınmaz əmlak üzərində mülkiyyət hüququna malikdir[2]. Konstitusiyanın 43-cü maddəsi fiziki şəxslərin mənzilə malik olmaq qabiliyyətini ifadə edir.

Əqli mülkiyyət hüququna malik olma qabiliyyəti mülki hüquq qabiliyyətinin məzmununa daxil olan hüquqi imkanlardan biridir. Bu hüquqi imkan «İnsan hüquqlarının ümumi Bəyannaməsi»nin 27-ci maddəsində ifadə olunmuşdur: hər bir insanın elmi, ədəbi və bədii əsər yaratmaq, bu əsərlərin müəllifi kimi tanınmaq hüququ vardır. Həmin hüquqlar qorunur.

Göstərilən hüquqi imkan, həm də Konstitusiyada möhkəmləndirilmişdir. Konstitusiyanın 30-cu maddəsində göstərilir ki, hər kəsin əqli mülkiyyət hüququ vardır. Bu, o deməkdir ki, fiziki şəxslər elm, ədəbiyyat və incəsənət əsərləri, ixtiralar, faydalı modellər, sənaye nümunələri, kəşflər, səmərələşdirici təkliflər yaratmaq və onların müəllifi olmaq hüququna malikdirlər. Özü də hər bir müəllifin əsər barəsində həm şəxsi (qeyri-əmlak), həm də əmlak (iqtisadi) xarakterli hüquqlara malik olmaq imkanı vardır.

Vərəsəlik hüququna malik olmaq mülki hüquq qabiliyyətinin məzmununu təşkil edən hüquqi imkanlardan biridir. Qanun fiziki şəxslərə hüquqi imkan verir ki, onlar ölmüş şəxsin (miras qoyanın) əmlakını vərəsəlik yolu ilə əldə etsin, yəni əmlakı miras alsın və ya ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini həm vərəsələr (övlad, ər-arvad, valideynlər və s.) sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə vəsiyyət etsinlər. Bu hüquqi imkan əsasında vərəsələr ölmüş şəxsin əmlakı barəsində hüquq və vəzifələrin daşıyıcıları olurlar. Konstitusiyanın 29-cu maddəsinə görə dövlət vərəsəlik hüququna təminat verir.

Sahibkarlıq hüququna malik olma qabiliyyəti mülki hüquq qabiliyyətinin məzmununa daxil olan mühüm elementlərdən biridir. Bu hüquqi imkan Konstitusiyanın 59-cu maddəsində təsbit edilmişdir. Həmin hüquqi imkana görə hər kəs azad sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinə malikdir. Sahibkarlıq sahibkarın, yəni gəlir (qazanc) götürmək məqsədi ilə risk edərək bütün əmlak məsuliyyətini öz üzərinə götürən şəxsin həyata keçirdiyi işgüzar iqtisadi fəaliyyətdir. Sahibkarlıq hüququ bazar iqtisadiyyatının yaranması və inkişafı ilə bağlıdır. Bu cür fəaliyyət bazar iqtisadiyyatının formalaşmasında böyük rola malikdir. O, həm də bütün sivil dünyanın tanıdığı və qəbul etdiyi vətəndaş cəmiyyətinin ayrılmaz atributlarından biridir. Vətəndaş cəmiyyəti qurmaq, bazar

[1] Hüquq qabiliyyəti ilə subyektiv hüquqlar arasında münasibətin əsas aspektləri barəsində bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 285-293.

[1] bax: «Qanun» jurnalı. 1992. № 1.
[2] bax: AR QK, II cild, s. 29.

iqtisadiyyatı yaratmaq niyyətində olan ölkələrin qanunvericiliyində şəxslərin sahibkarlıq hüququnun möhkəmləndirilməsi olduqca vacib və zəruridir.

Qanunvericilikdə nəzərdə tutulmuş əqdlər (o cümlədən müqavilələr), habelə qanunvericilikdə nəzərdə tutulmayan, amma ona zidd olmayan əqdlər (o cümlədən müqavilələr) bağlamaq qabiliyyəti fiziki şəxslərin mülki hüquq qabiliyyətinin məzmununa şamil edilən hüquqi imkandır. Fiziki şəxslər öz tələbat və ehtiyaclarını təmin etmək üçün müxtəlif cür müqavilələr və digər əqdlər bağlamaq imkanına malikdirlər. Bu müqavilələrin hüquqi parametrləri Mülki Məcəllədə göstərilmişdir. Onlar ictimai münasibətlərin hüquqi formasıdır, iqtisadi (əmlak) dövriyyənin hüquqi resmiləşdirmə vasitəsidir.

Komanda (sovet) iqtisadiyyatından bazar iqtisadiyyatına keçidlə bağlı olaraq mülki-hüquqi müqavilələrin əhəmiyyəti artır. Müqavilə kateqoriyasından iqtisadi (əmlak) dövriyyədə geniş surətdə istifadə olunur. İqtisadi dövriyyə münasibətlərini rəsmiləşdirməkdə xüsusilə dörd qrup müqavilənin rolu xüsusilə böyükdür: əmlakın mülkiyyətə verilməsi üzrə müqavilələr (alqı-satqı, pərakəndə alqı-satqı, mal göndərmə, dəyişmə, bağışlama və s. müqavilələr); əmlakın istifadəyə verilməsi üzrə müqavilələr (icarə, kirayə, lizinq, əvəzsiz istifadə müqavilələri); iş görülməsi üzrə müqavilələr (podrat müqaviləsi); xidmət göstərilməsi üzrə müqavilələr (daşıma, sığorta, kredit və digər müqavilələr). Müqavilə bağlamaqda fiziki şəxslər azad və sərbəstdirlər. Mülki hüququn prinsipləri arasında müqavilə azadlığı prinsipi mühüm yer tutur.

Qeyri-maddi nemətlərə malik olmaq qabiliyyəti fiziki şəxslərin mülki hüquq qabiliyyətinin məzmununu təşkil edən hüquqi imkanlardan biridir. Qeyri-maddi nemətlər onun daşıyıcısı olan fiziki şəxsin özündən ayrılmaz olub, iqtisadi məzmuna malik deyildir. Özü də onlar fiziki şəxsin fərdiləşdirilməsinə, daxili mənəvi aləminin toxunulmazlığına, fiziki-sosial cəhətdən yaşamasının təmin edilməsinə yönəlir. Bu nemətlər şəxsi qeyri-əmlak hüquqlarının obyektidir. Həmin hüquqlara aiddir: yaşamaq hüququ; sağlamlıq hüququ; sağlam ətraf mühitdə yaşamaq hüququ; şərəf, ləyaqət və işgüzar nüfuz hüququ; şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ; ad hüququ; ölkə ərazisində sərbəst hərəkət edə bilmək, özünə yaşayış yeri seçə bilmək hüququ.

Şəxsi qeyri-əmlak hüquqları əsasən, «İnsan hüquqlarının ümumi Bəyannaməsi»ndə ifadə olunmuşdur. Bəyannamənin 3-cü maddəsi hər bir insanın yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna, 12-ci maddəsi hər kəsin öz şəxsi və ailə sirrini saxlamaq, şərəf və işgüzar nüfuz hüququna, 13-cü maddəsi dövlətin hüdudlarında sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malik olmasını müəyyənləşdirir. Şəxsi qeyri-əmlak hüquqları Konstitusiyada da təsbit olunmuşdur. Bu səbəbdən onların çoxu konstitusion xarakter daşıyır.

Bununla bərabər, qeyd etmək lazımdır ki, mülki hüquq qabiliyyətinin məzmununa daxil olan hüquqi imkanların sərhədləri sonsuz və hüdudsuz deyildir. Bu, o deməkdir ki, fiziki şəxslərin yalnız qanunvericiliyə, mülki hüququn prinsiplərinə zidd gəlməyən mülki hüquqlara malik olmaq imkanı vardır. Məsələn, vətəndaşlar partlayıcı maddələr, döyüş təyinatlı hərbi texnika, radioaktiv maddələr, qiymətli kağız istehsal edən avadanlıq və digər əmlak növləri üzərində

mülkiyyət hüququna malik ola bilməzlər. Ona görə ki, qanun bunu qadağan edir[1]. Fiziki şəxsin ictimai mənafeyə, humanizm və əxlaq prinsiplərinə zidd olan ixtira, faydalı model və sənaye nümunəsi yaratmaq imkanını qanun yolverilməz hal hesab edir. Bu cür əqli mülkiyyət obyektlərinə patent verilmir, yəni həmin obyektlər patentlə mühafizə edilmir[2]. Cinayət qanunvericiliyinə görə, törədilmiş cinayətə görə məhkəmə hökmü əsasında şəxs müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilə bilər.

Beləliklə, qanun bəzi mülki hüquqlara malik olmaq imkanını birbaşa qadağan edə bilər. Bu, **mülki hüquq qabiliyyətinin məzmununun məhdudlaşdırılmasını ifadə edir.** Belə təsəvvür yaranır ki, fiziki şəxsin hüquq qabiliyyəti yalnız qanunla müəyyənləşdirilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər (MM-in 31-ci maddəsinin 1-ci bəndi).

Hüquq ədəbiyyatında mülki hüquq qabiliyyətinin hüquqi məzmunu mübahisə doğurur. Bu barədə iki nəzəriyyə yaranmışdır: dinamik hüquq qabiliyyəti nəzəriyyəsi (1940-cı ildə M.M.Aqarkov tərəfindən irəli sürülmüşdür)[3]; statik hüquq qabiliyyəti nəzəriyyəsi (1950-ci ildə S.N.Bratus tərəfindən əsaslandırılmışdır)[4]. Dinamik nəzəriyyəyə görə, hüquq qabiliyyətinin məzmunu onun təkcə dövlət tərəfindən müəyyənləşdirilməsindən yox, həm də şəxsin hansı konkret hüquqlara malik olmasından, faktiki surətdə digər subyektlərlə hansı münasibətlərə girməsindən asılıdır. Statik nəzəriyyəyə görə isə hüquq qabiliyyətinin məzmunu tamamilə onun dövlət tərəfindən müəyyənləşdirilməsindən asılıdır. Bizim fikrimizcə, statik nəzəriyyə həqiqətə daha yaxın, daha inandırıcıdır[5]. Almaniyalı professor Helmut Haynriks demişkən, hüquq qabiliyyəti qanunverici tərəfindən göndərilmişdir.

6. Mülki hüquq qabiliyyətinin əmələ gəlməsi və xitam edilməsi

Bəs mülki hüquq qabiliyyəti nə vaxt yaranır? Fiziki şəxs nə vaxtdan mülki hüquqlara malik ola və vəzifələr daşıya bilər? Mülki qanunvericilik bu suala dəqiq olaraq cavab verir: **fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir** (MM-in 25-ci maddəsinin 2-ci bəndi)[6]. Doğum faktı Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı (VVADQ) orqanı tərəfindən dövlət qeydiyyatına alınır. Amma bu faktla yox, fiziki şəxsin dünyaya gəlməsi faktı ilə onun mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı da yaranır.

[1] bax: «Dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə və beynəlxalq öhdəliklərə görə vətəndaşa məxsus ola bilməyən əmlak növləri haqqında» 2 dekabr 1992-ci il tarixli qanun (AR QK, II cild, s. 820).

[2] bax: «Patent haqqında» qanunun 3-cü maddəsi (Mass-media və intellektual mülkiyyət. Bakı, 1998, s. 174; AR QK, III cild, s. 782).

[3] *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940, с. 70-73.

[4] bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 5-10.

[5] Bu nəzəriyyələrin təhlili verilmişdir: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 288-293.

[6] Bu hüquqi göstəriş olduğu kimi Almaniya Mülki Qanunnaməsinin 1-ci paraqrafında, Yaponiya Mülki Məcəlləsinin 1-ci maddəsində ifadə olunmuşdur (*Германское право.* Гражданское уложение. Часть 1. М., 1996; *Сакаэ Ватацума, Тору Арицидзуми.* Гражданское право Японии. Книга1. М., 1983, с. 43).

Başqa sözlə desək, **fiziki şəxsin doğum faktı onun mülki hüquq qabiliyyətli hesab edilməsi üçün əsasdır**. Fiziki şəxs doğulduqdan sonra bir neçə gün və ya bir neçə saat yaşamış olsa belə o, həmin müddət ərzində mülki hüquq qabiliyyətli hesab edilir.

Mülki qanunvericilik mayası bağlanmış, ana bətnində olan gələcək uşağın (hüququn gələcək subyektinin) hüquq və mənafeyini nəzərə alır, qoruyur. Həyatda bəzən elə hallar yaranır ki, miras qoyan atanın sağlığında gələcək uşağın mayası bağlanır. Bax, hələ doğulmamış, ana bətnində olan, mayası bağlanmış gələcək uşağın vərəsə olmaq hüququ vardır. Axı, vərəsə olmaq hüququ maya bağlandığı andan əmələ gəlir (MM-in 25-ci maddəsinin 3-cü bəndi). Deməli, ölüm yatağında can verən ata mayası bağlanmış, hələ ana bətnində olan, doğulmamış uşağı özünün vəsiyyəti üzrə vərəsəsi təyin edə bilər. Həmin uşaq miras qoyan atanın qanuni vərəsəsi də ola bilər. Qanun bu göstərişlə miras qoyan atanın ölümündən sonra doğulmuş uşaqların miras əmlakdakı mümkün pay hüququnu müdafiə etmək məqsədini güdür. Daha doğrusu, bu, ana bətnində olan uşağın mənafeyini müdafiə etmək üçün görülən tədbirdir[1]. Amma burdan belə bir nəticə çıxarmaq olmaz ki, bu cür hallarda mülki hüquq qabiliyyəti fiziki şəxsin doğulması anına kimi, yəni onun ana bətnində olması vaxtı əmələ gəlir[2]. Bu hal ümumi qaydadan istisna təşkil etmir[3]. Ona görə ki, əgər uşaq sağ doğulmazsa, onda hüquq qabiliyyəti də yaranmır.

Bəs fiziki şəxsin doğum anı hansı meyarla müəyyən edilir? Fiziki şəxsin doğulması fizioloji prosesdir. Ona görə də onun doğulması hüquq elminin yox, tibb elminin müəyyən etdiyi meyarla təyin edilir. Tibb elminə görə, fiziki şəxsin müstəqil olaraq tənəffüs etməyə başladığı an onun doğum anı hesab olunur. Deməli, **fiziki şəxs müstəqil olaraq tənəffüs etməyə başladığı andan onun mülki hüquq qabiliyyəti yaranır**[4].

Daha bir sual meydana çıxır: doğulması ilə fiziki şəxs qanunda nəzərdə tutulan bütün mülki hüquq və vəzifələrə malik ola bilərmi? Fiziki şəxs doğulduğu andan hansı həcmdə — tam və ya natamam həcmdə mülki hüquq qabiliyyətli olur? Qeyd etmək lazımdır ki, mülki hüquq qabiliyyətinin bərabərliyi prinsipi bütün fiziki şəxslərin mülki hüquq qabiliyyətinin eyni həcmə malik olması demək deyildir. Belə ki, bəzi fiziki şəxslər tam həcmdə, digərləri isə natamam

[1] *Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949.

[2] Hüquqşünaslar qədim Romada bunun əksi olan qayda müəyyən etmişdilər. Bu qaydaya görə, mayası bağlanmış, amma hələ doğulmamış uşaqlar, əgər bu, onların mənafeyinə uyğun idisə, bütün hallarda hüququn subyekti hesab edilirdilər (bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 90). Buna oxşar gostəriş ümumalman hüququnda da ifadə edilmişdi: doğulana kimi uşaq hüquq qabiliyyətinə malikdir, bir şərtlə ki, o, sağ doğulsun.

[3] Amma bəzi xarici ölkələrin, məsələn, Yaponiyanın sivilistika doktrinası həmin məqamı istisna hal kimi nəzərdə tutur: belə məqamda qanun gələcək uşağın mənafeyini müdafiə etmək məqsədilə ona vərəsəliklə bağlı hüquq qabiliyyəti verir (*Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга1. М., 1983, с. 44).

[4] Bizim ölkə MM-i kimi Almaniya Mülki Qanunnaməsi də doğuşun başa çatması müddətini (anını) müəyyənləşdirmir. Ennekserus yazır ki, bunun üçün tibb elmi tənəffüs prosesinin yaranmasına həlledici əhəmiyyət verir: doğuşun başa çatmış hesab olunması üçün ana bətnindən uşaq tam ayrıldıqdan sonra o, tənəffüs etməlidir (*Эннекерус Л.* Курс германского гражданского права. М., 1949, с. 288).

həcmdə mülki hüquq qabiliyyətli ola bilərlər. Bax, yeni doğulmuş fiziki şəxs tam həcmli mülki hüquq qabiliyyətli hesab edilmir. Bu, o deməkdir ki, **doğulması anı ilə fiziki şəxs mümkün olan bütün mülki hüquqlara və vəzifələrə malik ola bilmir**. Bu, onunla izah olunur ki, fiziki şəxsin bəzi mülki hüquq və vəzifələrə malik olmaq imkanı onun müəyyən yaş həddinə çatması ilə yaranır. Məsələn, fiziki şəxsin sənət və yaşayış yeri seçmək qabiliyyəti doğulduğu andan yox, müəyyən yetkinlik yaşına çatdığı andan yaranır. Fiziki şəxsin ailə qurmaq hüququ (nikah hüququ) kişilər üçün 18, qadınlar üçün 17 yaşa çatdıqda əmələ gəlir. Əmək müqaviləsi bağlamaq qabiliyyəti 16 yaşdan yaranır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qabiliyyəti, hüquqi şəxs yaratmaq imkanı fiziki şəxsin tam yetkinlik yaşına çatması ilə əmələ gəlir. Nümayəndə olmaq qabiliyyəti də onun yetkinlik yaşına çatması ilə yaranır.

Doğulduğu an əmələ gələn mülki hüquq qabiliyyəti fiziki şəxsə onun bütün ömrü boyu, necə deyərlər, «yol yoldaşı» olur, onu müşayiət edir. O, fiziki şəxsin ölümünə kimi, doğum prosesindən başlayan həyatın axırına və sonuna kimi hüquqi qüvvəyə və əhəmiyyətə malik olur. Həyatın təbii, mütləq və labüd sonu, orqanizmin qocalması ölümlə nəticələnir. Buna fizioloji (bioloji) ölüm deyilir. Məhz mülki qanunvericilik fiziki şəxsin mülki hüquq qabiliyyətinə xitam verilməsi anını bu cür ölümlə bağlayır və əlaqələndirir. Belə ki, fiziki şəxsin hüquq qabiliyyəti onun ölümü ilə xitam edilir (MM-in 25-ci maddəsinin 2-ci bəndi). Burada «ölüm» ifadəsini ya fizioloji, ya da pataloji (bioloji) ölüm mənasında başa düşmək və təfsir etmək lazımdır. Həmin ifadənin «klinik ölüm» kimi izah edilməsi tamamilə istisna olunur. **Mülki hüquq üçün yalnız fizioloji və ya pataloji (bioloji) ölüm hüquqi əhəmiyyət və məna kəsb edir**. Belə ki, bu cür ölüm halları fiziki şəxsin mülki hüquq qabiliyyətinin, bununla da mülki hüququn subyekti olmaq imkanının (mülki hüquq subyektliyinin) xitam edilməsinə səbəb olur. Kliniki ölüm isə mülki-hüquqi əhəmiyyətə malik deyil. Ona görə ki, bu cür ölüm halı mülki hüquq qabiliyyətinin xətm olunmasına dəlalət etmir. Gəlin, göstərilən ölüm hallarının mənasına aydınlıq gətirək.

Fizioloji ölüm dedikdə, orqanizmin təbii inkişafının labüd sonu kimi insanın qocalması nəticəsində baş verən ölüm başa düşülür. **Patoloji (bioloji) ölüm** kənar zorakı təsirlərin, o cümlədən orqanizmdəki xəstəlik nəticəsində baş verən ölümdür. Bu halda ürək döyüntüsününün və tənəffüsün dayandığı, mərkəzi sinir sisteminin funksiyasının itdiyi andan insan ölmüş hesab edilir. Bioloji ölüm zamanı toxumalarda bərpaolunmaz dəyişikliklər gedir[1]. İnsanın ölüm anını tibb işçisi (həkim, feldşer) təsdiq edir[2].

Klinik ölüm halına gəldikdə isə qeyd etmək lazımdır ki, bu halda insan orqanizminin ayrı-ayrı orqanlarının — beyin[3], ürək və böyrəyin işi dayanır, amma

[1] MM-in 25-ci maddəsinin 2-ci bəndində göstərilir ki, beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır. Bu, qeyri-dəqiq işlənmiş ifadədir. Ona görə ki, klinik ölüm halında da beyinin fəaliyyəti dayana bilər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1988, с. 99).

[2] «Əhalinin sağlamlığının qorunması haqqında» qanunun 39-cu maddəsi (AR QK, III cild).

[3] *Бородин С.В.* Ответственность за убийство. Квалификация и наказания по Российскому праву. М., 1994, с. 7; *F.Y.Səmənərov.* Şəxsiyyət əleyhinə edilən cinayətlər (tövsif məsələləri). Bakı. 1997, s. 10-11; Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. Bakı. 2001, s. 268; *Ş.M.Musəyev.* Məhkəmə təbabəti. Bakı. 1999, s. 63.

orqanizmin yaşamaq qabiliyyətinin bərpa olunmaq imkanı tamamilə itmir. Bu cür ölüm halında toxumalarda və mərkəzi sinir sistemində bərpaolunmaz dəyişikliklər baş vermir. Ona görə də göstərilən vəziyyətdə tənəffüsü və ürək döyüntüsünü bərpa etmək və insan həyatını geri qaytarmaq mümkün olur. Odur ki, **klinik ölüm halını fiziki şəxsin mülki hüquq qabiliyyətinə xitam verilməsinə dəlalət edən hadisə hesab etmək olmaz**. Odur ki, mülki hüquq qabiliyyəti bir dəfə yarandığı kimi, bir dəfə də xitam olunur. Klinik ölüm halında isə insanı həyata qaytarmaq mümkündür. Mülki hüquq qabiliyyəti fiziki şəxsin özündən ayrılmazdır. Fiziki şəxs əgər yaşayırsa, o, mülki hüquq qabiliyyətli sayılır.

7. Xarici ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin mülki hüquq qabiliyyəti

Azərbaycan Respublikasının qanunvericiliyi fiziki şəxs anlayışına Azərbaycan Respublikasının vətəndaşlarından savayı, həm də Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxsləri daxil edir (MM-in 24-cü maddəsinin 2-ci bəndi). Buna görə də fiziki şəxslərin mülki hüquq qabiliyyəti kateqoriyası əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanını da əhatə edir.

Əcnəbilər o fiziki şəxslərdir ki, onlar Azərbaycan Respublikasının vətəndaşı sayılmırlar və başqa dövlətin vətəndaşlığına mənsub olurlar. Onlara **xarici vətəndaşlar** da deyilir. Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslərə **vətəndaşlığı olmayan şəxslər** deyilir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mülki hüquq qabiliyyətinin müəyyən edilməsində milli rejim prinsipinin həlledici əhəmiyyəti vardır. **Milli rejim prinsipi** dedikdə, hər hansı dövlətin öz ərazisində digər dövlətin (yəni xarici dövlətin) fiziki şəxslərinə (vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə) özünün fiziki şəxsləri (vətəndaşları) ilə eyni hüquqlar verməsi başa düşülür. Bu prinsipə görə, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər başqa bir dövlətin ərazisində həmin dövlətin öz vətəndaşları ilə bərabər surətdə hüquqlara malik olur və bu hüquqlardan istifadə edirlər. Azərbaycan Respublikasının mülki qanunvericiliyi xarici vətəndaşların (əcnəbilərin) və vətəndaşlığı olmayan şəxslərin mülki hüquq qabiliyyətinə münasibətdə milli rejim prinsipindən çıxış edir. «Beynəlxalq xüsusi hüquq haqqında» qanun müəyyən edir ki, əcnəbilər Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər mülki hüquq qabiliyyətinə malikdirlər[1]. Başqa sözlə desək, onlar bizim ölkəmizdə mülki hüquq qabiliyyətindən Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər surətdə istifadə edirlər[2].

Milli rejim prinsipinin əsasını ölkəmizin Konstitusiyası təşkil edir. Konstitusiyada ifadə olunan belə bir müddəanın milli rejim prinsipi üçün mühüm əhəmiyyəti vardır: **əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər**. Bu prinsip «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti» haqqında qanunda inkişaf etdirilərək daha da konkretləşdirilmişdir[1]. Əqli mülkiyyət hüquqları sahəsində milli rejim prinsipi «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»[2], «Patent haqqında»[3], «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında»[4] və digər qanunlarda ifadə olunmuşdur.

Milli rejim prinsipinə görə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları kimi xüsusi mülkiyyətdə əmlaka, yaşayış evindən, mənzillərdən, torpaqdan, su obyektlərindən, meşə fondu sahələrindən və digər əmlak növlərindən istifadə etmək hüququna, əmlakı miras almaq və əmlakı vəsiyyət etmək, sənət və yaşayış yeri seçmək hüququna, əqli mülkiyyət obyektlərinin (elm, ədəbiyyat və incəsənət əsərlərinin, ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin) müəllifi olmaq hüququna, habelə başqa əmlak və şəxsi qeyri-əmlak hüquqlarına malik ola bilərlər. Onlar investisiya və sahibkarlıq fəaliyyəti ilə məşğul ola və bu zaman Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən edilmiş hüquqlardan istifadə edə bilərlər[5]. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər nikah-ailə münasibətlərində Azərbaycan Respublikası vətəndaşları ilə eyni hüquqlara malikdirlər[6].

Bununla belə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mülki hüquq qabiliyyətinin həcmi Azərbaycan Respublikası vətəndaşlarının mülki hüquq qabiliyyətinin həcminə nisbətən məhdud olub, bir o qədər geniş deyil. Bu, o deməkdir ki, qanun onların bəzi mülki hüquqlara malik ola bilmə şansını qadağan edir. Bu halda qanunun göstərişinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər həmin hüquqlara malik olma imkanını tamamilə itirirlər. Məsələn, onlar su obyektləri üzərində xüsusi mülkiyyət hüququna malik ola bilməzlər[7]. Azərbaycan Respublikasında torpağın əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin xüsusi mülkiyyətinə verilməsini qanun yasaqlayır[8]. Bəzi hallarda vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində torpaq sahələri üzərində mülkiyyət hüququ xarici fiziki şəxslərə keçə bilər. Bu cür məqamlarda torpaq sahələri üzərində mülkiyyət hüququ özgəninkiləşdirilir. Əgər özgəninkiləşdirilməzsə, onda müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini məcburi surətdə satın alır[9].

Əcnəbilərin mülki hüquq qabiliyyəti **retorsiya qaydasında** (latınca retorsio — cavab hərəkəti) məhdudlaşdırıla bilər. Retorsiya dedikdə, xüsusi xarakterli

[1] bax: «Beynəlxalq xüsusi hüquq haqqında» qanunun 15-ci maddəsi (AR QK, III xüsusi buraxılış).
[2] bax: Konstitusiyanın 69-cu maddəsi (AR QK, II cild, s. 583).

[1] bax: «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» 13 mart 1996-cı il tarixli qanun (AR QK, III cild, s. 38).
[2] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» 5 iyun 1996-cı il tarixli qanunun 3-cü maddəsi (AR QK, III cild, s. 199).
[3] «Patent haqqında» 25 iyul 1997-ci il tarixli qanunun 42-ci maddəsi (AR QK, III cild, s. 805).
[4] bax: «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» 12 iyun 1998-ci il tarixli qanunun 36-cı maddəsi (AR QK, V cild, s. 492).
[5] bax: «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» qanunun 12-ci maddəsi (AR QK, III cild, s. 42).
[6] bax: həmin qanunun 13-cü maddəsi (yenə orada).
[7] bax: Su Məcəlləsinin 14-cü maddəsi (AR QK, V cild, s. 123).
[8] bax: «Torpaq Islahatı haqqında» qanunun 4-cü maddəsi (AR QK, III cild, s. 286-287).
[9] Torpaq Məcəlləsinin 49-cu maddəsinin 4-cü bəndi (AR QK, III xüsusi buraxılış, s. 818).

cavab məhdudiyyətləri başa düşülür. Bəzən hər hansı dövlət başqa bir xarici dövlətin vətəndaşlarının mənafeyinə əsassız olaraq ziyan vuran diskriminasiya qaydasında tədbirlər qəbul edir. Onda xarici dövlət də öz növbəsində buna cavab olaraq həmin dövlətin vətəndaşları barəsində məhdudiyyət tədbirləri görə bilər.

Bax, bu cür xüsusi xarakterli cavab məhdudiyyət tədbirləri retorsiya adlanır. Onun əsas məqsədi, adətən, diskriminasiya qaydasında görülən tədbirləri ləğv etməkdən ibarətdir.

Azərbaycan Respublikasının qanunvericiliyinə görə, retorsiya qaydasında əcnəbilərin mülki hüquq qabiliyyətinin məhdudlaşdırılması mümkündür. Retorsiyanın tətbiq olunması üçün vacibdir ki, xarici dövlət Azərbaycan Respublikası vətəndaşları barəsində əsassız olaraq diskriminasiya qaydasında tədbirlər görsün. Buna cavab tədbiri kimi analoji məhdudiyyətlərin müəyyən edilməsi barədə təkliflə Nazirlər Kabineti və Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Prezidentinə müraciət edir. Prezident həmin təklifə baxaraq Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə məhdudiyyətlər tətbiq edən dövlətlərin vətəndaşlarına cavab tədbiri kimi analoji məhdudiyyətlər müəyyən edə bilər[1]. Məsələn, prezident xarici vətəndaşların Azərbaycan Respublikası ərazisində investisiya və sahibkarlıq hüququnu, müəyyən növ əmlak üzərində mülkiyyətə malik olma hüququnu və s. məhdudlaşdırmaq barədə qərar qəbul edə bilər.

Əcnəbilərə tətbiq edilən **retorsiyalar xarici dövlətin diskriminasiya xarakterli aksiyasına (hərəkətinə) verilən məhdudlaşdırıcı cavab tədbiridir.** Ona görə də bu cür cavab tədbirini beynəlxalq hüququn müddəaları baxımından diskriminasiya etməmək prinsipinin pozulması kimi qiymətləndirmək olmaz. Əgər xarici dövlət məhdudiyyətləri aradan qaldırdıqda, onda Azərbaycan Respublikası da retorsiya kimi cavab tədbirlərini ləğv edir[2].

Azərbaycan Respublikasının qanunvericiliyi milli rejim prinsipinə təminat verir. Bu cür təminatın əsasını beynəlxalq sənədlərdə ifadə olunan belə bir mühüm müddəa təşkil edir ki, hər bir insan irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi, yaxud digər əqidəsinə, milli, yaxud sosial mənşəyinə, mülkiyyətinə, yaxud digər vəziyyətinə görə heç bir fərq qoyulmadan «İnsan hüquqlarının ümumi Bəyannaməsi»ndə elan edilən bütün hüquqlara malik olmalıdır[3].

§ 2. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyəti

1. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin anlayışı və əhəmiyyəti

Fəaliyyət qabiliyyəti fiziki şəxslərin mülki hüquq subyektliyi anlayışının elementlərindən biridir. Mülki hüquq münasibətlərinin tam hüquqlu iştirakçısı yalnız o fiziki şəxs ola bilər ki, həmin şəxs sözün əsl mənasında, fəaliyyət qabiliyyətli hesab edilsin.

Mülki fəaliyyət qabiliyyəti kimi hüquqi kateqoriyanın tarixi kökü Roma hüququ ilə bağlıdır. Düzdür, Roma hüququ bu kateqoriya ilə tamamilə mənaca üstüstə düşən termin işlətmirdi[1]. Fiziki şəxsin öz adından və öz istəyi ilə hüquqi hərəkətlər etmək (məsələn, müqavilə münasibətlərinə girmək, əqd bağlamaq və s.) qabiliyyətini, yəni hüquqi nəticəsi olan hərəkətlər etmək qabiliyyətini və etdiyi hüquqazidd hərəkətlərə görə şəxsən cavab vermək qabiliyyətini bu hüquq «capacitas agenda» anlayışı ilə əhatə etmişdi[2].

Roma hüququnun fəaliyyət qabiliyyəti barədə müəyyən etdiyi müddəalar bu barədə müasir dünya qanunvericiliyinin əsasını və təməlini təşkil edir. Söhbət, hər şeydən əvvəl, roman-german (kontinental) hüquq ailəsinə mənsub olan ölkələrin qanunvericiliyindən gedir. Əvvəlcə Fransa Mülki Məcəlləsi, sonra isə Almaniya Mülki Qanunnaməsi ilk dəfə olaraq mülki fəaliyyət qabiliyyəti kateqoriyasını rəsmən qanunvericilik qaydasında möhkəmləndirmişdir. Yaponiya, Tailand, Hollandiya, Yunanıstan, Peru, Argentina, İsveçrə və digər ölkələrin qanunvericiliyi də bu kateqoriyanı tanıyır. Amma həmin kateqoriya ingilis-amerikan (ümumi) hüquq ailəsinə mənsub olan ölkələrin qanunvericiliyinə məlum deyil. Həmin ölkələrin qanunvericiliyi, artıq qeyd etdiyimiz kimi, hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti kimi iki anlayışın əvəzinə vahid «hüquq subyektliyi» kateqoriyası işlədir. Təcrübədə «fəal hüquq subyektliyi» terminindən istifadə olunur ki, bu, mənaca fəaliyyət qabiliyyəti anlayışına yaxındır.

Roman-german (kontinental) hüquq ailəsinə aid edilən bizim ölkə qanunvericiliyi mülki fəaliyyət qabiliyyətinə mühüm əhəmiyyətə malik olan hüquqi kateqoriya kimi xüsusi diqqət yetirir. Mülki Məcəllənin 28-ci maddəsinin 1-ci bəndi fiziki şəxsin mülki fəaliyyət qabiliyyətinə verilən leqal anlayışı nəzərdə tutur. **Fəaliyyət qabiliyyəti dedikdə, fiziki şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyəti başa düşülür[3].**

Mülki hüquq qabiliyyəti kimi fiziki şəxsin mülki fəaliyyət qabiliyyəti də iqtisadi-ictimai münasibətlərlə şərtlənir və mülki hüquq normalarına əsaslanır. O, dövlət tərəfindən mülki qanunvericilik aktları ilə müəyyən edilir. Deməli, mülki fəaliyyət qabiliyyəti cəmiyyətin iqtisadi bazis münasibətləri üzərində yüksələn hüquqi üstquruma aid edilən hadisədir. Bu hüquqi hadisə cəmiyyətin müəyyən inkişaf dövründəki ictimai-iqtisadi quruluşuna əsaslanır. Dediklərimiz isə onu sübut edir ki, mülki fəaliyyət qabiliyyəti **hüquqi kateqoriyadır**, yəni hüquqla (hüquq normaları ilə) bilavasitə bağlı olan anlayışdır. Məhz buna görə də onu **fiziki şəxsin anadangəlmə təbii keyfiyyəti və xüsusiyyəti hesab**

---

[1] bax: «Beynəlxalq xüsusi hüquq haqqında» qanunun 7-ci maddəsi; həmin qanunun qüvvəyə minməsi barədə prezident fərmanı (AR QK, III xüsusi buraxılış).

[2] bax: «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» qanunun 4-cü maddəsi.

[3] bax: Beynəlxalq hüquq bülleteni. № 1. 1998.

[1] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 43.

[2] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македанс. М., 2000, с. 89.

[3] Alman doktrinasında fəaliyyət qabiliyyətinə belə anlayış verilir: fiziki şəxslərin fəaliyyət qabiliyyəti dedikdə, onların hüquqi dövriyyədə haqlı iradə ifadəsini, xüsusən də əqd bağlamaqla hüquqlar əldə etməsi və öz üzərlərinə vəzifələr götürməsi yolu ilə həyata keçirməsi başa düşülür (*Л.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 298). Yaponiya doktrinasına görə, fəaliyyət qabiliyyəti şəxsin müstəqil və tam əqd bağlamaq qabiliyyətidir (*Сакэо Ватацуми, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 46).

etmək olmaz.

Mülki fəaliyyət qabiliyyəti fiziki şəxslərə hüquqi nəticəsi olan hərəkətlər — hüquqi hərəkətlər etmək üçün dövlət tərəfindən mülki hüquq normaları vasitəsilə verilmiş hüquqi imkandır. **Hüquqi hərəkətlər etmək imkanı** dedikdə, fiziki şəxsin müqavilə bağlamaq, etibarnamə vermək, vəsiyyət etmək və digər hərəkətlər etmək qabiliyyəti başa düşülür. Amma mülki fəaliyyət qabiliyyəti hələ özlüyündə bu cür hərəkətlərin faktiki və real olaraq edilməsini ifadə etmir. Məsələn, fiziki şəxsin alqı-satqı müqaviləsi bağlamaq imkanı o demək deyildir ki, artıq o, faktiki surətdə alqı-satqı müqaviləsi bağlamışdır. Fiziki şəxsin öz minik avtomobilini sürmək üçün digər şəxslərə etibarnamə vermək imkanı onu ifadə etmir ki, artıq o, faktiki surətdə hər hansı bir şəxsə etibarnamə vermişdir. Mülki hüquq qabiliyyəti kimi, **mülki fəaliyyət qabiliyyəti də yalnız fiziki şəxslərə verilmiş hüquqi imkandır**. Özü də hüquqi nəticəsi olan hərəkətlər etmək imkanı.

Mülki fəaliyyət qabiliyyəti mülki hüquq qabiliyyəti ilə sıx surətdə bağlıdır. Elə bil ki, **mülki fəaliyyət qabiliyyəti mülki hüquq qabiliyyətinə əsaslanır**. Məsələn, vətəndaş alqı-satqı müqaviləsi bağlayaraq, özünə yaşayış evi alır. Bununla o, müqavilə bağlamaq qabiliyyətini (mülki fəaliyyət qabiliyyətini) həyata keçirir. Şübhəsiz ki, əgər vətəndaşın mülki hüquq qabiliyyəti, yəni yaşayış evi üzərində mülkiyyət hüququna malik olmaq qabiliyyəti olmasaydı, onda o, mülki fəaliyyət qabiliyyətindən (müqavilə bağlamaq qabiliyyətindən) istifadə edə bilməzdi. Fiziki şəxslər mülki dövriyyədən çıxardılmış əmlak üzərində (yerin təki, meşə fondu, partlayıcı maddələr, hərbi silah və s.) mülkiyyət hüququna malik ola bilməzlər, yəni onların mülki hüquq qabiliyyəti məhduddur. Təbii ki, fiziki şəxsin bu cür əmlak növləri barəsində də mülki fəaliyyət qabiliyyəti məhdudlaşır. Belə ki, fiziki şəxslər öz hərəkətləri ilə, məsələn, alqı-satqı müqaviləsi bağlamaqla, həmin əmlak növləri üzərində mülkiyyət hüququ əldə edə bilməzlər. Dediklərimizdən belə çıxır ki, mülki hüquq qabiliyyəti sanki mülki fəaliyyət qabiliyyətinin «sələfidir».

Mülki fəaliyyət qabiliyyəti çox böyük əhəmiyyətə və rola malik olan kateqoriyadır. Fiziki şəxsləri mülki hüququn subyekti kimi tanımaq və görmək üçün onun təkcə hüquq qabiliyyətli olması yetərli deyil. Bunun üçün fiziki şəxsin həm də mülki fəaliyyət qabiliyyətinə malik olması gərəkdir. Mülki fəaliyyət qabiliyyəti elə bir hüquqi hadisədir ki, o, fiziki şəxsin öz hərəkətləri ilə hüquqi nəticə yaratması (hüquq münasibətinin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması) üçün və məsuliyyət daşıması üçün ümumi hüquqi zəmin (ilkin şərt) rolunu oynayır.

Mülki fəaliyyət qabiliyyəti elə bir hüquqi vasitədir ki, o, fiziki şəxsə iqtisadi (əmlak) dövriyyə münasibətlərində fəal iştirak etməyə, sahibkarlıq, kommersiya və təsərrüfat fəaliyyətini, biznes işini həyata keçirməyə, əmlak və şəxsi qeyri-əmlak hüquqlarını gerçəkləşdirməyə imkan verir. Onun vasitəsilə iqtisadi (əmlak) dövriyyə subyektləri öz hüquq və mənafelərini müdafiə etmək imkanı əldə edirlər.

2. Mülki hüquq qabiliyyəti ilə mülki fəaliyyət qabiliyyəti arasında fərqli cəhətlər

Ümumi cəhətlərə malik olmalarına baxmayaraq, mülki hüquq qabiliyyəti və mülki fəaliyyət qabiliyyəti bir-birindən fərqlənən kateqoriyalardır. Onlar arasında mühüm fərqli cəhətlər vardır. Bu cəhətləri müəyyənləşdirməklə mülki fəaliyyət qabiliyyəti kimi hüquqi kateqoriyanın əsl mahiyyətinə aydınlıq gətirmək olar.

Birinci fərqli cəhət ondan ibarətdir ki, **mülki hüquq qabiliyyəti mülki fəaliyyət qabiliyyətinə nisbətən daha geniş anlayışdır**. Ona görə ki, mülki hüquq qabiliyyəti daha əhatəli və geniş şəxslər dairəsinə şamil edilir. Bu, onunla izah olunur ki, bütün fiziki şəxslər doğulduğu andan mülki hüquq qabiliyyətinə malik olurlar. Amma elə kateqoriya fiziki şəxslər var ki, həmin şəxslər mülki hüquq qabiliyyətli hesab edilsələr də, eyni zamanda mülki fəaliyyət qabiliyyətli şəxslər sayılmırlar. Məsələn, yeddi yaşınadək olan azyaşlılar, habelə ağlı zəif və ya ruhi xəstə olan şəxslər mülki hüquq qabiliyyətinə malikdirlər. Amma bu kateqoriya şəxslərin mülki fəaliyyət qabiliyyəti yoxdur. Bunun əksinə olaraq, fəaliyyət qabiliyyətli bütün fiziki şəxslər eyni vaxtda həmişə mülki hüquq qabiliyyətinə malikdirlər. Deməli, mülki fəaliyyət qabiliyyəti olmayanlar öz mülki hüquq qabiliyyətlərini saxlayırlar.

İkinci fərqli cəhət ondan ibarətdir ki, **mülki fəallyyət qabiliyyəti iki amildən asılıdır: fiziki şəxsin yaşından; fiziki şəxsin ruhi-psixi sağlamlıq vəziyyətindən**. Mülki hüquq qabiliyyəti isə bu cür hallardan asılı deyil.

Mülki fəaliyyət qabiliyyəti, mülki hüquq qabiliyyətindən fərqli olaraq, fiziki şəxs tərəfindən **iradəvi, şüurlu, düşünülmüş və dərk olunmuş hərəkətlər edilməsi ilə bağlıdır**. Müəyyən hüquqi nəticə doğurmaq niyyəti ilə edilən bu cür hərəkətlər fiziki şəxsin psixi yetkinlik (bişkinlik) dərəcəsindən asılıdır. Psixi yetkinlik dərəcəsi isə fiziki şəxsin yaşı və ruhi-psixi sağlamlıq vəziyyəti ilə birbaşa bağlıdır. Yalnız müəyyən psixi yetkinlik səviyyəsinə — müəyyən yaş həddinə çatan, habelə ruhi-psixi cəhətdən sağlam olan fiziki şəxslər hüquqi əhəmiyyətli hərəkətlər edə (məsələn, müqavilə bağlaya, etibarnamə verə, vəsiyyət edə və s.) bilərlər. Ona görə ki, bu cür şəxslər öz hərəkətlərinin əhəmiyyətini, mənasını və nəticəsini başa düşürlər, öz hərəkətlərinə rəhbərlik edə bilirlər, bu hərəkətlər nəticəsində mülki hüquqlar əldə etmək, özü üçün mülki vəzifələr yaratmaq imkanına (mülki fəaliyyət qabiliyyətinə) malik olurlar. Yeddi yaşına kimi olan azyaşlıların yetkinlik yaş həddinə çatmadıqları üçün, ruhi xəstələrin isə ruhi-psixi cəhətdən sağlam olmadıqları üçün mülki fəaliyyət qabiliyyəti yoxdur.

Üçüncü fərqli cəhət ondan ibarətdir ki, mülki hüquq qabiliyyəti fiziki şəxslərə, necə deyərlər, onun bütün ömrü və həyatı boyu, **mülki fəaliyyət qabiliyyəti isə müəyyən yaş həddindən** «yol yoldaşı» olur. Fiziki şəxs yalnız 18 yaşından tam fəaliyyət qabiliyyətinə malik olur.

3. Mülki fəaliyyət qabiliyyətinin hüquqi məzmunu

Mülki fəaliyyət qabiliyyətinin elementlərinə (tərkib hissələrinə) onun məzmunu deyilir. Elementlər dedikdə isə fiziki şəxsin hüquqi nəticəsi olan

hərəkətlər etmək imkanı başa düşülür. Bu elementlərin məcmusu mülki fəaliyyət qabiliyyətinin məzmununu təşkil edir. Həmin elementlər MM-in mülki fəaliyyət qabiliyyətinə leqal anlayış verən müvafiq maddəsində göstərilmişdir.

Mülki fəaliyyət qabiliyyətinin məzmununa daxil olan birinci element **fiziki şəxsin öz hərəkətləri ilə özü üçün mülki hüquqlar əldə etmək və mülki vəzifələr yaratmaq imkanından** ibarətdir. Bu imkanın həyata keçirilməsi fiziki şəxs tərəfindən müxtəlif cür əqdlər bağlanmasında ifadə oluna bilər. Ona görə həmin imkan **əqd bağlamaq qabiliyyəti** də adlanır. Əqdlər isə müxtəlif olub, əmlakın özgəninkiləşdirilməsinə və ya əldə edilməsinə (məsələn, alqı-satqı, dəyişmə, bağışlama müqavilələri), xidmət göstərilməsinə (məsələn, daşıma, saxlama, kredit, borc və digər müqavilələr), iş görülməsinə (məsələn, podrat müqaviləsi) və s. yönəlir. Məsələn, alqı-satqı müqaviləsi bağlananda hər iki tərəf — həm alıcı, həm də satıcı müəyyən hüquqlar əldə edirlər, habelə onlar üçün müvafiq vəzifələr yaranır. Daşıma, podrat, icarə, kirayə və digər mülki-hüquqi müqavilələr bağlananda da müqavilə iştirakçıları üçün hüquqlar yaranır və buna müvafiq vəzifələr əmələ gəlir.

Mülki fəaliyyət qabiliyyətinin məzmununa aid edilən **ikinci element fiziki şəxsin müstəqil surətdə əldə edilmiş mülki hüquqları həyata keçirmək və yaranmış mülki vəzifələri icra etmək imkanından**[1] **ibarətdir** (mülki hüquqları həyata keçirmək və vəzifələri icra etmək imkanı). Əldə edilmiş mülki hüquqları həyata keçirmək imkanı mülkiyyətçi tərəfindən ona məxsus olan əmlaka sahiblik, əmlakdan istifadə və əmlak üzərində sərəncam hüquqlarının gerçəkləşdirilməsində ifadə oluna bilər. Məsələn, alqı-satqı müqaviləsi üzrə alıcı (mülkiyyətçi) satın aldığı əmlak üzərində özünün mülkiyyət hüququnu həmin əmlakdan istifadə etməklə, ona sərəncam verməklə və s. həyata keçirir. Yaranmış mülki vəzifələri icra etmək imkanı isə bağlanmış müqavilələr üzrə borclu şəxslərin öz üzərinə düşən vəzifələri yerinə yetirməsi ilə həyata keçirilir. Məsələn, borc müqaviləsi bağlanan zaman borc alan üçün borcu qaytarmaq kimi vəzifə yaranır. O, nəzərdə tutulan müddətdə borcu qaytarmaqla üzərinə düşən vəzifənin icra edilməsini həyata keçirir.

Mülki fəaliyyət qabiliyyətinin məzmununa şamil edilən elementlərdən biri **fiziki şəxsin yol verdiyi mülki hüquq pozuntusuna (deliktə) görə əmlak məsuliyyəti daşımaq imkanından** ibarətdir. Buna **delikt qabiliyyəti və ya mülki hüquq pozuntusuna görə cavab vermək qabiliyyəti deyilir**. Bu, hüquqazidd hərəkətlərə görə fiziki şəxsin məsuliyyət daşımaq qabiliyyətidir. Hüquqazidd hərəkətlər başqa (özgə) şəxsə məxsus olan əmlakın zədələnməsində və ya məhv olmasında, borclu şəxsin müqavilə öhdəliklərini yerinə yetirməməsində və s. ifadə oluna bilər. Bu hərəkətlərlə fiziki şəxs digər şəxslərə maddi (əmlak) zərər vurur. Vurulmuş zərərin əvəzini ödəməklə, cərimə və penya verməklə fiziki şəxs mülki hüquq pozuntusuna görə məsuliyyət daşımaq və cavab vermək imkanını həyata keçirir, gerçəkləşdirir. Məsələn, fiziki şəxs bankdan kredit alır. Müddət başa çatdıqda o, kreditin vaxtında qaytarılmasını altı ay gecikdirir, bununla hüquqazidd hərəkətə yol verir və banka zərər vurur. Hər gecikdirilən gün üçün penya ödəməklə fiziki şəxs mülki hüquq pozuntusuna görə cavab verir.

Beləliklə, mülki fəaliyyət qabiliyyətinin məzmununa üç cür element (hüquqi imkan) daxildir[1]:

- fiziki şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək imkanı **(əqd bağlamaq qabiliyyəti);**
- fiziki şəxsin ona məxsus olan mülki hüquqları və üzərinə qoyulmuş vəzifələri öz hərəkətləri ilə müstəqil surətdə həyata keçirmək imkanı **(həyata keçirmək qabiliyyəti);**
- fiziki şəxsin yol verdiyi hüquq pozuntusuna görə mülki-hüquqi məsuliyyət daşımaq imkanı **(delikt qabiliyyəti).**

Fiziki şəxsin mülki fəaliyyət qabiliyyətinin məzmununda onun **öz hərəkətləri ilə müstəqil surətdə sahibkarlıq hüququnu həyata keçirmək imkanı** mühüm yer tutur. Buna fiziki şəxsin **sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanı** deyilir. Yeri gəlmişkən qeyd edək ki, «sahibkarlıq hüququna malik olma» və «sahibkarlıq fəaliyyəti ilə məşğul olma» kimi iki anlayışı bir-birindən fərqləndirmək lazımdır. Birinci halda söhbət mülki hüquq qabiliyyətinin, ikinci halda isə mülki fəaliyyət qabiliyyətinin məzmunundan gedir. Mülki hüquq qabiliyyətinin məzmunu belə bir suala cavab verir: **fiziki şəxs nəyə malik ola bilər?** Mülki fəaliyyət qabiliyyəti isə bu suala cavab verir: **fiziki şəxs öz hərəkətləri ilə özü üçün nə yarada bilər?**

Sivilistika doktrinasında hüquq qabiliyyəti kimi, fəaliyyət qabiliyyətinin də öz hüquqi təbiətinə görə subyektiv hüquq olması konsepsiyası əsaslandırılır və isbat olunur[2]. Bu cür konsepsiya ilə çətin ki razılaşmaq olar. Mülki fəaliyyət qabiliyyəti fəlsəfi planda mücərrəd və imkan kateqoriyalarına aid edilir. Subyektiv hüquq isə fəlsəfi məzmunda konkret və gerçəklik kateqoriyalarına şamil olunur. Mücərrədin konkretə, imkanın gerçəkliyə çevrilməsi üçün hüquqi fakt

[1] Köhnə sovet mülki məcəllələrinin, o cümlədən Azərbaycan Respublikasının 1964-cü il Mülki Məcəlləsinin mülki fəaliyyət qabiliyyətinin anlayışını nəzərdə tutan maddəsində bu cür element müəyyənləşdirilməmişdi. Bu element həm RF-in, həm də bizim ölkə qanunvericiliyində ilk dəfədir ki, ifadə olunur. Amma buna baxmayaraq, sivilistika doktrinasında həmin elementin vacibliyi göstərilmişdi. Onu ilk dəfə Moskva alimlərindən V.P.Qribanov əsaslandırmışdır (bax: *Грибанов В.П.* Основные проблемы осуществления и защиты гражданских прав. Автореф. дисс. док-ра. юрид. наук. М., 1970, с. 11). Bu mövqe mülki hüquq elmində bəzi müəlliflər tərəfindən dəstəklənmişdir (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 108-109; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 105). Belə təsəvvür yaranır ki, müasir mülki qanunvericilik tanınmış alim tərəfindən mövcudluğu isbat olunmuş həmin elementi nəzərə almışdır.

[1] Peterburq alimlərindən M.V.Krotov göstərir ki, mülki fəaliyyət qabiliyyətinin ayrı-ayrı elementlərinin ayrılmasının praktiki əhəmiyyəti yoxdur. Onun nəzəri əhəmiyyəti əqd bağlanması və məsuliyyət kimi məsələlərin ayrıca olaraq analiz edilməsi ilə bağlıdır. Müəllif belə qənaətə gəlir ki, fəaliyyət qabiliyyətinin ayrı-ayn elementlərinin fərqləndirilməsinin heç bir əsası yoxdur (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 100). M.Krotovun bu cür mövqeyi ilə çətin ki razılaşmaq olar. Ona görə ki, mülki fəaliyyət qabiliyyətinin ayn-ayrı elementləri bu kateqoriyanın əsl mahiyyətini müəyyən etməyə imkan verir.

[2] bax: *Грибанов В.П.* Основные проблемы осуществления и защиты гражданских прав. Автореф. дисс. д-ра юрид. наук. М., 1970, с. 6; Советское гражданское право. Субъекты гражданского права / Под ред. *С.Н.Братуся*. М., 1984, с. 20; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 123.

(hərəkət, hadisə) gərəkdir. Mücərrəd özlüyündə eyni zamanda konkret, imkan isə eyni vaxtda gerçəklik ola bilməz. Subyektiv hüquq həmişə konkret hüquq münasibəti ilə bağlı olaraq yaranır.

4. Mülki fəaliyyət qabiliyyətinin məzmunu və fiziki şəxsin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qabiliyyəti

Sahibkarlıq münasibətləri sivil dünyanın qəbul etdiyi vətəndaş cəmiyyətinin ayrılmaz atributlarından biridir. Yeni Mülki Məcəllə bu münasibətləri, yəni sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan münasibətləri mülki hüququn predmet tərkibinə daxil etmişdir. Bu, onun mühüm nailiyyətidir. MM-in 13-cü maddəsi sahibkarlığın (sahibkarlıq fəaliyyətinin) leqal anlayışını verir: sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə, həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət əldə etməkdən ibarət olan fəaliyyətdir[1].

Konstitusiyanın 59-cu maddəsi azad sahibkarlıq hüququnu təsbit edir[2]. Bu hüququn əsas daşıyıcılarından biri fiziki şəxslərdir. Fiziki şəxslər sahibkarlığın (sahibkarlıq fəaliyyətinin) başlıca subyektlərindən sayılır. **Sahibkarlığın subyekti kimi fiziki şəxslər** dedikdə, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər başa düşülür. Onlara **sahibkar statuslu fiziki şəxslər və ya fərdi sahibkarlar** deyilir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər birlikdə **sahibkarlar** adlanır.

Xarici doktrinada və qanunvericilikdə «sahibkar» anlayışının əvəzinə, eyni-mənalı sinonim termin kimi «kommersant» (latınca commercium - ticarət) anlayışından istifadə olunur. Yaponiya Ticarət Məcəlləsinə görə, kommersant dedikdə, öz adından sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs başa düşülür[3]. Fransa Ticarət Məcəlləsinin 1-ci maddəsi kommersanta öz adından və öz hesabına ticarət əqdləri bağlayan, ticarət əməliyyatlarını həyata keçirən şəxs kimi anlayış verir.

Sahibkar anlayışına yaxın olan anlayışlardan biri biznesmen anlayışıdır. **Biznesmen** biznes (ingiliscə business — iş, məşğuliyyət, ticarət) fəaliyyətini həyata keçirən şəxsdir[4]. Biznes fəaliyyəti ilə sahibkarlıq fəaliyyətini birləşdirən ümumi cəhətlər vardır: hər iki fəaliyyətin mənfəət əldə etmək məqsədi; hər iki fəaliyyətin bazarla bağlı olması; hər iki fəaliyyətin əmtəə istehsalı və ya xidmətlər göstərilməsi ilə əlaqədar olması və s.

Bununla belə, onlar arasında bəzi fərqli cəhətlər də vardır. Biznes fəaliyyəti, birincisi, tarixən sahibkarlıq fəaliyyətindən çox-çox əvvəl meydana gəlmişdir. O, əmtəə istehsalının əmələ gəlməsi ilə yaranmışdır. Sahibkarlıq fəaliyyəti isə bazar iqtisadiyyatı şəraitində meydana gəlmişdir. İkincisi, sahibkarlığın məzmunu biznesə nisbətən daha genişdir. Sahibkarlıq özündə yenilik axtarışı kimi fərqləndirici cəhəti daxil edir. Üçüncüsü, biznes fəaliyyəti sövdələşmənin həyata keçirilməsi ilə bağlı olan birdəfəlik aktdır. Saibkarlıq fəaliyyəti isə bazar iqtisadiyyatının daimi bir prosesidir, cəmiyyətin mövcudluğunun və inkişafının başlıca hərəkətverici qüvvəsidir[1].

Sahibkar statuslu fiziki şəxslər (sahibkarlar) dedikdə, iqtisadi yaradıcı, təşkilati qabiliyyətə, mürəkkəb bazar konyukturası şəraitində düzgün qərar qəbul etməyə, ağlabatan risk etməyə qadir olan elə təşəbbüskar insanlar başa düşülür ki, onlar qanunların tələblərinə riayət etmək şərti ilə sosial-ədalət prinsipləri əsasında gəlir (qazanc) əldə etmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirirlər. Onlar iqtisadi (əmlak) dövriyyənin bir hissəsi olan sahibkarlıq dövriyyəsinin fəal və professional iştirakçılarıdırlar[2].

Fiziki şəxslərin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün onların **dövlət qeydiyyatına alınmaları tələb edilir.** Dövlət qeydiyyatı fiziki şəxslərin uçota götürülməsi ilə həyata keçirilir. Bu uçotu fiziki şəxslərin yaşadıqları və ya fəaliyyət göstərdikləri yerin vergi orqanları aparır. **Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçotu** dedikdə, onların sahibkar kimi mövcudluğu və fəaliyyəti haqqında məlumatların toplanması və sistemləşdirilməsi başa düşülür. Uçota alınmaq üçün müvafiq sənədlərin vergi orqanlarına təqdim olunması tələb edilir: notarial qaydada təsdiq edilmiş ərizə (burada fiziki şəxsin soyadı, adı, atasının adı, anadan olduğu vaxt və yer, yaşadığı yer və sahibkarlıq fəaliyyətinin növü göstərilir, onun şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumat verilir); yaşayış yerindən arayış.

Vergi orqanı təqdim olunmuş sənədlərə baxaraq, 5 gün müddətində fiziki şəxsə müvafiq sənəd verir. Həmin sənəd fiziki şəxsə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa hüquq verir. O, sahibkarlıq fəaliyyəti ilə məşğul olan **fiziki şəxsin uçota alınması haqqında şəhadətnamə** adlanır[3].

[1] «Sahibkarlıq fəaliyyəti haqqında» qanunun 1-ci maddəsində sahibkarlıq fəaliyyətinə daha münasib və uğurlu anlayış verilir: sahibkarlıq fəaliyyəti şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə qanunvericilikdə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir (AR QK, I cild, s. 821).

[2] bax: AR QK, II cild, s. 582.

[3] bax: Торговый кодекс Японии. M., 1993, c. 252.

[4] Biznesmen (ing. businessman) sahibkar, kommersant faydalı iş görən şəxsdir (*Словарь иностранных слов.* M., 1985, c. 78).

[1] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyevin, Ə.P.Babayevin və M.X.Meybullayevin* ümumi redaktəsi ilə. Bakı. 1998, s. 271.

[2] Sahibkar anlayışının məzmununun müəyyən edilməsinə ilk dəfə XVIII əsr ingilis iqtisadçısı R.Kantilyon tərəfindən təşəbbüs göstərilmişdir. O, sahibkara başqa şəxslərdən məhsulu müəyyən qiymətə alaraq, bazarda özünə hələ də məlum olmayan qiymətə satmağa çalışan yeni insan kimi anlayış verirdi. İlk dəfə iqtisadi nəzəriyyəyə sahibkar anlayışını o gətirmişdir.Tanınmış İngilis iqtisadçısı A.Smit belə hesab edirdi ki, sahibkar öz istehsalını planlaşdıran və təşkil edən, onun nəticələri üzərində müstəqil sərəncam verən, mənfəət götürmək məqsədilə kommersiya ilə bağlı hər hansı bir ideyanı reallaşdırmaq üçün risq edən mülkiyyətçidir. XIX əsr fransız iqtisadçısı J.Sey sahibkarlıq fəaliyyətini daha geniş təhlil edərək sahibkarı risq əsasında mənfəət götürmək məqsədilə hər hansı məhsul istehsal edən şəxs kimi qələmə verir. XX əsr alman iqtisadçısı sahibkarlıq fəaliyyəti haqqında müddəaları inkişaf etdirərək göstərirdi ki, sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdən yox, daim inkişaf etməkdən ibarətdir. Sahibkar bu məqsədə nail olmaq üçün risq edən təşkilatçıdır. Sahibkarlıq fəaliyyəti haqqında müasir iqtisadi təlimin formalaşmasında Avstriya iqtisadçısı Y.Şumpeterin (1882-1950) rolu böyükdür. O göstərir ki, sahibkar novatordur (yenilikçidir). Sahibkarın əsas vəzifəsi istehsal amillərinin yeni kombinasiyasına və bununla da iqtisadi tərəqqiyə nail olmaqdan ibarətdir.

[3] bax: «Sahibkarlıq fəaliyyəti haqqında»15 dekabr 1992-ci il tarixli qanunun 10-cu maddəsi (AR QK, I cild, s. 827). Bu məsələ ədəbiyyatda geniş işıqlandırılmışdır (bax: Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti. Metodik vəsait / Tərtibçi: *İ.Bayramov*. Bakı. 1998; *İ.Nəməzov*. Sahibkarlığın əlifbası. Bakı. 1999 və s.).

Fiziki şəxslər sahibkarlıq fəaliyyətinin bəzi növlərini yalnız xüsusi razılıq (lisenziya) əsasında həyata keçirə bilərlər[1]. Bunlara **lisenziyalaşdırılmış fəaliyyət növləri** deyilir. Lisenziyalaşdırılmış fəaliyyət növləri prezidentin müvafiq fərmanı ilə təsdiq edilmiş Siyahı ilə müəyyən olunur[2]. Onlara sığorta fəaliyyətini, bank işini, hava yolu ilə sərnişin və yük daşınması xidmətlərini, inşaat fəaliyyətini və s. misal göstərmək olar.

Lisenziya (latınca licentia - hüquq, icazə)[3] dedikdə, müəyyən sahibkarlıq fəaliyyəti növünü həyata keçirməyə icazə verən rəsmi sənəd başa düşülür. O, mərkəzləşdirilmiş qaydada yox, ayn-ayrı sahibkarlıq fəaliyyəti növləri üzrə əlaqədar (aidiyyəti) mərkəzi icra hakimiyyəti orqanları (nazirlik, dövlət komitəsi və s.) tərəfindən verilir. Məsələn, sığorta fəaliyyəti üçün lisenziyanı Maliyyə Nazirliyi, inşaat fəaliyyəti üçün lisenziyanı Dövlət Tikinti Komitəsi, hava nəqliyyatı ilə daşıma xidməti üçün lisenziyanı Nəqliyyat Nazirliyi və s. verir.

Lisenziyalaşdırma ayrı-ayrı sahibkarlıq növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarına uyğun olaraq həyata keçirilirdi. Bu qaydalar Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuşdu[4]. İndi isə yeni qaydalar qüvvədədir.

Beləliklə, fiziki şəxslər bəzi sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq istədikdə o, əvvəlcə, vergi orqanlarında uçota alınır, sonra isə xüsusi razılıq (lisenziya) üçün müvafiq və əlaqədar icra hakimiyyəti orqanlarına müraciət edirlər. Onlar həmin orqanlara tələb olunan sənədləri verirlər: lisenziya almaq üçün ərizə; fiziki şəxsin vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamə. Yalnız müvafiq lisenziya aldıqdan sonra fiziki şəxs sahibkar statusuna malik olur və həmin lisenziyada göstərilən sahibkarlıq fəaliyyəti növü ilə müəyyən edilmiş qaydada və müddətdə məşğul ola bilər.

Fiziki şəxsin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti, bir qayda olaraq, birprofilli, yəni biryönümlü olur. Onda fiziki şəxsə bir lisenziya verilir. Bununla belə, fiziki şəxsin məşğul olduğu sahibkarlıq fəaliyyəti çoxprofilli (çoxyönümlü) ola bilər. Bu halda isə onun borcudur ki, müvafiq dövlət orqanlarından bir neçə lisenziya alsın.

Sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının əsasını təşkil edir. İqtisadiyyatın inkişafında və tərəqqisində bu cür fəaliyyətin əvəzedilməz əhəmiyyəti vardır. Məsələ burasındadır ki, sahibkarlıq fəaliyyəti bazarda məhsul bolluğunu təmin edir, habelə istehsalın texnika və texnologiyasında, istehsal amillərinin kombinasiyasında mütərəqqi dəyişikliklərə gətirib çıxarır. Nəticədə bazarda yeni növ məhsullar və xidmətlər meydana çıxır. Odur ki, sahibkarlıq fəaliyyəti cəmiyyətin ümumi iqtisadi inkişafında mühüm rol oynayır.

Sosial yönümlü bazar iqtisadiyyatının yaradılması istiqamətində Qərb ölkələrində yüksək nailiyyətlər əldə edilmişdir. Bu, həmin ölkələrdə sahibkarlığın geniş inkişafının nəticəsidir. Ona görə də Qərb ölkələrinin iqtisadiyyatını sahibkarlıq iqtisadiyyatı adlandırırlar. Bu iqtisadiyyatın inkişafında sahibkar statuslu fiziki şəxslərin rolu böyükdür. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmağın hüquqi imkanı həmin şəxslərin mülki fəaliyyət qabiliyyətinin əsas və başlıca elementlərindən biridir. Bu cür hüquqi imkan verilməzsə, onda fiziki şəxslərin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti də ola bilməz.

§ 3. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə differensiasiyası

1. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə differensiasiyası anlayışı

«Differensiasiya» latınca «differentia» sözündən olub, «ayırmaq», «fərqləndirmək» mənasını ifadə edir[1]. Onda, deməli, **fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə differensiasiyası** dedikdə, onların bir-birindən ayrılması və fərqləndirilməsi, müxtəlif qruplara bölünməsi başa düşülür.

Qeyd etdik ki, bütün fiziki şəxslərin mülki hüquq qabiliyyəti eyni dərəcədə və bir bərabərdə tanınır. Bu, o deməkdir ki, fiziki şəxslərin mülki hüquq və vəzifələrə malik olmaq imkanları hüquqi cəhətdən eyni və bərabər olub, hər hansı bir əmildən asılı deyildir. Ona görə də onlar mülki hüquq qabiliyyətinin dərəcəsinə görə müxtəlif qruplara bölünmürlər. Amma bundan fərqli olaraq, bütün fiziki şəxslərin hamısı eyni dərəcədə mülki fəaliyyət qabiliyyətli hesab edilmirlər. Ona görə ki, mülki qanunvericilik fiziki şəxsin mülki fəaliyyət qabiliyyətini onun hərəkətləri ilə bağlayır. Hərəkət isə iradəvi xarakterə malik olub, fiziki şəxsin psixi yetkinlik dərəcəsi ilə əlaqədardır. Belə ki, psixi cəhətdən yetkin olan fiziki şəxs etdiyi hərəkətlərin mənasını, əhəmiyyətini və nəticəsini daha dərindən başa düşür. Bu cür fiziki şəxs öz hərəkətlərini ölçüb-biçmək, idarə etmək və bu hərəkətlərə rəhbərlik etmək iqtidarında olur. O, öz hərəkətlərinə görə hesabat və cavab vermək, məsuliyyət daşımaq qabiliyyətinə malikdir.

---

[1] bax: Prezidentin 27 yanvar 1997-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında əsasnamə» // Biznesmenin bülleteni. Bakı. 1999. № 42 (266). Bu əsasnamə hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən bəzi fəaliyyət növlərinin xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilməsi qaydalarını müəyyən edirdi. İndi isə yeni qaydalar qüvvədədir.

[2] bax: Prezidentin 1997-ci il 4 oktyabr tarixli fərmanı ilə təsdiq olunmuş əvvəlki «Xüsusi razılıq tələb olunan fəaliyyət növləri və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı» (AR QK, V cild) qüvvədən düşmüş, yeni qaydalar («Respublika» qəzeti, 3 sentyabr 2002-ci il) qüvvəyə minmişdir.

[3] Словарь иностранных слов / Под ред. *А.Г. Спиркина*. М., 1985, с. 282.

[4] bax. Nazirlər Kabinetinin 1998-ci il 19 yanvar tarixli qəran ilə təsdiq edilmiş «Sığorta fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydaları»; Nazirlər Kabinetinin 1998-ci il tarixli 23 yanvar tarixli qərarı ilə təsdiq olunmuş «Beynəlxalq turizm fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydaları»; Nazirlər Kabinetinin 1998-ci il 16 fevral tarixli qəran ilə təsdiq edilmiş «Dövlət özəlləşdirmə paylarının (çeklərinin) alqı-satqısına lisenziya verilməsi qaydaları»; Nazirlər Kabinetinin 1998-ci il 28 fevral qəran ilə təsdiq edilmiş «Şəxsi daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik fəaliyyətinə razılıq (lisenziya) verilməsi qaydaları»; Nazirlər Kabinetinin 1998-ci il 9 mart tarixli qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında hava nəqliyyatı ilə beynəlxalq və şəhərlərarası sərnişin və yük daşınmasına, nəqliyyat-ekspeditor xidmətlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydaları»; Nazirlər Kabinetinin 1998-ci il 1 may tarixli qəran ilə təsdiq edilmiş «Pullu hüquqi xidmətlərə xüsusi razılıq verilməsi qaydaları» və s. Bu qaydalar barədə bax: Sahibkarlıq fəaliyyəti haqqında. Normativ aktlar toplusu. Bakı. 1998. İndi qüvvədən düşmüş bu qaydaların əvəzinə yeni vahid qaydalardan istifadə olunur.

[1] Словарь иностранных слов. М., 1985, с. 171.

Psixi cəhətdən yetkinlik isə iki amildən asılıdır: fiziki şəxsin yaşından; fiziki şəxsin psixi sağlamlıq vəziyyətindən. Buna görə də, dediklərimizdən belə bir nəticə çıxara bilərik ki, **mülki fəaliyyət qabiliyyəti fiziki şəxsin yaşı və onun psixi sağlamlıq vəziyyəti kimi iki cür amildən asılıdır.** Bu isə o deməkdir ki, yaş və psixi sağlamlıq kimi meyarlar (amillər) mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə görə fiziki şəxslərin bir-birindən fərqlənməsinə, ayrılmasına və müxtəlif qruplara bölünməsnə dəlalət edir. Bax, bu səbəbə görə yaşca və psixi sağlamlıq vəziyyəti ilə bir-birindən fərqlənən fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin dərəcəsi (həcmi) müxtəlif olur.

Yaş amili baxımından mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə fiziki şəxslərin dörd qrupu fərqləndirilir: tam fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər; tam fəaliyyət qabiliyyətli fiziki şəxslər; nisbi fəaliyyət qabiliyyətli fiziki şəxslər; qismən fəaliyyət qabiliyyətli fiziki şəxslər. Burada **yaş meyarı** əsas götürülür.

Psixi sağlamlıq vəziyyəti baxımından mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə fiziki şəxslərin iki qrupu fərqləndirilir: məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslər; mütləq fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər. Burada **tibbi meyar** əsas götürülür.

Əgər həm yaş, həm də psixi sağlamlıq vəziyyəti kimi iki amili birlikdə götürsək, onda fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə bütün fiziki şəxslər ümumilikdə altı qrupa bölünür:

- tam fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər (7 yaşa kimi azyaşlılar);
- tam fəaliyyət qabiliyyətli fiziki şəxslər (18 yaşdan yuxarı şəxslər);
- nisbi fəaliyyət qabiliyyətli fiziki şəxslər (14 yaşdan 18 yaşa kimi şəxslər);
- qismən fəaliyyət qabiliyyətli fizik şəxslər (7 yaşdan 14 yaşa kimi şəxslər);
- məhdud fəaliyyət qabiliyyətli fiz.ki şəxslər;
- mütləq fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər[1].

Fiziki şəxslərin bu cür qruplara ayrılmasının tarixi kökləri qədim Roma hüququna gedib çıxır. Belə ki, Roma hüququ hələ neçə əsr bundan əvvəl fiziki şəxslərin fəaliyyət qabiliyyətinin dərəcəsini (həcmini) onun yaşından və ruhi-psixi sağlamlıq vəziyyətindən asılı edirdi. Roma hüququ bu amillərə görə fiziki şəxsləri, əsasən, beş qrupa bölürdü: fəaliyyət qabiliyyəti olmayanlar; natamam fəaliyyət qabiliyyətli fiziki şəxslər; fəaliyyət qabiliyyəti olan fiziki şəxslər; fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər (ruhi xəstələr və kəmağıllılar); məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslər (israfçılar)[2]. Roma hüququnun bu cür göstərişləri sonralar kontinental (roman-german) hüquq ailəsinə mühüm təsir göstərmişdir.

[1] Bəzi müəlliflər fəaliyyət qabiliyyəti baxımından fiziki şəxsləri 3 qrupa bölürlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 111; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 126; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 59-61; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 53-54; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 100-104). Bəzi müəlliflər fəaliyyət baxımı qabiliyyəti baxımından fiziki şəxsləri 5 qrupa bölürlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 106; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 64).

[2] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 89-91; *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 43-44.

2. Tam fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər

Yeddi yaşınadək bütün azyaşlılara **tam fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər** deyilir. Bu yaşadək, təbii ki, azyaşlılar əqli-psixi cəhətdən yetkin və bişkin deyillər. Onlann öz etdikləri hərəkətlərin əhəmiyyətini, mənasını və nəticəsini dərk etmək qabiliyyəti yoxdur. Bu qəbildən olan fiziki şəxslər öz hərəkətlərini idarə **və onlara rəhbərlik** etmək iqtidarına malik deyillər. Psixi-əqli cəhətdən yetkin olmamaq həmin şəxslərə imkan vermir ki, onlar bu və ya digər məsələ barəsində müstəqil surətdə qərar qəbul etsinlər. Bax, bu səbəblərə görə də yeddi yaşınadək azyaşlılar hüquqi əhəmiyyəti və mənası olan hər hansı bir hərəkət edə bilmirlər. Bunu nəzərə alaraq mülki qanunvericilik yeddi yaşınadək azyaşlıların fəaliyyət qabiliyyətinin olmaması barədə göstəriş ifadə edir (MM-in 28-ci maddəsinin 3-cü bəndi).

Bizim ölkə qanunvericiliyinin müəyyən etdiyi bu qayda qədim Roma hüququ və Almaniya mülki qanunvericilik ənənələrinə uyğun gəlir. Roma hüququ yeddi yaşınadək azyaşlıları «infantes» adlandırırdı. Bu kateqoriya azyaşlılar tam fəaliyyət qabiliyyəti olmayan şəxslər hesab edilirdi[1]. Almaniya Mülki Qanunnaməsinin 104-cü paraqrafına görə yeddi yaşınadək azyaşlıların fəaliyyət qabiliyyəti yoxdur[2]. Analoji göstərişi bəzi xarici ölkələrin mülki qanunvericiliyi də ifadə edir. RF-in qanunvericiliyi bunlardan fərqli olaraq, altı yaşınadək azyaşlıları tam fəaliyyət qabiliyyəti olmayan şəxslər sayır[3].

Sovet mülki qanunvericiliyi altı və ya yeddi yaşınadək azyaşlıların fəaliyyət qabiliyyətinin olmaması barədə göstəriş ifadə etmirdi. RSFSR-in (o cümlədən Azərbaycan SSR-in) köhnə 1964-cü il Mülki Məcəlləsinin 14-cü maddəsində, habelə digər sovet müttəfiq respublikalarının mülki məcəllələrinin müvafiq maddələrində on beş yaşınadək həddi-büluğa çatmayan şəxslərin xırda məişət xarakterli əqdləri müstəqil bağlamaq hüququ nəzərdə tutulurdu. Qanunun ifadə etdiyi bu göstərişdən belə bir nəticə çıxarmaq mümkün idi ki, altı və ya yeddi yaşınadək də azyaşlı xırda məişət xarakterli əqdlər bağlaya bilərdi (məsələn, dükandan bulka ala bilməsi və s.). Deməli, sovet qanunvericiliyinə görə, on beş yaşınadək həddi-büluğa çatmayanlar qismən də olsa fəaliyyət qabiliyyəti olan şəxslər hesab edilirdilər.

[1] bax: *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 43; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонс. М., 2000, с. 89-90.

[2] bax: Германское право. Часть 1. Германское гражданское уложение / Под ред. *В.В.Залесского*. М., 1996; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 306.

[3] Düzdür, RF MM-də bu barədə birbaşa və düzünə göstəriş yoxdur. Amma həmin məcəllənin 28-ci maddəsinin 2-ci bəndini məntiqi üsulla təfsir etdikdə, altı yaşınadək azyaşlıların fəaliyyət qabiliyyətinin olmaması nəticəsini çıxarmaq olar. Bir çox müəlliflər də bu cür mövqe tutur lar (bax: Комментарий части первой Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1996, с. 68; Комментарии к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 83; Гражданское право. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 59; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 137).

Bizim ölkənin müasir qanunvericiliyi qəti olaraq yeddi yaşınadək azyaşlıları tam fəaliyyət qabiliyyəti olmayan şəxslər kateqoriyasına aid edir. Bu, o deməkdir ki, həmin kateqoriya həddi-büluğa çatmayanlar öz hərəkətləri ilə müstəqil surətdə özləri üçün mülki hüquqlar əldə edə və özləri üçün mülki vəzifələr yarada bilməzlər. Onların hüquqi əhəmiyyəti və mənası olan hər hansı hərəkət (məsələn, müqavilə bağlamaq və s.) etməsi istisna edilir, qeyri-mümkündür.

Bu cür şəxslər əmlak və digər mülki-hüquqi məsələlər barəsində qərarlar qəbul etmək iqtidarında deyillər. Onlar həm də vurduqları zərərin əvəzini ödəməkdən azaddırlar. Bu, o deməkdir ki, **yeddi yaşınadək azyaşlıların mülki hüquq pozuntusuna görə məsuliyyət daşımaq qabiliyyəti yoxdur**. Məsələn, altı yaşlı azyaşlı uşaq kənddə yaşayan şəxsin ot tayasına od vurub yandırır. O, mülki-hüquqi məsuliyyətə cəlb olunmayacaqdır. Analoji göstəriş Almaniya MQ-nin 828-ci paraqrafında ifadə olunmuşdur.

3. Tam fəaliyyət qabiliyyəti olan fiziki şəxslər

Tam fəaliyyət qabiliyyəti olan fiziki şəxslər odur ki, həmin şəxslər öz hərəkətləri ilə müstəqil surətdə tam həcmdə qanunun yol verdiyi bütün mülki hüquqları əldə etmək və bu hüquqları həyata keçirmək, özləri üçün tam həcmdə mülki vəzifələr yaratmaq və bu vəzifələri icra etmək, mülki hüquq pozuntusuna görə tam həcmdə məsuliyyət daşımaq imkanına malikdirlər. Bu cür şəxslərin mülki fəaliyyət qabiliyyəti qismən, məhdud və natamam yox, tam həcmə malikdir. Bu, o deməkdir ki, tam fəaliyyət qabiliyyəti olan şəxslər qanunla qadağan olunmayan istənilən hüquqi hərəkəti edə bilərlər.

Tam fəaliyyət qabiliyyəti olan fiziki şəxslər əqli-psixi cəhətdən tam yetkin və həddi-büluğa çatan şəxslərdir. Onlar öz hərəkətlərinin mənasını dərindən başa düşür, bu hərəkətlərin yaratdığı hüquqi nəticələri qabaqcadan görür və onlara tam rəhbərlik edirlər. Ona görə də mülki qanunvericilik yalnız on səkkiz yaşına çatan şəxsləri tam fəaliyyət qabiliyyəti olan şəxslər hesab edir. Fiziki şəxs ancaq on səkkiz yaşına çatdıqda tam həcmdə mülki-hüquqi fəaliyyət qabiliyyətinə malik olur (MM-in 28-ci maddəsinin 2-ci bəndi).

On səkkiz yaş fiziki şəxsin mülki yetkinlik yaşıdır. Bütün ölkələrin qanunvericiliyi bu cür, yəni mülki yetkinlik yaş həddi müəyyən edir. Almaniyanın, Fransanın, Hollandiyanın, Rusiya Federasiyasının, Yunanıstanın, Avstriyanın, Yaponiyanın və digər ölkələrin hüququ fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin tam həcmdə müəyyən yaş həddinə çatması ilə əmələ gəlməsi haqqında qayda nəzərdə tutur. Məsələn, Almaniya MQ-yə görə, yetkinlik yaşı 21 yaş həddi hesab olunur (§ 2)[1]. Fransa, Norveç, Danimarka, İtaliya, Belçika, İngiltərə və digər dövlətlərin qanunvericiliyi də 21 yaş həddini nəzərdə tutur. Yaponiya qanunvericiliyi isə 20 yaşı mülki yetkinlik yaşı kimi götürür (MM-in 3-cü maddəsi)[2]. İsveçrə qanunvericiliyi də 20 yaş həddini əsas götürür. RF-də və

[1] *Эннекцорус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949. с. 307. Bəzi müəlliflər göstərirlər ki, fiziki şəxs 18 yaş həddinə çatdıqda fəaliyyət qabiliyyətli olur (*Klüzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 31; *А.Жалинский, А.Рабрихт.* Введение в немецкое право. М., 2001, с. 299). Görünür, 21 yaş 18 yaşla əvəz olunmuşdur.

[2] *Сакаэ Вагацума, Тору Аримидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 50.

Türkiyədə 18 yaş həddi mülki yetkinlik yaşı hesab edilir. Roma hüququna görə, yetkinlik 25 yaşdan başlayırdı. Qanun bu cür yaş həddini müəyyənləşdirərkən fiziki şəxsin şüurunu, dərrakəsini, düşüncəsini, hadisələrə qiymət vermək qabiliyyətini, əqlini və psixi yetkinliyini, bir sözlə, sosial-psixoloji halları nəzərə alır.

Beləliklə, fiziki şəxs on səkkiz yaşına çatdıqda tam mülki fəaliyyət qabiliyyətli şəxs statusu əldə edir. Bu yaşdan etibarən o, əmlak və digər mülki-hüquqi məsələlər üzrə müstəqil surətdə qərarlar qəbul edir, iqtisadi sərbəstlik qazanır, əmlak (mülki) dövriyyəsinin tam hüquqlu iştirakçısına çevrilir. Məhz həmin yaşdan başlayaraq fiziki şəxs istənilən mülki-hüquqi müqavilə bağlaya bilər, özünə məxsus əmlak üzərində sərəncam verə bilər, ümumiyyətlə, qanunun yol verdiyi hər hansı hərəkəti edə bilər. Onun müstəqil surətdə öz əmlakı (yaşayış evi, torpaq sahəsi, minik avtomobili, pul, qiymətli kağızlar və s.) üzərində sərəncam verməyə dair əqdlər (məsələn, alqı-satqı, icarə, kirayə, bağışlama, dəyişmə, girov və digər müqavilələr) bağlamaq hüququ vardır. O, bütün növ gəlir və qazancları barədə heç kəsin razılığı və icazəsi olmadan sərəncam verə bilər.

On səkkiz yaş həddi fiziki şəxsə sahibkarlıq (kommersiya) dövriyyəsinin professional iştirakçısı olmaq imkanı verir. Bu yaşa çatdıqdan sonra o, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinə malik olur. Bu qabiliyyətdən istifadə edərək, fiziki şəxslər hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirirlər. Bununla onlar sahibkar statusu qazanırlar. Sahibkar statuslu fiziki şəxslər tam fəaliyyət qabiliyyəti olan şəxslərin xüsusi qrupunu təşkil edirlər.

Fiziki şəxslərin həyata keçirdikləri sahibkarlıq fəaliyyəti bir sıra əlamətlərlə xarakterizə olunur:

- birincisi, sahibkarlıq fəaliyyəti sistemli, sabit, uzunmüddətli və məqsədyönlü həyata keçirilən **iqtisadi fəaliyyətin bir növüdür**[1];
- ikincisi, sahibkarlıq fəaliyyəti əmtəələrin (işlərin, xidmətlərin) istehsalı üzrə **professional fəaliyyətdir**[2];
- üçüncüsü, sahibkarlıq fəaliyyəti təsərrüfat fəaliyyətinin qanunla qadağan edilməyən bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirilən müstəqil **təşəbbüskarlıq fəaliyyətidir**[3];
- dördüncüsü, sahibkarlıq fəaliyyətinin əsas məqsədi **gəlir və ya mənfəət əldə etməkdən, yəni məhsul və texnologiya yaratmaqdan ibarətdir**[4];
- beşincisi, sahibkarlıq fəaliyyəti **risk xarakterinə** malik olan fəaliyyətdir[5];
- altıncısı, sahibkarlıq fəaliyyəti sahibkarın özünün **cavabdehliyinə və əmlak məsuliyyətinə əsaslanan fəaliyyətdir**[6].

[1] bax: Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Под ред. *О.М.Олейника.* М., 1999, с. 18-19.

[2] bax: *Мартемьянов В.С.* Хозяйственное право. М., 1999. Том 1. Курс лекций, с. 3.

[3] bax: Коммерческое право. Учебник / Под ред. *В.Ф.Попондопуло и В.Ф.Яковлевой.* СПб., 1997, с. 5.

[4] bax: *Круглова Н.Ю.* Хозяйственное право. М., 1997, с. 63.

[5] bax: *Кабышев О.А.* Предпринимательский риск: правовые вопросы. Автореф. дис. кан. юрид. наук. М., 1996, с. 13.

[6] bax: *Мелеин Н.С.* Имущественная ответственность в хозяйственных отношениях. М., 1968, с. 3-48.

Tam fəaliyyət qabiliyyətinə malik olan fiziki şəxslər müstəqil surətdə əmlak məsuliyyəti daşıyırlar. Belə ki, onlar mülki hüquq pozuntusuna görə özlərinin əmlakı ilə cavab verirlər. Bu şəxslər başqa fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna zərər vurduqda, həmin zərərin əvəzini tam həcmdə ödəyirlər.

On səkkiz yaşına çatması ilə fiziki şəxsin mülki fəaliyyət qabiliyyətli şəxs olması haqqında ümumi qaydadan qanun iki halda istisnaya yol verir. Bu, o deməkdir ki, qanunun nəzərdə tutduğu iki halda on səkkiz yaşına çatmasa da, fiziki şəxs tam mülki fəaliyyət qabiliyyətli şəxs statusu əldə edə bilər. Bu cür hallara aiddir:

- emansipasiya halı (MM-in 28-ci maddəsinin 4-cü bəndi);
- on səkkiz yaşına çatmamış fiziki şəxsin nikaha girməsi halı (MM-in 28-ci maddəsinin 6-cı bəndi).

4. Emansipasiya

Emansipasiya (latınca «emancipatio» — asılılıqdan azad olma)[1] haqqında qayda bizim ölkə qanunvericiliyi üçün novelladır, yeni institutdur. Köhnə Mülki Məcəllə bu cür institut nəzərdə tutmurdu. Müasir mülki qanunvericilik yaranmış yeni ictimai-iqtisadi vəziyyətin tələbatını nəzərə alaraq, MM-ə emansipasiya halı barədə qayda daxil etmişdir. Bu qaydanın tarixi kökləri qədim Roma hüququ ilə bağlıdır. Romada istisna hal kimi fiziki şəxslər (kişilər) imperatorun xüsusi icazəsi ilə 12 yaşda fəaliyyət qabiliyyətli hesab edilə bilərdilər[2]. Emansipasiya haqqında qayda sonralar Almaniya və digər kontinental ölkələrin qanunvericiliyi tərəfindən qəbul edilmişdir[3]. Məsələn, Fransa Mülki Məcəlləsinin birinci kitabının 11-ci bölməsində, İtaliya Mülki Məcəlləsinin 10-cu bölməsində emansipasiyanı tənzimləyən normalar vardır[4]. Bu institutu bir çox xarici ölkələrin qanunvericiliyi tanıyır. Yeni ictimai-iqtisadi mühitə uyğun olaraq emansipasiya RF-in, Azərbaycan Respublikasının və digər MDB dövlətlərinin mülki məcəllələrində nəzərdə tutulur.

Emansipasiya dedikdə, 16 yaşlı həddi-buluğa çatmayan şəxsin mülki fəaliyyət qabiliyyətli şəxs elan edilməsi başa düşülür. Bunun nəticəsində yetkinlik yaşına çatmayan şəxsə tam mülki-hüquqi status verilir. Emansipasiya hadisəsinin əsl mahiyyəti də məhz bundan ibarətdir.

Emansipasiya haqqında qaydanın tətbiq edilməsi nəticəsində 16 yaşlı şəxs müstəqil surətdə istənilən müqaviləni bağlamaq, öz əmlakı üzərində sərəncam vermək (satmaq, icarəyə vermək, kirayəyə vermək, bağışlamaq, dəyişmək, əvəzsiz istifadəyə vermək, girov qoymaq və s.), qanunun yol verdiyi hər hansı əqdi bağlamaq, bir sözlə, bütün mülki-hüquqi məsələlər barəsində sərbəst qərarlar qəbul etmək hüququ əldə edir. Hüquqi əhəmiyyəti və nəticəsi olan hərəkətlər edərkən o, valideynlərinin, övladlığa götürənlərin və himayəçilərin razılığını və icazəsini almağa borclu deyildir. Məsələn, on altı yaşlı şəxs öz babasının vəsiyyəti əsasında minik avtomobili üzərində mülkiyyət hüququ əldə edir. Bu şəxs emansipasiya nəticəsində tam mülki fəaliyyət qabiliyyətinə malikdir. Buna görə də o, minik avtomobilini satarkən heç kəsin (valideynlərin, himayəçinin və s.) razılığını almır. Bu şəxsin avtomobili müstəqil surətdə istədiyi şəxsə satmaq ixtiyarı vardır. Çünki o, **emansipasiyalaşdırılmış şəxsdir**.

Emansipasiya haqqında qaydanın tətbiq edilməsi iki cür hüquqi fakta (hüquqi tərkibə) əsaslanır. Yalnız qanunda nəzədə tutulan həmin iki fakt mövcud olduğu halda müvafiq şəxs emansipasiyalaşdırıla bilər. **Birinci fakt yetkinlik yaşına çatmayan şəxsin 16 yaşı tamam olmasından ibarətdir**. Əgər şəxs on altı yaş həddinə çatmazsa, onda emansipasiya haqqında qaydanın tətbiqi istisna edilir, mümkün olmur. Emansipasiyalaşdırma üçün vacibdir ki, şəxsin on altı yaşı tamam olsun.

İkinci fakt mümkün olan iki alternativ variantdan birini nəzərdə tutur. Birinci variant mülki yetkinlik yaşına çatmayan **şəxsin əmək müqaviləsi üzrə işləməsindən ibarətdir**. Bu halda söhbət on altı yaşı tamam olmuş həmin şəxsin əmək müqaviləsi üzrə daimi iş (müvəqqəti iş yox) əsasında müstəqil qazanca (gəlirə) malik olmasından gedir. Əmək müqaviləsi üzrə işləməsi, yəni əmək müqaviləsində tərəf rolunda çıxış etməsi üçün mülki yetkinlik yaşına çatmayan şəxsin əmək hüquq qabiliyyətli, habelə əmək fəaliyyət qabiliyyətli olması tələb olunur. Əmək hüquq qabiliyyəti və əmək fəaliyyət qabiliyyəti isə, bir qayda olaraq, şəxsin 15 yaşına çatması ilə yaranır (ƏM-in 42-ci maddəsinin 3-cü bəndi).

İkinci variant mülki yetkinlik yaşına çatmayan **şəxsin öz qanuni nümayəndəsinin və ya himayəçinin razılığı və icazəsi ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmasından ibarətdir**. Qanuni nümayəndə dedikdə, həmin şəxsin valideynləri, övladlığa götürənlər başa düşülür. Qanuni nümayəndənin razılıq verməsi ona görə lazımdır ki, mülki yetkinlik yaşına çatmayan şəxsin müstəqil surətdə, qanuni nümayəndənin icazəsi olmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa ixtiyarı çatmır. Bu şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istədikdə, hökmən qanuni nümayəndənin razılığını almalıdır.

Bəs mülki yetkinlik yaşına çatmayan şəxsin həyata keçirdiyi fəaliyyətin sahibkarlıq fəaliyyəti olub-olmamasını nə ilə isbat etmək olar? Belə halda, birincisi, həmin şəxsin sahibkar kimi dövlət qeydiyyatına alınmasını müəyyənləşdirmək lazımdır. İkincisi isə onun həyata keçirdiyi fəaliyyətin sahibkarlıq fəaliyyətinin əlamətlərinə (professional, müstəqil təşəbbüskarlıq, kommersiya yönümlü və riskli fəaliyyət olması və s.) uyğun gəlməsini təyin etmək gərəkdir.

Göstərdiyimiz birinci fakt və ikinci fakta daxil olan iki alternativ variantdan, heç olmazsa biri, məcmu halında mövcud olduqda mülki yetkinlik yaşına çatmayan şəxsi emansipasiyalaşdırmaq, yəni onu tam mülki fəaliyyət qabiliyyətli hesab etmək üçün imkan yaranır.

Emansipasiyalaşdırma şəxsin ərizəsi əsasında **qəyyumluq və himayəçi-**

[1] Словарь иностранных слов. М., 1985, с. 583.

[2] bax: *Пухан И., Полєнак-Акимовская М.* Римское право. Учебник / Перевод с макед. М., 2000, с. 91.

[3] bax: *Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 309. Almaniya MQ-nin 3-5-ci paraqrafı emansipasiyanı tənzimləyirdi. Alman sivilistika doktrinasında emansipasiyaya on səkkiz yaş həddinə çatmış şəxsin məhkəmə tərəfindən yetkin və həddi-buluğa çatmış elan edilməsi kimi anlayış verilir. 1974-cü il islahatından sonra yetkinlik yaşının 18 yaşa kimi azaldılması ilə bağlı olaraq emansipasiya institutu öz əhəmiyyətini itirmişdir və həmin paraqraflar ləğv edilmişdir.

[4] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999.

lik orqanının qərarı ilə həyata keçirilir. Bunun üçün həm də mülki yetkinlik yaşına çatmayan şəxsin qanuni nümayəndəsinin (və ya himayəçinin) razılıq verməsi gərəkdir. Razılıq, şübhəsiz ki, yazılı formada verilir. Əgər qanuni nümayəndə razılıq vermәzsə, onda məsələ məhkəmə qaydasında həll edilir. Məhkəmə qərarı mülki yetkinlik yaşına çatmayan şəxsin emansipasiyalaşdırılması — tam fəaliyyət qabiliyyətli sayılması üçün əsasdır.

Emansipasiya institutu böyük əhəmiyyətə malikdir. Bunun nəticəsində mülki yetkinlik yaşına çatmayan şəxs mülki (əmlak) dövriyyədə tam hüquqla subyekt kimi iştirak etmək imkanı əldə edir. Belə ki, emansipasiya həmin şəxsin mülki-hüquqi statusunu mühüm dərəcədə dəyişdirir. O, tam fəaliyyət qabiliyyətli şəxs kimi, tam həcmdə mülki hüquqlar əldə etmək, əmək və sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlər barəsində müstəqil surətdə sərəncam vermək, vurduğu zərərin əvəzini ödəmək, mülki hüquq pozuntusuna görə məsuliyyət daşımaq, ziyan vurması nəticəsində əmələ gəlmiş öhdəliklər üçün cavab vermək, bir sözlə, bütün lazımi hüquqi hərəkətlər etmək hüququna malik olur. Emansipasiya imkan verir ki, mülki yetkinlik yaşına çatmayan şəxs əmlak, qeyri-əmlak, sahibkarlıq, ümumiyyətlə, bütün mülki-hüquqi məsələləri özü, qanuni nümayəndənin (və ya himayəçinin) icazəsi və müdaxiləsi olmadan, müstəqil surətdə həll etsin.

5. Mülki yetkinlik yaşına çatmayan şəxsin nikaha girməsi

Fiziki şəxsin fəaliyyət qabiliyyətinin tam həcmdə onun 18 yaşına çatması ilə əmələ gəlməsi haqqında ümumi qaydadan mülki qanunvericiliyin yol verdiyi ikinci istisna hal mülki yetkinlik yaşına çatmayan şəxsin nikaha girməsidir. Bunun nəticəsində həddi-büluğa — 18 yaşına çatmayan şəxs tam həcmdə mülki fəaliyyət qabiliyyəti əldə edir (MM-in 28-ci maddəsinin 6-cı bəndi). Mülki qanunvericiliyin nəzərdə tutduğu bu qayda ailədə və nikahda ər və arvadın hüquq bərabərliyini təmin etməyə yönəlmişdir. Axı, ailə hüquq münasibətlərində qadınla kişinin hüquq bərabərliyi prinsipi ailə hüququnun əsas və fundamental prinsiplərindən biridir.

Hər bir fiziki şəxsin ailə qurmaq, evlənmək — nikah hüququ vardır. Ailə qanunvericiliyi bu hüququn yaranması və həyata keçirilməsi üçün bir sıra şərtlər müəyyən edir. Bunlara nikahın bağlanma şərtləri deyilir. Bu şərtlərdən biri ailə qurmaq niyyətində olan şəxslərin minimum yaş həddinə çatmalarından ibarətdir. Söz yox ki, nikaha daxil olan fiziki şəxslər cismani, psixoloji, mənəvi cəhətdən yetkin olmalıdırlar. Bu amillәri nəzərə alaraq, ailə qanunvericiliyi kişi cinsindən olan fiziki şəxslər üçün 18 yaş, qadın cinsindən olan fiziki şəxslər üçün isə 17 yaş müəyyən edir[1]. Yalnız qanunda nəzərdə tutulmuş bu yaş həddinə çatdıqda ailə qurmaq hüququ yaranır[2].

Bununla belə, ailə qanunvericiliyi on səkkiz yaşınadək fiziki şəxslərə bəzi müstəsna hallarda nigah münasibətinə girməyə, ailə qurmağa, evlənməyə icazə verir. Belə hallarda nikah yaşının azaldılmasına yol verilir. Azərbaycan Respublikasının ailə qanunvericiliyi müəyyən edir ki, bəzi müstəsna hallarda rayon (şəhər) icra hakimiyyəti orqanı nigah yaşını bir ildən çox olmayaraq

[1] bax: Ailə Məcəlləsinin 10-cu maddəsinin 1-ci bəndi.
[2] bax: Konstitusiyanın 34-cü maddəsinin 1-ci bəndi (AR QK, II cild, s. 376).

azalda bilər[1].

Şübhəsiz ki, bu cür müstəsna halların yaranması və nikah yaşının azaldılması müəyyən üzrlü səbəblərlə bağlı olmalıdır. Amma ailə qanunvericiliyi həmin əsasları müəyyənləşdirmir və onların hər hansı bir siyahısını vermir. Bu cür əsaslara həyatda bəzi hallarda rast gəlmək mümkündür: mülki yetkinlik yaşına çatmamış qızın uşaq doğması və ya hamilə olması; faktiki ailə-nikah münasibətlərinin yaranması; oğlanın hərbi qulluğa çağırılması və s[2].

Nikah yaşının azaldılması və aşağı salınması üçün göstərilən, habelə digər əsaslardan biri olduqda, maraqlı şəxs rayon (şəhər) icra hakimiyyəti orqanına yazılı ərizə ilə müraciət edir. Nikah yaşının azaldılmasına şəxsin qanuni nümayəndəsinin icazə verməsi tələb olunmur. Ərizədə o, nikah yaşının azaldılmasına dəlalət edən əsasları inandırıcı surətdə təsvir etməlidir. Həmin ərizəyə baxaraq, rayon icra hakimiyyəti orqanı nikah yaşının aşağı salınması barədə müvafiq qərar qəbul edir. Həmin qərar əsasında nikah VVADQ orqanında qeydə alınır. Bununla on səkkiz yaşına çatmamış fiziki şəxs nikaha girmiş hesab olunur. Həmin vaxtdan etibarən o, tam fəaliyyət qabiliyyətli sayılır, yəni tam həcmdə mülki fəaliyyət qabiliyyəti əldə edir **(nikah emansipasiyası)**. Bu yolla nikaha girən həmin şəxs mülki yetkinlik yaşına — **on səkkiz yaş həddinə çatmasa da, nikah münasibətinə daxil olduğu vaxtdan bütün mülki-hüquqi məsələləri qanuni nümayəndənin (valideynlərin, övladlığa götürənlərin və ya himayəçinin) razılığı olmadan, müstəqil surətdə özü həll edir.**

Göstərilən oxşar münasibətlərin tənzimlənməsinə xarici ölkələrin qanunvericiliyi də diqqət yetirir. İsveçrə qanunvericiliyinə görə, nikaha girməklə şəxs yetkinlik yaşına (həddi-büluğa) çatmış hesab olunur (MM-in 14-cü maddəsi). Anoloji göstəriş Yaponiya qanunvericiliyində də nəzərdə tutulur (MM-in 753-cü maddəsi). Fransa qanunvericiliyində şəxs nikaha girməklə emansipasiyalaşır. Almaniya MQ-yə görə, həm kişilər üçün, həm də qadınlar üçün 18 yaş həddi nikah yaşı kimi müəyyənləşdirilir (§ 1303). Ciddi əsaslar olduqda qəyyumluq məhkəməsinin qərarı ilə nikah yaşı azaldıla bilər və 18 yaşına çatmamış şəxs nikaha girdiyi vaxtdan tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir[3].

On səkkiz yaşına çatmayan fiziki şəxsin göstərilən qaydada girdiyi nikah münasibəti onun on səkkiz yaşı tamam olması vaxtına kimi pozula bilər. Nikahın pozulması dedikdə, müxtəlif hüquqi faktlar əsasında onun xitam (ləğv) edilməsi başa düşülür. Bu cür faktlara ər-arvaddan birinin ölməsini, yaxud boşanmanı misal göstərmək olar. Belə halda, yəni on səkkiz yaşına çatanadək nikah xitam edildiyi halda fiziki şəxs üçün əldə olunmuş mülki fəaliyyət qabiliyyəti tam həcmdə saxlanılır, yoxsa itir?

Mülki qanunvericilik bu suala da dəqiq olaraq cavab verir: fiziki şəxsin on səkkiz yaşı tamam olmasınadək nikah xitam edildiyi halda onun əldə etdiyi mülki fəaliyyət qabiliyyəti tam həcmdə saxlanılır (MM-in 28-ci maddəsinin 6-cı bəndi). Bu, o deməkdir ki, fiziki şəxs on səkkiz yaşa çatanadək öz hərəkətləri ilə tam həcmdə mülki hüquqlar əldə etmək və özü üçün mülki vəzifələr yarat-

[1] bax: Ailə Məcəlləsinin 10-cu maddəsinin 2-ci bəndi.
[2] *Q.İ.Manayev.* Sovet ailə hüququ. Dərslik. Bakı. 1989, s. 48; Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 69.
[3] Гражданское и торговое право зарубежных государств. Том 2, с. 527.

maq, bir sözlə, hüquqi əhəmiyyəti olan istənilən hərəkəti etmək şansını itirmir.

Bəzi hallarda nikah etibarsız hesab edilə bilər. Qanunun nikaha daxil olmaq üçün müəyyən etdiyi lazımi və zəruri şərtlər etibarsız hesab edildikdə, nikah da etibarsız sayılır. Əgər bu şərtlərə (nikaha daxil olan şəxslərin qarşılıqlı razılığı, ruhi xəstə olmamaq, yalnız bir rəsmi nikahda olmaq, bir-biri ilə yaxın qohumluq münasibətində olmamaq və s.) əməl olunmazsa, nikah etibarsız hesab edilir. Özü də nikah yalnız məhkəmə tərəfindən etibarsız sayıla bilər.

On səkkiz yaşınadək nikah məhkəmə qaydasında etibarsız hesab edildikdə, müvafiq şəxs əldə etdiyi tam mülki fəaliyyət qabiliyyətini saxlayırmı, yoxsa, itirir? Mülki qanunvericilik bu sualı da cavabsız qoymur: məhkəmə mülki yetkinlik yaşına çatmayan ərin (arvadın) tam fəaliyyət qabiliyyətini itirməsi barədə qərar qəbul edə bilər (MM-in 28-ci maddəsinin 7-ci bəndi). Ər (və ya arvad) məhkəmənin müəyyən etdiyi andan tam mülki fəaliyyət qabiliyyətini itirir. Mülki qanunvericiliyin bu cür göstəriş ifadə etməsi təsadüfi deyil. Axı, nikahı etibarsız hesab etmək o deməkdir ki, nikah əvvəldən qanunun müəyyən etdiyi şərtlərə zidd olmuşdur, yəni, o, hüquqi cəhətdən, ümumiyyətlə, mövcud olmamışdır. Beləliklə, nikah etibarsız sayıldıqda, ər (və ya arvad) on səkkiz yaşı tamam olana kimi tam mülki hüquqi statusa malik olmur, bu cür tam statusu itirir.

6. Nisbi mülki fəaliyyət qabiliyyətli fiziki şəxslər

Nisbi mülki fəaliyyət qabiliyyətli şəxslər odur ki, onların yaş həddi on dörddən on səkkizə kimidir. Onlar mülki yetkinlik yaşına və həddi-büluğa çatmayan şəxslər kateqoriyasına aiddirlər. Bu cür şəxslər tam həcmdə mülki fəaliyyət qabiliyyətinə malik deyillər. Ona görə də həmin kateqoriya həddi-büluğa çatmayanlar **natamam (tam olmayan) mülki fəaliyyət qabiliyyəti olan şəxslər** də adlanır. Mülki qanunvericiliyə görə, mülki yetkinlik yaşına çatmış fiziki şəxslərə nisbətən, onların çox da geniş həcmli fəaliyyət qabiliyyəti yoxdur. Bu, o deməkdir ki, nisbi fəaliyyət qabiliyyəti olan şəxslərin qanunun yol verdiyi və qadağan etmədiyi istənilən hüquqi hərəkəti müstəqil surətdə etmək imkanı yoxdur. Amma 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların mülki fəaliyyət qabiliyyətinin həcmi kifayət qədər əhatəlidir. Bu, onlann mülki (əmlak) dövriyyədə müstəqil surətdə çıxış etmələrinə hazır olmaq səviyyəsinə, habelə əqli yetkinlik səviyyəsinə uyğundur.

14 yaşından 18 yaşınadək olan şəxslərin mülki fəaliyyət qabiliyyətinin məzmununa daxil olan elementləri (hüquqi imkanları) iki yerə bölmək olar:

- öz qanuni nümayəndəsinin (və ya himayəçinin) razılığı ilə şəxsin hüquqi hərəkətlər etmək imkanı;
- heç kəsdən asılı olmadan müstəqil surətdə şəxsin hüquqi hərəkətlər etmək imkanı.

Öz qanuni nümayəndəsinin razılığı ilə şəxsin hüquqi hərəkətlər etmək imkanı həmin şəxsin qanunda nəzərdə tutulan mülki-hüquqi məsələləri yalnız valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin icazəsi ilə həll etməsi şansını ifadə edir. Həmin məsələləri şəxs **yalnız öz qanuni nümayəndəsinin razılığı həll edə bilər.** Əgər o, qanunla müəyyənləşdirilən mülki-hüquqi məsələlər barəsində özü təkbaşına, müstəqil surətdə, qanuni nümayəndəsinin razılığını almadan qərarlar qəbul edərsə, onda bu qərar hüquqi nəticə yaratmayacaqdır, onun hüquqi əhəmiyyəti olmayacaqdır.

Mülki qanunvericilik şəxsin öz qanuni nümayəndəsinin razılığı ilə həll etməyə borclu olduğu mülki-hüquqi məsələlərin dairəsini müəyyən edir (MM-in 30-cu maddəsinin 1-ci bəndi). Birincisi, 14 yaşından 18 yaşa kimi yetkinlik yaşına çatmayan şəxs **xırda məişət əqdlərindən başqa, yerdə qalan bütün əqdləri öz qanuni nümayəndəsinin razılığı** ilə bağlayır. Xırda məişət əqdlərinin, əsasən, iki əlaməti vardır. Birincisi, bu əqdlərin məbləği cüzi olub və yuxarı deyil. İkincisi, bu cür əqdlər, bir qayda olaraq, mülki yetkinlik yaşına çatmayan şəxslərin və onun ailə üzvlərinin adi, gündəlik tələbat və ehtiyaclarının ödənilməsinə yönəlir. Məsələn, dükandan süd, qatıq, kolbasa, konfet və digər ərzaq məhsulları almaq hər iki əlamətə uyğun gəldiyinə görə xırda məişət əqdləri hesab edilir.

Xırda məişət əqdləri dedikdə, cüzi və böyük olmayan məbləği elə əqdlər başa düşülür ki, onlar, bir qayda olaraq, şəxslərin və onların ailə üzvlərinin adi, gündəlik tələbat və ehtiyaclarının ödənilməsinə yönəlir. Bu cür əqdlər, əsasən, istehlak xarakterinə malikdir. Bax, göstərdiyimiz bu əqdlərin dairəsinə daxil edilməyən və aid olunmayan əqdləri 14 yaşından 18 yaşınadək həddi-büluğa çatmayanlar yalnız öz qanuni nümayəndəsinin razılığı ilə bağlaya bilərlər. Məsələn, vəsiyyət yolu ilə babasından keçmiş bağ evini həmin şəxsin satması və ya özünə minik avtomobili alması və ya dayısının bağışladığı mənzili həddi-büluğa çatmayan şəxsin öz qohumuna bağışlaması və yaxud atasının verdiyi iri məbləğli pulu digər şəxsə borc verməsi və ya bahalı qiymətli zinət şeylərini girov qoyması və ya bankdan kredit alması və s. xırda məişət əqdləri hesab edilmir. Ona görə də bu cür əqdləri bağlayarkən mülki yetkinlik yaşına çatmayan şəxs hökmən öz qanuni nümayəndəsinin razılığını almalıdır. Əks təqdirdə bağlanmış həmin əqd etibarsız sayıla bilər (MM-in 345-ci maddəsinin 1-ci bəndi).

14 yaşdan 18 yaşınadək mülki yetkinlik yaşına çatmayan şəxs **yalnız öz qanuni nümayəndəsinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər**. Əgər qanuni nümayəndə buna razılıq verməzsə, onda həmin şəxs sahibkarlıq fəaliyyətini həyata keçirə bilməz.

Qanuni nümayəndə mülki yetkinlik yaşına çatmayan şəxsin hüquqi hərəkətlər etməsinə (əqd bağlamasına, sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına və s.) verdiyi razılığı yazılı formada ifadə edir. Belə ki, həmin şəxs əqdləri (və digər hüquqi hərəkətləri) **öz qanuni nümayəndəsinin yazılı razılığı ilə bağlayır**. Belə çıxır ki, razılıq şifahi formada verilə bilməz. Şifahi formada verilən razılıq hüquqi əhəmiyyətə malik olmur və etibarsız sayılır.

Razılığı hər iki valideyn birlikdə verir. Əgər razılıq valideynlərdən biri tərəfindən verilərsə, onda onun hüquqi əhəmiyyəti olmayacaqdır. Qanunda yetkinlik yaşına çatmayan şəxsin əqdləri valideynlərindən birinin yox, hər ikisinin razılığı ilə bağlaması haqqında göstəriş ifadə edilir[1].

[1] Analoji göstəriş RF MM-in 26-cı maddəsinin 1-ci bəndində də nəzərdə tutulmuşdur (bax: Комментарий к Гражданскому кодексу. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 79). Buna görə də əqdlərin bağlanmasına təkcə valideynlərdən birinin verdiyi razılığın kifayət etməsi barədə fikir söyləyən prof. S.M.Korneyevin mövqeyi əsassız və həqiqətə uyğun deyil (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 133).

Bundan əlavə, valideynlərdən təkcə birinin razılıq verməsi məsələyə birtərəfli yanaşmanı ifadə edir, habelə həddi-büluğa çatmayan şəxsin etdiyi hüquqi hərəkətləri o biri valideynin yoxlamaq imkanını aradan qaldırır. Bu, o biri valideynin həmin hərəkətlər üzərində lazımınca nəzarət etmək hüququnu tamamilə məhdudlaşdırır. Ona görə də ən düzgün variant həddi-büluğa çatmayan şəxsin etdiyi hərəkətlərə hər iki valideynin birlikdə razılıq verməsindən ibarətdir.

Əgər yetkinlik yaşına çatmayan şəxs övladlığa götürülmüşdürsə, onda o, hüquqi hərəkətləri hər iki övladlığa götürənin birlikdə yazılı razılığı ilə edir. Valideynlər və ya övladlığa götürənlər olmadıqda isə həmin şəxsin əqd bağlamasına və digər hüquqi hərəkətlər etməsinə razılığı bu şəxs üzərində təyin edilmiş himayəçi verir[1].

Qeyd etmək lazımdır ki, bəzi hallarda mülki yetkinlik yaşına çatmayan şəxs hüquqi hərəkətləri öz qanuni nümayəndəsinin razılığı olmadan edir. Bu hərəkət dərhal avtomatik olaraq etibarsızlığa səbəb olmur. Belə ki, əgər həmin hərəkət qanuni nümayəndə tərəfindən bəyənilsə, onda o, etibarlı sayılır. Bu kimi hallarda razılıq bəyənilmə aktı ilə əvəz edilir. Bəyənilmə üçün qanun məcburi yazılı forma müəyyən etmir. Odur ki, əqd həm yazılı, həm də şifahi formada bəyənilə bilər.

Qanuni nümayəndənin razılıq verməsi onu ifadə etmir ki, bağlanan əqdlərin və edilən digər hüquqi hərəkətlərin əsas iştirakçısı yetkinlik yaşına çatmayan şəxs yox, qanuni nümayəndənin özüdür. Sözsüz, bu əqdlərin və digər hüquqi hərəkətlərin əsas iştirakçısı yetkinlik yaşına çatmayan şəxsdir. Burada onun iradəsi ifadə olunur. Qanuni nümayəndənin bağladığı əqdlər və etdiyi digər hüquqi hərəkətlər onun üçün yox, yetkinlik yaşına çatmayan şəxs üçün hüquq və vəzifələr əmələ gətirir (MM-in 30-cu maddəsinin 2-ci bəndi).

Mülki yetkinlik yaşına çatmayan şəxsin müstəqil surətdə hüquqi hərəkətlər etmək imkanı onun heç kəsin razılığı, icazəsi və müdaxiləsi olmadan, heç kimin iradəsindən asılı olmadan, öz istəyi və mülahizəsi əsasında mülki-hüquqi məsələləri həll etmək şansını ifadə edir. Həmin şəxs qanunda nəzərdə tutulan bir çox mülki-hüquqi məsələləri öz qanuni nümayəndəsinin razılığı olmadan müstəqil surətdə həll edir (MM-in 30-cu maddəsinin 2-ci bəndi).

14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxs, birincisi, **öz qazancı, təqaüdü və digər gəlirləri barəsində öz qanuni nümayəndəsinin razılığı olmadan müstəqil surətdə sərəncam vermək imkanına** malikdir. Bu hüquqi imkan həmin şəxsin fəaliyyət qabiliyyətinin mühüm və vacib elementlərindən biridir (MM-in 30-cu maddəsinin 2-ci bəndinin 1-ci yarımbəndi).

Mülki yetkinlik yaşına çatmayan şəxs əmək fəaliyyəti ilə məşğul olaraq müəssisədə, təşkilatda və s. işə girə bilər. O, yerinə yetirdiyi işə görə pul formasında aylıq əmək haqqı alır. Bundan əlavə, onun ixtiyarı var ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olsun və bu fəaliyyətdən məbləğinə məhdudiyyət qoyulmadan şəxsi gəlir əldə etsin. O, həm də yazdığı əsərdən, etdiyi ixtiradan istifadəyə görə haqq almaq hüququna malikdir. Mülki yetkinlik yaşına çatmayan şəxs təhsil müəssisəsində oxuya və təqaüd ala bilər. Bax, bu şəxsin öz aylıq əmək haqqı, qazancı, gəlirləri və ya təqaüdü üzərində öz istəyinə uyğun olaraq müstəqil surətdə sərəncam vermək hüququ vardır.

14 yaşından 18 yaşınadək mülki yetkinlik yaşına çatmayan şəxsin, ikincisi, ixtiyarı vardır ki, o **özünün yaratdığı əqli mülkiyyət obyektlərindən istifadə hüquqlarını (müəlliflik hüquqlarını) öz qanuni nümayəndəsinin razılığı olmadan müstəqil surətdə həyata keçirsin** (MM-in 30-cu maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi). Həmin şəxs elm, ədəbiyyat və incəsənət əsərləri (yəni, müəlliflik hüququnun obyektlərini), ixtira, faydalı model və sənaye nümunələri (yəni, patent hüququnun obyektlərini) və qanunla qorunan digər əqli mülkiyyət obyektləri (yaradıcılıq fəaliyyətinin nəticələri) yarada bilər. Onun əsərdən hər hansı formada və üsulla istifadə etməyə müstəsna hüququ vardır. Bu hüququ (məsələn, əsərin surətini çıxarmaq, onun nüsxələrini hər hansı üsulla yaymaq, satmaq, kirayəyə vermək və digər hüquqları) o, müstəqil surətdə həyata keçirir. Bunun üçün o, müxtəlif məzmunlu müəlliflik müqavilələri bağlayır[1]. Mülki yetkinlik yaşına çatmayan şəxsin sənaye mülkiyyəti obyektindən (patent hüququnun obyektindən), yəni ixtiralardan, faydalı modellərdən və sənaye nümunələrindən də istifadə üçün müstəsna hüququ vardır. Sənaye mülkiyyəti obyektlərinə olan müəlliflıyi təsdiq etmək və bu obyektlərdən istifadə üçün müstəsna hüquq qazanmaq (əldə etmək) məqsədilə o, patent (rəsmi dövlət sənədi) ala bilər. Patent sahibi kimi yetkinlik yaşına çatmayan şəxs sənaye mülkiyyəti obyektindən istifadə hüququnun verilməsinə dair lisenziya müqaviləsi bağlaya bilər, özünün patent hüquqlarını özgəninkiləşdirə (sata, dəyişdirə, bağışlaya və s.) bilər[2]. Bir sözlə, o, qanunla qorunan əqli mülkiyyət obyektlərindən istifadə hüququnu müstəqil surətdə həyata keçirir.

14 yaşından 18 yaşınadək olan mülki yetkinlik yaşına çatmayan şəxs, üçüncüsü, öz qanuni nümayəndəsinin razılığı olmadan öz pul gəlirlərini **müstəqil surətdə kredit idarələrinə əmanətlər qoymaq və onlar barəsində sərəncam vermək hüququna** malikdir. Bu hüquq onun öz pul gəlirlərinə sərbəst sərəncam verməsindən irəli gəlir. Kredit idarəsi dedikdə, Milli Bankın lisenziyası (xüsusi icazəsi) əsasında bank əməliyyatları aparmaq (əhalidən əmanətlər qəbul etmək, kredit vermək, şəxslərin hesablarını açmaq və aparmaq və s.) hüququna malik olan hüquqi şəxs statuslu kommersiya təşkilatı başa düşülür. Banklar və bank olmayan digər kredit təşkilatları, habelə xarici bankın yerli filialı kredit idarəsi hesab olunur[3]; ona kredit təşkilatı da deyilir. Beynəlxalq Bank, Kapitalbank, «Azdəmiryolbank», «Muğanbank» və digər banklar şəxslərin sərbəst pul vəsaitlərini əmanətlərə (depozitlərə) qəbul edir. Əmanətlərin (depozitlərin) qəbul edilməsi kredit idarəsinin müvafiq təlimat, əsasnamə və ya qaydalarına müvafiq olaraq həyata keçirilir.

14 yaşdan 18 yaşınadək həddi-büluğa çatmayan şəxslərin Azərbaycan Respublikasında fəaliyyət göstərən istənilən bankın əmanətçisi olmaq hüququ

[1] Burada qanunvericı səhvə yol verərək «himayəçi» əvəzinə, «qəyyum» ifadəsi işlədirdi. Bu kimi qeyri-dəqiqlik indi aradan qaldırılmışdır.

[1] bax: *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəllifllik və patent hüququ. Mühazirə kursu. Bakı. 2000.

[2] bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının müəllifllik və patent hüququ. Mühazirə kursu. Bakı. 2000.

[3] bax: «Banklar haqqında» 16 yanvar 2004-cü il tarixli qanunun 1-ci maddəsi. Bu qanunun 32-ci maddəsi bank əməliyyatlarının dairəsini müəyyənləşdirir.

vardır[1]. Onlar öz pullarının əmanətə qoyulması və bu əmanətin saxlanması üçün kredit təşkilatı seçməkdə sərbəstdirlər, bir və ya bir neçə kredit təşkilatında əmanət saxlaya bilərlər.

Yetkinlik yaşına çatmayanlar özlərinin kredit təşkilatlarına qoyduqları əmanətlər üzərində sərbəst surətdə sərəncam vermək hüququna malikdirlər. Əmanətlər üzərində sərəncam vermək dedikdə, həddi-büluğa çatmayan şəxsin əmanətləri geri götürməsi, əmanətlər üzrə faizləri əldə etməsi, nağdsız hesabiaşmalar aparması, əmanətlər üzrə hesabdan pul vəsaitini digər şəxslərə köçürməsi, əmanətlərin başqa şəxslərin adına rəsmiləşdirilməsinə icazə verməsi və s. başa düşülür.

Yetkinlik yaşına çatmayan şəxsin adına əmanətləri başqa şəxslər də qoya bilərlər. Bu cür hallarda həmin şəxs yalnız öz qanuni nümayəndəsinin razılığı ilə əmanətlər barəsində sərəncam verə bilər. Əmanətlər həm də yetkinlik yaşına çatmayan şəxsə vərəsəlik qaydasında keçə bilər. Belə hallarda o, yalnız öz qanuni nümayəndəsinin yazılı razılığı ilə əmanətlər barəsində sərəncam vermək hüququ əldə edir.

14 yaşından 18 yaşınadək həddi-büluğa çatmayan şəxs, dördüncüsü, **xırda məişət əqdlərini öz qanuni nümayəndəsinin razılığı olmadan müstəqil surətdə bağlamaq hüququna** malikdir (MM-in 30-cu maddəsinin 2-ci bəndinin 4-cü yarımbəndi). Bu cür əqdlər, bir qayda olaraq, həddi-büluğa çatmayan şəxsin maddi və ya mənəvi ehtiyaclarının ödənilməsinə yönəlir. Həm də bu əqdlərin bağlanma anı ilə icra anı, adətən, üst-üstə düşür və ya əqd bağlandıqdan sonra dərhal da icra olunur. O, ərzaq məhsulları, dəftərxana ləvazimatı, kitab, dəftər, qələm və digər predmetlər almaq, saçlarını kəsdirmək, ayaqqabını təmir etdirmək və s. xırda məişət xarakterli əqdləri müstəqil surətdə bağlayır. Bu cür əqdlərin bağlanmasına onun qanuni nümayəndəsinin razılıq verməsi tələb olunmur.

Xırda məişət xarakterli əqdlərə, hər şeydən əvvəl, yetkinlik yaşına çatmayan şəxsin öz qanuni nümayəndəsinin maddi vəsaiti hesabına bağladığı əqdlər aiddir. Sual olunur: yetkinlik yaşına çatmayan şəxsin öz qazancı, təqaüdü və digər gəlirləri hesabına bağladığı əqdlər xırda məişət xarakterli əqd sayılırmı? Müəlliflərdən S.M.Korneyev göstərir ki, yetkinlik yaşına çatmayan şəxs öz qazancı, təqaüdü və digər gəlirləri hesabına bağladıqları əqdləri xırda məişət xarakterli əqdlərə aid etmək olmaz. Ümumiyyətlə, bu şəxsin öz qazancı, təqaüdü və digər gəlirləri hesabına əldə etdiyi əmlak barəsində əqdi müstəqil surətdə və ya öz qanuni nümayəndəsinin razılığı ilə bağlaması hüquq ədəbiyyatında mübahisə doğurur. Bir qrup müəlliflər qeyd edirlər ki, bu cür əqdləri yetkinlik yaşına çatmayan şəxs yalnız öz qanuni nümayəndəsinin razılığı ilə bağlaya bilər[2]. Digər müəlliflər isə belə hesab edirlər ki, bu cür əqdləri yetkinlik yaşına çatmayan şəxs müstəqil surətdə bağlamaq hüququna malikdir[3].

[1] Qanunvericinin bu hüquq barədə normanı MM-dən çıxartması bizdə təəccüb və təəssüf doğurur.

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 134.

[3] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 108; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 69-70.

Göstərilən hər iki mövqe dəqiqlikdən uzaqdır. Buna görə də onlarla çətin ki razılaşmaq olar. Bizim bu barədə fikrimiz belədir ki, əgər həmin əqd xırda məişət xarakterli əqdin əlamətlərinə (cüzi məbləğdə olması, istehlak xarakteri daşıması, icra vaxtı ilə bağlanma vaxtının üst-üstə düşməsi və s.) uyğun gələrsə, onda yetkinlik yaşına çatmayan şəxs onu müstəqil surətdə bağlayır. Yox, əgər o, xırda məişət xarakterli əqd hesab edilməzsə, belə halda qanuni nümayəndənin yazılı razılığını almaq lazımdır. Bundan əlavə, həmin şəxsin qazancı hesabına bağladıqları əqdləri də xırda məişət xarakterli əqd saymaq olar, bir şərtlə ki, həmin əqd xırda məişət xarakterli əqdin əlamətlərinə uyğun gəlsin. Məsələn, yetkinlik yaşına çatmayan şəxs öz qazancı hesabına dəftər, qələm, kitab, ərzaq məhsulları və s. alır. Bu, xırda məişət xarakterli əqddir. Bu əqd müstəqil surətdə bağlanılır. Həmin şəxs öz qazancı və digər gəlirləri hesabına özü üçün birotaqlı mənzil almaq istəyir. Bu isə xırda məişət xarakterli əqd hesab edilmir. Ona görə də həmin əqd yalnız qanuni nümayəndənin razılığı ilə bağlanmalıdır.

14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayan **şəxslər, beşincisi, əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş əqdləri öz qanuni nümayəndəsinin razılığı olmadan müstəqil surətdə bağlamaq hüququna** malikdirlər (MM-in 30-cu maddəsinin 2-ci bəndinin 4-cü yarımbəndi; 29-cu maddənin 2-ci bəndinin 2-ci yarımbəndi). Bu cür əqdlərə, hər şeydən əvvəl, **bağışlama müqaviləsini** misal göstərmək olar. Özü də buradaca dərhal qeyd etməliyik ki, notariat qaydasında təsdiqlənməsi və ya daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması tələb edilən bağışlama müqaviləsini, habelə konsensual bağışlama müqaviləsini yetkinlik yaşına çatmayan şəxs müstəqil surətdə yox, yalnız öz qanuni nümayəndəsinin razılığı ilə bağlaya bilər. Məsələn, maddi imkanlı qohumlardan biri birotaqlı yaşayış evini yetkinlik yaşına çatmayan şəxsə bağışlayır. Həmin şəxs bu cür bağışlama müqaviləsini müstəqil surətdə bağlaya bilməz. Ona görə ki, mülki qanunvericilik daşınmaz əşyaların bağışlama müqaviləsi üçün notarial forma müəyyən edir (MM-in 668-ci maddəsinin 1-ci bəndi).

Televizorun, pulun, qiymətli kağızın, xarici valyutanın, xalçanın, soyuducunun və digər daşınar əşyaların real bağışlama müqaviləsini (konsensual bağışlama müqaviləsinin yox) isə o, müstəqil surətdə bağlaya bilər. Bundan əlavə, **əvəzsiz istifadə müqaviləsini** də yetkinlik yaşına çatmayan şəxs müstəqil surətdə bağlaya bilər. Məsələn, o, özgəyə məxsus olan musiqi alətindən, mənzildən, minik avtomobilindən, geyim şeylərindən və s. əvəzsiz istifadə etdiyi hallarda, qanuni nümayəndənin buna razılıq verməsi tələb olunmur.

14 yaşından18 yaşınadək yetkinlik yaşına çatmayan şəxsin **qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdləri müstəqil surətdə bağlamaq hüququ vardır** (MM-in 30-cu maddəsinin 2-ci bəndinin 4-cü yarımbəndi və 29-cu maddəsniin 2-ci bəndinin 3-cü yarımbəndi). Vəsait dedikdə, pul vəsaiti, xarici valyuta, qiymətli kağızlar və ya digər əmlak növləri başa düşülür. Məsələn, yetkinlik yaşına çatmayan şəxsin valideyni ona sertifikat, adsız əmanət kitabçası, istiqraz vərəqəsi kimi qiymətli kağızlar verə bilər. Vəsait hər hansı üçüncü şəxs tərəfindən də verilə

bilər. Məsələn, uzaq qohumlardan biri musiqi məktəbində oxuyan on beş yaşlı şəxsə pianino almaq üçün pul verir. Dayı on altı yaşlı bacısı oğluna xarici ölkəyə turist səyahəti üçün kifayət qədər vəsait ayırır. Özü də vəsait ya müəyyən məqsədin həyata keçirilməsi üçün, ya da sərbəst istifadə üçün verilə bilər. Məsələn, baba on yeddi yaşlı qız nəvəsinə cehiz almaq üçün on min manat pul verir. Öz toyuna hazırlaşan qız həmin pulu cehiz almaq üçün xərcləyir. Vəsait sərbəst istifadə üçün veriləndə də, bu vəsaitin hansı niyyət və məqsədlə verilməsini müəyyən etmək mümkün olmur. Yetkinlik yaşına çatmayan şəxs belə halda puldan öz istək və mülahizəsi əsasında istifadə etmək şansı qazanır.

On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan şəxsin **kooperativ üzvü olmaq hüququ vardır** (MM-in 30-cu maddəsinin 2-ci bəndinin 4-cü yarımbəndi). Onun kooperativə üzv olması qaydası qanunla müəyyən edilir. On altı yaşı tamam olmuş şəxs kooperativin üzvü olan kimi hüquqlar, o cümlədən əmlak hüquqları əldə edir və bu hüquqları həyata keçirir. Onun kooperativin əldə etdiyi mənfəət bölüşdürülərkən devidend almaq hüququ vardır. O, bu hüququ müstəqil surətdə həyata keçirə bilər.

14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayan şəxsin ixtiyarı vardır ki, o **öz qazancı, təqaüdü və digər gəlirləri barəsində vəsiyyət yolu ilə sərəncam versin.** Vəsiyyət dedikdə, fiziki şəxsin öz ölüm halı üçün ona məxsus olan əmlakı barəsində sərəncam verməsi başa düşülür. Vəsiyyət birtərəfli əqddir. Madam ki, qanun yetkinlik yaşına çatmayan şəxsə öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam vermək hüququ vermişdir, onda onun bu gəlirlər haqqında və bu gəlirlər hesabına əldə olunmuş əmlak barəsində müstəqil surətdə vəsiyyət sərəncamı (əqdi) verməyə də ixtiyarı çatır. Qanun, qeyd etdiyimiz kimi, yetkinlik yaşına çatmayan şəxsin bəzi əmlak növləri üzərində yalnız öz qanuni nümayəndəsinin yazılı razılığı ilə sərəncam verə bilməsi qaydasını nəzərdə tutur. Burdan belə nəticə çıxara bilərik ki, bu cür əmlak barəsində həmin şəxs müstəqil surətdə sərəncam verə bilməz. Həm də vəsiyyət şəxsi xarakterə malik olan əqddir. Ona görə də vəsiyyət sərəncamının verilməsinə hər hansı bir şəxsin razılıq verməsi lazım deyil.

Sivilistika doktrinasında 14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayan şəxslərin əmlak barəsində vəsiyyət sərəncamı verməsi mübahisə doğuran məsələlərdəndir. Vəsiyyətin yalnız tam mülki fəaliyyət qabiliyyətli şəxs tərəfindən edilə bilməsi fikrini tam əminliklə söyləyən müəlliflərin mövqeyi, söz yox ki, həqiqətdən uzaqdır[1]. Yetkinlik yaşına çatmayan şəxslərin ancaq öz qazancı (əmək haqqı) olan pul vəsaiti üzərində vəsiyyət sərəncamı verməsi fikri də məsələyə birtərəfli yanaşmanı ifadə edir[2]. Ən düzgün mövqe yetkinlik yaşına çatmayan şəxslərin öz qazancı, təqaüdü və digər gəlirləri barəsində və bunların hesabına əldə edilmiş əmlak barəsində müstəqil surətdə vəsiyyət yolu ilə sərəncam verə bilməsi fikrindən ibarətdir[1].

14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayan şəxslər həm müstəqil surətdə, həm də öz qanuni nümayəndəsinin razılığı ilə bağladıqları əqdlər üzrə **müstəqil surətdə əmlak məsuliyyəti daşıyırlar** (MM-in 30-cu maddəsinin 3-cü bəndi). Bu şəxslər öz hərəkətləri ilə başqa şəxslərin əmlakına ziyan vurduqda, onlar ümumi əsaslarla müstəqil surətdə məsuliyyət daşıyırlar. Əgər həmin şəxslərin vurulmuş zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı olmadıqda, zərərin hamısını və ya çatışmayan hissəsini onların qanuni nümayəndəsi ödəyir (MM-in 1104-cü maddəsi)[2].

Bəzi hallarda yetkinlik yaşına çatmayan şəxslər öz qazanc və gəlirlərini düzgün, ağılla xərcləmirlər. Söhbət həmin şəxsin israf və bədxərclik etməsindən, pulları sağa-sola xərcləməsindən, necə deyərlər, göyə sovurmasından, spirtli içkilər və narkotik vasitələrə xərcləməsindən, onları qumar oyunlarında uduzmasından və s. gedir. Bu cür faktlar olduqda, maraqlı şəxslərin (qanuni nümayəndənin, himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının) vəsatəti ilə məhkəmə 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxsin öz qazancı, təqaüdü və ya digər gəlirləri barəsində müstəqil surətdə sərəncam hüququnu məhdudlaşdıra bilər. Belə halda həmin şəxs yalnız öz qanuni nümayəndəsinin razılığı ilə əqd bağlaya bilər. Zəruri olduqda, məhkəmə, onu bu hüquqdan tam məhrum edə bilər. Belə halda isə yetkinlik yaşına çatmayan şəxsin gəlirləri üzərində qanuni nümayəndə sərəncam verir (MM-in 30-cu maddəsinin 4-cü bəndi).

Göstərilən mülki işlərdə iddiaçı — vəsatət verən maraqlı şəxs rolunda, bir qayda olaraq, yetkinlik yaşına çatmayan şəxsin qanuni nümayəndəsi çıxış edir. İddianı qəyyumluq və himayəçilik orqanı da verə bilər. Bununla onlar həmin şəxsin mənafeyini qoruyurlar. Bu cür iddialara mülki-prosessual qanunvericiliyin tələbləri əsasında baxılır.

7. Qismən mülki fəaliyyət qabiliyyəti olan şəxslər

7 yaşdan 14 yaşınadək yetkinlik yaşına çatmayanlara qismən mülki fəaliyyət qabiliyyəti olan şəxslər deyilir. Bu kateqoriya şəxslərin mülki fəaliyyət qabiliyyətinin həcmi 18 yaşı tamam olmuş və 14 yaşdan 18 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslərin fəaliyyət qabiliyyətinin həcminə nisbətən olduqca məhduddur. Bu, onların yaş mərhələsinə, əqli-psixi yetkinlik dərəcəsinə uyğundur. Nə qədər ki, şəxs əqli-psixi cəhətdən tam yetkin deyil və onun yaş həddi aşağıdır, həmin şəxsin mülki fəaliyyət qabiliyyətinin həcmi bir o qədər də məhdud olacaqdır. Təbii ki, 7 yaşdan 14 yaşınadək olan şəxslərin qüvvəsi, xarakteri və iradəsi tam inkişaf etməmişdir. Bu kateqoriya şəxslər cəmiyyətdəki davranış forma və prinsiplərini bütünlüklə dərindən və hərtərəfli dərk etmək iqtidarında deyillər. Onların hüquqi əhəmiyyəti olan hərəkətlərin mənasını başa düşmək imkanı olduqca məhduddur. Bunu nəzərə alaraq, mülki qanunvericilik 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayan şəxslərə **müstəqil surətdə əqd bağlamağa və digər hüquqi hərəkətlər etməyə icazə**

[1] bax: *Серебровский В.И.* Очерки советского наследственного права. М., 1953, с. 98-99; Комментарий части первого гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1996, с. 60. Almaniya qanunvericiliyinə görə, şəxsin vəsiyyət etmək qabiliyyəti 16 yaşdan əmələ gəlir (§ 2229).

[2] *Антимонов Б.С., Граве К.А.* Советское наследственное право. М., 1955, с. 148-149.

[1] bax: *Мозжухина З.И.* Наследование по завещанию в СССР. М., 1955, с. 24; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 136.

[2] bax: dərsliyin III cildinin «Delikt öhdəlikləri» adlı fəsli.

vermir. Odur ki, onların əvəzinə əqdləri qanuni nümayəndələr bağlayırlar. Özü də qanuni nümayəndə əqd bağlayarkən yetkinlik yaşına çatmayan şəxsin adından çıxış edir (MM-in 29-cu maddəsinin 1-ci bəndi). Məsələn, faciəli surətdə öz valideynlərini itirmiş 13 yaşlı uşaq onlardan miras qalmış bağ evini, minik avtomobilini, qarajı və digər əmlak növlərini müstəqil surətdə sata bilməz. Həmin uşağın əvəzinə, onun adından alqı-satqı müqaviləsini yalnız qanuni nümayəndə — qəyyum bağlaya bilər. Başqa bir misalda həmin uşaq yaşayış evini müstəqil surətdə kirayəyə verə bilməz. Onun əvəzinə yalnız qəyyum kirayə müqaviləsi bağlaya bilər.

Bununla belə, 7 yaşdan 14 yaşınadək uşaqların əqli-psixi yetkinlik dərəcəsi, iradə və xarakteri az da olsa, müəyyən dərəcədə inkişaf etmişdir. Onlar hüquqi əhəmiyyətli məsələləri dərk etmək, başa düşmək, qiymətləndirmək və qavramaq qabiliyyətindən heç də tamamilə və mütləq dərəcədə məhrum olmamışlar. Bunu nəzərə alaraq, mülki qanunvericilik bu kateqoriya şəxslərin bəzi əqdləri öz qanuni nümayəndələrinin razılığını almadan müstəqil surətdə bağlamaq qabiliyyətini möhkəmləndirir (MM-in 29-cu maddəsinin 2-ci bəndi). Odur ki, **onların bəzi əqdləri müstəqil surətdə bağlamaq ixtiyarı vardır**. Bu isə onu sübut edir ki, 7 yaşdan 14 yaşadək uşaqları mülki fəaliyyət qabiliyyəti olmayan şəxslər hesab etmək olmaz. Onlar qismən də olsa mülki fəaliyyət qabiliyyətinə malikdirlər. Qüvvədə olan mülki qanunvericilik bu kateqoriya yetkinlik yaşına çatmayanları əqd bağlamaq imkanından tamamilə məhrum etmir[1]. Almaniya qanunvericiliyinə (MQ-nin 106-cı paraqrafı) və doktrinasına görə, 7 yaşından 18 yaşına kimi yetkinlik yaşına çatmayanlar qismən fəaliyyət qabiliyyətli hesab edilirlər[2]. L.Enneserus yazır ki, məhz yeddi yaşdan başlayaraq şəxsin ağlı, düşüncəsi, dərrakəsi həlledici əhəmiyyətə malik olur[3]. Yaponiya doktrinasına və qanunvericiliyinə görə isə yaş amilinə əsasən şəxslər iki kateqoriyaya bölünür: yetkinlik yaşına çatan şəxslər (20 yaşdan yuxarı); yetkinlik yaşına çatmayan şəxslər (20 yaşa kimi)[4].

7 yaşından 14 yaşınadək yetkinlik yaşına çatmayan şəxsin **xırda məişət əqdlərini müstəqil surətdə bağlamaq hüququ vardır**. Söhbət həmin şəxsin dükandan çörək, kolbasa, süd, qatıq, bulka və digər şeylər almasından gedir. O, müstəqil surətdə ayaqqabısını və geyim şeylərini təmir etdirmək, saçlarını kəsdirmək, nəqliyyat vasitəsində getmək və s. hüquqlara malikdir. O, heç kəsin

[1] Dediklərimiz 14 yaşınadək yetkinlik yaşına çatmayanları fəaliyyət qabiliyyəti olmayan şəxslər hesab edən müəlliflərin mövqelərinin əsassız, qeyri-inandırıcı və həqiqətə zidd olmasını isbat edir (bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 68; *Иоффе О.С.* Советское гражданское право. М. 1967, с. 125; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко*. Л., 1982, с. 87; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 94-95; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.К.Калпина, А.И.Масляева*. М., 1997, с. 90; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 101). Moskva alimlərindən S.M.Komeyev isə bu şəxsləri qismən fəaliyyət qabiliyyətli hesab edir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 137).

[2] *А.Жалинский, А.Рёрихт*. Введение в немецкое право. М., 2001, с. 299.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 308.

[4] *Сакаэ Багацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 50.

müdaxiləsi və vasitəçiliyi olmadan mağazadan dəftər, qələm, kitab ala bilər.

7 yaşından 14 yaşınadək yetkinlik yaşına çatmayan şəxs **əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş əqdləri müstəqil surətdə bağlamaq hüququna malikdir.** Söhbət həmin şəxsin bağışlama və əvəzsiz istifadə kimi əvəzsiz xarakterə malik olan müqavilələri sərbəst qaydada, kənar təsirlər olmadan, kimsənin icazəsini almadan bağlamasından gedir. Məsələn, hər hansı şəxsin verdiyi hədiyyəni o, müstəqil surətdə qəbul edə bilər və ya müəyyən əmlakı öz tanışından əvəzsiz istifadə üçün ala bilər. Amma bu kateqoriya şəxslər notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunan fayda götürməyə yönəldilmiş əqdləri müstəqil surətdə bağlaya bilməzlər. Məsələn, yaşayış evinin bağışlamaq müqaviləsi üçün mülki qanunvericilik notarial forma müəyyən edir. Ona görə də yetkinlik yaşına çatmayan şəxs yaşayış evini müstəqil surətdə hədiyyə kimi qəbul edə bilməz. Bu cür əqdi həmin şəxsin adından onun qanuni nümayəndəsi bağlayır.

7 yaşından 14 yaşınadək yetkinlik yaşına çatmayan şəxsin **öz qanuni nümayəndəsinin və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdləri müstəqil surətdə bağlamaq ixtiyarı vardır.** Bu cür əqdlər həqiqətdə qanuni nümayəndənin dolayı nəzarəti altında bağlanır. Belə ki, maddi vəsaiti ya qanuni nümayəndənin özü, ya da onun razılığı ilə üçüncü şəxslər (uşağın əmisi, dayısı, babası, xalası, bibisi və ya qohum olmayan hər hansı şəxs) verirlər. Buna görə də qanuni nümayəndə uşağa verilən pullar üzərində, habelə bu pullardan nəzərdə tutulan məqsədlər üçün istifadə edilməsi üzərində tam nəzarət etmək imkanına malik olur. Məsələn, valideyn on üç yaşlı uşağına video almaq üçün pul verir. Uşaq bu pul məbləğini müstəqil surətdə xərcləyərək, özü üçün mağazadan videomaqnitofon alır. Həmin uşağın əmisi valideynlərin razılığı ilə ona sərbəst istifadə üçün bir min manat məbləğində pul verir. 13 yaşlı uşaq ona verilmiş pul məbləğini öz istəyinə uyğun olaraq müstəqil surətdə xərcləyə bilər.

Bəzən 14 yaşınadək olan şəxs özü xırda olmayan məişət əqdi bağlayır. Əgər həmin əqd sonradan onun qanuni nümayəndəsi tərəfindən bəyənilərsə, etibarlıdır (MM-in 29-cu maddəsinin 1-ci bəndi).

7 yaşdan 14 yaşadək yetkinlik yaşına çatmayan şəxslərin **mülki hüquq pozuntusuna görə məsuliyyət daşımaq qabiliyyəti yoxdur**[1]. Qeyd etdik ki, əqdləri həmin şəxslərin əvəzinə, onların adından qanuni nümayəndələr bağlayırlar. Bu əqdlər üzrə, habelə yetkinlik yaşına çatmayan şəxslərin müstəqil bağladığı əqdlər üzrə onlar əmlak məsuliyyəti daşıyırlar. **Əmlak məsuliyyətinə onların qanuni nümayəndələri cəlb edilirlər.** Bundan əlavə, həmin şəxslər digər şəxslərin əmlakına zərər vura bilərlər. Məsələn, 12 yaşlı uşaq qonşunun dağ başında dayanan minik avtomobilini itələyərək, onu hərəkətə gətirir. Bunun nəticəsində avtomobil dığırlanaraq dərəyə düşür və tamamilə dağılır. Həmin uşaq qonşunun əmlakına vurduğu ziyanın əvəzini ödəməyəcəkdir. Ona görə ki, bu uşağın delikt qabiliyyəti — zərərin əvəzini ödəmək qa-

[1] Almaniya Mülki Qanunnaməsinə görə, bu kateqoriya şəxslər qismən delikt qabiliyyətli şəxslər sayılırlar (§ 828).

biliyyəti yoxdur. Vurulmuş ziyanın əvəzini onun qanuni nümayəndəsi ödəyəcəkdir. Deməli, 7 yaşından 14 yaşınadək yetkinlik yaşına çatmayan şəxsin vurduğu zərər üçün onun qanuni nümayəndəsi (valideynlər, övladlığa götürənlər və ya qəyyum) məsuliyyət daşıyır (MM-in 1103-cü maddəsinin 1-ci bəndi).

Beləliklə, biz yaş amilinə əsasən fiziki şəxsləri mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə görə bir neçə qrupa böldük. Bu bölgünün əsası qədim Roma hüququ ilə bağlıdır. Roma hüququ da yaş meyarına əsasən fiziki şəxsləri fəaliyyət qabiliyyətinin həcminə görə bir neçə kateqoriyaya ayırırdı: tam fəaliyyət qabiliyyəti olmayan şəxslər (7 yaşınadək); natamam fəaliyyət qabiliyyəti olan şəxslər (oğlanlar 7-14 yaşınadək, qızlar 7-12 yaşa kimi); fəaliyyət qabiliyyətli şəxslər (oğlanlar 14-25 yaşa kimi, qızlar 12-25 yaşadək); tam fəaliyyət qabiliyyətli şəxslər (25 yaşdan yuxarı)[1]. Bu bölgü sonralar kontinental hüquq ailəsi tərəfindən xeyli dəyişikliklərlə qəbul edilmişdir.

8. Məhdud fəaliyyət qabiliyyətli şəxslər

Məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslər dedikdə, spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə edən, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan və buna görə də məhkəmə tərəfindən mülki fəaliyyət qabiliyyəti məhdudlaşdırılan şəxslər başa düşülür. Söhbət o fiziki şəxslərdən gedir ki, onların mülki fəaliyyət qabiliyyəti məhkəmə qaydasında məhdudlaşdırılır, daha doğrusu, fəaliyyət qabiliyyətinin həcmi azaldılır. Bu cür məhdudlaşdırmanın müəyyən edilməsinin əsas məqsədi spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə edən, habelə qumara qurşanan fiziki şəxsin **ailəsinin və onun himayəsində yaşayan şəxslərin mənafeyini qorumaqdan ibarətdir.**

Şəxsi məhdud fəaliyyət qabiliyyətli hesab etmək üçün, yəni onun mülki fəaliyyət qabiliyyətini məhdudlaşdırmaq üçün iki faktın olması gərəkdir[2]. **Birinci fakt fiziki şəxsin spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə etməsindən və yaxud da ki qumara qurşanmasından ibarətdir. Spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə** dedikdə, fiziki şəxsin onlardan həddən artıq və ya sistematik istifadə etməsi başa düşülür ki, bu, həmin şəxsin ailəsinin mənafeyi ilə ziddiyyət təşkil edərək, onunla bir araya sığmır, habelə son dərəcə çox pul məbləğinin xərclənməsini tələb edir. Burada söhbət fiziki şəxsin alkoqolik və ya narkoman kimi tanınmasından (alkoqolizm və ya narkomaniyadan) getmir. Başqa sözlə desək, şəxsin mülki fəaliyyət qabiliyyətini məhdudlaşdırmaq üçün onun «rəsmi surətdə» alkoqolik və ya narkoman kimi tanınması vacib deyil və tələb olunmur. Alkoqolizmin və ya narkomaniyanın mövcudluğu Almaniya Mülki Qanunnaməsində əsas fakt kimi nəzərdə tutulmuşdur (§ 6)[1]. **Qumara qurşanmaq** dedikdə, fiziki şəxsin qumarxanalarda və digər yerlərdə sistematik olaraq pullu qumar oyunlarında iştirak etməsi başa düşülür ki, bu da ailənin mənafeyinə uyğun olmayıb, hədsiz dərəcədə pul vəsaitinin «göyə sovrulmasına» səbəb olur.

Yeri gəlmişkən qeyd edək ki, sovet dövrünün mülki qanunvericiliyi fiziki şəxslərin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının əsası kimi «qumara qurşanmaq» anlayışını tanımırdı. Bizim ölkə qanunvericiliyi üçün yeni hal olan bu anlayış RF-in və digər ölkələrin qanunvericiliyində nəzərdə tutulmayıb.

Qədim Roma hüququnda fiziki şəxsin israfçılığı, bədxərcliyi fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan başlıca əsas kimi müəyyənləşdirilirdi[2]. İsrafçılığa yol verən şəxsin fəaliyyət qabiliyyəti məhdudlaşdırılırdı. Bu şəxsin əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş əqdlər istisna olmaqla, digər əqdləri müstəqil surətdə bağlamaq hüququ yox idi. Roma hüququnun müəyyənləşdirdiyi «israfçılıq» («bədxərclik») kimi anlayış sonralar Almaniya və digər ölkələrin qanunvericiliyi tərəfindən qəbul edilmişdir. Almaniya Mülki Qanunnaməsi israfçılığı fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına (məhrumetməyə) səbəb olan əsaslardan biri kimi nəzərdə tutur (§ 114)[3]. Fransa Mülki Məcəlləsinə görə də israfçılıq fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına (bu məhdudlaşdırma məhrumetmə ilə bağlı deyil) dəlalət edən hallardan biridir[4].

«İsrafçılıq» («bədxərclik») anlayışı sovet mülki qanunvericiliyinə məlum deyildi. Bizim müasir ölkə qanunvericiliyi də bu anlayışı tanımır. Deməli, israfçılıq və bədxərclik kimi hallar fiziki şəxsin mülki fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması üçün əsas ola bilməz.

Mülki fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan **ikinci fakt** fiziki şəxsin spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində **öz ailəsini ağır maddi vəziyyətə salmasından ibarətdir.** Fiziki şəxsin göstərilən hərəkətləri ailənin lazımi pul vəsaiti ilə təmin olunmasına mane olur. Dolanmaq üçün ailə zəruri pul vəsaitinə malik olmur.

Göstərilən hər iki fakt mövcud olduqda, fiziki şəxsin mülki fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması üçün əsas yaranır. Bu faktlardan heç biri olmazsa, onda fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasından söhbət gedə bilməz.

---

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с макед. М., 2000, с. 89-91; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1969, s. 43-44.

[2] Постановления Пленума Верховного Суда РСФСР от 27 октября 1996 г. «О судебной практике по делам об ограничении дееспособности граждан, злоупотребляющих спиртными напитками или наркотическими веществами (Сборник постановлений Пленума Верховного Суда РСФСР 1961-1971 г. М., 1972, с. 91); Постановления Пленума Верховного Суда РФ от 4 мая 1990 г. (в ред. от 25 октября 1996 г.). «О практике рассмотрения судами Российской Федерации дел об ограничении дееспособности граждан, злоупотребляющих спиртными напитками или наркотическими средствами» (Бюллетень ВС РФ, 1997. № 1, с. 13).

[1] Гражданское право. Учебник. Том I / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 142. Amma A.Rönxt göstərir ki, 1 yanvar 1992-ci il tarixindən başlayaraq Almaniya hüququ narkomaniya və alkoqolizm kimi əsaslara görə şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına yol vermir (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 300).

[2] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik. Bakı. 1999, s. 44.

[3] bax: Германское право. Гражданское уложение. Часть 1 / Под ред. *В.В.Залесского.* М., 1996; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 316.

[4] bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1, М., 2004, с. 127.

Fiziki şəxsin mülki fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması prosesi MPM-in müəyyən etdiyi qaydada həyata keçirilir. Maraqlı şəxslər məhkəməyə iddia ərizəsi ilə müraciət edirlər. Məhkəmə işə baxaraq, fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması barədə müvafiq qərar qəbul edir. Özü də dərhal qeyd etməliyik ki, məhkəmə həm tam, həm də natamam (nisbi) fəaliyyət qabiliyyətli şəxslərin mülki fəaliyyət qabiliyyətini məhdudlaşdıra bilər. Həmin qərar bu şəxs üzərində himayəçi təyin etmək üçün əsasdır. **Məhkəmə qərarı əsasında fiziki şəxs üzərində himayəçi təyin edilir.**

Məhkəmə qaydasında mülki fəaliyyət qabiliyyəti məhdudlaşdırılan fiziki şəxslərin **yalnız xırda məişət əqdlərini bağlamaq hüququ vardır.** Bu şəxslərin xırda məişət əqdlərindən savayı, digər mülki-hüquqi əqdləri (satmaq, bağışlamaq, girov qoymaq və s.), bir sözlə, əmlaka dair sərəncam verilməsi barədə əqdləri müstəqil surətdə bağlamağa ixtiyarı çatmır. O, yalnız himayəçinin razılığı ilə bu əqdləri bağlaya bilər. Əgər əqdin bağlanmasına himayəçi razılıq verməzsə, onda həmin əqd etibarsız sayılacaqdır (MM-in 343-cü maddəsi). Bununla belə, əgər belə əqdə sonradan himayəçi yazılı razılıq verərsə, etibarlı hesab edilə bilər (MM-in 32-ci maddəsinin 1-ci bəndi).

Mülki fəaliyyət qabiliyyəti məhdudlaşdırılan şəxsin öz əmək haqqını, pensiyasını, qazancını və ya digər gəlirlərini (məsələn, əsərdən, ixtiradan və s. istifadəyə görə haqq, podrat müqaviləsi üzrə podrat haqqı, kirayə müqaviləsi üzrə kirayə haqqı, bank əmanəti üzrə faiz, lotereya biletinin uduşu və s.) müstəqil surətdə almağa ixtiyarı çatmır. Bu hərəkətləri də o, yalnız himayəçinin razılığı ilə edə bilər. Əgər himayəçi razılıq verməzsə, onda həmin şəxsin öz əmək haqqını, qazancını, pensiyasını və ya digər növ gəlirlərini ala bilməsindən söhbət gedə bilməz.

Məhdud fəaliyyət qabiliyyəti olan şəxsin öz əmək haqqı, qazancı, pensiyası və digər növ gəlirləri barəsində müstəqil surətdə sərəncam vermək hüququ da yoxdur. O, aldığı pulları istədiyi kimi xərcləmək, bu pullar hesabına əmlak əldə etmək, onları borc vermək, girov qoymaq, bağışlamaq və digər əqdlər bağlamaq ixtiyarına malik deyil. Həmin şəxs yalnız himayəçisinin razılığı ilə aldığı qazanc, əmək haqqı, pensiya və digər gəlirlər barəsində sərəncam verə bilər.

Məhdud fəaliyyət qabiliyyətli şəxsin **mülki hüquq pozuntusuna görə müstəqil surətdə məsuliyyət daşımaq imkanı vardır.** O, tam delikt qabiliyyətli şəxsdir. Bu şəxs bağladığı bütün əqdlər üzrə özü məsuliyyət daşıyır. Himayəçi onun yerinə cavab vermir. Məhdud fəaliyyət qabiliyyətli şəxs həm də vurduğu zərər üçün müstəqil surətdə əmlak məsuliyyəti daşıyır. Himayəçi onun əvəzinə, vurulmuş zərərin əvəzini ödəmir. Mülki qanunvericilik məhdud fəaliyyət qabiliyyətli şəxsin vurduğu zərərin əvəzinin onun özü tərəfindən ödənilməsi haqqında qayda müəyyən edir (MM-in 1106-cı maddəsi). Məsələn, fəaliyyət qabiliyyəti məhdudlaşdırılan şəxs mənzildən çıxarkən su kranını açıq qoyur, bağlamır. Bunun nəticəsində su alt mərtəbədəki mənzilə axır, oradakı mebelləri, ev avadanlıqlarını və məişət predmetlərini korlayaraq tamamilə sıradan çıxardır. Bununla qonşuya əmlak zərəri vurulur. Vurulmuş həmin zərərin əvəzini məhdud fəaliyyət qabiliyyətli şəxsin himayəçisi yox, həmin şəxsin özü ödəyir.

Yaşadığı ictimai mühitin, habelə görülən tibbi-tərbiyəvi xarakterli tədbirlərin təsiri nəticəsində məhdud fəaliyyət qabiliyyətli şəxsin mənəvi-psixoloji dünyası müsbət mənada dəyişə bilər. Söhbət həmin şəxsin *mənəvi-psixoloji aləminin* sağlamlaşmasından gedir. Başqa sözlə desək, məhdud fəaliyyət qabiliyyətli şəxs spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən bir daha sui-istifadə etmir, habelə qumar oyunlarına son qoyur, ictimai faydalı əməklə məşğul olur və maddi vəsaiti öz ailəsinin saxlanmasına yönəldir. Bu isə o deməkdir ki, həmin şəxsin mülki fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan əsaslar aradan qalxmışdır. Belə halda maraqlı şəxslər iddia ərizəsi ilə məhkəməyə müraciət edirlər. Məhkəmə işə baxaraq, fiziki şəxsin mülki fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasını ləğv edən qərar qəbul edir. Məhkəmə qərarı əsasında şəxsin üzərində təyin edilmiş himayəçilik ləğv edilir (MM-in 32-ci maddəsinin 2-ci bəndi). Bu qərar məhdud fəaliyyət qabiliyyətli şəxsin mülki-hüquqi statusunu dəyişir. Bundan sonra həmin şəxs qanunda nəzərdə tutulmuş mülki-hüquqi məsələləri himayəçinin razılığı olmadan müstəqil surətdə həll etmək imkanı qazanır.

9. Mütləq fəaliyyət qabiliyyəti olmayan şəxslər

Ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən və buna görə də məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılan fiziki şəxslərə **mütləq fəaliyyət qabiliyyəti olmayan şəxslər** deyilir. Cinayət hüququ bu kateqoriya şəxsləri «anlaqsızlıq vəziyyətində olmuş şəxslər» anlayışı ilə əhatə edir. Mülki qanunvericilik bu cür anlayış tanımır və işlətmir. Anlaqsızlıq vəziyyəti cinayət-hüquqi əhəmiyyətə malikdir. Belə ki, ictimai təhlükəli əməl etdiyi zaman anlaqsızlıq vəziyyətində olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilmir[1]. Anlaqsızlıq vəziyyəti həm də mülki-hüquqi əhəmiyyət kəsb edir. Belə ki, bu vəziyyət fiziki şəxsin mülki fəaliyyət qabiliyyətini müəyyənləşdirir.

Şəxsi mütləq fəaliyyət qabiliyyəti olmayan şəxs hesab etmək üçün iki vacib meyarın (əlamətin) olması gərəkdir. Bu meyarların ikisi də mülki qanunvericiliyin həmin şəxsə verdiyi leqal anlayışda öz əksini tapıb (MM-in 28-ci maddəsinin 8-ci bəndi). Həmin meyarlar bunlardır:

- hüquqi meyar (əlamət);
- tibbi meyar (əlamət).

Hüquqi meyarın (əlamətin) mahiyyəti şəxsin öz hərəkətlərinin mənasını başa düşməməsindən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməməsindən ibarətdir. Bu meyar özündə iki əlaməti əhatə edir:

- əqli (intellektual) əlaməti;
- iradəvi əlaməti.

Əqli (intellektual) əlamətin mahiyyəti şəxsin öz hərəkətlərinin mənasını başa düşməməsindən, ölçüb-biçmək, öz hərəkətlərinə görə cavab və hesabat vermək iqtidarında olmamasından ibarətdir. **İradəvi əlamətin mahiyyəti isə** fiziki şəxsin öz hərəkətlərinə rəhbərlik edə bilməməsindən və öz hərəkətlərini idarə etmək iqtidarında olmamasından ibarətdir. Çox vaxt fiziki şəxsin əqli və

[1] bax: Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21-ci maddəsi.

iradəvi qabiliyyətində baş verən pozuntular bir-birilə bağlı olur. Ola bilsin ki, bu cür pozuntular müstəqil surətdə bir-birindən ayrı da mövcud olsun. Buna görə də hüquqi meyarın mövcudluğu üçün **iki əlamətdən birinin — ya əqli əlamətin, ya da iradəvi əlamətin müəyyənləşdirilməsi kifayətdir.**

Tibbi meyarın mahiyyəti fiziki şəxsin ağıl zəifliyinə malik olmasından və ya psixi xəstə olmasından ibarətdir. **Ağıl zəifliyi** dedikdə, elə bir psixi xəstəlik başa düşülür ki, bunun nəticəsində fiziki şəxsin əqli fəaliyyəti zəifləyir, aşağı düşür, bu isə həmin şəxsin öz əməllərini düzgün qiymətləndirmək qabiliyyətinə mane olur. **Ruhi xəstəlik** dedikdə, şizofreniya, epilepsiya, maniakal-depressiv psixoz və digər xəstəliklər başa düşülür. Fiziki şəxsin psixi vəziyyəti məhkəmə-psixiatriya ekspertizası tərəfindən müəyyən edilir.

Şəxsi mülki fəaliyyət qabiliyyəti olmayan şəxs hesab etmək üçün hər iki meyarın — həm hüquqi, həm də tibbi meyarın müəyyənləşdirilməsi tələb edilir. Əgər bu meyarlardan biri olmazsa, onda şəxsin fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilməsindən söhbət gedə bilməz. Bu meyarların biri digərini şərtləndirir.

Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilməsi üçün mülki qanunvericilik məhkəmə qaydası müəyyənləşdirir. Fiziki şəxsi mülki fəaliyyət qabiliyyəti olmayan şəxs hesab etməyə yalnız məhkəmənin ixtiyarı vardır. Hər hansı psixiatriya (psixonevroloji) müəssisəsinin buna hüququ çatmır. Bu müəssisə məhkəmə-psixiatriya ekspertizası apara bilər. Belə ki, işə məhkəmədə baxılana kimi şəxsin psixi vəziyyətini müəyyən etmək üçün hökmən və məcburi surətdə ekspertiza təyin edilir. Ekspertiza nəticəsində fiziki şəxsin öz hərəkətlərinin mənasını başa düşməmək və ya öz hərəkətlərinə rəhbərlik edə bilməmək qabiliyyəti barədə rəy verilir. Məhkəmə-psixiatriya ekspertizasının səlahiyyətinə fiziki şəxsin mülki fəaliyyət qabiliyyətli olmaması barədə rəy vermək daxil deyildir. Bu məsələ yalnız məhkəmə tərəfindən həll edilir.

Məhkəmə qaydasında şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi prosedurası Mülki-Prosessual Məcəllə (317-322-ci maddələr) ilə tənzimlənir. Hər şeydən əvvəl, maraqlı şəxslər (fiziki şəxsin valideynləri, qardaş-bacıları, müvafiq icra hakimiyyəti orqanı, psixiatriya müəssisəsi) iddia ərizəsi ilə məhkəməyə müraciət edirlər. Məhkəmə qəyyumluq və himayəçilik orqanının nümayəndəsinin məcburi iştirakı ilə işə baxır. Kifayət qədər əsaslar olduqda, o, şəxsin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi barədə qərar qəbul edir. **Bu qərar əsasında həmin şəxs üzərində qəyyumluq müəyyənləşdirilir, qəyyum təyin edilir.**

Mülki fəaliyyət qabiliyyəti olmayan şəxsin müstəqil surətdə hər hansı mülki-hüquqi məsələni həll etməyə ixtiyarı çatmır. Bu şəxsin əqd bağlamaq və hüquqi əhəmiyyəti olan digər hərəkət etmək qabiliyyəti yoxdur. O, hər hansı bir mülki hüquqi əqd bağlaya bilməz. Fəaliyyət qabiliyyəti olmayan şəxsin özünün müstəqil surətdə bağladığı əqdlər hüquqi nəticə doğurmur. Bu cür əqdlər hüquqi əhəmiyyətə malik olmadıqları üçün etibarsız hesab edilir (MM-in 342-ci maddəsinin 1-ci bəndi).

Fəaliyyət qabiliyyəti olmayan şəxsin adından və onun əvəzinə **əqdləri həmin şəxsin qəyyumu bağlayır.** Qəyyum fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni nümayəndəsi olub, onun hüquqlarını qoruyur, həmin şəxsin mənafeyi

üçün hüquqi hərəkətlər edir. Hətta həmin şəxsin bağladığı əqdə sonradan qəyyum razılıq verərsə, o, etibarlı hesab edilə bilər (MM-in 28-ci maddəsinin 3-cü bəndi).

Fəaliyyət qabiliyyəti olmayan şəxsin **delikt qabiliyyəti yoxdur.** Belə ki, o, digər şəxslərin əmlakına vurduğu zərərə görə məsuliyyət daşımır. Bu şəxsin vurduğu zərərin əvəzini onun qəyyumu ödəyir (MM-in 1105-ci maddəsinin 1-ci bəndi). Məsələn, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılan kənd sakini qonşunun ot tayasına od vurub yandırır. Vurulmuş zərərin əvəzini onun qəyyumu ödəyəcəkdir.

Fəaliyyət qabiliyyəti olmayan şəxslər barəsində tibbi xarakterli tədbirlər tətbiq edilə bilər. Bu tədbirlər səhiyyə orqanlarının müalicə müəssisələri tərəfindən həyata keçirilir. Görülən həmin tədbirlər nəticəsində bu şəxslər sağala və ya onların sağlamlıq vəziyyəti xeyli dərəcədə yaxşılaşa bilər. Bununla fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılmasına səbəb olan əsaslar aradan qalxır. Belə halda maraqlı şəxslər (fiziki şəxsin ailə üzvləri, psixonevroloji müəssisə, müvafiq icra hakimiyyəti orqanı, qəyyumluq və himayəçilik orqanı) fiziki şəxsin fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında ərizə ilə məhkəməyə müraciət edirlər. Məhkəmə kifayət qədər əsaslar olduqda məhkəmə-psixiatriya ekspertizasının müvafiq rəyini nəzərə alaraq, fiziki şəxsin fəaliyyət qabiliyyətli hesab edilməsi haqqında qətnamə çıxarır[1]. Bu qətnamə əsasında həmin şəxsin üzərində təyin edilmiş qəyyumluq ləğv edilir. Qəyyum bundan sonra onun qanuni nümayəndəsi hesab edilmir. Məhkəmə qətnaməsi fiziki şəxsə tam mülki-hüquqi status verən əsas rolunu oynayır.

Psixi xəstəliklərin fiziki şəxslərin fəaliyyət qabiliyyətinə mühüm təsir göstərməsi halının tarixi qədim Roma hüququ ilə bağlıdır. Roma hüququna görə, mənəvi-psixi qüsuru olan şəxslər, ruhi xəstələr və kəmağıllılar fəaliyyət qabiliyyətinə malik deyildilər[2].

§ 4. Qəyyumluq və himayəçilik

1. Qəyyumluq və himayəçiliyin anlayışı və məqsədi

Hamımıza məlumdur ki, mülki hüquq qabiliyyəti bütün fiziki şəxslər üçün yaşından və psixi vəziyyətindən asılı olmayaraq bir bərabərdə və eyni dərəcədə tanınır. Bu, o deməkdir ki, mülki qanunvericilik mülki hüquq və vəzifələrə malik olmaq üçün bütün fiziki şəxslərə hər hansı amildən (yaşından, psixi sağlamlıq vəziyyətindən, cinsindən və s.) asılı olmayaraq eyni cür və bərabər im-

[1] Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 322-ci maddəsinin 2-ci bəndi.

[2] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 90-91; *Novilski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.Əsgərovanın* tərcüməsi. Bakı, 1999, s. 44. Ağıl zəifliyinə və ya ruhi xəstəliyə görə şəxsi fəaliyyət qabiliyyətindən məhrum etmək Almaniya MQ-yə də məlumdur (§6). Bu ölkənin qanunvericiliyi həm də içki aludəçiliyinə və ya israfçılığa görə şəxsin fəaliyyət qabiliyyətindən məhrum edilməsi barədə qayda nəzərdə tutur (§ 114). Bu barədə bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 314-316. Amma başqa mənbədə göstərilir ki, 1 yanvar 1992-ci ildən Almaniya hüququ fəaliyyət qabiliyyətindən məhrumetmə kimi institut tanımır. Belə ki, psixi pozğunluq (ruhi xəstəlik), alkoqolizm, narkomaniya kimi anlayışlar fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması üçün ilkin şərt ola bilməz (*А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 300)

kanlar verir. Fiziki şəxslər öz hərəkətləri ilə bu hüquqi imkanları — mülki hüquq qabiliyyətini realizə edir, həyata keçirir və gerçəkləşdirirlər. Bunun üçün mülki qanunvericilik onlara öz hərəkətləri ilə müstəqil surətdə özlərinin hüquq qabiliyyətini həyata keçirməyə imkan — fəaliyyət qabiliyyəti verir. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin həcmi (dərəcəsi) isə onların yaşından və psixi-ruhi sağlamlıq vəziyyətindən asılı olaraq eyni deyildir. Qeyd etdik ki, 7 yaşınadək azyaşlıların, ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslərin mülki fəaliyyət qabiliyyəti yoxdur, 7 yaşından 14 yaşınadək yetkinlik yaşına çatmayan qismən fəaliyyət qabiliyyətli, 14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayanlar isə nisbi (natamam) fəaliyyət qabiliyyətli şəxslər hesab edilirlər. Spirtli içkilərdən psixotrop maddələrdən və ya narkotik maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fiziki şəxsin fəaliyyət qabiliyyəti məhdudlaşır. Şübhəsiz ki, bu kateqoriya şəxslərin özlərinin mülki hüquq qabiliyyətini həyata keçirmək imkanı, yəni öz hərəkətləri ilə müstəqil surətdə mülki hüquqlar əldə etmək və vəzifələr daşımaq imkanı məhdud xarakter daşıyır. Ona görə ki, həmin şəxslərin mülki fəaliyyət qabiliyyəti və çatmır və kifayət etmir, ya da ki yoxdur. Bəs, necə etməli? Bu kateqoriya şəxslər öz mülki hüquq qabiliyyətini hansı qaydada və nə cür həyata keçirə bilərlər? Onların mülki hüquq qabiliyyəti necə tamamlana bilər? Bu şəxslərin mülki hüquq və mənafelərini nə cür müdafiə etməli?

Göstərilən kateqoriya şəxslərin mülki fəaliyyət qabiliyyətini tamamlamaq və onların hüquq və mənafelərini müdafiə etmək üçün qəyyumluq və himayəçilik institutundan istifadə edirlər. Bu institutun tarixi qədim Roma hüququ dövrünə gedib çıxır. Roma hüququ fəaliyyət qabiliyyəti olmayan və ya kifayət etməyən şəxslərin (ruhi xəstələrin, kəmağıllıların, yetkinlik yaşına çatmayanların, azyaşlıların, psixi qüsuru olanların, israfçıların, bədxərclərin) fəaliyyət qabiliyyətini başqa şəxslərin fəaliyyət qabiliyyəti ilə kompensasiya etmək (əvəz etmək) üçün və ya tamamlamaq üçün qəyyumluq (tutila) və himayəçilik (cura) kimi iki institut yaratmışdı. Bunlar yaşa, sağlamlıq vəziyyətinə və digər xüsusi cəhətlərə görə fiziki şəxslərin (sui iuris) fəaliyyət qabiliyyəti məsələsi ilə sıx surətdə bağlı olan hüquq institutları idi[1].

Qəyyumluq və himayəçilik institutu sonralar bir çox Avropa ölkələri tərəfindən qəbul olunmuşdur. Onu Almaniya, İtaliya, Fransa, RF və digər xarici ölkələrin qanunvericiliyi tanıyır[2]. Məsələn, İtaliya Mülki Məcəlləsinin 10-cu bölməsinə qəyyumluq, 11-ci bölməsinə isə himayəçilik məsələlərini tənzimləyən normalar daxildir. Bu institutu bizim müasir ölkə qanunvericiliyi də nəzərdə tutur. Azərbaycan Respublikasının yeni MM-i qəyyumluq və himayəçilik məsələləri ilə bağlı olan münasibətləri nizama salmağa və tənzimləməyə kifayət qədər hüquq norması (33-38-ci maddələr) həsr edir.

Qəyyumluq və himayəçilik institutu ilk dəfədir ki, bizim ölkənin mülki qanunvericiliyinə daxil edilmişdir. Əvvəllər bu hüquq institutuna daxil olan normalar Nikah və Ailə Məcəlləsində nəzərdə tutulmuşdu. Qəyyumluq və himayəçiliklə bağlı olan münasibətlər, bir qayda olaraq, ailə qanunvericiliyi ilə tənzimlənirdi. Azərbaycan SSR Nikah və Ailə Məcəlləsinin 138-174-cü maddələrində ifadə olunan normalar bu münasibətlərin qaydaya salınmasına həsr edilmişdi. Qəyyumluğa və himayəçiliyə sovet nigah və ailə qanunvericiliyi ilə müəyyənləşdirilən, habelə valideyn himayəsindən məhrum olan yetkinlik yaşına çatmayan uşaqların tərbiyəsini təmin etməyə yönələn hüquqi akt kimi baxılırdı. Buna görə də sovet dövrünün hüquq doktrinası qəyyumluq və himayəçiliyə ailə hüququnun əsas və mühüm institutlarından biri kimi əhəmiyyət verirdi.

Sovet doktrinası qəyyumluq və himayəçiliyə həm də *inzibati hüququn institutu* kimi baxırdı. Belə ki, yerli dövlət orqanlarının qəyyumların və himayəçilərin öz vəzifələrini yerinə yetirmələri üzərində nəzarət etməsi ilə bağlı olan münasibətlər inzibati hüquq normaları ilə tənzimlənirdi[1]. Bu isə qəyyumluq və himayəçiliyin inzibati hüququn *institutu olmasını şərtləndirirdi*.

Sovet hüquq doktrinası belə hesab edirdi ki, qəyyumluq və himayəçiliyə təkcə ailə hüququnun institutu kimi baxmaq olmaz. Ona həm də mülki hüququn *institutu kimi nəzər-diqqət yetirmək lazımdır*[2]. *Belə ki, bu institut hüquq* qabiliyyəti və fəaliyyət qabiliyyəti kimi mülki-hüquqi kateqoriyalarla sıx surətdə bağlıdır. Beləliklə, sovet hüquq ədəbiyyatında qəyyumluq və himayəçilik kompleks (sahələrarası) hüquq institutu kimi nəzərdən keçirilirdi. O, eyni zamanda həm ailə, həm inzibati, həm də mülki hüququn institutu kimi xarakterizə olunurdu[3].

Sovet hüquq doktrinasında qəyyumluq və himayəçiliyin həm də mülki hüquq institutu olması barədə irəli sürülən konsepsiya müasir mülki qanunvericilik tərəfindən nəzərə alınmışdır. Əvvəlcə RF-in Mülki Məcəlləsi, *sonra* isə Azərbaycan Respublikasının Mülki Məcəlləsi qəyyumluq və himayəçiliklə bağlı olan münasibətlərin tənzimlənməsinə müvafiq normalar həsr etmişdir[4]. Bu, xarici sivil ölkələrin mütərəqqi mülki qanunvericilik təcrübəsinə uyğundur. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, Almaniya, Fransa, Avstriya, İtaliya və s. ölkələrin mülki məcəllələri qəyyumluq və himayəçilik institutunu nəzərdə tutur. Bu institutun Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsinə daxil edilməsi onu sübut edir ki, bizim ölkə qanunvericiliyi qabaqcıl xarici dövlətlərin qanunvericiliyinə daha da yaxınlaşır.

Qəyyumluq və himayəçilik anlayışını iki mənada başa düşmək lazımdır: hüquq institutu mənasında; hüquqi akt mənasında. **Hüquq institutu mənasında qəyyumluq və himayəçilik** dedikdə, qəyyumluq və himayəçiliklə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu

[1] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Петерского*. М., 1999, с. 143-144; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник / Перевод с македонского. М., 2000, с. 120-127.

[2] bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. М., 1950; *Жюллио де ла Морандьер Л.* Гражданское право Франции Том 1. М., 1958; Германское право. Германское уложение. Часть 1 / Под ред. *В.В.Залесского*. М., 1996; Основные институты гражданского права зарубежных стран /Под ред. *В В.Залесского*. М., 1999.

[1] bax: Советское семейное право / Под ред. *В.А.Рясенцева*. М., 1982, с. 239-240.

[2] bax: *Свердлов Г.М.* Советское семейное право. М., 1958, с. 27.

[3] bax: *Q.İ.Manayev*. Sovet ailə hüququ. Dərslik. Bakı. 1989, s. 223.

[4] Hala yeni Mülki Məcəllə qəbul edilməmişdən əvvəl bu sətirlərin müəllifi qəyyumluq və himayəçilik barədə normaların mülki qanunvericiliyə daxil edilməsini təklif etmişdi (bax: *S.S.Allahverdiyev*. Azərbaycan Respublikasının mülki hüququ. Mühazirə kursu. 1999).

münasibətlərin tənzimlənməsində həm mülki hüquq, həm də inzibati hüquq normaları iştirak edir. Buna görə də qəyyumluq və himayəçilik həm mülki hüquq, həm də inzibati hüquq sahəsinin institutu sayılır. Deməli, o, **sahələrarası (kompleks), yəni qarışıq institutudur**[1].

Hüquqi akt mənasında qəyyumluq və himayəçilik dedikdə, elə bir fəaliyyət başa düşülür ki, bunun nəticəsində qəyyum və himayəçi rolunda çıxış edən tam fəaliyyət qabiliyyətli şəxslərin köməyi ilə fəaliyyət qabiliyyəti olmayan və ya natamam (məhdud) olan şəxslər mülki hüquq və vəzifələr əldə edir və həyata keçirirlər. Bu aktın vasitəsi ilə yaşına, psixi-ruhi sağlamlıq vəziyyətinə görə tam mülki fəaliyyət qabiliyyəti olmayan şəxslərin, yəni müstəqil surətdə öz hərəkətləri ilə mülki hüquqlar əldə etməyə və həyata keçirməyə, özləri üçün mülki vəzifələr yaratmağa və icra etməyə qadir olmayan şəxslərin hüquq və mənafelərinin müdafiəsi təmin olunur.

Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, qəyyumluq və himayəçilik, birincisi, **mülki fəaliyyət qabiliyyəti olmayan və ya məhdud (natamam, qismən) mülki fəaliyyət qabiliyyətli fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətini tamamlamaq, bununla da onların hüquq və mənafelərini müdafiə etmək kimi məqsəd güdür.** Məhz o, tam mülki hüquq qabiliyyəti olmayan şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün tətbiq edilir.

İkincisi, qəyyumluq və himayəçilik valideynlərini itirmiş yetkinlik yaşına çatmayan uşaqlara onların saxlanması, tərbiyə edilməsi, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə təyin edilir. Burdan görürük ki, valideyn himayəsindən məhrum olan yetkinlik yaşına çatmayan **uşaqların yaşaması və tərbiyəsi üçün münasib şərait yaratmaq qəyyum və himayəçiliyin ikinci əsas məqsədini** təşkil edir. Uşaqlar üzərində müəyyən edilmiş qəyyumluq və himayəçiliklə bağlı olan münasibətlər Ailə Məcəlləsinin 20-ci fəslinə daxil olan maddələrlə (136-145-ci maddələrlə) tənzimlənir.

Deməli, qəyyumluq və himayəçiliyin güddüyü əsas məqsəd şəxslərin hüquq və mənafelərinin müdafiə edilməsi ilə bağlıdır. Bu institutdan tam mülki fəaliyyət qabiliyyətinə malik olmayan şəxslərin mülki hüquq və mənafelərinin müdafiə edilməsi və qorunması üçün istifadə olunur. Deməli, qəyyumluq və himayəçilik **şəxsin dövlət tərəfindən müdafiə edilməsi formalarından** biridir.

Bəs, qəyyumluq anlayışı ilə himayəçilik anlayışı arasında fərq nədədir? Bu iki anlayışı necə fərqləndirmək olar? Həmin suallara düzgün cavab vermək üçün bu iki anlayışın məzmununa və mahiyyətinə aydınlıq gətirməyə çalışaq.

Qəyyumluq dedikdə, tam mülki fəaliyyət qabiliyyətli qəyyumun həyata keçirdiyi elə bir hüquqi akt başa düşülür ki, onun nəticəsində mülki fəaliyyət qabiliyyəti olmayan və ya qismən fəaliyyət qabiliyyəti olan şəxslərin hüquq və mənafelərinin müdafiəsi təmin edilir. O, yaş və ya psixi-ruhi sağlamlıq vəziyyətinə görə mülki fəaliyyət qabiliyyəti olmayan və ya qismən fəaliyyət qabiliyyəti olan və buna görə də müstəqil surətdə mülki hüquq münasibətlərində iştirak etmək imkanını itirən fiziki şəxslər üzərində təyin edilir:

- **on dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayan şəxslər üzərində,** yəni bu şəxslərin valideynləri və onları övladlığa götürənlər olmadıqda; valideynləri məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edildikdə; valideynləri onları tərbiyələndirməkdən və ya hüquq və mənafelərini müdafiə etməkdən boyun qaçırdıqda; başqa səbəblərə görə həmin şəxslər valideyn himayəsindən məhrum olduqda;
- **psixi xəstəliyə (pozuntuya) görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fizlki şəxslər üzərində.**

Göstərilən bu kateqoriya şəxslər **qəyyumluq altında olan şəxslər** adlanır. Onların bütün hüquq və vəzifələrini qəyyum həyata keçirir. Qəyyum mülki hüquq münasibətlərində iştirak edərək, qəyyumluq altında olan şəxsləri tam əvəz edir və onların yerini tutur. Bax, qəyyumluğun mahiyyəti də bundan ibarətdir.

Qəyyum xüsusi olaraq təyin edilmiş şəxsdir. O, qəyyumluq altında olan şəxslərin hesabına, bu şəxslərin adından və onların mənafeləri üçün **bütün zəruri əqdləri bağlayır, hüquqi əhəmiyyəti olan digər hərəkətlər edir.** Yalnız qəyyumun vasitəsi ilə onlar əqdlər bağlaya bilərlər. Bağlanan əqd qəyyum üçün yox, qəyyumluq altında olan şəxslər üçün mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və ya onlara xitam verir, yəni bu şəxslər üçün hüquqi nəticə doğurur. Özü də bilavasitə və avtomatik olaraq. Məsələn, qəyyum özünün qəyyumluğu altında olan 13 yaşlı uşaq üçün yaşayış evi alır və alqı-satqı müqaviləsini imzalayır. Evi satan şəxs bilir ki, ev uşaq üçün alınır, qəyyum yalnız alqı-satqı hüquq münasibətində uşağın təmsilçisi, yəni nümayəndəsi rolunda çıxış edir. Özü də yaşayış evinə mülkiyyət hüququnu alqı-satqı müqaviləsini bağlayan qəyyum yox, 13 yaşlı uşaq, yəni qəyyumluq altında olan şəxs bilavasitə və avtomatik olaraq əldə edir. Belə təsəvvür yaranır ki, **qəyyumlar qəyyumluq altında olan şəxslərin qanun üzrə (məcburi) nümayəndələridirlər (təmsilçiləridirlər).** Onlar öz hərəkətləri ilə həmin şəxslərin olmayan və ya kifayət etməyən (çatışmayan) mülki fəaliyyət qabiliyyətini tamamlayırlar.

Qəyyumların ixtiyarı var ki, onlar özünün qəyyumluğunda olan şəxslərin hüquq və mənafelərini istənilən yerdə, o cümlədən məhkəmədə müdafiə etsinlər. Bunun üçün qəyyumların həmin şəxslərdən xüsusi səlahiyyət almaları tələb edilmir. Ona görə ki, qəyyumlar qanunun göstərişinə görə bu şəxslərin nümayəndəsi və təmsilçisi kimi çıxış edirlər. Qəyyum özünün qəyyumluğu altında olan şəxslərin hüquq və mənafelərini müdafiə edərkən sadəcə olaraq lazımi şəxslərə qəyyumluq vəsiqəsini göstərir. Əgər bu cür vəsiqə olmazsa, onda qəyyumluq və himayəçilik orqanının qəyyum təyin olunma barədə qərarını təqdim etmək lazımdır.

Himayəçilik dedikdə, tam mülki fəaliyyət qabiliyyətli himayəçinin həyata keçirdiyi elə bir hüquqi akt başa düşülür ki, bunun nəticəsində məhdud və nisbi (natamam) fəaliyyət qabiliyyətli fiziki şəxslərin hüquq və mənafelərinin müdafiəsi təmin edilir. Himayəçilik o şəxslər üzərində təyin edilir ki, onların mülki fəaliyyət qabiliyyəti öz həcminə görə və nisbidir, ya da məhduddur:

- on dörd yaşından on səkkiz yaşınadək **nisbi fəaliyyət qabiliyyəti olan şəxslər üzərində;**
- spirtli içkilərdən və ya narkotik maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində məhkəmə tərəfindən **məhdud fəaliyyət qabiliyyətli sayılan şəxslər üzərində.**

[1] Biz ailə hüququnu mülki hüququn yarımsahələrindən biri hesab edirik. Ona görə də ailə hüququnun qəyyumluq və himayəçilik institutundan danışmağı lazım bilmirik.

Göstərilən bu kateqoriya şəxslər **himayəçilik altında olan şəxslər** adlanır. Himayəçilər özlərinin himayəçiliyi altında olan şəxslərin adından və onların əvəzinə əqd bağlamır və digər hər hansı hüquqi hərəkət etmirlər. Əqdləri həmin şəxslərin özləri bağlayırlar. **Himayəçi yalnız onların bağlanmasına razılıq verir.** O əqdlərin ki, bunları himayəçilik altında olan şəxslərin müstəqil surətdə bağlamağa ixtiyarı çatmır. Razılıq verməklə himayəçilər bu şəxslərin hərəkətləri üzərində nəzarəti həyata keçirirlər.

Himayəçi özünün himayəçiliyində olan fiziki şəxsi mülki hüquq münasibətlərində əvəz etmir. O, yalnız həmin şəxslərə öz hüquqlarını həyata keçirməkdə və vəzifələrini icra etməkdə kömək göstərir. Bu, həm hüquqi kömək, həm də faktiki kömək formasında ola bilər. Dediklərimiz onu göstərir ki, **himayəçilər özlərinin himayəçiliyi altında olan şəxslərin qanuni nümayəndəsi deyillər**[1]. Ona görə ki, himayəçi bu şəxslər üçün əqd bağlamır və onlar üçün hüquqi nəticə yaratmır.

Söylədiklərimiz əsasında biz, qəyyumluqla himayəçilik arasında fərqli cəhətləri müəyyən edə bilərik. **Qəyyumluq, birincisi, qanuni nümayəndəlik münasibətləri yaradır.** Himayəçilik əsasında isə qanuni nümayəndəlik münasibətləri əmələ gəlmir[2]. **İkincisi, qəyyum** özünün qəyyumluğu altında olan fiziki şəxslərin adından və onların mənafeyi üçün **hüquqi nəticəyə səbəb olan əqdlər bağlayır.** Himayəçi isə əqd bağlamır, o, yalnız özünün himayəçiliyi altında olan şəxslərin müstəqil surətdə bağlamağa ixtiyarı çatmadığı əqdlərin bağlanmasına razılıq verir. Onlar ancaq **himayədə olan şəxslərin öz hüquqlarını həyata keçirməsində və öz vəzifələrini yerinə yetirməsində həmin şəxsiərə kömək edirlər.** Belə təsəvvür yaranır ki, qəyyumluq və himayəçilik arasında əsas fərq qanunun qəyyumun və himayəçinin üzərinə qoyduğu mülki-hüquqi vəzifələrin həcmindən ibarətdir.

2. Qəyyumluq və himayəçilik orqanları

Qəyyumluq və himayəçiliklə bağlı olan münasibətlərdə qəyyumluq və himayəçilik orqanları fəal surətdə iştirak edirlər. **Müvafiq rayon (şəhər) icra hakimiyyəti orqanları qəyyumluq və himayəçilik orqanları hesab edilir.** Bu orqanların vasitəsi ilə dövlət özünün mülki fəaliyyət qabiliyyəti olmayan, habelə natamam (nisbi), qismən və ya məhdud fəaliyyət qabiliyyətli vətəndaşlarının hüquq və mənafelərini müdafiə edir, onlara qayğı göstərir. Onların həyata keçirdikləri fəaliyyətdə şəxsiyyətin dövlət müdafiə formalarından biri ifadə olunur.

Rayon (şəhər) icra hakimiyyəti orqanları qəyyumluq və himayəçilik orqanları kimi qəyyumluq və himayəçiliklə bağlı olan ən vacib və mühüm məsələləri həll edir. Bu orqanlar məhkəmə qətnaməsi əsasında fiziki şəxs üzərində **qəyyumluq və himayəçilik təyin edilməsi barədə qərar çıxarır.** Belə ki, məhkəmə fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılması və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması (spirtli içkilərdən, narkotik maddələrdən sui-istifadə etmə və s. nəticəsində) barədə qətnamə qəbul edir. Bu qətnamə qanuni qüvvəyə mindiyi gündən üç gün ərzində fiziki şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanına (rayon icra hakimiyyəti orqanına) göndərilir. Onun əsasında bu orqan fiziki şəxs üzərində qəyyumluq və himayəçilik təyin edilməsi barədə qərar qəbul edir. Rayon icra hakimiyyəti orqanı konkret fiziki şəxsin qəyyum və ya himayəçi təyin edilməsi barədə qərar da çıxara bilər.

Qəyyumluq və himayəçilik təyin edilməsi rayon icra hakimiyyəti orqanlarının (qəyyumluq və himayəçilik orqanlarının) müstəsna səlahiyyətinə aiddir. Başqa hər hansı bir orqanın bu məsələ barəsində qərar qəbul etməyə ixtiyarı çatmır.

Qəyyumluq və himayəçiliyin bilavasitə təşkili, onların həyata keçirilməsi üzərində nəzarət, ümumiyyətlə, qəyyumluq və himayəçilik təyin etməkdən savayı, yerdə qalan digər məsələlər və funksiyalar rayon icra hakimiyyəti başçısının yanında övladlığa götürmə, qəyyumluq və himayəçilik komissiyasına həvalə edilir.

Rayon icra hakimiyyəti başçısının yanında övladlığa götürmə, qəyyumluq və himayəçilik komissiyası yetkinlik yaşına çatmayan şəxslər barəsində qəyyumluq və himayəçilik vəzifələrini (funksiyalarını) bilavasitə həyata keçirir. Bu komissiyalar qəyyumluğun və himayəçiliyin müəyyən edilməsi barədə təkliflər verir və bu məsələnin həlli üçün materiallar hazırlayır, həmin məsələyə dair rəy verir. Onların borcudur ki, qəyyum və himayəçilərin öz vəzifələrini yerinə yetirmələri üzərində nəzarət etsin, onlara yetkinlik yaşına çatmayanların tərbiyəsi üçün lazımi kömək etsinlər.

Məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılan şəxslər (ruhi-psixi xəstələr, kəmağıllar) və məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslər barəsində (spirtli içkilərdən və ya narkotik vasitələrdən sui-istifadə etmə nəticəsində və s.) qəyyumluq və himayəçilik vəzifələrinin (funksiyalarının) bilavasitə həyata keçirilməsi də **rayon icra hakimiyyəti başçısının yanında övladlığa götürmə, qəyyumluq və himayəçilik komissiyası üzərinə qoyulur.** Həmin komissiyalar qəyyumluq və himayəçiliyin rəsmiləşdirilməsi üçün hazırlıq işləri görür, qəyyumların və himayəçilərin fəaliyyətinə nəzarət edir.

Əmək qabiliyyəti olmayan qocalar və əlillər (sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış mülki fəaliyyət qabiliyyətli fiziki şəxslər) barəsində də qəyyumluq və himayəçilik vəzifələrinin (funksiyalarının) bilavasitə həyata keçirilməsi **rayon icra hakimiyyəti başçısının yanında övladlığa götürmə, qəyyumluq və himayəçilik komissiyasına** həvalə edilir. Bu komissiyalar himayəçilik (patronaj) təyin edilməsi üçün lazımi sənədləri hazırlayır, himayəçilərin (patronların) fəaliyyətinə nəzarət edir.

[1] Bəzi müəlliflərin söylədikləri belə bir fikirlə razılaşmaq olmaz ki, guya himayəçilər özlərinin himayəçiliyi altında olan şəxslərin qanuni nümayəndəsidirlər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 206; Комментарий к Гражданскому кодексу. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 206).

[2] MM-in 30-cu maddəsinin 1-ci bəndində göstərilirdi ki, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar əqdləri öz qanuni nümayəndələrinin, o cümlədən qəyyumların yazılı razılığı ilə bağlayırlar. Bu, qanunvericinin səhvlərindən biridir. Birincisi, bu kateqoriya şəxslər üzərində qəyyum yox, himayəçi təyin edilir. İkincisi, bu kateqoriya şəxslər üzərində təyin edilən himayəçilik nümayəndəlik münasibətləri yaratmır. Nümayəndəlik dedikdə, nümayəndə olan şəxsin təmsil olunanın hesabına, onun adından və onun mənafeyi üçün əqdlər bağlaması başa düşülür. Təqdiralayiq haldır ki, qanunverici həmin qüsuru aradan qaldırmışdır. Analoji qüsura RF MM-in 26-cı maddəsinin 1-ci bəndində də yol verilmişdir.

Qəyyumluq və himayəçilik vəzifələrini (funksiyalarını) həyata keçirən bu komissiyaların borcudur ki, qəyyum və himayəçilərin hərəkətləri barədə daxil olan şikayətlərə baxsın və lazımi tədbirlər görsün. Əgər qəyyum və himayəçi öz üzərinə düşən vəzifələri lazımınca yerinə yetirməzsə, onda həmin komissiyalar müvafiq ölçülər götürür. Bundan əlavə, göstərilən komissiyaların qəyyum və ya himayəçi vəzifələrini bilavasitə icra etmək hüququ da vardır. Belə ki, qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsə qəyyum və ya himayəçi təyin edilənədək üç aydan çox olmamaqla müəyyən müddət keçir. Bu müddət ərzində həmin komissiyalar qəyyum və ya himayəçi vəzifəsini yerinə yetirir (MM-in 35-ci maddəsinin 1-ci bəndi). Qəyyumluq və himayəçilik orqanlarının vəzifəsidir ki, qəyyum (himayəçi) təyin edilmiş şəxslərə vəsiqə versin. Vəsiqə qəyyumun (himayəçinin) səlahiyyətini təsdiq edən sənəddir.

3. Qəyyum və himayəçi təyin edilən şəxslər

Fiziki şəxs üzərində qəyyumluq və ya himayəçilik müəyyənləşdirmək zərurəti yarandıqda, yəni qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan fiziki şəxsə qəyyum və ya himayəçi təyin etmək lazım gəldikdə maraqlı şəxslər qəyyumluq və himayəçilik orqanına dərhal məlumat verirlər. Bu orqan məlumat alan kimi yoxlama aparır, material hazırlayır, hazırlıq işləri görür, lazımi sənədlər toplayır və s. Həmin məlumat qəyyumluq və himayəçilik orqanına daxil olduğu vaxtdan üç aydan gec olmayaraq qəyyum və ya himayəçi təyin edilir. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan fiziki şəxsin yaşayış yeri üzrə rayon icra hakimiyyəti orqanı bu barədə müvafiq qərar qəbul edir. Bununla ayrı-ayrı şəxslər qəyyum və himayəçi təyin edilirlər.

Aydın bir həqiqətdir ki, fiziki şəxslər üzərində qəyyum və himayəçi təyin edilərkən onlara böyük inam və etimad göstərilir. Qəyyumların və himayəçilərin həyata keçirdikləri missiyanın və fəaliyyətin əsas məğzi və qayəsi özlərinin qəyyumluğu və himayəçiliyi altında olan fiziki şəxslərin hüquq və mənafelərini təmin etməkdən ibarətdir. Bu missiya və fəaliyyəti daha dolğun və tam həyata keçirmək üçün mülki qanunvericilik qəyyumlar və himayəçilər barədə bir neçə şərt (tələb) irəli sürür. Yalnız həmin şərtlərə (tələblərə) uyğun gəldikdə ayrı-ayrı şəxslər qəyyum (himayəçi) təyin edilə və qəyyumluq (himayəçilik) aktını həyata keçirə bilərlər. Bu, o deməkdir ki, qəyyum və himayəçi olmaq arzusunda olan hər bir şəxs qəyyum və ya himayəçi təyin oluna bilməz.

Qanunun qəyyumlar (himayəçilər) barəsində müəyyən etdiyi **birinci şərt** (tələb) ondan ibarətdir ki, **qəyyumlar (himayəçilər) yüksək şəxsi keyfiyyətlərə malik olan şəxslər olmalıdırlar**[1]. Söhbət onların mənəvi-əxlaqi cəhətdən düzgün və təmiz, vicdanını itirməyən, namuslu, öz borcuna sadiq olan, xeyirxah və ədalətli və s. insan olmalarından gedir. Ona görə də qanun bu xüsusiyyətlərdən məhrum olan bəzi kateqoriya şəxslərin qəyyum (himayəçi) ola bilməsini qadağan edir[2]:

- **alkoqolik və narkomanların;**

[1] bax: Ailə Məcəlləsinin 137-ci maddəsinin 2-ci bəndi, Mülki Məcəllənin 35-ci maddəsinin 3-cü bəndi.

[2] bax: Ailə Məcəlləsinin 137-ci maddəsinin 3-cü bəndi. Mülki Məcəllənin 35-ci maddəsinin 2-ci bəndi

- öz valideynlik vəzifələrini yerinə yetirməməyə, alimenti qəsdən ödəməməyə, valideynlik hüquqlarından sui-istifadə etməyə, uşaqlarla amansız davranmağa, onları fiziki-psixi təzyiq altında saxlamağa və digər əsaslara görə **valideynlik hüququndan məhrum olunmuş şəxslərin**[1];
- **keçmiş övladlığa götürənlərin,** əgər onların təqsiri üzündən övladlığa götürmə ləğv olunmuşsa.

Qanunun qəyyumlar (himayəçilər) barəsində nəzərdə tutduğu **ikinci şərt** ondan ibarətdir ki, **onların qəyyumluq (himayəçilik) vəzifələrini yerinə yetirmək qabiliyyəti olmalıdır**[2]. Söhbət, hər şeydən əvvəl, müvafiq şəxslərin özlərinin psixi-fiziki sağlamlıq vəziyyətinə görə yetkinlik yaşına çatmayan uşaqları tərbiyə etmək vəzifəsini icra edə bilmək imkanından gedir. Fiziki-psixi cəhətdən xəstə olan şəxslər qəyyum (himayəçi) təyin oluna bilməzlər. Qanun bu kateqoriya şəxslərin qəyyum (himayəçi) rolunda çıxış etməsini yasaqlayır[3]: səhhətinə görə valideyn vəzifələrini həyata keçirə bilməyən şəxslərin; ruhi xəstəlik və ya ağıl zəifliyi nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin; spirtli içkilərdən və ya narkotik vasitələrdən *sui-istifadə* etməsi və s. nəticəsində məhkəmə tərəfindən məhdud fəaliyyət qabiliyyətli sayılan şəxslərin; *xroniki* alkoqoliklərin, narkomanların, vərəm xəstəliyi olan şəxslərin və s;

Qanunun qəyyumlar (himayəçilər) barəsində müəyyənləşdirdiyi **üçüncü şərt** ondan ibarətdir ki, **onlar yetkinlik yaşına çatmış və tam mülki fəaliyyət qabiliyyəti olan şəxslərdən təyin edilir** (MM-in 35-ci maddəsinin 2-ci bəndi)[4]. Yalnız yetkinlik yaşına çatmış və tam mülki fəaliyyət qabiliyyəti olan şəxslər qəyyum (himayəçi) qismində çıxış edə bilərlər. Əgər şəxs yetkinlik yaşına (18 yaşa) çatmamışsa və onun tam mülki fəaliyyət qabiliyyəti yoxdursa, onda həmin şəxsin qəyyum (himayəçi) təyin edilməsindən qəti olaraq söhbət gedə bilməz. Bax, buna görə də 7 yaşından 14 yaşınadək qismən fəaliyyət qabiliyyətli şəxslər, həmçinin 14 yaşdan 18 yaşınadək nisbi (natamam) fəaliyyət qabiliyyətli şəxslər qəyyum (himayəçi) təyin olunmurlar. Emansipasiya və ya nigah yaşı aşağı salınmaqla ailə qurmaq (nikah yetkinliyi) qaydasında vaxtından əvvəl tam mülki fəaliyyət qabiliyyəti əldə edən şəxslər, bəs necə, qəyyum (himayəçi) müəyyən edilə bilərlərmi? Mülki qanunvericilik bu suala cavabsız qoymur. Belə ki, bu kateqoriya şəxslər vaxtından əvvəl tam mülki-hüquqi status qazansalar da, yetkinlik yaşına çatmamışlar. Bax, buna görə də onların qəyyum (himayəçi) təyin edilməsi yolverilməzdir.

Qanunun qəyyumlar (himayəçilər) barəsində nəzərdə tutduğu **dördüncü şərt** ondan ibarətdir ki, **onlar öz razılığı ilə qəyyum (himayəçi) təyin olunurlar.** Məcburi qaydada qəyyumların (himayəçilərin) təyin edilməsi yolverilməzdir. Heç kəs qəyyum (himayəçi) olmağa məcbur edilə bilməz. Yalnız kö-

[1] bax: *Рясенцев В.А.* Семейное право. М., 1971, с. 195. *Ворожейкий Е.А.* Семейное правоотношения в СССР. М., 1972, с. 256; *Малеин Н.С.* Защита семейных прав // Советское государство и право. 1972. № 3, с. 39.

[2] Mülki Məcəllənin 35-ci maddəsinin 3-cü bəndi, Ailə Məcəlləsinin 137-ci maddəsinin 2-ci bəndi.

[3] bax:Ailə Məcəlləsinin 137-ci maddəsinin 3-cü bəndi.

[4] bax: Ailə Məcəlləsinin 137-ci maddəsinin 1-ci bəndi.

nüllülük prinsipi əsasında müvafiq şəxslər qəyyum (himayəçi) təyin oluna bilərlər. Əgər şəxs qəyyum (himayəçi) olmağa könüllü surətdə razılıq verməzsə, onun qəyyum (himayəçi) təyin olunması istisna edilir. Mülki qanunvericilik bu imperativ qaydadan hər hansı bir istisna hala yol vermir[1].

Bəzi hallarda vətəndaş qəyyum (himayəçi) təyin olunarkən təkcə onun razılıq verməsi kifayət etmir. Bunun üçün həm də həmin vətəndaşın arvadının (ərinin) və yetkinlik yaşına çatan ailə üzvlərinin razılığı gərəkdir. Söhbət ailəsi və yetkinlik yaşına çatan övladları olan vətəndaşlardan gedir. Məlum məsələdir ki, ailəli vətəndaş qəyyum (himayəçi) vəzifəsini öz üzərinə götürdüyü halda, qəyyumluq (himayəçilik) altında olan şəxsə bütün ailə üzvləri birlikdə qayğı göstərirlər. Buna görə də vətəndaşın qəyyum (himayəçi) təyin edilməsinə həm də onun ailə üzvlərinin razılıq verməsi tələb olunur.

Qanunun qəyyumlar (himayəçilər) barəsində müəyyən etdiyi **beşinci şərt** ondan ibarətdir ki, **onlar qəyyumluğa (himayəçiliyə) ehtiyacı olan və buna görə də üzərində qəyyumluq (himayəçilik) təyin olunacaq şəxslərlə normal münasibətdə olmalıdırlar.** Bir qayda olaraq, qəyyumluğa (himayəçiliyə) ehtiyacı olan şəxslərə yaxın, xüsusən də qohum olan vətəndaşlar qəyyum (himayəçi) təyin edilirlər. Mənafeləri ziddiyyət təşkil edən, qeyri-normal ünsiyyətdə olan şəxslər qəyyum (himayəçi) təyin oluna bilməzlər. Qəyyumluq (himayəçiiik) müəyyənləşdirilərkən mövcud münasibət və əlaqələr, qarşılıqlı anlaşma mühüm rol oynayır.

Qəyyum (himayəçi) təyin etmək üçün qohum şəxslər olmadıqda, onda onu qəyyumluq və himayəçilik orqanının özü seçir. Özü də qəyyumluq (himayəçilik) müəyyən edilərkən və konkret şəxs qəyyum (himayəçi) təyin olunarkən qəyyumluğa (himayəçiliyə) ehtiyacı olan şəxsin özünün razılıq verməsi, adətən, tələb olunmur. Əgər sağlamlıq vəziyyəti və yaşı bu şəxsin razılıq verməsinə imkan verərsə, onda həmin şəxsin arzusu və istəyi nəzərə alınır (MM-in 35-ci maddəsinin 3-cü bəndi). Amma bu, qəyyum (himayəçi) təyin edilməsinin məcburi və zəruri şərti deyildir.

Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxslər (yetkinlik yaşına çatmayan uşaqlar, ağıl zəifliyi və ya ruhi-psixi xəstəlik nəticəsində məhkəmə tərəfindən məhdud fəaliyyət qabiliyyətli sayılanlar) tərbiyə edilmək, müalicə olunmaq üçün tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və ya digər oxşar müəssisələrdə yerləşdirilə bilərlər. Söhbət uşaq evlərindən, psixiatriya (psixonevroloji) müəssisələrindən, əlillər evindən, qocalar evindən və s. gedir. Bu cür hallarda həmin kateqoriya şəxslərə qəyyum (himayəçi) təyin olunmur. Ona görə ki, mülki qanunvericilik qəyyumluq (himayəçilik) vəzifələrini həmin müəssisələrin üzərinə qoyur (MM-in 35-ci maddəsinin 4-cü bəndi). Xüsusi təyinat olmadan göstərilən müəssisələrin müdiriyyəti (direktor, baş həkim və s.) qəyyum (himayəçi) vəzifəsini icra edir.

Bir qayda olaraq, çox vaxt eyni bir şəxs yalnız müəyyən bir şəxsin üzərində qəyyum (himayəçi) təyin edilir. Bununla belə, eyni bir şəxs iki və daha artıq şəxsin qəyyumu (himayəçisi) kimi çıxış edə bilər. Məsələn, avtomobil qəzası nəticəsində hər iki valideyn (ər-arvad) ölür. Onların sağ qalmış iki uşağına qohumlardan biri qəyyum təyin edilir. Amma bundan fərqli olaraq müəyyən bir nəfər şəxs üzərində yalnız bir nəfər şəxs qəyyum (himayəçi) təyin edilə bilər Belə ki, hər hansı bir uşağa iki şəxs qəyyum təyin edilə bilməz.

4. Qəyumların (himayəçilərin) hüquq və vəzifələri

Qəyyumluq (himayəçilik) aktını həyata keçirmək üçün mülki qanunvericilik qəyyumları (himayəçiləri) müvafiq lazımi hüquq və vəzifələrlə təmin edir. Ruhi xəstə və ya kəmağıllar üzərində təyin edilmiş qəyyumun, hər şeydən əvvəl, vəzifəsidir ki, özünün qəyyumluğu altında olan şəxsin sağlamlığı barəsində qayğı göstərsin, müntəzəm surətdə həkim müşahidəsi altında olmağı və ona vaxtlı-vaxtında lazımi tibbi yardım göstərilməsini təmin etsin. O, həm də həmin şəxslərə zəruri məişət qulluğu göstərmək vəzifəsini daşıyır. Bunlar **qəyyumun ümumi xarakterli vəzifələridir.**

Yetkinlik yaşına çatmayan şəxslər üzərində təyin edilmiş qəyyumlar (himayəçilər) də ümumi xarakterli vəzifələr daşıyırlar. Onların vəzifəsi həmin şəxslərin saxlanması, tərbiyə edilməsi və təhsil alması ilə bağlıdır. Uşağı tərbiyə etmək, onun sağlamlığının, fiziki və psixi, mənəvi və əxlaqi inkişafının qeydinə qalmaq qəyyumların (himayəçilərin) əsas vəzifəsidir. Qəyyumlar (himayəçilər) öz qəyyumluğunda (himayəsində) olan şəxslərin hüquq və mənafelərini qorumağa borcludurlar.

Bununla bərabər, ümumi xarakterli bu cür vəzifələr qəyyumların (himayəçilərin) həyata keçirdikləri fəaliyyətin ayrı-ayrı müxtəlif sahələrində konkretləşir. Həmin konkret vəzifələrin qəyyumluq (himayəçilik) altında olan şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün böyük əhəmiyyəti vardır.

Qəyyumların (himayəçilərin) daşıdığı vəzifələrdən biri ondan ibarətdir ki, **onlar öz qəyyumluğunda (himayəsində) olan yetkinlik yaşına çatmayan şəxslərlə birlikdə yaşamalıdırlar** (MM-in 35-ci maddəsinin 6-cı bəndi). Bu cür vəzifənin müəyyənləşdirilməsi onunla izah olunur ki, yetkinlik yaşına çatmayan şəxslər üzərində təyin edilən qəyyumluğun (himayəçiliyin) əsas məqsədi həmin şəxslərin normal böyüməsi, fiziki-psixi, mənəvi-əxlaqi cəhətdən tam inkişafı və düzgün tərbiyəsi üçün münasib şərait yaratmaqdan ibarətdir. Yalnız birlikdə yaşamaqla bu məqsədin həyata keçirilməsinə nail olmaq olar. **Bəzi hallarda qanun himayəçi ilə himayədə olanın ayrılıqda yaşamasına yol verir.** Bunun üçün vacibdir ki, birincisi, himayədə olanın on altı yaşı tamam olsun, ikincisi, qəyyumluq və himayəçilik orqanı buna razılıq versin, üçüncüsü, ayrı yaşama himayədə olan şəxsin tərbiyəsinə, hüquq və mənafelərinin müdafiəsinə mənfi təsir göstərməsin. Qəyyum isə bütün hallarda hər hansı bir istisnaya yol verilmədən hökmən və məcburi surətdə öz qəyyumluğunda olan yetkinlik yaşına çatmayan şəxslə birlikdə yaşamalıdır. Onların ay-

[1] Qeyd etmək lazımdır ki, sovet dövrünün qanunvericiliyində bəzi məqamlarda könüllülük prinsipindən müəyyən istisna hala yol verilməsi nəzərdə tutulurdu. Belə ki, RSFSR-in 19 noyabr 1926-cı ildə ÜRMİK-in 3-cü sessiyasında qəbul edilmiş və 1927-ci ilin yanvarın 1-dən qüvvəyə minmiş Nikah, Ailə və Qəyyumluq haqqında Qanunlar Məcəlləsinin 78-ci maddəsində vətəndaşın üzərinə məcburi surətdə qəyyum (himayəçi) vəzifəsi qoymağın və həvalə etməyin mümkünlüyü göstərilirdi. Sovet hüquq doktrinasında qanunvericinin məcburi xarakterli bu qaydadan imtina etməsi barədə konsepsiya ireli sürülürdü (bax: *Ершова Н.М.* Опека и попечительство над несовершеннолетними. М., 1959, с. 67; *Пергамент А.И.* К вопросу о правовой положении несовершеннолетних // Уч. Зап. ВИЮН. Вып. 3. 1955, с. 36). Müasir mülki qanunvericilik həmin konsepsiyanı rəsmi surətdə nəzərə almış və dəstəkləmişdir.

rılıqda yaşamasını mülki qanunvericilik yolverilməz hesab edir. Bundan əlavə, qəyyumların (himayəçilərin) borcudur ki, özlərinin yaşayış yerinin dəyişməsi barədə qəyyumluq və himayəçilik orqanlarına məlumat versinlər.

Üzərinə qoyulmuş **qəyyumluq və himayəçilik vəzifələrini əvəzsiz, təmənnasız icra etmək qəyyumların (himayəçilərin) daşıdıqları vəzifələrdən biridir** (MM-in 35-ci maddəsinin 5-ci bəndi). Qəyyumluq və himayəçilik kimi hüquqi aktın məqsədi onun əvəzsiz olaraq hər hansı haqq alınmadan həyata keçirilməsini şərtləndirir. Bu akt fiziki şəxsin vətəndaşlıq, qohumluq, habelə mənəvi-əxlaqi borcudur. Ona görə də həmin aktın yerinə yetirilməsi müqabilində ekvivalent kimi qarşılıqlı əvəz və haqq alınmasından söhbət gedə bilməz.

Vəsatət vermək qəyyumların (himayəçilərin) üzərinə qoyulan vəzifələrdən biridir (MM-in 35-ci maddəsinin 9-cu bəndi). Qəyyumun (himayəçinin) bu vəzifəsi onunla bağlıdır ki, fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli sayılmasına səbəb olan əsaslar aradan qalxır, yəni kəmağıllar və ruhi xəstələr sağalır və ya onların sağlamlıq vəziyyəti xeyli yaxşılaşır, şəxs spirtli içkilərdən və ya narkotik vasitələrdən sui-istifadəyə son qoyur və s. Bu cür hallarda qəyyum (himayəçi) qəyyumluqda və ya himayədə olanın fəaliyyət qabiliyyətli sayılması barədə iddia ərizəsi ilə məhkəməyə müraciət edir. İddia ərizəsində həmin kateqoriya şəxslər üzərindən qəyyumluğun (himayəçiliyin) götürülməsi barədə xahiş də ifadə olunur[1].

Qəyyumların (himayəçilərin) mülki hüquq və vəzifələri əsasən və başlıca olaraq **əmlak münasibətləri sferasına** aiddir. Mülki qanunvericilik onları geniş təfsilatı ilə tənzimləyir.

Qəyyumluq (himayəçilik) altında olan şəxslərin gəlirlərini **yalnız həmin şəxslərin öz mənafeləri üçün və qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi alınmaqla xərcləmək** qəyyumların (himayəçilərin) daşıdıqları əsas vəzifələrdən biridir. Bu gəlirlər qəyyumluq (himayəçilik) altında olan şəxslərin yaşaması və saxlanması üçün maddi təminat mənbəyi hesab olunur. Onlara aiddir: əmək haqqı, təqaüd, aliment və s; birdəfəlik pul ödənişləri (sığorta ödənişləri və s.); onun əmlakının idarə edilməsindən çatası gəlirlər (bank əmanətlərinə görə faizlər, səhmlər üzrə dividendlər və s.). Bax, qəyyum (himayəçi) öz qəyyumluğunda və ya himayəsində olan şəxslərin saxlanması məqsədi ilə bu gəlirləri yalnız onların mənafeləri üçün xərcləməlidir. Amma bu, o demək deyildir ki, qəyyum (himayəçi) öz qəyyumluğu və ya himayəsi altında olan şəxsi maddi cəhətdən saxlamalıdır. Onların üzərinə bu cür vəzifə qoyulmur[2].

Bəzi hallarda qəyyum (himayəçi) qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan qəyyumluq və himayə altında olan şəxsin gəlirini xərcləyə bilər. **O, qəyyumluqda və ya himayədə olan şəxsin özünün saxlanması üçün zəruri xərclərin əvəzini müstəqil surətdə heç kəsin razılığını almadan ödəyir.** Zəruri xərclər dedikdə, qəyyumluqda və ya himayədə olan şəxsin gündəlik ehtiyac və tələbatını təmin etmək üçün lazım olan xərclər (yemək, ərzaq məhsulları, geyim şeyləri, dərman və s. üçün çəkilən xərclər) başa düşülür.

Elə gəlirlər də vardır ki, qəyyumluq və ya himayə altında olan şəxs onu qəyyumun (himayəçinin) müdaxiləsi olmadan və qəyyumluq və himayəçilik orqanının qabaqcadan razılığını almadan xərcləyə bilər. Bunlar qəyyumluqda və himayədə olan fiziki şəxsin müstəqil surətdə sərəncam verməyə ixtiyarı çatdığı gəlirlərdir (MM-in 30-cu maddəsinin 2-ci bəndi).

Bundan əlavə, dövlət hər ay qəyyumluq və himayə altında olan yetkinlik yaşına çatmayan şəxsin saxlanması üçün maddi vəsait verir[1]. Qəyyumun (himayəçinin) vəzifəsidir ki, bu vəsaitdən həmin şəxslərin mənafeyi üçün düzgün xərcləsin.

Qəyyumların daşıdıqları vəzifələrdən biri onların **qəyyumluq altında olan şəxslərin qanuni nümayəndəsi kimi mülki (əmlak) dövriyyədə çıxış etməyə borclu olmasından** ibarətdir. Söhbət qəyyumların 14 yaşınadək olan yetkinlik yaşına çatmayanların və məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslərin əvəzinə əqdləri onların adından və onların mənafeyi üçün bağlamasından gedir. Qəyyumluq altında olan bu kateqoriya **şəxsləri qəyyumlar əmlak münasibətlərində tam əvəz edirlər.** Himayəçilər isə himayə altında olan şəxslərin mənafeyini təmin etmək məqsədi ilə onların bağladıqları əqdlərə yazılı razılıq verirlər.

Bununla belə, elə əqdlər vardır ki, qəyyumlar həmin əqdləri **qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan bağlaya bilməz,** himayəçi isə onların bağlanmasına razılıq verə bilməz. Mülki qanunvericiliyin müəyyənləşdirdiyi bu qayda qəyyumluqda (himayədə) olan şəxslərin mənafeyi üçün qəyyumların (himayəçilərin) fəaliyyəti üzərində lazımi dövlət nəzarətini təmin etmək məqsədini güdür. Bu qayda həmin şəxslərin əmlakı barəsində qəyyumların (himayəçilərin) sərəncam verməsi üzərində dövlət yoxlaması (nəzarəti) müəyyən edir. Əgər qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan qəyyumlar əqd bağlayarlarsa, himayəçilər isə bu əqdlərin bağlanmasına razılıq verərlərsə, onda onların hüquqi əhəmiyyəti olmur. Bu cür əqdlər etibarsız sayıla bilər.

Qəyyumluq və himayəçilik orqanından qabaqcadan icazəsi alınması tələb olunan əqdlərə mülki qanunvericilik şamil edir:

- qəyyumluqda (himayədə) olanın əmlakının **özgəninkiləşdirilməsinə yönələn əqdlər** (əmlakı satmaq, dəyişdirmək, bağışlamaq, icarəyə vermək, kirayə vermək, girov qoymaq, ipotekaya vermək, əvəzsiz istifadəyə vermək və s.). Qəyyum bu cür əqdlər bağlayarkən, himayəçi isə onların bağlanmasına razılıq verərkən hökmən və mütləq qəyyumluq və himayəçilik orqanından qabaqcadan icazə alınması gərəkdir və vacibdir;
- qəyyumluqda və ya himayədə olan şəxsə mənsub olan **mülki əmlak hüquqlarından imtinaya səbəb olan əqdlər** (miras əmlakı qəbul etməkdən imtina əqdi; borcun alınmasından və geri qaytarılmasından imtina əqdi; verilən hədiyyəni qəbul etmək əqdi; kirayə və ya icarə haqqını almaqdan imtina əqdi

[1] bax: Mülki-Prosessual Məcəllənin 322-ci maddəsinin 1-ci və 2-ci bəndləri.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 117; Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1995, с. 66; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 149.

[1] bax: Ailə Məcəlləsinin 141-ci maddəsiin 6-cı bəndi.

və s.). Məsələn, on yaşlı uşağa vəsiyyət yolu ilə babasından bağ evi keçir. Qəyyum bağ evini, yəni miras əmlakı qəbul etməkdən imtina etmək üçün hökmən qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almalıdır. Başqa bir misalda qonşunun on üç yaşlı uşağa borcu vardır. Qəyyum bu borcdan imtina etmək üçün mütləq qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almalıdır.

• qəyyumluqda və ya himayədə olanın **əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdlər** (mülkiyyətçisi və ya mülkiyyətçilərdən biri qəyyumluqda və ya himayədə olan şəxsin yaşayış evinin bölüşdürülməsi);

• qəyyumluqda və ya himayədə olanın **əmlakının azalmasına səbəb olan hər hansı digər əqd.**

Mülki qanunvericilik qəyyumluq və himayəçilik orqanının göstərilən əqdlərin bağlanmasına hansı formada icazə (razılıq) verməsini müəyyənləşdirmir. Biz elə hesab edirik ki, icazəsinin forması bağlanan əqdin (yəni bağlanması üçün qabaqcadan qəyyumluq və himayəçilik orqanının icazə verməsi tələb olunan əqdin) formasına uyğun gəlməlidir. Məsələn, qəyyumluqda olan şəxsin yaşayış evi satılarkən alqı-satqı müqaviləsi notariat qaydasında təsdiqlənir. Mülki qanunvericilik daşınmaz əşyaların alqı-satqı müqaviləsi üçün notarial forma müəyyən edir. Deməli, qəyyumluq və himayəçilik orqanı yaşayış evinin alqı-satqı müqaviləsinin bağlanmasına razılığı notarial formada verməlidir. Qəyyum fəaliyyət qabiliyyəti olmayan ruhi xəstənin bağ evini kirayəyə verir və sadə yazılı formada kirayə müqaviləsi bağlayır. Qəyyumluq və himayəçilik orqanı icazəni buna uyğun olaraq sadə yazılı formada verir.

Qəyyumların (himayəçilərin) üzərinə qoyulan vəzifələrdən biri **onların qəyyumluqda və ya himayədə olanla əqd bağlamamasına borclu** olmasından ibarətdir[1]. Bu cür vəzifənin nəzərdə tutulması qəyyumların (himayəçilərin) qəyyumluq (himayəçilik) aktından tamah niyyəti ilə istifadə etmək, sui-istifadəyə yol vermək hallarının qarşısını almaq məqsədi güdür. Bu məqsədlə də mülki qanunvericilik qəyyumun (himayəçinin) qəyyumluqda (himayədə) olan şəxslə əqd bağlamasını qadağan edir. Qanun həm də qəyyumun (himayəçinin) ərinin (arvadının) və onun yaxın qohumlarının qəyyumluqda (himayədə) olan şəxslə əqd bağlamasını yasaqlayır. Bununla qanun mümkün ola biləcək hər hansı sui-istifadənin qarşısını almağı təmin edir. Yaxın qohumlar dedikdə, qəyyumun (himayəçinin) valideynləri, qardaş-bacıları, övladları (o cümlədən övladlığa götürən) başa düşülür.

Göstərilən bu ümumi qaydadan mülki qanunvericilik yalnız bir halda istisnaya yol verir. Belə ki, qanun qəyyumun (himayəçinin), onun ərinin (arvadının) və yaxın qohumlarının qəyyumluqda (himayədə) olan şəxslə iki cür əqd bağlamasını mümkün hal hesab edir, qadağan etmir. Bu əqdlərə aiddir: qəyyumluqda (himayədə) olana hədiyyə kimi əmlak verilməsi əqdi, yəni bağışlama müqaviləsi bağlamaq (onlar qəyyumluqda və himayədə olanlara yaşayış evi, minik avtomobili, musiqi alətləri, geyim şeyləri, valyuta və s. bağışlaya bilərlər); qəyyumluqda (himayədə) olanın əvəzsiz istifadəsinə əmlak verilməsi, yəni əvəzsiz istifadə müqaviləsi bağlamaq (onlar qəyyumluqda və ya himayədə olan şəxsə əvəzsiz istifadə üçün hər hansı dövriyyə qabiliyyətli əmlak verə bilərlər).

Qəyyumlar (himayəçilər) məhkəmədə öz qəyyumluğunda (himayəsində) olan şəxslərin **hüquqlarını xüsusi səlahiyyət almadan müdafiə etməyə borcludurlar.** Bəzi məqamlarda onların bu cür vəzifə daşımaq imkanı məhdudlaşır. Məsələ burasındadır ki, qəyyumun (himayəçinin) əri (arvadı) və onun yaxın qohumları ilə qəyyumluqda (himayədə) olan şəxs arasında əmlak mübahisəsi yarana bilər.

Bu cür halda, şübhəsiz ki, maraqlı tərəf iddia ərizəsi ilə məhkəməyə müraciət edir. Aparılan məhkəmə işində bir tərəf rolunda qəyyumluqda (himayədə) olan şəxs, digər tərəf qismində isə qəyyumun (himayəçinin) əri (arvadı) və onun yaxın qohumları iştirak edir. Bax, belə halda qəyyum (himayəçi) qəyyumluqda (himayədə) olan şəxsin hüquqlarını məhkəmədə müdafiə və həmin şəxsi təmsil edə bilməz. Qanun bunu qadağan edir (MM-in 36-cı maddəsinin 3-cü bəndi).

5. Qəyyumluqda (himayədə) olanın əmlakının etibarlı idarə olunması

Qəyyumluqda (himayədə) olan şəxsin mülkiyyətində müxtəlif daşınmaz və qiymətli daşınar əmlak növləri ola bilər. Bunların arasında elələri ola bilər ki, öz xüsusiyyətlərinə görə saxlanması, qulluq göstərilməsi və idarə olunması xüsusi diqqət, qayğı tələb etsin. Başqa sözlə desək, bu cür əmlak növlərinin müntəzəm idarə olunmasına ehtiyac və zərurət yarana bilər. Bundan əlavə, qəyyumluqda (himayədə) olanın əmlakı onun yaşayış yerindən başqa ərazidə (rayonda, şəhərdə və s.) yerləşə bilər. Bu hal isə qəyyuma (himayəçiyə) həmin əmlakı idarə etməyə mane olur. Belə hallarda qəyyumluq və ya himayəçilik orqanı göstərilən həmin əmlak növlərini onların etibarlı idarə edilməsi üçün idarəçiyə verir. Özü də idarəçini bu orqan müəyyənləşdirir.

Əmlakın etibarlı idarə olunması Azərbaycan Respublikasının müasir mülki qanunvericiliyi üçün yeni anlayışdır. Düzdür, əmlakın etibarlı idarə olunmasına aid bəzi fraqmentlərə köhnə mülki qanunvericilikdə rast gəlmək olurdu. Belə ki, əvvəlki 1964-cü il MM-in 19-cu maddəsində məhkəmə qətnaməsinə əsasən xəbərsiz itkin düşmüş hesab edilən vətəndaşın əmlakı üzərində qəyyumluq müəyyən edilməsi nəzərdə tutulmuşdu. Əmlakın etibarlı idarə olunması institutunun kökü ingilis-amerikan hüquq ailəsi ölkələrində geniş yayılmış etibarlı mülkiyyət institutu ilə bağlıdır. Amma bu institutları bir-biri ilə eyniləşdirmək olmaz. Bunlar arasında əsas fərqli cəhət ondan ibarətdir ki, əmlak etibarlı mülkiyyətə verildikdə həqiqi (real) mülkiyyətçi mülkiyyət hüququnu itirir, etibarlı mülkiyyətçi isə mülkiyyət hüququ əldə edir. **Əmlak etibarlı idarə olunmağa verildikdə isə həqiqi (real) mülkiyyətçi mülkiyyət hüququnu itirmir. O, əmlakın mülkiyyətçisi kimi qalır**[1].

[1] Göstərilən vəzifə nümayəndəlik münasibətlərindən əmələ gəlir. Belə ki, nümayəndə təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz (MM-in 359-cu maddəsinin 3-cü bəndi).

[1] bax: *Нарышкина Р.Л.* Доверительная собственность в гражданском праве Англии и США. М., 1966.

Etibarlı idarə olunmanın obyekti rolunda, hər şeydən əvvəl, daşınmaz əmlak (torpaq sahəsi, bağ evi, yaşayış evi, ayrıca su obyektləri və s.) çıxış edir. Obyekt qiymətli daşınar əmlak növləri (məsələn, qiymətli kağızlar) də ola bilər.

Əmlakın etibarlı idarə olunması üzrə münasibətlər müqavilə ilə rəsmiləşdirilir. Buna **əmlakın etibarlı idarə edilməsinə dair müqavilə** deyilir. O, əmlakı idarə edənlə (idarəçi) qəyyumluq və himayəçilik orqanı arasında bağlanır. Müqavilədə idarəçiyə çatacaq haqqın mənbəyi və məbləği, onun məsuliyyəti və əmlak barəsində hüquqları nəzərdə tutulur. Etibarlı idarəçi öz funksiyasını bu müqavilə əsasında həyata keçirir.

Etibarlı idarəçiliyə verilən əmlak qəyyumluqda (himayədə) olan şəxslərin digər əmlak növlərindən ayrılır. İdarəçi bu şəxslərin mənafeyi üçün əmlakı səmərəli idarə etməlidir. Bunun üçün o, lazım olan bütün hüquqi və faktiki hərəkətləri yerinə yetirir. Əmlakdan istifadə nəticəsində əldə edilən gəlirləri (məsələn, səhm qiymətli kağızları üzrə dividendləri və s.), bəhərləri (məsələn, ağacların meyvələrini, mal-qaranın balasını və s.) idarəçi mülkiyyətçiyə, yəni qəyyumluqda (himayədə) olan şəxsə verməlidir (MM-in 135-ci maddəsinin 12-ci bəndi). İdarəçinin borcudur ki, əmlakdan qəyyumluqda (himayədə) olan şəxsin mənafeyi üçün istifadə etsin. Bu vəzifənin düzgün icrası üzərində nəzarəti qəyyumluq və himayəçilik orqanı həyata keçirir. Axı, bu orqan müqavilə iştirakçılarından biridir. Əmlakın idarə edilməsindən çatası **gəlirləri qəyyum (himayəçi) yalnız qəyyumluqda (himayədə) olan şəxsin mənafeyi üçün, həm də qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almaqla xərcləyə bilər.**

Etibarlı idarəçinin əmlak barəsində hüquqları qeyri-məhdud deyil. Belə ki, o, əmlakın özgəninkiləşdirilməsinə və s. yönələn əqdləri (bu əqdlər MM-in 36-cı maddəsinin 2-ci bəndində göstərilmişdir) yalnız qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almaqla bağlaya bilər. Bundan əlavə, etibarlı idarəçi, onun arvadı (əri) və yaxın qohumlarının qəyyumluqda (himayədə) olan şəxslə əqd bağlamağa ixtiyarı çatmır (MM-in 37-ci maddəsinin 1-ci bəndi, 36-cı maddəsinin 3-cü bəndi).

Qəyyumluqda (himayədə) olan şəxsin, şübhəsiz ki, əmlakının hamısı etibarlı idarə etməyə verilmir. Qəyyum (himayəçi) qalan həmin əmlak barəsində öz səlahiyyətlərini itirirmi? Mülki qanunvericilik bu suala cavabsız qoymur. Belə ki, qəyyum (himayəçi) qəyyumluqda (himayədə) olanın etibarlı idarəetməyə verilməmiş əmlakı barəsində öz səlahiyyətlərini saxlayır (MM-in 37-ci maddəsinin 1-ci bəndi).

Əmlakın etibarlı idarəetməyə verilməsi **müddətli xarakter** daşıyır. O, müxtəlif əsaslara görə ləğv edilir: əmlakın etibarlı idarəetməyə verilməsinə dair müqavilənin müddətinin başa çatması; qəyyumluq və ya himayəçiliyin başa çatması; qəyyumluq və ya himayəçiliyin ləğv edilməsi; etibarlı idarəçinin ölməsi; qəyyumluqda (himayədə) olan şəxsin ölməsi; idarəçinin fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi və s.

6. Qəyyumluğa və himayəçiliyə xitam verilməsi

Qəyyumluğa və himayəçiliyə xitam verilməsi dedikdə, qəyyumluq və himayəçilik münasibətinin ləğv edilməsi başa düşülür. Mülki qanunvericilik qəyyumluq və himayəçilik münasibətinin müxtəlif əsaslara görə ləğv oluna bilməsini nəzərdə tutur. Bu münasibət ayrı-ayrı hüquqi faktlar əsasında xitam olunur.

Qəyyumluğa və himayəçiliyə xitam verilməsi əsaslarından biri **yetkinlik yaşına çatmayan şəxsin valideynlərinə qaytarılması və ya övladlığa götürülməsi faktıdır** (MM-in 38-ci maddəsinin 1-ci bəndi). Yetkinlik yaşına çatmayan şəxs müxtəlif amillərə görə valideynlərinə qaytarıla bilər: valideynlərin sağalması; valideynlik hüquqlarının bərpa olunması; valideynlərin uşaqları tərbiyələndirmək və ya hüquq və mənafelərini müdafiə etmək imkanı bərpa olunduqda; cinayət cəzasını çəkib qurtarmaqla valideynlərinin azadlığa buraxılması və s. Bu faktlardan biri olduqda, qəyyumluq və himayəçilik orqanı qəyyumu (himayəçini) öz vəzifələrinin icrasından azad edir. Bununla qəyyumluq və himayəçiliyə xitam verilir.

Qəyyumluğa xitam verilməsinin əsaslarından biri **məhkəmənin qəyyumluqda olanın fəaliyyət qabiliyyətli sayılması haqqında qərar çıxarmasından** ibarətdir (MM-in 38-ci maddəsinin 5-ci bəndi). Söhbət ruhi-psixi xəstələrin və ya kəmağılların sağalmasından və ya sağlamlıq vəziyyətinin xeyli yaxşılaşmasından gedir. Belə halda maraqlı şəxslər (qəyyum, ailə üzvləri, psixiatriya müəssisəsi, qəyyumluq və himayəçilik orqanı) iddia ərizəsi ilə məhkəməyə müraciət edirlər. Qəyyumluqda olanın fəaliyyət qabiliyyətli sayılması barədə məhkəmə qətnaməsi onun üzərində müəyyən edilmiş qəyyumluğun ləğv edilməsi üçün əsasdır. Himayəçiliyə də məhkəmə qətnaməsi əsasında xitam verilir. Belə ki, maraqlı şəxslərin (himayəçinin, psixiatriya müəssisəsinin, qəyyumluq və himayəçilik orqanının) ərizəsi əsasında məhkəmə himayədə olan şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi haqqında qərar qəbul edir. Bu qərar həmin şəxsin üzərində müəyyən olunmuş himayəçiliyin ləğv edilməsi üçün əsasdır.

Qəyyumluqda olan yetkinlik yaşına çatmayanın **14 yaşa çatması qəyyumluğa xitam verilməsi əsaslarından biri** hesab olunur (MM-in 38-ci maddəsinin 6-cı bəndi). Bu zaman qəyyum qəyyumluq və himayəçilik orqanının əlavə qərarı olmadan avtomatik surətdə himayəçi olur. O, həmin şəxsin himayəçisinə çevrilir.

Himayəçiliyə xitam verilməsi əsaslarından biri **himayədə olan yetkinlik yaşına çatmayan şəxsin on səkkiz yaşının tamam olmasıdır** (MM-in 38-ci maddəsinin 7-ci bəndi). Bu zaman qəyyumluq və himayəçilik orqanının hər hansı bir qərarı olmadan himayəçilik avtomatik surətdə ləğv edilir.

Emansipasiya əsasında himayəçiliyə vaxtından əvvəl xitam verilir. Belə ki, himayədə olan şəxs emansipasiya qaydasında yetkinlik yaşına çatanadək tam mülki-hüquqi status (tam fəaliyyət qabiliyyəti) əldə edir. Bu cür halda himayəçilik qəyyumluq və himayəçilik orqanının əlavə qərarı olmadan ləğv edilir.

Nikah yaşının aşağı salınması qaydasında ailə qurmaq (nikah yetkinliyi) yolu ilə himayədə olan şəxs vaxtından əvvəl 18 yaşa çatanadək tam fəaliyyət qabiliyyəti əldə edə bilər. Belə halda da himayəçilik qəyyumluq və himayəçilik orqanının qərarı olmadan avtomatik surətdə ləğv edilir.

Qəyyumluq (himayəçilik) **qəyyumluqda (himayədə) olan şəxsin ölümü** ilə də ləğv edilə bilər.

7. Qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından kənarlaşdırılması

Qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından kənarlaşdırılması qəyyumluğa və himayəçiliyə xitam verilməsi əsaslarından biridir. Onların öz vəzifələrinin icrasından azad olunması nəticəsində də qəyyumluq və himayəçilik münasibəti ləğv edilə bilər.

Kənarlaşdırma dedikdə, qəyyumların və himayəçilərin yol verdikləri təqsirli hərəkətlərə görə məcburi surətdə öz vəzifələrinin icrasından uzaqlaşdırılmasına yönələn akt başa düşülür. Bu baxımdan, o, qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından azad olunması anlayışından fərqlənir. **Azadolunma** dedikdə, qəyyumların (himayəçilərin) bu və ya digər üzrlü səbəbə görə könüllü (qeyri-məcburi) surətdə öz vəzifələrinin icrasından uzaqlaşdırılmasına yönələn akt başa düşülür. Kənarlaşdırma aktı azad olunma aktından fərqli olaraq qəyyumun (himayəçinin) təqsirli hərəkətləri ilə bağlıdır[1]. Bu akt mahiyyətcə **onların təqsirli davranışına görə tətbiq edilən sanksiyadır**. Onun tətbiq edilməsi nəticəsində də arzuolunmaz nəticələr yarana bilər. Məsələn, öz vəzifələrinin icrasından kənarlaşdırılan qəyyumlar (himayəçilər) bir daha qəyyum (himayəçi) təyin oluna bilməzlər[2]. Bu cür şəxslərin övladlığa götürmək imkanını qanun qadağan edir[3]. **Azadetmə isə mahiyyətcə sanksiya deyil**. Onun nəticəsində qəyyum (himayəçi) üçün arzuolunmaz nəticələr yaranmır.

Qanunda nəzərdə tutulan bir sıra hallarda azadolunma aktı nəticəsində qəyyumluq və himayəçilik münasibətinə xitam verilir. Yetkinlik yaşına çatmayan şəxsin **valideynlərinə qaytarılması və ya övladlığa götürülməsi nəticəsində qəyyumun (himayəçinin) öz vəzifələrinin icrasından azad edilməsi** bu hallardan biridir (MM-in 38-ci maddəsinin 1-ci bəndi).

Qəyyumluqda (himayədə) olan şəxsin müvafiq **tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisəsinə və ya digər oxşar müəssisəyə yerləşdirilməsi bu cür hallardan ikincisidir** (MM-in 38-ci maddəsinin 2-ci bəndi). Belə halda həmin müəssisə yeni qəyyum (himayəçi) rolunda çıxış edir. Qəyyumların (himayəçilərin) vəzifəsini göstərilən müəssisələrin müdiriyyəti həyata keçirir (MM-in 35-ci maddəsinin 4-cü bəndi). Əvvəlki qəyyum (himayə) isə öz vəzifələrinin icrasından qəyyumluq və himayəçilik orqanı tərəfindən azad edilir, bir şərtlə ki, bu, qəyyumluqda (himayədə) olanın mənafelərinə zidd olmasın. Bununla qəyyumluğa və himayəçiliyə xitam verilir.

Qəyyumluq və himayəçiliklə bağlı münasibətin ləğv edilməsinə əsas olan hallardan üçüncüsü **üzrlü səbəblərə görə qəyyumun (himayəçinin) öz xahişi və arzusu ilə vəzifələrinin icrasından azad olunmasıdır** (MM-in 38-ci maddəsinin 3-cü bəndi). Bu cür üzrlü səbəblərin dəqiq və qəti siyahısı mülki qanunvericilik tərəfindən müəyyənləşdirilmir. Mülki qanunvericilik onların təxmini siyahısını verir: qəyyumun (himayəçinin) xəstələnməsi; qəyyumun (himayəçinin) əmlak vəziyyətinin dəyişməsi (borca düşməsi, müflisləşməsi, kreditorların ona pul tələbi irəli sürməsi və s.); qəyyumluqda (himayədə) olanla qarşılıqlı anlaşmanın yoxluğu və s. Üzrlü səbəblərə digər halları da aid etmək olar: qəyyumun (himayəçinin) başqa şəhərə köçüb getməsi; qəyyumun (himayəçinin) iş yerini dəyişməsi; qəyyumun (himayəçinin) xaricə işləməyə göndərilməsi; qəyyumun (himayəçinin) ailə qurması və ya onun ailə vəziyyətinin dəyişməsi; tez-tez onun xidməti ezamiyyətə göndərilməsi; qəyyumun (himayəçinin) kifayət qədər təcrübəsinin, pedaqoji biliyinin olmaması.

Üzrlü səbəblərin motivini qəyyum (himayəçi) sübut etməli və əsaslandırmalıdır. Əgər onun irəli sürdüyü arqumentləri və halları qəyyumluq və himayəçilik orqanı üzrlü səbəblər kimi qiymətləndirərsə, onda qəyyumun (himayəçinin) vəzifəsinin icrasından azad olunması barədə müvafiq qərar qəbul edir.

Kənarlaşdırma aktının tətbiq edilməsinə müxtəlif əsaslar səbəb ola bilər. Mülki qanunvericilik bu əsasların təxmini olmayan siyahısını verir (MM-in 38-ci maddəsinin 4-cü bəndi). Onlara aiddir: qəyyumun (himayəçinin) öz üzərinə düşən vəzifələri lazımınca yerinə yetirməməsi; qəyyumun (himayəçinin) qəyyumluqdan (himayəçilikdən) tamah məqsədi ilə istifadə etməsi (məsələn, mənzil sahəsini tutması, miras əmlakdan istifadə etməsi və s.); qəyyumun (himayəçinin) qəyyumluqda (himayədə) olan şəxsi nəzarətsiz və zəruri köməksiz qoyması (məsələn, maddi yardım etməmək və s.).

Bu əsaslardan biri olduqda qəyyumluq və himayəçilik orqanı təqsirli davranışa yol verən qəyyumu (himayəçini) vəzifələrinin icrasından kənarlaşdırmaq barədə qərar qəbul edir. Bununla qəyyumluğa və himayəçiliyə xitam verilir. Əgər qəyyum (himayəçi) öz təqsirli hərəkətləri ilə cinayət əməlinə yol verərsə, onda qəyyumluq və himayəçilik orqanı təqsirli şəxsin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunması məsələsinin həlli üçün lazımi materialları hüquq-mühafizə orqanlarına göndərir. Bundan əlavə, o, qəyyumluqda (himayədə) olan şəxsin əmlakına vurduğu zərərə görə mülki-hüquqi məsuliyyət daşıyır.

8. Patronaj

Yaşadığımız həyatda elə kateqoriya şəxslərlə rastlaşırıq ki, bu şəxslər tam yetkinlik yaşına çataraq mülki fəaliyyət qabiliyyətinə malik olurlar. Amma onlar sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini yerinə yetirməyə qadir olmurlar. Bu cür şəxsləri haqlayan ağır xəstəlik, cismani-fiziki çatışmazlıq (kor olmaq, karlıq) və qocalıq (ahıl) yaşı imkan vermir ki, onlar öz əmlakını idarə etsin, bu əmlak barəsində sərəncam səlahiyyətini həyata keçirsin, məişət təlabatını ödəmək üçün əqdlər bağlasın, məsələn, özü üçün ərzaq məhsulları, geyim şeyləri alsınlar və s. Bəs, vəziyyətdən necə çıxmalı? Bu cür şəxslərin mənafeyini necə təmin etməli?

Tam yetkinlik yaşına çatmış mülki fəaliyyət qabiliyyətli bu cür şəxslərin mənafeyini təmin etmək üçün mülki qanunvericilik patronaj (latınca patronus - himayədar, köməkçi) adlı xüsusi forma müəyyən edir (MM-in 39-cu maddəsinin 1-ci bəndi).

---

[1] Bəzi müəlliflər göstərirlər ki, kənarlaşdırma qəyyumun (himayəçinin) təqsirli olmadan da mümkün ola bilər. Bu fikir həqiqətdən uzaqdır (bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1995, с. 69; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 151).

[2] bax: Ailə Məcəlləsinin 237-ci maddəsinin 3-cü bəndi.

[3] bax: Ailə Məcəlləsinin 120.1-ci maddəsinin 3-cü bəndi.

Patronaj himayəçiliyin xüsusi formasıdır. Bu forma onu sübut edir ki, himayəçilik nəinki natamam (nisbi) və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər üzərində müəyyən olunur, həm də tam yetkinlik yaşına çatmış mülki fəaliyyət qabiliyyətli şəxslər üzərində də təyin edilə bilər.

Patronaj hüquq institutu Azərbaycan Respublikasının müasir və yeni mülki qanunvericiliyi üçün novelladır. Düzdür, Azərbaycan SSR-in 1970-ci il Nigah və Ailə Məcəlləsinin 16-cı maddəsi səhhətinə görə müstəqil olaraq öz hüquqlarını həyata keçirə və vəzifələrini yerinə yetirə bilməyən fəaliyyət qabiliyyətli yetkinlik yaşına çatan şəxslər üzərində himayəçilik təyin edilməsi barədə göstəriş ifadə edirdi[1]. Qeyd etmək lazımdır ki, sovet dövrünün ailə-nikah qanunvericiliyi patronaj institutuna aid yalnız bəzi fraqmentləri tənzimləyirdi. Amma bu qanunvericilik həmin institutun əsl və həqiqi təbiətini müəyyənləşdirmirdi.

Patronaj iki mənada işlədilir: hüquq institutu mənasında patronaj; hüquqi akt mənasında patronaj. **Hüquq institutu mənasında patronaj** dedikdə, patronajla bağlı yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür.

Hüquqi akt mənasında patronaj dedikdə, elə bir fəaliyyət başa düşülür ki, bunun nəticəsində sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin hüquq və mənafeyi təmin edilir və qorunur, ona kömək göstərilir. Üzərində patronaj təyin edilən şəxs köməyə ehtiyacı olan şəxsdir. Ağır xəstəlik, fiziki-cismani qüsur (məsələn, kor olmaq, qəza nəticəsində əlil olmaq, şikəstlik və s.), ahıllıq və qocalıq həmin şəxsə imkan vermir ki, hərəkət etsin, özünə xidmət göstərsin, bazara-dükana gedib ərzaq məhsulları və s. alsın. Bu şəxsin övladları və yaxın qohumları qanuna görə maddi kömək göstərməyə borclu olsalar da, ona hər hansı yardım etmirlər. Amma **övladların və yaxın qohumların olması həmin şəxs üzərində patronaj təyin edilməsinə mane ola bilməz.**

Köməyə ehtiyacı olan şəxs onun üzərində patronaj təyin edilməsi üçün qəyyumluq və himayəçilik orqanına ərizə ilə müraciət edir. Qəyyumluq və himayəçilik orqanı ərizəyə baxaraq, patronaj təyin edilməsi barədə müvafiq qərar çıxarır. Bu orqan həm də həmin şəxs üzərində konkret himayəçi müəyyənləşdirir və təyin edir. Belə himayəçi **patron (köməkçi)** adlanır. Patron qanunun himayəçi olan şəxslər üçün müəyyən etdiyi şərtlərə (tələblərə) mütləq cavab verməlidir (MM-in 35-ci maddəsinin 2-ci və 3-cü bəndləri). Özü də himayəçini təyin edərkən qəyyumluq və himayəçilik orqanı hökmən köməyə ehtiyacı olan şəxsin razılığını almalıdır. Bu orqanın həmin **şəxsin razılıq vermədiyi patronu (köməkçini) təyin etməyə ixtiyarı çatmır.** Bu, patronaj aktının labüd və məcburi şərtidir.

Patron (köməkçi) öz funksiyasını iki cür mülki-hüquqi müqavilə əsasında yerinə yetirir: tapşırıq müqaviləsi əsasında; etibarlı idarəetmə müqaviləsi əsasında. Bu müqavilə patronla himayədə olan şəxs arasında bağlanır. Patron göstərilən müqavilələr əsasında həmin şəxsin mülkiyyətində olan əmlakı barəsində sərəncam verir, onun əmlak hüquqlarını həyata keçirir.

Məişət və digər əqdləri patron (köməkçi) yalnız himayədə olan fiziki şəxsin razılığı ilə bağlaya bilər. **Məişət və digər əqdlər** dedikdə, himayədə olan şəxsin saxlanmasına və onun məişət ehtiyacının ödənilməsinə yönələn əqdlər (ərzaq məhsulları, geyim şeyləri, məişətdə işlənən predmetlər və ev avadanlıqları, dava-dərman və s. almaq) başa düşülür. Bu cür əqdlər bağlanan zaman patron (köməkçi), şübhəsiz ki, üzərində patronaj müəyyənləşdirilən şəxsin cari gəlirlərindən istifadə edir. Bu cür gəlirlərə aiddir: onun aldığı pensiya; ona verilən dövlət müavinətləri; yetkinlik yaşına çatmış övladların ona ödədiyi aliment və s. Patron (köməkçi) himayədə olan şəxs üçün lazımi məişət şəraiti yaratmalı, onun tibbi müalicəsini təmin etməli, ümumiyyətlə, vicdanla həmin şəxsin qayğısına qalmalıdır. Onun üzərinə qoyulmuş bu və ya digər vəzifələrin lazımınca yerinə yetirilməsinə qəyyumluq və himayəçilik orqanı nəzarət edir. Özü də həmin vəzifələri icra edərkən patronun öz himayəsində olan şəxslə birlikdə yaşaması tələb olunmur. Bu, o deməkdir ki, onlar birlikdə də, ayrılıqda da yaşaya bilərlər.

Patronaj müxtəlif əsaslara görə xitam oluna bilər. Hər şeydən əvvəl, patronaj **himayədə (patronajda) olan şəxsin tələbi ilə ləğv edilir.** Fiziki şəxs istədiyi vaxt hər hansı dəlil, arqument, motiv gətirmədən onun üzərində təyin edilmiş patronajın ləğv olunmasını tələb edə bilər.

Patronajda olan şəxsin **müalicə və ya əhalinin sosial müdafiəsi müəssisəsinə yerləşdirilməsi patronaj münasibətinə** xitam verilməsi əsaslarından biridir. Bu cür halda patron öz vəzifələrinin icrasından azad olunur.

Üzrlü səbəblərə görə patronun xahişi ilə öz vəzifələrinin icrasından azad edilməsi patronaj münasibətinə xitam verilməsi əsaslarından biri sayılır. Bu səbəblər patronun bundan sonra öz vəzifələrini yerinə yetirmək imkanını qeyri-mümkün, istisna edir. Patronun xəstələnməsi, əmlak vəziyyətinin dəyişməsi, patronajda olan şəxslə qarşılıqlı anlaşmanın yoxluğu, başqa şəhərə köçməsi, ailə qurması və digər hallar üzrlü səbəblər hesab edilir.

Patronaj münasibəti **patronajda olan şəxsin ölməsi** ilə də xitam edilə bilər. Məlum məsələdir ki, belə halda bu cür münasibətin mövcudluğundan danışmaq olmaz.

Qanunda nəzərdə tutulan hallar olduqda patron (köməkçi) qəyyumluq və himayəçilik orqanının qərarı ilə öz vəzifəsinin icrasından kənarlaşdırılır. Bu halların dairəsi MM-in 38-ci maddəsinin 4-cü bəndində göstərilmişdir. Kənarlaşdırma nəticəsində müvafiq patronaj münasibətinə xitam verilir.

§ 5. Fiziki şəxsin yaşayış yeri

1. Yaşayış yeri anlayışı

Mülki (əmlak) dövriyyədə subyekt rolunda çıxış etmək, öz hüquqlarını həyata keçirmək və qorumaq üçün vacibdir ki, fiziki şəxs dəqiq olaraq digər fiziki şəxslərdən ayrılsın, seçilsin və fərqlənsin. Bu, fərdiləşdirmə vasitələri ilə həyata keçirilir. Fiziki şəxsin mülki (əmlak) dövriyyədə seçilməsini təmin edən əsas fərdiləşdirmə vasitəsi iki cür olur:

- fiziki şəxsin adı;

[1] bax: *Manayev Q.İ.* Sovet ailə hüququ. Dərslik. Bakı. 1989, s. 225; Советское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 116; *Ершова Н.М.* Опека и попечительство. М., 1971.

• fiziki şəxsin yaşayış yeri.

Hər bir fiziki şəxsin ad hüququ vardır. O, mülki hüquq münasibətlərində özünün konkret müəyyən adı ilə çıxış edir. Ad hüququ fiziki şəxsin ən mühüm və vacib qeyri-əmlak hüquqlarından biridir. Şəxsiyyətin adının yüksəkdə durması onun daxili aləminin zəngin olmasına dəlalət edir[1]. Ad hüququ onun ayrılmaz atributlarından biridir. Biz fəsillərin birində bu məsələyə geniş aspektdən toxunacağıq.

Mülki hüquq münasibətlərinin iştirakçısı kimi fiziki şəxsin ayrılmasını və seçilməsini təmin edən fərdiləşdirmə vasitələrindən biri onun yaşayış yeridir. Yaşayış yeri fiziki şəxsin daha dəqiq olaraq konkretləşdirilməsinə imkan verir. Belə ki, yaşadığımız həyatda bəzən adı, atasının adı və soyadı eyni olan və üst-üstə düşən iki müxtəlif fiziki şəxsə təsadüf edirik. Amma yaşayış yerləri eyni olan və üst-üstə düşən iki müxtəlif şəxslə rastlaşmaq qeyri-mümkün hal sayılır.

Fiziki şəxsin yaşayış yeri dedikdə, onun adətən yaşadığı yer başa düşülür (MM-in 27-ci maddəsinin 1-ci bəndi). Yaşayış yerinə verilən leqal anlayışdan məlum olur ki, mülki qanunvericilik fiziki şəxsin yaşayış yerinin müəyyənləşdirilməsini və təyin edilməsini onun «adətən yaşadığı yer» anlayışı ilə bağlayır və əlaqələndirir. Fiziki şəxsin «adətən yaşadığı yer» dedikdə, nə başa düşülür? Məsələnin mahiyyətinə fikir versək, görərik ki, fiziki şəxsin «adətən yaşadığı yer» elə onun «yaşamağa adət etdiyi yer» mənasını ifadə edir. Bəs, fiziki şəxsın «yaşamağa adət etdiyi yer» anlayışının məzmununa necə aydınlıq gətirmək olar? Bu suala cavab vermək üçün «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» 4 aprel 1996-cı il tarixli qanunun 2-ci maddəsinə nəzər yetirmək lazımdır[2]. Burada həmin anlayışın məzmunu açıqlanır.

Fiziki şəxsin yaşamağa adət etdiyi yer dedikdə, onun daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri və digər bu cür yaşayış yerləri başa düşülür. Odur ki, **fiziki şəxsin daimi və ya daha çox yaşadığı yer, onun yaşayış yeri hesab olunur.** Bu isə onu deməyə əsas verir ki, mülki qanunvericilik fiziki şəxsin yaşayış yerinin müəyyən edilməsini, birincisi, onun daimi və ya ikincisi, daha çox yaşadığı evlə, mənzillə və digər yaşayış yerləri ilə bağlayır. Məsələn, kənddən şəhərə işləməyə gələn vətəndaş zavodun yataqxanasında qalır. Yataqxana onun yaşayış yeri hesab olunur. Alim Bakı şəhərinin Nizami küçəsindəki 10 saylı evdə qalır. Həmin ev onun yaşayış yeri hesab edilir. Qoca yaşlı şəhər sakinini qocalar (ahıllar) evinə verirlər. Həmin ev onun yaşayış yeri sayılır. Belə təsəvvür yaranır ki, fiziki şəxsin yaşayış yeri onun **iş yeri və əmlakının olduğu yerlə təyin edilmir.**

Fiziki şəxsin daimi yaşadığı yer dedikdə, həmin şəxsin yaranmış şəraitə və vəziyyətə görə müəyyən bir yerdə qərar tutması, yerləşməsi, yerini bərkitməsi, məskən salması başa düşülür. **Fiziki şəxsin daimi yaşayış yeri** onun eyni bir yerdə həmişəlik möhkəmləndiyi evdir, mənzildir, yataqxanadır, qocalar və əlillər evidir və s. Məsələn, Bakı şəhərində doğulub boya-başa çatan gənc Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirərək Gəncə şəhərinə polis müstəntiqi vəzifəsinə təyin edilir. Gənc işləyərək özünə mənzil alır, bununla orada məskən salır. Gəncə şəhərindəki həmin mənzil onun daimi yaşayış yeri sayılır. Gəncin doğulub boya-başa çatdığı, təhsil aldığı və valideynlərinin yaşadığı Bakı şəhəri isə onun daimi yaşayış yeri hesab edilmir. Özü də fiziki şəxsin daimi yaşadığı evdə mülkiyyətçi, kirayəçi və digər əsaslarla qalmasının məsələyə dəxli yoxdur. Məsələn, vətəndaş uzaq Moskva şəhərinə işləməyə gedir və orada mənzil kirayəyə götürür. Onun Moskva şəhərində kirələdiyi ev daimi yaşayış yeri hesab edilir.

Daimi yaşama fiziki şəxsin müvafiq yerdə hökmən uzun müddət yaşamasını ifadə etmir. Məsələn, yuxarıdakı misalda vətəndaşın Moskva şəhərində kirayəyə götürdüyü yaşayış evini onun daimi yaşayış yeri hesab etmək üçün həmin vətəndaşın göstərilən şəhərdə uzun müddət yaşaması tələb olunmur. Məsələn, vacib deyil ki, vətəndaş Moskva şəhərində vur-tut 1 il, 2 il və ya 3 il və s. qalsın.

Fiziki şəxslərin yaşadıqları həyat və göstərdikləri fəaliyyət elədir ki, onlar daim bir yerdə qərar tuta və məskən sala bilmirlər. Belə ki, fiziki şəxslər bu və ya digər hallara görə bir yerdən başqa yerə hərəkət edərək müxtəlif yerlərdə yaşayırlar. Buna görə də bu cür şəxslərin daimi yaşadığı bir yer olmur. Belə halda həmin şəxslərin yaşayış yeri necə müəyyən olunur? Mülki qanunvericilik bu suala cavab verərək göstərir ki, göstərilən hallarda **fiziki şəxsin yaşayış yeri onun daha çox yaşadığı yerlə müəyyən edilir.**

Fiziki şəxsin daha çox yaşadığı yer dedikdə, onun daha uzun müddət, daha tez-tez olduğu yer başa düşülür. Bu elə bir yerdir ki, fiziki şəxs burada başqa yerlərə nisbətən daha çox yaşayır. Məsələn, Sumqayıtda yaşayan vətəndaş Bakıda işləyir. O, hərdənbir Bakıda olan evində də qalır. Bundan əlavə, bu vətəndaş yay istirahət günlərini Xanlar rayonundakı Hacıkənddə olan evində keçirir. Söz yox ki, onun yaşayış yeri Sumqayıt hesab ediləcəkdir. Ona görə ki, burada vətəndaş digər yerlərə nisbətən daha çox yaşayır.

Bəzi xarici ölkələrin, məsələn, Yaponiyanın mülki hüquq nəzəriyyəsində geniş yayılmış belə bir fikir mövcuddur ki, yaşayış yerini şəxsin yalnız müəyyən bir yerdə **faktiki olaraq daimi yaşaması** (obyektiv amil) kimi yox, həm də onun həmin yerdə əsas yer kimi məskən tutmaq **məqsədinin olması** (subyektiv amil) kimi başa düşmək lazımdır[1]. Bu cür yanaşma bir sıra Qərbi Avropa ölkələrinin, məsələn, Almaniyanın mülki hüququna uyğundur[2]. Zənn edirik ki, şəxsin yaşayış yerinin müəyyən edilməsində subyektiv amil nəzərə almaq lazımdır. Məhz bu cür amildə şəxsin müəyyən yeri öz həyati mənafelərinin mərkəzi seçmək niyyəti ifadə olunur.

Şəxsin yaşayış yeri onu ifadə edir ki, o, həmişə müəyyən bir yerdə məkan salır, necə deyərlər, yerini bərkidir. Onun müvəqqəti olaraq faktiki yaşayış yerində olmaması yaşayış yerinin başqa yaşayış yeri ilə dəyişdirilməsinə dəlalət etmir. Ona görə mülki qanunvericiliyə görə şəxsin hər hansı səbəbdən öz yaşayış yerini müəyyən müddətə tərk etməsi onun yaşayış yerini itirməsinə əsas vermir (MM-in 27-ci maddəsinin 3-cü bəndi) Məsələn, şəhərdə yaşayan geoloq uzun müddətə ekspedisiyaya gedir. O, şəhərdə yaşayış yerini saxlayır, itir-

[1] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1917 г.), с. 91.

[2] bax: AR QK, III cild, s. 65.

[1] *Сакэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 59.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 327.

mir. Başqa bir misalda şəhərdə evi olan dənizçi dəniz səyahətinə çıxır. Söz yox ki, o, yaşayış yerini itirmir.

Fiziki şəxsin bir yox, bir neçə yaşayış yeri ola bilər (MM-in 27-ci maddəsinin 1-ci bəndi)[1]. Bizim ölkə qanunvericiliyinin bu cür göstəriş ifadə etməsi bəzi xarici ölkələrin mülki hüquq doktrinasında nəzərdə tutulan konsepsiyaya uyğun gəlir. Məsələn, Yaponiya sivilistika doktrinasında **yaşayış yerinin çoxsaylı olması kimi konsepsiya** əsaslandırılır. Tokio Universitetinin keçmiş dekanı professor S.Vaqasuma onu daha düzgün konsepsiya hesab edir. Bu konsepsiyaya görə, müəyyən şəxsin yaşayış yerinin sayı birdən çox ola bilər, yəni müəyyən şəxs iki və daha artıq yaşayış yerinə malik ola bilər. Ümumiyyətlə, Yaponiya sivilistika doktrinasında şəxsin yaşayış yerinin sayı məsələsində müəlliflərin fikirləri bir-birindən fərqlənir. Bu məsələni Azərbaycan Respublikasının 1964-cü il MM-i həll etmirdi. Amma yeni MM yaşayış yerinin çoxsaylı olması konsepsiyasını rəsmən nəzərə alaraq şəxsin bir neçə yaşayış yerinə malik ola bilməsi haqqında qayda nəzərdə tutur. Bu konsepsiya onunla izah edilir ki, iqtisadi (əmlak) dövriyyənin inkişafı, şəxsin iştirakçısı olduğu xüsusi (mülki) hüquq münasibətlərinin mürəkkəbləşməsi və bu münasibətlərlə bağlılıq onun bir neçə yaşayış yerinə malik olmasına dəlalət edir.

Fiziki şəxsin yaşayış yeri kifayət qədər dəqiqliklə müəyyən edilir və göstərilir. Kifayət qədər dəqiqlik dedikdə, onun yaşadığı şəhərin və küçənin adının, evin sayının və neçənci mənzil olmasının göstərilməsi başa düşülür. Məsələn, Bakı şəhəri, Nizami küçəsi, 5 saylı evin 10-cu mənzili.

Fiziki şəxsin «yaşayış yeri» anlayışını onun «olduğu yer» anlayışından fərqləndirmək lazımdır. **Fiziki şəxsin olduğu yer** dedikdə, onun müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kemping, turist bazası, xəstəxana və bu cür digər ictimai yerlər, habelə yaşayış binası (özünün, qohumunun, tanışının və b.) başa düşülür[2]. Belə yerlər onun yaşayış yeri sayılmır. Məsələn, vətəndaş Gəncə şəhərindən Bakı şəhərinə müalicə olunmaq üçün gəlir və xeyli müddət xəstəxanada qalır. Xəstəxana həmin vətəndaşın yaşayış yeri yox, olduğu yer hesab edilir. Başqa bir misalda kommersant öz işlərini həll etmək üçün İstanbul şəhərinə gedir və bir ay orada mehmanxanada qalır. Mehmanxana belə halda onun yaşayış yeri yox, olduğu yer sayılır. Digər misalda dincəlməyə gedən şəxs Antalyada istirahət evində qalır. İstirahət evi onun olduğu yer hesab edilir.

Bəzi ölkələrin, məsələn, Yaponiyanın qanunvericiliyində şəxsin olduğu yer **rezidensiya** (latınca residens — olma, qalma, yaşama) anlayışı ilə əhatə olunur. Yaşayış yeri ilə rezidensiya arasında fərq ondan ibarətdir ki, yaşayış yeri hər hansı şəxsin müəyyən yeri öz həyati mənafeyinin mərkəzi seçmək məqsədinin olması ilə xarakterizə edilir. Rezidensiya üçün bu cür məqsədin olması tələb edilmir.

[1] Bəzi müəlliflər göstərirlər ki, hər bir vətəndaşın yalnız bir yaşayış yeri ola bilər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 118); Гражданское право Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 27).

[2] bax: «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» qanunun 2-ci maddəsi (AR QK, III cild, s. 65).

Mülki hüquq üçün fiziki şəxsin olduğu yer yox, məhz onun yaşayış yeri əhəmiyyətə malikdir. Ona görə ki, bir çox mülki-hüquqi hadisələrin əmələ gəlməsi məhz fiziki şəxsin yaşayış yeri ilə əlaqədardır. Onun olduğu yer isə bu cür hadisələrin yaranması ilə bağlı deyildir.

Fiziki şəxsin yaşayış yeri müvafiq sənədlərlə müəyyən edilir. **Şəxsiyyət vəsiqəsi** Azərbaycan Respublikası vətəndaşının, **qeydiyyata alınma haqqında vəsiqə** 30 gündən artıq Azərbaycan Respublikasında yaşayan əcnəbinin (xarici ölkə vətəndaşının), **xüsusi nümunəli şəxsiyyət vəsiqəsi** isə Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin yaşayış yerini təyin edən sənədlərdir. Bu sənədlərdə fiziki şəxslərin yaşayış yeri üzrə qeydiyyata alınması göstərilir. Qeydiyyat əsasında müəyyənləşdirmək mümkün olur ki, şəxsin yaşayış yeri haradadır. Deməli, **qeydiyyat fiziki şəxsin yaşayış yerini müəyyən etməyə imkan verən yazılı sübutdur.**

Bəzən vətəndaş qeydiyyata alındığı yaşayış yerində yox, faktiki olaraq başqa yerdə yaşayır. Bu halda yaşayış yeri necə təyin edilir? Faktiki yaşadığı yeri onun yaşadığı yer hesab etmək olarmı? Qanun vətəndaşın **yaşayış yerinin onun şəxsiyyət vəsiqəsində göstərilən qeydiyyat əsasında təyin olunması qaydasını müəyyən edir**[1]. Buna görə də deyə bilərik ki, göstərilən halda vətəndaşın yaşayış yeri faktiki yaşadığı yer yox, qeydiyyata alındığı yer hesab edilir[2].

2. Yaşayış yerinin seçilməsi

Yaşayış yeri seçmək hüququ fiziki şəxsin mülki hüquq qabiliyyətinin məzmununa daxil olan elmentlərdən (hüquqi imkanlardan) biridir. Belə ki, fiziki şəxslər yaşayış yeri seçmək hüququna malikdirlər. Bu, əsas və vacib insan hüquqlarından biri kimi beynəlxalq sənədlərdə ifadə olunmuşdur. BMT-nin «İnsan hüquqlarının ümumi Bəyannaməsi»nin 13-cü maddəsinə görə hər bir insanın hər bir dövlətin hüdudlarında özünə yaşayış yeri seçmək hüququ var[3]. Bu hüquq həm də Konstitusiya qaydasında təsbit edilmişdir. Konstitusiyanın 28-ci maddəsinin 2-ci hissəsində göstərilir ki, qanuni surətdə Azərbaycan Respublikasının ərazisində hər kəs özünə yaşayış yeri seçə bilər[4].

Yaşayış yeri seçmək hüququ qeyri-maddi nemətlərdən, şəxsi qeyri-əmlak hüquqlarından biridir. Fiziki şəxsin yaşamasını, mövcud olmasını və toxunulmazlığını təmin etməyə yönələn bu nemət onun özündən ayrılmaz olub, maddi (əmlak) məzmundan məhrumdur. O, fiziki şəxsi fərdiləşdirmək xüsusiyyətinə malikdir.

[1] bax: «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» qanunun 3-cü və 5-ci maddələri (AR QK, III cild, s. 66).

[2] Peterburq alimlərindən M.V.Krotov bundan fərqli fikir söyləyərək qeyd edir ki, göstərilən hallarda şəxsin qeydiyyata alındığı yer yox, faktiki yaşadığı yer onun yaşayış yeri hesab edilir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с.108). Bu, əsassız mövqedir. Belə ki, RF-in müvafiq qanununda da vətəndaşın yaşayış yerinin onun qeydiyyata alındığı yerlə müəyyən edilməsi nəzərdə tutulur (bax: Закон РФ «от 25 июня 1993. «О праве граждан РФ на свободу передвижения, выбор места пребывания и жительства в пределах Российской Федерации» // ВВС РФ 1993. № 32, ст. 1227).

[3] bax: İnsan hüquqları. Bakı. 1998. № 1.

[4] bax: AR QK, II cild, s. 575.

Hər bir fiziki şəxs ona verilmiş hüquqi imkandan istifadə edərək özü, bir qayda olaraq, **könüllü surətdə, istəyinə uyğun gələn yaşayış yeri seçir.** Yaşayış yeri seçərkən mülki fəaliyyət qabiliyyəti olan fiziki şəxs özünün iradəsini ifadə edir. Beləliklə, mülki qanunvericilik fiziki şəxslərin müstəqil və sərbəst surətdə özlərinə yaşayış yeri seçmək hüququ prinsipini möhkəmləndirir və bununla ümumi qayda müəyyən edir.

Ümumi qayda ilə bərabər, mülki qanunvericilik iki kateqoriya şəxsin yaşayış yerinin təyin edilməsi barədə xüsusi qayda müəyyənləşdirir. Bu isə o deməkdir ki, qanunda nəzərdə tutulan hallarda fiziki şəxsin özünə yaşayış yeri seçmək hüququ prinsipi məhdudlaşır, bu prinsipdən istisnaya yol verilir. Həmin kateqoriya şəxslər öz istək və mülahizələri əsasında yaşayış yeri seçmək hüququna malik deyillər. Onlara aiddir: on dörd yaşına çatmamış şəxslər; qəyumluq altında olan şəxslər.

On dörd yaşı tamam olmayan yetkinlik yaşına çatmayanların yaşayış yeri onların qanuni nümayəndələrinin (müvafiq olaraq valideynlərinin, övladlığa götürənlərin və ya qəyumlarının) yaşayış yeri hesab edilir[1]. Qanun valideynlik hüquqlarını itirmiş valideynlərin yanında bu şəxslərin yaşamasını qadağan edir (MM-in 27-ci maddəsinin 2-ci bəndi). Bildiyimiz kimi, on dörd yaşınadək şəxslərin valideynləri məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edilərsə, onda həmin şəxslər üzərində qəyyum təyin edilir. Qəyyumun yaşayış yeri bu şəxslərin yaşayış yeri sayılır.

Boşanma nəticəsində valideynlər ayrı yaşadıqda uşaqların yaşayış yeri onların razılığı ilə müəyyən edilir və həll olunur[2]. Valideynlər arasında uşağın kimin yanında yaşamasını müəyyən etmək barədə razılıq əldə edilməyə də bilər. Bu cür halda mübahisə məhkəmə qaydasında həll edilir. Məhkəmə uşağın kimin yanında yaşamasını həll edərkən onun hüquq və mənafeyini, rəyini nəzərə alır.

14 yaşından 18 yaşınadək şəxslərin yaşayış yerini mülki qanunvericilik həmin şəxslərin valideynlərinin yaşayış yeri ilə bağlamır. Belə çıxır ki, bu kateqoriya şəxslər **valideynlərinin razılığı ilə özlərinə yaşayış yeri seçə bilərlər**[3]. Himayədə olan uşaqlara gəldikdə isə onlara mülki qanunvericilik icazə verir ki, on altı yaşına çatdıqda qəyyumluq və himayəçilik orqanının razılığı ilə himayəçidən ayrılıqda yaşasın (MM-in 35-ci maddəsinin 6-cı bəndi). Bundan belə nəticəyə gələ bilərik ki, himayədə olan uşaqlar 16 yaşından etibarən yaşayış yeri seçə bilərlər. Himayədə olan məhdud fəaliyyət qabiliyyətli şəxslər isə yalnız himayəçinin razılığı ilə özünə yaşayış yeri seçə bilərlər.

İkinci kateqoriya şəxslər qəyyumluq altında olan şəxslərdir. Söhbət fəaliyyət qabiliyyəti olmayan **kəmağıllardan və ruhi xəstələrdən** gedir. Bu kateqoriya şəxslərin yaşayış yeri onlar üzərində təyin edilmiş **qəyyumların yaşayış yeri ilə müəyyən olunur.** Onların yaşayış yeri qəyyumların yaşayış yeri hesab olunur (MM-in 27-ci maddəsinin 2-ci bəndi)[1].

Emansipasiya əsasında və ya nikah yaşının aşağı salınması qaydasında ailə quran və bununla vaxtından əvvəl tam mülki fəaliyyət qabiliyyəti əldə edən şəxslər yaşayış yeri seçməkdə sərbəstdirlər. Onlar istədikləri yeri özlərinə yaşayış yeri seçə bilərlər.

Fiziki şəxslərin yaşayış yeri seçmək hüququ mütləq xarakter daşımır. Bu, o deməkdir ki, həmin hüquq qanunda nəzərdə tutulan hallarda məhdudlaşır. Belə ki, sərhəd zonalarında, qapalı hərbi şəhərciklərin ərazilərində, ekoloji fəlakət zonalarında, infeksiya və zəhərlənmə ilə bağlı xüsusi şərtlər və rejimlər qoyulmuş yerlərdə, fövqəladə və ya hərbi vəziyyət elan olunmuş ərazilərdə, habelə müharibə, səfərbərlik elan olunan hallarda fiziki şəxslər yaşayış yeri seçə bilməzlər[2].

Fiziki şəxslərin borcudur ki, onlar yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınsınlar. Bu qeydiyyatın əsas məqsədi ölkə ərazisində yaşayan şəxslərin uçota alınması, sosial müdafiə, pensiya təminatı, hərbi xidmətə çağırış, məhkəmə qərarlarının icrası və s. üçün lazımi şərait yaratmaqdır.

Yaşayış yeri üzrə qeydiyyata alınmaq üçün fiziki şəxsin qanunda nəzərdə tutulan müvafiq sənədləri təqdim etməsi lazımdır. Bu sənədlərə aiddir: ərizə-anket; şəxsiyyət vəsiqəsi və ya doğum haqqında şəhadətnamə; yaşayış sahəsinə köçmək üçün əsas verən sənəd (mülkiyyət hüququnun qeydiyyat vəsiqəsi və s.); fiziki şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi.

3. Yaşayış yerinin hüquqi əhəmiyyəti

Yaşayış yeri mülki hüquq üçün böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, Yaponiya qanunvericiliyinə görə, yaşayış yeri hər bir insanın «həyatının əsası» hesab edilir (MM-in 21-ci maddəsi)[3]. Yaşayış yeri şəxsin öz həyati mənafelərinin mərkəzi kimi seçdiyi məkandır. Bir çox mülki hüquq hadisələrinin yaranması məhz fiziki şəxslərin yaşayış yeri ilə bağlıdır. Onların hüquq və mənafelərinin qorunmasında yaşayış yerinin rolu böyükdür.

Yaşayış yerinin hüquqi əhəmiyyəti, hər şeydən əvvəl, **mülki hüquq sahəsində** təzahür edir. Belə ki, bəzi öhdəliklərin (öhdəlik hüquq münasibətlərinin) icrası yeri borclu fiziki şəxsin yaşayış yeri ilə müəyyən edilir (MM-in 426-cı maddəsinin 2-ci bəndinin 3-cü yarımbəndi).

Mirasın açıldığı yer miras qoyan (ölmüş) fiziki şəxsin yaşayış yeri ilə müəyyən edilir (MM-in 1147-ci maddəsinin 1-ci bəndi). Mirasın açıldığı yerin təyin edilməsi vacib praktiki əhəmiyyətə malikdir. Məhz bu yerə görə vərəsəliyə çağırılan şəxslərin dairəsi müəyyən edilir, miras qəbul və ya ondan imtina olunur, habelə vərəsəlik hüquqlarının rəsmiləşdirilməsi üçün digər hərəkətlər həyata keçirilir. Məsələn, mirasın açıldığı yeri müəyyən etməklə vərəsəlik şəhadətna-

[1] Yaşayış yerinin seçilməsində sərbəstlik prinsipindən istisnaya yol verilməsi «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» qanunun 2-ci maddəsində də nəzərdə tutulmuşdur (AR QK, III cild, s. 66).

[2] bax: Ailə Məcəlləsinin 60-cı maddəsinin 4-cü bəndi. Ailə qanunvericiliyi 18 yaşına çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxsləri uşaq anlayışı ilə əhatə edir.

[3] Bəzi müəlliflər göstərirlər ki, bu kateqoriya şəxslər tam fəaliyyət qabiliyyətli şəxslər kimi özlərinə yaşayış yeri seçmək hüququna malikdirlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 119; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 78) «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» qanunun 2-ci maddəsində bu şəxslərin valideynlərinin razılığı ilə yaşayış yeri seçmək hüququ nəzərdə tutulur.

[1] bax: «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» qanunun 2-ci maddəsi (AR QK, orada III cild, s. 65).

[2] bax: həmin qanunun 4-cü maddəsi.

[3] *Сакаэ Вагацума, Тору Арииздзуми*. Гражданское право Японии. Книга1. М., 1983, с. 59.

məsi almaq üçün hansı notariat kontoruna müraciət olunması dəqiqləşdirilir.

Fiziki şəxsin xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilməsi məhz onun yaşayış yeri ilə bağlıdır. Növbəti paraqraf bu məsələnin işıqlandırılmasına həsr edilmişdir.

Yaşayış yerinin hüquqi əhəmiyyəti həm də **mülki-prosessual hüquq sahəsində** təzahür edir. Belə ki, mülki işlər üzrə məhkəmə aidiyyətinin təyin edilməsi fiziki şəxsin yaşayış yeri ilə bağlıdır. Bu məsələdə onun mühüm əhəmiyyəti vardır.

Hüquqtətbiqetmə praktikasında belə bir qayda mühüm rol oynayır: fiziki şəxsin həmişə öz yaşayış yerində olması güman və ehtimal edilir, yəni **şəxsin öz yaşayış yerində olması prezumpsiyası müəyyənləşdirilir**. Buna görə də həmin yerə (şəxsin müəyyən müddət burada olmamasına baxmayaraq) rəsmi çağırış vərəqələri, məhkəmə bildirişləri və s. göndərilir.

Beləliklə, bir sıra mülki-hüquqi hərəkətlər fiziki şəxslərin yaşayış yerində həyata keçirilir. Yaşayış yeri hüquqi əhəmiyyətə və rola malik olan anlayışdır.

§ 6. Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi. Fiziki şəxsin ölmüş elan edilməsi

1. Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi

Yaşadığımız həyatda elə faktlarla rastlaşır və üzləşirik ki, şəxs uzun müddət yaşayış yerində olmur və görünmür. Onun olduğu yer məlum olmur. Bu şəxsin harada olması barədə məlumat da olmur. Necə deyərlər, «onu gördüm» söyləyən tapılmır. Həmin şəxsi axtarıb tapmağa təşəbbüs göstərmək nəticə vermir. Bu şəxs müxtəlif xarakterli mülki hüquq münasibətlərinin iştirakçısı olduğu hallarda isə vəziyyət xeyli dərəcədə daha çətin və qəliz olur, mürəkkəb xarakter alır. Məsələn, o, borc hüquq münasibətində borc alan qismində çıxış edə bilər. Əgər o, yaşayış yerində olmazsa, onda borc verən borcu almaq imkanından tam məhrum olur. Başqa bir misalda müəyyən bir şəxs nisyə (kreditlə) satıcıdan mal ala bilər. Əgər həmin şəxsin olduğu yer məlum olmazsa, satıcı malın pulunu necə və kimdən ala bilər? Şübhəsiz, bu cür hallarda borclar ödənilmir və kreditorların (borc pul verənin, nisyə mal satanın və s.) mənafelərinə zərər vurulur.

Bundan əlavə, uzun müddət yeri məlum olmayan və yaşayış yerində görünməyən ailə başçısının himayəsində və öhdəsində qeyri-əmək qabiliyyətli şəxslər (uşaqlar, qoca valideynlər və s.) dolanacaq xərcləri almaqdan məhrum olurlar. Bu şəxslər belə halda ailə başçısını itirməyə görə pensiya almaq üçün müraciət də edə bilmirlər. Çünki onların hələ ailə başçısı vardır. Axı, ailə başçısı olan şəxsin uzun müddət yerinin məlum olmaması hələ onun itirilməsinə, həyatına son qoyulmasına dəlalət etmir. Sözsüz, bu halda yaşayış yerində uzun müddət görünməyən ailə başçısının himayəsi və öhdəsində olan qeyri-əmək qabiliyyətli şəxslərin mənafelərinə zərər vurulur.

Daha sonra uzun müddət yeri məlum olmayan şəxsin əmlakı nəzarətsiz və baxımsız qalır, ona lazımınca qulluq göstərilmir, bu əmlaka zərər vurula bilər. Məsələn, uzun müddət yaşayış yerində görünməyən kənd sakininin malik olduğu mal-qaranın, qoyun-quzunun və s. vaxtında yemlənməməsinin, lazımi

qaydada bəslənməməsinin nə ilə nəticələnəcəyi məlum deyildir. Aydın məsələdir ki, bu cür halda uzun müddət yaşayış yerində görünməyən şəxsin özünün əmlak mənafeyinə ziyan vurula, bu mənafe təmin olunmaya bilər.

Beləliklə, göstərilən məqamlarda şəxsin uzun müddət yerinin məlum olmaması **hüquqi cəhətdən qeyri-müəyyənliyə səbəb olur**. Bu cür qeyri-müəyyənlik isə vətəndaşların, hüquqi şəxslərin (təşkilat, idarə və müəssisələrin), habelə dövlətin hüquq və mənafelərini pozur. Bəs vəziyyətdən necə çıxmalı, hüquqi cəhətdən qeyri-müəyyənliyi necə aradan qaldırmalı? Mümkün ola biləcək arzuolunmaz nəticələrin yaranmasının qarşısını necə almalı? Bu məsələləri həll edib yoluna qoymaq üçün mülki qanunvericilik **xüsusi xarakterli müvafiq qaydalar (normalar)** müəyyən edir. Həmin qaydaların (normaların) məcmusu iki hüquq institutunu yaradır. Onların vasitəsi ilə hüquqi cəhətdən qeyri-müəyyənlik hallan aradan qaldırılır. Bu institutlara aiddir:

- xəbərsiz itkin düşmə institutu;
- ölmüş elan etmə institutu.

Xəbərsiz itkin düşmə institutu bir çox xarici ölkələrin qanunvericiliyinə məlumdur. O, roman-german (kontinental) hüquq ailəsi (sistemi) ölkələri üçün xarakterikdir. Məsələn, Fransa Mülki Məcəlləsinin birinci kitabının beşinci bölməsi[1], İtaliya Mülki Məcəlləsinin birinci kitabının dördüncü bölməsi[2] xəbərsiz itkin düşmə institutuna daxil olan normalan əhatə edir (20-47-ci maddələr). Bu institut Almaniya Mülki Qanunnaməsinin «Ümumi hissə» adlı birinci kitabının birinci bölməsində də nəzərdə tutulmuşdur (§ 14-17)[3]. Amma müstəqil hüquq institutu kimi xəbərsiz itkin düşməni ingilis-amerikan hüquq (ümumi hüquq) ailəsi tanımır[4].

Xəbərsiz itkin düşmə institutu bizim ölkənin yeni mülki qanunvericiliyinə də məlumdur. Azərbaycan Respublikası MM-in 40-cı maddəsində ifadə olunan normalar xəbərsiz itkin düşmə ilə bağlı olan münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Bu institut köhnə 1964-cü il Mülki Məcəlləsində də (18-ci maddə) nəzərdə tutulmuşdu.

Xəbərsiz itkin düşmə anlayışı hüquq institutu mənasını bildirməkdən savayı, həm də hüquqi akt mənasını ifadə edir. **Hüquqi akt mənasında xəbərsiz itkin düşmə dedikdə, şəxsin olduğu yeri müəyyənləşdirmək mümkün olmadıqda, həmin şəxsin yaşayış yerində uzun müddət olmaması faktının məhkəmə qaydasında təsdiqlənməsi başa düşülür**[5]. Qanunda nəzərdə tutulan qaydalardan (normalardan) istifadə etməklə maraqlı şəxslər müvafiq

---

[1] bax: *Жюллио де ла Морандьер.* Гражданское право Франции. М., 1958.

[2] Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 8.

[3] bax. Германское право. Германское уложение. Часть 1 / Под ред. *В.В.Залесского* М., 1996; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1.Полутом 1. М., 1949, с. 292-293.

[4] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого* М., 1998, с. 75.

[5] Ennekserus yazır ki, Almaniya Mülki Qanunnaməsi xəbərsiz itkin düşməyə anlayış vermir və buna görə də «adətən» sözünün işlədilməsindən çıxış etmək lazımdır: xəbərsiz itkin düşən şəxs odur ki, həmin şəxs barəsində uzun müddət məlumat olmur və ona görə də onun ya sağ qalması, ya da ölməsi ehtimal olunur (*Эннекцерус Л.* Göstərilən əsər, s. 292).

dövlət orqanlarına müraciət etməklə bu hüquqi aktı həyata keçirirlər. Həmin aktın əsas məqsədi hüquqi cəhətdən qeyri-müəyyənliyi aradan qaldırmaqdan, mümkün ola bilən arzuolunmaz mənfi nəticələrin qarşısını almaqdan və fiziki şəxslərin hüquqlarını (və ya mənafelərini) müdafiə etməkdən ibarətdir.

Xəbərsiz itkin düşmə institutunun əhəmiyyəti böyükdür. Ziddiyyətli və keşməkeşli keçid dövrü adlanan müasir zamanda bu institutun rolu daha da artır. Belə ki, yaşadığımız müasir zaman keçmiş SSRİ dövlətinin dağılması və parçalanması dövrünə təsadüf edir. Bu dövr isə millətlərarası və etnik zəmində baş verən münaqişələrlə müşayiət olunur. Həmin münaqişələr nəticəsində bəzi vətəndaşların daimi yaşadığı yerdə uzun müddət onların harada olması haqqında məlumat olmur, onların olduğu yeri müəyyənləşdirmək müşkül məsələyə çevrilir. Bu vəziyyətdə xəbərsiz itkin düşmə institutundan istifadə olunur.

2. Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi

Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsinin əsasını nəyin təşkil etməsi, bu cür hesab etmənin əsasında nəyin durması məsələsi sivilistika elmində mübahisə doğurur. Bu barədə, yəni xəbərsiz itkin düşmüş hesab edilməyin əsası barədə üç konsepsiya yaranmışdır: fiziki şəxsin ölümü prezumpsiyası (ehtimalı); fiziki şəxsin yaşaması prezumpsiyası (ehtimalı); fiziki şəxsin itkin düşməsi faktını təsdiqləmək konsepsiyası.

Birinci konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsinin əsasını onun **ölümü prezumpsiyası (ehtimalı)** təşkil edir. Bu konsepsiya ilə çətin ki razılaşmaq olar. Ona görə ki, fiziki şəxsın ölümü prezumpsiyası (ehtimalı) onun ölmüş elan edilməsinin əsasını təşkil edir. Göstərilən həmin konsepsiya mülki hüquq elmində özünə dəstək tapmamışdır.

İkinci konsepsiyaya görə fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsinin əsasında onun **yaşaması prezumpsiyası (ehtimalı)** durur. Ona görə ki, fiziki şəxsin sağ olmamasını (ölümünü) ehtimal və güman etməyə hələ kifayət qədər əsas yoxdur[1]. Bu konsepsiya da əsl həqiqəti ifadə etmir.

Üçüncü konsepsiya tərəfdarları belə hesab edirlər ki, fiziki şəxsin itkin düşmüş elan edilməsinin əsasında hər hansı bir prezumpsiya (ehtimal) durmur[2]. Nə fiziki şəxsin ölməsi, nə də ki fiziki şəxsin yaşaması və ya sağ qalması prezumpsiyası (ehtimalı) onun xəbərsiz itkin düşmüş hesab edilməsinin əsasını təşkil edə bilməz. **Onun əsasında yalnız fiziki şəxsin itkin düşməsi faktını təsdiqləmək,** yəni onun sağ qalması və ya ölməsi məsələsini həll etməyin mümkün olmaması faktını müəyyən etmək durur. Bizim fikrimizcə, üçüncü konsepsiya tərəfdarlarının mövqeyi daha əsaslı, daha inandırıcı və daha ağlabatandır. Doğrudan da, fiziki şəxs xəbərsiz itkin düşmüş hesab edilən-

[1] bax: *Юрченко А.К.* Безвестное отсутствие по советскому гражданскому праву. Л., 1954, с. 21; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко.* Л., 1982, с. 98.

[2] bax. Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева.* М., 1986. с 89-90; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 69; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 111.

də onun əsasını həmin şəxsin itkin düşməsi faktını təsdiqləmək təşkil edir.

Mülki qanunvericilik yalnız məhkəmə yolu ilə fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında qayda müəyyən edir. Məhkəmədən savayı başqa hər hansı bir dövlət orqanının buna ixtiyarı çatmır.

Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi prosedurası Mülki-Prosessual Məcəllə ilə nizama salınır. Bu məcəllənin 32-ci fəslində (312-316-cı maddələr) ifadə olunan normalar həmin məsələ ilə bağlı olan münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Özü də məhkəmənin baxdığı bu məsələ xüsusi icraat qaydasında baxılan işlər kateqoriyasına aiddir. Buna görə də maraqlı şəxslər iddia ərizəsi yox, müvafiq şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edirlər. Maraqlı şəxs rolunda itkin düşən şəxsin əri (arvadı), öhdəsində və himayəsində olan qeyri-əmək qabiliyyətli valideynlər, onun borclu olduğu kreditorlar və digər kateqoriya şəxslər çıxış edə bilərlər.

Məhkəmə yalnız qanunda nəzərdə tutulan hüquqi tərkib olduqda fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi barədə qərar qəbul edə bilər. Bu hüquqi tərkib iki faktın məcmusundan ibarətdir:

- fiziki şəxsin olduğu yerin məlum olmamasından, yəni onun harada olması haqqında məlumatın yoxluğundan;
- fiziki şəxsin iki il ərzində yaşayış yerində görünməməsindən.

Göstərilən bu iki faktın məcmusu məhkəməyə əsas verir ki, o, fiziki şəxsin itkin düşmüş hesab edilməsi haqqında qətnamə çıxarsın. Bu faktları sübut etmək üçün hakim itkin düşən haqqında məlumat verə bilən şəxsləri — qonşuları, ev qulluqçularını və digər kateqoriya şəxsləri aydınlaşdırır, habelə müvafiq orqan və təşkilatlardan (işlədiyi müəssisədən, mənzil istismar sahəsindən, polis orqanlarından) onun barəsində məlumat alır. Amma hakimin ixtiyarı yoxdur ki, maraqlı şəxslərin üzərinə itkin düşən şəxsi axtarmaq vəzifəsi qoysun və həvalə etsin. Qanun ona bu cür səlahiyyət vermir. İtkin düşən şəxsləri axtarmaq polis orqanlarının funksiyalarına daxil olan məsələdir.

Bəzən şəxs qəsdən bilə-bilə uzun müddət yaşayış yerində olmur, yəni müəyyən səbəbə görə fiziki şəxsin olduğu yer məlum olmur. Məsələn, şəxs vurulmuş zərərin əvəzini ödəməmək və ya aliment verməmək və ya vergini ödəməmək üçün qaçıb gizləndiyinə görə uzun müddət yaşayış yerində görsənmir və ya törətdiyi cinayət əməlinə görə məsuliyyətə cəlb olunmaqdan yaxa qurtarmaq üçün başqa yerdə gizlənir. Bu kateqoriya şəxslərin xəbərsiz itkin düşmüş elan edilməsi barədə məhkəmə qərar qəbul edə bilməz. Qaçıb gizlənən cinayətkar barəsində axtarış elan edilir[1].

Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi üçün mühüm əhəmiyyət kəsb edən faktlardan biri onun iki il ərzində yaşayış yerində görünməməsindən ibarətdir[2]. İki il müddət hansı vaxtdan və necə hesablanır? Mülki qanun-

[1] Применение норм гражданского права и процесса в деятельности органов внутренних дел. М., 1972, с. 11.

[2] Ayrı-ayrı xarici ölkələrin qanunvericiliyi bu barədə bir-birindən fərqlənən müxtəlif müddətlər nəzərdə tutur. Məsələn, Yaponiya MM-i 7 il, xüsusi hallar (bədbəxt hadisələr) üçün isə 1 il müddəti müəyyənləşdirir (*Сэкаэ Вагацума, Тору Аримацуми.* Гражданское право Японии. М., Книга 1. 1983, с. 45).

vercilik bu suala cavab vermək məqsədi ilə həmin müddətin hesablanması üçün xüsusi qayda müəyyən edir (MM-in 40-cı maddəsinin 2-ci bəndi). Bu qaydaya görə iki il müddəti fiziki şəxsin itkin düşməsi haqqında son məlumatların alındığı gündən hesablanır. Məhkəmə son məlumatı fiziki şəxsin yazdığı axırıncı məktubla, şahidlərin (valideynlərin, övladların, qonşuların və s.) verdiyi ifadələrlə və digər sübutetmə vasitələri ilə əldə edə bilər. Bəzən itkin düşmüş şəxsin haqqında son məlumatı almaq mümkün olmur, müşkül məsələyə çevrilir. Bu cür halda iki il müddəti itkin düşmüş şəxs haqqında axırıncı məlumat alınandan sonra gələn ayın birinci günündən hesablanmağa başlayır. Bəzi hallarda ayı da müəyyən etmək mümkün olmur. Onda sonrakı ilin yanvar ayının birinci günündən hesablanmağa başlayır.

İşə baxaraq məhkəmə şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi barədə müvafiq qətnamə çıxarır. Bu qətnamə hüquqi əhəmiyyəti olan faktın, yəni fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi faktının müəyyən edilməsi üçün əsasdır. Beləliklə, iki il yaşayış yerində görünməyən və olduğu yer məlum olmayan fiziki şəxs itkin düşmüş hesab edilir.

3. Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsinin hüquqi nəticələri

Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi müəyyən hüquqi nəticələrə səbəb olur. **Birinci hüquqi nəticə** ondan ibarətdir ki, itkin düşmüş hesab edilən **şəxsin əmlakı onun qanun üzrə vərəsələrinin etibarlı idarəçiliyinə** keçir. Qanun üzrə vərəsələrin bu əmlakı idarə etmək, ondan fayda götürmək hüququ vardır. Onlar bu əmlakdan itkin düşmüş şəxsin himayəsində və öhdəsində olan qeyri-əmək qabiliyyətli şəxslərə (valideynlərə, uşaqlara və s.) dolanacaq xərcləri verirlər və mülki hüquq münasibətləri üzrə borclarını ödəyirlər (məsələn, borc müqaviləsi üzrə olan borcunu ödəyirlər, nisyə alqı-satqı müqaviləsi üzrə malın pulunu verirlər və s.).

Xəbərsiz itkin düşmüş fiziki şəxsin qanun üzrə vərəsələri olmaya da bilər. Bundan əlavə, bu şəxsin əmlakının idarə olunması zərurəti yarana bilər. Belə halda həmin əmlakın etibarlı idarəetməyə verilməsi barədə məhkəmə qərar qəbul edir. Kimin və hansı şəxsin etibarlı idarəçi təyin edilməsi məsələsini qəyyumluq və himayəçilik orqanı həll edir. Bu şəxslə, yəni əmlakın etibarlı idarəçisi ilə qəyyumluq və himayəçilik orqanı əmlakın etibarlı idarə etməyə verilməsi haqqında müqavilə bağlayır. Etibarlı idarəçi bu müqavilə əsasında fəaliyyət göstərir. Həmin müqavilə MM-in 37-ci maddəsi ilə tənzimlənir.

Etibarlı idarəçi müqaviləyə uyğun olaraq itkin düşmüş hesab edilən şəxsin mənafeyinə və xeyrinə istənilən hərəkət edə, o cümlədən istənilən əqd bağlaya bilər. Əqdi o, öz adından bağlayır və etibarlı idarəçi rolunda çıxış etdiyini qarşı tərəfə (əqdi bağlayan digər tərəfə) bildirir. Etibarlı idarəçinin istifadə nəticəsində əmlakdan gəlir və bəhər götürmək hüququ vardır.

Etibarlı idarəçi itkin düşmüş hesab edilən şəxsin əmlakı hesabına kreditorlarla hesablaşır, onlara olan borcları ödəyir. Bundan əlavə, onun borcudur ki, itkin düşmüş hesab edilən şəxsin öhdəsində olan qeyri-əmlak qabiliyyətli şəxslərə (uşaqlara, valideynlərə, həyat yoldaşına və s.) dolanacaq xərcləri versin. Ona görə ki, xəbərsiz itkin düşmüş hesab edilən şəxsin üzərinə bu kateqoriya şəxsləri saxlamaq vəzifəsi qoyulmuşdur.

İkinci hüquqi nəticə ondan ibarətdir ki, ər (arvad) xəbərsiz itkin düşmüş hesab edildikdə, **VVADQ orqanında arvadın (ərin) ərizəsi əsasında nikaha xitam verilir**[1]. Bir qayda olaraq, yetkinlik yaşına çatmayan ümumi uşaqları olan ər (arvad) arasında bağlanmış nikah yalnız məhkəmə yolu ilə xitam edilir[2]. İtkin düşmə halında isə yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olmasından asılı olmayaraq nikahın məhkəmə qaydasında pozulması tələb edilmir.

Üçüncü hüquqi nəticə ondan ibarətdir ki, fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi onun verdiyi **etibarnamənin xitam edilməsinə səbəb olur** (MM-in 365-ci maddəsinin 1-ci bəndinin 7-ci yarımbəndi). Məsələn, vətəndaş öz qonşusuna minik avtomobini sürmək üçün etibarnamə verir. Vətəndaş məhkəmə qaydasında xəbərsiz itkin düşmüş hesab edilir. Bununla qonşuya verilən etibarnamə qüvvədən düşür, yəni etibarnaməyə xitam verilir. Qonşu bununla minik avtomobini idarə etmək hüququnu itirir.

Dördüncü hüquqi nəticə ondan ibarətdir ki, xəbərsiz itkin düşmüş hesab edilən şəxsin öhdəsində olan **qeyri-əmək qabiliyyətli ailə üzvlərinin pensiya qanunvericiliyinə uyğun olaraq ailə başçısını itirməyə görə pensiya almaq hüququ** yaranır. Bu hüququ həyata keçirmək üçün maraqlı şəxslər müvafiq dövlət orqanlarına müraciət edirlər.

Xəbərsiz itkin düşmə fiziki şəxsin sağ qalması və yaşaması prezumpsiyasını (ehtimalını) itirmir, əksinə, onu saxlayır. Buna görə də xəbərsiz itkin düşmüş hesab edilən şəxs gələ və ya onun olduğu yer aşkar edilə bilər. Belə halda məhkəmə maraqlı şəxslərin (fiziki şəxsin özünün, onun ailə üzvlərinin və s.) ərizəsi əsasında yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməsini ləğv edir. Məhkəmə qətnaməsi xəbərsiz itkin düşmüş şəxsin əmlakının etibarlı idarə olunması haqqında müqavilənin ləğv edilməsinə səbəb olur. Bundan əlavə, həmin qətnamə xəbərsiz itkin düşmə faktından yaranan digər hüquq münasibətlərinin xitam olunması üçün əsasdır.

İtkin düşmüş hesab edilən ər (arvad) gəlib çıxdığı hallarda, nikah bərpa oluna bilər[3]. Bunun üçün vacibdir ki, ər və arvadın hər ikisi birgə ərizə ilə VVADQ orqanına müraciət etsinlər. Bu məsələ məhkəmə qaydasında həll olunmur. Ər və ya arvaddan biri əgər şəxs xəbərsiz itkin düşmüş hesab edildikdən sonra yeni ailə qurubsa, yeni nikaha giribsə, onda nikah bərpa oluna bilməz.

4. Fiziki şəxsin ölmüş elan edilməsi

Mülki hüquq münasibətlərində yaranan qeyri-müəyyənliyin aradan qaldırılması həm də fiziki şəxsin ölmüş elan edilməsi kimi hüquq institutu ilə təmin olunur. Bu institutu əvvəlki 1964-cü il MM-i də tanıyırdı. Həmin məcəllənin 21-ci maddəsi vətəndaşın ölmüş elan edilməsi ilə bağlı olan münasibətləri tənzimləyirdi. Ölmüş elan etmə institutu bir çox xarici ölkələrin qanunvericiliyinə

[1] bax: Ailə Məcəlləsinin 17-ci maddəsinin 2-ci bəndinin 1-ci yarımbəndi.

[2] bax: Ailə Məcəlləsinin 19-cu maddəsinin 1-ci bəndi. Bu məcəllənin 21-ci maddəsinə görə yetkinlik yaşına çatmayan ümumi uşaqları olan ər-arvadın nigahın pozulmasına qarşılıqlı razılığı olduqda, nigah onun pozulma səbəbləri məhkəmə qaydasında araşdırılmadan pozulur.

[3] bax: Ailə Məcəlləsinin 24-cü maddəsinin 1-ci bəndi.

də məlumdur. Onu Almaniyanın, İtaliyanın, RF-in, ümumiyyətlə, roman-german hüquq ailəsi ölkələrinin qanunvericiliyi də tanıyır. Məsələn, Fransa qanunvericiliyi dənizdə itkin düşən şəxsin ölmüş elan edilməsi barədə qayda nəzərdə tutur (MM-in 88-92-ci maddələri). Almaniya Mülki Qanunnaməsi xəbərsiz itkin düşməklə bağlı olaraq şəxsin ölmüş elan edilməsi üzrə münasibətin tənzimlənməsinə xüsusi diqqət yetirir (§ 14-17). Yaponiya qanunvericiliyinə görə, itkin düşmədən yeddi il keçdikdən sonra (və ya ölüm təhlükəsi yaradan vəziyyətin başa çatmasından sonra) şəxs ölmüş elan edilə bilər (MM-in 31-ci maddəsi). Müstəqil hüquq institutu kimi ölmüş elan etmə ingilis-amerikan hüquq ailəsinə məlum deyildir.

Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi hüquqi cəhətdən qeyri-müəyyənliyi tam aradan qaldırmır, onu yalnız dəf edir, maneəni aşır. Belə ki, xəbərsiz itkin düşmüş hesab edildiyi zaman fiziki şəxs bəzi hüquq münasibətlərinin iştirakçısı olmaqda davam edir. Məsələn, xəbərsiz itkin düşmüş hesab edilən şəxs malik olduğu yaşayış evinə və digər əmlaka sahiblik, əmlakdan istifadə və onların üzərində sərəncam vermək hüququnu həyata keçirə bilmir. Amma buna baxmayaraq həmin şəxs yaşayış evi və digər əmlakla bağlı mülkiyyət hüquq münasibətlərinin subyekti kimi qalır. Onun mülkiyyət hüququna xitam verilmir. Belə ki, əşyaya sahiblik, əşyadan istifadə və onun barəsində sərəncam hüquqlarından məhrum olsa da, mülkiyyətçi yenə də mülkiyyətçi olaraq qalır[1].

Hüquq münasibətlərində qeyri-müəyyənliyi yalnız fiziki şəxsin təbii ölümü (fizioloji və bioloji ölümü) aradan qaldıra bilər. Fiziki şəxsin uzun müddət olduğu yer məlum deyilsə və onun olduğu yeri müəyyən etmək qeyri-mümkündürsə, bu, fiziki şəxsin sağ olmamasını, ölməsini güman və ehtimal etməyə əsas verir. Onda belə halda həmin şəxs ölmüş elan edilir ki, bu, onun təbii ölümünə bərabər tutulur. Həmin münasibətlər müvafiq mülki hüquq normaları ilə tənzimlənir ki, bu normaların məcmusu fiziki şəxsin ölmüş elan edilməsi institutunu yaradır.

Fiziki şəxsin ölmüş elan edilməsi həm də hüquqi aktdır. Bu aktın əsasını fiziki şəxsin ölməsi prezumpsiyası (ehtimalı) təşkil edir. **Hüquqi akt mənasında fiziki şəxsin ölmüş elan edilməsi dedikdə**, onun sağ olmamasının və yaşamamasının məhkəmə qaydasında ehtimal və güman edilməsi başa düşülür. Bu aktı fiziki şəxsin ölüm faktının müəyyənləşdirilməsindən fərqləndirmək lazımdır. **Fiziki şəxsin ölüm faktının müəyyənləşdirilməsi** o halda lazımdır ki, olənin cəsədi (meyidi) olmadığına görə tibbi rəy almaq qeyri-mümkün olsun. Belə halda **fiziki şəxsin ölməsini sübut edən faktlar** vardır. Məsələn, vətəndaş ara vermədən güclü yağan yağış nəticəsində aşıb-daşan çayda öz qonşusunun batmasının şahidi olur. Fiziki şəxsin ölmüş elan edilməsi aktında isə onun **ölümünü sübut edən fakt yoxdur.** O, yalnız ehtimala və güman etməyə əsaslanır. Belə ki, fiziki şəxsin ölmüş elan edilməsi ölüm faktının özünü yox, yalnız onun ölüm prezumpsiyasını (ehtimalını) hüquqi cəhətdən möhkəmləndirir.

Fiziki şəxs yalnız məhkəmə qaydasında ölmüş elan edilə bilər. Bu münasibətlər mülki-prosessual qanunvericiliklə tənzimlənir. Mülki Prosessual Məcəllənin 32-ci fəslində (312-316-cı maddələrdə) ifadə olunan normalar həmin münasibətlərin qaydaya salınmasını nəzərdə tutur. Özü də xəbərsiz itkin düşmə işləri kimi ölmüş elan etmə işləri də məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər kateqoriyasına aiddir.

Maraqlı şəxslər özlərinin yaşadıqları yerin məhkəməsinə şəxsin ölmüş elan edilməsi barədə ərizə ilə (iddia ərizəsi ilə yox) müraciət edirlər. Məhkəmə həmin ərizəyə baxaraq, yalnız müvafiq hüquqi tərkib olduqda, şəxsin ölmüş elan edilməsi barədə qərar qəbul edə bilər. Bu hüquqi tərkib üç hüquqi faktdan ibarətdir:

- fiziki şəxsin uzun müddət **yaşayış yerində olmamasından;**
- fiziki şəxsin olduğu yer haqqında məlumatın olmaması və bu **məlumatın alınmasının qeyri-mümkünlüyündən;**
- fiziki şəxsin olduğu yer barədə **axırıncı (son) məlumatın alındığı gündən beş il müddətin keçməsindən**[1].

Mülki qanunvericilik şəxsin ölmüş elan edilməsinin onun xəbərsiz itkin düşmüş hesab edilməsindən birbaşa asılı olmasını müəyyənləşdirmir. Bu, o deməkdir ki, şəxsi ölmüş elan etmək üçün qabaqcadan və əvvəlcədən onun hökmən xəbərsiz itkin düşmüş hesab edilməsi tələb olunmur və məcburi deyil. Şəxs xəbərsiz itkin düşmüş hesab edilmədən də birbaşa ölmüş elan edilə bilər. Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, onda onu xəbərsiz itkin düşmüş hesab etmədən ölmüş elan etmək mümkündür.

Bununla bərabər, qeyd etmək lazımdır ki, iki il ərzində yaşayış yerində görünməyən şəxs xəbərsiz itkin düşmüş hesab edildikdən 3 il müddət keçdikdən sonra (cəmi 5 il, yəni 2+3 il) ölmüş elan edilə bilər. Bunun üçün qəyyumluq və himayəçilik orqanı fiziki şəxsin ölmüş hesab edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edir (MM-in 40-cı maddəsinin 4-cü bəndi). Deməli, xəbərsiz itkin düşmüş hesab edilən şəxs üç il müddət keçdikdən sonra ölmüş elan edilə bilər.

Mülki qanunvericilik bəzi kateqoriya şəxslərin ölmüş elan edilməsi üçün **qısaldılmış xüsusi müddətlər** müəyyən edir. Ölüm təhlükəsi törədən və ya müəyyən bir bədbəxt hadisədən həlak olmasını güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşən şəxslər üçün **altı aylıq müddət** nəzərdə tutulur. Bu müddət bədbəxt hadisənin və ya ölüm təhlükəsi törədən digər halların baş verdiyi gündən hesablanır. Bədbəxt hadisə və ölüm təhlükəsi törədən hal dedikdə, zəlzələ, vulkan püskürməsi, gəmi qəzası, qasırğa, tufan, yanğın, yüksək dağ ekskursiyası, geoloji ekspedisiya, yer sürüşməsi və digər faktlar başa düşülür. Məsələn, zəlzələ olur və bunun nəticəsində şəxs xəbərsiz itkin düşür. Belə hallarda həmin şəxsi ölmüş elan etmək üçün 5 il gözləmək lazım deyil.

[1] *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 378.

[1] Almaniya Mülki Qanunnaməsi şəxsin xəbərsiz itkin düşməsindən 10 il keçdikdən sonra ölmüş elan edilməsi barədə ümumi qayda nəzərdə tutur (§14). Burada həm də ayrı-ayrı xəbərsiz itkin düşmə halları üçün xüsusi müddətlər müəyyənləşdirilir: hərbi əməliyyatlar üçün – 3 il müddəti (§15); dənizdə gəmi ilə üzən hallarda – 1 il müddəti (§16); həyat üçün təhlükə yaradan hallar üçün – 3 il müddəti (§17). Bu barədə bax: *Шапп Ян.* Основы германского гражданского права. Учебник. М., 1996; *Эннекцерус Л.* Курс германского гражданского права. М., Том 1. Полутом 1. 1949, с. 293-295.

Bunun üçün qanunun nəzərdə tutduğu altı aylıq müddət kifayət edər. Başqa bir misalda vulkana yaxın olan bir qrup mütəxəssis geoloji axtarış-kəşfiyyat işləri görən zaman vulkan püskürür. Bunun nəticəsində həmin qrupa daxil olan şəxslər xəbərsiz itkin düşürlər. Onları da ölmüş elan etmək üçün altı ay müddət tələb olunur. Belə ki, göstərilən şəraitdə fiziki şəxsin ölməsini güman etməyə tam əsas yaranır.

Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçular və digər şəxslərin ölmüş elan edilməsi üçün mülki qanunvericilik **iki il** nəzərdə tutur. Bu müddət hərbi qulluqçuların və digər şəxslərin itkin düşmə tarixindən yox, hərbi əməliyyatların qurtardığı gündən başlayır. Məsələn, elə hesab edək ki, 2003-cü ilin may ayının 1-də hərbi əməliyyatlar qurtarır. Hərbi əməliyyatlarla əlaqədar itkin düşən hərbi qulluqçunu ölmüş elan etmək üçün tələb edilən iki il müddət bu tarixdən hesablanır, yəni 2005-ci ilin may ayının 1-dən (2003-cü ilin may ayının 1-i + 2 il) həmin şəxsləri ölmüş elan etmək olar. Bu qayda onunla izah olunur ki, görülən tədbirlər nəticəsində əsirlikdə olan hərbi qulluqçular qaytarıla bilər və ya onların həlak olması dəqiq olaraq müəyyənləşdirilə bilər.

Məhkəmə göstərilən faktlar olduqda fiziki şəxsin ölmüş elan edilməsi haqqında qətnamə qəbul edir. Bu qətnamə VVADQ orqanına göndərilir. O, həmin şöbə tərəfindən vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabına şəxsin ölməsi barədə qeyd etmək üçün əsas rolunu oynayır[1]. Şəxsin ölüm günü məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi günlə müəyyən edilir, yəni məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün fiziki şəxsin ölüm günü sayılır (MM-in 41-ci maddəsinin 3-cü bəndi). VVADQ orqanı maraqlı şəxslərə fiziki şəxsin ölümü haqqında şəhadətnamə verir.

Bəzi kateqoriya şəxslərin (bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşən şəxslərin, hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçuların və digər şəxslərin) ölüm günü məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi günlə müəyyən edilmir. Məhkəmə həmin şəxslərin həlakının ehtimal və güman edildiyi günü onların ölüm günü saya bilər (MM-in 41-ci maddəsinin 4-cü bəndi).

5. Fiziki şəxsin ölmüş elan edilməsinin hüquqi nəticələri

Fiziki şəxsin ölmüş elan edilməsi onun ölməsi, yaşamaması və sağ qalmaması prezumpsiyasına (ehtimalına) əsaslanan hüquqi faktdır. Hüquqi fakt olduğu üçün o, müəyyən hüquqi nəticəyə, yəni mülki hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və ya xitam olunmasına səbəb olur. **Fiziki şəxsin ölmüş hesab edilməsi hüquqi nəticə doğurmaq xüsusiyyətinə görə onun fizioloji və bioloji ölümünə bərabər tutulur**. Fizioloji və bioloji ölüm (faktiki ölüm) kimi fiziki şəxsin ölmüş elan edilməsi də müəyyən hüquqi nəticəyə səbəb olur. Amma fizioloji və bioloji ölümün (faktiki ölümün) doğurduğu hüquqi nəticələri fiziki şəxsin ölmüş elan edilməsinin doğurduğu hüquqi nəticələrlə eynilaşdırmək olmaz. Belə ki, fiziki şəxsin ölmüş elan edilməsi onun mülki hüquq qabiliyyətinə xitam verilməsinə səbəb olmur.

Fiziki şəxsin ölmüş elan edilməsinin fiziki şəxsin mülki hüquq qabiliyyətinə xitam verib-verməməsi mülki hüquq elmində (sivilistika doktrinasında) mübahisə doğuran məsələlərdəndir. Bəzi müəlliflər göstərirlər ki, fiziki şəxs ölmüş elan edilərkən onun hüquq qabiliyyətinə xitam verilir. Onlar öz mövqelərinin əsaslı olmasını belə sübut edirlər ki, ölmüş elan etmə fiziki şəxsin ölməsi kimi eyni hüquqi nəticələrə səbəb olur[1]. Bunun əksi olan mövqeyin tərəfdarları isə qeyd edirlər ki, hüquq qabiliyyəti fiziki şəxsin özündən ayrılmazdır və buna görə də təkcə ölüm haqqında ehtimal və güman hüquq qabiliyyətinin xitam edilməsinə dəlalət edə bilməz[2].

Bizim zənnimizcə, ikinci qrup müəlliflərin fikirləri həqiqətə daha yaxındır. Belə ki, fiziki şəxsin ölmüş elan edilməsi onun sağ olmaması prezumpsiyasına (ehtimalına) əsaslanır. Ehtimala əsaslanan ölüm yox, yalnız bioloji və fizioloji ölüm (faktiki ölüm) fiziki şəxsin mülki hüquq qabiliyyətini xitam edə bilər. Dediklərimizi sübut etmək üçün təkcə bunu demək kifayətdir ki, ölmüş elan edilmiş şəxs gələ və ya onun olduğu yer aşkar edilə bilər və yaxud fiziki şəxs ölmüş elan edilən vaxta kimi ölə bilər. Bundan əlavə, ölmüş elan edilən fiziki şəxs həqiqətən sağ qala və hüquqi əhəmiyyətli hərəkətlər edə bilər. Məsələn, alqı-satqı və digər əqdlər bağlaya bilər. Bu hərəkətlər və əqdlər etibarlı sayılır. Bu isə onu ifadə edir ki, ölmüş elan edilən şəxs mülki hüquq qabiliyyətini həyata keçirir. Ölmüş elan edildiyi halda da fiziki şəxs mülki hüquq qabiliyyətinə malik ola bilər. Fikrimizi yekunlaşdıraraq söyləyə bilərik ki, **mülki hüquq qabiliyyəti fiziki şəxsin doğulması ilə bir dəfə əmələ gəldiyi kimi, onun faktiki ölümü (fizioloji və bioloji ölümü) ilə də bir dəfə xitam olunur**. Yapon sivilistika doktrinası da anoloji mövqedə dayanaraq göstərir ki, yalnız faktiki ölüm hüquq qabiliyyətinin xitam edilməsinə səbəb ola bilər[3].

Fiziki şəxsin ölmüş elan edilməsi aktının doğurduğu hüquqi nəticələrdən biri **vərəsəlik hüquq münasibətinin yaranmasıdır.** Belə ki, fiziki şəxsin məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə miras açılır (MM-in 1145-ci maddəsi). Mirasın açılması isə vərəsəlik hüquq münasibətinin əmələ gəlməsi deməkdir. Bu andan ölmüş elan edilmiş şəxsin vərəsələri vərəsəliyə çağırılırlar. Onlar miras əmlakı (ölmüş elan edilmiş şəxsin yaşayış evini, minik avtomobilini, bankdakı pul vəsaitini, qiymətli kağızları və s.) qəbul etmək hüququ əldə edirlər. Beləliklə, fiziki şəxsin ölmüş elan edilməsi aktı fiziki şəxsin bütün hüquq və vəzifələrinin onun vərəsələrinə keçməsinə səbəb olur.

Fiziki şəxsin ölmüş elan edilməsinin doğurduğu **hüquqi nəticələrdən biri şəxsi xarakter daşıyan öhdəlik hüquq münasibətlərinin (öhdəliklərin) ləğv edilməsidir**. Belə ki, əgər borclunun şəxsi iştirakı olmadan icra mümkün deyilsə, onun ölmüş elan edilməsi öhdəliyin xitamına səbəb olur (MM-in 558-ci maddəsinin 1-ci bəndi). Məsələn, nəşriyyat təşkilatı ilə müəllif (yazıçı) ara-

[1] Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 315-ci maddəsinin 2-ci bəndi.

[1] bax: Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева* М., 1986, с. 91-92.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 122; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 99, 123; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 70; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 162.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 45.

sında komediya janrında dram əsərinin yaradılması barədə müəllif müqaviləsi bağlanır. Yazıçı ölmüş elan edilir. Bununla öhdəlik hüquq münasibətinə xitam verilir.

Nikahın pozulması fiziki şəxsin ölmüş elan edilməsinin doğurduğu hüquqi nəticələrdən biridir. Ailə qanunvericiliyi ərin (arvadın) ölmüş elan edilməsini nikaha xitam verilməsinin əsaslarından biri hesab edir[1].

Fiziki şəxsin ölmüş elan edilməsinin doğurduğu hüquqi nəticələrdən biri ondan ibarətdir ki, bu akt **fiziki şəxsin öhdəsində olan qeyri-əmək qabiliyyətli şəxslərə pensiya qanunvericiliyinə uyğun olaraq pensiya almaq, müavinət almaq hüququ verir.**

6. Ölmüş elan edilmiş şəxsin gəlməsinin hüquqi nəticələri

Qeyd etdik ki, fiziki şəxsin ölmüş elan edilməsi fiziki şəxsin ölüm faktına yox, yalnız onun ölməsi prezumpsiyasına (ehtimalına) əsaslanır. Bu hal isə ölmüş elan edilmiş şəxsin gəlməsi və ya onun olduğu yerin aşkar edilməsi imkanını istisna etmir. Belə ki, ölmüş elan edilmiş şəxs gələ və ya onun olduğu yer aşkar edilə bilər. Belə halda həmin şəxsin özü və ya digər maraqlı şəxslərdən biri ərizə ilə məhkəməyə müraciət edir. Məhkəmə ərizəyə baxaraq yeni qətnamə ilə özünün əvvəl çıxarmış olduğu qətnaməni ləğv edir[2].

Qətnamə VVADQ orqanına göndərilir. Bu qətnamənin əsasında vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabında şəxsin ölməsi barədə qeyd ləğv edilir. Həmin hal müəyyən hüquqi nəticəyə səbəb olur. Özü də dərhal qeyd edirik ki, ölmüş elan edilmiş şəxs gəldikdə onun **mülki hüquq qabiliyyətini bərpa etmək lazım gəlmir və tələb olunmur.** Ona görə ki, göstərdiyimiz kimi, fiziki şəxsin ölmüş elan edilməsi onun mülki hüquq qabiliyyətinin xitam olunmasına səbəb olmur. Necə deyərlər, mülki hüquq qabiliyyəti ləğv olunmamışdı ki, yenidən bərpa olunsun.

Ölmüş elan edilən fiziki şəxs gəldikdə, onun **subyektiv hüquqlarının bərpa edilməsi** vacibdir. Hər şeydən əvvəl, həmin şəxsin mülkiyyət hüququnu bərpa etmək lazım gəlir. Söhbət bu şəxsin mülkiyyətində olan əmlakın onun özünə qaytarılmasından gedir. Mülki qanunvericilik əmlakın qaytarılması üzrə münasibətləri tənzimləmək üçün xüsusi qayda müəyyən edir (MM-in 42-ci maddəsinin 2-4-cü bəndləri). Bu qaydaya görə fiziki şəxsin malik olduğu əmlakın qaytarılması iki amildən asılıdır: birincisi, əmlakın naturada saxlanılmasından; ikincisi, həmin əmlakın başqa şəxslərə keçməsi əsaslarından. Bu iki amilə görə mümkün olan üç hüquqi nəticə yaranır.

Birinci hüquqi nəticə fiziki şəxsə məxsus olan və onun ölmüş elan edilməsindən sonra əvəzsiz olaraq hər hansı başqa şəxsə verilən və naturada qalan (saxlanan) əmlakla bağlıdır. Əvəzsiz olaraq verilmə dedikdə, əmlakın vərəsəlik qaydasında, bağışlama müqaviləsi əsasında və digər yollarla bir şəxsdən başqasına keçməsi başa düşülür. Mülkiyyətçi, nə vaxt gəlməsindən asılı olmayaraq naturada qalan (saxlanan) əmlakı həmin şəxsdən tələb edə bilər. Məsələn, ölmüş elan edildikdən sonra fiziki şəxsə məxsus olan yaşayış evi, minik avtomobili vərəsəlik qaydasında onun yeganə vərəsəsinə — qardaşına keçir. Fiziki şəxs gəldikdən sonra yaşayış evini də, minik avtomobilini də qardaşından tələb edə bilər. Bu cür qayda ədalət prinsipinə tamamilə uyğundur. Ona görə ki, əmlakı əvəzsiz olaraq əldə edən vətəndaş onu «peyda olan» fiziki şəxsin özünə qaytardıqda, ona hər hansı əmlak (maddi) zərəri vurulmur[1]. Həm də qeyd etməliyik ki, pul və adsız qiymətli kağızlar da əldə edən vətəndaşdan geri tələb oluna bilər.

İkinci hüquqi nəticə fiziki şəxsə məxsus olan və onun ölmüş elan edilməsindən sonra əvəzli olaraq (məsələn, alqı-satqı müqaviləsi, dəyişmə müqaviləsi) başqa vətəndaşa verilmiş əmlakla əlaqədardır. Bu əmlakı həmin vətəndaş qaytarmağa borclu deyildir. Ona görə ki, o, əmlakı qarşılıqlı əvəz müqabilində, məsələn, pul verməklə əldə etmişdir. Lakin bu cür qaydadan qanun müəyyən istisnaya yol verir. Belə ki, əmlakı əldə edərkən vətəndaşın ölmüş elan edilmiş şəxsin sağ olduğunu bildiyi sübuta yetirilərsə, onda o, əmlakı «peyda olan» şəxsə qaytarmağa borcludur.

Üçüncü hüquqi nəticə fiziki şəxsə məxsus olan və onun ölmüş elan edilməsindən sonra vərəsəlik qaydasında dövlətə keçən əmlakla bağlıdır (MM-in 42-ci maddəsinin 4-cü bəndi). Əgər əmlak qalmışdırsa (saxlanılmışdırsa), onda o, mülkiyyətçiyə qaytarılır. Əgər həmin əmlak satılmışdırsa, əmlakın satılmasından əldə edilən məbləğ mülkiyyətçiyə qaytarılır.

Ölmüş elan edilmiş şəxsin gəlməsinin doğurduğu hüquqi nəticələrdən biri ailə-nikah münasibətlərinə aiddir. Belə ki, ölmüş elan edilən ər (arvad) gəlib çıxdıqda pozulmuş nikah bərpa oluna bilər[2]. Bunun üçün ər və arvad VVADQ orqanına birgə ərizə verirlər.

Lakin ailə qanunvericiliyi bu qaydadan müəyyən istisna hal nəzərdə tutur. Belə ki, əgər ər-arvaddan biri yeni nikah münasibətinə giribsə, belə halda nikah bərpa oluna bilməz.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1998 (глава 6).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.** М., 1998 (глава 5).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева.** М., 1997 (глава 4).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (глава 4).

Гражданское право. Учебник. Том 1 / Под ред. Е.А.Суханова. **М., 1998 (глава 6).**

Гражданское право. Учебник. / Под ред. **С.П.Гришаева.** М., 1999.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова.** М., 1985 (глава 4).

Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. **О.Н.Са-**

[1] bax. Ailə Məcəlləsinin 14-cü məddəsinin 1-ci bəndi.

[2] bax: Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi.

[1] Əmlakı əvəzsiz olaraq əldə edən vətəndaş onu başqasına sata və ya itirə bilər. Belə halda «peyda olan» fiziki şəxs həmin əmlakın qiymətinin ödənilməsini vətəndaşdan tələb edə bilərmi? Mülki qanunvericilik bu suala cavab vermir.

[2] bax: Ailə Məcəlləsinin 24-cü məddəsinin 1-ci bəndi.

дикова. М., 1999 (глава 3).
Братусь С.Н. Субъекты гражданского права. М., 1950 (глава I-V).
Иоффе О.С. Развитие цивилистической мысли в СССР. Л., 1975 (глава 3).
Юрченко А.К. Безвестное отсутствие по советскому гражданскому праву. Л., 1954.
Ершова Н.М. Опека и попечительство. М., 1971.
Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.
Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.
Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.
Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.
Köhler H. BGB. Allgemeiner Teil. München.1998.
Brehm W. Allgemeiner Teil des BGB. 1997.
Brox H. Allgemeiner Teil des Bürgerlichen Gesetzbuches.1997.
Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

VII FƏSİL
HÜQUQİ ŞƏXSLƏR

§ 1. Hüquqi şəxsin anlayışı, əhəmiyyəti, funksiyaları, mahiyyəti və əlamətləri

1. Hüquqi şəxslərin yaranması

Fiziki şəxs anlayışı ilə mülki hüququn insan kateqoriyasından, insan cinsindən olan subyekti əhatə olunur. Hüquqi şəxslər isə bundan fərqli olaraq mülki hüququn psixoloji (mənəvi), bioloji (fizioloji) və ictimai varlıq hesab edilməyən subyektlərindəndir. Elə bir subyektlərindən ki, onlar fiziki şəxslərin malik olduğu nitqdən, iradədən, düşüncədən və şüurdan məhrumdur. Hüquqi şəxslər fiziki şəxslərin birləşməsinə əsaslanan və spesifik qaydada yaradılan xüsusi qurumdur. Onlar **mülki hüququn kollektiv subyektlərindən** biri hesab edilir. Hələ 1950-ci ildə sovet dövrünün tanınmış sivilist alimlərindən S.N.Bratus yazırdı ki, hüquq münasibətlərinin iştirakçıları ya insan fərdləridir, yəni fiziki şəxslərdir, ya da ki onların kollektiv qurumlarıdır[1].

Hər şeydən əvvəl, qeyd edək ki, hüquqi şəxs anlayışı iki mənada işlədilir:

- mülki hüquq institutu mənasında;
- konstruksiya mənasında.

Hüquq institutu mənasında hüquqi şəxs dedikdə, hüquqi şəxslərin hüquq subyektliyini, bu subyektliyin həyata keçirilməsi üsullarını və qaydasını, hüquqi şəxslərin yaradılmasını, yenidən təşkil olunmasını və ləğv edilməsini, habelə onların ayrı-ayrı təşkilati-hüquqi formalarının xüsusiyyətlərini müəyyənləşdirən mülki hüquq normalarının məcmusu başa düşülür. O, Azərbaycan Respublikasının mülki hüququnun əsas və başlıca institutlarından biri hesab edilir. Hüquqi şəxs institutuna daxil olan hüquq normaları əsasən Mülki Məcəllədə yerləşdirilmişdir. Bu məcəllənin 4-cü fəslində (43-119-cu maddələrdə) ifadə olunan normalar hüquqi şəxs kateqoriyasına həsr edilmişdir. Həmin maddələrdə hüquqi şəxsin anlayışı və növləri, onun mülki hüquq subyektliyi (hüquq qabiliyyəti, fəaliyyət qabiliyyəti, delikt qabiliyyəti), hüquqi şəxsin yaradılması, yenidən təşkil edilməsi haqqında, habelə digər məsələlər barədə müddəalar ifadə olunmuşdur.

Hüquqi şəxslər barədə normalar digər normativ hüquqi aktlarda da əks edilir. Söhbət hər şeydən əvvəl, Azərbaycan Respublikasının qanunlarından gedir. «Dini etiqad azadlığı haqqında» (1992)[2], «Əmtəə birjası haqqında» (1994)[3], «Hüquqi şəxslərin dövlət qeydiyyatı **və dövlət reyestri** haqqında» (2003)[4] və digər qanunlarda hüquqi şəxslərə aid edilən kifayət qədər mülki hüquq normaları ifadə olunmuşdur. Hüquqi şəxslərə toxunan normalara qanun qüvvəli aktlarda da rast gəlmək olar. Məsələn, prezidentin 19 may 1998-

[1] bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 32.
[2] bax: AR QK, I cild, s. 570.
[3] bax: AR QK, II cild, s. 224.
[4] bax: AR QK, III cild, s. 7.

ci il tarixli fərmanı ilə təsdiq edilmiş Əsasnamə hüquqi şəxslərin bir növü olan səhmdar cəmiyyətlərinə aiddir[1].

Konstruksiya mənasında hüquqi şəxs dedikdə, fiziki şəxslərin mülki (əmlak) dövriyyədə kollektiv surətdə iştirakını təmin edən hüquqi forma (vasitə) başa düşülür. Elə bir hüquqi forma ki, o, fiziki şəxslərə birləşərək öz təsərrüfat fəaliyyətini kollektiv surətdə təşkil etməyə imkan verir. Bu baxımdan hüquqi şəxslər **fiziki şəxslərin kollektiv qurumlarıdır.** Bu qurumlar fiziki şəxslərin həm şəxsi səylərinin, həm də onların əmlakının, maddi vəsaitlərinin və kapitallarının birləşməsini ifadə edir.

Mülki hüququn bu subyekti bəs nə üçün «hüquqi şəxs» adlanır? Ona görə ki, onlar təbiət tərəfindən yaradılmır. Yalnız fiziki şəxsləri təbiət yaradır. Hüquqi şəxslər isə qeyri-təbii qurumlar olub, **hüquq qaydası, hüquq normaları və hüquqi göstərişlər əsasında xüsusi qaydada əmələ gəlir, yenidən təşkil olunur və ləğv edilir.** Onlar hüquq əsasında yaranan konstruksiyadır (latınca constructio - qurğu, quruluş). Hüquqi şəxslərin qeyri-təbii, süni qurumlar olması bəzi xarici ölkələrin qanunvericiliyində (məsələn, Çilinin MM-in 545-ci maddəsində, Ekvadorun MM-in 583-cü maddəsində və s.) birbaşa göstərilmişdir.

Hüquqi şəxs konstruksiyasının genezisi — əmələ gəlməsinin tarixi kökləri qədim zamanlarla bağlıdır. Hələ Roma xüsusi hüququ dövründə əmlak münasibətlərində fiziki şəxslərdən başqa, onların birlikləri və qrupları da subyekt rolunda çıxış edirdilər[2]. Həmin dövrdə Roma hüquqşünasları tərəfindən hüquqi şəxslərin yaradılması ideyası müzakirə olunurdu. Marsian, Alfen, Ulpian və digər tanınmış hüquqşünasların sivilist fikirlərində bu ideya əsaslandırılırdı[3]. Amma hüquqi şəxslərin Romanın iqtisadi həyatındakı əhəmiyyəti böyük deyildi. Hətta Roma təsərrüfatının nisbətən inkişaf etdiyi, beynəlxalq ticarətin daha da canlandığı bir dövrdə hüquqi şəxslər mühüm rol oynaya bilməmişdir. Əsasən natural xarakter daşıyan təsərrüfat şəraitində ayrı cür də ola bilməzdi. Hətta Roma xüsusi hüququna «hüquqi şəxs» termininin özü də məlum deyildi[4]. Roma hüquqşünasları tərəfindən hüquqi şəxs anlayışı işlənib hazırlanmamışdı. Onlar yalnız hüququn (əmlakın) fiziki şəxslərin yaratdıqları birliklərə məxsus olması faktını etiraf etməklə kifayətlənirdilər.

Lakin bunlara baxmayaraq, necə olursa-olsun, hüquqi şəxs ideyasının və konstruksiyasının yaradılması Roma xüsusi hüququnun mühüm xidmətlərindən biridir. Hüquqi şəxs anlayışı ilk dəfə olaraq məhz Roma hüququ tərəfindən yaradılmış və yeni xalqların hüququ tərəfindən qəbul edilmişdir[5]. Qədim

[1] bax: «Dövlət mülkiyyətinin özəlləşdirilməsi zamanı yaradılan açıq tipli səhmdar cəmiyyətlərinin səhmlərinin buraxılışı və qeydiyyatı haqqında əsasnamənin təsdiq edilməsi barədə» prezidentin fərmanı (AR QK, V cild, s. 427).

[2] bax: *Ельяшевич В.Б.* Юридическое лицо, его происхождение и функции в римском частном праве. 1910; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 92-96.

[3] bax: *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı 1999, s. 52.

[4] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 115; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 296.

[5] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1917 г.), с. 146.

Roma hüquqşünaslarının sivilist fikirlərində xarici ölkələrin mülki hüquq nəzəriyyəsində və doktrinasında yaranmış «hüquqi şəxs nəzəriyyəsi» adlı konsepsiyanın rüşeymini görmək olur. Bu fikirlərin XIX əsrdə alman və fransız sivilistikasında **hüquqi şəxslər haqqında təlimin yaranmasına** və inkişafına müəyyən təsiri olmuşdur. Bu təlimin meydana gəlməsi isə XIX əsrin ortalarından başlayaraq Avropada iqtisadiyyatın sürətlə inkişaf etməsi ilə bağlı idi. O dövrlərdə Girke, Dernburq, Salleyl, İerinq, Savinyi və digər tanınmış alman və fransız sivilistləri həmin təlimi yaratdılar. Bu təlim isə hüquqi şəxs institutunun müasir mənada ifadə etdiyi anlayışın əsasını və fundamentini təşkil edir. Bax, buna görə də Almaniya və Fransa mülki hüququ, ümumiyyətlə kontinental hüquq geniş surətdə hüquqi şəxs doktrinasını işləyib hazırlamışdır. Elə **«hüquqi şəxs» terminini də ilk dəfə olaraq işlədən alman yurisprudepsiyası (hüquq elmi) olmuşdur:** bu termini elmi dövriyyəyə birinci dəfə XIX əsrdə alman hüquqşünas alimi F.Savinyi daxil etmişdir. Alman doktrinasında «juristische person» (personnes civiles, legal person) termini ilə hüquqi şəxs anlayışı əhatə olunmağa başladı. Amma fransız doktrinasında bundan fərqli olaraq «mənəvi şəxs» (personae morales) terminindən istifadə edildi[1]. 1978-ci ilə kimi Fransa Mülki Məcəlləsində (Gode civil) «hüquqi şəxs» anlayışı olmamışdır.

Hüquqi şəxs institutunun yaranmasına iqtisadi dövriyyənin inkişafı səbəb olmuşdur. Natural təsərrüfat tipi şəraitində fiziki şəxslərin öz səylərini və əmlaklarını kollektiv qurumlarda birləşdirmələrinə hələ ehtiyac yaranmamışdı. Fiziki şəxslər xüsusi hüququn yeganə subyekti hesab olunurdular. Əmlak münasibətlərində yalnız onlar iştirak edirdilər.

Natural təsərrüfat dağınıq, durğun və qapalı xarakter daşıyırdı. Onun xarici mühitlə heç bir əlaqəsi yox idi. Odur ki, bu təsərrüfat tipində iqtisadi münasibətlər zəif inkişaf etmişdi. Buna görə də cəmiyyətin tarixi inkişaf prosesinin müəyyən mərhələsində natural təsərrüfat sıxışdırılaraq dağılmağa başladı. Məhsullar artıq şəxsi istehlak üçün deyil, mübadilə üçün istehsal olundu. Bunun nəticəsində əmtəə istehsal münasibətləri və əmtəə mübadiləsi meydana gəldi, əmtəə-pul münasibətləri yarandı. Bütün bu amillər natural təsərrüfatın əmtəə təsərrüfatı ilə əvəz olunmasını şərtləndirdi[2].

Əmtəə təsərrüfatı şəraitində əmtəə mübadiləsini xüsusi kateqoriya fiziki şəxslər — tacirlər həyata keçirdilər. Ticarət kapitalı yarandı, tacirlər bir sinif kimi formalaşdı. Əmtəə mübadiləsi həmişəlik ticarət sisteminə çevrildi. Əmtəə istehsalı genişlənməyə başladı. Alqı-satqı bazarları yarandı. Yerli ticarətdən başqa dünya ticarəti də meydana gəldi. Əmlak dövriyyəsi yüksək sürətlə inkişaf etdi. Şübhəsiz ki, əmtəə istehsalının artdığı, ticarətin genişləndiyi və əmtəə dövriyyəsinin dərinləşdiyi bir şəraitdə böyük ticarət-təsərrüfat vəzifələrinin həll edilməsi tacirlərin kapitallarının birləşdirilməsini iqtisadi zərurətə çevirdi. Bu məqsədlə onlar kollektiv qurumlarda — ticarət (tacirlik, sahibkarlıq) kompaniyası kimi formalarda birləşdilər. **Beləliklə, birinci klassik hüquqi şəxslər — ticarət kompaniyaları yaranırdı.** Söhbət, hər şeydən əvvəl, Almaniyada, İn-

[1] bax: *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 83.

[2] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyevin, Ə.P.Babayevin, M.X.Məybullayevin* ümumi elmi redaktəsi ilə. Bakı. 1999, s. 120-121.

giltərədə. Hollandiyada yaradılan ticarət müəssisələrindən gedir. Bu müəssisələrdə iri işlərin kollektiv surətdə aparılması texnikası işlənirdi[1]. Daha sonralar gəmi işləyə bilən kanalların, dəmir yollarının və s. tikintisi üçün sahibkarlar öz kapitallarını birləşdirməklə kollektiv iştiraka əsaslanan müxtəlif qurumlar yaratdılar.

Təsərrüfat əlaqələrinin mürəkkəbləşməsi, bazar iqtisadiyyatının inkişafı, sahibkarlıq fəaliyyətinin beynəlxalq xarakter alması, sənaye ilə ticarətin təmərküzləşməsi, habelə elmi-texniki tərəqqi XX əsrdə hüquqi şəxs konstruksiyasının daha da inkişaf etməsinə rəvac vermişdir. İqtisadi həyatda bu konstruksiyanın əhəmiyyəti mühüm dərəcədə artmışdır. Yüksək inkişaf etmiş əmlak dövriyyəsində o, vacib rol oynayır.

Cəmiyyətin müasir həyatını hüquqi şəxslərsiz təsəvvür etmək olmaz.

2. Hüquqi şəxs konstruksiyasının funksiyaları (vəzifələri)

Hüquqi şəxs konstruksiyasının mahiyyəti bu konstruksiyanın yerinə yetirdiyi funksiyalarda (vəzifələrdə) təzahür edir. Hüquqi şəxs anlayışını izah etmək üçün, hər şeydən əvvəl, bu funksiyaların məzmununa aydınlıq gətirmək lazımdır. Həmin funksiyalar (vəzifələr) isə hüquqi şəxslərin hansı məqsəd üçün yaradılmasını ifadə edir. Hüquqi şəxslər hansı məqsəd üçün yaradılır?

Mürəkkəb xarakterli təsərrüfat-sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi iş adamlarının, sahibkarların öz maddi vəsaitlərini, kapitallarını birləşdirməyi, bu və ya digər məqsədə çatmaq üçün iqtisadi (əmlak) dövriyyədə kollektiv surətdə iştirak etməyi tələbi tələb edir. İqtisadi zərurətə çevrilən bu cür birləşmə və kollektiv iştirak olmadan hər hansı bir fəaliyyətin həyata keçirilməsi mümkün deyil. Məlum məsələdir ki, müxtəlif şəxslərin əlində kapitalın dağınıq, səpələnmiş və pərakəndə halında cəmləşməsi ayrı-ayrılıqda təsərrüfat fəaliyyətində böyük effekt verə bilməz. Kapitalın bir əldə mərkəzləşməsi isə iri təsərrüfat vəzifələrinin həlli üçün əlverişli imkan yaradır. Ona görə də təsərrüfatçı şəxslər, iş adamları, sahibkarlar və s. özlərinin malik olduğu əmlakdan müəyyən pay ayırırlar. Bu cür əmlak payı hesabına onlar öz kapitalları ilə birlikdə tam və bütöv «sosial orqanizm» halında birləşirlər. Bunun nəticəsində **yeni xüsusi xarakterli süni qurum — sosial fiqur** meydana gəlir. O, mülki hüququn müstəqil subyekti — mülkiyyətçidir. Bu subyekt hüquqi şəxs adlanır. Deməli, iqtisadi (əmlak) dövriyyədə kollektiv surətdə çıxış etmək üçün hüquqi şəxs konstruksiyası təsərrüfat adamlarına öz kapitallarını birləşdirməyə imkan verən hüquqi forma olur. Beləliklə, **kapitalları birləşdirmək bu konstruksiyanın yerinə yetirdiyi funksiyalardan (vəzifələrdən) biridir**[2].

Hüquqi şəxslər xüsusi olaraq iqtisadi (əmlak) dövriyyədə iştirak etməkdən ötrü yaradılır. İqtisadi (əmlak) dövriyyədə çıxış etmək üçün isə lazımdır ki, hüquqi şəxslərin öz əmlakı olsun. Elə bir əmlak ki, o, hüquqi şəxsləri yaradan və təsis edən təsərrüfatçı şəxslərin, iş adamlarının, sahibkarların, bir sözlə, **təsisçilərin və iştirakçıların malik olduğu əmlakdan ayrılsın.** Hüquqi şəxslərin əmlakı isə təsisçilərin (iştirakçıların) qoyduqları pul və əmlak (maddi) payları hesabına, yəni kapital hesabına yaranır. Pay kimi qoyulan kapital (əmlak) üzərində onların mülkiyyət hüququna xitam verilir. Belə ki, iştirakçılar (təsisçilər) artıq həmin kapitalın (əmlakın) mülkiyyətçisi hesab olunmurlar. Onun mülkiyyətçisi hüquqi şəxs sayılır. Beləliklə, hüquqi şəxslər onları yaradanların (təsisçilərin, iştirakçıların) əmlakından ayrılmış öz əmlakına malik olurlar. Bu əmlakla onlar borclarına görə öz kreditorları (kontragentləri) qarşısında məsuliyyət daşıyırlar.

Hüquqi şəxslərin iqtisadi (əmlak) dövriyyədə iştirak etməsi təsisçilərin (iştirakçıların) zərərə düşməsi, maddi (əmlak) itkiyə düçar olması, bir sözlə, kreditorlara olan borclarını ödəyə bilməməsi riski ilə bağlıdır. Axı, təsisçilərin (iştirakçıların) yaratmış olduqları hüquqi şəxslərin fəaliyyətini məhz onların özləri idarə edirlər. Çox vaxt onların özləri hüquqi şəxslərdə iştirak etməklə iqtisadi (əmlak) dövriyyədə çıxış edirlər. Hüquqi şəxslərin dövriyyədə iştirakı nəticəsində düşdükləri zərər üçün təsisçilər (iştirakçılar) özlərinin bütün əmlakı ilə yox, yalnız onların yaradılmasına pay kimi verdikləri əmlak həcmində risk daşıyırlar. Məsələn, elə götürək hüquqi şəxsin bir növü olan səhmdar cəmiyyətini. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) bu cəmiyyətin dövriyyədə iştirakı və fəaliyyəti ilə bağlı zərər üçün özlərinin verdikləri əmlak payı həcmində (yəni onlara məxsus olan səhmlərin dəyəri həddində) risk daşıyırlar (MM-in 98-ci maddəsinin 4-cü bəndi). Hüquqi şəxslərin digər növü olan məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları bu cəmiyyətin fəaliyyəti və dövriyyədə iştirakı ilə bağlı zərər üçün verdikləri əmlak payı həcmində (yəni əmlak payının dəyəri həddində) risk daşıyırlar (MM-in 87-ci maddəsinin 1-ci bəndi). Məsələn, qapalı səhmdar cəmiyyətinin on nəfər təsisçisi (səhmdarı) vardır. Səhmdarlar tərəfindən əldə edilmiş səhmlərin nominal dəyərindən təşkil olunan nizamnamə kapitalı (yəni səhmdar cəmiyyətinin nizamnamə kapitalı), elə fərz edək ki, beş yüz min manatdır. Səhmdar cəmiyyəti fəaliyyət göstərərkən zərərə düşür. Onun kreditorlara səkkiz yüz min manat borcu yaranır. Səhmdar cəmiyyəti bu borcun yalnız beş yüz min manat məbləğində olan hissəsini ödəyəcəkdir. Borcun üç yüz min manat məbləğində qalan hissəsini səhmdar cəmiyyəti ödəməyə borclu deyildir. Ona görə ki, səhmdarlar (təsisçilər) səhmlərin dəyəri həddində (cəmi beş yüz min manat həddində) risk daşıyırlar.

Söylədiklərimizdən belə təsəvvür yaranır ki, hüquqi şəxs konstruksiyası hüquqi şəxsi yaradan təsisçilərin (iştirakçıların) əmlak məsuliyyətini, əmlak riskini, sahibkarlıq riskini məhdudlaşdırmağa, yəni onların borcları üzrə məsuliyyət riskini məhdudlaşdırmağa imkan verir. Deməli, **iqtisadi (əmlak) dövriyyədə iştirak riskini azaltmaq bu konstruksiyanın yerinə yetirdiyi funksiyalardan (vəzifələrdən) biridir.**

Təsisçilərin (iştirakçıların) yaratdıqları hüquqi şəxslərin əsas fəaliyyəti maddi istehsalla bağlıdır. Onların müəyyən qrupu ictimai tələbatı ödəmək üçün məhsul istehsal edir. Bu qrup hüquqi şəxslərin həyata keçirdikləri fəaliyyətin əsas nəticəsi istehsal olunmuş və hazırlanmış əmtəədir. Digər qrup hüquqi

[1] bax: *Каминка А.И.* Основы предпринимательского права. Петроград. 1917, с. 26.

[2] Kapital (capital) üç əsas və başlıca istehsal amilindən biridir: torpaq; əmək və nəhayət, kapital. Kapital əmtəələrin və xidmətlərin istehsalında, son istehlakçıya çatdırılmasında istifadə olunan alətləri, maşınları avadanlıqları və nəqliyyat vasitələrini və satış şəbəkəsini əhatə edir. Kapital istehsal prosesində istifadə edilən istehsal vasitələri, istehsal ehtiyatları deməkdir (bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.S.Vəliyev, Ə.P.Babayev, M.X.Məmmədov* ümumi elmi redaktəsi ilə. Bakı 1999, s 304; *Pol A.Samuelson, Vilyams D.Nordhaus.* Ekonomiks dərsliyinə verilən izahlı lüğət. Bakı. 2001, s. 43). Pul maliyyə kapitalıdır.

şəxslər yaşayış evləri, sənaye obyektləri və s.tikir. Başqa qrup hüquqi şəxslər isə yük və ya sərnişin daşıyır, ticarət və vasitəçilik xidmətləri göstərirlər. Hüquqi şəxslərin bəzilərinin fəaliyyəti idarəçilik, mədəni-maarif, elm, təhsil, müalicə, dini və digər funksiyaların yerinə yetirilməsinə yönəlir. Bir sözlə, hüquqi şəxslər ictimai tələbatın ödənilməsi məqsədi ilə məhsul istehsal edən və satan, işlər görən və xidmətlər göstərən təsərrüfat subyektidir. Dediklərimizdən belə çıxır ki, hüquqi şəxslər mahiyyətcə **təsərrüfat fəaliyyətinin təşkilinin xüsusi üsuludur.** Bu fəaliyyətin normal təşkili üçün ayrılmış kapitaldan (əmlakdan) çevik və səmərəli istifadə olunmalıdır. Bax, hüquqi şəxs konstruksiyası bu cür istifadəyə imkan verir. Deməli, **kapitaldan (əmlakdan) daha çevik və səmərəli istifadə etmək bu konstruksiyanın yerinə yetirdiyi funksiyalardan biridir.**

Hüquqi şəxslərin «şəxsiyyəti» müstəqil olub, onları yaradan təsisçilərin (iştirakçıların) şəxsiyyətindən asılı deyildir. Ona görə də o, iqtisadi (əmlak) dövriyyədə təsisçilərin (iştirakçıların) adından yox, öz adından çıxış edir. Əldə etdiyi mülki hüquq və vəzifələr (əmlak) isə onlara yox, hüquqi şəxslərin özlərinə məxsus olur. Amma buna baxmayaraq hüquqi şəxslər onların arxasında duran kollektivin iradəsini və mənafeyini ifadə edir. Onlar kollektiv qurumlardır. Hüquqi şəxslər müəyyən insan kollektivi deməkdir. Hüquqi şəxs konstruksiyası imkan verir ki, bu kollektivə daxil olan iştirakçılar arasında daxili münasibətlər təşkil olunsun, qaydaya salınsın, müəyyənləşdirilsin, onların iradəsi bütöv halda vahid iradəyə çevrilsin. O, iqtisadi (əmlak) dövriyyədə öz adından çıxış etsə də, iştirakçıların mənafeyini müdafiə edir. Məsələn, hüquqi şəxslərin bir növü olan kommersiya təşkilatlarının həyata keçirdiyi fəaliyyətin əsas məqsədi mənfəət götürməkdən ibarətdir. Bu mənfəət iştirakçılar (təsisçilər) arasında bölüşdürülür. Deməli, **kollektiv mənafeyi həyata keçirmək, rəsmiləşdirmək və müdafiə etmək hüquqi şəxs konstruksiyasının yerinə yetirdiyi funksiyalardan (vəzifələrdən) biridir.**

Beləliklə, fikrimizi yekunlaşdıraraq **hüquqi şəxs konstruksiyasının dörd əsas funksiya** (vəzifə) yerinə yetirdiyini müəyyənləşdirə bilərik:

- kapitalları (əmlakı) birləşdirmək;
- iqtisadi (əmlak) dövriyyədə iştirak riskini azaltmaq;
- kapitaldan (əmlakdan) daha çevik və səmərəli istifadə etmək;
- kollektiv mənafeyi həyata keçirmək, rəsmiləşdirmək və müdafiə etmək.

3. Hüquqi şəxslərin əlamətləri

Mülki qanunvericilik hüquqi şəxsi qurum kateqoriyasına aid edir (MM-in 43-cü maddəsi). Qurum nə deməkdir? Bu suala cavab vermək üçün qurumun üç əsas və başlıca cəhətini müəyyənləşdirmək lazımdır. Qurum, **birincisi, sosial xarakterli mühüm və zəruri qarşılıqlı münasibətlərin müəyyən sistemidir.** Bu sistemin vasitəsi ilə fiziki şəxslər — iş adamları, təsərrüfatçı şəxslər, sahibkarlar və s. tam vahid halında birləşirlər. Bu baxımdan qurum «sosial orqanizm»dir. **İkincisi,** qurum **müəyyən məqsəd və fəaliyyət göstərmək üçün** yaradılır. Qarşısına hər hansı məqsəd qoymayan qurumun mövcud olmasından və fəaliyyət göstərməsindən söhbət gedə bilməz. **Üçüncüsü,** qurum **daxili struktura (quruluşa) malikdir.** Bu, onda ifadə olunur ki, o, ayrıca struktur bölmələrindən (sexlərdən, şöbələrdən, idarələrdən və s.) ibarətdir,

özünün idarəetmə orqanlarını müəyyənləşdirir, habelə bölmələr arasında funksiya bölgüsü aparır.

Deməli, **qurum dedikdə, sosial xarakterli mühüm və zəruri qarşılıqlı münasibətlərin elə bir müəyyən sistemi başa düşülür ki, bu sistemin vasitəsi ilə qarşıya qoyulmuş məqsədə çatmaq üçün fiziki şəxslər təşkilati cəhətdən tam vahid halda birləşirlər.**

Bütün hüquqi şəxslər qurumdur. Amma bütün qurumların hamısını hüquqi şəxs hesab etmək olmaz. Məsələn, dəmir-beton məmulatları müəssisəsinin müəyyən bir sexi qurumdur. Bu sexdə çalışan çoxsaylı işçilər (fəhlə və qulluqçular) öz istehsal səylərini və əməklərini birləşdirərək dəmir-beton məmulatları hazırlayırlar. Həmin sex istehsal etdiyi bu məhsulları satmaq yolu ilə iqtisadi (əmlak) dövriyyədə bilavasitə iştirak edə bilməz. Onun digər hər hansı mülki hüquq münasibətinin də subyekti olmaq imkanı istisna edilir. Çünki mülki qanunvericilik bu cür qurumları hüquqi şəxs kimi tanımır. Məsələ burasındadır ki, onların hüquqi şəxs statusu yoxdur. Tam hüquqlu subyekt qismində yalnız hüquqi şəxslər mülki hüquq münasibətlərinin iştirakçısı ola bilər.

Bəs, müvafiq qurumun hüquqi şəxs olması üçün nə lazımdır? Bu qurumun mülki hüquq münasibətlərində subyekt rolunda çıxış etməsi üçün nə gərəkdir, nə tələb olunur? Mülki qanunvericilik və sivilistika doktrinası bu suala cavab verərək göstərir ki, qurumun hüquqi şəxs olması üçün, mülki hüquq münasibətlərində subyekt qismində iştirak etməsi üçün onun lazımi və zəruri əlamətlərə malik olması vacibdir. Bu, hüquqi şəxsin əlamətləri adlanır. Əgər müvafiq qurum həmin əlamətlərə uyğun gələrsə və cavab verərsə, onda o, hüquqi şəxs kimi tanınır.

Hüquqi şəxsin əlamətləri dedikdə, bu şəxsə məxsus olan elə real (obyektiv) daxili xüsusiyyətlər başa düşülür ki, həmin xüsusiyyətlər əsasında müvafiq qurum mülki hüququn subyekti kimi tanınır. Özü də dərhal qeyd etməliyik ki, bu əlamətlər öz hüquqi təbiətinə görə sosial xarakterə malikdir. Çünki həmin əlamətlər cəmiyyətin sosial-tarixi inkişafı ilə əlaqədar olub, onunla şərtlənir.

Hüquqi şəxsin əlamətləri onun mahiyyətini ifadə edir. Daha doğrusu, hüquqi şəxs anlayışının əsl mənası onun əlamətlərində təzahür edir. Bu baxımdan hüquqi şəxsin əlamətləri onun **daxili atributlarıdır** (latınca attributum — verilmiş). Bununla belə, hüquqi şəxs özünün xarici atributlarına da malikdir. **Xarici atributlar** onun əsl mahiyyətini əks etdirmir. Onlara aiddir:

- hüquqi şəxsin dövlət qeydiyyatına alınması;
- möhürə malik olmaq;
- bankda hesab açmaq.

Xarici atributları mülki hüquq subyektliyi olmayan, yəni hüquqi şəxs statusuna malik olmayan qurumlar da daşıya bilər. Məsələn, istehsal müəssisəsinin filialı dövlət qeydiyyatından keçir, bank hesabı açır və möhürə malikdir. Lakin o, hüquqi şəxs sayılmır. Buna görə də həmin filial mülki hüquq münasibətlərində subyekt rolunda çıxış edə bilmir. Deməli, xarici atributlar hüquqi şəxs konstruksiyasının həqiqi mahiyyətini ifadə etmir.

Mülki hüquq elmi və qanunvericilik hüquqi şəxsin **dörd əsas və başlıca əlamətini** müəyyənləşdirir. Bu əlamətlərə aiddir:

- təşkilatı vahidlik;
- mülkiyyətində ayrıca əmlakı olmaq;
- müstəqil surətdə mülki (əmlak) dövriyyədə öz adından çıxış etmək;
- məhkəmədə iddiaçı və ya cavabdeh olmaq[1].

Göstərilən hər bir əlamətin olması vacib və zəruridir. Onların məcmusu müvafiq qurumun mülki hüququn subyekti kimi — hüquqi şəxs kimi tanınması üçün kifayət edir.

A. Təşkilati vahidlik

Qeyd etmək lazımdır ki, hər hansı qurum fəaliyyət göstərmək, müəyyən məqsədə nail olmaq üçün yaradılır. Qarşıya qoyulan məqsədə çatması və fəaliyyət göstərməsi üçün quruma daxil olan üzvlərin (təsisçilərin, iştirakçıların) **məqsədyönlü fəaliyyəti** gərəkdir. Bu niyyətlə qurumun idarə orqanları yaradılır. O, təkbaşına və kollegial orqanlar formasında ola bilər. Lazım gəldikdə qurumun müvafiq bölmələri — şöbələri, sexləri, idarələri və s. yaradılır. Onların fəaliyyəti bir-birilə bağlı olub, qarşılıqlı surətdə bir-birini şərtləndirir. Ayrı-ayrı şöbələr arasındakı əlaqələr iyerarxiya prinsipi, yəni aşağıların yuxarılara tabeçiliyi prinsipi üzrə qurulur. Şöbələrin və digər bölmələrin fəaliyyəti ümumi rəhbər orqana tabedir. Bu orqan qurumun iradəsini formalaşdırır və ifadə edir. Qurumun rəhbər orqanı (rəhbəri) qurum adından fəaliyyət göstərir, onun mənafelərini bütün müəssisələrdə, idarələrdə və təşkilatlarda təmsil edir və digər hərəkətlər edir. Bunun nəticəsində isə qurumun çoxsaylı iştirakçılarının arzusu qurumun tam və bütöv halda vahid iradəsinə çevrilir.

Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, qarşısına qoyduğu məqsədə çatması üçün qurum özünün idarə orqanlarının və bölmələrinin vasitəsi ilə fəaliyyət göstərir. Bu orqan və bölmələrin sistemi onun daxili strukturunu (quruluşunu) təşkil edir. Daxili struktura malik olmaq onu ifadə edir ki, qurum təşkilati cəhətdən, yəni təşkil olunmaq cəhətdən vahiddir. Təşkilati vahidlik qurumun bütün üzvlərinin (iştirakçılarının) fəaliyyətini eyni bir məqsəd ətrafında birləşməyə imkan verir. Həyata keçirilən fəaliyyət vahid məqsədə nail olunmasına tabe edilir. Təşkilati vahidliyin mahiyyəti ondan ibarətdir ki, onun vasitəsi ilə qurumun çoxsaylı iştirakçılarının işi tək bircə subyektin — qurumun özünün fəaliyyətinə çevrilir. Məhz təşkilati vahidliyin sayəsində və köməyi ilə qurum üzvlərinin çoxplanlı və çoxcəhətli işi müəyyən mərkəzdən idarə olunur, ona rəhbərlik edilir və qarşılıqlı surətdə əlaqələndirilir. Beləliklə, təşkilati cəhətdən qurumda birləşən çoxsaylı şəxslər iqtisadi (əmlak) dövriyyədə, mülki hüquq münasibətlərində bir şəxs kimi, vahid hüquq subyekti kimi çıxış edir. Daha doğrusu, təşkilati vahidlik quruma hüquqi şəxs statusu əldə etmək imkanı verir.

Deməli, **təşkilati vahidlik dedikdə, qurumun qarşıya qoyulan məqsədə çatması üçün idarə orqanlarına, lazım gəldikdə isə müvafiq bölmələrə malik olmasında ifadə edilən daxili strukturu (quruluşu) başa düşülür.** Təşkilati vahidlik nəticəsində qurum onun üzərinə qoyulan istənilən vəzifəni yerinə yetirmək imkanına malik olur.

Təşkilati vahidlik qurumun təsis sənədində təsbit edilir. Söhbət onun nizamnaməsindən gedir. Burada qurumun fəaliyyətinin idarəetmə qaydası, idarəetmə orqanlarının strukturu, habelə onun fəaliyyətinin predmeti və məqsədləri müəyyənləşdirilir.

Yalnız təkcə təşkilati vahidlik əlaməti qurumun hüquqi şəxsi kimi tanınmasına, hüquqi şəxs statusu qazanmasına dəlalət etmir. Bunun üçün onun ikinci əlamətə — mülkiyyətində ayrıca əmlaka malik olması gərəkdir.

B. Ayrıca əmlakı olma əlaməti

Hər hansı qurum **müəyyən sosial-iqtisadi məqsəd üçün** yaradılır. Onun qarşısında duran sosial-iqtisadi məqsəd müxtəlif ola bilər: təsərrüfat fəaliyyətini həyata keçirmək; sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq; mal hazırlamaq və istehsal etmək; xidmətlər göstərmək; iş görmək; vasitəçilik etmək; dini fəaliyyət göstərmək və s. Məsələn, nəqliyyat müəssisəsi yük, sərnişin, baqaj və poçt daşımaları, yükləmə-boşaltma və liman xidməti göstərmək və digər məqsədlər üçün yaradılır[1]. Sığorta təşkilatının yaradılmasının sosial-iqtisadi məqsədi sığorta fəaliyyəti göstərməkdən ibarətdir[2]. Bank kimi kredit təşkilatının sosial-iqtisadi məqsədinə gəldikdə isə göstərmək lazımdır ki, şəxslərin vəsaitini depozitə cəlb etmək, həmin vəsaiti müddətlilik və faizlə geri qaytarmaq şərti ilə öz adından və öz hesabına yerləşdirmək, kreditlər vermək onların hesablarını açmaq və aparmaq əməliyyatlarını həyata keçirmək bu təşkilatın sosial-iqtisadi məqsədini təşkil edir[3].

Şübhəsiz ki, müvafiq maddi bazası olmadan qurum öz qarşısına qoyduğu məqsədinə çatması üçün fəaliyyət göstərə bilməz. Məlum məsələdir ki, təsərrüfat fəaliyyətini həyata keçirmək, mal istehsal etmək, xidmət göstərmək, iş görmək və s. üçün qurumun özünün maddi bazası olmalıdır. **Qurumun maddi bazası** dedikdə, onun mülkiyyətində ayrıca əmlaka malik olması başa düşülür. Bax, mülkiyyətində ayrıca əmlaka malik olmağı mülki qanunvericilik qurumun hüquqi şəxs kimi tanınmasına dəlalət edən əlamətlərdən biri kimi nəzərdə tutur (MM-in 43-cü maddəsinin 1-ci bəndi). Bu əlamət hüquq ədəbiyya-

[1] Mülki hüquq barədə müasir rus dərsliklərində hüquqi şəxsin əlamətlərindən söhbət açan müəlliflərin fikirləri üst-üstə düşmür. Bu fikirlər arasında elə də prinsipial fərqlər yoxdur. Onlar mahiyyətcə eynidir. Məsələn, Moskva alimləri hüquqi şəxsin əlamətlərini belə müəyyənləşdirirlər: təşkilati vahidlik; əmlak ayrılığı; öz öhdəliklərinə görə müstəqil əmlak məsuliyyəti; mülki dövriyyədə və məhkəmələrdə mübahisələr həll edilərkən öz adından çıxış etmək (bax: *Гражданское право. Учебник. Том 1/Под ред. Е.А.Суханов*. M., 1998, с. 183). Yekaterinburq müəllifləri belə müəyyənləşdirirlər: təşkilati vahidlik; ayrıca əmlaka malik olmaq; müstəqil əmlak məsuliyyəti, mülki dövriyyədə öz adından çıxış etmək (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. M., 1998, с. 85). Peterburq alimləri hüquqi şəxsin əlamətlərini belə göstərirlər: təşkilati vahidlik; əmlak ayrılığı; müstəqil mülki-hüquqi məsuliyyət; mülki dövriyyədə öz adından çıxış etmək (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. M., 1998, с. 119-120). Saratov alimlərinə görə: təşkilati vahidlik; əmlak ayrılığı; müstəqil əmlak məsuliyyəti; mülki dövriyyədə öz adından çıxış etmək qabiliyyəti (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. M., 1998, с. 67-69).

[1] bax: «Nəqliyyat haqqında» 11 iyun 1999-cu il tarixli qanunun 1-ci maddəsi // Biznesmenin bülleteni. Bakı. 1999. № 30 (254).

[2] bax: «Sığorta haqqında» 25 iyun 1999-cu il tarixli qanunun 1-ci maddəsi // Biznesmenin bülleteni. Bakı. 1999. № 31 (255).

[3] bax: «Banklar haqqında» 16 yanvar 2004-cü il tarixli qanunun 1-ci maddəsi.

tında **maddi və ya iqtisadi əlamət** adlandırılır[1]. **Qurumun mülkiyyətində ayrıca əmlakı olması** dedikdə, bu əmlakla qurumu yaradanların (təsisçilərin, iştirakçıların) və digər şəxslərin malik olduqları əmlak arasında həddi qoyulması, onların bir-birindən ayrılması başa düşülür. Ayrılmış bu cür əmlak qurumun həyata keçirdiyi fəaliyyətin maddi bazası rolunda çıxış edir. Bunun təsərrüfat fəaliyyətinin təşkili üçün mühüm əhəmiyyəti vardır.

Qurumun hüquqi şəxs kimi tanınmasını şərtləndirən əlamət kimi «mülkiyyətində ayrıca əmlakı olması» dedikdə, nə başa düşülür? Qurumun mülkiyyətində müəyyən əmlakın olmaması onun hüquqi şəxs statusu əldə etmək imkanını istisna etmirmi? Bu suallara verilən cavab mülki hüquq elmində diskussiya doğurur. Bir qrup müəlliflər belə hesab edirlər ki, mülkiyyətçinin (qurumun) özünün əmlakı olmaması onun mülki (əmlak) dövriyyədə müstəqil surətdə iştirak etmək və bununla da mülki hüquq münasibətlərinin subyekti olmaq (hüquqi şəxs olmaq) imkanını qeyri-mümkün edir. Onların fikrincə, təkcə yalnız icarəyə götürülmüş əmlak və ya borc alınmış vəsait əsasında qurum mövcud ola bilməz. Qurumun mülkiyyətində əmlak olmazsa, o, mülkiyyətçi kimi tanınmazsa, normal əmtəə-pul münasibətlərində iştirak edə bilməz[2].

İkinci qrup alimlər bunun əksi olan mövqedə dayanırlar. Bu qrup alimlərin fikrincə, qurumun mülkiyyətində əmlakının olmaması onun hüquqi şəxs kimi tanınmamasına heç də dəlalət etmir. Mülkiyyətində əmlak olmadan da müvafiq qurum hüquqi şəxs statusu əldə edə bilər. Onlar göstərirlər ki, bəzi hüquqi şəxslərin (məsələn, investisiya institutlarının və s.) mülkiyyətində əmlak olmur. Bu cür hüquqi şəxslərin əmlakı icarəyə götürülmüş binadan və avadanlıqlardan, habelə bank hesabındakı pul vəsaitindən ibarətdir[3].

Zənn edirik ki, bu cür mübahisə müstəvisində ikinci qrup müəlliflərin mövqeyi daha ağlabatandır. Düzdür, MM-in 43-cü maddəsinin 1-ci bəndində ifadə edilən «hüquqi şəxs mülkiyyətində ayrıca əmlakı olan qurumdur» kimi göstərişi hərfi təfsir etdikdə belə nəticəyə gəlmək mümkün olur ki, qurumun mülkiyyətində əmlakının olmaması onun hüquqi şəxs statusu qazanması imkanını heçə endirir, yəni mülkiyyətində əmlak olmayan qurum hüquqi şəxs kimi tanına bilməz.

Amma bu göstərişi hərfi yox, genişləndirici təfsir etmək lazımdır[4]. Belə ki, qurumun hüquqi şəxs kimi tanınması üçün əsas olan «ayrıca əmlak» anlayışına təkcə qurumun mülkiyyətində olan əmlak növlərini yox, həm də onun icarəyə və kirayəyə götürdüyü əşyaları (binaları, istehsal vasitələrini, avadanlıqları, dəzgahları, maşınları, nəqliyyat vasitələrini və s.), habelə müxtəlif cür öhdəlik (tələb) hüquqlarını (məsələn, bank hesabındakı pul vəsaitinin verilməsini tələb etmək hüququnu və s.) aid etmək lazımdır.

İlkin əmlak hüquqi şəxsin maddi bazasının əsasını təşkil edir. Qurumun malik olduğu həmin ilkin əmlak **«nizamnamə kapitalı (və ya nizamnamə fondu)»**, hüquqi şəxsin təsərrüfat ortaqlığı növü üçün **«şərikli kapital»**, kooperativ növü üçün isə **«pay haqqı fondu»** anlayışı ilə əhatə olunur. Bu fondlara təsisçilər (iştirakçılar) tərəfindən maya kimi qoyulan əmlak payları binadan, qiymətli əşyalardan, avadanlıqdan, puldan, pul vəsaitindən, o cümlədən xarici valyutadan, qiymətli kağızlardan, torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarından, bir sözlə, **dövriyyə qabiliyyəti olan istənilən əmlakdan, əmlak hüquqlarından və pul dəyəri olan digər hüquqlardan** ibarət ola bilər. Sonradan qurumun iqtisadi (əmlak) dövriyyədə iştirakı nəticəsində onun əmlak kütləsi arta bilər. Belə ki, o, istehsal etdiyi və hazırladığı məhsulun satışından, gördüyü işlərdən, göstərdiyi xidmətlərdən, habelə təsərrüfat fəaliyyətinin digər növlərindən alınan gəlirlər, qiymətli kağızların satışından əldə edilən gəlirlər və s. hesabına arta bilər. Deməli, qurumun əmlakı təsisçilərin (iştirakçıların) maya qoyuluşları (əmlak payı) hesabına yaranmış ilkin əmlakdan (nizamnamə kapitalından), habelə onun sonradan həyata keçirdiyi təsərrüfat-sahibkarlıq fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlakdan ibarətdir.

Dediklərimizdən belə təsəvvür yaranır ki, qurumun mülkiyyətində ayrıca əmlakının olması onun hüquqi şəxs kimi tanınması üçün lazımi, vacib və zəruri əlamət deyildir. Bunun üçün, yəni qurumun hüquqi şəxs kimi tanınması üçün əsas və mühüm cəhət odur ki, bu qurum **əmlak müstəqilliyinə (ayrılığına) malik olmalıdır.** Buna görə də həmin əlaməti məhz «qurumun əmlak müstəqilliyinə malik olması» kimi təfsir etmək lazımdır. Bu baxımdan bir sıra müəlliflər «ayrıca əmlakı olmaq» kimi əlaməti yox, «əmlak müstəqilliyi (ayrılığı)» kimi əlaməti vacib sayırlar[1]. Doğrudan da, necə olursa-olsun, istənilən anda qurumun əmlak müstəqilliyinə malik olması mühüm əlamət kimi özünü göstərir.

Qurumun mülkiyyətində ayrıca əmlakının olması və əmlak müstəqilliyi müəyyən dərəcədə balansla təmin edilir. Bütün hüquqi şəxslərin müstəqil balansı olmalıdır (MM-in 43-cü maddəsinin 1-ci bəndi). Söhbət mühasibat balansından gedir. **Mühasibat balansı** (fransızca balance — tərəzi) hüquqi şəxsin əmlak və maliyyə vəziyyətini əks etdirən maliyyə hesabatı formasıdır[2], bu vəziyyəti xarakterizə edən hesabdır. Burada bir sütunda aktivlər (əsas kapital, hüquqi şəxsin dəyəri, torpaq sahələri, binalar, texniki avadanlıq və maşın kimi mayalar və s.), digər sütunda passivlər (borclar, kredit idarələri qarşısında olan öhdəliklər, vergilər və s.) hesablanır. Bu hesabda şəxsin bütün əmlakı, gəlirlər-xərclər öz əksini tapır.

---

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 131-132; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 74.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 85; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 184.

[3] Гражданское право России. Курс лекции. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1996, с. 53-54; Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 116-117; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 118.

[4] Bu cəhət belə bir fikir söyləməyə əsas verir ki, MM-in hüquqi şəxsin leqal anlayışını nəzərdə tutan 43-cü maddənin 1-ci bəndində ifadə olunan normanı heç də uğurlu hesab etmək olmaz. Bu hal isə öz növbəsində həmin normanın müəlliflər tərəfindən müxtəlif cür təfsir edilməsinə səbəb olmuşdur.

---

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 118; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 184; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 68.

[2] bax: «Mühasibat uçotu haqqında» 24 mart 1995-ci il tarixli qanunun 3-cü maddəsi (AR QK, II cild, s. 437)

Müstəqil mühasibat balansının olması qurumun mülkiyyətində ayrıca əmlaka malik olmasını və əmlak müstəqilliyini, şəksiz, sübut edir. Qurumun bəzi struktur bölmələri, məsələn, hüquqi şəxs sayılmayan filiallar da mühasibat uçotu apara və ayrıca balans tərtib edə bilərlər. Amma bu balans müstəqil balans sayılmır.

C. Müstəqil surətdə mülki (əmlak) dövriyyədə öz adından çıxış etmək əlaməti

Müstəqil surətdə mülki (əmlak) dövriyyədə öz adından çıxış etmək əlaməti dedikdə, qurumun sərbəst olaraq, heç kəsdən asılı olmadan qanunun yol verdiyi bütün mülki hüquq münasibətlərində iştirak etmək imkanı və qabiliyyəti başa düşülür. Qurum öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq hüququna, habelə əmlakı ilə öz öhdəlikləri üçün cavabdeh olmaq imkanına malik olduqda hüquqi şəxs kimi tanınır (MM-in 43-cü maddəsinin 1-ci bəndi). Bu əlamət qurumun iki cür hüquqi imkana malik olmasını ifadə edir.

Birinci hüquqi imkan qurumun öz adından **əmlak və şəxsi qeyri-əmlak hüquqlara malik olmaq, onları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq hüququndan** (qabiliyyətindən) ibarətdir. Söhbət burada iki cür mülki hüquq münasibətinin iştirakçısı olmaq imkanından gedir. Birincisi, qurum **əşya (mütləq) hüquq münasibətlərində** (məsələn, mülkiyyət hüquq münasibətlərində, müəlliflik hüquq münasibətlərində, patent hüquq münasibətlərində və s.) iştirak etmək qabiliyyətinə malikdir. Bu baxımdan qurumlar dövriyyə qabiliyyəti olan istənilən əmlaka (binaya, torpaq sahəsinə, istehsal vasitələrinə və s.) malik ola bilər. Ensiklopediyaları, ensiklopedik lüğətləri, elmi əsərlərin toplularını, qəzetləri, jurnalları və digər dövri nəşrləri buraxan qurumların (nəşriyyatların) müəlliflik hüquq münasibətlərinin iştirakçısı olmaq hüququ vardır[1]. Qurumlar ixtira, faydalı model və sənaye nümunəsi üçün patent almaq (patent sahibi olmaq) hüququna malikdir[2].

İkincisi, qurumların mülki (əmlak) dövriyyə münasibətlərində — iqtisadi (əmlak) dövriyyə münasibətlərində çıxış etmək qabiliyyəti vardır. **Mülki (əmlak) dövriyyə münasibətləri** dedikdə, öhdəlik (nisbi) hüquq münasibətləri başa düşülür. Bu baxımdan qurumlar alqı-satqı, icarə, kirayə, kredit, daşıma, sığorta, podrat və digər öhdəlik hüquq münasibətlərində iştirak edə bilər. Onların istənilən mülki-hüquqi əqdi bağlamağa ixtiyarı çatır.

Söylədiklərimizə əsasən göstərə bilərik ki, mülki (əmlak) dövriyyədə çıxış etmək əlamətini məhdud mənada yox, geniş mənada başa düşmək lazımdır. **Geniş mənada mülki (əmlak) dövriyyədə çıxış etmək** dedikdə, qurumun həm əşya (mütləq) hüquq münasibətlərində, həm də öhdəlik (nisbi) hüquq münasibətlərində iştirak etmək imkanı başa düşülür.

İkinci hüquqi imkan qurumun **müstəqil surətdə mülki-hüquqi məsuliyyət daşımaq qabiliyyətini** əhatə edir. Bu, o deməkdir ki, hər bir qurum öz öhdəlikləri üçün əmlakı ilə cavabdehdir. Onun üçün heç kəs — nə təsisçilər, nə də iştirakçılar cavab verməyə borcludurlar. Kreditorlar öz tələblərini qurumа məxsus olan əmlaka yönəldə bilərlər. Elə əmlakın ayrılması da kreditorların quruma ola bilən mümkün iddialarını və pretenziyalarını təmin etmək, ödəmək məqsədini güdür. Qurumun nizamnamə kapitalı (şərikli kapital və ya pay haqqı fondu), hər şeydən əvvəl, məhz bu məqsədə xidmət edir. Nizamnamə kapitalının (şərikli kapital və ya pay haqqı fondunun) miqdarı kreditorların mənafelərini təmin edən həcmdə olmalıdır. Beləliklə, hüquqi şəxs statuslu hər bir qurum öz öhdəlikləri üçün müstəqil surətdə mülki-hüquqi məsuliyyət daşıyır. Bu cür məsuliyyət daşımağın vacib ilkin şərti və zəmini həmin qurumun ayrıca əmlaka malik olmasından ibarətdir. Məhz bu əmlak hesabına kreditorların tələb və iddiaları təmin edilir.

Mülki (əmlak) dövriyyədə müstəqil surətdə iştirak etmək əlaməti qurumun hüquqi şəxs kimi tanınması üçün gərək olan əlamətlər arasında **yekun əlamət** kimi nəzərdə tutulur[1]. Ona görə ki, təşkilati struktura, ayrıca əmlaka və əmlak müstəqilliyinə malik olan qurum məhz bu əlamət sayəsində qanunun yol verdiyi bütün mülki hüquq münasibətlərində subyekt rolunda iştirak etmək imkanı qazanır. Həmin əlamətin daha bir xüsusiyyəti də vardır: o, hüquqi şəxsin yaradılması məqsədi ilə sıx surətdə bağlıdır. Axı, hüquqi şəxs xüsusi olaraq mülki (əmlak) dövriyyədə iştirak etmək üçün yaradılan qurumdur.

Göstərilən əlaməti bəzi müəlliflər **hüquqi əlamət**[2], digər müəlliflər isə **maddi-hüquqi əlamət**[3] hesab edirlər.

Ç. Məhkəmdə iddiaçı və ya cavabdeh olmaq imkanı

Qurumun hüquqi şəxs kimi tanınması üçün lazım olan əlamətlərdən biri **onun məhkəmədə iddiaçı və ya cavabdeh olmaq imkanından ibarətdir.** Hüquqi şəxs statusu olmayan qurumlar məhkəmədə iddiaçı və ya cavabdeh qismində iştirak edə bilməzlər. Məsələn, müəssisənin filialının məhkəmədə iddiaçı və ya cavabdeh rolunda çıxış etmək imkanı yoxdur. Çünki o, hüquqi şəxs statusuna malik deyil.

Qurum subyektiv mülki hüququn daşıyıcı ola bilər. Bəzi hallarda bu hüquq digər şəxslər tərəfindən pozulur. Qurum öz pozulmuş mülki hüquqlarını müdafiə etmək üçün iddia ilə məhkəməyə müraciət etmək hüququna malikdir. Bu halda qurum iddiaçı qismində çıxış edir. Bu isə onu ifadə edir ki, hüquqi şəxs kimi tanınan qurumun **məhkəmədə iddiaçı olmaq qabiliyyəti vardır.**

Qurum subyektiv mülki hüquqlara malik olmaqla bərabər, həm də hüquqi vəzifələr daşıyır. Onun üzərinə mülki vəzifələr qoyula bilər. Bəzən qurum bu vəzifələri lazımınca icra edə bilmir, mülki hüquq pozuntusuna yol verir. Məsələn, podrat hüquq münasibətində podratçı rolunda çıxış edən tikinti təşkilatı ona tapşırılmış bağ evini tikmir. Başqa bir misalda daşıyıcı (nəqliyyat təşkilatı) yük göndərənin yükünü təyinat yerinə çatdırmır. Bu cür təqsirli hərəkətləri ilə

[1] bax. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» 5 iyun 1996-cı il tarixli qanunun 10-cu maddəsinin 2-ci bəndi (AR QK, III cild, s. 207).

[2] «Patent haqqında» 25 iyun 1997-ci il tarixli qanunun 12-ci maddəsi (AR QK, III cild, s. 767).

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 120.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 134-135.

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 74.

həm nəqliyyat təşkilatı, həm də tikinti təşkilatı öhdəliyi icra etmirlər. Buna görə də həmin qurumlar müstəqil surətdə mülki-hüquqi (əmlak) məsuliyyət daşıyırlar. Belə ki, onlar hüququ pozulmuş müqavilə iştirakçılarına vurduqları zərərin əvəzini ödəməlidirlər. Əgər onlar bunu könüllü surətdə ödəməzlərsə, onda hüququ pozulmuş şəxslər iddia ilə məhkəməyə müraciət edirlər. Belə halda həmin qurumlar cavabdeh qismində məhkəməyə cəlb edilirlər. Bu isə onu ifadə edir ki, hüquqi şəxs kimi tanınan qurumun **məhkəmədə cavabdeh olmaq qabiliyyəti vardır.**

Məhkəmədə iddiaçı və ya cavabdeh olmaq imkanı kimi əlamət mülki hüquq elmində **prosessual-hüquqi əlamət** adlandırılır[1]. Ona görə ki, bu əlamət mülki-prosessual hüquq subyektliyi anlayışı ilə sıx surətdə bağlıdır, yəni hüquqi şəxs statusu qazanması üçün qurumun mülki-prosessual münasibətlərdə subyekt rolunda çıxış etməsi imkanı ilə əlaqədardır. Mülki-prosessual qanunvericiliyə görə iddiaçı və ya cavabdeh yalnız mülki-prosessual hüquq subyektliyinə, yəni prosessual hüquq qabiliyyətinə və prosessual fəaliyyət qabiliyyətinə malik olan şəxslər ola bilər. Mülki-prosessual qanunvericilik hüquqi şəxs hüququna malik olan bütün qurumları həm prosessual hüquq qabiliyyəti ilə, həm də prosessual fəaliyyət qabiliyyəti ilə (prosessual hüquq subyektliyi ilə) təmin edir. Belə çıxır ki, yalnız hüquqi şəxs hüququna malik olan qurum məhkəmədə iddiaçı və ya cavabdeh ola bilər. Deməli, həmin əlamət həm mülki hüquq üçün, həm də mülki-prosessual hüquq üçün əhəmiyyət kəsb edir. Mülki hüquq nəzərdə tutur ki, hüquqi şəxs kimi tanınması üçün qurumun mülki-prosessual hüquq subyektliyinə (prosessual münasibətlərdə subyekt kimi iştirak etmək imkanına) malik olması gərəkdir. Mülki prosessual hüquq isə müəyyənləşdirir ki, yalnız hüquqi şəxs hüququ olan qurumlar prosessual hüquq subyektliyinə malikdir.

Beləliklə, hüquqi şəxsin əlamətini müəyyən etdikdən sonra ona anlayış verə bilərik. Bu, xarici ölkələrin sivilistika doktrinası ənənələrinə uyğundur. Xarici ölkələrin ya çoxunun mülki qanunvericiliyi, ümumiyyətlə, hüquqi şəxsə anlayış vermir, ya da ki hüquqi şəxsə tərif verərkən ən adi və qısa formullarla kifayətlənir[2]. Məsələn, Almaniyanın Mülki Qanunnaməsində, İtaliyanın Mülki Məcəlləsində və s. hüquqi şəxs anlayışının məzmunu açıqlanmır. 1978-ci ilə kimi Fransa Mülki Məcəlləsi, ümumiyyətlə, bu anlayışı işlətmirdi. Buna görə də həmin ölkələrin sivilistika doktrinası hüquqi şəxsin əlamətləri əsasında ona elmi anlayış verir. Bizim ölkə mülki qanunvericiliyi hüquqi şəxsin leqal anlayışını nəzərdə tutur (MM-in 43-cü maddəsinin 1-ci bəndi). Buna əsaslanaraq hüquqi şəxsə elmi (doktrinal) tərif verə bilərik.

Hüquqi şəxs dedikdə, dövlət tərəfindən hüququn subyekti kimi tanınan, məhkəmədə iddiaçı və ya cavabdeh ola bilən elə bir qurum başa düşülür ki, o, vahid təşkilati struktura və ayrıca əmlaka malik olub, mülki (əmlak) dövriyyədə öz adından çıxış edir.

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 134; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 74.

[2] *Кулагин М.И.* Предпринимательство и право: опыт Запада. М., 1992. Yaponiya sivilistika doktrinası hüquqi şəxsə belə anlayış verir: hüquqi şəxs odur ki, qanun onun hüquq qabiliyyətini tanıyır (*Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 64). L.Enneksenin hüquqi şəxsə belə tərif verir: mülki hüququn hüquqi şəxsləri müəyyən məqsəd üçün yaradılan elə təşkilatdır ki, onlar hüququn və iradənin subyekti kimi tanınır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 355).

4. Hüquqi şəxsin mahiyyəti barədə əsas nəzəriyyələr

Hüquqi şəxs mürəkkəb xarakterə malik olan konstruksiyadır. Bu mürəkkəblik onunla izah edilir ki, hüquqi şəxs fiziki şəxsləri tam vahid halında birləşdirən sosial qurum olub, mülki hüququn vahid subyekti kimi tanınır. Həmin cəhət hüquqi şəxs barədə xeyli nəzəriyyələrin və konsepsiyaların yaranmasına, əsaslı elmi tədqiqatlar aparılmasına səbəb olmuşdur. Elmi tədqiqatlar hüquqi şəxsin mövcud olduğu bütün tarix boyu aparılmışdır. Onların əsas məqsədi hüquqi şəxs kimi mürəkkəb və vacib sosial məsələnin mahiyyətini, təbiətini və məzmununu aydınlaşdırmaqdan ibarət olmuşdur. Onun əsl və həqiqi mahiyyətini anlamaq, başa düşmək və dərk etmək baxımından həmin nəzəriyyə və konsepsiyaların əsas cəhətləri ilə tanış olmaq vacibdir.

Əvvəllər də qeyd etdiyimiz kimi, hüquqi şəxs konstruksiyası hüquqi şəxs ideyasının özü və əsas cəhətləri Roma hüququ tərəfindən yaradılmışdır. Məhz həmin vaxtdan Roma hüquqşünasları, bu konstruksiyanın mahiyyətini tədqiq etməsələr də, onun barəsində müxtəlif elmi fikirlər söyləyirdilər[1]. Bu fikirlər xarici ölkələrin hüquq doktrinasında hüquqi şəxs barədə geniş yayılmış nəzəriyyələrin və konsepsiyaların rüşeymini təşkil edir[2].

Hüquqi şəxsin mahiyyəti və müəyyənləşdirilməsi haqqında ilk nəzəriyyə orta əsrlərdə Avropada yaranmışdır. O, **fiksiya** (latınca ficta — uydurma, həqiqətdən uzaq, yalan, qondarma, düzəltmə) nəzəriyyəsi adlanır. Bu nəzəriyyə hüquqi şəxs anlayışını nəzəri cəhətdən ümumiləşdirmək üçün edilən ilk tarixi təşəbbüs və cəhd idi[3]. Bu nəzəriyyəyə görə hüquqi şəxs qanunvericinin yaratdığı süni konstruksiyadır, hüququn əmələ gətirdiyi hadisədir, hüquqi fiksiyadır. Fiksiya nəzəriyyəsinin yaranmasına orta əsrlərdə fəaliyyət göstərən korporasiyalar əsas olmuşdu. Bu dövrdə korporasiyaya Roma hüquqşünasları tərəfindən irəli sürülən belə bir müddəa əsasında hüquqi anlayış verilirdi ki, korporasiyaya məxsus olan bütün əmlak onun ayrı-ayrı üzvlərinə malik deyil. Korporasiya hüququn müstəqil subyekti, müstəqil şəxs hesab edilirdi. Amma onların müstəqil şəxs kimi tanınması din xadimlərini təəccübləndirir və heyrətə gətirirdi. Din korporasiyaları kilsəyə tabe olmağa, tabe olmadıqda isə onları kilsədən uzaqlaşdırmaq və qovmaq hüququna malik olmağa çalışırdı. 1245-ci ildə Lion kilsəsində Roma papası IV İnnokenti çıxış edərək göstərdi ki, yalnız canı və vicdanı olan varlığı qovmaq və uzaqlaşdırmaq olar. Ona görə də korporasiyanı kilsədən qovmaq olmaz. Çünki korporasiyanın nə canı, nə vicdanı, nə iradəsi, nə də düşüncəsi vardır. O, yalnız mücərrəd anlayışdır, hüquqi addır, yalan, saxta, həqiqətdə mövcud olmayan qondarma və uydurma şəxsdir (persona ficta). Beləliklə, bu cür təmiz teoloji pərdə altında və təmiz dini bəhanə ilə fik-

[1] bax: *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı, 1999, s. 51-52.

[2] bax: Yenə orada, s.4.

[3] bax: *Иоффе О.С.*Цивилистическая доктрина феодализма // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 53.

sıya nəzəriyyəsi meydana gəldi[1].

Orta əsrlərdə formulə edilən konsepsiyalardan biri Bartol tərəfindən əsaslandırılan **mülkiyyətin bölünməsi nəzəriyyəsi** idi. Bartolun fikrincə, korporasiyada hüququn ıkı qrup subyekti mövcuddur: qondarma və saxta subyekt kimi korporasiyanın özü; real subyekt kimi korporasiyanın ayrı-ayrı üzvləri. Korporasiyanın əmlakı üzrə səlahiyyət hər iki qrup subyektə məxsusdur. Bartol belə hesab edirdi ki, korporasiya bu əmlakın ali mülkiyyətçisi kimi, korporasiya üzvləri isə müstəqil olmayan, asılı mülkiyyətçilər kimi çıxış edirlər[2].

Fiksiya nəzəriyyəsi bir çox yüzilliklər hüquq ədəbiyyatının səhifələrində işıqlandırılan əsas məsələ olmuşdur. Bu nəzəriyyə xüsusən XIX əsrdə daha geniş yayılmışdır. İndiki dövrdə fiksiya nəzəriyyəsi müasir Qərb sivilistikasında dəbdə olan başlıca konsepsiyalardan biridir.

Ümumiyyətlə, XIX əsr boyu hüquqi şəxslər, inqilabaqədərki tanınmış rus sivilisti İ.A.Pokrovski demişkən, hüquq ədəbiyyatında ən sevimli mövzulardan biri olmuşdur[3]. O dövrlər sivilistika elmini (doktrinasını) belə bir sual çox maraqlandırırdı: hüquqi şəxs adlandırılan bəzi sosial qurumların mülki (əmlak) dövriyyədə fiziki şəxs kimi, vahid real insan kimi subyekt rolunda çıxış etməsini necə və nə ilə izah etmək olar? Hüquqi şəxs kimi tanınan bu qurumlar hüququn real subyekti kimi mövcuddurmu? Göstərilən bu suallara cavab vermək üçün XIX əsr ərzində bir sıra fundamental nəzəriyyə, konsepsiya və təlimlər yaradılmışdır[4].

İlk dəfə olaraq hüquqi şəxs haqqında nəzəriyyəni alman tarixi məktəbinin tərəfdarları işləyib hazırlamağa başlayırlar. Söhbət, hər şeydən əvvəl, XIX əsrin F-K.f.Savinyi və B.Vindşeyd kimi tanınmış alman sivilistlərindən gedir. Onların alman sivilistika ədəbiyyatında əsaslandırdığı fundamental konsepsiya **fiksiya nəzəriyyəsi** adlanır.

Fıksiya nəzəriyyəsinə görə hüquqi şəxslər təbiət tərəfindən yox, hüquq tərəfindən yaradılır. O, təbii yox, süni, düzəltmə və qondarma qurumdur. Həqiqətdə hüququn subyekti olmaq xüsusiyyətinə yalnız iradəsi, düşüncəsi və şüuru olan insan malik ola bilər. Hüquqa malik olmaq qabiliyyəti hüquqi şəxslərə süni surətdə verilir. Hüquqa malik olmaq qabiliyyəti tamamilə dövlətin iradəsindən asılıdır. Ona görə də hüquqi şəxslər yalnız icazə qaydasında yaradılmalıdır. Madam ki, dövlət hüquqi şəxsləri yaradır, o da öz istəyi ilə onları ləğv etmək hüququna malikdir. Hüquqi şəxslər qanunvericinin uydurduğu hüquq subyektidir. O, hüquqi fiksiyadır, reallıqdan uzaq olan mücərrəd anlayışdır. Bununla belə, praktiki məqsədlər üçün hüquqi şəxslər insan şəxsiyyətinin xüsusiyyətlərini təcəssüm etdirə, ifadə edə və canlandıra bilər.

Fiksiya nəzəriyyəsi inqilabaqədərki rus mülki hüquq elmində də dəstəklənir. O, dövrün D.İ.Meyer, A.M.Qulyayev və G.F.Şərşeneviç kimi görkəmli sivilistləri hüquqi şəxslərin hüququn qeyri-real, uydurma subyekti sayılması barədə fikirlər söyləyirdilər[1]. G.F.Şərşeneviç yazırdı ki, hüquqi şəxslər müəyyən məqsədə çatmaq üçün yaradılan süni dövriyyə subyektidir[2].

XIX əsrdə irəli sürülən konsepsiyalardan biri **məqsədli əmlak nəzəriyyəsi** adlanır. Bu nəzəriyyəni alman sivilisti A.f.Brins əsaslandırmışdır. Həmin nəzəriyyə hüquqi şəxs xüsusiyyətinə malik olan real subyektin mövcudluğunu inkar edir. Onun mahiyyəti bundan ibarətdir ki, hüquqi şəxs «subyekt olmayan şəxsiyyətdir». Hüquqi şəxs əmlak deməkdir. Özü də hər hansı subyektə məxsus olan əmlak yox. Elə bir əmlak ki, bu əmlak hüququn subyekti rolunu oynamaq məqsədi üçün ayrılır. Belə halda hüququn subyekti, ümumiyyətlə, lazım deyil. Belə ki, göstərilən halda hüququn subyekti rolunu məhz bu məqsəd üçün ayrılmış əmlak yerinə yetirir. Nə vaxta kimi hüququn subyekti rolunu oynamaq məqsədi mövcuddur, o müddətə qədər də hüquqi şəxs məqsədli əmlak (zweckvermögen) kimi qalır və saxlanır.

XX əsrin əvvəllərində Fransa sivilistika doktrinasında **kollektiv mülkiyyət və ya kollektiv əmlak** adlı nəzəriyyə irəli sürülür. Bu nəzəriyyə fransız sivilisti M.Planiol tərəfindən əsaslandırılmışdır. Həmin nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, hüquqi şəxs yaradıldıqdan sonra onun əmlakı bütün kollektivin əmlakının hər hansı bir hissəsinin mülkiyyətçisi saya bilməzlər. Hüquqi şəxsin özü isə kollektivə məxsus olan əmlakın xüsusi qaydada idarə olunması üsuludur. Bu nəzəriyyə hüquqi şəxsi kollektiv əmlak sayaraq onun hüququn subyekti kimi mövcud olmasını inkar edirdi.

Fiksiya nəzəriyyəsinə qarşı qoymaq üçün XIX əsrdə məşhur alman sivilist alimi R.f.İering **mənafe nəzəriyyəsi** adlı konsepsiya irəli sürür. Amma buna baxmayaraq müəyyən hallarda və parametrlərdə bu nəzəriyyəyə fiksiya nəzəriyyəsinin təsiri hiss olunmaqdadır. O, fiksiya nəzəriyyəsinin təsirindən tamamilə azad ola bilmir. Buna görə də mənafe nəzəriyyəsinə fiksiya nəzəriyyəsinin başqa bir variantı kimi baxılır. Mənafe nəzəriyyəsinə görə hüquqi şəxsin öz xüsusi mənafeyi yoxdur və ola da bilməz. Hüquqi şəxsin (korporasiyanın) əmlakı həqiqətdə onun üzvləri olan real fiziki şəxslərə — destinatorlara məxsusdur. Destinatorlar faktiki surətdə həmin əmlakdan istifadə edərək fayda götürürlər. Destinatorların mənafeyi vardır. Onların ümumi mənafeyini isə hüquqi şəxs ifadə edir. Hüquqi şəxsin yaradılması destinatorların mənafeyini təmin etməklə bağlıdır. Hüququn əsl və həqiqi subyekti rolunda hüquqi şəxsin özü yox, onun ayrı-ayrı üzvləri (destinatorlar) çıxış edirlər. Hüquqi şəxs destinatorların subyektiv hüquqlarını və mənafelərini təcəssüm etdirmək üçün yaradılan süni mərkəzdir. Hüquqi şəxs yalnız hüquqi-texniki üsuldur. O, bir neçə fiziki şəxsin

[1] bax: *Венедиктов А.В.* Государственная социалистическая собственность. М.-Л., 1948, с. 675; *Иоффе О.С.* Цивилистическая доктрина феодализма // Сборник. учен трудов Свердловский юрид. ин-т. Вып. 13. 1970, с. 140.

[2] bax: *Н.Л.Дювернуа.* Чтения по гражданскому праву. Вып. 2. СПб., 1908, с. 437; *Братусь С.Н.* Юридическое лицо в советском гражданском праве. М., 1947, с. 73-74.

[3] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1917), с. 146.

[4] Bu nəzəriyyələrin əsas cəhətləri barədə bax: *Братусь С.Н.* Юридическое лицо в советском гражданском праве. М., 1947, с. 78-85, *Братусь С.Н.* Субъекты гражданского права М., 1950 (глава VIII); *Иоффе О.С.* Цивилистическая доктрина промышленного капитализма // В книге. *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 85-91; *Венедиктов А.В.* Государственная социалистическая собственность. М-Л., 1998, с. 675-681.

[1] bax: *Мейер Д.И.* Русское гражданское право. СПб., 1902, с. 84-87; *Гуляев А.М.* Русское гражданское право. СПб., 1913, с. 74-75.

[2] bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. М., 1995 (по изданию1907 г.), с. 89-91.

bəzi ümumi məqsədə çatmalan üçün əmlaka malik olmalarının xüsusi formasıdır. İnqilabaqədərki bəzi rus sivilistləri (Y.S.Qembarov, N.M.Korkunov) bu nəzəriyyəyə mahiyyətcə tərəfdar çıxaraq, onu inkişaf etdirmişlər[1].

Beləliklə, göstərilən nəzəriyyələr mahiyyətcə **hüququn subyekti kimi hüquqi şəxsin reallığını tanımır.** Bu nəzəriyyələr hüquqi şəxs xüsusiyyətinə malik olan real subyektin mövcudluğunu inkar edir, həqiqi və əsl sosial qurum kimi hüquqi şəxsin fəaliyyət göstərməsinin reallığını qəbul etmir. Həmin nəzəriyyələrin əsasını hüquqi şəxsin uydurulmuş, qondarılmış və süni qurum olması barədə fikir və ideya təşkil edir[2].

Fiksiya nəzəriyyələri yaranan kimi ona qarşı qoyulmaq üçün müxtəlif konsepsiya və təlimlər işlənib hazırlanır. Bu konsepsiya və təlimlər hüquqi şəxsləri süni, uydurma və qondarma qurum hesab etmir. Onların ifadə etdiyi əsas ideya və tezis hüquqi şəxslərin hüququn real subyekti kimi mövcudluğunu tanımaq fikrindən ibarətdir. Ona görə də bu konsepsiyalar **hüquqi şəxslərin reallığı** adını alır. Həmin konsepsiyalardan biri **üzvi nəzəriyyə** adlanır. Bu nəzəriyyənin hüquqi məzmununu alman sivilisti O.f.Girke işləyib hazırlamışdır.

Üzvi nəzəriyyə hüquqi şəxsi insan şəxsiyyətinə bənzədir. O, canlı orqanizm, canlı şəxsiyyət və canlı varlıqdır. Hüquqi şəxs həm cismani (maddi), həm də ruhi (mənəvi) orqanizmdir. Hüquqi şəxsin ruhunu onun ümumi iradəsi, bədənini isə ittifaqın orqanizmi təşkil edir. O, ictimai orqanizmdir. Hüquqa malik olmaq qabiliyyətini hüquqi şəxsin özünün mahiyyəti yaradır. Bunun üçün heç kəsin sanksiya (icazə) verməsi tələb olunmur. Sanksiya (icazə) yox, sadəcə olaraq dövlət tərəfindən etiraf olunmaq real orqanizm kimi hüquqi şəxsin yaranması üçün əsasdır.

Üzvi nəzəriyyənin inkişaf etdirilməsi fransız sivilistikasında **sosial reallıq** adlı nəzəriyyənin yaranmasına səbəb olur. Bu nəzəriyyə fransız hüquqşünasları P.Mişu və R.Salleyl tərəfindən işlənib hazırlanır. R.Salleyl göstərir ki, hüquqi şəxslərin reallığının tanınmasında o, Girke ilə tam həmrəydir. Onun fikrincə, hüquqi şəxs bioloji və ya biososioloji yox, istisnasız olaraq, tamam sosial reallıqdır. O, müəyyən əmlak kompleksinə əsaslanır, ümumi iradəyə malikdir, fiziki şəxslər arasında əlaqəni ifadə edir, bu şəxslərin ümumi mənafeyinə və vahid məqsədə çatmalarına xidmət edir.

Hüquqi şəxslərin reallığı konsepsiyası inqilabaqədərki bəzi rus sivilistləri tərəfindən də dəstəklənir. N.L.Düvernua hüquqi şəxsi «sosial orqanizmin canlı hüceyrəsi» adlandırır[3]. Digər tanınmış sivilist alim İ.A.Pokrovski göstərirdi ki, hüquqi şəxslər bizim hüquqi təfəkkürümüz tərəfindən süni surətdə yaradılan uydurma qurum deyildir; o, ictimai (sosial) reallıqdır. Ona görə də hüquqi şəxsin hüquq qabiliyyəti insanın hüquq qabiliyyəti kimi təbiidir. Onun fikrincə, hüquqi şəxs ölü və cansız varlıq yox, sosial orqanizmin canlı hüceyrəsidir[1].

Müasir dövrdə xarici sivilistika doktrinasında hüquqi şəxsin mahiyyəti barədə yeni konsepsiya və təlimlərin yaranmamasının şahidi oluruq. Burada hüquqi şəxs nəzəriyyələrinə elə də böyük diqqət yetirilmir. Xarici sivilist tədqiqatçılar hüquqi şəxs məsələsinin mahiyyətini araşdırarkən sadaladığımız mövcud konsepsiya hüdudlarından kənara çıxa bilmirlər. Odur ki, indi xarici sivilistika ədəbiyyatı səhifələrində elə bir yeni fundamental konsepsiyaya rast gəlmirik.

Bəs, sovet dövrünün sivilistika elmində hüquqi şəxsin mahiyyəti barədə hansı nəzəriyyələr yaranmışdı? Hər şeydən əvvəl, qeyd edək ki, sovet sivilistika elmi hüquqi şəxs konstruksiyasının mahiyyətinin tədqiq edilməsinə və araşdırılmasına xüsusi diqqət yetirirdi. Bu cür tədqiqat və araşdırmaların mərkəzində dövlət hüquqi şəxslərinin (təşkilatlarının, idarələrinin və müəssisələrinin) hüquq subyektliyi məsələsi dururdu. Ona görə ki, sovet dövrünün mülki (əmlak) dövriyyəsində həmin hüquqi şəxslər üstün və hakim mövqe tuturdular. Hər bir dövlət hüquqi şəxsi mülkiyyət hüququ əsasında dövlətə məxsus olan əmlaka malikdir. O, dövlət mülkiyyətinə əsaslanan digər dövlət hüquqi şəxsləri ilə əqdlər bağlayaraq və onu icra edərək eyni zamanda mülki dövriyyədə çıxış edir. Belə halda bu cür suallar yaranır: bu subyektlər kimin iradəsini ifadə edir? Bu subyektlərin hər birinin arxasında hansı insan substratı durur?

Qoyulmuş suallara cavab vermək üçün sovet sivilistika elmi bir neçə nəzəriyyə işləyib hazırlamışdır[2]. Bu nəzəriyyələrdən biri D.M.Genkinin əsaslandırdığı **sosial reallıq nəzəriyyəsi** adlanır[3]. N.Q.Aleksandrov[4] və B.B.Çerepaxin[5] kimi sovet alimləri həmin nəzəriyyəyə tərəfdar çıxmışlar. Sosial reallıq nəzəriyyəsinə görə hüquqi şəxslər sosial reallıqdır. O, ictimai faydalı məqsədə çatmaq üçün və ya dövlətin və cəmiyyətin qarşısında duran sosial-iqtisadi vəzifələri həll etmək üçün müəyyən əmlakla təmin edilir. Bu nəzəriyyə hüquqi şəxsin insan substratının müəyyənləşdirilməsinə təşəbbüs göstərilməsindən imtina edir. D.M.Genkin təklif edir ki, hüquqi şəxsin insan substratı axtarışından imtina etmək lazımdır.

Sovet sivilistika elmində irəli sürülən konsepsiyalardan biri **dövlət nəzəriyyəsi** adlanır. Bu nəzəriyyəni S.İ.Asknazi işləyib hazırlamışdır[6]. Onun fikrincə, dövlət əmlakının yeganə və vahid mülkiyyətçisi dövlətin özüdür. Dövlət orqanları mülki hüquq münasibətlərinə girdikdə onun əsasında dövlət mülkiyyəti du-

---

[1] bax: *Гембаров Ю.С.* Курс гражданского права. Том 1. Общая часть. СПб., 1911, с. 450-451; *Коркунов Н.М.* Лекции по общей теории права СПб., 1914, с. 418.

[2] Fiksiya nəzəriyyəsini bəzi ölkələrin qanunvericiliyi nəzərə almışdır. Məsələn, Ekvadorun Mülki Məcəlləsinin 585-ci maddəsi, Çilinin Mülki Məcəlləsinin 583-cü maddəsi hüquqi şəxsi süni, uydurma qurum adlandırır.

[3] bax: *Дювернуа Н.Л.* Чтения по русскому гражданскому праву. Том 1. Вып. 2. СПб., 1898, с. 262-272.

[1] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1995 (по изданию 1917 г.), с. 148, с. 157.

[2] Bu nəzəriyyələrin geniş tənqidi təhlili verilmişdir: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1. Л. 1975 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 304-314.

[3] *Генкин Д.М.* Юридические лица в советском гражданском праве // Проблемы социалистического права. 1939. № 1, с. 91; *Генкин Д.М.* Значение применения юридической личности во внутреннем и внешнем товарообороте СССР // В книге: Сборник научных трудов института народного хозяйства им. Г.В.Плеханова. Вып. IX. М., 1955, с. 7.

[4] bax: *Александров Н.Г.* Трудовое отношение. М., 1948, с. 202.

[5] bax: *Черепахин Б.Б.* Волеобразование и волеизъявление юридических лиц // Правоведение. 1958. № 2. Çerepaxin bu nəzəriyyəni hələ bundan xeyli əvvəl dəstəkləmişdir (bax: Ленингр. юрид. ин-т. им. М.И.Калинина. Науч. сессия. Тезисы докладов. Л., 1953, с. 12).

[6] *Аскназий С.И.* Об основаниях правовых отношений между государственными социалистическими организациями // Уч. зап. Ленинградского юрид. ин-та. Вып. IV. Л., 1947, с. 5.

rur. Buradan S.İ.Asknazi belə nəticə çıxarırdı ki, hər bir dövlət müəssisəsinin arxasında onun əmlakının mülkiyyətçisi — dövlətin özü durur. Dövlət isə təşkil olunmuş ümumxalq kollektivi deməkdir. Buna görə də müəssisənin (hüquqi şəxsin) əmək kollektivini hüquqi şəxsin insan substratı hesab etmək olmaz. Dövlət bu kollektivin vasitəsi ilə müəyyən əmlakdan təsərrüfat məqsədləri üçün istifadə edir. Dövlət hüquqi şəxsləri dedikdə, təsərrüfat həyatının konkret sahəsində fəaliyyət göstərən dövlətin özü başa düşülür.

Hüquq ədəbiyyatı səhifələrində bu nəzəriyyə tənqidlə üzləşir. Bu nəzəriyyədən belə çıxır ki, birincisi, dövlət öz-özü ilə mülki hüquq münasibətlərinə girir. İkincisi, bu nəzəriyyə dövlət hüquqi şəxslərinin mülki-hüquqi məsuliyyət məsələsini həll etmir, yəni dövlətin və onun yaratdığı hüquqi şəxslərin məsuliyyəti arasında dəqiq sərhəd çəkməyə və hədd qoymağa imkan vermir. Bundan əlavə, dövlət nəzəriyyəsi əsasında dövlətin və onun yaratdığı hüquqi şəxslərin əmlakını dürüst ayırmaq və bölmək mümkün olmur.

Sovet dövrünün mülki hüquq elmində formulə edilən konsepsiyalardan biri **direktor nəzəriyyəsi** adlanır. Bu nəzəriyyə Y.K.Tolstoyun əsərlərində əsaslandırılır[1]. Sivilist alim göstərir ki, mülki hüquq münasibətlərinə girmək üçün dövlət orqanlarına hüquqi şəxs statusu və hüququ verilir. Bu münasibətlər sahəsində dövlət orqanlarının iradəsini ifadə etməyə yalnız onun rəhbərinin — direktorunun səlahiyyəti və ixtiyarı çatır. Orqanın direktoru hüquqi şəxs adından çıxış edir və dövlət orqanının «hüquqi şəxsiyyətini» ifadə edir. Bu iradə dövlət orqanlarının işçilərinin iradəsindən asılı deyildir. Direktorun iradəsi isə dövlətin iradəsi ilə müəyyən olunur. Direktor dövlət plan tapşırıqlarına uyğun olaraq dövlət orqanının operativ idarəetməsinə verilmiş əmlaka sahiblik, əmlakdan istifadə, müəyyən hallarda isə, onun üzərində sərəncam vermək səlahiyyətlərini həyata keçirir. Y.K.Tolstoyun fikrincə, hər bir dövlət hüquqi şəxsinin arxasında durur: birincisi, dövlət orqanına verilən əmlakın yeganə və vahid mülkiyyətçisi — dövlətin özü; ikincisi, dövlət orqanının direktoru. Direktor (rəhbər) hüquqi şəxsin insan substratını təşkil edir. Direktor nəzəriyyəsi də tənqid olundu. Bu nəzəriyyənin əsas və başlıca qüsuru onun dövlət hüquqi şəxsi ilə həmin orqanın rəhbəri olan direktoru eyniləşdirməsindən ibarətdir[2]. O, hüquqi şəxsin arxasında duran əmək kollektivinin rolunu azaldır.

Direktor nəzəriyyəsi V.P.Qribanov tərəfindən müəyyən dərəcədə inkişaf etdirilir. O, başında məsul rəhbər duran müdiriyyəti hüquqi şəxsin kollektivlərindən biri hesab edir[3]. Sivilist alim həm də sovet mülki hüquq elmində yaranan digər konsepsiyanı — kollektiv nəzəriyyəni müəyyən dəyişikliklə dəstəkləyir.

Kollektiv nəzəriyyəni sovet dövlət hüquqi şəxsləri barədə təlim əsasında A.V Venediktov əsaslandırmışdır. O, göstərir ki, hüquqi şəxs statusu olan dövlət orqanlarının arxasında mülkiyyətçi — dövlət durur. Dövlət isə təşkil olunmuş ümumxalq kollektivi deməkdir. Deməli, dövlət orqanlarının arxasında dövlətin şəxsində xalq — ümumxalq kollektivi dayanır. Xalqın — dövlətin simasında təşkil olunmuş ümumxalq kollektivinin iradəsi ilə dövlətin mülkiyyətində olan əmlakın bir hissəsi operativ idarəetmə üçün dövlət orqanlarına verilir. Təkcə dövlət tərəfindən təyin edilən məsul rəhbər (direktor, rəis, müdir və s.) yox, həm də onun başçılıq etdiyi dövlət orqanının fəhlə və qulluqçular kollektivi bu iradəni həyata keçirir. Məhz bu kollektivin istehsal və digər hərəkətlərində dövlət hüquqi şəxsinin özünün fəaliyyəti təzahür edir, canlanır. Buna uyğun olaraq A.V.Venediktov dövlət müəssisəsinə (sovet sosialist təsərrüfat orqanına)[1] belə anlayış verirdi: dövlət müəssisəsi dedikdə, dövlət tərəfindən təşkil oluna və başında rəhbər duran fəhlə və qulluqçuların elə bir kollektivi başa düşülür ki, bu kollektivin üzərinə müəyyən dövlət vəzifələrinin yerinə yetirilməsi qoyulur və həmin vəzifələri həyata keçirmək məqsədi ilə vahid dövlət mülkiyyəti fondunun müvafiq hissəsi ona verilir[2].

Beləliklə, kollektiv nəzəriyyəyə görə dövlət hüquqi şəxslərinin arxasında iki kollektiv durur: birincisi, dövlət mülkiyyətinin vahid və yeganə mülkiyyətçisi olan dövlətin şəxsində bütün xalq (ümumxalq kollektivi); ikincisi, həmin hüquqi şəxsin fəhlə və qulluqçular kollektivi (bu kollektivin başında məsul rəhbər durur).

Kollektiv nəzəriyyə sovet hüquq ədəbiyyatı səhifələrində tənqidlə rastlaşdı. Bununla belə, o, sovet dövrünün tanınmış sivilist alimləri (S.N.Bratus[3], O.S.İoffe[4], V.P.Qribanov[5], R.O.Xalfina[6] və s.) tərəfindən dəstəklandı. **Sovet mülki hüquq elmində həmin nəzəriyyə üstün və hakim konsepsiyaya çevrildi.** Kollektiv nəzəriyyənin mövqeyi leqal cəhətdən də dəstəklənir. Həmin dövrlərdə qəbul edilən normativ aktlar onu qanunvericilik qaydasında nəzərə alır. 1961-64-cü illin mülki qanunvericiliyi hüquqi şəxsin anlayışı və dövlət təşkilatlarının hüquqları haqqında normalar formulə edərkən məhz kollektiv nəzəriyyəyə əsaslanır.

Beləliklə, sovet sivilist doktrinasında üç əsas konsepsiya (dövlət nəzəriyyəsi, direktor nəzəriyyəsi, kollektiv nəzəriyyə) işlənib hazırlanır ki, dövlət hüquqi şəxslərində insan substratının olması haqqında ideya bu nəzəriyyələrin hamısı üçün ümumi olub, onları birləşdirir. Şübhəsiz ki, həmin nəzəriyyələrdə hüquqi şəxsin müasir anlayışının əsası qoyulmuşdur. Sovet sivilistlərinin əsas diqqəti dövlət hüquqi şəxslərinin hüquqi «şəxsiyyətinin» öyrənilməsinə yönəlmişdi. Onların gəldikləri nəticələrin, söz yox ki, müasir dövrdə müəyyən elmi və me-

[1] bax: *Толстой Ю.К.* Содержание и гражданско-правовая защита прав собственности в СССР. Л., 1955, с. 88; *Толстой Ю.К.* О государственных юридических лицах в СССР // Вестник Ленинградского университета. 1955. № 3.

[2] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 111.

[3] bax: *Грибанов В.П.* Юридические лица. М., 1961, с. 46-52.

[1] bax: *Венедиктов А.В.* Государственная социалистическая собственность. М.-Л., 1948, с. 657-672.

[2] bax: *Венедиктов А.В.* Государственная социалистическая собственность. М.-Л., 1948, с. 591.

[3] bax: *С.Н.Братусь.* Юридические лица в советском гражданском праве. М., 1947; *С.Н.Братусь.* Курс гражданского права. Субъекты гражданского права. М., 1950.

[4] bax: *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву М., 1955, *Иоффе О.С* Советское гражданское право. М., 1967; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.С.Иоффе, Ю.К.Толстого, Б.Б.Черепахина.* М., 1971.

[5] bax: *Грибанов В.П.* Юридические лица. М., 1961. Müəllif kollektiv nəzəriyyəni əsaslandıraraq hüquqi şəxsin arxasında üç kollektivin dayanmasını göstərir: ümumxalq kollektivinin (dövlətin); fəhlə və qulluqçular kollektivinin; başında məsul rəhbərin durduğu müdiriyyətin.

[6] R.O.Xalfina əvvəl bu nəzəriyyəyə qarşı çıxır. Sonralar baxışlarında təkamül (evolyusiya) olduğunu bildirərək onu dəstəkləyir (bax: Государство, право и экономика / Под ред. *В.М.Чхиквадзе.* М., 1970, с. 353).

todoloji qiyməti vardır. Bununla belə, aydın bir həqiqət və məlum məsələdir ki, komanda (sovet) iqtisadiyyatından bazar iqtisadiyyatına keçid dövründə, dövlət mülkiyyəti inhisarına son qoyulduğu bir şəraitdə sovet konsepsiya və nəzəriyyələri öz aktuallığını itirir. Söhbət, hər şeydən əvvəl, kollektiv nəzəriyyədən gedir.

Hələ sovet dövründə hüquq ədəbiyyatı səhifələrində hüquqi şəxsin mahiyyətinin üstün kollektiv nəzəriyyənin nəzərdə tutduğu qaydadan fərqli yolla müəyyənləşdirilməsi fikri səslənirdi, yəni kollektiv nəzəriyyəyə qarşı yeni konsepsiya qoyulurdu. Müəlliflərdən V.A.Raxmiloviç haqlı olaraq göstərirdi ki, hüquqi şəxsin insan substratını və yaxud digər başqa hər hansı xüsusi substratını əsaslandırmaq və ya axtarmaq lazım deyil. Çünki onun hüquqlarını hüquqi şəxsin özü daşıyır[1].

Bazar münasibətləri şəraitində təsərrüfat subyektlərinin təşkilati-hüquqi forma cəhətdən yeni növləri əmələ gəlir. Özü də onlar hüquqi şəxs hüququna malikdir. Məsələn, bizim ölkənin yeni mülki qanunvericiliyinə görə bir təsisçi (iştirakçı) tərəfindən hüquqi şəxsin yaradılması mümkündür. Bu cür hüquqi imkan bir çox xarici ölkələrin qanunvericiliyində də nəzərdə tutulur. Xarici doktrinada bir təsisçinin (iştirakçının) yaratdığı hüquqi şəxsə «bir şəxsin kompaniyası» deyilir. Azərbaycan Respublikasının müasir mülki qanunvericiliyi müəyyən edir ki, səhmdar cəmiyyəti bir şəxs tərəfindən də yaradıla bilər və ya bir şəxsdən də ibarət ola bilər (MM-in 98-ci maddəsinin 5-ci bəndi). Bu cür halda hüquqi şəxsin insan substratından (kollektivdən) danışmaq nə dərəcədə həqiqətə uyğundur? Bu suala cavab verərək göstərə bilərik ki, yalnız bir üzvü olan korporasiyalarda (hüquqi şəxslərdə) insan substratı və kollektivi vacib rol oynamır. Bu isə onu sübut edir ki, bazar təsərrüfatı sistemində kollektiv nəzəriyyə öz aktuallığını itirir.

Bundan əlavə, bazar iqtisadiyyatı şəraitində bazar əmtəə dövriyyəsinin əhatə dairəsi daha da genişlənir, iqtisadi (əmlak) dövriyyə xeyli canlanır. Bu dövriyyə əmlak, əmtəə xarakterinə malikdir. Ona görə də burada özünün əmlakı olan hüquqi şəxslər — müstəqil, asılı olmayan əmtəə-mal sahibləri çıxış edə bilər. Belə halda isə kollektiv nəzəriyyənin əsasını təşkil edən kollektiv insan substratı yox, əmlak substratı ön plana keçir, daha vacib və aktual əhəmiyyət kəsb edir.

Bazar təsərrüfatı şəraitində sovet dövrünün sivilistika doktrinasında formulə edilən iki elmi nəzəriyyə mühüm rol oynayır. Bu nəzəriyyələrdən birini O.A.Krasavçikov işləyib hazırlamışdır. O, **sosial əlaqələr nəzəriyyəsi** adlanır[2]. Bu nəzəriyyəyə görə, hüquqi şəxs sosial əlaqələrin müəyyən sistemidir. İkinci nəzəriyyəni B.İ.Puqinski formulə etmişdir[3]. Həmin nəzəriyyəyə görə hüquqi şəxs dedikdə, elə bir hüquqi vasitə (hüquqi-texniki üsul) başa düşülür ki, bunun sayəsində və köməyi ilə konkret təşkilat mülki dövriyyədə iştirak etmək

[1] bax *Рахмилович В.А.* О так называемом субстрате юридического лица // Проблемы совершенствования советского законодательства. Труды ВНИИСЗ. Вып. 29. М., 1984, с. 116-118.

[2] bax *Красавчиков О.А.* Сущность юридического лица // Советское государство и право. 1976. № 1.

[3] *Пугинский Б.И.* Гражданско-правовые средства в хозяйственных отношениях. М., 1984

imkanı əldə edir. Biz elə hesab edirik ki, hüquqi şəxsləri onu yaradan təsisçilərlə, iştirakçılarla, işçilərlə və kollektivlə eyniləşdirmək olmaz. Hətta bir və ya bir neçə və yaxud da bütün təsisçilər (iştirakçılar) hüquqi şəxsdən çıxdıqda belə, o, prinsip etibarilə mövcud olmaqda davam edir. Hüquqi şəxs müstəqil və mürəkkəb sosial qurumdur. O, müstəqil təsərrüfat fəaliyyətinin təşkilinin xüsusi üsuludur. Bu üsulun mahiyyəti həmin fəaliyyətin həyata keçirilməsi üçün müəyyən **əmlakın ayrılmasından (əmlakın personifikasiyasından)** ibarətdir.

Hüquqi şəxsin mahiyyəti barədə çoxsaylı nəzəriyyələrdən hansının üstün olması fikrini söyləmək olduqca çətin məsələdir. Bu nəzəriyyələrdən hər birinin, şübhəsiz, həm üstün, həm də zəif və nöqsanlı cəhətləri vardır. Onların hamısı birlikdə mürəkkəb xarakterə malik olan hüquqi şəxs adlı mülki-hüquqi hadisənin mahiyyətini açmağa imkan verir. Amma onu deyə bilərik ki, hüquqi şəxsin mahiyyətini hər hansı bir substrat — insan substratı və ya əmlak substratı aspektindən izah etmək yersiz və lazımsız işdir.

Gələcəkdə hüquqi şəxsin mahiyyəti barədə yeni nəzəriyyələrin yaranması istisna edilmir, bu mümkündür. Onların əmələ gəlməsi iqtisadi şərait ilə əlaqədardır. Belə ki, iqtisadi münasibətlər sistemi inkişaf etdikcə, hüquqi şəxs institutu da inkişaf edir. Buna uyğun olaraq hüquqi şəxs barədə elmi baxışlar da inkişaf edir.

Xarici ölkələrin sivilistika doktrinası hüquqi şəxsin hüquqi təbiətini izah edərkən bu və ya digər nəzəriyyəyə üstünlük verir. Məsələn, alman mülki hüquq elmində fiksiya nəzəriyyəsi, məqsədli əmlak nəzəriyyəsi əsas kimi götürülür[1]. Mülki Məcəllə qəbul edilən zaman Yaponiya qanunvericiliyi fiksiya nəzəriyyəsinin tərəfində olmuşdur. Amma Mülki Məcəlləyə kommentariya verilərkən hüquqşünaslar realist konsepsiyanın tərəfində dururlar[2].

5. Hüquqi şəxsin fərdiləşdirilməsi

Qeyd etdik ki, hüquqi şəxslər mülki (əmlak) dövriyyədə müstəqil surətdə çıxış edir. Burada digər müxtəlif hüquqi şəxslərə də rast gəlmək olur. Müstəqil surətdə çıxış etmək və habelə sərbəst fəaliyyət göstərmək üçün hüquqi şəxsi mülki (əmlak) dövriyyənin digər iştirakçıları ilə qarışdırmamaq lazımdır. Bu, hüquqi şəxsin fərdiləşdirilməsi yolu ilə həyata keçirilir. **Hüquqi şəxsin fərdiləşdirilməsi** dedikdə, onun fərdi əlamətlərinə görə digər hüquqi şəxslərdən ayrılması başa düşülür. Bundan ötrü fərdiləşdirmə vasitələrindən istifadə olunur. **Fərdiləşdirmə vasitələri** odur ki, bunun sayəsində və köməyi ilə hüquqi şəxsin özü, habelə onun fəaliyyətinin nəticələri ayrılır, fərqləndirilir. Buna görə də bu vasitələr iki cür olur:

- hüquqi şəxsin özünü fərdiləşdirmə vasitələri;
- hüquqi şəxsin fəaliyyətinin nəticələrini fərdiləşdirmə vasitələri.

Əmtəə-pul münasibətlərinin inkişafı və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı olaraq fərdiləşdirmə vasitələri bazar iqtisadiyyatının vacib elementinə çevrilir. Total dövlət mülkiyyətinin inhisarı, rəqabətin olmaması və əmtəə

[1] *A. Жапинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 300. Almaniya hüquq doktrinasında hüquqi şəxslərin hüquqi təbiəti mübahisəli məsələ hesab olunur.

[2] *Сакэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 66.

bazarının zəif inkişaf etməsi şəraitində fərdiləşdirmə vasitələri mühüm rol oynamırdı. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq bu vasitələrə münasibət köklü surətdə dəyişmişdir. Yeni təsərrüfat sistemi mülki (əmlak) dövriyyə iştirakçılarının özünün və onların təsərrüfat-sahibkarlıq fəaliyyətinin nəticələrinin fərdiləşdirilməsini təmin edən hüquqi mexanizmin yaradılmasını obyektiv zərurətə çevirir. Bu hüquqi mexanizm **fərdiləşdirmə vasitələrinin hüquqi mühafizəsi** adlı institutla əhatə olunur. Həmin institut mülki hüququn əqli mülkiyyət hüququ (müstəsna hüquqlar) adlı yarımsahəsinin institutlarından biridir[1]. O, özü iki subinstituta ayrılır: **mülki dövriyyə iştirakçılarını fərdiləşdirmə vasitələri subinstitutu;** mülki dövriyyə iştirakçılarının fəaliyyətinin **nəticələrini fərdiləşdirmə vasitələri subinstitutu.**

Hüquqi şəxslərin özünü fərdiləşdirmə vasitələri iki cür olur:

- hüquqi şəxsin olduğu yer;
- hüquqi şəxsin adı.

Hüquqi şəxsin olduğu yer dedikdə, onun daimi fəaliyyətdə olan orqanının yerləşdiyi yer başa düşülür[2]. O, hüquqi şəxsin hüquqi ünvanıdır. Göründüyü kimi, mülki qanunvericilik hüquqi şəxsin olduğu yeri onun daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerlə təyin edilməsi və müəyyənləşdirilməsi qaydasını nəzərdə tutur (MM-in 51-ci maddəsi). **Daimi fəaliyyət göstərən orqan** dedikdə, hüquqi şəxsin rəhbər orqanı və digər struktur orqanları başa düşülür. Bu orqanlar hüquqi şəxsin idarə olunmasını həyata keçirir. Onlar hüquqi şəxsin əsas və başlıca fəaliyyətini ifadə edir. Bu cür fəaliyyətin həyata keçirildiyi yer də məhz hüquqi şəxsin olduğu yer adlanır. Rəhbər orqana misal olaraq müəssisənin direktorunu, bankın müdirini, özəl universitetin rektorunu, dövlət sığorta şirkətinin sədrini və s. göstərmək olar. Struktur orqana isə bölmə rəisini, sex müdirini və s. misal çəkmək olar. Bu orqanlar, bir qayda olaraq, hüquqi şəxsin inzibati binasında, ofisində yerləşir. Həmin bina hüquqi şəxs hüququna malik olan universitetin olduğu yer hesab edilir. Deməli, hüquqi şəxsin yerləşdiyi inzibatı bina, ofis onun olduğu yerdir, hüquqi ünvanıdır. Məsələn, BDU-nun rektorluğu Z.Xəlilov, 23 küçəsindəki 5 №-li inzibati binada yerləşir. Hüquqi şəxsin hüquqi ünvanı o, dövlət qeydiyyatına alınarkən təsis sənədində göstərilən ünvandır.

Hüquqi şəxsin rəhbər orqanı ilə onun struktur bölmə orqanı eyni inzibati binada yerləşməyə də bilər. Belə halda rəhbər orqanın yerləşdiyi yer əsas kimi götürülür.

Bəzi xarici ölkələrin qanunvericiliyi hüquqi şəxsin olduğu yerin təyin edilməsini onun daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerlə əlaqələndirmir. Məsələn, RF MM-in 54-cü maddəsinin 2-ci bəndi hüquqi şəxsin olduğu yerin onun dövlət qeydiyyatına alındığı yerlə təyin edilməsi barədə qayda müəyyənləşdirir[1]. Bizim fikrimizcə, məsələyə qeyri-düzgün yanaşmanı ifadə edən bu qayda hüquqi şəxsin hüquqi ünvanının dəqiq olaraq müəyyən edilməsinə imkan vermir.

Bəzi xarici ölkələrin, məsələn, Fransanın hüququna görə, hüquqi şəxslər, fiziki şəxslər kimi, «yaşayış yeri»nə malikdir. İsveçrə Mülki Qanunnaməsinə görə, hüquqi şəxslərin «yaşayış yeri» onun idarə orqanlarının olduğu yer hesab olunur (56-cı maddə), amma nizamnamədə başqa «yaşayış yeri» də göstərilə bilər. Almaniya Mülki Qanunnaməsinə görə, cəmiyyətin (hüquqi şəxsin) olduğu yer dedikdə, onun idarə olunmasının həyata keçirildiyi, yəni cəmiyyətin başlıca və ya əsas fəaliyyətinin yerinə yetirildiyi yer başa düşülür (§ 24). Əgər cəmiyyətin bir neçə idarəetmə nöqtəsi olarsa, onda onun olduğu yer bir neçə yer hesab olunur[2].

Hüquqi şəxsin hüquqi ünvana (olduğu yerə) malik olmaq hüququ onun **şəxsi qeyri-əmlak hüquqlarından biridir**. Maddi (əmlak) məzmundan məhrum olan bu hüquq hüquqi şəxsin özündən ayrılmazdır. O, hüquqi şəxsin fərdiləşdirilməsinə yönəlir. Hüquqi şəxs yaradıldığı andan bu hüquq da əmələ gəlir. Təsis sənədi olan nizamnamədə hüquqi şəxsin olduğu yer göstərilir.

Hüquqi şəxsin olduğu yer mühüm hüquqi əhəmiyyətə malikdir. Hüquqi xarakterli bir sıra məsələləri həll etmək üçün qanun məhz hüquqi şəxsin olduğu yerdən istifadə edir. Məsələn, əgər borclu hüquqi şəxsdirsə, bəzi öhdəliklər, bu öhdəliklərin əmələ gəldiyi vaxt hüquqi şəxsin olduğu yerdə icra edilir (MM-in 426-cı maddəsinin 2-ci bəndinin 3-cü yarımbəndi). Bəzən tərəflər mülki-hüquqi müqavilədə onun bağlandığı yeri göstərmirlər. Belə halda, əgər ofertanı (yəni müqavilə bağlamaq barədə təklifi) hüquqi şəxs göndərərsə, onda həmin şəxsin olduğu yer müqavilənin bağlandığı yer hesab olunur (MM-in 411-ci maddəsinin 1-ci bəndi).

Elə hallar olur ki, malın nümunə üzrə pərakəndə satılması müqaviləsində satılan malın alıcıya (hüquqi şəxsə) verilməsi yeri göstərilmir. Bu cür vəziyyətdə satıcı hüquqi şəxsin (alıcının) olduğu yerdə malı ona (yəni alıcı rolunda çıxış edən hüquqi şəxsə) çatdırır. Bu andan müqavilə icra edilmiş sayılır (MM-in 619-cu maddəsinin 2-ci bəndi).

Bundan əlavə, hüquqi şəxsin olduğu yerin həm də mülki-prosessual əhəmiyyəti vardır. Belə ki, hüquqi şəxsə iddia onun ünvanının olduğu yerin, yəni hüquqi şəxsin olduğu yerin məhkəməsinə verilir[3].

Hüquqi şəxsin olduğu yerə tətbiq olunmaq üçün yerli hakimiyyət orqanlarının aktları göndərilir. Müxtəlif məzmunlu sənədlər, məhkəmə bildirişləri göndərilərkən hüquqi şəxsin olduğu yer əsas götürülür.

Hüquqi şəxsin adı onu fərdiləşdirməyə yönələn vasitələrdən biridir. O, mülki (əmlak) dövriyyədə öz adından çıxış edir. Hüquqi şəxsin adı onu mülki dövriyyənin digər iştirakçılarından ayırmağa imkan verir.

Hər bir hüquqi şəxsin ad hüququ vardır (MM-in 50-ci maddəsi). Bu, şəxsi

---

[1] bax: *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с. 27-29; *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının müəlliflik və patent hüququ. Mühazirə kursu. Bakı. 1999.

[2] Yaponiya Mülki Məcəlləsinin 50-ci maddəsinə görə, hüquqi şəxsə ümumi rəhbərliyi həyata keçirən ali idarə orqanlarının olduğu yer onun olduğu yer hesab olunur (*Сакаи Ватацуми, Тору Аримидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 77).

[1] *Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. О.Н.Садикова.* М., 1999, с. 182.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 373.

[3] Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 35-ci maddəsinin 2-ci bəndi.

qeyri-əmlak hüququ olub, hüquqi şəxsin özündən ayrılmazdır. Ad hüququnu hüquqi şəxs yaradıldığı andan həyata keçirir. Bu andan ona ad verilmiş hesab edilir. Hüquqi şəxsə verilən ad onun nizamnaməsində göstərilir.

Hüquqi şəxsin adında onun öz təşkilati-hüquqi forması hökmən göstərilir. Onun təşkilati-hüquqi formaları müxtəlif ola bilər: tam ortaqlıq; kommandit ortaqlıq; məhdud məsuliyyətli cəmiyyət; səhmdar cəmiyyəti; fond; istehsal kooperativi, istehlak kooperativi və s. Məsələn, filan xeyriyyə fondu və ya filan istehlak kooperativi və s.

Bəzi hüquqi şəxslərin adında onun həyata keçirdiyi fəaliyyətin xarakteri göstərilir. Söhbət qeyri-kommersiya təşkilatlarından (ictimai birliklərdən, fondlardan, dini təşkilatlardan, əmtəə birjalarından və s.) gedir. Məsələn, neft işçilərinin həmkarlar ittifaqı, ədəbiyyat və incəsənət fondu, mədəniyyət fondu, «Наш дом Россия» ictimai birliyi və s.

Hüquqi şəxsin həm tam, həm də qısaldılmış ada malik olmaq hüququ vardır. Məsələn, Azərbaycan Respublikasının mülki aviasiyasını idarə edən dövlət orqanının (hüquqi şəxsin) tam adı «Azərbaycan Hava Yolları» Dövlət Konsernidir. Onun qısaldılmış adı «AzAL»dır[1]. Başqa bir misalda «Azərdəmiryolbank qısaldılmış, «Azərbaycan Dəmir Yolu Bankı» isə tam addır.

Hüquqi şəxsin kommersiya təşkilatı kimi növünün üzərinə **firma adına malik olmaq kimi vəzifə qoyulmuşdur.** Kommersiya təşkilatının hökmən və mütləq firma adı olmalıdır. Bu, mülki qanunvericiliyin müəyyən etdiyi məcburi qaydadır (MM-in 50-ci maddəsinin 2-ci bəndi).

Firma (italyanca firma, firmare — imza etmək) dedikdə, kommersiya təşkilatının adı başa düşülür. Firma adı konkret kommersiya təşkilatını mülki (əmlak) dövriyyədə fərdiləşdirməyə, onu eyni növdən olan digər kommersiya təşkilatlarından ayırmağa imkan verir. Bu ad kommersiya təşkilatının işgüzar nüfuzu və rəsmi ad-sanı ilə sıx surətdə bağlıdır. Firma adı altında kommersiya təşkilatı əqdlər bağlayır və digər hüquqi hərəkətlər edir, öz hüquq və vəzifələrini həyata keçirir, istehsal etdiyi məhsulları müştərilərə satır, həmin məhsulları reklam edir, hüquqi məsuliyyət daşıyır və s. Bu təşkilat işgüzar sahibkar kimi daxili milli və xarici bazarlarda özünün firma adı ilə məşhurlaşır və tanınır. Həmin cəhət isə kommersiya təşkilatının cəmiyyətdə və iş adamları arasında nüfuzunu daha da artırır, ona kifayət qədər dividendlər gətirilməsinə səbəb olur. Partnyorlar ona daha çox etibar edir və inanırlar.

Firma adı **əqli (intellektual) mülkiyyət hüququnun (müstəsna hüquqlarının) obyektlərindən biridir.** Beynəlxalq sənəddə firma adlarına olan hüquq əqli (intellektual) mülkiyyətə aid edilir[2]. Firma adı həm də **sənaye mülkiyyəti obyektidir**[3].

[1] bax: «AzAL» «Azərbaycan Hava Yolları» sözlərinin ingilis dilində qarşılığının — «Azerbaiycan Airlines» sözlərinin qısaldılmış formasıdır (AR QK, II cild, s. 200).

[2] bax «Umumdünya intellektual mülkiyyət təşkilatını təsis edən konvensiya»nın (14 iyul 1967-ci il) 1-ci maddəsinin 8-ci bəndi (Права на результаты интеллектуальной деятельности. Сборник нормативных актов / Сост. *В.А Дозорцев*. М., 1994; Mass-media və intellektual mülkiyyət. Bakı. 1998).

[3] bax: ст. 1. Парижской конвенции по охране промышленной собственности // Боденхаузен Г. Парижские конвенции по охране промышленной собственности. Комментарий. М., 1977.

Firma adına olan hüquq hüquqi şəxsin **şəxsi qeyri-əmlak hüququdur**[1]. Bu hüquq hüquqi şəxsin özündən ayrılmazdır. Onu özgəninkiləşdirmək olmaz. Özü də dərhal qeyd etməliyik ki, firma adının hüquqi şəxsin özü ilə birlikdə özgəninkiləşdirilməsi istisna edilmir. Bu, mümkün olan haldır. Biz müəssisənin öz firma adı ilə satılmasının tez-tez şahidi oluruq.

Firma adı ilə bağlı münasibətlər əsasən Mülki Məcəllə ilə tənzimlənir. Bu Məcəllənin 50-ci maddəsində ifadə olunan normalar həmin münasibətlərin tənzimlənməsinə həsr olunmuşdur. Amma indiyə kimi ölkəmizdə firma adları barədə xüsusi normativ akt qəbul edilməmişdir. Bu səbəbə görə də firma adları ilə əlaqədar münasibətlərin qaydaya salınmasında keçmiş SSRİ qanunvericilik aktından — firma haqqında əsasnamədən (1927)[2] istifadə edilə bilər, bir şərtlə ki, bu cür istifadə MM-ə zidd olmasın.

Göstərilən əsasnamənin öz hüquqi qüvvəsini saxlayıb-saxlamaması məsələsi hüquq ədəbiyyatı səhifələrində mübahisə doğurur. Cəmi 14 maddədən ibarət olan bu hüquqi sənədin ifadə etdiyi bəzi normalar öz qüvvəsini itirmişdir. Yeni təsərrüfat sistemi şəraitinə uyğun olaraq hüquqi şəxslərin təşkilati-hüquqi formalarının dəyişməsinə görə həmin sənədin bir sıra maddələri hüquqi əhəmiyyətini və aktuallığını saxlamır. Bəzi müəlliflər göstərirlər ki, formal cəhətdən ləğv edilməmiş olsa da, əsasnamə faktiki cəhətdən qüvvəsini itirmişdir[3]. Amma müasir dövrdə firma haqqında əsasnamənin qüvvəsinə xitam verilməsi kimi nəticə çıxarmağın[4] heç bir əsası yoxdur[5]. Bizim fikrimizcə, bu əsasnamənin ifadə etdiyi bəzi hüquqi göstərişlər öz qüvvəsini indiki dövrdə itirməmişdir. Firma adı haqqında xüsusi normativ aktın yoxluğu və bir sıra məsələlərin MM-də qaydaya salınmaması şəraitində bu hüquqi göstərişlərdən firma adı ilə bağlı münasibətlərin tənzimlənməsində istifadə oluna bilər.

Mülki qanunvericilik firma adının xüsusi olaraq qeydə alınması barədə qayda müəyyən edir (MM-in 50-ci maddəsinin 2-ci bəndi). Amma bu cür qeydə alınmanın proseduru hələ ki, müəyyənləşdirilməmişdir. Söhbət bu məsələ barədə indiyə kimi hər hansı bir normativ aktın yoxluğundan və qəbul edilməməsindən gedir. Ona görə də hal-hazırda firma adı təcrübədə xüsusi olaraq, hüquqi şəxsin qeydiyyatından asılı olmadan qeydə alınmır[6]. Bu məsələ hüquqi şəxsin qeydə alınması proseduru ilə birlikdə həll edilir. Belə ki, **hüquqi şəxsin qeydə alınması eyni vaxtda və zamanda onun firma adının qeydə alınmasını ifadə edir.**

[1] bax: *Медведев Д.А.* Право на фирму в условиях рыночной экономики // Осуществление и защита имущественных прав граждан и организаций в условиях формирования социалистического правового государства. Уфа. 1991, с. 70-71.

[2] bax: Положение о фирме, утв. Постановлением ЦИК и СНК СССР от 22 июня 1927 г. // СЗ СССР. 1927. № 40, ст. 395.

[3] bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садиков*. М., 1999, с. 133.

[4] Патентное законодательство и практика: 100 вопросов — 100 ответов // Интеллектуальная собственность. 1993. № 5-6, с. 59.

[5] bax: *Сергеев А.П.* Права интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с. 133.

[6] Bu qayda firma haqqında 1927-ci il əsasnaməsinin 10-cu bəndində nəzərdə tutulmuşdur. Həmin qayda bir çox xarici ölkələrin qanunvericiliyi üçün xarakterik olub, «Sənaye mülkiyyətinin qorunması haqqında» Paris konvensiyasının tələblərinə uyğundur.

Firma adı qeydə alındığı andan hüquqi şəxsin həmin addan mülki (əmlak) dövriyyədə istifadəyə müstəsna hüququ əmələ gəlir. İstifadəyə müstəsna hüquq o deməkdir ki, heç kəsin, hüquqi şəxsin özündən savayı, firma adından istifadə etməyə ixtiyarı çatmır. Yalnız hüquqi şəxsin icazəsi ilə firma adından digər hüquqi şəxslər istifadə edə bilər. Bu cür istifadə françayzinq müqaviləsinin (MM-in 723-cü maddəsi) vasitəsi ilə həyata keçirilir.

Firma adını qeydiyyata aldıran kimi hüquqi şəxslə onu əhatə edən şəxslər (əhatə dairəsi məlum olmayan və bilinməyən üçüncü şəxslər) arasında **mütləq şəxsi qeyri-əmlak münasibəti** əmələ gəlir. Bu münasibətin iştirakçısı olan həmin üçüncü şəxslər üzərinə belə bir vəzifə qoyulur: firma adından istifadə etməmək, yəni bu firma adı ilə hüquqlar və vəzifələr əldə etməmək. Əgər hər hansı mülki dövriyyə iştirakçısı hüquqi şəxsin firma adından icazəsiz (qanunsuz) istifadə edərsə, onda hüquqi şəxs bu cür qanunsuz istifadəyə son qoyulmasını tələb edə bilər. Bundan əlavə, icazəsiz (qanunsuz) istifadə nəticəsində hüquqi şəxsə vurulan zərərin əvəzi qanunsuz istifadəçi tərəfindən ödənilir.

Ölkəmizdə hüquqi şəxslərin firma adları hüquqi cəhətdən qorunur və mühafizə edilir. Mülki qanunvericilik firma adının qanunsuz istifadə edilməsini sahibkarlıq fəaliyyətində haqsız rəqabətin formalarından biri hesab edir[1]. Ölkəmizdə həm də «Sənaye mülkiyyətinin qorunması haqqında» Paris Konvensiyasında (1883) iştirak edən dövlətlərin hüquqi şəxslərinin firma adları qorunur. Ona görə ki, Azərbaycan Respublikası bu konvensiyanın üzvüdür. Həmin konvensiyanın 8-ci maddəsi konvensiya iştirakçısı olan dövlətlərdə firma adlarına olan hüququn qorunması barədə göstəriş ifadə edir[2].

Fərdiləşdirmə vasitələrinin ikinci növü **hüquqi şəxsin fəaliyyətinin nəticələri** ilə bağlıdır. Mülki (əmlak) dövriyyədə təkcə hüquqi şəxsin özü yox, həm də onun həyata keçirdiyi iqtisadi-sahibkarlıq fəaliyyətinin nəticələri ayrılır, fərdiləşdirilir. **Hüquqi şəxslərin fəaliyyətinin nəticələri** dedikdə, onların istehsal etdiyi və hazırladığı məhsul — mallar, işlər və xidmətlər başa düşülür. Eyni növlü məhsullar (mallar, işlər və xidmətlər) mülki (əmlak) dövriyyənin digər iştirakçıları tərəfindən də istehsal oluna bilər. Bu məhsulları bir-biri ilə qarışdırmamaq və onları ayırmaq, fərqləndirmək üçün əmtəə nişanı və coğrafi göstərici kimi fərdiləşdirmə vasitələrindən istifadə edilir. Bunların köməyi ilə müştərilər (istehlakçılar) bazarda düzəltmə, qondarma və saxta əmtəə nişanlı mallar yox, nisbətən keyfiyyətli mallar əldə etmək və almaq imkanı qazanırlar.

Ölkəmizdə əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, hüquqi mühafizəsi və istifadəsi ilə bağlı münasibətlər xüsusi qanunla tənzimlənir. Bu qanunda əmtəə nişanlarının və coğrafi göstəricilərin qeydə alınması, onlardan istifadə olunması və digər məsələlər barədə qaydalar müəyyən edilir[3].

Əmtəə nişanı dedikdə, hüquqi şəxsin istehsal etdiyi məhsulları digər hüquqi şəxsin hazırladığı məhsullardan fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı uzlaşması başa düşülür. Məsələn, «Jiquli», «Volqa» minik avtomobillərinin, «Bakı», «Zil», «Çinar», «Saratov» soyuducuların, «Slava» və «Polet» isə saatların əmtəə nişanlarıdır. Onun **əsas və başlıca funksiyası** müxtəlif hüquqi şəxslərin istehsal etdikləri eyni növlü məhsulları bazarda bir-birindən ayırmaqdan və fərqləndirməkdən ibarətdir **(ayırmaq və fərqləndirmək funksiyası).** Əmtəə nişanının ikinci vacib funksiyası reklamla bağlıdır **(reklam funksiyası).** Belə ki, bazarda özünün yüksək keyfiyyəti ilə tanınan məhsulun əmtəə nişanı onu reklam edir, bununla istehsalçının nüfuzunu qaldırır, məhsulun satış həcmini artırır və mənfəəti çoxaldır.

Əmtəə nişanı **əqli (intellektual) mülkiyyət hüququnun (müstəsna hüquqların) obyektlərindən biridir.** Beynəlxalq sənəddə əmtəə nişanına olan hüquq **əqli mülkiyyət** hesab edilir[1]. O, həm də sənaye mülkiyyəti obyekti sayılır[2].

Əmtəə nişanı Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində qeydə alınır. Həmin idarə hüquqi şəxsə qeydiyyat şəhadətnaməsi verir. Əmtəə nişanın qeydiyyatı on il müddətinə qüvvədə olur.

Hüquqi şəxsin əmtəə nişanından istifadə etməyə və onun barəsində sərəncam verməyə müstəsna hüququ vardır. Onun icazəsi və razılığı olmadan əmtəə nişanından başqa şəxslərin istifadəsi qadağandır. Bununla belə, hüquqi şəxs lisenziya müqaviləsi əsasında əmtəə nişanından istifadə hüququnu digər şəxslərə verə bilər.

Coğrafi göstərici[3] dedikdə, məhsulun mənşəcə dövlətin və ya bölgənin ərazisi ilə, yaxud bu ərazidəki yerlə (coğrafi obyektlə) bağlı olduğunu bildirən, onun xüsusi keyfiyyətini, şöhrətini və başqa xüsusiyyətlərini əks etdirən göstərici başa düşülür. Məsələn, «Essentuki», «Badamlı», «Borjomi», «Tula samovarı» və s. coğrafi göstəricilərə misal ola bilər.

Coğrafi göstərici də Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində qeydə alınır. Hüquqi şəxsə coğrafi göstəriciyə dair Azərbaycan Respublikası ərazisində qüvvədə olan qeydiyyat şəhadətnaməsi verilir. Qeydiyyat on il müddətinə qüvvədə olur. Hüquqi şəxsin coğrafi göstəricidən istifadə etməyə müstəsna hüququ yoxdur. Ona görə də o, coğrafi göstəricidən istifadə hüququnu lisenziya müqaviləsi əsasında başqa şəxsə verə bilməz. Bu cəhəti ilə o, əmtəə nişanından fərqlənir.

İstehsal markasını əmtəə nişanından fərqləndirmək lazımdır. **İstehsal markasında** istehsalçının adı, mənsubiyyəti, yeri və standartların (normativ sənədlərin) işarəsi göstərilir[4]. Əmtəə nişanından fərqli olaraq istehsal markasının

[1] bax: «Haqsız rəqabət haqqında» 2 iyun 1995-ci il tarixli qanunun 4-cü maddəsi (AR QK, II cild, s. 46).

[2] bax. Права на результаты интеллектуальной деятельности. Сброник нормативных актов / Сост. *В.А.Дозорцев*. М., 1994, с. 449-471.

[3] bax: «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» 12 iyun 1998-ci il tarixli qanun (AR QK, V cild, s. 492).

[1] 14 iyun 1967-ci il tarixli «Ümumdünya intellektual mülkiyyət təşkilatını təsis edən konvensiya»nın 2-ci maddəsinin 8-ci bəndi // Mass-media və intellektual mülkiyyət. Bakı, 1998, s. 102.

[2] bax: ст. 1. Парижской конвенции по охране промышленной собственности // *Боденхаузен Г.* Парижские конвенции по охране промышленной собственности. Комментарий. М., 1977.

[3] Coğrafi göstərici də sənaye mülkiyyəti obyektlərindən biridir. Bu, Paris konvensiyasının 1-ci maddəsində nəzərdə tutulmuşdur. Bu barədə bax: *Григорьев А.Н.* Парижская конвенция и охрана географических указаний в России // Патенты и лицензии. 1995. № 1-2, с. 13-16.

[4] bax: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının 19 sentyabr 1995-ci il tarixli qanununun13-cü maddəsinin 3-cü bəndi (AR QK, II cild, s. 556).

qeydiyyata alınması tələb edilmir. Bu, o deməkdir ki, hüquqi şəxs ondan qeydiyyata alınmadan da istifadə edə bilər. İstehsal markası hüquqi cəhətdən mühafizə edilmir və qorunmur.

§ 2. Hüquqi şəxsin hüquq subyektliyi

1. Hüquqi şəxsin hüquq subyektliyinin anlayışı və əsas cəhətləri

Hüquqi şəxs elə bir sosial qurumdur ki, o, xüsusi olaraq mülki (əmlak) dövriyyədə iştirak etmək üçün yaradılır. Mülki (əmlak) dövriyyədə iştirak etmək üçün isə hüquqi şəxsin mülki hüquq subyektliyinə malik olması gərəkdir.

Hüquqi şəxsin mülki hüquq subyektliyi dedikdə, hüquqi şəxsin mülki hüququn subyekti olmağın sosial-hüquqi imkanı və ya qabiliyyəti başa düşülür. Yalnız mülki hüquq subyektliyinə malik olan hüquqi şəxs mülki hüquq münasibətlərində iştirak edə bilər. Bu, hüquqi şəxsin iştirak etdiyi mülki hüquq münasibətlərinin yaranmasının ilkin şərtlərindən biridir. Hüquq subyektliyi **hüquqi şəxsin ictimai-hüquqi keyfiyyətidir.**

Məlum məsələdir ki, hər bir hüquqi şəxs müəyyən məqsədə nail olmaq üçün yaradılır. Onların bəziləri mal istehsal edir və hazırlayır. Məsələn, kooperativ cürbəcür kolbasa məmulatları hazırlamaqla məşğul olur. İstehsal müəssisəsi tikinti materialları istehsal edir.

Hüquqi şəxs əhaliyə müxtəlif sferalarda xidmət göstərmək məqsədi ilə də yarana bilər. Avtonəqliyyat təşkilatı vətəndaşların yükünü təyinat yerinə çatdırmaqla onlara daşıma ximəti göstərir. Başqa bir təşkilat sərnişinləri daşımaq işi ilə məşğul olur. Yaradılmış hüquq məsləhətxanasının əsas məqsədi əhaliyə pullu hüquqi xidmət göstərməkdən ibarətdir. Sığorta şirkəti sığorta fəaliyyəti ilə məşğul olmaqla şəxslərə sığorta xidməti göstərir. Bank müştərilərə bank xidməti göstərən kredit təşkilatıdır.

İş görmək məqsədi ilə də hüquqi şəxslər yaradıla bilər. Məsələn, inşaat fəaliyyəti ilə məşğul olmaq üçün yaradılan təmir-tikinti təşkilatının məqsədi iş görməkdən (yaşayış evi tikməkdən, mənzilləri təmir etməkdən və s.) ibarətdir. Deməli, hüquqi şəxslər mal istehsal etmək, xidmət göstərmək, iş görmək və digər məqsədlər üçün yaradılır. Bu məqsədə uyğun olaraq onların fəaliyyət sferası müəyyənləşdirilir. Qarşısına qoyduğu məqsədə çatması üçün hüquqi şəxs müxtəlif cür mülki hüquq münasibətlərinə girir. Onlar istehsal fəaliyyətini həyata keçirmək üçün ayrı-ayrı müəssisələrdən xammal alır və bundan ötrü malgöndərmə müqaviləsi bağlayır. İstehsal etdiyi malları müxtəlif şəxslərə satır. Bu münasibətlər alqı-satqı müqaviləsi ilə rəsmiləşdirilir.

Hüquqi şəxslər müxtəlif hüquq münasibətlərində subyekt rolunda iştirak etmək qabiliyyətinə malikdirlər. Mülki qanunvericilik onlara əşya (o cümlədən mülkiyyət), öhdəlik, vərəsəlik, əqli mülkiyyət və s. hüquq münasibətlərində çıxış etmə yə imkan vermişdir. Amma hüquqi şəxslərin mülki hüquq münasibətlərinin iştirakçısı olmaq imkanı **universal xarakter daşımır.** Bu imkanın öz həddi və sərhədləri vardır. Belə ki, həmin imkan, hər şeydən əvvəl, qanunla müəyyənləşdirilir. Digər tərəfdən o, hüquqi şəxsin təsis sənədi olan nizamnaməsində nəzərdə tutulur və göstərilir. Özü də hüquqi şəxsin mülki hüquq münasibətlərində iştirak etmək imkanı onun yaradıldığı məqsədə uyğun və tabe olmalıdır. Hüquqi şəxslər yalnız onların öz nizamnamələrində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə müvafiq olan mülki-hüquq müqavilələr və digər əqdlər bağlaya bilər (məsələn, bank təşkilatı bank fəaliyyəti göstərməkdən ibarət olan məqsədinə çatmaq üçün bank hesabı, bank əmanəti, kredit, lizinq, faktorinq və digər müqavilələr bağlaya bilər). Onların bu cür məqsədə zidd gələn mülki-hüquqi müqavilələr və digər əqdlər bağlamağa ixtiyarı çatmır. Məsələn, sığorta fəaliyyəti göstərmək məqsədilə yaradılan sığorta şirkəti müştərilərlə bank hesabı, bank əmanəti, lizinq, kredit, faktorinq və s. müqavilələr bağlaya bilməz. Çünki bu cür əqdlər onun nizamnaməsində göstərilən fəaliyyət məqsədinə ziddir və yaxud özəl təhsil universiteti sığortaçı rolunda vətəndaşlarla sığorta müqaviləsi bağlaya bilməz. Hüquqi şəxslərin öz nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət məqsədinə zidd olaraq bağladığı bütün müqavilələr və digər əqdlər etibarsız hesab edilir (MM-in 349-cu maddəsi).

Dediklərimizdən belə bir nəticəyə gələ bilirik ki, hüquqi şəxslər öz nizamnamələrində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə çatmaq və nail olmaq üçün mülki hüquq münasibətlərində iştirak edirlər. Buna əsasən göstərə bilərik ki, **onların mülki hüquq subyektliyi məqsədli (məhdud) xarakter daşıyır**[1].

Müxtəlif hüquqi şəxslərin, öz nizamnamələrində göstərildiyi kimi, müxtəlif fəaliyyət məqsədi, növü və predmeti vardır. Bu, o deməkdir ki, onların mülki hüquq subyektliyi bir-birinə münasibətdə fərqlənir, yəni xüsusidir. Deməli, hüquqi şəxslərin **mülki hüquq subyektliyi həm də xüsusi təbiətə malikdir**[2], ümumilikdə isə **məqsədli (məhdud, xüsusi) xarakter daşıyır.** Bu cəhəti ilə hüquqi şəxslərin hüquq subyektliyi vətəndaşların (fiziki şəxslərin) hüquq subyektliyindən fərqlənir. Belə ki, fiziki şəxslərin mülki hüquq subyektliyi ümumi (universal) xarakterə malikdir. Bu xüsusiyyət isə hüquqi şəxslərin hüquq subyektliyinin həcm etibarilə fiziki şəxslərin hüquq subyektliyindən fərqləndirilməsinə dəlalət edir. Məsələn, hüquqi şəxslər ailə hüquq münasibətlərinin subyekti ola bilməz. Onların vətəndaşlardan fərqli olaraq, öz əmlakını vəsiyyət etmək ixtiyarı yoxdur.

Ümumiyyətlə, mülki hüquq elmində (sivilistika doktrinasında) mülki hüquq subyektliyinin iki növü fərqləndirilir: ümumi hüquq subyektliyi; məqsədli (məhdud, xüsusi) hüquq subyektliyi[3]. Vətəndaşların hüquq subyektliyi ümumi, hüquqi şəxslərin hüquq subyektliyi isə məqsədli (xüsusi) hüquq subyektliyinə şamil edilir.

Hüquqi şəxslərin hüquq subyektliyi müəyyən məzmuna malikdir. Bu məzmun vasitəsilə onun əsas elementləri müəyyənləşdirilir. Deməli, **hüquqi şəxslərin mülki hüquq subyektliyinin məzmunu** dedikdə, onun təşkil olunduğu əsas elementlər başa düşülür. O, əsas dörd elementdən ibarətdir:

- mülki hüquq qabiliyyətindən;

---

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каллина, А.И.Масляева*. М., 1997, с. 78.

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 136.

[3] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 136, Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каллина, А.И.Масляева*. М., 1997, с. 78-79.

- mülkı fəaliyyət qabiliyyətindən;
- deliktqabiliyyətindən;
- transfəaliyyət qabiliyyətindən.

Hələ sovet sivilistika nəzəriyyəsində və mülki qanununda belə bir qayda nəzərdə tutulmuşdu: hüquqi şəxslərin hüquq subyektliyinin məzmununu, vətəndaşların hüquq subyektliyində olduğu kimi hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti kimi iki vacib kateqoriyanın vasitəsi ilə açıqlamaq lazımdır[1]. Bu qayda müasir mülki hüquq elmində (sivilistika doktrinasında) indi də öz əhəmiyyətini itirməmişdir. Bizim ölkənin yeni mülki qanunvericiliyi həmin qaydanı nəzərə almışdır.

2. Hüquqi şəxslərin mülki hüquq qabiliyyəti

Hüquqi şəxslər fiziki şəxslər kimi mülki hüquq qabiliyyətinə malikdir. **Hüquqi şəxslərin hüquq qabiliyyəti** dedikdə, onların mülki hüquqlara malik olmaq və hüquqi vəzifələr daşımaq qabiliyyəti başa düşülür.

Hamımıza məlumdur ki, hüquqi şəxslərin yaradılması müəyyən ictimai ehtiyacın və tələbatın təmin edilməsi zərurəti ilə bağlıdır. Yarandığı vaxtdan etibarən onlar öz qarşılarına müəyyən sosial-iqtisadi xarakterli məqsəd qoyur. Bu məqsədə çatmaları üçün, qarşıda duran vəzifələri yerinə yetirmək üçün hüquqi şəxslər, hər şeydən əvvəl, mülki (əmlak) münasibətlərdə müstəqil surətdə iştirak etmək imkanına malik olmalıdır. Bu cür imkan hüquqi şəxslərə mülki hüquq qabiliyyəti verilməsindən ibarətdir.

Hüquqi şəxslərin mülki hüquq qabiliyyəti müəyyən məzmuna malikdir. O, bir qayda olaraq, hüquqi şəxslərin nizamnamələrində nəzərdə tutulur.

Hüquqi şəxsin mülki hüquq qabiliyyətinin məzmunu dedikdə, onun malik ola biləcəyi mülki hüquq və vəzifələrin məcmusu başa düşülür. Onların dairəsi kifayət qədər genişdir. Hüquqi şəxslər fiziki şəxslər kimi xüsusi mülkiyyət hüququ əsasında əmlaka (həm daşınar, həm də daşınmaz əmlaka) malik ola bilərlər. Daha doğrusu, **mülkiyyət hüququ** onların malik ola biləcəyi əsas və vacib əmlak hüququ sayılır.

Hüquqi şəxslər **mülki-hüquqi müqavilələrdən** (alqı-satqı, mal göndərmə, sığorta və s. müqavilələrdən) **yaranan əmlak hüquq və vəzifələrinin daşıyıcısı** olmaq hüququna malikdir. Bu müqavilələrin əhatə dairəsi genişdir. Onların əsas parametrləri Mülki Məcəllədə nəzərdə tutulmuşdur.

Hüquqi şəxslərin **vərəsəlik hüququna malik olmaq hüququ** vardır. Özü də dərhal qeyd etməliyik ki, onlar əsasən vəsiyyət üzrə vərəsə ola bilərlər (bununla bərabər, MM-in 1165-ci maddəsində göstərilən halda vərəsəsi olmayan əmlak qanun üzrə vərəsəlik əsasında hüquqi şəxslərin mülkiyyətinə keçir). Hüquqi şəxslərin vərəsəlik hüququna malik olmaq imkanı əmlakı miras almaq qabiliyyətindən ibarətdir.

Hüquqi şəxslər **əqli mülkiyyət hüququna malik ola bilərlər.** Onların elm, ədəbiyyat və incəsənət əsərləri barəsində **müəlliflik hüquqlarının daşıyıcısı** olmaq imkanı vardır. Məsələn, hüquqi şəxs statuslu nəşriyyatlar ensiklopediyalar, ensiklopedik lüğətlər, elmi əsərlərin toplularını, qəzet və jurnallar və s.

[1] bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 321.

buraxa bilərlər. Belə halda onlar bu cür **kollektiv əsərlərdən** bütövlükdə istifadə etmək üçün əmlak (iqtisadi) xarakterli müəlliflik hüququna — müstəsna hüquqa malik olur[1]. Hüquqi şəxslərin sənaye mülkiyyəti obyektlərinə — ixtiralara, faydalı modellərə və sənaye nümunələrinə verilən **patentin sahibi olmaq imkanı** vardır[2]. Onlar həmin obyektlərdən istifadə etmək üçün müstəsna hüquqa malik ola bilərlər.

Əmlak hüquqlarından savayı, hüquqi şəxslər həm də **şəxsi qeyri-əmlak hüquqlarının** daşıyıcısı ola bilərlər. Bu cür hüquqlara misal olaraq hüquqi şəxslərin ada və olduğu yerə (hüquqi ünvana) malik olmaq imkanını göstərmək olar.

Hüquqi şəxsin mülki hüquq qabiliyyətinin əsl cəhətləri fiziki şəxsin mülki hüquq qabiliyyəti ilə müqayisə edilməsində özünü büruzə verir. Bu iki anlayış bir-birindən fərqli cəhətlərə malikdir.

Birinci fərqli cəhət ondan ibarətdir ki, fiziki şəxslər ümumi (universal) hüquq qabiliyyətinə malikdirlər. Hüquqi şəxslərin isə bundan fərqli olaraq **xüsusi (məqsədli) hüquq qabiliyyəti** vardır. Hamımıza məlumdur ki, sivilistika nəzəriyyəsi və mülki hüquq doktrinası mülki hüquq qabiliyyətinin ümumi (universal) və xüsusi (məhdud) hüquq qabiliyyəti kimi iki növünü fərqləndirir və ayırır.

Ümumi (universal) hüquq qabiliyyəti dedikdə, mülki hüquq subyektinin qanunla qadağan edilməyən, mümkün olan, yəni qanunun yol verdiyi istənilən mülki hüquq və vəzifələrə malik olmaq imkanı başa düşülür. Məhz fiziki şəxslər ümumi (universal) mülki hüquq qabiliyyətinə malikdirlər. Bu cür hüquq qabiliyyəti fiziki şəxsə qanunun yasaq etmədiyi bütün mülki hüquq münasibətlərində iştirak etmək imkanı verir.

Xüsusi (məqsədli) mülki hüquq qabiliyyəti dedikdə, mülki hüquq subyektinin istənilən mülki hüquq və vəzifələrə malik olmaq qabiliyyəti yox, onun yalnız öz fəaliyyət məqsədinə uyğun gələn mülki hüquq və vəzifələrə malik olmaq qabiliyyəti başa düşülür. Hüquqi şəxslərin məhz xüsusi (məqsədli) hüquq qabiliyyəti vardır. Buna görə də onlar istənilən mülki hüquq münasibətində yox, yalnız məhdud dairəli mülki hüquq münasibətlərində iştirak edə bilər.

Beləliklə, hüquqi şəxs öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə uyğun gələn mülki hüquq və vəzifələrə malik ola bilər. Odur ki, onun **məqsədli hüquq qabiliyyəti** vardır. Hüquqi şəxs məhdud dairəli mülki hüquq münasibətlərində iştirak etmək imkanına malikdir. Bu, onu ifadə edir ki, hüquqi şəxsin **məhdud hüquq qabiliyyəti** vardır. Nəhayət, hüquqi şəxsin hüquq qabiliyyəti digər hər hansı bir hüquqi şəxsin hüquq qabiliyyətindən fərqlidir, ona münasibətdə xüsusidir. Bu isə o deməkdir ki, hüquqi şəxs **xüsusi hüquq qabiliyyətinə** malikdir. Dediklərimizi yekunlaşdırsaq, **hüquqi şəxsin məqsədli (xüsusi, məhdud) hüquq qabiliyyətinə malik olması** barədə fikir söyləyə bilərik.

İkinci fərqli cəhət ondan ibarətdir ki, mülki hüquq qabiliyyəti bütün fiziki şəxslərin hamısı üçün bir bərabərdə və eyni dərəcədə tanınır. Bu, o deməkdir ki, bütün fiziki şəxslərin hamısına mülki qanunvericilik mülki hüquqlara və və-

[1] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 10-cu maddəsinin 2-ci bəndi (AR QK, III cild, s. 207).

[2] bax: «Patent haqqında» qanunun 12-ci maddəsi (AR QK, III cild, s. 287).

zifələrə malik olmaq üçün eyni və bərabər hüquqi imkan verir. **Hüquqi şəxslər isə özlərinin mülki hüquq qabiliyyətinə görə bir bərabərdə tanınmırlar,** yəni onlara mülki qanunvericilik mülki hüquqlara və vəzifələrə malik olmaqda eyni və bərabər hüquqi imkan vermir. Belə ki, əsas fəaliyyət məqsədlərinə görə hüquqi şəxsin iki növü fərqləndirilir: kommersiya təşkilatları; qeyri-kommersiya təşkilatları. Bu iki növ hüquqi şəxslərin hüquq qabiliyyəti bərabər deyildir.

Kommersiya təşkilatları ümumi (universal) hüquq qabiliyyətinə malikdir.[1] Yeni mülki qanunvericilik bu cür təşkilatlara ümumi hüquq qabiliyyəti vermişdir (MM-in 44-cü maddəsinin 2-ci bəndi). Bu qayda bazar münasibətləri əsasında təşkil edilən təsərrüfat şəraitinə uyğundur. Daha doğrusu, həmin qayda bazar münasibətlərinin inkişaf tələbatını təmin etmək zərurəti ilə bağlıdır.

Kommersiya təşkilatları sahibkarlıq (bazar) fəaliyyətinin ən fəal subyekti, kommersiya dövriyyəsinin professional iştirakçısıdır. Sahibkarlıq fəaliyyəti və dövriyyəsi bazar iqtisadiyyatının mövcudluğunun və inkişafının başlıca hərəkətverici qüvvəsi olub, onun daimi bir prosesidir. O, bazar subyekti olan kommersiya təşkilatlarının qanunla qadağan edilməyən istənilən sahibkarlıq fəaliyyəti növü ilə məşğul olmasını tələb edir. Əks təqdirdə ictimai tələbat təmin oluna bilməz. Sahibkarlıq fəaliyyətini həyata keçirmək isə kommersiya təşkilatlarının məhdud (məqsədli, xüsusi) yox, ümumi hüquq qabiliyyətinə malik olmalarını tələb edir. Məqsədli (məhdud, xüsusi) hüquq qabiliyyəti, məlum məsələdir ki, sahibkarlıq dövriyyəsinin inkişafına, kommersiya təşkilatlarının fəaliyyətinə mənfi təsir göstərə bilər. Ümumi hüquq qabiliyyəti isə kommersiya təşkilatlarına sahibkarlıq dövriyyəsində çıxış etmək üçün geniş hüquqi imkanlar verir. Bu isə bazar münasibətlərinin inkişafına müsbət mənada təsir göstərir, onun canlanmasına rəvac verir. Yeni Mülki Məcəllə bazar təsərrüfat sisteminin tələbatını nəzərə alaraq, mülki qanunvericiliyin ümumi müasir inkişaf tendensiyasına əməl etməklə kommersiya təşkilatlarına ümumi mülki hüquq qabiliyyəti vermişdir.

Qeyri-kommersiya təşkilatlarına (əmtəə birjasına, dini quruma, ictimai birliyə və s.) gəldikdə isə qeyd etmək lazımdır ki, onlar bütün hallarda və həmişə **məqsədli (məhdud, xüsusi) hüquq qabiliyyətinə malikdir.** Bu cür təşkilatların qanunla qadağan edilməyən istənilən növ sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa və bunun üçün lazım olan istənilən mülki hüquq və vəzifələrə malik olmağa, əqdlər bağlamağa ixtiyarı çatmır. Onların əqd bağlamaq, mülki hüquq münasibətlərinin iştirakçısı olmaq imkanları məhduddur. Deməli, qeyri-kommersiya təşkilatları istənilən yox, yalnız məhdud dairədə mülki hüquqlara və vəzifələrə malik ola bilərlər. Özü də onlar öz nizamnamələrində müəyyənləşdirilən fəaliyyət məqsədlərinə uyğun gələn mülki hüquq və vəzifələrin daşıyıcısı ola bilərlər. Başqa sözlə desək, bu təşkilatların mülki hüquq qabiliyyəti onların öz nizamnamələrində göstərilən fəaliyyət məqsədləri ilə müəyyən edilir və şərtlənir. Məsələn, özəl universitetin əsas məqsədi təhsil-tədris fəaliyyəti ilə məşğul olmaqdan ibarətdir. Ona görə də, bu universitet yalnız həmin məqsədə uyğun gələn mülki hüquq və vəzifələrə malik ola bilər. Ədəbiyyat və mədəniyyət fondunun əsas məqsədi ədəbi-mədəni məsələlərlə məşğul olmaqdan, dini qurumlann əsas məqsədi dini fəaliyyəti həyata keçirməkdən və s. ibarətdir. Onlar yalnız bu cür məqsədə uyğun gələn mülki hüquq və vəzifələrə malik ola bilərlər. Deməli, **qeyri-kommersiya təşkilatları məqsədli hüquq qabiliyyətinə malikdir.**

Bununla belə, kommersiya təşkilatının bəzi növləri də məqsədli (məhdud, xüsusi) hüquq qabiliyyətli ola bilərlər. Bu qabiliyyət iki yolla müəyyənləşdirilir. **Birinci yol** kommersiya təşkilatlarının **məqsədli (xüsusi) hüquq qabiliyyətinə malik olmasının qanunla müəyyənləşdirilməsindən** ibarətdir. Belə halda kommersiya təşkilatının məqsədli (xüsusi) hüquq qabiliyyəti qanunun məcburi-imperativ göstərişinə əsaslanır. Məsələn, «Banklar haqqında» qanun kommersiya təşkilatı olan banklar üçün məqsədli (xüsusi) hüquq qabiliyyəti müəyyən edir[1]. Fond birjası qapalı səhmdar cəmiyyəti formasında yaradılan hüquqi şəxs statuslu kommersiya təşkilatıdır. «Qiymətli kağızlar haqqında» qanun onun üçün məqsədli (xüsusi) hüquq qabiliyyəti müəyyən edir[2]. Sığorta təşkilatı da kommersiya təşkilatının bir növü hesab edilir. «Sığorta haqqında» qanuna görə, bu təşkilat da məqsədli (xüsusi) hüquq qabiliyyətinə malikdir[3]. Bu cür hallarda qanunun ifadə etdiyi məcburi göstərişə əsasən, kommersiya hüquqi şəxsləri öz nizamnamələrində fəaliyyət predmetini göstərir.

İkinci yol kommersiya təşkilatının məqsədli (xüsusi) hüquq qabiliyyətinə malik olmasının bu **təşkilatın təsis sənədi — nizamnaməsi ilə müəyyənləşdirilməsindən** ibarətdir. İstənilən kommersiya təşkilatının təsisçisi (iştirakçısı) onun hüquq qabiliyyətinin həcmini məhdudlaşdıra bilər. Bunun üçün vacıbdır ki, kommersiya təşkilatının nizamnaməsində onun konkret fəaliyyət məqsədləri və predmeti göstərilsin, yəni fəaliyyət növlərinin siyahısı verilsin[4]. Məsələn, məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan müəssisənin nizamnaməsində nəzərdə tutulur ki, həmin müəssisə yalnız malların pərakəndə alqı-satqısı və ticarəti ilə məşğul olacaqdır. Deməli, bu kommersiya təşkilatı qanunda ifadə edilən göstərişə görə yox, nizamnamədə ifadə edilən göstərişə əsasən məqsədli (xüsusi) hüquq qabiliyyətinə malik olur. Dediklərimizdən belə nəticəyə gələ bilərik ki, kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin predmet və məqsədlərinin göstərilməsi həmin hüquqi şəxsin ümumi (universal) hüquq qabiliyyətini məqsədli (məhdud, xüsusi) hüquq qabiliyyətinə çevirir. Məhz bu mülahizələrə əsaslanaraq **bizim ölkə qanunvericiliyi kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin**

[1] Roman-german (kontinental) hüquq ailəsinə (sisteminə) daxil olan ölkələrin qanunvericiliyi kommersiya təşkilatlarına aid edilən hüquqi şəxslərə ümumi hüquq qabiliyyəti verir.

[1] bax: «Banklar haqqında» qanunun 32-33-cü maddələri.

[2] bax: AR QK, V cild, s. 671.

[3] bax: Biznesmenin bülleteni. Bakı. 1999. № 31 (255).

[4] Kommersiya təşkilatlarının qanun və ya nizamnamə əsasında məqsədli (xüsusi) hüquq qabiliyyətinə malik olması RF Ali Məhkəməsi Plenumunun qərarında göstərilmişdir (bax: n. 18 Постановления Пленумов ВС РФ и ВАС РФ от 1 июля 1996 г. № 6/8 «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» // Вестник ВАС РФ, 1996. № 9).

predmet və məqsədlərinin nəzərdə tutulması haqqında göstəriş ifadə etmir[1]. Amma ümumi (universal) hüquq qabiliyyətli kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyət predmeti və məqsədinin göstərilməsi istisna edilmir, bu, mümkündür. Bunun üçün lazımdır ki, kommersiya hüquqi şəxsinin nizamnaməsində fəaliyyət növlərinin siyahısı verilsin, həmin fəaliyyət növləri sadalansın. Lakin nizamnamədə bütün fəaliyyət növlərinin hamısını sadalamaq, məlum məsələdir ki, mümkün deyil. Belə halda, söz yox ki, uzun bir siyahı yaranardı. Vəziyyətdən çıxmaq üçün nizamnamədə bəzi fəaliyyət növləri sadalanır və oraya hökmən hüquqi şəxsin qanunla qadağan edilməyən istənilən fəaliyyət növü ilə məşğul olması barədə göstərişi daxil edilir. Əks təqdirdə həmin kommersiya hüquqi şəxsi məqsədli (xüsusi, məhdud) hüquq qabiliyyətli huquqi şəxsə çevrilərdi. Bu göstəriş həm də təsisçiləri nizamnamədə dəyişiklik etmək (hüquqi şəxsin fəaliyyət xarakterinin dəyişməsi ilə bağlı olaraq) və onu yenidən qeydiyyatdan keçirmək problemindən azad edir.

Keçmiş 1964-cü il Mülki Məcəlləsinə görə, hüquqi şəxslər yalnız xüsusi (məqsədli) hüquq qabiliyyətinə malik idi. Həmin Məcəllənin 25-ci maddəsində göstərilirdi ki, hüquqi şəxs, onun müəyyən edilmiş fəaliyyət məqsədinə müvafiq olaraq, mülki hüquq qabiliyyətinə malikdir. Yeni Mülki Məcəllə isə hüquqi şəxsin kommersiya təşkilatı kimi növünə ümumi hüquq qabiliyyəti verir. Bu, o deməkdirmi ki, indiki müasir qanunvericiliyə görə, kommersiya hüquqi şəxslərinin hüquq qabiliyyəti ümumi (universal) xarakter daşıyır? Hüquq ədəbiyyatı səhifələrində bu suala cavab olaraq göstərilir ki, indi kommersiya hüquqi şəxslərinin ümumi (universal) hüquq qabiliyyətli olmasını güman etmək səhv fikirdir. Onların məqsədli (məhdud) hüquq qabiliyyətinə malik olması ehtimal və güman olunur[2]. Bununla kommersiya hüquqi şəxslərinin məqsədli (xüsusi, məhdud) hüquq qabiliyyətinə malık olması prezumpsiyası müəyyənləşdirilir, yəni əksi sübut olunana kimi (doğruluğu rədd edilmədikcə) bütün kommersiya hüquqi şəxsləri məqsədli (xüsusi) hüquq qabiliyyətli sayılır. Ona görə ki, hər bir hüquqi şəxs, istər kommersiya təşkilatı olsun, istərsə də, qeyri-kommersiya təşkilatı, fərqi yoxdur, bir qayda olaraq, konkret müəyyən məqsədə çatmaq üçün yaradılır. Onların fəaliyyət məqsədləri və predmeti nizamnamədə göstərilir və müəyyənləşdirilir. Mübahisəsiz olaraq demək olar ki, hüquqi şəxslər öz nizamnaməsində müəyyənləşdirilən fəaliyyət məqsədlərinə uyğun gələn və müvafiq olan mülki hüquq və vəzifələrə malik ola bilərlər. Onların nizamnamədə müəyyənləşdirilən fəaliyyət məqsədlərinə zidd olan və uyğun gəlməyən əqdlər bağlamağa və bu əqdlərdən irəli gələn mülki hüquq və vəzifələrə malik olmağa ixtiyarı çatmır.

Hüquqi şəxs (həm kommersiya təşkilatı, həm də qeyri-kommersiya təşkilatı) öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq əqd bağlaya bilər. Bu cür əqd onun hüquq qabiliyyətindən kənara çıxan əqd — nizamnamədənkənar əqd adlanır. Bəzi hallarda həmin əqdə «ultra vires» də deyilir. Bu cür əqdləri və beləliklə də, onlardan irəli gələn mülki hüquq və vəzifələrə malik olmağı mülki qanunvericilik etibarsız hesab edir (MM-in 349-cu maddəsi). Bu qayda, ümumiyyətlə, bütün hüquqi şəxslərin bağladığı nizamnamədənkənar əqdlərə aiddir[1]. Beləliklə, dediklərimiz onu sübut edir ki, bütün hüquqi şəxslər — həm kommersiya, həm də qeyri-kommersiya hüquqi şəxsləri məqsədli (məhdud, xüsusi) hüquq qabiliyyətinə malikdir. Bununla müasir qanunvericilik köhnə qanunvericiliyin hüquqi şəxsin məqsədli (məhdud, xüsusi) hüquq qabiliyyətli olması barədə ənənəsini saxlayır. Amma yuxarıda qeyd etdiyimiz kimi, əgər kommersiya hüquqi şəxsinin nizamnaməsində bəzi fəaliyyət növləri sadalanarsa və oraya «qanunla qadağan edilməyən istənilən fəaliyyət növü ilə məşğul olmaq» barədə göstəriş daxil edilərsə, onda həmin şəxs bu fəaliyyəti həyata keçirmək üçün lazım olan bütün mülki hüquqlara malik ola və hüquqi vəzifələr daşıya bilər. Bu cür halda isə həmin kommersiya hüquqi şəxsinin universal (ümumi) qabiliyyətli olması göz qabağındadır. Belə hal kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyət predmeti və məqsədi göstərilmədikdə də yaranır, bir şərtlə ki, qanunun ifadə etdiyi göstərişə görə hüquqi şəxs nizamnaməsində məcburi surətdə fəaliyyət predmetini nəzərdə tutmağa borclu olmasın.

Üçüncü fərqli cəhət ondan ibarətdir ki, fiziki şəxsin **mülki hüquq və tam fəaliyyət qabiliyyəti eyni vaxtda əmələ gəlmir**. Bildiyimiz kimi, fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir.

Fiziki şəxsin tam mülki fəaliyyət qabiliyyəti o, on səkkiz yaşına çatdıqda yaranır. **Hüquqi şəxsin mülki hüquq və fəaliyyət qabiliyyəti isə bundan fərqli olaraq, hüquqi şəxsin özünün yaranması ilə eyni vaxtda və zamanda əmələ gəlir.** Hüquqi şəxsin yaranması onun dövlət qeydiyyatına alınması ilə müəyyənləşdirilir. Belə ki, dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs yaranmış hesab edilir (MM-in 44-cü maddəsinin 1-ci bəndi). Bu andan isə hüquqi şəxs eyni vaxtda həm mülki hüquq, həm də mülki fəaliyyət qabiliyyətinə malik olur. Hüquqi şəxsin həm hüquq qabiliyyətinə, həm də fəaliyyət qabiliyyətinə onun ləğvinin başa çatdığı an eyni vaxtda xitam verilir.

[1] Mülki Məcəllənin 47-ci maddəsinin 2-ci bəndində göstərilir ki, qeyri- kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin predmeti və məqsədləri müəyyənləşdirilir. Bu göstərişdən belə çıxır ki, o, kommersiya hüquqi şəxslərinə aid deyil. Kommersiya hüquqi şəxslərinin fəaliyyət məqsədinin onun nizamnaməsində göstərilməməsi haqqında qayda müəyyən ederkən qanunverici mülki hüquq elmində irəli sürülən belə bir konsepsiyaya əsaslanır ki, kommersiya huquqi şəxslərinin fəaliyyət məqsədinin nizamnamədə göstərilməsi onun ümumi hüquq qabiliyyətini xüsusi hüquq qabiliyyətinə çevirərdi. (bax: Комментарий к Гражданскому кодексу Российский Федерации. Части первой / Под ред. *О.Н.Садикова*. М., 1996, с. 87, 218) Amma Moskva alimi göstərir ki, kommersiya təşkilatının fəaliyyət predmeti və məqsədinin təsis sənədlərində göstərilməsi həmin təşkilatın ümumi hüquq qabiliyyətini xüsusi qabiliyyətə çevirmir (Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 364). Bu konsepsiya ilə çətin ki razılaşmaq olar. Belə ki, kommersiya təşkilatının fəaliyyət məqsəd və predmetinin nizamnamədə göstərilməsi onun ümumi hüquq qabiliyyətini xüsusi hüquq qabiliyyətinə çevirir. Məsələn, əgər kommersiya hüquqi şəxsinin nizamnaməsində onun informasiya xidməti göstərmək məqsədilə yaradılması göstərilərsə, onda bu, o demək deyil ki, həmin hüquqi şəxs qanunla qadağan edilməyən istənilən mülki hüquq və vəzifələrə malik ola bilər; belə halda o, məqsədli (xüsusi) hüquq qabiliyyətlidir.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 78; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 125; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 189

[1] bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 120.

Dördüncü fərqli cəhət ondan ibarətdir, hüquqi şəxs özünün spesifikliyinə görə yalnız **fiziki şəxslərə məxsus ola bilən hüquqların daşıyıcısı ola bilməz.** Məsələn, fiziki şəxs vəsiyyət etmək hüququna malikdir. Hüquqi şəxsin isə vəsiyyət etmək qabiliyyəti yoxdur.

Hüquqi şəxsin elm, ədəbiyyat və incəsənət əsərlərinin müəllifi olmaq və tanınmaq kimi hüquqa (buna ən birinci (əvvəlinci) müəlliflik hüququ deyilir) malik olub-olmaması mülki hüquq elmində mübahisə doğurur. Bu barədə əsasən iki cür mövqe yaranmışdır. Birinci mövqeyin tərəfdarları belə hesab edirlər ki, hüquqi şəxslər (elmi külliyyatlar, ensiklopediya lüğətləri, məcmuələr və s. nəşrləri həyata keçirən təşkilatlar) özlərinin yaradıcılıq fəaliyyəti nəticəsində ayrı-ayrı müəlliflərin müstəqil əsərlərini tam və bütöv vahid əsər halında birləşdirir və buna görə də onlar ən birinci (əvvəlinci) müəlliflik hüququna malik olur[1]. İkinci mövqeyin tərəfdarları isə göstərirlər ki, hüquqi şəxslər ən birinci (əvvəlinci) müəlliflik hüququna malik ola bilməz. Çünki yalnız canlı insan yaradıcı əməyi ilə əsər yarada bilər[2].

Bizim zənnimizcə, axırıncı mövqe tərəfdarlarının fikirləri həqiqətə daha yaxındır. Doğrudan da, əsərin yaradıcısı rolunda yalnız konkret canlı fiziki şəxs çıxış edə bilər. Qanun da bu mövqeyi nəzərə almışdır. Belə ki, qanuna görə, əsərin müəllifi olmaq və tanınmaq hüququna yalnız onun yaradıcısı olan fiziki şəxs malik ola bilər. Hüquqi şəxsin isə əsərin müəllifi olmaq və onun müəllifi kimi tanınmaq hüququ yoxdur.

Fiziki şəxsin də özünün spesifikliyinə görə yalnız hüquqi şəxslərə məxsus ola bilən hüquqların daşıyıcısı olmaq hüququ yoxdur. Məsələn, fiziki şəxsin özünün filial və nümayəndəliyini açmaq qabiliyyəti istisna edilir.

3. Hüquqi şəxslərin mülki fəaliyyət qabiliyyəti

Hüquqi şəxsin mülki hüquq subyektliyinin məzmununa daxil olan elementlərdən biri mülki fəaliyyət qabiliyyətidir. Mülki hüquq münasibətlərində subyekt qismində iştirak etmək üçün hüquqi şəxsin təkcə hüquq qabiliyyətinə malik olması kifayət etmir və yetərli deyil. Bunun üçün hüquqi şəxsin həm də mülki fəaliyyət qabiliyyətinə malik olması gərəkdir və lazımdır.

Mülki Məcəllə hüquqi şəxsin yalnız hüquq qabiliyyəti haqqında birbaşa göstəriş ifadə edir. O, hüquqi şəxsin mülki fəaliyyət qabiliyyətini konkret maddə ilə tənzimləmir. Lakin doktrinal tədqiqatlardan və araşdırmalardan belə bir nəticə çıxarmaq mümkündür ki, hüquqi şəxslər fiziki şəxslər kimi mülki fəaliyyət qabiliyyətinə malikdirlər.

Hüquqi şəxsin mülki fəaliyyət qabiliyyəti dedikdə, onun öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və ya həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyəti başa düşülür. Mülki fəaliyyət qabiliyyəti qanunla hüquqi şəxsə verilmiş elə bir hüquqi imkandır ki, o, bu imkandan istifadə etməklə öz hərəkətləri ilə hüquq qabiliyyətini realizə edir.

Hüquqi şəxsin mülki fəaliyyət qabiliyyəti fiziki şəxsin mülki fəaliyyət qabiliyyətindən fərqlənir. **Birincisi,** fiziki şəxslərin tam fəaliyyət qabiliyyəti onların 18 yaşına çatması ilə əmələ gəlir. Hüquqi şəxslərin fəaliyyət qabiliyyəti isə onların yarandığı — dövlət qeydiyyatına alındığı andan yaranır, onun ləğvinin başa çatdığı anda xitam edilir.

Qeyd etmək lazımdır ki, hüquqi şəxsin qeydiyyat anı ilə onun mülki fəaliyyət qabiliyyətinin bəzi elementlərinin əmələ gəlməsi zaman və vaxt baxımından üst-üstə düşməyə də bilər (söhbət hüquqi şəxsin ədliyyə orqanlarında dövlət qeydiyyatına alınması anı ilə müvafiq icra hakimiyyəti orqanlarından lisenziya alınması anı arasındakı vaxt məsafəsindən gedir). Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olmaq hüququ məhz bu cür elementlərdəndir[1]. Bu cür fəaliyyət növləri qanunla və prezidentin fərmanı ilə təsdiq olunmuş Siyahı ilə müəyyən edilir[2]. Məsələn, inşaat fəaliyyəti, hava yolu ilə sərnişin və yük daşıması, birja fəaliyyəti, təhsil fəaliyyəti, bank fəaliyyəti, sığorta fəaliyyəti, turizm fəaliyyəti və s. bu cür fəaliyyət növlərinə misal ola bilər. Hüquqi şəxslər göstərilən fəaliyyət növləri ilə yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilər. Hər bir fəaliyyət növü üzrə xüsusi icazəni (lisenziyanı) müvafiq dövlət icra hakimiyyəti orqanı verir. Həmin orqanlardan lisenziya prezidentin təsdiq etdiyi müvafiq qaydalar əsasında alınır[3]. Lisenziya alındığı andan və ya lisenziyada göstərilən vaxtdan hüquqi şəxs xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olmaq imkanı əldə edir. Bununla onun xüsusi fəaliyyət qabiliyyətinin elementi yaranır. Lisenziya müddəti qurtardıqda, həmin element də öz hüquqi qüvvəsini itirir.

İkincisi, fiziki şəxslər qanunla qadağan edilməyən bütün mülki hüquqi əqdləri bağlaya bilərlər. Bu, o deməkdir ki, onlar ümumi (universal) fəaliyyət qabiliyyətinə malikdirlər. Hüquqi şəxslər isə bundan fərqli olaraq yalnız öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olmayan əqdləri bağlaya bilərlər. Deməli, onlar **məqsədli (məhdud, xüsusi) fəaliyyət qabi-**

---

[1] bax: *Райгородский Н.А.* Юридическое лицо как субъект авторского права // Очерки по гражданскому праву / Отв. ред. *О.С.Иоффе*. Л., 1957, с. 207; *Антимонов Б.С., Флейшиц Е.А.* Авторское право. М., 1957, с. 77; *Чернышова С.А.* Правоотношения в сфере художественного творчества. М., 1979, с. 61-62; *Никитина М.И.* Авторское право на произведения науки, литературы и искусства. Казань. 1972, с. 2 и др.

[2] *Гордон М.В.* Советское авторское право. М., 1955, с. 49-50; *Гаврилов Э.П.* Советское авторское право. М., 1985, с. 125-132; *Свельева И.В.* Правовое регулирование отношений в области художественного творчества. М., 1986, с. 63-69; *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с. 171.

[1] Bəzi müəlliflər xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olmaq hüququnu hüquqi şəxslərin hüquq qabiliyyətinin məzmununa aid edirlər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 126; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 73; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 191; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 89). Həm RF-in MM-i (49-cu maddə), həm də bizim ölkənin MM-i (44-cü maddə) bu mövqedə durur. Həmin mövqe ilə çətin ki razılaşmaq olar. Belə ki, hərəkət etmək imkanı, fəaliyyətlə məşğul olmaq qabiliyyəti, nəyi isə həyata keçirmək imkanı fəaliyyət qabiliyyətinin elementidir. Nəyə isə malik olmaq hüququ (imkanı) isə hüquq qabiliyyətinin elementini təşkil edir.

[2] «Sahibkarlıq fəaliyyəti haqqında» 15 dekabr 1992-ci il tarixli qanuna 2 saylı əlavəyə — «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin Siyahısı»; Prezidentin 2002-ci il 3 sentyabr tarixli fərmanı ilə təsdiq olunmuş «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri və onları verən icra hakimiyyəti orqanlarının Siyahısı» («Respublika» qəzeti, 3 sentyabr 2002-ci il).

[3] bax: «Respublika» qəzeti, 3 sentyabr 2002-ci il.

liyyətinə malikdirlər[1].

Üçüncüsü, yaş amilindən və psixi-ruhi sağlamlıq vəziyyətindən asılı olaraq fəaliyyət qabiliyyətinə görə fiziki şəxslər müxtəlif kateqoriyalara (tam fəaliyyət qabiliyyətli fiziki şəxslərə; natamam fəaliyyət qabiliyyətli fiziki şəxslərə; qismən fəaliyyət qabiliyyətli fiziki şəxslərə və s.) bölünür. Hüquqi şəxslər həmin amillərdən asılı olaraq fəaliyyət qabiliyyətinə görə bu cür kateqoriyalara bölünmür.

Dördüncüsü, mülki hüquq qabiliyyətli fiziki şəxs fəaliyyət qabiliyyətinə malik olmaya bilər. Məsələn, 7 yaşınadək azyaşlıların, ruhi xəstələrin və ya kəmağılların mülki hüquq qabiliyyəti vardır. Amma onların mülki fəaliyyət qabiliyyəti yoxdur. Bundan fərqli olaraq, biz, **hüquq qabiliyyəti olan, lakin qeyri-fəaliyyət qabiliyyətli hüquqi şəxslərə** rast gəlmirik. Hüquqi şəxslərin fəaliyyət qabiliyyəti onun hüquq qabiliyyəti ilə eyni vaxtda avtomatik olaraq yaranır və xitam olunur.

Hüquqi şəxslər **fəaliyyət qabiliyyətini öz orqanları vasitəsilə həyata keçirir və realizə edirlər.** Belə ki, hüquqi şəxslərin fəaliyyət qabiliyyətinin həyata keçirilməsi onun fəaliyyət göstərməsini ifadə edir. Hüquqi şəxslərin fəaliyyət göstərməsi isə onları təşkil edən fiziki şəxslərin fəaliyyət göstərməsi deməkdir. Ona görə ki, yalnız psixoloji-fizioloji varlıq olan fiziki şəxslər düşünülmüş, şüurlu və iradəvi hərəkətlər etmək qabiliyyətinə malikdirlər. Həmin fiziki şəxslər və ya onların qrupu hüquqi şəxslərin orqanları adlanır. Məhz bu orqanlar da hüquqi şəxslərin fəaliyyət qabiliyyətini həyata keçirirlər.

Hüquqi şəxsin orqanları mülki (əmlak) dövriyyədə hüququn digər subyektləri ilə münasibətə girdiyi zaman onun iradəsini formalaşdırır və ifadə edir. O, hüquqi şəxsin bir hissəsidir. Ona görə də məhz həmin orqanların yerinə yetirdiyi hərəkətlərin vasitəsi ilə hüquqi şəxslər mülki hüquqlar əldə edir, bu hüquqları həyata keçirir, vəzifələr daşıyır və bu vəzifələri icra edirlər. **Yerinə yetirilən bu hərəkətlər hüquqi şəxsin özünün hərəkətlərini ifadə edir[2].** Ona görə də hüquqi şəxsin orqanlarının mülki (əmlak) dövriyyədə iştirakı hüquqi şəxsin özünün bu dövriyyədə çıxış etməsi deməkdir. Başqa sözlə desək, bu orqanlar mülki (əmlak) dövriyyədə hüquqi şəxsin adından və onun mənafeyi üçün çıxış edirlər. Amma buna baxmayaraq, **hüquqi şəxsin orqanlarını hüququn müstəqil subyekti** hesab etmək olmaz. Ona görə ki, yuxarıda dediyimiz kimi, onlar hüquqi şəxsin ayrıca bir struktur hissəsidir. Bu xüsusiyyəti ilə o, nümayəndəlik münasibətlərində vəkalət (tapşırıq) alan rolunda çıxış edən nümayəndədən (təmsilçidən) fərqlənir.

Nümayəndə (təmsilçi) hüquqi şəxsin (vəkalət verənin, təmsil olunanın) adından, onun hesabına və onun mənafeyi üçün əqd bağlayan şəxsdir. Onun hüquqi şəxs adından bağladığı əqdlər hüquqi şəxs üçün mülki hüquq və vəzifələr yaradır. Bu baxımdın nümayəndə hüquqi şəxsin orqanı kimi, hüquqi şəxsin mülki fəaliyyət qabiliyyətini həyata keçir. Bu, onların hər ikisi üçün ümumi

[1] Nəzəri ədəbiyyat səhifələrində fəaliyyət qabiliyyətinin ümumi və xüsusi adlı iki növə bölünməsinə rast gəlirik (bax: *Xropanyuk V.N.* Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995, s. 150).

[2] Enneksərus yazır ki, orqanların onlara məxsus olan funksiyaları icra etmək üçün etdikləri hərəkətlər hüquqi şəxsin özünün hərəkətləri hesab olunur. Həmin orqanların iradəsi hüquqi şəxsin iradəsi sayılır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 355)

və oxşar olan cəhətdir. Lakin nümayəndə hüquqi şəxsin orqanından fərqli olaraq, onun ayrıca struktur hissəsi hesab edilmir. Nümayəndə hüquqi şəxsə münasibətdə hüququn kənar, özü də müstəqil subyekti sayılır. Digər tərəfdən nümayəndənin səlahiyyəti hüquqi şəxs tərəfindən verilmiş etibarnaməyə əsaslanır. Etibarnamə hüquqi şəxs tərəfindən nümayəndəyə verilən elə bir yazılı sənəddir ki, bu sənəd nümayəndəyə üçüncü şəxslə hüquqi şəxslər adından əqd bağlamağa səlahiyyət verir. Hüquqi şəxsin orqanları üçüncü şəxslərlə əqd bağlayarkən onun **hüquqi şəxsdən etibarnamə alması tələb olunmur** və buna ehtiyac duyulmur.

Qanunda nəzərdə tutulan hallarda hüquqi şəxs **öz iştirakçıları vasitəsilə mülki fəaliyyət qabiliyyətini həyata keçirə bilər,** yəni mülki hüquqlar əldə edə və hüquqi vəzifələr daşıya bilər. Bu cür hallarda hüquqi şəxsin bir növü olan tam ortaqlığın hər bir iştirakçısı ortaqlıq adından fəaliyyət göstərə bilər (MM-in 72-ci maddəsinin 1-ci bəndi). Ortaqlığın işlərinin aparılması iştirakçılardan birinə və ya bəzilərinə tapşırıla bilər (MM-in 72-ci maddəsinin 3-cü bəndi).

Hüquqi şəxsin orqanları dedikdə, fiziki şəxsdən və ya fiziki şəxslər qrupundan ibarət olan elə bir ayrıca struktur hissə başa düşülür ki, o, mülki (əmlak) dövriyyədə hüquqi şəxsin adından və onun mənafeyi üçün etibarnamə almadan çıxış edir. Bu orqanlar hüquqi şəxsin iradəsini yaradır, formalaşdırır və ifadə edir. Orqanlar hüquqi şəxsin fəaliyyətini idarə edir, ona rəhbərliyi həyata keçirirlər. Onlar qanunvericiliyə və nizamnaməyə uyğun fəaliyyət göstərirlər.

Hüquqi şəxsin orqanı **qərar qəbul etmək səlahiyyəti olan şəxslərin sayından asılı olaraq** iki cür ola bilər:

- təkbaşına orqan;
- kollegial orqan.

Təkbaşına orqan odur ki, o, təkcə bir vəzifəli şəxsdən ibarətdir. Məsələn müəssisənin direktoru, özəl universitetin rektoru, firmanın prezidenti, idarənin müdiri, tikinti təşkilatının rəisi və s. bu cür orqana misal ola bilər. Hüquqi şəxsin təkbaşına orqanı hüquqi şəxs adından etibarnaməsiz fəaliyyət göstərir, onun mənafelərini bütün münasibətlərdə təmsil edir, hüquqi şəxsin əmlakı barəsində sərəncam verir, banklarda hesablaşma hesabı və digər hesablar açır və s.

Kollegial orqan (latınca collegium — ümumilik, əməkdaşlıq) odur ki, o, bir neçə səlahiyyətli vəzifəli şəxsdən ibarət olub, hüquqi şəxsin işlərinə rəhbərliyi həyata keçirir. Məsələn, bankın idarə heyəti, səhmdar cəmiyyətinin ümumi yığıncağı, müəssisənin müşahidə şurası və s. bu cür orqana misal ola bilər. Bu orqanlar kollegial surətdə hüquqi şəxsin idarə edilməsini həyata keçirirlər.

Səlahiyyətin əldə edilməsindən asılı olaraq hüquqi şəxsin iki cür orqanı fərqləndirilir:

- seçkili orqan;
- təyin olunan orqan.

Seçkili orqan odur ki, o, seçilir. Seçilmə qaydası hüquqi şəxsin nizamnaməsi ilə müəyyənləşdirilir. Məsələn, səhmdar cəmiyyətinin təsisçilər tərəfindən seçilən direktorlar şurası bu cür orqana misal ola bilər. Həm təkbaşına orqanın, həm də kollegial orqanın seçkili orqan olması mümkündür.

Təyin olunan orqan odur ki, o, yuxarı orqan və ya təsisçilər tərəfindən tə-

yın olunur. Təyin olunma qaydası hüquqi şəxsin nizamnaməsi ilə müəyyən edilir. Məsələn, dövlət müəssisəsinin direktoru bu cür orqana misal ola bilər. Bir qayda olaraq, çox vaxt təkbaşına orqanlar təyin olunurlar. Kollegial orqanın da təyin edilməsi mümkündür, bu, istisna edilmir. Məsələn, Milli Bankın İdarə Heyəti üzvlərini prezidentin təqdimatı ilə Milli Məclis təyin edir[1].

Səlahiyyətin xarakterinə görə hüquqi şəxsin orqanları iki cür ola bilər:

- idarəetmə orqanı;
- nəzarət orqanı.

İdarəetmə orqanı dedikdə, hüquqi şəxsin fəaliyyətinə rəhbərlik edən ən azı iki fiziki şəxsdən ibarət qrup başa düşülür. Bir qayda olaraq, bu orqan seçilir. Məsələn, müəssisənin idarə heyətini bu orqana misal göstərmək olar. İdarə heyəti müəssisənin fəaliyyətini təşkil edir, üçüncü şəxslərlə münasibətdə və müvafiq orqanlarda onun mənafeyini təmsil edir. İdarəetmə orqanından alı idarəetmə orqanını fərqləndirmək lazımdır. **Alı idarəetmə orqanı** hüquqi şəxsin fəaliyyətinə aid bir sıra məsələlər üzrə müstəsna səlahiyyətə malikdir. Məsələn, səhmdarların (təsisçilərin) ümumi yığıncağı səhmdar cəmiyyətinin alı idarəetmə orqanı hesab edilir.

Nəzarət orqanı hüquqi şəxsin fəaliyyəti üzərində nəzarət funksiyasını həyata keçirən orqandır. Özü də o, kollegial orqandır. Məsələn, fəaliyyəti üzərində nəzarət etmək məqsədilə səhmdar cəmiyyətində müşahidə şurası (direktorlar şurası) yaradılır.

Vəzifə və səlahiyyətlərin xarakterinə və genişliyinə görə hüquqi şəxsin orqanı iki cür olur:

- rəhbərlik orqanı;
- digər struktur orqan (qeyri-rəhbərlik orqanı).

Rəhbərlik orqanı tam və geniş səlahiyyət əsasında hüquqi şəxsin fəaliyyətinə rəhbərlik edir. Məsələn, müəssisənin direktoru, səhmdar cəmiyyətində təsisçilərin ümumi yığıncağı və s. bu cür orqana misal ola bilər.

Qeyri-rəhbərlik orqanı isə odur ki, o, hüquqi şəxsin fəaliyyətinə rəhbərlik edilməsində tam və geniş səlahiyyətlərə malik deyil. Bu orqana misal olaraq hüquqi şəxsin struktur şöbə və bölmələrini göstərmək olar. Məsələn, müəssisənin sex rəisi, bankın kredit şöbəsi və s. qeyri-rəhbərlik orqanına misal çəkə bilərik.

4. Hüquqi şəxslərin delikt qabiliyyəti

Hüquqi şəxsin huquq subyektliyinin elementlərindən biri onun delikt qabiliyyətli olması təşkil edir[2]. Hüquqi şəxs yarandığı, yəni **dövlət qeydiyyatına alındığı andan delikt qabiliyyətinə** malik olur. Fiziki şəxslər isə 14 yaşına çatdıqda, bəzi məqamlarda isə 18 yaşına çatdıqda delikt qabiliyyətli olurlar.

Hüquqi şəxsin delikt qabiliyyəti dedikdə, onun öz hərəkətlərinə görə müstəqil surətdə mülki-hüquqi məsuliyyət daşımaq qabiliyyəti başa düşülür. Söhbət hüquqi şəxsin hərəkətləri ilə vurulmuş əmlak (maddi) zərərinə görə onun cavab vermək imkanından gedir.

Mülki hüquq elmində hüquqi şəxsin məsuliyyəti mübahisə doğuran məsələlərdən biridir. Bu barədə hüquq ədəbiyyatı səhifələrində müxtəlif cür konsepsiya irəli sürülmüşdür[1].

Hələ keçən yüzillikdə, 40-cı illərin axırlarında — 50-ci illərin əvvəllərində S.N.Bratus ilk dəfə olaraq **hüquqi şəxsin onun bütün işçilərinin hərəkətlərinə görə öz hərəkəti və öz təqsiri kimi məsuliyyət daşıması konsepsiyasını** əsaslandırır[2]. Sonralar bu konsepsiyanı O.S.İoffe, İ.B.Novitski və başqaları öz elmi əsərlərində daha da inkişaf etdirirlər[3]. Həmin konsepsiya sovet dövrünün mülki qanunvericiliyində — köhnə 1964-cü il sovet mülki məcəlləsində öz leqal ifadəsini tapır. RF-in, habelə Azərbaycan Respublikasının müasir qanunvericiliyi də S.N.Bratusun əsaslandırığı və irəli sürdüyü konsepsiyanı nəzərə almışdır.

Biz, bu konsepsiyaya qoşularaq qeyd edirik ki, hüquqi şəxsin mülki-hüquqi hərəkətləri onun orqanlarının (işçilərinin) hərəkətlərində təzahür edir. Bu hərəkətləri hüquqi şəxsin orqanları (işçiləri) yerinə yetirir. Hər bir orqan (işçi) hüquqi şəxsin iradəsinin daşıyıcısıdır. Orqanların (işçilərin) hərəkəti hüquqi şəxsin özünün hərəkətləri deməkdir. Onlar hüquqi şəxsin iradə və mənafeyinin ifadəçisidirlər. Madam ki, belədir, onda hüquqi şəxs öz orqanlarının (işçilərinin) hərəkətlərinə görə, onların vurduğu əmlak zərərinə görə məsuliyyət daşımalıdır, cavab verməlidir.

Bizim ölkə qanunvericiliyi hüquqi şəxsin öz işçisi tərəfindən törədilmiş mülki hüquq pozuntusu (delikt) üçün mülki-hüquqi məsuliyyət daşıması haqqında qayda nəzərdə tutur (MM-in 1099-cu maddəsi). Bu qaydaya görə, hüquqi şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır. O, həmin işçinin vurduğu zərərin əvəzini ödəməlidir. Amma bir şərtlə ki, bu zərər işçinin öz əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı vurulsun. Məsələn, tikinti-təmir müəssisəsinin bir neçə işçisi çoxmərtəbəli binanın 6-cı mərtəbəsindəki mənzili təmir edirlər. Onlar kobud ehtiyatsızlığa yol verərək su kranını açıq qoyurlar. Su alt mərtəbədəki mənzili basır və mebelləri, ev avadanlıqlarını, məişət predmetlərini tamam sıradan çıxardır. Hüquqi şəxs hüquqlu tikinti-təmir müəssisəsi öz işçilərinin hərəkəti ilə vurulmuş əmlak (maddi) zərərinin əvəzini ödəyəcəkdir[4].

---

[1] bax: «Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunun 21-ci maddəsi; Konstitusiyanın 95-ci maddəsinin 1-ci hissəsi.

[1] Müəlliflərdən Y.A.Suxanov hüquqi şəxsin delikt qabiliyyətini onun hüquq qabiliyyətinin məzmununa aid edir. Bu cür fikir həqiqətdən uzaqdır (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. Е.А.Суханова. М., 1998, с. 194). Umumiyyətlə, hüquq ədəbiyyatı səhifələrində delikt qabiliyyəti ya huquq subyektliyinin, ya da fəaliyyət qabiliyyətinin elementlərindən biri hesab edilir.

[1] Hüquqi şəxsin delikt qabiliyyəti barədə konsepsiyalar barədə etraflı məlumat almaq üçün bax: *Иоффе О.С.* Развитие цивилистической мысли в СССР. Часть 1 // В книге: *Иоффе О.С.* Гражданское право. Избранные труды. М., 2000, с. 497-503.

[2] bax: *Братусь С.Н.* Некоторые вопросы учения о субъектах права // Советское государство и право 1949. № 11, с. 78; *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 211-212.

[3] bax: *Иоффе О.С.* Ответственность по советскому гражданскому праву. Л., 1955, гл. 2, § 3. *Новицкий И.Б., Луиц Л.А.* Общее учение об обязательстве. М., 1950, с. 352.

[4] Hüquqi şəxslərin məsuliyyəti barədə məsələ dərsliyin «Mülki-hüquqi məsuliyyət» və «Delikt öhdəlikləri» adlı fəsillərində işıqlandırılmışdır.

5. Hüquqi şəxslərin transfəaliyyət və transdelikt qabiliyyəti

Transfəaliyyət qabiliyyəti hüquqi şəxslərin mülki hüquq subyektliyinin elementlərindən biridir. Mülki hüquq subyektliyi kimi mürəkkəb hadisənin mahiyyətinin açıqlanmasında bu element müəyyən rol oynayır.

Transfəaliyyət qabiliyyəti dedikdə, hüquqi şəxsin öz hərəkətləri ilə başqa şəxslər üçün mülki hüquq və vəzifələr yaratmaq qabiliyyəti başa düşülür. Bu cür qabiliyyətə hüquqi şəxsin nümayəndəlik (təmsilçilik) münasibətinin subyekti olmaq imkanını misal çəkə bilərik. Söhbət hüquqi şəxslərin nümayəndə olmaq imkanından gedir. Belə halda nümayəndə rolunda çıxış edən hüquqi şəxs tapşıran (vəkalət verən, təmsil olunan) adından, onun hesabına və onun mənafeyi üçün hüquqi hərəkətlər edir, üçüncü şəxslərlə əqd bağlayır. Özü də nümayəndənin hərəkətləri nəticəsində onun üçün yox, tapşıran (təmsil olunan) üçün mülki hüquq və vəzifələr yaranır. Hüquqi şəxslər nümayəndə rolunda tapşırıq (MM-in 777-ci maddəsi), komissiya (MM-in 808-ci maddəsi), ticarət agenti (MM-in 789-cu maddəsi) kimi müqavilələrdə iştirak edə bilər. Məsələn, ticarət agenti müqaviləsinə görə, ticarət agentliyi (hüquqi şəxs) tacirin (tapşıranın) mallarını satmaq əqdi bağlayır. Komissiya müqaviləsinə görə, komisyon mağaza (hüquqi şəxs) komitentin verdiyi malı satmaq üçün üçüncü şəxslərlə əqd bağlayır və s.

Hüquqi şəxsin həm də transdelikt qabiliyyəti vardır. **Transdelikt qabiliyyəti** dedikdə, başqa şəxslərin hərəkətləri nəticəsində əmələ gələn vəzifələri hüquqi şəxsin öz üzərinə götürmək imkanı başa düşülür. Bu qabiliyyətə on dörd yaşınadək yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün hüquqi şəxs hüquqlu tərbiyə, müalicə və s. müəssisələrin cavab vermək, məsuliyyət daşımaq imkanını misal göstərmək olar. Belə ki, qəyyumluğa möhtac olan on dörd yaşınadək azyaşlı müvafiq tərbiyə, müalicə və s. müəssisəyə verilə bilər. Əgər həmin azyaşlı əmlak zərəri vurarsa, onda göstərilən müəssisələr vurulmuş zərərin əvəzini ödəməyə borcludurlar (MM-in 1103-cü maddəsinin 2-ci bəndi)[1].

Transdelikt qabiliyyətinə hüquqi şəxsin cəlb olunmuş üçüncü şəxslərin törətdiyi hüquq pozuntusuna görə məsuliyyət daşımaq imkanını da misal göstərmək olar. Belə ki, hüquqi şəxs öhdəliyi (məsələn, yük daşıma öhdəliyini, podrat öhdəliyini və s.) icra etmək üçün digər şəxslər — üçüncü şəxslər cəlb edir. Məsələn, daşıyıcı (nəqliyyat təşkilatı) yükün daşınmasına digər nəqliyyat təşkilatı (üçüncü şəxs), ev tikən təşkilat (podratçı) çoxmərtəbəli yaşayış evinin tikilməsinə digər tikinti təşkilatını — üçüncü şəxsi cəlb edə bilər. Belə halda hüquqi şəxs öhdəliyi icra etməkdən ötrü cəlb olunmuş üçüncü şəxslərin hərəkətlərinə görə məsuliyyət daşıyır[2].

[1] Hüquqi şəxslərin tarnsfəaliyyət qabiliyyətinə və transdelikt qabiliyyətinə malik olması hələ sovet dövrünün hüquq ədəbiyyatı səhifələrində əsaslandırılmışdır (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 137).

[2] Bu konsepsiyanı ilk dəfə olaraq sovet hüquq ədəbiyyatında S.İ.Asknazi irəli sürmüşdür (*Аскназий С.И.* Некоторые вопросы гражданско-правовой ответственности // Учен. зап. Ленинград. ун-та 1951. Вып. 3, с. 171-172). Həmin konsepsiya E.A.Fleyşits tərəfindən inkişaf etdirilmişdir (*Флейшиц Е.А.* Общие начала ответственности по Основам гражданского законодательства Союза ССР и союзных республик // Советское государство и право. 1962. № 3, с. 34-43).

§ 3. Hüquqi şəxslərin yaradılması və ləğv edilməsi

1. Hüquqi şəxslərin yaradılması

Təşkilati vahidlik, ayrıca əmlaka malik olmaq və digər əlamətlər qurumun avtomatik olaraq hüquqi şəxs — mülki hüququn subyekti kimi tanınmasına dəlalət etmir. Bunun üçün onun hüquqi şəxs kimi yaradılması gərəkdir. Qurum hüquqi şəxs kimi yaradılmasa, o, mülki hüququn subyekti kimi tanınmır.

Hüquqi şəxslərin yaradılması dedikdə, müvafiq qurumun hüquqi şəxsiyyətinin dövlət tərəfindən rəsmən tanınması, ona hüquq subyektliyi verilməsi başa düşülür. **Qurumun hüquqi şəxsiyyəti** dedikdə, onun hüquq münasibətlərində iştirakının mümkün və lazım olan elə bir ölçüsü başqa düşülür ki, bu ölçü qanunla müəyyənləşdirilir. Hüquqi şəxsiyyət qurumun mülki hüquq münasibətlərində mümkün və lazım olan iştirakının hüquqi sərhədlərini müəyyən edən hüquqi formadır.

Qurumun hüquqi şəxsiyyətinin dövlət tərəfindən rəsmi surətdə tanınması isə onun müavafiq icra hakimiyyəti orqanında **məcburi dövlət qeydiyyatına alınması ilə** həyata keçirilir. Dövlət qeydiyyatına alınmaq hüquqi şəxslərin yaradılmasının qanuniliyi üzərində edilən dövlət nəzarəti formasıdır. Daha doğrusu, dövlət bu formanın vasitəsi ilə hüquqi şəxslərin əmələ gəlməsinin qanuni olub-olmamasını yoxlamaq imkanı əldə edir. Bu isə təsadüfi deyildir. Belə ki, hüquqi şəxslərin yaradılması müəyyən ictimai təlabatı ödəmək və təmin etmək zərurəti ilə bağlıdır. Digər tərəfdən bu məsələnin həll olunması xeyli dərəcədə insan və maddi resursların səfərbərliyə alınmasını tələb edir. Bunlar isə onu göstərir ki, hüquqi şəxslərin yaradılması ictimai cəhətdən vacib olan məsələdir. Dövlət isə bu cür məsələyə, şübhəsiz ki, biganə qala bilməz. Onun borcudur ki, xüsusi olaraq iqtisadi (əmlak) dövriyyədə iştirak etmək məqsədilə yaradılan hüquqi şəxsin əmələ gəlməsinin qanuniliyini yoxlasın. Bunu həm də iqtisadi (əmlak) dövriyyənin bütün iştirakçılarının mənafeyi tələb edir. Məhz buna görə də dövlət qanunvericilik yolu ilə hüquqi şəxslərin məcburi olaraq dövlət qeydiyyatına alınması haqqında qayda müəyyən edir.

Hüquqi şəxslər **iki üsulla** yaradılır: **sərəncamvermə üsulu ilə; könüllü üsulla.** Könüllü üsul iki cür olur: icazəvermə üsulu; qabaqcadan icazə alınmadan normativ üsul. Bax, bunlar, hüquqi şəxslərin yaradılmasının tarixən ənənəvi üç üsuludur. Mülki hüquq elmi də bunları hüquqi şəxslərin yaradılması üsulları kimi fərqləndirir[1]. Beləliklə, hüquqi şəxslərin yaradılmasının əsasən üç üsulu vardır. Onlara **hüquqi şəxslərin yaradılması qaydaları** da deyilir:

- sərəncamvermə üsulu (qaydası);

[1] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979 (гл. IX); Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 142-144; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 97-98; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 79-81; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 93; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 131 Y.A.Suxanov iki üsul göstərir: icazəvermə üsulu; normativ üsulu (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1992, с. 197).

- icazəvermə üsulu (qaydası);
- qabaqcadan icazə almadan normativ üsul.

Sərəncamvermə elə bir üsuldur ki, bu üsul hüquqi şəxsin xüsusi dövlət qeydiyyatı olmadan təkcə təsisçinin sərəncamı (qərarı) əsasında yaradılmasını nəzərdə tutur. Başqa sözlə desək, sərəncamvermə üsuluna görə təsisçinin qərarı (sərəncamı) hüquqi şəxsin yaradılması üçün kifayət edir və yetərlidir. Təsisçi rolunda əmlakın mülkiyyətçisi və ya buna ixtiyarı çatan səlahiyyətli orqan çıxış edə bilər.

Sərəncamvermə üsulunun mahiyyəti ondan ibarətdir ki, hüquqi şəxsin yaradılması barədə sərəncam kənardan, qıraqdan — səlahiyyətli orqanlardan verilir. Hüquqi şəxs yaratmaq təşəbbüsü məhz bu orqana məxsusdur. Özü də **bu üsul hüquqi şəxsin dövlət qeydiyyatına alınmasını nəzərdə tutmur.** O, dövlət qeydiyyatı prosedurasını istisna edir.

Sovet dövründə hüquqi şəxs statuslu dövlət təşkilatları və müəssisələri məhz bu üsulla yaradılırdı. Bu isə təsadüfi deyildi. Total dövlət mülkiyyətinin, komanda (sovet) iqtisadiyyatının, dövlət mülkiyyəti inhisarının mövcud olduğu bir şəraitdə hüquqi şəxslərin xüsusi dövlət qeydiyyatı olmadan səlahiyyətli dövlət orqanlarının qərarı (sərəncamı) ilə yaradılması qaydası ön plana keçmişdi[1]. Bazar iqtisadiyyatı şəraitində isə bu qayda hüquqi şəxslərin yaradılmasının əsas və başlıca üsulu sayılmır. Bu üsul öz yerini digər üsullara verir. Amma indiki dövrdə həmin üsulun tamamilə öz əhəmiyyətini və rolunu itirməsi haqqında qəti fikir söyləmək olmaz[2]. Belə ki, müasir dövrdə çox nadir və epizodik hallarda sərəncamvermə üsulu ilə hüquqi şəxslər yaradıla bilər. Məsələn, yerli özünüidarə orqanları bələdiyyə mülkiyyətində olan əmlakın bazası əsasında müəssisə, idarə və təşkilatlar yarada bilər. Deməli, sərəncamvermə üsulu indiki dövrdə öz əhəmiyyətini və rolunu müəyyən dərəcədə saxlayır.

Sərəncamvermə üsulu üçün üç əsas mərhələ xarakterikdir: 1) təsisçi (mülkiyyətçi və ya səlahiyyətli orqan) tərəfindən təşəbbüs (sərəncam) aktının verilməsi; 2) təşkilati iş (kadrların seçilməsi, vəsait ayrılması və s.); 3) təsis sənədlərinin (nizamnamənin) təsdiq edilməsi.

İcazəvermə elə bir üsuldur ki, bu üsul hüquqi şəxsin yaradılmasına səlahiyyətli orqanın qabaqcadan icazə (razılıq) verməsini nəzərdə tutur. Bu üsul onunla xarakterizə olunur ki, hüquqi şəxsin yaradılması təşəbbüsünü gələcək iştirakçılar (təsisçilər) irəli sürürlər. Onlar əvvəlcə hüquqi şəxsin yaradılması barədə qərar qəbul edirlər. Sonra isə hüquqi şəxsin yaradılması üçün icazə (razılıq) almaq məqsədilə müvafiq səlahiyyətli orqanlara müraciət edilir. İcazə verməmişdən qabaq həmin orqan iki məsələni yoxlayır: birincisi, hüquqi şəxsin əmələ gəlməsinin qanuniliyini, yəni onun təsis sənədlərinin qanunvericiliyin tələblərinə zidd olub-olmamasını; ikincisi, hüquqi şəxs yaratmağın iqtisadi, sosial və s. cəhətdən məqsədəuyğunluğunu. Bu iki şərtdən biri olmazsa, hüquqi şəxsin yaradılmasına icazə verilmir. Hər iki şərt mövcud olduğu halda isə səlahiyyətli orqan icazə vermək barədə qərar qəbul edir.

İcazəvermə üsulu dörd əsas mərhələdən ibarətdir: 1) təsisçinin təşəbbüs aktı; 2) səlahiyyətli orqanın icazə aktı; 3) təşkilati iş; 4) təsis sənədinin (nizamnamənin) qeydiyyata alınması.

İcazəvermə üsulunun tarixi qədim Roma hüququ dövrü ilə bağlıdır. Bu üsul Roma hüququnda konsessiya (concessio) anlayışı ilə əhatə olunmuşdu. Concessio dövlətin ortaqlıqlara verdiyi xüsusi icazəyə deyilirdi. İmperator Avqust xüsusi qanun verərək korporasiyaların qabaqcadan senatın razılığı ilə yaradılması qaydasını müəyyənləşdirmişdi[1]. Sonralar konsessiya sistemindən XIX əsrdə bəzi Avropa ölkələrində (Fransada, Avstriyada, Almaniyada) hüquqi şəxslərin yaradılmasının üsulu kimi istifadə olunmağa başladı[2]. Bir sıra xarici ölkələrdə bu üsuldan indi istifadə edilir.

Sovet dövründə icazəvermə üsulu əsasında demək olar ki, əsasən bütün ictimai təşkilatlar (elmi, idman və digər cəmiyyətlər, həmkarlar, kooperativ təşkilatları və s.) yaradılırdı. İndiki dövrdə bu üsul öz əvvəlki əhəmiyyətini itirərək, az-az hallarda tətbiq olunur. Məsələn, əgər ittifaqlar, assosiasiyalar, konsernlər və müəssisələrin digər birlikləri yaranarsa, onda bu cür hallarda Azərbaycan Respublikasında antiinhisar siyasəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının razılığı lazımdır. Bu məqsədlə həmin orqana razılıq (icazə) almaq üçün vəsatət verilir. Əgər yeni yaradılan hüquqi şəxsin fəaliyyəti rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilərsə, onda onun əmələ gəlməsinə icazə verilmir. Bundan əlavə, təsərrüfat subyektləri yaradıldıqda və ya onların qovuşması, yenidən qurulması, ləğv edilməsi yeni təsərrüfat subyektinin meydana gəlməsinə gətirib çıxardıqda, onda həmin orqandan qabaqcadan icazə alınır[3]. Ümumiyyətlə, qovuşma, birləşdirmə, yenidən təşkil olunma nəticəsində təsərrüfat subyektinin bazardakı xüsusi çəkisi 35 faizə çatarsa, göstərilən orqandan razılıq (icazə) alınması tələb edilir. Bu cür qaydanın müəyyən edilməsində **əsas məqsəd bazar subyektlərinin inhisarçılıq fəaliyyətinin qarşısını almaqdan ibarətdir.** Ona görə də indiki dövrdə inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində hüquqi şəxslərin yaradılmasının icazəvermə qaydasından istifadə olunur.

Qabaqcadan icazə almadan normativ üsul (normativ üsul) elə bir üsuldur ki, o, hüquqi şəxsin yaradılması üçün hər hansı bir üçüncü şəxsin, o cümlədən dövlət orqanının icazə (razılıq) verməsini nəzərdə tutmur. Bu üsul hüquqi şəxsin yaradılması üçün dövlət orqanının qabaqcadan icazə (razılıq) ver-

[1] bax: «Положение о порядке создания, реорганизации и ликвидации предприятий, объединений, организации и учреждений» (СП СССР. 1982. № 25, ст. 130).

[2] Bəzi müəlliflər bu üsulun indiki dövrdə öz əhəmiyyətini itirməsi fikrini irəli sürürlər. Bu fikirlə çətin ki razılaşmaq olar (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 131; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 97). RF-in müvafiq qanununa görə yerli özünüidarə orqanları bələdiyyə mülkiyyətində olan əmlakın bazası əsasında hüquqi şəxslər yarada bilər (bax: ст 30 Федерального закона «Об общих принсипах организации местного самоуправления в Российской Федерации» от 28 августа 1995 г. // СЗ РФ. 1995. № 35, ст. 3506; 1996. № 49, ст. 5500).

[1] bax: *Novitski I.B.* Roma hüququ. Dərslik / Rus dilindən M.P.Əsgərovanın tərcüməsi. Bakı. 1999, s. 53.

[2] bax: *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998 (по изданию 1917 г.), с. 148-153.

[3] bax: «Antiinhisar fəaliyyəti haqqında» qanunun 13-cü maddəsi. Hal-hazırda Azərbaycan Respublikasında antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı İqtisadi İnkişaf Nazirliyi hesab edilir. Əvvəllər antiinhisar siyasətini Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi həyata keçirirdi.

mək səlahiyyətini istisna edir. Bu cür **icazə qanunun normalarında ümumi formada nəzərdə tutulmuşdur** ki, həmin normalar müxtəlif növlü hüquqi şəxslərin yaradılmasının bütün hallarına aiddir. Göstərilən üsulun adında «normativ» ifadəsinin olması da məhz bununla əlaqədardır.

Amma təkcə qanun norması hüquqi şəxsin əmələ gəlməsi üçün kifayət etmir. Bunun üçün təsisçilərin təşəbbüs göstərmələri lazımdır. Belə ki, təsisçilərin yaradılacaq hüquqi şəxsin təsis sənədini (nizamnaməsini) qeydə almaq üçün səlahiyyətli orqanlara müraciət etməsi tələb olunur. Qeydə alan orqan yalnız hüquqi şəxsin yaranmasının qanuniliyini yoxlayır: birincisi, hüquqi şəxsin təsis sənədlərinin qanuna uyğunluğunu; ikincisi, hüquqi şəxsin yaradılması üçün müəyyən edilmiş qaydaya əməl olunub-olunmamasını; üçüncüsü, yaradılan hüquq şəxsin məqsəd və xarakterinin qanunvericiliyin həmin təşkilati-hüquqi formadan olan qurumlara aid etdiyi ümumi tələblərə uyğun gəlib-gəlməməsini. Bundan sonra həmin orqan hüquqi şəxsi qeydə alır. **Hüquqi şəxsin yaradılmasının məqsədəuyğun olub-olmaması məsələsi həll edilmir.** Çünki o, normativ qaydada qanun əsasında həll edilmişdir. Ona görə də mülki qanunvericilik hüquqi şəxsin yaradılmasının məqsədəuyğun olmaması mülahizələrinə görə qeydiyyatdan imtinaya yol verilməməsi haqqında qayda müəyyən edir. Belə ki, hüquqi şəxs statusu almaq istəyən qurumun yaradılmasının məqsədəuyğun olmaması mülahizələrinə görə onun dövlət qeydiyyatına alınmasından imtinaya yol verilmir («Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanunun 11-ci maddəsinin 2-ci bəndi). Həmin cəhəti ilə normativ üsul icazəvermə üsulundan fərqlənir. Belə ki, icazəvermə üsulundan fərqli olaraq, normativ üsulla hüquqi şəxslərin yaradılmasının məqsədəmüvafiq olub-olmaması məsələsi müzakirə edilmir.

Bu üsullar başqa bir cəhəti ilə də bir-birindən fərqlənir. İcazəvermə üsulu üzrə icazə aktı fərdi xarakter daşıyan hüquqtətbiqetmə aktıdır. Normativ üsul üzrə icazə isə **ümumi xarakterli normativ aktdır.** Bu üsulları birləşdirən əsas cəhət isə ondan ibarətdir ki, həm icazəvermə, həm də normativ üsulla hüquqi şəxs əmələ gələrkən hüquqi şəxsin yaradılması təşəbbüsü onun təsisçilərinə (üzvlərinə, iştirakçılarına) məxsusdur. Ona görə də həmin üsulların hər ikisi eyni növ üsula — könüllü üsula daxil edilir.

Normativ üsulla hüquqi şəxsin yaradılması bir neçə mərhələni əhatə edir: 1) təsisçilərin təşəbbüs aktı; 2) təşkilati iş; 3) səlahiyyətli orqanın yoxlama (nəzarət) işi. Normativ üsulla hüquqi şəxsin yaradılmasının qanuniliyi üzərində nəzarət, əsasən, onun qeydiyyata alınması zamanı həyata keçirilir. Bu cəhət bəzi müəlliflərə həmin üsulu «qeydiyyat üsulu» adlandırmağa əsas verir[1]. Bu mövqe həqiqətdən uzaqdır. Belə ki, ədliyyə orqanlarında qeydiyyat istənilən hüquqi şəxsin həm icazəvermə, həm də normativ üsulla yaradılmasının yekun mərhələsidir. İcazəvermə üsulu ilə hüquqi şəxslər yaradıldığı hallarda da, onlar hökmən qeydiyyata alınır.

Normativ üsul dünyada hüquqi şəxslərin yaradılmasının ən geniş yayılmış üsulu sayılır. **Sivil, qabaqcıl və mütərəqqi xarici ölkələrin qanunvericiliyində bu üsul** hüquqi şəxslərin əmələ gəlməsinin əsas və başlıca üsulu kimi nəzərdə tutulur. Bizim ölkədə də hüquqi şəxslər, əsasən, bu üsulla yaradılır.

Hüquq ədəbiyyatı səhifələrində bəzi müəlliflər göstərilən üsullardan savayı, hüquqi şəxslərin yaradılmasının «müqavilə hüququ qaydası» kimi könüllü üsulu da fərqləndirirlər[1]. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, hüquqi şəxsin yaradılması üçün ümumi norma mövcud olur və təsisçilər təsis müqaviləsi bağlamaqla hüquqi şəxsi yaradırlar. Təsərrüfat ortaqlıqları, assosiasiyalar və konsernlər bu üsulla yaradılır. Assosiasiyalar və konsernlər yaradılarkən, qeyd etdiyimiz kimi, antiinhisar siyasətini həyata keçirən orqanın qabaqcadan icazə (razılıq) verməsi tələb olunur. Deməli, bu halda faktiki surətdə yeni bir üsuldan yox, icazəvermə üsulundan istifadə edilir. Təsərrüfat ortaqlıqları isə qeydiyyat yolu ilə yaradılır. Qeydiyyat prosesində onun əmələ gəlməsinin qanuniliyi yoxlanılır. Deməli, bu halda isə faktiki surətdə hüquqi şəxsin yaradılmasının normativ üsulu tətbiq olunur. Dediklərimiz onu sübut edir ki, hüquqi şəxsin yaradılmasının «müqavilə hüququ» kimi üsulu müstəqil əhəmiyyətə malik deyildir. Bu üsul ya icazəvermə, ya da ki normativ üsulun əlamətlərini əks etdirir. Buna görə də o, hüquqi şəxsin yaradılmasının müstəqil üsulu hesab edilə bilməz[2].

2. Hüquqi şəxslərin dövlət qeydiyyatı

Hüquqi şəxslərin yaradılması müəyyən mərhələlərdən ibarət olan bir prosesdir. Bu prosesin yekun və son mərhələsi dövlət qeydiyyatı adlanır[3]. Həmin mərhələnin mahiyyəti ondan ibarətdir ki, bu mərhələdə müvafiq **quruma dövlət tərəfindən rəsmən hüquqi şəxs statusu** verilir. Daha doğrusu, bu mərhələdə müvafiq qurum dövlət tərəfindən rəsmi surətdə hüquqi şəxs kimi tanınır. **Hüquqi şəxslərin dövlət qeydiyyatı** dedikdə, hüquqi şəxs statusu almaq istəyən qurumların mülki hüquq qabiliyyətinin (mülki hüquq subyektliyinin) təsdiq edilməsi, hüquqi statusunun müəyyənləşdirilməsi və onlar barəsində məlumatların (qeydlərin) hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi başa düşülür. **Hüquqi şəxslərin dövlət reyestri** isə Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxslər və digər qurumlar barəsində məlumatlar (qeydlər) məcmusudur.

Dövlət qeydiyyatı vacib və mühüm hüquqi əhəmiyyəti olan mərhələdir. Hüquqi şəxsin yaradılması prosesinin başa çatması məhz bu mərhələ ilə bağlıdır. Belə ki, dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs yaradılmış hesab edilir, mülki hüquq və fəaliyyət qabiliyyətinə malik olur.

Hüquqi şəxslərin dövlət qeydiyyatına alınması ilə əlaqədar münasibətlər **«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında»** 12 dekabr 2003-cü il tarixli qanunla tənzim edilir. Bu qanun təşkilati-hüquqi, mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, Azərbaycan Respublikasın-

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1993, с. 83; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 197.

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., гл. IX; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1993. гл. 7. § 3; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 98.

[2] Hüquq ədəbiyyatı səhifələrində bu cür fikir söyləmək halına rast gəlmək mümkündür (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 81).

[3] Roman-german (kontinental) hüquq ailəsi ölkələrinin qanunvericiliyi məcburi dövlət qeydiyyatı qaydasını müəyyən edir. Bu, onların əsas cəhətlərindən biridir.

da yaradılan hüquqi şəxslərin dövlət qeydiyyatının **hüquqi əsaslarını**, bu qeydiyyatın vahid prosedurasını müəyyənləşdirir; qanun həm də hüquqi şəxslərin dövlət reyestrinin aparılması prosesini tənzimləyir. Həmin qanuna görə, bizim ölkədə hüquqi şəxslərin, o cümlədən xarici hüquqi şəxslərin dövlət qeydiyyatını **ədliyyə orqanları** həyata keçirirlər. Ədliyyə orqanları dedikdə, başa düşülür:

- AR Ədliyyə Nazirliyi;
- Naxçıvan MR Ədliyyə Nazirliyi;
- onların rayon (şəhər) qeydiyyat şöbələri.

Dini təşkilatlar (qurumlar) isə ədliyyə orqanlarında yox, AR Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınır. Göstərdiyimiz orqanlar öz səlahiyyətləri hüdudlarında hüquqi şəxs statusu almaq istəyən qurumu hüquqi şəxs kimi dövlət qeydiyyatına alırlar. Məhz bu orqanlara özlərini hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi üçün müraciət edən şəxs və ya şəxslər qrupuna **hüquqi şəxs statusu almaq istəyən qurum** deyilir. Bu orqanlardan başqa, hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasında AR Vergilər Nazirliyi də iştirak edir. Belə ki, prezidentin fərmanı ilə AR Vergilər Nazirliyi **sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «bir pəncərə prinsipi» üzrə** vahid dövlət qeydiyyat orqanı kimi müəyyən edilir[1]. Məqsəd ölkədə sahibkarlığın inkişafını sürətləndirmək, əlverişli biznes mühitini daha da artırmaq və biznesə başlama qaydalarını sadələşdirməkdən ibarətdir. Vergilər Nazirliyi yalnız sahibkarlıq fəaliyyəti subyektlərini dövlət qeydiyyatına alır. Sahibkarlıq fəaliyyəti subyektləri dedikdə isə əsasən və başlıca olaraq kommersiya təşkilatları (kommersiya hüquqi şəxsləri) başa düşülür.

Hüquqi şəxslər dövlət qeydiyyatına müəyyən qayda əsasında alınır. Əvvəlcə müvafiq dövlət qeydiyyatı orqanlarına ərizə ilə müraciət olunur. Ərizə təsisçi tərəfindən, əgər təsisçi bir neçə şəxsdən ibarət olarsa, onlardan biri tərəfindən imzalanır. Ərizənin təsisçinin (təsisçilərin) vəkil etdiyi şəxs tərəfindən imzalanması istisna edilmir, bu, mümkün olan haldır. Qanun buna yol verir. Ərizədə hüquqi şəxsin dövlət qeydiyyatına alınması barədə müraciəti ifadə olunur və aşağıdakılar göstərilir:

- təsisçi (təsisçilər) fiziki şəxs olduqda — onun (onların) adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi;
- təsisçi (təsisçilər) hüquqi şəxs olduqda — onun (onların) adı, olduğu yer və qeydiyyat nömrəsi;
- ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda — habelə onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verilmə tarixi və vəkalətnamə haqqında məlumatlar;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ərizənin formasında müəyyən edilən digər məlumatlar.

Digər sənədlər də ərizəyə qoşulur və əlavə edilir:

- **hüquqi şəxsin nizamnaməsi** (nizamnamə təsisçi və ya təsisçilər tərəfindən təsdiq edilməlidir; təsisçinin və ya təsisçilərin səlahiyyətli nümayəndəsi də onu təsdiq edə bilər);
- **hüquqi şəxsin yaradılması və nizamnaməsinin təsdiq edilməsi haqqında qərar** (qərar bütün təsisçilər tərəfindən imzalanmalıdır);
- **dövlət rüsumunun ödənilməsi haqqında sənəd;**
- təsisçi hüquqi şəxs olduqda onun dövlət qeydiyyatı haqqında **şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın)** və nizamnaməsinin notariat qaydasında təsdiq olunmuş surəti;
- təsisçi fiziki şəxs olduqda — **onun şəxsiyyətini təsdiq edən sənədin surəti.**

Hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması barədə müvafiq icra hakimiyyət orqanına ərizə ilə müraciət etməsi və həmin ərizəyə lazımi sənədlərin qoşulması ilə bağlı yaranan münasibətlər «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanunun 5-ci maddəsi ilə tənzimlənir.

Dövlət qeydiyyat orqanı baxılması üçün dövlət qeydiyyatına alınmaq barədə ərizəni və ona qoşulan (əlavə edilən) sənədləri qəbul edir. Bundan sonra həmin orqan tərəfindən onların qanunvericilik aktlarına uyğunluğu və zidd olub-olmaması yoxlanılır. Yoxlama üçün 30 günlük müddət müəyyən edilir. Yoxlama zamanı bəzən əlavə araşdırma aparılması zərurəti yarana bilər. Belə hallarda 30 günlük yoxlama müddəti daha 30 günə qədər artırılır.

Təqdim olunmuş sənədlər qüsursuz olmalıdır. Əgər qeydiyyat orqanı sənədlərdə (söhbət hər şeydən əvvəl, təsis sənədlərindən, yəni hüquqi şəxsin nizamnaməsindən və onun yaradılması barədə qərardan gedir) çatışmazlıqlar üzə çıxararsa, həmin sənədləri ərizə ilə müraciət edən şəxsin özünə qaytarır. O, həm də aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq 20 gün müddət təyin edir. Bu müddət ərzində ərizə ilə müraciət edən şəxs həmin çatışmazlıqları aradan qaldırmalıdır.

Sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan və ya təqdim edilmiş çatışmazlığı olmayan sənədlər yoxlanıldıqdan sonra qeydiyyat orqanı mümkün olan iki alternativ qərardan birini qəbul edir:

- dövlət qeydiyyatına alınmasından imtina barədə qərar;
- dövlət qeydiyyatı haqqında şəhadətnamə verilməsi haqqında qərar.

Qeydiyyat orqanı yalnız qanunda nəzərdə tutulmuş hallarda qurumun **dövlət qeydiyyatına alınmasından imtina barədə qərar** qəbul edə bilər. Həmin hallara aiddir (onlar qanuni imtina halları hesab olunur):

- **təqdim edilmiş sənədlərin qanunvericilik aktlarına zidd olması** (Konstitusiyaya, hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında və digər qanunvericilik aktlarına zidd olması);
- hüquqi şəxs statusu almaq istəyən qurumların **məqsəd, vəzifə və fəaliyyət formalarının qanunvericiliyə zidd olması;**
- **eyni adlı qeyri-kommersiya təşkilatının qeydə alınması;**
- **firma adlarının qorunması haqqında qanunvericiliyin tələblərinin pozulması;**
- **qeydiyyat orqanı tərəfindən sənədlərdə aşkar edilmiş çatışmazlığın**

[1] «Sahibkarlıq fəaliyyəti subyektlərinin «Bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası prezidentinin 25 oktyabr 2007-ci il tarixli sərəncamı

müəyyən olunmuş müddət (əlavə 20 gün müddəti) ərzində aradan qaldırılmaması.

Göstərilən hallardan biri olduqda qeydiyyat orqanı 10 gündən gec olmayaraq ərizə ilə müraciət edən şəxsə dövlət qeydiyyatına alınmasından imtina barədə yazılı məlumat verir. 10 günlük müddət təqdim edilmiş sənədlərin yoxlanılmasından və ya həmin sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra hesablanır. Yazılı məlumatda göstərilməlidir ki, qanunvericilikdə nəzərdə tutulan hansı hala görə dövlət qeydiyyatından imtina olunur. Başqa sözlə desək, qeydiyyat orqanı imtinanın səbəbini yazılı şəkildə müraciət edən şəxsə göstərməli və izah etməlidir.

Əgər yuxarıda göstərdiyimiz dörd haldan başqa, qeydiyyat orqanı qurumu dövlət qeydiyyatına almaqdan imtina edərsə, bu, **qanunsuz imtina halı** hesab olunur. Odur ki, hüquqi şəxs statusu almaq istəyən qurum yuxarı orqana və ya məhkəməyə şikayət verə bilər. Şikayət hüququndan həmin qurum həm də o halda istifadə edə bilər ki, qeydiyyat orqanı onu bu və ya digər bəhanə ilə dövlət qeydiyyatına almaqdan yayınsın.

Əgər təqdim olunmuş sənədlərin yoxlanması müsbət nəticələnərsə, onda təbii ki, qeydiyyat orqanı dövlət qeydiyyatına alınmasından imtina barədə cavab (yazılı məlumat) vermir. Odur ki, qurum dövlət qeydiyyatına alınmış hesab edilir. Buna görə də qeydiyyat orqanı 10 gündən gec olmayaraq müraciət edən şəxsə dövlət qeydiyyatı haqqında **şəhadətnamə verir.**

Dövlət qeydiyyatı haqqında şəhadətnamə qurumun dövlət qeydiyyatına alınmasını təsdiq edən sənəddir. Bu sənəd həm kommersiya hüquqi şəxsləri (kommersiya təşkilatları), həm də qeyri-kommersiya hüquqi şəxsləri (qeyri-kommersiya təşkilatları) üçün verilir. Həmin sənəd **təsdiqedici (sübutedici) funksiya** yerinə yetirir.

Hansı andan hüquqi şəxs statusu almaq istəyən qurum dövlət qeydiyyatına alınmış hesab olunur? Qeyd etməliyik ki, hüquqi şəxslərin dövlət qeydiyyatı onlar barəsində **məlumatların (qeydlərin) hüquqi şəxslərin dövlət reyestrinə daxil edilmək yolu** ilə həyata keçirilir. Məhz belə məlumatlar (qeydlər) hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan hüquqi şəxslər dövlət qeydiyyatı alınmış sayılır. Hüquqi şəxslər dövlət qeydiyyatına alındığı andan isə onların **mülki hüquq və fəaliyyət qabiliyyətləri eyni vaxtda yaranır.** Odur ki, həmin andan hüquqi şəxslər mülki hüquqlara malik olmaq və mülki vəzifələr daşımaq, habelə onları (hüquq və vəzifələri) həyata keçirmək və icra etmək qabiliyyətli olurlar (MM-in 44-cü maddəsinin 1-ci bəndi). Buna görə də müvafiq məlumatlar (qeydlər) hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan müraciət etmiş qurum hüquqi şəxs statusu əldə edir və mülki hüququn yeni subyekti kimi tanınır.

Dövlət reyestri informasiya ehtiyatıdır. Burada hüquqi şəxsin adı (firma adı), hüquqi ünvanı, təşkilati-hüquqi forması, kommersiya təşkilatları üçün VÖEN (vergi ödəyicinin eyniləşdirmə nömrəsi), qeyri-kommersiya təşkilatlarının qeydiyyat nömrəsi və digər məlumatlar əks olunur. Hər bir şəxs həmin məlumatlarla tanış ola bilər. Bundan başqa, istənilən şəxsin qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətini tələb etmək hüququ vardır. Bu o, deməkdir ki, qanunvericilik **dövlət reyestrinin aşkarlığı prinsipindən** çıxış edir. Bu prinsip

həm də onda ifadə olunur ki, hər bir şəxs dövlət reyestrindən çıxarış tələb etmək hüququna malikdir. **Dövlət reyestrindən çıxarış** elə bir sənəddir ki, bu sənəd dövlət qeydiyyatına alınmış hüquqi şəxs barəsində dövlət reyestrinə daxil edilmiş məlumatları təsdiq edir.

Dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış aşağıdakıların hazırlanması üçün əsas sənəddir:

- möhür;
- ştamp;
- firma blankı;
- əmtəə nişanı.

Bunların hazırlanması üçün hər hansı əlavə sənədin olması tələb edilmir. Həmin sənədlər həm də bank hesabının açılması üçün əsas ola bilər.

Xüsusi razılıq (lisenziya) alınması tələb edilən fəaliyyət növləri ilə məşğul olmaq istəyən hüquqi şəxslərin yaradılması qaydası müəyyən xüsusiyyətlərə malikdir. Bu cür hallarda əvvəlcə müvafiq orqanlardan xüsusi razılıq (lisenziya) alınır, yoxsa hüquqi şəxs dövlət qeydiyyatına alınır? Qeyd etmək lazımdır ki, göstərilən hallarda hüquqi şəxslər **əvvəlcə ədliyyə orqanında dövlət qeydiyyatına alınır, bundan sonra müvafiq icra hakimiyyəti orqanlarına xüsusi razılıq (lisenziya) almaq üçün müraciət edir.** Məsələn, bank təşkilatı yaradılarkən əvvəlcə o, ədliyyə orqanında dövlət qeydiyyatına alınır. Sonra isə Milli Bankdan müvafiq qayda əsasında xüsusi razılıq (lisenziya) alınır[1]. Özəl universitet əvvəlcə dövlət orqanında qeydiyyata alınır, sonra isə Təhsil Nazirliyindən müvafiq qayda əsasında xüsusi razılıq (lisenziya) alınır. Sığorta təşkilatının fəaliyyət göstərməsi üçün vacibdir ki, o, əvvəlcə dövlət qeydiyyatına alınsın, sonra isə Maliyyə Nazirliyindən xüsusi razılıq alsın.

Hüquqi şəxslərin dövlət qeydiyyatına alınması zamanı onun təsis sənədi yoxlanır. **Təsis sənədləri** dedikdə, hüquqi şəxsin fəaliyyətinin hüquqi əsası (bazası) başa düşülür. Bu sənədlərdə təsisçilər ümumi hüquq normalarını konkretləşdirirlər.

Təsis sənədinin bir neçə hüquqi əlaməti vardır. Həmin əlamətlərə aiddir:

- təsis sənədi hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin **hüquqi bazasıdır;**
- təsis sənədi hüquqi şəxsin dövlət qeydiyyatına alınması üçün **qeydiyyat orqanına təqdim edilir;**
- təsis sənədi hüquqi şəxsin **yaradılmasının, mövcud olmasının və fəaliyyət göstərməsinin əsasıdır;**
- təsis sənədi **hüquqi şəxs üçün hüquq və vəzifələr yaradır.**

Hər hansı bir sənəd bu əlamətlərə cavab verərsə, təsis sənədi hesab edilir. Nizamnamə və təsis müqaviləsi həmin əlamətlərə uyğun gəldiyinə görə təsis sənədləri sayılır. Buna görə də təsis sənədi ümumiləşdirilmiş anlayışdır. Belə ki, o, tərkibcə əsasən iki sənəddən (nizamnamə və təsis müqaviləsindən) iba-

[1] bax: Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin 9.10.1996-cı il tarixli qərarı ilə təsdiq edilmiş (Protokol №26) «Kredit təşkilatlarının, onların filiallarının lisenziyalaşdırılması (bank əməliyyatları üçün icazələrin verilməsi) və fəaliyyətinin təşkili qaydaları» (Biznesmenin bülleteni. Bakı. 1999. 35/259). Bu qaydalar qüvvədən düşmüşdür. İndi həmin məsələlər prezidentin 2 sentyabr 2002-ci il tarixli fərmanla təsdiq etdiyi qaydalarla tənzimlənir.

rətdir. Ozu də hər bir hüquqi şəxsin təsis sənədi tərkibcə eyni yox, müxtəlif olur. Odur ki, ayrı-ayrı hüquqi şəxslərin təsis sənədinin tərkibi bir-birindən fərqlənir. Elə buradaca dərhal qeyd etməliyik ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə, nizamnamə hüquqi şəxslərin (məsələn, tam ortaqlığın, səhmdar cəmiyyətinin, kooperativin və s.) yeganə təsis sənədidir; bizim ölkə qanunvericiliyi hər hansı bir halda təsis müqaviləsini hüquqi şəxsin təsis sənədi kimi nəzərdə tutmur. Nə tam ortaqlıq, nə səhmdar cəmiyyəti, nə məhdud məsuliyyətli cəmiyyət, nə də digər hüquqi şəxslər üçün təsis müqaviləsi tələb olunmur. Amma ayrı-ayrı ölkələrin qanunvericiliyi bəzi növ hüquqi şəxslər üçün təsis müqaviləsini təsis sənədi kimi nəzərdə tutur. Məsələn, Almaniyanın, RF-in və digər ölkələrin mülki hüququna görə, təsis müqaviləsi tam ortaqlığın yeganə təsis sənədi kimi müəyyənləşdirilir; bu növ hüquqi şəxs yalnız təsis müqaviləsi əsasında yaradılır və fəaliyyət göstərir; onun nizamnaməsi olmur. Tam ortaqlığın nizamnaməsinin olmaması onunla izah edilir ki, bu növ hüquqi şəxsin təşkilati strukturu kifayət dərəcədə sadədir. Belə ki, tam ortaqlıqlarda məhdud məsuliyyətli və səhmdar cəmiyyətindən fərqli olaraq, idarəçilik orqanları sisteminə rast gəlmirik. Bu səbəbdən tam ortaqlıq üçün nizamnamə hazırlanması tələb olunmur.

Düzdür, Azərbaycan Respublikasının Mülki Məcəlləsində «təsis müqaviləsi» termini işlədilir: məcəllənin 109-1-ci maddəsinin 4-cü bəndində göstərilir ki, kooperativin üzvləri öz aralarında təsis müqaviləsi bağlayırlar. Lakin bu müqavilə yuxarıda sadaladığımız əlamətlərə uyğun gəlmədiyinə görə təsis sənədi hesab edilmir və şərti olaraq «təsis müqaviləsi» adlanır. Həmin müqavilə yalnız təsisçilər üçün hüquq və vəzifələr yaradır. Mülki qanunvericilik buna görə onu «təsisçilər arasında bağlanmış müqavilə» adlandırır (MM-in 98-ci maddəsinin 10-cu bəndi).

Təsisçilər arasında bağlanmış müqavilənin məzmunu qanunda göstərilmişdir (MM-in 45-ci maddəsinin 2-ci bəndi). Onun məzmunu aşağıdakı şərtlərdən ibarətdir:

- hüquqi şəxsin nizamnaməsini hazırlamaq şərti;
- hüquqi şəxsin yaradılması üzrə birgə fəaliyyət göstərmək şərti;
- təsisçilərin özlərinin əmlakını vermək şərti;
- təsisçilərin hüquqi şəxsin fəaliyyətində iştirak etmə şərti.

Göstərdiyimiz müqavilə hüquqi şəxsin yaradılması zamanı təsisçilər arasında qarşılıqlı münasibətləri tənzimləyir. Təsisçilər öz aralarında həmin müqaviləni birgə fəaliyyət göstərmək məqsədilə bağlayırlar ki, bu fəaliyyət hüquqi şəxsin təşkilinə yönəlir. Odur ki, bu müqavilə **birgə fəaliyyət haqqında müqavilənin** (sadə ortaqlıq müqaviləsinin) növüdür[1]; həmin müqaviləyə görə təsisçilər hüquqi şəxsin yaradılmasını öz öhdələrinə götürürlər.

Təsisçilər arasında bağlanmış müqavilə **konsensual müqavilədir**. Belə ki, həmin müqavilənin bağlanması üçün təsisçilərin razılaşması kifayətdir; təsisçilər razılığa gəldikləri andan müqavilə bağlanmış hesab edilir, onlar üçün hüquq və vəzifələr əmələ gəlir.

[1] Kozlova N.V. onu müstəqil müqavilə tipi hesab edir (Козлова Н.В. Упредительный договор о создании коммерческих обществ и товариществ. М., 1994)

Təsisçilər arasında bağlanmış müqavilə hüquqi şəxsin dövlət qeydiyyatına alınması üçün səlahiyyətli orqana təqdim olunmur; o, dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxsin mövcudluğuna və fəaliyyətinə təsir göstərmir.

Məlum məsələdir ki, əgər hüquqi şəxsin təsisçisi bir şəxsdən ibarət olarsa, müqavilə bağlanmır. Əgər təsisçi iki şəxsdən ibarət olarsa, müqavilə ikitərəfli əqd şəklində bağlanılır. Üç və daha çox təsisçi müqavilə bağlayarlarsa, o, çoxtərəfli əqd hesab olunur.

Nizamnamə hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin hüquqi bazası və əsasıdır. Hüquqi şəxsin nizamnaməsi onun təsisçiləri (və ya təsisçisi) tərəfindən təsdiq olunur (MM-nin 47-ci maddəsinin 1-ci bəndi). Nizamnamə elə bir təsis sənədidir ki, hüquqi şəxs məhz onun əsasında fəaliyyət göstərir. Burada nəzərdə tutulur:

- hüquqi şəxsin adı;
- hüquqi şəxsin olduğu yer;
- hüquqi şəxsin fəaliyyət predmeti və məqsədləri;
- hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin idarə edilməsi qaydası;
- hüquqi şəxsin ləğvi qaydası;
- digər məlumatlar.

Nizamnamə nə vaxtdan qüvvəyə minir və hüquqi əhəmiyyət kəsb edir? Qeyd etmək lazımdır ki, **hüquqi şəxsin özünün dövlət qeydiyyatına alınması ilə nizamnamə də qüvvəyə minir.** Buna görə də **təsisçilərin nizamnaməni təsdiq etmələri nizamnamənin hüquqi əhəmiyyət kəsb etməsinə** dəlalət etmir, yəni bu cür təsdiqetmə nizamnamənin dərhal qüvvəyə minməsinə səbəb olmur. Lazımdır ki, o, qeydiyyat orqanı tərəfindən təsdiq olunsun.

Nizamnamədə dəyişikliklər edilə bilər. Bu barədə qərarı, adətən, ya hüquqi şəxsin ali orqanı, ya da təsisçi qəbul edir. Bu dəyişikliklər dövlət qeydiyyatına alınmalıdır. Nizamnamədə edilən dəyişiklikləri hüquqi şəxsin özünü dövlət qeydiyyatına alan orqan qeydiyyata alır. Məhz dövlət qeydiyyatına alındığı andan dəyişikliklər üçüncü şəxslər üçün qüvvəyə minir.

Bəzi hallarda üçüncü şəxslər nizamnamədə dəyişikliklər edilməsi barədə məlumat əldə edir və bu dəyişiklikləri nəzərə almaqla hərəkət edirlər. Belə olarsa, nə hüquqi şəxslər, nə də onların təsisçiləri (iştirakçıları) üçüncü şəxslərlə münasibətlərdə həmin dəyişikliklərin qeydə alınmadığına istinad edə bilərlər (MM-in 47-ci maddəsinin 3-cü bəndi). Bu qayda üçüncü şəxslərin mənafeyini müdafiə edir. Belə ki, hüquqi şəxslər və onun təsisçiləri (iştirakçıları) nizamnamədə dəyişikliklərin qeydə alınmadığına istinad etməklə öhdəliyin icrasından boyun qaçıra bilməzlər.

Hüquqi şəxsin nizamnaməsinin hüquqi təbiəti barədə məsələ hüquq ədəbiyyatında ən çox müzakirə olunan məsələlərdən biridir. Bu barədə müəlliflər bir-birindən fərqli üç müxtəlif fikir söyləyirlər. Bir qrup alimlərin mövqeyinə görə, hüquqi şəxsin nizamnaməsi **mülki-hüquqi müqavilədir**[1]; onlar nizamnaməyə müqavilə kimi baxırlar[2]. İkinci qrup alimlər belə hesab edirlər ki, hüquqi şəxsin nizamnaməsi **lokal xarakterli normativ aktdır**[3]. Üçüncü qrup alimlər

[1] bax: Шершеневич Г.Ф. Курс торгового права. 1908. Том1, с. 444
[2] Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1949, с. 373.
[3] bax: Генкин Д.М. Краткий курс кооперативного права. М., 1929, с.3.

isə hüquqi şəxsin nizamnaməsinə **sadə ortaqlıq müqaviləsi** (birgə fəaliyyət haqqında müqavilə) kimi baxırlar[1].

Bizim fikrimizcə, göstərdiyimiz fikirlər bir-birilə ziddiyyət təşkil etmir. Əksinə onlar bir-birini tamamlayaraq hüquqi şəxsin nizamnaməsi kimi mürəkkəb sənədin hüquqi təbiətini müəyyənləşdirməyə imkan verir. Belə ki, nizamnamə hüquqi şəxsin və onun iştirakçılarının hüquqi vəziyyətini, hüquqi şəxslə iştirakçılar arasında münasibətləri, hüquqi şəxsin daxili strukturunu müəyyənləşdirir. Bu baxımdan o, lokal xarakterli normativ aktdır.

Digər tərəfdən nizamnamə təsisçilər arasında münasibətləri tənzimləyir. Bu baxımdan isə o, sadə ortaqlıq müqaviləsi (birgə fəaliyyət haqqında müqavilə) sayılır.

3. Hüquqi şəxslərə xitam verilməsi[2]

Qeyd etdiyimiz kimi, hüquqi şəxslər müəyyən məqsədə çatmaq üçün yaradılır. Qarşıya qoyulan məqsədə nail olduqda, hüquqi şəxslərin fəaliyyət göstərməsi lazım olmur. Bundan əlavə, hüquqi şəxslərin müəyyən müddət üçün fəaliyyət göstərmələri nəzərdə tutula bilər. Şübhəsiz ki, həmin müddət başa çatdıqda, hüquqi şəxslərin fəaliyyət göstərmələri gərəksiz bir işə çevrilir. Hüquqi şəxslər qanun pozuntularına yol verməklə dövlət qeydiyyatına alına bilər. Bu cür qeydiyyat məhkəmə tərəfindən etibarsız hesab edilir. Bundan əlavə, təsərrüfat-iqtisadi və digər məqsədlər üçün hüquqi şəxslər birləşə, qovuşa, çevrilə və s. bilər.

Göstərilən bu və digər hallarda hüquqi şəxslər xitam edilir. Bunun nəticəsində onlar bir daha fəaliyyət göstərmirlər, mülki (əmlak) dövriyyədə subyekt qismində çıxış etmirlər.

Hüquqi şəxslərə xitam verilməsi dedikdə, onların həyata keçirdikləri fəaliyyətin xitam edilməsi başa düşülür. Onların fəaliyyətinə müxtəlif əsaslara — hüquqi faktlara görə xitam verilir. Bu əsaslar (hüquqi faktlar) iki cür olur: məcburi (sərəncam) əsaslar; könüllü əsaslar.

Məcburi (sərəncam) əsasa misal olaraq məhkəmə qərarını göstərmək olar: hüquqi şəxsin müflis hesab edilməsi barədə məhkəmə qərarı (MM-in 63-cü maddəsinin 1-ci bəndi); pozuntu ilə əlaqədar hüquqi şəxsin dövlət qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması barədə qərar (MM-in 59-cu maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi); qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin yenidən təşkili barəsində məhkəmə qərarı (MM- in 55-ci maddəsinin 2-ci və 3-cü bəndləri).

Könüllü əsasa hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanın qərarını misal göstərmək olar (MM-in 55-ci maddəsinin 1-ci bəndi və 59-cu maddəsinin 2-ci bəndinin 1-ci yarımbəndi).

Hüquqi şəxslərin xitam edilməsi müxtəlif nəticələrə səbəb olur. Bundan asılı olaraq hüquqi şəxslərə xitam verilməsinin iki üsulu (qaydası, yolu) fərqləndirilir:

[1] Цепов Г.В. Договор или обязательство? // Журнал для акционеров. 1999, №1, с. 34-35.

[2] Hüquq ədəbiyyatında qəbul edilmiş terminologiyaya görə, hüquqi şəxsin fəaliyyətinə yox, onun özünə xitam verilməsindən danışılır.

• hüquqi şəxsin **yenidən təşkili yolu ilə** onun xitam edilməsi (MM-in 55-ci maddəsi);

• hüquqi şəxsin **ləğvi yolu ilə** onun xitam edilməsi (MM-in 59-cu maddəsi).

4. Hüquqi şəxsin yenidən təşkili yolu ilə onun xitam edilməsi

Yenidən təşkiletmə hüquqi şəxslərin fəaliyyətinə xitam verilməsinin üsullarından (qaydalarından, yollarından) biridir. Bunun nəticəsində müəyyən bir hüquqi şəxs xitam edilir, digər yeni bir hüquqi şəxs yaradılır və yaxud mövcud olan qurumun hüquqi şəxsiyyəti xeyli dərəcədə dəyişir. Bu cür hallarda yeni yaradılan və ya əvvəl mövcud olan hüquqi şəxsə xitam edilən hüquqi şəxsin iştirakçıları və əmlakı, hüquq qabiliyyəti, firma adı, təşkilati strukturun xüsusiyyətləri və s. keçə bilər.

Yenidən təşkil olunma zamanı yenidən təşkil edilən hüquqi şəxsin hüquq və vəzifələri — əmlakı və ya onun bir hissəsi hüququn digər subyektinə keçir. Bu isə o deməkdir ki, universal hüquq varisliyi yaranır[1]. Yenidən təşkil olunan hüquqi şəxs bu halda xitam olunur. Onun hüquq və vəzifələri isə universal hüquq varisliyi qaydasında hüquq subyektinə — hüquqi şəxsə keçir. Deməli, göstərilən bu halda **hüquqi şəxs mütləq yox, nisbi xitam olunur.**

Yenidən təşkiletmə hüquqi şəxsin fəaliyyətinə nisbi xitam verilməsinin elə bir üsuludur ki, bunun nəticəsində onun hüquq və vəzifələri universal hüquq varisliyi qaydasında hüququn digər subyektinə keçir. Fəaliyyətinə xitam verilən hüquqi şəxsin əmlakından mülki dövriyyədə fəaliyyət göstərmək üçün istifadə olunur. Özü də dərhal qeyd etməliyik ki, yenidən təşkil olunmanın ayrılma forması — hüquqi şəxsin tərkibindən müəyyən hüquqi şəxsin ayrılması forması hüquqi şəxsin xitam olunmasına dəlalət etmir.

Yenidən təşkil olunmanın beş forması vardır:

• hüquqi şəxslərin birləşməsi (qovuşması);

• hüquqi şəxsin digər hüquqi şəxsə qoşulması (qatılması);

• hüquqi şəxsin bölünməsi;

• hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması;

• bir növdən olan hüquqi şəxsin digər növdən olan hüquqi şəxsə çevrilməsi.

Hüquqi şəxslərin birləşməsi (qovuşması) yenidən təşkil olunmanın elə bir formasıdır ki, bunun nəticəsində bir və ya bir neçə şəxsin müstəqil olaraq mövcudluğuna xitam verilir və onların bazası əsasında yeni hüquqi şəxs (hüquqi varis) yaranır. Fəaliyyətinə xitam verilən hüquqi şəxslərdən hər birinin hüquq və vəzifələri yeni yaranmış hüquqi şəxsə keçir (MM-in 56-cı maddəsinin 1-ci bəndi). Məsələn, üç özəl universitet «Şərq Universiteti» adlı yeni yaranmış təhsil mərkəzində birləşir. Həmin üç universitetin fəaliyyətinə xitam verilir, «Şərq Universiteti» isə hüquqi şəxs kimi fəaliyyət göstərir[2]. Bu, **hüquqi şəxslərin irilənməsi, böyüməsi formasıdır.**

[1] Mülki hüquqda hüquqi varislik məsələsi ətraflı surətdə işıqlandırılmışdır: *Черепахин Б.Б.* Правопреемство по советскому гражданскому праву. М., 1962. Hüquqi varislik kateqoriyası ilə tanış olmaq üçün dərsliyin «Mülki hüquq münasibətləri» adlı fəslinə bax.

[2] Bu formaya Aqrar-Sənaye Bankının, Sənaye İnvestisiya Bankının və Əmanət Bankının Birləşmiş Universal Səhmdar Bankı (indiki «Kapitalbank») adlı yeni qurumda birləşməsini misal göstərmək olar.

Hüquqi şəxsin qoşulması (qatılması) yenidən təşkil olunmanın elə bir formasıdır ki, bunun nəticəsində bir və ya bir neçə hüquqi şəxsin mövcudluğuna onların başqa bir hüquqi şəxsə (hüquqi varisə) qatılması (qoşulması) yolu ilə xitam verilir. Qatılan (qoşulan) hüquqi şəxslərin müstəqil olaraq mövcudluğuna xitam verilir, onları özündə birləşdirən əvvəlki hüquqi şəxs isə fəaliyyət göstərməkdə davam edir. Bu halda qoşulan (qatılan) hüquqi şəxslərin hüquq və vəzifələri əvvəlki hüquqi şəxsə keçir (MM-in 56-cı maddəsinin 4-cü bəndi). Məsələn, «Ruzibank», «Əmanət Bank», «Parabank» kimi üç müstəqil bank «Muğan Bank» adlı hüquqi şəxsə qoşulur və bunun nəticəsində onların hər üçünün də mövcudluğuna xitam verilir, «Muğan Bank» isə fəaliyyət göstərməkdə davam edir. Bu, **hüquqi şəxslərin irilənməsi, böyüməsi formasıdır.**

Hüquqi şəxsin bölünməsi yenidən təşkil olunmanın elə bir formasıdır ki, bunun nəticəsində xitam olunmuş hüquqi şəxsin bazası əsasında yeni müstəqil hüquqi şəxslər (hüquqi varislər) əmələ gəlir. Xitam olunmuş hüquqi şəxsin hüquq və vəzifələri yeni yaranmış hüquqi şəxslərə keçir (MM-in 56-cı maddəsinin 3-cü bəndi). Məsələn, özəl universitet iki müstəqil universitetə bölünür. Bu **forma hüquqi şəxslərin kiçilməsi, xırdalanması formasıdır.**

Hüquqi şəxsin ayrılması yenidən təşkil olunmanın elə bir formasıdır ki, bunun nəticəsində yeni müstəqil hüquqi şəxslər (hüquq varisləri) yaranır, tərkibindən bu cür hüquqi şəxslər ayrılan hüquqi şəxs isə fəaliyyət göstərməkdə və mövcud olmaqda davam edir, yəni o, yenidən təşkil olunur. Yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri isə yeni yaradılmış müstəqil hüquqi şəxslərin hər birinə keçir (MM-in 56-cı maddəsinin 3-cü bəndi). Yenidən təşkil olunmanın bu forması hüquqi şəxsin xitam olunmasına səbəb olmur. Göründüyü kimi, bu cür hallarda tərkibindən müstəqil yeni hüquqi şəxslər ayrılan hüquqi şəxs öz fəaliyyətini davam etdirir. Onun əmlak kompleksi, iştirakçılarının sayı və mülki hüquq qabiliyyətinin həcmi azalır. Bu **forma hüquqi şəxslərin xırdalanması, kiçilməsi formasıdır.**

Hüquqi şəxsin çevrilməsi yenidən təşkil olunmanın elə bir formasıdır ki, bunun nəticəsində müəyyən növ hüquqi şəxsin mövcudluğuna xitam verilir və onun bazası əsasında yeni növ hüquqi şəxs (hüquqi varis) əmələ gəlir. Qanunvericiliyə görə, çevrilmə dedikdə, hüquqi şəxsin öz təşkilati-hüquqi formasını dəyişməsi başa düşülür. Amma bunu uğurlu anlayış hesab etmək olmaz. Qanunvericinin işlətdiyi «bir növdən olan hüquqi şəxsin digər növdən olan hüquqi şəxsə çevrilməsi» anlayışı «hüquqi şəxsin öz təşkilati-hüquqi formasını dəyişməsi» anlayışına nisbətən daha əhatəli, daha geniş və daha uğurlu anlayışdır. «Hüquqi şəxsin öz təşkilati-hüquqi formasını dəyişməsi» anlayışı isə məhdud anlayışdır. Çevrilmə zamanı yenidən təşkil olunmuş hüquqi şəxsin hüquq və vəzifələri yeni yaranmış hüquqi şəxsə keçir (MM-in 56-cı maddəsinin 5-ci bəndi). Bu halda hüquqi şəxsin özü, onun iştirakçıları və əmlakı kəmiyyət və say baxımından dəyişməz qala bilər. Amma bir sıra məsələlər dəyişir: müvafiq növdən olan hüquqi şəxsi xarakterizə edən müəyyən əlamət və cəhətlər; onun təyinatı; onun malik olduğu əmlakın hüquqi rejimi; onun fəaliyyətində əmələ gələn bu və ya digər məsələnin həll olunma metodları; təsis sənədlərinə aid olan tələblərin həcmi; nizamnamə kapitalının həcmi; məsuliyyətin həcmi. Məsələn, istehsal kooperativi səhmdar cəmiyyətinə çevrilir. Başqa

bir misalda tam şərikli müəssisə (tam ortaqlıq) məhdud məsuliyyətli cəmiyyətə çevrilir. Digər bir misalda istehsal kooperativi tam şərikli müəssisəyə (tam ortaqlığa) çevrilir.

Hüquqi şəxsin yenidən təşkili iki qaydada həyata keçirilə bilər: könüllü qaydada; məcburi qaydada.

Könüllü qaydanın mahiyyəti ondan ibarətdir ki, bu qayda hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə hüquqi şəxsin yenidən təşkilini nəzərdə tutur. Qanunda nəzərdə tutulan hallarda hüquqi şəxsin yenidən təşkili yalnız müvafiq dövlət icra hakimiyyəti orqanının qabaqcadan razılığı ilə həyata keçirilə bilər. Məsələn, qoşulma, birləşmə və ya çevrilmə formasında yaranan yeni təsərrüfat subyektinin (hüquqi şəxsin) əmtəə bazarındakı payı 35%-dən çox olarsa, buna antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanının qabaqcadan razılığı lazımdır[1]. Bu qaydanın əsas məqsədi inhisarçılıq fəaliyyətinin qarşısını almaqdan ibarətdir. Bundan əlavə, assosiasiyalar, ittifaqlar, konsernlər və müəssisələrin digər birlikləri yaradıldığı halda da antiinhisar siyasətini həyata keçirən dövlət orqanının qabaqcadan razılığı gərəkdir. Bu qayda rəqabətin məhdudlaşdırılmasına səbəb olan hallara yol verməmək məqsədi güdür[2].

Məcburi qaydanın mahiyyəti ondan ibarətdir ki, bu qayda qanunda müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin məhkəmə qərarı əsasında yenidən təşkil olunmasını nəzərdə tutur. Məsələn, qanunda nəzərdə tutulan hallarda hüquqi şəxsin bölünmə və ya ayrılma formasında yenidən təşkili məhkəmə qərarı ilə həyata keçirilir (MM-in 55-ci maddəsinin 2-ci bəndi). Bu halda məhkəmə idarəçi təyin edir. İdarəçinin əsas vəzifəsi məhkəmənin tapşırığı ilə hüquqi şəxsi yenidən təşkil etməkdən ibarətdir. İdarəçi hüquqi şəxsin bütün işlərini idarə etmək səlahiyyətinə malikdir. O, hüquqi şəxsin bölünmə balansını tərtib edir. İdarəçi ayrılma və ya bölünmə nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələrini hazırlayır. Sonra həmin sənədləri (bölünmə balansını və nizamnaməni) məhkəməyə verir. Məhkəmə bu sənədlərə baxıb onları təsdiq edir və hüquqi şəxsin yenidən təşkili barədə qərar çıxarır. Bu qərarın qanuni qüvvəyə minməsi yeni yaranan müstəqil hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsas rolunu oynayır (MM-in 55-ci maddəsinin 3-cü bəndi).

Yenidən təşkil olunma nəticəsində yaranan hüquqi şəxslər hökmən və məcburi olaraq dövlət qeydiyyatına alınır. Hüquqi şəxslər bu andan yenidən təşkil edilmiş sayılır (MM-in 55-ci maddəsinin 4-cü bəndi). **Yenidən təşkil olunmanın qoşulma forması** bu qaydadan istisna təşkil edir. Bu halda başqa qayda nəzərdə tutulur. Belə ki, hüquqi şəxslərin dövlət reyestrinə qoşulan hüquqi şəxslərin fəaliyyətinə xitam verilməsi barədə qeyd daxil edilir. Həmin andan hüquqi şəxs yenidən təşkil edilmiş sayılır (MM-in 55-ci maddəsinin 4-cü bəndi).

Yenidən təşkil olunma nəticəsində yaranan yeni hüquqi şəxslər dövlət qeydiyyatına alınarkən dövlət qeydiyyatını aparan orqana lazımi sənədlər təqdim

[1] bax: «Antiinhisar fəaliyyəti haqqında» qanunun 13-cü bəndi (AR QK, I cild, s. 49).
[2] Yenə orada (AR QK, II cild, s. 48).

olunmalıdır. Söhbət, hər şeydən əvvəl, təhvil aktı və bölünmə balansı kimi sənədlərdən gedir. **Təhvil aktı və bölünmə balansı** dedikdə, hüquqi şəxsin yenidən təşkil olunmasını rəsmiləşdirən sənədlər başa düşülür. Təşkil olunmanın qoşulma, birləşmə və çevrilmə kimi formalarında təhvil aktı (balansı), bölünmə və ayrılma kimi formalarında isə bölünmə balansı tərtib edilir. Bu sənədlər hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş təsisçilər (iştirakçılar) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı tərəfindən təsdiq olunur. Sonra isə həmin sənədlər nizamnamələrlə birlikdə yeni yaranmış hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün müvafiq dövlət orqanlarına təqdim edilir.

Təhvil aktı və bölünmə balansı mühüm əhəmiyyətə malikdir. Bu sənədlər hüquqi varisə keçən hüquq (aktivlər) və vəzifələrin (passivlərin) tərkibinin müəyyən edilməsi üçün əsas rolunu oynayır. Onlar yenidən təşkil olunan hüquqi şəxsin **hüquq və vəzifələrinin bölünməsini sübut edən sənədlərdir**[1]. Daha doğrusu, bu sənədlərdə yenidən təşkil olunan hüquqi şəxsin bütün kreditorları və borcluları barəsində öhdəliklərin haması, habelə mübahisə edilən öhdəliklər əks edilir (MM-in 57-ci maddəsinin 1-ci bəndi). Təhvil aktı və bölünmə balansı elə tərtib edilməlidir ki, onlar kreditorların tələblərini ödəyəcək **hüquqi varisi müəyyənləşdirməyə imkan versin.** Belə təsəvvür yaranır ki, həmin sənədlər yenidən təşkil edilən hüquqi şəxsin kreditorlarının mənafeyi naminə müəyyənləşdirilir və tərtib olunur.

Məlum məsələdir ki, hüquqi şəxsin yenidən təşkili, hər şeydən əvvəl, kreditorların mənafeyinə toxunur. Axı, kreditorlara borclu olan hüquqi şəxsin yenidən təşkili onların (yəni kreditorların) əmlak hüquqlarını poza bilər. Məsələn, yenidən təşkil olunan hüquqi şəxs çoxlu borcu olan hüquqi şəxsə qoşula bilər və s. Buna görə də hüquqi şəxs yenidən təşkil edilərkən onun kreditorlarının hüquqlarını təmin etmək məqsədi ilə qanun xüsusi qayda müəyyən edir (MM-in 58-ci maddəsi). Bu qaydanın əsas məqsədi yenidən təşkil olunan hüquqi şəxsin kreditorlarının əmlak mənafeyinin və hüquqlarının pozulmasının qarşısını almaqdan ibarətdir. Bu, mülki qanunvericiliyin nəzərdə tutduğu ən vacib təminatdır.

Göstərilən qaydaya görə, hüquqi şəxsin yenidən təşkili barəsində onun kreditorlarına məlumat verilir, yəni bildiriş göndərilir. Göndərilən bildiriş üçün mülki qanunvericilik yazılı forma nəzərdə tutur (MM-in 58-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, bildiriş şifahi formada göndərilə bilməz. Bu forma bildiriş göndərilməsinin sübut olunmasını çətinləşdirir. Bildirişi hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqan göndərir. Bunlar hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş şəxslərdir. Əgər hüquqi şəxsin yenidən təşkili məhkəmə qərarı ilə həyata keçirilərsə və bu məqsədlə kənar idarəçi təyin edilərsə, onda bildirişi kənar idarəçi göndərir.

Hüquq varisliyi yenidən təşkil olunan hüquqi şəxsin həm əmlak və qeyri-mlak hüquqlarının (aktivlərin), həm də vəzifələrin (passivlərin) hüquqi varisə keçməsini nəzərdə tutur. **Vəzifə (passiv)** dedikdə, əsasən yenidən təşkil olunan hüquqi şəxsin kreditorlara olan borcu başa düşülür. Bu borc müxtəlif mülki-hüquqi müqavilələrdən (nisyə alqı-satqı, podrat, daşıma, mal göndərmə, borc və digər əvəzli müqavilələrdən) — öhdəlik hüquq münasibətlərindən yarana bilər. Bax, yenidən təşkil olunma zamanı hüquqi şəxsin kreditorlara olan borcu da hüquq varisinə keçirilir (köçürülür). Ümumi qaydaya görə, borc başqa şəxsə köçürülərkən kreditorun razılığı lazımdır (MM-in 522-ci maddəsinin 1-ci bəndi)[1]. Amma yenidən təşkil olunma zamanı kreditor borcun hüquq varisinə köçürülməsinə mane ola bilməz. Buna görə də mülki qanunvericilik yenidən təşkil olunan hüquqi şəxsin kreditoruna iki cür hüquqdan birini seçmək ixtiyarı verir (MM-in 58-ci maddəsinin 2-ci bəndi). Birincisi, kreditor yenidən təşkil edilən hüquqi şəxsin borclu rolunda çıxış etdiyi öhdəlik hüquq münasibətlərinə (öhdəliklərə) xitam verilməsini (məsələn, borc müqaviləsi üzrə borcun qaytarılmasını, podrat müqaviləsi üzrə yaşayış evinin tikilib başa çatmasını və s.) tələb edə bilər. İkincisi, kreditorun öhdəliklərin vaxtından əvvəl icra olunmasını və bununla ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Məsələn, kredit öhdəliyi üzrə bank (kreditor) kredit alan müəssisədən (hüquqi şəxsdən) kreditin vaxtından əvvəl qaytarılmasını və faizlər itirməsi formasında düşdüyü zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Hüquqi şəxsin yenidən təşkil olunması barədə kreditorlara bildiriş verməmək kobud qanun pozuntusu hesab edilir. Əgər bu cür hala yol verilərsə, kreditorlar məhkəmə qaydasında hüquqi şəxsin yenidən təşkil olunmasını **mübahisə edə bilərlər.**

Əgər kreditor bildiriş aldıqdan sonra ona verilmiş iki cür alternativ hüquqdan istifadə etməsə, belə halda öhdəlik hüquq münasibətlərində (öhdəliklərdə) yenidən təşkil edilən hüquqi şəxsin yerini onun hüquqi varisi tutur. Kreditor qarşısında həmin şəxsin əvəzinə hüquqi varis durur. Ona görə yenidən təşkil edilmiş hüquqi şəxsin borclarının hüquq varisinə köçürülməsi barədə qayda (hüquqi varisliyi haqqında müddəa) təhvil aktında və bölünmə balansında nəzərdə tutulmalıdır. **Əgər nəzərdə tutulmazsa, yeni yaranmış hüquqi şəxslər dövlət qeydiyyatına alınmır** (MM-in 57-ci maddəsinin 3-cü bəndi). Bu, kreditorların mənafeyinin mühüm təminatı, **zəruri müdafiə vasitəsidir.**

Bölünmə və ayrılma formasında hüquqi şəxs yenidən təşkil edilərkən kreditorların mənafeyinin təmin olunması xüsusilə vacibdir. Ona görə ki, yenidən təşkil olunan hüquqi şəxsin bazası əsasında iki və daha artıq hüquqi şəxslər yarana bilər. Bu halda hansı hüquqi şəxs hüquqi varis rolunda kreditorların tələbini ödəməlidir? Bildiyimiz kimi, göstərilən hallarda bölünmə balansı tərtib edilir. Burada yenidən təşkil olunmuş hüquqi şəxsin hüquq varisi dəqiq və konkret olaraq göstərilməlidir. Əgər bölünmə balansı kreditorların tələbini ödəməli olan hüquqi varisi müəyyənləşdirməyə imkan vermirsə, onda yeni yaranmış müstəqil hüquqi şəxslərdən hər biri kreditor qarşısında yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üçün birgə məsuliyyət daşıyırlar (MM-in 58-ci maddəsinin 3-cü bəndi). Məsələn, istehsal kooperativi üç səhmdar cəmiyyəti-

[1] bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 19.. с. 140.

[1] Yeni Mülki Məcəllənin bu maddəsi «borcun köçürülməsi» anlayışı əvəzinə, «öhdəliklərin verilməsi» kimi uğursuz anlayışdan istifadə edir.

nə bölünür. Elə hesab edək ki, kooperativin banka (kreditora) on min manat borcu var. Bölünmə balansında borcu banka (kreditora) ödəməli olan hüquq varisini müəyyənləşdirmək mümkün olmur. Belə halda səhmdar cəmiyyətlərindən hər biri banka olan on min manat borcu birgə ödəyirlər.

5. Hüquqi şəxsin ləğvi

Hüquqi şəxsin ləğvi **hüquqi şəxsin fəaliyyətinə xitam verilməsinin** mümkün olan iki üsulundan (yolundan) biridir. Bu üsul hüquqi şəxsin xitamının yenidən təşkil etmə üsulundan, əsasən, iki xüsusiyyəti ilə fərqlənir. **Birinci fərq** ondan ibarətdir ki, yenidən təşkil etmə üsulu **hüquqi şəxsin nisbi xitamına səbəb olur**. Ləğvetmə üsulu isə hüquqi şəxsin **mütləq xitamına gətirib çıxarır.**

İkinci fərq ondan ibarətdir ki, hüquqi şəxsin yenidən təşkil edilməsi həmişə hüquq varisliyi məsələsinin yaranmasına səbəb olur. Hüquqi şəxsin ləğvi isə **hüquqi varislik məsələsinin əmələ gəlməsinə dəlalət etmir.** Belə ki, bu zaman ləğv edilmiş hüquqi şəxsin əmlakı (hüquq və vəzifələri) hüquqi varislik qaydasında başqa şəxslərə, yəni hüquq varislərinə keçmir. Hüquqi şəxsin ləğvi nəticəsində hüququn subyekti kimi onun mövcudluğuna və fəaliyyətinə **mütləq və qəti olaraq xitam verilir.**

Üçüncü fərq ondan ibarətdir ki, yenidən təşkil etmə nəticəsində yeni, müstəqil hüquqi şəxslər yaranır. **Hüquqi şəxsin ləğv edilməsi isə yeni hüquqi şəxslərin əmələ gəlməsinə səbəb olmur**.

Dördüncü fərq ondan ibarətdir ki, hüquqi şəxsin ləğvi zamanı kreditorların hüquq və mənafeləri xüsusi qaydada təmin edilir. Bunun üçün **xüsusi qurum** yaradılır. Bu barədə bir az sonra söhbət açacağıq.

Hüquqi şəxsin ləğvi dedikdə, onun fəaliyyətinə xitam verilməsinin elə bir üsulu başa düşülür ki, bunun nəticəsində onun hüquq və vəzifələri başqa şəxslərə (hüquqi varislərə) keçmir və fəaliyyətinə xitam verilmiş hüquqi şəxsin bazası əsasında hər hansı yeni müstəqil hüquqi şəxs əmələ gəlmir.

Hüquqi şəxslər müxtəlif əsaslara görə ləğv oluna bilər. Mülki qanunvericilik hüquqi şəxslərin ləğv olunmasına dəlalət edən müxtəlif əsaslar nəzərdə tutur (MM-in 59-cu maddəsinin 2-ci, 3-cü və 4-cü bəndləri). Bu əsaslar həm könüllü, həm də məcburi xarakterə malik ola bilər. Ona görə də göstərə bilərik ki, **hüquqi şəxslərin ləğvi iki qaydada həyata keçirilir: könüllü qaydada; məcburi qaydada.**

Könüllü qayda odur ki, bu üsul hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə onun ləğv edilməsini nəzərdə tutur. Hüquqi şəxslərin könüllü qaydada ləğvinə müxtəlif hallar əsas ola bilər. Bu hallara aiddir: hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin başa çatması; hüquqi şəxsin sonrakı fəaliyyətinin məqsədəmüvafiq, məqsədəuyğun olmaması; hüquqi şəxsin yaradılması zamanı qarşıya qoyulan məqsədə çatmağın qeyri-mümkün olması. Məsələn, təsisçilər belə qərar qəbul edirlər ki, hüquqi şəxsin sonrakı fəaliyyəti məqsədəuyğun hesab edilmədiyinə görə o ləğv edilsin. Könüllü qayda təsisçilərin (iştirakçıların) öz mülahizələri əsasında hüquqi şəxsin ləğvi barədə qərar qəbul etmələrinə əsaslanır.

Məhkəmə qərarı əsasında hüquqi şəxsin ləğv edilməsi **məcburi qayda** hesab edilir. Bu qaydada hüquqi şəxsin ləğv edilməsinə müxtəlif hallar əsas ola bilər. Həmin hallara aiddir: hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanun pozuntuları; xüsusi razılıq (lisenziya) almadan fəaliyyət göstərmək; qanunla birbaşa qadağan edilən fəaliyyətlə məşğul olmaq; qanunvericiliyi dəfələrlə və ya kobudcasına pozmaq; nizamnamə məqsədlərinə zidd olan fəaliyyətlə müntəzəm məşğul olmaq (qeyri-kommersiya təşkilatları olan ictimai birlik və ya fondlar üçün)[1]; Mülki Məcəllədə nəzərdə tutulan digər hallarda.

Hüquqi şəxsin müflis olması onun ləğvinə əsas olan xüsusi hallardan biridir. Bu xüsusi halla bağlı olaraq **hüquqi şəxs həm könüllü, həm də məcburi qaydada ləğv edilə bilər.** Könüllü qaydada ləğv etmə haqqında qərarı hüquqi şəxs yalnız kreditorlarla birlikdə qəbul edə bilər. Məcburi qaydada ləğv etmə haqqında qərar isə məhkəmə tərəfindən qəbul edilir (bu barədə növbəti yarımbaşlıqlardan birinə bax).

Hüquqi şəxsin məcburi qaydada ləğvi üçün göstərilən əsaslardan (hüquqi şəxsin qeydiyyatı zamanı yol verilmiş qanun pozuntuları, lazımi xüsusi icazə, yəni lisenziya olmadan fəaliyyət göstərmə, qanunla qadağan olunmuş fəaliyyətlə məşğul olma və s.) biri olduqda dövlət orqanı və ya yerli özünüidarə orqanı iddia ərizəsi ilə məhkəməyə müraciət edir. Məhkəmə həmin ərizəyə baxaraq, qərar qəbul edir. Məhkəmə qəbul etdiyi qərarda hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) üzərinə və ya hüquqi şəxsin nizamnaməsi ilə onun ləğvi üçün vəkil edilmiş orqanın üzərinə hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifəsi qoya bilər (MM-in 59-cu maddəsinin 3-cü bəndi).

Hüquqi şəxsin ləğvi mürəkkəb, özü də kifayət qədər uzun çəkən prosedurdur. Bu prosedurun əsas məzmunu hüquqi şəxsin mümkün olan **kreditorlarının dairəsini müəyyənləşdirməkdən və onların tələblərini ödəməkdən ibarətdir.** Belə ki, hüquqi şəxsin ləğvi zamanı hüquq və vəzifələr (əmlak) hüquq varislərinə keçmir. Ona görə də kreditorların hüquq və mənafelərini təmin etmək vəzifəsi burada xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Hüquqi şəxsin ləğvi kreditorların hüquq və mənafeyinə toxunur. Ona görə də bütün kreditorlar bilməlidir ki, həmin hüquqi şəxs müvafiq qərar əsasında ləğv edilir və öz kreditorları ilə hesablaşmalar aparır. Deməli, bu halda **açıqlıq və aşkarlıq prinsipi** fəaliyyət göstərməlidir. Bu prinsipi təmin etmək məqsədi ilə mülki qanunvericilik belə bir qayda müəyyən edir: hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş təsisçi (iştirakçı) və ya nizamnamə ilə buna vəkil edilmiş orqan bu barədə dövlət qeydiyyatını həyata keçirən orqana (öz səlahiyyətləri hüdudlarında AR Ədliyyə Nazirliyinə və Naxçıvan MR Ədliyyə Nazirliyinə, onların rayon (şəhər) qeydiyyat şöbələrinə, habelə AR Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə) məlumat verməyə borcludur (MM-in 60-cı maddəsinin 1-ci bəndi). Bu məlumat əsasında vahid dövlət reyestrində belə bir qeyd edilir ki, **hüquqi şəxs ləğv olunma prosesindədir.** Dövlət qeydiyyatını həyata keçirən orqan bu cür qeydi etməyə borcludur. Reyestrin açıqlığı imkan verir ki,

[1] Hüquq ədəbiyyatı səhifələrində haqlı olaraq belə bir fikir irəli sürülür ki, bu qaydanın xüsusi hüquq qabiliyyətinə malik olan bütün təşkilatlara şamil edilməsi daha məntiqi olardı (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 157).

kreditorlar və digər şəxslər müvafiq məlumat alsınlar. Buna görə də, onlar mətbuat orqanında rəsmi dərc olunana kimi hüquqi şəxsin ləğvi barəsində informasiya almaq imkanına malik olurlar.

6. Hüquqi şəxsin ləğvi proseduru

Hüquqi şəxsin proseduru dedikdə, hüquqi şəxsin ləğvi qaydası başa düşülür. Bu qayda qanunla müəyyənləşdirilir (MM-in 60-cı və 61-ci maddələri). Özü də həmin qayda məcburi xarakter daşıyır. Göstərilən qayda, hər şeydən əvvəl, kreditorların mənafelərini müdafiə etməyə yönəlmişdir.

Hüquq ədəbiyyatı səhifələrində hüquqi şəxsin ləğvi prosedurunun beş mərhələdən ibarət olması göstərilir[1]. Hər bir mərhələnin qarşısında müəyyən vəzifə durur. **Birinci mərhələ** bir neçə hərəkətin yerinə yetirilməsini nəzərdə tutur. Hər şeydən əvvəl, ləğvetmə komissiyası (təsviyəçi) təyin olunur. Bununla hüquqi şəxsin ləğv edilmə prosesi başlayır[2]. Komissiyanı (təsviyəçini) hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqan təyin edir. Onlar Mülki Məcəlləyə uyğun olaraq ləğvetmə qaydasını və müddətlərini müəyyənləşdirirlər.

Ləğvetmə komissiyası təyin edildiyi andan fəaliyyət göstərməyə başlayır. Ləğv olunan **hüquqi şəxsin orqanlarının hüquq və funksiyaları bu komissiyaya keçir.** O, yaradılmış xüsusi qurumdur. Hüquqi şəxsin orqanları hüquqi şəxsin adından çıxış etdiyi kimi, ləğvetmə komissiyası da anoloji qaydada ləğv edilən hüquqi şəxsin adından çıxış edir. Hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Bu **komissiyanın əsas məqsədi** ləğv olunan hüquqi şəxsin fəaliyyətini, onun kənar (üçüncü) şəxslərlə malik olduğu hüquqi əlaqə və münasibətlən müəyyənləşdirilmiş müddətdə nisbətən az maddi itki və zərərlə başa çatdırmaqdan ibarətdir. Onun **əsas və başlıca vəzifəsi hüquqi şəxsin bütün borclarını (passivlərini) müəyyənləşdirməkdən və kreditorlarla hesablaşma aparmaqdan ibarətdir.**

İkinci mərhələ məhz ləğv edilən hüquqi şəxsin kənar (üçüncü) şəxslərlə malik olduğu hüquqi əlaqə və münasibətlərin, ödəməli olduğu borcların (passivlərin) müəyyən edilməsinə yönəldilmişdir. Ləğvetmə zamanı vacibdir ki, hüquqi şəxsin iştirak etdiyi əmlak münasibətləri başa çatdırılsın[3]. Bu mərhələdə ləğvetmə komissiyası **mətbuat orqanlarında hüquqi şəxsin ləğv edilməsi haqqında məlumat dərc etdirir.** Söhbət hüquqi şəxsin dövlət qeydiyyatı barədə məlumatın dərc edildiyi mətbuat orqanlarından gedir. Dərc edilmiş məlumatda kreditorların tələblərini bildirməsi qaydası və müddəti göstərilir. Özü də kreditorlar öz tələblərini yalnız iki ay müddətində irəli sürə bilərlər. İki ay müddəti ləğvetmə haqqında məlumatın mətbuatda dərc edildiyi gündən hesablanır və başlayır. Deməli, qanun kreditorların öz tələblərini verməsi üçün iki ay müddəti nəzərdə tutur və müəyyənləşdirir.

Bununla bərabər, ləğvetmə komissiyası debitor borcunu aşkar edir. O, debitor borcunu almaq üçün lazımi tədbirlər görür, zəruri olduqda isə borcun alınması barədə məhkəməyə iddia verir. Bundan əlavə, ləğvetmə komissiyası **hüquqi şəxsin ləğvi haqqında kreditorlara bildiriş göndərir.**

Üçüncü mərhələ aralıq ləğvetmə balansının tərtib edilməsindən ibarətdir. Belə ki, kreditorların tələblərinin irəli sürülməsi üçün qanunun müəyyənləşdirdiyi iki ay müddəti başa çatdıqdan sonra ləğvetmə komissiyası **kreditor borcunun və hüquqi şəxsin əmlakının tərkibini** qiymətləndirir. O, kreditorların irəli sürdükləri tələblərin siyahısını dəqiqləşdirir. Bundan sonra ləğvetmə komissiyası **aralıq ləğvetmə balansı** tərtib edir. Balans hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqan tərəfindən təsdiq olunur. Buraya zəruri məlumatlar daxil edilir: hüquqi şəxsin əmlakının tərkibi; kreditorların irəli sürdükləri tələblərin siyahısı; bu tələblərə baxılmasının nəticələri haqqında, yəni bu tələblərin ödənilib-ödənilməməsi barədə məlumatlar. Aralıq ləğvetmə balansının əsas təyinatı ləğv olunan hüquqi şəxsin əmlak aktiv və passivləri arasındakı münasibəti ilkin olaraq müəyyənləşdirməkdən ibarətdir[1].

Dördüncü mərhələ aralıq ləğvetmə balansına uyğun olaraq ləğvetmə komissiyasının kreditorların tələblərini təmin etməsindən və ödəməsindən ibarətdir. Qeyd etdik ki, ləğvetmə komissiyasının tərtib etdiyi aralıq ləğvetmə balansı təsisçilər (iştirakçılar) və ya nizamnamə ilə buna vəkil edilmiş orqan tərəfindən təsdiq olunur. Balansın təsdiqi kreditorlara pul vəsaitinin faktiki olaraq ödənilməsi üçün əsasdır. Balans təsdiq edildiyi gündən başlayaraq ləğvetmə komissiyası kreditorlara pul ödənişlərini həyata keçirir.

Bəzi hallarda ləğv edilən hüquqi şəxsin aralıq ləğvetmə balansı üzrə pul vəsaiti kreditorların tələblərini ödəmək üçün kifayət etmir. Belə halda ləğvetmə komissiyası hüquqi şəxsin əmlakını satış üçün açıq hərraca çıxarır (MM-in 61-ci maddəsinin 3-cü bəndi). Əmlakın satışından əldə edilən pul kreditorların tələblərinin ödənilməsinə yönəlir.

Ləğvetmə komissiyası hüquqi şəxsin kreditorlarına pul vəsaitini **növbəlik qaydasında** ödəyir. Bu qayda mülki qanunvericiliklə müəyyən edilir (MM-in 62-ci maddəsi). Həmin qaydaya görə, hüquqi şəxsin kreditorları iki kateqoriyaya bölünür: imtiyazlı (təminatlı) kreditorlar; qeyri-imtiyazlı (qeyri-təminatlı) kreditorlar.

İmtiyazlı (təminatlı) kreditorlar odur ki, onların tələbləri ardıcıl surətdə, yəni bir-birinin ardınca dörd növbədə ödənilir. Bu kateqoriya kreditorlar dörd qrupa bölünür. Əvvəlcə birinci növbədə birinci qrup, sonra isə növbə ilə ikinci, üçüncü və dördüncü qrup kreditorların tələbləri təmin edilir. Başqa sözlə desək, hər bir növbənin tələbləri əvvəlki növbənin tələbləri tam ödənildikdən

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 137-138; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 204-206; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 99.

[2] Əslinə qalsa, hüquqi şəxsin ləğv edilmə prosesi bu barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsindən başlayır. Bunu haqlı olaraq bəzi müəlliflər birinci mərhələ adlandırırlar (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 146).

[3] bax: *Трофимов К.* Ликвидация юридических лиц: вопросы имущественной ответственности // Хозяйство и право. 1995. № 9, с. 58-66.

[1] Hüquq ədəbiyyatında hüquqi şəxsin ləğv olunmasının beş mərhələdən ibarət olması barədə müəlliflərin fikirləri üst-üstə düşür. Amma hər bir mərhələnin məzmununu müəyyənləşdirərkən onların mövqeləri bir-birindən fərqlənir. Məsələn, Moskva müəllifləri aralıq ləğvetmə balansını tərtib etməyi müstəqil mərhələ saymırlar və onu ikinci mərhələyə daxil edirlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 204).

sonra ödənilir.

Birinci növbədə əsas öhdəliyi icra etmək məqsədi ilə hüquqi şəxsin əmlakını girov saxlayan (ipoteka saxlayan) kreditorların tələbləri ödənilir. Məsələn, hüquqi şəxs statuslu müəssisə bankdan kredit alır. Onlar arasında kredit öhdəliyi (hüquq münasibəti) yaranır. Bu, əsas öhdəlikdir. Müəssisə bankdan kredit alarkən öz (nəqliyyat vasitələrini) girov qoyur və onlar arasında girov öhdəliyi (hüquq münasibəti) əmələ gəlir. Bu öhdəlik əsas öhdəliyin — kredit öhdəliyinin icrasını, yəni kreditin qaytarılmasını təmin edir. Əgər həmin müəssisə ləğv edilərsə, onda birinci növbədə onun əmlakını (nəqliyyat vasitələrini) girov saxlayan kreditorun — bankın pul tələbi ödənilir, yəni kredit məbləği banka qaytarılır. Deməli, birinci növbədə birinci qrup şəxslərin pul tələbləri ödənilir.

İkinci növbədə o qrup fiziki şəxslərin tələbləri ödənilir ki, onların qarşısında ləğv edilən hüquqi şəxs həyata və ya sağlamlığa zərər vurulması üçün məsuliyyət daşıyır. Belə ki, işçi (fiziki şəxs) öz əmək vəzifələrini yerinə yetirərkən xəsarət alə və ya həyatını itirə bilər. Bu halda həmin işçinin işlədiyi hüquqi şəxs (müəssisə) onun sağlamlığına və ya həyatına vurulmuş zərərin əvəzini ödəməlidir. Hüquqi şəxs (müəssisə) ləğv edildiyi hallarda zərərçəkənə və ya ailə başçısını itirmiş ailələrə ödənişlər vermək üçün pul vəsaiti kapitallaşdırılır. Bunun üçün pul vəsaiti müvafiq təşkilata köçürülür. Həmin təşkilatın borcudur ki, gələcəkdə zərərin əvəzini ödəmək üçün zərərçəkənə və ya onun ailəsinə pul versin (MM-in 1126-cı maddəsi). Amma mülki qanunvericilik bu təşkilatı dəqiq və konkret olaraq müəyyən etmir. Əmək qanunvericiliyi isə həmin təşkilatın dövlət sığorta orqanlarının olması barədə qayda nəzərdə tutur[1]. Biz elə hesab edirik ki, ləğv edilən hüquqi şəxsin pul vəsaitini kapitallaşdıran orqan sosial sığorta fondu (sosial müdafiə fondu) olmalıdır[2]. Deməli, ikinci növbədə ikinci qrup şəxslərin tələbləri ödənilir.

Üçüncü növbədə o şəxslərin tələbləri ödənilir ki, onlar işdən çıxma müavinəti və əmək müqaviləsi üzrə əmək haqqı, habelə müəlliflik müqavilələrinə əsasən qonorar (haqq) almaq hüququna malik olsun. Həmin növbədə bu qrup şəxslərin tələblərinin ödənilməsi üzrə hesablaşmalar aparılır. Deməli, üçüncü növbədə üçüncü qrup şəxslərin tələbləri ödənilir.

Dördüncü növbədə dövlətin tələbləri ödənilir. Bu növbədə büdcəyə məcburi ödənişlər üzrə borcun verilməsi təmin edilir. Söhbət, hər şeydən əvvəl, vergilərin ödənilməsindən gedir. Həm də eyni zamanda büdcədən kənar dövlət fonduna məcburi dövlət sosial-sığorta haqları üzrə borc ödənilir. Həm də eyni zamanda büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları üzrə borc ödənilir. Deməli, dördüncü növbədə dördüncü qrup subyektlərin tələbləri ödənilir.

Göstərilən bu kimi dörd qrup şəxslər, yuxarıda qeyd etdiyimiz kimi, imtiyazlı (güzəştli) kreditorlar kateqoriyasına aiddirlər. Bunların tələbləri növbə ilə ödənildikdən sonra qeyri-imtiyazlı (qeyri-təminatlı) kreditorların tələbləri təmin edilir.

Bəzi müəssisələr ləğv edilərkən kreditorların tələblərinin ödənilməsi xüsusi cəhətlərə malik olur. Məsələn, banklar və digər kredit təşkilatları ləğv edilərkən birinci növbədə əmanətçilərin tələbləri ödənilir. Əmanətçilər onların kreditorları hesab olunurlar.

Qeyri-imtiyazlı kreditorların tələbləri beşinci növbədə ödənilir. Bu kateqoriya kreditorları mülki qanunvericilik **«qalan kreditorlar»** adlandırır. Beşinci növbədə də məhz bunlarla hesablaşmalar aparılır.

Bəzən görürsən ki, ləğvetmə komissiyası kreditorun tələblərini ödəməkdən imtina edir və ya onlara baxmaqdan boyun qaçırır. Bu cür hallarda mülki qanunvericilik həmin kreditora hüquq verir ki, o, ləğvetmə komissiyasına qarşı iddia ilə məhkəməyə müraciət etsin. Bu hüquqdan o, yalnız hüquqi şəxsin ləğvetmə balansı qəti formada təsdiq olunana kimi istifadə edə bilər. Qəti balans təsdiq edildikdən sonra o, şübhəsiz ki, məhkəməyə iddia verə bilməz.

Elə hallar olur ki, ləğvetmə komissiyasının kreditorların tələblər irəli sürmələri üçün müəyyənləşdirdiyi iki aylıq müddət başa çatır. Bundan sonra bəzi kreditorlar tələblər irəli sürürlər. Bu cür tələblər ödənilə və təmin edilə bilər. Belə ki, iki aylıq müddət ərzində, yəni vaxtında tələb irəli sürən kreditorların tələbləri əvvəlcə, yuxarıda göstərdiyimiz növbəlik qaydasında ödənilir. Bu tələblər ödənildikdən sonra ləğvetmə komissiyası hüquqi şəxsin qalan əmlakı hesabına vaxtında öz pretenziyalarını bildirməyən kreditorların tələblərini təmin edir (MM-in 62-ci maddəsinin 4-cü bəndi).

Bəzi hallarda ləğvetmə komissiyası kreditorların tələblərini qəbul etmir. Onlar isə iddia ilə məhkəməyə müraciət etmirlər. Belə halda kreditorların tələbləri ödənilmiş sayılır. Əgər kreditorlar iddia ilə məhkəməyə müraciət edərlərsə və məhkəmə kreditorların tələblərini ödəməkdən imtina etmək barədə qərar çıxararsa, onda bu hal da onların tələblərinin ödənilmiş sayılmasına dəlalət edir (MM-in 62-ci maddəsinin 5-ci bəndi).

Beşinci mərhələ kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra başlayır. Bu mərhələ ləğvetmə komissiyası tərəfindən **qəti ləğvetmə balansı** tərtib olunmasını nəzərdə tutur. Burada ləğv edilən **hüquqi şəxsin son (yekun) əmlak vəziyyəti haqqında məlumat** ifadə olunur. Həmin balansı hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqan təsdiq edir. Bundan sonra ləğvetmə komissiyası bu balansı və ləğvetməni rəsmiləşdirən digər sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına — ədliyyə orqanına (öz səlahiyyətləri hüdudlarında AR Ədliyyə Nazirliyi və Naxçıvan MR Ədliyyə Nazirliyinə, onların rayon və ya şəhər qeydiyyat şöbələrinə), habelə AR Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (əgər ləğv olunan hüquqi şəxs dini təşkilatdırsa) göndərir. Bu orqanlar bunun əsasında hüquqi şəxslərin dövlət reyestrinə **hüquqi şəxsin ləğvi barədə qeyd daxil edir. Məhz bu andan, yəni müvafiq qeydin edildiyi andan** müvafiq şəxsin ləğvi başa çatmış hesab edilir. Məhz bu andan hüquqi şəxsin mövcudluğuna son qoyulur, onun fəaliyyətinə xitam verilir (MM-in 61-ci maddəsinin 7-ci bəndi).

Beşinci mərhələdə həll edilən məsələlərdən biri hüquqi şəxsin **qalan əmlakının hüquqi taleyi və müqəddəratı barədə məsələdir.** Belə ki, kreditorların tələbləri tam ödənildikdən sonra hüquqi şəxsin sərəncamında və mülkiyyətində müəyyən növdə əmlak qala bilər. Söhbət həm daşınar əşyalardan (nəqliyyat vasitələrindən, puldan, qiymətli kağızlardan, avadanlıqlardan, dəzgahlar-

[1] «Əmək vəzifələrini yerinə yetirərkən xəsarət almış işçilərə və yaxud bu səbəbdən ailə başçısını itirmiş ailələrə müəssisələr, idarələr, təşkilatlar tərəfindən zərərin ödənilməsi qaydaları».

[2] Dərsliyin «Delikt öhdəlikləri» fəslinə bax.

dan və s.), həm də daşınmaz əşyalardan (torpaq sahəsindən, müxtəlif təyinatlı binalardan, tikililərdən və s.) gedir. Belə bir sual meydana çıxır: bu cür əmlak növlərinin hüquqi taleyi necə həll olunur? Bu məsələnin həlli qaydası, adətən, hüquqi şəxsin nizamnaməsində nəzərdə tutulur. Əgər nəzərdə tutulmasa, onda **hüquqi şəxsin qalan əmlakı onun təsisçilərinə (iştirakçılarına) verilir**. Məsələn, təsərrüfat cəmiyyətləri və ortaqlıqları ləğv edildikdə, qalan əmlak onların təsisçilərinə (iştirakçılarına), dövlət müəssisələri ləğv edildikdə isə mülkiyyətçiyə — dövlətə (Azərbaycan Respublikasına) verilir.

7. Hüquqi şəxsin müflis olma nəticəsində ləğv edilməsi

Mülki qanunvericilik müflis olmanı (müflisləşməni) hüquqi şəxsin ləğv edilməsinin xüsusi əsaslarından biri kimi nəzərdə tutur (MM-in 59-cu maddəsinin 4-cü. 5-ci bəndləri, 63-cü maddəsi). Müflisləşmə Azərbaycan Respublikasının mülki qanunvericiliyi üçün yeni və «cavan» konstruksiyadır. Bizim ölkə qanunvericiliyinə görə, müflisləşmə dedikdə, borclunun (sahibkar statuslu fiziki şəxsin və borclu müəssisənin) öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması başa düşülür. Deməli, müflisləşmə **ödəmə qabiliyyətsizliyi** deməkdir. Bu isə onu göstərir ki, «müflisləşmə» və «ödəmə qabiliyyətsizliyi» kimi iki anlayış arasında elə də prinsipial fərqlər yoxdur.

Ödəmə qabiliyyətsizliyi hüquq institutu artıq xeyli müddətdir ki, bir sıra xarici dövlətlərin qanunvericiliyinə kifayət qədər məlumdur. Hələ 1877-ci ildə Almaniyada İflas Nizamnaməsi qəbul edilmişdi[1]. Qeyd etmək lazımdır ki, XVI-XVII əsrlərdə ödəmə qabiliyyətsizliyi ağır cinayət hesab olunurdu. Ödəmə qabiliyyəti olmayan borclu cəzalandırılırdı. O, tamamilə bütün əmlakını, işgüzar nüfuzunu, bəzi hallarda isə azadlığını da itirirdi. Borclu bundan sonra bir daha ticarət fəaliyyətini yenidən canlandırmaq imkanına malik olmurdu.

Müasir dövrdə təcrübədə eyni bir hadisəni ifadə etmək üçün «ödəmə qabiliyyətsizliyi» və «müflisləşmə» kimi iki anlayışdan istifadə olunur. Bu cür tendensiya ingilis dilli ölkələrin qanunvericiliyinin və məhkəmə praktikasının təsiri altında yaranmışdır. Göstərilən anlayışlar həmin ölkələrdə sinonim (eynimənalı) anlayışlar kimi işlədilir.

Bəzi xarici dövlətlərin qanunvericiliyi «ödəmə qabiliyyətsizliyi» və «müflisləşmə» kimi anlayışları fərqləndirir. Belə ki, «müflisləşmə» anlayışı «ödəmə qabiliyyətsizliyi»nin xüsusi halı kimi məhdud mənada işlədilir. Müflisləşmə dedikdə, borclunun təqsirli hərəkətləri ilə törədilən və cinayət cəzası ilə cəzalandırılan elə bir əməl başa düşülür ki, bunun nəticəsində kreditorlara zərər vurulur, ziyan dəyir. Başqa sözlə desək, müflisləşmə ödəmə qabiliyyətsizliyinin cinayət-hüquqi aspektidir. Bir sıra ölkələrdə müflisləşmə cinayət qanunvericiliyinə daxil edilmişdir[2].

[1] Bu, Almaniyada ödəmə qabiliyyətsizliyi məsələlərini tənzimləyən əsas normativ akt hesab edilir və indiyədək öz hüquqi qüvvəsini saxlayır.

[2] bax: Основные институты гражданского права зарубежных стран. Сравнительно-правовое исследование / Под ред. *В.В.Залесского*. М., 1999, с. 104-105. Bu kitabda Fransa, Avstriya, ABŞ, Almaniya, Böyük Britaniya, İtaliya və İsveç kimi xarici dövlətlərin hüququnda ödəmə qabiliyyətsizliyi və müflisləşmə kimi məsələlərin geniş surətdə işıqlandırılmasına yer verilmişdir (bax: həmin kitabın V fəsli, Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993, с. 441).

«Ödəmə qabiliyyətsizliyi» və «müflisləşmə» kimi iki anlayışı təxmini olaraq anoloji qaydada inqilabaqədərki rus hüququ da fərqləndirirdi. Ödəmə qabiliyyətsizliyi dedikdə, kreditorların tələblərini ödəmək üçün borclunun əmlakının çatışmaması və kifayət etməməsi başa düşülürdü. Müflisləşmə isə ödəmə qabiliyyəti olmayan borclunun öz əmlakını azaltmaq və ya gizlətmək yolu ilə kreditorlara zərər vurmasını ifadə edirdi. Başqa sözlə desək, müflisləşmə ödəmə qabiliyyətsizliyi kimi mülki məsələnin cinayət tərəfi hesab edilirdi[1].

Müflisləşmə ilə bağlı münasibətlər Azərbaycan Respublikasının 23 iyun 1997-ci il tarixində qüvvəyə minən «Müflisləşmə və iflas haqqında» qanunla tənzimlənir. Bu qanunda hüquqi şəxsin müflisləşmə nəticəsində ləğv edilmə prosedurunun xüsusiyyətləri müəyyənləşdirilir[2].

Müflisləşmə dedikdə, borclunun öz kreditorları qarşısında öhdəliklərini, yəni borclarını ödəmə qabiliyyətinin olmaması başa düşülür ki, bu cür qabiliyyətin olmaması əsasən məhkəmə tərəfindən təsdiq olunur. Borclu şəxs maliyyə vəziyyətinin tam pozulması, əmlakının kifayət etməməsi və çatışmaması üzündən öz kreditorlarının tələblərini ödəmək qabiliyyətini itirir. Daha doğrusu, hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli olmur və kifayət etmir. Bu səbəbdən hüquqi şəxs öz borclarını, o cümlədən dövlətə və yerli orqanlara müvafiq vergiləri (və digər məcburi ödənişləri) ödəmək imkanına (qabiliyyətinə) malik olmur.

Hüquqi şəxsin ödəmə qabiliyyətsizliyinin (imkansızlığının) xarici meyarı onun **cari ödənişləri dayandırmasından** ibarətdir. Ödənişləri dayandırma isə üç əlamətlə xarakterizə olunur: hüquqi şəxsin kreditorun irəli sürdüyü qanuni ödəmə tələbini bu cür tələb verildikdən sonra iki ay ərzində yerinə yetirə bilməməsi; hüquqi şəxsin qanunvericiliyə müvafiq surətdə həyata keçirməli olduğu ödənişləri (vergi və digər məcburi ödənişləri) vaxtı çatdıqca ödəməyə qadir olmaması; hüquqi şəxsin öz borclarını vaxtı çatdıqca ödəməyə qadir olması. Göstərilən əlamətlərdən hər hansı biri olarsa, hüquqi şəxs ödəmə qabiliyyəti olmayan hesab edilir və o, iflas prosesinə məruz qalır.

İflas prosesi hüquqi şəxsin ödəmə qabiliyyətsizliyi kimi mülki münasibəti tənzim edən xüsusi institutdur. Ona **iflas icraatı** da deyilir.

İflas prosesini dayandırmaq, borcu olan hüquqi şəxsin müflis olma nəticəsində ləğv edilməsinin qarşısını almaq məqsədilə qanun müəyyən tədbirlər nəzərdə tutur. Bunlara **yenidən təşkil etmə və ya müflis elan etmənin qarşısını alma tədbirləri** deyilir. Axı, müflisləşmə institutu təkcə hüquqi şəxsin ləğvinə yönəlmir. Əsas və başlıca məsələlərdən biri ləğv edilən bazar təsərrüfatı subyektlərini saxlamaqdan, iqtisadi (əmlak) dövriyyədə onların öz fəaliyyətlərini davam etdirmələrinə imkan yaratmaqdan ibarətdir. Belə ki, bu subyektlər, hər şeydən əvvəl, ictimai tələbatı və ehtiyacı ödəmək məqsədilə əmtəə (mal) istehsal edən, xidmət göstərən və ya iş görən müəssisələrdir. Həmin subyektlər həm də işəgötürən (işverən) rolunda neçə-neçə işçi ilə əmək müqaviləsi (kontraktı) bağlayan tərəfdir. Belə ki, əmək müqaviləsi əmək bazarında qarşı-qarşıya durmuş iki başlıca tərəf — işəgötürənlə işçi arasında bağ-

[1] bax: *Шершеневич Г.Ф.* Курс торгового права. Том IV. М., 1912, с. 148, 580).

[2] bax: AR QK, III cild, s. 718.

lanır. İşəgötürən müəssisənin ləğv edilməsi işçilərlə bağlanmış əmək müqaviləsinin pozulmasına və bununla da işsizlik halının yaranmasına səbəb olur. Məlum məsələdir ki, müəssisənin ləğv edilməsi işçilərə sərfəli deyil və onların mənafeyi ilə ziddiyyət təşkil edir.

Müəssisənin ləğvi, digər tərəfdən, kreditorların mənafeyinə uyğun gəlmir. Belə ki, onlar müəssisənin ləğv olunmasında yox, öz tələblərinin tam təmin edilməsində və ödənilməsində, bu səbəbdən də müəssisənin öz fəaliyyətini davam etdirməsində maraqlıdırlar. Bax, bunlara görə bütün dünya ölkələrinin, o cümlədən bizim ölkənin mülki qanunvericiliyi borclu (borcu olan) hüquqi şəxsə öz pozulmuş maliyyə vəziyyətini düzəltməyə və bərpa etməyə, ayağa durub yenidən təsərrüfat fəaliyyəti ilə məşğul olmağa imkan verən tədbirlər müəyyənləşdirir[1]. Bu tədbirlər elə hüquqi vasitələrdir ki, onlar iflas prosesinin və müflis olmanın qarşısını alır.

Sağlamlaşdırma göstərilən tədbirlərdən biridir. Ona **sanasiya** (latınca «sanatio» — sağlamlaşdırma) da deyilir. Sağlamlaşdırma və ya sanasiya dedikdə, borcu olan hüquqi şəxsin ləğv edilməsinin qarşısını almaq məqsədi ilə onun mülkiyyətçisi, kreditorlar və digər şəxslər tərəfindən maliyyə yardımı göstərilməsi yolu ilə borclunun yenidən təşkil edilməsi üsulu başa düşülür[2]. Sağlamlaşdırma (sanasiya) ödəmə qabiliyyəti olmayan, borcu olan və buna görə də iflas prosesinə məruz qalan hüquqi şəxsin maliyyə vəziyyətini yaxşılaşdırmaq tədbiridir. Onun **əsas məqsədi** iflas prosesini dayandırmaqdan, borcu olan hüquqi şəxsin ödəmə qabiliyyətini bərpa etməkdən və məhkəmə qaydasında onun müflis elan olunmaqla ləğv edilməsinin qarşısını almaqdan ibarətdir.

Sağlamlaşdırma borcu olan hüquqi şəxsin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına yönələn prosesdir. Bu proses elə tədbirlərdən ibarətdir ki, onun nəticəsində borcu olan hüquqi şəxsin bütün öhdəlikləri icra edilir, o cümlədən pul borcları ödənilir.

Sağlamlaşdırma prosesi borcu olan hüquqi şəxs tərəfindən sağlamlaşdırma barədə məhkəməyə ərizə verilməsi ilə başlayır. Ərizə hüquqi şəxsin maliyyə vəziyyətinin sağlamlaşdırma məsələsinə baxılması məqsədi ilə verilir. Burada iflas prosesinin dayandırılması barədə müraciət ifadə olunur. Özü də borcu olan hüquqi şəxs istənilən vaxt məhkəməyə ərizə ilə müraciət edə bilər.

Hüquqi şəxs məhkəməyə verdiyi ərizədə onun ödəmə qabiliyyətinin sağlamlaşdırma nəticəsində bərpa olunacağını, maliyyə vəziyyətinin yaxşılaşacağını tam yəqinliklə əsaslandırmalıdır. Məhkəmə sağlamlaşdırma layihəsinə baxır. O, həmin layihənin mümkün və ya məqsədəuyğun olduğunu müəyyənləşdirmək üçün müstəqil ekspertlər cəlb edə bilər. Məhkəmə iki həftə müddətində sağlamlaşdırma haqqında müvafiq qərar qəbul edir və borcu olan hüquqi şəxs barəsində iflas prosesinə xitam verir.

Göründüyü kimi, sanasiya (sağlamlaşdırma) yenidən təşkil etmə proseduru-dur. Bu proseduranın tətbiq edilməsi hüquqi şəxsin təsərrüfat subyekti kimi müflisləşmə əsasında ləğv edilməsinə yox, normal fəaliyyət göstərməsinə səbəb olur.

Hüquqi şəxsin ləğv edilməsinin qarşısını alan tədbirlərdən biri barışıq sazişi hesab edilir. **Barışıq sazişi** dedikdə, borcu olan hüquqi şəxslə kreditorlar arasında əldə edilən elə bir razılıq başa düşülür ki, bunun nəticəsində kreditorların payına düşən ödənişlər təxirə salınır, hissə-hissə ödənilir, borcların müəyyən hissəsi güzəşt edilir, borcu olan hüquqi şəxs yenidən təşkil olunur. Bu sazişin əsas məzmunu ibarətdir: borcu olan şəxsə ödənişlər üçün möhlət verməkdən; ödənişləri hissələrə bölməkdən; borcları güzəşt etməkdən. **Barışıq sazişinin əsas məqsədi** iflas haqqında iş üzrə icraatı (iflas prosesini) qurtarmaqdan ibarətdir. Belə ki, borcu olan hüquqi şəxs iflas prosesinin hər hansı mərhələsində barışıq sazişi bağlamaq təklifi ilə kreditorlara müraciət edir. O, sazişin layihəsini, mühasibat balansı ilə birlikdə ilkin maliyyə hesabatını, kreditorların siyahısını bütün kreditorlara göndərir. Siyahıda kreditora çatası məbləğlər əks olunur. Özü də borclu şəxs öz maliyyə vəziyyətini düzgün göstərməlidir.

Təklif olunan saziş layihəsini müzakirə etmək üçün kreditorlar yığıncaq keçirirlər. Yığıncaqda onlar sazişin layihəsinə baxıb, mümkün olan üç alternativ variantdan biri haqqında qərar qəbul edirlər:

- təklif olunan saziş layihəsini qəbul etmək;
- digər sazişi və ya düzəlişlər edilmiş sazişi qəbul etmək;
- təklif olunan sazişi qəbul etməmək, ondan imtina etmək.

Kreditorların yığıncağında təklif olunan saziş layihəsinin qəbul edilməsi hələ onun hüquqi əhəmiyyət və qüvvəyə malik olmasına dəlalət etmir. Barışıq sazişinin hüquqi əhəmiyyət kəsb etməsi üçün onun hökmən məhkəmə tərəfindən təsdiq edilməsi gərəkdir. Əgər onu məhkəmə təsdiq etməzsə, onda hüquqi qüvvəyə minmir.

Beləliklə, barışıq sazişi iflas prosesinə — iflas haqqında iş üzrə icraata xitam verilməsinə səbəb olur. Bununla borcu olan hüquqi şəxsin müflis olma nəticəsində ləğv edilməsinin qarşısı alınır, qabağı kəsilir.

Borcu olan hüquqi şəxsə tətbiq edilən prosedurlardan biri iflas prosesi adlanır. **İflas prosesi** dedikdə, iflas haqqında işə baxılması və onun həlli üzrə elə bir fəaliyyət başa düşülür ki, bu fəaliyyət qanunla müəyyənləşdirilmiş xüsusi prosessual qaydada həyata keçirilir və ödəmə qabiliyyəti olmayan hüquqi şəxsin müflis elan edilməklə ləğvinə yönəlir. İflas prosesi iflas haqqında qaldırılmış iş üzrə icraat deməkdir. Onun **əsas məqsədi** ödəmə qabiliyyəti olmayan hüquqi şəxsin borclarının ödənişini münasib qaydada tənzimləməkdən, kreditorların tələblərini maksimum təmin etməkdən, bu şəxsi borclardan azad etməkdən və ona yenidən sahibkarlıq və təsərrüfat fəaliyyəti ilə məşğul olmağa imkan verməkdən ibarətdir. Bu məqsədə çatmağın və nail olmağın əsas forması hüquqi şəxsin əmlakının məcburi satışından əldə olunan pula tələb yönəltmək yolu ilə həmin əmlakı təsviyə (ləğv) etməkdir.

Hüquqi şəxsin müflis elan etmə nəticəsində ləğvinin iki qaydası vardır: məcburi qayda; könüllü qayda. *Müflisləşmə və iflas haqqında qanun bu qay-*

[1] Bütün dünya ölkələrinin qanunvericiliyində təsərrüfat subyektlərinin saxlanılması tendensiyası müşahidə olunur (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В. Залесского*. М., 1999, с. 105).

[2] bax: «Müflisləşmə və iflas haqqında» qanunun 1-ci maddəsi (AR QK, III cild, s. 718).

daların hər ikisini nəzərdə tutduğu halda[1], yeni Mülki Məcəllə yalnız məcburi qaydanı müəyyənləşdirir.

Hüquqi şəxsin müflis elan edilməsinin məcburi qaydası məhkəmə yolunu nəzərdə tutur. Bunun üçün vacibdir ki, məhkəmə vasitəsilə iflas prosesinə başlansın. Məhkəmə vasitəsilə iflas prosesinə həm borclu şəxs tərəfindən, həm də onun kreditorları tərəfindən başlana bilər. Bunun üçün borclu şəxs və ya kreditorlar iflas haqqında iddia ərizəsi ilə məhkəməyə müraciət edirlər. Ərizə qanunvericilikdə müəyyən edilmiş formada tərtib edilməli və imzalanmalıdır[2]. Məhkəməyə iflas haqqında iddia ərizəsinin verilməsi ilə iflas haqqında iş qaldırılır. Bununla məhkəmə vasitəsilə iflas prosesi başlanır.

Bundan sonra iflas haqqında iş üzrə məhkəmə baxışı təyin edilir. Belə halda bu barədə borcu olan hüquqi şəxsin kreditorlarına məlumat vermək zərurəti yaranır. Bunun üçün məhkəməyə iflas haqqında iddia ərizəsi verən şəxs, məhkəmə baxışı haqqında rəsmi dövri mətbuat orqanında azı yeddi günlük fasilə ilə iki dəfə elan dərc edir.

İflas haqqında işə məhkəmə iclasında baxılır. Məhkəmə, əgər hüquqi şəxs ödəmə qabiliyyətinə malik deyildirsə, onun müflis elan edilməsi barədə qərar çıxarır. Yox, əksinə, əgər hüquqi şəxs ödəmə qabiliyyətlidirsə, onda məhkəmə hüquqi şəxsi müflis elan etməkdən imtina edir. Bax, iflas haqqında iş üzrə məhkəmə baxışının əsas prosessual nəticələri bundan ibarətdir.

Hüquqi şəxs məhkəmə qaydasında müflis elan olunduqdan sonra bütün kreditorlara onların yığıncağının keçirilməsi barədə bildiriş göndərir. Həmin yığıncaq bir ay müddəti ərzində keçirilir. Bu müddət hüquqi şəxsi müflis elan etmək barədə müvafiq məhkəmə qərarı qanuni qüvvəyə mindiyi gündən başlanır və hesablanır.

Hüquqi şəxsin müflis elan edilməsinin könüllü qaydası məhkəmə vasitəsilə yox, bu hüquqi şəxsin özünün iflas prosesinə başlamaq barəsində qərar qəbul etməsilə bağlıdır. Bunun üçün gərəkdir ki, borclu müəssisə (hüquqi şəxs) məhkəmənin iştirakı olmadan iflas prosesinə başlasın. Bu məqsədlə borclu müəssisə iflas prosesinə başlamaq barəsində (özü də məhkəmənin iştirakı olmadan) müvafiq qərar qəbul edir. Əgər borclu dövlət müəssisəsi olarsa, müvafiq icra hakimiyyəti orqanının (İqtisadi İnkişaf Nazirliyinin) da bu barədə qərar çıxarması tələb edilir.

Bundan sonra borclu hüquqi şəxs iflas barəsində kreditorlara yazılı bildiriş göndərir. Bildirişdə kreditorların yığıncağının keçirilməsi təklif edilir. Qanun bu yığıncağın 21 gün müddəti ərzində keçirilməsini nəzərdə tutur. Həmin müddət borclu müəssisə tərəfindən iflas prosesinə başlamaq qərarının qəbul edildiyi gündən başlanır və hesablanır.

Yazılı bildiriş yığıncağın keçirilməsi tarixinə ən geci 14 gün qalmış poçt vasitəsilə (sifarişli məktubla) bütün məlum kreditorlara göndərilir. Bundan əlavə, bildiriş rəsmi dövri mətbuat orqanında iki dəfə dərc olunur. İkinci dəfə o, yığıncağın keçirilməsi tarixinə ən geci 7 gün qalmış dərc olunmalıdır.

Daha sonra **kreditorların ilkin yığıncağı** keçirilir. Bu yığıncaqda hüquqi şəxsin rəhbəri (direktoru, sədri, müdiri, rəisi, prezidenti və s.) çıxış edərək kreditorlara onların adı və ünvanı, hüquqi şəxsin maliyyə vəziyyəti, əmlakı və passivləri barədə məlumat verir. Hüquqi şəxsin maliyyə vəziyyətinin aydınlaşdırılması üçün kreditorlar digər əlavə məlumatlarla tanış edilə bilər.

Kreditorların ilkin yığıncağında iflas prosesinə başlamaq barəsində **hüquqi şəxsin qərarı təsdiq edilir, borclunun müflis elan edilməsinə dair səsvermə keçirilir.** Səs çoxluğu ilə yığıncaqda borclu hüquqi şəxsin müflis elan olunması barədə müvafiq qərar qəbul olunur. Bununla hüquqi şəxs könüllü qaydada müflis elan edilir.

İflas prosesinə başlama müəyyən hüquqi nəticələrə səbəb olur. Belə ki, bu proses başlanan kimi borclu şəxs öz əmlakı barəsində sərəncam verə bilməz. Bu cür sərəncamı o, əgər iflas prosesinə məhkəmənin vasitəsilə başlanmışsa, yalnız məhkəmənin və ya müvəqqəti əmlak inzibatçısının müvafiq icazəsi ilə qəbul edə bilər. İflas prosesinə məhkəmənin iştirakı olmadan başlandığı hallarda isə bu cür sərəncam yalnız əmlak inzibatçısının müvafiq icazəsi ilə qəbul edilə bilər. Bəzi ödənişləri, məsələn, əmək haqqının ödənilməsini, mallarla və xidmətlərlə fasiləsiz təminat üçün zəruri olan cari xərclərin ödənilməsini və s. o, icazə almadan həyata keçirə bilər.

Əmlak inzibatçısı və müvəqqəti əmlak inzibatçısı iflas prosesinin bütün mərhələlərində fəaliyyət göstərən vəzifəli şəxslərdir. **İflas prosesinə məhkəmə vasitəsilə başlandıqda əmlak inzibatçısı məhkəmə qərarı əsasında təyin edilir.** Belə ki, iflas haqqında iş üzrə məhkəmə borclu hüquqi şəxsin müflis elan olunması və əmlak inzibatçısının təyin edilməsi barədə qərar qəbul edir.

İflas prosesinə məhkəmənin iştirakı olmadan başlandıqda isə əmlak inzibatçısı iflas prosesinə başlamaq barədə borclu şəxsin qərarı ilə təyin edilir, kreditorların ilkin yığıncağı tərəfindən təsdiq olunur. Bu yığıncaqda yeni əmlak inzibatçısı seçilə də bilər.

Əmlak inzibatçısı rolunda həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər. Fiziki şəxslər hökmən hüquq, təsərrüfat idarəçiliyi, iqtisadiyyat və ya mühasibat uçotu sahəsində müvafiq təhsilə malik olmalıdır. Özü də məhkəmə tərəfindən təyin edilmiş əmlak inzibatçısının səlahiyyətləri kreditorlar tərəfindən təyin edilmiş (və ya seçilmiş) əmlak inzibatçısının səlahiyyətləri ilə eynidir. O, borclu şəxsin təsərrüfat fəaliyyətini idarə edir, onun adından əqdlər bağlayır, borclu şəxsin işçilərini işə götürür, işdən çıxarır və s. **Əmlak inzibatçısı borcu olan hüquqi şəxsin qanuni nümayəndəsidir.** O, kreditorlar və məhkəmə qarşısında hesabat təqdim edir.

Müvəqqəti əmlak inzibatçısı borclu hüquqi şəxsin müflis elan olunmasına kimi məhkəmənin təyin etdiyi şəxsdir. O, yalnız iflas prosesinə məhkəmənin iştirakı ilə başlandığı hallarda təyin edilə bilər. İflas prosesinə məhkəmənin iştirakı olmadan başlandığı hallarda isə müvəqqəti əmlak inzibatçısının təyin edilməsi istisna olunur.

Müvəqqəti əmlak inzibatçısının təyin edilməsi iki məqsəd güdür. **Birinci**

[1] Bizim iflas haqqında qanunvericiliyimiz qəbul edilərkən Böyük Britaniyanın ödəmə qabiliyyətsizliyi haqqında qanunun (1986) müəyyən etdiyi müddəalar nəzərə alınmışdır. Bu qanunda həm könüllü, həm də məcburi qaydada müflis elan edilmə nəzərdə tutulur (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 174-175).

[2] İflas haqqında məhkəməyə verilən ərizənin tərtib olunması və ona əlavə edilən sənədlər barədə bax: «Müflisləşmə və iflas haqqında» qanunun 4-cü, 5-ci, 6-cı və 7-ci maddələri (AR QK, III cild, s. 721-723).

məqsəd hüquqi şəxsin müflis elan olunmasına kimi onun əmlakını təşkil edən **aktivlərin hüquqazidd qaydada özgəninkiləşdirilməsinin qarşısını almaqdan** ibarətdir. İkinci məqsəd isə borclunun **maliyyə vəziyyətinin ilkin təhlilinin aparılması** zərurəti ilə bağlıdır. Bu vəzifəli şəxsin təyin edilməsi aralıq tədbiridir.

Müvəqqəti əmlak inzibatçısı təyin edilən kimi borclu hüquqi şəxsin rəhbərinin (müdirinin) səlahiyyətlərinə xitam verilir. Məhkəmə qərarında başqa qayda müəyyənləşdirilməyibsə, **o, əmlak inzibatçısına məxsus olan anoloji səlahiyyətlərə** malikdir. O, borclu hüquqi şəxsin maliyyə vəziyyətinin ilkin təhlilini aparır. Müvəqqəti əmlak inzibatçısı təyin edildikdən sonra 14 gün ərzində borclu hüquqi şəxsin maliyyə vəziyyəti barədə məhkəməyə hesabat verir. Bir qayda olaraq, əmlak inzibatçısı təyin edildikdə, onun təyinatına xitam verilir.

Borclunun müflis elan edilməsi də hüquqi nəticələrə səbəb olur. Əgər borclu hüquqi şəxs məhkəmə qaydasında müflis elan edilmişsə, onda bu barədə məhkəmə qərarının qanuni qüvvəyə minməsi tarixindən o, **müflis elan edilmiş sayılır.** Könüllü qaydada müflis elan edilmə zamanı isə kreditorların ilkin yığıncağında borclu hüquqi şəxsin müflis elan olunması barədə müvafiq qərarın çıxarılması tarixi onun müflis elan olunması anı hesab edilir. Bu andan borclu müəssisənin müdiri bütün səlahiyyətlərini itirir, onun öz əmlakı barəsində hər hansı sərəncam vermək və hərəkətlər etmək hüququna xitam verilir.

İflas prosesinin mərhələlərindən biri kreditorların **borc tələblərinin ödənilməsi mərhələsi** adlanır. Əmlak inzibatçısı bu tələbləri iki üsulla ödəyə bilər. Birinci üsulun mahiyyəti borclu hüquqi şəxsə çatası borcları tutmaq və ya onun əmlakını təşkil edən aktivləri satmaq və satışdan götürülən pulu kreditorlar arasında bölüşdürmək yolundan ibarətdir. İkinci üsul isə borclunun əmlakını təşkil edən aktivləri onların tələblərinin ödənilməsi üçün bilavasitə vermək yolunu nəzərdə tutur və əhatə edir.

İflas və müflisləşmə qanunvericiliyi borclu hüquqi şəxsin əmlakını təşkil edən aktivlərin kreditorlar arasında növbəlik qaydasında bölüşdürülməsi prinsipini — **ödənişlərin növbəliyi prinsipini** müəyyənləşdirir. Belə ki, **birinci növbədə** iflas prosesinə çəkilən bütün məsrəflər və xərclər (məsələn, KİV-də müflis olmanın elan edilməsi xərcləri, məhkəmə xərcləri, əmlak inzibatçısının və müvəqqəti əmlak inzibatçısının xərcləri və s.) ödənilir. **İkinci növbədə** borclu müəssisənin işçilərinin onlara iş vaxtı dəymiş bədən xəsarətləri və ya ölüm halları barəsində tələbləri təmin edilir. **Üçüncü növbədə** işçilərin pensiya, müavinət, güzəştlər və əmək haqqı barəsində tələbləri ödənilir. **Dördüncü növbədə** dövlət və yerli büdcəyə vergilər, məcburi dövlət sosial sığortasına ayırmalar, kredit təşkilatlarının və s. təminatsız borcları və onların faizləri barəsində tələbləri ödənilir. **Beşinci növbədə** təminatsız kreditorların tələbləri yerinə yetirilir. **Altıncı növbədə** isə borclu müəssisənin mülkiyyəçilərinin tələbləri ödənilir. Yerdə qalan əmlak, yəni bölgü aparıldıqdan sonra **əmlak qalarsa, o, borclu hüquqi şəxsin mülkiyyətinə aid edilir**[1].

Bəzən borclu şəxsin əmlakı onun kreditorlarının tələblərini ödəmək üçün kifayət etmir. Bu halda onların tələbləri ləğv edilmiş sayılır. Bəzi hallarda isə əmlak inzibatçısı və ya məhkəmə kreditorların hər hansı tələbini qəbul etmir. Qəbul olunmamış bu cür tələblər də ləğv olunmuş sayılır.

Əmlak inzibatçısının son hesabatı məhkəməyə təqdim edilir. Burada əmlak inzibatçısı dinlənilir. Bundan sonra lazım olan bütün hərəkətlərin edildiyinə məhkəmə əmin olduqda o, borclu hüquqi şəxs barəsində iflas prosesinə xitam verir. **Məhkəmənin müvafiq qərarı onu qeydə almış dövlət qeydiyyatı orqanına (ədliyyə orqanına) göndərilir. Hüquqi şəxsin ləğvi barədə** qeyd müvafiq dövlət reyestrinə daxil edilir. Bu andan hüquqi şəxs ləğv edilmiş hesab edilir.

Hüquqi şəxs könüllü qaydada müflis elan edildiyi hallarda isə bütün kreditorların **tələblərinin tamamilə ödənilməsi iflas prosesinə xitam verilməsi üçün əsasdır.** Bu, həm də hüquqi şəxsin ləğv edilməsi barədə qeydin müvafiq dövlət reyestrinə daxil edilməsi üçün əsas rolunu oynayır.

İflas prosesinə barışıq sazişi və sağlamlaşdırma (sanasiya) əsasında da xitam verilə bilər. Lakin bu cür hallarda borclu hüquqi şəxs ləğv edilmir.

Müflisləşmə institutunun əhəmiyyəti böyükdür. Müflisləşmənin **birinci əhəmiyyəti** ondan ibarətdir ki, bu institut öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə və səmərəli fəaliyyət göstərə bilməyən subyektlərin iqtisadi (əmlak) dövriyyədən çıxarılmasına və bununla bazarın sağlamlaşmasına imkan yaradır. Bu institutun sayəsində **iqtisadi (əmlak) dövriyyə effektli işləyə bilməyən subyektlərdən azad olur.**

Müflisləşmə institutunun **ikinci əhəmiyyəti** ondan ibarətdir ki, o, işgüzar, səriştəli, bacarıqlı və vicdanlı sahibkarlara öz işlərini yenidən qurmağa, ayağa qalxmağa, sahibkarlıq — təsərrüfat fəaliyyəti ilə yenidən məşğul olmağa və özünün iqtisadi (əmlak) dövriyyənin tam hüquqlu subyekti statusunu bərpa etməyə şans verir. Məhz bu institutun nəticəsində təsərrüfat subyektləri öz fəaliyyətlərini davam etdirirlər.

Müflisləşmə institutunun **üçüncü əhəmiyyəti** ondan ibarətdir ki, o, kreditorların tələblərinin ödənilməsi üçün borclu **hüquqi şəxsin əmlakının növbəlik qaydasında ədalətli bölgüsü haqqında qayda** müəyyən edir. Bu qayda əsasında kreditorların düşdükləri zərər və düçar olduqları itki onlar arasında ədalətli surətdə bölüşdürülür. Bunun isə iqtisadi (əmlak) dövriyyədə sabitliyin, möhkəmliyin və dayanıqlığın təmin edilməsində böyük əhəmiyyəti vardır.

§ 4. Hüquqi şəxsin təsnifi

1. Hüquqi şəxsin təsniflnin əsasları

Hüquqi şəxslər xüsusi olaraq iqtisadi (əmlak) dövriyyədə çıxış etmək məqsədilə yaradılır. Onlar bu dövriyyənin əsas iştirakçısı, başlıca fiquru hesab edilir. Belə ki, çox vaxt müəyyən məqsədə nail olmaq niyyəti fiziki şəxslərin öz şəxsi səy və kapitallarını birləşdirərək, iqtisadi (əmlak) dövriyyədə kollektiv surətdə subyekt rolunda çıxış etmələrini tələb edir. Hüquqi şəxs konstruksiyası fiziki şəxslərin iqtisadi (əmlak) dövriyyədə bu cür kollektiv iştirakının əsas hüquqi formasıdır. O, elə bir xüsusi üsuldur ki, bunun nəticəsində təsərrüfat fəaliyyəti səmərəli surətdə təşkil olunur. Dediklərimiz onu sübut edir ki, sivil ba-

[1] Göstərilən növbəlik qaydası hüquqi şəxsin ləğvi zamanı MM-in müəyyənləşdirdiyi qaydaya uyğun gəlmir (MM-in 62-ci maddəsi). Zənn edirik ki, qanunvericı bu uyğunsuzluğu aradan qaldırmalıdır.

zar. İnkişaf etmiş iqtisadi (əmlak) dövriyyə hüquqi şəxslər olmadan fəaliyyət göstərə bilməz. Hüquqi şəxslər iqtisadi həyatın əsas və başlıca təsərrüfat subyekti sayılır.

İqtisadi (əmlak) dövriyyədə çıxış edən hüquqi şəxslərin sayı kifayət qədər çoxdur. Burada biz, onların fəaliyyət göstərən müxtəlif növləri ilə rastlaşırıq. Hüquqi şəxslərin kifayət qədər çox növü vardır. Bundan əlavə, hüquqi şəxs öz hüquqi təbiətinə görə həddən ziyadə mürəkkəb hüquqi hadisədir. Buna görə də vacibdir ki, iqtisadi (əmlak) dövriyyədə çıxış edən hüquqi şəxslərin hüquqi statusu (vəziyyəti) dəqiq müəyyənləşdirilsin. Lazım və zəruridir ki, təsərrüfat fəaliyyətinin müxtəlif təşkilati-hüquqi formaları bir-birilə qarışdırılmasın. Vacibdir ki, iqtisadi (əmlak) dövriyyədə iştirak edən hüquqi şəxslərin qanunda birbaşa nəzərdə tutulan formada (təsərrüfat cəmiyyəti və ortaqlığı formasında, kooperativ formasında, dövlət və bələdiyyə müəssisələri formasında və s.) yaradılması müəyyən edilsin. Lazımdır ki, bazar dövriyyəsində çıxış edən hüquqi şəxsin əmələ gəlməsini qüvvədə olan mülki qanunvericiliyin nəzərdə tutub-tutmaması aydınlaşdırılsın. Bunun üçün **hüquqi şəxslərin doktrinal (elmi) təsnifinin** verilməsi gərəkdir. Bu təsnif hüquqi şəxslər haqqında elmi bilikləri sistemləşdirməyə imkan verir. Həmin sistem əsasında biz hüquqi şəxslərin bütün növləri haqqında sivilist təsəvvürə malik oluruq. Göstərilən sistem isə düzgün seçilmiş meyarlar (əsaslar) əsasında qurula bilər. Buna **hüquqi şəxslərin təsnif edilməsinin əsasları** deyilir. Bu əsaslar hüquqi şəxslərin daha mühüm cəhət və xüsusiyyətlərini əks etdirir.

Hüquqi şəxslərin təsnifi dedikdə, onların ayrı-ayrı növlərdə qruplaşdırılması və birləşdirilməsi başa düşülür. Bunun köməyi və vasitəsi ilə biz, iqtisadi (əmlak) dövriyyədə iştirak edən hüquqi şəxslərin bütün növləri barədə doktrinal (elmi) biliklər əldə edirik.

Hüquqi şəxslər müxtəlif əsaslara görə təsnif edilir. Bu əsasların dairəsi kifayət qədər genişdir. Həmin əsaslara (meyarlara) şamil edə bilərik:

- mülkiyyətin formasına görə hüquqi şəxslərin təsnifi;
- fəaliyyət məqsədlərinə görə hüquqi şəxslərin təsnifi;
- yaradılma qaydasına görə hüquqi şəxslərin təsnifi;
- təsisçilərin tərkibinə görə hüquqi şəxslərin təsnifi;
- iştirakçıların malik olduqları hüquqlara görə hüquqi şəxslərin təsnifi;
- əşya hüquqlarının həcminə görə hüquqi şəxslərin təsnifi;
- təsis sənədlərinə görə hüquqi şəxslərin təsnifi;
- üzvlüyə görə hüquqi şəxslərin təsnifi;
- şəxslərin və kapitalların birləşdirilməsinə görə hüquqi şəxslərin növləri.

Hüquqi şəxslərin təsnifi **iqtisadiyyatın təşkilinin növündən (formasından)** asılıdır. Belə ki, iqtisadiyyatın təşkilinin hər bir növünə uyğun olaraq hüquqi şəxslərin bu və ya digər növü əmələ gəlir, fəaliyyət göstərir, inkişaf edir və ya ləğv olunaraq dövriyyədən çıxır. Başqa sözlə desək, iqtisadiyyatın təşkilinin hər bir növü üçün hüquqi şəxslərin müəyyən növü xarakterikdir.

İqtisadiyyatın təşkilinin bir növü olan **komanda (sovet) iqtisadiyyatı şəraitində dövlət hüquqi şəxsləri mühüm rol oynayırdı.** Onlar sovet dövləti tərəfindən dövlət sosialist mülkiyyətinin bazası əsasında əmlakı idarə etmək, istehsal və digər təsərrüfat fəaliyyətini həyata keçirmək, sovet vətəndaşlarının

ehtiyaclarını təmin etmək və s. məqsədi ilə yaradılırdı. Dövlət hüquqi şəxsləri vasitəsilə sovet dövləti özünün vacib funksiyalarını, hər şeydən əvvəl, xalq təsərrüfatının inkişafına planlı rəhbərliyi həyata keçirmək funksiyasını yerinə yetirirdi. İstehsal, elmi-istehsal və digər birliklər, müəssisələr (zavodlar, sovxozlar, şaxtalar və s.), idarələr (muzeylər, xəstəxanalar, ali məktəblər və s.), elmi-tədqiqat institutları və s. dövlət hüquqi şəxsləri kateqoriyasına aid idi. Dövlət hüquqi şəxsləri onlara verilmiş əmlakın mülkiyyətçisi hesab olunurdu.

İqtisadiyyatın təşkilinin digər növü olan **bazar iqtisadiyyatı** azad bazar iqtisadiyyatı və ya dövlət müdaxiləsi olmayan iqtisadiyyat deməkdir. Bu şəraitdə **hüquqi şəxslərin kommersiya təşkilatları kimi növünün** fəaliyyəti ön plana keçir. Bu cür təşkilatlar iqtisadi (əmlak) dövriyyənin, kommersiya dövriyyəsinin professional iştirakçısına çevrilir. Bazar iqtisadiyyatı üçün xarakterik olan subyektlərin (səhmdar cəmiyyətlərinin, məhdud məsuliyyətli müəssisələrin və s.) fəaliyyəti üstünlüyə malik olur. Belə ki, bazar iqtisadiyyatı şəraitində bazar əmtəə dövriyyəsi daha da canlanır və onun əhatə dairəsi müqayisəedilməz dərəcədə genişlənir. Belə halda, şübhəsiz ki, son dərəcə istehsal xarakterli təşkilatlara yox, kommersiya xarakterli təşkilatlara daha geniş meydan verilir.

İqtisadiyyatın təşkilinin başqa bir növü olan **qarışıq iqtisadiyyat şəraitində** isə həm komanda iqtisadiyyatı üçün, həm də bazar iqtisadiyyatı üçün ənənəvi olan hüquqi şəxslər bir-birləri ilə yanaşı fəaliyyət göstərirlər. Özü də bazar dövriyyəsi üçün ənənəvi olan hüquqi şəxslər, yəni kommersiya təşkilatları üstün rola və mövqeyə malikdir.

Qarışıq iqtisadiyyat odur ki, o, iqtisadiyyatın təşkilinin bazar və komanda iqtisadiyyatı kimi formalarının elementləri ilə idarə olunur. Hələ tarixən heç vaxt yüz faizli bazar iqtisadiyyatı mövcud olmayıb[1]. Məhz buna görə də qarışıq iqtisadiyyat şəraitində bazar dövriyyəsi üçün ənənəvi olan kommersiya təşkilatları ilə yanaşı, komanda iqtisadiyyatı üçün xarakterik olan hüquqi şəxslər (dövlət istehsal müəssisələri) də fəaliyyət göstərirlər.

Azərbaycan Respublikasının keçid dövrü adlanan müasir iqtisadi həyatı qarışıq iqtisadiyyat formasına aiddir. Bu hal hüquqi şəxslərin sisteminə təsir göstərir. Bu səbəbdən ölkəmizin mövcud qanunvericiliyi həm bazar dövriyyəsi üçün xarakterik olan hüquqi şəxsləri, həm də komanda iqtisadiyyatı və planlı təsərrüfat üçün ənənəvi olan hüquqi şəxsləri (dövlət müəssisə və idarələrini) nəzərdə tutur.

Hüquqi şəxslərin təsnifinin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Bu təsnifin həm hüquqyaradıcı, həm də hüquqtətbiqedici orqanlar üçün rolu böyükdür. Həmin təsnifin **nəzəri əhəmiyyəti** onunla şərtlənir ki, məhz hüquqi şəxslərin təsnifi əsasında onların ayrı-ayrı növlərinin əsas cəhətləri barədə nəzəri biliklər artır, hüquqi şəxs doktrinası və nəzəriyyəsi inkişaf edir, hüquqi şəxsin mahiyyətini ifadə edən müxtəlif konsepsiyalar yaranır.

Hüquqi şəxslərin təsnifinin praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, məhz bu təsnif vasitəsilə dövriyyədə çıxış etmək hüququ olan hüquqi şəxslərin ayrı-ayrı növlərini dəqiq müəyyənləşdirmək mümkün olur. Dövriyyədə yal-

[1] bax: Pol A. Samuelson, Vilyams D. Nordhausun «Ekonomiks» adlı dərsliyinin əsas iqtisadi anlayışlarının Azərbaycan-ingilis dilində izahlı lüğəti. Bakı, 2001, s. 6.

nız o hüquqi şəxslər iştirak edə bilər ki, onlar qanunda birbaşa nəzərdə tutulan formada yaradılsın. Qanun isə hüquqi şəxslərin növlərinin təxmini yox, **qəti, dəqiq siyahısını** müəyyənləşdirir. Bu siyahını genişləndirmək olmaz. Həmin siyahı hüquqi şəxslərin təsnifinin əsasını təşkil edir. Əgər hər hansı hüquqi şəxs növü bu təsnifə daxil deyilsə, o, mülki hüququn subyekti kimi dövriyyədə iştirak edə bilməz. Deməli, hüquqi şəxslərin təsnifi, necə deyərlər, «qondarma» hüquqi şəxslərin praktikada fəaliyyət göstərmələrinin qarşısını almağa imkan verir.

Bundan əlavə, hüquqi şəxslərin təsnifi imkan verir ki, iqtisadi (əmlak) dövriyyədə çıxış edən hüquqi şəxslərin müxtəlif təşkilati-hüquqi formaları bir-birindən fərqləndirilsin, onlar arasında hədd qoyulsun, biri digəri ilə qarışdırılmasın. Söhbət təsərrüfat cəmiyyəti və ortaqlığı, kooperativ, qeyri-kommersiya təşkilatı, dövlət müəssisəsi və idarəsi kimi təşkilati-hüquqi formalardan gedir. Hər bir hüquqi şəxs növü ona uyğun olan təşkilati-hüquqi formada yaradılır. Hüquqi şəxslərin təsnifi hüquqi şəxslərin statusunun müəyyənləşdirilməsinə imkan verir.

2. Hüquqi şəxslərin növləri

Ölkəmizin qüvvədə olan mülki qanunvericiliyi hüquqi şəxslərin ayrı-ayrı əsaslara (meyarlara) görə müxtəlif növlərə bölünməsini nəzərdə tutur. Özü də dərhal qeyd etməliyik ki, müasir dövrdə hüquqi şəxslərin leqal təsnifi xeyli dərəcədə mürəkkəbləşmişdir[1].

Hüquqi şəxslərin təsnifini xarici ölkələrin qanunvericiliyi də verir[2]. Dünyanın iki əsas hüquq ailəsi (sistemi) olan kontinental hüquqda (roman-german hüququnda) və ümumi hüquqda (ingilis-amerikan hüququnda) hüquqi şəxslərin ənənəvi bölgüsünə diqqət yetirək.

Kontinental (roman-german) hüquq ailəsində bütün hüquqi şəxslər iki yerə bölünür:

- korporasiyalara (birliklərə, ittifaqlara);
- idarələrə.

Özü də bu cür bölgünün əsasını hüquqi şəxsin əmlak bazasının yaradılması qaydası kimi meyar (əsas) təşkil edir. Bu bölgünün əsasında həm də bir qədər də hüquqi şəxsin subyekt tərkibi və fəaliyyət sferası kimi meyar durur. Hüquqi şəxslərin həmin bölgüsü mülki (əmlak) dövriyyənin bütün sferasını — həm sahibkarlıq münasibətləri, həm də qeyri-sahibkarlıq münasibətləri sahəsini əhatə edir.

Korporasiya (latınca «corporatio» — birlik, cəmiyyət) dedikdə, elə hüquqi şəxs başa düşülür ki, o, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün iştirakçıların (payçıların, maya qoyanların) əmlakını könüllü surətdə birləşdirmək yolu ilə yaradılır və onların üzvlüyü əsasında təşkil edilir. Yaponiya sivilistika doktrinasına görə, korporasiya insanların elə birliyidir ki, o, müəyyən məqsədə xidmət edir. Üzvlük, iştirakçıların çoxu üçün məqsəd ümumiliyi korporasiyanı xarakterizə edən əsas cəhətlərdir. Özü də korporasiyanın mövcud olması onun iştirakçılarının dəyişməsindən və əvəz olunmasından asılı deyildir. Korporasiyaya müxtəlif növ ticarət cəmiyyət və ortaqlıqları aiddir: tam ortaqlıq (bəzi ölkələrdə bu, hüquqi şəxs kimi tanınmır); kommandit ortaqlığı; məhdud məsuliyyətli cəmiyyət; səhmdar cəmiyyəti[1]. Kontinental (roman-german) qanunvericilik korporasiyası yaradılarkən ilkin nizamnamə kapitalının həcmi və yaradılma qaydası haqqında çox ciddi, sərt tələblər irəli sürür.

İdarə dedikdə, elə hüquqi şəxs başa düşülür ki, o, qeyri-sahibkarlıq məqsədləri üçün, adətən, bir şəxsin (təsisçinin) əmlak ayırması yolu ilə yaradılır. Yaponiya sivilistika doktrinasına görə, idarə kapitalların elə birliyidir ki, o, müəyyən məqsədə xidmət edir. Korporasiyalardan fərqli olaraq, idarələr üzvlük qaydası əsasında təşkil olunmur. Təsisçi özü idarənin məqsədini və bu məqsədə çatmaq üçün lazım olan əmlak tərkibini müəyyənləşdirir.

İdarə özgə əmlakının ayrılması əsasında yaradılır. İdarə, bir qayda olaraq, iştirakçılann, özgə əmlakını idarə edənlərin, əmlakın mülkiyyətçisi olmayan şəxslərin mənafeyi üçün fəaliyyət göstərir. Bu şəxslər **destinator** adlanır. Dövlət müəssisələri, dövlət xəzinəsi (fisk), dini qurumlar və xeyriyyə fondları idarə formasında yaradılır.

İngilis-amerikan (ümumi) hüquq ailəsində hüquqi şəxslərin iki əsas növü fərqləndirilir[2]. Böyük Britaniya hüququ üzrə:

- ortaqlıq (partnerschips);
- kompaniya (company);

ABŞ hüququ üzrə:

- ortaqlıq (partnerschip);
- korporasiya (corporation).

Ortaqlıq iki növə bölünür: tam ortaqlıq; kommandit ortaqlığı (limited partnershins). Tam ortaqlıq hüquqi şəxs kimi tanınmır. Kommandit ortaqlığı isə hüquqi şəxs sayılır.

Kompaniyanın (korporasiyanın) kontinental hüquqdakı oxşarı (analoqu) məhdud məsuliyyətli (və ya səhmdar) cəmiyyətdir[3]: stock corporation və close corporation; private company və limited liabieity company. Nə kompaniya, nə də korporasiya iştirakçılara pay və ya səhm məxsus olmasından asılı olaraq növlərə bölünür.

Kontinental hüquqda ümumi və xüsusi hüquq baxımından hüquqi şəxslərin iki növü fərqləndirilir: *ümumi hüquq üzrə hüquqi şəxslər*; *xüsusi hüquq üzrə hüquqi şəxslər*.

Ümumi hüquq üzrə hüquqi şəxslər dedikdə, hakimiyyət aktı əsasında yaradılan və hakimiyyət səlahiyyətlərinə malik olan qurumlar başa düşülür.

[1] Hüquqi şəxslərin növləri barədə bax: *Брагинский. М., Ярошенко К.* Граждане. Юридические лица. Комментарий ГК РФ // Хозяйство и право. 1995. № 2, с. 7-19; *Сухенов Е.* Юридические лица. Хозяйственные товарищества и общества. Комментарий к ГК РФ // Хозяйство и право. 1995. № 3, с. 2-22.

[2] bax: Гражданское, торговое и семейное право капиталистических стран. Сборник нормативных актов (гражданские и торговые кодексы). М., 1986; Законодательство о компаниях, монополии и конкуренции. М., 1987.

[1] bax: *Кулагин М.И.* Государственно-монополистический капитализм и юридическое лицо. М., 1987; *Кулагин М.И.* Предпринимательство и право: опыт Запада. М., 1992.

[2] bax: *Ласк Г.* Гражданское право США. М., 1961; *Мозолин В.П.* Корпорации, монополии и право в США. М., 1966.

[1] bax: *Сыродоева О.А.* Акционерное право США и России. Сравнительный анализ. М., 1996.

Dövlət orqanları bu növ hüquqi şəxslərə aiddir. Almaniya hüquq ədəbiyyatında həmin növ hüquqi şəxslərə dövlət (dövlət idarələri yox), icmalar, idarələr, korporasiyalar, fondlar və s. daxil edilir[1]. Yaponiya mülki hüququna görə, dövlət-hakimiyyət funksiyasını icra edən ərazi korporasiya orqanları, bələdiyyə korporasiyaları və s. bu kateqoriya hüquqi şəxslərə aiddir[2]. **Xüsusi hüquq üzrə hüquqi şəxs** isə xüsusi hüquq subyektləri tərəfindən xüsusi-hüquqi akt (nizamnamə və ya təsis aktı) əsasında yaradılır və hakimiyyət funksiyasını yerinə yetirmirlər. Almaniya hüquq doktrinasında bu növdən olan hüquqi şəxslər iki qrupa bölünür: mülki hüququn şəxslərinə (cəmiyyətlər, fondlar); ticarət və korporativ hüququnun şəxslərinə (səhmdar cəmiyyətləri, kommandit ortaqlıqlar, məhdud məsuliyyətli cəmiyyətlər, təsərrüfat kooperativləri, sığorta cəmiyyətləri və s.)[3].

Əmək və kapitalın iştirak dərəcəsinə və ya üstün iştirakına görə dünya ölkələrinin qanunvericiliyi hüquqi şəxsləri iki növə bölür:

- şəxslərin birliyinə;
- kapitalların birliyinə.

Şəxslərin birliyi elə hüquqi şəxsdir ki, onun iştirakçıları (üzvləri) mənfəət əldə etmək məqsədilə təsərrüfat fəaliyyətində şəxsi əməyi ilə iştirak edirlər və birliyin öhdəliklərinə görə birgə məsuliyyət daşıyırlar. Məsələn, kontinental (roman-german) hüququn nəzərdə tutduğu tam ortaqlıq, amerikan hüququndakı ortaqlıq və s. bu növ hüquqi şəxsə misaldır.

Kapitalların birliyi elə hüquqi şəxsdir ki, onun iştirakçıları mənfəət əldə etmək məqsədilə təsərrüfat fəaliyyətində özlərinin kapitalları ilə iştirak edirlər. Bu birliklərin operativ fəaliyyətini xüsusi yaradılan orqanlar həyata keçirirlər. Onlar öz öhdəliklərinə görə özləri məsuliyyət daşıyırlar. Həmin növ hüquqi şəxslərə kontinental (roman-german) hüququn nəzərdə tutduğu məhdud məsuliyyətli cəmiyyəti və səhmdar cəmiyyətini, ABŞ hüququ üzrə korporasiyanı, ingilis hüququ üzrə xüsusi və ümumi kompaniyaları misal göstərmək olar[4].

Azərbaycan Respublikasının mülki qanunvericiliyi və sivilistika doktrinası hüquqi şəxslərin müxtəlif növlərə bölünməsinə xüsusi diqqət yetirir. Hər şeydən əvvəl, **mülkiyyət forması kimi əlamətə (meyara)** görə hüquqi şəxslərin dörd növü fərqləndirilir:

- dövlət hüquqi şəxsləri;
- bələdiyyə hüquqi şəxsləri;
- qeyri-dövlət (xüsusi) hüquqi şəxsləri;
- qarışıq hüquqi şəxslər.

Dövlət hüquqi şəxsləri odur ki, onlar dövlət mülkiyyəti əsasında yaradılır və fəaliyyət göstərir. Bu hüquqi şəxslər dövlət əmlakının bazası əsasında

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с 357; *А Жалинский, А Рерихт.* Введение в немецкое право. М., 2001, с. 301.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. М., 1983. Книга 1, с. 71.

[3] *А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. М., 2001, с. 302.

[4] bax: *Шершеневич Г.Ф.* Курс торгового права. Том 1. СПб., 1908; *Шершеневич Г.Ф.* Учебник торгового права (по изданию 1914 года). М., 1994; *Жюллио де ла Морандьер.* Гражданское право Франции. В 3-х т. М., 1958-1961; *Шапп Ян.* Основы гражданского права Германии. Учебник. М., 1996; *Доминская В.В.* Торговые товарищества. Сравнительный анализ // Вестник МГУ. Сер. 11. Право. 1992. № 3.

əmələ gəlir. Onlara dövlət müəssisələrini, dövlət idarələrini misal göstərmək olar.

Bələdiyyə hüquqi şəxsləri odur ki, onlar bələdiyyə mülkiyyəti əsasında yaradılır və fəaliyyət göstərir. Bu cür hüquqi şəxslərin maddi bazasını bələdiyyə əmlakı təşkil edir.

Qeyri-dövlət (xüsusi) hüquqi şəxsləri odur ki, onlar xüsusi mülkiyyətə əsaslanır və fəaliyyət göstərir. Bu hüquqi şəxslərin maddi bazasını fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyət hüququ əsasında malik olduqları əmlak təşkil edir. Məsələn, ayrı-ayrı şəxslərin yaratdıqları səhmdar cəmiyyətləri, kooperativlər, kommandit ortaqlıqlar, özəl təhsil müəssisələri və s. bu qəbildən olan hüquqi şəxslərə misal ola bilər.

Qarışıq mülkiyyət əsasında yaradılan hüquqi şəxslərə **qarışıq hüquqi şəxslər** deyilir. Qarışıq mülkiyyət göstərdiyimiz üç forma mülkiyyətin kombinasiyasından (dövlət və bələdiyyə mülkiyyətindən; dövlət və xüsusi mülkiyyətdən; bələdiyyə və xüsusi mülkiyyətdən) ibarətdir.

Yaradılma qaydası kimi əsasa (meyara) görə hüquqi şəxslər iki növə bölünür:

- qabaqcadan icazə alınmaqla yaradılan hüquqi şəxslər;
- qabaqcadan icazə alınmadan normativ qaydada yaradılan hüquqi şəxslər (biz əvvəlki paraqrafların birində bu hüquqi şəxslərə anlayış vermişik).

Təsisçilərin tərkibi kimi əlamətə (meyara) görə hüquqi şəxslər bölünür:

- təsisçiləri yalnız hüquqi şəxslər ola bilən hüquqi şəxslərə (məsələn, hüquqi şəxsin ittifaqları);
- təsisçisi yalnız dövlət ola bilən hüquqi şəxslərə (məsələn, dövlət müəssisələri);
- təsisçiləri, bəzi istisnalarla, hüququn istənilən subyekti ola bilən hüquqi şəxslərə (məsələn, kooperativ, səhmdar cəmiyyəti, fond, ümumiyyətlə, yerdə qalan bütün hüquqi şəxslər).

İştirakçıların (təsisçilərin) malik olduqları hüququn xarakterinə görə hüquqi şəxslərin üç növü fərqləndirilir:

- təsisçilərinin (iştirakçılarının) öhdəlik hüququna malik olduqlan hüquqi şəxslər;
- təsisçilərin (iştirakçıların) əmlak barəsində əşya hüququna (mülkiyyət hüququna və məhdud əşya hüququna) malik olduqları hüquqi şəxslər;
- təsisçilərin (iştirakçıların) əmlak hüququna malik olmadığı hüquqi şəxslər.

Təsisçilərin (iştirakçıların) öhdəlik hüququna malik olduqları hüquqi şəxslər odur ki, təsisçilər (iştirakçılar) həmin şəxslərə verdikləri əmlak üzərində mülkiyyət hüququnu itirirlər və bunun əvəzində onlar öhdəlik hüququ, yəni hüquqi şəxsdən tələb etmək hüququ əldə edirlər. Məsələn, təsisçilərin (iştirakçılarn) hüquqi şəxsin mənfəətindən müəyyən bir hissənin verilməsini və ya hüquqi şəxs ləğv edildiyi halda kreditorların borcları ödənildikdən sonra yerdə qalan əmlakın bir hissəsinin verilməsini və ya onun əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Təsisçilərin (iştirakçıların) hüquqi şəxsin yaradılmasına maya kimi qoyduqları əmlak, həmin hüquqi şəxsin mülkiyyətinə keçir. Bu cür hüquqi şəxslərə misal olaraq təsərrüfat ortaqlıqlarını və cəmiyyətlərini (tam ortaqlığı, kommandit ortaqlığı, səhmdar cəmiyyətini, məhdud məsuliyyətli

cəmiyyəti və s.), istehsal kooperativini, istehlak kooperativini misal göstərmək olar.

Təsisçilərin (iştirakçıların) əmlak barəsində əşya hüququna malik olduqları hüquqi şəxslər odur ki, təsisçilər (iştirakçılar) həmin şəxslərə verdikləri əmlak üzərində mülkiyyət hüququnu və ya digər əşya hüququnu itirmirlər, saxlayırlar. Bu cür hüquqi şəxslər onlara verilən əmlak üzərində mülkiyyət hüququ əldə etmirlər. Əmlakın mülkiyyətçisi yenə də təsisçilər (iştirakçılar) hesab edilir. Hüquqi şəxs ləğv edildiyi hallarda kreditorların tələbləri ödənildikdən və onlarla hesablaşma aparıldıqdan sonra yerdə qalan bütün əmlak təsisçinin mülkiyyətinə keçir. Məsələn, dövlət müəssisələri onlara misal ola bilər. Bu növ hüquqi şəxslər normal iqtisadi (əmlak) dövriyyə üçün xarakterik deyil. Belə ki, hüquqi şəxslər xüsusi olaraq iqtisadi (əmlak) dövriyyədə iştirak etmək üçün yaradılır. Bu dövriyyə isə, hamıya bəllidir ki, əmlak, əmtəə xarakterlidir. Buna görə də həmin dövriyyədə yalnız müstəqil, heç kəsdən asılı olmayan, özünün əmlakı olan əmtəə sahibləri çıxış edə bilər. Göstərilən növ hüquqi şəxslər bu tələblərə cavab vermir. Bu səbəbdən həmin hüquqi konstruksiyanı hər hansı sivil və qabaqcıl xarici ölkənin qanunvericiliyi nəzərdə tutmur. Həmin növdən olan hüquqi şəxslərin mövcudluğu və fəaliyyət göstərməsi ölkəmizin indiki vəziyyəti ilə — keçid dövrünün xüsusiyyəti ilə bağlı olub, müvəqqəti xarakter daşıyır. Onlar normal və sivil bazarın fəaliyyət göstərməsi üçün səciyyəvi olan hüquqi konstruksiya hesab edilmir.

Təsisçilərin (iştirakçıların) əmlak barəsində əmlak hüququna malik olmadıqları hüquqi şəxslər odur ki, bu şəxslərin təsisçiləri (iştirakçıları) onlara və onların əmlakına münasibətdə hər hansı bir əmlak hüququna malik olmurlar. Bu cür hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) nə öhdəlik, nə də əşya hüququna malikdir. Başqa sözlə desək, onlar hüquqi şəxsin özü barəsində hər hansı bir tələb hüququ, hüquqi şəxsin əmlakı barəsində isə hər hansı bir əşya hüququ əldə etmirlər. Təsisçilər (iştirakçılar) bu növ hüquqi şəxs ləğv edildiyi hallarda və ya ondan çıxdığı hallarda əmlak hüququ qazanmır, yəni onlara əmlak verilmir və ya pul formasında əvəzi ödənilmir.

Təsisçilərin (iştirakçıların) şəxsi əmək və kapitallarının iştirak və ya üstün iştirak dərəcəsinə görə hüquqi şəxslər iki növə bölünür:

- təsərrüfat ortaqlıqlarına;
- təsərrüfat cəmiyyətlərinə.

Təsərrüfat ortaqlıqları o hüquqi şəxslərdir ki, bu hüquqi şəxslərin fəaliyyətində təsisçilər (iştirakçılar) öz şəxsi əmәkləri ilə iştirak edirlər. Məsələn, tam ortaqlıq bu növ hüquqi şəxslərə misaldır.

Təsərrüfat cəmiyyətləri isə elə hüquqi şəxslərdir ki, bu hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) onların fəaliyyətində öz əmәkləri ilə yox, kapitallan ilə, maddi vəsaitləri ilə iştirak edirlər. Məsələn, səhmdar cəmiyyətini bu növ hüquqi şəxsə misal göstərmək olar.

Təşkilati-hüquqi formasına görə hüquqi şəxslər dörd növə bölünür:

- təsərrüfat ortaqlıqları və cəmiyyətləri formasında hüquqi şəxslər;
- kooperativ formasında hüquqi şəxslər;
- dövlət və bələdiyyə müəssisələri formasında hüquqi şəxslər;
- qeyri-kommersiya təşkilatları — mülkiyyətçi formasında yaradılan hüquqi

şəxslər (ictimai və dini təşkilatlar, fondlar, hüquqi şəxsin ittifaqları və s.).

Və nəhayət, **hüquqi şəxslər fəaliyyət məqsədi və xarakteri kimi əsasa** (meyara) görə təsnif edilir. Bu əsasa görə bütün hüquqi şəxslər iki növə bölünür:

- kommersiya təşkilatlarına;
- qeyri-kommersiya təşkilatlarına.

Qeyd etmək lazımdır ki, bu, hüquqi şəxslərin təsnifinin əsasını təşkil edərək daha geniş xarakter daşıyır və iqtisadi (əmlak) dövriyyənin bütün sferasını əhatə edir. Bu təsnif həm sahibkarlıq münasibətlərində, həm də qeyri-sahibkarlıq münasibətlərində çıxış edən bütün hüquqi şəxslərin dairəsini müəyyənləşdirməyə imkan verir. Məhz bu səbəbdən mülki qanunvericilik həmin təsnifə xüsusi əhəmiyyət verir (MM-in 43-cü maddəsinin 5-ci bəndi).

Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən və bu mənfəəti təsisçilər (iştirakçılar) arasında bölüşdürməkdən ibarət olan hüquqi şəxslərə kommersiya təşkilatları (latınca «commercium» — ticarət)[1] deyilir. Həmin təşkilatlar ümumi mülki hüquq qabiliyyətinə malikdir. Bu xüsusiyyət onlara kommersiya (sahibkarlıq) dövriyyəsinin, bir sözlə, iqtisadi (əmlak) dövriyyənin professional iştirakçısı olmaq imkanı verir.

Kommersiya təşkilatlarına mülki qanunvericilik aid edir:

- təsərrüfat ortaqlıqlarını;
- təsərrüfat cəmiyyətlərini;
- kooperativləri.

Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları (təsisçiləri) arasında bölüşdürməyə ixtiyarı çatmayan hüquqi şəxslərə qeyri-kommersiya təşkilatları deyilir. Bu təşkilatların əsas fəaliyyət məqsədi sahibkarlıq fəaliyyəti ilə bağlı deyildir. Onlar idarəçilik, tədris-təhsil, müalicə, mədəni-maarif, xeyriyyə, dini və digər məqsədlər üçün yaradılır. Bir qayda olaraq, adətən, qeyri-kommersiya təşkilatları öz fəaliyyətindən mənfəət götürmürlər. Lakin bu hüquqi şəxslər iki şərt əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər (MM-in 43-cü maddəsinin 6-cı bəndi): **birinci şərtə görə,** qeyri-kommersiya təşkilatlarının məşğul olduqları sahibkarlıq fəaliyyəti **həmin təşkilatların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etməlidir.** Məsələn, dini təşkilat mənfəət əldə etmək üçün nəşriyyat-poliqrafiya kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olur və bu fəaliyyətdən əldə etdiyi mənfəəti dini məqsədlər üçün istifadə edir. **İkinci şərt** bu fəaliyyətin qeyri-kommersiya təşkilatının yaradılması zamanı **qarşıya qoyulmuş məqsədlərə uyğun gəlməsindən ibarətdir.** Məsələn, Yazıcılar Birliyi kimi ictimai birlik, ədəbiyyat fondu, mədəniyyət və incəsənət fondu və bu kimi qeyri-kommersiya təşkilatları nəşriyyat-poliqrafiya fəaliyyəti ilə məşğul ola bilər. Bu, onların qarşıya qoyduqları məqsədə uyğundur. Amma, şübhəsiz ki, bu cür təşkilatlar inşaat fəaliyyəti və ya ticarət-vasitəçilik fəaliyyəti və ya sığorta fəaliyyəti ilə məşğul ola bilməz.

Mülki qanunvericilik kommersiya təşkilatlarını qeyri-kommersiya təşkilatlarından ayırmağa və fərqləndirməyə imkan verən, əsasən, iki cür əlamət (mə-

[1] Словарь иностранных слов / Под ред. *И.В.Лехина и Ф.Н.Петрова*. М., 1954, с. 339.

yar) müəyyən edir. Birinci əlamətə görə, kommersiya təşkilatı üçün mənfəət əldə etmək onun fəaliyyətinin əsas məqsədini və xarakterini təşkil edir. Mənfəət əldə etmək bu təşkilat üçün əsas, birinci dərəcəli, başlıca və ön planda duran məqsəddir. Amma bu sözləri qeyri-kommersiya təşkilatları haqqında demək olmaz. Belə ki, həmin təşkilatlar iki şərt əsasında sahibkarlıq fəaliyyəti ilə məşğul olub mənfəət götürə bilər. Lakin mənfəət götürmək onun üçün ikinci dərəcəli, qeyri-əsas, yardımçı və köməkçi xarakter daşıyan məqsəddir.

İkinci əlamətə görə, kommersiya təşkilatları əldə etdiyi və götürdüyü mənfəəti bütün iştirakçılar (təsisçilər) arasında bölüşdürmək hüququna malikdir. Qeyri-kommersiya təşkilatlarının buna ixtiyarı çatmır. Onların belə hüququ yoxdur[1].

Mülki Məcəllə **qeyri-kommersiya təşkilatlarının qəti və dəqiq olmayan, təxmini siyahısını verir.** Orada qeyd edilir ki, Mülki Məcəllədə göstərilən formalardan savayı, qeyri-kommersiya hüquqi şəxsləri qanunda nəzərdə tutulan digər formalarda da yaradıla bilər. Bununla məcəllə qeyri-kommersiya təşkilatlarının növlərini müəyyən edən siyahısını bağlı yox, açıq saxlayır. Məsələn, qeyri-kommersiya hüquqi şəxslərinin dini təşkilatlar, əmtəə birjaları kimi növlərinə Mülki Məcəllədə rast gəlmirik. Amma xüsusi qanunlarda onlar nəzərdə tutulur. Həm Mülki Məcəllədə, həm də xüsusi qanunlarda göstərilənləri nəzərə alsaq, qeyri-kommersiya hüquqi şəxslərinin siyahısını belə verərik:

- ictimai birliklər;
- fondlar;
- dini təşkilatlar;
- əmtəə birjaları;
- hüquqi şəxslərin ittifaqları.

3. Təsərrüfat ortaqlıqları. Təsərrüfat cəmiyyətləri

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri kommersiya təşkilatlarının əsas növü hesab edilir. Bu növləri, mahiyyətcə, inkişaf etmiş xarici hüquq sistemlərinin çoxu tanıyır. Məsələn, Almaniya hüququ təsərrüfat ortaqlıqlarını «personengesellschaften» («şəxslərin birliyi»), təsərrüfat cəmiyyətlərini isə «kapitalgesellschaften» («kapitalların birliyi») adlandırır[2]. İngilis-amerikan hüququnda təsərrüfat ortaqlığı «partnerships» («ortaqlıq») anlayışı ilə, təsərrüfat cəmiyyəti isə ya «company» (Böyük Britaniya), ya da «corporation» (ABŞ) anlayışı ilə əhatə olunur[3].

[1] Bəzi müəlliflər göstərirlər ki, Mülki Məcəllə kommersiya və qeyri-kommersiya təşkilatlarını kifayət qədər dəqiq fərqləndirmir (bax: Гражданское право России. Курс лекции. Часть 1 / Под ред. *О.Н. Садикова*. М., 1996, с. 61-62; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 139; Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 122). Bu fikirlə razılaşmaq olmaz. Belə ki, RF MM-in 50-ci maddəsini («Kommersiya və qeyri-kommersiya təşkilatları») təhlil etsək, həmin məcəllənin onları bir-birindən dəqiq ayırmağa imkan verən meyarlar müəyyən etdiyinin şahidi olarıq.

[2] bax: *Шершеневич Г.Ф.* Учебник торгового права (по изданию 1914). М., 1994; *Шапп Ян*. Основы гражданского права Германии. Учебник. М., 1996.

[3] *Ласк Г.* Гражданское право США. М., 1961; *Мозолин В.П.* Корпорации, монополии и право в США. М., 1966; *Кулагин М.И.* Предпринимательство и право: опыт Запада. М., 1992.

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri termini 90-cı illərin əvvəllərində sovet dövrünün mülki qanunvericiliyində və hüquq ədəbiyyatı səhifələrində əmələ gəlmişdir. Əvvəlcə SSRİ və müttəfiq respublikaların Mülki Qanunvericiliyinin Əsasları (1991) bu termini işlədir[1]. Bunun ardınca həm RF-in, həm də Azərbaycan Respublikasının mülkiyyət haqqında qanunu (1991) həmin termindən istifadə edir[2]. Bu qanunun 15-ci maddəsi əmlak mülkiyyətçiləri kimi yaradılan və hüquqi şəxs statusuna malik olan təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçılar tərəfindən pay kimi verilən əmlak üzərində mülkiyyət hüququnu təsbit edirdi.

Bununla sovet mülki qanunvericiliyi XIX əsrin axırlarında-XX əsrin əvvəllərində inkişaf etmiş hüquq sistemlərində[3] və rus hüququnda istifadə edilən «ticarət ortaqlıqları və cəmiyyətləri» kimi ənənəvi, klassik termin işlətməkdən imtina edir[4]. Bu isə təsadüfi deyildi. Belə ki, sovet hüquq sistemi xüsusi kommersiya (ticarət) fəaliyyətinə yol vermirdi. Ona görə də həmin qurumları sovet qanunvericiliyi ticarət ortaqlıqları və cəmiyyətləri adlandıra bilməzdi. Bu qurumların yaradılmasını sovet hüququ kollektiv təsərrüfatçılıq forması kimi, kollektiv surətdə təsərrüfat fəaliyyətini həyata keçirən hüquqi şəxs kimi nəzərdə tutmuşdu. Ona görə də onları adlandırmaq üçün **«təsərrüfat ortaqlıqları və cəmiyyətləri» kimi termindən** istifadə etmək ən uğurlu və münasib variant idi. Sovet qanunvericiliyinin bu ənənəsini əvvəlcə RF-in mülki hüququ, sonra isə bizim ölkəmizin mülki hüququ saxlayaraq, həmin termini işlətməyə üstünlük vermişdir. Deməli, təsərrüfat ortaqlıqları və cəmiyyətləri bizim ölkə qanunvericiliyinin, habelə hüquq ədəbiyyatının istifadə etdiyi müasir termindir.

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri hüquqi şəxslərin nisbətən daha geniş yayılmış, **daha universal təşkilati-hüquqi formasıdır.** Bu formanın əsasını Qədim Roma hüququnun ortaqlıq müqaviləsi (societas) təşkil edir[5]. Həmin müqaviləyə görə, ümumi təsərrüfat məqsədini həyata keçirmək üçün iki və daha artıq şəxs birləşirdi. Həmin şəxslər ümumi işdə özlərinin əmlak payı və ya şəxsi fəaliyyəti (əməyi) ilə və yaxud da əmlak payı ilə şəxsi fəaliyyəti (əməyi) uyğunlaşdırmaqla iştirak edirdilər. Ümumi işin həyata keçirilməsi nəticəsində əldə edilən mənfəət və vurulan zərər müqavilədə nəzərdə tutulan hissələrlə (paylarla) bu şəxslər arasında bölünürdü. Əgər müqavilədə göstərilməzdisə, mənfəət və zərər bərabər hissələrlə onlar arasında bölünürdü.

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri **kollektiv təsərrüfatçılıq, kollektiv**

[1] bax: BBC СССР. 1991. № 9.

[2] bax: AR QK, I cild, s. 151.

[3] Məsələn, Almaniya Ticarət Qanunnaməsinin (1897) ikinci kitabında «ticarət ortaqlıqları» termini işlədilir (bax: Германское право. Часть 2. Торговое уложение и другие законы. М., 1994; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 7). Bu termindən istifadə olunması halına Fransa qanunvericiliyində də rast gəlmək olur. Belə ki, kommersiya təşkilatlarının bütün təşkilati-hüquqi formalarını tənzimləyən fundamental akt «Ticarət ortaqlıqları haqqında» qanun (1966) adlanır.

[4] bax: *Шершеневич Г.Ф.* Курс торгового права. Том I. СПб., 1908.

[5] bax: *Новицкий И.Б.* Основы римского гражданского права. М., 1972, с. 296; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 586; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С. Перетерского*. М., 1999, с. 463; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 266; *Novitski İ.B.* Roma hüququ. Dərslik. Rus dilindən *M.P.Əsgərovanın* tərcüməsi. Bakı. 1999, s. 175.

sahibkarlıq formasıdır. Onlar sahibkarların, təsərrüfatçı şəxslərin, kommersantların və iş adamlarının sahibkarlıq, kommersiya və təsərrüfat fəaliyyətini birgə və kollektiv surətdə həyata keçirmək üsuludur. Bu qurumlar müasir kommersiya dövriyyəsinin, sahibkarlıq dövriyyəsinin, bir sözlə, iqtisadi (əmlak) dövriyyənin professional, əsas, müstəqil və tam hüquqlu iştirakçıları hesab olunur. Onlarda ümumi təsərrüfat (sahibkarlıq, kommersiya) məqsədinə nail olmaq üçün iştirakçıların kapitalı və şəxsi fəaliyyəti (əməyi) birləşmişdir. Mülki Məcəllə bunu nəzərə alaraq təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin statusunun tam və geniş xarakteristikasını verir (MM-in 64-66-cı maddələri).

Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin əsl mahiyyətinə aydınlıq gətirmək üçün onlar arasında həm ümumi və oxşar, həm də fərqli cəhətləri müəyyən etməyə çalışaq[1]. **Birincisi,** bu qurumları birləşdirən ümumi cəhət ondan ibarətdir ki, onların hər ikisi **kommersiya təşkilatıdır.** Belə ki, həm təsərrüfat ortaqlıqlarının, həm də təsərrüfat cəmiyyətlərinin fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdən və bu mənfəəti iştirakçılar arasında bölüşdürməkdən ibarətdir. Özü də onların hər ikisi, əsasən, müqavilə yolu ilə könüllü surətdə, üzvlük əsasında yaranır.

İkincisi, bu qurumlar üçün ümumi cəhət ondan ibarətdir ki, həmin qurumların hər ikisi onların fəaliyyətinin maddi (əmlak) bazasını yaradan və kreditorların mənafeyini təmin edən **nizamnamə (şərikli) kapitalına malikdir.** Bu nizamnamə (şərikli) kapitalı iştirakçıların payına bölünür. Bu xüsusiyyət təsərrüfat ortaqlıqlarını və cəmiyyətlərini kommersiya təşkilatlarının digər növündən — kooperativdən fərqləndirir.

Üçüncüsü, bu qurumlar üçün ümumi cəhət ondan ibarətdir ki, həmin qurumların iştirakçıları (təsisçiləri) onlara pay (maya) kimi verdikləri əmlak (pul, qiymətli kağızlar, torpaq, avadanlıq, dəzgah, bina və s.), habelə göstərilən qurumların öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak üzərində **mülkiyyət hüququna malik deyildir.** Bu əmlak mülkiyyət hüququ əsasında hüquqi şəxs kimi təsərrüfat ortaqlığının və cəmiyyətinin özünə məxsusdur. Başqa sözlə desək, həmin əmlakın mülkiyyətçisi təsərrüfat ortaqlığının və cəmiyyətinin özü hesab edilir.

Təsisçilər (iştirakçılar) hüquqi şəxsə — təsərrüfat ortaqlığına və cəmiyyətinə münasibətdə öhdəlik hüququna, yəni tələb etmək hüququna (tələblərə) malikdir[2]: götürülən mənfəətin müəyyən bir hissəsini almaq hüququna; təsərrüfat ortaqlığı və cəmiyyəti ləğv edildiyi halda, kreditorların borcları ödənildikdən sonra yerdə qalan əmlakın bir hissəsini əldə etmək (ləğvetmə kvotası) hüququna; təsərrüfat ortaqlığının və cəmiyyətinin tərkibindən çıxdığı halda, əmlakın müəyyən hissəsinin dəyərini almaq hüququna; ortaqlığın və cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququna.

Dördüncüsü, bu qurumlar üçün ümumi olan cəhət ondan ibarətdir ki, həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri, MM-də nəzərdə tutulan hallar istisna olmaqla, digər **hər hansı təsərrüfat ortaqlığının və cəmiyyətinin təsisçiləri (iştirakçıları) olmaq hüququna malikdir** (MM-in 64-cü maddəsinin 7-ci bəndi). Məsələn, tam ortaqlıq səhmdar cəmiyyəti yaradır. Başqa bir misalda üç müxtəlif səhmdar cəmiyyəti tam ortaqlıq yaradırlar. Bəzi hallarda MM-də müvafiq qurumun təsisçi (iştirakçı) olmaq hüququ istisna edilir. Məsələn, səhmdar cəmiyyətinin yeganə iştirakçısı təkcə bir təsərrüfat cəmiyyətindən ibarət ola bilməz (MM-in 98-ci maddəsinin 5-ci bəndi).

Beşincisi, bu qurumlar üçün ümumi cəhət ondan ibarətdir ki, həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri **dövlət orqanları və yerli özünüidarə orqanları tərəfindən təsis edilə bilməz** (MM-in 64-cü maddəsinin 6-cı bəndi). Belə ki, həmin orqanlar kommersiya və sahibkarlıq dövriyyəsində, bir sözlə, əmlak (iqtisadi) dövriyyəsində iştirak etmək məqsədi ilə yaradılmır. Buna görə də mülki qanunvericilik həmin orqanların təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilmələrini qadağan edir.

Altıncısı, bu qurumlar üçün ümumi cəhət ondan ibarətdir ki, həm təsərrüfat cəmiyyətləri, həm də təsərrüfat ortaqlıqları, bir qayda olaraq, **qabaqcadan icazə alınmadan normativ üsulla yaradılır.** Qabaqcadan icazə almaq üsulu onların əmələ gəlməsi üçün xarakterik deyil.

Bununla bərabər, təsərrüfat ortaqlıqları ilə təsərrüfat cəmiyyətləri arasında mühüm fərqli cəhətlər də vardır. **Birinci fərqli cəhət** ondan ibarətdir ki, təsərrüfat ortaqlıqları, Almaniya qanunvericilik ənənələrinə uyğun olaraq, **təsərrüfatçı şəxslərin — iş adamlarının, biznesmenlərin, sahibkarların və kommersantların birliyidir.** Onlar elə hüquqi şəxslərdir ki, burada təsisçilər (iştirakçılar) nəinki əmlak payları ilə, həm də bilavasitə **şəxsi əməyi ilə, şəxsi fəaliyyəti ilə iştirak edirlər.** Məhz buna görə də iştirakçıların təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə birgə məşğul olmaları tələb edilir.

Təsərrüfat ortaqlıqları dedikdə, birgə təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə məşğul olmaq üçün bir neçə sahibkar şəxsin hüquqi şəxs statuslu birliyi başa düşülür.

Təsərrüfat cəmiyyətləri isə, Almaniya mülki qanunvericilik ənənələrinə uyğun olaraq, **kapitalların birliyidir.** Başqa sözlə, bu cəmiyyətlər istehsal vasitələrinin, maddi vəsaitlərin, əmlakın birliyidir. Onlar hüquqi şəxs statuslu elə təşkilatlardır ki, burada təsisçilər (iştirakçılar) **yalnız əmlak payları ilə iştirak edirlər:** təsisçilərin (iştirakçıların) burada şəxsi əməyi və şəxsi fəaliyyəti ilə iştirak etmələri tələb olunmur. Bu, təsisçilərin (iştirakçıların) vəzifə borcu hesab edilmir.

Təsərrüfat cəmiyyətləri dedikdə, hüquqi şəxs statuslu elə təşkilatlar başa düşülür ki, bu təşkilatlar təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə bir və ya bir neçə şəxsin əmlakının birləşdirilməsi yolu ilə yaradılır.

[1] Bu məsələ hüquq ədəbiyyatı səhifələrində kifayət qədər geniş surətdə işıqlandırılır (bax: *Суханов Е.* Основы гражданского законодательства // ВВС СССР. 1991. № 10; *Кашванина Т.В.* Хозяйственные товарищества и общества. Правовое регулирование внутрифирменной деятельности. Учебник. М., 1995; *Суханов Е.* Юридические лица. Хозяйственные товарищества и общества. Комментарий к ГК РФ // Хозяйство и право. 1995. № 3; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 91-92; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 212-213).

[2] bax: n. 17 постановления Пленумов ВС РФ и ВАС РФ от 1 июля 1996 г. № 6/8 «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» (Вестник ВАС РФ. 1996. № 9); n. 18. Обзора практики разрешения споров связанных с защитой права собственности и других вещных прав (Приложение к информационному письму ВАС РФ от 28 апреля 1997 г. № 13) // Вестник ВАС РФ. 1997. № 7, с. 91.

İkinci fərqli cəhət ondan ibarətdir ki, təsərrüfat ortaqlığının fəaliyyətində və işində təsisçinin (iştirakçının, tam ortağın) **şəxsi əməyi ilə iştirak etməsi tələb olunur.** Belə halda təsisçinin (tam ortağın) başqa ortaqlıqda iştirak etmək imkanı istisna olunur (bir əldə iki qarpız tutmaq məsələsi). Məlum məsələdir ki, müvafiq şəxsin eyni vaxtda iki təsərrüfat ortaqlığında şəxsi fəaliyyəti və əməyi ilə iştirak etməsi mümkün deyil. Bu səbəbdən **şəxs (təsisçi) tam ortaq qismində yalnız bir ortaqlığın iştirakçısı ola bilər** (MM-in 69-cu maddəsinin 2-ci bəndi, 82-ci maddəsinin 3-cü bəndi). Bu, həm də onunla izah olunur ki, təsərrüfat ortaqlığı iştirakçısı (tam ortaq) **ortaqlığın öhdəliklərinə görə qeyri-məhdud məsuliyyət daşıyır.** Belə ki, iştirakçı (tam ortaq) ortaqlığın öhdəliklərinə (borclarına) görə ona məxsus olan bütün əmlakı ilə cavabdəhdir (MM-in 69-cu maddəsinin 1-ci bəndi, 82-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, əgər ortaqlığın kreditorlara borcu yarandıqda və bu borcun ödənilməsi üçün ortaqlığın xüsusi əmlakı və şərikli kapitalı kifayət etmədikdə, onda kreditorların tələbi tam ortağın (iştirakçının) şəxsi əmlakı (məsələn, yaşayış evi, nəqliyyat vasitəsi və s.) hesabına təmin olunur. Belə təsəvvür yaranır ki, iştirakçı (tam ortaq), mahiyyətcə, öz üzərinə yaratdığı təsərrüfat ortaqlığının müəyyən kreditorlara mümkün ola biləcək borclarını ödəməsi üçün öz şəxsi əmlakı hesabına öhdəlik götürür. Odur ki, sahibkarlıq (əmlak) riski böyükdür və belə halda eyni əmlak hesabına tam ortağın (iştirakçının) digər müstəqil kreditorları qarşısında onların mümkün borclarını ödəməsi barədə öhdəlik götürməsi yolverilməzdir.

Göstərilənlərdən fərqli olaraq, **şəxs eyni vaxtda bir neçə təsərrüfat cəmiyyətinin iştirakçısı ola bilər.** Bu, onunla izah olunur ki, şəxsin təsərrüfat cəmiyyətinin işində və fəaliyyətində şəxsi, bilavasitə əməyi ilə yox, əmlakı ilə, kapitalı ilə, maddi vəsaiti ilə iştirak etməsi tələb olunur. Digər tərəfdən təsərrüfat cəmiyyətinin iştirakçısı qeyri-məhdud məsuliyyət daşımır. Məsələn, təsərrüfat cəmiyyətinin növləri olan məhdud məsuliyyətli cəmiyyətin və səhmdar cəmiyyətinin iştirakçıları cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir. Bundan əlavə, məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı kreditorların borclarını qoyduğu əmlak payının (mayanın) dəyəri həddində, səhmdar cəmiyyətinin iştirakçısı isə ona məxsus olan səhmlərin dəyəri həddində ödəyir. Onlar bu həddən çox olan borc hissəsini ödəmirlər.

Bax, bu xüsusiyyət təsərrüfat cəmiyyətləri ilə təsərrüfat ortaqlıqlarını ayırmağa imkan verən **üçüncü fərqli cəhəti** müəyyənləşdirməyə imkan verir. Belə ki, təsərrüfat cəmiyyəti iştirakçısının bu cəmiyyətin fəaliyyəti ilə bağlı olaraq yaranan zərər üçün daşıdığı risk yüksək, qeyri-məhdud deyildir. O, həm də yuxarıda qeyd etdiyimiz kimi, cəmiyyətin öhdəliyi üzrə məsuliyyət daşımır. Burada sahibkarlıq (əmlak) riski iştirakçının bütün əmlakı ilə yox, yalnız onun nizamnamə kapitalına verdiyi əmlak payı (maya) ilə məhdudlaşır. Ona görə də məhz bu səbəbdən **təsərrüfat cəmiyyətinin iştirakçısı istənilən fiziki və hüquqi şəxs** (o cümlədən sahibkar statusu olmayan fiziki şəxslər və qeyri-kommersiya təşkilatları) **ola bilər** (MM-in 64-cü maddəsinin 5-ci bəndi).

Amma **təsərrüfat ortaqlığı iştirakçısı (ortaq) istənilən fiziki və hüquqi şəxs ola bilməz.** Belə ki, ortaqlıq iştirakçısı (ortaq) təsərrüfat cəmiyyəti iştirakçısından fərqli olaraq, yuxarıda qeyd etdiyimiz kimi, ortaqlığın öhdəlikləri

üçün özünə məxsus olan bütün şəxsi əmlakı ilə cavabdehdir. Onun üçün sahibkarlıq (əmlak) riski qeyri-məhdud xarakter daşıyır. Ortaqlıq iştirakçısı (ortaq) ortaqlığın fəaliyyəti ilə bağlı yaranan zərər üçün özünün bütün şəxsi əmlakı ilə məsuliyyət daşıyır. Bu cəhət təsərrüfat ortaqlığının iştirakçısı (ortaq) rolunda istənilən şəxsin yox, yalnız əmtəə xarakterli kommersiya (sahibkarlıq) dövriyyəsinin professional subyektlərinin (sahibkarların, kommersantların) çıxış etməsini tələb edir və şərtləndirir. Böyük təcrübəsi və sərişləsi olan bu subyektlər kommersiya (sahibkarlıq) dövriyyəsinin qaydalarına yaxından və dərindən bələddirlər. Onlar bu qaydaları yaxşı bilirlər. Məhz bu səbəbdən **yalnız kommersiya (sahibkarlıq) dövriyyəsinin professional subyektləri təsərrüfat ortaqlığının iştirakçısı (ortağı) ola bilər** (MM-in 64-cü maddəsinin 4-cü bəndi).

Kommersiya (sahibkarlıq) dövriyyəsinin professional subyektləri dedikdə, fərdi sahibkarlar və kommersiya təşkilatları başa düşülür. Fərdi sahibkarlar sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərdir. Onlara sahibkar statuslu fiziki şəxslər də deyilir.

Dördüncü fərqli cəhət ondan ibarətdir ki, **təsərrüfat ortaqlığı bir şəxs tərəfindən yaradıla bilməz.** Təsərrüfat cəmiyyəti üçün bu cür imkana yol verilir. Belə ki, Mülki Məcəllədə nəzərdə tutulan hallarda təsərrüfat cəmiyyətini bir şəxs də yarada bilər (MM-in 64-cü maddəsinin 1-ci bəndi)[1].

Beşinci fərqli cəhət ondan ibarətdir ki, **təsərrüfat ortaqlığında orqanlar sisteminə rast gəlmirik.** Belə ki, ortaqlığın işini iştirakçıların özləri aparırlar. Təsərrüfat cəmiyyətində isə xüsusi olaraq orqanlar sistemi (icra-idarəetmə orqanları) yaradılır və fəaliyyət göstərir. Məsələn, səhmdar cəmiyyətinin icra orqanı kimi idarə heyəti — kollegial orqan yaradıla bilər.

Altıncı fərqli cəhət ondan ibarətdir ki, iştirakçı ortaqlığın tərkibindən çıxarsa, bunun nəticəsində ortaqlıqda bir iştirakçı qalarsa, onda ortaqlıq ləğv edilir. Bundan fərqli olaraq, iştirakçıların tərkibinin dəyişməsi cəmiyyətin mövcud olmasına təsir göstərmir.

Yeddinci fərqli cəhət ondan ibarətdir ki, təsərrüfat cəmiyyətinin yaradılmasının və fəaliyyət göstərməsinin əsas şərti onu lazımınca kapitallaşdırmaqdan — **təsisçilərin nizamnamə kapitalını tamamilə ödəmələrindən ibarətdir.** Buna görə də qanun təsərrüfat cəmiyyətinin nizamnamə kapitalını formalaşdırmaq, onu artırmaq və azaltmaq kimi məsələlərin tənzimlənməsinə xüsusi diqqət yetirir. Təsərrüfat ortaqlığının kapitallaşdırılması isə qanunla xüsusi olaraq tənzimlənmir.

Səkkizinci fərqli cəhət təsərrüfat ortaqlığının və cəmiyyətinin nizamnamə fondu ilə bağlıdır. Nizamnamə fondu onların fəaliyyətinin maddi (əmlak) bazasını yaradır və kreditorların mənafeyinə təminat verir. Miqdarı və tərkibi nizamnaməsində göstərilən, iştirakçıları tərəfindən maya kimi qoyulan, pulla qiymətləndirilən və pul dəyəri olan əmlak paylarına **təsərrüfat cəmiyyətinin və ortaqlığının nizamnamə fondu deyilir.** Təsərrüfat cəmiyyətlərində nizamnamə fondu **nizamnamə kapitalı anlayışı** ilə, təsərrüfat ortaqlıqlarında isə **şərikli**

[1] Qanunvericı burada səhfə yol verərək, «təsərrüfat cəmiyyəti» sözü əvəzinə «təsərrüfat ortaqlığı» sözü işlədir. Məlum məsələdir ki, təsərrüfat ortaqlığı heç bir halda bir şəxs tərəfindən yaradıla bilməz.

kapital anlayışı ilə əhatə olunur. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin nizamnamə (şərikli) kapitalına maya kimi qoyulan əmlak payları puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər (MM-in 64-cü maddəsinin 8-ci bəndi).

Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçıları **müəyyən hüquqlara** malikdir. Qanun onlara geniş hüquqlar verir (MM-in 65-ci maddəsinin 1-ci bəndi). Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin işlərinin idarə olunmasında iştirak etmək, götürülən mənfəətdən müəyyən hissəni almaq, mənfəət bölgüsündə iştirak etmək, ortaqlığın və ya cəmiyyətin fəaliyyəti barədə məlumat almaq və onun mühasibat kitabları və digər sənədlərlə tanış olmaq, ortaqlığın və ya cəmiyyətin ləğv edildiyi halda kreditorlarla hesablaşmalardan sonra (yəni kreditorların borclarını ödədikdən sonra) əmlakından qalan hissəsini və ya onun dəyərini ala bilmək onların əsas hüquqları sayılır. İştirakçılar qanunda və ya təsərrüfat ortaqlığının və ya cəmiyyətinin nizamnaməsində nəzərdə tutulan digər hüquqlara da malik ola bilərlər.

Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları hüquqlara malik olmaqla bərabər, həm də **vəzifələr daşıyırlar.** Onların **əsas vəzifəsi** təsərrüfat ortaqlığının və ya cəmiyyətinin nizamnamə (şərikli) kapitalına **maya kimi əmlak payı verməkdən ibarətdir.** Əmlak payının pulla qiymətləndirilməsi iştirakçıların (təsisçilərin) qarşılıqlı razılığı əsasında həyata keçirilir. Bundan sonra pulla qiymətləndirmə müstəqil ekspert yoxlamasından (auditdən) keçirilir (MM-in 64-cu maddəsinin 9-cu bəndi).

Maya kimi qoyulan əmlak payının miqdarı, verilmə qaydası, üsulları və müddətləri nizamnamə ilə müəyyənləşdirilir. İştirakçılar əmlak payını nəzərdə tutulan miqdarda və müddətlərdə verməlidirlər. Bu, onların əsas və başlıca vəzifəsidir.

İştirakçıların üzərinə düşən vəzifələrdən biri onların ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair **konfidensial (məxfi) xarakterli məlumatları açıqlamamaqdan ibarətdir** (MM-in 65-ci maddəsinin 3-cü bəndi). Bunlar, hər şeydən əvvəl, kommersiya sirri olub, təsərrüfat ortaqlığının və cəmiyyətinin istehsalatı, texnoloji informasiyası, idarəetməsi, maliyyə və digər növ fəaliyyəti ilə bağlıdır. Bunları yaymaq və başqa şəxslərə vermək onların fəaliyyətinə xələl gətirə və zərər vura bilər.

Həm təsərrüfat ortaqlığı, həm də təsərrüfat cəmiyyəti ümumiləşdirilmiş, cinsi anlayışdır. Bu, o deməkdir ki, o, özündə kommersiya təşkilatının bir neçə müstəqil növünü (formasını) birləşdirir. Belə ki, təsərrüfat ortaqlıqları iki formada (növdə) yaradıla bilər:

- tam ortaqlıq formasında;
- kommandit ortaqlıq formasında.

Təsərrüfat cəmiyyətləri isə üç formada (növdə) yaradıla bilər:

- məhdud məsuliyyətli cəmiyyət formasında;
- əlavə məsuliyyətli cəmiyyət formasında;
- səhmdar cəmiyyəti formasında.

4. Tam ortaqlıq[1]

Tam ortaqlıq təsərrüfat ortaqlıqlarının əsas və başlıca formasıdır (növüdür). Bu konstruksiyanı ölkəmizin 1964-cü il MM-i (o cümlədən RSFSR-in və digər sovet respublikalarının 1964-1965-ci il məcəllələri) tanımır və tənzimləmirdi. Bundan fərqli olaraq, RSFSR-in 1922-ci il MM-i, Azərbaycan SSR-in 1923-cü il MM-i tam ortaqlığın hüquqi vəziyyətini geniş təfsilatı ilə nizama salırdı. Həmin məcəllələrin 298-ci maddəsi onu hüquqi şəxs hesab edirdi.

90-cı illərdən başlayaraq RF-in qanunvericiliyində ölkədə həyata keçirilən iqtisadi islahatlara uyğun olaraq tam ortaqlıq konstruksiyası nəzərdə tutulmağa başladı. Belə ki, RSFSR-in «Müəssisələr və sahibkarlıq fəaliyyəti haqqında» 25 dekabr 1990-cı il tarixli qanununda tam ortaqlığın leqal anlayışı formulə edilir, onun hüquqi vəziyyəti müəyyənləşdirilirdi[2]. Bu qanuna görə, tam ortaqlıq hüquqi şəxs sayılmırdı. Bunun ardınca ölkəmizin «Müəssisələr haqqında» 1 iyul 1994-cü il tarixli qanununun 8-ci maddəsində tam ortaqlığın yaradılması, idarə edilməsi və fəaliyyət prinsipləri müəyyənləşdirilirdi[3]. Burada tam ortaqlıq müstəqil təsərrüfat subyekti olan müəssisələrin təşkilati-hüquqi formalarından biri hesab olunurdu. Qanun onu həm də şərikli müəssisə anlayışı ilə əhatə edirdi.

Yeni Mülki Məcəllə ölkəmizdə aparılan iqtisadi islahatları, kommersiya (sahibkarlıq) dövriyyəsinin inkişafını nəzərə alaraq, tam ortaqlıq hüquqi konstruksiyasını, xarici ölkələrin (Almaniyanın, Fransanın, İspaniyanın, Polşanın, RF-in) qanunvericilik ənənələrinə uyğun olaraq nəzərdə tutur[4]. Bu konstruksiyanın parametrləri bütün detalları ilə MM-in 69-81-ci maddələri ilə geniş surətdə tənzim olunur.

MM-in 69-cu maddəsinin 1-ci bəndi tam ortaqlığın leqal anlayışını verir. Bu anlayışda onun əsas cəhət və xüsusiyyətləri ifadə olunur.

Tam ortaqlıq dedikdə, təsərrüfat ortaqlıqlarının elə bir forması (növü) başa düşülür ki, onun iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri

[1] Ticarətin inkişafı ticarət əməliyyatlarını həyata keçirmək üçün tacirlərin həm kapitallarını, həm də şəxsi səylərini birləşdirmələrini tələb edirdi. Bunun nəticəsində qədim Romada ortaqlıqların ilk forması meydana gəldi. Amma müasir tam ortaqlığın əsas cəhətlərini əks etdirən ilk ortaqlıqlar XII əsrin birinci yarısında Venesiyada və Genuyada yarandı. «Ticarət kompaniyaları» adlanan həmin formalar XIII əsrin əvvəllərindən başlayaraq daha geniş yayılmağa başladı. Müasir ölkələrin çoxu bu konstruksiyanı tanıyır: almanca offene Handelsgesellschaft, ingiliscə general partnership, fransızca societe en nom collectif (*А.Тынель, Я.Функ, В.Хвелей.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 82-83).

[2] bax: Закон «О предприятиях и предпринимательской деятельности» (Ведомости РСФСР. 1990. № 30. ст. 418).

[3] bax: AR QK, II cild, s. 280.

[4] Almaniya Ticarət Qanunnaməsinin ikinci kitabının birinci bölməsi «Tam ortaqlıq» adlanır (bax: Германское право. Часть 2. Торговое уложение и другие законы. М., 1994). İtaliya Mülki Məcəlləsinin beşinci kitabının 5-ci bölməsi ortaqlıqların, o cümlədən tam ortaqlıqların tənzimlənməsinə həsr edilmişdir.

üzrə onlara məxsus olan əmlakla məsuliyyət daşıyırlar[1]. Bu anlayışdan belə məlum olur ki, tam ortaqlıq nizamnamə əsasında fəaliyyət göstərir[2]. Nizamnamə onun fəaliyyətinin hüquqi əsasını təşkil edir[3]. Burada ümumi xarakterli məlumatlardan əlavə (bu məlumatlar MM-in 47.2-ci maddəsində göstərilmişdir) ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında, hər bir iştirakçının şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında, onların pay (maya) kimi verdikləri əmlakın tərkibi və verilmə qaydası, əmlak payı (maya) qoyulması üzrə vəzifələrin pozulmasına görə iştirakçıların məsuliyyəti haqqında şərtlər göstərilir (MM-in 70-ci maddəsi). Nizamnamədə tam ortaqlıq iştirakçısının hüquq və vəzifələri, tam ortaqlığın mənfəətinin və zərərinin bölüşdürülməsi qaydası, iştirakçının tam ortaqlıqdan çıxmasının nəticələri, tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsi və digər məsələlər barədə şərtlər də nəzərdə tutula bilər. Ümumiyyətlə, burada tam ortaqlığın fəaliyyəti ilə bağlı olan, qanunvericiliyə zidd olmayan digər müddəaların da göstərilməsi istisna olunmur.

Tam ortaqlığın iştirakçıları **tam ortaqlar** adlanır. Özü də dərhal qeyd etməliyik ki, tam ortaqlar **ən azı iki şəxsdən ibarət olmalıdır.** Məlum məsələdir ki, tam ortaq bir şəxsdən ibarət ola bilməz. Bu, tam ortaqlığın hüquqi təbiətindən irəli gəlir.

Tam ortaq rolunda tam ortaqlığın yaradılmasında yalnız sahibkarlar çıxış edə bilər. Söhbət fərdi sahibkarlardan (sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərdən) və kommersiya təşkilatlarından gedir. Özü də tam ortaqlığı yaradan iştirakçılardan birinin fərdi sahibkar, digərinin isə kommersiya təşkilatı olması tamamilə mümkündür. Dediklərimizdən belə çıxır ki, **qeyri-sahibkarlar, yəni sahibkar statusu olmayan şəxslər tam ortaqlığın iştirakçısı ola bilməzlər.**

Tam ortaqlıq sahibkarlıq fəaliyyəti üçün yaradılır. O, kommersiya təşkilatı olub, ümumi mülki hüquq qabiliyyətinə malikdir. Sahibkarlıq fəaliyyəti tam ortaqlığın — kommersiya təşkilatının (hüquqi şəxsin) adından onun iştirakçıları (tam ortaqlar) tərəfindən həyata keçirilir. İştirakçıların (tam ortaqların) sahibkarlıq fəaliyyəti hüquqi şəxs kimi tam ortaqlığın özünün fəaliyyəti hesab edilir.

Tam ortaqlığın təşkilati strukturu son dərəcə sadə olub, praktiki olaraq idarəçilik xərcləri tələb etmir. Belə ki, tam ortaqlığın fəaliyyətində və idarə olunmasında bütün iştirakçılar (tam ortaqlar) şəxsən iştirak edirlər. Bu, onların əsas və başlıca vəzifəsidir (MM-in 73-cü maddəsinin 1-ci bəndi). Buna görə də tam ortaqlığın fəaliyyətini və idarə olunmasını həyata keçirmək üçün onun **xüsusi orqanlar sisteminin yaradılmasına ehtiyac və zərurət yoxdur.** Odur ki, tam ortaqlığın fəaliyyətinin idarə olunması iştirakçılar tərəfindən, bunun üçün hər hansı bir idarəetmə orqanı yaradılmadan həyata keçirilir. Məhz bu səbəbdən biz onların fəaliyyətində *ümumi yığıncaq*, təftiş komissiyası, direktorlar şurası, idarə heyəti, müşahidə şurası və s. orqanlara rast gəlmirik.

Tam ortaqlığın fəaliyyətinin idarə olunması **bütün iştirakçıların ümumi razılığı və yekdilliyi prinsipinə** əsaslanır. Bu, o deməkdir ki, tam ortaqlığın fəaliyyəti bütün iştirakçıların ümumi razılığı ilə idarə edilir (MM-in 71-ci maddəsinin 1-ci bəndi). Başqa sözlə desək, tam ortaqlığın fəaliyyətinə aid olan qərarlar yekdilliklə qəbul edilir.

Tam ortaqlığın fəaliyyəti barədə qərarlar iştirakçıların **səs çoxluğu ilə də qəbul** edilə bilər. Belə ki, nizamnamədə nəzərdə tutulduğu hallarda qərarlar iştirakçıların səs çoxluğu ilə çıxarılır (MM-in 71-ci maddəsinin 1-ci bəndi).

Ümumi qayda belədir ki, tam ortaqlığın hər bir iştirakçısının bir səsi vardır: **bir iştirakçı — bir səs.** Bu qaydadan bəzi hallarda müəyyən istisnaya yol verilə bilər. Belə ki, tam ortaqlığın nizamnaməsində iştirakçıların səslərinin sayını müəyyənləşdirməyin və təyin etməyin başqa qaydası nəzərdə tutula bilər. Məsələn, *orada iştirakçının şərikli kapitaldakı əmlak payından (mayadan) asılı olaraq səslərin sayını müəyyənləşdirməyin belə qaydası göstərilə bilər: bir iştirakçı — iki səs.* Tam ortaqlıq iştirakçısı tamamilə səsdən məhrum edilə bilməz.

İştirakçının hüququ vardır ki, o, tam ortaqlığın fəaliyyətinin idarə olunması və işlərinin aparılması haqqında sənədlərlə tanış olsun. O, tam ortaqlığın uçot-hesabat sənədləri ilə, o cümlədən kommersiya sənədləri ilə (müqavilələrlə, işgüzar yazışmalarla və s.) tanış ola bilər[1]. Axı, o, tam ortaqlığın ümumi borclarına görə öz şəxsi əmlakı ilə məsuliyyət daşıyır. Ona görə də tam iştirakçı bilməlidir ki, ortaqlığın işləri necə gedir.

İştirakçılar tam ortaqlığın fəaliyyətini idarə etməkdən savayı, həm də onun işlərini aparırlar. **İşlərini aparmaq** dedikdə, mülki (əmlak) dövriyyədə tam ortaqlığın mənafeyinin iştirakçılar tərəfindən təmsil olunması başa düşülür. Belə ki, iştirakçılar tam ortaqlıq adından, onun hesabına və onun mənafeyi üçün üçüncü şəxslərlə əqdlər (müqavilələr) bağlayırlar. Belə halda, yəni üçüncü şəxslərlə əqdlər (müqavilələr) bağlanan zaman hüquqi şəxs kimi tam ortaqlıq üçün mülki hüquq və vəzifələr yaranır, dəyişir və ya xitam olunur. Bununla **nümayəndəlik (təsisçilik) münasibətləri** yaranır.

Tam ortaqlığın üçüncü şəxslərlə nümayəndəlik (təmsilçilik) münasibətləri üç üsulla həyata keçirilir. **Birinci üsula görə,** tam ortaqlığın hər bir iştirakçısı ortaqlıq adından və onun mənafeyi üçün fəaliyyət göstərir, onun işini aparır,

[1] Tam ortaqlığa xarici ölkələrin qanunvericiliyi də anlayış verir. Tam ortaqlıq şəxslərin müqaviləyə əsaslanan elə birliyidir ki, onun iştirakçıları ümumi vəsait hesabına sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar və qeyri-məhdud, birgə (solidar) məsuliyyət daşıyırlar. Bu cür anlayış Almaniya Ticarət Qanunnaməsindən (§ 105), Fransa Ticarət Məcəlləsindən (20-ci, 22-ci maddələr), Polşa Ticarət Məcəlləsindən (85-ci maddə) irəli gəlir.

[2] Bundan fərqli olaraq, Rusiyanın mülki qanunvericiliyinə görə, tam ortaqlıq iştirakçılar arasında bağlanmış müqavilə əsasında fəaliyyət göstərir. Onun nizamnaməsi olmur. Rusiyanın mülki qanunvericiliyinə görə, tam ortaqlığın əsasında müqavilə durur (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 69-70).

[3] Xarici ölkələrin (məsələn, Almaniyanın, Fransanın, Polşanın, İsveçrənin, RF-in və s.) qanunvericiliyinə görə, tam ortaqlıq nizamnamə əsasında yox, təsis müqaviləsi əsasında fəaliyyət göstərir. Həmin ölkələrin hüququna görə, tam ortaqlıqlar şəxslərin müqavilə birlikləri hesab edilir. Roma hüququ da müqaviləni (societas) ortaqlığın əsası sayırdı. Bizim ölkə qanunvericiliyinə görə, müqavilə yox, nizamnamə tam ortaqlığın fəaliyyətinin hüquqi əsası hesab edilir. Bu, bizdə təəccüb və anlaşılmazlıq doğurur. Qanunverici bu cür mövqe tutarkən, onun hansı mülahizəni əldə əsas tutması bizə bəlli deyil. Xarici ölkələrin qanunvericiliyinə görə, tam ortaqların müqavilə birlikləri olması göstərilmişdir: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 91.

[1] Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 166.

daha doğrusu üçüncü şəxslərlə əqdlər (müqavilələr) bağlayır. Məsələn, tam ortaqlığın dörd iştirakçısından hər biri hazırladığı məmulatları realizə etmək üçün dörd müxtəlif təşkilatla mal göndərmə (alqı-satqı) müqaviləsi bağlayır. Bu cür halda hər bir iştirakçı müqavilə bağlayarkən digər iştirakçıların qabaqcadan razılığını almağa borclu deyildir.

İkinci üsula görə, bütün iştirakçılar tam ortaqlığın işlərini birlikdə aparırlar. Bu cür halda üçüncü şəxslərlə hər hansı bir əqd bağlanarsa, ortaqlığın bütün iştirakçılarının qabaqcadan razılıq verməsi tələb edilir (MM-in 72-ci maddəsinin 2-ci bəndi). Bu üsuldan yalnız o halda istifadə oluna bilər ki, həmin üsul nizamnamədə nəzərdə tutulsun.

Üçüncü üsula görə, tam ortaqlığın ayrı-ayrı iştirakçılarından biri və ya bir neçəsi tapşırıq əsasında onun işlərini aparır, yəni işlərin aparılması iştirakçılarının birinə və ya bir neçəsinə tapşırılır. Bu cür tapşırıq nizamnamədə göstərilir. Belə halda qalan iştirakçıların əqdlərin bağlanmasına qabaqcadan icazə verməsi tələb olunmur. Bu cür halda yerdə qalan iştirakçılar ortaqlıq adından üçüncü şəxslərlə əqdlər bağlaya bilməzlər. Amma onların ortaqlıq adından əqdlər bağlamaq imkanı istisna olunmur, bu mümkündür. Bunun üçün həmin iştirakçıların etibarnamə almaları gərəkdir. Etibarnaməni isə o iştirakçı (iştirakçılar) verir ki, ona (onlara) tam ortaqlığın işlərinin aparılması tapşırılsın, işləri aparmaq üçün vəkalət verilsin (MM-in 72-ci maddəsinin 3-cü bəndi). Etibarnamə lazımi qaydada rəsmiləşdirilməlidir.

Bəzən tam ortaqlıq iştirakçısı üçüncü şəxslərlə əqd bağladığı hallarda tam ortaqlıq iddia edə bilər ki, onun adından bağlanmış əqd nizamnamə üzrə səlahiyyətləri məhdudlaşdırılan şəxs (iştirakçı) tərəfindən, yəni tam ortaqlıq adından fəaliyyət göstərmək hüququ məhdudlaşdırılan iştirakçı tərəfindən bağlanmışdır (məsələn, nizamnamədə göstərilir ki, tam ortaq üçüncü şəxslərlə qiyməti iki min manatdan yuxarı olan əqd bağlaya bilməz. Bununla onun səlahiyyəti məhdudlaşdırılır. Lakin buna baxmayaraq, tam ortaq üçüncü şəxslə qiyməti 3 min manat olan əqd bağlayır) və buna görə də həmin əqd etibarsız hesab edilməlidir. Tam ortaqlığın nizamnaməyə istinad etməklə və əsaslanmaqla iddia irəli sürməsinə baxmayaraq, üçüncü şəxslərlə bağlanan əqdlər etibarsız sayılmayacaqdır. Belə ki, tam ortaqlığın istənilən iştirakçısının onun adından üçüncü şəxslərlə bağladığı əqd etibarlıdır. Bu, ümumi qaydadır. Lakin mülki qanunvericilik bu qaydadan istisnaya yol verir. Belə ki, əgər əqd bağlandığı vaxt üçüncü şəxs ortaqlıq iştirakçısının ortaqlıq adından fəaliyyət göstərmək hüququ olmadığını bilərsə və ya bilməli olarsa, onda əqd etibarsız hesab edilə bilər. Bunun üçün həmin halın, yəni üçüncü şəxsin vicdansız olmasının sübut edilməsi və təsdiqlənməsi lazımdır. Sübut etmə yükünü tam ortaqlıq çəkir. O, göstərilən halı sübuta yetirsə, əqd etibarsız sayılacaqdır (MM-in 72-ci maddəsinin 4-cü bəndi).

Bəzi hallarda tam ortaqlığın işlərinin aparılmasının tapşırıldığı şəxs, yəni işlərin aparılması üçün vəkalət almış iştirakçı (bir neçə iştirakçı) işləri lazımınca aparmır, öz vəzifələrini kobudcasına pozur və ya işləri ağılla-başla aparmaq qabiliyyətinə malik olmurlar. Bu və ya digər ciddi hallar və əsaslar müəyyənləşdirildikdə, ortaqlıq iştirakçıları məhkəməyə müraciət edirlər. Məhkəmə iştirakçıya (bir neçə iştirakçıya) verilmiş səlahiyyətlərin ləğv edilməsi barədə qərar qəbul edir. Bu qərar əsasında ortaqlığın nizamnaməsində müvafiq dəyişikliklər edilir (MM-in 72-ci maddəsinin 5-ci bəndi). Bu yolla, tam ortaqlığın nizamnaməsi məhkəmə qaydasında dəyişilir. Məhkəmə qərarı qanuni qüvvəyə mindiyi andan nizamnamədə dəyişiklik edilmiş hesab edilir. Bu dəyişiklik dövlət qeydiyyatına alınır. Bu andan isə nizamnamədə edilən dəyişiklik üçüncü şəxslər üçün hüquqi qüvvəyə malik olur. Nizamnamədə edilən dəyişikliyin dövlət qeydiyyatına alınana kimi üçüncü şəxslər üçün hüquqi əhəmiyyət kəsb etməsindən söhbət gedə bilməz.

Beləliklə, biz müəyyənləşdirdik ki, nizamnamənin *şərtlərinə* uyğun olaraq tam ortaqlığın fəaliyyətində iştirak etmək, onun işlərini aparmaq (qanuni nümayəndə və ya təmsilçi olmaq) tam ortaqlıq iştirakçısının əsas və başlıca vəzifələrindən biri hesab olunur. Amma onun əsas vəzifəsi təkcə bununla kifayətlənmir və bitmir. Tam ortaqlıq iştirakçısının digər mühüm və vacib vəzifəsi onun **şərikli kapitalına nizamnamədə nəzərdə tutulan miqdarda əmlak payı verməkdən (maya qoymaqdan) ibarətdir.** Özü də o, bu vəzifəni tam ortaqlıq dövlət qeydiyyatına alınana kimi yerinə yetirməyə borcludur (MM-in 73-cü maddəsinin 2-ci bəndi). Həmin vəzifənin icra edilməsinin tam ortaqlığın dövlət qeydiyyatına alınması üçün həlledici əhəmiyyəti vardır. Belə ki, iştirakçı bu vəzifəni icra etməzsə, tam ortaqlıq dövlət qeydiyyatına alınmır.

Tam ortaqlıq iştirakçısının digər əsas *vəzifəsi* **tam ortaqlıq ilə rəqabətdən çəkinməkdən ibarətdir** (MM-in 73-cü maddəsinin 3-cü bəndi). Belə ki, iştirakçı öz adından, öz mənafeyi üçün və ya üçüncü şəxslərin mənafeyi üçün ortaqlığın fəaliyyət predmetini təşkil edən əqdlərlə eyni xarakterli əqdlər bağlaya bilməz. Lakin o, bu cür əqdlər bağlaya bilər. Bunun üçün vacibdir ki, tam ortaqlıq iştirakçısı qalan digər iştirakçıların qabaqcadan razılığını alsın.

Tam ortaqlıq iştirakçısının rəqabətdən çəkinməkdən ibarət olan bu cür vəzifəni yerinə yetirməməsi onun üçün xoşagəlməz və arzuolunmaz nəticələrə səbəb olur. Belə halda, yəni iştirakçı eyni xarakterli əqdlər bağlayarsa, tam ortaqlıq öz istəyi və mülahizəsi ilə mümkün olan iki alternativdən birini seçir (MM-in 73-cü maddəsinin 4-cü bəndi):

- ya iştirakçıdan ortaqlığa vurulmuş zərərin əvəzini ödəməyi tələb edir;
- ya iştirakçıdan bu cür əqdlər üzrə əldə etdiyi bütün faydanı ortaqlığa verməyi tələb edir.

Tam ortaqlıq iştirakçısının üzərinə qoyulan vəzifələrdən biri onun **başqa hər hansı bir tam ortaqlıqda iştirak etməməsindən** ibarətdir (MM-in 69-cu maddəsinin 2-ci bəndi). Başqa sözlər desək, tam ortaqlıq iştirakçısı (tam ortaq) tam ortaq qismində və rolunda iki və daha artıq müəssisədə çıxış edə bilməz. Onun tam ortaq rolunda yalnız bir müəssisədə iştirak etməsi mümkündür. Tam ortaqlıq iştirakçısı üzərinə bu cür vəzifə qoyulması tam ortaqlığın kreditorlarının *mənafeyinin təmin edilməsinə* yönəlir. Yeri gəlmişkən, bir sıra xarici ölkələrin (məsələn, Almaniyanın) qanunvericiliyi tam ortaqlıq iştirakçısına bu cür vəzifə həvalə edilməsini nəzərdə tutmur[1].

[1] Гражданское и торговое право капиталистических стран. Учебник / Под ред. *В.П.Мозолина, М.И.Кулагина*. М., 1980; Гражданское и торговое право капиталистических государств. Учебник / Отв. ред. *Р.Л.Нарышкина*. М., 1983; Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева* М., 1993.

Tam ortaqlıq iştirakçısının daşıdığı əsas vəzifələrdən biri **ortaqlığın öhdəlikləri (borcları) üçün mülki-hüquqi məsuliyyət daşımaqdan ibarətdir.** İştirakçı tam ortaqlığın öhdəlikləri (borcları) üzrə ona məxsus olan özünün **bütün şəxsi əmlakı ilə cavabdehdir.** Bu nə deməkdir? Bildiyimiz kimi, kreditorlara ortaqlığın borcları (öhdəlikləri) yarana bilər (məsələn, tam ortaqlıq bankdan kredit ala bilər və ya fəaliyyət göstərmək üçün alqı-satqı müqaviləsi əsasında başqa təşkilatdan nisyə mal ala bilər və s.). Bu borcların ödənilməsi, bir qayda olaraq, tam ortaqlığın şərikli kapitalı ilə təmin edilir. Şərikli kapital tam ortaqlığın fəaliyyəti üçün əmlak (maddi) bazası olmaqdan savayı, həm də kreditorlara olan borcların ödənilməsi üçün təminat rolunu oynayır.

Borcunu almaq üçün kreditorlar əvvəlcə hüquqi şəxs kimi tam ortaqlığa tələb irəli sürürlər. Bəzi hallarda kreditorlara olan borcların ödənilməsi barədə bu cür tələbləri təmin etmək üçün tam ortaqlığın nizamnamə kapitalı, ümumiyyətlə, əmlakı kifayət etmir və çatışmır. Belə halda, şübhəsiz ki, kreditorların tələblərini ödəmək mümkün deyil. Onda kreditorlar tam ortaqlıq iştirakçılarına (tam ortaqlara) tələblər irəli sürür. İştirakçılar özlərinin şəxsi əmlakı hesabına bu tələbləri təmin edir. Mülki hüquqda mülki-hüquqi məsuliyyətin bu növünə **subsidiar (əlavə) məsuliyyət** (latınca «subsidiarius» - ehtiyat, yardımçı) deyilir[1]. Bu məsuliyyətə görə kreditor əvvəlcə əsas borcluya — tam ortaqlığa tələb irəli sürür və əgər bu tələb ödənilməzsə, əlavə məsuliyyət daşıyan şəxsə — iştirakçılara (tam ortaqlara) tələb irəli sürür. Deməli, tam ortaqlıq iştirakçılarının onun öhdəlikləri (borcları) üzrə məsuliyyəti subsidiar məsuliyyətdir. Bu məsuliyyət onun əsas və başlıca fərqləndirici cəhətlərindən biridir. Həmin məsuliyyət növü imkan verir ki, tam ortaqlığın kreditorlara olan borcları tam ortaqlığın özünün əmlakı (şərikli kapitalı) və əlavə olaraq iştirakçıların (tam ortaqların) əmlakı hesabına ödənilsin. Bu cəhət yəni, hüquqi şəxs kimi tam ortaqlığın özünün əmlakı (şərikli kapitalı) ilə onun iştirakçılarının (tam ortaqların) malik olduqları şəxsi əmlakın əlaqəsi tam ortaqlığı əmtəə dövriyyəsinin etibarlı və inanılmış subyektinə çevirir. Çünki tam ortaqlığın kreditorlarının tələbləri nəinki onun əmlakı (şərikli kapitalı) ilə, həmçinin iştirakçıların şəxsi əmlakı ilə təmin edilir. Buna görə də tam ortaqlığın bankdan kredit alması xüsusi çətinliklə bağlı olmur, kommersiya partnyorları arasında etimad qazanır və s. Məhz bu səbəbdən tam ortaqlığın şərikli kapitalı barədə hər hansı bir xüsusi tələb nəzərdə tutulmur.

İştirakçıların şəxsi əmlakı hesabına öz borcunu təmin etmək üçün kreditor öz istəyi və mülahizəsi ilə **ya bütün iştirakçıların hamısına birgə, ya da ki istənilən iştirakçıdan hər birinə ayrılıqda tələb irəli sürə bilər.** Özü də kreditorun borcun həm tam, həm də hissə-hissə ödənilməsini tələb etmək hüququ vardır. Sivilistikada mülki-hüquqi məsuliyyətin bu növünə **birgə və ya solidar məsuliyyət** deyilir (latınca «solidius» — tam, bütöv)[2]. Deməli, tam ortaqlıq iştirakçılarının onun öhdəlikləri üzrə məsuliyyəti həm də birgə (solidar) məsuliyyətdir. Bu da tam ortaqlığın əsas fərqləndirici xüsusiyyətlərindən biridir. Fikrimizi yekunlaşdıraraq qeyd edə bilərik ki, tam ortaqlıq iştirakçıları onun öhdəlikləri (borcları) üzrə birgə subsidiar məsuliyyət daşıyırlar (MM-in 75-ci maddəsinin 1-ci bəndi). Bu cür məsuliyyət **(qeyri-məhdud şəxsi məsuliyyət)** iştirakçılardan birinin hərəkətinə görə (məsələn, əqd bağlamasına görə və s.) digər iştirakçının cavab verməsini, özü də bütün şəxsi əmlakı ilə cavab verməsini nəzərdə tutur. Buna görə də tam ortaqlıq iştirakçıları arasında qarşılıqlı münasibətlər şəxsi etimada əsaslanan əlaqələrdir.

Elə hallar olur ki, müvafiq şəxs tam ortaqlığın təsis edilməsində iştirak etmir, yəni tam ortaqlığın təsisçisi olmur. Tam ortaqlıq təsis edildikdən sonra, yəni dövlət qeydiyyatına alındıqdan xeyli müddət keçdikdən sonra bu şəxs həmin ortaqlığa daxil ola bilər. Şübhəsiz ki, bu müddətə kimi tam ortaqlıq mülki hüquq münasibətlərinə (məsələn, kredit, borc, nisyə alqı-satqı və digər münasibətlərə) girir və bu münasibətlərdən öhdəliklər (borclar) yaranır. Tam ortaqlığa daxil olmuş yeni iştirakçı bu cür öhdəliklərə, yəni ortaqlığa daxil olmamışdan əvvəl yaranmış öhdəliklərə görə məsuliyyət daşıyırmı? Bu suala cavab verərək mülki qanunvericilik göstərir ki, yeni iştirakçı bu cür öhdəliklər üzrə **digər iştirakçılarla bərabər məsuliyyət daşıyır** (MM-in 75-ci maddəsinin 2-ci bəndi). Yeni iştirakçının məsuliyyəti tam ortaqlıq təsis edildiyi andan əmələ gələn bütün öhdəliklərə şamil edilir.

Bəzən iştirakçı tam ortaqlığın tərkibindən çıxır. Belə hal iştirakçının birgə məsuliyyət daşımasına dərhal xitam verilməsinə səbəb olmur. Başqa sözlə desək, iştirakçının tam ortaqlığın tərkibindən çıxması ilə o, dərhal mülki-hüquqi məsuliyyətdən azad olunmur. Əgər belə olsaydı, onda bu hal kreditorların hüquqlarına xələl gətirərdi. Buna görə də mülki qanunvericiliyin müəyyən etdiyi qaydaya görə, ortaqlıqdan çıxmış iştirakçı, çıxma anınadək ortaqlığın əmələ gəlmiş bütün öhdəlikləri üzrə yerdə qalan digər iştirakçılarla bərabər məsuliyyət daşıyır (MM-in 75-ci maddəsinin 3-cü bəndi). Özü də dərhal qeyd etməliyik ki, ortaqlıqdan çıxan iştirakçı ortaqlığın bütün fəaliyyət müddəti ərzində yox, yalnız iki il ərzində həmin öhdəliklər üzrə cavabdehdir. Bəs iki il müddəti nə vaxtdan hesablanır? Onun axını hansı müddətdən başlayır? Bildiyimiz kimi, hər il tam ortaqlığın fəaliyyəti barəsində hesabat təsdiq olunur. Hesabat, söz yox ki, iştirakçının ortaqlıqdan çıxdığı il üçün də təsdiqlənir. İki il müddəti də məhz bu təsdiqetmə günündən hesablanır və başlayır.

Göstərilən bu qaydanın əmtəə dövriyyəsinin sabitliyi və möhkəmliyi üçün mühüm əhəmiyyəti vardır. Kreditor tam ortaqlıq ilə mülki hüquq münasibətinə (məsələn, kredit münasibətinə və s.) girərkən hesablayır və nəzərdə tutur ki, tam ortaqlığın tərkibi (iştirakçıları) müəyyən müddət üçün mövcuddur və buna uyğun olaraq onun tələblərinin təmin olunması üçün real imkan vardır.

Tam ortaqlıq iştirakçılarının onun öhdəlikləri üzrə məsuliyyəti barədə normalar imperativ xarakter daşıyır. Bu normalar iştirakçıların razılığı ilə dəyişdirilə və ya xitam oluna bilməz. Əgər onlar bu barədə razılığa gələrək saziş bağlasalar, onda həmin sazişin hüquqi qüvvəsi olmayacaqdır. O, hüquqi əhəmiyyət kəsb etməyəcəkdir (MM-in 75-ci maddəsinin 4-cü bəndi).

Məhz birgə subsidiar məsuliyyətə görə **tam ortaqlıq iştirakçıları tam ortaqlığın əsl və həqiqi adını göstərməlidirlər.** Bu, onların daşıdığı əsas vəzi-

[1] Subsidiar məsuliyyəti mülki-hüquqi məsuliyyətin növlərindən biridir. Onun leqal anlayışı və əsas cəhətləri MM-in 453-cü maddəsində nəzərdə tutulur. Bu məsuliyyət barədə dərsliyin «Mülki-hüquqi məsuliyyət» adlı fəslində söhbət açılır.

[2] Mülki məsuliyyətin bu növünün əsas cəhətləri MM-in 500-505-ci maddələrində göstərilir. Bu barədə dərsliyin «Mülki-hüquqi məsuliyyət» adlı fəslində geniş söhbət açılır.

fələrdən biridir. Belə ki, tam ortaqlığın firma adına onun bütün iştirakçılarının adları və «tam ortaqlıq» sözləri daxil edilməlidir (MM-in 69-cu maddəsinin 3-cü bəndi). Başqa variantdan da istifadə oluna bilər. Bu cür halda tam ortaqlığın iştirakçılarından (tam ortaqlardan) birinin və ya bir neçəsinin adı firma adına daxil edilir və «tam ortaqlıq» sözü əlavə olunur. Məsələn, elə hesab edək ki, tam ortaqlardan birinin adı «Qədiroğlu»dur. Onda tam ortaqlıq belə adlanır: tam ortaq «Qədiroğlu və tam ortaqlıq».

Nə üçün firma adına tam ortaqlıq iştirakçılarının adı (adları) və «tam ortaqlıq» sözləri daxil edilir? Ona görə ki, tam ortaqlıqla mülki hüquq münasibətinə girmək istəyən kontragent (qarşı müqabil tərəf) bu ad əsasında özünün gələcəkdə mümkün ola biləcək tələblərinin həm ortağın əmlakı (şərikli kapitalı), həm də iştirakçılardan hər birinin şəxsi əmlakı hesabına təmin edilə biləcəyini müəyyənləşdirir. Bu ad əsasında o təyin edir ki, tam ortaqlıq ödəmə qabiliyyətinə və imkanına malikdir.

Tam ortaqlıq iştirakçısının daşıdığı vəzifələrdən biri **tam ortaqlığın düşdüyü zərərin bölüşdürülməsində iştirak etməkdən ibarətdir** (MM-in 74-cü maddəsi). Belə ki, tam ortaqlıq iştirakçıları sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərdir. Sahibkarlıq fəaliyyəti isə həmişə yüksək əmlak riski ilə bağlı olur. Məhz bu səbəbdən tam ortaqlıq sahibkarlıq fəaliyyətini həyata keçirərkən zərərə düşə bilər. Bu zərər iştirakçılar arasında bölüşdürülür. Zərərin bölüşdürülməsi qaydası nizamnamə və ya tərəflərin sazişində müəyyən edilməzsə, onda zərər iştirakçılar arasında onların **şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür.** Zərərin bölüşdürülməsində iştirak etmək vəzifəsini istisna edən saziş etibarsızdır. Ortaqlıq iştirakçısını bu cür iştirak etməkdən kənarlaşdırmaq barədə sazişin hüquqi əhəmiyyəti yoxdur.

Tam ortaqlıq iştirakçısı **vəzifələr daşımaqla bərabər, həm də hüquqlara malikdir. Mənfəət bölgüsündə iştirak etmək** onun əsas hüquqlarından biri hesab edilir. Tam ortaqlıq kommersiya təşkilatı olduğu üçün onun əsas fəaliyyət məqsədi mənfəət götürməkdən və bu mənfəəti iştirakçılar arasında bölüşdürməkdən ibarətdir.

Tam ortaqlığın əldə etdiyi mənfəətin bölüşdürülməsi qaydası, adətən, ya nizamnamə ilə, ya da ki iştirakçıların digər sazişi ilə müəyyənləşdirilir. Mülki qanunvericilik bu qaydanın müəyyənləşdirilməsini iştirakçıların öz öhdəsinə buraxır. Əgər nizamnamədə və ya iştirakçıların digər sazişində bölgü haqqında qayda müəyyənləşdirilməzsə, onda tam ortaqlığın mənfəəti iştirakçılar arasında onların **şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür.** Özü də tam ortağı (iştirakçını) mənfəət bölgüsündə iştirak etməkdən kənarlaşdırmaq olmaz. İştirakçıların bu barədə hər hansı bir sazişi etibarsız olub, hüquqi əhəmiyyət kəsb etmir (MM-in 74-cü maddəsinin 1-ci bəndi).

Bəzi hallarda ortaqlığın götürdüyü mənfəət onun iştirakçıları arasında bölünmür. Belə ki, tam ortaqlıq ziyanla işləyir və zərərə düşür. Bunun nəticəsində tam ortaqlığın xalis aktivlərinin dəyəri onun şərikli kapitalının miqdarından az olur. **Xalis aktiv, aktiv məbləği ilə passiv məbləği arasında fərqdən ibarətdir.** Bu cür halda mənfəət iştirakçılar arasında bölüşdürülmür. Nə vaxt ki xalis aktivlərin dəyəri artıb şərikli kapitalın miqdarını ötüb keçəcəkdir, onda mənfəətin bölüşdürülməsinə başlanır (MM-in 74-cü maddəsinin 2-ci bəndi).

İştirakçının **istənilən vaxt tam ortaqlıqdan çıxmaq hüququ vardır** (MM-in 77-ci maddəsi). O, bu hüququ ortaqlıqda iştirak etməkdən imtina etdiyini bildirməklə həyata keçirir. Bunun üçün onun hər hansı bir dəlil-səbəb, arqument-motiv gətirməsi tələb olunmur, yəni iştirakçı tam ortaqlıqdan çıxmanın səbəblərini göstərməyə borclu deyildir.

İştirakçı tam ortaqlıqdan çıxmaq üçün həmin ortaqlıqda **iştirakdan imtina haqqında bildiriş (məlumat)** verir. Bildiriş (məlumat) iştirakçının ortaqlıqdan faktiki çıxmasına ən geci altı ay qalmış verilir.

Tam ortaqlıqdan çıxmaq hüququ iştirakçının ayrılmaz hüququdur. Ona görə də iştirakçını bu hüquqdan məhrum edən hər hansı bir saziş etibarsızdır. Onun hüququ əhəmiyyəti olmur (MM-in 77-ci maddəsinin 3-cü bəndi).

Tam ortaqlıq iştirakçısının ortaqlıqdan çıxmasına əsas olan hallarn üzrlü olub-olmamasını qanun nəzərdə tutmur və tələb etmir. Bu, o deməkdir ki, iştirakçı üzrlü səbəb olub-olmamasından asılı olmayaraq tam ortaqlıqdan çıxa bilər.

Bəzi hallarda iştirakçı öz istəyi ilə könüllü surətdə tam ortaqlıqdan çıxmır. Belə ki, o, **məcburi surətdə ortaqlıqdan** çıxarılır. Bunun üçün ciddi əsasların olması tələb edilir (MM-in 76-cı maddəsinin 2-ci bəndi). Bu cür əsaslara iştirakçının öz vəzifələrini kobudcasına pozması, onun işləri ağılla, bacarıqla və düzgün aparmağa qadir olmaması kimi və digər halları misal göstərmək olar. Bu və ya digər ciddi əsaslar olduqda, qalan iştirakçılar həmin iştirakçıların ortaqlıqdan çıxarılması barədə yekdilliklə (səs çoxluğu ilə yox) qərar çıxarırlar. Sonra isə məhkəməyə müraciət olunur. Çünki iştirakçı yalnız məhkəmə qaydasında ortaqlıqdan çıxarıla bilər. Məhkəmə işə baxaraq, kifayət qədər əsaslar olduqda iştirakçının tam ortaqlıqdan çıxarılması barədə qərar qəbul edir.

İştirakçının tam ortaqlıqdan çıxması müəyyən hüquqi nəticələrə səbəb olur (MM-in 78-ci maddəsi). Belə ki, tam ortaqlıqdan çıxmış iştirakçıya, **həmin iştirakçının şərikli kapitaldakı payına uyğun əmlak hissəsinin dəyəri ödənilir.** Nizamnamədə ayrı qayda da nəzərdə tutula bilər. Bəzi hallarda çıxan iştirakçı əmlak dəyərinin ödənilməsi ilə razılaşmır. Onda başqa variantdan da istifadə oluna bilər. Belə ki, bu varianta görə, çıxan iştirakçının tələbi əmlak dəyərinin ödənilməsi ilə yox, **əmlakın naturada verilməsi ilə təmin edilir.** Amma həmin variantın tətbiq edilməsi üçün çıxan iştirakçı ilə qalan iştirakçıların razılığa gəlmələri tələb olunur. Əgər bu cür razılıq olmazsa, çıxan iştirakçıya əmlakın naturada verilməsindən söhbət gedə bilməz. Çıxan iştirakçıya naturada verilən əmlak hissəsi və ya onun dəyəri müəyyənləşdirilərkən iştirakçının ortaqlıqdan çıxdığı məqamda tərtib edilən balans əsas kimi götürülür. Onlar bu balans üzrə təyin edilir.

Göstərilən bu qayda tam ortaqlığın iştirakçısı öldükdə, onun vərəsəsi ilə və ya tam ortaqlıqda iştirak etmiş və yenidən təşkil edilmiş hüquqi şəxsin hüquqi varisi ilə hesablaşmalarda da tətbiq edilir. Belə ki, vərəsə (və ya hüquqi varis) ya əmlak hissəsinin dəyərini alır, ya da ki ona əmlak naturada verilir. Bəzən vərəsə (və ya hüquqi varis) ölmüş iştirakçının əvəzinə (yenidən təşkil olunmuş hüquqi şəxsin əvəzinə) tam ortaqlığın fəaliyyətində iştirak etmək niyyətində olur. Həmin məqsədlə onun (və ya hüquqi varisin) ixtiyarı var ki, tam ortaqlığa daxil olsun. Bunun üçün digər iştirakçıların razılıq vermələri gərəkdir. Əgər bu cür razılıq olmazsa, vərəsə (və ya hüquqi varis) tam ortaqlığa daxil edilmir.

Belə halda vərəsəyə (və ya hüquqi varisə), yuxarıda dediyimiz kimi, tam ortaqlıq əmlakından çatası hissə verilir və ya onun dəyəri ödənilir.

Vərəsə (və ya hüquqi varis) tam ortaqlığa daxil olduğu hallarda, vərəsə (və ya hüquqi şəxs) tam ortaqlığın öhdəlikləri üzrə ölmüş iştirakçıdan (yenidən təşkil olunmuş hüquqi şəxsdən) ona keçmiş əmlak həddində məsuliyyət daşıyır. Vərəsə (və ya hüquqi varis) tam ortaqlığa daxil olmadığı hallarda da ona keçmiş əmlak həddində yalnız iki il ərzində tam ortaqlığın öhdəliklərinə görə cavabdehdir.

Tam ortaqlıq iştirakçısının onun **şərikli kapitaldakı payını başqa şəxslərə vermək hüququ** vardır (MM-in 79-cu maddəsi). Başqa şəxs dedikdə, tam ortaqlığın digər hər hansı iştirakçısı və ya üçüncü şəxs başa düşülür. Özü də o, həm şərikli kapitaldakı öz payının hamısını, həm də bu payın yalnız bir hissəsini vermək hüququna malikdir.

Şərikli kapitaldakı payın (pay hissəsinin) verilməsi dedikdə, bu payın özgəninkiləşdirilməsi başa düşülür. Bunun üçün tam ortaqlığın qalan digər iştirakçılarının razılıq vermələri gərəkdir. Əgər onlar razılıq verməsələr, tam ortaqlıq iştirakçısının şərikli kapitaldakı payı (pay hissəsi) özgəninkiləşdirilə bilməz, yəni başqa şəxslərə verilə bilməz.

Pay (pay hissəsi) müxtəlif hüquqi vasitələr əsasında özgəninkiləşdirilir. Söhbət, hər şeydən əvvəl, alqı-satqı, dəyişmə və bağışlama müqaviləsi kimi hüquqi konstruksiyalardan gedir. Bu konstruksiyalar əsasında payın hamısı özgəninkiləşdirildikdə, payı vermiş iştirakçının nizamnamə üzrə malik olduğu hüquqlar və daşıdığı vəzifələrin hamısı payı almış (əldə etmiş) şəxsə keçir. Özü də yeni iştirakçı tam ortaqlığın əmələ gəlmə müddətindən asılı olmayaraq, bütün öhdəliklər üzrə məsuliyyət daşıyır. Pay hissəsi başqa şəxsə verildikdə isə iştirakçının malik olduqları hüquqların hamısı yox, yalnız bu hüquqların bir hissəsi ona keçir. Ona görə də yeni iştirakçı onun ortaqlığa daxil olmasından əvvəl gəlmiş öhdəliklər üzrə yalnız ona keçmiş pay hissəsi həddində məsuliyyət daşıyır.

Ortaqlıq iştirakçısı özünün bütün payını özgəninkiləşdirdiyi hallarda, onun ortaqlıqda iştirakına xitam verilir və bununla ortaqlıqdan həmin iştirakçı çıxır. Çıxan iştirakçı tam ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə iki il müddəti ərzində məsuliyyət daşıyır (MM-in 75-ci maddəsinin 3-cü bəndi, 79-cu maddəsinin 3-cü bəndi).

Tam ortaqlıq **müxtəlif əsaslara** görə ləğv edilə bilər. Bu əsasları iki yerə bölmək olar: ümumi əsaslar; xüsusi əsaslar. **Ümumi əsaslar** MM-in 59-cu maddəsində nəzərdə tutulan və göstərilən hallardan ibarət olan hüquqi faktlardır. Bu cür əsaslara tam ortaqlığın mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması, qarşıya qoyulan məqsədə nail olunması, qanunvericilik pozuntusu ilə bağlı olaraq tam ortaqlığın dövlət qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması, lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət göstərilməsi və digər halları misal göstərmək olar.

Xüsusi əsaslar odur ki, bu əsaslar yalnız tam ortaqlığın ləğvi üçün xarakterikdir. Bu cür əsasların dairəsi isə kifayət qədər genişdir.

Tam ortaqlığın ləğv edilməsinə səbəb olan xüsusi əsaslardan biri **tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsi halı** hesab edilir (MM-in 76-cı maddəsi). Özü də dərhal qeyd edirik ki, yalnız əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların sazişində ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa, həmin hal tam ortaqlığın ləğvinə səbəb olur. Yox əgər, nəzərdə tutulubsa, tam ortaqlıq ləğv olunmur və o, öz fəaliyyətini davam etdirə bilər.

Tam ortaqlıq iştirakçılarının tərkibi müxtəlif əsaslara görə dəyişdirilə bilər. Onların əhatə dairəsi kifayət qədər genişdir. Bu cür əsaslara aiddir: tam ortaqlıq iştirakçısının ortaqlıqdan çıxması; iştirakçının ölməsi (hüquqi şəxsin ləğvi); iştirakçılardan birinin xəbərsiz itkin düşməsi; iştirakçılardan birinin fəaliyyət qabiliyyəti olmayan sayılması; iştirakçılardan birinin məhdud fəaliyyət qabiliyyətli olması; iştirakçılardan birinin müflis elan edilməsi; məhkəmə qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil etmə prosedurasının başlanması.

Tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsinə dəlalət edən əsaslardan biri bu və ya digər iştirakçının **şəxsi borcları üzrə kreditorun tələb irəli sürməsi halından** ibarətdir (MM-in 76-cı və 80-ci maddəsi). Belə ki, tam ortaqlıq iştirakçısının müəyyən hallarda şəxsi borcları yarana bilər. Məsələn, o, öz ailə-məişət ehtiyacları üçün öz qonşusundan borc pul ala bilər və yaxud başqa misalda özü üçün dükandan nisyə geyim şeyləri, məişət predmetləri və ev avadanlıqları alır və s.

Beləliklə, onun şəxsi borcları yaranır. Şəxsi borclar iştirakçının tam ortaqlığın fəaliyyəti ilə, onun həmin ortaqlıqda iştirak etməsi ilə bağlı olmayaraq yaranan borclardır. Elə hallar olur ki, maddi imkanı olmadığına görə tam ortaqlıq iştirakçısı şəxsi borcları kreditorlara ödəyə bilmir. Söhbət, hər şeydən əvvəl, onun əmlakının şəxsi borclarını ödəməyə kifayət etmədiyindən gedir. Belə halda **kreditorun tələbi tam ortaqlıq iştirakçısının şərikli kapitaldakı payına uyğun gələn əmlak hissəsinə yönəlir.** Kreditor bunun üçün əmlak hissəsinin ayrılmasını tələb edir. Bu hissə hesabına və ya onun dəyəri hesabına kreditora olan borclar ödənilir. Bunun nəticəsində tam ortaqlıq iştirakçısının bu ortaqlıqda iştirakına xitam verilir. O, iki il müddətində tam ortaqlığın əmələ gəlmiş öhdəlikləri üzrə məsuliyyət daşıyır.

Tam ortaqlıq iştirakçısının göstərilən qaydada tam ortaqlıqdan çıxması (onun ortaqlıqda iştirakına xitam verilməsi), əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa, tam ortaqlığın ləğvinə səbəb olur.

Tam ortaqlığın ləğvinə səbəb olan xüsusi əsaslardan biri ortaqlıqda **təkcə bir iştirakçının qalması halı** hesab edilir (MM-in 81-ci maddəsinin 2-ci bəndi). Hamımıza bəllidir ki, tam ortaqlıq öz təbiətinə görə şəxslər birliyi deməkdir. Bu isə o deməkdir ki, tam ortaqlıq iştirakçılarının tərkibi yalnız bir şəxsdən (iştirakçıdan) ibarət ola bilməz: burada ən azı iki şəxs iştirak etməlidir. Əgər tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsi (məsələn, iştirakçının ölməsi və ya ortaqlıqdan çıxması, hüquqi şəxsin ləğv edilməsi və s.) nəticəsində ortaqlıqda bir iştirakçı qalarsa, tam ortaqlıq ləğv edilir. Xarici ölkələrin qanunvericiliyində nəzərdə tutulan **«bir şəxsin kompaniyası» konstruksiyası təsərrüfat ortaqlıqları üçün yaddır.**

Lakin tam ortaqlıqda yeganə iştirakçı kimi qalan şəxs başqa variantdan da istifadə edə bilər. Belə ki, o, sahibkarlıq fəaliyyətini davam etdirmək niyyətində

olarsa, **ortaqlığı təsərrüfat cəmiyyətinə çevirə bilər.** Qanun ona bu cür hüquqi imkan verir. Özü də ortaqlıqda yeganə iştirakçı kimi qalan şəxsə ortaqlığı təsərrüfat cəmiyyətinə çevirmək üçün **altı aylıq güzəştli müddət** verilir. Bu müddət ərzində o, vəziyyəti qaydaya salaraq, həmin məsələni həll etmək üçün müvafiq tədbirlər görür.

Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə tam ortaqlıqlar geniş yayılmamışdır. Onlar, bir qayda olaraq, 2-3 nəfərdən ibarət olan ailə birlikləri hesab edilir. Məsələn, Fransada 1986-cı ilə kimi cəmisi 17 998, İsveçrədə isə 1988-ci ilə kimi 13 980 tam ortaqlıq qeydə alınmışdır[1]. Tam ortaqlıq təşkilati-hüquqi forması bizim ölkədə də geniş yayılmamışdır. Bunun əsas səbəbi tam ortaqlığın əmlakı ilə onun iştirakçılarının əmlakının sıx bağlı və əlaqəli olmasındadır, yəni iştirakçıların öz şəxsi əmlakı ilə qeyri-məhdud məsuliyyət daşımalarındadır.

Bizim ölkə qanunvericiliyinin tam ortaqlıq barədə müəyyənləşdirdiyi normalar xarici ölkələrin (Almaniyanın, RF-in və s.) qanunvericilik ənənələrinə əsaslanır.

5. Kommandit ortaqlığı

Kommandit (italyanca «commandare» — saxlanca vermək) ortaqlığı təsərrüfat ortaqlığının digər formasıdır (növüdür). Bu konstruksiya xarici ölkələrin müasir hüququna xeyli vaxtdır ki, məlumdur[2]. Məsələn, Almaniya Ticarət Qanunnaməsinin ikinci kitabının ikinci bölməsi «Kommandit ortaqlığı» adlanır[3]. Burada həmin konstruksiyanı tənzimləyən normalar birləşdirilmişdir[4]. Onu inqilabaqədərki Rusiya mülki qanunvericiliyi də tanıyırdı[5].

Kommandit ortaqlıqların yaranma tarixi orta əsr Avropa dövrünə gedib çıxır. Onlar dəniz ticarəti sahəsində tacirlər (sahibkarlar) tərəfindən əqdlər bağlanmasının üsulu kimi əmələ gəlmişdir. Belə ki, başqa şəxslər xüsusi olaraq ticarət əqdləri bağlamaq məqsədilə həmin tacirlərə kapital (əmlak) verirdilər. Sonralar kommandit ortaqlıqdan professional kommersant statusu olmayan şəxslər (zadəganlar, kilsə nümayəndələri) sahibkarlıq mənfəəti əldə etmək məqsədi üçün istifadə etməyə başladılar. Bu, ən əlverişli hüquqi vasitə idi. Belə ki, kommandit ortaqlıq konstruksiyası professional kommersant olmayan şəxslərin (maya qoyanların, payçıların) kapitallarını ticarət işinin aparılmasına cəlb etməyə imkan verirdi. Özü də maya qoyanların (payçıların) adı gizli (anonim) saxlanılırdı[6]. Bu cəhət professional sahibkarlara (tacirlərə) imkan verirdi ki, onların yaratdığı ticarət müəssisəsinə zadəganlar və kilsənin iri kapitalı cəlb edilsin və maya kimi ticarət işinə qoyulsun. Zadəganlar və kilsə nümayəndələri qoyduqları kapitala görə mənfəət götürürdülər. Adlarının gizli (anonim) saxlanması heç kəsə imkan vermirdi ki, onları sələmçilikdə və müamilələrdə təqsirləndirsinlər və ittiham etsinlər. Bütün bunların hamısı tacirlərin yaratdıqları öz ticarət müəssisəsinə tam nəzarət etmək imkanının saxlanmasına mane olmurdu. Özü də kommandit ortaqlığı tam ortaqlıqdan xeyli əvvəllər yaranmışdır. Onun ilk dəfə olaraq adının çəkilməsi 976-cı ilə (Venesiya) təsadüf edir. Amma kommandit ortaqlıqları yalnız XII əsrdən geniş yayılmağa başlayır.

Bizim ölkə qanunvericiliyi kommandit ortaqlığı kommersiya təşkilatlarının — təsərrüfat ortaqlıqlarının bir növü kimi nəzərdə tutur. MM-in 82-86-cı maddələri bu hüquqi konstruksiyanın tənzimlənməsinə həsr edilmişdir. Özü də bizim ölkə qanunvericiliyinin kommandit ortaqlıq barədə müəyyən etdiyi qaydalar bir sıra xarici ölkələrin — Almaniyanın, RF-in və s. qanunvericilik ənənələrinə əsaslanır. Hələ «Müəssisələr haqqında» qanun (1994) ilk dəfə olaraq kommandit ortaqlıqlara anlayış verərək, onun hüquqi vəziyyətini müəyyənləşdirirdi. Həmin qanunun 9-cu maddəsi onların əsas cəhətlərini xarakterizə edən müddəalar ifadə edirdi. Burada kommandit ortaqlıq «payçı və şərikli müəssisə» anlayışı ilə əhatə edilmişdi.

MM-in 82-ci maddəsinin 1-ci bəndi kommandit ortaqlığının leqal anlayışını formulə edir. Bu anlayışda onun mahiyyətini xarakterizə edən əsas əlamət və cəhətlər ehtiva olunur.

Kommandit ortaqlığı odur ki, o, iki qrup şəxsdən, yəni ortaqlıq adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz şəxsi əmlakı ilə məsuliyyət daşıyan iştirakçılardan — tam ortaqlardan (bunlar birinci qrup şəxslər hesab edilir), habelə ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən və ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risq daşıyan bir və ya bir neçə iştirakçıdan — maya qoyandan (bunlar ikinci qrup şəxslər sayılır) ibarətdir. Mahiyyətcə buna bənzər və oxşar (analoji) definisiyanı (tərifi) xarici ölkələrin qanunvericiliyi də verir. Özü də həmin ölkələrin qanunvericiliyi kommandit ortaqlığa anlayış verərkən çox vaxt maya qoyanların (payçıların) adlarının gizli (anonim) saxlanılması qaydasını nəzərdə tutur[1].

Kommandit ortaqlığa verilən anlayış onun əsas cəhət və xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir. Onun əsas və başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, özündə iki kateqoriya, başqa sözlə desək, **iki qrup iştirakçını birləşdirir: tam ortaqları; maya qoyanları.** Bu qrup iştirakçıların hüquqi vəziyyəti müxtəlif olub, bir-birindən fərqlənir.

Tam ortaqlar kommandit ortaqlığın elə qrup iştirakçılarıdır ki, bu iştirakçılar ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirirlər. Onlar kommersiya dövriyyəsinin professional iştirakçıları — sahibkarlardır. Bu sahibkarlara **komplementariyalar** deyilir. Kommandit ortaqlığında iştirak edən tam ortaq rolunda yalnız fərdi sahibkarlar və ya kommersiya təşkilatları çıxış edə bilər. Tam ortaqlar ortaqlığın **öhdəlikləri üzrə qeyri-məhdud məsuliyyət daşıyırlar.** Belə ki, qanun onların üzərində tam ortaqlığın iştirakçıları olan tam ortaq-

[1] bax: Основные институты гражданского права зарубежных стран. Сравнительно - правовое исследование / Под ред. *В.В.Залесского*. М., 1999, с. 91.

[2] bax: Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 96-103.

[3] Kommandit ortaqlığı almanca «Kommanditgessellschaft», ingiliscə «limited partnership», fransızca «societe en commandite» adlanır (*А.Тынель, Я.Функ, В.Хвалей*. Курс международного торгового права. Учебник. Минск. 2000, с. 85).

[4] bax: Германское право. Часть 2. Торговое уложение и другие законы. М., 1994.

[5] bax: *Шершеневич Г.Ф.* Курс торгового права. Том 1. СПб, 1908, с. 365-366.

[6] Maya qoyanların (payçıların) adının gizli saxlanılması qaydası hazırda bəzi xarici ölkələrin qanunvericiliyində nəzərdə tutulur (bax: Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 90).

[1] Гражданское, торговое и семейное право капиталистических стран. Сборник нормативных актов. Законодательство о компаниях, монополиях и конкуренции. М., 1987; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 90.

lar kimi analoji məsuliyyət qoymuşdur (MM-in 82-ci maddəsinin 1-ci bəndi). Deməli, kommandit ortaqlığında iştirak edən tam ortaqların bu ortaqlığın öhdəliklərinə görə kreditorlar qarşısında cavabdehliyi **birgə subsidiar məsuliyyətdir.**

Kommandit ortaqlığında iştirak edən tam ortaqlar hüquqi vəziyyətinə görə tam ortaqlıq iştirakçılarının eynidir (MM-in 82-ci maddəsinin 2-ci bəndi). Məhz bu səbəbdən onlar, tam ortaqlıq iştirakçıları kimi, kommandit ortaqlığında idarəetməni həyata keçirirlər, onların işlərini aparırlar.

Kommandit ortaqlığının ikinci qrup (kateqoriya) iştirakçısı **maya qoyanlar** adlanır. Onlara **payçılar** da deyilir. Maya qoyanlar ortaqlığın sahibkarlıq fəaliyyətində bilavasitə iştirak etmir və kommersiya dövriyyəsinin professional subyektı — sahibkar hesab olunmurlar. Bu səbəbdən **istənilən fiziki və hüquqi şəxs maya qoyan rolunda çıxış edə bilər.** Onlar ortaqlığa kapital (əmlak) — maya qoyurlar ki, ortaqlığın həyata keçirdiyi sahibkarlıq fəaliyyətindən mənfəət götürsünlər. Məhz mənfəət əldə etmək şansı və niyyəti maya qoyanları ortaqlıq iştirakçısı olmağa sövq edir. Amma onlar tam ortaqlardan fərqli olaraq, **kommandit ortaqlığın idarə edilməsində və işlərinin aparılmasında iştirak etmirlər.** Maya qoyanların ixtiyarı yoxdur ki, onlar etibarnaməsiz ortaqlıq adından çıxış etsinlər. Belə təsəvvür yaranır ki, ortaqlığın sahibkarlıq fəaliyyətində bilavasitə iştirak etməyən maya qoyanlar bu fəaliyyəti həyata keçirmək və əmtəə dövriyyəsinə buraxmaq məqsədi ilə öz kapitallarının (əmlakının) bir hissəsini maya kimi tam ortaqlara verir, onlara tapşırır və inanır. Buna görə də maya qoyanlar **kommanditçilər,** müəssisə isə **kommandit ortaqlıqlar** adlanır. Bu ad maya qoyanlarla tam ortaqlar arasında qarşılıqlı münasibətlərin kapitalın (əmlakın) inanılıb tapşırılması və etibar olunması əsasında qurulmasını ifadə edir[1]. Təsadüfi deyildir ki, «kommandit» termininin mənşəyi və kökü italyanca «commandare» ifadəsi ilə bağlıdır. Bu ifadə isə tapşırmaq, etibar etmək mənaları ilə əlaqədardır[2].

Kommanditçilər, tam ortaqlardan fərqli olaraq, **ortaqlığın öhdəlikləri üzrə mülki-hüquqi məsuliyyət daşımırlar.** Onlar kommandit ortaqlığın ümumi borclarına görə cavabdeh deyillər. Bu, onunla izah olunur ki, kommandit ortaqlığında idarəetmə və onun işlərinin aparılması tam ortaqlar tərəfindən həyata keçirilir. Madam ki belədir, onda ortaqlığın öhdəliklərinə görə də onlar məsuliyyət daşımalı və cavab verməlidirlər.

Kommanditçilər yalnız **ortaqlığın fəaliyyəti ilə bağlı zərərə görə qoyduqları mayanın məbləği həddində öz əmlakını risq edirlər.** Belə ki, əgər ortaqlıq zərərə düşərsə, kommanditçi qoyduğu mayadan məhrum olur və onu itirir.

Beləliklə, kommandit ortaqlığı hüquqi konstruksiyası sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün həm tam ortaqların (sahibkarların), həm də kommanditçilərin (sahibkar olmayanların) əmlakını birləşdirməyə imkan verir. O, **özündə şəxslərin birliyi və kapitalların birliyi kimi iki hüquqi konstruksiyanın elementlərini** birləşdirir, yəni tam ortaqların birliyini və kommanditçilərin kapitallarının birliyini əhatə edir.

Kommandit ortaqlığının **firma adı dəqiq göstərilməlidir.** Çünki bunun potensial kreditorlar üçün mühüm əhəmiyyəti vardır. Firma adının göstərilməsi üçün iki variantdan istifadə oluna bilər. Birinci varianta görə, kommandit ortaqlığın firma adına bütün tam ortaqların adları və «kommandit ortaqlığı» sözləri daxil edilir. Məsələn, «Bərəkət», «Təmas» tam ortaqları və kommandit ortaqlığı».

İkinci varianta görə, kommandit ortaqlığının firma adında «və ortaqları» və «kommandit ortaqlığı» sözləri əlavə edilməklə azı bir tam ortağın adı göstərilir. Məsələn, «Əhmədoğlu» tam ortağı və ortaqları kommandit ortaqlıq».

Kommandit ortaqlığının firma adına kommanditçinin adı daxil edilmir. Əgər daxil edilərsə, həmin kommanditçi avtomatik olaraq tam ortağa çevrilir (MM-in 82-ci maddəsinin 5-ci bəndi). Bu, o deməkdir ki, tam ortağa çevrilən kommanditçi ortaqlığın öhdəlikləri üzrə (ümumi borcları üzrə) öz şəxsi əmlakı ilə məsuliyyət (subsidiar məsuliyyət) daşıyır.

Kommanditçilərin üzərinə mülki qanunvericilik **müəyyən vəzifələr qoyur** (MM-in 85-ci maddəsinin 1-ci bəndi). Onların əsas, birinci dərəcəli və başlıca vəzifəsi **kommandit ortaqlığa maya kimi kapital (əmlak) qoymaqdan** ibarətdir. Qoyulan mayaların ümumi miqdarı kommandit ortaqlığının nizamnaməsində göstərilir. Deməli, kommandit ortaqlığının şərikli kapitalının yaradılmasında tam ortaqlarla yanaşı, həm də kommanditçilər iştirak edirlər. Özü də qoyulan mayaların tərkibi və miqdarı nizamnamə əsasında müəyyənləşdirilir.

Kommandit ortaqlığına maya qoyan kommanditçiyə ortaqlıq tərəfindən **iştirakçılıq barədə şəhadətnamə** verilir. Bu şəhadətnamə təsdiqləyici (sübutedici) sənəd funksiyasını yerinə yetirir. Onu qiymətli kağız hesab etmək olmaz[1]. Bu sənədin əsas təyinatı maya qoyulmasını və maya qoyanın statusunu təsdiq etməkdən ibarətdir.

Kommanditçilər **müəyyən hüquqlara** malikdirlər. Onların hüquqları, əsasən, əmlak xarakterlidir.

Ortaqlığın mənfəətindən müəyyən hissəni almaq kommanditçilərin malik olduqları əsas əmlak hüquqlarından biridir. Məhz mənfəət əldə etmək niyyəti, gəlir götürmək məqsədi onları ortaqlıqda iştirak etməyə təşviq edir. Ortaqlığın həyata keçirdiyi sahibkarlıq fəaliyyətində **şəxsən bilavasitə** çıxış etmədən, ortaqlığın idarə olunmasında və işlərinin aparılmasında iştirak etmədən özünün qoyduğu mayanın hesabına mənfəət götürmək kommanditçilər üçün — kommersiya dövriyyəsinin professional subyektləri hesab edilməyən şəxslər üçün, sahibkar statusu olmayan iştirakçılar üçün olduqca əlverişli və səmərəli vasitədir.

Kommanditçilərin ortaqlıqdan aldığı **mənfəət onların şərikli kapitaldakı payına uyğun olmalıdır.** Bu iştirakçılar onlara düşən mənfəət hissəsini ortaqlığın nizamnaməsində göstərilən qaydada alırlar.

Şərikli kapitaldakı payı barəsində sərəncam vermək kommanditçilərin əsas əmlak hüquqlarından biri hesab olunur. Söhbət payın özgəninkiləşdirilməsindən gedir. Özü də dərhal qeyd edirik ki, o, heç kəsin razılığı və icazəsi

---

[1] Bu xüsusiyyətə görə, RF-in mülki qanunvericiliyi kommandit ortaqlıqları «etibara əsaslanan ortaqlıq» adlandırır (bax: Комментарий к ГК РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, ст. 82).

[2] bax: *Шершеневич Г.Ф.* Курс торгового права. Том 1. СПб., 1908, с. 365-366; Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 338.

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 147.

olmadan, müstəqil surətdə öz payını özgəninkiləşdirə bilər. Belə halda buna kommandit ortaqlığın və ya tam ortaqların razılıq vermələri tələb olunmur. Ona görə ki, tam ortaqlıqdan fərqli olaraq, kommandit ortaqlığı iştirakçıları arasında qarşılıqlı münasibətlər şəxsi etimad xarakteri daşımır.

Payın özgəninkiləşdirilməsi dedikdə, onun başqa şəxslərə güzəşt edilməsi, verilməsi başa düşülür. Başqa şəxslər rolunda yalnız həmin kommandit ortaqlığında iştirak edən digər maya qoyanlar və ya üçüncü şəxslər çıxış edə bilər. Belə ki, kommanditçi şərikli kapitaldakı payını digər maya qoyana və ya üçüncü şəxsə verə bilər (MM-in 85-ci maddəsinin 2-ci bəndinin 4-cü yarımbəndi).

Qeyd etmək lazımdır ki, **kommanditçilər şərikli kapitaldakı payını tam ortaqlara verə bilməzlər.** Belə ki, bu, tam ortaqlar arasında mənafelər balansının pozulmasına səbəb ola bilərdi. Bununla belə, yerdə qalan bütün tam ortaqların razılığı ilə həmin pay tam ortaqlardan birinə verilə bilər[1].

Şərikli kapitaldakı pay müxtəlif hüquqi vasitələr əsasında özgəninkiləşdirilir. Bu vasitələrə misal olaraq alqı-satqı, dəyişmə və bağışlama müqavilələri kimi hüquqi konstruksiyaları göstərmək olar. Pay satılarkən kommandit ortaqlığında iştirak edən kommanditçilər payı satın almaqda üçüncü şəxslər qarşısında öz paylarının miqdarına mütənasib surətdə üstünlük hüququna malikdirlər.

Kommanditçilərin şərikli kapitaldakı payını verməsi müəyyən hüquqi nəticəyə səbəb olur. Belə ki, bu, onların ortaqlıqda iştirakına xitam verir. Onlar bütün payın hamısını yox, yalnız onun bir hissəsini də verə bilərlər. Bu cür halda isə kommanditçinin ortaqlıqda iştirakı ləğv olunmur.

Maliyyə ili qurtardıqda, ortaqlıqdan çıxmaq və öz mayasını almaq kommanditçilərin hüquqlarından biridir. Kommanditçi üzrlü səbəb olub-olmamasından asılı olmayaraq, hər hansı bir dəlil-motiv, arqument gətirmədən, öz istək və mülahizəsi əsasında ortaqlıqdan çıxa bilər. Onun bu hüququ istənilən vaxt yox, yalnız maliyyə ili qurtardıqda həyata keçirilə bilər. Ona görə ki, istənilən vaxt ortaqlıqdan çıxmaq onun fəaliyyətinə mənfi təsir göstərə bilər.

Kommanditçinin tam ortaqlıqdan çıxması **müəyyən nəticəyə** səbəb olur. Bunun nəticəsində kommandit ortaqlığına kommanditçi tərəfindən qoyulan **maya onun özünə qaytarılır.** O, **ortaqlığın əmlakından pay tələb edə bilməz.** Kommanditçi yalnız qoyduğu mayanın qaytarılmasını tələb edə bilər.

Kommanditçi ortaqlığın **illik hesabatları və balansları ilə tanış olmaq hüququna** malikdir. Buna **informasiya almaq hüququ** deyilir. Bunun əsasında kommanditçi ortaqlığın aktivləri, passivləri, xalis aktivləri, onun götürdüyü mənfəət və düşdüyü zərər haqqında məlumat əldə edir. Bu məlumat isə kommanditçinin əmlak mənafeyinin həyata keçirilməsinə xidmət edir.

Mülki (əmlak) dövriyyədə ortaqlığın adından çıxış etmək (nümayəndə olmaq), yəni ortaqlığın işlərini aparmaq kommanditçinin malik olduğu hüquqlardan biridir[2]. Özü də dərhal qeyd edirik ki, yalnız etibarnamə əsasında o, bu cür hüquqa malik ola bilər[1]. Etibarnaməsiz ortaqlıq adından onun çıxış etməyə ixtiyarı çatmır. Bu hüquqdan istifadə edərək, kommanditçi tam ortaqlıq adından, onun mənafeyi üçün və onun hesabına hüquqi əhəmiyyəti olan hərəkətlər edir, hər şeydən əvvəl, mülki-hüquqi əqdlər (müqavilələr) bağlayır[2].

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации . Часть 1 / Под ред. *О.Н. Садикова*. М., 1999, с. 180.

[2] Bəzi müəlliflər qəti formada göstərirlər ki, kommanditçilərin ortaqlığın işlərini aparmaq hüququ yoxdur (Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 222). Bu fikir dəqiqlikdən uzaqdır. Belə ki, o, etibarnamə əsasında belə hüquqa malik olur (RF MM-in 84-cü maddəsinin 2-ci bəndi).

Kommanditçilərin **ortaqlığın fəaliyyətinin idarə olunmasında iştirak etmək hüququ yoxdur.** Belə ki, onlar ortaqlığın fəaliyyəti barəsində (asas fəaliyyət istiqamətlərinin müəyyən edilməsi, işgüzar partnyorlarla müqavilələr və əqdlər bağlanması, mənfəətin bölüşdürülməsi, kadr məsələləri və s. barəsində) qərar qəbul olunmasında iştirak etməkdən məhrumdurlar.

Kommanditçilərin ortaqlığın idarə edilməsi və işlərinin aparılması üzrə tam ortaqların hərəkətləri barəsində mübahisə etmək hüququ da yoxdur (MM-in 84-cü maddəsinin 2-ci bəndi). Belə ki, onlar ortaqlığın üçüncü şəxslərlə münasibətlərinə, habelə kommersiya və təşkilati məsələlərə dair müvafiq qərarlar qəbul edilməsi prosesinə qarışa və müdaxilə edə bilməzlər. Bununla belə, ortaqlığın işini aparmaq hüququna malik olan tam ortaqlar təqsirli hərəkətlərə yol verə bilərlər. Bunun nəticəsində ortaqlıq zərərə düşür. Belə halda kommanditçi, hüquqi şəxsin təsisçisi (iştirakçısı) kimi, tam ortaqlardan hüquqi şəxsə (ortaqlığa) vurduğu zərərin əvəzinin ödənilməsini tələb edə bilər (MM-in 49-cu maddəsinin 3-cü bəndi).

Göstərilənlər kommanditçilərin malik olduqları hüquqların qəti və dəqiq olmayan siyahısıdır. Belə ki, nizamnamədə onların başqa hüquqları da nəzərdə tutula bilər (MM-in 85-ci maddəsinin 4-cü bəndi)[3].

Kommandit ortaqlığı **müxtəlif əsaslara görə ləğv edilir.** O, hər şeydən əvvəl, bütün hüquqi şəxslərə aid olan **ümumi əsaslara** görə (qarşıya qoyulan məqsədə nail olunması, müddətin başa çatması və s.) ləğv oluna bilər. Bundan əlavə, ikincisi, komandit ortaqlığı bütün tam ortaqlıqlara aid edilən **xüsusi əsaslara** görə ləğv edilir. Biz bu barədə bundan əvvəlki yarımbaşlıqda danışmışıq.

Kommandit ortaqlığı, üçüncüsü, **yalnız ona aid olan xüsusi əsasa görə** ləğv edilir. Bu əsas kommandit ortaqlığına **maya qoyanların hamısının ortaqlıqdan çıxmasından** ibarətdir (MM-in 86-cı maddəsinin 1-ci bəndi). Belə ki, kommanditçilərin hamısı ortaqlıqdan çıxdıqda, ortaqlıq ləğv edilir. Çünki kommanditçilərin hamısı ortaqlığın tərkibindən çıxdıqda, onun subyekt tərkibi yalnız tam ortaqlardan ibarət olur. Bu cür tərkib isə kommandit ortaqlığın forması üçün müvafiq deyildir.

[1] Müəlliflərdən Q.E.Avilov da dəqiq fikir yürütmür. O göstərir ki, kommanditçinin etibarnamə əsasında ortaqlıq adından çıxış etməsi ona ortaqlığın işlərini aparmaq hüququnun verilməsini ifadə etmir. Müəllifin bu fikrinin əsassız olmasını isbat etməyə ehtiyac yoxdur (bax: Комментарий к ГК РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 179).

[2] Almaniya Ticarət Qanunnaməsinə görə, kommanditçiyə, hər hansı kənar şəxs kimi, ortaqlığın işlərini aparmaq etibar edilə bilər. Belə halda tapşırıq müqaviləsi bağlanılır (Almaniya Ticarət Qanunnaməsinin 164-cü paraqrafı). Fransa, İspaniya və digər ölkələrin qanunvericiliyi kommanditçiyə ortaqlıq adından, ümumiyyətlə, çıxış etməyi qadağan edir (Fransa Ticarət Məcəlləsinin 27-ci və 28-ci paraqrafları; İspaniya Ticarət Məcəlləsinin 148-ci paraqrafı).

[3] Bizim ölkə qanunvericiliyindən fərqli olaraq, bir çox dövlətlərin (məsələn, RF-in və digərlərinin) qanunvericiliyi kommandit ortaqlığın fəaliyyətinin hüquqi əsasını nizamnamənin yox, təsis müqaviləsinin təşkil etməsi haqqında qayda nəzərdə tutur. Həmin dövlətlərin qanunvericiliyinə görə, kommandit ortaqlıqlar yalnız təsis müqaviləsi əsasında fəaliyyət göstərirlər.

Kommanditçilər ortaqlığın tərkibindən çıxdığı hallarda, həmin ortaqlıq ləğv olunmaya da bilər. Belə halda tam ortaqlar kommandit ortaqlığını ləğv etmək əvəzinə, **onun tam ortaqlığa çevrilməsi barədə qərar** qəbul edirlər.

Kommandit ortaqlığının ləğv edilməsi müəyyən hüquqi nəticələrə səbəb olur. Tam ortaqlar, hər şeydən əvvəl, **ləğvetmə kvotası** (latınca «quota» — hər kəsə düşən hissə) **hüququ** əldə edirlər. Belə ki, əvvəlcə ortaqlığın kreditorlarının tələbləri ödənilir. Bundan sonra ortaqlığın yerdə qalan əmlakından kommanditçilərin həmin ortaqlığa qoyduqları maya ödənilir. Çünki qanun onların təminatlı (imtiyazlı) şəxslər kateqoriyasına aid edir. Belə ki, **kommanditçilər ortaqlığın qalan əmlakından mayaları almaqda tam ortaqlar qarşısında üstünlük hüququna malikdirlər.** Kommanditçilərin mayaları verildikdən sonra qalan əmlak tam ortaqlar arasında bölüşdürülür. Bölüşdürmə zamanı tam ortaqların ortaqlığın şərik kapitalındakı paylarına mütənasiblik qaydasına əməl edilir. Nizamnamədə və ya tam ortaqların sazişində bu barədə başqa qayda da nəzərdə tutula bilər (MM-in 86-cı maddəsinin 2-ci bəndi).

Bazar iqtisadiyyatı inkişaf edən ölkələrdə kommandit ortaqları heç də geniş yayılmamışdır. Məsələn, Fransada 1981-ci ildən 1986-cı ilə kimi kommandit ortaqlıqların sayı azalaraq, 3760-dan 1257-yə düşmüşdür. 1960-cı ildə İsveçrədə 3730 kommandit ortaqlıq qeydə alınmışdır. 1988-ci ildə onların sayı azalaraq, 3376 olmuşdur. Bizim ölkəmizdə də kommandit ortaqlığı populyar deyildir.

6. Məhdud məsuliyyətli cəmiyyət

Qeyd etmək lazımdır ki, müasir dövrdə bazar iqtisadiyyatı inkişaf edən ölkələrdə ən çox populyar olan hüquqi şəxs məhdud məsuliyyətli cəmiyyət hesab edilir. Məsələn, Almaniyada (AFR-də) 1978-ci ildən 1989-cu ilə kimi səhmdar cəmiyyətlərinin sayı 2141-dən 2508-ə kimi, məhdud məsuliyyətli cəmiyyətlərin sayı isə həmin dövrdə 195890-dan 401687-ə kimi artmışdır[1]. Məhdud məsuliyyətli cəmiyyət sahibkarlıq (kommersiya) dövriyyəsində istifadə üçün ən münasib və rahat formadır. Bu gün beynəlxalq ticarət subyektlərinin (xüsusən də Avropada) çox hissəsi məhz bu formada yaradılır.

Bizim ölkəmizdə də məhdud məsuliyyətli cəmiyyət konstruksiyasından geniş səviyyədə istifadə olunur. Demək olar ki, əmələ gələn hüquqi şəxslərin əksəriyyəti məhz bu cür təşkilati-hüquqi formada yaradılır. Məhdud məsuliyyətli cəmiyyət bizim ölkədə də böyük populyarlığı ilə fərqlənir.

Məhdud məsuliyyətli cəmiyyət hüquqi konstruksiyası (Gesellschaft mit beschrankter Haffung, qısaldılmış adı GmbH, Fransada – «societe a recponsabilite limitee») XIX əsrin axırlarında Almaniyada əmələ gəlmişdir[2]. Hələ o vaxt bu ölkədə həmin konstruksiyanı tənzimləyən «Məhdud məsuliyyətli cəmiyyət haqqında» qanun (20.04.1892) qəbul olunmuşdur[3]. Bu konstruksiyaya aid olan bəzi əlavə göstərişlər Almaniya Ticarət Qanunnaməsinin üçüncü kitabının ikinci bölməsində nəzərdə tutulmuşdur[1]. Özü də bu qanunnamə məhdud məsuliyyətli cəmiyyəti «kapitallar birliyi»nin bir forması (növü) hesab edir.

Məhdud məsuliyyətli cəmiyyət, göründüyü kimi, nisbətən yaxın vaxtlarda meydana gəlmişdir. Buna görə də o, sahibkarlıq fəaliyyətinin təşkilinin «cavan» formasıdır. Hüquq ədəbiyyatı səhifələrində bu formanın yaranması iki əsas səbəblə izah edilir. Birinci səbəb ondan ibarətdir ki, XIX əsrin 70-ci illərində Almaniyada səhmdar böhranı baş verir. Bu böhran nəticəsində alman səhmdar cəmiyyətlərinin əksəriyyəti var-yoxdan çıxaraq müflisləşir. Belə halda məlum məsələdir ki, yeni konstruksiyanın yaradılmasına ehtiyac yaranır. İkinci səbəb onunla şərtlənir ki, Almaniya müstəmləkələrin bölünməsi prosesində əsas müstəmləkəçi dövlətlərdən geri qalmaq istəmir. Bunun üçün müstəmləkə ölkələrində onların iqtisadi cəhətdən asılı olmalarını təmin edən ölçülüb-biçilmiş ticarət siyasəti lazım idi. Xüsusən alman istehsalı olan məhsulların ixracı böyük rol oynaya bilərdi. Yaranmış vəziyyət sahibkarlığın yeni formasının yaradılmasını tələb edirdi. Səhmdar cəmiyyəti kimi forma alman tacirlərinə (sahibkarlarına) əl vermirdi və onları təmin etmirdi. Çünki tacirlər (sahibkarlar) səhmdar cəmiyyətlərinin fəaliyyətindən kənarlaşdırılmışdı. Tam ortaqlıq forması da onları razı salmırdı. Çünki bu forma qeyri-məhdud məsuliyyətə əsaslanırdı. Buna görə də səhmdar cəmiyyəti konstruksiyasının modifikasiyası (şəklini dəyişməsi) yolu ilə alman hüquqşünasları «məhdud məsuliyyətli cəmiyyət» adlı hüquqi konstruksiya işləyib hazırladılar. Bu konstruksiya alman sahibkarları tərəfindən dəstəklənir və XIX əsrin axırlarında qanunvericilik qaydasında rəsmiləşdirilir[2].

Bundan sonra məhdud məsuliyyətli cəmiyyət konstruksiyası bir çox Avropa ölkələrinin qanunvericiliyində nəzərdə tutulmağa başladı. Məsələn, Hollandiya Mülki Məcəlləsinin ikinci kitabı (1976-cı ildə qüvvəyə minmişdir) doqquz bölmədən ibarətdir. Beşinci bölmə «Məhdud məsuliyyətli cəmiyyət» adlanır[3]. Fransada məhdud məsuliyyətli cəmiyyətin (societe a responsabilite) yaradılması və fəaliyyəti qaydası «Ticarət ortaqlıqları haqqında» qanunla (1966), habelə «Ticarət ortaqlıqları haqqında» dekretlə (1967) tənzimlənir[4]. Həm də bunu qeyd etməliyik ki, roman-german (kontinental) hüququna görə, məhdud məsuliyyətli cəmiyyət hüquqi şəxslərin korporasiya növünə şamil edilir.

Məhdud məsuliyyətli cəmiyyət konstruksiyasının analoqu (bənzəri, oxşarı) olaraq ingilis-amerikan hüququ «close corporation» (qapalı korporasiya) və «limited libiliti compani» kimi konstruksiyalardan istifadə edir. Daha doğrusu, roman-german (kontinental) hüququndakı «məhdud məsuliyyətli cəmiyyət» anlayışı təxmini olaraq ingilis-amerikan hüququndakı «close corporation» və ya «limited libiliti compani» anlayışlarına uyğun gəlir. Bunların hamısı, mahiyyətcə, eyni bir iqtisadi funksiya yerinə yetirirlər.

90-cı illərin əvvəllərindən başlayaraq məhdud məsuliyyətli cəmiyyət konst-

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 91.
[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 224.
[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999.

[1] bax: Германское право. Часть 2. Торговое уложение и другие законы. М., 1994.
[2] *А.Тынель, Я.Функ, В.Хвалей*. Курс международного торгового права. Учебник. Минск. 2000, с. 90-91.
[3] bax: Гражданский кодекс Нидерландов / перевод *М.Ферштмана*. Лейден. 1996.
[4] bax: Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева*. М., 2001, с. 719.

ruksiyası sovet dövrünün qanunvericiliyində də nəzərdə tutulmağa başlayır. Özü də sovet qanunvericiliyi məhdud məsuliyyətli cəmiyyəti «qapalı tipli səhmdar cəmiyyəti» anlayışı ilə əhatə edir. Daha doğrusu, sovet mülki qanunvericiliyi «məhdud məsuliyyətli cəmiyyət» və «qapalı tipli səhmdar cəmiyyəti» kimi iki hüquqi konstruksiyanı eynıləşdirir[1]. Məhdud məsuliyyətli cəmiyyətlə bağlı olan münasibətlər SSRİ Nazirlər Sovetinin təsdiq etdiyi müvafiq normativ aktla (Əsasnamə ilə) tənzimlənirdi[2]. Bu akt məhdud məsuliyyətli cəmiyyətlərin yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi baza və əsas rolunu oynayırdı.

Bizim ölkə qanunvericiliyi ilk dəfə olaraq «Müəssisələr haqqında» qanunda (1994) məhdud məsuliyyətli cəmiyyətin leqal anlayışını verdi. Həmin qanunun 19-cu maddəsi onu müəssisələrin təşkilati-hüquqi formalarından biri kimi nəzərdə tutur, onun hüquqi statusunu müəyyənləşdirir, məsuliyyət münasibətlərini və digər məsələləri aydınlaşdırırdı.

Məhdud məsuliyyətli cəmiyyətin hüquqi statusunu detallaşdırmaq və konkretləşdirmək üçün 1999-cu ildə «Məhdud məsuliyyətli cəmiyyət haqqında» qanun qəbul edildi. Bu qanun ölkəmizdə məhdud məsuliyyətli cəmiyyətlərin yaradılmasını və fəaliyyətini tənzimləyir, onların fəaliyyətinin hüquqi təminatlarını nəzərdə tuturdu. Hal-hazırda o, qüvvədən düşmüşdür.

Məhdud məsuliyyətli cəmiyyət ilə bağlı münasibətlərin nizama salınmasında yeni Mülki Məcəllənin rolu böyükdür. Bu məcəllə həmin münasibətləri geniş təfsilatı ilə, müfəssəl şəkildə tənzimləyir. O, məhdud məsuliyyətli cəmiyyətin hüquqi vəziyyətini (statusunu), habelə onun iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Mülki Məcəllənin kifayət qədər maddələri (87-97-ci maddələri) bu məsələlərin qaydaya salınmasına həsr edilmişdir.

Məhdud məsuliyyətli cəmiyyət bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən elə bir kommersiya təşkilatıdır ki, bu təşkilatın iştirakçıları onun öhdəlikləri üzrə cavabdeh deyillər və onun fəaliyyəti ilə bağlı olaraq əmələ gələn zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar (MM-in 87-ci maddəsinin 1-ci bəndi). Məhdud məsuliyyətli cəmiyyətə verilən bu leqal anlayış onun mahiyyətini xarakterizə edən əsas əlamət və cəhətləri müəyyənləşdirməyə imkan verir.

Məhdud məsuliyyətli cəmiyyət kommersiya təşkilatı olub, bu təşkilatın təsərrüfat cəmiyyəti kimi formasına aid edilir. O, şəxslərin (kommersantların, sahibkarların, iş adamlarının) birliyi kateqoriyasına şamil olunmur. O, **kapitalların birliyi kateqoriyasına** daxil edilən təşkilatdır. Belə ki, məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun fəaliyyətində iştirak etməyə borclu deyildir. Ortaqlıqdan fərqli olaraq, burada şəxsi element, şəxsi fəaliyyət, şəxsi əmək ikinci dərəcəli və tabe-asılı rol oynayır, ön planda dayanmır. Məhdud məsuliyyətli cəmiyyətdə əsas, başlıca və həlledici rolu iştirakçıların kapitalı, maddi vəsaiti,

[1] bax: ст. 11. Закона «О предприятиях и предпринимательской деятельности» РСФСР (1990) // Ведомости РСФСР. 1990. № 30. ст. 418.

[2] bax: «Положение об акционерных обществах и обществах с ограниченной ответственностью» утв. Постановлением Совета Министров СССР от 19 июня 1990 г. № 590 (СП СССР, 1990. № 15, ст. 82)

bir sözlə, əmlakı oynayır. Məhz bu səbəblərə görə ortaqlıqdan fərqli olaraq, mülki hüququn istənilən subyekti — fiziki və hüquqi şəxslər məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı ola bilərlər. Buradaca dərhal qeyd etməliyik ki, **dövlət orqanlarının və yerli özünüidarə orqanlarının məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları kimi çıxış etmələri istisna olunur** (MM-in 64-cü maddəsinin 6-cı bəndi). İştirakçıların sahibkar — fərdi sahibkarlar və ya kommersiya təşkilatları olmaları tələb edilmir. Özü də cəmiyyət bir şəxs (ya fiziki şəxs, ya hüquqi şəxs) tərəfindən də yaradıla bilər (MM-in 87-ci maddəsinin 1-ci bəndi). Xarici ölkələrin sivilistika doktrinasında bu cür cəmiyyətə «bir şəxsin kompaniyası» konstruksiyası deyilir. Bizim ölkə qanunvericiliyi xarici ölkələrin qanunvericilik ənənələrinə əsaslanaraq həmin konstruksiyanı iqtibas etmişdir.

Qanun məhdud məsuliyyətli cəmiyyətin iki yolla yaradılmasını nəzərdə tutur (MM-in 87-ci maddəsinin 2-ci bəndi). Bu yollardan biri **yenidən təşkiletmə yoludur.** Belə ki, cəmiyyət hüquqi şəxsin yenidən təşkilinin beş forması (birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə) əsasında yarana bilər. İkinci yol isə **yeni cəmiyyətin yaradılmasını** nəzərdə tutur. Bu isə özündə aşağıdakı mərhələləri birləşdirən çoxpilləli, mürəkkəb prosesdir:

- təsis yığıncağının keçirilməsi;
- təsis müqaviləsinin (təsisçilər arasında müqavilənin bağlanması);
- cəmiyyətin yaradılması haqqında qərarın qəbul edilməsi (əgər cəmiyyət iki və daha çox şəxs tərəfindən yox, bir şəxs tərəfindən yaradılarsa);
- nizamnamə kapitalının ödənilməsi;
- nizamnamənin hazırlanması.

Hər şeydən əvvəl, təsisçilər öz aralarında müqavilə (onu şərti olaraq təsis müqaviləsi adlandırırıq) bağlayaraq cəmiyyətin nizamnaməsinin hazırlanması, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirirlər. Bu müqavilə öz hüquqi təbiətinə görə **birgə fəaliyyət haqqında müqavilədir.** Belə ki, onun məqsədi cəmiyyətin təşkilinə yönəlmiş birgə fəaliyyət göstərməkdən ibarətdir. Bu müqavilə yalnız təsisçilər üçün hüquq və vəzifələr yaradır bunun ardınca təsisçilər nizamnamə kapitalını tamamilə ödəməli, onu formalaşdırmalıdırlar. Bundan sonra təsis yığıncağı keçirilir.

Təsis yığıncağı aşağıdakı məsələləri həll edir: nizamnamə kapitalının ödənilməsi məqsədilə maya kimi verilən əmlakın (əmlak qoyuluşunun), yəni binanın, torpaq sahəsinin, nəqliyyat vasitəsinin, istehsal vasitələrinin və s. dəyərini təsdiq edir; cəmiyyətin yaradılması barədə qərar qəbul edir; cəmiyyətin nizamnaməsini təsdiq edir; cəmiyyətin idarəetmə orqanlarını təşkil edir (ilk növbədə cəmiyyətin ali orqanı olan ümumi yığıncağı formalaşdırır). Bu məsələlər barədə təsisçilər **yekdilliklə** qərar qəbul edirlər. Təsis yığıncağı digər məsələləri də həll edə bilər ki, onlar barəsində təsisçilər **sadə səs çoxluğu** ilə qərar çıxarırlar.

Qeyd etmək lazımdır ki, cəmiyyətin təsis edilməsi ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər bu və ya digər öhdəlik yarana bilər (məsələn, cəmiyyətin istehsal-təsərrüfat fəaliyyətini həyata keçirməsi üçün nisyə alqı-satqı müqaviləsi üzrə istehsal vasitələri alınması və həmin vasitələrin pulunu ödəmək öhdəliyi; cəmiyyətin fəaliyyət göstərməsi üçün zəruri olan istehsal

avadanlıqlarının daşınma haqqını, nəqliyyat xərclərini ödəmək öhdəliyi və s.). Bu kimi öhdəliklərə görə cəmiyyətin təsisçiləri **birgə məsuliyyət daşıyırlar** (MM-in 87-ci maddəsinin 7-ci bəndi).

Məhdud məsuliyyətli cəmiyyətin şəxslər birliyi kateqoriyasına yox, kapitallar birliyinə aid edilməsi, digər tərəfdən, onun **fəaliyyətinin idarə olunmasını həyata keçirən xüsusi icra-idarəetmə orqanları sisteminin yaradılmasını** şərtləndirir və tələb edir. Bu orqanların tərkibi və səlahiyyəti cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

Məhdud məsuliyyətli cəmiyyətin idarəetmə orqanlarının hüquqi vəziyyəti Mülki Məcəllə (91-91-3-cü maddələr) ilə tənzimlənir. Mülki Məcəllə bu barədə bir sıra normalar müəyyən edir.

Təşkilati struktur baxımından məhdud məsuliyyətli cəmiyyətin idarəetmə orqanlarının sistemi **üç pillədən** ibarətdir (buna üçpilləli idarəetmə strukturu deyilir): cəmiyyətin ali idarəetmə orqanından; direktorlar şurasından (müşahidə şurasından); cəmiyyətin icra orqanından[1].

Məhdud məsuliyyətli cəmiyyətin ali idarəetmə orqanı dedikdə, onun iştirakçılarının ümumi yığıncağı başa düşülür. Cəmiyyətin fəaliyyətinə dair nisbətən daha vacib və mühüm məsələləri həll etmək, bu barədə müvafiq qərarlar çıxarmaq ümumi yığıncağın müstəsna səlahiyyətinə aid edilir. Müstəsnalıq inhisarçılığı, təkbaşınalığı ifadə edir. Bu, o deməkdir ki, cəmiyyətin ümumi yığıncağından savayı, həmin məsələləri hər hansı başqa bir orqan həll edə bilməz. Bu məsələlər barəsində müvafiq qərarları yalnız ümumi yığıncaq qəbul edə bilər. Ümumi yığıncağın müstəsna səlahiyyətinə aiddir (MM-in 91-ci maddəsinin 3-cü bəndi): cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək; cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək; cəmiyyətin illik hesabatlarını və muhasibat balanslarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək; cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək; cəmiyyətin direktorlar şurasını (və ya müşahidə şurasını) və (və ya) təftiş komissiyasını (müfəttişini) seçmək.

Bu məsələləri həll etmək səlahiyyəti cəmiyyətin hər hansı bir orqanına verilə bilməz. Amma ümumi yığıncağın özünün iradəsi əsasında, onun verilməsi mümkündür. Bu, onu ifadə edir ki, MM müstəsna səlahiyyətin verilməməsi haqqında qayda nəzərdə tutmur. **Müstəsna səlahiyyətin verilməməsi haqqında qaydanın əsas məqsədi** cəmiyyətin iştirakçılarının mənafeyini icra orqanları tərəfindən yol verilə bilən mümkün sui-istifadə hallarından qorumaqdan ibarətdir. O iştirakçıların ki, onlar kommersiya (sahibkarlıq) dövriyyəsinin professional subyektləri deyillər. Odur ki, belə qaydanın MM-də nəzərdə tutulması vacibdir.

Mülki Məcəllə həm də cəmiyyətin iştirakçılarının ümumi yığıncağının çağırılması və keçirilməsi kimi məsələləri tənzimləyir. Bu cür məsələlər MM-in 91.1-1-ci maddəsi ilə qaydaya salınır.

[1] MM bu cür üç növ idarəetmə orqanından savayı, hər hansı başqa idarəetmə orqanı nəzərdə tutmur. Deməli, məhdud məsuliyyətli cəmiyyətlərdə idarəetmə strukturu bütün hallarda üçpilləlidir. Buna görə də müəyyən hallarda cəmiyyətlərdə üçpilləli idarəetmə strukturunun mövcud ola bilməsi haqqında fikir irəli sürən müəlliflərin mövqeyi həqiqətə uyğundur (bax: Комментарий к ГК РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 187).

Hər şeydən əvvəl, onu qeyd edək ki, bir iştirakçısı olan cəmiyyətdə ümumi yığıncaq kimi ali orqan ola bilməz. Bu, məlum məsələdir. Odur ki, cəmiyyətin ümumi yığıncağının səlahiyyətləri iştirakçı tərəfindən təkbaşına həyata keçirilir; O, ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində təkbaşına qərarlar qəbul edir və yazılı surətdə rəsmiləşdirir (MM-in 91-ci maddəsinin 1-ci bəndi; 91.1-4cü maddəsi).

Yuxarıda göstərdiyimiz məsələlərdən başqa, ümumi yığıncağın səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər. Həmin məsələlər cəmiyyətin nizamnaməsində göstərilməlidir. Amma nizamnamədə göstərilib-göstərilməməsindən asılı olmayaraq, ümumi yığıncaq cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə bilər (MM-in 91.1-1-ci maddəsi).

Ümumi yığıncaq iki cür olur:

- növbəti ümumi yığıncaq;
- növbədənkənar ümumi yığıncaq.

Növbəti ümumi yığıncaq odur ki, o, nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Məsələn, nizamnamədə müəyyən edilə bilər ki, hər rübdə və ya altı ayda bir dəfə və s. növbəti yığıncaq çağırılsın. Lakin cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır (MM-in 91.1-2-ci maddəsi). Növbəti ümumi yığıncağın keçirilmə məsələsi icra orqanı tərəfindən həll edilir.

Növbədənkənar ümumi yığıncağın isə hansı müddətdə çağırılması əvvəlcədən müəyyən olunmur; o, nizamnamədə müəyyən olunan hallarda və qaydada çağırılır. Adətən, növbədənkənar ümumi yığıncağın çağırılması həlli təxirəsalınmaz tədbirlərin görülməsini tələb edən məsələləri müzakirə etməklə bağlı olur (məsələn, cəmiyyətin maliyyə vəziyyətinin pisləşməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər görmək üçün növbədənkənar ümumi yığıncaq çağırmaq və s.).

Növbədənkənar ümumi yığıncaq çağırılır (MM-in 91.1-3-cü maddəsi):

- icra orqanının təşəbbüsü ilə;
- direktorlar şurasının (müşahidə şurasının) tələbi ilə;
- təftiş komissiyasının (müfəttişin) tələbi ilə;
- bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə;
- ləğvetmə komissiyası tərəfindən (əgər cəmiyyət ləğvetmə prosesində olarsa).

Qeyd etmək lazımdır ki, ümumi yığıncaqda müzakirə olunan məsələlər barəsində qərarlar qəbul edilərkən **«bir iştirakçı – bir səs» prinsipi** tətbiq olunmur. Ona görə ki, ümumi yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır (MM-in 91.1-1-ci maddəsi). Buna görə də bir iştirakçı 2 və daha çox səsə malik ola bilər.

Direktorlar şurası (müşahidə şurası) məhdud məsuliyyətli cəmiyyətin idarəetmə orqanlarından biridir. Yalnız cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda bu orqan yaradıla bilər (MM-in 91-ci maddəsinin 1-ci bəndi). Söhbət alternativ olaraq ya direktorlar şurasının, ya da müşahidə şurasının yaradılmasından gedir. Qeyd etmək lazımdır ki, direktorlar şurası və müşahidə

şurası eyni funksiya yerinə yetirirlər. Odur ki, onlar arasında fərq yoxdur.

Direktorlar şurası (müşahidə şurası) ümumi yığıncaqlar arasındakı dövrdə onun icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirir; o, nəzarət səlahiyyətlərinə malik olan, nəzarət funksiyasını yerinə yetirən orqandır. Nəzarət idarəetmənin formalarından biridir. Buna görə də direktorlar şurası (müşahidə şurası) **idarəetmə orqanı** sayılır[1]. Digər tərəfdən o, **nəzarət-yoxlama funksiyasını** da yerinə yetirə bilər. Belə ki, əgər nizamnamədə **təftiş** komissiyasının (müfəttişin) yaradılması nəzərdə tutulmamışdırsa, onun səlahiyyətləri direktorlar şurasına (müşahidə şurasına) verilə bilər (MM-in 91-1-ci maddəsi). Belə halda o, həm idarəetmə orqanı, həm də nəzarət yoxlama orqanı funksiyasını yerinə yetirir.

Direktorlar şurası (müşahidə şurası) kollegial və seçkili orqandır. Belə ki, o, üzvlərdən ibarətdir və həmin üzvlər cəmiyyətin ümumi yığıncağında seçilirlər.

MM-in 91.1-ci maddəsi direktorlar şurasına (müşahidə şurasına) həsr olunmuşdur. Amma bu orqanla bağlı məsələlərin həlli (yaradılma, fəaliyyət göstərmə, xitam olunma və digər məsələlərin həlli) nizamnamə ilə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, cəmiyyətin icra orqanı, yəni təkbaşına rəhbər, kollegial icra orqanının rəhbəri (üzvü), kənar idarəçi direktorlar şurasının üzvü ola bilməz (MM-in 91-1-ci maddəsinin 3-cü bəndi). Belə qaydanın nəzərdə tutulması onunla bağlıdır ki, cəmiyyətdə idarəçilik (icra) funksiyası nəzarət funksiyasından ayrılmışdır. Odur ki, eyni bir şəxs, eyni vaxtda həm direktorlar şurasının üzvü, həm də icra orqanının əməkdaşı ola bilməz. Digər tərəfdən həmin qayda direktorlar şurasının cəmiyyətin icra orqanlarından asılı olmamasını və müstəqilliyini təmin edir. Axı, əvvəldə qeyd etdiyimiz kimi, direktorlar şurası cəmiyyətin icra orqanının fəaliyyətinə nəzarət edən orqandır. Nəzarət orqanı təbii ki, müstəqil fəaliyyət göstərərək icra orqanlarından asılı olmamalıdır.

Məhdud məsuliyyətli cəmiyyətin icra orqanı dedikdə, bu cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirən orqan başa düşülür. Bu orqanlar üç cür olur: kollegial orqanlar; təkbaşına orqanlar; qarışıq orqanlar.

Kollegial icra (idarəetmə) orqanları odur ki, bu orqanlar cəmiyyətin fəliyyətinə cari rəhbərliyi kollegial qaydada həyata keçirir. Bu orqanlara misal olaraq idarə heyətini göstərmək olar. Bu orqanlar cəmiyyətin iştirakçıları sırasından ümumi yığıncaq tərəfindən seçilir və yalnız fiziki şəxslərdən ibarət ola bilər. Axı fiziki şəxslər şəxsi məsuliyyət daşımaq qabiliyyətlidir.

Təkbaşına icra (idarəetmə) orqanları odur ki, bu orqanlar cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi təkbaşına olaraq, qeyri-kollegial surətdə həyata keçirir. Bu orqanlara müdiri, rəisi, prezidenti, direktoru və s. misal çəkmək olar. Kollegial orqanlardan fərqli olaraq, təkbaşına orqanlar cəmiyyətin iştirakçıları sırasına daxil olmayan şəxslərdən də seçilə bilər. Bu orqanlar da cəmiyyətin iştirakçılarının ümumi yığıncağı tərəfindən seçilir.

Cəmiyyət və təkbaşına rəhbər arasında münasibətlər müqavilə ilə rəsmiləşdirilir. Müqavilə onunla ümumi yığıncağa sədrlik edən şəxs arasında imzalanır.

Qarışıq icra (idarəetmə) orqanları odur ki, bu orqanlar həm kollegial, həm də təkbaşına orqanların fəaliyyət göstərməsini nəzərdə tutur. Söhbət, eyni zamanda həm kollegial, həm də təkbaşına idarəetmə orqanlarının yaradılmasından və fəaliyyət göstərməsindən gedir.

[1] Ədəbiyyatda onun nəzarət və ya yoxlama orqanı olması göstərilir.

Məhdud məsuliyyətli cəmiyyətin icra (idarəetmə) orqanları ümumi yığıncaq tərəfindən yaradılır və seçilir. Bu orqanlar ümumi yığıncağa hesabat verirlər. Bu qaydanın əsas məqsədi iştirakçıların mənafeyini icra orqanları tərəfindən yol verilə bilən mümkün sui-istifadə hallarından qorumaqdan ibarətdir.

İcra (idarəetmə) orqanları cəmiyyətin fəaliyyətinin idarə olunmasında geniş səlahiyyətlərə malikdirlər. Cəmiyyətin operativ idarə edilməsini həyata keçirmək, üçüncü şəxslərlə münasibətdə, o cümlədən məhkəmədə müəssisəni təmsil etmək (nümayəndə olmaq), cəmiyyətin adından əqdlər bağlamaq, işçiləri vəzifəyə təyin etmək və s. həmin orqanların əsas səlahiyyətləri hesab olunur.

Cəmiyyətin nizamnaməsində əgər nəzərdə tutularsa, icra orqanının səlahiyyətləri başqa fiziki və ya hüquqi şəxslərə verilə bilər (MM-in 91.2.4-cü maddəsi). Belə halda münasibətlər müqavilə ilə rəsmiləşdirilir. Bu müqavilə səlahiyyətlərin həmin şəxslərə verilməsi üçün əsasdır. Onlar **kənar idarəçi** adlanır. Müqavilə də məhz kənar idarəçi ilə ümumi yığıncağa sədrlik edən şəxs arasında imzalanır (bağlanır). Ümumi yığıncaq müqavilənin imzalanmasını iştirakçılardan birinə də tapşıra bilər.

Cəmiyyətin orqanlarından biri **təftiş komissiyası (müfəttiş)** hesab edilir. Belə ki, cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda təftiş komissiyası (müfəttiş) yaradıla bilər (MM-in 91-ci maddəsinin 1-ci bəndi). Lakin o, idarəetmə orqanı yox, **nəzarət-yoxlama orqanı** hesab olunur; təftiş komissiyası (müfəttiş) yoxlama funksiyasını yerinə yetirir və yoxlama səlahiyyətlərinə malikdir. Bu orqanın əsas işi cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaqdan ibarətdir; bu məqsədlə o, cəmiyyətin fəaliyyətinə aid olan bütün sənədləri əldə edə bilər; cəmiyyətin müvafiq orqanları (direktorlar şurası, icra orqanı və s.) isə təftiş komissiyasının (müfəttişin) tələbi ilə zəruri məlumatları təqdim etməlidirlər.

Təftiş komissiyası (müfəttiş) cəmiyyətin illik hesabatları və mühasibat balansı, habelə mənfəət və zərərin bölüşdürülməsi barədə rəy verir. Belə rəy olmadan cəmiyyətin ümumi yığıncağı nə illik hesabatları və mühasibat balanslarını təsdiq edə, nə də mənfəət və zərərin bölüşdürülməsinə dair qərar qəbul edə bilər.

Təftiş komissiyası (müfəttiş) ümumi yığıncağın qərarı ilə seçilir (təyin edilir). Bir qayda olaraq, cəmiyyətin iştirakçısı olan şəxslər təftiş komissiyasına (müfəttiş) üzv seçilir (təyin edilir). Lakin cəmiyyətin iştirakçısı olmayan şəxslərin də təftiş komissiyasına üzv seçilməsinə (müfəttiş təyin edilməsinə) yol verilir. Özü də təftiş komissiyasının üzvlüyünə (müfəttiş kimi) yalnız fiziki şəxslər seçilir (təyin edilir).

Təftiş komissiyasının (müfəttişin) müstəqilliyini və asılı olmamasını təmin etmək üçün aşağıdakılar həmin orqana üzv seçilə (müfəttiş təyin edilə) bilməzlər: direktorlar şurasının (müşahidə şurasının) rəhbəri (üzvü); kollegial icra orqanının rəhbəri (üzvü); təkbaşına rəhbər; kənar idarəçi.

Təftiş komissiyasının (müfəttişin) hüquqi vəziyyəti ümumi şəkildə Mülki Məcəllə ilə müəyyən edilir (MM-in 91-3-cü maddəsi). Buna görə də onunla bağlı olan münasibətlər cəmiyyətin nizamnaməsi ilə tənzimlənir.

Nizamnamə məhdud məsuliyyətli cəmiyyətin fəaliyyətinin hüquqi əsasını

təşkil edən sənəddir. Burada cəmiyyətin nizamnamə kapitalının miqdan haqqında, iştirakçılardan hər birinin payının miqdarı haqqında, cəmiyyətin idarəetmə organlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi və digər məsələlər haqqında məlumat verilir (MM-in 89-cu maddəsi). Burada həm də MM-in 47.2-ci maddəsində nəzərdə tutulan məlumatlar göstərilir. Nizamnamə cəmiyyətin əsas və yeganə təsis sənədi hesab edilir. Bu, inkişaf etmiş bəzi xarici hüquq sistemlərinin ənənələrinə uyğundur[1].

Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları qanunda nəzərdə tutulan **vəzifələr** daşıyırlar. Onların əsas vəzifəsi **cəmiyyətin nizamnamə kapitalını tamamilə ödəməkdən ibarətdir** (MM-in 90-cı maddəsinin 2-ci bəndi). Özü də bu vəzifəni onlar cəmiyyətin dövlət qeydiyyatına alınmasınadək yerinə yetirməlidirlər[2].

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı onun iştirakçılarının mayalarının dəyərindən təşkil olunur (MM-in 90-cı maddəsinin 1-ci bəndi). Nizamnamə kapitalı[3] başlıca olaraq **təminat (qarantiya) funksiyasını** yerinə yetirir. Bu funksiya kreditorların mənafeyinə xidmət edir. Həmin funksiyanın mahiyyəti ondan ibarətdir ki, cəmiyyət kreditorların mənafelərini təmin edən əmlaka malik olmalıdır. Nizamnamə kapitalı da məhz həmin əmlakın minimum miqdarını müəyyənləşdirir.

Cəmiyyətin nizamnamə kapitalı dəyişdirilə bilər. **Nizamnamə kapitalının dəyişdirilməsi** dedikdə, onun ya artırılması, ya da azaldılması başa düşülür. Nizamnamə kapitalının artırılması MM-in 90-cı maddəsinin 4-7-ci bəndləri ilə, onun azaldılması isə MM-in 90-cı maddəsinin 8-ci bəndi ilə tənzimlənir.

Cəmiyyətin nizamnamə kapitalının artırılması üç yolla həyata keçirilə bilər. Birinci yol cəmiyyətin nizamnamə kapitalının **onun əmlakı hesabına artırılmasını** nəzərdə tutur. Bu yolla nizamnamə kapitalının artırılmasının qaydası cəmiyyətin nizamnaməsində göstərilir. Artırılma iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib olmalıdır.

İkinci yol **iştirakçıların əlavə payları hesabına** cəmiyyətin nizamnamə kapitalının artırılmasını nəzərdə tutur. Söhbət iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə cəmiyyətin nizamnamə kapitalının artırılmasından gedir. Bunun qaydası cəmiyyətin nizamnaməsində göstərilir. İştirakçı (iştirakçılar) əlavə maya qoyulması haqqında ərizə yazmalıdır. Ərizədə mayaların məbləği və tərkibi, onların qoyulma qaydası və müddəti, habelə mayaların qoyulmasının digər şərtləri göstərilə bilər.

Üçüncü yol cəmiyyətin nizamnaməsinin **cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına** artırılmasını nəzərdə tutur. Bu yoldan yalnız o halda istifadə edilə bilər ki, nizamnamədə üçüncü şəxslərin cəmiyyətə iştirakçı kimi qəbul edilməsi qadağan olunmasın. Əgər nizamnamədə qadağan edilməmişdirsə, üçüncü şəxslər cəmiyyətə iştirakçı kimi qəbul olunması və maya qoyması haqqında ərizə yazırlar.

Cəmiyyətin nizamnamə kapitalının artırılması, əlbəttə, onun nizamnaməsinin dəyişməsi ilə bağlıdır. Odur ki, bundan ötrü cəmiyyətin ümumi yığıncağının qərarı tələb edilir. Buna görə də nizamnamə kapitalının hər üç yolla artırılması cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Belə ki, nizamnamə kapitalının artırılması barədə qərarı cəmiyyətin ümumi yığıncağı qəbul etməlidir. Ümumi yığıncaq nizamnamə kapitalının artırılması haqqında qərarla yanaşı, nizamnaməyə edilən dəyişikliklər haqqında qərar qəbul edir.

Aydın məsələdir ki, nizamnamə kapitalının artırılması cəmiyyətin kreditorlarının mənafeyinə toxunmur. Bu səbəbdən, cəmiyyət özünün kreditorlarına bu barədə məlumat (bildiriş) göndərmir.

Kreditorların mənafelərinin təmin edilməsinə yönələn, ümumiyyətlə, nizamnamə kapitalının qarantiya (təminat) funksiyasını təmin edən tədbirlərdən biri **cəmiyyətin öz nizamnamə kapitalını azaldarkən həmin mənafeləri qorumaq haqqında qaydadır.** Bu qaydaya görə, cəmiyyət öz nizamnamə kapitalını bütün kreditorları xəbərdar etməklə azalda bilər (MM-in 90-cı maddəsinin 8-ci bəndi). Belə ki, cəmiyyət ümumi yığıncaqda, ciddi əsaslar olduqda, öz nizamnamə kapitalının azaldılması barədə qərar qəbul edir. Qərarın qəbul olunmasından sonra nizamnamədə və ya həmin qərarda müəyyən olunmuş müddətdə kreditorlara bu barədə yazılı məlumat göndərilir. Cəmiyyət başqa yoldan da istifadə edə bilər. Belə ki, onun ixtiyarı var ki, həmin məsələ barəsində mətbuatda müvafiq elan versin.

Məlumatın alınması və ya elanın dərc edilməsi günündən etibarən bir ay müddətində kreditorlar mümkün olan iki alternativ variantdan birini seçə bilərlər. Birinci varianta görə, onlar cəmiyyət tərəfindən əlavə təminat verilməsini tələb edirlər. İkinci varianta görə isə kreditorların ixtiyarı var ki, cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya xitamını (kreditin qaytarılmasını, nisyə alınan əmlakın pulunun ödənilməsini və s.) tələb etsin. Şübhəsiz ki, öhdəliklərin vaxtından əvvəl icrası və ya xitamı kreditorlara müvafiq əmlak zərəri vurur. Məsələn, kreditin vaxtından əvvəl qaytarılması ilə müvafiq gəlir (faiz) bankın (kreditorun) əlindən çıxır, ondan məhrum olur və bununla əldən çıxmış fayda formasında o zərərə düşür. Belə hallarda kreditorlar düşdükləri zərərin əvəzinin ödənilməsini də tələb edir.

Göstərilən qayda kreditorların mənafeyinin təmin edilməsi və qorunması məqsədinə xidmət edir. Axı nizamnamə kapitalının artırılmasından fərqli olaraq, onun azaldılması cəmiyyətin kreditorlarının mənafeyinə toxunur və kreditorları qarşısında cəmiyyətin öz öhdəliklərini yerinə yetirmək imkanını azaldır.

Nizamnamə kapitalının azaldılması onun artırılması kimi cəmiyyətin nizam-

[1] Bəzi ölkələrin, məsələn, RF-in qanunvericiliyinə görə, cəmiyyətin iki təsis sənədi vardır: təsis müqaviləsi; nizamnamə. Hüquq ədəbiyyatı səhifələrində bu cür iki təsis sənədinin qoşa mövcud olmasının uğursuzluğu əsaslandırılır və onun problemlər yaratması göstərilir (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 189). «Məhdud məsuliyyətli müəssisələr haqqında» qanunda da (10-11-ci maddələrdə) məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti üçün iki təsis sənədinin — təsis müqaviləsinin və nizamnamənin olması tələb edilirdi (bax: AR QK, III xüsusi buraxılış. 2001, s. 55-56).

[2] Bu barədə «Məhdud məsuliyyətli müəssisələr haqqında» qanun başqa qayda müəyyən edirdi. Həmin qaydaya görə, nizamnamə fondunun məbləği müəssisənin dövlət qeydiyyatına alınmasından sonra bir il müddətində ödənilməli idi. Əgər ödənilməzsədə, onda müəssisə vergi orqanları tərəfindən nizamnamə fondunun ödənilməmiş hissəsinin iki faizi həcmində cərimə olunurdu. Bundan sonra bir il ərzində müəssisənin nizamnamə fondu ödənilməzdisə, onda vergi orqanları müəssisənin ləğv edilməsi barədə dövlət qeydiyyatı orqanı qarşısında vəsatət qaldırırdı (bax: Həmin qanunun 15-ci maddəsi // AR QK, III xüsusi buraxılış. 2001, s. 56).

[3] «Məhdud məsuliyyətli müəssisələr haqqında» qanunda nizamnamə kapitalı yox, nizamnamə fondu anlayışı işlədilirdi. Onlar mənaca eyni, sinonim anlayışlardır (bax: Qanunun 17-ci maddəsi).

naməsinin dəyişdirilməsinə səbəb olur. Odur ki, cəmiyyətin nizamnamə kapitalının azaldılması da cəmiyyətin ümumi yığıncağının qərarı əsasında həyata keçirilir. Özü də nizamnamə kapitalının azaldılması məsələsi bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həll edilir (MM-in 90-cı maddəsinin 8-ci bəndi).

Nizamnamə kapitalına maya qoymaq vəzifəsini iştirakçılar yerinə yetirməyə borcludurlar. Onu bu cür vəzifə daşımaqdan azad etmək olmaz. Bundan əlavə mülki qanunvericilik mayaların cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə, yəni hesabların (tələblərin) çürüdülməsi yolu ilə qoyulmasını qadağan edir (MM-in 90-cı maddəsinin 3-cü bəndi). Məsələn, cəmiyyətin hər hansı şəxsə on min manat borcu vardır. Beləliklə, şəxsin cəmiyyətə on min manatın verilməsinini tələb etmək hüququ (tələbi) yaranır. Həmin şəxs cəmiyyətə qarşı olan pul tələbini əvəzləşdirməklə maya qoya bilməz.

İştirakçıların daşıdıqları vəzifələrdən biri məhdud **məsuliyyətli cəmiyyətin firma adını dəqiq göstərməsindən ibarətdir** (MM-in 87-ci maddəsinin 8-ci bəndi). Tələb olunan dəqiqliyi təmin etmək üçün cəmiyyətin firma adına onun adı, habelə «məhdud məsuliyyətli cəmiyyət» sözləri daxil edilir. Məsələn, «Ruzi» məhdud məsuliyyətli cəmiyyət. «Məhdud məsuliyyətli cəmiyyət» sözlərinin əvəzinə abbrevuaturadan (italyanca «abreviatura» — qısa), yəni qısaldılmış addan da istifadə oluna bilər[1]: «MMC». Məsələn, «Ruzi» MMC. Bu, bəzi xarici ölkələrdə müəyyən edilən qaydaya uyğun gəlir. Məsələn, Almaniyada onların qısaldılmış adı GmbH, Fransada S.R.L. və s.

Məhdud məsuliyyətli **cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risq daşımaq iştirakçıların üzərinə düşən vəzifələrdən biridir** (MM-in 87-ci maddəsinin 1-ci bəndi). Əgər cəmiyyət zərərə düşərsə, zərərlə işləyərsə, onda iştirakçı nizamnamə kapitalına qoyduğu mayanı itirir. Deməli, iştirakçı yalnız mayanı itirmək risqini daşıyır.

İştirakçılar cəmiyyətin öhdəlikləri üzrə məsuliyyət daşımırlar. Bu, o deməkdir ki, onlar özlərinin yaratdıqları cəmiyyətin borclarına görə öz şəxsi əmlakı ilə cavabdeh deyillər. Onların burada **şəxsi (fərdi) məsuliyyəti yaranmır.** Belə ki, iştirakçıların şərikli kapitala qoyduqları maya hüquq şəxs kimi cəmiyyətin mülkiyyəti (əmlakı) olur. Hüquqi şəxsin — cəmiyyətin özü də öz öhdəliklərinə (borclarına) görə məsuliyyət daşıyır. Cəmiyyət öz öhdəliklərinə görə ona məxsus olan bütün əmlakı ilə cavabdehdir. İştirakçılar isə məsuliyyət yox, yalnız cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaları itirmək risqini daşıyırlar. Deməli, məhdud məsuliyyəti cəmiyyətin iştirakçılarının hər hansı məsuliyyət, **o cümlədən məhdud məsuliyyət daşımasından söhbət gedə bilməz**[2]. Eyni zamanda cəmiyyət də öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.

[1] bax: «Məhdud məsuliyyətli müəssisələr haqqında» qanunun 3-cü maddəsində bu, nəzərdə tutulmuşdu (AR QK. III xüsusi buraxılış. 2001, s. 54).

[2] Bu, onu sübut edir ki, «məhdud məsuliyyətli cəmiyyət» adının özü dəqiq deyil. Dediklərimiz həm də qüvvədən düşmüş «Məhdud məsuliyyətli müəssisələr haqqında» qanunun 2-ci maddəsində ifadə olunan belə bir göstərişin qüsurlu və qeyri-düzgün olmasını təsdiqləyir ki, guya müəssisənin təsisçiləri onun öhdəliklərinə görə ancaq nizamnamə fondundakı payları həcmində məsuliyyət daşıyır (AR QK. III xüsusi buraxılış. 2001, s. 54). İştirakçılar məsuliyyət yox, zərərə görə risq daşıyırlar.

Əsas vəzifələrdən biri cəmiyyətin **iştirakçılarının sayının qanunvericiliklə müəyyənləşdirilmiş həddi keçməməsindən ibarətdir** (MM-in 88-ci maddəsinin 1-ci bəndi). Bu qayda onunla izah olunur ki, məhdud məsuliyyətli cəmiyyət iştirakçıların qapalı tərkibini nəzərdə tutan təşkilatdır. Say baxımından, şübhəsiz ki, iştirakçıların tərkibi sonsuz və hüdudsuz ola bilməz. Burada şəxsi element ön planda olmasa da, hər halda, müəyyən əhəmiyyət kəsb edir. Ona görə də mülki qanunvericilik müəyyən edir ki, iştirakçıların sayı qanunda nəzərdə tutulan həddi aşa bilməz. Əgər aşarsa, onda məhdud məsuliyyətli cəmiyyət bir il ərzində səhmdar cəmiyyətinə çevrilir. Bir il müddəti başa çatdıqdan sonra isə, əgər onun iştirakçılarının sayı azaldılıb qanunla müəyyənləşdirilmiş həddə endirilməzsə, cəmiyyət məhkəmə qaydasında ləğv edilir (MM-in 88-ci maddəsinin 1-ci bəndi).

Məhdud məsuliyyətli cəmiyyətin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz (MM-in 88-ci maddəsinin 1-ci bəndi). Bu cür qaydanın əsas məqsədi mümkün ola bilən müxtəlif sui-istifadə hallarına yol verməməkdən ibarətdir.

Məhdud məsuliyyətli cəmiyyət iştirakçıları müvafiq vəzifələr daşımaqla bərabər, həm də **hüquqlara** malikdirlər. Mülki qanunvericilik onlara geniş hüquqlar verir.

Məhdud məsuliyyətli cəmiyyəti könüllü surətdə yenidən təşkil etmək və ya onu ləğv etmək onların əsas hüquqlarından biridir (MM-in 92-ci maddəsi). Bu barədə qərar qəbul etmək cəmiyyətin iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid olduğuna görə cəmiyyətin könüllü surətdə yenidən təşkili (qovuşma, bölünmə, birləşmə və ya ayrılma yolu ilə) və ya könüllü surətdə ləğvi ümumi yığıncağın qərarı ilə həyata keçirilir. Bu cür qərarın qəbul edilməsi üçün **bütün iştirakçıların yekdilliyi prinsipi** müəyyənləşdirilir. Həmin prinsipə görə iştirakçıların yalnız yekdil qərarı ilə cəmiyyət yenidən təşkil və ya ləğv edilə bilər. Ona görə də yığıncaq ancaq tam kvorum olduqda keçirilir.

Mülki qanunvericilik çevrilmə yolu ilə məhdud məsuliyyətli cəmiyyətin yenidən təşkil edilməsi barədə məhdudiyyət müəyyənləşdirir (MM-in 92-ci maddəsinin 2-ci bəndi). Bu məhdudiyyətə görə **o, yalnız səhmdar cəmiyyətinə çevrilə bilər**[1]. Deməli, çevrilmə yolu ilə məhdud məsuliyyətli cəmiyyətin digər təşkilati-hüquqi forması olan hüquqi şəxsə (kooperativə, ortaqlığa) çevrilməsi mümkün deyil (şübhəsiz ki, məsuliyyət məsələsinə və subyekt tərkibinə görə). Belə çıxır ki, qovuşma, birləşmə və ya ayrılma kimi digər yollarla cəmiyyət yenidən təşkil olunarkən başqa təşkilati-hüquqi forması olan hüquqi şəxslər yaradıla bilər.

İştirakçıların malik olduqları hüquqlardan biri onların **nizamnamə kapitalındakı paylarını güzəşt etməkdən (verməkdən) ibarətdir** (MM-in 93-cü maddəsi). Özü də müstəqil surətdə və digər iştirakçıların razılığını almadan, nizamnamə əsasında məhdudlaşdırılmadan bu mümkündür. Güzəşt etmənin

[1] «Məhdud məsuliyyətli müəssisələr haqqında» qanun isə (45-ci maddə) bundan fərqli qayda müəyyən edirdi, yəni məhdudiyyət nəzərdə tutmurdu. Orada göstərilirdi ki, məhdud məsuliyyətli cəmiyyət digər təşkilati-hüquqi forması olan müəssisəyə çevrilə bilər (bax: AR QK, III xüsusi buraxılış. 2001, s. 60).

(vermənin) predmeti həm payın hamısı, həm də onun yalnız bir hissəsi ola bilər.

Payın verilməsi (güzəşt edilməsi) iştirakçıların iradəsi əsasında onun özgəninkiləşdirilməsini ifadə edir. Özgəninkiləşdirmə payın başqa şəxslərə keçməsinin usullarından biridir. Dəyişmə, alqı-satqı və bağışlama kimi müqavilələr onun əsas hüquqi vasitələri hesab olunur.

Pay (və ya onun bir hissəsi), bir qayda olaraq, həmin cəmiyyətin bir və ya bir neçə iştirakçısına özgəninkiləşdirilir. İştirakçı öz payını (onun bir hissəsini) üçüncü şəxslərə (həmin cəmiyyətin iştirakçısı olmayan kənar şəxslərə) də verə (güzəşt edə) bilər. Bunun üçün vacibdir ki, cəmiyyətin nizamnaməsində payın üçüncü şəxslərə özgəninkiləşdirilməsi qadağan olunmasın (MM-in 93-cü maddəsinin 2-ci bəndi). Bağışlama və ya dəyişmə müqaviləsi əsasında isə o, payı (onun bir hissəsini) sərbəst olaraq üçüncü şəxslərə özgəninkiləşdirə bilər.

Cəmiyyətin iştirakçısı satmaq yolu ilə öz payını (onun bir hissəsini) özgəninkiləşdirmək istədikdə, hər şeydən əvvəl, bu barədə iştirakçıları xəbərdar edir, onlara məlumat verir. Axı, mülki qanunvericilik cəmiyyətin digər iştirakçılarına həmin iştirakçının payını (onun bir hissəsini) satın almaqda (bağışlama, dəyişmə hallarında yox) üstünlük hüququ vermişdir (MM-in 93-cü maddəsinin 3-cü bəndi). Satın almaqda üstünlük hüququndan istifadə edilməsi zamanı iştirakçıların paylarının miqdarı (həcmi) əsas və həlledici əlamət kimi götürülür. Belə ki, onlar üstünlük hüququnu özlərinin paylarının miqdarına (həcminə) mütənasib surətdə həyata keçirirlər: kimin payının miqdarı (həcmi) çoxdursa, payı da birinci olaraq o, satın ala bilər. Nizamnamədə və ya iştirakçıların sazişində həmin hüququn həyata keçirilməsinin başqa qaydası da nəzərdə tutula bilər.

İştirakçılar öz üstünlük hüququndan bu barədə məlumat aldıqları gündən bir ay ərzində (nizamnamədə və ya iştirakçıların sazişində başqa müddət də nəzərdə tutula bilər) istifadə edə bilərlər. Əgər onlar bu hüquqdan həmin müddət ərzində istifadə etməsələr, onda pay (onun bir hissəsi) üçüncü şəxslərə satılır.

Elə hallar yaranır ki, cəmiyyətin digər iştirakçıları payı (onun bir hissəsini) satın almaqdan imtina edirlər. Digər tərəfdən, payın (onun bir hissəsi) üçüncü şəxslərə satılması da mümkün olmur. Çünki cəmiyyətin nizamnaməsində payın (onun bir hissəsinin) bu kateqoriya şəxslərə satılması qadağan olunmuşdur. Belə halda cəmiyyət özü həmin iştirakçının payını əldə edir. Söhbət, hər şeydən əvvəl, payın həqiqi dəyəri ödənilməklə onun satın alınmasından gedir. Özü də payı əldə etmək cəmiyyətin hüququ yox, onun vəzifəsidir, borcudur.

Bundan sonra cəmiyyətin borcudur ki, əldə etdiyi payı (onun bir hissəsini) başqa iştirakçılara və ya üçüncü şəxslərə satsın (MM-in 93-cü maddəsinin 5-ci bəndi). Bunun qaydası və müddəti nizamnamədə göstərilir.

Güzəşt etmə (vermə), iradə əsasında özgəninkiləşdirmə payın (onun bir hissəsinin) başqa şəxslərə keçməsinin yeganə vasitəsi və üsulu deyildir. Belə ki, pay (onun bir hissəsi) iştirakçının iradəsindən asılı olmayan hallara görə də başqa şəxslərə keçə bilər. Məsələn, iştirakçı fiziki şəxsin ölümü, cəmiyyətdə iştirak edən hüquqi şəxsin yenidən təşkil olunması və ya ləğvi bu cür hallara misal ola bilər.

İştirakçı fiziki şəxs öldükdə, onun payı vərəsəlik qaydasında vərəsələrə keçir. Cəmiyyətin iştirakçısı olan hüquqi şəxs isə yenidən təşkil olunduğu

hallarda, onun payı hüquqi varislik qaydasında hüquq varislərinə keçir (MM-in 93-cü maddəsinin 6-cı bəndi). Ümumi qayda belədir. Lakin cəmiyyətin nizamnaməsində bundan fərqli qayda da müəyyən edilə bilər. Belə ki, həmin sənəddə payların ölmüş iştirakçı fiziki şəxsin vərəsələrinə (və ya hüquq varislərinə) yalnız cəmiyyətin qalan iştirakçılarının razılığı ilə keçməsi nəzərdə tutula bilər. Məlum məsələdir ki, bu cür hallarda pay ancaq qalan iştirakçıların razılığı ilə keçir. Beləliklə, vərəsələr (hüquq varisləri) cəmiyyətin tərkibinə daxil olurlar.

Bəzən qalan iştirakçılar bu və ya digər mülahizəyə görə payın vərəsələrə (hüquq varislərinə) keçməsinə icazə vermirlər. Bu isə onların cəmiyyətə daxil olmalarına mane olur. Belə hallarda məhdud məsuliyyətli cəmiyyət mümkün olan iki alternativ vəzifədən birini icra etməyə borclu olur. Cəmiyyət, hər şeydən əvvəl, **payın həqiqi dəyərini ölmüş iştirakçının vərəsələrinə** və ya yenidən təşkil olunmuş hüquqi şəxsin hüquqi varislərinə ödəməlidir. Əgər bu mümkün olmazsa, onda o, **həmin dəyərə bərabər olan əmlakı naturada vərəsələrə** (hüquqi varislərə) verməlidir.

Könüllü surətdə cəmiyyətdən çıxmaq, cəmiyyətdə öz iştirakına xitam vermək iştirakçıların malik olduqları hüquqlardan biridir (MM-in 95-ci maddəsi). Onlar bu hüquqdan istənilən vaxt, heç bir dəlil və motiv gətirmədən, digər iştirakçıların razılığını almadan, şərtsiz olaraq istifadə edə bilərlər.

İştirakçının məhdud məsuliyyətli cəmiyyətdən çıxması müəyyən hüquqi nəticələrə səbəb olur. Bu, hər şeydən əvvəl, onun cəmiyyətdə iştirakına xitam verir. İştirakına xitam verilən iştirakçı ilə hesablaşmalar aparılır (MM-in 96-cı maddəsi). **Cəmiyyətin əmlakından ona düşən hissə ödənilir** (nizamnamədə başqa qayda da nəzərdə tutula bilər). Bu hissənin miqdarı (həcmi) çıxan iştirakçının **nizamnamə kapitalındakı payından asılı olaraq müəyyənləşdirilir.** Başqa sözlə desək, çıxan iştirakçıya düşən əmlak hissəsinin miqdarı (həcmi) onun nizamnamə kapitalındakı payına uyğun olmalıdır.

Bəzən çıxan iştirakçıya düşən əmlak hissənin dəyərinin ödənilməsi mümkün olmur. Bu halda **ona çatası əmlak naturada verilir.**

Çıxan iştirakçıya onun nizamnamə kapitalına maya kimi qoyduğu **əmlakdan istifadə hüququ da** qaytarılır. Söhbət, hər şeydən əvvəl, torpaqdan, sudan və başqa təbii ehtiyatlardan, sənaye mülkiyyəti obyektlərindən, yəni patent hüququnun obyektlərindən (ixtiralardan, sənaye nümunəsi obyektlərindən, faydalı modellərdən), seleksiya nailiyyətlərindən və s. istifadə hüquqlarından gedir. Bu hüquqlar əmlak (iqtisadi) məzmununa malik olub, iştirakçılar tərəfindən maya (pay) kimi cəmiyyətin nizamnamə kapitalına qoyula bilər. İştirakçı cəmiyyətdən çıxdıqda istifadə hüququ onun özünə qaytarılır (MM-in 96-cı maddəsinin 2-ci bəndi).

İştirakçı könüllü surətdə yox, **məcburi surətdə də cəmiyyətdən çıxa bilər.** Kreditorların irəli sürdükləri tələblərin iştirakçının cəmiyyətin əmlakındakı payına yönəldilməsi və həmin payın hesabına təmin edilməsi onun cəmiyyətdən məcburi qaydada çıxmasına dəlalət edən hal hesab olunur (MM-in 94-cü maddəsi). Müəyyən hallarda iştirakçı cəmiyyətin fəaliyyəti və işi ilə bağlı olmayan müxtəlif mülki hüquq münasibətlərinə — borc, kredit, nisyə alqı-satqı və digər münasibətlərə girə bilər. Bu münasibətlərdən onun müvafiq şəxsi, yəni cəmiyyətə aid olmayan borcları yaranır. Kreditor borcu almaq üçün iştirakçıya

tələb irəli sürür. Bu tələbi ödəmək və təmin etmək üçün onun əmlakı kifayət etmir. Belə halda kreditorun tələbi iştirakçının cəmiyyətin əmlakındakı payına yönəlir. Bu məqsədlə həmin əmlak payı (hissəsi) ayrılır. Bu pay (hissə) iştirakçının nizamnamə kapitalındakı payına uyğun olmalıdır. Başqa sözlə desək, cəmiyyətin əmlakından iştirakçıya düşən və çatan pay (hissə) onun nizamnamə kapitalındakı payı ilə müəyyənləşdirilir. İştirakçıya düşən və çatan əmlak payının (hissəsinin) dəyəri də ödənilə bilər. Bax, bu əmlak payı (hissəsi) və ya onun dəyəri hesabına kreditorlara olan borclar ödənilir. Bunun nəticəsində iştirakçının cəmiyyətdə iştirakına xitam verilir (MM-in 94-cü maddəsinin 2-ci bəndi).

İştirakçıların göstərilənlərdən savayı, digər hüquqları da vardır. Bu hüquqlara aiddir: cəmiyyətin idarə edilməsində iştirak etmək (korporativ hüququ); cəmiyyətin fəaliyyəti haqqında məlumat almaq hüququ; cəmiyyətin mühasibat və digər sənədləri ilə tanış olmaq hüququ; cəmiyyətin fəaliyyətindən gəlir götürmək hüququ; cəmiyyət ləğv edildikdə kreditorlarla hesablaşmalardan sonra qalan əmlakın onlara məxsus hissəsinin pul şəklində dəyərini almaq və ya naturada almaq hüququ (ləğvetmə kvotası almaq hüququ); iştirakçıların ümumi yığıncağında iştirak etmək hüququ; cəmiyyətin orqanlarını seçmək hüququ; cəmiyyətin orqanlarına seçilmək hüququ; səsvermədə iştirak etmək hüququ; növbədənkənar ümumi yığıncağın çağırılmasını tələb etmək hüququ (bu hüquq bütün səslərin azı onda birinə malik olan iştirakçılara məxsusdur); digər huquqlar.

Əlbəttə, iştirakçının ən vacib əmlak hüququ **mənfəət almaq hüququdur.** Ona cəmiyyətin fəaliyyətindən gəlir götürmək hüququ da deyilir. Qanun müəyyən edir ki, cəmiyyətin hər bir iştirakçısının mənfəət almaq hüququ vardır (MM-in 90-1-2-ci maddəsinin 2-ci bəndi). Özü də mənfəət hər bir iştirakçının nizamnamə kapitalındakı mayalarına uyğun olmalıdır. İştirakçı bu hüquqdan yalnız o halda istifadə edə bilər ki, cəmiyyətin fəaliyyəti nəticəsində xalis mənfəət əldə edilsin. Əgər xalis mənfəət əldə edilmişsə, cəmiyyətin ümumi yığıncağı xalis mənfəətin bölüşdürülməsi haqqında qərar qəbul edir. Xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada həyata keçirilir.

Xalis mənfəəti mənfəətdən fərqləndirmək lazımdır. **Mənfəət** dedikdə, cəmiyyətin istehsal xərcləri ilə əldə olunmuş gəlirlər arasında fərq başa düşülür. Belə ki, gəlirlərdən istehsal xərcləri çıxıldıqdan sonra yerdə qalan hissə mənfəət sayılır. Mənfəətdən vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yerdə qalan hissə **xalis mənfəət** hesab edilir.

Iki halda iştirakçı mənfəət almaq hüququnu həyata keçirə bilməz: həmin hallarda mənfəətin bölüşdürülməsi haqqında cəmiyyətin qərar qəbul etməsinə yol verilmir:

- cəmiyyətin qanunla müəyyən edilmiş müflisləşmə və iflas əlamətlərinə uyğun gəldiyi hal;
- cəmiyyətin xalis aktivlərinin dəyərinin onun nizamnamə kapitalından azaldığı hal.

Səsvermə (səs) hüququ iştirakçıların malik olduğu əsas şəxsi hüquqlardan biridir. Belə ki, cəmiyyətin iştirakçılarının ümumi yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır (MM-in 91-1-ci maddəsinin 1-ci bəndi).

İnformasiya almaq hüququ iştirakçının şəxsi hüququ sayılır. Hər bir iştirakçının cəmiyyətin işi barədə istənilən məlumat almaq, sənədlərlə tanış olmaq hüququ vardır. Bu hüququn həyata keçirilməsi cəmiyyətin ümumi yığıncağı ilə bağlı deyildir: iştirakçı məlumatı istənilən vaxt tələb edə bilər.

İnformasiya almaq hüququnu məhdudlaşdıran və ya onu ləğv edən istənilən razılaşmanın hüquqi əhəmiyyəti yoxdur.

7. Əlavə məsuliyyətli cəmiyyət

Əlavə məsuliyyətli cəmiyyət təsərrüfat cəmiyyətinin bir növüdür. O, hüquqi şəxs **müstəqil təşkilati-hüquqi forması** hesab olunur.

Əlavə məsuliyyətli cəmiyyət hüquqi konstruksiyası bizim ölkə qanunvericiliyi tərəfindən yaradılmamışdır. Bu konstruksiyanı hələ RSFSR-in 1922-ci il Mülki Məcəlləsi, Azərbaycan SSR-in isə 1923-cü il Mülki Məcəlləsi «məhdud məsuliyyətli ortaqlıq» adı altında nəzərdə tutmuşdu. Həmin məcəllələrin 318-ci və 319-cu maddələri ona leqal anlayış verirdi. Həm RF-in, həm də bizim ölkənin müasir mülki qanunvericiliyi həmin anlayışı olduğu kimi saxlayır.

Azərbaycan Respublikasının yeni MM-nin 97-ci maddəsi əlavə məsuliyyətli cəmiyyətə anlayış verir və onun əsas əlamətlərini müəyyənləşdirir.

Əlavə məsuliyyətli cəmiyyət bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən elə kommersiya təşkilatıdır ki, bu təşkilatın iştirakçıları onun öhdəlikləri üzrə nizamnamə kapitalındakı öz mayalarının (paylarının) dəyərinin nizamnamə ilə müəyyənləşdirilən, hamı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar.

Anlayışdan məlum olur ki, öz hüquqi təbiətinə görə əlavə məsuliyyətli cəmiyyət **ikili xarakterə** malikdir. Belə ki, o, özündə bir tərəfdən təsərrüfat ortaqlığının, yəni **tam ortaqlığın,** digər tərəfdən isə təsərrüfat cəmiyyətinin, yəni **məhdud məsuliyyətli cəmiyyətin əlamətlərini** əks etdirir. Ona görə də hüquq ədəbiyyatı səhifələrində əlavə məsuliyyətli cəmiyyətə təsərrüfat ortaqlığı ilə təsərrüfat cəmiyyəti arasında orta mövqe tutan və aralıq vəziyyətində olan konstruksiya kimi baxırlar[1].

Əlavə məsuliyyətli cəmiyyətlə tam ortaqlıq arasında oxşar və ümumi cəhət ondan ibarətdir ki, onların hər ikisinin iştirakçıları hüquqi şəxsin (yəni əlavə məsuliyyət cəmiyyətin və ya tam ortaqlığın) öhdəliklərinə görə (kreditorlara olan borclarına görə) **birgə subsidiar məsuliyyət daşıyırlar. Subsidiar (əlavə) məsuliyyət** daşıyırlar ona görə ki, kreditorlara olan borcları vermək üçün (yəni hüquqi şəxsin öhdəliklərini təmin etmək üçün) hüquqi şəxsin əmlakı kifayət etmədikdə və çatışmadıqda, həmin borc iştirakçıların şəxsi əmlakı hesabına ödənilir. **Birgə (solidar) məsuliyyət** daşıyırlar ona görə ki, kreditorlar öz istəyi və arzusu ilə istənilən iştirakçıdan borcun həm tam, həm də hissə-hissə ödənilməsini tələb edə bilərlər.

Bununla belə, məsuliyyət məsələsində əlavə məsuliyyətli cəmiyyətlə tam

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с 107, Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 229.

ortaqlıq arasında fərqli cəhətlər də vardır. Tam ortaqlığın iştirakçıları tam ortaqlığın öhdəliklərinə (borclarına) görə özlərinin bütün şəxsi əmlakı ilə məsuliyyət daşıyırlar. Deməli, burada iştirakçıların məsuliyyəti qeyri-məhdud xarakterə malikdir. Əlavə məsuliyyətli cəmiyyətin iştirakçıları isə bundan fərqli olaraq özlərinin **bütün şəxsi əmlakı ilə yox, yalnız bu əmlakın əvvəlcədən təyin edilmiş müəyyən bir hissəsi ilə məsuliyyət daşıyırlar.** Bu hissə nizamnamədə nəzərdə tutulur. Məsələn, nizamnamədə göstərilə bilər ki, hər bir iştirakçı nizamnamə kapitalındakı payının (qoyduğu mayanın) üç və ya dörd və yaxud da beş misli miqdarında cəmiyyətin öhdəliklərinə (borclarına) görə məsuliyyət daşıyır. Deməli, burada **iştirakçıların məsuliyyəti qeyri-məhdud xarakterə malik deyil**[1]. Belə ki, kreditorlara olan borcun verilməsi üçün cəmiyyətin əmlakı kifayət etmədikdə və çatışmadıqda, bu borc iştirakçılardan hər birinin şəxsi əmlakının yalnız bir hissəsi — nizamnamə kapitalına qoyulmuş payın (mayanın) nizamnamədə göstərilən müvafiq misli miqdarı hesabına ödənilir.

Əlavə məsuliyyətli cəmiyyətlə məhdud məsuliyyətli cəmiyyət arasında da ümumi və oxşar cəhətlər vardır. Bu cəhət ondan ibarətdir ki, onların hər ikisi nizamnamə kapitalı **nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən kommersiya təşkilatlarıdır.** Fərqli cəhət isə ondan ibarətdir ki, məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları cəmiyyətin öhdəlikləri üçün nəinki birgə subsidiar məsuliyyət, ümumiyyətlə, məsuliyyət daşımırlar. Qalan məsələlər üzrə əlavə məsuliyyətli cəmiyyətlə məhdud məsuliyyətli cəmiyyətin hüquqi statusu, demək olar ki, eynidir[2]. Belə ki, əlavə məsuliyyətli cəmiyyətin fəaliyyəti ilə bağlı olan məsələlərin çoxu məhdud məsuliyyətli cəmiyyət haqqında qaydalar əsasında həll edilir. Başqa sözlə, əlavə məsuliyyətli cəmiyyətə, bir qayda olaraq, məhdud məsuliyyətli cəmiyyətin hüquqi statusunu müəyyən edən qaydalar tətbiq edilir (MM-in 97-ci maddəsinin 3-cü bəndi).

Lakin əlavə məsuliyyətli cəmiyyət tam ortaqlığa və məhdud məsuliyyətli cəmiyyətə nə qədər bənzəsə də, o, hüquqi şəxslərin müstəqil təşkilati-hüquqi formasıdır. Onu hər hansı bir təşkilati-hüquqi formanın növü hesab etmək olmaz.

Əlavə məsuliyyətli cəmiyyət onu fərdiləşdirən firma adına malik olur. Onun **firma adı dəqiq göstərilməlidir.** Bu məqsədlə həmin cəmiyyətin adı, habelə «əlavə məsuliyyətli cəmiyyət» sözləri firma adına daxil edilir (MM-in 97-ci maddəsinin 2-ci bəndi). Məsələn, «Əhmədoğlu» əlavə məsuliyyətli cəmiyyəti» və s.

Əlavə məsuliyyətli cəmiyyətin iştirakçılarından biri müflis ola bilər. Belə halda cəmiyyətin öhdəliklərinə görə məsuliyyət daşımaq məsələsi necə həll olunur? Kreditorların tələblərini təmin etmək üçün əlavə tədbirlər görməsinə ehtiyac varmı? Bu məsələni həll etmək üçün mülki qanunvericilik qayda müəyyən edir (MM-in 97-ci maddəsinin 1-ci bəndi). Bu qaydaya görə müflis olan iştirakçının cəmiyyətin öhdəlikləri üçün məsuliyyəti qalan iştirakçılar arasında bölüşdürülür. Bölüşdürmə qalan iştirakçıların nizamnamə kapitalına qoyduqları mayalara mütənasib surətdə həyata keçirilir.

[1] Bu xüsusiyyətinə görə RSFSR-in 1922-ci il Mülki Məcəlləsi, Azərbaycan SSR-in 1923-cü il Mülki Məcəlləsi əlavə məsuliyyətli cəmiyyəti «məhdud məsuliyyətli ortaqlıq» anlayışı ilə əhatə edirdi. Bu, müəyyən mənada daha dəqiq termindir. Belə ki, qeyri-məhdud məsuliyyət daşıyan tam ortaqlığa nisbətən əlavə məsuliyyətli cəmiyyət məhdud məsuliyyət daşıyır (bax: Гражданский кодекс советских республик. Текст и практический комментарий / Под ред. *А.Малицкого*. М., 1924).

[2] MDB-nin Parlamentlərarası Assambleyası tərəfindən təsdiq edilən «Məhdud məsuliyyətli cəmiyyət haqqında» model qanununda əlavə məsuliyyətli cəmiyyət məhdud məsuliyyətli cəmiyyətin bir forması kimi nəzərdə tutulur (bax: Рекомендательного законодательного акта «Об обществах с ограниченной ответственностью», утв. Межпарламентской Ассамблеей СНГ. 2 ноября 1991 г. // Информационный бюллетень МПА. № 12.

8. Səhmdar cəmiyyəti

Səhmdar cəmiyyəti (almanca «Aktiengesellschaft», fransızca «societe anonime», İngiltərədə — «Public limited company with share capital», ABŞ-da — «publiclyheld corporation») kommersiya təşkilatının, daha dəqiq və konkret söyləsək, təsərrüfat cəmiyyətinin bir növüdür. O, hüquqi şəxslərin müstəqil təşkilati-hüquqi formasıdır. Almaniya Ticarət Qanunnaməsinin dördüncü kitabı səhmdar cəmiyyətini rəsmi surətdə **«kapitallar birliyi» kateqoriyasına** aid edir[1]. Özü də o, kapitalların klassik birliyidir.

Səhmdar cəmiyyəti hüquqi konstruksiyası məhdud məsuliyyətli cəmiyyət konstruksiyasından çox-çox əvvəllər əmələ gəlmişdir. Özü də o, geniş miqyaslı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə imkan verən ən səmərəli, münasib və əlverişli hüquqi konstruksiya kimi yaranmışdır. İqtisadiyyatın və təsərrüfat dövriyyəsinin inkişafı üçün vacib olan tikinti layihələrinin gerçəkləşdirilməsi — dəmir yollarının çəkilməsi, su kanallarının və iri sənaye obyektlərinin tikintisi və s. məhz səhmdar cəmiyyəti konstruksiyasının sayəsində mümkün ola bilmişdir. Belə ki, mühüm iqtisadi layihələrin tikintisi iri kapitalın olmasını tələb edirdi. Səhmdar cəmiyyəti isə ayrı-ayrı kapitalların mərkəzləşməsi, cəmləşməsi və iri kapitala çevrilməsi üçün əlverişli üsul idi. Marksın söylədiyi bir kəlməni burada işlətmək yerinə düşərdi. O yazırdı ki, dəmir yollarının tikintisi üçün lazım olan iri kapital səhmdar cəmiyyətinin vasitəsi ilə bir an içərisində yaranır. Səhmdar cəmiyyəti olmasaydı, dünya indiyə kimi dəmir yolsuz qalacaqdı[2]. Belə təsəvvür yaranır ki, səhmdar cəmiyyəti hüquqi konstruksiyası təsərrüfat fəaliyyətinin təşkilinin ən səmərəli üsulu kimi meydana gəlmişdir (özü də əgər məhdud məsuliyyətli cəmiyyət konstruksiyası hüquqşünaslar tərəfindən süni surətdə yaradılmışdısa da, səhmdar cəmiyyəti kimi hüquqi forması isə təsərrüfat-ticarət (sahibkarlıq) dövriyyəsi praktikası əmələ gətirmişdir).

Məhz bu səbəbdən dünyanın bütün sivil və inkişaf etmiş dövlətlərinin qanunvericiliyi səhmdar cəmiyyəti hüquqi konstruksiyasının tənzimlənməsinə xüsusi diqqət yetirir. Məsələn, Almaniyada «Səhmdar cəmiyyəti haqqında» xüsusi qanun (1965) qəbul edilmişdir[3]. Fransada səhmdar cəmiyyətlərinin fəaliyyəti və yaradılma qaydası «Ticarət ortaqlıqları haqqında» qanunla (1966), habelə «Ticarət ortaqlıqları haqqında» dekretlə (1967) tənzimlənir[4]. Hollandiyada səhmdar cəmiyyətlərinin hüquqi vəziyyəti əsasən Mülki Məcəllə ilə müəyyən-

[1] bax: Гражданское, торговое и семейное право капиталистических стран. Сборник нормативных актов. Законодательство о компаниях, монополиях и конкуренции. М., 1987; Германское право. Часть 2. Торговое уложение и другие законы. М., 1996.

[2] *К.Маркс, Ф.Энгельс.* Соч. Том 23, с. 642. Sitat (tutalqa) götürülmüşdür; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 230.

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 7.

[4] bax: Правовые системы стран мира / Ответст. ред. *А.Я.Сухарев*. М., 2001, с. 718.

ləşdirilir. Bu məcəllənin ikinci kitabının dördüncü bölməsi («Səhmdar cəmiyyəti») özündə səhmdar cəmiyyətinin fəaliyyətini tənzimləyən normaları birləşdirir[1].

Bazar iqtisadiyyatı inkişaf edən ölkələrdə səhmdar cəmiyyətləri geniş yayılmışdır. Onlar müasir dövrdə populyarlıqda məhdud məsuliyyətli cəmiyyətlərdən sonra ikinci yeri tuturlar. Səhmdar cəmiyyətlərinin dünyada sayı durmadan artır. Məsələn, Almaniyada səhmdar cəmiyyətlərinin sayı 1978-ci ildən 1989-cu ilə kimi 2141-dən artıb 2508 olmuşdur. Bu gün səhmdar cəmiyyəti sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin ən geniş yayılmış formalarından biri hesab olunur.

90-cı illərdən başlayaraq sovet dövrünün qanunvericiliyi səhmdar cəmiyyəti konstruksiyasını nəzərdə tutmağa başlayır. İlk dəfə olaraq səhmdar cəmiyyətinin hüquqi vəziyyəti SSRİ Nazirlər Sovetinin təsdiq etdiyi normativ aktla tənzimlənir[2].

Ölkəmizin «Müəssisələr haqqında» qanununun 11-ci maddəsi səhmdar cəmiyyətinə anlayış verir, onun əsas əlamətlərini göstərir və hüquqi xarakteristikasını nəzərdə tuturdu[3]. 1994-cü ildə ölkə ərazisində səhmdar cəmiyyətlərinin yaradılmasını və fəaliyyətini tənzimləyən, onların fəaliyyətinin hüquqi təminatlarını nəzərdə tutan qanun qəbul edildi. İndi o, qüvvədən düşmüşdür. Odur ki, səhmdar cəmiyyətinin hüquqi vəziyyəti və digər məsələlər Mülki Məcəllə ilə müəyyən edilir. Belə ki, səhmdar cəmiyyəti hüquqi konstruksiyasını bizim ölkənin yeni Mülki Məcəlləsi də nəzərdə tutur. Bu məcəllənin bir neçə maddəsi (98-108-ci maddələr) səhmdar cəmiyyətinin hüquqi statusunun müəyyən edilməsinə həsr edilmişdir.

Səhmdar cəmiyyəti nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünən, bir və ya bir neçə şəxs tərəfindən yaradılan elə bir kommersiya təşkilatıdır ki, bu təşkilatın iştirakçıları (səhmdarları) onun öhdəlikləri üçün cavabdeh deyillər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar. Bu leqal anlayış səhmdar cəmiyyətinin əsas və başlıca hüquqi əlamətlərinin müəyyənləşdirilməsinə, ona hüquqi xarakteristika verilməsinə imkan verir.

Birincisi, səhmdar cəmiyyətinin nizamnamə kapitalı məlum, yəni **müəyyən sayda bərabər paylara bölünür.** Bu hüquqi əlamət səhmdar cəmiyyətini məhdud məsuliyyətli cəmiyyətlə birləşdirir. Bu, onların hər ikisi üçün oxşar cəhətdir.

İkincisi, səhmdar cəmiyyətinin **iştirakçıları (səhmdarlar) onun öhdəlikləri (borcları) üçün cavabdeh deyillər.** Məsələn, səhmdar cəmiyyətinin müxtəlif mülki hüquq münasibətlərindən (nisyə alqı-satqı müqaviləsindən, kredit müqaviləsindən və s.) kreditorlara borcları yaranır. Onun həmin öhdəlikləri icra etməyə, yəni borclarını ödəməyə əmlakı (pulu) çatmır. Belə halda səhmdar cəmiyyətinin iştirakçıları bu öhdəliklərə (borclara) görə özlərinin şəxsi əmlakı ilə məsuliyyət (şəxsi məsuliyyət) daşımırlar. Bu, səhmdar cəmiyyətini məhdud məsuliyyətli cəmiyyətlə birləşdirən, onların hər ikisi üçün ümumi olan hüquqi əlamətdir.

Üçüncüsü, səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) cəmiyyətin fəaliyyəti ilə bağlı **zərər üçün nizamnamə kapitalına qoyduqları əmlak paylarının (mayaların) dəyəri həddində risk daşıyırlar.** Bu da səhmdar cəmiyyəti ilə məhdud məsuliyyətli cəmiyyəti birləşdirən, onlar üçün ümumi olan əlamətdir. Belə ki, məhdud məsuliyyətli cəmiyyətdə olduğu kimi, səhmdar cəmiyyətinin də iştirakçıları (səhmdarları) nizamnamə kapitalına verdikləri paylara (mayalara) olan mülkiyyət hüquqlarını itirirlər. Bu payların mülkiyyətçisi səhmdar cəmiyyətinin özü olur. Əgər bu cəmiyyət zərərə düşərsə, yəni zərərlə işləyərsə, onda iştirakçılar bu zərər üçün yalnız həmin payları (mayaları) itirmək riski daşıyırlar.

Dördüncüsü, səhmdar cəmiyyətinin **nizamnamə kapitalı müəyyən və məlum sayda səhmlərə bölünür.** Başqa sözlə desək, səhmdar cəmiyyətinin nizamnamə kapitalı səhmlərlə rəsmiləşdirilir. Mülki qanunvericilik konkret və aydın formada göstərir ki, səhmdar cəmiyyətinin nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünür (MM-in 98-ci maddəsinin 1-ci bəndi). Deməli, səhmdar cəmiyyətinin **nizamnamə kapitalı səhm buraxmaq yolu ilə formalaşır və yaradılır.** Özü də səhmlər buraxmağa yalnız səhmdar cəmiyyətlərinin hüququ vardır (MM-in 98-ci maddəsinin 2-ci bəndi). Başqa hər hansı bir hüquqi şəxsin belə hüququ yoxdur. Göstərilən həmin hüquqi əlamət səhmdar cəmiyyətini bütün digər hüquqi şəxslərdən, o cümlədən məhdud məsuliyyətli cəmiyyətdən fərqləndirməyə imkan verən əsas əlamətdir.

Səhm qiymətli kağızların bütün əlamətlərinə cavab verən sənəddir. Ona görə də o, **qiymətli kağızların bir növü hesab edilir.** Səhmdarın (iştirakçının) səhmdar cəmiyyətində iştirakı məhz bu sənədlə rəsmiləşdirilir. Səhm iki növdə olur: adi (sadə) səhm; imtiyazlı səhm. Səhmdar cəmiyyətinin həm adi, həm də imtiyazlı səhmlər buraxmaq hüququ vardır (MM-in 106-cı maddəsinin 2-ci bəndi). Onlar adlı səhm şəklində buraxılır. Bir sıra dövlətlərin qanunvericiliyinə görə, qiymətli kağızlar yalnız adsız (anonim) ola bilər. Söhbət Fransa, Hollandiya, Belçika kimi dövlətlərin qanunvericiliyindən gedir. Bu dövlətlərin mülki qanunvericiliyi səhmdar cəmiyyətinin nizamnamə kapitalının adsız (anonim) səhm buraxmaq yolu ilə formalaşdırılması qaydasını nəzərdə tutur. Məhz bu səbəbdən həmin dövlətlərin hüququ səhmdar cəmiyyətini «anonim cəmiyyət» («societes anonymes») adlandırır[1].

Səhm elə bir qiymətli kağızdır ki, o, iştirakçının (səhmdarın) **səhmdar cəmiyyətinə münasibətdə öhdəlik hüququna malik olmasını təsdiqləyir və sübut edir.** Belə ki, iştirakçılar (səhmdarlar) cəmiyyətin buraxdığı səhmləri əldə edirlər, yəni satın alırlar. Bu məqsədlə onlar əldə etdikləri səhmlərin əvəzində cəmiyyətə pul vəsaiti ödəyirlər və bununla həmin səhmlərin mülkiyyətçisi olurlar. Səhmin əvəzində verilən pul vəsaiti cəmiyyətin mülkiyyətinə daxil

[1] bax: Гражданский кодекс Нидерландов / Перевод *М.Ферштмана*. Лейден, 1996.

[2] bax: «Положение об акционерных обществах и обществах с ограниченной ответственностью» утв. постановлением Совета министров СССР от 19 июня 1990 г. № 590 (СП СССР, 1990 № 15 ст. 82).

[3] bax: AR QK, II cild, s. 11.

[1] bax: Гражданское и торговое право капиталистических стран / Под ред. *В.П.Мозолина, М.И.Кулагина*. М., 1980; Гражданское и торговое право капиталистических государств / Отв. ред. *Р.Л.Нарышкина*. М., 1983; Гражданское и торговое право капиталистических государств / Отв. ред. *Е.А.Васильев*. М., 1993; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 232.

edilir. Səhmdarın həmin vəsaitin geri qaytarılmasını tələb etmək hüququ yoxdur.

Beləliklə, səhmi almaqla səhmdarla cəmiyyət arasında öhdəlik hüquq münasibəti əmələ gəlir. Bu münasibətə görə səhmdar cəmiyyətin gəlirlərinin (mənfəətinin) bir hissəsini devidendlər şəklində almaq hüququna (öhdəlik hüququna) malik olur. Səhmə münasibətdə isə səhmdarın mülkiyyət hüququ vardır. Belə ki, səhmdar mülkiyyətçi, səhm ilə mülkiyyət hüququnun obyektidir. Təsadüfi deyildir ki, səhmin mülkiyyətçisi olan şəxsə səhmdar deyilir.

Beşincisi, səhmdar iştirak etdiyi cəmiyyətdən çıxarsa, **ona hər hansı ödəniş verilmir və əmlak hissəsi ödənilmir.** Bu cəhəti ilə səhmdar cəmiyyəti məhdud məsuliyyətli cəmiyyətdən fərqlənir. Belə ki, məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətdən çıxarkən onunla hesablaşmalar aparılır. Həmin iştirakçıya onun nizamnamə kapitalındakı payına uyğun əmlak hissəsi ödənilir. Bundan fərqli olaraq, cəmiyyətdən çıxdığı halda səhmdara heç nə ödənilmir. Səhmdar özgəninkiləşdirdiyi səhmə görə bu səhmi əldə edənlərdən yalnız kompensasiya ala bilər. Bu, o deməkdir ki, səhmdar cəmiyyətdən ancaq səhmin başqa şəxslərə özgəninkiləşdirilməsi (satılması, bağışlanması və s.) yolu ilə çıxa bilər. Deməli, onun cəmiyyətdən çıxmaq məqsədilə səhmi cəmiyyətə qaytarmaq hüququ yoxdur. Səhmləri o, yuxarıda qeyd etdiyimiz kimi, qanunda nəzərdə tutulan qaydada yalnız özgəninkiləşdirə bilər.

Göstərilən bu qaydanın çox mühüm əhəmiyyəti vardır. Belə ki, həmin qayda səhmdar cəmiyyətinin əmlakının azaldılmaması üçün hüquqi təminat rolunu oynayır, yəni bu cəmiyyətin əmlak (maddi) vəziyyətinin pisləşməsinin qarşısının alınmasına imkan verir. Əgər səhmdarın cəmiyyətdən çıxdığı halda özünün əldə etdiyi səhmi cəmiyyətə qaytarmaq hüququ olarsa, onda bəzi səhmdarların bu hüququ həyata keçirməsi nəticəsində cəmiyyətin əmlak vəziyyətinin pisləşməsi tam yəqinliklə güman edilir.

Səhmdar cəmiyyətinin firma adı qanunda nəzərdə tutulan tələblərə uyğun olmalıdır. Onun firma adına daxil edilməlidir: birincisi, səhmdar cəmiyyətinin adı; ikincisi, onun təşkilati-hüquqi forması, yəni səhmdar cəmiyyəti. Özü də səhmdar cəmiyyətinin firma adında hökmən onun növü, yəni «açıq səhmdar cəmiyyəti» və ya «qapalı səhmdar cəmiyyəti» sözləri göstərilməlidir (MM-in 98-ci maddəsinin 6-cı bəndi). Məsələn, «Muğan» açıq səhmdar cəmiyyəti», «Çənlibel» qapalı səhmdar cəmiyyəti» və s. «Açıq səhmdar cəmiyyəti» və ya «qapalı səhmdar cəmiyyəti» kimi sözlər mütləq səhmdar cəmiyyətinin firma adında göstərilməlidir. Bir sıra xarici ölkələrdə qısaldılmış addan da istifadə olunur. Almaniyada — AG, İngiltərədə — PLC, Fransada, İtaliyada və Polşada — S.A və s.

Açıq səhmdar cəmiyyəti və qapalı səhmdar cəmiyyəti səhmdar cəmiyyətinin iki müxtəlif növü hesab edilir. Bunlara həm də **səhmdar cəmiyyətinin formaları (tipləri)** deyilir. Bu cür bölgü **səhmlərin emissiya qaydasına və özgəninkiləşdirilmə prosedurasına** görə aparılır.

Açıq səhmdar cəmiyyətinin leqal anlayışı MM-in 99-cu maddəsinin 1-ci bəndində verilmişdir. **Açıq səhmdar cəmiyyəti odur ki, bu cəmiyyətin iştirakçıları öz səhmlərini digər səhmdarların razılığı olmadan müstəqil surətdə özgəninkiləşdirmək hüququna malikdirlər.** Onların ixtiyarı çatır ki, səhmləri həm digər səhmdarlara, həm də üçüncü şəxslərə (kənar şəxslərə) özgəninkiləşdirsinlər. Onlar səhmləri istənilən şəxsə sata bilər və satıcı seçməkdə tam müstəqildirlər.

Açıq səhmdar cəmiyyəti öz nizamnamə kapitalını formalaşdırmaq üçün yalnız bir emissiya formasından istifadə edə bilər. **Emissiya forması** dedikdə, səhmdar cəmiyyətinin nizamnamə kapitalının formalaşdırılması (yaradılması) yolu, yəni onun buraxdığı səhmlərin satış üsulu başa düşülür. **Açıq (ümumi) abunə yazılışı** forması açıq səhmdar cəmiyyətinin istifadə etdiyi yeganə emissiya formasıdır[1].

Açıq (ümumi) abunə yazılışı səhmlərin qabaqcadan müəyyənləşdirilməyən (qeyri müəyyən) və qeyri-məhdud dairəli şəxslərə yayılmasını nəzərdə tutur. Bu, o deməkdir ki, istənilən şəxs öz istək və mülahizəsinə uyğun olaraq açıq səhmdar cəmiyyətinin buraxdığı səhmi ala bilər. Bu şəxslərin səhmləri ala bilmələri üçün səhmdar cəmiyyəti onların sərbəst satışını təşkil edir və həyata keçirir. Səhmdar cəmiyyəti səhmləri bilavasitə özü, bank və ya birja vasitəsilə sata bilər. Deməli, **istənilən şəxs səhm almaqla açıq səhmdar cəmiyyətinin iştirakçısı ola bilər.**

Açıq səhmdar cəmiyyətinin buraxdığı səhmlərə abunə yazılışı kütləvi informasiya vasitələrində (mətbuatda, radio və televiziya vasitəsi ilə və s.) elan olunur. Abunə yazılışı üçün müəyyən müddət müəyyənləşdirilir. Dediklərimizdən belə təsəvvür yaranır ki, açıq səhmdar cəmiyyətinin iştirakçılarının (səhmdarların) sayı məhdudlaşdırılmır. Hətta açıq səhmdar cəmiyyətinin on minlərlə və daha çox iştirakçısı ola bilər. Bu cəhət və xüsusiyyət isə səhmdar cəmiyyətinin işlərinin açıq qaydada və formada aparılmasını tələb edir. Bunun üçün açıq səhmdar cəmiyyəti **illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc etməyə borcludur** (MM-in 99-cu maddəsinin 2-ci bəndi). Söhbət açıq səhmdar cəmiyyətinin hər il öz fəaliyyəti barəsində kütləvi informasiya vasitələrində məlumat dərc etdirməsindən gedir. Özü də məlumat Maliyyə Nazirliyinin müəyyənləşdirdiyi formada dərc etdirilir. Dərc olunmuş məlumat düzgün olmalıdır. Buna görə səhmdar cəmiyyəti və onun məsul şəxsləri məsuliyyət daşıyırlar.

Bundan əlavə, səhmdar cəmiyyəti bağladığı xüsusi əhəmiyyətli əqd barədə məlumatı da açıqlamalıdır (MM-in 99-cu maddəsinin 3-cü bəndi). Bu məlumatın açıqlanması qaydası səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmalıdır. **Xüsusi əhəmiyyətli əqd** odur ki, bu əqdin məbləği açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən çoxdur, artıqdır. Belə əqdin bağlanması barədə qərarı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağı qəbul edir.

Qapalı səhmdar cəmiyyəti odur ki, bu cəmiyyətin buraxdığı səhmlər yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılır. Bu cür səhmdar cəmiyyəti öz nizamnamə

[1] Azərbaycan Respublikasının səhmdar cəmiyyəti haqqında qanunvericiliyi açıq səhmdar cəmiyyətinin digər emissiya formasından istifadə etməsini nəzərdə tutmur. Rusiya Federasiyasının qanunvericiliyi isə bundan fərqli olaraq göstərir ki, açıq səhmdar cəmiyyəti buraxdığı səhmlərə həm açıq abunə yazılışını, həm də qapalı abunə yazılışını həyata keçirə bilər (bax: RF-in «Səhmdar cəmiyyəti haqqında» qanunun 39-cu maddəsinin 2-ci bəndi). Bir şərtlə ki, bu, nizamnamədə nəzərdə tutulsun və hər hansı normativ aktla qadağan edilməsin.

kapitalını yaratmaq, yəni buraxdığı səhmləri satmaq üçün yalnız **qapalı (xüsusi) abunə yazılışı kimi emissiya formasından istifadə edə bilər.** Qapalı (xüsusi) abunə yazılışı səhmlərin əvvəlcədən müəyyənləşdirilən şəxslərə satılmasını nəzərdə tutur. Açıq (ümumi) abunə yazılışı kimi emissiya formasından istifadə etməyə qapalı səhmdar cəmiyyətinin ixtiyarı çatmır. Onun hüququ yoxdur ki, buraxdığı səhmləri satın almaq və əldə etmək üçün istənilən şəxsə (qeyri-məhdud dairəli şəxslərə) təklif etsin. Deməli, qapalı səhmdar cəmiyyəti təsisçilərinin və iştirakçılarının sayı, açıq səhmdar cəmiyyətindən fərqli olaraq, məhduddur. Bu cür cəmiyyətin iştirakçılarının sayı müvafiq icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilir. İştirakçıların sayı nəzərdə tutulan həddi aşa bilməz. Bu, onu ifadə edir ki, qapalı səhmdar cəmiyyəti, açıq səhmdar cəmiyyətindən fərqli olaraq, klassik formalı cəmiyyət hesab edilmir. Klassik formalı cəmiyyət say tərkibi qeyri-məhdud olan açıq səhmdar cəmiyyəti sayılır.

Qapalı səhmdar cəmiyyətinin iştirakçılarının sayı barədə qanunun nəzərdə tutduğu qaydaya əməl edilməməsi müəyyən hüquqi nəticələrə səbəb olur. Belə ki, əgər iştirakçıların sayı **nəzərdə tutulan həddi aşarsa, onda qapalı səhmdar cəmiyyəti bir il müddətində açıq səhmdar cəmiyyətinə çevrilir** (MM-ın 100-cü maddəsinin 2-ci bəndi).

Bir il ərzində qapalı səhmdar cəmiyyəti açıq səhmdar cəmiyyətinə çevrilmir, habelə bu cəmiyyətin iştirakçılarının sayı azaldılıb nəzərdə tutulan həddə endirilmir. Belə halda qapalı səhmdar cəmiyyətinin fəaliyyətinə məhkəmə qaydasında ləğvetmə yolu ilə xitam verilir (MM-in 100-cü maddəsinin 2-ci bəndi).

Qapalı səhmdar cəmiyyətinin digər mühüm əlaməti bu cəmiyyət iştirakçılarının onlara məxsus olan səhmi digər şəxslərə **yalnız cəmiyyət iştirakçılarının (səhmdarların) əksəriyyətinin razılığı ilə özgəninkiləşdirə bilməsindən** ibarətdir. Bu növ cəmiyyət iştirakçısının öz səhmini müstəqil surətdə özgəninkiləşdirmək hüququ yoxdur.

İştirakçı (səhmdar) öz səhmini özgəninkiləşdirmək üçün digər iştirakçıların razılığını almalıdır. Özü də səhmdar (iştirakçı) həmin cəmiyyətin digər səhmdarının (iştirakçısının) satdığı səhmi əldə etməkdə **üstünlük hüququna** malikdir. Üstünlük hüququ haqqında bu qaydanın əsas təyinatı səhmdar cəmiyyətinin qapalı tipli cəmiyyət kimi qalmasını və saxlanmasını təmin etməkdən ibarətdir.

Elə olur ki, səhmdarlardan heç biri nəzərdə tutulan müddətdə, lakin satış elan olunduğu tarixdən etibarən 30 gün ərzində özünün üstünlük hüququndan istifadə etmir. Bu müddət cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir. Belə halda həmin səhmi sonrakı 30 gün ərzində səhmdar cəmiyyətinin özü alır. Səhmin qiyməti tərəflərin (səhmdar cəmiyyəti və səhmin sahibinin) razılığı əsasında müəyyən edilir.

Bəzi hallarda səhmin səhmdar cəmiyyəti tərəfindən satın alınması mümkün olmur. Belə ki, səhmdar cəmiyyəti bundan imtina edir və boyun qaçırır. Tərəflər səhmin qiyməti barədə ümumi razılığa gəlməyə də bilərlər. Bu hal da səhmin səhmdar cəmiyyəti tərəfindən satın alınmasını istisna edir. Göstərilən hallar yarandıqda səhmdar səhmi üçüncü şəxslərə özgəninkiləşdirə bilər. Göstərilən bu qayda qapalı səhmdar cəmiyyətinin səhmlərinin girov qoyulduğu və girov saxlayanın (kreditorun) tələbi bu səhmlərin hesabına təmin edildiyi hallarda da tətbiq olunur. Belə ki, girov qoyulmuş səhmlər əvvəlcə alınmaq üçün cəmiyyətin səhmdarlarına təklif olunur. Əgər səhmdarlar üstünlük hüququndan istifadə etməsələr, onda səhmləri cəmiyyətin özü alır. Cəmiyyət bundan imtina etdiyi hallarda, səhmlər üçüncü şəxslərə satılır və əldə edilən satış pulu hesabına girov saxlayanın (kreditorun) tələbi təmin olunur.

Göstərilən bu qayda səhm ölmüş fiziki şəxsin (yenidən təşkil olunmuş hüquqi şəxsin) vərəsələrinə (hüquq varislərinə) keçmədiyi hallarda tətbiq olunur. Bununla belə, qapalı səhmdar cəmiyyətinin səhmləri səhmdar olan fiziki şəxs öldüyü (səhmdar olan hüquqi şəxs yenidən təşkil olunduğu) hallarda onun vərəsələrinə (hüquqi varislərinə) keçə bilər. Bunun üçün səhmdar cəmiyyətinin buna razılıq verməsi tələb edilir. Əgər cəmiyyət razılıq versə, vərəsələr (hüquqi varislər) onun səhmdarı olurlar. Cəmiyyətin nizamnaməsində səhmin vərəsələrə (hüquqi varislərə) keçməsinin başqa qaydası da nəzərdə tutula bilər.

Qeyd etmək lazımdır ki, səhmlər üçüncü şəxslərə özgəninkiləşdirilən zaman həmin səhmlərin satış qiyməti səhmdarlara və ya səhmdar cəmiyyətinə təklif edilən qiymətdən aşağı olmamalıdır. Əgər olarsa, səhmdar cəmiyyəti həmin əqdin (alqı-satqının) etibarsız hesab edilməsini və səhmin həmin qiymətə cəmiyyətə satılmasını məhkəmə qaydasında tələb edə bilər (MM-in 101-ci maddəsinin 1-ci bəndi). Məqsəd cəmiyyətin əmlak vəziyyətini təmin etməkdən ibarətdir.

Mülki qanunvericilik yaxın vaxtlara kimi **səhmin özgəninkiləşdirilməsi haqqında əqd (alqı-satqı, bağışlama, dəyişmə müqavilələri üçün və s.) üçün notarial forma müəyyənləşdirir** və nəzərdə tuturdu. Belə ki, səhmdar öz səhmini digər şəxslərə notariat qaydasında təsdiq etdirmək şərti ilə özgəninkiləşdirə bilərdi[1]. İndi bu göstəriş öz qüvvəsini itirmişdir.

Yaxın vaxtlara kimi qapalı səhmdar cəmiyyəti özünün nizamnamə kapitalının minimum həcminə görə də açıq səhmdar cəmiyyətindən fərqlənirdi. Belə ki, cəmiyyətin nizamnamə kapitalının minimum həcmi açıq səhmdar cəmiyyətləri üçün on milyon manat, qapalı səhmdar cəmiyyətləri üçün isə beş milyon manat məbləğində müəyyən edilirdi[2]. Hal-hazırda bu göstəriş qüvvədən düşmüşdür.

Bizim ölkə qanunvericiliyi səhmdar cəmiyyətinin açıq və qapalı səhmdar cəmiyyəti kimi iki formasından (növündən, tipindən) savayı, həm də **xüsusi xarakterli səhmdar cəmiyyətlərini** nəzərdə tutur. Bunlara **dövlət müəssisələri özəlləşdirilərkən yaranan səhmdar cəmiyyətlərini** misal göstərmək olar. Daha doğrusu, həmin cəmiyyətlər dövlət müəssisəsinin çevrilməsi nəticəsində yaranır. Bu cür cəmiyyətlərin hüquqi vəziyyəti səhmdar cəmiyyəti haqqında ümumi qanunvericiliklə müəyyənləşdirilmir. Həmin cəmiyyətlərin yaradılması və fəaliyyət göstərməsi üzrə münasibətlər dövlət müəssisələrinin özəlləşdirilməsi haqqında xüsusi qanunvericiliklə qaydaya salınır (MM-in 98-ci

[1] bax: qüvvədən düşmüş «Səhmdar cəmiyyəti haqqında» qanunun 10-cu maddəsinin 2-ci bəndi // AR QK, II cild, s. 302.

[2] bax: qüvvədən düşmüş «Səhmdar cəmiyyəti haqqında» qanunun 17-ci maddəsinin 1-ci bəndi // AR QK, II cild, s. 304.

maddəsinin 8-ci bəndi)[1].

Nizamnamə səhmdar cəmiyyətinin yeganə təsis sənədi hesab edilir (MM-in 102-ci maddəsi). Bununla yanaşı, əgər səhmdar cəmiyyəti bir neçə təsisçi tərəfindən yaradılarsa, təsisçilər arasında təsis müqaviləsi bağlanır (o, şərti olaraq belə adlanır). Məqsəd təsisçilərin səhmdar cəmiyyətinin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakını ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirməkdən ibarətdir (MM-in 45-ci maddəsinin 2-ci bəndi, 98-ci maddəsinin 9-cu bəndi). Yazılı formada bağlanan bu müqavilə səhmdar cəmiyyətinin yaradılması prosesində təsisçilər arasında münasibətləri tənzimləyir, bu cəmiyyətin əmələ gəlməsi üzrə onların göstərdikləri fəaliyyətin həyata keçirilməsi qaydasını müəyyənləşdirir. Mülki hüquq elmində (sivilistika doktrinasında) və ali məhkəmə orqanlarının qərarlarında bu müqavilənin hüquqi təbiəti haqqında göstərilir ki, həmin müqavilə **birgə fəaliyyət haqqında müqavilədir,** səhmdar cəmiyyətinin yaradılmasını asanlaşdıran yardımçı (köməkçi) vasitədir. O, dövlət qeydiyyatına təqdim olunmur. Səhmdar cəmiyyəti hüquqi şəxs kimi dövlət qeydiyyatına alındığı andan bu müqaviləyə xitam verilir və məhz bu səbəbdən həmin müqavilə yaradılan müvafiq cəmiyyətin hüquqi statusunu müəyyənləşdirmir[2].

Odur ki, o, sözün həqiqi mənasında təsis sənədi hesab edilmir və şərti olaraq təsis müqaviləsi adlanır. Mülki qanunvericilik onu **təsisçilər arasında bağlanmış müqavilə** adlandırır (MM-in 98-ci maddəsinin 10-cu bəndi). Özü də təsisçilər bu cəmiyyətin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə birgə məsuliyyət daşıyırlar (MM-in 98-ci maddəsinin 14-cü bəndi).

Səhmdar cəmiyyətinin nizamnaməsində, hər şeydən əvvəl, bütün hüquqi şəxslər üçün ümumi olan məlumatlar (səhmdar cəmiyyətinin firma adı, onun olduğu yer və s.) göstərilir. Bundan savayı, nizamnamədə cəmiyyətin buraxdığı səhmlərin kateqoriyaları, onların nominal dəyəri və miqdarı, nizamnamə kapitalının miqdarı və digər məsələlər haqqında da məlumatlar verilir (MM-in 102-ci maddəsi).

Nizamnamədə həm də qanunvericiliyə zidd olmayan digər məlumatlar da nəzərdə tutula bilər. Onun tələbləri səhmdar cəmiyyətinin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları üçün məcburidir (MM-in 102-ci maddəsinin 3-cü bəndi).

[1] bax: «Özəlləşdirmə prosesində dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi qaydaları». Bu, Azərbaycan Respublikasının 29 sentyabr 1995-ci il tarixli qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»na 2 saylı əlavədir // Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı. 1999. Buraxılış 4, s. 48-50; 1996-cı il 29 noyabr tarixli qanunla təsdiq edilmiş «Dövlət müəssisələrinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə»; Prezidentin 19 may 1998-ci il tarixli fərmanı ilə təsdiq olunmuş «Dövlət mülkiyyətinin özəlləşdirilməsi zamanı yaradılan açıq tipli səhmdar cəmiyyətlərinin səhmlərinin buraxılışı və qeydiyyatı haqqında Əsasnamə» (AR QK, V cild, s. 427).

[2] bax постановление Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда РФ «О некоторых вопросах применения Федерального закона «Об акционерных обществах» от 2 апреля 1997 г. № 418 // Вестник ВАС. 1997. № 6; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 151; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 234).

Mülki Məcəllə səhmdar cəmiyyətinin yaradılması məsələsini xüsusi olaraq tənzim edir (MM-in 98-ci maddəsinin 10-14-cü bəndləri). Onu yaratmaq üçün vacibdir:

- təsis yığıncağının keçirilməsi;
- təsisçilər arasında müqavilə (təsis müqaviləsi) bağlanması (əgər səhmdar cəmiyyəti bir neçə təsisçi tərəfindən yaradılarsa);
- səhmdar cəmiyyəti haqqında qərar qəbul edilməsi (əgər səhmdar cəmiyyəti bir şəxs tərəfindən yaradılarsa);
- səhmdar cəmiyyətinin nizamnaməsinin hazırlanması (qəbul olunması).

Təsis yığıncağı o halda keçirilir ki, cəmiyyətin bütün səhmləri təsisçilər arasında bölüşdürülsün. Onun keçirilmə müddəti təsis müqaviləsində göstərilir. Təsis yığıncağında bütün təsisçilər iştirak etməlidirlər. Məhz belə halda o, səlahiyyətli hesab olunur. Təsisçilər təsis yığıncağında öz nümayəndələri vasitəsilə də iştirak edə bilərlər.

Təsis yığıncağı aşağıdakı məsələləri həll edir: səhmlərin ödənilməsi üçün verilən əmlakın (binanın, torpaq sahəsinin, nəqliyyat vasitəsinin, istehsal alət və vasitələrinin və s.) dəyərini təsdiqləmək; səhmdar cəmiyyətinin yaradılması barədə qərar qəbul etmək; səhmdar cəmiyyətinin nizamnaməsini təsdiq etmək; səhmdar cəmiyyətin idarəetmə və nəzarət orqanlarını təşkil etmək. Bu məsələlər barədə qərarlar təsisçilər tərəfindən **yekdilliklə**, digər məsələlər haqqında isə **sadə səs çoxluğu** ilə qəbul edilir.

Səhmdar cəmiyyətinin təsisçiləri istənilən fiziki şəxs (həm sahibkar statusu olan fiziki şəxslər, həm də qeyri-sahibkar statuslu fiziki şəxslər) və hüquqi şəxs (həm kommersiya təşkilatları, həm də qeyri-kommersiya təşkilatları) ola bilərlər. Özü də səhmdar **cəmiyyətinin bir şəxs (fiziki və ya hüquqi şəxs) tərəfindən yaradılmasına qanun icazə verir (bir şəxsin kompaniyası)[1]. Səhmdar cəmiyyəti bir şəxsdən (fiziki və ya hüquqi şəxsdən) də ibarət ola bilər.** Belə ki, bu cəmiyyətin bütün səhmlərini bir səhmdar əldə edə bilər. Bu qaydadan qanun müəyyən istisnaya yol verir. Belə ki, səhmdar cəmiyyətinin yeganə iştirakçısı bir şəxsdən ibarət olan digər təsərrüfat cəmiyyəti ola bilməz (MM-in 98-ci maddəsinin 5-ci bəndi). Bu qaydanın əsas məqsədi mümkün ola bilən müxtəlif cür sui-istifadə hallarının qarşısını almaqdan ibarətdir.

Dövlət orqanları və yerli özünüidarə orqanlarının səhmdar cəmiyyətinin yaradılmasında və fəaliyyətində iştirakı qanunla məhdudlaşır (MM-in 64-cü maddəsinin 6-cı bəndi). Belə ki, bu orqanların səhmdar cəmiyyətinin iştirakçıları kimi çıxış etmələrini mülki qanunvericilik qadağan edir. Dövlət müəssisələri özəlləşdirilərkən səhmdar cəmiyyətinin yaradılmasında, dövlət müəssisəsinin çevrilməsi nəticəsində səhmdar cəmiyyətinin əmələ gəlməsində dövlət müəssisələri iştirak edirlər.

Dediklərimizdən belə məlum olur ki, səhmdar cəmiyyəti yaradılarkən, təsərrüfat ortaqlıqlarından fərqli olaraq, onların iştirakçılarının kommersiya (sa-

[1] Bir şəxsin kompaniyası («one man company», «einmanngesellschaft») kimi konstruksiya Almaniya, Böyük Britaniya kimi ölkələrin qanunvericiliyində 80-ci illərin əvvəllərində nəzərdə tutulmağa başlamışdır (bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993. *Кулагин М.И.* Предпринимательство и право: опыт Запада. М., 1992).

hibkarlıq) dövriyyəsinin professional subyektlərindən ibarət olması tələb edilmir. Cəmiyyətin **iştirakçıları onun fəaliyyətində şəxsən iştirak etməyə borclu deyillər.** Məhz bu səbəbdən səhmdar cəmiyyətinin fəaliyyətini həyata keçirən **xüsusi idarəetmə orqanlarının yaradılmasına ehtiyac və zərurət yaranır.** Bu orqanların tərkibi və səlahiyyətləri cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir (MM-in 102-ci maddəsi).

Səhmdar cəmiyyətinin idarəetmə orqanları **üçpilləli (mərhələli, səviyyəli) sistemə** malikdir. Bu idarəetmə sisteminə daxildir:

- ali idarəetmə orqanı;
- direktorlar şurası (müşahidə şurası);
- cəmiyyətin icra orqanı.

Üçpilləli idarəetmə sisteminə Almaniyada da rast gəlirik: səhmdarların yığıncağı; müşahidə şurası; idarə heyəti. ABŞ-da isə ikipilləli idarəetmə sisteminə təsadüf edilir: səhmdarların yığıncağı; direktorlar şurası.

Səhmdar cəmiyyətinin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağı hesab edilir. Səhmdarların ümumi yığıncağı iki növdə çağırıla bilər:

- növbəti ümumi yığıncaq;
- növbədənkənar ümumi yığıncaq.

Növbəti ümumi yığıncaq odur ki, o, nizamnamədə əvvəlcədən müəyyənləşdirilmiş müddətlərdə, müntəzəm surətdə növbə ilə çağırılır (məsələn, üç ayda bir dəfə; hər rübdə bir dəfə; altı ayda bir dəfə; ildə bir dəfə). Lakin növbəti ümumi yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılmalıdır. Əgər o, ildə bir dəfə çağırılarsa, **illik ümumi yığıncaq** adlanır. İllik ümumi yığıncaq maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq direktorlar şurası (müşahidə şurası) tərəfindən, əgər bu orqan olmazsa, icra orqanı tərəfindən çağırılır. Bu barədə səhmdarlara məlumat verilir.

Açıq (qapalı yox) səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılmasına 45 gün qalmış yığıncağın çağırılması barədə KİV-də məlumat verilir, habelə səhmdarlara bildiriş göndərilir. Bildiriş yazılı formada olmalıdır.

Səhmdarların növbədənkənar ümumi yığıncağı, əgər səhmdar cəmiyyətinin maraq və mənafeləri tələb edərsə, çağırılır. Məsələn, səhmdar cəmiyyəti zərərlə işlədikdə və ya onun maliyyə vəziyyəti pisləşdikdə və yaxud səhmdarların mənafeyinin təmin olunması tələb edildikdə və yaxud cəmiyyətin əmlak vəziyyətinin bərpa olunmasına ehtiyac yarandıqda və ya direktorlar şurasının (müşahidə şurasının) tərkibi nizamnamədə nəzərdə tutulmuş sayın yarısına qədər azaldıqda və digər xüsusi hallarda növbədənkənar ümumi yığıncaq çağırıla bilər. Belə yığıncaq çağırılır: direktorlar şurasının (müşahidə şurasının) öz təşəbbüsü ilə (əgər o, olmazsa icra orqanının təşəbbüsü ilə); təftiş komissiyasının (müfəttişin) tələbi ilə; səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə.

Səhmdarların ümumi yığıncağı onun **müstəsna səlahiyyətinə** aid edilmiş məsələlərin həlli ilə məşğul olur. Bu səlahiyyətlərə aiddir (MM-in 107-ci maddəsinin 1-ci bəndi):

- cəmiyyətin nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl

xitam vermək;

- cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, bir şərtlə ki, cəmiyyətin nizamnaməsində bu məsələlərin həlli direktorlar şurasının (müşahidə şurasının) səlahiyyətinə aid edilməsin;
- cəmiyyətin illik hesabatlarını, mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;
- cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək.

MM-in nəzərdə tutduğu bu siyahıda səhmdar cəmiyyətinin fəaliyyəti üçün əsas və mühüm olan məsələlər göstərilmişdir. Bu, həmin məsələlərin qəti və dəqiq siyahısıdır.

Səhmdar cəmiyyətinin müstəsna səlahiyyətinə aid edilən məsələlərin həlli barədə qərarlar, ümumiyyətlə, səhmdarların ümumi yığıncağının qərarları ümumi yığıncaqda iştirak edən **səhmdarların sadə səs çoxluğu** ilə qəbul edilir. Nizamnamədə qərarın **yekdilliklə qəbul edilməsi qaydası** da nəzərdə tutula bilər. **Elə məsələlər vardır ki,** bu məsələlər barəsində qərarlar yalnız yığıncaqda iştirak edən və səsvermə hüququna malik olan səhmdarların əksəriyyət səs çoxluğu (66%, yəni 2/3 səs çoxluğu) ilə qəbul edilə bilər. Belə ki, cəmiyyətin nizamnaməsinin dəyişdirilməsi və ona əlavələr edilməsi, cəmiyyətin fəaliyyətinə xitam verilməsi, habelə cəmiyyətin yenidən təşkili kimi məsələlər barəsində qərarlar məhz bu qaydada çıxarılır. Qalan məsələlərin həlli barədə qərar yığıncaqda iştirak edənlərin adi (sadə) səs çoxluğu qəbul edilir.

Ümumi yığıncaqda qəbul edilən qərarların hüquqi qüvvəyə malik olması üçün vacibdir ki, ümumi yığıncaq səlahiyyətli hesab edilsin, yəni qanunla nəzərdə tutulan kvoruma (yetərsaya) malik olsun. Əgər ümumi yığıncaqda səsvermə hüququna malik olan səhmdarların, yəni səsli səhmdarların beşdə üç (3/5), yəni 60%-i iştirak edərsə, onda bu yığıncaq səlahiyyətli hesab edilir. Ümumi yığıncaqda səsvermə belə bir qayda əsasında həyata keçirilir: **bir səsli səhm — bir səs.**

Səhmdar cəmiyyətinin hər hansı idarə orqanı səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər barədə qərarlar qəbul edə bilməz. Bu məsələlər həll edilmək üçün ümumi yığıncağın özü tərəfindən, öz iradəsi əsasında cəmiyyətin icra orqanlarına verilə bilməz. Əgər bunu ümumi yığıncağın özü istəsə belə, o, yenə də mümkün olan iş deyil.

Bu, onunla izah olunur ki, Mülki Məcəllə ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri həll etmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz (MM-in 107-ci maddəsinin 2-ci bəndi). Burada **müstəsna səlahiyyətin verilməməsi prinsipi** ifadə edilmişdir. Bu prinsipin əsas məqsədi səhmdarların mənafeyini icra orqanları tərəfindən yol verilə bilən mümkün sui-istifadə hallarından qorumaqdan ibarətdir. Məsələ burasındadır ki, səhmdarların çoxu sahibkarlıq-kommersiya dövriyyəsinin professional iştirakçısı deyildir. Digər tərəfdən ümumi yığıncaq yeganə elə bir orqandır ki, bu orqanın vasitəsilə (adi) sıravi səhmdarlar səhmdar cəmiyyətinin fəaliyyətinə təsir göstərə bilərlər.

Səhmdarların ümumi yığıncağının çıxardığı qərarlar protokolla rəsmiləşdirilir. Belə ki, ümumi yığıncağın qəbul etdiyi qərarları özündə əks etdirən protokol tərtib olunur. **Protokolda** qərardan başqa, ümumi yığıncağın keçirilmə

vaxtı və yeri, ümumi yığıncağın gündəliyi, səsvermə hüququna malik olan səhmdarların və səsli səhmlərinin sayı, çıxarışların xülasəsi və səsvermənin nəticələri barədə məlumat göstərilir.

Direktorlar şurası (müşahidəsi şurası) səhmdar cəmiyyətinin idarəetmə sisteminə daxil olan orqanlardan biridir. Bu cür orqan səhmdarlarının sayı əllidən çox olan cəmiyyətdə yaradılır (MM-in 107-ci maddəsinin 3-cü bəndi).

Müşahidə şurasının (direktorlar şurasının) səlahiyyətləri səhmdar cəmiyyətinin nizamnaməsi ilə müəyyənləşdirilir. Nizamnamədə bu orqanın müstəsna səlahiyyətinə aid edilən məsələlər göstərilir. Həmin məsələlər cəmiyyətin fəaliyyətinin əsas istiqamətləri ilə bağlıdır. Bir qayda olaraq, səhmdarların ümumi yığıncağının hazırlanması və çağırılması, cəmiyyətinin idarəetmə orqanlarının fəaliyyət qaydasını müəyyən edən daxili sənədlərin təsdiq edilməsi, ehtiyat və digər fondlardan istifadə olunması, dividendlərin miqdarı və ödənilməsi qaydası barədə tövsiyə verilməsi, cəmiyyətin əmlakının özgəninkiləşdirilməsi və cəmiyyət üçün əmlak əldə edilməsi ilə bağlı olaraq iri əqdlərin bağlanması və digər məsələlər müşahidə şurasının müstəsna səlahiyyətinə aid edilə bilər. Bunlardan əlavə, nizamnamədə nəzərdə tutula bilər ki, cəmiyyətin filial və nümayəndəliklərini yaratmaq, onların əsasnamələrini təstiq etmək və fəaliyyətinə xitam vermək, cəmiyyətin təşkilati strukturunu və daxili qaydalarını təsdiq etmək, vəzifəli şəxslərin əmək haqlarını müəyyən etmək və əmlak məsuliyyətinə cəlb edilməsi barədə qərar çıxarmaq direktorlar şurasının (müşahidə şurasının) müstəsna səlahiyyətinə aid edilsin.

Müşahidə şurası ümumi xarakterli məsələləri həll etmək üçün daimi fəaliyyət göstərən orqandır. O, öz səlahiyyətləri həddində ümumi rəhbərliyi həyata keçirir (MM-in 107-7-ci maddəsinin 1-ci bəndi). Bu, onu ifadə edir ki, direktorlar şurası (müşahidə şurası) idarəetmə orqanıdır. **İdarəetmə (idarəçilik) funksiyası** onun yerinə yetirdiyi əsas funksiyalardan biridir. Bununla yanaşı, direktorlar şurası (müşahidə şurası) cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir (MM-in 107-7-ci maddəsinin 1-ci bəndi). Bu isə o deməkdir ki, direktorlar şurası (müşahidə şurası) **nəzarət orqanıdır**. Belə ki, eyni zamanda **onun əsas funksiyası səhmdar cəmiyyətinin icra orqanlarına nəzarət etməkdən ibarətdir**.

Səhmdar cəmiyyətinin icra orqanı müşahidə şurasının müstəsna səlahiyyətinə aid məsələlər barəsində qərar qəbul edə bilməz. Bu məsələlər həll edilmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz (MM-in 107-ci maddəsinin 3-cü bəndi). Əgər müşahidə şurası bunu istəsə belə, o, mümkün olan iş deyil. Ona görə ki, mülki qanunvericilik **müstəsna səlahiyyətin verilməməsi** prinsipindən çıxış edir. Bu prinsip ola biləcək mümkün sui-istifadə hallarının qarşısını almaq məqsədinə xidmət edir.

Səhmdarların sayı əllidən az olan cəmiyyətdə direktorlar şurası (müşahidə şurası) yaradılmır, çox olan cəmiyyətdə isə belə orqan təsis edilir. Bu isə o deməkdir ki, direktorlar şurası (müşahidə şurası) **fakultativ orqandır.**

Direktorlar şurasının (müşahidə şurasının) hüquqi vəziyyəti ümumi şəkildə Mülki Məcəllə ilə müəyyən edilir (107-7—107-9-cu maddələr). Odur ki, bu orqanla bağlı olan münasibətlər (bu orqanın üzvlərinin sayı və onlara aid olan tələblər, müstəsna səlahiyyətə aid olan məsələlər və s.) cəmiyyətin nizamnaməsi ilə tənzimlənir.

Direktorlar şurası (müşahidə şurası) **kollegial orqandır;** bu orqan sədrdən və üzvlərdən ibarətdir. Onun üzvü yalnız fiziki şəxslərdən ibarət ola bilər.

Direktorlar şurası (müşahidə şurası) həm də eyni zamanda **seçkili orqandır**. Belə ki, bu orqan seçki yolu ilə yaradılır; onun üzvləri ümumi yığıncaqda 3 ildən artıq olmayan müddətə seçilirlər. Bir qayda olaraq, direktorlar şurasının (müşahidə şurasının) üzvlüyünə cəmiyyətin səhmdarı olan şəxslər seçilə bilərlər. Özü də üzv fiziki şəxs olmalıdır; ona görə ki, fiziki şəxslərin şəxsi məsuliyyəti vacib rol oynayır. Bununla belə, direktorlar şurasının (müşahidə şurasının) üzvlüyünə cəmiyyətin səhmdarı olmayan şəxs də seçilə bilər, bu şərtlə ki, nizamnamədə başqa hal nəzərdə tutulmasın (MM-in 107-7-ci maddəsinin 5-ci bəndi).

Qeyd etməliyik ki, direktorlar şurasının (müşahidə şurasının) əsas xüsusiyyəti yuxarıda göstərdiyimiz kimi, eyni zamanda iki funksiya yerinə yetirməkdən ibarətdir: idarəçilik funksiyası (idarə orqanı kimi); nəzarət funksiyası (nəzarət orqanı kimi). Lakin bu funksiyalar bir-birindən ayrılmışdır, yəni onların aralarına hədd qoyulmuşdur. Buna görə də cəmiyyətin icra orqanlarının üzvləri (və ya təkbaşına icra orqanı) direktorlar şurasına (müşahidə şurasına) üzv seçilə bilməzlər (MM-in 107-7-ci maddəsinin 5-ci bəndi). Belə qayda bəzi xarici ölkələrin (məsələn, Fransanın və s.) qanunvericiliyində nəzərdə tutulmuşdur[1].

Direktorlar şurasına (müşahidə şurasına) sədr rəhbərlik edir. O, səhmdarların ümumi yığıncağı tərəfindən direktorlar şurasının (müşahidə şurasının) üzvləri arasından seçilir (MM-in 107-8-ci maddəsi).

İclas direktorlar şurasının (müşahidə şurasının) əsas **təşkilati fəaliyyət formasıdır.** O, üç ayda bir dəfədən az olmayaraq direktorlar şurasının (müşahidə şurasının) sədri tərəfindən çağırılır. İclasın keçirilmə qaydaları cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

Direktorlar şurasının (müşahidə şurasının) iclasında onun səlahiyyətinə aid edilən məsələlər barəsində müvafiq qərarlar çıxarılır. **Qərar** bu orqanın əsas **hüquqi fəaliyyət formasıdır.** İclasda qəbul olunan qərarlar **protokolla** rəsmiləşdirilir. Belə ki, direktorlar şurasının (müşahidə şurasının) iclası çağırıldıqda, həmin iclasda çıxarılmış qərarları əks etdirən protokol tərtib edilir. Protokol iclasa rəhbərlik (sədrlik) edən şəxs, yəni direktorlar şurasının (müşahidə şurasının) sədri tərəfindən imzalanır.

Qərarlar **sadə səs çoxluğu** ilə qəbul edilir. İclasda səsvermə **«bir üzv - bir səs» prinsipi** əsasında həyata keçirilir, yəni iclasda direktorlar şurasının (müşahidə şurasının) hər bir üzvü bir səsə malikdir.

Protokolda həm də iclasın yeri, vaxtı, iştirakçılar, gündəlik, çıxarışların xülasəsi və səsvermənin nəticələri barədə məlumatlar göstərilir.

Səhmdar cəmiyyətinin icra orqanı cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir. Bu orqanın səlahiyyətinə o məsələlər daxildir ki, həmin məsələlər cəmiyyətin digər idarəetmə orqanlarının — səhmdarların ümumi yığıncağının və müşahidə şurasının (direktorlar şurasının) müstəsna səlahiyyətinə aid edilməsin. Başqa sözlə desək, ümumi yığıncağın və müşahidə şurasının müs-

[1] Bax: Гражданское и торговое право зарубежных государств. Учебник. Том 1 / Отв. ред. *Е.А.Васильев, А.С.Комаров*. М., 2004, с. 215.

təsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli cəmiyyətin icra orqanının səlahiyyətinə daxil olunur (MM-in 107-ci maddəsinin 4-cü bəndi). Bu məsələlər cəmiyyətin nizamnaməsində göstərilir. Deməli, icra orqanı cəmiyyətin ümumi yığıncağının və müşahidə şurasının (direktorlar şurasının) müstəsna səlahiyyətlərinə şamil edilən məsələlərdən savayı, cəmiyyətin fəaliyyəti ilə bağlı bütün məsələləri həll edir (**«qalıq prinsipi»**). Başqa sözlə desək, icra orqanlarının səlahiyyətinə MM ilə və nizamnamə ilə cəmiyyətin idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlər daxildir (MM-in 107-10-cu maddəsinin 2-ci bəndi). Bu orqan səhmdar cəmiyyəti adından etibarnaməsiz fəaliyyət göstərir, onun mənafelərini təmsil edir, cəmiyyətin əmlakı barəsində sərəncam verir, əqdlər (müqavilələr) bağlayır (o cümlədən əmək müqavilələri), banklarda hesablaşma hesabı açır və s.

Qeyd etmək lazımdır ki, cəmiyyətin icra orqanına direktorlar şurasının (müşahidə şurasının) üzvləri seçilə bilməzlər (MM-in 107-10-cu maddəsinin 1-ci bəndi). Ona görə ki, qeyd etdiyimiz kimi, direktorlar şurası (müşahidə şurası) cəmiyyətin icra orqanlarına nəzarət etmək kimi funksiya yerinə yetirir; o, həm də nəzarət orqanıdır. Səhmdar cəmiyyətində **icra-idarəçilik funksiyası nəzarət funksiyasından ayrılmışdır**. Odur ki, eyni zamanda direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının üzvü olmaq qeyri-mümkündür.

Cəmiyyətin səhmlərinin iyirmi faizinə malik olan səhmdar da cəmiyyətin icra orqanının üzvü seçilə bilməz (MM-in 107-10-cu maddəsinin 7-ci bəndi). Məqsəd yol verilə bilən mümkün sui-istifadə hallarının qarşısını almaqdan ibarətdir. Digər tərəfdən bu, cəmiyyətin icra orqanının asılı olmamasını təmin edir.

Səhmdar cəmiyyətinin **icra orqanı həm təkbaşına, həm də kollegial ola bilər.** Təkbaşına orqana misal olaraq direktoru, baş direktoru, müdiri, prezidenti, kollegial icra orqanına isə müdiriyyəti, idarə heyətini göstərmək olar. Cəmiyyətin icra orqanı **həm seçilə, həm də təyin oluna bilər.**

Bununla belə, eyni zamanda səhmdar cəmiyyətinin həm kollegial, həm də təkbaşına icra orqanı yaradıla bilər. Bu, mümkündür. Qanun buna yol verir (MM-in 107-ci maddəsinin 4-cü bəndi). Belə halda səhmdar cəmiyyətinin nizamnaməsində hər bir icra orqanının səlahiyyəti dəqiq olaraq göstərilir.

Cəmiyyətin icra orqanları səhmdarların ümumi yığıncağı tərəfindən yaradılır. Cəmiyyətin nizamnaməsində bu məsələnin həlli müşahidə şurasının (direktorlar şurasının) səlahiyyətinə aid edilə bilər. Bu orqanlar üzərində nəzarəti müşahidə şurası həyata keçirir. Buna görə də həmin orqanlar səhmdarların ümumi yığıncağına və direktorlar şurasına hesabat verirlər.

Səhmdar cəmiyyətinin icra orqanının səlahiyyətləri mülki-hüquqi müqavilə əsasında başqa şəxslərə verilə bilər. Bu şəxslərə **idarəçi** deyilir. Özü də idarəçi rolunda yalnız o şəxslər çıxış edə bilər ki, onlar kommersiya (sahibkarlıq) dövriyyəsinin professional iştirakçıları olsunlar. Ona görə ki, bu kateqoriya şəxslər kommersiya (sahibkarlıq) dövriyyəsinə dərindən bələd olub, kommersiya işlərində kifayət qədər səriştəyə və təcrübəyə malikdirlər. Söhbət kommersiya təşkiatlarından və fərdi sahibkarlardan gedir. Cəmiyyətin icra orqanının səlahiyyətləri bu şəxslərə verilə bilər. Özü də bu, yalnız səhmdarların ümumi yığıncağının qərarı ilə mümkündür (MM-in 107-ci maddəsinin 4-cü bəndi).

Səhmdar cəmiyyətində **təftiş komissiyası (müfəttiş) kimi orqan** da yaradıla bilər. O, nə idarəetmə, nə də icra orqanı sayılır. Təftiş komissiyası (müfəttiş) **yoxlama-nəzarət orqanı** hesab edilir. Belə ki, onun əsas işi cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirməkdən, bu fəaliyyəti təftiş etmək və yoxlamaqdan ibarətdir. Bu orqan səhmdarların sayı əlidən çox olan cəmiyyətlərdə yaradılır. Əgər nizamnamədə nəzərdə tutularsa, səhmdarların sayı əlidən çox olmayan cəmiyyətlərdə də həmin orqan yaradıla bilər (MM-in 107-11-ci maddəsinin 1-ci bəndi).

Təftiş komissiyası **kollegial orqandır.** Belə ki, o, üzvlərdən ibarətdir. Üzvlərin səlahiyyət müddəti üç ildən artıq ola bilməz. Təftiş komissiyası həm də **seçkili orqandır.** Ona görə ki, bu orqan seçki yolu ilə yaradılır. Özü də onun üzvlüyünə fiziki şəxslər seçilir (MM-in 107-11-ci maddəsinin 3-cü bəndi). Bu, fiziki şəxslərin şəxsi məsuliyyət daşımaq qabiliyyəti ilə bağlıdır.

Nə cəmiyyətin səhmdarı, nə direktorlar şurasının (müşahidə şurasının) üzvü, nə də cəmiyyətin icra orqanının üzvü təftiş komissiyasının üzvü seçilə bilər. Məqsəd təftiş komissiyasının müstəqilliyini və asılı olmamasını təmin etməkdən ibarətdir.

Müfəttiş isə **təkbaşına orqandır.** O, bir qayda olaraq, təyin olunur. Buna görə də onu seçkili orqan hesab etmək olmaz.

Səhmdarlar qanunda nəzərdə tutulan **müəyyən vəzifələr** daşıyırlar. **Əldə etdiyi səhmin dəyərini ödəmək** onların əsas və başlıca vəzifəsidir. Səhmdarların bu vəzifəsi ilə səhmdar cəmiyyətinin nizamnamə kapitalının formalaşması bilavasitə əlaqəlidir (MM-in 103-cü maddəsi).

Səhmdarların səhmdar cəmiyyətinin üzvü olmaq üçün haqq kimi ödəməli olduğu nominal pul məbləğinə **nizamnamə kapitalı** deyilir. O, uçot-mühasibat kateqoriyasıdır.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalı **üç əsas funksiya** yerinə yetirir:

- iqtisadi funksiya;
- iştirak funksiyası;
- qarantiya funksiyası.

Nizamnamə kapitalının iqtisadi funksiyasının mahiyyəti ondan ibarətdir ki, səhmdar cəmiyyətinin nizamnamə kapitalının ödənilməsi üçün verilmiş əmlak (səhmlərin dəyərini ödəmək üçün verilmiş əmlak) onun həyata keçirdiyi istehsal-ticarət fəaliyyətinin maddi bazasını və iqtisadi əsasını təşkil edir. Bu fəaliyyətin həyata keçirilməsi üçün lazım olan əmlakın miqdarı tələbat və ehtiyac nəzərə alınmaqla təsisçilər tərəfindən müəyyənləşdirilir.

Nizamnamə kapitalının iştirak funksiyası ondan ibarətdir ki, onun vasitəsilə hər bir səhmdarın səhmdar cəmiyyətində, yəni səhmdar cəmiyyətinin işlərində iştirak payı müəyyən olunur. Belə ki, əvvəldə qeyd etdiyimiz kimi, səhmdar cəmiyyətinin nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünür. Nominal dəyərə malik olan səhm səhmdar cəmiyyətində üzvlüyü təsdiq edən xüsusi sənəddir (nominal dedikdə, səhmin üstündə göstərilən qiymət başa düşülür). Üzvlük dedikdə isə səhmdarın hüquqlarının (səhmdarların ümumi yığıncağında iştirak etmək hüququ; səsvermə hüququ və s.) məcmusu başa düşülür.

Nizamnamə kapitalının qarantiya funksiyası onun üçüncü funksiyasıdır. Bu funksiyanın yerinə yetirilməsi, hər şeydən əvvəl, kreditorların maraqlarının qorunmasına və müdafiəsinə yönəlmişdir.

Qarantiya funksiyasına əsasən səhmdar cəmiyyətinin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verir. O, səhmdarlar tərəfindən əldə edilmiş səhmlərin nominal dəyərindən ibarətdir. Nizamnamə kapitalı səhmdar cəmiyyətinin həyata keçirdiyi fəaliyyətin iqtisadi əsası və maddi bazası olmaqla yanaşı, həm də eyni zamanda onun kreditorlarının mənafelərinə təminat verən əmlakın minimum miqdarı müəyyənləşdirir. Nizamnamə kapitalının həcmini (miqdarını) müvafiq icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) təyin edir. O, bu miqdardan az ola bilməz.

Səhmdar cəmiyyəti təsis edilərkən onun buraxdığı bütün səhmlər təsisçilər arasında bölünür (MM-in 103-cü maddəsinin 3-cü bəndi). Onlar həmin səhmləri almaqla cəmiyyətin nizamnamə kapitalını ödəyirlər. Özü də onlar **nizamnamə kapitalını tamamilə ödəmək vəzifəsini cəmiyyət dövlət qeydiyyatına alınanadək icra etməlidirlər.** Belə təsəvvür yaranır ki, səhmdar cəmiyyəti səhmdarlar nizamnamə kapitalını tamamilə ödədikdən sonra dövlət qeydiyyatına alınır.

Səhmdar cəmiyyətinin səhmdarları həm adi, həm də təminatlı (imtiyazlı) səhmlər ala bilərlər. **Adi (sadə) səhmlər** odur ki, bu səhmlər öz sahibinə səhmdarların ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək hüququ verir; bu növ səhm öz sahibini üstünlük hüququ ilə təmin etmir. **Təminatlı (imtiyazlı) səhmlər** odur ki, bir qayda olaraq, bu cür səhmlərin sahibləri səsvermə hüququna malik deyildirlər. Amma cəmiyyətin nizamnaməsində başqa qayda da nəzərdə tutula bilər. Məsələn, cəmiyyətin nizamnaməsində göstərilə bilər ki, aşağıdakı məsələlər üzrə qərarların qəbul edilməsində imtiyazlı səhm sahibi səsvermə hüququ əldə edir: cəmiyyətin yenidən təşkil və ləğv olunması; nizamnamədə imtiyazlı səhm sahibinin hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələr edilməsi (MM-in 106-1-ci maddəsinin 5-ci bəndi). Təminatlı (imtiyazlı) səhmlərin ümumi məbləği cəmiyyətin nizamnamə kapitalının iyirmi beş faizini aşa bilməz, yəni bu faizdən çox ola bilməz. Həmin səhmlər öz sahibinə elə bir təminat verir ki, bunun nəticəsində o, səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq bir qayda kimi adətən, səhmin nominal dəyərinin sabit faizi şəklində dividendlər alır, yəni sabit şəkildə faiz alır. Bundan əlavə, təminatlı (imtiyazlı) səhmlər öz sahibinə ləğvetmə kvotası almaqda, yəni səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ verir. Bu səhmlərin sahibləri cəmiyyətin işlərinin aparılmasında iştirak etmək hüququna malik deyil (nizamnamədə başqa qayda da nəzərdə tutula bilər). Göründüyü kimi, təminatlı (imtiyazlı) səhmlər öz sahibinə başqa səhmlərlə (adi səhmlərlə) müqayisədə nizamnamədə nəzərdə tutulan müəyyən üstünlük verir. Üstünlük öz xarakterinə görə müxtəlif olub, səhmdə ifadə olunan səsin sayına, dividendin həcminə və cəmiyyət ləğv edilən zaman pul ödənişlərinin verilməsinin növbəliliyinə aid edilə bilər. Bu növ səhmin buraxılması səhmdar cəmiyyəti yaradılarkən onun nizamnaməsində hökmən nəzərdə tutulmalıdır.

Səhmdarlar əldə etdikləri səhmlərin dəyərini pulla, qiymətli kağızla, başqa əmlakla, əmlak hüququ ilə, habelə pul dəyəri olan digər hüquqla ödəyə bilər. Özü də səhmin dəyərini tam ödəyən səhmdarların səhmdar cəmiyyətindən çıxarılması mümkün deyil. Bu cəhəti ilə səhmdar cəmiyyəti məhdud məsuliyyətli

cəmiyyətdən fərqlənir. Belə ki, məhdud məsuliyyətli cəmiyyət iştirakçısı cəmiyyətdən çıxa bilər (MM-in 95-ci maddəsi).

Nizamnamə kapitalını ödəmək üçün səhmdarların əldə etdikləri səhmlərə görə verdiklərinə **nizamnamə kapitalına qoyuluşlar** deyilir. Onlar iki növdə ola bilər: pul qoyuluşları; əmlak qoyuluşları (əmlak nemətləri, əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar), yəni pul olmayan əmlak. Əmlak qoyuluşlarının dəyəri təsis yığıncağının qərarı ilə, səhmdar cəmiyyəti yaradıldıqdan sonra isə səhmdarların ümumi yığıncağının qərarı ilə müəyyən edilir (MM-in 103-cü maddəsinin 1-ci bəndi). O ki qaldı nizamnamə kapitalına qoyuluş formalarına, qeyd etməliyik ki, bu formalar təsisçilər arasında bağlanmış müqavilə (təsis müqaviləsi) ilə müəyyənləşdirilir.

Səhmdar əldə etdiyi səhmin dəyərini səhmdar cəmiyyətinə qarşı olan tələblərin əvəzləşdirilməsi yolu ilə ödəyə bilməz. Belə ki, qanun səhmdarı əldə etdiyi səhmin dəyərini ödəmək vəzifəsindən onun cəmiyyətə qarşı olan tələblərinin əvəzləşdirilməsi yolu ilə azad etməyə yol vermir (MM-in 103-cü maddəsinin 4-cü bəndi). Məsələn, tikinti təşkilatı səhmdar cəmiyyətinin binasını təmir edir və buna görə onun bu cəmiyyətə qarşı gördüyü iş üçün on min manat məbləğində podrat haqqını tələb etmək hüququ yaranır. Tikinti təşkilatı cəmiyyətə qarşı olan bu tələb hüququnun əvəzləşdirilməsi yolu ilə əldə ediyi səhmlərin dəyərini ödəyə bilməz.

Mülki qanunvericilik nəinki cəmiyyətə qarşı olan tələblərin əvəzləşdirilməsi yolu ilə, habelə, ümumiyyətlə, səhmdarın cəmiyyətin səhmlərinin dəyərini ödəmək vəzifəsindən azad olunmasına yol vermir.

Qeyd etdiyimiz kimi, nizamnamə kapitalı səhmdar cəmiyyətinin kreditorlarının mənafelərini təmin etmək üçün **qarantiya funksiyasını** yerinə yetirir. Mülki qanunvericilik nizamnamə kapitalının özünün qarantiya funksiyasını həyata keçirə bilməsi üçün onun həcminin cəmiyyətin xalis aktivlərinin dəyərindən asılı olaraq müəyyənləşdirilməsi haqqında qayda nəzərdə tutur (MM-in 103-cü maddəsinin 5-ci bəndi). Bu qaydaya görə ikinci və hər növbəti maliyyə ili başa çatarkən səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından çox olmalıdır (bu qayda birinci maliyyə ilinin başa çatması halına aid deyil). Əgər az olarsa, onda səhmdar cəmiyyəti öz nizamnamə kapitalının azalmasını elan edir və bunu qeydə aldırır. O, xalis aktivlərin dəyəri ilə nizamnamə kapitalının həcmi arasında yaranmış fərqi aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər görməlidir.

Əgər cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalının minimum miqdarından az olarsa, cəmiyyət ləğv edilir. Nizamnamə kapitalının minimum miqdarı isə qeyd etdiyimiz kimi, müvafiq icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilir.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalı artırıla bilər. Bunun üçün səhmdarların ümumi yığıncağının müvafiq qərar qəbul etməsi lazımdır. Axı, səhmdar cəmiyyətinin nizamnamə kapitalının miqdarını dəyişdirmək (artırmaq və ya azaltmaq) səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aiddir.

Mülki qanunvericilik **cəmiyyətin nizamnamə kapitalının artırılmasının** iki üsulunu nəzərdə tutur (MM-in 104-cü maddəsinin 1-ci bəndi). **Birinci üsulun** mahiyyəti **səhmlərin nominal dəyərini artırmaqdan** ibarətdir. Məsələn, no-

minal qiyməti bir min manat olan səhmin dəyəri artırılıb iki min manata çatdırılır **İkinci üsulun** mahiyyəti **əlavə səhmlər buraxmaqdan** ibarətdir. Belə halda səhmdarların əlavə buraxılan səhmləri satın almaqda üstünlük hüququ vardır, bir şərtlə ki, bu, cəmiyyətin nizamnaməsində nəzərdə tutulsun (MM-in 104-cü maddəsinin 2-ci bəndi). O ki qaldı səhmlərin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydalarına, həmin qaydalar Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən müəyyən edilir.

Səhmdar cəmiyyətinin **nizamnamə kapitalı həm də azaldıla bilər** (MM-in 105-ci maddəsi). Özü də dərhal qeyd edirik ki, bu, yalnız səhmdarların ümumi yığıncağının qərarı ilə mümkün ola bilər. Belə ki, həmin məsələnin həlli səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmişdir.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması zamanı mülki qanunvericilik kreditorların hüquq və mənafelərinin qorunmasına, cəmiyyət tərəfindən sui-istifadə hallarına (əlbəttə, onun işgüzar partnyorlarının mənafelərinə ziyan vurulmasına yönələn hallara) yol verilməməsinə xüsusi diqqət yetirir. Bu məqsədlə o, xüsusi qayda müəyyənləşdirir. Bu qaydaya görə, nizamnamə kapitalının azaldılması haqqında səhmdarların ümumi yığıncağının qərar qəbul edildiyi gündən 15 təqvim günü müddətində bu barədə cəmiyyət özünün bütün kreditorlarına bildiriş (yazılı məlumat) göndərir (MM-in 105-ci maddəsinin 2-ci bəndi). Bildirişi aldıqdan sonra 30 təqvim günü ərzində kreditorlar cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini tələb edə bilərlər. Məsələn, kreditorların ixtiyarı var ki, cəmiyyətə verdiyi borcun (kreditin) vaxtından əvvəl geri qaytarılmasını tələb etsinlər və yaxud nisyə satdığı malın pulunun vaxtından əvvəl ödənilməsini tələb etsinlər və s. Bundan əlavə, kreditorlar həm də düşdükləri zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər.

Beləliklə, cəmiyyətin bütün kreditorlarına bildiriş göndərilməklə nizamnamə kapitalının azaldılmasına yol verilir. Bildiriş göndərmək səhmdar cəmiyyətinin borcu və vəzifəsidir. Bu qayda cəmiyyətin öz nizamnamə kapitalının özbaşına olaraq azaldılmasının qarşısını alır və kreditorlann mənafelərinin və hüquqlarının müdafiə edilməsinə yönəlir.

Səhmdar cəmiyyətin nizamnamə kapitalının azaldılması üçün mülki qanunvericilik iki üsul (yol) müəyyənləşdirir (MM-in 105-ci maddəsinin 1-ci bəndi).

Birinci üsulun mahiyyəti səhmdar cəmiyyətinin öz **səhmlərinin nominal dəyərini azaltmasından** ibarətdir. Məsələn, elə hesab,edək ki, bir səhmin nominal dəyəri bir min manatdır. Səhmdar cəmiyyəti onun nominal dəyərini azaldaraq səkkiz yüz manata salır. Bu yolla cəmiyyətin nizamnamə kapitalı azalır.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılmasının **ikinci üsulu** səhmdar cəmiyyətinin **səhmlərin bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmasından ibarətdir.** Özü də dərhal qeyd etməliyik ki, yalnız nizamnamədə nəzərdə tutulduğu hallarda bu üsuldan istifadə edilə bilər. Əgər həmin üsul nizamnamədə göstərilməzsə, onda bu üsuldan istifadə etməklə nizamnamə kapitalının azaldılması mümkün olmur, istisna edilir.

Səhmdar cəmiyyətinin səhmlərin bir hissəsini satın alması onun dövriyyədən çıxarılmasına səbəb olur. Cəmiyyətin ümumi yığıncağında səsvermədə və mənfəətin bölüşdürülməsində bu səhmlər nəzərə alınmır; onlar üzrə dividendlər hesablanmır.

Səhmdar cəmiyyətin səhmlərinin bir hissəsinin satın alınması dedikdə, yerləşdirilmiş səhmlərin geri satın alınması başa düşülür. Bu məsələ ayrıca maddə ilə tənzimlənir (MM-in 105-1-ci maddəsi). Həmin maddəyə görə, səhmdar cəmiyyəti nizamnamə kapitalının miqdarını azaltmaq məqsədi ilə, əvvəl yerləşdirilmiş səhmlərin bir hissəsini geri ala bilər. Bunun üçün səhmdarların ümumi yığıncağının müvafiq qərar çıxartması tələb edilir. Bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır, yəni yuxarıda göstərdiyimiz kimi, AR Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş minimum miqdardan aşağı endirilməməlidir. Əks halda bu, səhmdar cəmiyyətinin ləğvinə səbəb olardı.

Səhmlər yalnız sahiblərinin razılığı ilə geri satın alına bilər. Bu zaman səhmin birja qiyməti yox, ümumi yığıncaqda müəyyən olunmuş qiyməti əsas götürülür.

Səhmdar cəmiyyətinin nizamnamə kapitalı yalnız qanunda nəzərdə tutulan həddə kimi azaldıla bilər. Bu, o deməkdir ki, nizamnamə kapitalının azaldılması nisbi xarakterə malikdir. Belə ki, səhmdar cəmiyyəti tərəfindən nizamnamə kapitalı müvafiq icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilmiş minimum miqdara kimi azaldıla bilər. Onun nizamnamə kapitalını bu miqdardan aşağı endirməsi yolverilməzdir. Mülki qanunvericiliyin bu cür imperativ göstərişinə səhmdar cəmiyyətinin əməl etməməsi onun üçün arzuolunmaz nəticələrə səbəb olur. Belə ki, əgər o, nizamnamə kapitalını minimum miqdardan aşağı endirərsə, bu hal cəmiyyətin ləğvinə səbəb olur (MM-in 105-ci maddəsinin 4-cü bəndi).

Səhmdarlar həm də **hüquqlara** malikdirlər. Mülki qanunvericilik onlara geniş hüquqlar verir. Bu hüquqlar Mülki Məcəllədə göstərilmişdir.

Məcəllənin 106-1-ci maddəsində ifadə olunan normaların bir qismi məhz həmin hüquqların tənzimlənməsinə həsr edilmişdir. Onlar bir qayda olaraq, şəxsi və əmlak hüquqlarına bölünür (iqtisadi məzmuna malik olmasından asılı olaraq). **Şəxsi huquqlara** aiddir: ümumi yığıncaqda iştirak etmək hüququ; səsvermə hüququ; məlumat almaq hüququ; cəmiyyətin idarə olunmasında iştirak etmək hüququ; seçki hüququ və s. **Əmlak hüquqlarına** isə aid edilir: devidend almaq hüququ; cəmiyyətin fəaliyyətinə xitam verildikdə onun yerdə qalan əmlakının müəyyən hissəsini almaq hüququ; cəmiyyətin nizamnamə kapitalının artırılması zamanı onun tərəfindən əlavə buraxılan səhmləri satın almaqda üstünlük hüququ. Səhmdarların şəxsi hüquqları həm də eyni zamanda **səhmdar cəmiyyətinin işlərində iştirak etmək hüququ** adlanır. Səhmdarların hüquqları səhmdə ifadə olunan hüquqların həcmindən asılı olaraq iki yerə bölünür: adi səhm sahiblərinin hüquqları; təminatlı (imtiyazlı) səhm sahiblərinin hüquqları.

Dividend almaq səhmdann əsas əmlak hüquqlanndan biridir. **Dividend** dedikdə, qoyulmuş kapitala görə əldə edilən mənfəət başa düşülür. Hər bir səhmə müəyyən məbləğdə dividend düşür. Bu məbləğ səhmdarların ümumi yığıncağında müəyyənləşdirilir.

Qeyd etmək lazımdır ki, devidendlərin ödənilməsi barədə məsələni səhm-

darların ümumi yığıncağı həll edir. Ümumi yığıncaq bu barədə müvafiq qərar çıxarır. Məhz qərar çıxarıldığı gündən səhmdar cəmiyyətinin devidendlər ödənilməsi barədə öhdəliyi yaranır.

Bir qayda olaraq, devidendlər və onların ödənilməsi qaydası haqqında qərar qəbul etmək məsələsini səhmdarların ümumi yığıncağı həll edir, bu şərtlə ki, həmin məsələ nizamnamədə həll olunmasın. Belə halda cəmiyyətin direktorlar şurası (müşahidə şurası) və ya həmin orqan formalaşdırılmadıqda isə cəmiyyətin icra orqanları həmin məsələnin ümumi yığıncaq tərəfindən həll olunmasını təklif edir. Bununla belə, bu məsələnin həlli cəmiyyətin nizamnaməsində müəyyən edilə bilər (MM-in 106-3-cü maddəsinin 5-ci bəndi). Məsələn, nizamnamədə göstərilə bilər ki, devidendlər və onların ödənilməsi qaydası haqqında qərar qəbul etmək məsələsi direktorlar şurasının (müşahidə şurasının) səlahiyyətinə aid edilsin. Amma səhmdar cəmiyyətinin mənfəətini (xalis mənfəətini) bölüşdürmək məsələsi əvvəldə qeyd etdiyimiz kimi, səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aiddir (MM-in 107-ci maddəsinin 1-ci bəndi). Belə ki, mənfəətin (xalis mənfəətin) səhmdar cəmiyyətinin maliyyə ili üzrə bölüşdürülməsi səhmdarların ümumi yığıncağının qərarı ilə qəbul edilir (MM-in 106-3-cü maddəsinin 1-ci bəndi).

Dividendlər, bir qayda olaraq, maliyyə ilinin nəticəsinə görə cəmiyyətin xalis mənfəətindən (aktivlərindən) ödənilir. Belə ki, cəmiyyətin illik xalis mənfəətinin (aktivlərinin) məbləğindən səhmdara onun malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend verilir.

Xalis mənfəət isə vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır. Səhmdar cəmiyyəti o halda xalis mənfəətə malik ola bilər ki, onun aktivi passivindən çox olsun. Xalis mənfəət hər bir səhm üzrə ödənişlər şəklində bölüşdürülür. Məhz bölüşdürülmüş hissə devidend adlanır.

Devidendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır. Özü də ilk növbədə imtiyazlı (təminatlı) səhmlərin bütün növləri üzrə devidendlər hesablanır (bölüşdürülür). Yalnız bundan sonra adi səhmlər üzrə devidendlər hesablanır (bölüşdürülür).

Dividendlər, bir qayda olaraq, ildə bir dəfə ödənilir. Dividendlər rüblər üzrə və ya yarımillik də ödənilə bilər. Bunun üçün vacibdir ki, səhmdar cəmiyyətinin nizamnaməsində bu barədə müvafiq göstəriş olsun.

Buna görə də səhmdar cəmiyyətin nizamnaməsində müəyyən edilməsindən və ödənilmə vaxtından asılı olaraq devidendlər üç cür ola bilər:

- illik devidend;
- rüblük devidend;
- yarımillik devidend.

Rüblük və yarımillik devidendlərə **aralıq devidend** deyilir.

Bəzən səhmdarın dividend almaq hüququnu həyata keçirməsi mümkün olmur. Belə ki, səhmdar cəmiyyətinin maliyyə-iqtisadi vəziyyəti kifayət qədər çətinləşir. Bu halda səhmdarlara dividend ödənilməsi isə həmin vəziyyətin daha da pisləşməsinə səbəb ola bilər. Söhbət səhmdar cəmiyyətinin xalis mənfəətinin (aktivlərinin) dəyərinin onun nizamnamə kapitalının miqdarından azalmasından və ya dividendlərin ödənilməsi nəticəsində azalmaq ehtimalından gedir (MM-in 106-cı maddəsinin 3-cü bəndi). Özünün maliyyə-iqtisadi vəziyyətinin

bu halında səhmdar cəmiyyəti dividendləri ödəmir, səhmdarların dividendlərin ödənilməsi barədə irəli sürdükləri tələbləri təmin etmir[1].

Bundan fərqli olaraq, təminatlı (imtiyazlı) səhm sahibləri səhmdar cəmiyyətinin maliyyə-iqtisadi vəziyyətinin kifayət qədər möhkəmliyindən, təsərrüfat fəaliyyətinin nəticələrindən, bir sözlə, cəmiyyətin illik xalis mənfəətinin məbləğindən asılı olmayaraq dividend alırlar. Əgər cəmiyyətin xalis mənfəəti (aktivləri) olmasa, bu kateqoriya səhmdarlara dividend ehtiyat fondundan və ya cəmiyyətin öz vəsaiti hesabına yaratdığı xüsusi fondlardan ödənilir.

Səsvermə səhmdarların malik olduqları hüquqlardan biridir. Onlar bu hüququ «bir səhm — bir səs» prinsipi əsasında həyata keçirirlər. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, hər bir səhmdar malik olduğu səhmlərin sayına görə səs verir. **Əgər səhmdar iki səhmə malikdirsə, onda onun iki səsi vardır.** Əgər səhmdara üç səhm məxsusdursa, deməli, onun üç səsi vardır.

Deməli, **səslərin sayı hər şeydən əvvəl, səhmlərin sayı ilə müəyyən edilir.**

Səhmdarların səsi ümumi yığıncağın müstəsna səlahiyyətinə aid edilmiş məsələlərin həlli barədə qərarlar qəbul edildiyi hallarda mühüm rola və əhəmiyyətə malik olur. Çünki bu məsələlər barəsində qərarlar nizamnamədə nəzərdə tutulduğundan asılı olaraq ya yekdilliklə, ya da adi (sadə) səs çoxluğu ilə qəbul edilir.

Əvvəldə qeyd etdiyimiz kimi, bəzi qərarlar isə səhmdarların üçdə iki səs çoxluğu ilə (əksəriyyət səs çoxluğu ilə) qəbul edilir (MM-in 107-5-ci maddəsinin 1-ci bəndi). Buna görə də səhmdarların səsvermə hüququ onlann digər hüququ ilə – **ümumi yığıncaqda iştirak etmək hüququ** ilə sıx surətdə bağlıdır. Belə ki, səhmdarların səsvermə hüququ ilə ümumi yığıncaqda iştirak etmək hüququ vardır. Sıravi səhmdarlar bu hüquqlardan istifadə etməklə səhmdar cəmiyyətinin fəaliyyətinə təsir göstərə bilirlər. Ədəbiyyat səhifələrində haqlı olaraq göstərilir ki, ümumi yığıncaqda səsvermə hüququ cəmiyyətin işlərinin idarə olunmasına təsir etmək imkanı verən əsas şəxsi hüquqdur.[2]

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü həyata keçirir. Bununla yanaşı o, həmin hüququ **nümayəndəsi vasitəsilə** də həyata keçirə bilər. Bundan ötrü səhmdar nümayəndə **etibarnamə** verməlidir. Etibarnamə qanunvericiliklə müəyyən edilmiş qaydada təbiq olunmalıdır (MM-in 107-3-cü maddəsinin 1-ci bəndi).

Cəmiyyətin nizamnaməsində nəzərdə tutulan halda, səhmdar yazılı sənəd vasitəsi ilə **səsvermədə qiyabi iştirak** edə bilər (MM-in 107-3-cü maddəsinin 2-ci bəndi). Bu zaman iki tələbə əməl olunmalıdır: səhmdar ümumi yığıncağın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməlidir (lehinə, əleyhinə, bitərəf); səhmdarın imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilməlidir. Qiyabi səsvermənin reqlamenti cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

---

[1] bax: п. 13 постановления Пленумов ВС РФ и ВАС РФ от 2 апреля 1997 г. № 4/8 «О некоторых вопросах применения Федерального закона «Об акционерных обществах» (Вестник ВАС РФ, 1997. № 6).

[2] Гражданское и торговое право зарубежних государств. Учебник. Том 1 / Отв. ред. *Е.А. Васильев, А.С. Комаров* М., 2004, с. 217.

Qiyabi səsvermə bəzi xarici ölkələrin qanunvericiliyində də nəzərdə tutulmuşdur. Məsələn, Fransada qiyabi səsvermə videokonfransın vasitəsilə keçirilir.

Təminatlı (imtiyazlı) səhm sahibləri, adi səhm sahiblərindən fərqli olaraq, səs vermək hüququna malik deyillər. Bu kateqoriya səhmdarlara nizamnamə əsasında səsvermə hüququ verilə bilər.

Belə ki, əvvəldə qeyd etdiyimiz kimi, bir sıra məsələlər (məsələn, cəmiyyətin yenidən təşkil edilməsi və s.) barəsində qərarların qəbul edilməsində təminatlı (imtiyazlı) səhm sahibini cəmiyyətin nizamnaməsi səsvermə hüququ ilə təmin edə bilər (MM-in 106-1-ci maddəsinin 5-ci bəndi). Əgər nizamnamədə bu, nəzərdə tutulmazsa, təminatlı (imtiyazlı) səhm **«səssiz səhm»** hesab edilir. Adi səhm isə **«səsli səhm»** sayılır. Amma «səssiz səhm» olmasına baxmayaraq, təminatlı (imtiyazlı) səhm öz sahibini müəyyən maddi (əmlak) imtiyazla və üstünlük hüququ ilə təmin edir. Bununla səsvermə hüququnun olması kompensasiya edilir.

Səhmdar cəmiyyətinin idarə edilməsində iştirak etmək hüququ səhmdarların əsas hüquqları sırasına daxildir. Bu hüquq onların səhmdar cəmiyyətinin idarəetmə və icra orqanlarında iştirak etmələrini ifadə edir. Həmin hüquq səhmdarların seçkilərdə **iştirak etmələri** ilə həyata keçirilir. Belə ki, səhmdarların **seçki hüququ** vardır. Seçki hüququ iki cür olur: passiv seçki hüququ; aktiv seçki hüququ. **Passiv seçki hüququna görə,** səhmdarlar bu və ya digər şəxsi cəmiyyətin idarəetmə və icra orqanlarına seçirlər. **Aktiv seçki hüququ** ilə səhmdarların özünün cəmiyyətin idarəetmə və icra orqanlarına seçilməsini təmin edir.

Səhmdarların **cəmiyyətin ümumi yığıncağının çağırılmasını tələb etmək hüququ vardır.** Belə ki, səsli səhmlərin on faizinə malik olan səhmdarlar növbədənkənar ümumi yığıncağın keçirilməsini tələb edə bilərlər.

Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan səhmdarların hüququ var ki, **səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışının keçirilməsini tələb etsinlər.** Bu yoxlanış nəticəsində səhmdarlar səhmdar cəmiyyətinin sahibkarlıq və təsərrüfat fəaliyyətinin nəticələri, onun maliyyə-iqtisadi vəziyyəti, illik xalis mənfəət (aktivlər) və digər məsələlər barəsində məlumat əldə edir, yol verilmiş sui-istifadə halları müəyyənləşdirilir. Auditor yoxlanışı qanunda və cəmiyyətin nizamnaməsində nəzərdə tutulan qaydada həyata keçirilir[1].

Səhmdarlar bu hüquqdan peşəkar auditorun cəlb edilməsindən asılı olmayaraq istifadə edə bilərlər. Belə ki, səhmdar cəmiyyəti illik maliyyə hesabatını və mühasibat balansını həmının tanış olması məqsədi ilə hər il dərc etdirir. Səhmdar cəmiyyəti bu zaman illik maliyyə hesabatının düzgünlüyünü təsdiq etmək və yoxlamaq üçün peşəkar auditor cəlb edir (MM-in 107-ci maddəsinin 6-cı bəndi). Auditorun əmlak mənafeləri cəmiyyətlə və ya onun iştirakçıları ilə bağlı olmamalıdır. Məsələn, həmin cəmiyyətin səhmlərini əldə edən şəxs, habelə sahibkarlıq fəaliyyəti sahəsində bu cəmiyyətlə partnyorluq münasibətlərində olan şəxs və s. auditor rolunda çıxış edə bilməz.

İnformasiya almaq səhmdarların əsas şəxsi hüquqlarından biridir. Bu hüquqda səhmdarların cəmiyyətin idarəetmə – icra orqanlarının fəaliyyəti üzərində nəzarət etmək vasitələrindən biri ifadə olunmuşdur. Bu hüquq əhatə edir:

- səhmdarın **cəmiyyətin fəaliyyətinə aid məlumatlar almaq hüququnu;**
- səhmdarın ildə bir dəfə cəmiyyətin **illik hesabatı və mühasibat balansı ilə tanış olmaq hüququnu;**
- səhmdarın cəmiyyətin ümumi yığıncağının protokolunun surətini almaq hüququnu.

Səhmdarlar **ləğvetmə kvotası, yəni səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlak hissəsini almaq hüququna** malikdirlər. Belə ki, səhmdar cəmiyyəti ləğv edilərkən ləğvetmə komissiyası kreditorların tələblərini növbə ilə ödəyir. Bütün kreditorlarla hesablaşdıqdan, hesablanmış, lakin ödənilməmiş devidendlər, habelə təminatlı, (imtiyazlı) səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin əmlakının qalan hissəsi səhmdarların ümumi yığıncağının qərarı əsasında səhmdarlar arasında bölüşdürülür. Özü də təminatlı (imtiyazlı) səhm sahibləri qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququna malikdirlər (MM-in 106-cı maddəsinin 1-ci bəndi).

Səhmdar cəmiyyəti yenidən təşkil edilə bilər. Yenidən təşkiletmə zamanı hüquq və vəzifələr yenidən təşkil olunan cəmiyyətin bazası əsasında yaranan hüquqi şəxsə (şəxslərə) universal hüquq varisliyi qaydasında keçir. Yenidən təşkiletmə həm könüllü, həm də məcburi qaydada həyata keçirilə bilər.

Səhmdar cəmiyyəti həm də ləğv edilə bilər. Özü də həm könüllü qaydada (ümumi yığıncağın qərarı əsasında), həm də məcburi qaydada (məhkəmə qərarı əsasında). Ləğvetmə zamanı səhmdar cəmiyyətinin fəaliyyətinə hüquqi varislik olmadan xitam verilir.

9. Törəmə və asılı təsərrüfat cəmiyyətləri

Mətləbə keçməmişdən əvvəl dərhal qeyd etməliyik ki, törəmə təsərrüfat cəmiyyətlərinə hüquqi şəxslərin müstəqil, xüsusi təşkilati-hüquqi forması kimi baxmaq olmaz. Bu cəmiyyət həm də təsərrüfat cəmiyyətinin növü hesab edilmir və sayılmır. Onlar spesifik xaraktere malik olan kommersiya təşkilatıdır. Bu kommersiya təşkilatının spesifikliyi ondan ibarətdir ki, **həmin təşkilatla onun nizamnamə kapitalında iştirak edən təsərrüfat ortaqlığı və ya cəmiyyəti arasında yaranan münasibətlər xüsusi qaydada qurulur.**

Bildiyimiz kimi, mülki qanunvericiliyə görə, təsərrüfat ortaqlıqları və cəmiyyətləri başqa təsərrüfat cəmiyyətlərinin iştirakçıları ola bilərlər (MM-in 64-cü maddəsinin 7-ci bəndi). Söhbət onların başqa təsərrüfat cəmiyyətlərinin nizamnamə kapitalında iştirakından gedir. Bir sıra hallarda nizamnamə kapitalında iştirak üstün xaraktere malik olur. «Nizamnamə kapitalında üstün iştirak» anlayışının mənasını qüvvədə olan qanunvericilik aydınlaşdırmır. Biz elə hesab edirik ki, nizamnamə kapitalında üstün iştirak dedikdə, səhm paketinin (və ya nizamnamə kapitalında payın) çox hissəsinin və ya səhmlərin nəzarət paketinin (50%-dən çox) iştirakçıya məxsus olması başa düşülür[1]. Amma səhm-

[1] Auditor yoxlanışı barədə müvafiq qanun fəaliyyət göstərir.

[1] Bu barədə başqa fikir də irəli sürülür. Müəlliflərdən Şapkina Q.S. göstərir ki, üstün iştirakın minimum həcmi səhmlərin nəzarət paketi olmayan paketlə (50 %-dən çox) yox, səhm paketi (nizamnamə kapitalında pay) ilə müəyyənləşdirilə bilər (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 215).

lərin nəzarət paketinin (50%-dən çox) və ya payın 50%-dən çox hissəsinin iştirakçıya məxsus olması məcburi və labüd şərt deyildir. **Üstün iştirak fakt məsələsindən asılıdır.** Məsələn, səhmdarlarının sayı çox olan cəmiyyətlərdə 5-10% səhmi əldə etmək nəzarət və bununla üstün iştirak üçün kifayətdir. Səhmlərin nəzarət paketi nizamnamə kapitalında elə bir iştirak formasıdır ki, bu, səhmdarların ümumi yığıncağında müəyyən məsələ barəsində şərtsiz olaraq qərar qəbul olunmasını və ya qərar qəbul olunmasından imtinanı təmin edir. Hər bir səhm isə iştirakçıya bir səs verir. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilən məsələlər həll olunarkən müvafiq qərarlar, bir qayda olaraq, adi (sadə) səs çoxluğu ilə çıxarılır. Şübhəsiz ki, səhm paketinin (nizamnamə kapitalında payın) çox hissəsini əldə etməklə iştirakçılar iştirak etdikləri cəmiyyətin ümumi yığıncağının qəbul etdiyi qərarları müəyyənləşdirmək şansı qazanırlar. Bununla onlar, mahiyyətcə, təsərrüfat cəmiyyətinin əsas fəaliyyət istiqamətlərini müəyyən edirlər, bu cəmiyyətin əsas və vacib məsələlər barəsində qərarlar qəbul etməsinə həlledici (təyinedici) təsir göstərirlər, ona nəzarət edirlər. Bir sözlə, cəmiyyətin işlərinin idarə olunmasında onlar həlledici səsə malik olurlar; ümumi yığıncağın hansı məzmunda qərar qəbul etməsi çox vaxt üstün iştirakçılardan asılı olur.

Bəzən iştirakçıların başqa bir təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında üstün iştirakı mümkün olmur. İştirakçılarla təsərrüfat cəmiyyəti arasında sadəcə olaraq **onun işlərinin idarə olunması barədə müqavilə bağlanır.** Bu müqaviləyə əsasən, iştirakçılara təsərrüfat cəmiyyətinin qəbul etdiyi qərarları müəyyənləşdirmək hüququ verilir. Beləliklə, iştirakçılar təsərrüfat cəmiyyətinin fəaliyyətinə nəzarət edirlər.

Başqa iştirakçı tərəfindən nəzarət olunan və özünün qəbul etdiyi qərarları müstəqil surətdə müəyyənləşdirmək imkanına malik olmayan kommersiya təşkilatına törəmə təsərrüfat cəmiyyəti deyilir. Törəmə təsərrüfat cəmiyyətinin fəaliyyəti üzərində nəzarət edən və həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olan kommersiya təşkilatı isə **əsas iştirakçı** adlanır. Əgər törəmə təsərrüfat cəmiyyəti nəzarət olunan təşkilatdırsa, əsas iştirakçı nəzarət edən təşkilatdır[1]. Odur ki, nəzarət edən təşkilat nəzarət olunan cəmiyyətə onun işlərinin idarə olunması barədə məcburi göstərişlər vermək hüququna malikdir.

Dediklərimizdən belə çıxır ki, kommersiya təşkilatının törəmə cəmiyyət statusu alması üçün mülki qanunvericiliyin nəzərdə tutduğu iki əsasdan birinin mövcud olması vacibdir:

- birincisi, əsas kommersiya təşkilatının (əsas iştirakçının) digər təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında üstün iştirakı. Elə bir iştirak ki, bu, həmin cəmiyyətin işlərinin idarə olunmasında ona həlledici səs verir.
- ikincisi, əsas kommersiya təşkilatı (əsas iştirakçı) ilə həmin təsərrüfat cəmiyyəti arasında müqavilə bağlanır. Elə bir müqavilə ki, bu müqavilə əsas iştirakçıya cəmiyyətin işlərini idarə etmək (məsələn, cəmiyyətin icra orqanının səlahiyyətlərini icra etmək) hüququ verir[1].

[1] Rus dilində törəmə təsərrüfat cəmiyyətinə «дочерная компания», əsas iştirakçıya «материнская компания» deyilir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. Е.А.Суханова. М., 1998, с. 240).

Törəmə təsərrüfat cəmiyyətinin leqal anlayışı, onun hüquqi vəziyyəti, əsas iştirakçı ilə qarşılıqlı münasibətləri və digər məsələlər mülki qanunvericiliklə ətraflı surətdə tənzimlənir (MM-in 67-ci maddəsi). Bəs mülki qanunvericiliyin törəmə təsərrüfat cəmiyyəti kimi hüquqi konstruksiyanı ayrıca olaraq nəzərdə tutmasının və xüsusi olaraq tənzimləməsinin səbəbi nədədir? Bunu nə ilə izah etmək olar?

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, törəmə təsərrüfat cəmiyyəti konstruksiyasını Azərbaycan Respublikasının mülki qanunvericiliyi yaratmamışdır. Bu konstruksiyanı bizim ölkə qanunvericiliyi RF-in qanunvericiliyindən iqtibas etmişdir. RF-in Mülki Məcəlləsinin 105-ci maddəsi törəmə təsərrüfat cəmiyyətinə leqal anlayış verərək, onun hüquqi statusunu müəyyənləşdirir. RF-in qanunvericiliyi isə həmin konstruksiyanı xarici dövlətlərin hüquq sistemindən iqtibas etmişdir.

Xarici ölkələrdə «iqtisadi birliklər» **(transmilli birliklər) konstruksiyası** geniş yayılmışdır. **İqtisadi birliklər** dedikdə, sahibkar statuslu və iqtisadi cəhətdən bir-biri ilə bağlı olan hüquqi şəxslərin elə bir qrupu başa düşülür ki, bu qrupa daxil olan bir iştirakçı (əsas kompaniya) digər iştirakçının (törəmə kompaniyanın) idarə olunması üzərində nəzarət edir. Bu cür iqtisadi birliklər ingilis-amerikan hüquq sistemində **holdinq konstruksiyası** — «holding company» / «subsidiary» anlayışı (ingiliscə «holder» — sahib) ilə əhatə olunur. Holdinq anlayışı həm tam və bütöv iqtisadi birliyi, həm də onun əsas kompaniyasını (subyektini) ifadə edir. Əsas kompaniya «holdinq — əsas subyekt» adlanır. O, iqtisadi birliyin «maliyyə mərkəzi və beyni» hesab olunur. «Holdinq — əsas subyekt»in özü, bir qayda olaraq, təsərrüfat fəaliyyəti ilə məşğul olmur.

İqtisadi birliyin holdinq olması üçün bir neçə əlamətin olması gərəkdir: birincisi, «holdinq — əsas subyekt» başqa subyektin (kompaniyanın) buraxdığı səhmlərin sahibi olmalıdır; ikincisi, «holdinq — əsas subyekt»ə məxsus olan səhm paketi ona başqa subyektin fəaliyyətinə nəzarət etmək imkanı verməlidir; üçüncüsü, holdinq tərəfindən nəzarət olunan subyekt hüquqi cəhətdən müstəqil şəxs olmalıdır.

İngilis-amerikan hüququndan fərqli olaraq, Almaniya hüququ iqtisadi birlikləri «əlaqəli müəssisələr (qohum müəssisələr) və ya «konsern» anlayışı ilə əhatə edir. Almaniyanın səhmdar cəmiyyəti haqqında qanununda əlaqəli müəssisələrə aid edilir: payların çoxunu əldə edənin idarəçiliyində olan müəssisə və səs çoxluğuna malik olan müəssisə; konsernə daxil olan əsas və asılı müəssisə.

Almaniya doktrinası konsernə anlayış verir. **Konsern** (ingiliscə «concern») bilavasitə və ya dolayı yolla asılı müəssisəyə təsir göstərən əsas müəssisədən və asılı müəssisədən ibarətdir. O, müstəqil subyektlərin birliyi kimi yaradı-

[1] Bu müqavilə Almaniya hüququndə «beherrschungsvertrag», yəni idarəetmə (tabeçilik) haqqında müqavilə adlanır. Bu müqaviləyə görə, bir şəxs (tabe olan şəxs) təsərrüfat fəaliyyəti məsələləri üzrə başqa şəxsin (idarə edən şəxsin) göstərişlərini yerinə yetirməyi, idarə edən şəxs isə öz səlahiyyəti çərçivəsində tabe olan şəxs üçün məcburi göstərişlər vermeyi öhdəsinə götürür (bax: *Тынель А., Функ А., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 97).

lır. Konsernin bütün üzvlərinin təsərrüfat fəaliyyətinə aid qərarlar bir mərkəzdən qəbul edilir. Adətən, qərar qəbul etmək funksiyasını konsernin o iştirakçısı yerinə yetirir ki, həmin iştirakçı bazarda üstün mövqe tutsun. Bazarda üstün mövqe tutan subyekt (iştirakçı) başqa subyektlərdə iştirakın nəzarət payını əldə edir. Bu, konserni holdinqə yaxınlaşdırır.

Bundan əlavə, tabeçilik haqqında müqavilənin və ya bir müəssisənin digər müəssisəyə daxil edilməsi haqqında müqavilənin tərəfləri də konsern hesab edilir. Eyni zamanda bir-birindən asılı olmayan, lakin vahid rəhbərliyə malik olan müəssisələrin birliyi də konsern kimi tanınır. Konsernə daxil olan idarəedən müəssisə holdinqdən fərqli olaraq, çox vaxt təsərrüfat fəaliyyətini həyata keçirir[1].

Nə Azərbaycan Respublikasının, nə də RF-in qüvvədə olan qanunvericiliyi holdinq və konsernlərin yaradılması və fəaliyyət göstərməsi haqqında normalar nəzərdə tutur. Bəzi normativ aktlarda yalnız onların adları çəkilir və onlara işarə olunur[2]. RF-in bank qanunvericiliyində, habelə özəlləşdirmə qanunvericiliyində holdinqə işarə edilir[3]. Hüquq ədəbiyyatı səhifələrində holdinqə törəmə təsərrüfat cəmiyyəti ilə analoji qaydada hüquqi anlayış verilməsinə təşəbbüs göstərilir[4].

Bizim ölkə qanunvericiliyi Qərb hüququnda (alman və ingilis-amerikan hüququnda) nəzərdə tutulan konsern və holdinq kimi hüquqi konstruksiyaları tənzimləmir. Amma buna baxmayaraq, həmin konstruksiyaları bizim ölkənin qanunvericiliyinin tanıdığı törəmə təsərrüfat cəmiyyəti konstruksiyasının proobrazı hesab etmək olar.

Beləliklə, törəmə təsərrüfat cəmiyyəti başqa kommersiya (sahibkarlıq) təşkilatının — əsas iştirakçının təsiri və nəzarəti altına düşür. Belə halda azlıqda qalan və üstün iştiraka malik olmayan səhmdarların (digər iştirakçıların), habelə kreditorların mənafelərini müdafiə etmək zərurətə çevrilir. Bu məqsədlə mülki qanunvericilik törəmə təsərrüfat cəmiyyəti hüquqi konstruksiyasını ayrıca olaraq nəzərdə tutur və onu xüsusi qaydada tənzimləyir.

Əsas iştirakçı (nəzarət edən) rolunda həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri çıxış edə bilər. Nəzarət olunan (törəmə) subyekt qismində isə yalnız təsərrüfat cəmiyyəti (səhmdar cəmiyyəti və ya məhdud məsuliyyətli cəmiyyət) çıxış edə bilər. Özü də törəmə cəmiyyət əsas iştirakçının borcları üçün cavabdeh deyildir (MM-in 67-ci maddəsinin 2-ci bəndi).

Qeyd etdiyimiz kimi, törəmə təsərrüfat cəmiyyətinin yaranmasının əsaslarından biri **idarəetmə (tabeçilik) haqqında müqavilədir.** Bu müqaviləyə görə, əsas iştirakçı (idarə edən) təsərrüfat (sahibkarlıq) fəaliyyəti məsələləri üzrə

[1] bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск, с. 96-97.

[2] Azərbaycan Respublikasının «Antiinhisar fəaliyyəti haqqında» qanunun 4-cü maddəsi konserni müəssisələrin birliyi kimi, idarəetmə orqanı kimi xarakterizə edir (AR QK, II cild, s. 41).

[3] bax: ч. 2. ст. 4. Федерального закона от 3 февраля 1996 г. «О банках и банковской деятельности»; Временное положение о холдинговых компаниях, создаваемых при преобразовании государственных предприятий в акционерные общества, утв. указом президента РФ от 26 ноября 1992 г. «О мерах по реализации промышленной политики при приватизации государственных предприятий» (САПП РФ. 1992. № 21. ст. 1731).

[4] bax: Предпринимательское (хозяйственное) право. Учебник. Том 1 / Под ред. *О.М.Олейника*. М., 1999, с. 262-267.

törəmə cəmiyyətə məcburi göstərişlər verir, törəmə cəmiyyət isə bu göstərişləri yerinə yetirmək vəzifəsini daşıyır[1]. Bu göstərişləri yerinə yetirmək və icra etmək üçün törəmə cəmiyyət müxtəlif mülki-hüquqi və ticarət xarakterli əqdlər (müqavilələr) bağlaya bilər. Bağlanmış bu əqdlər üzrə əsas iştirakçı törəmə cəmiyyətlə birgə məsuliyyət daşıyır (MM-in 67-ci maddəsinin 3-cü bəndi).

Bəzən əsas iştirakçının təsərrüfat (sahibkarlıq) fəaliyyəti barəsində verdiyi məcburi göstərişlərin törəmə cəmiyyət tərəfindən icra edilməsi nəticəsində bu cəmiyyətə zərər vurulur. Söhbət əsas iştirakçının təqsirli hərəkətlərə yol verməsindən, onun təqsiri üzündən törəmə cəmiyyətə zərər dəyməsindən gedir[2]. Belə halda törəmə cəmiyyətin iştirakçıları (səhmdarları) əsas iştirakçıdan həmin zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər (MM-in 67-ci maddəsinin 4-cü bəndi). Zərərin əvəzinin ödənilməsi barədə tələb iştirakçılar (səhmdarlar) tərəfindən cəmiyyətin mənafeyi üçün müvafiq məhkəmə iddiası verilməsi yolu ilə irəli sürülə bilər.

Elə hallar da olur ki, əsas iştirakçı törəmə cəmiyyətin işlərini və fəaliyyətini lazımınca, səmərəli idarə edə bilmir. O, təsərrüfat və sahibkarlıq fəaliyyəti məsələləri barəsində törəmə cəmiyyətə effekti olmayan məcburi göstərişlər verir. Bu göstərişlərin cəmiyyət tərəfindən icra olunması nəticəsində cəmiyyətin əmlakının dəyəri onun kreditorlarının tələblərini ödəmək üçün kifayət etmir. Beləliklə, törəmə cəmiyyət müflisləşir, yəni müflis olur.

Bu cür hallarda əsas iştirakçı törəmə cəmiyyətin **kreditorlara olan borclarına görə subsidiar məsuliyyət daşıyır** (MM-in 67-ci maddəsinin 5-ci bəndi). Belə ki, birinci növbədə kreditorların borcu ödəmək barədə tələbləri törəmə cəmiyyətin özünə verilir. Əgər cəmiyyətin əmlakı bu tələbləri təmin etmək üçün kifayət etmədikdə, kreditorların tələbləri əsas iştirakçıya yönəlir. Bu, yalnız o halda mümkün ola bilər ki, törəmə cəmiyyət əsas iştirakçının təqsiri üzündən müflisləşsin, yəni əsas iştirakçının təqsirli hərəkətləri ilə nəticə — müflisləşmə arasında səbəbli əlaqə olsun. Subsidiar məsuliyyətin tətbiq olunması üçün törəmə cəmiyyətin müflisləşməsində də əsas iştirakçının (əsas ortaqlığın və ya cəmiyyətin) təqsiri sübuta yetirilməlidir.

Hal-hazırda «əsas iştirakçı — törəmə cəmiyyət» konstruksiyası (hüquqi modeli) maliyyə-sənaye qruplarının yaradılmasında istifadə oluna bilər. Bu qrupun iştirakçıları arasında qarşılıqlı münasibətlərin həmin konstruksiya (model) əsasında qurulması istisna edilmir[3].

Maliyyə-sənaye qrupu dedikdə, müqavilə əsasında öz aktivlərini tamamilə və qismən birləşdirmiş hüquqi şəxslərin (əsas və törəmə müəssisələrin) bir-

[1] Bu Qayda Almaniya hüququndan iqtibas olunmuşdur. Həmin müqavilə almanca «beherrschungsvertrag» adlanır.

[2] Məhkəmələr əsas iştirakçının bu cür hallarda təqsiri olması məsələsini həll edərkən öhdəliyin pozulması üçün məsuliyyətin əsasları haqqında normaya (Azərbaycan Respublikasının MM-in 448-ci maddəsinə, RF-in MM-nin 401-ci maddəsinə) istinad etməlidirlər (bax: n. 12 postanovleniya Plenumov VS RF i VAS RF № 4/8 ot 2 aprelya 1997 g. «O nekotorых voprosax primeneniya Federalnogo zakona»; «Об акционерных обществах» // Вестник ВАС РФ. 1997. № 6).

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 94-95; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 119.

liyi (məcmusu) başa düşülür. Bu qrupun yaradılmasının əsas məqsədi istehsalın rəqabət qabiliyyətini və səmərəliliyini yüksəltmək, ixracat potensialını artırmaq, investisiya layihələrini (proqramlarını) birgə həyata keçirmək məqsədi ilə qrup iştirakçılarının maddi-maliyyə ehtiyatlarını birləşdirməkdən və investisiyalar cəlb etməkdən ibarətdir[1].

Törəmə təsərrüfat cəmiyyəti kimi, asılı təsərrüfat cəmiyyəti də hüquqi şəxslərin müstəqil təşkilati-hüquqi forması hesab edilmir. O, nə də təsərrüfat cəmiyyətinin müstəqil bir növü kimi tanınır və nəzərdə tutulur.

MM-in 68-ci maddəsi asılı təsərrüfat cəmiyyətinin hüquqi statusunu müəyyənləşdirir. Bu maddə həm də onun leqal anlayışını formulə edir.

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olarsa, buna asılı təsərrüfat cəmiyyəti deyilir.

Asılı cəmiyyətin əsl hüquqi təbiətini müəyyənləşdirmək üçün onu törəmə cəmiyyəti ilə müqayisə etmək lazımdır. **Birinci fərqli cəhət** ondan ibarətdir ki, asılı təsərrüfat cəmiyyətində çıxış edən üstün iştirakçı təsərrüfat və sahibkarlıq fəaliyyəti məsələləri üzrə bu cəmiyyətə **məcburi göstərişlər verə bilməz.** Üstün iştirakçının imkanı onunla müəyyənləşdirilir ki, o, səhmlərin xeyli hissəsini əldə etməklə asılı cəmiyyətin qərar qəbul etməsinə təsir göstərə bilər.

İkinci fərqli cəhət ondan ibarətdir ki, əgər törəmə cəmiyyətə münasibətdə əsas iştirakçı geniş səlahiyyətlərə malikdirsə, asılı cəmiyyətə münasibətdə üstün iştirakçının bu cür **geniş səlahiyyətləri yoxdur.**

Üçüncü fərqli cəhətə görə, üstün iştirakçı (iştirakçı) asılı cəmiyyətin kreditorları qarşısında bu cəmiyyətin öhdəliklərinə (borclarına) görə **məsuliyyət daşımır.** Bu, birinci və ikinci fərqli cəhətlərdən irəli gəlir.

Üstün iştirakçının borcudur ki, özünün iştirakı barədə ləngimədən məlumat dərc etdirsin (MM-in 68-ci maddəsinin 2-ci bəndi). Mülki (əmlak) dövriyyənin bütün digər iştirakçıları bu məlumatla tanış olurlar. Söhbət hamının tanış olması üçün açıq (ümumi) informasiyanın verilməsindən gedir.

Bəzi xarici ölkələrin hüququ başqasından asılı olan kompaniyaları **affilə olunmuş firma** adlandırır. Bu termin ingilis-amerikan hüququndan iqtibas olunmuşdur və bir şəxsin digərindən asılılığını ifadə edir. Bu asılılıq əsasında həmin şəxslərdən biri digərinin həyata keçirdiyi təsərrüfat fəaliyyətinin şərtlərini müəyyən edir.

Həmin konstruksiyanı RF-in qanunvericiliyi də nəzərdə tutur. Bu qanunvericiliyə görə, affilə edilmiş şəxs odur ki, onun səhmlərinin 25%-i və daha çox faizi müəyyən şəxslərə məxsus olur[2].

10. Kooperativ

Kooperativ (latınca cooperatio — əməkdaşlıq) hüquqi şəxsin müstəqil təşkilati-hüquqi formalarından biridir. Mülki Məcəllə onu kommersiya təşkilatlarının bir növü hesab edir[1].

Kooperativin əsas növü olan istehsal kooperativləri XIX əsrin ortalarında Avropada yaranmışdır[2]. Həmin vaxtlardan başlayaraq bir çox Avropa ölkələrinin qanunvericiliyi kooperativ hüquqi konstruksiyasını nəzərə almışdır. Müasir dövrdə biz qabaqcıl hüquq sistemlərinin bu konstruksiyaya xüsusi diqqət yetirməsinin şahidi oluruq. Məsələn, Almaniya Ticarət Qanunnaməsinin üçüncü kitabında kooperativlər haqqında hüquqi göstərişlər ifadə olunur[3]. Hollandiya Mülki Məcəlləsinin ikinci kitabının üçüncü bölməsinə daxil olan maddələr kooperativlərin hüquqi vəziyyətini müəyyənləşdirir[4]. İtaliya Mülki Məcəlləsinin beşinci kitabının altıncı bölməsi kooperativlərin fəaliyyətini tənzimləyir[5].

Azərbaycan Respublikasında kooperativlərin yaradılmasının və fəaliyyət göstərməsinin hüquqi əsasları, onların hüquqi statusu «Kooperasiya haqqında» 7 fevral 1996-cı il tarixli qanunla müəyyən edilirdi[6]. Həmin qanun indi qüvvədən düşmüşdür. Odur ki, yeni Mülki Məcəllə kooperativlər ilə bağlı yaranan münasibətlərin tənzimlənməsinə xüsusi diqqət yetirir. Kooperativlərin xüsusiyyətlərinin və hüquqi vəziyyətinin, habelə kooperativ üzvlərinin hüquq və vəzifələrinin və digər məsələlərin müəyyənləşdirilməsinə MM bir neçə maddə (109-113-cü maddələr) həsr etmişdir. Bu məcəllənin 109-cu maddəsi kooperativin leqal anlayışını nəzərdə tutur.

Kooperativ fiziki və hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan elə bir könüllü birliyidir ki, bu birlik öz iştirakçılarının (üzvlərinin) maddi və başqa tələbatının onların əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılır. Kooperativ dedikdə, fiziki şəxslərin, yaxud fiziki və hüquqi şəxslərin iqtisadi, təsərrüfat və sosial tələbatlarını ödəmək məqsədilə onların səy və resurslarının könüllü birləşməsi əsasında yaradılan və fəaliyyət göstərən təsərrüfat subyekti başa düşülür. Kooperativə verilən anlayış onun əsas cəhət və xüsusiyyətlərini müəyyənləşdirməyə, habelə onu kommersiya təşkilatının digər növlərindən — təsərrüfat ortaqlıq və cəmiyyətlərindən fərqləndirməyə imkan verir.

Bildiyimiz kimi, təsərrüfat ortaqlıqları şəxslərin (əməyin, səylərin) birləşməsi, təsərrüfat cəmiyyətləri isə kapitalların birləşməsidir. Bunlardan fərqli olaraq, **kooperativ həm şəxslərin (əməyin, səylərin), həm də kapitalların birləşməsidir**[7]. Belə ki, bütün kooperativ üzvləri (iştirakçıları) əmlak pay haqqı verməyə borcludurlar. Onlar həm də kooperativin fəaliyyətində iştirak etmək

---

[1] Maliyyə-sənaye qruplarının yaradılması, fəaliyyəti və ləğv edilməsinin hüquqi əsaslan «Maliyyə-sənaye qrupları haqqında» 23 aprel 1996-cı il tarixli qanunla müəyyən edilirdi (bax: AR QK, II cild, s. 96). İndi həmin qanun öz qüvvəsini itirmişdir.

[2] bax: «Положение об инвестиционных фондах», утвержденное указом президента РФ от 7 октября 1992 г. № 1186 (Ведомости РФ. 1992. № 42).

[1] Bizim ölkənin MM-dən fərqli olaraq, RF-in MM-i yalnız istehsal kooperativlərini kommersiya hüquqi şəxslərinə aid edir, istehlak kooperativlərini isə qeyri-kommersiya təşkilatlarının bir növü sayır. Belə qayda bizim ölkənin mülki qanunvericilində nəzərdə tutulmur.

[2] bax: *Шершеневич Г.Ф.* Курс торгового права. Том 1. СПб., 1908, с. 290-293.

[3] bax: Германское право. Часть 2. Торговое уложение и другие законы. М., 1994.

[4] bax: Гражданский кодекс Нидерландов / Перевод *М.Фершмана*. Лейден. 1996.

[5] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 9.

[6] bax: AR QK, III cild, s. 13.

[7] Müəlliflərdən xanım V.V.Dolinskaya bundan fərqli mövqe tutur. O, göstərir ki, kooperativ «şəxslər birliyi — kapitallar birliyi» kimi təsnif edilsə də, şəxslər birliyinə aiddir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каллина., А.И.Маслаева*. М., 1997, с. 93).

(kooperativin fəaliyyət xarakterindən asılı olaraq şəxsi əməyini tətbiq etməklə və ya tətbiq etməməklə) vəzifəsi daşıyırlar. Bu, kooperativin üzvü olmasının əsas şərtlərindən biridir. Yalnız bu şərtə əməl edən şəxs kooperativin üzvü (iştirakçısı) ola bilər. Kooperasiya birgə məqsədləri həyata keçirmək üçün iştirakçıların səy (əmək) və resurslarının (kapitallarının) birləşməsi deməkdir.

Dediklərimizdən belə təsəvvür yaranır ki, təsərrüfat ortaqlıqlarında olduğu kimi, kooperativlərdə də üzvlərin (iştirakçıların) onun fəaliyyətində iştirak etməsi (şəxsi əməyi ilə iştirak etməsi) həlledici əhəmiyyətə malikdir. Əgər tam ortaqlıq iştirakçısı (tam ortaqlar) tam ortaqlığın fəaliyyətində şəxsən iştirak etməyə borcludursa, **kooperativ üzvləri isə kooperativin fəaliyyətində çox vaxt şəxsi əməyi ilə iştirak etmək vəzifəsi** daşıyırlar. Bu, **kooperativlərin birinci əsas cəhətini və xüsusiyyətini** təşkil edir[1]. Beləliklə, kooperativdə əmək fəaliyyətini həyata keçirən üzvlərlə (iştirakçılarla) kooperativ arasında əmək münasibətləri yaranır. Bu münasibətlərin əsasında üzvlərin şəxsi əməyi durur.

Kooperativ **korporativ prinsip** əsasında qurulur. Bu, o deməkdir ki, kooperativ şəxslərin **üzvlüyə əsaslanan könüllü birliyidir.** İnkişaf etmiş hüquq sistemlərində, ələlxüsus da Avropa kontinental hüququnda şəxslərin üzvlüyə əsaslanan könüllü birliyi hüquqi şəxslərin korporasiya növünə şamil edilir. Deməli, **kooperativ korporasiyaya aid edilən təşkilatdır,** yəni korporativ (üzvlüyə əsaslanan) təşkilatdır. Bu, onun **ikinci əsas cəhətidir.**

Azərbaycan Respublikasının həm vətəndaşları, həm də hüquqi şəxsləri kooperativin üzvü ola bilərlər. Onların üzv olmaları üçün sahibkar statusuna malik olmaları tələb edilmir. Vətəndaşların kooperativə üzvlüyə qəbul edilməsi üçün onların on altı yaş həddinə çatmaları tələb olunur. (MM-in 109-2-ci maddəsinin 1-ci bəndi).

Ölkəmizdə qeydiyyata alınmış əcnəbi (xarici ölkə) vətəndaşlar və daimi yaşayan vətəndaşlığı olmayan şəxslər, habelə xarici hüquqi şəxslər kooperativin üzvü rolunda onun fəaliyyətində iştirak edə bilərlər. Bunu qanun qadağan etmir.

Kooperativ üzvü olan hüquqi şəxs öz **nümayəndəsinin** (təmsilçisinin) vasitəsilə kooperativin fəaliyyətində iştirak edir. Belə ki, hüquqi şəxsi kooperativdə onun tərəfindən vəkil edilmiş şəxs təmsil edir. Şəxs eyni zamanda yalnız bir tam ortaqlığın iştirakçısı ola bildiyi halda, o, eyni zamanda bir neçə kooperativin üzvü (iştirakçısı) ola bilər. Qanun müəyyən edir ki, kooperativin nizamnaməsində ayrı hal nəzərdə tutulmayıbsa, kooperativin üzvü başqa kooperativin də üzvü ola bilər (MM-in 109-2-ci maddəsinin 4-cü bəndi).

Kooperativin üzvlüyünə qəbul olunmaq niyyəti ərizə ilə rəsmiləşdirilir. Belə ki, kooperativə daxil olmaq istəyən şəxs ərizə ilə kooperativin idarə heyətinə (kooperativin sədrinə) rəsmi müraciət edir. Amma kooperativ üzvlərini qəbul etmək barədə qərarı yalnız ümumi yığıncaq qəbul edə bilər. Bu, onun müstəsna səlahiyyətinə aid olan məsələlərdəndir (MM-in 111-ci maddəsinin 3-cü bəndinin 3-cü hissəsi). Ərizə yalnız kooperativ dövlət qeydiyyatından keçdikdən sonra verilə bilər. Kooperativ üzvlüyünə qəbul nizamnamə ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. Şəxsin kooperativin üzvü olması üzvlük kitabçası ilə təsdiqlənir. Belə ki, hər bir kooperativ üzvünə **üzvlük kitabçası** verilir. Həmin kitabça kooperativ üzvlüyünə qəbulu rəsmiləşdirir. Kitabçada göstərilən yazıların məzmunu kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir (MM-in 109-3-cü maddəsi).

Təsərrüfat ortaqlıq və cəmiyyətlərində mənfəət əmlak payının həcmindən və ya sayından asılı olaraq iştirakçılar arasında bölüşdürülür. **Əmlak payının həcmi və ya sayı ortaqlıq və bu cəmiyyət iştirakçılarının hüquqi vəziyyətinə təsir göstərir.** Məsələn, hər bir səhmdar cəmiyyəti iştirakçısı (səhmdar) malik olduğu səhmlərin sayına görə səs verir; tam ortaqlığın mənfəəti iştirakçıları arasında onların şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür (MM-in 74-cü maddəsinin 1-ci bəndi); məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının ümumi yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır (MM-in 91-ci maddəsinin 1-ci bəndinin 1-ci yarımbəndi). Bunlardan fərqli olaraq, kooperativ üzvlərinin (iştirakçılarının) nə əmlak pay haqları, nə də onun həcmi üzvlərin hüquqi vəziyyətinə təsir göstərmir. Belə ki, ümumi yığıncaqda qərarlar qəbul edilərkən kooperativ üzvünün bir səsi vardır (MM-in 111-ci maddəsinin 5-ci bəndi). Bu, o deməkdir ki, **kooperativ üzvü verdiyi əmlak payının həcmindən asılı olmayaraq bir səsə malikdir.** Bu qayda kooperativin demokratik əsaslarla idarə edilməsi prinsipinin təməlini təşkil edir.

Bundan əlavə, kooperativ üzvləri arasında kooperativin götürdüyü mənfəət, təsərrüfat cəmiyyət və ortaqlıqlarından fərqli olaraq, **onların kooperativin fəaliyyətində iştirakına və ya şəxsi əmək iştirakına görə bölüşdürülür.** Qanun müəyyən edir ki, kooperativin mənfəəti kooperativin üzvləri arasında onların kooperativin fəaliyyətində şəxsi əməyi ilə və (və ya) digər formada iştirakına uyğun olaraq bölüşdürülür (MM-in 110-2-ci maddəsinin 2-ci bəndi). Bu, kooperativin **üçüncü əsas cəhətidir.** Amma bölüşdürmə zamanı kooperativ üzvlərinin pay haqları nəzərə alınır. Belə ki, kooperativin mənfəəti kooperativin üzvləri arasında həm də onların pay haqları məbləğinə uyğun olaraq bölüşdürülür (MM-in 110-2-ci maddəsinin 2-ci bəndi). Lakin buna baxmayaraq nəzərə alınan əsas məsələ kooperativ üzvünün kooperativin fəaliyyətində şəxsi əməyi ilə və (və ya) digər formada iştirakıdır. Təsadüfi deyildir ki, kooperativin fəaliyyətində iştirak etmək hüququ olmayan üzvləri (onlara kooperativin ortaq üzvləri deyilir) səs hüququna malik deyillər və bu səbəbdən əsas kooperativ ödənişləri (kooperativin xalis mənfəətinin əsas hissəsi) almırlar. Əksinə, kooperativdə şəxsi əməyi və digər növ fəaliyyəti ilə iştirak edən üzvlərə bu fəaliyyətə mütənasib surətdə əsas kooperativ ödənişləri verilir, habelə onlara özlərinin əməklərinə görə əmək haqqı ödənilir. Kooperativin düşdüyü zərər də üzvlər arasında bölüşdürülərkən bu qayda tətbiq edilir. Həmin qayda kooperativin yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biridir[1].

Kooperativin **firma adı olmalıdır.** Bu adda onun fəaliyyətinin əsas məqsədi, habelə «kooperativ» sözü göstərilməlidir (MM-in 109-cu maddəsinin 17-ci

[1] Məhz bu cəhət kooperativə verilən leqal anlayışda ifadə olunmadığına görə həmin anlayışı qüsurlu hesab edirik. Bu qüsurun aradan qaldırılması üçün təklif edirik ki, həmin cəhəti qanunverici nəzərə alsın.

[1] Göstərilən bu qaydanı məntiqi cəhətdən ağlabatan və əsaslı hesab etmək olmaz. Əgər kooperativin əldə etdiyi mənfəət və zərər üzvlərin (iştirakçıların) kooperativin fəaliyyətində iştirakına və ya şəxsi əmək iştirakına görə bölüşdürülərsə, belə halda onların pay haqqı necə nəzərə alına bilər?

bəndi). Məsələn, «Proqres» istehsal kooperativi», «Avand» ağac emalı kooperativi», «Ləzzət» ictimai iaşə kooperativi», «Rahatlıq» təmir-tikinti kooperativi», «Göydələn» mənzil-tikinti kooperativi» «Keyfiyyət satış-ticarət kooperativi», «Şəfa» müalicə sağlamlıq kooperativi» və s.

Kooperativ müəyyən sayda şəxslərin birləşməsi deməkdir. O, şəxslərin könüllü birliyini ifadə edir. Bu, o deməkdir ki, **kooperativ bir nəfərdən ibarət ola bilməz.** Bu, onun hüquqi-iqtisadi təbiətindən və xarakterindən irəli gəlir. Buna görə də qanun kooperativin beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən yaradılması haqqında qayda müəyyən edir (MM-in 109-1-ci maddəsinin 1-ci bəndi). Odur ki, kooperativ ya beşdən az olmayan fiziki şəxs, ya beşdən az olmayan hüquqi şəxs, ya da beşdən az olmayan fiziki və hüquqi şəxs tərəfindən təsis edilə bilər.

Kooperativ yaratmaq niyyətində olan şəxslər təşəbbüs qrupu yaradırlar. Həmin qrup kooperativin nizamnamə layihəsini hazırlayır, kooperativin üzvlüyünə daxil olmaq barədə ərizələri qəbul edir, pay haqqı fondunun həcmi və onun yaranma mənbələrini göstərməklə kooperativin həyata keçirəcəyi fəaliyyəti əsaslandırır və kooperativin təsis yığıncağını hazırlayır. Bundan sonra təsis yığıncağı keçirilir. Təsis yığıncağı kooperativin yaradılması barədə qərar qəbul edir, onun nizamnaməsini təsdiq edir, kooperativin idarəetmə orqanlarını formalaşdırır və onun üzvlüyünə daxil olma məsələsini həll edir. Təsis yığıncağının qərarı protokolla rəsmiləşdirilir (MM-in 109-1-ci maddəsinin 5-ci bəndi). Bunlardan başqa, kooperativin yaradılması zamanı **təsisçilərin öz aralarında müqavilə (təsis müqaviləsi)** bağlamaları tələb edilir ki, bu, kooperativin təsis edilməsi kimi çoxpilləli mürəkkəb prosesin mərhələlərindən biridir[1]. O, **birgə fəaliyyət haqqında müqavilə olub, kooperativin təşkilinə yönəlir.** Həmin müqavilənin əsas parametrləri qanunda göstərilmişdir (MM-in 45-ci maddəsinin 2-ci bəndi). Daha sonra isə müvafiq sənədlər dövlət qeydiyyatı orqanına göndərilir. Həmin orqan kooperativi dövlət qeydiyyatından keçirir. Bu vaxtdan o, hüquqi şəxs statusu alır.

Kooperativin fəaliyyətinin **hüquqi əsasını onun nizamnaməsi** təşkil edir. O, nizamnamə əsasında fəaliyyət göstərir. Nizamnamə kooperativin yeganə təsis sənədidir. Burada, hər şeydən əvvəl, ümumi xarakterli məlumatlar (kooperativin adı və hüquqi ünvanı, fəaliyyət müddəti, kooperativin fəaliyyətinin məzmunu və məqsədi, onun hüquq və vəzifələri və s.) göstərilir. Bundan başqa, nizamnamədə göstərilir:

- kooperativ üzvlərinin pay haqlarının miqdarı;
- pay haqlarının verilməsi qaydası və onların verilməsi öhdəliyinin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti;
- kooperativin idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi qaydası;
- kooperativin əldə etdiyi mənfəətin bölüşdürülməsi qaydası;
- kooperativin düşdüyü zərərin onun üzvləri tərəfindən ödənilməsi qaydası;

[1] Qanunvericiqeyri-dəqiqliyə yol verərək göstərir ki, bu müqavilə kooperativ üzvləri arasında bağlanır (MM-in 109-1-ci maddəsinin 4-cü bəndi). Qeyd etmək lazımdır ki, təsisçilər yalnız gələcəkdə, yəni kooperativ hüquqi şəxs kimi dövlət qeydiyyatından keçdikdən sonra kooperativ üzvü statusu əldə edirlər.

- kooperativ üzvlərinin hüquq və vəzifələri, üzvlük şərtləri;
- kooperativin üzvlüyünə daxil olmaq, kooperativdən çıxmaq və xaric edilmək qaydaları;
- sənədlərin tərtibi qaydaları (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, kooperativ üzvlərinin ümumi yığıncağının və digər idarəetmə orqanlarının protokollarının tərtibi və s.) və s.

Kooperativin nizamnaməsində digər məlumatlar da göstərilə bilər. Burada göstərilən məlumatların dəqiq və qəti siyahısını vermək olmaz. Məsələ burasındadır ki, nizamnamə hüquqi şəxs kimi kooperativin normativ əsası olmaqdan başqa, həm də kooperativ üzvləri arasında daxili münasibətləri tənzimləyən sənəddir. Əgər qanunvericilik normalarını sistematik təfsir etsək, belə nəticəyə gələ bilərik ki, kooperativin nizamnaməsində bəzi məsələlər barədə də (məsələn, kooperativ üzvlərinin məsuliyyəti, kooperativin ləğvi və yenidən təşkili və digər məsələlər barədə də) müddəalar nəzərdə tutulmalıdır[1] və s. (MM-in 109-cu maddəsinin 10-cu bəndi).

Kooperativin fəaliyyətinin maddi bazasını onun əmlakı təşkil edir. Onun mülkiyyətində dövriyyə qabiliyyətli istənilən əmlak ola bilər. Ona kooperativin vəsaitləri də deyilir. **Kooperativin vəsaitləri** onun əsas fondlarından, dövriyyə vəsaitindən və balansda göstərilən digər maddi aktivlərdən ibarətdir.

Kooperativin əmlakı iki əsas mənbə hesabına formalaşdırılır. Həmin mənbələrə aiddir (MM-in 110.1-ci maddəsi).

- kooperativin öz vəsaiti;
- cəlb edilmiş vəsait.

Kooperativin öz vəsaiti dedikdə, hər şeydən əvvəl, əsasən və başlıca olaraq paylar (pay haqları başa düşülür). O, öz vəsaitini ilk növbədə məhz bunlar hesabına formalaşdırır. Paylar vacib mənbə sayılır. Buna görə də kooperativin əmlakı əsasən onun üzvlərinin verdikləri paylardan ibarətdir. Payların miqdarı kooperativin nizamnaməsi ilə müəyyən edilir.

Kooperativ üzvünün vəzifəsidir ki, **kooperativ hüquqi şəxs kimi dövlət qeydiyyatına alınana kimi öz payını (pay haqqını) tamamilə versin** (MM-in 110-cu maddəsinin 2-ci bəndi). Kooperativin nizamnaməsində başqa qayda da nəzərdə tutula bilər. Məsələn, nizamnamədə göstərilə bilər ki, o, payın (pay haqqının) yarı hissəsini kooperativ qeydə alınanadək, yarı hissəsini isə qeydə götürüldükdən sonra ödəsin.

Kooperativ üzvünün payı (pay haqqı) dedikdə, onun əmlak pay haqqı başa düşülür. **Əmlak pay haqqı** isə daşınar əmlakdan, (məsələn, nəqliyyat vasitəsindən, istehsal vasitələrindən və s.), daşınmaz əmlakdan (məsələn, torpaq sahəsindən, binadan və s.), habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarətdir.

Əmlak pay haqqının ödənilmə qaydası və həcmi kooperativin nizamnaməsi ilə müəyyən edilir. O, iki cür ola bilər (MM-in 109-cu maddəsinin 4-cü bəndi):

- mütləq əmlak pay haqqı;
- əlavə əmlak pay haqqı.

[1] Odur ki, qanunvericiMM-in 109-cu maddəsinin 10-cu bəndində nizamnamədə göstərilən məlumatların dəqiq yox, təxmini siyahısını verməlidir. O, qeyri-dəqiqliyi aradan qaldırmaq üçün həmin maddədə «və digər məlumatlar» ifadələri işlətməlidir.

Mütləq əmlak pay haqqı elə bir əmlak payıdır ki, bu pay kooperativ üzvü tərəfindən mütləq qaydada ödənilir, ona kooperativin fəaliyyətində iştirak etmək, səs vermək və əsas kooperativ ödənişlərini (kooperativin mənfəətinin bir hissəsini) almaq hüququ verir. Kooperativ üzvü tərəfindən əmlak pay haqqının bu növü hökmən ödənilməlidir və bu, məcburi xarakter daşıyır.

Əlavə əmlak pay haqqı isə kooperativ üzvü tərəfindən könüllü ödənilir. Kooperativ üzvü tərəfindən mütləq əmlak pay haqqından əlavə, öz arzusu ilə ödənilən və əsas kooperativ ödənişindən başqa, həmçinin əlavə kooperativ ödənişləri almaq hüququ verən paya **əlavə əmlak pay haqqı** deyilir.

Mülki Məcəllədə «əmlak pay haqqı», «pay» və «pay haqqı» kimi anlayışlar işlədilir. Onlar eyniməna anlayışlardır.

Kooperativ paylardan başqa, həm də öz vəsaitini aşağıdakı mənbələr hesabına formalaşdırır:

- **həyata keçirdiyi sahibkarlıq fəaliyyəti** (kooperativ qanunla qadağan olunmayan istənilən sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər; bu fəaliyyətdən əldə olunan əmlak kooperativin vəsaitləri sırasına daxil edilir);
- **qiymətli kağızların yerləşdirilməsi** (bundan daxil olan gəlirlər kooperativin əmlakı sayılır);
- **öz vəsaitlərinin banklarda və digər kredit təşkilatlarında yerləşdirilməsindən** (bundan əldə olunan gəlirlər kooperativin əmlakı hesab edilir);
- **qanunla qadağan olunmayan digər mənbələr.**

Kooperativ öz əmlakının yaradılmasında cəlb edilən vəsaitlərdən də istifadə edə bilər. **Cəlb edilən vəsait** qismində kredit, borc, ayrı-ayrı şəxslərin verdikləri hədiyyələr (ianələr) və s. çıxış edə bilər. Amma cəlb edilən vəsaitin həcmi (miqdarı) kooperativin ümumi vəsaitinin əlli faizindən çox ola bilməz. Qanun buna yol vermir[1].

Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün **müxtəlif fondlar** (bölünməz fond, ehtiyat fondu və s.) yaradır. Bu fondlar kooperativin nizamnaməsində nəzərdə tutulur.

Bölünməz fondlar kooperativin mülkiyyətində olan əmlakın bir hissəsindən təşkil olunur. Bu fondlardan yalnız nizamnamədə göstərilən məqsədlər üçün istifadə oluna bilər. Onların yaradılması üçün kooperativ üzvlərinin yekdilliklə qərar qəbul etmələri lazımdır (MM-in 110-cu maddəsinin 3-cü bəndi). Nizamnamədə bu cür qərarın qəbul edilməsinin başqa qaydası da nəzərdə tutula bilər.

Kooperativ öz payını pul, qiymətli kağız, digər əmlak və əmlak hüquqları şəklində verə bilər. Verilən əmlak üzərində **mülkiyyət hüququ kooperativə məxsus olur**; bu əmlak kooperativin xüsusi mülkiyyətindədir; kooperativ onun xüsusi mülkiyyətçisidir. Kooperativ üzvləri həmin əmlak üzərində mülkiyyət hüququnu itirirlər. Onlar kooperativə münasibətdə **öhdəlik hüququna (əmlak hissəsinin verilməsini tələb etmək hüququna) malikdirlər.**

Kooperativ öz mülkiyyətində olan əmlakla öz öhdəliklərinə görə məsuliyyət daşıyır (MM-in 110-3-cü maddəsinin 1-ci bəndi). Bununla bərabər, kooperativ üzvlərinin vəzifəsidir ki, kooperativin düşdüyü zərəri ödəsinlər

[1] MM-in 110-cu maddəsinin 1-ci bəndi.

(MM-in 110-cu maddəsinin 4-cü bəndi). Zərərin olması faktı və onun həcmi (miqdarı) məlum məsələdir ki, illik balans təsdiq olunan zaman müəyyənləşdirilir. Kooperativin illik balansını kooperativ üzvlərinin ümumi yığıncağı təsdiq edir. Həmin yığıncaqda kooperativin düşdüyü zərərin onun üzvləri arasında bölüşdürülməsi haqqında qərar qəbul olunur. Bunun üçün kooperativ üzvlərinin **əlavə haqlar** vermələri tələb edilir. Bu haqları onlar illik balans təsdiq edildikdən sonra iki ay ərzində verməlidirlər.

Əlavə haqqın verilməsi barədə vəzifənin yerinə yetirilməməsi arzuolunmaz nəticələrə səbəb ola bilər. Belə ki, göstərilən halda kreditorların tələbi ilə kooperativ məhkəmə qaydasında ləğv edilə bilər (MM-in 110-cu maddəsinin 4-cü bəndi).

Əlavə haqqı verənə kimi kooperativin hər bir üzvü kooperativin öhdəliklərinə görə **birgə subsidiar məsuliyyət daşıyır** (MM-in 110-cu maddəsinin 4-cü bəndi). Özü də dərhal qeyd edirik ki, kooperativin hər bir üzvü əlavə haqqın verilməmiş hissəsi həddində məsuliyyət daşıyır. **Subsidiar (əlavə) məsuliyyətə görə** kreditor öz borclarını almaq üçün əvvəlcə kooperativə tələb irəli sürür. Kreditorların tələblərini təmin etmək üçün kooperativin əmlakı çatışmadıqda, bu tələb kooperativin üzvlərinin şəxsi əmlakı (məsələn, nəqliyyat vasitəsi, torpaq sahəsi, bank əmanəti, yaşayış evi və s.) hesabına ödənilir. **Birgə məsuliyyətə görə** kreditor öz arzu və istəyi ilə hər bir kooperativ üzvündən borcun həm tam, həm də hissə-hissə verilməsini tələb edə bilər.

Mülki qanunvericilik kooperativin və onun üzvlərinin əmlak məsuliyyətinin tənzimlənməsinə vacib əhəmiyyət verir (MM-in 110-3-cü maddəsinin 3-cü bəndi). Mülki Məcəllə **subsidiar məsuliyyət** prinsipindən çıxış edir. Belə ki, kooperativin üzvləri kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyət daşıyırlar. Belə məsuliyyət o halda yaranır ki, kooperativin öz borclarını ödəmək üçün kifayət qədər vəsaiti olmasın (MM-in 110-3-cü maddəsinin 4-cü bəndi). Buna görə də kooperativin borcu kooperativ üzvlərinin şəxsi əmlakı hesabına ödənilir, silinir.

Qeyd etmək lazımdır ki, kooperativ üzvlərinin verdikləri pay **kooperativin pay (nizamnamə) fondunu** əmələ gətirir[1]. Bu fond kreditorların mənafelərini təmin edir. Başqa sözlə desək, kooperativin pay fondu onun kreditorlarının tələblərini ödəmək üçün **minimum təminatdır.** O, kooperativ əmlakının elə minimal həddini müəyyənləşdirir ki, həmin həddə kooperativin kreditorlarının maraq və mənafelərinə təminat verir. Buna görə də mülki qanunvericilik kooperativin pay fondunun tənzimlənməsinə xüsusi diqqət yetirir (MM-in 110-1-ci maddəsi).

Kooperativin pay fonduna kooperativin həm mütləq əmlak pay haqqı, həm də əlavə əmlak pay haqqı daxildir. O ki qaldı üzvlük haqqına, qeyd etməliyik ki, o, pay fonduna daxil deyildir. **Üzvlük haqqı** iştirakçının kooperativ üzvlüyünə daxil olması zamanı bununla bağlı xərclərin ödənilməsi üçün pul məbləğinə deyilir; o, həmin pul məbləğini kooperativə daxil olarkən ödəyir. Aydın məsələdir ki, üzvlük haqqı kooperativin pay fondunu təşkil edə bilməz. Odur ki, kooperativin üzvü kooperativdən çıxdıqda üzvlük haqqı ona qaytarılmır.

[1] Bir qayda olaraq, kooperativin nizamnamə kapitalı (fondu) yox, pay fondu (pay haqqı fondu) anlayışı işlədilir. Pay haqqı fondu kooperativə münasibətdə işlədilən nizamnamə kapitalı (fondu) deməkdir.

Kooperativin pay fondu həm artırıla, həm də azaldıla bilər. Qanun buna yol verir (MM-in 110-1-ci maddəsinin 5-ci və 6-cı bəndləri). Kooperativin pay fondu yalnız bir yolla artırıla bilər. Belə ki, kooperativ üzvlərinin mütləq pay haqlarının miqdarı artırılır. Bu isə nəticədə **kooperativin pay fondunun artırılmasına** səbəb olur.

Kooperativin pay fondu yalnız o halda azaldıla bilər ki, onun miqdarı xalis aktivlərinin miqdarından çox olsun. Belə halda **kooperativin pay fondunun azaldılmasına** zərurət yaranır. Məsələ burasındadır ki, kooperativin pay fondunun miqdarı, adətən, onun xalis aktivlərinin miqdarından çox olmamalıdır. Əgər çox olarsa, kooperativin pay fondu göstərilən fərq məbləğində mütləq pay haqlarının mütənasib surətdə azaldılması yolu ilə azaldılır. Məsələn, tutaq ki, kooperativin pay fondunun miqdan yüz min manatdır. Onun xalis aktivləri isə qırx min manatdan ibarətdir. Fərq məbləğində, yəni altmış min manat (100.000 man – 40.000 man = 60.000 man) miqdarında pay fondunun miqdan azaldılmalıdır.

Kooperativin pay fondunun həm artırılması, həm də azaldılması onun nizamnaməsinin dəyişməsinə gətirib çıxarır. Odur ki, həmin məsələləri həll etmək üçün kooperativ üzvlərinin ümumi yığıncağının qərarı tələb olunur. Kooperativin nizamnaməsini yalnız ümumi yığıncaq dəyişdirə bilər; bu, onun müstəsna səlahiyyətinə aid olan məsələdir.

Kooperativ **müəyyən orqanlar sistemi** ilə idarə olunur. Bu orqanların səlahiyyətləri və onların qərarlar qəbul etməsi qaydası kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir (MM-in 111-ci maddəsinin 2-ci bəndi). Həmin orqanların strukturu **üçpilləlidir**:

- kooperativin ali idarəetmə orqanı;
- müşahidə şurası;
- kooperativin icra orqanları.

Kooperativin ali idarəetmə orqanı dedikdə, kooperativ üzvlərinin ümumi yığıncağı başa düşülür (MM-in 111-ci maddəsinin 1-ci bəndi). **Ümumi yığıncaq** kooperativin fəaliyyətinə ən vacib məsələləri həll etmək səlahiyyətinə malikdir. Bu orqan kooperativin idarə olunmasında mühüm rol oynayır. Üzvlərinin sayı 200-dən çox olan kooperativlərdə ümumi yığıncaq əvəzinə, **müvəkkillər yığıncağı** çağırılır.

Elə məsələlər vardır ki, bu məsələləri həll etmək üçün ümumi yığıncaqdan savayı hər hansı bir orqan müvafiq qərarlar qəbul edə bilməz. Həmin məsələlər ümumi yığıncağın **müstəsna səlahiyyətinə** aiddir (MM-in 111-ci maddəsinin 3-cü bəndi). Göstərilən məsələlərə aiddir:

- kooperativin nizamnaməsini dəyişdirmək;
- kooperativin müşahidə şurasını yaratmaq və onun üzvlərinin səlahiyyətlərinə xitam vermək;
- kooperativin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə xitam vermək (əgər nizamnamədə bu hüququn müşahidə şurasına verilməsi nəzərdə tutulmamışsa);
- kooperativ üzvlərini qəbul etmək və çıxartmaq;
- kooperativin illik hesabatlarını və mühasibat balansını təsdiq etmək və zərəri bölüşdürmək;

- kooperativin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək.

Göstərilən bu siyahı qəti və dəqiq xarakterə malik deyildir. Ona görə ki, kooperativin nizamnaməsi ilə ümumi yığıncağın müstəsna səlahiyyətinə başqa məsələlərin həlli də aid edilə bilər (MM-in 111-ci maddəsinin 3-cü bəndinin 6-cı hissəsi). Həmin məsələlərə şamil oluna bilər:

- iri məbləğdə xüsusi əhəmiyyətli əqdləri bağlamaq;
- kooperativin inkişaf proqramını təsdiq etmək;
- pay haqqı və digər ödənişlərin həcmini müəyyənləşdirmək;
- mənfəətin kooperativ üzvləri arasında bölüşdürülməsi qaydasını müəyyən etmək;
- kooperativin əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirmək;
- əsas fondlara daxil olan əmlak əldə etmək və onları özgəninkiləşdirmək;
- kooperativin fondlarının növlərini və həcmini müəyyən etmək;
- kooperativin digər kooperativlərə, kooperativ cəmiyyətlərə, ittifaqlara, assosiasiyalara daxil olması və onlardan çıxması məsələlərini həll etmək, müəssisələr təsis etmək, kooperativin nümayəndəliklərini, filiallarını yaratmaq və ləğv etmək və s.

Kooperativin ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər onun tərəfindən həll edilmək üçün kooperativin icra orqanlarına verilə bilməz. Əgər ümumi yığıncaq bunu istəsə belə, mümkün deyil. Buna qanun yol vermir (MM-in 111-ci maddəsinin 4-cü bəndi). Bu, **müstəsna səlahiyyətin verilməməsi prinsipini** ifadə edir ki, həmin prinsip yol verilə bilən mümkün sui-istifadə hallarının qarşısını almaq baxımından əhəmiyyətlidir.

Ümumi yığıncağın müzakirə edib hər bir məsələ barəsində qəbul etdiyi qərarın hüquqi qüvvəyə malik olması üçün onun səlahiyyətli olması tələb edilir. Əgər kooperativ üzvlərinin yarıdan (50%-dən) çoxu iştirak edərsə, ümumi yığıncaq səlahiyyətlidir.

Ümumi yığıncaq iki cür olur:

- növbəti ümumi yığıncaq;
- növbədənkənar ümumi yığıncaq.

Nizamnamə ilə müəyyənləşdirilən müddətlərdə və qaydada müntəzəm surətdə çağırılan yığıncaq **növbəti ümumi yığıncaq** adlanır. Məsələn, dörd ayda bir dəfə, üç ayda bir dəfə, ildə iki dəfə və s. Amma növbəti ümumi yığıncaq çağırılması məsələsində qanunun iki məcburi şərtinə əməl olunmalıdır: birincisi, ümumi yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılmalıdır; ikincisi ümumi yığıncaq yalnız maliyyə ilinin başa çatmasından ən geci 3 ay keçənədək çağırılmalıdır. Növbəti ümumi yığıncaq idarə heyəti (sədr) tərəfindən çağırılır.

Növbədənkənar ümumi yığıncaq odur ki, onun hansı müddətlərdə çağırılması nizamnamə ilə müəyyənləşdirilir. O, qeyri-müntəzəm surətdə çağırılan yığıncaqdır. Belə ki, adətən, həlli təxirəsalınmaz tədbirlərin görülməsini tələb edən hər hansı məsələni müzakirə etmək üçün növbədənkənar ümumi yığıncaq çağırılır. Aşağıdakılar növbədənkənar ümumi yığıncağın çağırılmasını tələb edə bilər:

- idarə heyəti (sədr);
- müşahidə şurası;
- təftiş komissiyası (müfəttiş);

• səs hüququna malik olan üzvlərin azı dörddə biri.

Müşahidə şurası dedikdə, kooperativin elə bir idarəetmə orqanı başa düşülür ki, onun əsas funksiyası kooperativin icra orqanlarının fəaliyyətinə nəzarət etməkdən ibarətdir. Bu idarəetmə orqanı üzvlərinin sayı 50-dən çox olan kooperativlərdə yaradıla bilər. Özü də onu kooperativ üzvlərinin ümumi yığıncağı yaradır.

Müşahidə şurası, kooperativin icra orqanlarının fəaliyyətinə ümumi nəzarəti həyata keçirməklə bərabər, həm də onun müstəsna səlahiyyətinə aid edilmiş məsələləri həll edir. Bu məsələlərin dairəsi kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir. Müşahidə şurası həmin məsələləri özü istəsə belə, həll edilmək üçün kooperativin icra orqanlarına verə bilməz. Mülki qanunvericilik buna yol vermir (MM-in 111-ci maddəsinin 4-cü bəndi).

Bu, o deməkdir ki, mülki qanunvericilik **müstəsna səlahiyyətin verilməməsi prinsipindən** çıxış edir ki, o, yol verilə bilən mümkün sui-istifadə hallarının qarşısını almaq məqsədinə xidmət edir.

Qeyd etmək lazımdır ki, öz hüquqi statusuna görə müşahidə şurası ikili təbiətə malik olan orqandır. Belə ki, birincisi, o, **idarəetmə orqanıdır**[1]. Buna görə də müşahidə şurası **idarəçilik funksiyasını** yerinə yetirir; onun funksiyası kooperativin fəaliyyətinə aid nisbətən vacib məsələləri həll etməkdən ibarətdir. Xüsusən də əgər nizamnamədə nəzərdə tutularsa, kooperativin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə xitam vermək müşahidə şurasının səlahiyyətlərinə aid edilə bilər.

İkincisi, müşahidə şurası **nəzarət orqanıdır;** o, qeyd etdiyimiz kimi, kooperativin icra orqanlarının fəaliyyətinə nəzarət edir; nəzarət funksiyası müşahidə şurasının yerinə yetirdiyi əsas funksiya hesab olunur.

Kooperativdə **icra funksiyası nəzarət funksiyasından ayrılmışdır**. Odur ki, kooperativin üzvü eyni zamanda müşahidə şurasının üzvü və icra orqanının rəhbəri (idarə heyətinin və ya kooperativin sədri) ola bilməz (MM-in 111-ci maddəsinin 1-ci bəndi). Bu qayda həm də nəzarət orqanı olan müşahidə şurasının icra orqanından asılı olmamasını və müstəqilliyini təmin edir.

Müşahidə şurası **kollegial orqandır;** onun üzvlərinin sayı və səlahiyyət müddəti kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən müəyyən olunur.

İclas müşahidə şurasının əsas və başlıca təşkilati fəaliyyət formasıdır; bu orqan iclaslar keçirməklə fəaliyyət göstərir. Müşahidə şurasının iclası hər hansı məsələnin müzakirə edilməsinə zərurət yarandıqda, lakin yarım ildə bir dəfədən az olmayaraq (ildə iki dəfədən az olmayaraq) çağırılır. Müşahidə şurasının iclasları kooperativin nizamnaməsində müəyyən edilən qaydada keçirilir (MM-in 111-ci maddəsinin 9-cu bəndi).

Müşahidə şurası üzvlərinin hüququ yoxdur ki, onlar kooperativ adından fəaliyyət göstərsin. Onun üzvləri yalnız kooperativin üzvlərindən ola bilər (MM-in 111-ci maddəsinin 1-ci bəndi).

Kooperativin icra orqanları dedikdə, elə idarəetmə orqanları başa düşülür ki, onların əsas funksiyası kooperativin fəaliyyətinə kooperativ üzvlərinin

[1] Bax: Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. *Н.Д. Егорова, А.П. Сергеева*. М., 2005, с. 243.

ümumi yığıncaqları arasındakı dövrdə cari rəhbərliyi həyata keçirməkdən ibarətdir. Bu orqanlar kooperativin ümumi yığıncağı tərəfindən yaradılır. Əgər kooperativin nizamnaməsində nəzərdə tutularsa, həmin orqanları müşahidə şurası da yarada bilər. Buna görə də icra orqanları kooperativ üzvlərinin ümumi yığıncağına və müşahidə şurasına hesabat verirlər.

Kooperativin icra orqanları iki cür olur: kollegial icra orqanı; təkbaşına icra orqanı. **Kollegial icra orqanı** rolunda kooperativin idarə heyəti çıxış edir. **Kooperativin idarə heyəti** kooperativ üzvlərinin yığıncaqları arasındakı dövrdə kooperativin fəaliyyətinə rəhbərlik edir, onun işlərini aparır, dövlət orqanlarında, məhkəmədə və başqa yerlərdə kooperativi təmsil edir. Elə buradaca dərhal qeyd etməliyik ki, yalnız kooperativ üzvlərinin sayı 50-dən çox olduqda kooperativin idarə heyəti seçilir. Buna görə də o, **seçkili orqandır.** Özü də həmin orqan ümumi yığıncaq tərəfindən seçilir.

Kooperativin idarə heyəti nizamnamədə göstərilən müddətə seçilir. Onun üzvlərinin sayı kooperativin nizamnaməsində göstərilir. Bu üzvlər içərisindən ümumi yığıncaq tərəfindən idarə heyətinin sədri seçilir. Sədr təyin edilə də bilər o, idarə heyətinə rəhbərlik edir. Kooperativin idarə heyəti və idarə heyəti sədrinin səlahiyyətləri və səlahiyyət müddəti, idarə heyətinin sədrinin kooperativin əmlakına sərəncam vermək hüququ, onun əmək haqqı, məsuliyyəti və s. məsələlər kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir. İdarə heyətinin üzvləri yalnız kooperativin üzvlərindən ola bilər (MM-in 111-ci maddəsinin 1-ci bəndi).

Təkbaşına icra orqanı dedikdə, kooperativin sədri başa düşülür. **Kooperativin sədri** üzvlərinin sayı 50-dən az olan kooperativlərdə idarə heyəti **əvəzinə və yerinə** seçilir. Kooperativin idarə heyəti kimi kooperativin sədri də yığıncaqlar arasındakı dövrdə kooperativin fəaliyyətinə rəhbərlik edir, onun işlərini aparır və hər yerdə kooperativi təmsil edir. O, yalnız kooperativ üzvlərindən seçilə bilər.

Bəzən kooperativdə həm kollegial, həm də təkbaşına icra orqanı eyni vaxtda yaradılır və qoşa fəaliyyət göstərir. Belə ki, həm idarə heyəti, həm də kooperativin sədri seçilir. Kooperativin sədri eyni zamanda idarə heyətinə başçılıq edir. Bunlar hamısı birlikdə kooperativin icra orqanlarının sistemini yaradır.

Kooperativdə **həm də** təftiş komissiyası (müfəttiş) yaradılır. Bu orqanı yaratmaq ümumi yığıncağın səlahiyyətinə aiddir. Belə ki, kooperativ üzvlərinin ümumi yığıncağı kooperativ üzvlərinin sayı əllidən çox olduqda təftiş komissiyası, kooperativ üzvlərinin sayı əllidən az olduqda isə müfəttişi seçir (MM-in 111-ci maddəsinin 12-ci bəndi). Buna görə də təftiş komissiyası (müfəttiş) **seçkili orqandır.** Təftiş komissiyası həm də **kollegial orqan** sayılır: o, azı üç nəfərdən ibarət olmalıdır. Bundan fərqli olaraq müfəttiş **təkbaşına orqandır.**

Təftiş komissiyasının (müfəttişin) əsas məqsədi kooperativin **maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti** həyata keçirməkdən ibarətdir. Deməli, o, **nəzarət orqanıdır.**

Təftiş komissiyası (müfəttiş) maliyyə-təsərrüfat işinin nəticələrinə görə kooperativin maliyyə vəziyyətini yoxlayır. Bununla yanaşı o, ümumi yığıncağın, müşahidə şurasının sayı on faizdən artıq olan üzvlərinin tələbi ilə, habelə öz təşəbbüsü ilə kooperativin maliyyə-təsərrüfat fəaliyyətini növbədənkənar yoxlaya bilər (MM-in 111-ci maddəsinin 13-cü bəndi). Bu isə onu söyləməyə əsas

verir ki, təftiş komissiyası (müfəttiş) **yoxlama orqanıdır**. Ümumilikdə isə o, **yoxlama-nəzarət orqanı sayılır.**

Kooperativ üzvləri geniş hüquqlarla təmin olunurlar. Həmin hüquqlar Mülki Məcəllənin 109-4-cü maddəsində sadalanır. Kooperativ üzvlərinin bu və ya digər hüququ Mülki Məcəllənin ayrı-ayrı maddələrində də nəzərdə tutulur. Həmin hüquqları iki yerə bölmək olar: əmlak hüquqlarına; şəxsi (qeyri-əmlak) hüquqlarına.

Kooperativin üzvlərinin malik olduqları əsas əmlak hüquqlarından biri **kooperativ ödənişləri almaq hüququdur.** Bu hüquq bəzən mənfəətin bölüşdürülməsində iştirak etmək hüququ da adlanır. **Kooperativ ödənişləri** dedikdə, kooperativ mənfəətinin bir hissəsi başa düşülür. O, iki cür olur:

- əsas kooperativ ödənişləri;
- əlavə kooperativ ödənişləri.

Əsas kooperativ ödənişləri dedikdə, üzvlərin mütləq əmlak pay haqqına, kooperativdə şəxsi əməyinə və digər növ fəaliyyətinə mütənasib surətdə onlara ödənilən kooperativ mənfəətinin bir hissəsi başa düşülür. Əsas kooperativ ödənişlərini almaq hüququna yalnız mütləq əmlak pay haqqı ödəmiş kooperativ üzvü malik ola bilər. Elə buradaca dərhal qeyd etməliyik ki, mütləq pay haqqı ödəsə də kooperativin ortaq (assosiativ) üzvünün belə hüququ yoxdur.

Kooperativin ortaq (assosiativ) üzvü dedikdə üzvlük haqqı və yalnız mütləq pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak etmək hüququna malik olmayan fiziki və (və ya) hüquqi şəxs (məsələn, kooperativin üzvü yaşına və səhhətinə görə pensiyaya çıxdıqda, kooperativdən kənarda seçkili işə keçdikdə, hərbi xidmətə çağırıldıqda və kooperativin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda ümumi yığıncağın qərarına əsasən kooperativdə ortaq assosiativ üzvlüyə keçə bilər) başa düşülür; onun Mülki Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, səs hüququ yoxdur. Kooperativin ortaq (assosiativ) üzvü yalnız onun kooperativdə üzvlüyü ilə bağlı şərtlərin kooperativin nizamnaməsində dəyişdirilməsi hallarında səs hüququna malikdir (MM-in 109-2-ci maddəsinin 8-ci bəndi). Bu xüsusiyyətləri ilə o, kooperativin üzvündən fərqlənir. Belə ki, **kooperativ üzvü** üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ alan fiziki və (və ya) hüquqi şəxsdir. Kooperativin ortaq (assosiativ) üzvü kooperativin fəaliyyətində iştirak etmədiyinə görə əsas kooperativ ödənişləri almaq hüququndan məhrumdur; o, yalnız əlavə kooperativ ödənişləri almaq hüququna malikdir; o, həmin ödənişləri kooperativə verdiyi mütləq əmlak pay haqqının əvəzində və müqabilində alır.

Əlavə kooperativ ödənişlərini həm də səs hüququna malik olan kooperativ üzvləri ala bilərlər; həmin ödənişlər yalnız o halda verilə bilər ki, kooperativ üzvü əlavə əmlak payı ödəsin; əgər ödəməzsə, onun əlavə kooperativ ödənişləri almaq hüququ yaranmır.

Əlavə kooperativ ödənişləri dedikdə, yalnız səs hüququna malik olan üzvlərə onların əlavə əmlak pay haqlarına və kooperativin ortaq (assosiativ) üzvlərinin mütləq əmlak pay haqlarına mütənasib surətdə ödənilən kooperativ mənfəətinin bir hissəsi başa düşülür. Ona mülki qanunvericilikdə **devidend** də deyilir (MM-in 109-cu maddəsinin 6-cı bəndi). Elə buradaca göstərməliyik

ki, kooperativin üzvlərinə onlann mütləq əmlak paylarına görə devidendlər ödənilmir (MM-in 109-2-ci maddəsinin 2-ci bəndi).

Kooperativin üzvlərinin həm əsas kooperativ ödənişləri, həm də əlavə kooperativ ödənişləri (devidendlər) almaq hüququ vardır (MM-in 109-cu maddəsinin 7-ci bəndi). Bu hüquq yalnız o halda həyata keçirilə bilər ki, kooperativin xalis mənfəəti olsun. Məcburi ödənişlər (vergilər və s.) verildikdən sonra, mənfəətin yerdə qalan hissəsi xalis mənfəət sayılır. Xalis mənfəətin bir hissəsi məhz əsas kooperativ ödənişlərinin və devidendlərin verilməsinə yönəlir (MM-in 110-2-ci maddəsinin 1-ci bəndi). Bu məsələlər kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən həll edilir. Amma ümumi yığıncaq müəyyənləşdirə bilər ki, veriləcək əsas və əlavə kooperativ ödənişləri (devidendlər) kooperativin xalis mənfəətinin müəyyən miqdan ilə məhdudlaşdırılsın (MM-in 110-2-ci maddəsinin 3-cü bəndi).

Kooperativin ortaq (assosiativ) üzvünün mütləq pay haqqı üzrə ödənilən devidendlərin şərtləri kooperativin nizamnaməsinin şərtlərinə uyğun olaraq həmin üzvlə kooperativ arasında bağlanan müqavilə əsasında müəyyənləşdirilir.

Kooperativin üzvləri həm də aşağıdakı hüquqlara malikdirlər:

- kooperativin idarə edilməsində iştirak etmək;
- kooperativin orqanlarını seçmək və onlara seçilmək;
- kooperativin fəaliyyətinə dair məlumat almaq və onun maliyyə, eləcə də digər sənədləri ilə tanış olmaq (ona informasiya almaq hüququ deyilir);
- öz əməyinə görə pul və ya natura ilə əmək haqqı almaq (bu hüquqa kooperativin fəaliyyətində şəxsi əməyi ilə iştirak edən üzvlər malikdirlər) və s.

Kooperativ üzvləri həm də **vəzifələr** daşıyırlar. Bu vəzifələr MM-in 109-4-cü maddəsinin 4-cü bəndində göstərilmişdir:

- üzvlük haqqı və mütləq əmlak pay haqqı vermək;
- kooperativin fəaliyyəti ilə əlaqədar üzərinə götürdüyü hər hansı öhdəliyi yerinə yetirmək;
- əgər kooperativ zərərə düşərsə, həmin zərərin ödənilməsində iştirak etmək;
- nizamnaməyə əməl etmək;
- kooperativin orqanlarının qərarlarını yerinə yetirmək və s.

Kooperativ üzvünün könüllü surətdə, öz istəyi ilə **kooperativdən çıxmaq hüququ vardır** (MM-in 112-ci maddəsinin 1-ci bəndi). Bunun üçün onun hər hansı əsaslı motiv, dəlil və arqument irəli sürməsi, üzrlü səbəb göstərməsi tələb olunmur. Kooperativdən çıxmaq niyyətində olan şəxs bu barədə yazılı ərizə verir.

Kooperativ üzvünün kooperativdən çıxması **müəyyən hüquqi nəticələrə** səbəb olur. Bu, hər şeydən əvvəl, şəxsin kooperativdə üzvlüyə xitam verilməsi ilə nəticələnir. Bundan əlavə, kooperativdən çıxan üzvə **onun payının dəyəri ödənilir.** Kooperativlə üzv arasında razılığa əsasən ona bu paya uyğun müvafiq əmlak verilir (MM-in 112-ci maddəsinin 1-ci bəndi). Daha sonra, kooperativ üzvünə bu payın istifadə edilməsi ilə yeni yaradılmış əmlakdan ona çatası hissə, habelə təsərrüfat-maliyyə ilinin yekununa görə kooperativin mənfəətindən ona veriləsi hissə ödənilir. Kooperativin nizamnaməsində kooperativdən çıxan üzvə digər kooperativ ödənişlərinin (əmək haqqı, mükafatlar, üstəliklər, əlavələr və s.) verilməsi nəzərdə tutula bilər.

Göstərilən ödənişlər kooperativdən çıxan şəxsə dərhal verilmir. Belə ki, ümumi qaydaya görə, həmin ödənişlərin verilməsi təsərrüfat-maliyyə ili qurtardıqdan və kooperativin mühasibat balansı təsdiq edildikdən sonra həyata keçirilir (MM-in 112-ci maddəsinin 1-ci bəndi).

Bəzi hallarda kooperativdə üzvlüyə könüllü qaydada yox, **məcburi qaydada xitam verilə bilər.** Məcburi qaydanın mahiyyəti kooperativ üzvünün müəyyən əsaslara görə kooperativdən çıxarılmasından, xaric edilməsindən ibarətdir.

Yalnız qanunda və ya kooperativin nizamnaməsində nəzərdə tutulan əsaslara görə kooperativ üzvü kooperativdən çıxarıla və xaric oluna bilər. Bu cür əsaslar Mülki Məcəllədə (112-ci maddənin 2-ci bəndində) göstərilir. Həmin əsaslara aiddir: kooperativ üzvünün kooperativin nizamnaməsi ilə ona həvalə olunmuş vəzifələri icra etməməsi; kooperativ üzvünün nizamnamə ilə ona həvalə edilmiş vəzifələri lazımınca icra etməməsi. Kooperativin nizamnaməsində kooperativ üzvünün kooperativdən xaric edilməsinin digər əsasları da (məsələn, kooperativ üzvünün kooperativə ziyan vurması və s.) nəzərdə tutula bilər.

Kooperativdən üzvün çıxarılması və xaric edilməsi kooperativ üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə aiddir. Ona görə də bu məsələyə yalnız kooperativin ümumi yığıncağında baxılır. Ümumi yığıncaq kooperativ üzvünün xaric edilməsi barədə müvafiq qərar çıxarır. Kooperativdən çıxanlan və xaric edilən şəxs (üzv) bu qərardan məhkəməyə şikayət verə bilər. Bununla belə, o, kooperativ ödənişləri (payın dəyəri və ya bu paya müvafiq əmlak, dividend, əmək haqqı və s.) almaqda kooperativdən çıxan üzv kimi analoji hüquqlara malikdir. Mülki qanunvericiliyə görə, onun bu cür halda kooperativ ödənişləri almaq hüququ saxlanılır (MM-in 112-ci maddəsinin 2-ci bəndi).

Kooperativ üzvünün malik olduğu hüquqlardan biri **onun öz payını (və ya bu payın bir hissəsini) digər şəxslərə verə bilməsindən,** yəni güzəşt edə bilməsindən ibarətdir (MM-nin 112-ci maddəsinin 3-cü bəndi). Digər şəxs rolunda həm kooperativin digər üzvləri, həm də kooperativin üzvləri olmayan üçüncü şəxslər (kənar şəxslər) çıxış edə bilərlər.

Payın (onun bir hissəsinin) verilməsi onun özgəninkiləşdirilməsi deməkdir. Özgəninkiləşdirmənin hüquqi formaları isə müxtəlifdir. Bu formalara alqı-satqı, bağışlama və dəyişmə müqavilələri aiddir.

Kooperativ üzvü payı özgəninkiləşdirərkən bu barədə dərhal kooperativin digər üzvlərinə xəbər verir. Çünki onların özgəninkiləşdirilən payı (onun bir hissəsini) satın almaqda **üstünlük hüququ** vardır.

Kooperativin digər üzvləri nəzərdə tutulan müddətdə onlara verilmiş üstünlük hüququnu həyata keçirməlidirlər. Bu müddət nizamnamədə göstərilir. Əgər onlar həmin müddət ərzində üstünlük hüququndan istifadə edib payı (onun bir hissəsini) əldə etməsələr, onda **pay üçüncü şəxsə özgəninkiləşdirilir.** Lakin bunun üçün koorperativin razılıq verməsi tələb olunur. Əgər kooperativ razılıq verməzsə, onda payın üçüncü şəxsə özgəninkiləşdirilməsinə yol verilmir.

Payı özgəninkiləşdirməklə üzv kooperativdən çıxmış hesab edilir. Bu, kooperativdə onun üzvlüyünə xitam verilməsinə səbəb olur. Payın bir hissəsinin özgəninkiləşdirilməsi, söz yox ki, bu cür nəticəyə gətirib çıxarmır. Payı əldə edən üçüncü şəxs ümumi yığıncağın qərarı ilə kooperativ üzvlüyünə qəbul edilə bilər.

Kooperativ üzvünün öz payını verməsi barədə qayda dispozitiv xarakterə malikdir. Belə ki, kooperativin nizamnaməsində ayrı qayda da nəzərdə tutula bilər.

Kooperativ üzvü olan fiziki şəxsin ölməsi onun kooperativdə üzvlüyünə xitam verilməsi əsaslarından biridir. Belə halda onun **payı vərəsəlik qaydasında vərəsəyə keçir.** Vərəsə kooperativ üzvlüyünə qəbul edilə bilər. Bu halda payın dəyəri, təbii ki, vərəsəyə ödənilmir. Əgər kooperativin ölmüş üzvünün bir neçə vərəsəsi olarsa, onlardan yalnız biri kooperativə qəbul edilir. Kooperativə qəbul edilən vərəsələrin payının həcmi miras payından ona düşən hissənin həcmi (miqdarı) ilə müəyyən edilir, qalan vərəsələrə onlara düşən payın dəyəri ödənilir.

Vərəsə kooperativ üzvlüyünə qəbul edilməyə də bilər. Belə halda kooperativ tərəfindən onun ölmüş üzvünün payının dəyəri vərəsəyə (və ya vərəsələrə) ödənilir (MM-in 112-ci maddəsinin 4-cü bəndi).

Kooperativin ölmüş üzvünün kooperativ üzvlüyünə qəbul edilməsi haqqında norma dispozitiv xarakter daşıyır. Belə ki, bu barədə kooperativin nizamnaməsində ayrı qayda da nəzərdə tutula bilər. Məsələn, nizamnamədə göstərilə bilər ki, vərəsənin kooperativ üzvlüyünə qəbul edilməsinə yol verilmir.

Kooperativ üzvünün **şəxsi borcları** yarana bilər. Bu borcların əmələ gəlməsinin onun kooperativin fəaliyyətində iştirak və ya şəxsi əmək iştirakı ilə heç bir əlaqəsi yoxdur. Məsələn, kooperativ üzvü öz qonşusundan borc pul alır və yaxud dükandan nisyə mal əldə edir və ya da tikdirdiyi bağ evinə görə tikinti təşkilatına müəyyən məbləğdə borcu yaranır. Bu cür şəxsi borcları ödəmək üçün bəzən kooperativ üzvü olan şəxsin əmlakı çatmır, kifayət etmir. Belə halda kreditorların (yuxarıda göstərdiyimiz misalda borc verən qonşunun, bağ evi tikən təşkilatın və s.) borcun ödənilməsi barədə tələbi kooperativ üzvünün payına yönəlir (MM-in 112-ci maddəsinin 5-ci bəndi). Bunun üçün payın dəyəri kooperativ üzvünə ödənilir. Bu ödəniş əsasında kreditorlarla hesablaşmalar apanlır, yəni şəxsi borclar verilir.

Kooperativ üzvünün şəxsi borclarına görə kreditorlann tələbləri kooperativin bölünməz fondlarına yönəldilə bilməz. Qanun bunu qadağan edir (MM-in 112-ci maddəsinin 5-ci bəndi).

Kooperativ könüllü surətdə **yenidən təşkil və ya ləğv edilə bilər.** Bu məsələlər kooperativ üzvlərinin ümumi yığıncağının qərarı ilə həll edilir. Kooperativ məcburi qaydada da ləğv edilə bilər. Göstərilən hallarda hüquqi şəxsin yenidən təşkil olunması və ya ləğv edilməsi barədə qaydalar tətbiq edilir. Biz bu haqda əvvəlki paraqrafların birində geniş söhbət açdığımıza görə həmin məsələni yenidən işıqlandırmağı lazım bilmirik.

Kooperativ üzvü kooperativ ləğv edilərkən **ləğvetmə kvotası almaq hüququna malikdir.** Əmək haqqı, büdcəyə ayırmalar və digər məcburi ayırmalar, habelə kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak kooperativinin üzvləri arasında bölüşdürülür. Kooperativin ləğvindən sonra qalan əmlak kooperativin üzvləri arasında onun nizamnaməsinə uyğun olaraq bölüşdürülür (MM-in 110-cu maddəsinin 5-ci bəndi). Ləğvetmə kvotası almaq hüququ kooperativ ləğv edildikdə kreditorlarla hesablaşmadan sonra əmlakın kooperativ

üzvünün payına düşən hissəsini və ya bu hissənin dəyərini almaq hüququdur.

§ 5. Qeyri-kommersiya təşkilatları

1. Qeyri-kommersiya təşkilatlarının qısa hüquqi xarakteristikası

Biz əvvəlki paraqrafların birində qeyri-kommersiya təşkilatlarının geniş hüquqi xarakteristikasını verərək, onların əsas hüquqi parametrlərini müəyyənləşdirmişik. Burada həmin məsələyə qısaca olsa da bir daha aydınlıq gətirmək üçün ona toxunmağı zəruri hesab etdik.

Birincisi, qeyri-kommersiya təşkilatlarının həyata keçirdiyi fəaliyyətin **əsas məqsədi mənfəət götürməkdən və bu mənfəəti iştirakçılar arasında bölüşdürməkdən ibarət deyildir.** Bu təşkilatlar xeyriyyə, sosial, mədəni-maarif, təhsil, elm, idarəçilik, sağlamlığın mühafizəsi, idman və bədən tərbiyəsinin inkişafı və digər ictimai faydalı məqsədlər üçün, habelə vətəndaşların mənəvi və digər qeyri-maddi tələbatını ödəmək, şəxslərin hüquq və mənafelərini müdafiə etmək məqsədi üçün yaradılır. Bir sözlə, qeyri-kommersiya təşkilatlarının yaradılmasının **əsas məqsədi ictimai fayda və rifaha nail olmaqdan** ibarətdir. Deməli, onların əsas və başlıca fəaliyyəti əmtəə və əmlak xarakterli iqtisadi (əmlak) dövriyyədə iştirak etməklə əlaqədar deyil. Məhz bu səbəbdən qeyri-kommersiya təşkilatları iqtisadi (əmlak) dövriyyənin, o cümlədən **kommersiya (sahibkarlıq) dövriyyəsinin professional (peşəkar) iştirakçısı hesab edilmir**. Onları əmtəə-pul münasibətlərinin, bazar əmtəə dövriyyəsinin daimi subyekti saymaq olmaz.

Şübhəsiz ki, qeyri-kommersiya təşkilatları özlərinin əsas və başlıca fəaliyyətini maddi təminat olmadan həyata keçirə bilməz. Bu cür təminatın zəruriliyi həmin təşkilatların müstəqil hüquqi şəxs rolunda çıxış etməsini şərtləndirir.

Qeyri-kommersiya təşkilatları **sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər**, bir şərtlə ki, həmin fəaliyyət bu təşkilatın **yaradıldığı məqsədə çatmağa xidmət etsin və göstərilən məqsədə uyğun olsun**. Amma qeyri-kommersiya təşkilatlarının əsas və başlıca fəaliyyəti professional biznes və peşəkar sahibkarlıqla bir araya sığmır. Sahibkarlıq fəaliyyəti onların həyata keçirdikləri əsas fəaliyyətə münasibətdə yardımçı xarakter daşıyır.

İkincisi, qeyri-kommersiya təşkilatları **məhdud (məqsədli, xüsusi) hüquq qabiliyyətinə malikdir**. Bu cür hüquq qabiliyyəti onu ifadə edir ki, qeyri-kommersiya təşkilatları yalnız onun fəaliyyət məqsədinə uyğun gələn və birbaşa təsis sənədində göstərilən hüquq və vəzifələrə malik ola bilər. Onların istənilən hüquq və vəzifələrə malik olması istisna edilir, mümkün deyil.

2. İctimai birliklər

İctimai birliyi Mülki Məcəllə qeyri-kommersiya təşkilatlarının bir forması (növü) kimi nəzərdə tutur. Həmin məcəllənin 114-cü maddəsi ictimai birliklərin hüquqi vəziyyətini və əsas xüsusiyyətlərini müəyyənləşdirir. Bundan əlavə, ictimai birliklərin hüquqi vəziyyətinin və mühüm cəhətlərinin təyin edilməsində, habelə onların yaradılması və fəaliyyət göstərməsi ilə bağlı münasibətlərin tənzimlənməsində xüsusi qanunların vacib rolu vardır. Söhbət, hər şeydən əvvəl, 10 noyabr 1992-ci il tarixində qəbul edilmiş «İctimai birliklər haqqında»[1] və 13 iyun 2000-ci ildə qəbul olunmuş «Qeyri-hökumət təşkilatları haqqında»[2] qanunlardan gedir.

İctimai birlik dedikdə, təsis sənədlərində göstərilən məqsədə çatmaq üçün ümumi maraq və mənafe əsasında birləşən bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü və öz-özünü idarə edən qeyri-kommersiya təşkilatı başa düşülür.

İctimai birliklər **korporativ əsaslarla** yaradılır, yəni onlar şəxslərin üzvlüyə əsaslanan könüllü birləşməsidir. Bu cəhət isə onu göstərir ki, ictimai birliklər **korporativ təşkilat** olub, hüquqi şəxslərin **korporasiya növünə şamil olunur**.

İctimai birliklər **qeyri-hökumət təşkilatıdır**. Bu təşkilatlara müxtəlif qurumlar daxildir: siyasi partiyalar; həmkarlar ittifaqları; dini birliklər; yerli özünüidarə orqanları və s. İctimai birliklər qeyri-hökumət təşkilatları arasında müstəqil yer tutur.

İctimai birlikləri həm hüquqi şəxslər, həm də fiziki şəxslər təsis edə bilərlər. Onların təsisçiləri rolunda hüquqi və fiziki şəxslərin birlikdə çıxış etmələri istisna olunmur. **Təsisçilər** ictimai birliyin iştirakçısıdırlar.

İctimai birliyin təsisçisi olması üçün fiziki şəxsin on səkkiz yaş həddinə çatması tələb edilir. Əgər fiziki şəxs bu yaş həddinə çatmamışsa, ictimai birliyin təsisçisi ola bilməz. Amma qanun bu ümumi qaydadan müəyyən istisnaya yol verir. Belə ki, gənclərə aid ictimai birlik yaradılarkən təsisçilərin on yaş həddinə çatması kifayət edir.

Qanun **dövlət hakimiyyət və yerli özünüidarə orqanlarının** ictimai birliklərin təsisçisi olmasına yol vermir. Bu orqanlar **təsisçi rolunda ictimai birlikləri yaradılmasında iştirak edə bilməzlər**. Bu orqanların həm də ictimai birliyin üzvü olması istisna edilir.

Təsisçilərlə bərabər, **üzvlər** də ictimai birliklərin iştirakçıları hesab olunurlar. İstənilən hər hansı fiziki və hüquqi şəxs ictimai birliyin üzvü rolunda çıxış edə bilərlər.

Qanun əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ictimai birliklərdə iştirak etməsinə yol verir. Belə ki, onlar bizim ölkədə fəaliyyət göstərən ictimai birliklərin iştirakçıları — həm təsisçiləri, həm də üzvləri ola bilərlər.

Bir qayda olaraq, ictimai birlik onun təsis edilməsi nəticəsində yaradılır. Bu məqsədlə ictimai birliyin yaradılmasının təşəbbüsçüləri təsis yığıncağı çağırırlar. Təsis yığıncağında ictimai birliyin nizamnaməsi qəbul edilir.

Nizamnamə ictimai birliyin fəaliyyətinin hüquqi əsası olan, onun məqsədini müəyyənləşdirən təsis sənədidir. Nizamnamədə bütün hüquqi şəxslərin hamısı üçün ümumi olan məlumatlardan (ictimai birliyin adından, hüquqi ünvanından və s.) savayı, həm də aşağıdakılar göstərilir:

- ictimai birliyin fəaliyyət məqsədi və predmeti;
- ictimai birliyin idarə olunma qaydası;
- ictimai birlik üzvlərinin hüquq və vəzifələri;
- ictimai birliyin üzvlüyünə qəbul olmaq və ondan çıxmaq şərtləri;
- ictimai birliyin əmlakının yaradılma mənbələri;

[1] bax: AR QK, II cild, s. 746.
[2] bax: AR QK, III xüsusi buraxılış, s. 539.

- nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası;
- ictimai birliyin ləğv edilməsi qaydası;
- ictimai birlik ləğv edildiyi halda, əmlakdan istifadə qaydası.

Nizamnamə, təsis yığıncağının protokolu və digər sənədlər ictimai birliyin dövlət qeydiyyatına alınması üçün Ədliyyə Nazirliyinə göndərilir. İctimai birlik **yalnız dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir**. Məhz bu andan o, mülki hüquq və fəaliyyət qabiliyyətinə malik olur.

İctimai birlik hüquqi şəxs statusu əldə edən kimi mülki hüquq və vəzifələrə malik olmaq qabiliyyətli olur. Özü də dərhal qeyd etməliyik ki, o, yalnız **öz nizamnaməsində göstərilmiş fəaliyyət məqsədlərinə uyğun gələn mülki hüquq və vəzifələrə malik ola bilər.** Bu isə belə bir fikir söyləməyə əsas verir ki, ictimai birliyin mülki hüquq qabiliyyəti **məqsədli (məhdud)** xarakter daşıyır. İctimai birliyin məqsədli (məhdud) hüquq qabiliyyətinin olması isə o deməkdir ki, ictimai birlik xüsusi olaraq iqtisadi (əmlak) dövriyyədə çıxış etmək üçün yaradılmamışdır və öz fəaliyyət məqsədini həyata keçirmək üçün o, bu dövriyyədə çıxış edə bilər. Deməli, ictimai birliyin iqtisadi (əmlak) dövriyyədə iştirakı həddən ziyadə məqsədli xarakter daşıyır.

İctimai birlik yalnız öz fəaliyyət məqsədlərinə uyğun gələn mülki hüquqlar əldə edə və həyata keçirə, habelə mülki vəzifələr yarada bilər. Deməli, **onun mülki fəaliyyət qabiliyyəti də məqsədli xarakter daşıyır.** Məsələn, sahibkarlıq fəaliyyətini həyata keçirmək ictimai birliyin fəaliyyət qabiliyyətinin elementlərindən biridir. Belə ki, o, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq və bu fəaliyyəti həyata keçirmək imkanına malikdir. Amma ictimai birlik yalnız onun yaradılması məqsədlərinə nail olmağa yönəldilmiş və bu məqsədə uyğun gələn sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. Mal (xidmət) istehsalı və satışı, qiymətli kağızların, əmlak və qeyri-əmlak hüquqlarının əldə edilməsi, əgər yuxarıdakı şərtlərə cavab verərsə, ictimai birliyin həyata keçirdiyi sahibkarlıq fəaliyyətinə misal ola bilər.

Sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə ictimai birlik kommersiya təşkilatlarında iştirak edə bilər. Söhbət onun təsərrüfat cəmiyyətinin (səhmdar cəmiyyətinin, məhdud məsuliyyətli cəmiyyətin və s.), təsərrüfat ortaqlığının (kommandit ortaqlıqda kommanditçi kimi) yaradılmasında maya qoyan rolunda çıxış etməsindən gedir.

İctimai birlik həyata keçirdiyi sahibkarlıq fəaliyyətindən əldə etdiyi mənfəət və gəlirləri öz iştirakçıları arasında bölüşdürmür. Bu **mənfəət və gəlirlər ictimai birliyin nizamnaməsində göstərilən fəaliyyət məqsədlərinin həyata keçirilməsinə yönəlməlidir**.

Məlum məsələdir ki, ictimai birlik öz nizamnaməsində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək və qarşıya **qoyulan məqsədə çatmaq üçün kifayət qədər əmlaka malik olmalıdır.** Bu əmlak həmin fəaliyyətin maddi təminatı üçün zəruridir.

İctimai birliyin mülkiyyətində **dövriyyə qabiliyyətli istənilən əmlak** ola bilər. Söhbət binalardan, qurğulardan, mənzillərdən, avadanlıqlardan, pul vəsaitindən, səhmlərdən, digər qiymətli kağızlardan və başqa əmlak növlərindən gedir. Pul vəsaiti müxtəlif mənbələr hesabına əmələ gəlir: birliyə daxil olmaq haqqından və üzvlük haqqından; könüllü vəsaitdən və ianələrdən; mühazirələrdən, idman tədbirlərindən və başqa tədbirlərdən, lotereyalardan əldə edilən mədaxildən; qiymətli kağızlardan alınan dividendlərdən; qrantdan və s.

İctimai birliyin əmlakı müxtəlif mənbələrdən yaranır. Əsas mənbəni ictimai birliyin təsisçilərinin (iştirakçılarının) **ictimai birliyə verdikləri əmlak təşkil edir.** Bu əmlak üzərində onlar mülkiyyət hüququnu itirirlər, yəni həmin əmlaka mülkiyyət hüququnu saxlamırlar. Təsisçilər və ya ictimai birlik üzvləri ictimai birliyə verdikləri müntəzəm və ya birdəfəlik üzvlük haqları üzərində də mülkiyyət hüququnu itirirlər. Bütün bunların hamısı **birliyin mülkiyyəti** hesab edilir (MM-in 114-cü maddəsinin 1-ci bəndi). Təsisçilər (iştirakçılar) ictimai birliyə verdikləri əmlak barəsində **tələb etmək (öhdəlik) hüququna da malik deyillər**. Deməli, onlar əmlak haqqında nə əşya (mülkiyyət), nə də tələb (öhdəlik) hüququnu saxlayırlar, hər hansı bir əmlak hüququ əldə etmirlər.

Məhz bu səbəbdən ictimai birlik və onun iştirakçıları arasında hər hansı **qarşılıqlı əmlak məsuliyyəti** mövcud deyil. Belə ki, iştirakçılar ictimai birliklərin öhdəlikləri üçün, ictimai birliklər isə öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımırlar (MM-nin 114-cü maddəsinin 2-ci bəndi). İştirakçının ictimai birlikdən çıxması hər hansı **ödənişin verilməsinə və onunla hesablaşma aparılmasına səbəb olmur, əmlak vəzifəsi yaratmır**.

İctimai birlik öz mülkiyyətində olan əmlakdan yalnız öz nizamnaməsində nəzərdə tutulmuş məqsədlər üçün istifadə edə bilər. Bu əmlakla o, öz öhdəliklərinə görə məsuliyyət daşıyır[1]. Bundan əlavə, ictimai birliyin əmlakı, mənfəət və gəliri, xərcləri və s. haqqında məlumatlar dövlət və ya kommersiya sirri ola bilməz.

İctimai birliyin fəaliyyəti onun **idarəetmə orqanlarının** vasitəsilə idarə edilir. Bu orqanların səlahiyyəti və onların səlahiyyət müddəti, habelə ictimai birliyin strukturu qanunla və nizamnamə ilə müəyyən edilir.

İctimai birlikdə **iki cür idarəetmə orqanı** fəaliyyət göstərir: ictimai birliyin ali idarəetmə orqanı; ictimai birliyin icra orqanı. **İctimai birliyin ali idarəetmə** orqanı onun ümumi yığıncağıdır. **Ümumi yığıncaq** qanunla onun səlahiyyətinə aid edilmiş məsələləri həll edir. İctimai birliyin nizamnaməsini qəbul və ona dəyişikliklər etmək, ictimai birliyin icra orqanlarını yaratmaq, illik hesabatı təsdiq etmək, ictimai birliyi yenidən təşkil və ya ləğv etmək və s. bu cür məsələlərə misal ola bilər.

Ümumi yığıncaq həll etdiyi məsələlər barədə qərarlar qəbul edir. Qərarlar qəbul edilərkən yığıncaqda iştirak edən **üzvlərin səs çoxluğu** əsas götürülür. İctimai birliyin **hər bir üzvünün bir səsi** vardır.

İctimai birliyin icra orqanı onun səlahiyyətinə cari rəhbərliyi həyata keçirir. Bu orqanlar iki formada ola bilər: **kollegial icra orqanı formasında; təkbaşına icra orqanı formasında**. Bəzən qarışıq icra orqanı formasından da istifadə olunur. **Qarışıq icra orqanı** odur ki, ictimai birliyin kollegial icra orqanı ilə təkbaşına icra orqanı eyni vaxtda paralel olaraq yaradılır və fəaliyyət göstərirlər.

İctimai birliyin icra orqanı onun ali idarəetmə orqanı qarşısında məsuldur. O, həmin orqana hesabat verir.

[1] bax: «Qeyri-hökumət təşkilatları haqqında» qanunun 23-cü maddəsinin 2-ci bəndi // AR QK. İli xüsusi buraxılış, s. 546.

İctimai birliyin fəaliyyətinə iki yolla xitam verilə bilər: ictimai birliyə onun **yenidən təşkil edilməsi** yolu ilə xitam verilməsi; **ictimai birliyin ləğv edilməsi** yolu ilə xitam edilməsi. Belə hallarda bəzi istisnalarla, hüquqi şəxslərin yenidən təşkil edilməsi və ləğv olunması haqqında ümumi qaydalar tətbiq edilir. Bu cür istisnaya ictimai birliyin müflisləşmə nəticəsində ləğv edilməsinin qeyri-mümkünlüyünü misal göstərmək olar.

İctimai birlik **həm könüllü üsulla, həm də məcburi üsulla ləğv edilə** bilər. Könüllü üsulla ictimai birliyin ləğv edilməsi zamanı ümumi yığıncaq bu barədə müvafiq qərar çıxarır. Məcburi üsul isə ictimai biliyin məhkəmənin qərarı ilə ləğv edilməsini nəzərdə tutur. Məsələn, qanunazidd hərəkətlərə yol verən ictimai birliyə bir il ərzində ikidən çox yazılı surətdə xəbərdarlıq və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verildiyi halda həmin ictimai birlik məhkəmənin qərarı ilə ləğv edilə bilər[1].

İctimai birlik ləğv edilərkən onun **iştirakçılarının ləğvetmə kvotası almaq hüququ yoxdur**. Bu zaman yaranan əmlak məsələləri mülki qanunvericiliklə xüsusi qaydada tənzimlənir. Bu qaydaya görə, ictimai birlik ləğv edildikdə, onun əmlakı ictimai birliyin nizamnaməsində nəzərdə tutulmuş məqsədlər üçün istifadə olunur. Əgər bu cür istifadə mümkün olmazsa, onda **həmin əmlak dövlət mülkiyyətinə (dövlət büdcəsinə) mədaxil edilir** (MM-in 114-cü maddəsinin 3-cü bəndi).

3. Fondlar

Fond (latınca «fundus» — əsas)[2] qeyri-kommersiya təşkilatının bir formasıdır. Onların əsas cəhətləri və hüquqi vəziyyəti MM-in 115-116-cı maddəsində ifadə olunan normalarla müəyyənləşdirilir. Fondların yaradılması və fəaliyyət göstərməsi ilə bağlı münasibətlərin tənzimlənməsində qanunlar, hər şeydən əvvəl, «Qeyri-hökumət təşkilatları haqqında» qanun mühüm rol oynayır.

Fond dedikdə, üzvlüyə əsaslanmayan elə bir təşkilat başa düşülür ki, bu təşkilat fiziki və (və ya) hüquqi şəxslərin könüllü əmlak haqları əsasında təsis edilir və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdür.

Fond üzvlük prinsipi əsasında yaradılmır. Deməli, o, korporativ təşkilat hesab olunmur, yəni hüquqi şəxslərin korporasiya kimi növünə aid edilmir.

Fondlar yalnız öz nizamnamələrində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə uyğun gələn mülki hüquq və vəzifələrə malik ola bilərlər. Bu isə o deməkdir ki, **onlar məqsədli (məhdud) mülki hüquq qabiliyyətinə** malikdir.

Fondların iqtisadi (əmlak) dövriyyədə iştirakı da onların fəaliyyət məqsədlərinə uyğun gəlməlidir. Məhz buna görə onların iqtisadi (əmlak) dövriyyədə çıxışı məqsədli xarakter daşıyır.

Fondların əsas iştirakçıları onların təsisçiləri hesab edilirlər. Təsisçi rolunda həm hüquqi şəxslər (həm kommersiya, həm də qeyri-kommersiya təşkilatları), həm də fiziki şəxslər çıxış edə bilərlər. Özü də fondun bir təsisçi tərəfindən yaradılması istisna edilmir. Təsisçi qismində fondun yaradılmasında on

[1] bax: «Qeyri-hökumət təşkilatları haqqında» qanunun 31-ci maddəsinin 4-cü bəndi // AR QK, III xüsusi buraxılış.

[2] Словарь иностранных слов. М., 1985, с. 535.

səkkiz yaşına çatmayan fiziki şəxs, habelə dövlət hakimiyyət orqanları və yerli özünüidarə orqanları iştirak edə bilməz[1].

Xarici ölkə vətəndaşları (əcnəbilər) və vətəndaşlığı olmayan şəxslər bizim ölkədə fəaliyyət göstərən fondların təsisçisi ola bilərlər. Bu barədə qanun hər hansı bir xüsusi tələb nəzərdə tutmur və həmin şəxslərin hüquqlarını məhdudlaşdırmır.

Fondlar onun təsis edilməsi ilə yaradılır. Bu barədə təsisçilər (təsisçi) müvafiq qərar qəbul edir. **Təsis yığıncağı** çağırılır. Yığıncaqda fondun nizamnaməsi təsdiq olunur.

Nizamnamə fondun əsas təsis sənədidir. Burada göstərilir:

- fondun «fond» sözü daxil edilmiş adı;
- fondun olduğu yer;
- fondun orqanları haqqında, o cümlədən himayəçilik şurası haqqında məlumatlar;
- fondun vəzifəli şəxslərinin təyin edilməsi və onların azad edilməsi qaydası;
- fondun ləğvi zamanı onun əmlakı barəsində sərəncam verilməsi qaydası.

Qanun fondun nizamnaməsinin onun orqanları tərəfindən dəyişdirilməsi imkanını məhdudlaşdırır. Əgər məhdudlaşdırılmasa, onda fondun statusunun onun təsisçilərinin iradəsinin ziddinə olaraq dəyişdirilməsi üçün imkan yarana bilər. **Fondun nizamnaməsi fondun orqanları tərəfindən dəyişdirilə** bilər, bir şərtlə ki, nizamnamədə onun dəyişdirmək imkanı nəzərdə tutulsun. Qalan hallarda **nizamnamədə dəyişiklik** fondun orqanlarının ərizəsi əsasında **məhkəmə tərəfindən edilə bilər** (MM-in 116-cı maddəsinin 2-ci bəndi).

Nizamnamə, təsis yığıncağının protokolu və digər zəruri sənədlər Ədliyyə Nazirliyinə göndərilir. Həmin nazirlik fondun dövlət qeydiyyatını həyata keçirir. Bu andan o, hüquqi şəxs statusu əldə edir.

Fondlar öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək üçün **lazım olan əmlaka malik olur**. Bu əmlak həmin fəaliyyətin yerinə yetirilməsi üçün **maddi təminat** rolunu oynayır. Fondun mülkiyyətində dövriyyədə istifadə olunması qadağan edilməmiş istənilən əmlak ola bilər. Onun əmlakını təsisçilər (təsisçi) tərəfindən verilən əmlak təşkil edir. Bu əmlak fondun mülkiyyətidir (MM-in 115-ci maddəsinin 2-ci bəndi). Həmin əmlakın mülkiyyətçisi onu verən təsisçi yox, hüquqi şəxs kimi fondun özü hesab olunur. Belə ki, təsisçilər fonda verdikləri andan həmin əmlak üzərində mülkiyyət hüququnu saxlamırlar, bu hüququ itirirlər. Onlar bu əmlak barəsində əşya (mülkiyyət) hüququna malik deyillər.

Təsisçilərin həmin əmlakın verilməsini (qaytarılmasını) tələb etmək hüququ da yoxdur. Bu isə o deməkdir ki, onlar fonda verdikləri əmlak barəsində öhdəlik hüququna da malik deyillər. Beləliklə, **təsisçilər fonda verdikləri əmlaka münasibətdə bütün əmlak (həm əşya, həm də öhdəlik) hüquqlarını itirirlər**. Başqa sözlə demək, təsisçilər yaratdıqları fonda münasibətdə hər hansı bir əmlak hüququna malik olmurlar. Məhz buna görə də təsisçilər və fond birbirinin öhdəliklərinə görə cavab vermirlər. Belə ki, təsisçilər yaratdıqları fon-

[1] bax: «Qeyri-hökumət təşkilatları haqqında» qanunun 9-cu maddəsinin 1-ci bəndi // AR QK, III xüsusi buraxılış.

dun öhdəlikləri üçün, fond isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımırlar (MM-in 115-ci maddəsinin 4-cü bəndi). Fond öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir[1].

Fondun əmlakı digər mənbələr hesabına da formalaşa bilər. Belə ki, sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəət, könüllü əmlak haqları, qiymətli kağızlardan (səhmlərdən, istiqrazlardan və s.) alınan dividendlər və gəlirlər, qrantlar, ümumiyyətlə, qanunun yol verdiyi digər əsaslarla alınan əmlak fondun mülkiyyətinə daxil edilir. Amma fond bu əmlakdan öz istəyi və mülahizəsi əsasında istifadə edə, onu iştirakçılar (təsisçilər) və işçilər arasında bölüşdürə bilməz. Ona görə ki, fond ictimai faydalı məqsəd güdən təşkilatdır və bu məqsəd onun nizamnaməsində göstərilir. O, həmin əmlakdan yalnız bu məqsədlər üçün istifadə edə bilər (MM-in 115-ci maddəsinin 2-ci bəndi). Bu, fondun əsas və mühüm vəzifəsi hesab olunur. Həmin vəzifənin düzgün və dürüst, sui-istifadə hallarına və əyintiliyə yol vermədən icrasını təmin etmək üçün **mülki qanunvericilik fondun öz əmlak işlərinin açıq aparılması haqqında xüsusi qayda müəyyən edir**. Bu qaydaya görə, fondlar öz mülkiyyətində olan **əmlakdan istifadə haqqında hesabatları hamının tanış olması üçün dərc edirlər** (MM-in 115-ci maddəsinin 3-cü bəndi). Həmin qaydanın müxtəlif hüquq pozuntularının (mənimsəmə, israf etmə, vəzifədən sui-istifadə və digər halların) qarşısının alınmasında vacib rolu vardır. Bu fondun fəaliyyəti üzərində **nəzarət formasıdır**. Fond dərc etmək üçün mətbuat orqanı seçməkdə müstəqildir. Lakin bu halda fondun fəaliyyət arealı prinsipi gözlənilməlidir.

Nizamnamə məqsədinə nail olmaq üçün fondlar sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər. Özü də dərhal qeyd edirik ki, onların istənilən növ sahibkarlıq fəaliyyəti ilə yox, yalnız öz nizamnamə məqsədinə uyğun gələn fəaliyyət növü ilə məşğul olmağa ixtiyarı çatır. Sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti ilə onlar təsərrüfat cəmiyyətlərində, kommandit ortaqlığında iştirakçı (maya qoyan) rolunda çıxış edə bilərlər.

Fondun idarə olunması **iki cür orqan** vasitəsilə həyata keçirilir: icra orqanı vasitəsilə; himayəçilik şurası vasitəsilə. **İcra orqanı** özü iki formada yaradıla bilər: kollegial icra orqanı formasında; təkbaşına icra orqanı formasında. **Kollegial icra orqanı** kimi fondun idarə heyəti çıxış edir. **İdarə heyəti** fondun fəaliyyətinə aid bütün məsələləri həll edir.

Təkbaşına icra orqanı dedikdə, fondun prezidenti başa düşülür. **Fondun prezidenti**, bir qayda olaraq, təsisçilər tərəfindən təyin edilir və azad olunur. Bunun qaydası fondun nizamnaməsində göstərilir.

Himayəçilik Şurası fondun nəzarət orqanıdır. O, fondun fəaliyyətinə nəzarəti həyata keçirir. Onun əsas vəzifəsi **fondun öz mülkiyyətində olan əmlakdan istifadəyə nəzarət etməkdən ibarətdir**. Himayəçilik Şurasının yaradılma və fəaliyyət qaydası fondun nizamnaməsində müəyyən edilir. Özü də bu orqan ictimai əsaslarla fəaliyyət göstərir.

Fond mülki qanunvericilikdə nəzərdə tutulan qaydada könüllü yolla yenidən təşkil edilə bilər. Bu, onun təsisçilərinin və ya fondun nizamnaməsi ilə vəkil

[1] bax: «Qeyri-hökumət təşkilatları haqqında» qanunun 23-cü maddəsinin 2-ci bəndi // AR QK, III xüsusi buraxılış.

edilmiş orqanın (himayəçilik şurasının) qərarı ilə həyata keçirilir. Amma fondlar başqa növ hüquqi şəxslərə çevrilə bilməz[1].

Fondun fəaliyyətinə onun ləğv edilməsi yolu ilə də xitam verilə bilər (MM-in 116-cı maddəsinin 2-ci bəndi). Özü də dərhal qeyd edirik ki, **fondlar bütün hallarda yalnız məhkəmənin qərarı ilə (məhkəmə qaydasında) ləğv oluna bilər**. Deməli, fondların könüllü qaydada ləğv edilməsinə yol verilmir.

Fondun yalnız məhkəmə yolu ilə ləğv edilməsi haqqında qayda fondun əmlakı barədə mümkün olan hər cür sui-istifadə hallarının qarşısının alınmasına imkan verir. Özü də fondun ləğv edilməsinə əsas olan hallar nizamnamə ilə yox, qanunla müəyyənləşdirilir (MM-in 116-cı maddəsinin 2-ci bəndi):

- fondun əmlakı onun məqsədlərinə həyata keçirilməsinə kifayət etmədikdə və lazımi əmlakın əldə edilməsi ehtimalı real olmadıqda;
- fondun məqsədlərinə çatmaq mümkün olmadıqda, bu məqsədlər isə lazımi şəkildə dəyişdirilə bilmədikdə;
- fond öz fəaliyyətində nizamnamədə nəzərdə tutulan məqsədlərdən yayındıqda;
- qanunvericilikdə nəzərdə tutulan digər hallarda (məsələn, fond müflis elan edildikdə)[2].

Göstərilən hallardan biri olduqda, maraqlı şəxs fondun ləğv edilməsi barədə ərizə ilə məhkəməyə müraciət edir. Maraqlı şəxs rolunda fondun təsisçisi, nəzarət orqanı, kreditorlar və digərləri çıxış edə bilər. Məhkəmə işə baxaraq, fondun ləğvi barədə qərar qəbul edir.

Fondun ləğv edilməsi əmlak vəzifələrinin yaranmasına, ləğv etmə kvotası almaq hüququnun əmələ gəlməsinə səbəb olmur. Fond iştirakçılarla hər hansı bir hesablaşma aparmır. Belə ki, fond ləğv edildikdə, onun əmlakı nizamnaməsində göstərilən məqsədlər üçün istifadə olunur. Əgər bu cür istifadə mümkün olmadıqda, **əmlak dövlət mülkiyyətinə (dövlət büdcəsinə) mədaxil edilir** (MM-in 116-cı maddəsinin 3-cü bəndi).

4. Hüquqi şəxslərin ittifaqları

Hüquqi şəxslərin ittifaqı qeyri-kommersiya təşkilatları kateqoriyasına şamil edilir. Çünki o, kommersiya məqsədi, yəni **mənfəət əldə etmək məqsədi güdmür**. Onun hüquqi xarakteristikası əsasən Mülki Məcəllə ilə müəyyənləşdirilir. Mülki Məcəllənin 117-119-cu maddələrində hüquqi şəxslərin ittifaqlarının hüquqi vəziyyətinə aid mühüm əhəmiyyətə malik olan göstəriş ifadə edilir.

Hüquqi şəxslərin ittifaqı dedikdə, bir neçə hüquqi şəxsin könüllü surətdə üzvlük prinsipi əsasında elə birliyi başa düşülür ki, bu birlik onların fəaliyyətlərini əlaqələndirmək, hüquqlarını müdafiə etmək və ümumi əmlak mənafelərini təmsil etmək məqsədi güdür. O, yalnız özlərinin əmlak mənafelərinin deyil, bütövlükdə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda beynəlxalq təşkilatlarda) məqsə-

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 267.

[2] Belə bir fikirlə razılaşmaq olmaz ki, fondun müflisləşmə nəticəsində məhkəmədən kənar qaydada ləğv edilməsi mümkündür, bir şərtlə ki, kreditorla fond razılığa gəlsinlər (bax: Комментарий к ГК РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 248). RF-in MM-i fondun yalnız məhkəmə qaydasında ləğv edilməsi barədə göstəriş ifadə edir.

dinə xidmət edir.

Anlayışdan müəyyən edilir ki, hüquqi şəxslərin ittifaqı **korporativ əsaslar prinsipi** qaydasında yaradılır. Belə ki, o, hüquqi şəxslərin üzvlüyə əsaslanan könüllü birləşməsidir. Bu isə belə bir fikir söyləməyə əsas verir ki, hüquqi şəxslərin ittifaqı korporativ təşkilat olub, **hüquqi şəxslərin korporasiya növünə şamil edilir**.

Anlayışdan müəyyən edilir ki, hüquqi şəxslərin ittifaqına daxil olan üzvlər (iştirakçılar) yalnız hüquqi şəxslərdən ibarət ola bilər. Bu ittifaqın iştirakçısı rolunda nə fiziki şəxslər, nə dövlət, nə də yerli özünüidarə orqanları çıxış edə bilərlər. Elə onun adı bunu sübut edir. Özü də hüquqi şəxslərin ittifaqında ya kommersiya təşkilatları, ya da qeyri-kommersiya təşkilatları birləşə bilərlər. **Eyni bir ittifaqa həm kommersiya təşkilatları, həm də qeyri-kommersiya təşkilatları daxil ola bilməzlər**. Qanun buna yol vermir. Deməli, hüquqi şəxslərin ittifaqlarında **iştirakçıların tərkibi eyni tipli olmalıdır**. Eynitiplilik prinsipi tamamilə əsaslıdır. Belə ki, təsərrüfatçılıq sferasında öz fəaliyyət məqsədlərinə görə bir-birindən fərqlənən kommersiya təşkilatlarını və qeyri-kommersiya təşkilatlarını eyni bir ittifaqda necə birləşdirmək olar?

Anlayışdan müəyyən edilir ki, hüquqi şəxslərin ittifaqı yalnız könüllü surətdə yaradılır. Onun məcburi qaydada təsis edilməsi istisna edilir. Məhz bu səbəbdən hüquqi şəxslərin ittifaqı öz iştirakçılarına münasibətdə **idarəçilik funksiyası həyata keçirə bilməz və yuxarı instansiyalı təşkilat hesab edilmir**.

Hüquqi şəxslərin ittifaqına daxil olan zaman iştirakçılar özlərinin müstəqilliyini itirmirlər. Əksinə, onlar özlərinin müstəqilliyini və hüquqi şəxs hüquqlarını saxlayırlar (MM-in 117-ci maddəsinin 3-cü bəndi). Onların mülki hüquq qabiliyyətinin həcmi dəyişməz və sabit qalır.

Hüquqi şəxslərin ittifaqının **əsas və başlıca fəaliyyət məqsədi** iştirakçıların fəaliyyətini əlaqələndirməkdən, habelə onların əmlak mənafelərini (ümumiyyətlə mənafelərini) təmsil və müdafiə etməkdən ibarətdir. **Əsas məqsəd kimi ittifaqın sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa ixtiyarı çatmır**. Çünki o, qeyri-kommersiya təşkilatıdır. Bununla belə, ittifaqın əsas məqsəd kimi kommersiya xarakterli fəaliyyətlə, sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına zərurət yarana bilər. Belə halda iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilir. Bundan sonra ittifaq sahibkarlıq fəaliyyəti ilə özünün əsas fəaliyyət məqsədi kimi məşğul olmağa borclu olur. Bu, onun hüququnu yox, vəzifəsini təşkil edir.

Özünün əsas fəaliyyət məqsədi kimi sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün ittifaq təsərrüfat cəmiyyəti yarada bilər və ya bu cür cəmiyyətdə iştirak edə bilər, yəni fəaliyyət göstərən hər hansı bir təsərrüfat cəmiyyətinin tərkibinə daxil ola bilər. Sahibkarlıq fəaliyyətindən əldə edilən **mənfəət ittifaqın iştirakçıları arasında bölüşdürülmür, nizamnamə məqsədlərinin həyata keçirilməsinə yönəlir**.

Göstərilən hallarda başqa yoldan da istifadə oluna bilər. Bu yola görə, sahibkarlıq fəaliyyətini həyata keçirməyə borclu olan ittifaq qanunda nəzərdə tutulan qaydada ya təsərrüfat ortaqlığına, ya da təsərrüfat cəmiyyətinə çevrilir (MM-in 117-ci maddəsinin 1-ci bəndi).

Hüquqi şəxslərin ittifaqı ada malik olmalıdır. Onun adının qanunda göstərilən şərtə uyğun olması tələb edilir. Belə ki, ittifaqın adında onun iştirakçılarının fəaliyyətinin əsas predmeti, habelə «ittifaq» sözü göstərilməlidir (MM-in 117-ci maddəsinin 6-cı bəndi). Məsələn, «Gəncə «Göy-göl» ictimai iaşə müəssisələrinin ittifaqı», «Bakı «Rahatlıq» təmir- tikinti təşkilatlarının ittifaqı», «Azərbaycan ticarət cəmiyyətlərinin ittifaqı» və s.

Hüquqi şəxslərin ittifaqı **nizamnamə** əsasında fəaliyyət göstərirlər. Nizamnaməni təsisçilər təsdiq edirlər. Burada bütün hüquqi şəxslər üçün ümumi olan məlumatlardan savayı, digər məlumatlar da göstərilir:

- iştirakçıların verdikləri haqların miqdarı, tərkibi və verilməsi qaydası haqqında;
- iştirakçıların haqq verilməsi öhdəliyini pozmağa görə məsuliyyəti haqqında;
- ittifaqın idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi qaydası haqqında;
- yekdilliklə və ya səs çoxluğu ilə qəbul olunan məsələlərə dair qərarlar qəbul olunması haqqında;
- ittifaq ləğv edildiyi halda onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında.

İttifaqın fəaliyyəti onun **idarəetmə orqanları** vasitəsilə həyata keçirilir. Bu orqanların strukturu və sistemi ittifaqın korporativ (üzvlük) əsaslarla yaradılması ilə bağlı olaraq müəyyənləşdirilir. Belə ki, ittifaq korporativ təşkilatdır (korporasiyadır). Buna görə də **ittifaqın ali idarəetmə orqanı** iştirakçıların (onların nümayəndələrinin) ümumi yığıncağıdır (bütün korporativ təşkilatlarda olduğu kimi). **İttifaqın icra orqanı** ittifaqın fəaliyyətinə cari rəhbərliyi həyata keçirir. Bu orqan ümumi yığıncaq tərəfindən yaradılır və ona hesabat verir.

İttifaq öz nizamnaməsində göstərilən məqsədinə çatması üçün zəruri **əmlak (maddi) bazasına** malik olmalıdır. Bu baza **maddi təminat** rolunu oynayır.

İttifaqın əmlakı onu təsis edən şəxslərin (iştirakçıların) verdikləri əmlakdan ibarətdir. **Bu əmlak ittifaqın mülkiyyəti hesab edilir** (MM-in 117-ci maddəsinin 4-cü bəndi). İttifaq həmin əmlakın mülkiyyətçisi sayılır. Təsisçilər (iştirakçılar) isə ittifaqa verdikləri əmlak üzərində mülkiyyət hüququnu itirirlər. Onlar bu əmlak barəsində **hər hansı əmlak hüququna, yəni nə əşya (mülkiyyət), nə də öhdəlik (tələb) hüququna malik deyillər**.

İttifaq ona verilmiş əmlakdan yalnız nizamnamədə müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edə bilər. Başqa məqsədlər üçün istifadəyə qanun yol vermir (MM-in 117-ci maddəsinin 4-cü bəndi).

İttifaq öz əmlakı ilə öhdəliklərinə (borclarına) görə kreditorlar qarşısında məsuliyyət daşıyır. Bəzən ittifaqın əmlakı kreditorların tələblərini ödəmək üçün kifayət etmir. Belə halda kreditorların tələbləri iştirakçıların şəxsi əmlakı hesabına təmin edilir. Deməli, **ittifaqın iştirakçıları onun öhdəlikləri (borcları) üçün subsidiar məsuliyyət daşıyırlar** (MM-in 117-ci maddəsinin 5-ci bəndi). Bu məsuliyyət qeyri-məhdud yox, məhdud xarakterlidir. Belə ki, həmin məsuliyyətin həcmi nizamnamədə nəzərdə tutulan miqdarla müəyyən edilir.

İştirakçı ittifaqdan çıxdığı halda belə, ittifaqın öhdəlikləri üçün subsidiar məsuliyyət daşımaqda davam edir. Belə ki, iştirakçı, əgər nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, ittifaqdan çıxdığı gündən bir il ərzində ittifaqın öhdə-

likləri üçün öz haqqına mütənasib surətdə subsidiar məsuliyyət daşıyır. Bu qayda iştirakçı məcburi surətdə ittifaqdan çıxarıldığı hallarda da tətbiq olunur (MM-in 119-cu maddəsinin 2-ci bəndi).

İttifaqa daxil edilmiş yeni iştirakçı da subsidiar məsuliyyət daşıya bilər. Belə ki, iştirakçıların hamısının razılığı ilə ittifaqa yeni iştirakçı daxil ola bilər. Yeni iştirakçı ittifaqın əvvəlki (yəni, iştirakçının daxil olmasına kimi) öhdəlikləri üçün subsidiar məsuliyyət daşıyır. Bunun üçün lazımdır ki, bu qayda ittifaqın nizamnaməsində nəzərdə tutulsun (MM-in 119-cu maddəsinin 3-cü bəndi).

İttifaq iştirakçıları **geniş hüquqlara** malikdirlər. Onların ittifaqın **xidmətlərindən əvəzsiz istifadə etmək hüququ** vardır (MM-in 119-cu maddəsinin 1-ci bəndi). Söhbət məsləhət, marketinq və digər xidmətlərdən gedir. İştirakçıların bu xidmətlərdən əvəzsiz istifadə etməsi onunla izah olunur ki, ittifaqın əmlak bazası, əsasən, onların verdikləri əmlak hesabına yaranır.

İttifaq iştirakçısının **ittifaqdan könüllü surətdə çıxmaq hüququ** vardır. O, hər hansı dəlil-səbəb, arqument və motiv gətirmədən istədiyi vaxt ittifaqdan çıxmasını bəyan edə və bunun üçün ərizə verə bilər. Amma ərizə verildiyi vaxt dərhal iştirakçının ittifaqla münasibətinə xitam verilmir. Münasibətə xitam verilməsi yalnız maliyyə-təsərrüfat ili başa çatdıqda mümkün ola bilər. Ərizə verildiyi vaxtdan maliyyə-təsərrüfat ili qurtarana kimi iştirakçının borcudur ki, o özünün ittifaqda iştirakla bağlı vəzifələrini icra etsin.

İştirakçı **məcburi qaydada ittifaqdan çıxarıla bilər**. Bunun üçün əsas olan halların mövcudluğu lazımdır. Bu halları mülki qanunvericilik müəyyənləşdirmir. Həmin hallar ittifaqın nizamnaməsində göstərilir (MM-in 119-cu maddəsinin 1-ci bəndi). Məsələn, nizamnamədə nəzərdə tutula bilər ki, öz vəzifələrini lazımınca icra etməyən və ya qanun pozuntularına yol verən və ya tələb olunan miqdarda haqq verməyən və s. iştirakçı ittifaqın tərkibindən çıxarılsın. İttifaqdan çıxarılma qaydası da onun nizamnaməsində göstərilir.

İttifaq **yenidən təşkil oluna bilər**. Belə halda hüquqi şəxslərin yenidən təşkil olunması barədə ümumi qaydalar tətbiq olunur.

İttifaq həm də **ləğv oluna bilər**. Bu zaman hüquqi şəxslərin ləğvi haqqında ümumi qaydalardan istifadə olunur. Özü də dərhal qeyd edirik ki, **müflisləşmə yolu ilə ittifaqın ləğv edilməsi istisna edilir**, bu, mümkün deyil. Ona görə ki, ittifaqın üzvləri onun öhdəlikləri (borcları) üçün subsidiar (əlavə) məsuliyyət daşıyırlar.

Hüquqi şəxslərin ittifaqı ləğv edildiyi halda onun əmlakı qala bilər. Bu əmlakın hüquqi taleyi və müqəddəratı barədə mülki qanunvericilik xüsusi qayda müəyyənləşdirir (MM-in 117-ci maddəsinin 7-ci bəndi). Bu qayda qalan əmlakın ləğvetmə kvotası əsasında iştirakçılar arasında bölüşdürülməsini istisna edir. Həmin qaydaya görə, qalan əmlak ittifaqın nizamnaməsində göstərilmiş məqsədlər üçün istifadə olunur. Əgər bu cür istifadə mümkün olmazsa, **onda həmin əmlak dövlət mülkiyyətinə (büdcəsinə) mədaxil olunur**.

İttifaqı hüquqi şəxslərin birləşməsi olan konsorsiumdan (latınca consortium - iştiraketmə, birlik) fərqləndirmək lazımdır. «Konsorsium» termini XX əsrin ortalarında yaranmışdır. Mülki qanunvericilik ona anlayış vermir. Burada biz konsorsiumun tənzimlənməsinə və onun əsas hüquqi parametrlərinin müəyyən edilməsinə rast gəlmirik[1]. Lakin buna baxmayaraq, hüquq doktrinasında[2], habelə iqtisadi ədəbiyyat sahələrində[3] onun əsas cəhət və əlamətlərinin müəyyənləşdirilməsinə təşəbbüs göstərilir.

Konsorsium dedikdə, firmaların, kompaniyaların, korporasiyaların və s. müvəqqəti olaraq müqavilə əsasında elə birliyi başa düşülür ki, bu birliyin əsas məqsədi üçüncü şəxslərlə bağlanmış kontrakt üzrə hər hansı geniş miqyaslı maliyyə və ya sənaye, bir sözlə, iqtisadi-təsərrüfat layihələrini həyata keçirməkdən ibarətdir. Konsorsium **birgə sahibkarlıq-təsərrüfat fəaliyyətinin təşkilati-hüquqi formasıdır**. Hüquqi şəxslərin ittifaqından fərqli olaraq o, **hüquqi şəxs statusuna malik deyil**. Konsorsium müqavilə əsasında yaranan müvəqqəti birlik olub, spesifik subyekt tərkibi ilə xarakterizə olunur. O, yalnız sahibkarlardan ibarətdir. Konsorsiumun əsas məqsədi üçüncü şəxsin verdiyi sifariş üzrə konkret iqtisadi-təsərrüfat layihəsini həyata keçirməkdən ibarətdir. Bax, onun əsas hüquqi əlamətləri bunlardan ibarətdir.

Sifarişçi ilə, bir qayda olaraq, konsorsiumda iştirak edən bütün partnyorlar adından vahid sənəd — **baş saziş** bağlanılır. Bu müqavilə konstruksiyasının əsasını, söz yox ki, podrat müqaviləsi təşkil edir. Partnyorlar arasından biri konsorsiumun baş üzvü (lideri) təyin edilir ki, o, konsorsiuma rəhbərliyi həyata keçirir.

Hüquqi şəxslərin ittifaqını sindikatdan da fərqləndirmək lazımdır. Bizim ölkə qanunvericiliyində sindikatların hüquqi vəziyyətini müəyyənləşdirən normalar yoxdur. «Sindikat» termini XX əsrin əvvəllərində əmələ gəlmişdir. Çox vaxt təcrübədə bu termin «konsorsium» termini ilə eyniləşdirilir. Amma bunlar sinonim (eyni mənalı) anlayışlar hesab olunmur. Lakin onlar arasında müəyyən oxşar cəhətlər vardır.

Sindikat (yunanca «syndikos» — birlikdə fəaliyyət göstərən) eyni növlü sənaye müəssisələrinin elə birliyidir ki, bu birlik məmulatların ümumi satış kontorası vasitəsilə satılması məqsədi ilə yaradılır. Satış kontorası xüsusi ticarət ortaqlığı formasında təşkil edilir. Sindikat iştirakçısı olan hər bir sənaye müəssisəsi kontorla öz məmulatlarının satılması barədə eyni şərtli müqavilə bağlayır. Satış kontoru nizamnamə əsasında fəaliyyət göstərir. Sindikat iştirakçıları öz istehsal müstəqilliyini saxlasalar da, kommersiya müstəqilliklərini itirirlər.

Sindikat spesifik subyekt tərkibinə malikdir. O, eyni bir sənaye sahəsində fəaliyyət göstərən sahibkarların birliyidir[4]. Sindikatın əsas məqsədi satışı təşkil etməkdən ibarətdir.

---

[1] Demək olar ki, dünya dövlətlərinin qanunvericiliyi konsorsiumun legal anlayışını və hüquqi xarakteristikasını vermir. Bu barədə bəzi beynəlxalq təşkilatların tövsiyə xarakterli müəyyən aktları vardır (bax: Руководства по составлению контрактов, разраб. Европейской комиссией ООН в 1973 и 1979 г).

[2] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993, с. 360-363; *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994, с. 134-135; Предпринимательское (хозяйственное) право. Учебник /Под ред. *О.М.Олейника*. М., 1999, с. 256-258.

[3] bax: *Fəyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O.* Tələb, təlabat, bazar və marketinq. Bakı. 1998.

[4] Sindikat və onun hüquqi vəziyyəti barədə bax: Коммерческий словарь. М., 1992, с. 199; Большой энциклопедический словарь. М., СПб., с. 1098; Хозяйственное (предпринимательское) право. Учебник. Том 1 / Под ред. *О.М.Олейника*. М., 1999, с. 258-259.

§ 6. Hüquqi şəxslərin nümayəndəlikləri, filialları və idarələri

1. Hüquqi şəxsin nümayəndəliyi

Ümumi qaydaya görə, hüquqi şəxslər, adətən, olduqları yerdə fəaliyyət göstərirlər. Hüquqi şəxslərin olduğu yer onun daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerlə müəyyən edilir. Çox vaxt hüquqi şəxsin fəaliyyət göstərməsi ərazi cəhətdən məhz bu yerlə məhdudlaşır, yəni hüquqi şəxs olduğu yerdə fəaliyyət göstərir.

Lakin bununla bərabər, bəzən hüquqi şəxsin olduğu yerdən ərazi baxımından kənarda, yəni başqa yerdə və məkanda (şəhərdə, respublikada və s.) onun mənafelərini təmsil və müdafiə etməyə, əqdlər bağlamağa, hüquqi hərəkətlər etməyə, habelə hüquqi şəxsin funksiyalarının hamısını və ya bir hissəsini həyata keçirməyə zərurət yaranır. Söhbət hüquqi şəxsin hərəkət və fəaliyyət sferasının genişləndirilməsindən gedir. Məsələn, Bakı şəhərində fəaliyyət göstərən firmanın buraxdığı və istehsal etdiyi malları Gəncə şəhərində satmaq üçün ayrı-ayrı ticarət şəbəkələri ilə alqı-satqı müqaviləsi bağlamaq zərurəti əmələ gəlir. Başqa bir misalda fəaliyyət göstərdiyi yer Bakı şəhəri olan ət dükanı üçün dağ rayonlarında yaşayan əhalidən ət məhsulları almağa ehtiyac yaranır. Daha başqa misalda Moskva şəhərində yerləşən universitetlərdən birinin Bakı şəhərində tədris-təhsil fəaliyyəti göstərməsinə tələbat yaranır və s.

Belə hallarda hüquqi şəxs özünün olduğu yerdən kənarda **xüsusi xarakterli bölmələrini** yaradır. Həmin bölmələrə aiddir:

- hüquqi şəxsin nümayəndəlikləri;
- hüquqi şəxsin filialları.

Həm hüquqi şəxsin nümayəndəliyi, həm də filialı **hüquqi şəxsin başqa ərazidə və məkanda yerləşən ayrıca struktur bölmələridir**. Bu, o deməkdir ki, həmin bölmələr hüquqi şəxsin təşkilati strukturuna onun bir elementi (tərkib hissəsi) kimi daxildir. Hüquqi şəxsin təşkilati strukturunun digər elementlərindən (tərkib hissələrindən) nümayəndəlik və filiallar onunla fərqlənirlər ki, onlar hüquqi şəxsin olduğu yerdən kənarda fəaliyyət göstərirlər. Deməli, nümayəndəlik və filial onları yaradan **hüquqi şəxsin təşkilati struktur hissəsidir**.

Nümayəndəlik dedikdə, hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən xüsusi bölməsi başa düşülür (MM-in 53-cü maddəsinin 1-ci bəndi). O, müxtəlif funksiyalar yerinə yetirir. Nümayəndəlik onu yaradan hüquqi şəxs adından əqdlər və müqavilələr bağlayır, müxtəlif hüquqi hərəkətlər edir, hüquqi şəxsin maraq və mənafelərini müdafiə edir. Onun fəaliyyət predmetinə həm də faktiki xarakterli və digər hərəkətləri etmək də daxildir. Məsələn, nümayəndəlik onu yaradan hüquqi şəxsi və onun buraxdığı məhsulları reklam edə, bağladığı əqdləri və müqavilələri icra edə və ya onların icra olunmasına nəzarət edə bilər. Lakin nümayəndəlik onu yaradan **hüquqi şəxsin həyata keçirdiyi istehsal və ya digər təsərrüfat fəaliyyəti** ilə məşğul ola bilməz. Buna onun ixtiyarı çatmır.

Nümayəndəlik hüquqi şəxsin özü tərəfindən yaradılır və ləğv edilir. Çox vaxt bu məsələnin həlli hüquqi şəxsin ali idarəetmə orqanının səlahiyyətinə aid edilir. Məsələn, nizamnaməsinə görə səhmdar cəmiyyətinin nümayəndəliyini yaratmaq haqqında qərarı səhmdarların ümumi yığıncağı (ali idarəetmə orqanı) qəbul edə bilər və s.

Nümayəndəliyin həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını onun **əsasnaməsi** təşkil edir. O, bunun əsasında fəaliyyət göstərir. Əsasnamə nümayəndəliyin hüquqi vəziyyətini müəyyən edən sənəddir. Bu sənədi hüquqi şəxs təsdiq edir.

Nümayəndəlik hüquqi cəhətdən müstəqil deyildir. Onun hüquqi şəxs statusu yoxdur, yəni **nümayəndəlik hüquqi şəxs hesab olunmur**. Məhz bu səbəbdən o, hüquqi şəxsin hüquqlarına malik deyil. Buna görə də nümayəndəlik subyekt qismində mülki (əmlak) dövriyyədə öz adından çıxış edə bilmir. Onun mülki hüquqi qabiliyyəti, bir sözlə, **mülki hüquq subyektliyi yoxdur**. Bu isə nümayəndəliyi mülki-hüquqi əhəmiyyətli hərəkətlər etmək imkanından, mülki hüquq münasibətlərində subyekt kimi iştirak etmək şansından məhrum edir.

Hüquqi şəxsin adından üçüncü şəxslərlə əqdlər, müqavilələr bağlamaq və digər hüquqi hərəkətlər etmək **nümayəndəliyin yerinə yetirdiyi əsas funksiyalardan** biridir. Nümayəndəlik isə mülki hüquq subyektliyinə malik deyil. Ona görə də o, üçüncü şəxslərlə əqdlər, müqavilələr bağlaya və digər hüquqi hərəkətlər edə bilməz. Bəs nə etməli? Vəziyyətdən çıxış yolu hüquqi şəxs tərəfindən nümayəndəliyin rəhbərinə (o, hüquqi şəxs tərəfindən təyin edilir) etibarnamə verilməsindən ibarətdir. Belə halda nümayəndəliyin özünə etibarnamə verilə bilməz. Çünki, yuxarıda dediyimiz kimi, onun mülki hüquq subyektliyi yoxdur və buna görə də subyekt rolunda üçüncü şəxslərlə hüquq münasibətinə girə bilməz. Nümayəndənin rəhbəri olan fiziki şəxs isə tam mülki fəaliyyət qabiliyyətinə malik olduğu üçün hüququn subyekti qismində üçüncü şəxslərlə hüquq münasibətinə daxil ola bilər. Belə halda hüquqi nəticə, yəni mülki hüquq və vəzifələr nümayəndəlik və onun rəhbəri üçün yox, hüquqi şəxs üçün əmələ gəlir.

Etibarnamə hüquqi şəxsin öz nümayəndəliyinin rəhbərinə verdiyi elə bir yazılı sənəddir ki, bu sənəd nümayəndəliyin rəhbərinə üçüncü şəxslər qarşısında nümayəndə (təmsilçi) kimi çıxış etməyə imkan verir. **Özü də nümayəndəliyin adından yox, hüquqi şəxsin adından və onun mənafeyi** üçün hərəkət etməyə, fəaliyyət göstərməyə imkan verir. Bu sənəddə nümayəndəliyin rəhbərinin səlahiyyət dairəsi müəyyənləşdirilir. Həmin səlahiyyət hüquqi şəxsin nizamnaməsində də nəzərdə tutula bilər. Belə halda zənn edirik ki, nümayəndəliyin rəhbərinə etibarnamə verilməsi lazım deyil[1]. Deməli, nümayəndəli-

[1] RF-in Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi Plenumunun birgə qərarında göstərilir ki, nümayəndəliyin rəhbərinin səlahiyyəti hüquqi şəxsin təsis sənədlərində müəyyənləşdirildiyi halda da ona hüquqi şəxs tərəfindən etibarnamə verilməsi tələb edilir (bax: n. 20. Постановления Пленумов ВС РФ и ВАС РФ от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первого Гражданского кодекса Российской Федерации» // Вестник ВАС РФ, 1996. № 9). Moskva alimlərindən Y.A.Suxanov belə hesab edir ki, nümayəndəliyin rəhbəri hüquqi şəxsin orqanı hesab edilmir və buna görə də onun səlahiyyəti hüquqi şəxsin təsis sənədlərində ifadə olunan göstərişə əsaslana bilməz (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 196). Göstərilən hər iki mövqe ilə çətin ki razılaşmaq olar. Bəzi müəlliflər bizim mövqedə dayanırlar (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 133).

yin rəhbəri təkcə ona verilmiş etibarnamə əsasında yox, həm də hüquqi şəxsin nizamnaməsində nəzərdə tutulan səlahiyyət əsasında mülki (əmlak) dövriyyədə hüquqi şəxsin adından və onun mənafeyi üçün hərəkət edə bilər. Prinsip etibarilə bu cür səlahiyyətin nümayəndəlik haqqında əsasnamədə də göstərilməsi və bu əsasnamə ilə rəsmiləşdirilməsi mümkündür. Belə ki, həmin əsasnamə hüquqi şəxs tərəfindən təsdiq olunur[1].

Nümayəndəlik həm kommersiya təşkilatları, həm də qeyri-kommersiya təşkilatları tərəfindən yaradıla bilər. Bu barədə qanun hər hansı məhdudiyyət və ayrı-seçkilik müəyyən etmir.

Yalnız dövlət qeydiyyatına alındıqdan sonra xarici hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində yaratdıqları xüsusi (ayrıca) bölməsi nümayəndəlik statusu əldə edir. Dövlət qeydiyyatı orqanında aparılan dövlət reyestrinə daxil edildiyi andan nümayəndəlik yaradılmış hesab edilir. Nümayəndəliyin dövlət qeydiyyatına alınması qaydası və təşkilati-hüquqi əsasları xüsusi qanunla müəyyən edilir[2]. Nümayəndəliyə dövlət qeydiyyatı orqanı tərəfindən dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir. Bu xarici hüquqi şəxsin nümayəndəliyinin dövlət qeydiyyatına alınmasını təsdiq edən sənəddir; dövlət reyestrinə daxil edilmə isə başqa sənədlə – dövlət reyestrindən çıxarışla təsdiqlənir. O ki qaldı, AR-da dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin nümayəndəliyinə, qeyd etməliyik ki, o, dövlət reyestrinə daxil edilməlidir; onun dövlət qeydiyyatına alınması tələb olunmur. Buna görə də belə nümayəndəliyə dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmir.

Nümayəndəliyin fəaliyyət göstərməsi üçün onun kifayət qədər əmlak bazası olmalıdır. Bu baza hüquqi şəxsin verdiyi əmlak hesabına yaradılır. Həmin əmlakın mülkiyyətçisi nümayəndəlik yox, hüquqi şəxs hesab edilir. Ona görə də **nümayəndəliyin fəaliyyəti ilə bağlı** olaraq yaranan öhdəliklər (borclar) üçün nümayəndəlik yox, hüquqi şəxsin özü məsuliyyət daşıyır.

2. Hüquqi şəxsin filialı

Nümayəndəlik kimi filial da (latınca «filialis» — oğulluq)[3] **hüquqi şəxsin xüsusi (ayrıca) bölməsidir**. Onlar arasında həm oxşar, həm də fərqli cəhətlər vardır.

Nümayəndəlik kimi filial da hüquqi şəxs tərəfindən yaradılır. Nümayəndəlik kimi filial da dövlət qeydiyyatına alınır və dövlət qeydiyyatı orqanında aparılan dövlət reyestrinə daxil edildiyi andan o, yaradılmış hesab edilir[4]; yalnız xarici hüquqi şəxslərin AR-in ərazisində yaratdıqları filiallar dövlət qeydiyyatına alınır və buna görə də onlara dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir. AR-də dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin filialları isə dövlət reyestrinə daxil edilməlidir; belə filialların dövlət qeydiyyatına alınması tələb edilmir və bu səbəbdən onlara dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmir. Nümayəndəlik kimi filial da hüquqi şəxs tərəfindən təsdiq edilən **əsasnamə əsasında fəaliyyət göstərir**. Əsasnamə filialın hüquqi statusunu müəyyənləşdirən və onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını təşkil edən başlıca sənəddir.

Nümayəndəlik kimi filial da **hüquqi şəxs statusuna malik olmayıb, hüquqi cəhətdən müstəqil deyil**. Onun mülki hüquq qabiliyyəti və buna görə də **mülki hüquq subyektliyi yoxdur**. Məhz bu səbəbdən nümayəndəlik kimi filial da hüquqi şəxs hüquqlarından istifadə edə və mülki dövriyyədə müstəqil olaraq öz adından çıxış edə bilmir. Üçüncü şəxslərlə hüquqi şəxsin adından və onun mənafeyi üçün əqdlər (müqavilələr) bağlamaq və digər hüquqi hərəkətlər etmək üçün, bir sözlə, nümayəndəlik və digər hüquqi funksiyaları yerinə yetirmək üçün (şübhəsiz ki, hüquqi şəxsin adından) filialın rəhbərinin adına (filialın özünə yox) etibarnamə verilir. Nümayəndəliyin rəhbəri kimi filialın da rəhbərini hüquqi şəxsin özü təyin edir. Etibarnamədə filialın rəhbərinə hüquqi şəxsin adından və onun mənafeyi üçün mülki (əmlak) dövriyyəyə çıxış etməyə səlahiyyət verilir. Səlahiyyətin verilməsi hüquqi şəxsin əsasnaməsində nəzərdə tutulmaq və göstərilmək yolu ilə də rəsmiləşdirilə bilər.

Nümayəndəlikdə olduğu kimi filialın da **əmlak bazası hüquqi şəxs tərəfindən verilən əmlak hesabına yaradılır**. Bu əmlakın mülkiyyətçisi filial yox, onu yaradan hüquqi şəxs hesab olunur. Buna görə də filialın fəaliyyəti ilə bağlı olaraq yaranan öhdəliklərə (borclara) görə cavabdeh olmaq hüquqi şəxsə həvalə edilir, yəni filialın fəaliyyətinə görə filialın özü yox, onu yaradan hüquqi şəxs mülki-hüquqi məsuliyyət daşıyır[1]. Nümayəndəlik kimi filial da onu yaradan hüquqi şəxsin olduğu yerdən kənarda yerləşir.

Göstərdiyimiz xüsusiyyətlər nümayəndəliyi və filialı bir-birilə birləşdirən oxşar cəhətlərdir. Bununla belə, onlar həm də fərqli cəhətlərə malikdirlər.

Onlar arasında **birinci fərqli cəhət** ondan ibarətdir ki, **nümayəndəlikdən fərqli olaraq filial hüquqi şəxsin yerinə yetirdiyi funksiyanı həyata keçirir**. Söhbət istehsal və digər təsərrüfat fəaliyyəti kimi funksiyalardan gedir. Nümayəndəliyin bu cür funksiya həyata keçirməyə ixtiyarı çatmır. Belə funksiyanı yerinə yetirməyə yalnız hüquqi şəxsin filialının hüququ vardır. Özü də filial hüquqi şəxsin funksiyalarının hamısını və ya bu funksiyaların yalnız bir hissəsini həyata keçirə bilər. Məsələn, ali təhsil məktəbinin başqa şəhərdə yerləşən filialı bütün ixtisaslar üzrə tələbə qəbul edir və tədris-təhsil fəaliyyəti ilə məşğul olur. Beləliklə o, ali təhsil məktəbinin (hüquqi şəxsin) həyata keçirdiyi funksiyanın hamısını yerinə yetirir. Başqa bir misalda dəmir-beton məmulatı müəssisəsinin başqa rayonda yerləşən filialı müəssisənin istehsal etdiyi bütün məmulatları yox, yalnız bu məmulatların bəzi növlərini hazırlayır. Burada isə müəssisənin (hüquqi şəxsin) funksiyalarının yalnız bir hissəsi filial tərəfindən hə-

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каплина, А.И.Масляева*. М., 1997, с. 81.

[2] bax: «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» 12 dekabr 2003-cü il tarixli qanun.

[3] bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина., Ф.Н.Петрова*. М., 1954, с. 734; Hüquq ensiklopedik lüğəti. Bakı. 1991, s. 462.

[4] Hüquqi şəxslərin filiallarının dövlət qeydiyyatına alınmasının qaydası və təşkilati-hüquqi əsasları «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanunla müəyyən edilir.

[1] Rusiya Federasiyası Ali Arbitraj Məhkəməsi Plenumu izah edir ki, öhdəliklərlə (borclarla) bağlı mübahisə yarandığı hallarda filial və nümayəndəliyin adından, habelə filial və nümayəndələrə pretenziya və iddia tələbi verilə bilməz. Bu cür pretenziya və iddia tələbləri yalnız hüquqi şəxsin özünə verilə bilər (bax: Постановление от 2 декабря 1993 года № 34. «Об участии в арбитражном процессе обособленных подразделений юридических лиц» // Вестник ВАС РФ. 1994. № 3. ст. 51).

yata keçirilir. Daha başqa bir misalda bankın (hüquqi şəxsin) filialı onun həyata keçirdiyi bank əməliyyatlarının yalnız bir hissəsini yerinə yetirir.

Onlar arasında **ikinci fərqli cəhət** ondan ibarətdir ki, **filialın həyata keçirdiyi funksiyanın həcmi nümayəndəliyə nisbətən daha böyükdür**. Daha doğrusu, filialın fəaliyyət predmeti daha geniş və əhatəlidir. Belə ki, filialın funksiyasına daxildir:

- birincisi, onu yaradan hüquqi şəxsin yerinə yetirdiyi funksiyaların (istehsal, təsərrüfat, təhsil-tədris, bank, sığorta və digər funksiyaların) hamısını və ya bir hissəsini həyata keçirmək;
- ikincisi, nümayəndəlik funksiyasını yerinə yetirmək, yəni onu yaradan hüquqi şəxsin adından və onun mənafeyi üçün mülki (əmlak) dövriyyədə çıxış etmək — üçüncü şəxslərlə əqdlər (müqavilələr) bağlamaq və digər hüquqi hərəkətlər etmək. Belə halda **hüquqi nəticə, yəni mülki hüquq və vəzifələr filial üçün yox, hüquqi şəxs üçün əmələ gəlir**.

Yuxarıda qeyd etdiyimiz kimi, nümayəndəliyin onu yaradan hüquqi şəxsin əsas funksiyalarını həyata keçirməyə hüququ çatmır. Nümayəndəlik funksiyası nümayəndəliyin başlıca funksiyasıdır.

Beləliklə, biz filialın əsas hüquqi parametr və detallarını müəyyənləşdirdik, həmçinin ona hüquqi xarakteristika verdik. Bundan sonra filiala anlayış verə bilərik ki, bu anlayış onun əsas cəhət və xüsusiyyətlərini əks edir.

Filial dedikdə, hüquqi şəxsin olduğu yerdə, kənarda yerləşən elə bir xüsusi (ayrıca) bölməsi başa düşülür ki, bu bölmənin fəaliyyət predmeti hüquqi şəxsin funksiyalarının hamısını (və ya bir hissəsini), o cümlədən nümayəndəlik funksiyasını həyata keçirməkdən ibarətdir.

Filial və nümayəndəliyi **nümayəndədən** fərqləndirmək lazımdır. Nümayəndə onlardan fərqli olaraq, mülki hüquq qabiliyyətinə və bələliklə, mülki hüquq subyektliyinə malik olub, mülki hüququn subyekti sayılır. Nümayəndə hüquqi cəhətdən müstəqildir. Almaniya sivilistika doktrinasında filiala yardımçı əşya (ləvazimat) kimi baxılır. Belə ki, o, əsas müəssisənin (hüquqi şəxsin) yardımçı əşyasıdır[1].

3. İdarə

İdarə dedikdə, hüquqi şəxsin yaratdığı elə bir təşkilat başa düşülür ki, bu təşkilatın əsas fəaliyyət predmeti idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaları həyata keçirməkdən ibarətdir (MM-in 54-cü maddəsinin 1-ci bəndi). Onun hüquqi statusu MM-in 54-cü maddəsi ilə müəyyən edilir.

İdarə konstruksiyasını sovet hüquq sistemi yaratmışdı. Köhnə 1964-cü il MM-in 88-1-ci maddəsi, habelə qüvvədən düşmüş «Azərbaycan Respublikasında mülkiyyət haqqında» qanunun 12-ci maddəsi bu konstruksiyanı nəzərdə tuturdu. Həmin konstruksiyaya görə, dövlət və ya bələdiyyə mülkiyyətində olan əmlak mülkiyyətçi tərəfindən (yəni dövlət və ya bələdiyyələr tərəfindən) dövlət və ya bələdiyyə büdcəsindəki idarəyə təhkim edilirdi və o, həmin idarənin operativ idarəsində olurdu. İdarələr qanunla müəyyən edilmiş hədlərdə, öz

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 43.

fəaliyyət məqsədlərinə, plan və mülkiyyətçinin tapşırıqlarına və əmlakın təyinatına uyğun olaraq sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək hüququnu həyata keçirirdi və mülkiyyətçinin (təsisçinin) vəsaiti ilə maliyyələşdirilirdi. Onların təhkim olunmuş əmlak üzərində mülkiyyət hüququ yaranmırdı. Mülkiyyətçi əmlakı idarədən geri götürə bilərdi. Bu hal isə idarələrin mülki (əmlak) dövriyyədə, müxtəlif mülki hüquq münasibətlərində müstəqil surətdə iştirakını xeyli dərəcədə məhdudlaşdırırdı. Onlar hüquqi şəxs statusuna malik idi.

İdarə konstruksiyası əvvəlki iqtisadi sistemə uyğun olaraq yaranmışdı. Bazar iqtisadiyyatı yolu ilə inkişaf dövründə o, öz əhəmiyyətini və rolunu itirir. Ona görə ki, bazar iqtisadiyyatı şəraitində əmtəə və əmlak xarakterli mülki dövriyyədə yalnız özünün şəxsi (xüsusi) əmlakı olan müstəqil, qeyri-asılı subyektlər (əmtəə sahibkarları) iştirak edə bilərlər. Bu baxımdan idarə konstruksiyası inkişaf etmiş əmtəə dövriyyəsi üçün, bazar münasibətləri üçün xarakterik deyil və yaramır. Bunu nəzərə alaraq bizim ölkə qanunvericiliyi idarələrin hüquqi təbiətini və xarakterini dəyişmişdir.

Hər şeydən əvvəl, idarələrin **hüquqi şəxs statusu yoxdur**. Mövcud mülki qanunvericiliyə görə, idarə hüquqi şəxs deyildir (MM-in 54-cü maddəsinin 2-ci bəndi). Bu, o deməkdir ki, idarələr müstəqil olaraq subyekt rolunda mülki hüquq münasibətlərində çıxış edə bilməz.

İdarələr həm ümumi (hakimiyyət) hüquq üzrə, həm də xüsusi (qeyri-hakimiyyət) hüquq üzrə hüquqi şəxslər tərəfindən yaradıla bilər[1]. Ümumi (hakimiyyət) hüquq üzrə hüquqi şəxslər dövlət hakimiyyət aktı əsasında yaradılır və hakimiyyət səlahiyyətlərinə malik olur. Bu növ hüquqi şəxslərə dövlət və bələdiyyə qurumları (hüquqi şəxsləri) daxildir. Həmin qurumların yaratdıqları idarələrə dövlət və bələdiyyə hakimiyyət və idarəçilik orqanlarını (hüquq-mühafizə orqanlarını, yəni məhkəmələri, prokurorluqları, daxili işlər sistemindəki idarələri və s.), tibb-səhiyyə idarələrini (məsələn, xəstəxanaları, poliklinikaları və s.), maarif idarələrini (orta məktəbləri), ali təhsil idarələrini (dövlət institutlarını, universitetlərini və s.), mədəniyyət idarələrini (muzeyləri, rəsm qalereyalarını, kitabxanaları və s.), elmi idarələri (məsələn, elmi tədqiqat institutlarını və s.), idman idarələrini və s. şamil etmək olar.

Ümumi (hakimiyyət) hüquq üzrə hüquqi şəxslərin yaratdıqları idarələr **ümumi (hakimiyyət) idarələr** adlanır. Bunların iki növü fərqləndirilir: dövlət idarələri; bələdiyyə idarələri. Dövlət hüquqi şəxslərinin yaratdıqlan qurumlar **dövlət idarələri** adlanır. Əgər müvafiq idarə bələdiyyə hüquqi şəxsləri tərəfindən təsis edilərsə, buna **bələdiyyə idarəsi** deyilir.

İdarələr xüsusi (qeyri-hakimiyyət) hüquq üzrə hüquqi şəxslər tərəfindən də yaradıla bilər. Xüsusi hüquqi şəxslər qeyri-dövlət hüquqi şəxsləri olub, xüsusi mülkiyyətə əsaslanır. Onlar tərəfindən elm, səhiyyə, maarif, mədəniyyət, idman və digər idarələr yaradıla bilər. Bunlara **xüsusi idarələr** deyilir.

İdarə hüquqi şəxsin qərarı əsasında yaradılır. Onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını **əsasnamə** təşkil edir. Belə ki, idarə əsasnamə üzrə fəa-

[1] İnkişaf etmiş hüquq sistemlərində, başlıca olaraq Avropa kontinental hüquq sistemində hüquqi şəxslərin ümumi hüquq üzrə hüquqi şəxslər və xüsusi hüquq üzrə hüquqi şəxslər adlı iki yerə bölünməsinə rast gəlirik (Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 180).

liyyət göstərir. Bu əsasnamə hüquqi şəxs tərəfindən təsdiq edilir (MM-in 54-cü maddəsinin 2-ci bəndi). Əsasnamədə idarənin fəaliyyət məqsədi və predmeti göstərilir, onun idarə olunması qaydası müəyyənləşdirilir, idarənin əmlakı və digər məsələlər barədə mühüm müddəalar formulə edilir.

Hüquqi şəxs idarəyə rəhbər təyin edir. O, idarənin təkbaşına icra orqanı rolunda çıxış edir. Bununla belə, idarə kollegial icra orqanı tərəfindən də idarə oluna bilər (məsələn, təhsil idarəsinin elmi şura tərəfindən idarə edilməsi və s.).

İdarənin əmlak bazasını hüquqi şəxs tərəfindən **ona təhkim edilmiş əmlak** təşkil edir. Zəruri əmlak bazası olmadan idarə fəaliyyət göstərə bilməz. İdarə ona təhkim edilmiş əmlak barəsində **mülkiyyət hüququ yox, məhdud əşya hüququ əldə** edir. Belə ki, o, həmin əmlak barəsində qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyət məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir (MM-in 54-cü maddəsinin 3-cü bəndi). Hüquqi şəxsin icazəsi olmadan idarə həmin əmlakı özgəninkiləşdirə (sata, bağışlaya, dəyişdirə və s.) bilməz.

İdarənin fəaliyyəti ilə bağlı onun müəyyən öhdəlikləri (borcları) yarana bilər. Bu öhdəliklərə (borclara) görə idarə yox, bu idarəni yaratmış hüquqi şəxs məsuliyyət daşıyır (MM-in 54-cü maddəsinin 4-cü bəndi). Belə ki, kreditorların tələblərini hüquqi şəxs təmin edir.

İdarə müxtəlif əsaslara görə ləğv edilir. Bu zaman əmlak idarəni yaratmış hüquqi şəxsin mülkiyyətinə daxil olur.

RF-in mülki qanunvericiliyi idarələri hüquqi şəxslərin müstəqil təşkilati-hüquqi formalarından biri kimi nəzərdə tutur. Bu ölkənin qanunvericiliyə görə, onlar qeyri-kommersiya təşkilatları kateqoriyasına şamil edilir. Bizim ölkənin qanunvericiliyinə görə isə idarələr hüquqi şəxs statusuna malik olmayan qeyri-kommersiya qurumları hesab edilir. Onlar **hüquqi şəxsin təşkilati strukturuna daxil olan xüsusi bölmədir.**

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Братусь С.Н. Юридические лица в советском гражданском праве М., 1947.

Иоффе О.С. Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 1. Л., 1958 (гл. «Юридические лица»).

Грибанов В.П. Юридические лица. М., 1961.

Субъекты советского гражданского права. М., 1984 (гл. 3).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова**. М., 1985 (гл. 5).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 7).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 5).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко** М., 1998 (гл. 5).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой**. М., 1998 (гл. 6).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 7).

Гражданское право. Учебник. Под ред. **С.П.Гришаева**. М., 1998 (гл. 3).

Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. О.Н.Садикова. М., 1999.

Комментарий части первого Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1995.

Хохлов Е.Б., Бородин В.В. Понятие юридического лица: история и современная трактовка // Государство и право. 1993.

Суханов Е. Юридические лица // Хозяйство и право. 1995. № 4.

Суханов Е.А. Хозяйственные общества и товарищества, производственные и потребительские кооперативы // Вестник Высшего Арбитражного Суда РФ. 1995. № 6.

Суханов Е. Акционерные общества и другие юридические лица в новом гражданском законодательстве // Хозяйство и право. 1997. № 1.

Суханов Е. Закон об обществах с ограниченной ответственностью // Хозяйство и право. 1998. № 5.

Правовое регулирование деятельности акционерных обществ (акционерное право). Учебное пособие / Под ред. **Е.П.Губина.** М., 1998.

Суханов Е. Реорганизация акционерных обществ и других юридических лиц // Хозяйство и право. 1996. № 1.

Витрянский В.В. Банкротство: ожидания и реальность // Экономика и жизнь. 1994. № 49.

Витрянский В.В. Новое законодательство о несостоятельности (банкротстве) // Хозяйство и право. 1998. № 4.

Витрянский В.В. Банкротство: долгая процедура «ускорения» // Экономика и жизнь. 1998. № 29.

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.

Köhler H. BGB. Allgemeiner Teil. München.1998.

Brehm W. Allgemeiner Teil des BGB. 1997.

Brox H. Allgemeiner Teil des Bürgerlichen Gesetzbuches.1997.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983.

VIII FƏSİL
DÖVLƏT MÜLKİ HÜQUQUN SUBYEKTİ KİMİ. MÜLKİ HÜQUQ MÜNASİBƏTLƏRİNİN İŞTİRAKÇISI KİMİ DÖVLƏTİN HÜQUQİ VƏZİYYƏTİ

§ 1. Dövlətin mülki hüquq subyektliyi və onun əsas cəhətləri

1. Dövlətin mülki hüquq subyektliyinin anlayışı və onun elementləri

Mülki hüququn subyektləri kateqoriyasına fiziki və hüquqi şəxslərdən savayı, dövlət də daxil edilir. O, mülki (əmlak) dövriyyə sferasında yaranan münasibətlərin iştirakçısı rolunda çıxış edə bilər. Sivilistika doktrinasında (mülki hüquq elmində) dövlət **mülki hüququn xüsusi (spesifik) subyekti (sui generis)** hesab edilir[1]. Amma dövlət fiziki və hüquqi şəxslərdən fərqli olaraq, mülki hüququn fəal subyekti sayılmır.

Dövlət müəyyən hallarda mülki qanunvericiliklə tənzimlənən münasibətlərdə çıxış edə bilər. Söhbət dövlətin mülki hüquqla nizama salınan ictimai münasibətlərdə (mülki hüquq münasibətlərində) subyekt rolunda iştirak etməsindən gedir. Bunun üçün onun mülki hüquq subyektliyinə malik olması gərəkdir. **Dövlətin mülki hüquq subyektliyi** onun mülki hüquq münasibətlərinin iştirakçısı olmaq qabiliyyəti və imkanıdır.

Dövlətin mülki hüquq subyektliyi bir sıra hallarla şərtlənir. Bir tərəfdən dövlət öz qarşısında duran ümumi, ümumi milli və digər ictimai vəzifələri həll etmək üçün mülki (əmlak) dövriyyədə iştirak etməyə məcbur olur. Belə halda, şübhəsiz, nəzərə alınmalıdır ki, dövlət siyasi hakimiyyət funksiyasını həyata keçirir və suverenliyinə malikdir. Özü də dövlət elə bir hakimiyyəti həyata keçirir ki, bu hakimiyyətin əsasında suverenlik durur. Məhz bu xüsusiyyətlərə malik olan dövlət mülki (əmlak) dövriyyənin bütün subyektləri (iştirakçıları) üçün qanunvericilik qaydasında ümumi məcburi davranış normaları (qaydaları) müəyyən etməklə bu dövriyyəni qaydaya salır, tənzimləyir, onu təşkil edir, habelə dövriyyə iştirakçılarının hüquq subyektliyini müəyyənləşdirir. O, hüquq qaydasını da müəyyən edir. Dövlətin müəyyən etdiyi normaları mülki hüququn digər subyektləri — fiziki və hüquqi şəxslər yerinə yetirirlər.

Bununla belə, dövlət mülki (əmlak) dövriyyədə — müxtəlif mülki hüquq münasibətlərində özünün iştirak imkanlarının sərhədlərini də təyin edir. Bununla o, özünün mülki hüquq subyektliyini, onun məzmununu və hədlərini müəyyənləşdirir.

Digər tərəfdən, dövlətin çıxış etdiyi mülki (əmlak) dövriyyə münasibətləri, bir qayda olaraq, yalnız hüquqi cəhətdən bərabər olan subyektlər — əmtəə sahibləri, mülkiyyətçilər arasında yaranır. Bu münasibətlər xüsusi (qeyri-hakimiyyət) hüquq münasibətləridir. Deməli, mülki (əmlak) dövriyyə ümumi-hüquqi yox, xüsusi-hüquqi formaya malikdir. Ümumi-hüquqi forma hakimiyyət-tabeçilik prinsipinə, xüsusi-hüquqi forma isə iştirakçıların hüquq bərabərliyinə əsaslanır. Bu forma olmadan həmin dövriyyə normal fəaliyyət göstərə bilməz. Mülki (əmlak) dövriyyədə çıxış edən dövlət isə, yuxarıda qeyd etdiyimiz kimi, hakimiyyət funksiyasına malikdir. O, hakimiyyət xarakterli ümumi hüquq münasibətlərinin subyektidir. Beləliklə, mülki (əmlak) dövriyyədə yalnız hüquqi cəhətdən bərabər olan subyektlərin iştirak etməsi barədə dövlətin müəyyən etdiyi qaydanın mahiyyəti bax, bundan ibarətdir. Belə ki, o, mülki (əmlak) dövriyyədə subyekt rolunda çıxış edəndə həmin dövriyyənin digər iştirakçıları ilə bərabər hüquqlara malik olmalı, **onlara münasibətdə hakimiyyət funksiyasından istifadə etməməlidir.**

Dediklərimizdən belə nəticə çıxara bilərik ki, dövlətin mülki hüquq subyektliyi iki halla şərtlənir. Birinci hala görə, dövlət öz qarşısında duran iqtisadi-sosial vəzifələri həll etmək üçün subyekt qismində mülki (əmlak) dövriyyədə iştirak edir. İkinci hala görə isə əmtəə-əmlak xarakterli, iştirakçıların hüquq bərabərliyinə əsaslanan mülki (əmlak) dövriyyədə çıxış edəndə o, öz hakimiyyət funksiyasından istifadə etmir.

Dövlətin mülki hüquq subyektliyi bir neçə elementdən ibarətdir. Bu elementlərə daxildir:

- dövlətin mülki hüquq qabiliyyəti;
- dövlətin mülki fəaliyyət qabiliyyəti;
- dövlətin delikt qabiliyyəti.

Dövlətin mülki hüquq qabiliyyəti onun mülki hüquqlara malik olmaq və müvafiq vəzifə daşımaq qabiliyyətidir. Dövlət bu qabiliyyətin xarakterini və məzmununu özü müəyyən edir.

Sivilistika doktrinasında (mülki hüquq elmində) dövlətin mülki hüquq qabiliyyəti mübahisə doğuran məsələlərdəndir. Müəlliflərin bu barədə fikirləri üstüstə düşmür. Bir qrup alimlər göstərirlər ki, dövlətin mülki hüquq qabiliyyəti (mülki hüquq subyektliyi) universal xarakterə malikdir[1]. Bəzi müəlliflərin mövqeyinə görə, dövlətin mülki hüquq qabiliyyəti ümumi (universal) yox, xüsusi xarakter daşıyır[2]. Üçüncü qrup müəlliflər isə dövlətin xüsusi yox, məqsədli hüquq qabiliyyətinə malik olması fikrini söyləyirlər[3].

Bizim fikrimizcə, ikinci və üçüncü qrup müəlliflərin mövqelərində həqiqətə

[1] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 172; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 179; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 140; Гражданское право: Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 282; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 105-106.

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 173; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 140.

[2] Советское гражданское право. Субъекты гражданского права / Под ред. *С.Н.Братуся*. 1984, с. 270-271; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 283; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 109.

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 125.

yaxın olan, ağlabatan və inandırıcı cəhətlər vardır. Lakin onlar məsələnin əsl mahiyyətini dərindən, hərtərəfli və tam aydınlaşdırmayaraq, ona birtərəfli, yarımçıq və məhdud yanaşırlar.

Ümumi (universal) hüquq qabiliyyəti subyektin hər hansı fəaliyyət növünün həyata keçirilməsi üçün lazım olan istənilən mülki hüquq və vəzifələrə malik olma imkanını ifadə edir. Dövlət hakimiyyət mahiyyətli təşkilatdır. O, öz xarakter və təbiətinə görə siyasi hakimiyyət daşıyıcısıdır. Məhz bu səbəbdən dövlət hər hansı fəaliyyət növü ilə məşğul ola və bunun üçün istənilən mülki hüquq və vəzifələrə malik ola bilməz. Deməli, **dövlətin ümumi (universal) mülki hüquq qabiliyyəti yoxdur**.

Xüsusi (məhdud) hüquq qabiliyyəti onu ifadə edir ki, subyekt yalnız öz fəaliyyət məqsədlərinə uyğun gələn və qanunda göstərilən mülki hüquqlara və vəzifələrə malik ola bilər. Ümumi (universal) hüquq qabiliyyəti subyektə istənilən mülki hüquq münasibətində, xüsusi (məhdud) hüquq qabiliyyəti isə yalnız müəyyən, məhdud dairəli mülki hüquq münasibətində iştirak etməyə imkan verir. Ümumi (universal) hüquq qabiliyyəti subyekti istənilən əmlak və şəxsi qeyri-əmlak huquqlarına, xüsusi (məhdud) hüquq qabiliyyəti isə yalnız məhdud əmlak və şəxsi qeyri-əmlak hüquqlarına malik olmaq imkanı ilə təmin edir. Siyasi təşkilat olan dövlətin təbiəti, xarakteri və mahiyyəti elədir ki, o, qanunda göstərilən məhdud (xüsusi) dairəli mülki hüquq və vəzifələrə malik ola bilər. Bu hüquq və vəzifələr xüsusi mənafe ilə yox, bütün cəmiyyətin mənafeyi (ictimai mənafe) ilə şərtlənir. Dövlətin fəaliyyəti konstitusiya ilə məhdudlaşır. Deməli, **dövlətin mülki hüquq qabiliyyəti xüsusi (məhdud) xarakterə malikdir**.

Məqsədli (məhdud) hüquq qabiliyyəti onu ifadə edir ki, subyekt yalnız qarşıya qoyulan məqsədə çatmaq üçün mülki hüquq və vəzifələrə malik ola bilər[1]. **Dövlət məhz məqsədli (məhdud) hüquq qabiliyyətinə malikdir**. Ona görə ki, dövlətin əsas məqsədi bütün cəmiyyətin mənafeyi, ümummilli ictimai mənafe ilə bağlıdır. Bu məqsəddən ötrü dövlət mülki hüquq və vəzifələrə malik olur. Beləliklə, **dövlətin mülki hüquq qabiliyyəti həm xüsusi (məhdud), həm də məqsədli (məhdud) xarakter daşıyır**. Dövlətin xüsusi (məhdud) hüquq qabiliyyətli olması o deməkdir ki, o, həm də məqsədli (məhdud) hüquq qabiliyyətlidir.

Dövlətin mülki hüquq qabiliyyəti məzmunca (həcmcə) fiziki və hüquqi şəxslərin mülki hüquq qabiliyyətinə müəyyən hallarda uyğun gəlmir, ondan bu və ya digər dərəcədə fərqlənir. Belə ki, bəzi sahələrdə dövlətin mülki hüquq qabiliyyəti onların mülki hüquq qabiliyyətindən məzmunca daha geniş olur. Məsələn, ölən fiziki şəxsin nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsəsi olmadığı hallarda, dövlət miras əmlakı əldə etmək imkanına malikdir. Nə fiziki şəxsin, nə də hüquqi şəxsin bu cür hüquqi imkanı yoxdur (hüquqi şəxs MM-in 1165-ci maddəsində göstərilən bəzi istisna hallarda ola bilər). Başqa bir misalda əmlakı yalnız dövlət həcz (rekvizisiya) və müsadirə etmək hüququna malikdir.

[1] Ümumiyyətlə, «məqsədli hüquq qabiliyyəti» və «xüsusi hüquq qabiliyyəti» kimi iki anlayış sinonim (eyni mənalı) anlayışlardır. Bunları bir-birindən ayırmağın və fərqləndirməyin heç bir hüquqi və prinsipial əhəmiyyəti və mənası yoxdur. Məhz bu səbəbdən də həmin anlayışları birbirindən fərqləndirən müəlliflərin mövqeyi, bizim fikrimizcə, həqiqətdən uzaqdır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 181).

Başqa bir misalda dövlət istiqraz vərəqələri buraxmaq hüququ, strateji əhəmiyyəti olan bəzi malların xaricə ixrac edilməsi üzərində dövlət inhisarçılığı hüququ yalnız dövlətə məxsusdur.

Bununla belə, bəzi sahələrdə dövlətin mülki hüquq qabiliyyəti məzmunca fiziki və hüquqi şəxslərin mülki hüquq qabiliyyətindən az olur. Məsələn, hər bir fiziki şəxsin ad hüququ vardır. Hüquqi şəxsin də öz təşkilati-hüquqi formasını göstərən adı olur. Amma dövlət bunlardan fərqli olaraq, ad hüququna malik ola bilməz. Fiziki şəxslərdən fərqli olaraq, dövlətin əmlakı vəsiyyət etmək hüququ yoxdur. Hüquqi şəxslərdən fərqli olaraq, dövlət öz filial və nümayəndəliklərini açа bilməz.

Bəzi sahələrdə isə dövlətin mülki hüquq qabiliyyəti məzmunca fiziki və hüquqi şəxslərin mülki hüquq qabiliyyəti ilə üst-üstə düşür. Məsələn, həm dövlət, həm fiziki şəxslər, həm də hüquqi şəxslər əmlaka malik ola bilərlər. Başqa bir misalda həm dövlətin, həm fiziki şəxslərin, həm də hüquqi şəxslərin vəsiyyət edilmiş əmlakı qəbul etmək hüququ vardır.

Dövlətin mülki fəaliyyət qabiliyyəti onun mülki hüquq subyektliyinin elementlərindən biridir. Dövlətin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək imkanına **dövlətin mülki fəaliyyət qabiliyyəti** deyilir. Bu qabiliyyətdən istifadə etməklə dövlət öz mülki hüquq qabiliyyətini həyata keçirir. **Dövlətin mülki fəaliyyət qabiliyyəti məqsədli (xüsusi, məhdud) xarakterə malikdir**.

Dövlətin mülki fəaliyyət qabiliyyəti məzmunca fiziki və hüquqi şəxslərin mülki fəaliyyət qabiliyyətindən fərqlənir. Belə ki, dövlətin bəzi mülki-hüquqi əqdləri bağlamaq imkanı məhduddur. Məsələn, dövlət əqdlərin bir növü olan françayzinq müqaviləsini, pərakəndə alqı-satqı müqaviləsi və başqalarını bağlaya bilməz. Dövlətin əmlakı vəsiyyət etmək kimi birtərəfli əqd bağlamaq hüququ yoxdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq mülki fəaliyyət qabiliyyətinin məzmununu təşkil edən elementlərdən biridir. Dövlətin fiziki və hüquqi şəxslərdən fərqli olaraq, sahibkarlıq fəaliyyətini həyata keçirmək hüququ da yoxdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyəti ilə dövlət təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçısı kimi çıxış edə bilməz (MM-in 64-cü maddəsinin 6-cı bəndi).

Dövlətin mülki hüquq subyektliyini xarakterizə edən elementlərdən biri onun delikt qabiliyyətinə malik olmasıdır. **Dövlətin delikt qabiliyyəti** dedikdə, onun mülki hüquq pozuntusuna görə cavab vermək, məsuliyyət daşımaq qabiliyyəti başa düşülür. Bu qabiliyyətin əsasını Konstitusiyanın 68-ci maddəsində ifadə edilən belə bir hüquqi göstəriş təşkil edir ki, dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanunazidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin əvəzini dövlət ödəməlidir[1]. Dövlət həm də iştirak etdiyi müqavilə öhdəliklərini lazımınca icra etməməyə və ya icra etməməyə görə məsuliyyət daşıyır.

Hüquqi şəxslə bərabər, dövlət də mülki hüququn **kollektiv subyekti kateqoriyasına** aid edilir[2]. Dövlət kollektiv təşkilatdır, kollektiv qurumdur. O, özü-

[1] bax: AR QK, II cild, s. 583.

[2] bax: *Братусь С.Н.* Субъекты гражданского права. М., 1950, с. 32; Теория государства и право. Курс лекций / Под ред. *Н.И.Матузова, А.В.Малько*. М., 2000, с. 519.

nün mülki hüququn kollektiv subyekti olması üçün lazım olan bütün əlamətlərə malikdir. Belə ki, birincisi, dövlət onu tam və vahid kollektiv qurum kimi xarakterizə edən **təşkilati vahidliyə malikdir**. Təşkilati vahidlik eyni məqsəd üçün fəaliyyət göstərən müəyyən səlahiyyətli dövlət orqanlarının və ona tabe olan bölmələrin mövcudluğunu ifadə edir.

İkincisi, dövlət mülki hüquq münasibətlərində müstəqil surətdə iştirak etmək üçün **lazım olan ayrıca əmlaka** malikdir. Bu, onda ifadə olunur ki, Azərbaycan Respublikasının əmlak üzərində dövlət mülkiyyət hüququ vardır.

Üçüncüsü, dövlət öz **öhdəliklərinə görə müstəqil surətdə öz əmlakı ilə məsuliyyət daşıyır**.

Dördüncüsü, dövlət mülki hüquqlar əldə edərkən və həyata keçirərkən, habelə məhkəmədə iştirak edərkən öz adından çıxış etmək hüququna malikdir. Onun **mülki (əmlak) dövriyyədə öz adından iştirak etmək hüququ vardır**.

Almaniya sivilistika doktrinasında dövlət hakimiyyət xarakterli ümumi-hüquqi şəxslər kateqoriyasına şamil olunur[1]. Bundan əlavə, L.Ennekserus öz təbiətinə görə dövləti korporasiya hesab edir. Alim bunu onunla izah edir ki, dövlət vətəndaşların məcmusundan ibarətdir[2].

2. Dövlətin mülki hüquq subyektliyinin əsas cəhətləri

Dövlətin mülki hüquq subyektliyi bir sıra cəhətlərlə xarakterizə olunur. **Birinci cəhət** ondan ibarətdir ki, **dövlət xüsusi (məqsədli, məhdud) hüquq subyektliyinə malikdir.** Biz bundan əvvəlki yarımbaşlıqda bu məsələyə toxunmuşuq. Həmin məsələyə bir daha, yenidən qayıdaraq qısaca qeyd edirik ki, dövlət öz xüsusi maraq və mənafeyi naminə mülki (əmlak) dövriyyədə iştirak etmir. O, öz qarşısında duran **ümummilli, iqtisadi-ictimai və ümumi sosial mənafe ilə bağlı olan vəzifələri** həyata keçirmək məqsədilə subyekt rolunda müxtəlif mülki hüquq münasibətlərinə girir.

Dövlətin mülki hüquq subyektliyinin **ikinci cəhəti** ondan ibarətdir ki, dövlət subyekt kimi mülki hüquq münasibətinə daxil olarkən bu münasibətin **digər iştirakçısı (kontrangenti) ilə hüquq bərabərliyinə malik olur**. Bu, onunla izah edilir ki, dövlətin iştirak etdiyi mülki hüquq münasibətləri mülki qanunvericiliklə tənzim edilir. Buna görə də həmin münasibətlər nizama salınarkən mülki qanunvericiliyin əsas və fundamental prinsiplərindən birindən — mülki hüquq subyektlərinin hüquq bərabərliyi prinsipindən istifadə olunur. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, mülki hüququn hər bir subyekti mülki hüquq münasibətlərində iştirak edərkən bərabər hüquqi imkanlara malikdirlər. Bu subyektlərdən birinin digərinə öz iradəsini diqtə edə bilmək ixtiyarı çatmır. Həmin prinsip mülki hüquq münasibətlərində iştirak edən tərəflərin vəziyyətinin hüquqi cəhətdən bərabər olmasına imkan verir.

Hüquq bərabərliyi prinsipi mülki hüquq münasibətlərinə girən subyektlər arasında hakimiyyət-tabeçilik və subordinasiya əlaqələrini istisna edir. Məhz bu səbəbdən **mülki hüquq münasibətlərində iştirak edərkən dövlət özünün hakimiyyət funksiyasından və səlahiyyətindən istifadə etmir.** O, həmin münasibətlərin digər iştirakçısı ilə bərabər hüquqi imkanlara malik olur. Məsələn, vətəndaş dövlətin buraxdığı istiqraz vərəqəsini alır və bununla mülki (borc) hüquq münasibəti yaranır. Bu münasibətin iştirakçıları — dövlət və vətəndaş hüquqi cəhətdən bərabərdirlər. Həmin vətəndaşa münasibətdə dövlət hakimiyyət funksiyasından istifadə etmir.

Mülki hüquq münasibətlərində iştirak etmək dövləti şəxsə «çevirmir», «dövlətin şəxsiyyətini» parçalamır. Belə ki, mülki hüquq münasibətlərində iştirak edən **dövlət hakimiyyət funksiyasını və səlahiyyətini itirmir, əksinə, saxlayır.** Dövlət həmişə bütün hallarda, o cümlədən tərəflərin hüquq bərabərliyi prinsipi üzərində qurulan mülki hüquq münasibətlərində iştirak edən hallarda da hakimiyyət funksiyasını yerinə yetirən hakimiyyət daşıyıcısı kimi qalır, şəxsə çevrilmir[1]. Mülki hüquq münasibətlərinin iştirakçısı olarkən o, sadəcə olaraq hakimiyyət funksiyasından özü istifadə etmir.

Dövlət bütün hallarda **hüququn vahid subyekti kimi** çıxış edir. Amma onun hüquq subyektliyinin təzahür və ifadə formaları müxtəlifdir. Əgər dövlət mülki hüquq münasibətinə girirsə, məsələn, mülki-hüquqi əqd bağlayırsa (borc, alqı-satqı, podrat, icarə və s. müqavilələr bağlayırsa), o öz suverenliyini itirmir, əksinə, o, iqtisadi (əmlak) dövriyyə münasibətləri sahəsində suveren hakimiyyət daşıyıcısı kimi fəaliyyət göstərməkdə davam edir və hüquqi şəxsə çevrilmir. Hüquqi şəxs kateqoriyası hər bir dövlətin daxili milli hüququnun kateqoriyasıdır. Hər hansı quruma hüquqi şəxs statusu verilməsi qaydasını dövlətin özü müəyyənləşdirir, yəni qurumun hüquqi şəxs kimi tanınması üçün tələb olunan əlamətləri dövlətin özü təyin edir. Bəs onda kim dövlətə hüquqi şəxs statusu verə bilər? Məhz bu səbəblərə görə Qərb hüquq elmində və doktrinasında irəli sürülmüş «dövlətin parçalanması» adlı konsepsiyanın heç bir əsası yoxdur. Bu nəzəriyyəyə görə, əmlak münasibətlərində çıxış etdiyi hallarda dövlət iki şəxsə «parçalanır», «ayrılır». Əgər dövlət özünün malik olduğu suverenlik əsasında hərəkət edərsə, bir şəxs kimi — hakimiyyət subyekti kimi yox, əgər dövlət əqd, müqavilə bağlayarsa, onda başqa şəxs — hüquqi şəxsə bərabər tutulan şəxs qismində çıxış edir[2].

Dövlətin mülki hüquq subyektliyinin **üçüncü cəhəti** ondan ibarətdir ki, o, **mülki hüquq münasibətlərində özünün orqanları vasitəsilə çıxış edir.** Belə ki, dövlət mülki fəaliyyət qabiliyyətli olsa da, o, dövlət kimi özü bu qabiliyyəti həyata keçirmək iqtidarına və imkanına malik deyil. Başqa sözlə desək, dövlətin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətini dövlət kimi realizə etmək (həyata keçirmək) imkanı yoxdur. Onun adından həmişə mülki hüquq münasibətlərində dövlət orqanları çıxış edirlər. Bu orqanlar dövlətin mülki fəaliyyət qabiliyyətini həyata keçirirlər, realizə edirlər. Bir sözlə, dövlətin fəaliyyət qabiliyyəti, o cümlədən mülki hüquq qabiliyyəti dövlət orqanları vasitəsilə gerçəkləşdirilir. Bu orqanlar mülki hüququn müstəqil subyekti kimi dövlətin iradəsini formalaşdırır və ifadə edirlər. Dövlət orqanları mülki (əmlak) dövriyyədə

---

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 422; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 301.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 422.

[1] Ona görə də mülki hüquq münasibətinə girərkən dövlətin şəxsə çevrilməsi barədə fikir söyləyən Peterburq alimlərindən A.A.Ivanovun mövqeyi ilə razılaşmaq olmaz (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 180).

[2] bax: *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994, с. 151.

dövlət adından çıxış edirlər. Onların hərəkət etmələri və fəaliyyət göstərmələri dövlətin özünün hərəkət etməsini və fəaliyyət göstərməsini ifadə edir. Məhz bu orqanların etdiyi hərəkətlər vasitəsilə dövlət mülki hüquqlar əldə edir və onları həyata keçirir, özü üçün mülki vəzifələr yaradır və icra edir. Məhz bu orqanların hərəkətləri nəticəsində mülki hüquq münasibətlərinin iştirakçısı onlar yox, dövlətin özü olur.

Belə hallarda zəruridir ki, dövlət orqanlarının etdiyi hərəkətlərin onların müvafiq səlahiyyətlərinə əsaslanması və uyğun gəlməsi müəyyənləşdirilsin. Belə ki, edilən hərəkətlərin dövlət orqanlarının səlahiyyətinə daxil edilib-edilməməsini təyin etmək lazımdır. Əgər müvafiq hərəkətin edilməsi dövlət orqanının səlahiyyətinə aid deyilsə, onda həyata keçirilmiş bu cür hərəkətin hüquqi əhəmiyyəti olmayacaqdır. Bu, onu göstərir ki, **dövlət orqanları dövlətin mülki fəaliyyət qabiliyyətini həyata keçirərkən yalnız onlara verilmiş səlahiyyət həddində hərəkət edə bilər**. Dövlət orqanlarının səlahiyyəti isə bu orqanların statusu barədə aktla müəyyən edilir. Məsələn, Azərbaycan Respublikasının Milli Bankının səlahiyyətləri Konstitusiya və müvafiq qanunla müəyyən edilir[1]. Müəllif hüquqları sahəsində dövlət siyasətini həyata keçirən dövlət idarəsi olan Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin səlahiyyətləri müvafiq əsasnamədə göstərilir[2]. Mərkəzi idarəedici dövlət orqanı olan Azərbaycan Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin səlahiyyəti əsasnamə ilə müəyyən edilir[3]. Maliyyə siyasətini həyata keçirən Maliyyə Nazirliyinin səlahiyyətləri müvafiq əsasnamədə nəzərdə tutulur[4].

Dövlətin səlahiyyətlərini yerinə yetirən orqanlar sistemində Nazirlər Kabineti mühüm yer tutur. Bunu nəzərə alaraq qüvvədə olan qanunvericilik bəzi hallarda Nazirlər Kabinetinə dövlət adından müqavilə bağlamağa səlahiyyət verir. Məsələn, xarici investorlarla konsessiya müqavilələrini Nazirlər Kabineti bağlayır. Dövlətin Nazirlər Kabineti tərəfindən təmsil edilməsi Azərbaycan Respublikasının dövlət borcunun Nazirlər Kabinetinin borc öhdəliklərindən ibarət olmasında ifadə olunur.

Mülki hüquq münasibətlərində dövlətin səlahiyyətlərini həyata keçirən orqanlardan biri **Maliyyə Nazirliyi** hesab edilir. Bu nazirliyin həyata keçirdiyi funksiyalardan biri müəyyən olunmuş qaydada dövlət büdcəsinin icrasını təmin etməkdən, yəni dövlət büdcə vəsaitlərinə sərəncam verməkdən ibarətdir[5]. Dövlət büdcəsinin vəsaiti Azərbaycan Respublikasının (dövlətinin) mülkiyyətidir (MM-in 155-ci maddəsinin 3-cü bəndi). Buna görə də Azərbaycan Respublikasına əmlak tələbi (iddiası) irəli sürülən zaman yaranan mülki hüquq münasibətlərində onu (dövləti) Maliyyə Nazirliyi təmsil edir. Məsələn, təhqiqat, ibtidai istintaq, prokurorluq və ya məhkəmə orqanları qanunsuz hərəkətləri ilə fiziki şəxsə zərər vurur. Bu zərərin əvəzini Azərbaycan Respublikası (dövlət) ödəyir (MM-in 1101-ci maddəsinin 1-ci bəndi). Belə halda fiziki şəxs ona vurulmuş zərərin əvəzini ödəmək barədə tələbi Maliyyə Nazirliyinə irəli sürür.

Dövlət lotereyalarının keçirilməsi ilə bağlı yaranan mülki hüquq münasibətlərində Azərbaycan Respublikasının səlahiyyətlərini Maliyyə Nazirliyi yerinə yetirir. Belə ki, dövlət lotereyalarının buraxılışı, təşkili və keçirilməsi işi bu nazirliyin həyata keçirdiyi funksiyalardan biridir[1]. Dövlət qiymətli kağızlarının emissiyası (buraxılışı) ilə bağlı olaraq əmələ gələn mülki hüquq münasibətlərində dövlətin səlahiyyətləri yenə də Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Ona görə ki, dövlət qiymətli kağızlarının emissiyası (buraxılışı) bu nazirliyin yerinə yetirdiyi funksiyaların dairəsinə daxil edilir[2].

Dövlət mülkiyyətinin özəlləşdirilməsi, idarə edilməsi və onun barəsində sərəncam verilməsi ilə bağlı yaranan mülki hüquq münasibətlərində dövlət adından **İqtisadi İnkişaf Nazirliyi** çıxış edir. Bu nazirlik özəlləşdirmə qaydasında dövlət əmlakının özgəninkiləşdirilməsi haqqında müvafiq qərar qəbul edir[3].

Bank və pul-kredit münasibətləri sahəsində dövlətin səlahiyyətlərini **Milli Bank** yerinə yetirir. Milli Bank dövlətin pul-valyuta siyasətini müəyyən edir və həyata keçirir. O, müvafiq səlahiyyətlər verildiyi halda dövlət adından klirinq və ödənişlər (hesablaşmalar) haqqında sazişlər və ya başqa müqavilələr bağlaya bilər[4].

Mülki hüquq münasibətlərində dövləti **Mədəniyyət Nazirliyi** təmsil edir. Bu nazirlik çox vaxt mədəniyyət sahəsində mülkiyyət münasibətlərində dövlət adından çıxış edir. O, mədəniyyət sahəsində dövlət mülkiyyətini digər təşkilatların istifadəsinə və ya idarəçiliyinə verə bilər[5]. Mədəniyyət Nazirliyi bəzi hallarda dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələrin dövlət mülkiyyətinə verilməsi ilə bağlı münasibətlərdə iştirak edir. Belə ki, dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələr dövlətə təhvil verilməlidir. Bu barədə Mədəniyyət Nazirliyinə məlumat verilir. Abidə Mədəniyyət Nazirliyi tərəfindən qeydə alınır[6].

Müəllif hüquqları sahəsində dövləti **Müəllif Hüquqları Agentliyi** təmsil edir. Öz fəaliyyətində Nazirlər Kabinetinə tabe olan və ona hesabat verən Agentlik icra hakimiyyətinin mərkəzi orqanlarına aid olan, müəllif hüquqları sahəsində dövlət siyasətini həyata keçirən dövlət idarəsidir. Müəllif hüquqları Agentliyi Azərbaycan müəlliflərinin ictimai varidat dairəsinə aid edilən əsərlərinin dövlət vari-

[1] bax: «Azərbaycan Respublikasının Milli Bankı haqqında» 10 dekabr 2004-cü il tarixli qanun.

[2] Nazirlər Kabinetinin 1993-cü il 10 sentyabr tarixli 488 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə» (AR QK, IV cild, s. 671).

[3] Nazirlər Kabinetinin 1992-ci il 19 iyun tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi haqqında Əsasnamə» (AR QK, IV cild, s. 123).

[4] Prezidentin 4 fevral 2000-ci il tarixli 271 nömrəli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Maliyyə Nazirliyi haqqında Əsasnamə» (AR QK, III xüsusi buraxılış, s. 629).

[5] bax: «Azərbaycan Respublikası Maliyyə Nazirliyi haqqında Əsasnamə»nin 3-cü bölməsinin 6-cı hissəsi (AR QK, III xüsusi buraxılış, s. 630).

[1] bax: həmin Əsasnamənin 3-cü bölməsinin 31-ci hissəsi.

[2] bax: həmin Əsasnamənin 3-cü bölməsinin 23-cü hissəsi.

[3] Bu məsələlər əvvəlcə Dövlət Əmlak Komitəsi tərəfindən həll edilirdi. Prezidentin 24 dekabr 1999-cu il tarixli fərmanı ilə bu komitə ləğv edilmiş və onun bazasında Dövlət Əmlak Nazirliyi yaradılmışdır. 2001-ci ilin may ayında prezidentin müvafiq fərmanı ilə bu nazirliyin və digər qurumların bazası əsasında İqtisadi İnkişaf Nazirliyi yaradılmışdır.

[4] «Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunun 9-cu maddəsinin 2-ci bəndi.

[5] bax: «Mədəniyyət haqqında» 6 fevral 1998-ci il tarixli qanun (AR QK, III cild, s. 258).

[6] Əvvəllər bu münasibətlərdə Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsi çıxış edirdi. Prezidentin 3 fevral 2000-ci il tarixli fərmanı ilə bu komitə ləğv edilmiş və onun funksiyaları Mədəniyyət Nazirliyinə verilmişdir (bax: AR QK, III xüsusi buraxılış, s. 629).

datı elan edilməsi ilə bağlı münasibətlərdə dövlət adından çıxış edir[1].

Müxtəlif xarakterli mülki hüquq münasibətlərində dövlətin səlahiyyətlərini **Dövlət Gömrük Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi** və b. yerinə yetirə bilərlər. Dövlət adından **xarici səfirliklər** də mülki-hüquqi əqdlər bağlaya bilər (məsələn, səfirlik üçün binanı və ya özləri üçün yaşayış evini kirayəyə götürmək, səfirlik üçün bina tikməyi sifariş etmək və s.).

Dövlət adından mülki hüquq münasibətlərində **xüsusi səlahiyyət əsasında dövlət orqanları, hüquqi şəxslər və vəzifəli şəxslər** də iştirak edə bilərlər. Məsələn, prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Səhmdar-Kommersiya Beynəlxalq Bankı idarə heyətinin sədrinə iki ədəd «Boinq-757-200» sərnişin təyyarəsinin alınması ilə əlaqədar müvafiq sənədləri Azərbaycan Respublikası hökuməti adından imzalamaq səlahiyyəti verilmişdir[2]. Səlahiyyətin verilməsi ya normativ qaydada, ya da fərdi qaydada rəsmiləşdirilir.

Beləliklə, mülki (əmlak) dövriyyədə dövlətin səlahiyyətlərini bir yox, bir neçə dövlət orqanı yerinə yetirir, yəni **dövlət mülki hüquq münasibətlərində bir neçə dövlət orqanının vasitəsilə** iştirak edir. Bu, dövlətin mülki (əmlak) dövriyyədə iştirakının **plyuralist modeli** adlanır. Bizim ölkə qanunvericiliyi məhz bu modeli nəzərə almışdır. Bundan əlavə, dövlətin mülki (əmlak) dövriyyədə iştirakının başqa — **monist (teklik) modeli** də tanınır. Bu modelə görə, dövlət adından mülki hüquq münasibətlərində əsas, başlıca və xüsusi subyekt kimi xəzinə (fisk) çıxış edir. Bir çox hüquq sistemləri monist modeli nəzərdə tutur. Məsələn, Almaniyanın Mülki Qanunnaməsinin 89-cu paraqrafı dövlətin mülki (əmlak) dövriyyədə yalnız xəzinə (fisk) vasitəsilə iştirak etməsi haqqında qayda müəyyən edir. Almaniya sivilistika doktrinasında göstərilir ki, dövlət bir tərəfdən dövlət hüququnun subyekti kimi, digər tərəfdən beynəlxalq hüququn subyekti kimi çıxış edir. Bununla bərabər, dövlət əmlak hüquq və vəzifələrinin subyektidir. Özünün bu cəhəti ilə dövlət xəzinə (fisk — latınca «fiscalis») adlanır[3]. Xəzinə hüquqi konstruksiyasının mənbəyi Roma hüququ ilə bağlıdır. Bizim ölkə qanunvericiliyinə görə isə xəzinə hüququn subyekti kimi yox, dövlət əmlakının bir hissəsi kimi nəzərdə tutulur.

§ 2. Dövlətin mülki hüquq münasibətlərində iştirakı

1. Dövlətin əşya hüquq münasibətlərində iştirakı

Dövlətin mülki hüquq qabiliyyəti məqsədli (xüsusi, məhdud) xarakterə malik olsa da, öz məzmununa görə o, kifayət qədər genişdir. Buna görə də dövlət müxtəlif növ mülki hüquq münasibətlərində iştirak edir.

Dövlətin iştirakçısı olduğu mülki hüquq münasibətləri arasında **əşya hüquq münasibətləri** mühüm yer tutur. Əşya hüquq münasibətlərinin ən əsas və başlıca növü mülkiyyət hüquq münasibətləri hesab edilir. **Mülkiyyət hüquq münasibətləri** dövlətin mülki dövriyyədə iştirakının nisbətən daha vacib sferasıdır.

Hər bir dövlət öz təhlükəsizliyini təmin etməlidir. Söhbət həm hərbi, həm iqtisadi (ərzaq), həm ekoloji, həm sanitar-epidemioloji və s. təhlükəsizlik hallarından gedir. Bu, dövlətin daşıdığı əsas vəzifələrdən biridir. Bununla belə, dövlət əhalinin minimum həyat və yaşayış səviyyəsinin kifayət qədər təmin edilməsinə yönələn geniş və ehatəli sosial funksiya həyata keçirməyə borcludur. Əks təqdirdə, xeyli hissəsi kasıb və binəsiblərdən ibarət olan elektorat bu cür dövləti dəstəkləməz.

Qarşısında duran bu və ya digər vəzifələri (funksiyaları) həyata keçirmək üçün lazımdır ki, dövlətin müvafiq **maddi-texniki və maliyyə bazası** olsun. Söhbət Azərbaycan Respublikasının qarşısında duran vəzifələri həyata keçirmək üçün zəruri olan əmlak bazasından gedir. Bu əmlak **dövlət mülkiyyətinə** aiddir. Həmin əmlak üzərində mülkiyyət hüququ əldə edən dövlət **mülkiyyətçi statusu** qazanır və mülkiyyət hüququnun subyekti kimi çıxış edir.

Mülkiyyət hüququnun subyekti kimi dövlətin hüquqi vəziyyəti iki vacib cəhətlə xarakterizə olunur. **Birincisi,** dövlət elə bir xüsusi hakimiyyət funksiyasına (səlahiyyətinə) malikdir ki, bu funksiya (səlahiyyət) ona normativ aktlar qəbul etməyə və bununla özünün **mülkiyyət hüququnun həyata keçirilməsi qaydasını, habelə bu hüququn məzmununu və hədlərini** müəyyənləşdirməyə imkan verir. **İkincisi,** dövlət özünə məxsus olan mülkiyyət hüququnu yalnız **ümumi ictimai mənafe (cəmiyyətin mənafeyi) məqsədilə həyata keçirə bilər.**

Dövlət mülkiyyətində olan əmlakın əsas hissəsi **dövlətin xəzinəsini** yaradır və təşkil edir. Xəzinə əmlakı dövlətin mülki hüquq münasibətlərində müstəqil surətdə iştirakı üçün maddi baza rolunu oynayır.

Xəzinəni təşkil edən obyektlər içərisində birinci yeri **dövlət büdcə vəsaiti** tutur. Bundan əlavə, xəzinənin yaradılmasında müvafiq **büdcədənkənar fondlar** da mühüm rol oynayır. Söhbət, hər şeydən əvvəl, dövlət sosial sığorta fondundan gedir.

Xəzinə **bölünməmiş dövlət əmlakı** deməkdir. Bu əmlak dövlətin öhdəlikləri üzrə kreditorların tələblərinin təmin edilməsinin real obyekti hesab edilir. Xəzinə dövlətin maliyyə resurslarının məcmusudur[1].

Dövlət mülkiyyətində olan əmlakın digər hissəsi bölünmüş dövlət əmlakı anlayışı ilə əhatə olunur. **Bölünmüş dövlət əmlakı** dedikdə, məhdud əşya hüququ əsasında dövlət müəssisə və idarələrinə verilən əmlak başa düşülür. Bu əmlak müstəqil hüquqi şəxslər kimi həmin qurumların mülki (əmlak) dövriyyədə iştirakı üçün əmlak bazası rolunu oynayır. Bu qurumlar həmin əmlakla öz öhdəliklərinə görə kreditorlar qarşısında cavab verirlər. Amma onlar dövlətin, yəni bu qurumları təsis etmiş mülkiyyətçinin öhdəliklərinə görə məsuliyyət daşımırlar. Dövlət də onların öhdəliklərinə görə cavab vermir. Məsələn, Milli Bank dövlət orqanı, dövlət bankıdır. Milli Bank dövlətin öhdəlikləri üçün, dövlət

[1] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 27-ci maddəsinin 2-ci hissəsi (AR QK, III cild, s. 217).

[2] bax: «Azərbaycan Hava Yolları» Dövlət Konserni tərəfindən 2 ədəd «Boinq-757-200» sərnişin təyyarəsinin alınması ilə əlaqədar sənədlər toplusunu imzalamaq səlahiyyətlərinin verilməsi haqqında» prezidentin 24 iyul 2000-ci il 482 saylı sərəncamı (AR QK, III xüsusi buraxılış, s. 727).

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949; с. 422.

[1] bax: *Feyzullabəyli İ.Ə., Bəyramov Ə.M., Əlizadə A.Ş., Orucov M.O.* Tələb, təlebat, bazar və marketinq. İqtisadi məlumat kitabı. Bakı, 1998, s. 238.

isə Milli Bankın öhdəlikləri üçün cavabdeh deyil[1].

Bununla bərabər, qanunda Azərbaycan Respublikasının (dövlətin) dövlət müəssisə və idarələrinin öhdəliklərinə görə məsuliyyət daşıması nəzərdə tutula bilər. Məsələn, dövlət bankları fiziki şəxslərin əmanətlərinin qaytarılması üçün öz üzərinə öhdəlik götürmüşdür. Bu öhdəliyə görə, Azərbaycan Respublikası (dövlət) subsidiar (əlavə) məsuliyyət daşıyır (MM-in 950-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, dövlət bankları fiziki şəxslərin əmanətlərini qaytara bilmədikdə, onda həmin şəxslərin (əmanətçilərin) tələbləri dövlət əmlakı (xəzinə) hesabına təmin edilir.

Dövlətin mülkiyyətində istənilən növ əmlak ola bilər. Söhbət həm daşınmaz, həm də daşınar əmlak növlərindən, həmçinin, həm dövriyyə qabiliyyətli, həm məhdud dövriyyə qabiliyyətli, həm də qeyri-məhdud dövriyyə qabiliyyətli əmlak növlərindən gedir.

Fiziki və hüquqi şəxslərin və bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyəti hesab olunur. Bununla torpaq və digər təbii ehtiyatlara dövlət mülkiyyəti hüququ prezumpsiyası müəyyənləşdirilir, yəni başqasının mülkiyyətində deyilsə, onlar dövlət mülkiyyəti hesab edilir.

Dövlətin mülkiyyətində elə əmlak növləri vardır ki, bunlar xüsusi mülkiyyət hüququnun obyekti ola bilməz. Bunlara **dövlətin müstəsna mülkiyyətində olan əmlak** deyilir. Məsələn, meşə fondu dövlətə məxsusdur və onun mülkiyyətidir[2]. Dövlət bu əmlakdan yalnız cəmiyyətin və xalqın mənafeyi naminə, habelə xüsusi dövlət ehtiyacları üçün istifadə edə bilər. Bu cür əmlak növlərinə yerin təkini və digərlərini misal göstərmək olar. Qanunvericilikdə bəzən dövlətin müstəsna mülkiyyəti kateqoriyasına sinonim (eyni mənalı) kimi **milli sərvət anlayışı** işlədilir[3].

Ölkəmiz ərazisində heyvanlar aləmi dövlətə məxsusdur. O, dövlətin mülkiyyəti hesab edilir[4].

Dövlətin əmlak üzərində mülkiyyət hüququ, əsasən, **iki üsulla əmələ gəlir**: ümumi mülki üsullarla; xüsusi üsullarla. **Ümumi mülki üsullar** odur ki, bu üsullarla mülkiyyət hüququ əldə etmək mülki hüququn bütün subyektlərinə müyəssər ola bilər. Həm fiziki şəxslər, həm bələdiyyələr, həm hüquqi şəxslər, həm də dövlət bu üsullardan istifadə etməklə əmlak üzərində mülkiyyət hüququ əldə edirlər. Məsələn, əqd bağlamaq, vəsiyyət üzrə vərəsəlik yolu, dəfinə və s. həmin üsula misal ola bilər.

Yalnız dövlətin əmlak üzərində mülkiyyət hüququ əldə etməsinə əsas olan üsullar **xüsusi üsullar** adlanır. Dövlətdən başqa digər subyektlər bu üsullar əsasında mülkiyyət hüququ qazana bilməz. Həmin üsullara milliləşdirmə, həcz (rekvizisiya), müsadirə, vergi (digər məcburi ödənişləri) yığmaq və vərəsəsi olmayan əmlakın vərəsəlik qaydasında keçməsi aiddir.

Dövlət mülkiyyət hüququna **həm ümumi mülki, həm də xüsusi üsullarla xitam verilə bilər**. Xüsusi üsullardan biri özəlləşdirmə adlanır. Dövlətin öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verməsinə **özəlləşdirmə** deyilir.

Azərbaycan Respublikasının dövlət mülkiyyəti Azərbaycan xalqına məxsusdur. Azərbaycan xalqı özünün seçdiyi və vəkil etdiyi ali dövlət hakimiyyəti (qanunverici) orqanları və icra orqanlarının vasitəsilə dövlət mülkiyyət hüququnun obyektləri üzərində sahiblik, istifadə və sərəncam səlahiyyətlərini həyata keçirir. Dövlət əmlakının **faktiki mülkiyyətçisi** xalqdır. Onun **hüquqi mülkiyyətçisi** isə dövlətdir.

2. Dövlətin vərəsəlik hüquq münasibətlərində iştirakı

Vərəsəlik hüquq münasibətləri mülki hüquq münasibətlərinin bir növüdür. Dövlət bu münasibətlərin iştirakçısı ola bilər.

Vərəsəlik dövlətin mülkiyyət hüququnun əldə edilməsinin üsullarından biridir. Bu üsul əsasında dövlət miras əmlak üzərində mülkiyyət hüququ əldə edir.

Dövlət, hər şeydən əvvəl, **vəsiyyət yolu ilə miras əmlakın mülkiyyətçisi ola bilər.** İstənilən fiziki şəxs özünə məxsus olan əmlakı və ya onun bir hissəsini həm öz dövlətinə, həm də xarici (əcnəbi) dövlətə vəsiyyət edə bilər. Ona görə ki, vəsiyyət azadlığı prinsipi — vərəsəlik hüququnun əsas prinsiplərindən biri onlara öz əmlakı barəsində vəsiyyət sərəncamı etməkdə hüquqi imkan və sərbəstlik verir.

Dövlət **vərəsəsi olmayan əmlak üzərində mülkiyyət hüququ** əldə edir. Bu cür əmlaka yiyəsi (sahibi) olmayan əmlak demək olmaz: dövlət onun gələcək sahibidir. **Vərəsəsi olmayan əmlak** dedikdə, nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsəsi olmayan əmlak başa düşülür. Bu cür əmlak dövlət xəzinəsinə keçir (MM-in 1165-ci maddəsi). Bundan əlavə, vərəsələrdən heç biri mirası qəbul etməmişdirsə, yaxud bütün vərəsələr vərəsəlik hüququndan məhrum edilmişdirsə, belə halda əmlak vərəsəsi olmayan əmlak hesab edilir. Həmin əmlak dövlətə keçir. Belə halda **dövlət qanun əsasında vərəsə kimi** çıxış edir. Bu isə onu göstərir ki, dövlət qanun üzrə vərəsə ola bilər[1].

Vərəsəsi olmayan əmlak dövlət mülkiyyətinə keçir. Dövlət həmin əmlakın mülkiyyətçisi olur.

Vərəsəsi olmayan əmlak xarici ölkə ərazisində ola bilər. Bu əmlakın dövlət mülkiyyətinə keçməsi Azərbaycan dövlətinin iştirakçısı olduğu hüquqi yardım barədə müqavilələrdə nəzərdə tutulan qayda ilə müəyyən edilir. Bu qaydaya görə, vərəsəsi olmayan daşınmaz əşya bu əşyanın yerləşdiyi dövlətin qanunvericiliyi ilə, vərəsəsi olmayan daşınar əşya isə miras qoyan şəxsin vətəndaşı olduğu dövlətin vərəsəlik qanunvericiliyi ilə müəyyən edilir. Deməli, vərəsəsiz daşınmaz əmlak bu əmlakın yerləşdiyi dövlətin mülkiyyətinə keçir. Vərəsəsiz daşınar əşya isə bundan fərqli olaraq, miras qoyanın vətəndaşı olduğu dövlətin mülkiyyətinə daxil edilir[2].

---

[1] «Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunun 15-ci maddəsinin 1-ci bəndi.
[2] Meşə Məcəlləsinin 11-ci bəndi (AR QK, V cild, s. 163).
[3] «Suverenlik haqqında» 23 sentyabr 1989-cu il Konstitusiya qanunu (AR QK, I cild, s. 9).
[4] «Heyvanlar aləmi haqqında» qanunun 5-ci maddəsi (AR QK, III xüsusi buraxılış, s. 101).

[1] Bəzən belə bir fikir irəli sürülür ki, guya dövlət qanun üzrə vərəsə ola bilməz. Dediklərimiz bu fikrin doğru olmadığını isbat edir. Dövlətin qanun üzrə vərəsə olması sivilistika doktrinasında bəzi müəlliflər tərəfindən də dəstəklənir (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 175; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 198); Allahverdiyev S.S. Azərbaycan Respublikasının vərəsəlik hüququ. Bakı 2004.

[2] bax: Богуславский М.М. Международное частное право. Учебник. М., 1994; Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq mülki hüququ. Bakı., 2007.

3. Dövlətin korporativ mülki hüquq münasibətlərində iştirakı

Dövlət korporativ (yəni korporasiyaya aid olan) mülki hüquq münasibətlərində də iştirak edə bilər. Söhbət **dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı səhmdar cəmiyyətinə çevrilməsi əsasında yaradılmış səhmdar cəmiyyətlərində dövlətin təsisçi kimi çıxış etməsindən gedir**. Belə ki, qanun səhmdar cəmiyyətinin dövlət müəssisəsinin çevrilməsi nəticəsində yaradılması haqqında qayda nəzərdə tutur. Bu halda dövlət müəssisənin səhmdar cəmiyyətinə çevrilməsi əsasları Dövlət Proqramı ilə müəyyən edilir[1]. Həmin Proqramda müəyyən dövlət müəssisələrinin özəlləşdirilməsi nəzərdə tutulur. Belə ki, bu müəssisələr səhmdar cəmiyyətinə çevrilir. Bunun qaydaları isə müvafiq əsasnamə ilə müəyyən edilir[2].

Dövlət Proqramına müvafiq olaraq dövlət müəssisəsinin özəlləşdirilməsi zamanı səhmdar cəmiyyətinə çevrilməsi əsasında yaradılmış **səhmdar cəmiyyətinin təsisçisi rolunda dövlət iştirak edir**. Amma, şübhəsiz ki, dövlətin özünün burada iştirakı istisna olunur. Dövlətin adından təsisçi kimi Dövlət Əmlak Nazirliyi (indiki İqtisadi İnkişaf Nazirliyi) çıxış edir[3]. Bu nazirlik dövlət adından səhmdar cəmiyyətini təsis edir. O, təsis sənədlərini dövlət qeydiyyatını aparan icra hakimiyyəti orqanına təqdim edir. Dövlət qeydiyyatına alındığı andan dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmiş sayılır. Məhz bu andan dövlət müəssisəsinin əmlakı səhmdar cəmiyyətinin balansına verilmiş hesab olunur. Bu əmlak səhmdar cəmiyyətinin nizamnamə kapitalını təşkil edir. O, nizamnamə kapitalındakı dövlət payı hesab olunur. Bu pay həcmində dövlət adından Dövlət Əmlak Nazirliyi (indiki İqtisadi İnkişaf Nazirliyi) cəmiyyətin fəaliyyətinə görə cavabdehdir.

Dövlət mərkəzi icra hakimiyyəti orqanları[4] dövlət müəssisəsinin özəlləşdirilməsi prosesində səhmdar cəmiyyətinə çevrilməsi nəticəsində təsis edilmiş **səhmdar cəmiyyətlərində dövlətin adından mülkiyyətçi kimi** çıxış edir. O, öz nümayəndələri vasitəsilə səhmdar cəmiyyətinin ali idarəetmə orqanında (səhmdarların ümumi yığıncağında) və digər orqanlarda idarəçiliyi həyata keçirir.

Çevrilmə nəticəsində təsis edilmiş səhmdar cəmiyyətinin onun birinci ümumi yığıncağı keçirilənədək idarə olunması tələb edilir. Belə halda Dövlət Proqramına uyğun olaraq dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi barədə qərar qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı səhmdar cəmiyyətinin idarə heyətinin sədrini təyin edir. İdarə heyətinin üzvləri isə dövlət adından idarəçiliyi həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur. Bu dövrdə səhmdar cəmiyyətinin müşahidə şurasının səlahiyyətlərini İqtisadi İnkişaf Nazirliyi yerinə yetirir (Əsasnamənin 7.8-ci bəndi).

Çevrilmə nəticəsində təsis edilmiş səhmdar cəmiyyətinin səhmlərinin Dövlət Proqramında müəyyən edilən qaydada satışı başlayır. Səhmlərin satıcısı kimi dövlətin adından həmin nazirlik çıxış edir (Əsasnamənin 9-cu bəndi).

Beləliklə, dövlət adından müvafiq orqan dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin təsisçisi rolunda çıxış edir, o öz nümayəndələri vasitəsilə səhmdarların ümumi yığıncağında və səhmdar cəmiyyətinin digər orqanlarında dövlət adından idarəçiliyi həyata keçirir. Bu isə onu sübut edir ki, dövlət öz orqanlarının vasitəsilə korporativ mülki hüquq münasibətlərində iştirak edir.

Göstərilən haldan başqa digər hallarda dövlətin korporativ münasibətlərdə iştirak etməsi istisna olunur. Ona görə ki, mülki qanunvericilik **dövlət orqanlarının təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçısı kimi çıxış etmələrinə yol vermir** (MM-in 64-cü maddəsinin 6-cı bəndi)[1].

4. Dövlətin öhdəlik hüquq münasibətlərində iştirakı

Dövlət mülki hüququn subyekti kimi **öhdəlik hüquq münasibətlərində** iştirak edə bilər. Bu cür münasibətlərin spektri və əhatə dairəsi kifayət qədər genişdir.

Öhdəlik hüquq münasibətləri, hər şeydən əvvəl, **mülki-hüquqi müqavilələrdən əmələ gəlir**. Bu münasibətlər müqavilə öhdəlik hüquq münasibətləri — **müqavilə öhdəlikləri** adlanır. Dövlət müqavilə öhdəliklərinin fəal iştirakçılarından biri hesab edilir. Həmin öhdəliklərin əsas hüquqi parametrləri mülki qanunvericiliklə müəyyən edilir.

Dövlət **alqı-satqı hüquq münasibətlərində (öhdəliklərində)** həm satıcı, həm də alıcı qismində çıxış edə bilər. Dövlət neft və digər strateji məhsulları ayrı-ayrı şəxslərə sata bilər. O, alqı-satqı müqaviləsinin bir növü olan **dövlət ehtiyacları üçün mal göndərmə müqaviləsində** alıcı (sifarişçi) qismində çıxış edə bilər[2]. Dövlətin funksiyaları cəmiyyətin təşkilinin formalarıdır. Bu funksiyaların əsas təyinatı mövcud ictimai münasibətlər sistemini təmin etməkdən ibarətdir. Bunun üçün vacibdir ki, dövlətin zəruri iqtisadi-maddi bazası olsun, səmərəli xarici siyasət həyata keçirilsin, dövlətin müdafiə qabiliyyəti möhkəmləndirilsin və s. Bu və ya digər vəzifələri (funksiyaları) yerinə yetirmək üçün dövlətin lazımi əmlak bazasına malik olması gərəkdir. Bu bazanın yaradılması isə dövlət ehtiyacları üçün malların satın alınması yolu ilə həyata keçirilir. Həmin münasibətlər dövlət ehtiyacları üçün mal göndərmə müqaviləsi ilə rəsmi-

[1] Azərbaycan Respublikasının 29 sentyabr 1995-ci il tarixli 1120 saylı qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» // Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı, 1999. Bur. 4, s. 27. Sonralar prezidentin 10 avqust 2000-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» təsdiq olunmuşdur (AR QK, III xüsusi buraxılış, s. 660).

[2] bax: Azərbaycan Respublikasının 1996-cı il 29 noyabr tarixli 208-1 saylı qanunu ilə təsdiq edilmiş «Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə» (AR QK, III cild, s. 347).

[3] Əsasnamənin 5-ci bəndində göstərilir ki, dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı səhmdar cəmiyyətlərinə çevrilən dövlət müəssisələrinin — dövlətin adından təsisçi kimi Dövlət Əmlak Komitəsi çıxış edir.

[4] Bu orqanı Nazirlər Kabineti müəyyən edir (bax: həmin Əsasnamənin təsdiq edilməsi barədə qanunun tətbiq edilməsi haqqında prezidentin fərmanı).

[1] Bundan fərqli olaraq, «Səhmdar cəmiyyəti haqqında» qanunun (1994) 4-cü maddəsində dövlət əmlakına sərəncam vermək səlahiyyətinə malik olan idarəetmə orqanlarının səhmdar cəmiyyəti təsis etmək hüququnu müəyyənləşdirir. Özü də bu orqanlar təklikdə (təkbaşına) səhmdar cəmiyyətinin təsisçisi ola bilərlər (bir şəxsin kompaniyası konstruksiyası) // AR QK, III xüsusi buraxılış, s. 258.

[2] Dövlət ehtiyacları üçün mal göndərmə hüquqi konstruksiyası «Sahibkarlıq fəaliyyəti haqqında» qanunun 6-cı maddəsində nəzərdə tutulmuşdur (AR QK, II cild, s. 824). Bu cür konstruksiyanı bizim ölkəmiz MM-i tənzimləmir.

ləşdirilir.

Dövlət **icarə hüquq münasibətlərində (öhdəliklərində)** iştirak edə bilər. Belə ki, dövlət öz mülkiyyətində olan həm daşınmaz, həm də daşınar əmlakı icarəyə və istifadəyə verə bilər. Əgər icarəyə daşınmaz dövlət əmlakı verilərsə, onda icarə müqaviləsini icarə verən rolunda dövlət adından İqtisadi İnkişaf Nazirliyi bağlayır. Dövlət mülkiyyətində olan digər əmlak icarəyə və istifadə verildiyi hallarda isə, bu nazirlik dövlət adından icarə müqaviləsinin bağlanmasına razılıq verir.

Azərbaycan dövləti **kirayə hüquq münasibətlərinin (kirayə öhdəliklərinin)** iştirakçısı ola bilər. Onun öz mülkiyyətində olan binaları istifadə məqsədi ilə Azərbaycan Respublikasında yerləşən xarici ölkə səfirliklərinə (səfirlərin və digər şəxslərin ailə üzvlərinə) kirayəyə verməsi hallarına rast gəlmək mümkündür.

Dövlət **xarici investorlarla konsessiya müqaviləsi** (latınca «concessio» — icazə, güzəşt) bağlaya bilər. Bu müqavilə əsasında xarici investorlara faydalı qazıntı yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, digər təbii ehtiyatların istifadəyə verilməsi hüququ keçir. Həmin müqaviləni Nazirlər Kabineti bağlayır, ölkə parlamenti təsdiq edir[1].

Dövlət **ssuda (əvəzsiz istifadə) müqaviləsini** ssuda verən (əvəzsiz istifadəyə verən) qismində bağlaya bilər. Biz son zamanlar dövlətin öz mülkiyyətində olan binaları məcburi köçkün və qaçqınlara sığınmaq və daldalanmaq üçün verməsinin şahidi oluruq. Yerli icra hakimiyyəti orqanları və dövlət idarələri dövlətin mülkiyyətində olan dini təyinatlı binaları və digər əmlakı dini qurumların əvəzsiz istifadəsinə verə bilər[2].

Dövlət **bağışlama münasibətlərində** iştirak edə bilər. Belə ki, istənilən şəxs öz əmlakını ianə kimi dövlətə bağışlaya bilər. Dövlət bu halda hədiyyə alan rolunda bağışlama müqaviləsində iştirak edir. Amma o, hədiyyədən yalnız ümumi ictimai mənafe məqsədləri üçün istifadə edə bilər.

Dövlət **borc hüquq münasibətlərinin iştirakçısı qismində** çıxış edə bilər. Onun həmin münasibətlərdə həm borc verən, həm də borc alan rolunda iştirak etməsi istisna olunmur. Əgər dövlət başqa dövlətə, habelə fiziki və hüquqi şəxslərə borc verərsə, onda bu münasibətlər **dövlət krediti (dövlət kredit münasibətləri)** adlanır[3]. Bununla bərabər, dövlət özü borc alan qismində də çıxış edə bilər. Belə halda yaranan münasibətlər **dövlət borcu (dövlət borc münasibətləri)** adlanır. Həmin münasibətlər dövlət borcu haqqında qanunvericiliklə tənzimlənir[1].

Azərbaycan dövlətinin (Azərbaycan Respublikasının) dövlət borcu dedikdə, respublikanın təxirəsalınmaz sosial-iqtisadi xərclərinin maliyyələşdirilməsi və büdcə kəsirinin yerinin doldurulması üçün Azərbaycan Respublikası hökumətinin hüquqi və fiziki şəxslərə, habelə xarici dövlətlərə müvafiq faiz ödənilməklə qaytarmalı olan, milli və ya xarici valyuta ilə ifadə edilmiş borc öhdəlikləri başa düşülür. Bu borcun ödənilməsinə dövlət hökumətin sərəncamında olan aktivlərlə təminat verir.

Dövlət borcları iki hissədən ibarətdir: dövlətin daxili borclarından; dövlətin xarici borclarından. **Dövlətin daxili borcları** daxili mənbədən cəlb edilən borclardır. Bu borclar Azərbaycan Respublikasının hökuməti adından buraxılan qiymətli kağızlar şəklində **dövlət istiqrazları formasında** olur. Belə ki, həmin kağızları pulunu ödəməklə əldə edən fiziki və hüquqi şəxslərlə dövlət arasında borc münasibətləri yaranır. Bu münasibətlər hüquqi cəhətdən dövlət istiqrazı vasitəsilə rəsmiləşdirilir. Həmin münasibətlərdə dövlət borc alan, istiqraz vərəsəsini əldə edən fiziki və hüquqi şəxslər isə borc verən rolunda çıxış edirlər.

Əhalinin sovet dövründə dövlət əmanət banklarına qoyduqları və hiperinflyasiya nəticəsində insan ağlına sığmayan dərəcədə öz alıcılıq qabiliyyətini itirən əmanətlər də dövlətin daxili borcunun bir tərkib hissəsidir. Dövlət həmin əmanətlərin alıcılıq qabiliyyətini bərpa edərək, onları əmanətçilərə qaytarmalıdır. Böyük sosial əhəmiyyətə və rola malik olan həmin məsələni dövlət mütləq həll etməlidir[2]. Bu, onun əsas və başlıca vəzifələrindən biridir. Hüquqi dövlət ideyasını və konsepsiyasını Konstitusiya səviyyəsində və qaydasında təsbit edən dövlətin bu vəzifəni yerinə yetirməsi xüsusilə vacibdir.

Dövlətin xarici borcu xarici mənbələrdən cəlb edilən borclardır. Söhbət, hər şeydən əvvəl, dövlətin xarici dövlətlərdən və beynəlxalq maliyyə qurumlarından aldığı borclardan gedir. Bu borcun əsas tərkib hissəsini cəlb edilmiş xarici kreditlər təşkil edir.

Dövlət borcu müxtəlif formalarda ola bilər. Hökumətin aldığı kreditlər, hökumət adından buraxılmış dövlət istiqrazları və Nazirlər Kabinetinin təminat verdiyi digər borc öhdəlikləri onun əsas formaları hesab edilir.

Dövlət **podrat münasibətlərinin** iştirakçısı ola bilər. Ayrı-ayrı firmalar dövlət ehtiyacları üçün (məsələn, iri sənaye obyektinin tikilməsi, müdafiə əhəmiyyətli obyektin tikintisi və s. üçün) işlər görə bilərlər. Belə hallarda dövlət sifarişçi rolunda podrat müqaviləsi bağlayır[3].

---

[1] bax: «Xarici investisiyanın qorunması haqqında» 15 yanvar 1992-ci il tarixli qanunun 40-cı maddəsi. Konsessiya müqaviləsi hüquqi konstruksiyasını yeni Mülki Məcəllə də nəzərdə tutur. Lakin onlar sinonim yox, ononim konstruksiyalardır. Bu barədə dərsliyin «Konsessiya müqaviləsi» adlı fəslinə bax.

[2] bax: «Dini etiqad azadlığı haqqında» 20 avqust 1992-ci il tarixli qanunun 16-cı maddəsi (AR QK, I cild, s. 576).

[3] Maliyyə hüququnda dövlət kreditinə başqa cür anlayış verilir. Maliyyə hüququna görə dövlət krediti dedikdə, dövlətin maliyyə hüquq normaları ilə tənzimlənən elə bir fəaliyyəti başa düşülür ki, bu fəaliyyət kredit alınmasına, yəni hüquqi şəxslərdən və vətəndaşlardan, habelə başqa dövlətlərdən geri qaytarmaq, əvəzlilik, müddətlilik və könüllülük şərtləri əsasında borc alınmasına yönəlir (Финансовое право. Учебник / Под ред. *О.Н.Горбуновой*. М., 1996, с. 236).

[1] bax: «Dövlət borcu haqqında» 29 dekabr 1992-ci il tarixli qanun (AR QK, I cild, s. 835).

[2] Biz əmanətlərin bərpa olunması barədə tez-tez parlament debatlarının şahidi oluruq. Bu məsələ dəfələrlə Milli Məclisdə müzakirə olunmuşdur. Bəzən həmin məsələ yenidən müzakirə obyektinə çevrilir. Amma bu müzakirə və debatlar hüquqi nəticəsi olmayan boş hay-küydən başqa bir şey deyildir. Zənn edirik ki, onsuz da maliyyə vəziyyəti çətin olan, gündə sosial-iqtisadi problemlərlə qarşılaşan dövlətimiz, nəhayət, özündə qərar tapıb, həmin məsələni həll edəcək, bunun üçün lazım olan maliyyə mənbəyini axtarıb tapacaqdır. Alalar yaxşı deyib: əmanətə xəyanət olmaz.

[3] Qüvvədə olan mülki qanunvericilik, o cümlədən Mülki Məcəllə dövlət ehtiyacları üçün iş görmək müqaviləsi kimi hüquqi konstruksiyanı tənzimləmir və nəzərdə tutmur. «Sahibkarlıq fəaliyyəti haqqında» qanunun 6-cı maddəsi bu konstruksiyanın yalnız adını çəkir (AR QK, I cild, s. 824).

Dövlət öz müəssisələrini (obyektlərini) ayrı-ayrı şəxslərə idarə etməyə verə bilər. Bu münasibətlər müqavilə ilə rəsmiləşdirilir[1]. Həmin konstruksiya **əmlakın etibarlı idarə edilməsi haqqında müqavilə** adlanır.

Dövlət təkcə müqavilə öhdəliklərində iştirak etmir. O, həm də **müqavilədənkənar öhdəliklərdə** subyekt qismində çıxış edə bilər. Söhbət, hər şeydən əvvəl, dövlətin **delikt (hüquq qoruyucu), yəni zərər vurmaq nəticəsində əmələ gələn öhdəliklərdə** iştirak etməsindən gedir. Belə ki, dövlət orqanlarının və ya bu orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi) nəticəsində, o cümlədən dövlət orqanının qanuna və ya digər hüquqi akta uyğun gəlməyən aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə zərər vurula bilər. Bu cür zərər təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində də vurula bilər. Belə halda dövlət şəxslərə vurulmuş zərərin əvəzini ödəyir (MM-in 1100-cü və 1101-ci maddələri)[2].

Dövlət **əsassız varlanma (kondikasiya) kimi müqavilədənkənar (hüquq qoruyucu) öhdəliyin** subyekti ola bilər. Onun həmin öhdəliyin həm əsassız varlanan tərəfi, həm də məhrum olan tərəfi qismində çıxış etməsi istisna olunmur. Dövləti təmsil edən və onun adından çıxış edən dövlət orqanlarının vəzifəli şəxslərinin qanunsuz hərəkətləri nəticəsində dövlətin özü əsassız əmlak əldə edə bilər. Bununla o, kondikasiya öhdəliyində varlanmış tərəf qismində iştirak edir. Dövlət öhdəliyin zərərçəkən tərəfi də ola bilər.

Dövlət **birtərəfli hərəkətlərdən (əqdlərdən) əmələ gələn öhdəlikdə** iştirak edə bilər. Söhbət, hər şeydən əvvəl, dövlətin **lotereya oyunlarının keçirilməsindən əmələ gələn mülki hüquq münasibətində** (öhdəlikdə) iştirakından gedir. Lotereya, lotereya biletlərinin satılması yolu ilə əhalinin pul vəsaitinin könüllü cəlb edilməsi formasıdır. Lotereya adsız (təqdimedənə) qiymətli kağızdır. Dövlətin buraxdığı lotereya biletinin əldə edilməsi ilə mülki-hüquqi öhdəlik yaranır. Bu öhdəliyə əsasən, lotereya biletini dövriyyəyə buraxan dövlət borclu, şey və ya pul udmuş şəxs isə kreditordur. Kreditor bileti təqdim etməklə borcludan (dövlətdən) uduşu ödəməyi tələb edə bilər. Bu münasibətlərdə dövlətin adından Maliyyə Nazirliyi çıxış edir. Dövlət lotereyalarını buraxmaq, təşkil etmək və keçirmək bu nazirliyin yerinə yetirdiyi funksiyalardan biridir[3].

Dövlət bəzi müqavilə öhdəlikləri üzrə **subsidiar (əlavə) məsuliyyət** daşıyır. Məsələn, nizamnamə kapitalında iştirak paylarının və ya səhmlərin əlli faizindən çoxunun dövlətə mənsub olduğu bankın fiziki şəxslərin əmanətlərinin qaytarılmasına görə Azərbaycan Respublikası subsidiar məsuliyyət daşıyır (MM-in 950-ci maddəsinin 1-ci bəndi).

Elə mülki hüquqi müqavilələr vardır ki, onlar spesifik subyekt tərkibinə malikdirlər. Məhz bu səbəbdən dövlət həmin müqavilələrdə müvafiq tərəf qismində çıxış edə bilməz. Məsələn, sığorta müqaviləsində sığortaçı, bank əmanəti (depozit) və bank hesabı müqavilələrində bank, ömürlük renta müqaviləsində renta alan və s. rolunda dövlətin iştirak etməsi istisna edilir.

[1] «Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarə etməyə verilməsi haqqında» prezidentin 1996-cı il 9 fevral tarixli 437 nömrəli fərmanı.

[2] «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» 29 dekabr 1998-ci il tarixli qanun vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi qaydasını müəyyən edir (bax: AR QK, III xüsusi buraxılış, s. 62).

[3] Prezidentin 4 fevral 2000-ci il tarixli 271 №-li fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Maliyyə Nazirliyi haqqında Əsasnamə»nin 3.31-ci bəndi (AR QK, III xüsusi buraxılış, s. 631).

5. Dövlətin əqli mülkiyyət hüquq münasibətlərində iştirakı

Dövlət **əqli mülkiyyət hüquq münasibətlərində** subyekt qismində çıxış edə bilər. Əqli mülkiyyət hüquq münasibətləri elm, ədəbiyyat və incəsənət əsərlərinin, eləcə də ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin və digər əqli mülkiyyət obyektlərinin yaradılması, istifadə olunması və qorunması ilə bağlı yaranır.

Dövlət, hər şeydən əvvəl, **müəlliflik hüququnun subyekti** ola bilər[1]. Müəlliflik hüququnun subyektləri odur ki, onlar əsərə münasibətdə subyektiv müəlliflik hüququna malikdirlər. Bizim ölkə qanunvericiliyinə görə, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, onların varisləri ilə, habelə hüquqi şəxslərlə bərabər, **dövlət (Azərbaycan Respublikası) də subyektiv müəlliflik hüquqlarına malik ola bilər.** Özü də dərhal qeyd edirik ki, dövlət ilkin müəlliflik hüququna malik ola, yəni öz xüsusi hərəkətlərinin vasitəsilə əsərə hüquqlar əldə edə bilməz. Belə ki, həqiqətən, əsərin yaradıcısı yalnız konkret fiziki şəxslər ola bilər. Qüvvədə olan müəlliflik qanunvericiliyinə görə, yalnız yaradıcı əməyi ilə əsəri yaratmış fiziki şəxslər onun müəllifi kimi tanınır. Buna görə də dövlət **yalnız törəmə müəlliflik hüququnun daşıyıcısı** kimi çıxış edə bilər.

Dövlətə müəlliflik hüquqları, hər şeydən əvvəl, vərəsəlik qaydasında, vəsiyyətnamə (vəsiyyətnamə üzrə vərəsəlik) üzrə keçə bilər. Bununla bərabər, o, müəlliflik hüquqlarını müəllif müqavilələri əsasında da əldə edə bilər. Beləliklə, müəlliflik hüquqlarının vərəsəlik qaydasında keçməsi, həmçinin müəllif müqavilələri ilə hüquqi faktlardır ki, məhz bu faktların əsasında dövlətin əsərə müəlliflik hüququ yaranır[2].

Dövlətə müəlliflik hüququ qanun üzrə vərəsəlik qaydasında da keçə bilər. Belə ki, əgər ölən müəllifin həm qanun üzrə, həm də vəsiyyət üzrə vərəsələri yoxdursa (yəni, ölən müəllif əsər barəsində vəsiyyət sərəncamı etməmişsə), onda müəllifin hüquqları dövlətə keçir.

Müəllifin şəxsi (qeyri-əmlak) müəlliflik hüquqları (əsərin müəllifi kimi tanınmaq hüququ, əsərdən öz adı ilə, təxəllüslə, adsız istifadə etmək hüququ, yəni ad hüququ, habelə şöhrətinə hörmət edilməsi hüququ) bölünməz və özgəninkiləşdirilməzdir. Bu hüquqlar ancaq müəllifə məxsusdur. Onlar bütün hallarda müəllifdə qalır. Yalnız müəllifin əmlak (iqtisadi) xarakterli müəlliflik hüquqları (məsələn, əsərin nüsxələrini satmaq, kirayəyə vermək, əsərin surətini çıxar-

[1] Dövlətin müəlliflik hüququnun subyekti olması barədə bax: *Сергеев А.П.* Право интеллектуальной собственности в Российской Федерации. Учебник. М., 1999, с. 168; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 290-291.

[2] Qüvvədə olan müəlliflik qanunvericiliyi müəlliflik hüquqlarının müəllif müqavilələri üzrə verilməsi və vərəsəlik qaydasında keçməsinin mümkünlüyü haqqında qayda müəyyən edir (bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» 5 iyun 1996-cı il tarixli qanunun 28-ci maddəsi / AR QK, III cild, s. 28).

maq, əsəri tərcümə etmək və s. hüquqlar) dövlətə keçə bilər.

Əgər müəllifin öz şəxsi (qeyri-əmlak) müəlliflik hüquqlarının qorunması haqqında hər hansı göstərişi olmazsa və onun vərəsələri yoxdursa, belə halda dövlətin borcudur ki, müəllifin şəxsi hüquqlarını qorusun, mühafizə etsin. Bu işi dövlət adından Müəllif Hüquqları Agentliyi yerinə yetirir. Bu, Azərbaycan Respublikasının müəlliflik hüquqları sahəsində fəaliyyət göstərən dövlət icra hakimiyyəti orqanıdır. Həmin orqanın müəyyən etdiyi qaydada ictimai varidata keçmiş əsər dövlət varidatı elan edilə bilər. Bir qayda olaraq, əsərə müəlliflik hüququnun qüvvədə olma müddəti qurtarmış əsər ictimai varidata keçir. Azərbaycan müəlliflərinin ictimai varidata keçmiş əsərləri, zəruri olduqda, dövlət varidatına aid edilir. **Əsərin dövlət varidatı elan edilməsi** dedikdə, əsərin dövlət malı olması başa düşülür. Bu cür əsərlərdən yalnız xüsusi ödənişlər verməklə istifadə etmək olar. İstifadəyə görə əldə edilən qonorar Müəllif Hüquqları Agentliyinin hesabına köçürülür. Bu vəsaitdən isə müəllif hüquqları sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə istifadə olunur.

Dövlət **patent hüququnun da subyekti ola bilər.** Belə ki, patent qanunvericiliyi patent sahibi olmaq imkanını məhdudlaşdıran hər hansı bir qadağa və məhdudiyyət nəzərdə tutmur. Sənaye mülkiyyəti obyektinin (ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin) müəllifi patent hüquqlarını dövlətə özgəninkiləşdirə (sata, bağışlaya və s.) bilər. Buna patent hüququnun güzəşti deyilir. Beləliklə, **dövlət patent sahibi olur** və sənaye mülkiyyəti obyektindən istifadə üçün müstəsna hüquq əldə edir.

Patent hüquqları dövlətə həm vəsiyyət, həm də qanun üzrə vərəsəlik qaydasında keçə bilər. Əgər patent sahibi sənaye mülkiyyəti obyektləri barədə dövlətə vəsiyyət etmişsə, onda dövlət patent hüququnun subyekti olur. Patent sahibinin (müəllifin) qanun üzrə vərəsələri olmadıqda və onun tərəfindən vəsiyyət sərəncamı verilmədikdə vərəsə qismində, bununla da patent hüququnun subyekti qismində dövlət çıxış edir[1].

Bəzi hallarda patent münasibətlərində Nazirlər Kabineti çıxış edir. Belə ki, sənaye mülkiyyəti obyektindən istifadə ölkənin milli təhlükəsizlik maraqları ilə bağlı ola bilər. Bu halda həmin maraqları təmin etmək məqsədilə Nazirlər Kabineti patent sahibinin icazəsi olmadan sənaye mülkiyyətindən istifadəyə müstəqil surətdə razılıq verir. Patent sahibinə isə müvafiq kompensasiya ödənilir.

Patent münasibətlərində dövləti Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi təmsil edir. O, ölkənin sənaye mülkiyyəti sahəsində icra hakimiyyəti orqanı olub, həmin obyektlərin hüquqi mühafizəsi və qorunması sferasında dövlət siyasətini həyata keçirir.

6. Dövlətin beynəlxalq (xarici) mülki dövriyyədə iştirakı

Mülki hüququnun subyekti kimi Azərbaycan Respublikasının (dövlətin) hüquq münasibətlərində iştirakı təkcə daxili mülki (əmlak) dövriyyə ilə məhdudlaşmır. O, subyekt qismində həm də **beynəlxalq (xarici) mülki dövriyyədə çıxış edir.** İqtisadiyyat, istehsal, ticarət və digər sahələrdə beynəlxalq əməkdaşlığın inkişafı dövlətin müxtəlif beynəlxalq (xarici) dövriyyə münasibətlərinə

[1] bax: *Сергеев А.П.* Патентное право. М., 1994.

girməsinə dəlalət edir. Söhbət Azərbaycan Respublikasının başqa dövlətlərlə, həmin dövlətlərin fiziki və hüquqi şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla daxil olduğu müxtəlif əmlak hüquq münasibətlərindən gedir. Təsərrüfat həyatının beynəlmiləlləşməsi, beynəlxalq təsərrüfat əlaqələrinin dərinləşməsi, xarici işgüzar əməkdaşlıq və partnyorluq sahəsində yeni təşkilati formaların inkişafı müasir gerçəkliyin amilləri kimi dövləti xarici subyektlərlə ayrı-ayrı hüquq münasibətlərinə girməyə sövq edir.

Dövlətin subyekt qismində iştirak etdiyi xarici əmlak dövriyyə münasibətlərinin əhatə dairəsi və spektri kifayət qədər genişdir. Bu münasibətləri subyekt tərkibinə görə iki qrupa bölmək olar. **Birinci qrupa o əmlak hüquq münasibətləri** aid edilir ki, həmin münasibətlər **dövlətlə xarici dövlət, habelə dövlətlə beynəlxalq təşkilatlar arasında əmələ gəlir.** Məsələn, Azərbaycan Respublikası xarici dövlətdən və yaxud beynəlxalq maliyyə qurumlarından (Beynəlxalq Valyuta Fondundan, Avropa Yenidənqurma və İnkişaf Bankından, Ümumdünya İnkişaf Bankından və s.) kredit alır. Başqa bir misalda bizim dövlət hər hansı bir xarici dövlətlə ticarət əqdi bağlayır. Bu qrup münasibətlər müstəsna olaraq, beynəlxalq ümumi hüquq normaları ilə tənzimlənir. Buna görə də həmin münasibətlər **beynəlxalq hüququn nizamasalma predmetinə daxildir.**

İkinci qrup münasibətlərə isə **dövlətlə xarici fiziki və hüquqi şəxslər, beynəlxalq təsərrüfat təşkilatları (qeyri-hökumət təşkilatları) arasında əmələ gələn münasibətlər** aid edilir. Bu münasibətlər isə beynəlxalq mülki hüquq (beynəlxalq xüsusi hüquq) normaları ilə qaydaya salınır, beynəlxalq mülki (xüsusi) hüququn nizamasalma predmetinə daxil olur[1]. Onlar mal göndərilməsi, xidmətlər göstərilməsi, işlər görülməsi və digər sahələrdə yarana bilər.

Dövlət, hər şeydən əvvəl, **beynəlxalq borc münasibətlərində** subyekt qismində çıxış edə bilər. Söhbət dövlətin dünya maliyyə bazarında həm borc alan, həm də borc verən rolunda çıxış etməsindən gedir.

Biz tez-tez Azərbaycan Respublikasının xarici subyektlərdən kredit almasının şahidi oluruq. Bu münasibətlər kredit müqaviləsi ilə rəsmiləşdirilir. Həmin müqavilənin bir tərəfi rolunda, bir qayda olaraq, Nazirlər Kabinetinin (respublika hökumətinin) şəxsində Azərbaycan dövləti çıxış edir. Azərbaycan dövlətinin buraxdığı istiqraz vərəqələrini xarici ölkə vətəndaşı aldığı hallarda, borc hüquq münasibətləri yaranır. Bu münasibətlərdə dövlət borc alan, xarici ölkə vətəndaşı isə borc verən rolunda çıxış edir.

Pul öhdəliklərinə görə xarici əmlak dövriyyəsində dövlət adından məsuliyyəti Maliyyə Nazirliyi və Milli Bank daşıyırlar. **Maliyyə Nazirliyi** beynəlxalq-kredit təşkilatları ilə əməkdaşlığı həyata keçirir, onların tərəfindən Azərbaycan dövlətinə kreditlər ayrılması barədə danışıqlar aparır, Azərbaycan xarici dövlət borcunun və xarici dövlətlərin Azərbaycan Respublikasına borcunun uçotunu aparır, Milli Bank ilə birlikdə bu borcların ödənilməsi sahəsində müvafiq tədbirlər həyata keçirir, dövlət zəmanəti ilə təmin edilən xarici kreditlər üzrə borc öhdəliklərini qeydiyyata alır və onların qaytarılmasını təmin etmək üçün

[1] Beynəlxalq mülki (xüsusi) hüquq mülki hüququn yanmsahələrindən biri sayılır (Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Bakı 2007).

müvafiq orqanlar qarşısında məsələ qaldırır[1].

Milli Bank Azərbaycan dövləti adından beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığı həyata keçirir. O, xarici dövlətlərin mərkəzi bankları ilə qarşılıqlı münasibətlərdə, habelə beynəlxalq banklarda və digər beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan dövlətinin adından çıxış edərək, onun mənafeyini təmsil edir, habelə Azərbaycan dövləti adından beynəlxalq kontraktlar bağlayır[2].

Azərbaycan dövləti **xarici ticarət dövriyyəsində çıxış edərək, xarici ticarət əqdləri bağlayır.** Bu münasibətlərdə dövlətin səlahiyyətini müvafiq dövlət orqanı yerinə yetirir. Sovet dövründə xarici ticarət əqdlərini dövlət adından ticarət nümayəndəlikləri bağlayırdı. İndiki dövrdə xarici dövlətlərdə bu cür nümayəndəliklər yaradılmamışdır. Beynəlxalq İqtisadi Əlaqələr, Ticarət Nazirliyi kimi qurumlar ləğv edilmişdir. Güman edirik ki, Azərbaycan dövləti adından xarici ticarət əqdlərini İqtisadi İnkişaf Nazirliyi bağlaya, yəni həmin Nazirliyin bağladığı xarici ticarət əqdlərində tərəf rolunda Azərbaycan dövləti çıxış edə bilər. Amma xarici ticarətin təşkilinin müasir dövründə bu cür hallara az-az rast gəlirik. Belə ki, xarici ticarət əqdlərini, bir qayda olaraq, müstəqil hüquqi şəxslər — xarici təsərrüfat təşkilatları (xarici ticarət təşkilatları) bağlayırlar. Azərbaycan dövləti bu cür təşkilatların bağladığı xarici ticarət əqdlərinə görə məsuliyyət daşımır. **Azərbaycan dövləti yalnız onun səlahiyyətlərini həyata keçirən və onun adından çıxış edən dövlət orqanının bağladığı xarici ticarət əqdlərinə görə cavabdeh ola bilər.**

Azərbaycan dövləti **xarici investorlarla (sərmayədarlarla) bağlanan investisiya sazişlərinin (kontraktlarının) iştirakçısı** ola bilər. Xarici investorlar Azərbaycan Respublikasında investisiya fəaliyyətini həyata keçirən subyektlərdir. Xarici hüquqi şəxslər, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, xarici dövlətlər və beynəlxalq təşkilatlar xarici investorlar (investisiya fəaliyyətinin subyektləri) ola bilərlər[3]. Azərbaycan Respublikasında xarici investisiyaların cəlb olunması ilə bağlı görülən işlərin əlaqələndirilməsini və bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə **Xarici İnvestisiyalar Agentliyi** yaradılmışdır[4].

Azərbaycan dövləti **konsessiya müqaviləsinin iştirakçısı** ola bilər[5]. Konsessiya müqaviləsi elə bir sazişdir ki, bu sazişə görə, Azərbaycan dövləti özünə məxsus olan yeraltı və yerüstü sərvətləri müəyyən əvəz almaq şərti ilə nəzərdə tutulan müddətə xarici investorlara istismara verir.

[1] bax: «Azərbaycan Respublikası Maliyyə Nazirliyi haqqında Əsasnamə» (AR QK, III cild, xüsusi buraxılış, s. 631).

[2] bax: «Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunun 9-cu maddəsi.

[3] bax: «Xarici investisiyanın qorunması haqqında» qanunun 2-ci maddəsi (AR QK, I cild, s. 245); «İnvestisiya fəaliyyəti haqqında» qanunun 4-cü maddəsi (AR QK, II cild, s. 397).

[4] bax: «Azərbaycan Respublikası Xarici İnvestisiyalar Agentliyinin yaradılması haqqında» prezidentin 27 mart 2000-ci il tarixli 309 saylı fərmanına (AR QK, III xüsusi buraxılış, s. 642).

[5] RF, Qırğızıstan, Macarıstan, Böyük Britaniya, Norveç və digər ölkələrdə konsessiya müqavilələrinin bağlanması qaydası və şərtləri qanunvericilik qaydasında, yəni xüsusi qanunlarla tənzimlənir. Bu cür qanunun layihəsinin hazırlanması bizim ölkə parlamentinin müvafiq qərarında nəzərdə tutulmuşdur. Lakin buna baxmayaraq, konsessiyalar haqqında Azərbaycan Respublikasının qanunu indiyə kimi qəbul olunmamışdır.

Azərbaycan dövləti **konsorsium münasibətlərində** iştirak edir. Söhbət, neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında «əsrin kontraktı»ndan gedir. Bu, doğrudan da, XX əsrin ən qlobal və geniş miqyaslı investisiya layihələrindən biridir. Konsorsiuma dünyanın aparıcı neft şirkətləri daxildir.

Dövlət neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında müxtəlif xarici neft şirkətləri ilə bağlanan sazişlərdə iştirak edir. Həmin sazişləri Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti bağlayır[1].

Azərbaycan dövləti xaricdə səfirlik üçün bina tikildiyi, torpaq sahəsi icarəyə və ya yaşayış evi kirayəyə götürüldüyü hallarda, əmlak münasibətlərinin subyekti rolunda özü çıxış edir. Bütün hallarda bu cür mülki-hüquqi əqdlər Azərbaycan dövləti adından səfirlik tərəfindən bağlanılır.

Azərbaycan dövləti **xaricdə mülki dövriyyədə vərəsə rolunda** da çıxış edə bilər. Bununla o, vərəsəlik hüquq münasibətinin subyekti kimi iştirak edir. Məsələn, Azərbaycan vətəndaşı xarici ölkə banklarına qoyduğu əmanəti Azərbaycan dövlətinə vəsiyyət edə bilər[2]. Başqa bir misalda Azərbaycan Respublikası xarici dövlət ərazisində olan vərəsəsiz əmlaka sahib ola bilər.

Azərbaycan dövləti xaricdə mülki dövriyyədə **mülkiyyətçi rolunda** da çıxış edə bilər. Bununla o, mülkiyyət hüquq münasibətlərinin iştirakçısı olur. Səfirliklərin, konsulluqların və digər dövlət qurumlarının yerləşdikləri binalar, xarici diplomatik nümayəndəliklərin ailə üzvlərinin yaşadıqları yaşayış evləri və sair əmlak növləri mülkiyyət hüququ əsasında dövlətə məxsus ola bilər.

7. Dövlət immuniteti

Ümumi qaydaya görə, dövlət hakimiyyəti dövlət ərazisinə şamil edilir. Dövlət ərazisi dedikdə, yer kürəsinin müəyyən dövlətin suverenliyində (almanca «souveranitat», fransızca «souverainete» — dövlətin öz daxili işlərində və xarici münasibətlərində başqa dövlətdən tam asılı olmaması)[3] olan hissəsi başa düşülür. Deməli, Azərbaycan Respublikasının dövlət ərazisi onun dövlət suverenliyinin ərazisidir. Azərbaycan dövləti yalnız öz ərazisində tam suveren hakimiyyətə malikdir və bu hakimiyyət müstəsna xarakterlidir.

Dediklərimizdən belə çıxır ki, dövlət, adətən, öz ərazisindən kənarda hakimiyyətə malik deyil. Amma bu halda **suverenlik** kimi vacib keyfiyyətini dövlət itirmir. Digər tərəfdən bütün dövlətlər beynəlxalq münasibətlərdə **hüquq bərabərliyinə** malikdirlər. Bu iki keyfiyyət dövlətin xarici dövlət ərazisində mülki hüquq münasibətlərinə girməsi zamanı xüsusi rol oynayır, mühüm əhəmiyyət kəsb edir və şübhəsiz ki, nəzərə alınır. Belə ki, dövlətlərin suverenliyi və onların hüquqca bərabərliyi kimi iki zəruri keyfiyyət dövlətin xarici mülki (əmlak) dövriyyədə immunitet (latınca «immunitas» — nədənsə azad olmaq)[4] hüququndan istifadə etməsinə əsas verir. Daxili mülki (əmlak) dövriyyədə dövlət bu

[1] bax: AR QK, III xüsusi buraxılış.

[2] Keçmiş Bakı milyonçusu Şəmsi Əsədullayevin mərhum qızı 2002-ci ildə Türkiyədə vəfat edərkən məhz belə hərəkət edərək xeyli maddi vəsaiti Azərbaycan dövlətinə vəsiyyət etmişdi.

[3] bax: Словарь иностранных слов. М., 1985, с. 478.

[4] bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова.* М., 1954, с. 264.

hüquqdan istifadə etmir. O, **dövlatdaxili mülki hüquq münasibətlərində iştirak etdiyi hallarda immunitetdən imtina edir.** Belə ki, dövlət bu cür münasibətlərə girərkən özünün hakimiyyət funksiyasından və səlahiyyətindən istifadə etmir, həmin münasibətlərdə iştirak edən qarşı tərəflə — fiziki və hüquqi şəxslərlə hüquq bərabərliyinə malik olur. Əgər dövlət iştirak etdiyi mülki hüquq münasibətlərindən irəli gələn vəzifə və öhdəlikləri icra etməsə və ya lazımınca icra etməsə, ona məhkəmə qaydasında adi əmlak məsuliyyəti tətbiq oluna bilər.

Dövlət immuniteti dedikdə, öz ərazisindən kənarda fəaliyyət göstərən əcnəbi dövlətə başqasının dövlət suverenliyinin onun razılığı olmadan şamil edilməməsi başa düşülür. Dövlət immuniteti onun suverenliyinin öz dövlət ərazisindən kənarda davam etməsidir. Elə bil ki, dövlət öz suverenliyini xarici dövlətin ərazisində davam etdirir.

Hüquq doktrinasında və təcrübədə dövlət immunitetinin məzmununa daxil olan bir neçə element fərqləndirilir. Bu elementlərə aiddir:

- məhkəmə immuniteti;
- iddianın qabaqcadan təmin edilməsindən immunitet;
- qərarın məcburi icrasından immunitet.

Məhkəmə immuniteti onu ifadə edir ki, müəyyən bir dövlətə hər hansı xarici dövlətin məhkəməsi vasitəsi ilə iddia verilməsinə yol verilmir. Yalnız həmin dövlətin səlahiyyətli orqanlarının razılığı ilə ona iddia verilə bilər.

İddianın qabaqcadan təmin edilməsindən immunitet onu ifadə edir ki, xarici dövlətin başqa bir dövlət ərazisində olan əmlakına hər hansı tələbin yönəldilməsinə yol verilmir. Həmin əmlaka tələbin yönəldilməsinə ancaq müvafiq dövlətin səlahiyyətli orqanlarının razılığı ilə yol verilə bilər.

Qərarın məcburi icrasından immunitet onu ifadə edir ki, xarici dövlət barəsində qəbul edilmiş məhkəmə qərarının məcburi qaydada icrasına yol verilmir. Yalnız xarici dövlətin səlahiyyətli orqanları razılıq verdikdə, həmin dövlət barəsində çıxarılmış məhkəmə qərarı icra oluna bilər.

Bunlardan əlavə, dövlət immunitetinin **dövlət mülkiyyətinin immuniteti kimi ayrıca bir elementi** də fərqləndirilir[1]. Bu, dövlətin immuniteti ilə sıx surətdə bağlıdır.

Dövlət mülkiyyətinin immuniteti onu ifadə edir ki, xarici dövlət ərazisində olan dövlət əmlakı barəsində iddia verilə bilməz; tələbi təmin etmək məqsədilə həmin əmlak üzərində həbs qoyula bilməz; onun barəsində qəbul edilmiş məhkəmə qərarı məcburi qaydada icra edilə bilməz. Yalnız müvafiq dövlətin səlahiyyətli orqanları razılıq verdikdə, bu əmlak barəsində məcburi tədbirlər görülə bilər.

Dövlətin immuniteti barədə hüquq doktrinasında iki əsas nəzəriyyə yaranmışdır. Bu nəzəriyyələrə aiddir:

- mütləq immunitet nəzəriyyəsi;
- məhdud immunitet nəzəriyyəsi (və ya funksional immunitet nəzəriyyəsi).

Mütləq immunitet nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, başqa bir

[1] bax: Советское гражданское право. Учбеник. М., 1983, с. 75; *Богуславский М.М.* Международное частное право. Учебник. М., 1994, с. 192; Гражданское право. Учбник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 200.

dövlətin ərazisində çıxış edən xarici dövlət və onun əmlakı bütün hallarda immunitetə malikdir. Bu nəzəriyyəyə görə, xarici dövlətə iddia verilməsinə, iddianın təmin edilməsinə və xarici dövlətin başqa dövlət ərazisində olan əmlakına tələbin yönəldilməsinə ancaq müvafiq dövlətin səlahiyyətli orqanlarının razılığı ilə yol verilə bilər.

Sovet dövrünün hüquq doktrinası həmişə ənənəvi olaraq mütləq immunitet nəzəriyyəsindən çıxış etmişdir. Sovet doktrinası belə hesab etmişdir ki, iqtisadi (əmlak) dövriyyədə çıxış edən hallarda, dövlət öz suverenliyini itirmir. Dövlət malik olduğu suverenlikdən imtina etmir və bu keyfiyyətdən məhrum olunmur. Dövlət həmişə və bütün hallarda, istisnasız olaraq, immunitetə malikdir. Hər hansı bir halda bu immunitet məhdudlaşdırılmır.

Sovet dövrünün mülki prosessual qanunvericiliyi, o cümlədən Azərbaycan Respublikasının əvvəlki Mülki Prosessual Məcəlləsi (455-ci maddə) mütləq immunitet nəzəriyyəsini formulə edirdi. Amma bizim ölkənin yeni MPM-i bu nəzəriyyəni ifadə etmir. Belə çıxır ki, Azərbaycan Respublikasının yeni mülki prosessual qanunvericiliyi mütləq immunitet nəzəriyyəsini nəzərə almayaraq, onu formulə etməkdən imtina etmişdir.

Məhdud immunitet nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, suveren hakimiyyət daşıyıcısı kimi çıxış edən dövlət hakimiyyət aktı həyata keçirəndə (de jure imperii) həmişə o, immunitetdən istifadə edir. Əgər dövlət xüsusi şəxs qismində hərəkətlər edirsə (de jure gestionis), xarici ticarət əməliyyatları həyata keçirirsə, xarici ticarət əqdləri bağlayırsa, hər hansı bir kommersiya fəaliyyəti ilə məşğul olursa, o, belə hallarda immunitetdən istifadə etmir. Bu nəzəriyyə bir sıra xarici dövlətlərin qanunvericiliyində ifadə olunmuşdur. Məsələn, ABŞ-ın «Xarici dövlətlərin immuniteti haqqında» qanununda (1976) göstərilir ki, ABŞ-da xarici dövlət tərəfindən həyata keçirilən kommersiya fəaliyyətinə görə iddia verildiyi hallarda, həmin dövlətin immuniteti tanınmır. Analoji prinsipi Böyük Britaniyada (1978), Kanadada (1981), Avstraliyada (1981), Pakistanda (1981), Sinqapurda (1979), CAR-da (1981) qəbul edilən dövlət immuniteti haqqında qanunlar da ifadə edir.

Xarici ölkələrin məhkəmə praktikasında məhdud immunitet nəzəriyyəsi geniş yayılmışdır. Avstriyanın, İsveçrənin, Belçikanın, İtaliyanın, Yunanıstanın məhkəmələri həmişə məhz bu nəzəriyyədən çıxış etmişlər. Məhdud immunitet nəzəriyyəsi Almaniyanın məhkəmə praktikasında da tətbiq olunmuşdur.

Göstərilən nəzəriyyə bəzi beynəlxalq konvensiyalarda da ifadə edilmişdir. Söhbət, hər şeydən əvvəl, «Dövlətin immuniteti haqqında» 16 may 1972-ci il tarixli Avropa Konvensiyasından gedir. Bu Konvensiyada dövlətin immunitetdən istifadə etməməsini şərtləndirən halların dairəsi göstərilir: dövlətin özünün immunitetdən imtina etməsi; iddianın dövlətin özü tərəfindən verilməsi; əmək kontraktı üzrə mübahisənin yaranması; daşınmaz əşya barəsində mübahisənin əmələ gəlməsi; zərərin əvəzinin ödənilməsi barədə tələblə bağlı iddia verilməsi; sənayə mülkiyyəti hüquqlarının qorunması ilə bağlı iddia verilməsi; məhkəmənin olduğu ölkədə dövlətin büro və ya agentliyi tərəfindən xüsusi şəxs kimi həyata keçirilən fəaliyyətlə bağlı iddia verilməsi.

Dövlət immunitetinin üç növü vardır[1]:

- mütləq immunitet;
- funksional immunitet;
- məhdud immunitet.

Mütləq immunitet dedikdə, heç bir halda dövlətin başqa dövlətlərin hakimiyyət xarakterli hərəkətlərinə məruz qalmaması başa düşülür; yalnız dövlət özü könüllü surətdə immunitetdən imtina etdiyi halda, mütləq immunitet məhdudlaşır.

Funksional immunitetə görə dövlət öz suveren funksiyalarını həyata keçirmək məqsədilə beynəlxalq mülki münasibətlərə daxil olduğu hallarda (məsələn, xarici dövlət ərazisində səfirliyi üçün bina tikdirmək məqsədilə dövlətin tikinti təşkilatı ilə müqavilə bağladığı halda və s.) immunitetdən istifadə edir; dövlət bu kimi münasibətlərə öz suveren funksiyalarını həyata keçirmək məqsədi olmadan daxil olarsa, immunitet hüququna malik olmur (məsələn, dövlət xarici şəxslə hər hansı kommersiya ticarət müqaviləsi bağlayır və s.).

Məhdud immunitet odur ki, bu immunitetə görə dövlətlər öz aralarında bağladıqları beynəlxalq müqavilələrdə müəyyənləşdirdiyi konkret hallarda immunitetdən istifadə etmirlər. Məsələn, dövlət immuniteti haqqında Avropa konvensiyası belə konkret hallar müəyyənləşdirir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Брагинский М.И. Участие советского государства в гражданских правоотношениях. М., 1981.

Братусь С.Н. Субъекты гражданского права. М., 1950 (глава XIV).

Виткявичусь П.П. Гражданская правосубъектность советского государства. Вильнюсь. 1978.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1998 (гл. 8).

Гражданское право. Учебник. Том 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева.** М., 1997 (гл. 6).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998 (гл. 8).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.** М., 1998 (гл. 7).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл. 6).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева.** М., 1999 (гл. 3, § 3).

Иоффе О.С. Советское гражданское право. Курс лекций. Учебное пособие. Л., 1957 (гл. 6).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова.** М., 1985 (гл. 6).

Советское гражданское право. Субъекты гражданского права / Под ред. **С.Н.Братуся.** М., 1984 (гл. 13).

Советское гражданское право. Учебник. М., 1983 (гл. 6).

Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. **О.Н.Садикова.** М., 1999 (гл. 5).

Комментарий части первой Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1995 (гл. 5).

Шенгелия Р.В. Гражданская правосубъектность советского государства в кредитных отношениях. Тбилиси. 1984.

Гражданское право России. Курс лекций. Часть 1 / Под ред. **О.Н.Садикова.** М., 1996 (гл. 7).

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949.

[1] Daha ətraflı: *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüququ. Dərslik. Bakı. 2007, s. 314-321.

IX FƏSİL
MÜLKİ HÜQUQUN SUBYEKTİ KİMİ YERLİ ÖZÜNÜİDARƏ ORQANLARININ HÜQUQİ VƏZİYYƏTİ

§ 1. Yerli özünüidarə orqanlarının mülki hüquq subyektliyi, onun əsas cəhətləri və elementləri

1. Yerli özünüidarə orqanlarının mülki hüquq subyektliyinin anlayışı və elementləri

Mülki hüquq münasibətləri subyektlərinin siyahısında mülki qanunvericilik yerli özünüidarə orqanlarının da adını çəkir (MM-in 5-ci maddəsinin 2-ci bəndi). Bu orqanlar mülki hüququn **xüsusi kateqoriya subyektləri** kimi fərqləndirilir və nəzərdə tutulur.

Yerli özünüidarə orqanları dedikdə, bələdiyyə orqanları başa düşülür. **Bələdiyyə orqanları** isə dövlət orqanları sisteminə daxil olmayan elə orqanlardır ki, onlar bələdiyyə tərəfindən yaradılır və yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətinə malik olur. Onlar seçkili orqanlardır.

Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyələr yerli özünüidarəni həyata keçirir[1]. **Yerli özünüidarə** isə vətəndaşların fəaliyyətinin elə bir qeyri-dövlət sistemidir ki, bu sistem qanun çərçivəsində onlara yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək imkanı verir. Bələdiyyələrin statusu xüsusi qanunla tənzimlənir[2].

Bələdiyyələr özlərinin nizamnamələrinə əsasən təşkil edilən, bələdiyyə üzvlərindən ibarət seçkili yerli özünüidarə orqanlarıdır[3]. Bələdiyyələrin nizamnamələrinə uyğun olaraq bələdiyyə orqanları yaradılır. Bələdiyyə orqanları yerli özünüidarə məsələlərini həll etmək üçün müvafiq səlahiyyətlərə malikdirlər. Bələdiyyələr və bələdiyyə orqanları **bələdiyyə qurumları** adlanır.

Bələdiyyə qurumları ilə dövlət qurumları (dövlət və dövlət orqanları) arasında ümumi və oxşar cəhət vardır. Bu qurumlar üçün ümumi cəhət ondan ibarətdir ki, həm bələdiyyə qurumları, həm də dövlət qurumları **hakimiyyət funksiya və səlahiyyətlərinə malikdirlər.** Məhz bu səbəbə görə həmin qurumlar **ümumi (hakimiyyət) hüquq qurumları** adlı ümumi anlayışla əhatə olunur.

Lakin həmin qurumlar arasında fərqli cəhətlər də vardır. Əsas fərqli cəhət ondan ibarətdir ki, **bələdiyyə qurumlarının hakimiyyət səlahiyyətləri dövlət-hüquqi xarakter daşımır. Bələdiyyə qurumları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir.**

Bələdiyyə qurumları öz qarşısında duran regional (yerli) əhəmiyyətli məsələləri həll etmək üçün mülki (əmlak) dövriyyədə, əmlak münasibətlərində iştirak edirlər. **Yerli əhəmiyyətli məsələlər** dedikdə, bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı olan məsələlər başa düşülür. Bu münasibətlərdə mülki hüququn subyekti kimi çıxış etmək üçün onlar lazım olan bütün əlamətlərə malikdirlər. Bələdiyyə qurumları, hər şeydən əvvəl, **təşkilati vahidliyə malikdir.** Bu əlamət onları tam və vahid kollektiv qurum kimi xarakterizə etməyə imkan verir. Belə ki, bələdiyyələr müəyyən struktur əsasında yaradılır. Onların icra orqanı vardır. Bələdiyyələrin icra orqanı rolunda onun icra aparatı çıxış edir[1]. İcra aparatı isə idarə, şöbə və digər struktur bölmələrindən ibarətdir. Bələdiyyə mülkiyyətinin və bələdiyyənin istifadəsinə verilmiş başqa mülkiyyətin idarə edilməsi, bələdiyyə əmlakının texniki inventarlaşdırılması və digər məsələlər onun səlahiyyətinə aiddir.

Bələdiyyə iclası bələdiyyələrin fəaliyyətində mühüm yer tutur. **Bələdiyyənin iclası** dedikdə, bələdiyyə üzvlərinin ümumi yığıncağı başa düşülür. O, ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağırılır. **Ümumi yığıncaqda** bələdiyyələrin səlahiyyətinə aid edilmiş mühüm və vacib məsələlər həll edilir: yerli vergilərin və ödənişlərin müəyyən edilməsi; yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi; bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam və s[2].

Bələdiyyə öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və hazırlanması, öz tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər. Onlar müvafiq əsasnamə və bələdiyyənin nizamnaməsi əsasında fəaliyyət göstərirlər[3].

Bələdiyyələr mülki (əmlak) dövriyyədə subyekt rolunda çıxış etmək üçün **zəruri olan ayrıca əmlaka (əmlak müstəqilliyinə) malikdir.** Bu, onda ifadə olunur ki, bələdiyyələrin əmlak üzərində bələdiyyə mülkiyyət hüququ vardır. Konstitusiya dövlət mülkiyyəti və xüsusi mülkiyyətdən başqa, bələdiyyə mülkiyyətini ayrıca olaraq mülkiyyətin bir növü kimi müəyyən edir[4].

Mülki (əmlak) dövriyyədə çıxış etmək üçün bələdiyyələr **öz öhdəliklərinə görə cavab vermək qabiliyyətinə** malikdir. Onlar kreditorlar qarşısında öz əmlakı ilə əmlak (mülki-hüquqi) məsuliyyəti daşımağa qadir olan subyektlərdir.

Bələdiyyələr **məhkəmədə iddiaçı və cavabdəh olmaq hüququna** malikdir. Bu hüququn isə bələdiyyələrin mülki (əmlak) dövriyyədə çıxış etmələri üçün vacib əhəmiyyəti vardır.

Beləliklə, bələdiyyələr də hüquqi şəxsin əlamətlərinə malikdir. Buna görə də mülki dövriyyədə çıxış etmək (məsələn, müqavilə bağlamaq və s.) üçün qanun onlara hüquqi şəxs statusu verir. Belə ki, bələdiyyələr hüquqi şəxslərdir[5], amma bələdiyyə və hüquqi şəxs mülki hüququn ayrı-ayrı iki növ subyektidir.

Dövlətin mülki hüquq subyektliyi kimi, bələdiyyələrin mülki hüquq subyektliyi

[1] Konstitusiyanın 142-ci maddəsinin 1-ci hissəsi (AR QK, II cild, s. 610).

[2] «Bələdiyyələrin statusu haqqında» qanun (2 iyul 1999-cu il) // AR QK, III xüsusi buraxılış, s. 182

[3] Azərbaycan Respublikasının 15 oktyabr 1999-cu il tarixli qanunu ilə «Bələdiyyənin nümunəvi nizamnaməsi» təsdiq edilmişdir (AR QK, III xüsusi buraxılış, s. 218).

[1] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 18-ci maddəsi (AR QK, III xüsusi buraxılış, s. 185); «Bələdiyyənin nümunəvi nizamnaməsi» (AR QK, III xüsusi buraxılış, s. 218).

[2] bax: Konstitusiyanın 144-cü maddəsi (AR QK, II cild, s. 610); «Bələdiyyənin nümunəvi nizamnaməsi» (AR QK, III xüsusi buraxılış, s. 218).

[3] Azərbaycan Respublikasının 14 aprel 2000-ci il tarixli qanunu ilə təsdiq edilmiş «Bələdiyyənin daimi və başqa komissiyaları haqqında Əsasnamə» (AR QK, III xüsusi buraxılış, s. 500).

[4] bax: Konstitusiyanın 13-cü maddəsinin 2-ci hissəsi (AR QK, II cild, s. 572).

[5] «Bələdiyyələrin statusu haqqında» qanunun 11-ci maddəsi (AR QK, III xüsusi buraxılış, s. 214).

də ümumiləşdirilmiş anlayışdır. Bu anlayış özündə **mülki hüquq qabiliyyəti, mülki fəaliyyət qabiliyyəti və delikt qabiliyyəti kimi üç elementi birləşdirir.**

2. Yerli özünüidarə orqanlarının (bələdiyyələrin) mülki hüquq subyektliyinin əsas cəhət və xüsusiyyətləri

Bələdiyyələr xüsusi olaraq mülki (əmlak) dövriyyədə iştirak etmək məqsədi ilə yaranmamışdır. Onların **əsas və başlıca fəaliyyət məqsədi yerli özünüidarəni həyata keçirməkdən ibarətdir.** Bu məqsədi yerinə yetirmək üçün bələdiyyələr əmlak münasibətlərində, mülki (əmlak) dövriyyədə subyekt rolunda çıxış edirlər. Deməli, onların mülki hüquq subyektliyi məqsədli (xüsusi) xarakter daşıyır. Məhz bu səbəbdən **bələdiyyələr məqsədli (xüsusi) mülki hüquq və fəaliyyət qabiliyyətinə malikdir**[1]. Bu, o deməkdir ki, bələdiyyələr yalnız özlərinin fəaliyyət məqsədlərinə uyğun gələn mülki hüquqlara malik ola, vəzifələr daşıya, habelə öz hərəkətləri ilə bu cür hüquqlar əldə və özləri üçün belə vəzifələr yarada bilər.

Bələdiyyələrin mülki hüquq subyektliyinin digər xüsusiyyəti onunla şərtlənir ki, onlar **mülki hüquq münasibətlərinə girdikləri hallarda özlərinin hakimiyyət funksiyasından və səlahiyyətlərindən istifadə etmirlər.** Belə halda bələdiyyələr həmin münasibətlərdə iştirak edən qarşı tərəflə (kontragentlə) — fiziki və hüquqi şəxslərlə hüquqca bərabər olur. Burada mülki hüquq münasibətlərində iştirak edən tərəflər arasında hakimiyyət-tabeçilik və subordinasiya əlaqələrinin mövcudluğundan söhbət gedə bilməz. Bu, onunla izah edilir ki, qanun bələdiyyələrin daxil olduqları mülki hüquq münasibətlərinin mülki qanunvericiliklə tənzimlənməsi haqqında qayda müəyyən edir (MM-in 5-ci maddəsinin 2-ci bəndi). Mülki qanunvericilik isə mülki hüquq subyektlərinin bərabərliyi prinsipini təsbit edir. Bu prinsip imkan verir ki, mülki hüquq münasibətlərində iştirak edən bələdiyyələr bu münasibətlərdən irəli gələn öhdəlikləri icra etmədikdə və ya lazımınca icra etmədikdə, onlara mülki-hüquqi sanksiyalar tətbiq edilsin.

Bələdiyyələrin mülki hüquq subyektliyinin başqa bir cəhəti ondan ibarətdir ki, **onlar öz orqanlarının vasitəsilə səlahiyyətlərini həyata keçirir, bu orqanların hərəkətləri ilə mülki hüquqlar əldə edir, həmin hüquqları gerçəkləşdirir və özü üçün mülki vəzifələr yaradır.** Bələdiyyələrin səlahiyyətlərini, bir qayda olaraq, bələdiyyələrin iclasları (bələdiyyə üzvlərinin ümumi yığıncağı) həyata keçirir. Məsələn, bələdiyyələr mülkiyyət münasibətlərində məhz bələdiyyə iclası vasitəsi ilə iştirak edir. Belə ki, bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam kimi məsələ bələdiyyə

[1] Bəzi müəlliflər «xüsusi hüquq qabiliyyəti» və «məqsədli hüquq qabiliyyəti» kimi iki anlayışı bir-birindən fərqləndirirlər. Bizim fikrimizcə, bu iki anlayış eynimənalıdır. Bunlar arasında elə də prinsipial fərq yoxdur. Çünki «xüsusi» və «məqsədli» ifadələri bir-birinə hədən artıq yaxın olan sözlərdir. «Xüsusi» sözü rus dilinə «специальный» kimi tərcümə olunur. «Специальный» ifadəsi isə latınca «specialis» sözündən götürülmüşdür. Bu söz isə «hər hansı məqsəd üçün nəzərdə tutulan» mənasını bildirir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова* и др. М., 1985, с. 468). S.İ.Ojeqov isə bu sözün mənasını «müstəsna olaraq hər hansı məqsəd üçün nəzərdə tutulmuş» kimi açıqlayır (bax: *Ожегов С.И.* Словарь русского языка / Под ред. *Н.Ю.Шведовой*. М., 1988, с. 616).

iclasında həll edilir[1].

Bələdiyyələrin səlahiyyətini bələdiyyənin icra orqanı (onun icra aparatı) da həyata keçirə bilər. Məsələn, bu orqan bələdiyyə mülkiyyətini idarə etmək səlahiyyətinə malikdir.

§ 2. Bələdiyyələrin (yerli özünüidarə orqanlarının) mülki hüquq münasibətlərində iştirak formaları

1. Bələdiyyələr mülkiyyətçi statuslu qurum kimi

Bələdiyyələrin mülki hüquq münasibətlərində iştirak etmə hallarının dairəsi kifayət qədər genişdir. Mülki hüquq münasibətlərində iştirak etmək üçün onlara geniş səlahiyyətlər verilmişdir. Mülki (əmlak) dövriyyədə onların subyekt rolunda çıxış etdiyi nisbətən vacib sahə **mülkiyyət hüquq münasibətləridir.** Bizim ölkə qanunvericiliyi mülkiyyət hüququnun subyektləri haqqında siyahıda bələdiyyələrin də adını çəkir (MM-in 153-cü maddəsinin 1-ci bəndi).

Bələdiyyələr qarşısında duran vəzifəni — yerli özünüidarəni həyata keçirmək üçün lazım və zəruri olan əmlaka malikdir. Bu əmlak bələdiyyələrin mülki (əmlak) dövriyyədə müstəqil surətdə iştirak etməsi üçün vacib olan maddi bazasını yaradır. Həmin əmlak mülkiyyət hüququ əsasında bələdiyyələrə məxsus olub, onun mülkiyyətini təşkil edir (MM-in 156-cı maddəsinin 1-ci bəndi). **Bələdiyyələr malik olduqları əmlakın mülkiyyətçisidir.** Deməli, onlar mülkiyyətçi statusu olan qurumlardır.

Bələdiyyə mülkiyyəti dedikdə, mülkiyyət hüququ əsasında bələdiyyələrə məxsus olan əmlak başa düşülür. **Bələdiyyələrin bölüşdürülməmiş əmlakı,** yəni bələdiyyə müəssisə və təşkilatlarına verilməmiş əmlak onun xəzinəsini təşkil edir. **Bələdiyyə xəzinəsi** əsasən yerli büdcə vəsaitindən yaranır. Yerli büdcə bələdiyyə büdcəsi olub, dövlət büdcəsinin tərkib hissəsi sayılmır[2]. **Yerli büdcənin vəsaiti** bələdiyyənin mülkiyyətidir (MM-in 156-cı maddəsinin 2-ci bəndi). Yerli büdcələrin vəsaiti barəsində onlar müstəqil sərəncam vermək ixtiyarına malikdir. Bu vəsait, bir qayda olaraq, yerli vergilər və ödənişlər hesabına formalaşır. Bələdiyyə mülkiyyəti obyektlərinin özəlləşdirilməsi nəticəsində əldə edilən vəsaitlər də bütünlüklə yerli büdcəyə daxil olur. Bundan əlavə, bələdiyyə xəzinəsinin yaranmasında büdcədənkənar fondlar da mühüm rol oynayır.

Bələdiyyələrin bölüşdürülmüş əmlakı bələdiyyələrin mülkiyyətində olan əmlakın ikinci hissəsini təşkil edir. Bu əmlak hissəsi mülkiyyət hüququ əsasında yox, məhdud əşya hüququ əsasında bələdiyyə müəssisə və təşkilatlarına verilmiş əmlakdan ibarətdir. Həmin əmlak bələdiyyələr tərəfindən göstərilən bələdiyyə müəssisə və təşkilatlarına ona görə verilmişdir ki, onlar təsərrüfat və qanunvericiliklə qadağan edilməmiş digər fəaliyyətlə məşğul olsunlar. Axı, bələdiyyələr mülkiyyətçidir və onların hüquqi şəxslər (müəssisə və təşkilatlar) yaratmaq və bu şəxsləri zəruri əmlakla təmin etmək hüququ vardır. Qanun da

[1] bax: Konstitusiyanın 144-cü maddəsinin 1-ci hissəsinin 6-cı bəndi (AR QK, II cild, s. 610); «Bələdiyyənin nümunəvi nizamnaməsi»nin 4-cü maddəsinin 2-ci hissəsinin 6-cı bəndi (AR QK, III xüsusi buraxılış, s. 218).

[2] bax: «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» 7 dekabr 1999-cu il tarixli qanunun 4-cü maddəsi (AR QK, III xüsusi buraxılış, s. 413).

bələdiyyələrə hüquqi şəxs yaratmaq hüququ verir[1]. Belə ki, onlar təsərrüfat fəaliyyəti ilə və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər yarada bilərlər. Bələdiyyələr bu şəxslərə zəruri əmlak verir, onların nizamnamələrini təsdiq edir və fəaliyyət məqsədlərini müəyyən edir, habelə bu şəxslərin hazırladıqları və istehsal etdikləri məhsulun (xidmətin) qiymətlərini (tariflərini) tənzimləyir.

Amma bələdiyyələrin kommersiya hüquqi şəxsləri yaratmağa ixtiyarı çatmır. Ona görə ki, mülki qanunvericiliyə görə yerli özünüidarə orqanları kommersiya hüquqi şəxslərinin — təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilməzlər (MM-in 64-cü maddəsinin 6-cı bəndi).

Bələdiyyələrin yaratdıqları müəssisələr və təşkilatlar obyekt və əmlak kompleksi kimi bələdiyyə mülkiyyətinin tərkibinə daxildir[2]. Buna görə də bu müəssisə və təşkilatların həyata keçirdikləri təsərrüfat fəaliyyəti və digər fəaliyyət nəticəsində əldə etdikləri mənfəət də bələdiyyə mülkiyyəti hesab olunur.

Bələdiyyələrin mülkiyyətində dövriyyə qabiliyyətli istənilən daşınar və daşınmaz əmlak ola bilər. Bələdiyyə torpaqları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları və s. bələdiyyə mülkiyyətinin tərkibinə daxildir. Bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar və bələdiyyənin iqtisadi fəaliyyəti (istehsal, xidmət və s.) **bələdiyyələrin maliyyəsinin iqtisadi əsaslarını** təşkil edir. Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsinin prinsipləri xüsusi qanunla müəyyən edilir[3].

Bələdiyyələrin öz əmlakı barəsində mülkiyyətçi statusu vardır. Mülkiyyətçi kimi bələdiyyələr qanunla müəyyən edilmiş həddə müstəqil surətdə, heç kəsdən asılı olmadan öz əmlakına sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam səlahiyyətlərini həyata keçirirlər. Bu **əmlakdan onların kommersiya (sahibkarlıq) fəaliyyəti məqsədləri üçün istifadə edilməsinə yol verilmir.** Həmin əmlakdan yalnız bələdiyyə vəzifələri üçün istifadə oluna bilər[4].

Bələdiyyə əmlakının yaranma əsasları xüsusi qanunla müəyyən edilir[5]. Burada bələdiyyə əmlakının yaranması mənbələri göstərilir: bələdiyyələrin mülkiyyətinə verilən dövlət əmlakı; bələdiyyələrin fəaliyyəti nəticəsində əldə olunan və yaradılan əmlak; bələdiyyələrə könüllü maddi yardım şəklində verilən əmlak; bələdiyyələrə vəsiyyət edilən əmlak. Bələdiyyələrin mülkiyyətinə verilən torpaq sahələri xüsusi qanunla müəyyənləşdirilir[6].

2. Bələdiyyələr əqd iştirakçısı kimi

Bələdiyyələr mülki fəaliyyət qabiliyyətinə malikdirlər. Mülki fəaliyyət qabiliyyətinə **malik olmaq** isə o deməkdir ki, bələdiyyələrin müxtəlif hüquqi hərəkətlər, yəni hüquqi nəticəyə səbəb olan hərəkətlər etmək imkanı vardır. Söhbət onların əqd bağlamaq qabiliyyətindən gedir. **Əqd bağlamaq qabiliyyəti** bələdiyyələrin malik olduqları mülki fəaliyyət qabiliyyətinin əsas elementidir. Qanun göstərir ki, bələdiyyələr mülkiyyətində olan əmlak barəsində əqdlər bağlaya bilərlər[1]. Onların bu əmlaka dair qanuna zidd olmayan istənilən mülki-hüquqi əqd bağlamaq hüququ vardır.

Bələdiyyələr **icarə əqdlərinin iştirakçısı** ola bilərlər. Onların öz mülkiyyətində olan əmlakı icarə qanunvericiliyinə uyğun olaraq istənilən fiziki və hüquqi şəxsə icarəyə vermək hüququ vardır. Məsələn, bələdiyyələrin ehtiyat fondunun torpaqları fiziki və hüquqi şəxslərin icarəsinə verilə bilər[2]. Bunun üçün bələdiyyələr həmin şəxslərlə icarə müqaviləsi bağlayır. İcarədən icarə haqqı formasında götürülən gəlir bələdiyyənin mülkiyyətinə daxil olur və ondan yalnız bələdiyyə vəzifələri üçün istifadə oluna bilər.

Bələdiyyələr **öz mülkiyyətində olan ayrı-ayrı obyektlərin özgəninkiləşdirilməsinə dair əqdlər** bağlaya bilər. Söhbət, hər şeydən əvvəl, əmlakın alqı-satqısından, dəyişdirilməsindən gedir. Bu cür hallarda qanunla müəyyənləşdirilmiş qaydaya əməl olunması tələb edilir.

Bələdiyyələr **kredit münasibətlərinin iştirakçısı kimi kredit əqdi bağlaya bilər.** Onlar bu cür əqddə həm kredit verən, həm də kredit alan rolunda çıxış edirlər[3]. Qanun bələdiyyələrin kreditlər verməsinə icazə verir.

Bələdiyyələr **borc əqdinin** iştirakçısı kimi çıxış edə bilər. Bir qayda olaraq, bu əqd bələdiyyələr tərəfindən **bələdiyyə lotereyaları buraxılması yolu ilə rəsmiləşdirilir.** Qanun onlara lotereyalar buraxmaq hüququ verir[4]. Bu lotereyaları alan kimi bələdiyyələrlə lotereyaları əldə edən şəxslər arasında borc əqdi bağlanmış olur və bununla borc hüquq münasibətləri yaranır.

Bələdiyyələr müstəqil surətdə xarici hüquqi və fiziki şəxslərlə **xarici iqtisadi əqdlər** bağlaya bilərlər. Belə ki, qanun bələdiyyələrə yerli əhalinin mənafeyi üçün qanunla müəyyənləşdirilmiş qaydada xarici iqtisadi fəaliyyətlə məşğul olmağa icazə verir[5]. Bu cür fəaliyyəti həyata keçirərkən onlar xarici partnyorlarla xarici iqtisadi əqdlər bağlayırlar. Lakin bu zaman onlar **dövlətdən fərqli olaraq immunitetdən istifadə edə bilməzlər.**

Bələdiyyələr sifarişçi rolunda **iş görülməsi (podrat) və xidmətlər göstərilməsi üzrə əqdlərdə** iştirak edə bilər. Onların bələdiyyə ərazisinin abadlaşdırılması, sosial infrastruktur obyektlərinin tikintisi və təmiri, əhalinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri məhsulların istehsalı və digər işlərin görülməsini müxtəlif firma, müəssisə və təşkilatlara sifariş etmək hüququ vardır. Bu məqsədlə onlar həmin subyektlərlə podrat müqaviləsi bağlayırlar.

---

[1] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 34-cü maddəsi // Bələdiyyələr haqqında. Bakı 1999, s. 224.

[2] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 33-cü maddəsinin 1-ci bəndi // Bələdiyyələr haqqında. Bakı. 1999, s. 223.

[3] bax: «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» 7 dekabr 1999-cu il tarixli qanun (AR QK, III xüsusi buraxılış, s. 413).

[4] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 33-cü maddəsinin 6-cı bəndi.

[5] bax: «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında» 7 dekabr 1999-cu il tarixli qanun (AR QK, III xüsusi buraxılış, s. 367).

[6] bax: «Bələdiyyə əraziləri və torpaqları haqqında» 7 dekabr 1999-cu il tarixli qanun (AR QK, III xüsusi buraxılış, s. 368).

[1] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 33-cü maddəsinin 3-cü bəndi // Bələdiyyələr haqqında. Bakı. 1999, s. 224.

[2] bax: «Torpaq islahatı haqqında» 16 iyul 1996-cı il tarixli qanunun 7-ci maddəsinin 2-ci bəndi (AR QK, III cild, s. 289).

[3] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 46-cı maddəsi // Bələdiyyələr haqqında. Bakı. 1999, s. 228.

[4] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 46-cı maddəsi // Bələdiyyələr haqqında. Bakı. 1999, s. 228.

[5] Həmin qanunun 38-ci maddəsi.

Bələdiyyələr **vəsiyyət əqdinin iştirakçısı** ola bilər. Belə ki, onların vəsiyyət üzrə vərəsə ola bilməsi istisna olunmur. Bu halda bələdiyyələr vərəsəlik hüquq münasibətlərində çıxış edirlər.

3. Bələdiyyələr mülki hüquq məsuliyyətinin subyekti kimi

Qeyd etdik ki, bələdiyyələr mülki hüquq münasibətlərinə daxil olduğu zaman öz nəkimiyyət funksiyalarından və səlahiyyətlərindən istifadə etmir. Onlar bu münasibətlərdə digər iştirakçılarla bərabər əsaslarla çıxış edir. Bu, o deməkdir ki, bələdiyyələr həmin münasibətdə çıxış edən digər iştirakçının (qarşı tərəfin) — kontragentin hüquqlarını və qanunla qorunan mənafeyini pozduğu hallarda, mülki qanunvericilikdə nəzərdə tutulan qaydada əmlak məsuliyyətinə cəlb edilir. Onlara mülki-hüquqi sanksiyalar tətbiq olunur. Söhbət, hər şeydən əvvəl, mülki məsuliyyət tədbirlərindən gedir. Bununla bələdiyyələr **əmlak məsuliyyətinin subyekti** olurlar.

Bələdiyyələr müəyyən hallarda **müqavilədənkənar məsuliyyətin — ziyan vurmaq nəticəsində yaranan məsuliyyətin (delikt məsuliyyətinin) subyekti rolunda** çıxış edirlər. Belə ki, bəzən bələdiyyələr mülki qanunvericiliyə uyğun gəlməyən, zidd olan qeyri-normativ xarakterli (yəni ümumməcburi qüvvəsi olmayan, fərdi xarakterli) aktlar qəbul edir. Bu aktların qəbul edilməsi fiziki və ya hüquqi şəxslərin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozur. Bunun nəticəsində həmin şəxslərə, şübhəsiz ki, zərər vurulur. Zərərçəkən şəxslər həmin aktın məhkəmə tərəfindən etibarsız sayılmasını və onlara vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər. Zərərin əvəzi müvafiq bələdiyyənin hesabına ödənilir (MM-in 19-cu və 1100-cü maddələri).

Bəzən bələdiyyələr və onların vəzifəli şəxsləri qanunsuz hərəkətlərə (hərəkətsizliyə) yol verirlər. Bunun nəticəsində fiziki və hüquqi şəxslərə zərər dəyə bilər. Həmin şəxslərə dəymiş zərərin əvəzini bələdiyyələr ödəyirlər (MM-in 1100-cü maddəsi).

Göstərilən iki halda bələdiyyələr delikt məsuliyyətində zərərvuran rolunda çıxış edir. Elə hallar da olur ki, onlar delikt məsuliyyətində zərər vuran yox, zərərçəkən qismində iştirak edir. Belə ki, dövlət hakimiyyət orqanları və dövlətin vəzifəli şəxsləri bələdiyyələrin hüquqlarını pozan aktlar qəbul edirlər. Belə hallarda bələdiyyələr həmin aktların etibarsız sayılması barədə məhkəməyə iddia verə və onlara vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilərlər[1].

Mülki qanunvericilikdə nəzərdə tutulan hallarda **bələdiyyələr subsidiar məsuliyyətin subyekti qismində** çıxış edir. Belə ki, qanun bələdiyyələrin banklar və digər maliyyə-kredit idarələri yaratmasına yol verir[2]. Bu banklar fiziki şəxslərdən əmanətlər qəbul edir. Həmin əmanətlərin qaytarılmasına görə bələdiyyələr subsidiar (əlavə) məsuliyyət daşıyır (MM-in 950-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, əmanətçi əmanətin qaytarılması barədə tələbi ilk dəfə olaraq bələdiyyə bankına verir. Əgər tələb təmin edilməzsə, əmanətçi bələdiyyəyə tələb irəli sürür. Bələdiyyə bankları odur ki, nizamnamə kapitalında iştirak paylarının və ya səhmlərin əlli faizdən çoxu bələdiyyələrə məxsus olur.

[1] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 50-ci maddəsi // Bələdiyyələr haqqında. Bakı. 1999, s. 229.

[2] bax: «Bələdiyyələrin statusu haqqında» qanunun 46-cı maddəsi.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина., А.И.Масляева.** М., 1997 (гл. 6).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл. 6).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.** М., 1998 (гл. 7).

Гражданское право. Учебник. Том 1 / Под ред. Е.А.Суханова. **М., 1998 (гл. 8).**

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого.** М., 1998 (гл. 8).

Гражданское право России. Курс лекций. Часть 1 / Под ред. **О.Н.Садикова.** М., 1996 (гл. 7).

Гражданское право. Учебник / Под ред. **С.П.Гришаева.** М., 1999 (гл. 3, § 3).

Bələdiyyələr haqqında. Bakı. 1999.

X FƏSİL
MÜLKİ HÜQUQ MÜNASİBƏTLƏRİNİN OBYEKTLƏRİ

§ 1. Mülki hüquq münasibətlərinin obyekti anlayışı, hüquqi təsnifi və əsas xüsusiyyətləri

1. Mülki hüquq münasibətlərinin obyekti anlayışı

Biz əvvəlki fəsillərin birində (V fəsildə) mülki hüquq münasibətlərinin obyektləri[1] barədə geniş söhbət açmışıq. Burada bəzi məsələləri qısaca olaraq işıqlandırmaq yerinə düşərdi.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, obyekt **fəlsəfi kateqoriyadır**. Fəlsəfə elmi obyektə subyektə qarşı duran, subyektin şüur və fəaliyyət predmeti, xarici aləmin predmeti kimi anlayış verir[2]. Bu elm obyekt və subyekti cüt kateqoriyalar kimi işlədir[3].

Bununla bərabər, obyekt həm də **hüquqi kateqoriya** kimi çıxış edir. Belə ki, obyekt hüquq münasibətlərinin, o cümlədən mülki hüquq münasibətlərinin elementlərindən biridir. Mülki-hüquqi baxımdan obyekt kateqoriyasının özünəməxsus spesifik cəhətləri vardır.

Mülki hüquq münasibətlərinin obyektləri dedikdə, elə nemətlər başa düşülür ki, həmin münasibətlərdə iştirak edən subyektlərin subyektiv hüquqları və hüquqi vəzifələri məhz bu nemətlərə yönəlir və onların barəsində yaranır. Obyektsiz mülki hüquq münasibətləri əmələ gələ və mövcud ola bilməz. Obyekt hər bir hüquq münasibətinin elementi olmaqla, nisbi müstəqil hüquqi kateqoriya kimi çıxış edir.

Mülki hüquq münasibətlərinin hər bir obyekti subyektlərin (fiziki şəxslərin, hüquqi şəxslərin və s.) bu və ya digər ehtiyacını ödəmək və təmin etmək qabiliyyətinə malikdir. Onlar mülki hüquq subyektlərinin tələbatını ödəməyin vasitəsi kimi çıxış edir. Subyektlərin həm maddi (əmlak), həm də qeyri-maddi (qeyri-əmlak) ehtiyac və tələbatı məhz bu vasitə hesabına ödənilir. Mülki hüquq münasibətlərinin obyektlərinin yerinə yetirdiyi **sosial funksiya** məhz bundan ibarətdir.

Mülki hüquq münasibətlərinin obyektləri **iqtisadi (əmlak) dövriyyənin, yəni mülki (əmlak) dövriyyənin obyektləri** kimi çıxış edir. Amma «mülki hüquq münasibətlərinin obyektləri» anlayışını «iqtisadi (əmlak) dövriyyənin obyektləri anlayışı» ilə eyniləşdirmək olmaz. Onlar bir-biri ilə üst-üstə düşmürlər. Belə ki, mülki hüquq münasibətlərinin obyektləri anlayışı o birisinə nisbətən daha əhatəli, daha geniş anlayışdır. Bu, onunla izah edilir ki, bəzi obyektlər — şəxsi qeyri-maddi nemətlər (əmlak dəyəri olmayan qeyri-maddi nemətlər, yəni insanın şərəf və ləyaqəti, işgüzar nüfuzu, adı, həyatı, sağlamlığı, şəxsi toxunulmazlığı və s.) mülki münasibətlərinin obyekti ola bilərlər. Lakin bundan fərqli olaraq, həmin nemətlər iqtisadi (əmlak) dövriyyənin obyekti kimi çıxış edə bilmirlər; onların iqtisadi məzmunu, əmtəə (əmlak) dəyəri yoxdur. Çünki şəxsi qeyri-maddi nemətlər özgəninkiləşdirilmir və öz sahibindən ayrılmır. Fiziki şəxs öz şərəf və ləyaqətini və ya öz adını necə özgəninkiləşdirə bilər?

Lakin bunlardan fərqli olaraq, «mülki hüquq münasibətlərinin obyektləri» və **«mülki hüquqların obyektləri»** kimi iki anlayış prinsip etibarilə eyni mənalı olub, üst-üstə düşürlər. Mülki hüquq elmində (sivilistika doktrinasında) bəzi müəlliflər bu iki anlayışı bir-birindən fərqləndirməyə təşəbbüs göstərirlər. Həmin müəlliflərin fikrincə, mülki hüquq münasibətlərinin obyektləri dedikdə, bu münasibətlərdə iştirak edən şəxslərin davranışı başa düşülür; mülki hüquqların obyektləri dedikdə isə maddi və ya qeyri-maddi nemətlər başa düşülür. Bu cür doktrinal (elmi) mühakimələrlə çətin ki razılaşmaq olar. Belə ki, mülki hüquqların obyektləri təkcə hüquqların yox, həm də vəzifələrin obyekti kimi çıxış edir. Obyektlərlə bağlı olaraq və onların barəsində subyektlərin həm hüquqları, həm də vəzifələri əmələ gəlir.

Mülki hüquq münasibətlərinin obyektləri bir-birindən öz fiziki xassələrinə görə fərqlənmir. Bunun mülki hüquq üçün əhəmiyyəti yoxdur. Bu obyektlər bir-birindən onlar üçün müəyyən edilmiş mülki-hüquqi rejiminə görə fərqlənir. Bax, məsələnin bu cəhəti mülki hüquq üçün hüquqi əhəmiyyət kəsb edir.

Mülki hüquq münasibətləri obyektlərinin mülki-hüquqi rejimi dedikdə, bu obyektlər barəsində müəyyən hüquqi hərəkətlər edilməsi imkanı başa düşülür. Hüquqi hərəkətlər (məsələn, müqavilə bağlamaq) isə odur ki, bu hərəkətlər müəyyən hüquqi nəticəyə səbəb olur, yəni bu hərəkətlərin nəticəsində mülki hüquq münasibətləri yaranır, dəyişir və ya xitam olunur. Məsələn, satıcı ilə alıcı əşya barəsində alqı-satqı müqaviləsi bağlayırlar. Bu, hüquqi nəticəyə səbəb olur, yəni satıcı əşya üzərində mülkiyyət hüququnu itirir, alıcı isə həmin əşya üzərində mülkiyyət hüququ əldə edir.

Beləliklə, obyektlər üçün müəyyən edilmiş mülki-hüquqi rejim subyektlərə həmin obyektlər barəsində hüquqi əhəmiyyəti olan hərəkətlər etmək imkanı verir. Bu isə onu göstərir ki, həmin rejim əslində obyektlər üçün yox, subyektlər (mülki hüquq münasibətləri iştirakçıları) üçün müəyyən edilir.

Mülki hüquq münasibətlərinin obyektləri fəlsəfə elmi baxımından **mülki hüquq subyektlərinin fəaliyyət predmetidir**. Məhz bu səbəbdən Almaniya mülki hüquq ədəbiyyatında mülki hüquq münasibətlərinin (hüququn) obyektlərinə mülki hüququn subyektlərinə cüt olan anlayış kimi baxılır[1].

Almaniya Mülki Qanunnaməsində olduğu kimi, bizim ölkənin Mülki Məcəlləsində də predmetə anlayış verilmir. Söhbət mülki hüquq subyektlərinin fəaliyyət predmetindən gedir. Almaniya sivilistika doktrinasında göstərilir ki, predmet anlayışı hüququn obyektləri anlayışı ilə əhatə olunur; predmetlə, hər şey-

[1] Obyekt latınca «objektum» sözündən olub, predmet mənasını ifadə edir. Obyekt xarici maddi dünyanın bir hissəsini təşkil edən predmetdir; o, insan (subyekt) fəaliyyətinin və idrakının predmetidir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина; Ф.Н.Петрова*. М., 1954, с. 488). Obyekt bizim şüurumuzdan asılı olmayaraq və bizdən kənarda mövcud olan maddi gerçəkliyin, xarici aləmin hadisəsidir; hər hansı fəaliyyətin yönəldiyi predmetdir (bax: *Ожегов С.И.* Словарь русского языка / Отв. ред. *Н.Ю.Шведовой*. М., 1988, с. 354).

[2] Краткий философский словарь / Под ред. *М. Розенталя, П.Юдина*. М., 1952, с. 506.

[3] Dialektik materializm təsdiq edir ki, obyekt subyektdən asılı olmayaraq mövcuddur; maddi varlıq olmadan hər hansı şüur ola bilməz. Bir qrup filosof bu konsepsiyaya qarşı çıxaraq göstərirlər ki, subyektsiz obyekt yoxdur.

[1] *А.Жалинский, А.Рёрихт*. Введение в немецкое право. М., 2001, с. 310.

dən əvvəl, hüququn bütün obyektləri ifadə edilir[1]. Təsadüfi deyil ki, obyekt latınca «predmet» mənasını ifadə edir. Buna görə də bir çox müəlliflər mülki hüquq münasibəti subyektlərinin fəaliyyət predmetini mülki hüquq münasibətlərinin obyektləri adlandırırlar[2].

Qeyd etmək lazımdır ki, mülki hüquqi münasibətlərin obyektləri sivilistika elminin ən mübahisəli məsələlərindən biridir. Bəzi müəlliflərə görə, obyekt odur ki, onun barəsində hüquq münasibəti yaranır[3]; bir sıra müəlliflərin mövqeyinə görə, obyekt odur ki, hüquq münasibəti ona yönəlir[4]; nəhayət üçüncü qrup alimlərin fikrinə görə, obyekt odur ki, hüquq münasibəti ona təsir göstərir[5].

Zənn edirik ki, mülki hüquqi münasibətlərin obyektləri barədə söylənilən fikirlərin hər birində bu və ya digər dərəcədə həqiqət vardır; onlar bir-biri ilə ziddiyyət təşkil etmirlər. Əksinə, həmin fikirlər bir-birini tamamlayaraq, mülki hüquq münasibətinin obyekti kimi mürəkkəb məsələnin mahiyyətini düzgün başa düşmək baxımından əhəmiyyətlidir.

2. Mülki hüquq münasibətləri obyektlərinin hüquqi təsnifi

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əhatə dairəsi kifayət qədər geniş və müxtəlifdir. Buna uyğun olaraq həmin münasibətlərin obyektlərinin dairəsi də genişdir. Bildiyimiz kimi, nizamasalma (tənzimləmə) predmetinə görə bu münasibətlərin üç növü (qrupu) fərqləndirilir: əmlak münasibətləri; əmlakla bağlı olan şəxsi qeyri-əmlak münasibətləri; əmlakla bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri. Bu üç növ (qrup) münasibətə uyğun olaraq mülki hüquq münasibətlərinin obyektləri də üç yerə bölünür (**üç növlü təsnifat**):

- maddi nemətlər;
- əmlak (əmtəə) dəyəri olan qeyri-maddi nemətlər;
- əmlak (əmtəə) dəyəri olmayan qeyri-maddi nemətlər.

Maddi nemətlər əmlak münasibətlərinin obyekti rolunda çıxış edir. Əmlak münasibətlərinin isə dörd növü fərqləndirilir: əşya münasibətləri; öhdəlik münasibətləri; vərəsəlik münasibətləri; korporativ münasibətlər. Bu növ münasibətlərə aşağıdakı obyektlər uyğundur:

- əşya, pul və ya qiymətli kağızlar (**əşya hüquq münasibətlərinin obyektləri**);
- hərəkətlər, əmlak hüquqları, görülən işlər, göstərilən xidmətlər (**öhdəlik hüquq münasibətlərinin obyektləri**; məsələn, tikinti təşkilatının sifarişçi üçün ev tikməsi öhdəlik münasibətidir. Görülən işin nəticəsi bu münasibətin obyektidir. Daşıyıcı yük göndərənin yükünü təyinat məntəqəsinə çatdırır. Bu öhdəlik münasibətinin obyekti daşıyıcının göstərdiyi xidmətdən ibarətdir. Vətəndaş öz qonşusunun əmlakına vurduğu zərərin əvəzini ödəyir. Bu öhdəlik münasibətinin obyekti vətəndaşın hərəkətindən ibarətdir);
- əmlak (**vərəsəlik və korporativ hüquq münasibətlərinin obyektləri**).

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 11.
[2] Гражданское право. Учебник. Том 1/Под ред. *Е.А.Суханова*. М., 1998, с. 294.
[3] Bax: Советское гражданское право. Л., 1971, с. 55.
[4] Bax: Гражданское право. Том 1. М., 1969, с. 87.
[5] Bax: Советское гражданское право. Том 1/Отв.ред. *В.П.Грибанов, С.М.Корнеев*. М., 1979, с. 99-100; *Толстой Ю.К.* К теории правоотношения. Л., 1959, с. 65.

Maddi nemətlər anlayışı ilə əhatə olunan bütün obyektləri birləşdirən bir ümumi cəhət vardır. Belə ki, **bu obyektlər öz iqtisadi təbiətinə və xarakterinə görə əmtəə hesab olunurlar**. Onlar əmtəə (əmlak) dövriyyəsinin obyekti kimi çıxış edir.

Əmlak (əmtəə) dəyəri olan qeyri-maddi nemətlər əmlakla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərinin obyektləridir. Bu obyektlərə yaradıcı fəaliyyətin nəticələri, yəni əqli mülkiyyət hüququn (müstəsna hüquqların) obyektləri daxildir. Söhbət, hər şeydən əvvəl, **müəlliflik hüququnun obyekti** olan elm, ədəbiyyat və incəsənət əsərlərindən, **patent hüququnun obyekti (sənaye mülkiyyətinin obyekti)** olan ixtira, faydalı model və sənaye nümunələrindən, **fərdiləşdirmə vasitələri hüququnun obyekti** olan əmtəə nişanlarından, firma adlarından, habelə əqli mülkiyyət hüququnun **qeyri-standart (qeyri-ənənəvi) obyekti** olan seleksiya nailiyyətlərindən, informasiyalardan, kəşflərdən, səmərələşdirici təkliflərdən gedir. Bu növ nemətlər öz iqtisadi təbiətinə görə əmtəə formasını alır. Buna görə də onlar əmtəə (əmlak) dövriyyəsində obyekt qismində çıxış edirlər. İnformasiyalar yalnız o halda əmtəə (əmlak) dövriyyəsinin obyekti ola bilər ki, onlar kommersiya dəyərinə və əmtəə xarakterinə malik olsun.

Əmlak (əmtəə) dəyəri olmayan qeyri-maddi nemətlər əmlakla bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərinin obyektləridir. Buraya şəxsi qeyri-maddi nemətlər (fiziki şəxsin şərəfi, ləyaqəti və işgüzar nüfuzu, şəxsi-ailə sirri, şəxsi həyata müdaxilə olunmaması, adı, həyatı, sağlamlığı, azadlığı və s.) daxildir. Onlar xüsusi xarakterə malik olub, iki əsas xarakterik xüsusiyyətlə şərtlənir: birincisi, bu nemətlərin maddi (əmlak) məzmunu yoxdur. Ona görə də onlar əmtəə hesab edilmir. İkincisi, həmin nemətlər öz sahiblərinin şəxsiyyətini fərdiləşdirir, onlardan ayrılmaz olub, özgəninkiləşdirilmir. Məhz bu səbəblərdən şəxsi qeyri-maddi nemətlər əmtəə (əmlak) dövriyyəsinin obyekti kimi çıxış edə bilmir.

Əmlak dəyəri olan və əmlak dəyəri olmayan qeyri-maddi nemətlər mülki hüquq subyektlərinin mənəvi (qeyri-maddi) ehtiyac və tələbatını ödəmək qabiliyyətinə malikdir. Ona görə də onlara **ideal nemətlər** də deyilir[1].

Mülki hüquq münasibətlərinin obyektlərinin dairəsini müəyyənləşdirən siyahını açıqlasaq, bu obyektlərin konkret olaraq nədən ibarət olmasını təyin edə bilərik. Həmin obyektlərə şamil olunur:

- əmlak;
- əşyalar (o cümlədən, pul və qiymətli kağızlar);
- əmlak hüquqları;
- hərəkətlər, işlər və xidmətlər;
- əmlak (əmtəə) dəyəri olan əqli mülkiyyət obyektləri (yaradıcı fəaliyyətin nəticələri);
- əmlak (əmtəə) dəyəri olmayan qeyri-maddi nemətlər[2].

[1] İdeal fran. «ideal», yunan. «idea» — anlayış, təsəvvür, təfəkkür fəaliyyətinə aid deməkdir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 255.).
[2] Almaniya mülki hüququnda obyektlərə şamil edilir: əşyalar; hüquqlar (spesifik obyekt); hüquq və əşyaların məcmusu (müəssisə, əmlak və s.); qeyri-maddi nemətlər (yaradıcılıq əsərləri, intellektual və mənəvi yaradıcılıq); heyvanlar (*А.Жалинский, А.Рёрихт*. Введение в немецкое право. М., 2001, с. 310).

§ 2. Əşya (Sachen) mülki hüquq münasibətlərinin obyekti kimi. Əşyaların hüquqi təsnifi

1. Mülki hüquqda əşyanın anlayışı

Əşyalar mülki hüquq münasibətlərinin nisbətən daha geniş yayılmış obyektidir. Mülki hüquq münasibətləri obyektləri arasında onlar xüsusi və üstün yer tuturlar. Bu, onunla izah edilir ki, vətəndaş cəmiyyətinin əsasını təşkil edən mülkiyyət münasibətləri məhz əşya ilə bağlı olaraq əmələ gəlir.

Əşya anlayışı fəlsəfə elmində də işlədilir. O, **fəlsəfi kateqoriyadır**. Fəlsəfi planda əşya dedikdə, maddi gerçəkliyin elə predmetləri başa düşülür ki, bu predmetlər nisbətən sabit və ya bir-birindən asılı olmadan mövcuddur.

Əşya anlayışı həm də mülki hüquqda işlədilir. Bu baxımdan o, **mülki-hüquqi kateqoriya** kimi çıxış edir. Sivilistika doktrinası (mülki hüquq elmi) əşyanın hüquqi anlayışını işləyib hazırlamış, ona hüquqi xarakteristika vermişdir. Mülki hüquq elminə görə, əşyanın mülki-hüquqi əhəmiyyətə malik olması üçün o, gərək bir neçə əlamətə cavab versin. Başqa sözlə desək, xarici (maddi) aləmin predmetinin, yəni maddi nemətin mülki-hüquqi mənada əşya statusu əldə etməsi üçün bir neçə əlamətin olması tələb edilir.

Birincisi, maddi nemətin mülki-hüquqi mənada əşya statusu əldə etməsi üçün lazımdır ki, o, **insan əməyinin nəticəsi, insan fəaliyyətinin məhsulu və buna görə də müəyyən maddi (iqtisadi) qiymətə malik olsun**. İnsan əməyinin nəticəsi olan bütün maddi nemətlər mülki-hüquqi aspektdən əşya kateqoriyasına şamil edilir. Məhz bu səbəbdən müxtəlif istehsal alət və vasitələri, istehlak predmetləri əşya hesab olunur. Fullar (söhbət nağd puldan gedir) və qiymətli kağızlar da əşyadır ((MM-in 135-ci maddəsinin 1-ci bəndi). İnsan əməyi ilə hasil olunan və ya istehsal edilən müxtəlif növ enerji resursları (məsələn, elektrik cərəyanı) və xammal mülki hüquqda əşya kateqoriyasına aid edilir.

Bu əlamətə cavab verməyən maddi nemət mülki hüquqda əşya kateqoriyasına şamil olunmur. Məsələn, təbii vəziyyətində atmosfer havası mülki-hüquqi mənada əşya hesab edilmir. Amma əgər insan əməyinin təsiri ilə bizim yer atmosferinin tərkib elementi olan oksigen balonlara doldurularsa, o, mülki-hüquqi mənada əşya sayılır. Buna görə də balonlara doldurulmuş oksigen mülki hüquq münasibətlərinin (məsələn, alqı-satqı hüquq münasibətinin və s.) obyekti ola bilər.

Bununla bərabər, xarici aləmdə elə maddi nemətlər var ki, bu nemətlər göstərilən əlamətə cavab vermir, yəni onlar insan əməyi nəticəsində yaradılmır. Söhbət torpaqdan, ayrıca su obyektlərindən, yerin təkindən və digər təbii ehtiyatlardan gedir. Onlar insanın yox, təbiətin yaratdığı nemətlərdir. Təsadüfi deyildir ki, Qərbdə torpağı «insan əli ilə yaradılmayan kapital» adlandırırlar. Baxmayaraq ki, həmin nemətlər insan əməyinin və fəaliyyətinin məhsulları deyildir, onlar mülki-hüquqi mənada əşya kateqoriyasına aid olunur. Buna görə də torpaq və digər təbii ehtiyatlar müxtəlif mülki hüquq münasibətlərinin (məsələn, alqı-satqı, icarə, ipoteka və digər hüquq münasibətlərinin) obyekti qismində çıxış edirlər.

İkincisi, maddi nemətin mülki-hüquqi mənada əşya statusu əldə etməsi

üçün vacibdir ki, bu **nemətin fayda vermək xassəsi insan tərəfindən dərk edilsin, başa düşülsün və mənimsənilsin**. Başqa sözlə desək, mülki hüquqda əşya Kant fəlsəfəsi baxımından «**bizim üçün əşya**» olmalıdır[1]. Kantın ilk dəfə fəlsəfəyə gətirdiyi «özü üçün əşya» anlayışı mülki-hüquqi əhəmiyyətə malik deyil. «Özü üçün əşya» Kanta görə, dərk edilmir və «bizim üçün əşya» olmur. Məsələn, təbii kauçuk — bitkilərin şirəsi «özü üçün əşya» idi. Kimya elmi sənaye ehtiyacları üçün kauçukdan istifadəni öyrənəndə «özü üçün əşya» «bizim üçün əşya»ya çevrildi, yəni mülki-hüquqi mənada əşya oldu. Deməli, Kantın «özü üçün əşya» yox, «bizim üçün əşya» konsepsiyası mülki-hüquqi əhəmiyyətə malikdir. «Bizim üçün əşya» müxtəlif mülki hüquq münasibətlərinin obyekti ola bilər.

Elm və texnikanın inkişafı nəticəsində əşyalar insanlar tərəfindən dərk edilir və öyrənilir. Atom enerjisi nə vaxtsa «özü üçün əşya» idi. Amma müasir elm atom enerjisini başa düşdü, dərk etdi, öyrəndi və onun istehsal qanununu üzə çıxartdı. Bununla atom enerjisi bir daha «özü üçün əşya» sayılmadı və «bizim üçün əşya»ya çevrildi, yəni mülki-hüquqi mənada əşya hesab edildi.

Üçüncüsü, o maddi nemət mülki-hüquqi mənada əşya statusu əldə edir ki, o, mülki hüquq subyektlərinin bu və ya digər **ehtiyacını təmin etmək qabiliyyətinə malik olsun**. Bu, əşyanın vacib əlamətlərindən biridir (məsələn, hava dəhlizindən istifadə barədə tərəflər arasında müqavilə bağlanır; bunun nəticəsində hava gəmisi həmin dəhlizdən istifadə etməklə yük və sərnişinləri daşıyır). Həmin əlamətdən məhrum olan maddi nemət mülki-hüquqi mənada əşya kateqoriyasına aid edilmir.

Dördüncüsü, o maddi nemətlər mülki hüquq baxımından əşya kateqoriyasına aid edilir ki, subyektlər (insan) **həmin nemətlərə fiziki cəhətdən sahiblik və yiyəlik edə bilsinlər**. Əgər maddi nemətə (predmetə) sahiblik və yiyəlik etmək subyektlərə (insanlara) müyəssər olmazsa, onda həmin nemət mülki-hüquqi mənada əşya sayılmır. Məhz bu səbəbdən günəş, ay, ulduz, dəniz, hava əşya kateqoriyasına şamil olunmur[2].

Beşincisi, maddi nemətin mülki-hüquqi mənada əşya statusu əldə etməsi üçün lazımdır ki, o, **fiziki obyekt olsun**. Yalnız fiziki obyektlər əşya sayılır (MM-in 135-ci maddəsinin 1-ci bəndi). Bizim ölkə qanunvericiliyinin müəyyən etdiyi bu qayda Almaniya mülki qanunvericiliyinə uyğun gəlir. Belə ki, Almaniya Mülki Qanunnaməsinin 90-cı paraqrafına görə, yalnız maddi predmetlər əşya ola bilərlər[3]. Bu cür yanaşma Roma hüququ ənənələrinə uyğun gəlmir. Klassik Roma hüquqşünası Qay əşyaları iki yerə bölürdü: res corporales, yəni maddi əşyalara; res incorporales, yəni qeyri-maddi əşyalara. Qay qeyri-maddi əşyalara mirası, öhdəliyi və uzufruktu aid edirdi[4]. Analoji göstərişi Yaponiya

[1] Краткий философский словарь / Под ред. *М.Розенталя, П.Юдина*. М., 1952, с. 57.

[2] *Сакаэ Вагацумэ, Тору Арицдзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 93; *Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 15. L.Ennekerus yazır ki, hamıya məxsus olan hava, dəniz kimi predmetlər barəsində xüsusi (mülki) hüququn mövcudluğunu təsəvvürə gətirmək qeyri-mümkündür.

[3] bax: Гражданское, торговое и семейное право капиталистических стран. Сборник нормативных актов (гражданские и торговые кодексы). М., 1986.

[4] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 147.

qanunvericiliyi də ifadə edir. Belə ki, Yaponiya Mülki Məcəlləsinə görə, yalnız maddi predmetlər əşya kateqoriyasına aid olunur (85-ci maddə). Yeri gəlmişkən, qeyd edək ki, Almaniya və Yaponiya qanunvericiliyində işlənən «maddi predmet» anlayışı ilə bizim ölkə qanunvericiliyinin istifadə etdiyi «fiziki obyekt» anlayışı eyni mənalıdır. Maddi predmet (fiziki obyekt) dedikdə, nə başa düşülür? Yaponiya sivilistika doktrinasında üstün konsepsiyaya görə maddi predmet dedikdə, müəyyən yer tutan, bərk, maye və qaz halında olan cisim başa düşülür. Almaniya müəllifi L.Ennekserus yazır ki, predmetin maddi predmet, yəni əşya olması fizikanın təlimi və qaydaları ilə yox, dövriyyə baxımından həll olunur. Bir də lazımdır ki, duyğulardan birinin köməyi ilə onu qavramaq və dərk etmək mümkün olsun. Onun fikrincə, əşya anlayışı üçün predmetin bərk, maye və qaz halında olmasının əhəmiyyəti yoxdur. Bu baxımdan enerji, elektrik (elektrik cərəyanı, maqnetizm, elektrik dalğa və şüaları), istilik, işıq, ümumiyyətlə, təbiət qüvvələri maddi predmet təbiətinə malik olmadıqları üçün əşya sayılmır[1]. Amma qanunvericiliyin göstərişini hərfi mənada təfsir etmək olmaz. Ona görə ki, bu göstəriş, Yaponiya mülki hüquq elmində göstərildiyi kimi, iqtisadiyyatın müasir vəziyyətinə uyğun gəlmir. Məhz bu səbəbdən ənənəvi olaraq, maddi cisim kimi xarakterizə edilən predmetlər — yalnız bu predmetlər əşya sayıla bilməz[2]. Qeyd etməliyik ki, müəyyən bir predmetin mülki-hüquqi mənada əşya kimi tanınması üçün əsas və başlıca məqsəd onun iqtisadi dövriyyədə oynadığı rolla şərtlənir.

Beləliklə, mülki-hüquqi mənada əşyanın əlamətlərini müəyyənləşdirdik, ona hüquqi xarakteristika verdik. Bundan sonra isə onun doktrinal anlayışını verə bilərik.

Mülki hüquqda əşya dedikdə, maddi aləmin elə fiziki obyekti başa düşülür ki, bu obyekt insan əməyi nəticəsində və ya təbiət tərəfindən yaradılır və insanın müəyyən ehtiyaclarını təmin edir.

Qüvvədə olan mülki qanunvericilik tərəfindən əşyalara münasibətdə subyektlərin (şəxslərin) müəyyən davranış qaydaları müəyyən edilmişdir ki, bu qaydalar əşyaların hüquqi rejimi adlanır. **Əşyaların hüquqi rejimi** dedikdə, normativ vasitə ilə müəyyən edilmiş elə qaydalar başa düşülür ki, bu qaydalar əsasında mülki hüquqların obyekti kimi əşyalar əldə edilir, əşyalardan istifadə olunur və onların barəsində sərəncam verilir.

Əşyaların sayı kifayət qədər çoxdur. Onlar bir-birindən bu və ya digər əlaməti ilə fərqlənirlər. Bu əlamətlər imkan verir ki, mülki hüquq elmi və qanunvericilik əşyaları hüquqi cəhətdən təsnifləşdirsin. Mülki qanunvericiliyi nəzərə alaraq, sivilistika elmi əşyaların müxtəlif əlamətlərə görə (iqtisadi təyinatına, fiziki, istehlak xüsusiyyət və keyfiyyətlərinə və s. əlamətlərə görə) geniş hüquqi təsnifini verir. Bu təsnifin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Həmin təsnif imkan verir ki, bu və ya digər əşyanın hüquqi rejimi aşkar edilsin və təyin olunsun, habelə mülki hüquq münasibətləri iştirakçılarının hüquq və vəzifələrinin məzmunu müəyyənləşdirilsin.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 12-13; *Klunzinger E.* Einführung in das bürgerliche Recht. München.1993.

[2] *Сакэ Вагацума, Тору Арицдзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 93.

2. İstehsal vasitələri və istehlak predmetləri

Əşyaların istehsal vasitələri və istehlak predmetləri adlı iki növə bölünməsinin əsasını **iqtisadi əlamət (məyar)** təşkil edir. Bu cür bölgüyə total dövlət mülkiyyətinin — dövlət mülkiyyəti inhisarının mövcud olduğu sovet (komanda) iqtisadiyyatı dövründə birinci dərəcəli əhəmiyyət verilirdi. Həmin dövrdə istehsal vasitələrinin əsas hissəsi dövlət sosialist mülkiyyəti hüququnun obyekti hesab olunurdu. Qanunvericilik bəzi kateqoriya vətəndaşlara (təkbaşına kəndlilərə və kustarlara) öz mülkiyyətində son dərəcə məhdud dairədə istehsal vasitələrinə (iri istehsal vasitələrinə yox, xırda istehsal vasitələrinə) malik olmaq hüququnu verirdi. Bu vətəndaşlar həmin vasitələrdən yalnız şəxsi əmək məqsədləri üçün istifadə edə bilərdilər. İstehlak predmetlərinə gəldikdə isə onlar mülki hüququn bütün subyektlərinin mülkiyyətində ola bilərdi. Bu predmetlər vətəndaşların mülkiyyətinin (şəxsi mülkiyyətinin) əsasını təşkil edirdi. Demək olar ki, onların şəxsi mülkiyyəti yalnız istehlak predmetlərindən ibarət idi. Sovet dövrünün qanunvericiliyi istehsal vasitələri və istehlak predmetləri üçün müxtəlif hüquqi rejimlər müəyyən edirdi[1].

İndi isə vəziyyət köklü surətdə tam dəyişmişdir. Bazar iqtisadiyyatı dövründə dövlət mülkiyyəti inhisarına son qoyulmuşdur. Bu dövrün tələblərinə uyğun olaraq mülki qanunvericilik müəyyən edir ki, qanunvericiliyə görə şəxslərə məxsus ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, şəxslərin mülkiyyətində istənilən əşya ola bilər (MM-in 154-cü maddəsinin 1-ci bəndi). Deməli, yeni mülki qanunvericiliyə görə, **istehsal vasitələri təkcə dövlət mülkiyyətinin yox, həm də ayrı-ayrı şəxslərin mülkiyyətinin obyekti ola bilər**. Belə ki, istənilən şəxs öz mülkiyyətində istehsal vasitələrinə malik ola bilər. Məhz bu səbəbdən müasir dövrdə əşyaların istehsal vasitələri və istehlak predmetləri adlı iki növə bölünməsi öz əvvəlki birinci dərəcəli əhəmiyyətə malik olmaq xüsusiyyətini itirir. Amma bu bölgünün öz əhəmiyyətini tam itirməsi fikrini söyləmək düzgün olmaz. Hesab edirik ki, belə qənaətə gəlmək məsələyə birtərəfli yanaşma demək olardı. Ona görə də həmin bölgü müəyyən dərəcədə öz əhəmiyyətini (söz yox ki, birinci dərəcəli əhəmiyyətini yox) saxlayır, onu tamam itirmir. Belə ki, istehsal vasitələri ilə istehlak predmetlərinin hüquqi rejimi tam üst-üstə düşmür, uyğun gəlmir. Məsələn, minik avtomobilinin mülkiyyətçisi bu avtomobildən yalnız ailə-məişət və şəxsi ehtiyaclar (məqsədlər) üçün istifadə edir. Belə halda minik avtomobili istehlak predmeti kimi çıxış edir və istehlak predmetlərinin hüquqi rejimi tətbiq olunur. Minik avtomobilinin sahibi şəhərlərarası daşıma fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq vergi orqanında uçota durur. Belə halda isə minik avtomobili istehsal vasitəsi kimi çıxış edir və istehsal vasitələrinin hüquqi rejimi tətbiq olunur.

İstehsal vasitələri dedikdə, istehsal prosesində iştirak edən, onun maddi şərti kimi çıxış edən predmetlər başa düşülür. Onlar əmək predmetlərindən və istehsal alətlərindən ibarətdir. **Əmək predmetləri** odur ki, bu predmetlər insan əməyinin obyekti olub, istehsal prosesində dəyişikliyə məruz qalır. **İstehsal alətləri** isə odur ki, bu alətlərin vasitəsilə insan maddi nemətlər istehsal et-

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 181.

mək məqsədi üçün təbiətə təsir göstərir. Məsələn, dəzgahlar, alətlər, maşınlar, kənd təsərrüfatı alətləri və s. istehsal alətləri hesab olunur. Beləliklə, istehsal vasitələri dedikdə, torpaq, meşələr, sular, yerin təki, xammal materialları, istehsal alətləri, istehsal binaları və s. başa düşülür.

İstehlak predmetləri dedikdə, əsasən şəxsi istehlak üçün istehsal olunan və hazırlanan əmək məhsulları başa düşülür. Təyinatına görə onlar iki yerə bölünür: ərzaq məhsulları; qeyri-ərzaq məhsulları. **Ərzaq məhsullarına** çörək, kolbasa, ət, süd və s. daxildir. **Qeyri-ərzaq məhsullarına** isə paltarı, ayaqqabını, geyim şeylərini, ev təsərrüfatı əşyalarını, kitab və dövri mətbuatı, məişət ehtiyacları üçün istifadə olunan yanacağı, mebeli, məişət predmetlərini, yaşayış binalarını, dərmanları və s. aid etmək olar.

İstehlak predmetlərinin müəyyən bir hissəsi (un, qənd, taxıl, meyvə, parça və s.) həm qeyri-istehsal istehlakında, həm də istehsal istehlakında istifadə oluna bilər.

3. Daşınmaz və daşınar əşyalar

Əşyaların daşınmaz və daşınar əşyalara bölünməsi **obyektlərin təbii xüsusiyyəti kimi əlamətə** əsaslanır. Bu bölgünü demək olar ki, müasir dünyanın bütün hüquq sistemləri də tanıyır[1]. Həmin bölgü qədim dövrlərdə Roma hüququna da məlum idi. Roma hüququnda əşyaların daşınmaz və daşınar əşyalar adlı iki yerə bölünməsinə elə də xüsusi əhəmiyyət verilmirdi. Bu iki növ əşyalar, demək olar ki, eyni hüquq normaları ilə tənzimlənirdi. Roma hüququna görə, daşınmaz əşyaya (res immpbiles) həm torpaq sahəsi, həm torpağın təki, həm də başqasının (özgəsinin) əməyi ilə torpaqda yaradılan bütün obyektlər daxil idi. Daşınar əşyalara isə mebel, ev avadanlıqları, heyvanlar və qullar şamil olunurdu[2].

Müasir ölkələrin, məsələn, Yaponiyanın, RF-in, o cümlədən Azərbaycan Respublikasının mülki qanunvericiliyi daşınmaz və daşınar əşyalara anlayış verərkən Roma hüququnun müddəalarına əsaslanır. Bu anlayışlarda elə də prinsipial fərqlərə rast gəlmirik.

Sovet dövrünün qanunvericiliyi, habelə rəsmi sovet hüquq doktrinası daşınmaz və daşınar əşyalar kimi anlayışlar işlətməkdən imtina etmişdi. Bu imtinanın səbəbi onunla izah edilirdi ki, əşyaların bu cür bölgüsü burjua hüququ üçün xarakterikdir və torpağın, suların, meşələrin, yerin təkinin dövlətin müstəsna mülkiyyətində olduğu bir şəraitdə o, öz praktiki əhəmiyyətini itirir. 90-cı illərin əvvəllərinə kimi sovet qanunvericiliyində, habelə sovet dövrünün hüquq ədəbiyyatı səhifələrində, demək olar ki, bu cür anlayışlarla qarşılaşmırıq[3]. Həmin dövrdən başlayaraq MDB-yə daxil olan ölkələrin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyində daşınar əşya və daşınmaz əşya kimi anlayışlardan geniş səviyyədə istifadə edilir və onlar vətəndaş hüququ qazanmağa başlayır. Azərbaycan Respublikasının Konstitusiyası bu sahədə böyük rol oynayır. Onun 29-cu maddəsində hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilməsi barədə prinsipial əhəmiyyətə malik olan müddəa formulə edilmişdir.

Daşınmaz əşya və daşınar əşya kimi terminlər rəsmən qəti olaraq yeni Mülki Məcəllə tərəfindən qanuniləşdi. Həmin məcəllənin 135-ci maddəsinin 4-cü və 5-ci bəndlərində daşınmaz və daşınar əşyalara leqal anlayış verilir.

Daşınmaz əşyalar dedikdə, elə obyektlər başa düşülür ki, bu obyektlərin yerinin dəyişdirilməsi onların təsərrüfat təyinatına mümkün deyil. Bu əşyalara aid edilir:

- torpaq sahələri;
- yerin təki sahələri;
- ayrıca (əlahiddə) su obyektləri;
- meşələr;
- çoxillik əkmələr;
- binalar;
- qurğular;
- torpaqla sıx və bilavasitə bağlı olan digər əşyalar.

Bu, daşınmaz əşyaların dəqiq yox, təxmini siyahısıdır. Ayrı-ayrı mülki qanunvericilik aktlarında daşınmaz əşyaların digər növlərinin nəzərdə tutulması istisna olunmur. Qanun həmin siyahını açıq saxlayır.

Daşınar əşyalar dedikdə, daşınmaz əşyalara aid edilə bilməyən elə obyektlər başa düşülür ki, bu obyektlərin yerinin dəyişdirilməsi onların təsərrüfat təyinatına zərər vurulmadan mümkündür. Daşınmaz əşya kateqoriyasına aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar hesab edilir. Bu əşyalara müxtəlif nəqliyyat vasitələri, ev avadanlıqları, məişət predmetləri, habelə nağd pul və qiymətli kağızlar və s. aiddir.

Bizim ölkə qanunvericiliyi daşınmaz və daşınar əşyalara verdiyi leqal anlayışı, habelə daşınmaz əşyaların növləri haqqında qaydanı RF-in mülki qanunvericiliyindən iqtibas etmişdir[1]. Yaponiya sivilistika doktrinasında həmin əşyalara mahiyyətcə eyni olan anlayışlar verilir: öz olduğu yeri təz-tez dəyişə bilən əşyalara daşınar əşyalar deyilir; daşınmaz əşyalar müəyyən bir yerdə olan elə əşyalardır ki, onların yerini dəyişmək ya mümkün olmur, ya da ki böyük çətinliklərlə bağlıdır. Torpaq və ondan ayrılmayan əşyalar daşınmaz əşyalardır (Yaponiya MM-in 86-cı maddəsinin 1-ci bəndi). Tikililər və ağaclar da bu kateqoriya əşyalara daxildir. Daşınmaz əşyalar kateqoriyasına aid edilməyən bütün əşyalar daşınar əşyalar hesab olunur (Yaponiya MM-in 86-cı maddəsinin 2-ci bəndi)[2]. Amma nədənsə, Almaniya Mülki Qanunnaməsi həmin əşyalara leqal anlayış vermir, onların siyahısını müəyyənləşdirmir[3]. Hüquq doktrinasında daşınar əşyalara anlayış verilməsinə rast gəlirik: daşınmaz əşya və ya onun mü-

[1] bax: Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева*. М., 2001.

[2] bax: *Пухан И., Поленак-Акимовская, М.* Римское право. Учебник / Перевод с македон. М., 2000, с. 130; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 148.

[3] İnqilabaqədərki Rusiya qanunvericiliyində «daşınmaz əmlak» anlayışı işlədilirdi. İlk dəfə olaraq həmin anlayış Rusiya qanunvericiliyinə 1714-cü ildə I Pytor tərəfindən daxil edilmişdir.

[1] Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999.

[2] *Сакаи Ватацуми, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 96-97.

[3] *А.Жалинский, А.Рёрихт*. Введение в немецкое право. М., 2001, с. 312.

hüm tərkib hissəsi olmayan bütün əşyalar daşınar əşya sayılır[1].

Qeyd etməliyik ki, daşınar əşyaları daşınmaz əşyalardan başqa əlamətə görə də fərqləndirmək olar[2]. Belə ki, daşınar əşyalar öz mülkiyyətçisinin arxasınca getmək qabiliyyətinə malikdir; daşınmaz əşyalar isə belə qabiliyyətdən məhrumdur. Lakin bu kimi fərqləndirmə bəzən mürəkkəb vəziyyətin yaranmasına səbəb olur. Məsələn, daşınmaz əmlak sayılan əşya ayrılarkən daşınar əmlaka çevrilə bilər. Torpaqda olan daş daşınmaz əmlakdır; əgər o, karxanada yerdən çıxarılarsa, daşınar əşya olur; əgər o, ev tikintisində istifadə edilərsə, yenidən daşınmaz əmlak olur. Əgər çoxillik ağac torpaqdan ayrılarsa, daşınar əşya hesab edilir. Amma hər il əkilməli olmayan çoxillik ağaclar bir qayda olaraq, daşınmaz əşya sayılır. Hər il əkilən məhsul (kartof, taxıl, tərəvəz və s.) isə daşınar əşyadır.

Əşyaların daşınmaz və daşınar əşyalara bölünməsinin çox vacib mülki-hüquqi əhəmiyyəti vardır. Belə ki, bu bölgü əsasında həmin əşyaların hüquqi rejimini müəyyənləşdirmək mümkün olur. Mülki qanunvericilik onlar üçün müxtəlif, bir-birindən fərqli hüquqi rejimlər müəyyən edir. Daşınmaz və daşınar əşyalar özlərinin hüquqi rejimlərinə görə onunla fərqlənirlər ki, daşınmaz əmlaka dair əqdlər bağlanmasının və həmin əmlaka olan hüquqların rəsmiləşdirilməsinin **dövlət qeydiyyatına alınması tələb** olunur. Daşınmaz əşyalara olan hüquqların və onlar barəsində bağlanan əqdlərin dövlət qeydiyyatına alınması həmin əşyaların hüquqi rejiminin əsas və başlıca xüsusiyyətini təşkil edir. Belə ki, mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı, habelə digər əşya hüquqları (istifadə hüququ, servitutlar, ipoteka), daşınmaz əmlaka digər hüquqlar dövlət qeydiyyatına alınmalıdır (MM-in 139-cu maddəsinin 1-ci bəndi). Bu hüquqların qeydə alınması daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir. Həmin reyestri isə **Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti** tərtib edir və aparır (MM-in 139-cu maddəsinin 3-cü bəndi). Daşınmaz əmlaka hüquqlar bu reyestrdə qeydə alındığı andan həmin əşyaya hüquqlar əmələ gəlir.

Bu sahədə münasibətlər «Daşınmaz əmlakın dövlət reyestri haqqında» qanunla tənzimlənir. Bu qanun daşınmaz əmlakın dövlət reyestrinin tərtib edilməsi və aparılması qaydalarını müəyyən edir.

Dövlət qeydiyyatı hüquqi aktdır. Elə bir akt ki, bu akt nəticəsində daşınmaz əşyaya hüquqların əmələ gəlməsi, başqasına keçməsi və xitamı, bu hüquqların məhdudlaşdırılması dövlət tərəfindən tanınır və təsdiq olunur.

Bir sıra inkişaf etmiş ölkələrin qanunvericiliyinə görə, dövlət qeydiyyatı aşkarlıq prinsipinə əsaslanır. Bu prinsip daşınmaz əmlakın dövlət reyestrinin hamı üçün açıq olmasını şərtləndirir. O, alıcıların, icarəçilərin, ipoteka saxlayanların, kirayəçilərin və digər kateqoriya şəxslərin mənafelərinə xidmət edir. Aşkarlıq prinsipinə görə, istənilən maraqlı şəxs daşınmaz əmlakın dövlət reyestrindəki hər hansı məlumatla, sənədlərlə tanış ola bilər. Dövlət reyestrini tərtib edən orqan bu cür məlumatları verməyə borcludur.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 17.
[2] Вах: Ласк Г. Гражданское право США. М., 1961, с. 465.

Bizim ölkə qanunvericiliyi isə bu prinsipdən imtina etmişdir. Belə ki, 21 aprel 2006-cı ildə MM-ə dəyişiklik və əlavələr edilməsi ilə əlaqədar olaraq dövlət reyestrindən arayış aşağıdakılara verilə bilər (MM-in 148-ci maddəsinin 1-ci bəndi):

- hüquq sahibinə;
- hüquq sahibi tərəfindən vəkil edilmiş şəxsə;
- hüquq sahibinin vərəsələrinə;
- müvafiq dövlət orqanına (öz səlahiyyətlərini yerinə yetirməsi ilə əlaqədar olaraq məhkəməyə, notariat kontoruna və s.);
- bələdiyyələrə (öz səlahiyyətlərini yerinə yetirməsi ilə əlaqədar olaraq).

Göründüyü kimi, daşınmaz əmlakın dövlət reyestri hamı üçün yox, bu kateqoriya subyektlər üçün açıqdır.

Daşınar əşyalara gəldikdə isə qeyd etmək lazımdır ki, bir qayda olaraq, bu əşyalara əmlak hüquqlarının **dövlət qeydiyyatına alınması tələb olunmur**. Amma bu qaydadan bəzən müəyyən istisnaya yol verilə bilər. Belə ki, qanunda daşınar əşyalara dair bağlanan əqdlərin dövlət qeydiyyatına alınması nəzərdə tutula bilər. Məsələn, reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların (məsələn, mülki hava gəmisi və s.) alqı-satqı müqaviləsi və həmin daşınar əşyaya mülkiyyət hüququnun satıcıdan alıcıya keçməsi daşın maz əmlakın dövlət reyestrində qeydiyyata alınır (M M-in 650-ci maddəsi).

Deməli daşınar əmlaka hüquqlar yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda dövlət qeydiyyatına alınmalıdır (MM-in 139-cu maddəsinin 2-ci bəndi).

4. Dövriyyə qabiliyyətli, məhdud dövriyyə qabiliyyətli və dövriyyə qabiliyyəti olmayan əşyalar

Dövriyyə qabiliyyətinə malik olmaq kimi əlamətə görə əşyaların üç növü fərqləndirilir (MM-in 136-cı maddəsi):

- dövriyyə qabiliyyətli əşyalar;
- məhdud dövriyyə qabiliyyətli əşyalar;
- dövriyyə qabiliyyəti olmayan əşyalar.

Əşyanın dövriyyə qabiliyyəti dedikdə, onun mülki (əmlak) dövriyyədə müxtəlif əqdlərin obyekti (predmeti) kimi çıxış etmək və öz sahibini (mülkiyyətçisini) dəyişmək imkanı başa düşülür. Bu cür əsasa görə əşyaların təsnifinin mühüm mülki-hüquqi əhəmiyyəti vardır.

Dövriyyədə sərbəst hərəkət etməsinə icazə verilən əşyalara **dövriyyə qabiliyyətli əşyalar** deyilir. Bu növdən olan əşyaların xüsusi çəkisi başqalarına nisbətən müqayisəedilməz dərəcədə çoxdur.

Dövriyyə qabiliyyətli əşyaların hüquqi rejimi bir sıra əlamətlərlə xarakterizə olunur. Birincisi, bu qəbildən olan əşyalar **mülki (əmlak) dövriyyədən çıxarılmamış əşya kateqoriyasına aid edilir**. İkincisi, onlar **dövriyyəsi məhdudlaşdırılmayan əşyalardır**. Üçüncüsü, həmin əşyalar müxtəlif üsullarla və əsaslarla mülki (əmlak) dövriyyədə **sərbəst surətdə özgəninkiləşdirilə** bilər. Hər şeydən əvvəl, dövriyyə qabiliyyətli əşyalar müxtəlif mülki-hüquqi əqdlər əsasında özgəninkiləşdirilmək imkanına malikdir. Söhbət alqı-satqı, dəyişmə və bağışlama kimi əqdlərdən gedir. Həmin əşyalar universal hüquq varisliyi qaydasında bir şəxsdən digərinə keçə bilər. Söhbət, hər şeydən əvvəl, vərə-

səlikdən gedir. Dövriyyə qabiliyyətli əşyalar sərbəst surətdə həm vəsiyyət üzrə, həm də qanun üzrə vərəsəlik əsasında vərəsələrə keçmək qabiliyyətinə malikdir. Həmin növdən olan əşyalar hüquq varisliyi qaydasında da bir hüquqi şəxsdən digər hüquqi şəxsə keçə bilər. Belə ki, hüquqi şəxslər yenidən təşkil edilərkən (birləşərkən, qoşularkən, bölünərkən, ayrılarkən və ya çevrilərkən) onun malik olduğu əşya hüquqi varis rolunda çıxış edən hüquqi şəxsə keçir. Deməli, dövriyyə qabiliyyətli əşyaların hüquqi xarakteristikasının əsas cəhəti ondan ibarətdir ki, həmin əşyalar **mülki (əmlak) dövriyyədə sərbəst surətdə istənilən mülki-hüquqi əqdin obyekti (predmeti) olmaq və öz sahibini (mülkiyyətçisini) dəyişmək qabiliyyətinə malikdir**. Buna görə də onlar həm də «dövriyyədə məhdudlaşdırılmayan» və ya «dövriyyədə hərəkətinə icazə verilən» əşyalar da adlandırılır.

Mülki (əmlak) dövriyyədə hərəkəti məhdudlaşdırılan əşyalara **məhdud dövriyyə qabiliyyətli əşyalar** deyilir. Bu qəbildən olan əşyaların xüsusi çəkisi çox deyildir.

Məhdud dövriyyə qabiliyyətli əşyaların hüquqi xarakteristikası əsasən iki alternativ əlamətlə şərtlənir. Birincisi, həmin növ əşyalar **yalnız dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilər**. Bu baxımdan yerin təki, meşə fondu məhdud dövriyyə qabiliyyətli əşyalar hesab edilir. Məsələn, yerin təki Azərbaycan dövlətinin mülkiyyətindədir. O, yalnız Azərbaycan dövlətinə məxsus ola bilər[1]. Bununla belə, fiziki və hüquqi şəxslər yer təkindən istifadə edə bilərlər. Meşə fondu dövlətə mənsubdur və onun mülkiyyətidir[2]. Meşə qanunvericiliyində müəyyən edilmiş qaydada bu fondun sahələrindən istifadə olunması ilə əlaqədar əqdlər bağlana bilər. Amma meşə fondu sahələrinin özgəninkiləşdirilməsinə (alqı-satqısına) yol verilmir.

İkincisi, məhdud dövriyyə qabiliyyətli əşyalar kateqoriyasına yalnız o əşyalar aid edilə bilər ki, **həmin əşyaların dövriyyədə hərəkətinə xüsusi icazə əsasında yol verilmiş olsun**. Bu baxımdan mülki silah, xarici valyuta məhdud dövriyyə qabiliyyətli əşyalar hesab edilir. Məsələn, vətəndaş yalnız xüsusi icazə əsasında mülki silahı (özünümüdafiə, ov və idmanla məşğul olma üçün nəzərdə tutulmuş silahı) əldə edə bilər. Belə ki, mülki silahı əldə etmək istəyən vətəndaş Daxili İşlər Nazirliyinə ərizə ilə müraciət edir. O, ərizəyə özünün sağlamlığı haqqında tibbi arayış əlavə edir, habelə şəxsiyyət vəsiqəsini təqdim edir. Bundan sonra nazirlik vətəndaşın mülki silah əldə etməsinə icazə verir[3]. Valyuta əməliyyatları aparmaq, o cümlədən xarici valyutanı almaq-satmaq hüququnu banklar Milli Bankdan alınmış lisenziya əsasında həyata keçirirlər[4].

Əşyaların hərəkətinin mülki (əmlak) dövriyyədə məhdudlaşdırılması bir sıra hallarla şərtlənir: ölkənin iqtisadiyyatı sahəsində bəzi obyektlərin xüsusi və böyük əhəmiyyətinə görə; dövlət və ictimai təhlükəsizlik mülahizələrinə görə;

[1] «Yerin təki haqqında» 13 fevral 1998-ci il tarixli qanunun 4-cü maddəsi (AR QK, V cild, s. 280).

[2] «Azərbaycan Respublikasının Meşə Məcəlləsi»nin 11-ci maddəsi (AR QK, V cild, s. 163).

[3] «Xidmətə və mülki silah haqqında» 30 dekabr 1997-ci il tarixli qanunun 9-cu maddəsi (AR QK, V cild, s. 207).

[4] «Valyuta tənzimi haqqında» 21 oktyabr 1994-cü il tarixli qanunun 3-cü və 13-cü maddələri (AR QK, II cild, s. 372, 375).

dövlətin iqtisadi mənafeyinin qorunması amilinə görə; əhalinin sağlamlığını təmin etmək mülahizələrinə görə və s.

Mülki (əmlak) dövriyyədə hərəkəti qadağan edilən və dövriyyədə olmasına yol verilməyən əşyalara **qeyri-dövriyyə qabiliyyətli əşyalar** deyilir. Bu qəbildən olan əşyaların dövriyyə qabiliyyəti olmur və buna görə də mülki (əmlak) dövriyyədən çıxarılır. Məhz bu səbəbdən onlar **mülki dövriyyədən çıxarılmış əşyalar** da adlanır. Bu cür əşyaların dairəsi birbaşa qanunvericiliklə müəyyən edilir[1].

Qeyri-dövriyyə qabiliyyətli əşyaların hüquqi vəziyyəti onunla şərtlənir ki, bu cür əşyalar **mülki (əmlak) dövriyyədə hər hansı bir əqdin obyekti (predmeti) rolunda çıxış edə bilmir**. Buna görə də onlann sahiblərinin (mülkiyyətçilərinin) dəyişdirilməsi qeyri-mümkündür. Onların özgəninkiləşdirilməsi və müəyyən şəxslərə keçməsi istisna edilir. Məsələn, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektlər (milli və bəşəri əhəmiyyəti olan nadir mədəniyyət sərvətləri) mülki dövriyyədən çıxarılır[2]. Dövlət mülkiyyətində olan dünya və ölkə əhəmiyyətli daşınar və daşınmaz abidələrin satılması, icarəyə verilməsi qadağandır[3]. Deməli, onlar mahiyyətcə qeyri-dövriyyə qabiliyyətli əşya kateqoriyasına aid edilir.

Qeyri-dövriyyə qabiliyyətli əşyalar odur ki, bu əşyalar barəsində hər hansı bir mülki-hüquqi əqd bağlamaq olmaz[4]. Bu baxımdan nüvə enerjisini, strateji silah növlərini, ağır silahlan, yivli odlu silahları (mülki silahlar istisna olmaqla), döyüş sursatlarını (ov silahları üçün sursatlar istisna edilməklə), radioaktiv maddələri, qiymətli kağızlar istehsal edən avadanlıqları, döyüş təyinatlı hərbi texnikanı və digərlərini göstərilən kateqoriyalı əşyalara aid etmək lazımdır[5]. Bəzi narkotik vasitələrin Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmişdir[6].

Qeyd etmək lazımdır ki, əşyaların mülki (əmlak) dövriyyədə sərbəst olaraq

[1] Müqayisə üçün göstərə bilərik ki, Yaponiya doktrinası xüsusi (mülki) əqdlərin obyekti olmaq imkanı kimi əlamətə görə əşyaların iki növünü fərqləndirir: dövriyyə qabiliyyətli əşyalar dövriyyə qabiliyyəti olmayan əşyalar. Dövriyyə qabiliyyəti olmayan əşyalara aid edilir: ümum (ictimai) istifadədə olan əşyalar (məsələn, ictimai parklar, ümumi istifadədə olan çaylar və s.), ümumi (ictimai) təyinatlı əşyalar (məsələn, dövlət idarəsinin binası və s.); qadağan olunmuş əşyalar, yəni barəsində əqd bağlanması qadağan olunmuş əşyalar (məsələn, saxta pul nişanları, pamoqrafik ədəbiyyat, tiryək və s.).

[2] «Mədəniyyət haqqında» 6 fevral 1998-ci il tarixli qanunun 268-ci maddəsi (AR QK, V cild s. 269).

[3] «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» 10 aprel 1998-ci il tarixli qanunun 17-ci maddəsi (AR QK, V cild, s. 362).

[4] Məhz bu səbəbdən müəlliflərin belə bir fikri ilə razılaşmaq olmaz ki, dövlətin mülkiyyətində olan yerin təki və meşə fondu sahələri qeyri-dövriyyə qabiliyyətli əşyalar kateqoriyasına aiddir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 302 Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 139). RF-in qanunvericiliyi göstərilən sahələrdən istifadə edilməsi üzrə əqdlər bağlanmasına yol verir.

[5] «Dövlət təhlükəsizliyi və ictimai təhlükəsizlik mülahizələrinə və beynəlxalq öhdəliklərə görə vətəndaşa məxsus ola bilməyən əmlak növləri haqqında» 2 dekabr 1992-ci il tarixli qanun (AR QK, I cild, s. 820).

[6] 2001-ci il 20 fevral tarixli qanunla təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların siyahıları» (AR QK, III xüsusi buraxılış, s. 693).

hərəkət etməsi ümumi qaydadır. Əşyaların dövriyyədə hərəkətinin məhdudlaşdırılması və ya onların dövriyyədən çıxarılması isə bu qaydadan istisnaya yol verilən hallardır. Bu, təmiz şəkildə hüquqi qərardır[1], yəni əşyaların məhdud və ya qeyri-dövriyyə qabiliyyətli hesab edilməsi haqqında qəran hüquq normaları qəbul edir. Bu normalar hüquq nəzəriyyəsində istisnaedici normalar adlanır. İstisnaedici normalar isə genişləndirici təfsir olunmur[2].

Bizim ölkə qanunvericiliyinin əşyaların mülki (əmlak) dövriyyə qabiliyyəti haqqında müddəalarının əsasını Roma hüququ təşkil edir. Roma hüququ bu əlamətə görə əşyaları iki yerə bölürdü: res in commersio (dövriyyədəki əşyalara); res extra commercium (dövriyyədənkənar, yəni dövriyyədən çıxarılmış əşyalara)[3].

5. İstehlak olunan və istehlak olunmayan əşyalar

İstifadə prosesində öz istehlak keyfiyyətlərini itirməsi əlamətinə görə əşyalar iki növə bölünür: istehlak olunan əşyalara; istehlak olunmayan əşyalara. Bu bölgünü bir sıra ölkələrin (məsələn, Almaniyanın, Yaponiyanın, Rusiya Federasiyasının və s.) hüququ da tanıyır. Məsələn, Almaniya Mülki Qanunnaməsinin 92-ci paraqrafı istehlak olunan əşyalara leqal anlayış verir. Bu anlayış bizim ölkə qanunvericiliyi tərəfindən olduğu kimi qəbul olunmuşdur. Özü də həmin bölgü öz mənbəyini və başlanğıcını Roma hüququndan götürmüşdür. Belə ki, əşyaların istehlak olunan və istehlak olunmayan əşyalar adlı iki yerə bölünməsi hələ qədim zamanlarda Roma hüququna da məlum idi[4].

İqtisadi mənada, iqtisadi baxımdan bütün əşyalar istehlak olunandır. Hüquqi mənada, hüquqi cəhətdən isə əşyalar həm istehlak oluna, həm də olunmaya bilər. Əşyaların hüquqi mənada bu cür bölgüsü belə bir əlamətə və meyara əsaslanır ki, bir dəfə istifadə olunanda (istehlak olunanda) əşya öz ilkin keyfiyyət və xassəsini, öz əvvəlki formasını saxlayır, yoxsa itirir? Deməli, bu, əşyaların iqtisadi yox, hüquqi təsnifatıdır.

İstehlak olunan əşyalar odur ki, həmin əşyalar bir dəfə istifadə olunanda ya öz natural formasını, istehlak keyfiyyətlərini itirir və bunun nəticəsində bir daha mövcud olmur, ya da ki başqa əşyanın tərkib hissəsinə çevrilir. Məsələn, bitki yağı, taxıl, çaxır, yanacaq, ərzaq məhsulları bir dəfə istifadə olunan kimi öz natural formasını, istehlak keyfiyyətlərini itirdiyinə görə istehlak olunan əşya kateqoriyasına aid edilir. Xammal, tikinti materialları, gübrə və s. istifadə olunanda başqa əşyanın tərkib hissəsinə çevrilir və buna görə də istehlak olunan əşya sayılır.

İstehlak olunan əşyaların təyinatı üzrə istifadəsi, bir qayda olaraq, **istehlak olunmaqdan** ibarətdir. Bu növ əşyaların təyinatı üzrə istifadəsi onları **özgəninkiləşdirməkdən** də ibarət ola bilər. Onlar yalnız başqa şəxslərin xeyrinə özgəninkiləşdirilə bilər. Məsələn, borc müqaviləsinin predmeti olan istehlak olunan əşyalar (pul) borc verənin mülkiyyətindən borc alanın mülkiyyətinə keçir, yəni özgəninkiləşdirilir[1]. Bizim ölkə qanunvericiliyi məhz təyinatı üzrə istifadə baxımından istehlak olunan əşyalara leqal anlayış verir: təyinatı istehlak olunmaqdan və ya özgəninkiləşdirilməkdən ibarət olan daşınar əşyalar istehlak edilən əşyalardır (MM-in 135-ci maddəsinin 8-ci bəndi)[2].

İstehlak olunan əşya rolunda yalnız daşınar əşyalar çıxış edə bilər. Daşınmaz əşyaların istehlak olunan əşya kateqoriyasına aid edilməsi isə istisna edilir. Belə ki, daşınmaz əşyalar hüquqi mənada prinsip etibarilə həmişə istehlak olunmayan əşya hesab edilir.

İstehlak olunmayan əşyalar odur ki, həmin əşyalar uzun müddət iqtisadi təyinatını və dəyərini saxlamaqla tədricən köhnəlir və amortizasiya edir. Bu cür əşyalar öz formasını mühüm dərəcədə dəyişmədən nisbətən uzun müddət ərzində istifadə olunur. Məsələn, yaşayış evi, nəqliyyat vasitələri, maşınlar, dəzgahlar, mebel, geyim şeyləri; avadanlıqlar, xalça, kitab və s. istehlak olunmayan əşyalara misal ola bilər. Onlardan dəfələrlə istifadə etmək mümkündür. Bu əşyaların təyinatı istehlak olunmaqdan və ya özgəninkiləşdirilməkdən ibarət deyildir.

Göstərilən hüquqi təsnifatın mühüm hüquqi əhəmiyyəti vardır. Belə ki, bəzi hüquqi hərəkətlər yalnız istehlak olunan əşyalar barəsində edilə bilər. Məsələn, borc müqaviləsini yalnız istehlak olunan əşyalar haqqında bağlamaq olar. Bu müqavilənin predmeti rolunda həmişə istehlak olunan əşyalar çıxış edir. Ona görə ki, borc müqaviləsi borc alanın bu əşyanı öz mülkiyyətinə keçirməsini və onu istehlak etməsini nəzərdə tutur. Borc alan həmin əşyanı istehlak edir. Ona görə də o, həmin əşyanın özünü borc verənə qaytara bilməz. Borc alan eyni keyfiyyətdə, eyni miqdarda və eyni növdə əşya qaytarır.

Bəzi hüquqi hərəkətlər isə yalnız istehlak olunmayan əşyalar barəsində edilə bilər. Məsələn, icarə, kirayə, əvəzsiz istifadə və lizinq kimi müqavilələri ancaq bu əşyalar barəsində bağlamaq olar. Ona görə ki, müqavilə müddəti başa çatdıqda, müqavilənin predmeti olan əşyanın özünü sahibinə (kirayə verənə, icarəyə verənə və s.) qaytarmaq tələb olunur.

Bəzi mülki-hüquqi əqdlərin predmeti rolunda həm istehlak olunan, həm də istehlak olunmayan əşyalar çıxış edə bilər. Məsələn, alqı-satqı, mal göndərmə, bağışlama, dəyişmə və saxlama kimi müqavilələr bu cür əqdlərə misal ola bilər.

---

[1] bax: Тархов В.А. Гражданское правоотношение. Уфа. 1993, с. 105; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 135.

[2] Комментарий части первой Гражданского кодекса Российской Федерации. М., 1996, с. 203.

[3] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 138; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 155.

[4] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 348; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 150; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 132.

[1] Pul adlı daşınar əşyadan təyinatı üzrə istifadə onun özgəninkiləşdirilməsindən ibarətdir. Buna görə də pul istehlak olunan əşya kateqoriyasına şamil edilir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 19; *Сакаэ Вагацуми, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 94). L.Ennekserus təyinatı özgəninkiləşdirilməkdən ibarət olan istehlak edilən əşyalara eid edir: mal anbarında olan əşyalar; xırdavatçının (çərçinin) qutusunda olan əşyalar; satlıq sürüdəki heyvanlar (yenə orada, s. 19).

[2] Bu anlayış Almaniya Mülki Qanunnaməsindən götürülmüşdür: təyinatı üzrə istifadə istehlak olunmaqdan və ya özgəninkiləşdirilməkdən ibarət olan daşınar əşyalar istehlak edilən əşyalardır (§ 92) // Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

6. Bölünən və bölünməyən əşyalar

Bölünmə əlamətinə görə əşyalar iki yerə bölünür: bölünən əşyalara; bölünməz əşyalara. Özü də dərhal qeyd etməliyik ki, bu, əşyaların hüquqi mənada bölgüsüdür, onların hüquqi təsnifidir. Belə ki, bütün əşyalar hər hansı təbiət cismi və maddəsi kimi bölünəndir. Hər bir maddə molekullardan, molekullar isə atomlardan ibarətdir. Atomlar isə öz növbəsində daha kiçik hissəciklərə — neytron və protonlara bölünür. Bölünmək materiyanın əsas xassəsidir. Buna görə də obyektiv gerçəkliyin predmeti kimi əşyalar bölünəndir. Hüquq isə göstərir ki, istənilən hər hansı əşya bölünə bilməz. Əşyaların bir qismi hüquqi mənada bölünən, bir qismi isə bölünməzdir.

Bölünən əşyalar odur ki, bu əşyalar ayrı-ayrı fiziki hissələrə bölünəndə öz əvvəlki təsərrüfat təyinatını (və ya digər təyinatını) itirmir. Bunlar elə əşyalardır ki, onlar təsərrüfat təyinatına zərər vurulmadan naturada bölünə bilir. Bu zaman həmin əşyaların ümumi əmlak dəyəri və iqtisadi funksiyası azalmır. Məsələn, süd məhsulları hazırlayan müəssisədə 200 l süd 400 ədəd süd paketinə tökülür. Belə halda süd öz əvvəlki təyinatını itirmir. Bölünən əşyalara torpaq sahəsini, çoxsaylı mənzillərdən ibarət olan binanı, ərzaq məhsullarını, yanacağı, qumu, sementi, bir neçə otağı, yaşayış evini və s. misal göstərmək olar. Bu əşyalar bölünəndə, bölünmüş hər bir hissə öz əvvəlki təyinatı üzrə istifadə olunur, əşya kimi eyni funksiya yerinə yetirir. Almaniya Mülki Qanunnaməsində də bölünən əşyalara məhz bu baxımdan anlayış verilir: qiyməti azalmadan ayrı-ayrı eynicinsli predmetlərə bölünə bilən əşyalar bölünən əşyalardır (§ 752).

Bölünməz əşyalar odur ki, bu əşyalar ayrı-ayrı fiziki hissələrə bölünəndə və əvvəlki təsərrüfat təyinatını (və digər təyinatını) itirir, ya da istehlak keyfiyyətlərindən, fayda vermək xassəsindən tamamilə və ya qismən məhrum olur. Bu cür əşyalar təsərrüfat və ya digər təyinatı dəyişdirilmədən bölünə bilməyən əşyalardır. Əgər həmin əşyalar bölünərsə, onda onların təyinatına mütləq zərər vurulur, xələl gətirilir. Bölünmə nəticəsində onlar öz əvvəlki və ilkin təyinatı üzrə xidmət göstərə bilmir. Bölünməz əşyalara televizoru, avtomobili, divanı, mebeli, musiqi alətini və başqalarını misal göstərmək olar. Bundan əlavə, qanunun göstərişinə görə bölünməli olmayan əşyalar da bölünməz əşyalar kateqoriyasına aid edilir (MM-in 135-ci maddəsinin 6-cı bəndi). Məsələn, qanuna görə səhm bölünməzdir.

Əşyaların göstərilən təsnifinin hüquqi əhəmiyyəti vardır. Ümumi mülkiyyətdə olan əmlak bölünərkən və bu əmlakdan müvafiq pay ayrılarkən həmin təsnif nəzərə alınır. Bölünməz əşyalar naturada bölünmür. Məsələn, birgə nikah dövründə ər-arvad birotaqlı mənzil, pianino və televizor alırlar. Onları naturada bölmək mümkün olmadığına görə boşanma zamanı ər-arvaddan birinə müvafiq pul məbləği ödənilir (MM-in 223-cü maddəsinin 4-cü bəndi, 220-ci maddəsinin 3-cü bəndi). Bölünməyən həmin əşyalar isə pul ödəyən tərəfdə (ərdə və ya arvadda) qalır. Bundan əlavə, əşya barəsində əmələ gələn öhdəliyin paylı və ya birgə (solidar) xarakterə malik olması da məhz bu bölgüdən asılıdır. Belə ki, paylı öhdəliyin predmeti rolunda bölünən əşyalar, birgə (solidar) öhdəliyin predmeti rolunda isə bölünməz əşyalar çıxış edir[1].

[1] Dərsliyin «Öhdəlik hüququ» adlı fəslinə bax.

Xüsusi mükafatlandırma və müsabiqə öhdəliklərində də əşyaların həmin təsnifi nəzərə alınır. Belə ki, xüsusi mükafat alana və ya müsabiqə qalibinə verilən mükafat (priz) öz xarakterinə görə bölünmədikdə, mükafat püşkatma yolu ilə verilir (MM-in 1081-ci maddəsinin 4-cü bəndi).

Əşyaların göstərilən təsnifinin əsasını Roma hüququ təşkil edir. Roma hüququ bölünən əşyaları «res divisibiles» termini ilə, bölünməz əşyaları isə «res indivisibiles» termini ilə əhatə edirdi[1].

7. Sadə və mürəkkəb əşyalar

Əşyaların müxtəlif növlü əşyalardan ibarət olması əlamətinə görə onların iki növü fərqləndirilir: sadə əşyalar; mürəkkəb əşyalar.

Sadə əşyalar odur ki, həmin əşyaların tərkibinə fiziki cəhətdən öz aralarında bir-birilə bağlı olmayan, müstəqil istifadə edilə bilən müxtəlif növlü əşyalar daxil deyildir. Məsələn, televizor, daş, şalban, avtomobil, divan və digər sadə əşya kateqoriyasına aiddir. Bu əşyalar öz tərkibində müstəqil istifadə olunan, fiziki cəhətdən bir-birilə bağlı olmayan hər hansı müxtəlif növlü əşyaları birləşdirmir.

Mürəkkəb əşyalar odur ki, bu əşyaların tərkibində ümumi təyinat üzrə istifadəni həyata keçirmək məqsədilə bir neçə müxtəlif növlü əşya tam vahid halında birləşir. Onlar mülki (əmlak) dövriyyədə tam, bütöv və vahid obyekt qismində çıxış edir. Bu cür əşyalara mebel qarniturunu (dəstini), mətbəx servizini, müəssisəni, kəndli (fermer) təsərrüfatının əmlakını misal göstərmək olar. Onların nisbətən daha geniş yayılmış növünü əmlak kompleksi (müəssisələr) təşkil edir. Müəssisə binanı, istehsal alət və vasitələrini, nəqliyyat vasitələrini, müxtəlif avadanlıqları, dəzgahları və s. birləşdirən mürəkkəb əşyadır.

Mürəkkəb əşyaların hüquqi vəziyyəti bir neçə əlamətlə xarakterizə edilir. Birincisi, mürəkkəb əşyalar **müxtəlif növlü əşyalardan** ibarətdir. Məhz bu səbəbdən eyni növlü əşyaların müəyyən sayda məcmusuna mürəkkəb əşya kimi baxmaq olmaz[2]. Bu baxımdan kitabxana, inək sürüsü, eyni növlü əşyalardan ibarət olan kolleksiya, cüt əşyalar (əlcəklər, corablar, ayaq xizəkləri) mürəkkəb əşya hesab edilmir[3]. Bu əşyalar (inək sürüsündən başqa), bizim fikrimizcə, bölünməz əşya kateqoriyasına aiddir. L.Ennekserus sürüyə, kitabxanaya, cüt əlcəklərə əşyaların məcmusu kimi baxır.

İkincisi, mürəkkəb əşyanın ibarət olduğu **əşyalar öz aralarında quruluşca**

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000. с.134; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 150; *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 348.

[2] Bəzi müəlliflər göstərirlər ki, mürəkkəb əşyalar eyni növlü əşyalardan da ibarət ola bilər. Bu fikirlə razılaşmaq olmaz. Çünki RF-in 134-cü maddəsində açıq və aydın formada müəyyən edilir ki, mürəkkəb əşyalar müxtəlif növ əşyalardan ibarətdir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 212; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 141).

[3] Ona görə də həmin əşyaları mürəkkəb əşya kateqoriyasına aid edən müəlliflərin fikirləri ilə razılaşmaq olmaz (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 309; Гражданское право . Учебник / Под ред. *С.П.Гришаева.* М., 1999, с. 69; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 212; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 141). Amma sürü Roma hüququna görə mürəkkəb (qatışıq) əşyaya aid idi (bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 89).

(konstruktiv) bir-birilə bağlı deyil. Onların bir-birilə konstruktiv əlaqəsi yoxdur. Bu cəhəti ilə mürəkkəb əşyanın ibarət olduğu əşyalar sadə əşyanın tərkib hissəsi anlayışından fərqlənir. Əşyanın tərkib hissəsi dedikdə, əşyanın tərkibinə daxil olan elə hissəciklər başa düşülür ki, həmin hissəciklər bir-birilə konstruktiv (quruluşca) əlaqədə olur. Məsələn, avtomobilin müxtəlif detalları — hissəcikləri (rəması, kuzası, motoru və s.) onun tərkib hissələri hesab olunur. Əgər mürəkkəb əşyanın tərkib hissəsi quruluşca bir-birilə bağlı olmayan əşyalardan ibarətdirsə, sadə əşyanın tərkib hissəsi detallardan (hissəciklərdən) ibarətdir.

Üçüncüsü, müxtəlif növlü əşyaların məcmusu və birləşməsi olan **mürəkkəb əşyadan vahid, tam halda ümumi təyinat üzrə istifadə olunur.** Məsələn, müxtəlif avadanlıqlardan, dəzgahlardan, binalardan, nəqliyyat vasitələrindən və s. ibarət olan müəssisə istehsal fəaliyyətini həyata keçirir.

Dördüncüsü, **mürəkkəb əşyanın tərkib hissəsinə daxil olan hər bir əşyadan müstəqil surətdə istifadə etmək olar.** Bu cəhəti ilə o, sadə əşyanın tərkib hissəsindən fərqlənir. Belə ki, sadə əşyanın tərkib hissəsinə daxil olan detallar, aqreqatlar, mexanizmlər və s. müstəqil təyinata malik deyil. Mürəkkəb əşya hesab edilən mətbəx (yeməkxana) servisi çəngəldən, qaşıqdan, boşqabdan və s. ibarətdir. Bunların hər birindən müstəqil surətdə istifadə etmək olar[1].

Əşyaların sadə və mürəkkəb əşyalara bölünməsinin böyük hüquqi əhəmiyyəti vardır. Bu təsnif, hər şeydən əvvəl, mülkiyyət hüququ əldə ediləndə mühüm rol oynayır. Belə ki, mürəkkəb əşyaların sahibinin mülkiyyət hüququ onların bütün tərkib hissələri olan əşyaların hamısına şamil edilir. Bu əşyaların ibarət olduğu tərkib hissələrinin məcmusu bir əşya hesab olunur. Ona görə də mürəkkəb əşya barəsində bağlanmış əqdin qüvvəsi, onun bütün tərkib hissələrinə aid edilir. Məsələn, mebel dəstinin alqı-satqı müqaviləsi bağlanmışdır. Satıcı müqavilənin predmeti olan mürəkkəb əşyanı ona daxil olan bütün tərkib hissələri ilə birlikdə verməlidir (MM-in 135-ci maddəsinin 9-cu bəndi). Lakin bu qayda dispozitiv xarakterə malikdir. Belə ki, müqavilədə ayrı qayda da nəzərdə tutula bilər. Məsələn, alqı-satqı müqaviləsində göstərilə bilər ki, satıcı mürəkkəb əşyanın bütün tərkib hissələrini yox, yalnız onun bəzilərini verməlidir. Bu isə onu göstərir ki, mürəkkəb əşya bölünən əşya kimi də çıxış edə bilər.

Əşyaların göstərilən hüquqi təsnifi ümumi mülkiyyətdə olan əmlakın bölgüsündə və ondan müvafiq payın ayrılmasında mühüm əhəmiyyət kəsb edir. Bu təsnif Roma hüququna məlum idi[2].

Almaniya hüquq doktrinasına görə, sadə əşyalar təbii olaraq bölünməz vahid əşyalardır (məsələn, kağız vərəqəsi). Mürəkkəb (qatışıq) əşyalar çoxlu predmetlərin birləşməsindən ibarət olan elə əşyalardır ki, bu predmetlərdən hər biri özlüyündə müstəqil əhəmiyyətə malik ola bilər (məsələn, avtomobil).

[1] Bu, onu göstərir ki, mürəkkəb əşyaları qəti formada bölünməz əşyalara aid edən müəlliflərin fikirləri həqiqətdən uzaqdır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 150; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 141; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 212).

[2] *Пухан И., Полёнак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 133-134; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 151-152.

Yaponiya doktrinası forma kimi əlamətə görə əşyaları üç növə bölür: vahid əşyalara (məsələn, kitab); mürəkkəb əşyalara (məsələn, daş-qaşı olan üzük); məcmu əşyalara (məsələn, müəssisənin maşın, avadanlıq və materialları).

8. Əsas (baş) və yardımçı əşyalar

Aralarında təsərrüfat və digər asılılıq əlaqələrinin olması əlamətinə görə əşyalar iki cür olur: əsas (baş) əşyalar; yardımçı (köməkçi) əşyalar, yəni ləvazimat.

Mülki (əmlak) dövriyyədə başqa hər hansı bir əşyadan asılı olmayaraq, obyekt qismində çıxış edən əşyalara **əsas (baş) əşyalar** deyilir. Bu əşyalar müstəqil əhəmiyyətə malik olub, digər hər hansı əşya olmadan təyinatı üzrə istifadə oluna bilər. Onların həm hüquqi, həm də faktiki taleyi başqa bir əşyadan asılı deyil. Məsələn, torpaq, müəssisə, musiqi aləti, tozsoran, şəkil, qol saatı, avtomobil, ayaq xizəyi, qayıq əsas (baş) əşyalara misal ola bilər.

Əsas məqsədi baş (əsas) əşyaya xidmət etməkdən ibarət olan və onunla ümumi təyinat üzrə bağlı olan əşyalara **yardımçı əşyalar** deyilir. Bu əşyalar təsərrüfat təyinatı, əsas (baş) əşyanın istifadəsi və ya saxlanması üçün lazım olan əşyalardır. Məsələn, musiqi alətinin qabı, qol saatının brasleti (qolbağı), şəklin çərçivəsi, avtomobilin açarları, ayaq xizəyinin ağacları, kompüterin örtüyü, tozsoranın taxması, qayığın kürəyi və s. yardımçı əşyalara misal ola bilər.

Əsas (baş) əşya kimi yardımçı əşya fiziki cəhətdən müstəqil əşya hesab edilir. O, əsas əşyadan müvəqqəti ayrıldığı hallarda, keyfiyyətini itirmir, saxlayır (MM-in 135-ci maddəsinin 11-ci bəndi). Bu əşyalar arasında nə mexaniki, nə kimyəvi, nə üzvi, nə də ki başqa əlaqə vardır. Yardımçı əşya baş (əsas) əşya ilə iqtisadi-təsərrüfat cəhətdən bağlıdır. Onları birləşdirən cəhət yalnız istehsal, təsərrüfat, məişət və digər vahid, ümumi təyinatdır.

Yardımçı əşyanın hüquqi və faktiki taleyi əsas (baş) əşyanın hüquqi vəziyyətindən asılıdır. Ona görə də yardımçı əşyanın statusunun dəyişməsi baş əşyanın taleyinə təsir göstərmir. O, əsas (baş) əşya olmadan müstəqil iqtisadi-təsərrüfat funksiyasını yerinə yetirə bilməz. Buna görə də yardımçı əşyanın müstəqil əhəmiyyəti və dəyəri yoxdur. **Onun əsas məqsədi baş əşyaya xidmət etməkdən ibarətdir.**

Yardımçı əşyanı əsas əşyanın tərkib hissəsindən fərqləndirmək lazımdır. **Tərkib hissəsi** yardımçı əşyadan fərqli olaraq, baş əşya ilə konstruktiv (quruluşca) əlaqədə olur. Məsələn, avtomobilin rəması, mühərriki, motoru və digər detal və mexanizmləri onun tərkib hissələridir. İstənilən detal baş əşya ilə konstruktiv əlaqədədir. Əgər baş əşya həmin detal olmadan fəaliyyət göstərə bilməsə, ona yardımçı əşya kimi baxmaq olmaz. Yardımçı əşya baş əşyanın tərkib hissəsi ona görə ola bilmir ki, o, baş əşya ilə konstruktiv (quruluşca) cəhətdən yox, ümumi təsərrüfat və digər təyinatla bağlıdır.

Yardımçı əşyanı baş əşyanın **ehtiyat hissələrindən** də fərqləndirmək lazımdır. Ehtiyat hissənin əsas təyinatı baş əşyanın detallarını əvəz etməkdən və dəyişdirməkdən ibarətdir. Məsələn, avtomobilin ehtiyat təkəri onun ehtiyat hissəsi hesab edilir. Baş və yardımçı əşya mürəkkəb əşya sayılmır.

Baş əşya özünün bütün tərkib hissələri ilə birlikdə, onun ehtiyat hissələri isə əlavə saziş əsasında verilməlidir.

Bizim ölkə qanunvericiliyinə görə, yardımçı əşya rolunda yalnız daşınar əşyalar çıxış edə bilər. Almaniya Mülki Qanunnaməsində də bu qayda nəzərdə tutulub (§ 97). Amma Yaponiya doktrinasına görə, daşınmaz əşyalar da yardımçı əşya ola bilər. Məsələn, anbar fermanın, əlavə tikili əsas binanın və s. yardımçı əşyası hesab edilir, bir şərtlə ki, yardımçı əşya baş əşyadan asılı olmadan mövcud olsun[1].

Əşyaların baş və yardımçı əşyaya bölünməsinin hüquqi əhəmiyyəti vardır. Bu, ondan ibarətdir ki, əqdin predmeti olan baş əşya özünün yardımçı əşyası ilə birlikdə verilməlidir. Məsələn, alqı-satqı müqaviləsi üzrə satıcı əşyanı özünün yardımçı əşyası ilə birlikdə alıcıya verməyə borcludur. Alıcı isə əlavə pul ödəmədən yardımçı əşyanın verilməsini tələb etmək hüququna malikdir. Lakin alqı-satqı müqaviləsində başqa qayda da nəzərdə tutula bilər (MM-in 568-ci maddəsinin 2-ci bəndi).

Sahiblik hüququnun əmələ gəlməsində də bu bölgünün əhəmiyyəti vardır. Belə ki, əşyaya sahiblik onun yardımçı əşyasına da şamil edilir (MM-in 135-ci maddəsinin 11-ci bəndi). Bu, dispozitiv qaydadır. Belə ki, tərəflərin razılaşmasında başqa qayda da nəzərdə tutula bilər.

İcarə münasibətlərində də bu bölgü müəyyən əhəmiyyətə malikdir. Belə ki, icarə obyekti, o cümlədən torpaq sahəsi və ya müəssisə öz yardımçı əşyaları ilə birlikdə icarəyə verilir (MM-in 701-ci maddəsinin 1-ci bəndi).

Əşyaların əsas (baş) və yardımçı (köməkçi) əşyalara bölünməsi öz başlanğıcını Roma hüququndan götürmüşdür. Belə ki, bu təsnifi hələ neçə-neçə il bundan əvvəl Roma hüququ vermişdir[2].

9. Fərdi-müəyyən və cinsi əlamətləri ilə təyin edilən əşyalar

Fərdi, yəni yalnız özlərinə xas olan əlamətlərinə görə əşyaların iki növü fərqləndirilir: fərdi-müəyyən əşyalar; cinsi əlamətləri ilə müəyyən edilən əşyalar.

Fərdi-müəyyən əşyalar odur ki, bu əşyalar fərdi, yalnız özlərinə xas əlamətlərə malik olur və bununla başqa əşyalardan fərqlənir. Bu əşyalar üç kateqoriyaya bölünürlər: öz növündə yeganə, nadir (unikal) olan əşyalara (məsələn, Bakı şəhərində Səməd Vurğuna ucaldılan abidə, Bakı şəhərində Nizami küçəsindəki 5 №-li evin 2-ci mənzili); xüsusi işarəni və nişanı əks etdirən əşyalara (zavod nömrəsi göstərilməklə müəyyən ildə buraxılan «Rekord» televizoru); ona oxşar olan əşyalar içərisindən tərəflərin sazişi ilə və ya inzibati aktı yerinə yetirmək qaydasında ayrılan əşyalara (məsələn, tərəflər pulun nömrə və seriyasını yazmaqla onu pul kütləsindən ayırırlar və ya Daxili İşlər Nazirliyində konkret vətəndaşın adına qeydə alınan mülki silah). Belə təsəvvür yaranır ki, prinsip etibarilə istənilən əşya fərdi-müəyyən əşyaya aid edilə bilər. Belə ki, tərəflər eynicinsli əşya kütləsindən əşyanı ayırmaqla onu fərdiləşdirirlər[3]. Məsələn, bir kisə kartof və ya bir vaqon buğda, on metr parça, səkkiz baş mal-qara və s. fərdi-müəyyən əşya hesab edilir. Əşyaları onların keyfiyyət və-

[1] *Сокаэ Вагацума, Тору Аримдзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 98.

[2] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 134; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 152-153.

[3] *Черепахин Б.Б.* Виндикационные иски в советском праве // Уч. записки Свердловского юрид. ин-ста. 1945. Том 1, с. 38.

ziyyətini və kəmiyyət ölçüsünü göstərməklə fərdiləşdirirlər[1].

Cinsi əlamətləri ilə müəyyən edilən əşyalar odur ki, bu əşyalar həmin növdən olan bütün əşyalar üçün ümumi olan əlamətlərlə xarakterizə olunur. Söhbət kəmiyyət xarakteristikasının tətbiqindən gedir. Belə ki, dövriyyədə **həmin əşyalar, adətən, say, ölçü və ya çəki ilə müəyyənləşdirilir**. Məsələn, 10 litr süd, 5 kiloqram konfet, 50 litr benzin, 20 ton buğda, 40 ton kömür, 80 litr kerosin, 10 kub metr kərpic və s. Qənd, duz, kartof və digər əşyalar cinsi əlamətləri ilə müəyyən edilən əşya kateqoriyasına aid edilir.

Əşyaların fərdi-müəyyən və cinsi əlamətləri ilə müəyyən edilən əşyalara bölünməsinin hüquqi əhəmiyyəti vardır. Bu, onda ifadə olunur ki, **fərdi-müəyyən əşyalar hüquqi cəhətdən əvəzolunmazdır**. Onları hüquqi cəhətdən başqa əşyalarla əvəz etmək və dəyişdirmək olmaz. Ona görə də həmin əşya məhv olarsa, onda borclu şəxs bu əşyanın özünü kreditora qaytarmaq vəzifəsindən azad olur. Məsələn, vətəndaş yayda öz bağ evini qonşusuna kirayəyə verir. Qonşunun təqsiri üzündən taxta materialından tikilmiş bağ evi yanıb tamamilə külə dönür. Belə halda qonşu (borclu şəxs) fərdi-müəyyən əşyanın — bağ evinin özünü vətəndaşa (kreditora) qaytarmaq vəzifəsindən azad olur. Ona görə ki, bağ evi artıq yanaraq külə dönmüşdür. Külə dönmüş əşyanı necə qaytarmaq olar? Bağ evini isə başqası ilə əvəz etmək qeyri-mümkündür. Belə halda qonşu vətəndaşa dəymiş zərərin əvəzini ödəməlidir. Deməli, müqavilənin predmeti qismində fərdi-müəyyən əşya çıxış edərsə, əgər həmin əşya məhv olarsa, onda **müqaviləni naturada icra etmək olmaz**.

Əksinə, müqavilənin predmeti cinsi əlamətləri ilə müəyyən edilən əşyadan ibarət olarsa və həmin əşya məhv edilərsə, onda borclu şəxs **müqaviləni naturada icra etmək vəzifəsindən azad olmur**. Ona görə ki, **cinsi əlamətləri ilə müəyyən edilən əşyaları hüquqi cəhətdən əvəz etmək mümkündür**. Belə ki, borclu şəxs məhv olmuş və ya itmiş əşyanın əvəzinə, həmin əşyanın miqdarına, keyfiyyətinə və cinsinə bərabər olan başqa əşya qaytarmaq vəzifəsini daşıyır. Məsələn, vətəndaş yarım ton taxılı kənd sakininə saxlanca verir. Həmin taxıl oğurlanır. Kənd sakini vətəndaşa həmin taxılın miqdarına, keyfiyyətinə və cinsinə bərabər olan taxıl qaytaracaqdır[2].

Əşyaların göstərilən hüquqi təsnifinin əhəmiyyəti həm də onda ifadə olunur ki, bəzi müqavilələrin predmeti (icarə, kirayə, əvəzsiz istifadə, podrat kimi müqavilələrin predmeti) yalnız fərdi-müəyyən, borc müqaviləsinin predmeti isə yalnız cinsi əlamətləri ilə müəyyən edilən əşyalardan ibarətdir.

Göstərilən təsnifin əhəmiyyəti həm də onda ifadə olunur ki, cinsi əlamətləri ilə müəyyən edilən əşya rolunda yalnız daşınar əşyalar çıxış edə bilər. Daşınmaz əşyaların cinsi əlamətləri ilə müəyyən edilən əşya ola bilməsi istisna edilir.

Əşyaların göstərilən təsnifini Roma hüququ da tanıyırdı[3].

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 182.

[2] Belə bir fikirlə razılaşmaq olmaz ki, saxlama müqaviləsinin predmeti yalnız fərdi-müəyyən əşyalardan ibarət ola bilər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 144). Bu müqavilənin predmeti qismində həm fərdi-müəyyən, həm də cinsi əlamətləri ilə müəyyən edilən əşyalar çıxış edə bilər (dərsliyin II cildinə bax).

[3] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 150-151.

10. Hüquqi cəhətdən əvəz edilən və əvəz edilməyən əşyalar

Əşyaların hüquqi cəhətdən əvəz olunmaq imkanına görə onlar iki növə bölünür: əvəz edilən əşyalar; əvəz edilməyən əşyalar.

Əvəz edilən əşyalar dedikdə, növ əlamətlərinə görə fərqlənən, dövriyyədə, adətən, say, ölçü və ya çəki ilə müəyyənləşdirilən daşınar əşyalar başa düşülür (MM-in 135-ci maddəsinin 7-ci bəndi). Bu ləqal anlayış Almaniya Mülki Qanunnaməsinin əvəz edilən əşyalara verdiyi definisiyaya uyğun gəlir (§ 91). Cinsi əlamətləri ilə müəyyən edilən əşyalar (məsələn, çaxır, taxıl, süd, benzin, qənd, kartof və s.) əvəz edilən əşyalardır. Borc müqaviləsinin predmeti rolunda yalnız əvəz edilən əşyalar çıxış edir. Borc alan aldığı əşyanın özünü yox, həmin əşyanın miqdarına, keyfiyyətinə və cinsinə bərabər tutulan əşyanı qaytarır. Məsələn, qonşu öz dostuna 100 ədəd on manatlıq pul nişanından ibarət borc pul (bir min manat məbləğində) verir. Borc alan borcu qaytarmaq üçün borc verənə 20 ədəd əlli manatlıq pul nişanı verir. Bununla o, borc müqaviləsinin predmeti olan əşyanı əvəz edir.

Əvəz edilməz əşyalar dedikdə, başqa əşyalardan yalnız özlərinə xas olan əlamətlərə görə ayrılan və fərqlənən əşyalar başa düşülür (MM-in 135-ci maddəsinin 7-ci bəndi). Bütün fərdi-müəyyən əşyalar əvəz edilməz əşya kateqoriyasına şamil edilir. Əgər bu cür əşyalar (məsələn, əvəzsiz istifadəyə və ya kirayəyə verilmiş əşya və s.) məhv olarsa və ya itərsə, kreditor borclu şəxsdən buna anoloji (oxşar) olan əşyanın verilməsini yox, yalnız vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Əşyaların əvəz edilən və əvəzolunmaz əşyalar adlı iki növə bölünməsini Roma hüququ da nəzərdə tuturdu[1].

11. Cansız və canlı əşyalar

Canlı varlıq olub-olmaması əlamətinə görə əşyaların iki növü fərqləndirilir: cansız əşyalar; canlı əşyalar.

Cansız əşyalar dedikdə, maddi dünyanın cansız varlığı, yəni bioloji (fiziologi) və psixoloji-sosioloji xüsusiyyətlərə malik olmayan varlığı başa düşülür. Mülki (əmlak) dövriyyədə obyekt qismində çıxış edən əşyaların müqayisəedilməz dərəcədə çox hissəsini cansız əşyalar təşkil edir. Müxtəlif istehsal vasitələri, torpaq, binalar, yaşayış evləri, müəssisələr, pul, qiymətli kağızlar və digər obyektlər cansız əşya kateqoriyasına aid edilir.

Canlı əşyalar dedikdə, xarici aləmin canlı varlığı, yəni sosioloji xüsusiyyətlərdən məhrum olan psixoloji-bioloji varlığı başa düşülür. Söhbət, hər şeydən əvvəl, heyvanlardan gedir. Onların mülki (əmlak) dövriyyədə obyekt qismində çıxış etmələrinin tez-tez şahidi oluruq. Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi heyvanların, quşların və balıqların alqı-satqı müqaviləsi adlı hüquqi konstruksiya nəzərdə tutur (MM-in 29-cu fəslinin 2-ci paraqrafı, 608-ci maddə). Heyvanlar kirayə hüquq münasibətlərinin obyekti (predmeti) ola bilər (MM-in 680-ci maddəsinin 1-ci bəndi). Yük daşımaq, qoşqu məqsədləri üçün atın, öküzün və s. kirayəyə verilmə halları ilə tez-tez rastlaşırıq.

Alqı-satqı münasibətlərinin predmeti qismində, bir qayda olaraq, ev heyvanları (inək, qoyun və s.) çıxış edir. Bununla belə, həmin münasibətlərdə vəhşi heyvanlar da obyekt rolunda iştirak edə bilərlər. Məsələn, heyvanxana üçün müxtəlif vəhşi heyvanlar — şir, pələng, ayı, canavar və digər heyvanlar alınır. Odur ki, mülki hüquq münasibətlərinin obyekti həm ev heyvanları, həm də vəhşi heyvanlar ola bilər.

Roma hüququna görə, heyvanlar daşınar əşya hesab olunurdu[1]. Onların sürüləri isə (məsələn, inək sürüləri, qoyun sürüləri) mürəkkəb (qarışıq) əşyalara aid edilirdi[2].

Bizim ölkənin yeni qanunvericiliyi heyvanları (o cümlədən bitkiləri) əşya kateqoriyasına aid etmir. Qanunda birbaşa göstərilir ki, bitkilər və heyvanlar əşya deyildir və onların hüquqi vəziyyəti xüsusi qanunlarla müəyyənləşdirilir (MM-in 135-ci maddəsinin 3-cü bəndi). Bu qayda Almaniya Mülki Qanunnaməsinin 90-cı paraqrafından iqtibas olunmuşdur (bu paraqrafa görə, Tiere, yəni heyvanlar hüququn obyekti sayılır). Həmin paraqrafa görə, heyvanlar əşya hesab edilmir və əgər qanunda ayrı hal nəzərdə tutulmayıbsa, əşyalar haqqında qaydalar heyvanlara da şamil olunur. Bu hüquqi göstəriş olduğu kimi bizim ölkə qanunvericiliyinə daxil edilmişdir: əgər qanunvericilikdə ayrı qanun müəyyənləşdirilməyibsə, əşyaların hüquqi vəziyyəti bitkilərə və heyvanlara da şamil edilir (MM-in 135-ci maddəsinin 3-cü bəndi). Amma bunlara baxmayaraq, heyvanlar Almaniya hüquq nəzəriyyəsində yenə də əvvəlki kimi **«sui generis əşya», yəni «xüsusi növlü əşya» kateqoriyasına** aid edilir[3]. Buna uyğun olaraq biz də heyvanları xüsusi növlü əşya hesab edəcəyik. Bu isə o deməkdir ki, Azərbaycan Respublikasının mülki hüququnda **canlı əşyalar adlı xüsusi kateqoriya əşya ayrılır** və fərqləndirilir.

Qanunvericilik heyvanları əşya kimi tanımasa da, əşyaların hüquqi rejimi onlara da şamil olunur. Bu, hər şeydən əvvəl onu ifadə edir ki, heyvanlar mülkiyyət hüququnun və digər əşya hüquqlarının obyekti ola bilər; onların müxtəlif mülki-hüquqi müqavilələr əsasında başqa şəxslərə verilməsi mümkündür.

Heyvanlar aləmi ölkənin milli sərvəti hesab edilir. O, xammal və yeyinti məhsulları kimi istifadə edilir və qorunur. Bu cəhətlər heyvanların mülki (əmlak) dövriyyədə obyekt qismində geniş səviyyədə çıxış etməsini şərtləndirir. Bunları nəzərə alaraq, ölkəmizdə heyvanlar aleminin mühafizəsinin və istifadəsinin hüquqi əsaslarını müəyyən edən xüsusi qanun qəbul edilmişdir[4].

O ki qaldı, əsas canlı varlıq olan fiziki şəxsə (insana), qeyd etməliyik ki, o, yalnız mülki hüquq münasibətlərinin subyekti ola bilər; fiziki şəxsin hər hansı mülki-hüquqi əqdin (müqavilənin) obyekti olması qeyri-mümkündür. Buna görə də insan alveri kimi mülki-hüquqi əqd cinayət məsuliyyətinə səbəb olur.

[1] bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 132-133.

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 148.

[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 350; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 133.

[3] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 312; *Jouernig O.* Bürgerliches Qezetzbuch. Kommentar. 6. Aufe. München. 1991. s. 32.

[4] «Heyvanlar aləmi haqqında» 4 iyun 1999-cu il tarixli qanun (AR QK, III xüsusi buraxılış, s. 101).

12. Bəhər verən əşyalar və bəhər

Maddi nemətlərin mülki-hüquqi mənada əşya statusu almasının vacib şərtlərindən biri həmin nemətlərin fayda vermək xüsusiyyətinə malik olmasından və bu xüsusiyyətin insanlar tərəfindən mənimsənilməsindən ibarətdir. Əşyaların fayda vermək xüsusiyyəti onların, əsasən, bəhərli olmasında ifadə olunur. **Bəhərli əşya və ya bəhrə verən əşya** dedikdə, təbii qanunlar və ya mülki (əmlak) dövriyyə qanunları əsasında, habelə insan əməyi nəticəsində iqtisadi dəyəri olan yeni əşya yaratmaq qabiliyyətli predmet başa düşülür. Bu cür əşyaların əsas təsərrüfat təyinatı və məqsədi vaxtaşırı olaraq bəhər verməkdən ibarətdir. Özü də həmin bəhər onu verən əşyanın özündən ayrılmaq qabiliyyətinə malik olmalıdır. Ona görə ki, ayrılmayan bəhər həmin əşyanın tərkib hissəsinə çevrilir və yeni əşya kimi çıxış etmir[1].

Təbii qanunlar və mülki (əmlak) dövriyyə qanunlarının fəaliyyəti, habelə insan əməyi nəticəsində hər hansı əşyadan əmələ gələn iqtisadi dəyəri olan yeni əşya **bəhər** adlanır. Təbii qanunlar əsasında heyvanlar balalayır, bitkilər və ağaclar meyvə gətirir və bunun nəticəsində artım baş verir. Mülki dövriyyə qanunlarına görə, əşya icarəyə, rentaya verilir, pul banka əmanətə qoyulur və bunun nəticəsində gəlir götürülür. İnsan əməyi nəticəsində əşyadan yeni məhsul hazırlanır. Heyvanın balası, ağacın meyvəsi, əldə edilən gəlir, hazırlanan və istehsal olunan məhsul — bütün bunların hamısına bəhər deyilir[2].

Bəhərin (Frucht) üç növü fərqləndirilir: təbii bəhər (natural fruits, Naturalfrüchte); mülki bəhər (civil fruits, Zivilfrüchte); təsərrüfat gəlirləri[3]. Bizim ölkə qanunvericiliyi bəhərin göstərilən növlərinə anlayış vermir. Burada onlardan yalnız təbii bəhərin adı çəkilir. «Mülki bəhər» terminini isə qanunvericilik işlətmir.

Təbii bəhər odur ki, o, təbii qanunlar əsasında, əşyadan bilavasitə insan əməyinin təsiri olmadan yaranır. Ona **natural bəhər** də deyilir. Təbii (natural) bəhər özü də iki yerə bölünür: təbii qanunlar əsasında əmələ gələn bəhər; kənd təsərrüfatı məhsulu[1].

Təbii qanunlar əsasında əmələ gələn bəhər özü iki yerə ayrılır: heyvan (canlı) mənşəli bəhər; bitki (cansız) mənşəli bəhər. **Heyvan mənşəli bəhər** odur ki, o, heyvanın üzvi-təbii inkişafının nəticəsində yaranır. Məsələn, inəyin və qoyunun balası, toyuğun yumurtası və cücələri, camışın südü, qoyunun yunu və s. bu növ bəhərə misaldır.

Bitki (cansız) mənşəli bəhər odur ki, o, bitkinin üzvi-təbii inkişafı nəticəsində əmələ gəlir. Məsələn, ağacların meyvələri bu növ bəhərə misal ola bilər. Ağacda yetişən qoz və fındıq da, meşədəki göbələk də təbii bəhər kateqoriyasına şamil edilir.

Kənd təsərrüfatı məhsulu torpağın becərilməsi nəticəsində əldə edilən bəhərdir. O, elə bir bəhərdir ki, bu bəhər məhz torpağın becərilməsinə görə əvəz və haqq kimi götürülür. Məsələn, dənli bitkilər, taxıl, tərəvəz (göyərti, səbzəvat) və s. təbii bəhər hesab olunur[2]. Təbii bəhər əşyadan təyinatına uyğun birbaşa, bilavasitə istifadə nəticəsində əldə edilən təbii məhsuldur.

Bununla belə, elə bəhərlər vardır ki, həmin bəhərlər təbiət qanunlarının fəaliyyət göstərməsi ilə bağlı olmayaraq yaranır. Söhbət bəhərin ikinci növündən — mülki bəhərdən gedir.

Mülki bəhər dedikdə, mülki (əmlak) dövriyyə qanunlarının fəaliyyəti nəticəsində əşyadan əmələ gəlmiş yeni əşya başa düşülür. Onun əsas növünü gəlir təşkil edir. **Gəlir** əşyanın obyekt qismində mülki (əmlak) dövriyyədə iştirak etməsi nəticəsində əldə edilən artımdır, bəhərdir. Söhbət müxtəlif hüquq münasibəti əsasında əşyadan əldə edilən gəlirdən gedir. Həmin gəlir əşyadan başqa şəxsin istifadə etməsinə görə ödənilən kompensasiyadır. Buna faizli borc müqavilələrindən əldə edilən faizi, icarəyə və kirayəyə verilən əşyaya görə alınan icarə və kirayə haqqını, lizinq haqqını, renta haqqını, bankda əmanətə görə alınan faizi, səhmə görə ödənilən dividendi və digər qiymətli kağızlardan (istiqrazlardan, lotereya biletlərindən və s.) götürülən gəliri misal çəkmək olar. Mülki bəhər Almaniya hüquq ədəbiyyatında **hüquqi bəhər** və ya **sivil bəhər** də adlanır. Yaponiya qanunvericiliyində isə o, **qanuni bəhər** adı altında nəzərdə tutulur (MM-in 88-ci maddəsi).

Gəliri podrat haqqından, daşıma haqqından, satılan əşyaya görə alınan haqdan və s. fərqləndirmək lazımdır. Podrat haqqı, daşıma haqqı və bu qəbildən olan digər haqlar gəlir kateqoriyasına şamil edilmir. Onlar satılmış əşyanın, göstərilən xidmətin, görülən işin, bir sözlə, əmtəənin pulla ifadə olunmuş dəyəridir, yəni qiymətidir, artım deyildir.

Gəlir, bir qayda olaraq, çox vaxt **pul formasında** alınır. Bəzi hallarda gəlir **natura formasında** da ola bilər. Məsələn, icarə haqqı tərəflərin razılığı ilə na-

[1] Təsadüfi deyil ki, Fransa Mülki Məcəlləsinin 520-ci maddəsi yığılmamış məhsulu və hələ ağacdan dərilməmiş meyvəni daşınmaz əmlak hesab edir. Elə ki məhsul yığıldı, meyvə dərildi, onlar daşınar əşya hesab edilir.

[2] Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi bəhərin hüquqi anlayışını kifayət qədər genişləndirmişdir. Bu anlayış həm əşyanın təbii yolla verdiyi, həm də əşyanın dövriyyədə iştirakı yolu ilə verdiyi bütün gəlir və artımları əhatə edir. Bu, bəhər barədə Avropa ölkələrinin, xüsusilə də Almaniya qanunvericiliyinin müəyyən etdiyi qaydaya uyğundur. Almaniya qanunvericiliyi isə bu qaydanı Roma hüququndan götürmüşdür. Belə ki, Roma hüququ bəhər anlayışına həm təbii bəhəri, həm də gəliri daxil edirdi (bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 356; *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 135). Bundan fərqli olaraq, RF-in mülki qanunvericiliyi bəhər anlayışını gəlir anlayışından fərqləndirir, gəliri bəhər anlayışına daxil etmir. Burada bəhərə əşyanın təbii inkişafının nəticəsi, gəlirə isə əşyanın dövriyyədə iştirakı nəticəsində əldə edilən artım kimi anlayış verilir.

[3] Almaniya mülki hüquq ədəbiyyatında bəhərin məhz üç növü göstərilir. Mülki Qanunnamə həmin terminləri işlətmir. Burada bəhərin anlayışı verilir: bəhər əşyanın verdiyi məhsul, əşyadan onun təyinatına uyğun olaraq əldə edilən (hasil edilən) digər gəlir və ya hüquq münasibəti əsasında ondan götürülən gəlirdir (§ 99) // *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 45.

[1] Roma hüququ insan əməyi nəticəsində yaranan bəhəri təbii bəhər kateqoriyasına aid edirdi (bax: *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 135). Kənd təsərrüfatı məhsulunu bəzi xarici ölkə qanunvericiliyi (məsələn, İtaliya Mülki Məcəlləsi) təbii bəhər kateqoriyasına aid edir (Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 223; *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 192). Biz bu mövqeni qəbul edirik.

[2] *Сакэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 99; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 44-45.

tura formasında təyin edilə bilər[1]. Bundan əlavə, icarə haqqının **qarışıq formada** (bir hissəsi natura formasında, digər hissəsi isə pul formasında) ödənilməsi mümkündür[2].

Təsərrüfat gəlirləri qeyri-təbii məhsul olub, yalnız o halda bəhər sayılır ki, həmin gəlirlər əşyadan təsərrüfat təyinatına uyğun istifadə nəticəsində əldə olunsun[3]. Məsələn, daş karxanasından hasil edilən daş, qum, gil, mergel, (gil və əhəngdən ibarət olan çöküntü süxuru) və s. bu növ bəhərə misal ola bilər[4]. Hasil edilən torf da, mineral su da bəhər sayılır. Amma torpağın altından tapılan dəfinə bəhər kateqoriyasına aid edilmir. Ona görə ki, o, torpaq sahəsindən təsərrüfat təyinatına uyğun istifadə nəticəsində əldə olunmur.

Bəhər anlayışı və onun üç növünün fərqləndirilməsi vacib hüquqi əhəmiyyətə malikdir. Bu, onda ifadə olunur ki, əşyanın təbii bəhəri bütün hallarda həmin əşya sahibinin (mülkiyyətçinin) mülkiyyətinə keçir (MM-in 135-ci maddəsinin 12-ci bəndi). Bu hüquqi göstərişdən belə nəticəyə gəlmək mümkündür ki, əşya müvəqqəti olaraq özgə şəxsin istifadəsində və sahibliyində olsa belə, həmin əşyanın bəhəri onun mülkiyyətçisinə veriləcəkdir. Məsələn, kənd sakini atı qoşqu və yük daşımaq üçün öz qonşusuna kirayəyə verir. At bala doğur. Həmin bala kənd sakininin özünə verilir.

Mülki bəhərin (gəlirin) hüquqi taleyi və rejimi isə mülki (əmlak) dövriyyə iştirakçılarının razılığı ilə müəyyən edilir. Bu, bəzən qanununun birbaşa göstərişi ilə müəyyənləşdirilir. Məsələn, icarəçinin icarəyə götürdüyü əmlakdan istifadə nəticəsində əldə etdiyi məhsul və gəlir onun mülkiyyətidir[5].

Bundan əlavə, nə vaxta kimi bəhər əşyanın özündən ayrılmamışdır, o, həmin əşyanın tərkib hissəsi kimi çıxış edir. Ona görə də bu bəhər üzərində mülkiyyət hüququ bəhrə verən əşyanın mülkiyyətçisinə məxsusdur. Bəhər əşyadan ayrılan halda isə o, mülki (əmlak) dövriyyədə müstəqil əşya kimi çıxış edir.

Almaniya Mülki Qanunnaməsi «əşyanın bəhəri» anlayışından savayı, həm də «hüququn bəhəri» anlayışını nəzərdə tutur. Hüququn bəhəri dedikdə, hüquqdan təyinatına uyğun bilavasitə və ya hüquq münasibətinə görə əldə edilən gəlir başa düşülür (§ 99). Məsələn, icarə haqqının verilməsini tələb etmək hüququ buna misal ola bilər. Bundan əlavə, Almaniya Mülki Qanunnaməsi «istifadədən fayda götürmək» kimi anlayış da işlədir (§ 100). Bu, nisbətən daha geniş anlayış olub, özündə birləşdirir: əşyanın bəhərini; hüququn bəhərini; əşyadan bilavasitə istifadə etməklə əldə edilən faydanı; hüquqdan bilavasitə istifadə etməklə götürülən faydanı. Bizim ölkə qanunvericiliyi bu cür konstruksiyalara anlayış vermir.

13. Müəssisə mülki hüquq münasibətlərinin obyekti kimi

Müəssisə çoxməzmunlu anlayışdır. O, iki əsas mənada işlədilir:

[1] bax: «İcarə haqqında» qanunun 8-ci maddəsinin 6-cı bəndi (AR QK, II cild, s. 435).
[2] Yenə orada.
[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 45.
[4] Bəzi xarici ölkələrin (məsələn, Yaponiyanın, İtaliyanın və s.) qanunvericiliyində və sivilistika doktrinasında faydalı qazıntılar təbii bəhər kateqoriyasına şamil edilir (*Сакэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 99; Основные институты гражданского права зарубежных стран. М., 1999, с. 223).
[5] bax: «İcarə haqqında» qanunun 9-cu maddəsinin 2-ci bəndi (AR QK, II cild, s. 436).

- iqtisadi mənada;
- hüquqi mənada.

İqtisadi mənada müəssisə dedikdə sahibkarlıq fəaliyyətini həyata keçirməyin başlıca vasitəsi, istehsal qüvvələrinin və istehsal münasibətlərinin əsas həlqəsi başa düşülür. Qərb iqtisad elmində göstərilir ki, müəssisə özündə insan və maddi amilləri birləşdirən və əlaqələndirən iqtisadi birlikdir. Bu baxımdan müəssisə iqtisadi anlayışdır.

Müəssisə həm də **hüquqi anlayış** hesab edilir. Belə halda o, hüquqi, ilk növbədə, **mülki-hüquqi məna** kəsb edir.

Xarici ölkələrin qanunvericiliyinə, doktrinasına və məhkəmə praktikasına görə müəssisə mülki hüquqda iki mənada işlədilir. Birinci mənada müəssisə dedikdə, mallar istehsal edən, xidmətlər göstərən, işlər görən və s. hüquqi şəxs statuslu təsərrüfat subyekti başa düşülür. Bu baxımdan o, **mülki hüququn subyekti** kimi çıxış edir, «səhmdar cəmiyyəti», «məhdud məsuliyyətli cəmiyyət», «tam ortaqlıq», «kompaniya», «korporasiya» və digərlərinə sinonim (eynimənalı) anlayış kimi işlədilir. Məsələn, nəqliyyat müəssisəsi hüquqi şəxs kimi subyekt rolunda daşıma hüquq münasibətlərində iştirak edir[1].

İkinci mənada müəssisə anlayışı ilə **mülki hüquq münasibətlərinin obyekti** əhatə olunur. Bu baxımdan o, mülki hüququn obyekti kimi çıxış edir. Məhz normal əmlak dövriyyəsində müəssisə hüququn subyekti kimi yox, hüququn obyekti kimi daha vacib rol oynayır. Buna görə də xarici ölkələrin qanunvericiliyi mülki hüququn obyekti kimi müəssisələrin hüquqi rejiminə xüsusi diqqət yetirir. Məsələn, İtaliya Mülki Məcəlləsinin beşinci kitabının səkkizinci bölməsi «Müəssisələr əmlak kompleksi kimi» adlanır[2]. RF-in Mülki Məcəlləsinin 132-ci maddəsi hüququn obyekti kimi müəssisələrin hüquqi vəziyyətini və rejimini müəyyənləşdirir[3].

Müəssisə, hər şeydən əvvəl, əsas təyinatı təsərrüfat, sahibkarlıq fəaliyyətini həyata keçirməkdən ibarət olan ayrıca əmlak deməkdir. O, vahid əmlak kompleksi olub, istehlak olunmayan, mürəkkəb əşya kateqoriyasına şamil edilir. Müəssisə həm də xüsusi növ daşınmaz əşya kimi canlı sahibkarlıq işi — biznes deməkdir.

Müəssisənin geniş və əhatəli anlayışı Almaniya sivilistika doktrinasında verilir. **Müəssisə,** bir tərəfdən, əşyaların, hüquqların və faktiki münasibətlərin (imkanların, serbəst iradənin) elə bir məcmusudur ki, o, hüququn subyekti (sahibkarın) vasitəsilə təşkilati birliyə bağlanır[4]. Digər tərəfdən, müəssisə anlayışı ayrıca əmlak anlayışının hüdudlarından kənara çıxır. Belə ki, müəssisəyə habelə imkanlar da (müştərilər dairəsi, işgüzar nüfuz, müəssisənin sirləri, satış bazan, məqsədyönlü təşkiletmə, reklam və s.) daxil edilir[5]. Almaniya mülki hüquq ədəbiyyatında indiki dövrdə mülki hüquqların obyekti kimi müəssisəyə

[1] «Nəqliyyat haqqında» 11 iyun 1999-cu il tarixli qanunun 1-ci maddəsi (AR QK, III xüsusi buraxılış, s. 133).
[2] Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского.* М., 1999, с. 9.
[3] Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 282.
[4] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 67.
[5] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 67.

belə anlayış verilir: müəssisə təsərrüfat məqsədinə çatmaq üçün lazım olan şəxsi və əşya vasitələrinin təşkilati birliyidir[1].

Almaniya sivilistika doktrinası **müəssisənin tərkibində iki cür element** fərqləndirir: maddi elementlər; qeyri-maddi elementlər. **Maddi elementlərə** bina, torpaq sahələri, müvafiq avadanlığı ilə birlikdə qurğular, yəni ticarət mağazaları (müəssisələri), mal ehtiyatları (xammal, yarımfabrikatlar, hazır məmulatlar, yanacaq-sürtkü məhsulları), habelə nağd pul vəsaitləri daxildir. **Qeyri-maddi nemətlərə** isə aid olunur: öhdəlik xarakterli əmlak hüquq və vəzifələri (o cümlədən kreditor və debitor borcları); yaradıcı fəaliyyətin nəticələrinə olan müstəsna hüquqlar (patent, müəlliflik hüquqları və s.); fərdiləşdirmə vasitələrinə olan müstəsna hüquqlar (firma adlarına, əmtəə nişanına və s. olan hüquqlar)[2]. Beləliklə, müəssisə özündə əsas kapitalı, tələb və hüquqları birləşdirir. Bundan əlavə, işgüzar nüfuz da onun tərkibinə daxildir.

Müəssisə dedikdə özündə maddi və qeyri-maddi elementləri, habelə işgüzar nüfuzu birləşdirən elə bir əmlak kompleksi başa düşülür ki, bu kompleksin köməyi ilə sahibkar sahibkarlıq fəaliyyətini həyata keçirir və müəyyən iqtisadi məqsədə çatır (mal istehsal edir, iş görür, xidmət göstərir).

Azərbaycan Respublikasının qanunvericiliyi müəssisənin tərkibi barədə Almaniya sivilistika doktrinasının müəyyənləşdirdiyi qaydanı, əsasən, qəbul edir. Belə ki, bizim ölkə qanunvericiliyinə görə, müəssisənin əmlakının tərkibinə həmin müəssisənin maddi və qeyri-maddi aktivləri, o cümlədən binalar, tikililər, qurğular, avadanlıq, inventar, xammal, hazır məhsul, tələb hüquqları, patentlər və başqa müstəsna hüquqlar daxil olur[3].

Bəzi inkişaf etmiş xarici hüquq sistemlərində müəssisənin tərkibinə «kliyentela»[4] adlı anlayışı da daxil edirlər. Ona Qərb hüquq elmində «**müəssisənin şansı**» (Chancen) da deyilir: müəssisənin pulla qiymətləndirilən perspektivi şans adlanır. **Kliyentela** dedikdə, müəssisənin bazardakı faktiki vəziyyəti, işgüzar əlaqələri, işgüzar nüfuzu, müştərilərlə yaranmış kommersiya münasibətləri, onun istehlakçılarla möhkəm, davamlı, sabit və sıx təsərrüfat əlaqələri başa düşülür. O, **müəssisənin xüsusi xarakterli qeyri-maddi elementi** hesab edilir. Kliyentela fransızca «achallandage», almanca «Unternehmensmehrwert», ingiliscə «goodwill» adlanır[5].

Bizim ölkə qanunvericiliyi tərkibcə müəssisənin qeyri-maddi elementi kimi kliyentela anlayışını nəzərdə tutmur. Amma buna baxmayaraq, təcrübədə müəssisələrin satılması hallarında bu elementin müəssisələrin tərkibinə daxil edilməsinin şahidi oluruq. Belə ki, müəssisə kliyentela ilə birlikdə satılır. Zənn edirik ki, bunun əsasında işgüzar dövriyyənin adət norması yaranır.

Müəssisə obyekt rolunda mürəkkəb **mülki-hüquqi əqdlərin predmeti** (obyekti) ola bilər. Təcrübədə onun tez-tez satılması halları ilə qarşılaşırıq. Belə halda müəssisə **alqı-satqı hüquq münasibətlərinin obyekti** qismində çıxış edir. Tərəflər arasında münasibətlər isə alqı-satqı müqaviləsi hüquqi konstruksiyası vasitəsilə rəsmiləşdirilir. L.Ennekserus yazır ki, müəssisə tam və bütöv halda öhdəlik hüququnun və müqavilənin predmeti, xüsusən də alqı-satqı müqaviləsinin predmeti ola bilər, özü də bu müqaviləyə anologiya üzrə Mülki Qanunnamənin alqı-satqı haqqında qaydaları tətbiq edilir (Mülki Qanunnamə yalnız əşyaların və hüquqların satqısını tənzimləyir)[1]. Bizim ölkənin də MM-i ancaq əşyaların və hüquqların satqısını nizama salan qaydalar müəyyənləşdirir. Deməli, bu qaydalar anologiya əsasında müəssisənin alqı-satqısına tətbiq edilə bilər.

Müəssisə icarəyə verilə bilər. Bu halda isə o, **icarə hüquq münasibətlərinin obyekti** — icarənin predmeti qismində çıxış edir[2]. Qanunda göstərilir ki, müəssisələr icarə predmeti ola bilər (MM-in 700-cü maddəsinin 2-ci bəndi). Tərəflər arasındakı münasibətləri hüquqi cəhətdən rəsmiləşdirərkən icarə müqaviləsi konstruksiyasından istifadə olunur.

Müəssisə **ipoteka münasibətlərində** də iştirak edə bilər. Belə ki, əsas öhdəliyin icrasını təmin etmək üçün müəssisə bütövlükdə əmlak kompleksi kimi ipotekaya qoyulur. Belə halda ipoteka müqaviləsi tərəflər arasında münasibətlərin hüquqi rəsmiləşdirmə vasitəsi kimi çıxış edir.

Müəssisə **dəyişmə münasibətlərində** iştirak edə bilər. Onun hər hansı dövriyyə qabiliyyətli əşya ilə dəyişdirilməsi mümkündür. Belə halda isə tərəflər arasında dəyişmə müqaviləsi bağlanır.

Müəssisə obyekt qismində **bağışlama müqaviləsinin predmeti rolunda** çıxış edə bilər. Belə ki, müəssisənin mülkiyyətçisi onu istənilən şəxsə (o cümlədən dövlətə) bağışlaya bilər.

Müəssisənin mülkiyyətçisi onu istənilən şəxsə (o cümlədən dövlətə) vəsiyyət edə bilər. Belə hallarda müəssisə **vərəsəlik hüquq münasibətinin obyekti** kimi çıxış edir.

Müəssisələrdən savayı, daşınmaz əşyaların xüsusi xarakterli digər növü də vardır. O, kondominium (latınca condominium — «con» birgə + «dominium» sahiblik — birgə sahiblik)[3] adlanır.

Bizim ölkə qanunvericiliyi kondominiuma anlayış vermir. Qanunda yalnız bir yerdə onun adı çəkilirdi (MM-in 109-cu maddəsinin 4-cü bəndi). Bu bənd MM-dən çıxarılmışdır. Lakin buna baxmayaraq, kondominiumun əsas cəhətləri qanunda nəzərdə tutulmuşdur (MM-in 226-cı maddəsi).

Kondominium daşınmaz əmlak kompleksidir. Bu kompleksə torpaq sahəsi və bu sahədə yerləşən yaşayış binası daxildir. Bu binanın ayrı-ayrı tərkib hissələri (mənzillər) xüsusi mülkiyyət hüququ əsasında mülkiyyətçilərə məxsusdur. Yaşayış binasının ümumi otaqları, dayaq konstruksiyaları, mexaniki, elektrik, sanitariya-texniki və digər avadanlığı, habelə yerləşdiyi torpaq sahəsi ümumi paylı mülkiyyət hüququ ilə yaşayış binasının tərkib hissəsi mülkiyyətçi-

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 312.

[2] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993, с. 112.

[3] «Girov haqqında» 3 iyul 1998-ci il tarixli qanunun 37-ci maddəsi (AR QK, V cild, s. 547).

[4] «Kliyentela» latınca «clientela» sözündən olub, müştərilərin məcmusu mənasını ifadə edir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 327).

[5] bax: *Кулагин М.И.* Государственно-монополистический капитализм и юридическое лицо // Избранные труды. М., 1997, с. 32.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 67-68.

[2] Bir çox xarici ölkələrdə ticarət-sənaye müəssisələrinin istifadəyə verilməsi icarə şərtləri əsasında həyata keçirilir (bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993, с. 335).

[3] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 349.

lərinə mənsubdur (MM-in 227-ci maddəsinin 1-ci bəndi). Söhbət liftdən, yaşayış binasının zirzəmisindən və damından, zibil borusundan və s. gedir.

Mülkiyyətçinin yaşayış binasının ümumi əmlakına olan mülkiyyət hüququndakı öz payını özgəninkiləşdirmək hüququ yoxdur (MM-in 227-ci maddəsinin 2-ci bəndi). Buna qanun yol vermir.

Kondominium mülki hüquq münasibətlərinin obyektindən başqa, həm də mülki hüquq münasibətlərinin subyekti qismində çıxış edir. O, kooperativin bir növüdür.

14. Mülki hüquqda əmlak anlayışı

Mülki hüquqda əşya anlayışından başqa, əmlak anlayışından istifadə olunur. «Əmlak» termini çox vaxt mülki hüquq münasibətlərinin obyektini ifadə etmək üçün işlədilir. Belə ki, mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əsas qrupunu əmlak münasibətləri təşkil edir. Bu münasibətlər isə məhz əmlak barəsində onunla bağlı olaraq əmələ gəlir. Buna görə də əmlak hüquqi kateqoriyadır. Bu kateqoriyanın tarixi mənbəyi isə Roma hüququ ilə bağlıdır.

Romada vətəndaşın əmlakını ifadə etmək üçün XII cədvəl qanunları «familia pecuniague» termini işlədirdi. Bu terminlə qul və mal-qaranın məcmusu əhatə olunurdu. Sonra «familia» vətəndaşın malik olduğu bütün əşyaların məcmusunu ifadə etməyə başladı. Roma hüquqşünası Pavel göstərirdi ki, kreditorların borcları ödənildikdən sonra yerdə qalan nə varsa, o, hər bir kəsin əmlakı hesab edilir[1]. Sonralar Roma hüququnda əmlak anlayışı ilə həm də vəzifə əhatə olundu.

Bizim ölkə qanunvericiliyi əmlaka leqal anlayış verir: **əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin məcmusudur** (MM-in 135-ci maddəsinin 2-ci bəndi). Anlayışdan görürük ki, əmlak əşyadan geniş anlayışdır. Ona görə ki, əmlak anlayışı özündə əşyadan savayı, həm də qeyri-maddi əmlak nemətlərini əhatə edir. Buna görə də əşyalar bütün hallarda əmlak kateqoriyasına aid edilir. Əmlaka gəldikdə isə qeyd edə bilərik ki, o, bütün hallarda əşya hesab olunmur. Belə ki, elə əmlak növləri vardır ki, onlar əşya sayılır. Məsələn, qeyri-maddi əmlak nemətləri (məsələn, əmanətçinin banka qoyduğu əmanəti almaq hüququ və s.) əmlak anlayışına daxil edilsə də əşya hesab olunmur.

Qeyri-maddi əmlak nemətləri dedikdə, başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar başa düşülür (MM-in 135-ci maddəsinin 5-ci bəndi). Söhbət **əmlak hüquqlarından** gedir. Əmlak hüquqları isə həm əşya hüququ, həm də öhdəlik hüququ növündə ola bilər. Məsələn, vətəndaşın yaşayın evinə və ya minik avtomobilinə olan mülkiyyət hüququ əşya hüququ növündə əmlak hüququdur. Bu hüququ girov qoymaq mümkündür. Ona görə də həmin hüquq vətəndaşın əmlakına daxildir.

Vətəndaşın öz qonşusuna verdiyi borcun verilməsini tələb etmək hüququ isə öhdəlik hüququ növündə əmlak hüququdur. Bu hüquq da vətəndaşın əmlakı hesab edilir.

Əmlak mülki hüquqda geniş əhatə dairəsinə malik olan hüquqi kateqoriya kimi işlədilir. O, çoxmənalı anlayışdır. «Əmlak» termini işlədildiyi hüquq normasından asılı olaraq, müxtəlif mənalar kəsb edir. Ona görə də bu termini konkret hüquq normasını təfsir etmək yolu ilə aydınlaşdırmaq lazımdır. Məsələ burasındadır ki, mülki qanunvericilik «əmlak» terminini müxtəlif mənalarda işlədir.

Birincisi, əmlak **əşya və əşyaların məcmusu mənasında** işlədilir. Məsələn, fiziki şəxsin əmlakına vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir (MM-in 1097-ci maddəsinin 1-ci bəndi). Burada əmlak dedikdə əşya (əşyalar) başa düşülür.

İkincisi, əmlak **əşya və əmlak hüquqlarının məcmusu mənasında** işlədilir. Məsələn, hüquqi şəxs öz öhdəlikləri üçün ona mənsub bütün əmlakla cavabdehdir (MM-in 52-ci maddəsinin 1-ci bəndi).

Üçüncüsü, əmlak **əşyaların, əmlak hüquqlarının və əmlak vəzifələrinin məcmusu** mənasında işlədilir. Məsələn, hüquqi şəxs ləğv edilərkən tərtib olunmuş aralıq ləğvetmə balansına hüquqi şəxsin əmlakının tərkibi haqqında məlumat daxil edilir (MM-in 61-ci maddəsinin 2-ci bəndi). Miras əmlak dedikdə əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) məcmusu başa düşülür (MM-in 1151-ci maddəsinin 1-ci bəndi).

Beləliklə, **geniş mənada əmlak dedikdə, əşyaların, o cümlədən pulların, qiymətli kağızların, habelə əmlak hüquqlarının və əmlak vəzifələrinin məcmusu başa düşülür**. Bu, o deməkdir ki, əmlak dedikdə, «**aktiv + passiv**» başa düşülür. **Aktiv** dedikdə, şəxsə məxsus olan əşya və əmlak hüquqları başa düşülür. Ona bəzən nağd əmlak da deyilir. **Passiv** şəxsin əmlak vəzifəsini (borcunu) ifadə edir.

Bizim əmlaka verdiyimiz doktrinal (elmi) anlayış rus sivilistika elminə əsaslanır[1]. Ona görə ki, Azərbaycan Respublikasının MM-i ilə RF-in MM-i bir çox məsələlərin tənzimlənməsində eyni qaydalar müəyyən edir. Amma Almaniya mülki hüquq doktrinasında əmlaka nisbətən başqa cür anlayış verilir. L.Ennekserus əmlaka belə tərif verir: əmlak şəxsin ehtiyacının təmin olunmasına xidmət edən hüquqların məcmusudur. Əmlak yalnız hüquqlardan ibarətdir. Əşya əmlakın tərkib hissəsi ola bilməz[2]. Müasir müəlliflərdən A.Rörixt əmlaka belə tərif verir: mülki hüquqda əmlak dedikdə, pulla ifadə edilən qiymətə malik olan və ya pulla qiymətləndirilə bilən hüquqların cəmi başa düşülür[3]. Həmin müəlliflərin mövqeyinə görə, əmlak anlayışı özündə birləşdirir: mülkiyyət hüququnu və digər əşya hüquqlarını; qeyri-maddi nemətlərə olan hüquqları (patent hüququnu, əmtəə nişanına və firma adına olan hüquqları və s.); öhdəlik hüququnu; vərəsəlik hüququnu; sahibliyi. Bundan əlavə, geniş yayılmış konsepsiyaya görə, vəzifə də əmlakın tərkibini təşkil edir. Lakin buna baxmayaraq, L.Ennekserus göstərir ki, Mülki Qanunnamədə «əmlak» həmişə yalnız aktiv mənasını ifadə edir[4].

Qərb hüquq doktrinasında fiziki xüsusiyyətinə görə, əmlak iki növə bölünür[5]:

- maddi əmlak;

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 154-155.

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 224.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 58.

[3] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 311.

[4] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 60.

[5] Вах: Гражданское и торговое право зарубежних государств. Учебник. Том 1/ Отв. ред. Е.А. Васильев, А.С. Комаров. М., 2004, с. 314.

• qeyri-maddi əmlak.

Maddi əmlak odur ki, o, maddi (fiziki) obyekt formasında mövcud olur. Torpaq, tikili, mebel və s. bu növ əmlaka misal ola bilər.

Qeyri-maddi əmlak isə odur ki, o, maddi (fiziki) obyekt formasında mövcud olmur[1]. Məsələn, patent hüquqları, torpaqdan istifadə hüququ, əmtəə nişanından və firma adından istifadə hüququ və s. bu növ əmlaka misaldır.

15. Pul mülki hüquq münasibətlərinin obyekti kimi

Pul həm iqtisadi, həm də hüquqi kateqoriyadır. İqtisadi kateqoriya kimi pulun əsas aspektləri iqtisadi nəzəriyyə elmində öyrənilir[2]. Bu elmə görə pul dedikdə, dəyər ölçüsü, tədavül vasitəsi, dəfinə (yağım) vasitəsi, ödiyə (ödəniş) vasitəsi kimi funksiyalar yerinə yetirən xüsusi əmtəə (mal) başa düşülür[3]. Pulun iqtisadi mahiyyəti məhz onun göstərilən bu funksiyalarında ifadə olunur[4].

İqtisadi mənada pul dedikdə, həm nağd, həm nağdsız pul başa düşülür. **Nağd pul** «natural» formalı pul, yəni kağız və metal pul deməkdir. Kağız və metal pul Milli Bank tərəfindən tədavülə buraxılır və tədavüldən çıxarılır. O, kağız pulların çap olunmasını və metal pulların kəsilməsini təmin edir. Nağd pulla mülki dövriyyə iştirakçıları arasında **nağd hesablaşmalar** aparılır.

Nağdsız pul dedikdə, kağız və metal pul yox, bank hesablarında və əmanətlərindəki (depozitlərdəki) pul başa düşülür. Bu pul maliyyə-kredit təşkilatlarının, hər şeydən əvvəl, bankların hesablarında saxlanılır və maddi (natura) formaya malik olmur. Nağdsız pulun vasitəsilə mülki dövriyyə iştirakçıları arasında **nağdsız hesablaşmalar** həyata keçirilir.

Həm nağd pul, həm də nağdsız pul mülki-hüquqi təbiətə və xarakterə malikdir. Belə ki, mülki hüquq normalarında mülki hüquq münasibətlərinin obyekti kimi pulun hüquqi rejimi müəyyənləşdirilir. **Pulun hüquqi rejimi** dedikdə, mülki hüquq münasibətlərinin obyekti kimi pul barəsində hüquqi hərəkətlər edilməsini müəyyənləşdirən qayda başa düşülür. Bu baxımdan iqtisadi kateqoriya olan pul hüquqi kateqoriya kimi çıxış edir və mülki-hüquqi əhəmiyyətə malik olur.

Pul, **birincisi, ödəniş (tədiyə) vasitəsidir**. Bu, onun əsas və başlıca funksiyalarından biridir. Hər şeydən əvvəl, pul əvəzli mülki-hüquqi müqavilələrdə (alqı-satqı, podrat, daşıma və digər müqavilələrdə) satılmış əşyaya, görülən işə, göstərilən xidmətə görə və s. həyata keçirilən ödəniş vasitəsi kimi çıxış edir.

Azərbaycan Respublikasında yeganə ödəniş vasitəsi manatdır. **Manat** Azərbaycan Respublikasının pul vahididir[5]. Manatdan savayı, Azərbaycan Respublikasının ərazisində digər pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsinə yol verilmir. Bu, Konstitusiya qaydasında qadağan edilmişdir. Göstərilənlər onu ifadə edir ki, əmlak (pul) öhdəliyi üzrə kreditor borcludan ödənişi manatla qəbul etməlidir və onun ödənişin xarici valyuta ilə həyata keçirilməsini tələb etməyə hüququ yoxdur. Pul öhdəliyi həmişə manatla ifadə edilir. Əgər pul öhdəliyində çıxış edən tərəflərdən biri əcnəbi (xarici) şəxsdirsə, tərəflər bu öhdəliyi xarici valyutada da müəyyənləşdirə bilərlər, bir şərtlə ki, bu, qanunla qadağan edilməsin (MM-in 439-cu maddəsinin 1-ci bəndi).

Qanuni ödəniş vasitəsini ödəniş vasitəsindən fərqləndirmək lazımdır. **Qanuni ödəniş vasitəsi** rəsmi, ümumməcburi qüvvəyə malik olan ödəniş vasitəsidir. Yalnız nağd pul — kağız və metal pul qanuni ödəniş vasitəsi rolunda çıxış edə bilər. Pulun iqtisadi mahiyyətini nəzərə alaraq, dövlət ona qanuni ödəniş vasitəsi olmaq kimi hüquqi xüsusiyyət verir[1].

Milli Bankın qanuni ödəniş vasitəsi kimi buraxdığı nağd pul — kağız və metal pul Azərbaycan Respublikasının bütün ərazisində nominal dəyərləri ilə hər növ ödənişlərin həyata keçirilməsi, hesablara daxil edilməsi və pul köçürmələri zamanı hökmən qəbul edilir[2]. Məhz bu səbəbdən nağd pul istənilən hər hansı pul borcunu ödəmək qabiliyyətinə malikdir[3].

Nağd puldan fərqli olaraq, **nağdsız pul və ya pul vəsaiti[4] qanuni, yəni ümumməcburi ödəniş vasitəsi hesab edilmir**[5]. Bu, o deməkdir ki, Azərbaycan Respublikasının bütün ərazisində nağdsız puldan hər növ ödəniş zamanı məcburi qaydada istisnasız olaraq istifadə edilmir. Bu pul istənilən pul borclarını ödəmək qabiliyyətinə malik deyildir. Pul öhdəliyi üzrə kreditorun ixtiyarı var ki, borclunun nağdsız pul formasında həyata keçirdiyi ödənişi qəbul etməsin.

Amma nağdsız pul qanuni (ümumməcburi) ödəniş vasitəsi olmasa da, ondan ödəniş vasitəsi kimi mülki dövriyyədə geniş səviyyədə istifadə edirlər. Belə ki, inkişaf etmiş mülki (əmlak) dövriyyədə hesablaşmaların çoxu məhz nağdsız puldan istifadə olunmaqla həyata keçirilir. Müasir dünya iqtisadiyyatında və təsərrüfatında pul, əsasən, nağdsız pul formasında dövr edir.

İkincisi, pul mülki-hüquqi mənada əşyadır. Mülki qanunvericilik pulu əşya kateqoriyasına şamil edir (MM-in 135-ci maddəsinin 1-ci bəndi). Əgər iqtisadi mənada pul xüsusi əmtəədirsə, hüquqi mənada xüsusi əşyadır. Özü də dərhal qeyd etməliyik ki, **yalnız nağd pul**, yəni **kağız və metal pul mülki-hüquqi mənada əşya statusuna malikdir**. Nağdsız pul (pul vəsaiti) isə əşya hesab edilmir. Bu pul öz mülki-hüquqi təbiətinə görə qeyri-maddi əmlak nemeti, yəni əmlak hüququ (tələb hüququ) sayılır. Başqa sözlə desək, nağdsız pul öhdəlik xarakterli əmlak hüququdur. Qeyri-maddi əmlak nemeti kimi nağdsız pul əmlak anlayışına daxildir. Bununla bərabər, öhdəlik xarakterli əmlak

---

[1] Bax: Ласк Г. Гражданское право США. M., 1961, с. 466.

[2] bax: İqtisadi nəzəriyyə. Dərslik / *T.Vəliyev və b.* redaktəsi ilə. Bakı. 1999.

[3] Экономика. M., 1994, с. 582.

[4] Pul termininin başqa iki mənası da vardır. Birincisi, bu terminlə, adətən, müvəqqəti xarakter daşıyan inhisar birliyi forması əhatə olunur. Ticarət, birja, patent, sığorta və digər pullar məlumdur (bax: Коммерческий словарь. M., 1992). O, ingiliscə «pool» sözündən olub, «ümumi qazanc» deməkdir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. M., 1954, с. 578). İkinci mənada pul onurğalı heyvanların dəri skeletini təşkil edən sərt metamer lövhəcikləri ifadə edir (bax: *Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O.* Tələb, tələbat, bazar və marketinq. Bakı. 1998, s. 149).

[5] bax: Konstitusiyanın 19-cu maddəsinin 1-ci bəndi (AR QK, II cild, s. 573); «Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunun 36-cı maddəsinin 1-ci bəndi.

[1] bax: *Шершеневич Г.Ф.* Учебник торгового права. M., 1994, с. 171.

[2] «Azərbaycan Respublikasının Milli Bankı haqqında» qanunun 36-cı maddəsinin 3-cü bəndi.

[3] bax: *Лунц Л.А.* Денежное обязательство в гражданском и коллизионном праве капиталистических стран. M., 1948, с. 19.

[4] bax: Mülki qanunvericilik, bir qayda olaraq, «nağdsız pul» anlayışı əvəzinə, «pul vəsaiti» anlayışı işlədir.

[5] *Новоселова Л.А.* Денежные расчеты в предпринимательской деятельности. M., 1996, с. 7-17, 45-48; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. M., 1998, с. 313.

hüququ kimi həmin pul müəssisələrin qeyri-maddi elementinə daxil ola bilər.

Nağd pul, birincisi, **cinsi əlamətləri ilə müəyyən edilən**, ikincisi, **istehlak olunan**, üçüncüsü, **əvəz olunan**, dördüncüsü, **bölünən əşyadır**. Məsələn, qonşu öz dostuna 20 ədəd 50 manatlıq kağız puldan ibarət bir min manat məbləğində borc pul verir. O, bu pulu iki hissəyə bölür və onun bir hissəsinə televizor, digər hissəsinə isə xalça alır. Bununla həmin pul istehlak olunur. Şübhəsiz ki, qonşunun dostu həmin kağız pulların özünü qaytarmayacaqdır. O, borcunu ödəmək üçün qonşuya 100 ədəd 10 manatlıq kağız pul verir.

Əşyaların qiyməti onların təbii xüsusiyyəti ilə müəyyən edilir. Bundan fərqli olaraq, pulun qiyməti kağız və metal pulun sayı ilə yox, onlarda ifadə olunan pul məbləği ilə müəyyənləşdirilir. Əşyalar öz xüsusi keyfiyyət və cəhətlərinə görə, pul isə ictimai keyfiyyətinə görə faydalıdır.

Pul həm də **daşınar əşyadır**. Ona görə ki, pulun təyinatına zərər vurulmadan onun yerini dəyişdirmək mümkündür.

Pul müəyyən hallarda **fərdi əlamətləri ilə müəyyən edilən əşya** qismində çıxış edə bilər. Belə ki, istənilən vaxt konkret pul nişanını pul kütləsi içərisindən ayırmaq və fərdiləşdirmək mümkündür. Söhbət konkret pul nişanının nömrəsini yazmaq kimi fərdiləşdirmə üsulundan gedir. Bir qayda olaraq, pul kolleksiya məqsədləri üçün, habelə maddi sübut kimi istifadə olunmaq üçün fərdiləşdirilir.

Üçüncüsü, pul mülki hüquq münasibətlərinin predmetinin (obyektinin) ekvivalenti kimi çıxış edir. Söhbət əvəzli mülki-hüquqi müqavilələrdən əmələ gələn hüquq münasibətlərindən gedir. Məsələn, pul alqı-satqı müqaviləsi üzrə satılan əşyanın, podrat müqaviləsi üzrə görülən işin, daşıma müqaviləsi üzrə daşıma xidmətinin və s. ekvivalentidir.

Dördüncüsü, pul bəzi mülki-hüquqi əqdlərin müstəqil predmeti ola bilər. Söhbət pulun bir sıra mülki hüquq münasibətlərinin müstəqil obyekti qismində iştirak etməsindən gedir. Məsələn, pul borc, kredit, saxlama, bağışlama, bank əmanəti və bank hesabı kimi müqavilələrin, hesablaşma öhdəliklərinin (hüquq münasibətlərinin) predmeti ola bilər.

Pul vəsaiti girov müqaviləsinin — girov hüquq münasibətinin predmetlərindən biridir (MM-in 304-cü maddəsi).

Pul alqı-satqı müqaviləsinin də predmeti ola bilər. Məsələn, vətəndaş kolleksiya məqsədilə köhnə pul nişanını (məsələn, sovet dövrünün kağız pullarını) satın alır.

Valyuta sərvətləri də (italyanca «valuta» — qiymət, dəyər)[1] mülki hüquq münasibətlərinin obyekti ola bilər. Valyuta sərvətləri kimi tanınan əmlak növləri, onlarla əqd bağlamaq qaydaları, habelə fiziki və hüquqi şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək hüquqları xüsusi valyuta qanunvericiliyi ilə müəyyən edilir[2].

Valyuta sərvətlərinin tərkibinə, hər şeydən əvvəl, xarici valyuta daxildir. **Xarici valyuta** dedikdə, müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan pul nişanları başa düşülür. Bu pul nişanları banknotlar, xəzinə biletləri və sikkələr şəklində olur.

Bundan əlavə, xarici valyutada qiymətli kağızlar — xarici valyutada ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri, habelə qiymətli metallar — zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla, hər hansı növdə və halda olan qızıl, gümüş, platin və platin qrupundan olan metallar (palladium, iridium, rodium, rutenium və osmium), xam və emal edilmiş (zərgərlik, digər məişət məmulatı və bu məmulatın qırıntıları istisna olmaqla) təbii daş-qaş (almaz, yaqut, zümrüd, sapfir, mirvari, aleksandrit) valyuta sərvətləri kimi əmlakın tərkibinə daxildir.

Xarici valyuta müxtəlif mülki-hüquqi əqdlərin predmeti ola bilər. O, hər şeydən əvvəl, **alqı-satqı əqdinin predmeti** kimi çıxış edir. Belə ki, bizim ölkədə xarici valyutanın alqı-satqısı Milli Bankın müəyyən etdiyi xüsusi qayda əsasında müvəkkil banklar vasitəsilə həyata keçirilir. Valyuta qanunvericiliyi müvəkkil bankların iştirakı olmadan bağlanan xarici valyutanın alqı-satqısı əqdini qadağan edir. Bu cür əqd etibarsız hesab edilir. Həmin əqd nəticəsində əldə edilən gəlir dövlətin mülkiyyətinə mədaxil olunur[1].

Valyuta sərvətləri **mülkiyyət hüquq münasibətlərinin obyekti** qismində çıxış edir. Belə ki, bizim ölkədə həm fiziki, həm də hüquqi şəxslərin mülkiyyətində valyuta sərvətləri ola bilər. Bu şəxslərin valyuta sərvətlərinə sahib olmaq, bu sərvətlərdən istifadə etmək və onlar barəsində sərəncam vermək hüququ vardır. Onlar qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, həmin sərvətlər barəsində hər hansı əqd bağlamaq (bağışlamaq, girov qoymaq, vəsiyyət etmək, dəyişmək və s.) ixtiyarına malikdirlər.

Azərbaycan dövləti bizim ölkədə valyuta sərvətləri üzərində mülkiyyət hüququnu müdafiə edir. Bu hüququ pozan şəxs mülki qanunvericiliyə müvafiq surətdə hüquqi məsuliyyət daşıyır. Özü də valyuta sərvətləri üzərində mülkiyyət hüququ dövlət tərəfindən digər mülkiyyət obyektləri üzərində mülkiyyət hüququ ilə eyni və bərabər əsaslarla müdafiə olunur. Bu sahədə ayrı-seçkiliyə yol verilmir.

Mülki-hüquqi əqdlər qiymətli metallar və təbii daş-qaş barəsində də bağlana bilər. Bu cür əqdlərin bağlanması Nazirlər Kabineti və Milli Bankın birgə müəyyən etdiyi müvafiq qayda əsasında həyata keçirilir.

§ 3. Qiymətli kağızlar mülki hüquq münasibətlərinin obyekti kimi

1. Qiymətli kağızların hüquqi xarakteristikası

Qiymətli kağızlar mülki hüquq münasibətlərinin xüsusi xarakterli obyektlərindən biri hesab edilir[2]. Onlar həmin münasibətlərin müstəqil obyekti kimi çıxış edirlər. Mülki qanunvericillk qiymətli kağızları mülki-hüquqi mənada əşya kateqoriyasına şamil edir (MM-in 135-ci maddəsinin 1-ci bəndi).

[1] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 130.
[2] bax: «Valyuta tənzimi haqqında» qanun (AR QK, II cild, s. 368).

[1] «Valyuta tənzimi haqqında» qanunun 18-ci maddəsinin 1-ci bəndi (AR QK, II cild, s. 378).
[2] Bəzi tədqiqatçılar göstərirlər ki, qiymətli kağızların ilk nümunələri qədim Romada yaranmışdır (*Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 114).

Qiymətli kağızlar **daşınar əşyaların bir növüdür**. Qanun müəyyən edir ki, qiymətli kağızlar da əşyadır (MM-in 135-ci maddəsinin 1-ci bəndi).

Qiymətli kağızların bəzi növləri **cinsi əlamətləri ilə müəyyən edilən əşya növünə** aid olunur. Məsələn, səhmlər və istiqrazlar bu qəbildən olan əşya hesab edilir. Nömrələrini yazmaq kimi fərdiləşdirmə üsulundan istifadə etməklə onları fərdiləşdirmək olar. Bu halda həmin qiymətli kağızlar **fərdi əlamətləri ilə müəyyən edilən əşya növünə** daxil edilir.

Qiymətli kağızların bəzi növləri isə **fərdi əlamətləri ilə müəyyən edilən əşya kateqoriyasına** aid olunur. Veksel, uduşa düşən lotereya bileti və s. bu növ əşyaya misal ola bilər.

Qiymətli kağızlar bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyət kəsb edir. Belə ki, bazar münasibətlərinin inkişafı dövründə pulun dövriyyəsi işgüzar münasibətlərin canlanması üçün vacib amil rolunu oynayır. Lakin bir sıra hallarda pulun bilavasitə mülki (əmlak) dövriyyədə tədavüldə olması və işlənməsi ya mümkün, ya da lazım olmur. Məhz bu səbəbdən əmlak münasibətlərində qiymətli kağızlardan istifadə edilməsi geniş xarakter alır.

Bazar münasibətlərinin vacib atributu kimi çıxış edən qiymətli kağızların mülki (əmlak) dövriyyədə geniş istifadə olunması onunla izah edilir ki, müəyyən qiymətə malik olan qiymətli kağızlar nağd pulu səmərəli surətdə əvəz edərək, **əlverişli və münasib tədavül vasitəsi rolunu** oynayır. Onlar pul kimi həm də **ödəniş vasitəsidir**[1]. Bir sıra hallarda qiymətli kağızlar **kredit aləti rolunu** yerinə yetirir. Dediklərimiz belə bir fikir söyləməyə imkan verir ki, **qiymətli kağızlar pul sənədidir**.

Qiymətli kağızlar xüsusi xarakterli sənəddir. Bu sənəd əşyalardan fərqli olaraq, özünün təbii-fiziki xüsusiyyətinə görə qiymətli hesab edilmir. Həmin sənəd ona görə qiymətli kağız kimi tanınır ki, o, özündə sahibinin əmlak hüquqlarını (o cümlədən qeyri-əmlak hüquqlarını) təsbit və ifadə edir. Burada müəyyən pul məbləğini almaq, malın verilməsini tələb etmək, səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək və s. hüquqlar təsdiqlənir. Deməli, sənəd, daha doğrusu, kağız formasında olan qiymətli kağız müəyyən əmlak hüquqlarını (və ya qeyri-əmlak hüquqlarını) ifadə və təsbit edir. Bu xüsusiyyəti ilə qiymətli kağızlar pul nişanlarından, poçt markalarından fərqlənir. Onlar hər hansı bir hüquq ifadə etmir.

Sənədlə (kağızla) onda ifadə olunan əmlak hüquqları arasındakı münasibət fəlsəfi kateqoriyalar olan məzmun və forma arasındakı əlaqə kimidir. Əgər fəlsəfi planda əmlak hüquqları qiymətli kağız adlı hüquqi hadisənin məzmunudursa, sənəd (kağız) onun formasıdır[2]. Fəlsəfə elmi öyrədir ki, məzmun və forma vəhdət təşkil edir[3]. Odur ki, sənədlə (kağızla) əmlak hüquqları bir-birilə sıx və qırılmaz surətdə bağlıdır. Bu cəhət qiymətli kağızları digər sənədlərdən fərqləndirməyə imkan verən mühüm xüsusiyyətdir.

Kağızla (sənədlə) əmlak hüquqlarının bağlılığı ona səbəb olur ki, əgər kağız başqa şəxsə verildikdə (özgəninkiləşdirildikdə), onda əmlak hüquqları da həmin şəxsə verilir (özgəninkiləşdirilir); əgər kağız itirilərsə, onda əmlak hüquqları da itir, yəni bu hüquqlara xitam verilir. Deməli, kağızın başqa şəxsə verilməsi (özgəninkiləşdirilməsi) əmlak hüququnun özünün verilməsini (özgəninkiləşdirilməsini) ifadə edir. Başqa sözlə desək, **qiymətli kağız başqasına verildikdə, onun təsdiqlədiyi bütün hüquqlar da keçir**.

Qiymətli kağızla bağlı olaraq iki cür mülki hüquq növünü fərqləndirmək lazımdır. Birinci növ hüquq sahibinin qiymətli kağıza olan hüququdur. Bu, **əşya (mülkiyyət) hüququ** hesab edilir. Qiymətli kağız isə əşya kimi həmin hüququn obyekti, yəni əşya (mülkiyyət) hüquq münasibətinin obyekti kimi çıxış edir. İkinci növ hüquq isə qiymətli kağızın təsdiq etdiyi, yəni onda ifadə olunan əmlak hüququdur. Bu hüquq öz təbiətinə görə **öhdəlik xarakterinə malikdir**. Çünki o, qiymətli kağızın sahibinə tələb etmək ixtiyarı verir. Məsələn, səhm öz sahibinə ixtiyar verir ki, o, səhmdar cəmiyyətindən dividend verilməsini tələb etsin.

Qiymətli kağız müəyyənləşdirilmiş forması olan sənəddir. Bu sənəddə məcburi rekvizitlər göstərilir.

Qiymətli kağızların əsas cəhətlərini müəyyənləşdirdikdən sonra ona tərif verə bilərik. **Qiymətli kağız müəyyənləşdirilmiş forması və məcburi rekvizitləri olan, hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, bu sənəd olmadan həmin hüququn həyata keçirilməsi və başqa şəxsə verilməsi mümkün olmur**[1].

Qeyd etmək lazımdır ki, əmlak xarakterli istənilən hər hansı sənədi qiymətli kağız hesab etmək olmaz. Bu, o deməkdir ki, əmlak hüquqlarını ifadə etmək və təsdiqləmək kimi xüsusiyyət müvafiq sənədə qiymətli kağız statusu vermək üçün kifayət etmir. Məsələn, sığortaçının sığortalıya verdiyi sığorta şəhadətnaməsi (sığorta polisi), vəsiyyətnamə, borc müqaviləsi üzrə borc alanın borc verənə verdiyi borc qəbzi və s. əmlak hüquqlarını təsdiq etsə də, onlar qiymətli kağız hesab edilmir. Buna görə də sənədin qiymətli kağız kimi tanınması üçün digər hüquqi əlamətlərin olması gərəkdir. Həmin əlamətlər əsasında əmlak xarakterli sənədə qiymətli kağız statusu verilir[2].

Qiymətli kağızın **birinci hüquqi əlaməti** ondan ibarətdir ki, o, **literal sənəddir** (latınca «litteralis» — hərfi)[3]. Bu cür sənəd yalnız onda ifadə olunmuş və göstərilmiş hərəkətin edilməsini tələb etməyə imkan verir[4]. Bu isə qiymətli kağızlarn qanunla müəyyənləşdirilmiş formada tərtib olunmasını şərtləndirir. Qiymətli kağızlarn məcburi rekvizitləri və onların formasına və məcburi rekvizitlərə malik olmasına aid tələblər qiymətli kağızlar haqqında qanunla, Mülki Məcəllə ilə və digər aktlarla təyin edilir. Məsələn, Mülki Məcəllənin 1049-cu

---

[1] 1993-94-cü illərdə Azərbaycan Respublikasında nağd pul qıtlığı yaranmışdı. O vaxtlar dövlət istiqrazları tədavülə buraxıldı və həmin istiqrazlardan ödəniş (tədiyə) vasitəsi kimi istifadə olundu.

[2] Sovet dövrünün tanınmış sivilistlərindən olan M.M.Aqarkov yazırdı ki, hüquq kağız formasında maddiləşir. Elə bil ki, bu kağız hüququn daşıyıcısı kimi çıxış edir (bax: *Агарков М.М.* Учение о ценных бумагах. М., 1994, с. 178).

[3] Краткий философский словарь / Под ред. *М.Розенталя и П.Юдина*. М., 1952, с. 562.

[1] Qiymətli kağızın ləqal anlayışı barədə bax: *Кращенинников Е.А.* О легальных определениях ценных бумаг // Правоведение. 1992. № 4, с. 37.

[2] *Суханов Е.* Ценные бумаги (консультация) // Экономика и жизнь. 1995. № 19; *Повлодский Е.А.* Ценные бумаги на Российском фондовом рынке // Дело и право. 1995. № 2, с. 14.

[3] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 406.

[4] Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 315; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 119).

maddəsində qiymətli kağızların bir növü olan çekin məcburi rekvizitləri göstərilir: sənədin mətninə daxil edilmiş «çek» adı; müəyyən pul məbləğini ödəmək barədə sadə və heç nə ilə şərtləndirilməyən tapşırıq; ödənişi icra etməli olan bankın adı; ödəniş yerinin göstərilməsi; çekin tərtib olunduğu tarixin və yerin göstərilməsi; çek verənin imzası. MM-in 1005-ci maddəsi köçürmə vekselinin, 1048-ci maddəsi sadə vekselin rekvizitlərin müəyyənləşdirir.

Qiymətli kağızların formasına gəldikdə isə qeyd etmək lazımdır ki, onlar ümumi qaydaya görə xüsusi blanklarda yazılı sənəd formasında tərtib olunur. Bu cür xüsusi blanklar saxta və qəlp qiymətli kağızlar tərtib olunmasının müəyyən dərəcədə qarşısını alır.

Qanunla müəyyənləşdirilmiş formada tərtib olunmayan, habelə lazımi məcburi rekvizitlərdən məhrum olan hər hansı qiymətli kağızın hüquqi əhəmiyyəti yoxdur. Belə ki, əgər qiymətli kağızın məcburi rekvizitləri olmazsa və ya qiymətli kağız onun üçün müəyyənləşdirilmiş formaya uyğun gəlməzsə, həmin qiymətli kağız etibarsız hesab edilir (MM-in 987-ci maddəsinin 3-cü bəndi).

Xüsusi blanklarla yanaşı, yeni mülki qanunvericilik sənədsiz qiymətli kağızların tətbiq edilməsinə yol verir (MM-in 996-cı maddəsi). Bu cür qiymətli kağızlar dövriyyə iştirakçılarının hüquqlarını sənədsiz formada ifadə etməyə imkan verir. Başqa sözlə desək, **sənədsiz qiymətli kağızlar hüququ sənədsiz formada təsbit və ifadə edir**; onlar kağız sahibini depozitar da depo hesabında olan yazı əsasında müəyyən etməyə imkan verir.

Sənədsiz qiymətli kağızların dövriyyəsi müəyyən xüsusiyyətlərə malikdir. Onların «sahibi» bu kağızlara münasibətdə əşya (mülkiyyət) hüququna malik deyil. Çünki sənədsiz qiymətli kağızlar maddiləşmiş formada olmadığına görə əşya kateqoriyasına aid edilmir.

Sənədsiz qiymətli kağızın «sahibi» bu kağızla müstəqil surətdə əməliyyat aparmaq hüququndan məhrumdur. Belə ki, onun hüququ depozitarda depo hesabında olan yazı ilə təsbit olunur. Ona görə də sənədsiz qiymətli kağızlarla əməliyyatlar yalnız hüquqların qeydiyyatını aparan şəxsə (hüququ sənədsiz formada təsbit etmiş şəxsə) müraciət etməklə aparıla bilər (MM-in 996-cı maddəsinin 4-cü bəndi). Həmin şəxs sənədsiz formada hüquqları təsbit etmək və sənədsiz qiymətli kağızlarla əməliyyatlar aparmaq səlahiyyətinə malikdir. Bu şəxs rəsmi yazıların salamatlığı, onların məxfiliyinin təmin edilməsi, bu cür yazılar haqqında düzgün məlumatlar verilməsi, aparılmış əməliyyatlar haqqında rəsmi qeydlərin yazılması üçün məsuliyyət daşıyır. Onun borcudur ki, hüquq sahibinə müvafiq sənəd versin. Həmin sənəd təsbit olunmuş hüququ təsdiq edir.

Qiymətli kağızın **ikinci hüquqi əlaməti** ondan ibarətdir ki, o, **başqa şəxslərə verilmək qabiliyyətinə malikdir**. Belə ki, mülki qanunvericilik qiymətli kağızın başqasına verilməsinə yol verir (MM-in 993-cü maddəsi). Belə halda qiymətli kağız əşya kimi — mülki hüquq münasibətlərinin obyekti kimi digər şəxslərə verilir. Bu zaman qiymətli kağızın təsdiqlədiyi bütün hüquqlar da digər şəxsə keçir. Amma qiymətli kağızın təsdiqlədiyi hüququn verilməsi bütün hallarda qiymətli kağıza olan hüququn (qiymətli kağızın əşya kimi özünün) keçməsinə səbəb olmur. Məsələn, səhmin sahibi səhmdar cəmiyyətinin ümumi yığıncağında səsvermə hüququna malikdir. Bu hüququ o, başqa şəxslərə verə bilər. Lakin bu, səhmə olan hüququn həmin şəxsə keçməsinə səbəb olmur.

Qiymətli kağızlar başqa şəxslərə müxtəlif üsullar əsasında verilir. Bu üsullar qiymətli kağızın növündən asılı olaraq müəyyən edilir. Məsələn, adsız qiymətli kağız başqasına sahiblik hüququnun verilməsi yolu ilə verilir. Adlı qiymətli kağızlar isə tələbin güzəşti qaydasında verilir.

Qiymətli kağızın **üçüncü hüquqi əlaməti** ondan ibarətdir ki, o, **mücərrəd xarakterə malikdir**. Qiymətli kağızın dövriyyə qabiliyyətini və etibarlılığını artırmaq məqsədilə bu kağız verildiyi mülki (öhdəlik) hüquq münasibətindən xüsusi olaraq ayrılır. Bu, o deməkdir ki, qiymətli kağızın verilməsi üçün səbəb olmuş müvafiq **mülki (öhdəlik) hüquq münasibətinin əsassız olması qiymətli kağızın etibarsızlığına dəlalət etmir**. Məsələn, mal göndərmə (alqı-satqı) müqaviləsi üzrə hər hansı firma müəyyən tikinti təşkilatına on min manatlıq tikinti materialları göndərir. Bu, mülki (öhdəlik) hüquq münasibətidir. Həmin münasibətdə alıcı rolunda çıxış edən tikinti təşkilatı özünün bankdakı vəsaiti hesabına tikinti materiallarının pulunu ödəmək məqsədilə satıcıya (firmaya) çek (qiymətli kağızın bir növü) verir. Bu halda alqı-satqı (mal göndərmə) hüquq münasibəti çek adlı qiymətli kağızın verilməsinə əsas olur.

Tikinti təşkilatı çek verdikdən sonra göndərilmiş tikinti materiallarında qüsur aşkar edir. Amma həmin qüsur çekin etibarsız hesab edilməsi üçün əsas ola bilməz. Bank (ödəyici) bu qüsura baxmayaraq, satıcı (firma) üçün çek üzrə ödənişi həyata keçirməlidir. Qiymətli kağızların mücərrədliyi də məhz bundan ibarətdir.

Qiymətli kağızın mücərrədlik kimi hüquqi əlaməti qanunvericilik qaydasında nəzərdə tutulmuşdur. Belə ki, qiymətli kağızla təsdiqlənmiş öhdəliyin icrasından onun əsasının olmamasına və ya onun etibarsızlığına istinadla imtina edilməsinə yol verilmir (MM-in 988-ci maddəsinin 4-cü bəndi). Bundan əlavə, qiymətli kağızla qarantiya verilmiş tələbin etibarlığı bu tələbi əmələ gətirən əqdin mövcudluğundan və ya etibarsızlığından asılı deyildir (MM-in 988-ci maddəsinin 1-ci bəndi).

Beləliklə, qiymətli kağız üzrə borclu şəxs icranı **yalnız qiymətli kağızın formal əlamətlərinə (məcburi rekvizitlərinə) istinad etməklə həyata keçirməlidir**. Onun qiymətli kağızın verilməsi üçün əsas olan halları yoxlamağa və müəyyənləşdirməyə ixtiyarı çatmır.

Qiymətli kağızın dördüncü hüquqi əlaməti ondan ibarətdir ki, o, **açıq (ümumi) formada etibarlı olmaq xüsusiyyətinə malikdir**[1]. Bu əlamət onda ifadə olunur ki, qiymətli kağızın sahibinə, yəni qanuni yolla qiymətli kağız əldə edən şəxsə bu kağızın məcburi rekvizitləri və forması haqqında tələblərdən başqa, digər hər hansı bir tələb irəli sürülə bilməz. Bu şəxsə qiymətli kağızın verilməsi üçün əsas olan mülki (öhdəlik) hüquq münasibəti barədə, habelə qiymətli ka-

[1] Göstərilən əlamət hüquq ədəbiyyatı səhifələrində çox vaxt bu ad altında nəzərdə tutulur (bax: *Агарков М.М.* Основы банковского права. Учения о ценных бумагах. М., 1994, с. 199-202; *Белов В.А.* Ценные бумаги в Российском гражданском праве. М., 1996, с. 96-99; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 120; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 216; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 160). Bəzi müəlliflər bu hüquqi əlaməti «qiymətli kağızda ifadə olunan hüququn müstəqilliyi» kimi nəzərdə tutur (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 315).

ğızın əvvəlki sahibinin bağlı olduğu hüquqi əlaqə barədə hər hansı bir etiraz verilməsi istisna edilir. Qiymətli kağızı əldə edən hər bir şəxs bilir və inanır ki, qiymətli kağızla təsdiqlənən hüquqa bu kağızın verilməsi üçün əsas olan münasibətdən irəli gələn hüquqi qüsur təsir göstərə bilməz. Bu xüsusiyyət qiymətli kağızlara etibarı möhkəmləndirir və onların dövriyyə qabiliyyətini artırır.

Bundan əlavə, qanuni yolla qiymətli kağız əldə edən şəxsə həmin kağızın təsdiqlədiyi bütün hüquqlar keçir. Bu barədə də həmin şəxsə hər hansı tələb və etiraz irəli sürülə bilməz.

Beləliklə, qiymətli kağız üzrə hüquq münasibəti iştirakçıları bir-birinə bu kağızın formal məcburi rekvizitləri əsasında etibar edirlər. Onlar qalan digər hər hansı halı etibar vasitəsi kimi nəzərə və saya almırlar. Qiymətli kağızın açıq (ümumi) formada etibarlı olmaq kimi hüquqi əlamətinin mahiyyəti də bundan ibarətdir. Bu əlamətdən görünür ki, yalnız formal əsaslara görə etiraz irəli sürülə bilər. Məsələn, qiymətli kağızın icraya təqdim edilməsi müddətinin buraxılması və ya qiymətli kağızda saxtalaşdırmanın aşkar edilməsi və digər formal əsaslara istinad etməklə etiraz verilməsi mümkündür. Əgər qiymətli kağızın sahibi qiymətli kağızda aldatma və ya saxtalaşdırma aşkar etdikdə, kağızı ona vermiş borcluya qarşı qiymətli kağızla təsdiqlənmiş öhdəliyin lazımınca yerinə yetirilməsi və zərərin əvəzinin ödənilməsi tələbini irəli sürə bilər (MM-in 988-ci maddəsinin 5-ci bəndi).

Qiymətli kağızın **beşinci hüquqi əlaməti** ondan ibarətdir ki, o, **prezentasiya olunmaq** (latınca «praesentatio» - təqdim olunmaq)[1] xüsusiyyətinə malikdir. Prezentasiya olunmaq dedikdə, qiymətli kağız sahibinin (səlahiyyətli şəxsin) qiymətli kağızı borcluya təqdim etməsi (verməsi) başa düşülür. Bu, hüquqi əhəmiyyətə və nəticəyə səbəb olan aktdır. Belə ki, qiymətli kağız borclu şəxsə verilən kimi, o, qiymətli kağız üzrə öhdəliyi icra edir. Bununla qiymətli kağızda ifadə və təsbit edilən subyektiv mülki hüquq həyata keçirilir. Mülki hüquq münasibətlərinin obyekti kimi qiymətli kağızın qiyməti onun məhz bu cür hüquq ifadə etməsindədir.

Mülki-hüquqi əhəmiyyətə malik olan digər sənədlər (kağızlar) təqdim olunduqda, subyektiv mülki hüququn həyata keçirilməsinə səbəb olmur. Ona görə də prezentasiya olunmaq qiymətli kağızın hüquqi əlamətlərindən biridir.

Göstərilən beş hüquqi əlamət mövcud olduqda, müvafiq sənəd dərhal qiymətli kağız statusu almır. Bunun üçün həm də vacibdir ki, **qanunda və ya digər normativ aktda həmin sənədin qiymətli kağız kateqoriyasına aid edilməsi barədə göstəriş olsun**.

Azərbaycan Respublikasında qiymətli kağızların buraxılışı və tədavülü qaydaları, habelə qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyəti xüsusi qanunla tənzimlənir[2].

2. Qiymətli kağızların təsnifi

Mülki hüquq elmində və qanunvericilikdə qiymətli kağızların təsnifi verilir ki, onun vacib əhəmiyyəti vardır. Qiymətli kağızların mahiyyətini düzgün başa düşmək və onun məzmununa aydınlıq gətirmək baxımından həmin təsnif heç

[1] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 559.
[2] bax: «Qiymətli kağızlar haqqında» 14 iyul 1998-ci il tarixli qanun (AR QK, V cild, s. 653).

də az rol oynamır. Mülki Məcəllə order, veksel, çek, istiqraz, səhm, əmtəə kağızı, depozit sertifikatı, ipoteka kağızı, opsion, fyuçers, girov kağızı və menzil sertifikatını qiymətli kağızlar sırasına daxil edir. Qiymətli kağızlara eyni zamanda Mülki Məcəllə ilə müəyyənləşdirilmiş digər sənədlər də aiddir (MM-in 997-ci maddəsinin 1-ci bəndi). Məsələn, adlı əmanət kitabçası, qoşa anbar şəhadətnaməsi, konosament və s.

Qiymətli kağızların növləri kifayət qədər çoxdur. Onları müxtəlif əsaslara (meyarlara) görə təsnif etmək olar. **Səlahiyyətli şəxsin fərdiləşdirilməsi dərəcəsi** bu əsaslardan biridir. Söhbət qiymətli kağızda ifadə olunan **hüquq daşıyıcısının müəyyən edilməsi kimi üsuldan** gedir. Bu cür əsasa (meyara) görə qiymətli kağızların üç növü fərqləndirilir:

- adlı qiymətli kağızlar;
- adsız qiymətli kağızlar;
- orderli kağızlar.

Adlı qiymətli kağız dedikdə, müəyyən şəxsin adına verilmiş qiymətli kağız başa düşülür. Adlı qiymətli kağız odur ki, bu kağızda onda ifadə edilmiş hüququn məxsus olduğu şəxsin (səlahiyyətli şəxsin, hüquq daşıyıcısının) adı dəqiq, konkret və birbaşa göstərilir. Bu kağızda ifadə olunan hüququ yalnız həmin şəxs həyata keçirə bilər. Bunun üçün vacibdir ki, göstərilən şəxs özünü onun adına sənəd verilmiş şəxs kimi və sənədin sahibi kimi təsdiq etsin. Borclu icranı yalnız bu şəxs üçün həyata keçirir. Borclu icranı səlahiyyətli şəxsin hüquq varisi üçün də həyata keçirə bilər. Bunun üçün vacibdir ki, həmin şəxs səlahiyyətli şəxsin hüquqi varisi olmasını sübut və təsdiq etsin.

Borclu icranı səlahiyyətli şəxsin nümayəndəsi üçün də həyata keçirə bilər. Bunun üçün lazımdır ki, nümayəndənin bu cür səlahiyyətə malik olması etibarnamə və tapşırıq müqaviləsi ilə təsdiq olunsun, lazımınca rəsmiləşdirilsin.

Veksel, çek, əmanət sertifikatı, istiqraz, konosament və digərləri adlı qiymətli kağızlara misal ola bilər. Səhm kimi qiymətli kağızın da adlı qiymətli kağız formasında olması istisna edilmir.

Adlı qiymətli kağızlar dövriyyə qabiliyyətinə malikdir. Buna görə də onlar başqa şəxslərə verilə (güzəşt edilə), yəni özgəninkiləşdirilə bilər. Bu cür hallarda ümumi mülki qaydadan — **tələbin güzəşti (sessiya) üsulundan** istifadə olunur. Bunun üçün lazımdır ki, tələbin güzəşti haqqında yazılı ərizə verilsin (MM-in 993-cü maddəsinin 2-ci bəndi).

Tələbin güzəşti (sessiya) əsasında adlı qiymətli kağız əvvəlki səlahiyyətli şəxsdən yeni səlahiyyətli şəxsə keçir. Əvvəlki səlahiyyətli şəxs yalnız qiymətli kağızla təsdiqlənən tələbin etibarsızlığı üçün məsuliyyət daşıyır. Bu tələbin borclu tərəfindən faktiki olaraq icra edilməsinə görə o cavabdeh deyildir (MM-in 993-cü maddəsinin 2-ci bəndi).

Adlı qiymətli kağızların başqa şəxslərə verilməsi (özgəninkiləşdirilməsi) bir sıra formal hərəkətlərlə və xüsusi mürəkkəb prosedura ilə müşayiət edilir. Məsələn, adlı səhm sahiblərinin adının səhmdar cəmiyyətinin səhmdarlarının reyestrinə daxil edilməsi tələb olunur. Bu cür qiymətli kağız özgəninkiləşdirilərkən həmin reyestrdə qeydlə dəyişiklik - **transfert** (fransızca «transfert» - vermək) edilir. Bundan əlavə, adlı qiymətli kağızların bəzi növləri, məsələn, adlı əmanət kitabçalarının xüsusi hüquq varisliyi qaydasında başqa şəxslərə veril-

məsi mümkün deyil. Onlar yalnız ümumi (universal) hüquq varisliyi qaydasında, məsələn, vərəsəlik qaydasında başqa şəxslərə (vərəsələrə, hüquqi varislərə) keçə bilər. Məhz bu səbəblərdən adlı qiymətli kağızların dövriyyə qabiliyyəti heç də geniş xarakter daşımır.

Adsız qiymətli kağız odur ki, o, hər hansı bir konkret şəxsin adına verilmir. Bu cür kağızda hüquq daşıyıcısının (səlahiyyətli şəxsin) adı göstərilmir. Həmin kağızları qanuni yolla əldə edən istənilən hər hansı şəxs (qanuni sahib) hüquq daşıyıcısı (səlahiyyətli şəxs) rolunda çıxış edə bilər. Başqa sözlə desək, istənilən şəxs adsız qiymətli kağızda təsbit olunan hüququ həyata keçirməyə səlahiyyəti olan şəxs rolunda çıxış edə bilər. Yalnız vacibdir ki, həmin şəxs adsız qiymətli kağızı borcluya təqdim etsin. Kim adsız qiymətli kağızı borcluya təqdim etsə, borclu da yalnız həmin şəxsə (adsız qiymətli kağızı təqdim edənə) öhdəliyi icra edir. Ona görə də bəzi hallarda bu qiymətli kağız **təqdimedənə qiymətli kağızı** da adlanır. Özü də borclunun ixtiyarı yoxdur ki, adsız qiymətli kağızın onu təqdim edən şəxsin əlinə necə və hansı qaydada düşməsini müəyyənləşdirsin.

Adsız qiymətli kağızlar başqa şəxslərə verilə (özgəninkiləşdirilə) bilər. Bunun üçün hər hansı formal, xüsusi mürəkkəb prosedura və rəsmiləşdirmə tələb olunmur. Bu kağızların çox asan və sadə özgəninkiləşdirmə üsulu vardır. Belə ki, adsız qiymətli kağız üzrə səlahiyyətli şəxs (kağızın sahibi), sadəcə olaraq, bu kağıza olan sahiblik hüququnu yeni səlahiyyətli şəxsə verir (MM-in 993-cü maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, həmin şəxs adsız qiymətli kağızı yeni sahibinə təslim edir, təhvil verir. Bununla da qiymətli kağız özgəninkiləşdirilir. Məsələn, adsız (təqdimedənə) əmanət kitabçası, adsız istiqraz, özəlləşdirmə payları, adsız konosament, adsız səhmlər, adsız çeklər və s. bu qaydada başqa şəxslərə verilir. Məhz qeyd etdiyimiz bu səbəblərə görə adsız qiymətli kağızlar **yüksək dövriyyə qabiliyyətinə** malikdir.

Orderli kağız (almanca «order», fransızca «ordre» — qayda, əmr)[1] odur ki, bu kağız üzrə səlahiyyətli şəxs öz sərəncamı (əmri, orderi) ilə özünün əvəzinə başqa səlahiyyətli şəxs təyin etmək hüququna malikdir. Belə ki, qiymətli kağız tərtib olunanda o, müəyyən səlahiyyətli şəxsin adına yazılır və bununla həmin şəxs subyektiv hüquq əldə edir. Bu baxımdan orderli və adlı qiymətli kağız bir-birinə oxşayır. Adına qiymətli kağız yazılmış (verilmiş) səlahiyyətli şəxs müvafiq subyektiv hüququ müstəqil surətdə özü həyata keçirə bilər. Borclunun vəzifəsidir ki, icranı həmin şəxsə həyata keçirsin (MM-in 991-ci maddəsinin 2-ci bəndi). Bununla belə, səlahiyyətli şəxs öz sərəncamı (orderi, əmri) ilə başqa səlahiyyətli şəxs təyin edə bilər. Bu sərəncam əsasında həmin şəxsin adına sənəd yazılır. Borclunun vəzifəsidir ki, icranı həmin sərəncam əsasında sənəd yazılmış şəxsə həyata keçirsin. (MM-in 991-ci maddəsinin 1-ci bəndi). Orderli qiymətli kağıza misal olaraq qoşa anbar şəhadətnaməsini göstərmək olar.

Beləliklə, orderli kağızlar qarışıq xarakterə malikdir. Belə ki, bu kağızlar eyni zamanda həm adlı qiymətli kağız, həm də orderli kağız rolunda çıxış edir. Məsələn, «Proqress» firmasına və ya onun sərəncamı ilə ödənilsin». Bu cür

[1] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 500.

hallarda borclu icranı ya adına sənəd yazılmış şəxsə, ya da onun sərəncamı ilə sənəd yazılmış şəxsə həyata keçirir.

Bəzi hallarda isə orderli kağız qarışıq xarakterə malik olmur[1]. Belə ki, həmin kağızda səlahiyyətli şəxsi (hüquq daşıyıcısını) təyin və müəyyən edən şəxsin adı göstərilir. Məsələn: «Proqress» firmasının əmri ilə ödənilsin».

Orderli qiymətli kağızlar başqa şəxslərə verilə (özgəninkiləşdirilə) bilər. Qanun bu kağızların təsdiqlədiyi hüquqların mürəkkəb prosedura olmadan başqa şəxslərə verilməsi qaydasını nəzərdə tutur. Bu qaydaya görə, orderli qiymətli kağızın başqasına verilməsi həmin kağızın arxa tərəfində edilən **xüsusi ötürücü (verici) qeydin köməyi və vasitəsilə** həyata keçirilir. Bu qeydə **indossament** (almanca «indossament», latınca «dorsum» — arxa)[2] deyilir. Özü də orderli qiymətli kağızı təkcə onun ilkin, birinci sahibi yox, həm də bütün sonrakı sahibləri indossament yolu ilə verə bilərlər. İndossamentlərin sayı qanunla məhdudlaşdırılmır. Məhz bu səbəbdən orderli qiymətli kağızlar kifayət qədər yüksək dövriyyə qabiliyyətinə malikdir. **İndossament birtərəfli əqddir**. Ona görə ki, o, yalnız bir tərəfin iradəsini ifadə edir. İndossament iki funksiya yerinə yetirir. **Birinci funksiya** hüququ verməkdən — **tələbi güzəşt etməkdən ibarətdir**. Belə ki, indossament qiymətli kağızla təsdiqlənmiş bütün hüquqların başqa şəxsə (və ya onun sərəncamı ilə) verilməsinə əsas olur. Qiymətli kağız üzrə hüququn verildiyi şəxsə **indossat** (almanca «indossat» — hüquq əldə edən) deyilir. Orderli qiymətli kağız üzrə hüququ verən şəxs **indossant** (almanca «indossant» — hüquq verən) adlanır. İndossant qiymətli kağızın arxa tərəfində ötürücü (verici) qeyd edən şəxsdir. **İndossamentin ikinci funksiyası təminat funksiyası** adlanır. Bu funksiya onda ifadə olunur ki, indossant təkcə hüququn etibarlı olmasına görə yox, həm də onun həyata keçirilməsinə görə məsuliyyət daşıyır (MM-in 993-cü maddəsinin 3-cü bəndi). Özünün bu funksiyası ilə indossament hüquqların verilməsindən (tələblərin güzəştindən) fərqlənir.

Orderli qiymətli kağızda ifadə olunan hüququn həyata keçirilməsinə, yəni icrasına onunla təminat verilir ki, həmin kağızın qanuni sahibi qarşısında təkcə bu kağızı vermiş borclu yox, həm də onu indossament (vermək haqqında qeyd) etmiş bütün şəxslər (indossantlar) birgə məsuliyyət daşıyırlar (MM-in 988-ci maddəsinin 3-cü bəndi). Qiymətli kağızın qanuni sahibinin tələbi ilə həmin kağızla təsdiqlənən öhdəlik bir və ya bir neçə şəxs (indossant) tərəfindən icra oluna bilər. Bundan sonra həmin şəxs (şəxslər) qiymətli kağız üzrə öhdəlik götürmüş qalan digər şəxslərə (qalan indossantlara) reqres (geriyə tələb) irəli sürürlər.

İndossament üç cür olur: blanklı indossament; orderli indossament; təkrar tapşırılan indossament.

Orderli indossament odur ki, burada qiymətli kağız üzrə icranın xeyrinə

[1] *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993, с. 109; *Мартьянов Т.С., Белов В.А.* Ценные бумаги. Эволюция становления и развития // Правоведение. 1992. № 6, с. 60; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 152-153.

[2] bax: Словарь иностранных слов / Под ред. *Н.В. Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 270. Bəzi yerlərdə bu ifadənin italyanca «in dosso» sözündən götürülməsi göstərilir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 318).

həyata keçirilməli olduğu və ya əmri ilə həyata keçirilməli olduğu şəxsin adı göstərilir. Bu kağızın sonradan verilməsi yalnız indossamentin vasitəsilə mümkündür. **Blanklı indossamentdə** (fransızca «blanc» - ağ, təmiz) qiymətli kağız üzrə icranın xeyrinə həyata keçirilməli olduğu şəxs göstərilmir. Belə halda orderli kağızın sahibi öz əvəzinə başqa səlahiyyətli şəxs təyin edə bilər, ya da yeni indossament edə bilər, ya da sadəcə olaraq, orderli kağızı yeni sahibinə verə bilər. Yeni sahib isə anoloji hərəkətlər etmək hüququna malikdir, yəni qiymətli kağızı başqasına verə bilər. Bu xüsusiyyət həmin növ qiymətli kağızların dövriyyəsini xeyli dərəcədə artırır və onları adsız qiymətli kağızlara yaxınlaşdırır.

Təkrar tapşırılan indossamentdə orderli qiymətli kağızda ifadə olunan və təsdiqlənən hüquq səlahiyyətli şəxsə — hüquq əldə edən şəxsə (indossanta) verilmir, yəni səlahiyyətli şəxs başqası ilə əvəz olunmur. Burada yalnız həmin kağızda ifadə olunan hüququn həyata keçirilməsi barədə indossanta tapşırıq verilir. Bu halda indossant həmin münasibətlərdə nümayəndə kimi çıxış edir.

İndossament qanunda nəzərdə tutulan tələblərə uyğun olmalıdır. Birincisi, indossamentdə indossat haqqında məlumatlar göstərilməli və indossantın imzası olmalıdır. İkincisi, indossament sadə olmalı və hər hansı bir şərt nəzərdə tutmamalıdır. Üçüncüsü, indossament qiymətli kağızın arxa tərəfində və ya ona əlavə edilmiş vərəqədə (**əlavə vərəqədə**) yazılmalıdır. Əlavə vərəqə xüsusi olaraq indossament üçündür. Vekseldə bu vərəqə allonj adlanır.

İqtisadi əhəmiyyətinə görə qiymətli kağızların üç növü fərqləndirilir:

- investisiya qiymətli kağızları;
- əmtəə kağızları;
- ticarət (pul) kağızları.

Məqsədi fond bazarına xidmət etməkdən ibarət olan qiymətli kağızlara **investisiya qiymətli kağızları** deyilir. Onlara istiqrazlar və səhmlər daxildir (MM-in 997-ci maddəsinin 2-ci bəndi). İnvestisiya qiymətli kağızlarına **fond kağızları** da deyilir.

Əmtəələrin (malların) dövriyyəsinə xidmət edən qiymətli kağızlar **əmtəə kağızları** adlanır. Bu kağızlara bəzən **mala sərəncamverici qiymətli kağızlar** da deyilir. Bu növ qiymətli kağızlara konosamenti, qoşa anbar şəhadətnaməsini və adi anbar şəhadətnaməsini misal göstərmək olar.

Ticarət (pul) kağızları odur ki, bu kağızlar kredit-hesablaşma münasibətlərinə (pul dövriyyəsinə) xidmət edir. Veksel və çek bu qiymətli kağızların əsas növü hesab edilir[1].

Qiymətli kağızların özlərinin ifadə etdikləri hüquqların məzmununa görə üç növü fərqləndirilir:

- öhdəlik (pul) qiymətli kağızları;
- əşya qiymətli kağızları;
- korporativ qiymətli kağızları.

Öhdəlik (pul) qiymətli kağızları odur ki, bu kağızlar öz sahibinə müəyyən məbləğdə pul almaq hüququ verir. Ona görə də bu növ qiymətli kağızlar bəzən **pul kağızları** da adlanır. Öhdəlik qiymətli kağızları nisbətən geniş yayılmışdır. Onlara misal olaraq çekləri, vekselləri, istiqrazları, depozit və əmanət sertifikatlarını göstərə bilərik.

Əşya qiymətli kağızları odur ki, bu kağızlar öz sahibinin müəyyən mal (əmtəə) barəsində əşya hüququnu təsdiq edir. Mala sərəncamverici (əmtəə) kağızları bu qəbildən olan qiymətli kağızlara misal ola bilər. Məsələn, konosament, qoşa və adi anbar şəhadətnaməsi əşya qiymətli kağızlarıdır.

Korporativ qiymətli kağızlar odur ki, bu kağızlar öz sahibinin korporativ (üzvlük) hüquqlarını ifadə edir və təsdiqləyir. Səhmlər bu növ qiymətli kağızlara misal ola bilər. Belə ki, səhm, səhmdara cəmiyyətin işində iştirak etmək hüququ verir[1].

Qiymətli kağızın emitentinin kim olması əlamətinə görə (latınca «emittens» — buraxan) qiymətli kağızlar üç cür olur: dövlət qiymətli kağızları; xüsusi şəxslərin buraxdığı qiymətli kağızlar; bələdiyyə qiymətli kağızları.

Əgər emitent rolunda, yəni qiymətli kağızların sahibi qarşısında onlarda təsbit edilmiş hüquqların həyata keçirilməsi üzrə öz adından öhdəliklər daşıyan subyekt rolunda dövlət çıxış edərsə, bu cür qiymətli kağızlar **dövlət qiymətli kağızları** adlanır. Bu qəbildən olan qiymətli kağızların buraxılması qaydaları, onların yerləşdirilməsi və tədavülü şərtləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir[2]. Onlar öz səlahiyyətləri çərçivəsində Maliyyə Nazirliyi və Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən buraxılır.

Bələdiyyə qiymətli kağızları odur ki, bu kağızların emitenti rolunda bələdiyyələr çıxış edir. Dövlət və bələdiyyə qiymətli kağızları müəyyən müddət üzrə buraxılır: qısamüddətli qiymətli kağızlar — 1 ilədək; ortamüddətli qiymətli kağızlar — 1 ildən 5 ilədək; uzunmüddətli — 5 ildən artıq. Dövlət qiymətli kağızları cari büdcə kəsirini maliyyələşdirmək, dövlət pul-kredit siyasətini həyata keçirmək, dövlət iqtisadi inkişaf proqramlarını yerinə yetirmək, dövlət əhəmiyyətli sosial problemləri həll etmək, büdcə ödəmələrinin ardıcıllığını tənzimləmək və s. məqsədlər üçün buraxılır. Bələdiyyə qiymətli kağızlarının buraxılması yerli büdcənin formalaşdırılması, yerli iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi, yerli əhəmiyyətli sosial-mədəni problemlərin həll edilməsi və alqı-satqı əməliyyatlarının yerinə yetirilməsi kimi məqsəd daşıyır[3].

Xüsusi şəxslərin buraxdığı qiymətli kağızların emitenti qismində hüquqi şəxslər çıxış edir. Bunlara **korporativ qiymətli kağızları** da deyilir. Məsələn, səhmdar cəmiyyətinin buraxdığı səhmlər korporativ qiymətli kağızlara misaldır.

[1] MM-in 1078-ci maddəsinin 5-ci bəndində göstərilir ki, konosament ticarət kağızıdır. Lakin bu sənəd ticarət (pul) kağızı hesab edilmir. Ticarət kağızı və ticarət (pul) kağızı kimi iki anlayış bir-birindən fərqli anlayışlardır.

[1] Göstərilən bölgü dünyanın əsas hüquq ailələrində (sistemlərində) aparılan təsnifə bu və ya digər dərəcədə uyğun gəlir. Kontinental (roman-german) hüquq doktrinası qiymətli kağızların rəsmiləşdirdiyi hüquqların təbiətinə görə onları üç növə bölür: pul qiymətli kağızları; iştirak qiymətli kağızları (səhmlər); əmtəə qiymətli kağızları (konosament, varrant). İngilis-amerikan doktrinası göstərilən əlamətə görə qiymətli kağızların başqa təsnifini verir: investisiya qiymətli kağızları (səhmlər); ticarət kağızları (veksel, çek, depozit sertifikatı); mala sərəncamverici sənədlər (bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 118).

[2] «Qiymətli kağızlar haqqında» qanunun 5-ci maddəsinin 5-ci bəndi (AR QK, V cild, s. 657).

[3] bax: Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 9 fevral 2000-ci il tarixli 026 saylı əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının dövlət və bələdiyyə qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi və tədavülü haqqında qaydalar» // Qiymətli kağızlar bazarı. Normativ aktlar toplusu. Bakı. 2000, s. 177.

Hansı əsaslara görə buraxılması kimi əlamətə görə qiymətli kağızlar iki cür olur: emissiya qiymətli kağızları; qeyri-emissiya qiymətli kağızları.

Emissiya qiymətli kağızları (latınca «emissio» — buraxmaq) dedikdə, buraxılışlarla yerləşdirilən və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq, bir buraxılış daxilində hüquqlarının həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlar başa düşülür. Bu cür kağızlara səhmləri, istiqrazları və s. misal göstərmək olar.

Qeyri-emissiya qiymətli kağızları dedikdə isə buraxılışlarla yerləşdirilməyən və qiymətli kağızlar üzrə hüquqların keçməsinin həcmi və müddəti müxtəlif olan qiymətli kağızlar başa düşülür. Bu qəbildən olan qiymətli kağızlar «dənə» qaydasında buraxılır və öz sahibinin fərdi hüquqlarını ifadə edir. Veksel, çek, özəlləşdirmə payları və s. qeyri-emissiya qiymətli kağızlara misal ola bilər.

Sənəd (kağız) formasında daşıyıcısı olması əlamətinə görə qiymətli kağızların iki növü fərqləndirilir: sənədli (sənədləşdirilmiş) qiymətli kağızlar; sənədsiz (sənədləşdirilməmiş) qiymətli kağızlar.

Sənədli qiymətli kağızlar odur ki, onların kağız (sənəd) formasında maddi (obyektiv) daşıyıcısı olur. Onlara **«nağd» qiymətli kağızlar** da deyilir.

Sənədsiz qiymətli kağızlar isə kağız (sənəd) formasında maddi (obyektiv) daşıyıcıya malik olmur. Bu qəbildən olan qiymətli kağızlar kağız (sənəd) daşıyıcısı tərtib olunmadan buraxılır. Onlara **«nağdsız» qiymətli kağızlar** da deyilir. «Sənədsiz qiymətli kağız» anlayışı ilk dəfə olaraq ABŞ hüququnda nəzərdə tutulmuşdur. 80-ci illərdən başlayaraq Fransa, Almaniya kimi dövlətlərdə sənədsiz qiymətli kağızlardan istifadə olunmasına qanunvericilik qaydasında yol verildi. Sonra isə RF-in qanunvericiliyi də bu qiymətli kağız növünün tətbiq edilməsini nəzərdə tutdu. Sənədsiz qiymətli kağız anlayışı bizim ölkə qanunvericiliyinə də məlumdur. Biz əvvəlki paraqrafda bu qiymətli kağızın əsas cəhət və xüsusiyyətini işıqlandırmışıq.

3. Qiymətli kağızların ayrı-ayrı növlərinin qısaca xarakteristikası

İstiqraz dedikdə, elə bir qiymətli kağız növü başa düşülür ki, həmin qiymətli kağız istiqraz sahibinin onu buraxmış şəxsdən (emitentdən) istiqrazda nəzərdə tutulan müddətdə istiqrazın nominal dəyərini və ya başqa əmlak ekvivalentini almaq hüququnu təsdiq edir. İstiqraz sahibinin həm də istiqrazın nominal dəyərindən gəlir almaq və ya digər əşya hüquqları vardır. Gəlir faiz şəklində verilir. Onu miqdarı və ödənilməsi istiqraz buraxılan zaman müəyyənləşdirilir.

İstiqraz borc münasibətlərini (borc öhdəliklərini) təsdiq edir. Bu münasibətlər istiqraz sahibi ilə emitent (qiymətli kağızı buraxan) arasında əmələ gəlir. İstiqraz sahibi həmin münasibətdə kreditor, emitent isə borclu şəxs qismində iştirak edir. Emitent rolunda ya dövlət, ya bələdiyyələr, ya da ki xüsusi şəxslər çıxış edə bilər. Xüsusi şəxslərdən səhmdar cəmiyyətlərinin istiqrazlar buraxmaq hüququ vardır. Amma onların buraxdıqları istiqrazlar nizamnamə kapitalının miqdarından və ya üçüncü şəxslərin cəmiyyətə bu məqsədlə verdikləri təminatın ölçüsündən çox ola bilməz (MM-in 106-cı maddəsinin 1-ci bəndi).

Emitentdən asılı olaraq, istiqrazların iki növü fərqləndirilir: dövlət istiqrazları; xüsusi şəxslərin (səhmdar cəmiyyətinin) buraxdıqları istiqrazlar. Emitent rolunda

bələdiyyələr də çıxış edə bilərlər. Onların buraxdıqları istiqrazlar bələdiyyə istiqrazları adlanır. İstiqrazlar həm adlı, həm də adsız (təqdimedənə) ola bilər.

Konversiya borcu istiqrazı istiqrazın növlərindən biridir. Bu növ istiqraz açıq səhmdar cəmiyyəti tərəfindən buraxılır. O, sahibinə aşağıdakı hüquqları verir: faizlərin hesablanmasını tələb etmək hüququ; onu eyni növ qiymətli kağızlarla dəyişmək hüququ; yeni səhmlər əldə etməkdə üstünlük hüququ.

Konversiya borcu istiqrazlarının vətəni ABŞ-dır. Birinci dünya müharibəsindən sonra Qərbi Avropada bu istiqraz növü faktiki olaraq geniş yayılmış, sonra isə qanunvericilik qaydasında sanksiyalaşdırılmışdır[1].

İstiqrazın bu növü ümumi şəkildə Mülki Məcəllə ilə tənzimlənir. Məcəllənin 1076-cı maddəsi konversiya borcu istiqrazlarına həsr edilmişdir.

Təmin edilmiş istiqraz digər istiqraz növüdür. Onunla bağlı olan münasibətlər MM-in 1076-1-ci maddəsi ilə tənzimlənir. Əgər istiqraz üzrə öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilərsə, belə istiqraz təmin edilmiş istiqraz adlanır. Bu istiqrazlar üç cür olur: girovla təmin edilmiş istiqraz; qarantiya ilə təmin edilmiş istiqraz; dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqraz.

İstiqrazlar MM-in 1070-1076-5-ci maddələri ilə tənzimlənir.

Səhm elə bir qiymətli kağızdır ki, bu kağız səhmdar cəmiyyətində üzvlüyü və sahibinin (səhmdarın) cəmiyyətin götürdüyü mənfəətin bir hissəsini dividendlər şəklində almaq, səhmdar cəmiyyətinin işlərinin idarə olunmasında iştirak etmək hüququnu və cəmiyyətin ləğvindən sonra qalan əmlakın bir hissəsinə olan hüququnu təsdiqləyir. Bu qəbildən olan qiymətli kağız yalnız səhmdar cəmiyyətləri tərəfindən buraxıla bilər. Başqa hər hansı bir kommersiya təşkilatının səhm buraxmaq imkanı istisna edilir. Səhmlər qiymətli kağızların ən geniş yayılmış növlərindən biridir. Səhmdar cəmiyyətləri öz nizamnamə kapitalını səhm buraxmaq yolu ilə formalaşdırır. Digər tərəfdən səhmlər təsərrüfat-sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün əlavə pul vəsaiti cəlb etmək vasitəsidir.

Səhmlə təsdiqlənən hüququn daşıyıcısını (səlahiyyətli şəxsi) müəyyən etmək və fərdiləşdirmək üsuluna görə səhmlər həm **adlı, həm də adsız səhm növündə** ola bilərlər. Mübahisəsiz olaraq qeyd etmək lazımdır ki, adsız qiymətli kağızlar daha yüksək dövriyyə qabiliyyətinə malikdir.

Səhmdarlara verilən hüququn həcminə görə səhmlərin iki növü fərqləndirilir: adi (sadə) səhmlər; imtiyazlı (təminatlı) səhmlər. **Adi (sadə) səhmlər** odur ki, onlar öz sahibinə heç bir imtiyaz (təminat) vermir. **İmtiyazlı səhmlər** isə adi (sadə) səhmlərdən fərqli olaraq, öz sahibini müəyyən imtiyazlarla təmin edir (dərsliyin «Hüquqi şəxslər» adlı fəslinin «Kommersiya təşkilatları» paraqrafının «Səhmdar cəmiyyəti» bölməsinə bax).

Adi (sadə) səhm öz sahibinə imtiyaz (təminat) verməsə də, onu aşağıdakı hüquqlarla təmin edir: mənfəətin bir hissəsini devidendlər şəklində almaq; səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək; səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlakının bir hissəsini əldə etmək. İmtiyazlı səhm

[1] Гражданское и торговое право зарубежних государств. Учебник. Том. 1. М., 2004, с. 213.

səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, sahibinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində devidend almasına təminat verir, səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququ verir. Nizamnamədə digər üstünlüklər də nəzərdə tutula bilər.

Dövriyyə qabiliyyətinə görə səhmlər iki cür olur: sərbəst dövriyyə qabiliyyətli səhmlər; məhdud dövriyyə qabiliyyətli səhmlər. Açıq tipli səhmdar cəmiyyətinin buraxdığı səhmlərə **sərbəst dövriyyə qabiliyyətli səhmlər** deyilir. Qapalı tipli səhmdar cəmiyyətinin buraxdığı səhmlər isə **məhdud dövriyyə qabiliyyətli səhmlər** adlanır.

«Qızıl səhm» səhmlərin xüsusi xarakterli növüdür. Bu cür səhm dövlət müəssisələrinin özəlləşdirilməsi prosesində təsis edilən səhmdar cəmiyyətində buraxılır. «Qızıl səhm» elə bir qiymətli kağızdır ki, o, həmin səhmdar cəmiyyətinin nizamnamə kapitalında dövlətin payını əks etdirir. Onun təsdiqlədiyi və ifadə etdiyi hüquq dövlətə məxsusdur. Dövlət adından «Qızıl səhm»in sərəncamçısı kimi İqtisadi İnkişaf Nazirliyi çıxış edir.

«Qızıl səhm»in əsas xüsusiyyəti ondan ibarətdir ki, o öz sahibinə bəzi məsələlər barəsində qəbul edilən qərarlara «veto» qoymaq hüququ verir. Bu məsələlər qanunvericiliyə uyğun olaraq, səhmdarların 3/4 (75%) səs çoxluğu qəbul olunur və onların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilir. Həmin məsələlərə şamil olunur: cəmiyyətin nizamnaməsinə dəyişikliklər edilməsi haqqında; cəmiyyətin fəaliyyətinə xitam verilməsi haqqında[1].

Veksel (almanca «wechsel» — dəyişdirmə, dəyişmə)[2] kredit münasibətlərini təsdiq edən qiymətli kağızdır. Xarici ölkələrdə o, kredit və ödəniş vasitəsi kimi mühüm rol oynayır. Veksel kredit-hesablaşma münasibətlərinə — pul dövriyyəsinə xidmət etmək məqsədi güdür.

Veksel elə bir orderli qiymətli kağızdır ki, bu kağızı verən (veksel verən) onun vasitəsilə ya müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir, ya da hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamı ilə müəyyən məbləğ ödəməyi öhdəsinə götürür. Veksel münasibətləri MM ilə (1004-1048-2-ci maddələr) və müvafiq əsasnamə ilə tənzimlənir[3].

Veksel özündə həm qiymətli kağızın əlamətlərini, həm də ödəniş vasitəsinin əlamətlərini birləşdirir. Ona görə də o, **ödəniş qiymətli kağızları kateqoriyasına** aid edilir.

Veksel iki cür olur: köçürmə vekseli; sadə veksel. Köçürmə vekseli pul dövriyyəsində daha geniş səviyyədə tətbiq edilir.

Köçürmə vekseli odur ki, veksel verən onun vasitəsi ilə müəyyən şəxsə (veksel saxlayana) və ya bu şəxsin sərəncamı ilə müəyyən məbləği ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir. Ona **tratta** (italyanca «tratta») da deyilir.

Köçürmə vekselində üç şəxs çıxış edir: veksel verən; veksel saxlayan; ödəyici. **Veksel verən** veksel yazan şəxsdir. Ona **trassant** (almanca «trassant», italyanca «trassante» — tratta verən şəxs) da deyilir. **Veksel saxlayan** veksel alan və onu ödənişə təqdim edən şəxsdir. O, veksel əsasında veksel üzrə ödənişin həyata keçirilməsini tələb etmək hüququna malikdir. **Ödəyici** veksel saxlayanın tələbi ilə veksel üzrə ödəniş həyata keçirməyə borclu olan şəxsdir. Ona **trassat** (almanca «trassat», italyanca «trassare» - veksel üzrə köçürmək) da deyilir. Bir qayda olaraq, ödəyici rolunda bank çıxış edir. Elə bir bank ki, həmin bankdakı hesabda veksel verən öz pul vəsaitini saxlayır.

Köçürmə vekseli **məcburi rekvizitlərə malik olan formal sənəddir**. Bu sənəddə həmin rekvizitlər hökmən göstərilməlidir: sənədin mətninə daxil edilmiş «veksel» adı; veksel verənin müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləndirilməmiş göstərişi; veksel üzrə ödənişi həyata keçirməli olan ödəyicinin (bankın) adı; ödənişi kimə və ya kimin sərəncamı ilə icra edilməlidirsə, onun adı; vekselin tərtib edildiyi tarix; veksel verənin imzası; vekselin tərtib edildiyi yer; vekselin ödənilməsi vaxtı; ödənişin icra edilməli olduğu yer.

Başqa borc öhdəliklərindən fərqli olaraq, köçürmə vekseli digər şəxslərə verilə bilər, çünki veksel orderli qiymətli kağızların klassik formasıdır. Bu, indossament vasitəsilə həyata keçirilir. Belə ki, vekselin arxa tərəfində və ya ona əlavə edilmiş vərəqdə — **allonjda** (fransızca «allonge» — calama, əlavə etmə) ödənişi almaq hüququnun başqa şəxsə verilməsi barədə qeyd edilir. Bu hüququ verən şəxs (indossant) ödəyici (bank) tərəfindən vekselin ödənilməsinə razılıq verilməsi (aksept) və ödəniş üçün məsuliyyət daşıyır. Köçürmə vekselinin indossament vasitəsilə bir şəxsdən digərinə keçməsi onu ifadə edir ki, veksel **hesablaşma funksiyasını** yerinə yetirir.

Köçürmə vekselində ödəyici (bank) əsas borclu hesab edilir. O, yalnız aksept anından köçürmə vekseli üzrə əsas borcluya çevrilir. Belə ki, veksel saxlayan və ya vekseli olan hər hansı şəxs köçürmə vekselini ödəniş müddəti çatana kimi aksept üçün ödəyiciyə təqdim edir. Aksept (latınca «acceptus» — qəbul edilmiş) ödəyicinin vekselin ödəməsinə razılıq verməsini ifadə edir. Bunun vasitəsilə ödəyici öz üzərinə köçürmə vekselini vaxtında ödəmək öhdəliyini götürür. Əgər ödəyici bu öhdəliyi pozaraq, ödənişi həyata keçirməzsə, ona məhkəmə qaydasında iddia verilir.

Vekselin qismən akseptinə yol verilir. Belə halda ödəyici veksel məbləğinin yalnız bir hissəsini ödəmək vəzifəsini daşıyır.

Ödəyici köçürmə vekselində öz aksepti barəsində qeyd yazır. Bu qeyd ödəyicinin vekseli ödəməsinə razılıq verməsini ifadə edir.

Veksel zaminliyi veksel saxlayanın mənafeyini əlavə olaraq təmin edən vasitədir. O, veksel üzrə ödənişə zəmanət verən üsuldur. Buna **aval** (fransızca «aval» — zaminlik)[1] da deyilir. Veksel zaminliyi (aval) odur ki, onun vasitə-

[1] «Qızıl səhm»in əsas cəhətləri barədə bax: prezidentin 19 may 1998-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət mülkiyyətinin özəlləşdirilməsi zamanı yaradılan açıq tipli səhmdar cəmiyyətlərinin buraxılışı və qeydiyyatı haqqında Əsasnamə» (AR QK, V cild, s. 427).

[2] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 134.

[3] bax: Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 2 fevral 2000-ci il tarixli 022 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə» // Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu. Bakı. 2000, s. 85 (tərtibçi *A.H.Abbasovdur*).

[1] Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина, И.А.Акчурина, Р.С.Карпинского*. М., 1985, с. 9.

silə köçürmə vekseli üzrə ödəniş tamamilə və ya qismən təmin edilir. Bu cür zaminliyi (avalı) ya üçüncü şəxs, ya da vekseldə imza etmiş şəxslərdən hər biri verə bilər.

Veksel zaminliyi köçürmə vekselində və ya əlavə vərəqədə (allonjda) yazılmış qeydlə rəsmiləşdirilir və avalçı tərəfindən imzalanır. **Avalçı** dedikdə, veksel zamini başa düşülür. Bununla bərabər, digər tərəfdən vekselin üz tərəfində qoyulan hər bir imzaya aval kimi baxılır, yəni aval üçün köçürmə vekselinin üz tərəfində qoyulan imza kifayətdir, bir şərtlə ki, bu ödəyicinin və ya veksel verənin imzası olmasın (MM-in 1016-cı maddəsinin 3-cü bəndi).

Avalda dəqiq və konkret olaraq göstərilməlidir ki, avalçı veksel borclularından (veksel verən, ödəyici və ya indossantdan) kimin yerinə zamin durur. Əgər bu cür göstəriş olmazsa, onda hesab edilir ki, aval veksel verənin əvəzinə verilmişdir.

Avalçı zamin durduğu şəxslərlə (yəni o şəxslərlə ki, avalçı onların əvəzinə zamin durmuşdur) veksel üçün ödəniş və aksept üçün eyni həcmdə məsuliyyət daşıyır. Söhbət ödəyicidən, veksel verəndən və indossantdan gedir. Bu, birgə məsuliyyət xarakteri daşıyır. Onun qarantiya verdiyi öhdəlik, əgər etibarsız olarsa, onda avalçı həmin qaydada məsuliyyət daşıyır.

Veksel ödənilmədiyi hallarda veksel saxlayanın ixtiyarı var ki, istənilən indossantdan, veksel verəndən və ya avalçıdan ödənişin həyata keçirilməsini tələb etsin. Avalçı bu tələbi yerinə yetirərək, köçürmə vekselini ödəyir. Bundan sonra avalçı zamin durduğu şəxsə və köçürmə vekselinə görə onun qarşısında borclu olan şəxslərin hamısına tələb irəli sürə bilər (MM-in 1016-cı maddəsinin 6-cı bəndi).

Sadə veksel odur ki, veksel verən onun vasitəsilə hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamı ilə (yəni o şəxsə ki, o, veksel saxlayanı göstərir) müəyyən məbləğ ödəməyi öhdəsinə götürür. Köçürmə vekselindən fərqli olaraq, sadə vekseldə iki şəxs iştirak edir. Bu şəxslərdən biri — veksel verən veksel yazır (verir) və özü həmin veksel üzrə ödənişi həyata keçirir. Digər şəxs (veksel saxlayan) isə veksel alır və onu ödənişə təqdim edir. **Sadə vekseldə ödəyici (trassat) çıxış etmir**. Onu veksel verən əvəz edir, yəni ödəyici rolunda veksel verənin özü çıxış edir.

Azərbaycan Respublikasının mülki qanunvericiliyinə görə, veksel yalnız orderli qiymətli kağız ola bilər. Bizim ölkə qanunvericiliyi onun adlı və adsız qiymətli kağız növündə olmasını nəzərdə tutmur. Bu hal Cenevrə Konvensiyası (1930) iştirakçısı olan bütün dövlətlərin qanunvericiliyi üçün xarakterikdir. Bu konvensiya köçürmə və sadə veksel haqqında vahid qanun adlanır[1]. Bu qanun adsız vekseldən istifadə olunmasına yol vermir.

Xəzinə vekseli sadə vekselin yarımnövüdür. MM-in 1048-1-ci maddəsi bu növ vekselle bağlı münasibətləri tənzimləyir. Xəzinə vekseli dedikdə dövlət büdcəsindən ödənilməli olan vəsaitlərin məbləğini təsbit edən və ya qısa müddətə şəxslərdən sərbəst pul vəsaitlərinin cəlb edilməsi məqsədilə buraxılmış qiymətli kağız başa düşülür. Qeyd etmək lazımdır ki, üç əsas halda xəzinə

[1] bax: Международное частное право. Сборник нормативных документов / Сост. *Н.Ю.Ерпылева*. М., 1994.

vekseli verilir:

- birincisi, büdcənin cari ehtiyaclarını təmin etmək məqsədilə vəsaitlərin cəlb edilməsi hallarında;
- ikincisi, büdcə təşkilatlarına nəzərdə tutulmuş vəsaitlərin ödənilməsi zamanı xəzinədarlığın sərəncamında kifayət qədər vəsait olmadığı hallarda;
- büdcənin müəssisə və təşkilatlara borcu olduğu hallarda.

Pul dövriyyəsinə, kredit-hesablaşma münasibətlərinə xidmət etmək məqsədi güdən qiymətli kağızlardan biri **çek** (ingiliscə «chek» — yazılı sənəd) adlanır. O, veksel kimi ödəniş qiymətli kağızlar kateqoriyasına aid edilir. Hesablaşma münasibətlərində çekdən geniş səviyyədə istifadə edirlər. Dərsliyin III cildində bu növ qiymətli kağızla bağlı olan bütün məsələlər ətraflı surətdə nəzərdən keçirilmiş və işıqlandırılmışdır.

Qiymətli kağızların növlərindən biri **konosament** (fransızca «connoissement» — gəmi kapitanı tərəfindən yükgöndərənə verilən qəbz)[1] adlanır. Konosament elə bir qiymətli kağızdır ki, o, sahibinin konosamentdə göstərilən yükə dair sərəncam vermək və daşıma başa çatdıqdan sonra yükü almaq hüququnu təsdiqləyir. O, mala sərəncamverici (əmtəə) qiymətli kağız kateqoriyasına aid edilir. Konosament yüklərin dənizlə daşınması hallarında tətbiq edilir. Onun əsas cəhətləri və xüsusiyyətləri Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində göstərilmişdir. Dərsliyin III cildinin «Nəqliyyat öhdəlikləri» adlı fəslində onun geniş hüquqi xarakteristikası verilmişdir.

Adsız bank kitabçası qiymətli kağızların bir növüdür. Fiziki şəxslə bank arasında bank əmanəti (depozit) müqaviləsinin bağlanmasını və onun əmanət üzrə hesabına pul vəsaitinin qoyulmasını təsdiqləyən qiymətli kağıza bank kitabçası deyilir. Bu kitabçanın sahibi rolunda həm Azərbaycan Respublikasının vətəndaşları, həm də xarici ölkə vətəndaşları (həmçinin vətəndaşlığı olmayan şəxslər) çıxış edə bilər.

Bank kitabçası yüksək dövriyyə qabiliyyətinə malikdir. Belə ki, bu kitabça hər hansı mürəkkəb xüsusi proseduraya yol verilmədən, formallıq olmadan və rəsmiləşdirilmədən bir şəxsdən digərinə keçə bilər. Bunun üçün kifayətdir ki, bank kitabçasını onun sahibi başqa şəxsə təhvil versin, yəni kitabçaya sahiblik hüququnu digər şəxsə versin. Bu qiymətli kağızla bağlı olan bütün məsələlərə dərsliyin III cildinin «Bank əmanəti müqaviləsi» adlı fəslində aydınlıq gətirilmişdir.

Qoşa anbar şəhadətnaməsi qiymətli kağız növlərindən biridir. Mal anbarı tərəfindən malın saxlanmağa qəbul olunmasını təsdiqləyən orderli qiymətli kağıza **qoşa anbar şəhadətnaməsi** deyilir. O, iki hissədən ibarətdir: anbar şəhadətnaməsindən; girov şəhadətnaməsindən. Bu hissələrin hər biri ayrı-ayrılıqda qiymətli kağızdır. **Anbar şəhadətnaməsi** elə bir qiymətli kağızdır ki, o, mal anbarı tərəfindən malın saxlanmağa qəbul olunduğunu təsdiqləyir, habelə onun hər hansı bir şəxsə məxsus olmasını sübut edir.

Girov şəhadətnaməsi isə mal anbarının saxlanmağa qəbul etdiyi malın girov qoyulmasını təsdiq edir. Ona **varrant** (ingiliscə «warrant» — səlahiyyət)

[1] Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина, И.А.Акчурина и др.* М., 1985, с. 245.

də deyilir. Bu sənəd girov saxlayana verilir. Alıcı anbar şəhadətnaməsini girov şəhadətnaməsi olmadan əldə etdikdə, bu, onu göstərir ki, mal girov qoyulmuşdur. Bu halda alıcının borcudur ki, girov şəhadətnaməsini almaq üçün girov saxlayanla hesablaşma aparsın. **Adi (sadə) anbar şəhadətnaməsi** isə adsız qiymətli kağızdır. O, mal anban tərəfindən malın saxlanmağa qəbul olunduğunu təsdiq edir. Anbar şəhadətnaməsi üzrə münasibətlər dərsliyin III cildinin «Saxlama müqaviləsi» adlı fəslində işıqlandırılır.

Dövlət özəlləşdirmə payı qiymətli kağız kateqoriyasına aid edilir[1]. Azərbaycan Respublikasının hər bir vətəndaşına özəlləşdirilən dövlət mülkiyyətindən əvəzsiz verilən hissəni ifadə edən qiymətli kağıza **dövlət özəlləşdirmə payı** deyilir. O, nağd qiymətli kağız formasında olan dörd çəkdən ibarətdir.

Dövlət özəlləşdirmə payı adsız qiymətli kağızdır. Ona görə də o, yüksək dövriyyə qabiliyyətinə malikdir. O, xüsusən alqı-satqı hüquq münasibətinin obyekti kimi çıxış edir[2].

Dövlət özəlləşdirmə opsionu (almanca «option», latınca «optio» — seçki) da qiymətli kağız hesab edilir[3]. Bu, elə bir qiymətli kağızdır ki, o öz sahibinə sonradan özəlləşdirmədə istifadə etmək üçün özəlləşdirmə çeki almaq və özəlləşdiriləcək müəssisələrin səhmlərini almaq hüququ verir. Onların sahibi rolunda yalnız xarici investorlar (sərmayəçilər) çıxış edə bilər. Dövlət özəlləşdirmə opsionu adsız (təqdimedənə) nağd qiymətli kağızdır[4].

Həm dövlət özəlləşdirmə payı, həm də dövlət özəlləşdirmə opsionu özəlləşdirmə qiymətli kağızı hesab edilir. **Özəlləşdirmə qiymətli kağızları** dedikdə, dövlət əmlakının müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada özgəninkiləşdirilməsi məqsədilə buraxılan qiymətli kağızlar başa düşülür. Bu qiymətli kağızlar dövlət əmlakının özəlləşdirilməsi zamanı buraxılır. Onunla bağlı olan münasibətlər (növləri, emissiyası, tədavülü qaydaları və digər məsələlər) Mülki Məcəllə ilə və digər normativ aktlarla müəyyən olunur (MM-in 1078-4-cü maddəsinin 2-ci bəndi).

Order elə bir sənəddir ki, onun əsasında bir şəxs başqa şəxsə (ödəyiciyə) özünün hesabına remitentə pul, qiymətli kağızlar və digər əvəzolunan əşyalar verməyi tapşırır. Order remitentin (latınca «remittens» — göndərən, yollayan)[1] adına, adsız və ya əmrə dair qeyd-şərtlə verilə bilər.

Orderlə bağlı olan münasibətlər Mülki Məcəllə ilə tənzimlənir. Məcəllənin müvafiq maddələri (998-1003-cü maddələr) bu münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Həmin münasibətlərə məcəllənin veksellər və ya çeklər barədə müddəaları da tətbiq edilə bilər. Belə ki, əgər order «veksel» və ya «çek» kimi göstərilərsə, onda həmin müddəalardan istifadə olunur (MM-in 998-ci maddəsinin 1-ci bəndi).

Order münasibətlərində üç kateqoriya subyekt çıxış edir: order verən; remitent; ödəyici. **Order verən** ödəyiciyə tapşırıq verən şəxsdir. Qanunda o, **çıxarıcı** adlanır. Tapşırığın məzmunu remitentə pul, qiymətli kağızlar və s. ödəməkdən ibarətdir. Order verən remitentə (səlahiyyətli şəxsə) borcu olan şəxsdir. Səlahiyyətli şəxsə (remitentə) order verməklə, o borcunu ödəmək vəzifəsini yerinə yetirmək istəyir. Order ödənildikdən sonra bu vəzifə icra edilmiş sayılır.

Remitent order verən şəxsdən order alaraq, onu ödəniş üçün ödəyiciyə təqdim edir. O, əsas əqd üzrə (məsələn, alqı-satqı, daşıma, mal göndərmə və s. müqavilələr üzrə) səlahiyyətli şəxs hesab edilir. Onun həmin əqd üzrə qarşı tərəfə (order verənə) müvafiq tələbi vardır. Order ona dəlalət edir ki, əsas əqd üzrə səlahiyyətli şəxs (remitent) order verəndən tələb etmək hüququna malikdir. Bu tələbi ödəmək və təmin etmək üçün remitent order alır. Bununla o, ödəyicidən pulun, qiymətli kağızın və s. verilməsini tələb etmək hüququ əldə edir.

Ödəyici remitentin pulun, qiymətli kağızın və s. verilməsini nəzərdə tutan tələbini ödəməyə borclu olan şəxsdir. Çox vaxt ödəyici rolunda banklar çıxış edir. Bank hesabında order verənin pul vəsaiti saxlanılır. Həmin pul vəsaitinin hesabına da order verən order yazır.

Remitent ödəniş müddəti çatana kimi orderi aksept üçün (ödəniş üçün razılıq almaq üçün) ödəyiciyə təqdim edir. Ödəyici orderi aksept edir. Bundan sonra o, order üzrə ödənişi (icranı) həyata keçirir. Bu vəzifə yalnız order aksept edildiyi halda yerinə yetirilə bilər. Bununla belə, ödəyici orderin icrasını aksept edilmədən də həyata keçirə bilər. Bu, yalnız o halda mümkün olur ki, ödəyici order verənə borclu olsun.

Aksept, adətən, order üzrə icradan əvvəl edilir. Bu halda ödəyici orderdə aksept haqqında qeyd yazır. Aksept etmə order üzrə icra zamanı da həyata keçirilə bilər. Aksept edildikdən sonra order ödəyici tərəfindən icra edilir, yəni remitentə pul, qiymətli kağız və s. verilir.

Ödəyici orderi aksept etməkdən və ya ödənişi həyata keçirməkdən imtina edə bilər. Belə halda remitent bu barədə order verənə dərhal bildiriş verməlidir.

Ödəyici order verənin hesabına, lakin öz adından remitentlə öhdəlik münasibətinə girir. Bu, o deməkdir ki, o, order verənin açıq və birbaşa yox, **dolayı və gizli nümayəndəsidir**. Mehz buna görə söyləyə bilərik ki, orderin verilmə-

[1] Dövlət özəlləşdirmə payının əsas cəhətlərinə bax: Azərbaycan Respublikasının 29 sentyabr 1995-ci il tarixli 1120 saylı qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» // Sahibkarlığa kömək və özəlləşdirmə proqramları. Bakı. 1999. Buraxılış 4, s. 30.

[2] Yaxın vaxtlara kimi dövlət özəlləşdirmə paylarının alqı-satqısı ilə məşğul olmaq niyyətində olan şəxslər xüsusi razılıq (lisenziya) almalı idilər (bax: Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 26 yanvar 2000-ci il tarixli 19 saylı əmri ilə təsdiq edilmiş «Dövlət özəlləşdirmə paylarının (çeklərinin) alqı-satqısı ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi və bu fəaliyyət növünün tənzimlənməsi haqqında təlimat» // Qiymətli kağızlar bazarı. Normativ aktlar toplusu. Bakı. 2000. Təsdiq olunmuş yeni siyahı isə bu növ qiymətli kağızların alqı-satqısını xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növünə aid etmir (bax: «Respublika» qəzeti, 3 sentyabr 2002-ci il).

[3] bax: Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 17 yanvar 2000-ci il tarixli 10 №-li əmri ilə təsdiq edilmiş «Dövlət özəlləşdirmə opsionlarının buraxılışı, tədavülü və silinməsi qaydaları» // Qiymətli kağızlar bazarı. Normativ aktlar toplusu. Bakı. 2000, s. 104.

[4] Bu qiymətli kağızlar barədə bax: «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı»; Azərbaycan Respublikası prezidentinin 2000-ci il 10 avqust tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı» // AR QK, III xüsusi buraxılış, s. 667; prezidentin 2000-ci il 23 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Dövlət özəlləşdirmə opsionları haqqında Əsasnamə» // AR QK, III xüsusi buraxılış, s. 688.

[1] Köçürmə vekseli üzrə pul alana remitent deyilir (bax: Словарь иностранных слов. М., 1985, с. 428).

si ilə bağlı münasibətlər **gizli nümayəndəlik münasibətlərinin əmələ gəlməsinə** səbəb olur.

Qiymətli kağızların bir növü depozit sertifikatları adlanır. MM-in 1078-5-ci maddəsi bu növ qiymətli kağızın tənzimlənməsinə həsr edilmişdir. Əmanətçidən banka pul məbləği daxil ola bilər: pul məbləğinin həm də eyni zamanda başqa şəxsin, lakin əmanətçi üçün banka qoyulması mümkündür. Daxil olmuş və qoyulmuş pul məbləğinə görə bank əmanətçiyə müəyyən sənəd verir. Həmin sənədə depozit sertifikatı deyilir. Depozit sertifikatı təsdiq edir ki, əmanətçidən banka pul məbləği daxil olmuşdur. Bu pul məbləği **depozit** adlanır. Bank depozitə görə faizlər hesablayır. **Depozit sertifikatı əmanətçini depoziti və onun üçün hesablanmış faizləri bankdan almaq hüququ ilə təmin edir. Depozit sertifikatı** (fransızca «certificat», latınca «certum» düzdür + «facare» etmək — təsdiq etmək)[1] dedikdə, əmanətçi tərəfindən depozitin kredit təşkilatında yerləşdirilməsini və əmanətçinin, yaxud onun hüquqi varisinin həmin depoziti və depozit üzrə faizləri kredit təşkilatından qeyd-şərtsiz almaq hüququnu təsdiqləyən qiymətli kağız növü başa düşülür. Bu qiymətli kağızın buraxılması, qeydiyyatı və tədavülü qaydaları müvafiq əsasnamə ilə müəyyən edilir[2].

Depozit sertifikatları **həm adlı, həm də adsız (təqdimedənə) qiymətli kağız** növündə ola bilər. Onlar yalnız **sənədləşdirilmiş formada** buraxılır. Depozit sertifikatlarının həm milli, həm də xarici valyutada buraxılması mümkündür. Buna qüvvədə olan qanunvericilik yol verir.

Depozit sertifikatları **müddətli qiymətli kağızdır.** Onlar üç ildən artıq müddətə buraxıla bilməz.

Depozit sertifikatı **pul (öhdəlik) qiymətli kağızları kateqoriyasına** aid edilir. Onlardan malların alqı-satqısı və xidmətlərin göstərilməsinə görə ödəniş və ya hesablaşma vasitəsi kimi istifadə etmək olmaz.

Depozit sertifikatları alqı-satqı, girov, bağışlama, dəyişmə və digər mülki hüquq münasibətlərinin obyekti ola bilər.

Mənzil sertifikatını Mülki Məcəllə qiymətli kağızın növlərindən biri kimi nəzərdə tutur (MM-in 1078-1-ci maddəsi). Qiymətli kağızın bu növü ilə bağlı olan münasibətlər, onların buraxılışı və tədavülü qaydaları Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin müvafiq normativ hüquqi aktları ilə tənzimlənir.

Mənzil sertifikatları elə qiymətli kağızlardır ki, onlar öz sahibinə buraxılış şərtlərində müəyyən olunan şərtlərə əməl etdikləri təqdirdə emitentdən (mənzil sertifikatını buraxan şəxsdən) tikintisi (yenidən qurulması) bu qiymətli kağızların yerləşdirilməsindən alınan vəsait hesabına maliyyələşdirilən binaların (mənzillərin) onların mülkiyyətinə verilməsi yolu ilə ödənilməsini tələb etmək hüququ verir. Bu növ qiymətli kağızların sahibi həm fiziki, həm də hüquqi şəxslər ola bilər.

Mənzil sertifikatları sənədli qiymətli kağız formasında olur. Onlar adlı və ya adsız qiymətli kağız növündə buraxıla bilər.

[1] bax: Словарь иностранных слов. М., 1985, с. 451.

[2] Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 15 fevral 2000-ci il tarixli 029 №-li əmri ilə təsdiqlənmiş «Kredit təşkilatlarının depozit sertifikatları haqqında Əsasnamə» // Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu. Bakı. 2000, s. 164 (tərtibçi *A.H.Abbasov*).

Qiymətli kağızların bəzi növləri öhdəliklərin təminatını təsbit etmək məqsədinə xidmət edir. Söhbət girov və ipoteka kağızlarından gedir. MM-in 1078-2-ci maddəsi onların tənzimlənməsinə həsr edilmişdir.

İpoteka kağızı ipoteka hüququnu təsbit edən adlı qiymətli kağızdır. Onun adsız qiymətli kağız növündə buraxılması mümkün deyil. İpoteka kağızı öz qanuni sahibinə ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən ipoteka (girov) hüququnu təsdiq edir. O, həm də eyni zamanda ipoteka predmetinə (obyektinə) tutmanın yönəldilməsini təsdiqləyir. Bu kağızın əsas qanuni sahibi ipoteka (girov) saxlayandır.

İpoteka kağızı ilə bağlı münasibətlər «İpoteka haqqında» qanunla (15 aprel 2005-ci il) tənzimlənir. Bu qanunun 3-cü fəsli (17-23-cü maddələr) onun hüquqi nizamlanmasına həsr edilmişdir. Həmin fəsildə ipoteka kağızı ilə təsdiqlənən hüquqlar, ipoteka kağızının məzmunu, ipoteka kağızının dövlət qeydiyyatı, ipoteka kağızı üzrə hüquqların verilməsi, həyata keçirilməsi və bərpası (əgər ipoteka kağızı itirilərsə və ya korlanarsa), habelə ipoteka kağızına xitam verilməsi kimi məsələlər barədə normalar ifadə olunmuşdur.

İpoteka kağızından xüsusən ipoteka kreditləri sahəsində istifadə olunur. O, kredit dosyesinə daxil olan əsas sənədlərdən biridir[1].

Girov kağızı girovqoyanla, o, borclu deyilsə, həm də borclu ilə girovsaxlayan arasında əmlakın və hüquqların girov qoyulmasını və bundan irəli gələn hüquq və vəzifələri təsbit edən qiymətli kağızdır. O yalnız adlı qiymətli kağız formasında ola bilər. O, adsız qiymətli kağız növündə buraxıla bilməz. Bu aydın məsələdir.

Törəmə qiymətli kağızlar qiymətli kağızların xüsusi növünü təşkil edir. Hər hansı aktivi (qiymətli kağız, valyuta, əmtəə, birja indeksi və s.) almaq və satmaq hüququnu təsbit edən qiymətli kağızlara törəmə qiymətli kağızlar deyilir. Onların iki əsas növü vardır:

- fyuçers;
- opsion.

Fyuçers dedikdə, müəyyənləşdirilmiş müddətdə bu və ya baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyini təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən kağız başa düşülür.

Opsion dedikdə, sahibinə müəyyənləşdirilmiş müddətə bu və ya digər baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə almaq və ya satmaq hüququnu ifadə edən qiymətli kağız başa düşülür. **Törəmə qiymətli kağızlar üçün baza aktivinə** aiddir: xarici valyuta; qiymətli kağızlar; birja indeksləri; əmtəələr; digər aktivlər.

[1] Bax: prezidentin 22 dekabr 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi Qaydalarının» 4.12-ci bəndi.

§ 4. Mülki hüquq münasibətlərinin digər obyektləri

1. Əqli mülkiyyət obyektləri

Mülki hüquqla iki qrup (növ) ictimai münasibət tənzimlənir: əmlak münasibətləri; şəxsi qeyri-əmlak münasibətləri. Məlum məsələdir ki, əmlak münasibətlərinin obyekti rolunda maddi nemətlər, o cümlədən əşyalar çıxış edir. Qeyri-maddi nemətlər isə şəxsi qeyri-əmlak münasibətlərinin obyektini təşkil edir. Bu nemətlərə əvvəllər də qeyd etdiyimiz kimi, ideal nemətlər də deyilir. Onlar iki cür olur: əmlak dəyərli (əmtəə xarakterli) qeyri-maddi nemətlər; əmlak dəyəri olmayan (qeyri-əmtəə xarakterli) qeyri-maddi nemətlər. Əmlak dəyərli (əmtəə xarakterli) qeyri-maddi nemətlər əmlak münasibətləri ilə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərinin obyekti qismində çıxış edir. Bu cür obyektlərə **əqli mülkiyyət obyektləri və ya müstəsna hüquqların obyektləri** deyilir. Beynəlxalq sənədlərdə «intellektual mülkiyyət» (latınca «intellectus» — ağıl, zəka, insanın təfəkkür qabiliyyəti) termini işlədilir.

Əmlak dəyəri olmayan (qeyri-əmtəə xarakterli) qeyri-maddi nemətlər isə əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərinin obyektini təşkil edir. Bunlar şəxsi qeyri-maddi nemətlər adlanır.

Əqli mülkiyyət obyektləri dedikdə, insanın əqli və təfəkkür fəaliyyətinin məhsulları və nəticələri başa düşülür. Bu cür məhsullar və nəticələr maddiləşmiş (obyektiv) forması olmayan elmi-texniki ideyalardan, obrazlardan, anlayışlardan və s. ibarətdir. Onları əşya kimi fiziki cəhətdən əldə etmək, onlara sahib olmaq qeyri-mümkündür. Məsələn, əsər yaradıcılıq fəaliyyətinin nəticəsi olub, ideya, obraz və fikirlərin məcmusudur. O, qeyri-maddi nemət olub, insan hiss və duyğuları ilə qavranılmır, dərk edilmir. Məhz bu səbəbdən o, mülki hüquq münasibətinin obyekti ola bilmir. Amma əsər maddiləşmiş (obyektiv) formada əks və ifadə edildikdə, bu forma əsərin başqa şəxslər tərəfindən qavranmasına və dərk edilməsinə imkan verir. Məsələn, əsərin əlyazması, şəkil, not yazısı və s. yaradıcı fəaliyyətin nəticələrinin dərk edilməsini təmin edən maddiləşmiş (obyektiv) və ya əşya formasıdır, bu nəticələrin maddi daşıyıcılarıdır. Çertyojlar, sxemlər, modellər və s. əqli fəaliyyətin digər məhsulu və nəticəsi olan ixtiranın (qeyri-maddi nemətin) ifadə olunduğu, təzahür etdiyi maddiləşmiş (obyektiv) formadır, onun maddi daşıyıcısıdır.

Əqli fəaliyyətin nəticələrinin maddi daşıyıcıları əşya kimi çıxış edir. Onlar başqa şəxslərin mülkiyyətinə, istifadəsinə verilə, alqı-satqının, kirayənin və s. obyekti ola bilər. Daha doğrusu, əqli fəaliyyətin maddiləşmiş nəticələri əmtəənin iqtisadi formasına çevrilir və beləliklə, mülki (əmlak) dövriyyənin obyekti qismində çıxış edirlər. Həmin nəticələr bu dövriyyənin obyekti olan əmtəənin iqtisadi anlayışını ifadə edir.

Əqli mülkiyyət obyektləri əqli mülkiyyət hüququnun dörd müvafiq institutuna uyğun olaraq, dörd qrupa bölünür. Birinci qrup **müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərindən** ibarətdir. Bu obyektlər özü iki yerə ayrılır: müəlliflik hüququnun obyektlərinə; əlaqəli hüquqların obyektlərinə.

Müəlliflik hüququnun obyektləri dedikdə, elm, ədəbiyyat və incəsənət

əsərləri başa düşülür. **Əlaqəli hüquqların obyektlərinə** isə ifalar, fonoqramlar (səsyazmalar), efir və ya kabel yayımı təşkilatlarının verilişləri aiddir.

İkinci qrup **patent hüququnun obyektləri** adlanır. Beynəlxalq sənədlərdə bu obyektlər **sənaye mülkiyyəti obyektləri** də adlanır. Patent hüququnun obyektlərinə ixtiralar, faydalı modellər və sənaye nümunələri aiddir.

Üçüncü qrup əqli mülkiyyət obyektlərinə **fərdiləşdirmə vasitələri hüququnun obyektləri** daxildir. Fərdiləşdirmə vasitələri hüququnun obyektləri dedikdə, firma adları, əmtəə nişanları, kommersiya nişanları (işarələri) coğrafi göstəricilər başa düşülür.

Əqli mülkiyyət obyektlərinin dördüncü qrupunu **qeyri-ənənəvi (qeyri-standart) obyektlər** təşkil edir. Qeyri-ənənəvi obyektlərə elmi kəşflər, qulluq və kommersiya sirri, inteqral mikrosxemlər, seleksiya nailiyyətləri və səmərələşdirici təkliflər daxildir.

Kommersiya və qulluq sirri mülki hüquq münasibətlərinin xüsusi xarakterli obyektidir. Bunlar əqli fəaliyyətin məhsulu və nəticəsidir. Əqli fəaliyyətin əsər, ixtira və digər nəticələrindən fərqli olaraq, kommersiya (və qulluq) sirri yaradıcı xarakterə malik deyil. Lakin buna baxmayaraq, o, əqli mülkiyyət anlayışına şamil edilir. **Kommersiya sirri** dedikdə, hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar başa düşülür[1].

Kommersiya və qulluq sirri, hər şeydən əvvəl, informasiyadır. Elə bir informasiya ki, əmtəə xarakterinə malik olub, kommersiya dəyərinə malikdir. Artıq neçə müddətdir ki, müasir dünyada informasiya xüsusi xarakterli əmtəə kimi çıxış edir.

Kommersiya və qulluq sirrini təşkil edən məlumatların tərkibi və həcmi müəssisənin rəhbəri tərəfindən müəyyən edilir. Bu cür məlumatlar, bir qayda olaraq, müəssisənin istehsalatı, texnoloji informasiyası, idarəetməsi, maliyyə və digər növ fəaliyyəti ilə bağlıdır. Aparılan işgüzar söhbətlər, bağlanan müqavilələr, potensial müştəri kontingenti, əmlak vəziyyəti, bazarda faktiki vəziyyət, yaranmış təsərrüfat-kommersiya əlaqələri və digər məsələlər barədə informasiyalar həmin məlumatlann tərkibinə aid edilə bilər.

Kommersiya və qulluq sirrini təşkil edən məlumatlar, adətən, **istehsal sirri** — «nou-hau» anlayışı ilə (ingiliscə «know-how» — necə bilmək) ilə ehatə olunur. Konfidensial informasiya olan «nou-hau»nun dünya kommersiya dövriyyəsində obyekt rolunda iştirakı günü-gündən artır[2]. **Nou-hau** dedikdə, qorunmayan konfidensial (məxfi) xarakterli, kommersiya qiyməti olan elmi-texniki, kommersiya, maliyyə və digər informasiyalar, habelə müxtəlif istehsal vərdişləri və onların tətbiqi təcrübəsi başa düşülür.

---

[1] «Kommersiya sirri haqqında» AR-in 4 dekabr 2001-ci il tarixli qanununun 2.0.1-ci maddəsi // AR QK, III cild, «Digesta» nəşriyyatı, s. 750.

[2] bax: *Зенин И.А.* Правовой режим ноу-хау // Основы гражданского права России (конспект лекций для специалистов по праву интеллектуальной собственности). М., 1993; *Зенин И.А., Князев О.К.* Правовые проблемы использования и передачи ноу-хау (на примере Франции и ФРГ) // Теория и практика изобретательства, рационализации и патентно-лицензионной работы. М., 1986, с. 110-115.

2. Şəxsi qeyri-maddi nemətlər

Şəxsi qeyri-maddi nemətlər mülki hüquq münasibətlərinin xüsusi xarakterli obyekti hesab olunur. Onlar, əsasən, iki xarakterik xüsusiyyətə malikdir. Birincisi, şəxsi qeyri-maddi nemətlərin **maddi (əmlak), iqtisadi məzmunu yoxdur**, yəni onların əmlak dəyəri yoxdur. Buna görə də bu nemətlər əmtəə kimi mülki (əmlak) dövriyyədə çıxış edə bilmir.

İkincisi, bu nemətlər **şəxsiyyətin özündən ayrılmaz olub, özgəninkiləşdirilmir**. Onları başqa şəxslərə vermək olmaz. Şəxsi qeyri-maddi nemətlər mülki hüquq münasibətləri iştirakçılarının şəxsiyyəti ilə sıx bağlıdır. Bu nemətlərin əsas əlaməti ondan ibarətdir ki, onlar şəxsiyyəti fərdiləşdirməyə yönəlir.

Şəxsi qeyri-maddi nemətlərin əhatə dairəsi kifayət qədər genişdir: həyat; sağlamlıq; şəxsi toxunulmazlıq; fiziki şəxsin adı; şərəf və ləyaqəti, işgüzar nüfuzu; şəxsi həyatın toxunulmazlığı; şəxsi və ailə sirrinin saxlanması və s. Bu nemətləri üç qrupa bölmək olar:

- **şəxsiyyətin fiziki əmin-amanlığını (salamatlığını) təmin edən şəxsi, qeyri-maddi nemətlər** (həyat, sağlamlıq, sağlam ətraf mühitdə yaşamaq);
- **şəxsiyyətin fərdiləşdirilməsini təmin edən şəxsi qeyri-maddi nemətlər** (ad, şərəf, ləyaqət və işgüzar nüfuz, fərdi sima);
- **cəmiyyətdə şəxsiyyətin sərbəst və müstəqilliyini təmin edən şəxsi qeyri-maddi nemətlər** (şəxsi həyatın sirrinin saxlanması, şəxsi həyatın toxunulmazlığı və s.).

Obyekti şəxsi qeyri-maddi nemətlər olan mülki hüquq münasibətlərinin, yəni əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətlərinin mülki hüquqla tənzimlənib-tənzimlənməməsi mülki hüquq elmində (sivilistika doktrinasında) mübahisəyə və diskussiyaya səbəb olan məsələdir. Bir qrup müəlliflər göstərirlər ki, bu münasibətlər mülki hüquqla tənzimlənmir, yalnız müdafiə olunur, qorunur. Digər qrup müəlliflər isə belə hesab edirlər ki, həmin münasibətlər mülki hüquqla həm tənzimlənir, həm də müdafiə olunur (qorunur). Zənn edirik ki, axırıncı mövqe tərəfdarlarının mövqeyi həqiqətə daha yaxındır.

3. Hərəkətlər mülki hüquq münasibətlərinin obyekti kimi

Hərəkət mülki hüquq münasibətlərinin bir növü olan öhdəlik hüquq münasibətlərinin obyekti qismində çıxış edir. Əgər əşyalar mülkiyyət hüquq münasibətlərinin obyektidirsə, hərəkət öhdəlik hüquq münasibətlərinin obyektini təşkil edir. Söhbət öhdəlik hüquq münasibətlərində (öhdəliklərdə) tərəf rolunda çıxış edən borclu şəxsin hərəkətindən gedir.

Hərəkətin mülki hüquq münasibətlərinin obyekti kimi üç müxtəlif növü var:

- xüsusi mənada hərəkət;
- görülən iş;
- göstərilən xidmət.

Göstərilən üç növ hərəkət öz **iqtisadi təbiətinə görə əmtəədir**. Bu cəhət isə onları birləşdirir. Məhz bu səbəbdən hərəkət mülki (əmlak) dövriyyədə obyekt qismində çıxış etmək qabiliyyətinə malik olur.

İşin və xidmətin bir-birindən fərqləndirilməsi hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdəndir[1]. Hələ qədim Roma hüququ dövründə bu iki anlayış bir-birindən ayrılırdı. Belə ki, Roma hüququ «locatio-conductio opera» (işin kirayəsi) və «locatio-conductio operarum» (xidmətin kirayəsi) kimi iki kateqoriyaya hüquqi əhəmiyyət verərək, onları bir-birindən fərqləndirirdi[2]. İnqilabqədərki rus sivilistlərindən G.F.Şerşeneviç də onlar arasında hədd qoyurdu[3]. Nəhayət, müasir müəlliflərdən O.S.İoffe təkidlə işin və xidmətin bir-birindən fərqləndirilməsi konsepsiyasını irəli sürür və əsaslandırır[4].

Xüsusi mənada hərəkət odur ki, o, əşyanın verilməsinə yönəlir və mülki hüquq münasibətinin obyekti qismində çıxış edir. Məsələn, alqı-satqı müqaviləsindən əmələ gələn öhdəlik hüquq münasibətində (alqı-satqı öhdəliyində) satıcının əşyanın verilməsinə yönələn hərəkəti həmin öhdəliyin obyektini təşkil edir. Satılan əşya isə alqı-satqı müqaviləsinin predmetidir. Əgər hərəkət əşyanın verilməsi ilə bağlı olmursa, o, ya iş, ya da xidmət növündə özünü göstərir.

İş dedikdə, yeni əşya yaradılmasına və ya əşyanın yaxşılaşdırılmasına yönələn hərəkət (fəaliyyət) başa düşülür. Onun əsas məqsədi iqtisadi nəticə (opus) əldə etməkdən ibarətdir[5]. Bu nəticə maddiləşmiş (əşya) formada olur. Məsələn, usta televizoru, soyuducunu və s. təmir edir. Başqa bir misalda təmirtikinti firması vətəndaşın sifarişi ilə bağ evi tikir. Başqa bir misalda firma mənzildə təmir işləri görür. Məsələn, parketi qaşıyır, divarları rəngləyir, santexnika işlərini həyata keçirir. Göstərilən bu misallarda maddiləşmiş nəticəsi olan iş göz qabağındadır. Özü də həmin nəticə iş görən şəxsin özünün hərəkətindən ayrılmaq və sifarişçiyə verilmək xüsusiyyətinə malik olmalıdır. Əgər işin nəticəsi bu xüsusiyyətdən məhrum olarsa, hərəkət özünü xidmət növündə göstərir.

İş podrat müqaviləsindən əmələ gələn öhdəliyin (podrat öhdəliyinin) obyekti qismində çıxış edir. O, əmtəə xarakterinə malikdir. İşin nəticəsi isə podrat müqaviləsinin predmetini təşkil edir.

Əşya yaratmaqla və ya əşyanı dəyişdirməklə müşayiət olunmayan, lakin faydalı səmərəyə səbəb olan hərəkətə **xidmət** deyilir[6]. Xidmət, birincisi, işdən onunla fərqlənir ki, onun əsas məqsədini iqtisadi nəticə təşkil etmir. İkincisi, xidmətin nəticəsi xidmət göstərən şəxsin özünün hərəkətindən ayrılmaq və xidmətdən istifadə edən şəxsə verilmək xüsusiyyətinə malik deyildir.

Xidmətin nəticəsi, bir qayda olaraq, maddi formada olmur. Məsələn, saxlayıcının saxlama müqaviləsi əsasında əşyaların saxlanması üzrə, daşıyıcının daşıma müqaviləsinə görə yükü daşımaq üzrə və s. göstərdiyi xidmətin nəticəsi maddiləşmiş formadan məhrumdur. Bununla bərabər, göstərilən xidmətin nəticəsi maddiləşmiş formada da ola bilər. Məsələn, turist səfəri təşkilatçısı

---

[1] bax: *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993, с. 110.

[2] bax: Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 456-458.

[3] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. Том 2. СПб., 1915, с. 190.

[4] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 488.

[5] bax: *Дернбург Г.* Пандекты. Обязательственное право. 1900, с. 373.

[6] Müəlliflərdən V.A.Panteleyenkonun belə bir fikri ilə razılaşmaq olmaz ki, xidmət nəticəsində yeni əşya yarana bilər. Əgər hərəkət nəticəsində yeni əşya yaranarsa, bu, iş hesab olunur (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 158).

turistlərə turist xidmətlərindən biri kimi nəqliyyat vasitəsi verə bilər[1].

Xidmət tapşırıq, komissiya, broker, ticarət agenti, konsessiya və digər müqavilələrdən əmələ gələn öhdəliklərin obyekti kimi çıxış edir. İş kimi xidmət də əmtəədir. İqtisadi formalı əmtəə kimi onun həm **mübadilə dəyəri, həm də istehlak dəyəri vardır**. Məhz xidmətin mübadilə dəyəri onun mülki (əmlak) dövriyyədə obyekt qismində çıxış etməsini şərtləndirir. Məsələn, daşıyıcının göstərdiyi xidmət adlı əmtəə sərnişinin gediş haqqı (yol pulu) formasında verdiyi pula mübadilə edilir, yəni dəyişilir. Bununla daşıyıcı ilə sərnişin arasında daşıma hüquq münasibəti (daşıma öhdəliyi) yaranır. Bu isə əmtəə-pul münasibəti, əmlak-dəyər münasibətidir. Xidmət həmin münasibətin obyekti rolunda çıxış edir.

Mülki hüquq münasibəti subyektlərinə göstərilən xidmətlərin əhatə dairəsi həddən ziyadə genişdir: hüquqi xidmət; rabitə xidməti; tibbi xidmət; baytarlıq xidməti; audit xidməti; məsləhət xidməti; turist xidməti; informasiya xidməti; maliyyə-kredit xidməti; nəqliyyat (daşıma) xidməti; nəqliyyat-ekspedisiya xidməti; vasitəçilik xidməti və s. Beynəlxalq ticarət (kommersiya) dövriyyəsində xidmətlər mühüm rol oynayır. Xidmətlərin dünya eksportu günü-gündən artır: 1970 — 0,1 trl. dollar; 1980 — 0,4 trl. dollar; 1997 — 1,3 trl. dollar. Xüsusən beynəlxalq turizm xidmətin ən dinamik sahələrindən biridir. Beynəlxalq turistlərin sayı günbəgün artır (milyon hesabı ilə): 1950 — 25; 1970 — 160; 1990 — 420; 1995 — 560[2].

Qeyd etmək lazımdır ki, Ümumdünya Ticarət Təşkilatı sistemində qüvvədə olan xidmətlərin ticarəti haqqında saziş (1994) kimi beynəlxalq sənəd xidmətin anlayışını vermir. Lakin burada 160 xidmət növünün siyahısı verilir ki, bu növlər 12 bölmədə qruplaşdırılır. Həmin xidmətlərdən beşi əsas növ sayılır: maliyyə xidməti (bank depoziti, kredit, hesablaşma əməliyyatları, sığorta və s.); nəqliyyat xidməti; rabitə xidməti; turizm; əmək xidməti.

Hüquqi nəticəyə səbəb olmasına görə xidmətin üç növü fərqləndirilir[3]:

- faktiki xidmət;
- hüquqi xidmət;
- qarışıq (kompleks) xidmət.

Faktiki xidmət hüquqi nəticə (hüquq və vəzifələr) yaratmır; bu xidmət növü yalnız faktiki nəticəyə səbəb olur. Məsələn, saxlama müqaviləsi üzrə saxlayıcının göstərdiyi xidmət (saxlama xidməti), daşıma müqaviləsi üzrə daşıyıcının göstərdiyi xidmət (daşıma xidməti) və s. faktiki xidmət növünə aiddir. Doğrudan da saxlayıcının əmlakı saxlaması, daşıyıcının yükü daşıması və s. hüquqi nəticəyə yox, faktiki nəticəyə səbəb olur.

Hüquqi xidmət isə hüquqi nəticə doğurur. Məhz komissiya müqaviləsi üzrə komisyonçunun fəaliyyəti bu növ xidmətə misal ola bilər. Məsələn, hər hansı şəxs komisyonçuya (mağazaya) tapşırır ki, o, həmin şəxsin malını satmaq məqsədilə üçüncü şəxslə alqı-satqı müqaviləsi bağlasın. Komisyonçunun üçüncü şəxslə alqı-satqı müqaviləsi bağlaması hüquqi xidmətdir. Bu xidmət nəticəsində hüquqi nəticə yaranır: şəxs mala mülkiyyət hüququnu itirir, üçüncü şəxs isə mülkiyyət hüququ əldə edir.

Qarışıq (kompleks) xidmət dedikdə, həm faktiki xidmət, həm də hüquqi xidmət başa düşülür. Məsələn, ticarət nümayəndəsi haqqında müqaviləyə görə agent üçüncü şəxslərlə alqı-satqı müqaviləsi bağlayır (hüquqi xidmət), satılacaq malları reklam edir və faktiki xarakterli digər hərəkətlər edir (faktiki xidmət).

[1] Bəzi müəlliflər qəti formada göstərirlər ki, xidmətin nəticəsinin məddiləşmiş forması olmur. Göstərdiyimiz bu misal onu isbat edir ki, həmin müəlliflərin fikri dəqiqlikdən uzaqdır (Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 228; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 167).

[2] Мировая экономика. Учебник / Под ред. *А.С.Булатова*. М., 2002, с. 185.

[3] Bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 488-490; Гражданское право. Учебник. Том. 1/ Отв. ред. *В.П. Грибанов, С.М. Корнеев*. М., 1979, с. 191.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 7).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой**. М., 1998 (гл. 8

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко.** М., 1998 (гл. 7).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 9).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 9).

Агарков М.М. Учение о ценных бумагах. М., 1994.

Брагинский М., Суханов Е., Ярощенко К. Объекты гражданских прав // Хозяйство и право. 1995. № 5.

Белов В.А. Ценные бумаги в Российском гражданском праве. М., 1996.

Кокин А.С. Внешнеторговый коносамент как ценная бумага // Советское государство и право. 1974. № 7.

Кращенинников Е. Содержание ценных бумаг на предъявителя // Правоведение. 1994. № 2.

Невзгодина Е.Л. Объект гражданского правоотношения // В книге: Проблемы совершенствования гражданско-правового регулирования. Томск. 1982.

Немец Ю. Движимое и недвижимое имущество // Хозяйство и право. 1998. № 6.

Потрянин Д. Безналичные деньги - имущество // Хозяйство и право. 1997. № 3.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950 (раздел IV).

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. 1989.

Jauering O. Bürgerliches Gesetzbuch mit Erlauterungen. 1997.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983 (гл. 4).

XI FƏSİL
MÜLKİ HÜQUQDA ƏQDLƏR (MÜLKİ-HÜQUQİ ƏQDLƏR)

§ 1. Mülki-hüquqi əqdlərin anlayışı, əlamətləri, əhəmiyyəti, elementləri və əsas cəhətləri

1. Mülki-hüquqi əqdlərin anlayışı

Mülki hüquq münasibətləri müxtəlif hüquqi faktlar əsasında əmələ gəlir, dəyişir və ya xitam olunur. Bunlar **mülki-hüquqi faktlar** adlanır. Bu faktların əsas növünü mülki-hüquqi əqdlər təşkil edir.

Əqdlər mülki-hüquqi faktların nisbətən daha geniş yayılmış növüdür. Buna görə də onlar sivilistikada hüquqi faktlar sistemində xüsusi yer tutur. Məhz bu səbəbdən Mülki Məcəllə özünün dördüncü bölməsini əqdlərin tənzimlənməsinə həsr etmişdir. Bu bölmə 13-16-cı fəsilləri əhatə edir ki, həmin fəsillər kifayət qədər xeyli maddələrdən (324-366-cı maddələr) ibarətdir. Bu maddələrdə ifadə olunan normaların sistemi əqd institutunu əmələ gətirir.

Dediklərimizdən bəlli olur ki, mülki hüquqda əqd iki mənada işlədilir: mülki-hüquqi fakt mənasında; mülki hüquq institutu mənasında.

Mülki-hüquqi fakt mənasında əqd dedikdə, mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam edilməsinə səbəb olan əsas başa düşülür. Bu baxımdan əqd fiziki və hüquqi şəxslərin mülki hüquqlarının və ya vəzifələrinin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam edilməsinə yönəldilmiş hərəkət (hüquqi faktın bir növü) kimi çıxış edir. Məsələn, alqı-satqı müqaviləsinə görə, vətəndaş özünə məxsus olan minik avtomobilini qonşuya satır. Bunun nəticəsində vətəndaş minik avtomobili üzərində mülkiyyət hüququnu itirir (mülkiyyət hüquq münasibətinə xitam verilir), qonşu isə həmin avtomobil üzərində mülkiyyət hüququ əldə edir (mülkiyyət hüquq münasibəti əmələ gəlir). Bundan əlavə, bu müqavilə vətəndaş üçün minik avtomobilini qonşuya vermək kimi, alıcı üçün isə minik avtomobilinin pulunu ödəmək kimi vəzifə əmələ gətirir. Başqa bir misalda sahibkar kənd sakininə borc müqaviləsi əsasında bir ton taxıl borc verir. Həmin müqavilə sahibkar üçün bir ton taxılın qaytarılmasını tələb etmək hüququ yaradır, kənd sakini üçün isə həmin taxılı qaytarmaq vəzifəsi əmələ gətirir. Bax, göstərdiyimiz alqı-satqı müqaviləsi də, borc müqaviləsi də mülki-hüquqi fakt mənasında əqd hesab olunur.

Mülki-hüquqi əqdləri **təkcə bizim ölkənin yox, habelə xarici ölkələrin fiziki və hüquqi şəxsləri, o cümlədən vətəndaşlığı olmayan şəxslər də bağlaya bilərlər**. Məsələn, real həyatda tez-tez xarici ölkə vətəndaşlarının ev kirələmək, torpaq icarəyə götürmək, özü üçün əmlak almaq, nəqliyyat vasitəsində getmək və digər növ əqd bağlamalarının şahidi oluruq. Bununla bərabər, **Azərbaycan dövlətinin və bələdiyyələrin** də mülki-hüquqi xarakterli əqd bağlamaq hüququ vardır. Məsələn, Azərbaycan dövləti alqı-satqı, borc, kredit, icarə, podrat, kirayə və digər əqdlərdə tərəf qismində çıxış edə bilər.

Mülki hüquq institutu mənasında əqd dedikdə, əqdləri tənzimləyən və nizama salan mülki hüquq normalarının məcmusu başa düşülür. Söhbət əqdlərin formasını və bağlanma qaydasını, onların hüquqi məzmununu, habelə əqdlərin etibarlı və etibarsız olmasını şərtləndirən halları müəyyənləşdirən hüquq normalarından gedir. Bu normalar birləşərək, mülki hüququn ən vacib və mühüm institutlarından birini — əqd institutunu yaradır.

Öz strukturuna görə əqd institutu **iki hissəyə bölünür: ümumi hissəyə; xüsusi hissəyə**[1]. **Ümumi hissənin normaları** ümumi xarakterə malik olub, bütün əqdlərə şamil edilir. Bu normalar, yuxarıda qeyd etdiyimiz kimi, Mülki Məcəllənin dördüncü bölməsinə daxil olan maddələrdə ifadə edilmişdir. **Xüsusi hissə normaları** isə xüsusi təbiətə malik olub, yalnız konkret növ əqdləri qaydaya salır və tənzimləyir. Bu normalar Mülki Məcəllənin xüsusi hissəsinin yeddinci bölməsinə daxil olan maddələrdə ifadə edilmişdir. Məsələn, alqı-satqı əqdi barədə normalar MM-in 29-cu fəslində, icarə əqdi haqqında normalar 34-cü fəslində, renta haqqında normalar 48-ci fəslində və s. əks olunmuşdur.

Əqd institutunun tarixi çox qədim dövrlərlə bağlıdır. Hələ Roma hüququ dövründə əqdlər hüquqi faktların bir növü hesab edilirdi[2].

Müasir xarici ölkə qanunvericiliyi əqdlərin böyük əhəmiyyətə malik olmasını nəzərə alaraq, onların tənzimlənməsinə və hüquqi təbiətinin müəyyən edilməsinə xüsusi diqqət yetirir. Məsələn, Almaniya Mülki Qanunnaməsinin birinci kitabının üçüncü bölməsi («Əqdlər»), Hollandiya Mülki Məcəlləsinin üçüncü kitabının ikinci bölməsi («Hüquqi əqdlər»), RF-in Mülki Məcəlləsinin dördüncü bölməsi və s. əqdlərin tənzimlənməsinə həsr edilmişdir[3].

Xarici ölkələrin sivilistika doktrinasında əqdlərə, mahiyyətcə, eyni anlayış verilir. L.Ennekserusa görə, hüquqi əqd dedikdə, bir və ya bir neçə iradə ifadəsini əhatə edən elə faktiki tərkib başa düşülür ki, bu tərkib hüquq qaydası tərəfindən hüquqi nəticənin baş verməsi üçün əsas kimi tanınır[4]. Almaniyalı professor Q.Y.Museiyak əqdə belə anlayış verir: əqd hüquqi nəticə əldə edilməsinə yönələn xüsusi iradə ifadəsidir[5]. Ümumiyyətlə, Almaniya mülki hüquq doktrinasında əqdə müəyyən hüquqi nəticə əldə edilməsinə yönələn iradəvi xarakterli davranış aktı kimi baxılır[6]. Yaponiya sivilistika doktrinasında əqdin anlayışı bu cür müəyyənləşdirilir: əqd mülki hüquq və vəzifələrin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına yönələn hüquqauyğun hərəkətdir[7].

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 209; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 196.

[2] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 129.

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6, 8; Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева*. М., 2001.

[4] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 109.

[5] *Müsielak H.-J.* Grundkurs BGB. München. 1994, s. 15.

[6] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 314.

[7] *Сакаэ Ватцумэ, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 100.

2. Əqdin hüquqi əlamətləri

Real həyatda mövcud olan faktların əqd kimi tanınması üçün həmin faktların tələb edilən əlamətlərə uyğun gəlməsi və cavab verməsi tələb olunur. Bu əlamətlərə uyğun gəlməyən fakt əqd hesab edilmir və hər hansı bir mülki hüquq və vəzifənin əmələ gəlməsinə səbəb olmur. Əksinə, həmin əlamətlərə cavab verən fakt isə əqd statusu əldə edir və müəyyən mülki hüquq və vəzifənin yaranması üçün əsas olur.

Faktların əqd kimi tanınmasını şərtləndirən əsaslara əqdin əlamətləri deyilir. Mülki hüquq elmində (sivilistika doktrinasında) bu cür **dörd əlamətin olması** göstərilir. Həmin əlamətlər əqdlərə hərtərəfli və geniş hüquqi xarakteristika verilməsinə imkan yaradır.

Əqdin birinci əlaməti ondan ibarətdir ki, o, **müəyyən hüquqi faktdır**. O, real gerçəkliyin elə bir faktıdır ki, qanun mülki hüquq və vəzifələrin əmələ gəlməsini məhz bu faktla bağlayır və əlaqələndirir. Amma bütün hüquqi faktların hamısı, istisnasız olaraq, əqd hesab edilmir. Yalnız hüquqi faktların **hüquqi hərəkət kimi növü** əqd kimi tanına bilər. Bununla bütün əqdlər hüquqi faktların hüquqi hadisə kimi digər növündən ayrılır və fərqlənir. Belə ki, hüquqi hadisələr əqd ola bilməz. Əqd hüquqi hadisə yox, hüquqi hərəkətdir.

Əqdin ikinci əlaməti ondan ibarətdir ki, o, **hüquqazidd olmayan (hüquqauyğun) hərəkətdir**. Bu əlamətə görə bütün əqdlər mülki qanunvericiliyin tələblərinə müvafiq olmalı və uyğun gəlməlidir. Əqdin hüquqauyğunluğu o deməkdir ki, yalnız mülki qanunvericiliklə müəyyənləşdirilən tələblərə və qaydalara zidd olmadığı hallarda, müvafiq əqd hüquqi əhəmiyyət kəsb edir, yəni mülki hüquq və vəzifələrin əmələ gəlməsinə səbəb olur. Ona görə də mülki qanunvericiliyin nəzərdə tutduğu tələblərə və qaydalara müvafiq olan əqd etibarlıdır. Bu tələb və qaydalara zidd olan əqd isə etibarsız hesab edilir (MM-in 337-ci maddəsinin 1-ci bəndi). Bu cür etibarsız əqdlərin hüquqi əhəmiyyəti və mənası yoxdur, yəni onlar müəyyən mülki hüquq və vəzifələrin əmələ gəlməsinə səbəb olmur.

Əqdin göstərilən hüquqi əlaməti mülki hüquq elmində geniş doktrinal mübahisəyə səbəb olmuşdur. Bu barədə bir-birindən fərqli üç müxtəlif fikir söylənilir. Alimlərdən İ.B.Novitskinin mövqeyincə, mülki qanunvericiliyə görə həm etibarlı əqdlər, həm də etibarsız əqdlər mövcud ola bilər. Madam ki, mülki qanunvericilik «etibarsız əqd» anlayışını işlədir, onda etibarsız əqdlərin mövcudluğundan danışmaq olar. Alim belə hesab edir ki, ona görə də hüquqauyğunluğu əqdin zəruri əlaməti kimi qəbul etmək olmaz[1].

Müəlliflərdən D.M.Genkin göstərir ki, hüquqauyğunluğu və ya hüquqazidd olmağı hüquqi fakt kimi əqdin vacib elementi hesab etmək olmaz. Onlar əqdin bu və ya digər nəticəsini müəyyən edir[2].

Üçüncü qrup müəlliflər isə hüquqauyğunluğu əqdin vacib və zəruri əlaməti kimi tanıyırlar. Sivilistika doktrinasında bu mövqe şəksiz üstünlüyə malikdir[1]. Yalnız mülki qanunvericiliyin tələblərinə və qaydalarına uyğun gəlməklə bağlanan əqdlər hüquqi fakt kimi mülki hüquq və vəzifələrin əmələ gəlməsi üçün əsas rolunu oynayır. Bu cür əlaməti ilə əqdlər hüquqazidd (hüquqauyğun olmayan) hərəkətlərdən fərqlənir. Bu cür hərəkətlər qanunun tələblərinə müvafiq olmur, onun tələblərini pozur. Bəzi hallarda onlar öz xarici formasına görə hüquqazidd hərəkət kimi yox, əqd kimi görünür.

Əqdlər bu əlaməti ilə delikt və əsassız varlanma kimi hüquqazidd hərəkətlərdən fərqlənir. Onlar da mülki hüquq və vəzifələrin əmələ gəlməsinə səbəb olur. Məsələn, vətəndaş öz qonşusunun əmlakını zədələyir. Bu delikt nəticəsində vətəndaş üçün vurulan zərərin əvəzini ödəmək vəzifəsi, qonşu üçün isə həmin zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ yaranır. Başqa bir misalda satıcı alıcıdan satdığı malın pulunu iki dəfə alır. Bu cür əsassız varlanma hərəkəti satıcı üçün qanunsuz olaraq alınan pulu alıcıya qaytarmaq vəzifəsi, alıcı üçün həmin pulun qaytarılmasını tələb etmək hüququ əmələ gətirir. Amma əqdlərdən fərqli olaraq, deliktlər də, əsassız varlanma hərəkətləri də hüquqazidd hərəkətdir.

Əqdin üçüncü əlaməti ondan ibarətdir ki, o, **iradəvi hərəkətdir**. Bu əlamət əqd bağlayan şəxsin müəyyən səviyyədə şüura (düşüncəyə) və iradəyə malik olmasını tələb edir. Bu səviyyə isə həmin şəxsə imkan verir ki, o, öz hərəkətlərinin mənasını başa düşsün, bu hərəkətlərə rəhbərlik edə bilsin və onlara görə cavab vermək qabiliyyətinə malik olsun. Əqdin göstərilən əlaməti onu hüquqi hadisələrdən (məsələn, zəlzələdən, təbii yanğından, qasırğadan və s.) fərqləndirir. Belə ki, hadisələr hüquqi nəticəyə səbəb olsa da, iradəvi xarakter daşımır.

Əqdlər həmişə iradəvi akt kimi çıxış edir. Onlar mülki hüquq subyektlərinin iradəsi ilə bağlıdır. Əqdlərdə onu bağlayan şəxslərin iradəsi ifadə olunur.

Əqdin dördüncü əlaməti ondan ibarətdir ki, o, **xüsusi olaraq müəyyən hüquqi nəticə əldə olunmasına yönələn hərəkətdir. Hüquqi nəticə** dedikdə, əqd bağlanması sayəsində subyekt üçün mülki hüquq və vəzifənin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması başa düşülür.

Əqdin hüquqi nəticəsi son dərəcə müxtəlifdir. Məsələn, vətəndaş öz qonşusundan minik avtomobili alır. Bu alqı-satqı əqdinin hüquqi nəticəsi minik avtomobili üzərində mülkiyyət hüququ əldə etməkdən ibarətdir. Başqa bir misalda kənddən şəhərə işləməyə gələn vətəndaş yaşayış evini kirayəyə götürür. Bu kirayə əqdinin hüquqi nəticəsi isə yaşayış evi üzərində müvəqqəti istifadə hüququ əldə etməkdən ibarətdir.

Hüquqi nəticə güdməyən hərəkət əqd hesab olunmur. Məsələn, iki dost ki-

[1] bax: *Новицкий И.Б.* Сделки. Исковая давность. М., 1954, с. 64-67.

[2] bax: *Генкин Д.М.* Недействительность сделок, совершенных с целью, противной закону // Уч. зап. ВИЮН. Вып. 5. М., 1947, с. 50.

[1] bax: *Агарков М.М.* Понятие сделки по советскому гражданскому праву // Советское государство и право. № 3. 1946. № 3-4, с. 46; *Красавчиков О.А.* Юридические факты в советском гражданском праве. М., 1958, с. 120; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 213; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 230; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 333; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 199; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 175; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 152.

noya və ya teatra getmək barədə razılığa gəlirlər. Başqa bir misalda iki nəfər kənd sakini öz aralarında razılaşırlar ki, bazar günü kənddən xeyli aralıda yerləşən meşəyə gəzməyə getsinlər. Bu cür razılaşmalar hər hansı hüquqi nəticə güdmür. Ona görə də həmin razılaşmalara əqd demək olmaz. Onlar **mənəvi-məişət sazişləri** hesab edilir.

Əqdin bu əlaməti onu **hüquqi əməllərdən** fərqləndirməyə imkan verir. Hüquqi əməllər də əqdlər kimi hərəkət kateqoriyasına aid edilir və mülki-hüquqi nəticəyə səbəb olur. Lakin əqdlərdən fərqli olaraq, hüquqi əməllər xüsusi olaraq hüquqi nəticə əldə olunmasına yönəlmir. Onlar hüquqi nəticə güdməyən hərəkətlərdir. Lakin buna baxmayaraq, qanunda ifadə olunan göstərişə görə hüquqi əməllər də hüquqi nəticəyə səbəb olur. Məsələn, traktorçu kəndli (fermer) təsərrüfatına məxsus olan torpaq sahəsini şumlayarkən orada dəfinə tapır. Qanunda ifadə olunan göstərişə görə dəfinənin yarısı traktorçuya verilir (MM-in 187-ci maddəsinin 1-ci bəndi). Beləliklə, dəfinənin yarısı üzərində traktorçu mülkiyyət hüququ əldə edir və bu, hüquqi nəticəyə səbəb olur. Traktorçu torpağı şumlayarkən bu cür hüquqi nəticə güdməmişdi.

Əqdin əlamətləri onu inzibati aktlardan fərqləndirməyə imkan verir. Onların hər ikisi də hüquqi akt kateqoriyasına aid edilir. Belə ki, həm əqdlər, həm də inzibati aktlar hüquqi akt hesab edilir. **İnzibati aktlar** dedikdə, dövlət icra hakimiyyəti orqanlarının qəbul etdikləri fərdi xarakterli qeyri-normativ aktlar başa düşülür. Bu aktlar əqdlərdən fərqli olaraq, inzibati-hüquqi nəticə doğurur. Məsələn, rayon icra hakimiyyəti orqanının qərarı ilə müharibə iştirakçısına mənzil verilir. Əqd isə mülki-hüquqi nəticə doğurur.

3. Əqdin elementləri

Əqdin mahiyyəti onun elementlərində təzahür edir. **Əqdin elementləri** dedikdə, onun mahiyyətini müəyyənləşdirən tərkib hissələri başa düşülür. Onlara aiddir:

- iradə;
- iradəni ifadə etmə (bildirmə);
- əqdin hüquqi məqsədi;
- əqdin subyektləri;
- əqdin obyekti;
- əqdin məzmunu;
- əqdin forması;
- əqdin əsası;
- əqdin hüquqi nəticəsi;
- əqdin motivi.

İradə əqdin subyektiv elementidir. Belə ki, əqd iradəvi aktdır. Buna görə də o, psixoloji amillə, yəni əqd bağlayan şəxsin arzusu, istəyi və niyyəti ilə bağlıdır.

Əqd o niyyət və məqsədlə bağlanılır ki, onu bağlayan şəxs üçün mülki hüquq və vəzifələr əmələ gəlsin. Bu məqsədə çatmaq üçün həmin şəxsin əqd bağlamaq barədə arzu və istəyinin olması gərəkdir. Həmin arzu və istək əqd bağlayan şəxsin daxili iradəsi və ya iradəsi adlanır.

İradə (daxili iradə) dedikdə, qarşıya qoyulan məqsədə çatmaq üçün əqd bağlayan şəxsin daxilən dərk edilmiş arzu və istəyi başa düşülür. O, müxtəlif həyati halların, hər şeydən əvvəl, sosial-iqtisadi amillərin təsiri altında yaranır və formalaşır. Bu halların və amillərin ən vacibi isə maddi-mənəvi ehtiyac və tələbatla şərtlənir. Mülki hüquq subyektləri öz ehtiyaclarını dərk etdikdən və başa düşdükdən sonra onları təmin etməyə cəhd göstərirlər və bu məqsədlə müxtəlif hüquqi vasitələrdən, o cümlədən əqdlərdən istifadə edirlər.

Əgər iradə (daxili iradə) yoxdursa, onda əqdin özünün mövcudluğundan söhbət gedə bilməz. Məsələn, fiziki zorakılıq təsiri altında vətəndaşdan pul alınmasını əqd hesab etmək olmaz. Çünki bu cür hərəkət daxili iradə (iradə) kimi subyektiv (psixoloji) elementdən məhrumdur.

İradə əqd bağlayan şəxsin öz hərəkətinə olan psixoloji münasibətidir. Bu şəxs onun vasitəsilə öz hərəkətini psixoloji cəhətdən tənzim edir. Lakin iradə şəxsin öz hərəkətinə olan psixoloji münasibətin yalnız bir tərəfidir. Buna görə də təkcə iradənin (daxili iradənin) mövcudluğu, yəni əqd bağlamaq barədə istək və arzunun olması özlüyündə əqdin bağlanması üçün kifayət etmir və yetərli deyildir.

Əqdin bağlanması üçün həm də vacibdir ki, şəxsin iradəsi — onun əqd bağlamaq arzusu və istəyi digər şəxslərin nəzərinə çatdırılsın, onlara məlum olsun, yəni **xaricən (obyektivləşmiş suretdə)** ifadə edilsin. Bu, iradəni ifadə etmə (bildirmə) adlanır. İradəni ifadə etmə psixoloji münasibətin digər - ikinci tərəfi hesab edilir. Deməli, əqdin bağlanması üçün psixoloji münasibətin həm birinci tərəfinin (iradənin), həm də ikinci tərəfinin (iradəni ifadə etmənin) olması vacibdir. Onlar eyni bir prosesin iki tərəfidir. Buna görə də iradə və iradəni ifadə etmə arasında ziddiyyət, uyğunsuzluq ola bilməz.

İradəni bildirmə (ifadə etmə) dedikdə, əqd bağlayan şəxsin daxili iradəsinin (iradəsinin) xaricən (obyektivləşmiş) ifadə edilməsi başa düşülür. O, əqdin **obyektiv elementidir**. Əgər iradə «**mən nə istəyirəm?**» sualına cavab verirsə, iradəni ifadə etmə isə belə bir suala cavab verir: «**mən bunun üçün nə edirəm?**». Məsələn, bank kreditin qaytarılması (öhdəliyin icrası) halını təmin etmək istəyir («bank nə istəyir?») və bu məqsədlə öz risqini sığorta etdirir («bank bunun üçün nə edir?»).

İradəni ifadə etmə əqd bağlayan şəxsin öz iradəsini başqa şəxslərin nəzərinə çatdırmaq üsuludur. Məsələn, vətəndaşın təkcə evi satmaq arzusu və istəyi həmin evin satılması üçün azdır, kifayət etmir. Əgər o, bu istəyi və arzunu hər hansı bir şəxsin nəzərinə çatdırmasa, onda əqdin bağlanmasından söhbət gedə bilməz. Ona görə də iradəni ifadə etmə əqdin vacib elementidir.

İradə xaricən (obyektivləşmiş) müxtəlif üsullar əsasında ifadə edilir. Bu üsullar üç cür olur: birbaşa iradəni ifadə etmə; dolayı yolla iradəni ifadə etmə; susmaq yolu ilə iradəni ifadə etmə.

Birbaşa iradəni ifadə etmə odur ki, belə halda iradə şifahi və ya yazılı formada bildirilir. Məsələn, iki vətəndaş öz aralarında yazılı borc müqaviləsi bağlayırlar.

Dolayı yolla iradəni ifadə etmə odur ki, bu halda şəxsin hərəkətindən onun əqd bağlamağa razı olduğu açıq-aşkar görünür. Başqa sözlə desək, şəxsin rəftarından onun əqd bağlamaq iradəsi məlum olur. Məsələn, malların avtomatlardan istifadə etməklə satılması hallarında (MM-in 620-ci maddəsi)

müqavilə bağlamaq barədə iradə dolayı yolla ifadə olunur. Sürücü avtobusu dayanacağa verməklə daşıma müqaviləsi bağlamaq barədə istəyini dolayı yolla sərnişinlərə bildirir.

Susmaq yolu ilə iradəni ifadə etmə odur ki, bu halda şəxsin dinməməsi onun əqd bağlamaq iradəsini ifadə edir. Yalnız MM-də və ya tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda susmaqdan iradəni ifadə etmək üsulu kimi istifadə etmək olar. Həmin hallarda subyekt (şəxs) özünü çox passiv aparır, dinmir, susur və hər hansı hərəkət yerinə yetirmir. Lakin passivlik, dinməzlik iradəni ifadə etmə üsulu kimi çıxış edir. Susmaq **dinməz razılıq** deməkdir. Məsələn, əgər tapşıranın dinməməsi (susması) ilə ticarət agenti öz fəaliyyətini davam etdirərsə, onda ticarət agenti haqqında müqavilə qeyri-müəyyən müddətə bağlanmış hesab olunur (MM-in 794-cü maddəsinin 1-ci bəndi).

Bəzi əqdlərin bağlanması üçün təkcə iradənin və iradəni ifadə etmənin mövcudluğu kifayət etmir. Bunun üçün həm də əmlakın — pul və ya əşyaların verilməsi lazımdır[1]. Məsələn, bank əmanəti (depozit) müqaviləsinin bağlanması üçün vacibdir ki, əmanətçi pulu banka təhvil versin. Məhz bu andan həmin müqavilə bağlanmış hesab edilir. Gələcəkdə bağışlama vədi kimi hal istisna olmaqla, bağışlama müqaviləsinin bağlanması üçün əmlakın hədiyyə alana (hədiyyə bağışlanılan şəxsə) verilməsi tələb olunur.

Almaniya mülki hüquq doktrinasında iradəni ifadə etmə anlayışının mahiyyətinə xüsusi diqqət yetirilir. Professor Q.Y.Muselyak onu əqdin bazis elementi, təməl daşı hesab edir[2]. İradəni ifadə etməyə hüquqi nəticə əldə olunmasına yönələn akt (iradə bildirməsi) kimi anlayış verilir[3].

Yaponiya mülki hüquq elmində iradəni ifadə etmənin üç elementdən ibarət olması göstərilir: müəyyən nəticə əldə etmək cəhdi, yəni nəticə əldə etməyə yönələn iradə; göstərilən bu iradəni ifadə etmək cəhdi, yəni ifadə olunmağa yönələn iradə; ifadə etmə prosesinin özü. Bu elementlərdən biri olmazsa, əqd etibarsız hesab edilir. İradəni ifadə etmə əqdin əsas elementidir[4].

Əqdin hüquqi məqsədi onun elementlərindən biri hesab olunur. Əqd bağlayan şəxslər həmişə hüquqi məqsəd güdürlər. Hüquqi məqsədi olmayan hərəkət əqd yox, mənəvi-məişət xarakterli saziş sayılır. Məsələn, iki nəfər yoldaş dağ gəzintisinə getmək barədə razılığa gəlirlər. Bu cür saziş əqd kateqoriyasına şamil edilmir.

Əqdin hüquqi məqsədi dedikdə, əqd iştirakçılarının onlar üçün mülki hüquq və ya vəzifələrin əmələ gəlməsi, dəyişməsi və ya xitam edilməsi barəsində elə bir subyektiv arzusu başa düşülür ki, bu arzu əqd bağlandıqdan və icra olunduqdan sonra həyata keçir. Əqdin hüquqi məqsədi əqd iştirakçılarının onlar üçün hüquqi nəticəyə nail olunması haqqında subyektiv arzusu, niyyəti və məramıdır.

Əqdin hüquqi məqsədində əqd iştirakçılarının daxili cəhdi və niyyəti ifadə olunur. Buna görə də o, **subyektiv xarakter daşıyır**. Bu isə bizə belə bir fikir söyləməyə əsas verir ki, əqdin hüquqi məqsədi onun obyektiv yox, **subyektiv elementidir**.

Əqdin hüquqi məqsədi müxtəlif ola bilər. Mülkiyyət hüququnu bir şəxsdən digərinə keçirmək alqı-satqı, renta, bağışlama, borc və dəyişmə kimi müqavilələrin hüquqi məqsədini təşkil edir. Əmlakdan istifadə hüququnu müvəqqəti olaraq bir şəxsdən digər şəxsə vermək kirayə, icarə, lizinq və əvəzsiz istifadə (ssuda) kimi müqavilələrin hüquqi məqsədi kimi çıxış edir.

Bəzi hallarda əqdin hüquqi məqsədi anlayışını əqdin hüquqi nəticəsi anlayışı ilə qarışdırırlar, daha doğrusu, eyniləşdirirlər. Əqdin hüquqi məqsədi, yuxarıda dediyimiz kimi, əqd iştirakçıları üçün subyektiv olaraq arzu edilən hüquqi nəticədir. **Əqdin hüquqi nəticəsi** isə həyata keçirilmiş, realizə edilmiş və gerçəkləşdirilmiş hüquqi məqsəddir, yəni hüquq münasibətinin dəyişməsi, əmələ gəlməsi və ya xitam olunmasıdır[1]. Əqd bağlandıqdan və icra olunduqdan sonra əqdin hüquqi məqsədi həyata keçirilir və bununla hüquqi nəticə əldə edilir. İcra olunmuş əqdlər üçün hüquqi məqsədlə hüquqi nəticənin bir-birinə uyğun gəlməsi halı xarakterikdir. Fəlsəfi planda bu iki anlayış arasında əlaqə imkan — gerçəklik, səbəb-nəticə kimi kateqoriyalar arasındakı münasibət kimidir.

Ümumi qayda belədir ki, icra olunmuş əqdlərin hüquqi məqsədi ilə onların hüquqi nəticəsi bir-birinə uyğun gəlir. Məsələn, alqı-satqı müqaviləsinin hüquqi məqsədi satılan əşya üzərində mülkiyyət hüququnu satıcıdan alıcıya keçirməkdən ibarətdir. Alqı-satqı müqaviləsi icra olunur, yəni satıcı əşyanı alıcıya, alıcı isə onun əvəzinə satıcıya pul verir. Bununla hüquqi nəticə əldə edilir, yəni əşya üzərində mülkiyyət hüququ satıcıdan alıcıya keçir. Burada müqavilənin hüquqi məqsədi ilə hüquqi nəticəsinin bir-birinə uyğun gəlməsi göz qabağındadır.

Bəzən əqdin hüquqi məqsədi ilə hüquqi nəticəsi bir-birinə uyğun gəlmir. Bu hal o zaman mümkün olur ki, əqd formasında hüquqazidd hərəkətlər edilir. Məsələn, mülkiyyətçi olmayan şəxs (məsələn, əşyanı kirayəyə götürən, yükü daşıyan, əşyanı saxlayan və digər şəxslər) əşyanı özgəninkiləşdirməyə ixtiyarı çatmadığı halda, onu satır. Belə halda alıcının həmin əşya üzərində mülkiyyət hüququ yaranmır və hüquqi məqsədə nail olunmur. Başqa bir misalda vətəndaş fəaliyyət qabiliyyəti olmayan şəxsdən əşya alır. Digər bir misalda vəzifəli şəxs cinayət yolu ilə əldə etdiyi pul hesabına bahalı minik avtomobili alır. Səsküyə səbəb olmamaq üçün o, bu əqdi bağışlama müqaviləsi vasitəsi ilə pərdələyir, yəni minik avtomobilinin hədiyyə (bəxşiş) kimi verilməsi barədə bağışlama müqaviləsi bağlayır. Əqd icra olunmadıqda, əqdin predmeti olan əşya məhv edildikdə və digər hallarda əqdin hüquqi nəticəsi əldə edilmir.

Əqdin hüquqi məqsədini onun sosial-iqtisadi məqsədindən fərqləndirmək lazımdır. **Əqdin sosial-iqtisadi məqsədi** əqd iştirakçılarının əqdin predmeti

[1] L.Ennekserus bu halı hüquqi nəticənin həyata keçirilməsi (qabaqcadan edilən hərəkət) hesab edir. Məhz bu hərəkət iradə ifadəsi ilə bağlı olaraq arzu edilən son nəticəyə səbəb olur. Alim göstərir ki, real əqdlərdə belə hala təsadüf edilir. O, həmin halı əqdin tərkib hissəsinə daxil edir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 116).

[2] *Müsielak H.-J.* Grundkurs BGB. München. 1994. s. 17.

[3] *Klüninger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 58; *Heinrliche H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999. s. 78.

[4] *Сакаэ Вагацума, Тору Арицдзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 102, 111.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 110.

olan əşyadan hansı niyyətlə istifadə etmələrini ifadə edir. Bu cür məqsəd müxtəlif ola bilər: sahibkarlıqla məşğul olmaq; təsərrüfat fəaliyyətini həyata keçirmək; ailə-məişət və ya şəxsi ehtiyacları ödəmək; kommersiya fəaliyyəti ilə məşğul olmaq və s. Özü də əqdin sosial-iqtisadi məqsədinə onun hüquqi məqsədini həyata keçirməklə nail olunur. Məsələn, kəndli (fermer) təsərrüfatı torpaq sahəsini şumlamaq üçün iki ədəd traktor alır. Bu əqdin hüquqi məqsədi traktora mülkiyyət hüququ əldə etməkdən, onun sosial-iqtisadi məqsədi isə təsərrüfat fəaliyyətini həyata keçirməkdən ibarətdir. Məlum məsələdir ki, yalnız traktora mülkiyyət hüququ əldə etdikdən sonra ondan təsərrüfat fəaliyyətini həyata keçirmək üçün istifadə oluna bilər.

Hüquqi nəticə əqdin elementlərindən biri hesab olunur. Bu, mülki hüquq elmində mübahisə doğuran məsələdir. Belə ki, bəzi müəlliflərin fikrincə, əqdin hüquqi nəticəsi əqdin hüdudlarından kənarda qalır və onun elementi hesab edilmir. O, yalnız əqdin səbəb olduğu nəticədir[1]. Bu mövqe ilə çətin razılaşmaq olar. Belə ki, əqdin hüquqi məqsədi onun vacib elementi kimi hamılıqla qəbul edilir. Onda həyata keçirilmiş hüquqi məqsədə də, yəni hüquqi nəticəyə də əqdin elementi kimi baxmaq lazımdır. Hüquqi nəticəsi olmayan əqdin mövcudluğundan danışmaq məntiqi cəhətdən mənasız bir şeydir. Almaniya sivilistika doktrinasında hüquqi nəticənin həyata keçirilməsi (məsələn, real əqdlər üzrə əşyanın əqdin bir tərəfindən digər tərəfə verilməsi) əqdin tərkib hissəsi sayılır[2].

Əqdin əsası və ya kauzası (latınca «causa» — səbəb, əsas) onun əsas və məcburi elementlərindən biridir. Qeyd etdik ki, əqd xüsusi istiqamətə və yönümə malikdir. Belə ki, o, hüquqi nəticə əldə edilməsinə səmtlənir. Əqdi bağlayan şəxs təsəvvürünə gətirir və güman edir ki, o, özü üçün bütün mütləq hüquqi nəticələri yox, yalnız ona lazım olan əsas hüquqi nəticəni əldə edəcəkdir. Məsələn, alqı-satqı müqaviləsini bağlayan zaman alıcı ehtimal edir ki, o, əmlak üzərində mülkiyyət hüququ əldə edəcəkdir, yəni satın aldığı əmlakın mülkiyyətçisi olacaqdır. Deməli, mülkiyyət hüququ əldə etmək alqı-satqı müqaviləsinin əsasını təşkil edir. Başqa bir misalda əmlak kirayə müqaviləsi bağlayarkən şəxs güman edir ki, əşyadan istifadə hüququ müvəqqəti olaraq ona keçəcəkdir, yəni əşyanın müvəqqəti istifadəçisi olacaqdır. Deməli, müvəqqəti olaraq əşyadan istifadə hüququ əldə etmək əmlak kirayə müqaviləsinin əsası kimi çıxış edir.

Beləliklə, hər bir əqd növü üçün müəyyən hüquqi nəticə və hüquqi məqsəd uyğun gəlir. **Bu və ya digər əqd növü üçün tipik olan hüquqi məqsədə və ya hüquqi nəticəyə əqdin əsası və ya əqdin kauzası deyilir.** Əqdin əsası hüquqazidd olmamalıdır. Əqdin əsası elə olmalıdır ki, onu həyata keçirmək mümkün olsun.

Bəzən əqdin hüquqi məqsədi onun əsasına uyğun gəlmir. Məsələn, uydurma əqd bağlanarkən bu cür halla qarşılaşırıq. Belə ki, tərəflər alqı-satqı müqaviləsinin əvəzinə, öz aralarındakı münasibəti bağışlama müqaviləsi kimi rəsmiləşdirirlər. Bununla onlar alqı-satqı müqaviləsini bağışlama müqaviləsi ilə pərdələyirlər.

Motiv (fransızca «motif» — hərəkət etmək üçün vadaredici səbəb və bəhanə)[1] əqdin elementlərindən biridir. Özü də dərhal qeyd edirik ki, o, əqdin məcburi, əsas və zəruri elementi yox, məcburi olmayan, qeyri-əsas və fakultativ (qeyri-zəruri) elementi hesab edilir. Hüquq ədəbiyyatı səhifələrində əqdin elementi kimi motivə münasibət birmənalı deyil. Bir qrup müəlliflər göstərirlər ki, motiv əqdin elementi hesab edilmir[2]. Bu cür mövqe ilə çətin razılaşmaq olar. Düzdür, ümumi qaydaya görə, əqdin motivi əqdin özündən kənarda qalır və ona hər hansı təsir göstərmir. Məhz buna görə motiv əqdin məcburi və zəruri yox, fakultativ elementi hesab edilir.

Bəzən motivi əqdin hüquqi məqsədi və ya əqdin əsası ilə qarışdırırlar. Lakin bu iki anlayış mənaca üst-üstə düşmür. Onlar arasındakı əlaqə fəlsəfi baxımdan səbəb və bəhanə kimi kateqoriyalar arasındakı münasibət kimidir. Belə ki, əgər fəlsəfi planda hüquqi məqsəd səbəbdirsə, əqdin motivi bəhanədir.

Əqdin motivi odur ki, o, şəxsləri əqd bağlamağa vadar və təhrik edir, həmin şəxslərdə buna meyl yaradır və həvəs oyadır. Məsələn, vətəndaş öz dostunun ad gününü təbrik etmək və ona bu niyyətlə hədiyyə vermək üçün mağazadan televizor alır. Dostuna onun ad günü münasibəti ilə hədiyyə vermək alqı-satqı müqaviləsinin motividir. Başqa bir misalda ailə qurmaq niyyətində olan qız özü üçün cehiz alır. Ailə qurmaq niyyəti bu əqdin motivini təşkil edir.

Motiv əqdin elə bir sosial-iqtisadi məqsədidir ki, məhz bunun naminə şəxslər əqd bağlayırlar. Buna görə motiv, bir qayda olaraq, hüquqi əhəmiyyətə malik olmayıb, əqdə hər hansı təsir göstərmir. Məsələn, vətəndaşın öz şəxsi və ailə-məişət ehtiyaclarını ödəmək niyyəti ilə və ya hədiyyə kimi başqasına bağışlamaq məqsədi ilə və yaxud da sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq (haqqı ilə sərnişin daşımaq) niyyəti ilə minik avtomobili almasının alqı-satqı əqdi üçün — həmin avtomobilə mülkiyyət hüququ əldə etməsi üçün hüquqi əhəmiyyəti yoxdur.

Motivin əqdin etibarlı hesab edilməsi üçün də hüquqi təfavütü yoxdur. Bu, o deməkdir **əqdin etibarlı olub-olmaması əqdin motivindən asılı deyildir**. Bu isə onu ifadə edir ki, motivdə səhvə yol verilməsi əqdin etibarlı sayılmasına dəlalət etmir və buna hər hansı təsir göstərmir. Məsələn, vətəndaş zənn edir ki, qonşusu onu toya dəvət edəcəkdir. Bu niyyətlə o, toy hədiyyəsi alır, yəni alqı-satqı əqdi bağlayır. Toyu olanlara hədiyyə vermək niyyəti bu əqdin motivini təşkil edir. Lakin zənn etdiyinin əksinə olaraq, həmin vətəndaş qonşu tərəfindən toya çağırılmır. Bu halda əqdin motivində səhvə yol verilmiş olur. Bunun da toy hədiyyəsinin alınması barədə bağlanan alqı-satqı müqaviləsinin etibarlı olub-olmaması üçün hüquqi əhəmiyyəti və təfavütü yoxdur. Belə ki, toy hədiyyəsi kimi alınan əmlaka mülkiyyət hüququ vətəndaşa keçir və o, əqddən imtina edə bilməz.

Bununla bərabər, **əqd iştirakçılarının razılığı ilə motivə hüquqi əhəmiy-**

[1] Советское гражданское право. Учебник / Под ред. *В.Ф.Маслова, А.А.Пушкина*. Часть 1. Киев. 1983, с. 203-204; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 177.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950.

[1] Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина, И.А.Акчурина и др.* М., 1985, с. 324; *Ожегов С.И.* Словарь русского языка / Под ред. *Н.Ю.Шведовой*. М., 1988, с. 293.

[2] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 219; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 332; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 177.

yət və məna verilə bilər. Belə halda motiv əqdin şərti (əqdin məzmununun elementi) kimi çıxış edir. Həmin əqdə isə **şərt altında bağlanan əqd** deyilir. Məsələn, mağazanın satıcısı ilə alıcı belə razılığa gəlirlər ki, əgər alıcı televizor alsa, ona fotoaparat bağışlanacaqdır. Burada televizor almaq niyyəti (motiv) bağışlama əqdinin şərti kimi çıxış edir. Əgər bu şərt olmasaydı, yəni tərəflər motivə hüquqi əhəmiyyət verməsəydilər, onda məlum məsələdir ki, bağışlama əqdi də bağlana bilməzdi.

Motiv əqdin özünün mahiyyətinə daxil olduğu hallarda da o, əqd iştirakçılarının xüsusi olaraq bunu əqddə göstərmələrindən asılı olmayaraq, hüquqi əhəmiyyət kəsb edir[1].

Əqdin subyektləri onun elementi hesab olunur. Əqddə iştirak edən şəxslərə **əqdin subyektləri** deyilir. Fiziki və hüquqi şəxslər, dövlət və bələdiyyələr subyekt qismində əqd bağlanmasında iştirak edə bilərlər.

Əqdin obyekti onun elementlərindən biridir. **Əqdin obyekti** odur ki, subyektlər məhz onun barəsində əqd bağlayırlar. Məsələn, alqı-satqı müqaviləsinin obyekti (predmeti) rolunda satılan əşya çıxış edir.

Əqdin forması da əqdin elementi kateqoriyasına şamil edilir. Əqd subyektlərinin iradələrinin ifadə və təsbit edilmə üsulları **əqdin forması** adlanır.

Əqdin məzmunu onun elementlərindən biri sayılır. Əqdin bütün şərtlərinin məcmusuna **əqdin məzmunu** deyilir.

Əqdin subyekti, forması və məzmunu barədə bu fəslin 3-cü paraqrafında geniş söhbət açılacaqdır.

4. Əqdlərin əhəmiyyəti

Əqd böyük **sosial-iqtisadi əhəmiyyətə malik olan anlayışdır**. O, iqtisadi dövriyyə prosesində istifadə olunan əsas hüquqi formalardan biridir. Cəmiyyətdəki əmtəə-pul münasibətləri, iqtisadi (əmlak) dövriyyə münasibətləri məhz mülki-hüquqi əqdlərin vasitəsi ilə ifadə olunur. Buna görə də iqtisadi (əmlak) dövriyyəsi, istehsalı və tədavülü inkişaf etmiş cəmiyyətlərdə onlar böyük rol oynayırlar.

Mülki-hüquqi əqdlərin böyük əhəmiyyəti ondan ibarətdir ki, onlar **mülki hüquq münasibətlərinin əmələ gəlməsinin, dəyişməsinin və xitam olunmasının ən geniş yayılmış əsaslarından** biridir. Vətəndaş cəmiyyətinin əsasını təşkil edən mülkiyyət hüquq münasibətlərinin əmələ gəlmə üsullarından biri əqdlər hesab edilir. Kredit-bank, hesablaşma-ödəniş, sığorta, pərakəndə ticarət və digər sahələrdə əmələ gələn mülki hüquq münasibətləri məhz onların nəticəsində yaranır. Bu əqdləri, əsasən, dörd qrupa bölmək olar: **əmlakın özgəninkiləşdirilməsinə yönələn əqdlər** (alqı-satqı, dəyişmə, renta, bağışlama); **əmlakın istifadəyə verilməsi barədə əqdlər** (kirayə, icarə lizinq, əvəzsiz istifadə); **iş görülməsinə yönələn əqdlər** (podrat); **xidmət göstərilməsi barədə əqdlər** (daşıma, sığorta, kredit, saxlama və s.). Bax, bu əqdlərin məcmusu **iqtisadi (əmlak) dövriyyəni — mülki (əmlak) dövriyyəni yaradır**.

Mülki-hüquqi əqdlər xarici (beynəlxalq) əmlak dövriyyəsində böyük rol oynayır. Xarici ticarət sahəsində onlar geniş miqyasda tətbiq olunur. Əqdlər ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsində mühüm əhəmiyyətə malikdir.

Əqdlərin bir növü olan **mülki-hüquqi müqavilələrin** bazar iqtisadiyyatı şəraitində rolu qeyri-adi dərəcədə artır. Müqavilələr sistemi bazar mexanizminin özəyi kimi çıxış edir[1].

Müqavilələrin əhəmiyyəti ondan ibarətdir ki, onların vasitəsi ilə iqtisadi münasibətlər öz-özünü tənzimləməyə məruz qalır. Söhbət bu münasibətlərdə iştirak edən subyektlərin öz-özünü tənzimləməsindən gedir. Öz-özünü tənzimləmə təsərrüfat fəaliyyətinin təşkilində ən səmərəli üsuldur. Bütün bunlar onu göstərir ki, **müqavilə mülki hüquq subyektləri arasında iqtisadi münasibətlərin təşkilinin əsas hüquqi formasıdır**.

Müqavilə kontragentlərin — müqavilədə iştirak edən tərəflərin davranışını nizama salan əsas vasitədir, tənzimləyicidir. Normativ akt fəaliyyətin hüquqi əsasını yaradır. Müqavilə isə partnyorlar arasında iqtisadi əlaqələrin hüquqi rejimini müəyyən edir. O, müqavilə öhdəliklərinin icrası qaydası və şərtlərini, tərəflərin qarşılıqlı hərəkət formalarını nəzərdə tutur. Müqavilə tərəflərə imkan verir ki, onlar öz aralarındakı qarşılıqlı münasibətləri, hüquq və vəzifələri müəyyənləşdirsinlər. Fransa Mülki Məcəlləsinin 1134-cü maddəsinin 1-ci hissəsində göstərildiyi kimi, **qanun əsasında bağlanan müqavilə onu bağlayan tərəflər üçün qanundur**.

Bazar iqtisadiyyatı şəraitində müqavilələrin rolu köklü surətdə dəyişmişdir. Onun tətbiq sferası genişlənir, yeni müqavilə növləri meydana gəlir. Çox vaxt müqavilələr münasibətlərin yeganə nizamlayıcısı kimi çıxış edir[2]. İndiki dövrdə bizim həyati münasibətlərin böyük hissəsi müqavilə və digər əqdlərin vasitəsilə tənzimlənir[3].

§ 2. Əqdlərin hüquqi təsnifi

1. Əqdlərin növləri

Mülki-hüquqi əqdlər son dərəcə müxtəlif olub, bir neçə növə bölünür. Qüvvədə olan mülki qanunvericilik onların ayrı-ayrı növlərini tənzimləyir. Bu növlərdən hər biri spesifik xüsusiyyətlərə malikdir.

Qüvvədə olan qanunvericilik, sivilistika doktrinası (mülki hüquq elmi) əqdlərin hüquqi təsnifini verir. Bu təsnifin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Belə ki, o, əqdlərin ayrı-ayrı növlərinin hüquqi xüsusiyyətlərini ayırmağa və fərqləndirməyə, onların təyinatını, mahiyyətini və tətbiq sferasını düzgün olaraq müəyyənləşdirməyə imkan verir. Əqdlərin təsnifinin köməyi və vasitəsi ilə biz onların ayrı-ayrı kateqoriyalarının hüquqi spesifikasına (spesifik xüsusiyyətinə, özünəxas cəhətinə) bələd oluruq.

Əqdlər müxtəlif əsas və meyarlara görə növlərə bölünür. Bu cür əsas və meyarlara aiddir: əqddə iştirak edən tərəflərin sayı; tərəflərin hüquq və vəzifə-

[1] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 254-256; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* 1998, с. 197.

[1] bax: *Пугинский Б.И., Сафуллин Д.Н.* Правовая экономика: проблемы становления. М., 1991, с. 150.

[2] bax: *Тихомиров Ю.А.* Договоры в экономике. М., 1993, с. 10.

[3] *Секэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 101.

lərinin əmələ gəlməsi anı; əqdin əvəzli-əvəzsiz olması və s.

Bu əsas və meyarlar əqdlərin təsnifinin verilməsinə və onların qəti olaraq müəyyən sistemdə yerləşdirilməsinə imkan yaradır. Mülki dövriyyə iştirakçıları arasında müxtəlif və çoxsaylı əqdlər bağlanmasını nəzərə alsaq, onların lazımınca sistemləşdirilməsi vacib əhəmiyyət kəsb edir.

Əqdlərin elmi cəhətdən əsaslandırılmış sistemi ilk növbədə, onların lazımi qaydada hüquqi tənzimlənməsi üçün əhəmiyyətlidir. Əqdlərin sisteminin həm də eyni zamanda hüquqtətbiqetmə fəaliyyəti üçün əhəmiyyəti vardır. O, əqdin bir növünün digərindən fərqləndirilməsinə və ayrılmasına, onlara münasib (uyğun gələn) hüquq normalarının tətbiq edilməsinə imkan verir. Əqdlərin elmi cəhətdən əsaslandırılmış sistemi həm də əqd institutunun öyrənilməsini xeyli dərəcədə asanlaşdırır. Bu sistemin əsasında isə müxtəlif təsnifat meyarları durur ki, həmin meyarlar bir-biri ilə ziddiyyət təşkil etmir. Əksinə, onlar bir-birini tamamlayaraq əqd kimi mürəkkəb məsələnin tam öyrənilməsi və dərindən başa düşülməsi məqsədinə xidmət edir.

2. Birtərəfli, ikitərəfli və çoxtərəfli əqdlər

Əqddə iştirak edən tərəflərin sayı kimi meyara və əsasa (iradə ifadəsi prinsipinə) **görə** əqdlər üç növə bölünür. Bu bölgünün əsasında əqdin bağlanması üçün iradə ifadəsi kifayət edən və lazım olan şəxsin sayı kimi əlamət durur[1]:

- birtərəfli əqdlər;
- ikitərəfli əqdlər;
- çoxtərəfli əqdlər.

Əqdin bağlanması üçün yalnız bir tərəfin iradə ifadəsi lazım olan və kifayət edən əqdlərə birtərəfli əqdlər deyilir. Bu cür əqdlərdə ancaq bircə tərəfin iradəsi ifadə olunur. Məsələn, vəsiyyət etmək birtərəfli əqdlərə misal ola bilər. Bu zaman vəsiyyət edən şəxs öz iradəsini vəsiyyətnamədə vərəsə kimi göstərilən şəxsin bu iradə ilə razı olmasından asılı olmayaraq ifadə edir. Bundan əlavə, etibarnamə verilməsini, mirasın qəbul edilməsini, müsabiqə elan edilməsini, xüsusi mükafatlandırmanın açıq elan olunmasını, bağlanmış müqavilənin icrasını, mirasdan imtina edilməsini, oyunlar və mərclər keçirmək barədə elan verilməsini və s. birtərəfli əqdlərə misal kimi göstərmək olar. Bağışlama kimi hərəkətə gəldikdə isə qeyd etmək lazımdır ki, bu cür hərəkət bizim ölkə qanunvericiliyinə, habelə Almaniyanın, RF-in və digər xarici ölkələrin qanunvericiliyinə görə, birtərəfli yox, ikitərəfli əqd hesab olunur. Amma Yaponiya mülki hüquq elmində göstərilir ki, bağışlama birtərəfli əqddir[2]. İnqilabaqədərki Rusiya alimi K.Pobedonostsev də bağışlamaya birtərəfli akt (əqd) kimi baxırdı[3].

[1] L.Enneksərus bu meyara görə əqdləri iki yerə bölür: birtərəfli əqdlərə; ikitərəfli əqdlərə (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 120). Professor H.Haynriks də həmin meyara görə onların iki növünü fərqləndirir: birtərəfli əqdlər; çoxtərəfli əqdlər (*Heinrichs H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999. s. 68). Yaponiya mülki hüququ isə göstərilən əlamətə görə əqdləri birtərəfli əqdlərə və müqavilələrə bölür.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 77.

[3] *Победоносцев К.* Курс гражданского права. СПб., 1896. Том 3, с. 364-366.

Birtərəfli əqdi bağlayan şəxs tərəfində bir neçə şəxs çıxış edə bilər. Məsələn, evin birgə mülkiyyətçiləri tərəfindən etibarnamə verilir. Başqa bir misalda bir neçə hüquqi şəxs müqavilənin icrasından imtina edir. Bu cür hallarda bir neçə şəxsə bir tərəf kimi baxılır. Başqa sözlə desək, birtərəfli əqdi bağlayan tərəfi bir neçə şəxs təmsil edə bilər. Lakin buna baxmayaraq, əqd birtərəfli əqd kimi qalır.

Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, **«əqdi bağlayan tərəf (əqddə tərəf)»** anlayışı ilə **«əqd iştirakçıları (əqddə iştirakçılar)»** anlayışını qarışdırmaq olmaz. Bunlar eyni mənalı anlayışlar deyildir. Birtərəfli əqdlərdə həmişə istisnasız olaraq, tərəf rolunda yalnız bir şəxs çıxış edə bilər. Əqd iştirakçıları isə həmin şəxs tərəfində çıxış edən və onu təmsil edən şəxslərə deyilir. Əqd iştirakçılarının sayı həmişə əqddə çıxış edən tərəfin sayından çox olur.

Elə birtərəfli əqdlər vardır ki, bu cür əqdlər, əqd bağlayan tərəfin iradə ifadəsini başqa tərəfin qəbul etməsini nəzərdə tutur və tələb edir (**iradə ifadəsinin qəbulunu tələb edən əqdlər**)[1]. Belə hallarda yalnız iradə ifadəsi başqa tərəfə çatdığı andan o, etibarlı olur (MM-in 325-ci maddəsinin 1-ci bəndi). Bu cür əqdlərdə iradə ifadəsi hökmən başqa şəxsə yönəlir. Həmin şəxsin iradə ifadəsi barədə məlumatı olmalıdır. Məsələn, müqaviləyə xitam verilməsi barədə xəbərdarlıq kimi iradə ifadəsini bu ifadənin yönəldiyi şəxs bilməlidir. Oferta (müqavilə bağlamaq təklifi), aksept (müqavilə təklifini qəbul etmək) də göstərilən əqdə misaldır.

Bununla belə, elə birtərəfli əqdlər vardır ki, bu əqdlər, əqd bağlayan tərəfin iradə ifadəsinin digər şəxs tərəfindən qəbul edilməsini tələb etmir (**iradə ifadəsinin qəbulunu tələb etməyən əqdlər**). Məsələn, vəsiyyət bu cür əqdlərə misal ola bilər[2]. Bu növ əqdlər, bir qayda olaraq, başqa şəxsə yönəlmir. Sahibsiz əşyanı ələ keçirmək, dereliksiya (əşyadan imtina etmək) da göstərilən kateqoriya əqdlərə misaldır[3]. Həmin əqdlərin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu əqdlər iradə ifadəsinin başqa şəxslər tərəfindən qəbulunu nəzərdə tutmur. Məsələn, ata öz itmiş uşağını tapan şəxsə xüsusi mükafat verməsini açıq (ümumi) yolla (mətbuat, radio və televiziya vasitəsilə və s.) elan edir (xüsusi mükafatlandırma əqdi).

Bəzən başqa tərəf birtərəfli iradə ifadəsi barəsində qabaqcadan və ya dərhal öz imtinasını bildirir. Bu halda birtərəfli iradə ifadəsi etibarlı sayılır və birtərəfli əqdin bağlanmasına təsir göstərmir. Məsələn, ictimai ədəbi-mədəni təşkilat ən yaxşı dram əsəri yazmağa görə ölkənin tanınmış on dramaturq yazıçısı arasında qapalı müsabiqə elan edir. Həmin yazıçılar dərhal bu müsabiqədə iştirak etməkdən öz imtinalarını bildirirlər. Başqa bir misalda etibarnamə verilmiş şəxs etibarnamədən və ya vəsiyyət üzrə vərəsə vərəsəlikdən dərhal imtina edir. Bu kimi imtina hallarından birtərəfli əqdin bağlanması asılı deyildir. Bu, məlum məsələdir. Belə ki, əsas məsələ əqd bağlayan tərəfin iradə ifadəsidir.

[1] Bu qayda bizim ölkə qanunvericiliyi üçün novelladır. Həmin qaydaya 1964-cü il MM-də rast gəlmirik. O, Almaniya Mülki Qanunnaməsindən iqtibas edilmişdir (§ 130). Göstərilən qaydanın əqdlərin qüvvəyə minməsi üçün hüquqi əhəmiyyəti vardır (*А.Жилинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 319).

[2] Köhnə 1964-cü il MM-də belə qayda nəzərdə tutulmamışdı.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 115.

Birtərəfli iradə ifadəsinin etibarlılığı əqd bağlamış şəxsin ölümündən və ya fəaliyyət qabiliyyətini itirməsi kimi amillərdən asılı ola bilər. Belə ki, əqdi bağlamış şəxsin ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi iradə ifadəsindən sonra baş verərsə, iradə ifadəsinin etibarlılığına bəzi halda təsir göstərir, bəzi halda təsir göstərmir (MM-in 325-ci maddəsinin 3-cü bəndi). Məsələn, vəsiyyət əqdi bağlamış şəxs ölür. Bu, həmin əqdin etibarsız sayılmasına dəlalət etmir. Etibarnamə vermiş şəxs öldükdə və ya fəaliyyət qabiliyyətini itirdikdə isə etibarnaməyə xitam verilir (MM-in 365-ci maddəsi). Xüsusi mükafatlandırma əqdində isə uşağı itmiş atanın fəaliyyət qabiliyyətini itirməsi isə birtərəfli əqdin xitam olunmasına və etibarsız sayılmasına səbəb olmur.

Birtərəfli əqd bütün əqdlər kimi hüquqi nəticəyə — mülki hüquq və vəzifələrin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam edilməsinə səbəb olur. Bu cür əqd **vəzifəni yalnız onu bağlamış şəxs üçün yaradır**. Əqdin ünvanlandığı şəxslər üçün də həmin əqd vəzifələr yarada bilər, bir şərtlə ki, bu, Mülki Məcəllədə və ya həmin şəxslərlə razılaşmada nəzərdə tutulsun (MM-in 326-cı maddəsi). Məsələn, vəsiyyət edən şəxs hər hansı öhdəliyin (vəzifənin) icra olunmasını vərəsəyə — vəsiyyətin ünvanlandığı şəxsə həvalə edə və tapşıra bilər (MM-in 1205-ci maddəsi). Vərəsə üçün bu halda birtərəfli əqd olan vəsiyyət vəzifə (öhdəlik) əmələ gətirir.

Misala müraciət edək.

Miras qoyan tərtib etdiyi vəsiyyətnamə ilə vərəsəyə tapşırar ki, vərəsə miras açıldıqdan sonra üçotaqlı evin otaqlarından birini ömürlük istifadə üçün qohuma versin və ya vərəsə miras qalmış pul hesabına minik avtomobili alıb miras qoyanın qardaşına versin.

Birtərəfli əqd onu bağlayan şəxs üçün **mülki hüquqlar yaratmır**. Mülki hüquqları bu əqd yalnız onun ünvanlandığı şəxslər üçün əmələ gətirir.

İkitərəfli əqdlər odur ki, bu əqdlərin bağlanması üçün iki tərəfin iradə ifadəsinin olması tələb edilir. Bu cür əqdlərdə **iki tərəfin razılaşdırılmış və qarşılıqlı iradəsi** ifadə olunur. Məsələn, alqı-satqı, kirayə, icarə, daşıma, borc, kredit, sığorta, girov, ipoteka və digər müqavilələr ikitərəfli əqdlərə misal ola bilər. Mülki (əmlak) dövriyyə münasibətləri — əmtəə-pul əlaqələri, əsasən, məhz ikitərəfli əqdlər vasitəsilə ifadə olunur. Ona görə də onların xüsusi çəkisi üstünlük təşkil edir.

İkitərəfli əqdlərdə iki qarşılıqlı iradə ifadəsinin bir-birinə uyğun gəlməsi tələb edilir. Belə ki, bu əqddə iştirak edən tərəflərdən hər birinin öz iradəsini ifadə etməsi gərəkdir. Ona görə ikitərəfli əqdləri **qarşılıqlı əqdlər** də adlandırırlar.

İkitərəfli əqdlər birtərəfli əqdlər kimi hüquqi nəticəyə səbəb olur. Onlar, bir qayda olaraq, əqddə iştirak edən hər iki tərəf üçün həm hüquqlar, həm də vəzifələr yaradır. Məsələn, alqı-satqı, daşıma, icarə, kirayə, podrat və digər müqavilələr hər iki tərəf üçün mülki hüquq və vəzifələr əmələ gətirir. Özü də **bir tərəfin hüquqları digər tərəfin vəzifələrinə uyğun olur**. Bəzi əqdlər isə bir tərəf üçün yalnız vəzifə, digər tərəf üçün isə ancaq hüquq yaradır. Məsələn, bank əmanəti (depozit) müqaviləsi bank üçün əmanəti qaytarmaq kimi vəzifə, əmanətçi üçün isə həmin əmanətin verilməsini tələb etmək hüququ əmələ gətirir.

İkitərəfli əqdlərdə həmişə yalnız iki tərəf çıxış edir. Amma bəzən hər iki tərəf bir neçə əqd iştirakçısı tərəfindən təmsil oluna bilər. Bu cür hallarda əqd

yenə də ikitərəfli əqd hesab edilir. Məsələn, evin birgə mülkiyyətçiləri (məsələn, ər-arvad) onu dörd nəfər vətəndaşa satırlar. Bu əqddə satıcı tərəfini iki nəfər (ər və arvad), alıcı tərəfini isə dörd nəfər vətəndaş təmsil edir. Bunlar əqd iştirakçıları hesab olunurlar. Əqdin tərəfləri isə alıcı və satıcıdan ibarətdir.

Çoxtərəfli əqdlər odur ki, bu əqdlərin bağlanması üçün ikidən çox tərəfin razılaşdırılmış iradə ifadəsinin olması tələb edilir. Bu cür əqdlərdə ikidən çox tərəfin, yəni üç, dörd, beş və s. tərəfin iradəsi ifadə olunur. Başqa sözlə desək, çoxtərəfli əqdlərin bağlanmasında ikidən çox tərəf iştirak edir.

Çoxtərəfli əqdlər birtərəfli və ikitərəfli əqdlərdən, göründüyü kimi, əqddə iştirak edən tərəfin sayı kimi əlamətə görə fərqlənir. Belə ki, birtərəfli əqdin bağlanmasında yalnız bir tərəf, ikitərəfli əqdin bağlanmasında iki tərəf, çoxtərəfli əqdin bağlanmasında isə ikidən çox — üç və ya daha artıq tərəf çıxış edir. Bundan əlavə, çoxtərəfli əqdlər üçün xarakterik olan belə bir xüsusiyyət vardır ki, burada **hər bir tərəfin hərəkəti eyni bir ümumi məqsədə çatmağa yönəlir**. Bu cür əqdlərdə iştirak edən çoxsaylı tərəflərdən hər birinin iradəsi onların hamısı üçün ümumi olan məqsədə istiqamətlənir və səmt alır. Çoxtərəfli əqdlərə misal kimi köhnə 1964-cü il MM-nin tənzimlədiyi və nəzərdə tutduğu birgə fəaliyyət haqqında müqaviləni çəkə bilərik (həmin Məcəllənin 433-cü maddəsi)[1]. Hüquqi şəxslərin yaradılması haqqında təsis müqaviləsini (təsisçilər arasında bağlanan müqaviləni) də çoxtərəfli əqd kateqoriyasına şamil etmək olar, bir şərtlə ki, həmin hüquqi şəxsləri ikidən çox şəxs tərəfindən təsis olunsun (MM-in 45-ci maddəsinin 2-ci bəndi). L.Ennekserus haqlı olaraq göstərir ki, belə hallarda müxtəlif tərəflər arasında müvafiq qarşılıqlı iradə ifadəsi mübadilə olunmur, yalnız eyni tərəflərin iradə ifadəsi paralel olaraq həyata keçirilir[2].

Mülki qanunvericilikdə, mülki hüquq elmində (sivilistika doktrinasında) ikitərəfli və ya çoxtərəfli əqdləri müqavilələr adlandırırlar. Öz həcminə görə «əqdlər» və «müqavilələr» kimi iki anlayış bir-birinə uyğun gəlmir və üst-üstə düşmür. Belə ki, əqdlər birtərəfli, ikitərəfli və çoxtərəfli əqdlər növündə ola bilər. Amma müqavilələrə yalnız ikitərəfli və çoxtərəfli əqdlər daxildir. Birtərəfli əqdlər müqavilə kateqoriyasına şamil edilmir. Deməli, istənilən hər hansı müqavilə əqd hesab edilir. Amma istənilən əqdi müqavilə saymaq olmaz. Məsələn, vəsiyyət etmək birtərəfli əqddir, amma müqavilə deyildir.

Almaniya sivilistika doktrinasına görə, **müqavilə dedikdə, iki və daha çox tərəfin bir-birinə uyğun gələn qarşılıqlı iradə ifadəsi başa düşülür**[3]. Yaponiya mülki hüquq elminə görə, müqavilə iki iradəvi hərəkətin — təklif və razılığın məcmusudur[4].

Sivilistika elmi və mülki qanunvericilik müqaviləni üç mənada işlədir[5]. **Birinci mənada** müqavilə mülki (öhdəlik) hüquq münasibəti deməkdir (məsələn, alqı-satqı müqaviləsi alqı-satqı hüquq münasibəti deməkdir). **İkinci mənada**

[1] Bu müqavilə növünü yeni Mülki Məcəllə nəzərdə tutmur. Lakin buna baxmayaraq, mülki hüquq və vəzifələr qanunvericilikdə nəzərdə tutulmayan müqavilələrdən də əmələ gələ bilər (MM-in 14-cü maddəsi).

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 122.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 120.

[4] *Сакэ Вагацума, Тору Арицдзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 101.

[5] *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 26-27.

müqavilə əqd mənasını ifadə edir. Bu baxımdan o, hüquqi fakt kimi hüquq münasibəti yaradır (məsələn, podrat müqaviləsi hüquqi fakt, yəni əqd kimi podrat hüquq münasibəti əmələ gətirir). **Üçüncü mənada** müqavilə sənəd mənasında işlədilir. Elə bir sənəd ki, o, hüquq münasibətinin yaranma faktını ifadə edir.

3. Əvəzli və əvəzsiz əqdlər

Əvəzlilik-ekvivalentlik kimi əlamətə, yəni əvəzli — ekvivalentli olub-olmaması kimi əlamətə görə əqdlər iki növə bölünür:

- əvəzli əqdlər;
- əvəzsiz əqdlər.

Əvəzli əqd odur ki, bu əqdə görə bir tərəf öz vəzifələrinin icrası müqabilində o biri tərəfdən haqq və ya digər qarşılıqlı əvəz almaq hüququna malik olur. Söhbət əqddə iştirak edən bir tərəfin özünün etdiyi hərəkətə görə digər tərəfdən qarşılıqlı əvəz almasından gedir. Hərəkət dedikdə, tərəfin digər tərəfə əşya və ya pul verməsi, iş görməsi və ya xidmət göstərməsi başa düşülür. Məsələn, alqı-satqı müqaviləsinə görə, satıcı əşya verməyin müqabilində pul formasında (yəni satılmış əşyanın pulu şəklində) qarşılıqlı əvəz alır. Podrat müqaviləsinə görə, podratçı gördüyü işin müqabilində sifarişçidən podrat haqqı alır. Daşıma müqaviləsinə görə, daşıyıcı yükü təyinat yerinə çatdırmağa görə yük alandan daşıma haqqı alır. Deməli, alqı-satqı, podrat və daşıma kimi müqavilələr əvəzli əqd hesab edilir. Bundan əlavə, dəyişmə, kirayə, icarə, komissiya, bank əmanəti (depozit), bank hesabı, kredit və digər müqavilələr də əvəzli əqd kateqoriyasına aid edilir.

Mülki-hüquqi əqdlərin əsas kütləsini əvəzli əqdlər təşkil edir. Bu əqdlərin xüsusi çəkisi müqayisəedilməz dərəcədə böyükdür. Bütün sahibkarlıq müqavilələri əvəzli əqd hesab edilir. Sahibkarlıq sferasında bağlanan müqavilələrin əvəzli xarakterə malik olması bu müqavilələrin xarakterik əlamətidir[1]. Əvəzli əqdlərin üstünlük təşkil etməsi mülki (əmlak) dövriyyənin əmtəə və əmlak xarakterli olması ilə, onun əmtəə-pul münasibətlərindən ibarət olması ilə izah edilir.

Əqdlərin əvəzli olması o demək deyildir ki, onlar həmişə istisnasız olaraq, ekvivalent əqdlər sayılır. Bu, o deməkdir ki, bütün əqdlərin hamısı ekvivalent deyildir. Belə ki, bəzi əqdlər əvəzli olsa da, ekvivalent əqd hesab edilmir. Məsələn, alqı-satqı müqaviləsi üzrə satıcı əşyanı həqiqi qiymətindən nisbətən ucuz qiymətə satır. Sığorta müqaviləsi əvəzli olsa da, ekvivalentlik xüsusiyyətindən məhrumdur. Belə təsəvvür yaranır ki, **ekvivalentlik yox, qarşılıqlı əvəz almaq əvəzli əqdlərdə həlledici əhəmiyyət kəsb edir**. Bu əqdlərdə hər hansı tərəf digər tərəfin xeyrinə müəyyən hərəkət etmək vəzifəsini daşıyır. Əgər bir tərəf əmlak verirsə, onda digər tərəf ya başqa əmlak, ya pul verməli, ya da hər hansı başqa hərəkət etməlidir. Məsələn, alqı-satqı müqaviləsinə görə, satıcı əşya verir, alıcı isə onun əvəzində satıcıya pul verir. Ona görə də yalnız ikitərəfli və çoxtərəfli əqdlər əvəzli ola bilər. Birtərəfli əqdlərin əvəzli əqd olması tam istisna edilir, qeyri-mümkündür.

[1] bax: Коммерческое право. Учебник / Под ред. *В.Ф.Попондопуло, В.Ф.Яковлевой*. СПб., 1997, с. 192; Предпринимательское (хозяйственное) право. Учебник. Том 1/Под ред. *О.М.Олейника*. М., 1999, с. 417.

Bəzən əvəzi müqavilədə alınmalı haqq və ya digər qarşılıqlı əvəz barədə şərt nəzərdə tutulmur. Məsələn, podrat müqaviləsində podrat haqqı, daşıma müqaviləsində daşıma haqqı, icarə müqaviləsində icarə haqqı, alqı-satqı müqaviləsində satılan əşyanın qiyməti və s. göstərilmir. Bu hal həmin müqavilələrin əvəzsiz olmasına dəlalət etmir. Onlar yenə də əvəzli əqdlər sayılır. Əqdin (müqavilənin) qiymətinin (podrat haqqının, daşıma haqqının və s.) müəyyən edilməsinə gəldikdə isə göstərmək lazımdır ki, belə hallarda müqayisəyə gələ bilən oxşar mallar, işlər və ya xidmətlər üçün, adətən, alınan qiymət əsas kimi götürülür (MM-in 398-ci maddəsinin 3-cü bəndi).

Əvəzsiz əqd odur ki, bu əqdə görə, bir tərəf digər tərəfdən haqq və ya digər qarşılıqlı əvəz almadan onun üçün müəyyən hərəkət edir, yəni əmlak verir, xidmət göstərir, iş görür və ya pul verir. Bu cür əqdlərə misal olaraq bağışlama və ssuda (əvəzsiz istifadə) müqavilələrini göstərmək olar. Onlar **əvəzsiz əqdlərin klassik növləri** hesab edilir. Bağışlama müqaviləsinə görə, hədiyyə verən əmlakı qarşılıqlı əvəz almadan hədiyyə alanın mülkiyyətinə verir. Ssuda (əvəzsiz istifadə) müqaviləsinə görə isə kirayəyə verən əşyanı kirayə haqqı almadan kirayəçiyə müvəqqəti istifadəyə verir. Bundan əlavə, birtərəfli əqdlər həmişə əvəzsiz əqd kateqoriyasına şamil edilir.

Bununla bərabər, qeyd etmək lazımdır ki, **tərəflərin razılığından asılı olaraq, bəzi əqdlər ya əvəzli, ya da əvəzsiz ola bilər**. Belə ki, əqd bağlayan tərəflər əqdin əvəzli olması barədə razılığa gələrsə, onda bu cür əqd əvəzli əqd hesab ediləcəkdir. Yox, əgər onlar əqdin əvəzsiz olması barədə şərtləşərlərsə, onda həmin əqd əvəzsiz əqd kateqoriyasına aid olunacaqdır. Saxlama, tapşırıq, borc kimi müqavilələr bu qəbildən olan əqdlərə şamil edilir. Tərəflərin şərtləşməsindən asılı olaraq, bu müqavilələr ya əvəzli, ya da əvəzsiz ola bilər.

Alqı-satqı, podrat, daşıma və digər müqavilələr həmişə istisnasız olaraq, əvəzli əqdlərdir. Onların əvəzsiz əqd olmaları, əgər tərəflər razılığa gəlsə belə, istisna edilir, qeyri-mümkündür. Əgər həmin müqavilələrə görə tərəf öz vəzifəsini (satıcının əşyanı vermək, podratçının sifarişi yerinə yetirib iş görmək, daşıyıcının yükü təyinat yerinə çatdırmaq vəzifəsini) yerinə yetirməyə görə haqq almazsa, onda bu, bağışlama müqaviləsi ilə rəsmiləşdirilir.

Beləliklə, əvəzlilik baxımından əqdləri üç qrupa bölmək olar: **yalnız əvəzli xarakterə malik olan əqdlər** (alqı-satqı, icarə, podrat, daşıma, dəyişmə və s. müqavilələr); **yalnız əvəzsiz xarakterə malik olan əqdlər** (bağışlama və əvəzsiz istifadə müqavilələri); **həm əvəzli, həm də əvəzsiz xarakterə malik olan əqdlər** (saxlama, tapşırıq, borc və digər müqavilələr).

4. Konsensual və real əqdlər

Əqdin bağlanmış hesab edilməsini şərtləndirən vaxt anı kimi meyara görə əqdlərin iki növü fərqləndirilir:

- konsensual (latınca «consensus» — saziş, razılaşma) əqd;
- real (latınca «res» — əşya) əqd.

Konsensual əqdlər odur ki, bu cür əqdlərin bağlanmış hesab edilməsi üçün, əqdin bağlanması üçün tərəflərin razılaşması (sazişi) kifayətdir. Bu əqdlər yalnız o halda bağlanmış hesab edilir ki, əqdin bütün mühüm bəndləri barədə tərəflər razılıq əldə etsinlər. Başqa sözlə desək, tərəflərin əqd bağ-

lamaq barədə razılaşması (sazişi) anında əqd bağlanmış sayılır. Məhz bu andan əqd bağlayan tərəflər üçün hüquq və vəzifələr əmələ gəlir. Əşyanın verilməsi, pul ödənilməsi və digər hərəkətlər isə əqdin bağlanmış hesab olunmasına dəlalət etmir. Bu cür hərəkətlər artıq bağlanmış əqdin icra edilməsini sübut edir. Məsələn, alqı-satqı müqaviləsi konsensual əqdə misal ola bilər. Satıcı və alıcı əqdin mühüm bəndləri (əqdin predmeti, qiyməti, pulun ödənilməsi və əşyanın alıcıya verilməsi müddəti) barədə razılığa gələn kimi, onlar arasında alqı-satqı müqaviləsi bağlanmış sayılır. Alıcının əşyanın pulunu satıcıya ödəməsi, satıcının isə əşyanı alıcıya verməsi kimi hərəkətlər isə artıq bağlanmış olan alqı-satqı müqaviləsinin icra olunmasını nümayiş etdirir. Bu müqavilənin bağlanmış hesab edilməsi üçün alıcının əşyanın pulunu satıcıya ödəməsi, satıcının isə əşyanı alıcıya verməsi tələb olunmur.

Konsensual əqdlərin dairəsi kifayət qədər genişdir. Alqı-satqı müqaviləsindən savayı, podrat, icarə, kirayə, əvəzsiz istifadə (ssuda), kredit, dəyişmə, komissiya və digər müqavilələr konsensual əqdlərin ən geniş yayılmış növləridir.

Real əqdlər odur ki, bu cür əqdlərin bağlanmış hesab edilməsi üçün əqdin bağlanması barədə tərəflərin sazişindən əlavə, həm də əşyanın və ya pulun verilməsi tələb olunur. Bu əqdlərin bağlanması üçün tərəflərin sazişi (razılaşması) kifayət etmir. Bunun üçün həm də zəruridir ki, əşya və ya pul qarşı tərəfə verilsin. Yalnız əşya və ya pul qarşı tərəfə verildiyi andan əqd bağlanmış hesab edilir. Məhz bu andan tərəflər üçün hüquq və vəzifələr yaranır. Real əqdə misal olaraq dəmir yolu ilə yük daşıma müqaviləsini göstərmək olar. Yükün daşınma üçün qəbul edilməsi bu müqavilənin bağlanma anını göstərir. Bu müqavilədən savayı, bank əmanəti (depozit), renta və s. müqavilələr real əqd kateqoriyasına şamil edilir.

Bəzi əqdlər tərəflərin sazişindən və ya qanunda nəzərdə tutulmasından asılı olaraq, ya konsensual əqd, ya da real əqd ola bilər. Məsələn, bağışlama, sığorta, faktorinq və s. bu cür müqaviləyə misal ola bilər.

5. Kauzal və abstrakt (mücərrəd) əqdlər

Əqdin hüquqi əsasının (hüquqi məqsədinin) onun etibarlı olması üçün əhəmiyyətinə görə əqdlərin iki növü fərqləndirilir. Başqa sözlə desək, yalnız əqdin hüquqi əsasına (məqsədinə) görə onu etibarlı saymaqdan asılı olaraq və ya asılı olmayaraq bütün əqdlər iki növə bölünür:

- kauzal (latınca «causa» — səbəb, əsas)[1] əqdlər;
- abstrakt (latınca «abstractio» — ayırmaq, uzaqlaşdırmaq)[2] və ya mücərrəd əqdlər[3].

Söhbət əqdin hüquqi əsasının (məqsədinin) onun etibarlı olmasına hansı və nə cür təsir etməsindən asılı olaraq, əqdlərin iki yerə ayrılmasından gedir.

Əqdin hüquqi əsası elə bir hüquqi məqsəddir ki, məhz həmin məqsədə çatmaq üçün əqd bağlanılır. İstənilən hər bir əqdin hüquqi əsası — hüquqi məqsədi vardır. Elə bir məqsəd ki, əqd bağlayan tərəflər bu məqsədə nail olmağa cəhd göstərirlər. Hüquqi əsası (məqsədi) olmayan əqdin mövcudluğundan söhbət gedə bilməz. Əqdlərin kauzal və abstrakt əqdlər adlı iki yerə bölünməsi onu ifadə etmir ki, kauzal əqdlərin hüquqi əsası (məqsədi) vardır, abstrakt (mücərrəd) əqdlərin isə yox. Bu cür bölgünün mahiyyəti məhz ondan ibarətdir ki, **kauzal əqdlərdə hüquqi əsas (məqsəd) əqdin mühüm və zəruri elementi kimi çıxış edir**. Bu əqdlərin etibarlı olması onun hüquqi əsasından (məqsədindən) asılı edilir. Kauzal əqdin hüquqi əsasının (məqsədinin) mövcudluğundan asılı olaraq, onun etibarlı olması haqqında mübahisə etmək olar. Bu sözləri abstrakt (mücərrəd) əqdlər barəsində söyləmək olmaz.

Kauzal əqdlər odur ki, bu əqdlərin məzmunundan onların hüquqi əsasını (məqsədini) açıq-aşkar müəyyən etmək mümkün olur. Bu cür əqdlərdə onların hüquqi əsası (məqsədi) birbaşa ifadə edilir. Onlar özünün hüquqi əsası (məqsədi) ilə çox sıx surətdə bağlı olur. Məsələn, alqı-satqı müqaviləsinin məzmunundan müəyyən etmək olur ki, bu müqavilənin hüquqi əsası (məqsədi) əvəzli olaraq mülkiyyət hüququ əldə etməkdən ibarətdir. Bağışlama müqavilənin məzmunu əsasında təyin olunur ki, mülkiyyət hüququnu əvəzsiz olaraq bir şəxsdən digərinə keçirmək bu müqavilənin hüquqi əsasını (məqsədini) təşkil edir. Kirayə müqaviləsində onun hüquqi əsası (məqsədi), yəni kirayə haqqı ödəməklə əşya üzərində müvəqqəti istifadə hüququ əldə edilməsi birbaşa ifadə olunur. Buna görə də alqı-satqı, bağışlama və kirayə müqavilələri, habelə digər müqavilələr kauzal əqd kateqoriyasına aid edilir. Mülki-hüquqi əqdlərin çoxu kauzal xarakter daşıyır. Mülki (əmlak) dövriyyədə onlar üstünlük təşkil edirlər.

Kauzal əqdlərdə hüquqi əsas (məqsəd) onların məcburi və zəruri elementi hesab edilir. Buna görə də həmin elementin olmaması və ya onda hər hansı qüsurun olması əqdin etibarsız hesab edilməsinə səbəb olur. Özü də bu elementin olmamasının və ya onun qüsura malik olmasının sübuta yetirilməsinə (əqdin hüquqi əsası barəsində mübahisə edilməsinə) yol verilir. Əgər sübut edilsə ki, əqdin hüquqi əsası yoxdur və ya o, əqdin hüquqi məqsədinə uyğun gəlmir, ya da o, mühüm qüsura malikdir, onda bu əqd etibarsız hesab ediləcəkdir. Məsələn, başqasının əmlakını oğurlayan şəxs onu üçüncü şəxsə satır. Bu cür alqı-satqı müqaviləsinin hüquqi əsası (məqsədi) mühüm qüsura malikdir. Ona görə də o, etibarsız əqd sayılacaqdır.

Beləliklə, kauzal əqdlər özünün hüquqi əsası (məqsədi) ilə o qədər sıx və möhkəm surətdə bağlıdır ki, bu cür əqdlərin etibarlı hesab olunması onların hüquqi əsasından (məqsədindən) asılı edilir.

Abstrakt (mücərrəd) əqdlər odur ki, bu əqdlərin hüquqi əsasının (məqsədinin) onun məzmunu əsasında müəyyənləşdirilməsi mümkün olmur. Bu əqdlərdə onların hüquqi əsası (məqsədi) açıq-aşkar ifadə olunmur. Onun olması həmin əqdlər üçün hüquqi əhəmiyyətə malik deyildir. Belə ki, abstrakt əqdlərdə hüquqi əsas (məqsəd) onların məzmunundan ayrılmışdır, necə deyərlər, uzaqlaşdırılmışdır, təcrid edilmişdir. Başqa sözlə, bu əqdlərdə hüquqi əsas (məqsəd) abstraktlaşdırılmışdır, yəni mücərrədləşdirilmişdir. Ona görə də onlar abstrakt (mücərrəd) əqdlər adlandırılır. Əsas xüsusiyyət ondan ibarətdir ki, abstrakt əqdlərin bağlanmasında onların hüquqi əsası (məqsədi)

[1] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 315.

[2] bax: yenə orada, s. 12.

[3] Əqdlərin belə bölgüsü Almaniya mülki hüquq doktrinasında da nəzərdə tutulur: *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 72-73; *Heinrichs H. // Palandt.* Bürgerliches. Kommentar. München. 1999, s. 68.

arxa, ikinci plana keçir. Əqdin əsasının abstrakt əqdlər üçün hüquqi cəhətdən fərqi, təfavütü və əhəmiyyəti yoxdur. Elə bil ki, abstrakt əqd özünün hüquqi əsasına laqeyddir, etinasızdır. Məhz bu səbəbdən hüquqi əsasın (məqsədin) olmaması və ya onun qüsurlu olması əqdin etibarsızlığına dəlalət etmir. Bu hal isə onu şərtləndirir ki, abstrakt əqdlərin əsasının (məqsədinin) mübahisə edilməsi, bu əsasın (məqsədin) mövcud olmamasının və ya onun qüsurlu olmasının sübuta yetirilməsinə yol verilmir.

Abstrakt əqdlərə misal olaraq **çek verilməsini** göstərmək olar. Çekin mücərrədliyi onun şərtsiz xarakter daşımasını, heç nə ilə şərtlənməməsini ifadə edir. Çek sahibi onu banka (ödəyiciyə) ödəniş üçün təqdim etdiyi halda, bank həmin çeki onun verilməsi üçün əsas olan əqdin etibarlı olub-olmamasından asılı olmayaraq ödəməlidir. Məsələn, mal göndərmə müqaviləsi üzrə firma tikinti təşkilatına tikinti materialları göndərir. Tikinti təşkilatı öz borcunu ödəmək üçün bankdan pul vəsaiti hesabına firmaya çek verir. Bu çek ödəniş üçün banka təqdim olunanda mal göndərmə müqaviləsinin etibarsızlığı ödənişə mane ola bilməz.

Vekselin verilməsini də abstrakt əqdlərə misal çəkmək olar. Vekselin satılmış mallara və ya göstərilmiş xidmətə görə ödəniş kimi verilməsi və ya əvəzsiz olaraq verilməsi və yaxud da istənilən digər hər hansı əsasa görə verilməsi kimi motivlərdən onun etibarlı olması asılı deyildir. Veksel, vekseldə göstərilən məbləğin şərtsiz ödənilməsini nəzərdə tutan qiymətli kağızdır. Veksel saxlayan şəxs bu qiymətli kağızı başqa şəxsə verdikdə və bu münasibətləri lazımınca rəsmiləşdirdikdə, veksel verənin ixtiyarı yoxdur ki, vekselin verilməsinə səbəb olan əsasın mövcud olmaması motivinə görə mübahisə etsin.

Xarici ticarət konosamentinin verilməsi də abstrakt əqd kateqoriyasına şamil edilir. Bu qiymətli kağız hər hansı üçüncü şəxsə verilə bilər. Belə halda dəniz daşıyıcısının ixtiyarı yoxdur ki, konosamentdə göstərilən yük barəsində məlumatlara dair üçüncü şəxslə mübahisə etsin. Onun sübut etmək hüququ yoxdur.

Qarantiya da abstrakt əqdlərin bir növü hesab edilir. Qarantiya müəyyən məbləğin ödənilməsi barədə yazılı öhdəlikdir. O, icrasının təminatı üçün verilmiş əsas öhdəlik hüquq münasibətindən (əsas əqddən) asılı deyildir (MM-in 480-ci maddəsi). Ona görə də qarantiyada nəzərdə tutulan pul məbləği ödənildikdə, həmin əqd nəzərə alınmır.

Almaniya mülki qanunvericiliyində və sivilistika doktrinasında da kauzal və abstrakt əqdlər nəzərdə tutulur. Kauzal əqdlərdə əmlakın verilməsinin hüquqi əsası əqdin özünün məzmunu kimi çıxış edir (məsələn, alqı-satqı, bağışlama, icarə, kirayə və s.). Abstrakt əqdlər isə özünün hüquqi əsasından ayrılmış əqdlərə deyilir. Hüquqi əsas rolunda, bir qayda olaraq, kauzal əqd çıxış edir. Bu kauzal əqdin etibarsız olması abstrakt əqdin etibarsızlığına səbəb olmur. Abstrakt əqdlərdə hüquqi əsas onun məzmunu hesab edilmir. Almaniya hüquq ədəbiyyatında bu növ əqdə daşınar əşyaların verilməsi halını misal çəkmək dəbdədir[1]. Bu hal Almaniya Mülki Qanunnaməsinin 929-cu maddəsində nəzərdə tutulur[1]. Həmin hal Azərbaycan Respublikası MM-nin 181-ci maddəsində də öz əksini tapmışdır. Məsələn, alqı-satqı müqaviləsi əsasında daşınar əşya satıcıdan alıcıya verilir. Burada alqı-satqı müqaviləsi hüquqi əsas rolunu oynayan kauzal əqddir. Daşınar əşyanın verilməsi isə abstrakt əqddir[2]. Bu əqd əsasında daşınar əşyaya mülkiyyət hüququ əldə edilir. Həmin əqd alqı-satqı müqaviləsindən (hüquqi əsasdan) asılı deyildir. Buna görə də alqı-satqı müqaviləsi qanunsuz olsa belə, daşınar əşyanın verilməsi əqdi etibarsız sayılmır. Alqı-satqı müqaviləsinin qanunsuzluğu nəticəsində hüququ pozulmuş şəxs öz hüququnu bərpa etmək üçün əsassız varlanma (kondikasiya) iddiası verir[3] (bu iddia Azərbaycan Respublikası MM-nin 1093-cü maddəsində nəzərdə tutulmuşdur).

Beləliklə, Almaniya mülki hüququnda abstraktlaşdırmaq (Abstraktionsprinzip) və əqdin əsasının ayrılması (Trennungsprinzip) kimi prinsiplər irəli sürülür. Bu prinsiplər Almaniya sivilistikasının spesifik xüsusiyyətidir. Həmin prinsiplərə görə, abstrakt əqd, əgər onun hüquqi əsası rolunda çıxış edən kauzal əqd öz əhəmiyyətini və mənasını itirsə də, etibarlı sayılır. Professor E.Klyunsinger göstərir ki, abstraktlaşmaq prinsipi Roma hüququnda yaranıb. Amma o, bütün Avropa sistemlərində tətbiq olunmur. Onun fikrincə, qanunverici bu prinsipin köməyi ilə əmlak dövriyyəsinin təhlükəsizliyini təmin etməyə cəhd göstərir[4].

Kauzal və abstrakt əqdlər Yaponiya mülki hüquq elminə də məlumdur[5]. Burada abstrakt əqd özünün əsasından asılı olmayan və ondan ayrılan əqd kimi nəzərdən keçirilir (məsələn, veksel).

6. Müddətli və müddətsiz əqdlər

Müddət kimi əlamətə görə əqdlər iki cür olur. Söhbət əqdlərin qüvvəyə minməsi və ya onun qüvvəsinə xitam verilməsi anının müəyyən edilməsi kimi meyara görə əqdlərin iki yerə bölünməsindən gedir. Bu əqdlərə aiddir:

- müddətli əqdlər;
- müddətsiz əqdlər.

Ya qüvvəyə minmə anı, ya qüvvəsinə xitam verilməsi anı, ya da eyni vaxtda həm qüvvəyə minmə anı, həm də qüvvəsinə xitam verilmə anı gösterilən və müəyyənləşdirilən əqdlərə müddətli əqdlər deyilir. Məsələn, icarə müqaviləsində göstərilir ki, o, 1 fevral 2002-ci ildən qüvvəyə minir, 1 fevral 2004-cü ildə qüvvədən düşür. Etibarnamədə nəzərdə tutulur ki, onun qüvvədə olma müddəti iki ildir. Bir qayda olaraq, əqdin bağlandığı müddət onun qüvvəyə minmə müddətini ifadə edir. Məsələn, etibarnamə əqdinin bağlandığı gün onun qüvvəyə minmə günü hesab edilir.

Müddətli əqdlərin iki növü vardır: təxirəsalıcı müddətlə bağlanmış əqdlər; ləğvedici müddətlə bağlanmış əqdlər.

[1] *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 322.

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[2] *Дернбург Г.* Пантекты. Том 1. Часть 2: Вещное право. СПб., 1905, с. 112-114; *К.И.Скловский.* Собственность в гражданском праве. М., 1999, с. 214.

[3] *Heinrichs H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 68-69.

[4] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 72-73.

[5] *Сакэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 104.

Təxirəsalıcı müddətlə bağlanmış əqdlər odur ki, tərəflər bu cür əqdlər üzrə hüquq və vəzifələrin əmələ gəlməsini müəyyən müddətdən asılı edirlər. Həmin müddətə **təxirəsalıcı müddət** deyilir. Məsələn, kirayə müqaviləsi üzrə tərəflər razılığa gəlirlər ki, əşya müqavilə bağlandığı andan dörd ay sonra — 2003-cü ilin may ayının 5-də kirayəçinin istifadəsinə verilsin. Tərəflərin əqd üzrə hüquq və vəzifələrinin əmələ gəlməsi həmin müddətə kimi təxirə salınır, yubadılır. Həmin müddət yetişdikdə, tərəflərin kirayə müqaviləsi üzrə hüquq və vəzifələri yaranır. Bu müddət yetişməyənə kimi onların hüquq və vəzifələri əmələ gəlmir.

Ləğvedici müddətlə bağlanmış əqdlər odur ki, tərəflər bu cür əqdlər üzrə hüquq və vəzifələrin xitam edilməsini müəyyən müddətdən asılı edirlər. Həmin müddətə **ləğvedici müddət** deyilir. Məsələn, tərəflər icarə müqaviləsində nəzərdə tuturlar ki, onların müqavilə üzrə hüquq və vəzifələrinə 5 dekabr 2003-cü ilə kimi xitam veriləcəkdir.

Əqdin eyni zamanda həm təxirəsalıcı müddətlə, həm də ləğvedici müddətlə bağlanması mümkündür. Belə halda tərəflər müddəti eyni vaxtda həm hüquq və vəzifələrin əmələ gəlməsi anı kimi, həm də bu hüquq və vəzifələrin xitam olunması anı kimi müəyyənləşdirirlər. Əqd üzrə tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsinə əsas olan müddət təxirəsalıcı müddət, bu hüquq və vəzifələrin xitam olunmasına dəlalət edən müddət isə ləğvedici müddət adlanır.

Müddətsiz əqdlər odur ki, bu cür əqdlərin nə qüvvəyə minmə müddəti, nə də onun qüvvəsinə xitam verilməsi müddəti müəyyənləşdirilmir. Bu əqdlər onun icra olunması müddətini nəzərdə tutmur. Tələb etmək hüququ olan tərəf əqdin dərhal icrasını tələt edə bilər. Əqdin digər tərəfi (borclu şəxs) isə bu tələbi ağlabatan müddətdə icra etməyə borcludur. Əgər ağlabatan müddətdə əqd icra olunmazsa, borclu qarşı tərəfin icra tələbini irəli sürdüyü gündən yeddi gün müddətində onu icra etməyə borcludur[1] (MM-in 427-ci maddəsi). Müddətsiz əqdlər **qeyri-müəyyən müddətli əqdlər** də adlanır.

7. Adi (şərtsiz) və şərti əqdlər

Əqdin hüquqi nəticəsinin müəyyən haldan (şərtdən) asılı olaraq əmələ gəlməsi kimi əlamətə görə əqdlər iki yerə ayrılır:

- adi (şərtsiz) əqdlər;
- şərti bağlanan əqdlər.

Adi (şərtsiz) əqdlər odur ki, tərəflər bu cür əqdlərdə hüquqi nəticənin əmələ gəlməsini hər hansı haldan (şərtdən) asılı etmirlər. Bu əqdlər üzrə tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsi və ya onlann xitam edilməsi hər hansı halla (şərtlə) bağlı deyil. Alqı-satqı, bağışlama, kirayə, icarə, əvəzsiz istifadə və digər müqavilələr, əgər özlərində müəyyən şərt nəzərdə tutmazlarsa, adi əqd kateqoriyasına şamil edilir. Adi əqdlər üzrə hüquq və vəzifələr, ümumi qaydaya görə, ya əqd bağlandığı anda, ya da müəyyən müddət keçdikdən sonra əmələ gəlir.

Şərti bağlanan əqdlər odur ki, tərəflər bu əqdlərin hüquqi nəticəsini (hüquq və vəzifələrin əmələ gəlməsini və ya ləğv edilməsini) baş verməsi (müsbət şərt) və ya baş verməməsi (mənfi şərt) məlum olmayan hallardan asılı edirlər. Hüquqi nəticənin (tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsinin və ya xitam edilməsinin) asılı olduğu baş verməsi və ya verməməsi məlum olmayan hala şərt deyilir.

Şərtin bağlı olduğu halların xarakterinə görə onları iki yerə bölmək olar: müsbət (pozitiv) şərtlər; mənfi (neqativ) şərtlər. Əgər əqd hansısa hadisənin (halın) müəyyən müddətdə baş verəcəyi şərti ilə bağlanmışdırsa, bu cür şərt **müsbət (pozitiv) şərt adlanır** (MM-in 328-ci maddəsinin 4-cü bəndi). Nəzərdə tutulan müddətdə hadisə (hal) baş verməsə, şərt öz hüquqi əhəmiyyətini itirir və qüvvədən düşmüş hesab edilir.

Müsbət (pozitiv) şərt müsbət formada ifadə olunur. Onun əsas formulası belədir: «**əgər hadisə müəyyən müddətdə baş verəcəksə**». Məsələn, malgöndərmə müqaviləsində tərəflər belə bir şərt nəzərdə tuturlar ki, əgər sentyabr ayında bol məhsul olsa, satıcı (mal göndərən) alıcıya beş partiya meyvə-tərəvəz məhsulu göndərəcəkdir. Bu misalda satıcının alıcıya məhsul göndərməsi (hüquqi nəticə) müsbət (pozitiv) şərtdən, yəni sentyabr ayında bol məhsul olmasından asılıdır.

Əgər əqd hansısa hadisənin (halın) müəyyən müddətdə baş verməyəcəyi şərti ilə bağlanmışdırsa, bu cür şərtə **mənfi (neqativ)**[1] **şərt** deyilir (MM-in 328-ci maddəsinin 5-ci bəndi). Müəyyənləşdirilən müddətdə əgər şərt baş verməzsə və ya həmin hadisənin baş verməsinin mümkünsüzlüyü aydın olarsa, şərt yerinə yetirilmiş sayılır və hüquqi nəticəyə səbəb olur. Əksinə, şərt baş verdikdə, onun hüquqi əhəmiyyəti olmur və hər hansı hüquqi nəticə doğurmur.

Mənfi (pozitiv) şərt mənfi formada ifadə edilir. Onun əsas formulası belədir: «**əgər müəyyən müddətdə hadisə baş verməyəcəksə**»[2]. Məsələn, dəniz sahilində yerləşən bağ evinin sahibi ilə kənd sakini belə bir şərt barədə razılığa gəlirlər ki, əgər bağ evi sahibinin uzaq xarici ölkədə işləyən oğlu avqust ayında yay istirahət məzuniyyətinə gəlməsə, o, həmin evi kənd sakininə kirayəyə verəcəkdir. Burada «uzaq xarici ölkədə işləyən şəxsin avqust ayında məzuniyyətə gəlməməsi» mənfi (neqativ) şərt hesab edilir. Başqa bir misalda kənd sakini şəhərdə yaşayan qohumu ilə belə bir şərt barədə razılığa gəlir ki, əgər quraqlıq olmasa, o, öz torpaq sahəsində becərdiyi kartofdan iki kisə qohumuna verəcəkdir. Burada «quraqlıq olmaması» neqativ (mənfi) şərtdir.

Şərti bağlanan əqdlərdə şərt hüquqi fakt kimi çıxış edir. Bu fakt əsasında

[1] Müddətsiz əqdlərin icrasına belə yanəşma bəzi müəlliflər tərəfindən də dəstəklənir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 181; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 155). Müəlliflərdən M.V.Krotov müddətsiz əqdlərin dərhal qüvvəyə minməsi barədə fikir söyləyir ki, bununla çətin razılaşmaq olar (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 234).

[1] «Pozitiv» latınca «positivus» sözündən olub, «müsbət», «neqativ» latınca «negativus» sözündən olub, «mənfi» mənalarını ifadə edir (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова.* М., 1954, с. 475; 547).

[2] Müsbət və mənfi şərtlər barədə bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 28. L.Ennekserus onlara belə anlayış verir: yerinə yetirilməsi üçün dəyişiklik edilməsi tələb olunan şərtlər müsbət şərtlər, dəyişiklik edilməsi tələb olunmayan şərtlər isə mənfi şərtlər adlanır. O, müsbət şərtləri təsdiqedici şərtlər də adlandırır.

hüquqi nəticə yaranır. Bu cəhəti ilə o, əqdin elementi kimi çıxış edən şərtdən fərqlənir. Belə ki, **əqdin elementi kimi çıxış edən şərt hüquqi fakt sayılmır** və buna görə də hər hansı hüquqi nəticəyə səbəb olmur. Bu cür şərt element kimi əqdin (müqavilənin) məzmununa daxil edilir. Həmin əqdə isə **şərt altında və ya şərtlə bağlanan əqd** deyilir[1]. Məsələn, əvəzsiz istifadə müqaviləsi bağlayan tərəflər müqavilədə belə bir şərt nəzərdə tuturlar ki, kirayəçi əvəzsiz istifadəyə verilən yaşayış evinin divarlarını rənglətdirsin və parketini qaşıtdırsın. Bu kimi şərtlə bağlanan (şərt altında bağlanan) əqdlərdən ayırmaq və fərqləndirmək üçün ya «şərti əqdlər», ya da «şərti bağlanan əqdlər» terminlərindən istifadə olunmalıdır.

Şərti bağlanan əqdlərdə (şərti əqdlərdə) şərtin hüquqi nəticəyə səbəb olması üçün onun bir sıra müəyyən əlamətlərə uyğun gəlməsi və cavab verməsi tələb edilir. Əgər o, bu əlamətlərdən məhrum olarsa, hüquqi nəticəyə səbəb olan hüquqi fakt kimi çıxış etmir.

Şərtin birinci əlaməti ondan ibarətdir ki, o, **gələcəkdə baş verən halla bağlı olmalıdır**. Əgər artıq həmin hal baş vermişdirsə, onda şərti bağlanan əqdlərin mövcudluğundan söhbət gedə bilməz. Şərt, istisnasız olaraq, həmişə baş verməsi gələcəkdə gözlənilən halla bağlı olmalıdır.

Şərtin ikinci əlaməti ondan ibarətdir ki, o, **baş verməsi və ya verməməsi məlum olmayan halla** bağlı olmalıdır. Belə ki, əqd bağlanan zaman tərəflərə şərt kimi götürülən halın gələcəkdə baş verməsi və ya verməməsi məlum olmamalıdır. Bu hal ehtimala əsaslanmalıdır, onun baş verib-verməyəcəyi yəqin olunmalıdır, yəni güman edilməlidir. Başqa sözlə desək, **şərt qeyri-müəyyənlik əlaməti ilə xarakterizə edilir**. Buna görə də gələcəkdə baş verməsi zəruri, qaçılmaz və labüd xarakter daşıyan hallar şərt kimi çıxış edə bilməz. Odur ki, baş verməsinə şəkk-şübhə olmayan halın şərt kimi çıxış etməsi istisna edilir. Məhz bu səbəbdən **müddət, tarix və müəyyən yaş həddinə çatmaq kimi hallardan şərt kimi istifadə edilə bilməz**. Əgər bu hallar əqdin bağlanmasında şərt kimi götürülərsə, onda həmin əqd müddətli əqd hesab ediləcəkdir. Məsələn, mal göndərmə müqaviləsinə görə, mal göndərən (satıcı) alıcıya yanvar ayının 20-nə kimi mal verməyi öhdəsinə götürür. Burada müddət əqdin icra vaxtını müəyyən edir. O, müqavilə üzrə tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsi anını təyin edir. Buna görə müddət hüquqi fakt rolunu oynayan şərt qismində çıxış edə bilmir, həmin müqavilə isə şərti bağlanan əqd sayılmır. Başqa bir misalda atanın öz uşağının adına banka pul qoymasını rəsmiləşdirən bank əmanəti (depozit) müqaviləsində göstərilir ki, bir yaşlı uşaq 18 yaş həddinə çatdıqda, əmanətə sərəncam verə bilər. Bu müqavilə şərtlə bağlanan yox, müddətli müqavilə hesab edilir. Ona görə ki, uşağın on səkkiz yaş həddinə çatması halı labüddür və qaçılmazdır. Bu hal isə şərt kimi götürülə bilməz. Həmin müqavilədə müddət (on səkkiz yaş həddinə çatma halı) uşağın əmanətə sərəncam vermək hüququnun əmələ gəlmə anını müəyyən edir.

Şərtin üçüncü əlaməti ondan ibarətdir ki, o, **real (mümkün olan) olmalıdır**. Söhbət icrası mümkün olan şərtlərdən gedir. Əgər şərtin icrası mümkün olmazsa, o, etibarsız hesab edilir (MM-in 328-ci maddəsinin 2-ci bəndi). Şərtin göstərilən əlaməti tələb edir ki, onun icra edilməsi və həyata keçirilməsi üçün real imkan olmalıdır. Söhbət həm **hüquqi imkandan, həm də faktiki imkandan** gedir. Məsələn, «əgər xarici ölkə vətəndaşı torpaq sahəsinin mülkiyyətçisi olarsa» kimi şərtin icrası hüquqi cəhətdən qeyri-mümkündür, qeyri-realdır. Ona görə ki, qanun xarici ölkə vətəndaşlarına bizim ölkədə torpaq sahəsinin mülkiyyətçisi olmaq hüququ vermir. Başqa bir misalda alqı-satqı müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, əgər minik avtomobili üçün əbədi və daimi mühərrik icad olunsa, alıcı həmin avtomobili alacaqdır. Bu cür şərtin icrası və həyata keçirilməsi faktiki cəhətdən mümkün deyil. Ona görə də o, etibarsızdır. Həm faktiki cəhətdən, həm də hüquqi cəhətdən qeyri-real (qeyri-mümkün) şərtdən asılı olan əqdin özü etibarsız hesab edilir (MM-in 328-ci maddəsinin 2-ci bəndi).

Şərtin dördüncü əlaməti ondan ibarətdir ki, o, **qanunlara, hüquq qaydasının əsaslarına və əxlaq prinsiplərinə** uyğun olmalıdır. Məsələn, evtanaziya (xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması), insan orqan və toxumalarının alqı-satqısı, fiziki şəxsə zərər vurmaq və digər hallar şərt kimi istifadə oluna bilməz. Uzun müddət ağır xəstə olan şəxs yaxın qohumu ilə belə bir şərt barədə razılığa gəlir ki, əgər hər hansı üçüncü şəxs evtanaziyaya yol verərsə, o, yaşayış evini ona bağışlayacaqdır. Başqa bir misalda ev sahibi vətəndaşla belə bir şərt nəzərdə tuturlar ki, əgər vətəndaş ev sahibinin yaxşı münasibətdə olmadığı qonşusunu döydürərsə, o, yaşayış evini həmin vətəndaşa əvəzsiz istifadəyə verəcəkdir. Bu cür şərtlər hüquqi əhəmiyyətə malik olmayıb, etibarsız hesab edilir və buna görə də hüquqi nəticəyə səbəb olmur.

Şərtin beşinci əlaməti ondan ibarətdir ki, o, **əqd bağlayan şəxslərin özləri tərəfindən müstəqil surətdə müəyyənləşdirilir**[1]. Həmin şəxslər heç kəsin iradəsindən asılı olmadan həyatda mövcud olan hallardan şərt kimi istifadə etmək barədə razılığa gələ bilərlər. Bu cür həyati halların dairəsi müxtəlifdir: ali məktəbə qəbul olmaq; bol məhsul əldə etmək; başqa işə keçmək; başqa şəhərə köçmək və s. Məsələn, ata öz oğlu ilə razılığa gəlir ki, əgər onun qızı ölkənin ən tanınmış və nüfuzlu universitetinə daxil olsa, minik avtomobilini ata oğluna bağışlayacaqdır. Belə halda bağışlama müqaviləsi şərti bağlanan əqd (şərti əqd) hesab edilir. Başqa bir misalda satıcı vətəndaşla razılığa gəlir ki, əgər vətəndaşın qızı ərə gedərsə, onda satıcı nadir mebel dəstini (cehiz kimi) ona satacaqdır. Burada şərti bağlanan (şərti) alqı-satqı müqaviləsi göz qabağındadır.

Şərti bağlanan əqdlərdə şərt kimi, əsasən, **hadisələrdən** istifadə edilir. Şəxslərin (fiziki və hüquqi şəxslərin) **hərəkətləri** də şərt rolunda çıxış edə bilər. Söhbət əqdin tərəfi olmayan üçüncü şəxslərin hərəkətlərindən gedir. Əqdi bağlayan tərəflərin hərəkətlərinin şərt qismində çıxış etməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu məsələ mülki hüquq elmində (sivilistika doktrina-

[1] Məhz buna görə də yeni MM-in 328-ci maddəsində işlədilən «şərtlə bağlanmış əqdlər» termini qüsurludur. Əgər qanunverici onun yerinə «şərti bağlanan əqdlər» terminI işlətsəydi, daha düzgün və dəqiq olardı.

[1] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права (по изданию 1907 г.). М., 1995, с. 122; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с . 339.

sında) mübahisə doğurur. Bir qrup müəlliflər göstərirlər ki, şərti əqdlərdə tərəflərin hərəkətlərinə şərt kimi baxmaq olmaz[1]. Yalnız o hallar şərt kimi götürülə bilər ki, həmin hallar əqdi bağlayan tərəflərin iradəsindən asılı olmasın[2]. Ancaq hadisə və üçüncü şəxsin hərəkətlərinə şərt kimi baxmaq olar[3].

İkinci qrup müəlliflər bunun əksi olan mövqedə dayanırlar. Onların fikrincə, əqd iştirakçılarının hərəkəti şərt kimi qəbul oluna bilər, çünki qüvvədə olan Rusiya qanunvericiliyi bunu birbaşa qadağan etmir[4]. Onların fikrincə, qanun şərti əqdlərdə şərti yalnız hadisə və ya üçüncü şəxslərin hərəkətləri ilə məhdudlaşdırmır; əqdi bağlayan tərəflərin də hərəkətləri baş verməsi və ya verməməsi məlum olmayan hallara səbəb ola bilər[5].

İnqilabaqədərki rus hüquq ədəbiyyatında şərti bağlanan əqdlərdə şərti üç yerə bölürdülər: hadisə şərti; sərbəst şərt; qarışıq şərt. Hadisə şərti dedikdə, elə şərt başa düşülürdü ki, onun həyata keçirilməsi müqavilə bağlayan tərəflərin iradəsindən asılı deyildi. Bu cür şərtə hadisə və baş verməsi və ya verməməsi üçüncü şəxsin hərəkətindən asılı olan hal aid edilirdi.

Sərbəst şərt dedikdə, tərəflərdən birinin iradəsindən asılı olan şərt başa düşülürdü. Qarışıq şərt dedikdə isə eyni vaxtda həm tərəflərdən birinin, həm də üçüncü şəxsin iradəsindən asılı olan şərt başa düşülürdü[6].

Bəzi xarici ölkələrin qanunvericiliyi əqd bağlayan tərəflərin hərəkətlərindən şərt kimi istifadə edilməsini yasaqlayır. Məsələn, Yaponiya Mülki Məcəlləsinə görə, borclunun iradəsindən tamamilə, bütünlüklə asılı olan hərəkət şərt hesab edilə bilməz[7]. Almaniya sivilistika doktrinasında şərtlərin üç yerə bölünməsinə rast gəlirik: sərbəst şərtlərə (şəxsin iradəsindən asılı olan şərtlərə); hadisə şərtinə; qarışıq şərtlərə (əqd iştirakçılarının iradəsindən və başqa hallardan asılı olan şərtlərə)[8].

Azərbaycan Respublikasının mülki qanunvericiliyinin bu məsələ barəsində rəsmi mövqeyi belədir ki, o, **əqd bağlayan tərəflərin hərəkətlərindən şərt kimi istifadə edilməsinə yol vermir**. Belə ki, tərəflərin iradəsindən asılı olan şərt etibarsızdır (MM-in 328-ci maddəsinin 3-cü bəndi). Bu, o deməkdir ki, şərt baş verməsi və ya baş verməməsi yalnız tərəflərin əqddəki arzusundan asılı ola bilməz. Məsələn, şərti əqdlər «əqd iştirakçısı öz iradəsi ilə filan hərəkəti edərsə» kimi şərt nəzərdə tuta bilməz.

Şərti bağlanan əqdlərin iki növü fərqləndirilir: təxirəsalıcı şərtlə bağlanmış

[1] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 225.

[2] bax: *Брагинский М.И.* Сделки: понятия, виды и формы (комментарий к новому ГК РФ). М., 1995, с. 50.

[3] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 156.

[4] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 338.

[5] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.П.Плетневой*. М., 1998, с. 209-210.

[6] *Победоносцев К.* Курс гражданского права. Часть 3. СПб., 1896, с. 3; *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. Том 1. М., 1914, с. 207; *Растеряев Н.Г.* Недействительность юридических сделок по русскому праву. СПб., 1900, с. 146.

[7] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983.

[8] *Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 287.

əqdlər; ləğvedici şərtlə bağlanmış əqdlər.

Təxirəsalıcı şərtlə bağlanmış əqdlər odur ki, bu cür əqdlər üzrə tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsi gələcəkdə gözlənən və ya naməlum hadisədən və ya artıq baş versə də, hələlik tərəflərə bəlli olmayan hadisədən asılı olur. Tərəflərin əqd üzrə hüquq və vəzifələri əqd bağlandığı anda dərhal yaranmır. Bu hüquq və vəzifələr yalnız tərəflərin şərt kimi nəzərdə tutduğu hal (hadisə) baş verdikdə əmələ gəlir. Onlann əmələ gəlməsi halın (hadisənin) baş verməsinə kimi yubadılır, təxirə salınır. Buna görə həmin əqdlərə təxirəsalıcı şərtlə bağlanmış əqdlər deyilir.

Şərt kimi götürülən halın (hadisənin) baş verməsinə kimi tərəflərin hüquq və vəzifələrinin yaranıb-yaranmaması məsələsi hüquq ədəbiyyatında mübahisə doğurur. Müəlliflərdən bəziləri göstərirlər ki, əqd bağlandığı andan hadisənin baş verməsinə kimi tərəflər arasında hüquq münasibəti mövcud olur və müvafiq vəzifələr (sazişdən özbaşına əl çəkməyə yol verilməməsi, şərtin əmələ gəlməsinə maneçilik yaradan hərəkətlər edilməməsi) əmələ gəlir[1]. Bu halda tərəflər bağlanmış əqdi birtərəfli qaydada xitam etməmək, əmlakı saxlamaq (hansı ki, bu əmlak barəsində gələcəkdə tərəflərin hüquq və vəzifələri əmələ gəlir) kimi vəzifə daşıyırlar[2].

İkinci qrup müəlliflər əqdin bağlandığı andan hadisənin baş verməsinə kimi hər hansı bir hüquq və vəzifənin — hüquqi nəticənin əmələ gəlməsini qəti olaraq inkar edirlər[3]. Bizim fikrimizcə, bu müəlliflərin fikri daha inandırıcıdır. Düzdür, qanunvericilik müəyyən şərtlə əqd bağlamış tərəfin üzərinə şərt baş verənədək öhdəliklərin icrasına maneçilik törədən hər hansı hərəkəti yerinə yetirməmək vəzifəsi qoyur (MM-in 328-ci maddəsinin 8-ci bəndi). Lakin bu vəzifəni əqdin doğurduğu hüquqi nəticə hesab etmək olmaz.

Əgər tərəflərin şərt kimi nəzərdə tutduqları hadisə baş verərsə (və ya üçüncü şəxs tərəfindən hərəkət yerinə yetirilərsə), onda əqd üzrə hüquqi nəticə — tərəflərin hüquq və vəzifələri də əmələ gələcəkdir. Əksinə, həmin hadisə (hal) baş vermədikdə, hüquqi nəticə — tərəflərin hüquq və vəzifələri də yaranmır. Məsələn, bağ sahibi ilə vətəndaş belə bir şərt barədə razılığa gəlirlər ki, əgər tikinti təşkilatı iyun ayının birinə kimi bağ evini tikib qurtarsa, o, həmin evi vətəndaşa kirayəyə verəcəkdir. Başqa bir misalda qaraj sahibi ilə qonşu razılığa gəlirlər ki, əgər qaraj sahibinin xaricə işləməyə gedən oğlu iki ay ərzində minik avtomobili almasa, o, həmin qarajı qonşuya satacaqdır.

Ləğvedici şərtlə bağlanmış əqdlər odur ki, tərəflər bu cür əqdlər üzrə hüquq və vəzifələrin xitam edilməsini baş verməsi və ya verməməsi məlum olmayan haldan asılı edirlər. Bu cür əqd üzrə hüquqi nəticə — tərəflərin hüquq və vəzifələri əqd bağlandığı andan dərhal yaranır. Əgər ləğvedici şərt baş verdikdə, həmin hüquq və vəzifələr də xitam edilir. Başqa sözlə de-

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 340.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 210.

[3] Комментарий к Гражданскому кодексу РСФСР / Под ред. *С.Н.Братуся, О.Н.Садикова*. М., 1982, с. 89; Советское гражданское право. Учебник Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 221; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 156.

sək, ləğvedici şərtin baş verməsi əqdin xitamına səbəb olur. Bununla əqd bağlananadək mövcud olmuş vəziyyət bərpa olunur. Məsələn, may ayının 1-də bağ sahibi professorla bağ evinin kirayə verilməsi haqqında belə bir şərtlə müqavilə bağlayır ki, əgər onun xaricdə yaşayan oğlu ailəsi ilə birlikdə iyulun 1-nə kimi istirahətə gələrsə, müqaviləyə xitam veriləcəkdir.

Əqdin doğurduğu hüquqi nəticə şərtin baş verməsinə kimi öz hüquqi nəticəsini saxlayır. Belə ki, yuxarıdakı misalda may ayının 1-dən etibarən xaricdə yaşayan şəxslərin gəldiyi vaxta kimi (iyulun 1-nə kimi) tərəflər əqd üzrə malik olduqları hüquq və vəzifələri həyata keçirirlər. Məsələn, professor hər ay kirayə haqqını ödəmək vəzifəsini yerinə yetirir və s.

Qanunvericilik şərtin baş verməsi onun üçün sərfəli olmayan tərəfin üzərinə **şərtin baş verməsinə vicdansızcasına maneçilik törətməmək vəzifəsi qoyur**. Əgər o, bu vəzifəni yerinə yetirməzsə, şərt baş vermiş sayılır (MM-in 328-ci maddəsinin 9-cu bəndi).

Qanunvericilik şərtin baş verməsi onun üçün sərfəli olan tərəf üzərinə də vəzifə qoyur. Bu vəzifəyə görə, həmin tərəf **şərtin baş verməsinə vicdansızcasına kömək göstərməməlidir**. Əgər o, həmin vəzifəni yerinə yetirməzsə, şərt baş verməmiş sayılır (MM-in 328-ci maddəsinin 10-cu bəndi). Göstərilən hər iki qayda Almaniya Mülki Qanunnaməsinin 162-ci paraqrafında da nəzərdə tutulur[1].

8. Əqdin digər növləri

Sahibkarlıq əqdi (müqaviləsi) mülki-hüquqi əqdlərin bir növü hesab edilir. Bu anlayış bazar iqtisadiyyatı dövrünə kimi istifadə olunan «təsərrüfat müqaviləsi» anlayışının əvəzinə işlədilir. Sovet hüquq elmi təsərrüfat müqaviləsinə sosialist müəssisələri arasında yaranan qarşılıqlı təsərrüfat münasibətlərinin hüquqi forması kimi baxırdı. Bu müqavilənin plan xarakterli olması onun əsas xüsusiyyətini təşkil edirdi. Onlar, bir qayda olaraq, plan aktı əsasında bağlanırdı. Plan aktı isə müqavilə bağlayan tərəflərdən, heç olmazsa, biri üçün məcburi xarakter daşıyırdı[2]. Bundan əlavə, müqavilənin əmtəə xarakterli olması və spesifik subyekt tərkibi (sosialist təşkilatları) kimi meyarlar da təsərrüfat müqaviləsinin əsas əlamətləri hesab edilirdi[3].

Azərbaycan Respublikasının Mülki Məcəlləsi «sahibkarlıq əqdi (müqaviləsi)» kimi termin işlətmir və həmin əqd növünə leqal anlayış vermir. Burada yalnız «sahibkarlıq fəaliyyəti sahəsində müqavilələr» termini işlədilir (MM-in 361-ci maddəsi). Buna görə də mülki hüquq elminin (sivilistika doktrinasının) əsas vəzifələrindən biri sahibkarlıq əqdinə elmi (doktrinal) tərif verməkdən ibarətdir.

Sahibkarlıq əqdi, əsasən, üç hüquqi əlamətlə xarakterizə olunur. Bu əqd, **birincisi, spesifik subyekt tərkibinə** malik olan əqddir. Belə ki, bu əqdi bağlayan tərəflərdən, heç olmazsa biri, sahibkar statuslu şəxs olmalıdır. Söhbət o şəxslərdən gedir ki, onlar əmlak (sahibkarlıq) dövriyyəsinin professional (peşəkar) iştirakçıları olsunlar. Professional iştirakçı rolunda kommersiya təşkilatları və fərdi sahibkarlar (sahibkar statuslu fiziki şəxslər) çıxış edirlər.

İkincisi, sahibkarlıq əqdinin sosial-iqtisadi məqsədi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə və ya qeyri-şəxsi istehlakla bağlı olmalıdır. Bu əqdlər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində sahibkarların sosial-iqtisadi ehtiyac və tələbatını təmin etməkdə hüquqi vasitə rolunu oynayır.

Üçüncüsü, sahibkarlıq əqdi, bir qayda olaraq, **əvəzli xarakterə malik** olur. Bu, onunla izah edilir ki, sahibkarlıq fəaliyyəti mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə həyata keçirilir.

Beləliklə, **heç olmazsa, tərəflərindən biri sahibkar statuslu şəxs olan, əsas sosial-iqtisadi məqsədi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi və ya qeyri-şəxsi istehlakla şərtlənən və həmişə əvəzli xarakter daşıyan əqdlərə sahibkarlıq əqdi deyilir**. Pərakəndə alqı-satqı, françayzinq, kommersiya konsessiyası, lizinq, kredit, icarə və digər müqavilələri bu cür əqd kateqoriyasına şamil etmək olar. Mal göndərmə müqaviləsi (alqı-satqı müqaviləsinin bir növü) «xalis formalı» sahibkarlıq əqdi hesab edilir. Bu, o deməkdir ki, həmin müqavilə sahibkarlıq əqdinin üç əlamətini də özündə əks etdirir.

Məişət əqdləri sahibkarlıq əqdlərinə müqabil olan əqdlərdir. Mülki qanunvericilik bu əqdlərə də anlayış vermir. Bəzi yerlərdə Mülki Məcəllə «xırda məişət xarakterli əqdlər» anlayışını işlədir ki, biz əvvəlki fəsillərin birində onun mahiyyətinə aydınlıq gətirmişik[1].

Məişət əqdləri odur ki, bu əqdlərin tərəfləri və onların iştirakçıları, bir qayda olaraq, istehlakçı vətəndaşlardan ibarətdir. Belə əqdlərin sosial-iqtisadi məqsədi qeyri-sahibkarlıq fəaliyyəti ilə şərtlənir. Anlayışdan görünür ki, bu cür əqdlərin başlıca olaraq iki hüquqi əlaməti vardır. Birinci əlamət ondan ibarətdir ki, bu əqdlər, adətən, **istehlakçı vətəndaşlar arasında** bağlanır. İstehlakçı vətəndaşlar dedikdə, sahibkar statusu olmayan (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan və bunun üçün də yerli vergi orqanlarında uçota durmayan) fiziki şəxslər başa düşülür. Məhz bu səbəbdən məişət əqdlərini istehlak əqdləri və ya istehlakçılarla bağlanan əqdlər də adlandırmaq olar[2].

İkinci hüquqi əlamət ondan ibarətdir ki, bu **əqdlərin sosial-iqtisadi məqsədi qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlıdır**. Söhbət əqdin sosial-iqtisadi məqsədinin ailə-məişət, şəxsi, ev və s. xarakter daşımasından gedir. Məsələn, vətəndaş öz qonşusundan şəxsi istifadə üçün minik avtomobili alır. Bu müqavilənin sosial-iqtisadi məqsədi şəxsi ehtiyacları təmin etməkdən ibarətdir. Deməli, o, məişət əqdidir. Başqa bir misalda vətəndaş haqqı ilə sərnişin daşımaq üçün minik avtomobili alır. Bu müqavilə isə məişət əqdi yox, sahibkarlıq əqdi hesab edilir. Çünki müqavilənin sosial-iqtisadi məqsədi sahibkar fəaliyyəti ilə (sərnişin daşımaqla xidmət göstərməklə) bağlıdır.

---

[1] Bu barədə ətraflı məlumat almaq üçün bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 294-295.

[2] bax: *Иоффе О.С.* План и договор в социалистическом хозяйстве. М., 1971, с. 73; *Быков А.Г.* План и хозяйственный договор. М., 1975, с. 19.

[3] bax: Советское законодательство и хозяйственный механизм. М., 1984; *Брагинский М.И.* Хозяйственный договор. Каким ему быть? // Экономика. М., 1990, с. 9-10.

[1] Dərsliyin VI fəslinin 3-cü paraqrafına bax.

[2] Основные институты гражданского права зарубежных стран. М., 1979, с. 404.

Gostərilən hər iki əlamət birlikdə məişət əqdlərini sahibkarlıq əqdlərindən ayırmağa və fərqləndirməyə imkan verir. Bəzi hallarda iki sahibkarın bağladığı əqd məişət əqdi sayılır. Ona görə ki, sahibkarların bağladıqları əqdin sosial məqsədi qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Məsələn, kommersiya təşkilatı ofis üçün dəftərxana ləvazimatları (dəftər, qələm, kağız və s.) alır. Amma əslində bu cür hallarda yarı (50%) sahibkarlıq əqdindən, yarı (50%) isə istehlak (məişət) əqdindən ibarət olan konstruksiyadan danışmaq olar. Ona görə ki, bu konstruksiya, birincisi, sahibkarlar arasında bağlanır. Bu baxımdan o, sahibkarlıq əqdi kimi çıxış edir. Digər tərəfdən, həmin konstruksiyanın sosial-iqtisadi məqsədi qeyri-sahibkarlıqla (istehlakla) bağlıdır. Bu cəhətdən isə o, özünü istehlak (məişət) əqdi kimi göstərir. Məhz parakəndə alqı-satqı müqaviləsi göstərilən konstruksiyaya ən münasib misaldır. Onu «xalis», «yüz faizli» sahibkarlıq əqdi və ya «xalis», «yüz faizli» istehlak (məişət) əqdi hesab etmək olmaz.

Məişət əqdləri həm əvəzli, həm də əvəzsiz ola bilər. Əvəzsiz istifadə, bağışlama, əvəzsiz borc və s. kimi müqavilələr əvəzsiz məişət əqdi, kirayə, saxlama və digər müqavilələr isə əvəzli məişət əqdi hesab edilir.

Əqdlərin bir növü **ticarət əqdləri** adlanır. Hüquq ədəbiyyatı səhifələrində bu anlayışla biz tez-tez qarşılaşırıq. Azərbaycan Respublikasının mülki qanunvericiliyində də «ticarət əqdi» terminindən istifadə edilməsinə rast gəlirik. Belə ki, MM-in 361-ci və 789-cu maddələrində bu terminin işlədilməsinin şahidi oluruq. Nə hüquq elmi, nə də qanunvericilik ticarət əqdinə doktrinal (elmi) və ya leqal anlayış verir.

İnqilabaqədərki rus qanunvericiliyinə görə, ticarət əqdləri dedikdə, tacirlərin peşə (sənət) formasında bağladıqları bütün əqdlər başa düşülürdü. Bu əqdlər ticarət hüququnun predmetini təşkil edirdi. Ticarət əqdləri ticarət qanunvericiliyinin normativ aktları ilə tənzimlənirdi. Bu əqdlərlə bağlı olaraq yaranan mübahisələrə xüsusi qaydada (ticarət məhkəmələrində) baxılırdı[1].

Xarici ölkə qanunvericiliyində ticarət əqdi əsas anlayışlardan biri kimi istifadə olunur. Burada iki əsas əlamət ticarət əqdlərini fərqləndirmək və ayırmaq üçün başlıca meyar kimi götürülür. Bəzi ölkələrin (Fransa, Belçika, İspaniya, Latın Amerika ölkələrinin) qanunvericiliyi **əqdin kommersiya məzmunlu olması kimi meyarı ticarət əqdinin əsas əlaməti** kimi nəzərdə tutur. Digər ölkələrin (Almaniya, Yaponiya) qanunvericiliyi isə **əqdin kommersantlar tərəfindən bağlanması meyarını ticarət əqdinin əsas əlaməti** kimi qəbul edir və tanıyır[2]. Almaniya sivilistika doktrinasına görə, ticarət hüququnun spesifik subyektləri, yəni sahibkarlar (ticarətçilər) tərəfindən bağlanan əqdlərə ticarət əqdləri deyilir[3]. Yaponiya Ticarət Məcəlləsinin 1-ci maddəsində göstərilir ki, kommersant öz adından sahibkarlıq fəaliyyətini həyata keçirən şəxsdir[4].

Müasir Rusiya hüquq elmində ticarət əqdinə sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün sahibkarlar arasında və ya onların iştirakı ilə bağlanan əqd kimi anlayış verilir[1]. Buradan belə bir nəticə çıxarılır ki, ticarət əqdləri dedikdə, sahibkarlıq müqavilələri başa düşülür[2].

Bizim zənnimizcə, bu iki anlayışı bir-birilə eyniləşdirmək olmaz. Belə ki, sahibkarlıq müqavilələri və ticarət əqdləri bir-birinə son dərəcə yaxın olsalar da, onlar tam üst-üstə düşmürlər. Sahibkarlıq əqdləri (müqavilələri) nisbətən daha geniş və əhatəli anlayışdır. Məsələn, kredit, lizinq, icarə, franşayzinq və digər müqavilələr sahibkarlıq əqdi kateqoriyasına aid edilir. Amma onları ticarət əqdləri hesab etmək ağlabatan və inandırıcı görünmür. Deməli, ticarət əqdləri həmişə sahibkarlıq əqdləri sayılır. Lakin sahibkarlıq əqdlərini həmişə ticarət əqdləri hesab etmək olmaz.

Fidusiar əqd (latınca «fiducia» — etibar) xüsusi xarakterli əqd növü kimi ayrılır və fərqləndirilir. Bu əqd tərəflərin xüsusi, şəxsi-etibar münasibətlərinə əsaslanır. Fidusiar əqd etimad-etibar xarakterli əqddir. Ona görə bu əqd **etibara (etimada) əsaslanan əqd** də adlandırılır.

Fidusiar əqdlərin iki əsas hüquqi əlaməti vardır. Birinci əlamət ondan ibarətdir ki, bu əqdin hər bir tərəfi dəlil, səbəb, motiv və arqument gətirməsən onu **birtərəfli qaydada poza bilər**. Məsələn, hər bir tərəf fidusiar əqdin bir növü olan tapşırıq müqaviləsini istənilən vaxt ləğv edə bilər (MM-in 786-cı maddəsinin 1-ci bəndi).

İkinci əlamət ondan ibarətdir ki, əqdin tərəflərindən hər hansı biri öldükdə, o, xitam edilir. Məsələn, vəkalət verən və ya vəkalət alan öldükdə, tapşırıq müqaviləsinə xitam verilir (MM-in 786-cı maddəsinin 2-ci bəndi).

Fidusiar əqdlər hələ Roma hüququna da məlum idi. Roma hüququna görə, əvəzsiz istifadə, saxlama və tapşırıq kimi müqavilələr fidusiar əqdlərin ayrı-ayrı növləri hesab olunurdu[3]. İndiki qanunvericiliyə görə, yalnız tapşırıq və komissiya kimi müqavilələr fidusiar əqd kateqoriyasına aid edilir[4].

Əqdlərin bir növü aleator (latınca «aleator» — ehtiraslı oyunçu)[5] əqdlər adlanır. **Risqlə bağlı olan əqdlər aleator əqdlər adlanır**. Buna görə də onlara risqli əqdlər də deyilir.

Bəzi xarici ölkələrin qanunvericiliyi aleator əqdlərin tənzimlənməsinə xüsusi diqqət yetirir. Məsələn, Fransa MM-in üçüncü kitabının 14-cü bölməsinə («Risqli müqavilələr haqqında» adlı bölməyə) daxil olan normalar bu əqdi nizama salır[6].

Aleator (risqli) əqdlərin əhatə dairəsi bir o qədər də geniş deyil. **Sığorta müqaviləsi** bu əqdin ən geniş yayılmış növlərindən biri hesab edilir. Bu mü-

[1] bax. *Шершеневич Г.Ф.* Учебник торгового права. М., 1994, с. 47-60.

[2] bax: Гражданское и торговое право капиталистических государств. Учебник / Под ред. *Е.А.Васильева*. М., 1993, с. 108.

[3] *Klüninger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 69.

[4] Торговый кодекс Японии. М., 1993.

[1] Коммерческое право. Учебник / Под ред. *В.Ф.Попондопуло, В.Ф.Яковлевой*. 1997, с. 192.

[2] bax: Предпринимательское (хозяйственное) право. Учебник / Под ред. *О.М.Олейника*. М., 1999, с. 418.

[3] bax: *Дождев Д.В.* Римское частное право. М., 1989, с. 563.

[4] Müəlliflərdən Y.A.Suxanov komissiya müqaviləsinin fidusiar xarakter daşımadığını göstərir (Гражданское право. Учебник. Том 2. Полутом 2 / Под ред. *Е.А.Суханова*. М., 2000, с. 100). Bizim bu barədə mövqeyimizlə tanış olmaq üçün bax: Dərsliyin «Komissiya müqaviləsi» fəsli.

[5] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 30.

[6] Французский гражданский кодекс 1304 года / Пер. *И.С.Перетерского*. М., 1941; Основные институты гражданского права зарубежных стран / Под ред. *В.С.Зеллеского*. М., 1999, с. 3.

qavilədə sığortaçının öz əsas vəzifəsini, yəni sığorta ödənişini ödəmək vəzifəsini yerinə yetirməsi sığorta hadisəsinin (təbii fəlakətin, yanğının və s.) baş verib-verməməsindən asılı olaraq müəyyən edilir.

Renta müqaviləsi də aleator (risqli) əqdlərə aid edilir. Bu müqavilə əsasında hər bir tərəfin öz üzərinə götürdüyü risq elementi elə bir ehtimala əsaslanır ki, onlardan hər biri faktiki cəhətdən verdiyi əvəzə nisbətən az həcmdə qarşılıqlı əvəz alır[1]. Renta müqaviləsinin aleator əqd kateqoriyasına aid edilməsi Fransa hüquq elmində göstərilir[2]. Bu müqavilənin aleator təbiətli və xarakterli əqd olması həm də qanunvericilik səviyyəsində müəyyənləşdirilmişdir. Belə ki, Fransa MM-in 1964-cü maddəsi bu məsələyə toxunur.

Oyun keçirilməsi barədə müqavilələr (oyun müqavilələri) də aleator əqd kateqoriyasına şamil edilir. Məsələn, müxtəlif telekanallarda nümayiş etdirilən oyunlar («Что? Где? Когда?», «Поле чудес», «О, счастливчик!» və s.) aleator əqdə misal ola bilər.

9. Əqdin yönəldiyi hüquqi nəticədən asılı olaraq onun növləri

Almaniya mülki hüquq elmində **əqdin yönəldiyi hüquqi nəticədən asılı olaraq**[3] onun iki növü fərqləndirilir: şəxsi əqdlər; əmlak əqdləri[4]. **Şəxsi əqdlərə** ailə-nikah əqdləri, **əmlak əqdlərinə** isə əşya, öhdəlik və vərəsəlik əqdləri daxildir. Ümumilikdə göstərilən meyara (əlamətə) görə mülki-hüquqi əqdlər dörd növə bölünür[5]:

- ailə-nikah əqdləri;
- əşya əqdləri;
- öhdəlik əqdləri;
- vərəsəlik haqqında əqdlər[6].

Ailə-nikah münasibətləri sferasında bağlanan əqdlərə **ailə-nikah əqdləri** deyilir. Məsələn, nikahın bağlanması bu növ əqdə misal ola bilər.

Əşya hüquqları müəyyənləşdirən əqdlər **əşya əqdləri** adlanır[7]. Almaniya sivilistika doktrinasında daşınar əşyalara mülkiyyət hüququnun verilməsini (tradisiyanı) əşya əqdinin əsas nümunəsi hesab edirlər[8]. Bu əqd Almaniya Mülki Qanunnaməsinin 929-cu paraqrafında öz əksini tapmışdır. Həmin əqd bizim ölkə qanunvericiliyinə də məlumdur (MM-in 181-ci maddəsi). Həmin əqdə görə, daşınar əşyaya sahibliyin verilməsi ilə mülkiyyət hüququ da başqa şəxsə keçir və bununla göstərilən şəxs mülkiyyət hüququ əldə edir. Bundan əlavə, superfitsi (tikiliyə vərəsəlik hüququ haqqında) müqaviləsi servitut barədə müqavilə, girov müqaviləsi və s. əşya əqdi kateqoriyasına aiddir.

[1] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 295.

[2] bax: *Годеме Е.* Общая теория обязательств. М., 1948, с. 32; *Морандьер Л.Ж.* Гражданское право Франции. Книга 3. М., 1961, с. 333-338; *Саватье Р.* Теория сбязательств. М.,1972, с. 223-225.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 121, 123.

[4] *Heinrichs H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 720.

[5] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 69.

[6] *Müselak H.-J.* Grundkurs BGB. München. 1994, s. 6.

[7] *Сакаэ Вагацума, Тору Арииздуми.* Гражданское право Японии. Книга 2. М., 1983, с. 19.

[8] *Дернбург Г.* Пандекты. Том 1. Часть 2: Вещное право. СПб., 1905, с. 112-114.

Öhdəlik əqdləri odur ki, həmin əqdlərin əsas məqsədi öhdəlik hüquq münasibətləri (öhdəlik hüquqları) yaratmaqdan ibarətdir. Söhbət alqı-satqı hüquq münasibəti yaradan alqı-satqı müqaviləsindən, daşıma hüquq münasibəti əmələ gətirən daşıma müqaviləsindən və s. gedir. İcarə, kirayə, saxlama, podrat, kredit, borc və digər müqavilələr öhdəlik əqdi kateqoriyasına şamil edilir. Girov və ipoteka müqavilələri ikili təbiətə malikdir. Bir tərəfdən, onlar əşya əqdi, digər tərəfdən öhdəlik əqdi hesab edilir.

Vərəsəlik əqdləri vərəsəlik münasibətlərinə aid olan əqdlərdir. Almaniya mülki hüquq elmində bu növ əqdlərə vərəsəlik hüququ müqavilələri (vərəsənin təyin edilməsi haqqında müqavilə) misal çəkilir. Bizim ölkənin vərəsəlik qanunvericiliyi bu cür müqavilə konstruksiyası tanımır. Vəsiyyəti isə bu əqdə aid edə bilərik.

§ 3. Əqdin etibarlı olması şərtləri

1. Ümumi müddəalar

Əqdin əsas səmti və yönümü hüquqi nəticə əldə olunmasından ibarətdir. Hüquqi nəticəyə səbəb olmaq üçün — mülki hüquq və vəzifələrin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması üçün əqdlərin etibarlı olması tələb edilir. Yalnız əqdlər etibarlı olduqda, gözlənilən hüquqi nəticə əmələ gəlir. Əqdlər isə ancaq müəyyən tələblər əsasında etibarlı ola bilər. Əgər müvafiq əqd həmin tələblərə cavab verdikdə və uyğun olduqda, o, hüquqi fakt kimi hüquqi nəticə doğurur. Bu tələblər qanunla müəyyən edilir. Onlara əqdin etibarlı olması şərtləri deyilir.

Əqdin etibarlı olması şərtləri dedikdə, qanunda nəzərdə tutulan elə tələblər başa düşülür ki, bu tələblər əsasında əqd hüquqi fakt kimi çıxış edərək hüquqi nəticə doğurur. Bu şərtlər əqdin hüquqi məqsədinin həyata keçirilməsini təmin edir. Onları iki qrupa bölmək olar: ümumi şərtlər; xüsusi şərtlər.

Növündən asılı olmayaraq, bütün əqdlərə şamil edilən tələblərə **əqdin etibarlı olmasının ümumi şərtləri** deyilir. Mülki-hüquqi əqdlərin bu və ya digər konkret növü üçün müəyyənləşdirilən tələblər isə **əqdin etibarlı olmasının xüsusi şərtləri** adlanır.

Mülki hüquq elmində (sivilistika doktrinasında) əqdlərin etibarlı olmasının ümumi şərtləri dörd qrupa bölünür[1]:

- əqdin subyekt tərkibinə aid edilən şərt;
- əqdin məzmununa aid olunan şərt;
- əqddə iradə və iradə ifadə etmənin vəhdətinə aid edilən şərt;
- əqdin formasına aid edilən şərt.

[1] bax: *Новицкий И.Б.* Сделки. Исковая давность. М., 1954; *Иоффе О.С.* Советское гражданское право. М., 1967; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 232; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 236; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 342; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 183; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 204 .

Göstərilən şərtlərdən hər hansı birinə əməl edilməməsi və onlardan, heç olmazsa, birinin pozulması əqdin qüsurlu olmasına, bununla da onun etibarsız hesab edilməsinə səbəb olur.

2. Əqdin subyekt tərkibinə aid edilən şərt

Subyekt tərkibi hər bir əqdin məcburi elementlərindən biridir. Əqdin bağlanmasında iştirak edən şəxslər onun **subyekt tərkibini** əmələ gətirir. Söhbət əqdi bağlayan tərəflərdən və bu tərəfləri təmsil edən əqd iştirakçılarından gedir. Həm fiziki şəxslər, həm hüquqi şəxslər, həm dövlət (Azərbaycan Respublikası), həm də bələdiyyələr əqdin bağlanmasında subyekt rolunda çıxış edə bilərlər.

Fiziki şəxslərin subyekt qismində əqd bağlamalan üçün onların tam mülki fəaliyyət qabiliyyətinə malik olmaları tələb edilir. Əqd bağlamaq qabiliyyəti mülki fəaliyyət qabiliyyətinin ən vacib elementidir. Yalnız tam fəaliyyət qabiliyyətli (əqd qabiliyyətli) fiziki şəxslər əqd bağlaya bilərlər. Bu, onunla izah edilir ki, əqd iradəvi hərəkətdir.

Yeddi yaşınadək olan azyaşlıların, habelə ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən və buna görə də məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılan şəxslərin əqd bağlamaq qabiliyyəti yoxdur. **Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin** adından əqdləri onun qəyyumu bağlayır.

14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayan şəxslər də müstəqil surətdə əqd bağlamaq qabiliyyətindən məhrumdurlar. Həmin şəxslərin əvəzinə, əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər. Amma bu kateqoriya şəxslərin hüququ var ki, xırda məişət əqdlərini və qanunda nəzərdə tutulan digər əqdləri müstəqil surətdə bağlasınlar (MM-in 29-cu maddəsinin 2-ci bəndi).

14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslərin də tam əqd bağlamaq qabiliyyəti yoxdur. Bu kateqoriya şəxslər əqdləri öz valideynlərinin, övladlığa götürənlərin və ya himayəçilərin yazılı razılığı ilə bağlayırlar. Bununla belə, onların xırda məişət xarakterli əqdləri, habelə qanunla müəyyənləşdirilən bəzi növ əqdləri müstəqil surətdə bağlamağa ixtiyarı çatır (MM-in 30-cu maddəsinin 2-ci bəndi).

Spirtli içkilərdən, psixotrop maddələrdən və yaxud narkotik vasitələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin tam əqd bağlamaq qabiliyyəti yoxdur. Bu kateqoriya şəxslər yalnız himayəçisinin razılığı ilə əqd bağlaya bilərlər. Xırda məişət xarakterli əqdləri bağlamaqda isə onlar müstəqildirlər.

Hüquqi şəxslərin əqd bağlamaq qabiliyyəti müəyyən xüsusiyyətlərə malikdir. Belə ki, onların kommersiya təşkilatları kimi növlərinin **qanunun qadağan etmədiyi istənilən əqdi bağlamaq qabiliyyəti** vardır. Çünki kommersiya təşkilatları ümumi (universal) mülki hüquq qabiliyyətinə malikdir. Hüquqi şəxslərin **qeyri-kommersiya təşkilatları** kimi növlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, onlar **yalnız fəaliyyət məqsədlərinə zidd olmayan və uyğun gələn mülki-hüquqi əqdlər bağlaya** bilər. Bu, onunla izah edilir ki, qeyri-kommersiya hüquqi şəxsləri xüsusi (məqsədli) mülki hüquq qabiliyyətinə malikdir.

Hüquqi şəxslər bəzi əqd növlərini **yalnız buna xüsusi icazə (lisenziya)** olduqda bağlaya bilərlər. Məsələn, faktorinq müqaviləsini yalnız o kommersiya təşkilatı bağlaya bilər ki, onun faktorinq fəaliyyətini həyata keçirməyə icazəsi olsun (MM-in 655-ci maddəsinin 6-cı bəndi). Bank hesabı və bank əmanəti (depozit) kimi müqavilələri yalnız Milli Bankdan lisenziya almış banklar və digər kredit təşkilatları bağlaya bilərlər.

Hüquqi şəxslərin əqd bağlamaq qabiliyyəti **onun orqanları vasitəsilə** həyata keçirilir. Belə ki, bu orqanlar əqd bağlanarkən hüquqi şəxsin iradəsini formalaşdırır və ifadə edirlər. Həmin orqanlar mülki (əmlak) dövriyyədə hüquqi şəxsin adından çıxış edirlər. Onların hərəkəti hüquqi şəxsin özünün hərəkəti kimi hesab edilir və qəbul olunur, bir şərtlə ki, hüquqi şəxsin orqanları onlara verilmiş səlahiyyət çərçivəsində hərəkət etsin. Məhz bu səbəbdən göstərilən orqanların əqd bağlaması nəticəsində yaranan hüquqi nəticəyə (mülki hüquq və vəzifələrin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması) həmin orqan yox, hüquqi şəxsin özü sahib olur. Başqa sözlə desək, belə hallarda əqdin doğurduğu hüquqi nəticə hüquqi şəxs üçün yaranır.

Dövlət və bələdiyyələrin də əqd bağlamaq qabiliyyəti vardır. Onlar məqsədli (xüsusi, məhdud) mülki hüquq qabiliyyətinə malik olduqları üçün yalnız həyata keçirdikləri funksiyalara və fəaliyyət məqsədlərinə uyğun gələn, ümumi mənafeyə zidd olmayan mülki-hüquqi əqdlər bağlaya bilərlər. Dövlət və bələdiyyələr istehlakçı (kirayə müqaviləsində kirayeçi, pərakəndə alqı-satqı müqaviləsində alıcı və s.) və sahibkar (sığortaçı, bank, faktor, lizinq verən və s.) rolunda əqd bağlanmasında iştirak edə bilməzlər.

Almaniya sivilistika doktrinası şəxsin fəaliyyət qabiliyyətinə əqdin bağlanması üçün lazım olan zəruri ümumi şərtlərdən biri kimi baxır. Bu şərti pozmaqla bağlanan əqd etibarsızdır[1].

3. Əqdin məzmununa aid edilən şərt

Əqdin məzmununa aid edilən şərt iki cür olur: hüquqi şərt; faktiki şərt.

Hüquqi şərtin mahiyyəti ondan ibarətdir ki, **birincisi**, öz **məzmununa görə bütün əqdlər qanuni olmalıdır**. Əqdlərin qanuni olması o deməkdir ki, bütün əqdlər qanunvericiliyin nəzərdə tutduğu tələblərə uyğun gəlməlidir.

Əqdin məzmunu iyerarxiya prinsipi üzərində qurulan mülki qanunvericilik sisteminə daxil olan bütün normativ aktların müəyyənləşdirdiyi tələblərə cavab verməlidir. Söhbət Konstitusiyadan, Mülki Məcəllədən, ölkə qanunlarından, qanunqüvvəli normativ aktlardan — prezident fərmanlarından və hökumət qərarlarından, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarından gedir.

Əqdin məzmununun qanuniliyi onun hüququn həm ümumi prinsiplərinə, həm də mülki hüququn xüsusi (sahəvi) prinsiplərinə uyğun gəlməsini də tələb edir. Əgər müvafiq əqd öz məzmununa görə bu prinsiplərə, həmçinin mülki qanunvericilik aktlarına zidd olarsa, o, hüquqi nəticə doğurmur. Məsələn, sığorta təşkilatının bağladığı bank əqdləri (bank əmanəti, bank hesabı, kredit və

[1] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993. s. 69; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 131.

s. müqavilələr), ticarət fəaliyyətinə aid əqdlər hüquqi nəticəyə səbəb ola bilməz. Çünki qanun sığorta təşkilatının bank və ticarət fəaliyyəti ilə məşğul olmasını qadağan edir[1].

İkincisi, əqdin məzmununun qanuni olması həm də **əqd bağlayan şəxsin buna səlahiyyəti olmasında ifadə edilir**. Əgər əqd, onu bağlamağa səlahiyyəti çatan şəxs tərəfindən bağlanmışdırsa, o, qanuni əqd hesab edilir. Məsələn, mülkiyyətçilərdən biri paylı mülkiyyətdə olan əşyaya sərəncam verilməsi barədə əqd (məsələn, bağışlama, alqı-satqı və s. müqavilələr) bağlayır. Təkbaşına bu cür əqdləri bağlamağa onun səlahiyyəti çatmır. Belə ki, həmin əqdlər bütün mülkiyyətçilərin razılığı ilə bağlanmalıdır (MM-in 215-ci maddəsinin 5-ci bəndi). Başqa misalda arvad ərin razılığı olmadan onların ümumi əmlakı üzərində sərəncam əqdi bağlayır. Bu əqd hüquqi nəticə doğurmur və etibarsız hesab edilir. Ona görə ki, arvadın ərin razılığı olmadan bu cür əqdləri bağlamağa ixtiyarı çatmır. Qanun müəyyən edir ki, ər-arvadın ümumi əmlakı üzərində sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir[2].

Faktiki şərtin mahiyyəti ondan ibarətdir ki, əqd bağlandığı anda bu şərtin həyata keçirilməsinə real (faktiki) imkan olmalıdır. Məsələn, podratçı ilə sifarişçi real (faktiki) olaraq mövcud olmayan yaşayış evinin təmiri barəsində razılığa gəlirlər. Bu cür əqdin hüquqi nəticəsi olmayacaqdır. Ona görə ki, bu əqd onun məzmununa aid olan faktiki şərtdən məhrumdur. O, etibarsız əqd hesab ediləcəkdir. Həmin əqdlər bu və ya digər səbəbə görə icrası mümkün olmayan etibarlı əqdlərdən fərqlənir. Məsələn, podratçı (tikinti təşkilatı) ilə sifarişçi taxta materialdan tikilmiş yaşayış evinin təmir edilməsi barədə müqavilə bağlayırlar. Yanğın nəticəsində həmin ev yanıb kül olur. Bağlanmış əqd icra olunmayacaqdır. İcrası mümkün olmadığına görə o, xitam edilir.

4. İradə və iradəni ifadə etmənin vəhdətinə aid edilən şərt

İradə və iradəni ifadə etmə **əqdin subyektiv tərəfini** təşkil edir. Belə ki, əqd iradəvi aktdır. Bu aktın iki cəhəti vardır: daxili cəhəti; xarici cəhəti. **Daxili cəhət** şəxsin əqd bağlamaq barədə subyektiv arzusudur. **Xarici cəhət** isə şəxsin iradəsinin zahirən obyektivləşmiş ifadəsidir. Əgər iradəvi aktın daxili cəhəti iradədirsə, xarici cəhəti iradəni bildirmədir. Fəlsəfi aspektdən iradə və iradəni bildirmə arasındakı münasibət məzmun və forma, mahiyyət və hadisə arasındakı əlaqə kimidir. Fəlsəfə elmi öyrədir ki, məzmun və forma vəhdət təşkil edir, hadisə mahiyyəti düzgün təzahür etdirməlidir. Buna görə də əqd kimi iradəvi aktın hüquqi nəticə doğurması və etibarlı olması üçün gərəkdir ki, iradə (məzmun) və iradəni ifadə etmə (forma) vəhdət təşkil etsinlər. Bunun üçün həm də vacibdir ki, iradəni ifadə etmə (hadisə, təzahür) daxili iradəni (mahiyyəti) düzgün əks etdirməli və əqd iştirakçılarının nəzərinə düzgün çatdırmalıdır. Başqa sözlə desək, **əqdin hüquqi nəticə doğurması və etibarlı olması üçün iradə və iradəni bildirmə bir-birinə uyğun gəlməli, üst-üstə düşməlidir**.

Əqdin etibarlı olması üçün iradənin və ya iradəni bildirmənin daha vacib əhəmiyyət kəsb etməsi, hansının daha üstünlüyə malik olması məsələsi sovet

[1] bax: «Sığorta haqqında» qanunun 5-ci maddəsi // AR QK, III xüsusi buraxılış.
[2] bax: AR Ailə Məcəlləsinin 33-cü maddəsinin 1-ci bəndi // AR QK, III xüsusi buraxılış.

dövrünün mülki hüquq elmində mübahisə predmeti olmuşdur. Bu barədə üç əsas konsepsiya yaranmışdı. Birinci konsepsiyaya görə, iradəni ifadə etmə əqdin etibarlı olmasını şərtləndirən əsasdır. Belə ki, əqd həmişə hərəkətdir, buna görə də hüquqi nəticə məhz iradəni ifadə etmə bağlı olur[1]. İkinci konsepsiyaya görə, şəxsin daxili iradəsi (iradəsi) əqdin əsası və təməlidir. İradə ilə iradəni ifadə etmə arasında ayrılıq olduğu hallarda, iradəni ifadə etməyə yox, iradəyə üstünlük verilməlidir[2]. Üçüncü konsepsiyaya görə, iradə də, iradəni ifadə etmə də eyni dərəcədə vacibdir. İradə və iradəni ifadə etmənin vəhdəti əqdin etibarlı olmasına dəlalət edən labüd və mütləq şərtdir[3].

Zənn edirik ki, üçüncü konsepsiya tərəfdarı olan müəlliflərin mövqeyi daha əsaslı, daha məntiqidir. Müasir müəlliflərin, demək olar ki, hamısı məhz bu mövqedə dayanırlar[4]. Doğrudan da, əqd bağlayan şəxsin daxili iradəsi ilə bu iradəni xaricən (zahirən) ifadə edən iradəni bildirmə arasında ziddiyyət, ayrılıq olduqda, əqdin etibarlı olmasından necə söhbət etmək olar? Bu cür ziddiyyətlər olduqda, əqd etibarsız hesab edilir. Məsələn, yanılma nəticəsində bağlanan əqdlərdə iradə və iradəni ifadə etmə bir-birinə uyğun gəlmədiyinə görə onlar etibarsız sayılır (MM-in 347-ci maddəsi). Burada iradə və iradəni ifadə etmə mühüm yanılma (əqdin şərtləri və predmeti barədə) nəticəsində bir-birinə uyğun gəlmir, üst-üstə düşmür. Məsələn, şəxs yanılaraq səhvən mağazadan şəklin əslini yox, yaxşı işlənmiş surətini alır.

Əqdin etibarlı olması üçün nəyin tələb edilməsi məsələsinin tarixi çox qədim vaxtlara gedib çıxır. Qədim Roma hüququna görə, iradəni bildirmə əqdin etibarlı sayılması üçün tamamilə kifayət edirdi. Klassik və yeni Roma hüququ isə, əksinə, iradəyə böyük əhəmiyyət verirdi. Ümumi Almaniya (pandekt) hüququnda əvvəlcə iradə nəzəriyyəsi, sonra isə iradəni bildirmə nəzəriyyəsi yarandı. Almaniya Mülki Qanunnaməsi rəsmi surətdə yalnız nə iradə nəzəriyyəsini, nə də iradəni bildirmə nəzəriyyəsini dəstəkləyir. Amma son nəticədə burada iradə nəzəriyyəsi üstünlüyə malikdir[5].

Yaponiya mülki hüquq elmində isə iradə və iradəni bildirmənin bir-birinə uyğun gəlməsi əqdin etibarlı sayılmasına dəlalət edən şərt kimi müəyyənləşdirilir[6].

[1] bax: Гражданское право. Учебник. Том 1. М., 1944, с. 95; *Новицкий И.Б.* Сделки. Исковая давность. М., 1954, с. 22.
[2] bax: *Рабинович Н.В.* Недействительность сделок и ее последствия. Л., 1960, с. 7.
[3] bax: *Агарков М.М.* Понятие сделки по советскому гражданскому праву // Советское государство и право. 1946. № 3-4; *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Л., 1958, с. 222-223; *Шахматов В.П.* Составы противоправных сделок и обусловленные ими последствия. Томск. 1967, с. 42; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 234.
[4] Гражданское право. Учебник. Часть 1 / Под ред.*Т.И.Илларионовой и др.* М., 1998, с. 204-205; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 184; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 343; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 237.
[5] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 193.
[6] *Сакаэ Вагацума, Тору Арицдзуми*. Гражданское право Японии. Книга 2. М., 1983, с. 112.

5. Əqdin forması

Qeyd etdik ki, iradəni ifadə etmə daxili iradəni düzgün əks etdirməlidir. Söhbət əqd bağlamaq niyyətində olan şəxsin bu iradəni əqdin digər iştirakçılarının nəzərinə düzgün çatdırmasından gedir. Daxili iradə əqdin digər iştirakçılarının nəzərinə yalnız qanunda nəzərdə tutulan və göstərilən üsullarla çatdırıla bilər. Bu üsullar qanunun müəyyənləşdirdiyi formadır. Həmin forma isə əqdin forması adlanır.

Əqdin forması dedikdə, qanunda nəzərdə tutulan elə üsullar başa düşülür ki, bu üsullar vasitəsilə əqd bağlamaq niyyətində olan şəxsin daxili iradəsi xaricən ifadə olunur, dəqiq və aydın surətdə əqdin digər iştirakçılarının nəzərinə çatdırılır, iradə ifadəsi təsbit edilir. İkitərəfli və çoxtərəfli əqdlər (müqavilələr) bağlanan hallarda isə iradənin, sadəcə olaraq, maraqlı şəxslərin (əqd iştirakçılarının) nəzərinə çatdırılmasından savayı, həm də müəyyən dərəcədə tərəflərin iradə ifadəsinin razılaşdırılması tələb edilir. Söhbət müqavilələr bağlanan hallarda qarşılıqlı iradə ifadələrinin bir-birinə uyğun gəlməsindən gedir.

Əqdin forması onun etibarlı hesab edilməsinə dəlalət əsas və vacib şərtlərdən biridir. Özü də əqdlər yalnız qanunda (Mülki Məcəllədə) və ya tərəflərin qarşılıqlı razılaşmasında nəzərdə tutulan formada bağlana bilər. Odur ki, əqdin etibarlı olması üçün Mülki Məcəllə ilə (qanunla) və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyənləşdirilmiş formaya riayət edilməsi zəruridir. Əgər qanunla (Mülki Məcəllə ilə) əqd üçün forma müəyyənləşdirilməyibsə, tərəflər onu özləri müəyyənləşdirə bilərlər. Əksinə, əqdin forması qanunda (Mülki Məcəllədə) nəzərdə tutularsa, tərəflərin razılığı ilə müəyyən edilə bilməz. Məsələn, faktorinq müqaviləsi üçün qanun yazılı forma müəyyən edir (MM-in 655-ci maddəsinin 5-ci bəndi). Bu, o deməkdir ki, həmin müqavilə yazılı formadan başqa, tərəflərin razılığı ilə digər hər hansı formada bağlana bilməz. Əvəzsiz istifadə müqaviləsi üçün qanun konkret müəyyən forma müəyyən etmir. Deməli, bu müqavilə tərəflərin razılığı ilə istənilən formada bağlana bilər.

Qanun əqdin iki formasını müəyyənləşdirir və fərqləndirir:

- şifahi forma;
- yazılı forma.

Yazılı forma özü iki cür olur:

- sadə forma;
- notarial forma.

Beləliklə, ümumilikdə əqd üç formada bağlana bilər:

- şifahi formada;
- sadə yazılı formada;
- notarial formada.

Şifahi forma odur ki, bu forma əqd bağlamaq niyyətində olan şəxsin iradəsini şifahi formada (dilcavabı, sözlə) ifadə edir. Bu cür iradə ifadə olunarkən, əqd iştirakçısı əqdin bağlanma şərtlərini və onu bağlamağa hazır olmasını söz vasitəsi ilə formulə edir, bildirir.

Şifahi formada əqdlərin bağlanması hər hansı kağız sənədinin tərtib edilməsi ilə müşayiət olunmur. Burada əsas vasitə danışıqlardır. Əqd bağlayan tərəflər danışıqlar yolu ilə öz iradələrini ifadə edirlər. Bu cür danışıqlar tərəflərin şəxsi görüşü zamanı, telefon və digər rabitə vasitələrinin köməyi ilə həyata keçirilə bilər. Buna görə də şifahi forma daha sadə forma hesab edilir. Bu forma əqdlər hüquqi dövriyyəni asanlaşdırır və tezləşdirir[1].

Üç halda əqdlər şifahi formada bağlana bilər. **Birinci hala** o şifahi əqdlər aid edilir ki, **onlar üçün Mülki Məcəllə ilə və ya tərəflərin razılaşması ilə yazılı forma müəyyənləşdirilməsin.** Bu halın mahiyyəti belədir ki, müvafiq əqd üçün Mülki Məcəllədə müəyyən konkret forma nəzərdə tutulmur. Bu forma əqd bağlayan tərəflərin sazişi ilə də müəyyənləşdirilmir. Deməli, onda əqd şifahi formada bağlanmış sayılır.

İkinci hala o şifahi əqdlər şamil olunur ki, onlar **tərəflərin qarşılıqlı razılığı ilə** müəyyən edilsin. Belə ki, tərəflər bağladıqları əqdin şifahi formada olması barədə razılığa gəlirlər.

Üçüncü hala o şifahi əqdlər aid edilir ki, **qanunda (Mülki Məcəllədə) onların şifahi formada bağlanması nəzərdə tutulsun.** Məsələn, tapşırıq müqaviləsi şifahi formada bağlana bilər (MM-in 777-ci maddəsinin 2-ci bəndi).

Şifahi formada bağlana bilən əqdlər konklyudent (latınca «concludere» — bağlamaq)[2] hərəkətlərin həyata keçirilməsi yolu ilə də bağlanır. **Konklyudent hərəkətlər** şəxsin elə bir rəftar və davranışıdır ki, bunun vasitəsi ilə həmin şəxsin əqd bağlamaq iradəsi məlum olur və əqd bağlamağa razılığı açıq-aşkar görünür. Bu cür hərəkətləri real hərəkətlər adlandırmaq daha düzgün olardı[3]. Məhz şəxsin real hərəkətləri hüquqi əhəmiyyət kəsb edir. Bu cür hərəkətlərlə əqdin bağlanması halına çoxlu misallar çəkə bilərik: mal almaq üçün şəxsin avtomata pul və ya jeton buraxması; metro vasitəsi ilə getmək üçün şəxsin jetonu avtomatik qurğuya atması; sürücünün ümumi istifadədə olan nəqliyyat vasitəsini dayanacağa verməsi; şəxsin avtomat vasitəsi ilə valyuta dəyişməsi; şəxsin mirası qəbul etməsi üçün faktiki hərəkətlər etməsi və s.

Konklyudent hərəkət yolu ilə yalnız o əqdlər bağlanır ki, qüvvədə olan qanunvericilik həmin əqdlər üçün şifahi forma nəzərdə tutsun. Yalnız şifahi formada bağlana bilən əqdlər konklyudent hərəkətlə bağlanarsa, hüquqi əhəmiyyətə malik olur. Yazılı formada bağlanmalı olan əqdlərin bu yolla bağlanması mümkün deyil, istisna edilir. Bu cür əqdlər hüquqi nəticəyə səbəb olmur və etibarsız sayılır.

Əqdlər **susmaq yolu** ilə də bağlana bilər. Özü də dərhal qeyd etməliyik ki, ki, yalnız Mülki Məcəllədə və ya tərəflərin razılaşmasında nəzərdə tutulduğu hallarda, susmaq əqdlərin bağlanmasının üsulu və yolu kimi çıxış edə bilər.

Susmaq şəxsin elə bir hərəkətsizliyidir ki, bu hərəkətsizlik həmin şəxsin əqd bağlamaq iradəsini ifadə edir. Bu hərəkətsizliyin kəsb etdiyi hüquqi məna belə bir xalq kəlamında ifadə olunur: «susmaq razılıq əlamətidir». Susmaq dinməz razılıq deməkdir.

Susmaq yolu ilə əqd bağlanması hallarına çoxlu misallar çəkə bilərik. Məsələn, vərəsə 3 ay müddətində mirasın qəbul edilməsini təsdiqləyən müvafiq

[1] *A.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 328.

[2] bax: Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина, И.А.Ахчурина, Р.С.Карпинского.* М., 1985, с. 245.

[3] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 223.

hərəkət etməlidir. Onun bu hərəkəti etməməsi susmağı ifadə edir. Bu cür susmaq isə mirasdan imtina kimi birtərəfli əqdin bağlanmasını nümayiş etdirir. Başqa bir misalda icra müqaviləsinin müddəti qurtarır. Bu müqaviləyə xitam vermək və ya onu dəyişdirmək barədə tərəflər susurlar. Belə halda susmaq müqavilənin eyni müddət üçün və eyni şərtlərlə uzadılmasını ifadə edir. Daha başqa bir misalda müqavilə bağlamaq barədə təklif vermiş şəxsin (oferentin) susması müqavilənin bağlanmamasını ifadə edir (MM-in 409-cu maddəsinin 5-ci bəndi).

Mülki qanunvericiliyin digər aktlarında susmaq əqdin bağlanması üsulu kimi nəzərdə tutula bilər. Bank qaydalarına görə, bank ödəmə tapşırığını razılıq almaq məqsədi ilə ödəyiciyə göndərir. Əgər ödəyici susarsa, bu, onun ödənişə razılıq verməsini ifadə edir.

Almaniya mülki qanunvericiliyinə görə, əqdin formasının üç tipi fərqləndirilir: yazılı forma (MQ-nin 126-cı, 127-ci paraqrafları); rəsmi təsdiqətmə (MQ-nin 129-cu paraqrafı); notariat qaydasında təsdiq etmə (MQ-nin 128-ci paraqrafı). Yazılı forma imza qoyulmasını və ya notariatın tanıdığı digər işarələrin (nişanların) olmasını tələb edir. Rəsmi təsdiqetmə forması onu ifadə edir ki, sənəd notarius tərəfindən tərtib olunmalı, imzalanmalı və təsdiqlənməlidir. Bu, şəxsiyyəti eyniləşdirməyə imkan verir: notarius təsdiq edir ki, imza əqd bağlayan şəxsə məxsusdur. Notarial forma əqd bağlamaq barədə təklifi və bu təklifin qəbul edilməsini notariusun təsdiqləməsini nəzərdə tutur[1].

6. Əqdin yazılı forması

Şifahi formalı əqdlərdən fərqli olaraq yazılı formalı əqdlər müvafiq sənədin tərtib olunması ilə müşayiət edilir. Bu sənəddə bağlanan əqdə aid əhəmiyyəti olan müəyyən hallar ifadə edilir.

Əqdin yazılı forması şifahi formaya nisbətən üstünlüyə malikdir. Çünki yazılı formada əqd bağlamaq niyyətində olan şəxsin iradəsi maddiləşmiş sənəddə ifadə olunur və obyektivləşir. Obyektivləşmiş yazılı sənəd iradə ifadəsinin maddi daşıyıcısı rolunu oynayır.

Yazılı formalı əqd odur ki, bu əqd onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə bağlanır. Anlayışdan müəyyən etmək olur ki, əqdin yazılı formasına riayət edilməsi üçün üç məcburi və labüd şərtin olması gərəkdir:

- birincisi, yazılı formalı əqd **bir sənəd tərtib etmək yolu** ilə bağlanır;
- ikincisi, bu sənəd **əqdin məzmununu** ifadə edir;
- üçüncüsü, bu sənəd əqd bağlayan şəxs və ya şəxslər və ya onların lazımi qaydada vəkil etdikləri şəxslər tərəfindən **imzalanır.**

Yazılı formalı əqd **iki qaydada (yolla)** bağlanır. Birinci qaydaya görə, əqd **bir sənəd tərtib etmək yolu ilə** bağlanır. İkinci qayda isə yazılı əqdin **sənədlərin mübadiləsi yolu ilə bağlanmasını** nəzərdə tutur. Bir sənəd tərtib etmək yolundan bütün hallarda birtərəfli əqdlər rəsmiləşdirilərkən istifadə olunur, bir şərtlə ki, bu əqdlər üçün sadə yazılı forma nəzərdə tutulsun. Bununla bərabər, ikitərəfli və çoxtərəfli əqdlər, yəni müqavilələr də tərəflərin imzaladığı bir sənəd tərtib etmək yolu ilə bağlana bilər (MM-in 406-cı maddəsinin 3-cü bəndi).

Sənədlərin mübadiləsi **poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi kimi vasitələrə** əsaslanır. Bu vasitələr müvafiq sənədin müqavilə bağlayan tərəfdən gəldiyini doğru-dürüst müəyyənləşdirməyə imkan verir. Bu cür xüsusiyyətə malik olan digər rabitə vasitələrindən (məsələn, faksimile rabitə üsulundan) də istifadə edilə bilər. Yalnız müqavilələr (ikitərəfli və çoxtərəfli əqdlər) bu cür rabitə vasitələri əsasında sənədlər mübadiləsi yolu ilə bağlana bilər (MM-in 406-cı maddəsinin 1-ci bəndi).

Əqdin məzmununu ifadə edən yazılı sənəddə bir sıra hallarda **məcburi (labüd) rekvizitlərin** (latınca «requisitum» — tələb edilən)[1] olması tələb edilir. Rekvizitlər dedikdə, əqdin məzmununu ifadə edən yazılı sənəddə göstərilən məlumatlar başa düşülür. Əqdi bağlayan tərəflərin adı, əqdin məbləği, əqdin icra yeri, əqdin bağlandığı yer, əqdin bağlandığı müddət, əqdin qüvvəyə minməsi vaxtı və digər məsələlər haqqında məlumat, tərəflərin imzaları əqdin rekvizitləri hesab edilir.

Əqdin rekvizitləri onu bağlayan şəxslərin özləri tərəfindən müəyyən edilir. Bu rekvizitlərin qanunda da nəzərdə tutulması istisna olunmur. Qanunda nəzərdə tutulan lazımi rekvizitlərin olmaması müvafiq əqdi rəsmiləşdirən sənədin etibarsızlığına, bunun vasitəsi ilə həmin əqdin etibarsızlığına səbəb olur. Məsələn, konosament dənizlə yük daşıması haqqında müqaviləni rəsmiləşdirən sənəddir. Bu sənədə daxil edilən məlumatlar qanunda — Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 111-ci maddəsində göstərilmişdir. Əgər konosament zəruri məlumatları ifadə etməsə, o, etibarsız hesab olunur. Bu isə öz növbəsində dənizlə yük daşınması haqqında müqavilənin etibarsızlığına səbəb olur.

Əqdin bağlanmasını rəsmiləşdirən yazılı sənəd həmin əqdi bağlayan şəxs və ya şəxslər tərəfindən imzalanır. Məsələn, Ticarət Gəmiçiliyi Məcəlləsinin 111-ci maddəsinə görə konosament gəmi kapitanı tərəfindən imzalanır. Bu, onu ifadə edir ki, həmin sənəd daşıyıcının adından imzalanmışdır.

İmza əqdin məzmununu ifadə edən yazılı sənədin məcburi (labüd) rekvizitidir. Bu, o deməkdir ki, əgər müvafiq yazılı sənəddə əqd bağlayan şəxsin imzası olmazsa, o, etibarsız sayılır.

Əqdi rəsmiləşdirən yazılı sənəd onu bağlayan şəxs və ya şəxslərdən başqa, digər şəxslər, məsələn, nümayəndələr (təmsilçilər) tərəfindən də imzalana bilər. Bunun üçün vacibdir ki, nümayəndənin səlahiyyəti lazımınca rəsmiləşdirilsin. Söhbət nümayəndəyə etibar verməkdən və ya onunla tapşırıq müqaviləsi bağlamaqdan gedir.

Hüquqi şəxsin bağladığı əqdləri rəsmiləşdirən yazılı sənədləri onun adından hüquqi şəxsin icra orqanı hüququna malik olan şəxs imzalayır. Bu, onu ifadə edir ki, yazılı sənədi hüquqi şəxs imzalamışdır. Məsələn, tikinti təşkilatının müdiri və ya təchizat şöbəsinin rəisi təşkilat üçün tikinti materialları əldə etmək məqsədilə müəyyən firma ilə mal göndərmə müqaviləsini rəsmiləşdirən

[1] *Ermann W.* Handkommentar Zum BGB. Münster. 1993; *А.Жилинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 328-329.

[1] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова.* М., 1954, с. 599.

sənədi imzalayır.

Bəzi hallarda əqd bağlamaq niyyətində olan fiziki şəxs xəstə olur və ya fiziki-cismani cəhətdən şikəst olur, yəni bədən qüsuruna malik olur və yaxud savadsız olur. Bu səbəblərə görə o, məlum məsələdir ki, əqdi rəsmiləşdirən sənədi imzalamaq qabiliyyətini itirir, onu imzalamağa qadir olmur. Belə halda əqdi həmin şəxsin özü imzalamır. Əqd onun xahişi ilə başqa fiziki şəxs tərəfindən imzalanır. Həmin imza notarius tərəfindən və ya bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxs tərəfindən təsdiqlənir. Bu zaman əqd bağlamaq niyyətində olan şəxsin əqdi imza edə bilməməsinin səbəbləri dəqiq olaraq göstərilməlidir (MM-in 331-ci maddəsinin 4-cü bəndi).

Başqasının əvəzinə imza edən (qol çəkən) şəxsi xəstə, fiziki cəhətdən şikəst və ya savadsız olan fiziki şəxsin nümayəndəsi hesab etmək olmaz. Bu şəxs nümayəndədən fərqli olaraq, öz xüsusi iradəsini ifadə etmir. Əqdin bağlanması üçün onun yox, əqd bağlayan fiziki şəxsin iradəsi bildirilir. O, yalnız bu faktı təsdiq edir. Daha doğrusu, başqasının əvəzinə imza edən şəxs texniki icraçı funksiyasını yerinə yetirir.

Başqasının əvəzinə qol çəkən şəxsin imzasını **əqd bağlayan şəxsin (subyektin) şəxsi imzasının anoloqundan** fərqləndirmək lazımdır. Bunları bir-birilə qarışdırmaq olmaz.

Qanun əqdlərin bağlanması zamanı əqd bağlayan şəxsin şəxsi imzasının anoloqundan istifadə edilməsinin mümkünlüyünü göstərir (MM-in 331-ci maddəsinin 3-cü bəndi). Özü də dərhal qeyd etməliyik ki, bu cür istifadəyə tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda yol verilir. İstifadə qaydaları həmin razılaşmada göstərilir.

Əqd bağlayan tərəflərin şəxsi imzasının anoloqundan istifadə qaydalarının tərəflərin razılaşmasında nəzərdə tutulmasının mühüm əhəmiyyəti vardır. Belə ki, şəxsi imzanın anoloqunun tətbiqi haqqında qanunvericilik bazası son dərəcə məhduddur. Yalnız «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» qanunda (1998) bu məsələyə toxunan normalar vardır[1].

Əqd bağlayan tərəflərin şəxsi imzalarının anoloqundan müxtəlif üsullarla istifadə edirlər. Bunlar əqd bağlanması prosesini mühüm dərəcədə tezləşdirən üsullardır. Həmin üsullara aiddir:

- faksimile surətçıxarması;
- elektron imza;
- digər üsullar.

Göründüyü kimi, bu siyahı qəti və dəqiq xarakter daşımır. Bu isə imkan verir ki, əqdlərin bağlanması zamanı şəxsi imzanın anoloqunun ən müasir üsullarından istifadə edilsin. İndiki şəraitdə ənənəvi rabitə vasitələrindən (radiodan, telefondan, teleqrafdan, telefaksdan) başqa, müasir elektron vasitələrindən də (daşına bilən kommutatorlardan, faksimile, tele-optik, peyk, yəni kosmos rabitə vasitələrindən də) istifadə edilir. İnternet şəbəkəsindən rabitə vasitəsi kimi işlədilməsi meyli günü-gündən güclənir[2]. İnformasiyanın verilməsinin müasir sisteminin inkişafı yeni üsulların əmələ gəlməsinə səbəb ola bilər.

[1] bax: AR QK, V cild, s. 339.

[2] Мировая экономика. Учебник / Под ред. *А.С.Булатова*. М., 2002, с. 183.

Faksimile surətçıxarması (latınca «facsimile» — bu kimi, bu cür, eyni cür et)[1] mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyinə əsaslanır. Məsələn, əqd bağlayan şəxsin imzasının ştamp kimi hazırlanması mexaniki vasitənin yardımı ilə faksimile surətçıxarmasına misal ola bilər.

Əqdlərin bağlanması zamanı elektron imzadan da istifadə edilə bilər. Elektron imzadan istifadə etmə qaydaları və əqdlərin elektron formada bağlanması ilə bağlı məsələlər **elektron sənəd dövriyyəsinə aid qanunvericiliklə** tənzimlənir. Söhbət, ilk növbədə, həmin qanunvericiliyə daxil olan iki qanundan gedir. **«Elektron imza və elektron sənəd haqqında» qanun** (9 mart 2004-cü ildə qəbul olunmuşdur) onlardan biridir. Bu qanun elektron imzanın və elektron sənədin istifadəsinin, onların elektron sənəd dövriyyəsində tətbiqinin təşkilati-hüquqi əsaslarını və əlaqədar subyektlərin hüquqlarını müəyyən edir, həmin subyektlər arasında yaranan münasibətləri tənzimləyir.

Elektron imza dedikdə informasiya texnologiyaları vasitələri ilə işlənməyə yararlı olan elə informasiya başa düşülür ki, o, digər informasiyalara əlavə edilir və ya onlarla məntiqi əlaqəsi olur, imza sahibini identikləşdirməyə (tanımağa, eyniləşdirməyə) imkan verir. Elektron imza sahibini qanun **müqavilə bağlamaq hüququ** ilə təmin edir. Belə ki, o, elektron imzadan istifadə etməklə müqavilə bağlaya bilər (həmin qanunun 20-ci maddəsinin 5-ci bəndi). Bundan ötrü o, mərkəzlərə müraciət etməlidir. **Mərkəzlər** elektron imza xidmətlərinin subyekti olub, elektron imza sahibi barəsində məlumatların qorunmasını və fəaliyyətin təhlükəsizliyini təmin edir, elektron imza yaratma məlumatlarının və elektron imza sahibi barəsində məlumatların mühafizəsinə görə məsuliyyət daşıyır. **Elektron imza yaratma məlumatları** dedikdə, elektron imza yaratmaq üçün istifadə edilən və ancaq imza sahibinə bəlli olan kod və ya kriptoqrafik açardan ibarət təkrarolunmaz informasiya başa düşülür. Elektron imzanın yaradılması mərkəzlərin göstərdiyi əsas xidmət növlərindən biri sayılır. Mərkəzlər dövlət qeydiyyatından keçməli və ya müvafiq dövlət icra hakimiyyət orqanında akkreditədən keçməlidir. Yalnız bundan sonra onlar fəaliyyətə başlaya bilərlər.

Elektron imza sahibi müqavilə bağlamaq üçün mərkəzlərə müraciət edərkən tam və düzgün məlumatlar təqdim etməlidir. Buna görə o, məsuliyyət daşıyır.

«Elektron ticarət haqqında» qanun elektron ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsaslarını, onun iştirakçılarının hüquq və vəzifələrini, habelə elektron ticarət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyən edir (o, 10 may 2005-ci ildə qəbul edilmişdir). Bu qanun Azərbaycan Respublikasında bütün sahələrdə həyata keçirilən elektron ticarətə şamil olunur. Qanun yalnız maliyyə bazarı, o cümlədən sığorta və qiymətli kağızlar bazarında elektron ticarətə tətbiq edilmir (bu sahələrdə elektron ticarəti digər qanunvericilik aktları ilə tənzimlənir).

Elektron ticarət dedikdə, informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət başa düşülür. Bu fəaliyyətin həyata keçirilməsi prosesi müqa-

[1] bax: Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина и др.* М., 1985, с. 518.

vilələrlə rəsmiləşdirilir. Onlara **elektron ticarət müqavilələri** deyilir. Həmin müqavilələr elektron sənəd formasında bağlanılır. Bu sənəddə müqavilə şərtləri göstərilir.

Elektron ticarət müqavilələri iki tərəf arasında bağlanılır: satıcı (təchizatçı); alıcı (sifarişçi). **Satıcı (təchizatçı)** malları satan (xidmətlər göstərən, işlər görən) elektron ticarət iştirakçısıdır. Malları alan (xidmətləri, işləri sifariş edən) elektron ticarət iştirakçısı isə **alıcı (sifarişçi)** adlanır.

Elektron ticarət müqavilələri (elektron sənəd formasında bağlanan müqavilələr) ilə bağlı münasibətlər qanunun 7-10-cu maddələri ilə tənzimlənir. Lakin bu maddələr, eləcə də qanunun özü notariat qaydasında təsdiqlənməli və ya dövlət qeydiyyatına alınmalı olan müqavilələrə şamil edilmir.

Elektron imza şəxsi imza anoloqunun müstəqil üsullarından biri hesab olunur. O, iki əsas xüsusiyyətə malikdir. Birinci xüsusiyyət ondan ibarətdir ki, elektron imzanın surəti yalnız bir şəxs tərəfindən çıxarıla bilər. Onun əslini isə bir çox şəxslər təsdiq edə bilər. İkincisi, elektron imza yalnız konkret sənədlə bağlı olur.

Elektron imza ilə, bir qayda olaraq, informasiya və telekommunikasiya sistemlərində dövr edən sənədlər təsdiq edilir. Bu imza o halda hüquqi qüvvəyə malik olur ki, avtomatlaşdırılmış informasiya sistemində onun eyniləşdirilməsi və istifadə olunma qaydasının gözlənilməsini təmin edən proqram-texniki vasitələr olsun[1].

Tərəflərin razılaşmasında **əqdin yazılı formasına uyğun gəlməli olan əlavə tələblər** də nəzərdə tutula bilər (MM-in 331-ci maddəsinin 2-ci bəndi). Bu tələblər, hər şeydən əvvəl, əqdi rəsmiləşdirən sənədin tərtib olunduğu kağıza aid ola bilər. Məsələn, tərəflər razılığa gələ bilərlər ki, sənəd müəyyən formalı blankda olsun və ya bəzi sənədlər «gerbli» kağızda tərtib edilsin.

Göstərilən əlavə tələblər, digər tərəfdən, **hüquqi şəxsin möhürünə** aid ola bilər. Məsələn, tərəflər razılığa gələ bilərlər ki, sənəd hüquqi şəxsin malik olduğu möhürlə təsdiqlənsin.

Əlavə tələblər qanunda da nəzərdə tutula bilər. Məsələn, hüquqi şəxsin verdiyi etibarnamənin, onun banka göndərdiyi ödəmə tapşırıqları və ona əlavə edilən sənədlərin möhürlə təsdiqlənməsi müvafiq normativ aktda göstərilir.

Qanunda bəzi sənədlərdə — pul və hesablaşma sənədlərində, maliyyə və kredit öhdəliklərində baş mühasibin imzasının olması nəzərdə tutulur. Əgər həmin sənədlərdə onun imzası olmasa, onlar etibarsız hesab edilir və icra üçün qəbul olunmur[2].

Əqd bağlayan tərəflər təkcə əqdin yazılı formasına aid əlavə tələblər müəyyənləşdirmək hüququna malik deyillər. Onların həm də **bu cür tələblərə əməl edilməməsinin nəticələri barədə razılığa gəlmək hüququ vardır.** Məsələn, tərəflər razılığa gələ bilərlər ki, filan əlavə tələbə riayət etməmək əqdin **etibarsızlığına səbəb olsun** və s.

Əqdi rəsmiləşdirən **sənədin nüsxəsi** ilə onun surətini bir-birindən fərqləndirmək lazımdır. Bir qayda olaraq, həmin sənədlər bir neçə nüsxələrdə tərtib edilir. Bütün nüsxələr sənədin əsli hesab edilir və onunla eyni hüquqi qüvvəyə malik olur. **Sənədin surəti** isə onun əsli sayılmır.

[1] bax: «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» qanunun 5-ci maddəsi // AR QK, V cild, s. 339.

[2] «Mühasibat uçotu haqqında» qanunun 10-cu maddəsinin 6-cı bəndi. Burada göstərilir ki, baş mühasib və ya mühasibat xidmətinin rəhbəri müəssisənin rəhbəri ilə birlikdə əmtəələrin, materialların və başqa sərvətlərin, pul vəsaitlərinin qəbulu və verilməsi üçün əsas olan sənədlərə, habelə hesablaşma, kredit və maliyyə öhdəliklərinə imza edir (AR QK, II cild, s. 439).

7. Əqdin sadə yazılı forması

Qeyd etdiyimiz kimi, sadə yazılı forma əqdin yazılı formasının bir növüdür. Digər növünü isə əqdin notarial forması təşkil edir.

Əqdin sadə yazılı forması elə bir sənəddir ki, əqdi rəsmiləşdirən bu sənəddə həmin əqd üçün lazım olan bütün rekvizitlər — əqdin məzmunu, əqdi bağlayan tərəflərin adı və onların imzaları nəzərdə tutulur. Sadə formalı əqdlər, bir qayda olaraq, rəsmi dövlət orqanının və digər qurumların iştirakı olmadan bağlanılır. Söhbət, hər şeydən əvvəl, notariat kontorlarından gedir. Başqa sözlə desək, sadə formalı əqdlər bu kontorların və ya digər qurumların iştirakı olmadan bağlanır.

Qanun sadə yazılı formada bağlanmalı olan əqdlərin dairəsini müəyyən edir. Özü də əvvəlcədən göstəririk ki, **qanunun notarial forma müəyyən etdiyi əqdlər sadə yazılı formada bağlana bilməz.** Madam ki, qanun müvafiq əqd üçün notarial forma nəzərdə tutur, deməli, həmin əqdin tərəflərin razılığı ilə sadə yazılı formada bağlanması istisna olunur.

Əqdin sadə yazılı formada bağlanması iki amildən asılıdır. Birinci amil **tərəflərin qarşılıqlı razılığına** aiddir. Belə ki, əqdin sadə yazılı formada bağlanması tərəflərin qarşılıqlı razılığı ilə müəyyənləşdirilə bilər. MM-in 329-cu maddəsinin 1-ci bəndində ifadə olunan göstəriş məhz belə fikir söyləməyə əsas verir. Həmin göstərişdən belə nəticə çıxara bilərik ki, əqd onu bağlayan tərəflərin qarşılıqlı razılığı ilə sadə yazılı formada bağlana bilər, bu şərtlə ki, bir az əvvəldə qeyd etdiyimiz kimi, qanun həmin əqd üçün notarial forma nəzərdə tutmasın.

Beləliklə, əqd münasibətinə girən tərəflərin qarşılıqlı razılığı həmin əqdin sadə yazılı formada bağlanmasını şərtləndirir. Əqdin sadə yazılı formada bağlanması nə onun subyekt tərkibindən (məsələn, hüquqi şəxslərin öz aralarında və ya hüquqi şəxslərlə fiziki şəxslər arasında bağlanmasından), nə məbləğindən (məsələn, şərti maliyyə vahidinin 50 mislindən və ya 100 mislindən çox və s. məbləğdə bağlanmasından) asılı deyildir.

Çox vaxt pərakəndə alqı-satqı müqaviləsi satıcının alıcı olan hüquqi şəxsə kassa çeki və ya əmtəə (mal) çeki və yaxud digər sənədlərin verilməsi ilə müşayiət edilir. Lakin bu cür yazılı sənədlər həmin müqavilənin sadə yazılı formada bağlanmasını nümayiş və sübut etmir. Ona görə ki, həmin sənədlər sadə yazılı formalı əqdin rekvizitlərindən (əqdin məzmunundan, əqdi bağlayan tərəflərin adından və tərəflərin imzalarından) məhrumdur. Onlarda yalnız alıcı olan hüquqi şəxsin satıcıya verdiyi pul məbləği barədə məlumat göstərilir. Buna görə də həmin sənədlər alınmış mala görə pul ödənilməsini təsdiq edən sənəd kimi çıxış edir.

Bəzi hallarda hər hansı bir hüquqi şəxsin rəhbəri digər hüquqi şəxsin rəhbərinə məktub yazaraq, ondan mal verilməsini (satılmasını), iş görülməsini və

ya xidmət göstərilməsini xahiş edir. Bu məktubda o, əlavə edərək göstərir ki, satılan mala, göstərilən xidmətə və ya görülən işə görə ödənişin həyata keçirilməsinə (yəni pul ödənilməsinə) təminat verilir. Bu cür sənədlər **«təminat məktubları»** adlanır. Həmin sənədlər **əqdin sadə yazılı formasını ifadə etmir**. Ona görə ki, burada sadə yazılı formalı əqdin məcburi rekvizitləri yoxdur.

Əqdin sadə yazılı formasının asılı olduğu **ikinci amil qanunun (Mülki Məcəllənin) ifadə etdiyi göstərişə aiddir**. Bu göstərişə əsasən, müəyyən əqdlər subyekt tərkibindən və əqdin məbləğindən asılı olmayaraq, sadə yazılı formada bağlanır. Belə ki, Mülki Məcəllədə nəzərdə tutulduğu hallarda əqd sadə yazılı formada bağlanır. Bu cür əqdlərə aiddir:

- girov müqaviləsi (MM-in 280-ci maddəsinin 1-ci bəndi);
- dəbbə pulu (cərimə, penya) haqqında saziş (MM-in 463-cü maddəsinin 1-ci bəndi);
- zaminlik haqqında müqavilə (MM-in 471-ci maddəsi);
- beh haqqında saziş (MM-in 491-ci maddəsinin 2-ci bəndi);
- faktorinq müqaviləsi (MM-in 655-ci maddəsinin 5-ci bəndi);
- françayzinq müqaviləsi (MM-in 727-ci maddəsi);
- lizinq müqaviləsi (MM-in 748-ci maddəsinin 1-ci bəndi);
- ticarət agenti müqaviləsi (MM-in 789-cu maddəsinin 3-cü bəndi);
- renta müqaviləsi (MM-in 865-ci maddəsinin 1-ci bəndi);
- bank əmanəti (depozit) müqaviləsi (MM-in 946-cı maddəsi);
- bank hesabı müqaviləsi (MM-in 955-ci maddəsinin 1-ci bəndi).

Göstərilən əqdlər üçün qanunun sadə yazılı forma müəyyənləşdirməsi, əsasən, iki halla şərtlənir. Birincisi, məbləğinə, predmetinə və müddətinə görə bu əqdlər xüsusi əhəmiyyətə malik olduqlara görə qanun bu əqdlər üçün sadə yazılı forma nəzərdə tutur. İkincisi, qanun bu əqdlər üçün ona görə sadə yazılı forma müəyyən edir ki, mümkün sui-istifadə hallarının qarşısı alına bilinsin.

Əqdin sadə yazılı formasına riayət edilməməsi **müəyyən nəticələrə** səbəb olur. Belə ki, bu, hər şeydən əvvəl **onun etibarsızlığına səbəb olur** (MM-in 329-cu maddəsinin 1-ci bəndi). Əqdin sadə yazılı formasına riayət edilməməsinin onun etibarsızlığına səbəb olması bəzən qanunda birbaşa göstərilir. Məsələn, dəbbə pulu (cərimə, penya) haqqında razılaşmanın yazılı formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur (MM-in 463-cü maddəsinin 2-ci bəndi). Girov müqaviləsinin yazılı formasına əməl edilməməsi onun etibarsız sayılmasına dəlalət edir (MM-in 280-ci maddəsinin 4-cü bəndi).

Elə əqdlər vardır ki, qanun həmin əqdlərin həm şifahi, həm də yazılı formada bağlanması haqqında göstəriş ifadə edir. Məsələn, tapşırıq müqaviləsi həm şifahi, həm də yazılı formada ola bilər (MM-in 777-ci maddəsinin 2-ci bəndi). Borc müqaviləsi şifahi formada bağlanır. Amma tərəflərin razılığı ilə yazılı formadan da istifadə edilə bilər (MM-in 740-cı maddəsi).

8. Əqdin notarial forması

Yazılı formalı əqdlərin digər növü notarial formalı əqdlər adlanır. Bu cür əqdlər sadə yazılı formalı əqdlərdən onunla fərqlənir ki, onlar notariat (latınca

«notarius» — yazan)[1] fəaliyyəti ilə peşəkarcasına məşğul olan notariusların (dövlət və ya xüsusi notariusların) iştirakı ilə həyata keçirilir. Notarial formalı əqdlər onun notariat qaydasında təsdiq edilməsini nəzərdə tutur. Belə ki, əqdi rəsmiləşdirən yazılı sənədə notarius və ya bu cür notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxs təsdiqləyici qeyd edir. Bununla da əqd bağlanmış olur. Bir sözlə desək, notarial formalı əqdlər notariat qaydasında təsdiqlənmiş əqdlərdir.

Notarial formalı əqdlər odur ki, bu cür əqdləri rəsmiləşdirən sənəddə notariusun və ya bu kimi notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi həmin əqdin bağlanmasını şərtləndirir. Notariuslara həm dövlət notariat kontorlarının notariusları (dövlət notariusları), həm də xüsusi praktika ilə məşğul olan notariuslar (xüsusi notariuslar) daxildir.

Notariuslar əqdləri «Notariat haqqında» qanunun VI fəslində nəzərdə tutulan qaydalar əsasında təsdiq edirlər[2]. Bundan əlavə, əqdlərin onlar tərəfindən təsdiq edilməsi notarial hərəkətlərin həyata keçirilməsi qaydası haqqında müvafiq təlimatla tənzimlənir[3].

Qanunda nəzərdə tutulan hallarda əqdləri **notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxslər də təsdiq edə bilərlər**. Məsələn, «Notariat haqqında» qanunun 18-ci maddəsində göstərilir ki, rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti nümayəndələri notariat hərəkətlər apara, o cümlədən vəsiyyətnamələri və etibarnamələri (əmlakdan istifadə edilməsi və ona sərəncam verilməsi barədə, avtomobillərin müddətli istifadəyə verilməsinə dair etibarnamələr istisna olunur) təsdiq edə bilərlər[4]. Həmin qanunun 19-cu maddəsi, «Azərbaycan Respublikasının konsul nizamnaməsi»nin 44-cü maddəsi[5] Azərbaycan Respublikası konsulluqlarının səlahiyyətli vəzifəli şəxslərinin (o cümlədən konsulun) notariat hərəkətlər aparmaq hüququnu nəzərdə tutur. Onlar Azərbaycan Respublikasının ərazisində özgəninkiləşdirilməsi və həmin əmlakın girov qoyulması barədə müqavilələr istisna olmaqla, bütün əqdləri (müqavilələri, vəsiyyətnamələri və etibarnamələri) təsdiq edirlər.

Bundan əlavə, xəstəxananın, qospitalın, digər müalicə müəssisəsinin, sanatoriyanın baş həkimi, rəisi, onların tibbi hissə üzrə müavinləri və növbətçi həkimi, əlillər və qocalar evinin baş həkimi, axtarış-coğrafi ekspedisiya rəisi, dəniz və ya hava gəmisinin kapitanı, hərbi hissənin, birləşmənin, müəssisənin və məktəbin komandiri (rəisi), habelə azadlıqdan məhrumetmə yerinin rəisi vəsiyyətnaməni təsdiq edə bilərlər. Bu şəxslər **notariusa bərabər tutulan şəxslərdir**. Onların təsdiqlədikləri vəsiyyətnamələr isə **notariat qaydasında təsdiq olunmuş vəsiyyətnamələrə bərabər tutulur** (MM-in 1181-ci maddə-

[1] bax: Словарь иностранных слов. М., 1985, с. 339.

[2] bax: «Notariat haqqında» qanunun VI fəsli // AR QK, III xüsusi buraxılış, s. 312.

[3] bax: «Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat». Bu təlimat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli 167 saylı qərarı ilə təsdiq olunmuşdur.

[4] bax: «Notariat haqqında» 26 noyabr 1999-cu il tarixli qanunun 18-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 306.

[5] bax: «Azərbaycan Respublikasının konsul nizamnaməsi»nin 44-cü maddəsi // AR QK, II cild, s. 136. Bu nizamnamə 1994-cü ilin martın 1-dən qüvvəyə minmişdir.

si). Göründüyü kimi, notariat hərəkəti yerinə yetirməyə hüququ çatan, göstərilən vəzifəli şəxslərin təsdiq etdiyi əqdlərin dairəsi məhduddur.

Bunlardan əlavə, notarius olmayan bəzi kateqoriyalı şəxslər etibarnamələri təsdiq edə bilərlər. Həmin şəxslər MM-in 362-ci maddəsinin 3-cü bəndində göstərilir: hospitalların, sanatoriyaların və digər hərbi-müalicə müəssisələrinin rəisi və digər şəxslər; hərbi hissə və digərlərinin komandiri (rəisi); azadlıqdan məhrumetmə yerinin rəisi və s. Onlar **notariusa bərabər şəxslər** adlanır, təsdiq etdikləri əqdlər isə **notariat qaydasında təsdiqlənən etibarnamələr** adlanır.

Belə əqdlərlə bağlı münasibətlər «**Notariat qaydasında təsdiq edilmiş sənədlərə bərabər tutulan sənədlərin müvafiq vəzifəli şəxslər tərəfindən təsdiq edilməsi qaydası**» kimi normativ aktla tənzimlənir. Həmin akt Nazirlər Kabinetinin 2000-ci il 10 iyul tarixli qərarı ilə edilmişdir.

İki halda əqdlər notarial formada bağlanmalıdır. Birincisi, **Mülki Məcəllədə nəzərdə tutulduğu hallarda əqdlərin notariat qaydasında təsdiqlənməsi məcburi və labüddür**. Bu cür əqdlərə aiddir:

- ipoteka müqaviləsi (MM-in 307-ci maddəsinin 7-ci bəndi);
- servitut verilməsinə dair müqavilə (MM-in 256-cı maddəsinin 2-ci bəndi);
- tikiliyə vərəsəlik hüququ haqqında müqavilə (MM-in 251-ci maddəsinin 1-ci bəndi);
- etibarnamə (MM-in 362-ci maddəsinin 2-ci bəndi);
- notarial formada bağlanmış əqdə əsaslanan tələbin güzəşti (MM-in 194-cü maddəsinin 4-cü bəndi);
- daşınmaz əşyaların alqı-satqı müqaviləsi (MM-in 647-ci maddəsi);
- rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların alqı-satqı müqaviləsi (MM-in 650-ci maddəsi);
- daşınmaz əşyaların bağışlama müqaviləsi (MM-in 668-ci maddəsinin 1-ci bəndi);
- rəsmi reyestrlərdə qeydə alınması tələb edilən daşınar əşyaların bağışlama müqaviləsi (MM-in 668-ci maddəsinin 1-ci bəndinin 2-ci hissəsi);
- gələcəkdə bağışlama vədi formasında konsensual bağışlama müqaviləsi (MM-in 668-ci maddəsinin 1-ci bəndinin 5-ci hissəsi);
- daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsi (MM-in 865-ci maddəsinin 2-ci bəndi).

İkincisi, **Mülki Məcəllədə müvafiq növ əqd üçün notarial forma nəzərdə tutulmasa da, tərəflərin qarşılıqlı razılığı ilə həmin əqd notariat qaydasında təsdiqlənir**. Məsələn, borc, icarə, əmlak kirayəsi, lizinq, françayzinq, faktorinq, daşıma, kredit, podrat və digər müqavilələr üçün qanun notarial forma müəyyənləşdirmir. Lakin həmin müqavilələri bağlayan tərəflərin qarşılıqlı razılığı olarsa, onda hökmən müqavilə notariat qaydasında təsdiqlənir.

Düzdür, Mülki Məcəllədə (qanunda) konkret və birbaşa göstəriş yoxdur ki, tərəflərin qarşılıqlı razılığı ilə əqd notarial formada bağlana bilər. Amma MM-in 329-cu maddəsinin 1-ci bəndindən belə bir nəticə çıxara bilərik ki, əqdin forması ya qanunla (Mülki Məcəllə ilə), ya da tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir. Odur ki, tərəflərin qarşılıqlı razılığı ilə əqd notariat qaydasında təsdiqlənə bilər. Digər tərəfdən qanun (Mülki Məcəllə) bunu, yəni tərəflərin qarşılıqlı razılığı əsasında notarial formada əqd bağlamalarını qadağan edən hər hansı göstəriş ifadə etmir. Buna görə də əqd bağlayan tərəflər onun notariat qaydasında bağlanması barədə razılığa gəlməkdə haqlıdırlar.

Bəzən təsərrüfat dövriyyəsində yaranmış təcrübə şəxsləri vadar edir ki, onlar bağladıqları əqdləri notariat qaydasında təsdiq etdirsinlər. Bu cür əqdlərin notarial formada olmasını hər hansı normativ akt nəzərdə tutmur. Məsələn, minik avtomobilinin alqı-satqı müqaviləsi üçün qanun notarial forma tələb etmir. Buna görə də vətəndaşlar bu müqaviləni qeyri-notarial, yəni sadə yazılı formada bağlamalıdırlar. Lakin nəqliyyat vasitələrinin qeydiyyatını aparan Dövlət Yol Polisi İdarəsi tərəfindən yaranmış təcrübə bu müqavilənin notarial formada bağlanmasını şərtləndirir[1].

Əqdin notarial formasına riayət edilməməsi hüquqi nəticəyə səbəb olur. Belə ki, əqdin notarial formasına riayət edilməməsi onun etibarsızlığına gətirib çıxarır. Ona görə ki, qanun və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanmış əqd etibarsızdır (MM-in 329-cu maddəsinin 1-ci bəndi). Bu kimi nəticə bir sıra halda Mülki Məcəllədə göstərilir. Məsələn, tikiliyə vərəsəlik hüququ haqqında müqavilə notariat qaydasında təsdiqləndikdə etibarlıdır (MM-in 251-ci maddəsinin 1-ci bəndi).

9. Əqdlərdən əmələ gələn hüquqların dövlət qeydiyyatı

Elə əqdlər vardır ki, bu əqdlər nə qədər lazımi formada rəsmiləşdirilsə də, hüquqi nəticəyə səbəb olmur. Bu əqdlərin hüquqi nəticə doğurması üçün vacibdir ki, həmin əqdlərdən əmələ gələn hüquqlar dövlət qeydiyyatına alınsın. Dövlət qeydiyyatı belə halda mülki hüquqların və vəzifələrin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına əsas olan hüquqi fakt kimi çıxış edir. O, əqdlərin bəzi növlərinin bağlanmasının əlavə mərhələsidir. Məhz əqdlərdən əmələ gələn hüquqlar dövlət qeydiyyatına alındıqdan sonra onlar bağlanmış hesab edilir.

Dövlət qeydiyyatı hüquqi fakt rolunu oynayan elə bir əlavə mərhələdir ki, bu mərhələ əqdlərin bağlanmış hesab edilməsini və bununla hüquqi nəticəyə səbəb olmasını şərtləndirir. O, əqdlərdən əmələ gələn hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması yolu ilə həyata keçirilir. Bu reyestri isə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti) tərtib edir. Vahid dövlət reyestrinin olması mürəkkəb və daha vacib əqdlərin barəsində informasiyanın tamlığını, etibarlılığını və düzgünlüyünü təmin edir və bununla mülki (əmlak) dövriyyənin möhkəmliyinə və dayanıqlığına təsir göstərir.

«Əqdin özünün dövlət qeydiyyatı» anlayışı ilə «əqddən əmələ gələn hüquqların dövlət qeydiyyatı» anlayışını bir-birindən fərqləndirmək lazımdır. Onlar

[1] *Гражданское право. Учебник / Под ред. А.П.Сергеева, Ю.К.Толстого.* M., 1993, с. 248. Zənn edirik ki, həmin müqavilənin notarial qaydasında təsdiqlənməsinə heç bir zərurət yoxdur. Göstərilən müqavilənin notariat qaydasında təsdiqlənməsi yersiz narahatlıq, lazımsız vaxt itkisi deməkdir. Əgər minik avtomobili alıb-satan vətəndaşlar alqı-satqı müqaviləsini notariat qaydasında təsdiq etdirməsələr, bu, pozuntu hesab olunmur. Bağlanmış müqaviləyə görə ödənilən dövlət rüsumu isə nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar tərəfindən alına bilər. Bu orqanlar «Yol hərəkəti haqqında» qanunun 27-ci maddəsində göstərilir (AR QK, III xüsusi buraxılış).

eyni mənalı anlayışlar hesab olunmur.

Əqdin özünün dövlət qeydiyyatı dedikdə, dövlətin vəzifəli şəxsi hesab olunan notariusun və digər vəzifəli şəxslərin əqdi notariat qaydasında təsdiqləməsi başa düşülür. Bu cür dövlət qeydiyyatının əsas məqsədi **əqdin qanuniliyi üzərində dövlət nəzarətini həyata keçirməkdən** ibarətdir. O, əqddən əmələ gələn hüququn (məsələn, mülkiyyət hüququnun və s.) bir şəxsdən digərinə keçməsinə səbəb olmur.

Əqddən əmələ gələn hüquqların dövlət qeydiyyatı dedikdə isə bu hüquqların müvafiq icra hakimiyyəti orqanının (Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin) tərtib etdiyi və apardığı daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması başa düşülür. Bu cür dövlət qeydiyyatının əsas məqsədi isə **hüquqların (məsələn, mülkiyyət hüququnun) bir şəxsdən digər şəxsə keçməsini təmin etməkdən** ibarətdir.

Yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda əqdlərdən əmələ gələn hüquqlar dövlət qeydiyyatına alına bilər. Belə ki, bu cür əqdlərin dairəsi qanunla müəyyənləşdirilir. Özü də həmin əqdlər, birincisi, notariat qaydasında təsdiqlənən əqdlərdir; ikincisi isə, onlar daşınmaz əşya ilə (torpaqla, yaşayış evi ilə, mənzillə və s.) bağlıdır. Həmin əqdlərə aiddir:

- daşınmaz əmlakın ipotekası haqqında müqavilə (MM-in 309-cu maddəsinin 1-ci bəndi);
- daşınmaz əşyaların alqı-satqı müqaviləsi (MM-in 647-ci maddəsi);
- daşınmaz əmlakın özgəninkiləşdirilməsini nəzərdə tutan renta müqaviləsi (MM-in 866-cı maddəsi);
- daşınmaz əşyaların uzufrukta verilməsi (MM-in 264-cü maddəsi);
- servitutlar (258-ci maddəsinin 2-ci bəndi);
- digər hüquqlar (MM-in 139-cu maddəsinin 1-ci bəndi).

Əqd, **əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alındığı andan** bağlanmış sayılır. Bu, o deməkdir ki, əqdin doğurduğu hüquqi nəticə (mülki hüquq və vəzifələrin əmələ gəlməsi) hüququn daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat tarixindən yaranır.

Əqdlərdən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinə riayət edilməməsi müəyyən nəticəyə səbəb olur. Bu, müəyyən hallarda hüquqi nəticə doğurmur, tərəflər üçün mülki hüquq və vəzifələr əmələ gətirmir və puç əqd hesab edilir. Belə əqd hüquqi əhəmiyyətə malik olmur. Bu kimi nəticə o halda yaranır ki, əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alınmasından əqdin hər iki tərəfi boyun qaçırır.

Məsələn, Mülki Məcəllədə nəzərdə tutulan hallarda girov müqaviləsi notariat qaydasında təsdiqlənməli, girov hüququ isə dövlət qeydiyyatına alınmalıdır. Əgər bu qaydalara riayət edilməzsə, girov müqaviləsi etibarsız sayılır və əhəmiyyətsiz (puç əqd) hesab edilir (MM-in 280-ci maddəsinin 4-cü bəndi). Amma əgər tərəflərdən biri əqddən əmələ gələn hüququn dövlət qeydiyyatına alınmasından boyun qaçırarsa, bu, həmin əqdin etibarsızlığına səbəb olmaya bilər. Belə ki, bu zaman qeydiyyat məhkəmənin qərarı əsasında həyata keçirilir (MM-in 336-cı maddəsinin 1-ci bəndi). Misala müraciət edək.

Bəzi hallarda əqd lazımi formada bağlanır, lakin tərəflərdən biri əqddən əmələ gələn hüquqları qeydə aldırmaqdan boyun qaçırır. Bunun səbəbi müxtəlif ola bilər: əqd iştirakçılarının hüquqi savadsızlığı; dövlət rüsumu verməkdən boyun qaçırmaq və s. Məsələn, vətəndaş öz mənzilini qardaşına rentaya verir. Bu məqsədlə lazımi formada renta müqaviləsi bağlanılır və həmin müqavilə notariatda təsdiq edilir. Bundan əlavə, o, mənzili qardaşının faktiki sahibliyinə verir. Mənzili rentaya verən vətəndaş həmin müqavilədən irəli gələn hüquqların dövlət qeydiyyatından imtina edir. Vətəndaş zənn edir ki, bu, onun işi deyildir, qoy indi həmin işlə qardaşı məşğul olsun. Bu halda qanun əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması faktının məhkəmə qaydasında sübut olunmasının mümkünlüyünü müəyyənləşdirir. Belə ki, müvafiq tərəf (əvvəlki misalda qardaş) məhkəməyə müraciət edir. Məhkəmə işə baxaraq, əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması barədə qərar qəbul edir. Həmin qərar hüquqların dövlət qeydiyyatına alınması üçün əsasdır.

Əqddən irəli gələn hüquqların dövlət qeydiyyatından əsassız boyun qaçıran tərəfə etdiyi hərəkətlərə görə vurulmuş zərərin əvəzini ödəmək formasında mülki-hüquqi sanksiya tətbiq olunur. Belə ki, əsassız boyun qaçıran tərəf müvafiq hüquqların qeydiyyatının ləngidilməsi nəticəsində o birisi tərəfə ziyan vurur. Bundan əlavə, məhkəməyə müraciət etmək məcburiyyətində qalan tərəf müəyyən məhkəmə xərcləri çəkir. Bütün bunların hamısının əvəzini əqddən irəli gələn hüquqların dövlət qeydiyyatından əsassız boyun qaçıran tərəf ödəməlidir (MM-in 336-cı maddəsinin 2-ci bəndi).

Əqddən əmələ gələn hüquqların dövlət qeydiyyatı dedikdə, bu hüquqların dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi akt başa düşülür. Bu aktın həyata keçirilməsi, ümumiyyətlə daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatının aparılması qaydası «Daşınmaz əmlakın dövlət reyestri haqqında» qanunla müəyyən edilir ki, həmin qanun 29 iyun 2004-cü ildə qəbul edilmişdir. Bu qanun daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı üçün əsaslan müəyyənləşdirir. Daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr həmin əsaslardan biridir.

Əqdlərdən əmələ gələn hüquqların dövlət qeydiyyatı anlayışını bəzi əmlak növlərinin **dövlət qeydiyyatının aparılması anlayışından** fərqləndirmək lazımdır. Söhbət, hər şeydən əvvəl, mexaniki nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılmasından gedir[1]. Bu, müvafiq səlahiyyətli orqanlar tərəfindən həyata keçirilir. Həmin orqanların dairəsi qanunla müəyyənləşdirilir[2]. Məsələn, hüquqi və fiziki şəxslərə məxsus olan bəzi növ mexaniki nəqliyyat vasitələri Daxili İşlər Nazirliyində dövlət qeydiyyatına alınır. Bu cür dövlət qeydiyyatı müəyyən məqsədlər üçün apanlır[3]: nəqliyyat vasitələrinin konstruksiyasının, texniki vəziyyətinin və avadanlığının qəbul olunmuş təhlükəsizlik qaydalarına uyğun olması; nəqliyyat vasitələrinin istifadə olunması zamanı uçot göstəricilərində müvafiq dəyişikliklərin aparılması; nəqliyyat vasitələri sahibləri tərəfindən rüsumların və ya vergilərin, yaxud ödənişlərin ödənilməsi; hüquq pozuntularına qarşı (cinayətkarlığa və s. qarşı) mübarizə aparılması və s.

[1] Nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınmasının hüquqi əsasları barədə bax: *E.Ə.Əliyev.* Yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı. 2003, s. 38-52.

[2] «Yol hərəkəti haqqında» qanunun 27-ci maddəsi // AR QK, III xüsusi buraxılış.

[3] Yenə orada.

Göründüyü kimi, nəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması nəqliyyat vasitələrinə mülkiyyət hüququnun əmələ gəlməsinə səbəb olan faktiki tərkibin zəruri elementi kimi çıxış etmir. Əqdlərdən əmələ gələn hüquqların dövlət qeydiyyatı isə məhz bu cür element rolunu oynayır. Belə ki, məsələn, əgər şəxs alqı-satqı müqaviləsi əsasında avtomobil əldə edərsə və daxili işlər orqanında (DYPİ-də) onun qeydiyyatı aparılmazsa (uçota götürülməzsə), bu hal həmin avtomobil üzərində yaranan mülkiyyət hüququnun qüsurlu olmasına dəlalət edə bilməz. Ona görə ki, göstərilən qeydiyyatın aparılmaması avtomobilin alqı-satqı müqaviləsinin etibarsızlığına səbəb ola bilməz[1].

10. Əqdlərdə razılıq

Elə əqdlər var ki, onların hüquqi nəticə doğurması hər hansı üçüncü şəxsin razılıq verməsindən asılı olur. Həmin şəxsin verdiyi razılıq hüquqi fakt kimi tərəflər üçün mülki hüquq və vəzifələr yaradır. Bu cür razılığın verilməsi müəyyən məqsədə xidmət edir[2]. Birincisi, razılıq ziyana düşməməkdən ötrü əqd subyektlərinin mənafeyi üçün verilir. Məsələn, valideynlər fəaliyyət qabiliyyəti natamam olan (14 yaşdan 18 yaşa kimi) şəxslərin əqd bağlamasına razılıq verirlər. İkincisi, razılığın verilməsi təmsil olunanın (vəkalət verənin) mənafeyinə xidmət edir. Ona görə ki, nümayəndə (təmsilçi) məhz təmsil olunanın adından və onun mənafeyi üçün əqd bağlayır. Məsələn, vətəndaş (təmsil olunan) öz qonşusuna (nümayəndəyə) ona iyirmi min dollara bağ evi almağı tapşırır. Lakin xoşagələn münasib bağ evi otuz min manata satılır. Qonşu (nümayəndə) belə halda alqı-satqı əqdinin bağlanmasına vətəndaşın razılığını almalıdır. Məlum məsələdir ki, bu cür razılıq vətəndaşın (təmsil olunanın) mənafeyinə xidmət edir. Üçüncüsü, razılıq verilməsi səlahiyyətli şəxsin mənafeyinə xidmət edir. Səlahiyyətli şəxs rolunda mülkiyyətçi, öhdəlik hüququnun subyekti, yəni kreditor çıxış edə bilər. Əgər şəxs öz adından özgəsinin hüququna (yəni səlahiyyətli şəxsin hüquqlarına) sərəncam verirsə, məsələn, onu özgəninkiləşdirirsə, ləğv edirsə və ya yüklü edirsə, onda o, səlahiyyətli şəxsin razılığını almalıdır. Məsələn, icarəçi icarəyə götürdüyü əşyanı üçüncü şəxsə icarəyə (subicarəyə) verdikdə, səlahiyyətli şəxsin (kreditorun), yəni icarəyə verənin razılıq verməsi gərəkdir. Müəyyən bir şəxsin özgəsinin borcunu öz üzərinə götürdüyü hallarda da kreditorun buna razılıq verməsi tələb olunur. Məsələn, borc alan şəxs pulu (borc məbləğini) dostunun adına keçirir. Söz yox ki, kreditor (borc verən) buna razılıq verməlidir. Dördüncüsü, razılığın verilməsi o halda tələb olunur ki, bağlanan əqd şəxsin hüquq və mənafeyinə toxunsun. Məsələn, ər-arvaddan birinin daşınmaz əmlak üzərində sərəncam əqdi bağladığı zaman digər tərəfin notarial qaydada təsdiq edilmiş razılığı lazımdır[3].

Əqdlərdə razılıq müstəqil mülki-hüquqi konstruksiya kimi bizim ölkə qanunvericiliyində yeni haldır, novelladır. Düzdür, köhnə qanunvericilik onun müəyyən fraqmentlərini nəzərdə tuturdu. Amma həmin qanunvericiliyə görə, əqdlərdə razılıq müstəqil konstruksiya sayılmırdı. Mövcud qanunvericilik isə Almaniyanın qanunvericilik ənənəsinə uyğun olaraq, onu müstəqil konstruksiya hesab edir. Yeri gəlmişkən, qeyd edək ki, Almaniya Mülki Qanunnaməsinin 182-ci, 183-cü, 184-cü, 185-ci və s. paraqrafları əqdlərdə razılıq üzrə münasibətlərin tənzimlənməsinə həsr edilmişdir[1].

Almaniya sivilistika doktrinasına görə, razılıq hüquqi əqdin hissəsi yox, onun etibarlı olmasını şərtləndirən zəruri elementdir («condicio juris» — qanuni şərt). O, birtərəfli iradə ifadəsidir. Özü də o, başqa tərəfin qəbul etməsi tələb olunan iradə ifadəsidir[2]. Ona görə də razılıq həm bir tərəfin, həm də digər tərəfin qarşısında (ünvanı üzrə) ifadə edilə bilər (MM-in 355-ci maddəsi, Almaniya MQ-nin 182-ci paraqrafı).

Əqdlərdə razılıq dedikdə, əqddə iştirak etməyən üçüncü şəxsin əqdin bağlanmasına icazə verməsi başa düşülür[3]. O, əqdin bağlanması prosesinin əlavə mərhələsidir. «Əqdlərdə razılıq» və «əqdlərdə icazə» eyni mənalı anlayışlardır.

Əqdlərdə razılığın üç forması var: qabaqcadan verilmiş razılıq; xüsusi razılıq; sonradan verilən razılıq. **Qabaqcadan verilmiş razılığın** mahiyyəti ondan ibarətdir ki, əqd bağlananadək üçüncü şəxsin əvvəlcədən icazə verməsi əqdin etibarlı sayılması üçün əsas olur. Bu cür razılığa Almaniya Mülki Qanunnaməsinə uyğun olaraq (§ 183) **«icazə»** (Einwilligung) deyilir. Məsələn, qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazə verməsi qəyyumluqda və himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə səbəb olur (MM-in 36-cı maddəsinin 2-ci bəndi).

Əqdin bağlanmasına verilmiş icazə əqd bağlananadək geri götürülə və bununla da ləğv edilə bilər (MM-in 356-cı maddəsi). Anoloji qayda Almaniya Mülki Qanunnaməsində də nəzərdə tutulur (§ 183). Bundan sonra icazənin ləğv edilməsi barədə hər iki tərəfə (əqd iştirakçısına) məlumat verilir.

Xüsusi razılığa və ya xüsusi icazəyə lisenziya deyilir. Yalnız bu cür lisenziya olduqda, şəxs müvafiq əqdlər bağlaya bilər. **Lisenziya** xüsusi razılıq tələb edən ayrı-ayrı fəaliyyət növləri üzrə verilir. Məsələn, kredit təşkilatı bank əmanəti, bank hesabı, kredit və digər müqavilələr bağlamaq üçün Milli Bankdan lisenziya almalıdır. Müvafiq fəaliyyət növü ilə məşğul olmaq üçün lisenziya olmazsa, şəxsin bağladığı əqd etibarsız hesab edilir.

Sonradan verilən razılığın mahiyyəti ondan ibarətdir ki, bunun nəticəsində artıq bağlanmış əqd hüquqi qüvvəyə minir. Sonradan verilən razılığa Almaniya Mülki Qanunnaməsinə uyğun olaraq (§ 184) **«bəyənmə»** (Genehmigung) deyilir. Bəyənmə əqdin zəruri elementi kimi tərəflər üçün hüquq və nəticələr doğurur. Məsələn, 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxs müstəqil surətdə əqd bağlayırlar. Əgər onların valideynləri həmin əqdi bəyənsələr, o, etibarlı hesab ediləcəkdir (MM-in 30-cu

[1] Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 356.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 321-324

[3] Ailə Məcəlləsinin 33-cü maddəsinin 4-cü bəndi // AR QK, III xüsusi buraxılış, s. 784.

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 325.

[3] «Razılıq» sözünün rus dilində qarşılığı və ekvivalenti «согласие» ifadəsidir. Bu ifadə isə rus dilində «разрешение» deməkdir (bax: *Ожегов С.И.* Словарь русского языка. М., 1988, с. 606). «Разрешение» ifadəsi isə Azərbaycan dilinə «icazə» kimi tərcümə edilir. Deməli, «razılıq» və «icazə» kimi iki anlayış eyni mənalı (sinonim) anlayışlardır.

maddəsinin 1-ci bəndi). Bu isə o deməkdir ki, bəyənmə geriyə təsir qüvvəsinə malikdir. Ona görə ki, bəyənən şəxs yeni əqdə yox, əvvəl bağlanmış əqdə razılıq verir. O, əqdi artıq bağlanmış əqd kimi bəyənir. Məhz bu səbəbdən də bəyənmə geriyə qüvvəyə malikdir: əqdin bağlandığı andan (bəyənildiyi andan yox) hüquqi qüvvəsi vardır[1]. Bu cür göstəriş olduğu kimi Almaniya Mülki Qanunnaməsində də nəzərdə tutulur (§ 184).

Digər hallarda da bəyənmə qaydasında əqdin bağlanması mümkündür: fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin bağladığı əqd sonradan qəyyumun bəyənməsi ilə etibarlı hesab edilə bilər (MM-in 28-ci maddəsinin 3-cü bəndi); 14 yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslərin bağladığı əqd sonradan valideynləri, övladlığa götürənlər və ya qəyyumlar tərəfindən bəyənildikdə etibarlıdır (MM-in 29-cu maddəsinin 1-ci bəndi); məhdud fəaliyyət qabiliyyətli şəxslərin bağladığı əqd sonradan himayəçisinin yazılı razılığı ilə bəyənildikdə etibarlı hesab edilə bilər (MM-in 32-ci maddəsinin 1-ci bəndi).

Ümumi qayda belədir ki, səlahiyyəti olmayan şəxsin (səlahiyyətsiz şəxsin) əşyaya və ya hüquqa dair sərəncam vermək (özgəninkiləşdirmək, girov qoymaq, kirayəyə vermək və s.) hüququ çatmır. O, yalnız səlahiyyətli şəxsin qabaqcadan verdiyi icazə əsasında əşya və ya hüquq barədə sərəncam əqdi bağlaya bilər. Məsələn, icarəçinin əşyanı ikinci əldən icarəyə vermək ixtiyarı yoxdur. Amma səlahiyyətli şəxs, yəni icarəyə verən mülkiyyətçi razılıq versə, o, həmin əşyanı başqa şəxsə icarəyə (subicarəyə) verə bilər.

Bəzi hallarda səlahiyyətsiz şəxs mülkiyyətçinin (səlahiyyətli şəxsin) qabaqcadan razılığını almadan əşya barəsində sərəncam əqdi bağlayır. Bu cür məqamlarda, əgər səlahiyyətli şəxs bu nu bəyənərsə, əqd etibarlı olur.

Razılığın formasına gəldikdə isə qeyd etmək lazımdır ki, əqdin bağlanmasına verilən razılığın forması həmin əqdin formasından asılı deyildir. Əgər əqd üçün qanunla müəyyən forma (sadə yazılı forma və ya notarial forma) nəzərdə tutularsa, onda həmin əqdin bağlanmasına verilən razılığın göstərilən formaya uyğun gəlməsi tələb edilmir və məcburi deyil. Bu, o deməkdir ki, qanunla sadə yazılı forma müəyyənləşdirilən əqdin bağlanmasına verilən razılıq həm şifahi, həm də yazılı formada ola bilər. Razılıq susmaq yolu ilə də ifadə edilə bilər[2]. L.Ennekserusun fikrincə, razılığın formasının əqdin formasından asılı olmaması haqqında qayda onunla izah edilir ki, razılıq əqdin hissəsi yox, onun etibarlı olmasının zəruri elementidir. Amma qanunvericilikdə razılığın yazılı formada bağlanması bəzi məqamlarda nəzərdə tutulur (MM-in 32-ci maddəsinin 1-ci bəndi).

§ 4. Əqdin etibarsızlığı. Etibarsız əqdlər və onların növləri

1. Əqdlərin etibarsızlığının anlayışı

Qeyd etdik ki, sivilistika doktrinasında əqdlərin etibarlı olması üçün dörd qrup şərtin (tələbin) olması göstərilir. Bu şərtlər qanunda nəzərdə tutulmuşdur: əqdin subyekt tərkibinə aid edilən şərt; əqdin məzmununa aid edilən şərt; əqddə iradə və iradəni ifadə etmənin vəhdətinə aid edilən şərt; əqdin formasına aid edilən şərt. Bu şərtlərin hamısı olduqda, müvafiq əqd etibarlı əqd kimi tanınır və qəbul edilir, habelə subyektlərin əqd bağladıqları zaman cəhd göstərdikləri və arzu etdikləri hüquqi nəticəni doğurur.

Göstərilən şərtlərdən hər hansı birinə əməl edilməməsi əqdlərin etibarsızlığına səbəb olur. Məsələn, vətəndaş öz birotaqlı mənzilini qonşusuna satır. Onlar alqı-satqı müqaviləsini notariat qaydasında təsdiq etmirlər, habelə bu müqavilədən əmələ gələn hüquqlar dövlət qeydiyyatına alınmır. Bu müqavilə hüquqi nəticəyə səbəb olmur. Belə ki, həmin müqavilə alıcı rolunda çıxış edən qonşunun mənzil üzərində mülkiyyət hüququnun əmələ gəlməsinə dəlalət etmir. Ona görə ki, belə halda əqdin formasına aid tələbə riayət olunmamışdır. Başqa bir misalda on üç yaşlı məktəbli (yetkinlik yaşına çatmayan şəxs) qiymətli ev-məişət predmetini (məsələn, xalçanı) öz məktəb yoldaşına bağışlayır. Bu cür müqavilə etibarsız hesab edildiyinə görə hüquqi nəticə doğurmur. Belə ki, 13 yaşlı şəxsin məktəb yoldaşının həmin predmet (xalça) üzərində mülkiyyət hüququ əmələ gəlmir. Ona görə ki, əqdin subyekt tərkibi haqqında şərt pozulmuş, ona əməl olunmamışdır. Bu şərtə görə əqd bağlayan subyektlər tam mülki fəaliyyət qabiliyyətinə malik olmalıdırlar. Həmin məktəblilərin isə tam mülki fəaliyyət qabiliyyəti yoxdur. Beləliklə, nəzərdə tutulan şərtlərdən birinin pozulması, ona riayət edilməməsi əqdin etibarsızlığına səbəb olur.

Əqdin etibarsızlığı dedikdə, tərəflərin əqd bağladıqları zaman arzu etdikləri hüquqi nəticənin baş verməməsi və əmələ gəlməməsi başa düşülür. Bu halda əqd kimi həyata keçirilən hərəkətlər hüquqi nəticə doğurmaq qabiliyyətinə malik olan hüquqi fakt kimi çıxış edə bilmir.

Mülki qanunvericilik əqdlərin etibarsızlığı haqqında vacib və prinsipial əhəmiyyətə malik olan ümumi hüquqi prinsip müəyyən edir: Mülki Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır (MM-in 337-ci maddəsinin 1-ci bəndi). Aksioma xarakterinə malik olan bu prinsip imperativ qaydadır: bu qayda heç kim tərəfindən dəyişilə bilməz. Konkret mülki-hüquqi mübahisəni həll edən məhkəmənin göstərilən qaydadan kənara çıxmaq hüququ yoxdur. Məhkəmələr əqdin etibarlı olması şərtlərinə cavab verən, lakin qanunun tələblərinə zidd olan əqdi etibarlı əqd saya bilməzlər.

Ümumi hüquqi prinsipin rolu və əhəmiyyəti o halda təzahür edir ki, bağlanmış müvafiq əqd, əqdin etibarlı olmasını şərtləndirən tələblərə, əsasən, uyğun gəlir və cavab verir. Məsələn, vətəndaş tanımadığı şəxsdən televizor alır. Belə təsəvvür yaranır ki, vətəndaşla şəxs arasında bağlanmış əqd, əqdin etibarlı olması şərtlərinə uyğundur. Belə ki, əqdi bağlayanlar tam fəaliyyət qabiliyyətinə malikdirlər (əqdin subyekt tərkibi haqqında şərt), əqd tərəflərin qarşılıqlı razılığı ilə şifahi formada bağlanmışdır (əqdin formasına aid şərt), habelə iradə və iradəni ifadə etmə vəhdət təşkil edir. Lakin məlum olur ki, şəxsin satdığı televizor onun özününkü deyilmiş, yəni şəxsin həmin televizorun mülkiyyətçisi olmaması aşkar edilir. Televizor həmin şəxsə qonşu tərəfdən saxlanca verilibmiş. Qanunun göstərişi baxımından bu əqd etibarsız hesab edilir. Daha doğrusu, həmin əqdin məzmunu qanunsuzdur. Ona görə ki, televizoru satan şəxs televi-

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 327.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 325. Göstərilən qayda Almaniya MQ-də ifadə olunur (§182).

zorun mülkiyyətçisi deyildir və onu satmağa ixtiyan çatmır. Bu cür əqd göstərilən hüquqi prinsip (qayda) əsasında etibarsız hesab edilir.

Əqdlərin etibarsızlığı **əqdlərin etibarlı olması şərtlərinin pozulmasından asılıdır**. Bu şərtlərdən birinə riayət edilməməsi etibarsız əqdlərin əmələ gəlməsinə səbəb olur. Etibarsız əqdlər tərəflərin arzu etdikləri hüquqi nəticəyə səbəb olmur. Onlar qanunda nəzərdə tutulan mənfi nəticənin yaranmasına gətirib çıxarır. Etibarsız əqdlər hüquqazidd, qeyri-hüquqi hərəkətlərdir.

Etibarsız əqdlər elə hüquqazidd hərəkətlərdir ki, bu hərəkətlər əqdin etibarlı olması şərtlərindən, heç olmazsa, birinə uyğun gəlmədiyinə görə arzu edilən hüquqi nəticəyə səbəb olmur. Bu cür əqdlər mülkî hüquq və vəzifələrin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması ilə nəticələnmir.

Sovet dövrünün hüquq doktrinasında «etibarsız əqd» termininin işlədilməsi barəsində mübahisə yaranmışdı. Hüquq ədəbiyyatında etibarsız əqdlərin hansı dərəcədə əqd sayılmasının mümkünlüyü müzakirə edilirdi. Bir qrup müəlliflər göstərirdilər ki, əgər əqd etibarsızdırsa, onda, sadəcə olaraq, əqd yoxdur. Yox, əgər əqd mövcuddursa, onda o, etibarsız ola bilməz. M.M.Aqarkovun fikrincə, əqdə hüquqauyğunluq əlaməti xasdır, ona görə də etibarsız əqdləri etibarsız iradə ifadəsi adlandırmaq lazımdır[1]. Bir qrup müəlliflər isə «etibarsız əqd» termininin işlədilməsini zəruri hesab edirdilər. Məsələn, İ.B.Novitski qeyd edirdi ki, etibarlı əqdlərlə bərabər, etibarsız əqdlər də mövcud ola bilər[2]. O.S.İoffe isə göstərirdi ki, «etibarsız əqd» termininin tətbiq edilməsi təcrübi baxımdan tamamilə əsaslı və uğurludur. Onun fikrincə, etibarsız əqdlərin hüquqazidd olması belə bir faktı ifadə edir ki, həyata keçirilən hərəkət əqd deyildir[3].

Bizim fikrimizcə, axırıncı adlarını çəkdiyimiz alimlərin mövqeyi əsaslıdır. Müasir müəlliflərin hamısı «etibarsız əqd» terminini işlədirlər[4]. Onlar həm də etibarsız əqdlərin təsnifini verirlər. Mövcud qanunvericilikdə də bu termindən istifadə olunmasına rast gəlirik. Belə ki, Azərbaycan Respublikasının MM-i «etibarsız əqd» terminini işlədir. Digər tərəfdən MM-in 14-cü fəsli xüsusi olaraq həmin əqdlərin tənzimlənməsinə həsr edilmişdir. Etibarsız əqd anlayışı Yaponiya sivilistika doktrinasına da məlumdur: etibarsız əqdlər odur ki, onlar ya cinayət məsuliyyəti, ya da mülkî hüquq pozuntusuna görə zərərin əvəzini ödəmək kimi nəticəyə səbəb olur.

2. Etibarsız əqdlərin təsnifi

Etibarsız əqdlər, əsasən, iki meyara görə təsnif edilir: əqdin elementinin qüsurlu olması meyarına görə; əqdin etibarsız sayılması üçün mübahisə edilməsi meyarına görə.

[1] bax: *Агаркоев М.М.* Понятие сделки по советскому гражданскому праву // Советское государство и право. 1946. № 3-4.

[2] bax: *Новицкий И.Б.* Сделки. Исковая давность. М., 1954, с. 64-67.

[3] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 305.

[4] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 245; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 211-212; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 174; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 188; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 356 и др.

Əqdin elementinin qüsurlu olması meyarının mahiyyəti ondan ibarətdir ki, əqdin hansı elementinin qüsurlu olmasından asılı olaraq, etibarsız əqdlərin dörd növü fərqləndirilir:

- subyekt tərkibi qüsurlu olan etibarsız əqdlər;
- iradəsi qüsurlu olan etibarsız əqdlər;
- forması qüsurlu olan əqdlər;
- məzmunu qüsurlu olan əqdlər.

Əqdin etibarsız sayılması üçün mübahisə edilməsi meyarına görə mülki qanunvericilik etibarsız əqdlərin iki növünü fərqləndirir:

- mübahisə edilən əqdlər;
- puç əqdlər (əhəmiyyətsiz əqdlər)[1].

Hüquq ədəbiyyatında mübahisə edilən əqdlər **nisbi etibarsız**[2], puç əqdlər isə **mütləq etibarsız** əqdlər adlanır[3]. Müəlliflərdən ilk dəfə V.A.Ryasentsev mübahisə edilən əqdlərin nisbi etibarlı əqdlər adlandırılmasını təklif etmişdir[4].

Sivilistika doktrinasında (mülki hüquq elmində) etibarsız əqdlərin mübahisə edilən əqdlər və puç əqdlər adlı iki yerə bölünməsi kimi təsnif üstünlük təşkil edir. Bizim ölkənin yeni qanunvericiliyi RF-in qanunvericiliyinin ardınca, bu cür təsnifi qanunvericilik qaydasında rəsmən nəzərə alaraq qəbul etmişdir (MM-in 337-ci maddəsinin 2-ci və 3-cü bəndləri). Bizim Mülki Məcəllə göstərir ki, etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər (MM-in 337-ci maddəsinin 1-ci bəndi). Həmin təsnifi Almaniya mülki qanunvericiliyi də tanıyır: Nichtiokeit (puç əqdlər); Anfechtbare Rechtsdeschafte (mübahisə edilən əqdlər)[5].

Etibarsız əqdlərin göstərilən iki növü (mübahisələr edilən və puç əqdlər) bir-birindən nə ilə fərqlənir? Qeyd etmək lazımdır ki, müvafiq qanunla[6] Azərbaycan Respublikasının MM-nə dəyişikliklər və əlavələr edilməsinə kimi nisbi etibarsız əqdlər puç əqdlərdən iki əlamətə görə fərqlənirdi:

- müvafiq əqdin etibarsız hesab edilməsi qaydasına görə (birinci əlamət);
- əqdin etibarsızlığı barədə tələb irəli sürən şəxslərin dairəsinə görə (ikinci əlamət).

Hər iki əlamət formal xarakter daşıyırdı. Buna görə də qanunvericinin iradəsi ilə istənilən etibarsız əqd ya nisbi etibarsız, ya da mütləq etibarsız əqd kimi tanına bilərdi.

Birinci əlamətin mahiyyəti ondan idarət idi ki, nisbi etibarsız əqd avtomatik

[1] Mülki Məcəllə «əhəmiyyətsiz əqd» anlayışı işlədir. Zənn edirik ki, «puç əqd» termini daha münasib və əlverişlidir.

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1993, с. 137; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 356.

[3] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 241.

[4] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 210.

[5] *Ermann W.* Handkommentar Zum BGB. Münster. 1993; *Jauering O.* Bürgerliches Gesetzbuch mit Erläuterungen. 1997.

[6] Bax: «Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimetmə məsələləri haqqında" Azərbaycan Respublikasının qanununa və həmin qanunla təsdiq edilmiş «Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə» 24 iyun 2005-ci il tarixində qəbul edilmiş qanun.

yox, yalnız məhkəmə tərəfindən müvafiq qərar qəbul edildiyi halda etibarsız sayılırdı; əgər belə qərar olmazdısa, müvafiq əqd nisbi etibarsız əqd kimi tanına bilməzdi. Başqa sözlə desək, nisbi etibarsız əqd yönəldiyi hüquqi nəticəyə səbəb olurdu; amma əgər məhkəmə əqdi etibarsız hesab etsə idi, onda həmin nəticə ləğv edilirdi. Əgər məhkəməyə müraciət olunmazdısa və ya əqdin etibarsız sayılması barədə iddia məhkəməyə qanunla müəyyənləşdirilən iddia müddəti ərzində verilməzdisə (yəni həmin müddət ötürülərdisə), özündə müvafiq qüsurun olmasına baxmayaraq əqd etibarlı sayılırdı.

İkinci əlamətin mahiyyəti ondan ibarət idi ki, əqdin etibarsız hesab edilməsi barədə iddianı, adətən, zərərçəkən tərəf verirdi. Başqa sözlə desək, bir qayda olaraq, əqdin etibarsız sayılmasını zərərçəkən tərəf tələb edə bilərdi; mübahisə edilən əqdin etibarsız sayılması tələbini MM-də göstərilən şəxslər irəli sürə bilərdilər; əqd barədə mübahisə etmək hüququ maraqlı şəxsə mənsub idi.

Puç əqd isə mübahisə edilən əqddən (nisbi etibarsız əqddən) fərqli olaraq, özlüyündə, necə deyərlər, avtomatik surətdə, onun məhkəmə tərəfindən etibarsız sayılmasından asılı olmayaraq, etibarsız hesab edilirdi. Başqa sözlə desək, puç əqd özünün etibarsız olmasının məhkəmə tərəfindən təsdiqlənməsini tələb etmirdi və etibarlı əqdlərin doğura biləcəyi hüquqi nəticəyə səbəb olmurdu. Buna görə də tərəflər belə əqdi sadəcə olaraq icra etmirdilər ki, bu da öz növbəsində hər hansı mənfi nəticəyə səbəb olmurdu.

Nə üçün puç əqdin etibarsız olmasının məhkəmə tərəfindən təsdiqlənməsi tələb edilmirdi? Bu əqdin məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olması nə ilə bağlı idi?

Qeyd etmək lazımdır ki, puç əqd o qədər açıq-aşkar və aydın şəkildə görünən qüsura malikdir ki, həmin qüsurun və əqdin etibarsızlığının xüsusi olaraq sübut olunmasına ehtiyac yoxdur. Doğrudan da puç əqdin qüsuru çox vaxt üzdə olur. Özü də həmin qüsuru, adətən aradan qaldırmaq mümkün olmur. Bunlara görə, puç əqdin etibarsız sayılması üçün müvafiq məhkəmə qərarının olması tələb edilmirdi və ona bu nöqteyi-nəzərdən elmi (doktrinal) anlayış verilirdi.

24 iyun 2005-ci ildə qəbul edilmiş qanunla Mülki Məcəlləyə dəyişikliklər və əlavələr edilməsi nəticəsində nisbi etibarsız və puç əqdlər artıq göstərdiyimiz iki əlamətə görə bir-birindən fərqləndirilmir. **İndi onlar arasında fərqi müəyyənləşdirmək üçün «əqd barədə mübahisə etmək»[1] kimi əlamət** əsas götürülür. Məhz bu əlamət əsasında nisbi etibarsız əqd puç əqddən fərqləndirilir, onlar arasında hədd qoyulur. Həmin əlamətə görə də həmin növ etibarsız əqdlərə leqal anlayış verilir.

Nisbi etibarsız əqdlər odur ki, onlar barəsində mübahisə etməyə yol verilir; mübahisə etmək yolu ilə əqd etibarsız hesab edilir; əqdin etibarsız hesab edilməsi üçün hər hansı məhkəmə qərarı tələb olunmur; etibarsız əqdin bu növü məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq etibarsız olan əqddir. Buna görə də nisbi etibarsız əqdə məhkəmə tərəfindən etibarsız sayılmasına görə etibarsız olan əqd kimi baxmaq olmaz; yalnız mübahisə etmək faktı əqdin nisbi etibarsız hesab edilməsi üçün kifayətdir; əqd ancaq mübahisə predmetinə çevrilməsinə görə etibarsız əqd kimi tanınır.

O əqdlər nisbi etibarsız əqdlər sayılır ki, onlar barəsində mübahisə edilsin; əgər etibarsız əqd barəsində mübahisə edilməzsə, müvafiq qüsura malik olmasına baxmayaraq, o, etibarlı hesab ediləcəkdir. Bu kimi cəhətlərinə görə nisbi etibarsız əqdlər həm də **mübahisə edilən əqdlər** adlanır. Mülki qanunvericilik məhz «mübahisə edilən əqd» termini işlədir.

Mübahisə edilən əqd həm də tərəflərin razılığı (sazişi) ilə etibarsız hesab edilir. Bu, çox vaxt mümkün olmur. Ona görə də mübahisə edilən əqdlər, bir qayda olaraq, məhkəmə qaydasında etibarsız edilir. Digər tərəfdən əksəriyyət hallarda mübahisə edilən əqdin etibarsız əqd sayılması, inandırıcı və tutarlı sübutların olmasını tələb edir. Belə sübutlar isə yalnız məhkəmə tərəfindən müəyyən edilə bilər. Başqa sözlə desək, mübahisə edilən əqdin qüsurunun xüsusi olaraq məhkəmə tərəfindən sübut edilməsinə, adətən, ehtiyac vardır. Odur ki, mübahisə edilən əqdin məhkəmə tərəfindən etibarsız hesab edilməsi qaçılmaz yoldur. Məsələ burasındadır ki, tərəflər mübahisə edilən əqdin etibarsız sayılması barədə çətin ki, öz aralarında razılığa gələ bilsinlər. Buna görə də mübahisə edilən əqd adətən, məhkəmə yolu ilə iddia icraatı qaydasında etibarsız sayılır. İddianı isə məhkəməyə zərərçəkən tərəf verir. Məsələn, hər hansı şəxs fiziki zorakılığa məruz qalır, ona əzab-əziyyət verilir və bunun nəticəsində həmin şəxs əqd bağlayır. Əlbəttə, onların əqdin etibarsız sayılması barədə razılığa gəlmələri çətin məsələdir. Buna görə də həmin əqd yalnız məhkəmə tərəfindən etibarsız hesab edilə bilər.

Puç əqd odur ki, həmin əqdin etibarsız hesab edilməsi mübahisə predmetinə çevrilmir; o, özlüyündə, avtomatik surətdə, qanunda ifadə olunan göstəriş əsasən etibarsız olan əqddir. Məsələn, MM-in 29-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, 14 yaşı tamam olmamış azyaşlının bağladığı əqd etibarsızdır (MM-in 344-cü maddəsinin 1-ci bəndi). Bu əqdlərin qüsuru kifayət dərəcədə göz qabağındadır. Bu səbəbdən onun qüsurunu və etibarsızlığını məhkəmə tərəfindən xüsusi olaraq sübuta yetirmək tələb edilmir.

§ 5. Əqdin elementinin qüsurlu olması meyarına görə etibarsız əqdlərin növləri

1. Subyekt tərkibi qüsurlu olan etibarsız əqdlər

Əqdin subyekt tərkibi barəsində şərtin pozulması ilə bağlanan əqdlərə subyekt tərkibi qüsurlu olan etibarsız əqdlər deyilir. Əqdin subyekt tərkibi barədə şərt belədir: əqd iradəvi hərəkət (akt) olduğuna görə onu yalnız tam mülki fəaliyyət qabiliyyətli subyektlər bağlaya bilərlər. Əgər əqd tam fəaliyyət qabiliyyəti olmayan, yəni məhdud fəaliyyət qabiliyyətli şəxslər tərəfindən bağlanarsa, bu, həmin şərtin pozulmasına səbəb olur. Bu isə subyekt tərkibi qüsurlu olan etibarsız əqdlərin yaranmasını şərtləndirir. Məhz bu səbəbdən tam fəaliyyət qabiliyyəti olmayan şəxslərin (azyaşlıların, yetkinlik yaşına çatmayanların, psixi-ruhi xəstələrin, spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə edənlərin, qumara qurşananların) bağladıqları əqdlər subyekt tərkibi qüsurlu olan etibarsız əqdlər hesab edilir.

On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayan şəxsin (qis-

[1] Qanunverici «mübahisələndirmək» kimi münasib olmayan anlayış işlədir.

mən fəaliyyət qabiliyyətli şəxsin) bağladığı əqd subyekt tərkibi qüsurlu olan etibarsız əqddir (MM-in 344-cü maddəsi). Belə ki, tam mülki fəaliyyət qabiliyyətinə malik olmadığı üçün bu kateqoriya şəxslərin bağladığı əqd etibarsız hesab edilir[1]. Onların bağladıqları əqdlərin hüquqi qüvvəsi yoxdur. Bu kateqoriya şəxslərin əvəzinə, əqdləri (xırda məişət əqdləri və digər növ əqdlər istisna olmaqla) onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər.

On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslərin bağladıqları əqdlər subyekt tərkibi qüsurlu olan əqdlərin bir növüdür (MM-in 345-ci maddəsi). Həmin kateqoriya şəxslər bəzi növ əqdlər istisna olmaqla (bu əqdlərin dairəsi MM-in 30-cu maddəsinin 2-ci bəndi nəzərdə tutulmuşdur), əqdləri öz valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə bağlayırlar. Əgər bu şəxslər onların yazılı razılığı olmadan əqd bağlayarlarsa, onda həmin əqdin hüquqi qüvvəsi olmur və etibarsız sayılır.

Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış (məhdud fəaliyyət qabiliyyətli) şəxslərin bağladıqları əqdlər də subyekt tərkibi qüsurlu olan əqdlərə aiddir (MM-in 343-cü maddəsi). Bu kateqoriya subyektlər spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan fiziki şəxslərdir. Onların xırda məişət əqdlərini müstəqil surətdə bağlamaq hüququ vardır. Qalan digər əqdləri isə məhdud fəaliyyət qabiliyyətli şəxslər yalnız himayəçisinin razılığı ilə bağlaya bilərlər. Əgər onlar öz himayəçisindən razılıq almadan əmlaka dair sərəncam verilməsi (alqı-satqı, icarəyə və kirayəyə vermək, bağışlamaq, dəyişmək və s.) barədə əqdlər bağlayarlarsa, onda həmin əqd etibarsız hesab edilir. Bu cür hallarda himayəçi məhkəməyə iddia verir. Məhkəmə həmin iddiaya baxaraq, məhdud fəaliyyət qabiliyyətli şəxsin bağladığı əqdin etibarsız sayılması barədə müvafiq qərar çıxarır.

Fəaliyyət qabiliyyəti olmayan fiziki şəxsin bağladığı əqdlər subyekt tərkibi qüsurlu olan əqd növünə şamil edilir (MM-in 342-ci maddəsi)[2]. Bu kateqoriya şəxslər ağır zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətinə rəhbərlik edə bilməyən şəxslərdir. Ona görə də onlar məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan şəxs sayılırlar.

Fəaliyyət qabiliyyəti olmayan şəxslərin əqd bağlamağa ixtiyarı çatmır. Onların adından əqdləri qəyyum bağlayır. Buna görə də fəaliyyət qabiliyyəti olmayan şəxslərin bağladığı əqdlər hüquqi əhəmiyyətə malik olmayıb, etibarsız hesab edilir.

Bununla belə, fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin mənafeyini müdafiə etmək məqsədilə mülki qanunvericilik həmin şəxsin bağladığı əqdin hüquqi qüvvəsi olan əqd kimi tanınmasının mümkünlüyü barədə xüsusi qayda müəyyənləşdirir (MM-in 342-ci maddəsinin 2-ci bəndi). Bu qaydaya görə, həmin şəxsin bağladığı əqd onun xeyrinə olarsa (məsələn, başqasının ona əmlak bağışlaması və ya əmlakı onun əvəzsiz istifadəsinə verməsi və s.), həmin əqd qəyyumun razılığı ilə etibarlı sayıla bilər. Məsələn, fəaliyyət qabiliyyəti olmayan şəxs alıcı qismində minik avtomobilinin alqı-satqı əqdi bağlayır. Bazarda qiymətlərin kəskin surətdə artması nəticəsində bu əqdin doğurduğu iqtisadi maraq satıcı üçün öz əhəmiyyətini itirir. Satıcı dərhal xatırlayır ki, əqd bağladığı şəxsin fəaliyyət qabiliyyəti yoxdur və buna görə də minik avtomobilinin geri qaytarılmasını tələb edir. Belə halda fəaliyyət qabiliyyəti olmayan şəxsin qəyyumunun razılığı ilə həmin əqd etibarlı hesab edilə bilər.

Təkcə fiziki şəxslərin yox, həm də **hüquqi şəxslərin iştirak etdiyi əqdlər subyekt tərkibinə görə qüsurlu ola bilər.** Əgər fiziki şəxslərin bağladıqları əqdin qüsuru bu şəxslərin fəaliyyət qabiliyyəti ilə əlaqədardırsa, hüquqi şəxslərin subyekt rolunda çıxış etdiyi əqdin qüsuru onların **hüquq qabiliyyəti və ya hüquqi şəxsin orqanlarının statusu ilə bağlıdır.** Bu baxımdan subyekt tərkibi qüsurlu olan, hüquqi şəxslərin iştirak etdiyi etibarsız əqdlərin iki növü fərqləndirilir: hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan etibarsız əqdlər (MM-in 349-cu maddəsi); hüquqi şəxsin orqanlarının məhdudlaşdırılmış səlahiyyətlərini aşmaqla bağladığı etibarsız əqdlər (MM-in 350-ci maddəsi).

Hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan etibarsız əqdlər subyekt tərkibi qüsurlu olan əqd növünə şamil edilir. Bu etibarsız əqdin özü iki cür olur: hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı etibarsız əqd; müvafiq fəaliyyətlə məşğuliyyət üçün xüsusi icazəsi (lisenziyası) olmayan hüquqi şəxsin bağladığı etibarsız əqd.

Hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı etibarsız əqdlər həmin hüquqi şəxsin nizamnamə məqsədlərinə uyğun gəlməyən əqdlərdir. Bu əqdləri hüquq ədəbiyyatında **nizamnamədənkənar əqdlər** adlandırırlar[1].

Hüquq ədəbiyyatında belə bir fikir irəli sürülür ki, kommersiya təşkilatının yox, qeyri-kommersiya təşkilatının bağladığı əqdlər öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olarsa, etibarsız hesab edilir[2]. Bu halı onunla izah edirlər ki, kommersiya təşkilatı fiziki şəxs kimi ümumi, (universal), qeyri-kommersiya təşkilatı isə xüsusi hüquq qabiliyyətinə malikdir. Bizim zənnimizcə, həm qanuna görə hüquq qabiliyyəti məhdudlaşdırılan kommersiya təşkilatı (məsələn, bank, sığorta təşkilatı və s.), həm də qeyri-kommersiya təşkilatının bağladığı əqdlər, əgər öz nizamnaməsində nəzərdə tutulmuş fəaliyyət məqsədlərinə zidd olarsa, etibarsız hesab edilir. Ona görə ki, hər iki növ hüquqi şəxs məqsədli (məhdud) hüquq qabiliyyətinə malikdir. Çünki bu kateqoriya hüquqi şəxslərin hamısı, ümumi qaydaya görə, yalnız elə mülki hüquqlar əldə edə və mülki vəzifələr daşıya bilər ki, bu hüquqlar və qanunda, ya da

[1] Almaniya Mülki Qanunnaməsinə görə (§105), fəaliyyət qabiliyyəti olmayan yetkinlik yaşına çatmayanların iradə ifadəsi etibarsızdır (*Klüzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 92).

[2] Almaniya Mülki Qanunnaməsinə görə (§104-105), fəaliyyət qabiliyyəti olmayan şəxsin iradə ifadəsi etibarsızdır (*Klüzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993, s. 97).

[1] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 244; Гражданское право. Учебник. Часть 1. Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 192; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 220.

[2] Bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 364; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 220.

onların nizamnaməsində (təsis sənədində) müəyyənləşdirilən fəaliyyət məqsədlərinə uyğun olsun.

Azərbaycan Respublikasının mülki qanunvericiliyi kommersiya hüquqi şəxsinin yox, yalnız qeyri-kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin predmeti və məqsədlərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Qanunvericiliyin bu cür mövqeyi hüquq ədəbiyyatında irəli sürülən belə bir fikrə uyğundur ki, qanuna görə məcburi olmayan hallarda kommersiya təşkilatının təsis sənədlərində fəaliyyət məqsədi və predmetinin müəyyənləşdirilməsi onun ümumi (universal) hüquq qabiliyyətini xüsusi hüquq qabiliyyətinə çevirir[1]. Bəzi müəlliflər isə hesab edirlər ki, kommersiya təşkilatının nizamnaməsində onun fəaliyyətinin predmeti və məqsədlərinin müəyyənləşdirilməsi, heç də onun ümumi (universal) hüquq qabiliyyətini xüsusi hüquq qabiliyyətinə çevirmir[2]. Bu cür mövqe ilə çətin ki razılaşmaq olar. Doğrudan da, əgər kommersiya təşkilatı məşğul olduğu fəaliyyət növlərini (profillərini) öz nizamnaməsində konkret olaraq sadalayarsa, o, bununla hüquq qabiliyyətini məhdudlaşdırır və hüquq qabiliyyətini xüsusi (məqsədli) hüquq qabiliyyətinə çevirir. Bu halda isə həmin kommersiya təşkilatı yalnız öz nizamnaməsində göstərilən və sadalanan fəaliyyət növlərinə uyğun gələn mülki hüquq və vəzifələr əldə edə, əqdlər bağlaya bilər. Onun nizamnamədənkənar istənilən əqdi bağlamağa ixtiyarı çatmır. Məsələn, əgər kommersiya təşkilatının nizamnaməsində onun yalnız informasiya xidməti göstərməsi üzrə fəaliyyət həyata keçirməsi nəzərdə tutulsa və bu təşkilat ticarət-vasitəçilik əqdi bağlasa, həmin əqd etibarsız hesab ediləcəkdir.

Kommersiya təşkilatının nizamnaməsində onun fəaliyyətinin məqsəd və predmetləri göstərilmədikdə isə həmin təşkilat ümumi (universal) hüquq qabiliyyətli olur. Məhz bu səbəbdən o, qanunla qadağan edilməyən istənilən əqdi bağlaya bilər. Bəzi hallarda kommersiya təşkilatının nizamnaməsində konkret fəaliyyət növləri sadalanır və həmin siyahı «qanunla qadağan edilməyən istənilən fəaliyyət növü» ilə tamamlanır. Bu, o deməkdir ki, göstərilən hüquqi şəxs ümumi (universal) hüquq qabiliyyətlidir. Odur ki, həmin şəxs qanunla qadağan edilməyən istənilən əqdi bağlaya bilər.

Müvafiq fəaliyyətlə məşğuliyyət üçün xüsusi icazəsi (lisenziyası) olmayan hüquqi şəxsin bağladığı əqd hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan etibarsız əqdin ikinci halıdır (yarımnövüdür). Belə ki, ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər. Bu fəaliyyət növlərinin siyahısı qanunvericiliklə müəyyənləşdirilir. Xüsusi icazə (lisenziya) alındığı andan və ya lisenziyada göstərilən vaxtdan hüquqi şəxsin həmin fəaliyyət növləri ilə məşğul olmaq hüququ yaranır. Məsələn, kredit təşkilatı kredit, lizinq, faktorinq, bank əmanəti və bank hesabı kimi müqavilələr bağlaması üçün Milli Bankdan bank fəaliyyətinin həyata keçirilməsinə icazə verən lisenziya almalıdır[1]. Sığorta təşkilatı da sığorta müqaviləsi bağlamaq üçün sığorta fəaliyyəti barədə Maliyyə Nazirliyindən lisenziya almaq vəzifəsini daşıyır. Əgər bu və ya digər hallarda hüquqi şəxslər xüsusi icazə (lisenziya) almadan əqdlər bağlayarlarsa, onlar etibarsız hesab ediləcək.

Amma hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqdlərin iki yarımnövünü etibarsız hesab etmək üçün təkcə həmin əqdlərin bağlanma faktı kifayət etmir və yetərli deyil. Bunun üçün həm də əlavə şərtin olması gərəkdir. Bu şərt əqddə iştirak edən digər tərəfin (kontragentin) bağlanmış həmin əqdin qanunsuz olduğunu bilməsinin və ya bilməli olduğunun sübuta yetirilməsindən ibarətdir. Kontragent rolunda həm fiziki, həm də hüquqi şəxslər çıxış edə bilərlər.

Göstərilən faktlar mövcud olduqda, maraqlı şəxslər hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqdin etibarsız hesab edilməsi barədə iddia ilə məhkəməyə müraciət edirlər. Maraqlı şəxslər qismində həmin hüquqi şəxsin özü və onun təsisçisi çıxış edə bilər. Məhkəmə qərarı həmin əqdin etibarsız hesab edilməsi üçün əsasdır. Məhkəmə yolundan o halda istifadə olunur ki, əqdin etibarsız sayılması barədə tərəflər arasında yaranmış mübahisə könüllü yolla həll olunmasın.

Qeyd etmək lazımdır ki, qanunun xüsusi olaraq «müvafiq fəaliyyətlə məşğuliyyət üçün xüsusi icazəsi (lisenziyası) olmayan hüquqi şəxsin bağladığı əqd etibarsızdır» kimi göstəriş ifadə etməsi tələb olunmur (yeri gəlmişkən MM-in 349-cu maddəsində belə göstəriş nəzərdə tutulmuşdu və indi o, ləğv olunmuşdur). Məsələ burasındadır ki, xüsusi icazə (lisenziya) tələb olunan fəaliyyət növləri ilə məşğul olmaq imkanı hüquqi şəxsin fəaliyyət qabiliyyətinin (hüquq qabiliyyətinin) əsas elementlərindən biridir (dərsliyin 7-ci fəslinin 2-ci paraqrafının 3-cü yarımbaşlığına baxın). Əgər hüquqi şəxs xüsusi icazə (lisenziya) almadan müvafiq fəaliyyət növüylə məşğul olaraq əqdlər bağlayarsa, onlar hüquqi şəxsin fəaliyyət qabiliyyətindən kənara çıxan əqdlər hesab edilir. Digər tərəfdən əqd bağlamaq hüquqi şəxsin hüquq qabiliyyətinin yox, fəaliyyət qabiliyyətinin elementi sayılır. Buna görə də MM-in 49-cu maddəsində hüquqi şəxsin yalnız fəaliyyət qabiliyyətindən (hüquq qabiliyyətindən yox) kənara çıxan əqdin etibarsızlığından söhbət gedə bilər. Lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət göstərmək digər tərəfdən hüquqi şəxsin ləğvinə səbəb olur (MM-in 59-cu maddəsinin 2-ci bəndinin 3-cü yarımbəndi).

Subyekt tərkibi qüsurlu olan, hüquqi şəxsin iştirak etdiyi etibarsız əqdin ikinci növünü **hüquqi şəxsin orqanlarının məhdudlaşdırılmış səlahiyyətlərini aşmaqla bağladığı əqd** təşkil edir.

Bu əqd yalnız üç şərt olduqda etibarsız hesab edilir. Birincisi, hüquqi şəxsin orqanlarının əqd bağlamaq səlahiyyəti məhdudlaşdırılmalıdır. Hamımıza məlumdur ki, hüquqi şəxsin adından yalnız onun orqanlarının hüquqauyğun hərəkətlər etmək, o cümlədən əqd bağlamaq səlahiyyəti vardır. Bəzən hüquqi şəxsin orqanının əqd bağlamaq səlahiyyəti onun nizamnaməsində, qanunda

[1] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации, части первой / Под ред. *О.Н.Садикова*. М., 1996, с. 87, 218.

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 364.

[1] Dələduzluqla, sözün əsl mənasında, maliyyə fırıldaqçılığı ilə məşğul olan «Xəyalbank», «Vahidbank», «Mərhəmətbank» və s. üzdəniraq «qurumların» sadəlövh əmanətçilərlə bağladıqları depozit (əmanət) müqavilələri bu növ etibarsız əqdlərə ən yaxşı misaldır. Onlar Milli Bankdan lisenziya almadan bank fəaliyyəti ilə məşğul olaraq müəyyən əqdlər bağlayırdılar.

(Mülki Məcəllədə) nəzərdə tutulan səlahiyyətə nisbətən məhdudlaşır.

Hüquqi şəxslər nümayəndələr (təmsilçilər) vasitəsilə də əqdlər bağlaya bilərlər (MM-in 49-cu maddəsinin 2-ci bəndi). Nümayəndə rolunda həm fiziki şəxslər, həm də hüquqi şəxslər çıxış edə bilərlər. Belə halda nümayəndə ilə hüquqi şəxs arasında, adətən, tapşırıq müqaviləsi bağlanır. Məsələn, hüquqi şəxs bu müqavilə əsasında nümayəndəyə belə bir tapşırıq verir ki, o, hüquqi şəxs üçün on min manatdan yuxarı məbləğdə olmayan hər hansı avadanlıq alsın. Beləliklə, həmin müqavilə ilə nümayəndəyə əqd bağlamaq səlahiyyəti verilir. Bu səlahiyyət etibarnaməyə nisbətən məhdudlaşdırıla bilər. Belə ki, satıcıdan avadanlığı almaq üçün nümayəndəyə tapşırıq müqaviləsi əsasında etibarnamə verilir. Burada isə alınacaq avadanlığın istənilən qiymətə əldə edilməsi göstərilir. Deməli, nümayəndənin əqd bağlamaq səlahiyyəti etibarnaməyə nisbətən məhdudlaşmış olur.

Şəxsin əqd bağlamaq səlahiyyəti hüquqi şəxsin nizamnaməsində və müqavilədə açıq-aşkar əqdin bağlandığı şəraitə görə də məhdudlaşa bilər. Məsələn, topdansatış mağazasının satıcısı hər gün alıcılarla istənilən məbləğdə əqd bağlayır. Mağazanın nizamnaməsində və əmək müqaviləsində nəzərdə tutulur ki, satıcı yalnız iki min manat məbləğində əqd bağlaya bilər. Bununla onun əqd bağlamaq səlahiyyəti məhdudlaşır.

İkincisi, hüquqi şəxsin orqanı və ya şəxs məhdudlaşdırılmış səlahiyyətdən kənara çıxır, onu aşır. Məsələn, yuxarıdakı misalda nümayəndə avadanlığı tapşırıq müqaviləsində göstərilən on min manat məbləğindən baha məbləğdə alır. Topdansatış mağazasının satıcısı iki min manatdan yuxarı məbləğdə əqd bağlayır.

Üçüncüsü, əqddə iştirak edən şəxs göstərilən məhdudiyyətləri bilməli və ya bilməyə borclu olmalıdır.

Əqdin etibarsız sayılması barədə iddianı mənafeyi üçün məhdudiyyətlər qoyulmuş şəxs verə bilər. Bu cür şəxs qismində hüquqi şəxsin təsisçisi (iştirakçısı), səhmdarlar və digər kateqoriya şəxslər çıxış edə bilər. Məhkəmə qərarı əqdin etibarsız hesab edilməsi üçün əsasdır. Əgər əqdin etibarsız sayılması barədə mübahisə könüllü olaraq həll edilərsə, məhkəmə qərarı tələb edilmir.

2. İradəsi qüsurlu olan əqdlər

Əqdin etibarlı olması şərtlərindən biri iradə və iradənin vahidliyi (vəhdəti) hesab edilir. Əgər bu şərt pozularsa, əqd etibarsız sayılır. Buna iradəsi qüsurlu olan əqd deyilir.

İradəsi qüsurlu olan əqdlər odur ki, bu əqdlər bağlanarkən daxili iradə lazımi olmayan şəraitdə formalaşır və ya bu iradə xaricən düzgün ifadə olunmur. Bu cür əqdlərin iki növü fərqləndirilir: daxili iradə olmadan bağlanan əqdlər; daxili iradəsi düzgün formalaşmayan əqdlər.

Zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanan əqd daxili iradə olmadan bağlanan əqdə aid olunur (MM-in 339-cu maddəsi). Bu cür etibarsız əqdlərdə müvafiq tərəfin daxili iradəsi təhrif edilir. Onu qanunvericilik zərərçəkən tərəf adlandırır. Bu tərəfin əqd bağlamaq üçün daxili iradəsi yoxdur. Buradakı iradə ifadəsi həmin tərəfin yox, bu tərəfə təsir göstərən hər hansı başqa

şəxsin iradəsini əks etdirir. Bu cür şəxs qismində əqd üzrə kontragent (əqdin qarşı tərəfi), kontragentin mənafeyi üçün hərəkət edən üçüncü şəxs və ya əqdin bağlanmasında maraqlı olan digər şəxs çıxış edə bilər. Zərərçəkən əqdin doğurmalı olduğu hüquqi nəticənin baş verməsini arzu etmir və istəmir.

Almaniya mülki hüquq elminə görə, iradə iki tərkibdən ibarətdir[1]: xarici tərkibdən; daxili tərkibdən. **İradənin xarici tərkibi** şəxsin elə hərəkətlərindən (hərəkətsizliyindən) ibarətdir ki, bu hərəkətlər (hərəkətsizlik) hüquqi nəticənin yaranmasına yönələn iradə ifadəsi kimi çıxış edir. **İradənin daxili tərkibi** isə hərəkət etməyə, ifadə olunmağa və əqd bağlamağa yönələn iradəni, yəni müəyyən hüquqi xarakterli hərəkətə yönələn iradəni əhatə edir. Göstərilən növ etibarsız əqdlər iradənin məhz daxili tərkibindən məhrum olur.

Mülki hüquqda zorakılıq dedikdə, əqd iştirakçısını əqd bağlamağa vadar etmək üçün fiziki və ya mənəvi əzab-əziyyət vermək yolu ilə onun iradəsinə göstərilən təsir başa düşülür. Fiziki və ya mənəvi əzab-əziyyət əqd iştirakçısının yaxınlarına (atasına, qardaşına, oğluna və digər ailə üzvlərinə, yaxın qohumlara) da verilə bilər. Məsələn, alıcı evi ucuz qiymətə almaq üçün ev mülkiyyətçisinin oğluna əzab-əziyyət verir. Başqa bir misalda şəxs bağ evini kirayəyə götürmək üçün həmin evin sahibinin atasına fiziki təzyiq göstərir. Beləliklə, zorakılıq əqd iştirakçısının arvadına (ərinə), digər ailə üzvlərinə və ya yaxın qohumlarına qarşı yönəldikdə də əqd etibarsız sayılır (MM-in 339-cu maddəsinin 4-cü bəndi).

Zorakılıq hüquqazidd hərəkətlərdə ifadə olunmalıdır. Məsələn, şəxsin əlindən tutub zorla onu müqaviləyə qol çəkdirmək; onu qaranlıq yerdə saxlamaq; onun əl-qolunu bağlamaq; həmin şəxsi bağlı divarlar arasında saxlamaq və s. Bunların cinayət hərəkətləri olması tələb edilmir və məcburi deyil. Bu, o deməkdir ki, hüquqazidd hərəkətlər cinayət olmayan hərəkətlərlə də edilə bilər. Məsələn, şəxs qulluq tabeliyindən və ya vəziyyətindən istifadə etməklə əqd iştirakçısının iradəsinə təsir göstərir. Bu, zorakılıq hərəkətidir. Hərəkətlər qanuna zidd məqsədlərlə və qanuna zidd vasitələr tətbiq edilməklə həyata keçirilməlidir (MM-in 339-cu maddəsinin 4-cü bəndi). Ümumiyyətlə, əqdin etibarsız hesab edilməsi üçün əsas olan zorakılıq həmişə mülki hüquq pozuntusu kimi çıxış edir.

Zorakılıq, bir qayda olaraq, kontragent tərəfindən həyata keçirilir. O, üçüncü şəxslər tərəfindən də edilə bilər. Belə halda vacibdir ki, kontragentin bu barədə məlumatı olsun[2], üçüncü şəxs onun tapşırığı və icazəsi ilə hərəkət etsin və bu hərəkətlərdən o, öz mənafeyi üçün istifadə etsin. Məsələn, vətəndaş kimsəsiz qonşusundan xahiş edir ki, qonşu mənzilini ona bağışlasın. Qonşu bundan imtina edir. Vətəndaşın tapşırığı ilə hər hansı üçüncü şəxs qonşunu bağışlama müqaviləsi bağlamağa məcbur etmək üçün ona fiziki təzyiq göstərir. Deməli, zorakılıq üçüncü şəxs tərəfindən törədildiyi halda da əqd etibarsız

[1] *Müsielak H.-J.* Grundkurs BGB. München. 1994, s. 17-26; *Heinrichs H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 78; *А.Жалинский, А.Рёрихт.* Введение в гражданское право. М., 2001, с. 316-317.

[2] O.S.Ioffe göstərir ki, bu cür məlumatın olmasının əqdin etibarsız hesab edilməsi üçün əhəmiyyəti yoxdur (bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 281). Bu fikirlə çətin ki razılaşmaq olar.

sayılır (MM-in 339-cu maddəsinin 4-cü bəndi).

Zorakılıq nəticəsində bağlanmış **əqd məhkəmə tərəfindən etibarsız sayılır**. Bu barədə **iddianı zərərçəkən verir**.

Belə əqdin məhkəmə tərəfindən etibarsız sayılması onunla izah edilməlidir ki, bu məsələ (əqdin doğurduğu nəticəni aradan qaldırmaq) barədə tərəflər arasında yaranan mübahisə çətin ki, məhkəməsiz könüllü yolla həll olunsun.

Mülki hüquqda hədə dedikdə, əqd iştirakçısını əqd bağlamağa vadar etmək üçün onun iradəsinə göstərilən psixi təsir (təzyiq) başa düşülür. Bu təsir (təzyiq) əqd iştirakçısı nəzərdə tutulan əqdi bağlamayacağı təqdirdə, ona və ya onun yaxınlarına gələcəkdə əmlak, fiziki-cismani və ya mənəvi zərər vurulmasını bildirmək yolu ilə göstərilir. Əqd iştirakçısının yaxınları dedikdə, onun arvadı (əri), digər ailə üzvləri və yaxın qohumlar başa düşülür (MM-in 339-cu maddəsinin 4-cü bəndi). Məsələn, qonşu vətəndaşdan tələb edir ki, əgər o, öz qarajını satmasa, həmin vətəndaşın qardaşının minik avtomobilini yandıracaqdır.

Xarici ölkələrin mülki hüquq elmində hədəyə mahiyyətcə eyni anlayış verilir. Məsələn, L.Ennekserus yazır: hədə elə bir təsirdir ki, bu təsir hədə göstərən şəxsin iradəsindən bu və ya digər dərəcədə asılı olmaqla kimisə gələcəkdə pislik (yamanlıq) edilməsinə yönəlir. Yaponiya mülki qanunvericiliyində hədə yox, məcburetmə təsiri altında bağlanan əqd anlayışı işlədilir (MM-in 96-cı maddəsinin 1-ci bəndi). Məcburetmə elə bir qanunsuz hərəkətdir ki, bu hərəkət başqa şəxsi qorxutmaqla və həmin şəxsə hər hansı pislik edilməsi hədəsi altında onu müəyyən iradə ifadəsinə vadar edir[1].

Öz məqsəd istiqamətinə görə hədə zorakılığın eyni olub, ona bərabər tutulur. Belə ki, hədənin vasitəsilə kontragent əqd iştirakçısını onun arzulamadığı əqdi bağlamağa məcbur etmək istəyir.

Bununla belə, onlar arasında fərqli cəhətlər də vardır. Birincisi, hədə zorakılıqdan fərqli olaraq, fiziki-cismani təsirdən (təzyiqdən) məhrumdur. Hədə yalnız psixi təsirlə (təzyiqlə) bağlıdır. İkincisi, zorakılıqdan fərqli olaraq, hədə həm hüquqazidd hərəkətlər etmək (məsələn, şəxsi əmlakı məhv etmək, işgəncə vermək, bədənə xəsarət yetirmək və s.), həm də hüquqauyğun hərəkətlər etmək (məsələn, vergi və ya polis orqanlarına xəbər vermək, cinayət əməli barədə mətbuatda çıxış etmək və s.) imkanından ibarətdir. **Zorakılıq isə həmişə hüquqazidd hərəkətlərlə edilir**.

Hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, əgər hədə hüquqauyğun hərəkətlər etmək imkanından ibarət olarsa, onda əqdi etibarsız hesab etmək olmaz[2]. Bu, onu ifadə edir ki, hüquqauyğun hərəkətlərdən hədə kimi istifadə edilsə, əqd etibarsız sayıla bilməz. Bizim fikrimizcə, **hüquqauyğun hərəkətlərdən də, hüquqazidd hərəkətlərdən də hədə kimi istifadə edilərsə, daxili iradə olmur və buna görə də əqd etibarsız hesab edilir**. Almaniya sivilistika doktrinası da analoji mövqedə durur. L.Ennekserus yazır ki, hədə yol verilən təsir vasitələri ilə həyata keçirilsə də, hüquqa (qanuna) ziddir (məsələn, şəxsin cinayət qaydasında ərizə verməsi ilə digər şəxsi hədələməsi və s.)[1]. Müəlliflərin əksəriyyəti də məhz bu mövqedə dururlar[2]. Yalnız bir halda hüquqauyğun hərəkətdən hədə kimi istifadə edilərsə əqd etibarsız hesab edilmir. Bu, ümumi mülkiyyətin bölünməsi haqqında iddia vermək hədəsi altında ümumi mülkiyyət iştirakçısının həmin mülkiyyətdən onun payının ayrılması tələbindən ibarətdir[3].

Bununla belə, istənilən hər hansı hədə təsiri əqdin etibarsız hesab edilməsi üçün əsas ola bilməz. Bunun üçün bir neçə şərtin olması gərəkdir. Birincisi, **hədə real olmalıdır**. Hədənin reallığı dedikdə, əqd iştirakçısına və ya onun yaxınlarına zərər vurulmasının real imkanı başa düşülür. Başqa sözlə desək, hədənin reallığı onun praktiki cəhətdən həyata keçirilməsi imkanını ifadə edir.

İkincisi, **hədə əqd iştirakçısında müəyyən təhlükə haqqında təsəvvür yaratmaq imkanına malik olmalıdır**. Məsələn, uşağın oğurlanması, şəxsi əmlakın yandırılması və s. əqd iştirakçısında baş verəcək təhlükəli hadisə barəsində kifayət qədər aydın təsəvvür əmələ gətirir. Hədənin real, təhlükəli olması kimi məsələlər işin konkret hallarını nəzərə almaqla məhkəmə tərəfindən həll edilir.

Üçüncüsü, **hədə şəxsi əqd bağlamağa təhrik etmək məqsədilə bilavasitə həyata keçirilməlidir**. Bu cür təhrik etmə məqsədilə əlaqədar olmayan hədə əqdin etibarsızlığına səbəb ola bilməz. Məsələn, vətəndaşı başqa bir şəxs ölümlə hədələyir. Bu hədənin təsiri nəticəsində vətəndaş silah mağazasında özünə mülki silah alır. Belə halda bağlanmış alqı-satqı əqdi etibarsız sayılmayacaqdır.

Hədə təsiri əqd iştirakçısına həm sözlə, həm də real hərəkətlər vasitəsilə göstərilə bilər. Onun həm şifahi, həm də yazılı formada olması mümkündür. Hədə anonim formada da ola bilər[4].

Hədə təsiri həm kontragentin özü, həm də onun tapşırığı və icazəsi ilə üçüncü şəxs tərəfindən göstərilə bilər[5]. Belə halda üçüncü şəxs kontragentin mənafeyi üçün hərəkət edir.

Hədə təsiri altında bağlanan əqdlər **məhkəmə tərəfindən etibarsız sayılır**. Məhkəməyə **iddianı zərərçəkən verir**. Bu əqd ona görə etibarsız hesab edilir ki, burada əqd iştirakçısının daxili iradəsi olmur, iradə ifadəsi isə ona göstərilən psixi təsirlə (təzyiqlə) bağlı olur.

---

[1] *Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 117.

[2] *Шершеневич Г.Ф.* Учебник русского гражданского права (по изданию 1907 г.). М., 1994, с.115; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 222.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 217. L.Ennekserus belə bir misal çəkir: cinayət törətmiş şəxsi ifşa etməklə hədələmək və bununla ondan pul almaq kimi hərəkət qanuna ziddir.

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 371; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 251; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 225; Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 373.

[3] bax: *Новицкий И.Б.* Сделки. Исковая давность. М., 1954, с. 119; *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Том 1. Учеб. пособие. Л., 1958, с. 219.

[4] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 218.

[5] L.Ennekserus yazır ki, hədənin kim tərəfindən həyata keçirilməsinin mətləbə dəxli yoxdur. Onun fikrincə, əqdin bağlanmasında həm marağı olan, həm də marağı olmayan şəxsin hədəsi nəzərə alına bilər (yenə orada, s. 218).

Belə əqd ona görə məhkəmə tərəfindən etibarsız sayılır ki, onun zərərçəkən şəxs üçün doğurduğu nəticəni qarşı tərəf (hədə təsiri göstərən şəxs), adətən, könüllü surətdə aradan qaldırmır. Digər tərəfdən tərəflərin əqdin etibarsız hesab edilməsi barədə razılığa gəlmələri çətin məsələdir. Odur ki, əqdin etibarsız hesab edilməsi barədə mübahisənin həlli məhkəmə prosedurasını tələb edir.

Bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi dedikdə, təmsil olunan şəxsə zərər vurmaq niyyəti ilə kontragentin və ya nümayəndənin və yaxud da onların hər ikisinin (kontragentin və nümayəndənin) mənafeyi üçün sazişə bağlanması başa düşülür. Bildiyimiz kimi, əqdlər subyektlərin şəxsən özləri tərəfindən yox, həm də **nümayəndələr tərəfindən bağlanır**. Məsələn, vətəndaş öz qonşusuna tapşırır ki, qonşu onun üçün bağ evi alsın. Qonşu nümayəndə rolunda çıxış edərək, vətəndaş adından, onun mənafeyi üçün və onun hesabına kontragentlə bağ evinin alqı-satqı müqaviləsi bağlayır. Bu cür münasibətlərdə üç kateqoriya subyekt çıxış edir: təmsil olunan şəxs; nümayəndə; kontragent.

Təmsil olunan şəxs onun adından və onun mənafeyinə əqd bağlamaq üçün nümayəndəyə tapşırıq verən şəxsdir. Məsələn, yuxarıdakı misalda vətəndaş təmsil olunan şəxs hesab edilir.

Nümayəndə dedikdə, təmsil olunan şəxs adından, onun mənafeyi üçün və onun hesabına kontragentlə müqavilə bağlayan şəxs başa düşülür. Yuxarıdakı misalda qonşu nümayəndə sayılır.

Kontragent odur ki, o, təmsil olunan adından nümayəndənin bağladığı əqddə qarşı tərəf rolunda çıxış edir. Ona **üçüncü şəxs də** deyilir. Məsələn, yuxarıdakı misalda bağ evinin sahibi (satıcı) kontragent hesab edilir.

Göründüyü kimi, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış əqdlər nümayəndəlik münasibətlərindən əmələ gəlir. Bu münasibətlərdən yalnız müəyyən şərtlər olduqda etibarsız əqdlər yarana bilər.

Birincisi, **təmsil olunana zərər vurmaq üçün nümayəndə ilə kontragent arasında pis niyyət barədə razılaşma olmalıdır**. Bu məqsəd onların qəsdən əlbir olmalarını ifadə edir. Həmin əqd isə təmsil olunan şəxsin iradəsini kontragentin nəzərinə çatdırmağa imkan vermir. Bu iradə gizlincə, qəsdən nümayəndənin iradəsi ilə dəyişilir, əvəz olunur.

İkincisi, **qəsdən əlbir olma təmsil olunan üçün arzuolunmaz, mənfi nəticəyə səbəb olmalıdır**. Bu nəticə təmsil olunanın əmlakının azalmasında, onun əmlakına zərər vurulmasında və s. ifadə oluna bilər.

Bir qayda olaraq, pis niyyətlə razılaşma fayda götürmək məqsədi (tamah məqsədi) güdür. Məsələn, yuxarıdakı misalda nümayəndə (qonşu) bağ evini satın alarkən kontragentə (bağ evi sahibinə) on min manat verir. Lakin onlar tamah məqsədilə razılığa gələrək, müvafiq alqı-satqı sənədini on beş min manat məbləğində rəsmiləşdirirlər. Beş min manat məbləğində pul isə qonşu ilə bağ evi sahibi arasında bölüşdürülür.

Amma tamah məqsədinin olub-olmamasının, bağlanmış əqddən əmlak (maddi) faydası götürmək niyyətinin mövcudluğunun və ya faktiki surətdə bu cür faydanın götürülməsinin əhəmiyyəti yoxdur. Bu qəbildən olan əqdləri etibarsız saymaq üçün əsas və vacib odur ki, nümayəndə və kontragent təmsil olunana zərər vurmaq məqsədilə pis niyyət barədə razılığa gəlsinlər[1].

Göstərilən növ əqdlər ona görə etibarsız sayılır ki, bu əqdlər daxili iradədən məhrumdur. İradə ifadəsini həyata keçirən nümayəndə təmsil olunan şəxsin iradəsini öz mənafeyi və ya kontragenti mənafeyi üçün təhrif edir. Buna görə də həmin əqdlər **zərərçəkən tərəfin iddiası məhkəmə tərəfindən etibarsız sayılır.**

Ona görə ki, etibarsız əqdin zərərçəkən şəxs üçün yaratdığı mənfi nəticənin könüllü yolla, məhkəməsiz aradan qaldırılması yəqin ki, mümkün olmayacaqdır. Şübhə yoxdur ki, tərəflərin öz aralarında əqdin etibarsız sayılması barədə razılığa gəlmələri mümkün deyildir.

Öz hərəkətlərinin mənasını başa düşməyən və onlara rəhbərlik edə bilməyən fiziki şəxsin bağladığı əqd daxili iradə olmadan bağlanan əqd kateqoriyasına aid edilir (MM-in 346-cı maddəsi). Bu kateqoriya şəxslərin mülki fəaliyyət qabiliyyəti vardır. Onlar psixi pozuntu nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxslər dairəsinə (mülki-hüquqi mənada anlaqsız şəxs kateqoriyasına) şamil edilmirlər. Onlar həm də anlaqsız vəziyyətində olan şəxslərə — cinayət-hüquqi mənada anlaqsız şəxslər kateqoriyasına aid olunmurlar[2]. Həmin şəxslər xüsusi kateqoriya şəxslər qrupuna daxil edilirlər.

Göstərilən xüsusi kateqoriyalı şəxslər mülki fəaliyyət qabiliyyətli olsa da, bəzən bu və ya digər halların təsiri nəticəsində öz hərəkətlərinin mənasını başa düşmür və ya onlara rəhbərlik edə bilmirlər. Əgər həmin şəxslər bu vəziyyətdə əqd bağlasalar, onun hüquqi əhəmiyyəti olmur və buna görə də həmin əqd etibarsız sayıla bilər. Məsələn, sərxoş vəziyyətində olan şəxs özünün iki min manatlıq qiymətli əşyasını (məsələn, bahalı zinət əşyasını) beş yüz min manata satır.

Göstərilən şəxslərin həmin vəziyyətə düşməsi müxtəlif hallarla bağlı ola bilər. Bu halların dairəsi qanunla müəyyənləşdirilmir. Amma mülki hüquq elmində onların müxtəlif növləri göstərilir: uzun sürən ağır xəstəlik nəticəsində əsəb sisteminin zəifləməsi; şəxs üçün ağır olan bu və ya digər hadisənin baş verməsi nəticəsində (məsələn, doğmalarından birinin ölümü) əsəb sarsıntısı; fiziki travma (iflic, kontuziya, odlu və ya soyuq silahdan yaralanma); alkoqoldan və ya narkotik maddələrdən sərxoş olma; müvəqqəti psixi pozuntu; huşun - şüurun itməsi və s. Bu halların nəticəsində şəxs öz iradəvi və ya əqli qabiliyyətini itirir.

Göstərilən kateqoriya şəxslərin bağladığı əqdin etibarsız hesab edilməsi barədə iddianı məhkəməyə həmin şəxsin özü verir. Bununla bərabər, əqd bağlanması nəticəsində hüquqları və ya qanunla qorunan mənafeləri pozulmuş digər şəxslər də (məsələn, ər-arvad, valideynlər və s.) iddia ilə məhkə-

[1] Bu barədə başqa bir fikir də səslənir ki, qəsdin təmsil olunan şəxsə zərər vurmaq məqsədilə edilməsinin əhəmiyyəti yoxdur (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1. М., 1999, с. 373).

[2] Cinayət-hüquqi mənada «anlaqsız vəziyyətində olmuş şəxs» kateqoriyası ilə mülki-hüquqi mənada «psixi pozuntu nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxs» kateqoriyası üst-üstə düşür.

məyə müraciət edə bilərlər. İddianı sonradan fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxs üzərində təyin edilən qəyyum da verə bilər. Belə ki, fiziki şəxs ruhi xəstəlik (psixi pozuntu, ağıl zəifliyi) şəraitində əqd bağlayır. Sonradan məhkəmə onun fəaliyyət qabiliyyəti olmayan şəxs sayılması barədə qərar çıxarır. Bu qərar əsasında həmin şəxs üzərində qəyyum təyin edilir. Qəyyum bu şəxsin məhkəməyə kimi hələ fəaliyyət qabiliyyəti olan zaman bağladığı əqdin etibarsız hesab edilməsi barədə iddia verə bilər. Lakin həmin əqd bağlandığı vaxt şəxsin öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi sübuta yetirilməlidir (MM-in 346-cı maddəsinin 2-ci bəndi). Belə halda şahid ifadələrindən, tibb orqanlarının rəylərindən, ekspert rəyindən və s. sübutetmə vasitəsi kimi istifadə edilir.

Məhkəmə iki hüquqi fakt (hüquqi tərkib) olduqda əqdin etibarsız hesab edilməsi barədə qərar qəbul edir: fiziki şəxsin öz hərəkətlərinin mənasını başa düşməməsi və ya onlara rəhbərlik edə bilməməsi; fiziki şəxsin bu vəziyyətdə əqd bağlaması.

İradəsi qüsurlu olan əqdlərin ikinci növünü **daxili iradəsi düzgün formalaşmayan əqdlər** təşkil edir. Bu qəbildən olan əqdlərin daxili iradəsi qüsurlu deyildir. Amma bu iradə onun əsl mahiyyətini təhrif edən halların təsiri altında formalaşır.

Aldatma nəticəsində bağlanmış əqd bu növ əqdlərə daxil edilir. Söhbət o əqdlərdən gedir ki, bu əqdlərin iştirakçılarından biri onun üçün sərfəli olan əqdi bağlamaq məqsədilə digər iştirakçını aldadır. Həmin əqd iştirakçısının mənafeyi üçün aldatmanı üçüncü şəxslər də həyata keçirə bilərlər. Belə halda üçüncü şəxslər onun icazəsi və tapşırığı ilə hərəkət edir.

Aldatma əqd iştirakçısının (kontragentin) və ya bunun mənafeyi üçün üçüncü şəxsin qəsdən etdiyi elə hərəkətdir ki, bu hərəkət nəticəsində digər əqd iştirakçısında əqd və onun elementləri, əqdin bağlanması üçün mühüm əhəmiyyəti olan hallar və faktlar barəsində qeyri-düzgün təsəvvür yaranır. Anoloji anlayış Almaniya mülki hüquq elmində də verilir: aldatma dedikdə, istənilən hər hansı elə bir davranış başa düşülür ki, bunun nəticəsində qəsdən başqa şəxsdə yanlış təsəvvür yaranır[1]. Yaponiya sivilistika elmində göstərilir: aldatma başqa şəxsi yanıltmaq üçün edilən elə bir qanunsuz hərəkətdir ki, bunun nəticəsində həmin şəxs iradəsini ifadə edir[2].

Aldatma, bir qayda olaraq, iki formada həyata keçirilir: fəal hərəkət formasında; passiv hərəkət formasında.

Fəal hərəkət formasında aldatma əqd iştirakçısına yalan, saxta məlumatlar verilməsi ilə müşayiət olunur. Məsələn, minik avtomobilinin sahibi satmamışdan qabaq qət olunan məsafəni (kilometrajı) alıcıdan gizlətmək üçün onun spidometrini və ya texniki pasportunu dəyişdirir. Bu vasitə ilə o, avtomobilin köhnəlmə dərəcəsini alıcıdan gizlətmək istəyir.

Passiv hərəkət formasında aldatma əqd iştirakçısının hərəkətsizliyində ifadə olunur. Belə ki, o, əqdin bağlanmasına mane ola biləcək hal və faktlar

[1] *Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 218.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 116.

barədə qəsdən susur. Məsələn, turist firması ekskursiya müddətində labüd əlavə xərclərin çəkilməsi barədə müştərilərə məlumat vermir. Başqa bir misalda satıcı malın qüsurlu olması barədə susur, danışmır. Podratçı tikdiyi obyektin qüsurlu olması barədə sifarişçiyə məlumat vermir. Satıcı alıcıya saxta keyfiyyət sertifikatı verir. Beləliklə, əqd iştirakçısı mövcud faktlar barədə natamam məlumat verir və ya onları gizlədir.

Aldatma həmişə **subyektiv cəhətdən qəsdlə xarakterizə olunur**. Təqsirin ehtiyatsızlıq formasında aldatma hərəkətləri edilmir: ehtiyatsızlıqla əqd iştirakçısını aldatmaq qeyri-mümkündür.

Aldatma yolu ilə bağlanmış əqdin etibarsız sayılması üçün əsas və başlıca şərt aldatmanın əqd bağlamaq məqsədilə həyata keçirilməsindən ibarətdir. Şəxs yalnız əqd bağlanması məqsədilə aldadıldıqda, həmin əqd etibarsız sayıla bilər (MM-in 339-cu maddəsinin 2-ci bəndi). Aldadan tərəfin aldatmadan maddi fayda götürmək və ya qarşı tərəfə zərər vurmaq kimi məqsəd güdməsinin əqdin etibarsız sayılması üçün əhəmiyyəti yoxdur (MM-in 339-cu maddəsinin 2-ci bəndi).

Aldatma təkcə əqdin əsas elementlərinə yox, həm də onun **fakultativ elementinə — əqdin motivinə də aid ola bilər**. Məsələn, vətəndaş xaricə köçüb getmək üçün pul əldə etmək niyyəti ilə qüsurlu olan minik avtomobilini satır. Vətəndaş alıcını inandırır ki, guya onun uşaqları xəstədir və müalicə, dava-dərman üçün pul lazımdır. Ona görə də avtomobili ucuz qiymətə satır.

Şübhə yoxdur ki, mübahisə yarandıqda aldadan tərəf etibarsız əqd üzrə aldığını könüllü surətdə zərərçəkən tərəfə qaytarmayacaqdır. Digər tərəfdən tərəflərin əqdin etibarsızlığı barədə öz aralarında razılığa gəlmələri şəksizdir. Odur ki, məsələ məhkəmə qaydasında həll olunur.

Aldatma yolu ilə bağlanan əqdin etibarsız hesab edilməsi barədə **iddia zərərçəkən əqd iştirakçısı tərəfindən** verilir. Məhkəmə həmin iddiaya mahiyyətcə baxaraq, əqdin etibarsız hesab edilməsi barədə müvafiq qərar çıxarır.

Şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqd daxili iradəsi düzgün formalaşmayan əqdə aiddir (MM-in 339-cu maddəsi). Hüquq ədəbiyyatında buna son dərəcə ağır şərtli əqd deyilir[1].

Son dərəcə ağır şərtli əqd dedikdə, şəxsin ağır vəziyyətə düşməsi nəticəsində onun üçün açıq-aşkar əlverişsiz şəraitdə məcburən bağladığı əqd başa düşülür. Bu əqd onunla xarakterizə edilir ki, həmin əqdi bağlayan şəxsin daxili iradəsi onun normal formalaşdırılmasına mane olan halların təsiri altında yaranır. Elə halların ki, bu hallar şəxsi onun üçün son dərəcə əlverişsiz şəraitdə əqd bağlamağa vadar edir. Məsələn, fiziki şəxsin birdən-birə çox böyük məbləğdə borcu yaranır. Kreditorlar (borc tələb edən şəxslər) borcun dərhal və ləngimədən ödənilməsini tələb edirlər. Bu tələbi təmin etmək məqsədilə şəxs öz bahalı minik avtomobilini yarı qiymətə satır. Göründüyü kimi, şəxsin iradəsinin formalaşmasına təsir göstərən hal kontragentdən asılı olmayaraq yara-

[1] Bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева.* М., 1997, с. 186; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого.* М., 1998, с. 253; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой.* М., 1998, с. 227; Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова.* М., 1999, с. 374.

nır. Bununla o, aldatmadan fərqlənir. Belə ki, aldatma kontragent və ya onun icazəsi ilə üçüncü şəxs tərəfindən həyata keçirilir.

Amma kontragent həmin halı dərk edir, başa düşür və bundan onun özü üçün sərfəli, əlverişli olan əqdin bağlanması məqsədilə istifadə edir. Həmin əqd isə zərərçəkən fiziki şəxs üçün son dərəcə sərfəli deyildir. Bundan əlavə, zərərçəkən fiziki şəxs bağladığı əqdin son dərəcə ağır şərtli əqd olduğunu anlayır və başa düşür. O, şüurlu surətdə dərk edir ki, məhz yaranmış ağır vəziyyət onu bu cür əqd bağlamağa məcbur etmişdir.

Son dərəcə ağır şərtli əqdi etibarsız hesab etmək üçün üç əsas faktın olması gərəkdir[1]: şəxsin ağır vəziyyətə düşməsi faktı; əqd şərtinin açıq-aşkar qeyri-sərfəli olması; kontragentin təqsiri.

Şəxsin ağır vəziyyətə düşməsi dedikdə, bir qayda olaraq, onun çətin maddi (əmlak) və maliyyə vəziyyəti ilə üzləşməsi başa düşülür. Bu, hər şeydən əvvəl, pul və digər zəruri maddi vəsaitlərin olmamasında ifadə edilir. Şəxsin düşdüyü ağır vəziyyət şəxsi amillərlə də bağlı ola bilər. Bundan əlavə, onun doğmalarının (ərin-arvadın, valideynlərinin, uşaqların, yaxın qohumların və s.) ağır vəziyyətə düşməsi mümkündür, bu, istisna olunmur. Göstərilən vəziyyətə konkret bir neçə misal çəkə bilərik: fiziki şəxsin uşağının ağır xəstələnməsi; böyük məbləğdə birdən-birə borcun yaranması; şəxsin müflisləşməsi; vətəndaşın köçkün və qaçqın düşməsi və s.

Əqd şərtinin açıq-aşkar qeyri-sərfəli olması dedikdə, əqdin zərərçəkən şəxs üçün son dərəcə əlverişsiz şərtlə bağlanması başa düşülür. Bu, o deməkdir ki, əqd üzrə zərərçəkən tərəf etdiyi hərəkətin müqabilində kontragentdən qeyri-bərabər, qeyri-ekvivalent, qeyri-mütənasib haqq və ya digər qarşılıqlı əvəz alır. Məsələn, öz xəstə uşağını xarici ölkəyə müalicəyə aparmaq məqsədilə lazımi pul əldə etmək üçün ata bağ evini çox ucuz qiymətə satır. Öz yaşayış yerindən didərgin düşmüş məcburi köçkün zəruri ərzaq məhsulları almaq üçün qızıl-zinət şeylərini «su qiyməti»nə satır. Təxirəsalınmaz vacib məsələni həll etmək üçün vətəndaş öz qonşusundan çox yuxarı faizə borc pul götürür.

Kontragentin təqsiri dedikdə, onun şəxsin ağır vəziyyətə düşdüyünü bilməsi və özü üçün sərfəli olan əqdin bağlanması məqsədilə bu vəziyyətdən istifadə etməsi başa düşülür. O, həmin vəziyyətdən öz mənafeyi üçün istifadə edir. Lakin kontragentin təqsiri sübuta yetirilməlidir. Söz yox ki, sübutetmə yükünü zərərçəkən tərəf çəkir.

Məlum məsələdir ki, mübahisə yarandıqda kontraegent etibarsız əqd üzrə aldığını könüllü surətdə zərərçəkənə qaytarmayacaqdır. Buna görə də mübahisə məhkəmə qaydasında həll olunur. Həm də ona görə ki, tərəflərin öz aralarında əqdin etibarsızlığı barədə razılığa gəlmələri mümkün olan məsələ deyil; digər tərəfdən əqdin qüsurlu olmasını sübut etmək tələb edilir ki, bunu ancaq məhkəmə edə bilər.

Göstərilən üç fakt mövcud olduqda, işin konkret hallarını nəzərə alaraq, məhkəmə son dərəcə ağır şərtli əqdin etibarsız sayılması barədə qərar qəbul

[1] Bəzi müəlliflər iki əsas faktın olmasını göstərirlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 261; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 372).

edir. Məhkəmə şəxsin ağır vəziyyətə düşməsi faktı ilə həmin şəxsin əqd bağlaması arasında səbəbli əlaqənin olmasını, habelə kontragentin həmin şəxsin düşdüyü ağır vəziyyətdən xəbərdar olub-olmamasını müəyyənləşdirməlidir. Göstərilən əqdin **etibarsız sayılması barədə iddianı zərərçəkən əqd iştirakçısı** verir.

Yanılmanın təsiri altında bağlanmış əqd daxili iradəsi düzgün formalaşmayan əqd kateqoriyasına şamil edilir (MM-in 347-ci maddəsi). Aldatma kimi yanılma da əqd və onun elementləri barədə qeyri-düzgün təsəvvür yaradır. Lakin aldatmadan fərqli olaraq, **yanılma kontragentin qəsdən etdiyi hərəkətlər nəticəsində əmələ gəlmir**. Belə ki, yanılma nəticəsində iradə və onun xaricən ifadəsi bir-birindən ayrılır, onlar arasında ziddiyyət yaranır. Bu cür ayrılıq və ziddiyyət qəsdlə, qərəzlə, məqsədlə və bilərəkdən (bilə-bilə) əmələ gəlmir[1]. Əgər kontragent qəsdən aldadıcı hərəkətlər edərsə, belə halda yanılma nəticəsində yox, aldatma nəticəsində bağlanan əqd göz qabağındadır. Yanılmadan fərqli olaraq, aldadıcı hərəkətlər həmişə qəsdlə edilir.

Yanılmada əqd iştirakçısının daxili iradəsi təhrif olunmaqla formalaşır. Bu cəhəti ilə o, aldatmaya oxşayır.

Yanılma odur ki, bunun nəticəsində əqd haqqında və ya onun əsas elementləri barəsində səhv və yanlış təsəvvür yaranır. Yanılma şəxsin (iradəsini bildirənin) əsl cəhdi və arzusu ilə iradə ifadəsi arasında uyğunsuzluq, üst-üstə düşməmə deməkdir[2]. Onun əmələ gəlməsi, əsasən, iki halla bağlıdır: birincisi, əqd iştirakçısı əqdin bağlanması üçün əhəmiyyəti olan hallar və faktlar barəsində düzgün təsəvvürə malik olmur; ikincisi, yanılma kontragentin qeyri-düzgün davranışı ilə bağlı olaraq yarana bilər. Yanılmanın əmələ gəlmə səbəbinin əhəmiyyəti yoxdur. Beləliklə, yanılma dedikdə, şəxsin faktiki hallar barədə düzgün olmayan təsəvvürü başa düşülür. Bu cür qeyri-düzgün, yanlış təsəvvür nəticəsində də şəxs öz iradəsini ifadə edir.

Yanılma nəticəsində bağlanan əqdi etibarsız hesab etmək üçün təkcə yanılma faktının olması kifayət etmir. Bunun üçün lazımdır ki, **yanılma mühüm (vacib) xarakterə malik olsun.** Yalnız mühüm (vacib) əhəmiyyətli yanılma olduqda, əqd etibarsız hesab edilə bilər. Qanunvericilik mühüm (vacib) əhəmiyyətli yanılma hallarına aid edir:

- **əqdin xarakterinə aid olan hal**, yəni şəxsin razılıq verdiyi əqdi deyil, başqa əqdi bağlaması (məsələn, şəxs pulu öz qohumuna saxlamağa verir, qohum olan şəxs isə səhvən belə hesab edir ki, pul ona borc verilmişdir. Başqa bir misalda vətəndaş televizoru öz qonşusuna əvəzsiz istifadəyə verir, qonşu isə səhvən belə hesab edir ki, televizor ona bağışlanmışdır);
- şəxsin bağlamağı arzuladığı **əqdin məzmunu barəsində səhvə** yol verməsi, yanılması (məsələn, şəxs bağışlama müqaviləsi bağlamasını arzu edir, amma o biri tərəf belə hesab edir ki, əşya kirayəyə verilmişdir);
- əqdə şərt kimi daxil edildikdə, **əqdin motivi barəsində** yanılma (qalan hallarda əqdin motivi barəsində yanılmanın əhəmiyyəti yoxdur); söhbət əqdin

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 197.

[2] *Сакаэ Ватацума, Тору Арицдзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 114.

motivinin razılaşma predmeti olmasından gedir (məsələn, cins at əvəzinə yükdaşıyan-qoşqu at alınır);

• **əqdin predmeti barəsində** yanılmaya yol verilməsi (məsələn, alıcı hesab edir ki, o, qızıl əşya almışdır, əşya isə qızıl suyuna çəkilmişdir);

• **kontragentin şəxsiyyəti barəsində** yanılma, əgər əqdin bağlanması üçün kontragentin şəxsiyyəti və şəxsi keyfiyyətlərinin nəzərə alınması başlıca əsas olmuşdursa (məsələn, əşyanın hissə-hissə ödənilməsini nəzərdə tutan alqı-satqı müqaviləsində alıcının şəxsiyyətində satıcı yanılır və ya öz portretinin çəkilməsini sifariş edən vətəndaş rəssamın şəxsiyyətində yanılmaya yol verir)[1].

Yanılma istənilən xarici halın təsiri, üçüncü şəxsin davranışı və ya tərəflərin ehtiyatsızlığı nəticəsində əmələ gələ bilər. Məsələn, vətəndaş məşhur rəssamlardan birinin çəkdiyi şəkli (tablonu) alır. Vətəndaş da, satıcı da belə hesab edirlər ki, satılan tablo şəklin əslidir. Sonradan məlum olur ki, o, həmin şəklin yaxşı işlənilmiş surətidir. Başqa bir misalda məhkəmə tərəfindən fianit sırğaların alqı-satqı müqaviləsi etibarsız hesab edilir. Ona görə ki, hər iki tərəf əqd bağlayanda əqdin predmetinin təbii daşlardan ibarət olmasını güman etmişdilər[2].

Göstərilən növ əqdlər mübahisə edilən əqdlərə aid edilir. Əgər belə əqdlərin etibarsız sayılması barədə tərəflər arasında razılıq olmazsa, onlar **yanılmanın təsiri altında hərəkət etmiş tərəfin iddiası üzrə məhkəmə** tərəfindən etibarsız hesab edilir.

Bəzi hallarda yazılı əqdlər bağlanarkən xırda səhvlər buraxılır. **Xırda səhvlər** dedikdə, mühüm və vacib əhəmiyyəti olmayan səhvlər başa düşülür. Bu səhvlər əqdin qüsurlu olmasına dəlalət edir. Lakin buna baxmayaraq, qanun xırda səhvlərin düzəlişinə yol verir. Bu, əqdin düzəlişi adlanır. **Əqdin düzəlişi** dedikdə, əvvəlcə qüsurlu olan əqdin sonradan tam hüquqi qüvvəyə malik olması başa düşülür. Məsələn, müqavilədə tərəflərdən birinin yaşadığı mənzilin sayı və ya onun atasının adı səhv göstərilir. Xırda səhvlər əqdi mübahisə edilən (etibarsız) əqd saymağa əsas vermir. Mühüm (vacib) səhv, yəni yanılma əqdin etibarsızlığına səbəb olur. Puç əqdlərdə düzəliş edilmir.

3. Forması qüsurlu olan əqdlər

Biz əvvəlki 3-cü paraqrafda bu məsələni ətraflı nəzərdən keçirmişik. Ona görə də həmin məsələni yenidən işıqlandırmağa ehtiyac yoxdur və bunu lazım bilmirik.

[1] 1964-cü il Mülki Məcəlləsindən fərqli olaraq, Azərbaycan Respublikasının yeni MM-i mühüm (vacib) əhəmiyyətli yanılma hallarının dəqiq və qəti siyahısını verir. Elə hesab edirik ki, qanunvericinin belə yanaşması məsələnin daha düzgün həll edilməsinə imkan vermir. Hüquq ədəbiyyatında çox haqlı olaraq göstərildiyi kimi, yanılma əqdin istənilən hər hansı elementinə aid ola bilər (*Рабинович Н.В.* Недействительность сделки и ее последствия ЛГУ. 1960, с. 64-65; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1968, с. 265; *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 279-280; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 222). Məhkəmə praktikası da bu mövqedə dayanır (bax: ВВС РСФСР. 1971. № 1, с. 2.). Köhnə qanunvericilik məhdudlaşdırıcı siyahı nəzərdə tutmayaraq, bu məsələni daha düzgün həll edirdi.

[2] bax: Бюллетень Верховного Суда РСФСР. 1986. № 4, с. 9.

Əqdin formasına aid olan tələb onun etibarlı olmasına dəlalət edən şərtlərdən biridir. Əgər həmin şərt pozulsa, onda bu əqdin etibarsızlığına səbəb ola bilər. Özü də dərhal qeyd etməliyik ki, bu cür tələb şifahi formada bağlanmış əqdlərə şamil edilmir. Ona görə ki, əqdlərin şifahi formasına əməl edilməməsini və riayət olunmamasını təsəvvürə gətirmək mümkün deyildir. Əqdin formasına aid olan tələb yalnız yazılı formalı əqdlərə aiddir. Belə ki, qanun ancaq yazılı formalı əqdlərin etibarsızlığını müəyyənləşdirir və nəzərdə tutur. Yalnız yazılı formalı əqdlərin formaca qüsurlu olmasından söhbət gedə bilər.

Əqdlərin formaca qüsurlu olması əqdin qanunla (Mülki Məcəllə ilə) və ya tərəflərin razılaşması ilə müəyyən edilmiş sadə yazılı formasına və ya notarial formasına əməl edilməməsindən, habelə əqdlərdən əmələ gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinə riayət olunmamasından ibarətdir.

Ümumi qaydaya görə, əqdin sadə yazılı formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur (MM-in 329-cu maddəsinin 1-ci bəndi). Belə ki, qanunda və ya tərəflərin qarşılıqlı razılığı ilə əqdin sadə yazılı formada bağlanması nəzərdə tutula bilər. Əgər əqd bu forma tələbinə riayət etməməklə bağlanarsa, etibarsız hesab edilir, bir şərtlə ki, qanunda başqa hal müəyyən edilməsin.

Sadə yazılı formanın pozulması yalnız o halda əqdin etibarsızlığına səbəb olur ki, bu cür nəticə qanunda (Mülki Məcəllədə) birbaşa nəzərdə tutulsun. Mülki Məcəllədə bəzi əqdlərin sadə yazılı formasına riayət edilməməsinin onların etibarsızlığına səbəb olması barədə göstəriş vardır: dəbbə pulu (cərimə, penya) haqqında saziş; girov haqqında müqavilə; zaminlik müqaviləsi və s. Belə ki, girov müqaviləsi sadə yazılı formada bağlanmalıdır (MM-in 280-ci maddəsinin 1-ci bəndi). Mülki Məcəllə göstərir ki, əgər girov müqaviləsi sadə yazılı formada bağlanmazsa, etibarsız hesab edilir (MM-in 280-ci maddəsinin 4-cü bəndi). Dəbbə pulu haqqında razılaşma sadə yazılı formada olmalıdır. Sadə yazılı formaya riayət edilməməsi dəbbə pulu haqqında razılaşmanın etibarsızlığına səbəb olur (MM-in 963-cü maddəsi). Zaminlik müqaviləsi sadə yazılı formada bağlanmalıdır. Sadə yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur (MM-in 471-ci maddəsi). Əgər Mülki Məcəllədə (qanunda) əqdin yazılı formasına riayət edilməsinin onun etibarsızlığına səbəb olması barədə birbaşa göstəriş ifadə edilməzsə, onda da əqdin sadə yazılı formasına əməl edilməməsi onun etibarsızlığına səbəb olacaqdır.

Ona görə ki, mülki qanunvericilik ümumi şəkildə müəyyən edir: qanunla müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanmış əqd etibarsızdır (MM-in 329-cu maddəsinin 1-ci bəndi). Məsələn, qanun müəyyən edir ki, faktorinq müqaviləsi yazılı formada bağlanır (MM-in 655-ci maddəsinin 5-ci bəndi). Lakin burada göstərilmir ki, bu müqavilənin yazılı formasına riayət edilməməsi faktorinq müqaviləsinin etibarsızlığına səbəb olur. Amma buna baxmayaraq faktorinq müqaviləsi əgər yazılı formada bağlanmazsa, etibarsız sayılacaqdır. Bu sözləri beh haqqında razılaşma (MM-in 491-ci maddəsinin 2-ci bəndi), lizinq müqaviləsi (MM-in 748-ci maddəsinin 1-ci bəndi) və digər əqdlər barədə də söyləmək olar.

Əgər tərəflərin qarşılıqlı razılığı ilə əqdin sadə yazılı formada bağlanması

müəyyənləşdirilərsə, bu formaya riayət edilməməsi həmin əqdin etibarsızlığına səbəb olacaqdır (həmin əqddə belə göstərişin olmasından asılı olmayaraq). Məsələn, tərəflər öz aralarında sadə yazılı formada kirayə müqaviləsi bağlamaq barədə razılığa gəlirlər. Amma müqavilədə tərəflər bu formaya riayət edilməməsinin onun etibarsızlığına səbəb olması barədə göstəriş nəzərdə tutmurlar. Lakin buna baxmayaraq, əgər onlar yazılı formaya əməl etməsələr, müqavilə etibarsız sayılacaqdır. Bu, MM-in 329-cu maddəsinin 1-ci bəndində ifadə olunan göstərişdən irəli gəlir.

Əqdin notarial formasının pozulması onun etibarsızlığına səbəb olur. Bunun üçün vacib deyildir ki, MM-in konkret normalarında (maddələrində) **əqdin notarial formasına riayət edilməməsinin onun etibarsızlığına səbəb olması barədə göstəriş olsun**. Madam ki, qanun müvafiq əqd üçün notarial forma müəyyənləşdırmişdir, bu formaya da əməl olunmalıdır və əgər olunmazsa, nəmin əqd etibarsız hesab edilir. Bu qaydanın qanunun konkret maddələrində təsdiqlənməsinə ehtiyac yoxdur. Məsələn, daşınmaz əşyaların alqı-satqı müqaviləsi üçün qanun notarial forma nəzərdə tutur (MM-in 647-ci maddəsi). Lakin qanun konkret olaraq, həmin formaya əməl edilməməsinin müqavilənin etibarsızlığına səbəb olması haqqında göstəriş ifadə etmir. Amma buna baxmayaraq, müqavilənin forması barədə şərt pozulsa, o, etibarsız hesab ediləcəkdir. Bu, MM-in 329-cu maddəsinin 1-ci bəndində ifadə olunan göstərişdən irəli gəlir.

Əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinin pozulması həmin əqdin etibarsızlığına səbəb olur. Belə halda da etibarsızlıq haqqında nəticənin MM-in konkret normalarında nəzərdə tutulmasına ehtiyac yoxdur. Bu, o deməkdir ki, əqddən irəli gələn hüquqların qeydə alınması tələbinə riayət edilməməsi avtomatik olaraq, nəticənin qanunun konkret normalarında göstərilməsindən asılı olmayaraq, həmin əqdin etibarsızlığına səbəb olur. Məsələn, qanunda ipoteka haqqında müqavilənin daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması barədə göstəriş ifadə olunmuşdur (MM-in 309-cu maddəsinin 1-ci bəndi). Amma qanun konkret normada bu müqavilənin dövlət qeydiyyatına alınması haqqında tələbin pozulmasının onun etibarsızlığına səbəb olması barədə göstəriş nəzərdə tutmur. Lakin buna baxmayaraq, əgər həmin tələbə riayət edilməzsə, ipoteka müqaviləsi etibarsız hesab edilir. Bu, MM-in 329-cu maddəsinin 1-ci bəndində ifadə olunan göstərişdən irəli gəlir.

4. Məzmunu qüsurlu olan əqdlər

Əqdin məzmunu dedikdə, onun bütün bağlanma şərtlərinin məcmusu başa düşülür. Şərtlər isə qanun və digər hüquqi aktların tələblərinə zidd olmamalıdır. Bu isə o deməkdir ki, əqd onun bağlandığı vaxt qüvvədə olan qanunla və digər hüquqi aktlarla müəyyənləşdirilən, əqd iştirakçıları üçün məcburi olan qaydalara (imperativ normalara) uyğun gəlməlidir. Məsələn, qanun göstərir ki, borc müqaviləsinin predmeti yalnız cinsi əlamətləri ilə müəyyən edilən, əvəz olunması mümkün olan əşyadan (o cümlədən puldan) ibarət ola bilər (MM-in 739-cu maddəsi). Buna görə də tərəflər fərdi əlamətləri ilə müəyyən edilən əşyanın (məsələn, vətəndaşa məxsus olan konkret mənzilin) borc müqaviləsinin predmeti olması kimi şərt barədə razılığa gələ bilməzlər. Qanun müəyyən edir ki, girov müqaviləsinin predmeti rolunda yalnız daşınar əşyalar çıxış edə bilər (MM-in 276-cı maddəsi). Deməli, tərəflər daşınmaz əşyanı həmin müqavilənin predmetinə dair şərt kimi nəzərdə tuta bilməzlər.

Bəzi hallarda əqd iştirakçılarının nəzərdə tutduqları şərtlər qanun və digər hüquqi aktların tələblərinə zidd gəlir. Bu cür əqdlər məzmunu qüsurlu olan əqdlər adlanır.

Şərtləri qanunun və digər hüquqi aktların tələblərinə uyğun gəlməyən əqdlərə məzmunu qüsurlu olan əqdlər deyilir. Bu əqd o halda yaranır ki, əqdin məzmununa aid şərtlər pozulsun və onlara riayət olunmasın.

Almaniya qanunvericiliyində və doktrinasında «yol verilməyən əqdlər» anlayışı işlədilir. Yol verilməyən əqdlər dedikdə, qanunda nəzərdə tutulan qadağanı pozan əqdlər, habelə qanunun tələblərinə riayət etməməklə bağlanan əqdlər başa düşülür[1]. Yaponiya mülki hüququna məcburi göstərişlərə riayət etməməklə bağlanan əqd növü məlumdur (MM-in 91-ci maddəsi). Məcburi göstərişlər dedikdə, qanunun ictimai qayda haqqında müddəaları başa düşülür[2].

Məzmunu qüsurlu olan əqdlərin bir neçə növü vardır. Həmin əqd növləri içərisində **hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqd** xüsusi yer tutur (MM-in 339-cu maddəsi). Bu cür əqd növü ilk dəfədir ki, bizim ölkə qanunvericiliyində nəzərdə tutulur. Köhnə 1964-cü il MM-də belə əqd nəzərdə tutulmurdu. Köhnə qanunvericilik dövlətin və cəmiyyətin mənafeyinə zidd məqsədlə bağlanan əqd növünü tənzimləyirdi (1964-cü il MM-nin 45-ci maddəsi).

Hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər MM-in 339-cu maddəsi ilə tənzimlənir. Bu maddənin mətnində həmin əqd növünün əsas və mühüm əlamətləri göstərilmir.

Hakimiyyətdən sui-istifadə dedikdə, hakimiyyət funksiyasını həyata keçirən dövlət orqanlarının vəzifəli şəxsinin qəsdən öz vəzifəsindən istifadə etməklə tamah məqsədi ilə və ya sair şəxsi marağı üzündən dövlət mənafeyinə və ya cəmiyyətin ictimai mənafeyinə, yaxud vətəndaşların qanunla qorunan hüquq və mənafeyinə mühüm zərər vurması başa düşülür. Məhz bu səbəbdən hakimiyyətdən sui-istifadə nəticəsində bağlanan əqdlər dövlət və cəmiyyətin mənafeyinə qəsd edir, qüvvədə olan qanunvericiliyi pozur, ölkənin iqtisadi təhlükəsizliyinə xələl gətirir. Ümumiyyətlə, bu əqdlər hüquq normalarının elə tələblərini pozur ki, həmin tələblər ölkənin Konstitusiya quruluşunun əsaslarını, dövlətin iqtisadi sistemini və müdafiə qabiliyyətini, vətəndaşların hüquq və azadlıqlarını müdafiə etməyə və qorumağa yönəlmişdir.

Hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər, hər şeydən əvvəl, ümumi mənafeyi, yəni cəmiyyətin (ictimai) və dövlətin mənafeyini pozur. Ona görə də onlar antisosial xarakterə malikdir. Məhz bu səbəbdən həmin

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 265-266.

[2] *Сакаэ Ваташума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 107.

əqdləri **antisosial əqd kateqoriyasına aid edə** bilərik[1].

Yaponiya mülki qanunvericiliyinə ictimai (ümumi) qaydaya və xoşməramlı adətlərə zidd olan əqd növü məlumdur. Bu növ əqdlər etibarsız sayılır (MM-in 90-cı maddəsi). Bu iki anlayış heç də həmişə bir-birindən fərqləndirilmir. İctimai qayda anlayışı dövlət və cəmiyyətin mənafeyi ilə bağlıdır. Xoşməramlı adətlər isə mənəvi xarakterli kateqoriyadır. Almaniya mülki qanunvericiliyinə isə xoşməramlı adətləri pozan əqd növü məlumdur (MQ-nin 138-ci paraqrafı).

Hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər, hər şeydən əvvəl, xarici iqtisadi münasibətlərdə, maliyyə-bank, pul-kredit, vergi, xarici valyuta, pul dövriyyəsi, büdcə işi, sığorta fəaliyyəti və digər sahələrdə bağlanılır. Ölkənin strateji əhəmiyyətli məhsullarını (neft məhsullarını, pambığı, müxtəlif metal növlərini və s.) qanunsuz olaraq xarici şəxslərə satmaq, qanunsuz silah alverini və s. bu cür əqdlərə misal çəkə bilərik.

Hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlərin **obyektiv tərəfini** qanunun tələblərinin pozulmasına yönələn hərəkətlər təşkil edir. Çox vaxt cinayət hərəkətləri bu əqdin obyektiv tərəfi qismində çıxış edir.

Həmin əqdin **subyektiv tərəfi** həmişə qəsdlə xarakterizə edilir. Bu cür əqdin etibarsız hesab edilməsi üçün vacibdir ki, subyektiv meyar mövcud olsun, yəni əqd iştirakçılarından, heç olmazsa, birinin qəsd formasında təqsiri olsun[2].

Hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər **spesifik subyekt tərkibinə** malikdir. Bu əqdlərdə iştirak edən subyektlərdən biri, heç olmazsa, hakimiyyət nümayəndəsi olmalıdır. **Hakimiyyət nümayəndəsi** dedikdə, hakimiyyət funksiyasını həyata keçirən dövlət orqanlarının vəzifəli şəxsləri başa düşülür. Əqdin digər tərəfi (kontragent) rolunda isə həm fiziki, həm də hüquqi şəxslər, o cümlədən xarici şəxslər çıxış edə bilər.

Göstərilən əqd məhkəmə qaydasında etibarsız hesab edilə bilər. Bunun üçün **zərərçəkən tərəfin iddia ilə məhkəməyə müraciət etməsi** tələb edilir. Məhkəmə yolundan o halda istifadə oluna bilər ki, tərəflər əqdin etibarsızlığı barədə öz aralarında razılığa gəlməsinlər. Digər tərəfdən əqdin qüsurunu sübuta yetirmək tələb edilsin.

Məzmunu qüsurlu olan əqdlərin bir növünü uydurma əqdlər təşkil edir (MM-in 340-cı maddəsinin 1-ci bəndi). Bu, puç (əhəmiyyətsiz) əqddir. Çünki həmin əqd, əqdin belə bir hüquqi əlamətindən məhrumdur ki, əqd həmişə hüquqi nəticə əldə etmək niyyəti ilə bağlanır və hüquqi məqsədin həyata keçirilməsinə yönəlir.

Uydurma əqd odur ki, bu əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti ilə deyil, yalnız görünüş üçün bağlanılır. Bu əqdi bağlamaqla tərəflər başa düşür və dərk edirlər ki, həmin əqd üzrə hər hansı hüquqi nəticə, yəni onlar üçün hüquq və vəzifələr əmələ gəlmir. Əqd iştirakçıları bununla bir növ hüquqi illüziya (görünüş) yaradaraq, tam başqa məqsəd güdürlər. Özü də bu məqsəd, adətən, hüquqazidd xarakter daşıyır: vergi ödəməkdən boyun qaçırmaq məqsədilə uydurma əqd bağlamaq; cinayət yolu ilə əldə edilmiş əmlakı müsadirə olunmaqdan xilas etmək üçün uydurma əqd bağlamaq; əmlakı bölünən ümumi əmlaka daxil etməmək məqsədi ilə uydurma əqd bağlamaq; borc öhdəliyini icra etməkdən boyun qaçırmaq üçün uydurma əqd bağlamaq və s. Məsələn, müsadirədən yaxa qurtarmaq üçün vətəndaş öz qonşusu ilə belə bir bağışlama müqaviləsi bağlayır ki, guya o, minik avtomobilini qonşuya bağışlayır. Boşanma zamanı ər-arvad arasında ümumi əmlak bölünərkən ər öz dostu ilə belə bir bağışlama müqaviləsi bağlayır ki, guya o, bağ evini dostuna bağışlamışdır.

Göstərilən hal əsas verir ki, bu əqdlərə qanunazidd və buna görə də məzmunu qüsurlu olan əqd kimi baxılsın. Bundan əlavə, uydurma əqdlər hüquqi məqsədi (əsası) olmayan əqdlərdir. Buna görə də onlar hüquqi nəticənin əmələ gəlməsinə — tərəflər üçün mülki hüquq və vəzifələrin yaranmasına səbəb olmur. Bu cəhət isə hüquq ədəbiyyatında həmin əqdlərin **saxta (fiktiv) əqdlər** adlandırılması üçün əsas olmuşdur[1]. Yaponiya mülki hüquq elmində həmin növ əqdlərə məhz saxta (fiktiv) əqdlər deyilir (MM-in 94-cü maddəsi).

Uydurma əqdləri bağlamaqda tərəflər müxtəlif məqsədlər güdürlər. Onlar həm ailə-məişət, həm şəxsi, həm də əmək (iş) və s. münasibətlərinə aid ola bilər. Məsələn, bağ evinin sahibi həmin evi ucuz qiymətə kirələmək istəyən vətəndaşdan yaxasını qurtarmaq üçün öz qonşusu alimlə belə bir kirayə müqavilə bağlayır ki, guya bağ evi həmin alimə kirayəyə verilmişdir. Amma əslində o, bağ evini alimə kirayəyə vermir və alimdən hər hansı kirayə haqqı almır.

Uydurma əqdlər mütləq etibarsız (puç) əqdlərdir. Hər hansı hüquqi nəticə — tərəflər üçün hüquq və nəticələr yaratmadığına görə, təbii ki, bu cür əqdlərin etibarsızlığının da nəticəsi olmur.

Məzmunu qüsurlu olan əqdlərin digər növü yalan əqdlər adlanır (MM-in 340-cı maddəsinin 2-ci bəndi). Uydurma əqdlərə yaxın olduğuna görə bu əqdlər hüquq ədəbiyyatında saxta (fiktiv) əqd kateqoriyasına şamil edilir[2]. Yalan əqdlər, uydurma əqdlər kimi, görünüş üçün bağlanır, hüquqi məqsəd (əsas) güdmür, özlüyündə hər hansı hüquqi nəticə yaratmır. Bu baxımdan hər iki əqd növü eyniləşir[3].

Bu əqd növləri arasında fərqli cəhət də vardır. Belə ki, uydurma əqdlərin arxasında hüquqi əhəmiyyətə malik olan hər hansı hərəkət yoxdur; bu əqdlər yalnız görünüş üçün bağlanılır. Bundan fərqli olaraq, **yalan əqdlərin arxasında hüquqi əhəmiyyətə malik olan əqd (hüquqi hərəkət) durur**. Yalan əqd bu əqdi (hüquqi hərəkəti) pərdələyir, maskalayır.

Yalan əqd odur ki, bu əqd başqa əqdi pərdələmək üçün bağlanılır. Burada iki əqddən söhbət gedir: pərdələnən əqddən; pərdələyən əqddən. **Pərdələnən əqd** tərəflərin hüquqi nəticə əldə etmək məqsədilə həqiqətən bağladıqları

[1] Antisosial əqdlərin əsas əlaməti ondan ibarətdir ki, bu əqdlər ümumi mənafeyə (dövlət və ictimai, yəni cəmiyyət mənafeyinə) mühüm zərər vurur, onu pozur (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1968, с. 254; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 254).

[2] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 293.

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 192; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 360.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 192. Zənn edirik ki, belə əqdlər «qondarma əqdlər» adlandırılsa, daha düzgün olardı və yerinə düşərdi.

[3] Yaponiya mülki hüququna görə, yalan əqdlər məcburi göstərişlərə riayət etməməklə bağlanan əqd kateqoriyasına aid edilir (*Сакэ Вагацума, Тору Аридзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 108).

əqddir (**həqiqi əqd**). **Pərdələyən əqd** isə həqiqi əqdin mahiyyətini və əsl xarakterini üçüncü şəxslərdən gizlətmək üçün, onu pərdələmək (maskalamaq) məqsədilə bağlanan əqddir (**yalan əqd**). Məsələn, maddi cəhətdən imkanlı olan kommersant əliaçıqlıq göstərərək, öz bağ evlərindən birini dostuna bağışlayır. Bu, həqiqi əqddir. Kommersant səs-küyə səbəb olmamaq niyyəti ilə, özünü «dilə-dişə salmamaq üçün», «gözə gətirməmək üçün» dostu ilə alqı-satqı müqaviləsi bağlayır. Bu isə yalan əqddir. Onun əsas məqsədi həqiqi əqdi — bağışlama müqaviləsini pərdələməkdən ibarətdir.

Yalan əqdlərin ən geniş yayılmış növü bağışlama müqaviləsidir ki, bu müqavilə alqı-satqı müqaviləsini pərdələmək niyyəti ilə bağlanılır. Məqsəd isə notariat qaydasında müqavilənin təsdiqlənməsi zamanı nisbətən az məbləğdə dövlət rüsumu ödəməkdən ibarətdir. Belə ki, bağışlama üzrə rüsum məbləği alqı-satqıya nisbətən azdır. Biz təcrübədə xüsusən mənzillərin və minik avtomobillərinin alqı-satqı müqavilələrinin bağışlama müqaviləsi kimi rəsmiləşdirilməsi hallarına daha tez-tez hallarda rast gəlirik.

Yalan əqd, uydurma əqdlər kimi mütləq etibarsız (puç) əqddir. Hüquqi əhəmiyyəti olmadığına və hüquqi nəticə doğurmadığına görə, təbii ki, onların etibarsızlığının hər hansı nəticəsindən danışmaq olmaz.

Pərdələnən (həqiqi) əqdin hüquqi taleyi və müqəddəratı həmin əqdin etibarlı-etibarsız olmasından asılıdır. Belə ki, bu əqd həm etibarlı, həm də etibarsız ola bilər. Əgər həmin əqd qanunazidd olmasa, o, etibarlı olub, tərəflər üçün hüquq və vəzifələr yaradır. Bu əqdə həmin əqd növünü tənzimləyən qaydalar tətbiq edilir.

Amma çox vaxt pərdələnən (həqiqi) əqd etibarsız olur. Belə ki, adətən, yalan əqdlərdən etibarsız əqdləri pərdələmək üçün istifadə edirlər. Belə halda əqdin malik olduğu qüsurdan asılı olaraq, müvafiq qaydalar tətbiq edilir. Əgər o, qanunsuz olarsa, etibarsız sayılır.

Məzmunu qüsurlu olan əqdlərdən biri qeyri-ciddi əqd adlanır (MM-in 341-ci maddəsi). Bizim ölkə qanunvericiliyi ilk dəfədir ki, bu cür əqd növünü tənzimləyir. Köhnə qanunvericilik qeyri-ciddi əqd növünü nəzərdə tutmurdu. **Qeyri-ciddi əqd** dedikdə, hüquqi nəticələr yaratmaq niyyəti ilə deyil, yalnız zarafat üçün bağlanan əqd başa düşülür. Bu cür əqd hüquqi məqsəd (əsas) kimi elementdən məhrumdur. Bundan əlavə, həmin əqd, əqdin hüquqi nəticə əldə etməyə yönəlmək kimi əsas əlamətinə malik deyil. Ona görə də, o, puç əqd hesab edilir.

Qeyri-ciddi əqd nəticəsində qarşı tərəfə zərər dəyə bilər. Dəymiş zərərin əvəzini zarafat edən tərəf ödəməlidir (MM-in 341-ci maddəsinin 2-ci bəndi). Məsələn, Bakıda yaşayan vətəndaş Gəncədə yaşayan dostuna zəng edərək bildirir ki, bahalı olan televizoru ona bağışlayır. Həmin şəxs Gəncədən Bakıya gəldikdə məlum olur ki, hədiyyə verən dostu zarafat edibmiş. Zarafat edən şəxs yol pulunun əvəzini dostuna ödəməlidir.

§ 6. Puç (mütləq etibarsız) və mübahisə edilən (nisbi etibarsız) əqdlər

1. Puç (mütləq etibarsız) əqdlər

Biz əqdin elementlərinin qüsurlu olması kimi meyara əsasən etibarsız əqdlərin hüquqi təsnifini verdik. Sivilistika doktrinasında məhz əqdlərin bu cür təsnifi nəzərdə tutulur[1]. Bununla belə, mülki qanunvericilikdə, habelə bir sıra mülki hüquq barədə dərsliklərdə[2] əqdlər, bu əqdlərin məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olaraq iki yerə bölünür: puç (mütləq etibarsız) əqdlər; mübahisə edilən (nisbi etibarsız) əqdlər.

Yaxın vaxtlara kimi biz də etibarsız əqdləri **məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olaraq** bu kimi iki növə bölürdük. Bu bölgünü biz indi də qəbul edir və tanıyırıq. Etibarsız əqdlərin göstərilən iki növü hətta qanunvericilik qaydasında nəzərə alınmışdır. Belə ki, mülki qanunvericiliyə görə, etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz (yəni puç) əqdlər ola bilər (MM-in 337-ci maddəsinin 1-ci bəndi).

24 iyun 2005-ci il tarixli qanunla Azərbaycan Respublikasının MM-nə dəyişikliklər və əlavələr edilməsi nəticəsində etibarsız əqdlər yalnız məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından yox, həm də **mübahisə predmetinə çevrilə bilməsindən (mübahisə edilə bilməsindən)** asılı olaraq puç əqdlərə və mübahisə edilən əqdlərə bölünməlidir. Başqa sözlə desək, göstərilən təsnif əsasən mübahisə edilməkdən asılı olaraq aparılmalıdır. Məsələ burasındadır ki, indi mübahisə edilən əqdlər də məhkəmə qərarı olmadan (məhkəmə tərəfindən etibarsız sayılmasından asılı olmadan) etibarsız hesab edilə bilər. Belə ki, əqd barəsində mübahisə edildikdə etibarsız hesab edilir (MM-in 337-ci maddəsinin 3-cü bəndi). Bundan əlavə, tərəflər mübahisə edilən əqdlərin etibarsız sayılması barədə öz aralarında məhkəmə müdaxiləsi olmadan razılığa gələ bilərlər.

Puç əqdlərin etibarsız sayılması üçün məhkəmə qərarının olması tələb edilmir; bu məsələ mübahisə predmetinə çevrilmir. Bu növ əqdlər o qədər qüsurludur ki, onların qüsurlu olması faktının məhkəmə orqanı tərəfindən təsdiqlənməsinə ehtiyac qalmır. Həmin qüsur o dərəcədə üzdə və göz qabağındadır ki, onun olmasını mübahisə predmetinə çevirmək lazım gəlmir.

Beləliklə, puç əqdlər, məhkəməyə bu əqdlərin etibarsız hesab edilməsi barəsində iddia verilməsindən asılı olmayaraq, etibarsız sayılır[3]. Onların **etibar-**

[1] bax. Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.Г.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко*. Л., 1982; *Иоффе О.С.* Советское гражданское право. М., 1967; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998.

[2] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.Н.Корнеева*. М., 1979; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каплина, А.И.Масляева*. М., 1997.

[3] L.Enneksерus puç əqdə belə anlayış verir: arzu olunan əqdi bağlayan şəxslərin qəsdərdikləri hüquqi nəticəyə qətiyyən səbəb olmayan əqdlər puç əqdlər adlanır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 307).

sız sayılması qanunda ifadə edilən birbaşa göstərişlə bağlı olub, bu göstərişə əsaslanır. Ona görə də puç əqdin elementlərindən birinin qüsurlu olmasını müəyyən və aşkar edərkən maraqlı şəxs məhkəmə orqanının müdaxiləsini gözləmədən dərhal puç əqdlərin etibarsızlığının səbəb olduğu nəticənin tətbiq olunmasını tələb edə bilər.

Puç əqdlər lap əvvəldən etibarsızdır. Bu, o deməkdir ki, onlar bağlandığı andan etibarsız hesab edilir. Bu əqdlər onların etibarsız sayılması haqqında məhkəməyə iddia verilməyəcəyindən və ya verilməyəcəyindən asılı olmayaraq, hüquqi nəticə (tərəflər üçün hüquq və vəzifələr) yaratmır.

Doğrudur, puç əqdlə bağlı olaraq məhkəməyə iddia ərizəsi verilə bilər, bu istisna olunmur. Amma belə halda iddianın predmeti qismində, bir qayda olaraq, əqdin etibarsız hesab edilməsi barədə tələb çıxış etmir. Bu cür tələb irəli sürülə də bilməz. Belə ki, əqd qanunda ifadə edilən göstərişə görə puçdur və bunun etibarsız sayılmasına ehtiyac yoxdur. Puç əqdlə bağlı iddianın predmetini, adətən, puç əqdlərin etibarsızlığının qanunda nəzərdə tutulan nəticəsinin tətbiqi haqqında tələb təşkil edir. İddia ərizəsini isə istənilən maraqlı şəxs verə bilər. Məhkəmənin də əqdin etibarsızlığı nəticələrini tətbiq etmək hüququ vardır. Bununla belə, nadir hallarda puç əqdin etibarsız sayılması barədə iddia verilə bilər (bu barədə növbəti yarımbaşlığa bax).

Biz puç əqdlərin bundan əvvəlki paraqrafda hüquqi xarakteristikasını vermişik. Onların mahiyyətini və əsas cəhətlərini yenidən nəzərdən keçirməyə ehtiyac yoxdur. Yalnız puç əqd kateqoriyasına aid edilən əqd növlərinin siyahısını verməklə kifayətlənirik:

- uydurma əqdlər;
- yalan əqdlər;
- qeyri-ciddi əqdlər;
- psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqdlər;
- on dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın bağladığı əqdlər;
- MM ilə və ya müqavilə ilə müəyyənləşdirilmiş məcburi formanı pozmaqla bağlanan əqdlər (forması qüsurlu olan əqdlər);
- icazə alınması zəruri olan, lakin icazə alınmadan bağlanan əqdlər;
- əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinin pozulması ilə bağlanan əqdlər.

Puç əqdləri mübahisə olunan əqdlərdən, ilk növbədə xarici əlamətə (göstəriciyə) görə fərqləndirmək lazımdır. Belə ki, MM-in konkret normalarında puç əqdin əhəmiyyətsiz olması barədə göstəriş olur (məsələn, uydurma əqd əhəmiyyətsizdir; yalan əqd əhəmiyyətsizdir və s.). Bəzi normalarda isə sadəcə olaraq göstərilir ki, əqd etibarsızdır. Məsələn, MM-in 344-cü maddəsinin 1-ci bəndinə görə, 14 yaşı tamam olmamış azyaşlının bağladığı əqd etibarsızdır. Hər ehtimala qarşı konkret normada əgər «əqd barədə mübahisə edilmək» barədə göstəriş olmazsa, həmin əqd puç əqd sayılır.

Puç əqdlərin etibarsızlığı zamanı **təsdiqetmə** müəyyən əhəmiyyətə malikdir. Təsdiqetmə hüquqi əhəmiyyətə malik olan aktdır. Əgər puç əqdi bağlamış şəxs onu inkar edirsə, bu hərəkət əqdin bağlanmaması kimi qiymətləndirilir.

Əksinə, həmin şəxs onu təsdiq edirsə, bu, o deməkdir ki, əqd yenidən bağlanmışdır (MM-in 351-ci maddəsinin 2-ci bəndi).

Təsdiqləmə (təsdiqetmə) anlayışı bizim ölkə qanunvericiliyinə Almaniya Mülki Qanunnaməsindən keçmişdir (§ 144). Təsdiqetmə elə bir bəyanatdır ki, bunun nəticəsində etibarsız əqd hüquqi qüvvəyə malik olur. Bu cür bəyanat bağlanmış əqdin bir hissəsi hesab olunmur. Buna görə də onun qanunun əqd üçün müəyyənləşdirdiyi formaya uyğun gəlməsi tələb olunmur. L.Ennekserus yazır ki, susmaq yolu ilə də təsdiqetmə mümkündür[1].

Bəzi hallarda ikitərəfli puç əqdi bu əqdi bağlayan tərəfdən hər ikisi də təsdiqləyir. Bu cür təsdiqləmə tərəflər üçün hüquq və vəzifələr yaradır, hüquqi nəticə doğurur. Belə ki, əqd iştirakçıları əqdi icra edərək, onlara çatası hər şeyi bir-birinə verirlər (MM-in 351-ci maddəsinin 4-cü bəndi).

Təsdiqetmə aktı bütün hallarda etibarlı olmur. Onun hüquqi əhəmiyyət kəsb etməsi üçün lazımdır ki, bağlanmış əqd əxlaq qayda və prinsiplərinə zidd olmasın, xələt gətirməsin, habelə üçüncü şəxslərin mənafelərini pozmasın.

2. Mübahisə edilən (nisbi etibarsız) əqdlər

24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişiklik və əlavələr edilməsinə kimi puç əqdlərdən fərqli olaraq, mübahisə edilən əqdlər avtomatik olaraq etibarsız hesab edilmirdi. Bunun üçün lazım idi ki, məhkəmə müvafiq qərar çıxarsın. Yalnız bu cür qərar əsasında mübahisə edilən əqd etibarsız hesab edilə bilərdi. Əgər bu əqdin etibarsız sayılması barədə müvafiq qərar yoxidisə, onda həmin əqdin etibarsızlığından söhbət gedə bilməzdi. Deməli, **mübahisə edilən əqdlər qanunda nəzərdə tutulan göstərişə görə yox, yalnız məhkəmə tərəfindən etibarsız sayılmasına görə etibarsız hesab edilirdi**. Bu barədə müvafiq məhkəmə qərarı çıxanlana kimi heç kəs, o cümlədən hər hansı dövlət orqanı və bu orqanların vəzifəli şəxsləri mübahisə edilən əqdi etibarsız elan edə bilməzdilər. Əgər mübahisə edilən əqdin etibarsız sayılması barədə iddia məhkəməyə qanunda müəyyənləşdirilən iddia müddəti ərzində verilməzdisə, həmin əqd etibarlı hesab edilirdi.

Mübahisə edilən əqdlər bağlandığı andan həqiqi və etibarlı əqdlər kimi hüquqi nəticə — tərəflər üçün hüquq və vəzifələr yaradırdı. Məsələn, aldatma, zorakılıq, hədə təsiri altında və s. bağlanmış əqdlər hüquqi nəticələrə səbəb olurdu. Amma bu nəticələr möhkəm və dayanıqlı xarakterə malik deyildi. Belə ki, həmin əqdlər müvafiq şəxslərin tələbi ilə məhkəmə tərəfindən etibarsız hesab edilə bilərdi. Bu halda əqdin doğurduğu hüquqi nəticə də ləğv edilirdi. Çünki qanuna görə, **mübahisə edilən əqd bağlandığı andan etibarsız sayılırdı** (MM-in 337-ci maddəsinin 2-ci bəndi). Bu isə o deməkdir ki, mübahisə edilən **əqdlərin etibarsız hesab edilməsi anı məhkəmə qərarının çıxarıldığı vaxtla müəyyən edilmirdi**. Bu cür halda qanunda ifadə edilən göstərişə görə məhkəmə qərarı etibarsız əqd üçün bir növ «geriyə qüvvə»yə malik olurdu. Əqd nə vaxt bağlanmışdırsa, o, həmin vaxtdan da etibarən etibarsız sayılırdı.

Beləliklə, mübahisə edilən əqdlərin məhkəmə baxışının və araşdırmasının

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 318-319.

obyekti (predmeti) olması məcburi, mütləq və labüd xarakter daşıyırdı. Belə ki, əqd barədə mübahisə etmək onun etibarlılığı üçün əhəmiyyəti olan hər hansı faktın sübuta yetirilməsini ifadə edir. Həmin faktlar isə yalnız məhkəmə yolu ilə sübut edilə bilərdi. Məhkəmə bunun üçün geniş imkanlara malikdir. Buna görə də qanun mübahisə edilən əqdlərin **yalnız məhkəmə tərəfindən iddia icraatı qaydasında etibarsız hesab edilməsi prinsipini** müəyyənləşdirirdi. Bu prinsipə görə, maraqlı şəxs mübahisə edilən əqdin etibarsız sayılması barədə tələblə məhkəməyə müraciət edir. Bu tələb iddianın predmeti kimi çıxış edirdi[1].

Maraqlı şəxs mübahisə edilən əqdin etibarsız sayılmasını irəli sürən şəxs idi. Onun mübahisə etmək hüququ var idi. Qanun dəqiq olaraq həmin şəxslərin dairəsini müəyyən edirdi. Məsələn, aldatma, zorakılıq, hədə təsiri altında və ya səxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdlərin etibarsız sayılması barədə iddianı zərərçəkən şəxslər verirdilər. Muhum (vacib) əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd barədə iddianı yanılmanın təsiri altında hərəkət etmiş tərəf verirdi və s. Məhkəmə iddiaya baxaraq, mübahisə edilən əqdləri yalnız o halda etibarsız hesab edə bilərdi ki, məhkəmə baxışında həmin əqdlərin etibarız sayılmasını şərtləndirən və qanunda göstərilən halların mövcudluğu sübuta yetirilsin. Əgər həmin hallar sübut edilməsə idi, əqd etibarsız sayılmırdı.

24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra isə vəziyyət tam dəyişmişdir. Belə ki, indi Mülki Məcəllə mübahisə edilən əqdə «məhkəmə tərəfindən etibarsız sayılmasına görə etibarsız olan əqd» kimi leqal anlayış vermir. Buna görə də bu günkü qanunvericilik mübahisə edilən əqdin etibarsız hesab olunması üçün məhkəmə qərarının olmasını tələb etmir; bu əqdin məhkəmə baxışının və araşdırılmasının obyekti (predmeti) olması artıq məcburi, mütləq və labüd xarakter daşımır. Ona görə ki, 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra mübahisə edilən əqdlərə belə anlayış verilir (MM-in 337-ci maddəsinin 2-ci bəndi); **əqd barəsində mübahisə edildikdə etibarsızdır.** Bu, o deməkdir ki, əgər əqd barəsində mübahisə edilərsə, o, etibarsız sayılır; Əgər əqd barəsində mübahisə edilməzsə, müvafiq qüsura malik olmasına baxmayaraq o, etibarlı hesab edilir. Başqa sözlə desək, əqd mübahisə edilməsinə görə etibarsız sayılır. **etibarsız əqd kimi tanınması üçün onun barəsində mübahisə edilməsi kifayətdir**; bunun üçün hər hansı məhkəmə qərarının olması tələb edilmir. Bu, Almaniyanın qanunvericilik təcrübəsinə uyğun gəlir.

Mübahisə edilən əqdlər odur ki, onlar məhkəmə tərəfindən etibarsız sayılmasına görə yox, mübahisə edilməsinə görə etibarsız sayılır.

Mübahisə edilən əqdlər bağlandığı andan etibarlı və həqiqi əqdlər kimi hüquqi nəticə doğurur. Amma əgər maraqlı şəxs bu əqdlər barəsində mübahisə edərsə, onlar etibarsız sayılır. Özü də əqdlər mübahisə olunduğu andan yox, bağlandığı andan etibarsız hesab edilir (MM-ın 337-ci maddəsinin 2-ci bəndi). Bu o, deməkdir ki, əqd barəsində **mübahisə etmənin geriyə qüvvəsi vardır.**

Maraqlı şəxs dedikdə əqd barəsində mübahisə etmək hüququna malik olan şəxs başa düşülür. Bir qayda olaraq, maraqlı şəxs qismində zərərçəkən tərəf çıxış edir. O, əqd barəsində mubahisə etmək hüququnun əsas subyektidir.

Həm ikitərəfli əqd (muqavilə), həm də birtərəfli əqd mubahisə edilə bilər. ikitərəfli əqdin (muqavilənin) mubahisə edilməsi buna hüququ çatan tərəfin digər tərəfə iradə ifadəsini bildirməsi yolu ilə həyata keçirilir. O ki qaldı, birtərəfli əqdə, qeyd etməliyik ki, bu əqddə bir tərəf iştirak edir. Odur ki, hansı şəxsə münasibətdə birtərəfli əqd həyata keçirilmişsə, o şəxsə qarşı da mübahisə edilir (MM-in 337-ci maddəsinin 2-ci bəndi).

Əqdin mübahisə edilməsi dedikdə, mübahisə etmək hüququ olan şəxsin digər tərəfə iradə ifadəsini bildirməsi başa düşülür. Əgər mübahisə etmək hüququ olan şəxs öz iradəsini ifadə etsə, onda əqd bağlandığı andan etibarsız hesab olunur. Bu, o deməkdir ki, indiki qanunvericilik **əqdlərin yalnız mübahisə edilməsinə əsasən etibarsız hesab edilməsi prinsipini** müəyyənləşdirir ki, onun müəyyən üstünlüyü vardır. Belə ki, maraqlı şəxs əqdin etibarsız hesab edilməsi barədə məhkəmə yolundan azad olur; o, əqdin etibarsız hesab edilməsi üçün məhkəmə qərarının qəbul olunmasını gözləmir; nəhayət, müvafiq məhkəmə xərcləri çəkmir, vaxt itirmir.

Amma bir sıra hallarda mübahisə edilən əqdin qüsurunu sübut etmək lazım gəlir. Həmin qüsuru isə yalnız məhkəmə sübut edə bilər. Belə halda **mübahisə edilən əqd məhkəmə tərəfindən iddia icraatı qaydasında etibarsız hesab edilir**; hətta bəzi mübahisə edilən əqdlər maraqlı şəxsin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər (məsələn, MM-in 343-cü və 346-cı maddələrində nəzərdə tutulan hallarda). Belə hallarda iddianın predmetini mübahisə edilən əqdin etibarsız sayılması barədə tələb təşkil edir. Qanun maraqlı şəxsin mübahisə edilən əqdin etibarsız hesab edilməsi barədə tələblə məhkəməyə müraciət etməsini qadağan etmir. Digər tərəfdən iddia predmetini mübahisə edilən əqdlərin etibarsızlığının qanunda nəzərdə tutulan nəticəsinin tətbiqi haqqında tələb təşkil edir.

Yeri gəlmişkən qeyd edək ki, **puç əqdlərin etibarsız hesab edilməsi barədə də məhkəməyə iddia verilə bilər**. Bunu qanun qadağan etmir[1]. Belə halda iddianın predmeti rolunda puç əqdlərin etibarsız hesab edilməsi barədə tələb çıxış edir. Bu cür iddia o halda verilir ki, əqdin puç əqd olmasını açıq-aşkar müəyyən etmək mümkün olmur. Məsələn, yalan əqd puç əqdin bir növüdür. Bu əqd başqa əqdi pərdələmək üçün bağlanılır. Lakin həmin əqdin yalan xarakterə malik olmasını sübuta yetirmək son dərəcə çətin, qəliz və müşkül işdir. Məsələn, vəzifəli şəxs rüşvət almaqla əldə etdiyi pul hesabına qiyməti əlli min dollara olan bağ evi (villa) alır və alqı-satqı müqaviləsini bağışlama müqaviləsi (yalan əqd) kimi rəsmiləşdirir. Bu cür hallarda puç əqdlər yalnız

[1] Almaniya mülki qanunvericiliyi və doktrinası da mübahisə edilən əqdi tanıyır və anlayış verir: mübahisə edilən əqd əvvəlcə etibarlı sayılır. Əgər mübahisə etməyə ixtiyarı çatan şəxs öz iradəsini ifadə etsə, onda həmin əqd bağlandığı andan etibarsız hesab olunur və puç əqdə bərabər tutulur. O, təkco mübahisə edən şəxs üçün yox, bütün hamı üçün puç əqd sayılır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 314)

[1] bax: п.32 постановления Пленума Верховного Суда РФ и Пленума Высшего Арбитражного Суда от 1 июля 1996 г. № 6/8. «О некоторых вопросах, связанных с применением части первой Гражданского кодекса Российской Федерации» (Вестник ВАС РФ, 1996, № 9).

məhkəmə qaydasında etibarsız hesab edilə bilər[1].

Mübahisə edilən əqdlərin dairəsi qanunla müəyyənləşdirilir. Bəzən qanunun maddəsində müvafiq əqdin puç əqdə və ya mübahisə edilən əqdə aid edilməsi barədə göstəriş ifadə olunmur, yalnız həmin əqdin etibarsızlığından danışılır. Bu halda **əqdin mübahisə edilməsi və ya məhkəmə tərəfindən etibarsız sayılması barədə qanunda göstəriş olmasına diqqət yetirmək lazımdır (məsələn, «əqd mübahisə edilə bilər», «şəxsin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər» və s.)**. Əgər bu cür göstəriş yoxdursa, deməli, əqd puç əqddir. Məsələn, qanunda qeyri-ciddi əqd nəzərdə tutulmuşdur (MM-ın 341-ci maddəsi). Amma onun hansı əqd növünə malik edilməsi barədə və məhkəmə tərəfindən etibarsız sayılması barədə qanunda göstəriş yoxdur. Deməli, bu əqd puç əqd kateqoriyasına aid edilir.

Biz bundan əvvəlki paraqrafda mübahisə edilən əqdlərin əsas hüquqi parametr və detallarını geniş surətdə işıqlandırmışıq. Onlar barədə yenidən söhbət açmağa ehtiyac duymuruq. Həmin əqdlərin yalnız siyahısını veririk:

- hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər;
- aldatma nəticəsində bağlanmış əqdlər;
- bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış əqdlər;
- zorakılıq nəticəsində bağlanmış əqdlər;
- şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdlər;
- məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslərin bağladıqları əqdlər;
- on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslərin bağladığı əqdlər;
- öz hərəkətlərinin mənasını başa düşməyən və ya onlara rəhbərlik edə bilməyən fiziki şəxslərin bağladığı əqdlər;
- vacib (mühüm) əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdlər;
- hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqdlər;
- məhdudlaşdırılmış səlahiyyətdən kənara çıxmaqla bağlanan əqdlər.

Mübahisə edilən əqdlərin etibarsızlığı zamanı da **təsdiqetmə aktı (hərəkəti)** hüquqi əhəmiyyət kəsb edir. Belə ki, bu akt maraqlı şəxsi mübahisə etmək hüququndan məhrum edir. Əgər əqdi onun barəsində mübahisə etmək hüququna malik şəxs təsdiq edirsə, bununla o, mübahisə etmək hüququnu itirir (MM-in 351-ci maddəsinin 3-cü bəndi). Mübahisə etmək hüququnu itirmiş şəxs isə əqdin mübahisəsi imkanından və ya məhkəməyə iddia vermək hüququndan məhrum olur. Məsələn, aldatma nəticəsində bağlanmış əqd iştirakçısı olan zərərçəkən tərəf (maraqlı şəxs) həmin əqdi təsdiq edirsə (qəbul edirsə, onunla razılaşırsa), o, mübahisə etmək hüququnu itirir. Buna görə də həmin əqd etibarsız sayıla bilməz. Əksinə, o, etibarlı əqd hesab edilir.

Bəzi hallarda həm puç əqdin, həm də mübahisə edilən əqdin bütövlükdə və tam halında hamısı yox, yalnız onun bir hissəsi etibarsız hesab edilir. **Əqdin hissəsi** onun məzmununa aid olan bir və ya bir neçə şərtdən ibarətdir.

[1] Dediklərimiz Yekaterinburq alimlərindən olan xanım Q.İ.Strelnikovanın belə bir fikrinin əsassız olmasını isbat edir ki, guya puç əqdlərin etibarsız hesab edilməsi barədə tələb iddianın predmeti ola bilməz (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 212).

Bəzi hallarda bu şərtlər pozulur. Həmin şərtlərin pozulması əqdin qalan hissələrinin (şərtlərinin) etibarsızlığına dəlalət edirmi? Belə halda söhbət bütövlükdə əqdin hüquqi taleyindən gedir.

3. Qismən etibarsız əqdlər

Mülki dövriyyədə sabitliyi və möhkəmliyi təmin etmək məqsədilə mülki qanunvericilik qayda müəyyən edir (MM-in 352-ci maddəsi). Bu qaydaya görə, **əqdin bir hissəsinin etibarsızlığı onun qalan hissələrinin etibarsızlığına səbəb olmur**. Bu cür əqdlərə **qismən etibarsız əqdlər** deyilir. Məsələn, ahıl yaşında olan kimsəsiz bir şəxs öz minik avtomobilini qonşuya, bağ evini o birisi qonşuya, yaşayış evini isə üçüncü qonşuya vəsiyyət edir. Qonşulardan biri (hansı ki, bağ evi ona vəsiyyət olunmuşdur) vərəsəliyə çağırılmasını tezləşdirmək məqsədilə qocanın yeməyinə zəhər qataraq onu öldürür. Belə halda vəsiyyətin həmin şəxsə aid olan hissəsi etibarsız hesab edilir. Ona görə ki, qanuna görə qocanı öldürən şəxs ləyaqətsiz vərəsə kimi nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsə ola bilməz (MM-in 1157-ci maddəsi). Lakin vəsiyyətin etibarsız hissəsi onun o birisi qonşulara aid olan hissəsinin etibarsızlığına səbəb olmur. Göstərilən hər iki halda əqd qismən etibarsız hesab edilir.

Əqdin qismən etibarsız sayılması üçün bir neçə şərtə əməl edilməsi tələb olunur. **Birincisi**, əqdin onun etibarsız hissəsi daxil edilmədən də bağlanmasının mümkünlüyü güman edilməlidir, yəni **əqdin onun etibarsız hissəsi daxil edilmədən də bağlana bilmək ehtimalı olmalıdır**. Əgər bu şərt olmazsa, əqd qismən etibarsız sayıla bilməz. Məsələn, iki nəfər vətəndaş yaşayış evinin alqı-satqısı müqavilələsini bağlayırlar. Müqaviləyə belə bir şərt daxil edilir ki, alıcı evin pulunu yalnız ABŞ dolları ilə ödəyəcəyi halda müqavilə icra edilcəkdir. Növbəti gün dolların manatla kursu birdən-birə qalxır. Alıcı evin pulunu manatla ödəyir. Müqavilənin qiymət barədə şərti pozulur və bu şərt müqavilənin qalan hissəsinin etibarsızlığına səbəb olur.

İkincisi, etibarsız hesab olunan hissə (şərt) **əqdin subyekt tərkibinə aid ola bilməz**. Belə ki, əqdin subyekt tərkibi barədə şərtin (tələbin) pozulması bütövlükdə əqdin etibarsızlığına səbəb olur.

Üçüncüsü, etibarsız hesab edilən hissə əqdin MM ilə və ya müqavilə ilə müəyyənləşdirilmiş **məcburi formasına aid edilə bilməz**. Çünki məcburi formanı pozmaqla bağlanmış əqd bütövlükdə etibarsızdır (MM-in 329-cu maddəsinin 1-ci bəndi).

Dördüncüsü, əqdin etibarlı hissəsinin etibarsız hesab edilən hissədən ayrılmaq və **müstəqil surətdə mövcud olmaq imkanı olmalıdır**.

Beşincisi, etibarsız hesab olunan hissə əqddən çıxarıldıqdan sonra əqdin qalan hissəsi **tərəflərin mənafeyini təmin etmək qabiliyyətini itirməməlidir**, əqd bağlanan zaman qarşıya qoyulan məqsədə çatmağa imkan verməlidir.

MM-ə dəyişikliklər və əlavələr edilənə kimi məlum məsələdir ki, mübahisə edilən əqdlərin etibarsız hesab edilməsi barədə iddia yalnız qanunda nəzərdə tutulan iddia müddəti ərzində verilə bilərdi. Bunun üçün qanun **bir il iddia müddəti** müəyyənləşdirirdi (MM-in 354-cü maddəsinin 2-ci bəndi). Bu müddətin axımı əqd hədə və ya zorakılıq təsiri altında bağlandığı hallarda, həmin

əqdin bağlanmasına təsir etmiş zorakılığa və ya hədəyə son qoyulduğu gündən başlayır və hesablanırdı. Digər növ mübahisəli əqdlər bağlandığı hallarda isə bir illik iddia müddətinin axımı iddiaçının əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və bilməli olduğu gündən başlayırdı.

Bir illik iddia müddəti onu ifadə edir ki, maraqlı şəxs yalnız həmin müddət ərzində məhkəməyə iddia ərizəsi verə bilərdi. Həmin şəxsin bu müddəti üzrlü səbəb olmadan ötürməsi və buraxması onun üçün arzuolunmaz nəticəyə səbəb olurdu. Belə ki, o, məhkəməyə iddia vermək hüququnu itirirdi. Məhkəməyə isə iddia verilməzdisə, əqd etibarlı hesab edilirdi.

MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra isə vəziyyət dəyişmişdir. Belə ki, indi əqdlər məhkəmə tərəfindən etibarsız sayılmasına görə yox, mübahisə edilməsinə görə etibarsız sayıldığına görə Mülki Məcəllə iddia müddəti əvəzinə, mübahisə müddəti haqqında göstəriş ifadə edir. **Mübahisə müddəti** odur ki, bu müddət ərzində maraqlı şəxs əqd barəsində mübahisə edə bilər; əgər həmin müddət ötərsə, o, mübahisə etmək hüququnu itirir və əqd etibarlı sayılır.

Mülki qanunvericilik iki növ mübahisə müddəti nəzərdə tutur (MM-in 354-cü maddəsinin 2-ci bəndi):

- bir aylıq müddət;
- bir illik müddət.

Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdin mübahisə edilməsi üçün bir aylıq müddət tətbiq olunur. Mübahisəli əqdin yerdə qalan növlərinin mübahisəsi üçün isə bir illik müddət nəzərdə tutulmuşdur.

Puç əqdlərə gəldikdə isə onu deyə bilərik ki, qanun bu cür əqdlərin etibarsız sayılması haqqında iddia verilməsi müddətini (iddia müddətini), habelə mübahisə müddəti nəzərdə tutmur. Bu, onunla bağlıdır ki, bir qayda olaraq, puç əqdlər məhkəmə tərəfindən etibarsız sayılmır. Yalnız nadir hallarda puç əqdlərin etibarsız sayılması barədə məsələ məhkəmə araşdırmasının predmetinə çevrilir. Digər tərəfdən puç əqdlər mübahisə edilmir. Ona görə də onların mübahisəsi üçün müddət müəyyənləşdirilə bilməz.

Qanun **puç əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia verilməsi üçün bir illik müddət** müəyyənləşdirir (MM-in 354-cü maddəsinin 1-ci bəndi). Bu müddət əqdin icrasına başlanıldığı gündən hesablanır. Müvafiq iddia yalnız bir il müddəti ərzində verilə bilər.

Qanun **mübahisə edilən əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia üçün bir illik müddət** müəyyən edirdi. Bu müddət mübahisə edilən əqdin etibarsız sayılması haqqında iddia üçün müəyyənləşdirilən müddətlə analoji qaydada hesablanırdı. İndi bu qayda qüvvədən düşmüşdür.

4. Əqdin konversiyası

Bəzi hallarda əqdin etibarsızlığı tərəflərə məlum olduqdan sonra onlar arzu edir və istəyirlər ki, əqd etibarlı olsun. Belə halda, əgər etibarsız əqd başqa əqd üçün nəzərdə tutulan tələblərə uyğun gəlirsə, başqa əqdin qaydaları tətbiq edilir. Buna əqdin konversiyası (latınca «sonversio» — çevrilmə, dəyişmə)[1] deyilir. **Əqdin konversiyası** dedikdə, etibarsız əqdin tərəflərin razılığı ilə başqa etibarlı əqdə çevrilməsi (başqa əqdin qaydalarının tətbiq edilməsi) başa düşülür.

Əqdin konversiyası konstruksiyası bizim ölkə qanunvericiliyinə Almaniya mülki qanunvericiliyindən keçmişdir. Almaniya Mülki Qanunnaməsinin 140-cı paraqrafı həmin konstruksiyanı nəzərdə tutur[2]. Azərbaycan Respublikasının əvvəlki qanunvericiliyi, ümumiyyətlə, bütün sovet məcəllələri göstərilən konstruksiyanı tanımırdı. RF-in yeni MM-nə də əqdin konversiyası konstruksiyası məlum deyil.

Əqdin konversiyası ilə bağlı münasibətlərin tənzimlənməsi MM-ın 353-cü maddəsi ilə həyata keçirilir. Bu maddədə etibarsız əqdin etibarlı əqd kimi tanınmasının şərtləri göstərilmişdir.

Əqdin konversiyasına praktikada rast gəlmək mümkündür. Məsələn, ata sağlığında, ölməmişdən qabaq öz oğlu ilə belə məzmunda vərəsəlik müqaviləsi bağlayır: ata ölən kimi miras əmlak onun oğluna keçsin. Ata və oğul müəyyən edirlər ki, Azərbaycan Respublikasının mülki qanunvericiliyi vərəsəlik müqaviləsi bağlanmasına yol vermir, belə müqavilə növünü nəzərdə tutmur. Bunu bildikdən sonra ata miras əmlakın öz oğluna vəsiyyət edilməsi barədə birtərəfli əqd bağlayır, yəni vəsiyyətnamə tərtib edir. Belə halda etibarsız vərəsəlik müqaviləsi etibarlı vəsiyyətnamə ilə (birtərəfli əqd ilə) əvəz olunur.

Almaniya hüquq ədəbiyyatında əqdin konversiyasına belə bir misal çəkilir: 16 yaşlı şəxs ağır xəstəlikdən ölməsini zənn edərək öz miras əmlakının qardaşına verilməsi barədə onunla vərəsəlik müqaviləsi bağlayır. Bundan sonra həmin şəxs bilir ki, 18 yaşı tamam olmadığına görə onun bağladığı əqdlər etibarsızdır. Odur ki, 16 yaşlı şəxs miras əmlakının qardaşına verilməsi barədə vəsiyyətnamə (birtərəfli əqd) tərtib edir. Belə ki, Almaniya qanunvericiliyinə görə 16 yaşına çatmış hər bir şəxsin vəsiyyətnamə tərtib etmək hüququ vardır. Daha başqa bir misalda şəxs öz əmlakını girov qoymaqla öz qonşusundan borc pul alır. Bu məqsədlə onlar arasında borc və girov müqavilələri bağlanılır. Amma müəyyən əsasa görə girov müqaviləsi (ikitərəfli əqd) etibarsız hesab edilir. Bunu bilən kimi tərəflər etibarsız girov əqdini saxlama əqdinə çevrilməsi barədə razılığa gəlirlər. Saxlama elə birtərəfli əqddir ki, bu əqdə görə borcverən (kreditor) borcalan aldığı borcu qaytaran kimi əmlakı (söhbət girov qoyulmuş əmlakdan gedir) özündə saxlamaq hüququna malikdir[3].

§ 7. Əqdin etibarsız hesab edilməsinin doğurduğu hüquqi nəticələr

1. Əmlak nəticələrinin növləri

Əqdin etibarsızlığı məlum olduqda, əgər əqd icra edilməmişsə, sadəcə olaraq, o, ləğv edilir. Bir çox hallarda etibarsız əqd nəinki bağlanır, həm də tam

[1] bax: Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина и др.* М., 1985, с. 243.

[2] *Jauering O.* Bürgerliches Gesetzbuch mit Erläuterungen. 1997; Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 312-313.

və ya qismən icra edilir. Belə halda icra olunmuş etibarsız əqdin hüquqi müqəddəratını və taleyini müəyyənləşdirmək zərurəti yaranır. Söhbət əqdin icra edilməsi nəticəsində yaranan əmlak nəticəsinin aradan qaldırılmasından gedir. Məsələn, zorakılıq təsiri nəticəsində bağlanmış alqı-satqı müqaviləsi etibarsız hesab edildikdə, satılan əşyanın və bu əşya üçün ödənilən pulun hüquqi taleyi necə müəyyən edilir? Bu kimi suallara mülki qanunvericilik əqdin etibarsızlığına dəlalət edən əsaslardan asılı olaraq cavab verir.

Əqdin etibarsızlığının əmlak nəticəsini iki növə bölmək olar:

- əsas əmlak nəticəsi;
- əlavə əmlak nəticəsi.

Əsas əmlak nəticəsi dedikdə, tərəflərin ilkin vəziyyətlərini bərpa etmək başa düşülür. **Əlavə əmlak nəticəsi** zərərçəkənə vurulmuş zərərin əvəzini ödəmək vəzifəsindən ibarətdir.

Əsas əmlak nəticəsinin özünün üç yarımnövü vardır:

- ikitərəfli restitusiya (latınca «restitutio» — bərpa etmək)[1];
- birtərəfli restitusiya;
- müsadirə.

Özü də dərhal qeyd etməliyik ki, bizim ölkənin yeni Mülki Məcəlləsi 1964-cü il MM-dən fərqli olaraq, əmlak nəticəsinin müsadirə kimi növünü nəzərdə tutmur[2]. Amma buna baxmayaraq, Azərbaycan Respublikasının mülki qanunvericilik sisteminə daxil olan bəzi normativ aktlarda müsadirə növünə rast gəlmək mümkündür. Məsələn, «Valyuta tənzimi haqqında» qanunun 18-ci maddəsinə görə valyuta sərvətləri ilə aparılan əqdlər (məsələn, xarici valyutanın alqı-satqısı əqdləri və s.) etibarsız hesab edildikdə, əldə edilən gəlirlər müsadirə edilir[3].

Müsadirə elə bir əmlak nəticəsidir ki, bununla tərəflərin etibarsız əqd üzrə bir-birindən aldıqları əmlak dövlət mədaxilinə silinir və keçirilir. Bu növ əmlak nəticəsi **mülki-hüquqi (əmlak) sanksiya xarakteri daşıyır**. Ona mülki-hüquqi müsadirə deyilir. Müsadirənin tətbiqi həm ikitərəfli restitusiyanı, həm də birtərəfli restitusiyanı istisna edir.

2. İkitərəfli restitusiya

İkitərəfli restitusiya əsas əmlak nəticəsinin başlıca növü sayılır. O, bütün hallarda tətbiq edilir, bir şərtlə ki, Mülki Məcəllədə əqdin etibarsızlığının ayrı nəticəsi nəzərdə tutulmasın (MM-in 337-ci maddəsinin 5-ci bəndi).

İkitərəfli restitusiya odur ki, bunun nəticəsində tərəflərin etibarsız əqd icra olunanadək mövcud olan vəziyyəti bərpa edilir, yəni tərəflərdən hər biri əqd üzrə aldıqlarını digər tərəfə qaytarır. İkitərəfli restitusiyanın mahiyyəti əqd bağlayan hər iki tərəfin öz ilkin əmlak vəziyyətini bərpa etmələrindən ibarətdir. Məsələn, hər hansı bir vətəndaş fəaliyyət qabiliyyəti olmayan ruhi xəstə ilə minik avtomobilinin alqı-satqı müqaviləsi bağlayır və ona beş min manat verir.

[1] bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина. Ф.Н.Петрова*. 1954, с. 607.

[2] Almaniya Mülki Qanunnaməsində əqdin etibarsızlığının əsas əmlak nəticəsi kimi müsadirə adlı tədbir (əqdin predmetinin dövlətə mədaxil edilməsi) nəzərdə tutulmur (*А.Жалинский, А.Рерихт*. Введение в немецкое право. М., 2001, с. 324).

[3] bax: AR QK, II cild, s. 372.

Bu, puç əqddir. Çünki bu kateqoriyadan olan ruhi xəstələr müstəqil surətdə əqd bağlaya bilməzlər (MM-in 342-ci maddəsində ifadə edilən göstərişə görə). Buna görə də vətəndaş minik avtomobilini ruhi xəstəyə, ruhi xəstə isə aldığı pulu vətəndaşa qaytarır. Bununla onların alqı-satqı müqaviləsi icra edilənədək mövcud olan əmlak vəziyyəti bərpa olunur. Bax, etibarsız əqd üzrə tərəflərin bir-birindən aldıqları əmlakın (minik avtomobilinin və bu avtomobilə görə verilən pulun) hüquqi müqəddəratını müəyyən edən bu cür qayda mülki hüquq elmində ikitərəfli restitusiya adlanır. Bu termin bizə Roma hüququndan keçmişdir («in inteqrum restitutio» — ilkin vəziyyətin bərpa edilməsi)[1].

Bəzi hallarda əqd üzrə alınanları eyni ilə (naturada) qaytarmaq mümkün olmur. Məsələn, əşya itir, yanır və yaxud alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunur və s. Belə halda müvafiq tərəf **alınanın dəyərini pulla ödəyir** (MM-in 337-ci maddəsinin 5-ci bəndi).

İkitərəfli restitusiya aşağıdakı etibarsız əqdlərin əmlak nəticəsidir, yəni göstərilən əqdlər ikitərəfli restitusiyaya səbəb olur:

- məcburi forması pozulmaqla bağlanmış əqdlər;
- icazə alınması zəruri olan, lakin icazə alınmadan bağlanmış əqdlər;
- dövlət qeydiyyatı haqqında tələbin pozulması ilə bağlanmış əqdlər;
- hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqdlər;
- məhdudlaşdırılmış səlahiyyəti aşmaqla bağlanmış əqdlər;
- psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqdlər;
- məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslərin bağladıqları əqdlər;
- öz hərəkətlərinin mənasını başa düşməyən və ya onlara rəhbərlik edə bilməyən fiziki şəxsin bağladığı əqdlər;
- mühüm (vacib) əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdlər.

3. Birtərəfli restitusiya

Birtərəfli restitusiya odur ki, bunun nəticəsində yalnız zərərçəkən tərəfin (vicdanlı tərəfin) etibarsız əqd icra olunanadək mövcud olan vəziyyəti bərpa edilir, yəni zərərvuran tərəf (vicdansız tərəf) əqd üzrə aldıqlarının hamısını zərərçəkən tərəfə qaytarır. Zərərvuran tərəf (vicdansız tərəf) isə əqd üzrə verdiyini geri almaq hüququnu itirir: ona heç nə qaytarılmır. Belə ki, zərərçəkən tərəf zərərvurandan aldığını qaytarmağa borclu deyildir.

Köhnə 1964-cü il MM-nə görə, zərərvuran (vicdansız) tərəfə qaytarılmalı olanlar dövlət mədaxilinə keçirilirdi (həmin Məcəllənin 52-ci maddəsi). Bu cür qayda RF-in müasir MM-də də saxlanılmışdır[2]. Həmin qayda vicdansız tərəfə müsadirə xarakterli sanksiya tətbiq olunmasını ifadə edir.

Beləliklə, birtərəfli restitusiyaya görə, əqd üzrə icra edilənləri yalnız zərərçəkən tərəf geri ala bilər. Bununla onun ilkin hüquqi (əmlak) vəziyyəti bərpa olunur.

Bəzən alınanları eyni ilə (naturada) qaytarmaq mümkün olmur. Belə hallarda alınanın dəyəri pulla ödənilir.

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 138.

[2] bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 372 (ст. 179).

24 iyun 2005-ci il tarixli qanunla AR MM-ə dəyişikliklər və əlavələr edilməsinə kimi aşağıdakı əqdlər birtərəfli restitusiyaya səbəb olurdu:

- hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər;
- zorakılıq nəticəsində bağlanmış əqdlər;
- aldatma nəticəsində bağlanmış əqdlər;
- hədə təsiri altında bağlanmış əqdlər;
- bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış əqdlər;
- şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdlər.

24 iyun 2005-ci il tarixli qanunla AR MM-ə dəyişikliklər və əlavələr edilməsi nəticəsində göstərdiyimiz əqdlər artıq birtərəfli restitusiyaya səbəb olmur. Məsələ burasındadır ki, indi həmin etibarsız əqdlərə də MM-in 337-ci maddəsinin 5-ci bəndinin qaydaları tətbiq edilir (MM-in 339-cu maddəsinin 5-ci bəndi). Bu qaydalara görə əvvəldə qeyd etdiyimiz kimi, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmalı, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla ödəməlidir. Bu, onu ifadə edir ki, həmin etibarsız əqdlər də ikitərəfli restitusiyaya səbəb olur. Deməli, Azərbaycan Respublikasının indiki Mülki Məcəlləsi birtərəfli restitusiyanı nəzərdə tutmur. Amma təəssüflə qeyd etməliyik ki, məsələyə bu cür yanaşma haqq, insaf və ədalət baxımından düzgün deyil. Hesab edirik ki, həmin əqdlər üzrə vicdansız zərər vuran tərəfin əmlak vəziyyəti bərpa olunmamalı, onlara özlərinin etdikləri vicdansız hərəkətlərə görə **müsadirə növündə mülki-hüquqi sanksiya tətbiq edilməlidir**, yəni həmin şəxslər əqd üzrə qarşı tərəfə (**vicdanlı tərəfə**) verdiyi əmlakı geri almaq hüququndan məhrum edilməli, bu əmlak dövlət mədaxilinə keçməlidir.

4. Əqdin etibarsızlığının əlavə əmlak nəticəsi

Əqdin etibarsızlığının əlavə əmlak nəticəsi xüsusi xarakterli nəticədir. Ona görə də o, xüsusi əmlak nəticəsi də adlanır.

Əqdin etibarsızlığının əlavə əmlak nəticəsi dedikdə, müvafiq tərəfin etibarsız əqdin bağlanması və icra edilməsi nəticəsində qarşı tərəfə (zərərçəkənə) vurduğu zərərin əvəzini ödəməsi başa düşülür. Məlum məsələdir ki, vurulmuş zərərin əvəzini ödəmə vəzifəsi etibarsız əqd bağlanmasında və bu əqdin icra edilməsində təqsiri olan tərəfin üzərinə qoyulur. Məhz bu tərəfin təqsiri üzündən əqdin qarşı tərəfinə zərər vurulur. Təqsirli hərəkətlərə yol verdiyinə görə o, mülki-hüquqi məsuliyyət daşıyır. Ona görə də həmin şəxsə **zərərin əvəzini ödəmə formasında mülki-hüquqi sanksiya — məsuliyyət tədbiri** tətbiq edilir. Deməli, əqdin etibarsızlığının əlavə əmlak nəticəsi olan zərərin əvəzini ödəmə mülki-hüquqi məsuliyyət tədbiri rolunda çıxış edir.

Zərərin əvəzini ödəmə formasında mülki-hüquqi məsuliyyət o halda yarana bilər ki, etibarsız əqd bağlanmasından vicdanlı tərəf zərərə düşsün. Zərər (ziyan) həmin tərəf üçün yaranan mənfi əmlak nəticəsidir ki, o, pulla qiymətləndirilir. Bu mənfi nəticə iki hissədən ibarətdir: real zərərdən; əldən çıxmış faydadan. **Real zərər** vicdanlı (zərərçəkən) tərəfin öz pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsidir. **Əldən çıxmış fayda** isə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edə biləcəyi gəlirdir. Etibarsız əqdlərin bağlanmasından **zərərçəkən tərəfə vurulan zərərin yalnız real zərər hissəsinin əvəzi ödənilir**. Onun əldən çıxmış fayda hissəsinin əvəzi isə ödənilmir. Məsələn, vətəndaş öz qonşusu olan qeyri-fəaliyyət qabiliyyətli şəxsdən minik avtomobili alır və pulunu ödəyir. Özü də həmin vətəndaş bilir ki, avtomobili satan şəxsin fəaliyyət qabiliyyəti yoxdur. Vətəndaş avtomobili idarə edərkən dəfələrlə onu vurub zədələyir. Bununla onun təmir edilməsinə, bəzi hissələrinin dəyişdirilməsinə ehtiyac yaranır. Üç aydan sonra məlum olur ki, həmin müqavilə etibarsızdır. Belə halda ikitərəfli restitusiya haqqında qayda tətbiq edilir, yəni müqavilənin tərəflərindən hər biri aldıqlarını digər tərəfə qaytarır. Bundan əlavə, real zərərin əvəzini ödəmə formasında vətəndaşa mülki-hüquqi sanksiya (məsuliyyət tədbiri) tətbiq edilir. Belə ki, o, minik avtomobilinin təmirinə və detallarının dəyişdirilməsinə çəkilən xərclərin (real zərərin) əvəzini ödəyir.

Əlavə əmlak nəticəsi bir sıra əlamətlərlə xarakterizə edilir. Bu əlamətlər onun əsas cəhətlərini müəyyənləşdirməyə imkan verir.

Birincisi, əlavə əmlak nəticəsi **zərərçəkən tərəfin hüquq və qanuni mənafeyinin bərpasının reallığını təmin etmək məqsədi** güdür.

İkincisi, əlavə əmlak nəticəsi **ikitərəfli restitusiyadan asılı olmayaraq tətbiq edilir**. Ondan əsas əmlak nəticəsinə əlavə kimi istifadə olunur. Məsələn, yuxarıdakı misalda ikitərəfli restitusiya haqqında qaydadan əlavə, həm də əlavə əmlak nəticəsi (real zərərin əvəzini ödəmə) tətbiq edildi.

Üçüncüsü, əlavə əmlak nəticəsi yalnız o halda tətbiq olunur ki, əqdin müvafiq tərəfi (vicdansız tərəf) **təqsirli hərəkətlərə yol versin və qarşı tərəfə (vicdanlı tərəfə) real zərər vursun**.

Dördüncüsü, əlavə əmlak nəticəsi yalnız qanunda birbaşa nəzərdə tutulan etibarsız əqd növlərinə aid edilir. Həmin əqdlərin etibarsızlığı qanunda birbaşa göstərildiyinə görə əlavə əmlak nəticəsinə səbəb olur. Bu cür əqdlərə aiddir: hakimiyyətdən sui-istifadə nəticəsində bağlanmış əqdlər; fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin bağladığı əqdlər; mühüm (vacib) yanılma nəticəsində bağlanmış əqdlər; qeyri-ciddi əqdlər.

Mühüm (vacib) yanılma nəticəsində etibarsız əqdlər üzrə əlavə əmlak nəticəsi o tərəfə tətbiq edilir ki, yanılma onun təqsiri üzündən yaransın. Bu tərəfin üzərinə real zərərin əvəzini ödəmək vəzifəsi qoyulur, bir şərtlə ki, yanılmanın onun təqsiri üzündən əmələ gəldiyi sübuta yetirilsin. Sübut etmə yükünü qarşı tərəf çəkir.

Əgər bu, sübuta yetirilməsə, yanılan tərəf, hətta yanılma ondan asılı olmayan səbəblərdən əmələ gəlsə də, qarşı tərəfə real zərərin əvəzini ödəyir (MM-ın 347-ci maddəsinin 7-ci bəndi).

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Агарков М.М. Понятие сделки по советскому гражданскому праву // Советское государство и право. 1946. № 3-4.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 10).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина**,

А.И.Масляева. М., 1997 (гл. 10).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 9).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева**, **Ю.К.Толстого**. М., 1998 (гл. 10).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 10).

Иоффе О.С. Советское гражданское право. М., 1967 (гл. «Сделки»).

Рабинович Н.В. Недействительность сделок и ее последствия. Л., 1960.

Новицкий И.Б. Сделки. Исковая давность. М., 1954.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова**. М., 1985 (гл. 9).

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950 (гл. 2).

Jauering O. Bürgerliches Gesetzbuch mit Erläuterungen. 1997.

Ermann W. Handkommentar zum BGB. Münster. 1993.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983 (гл. 5).

XII FƏSİL
MÜLKİ HÜQUQLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏ VƏZİFƏLƏRİN İCRASI

§ 1. Mülki hüquqların həyata keçirilməsi, vəzifələrin icrası, onlar arasında qarşılıqlı əlaqə, həyata keçirilmə və icra üsulları

1. Mülki hüquqların həyata keçirilməsinin anlayışı

Hər şeydən əvvəl, mətləbə keçməmişdən qabaq mülki hüquq anlayışının məzmununa aydınlıq gətirək. O, çoxmənalı anlayışdır. Bu termindən ilk növbədə, hüququn mülki hüquq adlı sahəsini, yəni hüquq normalarının məcmusu və ya sistemini ifadə etmək üçün istifadə olunur. Buna **obyektiv mənada mülki hüquq** deyilir. Bu terminlə ikinci mənada subyektiv mülki hüquqlar və ya mülki hüquqlar kimi anlayış əhatə olunur. Məsələn, ev sahibinin həmin evə olan mülkiyyət hüququ, alqı-satqı müqaviləsi üzrə satıcının alıcıdan əşyanın pulunun verilməsini tələb etmək hüququ, podrat müqaviləsi üzrə sifarişçinin iş görülməsini tələb etmək hüququ və s. subyektiv mülki hüquqlardır.

Subyektiv mülki hüquqlar (mülki hüquqlar) mülki hüquq münasibəti subyektinin mümkün olan davranış ölçüsüdür. Onun məzmunu vardır. Bu məzmun isə subyektə verilən **hüquqi imkanlardan** ibarətdir. Hüquqi imkan **səlahiyyət**, bu səlahiyyətin verildiyi subyekt isə **səlahiyyətli şəxs** adlanır. Bu hüquqi imkan (səlahiyyət) dörd cür olur: tələb etmək səlahiyyəti; müdafiə səlahiyyəti; müstəqil surətdə hərəkət etmək səlahiyyəti; istifadə səlahiyyəti. Məsələn, götürək vətəndaşın yaşayış evinə olan subyektiv mülkiyyət hüququnu. Vətəndaşın hüquqi imkanı vardır ki, ona məxsus olan mülkiyyət hüququnu pozmamağı bütün şəxslərdən — hər bir kəsdən tələb etsin **(tələb etmək səlahiyyəti)**. Vətəndaşın həmçinin hüquqi imkanı vardır ki, onun mülkiyyət hüququnu pozanlara dövlət-məcburetmə tədbirləri tətbiq olunması üçün məhkəməyə müraciət etsin **(müdafiə səlahiyyəti)**. Vətəndaşın yaşayış evinə sahiblik, yaşayış evindən istifadə və onun üzərində sərəncam vermək imkanı vardır **(müstəqil surətdə hərəkət etmək səlahiyyəti, davranış səlahiyyəti)**. Vətəndaş konkret mənafe və ehtiyacını təmin etmək üçün ona verilmiş bu cür hüquqi imkanları (səlahiyyətləri) həyata keçirməlidir. Əks təqdirdə onun mənafeyi təmin oluna və hüququn sosial qiyməti ola bilməz. Məlum məsələdir ki, konkret tələbatı ödəmək üçün təkcə subyektiv mülki hüquqları əldə etmək, yəni hüquqi imkanlara malik olmaq kifayət etmir. Vacibdir ki, bu imkanlar realizə edilsin, gerçəkləşdirilsin, bir sözlə, həyata keçirilsin. Əgər bu imkanlar (səlahiyyətlər) gerçəkləşdirilərsə, onda bu, onu ifadə edir ki, subyektiv mülki hüquqlar (mülki hüquqlar) həyata keçirilmişdir. Məsələn, vətəndaş yaşayış evinə sahiblik edir, ondan gecələmək və yaşamaq üçün istifadə edir, boş otaqlarını kirayəyə verir və s. Deməli, subyektiv mülki hüquq ev sahibi olan vətəndaşın - səlahiyyətli şəxsin öz ehtiyacı və mənafeyini təmin etmək üçün vasitə rolunu

oynayır.

Subyektiv mülki hüquqların və ya mülki hüquqların həyata keçirilməsi dedikdə, həmin hüquqları məzmununu təşkil edən hüquqi imkanların (səlahiyyətlərin) səlahiyyətli şəxs tərəfindən gerçəkləşdirilməsi və realizə edilməsi başa düşülür. O, səlahiyyətli şəxsin iradə ifadəsi ilə şərtlənən müəyyən bir proses deməkdir. Bu proses nəticəsində həmin şəxs ona verilən hüquqi imkanlardan istifadə edərək, öz ehtiyac və tələbatını ödəyir. Məsələn, yuxarıdakı misalda vətəndaş öz evində yaşamaqla öz subyektiv mülkiyyət hüququnu həyata keçirir. Başqa bir misalda mülkiyyətçi (sürücü) minik avtomobilini idarə etməklə öz subyektiv mülkiyyət hüququnu həyata keçirir.

Beləliklə, subyektiv mülki hüququn həyata keçirilməsi səlahiyyətli şəxsin ona verilmiş hüquqi imkanlara (səlahiyyətlərə) sərəncam verrnək vasitəsidir. Bununla o, həm **hüquqi məqsədlərə** (məsələn, əmlak əldə etmək, əşyanı kirayəyə götürmək, mülki-hüquqi əqd bağlamaq və s.), həm də **sosial-iqtisadi məqsədlərə** (məsələn, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat fəaliyyətini həyata keçirmək və s.) nail olur.

Almaniya sivilistika doktrinasında subyektiv mülki hüquqlar və onların həyata keçirilməsi əsas anlayışlardan biri hesab olunur. Subyektiv hüquq dedikdə, movcud hüquq sistemi tərəfindən müəyyən mənafeyi təmin etməkdən ötru huquq subyektlərinə verilən xüsusi hüquqi «hakimiyyət» başa düşülür[1]. L.Ennekserus yazır ki, subyektiv hüquq ayrı-ayrı şəxslərə hüquq qaydası (sistemi) tərəfindən verilən «hakimiyyətdir». O, hüquq münasibətinin məzmununa daxil olan elementdir. Amma Almaniya hüquq ədəbiyyatında göstərilir ki, subyektiv huquqa vahid anlayış vermək qeyri-mümkündür. Müəlliflərdən K.Larenz yazır ki, subyektiv hüquqa anlayış verilərkən işlədilən «hakimiyyət» ifadəsi hüquqi anlayışdan çox, sosioloji anlayışdır. O hesab edir ki, subyektiv hüquqa anlayış verməkdən imtina etmək və subyektiv hüququn ayrı-ayrı növlərinin məzmununu tədqiq etmək lazımdır[2].

Almaniya mülki hüququnda subyektiv mülki hüquqlar iki yerə bölünür: mütləq huquqlar; nisbi hüquqlar. Mütləq subyektiv hüquqlar hər bir kəsə yönəlir (məsələn, mülkiyyət hüququ və s.). Nisbi subyektiv hüquqlar isə müəyyən konkret hüquq subyektinə yönəlir (məsələn, tələblər, yəni tələb etmək hüquqları, ilk növbədə müqavilə tərəflərindən birinin digərindən nəyinsə edilməsini tələb etmək hüququ).

Hüququn həyata keçirilməsi dedikdə, başqalarına qarşı hüququn gerçəkləşdirilməsi, habelə hüququn məzmununun hər cür faktiki realizə olunması başa düşülür[3]. Almaniya Mülki Qanunnaməsinin ümumi hissəsinin altıncı bölməsinə daxil olan normalar məhz bu məsələnin tənzimlənməsinə həsr edilmişdir[4]. Bu normalar, əsasən, bizim ölkə qanunvericiliyi tərəfindən qəbul edilmişdir (MM-in 560-566-cı maddələri).

[1] *А Жалинский, А Рорихт.* Введение в немецкое право. М., 2001, с. 304.
[2] *Larenz K.* Allgemeiner Teil des Deutschen bürgerlichen Rechts. 1989, s. 210.
[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 437.
[4] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

2. Subyektiv mülki-hüquqi vəzifələrin icrasının anlayışı

Subyektiv mülki vəzifə dedikdə, mülki hüquq münasibəti iştirakçısının lazımi davranış ölçüsü başa düşülür. O da subyektiv mülki hüquq kimi müəyyən məzmuna malikdir. Bu məzmun isə bir neçə **hüquqi zərurətdən** ibarətdir. Məsələn, müəyyən hərəkətlər etmək və ya bu hərəkətləri etməkdən çəkinmək zərurəti, məsuliyyət daşımaq zərurəti və s. Borclu şəxs bu zərurətləri yerinə yetirmək vəzifəsi daşıyır. Əgər həmin şəxs onları icra edərsə, bu, o deməkdir ki, subyektiv mülki vəzifə icra olunmuşdur. Əgər subyektiv mülki huquqlar həyata keçirilirsə, subyektiv mülki vəzifələr isə icra edilir.

Subyektiv mülki vəzifənin icra edilməsi dedikdə, borclu şəxsin səlahiyyətli şəxsin mənafeyini təmin etmək məqsədi ilə həmin vəzifənin məzmununu təşkil edən hüquqi zərurətləri yerinə yetirməsi başa düşülür. Buraya, hər şeydən əvvəl, borclu şəxs tərəfindən müəyyən hərəkətlərin edilməsi — əmlak verilməsi, xidmət göstərilməsi, pul ödənilməsi və iş görülməsi və yaxud müəyyən hərəkətləri etməkdən çəkinmək və s. aiddir. Məsələn, vəzifə satıcı tərəfindən əşyanın alıcıya verilməsi, podratçı tərəfindən müəyyən bir işin görülüb, onun sifarişçiyə təhvil verilməsi, borc alanın aldığı borcu qaytarması, şəxsin mülkiyyət hüququnu pozan hərəkətlərdən çəkinməsi və digər yollarla icra olunur. Sivilistikada əgər subyektiv mülki hüquqlar (mülki hüquqlar) mülki hüquq münasibətlərinin məzmununu təşkil edən hüquqları ifadə etmək üçün istifadə olunan anlayışdırsa, subyektiv mülki vəzifələr (mülki vəzifələr) həmin münasibətlərin məzmununu təşkil edən vəzifələri əhatə etmək üçün işlədilən hüquqi məfhumdur[1].

Subyektiv mülki vəzifələr iki formada icra olunur: fəal hərəkətlər etmək formasında (**aktiv formada**); qadağan olunmuş hərəkətləri etməkdən çəkinmək formasında (**passiv formada**). Əgər birinci forma aktiv xarakter daşıyırsa, ikinci forma özünün passiv təbiəti ilə xarakterizə olunur.

Bu və ya digər formadan istifadə edilməsi, əsasən, iki amildən asılıdır: mülki hüquq münasibətinin növündən; subyektiv mülki vəzifənin özünün tipindən. Bildiyimiz kimi, mülki hüquq münasibətinin əşya (mütləq) və öhdəlik (nisbi) hüquq münasibəti kimi, subyektiv mülki vəzifənin isə passiv və aktiv vəzifə kimi iki tipi fərqləndirilir. **Əşya (mütləq) hüquq münasibətlərində mülki vəzifə qadağan olunmuş hərəkətləri etməkdən çəkinmək formasında icra edilir.** Məsələn, götürək əşya (mütləq) hüquq münasibətinin bir növü olan mülkiyyət hüquq münasibətini. Bu münasibətdə səlahiyyətli şəxsə (mülkiyyətçiyə) əhatə dairəsi bilinməyən şəxslər («bütün hamı və hər kəs») durur. Onlar borclu şəxs rolunda çıxış edirlər. Həmin şəxslər belə bir vəzifə daşıyırlar: səlahiyyətli şəxsin (mülkiyyətçinin) subyektiv mülkiyyət hüququnu həyata keçirməyə mane olan, bu hüququ pozan hər hansı hərəkəti etməmək, bu cür hərəkət etməkdən çəkinmək. Bu, **passiv tipli vəzifədir.** Ona görə də borclu şəxs həmin hə-

[1] L.Ennekserus yazır ki, şəxsin malik olduğu hüquqa qarşı hüquqi vəzifə durur. Hüquqi vəzifə ibarətdir: ya ümumiyyətlə, hamının hüquqa qəsd edən hərəkətlərdən çəkinmək vəzifəsindən; ya müəyyən şəxsin hərəkət etmək və ya hərəkətdən çəkinmək vəzifəsindən; ya da birlikdə hər iki vəzifədən. Vəzifə hərəkətə və ya hərəkətdən çəkinməyə yönəlir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 1. М., 1949, с. 250-251).

rəkətləri etməkdən çəkinməklə onun üzərinə qoyulmuş vəzifəni passiv formada icra edir. Vəzifənin passiv formada icrası borclu şəxsin passiv fəaliyyət göstərməsi ilə şərtlənir.

Öhdəlik (nisbi) hüquq münasibətində isə vəzifə səlahiyyətli şəxsin mənafeyini təmin etmək üçün borclu şəxs tərəfindən fəal hərəkətlər etmək formasında icra olunur. Burada vəzifənin icrası aktiv xarakterə malik olub, əşyanın verilməsinə, iş görülməsinə, xidmət göstərilməsinə, pul ödənilməsinə və s. yönələn hərəkətlərdə ifadə edilir. Səlahiyyətli şəxsin mənafeyinin təmin olunması üçün borclu şəxsin bu cür hərəkətlər etməsi **aktiv tipli vəzifədir**. Bu tipli vəzifə fəal hərəkətlər etmək formasında icra edilir. Mülki-hüquqi müqavilələrdən (alqı-satqı, daşıma, icarə, kirayə, borc, kredit, podrat və s. müqavilələrdən) əmələ gələn öhdəlik hüquq münasibətində borclu şəxs məhz fəal hərəkətlər etməklə öz vəzifəsini icra edir. Bu, öhdəlik hüquq münasibətinin öz təbiətindən irəli gəlir. Belə ki, bu növ hüquq münasibətinin xarakteri fəal hərəkətlər edilməsini tələb edir. O.S.İoffenin haqlı mövqeyinə görə, öhdəlik hüquq münasibətinin təbiəti elədir ki, burada hərəkətsizlik labüd olaraq hərəkətə tabe olur[1]. Elə bir öhdəlik hüquq münasibəti tapmaq olmaz ki, onun məzmunu yalnız hərəkətsizlikdən ibarət olsun.

3. Subyektiv mülki hüquqların həyata keçirilməsi ilə mülki vəzifələrin icra olunması arasında qarşılıqlı əlaqə

Subyektiv mülki hüquq və mülki hüquqi vəzifə **cüt və eynielementli kateqoriyalardır**. Hər bir konkret mülki hüquq münasibəti çərçivəsində onlar birbirinə uyğun gəlirlər. K.Marksın **«hüquqlarsız vəzifələr olmadığı kimi, vəzifələrsiz də hüquqlar yoxdur» kəlamı** subyektiv mülki hüququn və mülki vəzifənin cüt anlayışlar olmasını daha dəqiq ifadə edir. Buna görə də əgər mülki hüquq münasibətində səlahiyyətli şəxs hər hansı hüquqa malikdirsə, onda borclu şəxsin üzərinə hökmən müəyyən hüquqi vəzifə düşür. Məsələn, daşıma müqaviləsində yük sahibinin daşıyıcıdan yükü vaxtında təyinat yerinə çatdırılmasını tələb etmək hüququ var, daşıyıcı isə qanuna və müqaviləyə uyğun olaraq, bu tələbi yerinə yetirmək vəzifəsini daşıyır. Beləliklə, mülki hüquq münasibətlərində səlahiyyətli şəxsin hüquqlarına həmişə borclu şəxsin hüquqi vəzifələri uyğun gəlir, müvafiq olur. Məhz bu səbəbdən subyektiv mülki hüquqlarla hüquqi vəzifələr arasında sıx və möhkəm qarşılıqlı əlaqə mövcuddur.

Göstərilən qarşılıqlı əlaqə **nisbi (öhdəlik) hüquq münasibətlərində özünü daha açıq surətdə büruzə verir**. Bu münasibətlərdə səlahiyyətli şəxsin mənafeyinin təmin olunması üçün borclu şəxsin üzərinə müəyyən hərəkətləri etmək (əşya vermək, iş görmək, xidmət göstərmək, pul ödəmək) vəzifəsi qoyulur. Səlahiyyətli şəxs isə həmin hərəkətlərin edilməsini borcludan tələb etmək hüququna malikdir. O, borcludan öz vəzifəsini icra etməyi tələb edir və bununla subyektiv hüququnu həyata keçirir. Borclu şəxs isə öz növbəsində həmin tələbi yerinə yetirərək, üzərinə düşən vəzifəni icra edir, yəni səlahiyyətli şəxsə pul ödəyir, əşya verir, xidmət göstərir, iş görür və s. Deməli, səlahiyyətli

[1] bax. *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Учебное пособие. Часть 1. Л., 1958, с. 372

şəxsin tələb etmək səlahiyyəti formasında subyektiv hüququnu həyata keçirməsi borclu şəxsin öz vəzifəsini icra etməsinin (müəyyən hərəkətlər etməsinin) nəticəsidir və yaxud borclu şəxsin öz vəzifəsini icra etməsi səlahiyyətli şəxsin öz tələb hüququnu həyata keçirməsinin nəticəsidir. Göründüyü kimi, subyektiv mülki hüququn həyata keçirilməsi və mülki vəzifənin icra edilməsi bir-birini şərtləndirir. Məsələn, borc müqaviləsində borc verən tərəf borcun qaytarılmasını tələb edir. Bununla o subyektiv mülki hüququnu həyata keçirir. Bu tələbi yerinə yetirərək, borc alan pulu qaytarır. Bununla o, öz hüquqi vəzifəsini icra edir.

Nisbi (öhdəlik) hüquq münasibətlərinin əksəriyyəti öz hüquqi təbiətinə görə ikitərəfli (qarşılıqlı) xarakterə malikdir. Bu, o deməkdir ki, həmin münasibətlərin iştirakçısı olan səlahiyyətli şəxs eyni zamanda, həm də borclu şəxsdir, borclu şəxs isə öz növbəsində eyni zamanda səlahiyyətli şəxsdir. Buna görə də səlahiyyətli şəxs də, borclu şəxs də eyni vaxtda hüquqlara malik olub, vəzifələr daşıyırlar. Bu cür qarşılıqlı hüquq və vəzifələr bir-birinin vasitəsilə realizə olunur. Məsələn, alqı-satqı müqaviləsində satıcının pulun verilməsini tələb etmək hüququ var. O, həm də əşyanı alıcıya vermək vəzifəsini daşıyır. Alıcının əşyanın verilməsini satıcıdan tələb etmək hüququ var. Bununla belə o, əşyanın pulunu ödəmək vəzifəsini daşıyır. Podrat, daşıma, icarə, kirayə və digər müqavilələr də bu cür xüsusiyyətə malikdir.

Mütləq (əşya) hüquq münasibətlərində isə subyektiv hüquqla mülki vəzifə arasında qarşılıqlı əlaqə o qədər də özünü açıq formada büruzə vermir. Bu, onunla izah edilir ki, həmin növ hüquq münasibətində səlahiyyətli şəxsin mənafeyi borclu şəxsin müəyyən hərəkətlər etməsi ilə yox, onun özünün əşyaya bilavasitə qarşılıqlı təsir göstərməsi yolu ilə təmin edilir. O, subyektiv mülki hüququ özü həyata keçirir. Məsələn, mülkiyyətçi öz yaşayış evində yaşayır, torpaq sahəsindən istifadə edir və s. Məhz buna görə də borclu şəxsin fəal hərəkətlər etməsi tələb olunmur və ona heç ehtiyac da yoxdur. Borclu şəxs — əhatə dairəsi bilinməyən şəxslər («hamı və hər kəs») səlahiyyətli şəxsin subyektiv hüquqlarını pozan hərəkətlərdən çəkinmək kimi passiv tipli vəzifə daşıyır.

4. Mülki hüquqların həyata keçirilməsi şərtləri

Mülki hüquqlar yalnız müəyyən şərtlər olduqda həyata keçirilə bilər. Bu şərtləri sivilistika doktrinasında (mülki hüquq elmində) iki yerə bölürlər[1]: xarici şərtlər; daxili şərtlər.

Xarici şərtlər obyektiv xarakterə malik olub, səlahiyyətli şəxsin iradəsindən və hərəkətlərindən asılı deyildir. Buna görə də onu çox vaxt obyektiv şərtlər adlandırırlar.

Xarici (obyektiv) şərtlər dedikdə, mülki hüquqların həyata keçirilməsi

[1] *Тархов В.А.* Осуществление гражданских прав // В книге: Развитие прав граждан СССР и усиление их охраны на современном этапе коммунистического строительства. Саратов, 1962, с. 116-117; *Мирошников Н.И.* Механизм осуществления субъективных гражданских прав. Ярославль, 1989, с. 27; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 215; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 244.

üçün cəmiyyətin yaratdığı lazımi şərtlər başa düşülür. Səlahiyyətli şəxs nə qədər fəaliyyət göstərən, işgüzar olsa da, bu şərtlər olmadan o, öz hüquqlarını həyata keçirə bilməz. Bu şərtlərə cəmiyyətin obyektiv inkişafı nəticəsində yaranan **təminat sistemləri** daxildir:

- iqtisadi təminat;
- siyasi təminat;
- hüquqi təminat.

Göstərilən təminat sistemləri cəmiyyətin iqtisadi və siyasi quruluşunun əsasını təşkil edir. Bu sistemlər hüquqları, o cümlədən mülki hüquqları təmin etmək məqsədilə cəmiyyət (dövlət) tərəfindən verilir.

İqtisadi təminat sivil iqtisadi sistemin yaradılmasını nəzərdə tutur. **Siyasi təminat** ictimai sabitliyi təmin edən və bütün cəmiyyət üzvlərinin mənafeyini nəzərə alan dövlət-siyasi qurumların fəaliyyət göstərməsi deməkdir. **Hüquqi təminat** isə subyektlərə mülki (əmlak) dövriyyədə və digər sahələrdə maksimum dərəcədə iştirak etmək imkanı verən hüquq institutlarının yaranmasını nəzərdə tutur.

Daxili şərtlər subyektiv xarakterə malik olub, səlahiyyətli və borclu şəxsin iradəsindən və davranışından asılıdır. Ona görə də bu şərtləri **subyektiv şərtlər** adlandırırlar.

Cəmiyyətin verdiyi təminatlar nə qədər möhkəm olsa da, əgər səlahiyyətli şəxs fəaliyyət göstərməsə, fəal hərəkətlər etməsə, öz subyektiv mülki hüququnu, şübhəsiz ki, həyata keçirə bilməz. Bununla belə, bu hüquqların həyata keçirilməsində borclu şəxsin davranışının böyük rolu vardır. Məsələn, əgər mülkiyyət hüquq münasibətlərində borclu şəxs («hamı və hər kəs») səlahiyyətli şəxsin (mülkiyyətçinin) mülkiyyət hüququnu pozan hərəkətlər edərsə, onda səlahiyyətli şəxs mülkiyyət hüququnu həyata keçirə bilməz. Öhdəlik hüquq münasibətlərində borclu şəxs fəal hərəkətlər etməsə (məsələn, borc alan borcu qaytarmasa, sərnişin daşıma haqqını ödəməsə, podratçı gördüyü işin nəticəsini sifarişçiyə verməsə və s.), onda səlahiyyətli şəxsin öz hüquqlarını həyata keçirməsindən söhbət gedə bilməz.

Daxili şərtlərə şəxsin müstəqil hərəkət etmək qabiliyyəti (fəaliyyət qabiliyyəti) və onun öz davranışına psixi münasibəti (vicdanlı olmaq, ağlabatan hərəkət etmək və s.) daxildir.

5. Subyektiv mülki hüquqların həyata keçirilməsi üsulları

Subyektiv mülki hüquqların həyata keçirilməsinə bu hüquqların hansı növdə olması böyük təsir göstərir. Bizə məlumdur ki, subyektiv mülki hüquqların iki əsas növü vardır: əşya hüquqları; öhdəlik hüquqları. **Əşya hüquqları** əşya hüquq münasibətlərində səlahiyyətli şəxsin malik olduqları hüquqlardır. **Öhdəlik hüquqları** isə öhdəlik hüquq münasibətlərində səlahiyyətli şəxsin malik olduğu hüquqlara deyilir.

Subyektiv mülki hüquqların göstərilən növlərinə uyğun olaraq, həmin hüquqlar iki üsulla həyata keçirilir:

- səlahiyyətli şəxsin fəal hərəkətlər etməsi üsulu ilə;
- səlahiyyətli şəxsin borclu şəxsdən müəyyən hərəkətlərin yerinə yetirilməsini tələb etməsi üsulu ilə.

Əşya hüquqları səlahiyyətli şəxsin əşyaya bilavasitə təsir göstərməsilə həyata keçirilir. Bununla əşyanın faydalı olmaq kimi xassəsi hesabına onun ehtiyac və mənafeyi təmin edilir. Deməli, əşya hüquqları səlahiyyətli şəxsin fəal hərəkətlər etməsi üsulu ilə həyata keçirilir. Məsələn, kənd sakini ona məxsus olan torpaq sahəsində məhsul yetişdirir, ondan istifadə edir və bununla öz əşya hüququnu (mülkiyyət hüququnu) həyata keçirir. Bundan əlavə, o, torpaq sahəsini icarəyə verə, sata, bağışlaya, ipotekaya qoya, dəyişdirə və s. bilər.

Səlahiyyətli şəxsin **öhdəlik hüquqlarına** gəldikdə isə göstərmək lazımdır ki, bu hüquqlar, yəni borclu şəxsdən müəyyən hərəkətlərin edilməsini tələb etmək hüququ borclu şəxsin onun mənafeyini təmin etmək məqsədi ilə etdiyi hərəkətlər (əşya vermək, pul ödəmək, iş görmək, xidmət göstərmək) nəticəsində həyata keçir. Belə ki, səlahiyyətli şəxs tələb edir, borclu şəxs isə bu tələbi icra edərək, müəyyən fəal hərəkətləri yerinə yetirir. Deməli, **öhdəlik hüquqları səlahiyyətli şəxsin borclu şəxsdən müəyyən hərəkətlərin yerinə yetirilməsini tələb etməsi üsulu ilə həyata keçirilir**.

Səlahiyyətli şəxs subyektiv mülki hüquqları həyata keçirərkən müxtəlif xarakterli hərəkətlər edir. Onun ixtiyarı var ki, bu hüquqları realizə edərkən qanunun yol verdiyi bütün hərəkətlərdən istifadə etsin. Həmin hərəkətlərin bəzisi hüquqi nəticə doğurur, bəzisi isə bu cür nəticəyə səbəb olmur. **Edilən hərəkətin hüquqi nəticəyə səbəb olub-olmaması** kimi meyara görə mülki hüquq elmində subyektiv mülki hüquqların həyata keçirilməsinin iki üsulu fərqləndirilir[1]:

- faktiki üsullar;
- hüquqi üsullar.

Faktiki üsullar odur ki, bu üsullar subyektiv mülki hüquqların hüquqi nəticəyə səbəb olmayan hərəkətlər vasitəsilə həyata keçirilməsini nəzərdə tutur. Bu cür hərəkətlər əqd və hüquqi nəticə doğuran digər hüquqi faktlara aid edilmir. Onlara **faktiki hərəkətlər** deyilir: bu növ hərəkətlər mülki-hüquqi nəticə (mülki hüquq və vəzifələr) yox, faktiki (real) nəticə yaradır. Məsələn, torpaq mülkiyyətçisi torpaq sahəsini əkir, məhsul yetişdirir, bir sözlə, ondan istifadə edir. Minik avtomobilinin sahibi həmin avtomobillə hər gün işə gəlir, ailə üzvlərini iş yerinə, bazara-dükana və s. aparır. Vətəndaş onun özünə məxsus olan mənzildən yaşamaq üçün istifadə edir, aldığı paltarları (geyim şeylərini) geyinir. Göstərilən faktiki hərəkətlər subyektiv mülki hüquqların həyata keçirilməsinin faktiki üsulları kimi çıxış edir.

Hüquqi üsullar dedikdə, subyektiv mülki hüquqların həyata keçirilməsi üçün edilən elə hərəkətlər başa düşülür ki, bu hərəkətlər hüquqi nəticəyə səbəb olur. Söhbət subyektiv mülki hüquqların **hüquqi hərəkətlərin** vasitəsilə həyata keçirilməsindən gedir. Bu cür hərəkətlər həmişə hüquqi nəticəyə səbəb olur.

Hüquqi hərəkətlər içərisində **əqdlər** subyektiv mülki hüquqların həyata ke-

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 381. Enneksorus hüquqların həyata keçirilmə üsullarına aid edir: özü üçün faktiki faydalanma üsulu (Genuss); istifadə etmə (Gebrauch); sərəncam üsulu (özgəninkiləşdirmək, hüququ yüklü etmək, hüquqi faydadan imtina etmək). Bu barədə bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 435.

çırılməsində böyük rol oynayır. Söhbət, hər şeydən əvvəl, ikitərəfli əqdlərdən (müqavilələrdən) gedir. **Müqavilələr** subyektiv mülki hüquqların həyata keçirilməsinin əsas və geniş yayılmış hüquqi üsuludur. Məsələn, mülkiyyətçi öz əmlakını girov qoymaq, satmaq, dəyişdirmək, bağışlamaq, kirayəyə vermək, saxlanca vermək və s. məqsədi ilə müvafiq mülki-hüquqi müqavilələr bağlayır. Bununla o, subyektiv mülkiyyət hüququnu həyata keçirmiş olur.

Birtərəfli əqdlər də subyektiv mülki hüquqların həyata keçirilməsinin hüquqi üsulu kimi çıxış edə bilər. Məsələn, vətəndaş etibarnamə əsasında minik avtomobilini öz qonşusunun müvəqqəti istifadəsinə verir. Qoca öz əmlakı barəsində vəsiyyət sərəncamı yazır və s.

6. Mülki vəzifələrin icra üsulları

Mülki vəzifələrin iki tipinə uyğun olaraq, onların icra edilməsinin iki üsulu fərqləndirilir:

- hərəkətsizlik üsulu;
- fəal hərəkətlər etmək üsulu.

Hərəkətsizlik üsulu ilə passiv tipli vəzifələr icra edilir. Bu üsul borclu şəxsin qanunun yol vermədiyi və qadağan etdiyi hərəkətləri yerinə yetirməkdən çəkinməyi nəzərdə tutur. Məsələn, mülkiyyət hüquq münasibətlərində borclu («hamı və hər kəs») mülkiyyətçinin subyektiv hüququnu pozan hərəkətləri etməkdən çəkinməklə öz hüquqi vəzifəsini icra etmiş olur. Başqa bir misalda əvəzsiz istifadə (ssuda) müqaviləsi üzrə kirayəçi əşyanı üçüncü şəxsin istifadəsinə verə bilməz. Qanun buna yol vermir (MM-in 737-ci maddəsi). Kirayəçi əşyanı üçüncü şəxsin istifadəsinə verməmək kimi passiv tipli vəzifəni hərəkətsizlik, əşyanı üçüncü şəxsin istifadəsinə verməkdən çəkinmək üsulu ilə icra edir.

Fəal hərəkətlər etmək üsulu mülki-hüquqi vəzifələrin icrasının ən əsas və geniş yayılmış üsuludur. Bu üsul borclu tərəfindən aktiv xarakterli hərəkətlərin edilməsi (əşyanın verilməsi, pul ödənilməsi, iş görülməsi, xidmət göstərilməsi və s.) ilə şərtlənir. Həmin üsul ilə aktiv tipli mülki vəzifələr icra edilir.

Aktiv tipli mülki-hüquqi vəzifələrin icrası öz hüquqi təbiətinə görə hüquqa uyğun **iradəvi hərəkətdir**. Daha doğrusu, o, əqddir. Özü də çox vaxt aktiv tipli mülki vəzifələrin icrası **birtərəfli əqd kimi çıxış edir**. Çünki bu əqd borclu şəxsin iradəsini ifadə edir[1]. Buna görə aktiv tipli mülki-hüquqi vəzifələrin icrası əqd kimi hüquqi nəticəyə — tərəflər üçün hüquq və vəzifələrin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasına səbəb olur.

Birincisi, bu əqd nəticəsində müvafiq mülki (öhdəlik) hüquq münasibətinə xitam verilir. Məsələn, borclu şəxs aldığı borcu qaytarır, bununla o, öz mülki vəzifəsini icra edir. Bu isə öz növbəsində əqd kimi borc (öhdəlik) hüquq münasibətinin xitam edilməsinə səbəb olur.

İkincisi, bu əqd nəticəsində borclu şəxsin qarşı tərəfdən qarşılıqlı əvəz almaq hüququ yaranır. Məsələn, kirayəyə verənin əmlakı kirayəyə verməsi ona kirayəçidən kirayə haqqı almaq hüququ verir. Başqa misalda alıcının əvvəlcədən pul ödəməsi onun üçün əşyanın verilməsini satıcıdan tələb etmək hüququ

[1] O.A.Krasavçikov başqa mövqedə dayanır. Onun fikrincə, vəzifələrin (öhdəliklərin) icrası əqd yox, hüquqi əməldir (bax: Советское гражданское право. Учебник. Том I / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 471).

yaradır və s.

Bəzi hallarda mülki (öhdəlik) hüquq münasibətində borclu şəxs tərəfində bir yox, bir neçə şəxs çıxış edir. Buna **öhdəlikdə şəxslər (borclular) çoxluğu** deyilir. Bu cür öhdəliklər (öhdəlik hüquq münasibətləri) iki cür olur: paylı öhdəliklər çoxluğu; solidar (birgə) öhdəliklər çoxluğu.

Paylı öhdəliklər çoxluğu zamanı hər bir borclu şəxs vəzifəni digər borclularla bərabər hissələrdə (paylarda) icra edir. Məsələn, üç nəfər yaxın qohum ümumi istifadə üçün bağ evi alırlar. Onlardan hər biri öz payına uyğun gələn pul məbləğini ödəyir.

Birgə (solidar) öhdəliklər çoxluğu zamanı səlahiyyətli şəxs öz arzu və istəyi ilə istənilən borcludan həm tam, həm də hissə-hissə vəzifənin icrasını tələb edə bilər (MM-in 501-ci maddəsi). Əgər borclulardan biri mülki-hüquqi vəzifəni tam icra edərsə, onda bu, qalan borclu şəxsləri birgə vəzifənin icrasından azad edir. Birgə vəzifəni tam icra etmiş borclu şəxsin hüququ var ki, o, qalan borclulara onların paylarına mütənasib surətdə reqres qaydasında geriyə tələb irəli sürsün. Belə halda onun öz payı çıxılır (MM-in 509-cu maddəsi). Məsələn, üç nəfər yeniyetmə hər hansı vətəndaşa məxsus olan minik avtomobilini qaçırır. Qəza nəticəsində həmin avtomobil tam əzilir və zədələnir, buna görə də istifadə üçün yararsız hala düşür. Vətəndaşa əmlak zərəri vurulur. Bununla həmin zərərin əvəzini ödəmək vəzifəsi yaranır. Zərər avtomobili qaçıran yeniyetmələrin birgə hərəkəti ilə vurulduğuna görə birgə vəzifə əmələ gəlir. Buna görə də avtomobili qaçıranlar vurulmuş zərər üçün zərərçəkən vətəndaş qarşısında birgə məsuliyyət daşıyırlar (MM-in 1113-cü maddəsinin 1-ci bəndi). Zərərçəkən vətəndaş məhz bu səbəbdən istənilən yeniyetmədən vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər. Bundan sonra zərərin əvəzini tam ödəmiş yeniyetmə qalan yeniyetmələrə reqres qaydasında tələb irəli sürə bilər.

Bəzi hallarda mülki hüquq münasibəti iştirakçısı olan borclu fiziki şəxs ölür və ya borclu hüquqi şəxs yenidən təşkil olunur (birləşmə, çevrilmə, qoşulma və bölünmə yolu ilə). Belə halda ölən fiziki şəxsin vəzifəsi, onun şəxsiyyəti ilə sıx surətdə bağlı olan vəzifələr (məsələn, aliment ödəmək vəzifəsi və s.) istisna olmaqla, onun vərəsələri tərəfindən icra edilir. Məsələn, ata qonşudan borc alır. O, aldığı borcu qaytarmadan vəfat edir. Belə halda atanın vərəsəsi olan oğlu borcu qaytarmaq vəzifəsini icra edəcəkdir. Yenidən təşkil olunmuş hüquqi şəxsin vəzifəsi isə onun hüquqi varisi tərəfindən icra edilir. Məsələn, səhmdar cəmiyyəti məhdud məsuliyyətli cəmiyyətə çevrilmək yolu ilə yenidən təşkil olunur. Belə halda onun daşıdıqları vəzifələri hüquqi varis, yəni məhdud məsuliyyətli cəmiyyət icra edəcəkdir (məsələn, bankdan alınmış krediti qaytaracaq).

Bəzi hallarda öhdəlik hüquq münasibətində iştirak edən həm səlahiyyətli şəxs (kreditor), həm də borclu şəxs dəyişilir, başqası ilə əvəz olunur. Lakin bu cür subyekt dəyişikliyinə baxmayaraq, həmin öhdəlik hüquq münasibətinin özü saxlanılır, ləğv edilmir. **Əgər səlahiyyətli şəxs başqası ilə əvəz edilərsə, bu, tələbin güzəşti adlanır**. Belə halda səlahiyyətli şəxs öhdəlik hüquq münasibətindən irəli gələn tələb hüququnu yeni səlahiyyətli şəxsə verir. Borclu şəxs öz vəzifəsini yeni səlahiyyətli şəxsin mənafeyi üçün icra edir. Məsə-

lən, sifarişçi podrat haqqını əvvəlcədən ödəməklə podratçıya bağ evi tikməyi tapşırır. Onun podratçıdan evin verilməsini tələb etmək hüququ vardır. Sifarişçi bağışlama yolu ilə həmin tələb hüququnu qohumuna verir (güzəşt edir). Podratçı bağ evini sifarişçiyə yox, onun qohumuna təhvil verəcəkdir.

Əgər öhdəlik hüquq münasibətində borclu şəxsin özü dəyişərsə, bu, borcun köçürülməsi adlanır. Belə halda borclu şəxsin vəzifəsi də yeni borclu şəxsə keçir. Amma bunun üçün hökmən səlahiyyətli şəxsin icazə və razılıq verməsi tələb olunur. Çünki səlahiyyətli şəxs üçün onun mənafeyini təmin etmək məqsədilə hərəkətlər edən borclunun şəxsiyyəti olduqca maraqlıdır. O, əvvəlki borclunun yeni borclu ilə əvəz edilməsinə biganə qala bilməz. Axı, yeni, məlum olmayan borclu vicdansız ola bilər və ya ödəmə qabiliyyətli ola bilməz və s. Deməli, borcun köçürülməsi səlahiyyətli şəxsin, əvvəlki və yeni borclunun razılığı ilə həyata keçirilir. Buna görə də o, **çoxtərəfli əqddir**.

Borcun köçürülməsi zamanı səlahiyyətli şəxs qarşısında vəzifəni əvvəlki borclu yox, yeni borclu şəxs icra edəcəkdir. Məsələn, vətəndaş qonşusuna borc verir. Qonşunun borcu qaytarmağa maddi imkanı olmadığına görə onun dostu həmin borcun ödəməsini öz üzərinə götürür. Bununla borcun köçürülməsi həyata keçirilir.

Vəzifənin üçüncü şəxs tərəfindən icrasını borcun köçürülməsi halından fərqləndirmək lazımdır. Belə ki, vəzifəni, borclunun şəxsən özünün icra etməli olduğu hallar istisna edilməklə, bəzən borclunun əvəzinə üçüncü şəxs də icra edə bilər. Buna borclunun razılığı tələb edilmir. Əgər səlahiyyətli şəxs üçüncü şəxsin təklif etdiyi icranı, əgər borclu bunun əleyhinədirsə, qəbul edə bilməz (MM-in 431-ci maddəsi). Deməli, borcun köçürülməsindən fərqli olaraq, vəzifənin üçüncü şəxs tərəfindən icrası çoxtərəfli əqd olmayıb, öhdəlik hüquq münasibətində şəxslərin dəyişməsinə səbəb olmur. Üçüncü şəxs bu münasibətlə bağlı olmayan şəxsdir. Məsələn, vətəndaşın icarə haqqı verməməsi nəticəsində xeyli borcu yaranır. Bunu bilən qonşu (üçüncü şəxs) vətəndaşdan icazə almadan həmin borcu qaytarır.

7. Mülki hüquqların həyata keçirilməsinin və mülki vəzifələrin icrasının bəzi xüsusiyyətləri

Şəxslər, bir qayda olaraq, müstəqil surətdə özləri subyektiv hüquqları həyata keçirir, vəzifələri isə icra edirlər. Bu hüquq və vəzifələrin bəziləri **subyektin şəxsən özü tərəfindən yerinə yetirilir və icra olunur**. Bu, hər şeydən əvvəl, vəsiyyətnamə tərtib etmək hüququna aiddir. Vəsiyyətnamə yazılı formada tərtib edilib və vəsiyyət edən tərəfindən imzalanır. O, həm notariat, həm də qeyri-notariat formasında ola bilər. Vəsiyyətnamənin başqa şəxs tərəfindən imzalanmasına yol verilir (MM-in 1182-ci maddəsi). Belə ki, vəsiyyət edən fiziki şikəstliyinə, bədən qüsuruna və digər səbəblərə görə vəsiyyətnaməni özü imzalaya bilmir. Onun xahişi ilə başqa fiziki şəxs vəsiyyətnaməni imzalayır. Amma bu, subyektiv hüququn həyata keçirilməsinə göstərilən texniki köməklikdir. Bu cür köməklik subyektin öz subyektiv hüquq və vəzifələrini şəxsən həyata keçirməsini əvəz etmir. Ona görə ki, texniki köməklik göstərən şəxs vəsiyyətnamənin iştirakçısına çevrilmir, hər hansı hüquq və vəzifə əldə etmir, habelə orada göstərilən şərtlərə görə və onun icrası üçün məsuliyyət daşımır.

Etibarnamə vermək hüququnu da yalnız etibarnamə verən subyektin şəxsən özü həyata keçirir. Başqa hər hansı şəxs bu hüququ yerinə yetirə bilməz.

Səlahiyyətli şəxsin (kreditorun) şəxsiyyəti ilə qırılmaz bağlı olan tələblər, o cümlədən alimentlər haqqında və həyata və ya sağlamlığa vurulan zərərin əvəzinin ödənilməsi haqqında tələb hüquqları yalnız səlahiyyətli şəxsin özü tərəfindən həyata keçirilir. Bu huquqların başqa şəxslərə verilməsinə (güzəşt edilməsinə) qanun yol vermir (MM-in 194-cü maddəsinin 3-cü bəndi).

Elə vəzifələr var ki, bu vəzifələri borclunun şəxsən özü icra etməlidir. Başqa hər hansı bir kimsənin həmin vəzifəni icra etməyə ixtiyarı çatmır. Məsələn, müəlliflik müqaviləsinə görə nəşriyyat yazıçıya dram əsəri yazmaq tapşırığı verir. Bu müqavilədən irəli gələn vəzifəni yalnız yazıçı şəxsən özü icra etməlidir.

Subyektiv hüquq və vəzifələr **nümayəndə vasitəsilə** də həyata keçirilə bilər[1]. Nümayəndə həmişə təmsil olunan şəxsin adından və onun mənafeyi üçün hərəkət edir. Məsələn, mülkiyyətçi ona məxsus olan evin satılmasını nümayəndəyə tapşırır və s.

Bəzi subyektiv hüquq və vəzifələrin həyata keçirilməsi təkcə bir hərəkətlə başa çatır. Bu hal həmin hüquq və vəzifələrin xitam olunmasına səbəb olur. Məsələn, vərəsə bir hərəkətlə mirası qəbul etmək barəsində subyektiv hüququnu həyata keçirir. Digər subyektiv mülki hüquq və vəzifələrin həyata keçirilməsi isə uzanan, dəfələrlə və təkrar edilən hərəkətlərdə ifadə edilir. Məsələn, səhmdar təminatlı (imtiyazlı) səhm üzrə vaxtaşırı dividend alır. Kirayəçi yaşayış evindən istifadə üzrə dəfələrlə, təkrar olunan hərəkətlər edir. Başqa bir misalda zərərçəkənin əmək qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi aylıq ödənişlər yolu ilə ödənilir (MM-in 1125-ci maddəsinin 1-ci bəndi).

§ 2. Mülki hüquqların həyata keçirilməsinin və mülki vəzifələrin icrasının prinsipləri

1. Mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının prinsiplərinin anlayışı

Mülki hüquq münasibəti iştirakçıları subyektiv mülki hüquqları həyata keçirmə və vəzifələri icra etmə prosesində mülki hüquq normalarında ifadə olunan umumi müddəa və tələblərə tabe olmalı, onlara lazımınca, dəqiq və dürüst riayət etməlidirlər. Bu cür müddəa və tələblər mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının mahiyyətini və sosial təyinatını əks etdirir. Onlar mülki hüquq normalarında nəzərdə tutulduğuna görə ümumməcburi hüquqi qüvvəyə və əhəmiyyətə malikdir. Söhbət mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının prinsiplərindən gedir. Bu prinsiplər mülki hüquqların həyata keçirilməsi və vəzifələrin icrası prosesində bilavasitə tətbiq edilir və nəzərə alınır.

[1] L.Ennekserus yazır ki, hüquqların əksəriyyəti nümayəndənin vasitəsilə həyata keçirilə bilər (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 435)

Mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının prinsipləri dedikdə, mülki hüquq normalarında ifadə olunan, mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının sosial təyinatını və mahiyyətini əks etdirən əsas (rəhbər) müddəalar başa düşülür. Bu prinsiplər hüquqi manea rolunu oynayır. Belə ki, mülki qanunvericilik mülki hüquqların maneəsiz olaraq həyata keçirilməsi prinsipini müəyyənləşdirir. Bu prinsipə görə, subyektlər öz mülki hüquqlarını istədikləri kimi həyata keçirirlər. Lakin bu cür sərbəstlik və müstəqillik hökmən mülki hüquqların həyata keçirilməsi və vəzifələrin icrası prinsiplərinə uyğun olmalıdır. Həmin prinsiplərə aiddir[1]:

- qanunçuluq prinsipi;
- vicdanlılıq və ağlabatanlılıq prinsipi;
- sosial təyinata uyğunluluq prinsipi;
- tərəflərin qarşılıqlı əməkdaşlığı prinsipi[2].

2. Qanunçuluq prinsipi

Qanunçuluq prinsipinin mahiyyəti ondan ibarətdir ki, fiziki və hüquqi şəxslər öz subyektiv mülki hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən qanunun tələblərinə riayət etməli, bunun üçün onun yol verdiyi üsul və vasitələrdən istifadə etməlidirlər. Başqa sözlə desək, subyektlər yalnız qanunla müəyyən edilmiş həddə və qaydada öz subyektiv mülki hüquqlarını gerçəkləşdirə və vəzifələrini yerinə yetirə bilərlər. Mülki qanunvericilik birbaşa göstərir ki, mülki hüquqlar hüquqa uyğun həyata keçirilməlidir (MM-in 560-cı maddəsi).

Qanunçuluq prinsipinə görə, subyektlər özünə məxsus olan əmlakdan başqa şəxslərin hüquqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edə bilməzlər. Onların həmin əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətlər etməsi başqa şəxslərin hüquqlarını pozmamalı, həmin şəxslərin mənafelərinə xələl gətirməməlidir. Subyektlər yalnız qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını həyata keçirə bilərlər. Əmlaka sərəncam vermək əqdi bütün hallarda qanunun tələblərinə uyğun olmalıdır. Qanunun tələblərinin pozulması həmin əqdlərin etibarsızlığına səbəb olur. Məsələn, arvad ərin razılığı olmadan nikah müddətində onların əldə etdikləri əmlak (ümumi birgə mülkiyyət) barəsində sərəncam əqdi bağlayır (məsələn, əmlakı bacısına bağışlayır). Arvadın mülkiyyət hüququnu bu üsulla həyata keçirməsi qanunun tələblərinə ziddir. Ona görə də etibarsız hesab edilir. Çünki qanuna görə, ər-arvadın ümumi əmlakı üzərində sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir[1].

Mülki vəzifələr qanunun müəyyən etdiyi tələblər əsasında icra olunmalıdır. Əsas tələb vəzifələrin lazımınca, nəzərdə tutulan qaydada icra edilməsindən ibarətdir. Lazımınca icra mülkiyyət toxunulmazlığını, xüsusi (şəxsi) işlərə kimsənin özbaşına qarışmamasını təmin edir. Ümumi qaydaya görə, vəzifələrin icra edilməsindən birtərəfli imtinaya və müqavilənin şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir. Məsələn, əmanətçi bankla bir illik müddətə bank əmanəti (depozit) müqaviləsi bağlayır (illik 24 faizlə). Əgər müqavilədə başqa hal müəyyənləşdirilməyibsə, bank nəzərdə tutulan faizi bir illik müddət qurtaranadək birtərəfli qaydada dəyişdirə bilməz.

Vəzifələrin icra edilməməsi mülki hüquqların pozulmasına səbəb olur. Bu isə vəzifəni icra etməyən borclu şəxsə zərərin əvəzini ödəmə, cərimə, penya kimi mülki-hüquqi sanksiya — **məsuliyyət tədbirləri** tətbiq edilməsi üçün əsasdır.

Qanunçuluq prinsipi subyektiv mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının əxlaq norma, qayda və prinsiplərinə uyğun gəlməsini nəzərdə tutur[2]. Mülki hüquqların hüquqazidd həyata keçirilməsi və vəzifələrin icrasının pozulması həm də əxlaq normalarını, qayda və prinsiplərini pozur və buna görə də qeyri-əxlaqi əməl hesab edilir. Amma qeyri-əxlaqi əməl həmişə hüquq normalarına zidd ola bilməz. Bu, onunla izah edilir ki, hüquq normaları dövlət tərəfindən müəyyən edilib, əxlaq normalarına nisbətən ictimai münasibətlərin daha geniş sahəsini tənzimləyir. Əxlaq norma və prinsiplərinə riayət etməmək və onu pozmaq avtomatik olaraq hüquqi nəticəyə — mülki hüquq normalarının pozulmasına (mülki hüquq pozuntusuna) səbəb olmur. Amma qanunda nəzərdə tutulan hallarda əxlaq norma və prinsiplərinin pozulması subyektin davranışına hüquqi qiymət verməyə imkan verir. Başqa sözlə desək, qanunda birbaşa hüquqi göstəriş ifadə olunduğu məqamlarda, subyektlərin öz fəaliyyətində qeyri-əxlaqi əməl törətmələrinə hüquqi əhəmiyyət verilir. Belə ki, **əgər qanunda nəzərdə tutularsa, subyektlərin əxlaq norma və qaydalarını pozması mülki hüquq pozuntusuna səbəb olur.** Məsələn, düzgün olmaq, zorakılıq etməmək, hədə təsiri göstərməmək əxlaq norma və prinsipi hesab olunur. Əgər bu əxlaq norma və prinsipini pozmaqla əqdlər bağlanarsa, o, etibarsız hesab ediləcəkdir. Söhbət aldatma, zorakılıq, hədə təsiri altında bağlanmış əqdlərdən gedir (MM-in 339-cu maddəsi). Əxlaq qaydalarını pozmaqla bağlanmış yalan əqdlər də məhz bu səbəbdən etibarsız hesab edilir (MM-in 340-cı maddəsi). Almaniya Mülki Qanunnaməsinə görə, xoşməramlı adətlərə zidd olan və bu adətləri pozan əqdlər etibarsızdır (§ 138)[3]. Xoşməramlı adətlərin pozulması dedikdə, elə minimum tələblərin pozulması başa düşülür ki, bu tələblər alman xalqının hüquqi etikası (Rechts moral) tərəfindən hər bir şəxs üçün irəli sürülür. Bu «hüquqi etika» tələb edir ki, xüsusən

[1] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 384

[2] Hüquq ədəbiyyatında mülki hüquqların həyata keçirilməsinin müxtəlif prinsipləri göstərilir: dispozitivlik prinsipi; subyektin öz istədiyi kimi hüququ realizə etmək prinsipi; hüquqdan sui-istifadəyə yol verilməməsi prinsipi (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И Илларионовой и др.* М., 1998, с. 49). Prinsiplər başqa yerdə belə göstərilir: qanun və əxlaq qaydalarına əməl etmək prinsipi; mülki hüquqların maneəsiz olaraq həyata keçirilməsi prinsipi; hüquqdan sui-istifadəyə yol verilməməsi prinsipi; başqa şəxslərə zərər vurulmasına yol verilməməsi prinsipi; hüquqların subyektin öz istədiyi kimi həyata keçirməsi prinsipi; cəmiyyət və şəxsiyyətin mənafelərinin uyğunlaşdırılması prinsipi; vicdanlılıq və ağlabatanlılıq prinsipi (Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 250-251).

[1] bax: «Ailə Məcəlləsi»nin 33-cü maddəsinin 1-ci bəndi // AR QK, III xüsusi buraxılış, s.784.

[2] Bəzi xarici ölkələrdə bu qayda və normalar «qanunda yazılmayan mənəvi prinsiplər» adlanır. Bu prinsiplər hüququn mənbəyi kimi çıxış edir. Məsələn, «Fraus omnia corrumpit» bu prinsiplərə misal ola bilər, yəni «aldatma bütün hüquqi nəticələri ləğv edir» (bax: *Марченко М.Н.* Правовые системы современного мира. М., 2002, с. 686).

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

hüquqi, ictimai və iqtisadi quruluşa əsaslanan sağlam ictimai-təsərrüfat münasibətləri hökm sürsün və onunla bir araya sığmayan hüquqi əqdlər bağlanmasın[1]. Yaponiya qanunvericiliyinə və doktrinasına görə, xoş məramlı adətlərə zidd olan, ədalət və mənəvi-əxlaqi prinsipləri pozan əqdlər etibarsızdır (MM-in 90-cı maddəsi)[2].

Qanunçuluq prinsipi subyektiv mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının **peşəkar (işgüzar) etika normalarına zidd olmamasını** şərtləndirir. Bu normalar da qanunda birbaşa hüquqi göstəriş olduğu hallarda hüquqi nəticəyə səbəb olur. Belə ki, subyektlərin davranışına, əgər qanunda nəzərdə tutularsa, peşəkar (işgüzar) etika normaları baxımından xarakterizə olunmaqla hüquqi qiymət verilir və bu davranış mülki hüquq pozuntusu kimi tanınır. Məsələn, bank sirrini saxlamaq peşəkar (işgüzar) etika normasıdır. Bu normaya görə, bank, bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə təminat verir[3]. Əgər o, bu məlumatları yayar və açıqlayarsa, mülki hüquq pozuntusuna səbəb olur. Belə halda müştəri bankdan vurulmuş zərərin əvəzini ödəməyi tələb edə bilər (MM-in 967-ci maddəsinin 3-cü bəndi). Deməli, bank öz vəzifəsini — bank sirrinə təminat vermək vəzifəsini pozur.

Notariat hərəkətlərinin sirrini saxlamaq peşəkar (işgüzar) etika normalarından biridir[4]. Notariuslar bu hərəkətlərin sirrini (məsələn, vəsiyyətnamə sirrini və s.) saxlamağa borcludur. Bu vəzifəyə əməl etməmək mülki hüquqi məsuliyyətə səbəb olur.

3. Vicdanlılıq və ağlabatanlılıq prinsipi

Vicdanlılıq prinsipi mülki hüquqların həyata keçirilməsinin və hüquqi vəzifələrin icra edilməsinin əsas prinsiplərindən biridir. Bu prinsip qanunda birbaşa formulə edilmişdir. MM-in 5-ci maddəsinin 3-cü bəndində göstərilir ki, mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar. Həmin prinsip beynəlxalq sənədlərdə də ifadə olunmuşdur. Beynəlxalq kommersiya dövriyyəsində bağlanan müqavilə öhdəliklərinin icrası zamanı vicdanlılıq prinsipinə xüsusi əhəmiyyət verilir. Müqavilə bağlayan tərəflər həmin prinsipə məcburi surətdə əməl etməlidirlər[5].

Vicdanlılıq prinsipinə görə, öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən hər bir tərəf vicdanla hərəkət etməlidir. **Vicdanla hərəkət etmək** dedikdə, mülki hüquq münasibəti iştirakçılarının öz vəzifələrini və hüquqlarını nəzərdə tutulmuş vaxtda və yerdə, lazımınca, həmin münasibətin şərtlərinə və qanunun tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə uyğun surətdə yerinə yetirməsi başa düşülür. Əgər o, vicdanla hərəkət etməsə, bu, mülki hüquq pozuntusunun yaranmasına səbəb olur. Belə halda həmin şəxsə mülki-hüquqi məsuliyyət tədbirləri tətbiq edilir. Məsələn, podrat hüquq münasibətinin iştirakçısı olan podratçı sifarişçinin verdiyi materiallardan düzgün, yəni qənaətlə istifadə etməlidir (MM-in 767-ci maddəsinin 2-ci bəndi). Burada vicdanlılıq prinsipi ifadə olunmuşdur. Bu prinsipi pozmağa görə podratçı məsuliyyət daşıyır.

Ağlabatanlılıq prinsipi mülki hüquqların həyata keçirilməsində və vəzifələrin icra edilməsində böyük rol oynayır. Bu prinsipdən eyni zamanda beynəlxalq kommersiya dövriyyəsində bağlanan müqavilələr icra edilərkən geniş səviyyədə istifadə edilir[1]. Beynəlxalq kommersiya müqavilələrinin prinsiplərinin 5-ci maddəsinin 3-cü bəndində ağlabatanlılıq prinsipi formulə edilir.

Qanunun (MM-in) konkret norması ağlabatanlılıq prinsipinə leqal anlayış vermir. Lakin buna baxmayaraq, onun bir çox normaları məhz bu prinsipə əsaslanır.

Ağlabatanlılıq prinsipinə görə, öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən mülki hüquq münasibəti iştirakçılarından hər biri normal, məntiqə uyğun surətdə hərəkət etməlidir. Həmin münasibətlərin icrası bu prinsipə tabe olmalıdır. Məsələn, öhdəlik hüquq münasibətinin icrası müddəti təyin edilməyibsə, səlahiyyətli şəxs (kreditor) həmin münasibətin dərhal icrasını tələb edə bilər, borclu isə onu ağlabatan müddətdə icra etməlidir (MM-in 427-ci maddəsinin 2-ci bəndi). Konkret misala müraciət etməklə bu prinsipin məzmununa aydınlıq gətirək. Vətəndaş öz qonşusuna borc verir. Borc müqaviləsində borcun hansı müddətə verilməsi göstərilmir. Belə halda borc verənin ixtiyarı var ki, borcun qaytarılmasını dərhal tələb etsin. Borc alan isə bu tələbi yerinə yetirərək, borcu ağlabatan müddətdə qaytarmalıdır. Başqa bir misalda mal göndərmə müqaviləsi əsasında göndərilmiş malların satışını həyata keçirən alıcı (o, pərakəndə alqı-satqı müqaviləsi üzrə satıcıdır), əgər istehlakçı keyfiyyətsiz malı qaytararsa, o, həmin malın ağlabatan müddətdə dəyişdirilməsini tələb edə bilər (MM-in 639-cu maddəsinin 2-ci bəndi). Digər misalda superfitsi (tikiliyə vərəsəlik hüququ) münasibətlərində torpaq sahəsinin mülkiyyətçisi müqaviləyə xitam verildikdən sonra ona keçən binalar üçün qarşı tərəfə ağlabatan kompensasiya verir (MM-in 252-ci maddəsi). Əgər qanunun bu və ya digər maddəsində «ağlabatan müddət», «ağlabatan qiymət», «ağlabatan ölçü», «ağlabatan kompensasiya» və s. ifadələr işlədilərsə, deməli, o, ağlabatanlılıq prinsipinə əsaslanır.

Mülki hüquq münasibəti iştirakçılarının öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən vicdansız surətdə, qeyri-ağlabatan tərzdə hərəkət etmələri mülki hüquq pozuntusuna səbəb olur. Haqsız rəqabət məhz bu cür hərəkətlərdən biridir.

Haqsız rəqabət dedikdə, bazar subyektinin sahibkarlıq fəaliyyətində qanunazidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onlann işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətlər başa düşülür[2]. Onun formaları kifayət qədər çoxdur. Məsələn, bazar subyekti digər bazar subyektinin işgüzar nüfu-

---

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 268.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 109.

[3] bax: «Banklar haqqında» Azərbaycan Respublikası qanununun 41-ci maddəsi.

[4] bax: «Notariat haqqında» qanunun 32-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 309.

[5] bax: Принципы международных коммерческих договоров. М., 1996, с. 18-21.

[1] bax: Принципы международных коммерческих договоров. М., 1996, с. 117-118.

[2] bax: «Haqsız rəqabət haqqında» qanunun 1-ci maddəsi (AR QK, II cild, s. 468).

zu və maliyyə vəziyyəti haqqında yalan və təhrif olunmuş məlumat yayır və bununla haqsız rəqabətə yol verir.

Haqsız rəqabət hərəkətləri mülki hüquq pozuntusu olduğuna görə hüquqi məsuliyyətə səbəb olur. Belə ki, haqsız rəqabət nəticəsində əldə olunmuş mənfəət büdcəyə ödənilir, vurulmuş zərərin əvəzi ödənilir, maliyyə sanksiya və cərimələri tətbiq olunur və s.

4. Sosial təyinata uyğunluq prinsipi

Sosial təyinata uyğunluq prinsipi mülki hüquqların həyata keçirilməsi və vəzifələrin icrası prosesində mühüm rol oynayır. Mülki hüquqlar, bu hüquqların təyinatına zidd olaraq həyata keçirilə bilməz. Məsələn, yaşayış evinin kirayəsi müqaviləsi üzrə kirayəçi, həmin evdən yalnız istifadə etmək, yaşamaq üçün istifadə etməlidir. Məlum məsələdir ki, o, bu evdən meyvə saxlamaq üçün anbar kimi istifadə edə bilməz. Şəxsin ixtiyarı yoxdur ki, yaşayış binalarından istifadə hüququnu sənaye istehsalatı üçün həyata keçirsin (MM-in 226-cı maddəsinin 4-cü bəndi). Torpaq icarəsi müqaviləsi üzrə icarəçi torpaqdan istifadə hüququnu təsərrüfat fəaliyyəti üçün, yəni torpağı əkib-becərməklə məhsul yetişdirmək üçün həyata keçirir. Aydın məsələdir ki, o, həmin torpaq sahəsində yaşayış evi ucalda bilməz. Mülkiyyətçi öz subyektiv mülkiyyət hüququnu təsərrüfat və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədi üçün, ailə-məişət, şəxsi ehtiyaclarını təmin etmək üçün və s. həyata keçirir. Şübhəsiz ki, o, bu hüququ başqa şəxslərin mənafeyinə zərər vurmaq üçün həyata keçirə bilməz. Mülki hüquqların sosial təyinatı ya mülki qanunvericiliklə müəyyən edilir, ya mülki hüquq münasibətləri iştirakçılarının özləri tərəfindən müqavilədə nəzərdə tutulur, ya da hüququn öz mahiyyətindən irəli gəlir.

Mülki hüquqların sosial təyinatına uyğun olaraq həyata keçirilməsi dedikdə, həmin hüquqları gerçəkləşdirməkdə subyektin güddüyü sosial-iqtisadi məqsədə çatması başa düşülür. Bu hüquqların həyata keçirilməsinin sosial-iqtisadi məqsədləri isə müxtəlifdir: təsərrüfat fəaliyyətini həyata keçirmək; sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq; ailə-məişət, şəxsi ehtiyacları təmin etmək və s. Sosial təyinata uyğunluq prinsipinin başlıca şüarı və tələbi də məhz mülki hüquqların subyektin öz qarşısına qoyduğu sosial-iqtisadi məqsədə müvafiq surətdə həyata keçirməsindən ibarətdir.

Sosial təyinata uyğunluq prinsipinin mahiyyəti subyektiv mülki hüquqların həyata keçirilməsində hüquqi və sosial hədlərin müəyyən edilməsindən və subyektin bu hədlərdən kənara çıxmasına görə hüquqi nəticələr nəzərdə tutulmasından ibarətdir[1]. Çox hallarda qanun mülki hüquqların sosial təyinatına uyğun olaraq həyata keçirilməməsinə görə, yəni subyektin göstərilən hədlərdən kənara çıxmasına görə müəyyən hüquqi nəticələri dəqiq olaraq müəyyənləşdirir. Məsələn, qanuna uyğun olaraq xüsusilə qiymətli və dövlət tərəfindən qorunan sərvətlər sırasına daxil edilmiş mədəni sərvətlərin mülkiyyətçisi həmin sərvətləri təsərrüfatsızcasına saxlayırsa, bu isə onların öz əhəmiyyətini itirəcəyi qorxusunu törədərsə, belə sərvətlər məhkəmənin qərarına əsasən dövlət tərəfindən satınalma yolu ilə mülkiyyətçidən alına bilər (MM-in 208-ci maddəsi). Belə halda sosial təyinata uyğunluq prinsipinin pozulması mülkiyyət hüququnun itirilməsi kimi hüquqi nəticəyə səbəb olur. Başqa bir misalda əvəzsiz istifadə müqaviləsinə görə, kirayəçi əvəzsiz istifadəyə götürdüyü əşyadan müqavilədə göstərilən təyinatla istifadə etməlidir. Onun başqa təyinatla əşyadan istifadə edilməsinə icazə verilmir (MM-in 735-ci maddəsi). Əgər kirayəçi əşyadan müqavilədə göstərilən təyinatla istifadə etməzsə, bu barədə müqavilə şərtini pozarsa, əvəzsiz istifadə müqaviləsi vaxtından əvvəl xitam edilir (MM-in 737-ci maddəsi).

Bəzi hallarda isə mülki hüquqların sosial təyinatına uyğun surətdə həyata keçirilməməsinin hüquqi nəticələri barədə qanunda xüsusi göstəriş (ayrıca) olmur. Belə hallarda mülki-hüquqi mübahisəyə baxan məhkəmə və ya digər orqan müdafiədən imtina etməlidir. Ona görə ki, mülki hüquqlar, bu hüquqların təyinatına zidd olaraq həyata keçirildiyinə görə, yəni sosial təyinata uyğunluq prinsipi pozulduğuna görə müdafiə edilmir və qorunmur.

5. Tərəflərin qarşılıqlı əməkdaşlığı prinsipi

Tərəflərin qarşılıqlı əməkdaşlıq prinsipi beynəlxalq kommersiya müqavilələrinin əsas prinsiplərindən biridir. Beynəlxalq kommersiya dövriyyəsində bağlanan müqavilələrin icrası zamanı bu prinsip tərəflər üçün məcburi qüvvəyə malikdir[1].

Tərəflərin qarşılıqlı əməkdaşlığı prinsipi mülki hüquq münasibəti iştirakçılarının qarşılıqlı mənafe və qarşıya qoyulan məqsədə nail olmaq üçün birgə hərəkət etmələrini, bu məqsədə çatmağa mane törədəcək və mülki hüquqların həyata keçirilməsinə və vəzifələrin icrasına əngəl ola biləcək davranışa yol verməməyi nəzərdə tutur. Bu prinsip müxtəlif formalarda təzahür və ifadə olunur.

Birincisi, bu prinsip **qarşılıqlı təqsir prinsipində** ifadə olunur. Qarşılıqlı təqsir prinsipinə görə, əgər öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi hər iki tərəfin, yəni səlahiyyətli şəxsin (kreditorun) və borclu şəxsin təqsiri üzündən baş vermişsə, məhkəmə borclunun məsuliyyət ölçüsünü müvafiq surətdə azaldır (MM-in 458-ci maddəsinin 1-ci bəndi). Məsələn, daşıyıcı tez xarab olan ərzaq məhsullarını təyinat məntəqəsinə çatdırmağı gecikdirir, yəni onları vaxtında çatdırmır. Yük sahibi isə ərzaq məhsullarını vaxtında almır. Buna görə də ərzaq məhsulları xarab olur. Burada həm daşıyıcının, həm də yük sahibinin təqsiri vardır. Bu halda məhkəmə daşıyıcının məsuliyyət ölçüsünü azaldır. O, xarab olmuş ərzaq məhsullarının dəyərinin hamısını yox, yalnız onun bir hissəsini ödəyir, yəni vurulmuş zərərin əvəzini tam ödəmir. Zərərin digər hissəsi isə borclunun (yük sahibinin) hesabına düşür.

[1] Bu prinsipi mülki hüquq elmində ilk dəfə olaraq O.S.Ioffe və V.P.Qribanov formulə etmişlər (bax: *Иоффе О.С., Грибанов В.П.* Пределы осуществления субъективных гражданских прав // Советское государство и право. 1964. № 7, с. 78). Müəlliflərdən M.N.Malein-a bu prinsipin əhəmiyyətini heçə endirərək göstərir ki, indiki dövrdə mülki hüquqların maneəsiz olaraq həyata keçirilməsi prinsipi elan edilmişdir və buna görə də subyektin öz mənafeyi üçün, istədiyi kimi mülki hüquqları həyata keçirməsinin təmin olunması xüsusi olaraq nəzərə çarpır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каплина, А.И.Масляева*. М., 1997, с. 222). Onun bu fikri ilə çətin ki razılaşmaq olar. Belə ki, subyekt yalnız sosial təyinatına uyğun olaraq həyata keçirilən hüquqdan öz mənafeyi üçün, öz istədiyi kimi istifadə edə bilər. Zənn edirik ki, sosial təyinata uyğunluq prinsipi həmişə hüquqi əhəmiyyət kəsb edir.

[1] bax: Принципы международных коммерческих договоров. М., 1996, с. 18-21.

İkincisi, bu prinsip səlahiyyətli şəxs tərəfindən mülki hüquqların həyata keçirilməsinin başqa şəxslərin hüquqlarını və qanunla qorunan mənafeyini pozmamasında təzahür edir. Məsələn, mülkiyyətçi (səlahiyyətli şəxs) ona məxsus olan əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkəti edə bilər. Amma həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmamalıdır (MM-in 152-ci maddəsinin 5-ci bəndi).

Üçüncüsü, bu prinsip mülki hüquq münasibəti iştirakçılarının **qarşıya qoyulan hüquqi və sosial-iqtisadi məqsədə çatmaqda bir-birinə qarşılıqlı kömək göstərmələrində** təzahür edir. Bu cür məqsəd onların hər ikisinin mənafeyinə uyğundur. Həmin məqsədə nail olmaq üçün tərəflər bir-birinə zəruri olan qarşılıqlı yardım etməlidirlər.

Tərəflərin qarşılıqlı əməkdaşlığı prinsipi mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının digər prinsipləri ilə — qanunçuluq, vicdanlılıq və ağlabatanlılıq prinsipi ilə sıx surətdə bağlıdır. Onlar bir-birini tamamlayır.

§ 3. Mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının hədləri. Hüquqdan sui-istifadə xüsusi xarakterli mülki hüquq pozuntusu kimi

1. Mülki hüquqların həyata keçirilməsinin hədləri anlayışı

Mülki hüququn əsas və fundamental prinsiplərindən biri subyektlərin özlərinə məxsus olan mülki hüquqları öz istədikləri kimi, müstəqil surətdə, maneəsiz olaraq həyata keçirmələri prinsipi hesab edilir. Bu prinsipə görə, şəxs subyektiv mülki hüquqlardan öz mülahizəsi əsasında, öz mənafeyi və başqa şəxslərin mənafeyi üçün istifadə edir. Çox vaxt o, öz subyektiv mülki hüquqlarını həyata keçirərkən mümkün olan alternativ davranış variantlarından birini seçə bilər.

Bununla bərabər, mülki hüquq münasibəti subyektlərinin (səlahiyyətli şəxslərin) öz subyektiv mülki hüquqlarını həyata keçirmələri mütləq və sərhədsiz xarakter daşımır. Bu, o deməkdir ki, subyektlər mülki hüquqları yalnız müəyyən sərhədlər daxilində və çərçivəsində həyata keçirə bilərlər. Bu cür sərhədlər isə qanunla müəyyən edilir. Bax, həmin sərhədlər mülki hüquqların həyata keçirilməsinin hədləri adlanır.

Mülki hüquqların həyata keçirilməsi hədləri həmin hüquqların özünün hədləri ilə üst-üstə düşür, bir-birinə uyğun gəlir. Belə ki, subyektiv mülki hüquqların hədləri eyni zamanda həmin hüquqların həyata keçirilməsinin hədləridir. Onları fərqləndirmək olmaz[1].

Mülki hüquqların həyata keçirilməsinin hədləri dedikdə, qanunla müəyyənləşdirilən elə sərhədlər başa düşülür ki, mülki hüquq münasibəti iştirakçısı olan səlahiyyətli şəxs ona verilmiş hüquqi imkanları, yəni həmin hüququn məzmununu təşkil edən səlahiyyətləri məhz bu sərhədlər daxilində gerçəkləşdirir. Əgər bu sərhədlər olmasa, onda cəmiyyətdə mübahisələr, ixtilaflar və mənafelərin toqquşması baş verərdi. Subyektiv mülki hüquqlar yalnız qanunun müəyyənləşdirdiyi sərhədlər daxilində həyata keçirilə bilər.

Subyektiv mülki hüquqların həyata keçirilməsinin hədləri, əsasən, dörd formada təzahür edir. Söhbət həmin hədlərin qanun tərəfindən müəyyən edilməsinin formalarından gedir.

Mülki hüquqların həyata keçirilməsi hədlərinin **birinci təzahür forması** ondan ibarətdir ki, **qanun mülki hüquqlardan sosial cəhətdən zərərli olan məqsədlərə çatmaq üçün istifadə etməyi qadağan edir.** Sosial cəhətdən zərərli olan məqsəd odur ki, hüquqlardan bu məqsəd üçün istifadə edilməsi cəmiyyətin və dövlətin mənafeyinə, yəni ümumi ictimai mənafeyə qəsd edir, həmin mənafeyi pozur və ona xələl gətirir, şəxsiyyətin ləyaqəti əleyhinə çevrilir. Məsələn, qanun elə bir hüquqi qadağa qoyur ki, bu qadağaya görə səlahiyyətli şəxs öz subyektiv mülkiyyət hüququndan insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edə bilməz[1].

Mülki hüquqların həyata keçirilməsi hədlərinin **ikinci təzahür forması** ondan ibarətdir ki, **qanun mülki hüquqların bu və ya digər üsulla həyata keçirilməsinə yol vermir**, onu yasaqlayır. Bununla da mülki hüquqların həyata keçirilməsinin sərhədləri müəyyən edilir. Belə ki, qanun mülki hüquqların bu və ya digər üsulla gerçəkləşdirilməsinin mümkün olmaması barədə qayda nəzərdə tutur. Bu qaydada bəzi hallarda «yolverilməzdir» ifadəsi işlədilir. Məsələn, «Haqsız rəqabət» haqqında qanun bazar subyektinin sahibkarlıq fəaliyyətini haqsız rəqabət üsulları ilə həyata keçirməsini yolverilməz hesab edir. Qanun şəxsin mədəni sərvətlər üzərində mülkiyyət hüququnu təsərrüfatsız üsullarla (təsərrüfatsızcasına) həyata keçirməsini yasaqlayır (MM-in 208-ci maddəsi).

Mülki hüquqların həyata keçirilməsi hədlərinin **üçüncü təzahür forması** ondan ibarətdir ki, **qanun subyektiv mülki hüquqların onun sosial təyinatına uyğun həyata keçirilməməsini qadağan edir.** Çox vaxt bu cür qadağan olunma mülki hüququn öz mahiyyətindən və təbiətindən irəli gəlir. Məsələn, kirayəçi yaşayış evini kirayəyə götürür. Onun bu evə olan istifadə hüququnun öz mahiyyətindən məlum olur ki, həmin hüququn sosial təyinatı evdən yaşamaq məqsədi üçün istifadə etməkdən ibarətdir. Söz yox ki, kirayəçi evdən istehsal, sahibkarlıq və ya təsərrüfat fəaliyyətini həyata keçirmək üçün istifadə edə bilməz. Hətta bunu qanun da qadağan edir: yaşayış binalarından sənaye istehsalı üçün istifadə edilməsinə yol verilmir (MM-in 226-cı maddəsinin 4-cü bəndi). Yaşayış otağına sahiblik, ondan istifadə və ona dair sərəncam hüquqları yalnız otağın təyinatına uyğun həyata keçirilməlidir (MM-in 226-cı maddəsinin 2-ci bəndi).

Mülki hüquqların həyata keçirilməsi hədlərinin **dördüncü təzahür forması** ondan ibarətdir ki, **qanun mülki hüquqların icazə verilməmiş vasitələrlə müdafiə edilməsinə yol vermir.** Söhbət qanunun öz mülki hüquqlarını müdafiə etmək üçün səlahiyyətli şəxsə müəyyən vasitələrdən istifadə imkanı ver-

[1] Bəzən hüquq ədəbiyyatında subyektiv mülki hüquqların hədləri və bu hüquqların həyata keçirilməsi hədləri kimi iki anlayış bir-birindən fərqləndirilir (bax: Гражданско-правовая охрана интересов личности / Под ред. *Б.Б.Черепахина*. М., 1969, с. 8-9). Bu mövqe ilə çətin ki razılaşmaq olar.

[1] bax: Konstitusiyanın 23-cü maddəsinin 3-cü hissəsi (AR QK, II cild, s.13).

məsindən gedir. Bu vasitələrdən başqa, onun digər hansı vasitəni tətbiq etməyə ixtiyarı çatmır. Məsələn, mülkiyyətçi yaşayış evinə olan mülkiyyət hüququnu ətrafdakıların həyatı və sağlamlığı üçün təhlükə törədən vasitələrlə müdafiə edə bilməz. Yay ayında uzunmüddətli istirahət məzuniyyətinə gedən şəxs evindəki əşyaları oğurlanmaqdan qorumaq üçün evin qapı və pəncərələrini yüksək gərginliyi olan elektrik cərəyanı ilə birləşdirir. Qanun müdafiə hüququnun bu cür həyata keçirilməsinə yol vermir.

Qüvvədə olan mülki qanunvericiliyə görə, subyektiv mülki hüquqların həyata keçirilməsi hədlərini iki yerə bölmək olar:

- mülki hüquqların həyata keçirilməsinin xüsusi hədləri;
- mülki hüquqların həyata keçirilməsinin ümumi hədləri.

Mülki hüquqların həyata keçirilməsinin xüsusi hədləri odur ki, bu hədlər mülki hüquqların konkret növünə aid olub, qanunun xüsusi normalarında və ya əqdlərdə nəzərdə tutulur. Bu hədlər müddətin keçməsi kimi amillə və faktla müəyyənləşdirilə bilər. Belə ki, müvafiq hüquq yalnız həmin müddət ərzində həyata keçirilə bilər. Bu müddətin ötməsi və keçməsi ilə mülki hüquqlar həyata keçirilmir. Məsələn, ümumi qaydaya görə, müəlliflik hüququ əsərin yaradılması ilə əmələ gəlir, müəllifin bütün həyatı boyu və onun ölümündən sonra 50 il müddətində qüvvədə qalır[1]. Bu müddət ötdükdən sonra əmlak (iqtisadi) xarakterli müəlliflik hüquqları həyata keçirilmir. Başqa bir misalda etibarnamədə göstərilir ki, etibarnamə alan şəxs həmin sənəddə ifadə olunan hüququ yalnız üç il müddətində həyata keçirə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o, müvafiq hüququ etibarnamə verildiyi (əqd bağlandığı) gündən bir il ərzində gerçəkləşdirməlidir.

Beləliklə, **müddətli hüquqlar yalnız nəzərdə tutulan və göstərilən müddətdə, müddətsiz hüquqlar isə istənilən anda həyata keçirilə bilər**. Subyektiv mülki hüquqların həyata keçirilməsi müvəqqəti sərhədlərə malikdir. Müddət ötən kimi, bu sərhədlər də silinir.

Mülki hüquqların həyata keçirilməsinin xüsusi hədləri hüququn həyata keçirilmə üsulları ilə də müəyyən edilə bilər. Məsələn, müəllif ad hüququ kimi şəxsi (qeyri-əmlak) xarakterli müəlliflik hüququna malikdir. O, əsərdən öz adı ilə, təxəllüslə və yaxud adsız (anonim) istifadə etməklə bu hüququ həyata keçirir[2]. Onun başqasının adından istifadə etməyə ixtiyarı yoxdur

Mülki hüquqların həyata keçirilməsinin ümumi hədləri odur ki, bu hədlər subyektiv mülki hüquqların bütün növlərinə aid olub, mülki qanunvericiliyin prinsipləri haqqında normada nəzərdə tutulur (MM-in 6-cı maddəsinin 3-cü bəndi). Bu normada göstərilir ki, dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, əməliyyətin sağlamlığının və mənəviyyatın qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda, mülki hüquqlar qanunla məhdudlaşdırıla bilər.

Hüquqların həyata keçirilməsinin ümumi hədləri beynəlxalq sənədlərdə də müəyyən edilir. BMT-nin «İnsan haqlarının ümumi Bəyannaməsi»nin 29-cu maddəsinin 2-ci bəndinə görə demokratik cəmiyyətdə hüquq və azadlıqların, mənəvi-əxlaqi dəyərlərin, ictimai qaydanın və ümumi rifahın təmin edilməsi məqsədilə hüquqlar, yalnız qanunla məhdudlaşa bilər[1].

Subyektiv mülki hüquqların həyata keçirilməsinin ümumi hədlərinin pozulması mülki hüquq elmində (sivilistika doktrinasında) hüquqdan sui-istifadə adlanır. Hüquqdan sui-istifadə anlayışının tarixi Roma hüququ ilə bağlıdır. Roma hüquqşünasları deyirdilər: «maliti is non est indulgendum», yəni hüquqdan sui-istifadəni bağışlamaq olmaz. Bunun əsasında Avropa yurisprudensiyasında XVII və XVIII əsrlərdə hüquqdan sui-istifadə barədə ümumi normanın zəruriliyi haqqında məsələ qaldırıldı. Həmin məsələ, yəni hüquqdan sui-istifadəyə yol verilməməsi barədə doktrinal (elmi) fikir ilk dəfə olaraq Prussiya Torpaq Qanunnaməsində rəsmən sanksiyalaşdırıldı[2]. Qərb hüquq elmi hüquqdan sui-istifadəni ifadə etmək üçün müxtəlif doktrinal sxemlər işləyib hazırlamışdır[3]: «spite fence» (qonşunun acığına hasar ucaltmaq); «aluse of rights» (hüquqdan sui-istifadə); «intentional nuisance» (qəsdən, bilərəkdən pislik etmək); «troubles de voisinage» (qonşuluq münasibətlərinin pozulması); «aemulatio» (rəqabət).

2. Hüquqdan sui-istifadənin anlayışı

Qeyd etməliyik ki, hər bir şəxs özünə məxsus olan subyektiv mülki hüquqlardan öz istədiyi kimi istifadə edə və ya həmin hüquqlan həyata keçirməkdən imtina edə bilər. Mülki hüquq münasibəti iştirakçıları öz subyektiv mülki hüquqlarını həyata keçirərkən qanun onlara belə bir hüquqi göstəriş verir ki, **öz hüquqlarının hədlərini və sərhədlərini aşıb keçməsinlər**. Əgər iştirakçılar həmin hədləri və sərhədləri keçsələr, bununla onlar hüquqdan sui-istifadəyə yol verirlər. Məsələn, hər bir kəsin faizi ilə borc pul vermək hüququ vardır. Bu hüquqdan istifadə edərək, yəni həmin hüququ həyata keçirərək, vətəndaş öz qonşusuna aylıq on faizlə borc pul verir. Belə halda o, hüquqdan sui-istifadəyə yol verir. Onun öz hüququndan sui-istifadə etməsini isbat etməyə elə bir ehtiyac da yoxdur.

Hüquqdan sui-istifadə dedikdə, mülki hüquq münasibəti iştirakçısı olan səlahiyyətli şəxsin özünə məxsus olan hüquqi imkanları (hüquqları) mülki hüquqların həyata keçirilməsinin ümumi hədd və sərhədlərini aşıb keçməklə, onları pozmaqla gerçəkləşdirməsi başa düşülür. O, səlahiyyətli şəxs tərəfindən edilən elə bir hərəkətdir ki, bu hərəkət başqa şəxslərin qanunla qorunan mənafeyini və hüquqlarını pozur. Hüquqdan sui-istifadə adlanan həmin hərəkətlər formal olaraq səlahiyyətli şəxsə məxsus olan subyektiv hüquqa əsaslansa da, əslində həmin hüququn həddini və sərhədlərini aşır. Onlar **yalnız xaricən (zahirən) hüququn həyata keçirilməsi kimi görünür**. Amma əslində faktiki cəhətdən bu hərəkətlər öz xarakterinə görə hüquqazidd hərəkətlərdir və elə forma alır ki, başqa şəxslərin qanunla qorunan mənafeyini və hüquqlarını pozur. Məhz bu səbəbdən hüquqdan sui-istifadə **xüsusi xarakterli mülki hüquq pozuntusudur**. Buna görə də mülki qanunvericilik hüquqdan sui-istifadəyə yol verilməməsi barədə hüquqi göstəriş ifadə edir (MM-

[1] «Müəllifliik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 25-ci maddəsinin 2-ci bəndi (AR QK, III cild, s. 216).

[2] bax: «Müəllifliik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 14-cü maddəsinin 1-ci bəndi (AR QK, III cild, s. 208).

[1] bax: СССР и международное сотрудничество в области прав человека. М., 1989.

[2] *Покровский И.А.* Основные проблемы гражданского права. М., 1998, с. 113.

[3] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права сообственности. М., 1999, с. 201

ın 560-cı maddəsinin 2-ci bəndi).

Hüquqdan sui-istifadə Azərbaycan Respublikası Mülki Məcəlləsinin bizim ölkə qanunvericiliyinə gətirdiyi yeni anlayışdır. Sovet dövrünün mülki qanunvericiliyi bu cür anlayış tanımırdı. Amma buna baxmayaraq, sovet mülki hüquq elmində alimlər həmin anlayış barəsində doktrinal-sivilistika araşdırmaları və tədqiqatları aparırdılar. Tanınmış sivilist alim M.M.Aqarkov hüquqdan sui-istifadə anlayışından istifadə edilməsinə şübhə ilə yanaşsa da, onun faktiki cəhətdən hüquqazidd olmasını göstərirdi[1]. V.P.Qribanov və digər hüquqşünas alimlər hüquqdan sui-istifadənin xüsusi xarakterli mülki hüquq pozuntusu kimi tanınmasını və qəbul edilməsini ardıcıl olaraq tutarlı dəlillərlə əsaslandırırdılar[2]. Həm Azərbaycan Respublikasının, həm də RF-in Mülki Məcəlləsi qanunvericiliyə hüquqdan sui-istifadə anlayışını daxil etməklə, həmin anlayışa hüquqi əhəmiyyət verməklə onun tanınmasına və qəbul edilməsinə cəhd edən müəlliflərin mövqeyini nəzərə alaraq, həmin müəlliflərin tərəfində oldu. Bu isə bir sıra xarici sivil və inkişaf etmiş ölkələrin qanunvericilik ənənələrinə uyğun gəlir. Məsələn, İsveçrə Mülki Məcəlləsinin 2-ci maddəsi hüquqdan sui-istifadəni qadağan edir. Yunanıstan Mülki Məcəlləsinin 281-ci maddəsinə görə, hüquqların öz həddini aşmaqla həyata keçirilməsinə yol verilmir. Fransa Mülki Məcəlləsinin 1382-ci maddəsi isə hüquqdan sui-istifadəni yasaqlayır[3]. Almaniya Mülki Qanunnaməsinin 226-cı paraqrafında hüquqdan sui-istifadəyə yol verilməməsi barədə hüquqi göstəriş ifadə edilir[4].

Azərbaycan Respublikasının Mülki Məcəlləsi hüquqdan sui-istifadəyə leqal anlayış vermir[5], onun əsas hüquqi parametrlərini göstərmir. Burada səlahiyyətli şəxsin hərəkətlərini hüquqdan sui-istifadə kimi tanınmasına və qiymətlən-

[1] bax: Агарков М.М. Проблема злоупотребления права в советском гражданском праве // Известия АН СССР. 1946. № 6, с. 42-43.

[2] bax: *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972; *Малеин Н.С.* Гражданский закон и права личности в СССР. М., 1981; *Малеин Н.С.* Закон, ответственность и злоупотребление правом // Советское государство и право. 1991. № 11, с. 29-30; *Янев Янко Г.* Правила социалистического общежития. М., 1980, с. 161-237.

[3] bax: *Рене Давид, Камилла Жоффре-Спинози.* Основные правовые системы современности. М., 1999, с. 108-109.

[4] bax: *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 497. Almaniya qanunvericiliyi hüquqdan sui-istifadəni «Rechtsmissbrauch» anlayışı ilə, Fransa qanunvericiliyi «abus de droit» anlayışı ilə əhatə edir.

[5] Mülki hüquq elmində hüquqdan sui-istifadəyə doktrinal (elmi) tərif verməyə cəhd göstərən müəlliflərdən biri V.P.Qribanov hesab edilir. O, hüquqdan sui-istifadəyə belə anlayış verir: hüquqdan sui-istifadə səlahiyyətli şəxs tərəfindən ona maxsus olan hüquqları həyata keçirərkən qoradılan elə xüsusi tip mülki hüquq pozuntusudur ki, bu pozuntu yol verilməyən konkret formalardan istifadə olunmaqla, lakin ona icazə verilən ümumi tipli davranış çərçivəsində əmələ gəlir (*Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972, с. 68; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979). Burada ümumi tipli davranış səlahiyyətli şəxsə maxsus olan subyektiv hüququn özü və onun həddi, konkret forma hüququn həyata keçirilməsi üzrə hərəkət, bunların sərhədlərini aşmaq isə hüquqdan sui-istifadədir. Bu anlayışdan bazi müasir dərsliklərdə istifadə olunur (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 391; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 247). Lakin görkəmli alimin verdiyi doktrinal definisiyanı bir o qədər də uğurlu hesab etmək olmaz. Çünki burada praktiki cəhatdən hərəkəti hüquqdan sui-istifadə hesab etməyə imkan verən meyarlar göstərilmir, hüquqdan sui-istifadənin əsas hüquqi əlamətləri və parametrləri müəyyənləşdirilmir.

dirilməsinə əsas olan meyarlar müəyyənləşdirilmir. Bir sözlə, Mülki Məcəllə hüquqdan sui-istifadəyə hüquqi xarakteristika verilməsini şərtləndirən və təmin edən başlıca əlamətləri açıb göstərmir. Bəzi xarici ölkələrin qanunvericiliyi bu cür əlamətləri müəyyənləşdirərkən son dərəcə əxlaqi-mənəvi kateqoriyalara («xoş məramlı adətlər», «vicdan», «etimad prinsipləri», «ümumi rifah» və s. kateqoriyalara) istinad edirlər. Məsələn, Yunanıstan Mülki Məcəlləsinə görə, göstərilən əlamət qismində vicdan, xoş məramlı adətlər və ya hüququn sosial-iqtisadi məqsədi kimi anlayışlar çıxış edir.

Hüquqdan sui-istifadənin mülki hüquq elmində və qanunvericilikdə dörd əsas forması (növü) nəzərdə tutulur (MM-in 16-cı və 560-cı maddələri):

- şikana;
- zərər vurmaq niyyəti olmadan, lakin obyektiv olaraq başqa şəxslərə ziyan vurulmasına gətirib çıxaran hüquqdan sui-istifadə forması;
- mülki huquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədilə istifadə edilməsi;
- bazarda üstün mövqedən sui-istifadə olunması[1].

Hüquqdan sui-istifadənin formalarını nəzərdə tutan siyahı qəti və dəqiq yox, təxmini xarakterə malikdir. Belə ki, qanun bu siyahını açıq saxlayaraq, hüquqdan digər formalarda sui-istifadə edilməsinin mümkünlüyü haqda göstəriş ifadə edir (MM-in 16-cı maddəsinin 1-ci bəndi).

Qeyd etmək lazımdır ki, hüquqdan sui-istifadənin axırıncı iki forması (növü), yəni mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədilə istifadə edilməsi və bazarda üstün mövqedən sui-istifadə edilməsi MM-in 16-cı maddəsinin 2-ci bəndində nəzərdə tutulmuşdu. Amma 24 iyun 2005-ci il tarixli qanunla həmin bənd çıxarılmışdır. Lakin buna baxmayaraq, onlar yenə də hüquqdan sui-istifadənin formaları hesab edilir. Belə ki, hüquqdan sui-istifadənin formalarını yalnız mülki qanunvericilik yox, həm də mülki hüquq elmi müəyyənləşdirir. Mülki qanunvericilikdə nəzərdə tutulmasından asılı olmayaraq onlar mülki hüquq elminə görə hüquqdan sui-istifadənin formalarıdır. Digər tərəfdən həmin formalar «Haqsız rəqabət haqqında» və «Antiinhisar fəaliyyəti haqqında» qanunlarda nəzərdə tutulmuşdur.

MM-in hüquqdan sui-istifadənin göstərdiyimiz iki formasını nəzərdə tutan 2-ci bəndini görünür ki, qanunverici ona görə çıxarmışdır ki, MM-in 560-cı maddəsinin 3-cü bəndində hüquqdan sui-istifadənin ayrı-ayrı formaları göstərilmişdir (həmin formalar barədə bundan bir az sonra danışılacaq).

Şikananın leqal anlayışı MM-in 16-cı maddəsinin 1-ci bəndində verilmişdir. **Fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə həyata keçirdikləri hərəkətlərə şikana deyilir.** Bu anlayış olduğu

[1] RF-in Mülki Məcəlləsində hüquqdan sui-istifadənin üç forması göstərilir (şikana, rəqabətin məhdudlaşdırılması və üstün mövqedən sui-istifadə etmə). Bəzi müəlliflər də belə təsnifdən istifadə edirlər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. 1998, с. 247; Гражданское право. Учебник. Часть 1/ Под ред. *А.К.Каллина, А.И.Масляева*. 1997, с. 219). Bəzi müəlliflər ikinövlü təsnifata üstünlük verirlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред *Е.А.Суханова*. М., 1998, с. 393-394). Əhatəli olduğuna görə biz dördnövlü təsnifata üstünlük veririk.

kimi Almaniya Mülki Qanunnaməsinin 226-cı paraqrafından iqtibas edilmişdir[1]. Bu hüquqi sənədin layihəsi tərtib edilərkən şikana haqqında məsələ dəfələrlə mübahisə predmetinə çevrilmişdi. Belə ki, həm birinci, həm də ikinci komissiyada (söhbət qanunnamənin layihəsini hazırlayan komissiyadan gedir) şikananın ümumən qadağan edilməsinin zəruriliyi barədə məsələ qaldırılmışdı. Amma hər dəfə də bu məsələdən imtina olunmuşdu. Bu cür imtinanın əsas və başlıca motivi ondan ibarət idi ki, guya şikananın qadağan edilməsi barədə ümumi qayda hüquq qaydasının möhkəmliyinə həddən artıq zərər vura, hüquqlardan istifadə olunmasında qeyri-müəyyənlik yarada və arzuolunmaz halların yaranmasına səbəb ola bilərdi. Amma bu cür yanaşmaya baxmayaraq, layihəyə mülkiyyət hüququnun həyata keçirilməsinə aid olan belə bir müddəa daxil edildi: «Mülkiyyət hüququnun yalnız başqasına zərər vurmaq niyyəti ilə həyata keçirilməsinə yol verilmir» (bu müddəa Azərbaycan Respublikasının yeni MM-nin 152-ci maddəsinin 5-ci və 6-cı bəndlərində ifadə olunmuşdur). Reyxstaqdan olan komissiya bu müddəanın (qaydanın), ümumiyyətlə, bütün hüquqların həyata keçirilməsinə şamil edilməsi barədə qərar qəbul etdi. Bunun əsasında göstərilən qayda qanunnamənin mülkiyyət hüququ haqqında hissəsindən umumi hissəsinə keçirildi. Beləliklə, Almaniya Mülki Qanunnaməsinin şikananı qadağan edən 226-cı paraqrafı əmələ gəldi: **«Die Ausübung eines Rechts ist unrulässig, wenn sie nur den Zwek haben kann, einem anderen Schaden zuzufügen»**, yəni əgər yalnız və yalnız başqasına zərər vurmaq niyyəti güdərsə, hüquqların həyata keçirilməsinə yol verilmir[2].

Şikana terminini bizim qanunvericilik işlətmir. Bu termindən bir sıra xarici ölkələrin (Almaniyanın, Fransanın, İsveçrənin və s.) sivilistika doktrinasında istifadə olunur.

Şikana başqasına zərər vurmaq məqsədilə törədilən mülki hüquq pozuntusudur. O, düzünə, birbaşa qəsdlə xarakterizə olunur. Şikanaya misal olaraq vətəndaşın öz qonşusunun torpaq sahəsinə olan yaxın yolunu kəsmək və bağlamaq məqsədilə hasar çəkməsinin göstərmək olar. Daha tipik və tarixən qədim şikana halına isə qonşunun acığına ucaldılan tikilini aid etmək olar (Neidbau): mən öz sahəmin sərhədində yalnız və yalnız o niyyətlə hündür divar tikirəm ki, sənin evinin pəncərəsindən içəri düşən işığın qabağı kəsilsin. Başqa bir misalda kreditor cavabdehi pis vəziyyətə salmaq üçün ona bilərəkdən və qəsdən vaxtı çatmamış tələb irəli sürür. Amma öhdəliyin icrasını tələb etməklə vurulan zərər halı şikana sayılmır[3].

Şikana nəticəsində əksəriyyət hallarda əmlak zərəri vurulur. Lakin bu məcburi deyildir: kifayətdir ki, zərər qeyri-maddi (ideal) mənafeyə vurulsun.

[1] bax: Германское право. Гражданское уложение. Часть 1 / Под ред. *В.В.Залесского*. М., 1996. İnqilabaqədərki rus sivilist alimi I.A.Pokrovski göstərirdi ki, hələ neçə yüz il əvvəl Roma hüquqşünasları şikanaya diqqət yetirirdilər (*Покровский И.А.* Основные проблемы гражданского права. По изданию 1917 г. М., 1998, с.113). E.A.Fleyşitsin fikrincə, «chikane» fransız mənşəli anlayışdır (Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 50). Amma şikananın ümumən qadağan edilməsi Roma hüquqşünaslarına məlum deyildi.

[2] *Karl Huber*. Über den Rechtsmissbrauch, 1910; *Покровский И.А.* Основные проблемы гражданского права. По изданию 1917 г. М., 1998, с.114.

[3] *Klünzinger E.* Einführung in das bürgerliche Recht. München. 1993.

Almaniya professoru E.Klyunsingerin fikrincə, şikananın qadağan edilməsinin elə də xüsusi əhəmiyyəti yoxdur. Belə ki, şıkana hallarına iqtisadi dövriyyədə tez-tez rast gəlinmir.

Zərər vurmaq niyyəti olmadan, lakin obyektiv olaraq başqa şəxsə zərər vurulmasına gətirib çıxan hüquqdan sui-istifadə forması düzünə qəsdlə xarakterizə edilmir. Onun subyektiv tərəfi ya dolayı qəsd formasında, ya da təqsirin ehtiyatsızlıq formasında ifadə edilir. Bu cəhəti ilə hüquqdan sui-istifadənin göstərilən forması şikanadan fərqlənir. Bu formada edilən hüquqdan sui-istifadə birbaşa qəsdlə başqa şəxslərə zərər vurmaq məqsədindən məhrumdur. Məsələn, vətəndaş öz qonşusunun evinə yaxın olan yerdə özünə ev tikir. Bu, qonşunun evinin pəncərəsindən evə gün düşməsinin qarşısını alır. Vətəndaş özünə ev tikərkən qarşısına bu kimi məqsəd qoymamışdı.

Hüquqdan sui-istifadənin üçüncü forması **mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədilə istifadə edilməsi forması** adlanır. **Rəqabət** dedikdə, bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə bir forması başa düşülür ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin bazarda əmtəə (məhsul, iş, xidmət) dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan əmtəələrin istehsalına təkan verir, ona meyl yaradır[1]. Əgər mülki hüquqlardan rəqabətin məhdudlaşdırılması üçün istifadə edilərsə, onda bu cür hərəkətlər hüquqdan sui-istifadə hesab edilir. Rəqabətin məhdudlaşdırılması halına maliyyə-kredit inhisarçılığını, təsərrüfat subyektlərinin inhisarçılığını, sahə inhisarçılığını, yerli inhisarçılığı və s. misal göstərmək olar[2]. Məsələn, bank kredit ehtiyatları bazarında süni qıtlıq yaratmaq, yaxud qıtlığı qoruyub saxlamaq, həmçinin kredit dərəcələrini yüksəltmək məqsədilə kredit verilməsini azaldır və ya dayandırır. Belə halda hüquqdan sui-istifadə göz qabağındadır.

Bazarda üstün mövqedən sui-istifadə edilməsi hüquqdan sui-istifadənin bir formasıdır. **Bazarda üstün mövqe** dedikdə, təsərrüfat subyektinin öz iqtisadi potensialının üstünlüyünə əsaslanaraq, rəqabətə həlledici təsir göstərməyə imkan verən və bununla da bazarın digər iştirakçılarının bazara daxil olmasını çətinləşdirən müstəsna vəziyyəti başa düşülür[3]. Bundan əlavə, əgər təsərrüfat subyektinin bazarda payı 35 faizdən çox olarsa, həmin təsərrüfat subyekti üstün mövqe tutan hesab edilir.

Təsərrüfat subyekti əgər bazarda üstün mövqedən sui-istifadə edərsə, bu, hüquqdan sui-istifadəyə səbəb olur. Bazarda öz üstün mövqeyindən sui-istifadə müxtəlif hərəkətlərdə təzahur edə bilər. Həmin hərəkətlərə aiddir:

- süni qıtlıq yaratmaq, yaxud qıymətləri artırmaq məqsədilə əmtəələrin dövriyyədən çıxarılması;
- digər təsərrüfat subyektləri ilə müqayisədə kontragentlərin rəqabət imkanlarına zərər vuran, yaxud zərər vura bilən eyni və ya eyni şərtli müqavilələrin bağlanmasında ayrı-seçkiliyə yol verilməsi;

[1] bax: «Haqsız rəqabət haqqında» qanunun 1-ci maddəsi (AR QK, II cild, s. 468).

[2] bax: «Antiinhisar fəaliyyəti haqqında» qanunun 6-cı, 7-ci, 8-ci və 9-cu maddələri (AR QK, III cild, s. 44-46).

[3] bax: həmin qanunun 4-cü maddəsi.

• kontragentə sərfəli olmayan və ya müqavilələrin məzmununa aid olmayan müqavilə şərtlərinin ona məcburi qəbul etdirilməsi;

• bəzi növ malların istehsalının əsassız olaraq məhdudlaşdırılması, yaxud dayandırılması;

• bazarda əlavə üstünlük əldə etmək məqsədilə qiymətlərlə manipulyasiya edilməsi (onların yüksəldilməsi, azaldılması və ya bir səviyyədə saxlanılması və s.)[1].

Təsərrufat subyektinin bazarda üstün mövqeyindən sui-istifadə etməsi hüquqdan sui-istifadə forması olduğuna görə mülki hüquq pozuntusudur. Ona görə də antiinhisar qanunvericiliyi bu hüquq pozuntusu üçün konkret tədbirlər müəyyən edir[2]:

• pozuntunu dayandırmaq;

• ilkin vəziyyəti bərpa etmək;

• müqaviləni dəyişdirmək;

• müqaviləni pozmaq,

• vurulmuş zərərin əvəzini ödəmək;

• cərimə ödəmək.

Bəzi hallarda hüquqdan sui-istifadənin konkret növünə görə qanunda konkret sanksiya nəzərdə tutulmur. Belə hallarda konkret formalarda ifadə olunan müvafiq sanksiya tətbiq edilir[3]:

• mudafiənin konkret üsulundan imtina etmək;

• hüququn həyata keçirilməsindən əldə edilən nəticəyə olan səlahiyyətdən məhrum etmək;

• subyektiv hüququn özündən tamamilə məhrum etmək;

• zərərin əvəzini ödəmək vəzifəsini həvalə etmək və s.

Bir az əvvəldə qeyd etdiyimiz kimi, MM-in 560-cı maddəsinin 3-cü bəndində hüquqdan sui-istifadənin formaları göstərilmişdir. Həmin formalara aiddir:

• qeyri-qanuni və ya müqavilənin ziddinə əldə edilmiş hüquqların həyata keçirilməsi (məsələn, şəxs tapdığı əmlakı mülkiyyətçiyə qaytarmır; həmin şəxs qeyri qanuni əldə etdiyi əmlak barəsində mülkiyyət hüququnu həyata keçirir);

• şəxsin öz vəzifələrini kobudcasına pozmasına baxmayaraq hüquqlarını həyata keçirməsi (məsələn, ahıl yaşlı hər hansı şəxs ikinci yaşayış evini qonşusuna bu şərtlə bağışlayır ki, qonşu onu saxlasın; amma nainsaf qonşu bu vəzifəsini yerinə yetirmir və yaşayış evi barəsində hüquqlarını həyata keçirir);

• müdafiə edilməli olan şəxsi mənafeyin əsasını təşkil etməyən hüququn həyata keçirilməsi;

• digər tərəfin güvəndiyi və güvənmiş olduğu əvvəlki rəftara zidd hüququn həyata keçirilməsi;

• bir və ya daha çox kommersiya hüquqi şəxslərinin bazarda və ya istehsal sektorunda özünün əlverişli vəziyyətindən sui-istifadə etməsi, əgər bu, mal dövriyyəsi və ya istehsal xidmətləri üçün bazar şəraitinin xeyli pozulması ilə nəticələnə bilərsə (məsələn, alqı-satqının qeyri-ekvivalent, qeyri-münasib qiymətlə həyata keçirilməsinə və ya əqdin digər şərtlərinə birbaşa və ya dolayısı ilə məcburetmə; istehlakçıların zərərinə istehsalın, satışın və texniki inkişafın məhdudlaşdırılması; müqavilə üzrə tərəfdaşlar üçün eyni, bərabər qiymətli xidmətlərdən ötrü rəqabətdə onların mənafelərinə toxunmasına səbəb olan müxtəlif şərtlərin tətbiq edilməsi; kommersiya hüquqi şəxslərinin razılaşmaları və onların qarşılıqlı razılığı ilə müəyyənləşdirilən hərəkət metodları, əgər bunlar mal dövriyyəsi və ya istehsal xidmətləri üçün bazar şəraitinin xeyli pozulması ilə nəticələnə bilərsə və rəqabətin məhdudlaşdırılmasına, onun qarşısının alınmasına yönələrsə; əqdlərin qiymətini və ya digər şərtlərinin birbaşa və ya dolayısı ilə təyin edilməsi; bazarların və ya təchizat mənbələrinin bölünməsi və s.)

[1] bax: «Antiinhisar fəaliyyəti haqqında» qanunun 8-ci maddəsi (AR QK, III cild, s. 45).

[2] bax: həmin qanunun 17-ci maddəsi

[3] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 395.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Агарков М.М. Проблема злоупотребления правом в советском гражданском праве // Известия АН СССР. Отделение экономики и права. 1946. № 6.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 11, § 1, 2, 3).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 11).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И. Масляева**. М., 1997 (гл. 13, § 1).

Гражданское право. Учебник. Часть 1/ Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 4).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 12).

Грибанов В.П. Пределы осуществления и зашиты гражданских прав. М., 1972.

Ем В.С. К вопросу о понятии, содержании и сушности правовых обязанностей // Вестник МГУ. Сер 11. Право. 1981. № 1.

Ерошенко А.А. Осуществление субъективных гражданских прав // Правоведение. 1972. № 4.

Малеин Н.С. Гражданский закон и право личности в СССР. М., 1981.

Малеин Н.С. Закон, ответственность и злоупотребление правом // Советское государство и право. 1991. №11.

Янев Янко Г. Правила социалистического общежития. М., 1980.

Иоффе О.С., Грибанов В.П. Пределы осуществления субъективных гражданских прав // Советское государство и право. 1964. № 7.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950 (§ 220).

Heinrichs H. // Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München. 1993.

Покровский И.А. Основные проблемы гражданского права. М., 1998 (IV часть).

XIII FƏSİL
MÜLKİ HÜQUQDA NÜMAYƏNDƏLİK (TƏMSİLÇİLİK)

§ 1. Mülki-hüquqi nümayəndəliyin anlayışı, subyektləri, növləri və əhəmiyyəti

1. Nümayəndəliyin anlayışı

Mülki hüququn fəaliyyət qabiliyyəti cian bütün subyektləri, ümumi qaydaya görə, adətən, özləri müstəqil surətdə subyektiv mülki hüquqlarını həyata keçirir və vəzifələrini icra edirlər. Bununla bərabər, hüquqi şəxslərin təsərrüfat fəaliyyətində və fiziki şəxslərin həyatında elə hallar yaranır ki, onlar özlərinə lazım olan hüquqi hərəkətləri müstəqil surətdə yerinə yetirə bilmirlər (məsələn, müxtəlif əqdləri, müqavilələri və s. bağlaya bilmirlər). Belə ki, on dörd yaşınadək olan yetkinlik yaşına çatmayan şəxslər xırda məişət və digər növ əqdlər istisna olmaqla, əqdləri müstəqil surətdə bağlamaq ixtiyarına malik deyillər. Ruhi xəstəliyinə görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxslərin isə, ümumiyyətlə, əqd bağlamaq qabiliyyəti yoxdur. Hüquqi şəxslərə gəldikdə isə demək lazımdır ki, onun rəhbərinin (müdirinin, sədrinin, direktorunun, prezidentinin və s.) hüquqi xarakterli bütün hərəkətlərin yerinə yetirilmə prosesində iştirakının təmin olunması praktiki cəhətdən mümkün deyil. Bu cür hallarda **hüquqi hərəkətlər digər şəxslərin — nümayəndələrin köməyi ilə yerinə yetirilir**. Söhbət nümayəndə adlı şəxslərin göstərdiyi xidmətdən istifadə edilməsindən gedir. Bununla bağlı olaraq yaranan münasibətlər hüquq normaları ilə tənzimlənir ki, bu normaların məcmusu **nümayəndəlik institutunu** yaradır. Gördüyümüz kimi, bu institut subyektlərin hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrasının xüsusi üsulu kimi çıxış edir.

Nümayəndəliyin çoxəsrlik tarixi vardır. Bu institut bizə Roma hüququndan, necə deyərlər, «miras» qalmışdır[1]. Belə ki, hələ neçə yüz il bundan əvvəl Roma hüququ nümayəndənin vasitəsilə əqdlərin bağlanmasına yol verirdi[2]. Xüsusən Romanın Aralıq dənizi ticarət dövlətinə çevrilməsi şəraitində əqdlər bağlanması zamanı nümayəndəlik institutuna tələbat daha da artmağa başladı.

Roma hüququnda nümayəndəlik, hər şeydən əvvəl, «mandatum (mandatum)», yəni **tapşırıq müqaviləsi formasında** həyata keçirilirdi. Bu müqaviləyə görə, bir tərəf (mandatari, vəkalət alan) digər tərəfin (mandatın, vəkalət verənin) tapşırığı ilə hər hansı bir hərəkəti pulsuz, haqq almadan yerinə yetirməyi öhdəsinə götürürdü[1]. Sonralar nümayəndəlik institutu dünyanın bir sıra dövlətlərinin (məsələn, Almaniyanın, Yaponiyanın, Fransanın və s.) qanunvericiliyində nəzərdə tutulmağa başladı[2]. Bu isə onun inkişafına güclü təsir göstərdi. Demək olar ki, müasir dünya ölkələrinin hamısının qanunvericiliyi nümayəndəlik institutunu tanıyır və tənzimləyir.

Nümayəndəliyin mahiyyəti ondan ibarətdir ki, hər hansı şəxs bu və ya digər səbəbə görə öz mülki hüquqlarını müstəqil surətdə həyata keçirə və vəzifələrini icra edə bilmirlər və bunun üçün onlar nümayəndə adlı şəxslərin kömək və xidmətindən istifadə edirlər, yəni əqdləri və digər hüquqi hərəkətləri nümayəndənin vasitəsi ilə yerinə yetirirlər. Həmin şəxsin özü bu cür hərəkətləri o səbəbə görə həyata keçirə bilmir ki, onun ya fəaliyyət qabiliyyəti, ya da, sadəcə olaraq, imkanı olmur. Mülki hüquq elmində (sivilistika doktrinasında) həmin səbəblər iki yerə bölünür[3]:

- hüquqi səbəblər;
- faktiki səbəblər.

Hüquqi səbəblər dedikdə, qanunda nəzərdə tutulan elə hallar başa düşülür ki, bu hallar şəxsi ona lazım olan hüquqi hərəkətlər etmək imkanından məhrum edir. Daha doğrusu, qanunda ifadə olunan hüquqi göstəriş şəxsə onun üçün vacib olan bu və ya digər mülki hüquq münasibətində (məsələn, alqı-satqı, podrat, kirayə, icarə və sair hüquq münasibətlərində) şəxsən iştirak etməsinə mane olur. Onlara aiddir:

- ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində şəxsin məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılması;
- spirtli içkilərdən, psixotrop maddələrdən və ya narkotik vasitələrdən suiistifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan şəxsin məhkəmə tərəfindən fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması;
- on səkkiz yaşınadək şəxslərin tam mülki fəaliyyət qabiliyyətinin olmaması və s.

Faktiki səbəblər dedikdə, qanunda nəzərdə tutulmayan elə real hallar başa düşülür ki, həmin hallar subyektə özünə lazım olan bu və ya digər hüquqi hərəkəti şəxsən yerinə yetirməyə mane olur. Belə ki, həyatın real, faktiki halları subyekti onun üçün zəruri olan müvafiq mülki hüquq münasibətində müstəqil surətdə, heç kəsin köməyi olmadan çıxış etmək imkanından məhrum edir. Bu cür hallara aiddir:

---

[1] bax: *Дождев Д.В.* Римское частное право. Учебник. М., 1999, с. 301; *Novitski İ.B.* Roma hüququ. Dərslik / Rus dilindən *M.P.Əsgarovanın* tərcüməsi. Bakı. 1999, s. 124.

[2] Roma hüququ üzrə əqdlərin bağlanması zamanı nümayəndəlikdən istifadə olunması məsələsi ilə ətraflı tanış olmaq üçün bax: *Нерсесов Н.О.* Представительство и ценные бумаги в гражданском праве. М., 2000, с. 99-132. L.Ennekserus yazır ki, Roma hüququ nümayəndəliyə sahiblik, əşya əqdləri bağlanan zaman və vərəsəliyə daxil olarkən yol verirdi. Öhdəlik hüququ sahəsində isə ona yol verilmirdi (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 232).

[1] *Пухан И., Поленак-Акимовская М.* Римское право. Учебник. М., 2000, с. 268; Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 474.

[2] Qədim alman hüququ nümayəndəliyi tanımırdı. Yalnız XVII əsrdən başlayaraq Almaniyada nümayəndəlik institutundan istifadə olunmağa yol verildi. Almaniya Mülki Qanunnaməsinin birinci kitabının «Əqdlər» adlı üçüncü bölməsinin beşinci fəslinə daxil olan normalar bu institutu əmələ gətirir (Германское право. Гражданское уложение. Часть 1. М., 1996).

[3] bax: Основы советского гражданского права. Учебное пособие / Под ред. *Я.А.Куника.* М., 1986, с. 72; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова.* М., 1985, с. 263; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко.* М., 1998, с. 198; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова.* М., 1998, с. 396 и *др.*

• subyektin ezamiyyətə getməsi və ya məzuniyyətdə olması;
• subyektin xarici ölkədə olması;
• subyektin özünün şəxsən hüquqi hərəkəti yerinə yetirməyə vaxtının olmaması və ya çatışmaması, ona macal tapmaması;
• subyektin təxirəsalınmaz məsələ ilə məşğul olması, başının qarışması;
• subyektin hüquqi cəhətdən savadsızlığı;
• subyektin özünə lazım olan hüquqi hərəkətləri yerinə yetirməyə, sadəcə olaraq, özünün arzu, istək və həvəsinin olmaması;
• hüquqi şəxsin rəhbərinin vacib və mühüm işlə yüklənməsi və s.

Göstərilən səbəblərdən hər hansı biri olduqda, şəxsin adından nümayəndə hüquqi hərəkətləri yerinə yetirir, əqdlər bağlayır. Amma bu zaman **hüquqi nəticə, yəni mülki hüquq və vəzifələrin yaranması, dəyişməsi və ya xitam olunması nümayəndə üçün yox, həmin şəxsin özü üçün əmələ gəlir**. Məsələn, uzaq xarici ölkələrdən birinə işləməyə gedən vətəndaş öz qonşusuna tapşırır ki, qonşu onun adından bağ evinin alqı-satqı müqaviləsini bağlasın. O, tapşırığı yerinə yetirərək bu müqaviləni bağlayır. Belə halda bağlanmış müqavilədə nümayəndə rolunda çıxış edən qonşu üçün hər hansı bir mülki hüquq və vəzifə yaranmır. Həmin hüquq və vəzifələr uzaq ellərə işləməyə gedən vətəndaş üçün əmələ gəlir. Bağlanmış həmin müqavilədə alıcı tərəf kimi nümayəndə (qonşu) yox, məhz onun özü çıxış edir. Göründüyü kimi, belə hallarda müvafiq şəxsə kömək göstərmək üçün nümayəndəlik hüquqi vasitə və metod kimi çıxış edir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 16-cı fəslinə daxil olan normalar (359-366-cı maddələr) nümayəndəliyin tənzimlənməsinə həsr edilmişdir. O, nümayəndəliyi **təmsilçilik anlayışı** ilə əhatə edir.

Mülki Məcəllə nümayəndəliyin leqal anlayışını vermir. Amma onun 359-cu maddəsinin məzmunu nümayəndəliyə doktrinal (elmi) tərif verilməsinə imkan yaradır.

Mülki hüquqda nümayəndəlik odur ki, bir şəxs (nümayəndə, təmsilçi) başqa şəxsin (təmsil olunanın) adından və həmin şəxsin mənafeyi üçün ona verilmiş səlahiyyət əsasında hüquqi hərəkətlər yerinə yetirir və bunun nəticəsində təmsil olunan şəxs üçün mülki hüquq və vəzifələr əmələ gəlir, dəyişir və ya xitam olunur[1]. Nümayəndəliyə Almaniya mülki hüquq elmində də anlayış verilir: nümayəndəliyə görə nümayəndə başqa şəxs (təmsil olunan) üçün iradə ifadəsini həyata keçirir və ya qəbul edir və hüquqi nəticə bilavasitə həmin şəxs (təmsil olunan) üçün yaranır[2]. Anoloji anlayışı Yaponiya sivilistika doktrinası da verir: nümayəndəliyə görə nümayəndə müstəqil surətdə iradə ifadəsini həyata keçirir, bununla iradə ifadəsinin ünvanlandığı şəxs olur və nəticədə onun təmsil etdiyi şəxs üçün bilavasitə hüquqi nəticə yaranır[1].

[1] Nümayəndəliyə O.S.İoffe belə anlayış verir: nümayəndəlik təmsil olunanla nümayəndə arasında elə bir hüquq münasibətidir ki, bu münasibətə görə nümayəndənin hərəkəti ilə təmsil olunan üçün hüquq və vəzifələr yaranır (bax: *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Л., 1958, с. 156).

[2] *Еннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 228; *Dieter Schwab.* Einführung in das Zivilrecht. 1997.

2. Nümayəndəliyin əhəmiyyəti

Nümayəndəlik böyük əhəmiyyətə malik olan hüquqi institutdur. Nümayəndələrin vasitəsilə əqdlər bağlanması halları həm fiziki şəxslərin iştirak etdiyi münasibətlərdə, həm də hüquqi şəxslərin fəaliyyətində geniş yayılmışdır. Bu kateqoriya şəxslərin göstərdiyi xidmət imkan verir ki, fiziki və hüquqi şəxslər öz fəaliyyət qabiliyyətini, hər şeydən əvvəl, əqd bağlamaq qabiliyyətini rahat və asan yolla həyata keçirsinlər.

Nümayəndəliyin tətbiq sferası kifayət qədər genişdir. Nümayəndələrin köməyindən, hər şeydən əvvəl, ənənəvi olaraq fəaliyyət qabiliyyəti olmayanlar və xəstələr, habelə hüquqi şəxslər istifadə edirlər. Bəzi hüquqi şəxslərin isə fəaliyyətini nümayəndələrsiz təsəvvür etmək çətindir. Məsələn, satıcı malların pərakəndə satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxs statuslu mağazanın nümayəndəsi rolunda iştirak edir. Ticarət müəssisəsi olan mağaza alıcılarla əqdləri məhz satıcının vasitəsilə bağlayır. Kassir də nümayəndə kimi mağazanın adından hüquqi hərəkətlər yerinə yetirir. Həmin şəxslər müştərilər qarşısında mağazanın adından və onun mənafeyi üçün çıxış edirlər. Göstərilən kateqoriya nümayəndələrin xidməti və köməyi olmadan mağazanın fəaliyyət göstərməsi olduqca müşkül məsələyə çevrilərdi.

Son illər ölkənin iqtisadi-təsərrüfat həyatında baş verən köklü dəyişikliklər, bazar münasibətlərinin inkişafı nümayəndəliyin tətbiq sahəsini daha da əhatəli etmişdir. Mülki (əmlak) dövriyyədə ondan geniş səviyyədə istifadə edirlər. Kommersiya təşkilatları, habelə sahibkar statuslu fiziki şəxslər (fərdi sahibkarlar) nümayəndələrin vasitəsi və köməyi ilə müxtəlif sahibkarlıq (ticarət) müqavilələri və digər əqdlər bağlayır, sair hüquqi hərəkətlər həyata keçirirlər.

Təkcə əmlak hüquqları yox, həm də bəzi şəxsi qeyri-əmlak hüquqları nümayəndələrin göstərdiyi xidmətin sayəsində həyata keçirilir. Məsələn, sənaye mülkiyyəti obyekti (ixtira, faydalı model və sənaye nümunəsi) üçün patent almaq istəyən hüquqi və ya fiziki şəxs müvafiq icra hakimiyyəti orqanına iddia sənədini peşəkar nümayəndələr — patent müvəkkilləri vasitəsilə verə bilər[2]. Onlar həmin obyektlərə patentin alınması və onun qüvvədə saxlanası işlərinin aparılmasında vəkalət verən şəxsə köməklik göstərirlər.

Bununla bərabər, bəzi hallarda nümayəndəliyin tətbiq sahəsi məhdudlaşır. Belə ki, xarakterinə və təbiətinə görə yalnız şəxsən bağlana bilən əqdlərin nümayəndənin vasitəsilə bağlanmasına yol verilmir (MM-in 359-cu maddəsinin 4-cü bəndi). Bu cür əqdlər müvafiq əqd iştirakçısının şəxsiyyəti ilə sıx və qırılmaz surətdə bağlıdır. Ona görə də əqdlərin həmin iştirakçının şəxsən özü tərəfindən bağlanması tələb edilir. Məhz bu səbəbdən həmin əqdlər nümayəndənin vasitəsi və köməyi ilə bağlana bilməz. Bu cür əqdlərə vəsiyyətnaməni və etibarnaməni, habelə ömürlük renta müqaviləsini və s. aid etmək olar.

Ailə hüququ sahəsində də bəzi hüquqi hərəkətlərin nümayəndənin vasitəsilə yerinə yetirilməsinə yol verilmir. Məsələn, şəxs nümayəndənin xidmətin-

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 120.

[2] bax: «Patent haqqında» qanunun 27-ci maddəsi (AR QK, III cild, s. 797).

dən istifadə etməklə nikah bağlaya, övladlığa uşaq götürə bilməz və s. Anoloji məhdudiyyətlər Almaniya və Yaponiya mülki hüququnda da nəzərdə tutulur. Bundan əlavə, qanunda göstərilən hallarda əqdlərin nümayəndələrin vasitəsilə bağlanmasına yol verilmir (MM-in 359-cu maddəsinin 4-cü bəndi). Belə ki, Mülki Məcəllədə göstərilən digər əqdlərin nümayəndə vasitəsilə bağlanması mümkün deyil.

Nümayəndəlik institutu sənaye dövriyyəsi üçün çox böyük əhəmiyyətə malikdir. Bu institut hüquq qabiliyyətli şəxsə öz hüquqi fəaliyyətini genişləndirməyə imkan verir[1].

3. Nümayəndəlik münasibətinin elementləri və quruluşu

Nümayəndəlik öz hüquqi təbiətinə və xarakterinə görə **xüsusi xarakterli mülki hüquq münasibətidir**[2]. Bu münasibət kifayət qədər mürəkkəb cəhəti ilə xarakterizə olunur[3]. Belə ki, əvvəlcə təmsil olunan şəxslə nümayəndə arasında hüquq münasibəti əmələ gəlir. Məsələn, vətəndaş öz minik avtomobilini satmağı qonşusuna tapşırır və bu məqsədlə ona etibarnamə verir. Daha sonra qonşu həmin tapşırığı yerinə yetirərək, minik avtomobilini satmaq üçün kənd sakini ilə alqı-satqı müqaviləsi bağlayır. Bununla nümayəndəlik münasibəti (nümayəndəlik) əmələ gəlir.

Mülki hüquq münasibətinin bir növü olduğuna görə nümayəndəlik quruluşca üç elementdən ibarətdir:

- nümayəndəliyin subyekt tərkibi;
- nümayəndəliyin obyekti;
- nümayəndəliyin məzmunu.

Nümayəndəliyin subyekt tərkibi dedikdə, nümayəndəlik hüquq münasibətində iştirak edən şəxslər başa düşülür. O, üç kateqoriya subyekti əhatə edir: təmsil olunanı; nümayəndəni; üçüncü şəxsi. Bu subyektlərin üçü də nümayəndəliyin yaranması və həyata keçirilməsi prosesində özlərinə məxsus rol oynayırlar.

Təmsil olunan dedikdə, nümayəndənin köməyinə və xidmətinə ehtiyacı olan və ya bu cür kömək və xidməti arzu edən elə bir şəxs başa düşülür ki, həmin şəxsin adından və onun mənafeyi üçün nümayəndə müvafiq səlahiyyət əsasında hüquqi hərəkətlər yerinə yetirir. Təmsil edilən ona lazım olan hüquqi hərəkətləri yerinə yetirməyi nümayəndəyə tapşıran və bu məqsədlə ona səlahiyyət verən şəxsdir. Ona **vəkalət verən, tapşıran şəxs** də deyilir. Yuxarıdakı misalda öz minik avtomobilinin satılmasını tapşıran vətəndaş təmsil olunan

[1] *Нерсесов Н.О.* Представительство и ценные бумаги в гражданском праве. М., 2000, с. 24.

[2] O.A.Krasavçikov göstərir ki, nümayəndəlik xüsusi xarakterli elə bir mülki hüquq münasibətidir ki, onu nə mülkiyyət hüquq münasibətinə, nə də öhdəlik hüquq münasibətinə aid etmək olmaz. Nümayəndəlik **qeyri-əmlak mülki hüquq münasibətinin bir növü olan təşkilati hüquq münasibətinə** aid edilir (bax: Советское гражданское право. Учебник. Том I / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 262).

[3] Mülki hüquq elmində nümayəndəliyin mahiyyəti barədə indiyə kimi tam yekdil fikir yaranmamışdır. Bu, sivilistika doktrinasında geniş mübahisə və diskussiya doğuran məsələlərdən biridir (bax: Советское гражданское право. Учебник. Том I / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 207-208).

hesab edilir.

Hüquq qabiliyyətinə malik olan istənilən subyekt (**fiziki və hüquqi şəxslər**) təmsil olunan rolunda çıxış edə bilərlər. Onların tam mülki fəaliyyət qabiliyyətinə malik olmaları tələb edilmir və buna ehtiyac da yoxdur. Bu isə o deməkdir ki, **həm fəaliyyət qabiliyyəti olanlar, həm də fəaliyyət qabiliyyəti olmayanlar nümayəndəlik münasibətində təmsil olunan qismində iştirak edə bilərlər**. Deməli, təmsil olunanlar özlərinin mülki fəaliyyət qabiliyyətinin həcmindən asılı olmayaraq, bu münasibətin subyekti kimi çıxış edirlər. Məsələn, ruhi xəstəliyinə görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin adından əqdləri onun nümayəndəsi — qəyyumu bağlayır (MM-in 28-ci maddəsinin 8-ci bəndi).

Bununla belə, təmsil olunan rolunda **Azərbaycan Respublikası (dövlət) və bələdiyyələr** də çıxış edə bilər. Məsələn, dövlət xarici ölkədəki səfirliyə bina və yaşayış evləri kirayəyə götürməyi tapşıra bilər və s.

Nümayəndə dedikdə, ona verilmiş səlahiyyət əsasında təmsil olunan adından və təmsil olunanın mənafeyi üçün üçüncü şəxslə əqd bağlayan və digər hüquqi hərəkətlər yerinə yetirən şəxs başa düşülür. O, nümayəndəlik fəaliyyətini və funksiyasını həyata keçirən şəxsdir. Nümayəndəyə **vəkalət alan, təmsilçi** də deyilir. Yuxarıdakı misalda vətəndaşın minik avtomobilini satmaq üçün kənd sakini ilə alqı-satqı müqaviləsi bağlayan qonşu nümayəndədir.

Mülki hüququn istənilən subyektinin, istisnasız olaraq, nümayəndə rolunda çıxış etməsi qeyri-mümkündür. Bunun üçün şəxsin transfəaliyyət (latınca «trans» — vasitə) qabiliyyətli olması gərəkdir. **Transfəaliyyət qabiliyyətli** dedikdə, şəxsin başqa şəxslər üçün hüquqi nəticə — mülki hüquq və vəzifələr yaratmaq qabiliyyəti başa düşülür. Həm fiziki şəxslər, həm də hüquqi şəxslər transfəaliyyət qabiliyyətli ola bilərlər.

Fiziki şəxslər tam mülki fəaliyyət qabiliyyətli olduqda transfəaliyyət qabiliyyətli hesab edilir. Belə ki, nümayəndə rolunda çıxış edən fiziki şəxs faktiki cəhətdən təmsil olunanın fəaliyyət qabiliyyətini realizə edir, həyata keçirir. Ona görə də onun özü tam mülki fəaliyyət qabiliyyətli olmalıdır.

Fiziki şəxslər, bir qayda olaraq, yalnız on səkkiz yaşına çatdıqda nümayəndə kimi çıxış edə bilərlər. Amma bəzi kateqoriya şəxslər, yəni emansipasiya qaydasında və ya on səkkiz yaşınadək qanuni əsasla nikaha girməklə tam mülki-hüquqi status almış fiziki şəxslər on səkkiz yaşı tamam olmadan da nümayəndə qismində çıxış edə bilərlər.

Mülki qanunvericilik nümayəndənin öz nümayəndəlik funksiyasını yerinə yetirməsi ilə bağlı bəzi məhdudiyyətlər müəyyən edir (MM-in 359-cu maddəsinin 3-cü bəndi). **Nümayəndə bağlanması ona tapşırılmış əqdin iştirakçısı (tərəfi) olmaq hüququndan məhrum edilir**. Belə ki, birincisi, nümayəndə təmsil olunan adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. Yuxarıdakı misalda qonşunun (nümayəndənin) minik avtomobilinin satılması barədə özü üçün alqı-satqı müqaviləsi bağlamağa ixtiyar çatmır, yəni onun həmin müqavilədə alıcı tərəf qismində iştirak etmək hüququ yoxdur. Çünki əsas məqsədi başqasının mənafeyi üçün əqd bağlamaqdan ibarət olan nümayəndənin həmin şəxslə öz mənafeyi üçün əqd bağlaması mümkün deyil. Əgər belə olarsa, onda mənafelərin uyğunluğu haqqında qayda pozulur.

İkincisi, digər tərəfdən nümayəndə eyni zamanda başqa təmsil olunanın nümayəndəsi olduğu halda da, həmin təmsil olunanın barəsində də əqd bağlaya bilməz. Məsələn, yuxarıdakı misalda kənd sakini həmin qonşuya onun üçün minik avtomobili alınması barədə tapşırıq verir. Belə halda qonşu eyni zamanda həm vətəndaşın, həm də kənd sakininin nümayəndəsi kimi çıxış edir. Bu cür münasibətlər ikiqat nümayəndəlik adlanır. Kommersiya təmsilçiliyindən savayı (bu barədə sonrakı paraqrafda), **ikiqat nümayəndəliyi mülki qanunvericilik qadağan edir**. Belə ki, iki subyektin (iki təmsil olunanın) eyni zamanda nümayəndəsi olan şəxs həmin subyektlər arasında əqd bağlaya bilməz. Məsələn, qonşunun vətəndaş ilə kənd sakini arasında minik avtomobilinin alqı-satqı müqaviləsi bağlaması qeyri-mümkündür, çünki qonşu həm də kənd sakininin nümayəndəsidir.

Kommersiya təmsilçiliyi halından başqa, qiymətli kağızlar bazarında brokerlik halında da ikiqat nümayəndəliyə yol verilir. (MM-un 359-cu maddəsinin 3-cü bəndi). Belə ki, broker fəaliyyəti qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərindən biri sayılır; broker isə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları sırasına daxildir.

İkiqat nümayəndəliyin qanunla qadağan edilməsi təmsil olunanın mənafeyinin müdafiə edilməsinə yönəlmişdir. Bu, nümayəndə tərəfindən yol verilə bilən mümkün sui-istifadə hallarının qarşısını alır.

Hüquqi şəxslərin transfəaliyyət qabiliyyətinə, yəni nümayəndə olmaq qabiliyyətinə gəldikdə isə qeyd edə bilərik ki, bu, hüquqi şəxsin növü ilə şərtlənir. Belə ki, xüsusi hüquq qabiliyyətli qeyri-kommersiya təşkilatları, əgər qanunda və ya nizamnamədə müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olmazsa, nümayəndə rolunda iştirak edə bilər. Zidd olan hallarda isə onların nümayəndə kimi çıxış etmələri istisna edilir. Məsələn, kredit təşkilatı olan bank və ya maliyyə müəssisəsi olan sığorta təşkilatı nümayəndə kimi ticarət əqdi bağlaya bilməz.

Ümumi (unversal) hüquqi qabiliyyətli kommersiya təşkilatları, nizamnaməsində onun nümayəndə olmaq imkanının nəzərdə tutulmasından asılı olmayaraq, istənilən halda nümayəndə rolunda çıxış edə bilər, bir şərtlə ki, nümayəndə olmaq imkanı hüquqi şəxsin nizamnaməsində qadağan olunmasın. Məsələn, əgər nizamnaməsində qadağan edilməzsə, informasiya xidməti sahəsində fəaliyyət göstərən firma nümayəndə kimi ticarət əqdi bağlaya bilər.

Üçüncü şəxs odur ki, nümayəndə təmsil olunanın adından və onun mənafeyi üçün məhz həmin şəxslə əqd bağlayır. Məsələn, yuxarıdakı misalda minik avtomobili almaq niyyətində olan və buna görə də alqı-satqı müqaviləsi bağlayan kənd sakini üçüncü şəxs hesab edilir. O, bağlanmış əqdin iştirakçısıdır, bir tərəfidir.

Mülki hüququn istənilən subyekti nümayəndəlikdə üçüncü şəxs rolunda çıxış edə bilər. Bunun üçün onun mülki fəaliyyət qabiliyyətinə (əqd bağlamaq qabiliyyətinə) malik olması tələb edilir.

Nümayəndəliyin obyekti onun elementlərindən biridir. Nümayəndənin təmsil olunanın adından və onun mənafeyi üçün yerinə yetirdiyi **hüquqi hərəkətlər** onun obyektini təşkil edir. Düzdür, qanunda nümayəndənin yerinə yetirdiyi hüquqi hərəkət kimi yalnız əqdlər nəzərdə tutulur. Amma buna baxmayaraq, o, əqddən savayı, digər hüquqi hərəkətlər də edə bilər. Məsələn, nümayəndə təmsil olunana göndərilən əmlakı qəbul edir. Bu akt əqd hesab edilmir. O, hüquqi nəticə doğuran hərəkətdir.

Faktiki (real) hərəkətlərin nümayəndəliyin obyekti olmasına gəldikdə isə göstərə bilərik ki, bu cür hərəkətlərin nümayəndəliyin obyekti kimi çıxış etməsi tamamilə istisna olunur: məsələn, paltarın tikilməsinin, evin təmir olunmasının, yükün boşaldılmasının, geyim şeylərinin yuyulmasının və digər faktiki hərəkətlərin nümayəndəliyin obyekti olması qeyri-mümkündür. Ona görə ki, faktiki hərəkətlər hüquqi nəticəyə, yəni tərəflər üçün mülki hüquq və vəzifələrin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam edilməsinə səbəb olmur. Yalnız hüquqi hərəkətlər hüquqi nəticəyə səbəb olur. Faktiki hərəkətlər ancaq faktiki nəticəyə gətirib çıxarır. Hüquq ədəbiyyatında buna faktiki nümayəndəlik deyilir[1]. **Faktiki nümayəndəlik** odur ki, bir tərəfin hərəkəti digər tərəf üçün yalnız faktiki nəticə yaradır. Bu cür nümayəndəlik mülki hüquqi mənada nümayəndəlikdən (mülki hüquqi nümayəndəlikdən) fərqlənir.

Nümayəndəliyin məzmunu dedikdə, burada subyekt rolunda çıxış edən şəxslərin hüquq və vəzifələri başa düşülür. Söhbət təmsil olunanın, nümayəndə və üçüncü şəxsin hüquq və vəzifələrindən gedir.

Nümayəndəliyin məqsədi isə nümayəndə tərəfindən təmsil olunanın mənafeyi üçün və onun adından hüquqi hərəkətlər yerinə yetirməkdən, təmsil olunanla üçüncü şəxs arasında hüquqi əlaqə yaratmaqdan ibarətdir. Nümayəndə çox vaxt əqdlər bağlayır. O, bağladığı əqdin iştirakçısına (tərəfinə) çevrilmir, əqdin doğurduğu hüquqi nəticə avtomatik olaraq təmsil olunan üçün yaranır. Məsələn, yuxarıdakı misalda alqı-satqı əqdinin bir tərəfi (satıcı) vətəndaşdan, digər tərəfi (alıcı) isə kənd sakinindən ibarətdir.

Nümayəndəlik münasibəti struktur etibarilə mürəkkəb olub, özündə üç cür hüquq münasibətini birləşdirir. Bu münasibətlər sıx surətdə bağlı olub, bir-birini tamamlayır və şərtləndirir. Həmin münasibətlərə aiddir:

- daxili nümayəndəlik münasibəti;
- xarici nümayəndəlik münasibəti;
- təmsil olunanla üçüncü şəxs arasındakı münasibət.

Daxili nümayəndəlik münasibəti dedikdə, təmsil olunanla nümayəndə arasında yaranan hüquqi əlaqə başa düşülür. Məsələn, yuxarıdakı misalda vətəndaşla onun qonşusu arasında yaranan hüquqi əlaqə bu münasibətə aiddir. Nümayəndəliyin hüquqi nəticə doğurması üçün lazımdır ki, nümayəndə hərəkət etsin, fəaliyyət göstərsin. Nümayəndənin hərəkət etməsi və fəaliyyət göstərməsi isə artıq nümayəndəliyin daxili münasibətləri çərçivəsindən kənara çıxır, onun sərhədlərini aşır. Belə ki, o, nümayəndəliyin xarici münasibətinə daxil olur.

Xarici nümayəndəlik münasibəti dedikdə, müvafiq əqdin bağlanma və digər hüquqi hərəkətlərin yerinə yetirilmə prosesində nümayəndə ilə üçüncü

[1] bax: *Нерсесов Н.О.* Представительство и ценные бумаги в гражданском праве. М., 2000, с. 28. Faktiki nümayəndəlik anlayışını ilk dəfə Qordon müəyyənləşdirmişdir (Журнал Министерства Юстиции за 1867 год. т. 31, с. 260).

şəxs arasında yaranan əlaqə başa düşülür[1]. Belə halda nümayəndənin borcudur ki, o, təmsil olunanın adından çıxış etməsi üçün lazımi səlahiyyətə malik olmasını sənədlə sübut etsin. Bu sənəd olmasa, arzu edilən nəticənin baş verməsinə hüquqi maneə yaradılar. Yuxarıdakı misalda qonşu ilə kənd sakini arasındakı münasibət xarici nümayəndəlik münasibətidir.

Təmsil olunanla üçüncü şəxs arasındakı münasibət həm daxili nümayəndəlik münasibətinin, həm də xarici nümayəndəlik münasibətinin (bu iki münasibət elə bil ki, təmsil olunanla üçüncü şəxs arasında hüquq və vəzifələrin əmələ gəlməsi üçün hüquqi transmissiya vasitəsidir) həyata keçirilməsinin nəticəsidir. Bu münasibət əsasında təmsil olunan və üçüncü şəxs üçün hüquq və vəzifələr əmələ gəlir. Məsələn, yuxarıdakı misalda vətəndaşla üçüncü şəxs arasındakı münasibət nəticəsində vətəndaş minik avtomobili üzərində mülkiyyət hüququnu itirir, kənd sakini isə mülkiyyət hüququ əldə edir.

Göstərilən bu münasibət nümayəndəliyin həyata keçirilməsinin nəticəsidir. Buna görə də, sözün əsl mənasında, həmin münasibət nümayəndəlik münasibəti hesab edilmir[2]. Belə ki, həmin münasibətdə nümayəndə iştirak etmir və onun üçün hər hansı hüquq və vəzifə əmələ gəlmir. Amma unutmaq olmaz ki, təmsil olunanla üçüncü şəxs arasındakı münasibət nümayəndə olan subyektin nümayəndəlik fəaliyyətinin və funksiyasının həyata keçirilməsinin nəticəsidir.

4. Nümayəndəlik və ona oxşar olan münasibətlər

Mülki hüquq münasibəti iştirakçılarının bəzi hərəkətləri nümayəndəliyə oxşar hüquqi əlaqələr yaradır. Lakin bu əlaqələr xaricən nümayəndəliyə bənzəsələr də, özlərinin hüquqi təbiəti və xarakteri ilə ondan fərqlənirlər. Subyektlərin bu cür hərəkətini nümayəndələrin nümayəndəlik fəaliyyətindən və funksiyasından fərqləndirmək lazımdır[3].

Nümayəndəni, hər şeydən əvvəl, **kommersiya vasitəçisi ilə eyniləşdirmək və qarışdırmaq olmaz**. Kommersiya vasitəçisi kommersiya vasitəçiliyini həyata keçirən şəxsdir. Birjada broker (ingiliscə «broker» — dəllal) və dilerin (ingiliscə «gealer» — ticarətçi, vasitəçi) fəaliyyəti kommersiya vasitəçiliyinə misaldır. Kommersiya vasitəçisi (broker) nümayəndə kimi, iradəvi xarakterə malik olan fəal hüquqi hərəkətlər yerinə yetirir. Lakin onun hərəkəti yalnız müvafiq tərəflər arasında müqavilə bağlanmasına kömək edir. Broker potensial müştərilər axtara, müqavilə (əqd) bağlamaq üçün tərəflərdən hər biri ilə danışıqlar apara, müqavilə (əqd) şərtləri barədə məlumat yığa və bu məlumatı verə və digər hərəkətləri yerinə yetirə bilər. Lakin əqdi (müqaviləni), nümayəndədən fərqli olaraq, brokerin özü bağlamır. O, yalnız əqdin (müqaviləni) bağlanmasına kömək edən kommersiya vasitəçisidir. Broker başqa şəxslər üçün bilavasitə hüquq və vəzifələr yaradan hər hansı bir hüquqi hərəkət yerinə yetirmir.

Diler isə birja əqdlərini öz adından və öz hesabına bağlayır. Sonradan həmin əqdi birjada satır. Deməli, onun fəaliyyəti nümayəndəlik yaratmır.

Nümayəndəni **qeyri-kommersiya vasitəçisindən (vasitəçidən) də ayırmaq lazımdır**. Vasitəçi əqdi özü bağlamır. O, yalnız onun bağlanmasına köməklik göstərir (məsələn, satıcı, alıcı, kirayəçi, kirayəyə verən və s. axtarır). Əqd bağlamaq məqsədilə vasitəçi tərəflərlə söhbət edir. Lakin əqdi tərəflərin özləri bağlayırlar. Vasitəçi öz adından hərəkət edir. Onun əsas vəzifəsi əqd bağlayan tərəfləri bir-birinə yaxınlaşdırmaqdan ibarətdir. Məsələn, bağ evini kirayəyə vermək üçün kirayəçi axtarmaq. Kirayə müqaviləsinin özü isə kirayəyə verən (bağ evinin sahibi) və kirayəçi tərəfindən bağlanılır.

Nümayəndənin fəaliyyətini **kuryerin** (fransızca «courrier» — xidmətçi) hərəkətindən də fərqləndirmək lazımdır. Kuryer işgüzar kağızları paylayan və daşıyan idarə xidmətçisidir. Nümayəndədən fərqli olaraq, o, hər hansı əqd bağlamır. Kuryer (xidmətçi) ancaq əqdi rəsmiləşdirən sənədi qarşı tərəfə verir, onu lazım olan yerə çatdırır, əqd bağlamaq arzusunda olan tərəfin niyyətini digər tərəfə bildirir və s. Məsələn, kuryer (xidmətçi) təşkilatın alqı-satqı müqaviləsi bağlamaq barədə istəyini digər təşkilata çatdırır. Bu zaman o, müəyyən bir şəxsin iradəsini digər şəxsə ötürür, amma öz şəxsi-xüsusi iradəsini ifadə etmir. Bundan fərqli olaraq, əqd bağlanarkən nümayəndə öz şəxsi-xüsusi iradəsini ifadə edir. Nümayəndə hüquqi hərəkətlər, kuryer isə faktiki hərəkətlər yerinə yetirir.

Nümayəndənin funksiyasının **hüquqi şəxsin orqanının fəaliyyəti ilə eyniləşdirmək olmaz**. Hüquqi şəxsin orqanı hüquqi şəxsin tərkibində olan struktur bölmədir. Əqd bağlamaq üzrə hüquqi şəxsin fəaliyyəti məhz bu orqanın hərəkətləri ilə ifadə edilir. Belə ki, hüquqi şəxsin orqanının hərəkəti hüquqi şəxsin özünün hərəkəti deməkdir. Buna görə də əqd bağlamaq üçün həmin orqana hər hansı nümayəndəlik səlahiyyəti verilməsinə ehtiyac yoxdur[1].

Nümayəndəni **başqasının yerinə imza atan şəxslərlə eyniləşdirmək olmaz**. Başqasının yerinə imza atan şəxs odur ki, bu şəxs fiziki-cismani cəhətdən şikəst və qüsurlu olan, hüquqi cəhətdən savadsız və ya xəstəliyə düçar olmuş və bu səbəblərə görə əqdi özü imzalaya bilməyən digər şəxsin əvəzinə onun xahişi ilə əqdi imzalayır. Bu şəxs əqdi imzalamaqla onun iştirakçısına çevrilmir. Əqd bağlanarkən o, öz şəxsi iradəsini ifadə etmir. Əqdin bağlanmasında əqdi imzalaya bilməyən şəxsin özünün iradəsi ifadə olunur. O, əqdin rəsmiləşdirilməsi üçün yalnız texniki köməklik göstərir. Nümayəndə isə əqdi

---

[1] Bu barədə başqa fikir də irəli sürülür. Müəlliflərdən V.V.Panteleyenkonun fikrincə, nümayəndə ilə üçüncü şəxs arasında əmələ gələn münasibət yox, təmsil olunanla üçüncü şəxs arasında münasibət xarici nümayəndəlik münasibəti hesab edilir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 202).

[2] Bu barədə bəzi müəlliflər başqa mövqe tutarlar. Onların fikrincə, təmsil olunanla nümayəndə arasında yaranan hüquq münasibəti yalnız nümayəndəlik üçün zəmin rolunu oynayır. Nümayəndə hərəkət etməyə başlayan andan nümayəndəlik münasibətinin özü yaranır. Sözün əsl mənasında nümayəndəlik isə təmsil olunanla üçüncü şəxs arasında yaranır (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 289; Советское гражданское право. Учебник. Часть 1/ Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 229, 230).

[3] Nümayəndəlik və ona oxşar olan münasibətlər arasındakı fərqli cəhətlər geniş surətdə işıqlandırılmışdır (bax: *Нерсесов Н.О.* Представительство и ценные бумаги в гражданском праве. М., 2000).

[1] Yaponiya mülki hüququna görə, hüquqi şəxsin orqanının hərəkəti ilə nümayəndəlik yaranır. Bu hərəkət hüquqi şəxsin özünün hərəkətini ifadə edir. Direktor təkbaşına nümayəndəlik hüququna malikdir (MM-in 85-ci maddəsi). Beləliklə, hüquqi şəxsin orqanının hərəkəti ilə «hüquqi şəxsin nümayəndəliyi» adlı nümayəndəlik növü əmələ gəlir (*Сакаэ Вагацума, Тору Аримдзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 85, 121).

özü bağlayır.

Vəsiyyət tapşırığını (leqatı) icra edən şəxs (leqatı icra edən şəxs) nümayəndə statusuna malik deyildir. Bu şəxs elə bir vərəsədir ki, ona vəsiyyət edən tərəfindən miras hesabına hər hansı öhdəliyin müəyyən şəxslərin (leqat alanların, leqatarilərin) xeyrinə icra olunmaq vəzifəsi həvalə edilir (MM-in 1205-ci maddəsi). Həmin şəxs vəsiyyət tapşırığını (leqatı) icra edir. Məsələn, vəsiyyət edən şəxs vərəsəyə belə bir tapşırıq verir ki, o, miras açılanadək bir ildən az olmayan müddətdə miras qoyanla birlikdə yaşamış şəxsə otaqdan ömürlük istifadə hüququ versin (MM-in 1207-ci maddəsi). Göründüyü kimi, o, leqat alanların (leqatarilərin) mənafeyi üçün vəsiyyəti həyata keçirmək məqsədilə lazım olan hərəkətlər etsə də, üçüncü şəxslər üçün hüquqi nəticə doğuran hərəkətlər yerinə yetirsə də, nümayəndə hesab edilmir. Ona görə ki, vəsiyyət tapşırığını icra edən şəxs bu hərəkətləri yerinə yetirən zaman başqasının adından yox, şəxsən oz adından çıxış edir[1].

Nümayəndəni **xeyrinə müqavilə bağlanmış şəxs kateqoriyasından** fərqləndirmək lazımdır. Bu kateqoriya şəxslər üçüncü şəxsin xeyrinə bağlanmış müqavilədə iştirak edirlər (MM-in 403-cü maddəsi). Məsələn, uşağın atası onun adına banka pul qoyur və bu barədə bankla depozit müqaviləsi (bank əmanəti) bağlayır. Burada uşaq üçüncü şəxs rolunda çıxış edir. Üçüncü şəxs müqavilənin öz xeyrinə icrasını borcludan (göstərilən misalda bankdan) tələb edir. O, başqasının adından yox, öz adından çıxış edir.

Nümayəndə ilə **komissioner (komisyonçu)** arasında da fərqli cəhətlər vardır. Komisyonçu (latınca «commissio» — tapşırıq) komissiya müqaviləsinin iştirakçısıdır (MM-in 808-ci maddəsi). O, nümayəndəyə çox yaxın olan şəxsdir. Belə ki, komisyonçunun da nümayəndə statusu vardır. O da nümayəndəlik funksiyalarını yerinə yetirir. Amma bilavasitə, açıq və birbaşa yolla yox, dolayı, gizli yolla o, nümayəndə kimi fəaliyyət göstərir. Komisyonçu da ona əqd bağlamağı tapşıran komitentin (latınca «committens» — tapşırıq verən), yəni komissiya müqaviləsinin digər tərəfinin hesabına və onun mənafeyi üçün hərəkət edir. Son məqamda onun üçüncü şəxslərlə (müştərilərlə) bağladığı əqdlər komitent üçün hüquqi nəticə doğurur. Lakin nümayəndədən fərqli olaraq, komisyonçu, məsələn, komisyon mağazası üçüncü şəxslərlə əqdləri şəxsən öz adından bağlayır və buna görə də bağlanmış həmin əqdlər üzrə hüquq və vəzifələri özü əldə edir. Sonra isə bu hüquq və vəzifələri o, komitentə verir.

Əqdin bağlanması üçün razılığı (icazəsi) tələb edilən üçüncü şəxsi nümayəndə hesab etmək olmaz. Bu cür razılıq (icazə) əqdin etibarlı olması şərtlərindən biridir. Bununla üçüncü şəxs bağlanmış əqdin məqsədəmüvafiq və ağlabatan olması üzərində nəzarət edir. Məsələn, qəyyum qəyyumluqda olanın əmlakını özgəninkiləşdirmək istəyir. Bunun üçün üçüncü şəxsin — qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazə verməsi tələb olunur (MM-ın 36-cı maddəsinin 2-ci bəndi). Bu orqan nümayəndə hesab edilmir.

[1] Daha ətraflı: Allahverdiyev S.S. Azərbaycan Respublikasının vərəsəlik hüququ. Bakı, 2004, s. 222.

5. Nümayəndənin səlahiyyəti

Nümayəndənin fəaliyyəti nəticəsində təmsil olunanla üçüncü şəxs arasında hüquq münasibəti yalnız o halda yarana bilər ki, nümayəndə ona verilmiş səlahiyyət əsasında hərəkət etsin. Nümayəndəliyin mahiyyəti də nümayəndənin məhz bu səlahiyyəti təmsil olunanın adından və onun mənafeyi üçün həyata keçirməsindən, realizə etməsindən ibarətdir. Həmin səlahiyyət nümayəndə tərəfindən üçüncü şəxslə münasibətdə həyata keçirildikdə, təmsil olunan üçün hüquqi nəticə — hüquq və vəzifələr əmələ gəlir. Deməli, **səlahiyyətin həyata keçirilməsi hüquqi fakt rolunu oynayır**.

Əgər müvafiq səlahiyyət verilməmişsə, onda nümayəndənin təmsil olunan adından və onun mənafeyi üçün əqd bağlaması və digər hüquqi hərəkətlər etməsi, öz nümayəndəlik funksiyasını həyata keçirməsi qeyri-mümkündür. Bundan əvvəl çəkdiyimiz misalda vətəndaş öz minik avtomobilinin satılması üzrə müqavilə bağlamaq barədə qonşuya səlahiyyət verməsə idi, o, kənd sakini ilə necə müqavilə bağlaya bilərdi. Bəs səlahiyyət nədir?

Səlahiyyətin hüquqi təbiəti mülki hüquq elmində (sivilistika doktrinasında) geniş və mübahisə doğuran məsələlərdən biridir. İndiyə kimi bu barədə sivilist alim və müəlliflər arasında vahid və yekdil fikir yaranmamışdır. Hazırda səlahiyyətin hüquqi təbiəti barədə məsələ mübahisə və diskussiya predmeti olmaqda davam edir.

Bəzən səlahiyyətə mülki hüquq qabiliyyətinin təzahürü kimi baxılır[1]. Digər halda səlahiyyət elə bir hüquqi fakt hesab edilir ki, bu fakt təmsil olunanın hüquq qabiliyyətinin nümayəndənin fəaliyyət qabiliyyətinə birləşməsinin sərhədlərini müəyyən edir[2]. Digər bir halda səlahiyyətə nümayəndənin təmsil olunan adından yerinə yetirməyə hüququ olan hüquqi hərəkətlərin məcmusu kimi anlayış verilir[3]. Dördüncü halda öz məzmununa görə səlahiyyət üçüncü şəxslərə münasibətdə nümayəndənin mümkün olan davranış ölçüsü kimi nəzərdə tutulur[4]. Beşinci halda isə səlahiyyətə xüsusi subyektiv hüquq və ya hüquq kimi baxılır[5]. Bizim zənnimizcə, səlahiyyətə xüsusi subyektiv hüquq kimi baxan

[1] bax: Рясенцев В.А. Понятие и юридическая природа полномочия представителя в гражданском праве // Методические материалы ВЮЗИ. Вып. II. М., 1948, с. 7.

[2] bax: *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 201-203.

[3] bax: *Тархов В.А.* Гражданское правоотношение. Уфа. 1993, с. 102; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 203.

[4] Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 267; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 271.

[5] bax: Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1968, с. 228; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 207; Советское гражданское право. Учебник. М., 1983. с.88; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 399; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. М., 1997, с. 190; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 246.

müəlliflərin mövqeyi daha əsaslıdır[1]. Belə ki, **özünün əmələ gəlmə xarakterinə görə səlahiyyət həqiqətən subyektiv hüquqdur**. Bu hüquq müəyyən əsasdan törəyir. Mülki qanunvericilik həmin hüququn, yəni səlahiyyətin üç cür əmələ gəlmə əsasını müəyyən edir: etibarnamə; inzibati akt: qanun (MM-in 359-cu maddəsinin 1-ci bəndi). Göstərilən hüquq, yəni nümayəndəlik səlahiyyəti nümayəndənin fəaliyyət göstərdiyi şəraitdən də məlum ola bilər. Belə ki, xidmət göstərmək sahəsində fəaliyyətlə məşğul olan müəssisələrə işə qəbul edilən şəxslərin nümayəndəlik səlahiyyəti bu qaydada yaranır. Bu cür şəxslərə mağazanın satıcısını və kassirini, atelye işçisini, restoran ofisiantını, baqaj qəbul edəni və s. misal göstərmək olar. Bu işçilər işlədiyi müəssisənin və təşkilatın adından müəyyən növ müqavilələr bağlayırlar. Nümayəndə funksiyasını həyata keçirmək üçün həmin işçilərə xüsusi etibarnamə verilməsinə ehtiyac yoxdur və bu, tələb edilmir. Onların səlahiyyəti hüquqi hərəkətlərin edildiyi şəraitdən bəlli olur və bu şəraitlə təsdiqlənir. Məhz bu kimi şəraitdə (kassa aparatı və ya piştaxta arxasında olmaq və s.) həmin işçilər nümayəndə statusuna malik olurlar.

Səlahiyyətin subyektiv hüquq olması onun ifadə etdiyi hərfi mənadan da irəli gəlir. Səlahiyyət dedikdə, hər hansı bir şəxsə nəyi isə etmək üçün verilən hüquq başa düşülür[2].

Beləliklə, **səlahiyyət nümayəndənin xüsusi xarakterli elə bir subyektiv hüququdur ki, bu hüquq əsasında o, təmsil olunan adından və onun mənafeyi üçün üçüncü şəxslərlə əqdlər bağlayır və digər hüquqi hərəkətlər edir**[3]. O, həyata keçirilən və realizə olunan kimi üçüncü şəxslə təmsil olunan arasında hüquq münasibəti və bur.unla təmsil olunan üçün hüquqi nəticə — hüquq və vəzifələr yaranır. Nümay əndənin borcudur ki, səlahiyyəti yalnız təmsil olunanın mənafeyi üçün həyata keçirsin. Məhz bu səbəbdən, əvvəllər də qeyd etdiyimiz kimi, nümayəndə təmsil edilən adından şəxsən özü barəsində, həmçinin kommersiya təmsilçiliyi halı (o cümlədən qiymətli kağızlar bazarında brokerlik halı) istisna olmaqla, eyni zamanda təmsilçisi olduğu şəxs barəsində əqdlər bağlaya bilmək imkanından məhrumdur (həmin məsələ barəsində bu paraqrafın 3-cü yarımbaşlığına bax).

[1] L.Enneksrus yazır ki, səlahiyyət hüququ əqdlə verilən nümayəndə olmaq hüququdur. Səlahiyyət müstəqil hüquqi əqddir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 249, 250). Yaponiya mülki hüququnda «səlahiyyət» anlayışı yox, «nümayəndəlik hüququ» anlayışı işladilir. Bu hüquq əsasında nümayəndə təmsil olunanın iradə ifadəsini həyata keçirir (*Сакаэ Ватацума, Тору Аридзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 124).

[2] «Səlahiyyət» kəlməsinin rus dilində qarşılığı və ekvivalenti kimi «полномочие» ifadəsi işlədilir. «Полномочие» dedikdə, hər hansı bir şəxsə verilən elə bir hüquq başa düşülür ki, bu hüquq əsasında həmin şəxs nəyi isə edir (bax: *Ожегов С.И.* Словарь русского языка / Под ред. *Н.Ю.Шведовой*. М., 1988, с. 449).

[3] Səlahiyyət ona görə xüsusi xarakterli hüquqdur ki, bu hüquqa nə təmsil olunanın, nə də üçüncü şəxsin konkret vəzifəsi uyğun gəlir (bax: Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1968, с. 228; Гражданское право. Учебник. / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 92). Bu barədə başqa fikir də irəli sürülür. Belə ki, səlahiyyəl kimi xüsusi subyektiv hüquqa təmsil olunanın hüquqi nəticəni qəbul etmək vəzifəsi uyğun gəlir (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 207).

Nümayəndəyə təmsil olunan tərəfindən təkcə səlahiyyət verilmir. Onu yalnız subyektiv hüququn (səlahiyyətin) daşıyıcısı hesab etmək olmaz. Nümayəndə həm də vəzifə daşıyıcısıdır. Belə ki, nümayəndəyə ona verilmiş səlahiyyətin çərçivəsindən və hüdudlarından kənara çıxmamaq və onları aşmamaq kimi vəzifə həvalə edilir. Nümayəndə səlahiyyəti dəqiq icra etməlidir. Nümayəndənin səlahiyyəti aşmağa ixtiyarı çatmır. O, bu vəzifəyə əməl etməyə borcludur. Həmin vəzifəni pozmaq, yəni səlahiyyətin çərçivəsindən kənara çıxmaq nümayəndə üçün arzuolunmaz və xoşagəlməz nəticəyə, özü də mənfi nəticəyə səbəb ola bilər. Məsələn, vətəndaş nümayəndəyə onun üçün əlli min manata bağ evi alınması barədə müqavilə bağlanmasını tapşırır. Nümayəndə isə əlli minlik yox, yetmiş minlik bağ evi alınması barədə alqı-satqı müqaviləsi bağlayır. Bununla o, səlahiyyətin çərçivəsindən kənara çıxır, onu aşır. Səlahiyyəti aşmaqla bağlanmış bu cür əqdlər təmsil olunan üçün hüquq və vəzifə yaratmır, hüquqi nəticə doğurmur. Bu, o deməkdir ki, təmsil olunanla üçüncü şəxs arasında əqd bağlanmamışdır. Həmin hal onu ifadə edir ki, əqd təmsil olunanın adından, təmsil olunanın hesabına və onun mənafeyi üçün bağlanmamışdır. Buna görə də bağlanmış əqd təmsil olunan üçün hüquq və vəzifələr yaratmır (MM-in 360-cı maddəsinin 1-ci bəndi). Söhbət müvafiq səlahiyyət olmadan əqdlər bağlayan şəxsin yerinə yetirdiyi hərəkətdən gedir. Bu cür hərəkətlər səlahiyyət olmadan edildiyinə görə təmsil olunan üçün hüquq və vəzifələr yaratmır. Məsələn, vətəndaşın verdiyi səlahiyyət olmadan qonşu həmin vətəndaşın adından və onun mənafeyi üçün yaşayış evinin kirayə müqaviləsi bağlayır. Bu müqavilə vətəndaşın (təmsil olunanın) özü üçün hüquq və vəzifələr əmələ gətirmir.

Lakin bunlara baxmayaraq, mülki qanunvericilik vəziyyətdən çıxış yolu qoyur (MM-in 360-cı maddəsinin 2-ci bəndi). Belə ki, əgər təmsil olunan səlahiyyət verilməyən şəxsin və ya verilmiş səlahiyyəti aşan nümayəndənin bağladığı əqdi sonradan bəyənərsə, həmin əqd təmsil olunan adından və onun mənafeyi üçün bağlanmış hesab edilir. Belə halda əqd onun bağlandığı andan təmsil olunan üçün hüquqi nəticə doğurur, yəni mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və ya onlara xitam verir.

Əgər təmsil olunan əqdi sonradan bəyənməsə, onda əqdin digər tərəfi olan şəxsin mənafeyinin təmin olunmasına ehtiyac yaranır. Bundan ötrü mülki qanunvericilik həmin şəxsi iki alternativ hüquqla təmin edir (MM-in 360-cı maddəsinin 1-ci bəndi):

- bağlanmış əqdin icrasını nümayəndədən (təmsilçidən) tələb etmək;
- əqdin bağlanması nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək.

Təmsil olunanın əqdi sonradan bəyənməməsi həmin əqdin mahiyyətcə, nümayəndə adından və onun mənafeyi üçün bağlanmasını ifadə edir.

Almaniya sivilistika doktrinasında iki cür səlahiyyət fərqləndirilir: daxili səlahiyyət; xarici səlahiyyət. Əgər səlahiyyət bəyanat vasitəsilə nümayəndəyə müraciət formasında verilərsə, bu, **daxili səlahiyyət** hesab edilir. Əgər səlahiyyət bəyanat vasitəsilə üçüncü şəxsə müraciət formasında verilərsə, buna

xarici səlahiyyət deyilir[1].

§ 2. Nümayəndəliyin əmələ gəlmə əsasları və növləri

1. Nümayəndəliyin əmələ gəlmə əsasları

Hər şeydən əvvəl, «səlahiyyətin əmələ gəlmə əsasları» anlayışını «nümayəndəliyin əmələ gəlmə əsasları» kimi anlayışdan fərqləndirmək lazımdır. **Səlahiyyətin əmələ gəlmə əsasları** odur ki, həmin əsaslar nəticəsində nümayəndə üçüncu şəxslərlə təmsil olunan adından və onun mənafeyi üçün əqdlər bağlamaq və digər hüquqi hərəkətləri yerinə yetirmək hüququ əldə edir.

Nümayəndəliyin əmələ gəlmə əsasları dedikdə isə elə hüquqi faktlar başa düşülür ki, qanun bu faktlarla bir şəxsin digər şəxsin nümayəndəsi kimi tanınmasını əlaqələndirir[2]. Bu əsaslar hüquqi fakt rolunu oynayaraq, təmsil olunanla numayəndə arasında hüquq münasibəti əmələ gətirir.

Nümayəndəliyin əmələ gəlmə əsasları iki cürdür[3]:

- təmsil olunanın iradəsi;
- qanun.

Təmsil olunanın iradəsi müqavilədə və ya inzibati aktda ifadə olunur. Buna görə də müqavilə və inzibati akt hüquqi fakt kimi nümayəndəliyin əmələ gəlmə əsası kimi çıxış edir. Buna uyğun olaraq üç hüquqi fakt nümayəndəliyin əmələ gəlmə əsası hesab olunur:

- müqavilə;
- qanun;
- inzibati akt.

Təmsil olunanla nümayəndə arasında müqavilə bağlananda həmin **müqavilə** nümayəndəliyin əmələ gəlmə əsası kimi çıxış edir.

Qanunda bir şəxsin digər şəxsin nümayəndəsi hesab edilməsi barədə hüquqi göstəriş olduğu halda **qanun** nümayəndəliyin əmələ gəlmə əsası sayılır.

Əgər inzibati aktda — dövlət və ya bələdiyyə orqanının aktında bir şəxsin digər şəxsin nümayəndəsi rolunda çıxış etməsi barədə göstəriş olarsa, onda həmin **inzibati akt** nümayəndəliyin əmələ gəlməsinin əsası hesab edilir.

Bəzən etibarnamə nümayəndəliyin əmələ gəlmə əsası kimi göstərilir[4]. Bu, həqiqətə uyğun olmayan fikirdir. Belə ki, etibarnamə təmsil olunanla nümayəndə arasında bağlanmış (bu müqavilənin ya şifahi formada, ya da yazılı formada bağlanması labüddür və məcburi xarakter daşıyır) müqavilənin icra olunması və nümayəndənin üçüncü şəxslə münasibətə girib, onunla əqd bağlaması üçün verilir. Etibarnamənin olması o deməkdir ki, təmsil olunanla nümayəndə arasında ya yazılı formada, ya da şifahi formada müqavilə bağlanmışdır. O, bütün hallarda **nümayəndəlik haqqında müqavilənin bağlanmasını** sübut edir və təsdiqləyir. Amma bundan fərqli olaraq, Yaponiya mülki hüququnda etibarnamə nümayəndəliyin, o cümlədən nümayəndəlik hüququnun əmələ gəlmə əsası hesab edilir (etibarnamə üzrə nümayəndəlik)[1].

2. Nümayəndəliyin növləri

Nümayəndəliyi müxtəlif meyarlara görə təsnif etmək olar. Mülki hüquq elmində (sivilistika doktrinasında) müxtəlif təsnifat meyarları göstərilir.

Əmələ gəlmə əsası kimi meyara görə nümayəndəliyin üç növü fərqləndirilir:

- müqavilə nümayəndəliyi;
- qanuna əsaslanan və ya qanuni nümayəndəlik;
- inzibati akta əsaslanan nümayəndəlik.

Müqavilə nümayəndəliyi odur ki, o, təmsil olunanla nümayəndə arasında bağlanmış müqavilə əsasında əmələ gəlir. Müqavilədə əqd bağlanması və digər hüquqi hərəkətlər edilməsi barədə təmsil olunanla nümayəndənin razılaşdırılmış iradəsi ifadə olunur. Burada onların daxili qarşılıqlı münasibətləri müəyyənləşdirilir. Təmsil olunan nümayəndəni özü seçir, özü onun səlahiyyətini müəyyən edir.

Müqavilə nümayəndəliyinə tapşırıq, ticarət nümayəndəsi (agenti), komissiya, konsiqnasiya anbarında saxlama və nəqliyyat-ekspedisiya kimi müqavilələr əsasında yaranan öhdəliyi misal göstərmək olar. Kommersiya nümayəndəliyi də bu növ nümayəndəliyə şamil edilir.

Qanuni nümayəndəlik və ya qanuna əsaslanan nümayəndəlik odur ki, qanunda ifadə olunan birbaşa göstərişə görə bir şəxs digər şəxsin nümayəndəsi kimi tanınır və çıxış edir[2]. Başqa sözlə desək, belə halda qanuni göstəriş müəyyən şəxsə nümayəndəlik funksiyasını yerinə yetirmək və nümayəndə statusu əldə etmək hüququ verir. Bu nümayəndəlik, hər şeydən əvvəl, yetkinlik yaşına çatmayanların və ruhi xəstələrin mənafeyinin müdafiə edilməsinə yönəlmişdir.

Qanuni nümayəndəliyin iki əsas cəhəti vardır. Birincisi, bu nümayəndəlik **təmsil olunanın iradə ifadəsindən asılı olmayaraq**, yəni təmsil olunanın istəyindən asılı olmayaraq əmələ gəlir. İkincisi, bu nümayəndəliyə görə **nümayəndənin səlahiyyəti birbaşa qanunda göstərilir**. Buna görə də qanuni nü-

---

[1] *Еннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 250.

[2] Tərif götürülmüşdür: *Рясенцев В.А.* Основания представительства в советском гражданском праве // Уч. записки ВЮЗИ. Вып. 1. М., 1948, с. 47; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 205.

[3] bax: *Шершеневич Г.Ф.* Учебник русского гражданского права. Казань. 1965, с. 176.

[4] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 401; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 192; Гражданское право. Учебник. Том 1 / Под ред. *Т.И.Илларионовой*. М., 1998, с. 246. Vaxtilə bu sətirlərin də müəllifi etibarnaməyə nümayəndəliyin əmələ gəlmə əsaslarından biri kimi baxırdı (bax: *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının mülki hüququ. Mühazirə kursu. I hissə. Bakı 1999). Zənn edirik ki, bu, səhv fikirdir.

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 122.

[2] Nümayəndəliyin qanuni nümayəndəlik adlandırılması onun digər növlərinin qanuniliyinə şübhə kölgəsi salmamalıdır. Terminoloji aydınlıq yaratmaq üçün O.S.Ioffe qanuni nümayəndəliyi **məcburi nümayəndəlik** adlandırmağı təklif edir (bax. *Иоффе О.С.* Советское гражданское право. Курс лекций. Л., 1958. с.160). Bu təklif bəzi sivilistlər tərəfindən nəzərə alınmışdır (Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 268; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 205; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 246).

mayəndəliyi qanun üzrə nümayəndəlik də adlandırırlar.

Qanuni nümayəndəliyə çox misal çəkmək olar. Məsələn, uşağın valideynləri, eləcə də övladlığa götürənlər, qəyyumlar, himayəçilər, uşaq evlərinin müdiriyyəti uşaqların hüquq və mənafelərini mudafiə edən nümayəndələrdir[1] Anoloji göstəriş mülki qanunvericilikdə də ifadə olunmuşdur (MM-in 30-cu maddəsinin 1-ci bəndi). Əmlak inzibatçısı təyin edilmiş şəxs müflis elan olunmuş şəxsin qanuni nümayəndəsidir[2].

İnzibati akta əsaslanan nümayəndəlik odur ki, dövlət və ya bələdiyyə orqanının aktı bu nümayəndəliyin əmələ gəlmə əsası kimi çıxış edir. Həmin akt muəyyən şəxs üzərinə nümayəndə kimi çıxış etmək vəzifəsi qoyur. Bu aktda nümayəndənin səlahiyyəti müəyyənləşdirilir. İnzibati akta əsaslanan nümayəndəliyə Iqtisadi İnkişaf Nazirliyi tərəfindən dövlət müəssisəsinin özəlləşdirmə prosesində səhmdar cəmiyyətinə çevrilməsi nəticəsində təsis edilmiş səhmdar cəmiyyətinin idarəçiliyini həyata keçirmək üçün nümayəndə təyin etməsini misal göstərə bilərik[3]. Başqa bir misalda dövlət orqanının hər hansı şəxsin müəyyən nümayəndəlik funksiyasının həyata keçirilməsi ilə bağlı olan vəzifəyə təyin edilməsi barədə əmri bu növ nümayəndəliyin yaranmasına səbəb olur.

Nümayəndəliyin könüllü olub-olmaması əlamətinə görə onun iki növü fərqləndirilir:

- könüllü nümayəndəlik;
- məcburi nümayəndəlik.

Könüllü nümayəndəlik odur ki, o, təmsil olunanla nümayəndənin razılığa gəlməsi nəticəsində yaranır. Onun əmələ gəlməsi təmsil olunanın iradəsi ilə bağlıdır. Belə ki, təmsil olunan ona lazım olan əqdi bağlamaq və digər hüquqi hərəkəti yerinə yetirmək üçün nümayəndəyə müraciət edir. O, nümayəndəni özü seçir, habelə özü nümayəndənin səlahiyyətini müəyyənləşdirir. Bundan əlavə, təmsil olunan adından əqd bağlamağa və digər hüquqi hərəkətlər etməyə nümayəndənin razılıq verməsi gərəkdir. Bu məqsədlə onlar arasında müqavilə bağlanır. Deməli, könüllü nümayəndəlik müqavilədən əmələ gəlir. Buna görə də **müqavilə nümayəndəliyi könüllü nümayəndəliyə aid edilir**. Məsələn, tapşırıq, komissiya, ticarət agenti və digər müqavilələrdən əmələ gələn nümayəndəlik könüllü nümayəndəlikdir.

Məcburi nümayəndəlik odur ki, o, təmsil olunanın iradəsindən asılı olmayaraq, qeyri-könüllü qaydada əmələ gəlir. Bu cür nümayəndəlik təmsil olunanın iradəsi nəzərə alınmadan yaranır. Nümayəndənin səlahiyyətinin məzmunu və həcmi qanunla, müəyyən hallarda isə inzibati aktla müəyyən edilir. Bir qayda olaraq, nümayəndə təyin edilərək və onun səlahiyyəti müəyyən olunanda təmsil olunan iştirak etmir. O, nümayəndənin fəaliyyətinə təsir etmək iqtidarında deyil. Məcburi nümayəndəlikdə çox vaxt təmsil olunan rolunda tam mülki

[1] bax: «Uşaq hüquqları haqqında» qanunun 7-ci maddəsi (AR QK, V cild, s. 417); Ailə Məcəlləsinin 59-cu maddəsi (AR QK, III xüsusi buraxılış, s. 788).

[2] bax: «Müflisləşmə və iflas haqqında» qanunun 20-ci maddəsi // AR QK, III cild, s. 729.

[3] bax: Azərbaycan Respublikasının 1996-cı il 29 noyabr tarixli 208-IQ saylı qanunu ilə təsdiq edilmiş «Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə»nin 7-ci bəndinin 7-ci hissəsi (AR QK, III cild, s. 349).

fəaliyyət qabiliyyəti olmayan şəxslər (azyaşlılar, yetkinlik yaşına çatmayanlar, ruhi xəstələr) çıxış edirlər. **Qanuni nümayəndəlik və inzibati akta əsaslanan nümayəndəlik məcburi nümayəndəliyə aiddir**. Onu çox vaxt qanun üzrə nümayəndəlik adlandırırlar.

Nümayəndəliyin subyekt tərkibi və nümayəndənin bağladığı əqdlərin xarakteri kimi əlamətə görə nümayəndəlik iki növə bölünür:

- kommersiya (ticarət) nümayəndəliyi;
- mülki (qeyri-kommersiya) nümayəndəlik.

Kommersiya nümayəndəliyi odur ki, bu nümayəndəliyə görə, kommersiya nümayəndəsi sahibkarlıq (ticarət) əqdləri bağlayır. Sahibkarlıq (ticarət, kommersiya) əqdləri dedikdə, sahibkarlıq fəaliyyəti sahəsində bağlanan müqavilələr başa düşülür.

Kommersiya (ticarət) nümayəndəliyinin əsas cəhəti ondan ibarətdir ki, o, **xüsusi subyekt tərkibinə** malikdir. Bu nümayəndəlikdə **təmsil olunan rolunda yalnız sahibkarlar çıxış edə bilərlər**. Kommersiya nümayəndəsi də sahibkar statuslu şəxsdir, peşəkar sahibkardır. O, nümayəndəliyi sənət (peşə) fəaliyyəti formasında həyata keçirir. Kommersiya nümayəndəsi işgüzar əlaqələrə, xüsusi informasiyaya, ixtisaslaşmış biliyə və geniş təcrübəyə malik olub, xarici və daxili bazarı yaxşı tanıyır, potensial müştəri kontingenti ilə sıx münasibəti vardır. O, nümayəndəliyin sirlərinə dərindən bələddir.

Kommersiya nümayəndəliyinin başqa cəhəti ondan ibarətdir ki, bu nümayəndəliyə görə kommersiya nümayəndəsi **yalnız sahibkarlıq (ticarət) əqdləri bağlayır.** O, həm də **ikiqat nümayəndə qismində** çıxış edə bilər. Belə ki, kommersiya nümayəndəsi əqddə müxtəlif tərəflərin eyni vaxtda nümayəndəsi kimi çıxış edə bilər, bir şərtlə ki, buna tərəflərin razılığı ilə və ya qanunla yol verilsin.

Kommersiya nümayəndəliyi **yazılı formalı müqavilə ilə rəsmiləşdirilir**. Deməli, bu nümayəndəlik müqavilə (könüllü) nümayəndəliyinə aiddir. Müqavilədə nümayəndənin səlahiyyəti göstərilir. Əgər müqavilədə nümayəndənin səlahiyyəti müəyyənləşdirilməyibsə, onda bu, etibarnamədə nəzərdə tutulur.

Kommersiya nümayəndəliyi haqqında müqavilə həmişə əvəzli xarakterə malikdir. Belə ki, yerinə yetirdiyi hüquqi hərəkətlərə görə kommersiya nümayəndəsinə təmsil olunan haqq ödəyir. Bu, onunla izah edilir ki, həmin müqavilə sahibkarlıq (ticarət) əqdi hesab edilir. Əvəzli olmaq isə bütün sahibkarlıq əqdlərinin əsas hüquqi əlamətlərindən biridir[1].

Sahibkarlıq (kommersiya) dövriyyəsinin spesifikliyini nəzərə alaraq, peşəkar sahibkar kimi kommersiya nümayəndəsi bəzi vəzifələri yerinə yetirməyə borcludur. Belə ki, o, bağladığı sahibkarlıq (ticarət) əqdləri barəsində ona məlum olmuş **məlumatların sirrini yaymamaq və açıqlamamaq vəzifəsi** daşıyır. Bu sirri kommersiya nümayəndəsi ona verilmiş tapşırığı icra etdikdən sonra da saxlamağa borcludur (MM-in 361-ci maddəsinin 3-cü bəndi).

Kommersiya nümayəndəliyinə ticarət agenti haqqında müqavilədən, habe-

[1] Məhz bu səbəbdən kommersiya nümayəndəliyi haqqında müqavilənin, əgər müqavilənin özündə şərtləndirilərsə, əvəzsiz olması barədə fikir söyləyən müəlliflərin mövqeyi həqiqətə uyğun gəlmir (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 382).

lə konsiqnasiya anbarında saxlama müqaviləsindən (MM-in 837-ci maddəsi) əmələ gələn nümayəndəliyi misal göstərmək olar[1].

Mülki nümayəndəlik odur ki, bu nümayəndəlikdə nümayəndə rolunda çıxış edən şəxs peşəkar sahibkar statusuna malik olmur və bir qayda olaraq, qeyri-sahibkarlıq (qeyri-kommersiya) əqdləri bağlayır. **Bu nümayəndəliyin subyekt tərkibi sahibkarlardan ibarət deyil**. Nümayəndə öz nümayəndəlik funksiyasını həm əvəzli, həm də əvəzsiz surətdə həyata keçirə bilər. Mülki nümayəndəliyə tapşırıq müqaviləsindən əmələ gələn nümayəndəliyi misal göstərmək olar. Məsələn, vətəndaş öz dostundan xahiş edir ki, dostu onun üçün minik avtomobili alsın. Onlar arasında münasibətlər tapşırıq müqaviləsi ilə rəsmiləşdirilir. Tapşırıq müqaviləsi həm əvəzli, həm də əvəzsiz ola bilər.

Hüquqi nəticənin təmsil olunan üçün bilavasitə, yəni birbaşa və açıq olaraq yaranıb-yaranmaması kimi meyara görə nümayəndəliyin iki növü fərqləndirilir:

- açıq (birbaşa) nümayəndəlik;
- gizli (dolayı) nümayəndəlik.

Açıq nümayəndəlik odur ki, bu cür nümayəndəlikdə nümayəndənin təmsil olunan adından və onun mənafeyi üçün bağladığı əqd təmsil olunan üçün bilavasitə, birbaşa və düzünə olaraq hüquqi nəticə yaradır. Burada üçüncü şəxs bilir ki, nümayəndə təmsil olunanın mənafeyi üçün əqd bağlayır. Belə halda əqdin tərəfləri rolunda təmsil olunan və üçüncü şəxs çıxış edir. Ona görə də bağlanmış əqd üzrə hüquqi nəticə — hüquq və vəzifələr bilavasitə təmsil olunan üçün yaranır.

Açıq nümayəndəliyə **klassik formalı nümayəndəlik** də deyilir. Bu nümayəndəliyin əsas formulası belədir: **«təmsil olunanın hesabına, təmsil olunanın adından və onun mənafeyi üçün»**. Bu nümayəndəliyə ticarət agenti (nümayəndəsi) haqqında müqaviləni misal göstərmək olar (MM-in 789-cu maddəsi).

Gizli nümayəndəlik odur ki, bu cür nümayəndəlikdə nümayəndənin üçüncü şəxslə bağladığı əqd təmsil olunan üçün bilavasitə, birbaşa və açıq surətdə yox, dolayı yolla hüquq və vəzifələr əmələ gətirir. Əvvəlcə bağlanmış əqd üzrə huquq və vəzifələr nümayəndə üçün yaranır. Sonra isə o, həmin hüquq və vəzifələri təmsil olunana verir. Özü də üçüncü şəxs elə bilir ki, onunla bağlanan əqd nümayəndənin özü üçün hüquq və vəzifələr yaradır. Əqd bağlanarkən təmsil olunanın adı, adətən, çəkilmir və üçüncü şəxsə məlum olmur, gizli saxlanılır. Nümayəndə əqdi üçüncü şəxslə təmsil olunan adından yox, öz adından bağlayır. Ona görə də əqdin tərəfləri rolunda nümayəndənin özü və üçüncü şəxs çıxış edir. Bu nümayəndəliyə komisyon, nəqliyyat-ekspedisiya, tapşırıq və konsiqnasiya anbarında saxlanc kimi müqavilələrdən əmələ gələn nümayəndəliyi misal göstərmək olar. Onun əsas formulası belədir: **«təmsil olunanın hesabına, təmsil olunanın mənafeyi üçün və öz adından»**. Məsələn, komissiya müqaviləsi üzrə komisyonçu (məsələn, komisyon mağazası) üçüncü şəxslə əqdi öz adından bağlayır (MM-in 808-ci maddəsi). Buna görə də əqd üzrə hüquq və vəzifələr onun özü üçün əmələ gəlir. Sonra komisyonçu əldə etdiyi bu hüquq və vəzifələri təmsil olunana (komitentə) verir.

Bəzi müəlliflər gizli nümayəndəlik konstruksiyasını qəbul etmirlər. Buna görə də onlar göstərirlər ki, komissiya müqaviləsi nümayəndəlik münasibəti yaratmır[1]. Bizim fikrimizcə, bu cür mövqe həqiqətə uyğun gəlmir.

Mülki hüquq nəzəriyyəsinə görə nümayəndəlik dedikdə, bir şəxs tərəfindən başqa şəxsin hesabına və onun mənafeyi üçün əqd bağlaması başa düşülür[2]. Bu anlayışdan bəlli olur ki, nümayəndəliyin əsas formulası belədir: **«təmsil olunanın hesabına və onun mənafeyi üçün»**. Deməli, şəxsin əqd bağlanarkən üçüncü şəxs qarşısında təmsil olunanın adından və ya öz adından çıxış etməsinin nümayəndəliyin yaranması üçün əhəmiyyəti yoxdur.

Nümayəndəliyin açıq və gizli (dolayı) nümayəndəlik kimi növlərə bölünməsi bir sıra xarici ölkələrin (Almaniya, İsveçrənin və s.) qanunvericiliyində də nəzərdə tutulmuşdur[3]. Bu bölgü bəzi müasir sivilistlər tərəfindən də dəstəklənir, qəbul edilir və tanınır[4]. Almaniya sivilistika doktrinasında gizli nümayəndəlik **dolayı və vasitəli nümayəndəlik** adlanır. L.Ennekserus yazır ki, bu cür nümayəndəlikdə təmsil olunan («işin sahibi») kölgədə qalır. O, tarixən nümayəndəliyin daha qədim forması hesab olunur. Almaniya ticarət hüququ müəyyən etmişdir ki, gizli (dolayı) nümayəndəlik komissiya əqdinin (Ticarət Qanunnaməsinin 383-cü paraqrafı) mühüm əlamətidir[5]. Yaponiya mülki hüququ gizli nümayəndəliyi dolayı nümayəndəlik adlandırır. Bu nümayəndəliyə görə, müəyyən şəxs başqa şəxs üçün hərəkətlər edir, amma onun hərəkətinin hüquqi nəticəsi müəyyən müddətə yalnız həmin şəxsin özünə aid olur, ancaq bundan sonra hüquqi nəticə başqa şəxsə (təmsil olunana) keçir[6].

Peşəkarlıq əlamətinə görə nümayəndəliyin iki növü vardır:

- peşəkar nümayəndəlik;
- qeyri-peşəkar nümayəndəlik.

Peşəkar nümayəndəlik odur ki, nümayəndə bu nümayəndəliyi özünün əsas peşə (sənət) fəaliyyəti kimi həyata keçirir. Bu halda nümayəndə üçün nümayəndəlik onun sənəti hesab olunur. Buna vəkillərin, patent müvəkkillərinin və s. həyata keçirdikləri nümayəndəliyi misal çəkə bilərik.

Qeyri-peşəkar nümayəndəlikdə nümayəndə nümayəndəliyi öz əsas fəa-

[1] Bəzi müəlliflər broker fəaliyyətini kommersiya nümayəndəliyinə aid edirlər (bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 382) Broker vasitəçidir O, nümayəndə hesab edilmir. Belə ki, broker təmsil olunan adından və onun mənafeyi üçün əqd bağlamır O, yalnız tərəflər arasında əqdin bağlanmasına köməklik göstərir, potensial müştərilər axtarır, tərəfləri bir-birilə yaxınlaşdırır, onlarla söhbət aparır, bir sözlə, əqdin bağlanması üçün zəruri olan hərəkətlər edir. Amma əqdi tərəflərin özləri bağlayırlar. Brokerlik «təmiz vasitəçilik» münasibəti yaradır (bax: *Тынель А., Функ Я., Хвалей В.* Курс международного торгового права. Учебник. Минск. 2000, с. 273-274).

[1] bax: Гражданское право. Учебник Часть 2 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1997, с. 561.

[2] bax: *Хвостов В.М.* Система римского права. Учебник. М., 1996, с. 181-186.

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред *В.В.Залесского*. М., 1999, с. 20 и др.

[4] bax: *Иоффе О.С.* Обязательственное право. М., 1975, с. 522; Гражданское право. Учебник. Часть 2 / Под ред. *А.Г.Калпина*. М., 1999, с. 445.

[5] *Еннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 233-234.

[6] *Сакаэ Вагацума, Тору Арицдзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 121.

liyyətinə münasibətdə yardımçı və qeyri-peşə fəaliyyəti kimi həyata keçirir. Məsələn, qəyyumun və himayəçilik orqanı funksiyası həvalə edilmiş təhsil şöbələrinin azyaşlı uşaqların hüquqlarını təmsil və müdafiə etməsi bu cür nümayəndəliyə misal ola bilər.

İkiqat nümayəndəlik nümayəndəliyin növlərindən biri hesab edilir. Eyni zamanda həm təmsil olunanın, həm də üçüncü şəxsin hesabına və onların mənafeyinə hüquqi hərəkətlər edən şəxsin həyata keçirdiyi nümayəndəliyə **ikiqat nümayəndəlik** deyilir. Bu cür nümayəndəlikdə nümayəndə eyni vaxtda həm təmsil olunanın, həm də üçüncü şəxsin nümayəndəsi kimi çıxış edir. Bank işində ikiqat nümayəndəlik halına biz tez-tez rast gəlirik. Məsələn, ödəyici bankın inkasso əməliyyatını həyata keçirməsi ikiqat nümayəndəlik münasibətləri yaradır. Belə ki, bir tərəfdən ödəniş tələbi ilə sənədləri öz müştərisinə təqdim edən və alınmış məbləği vəsait alan banka göndərən ödəyici bank icraçı bank kimi, yəni vəsait alanın nümayəndəsi kimi çıxış edir. Digər tərəfdən öz müştərisinin hesabından müəyyən pul məbləğini silən ödəyici bank ödəyicinin nümayəndəsi kimi çıxış edir[1].

Kommersiya nümayəndəliyi və qiymətli kağızlar bazarında brokerlik də ikiqat nümayəndəlik münasibətləri yarada bilər. Amma kommersiya nümayəndəliyindən və qiymətli kağızlar bazarında brokerlikdən başqa, ikiqat nümayəndəliyə yol verilmir. Bizim ölkə qanunvericiliyinin müəyyən etdiyi ümumi qayda belədir (MM-in 359-cu maddəsinin 3-cü bəndi).

Almaniya və Yaponiya sivilistika doktrinasında fəal və passiv nümayəndəlik növləri fərqləndirilir. **Fəal (aktiv) nümayəndəlik** odur ki, bu nümayəndəliyə görə, nümayəndə təmsil olunan şəxsin adından üçüncü şəxsə (kontragentə) münasibətdə iradə ifadəsini həyata keçirir. **Passiv nümayəndəlik** isə odur ki, bu nümayəndəliyə görə, nümayəndə üçüncü şəxsdən (kontragentdən) iradə ifadəsini qəbul edir. Lakin bütün hallarda hüquqi nəticə bilavasitə təmsil olunan şəxs üçün yaranır.

Yaponiya mülki hüququnda nümayəndəliyin birgə nümayəndəlik adlı müstəqil növü ayrılır. **Birgə nümayəndəlik** dedikdə, tam həcmdə nümayəndəlik hərəkətlərinin yalnız bir neçə nümayəndə tərəfindən həyata keçirilməsi başa düşülür. Bu nümayəndəlikdən o halda istifadə olunur ki, tam həcmdə nümayəndəlik bir nümayəndə tərəfindən həyata keçirilə bilməsin. Məsələn, valideynlik hüquqlarının birgə həyata keçirilməsi (Yaponiya MM-nin 818-ci və 825-ci maddələri) birgə nümayəndəliyə misaldır.

Səlahiyyətsiz nümayəndəlik nümayəndəliyin xüsusi xarakterli növüdür. Onun iki yarımnövü fərqləndirilir. Birinci yarımnöv nümayəndəliyə görə, nümayəndə ona verilmiş səlahiyyəti aşaraq əqd bağlayır (məsələn, qiyməti 2 min manat olan əqd əvəzinə, qiyməti 5 min manat olan əqd bağlayır). İkinci yarımnöv nümayəndəliyə görə, başqa şəxsin adından fəaliyyət göstərmək səlahiyyəti olmayan şəxs əqd bağlayır. Məsələn, qonşu səlahiyyəti olmadığı halda, vətəndaş adından kirayə müqaviləsi bağlayır. Göstərilən hər iki halda təmsil olunan şəxs üçün hüquqi nəticə yalnız o zaman yaranır ki, həmin şəxs əqdi

[1] Комментарий к Гражданскому кодексу Российской Федерации, части второй / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 466.

sonradan bəyənsin (MM-in 360-cı maddəsinin 2-ci bəndi).

§ 3. Etibarnamənin anlayışı, əsas xüsusiyyətləri, forması və növləri

1. Etibarnamənin anlayışı

Nümayəndə üçüncü şəxs qarşısında özünün təmsil olunan adından və onun mənafeyi üçün əqd bağlamağa və digər hüquqi hərəkətlər yerinə yetirməyə səlahiyyəti olmasını təsdiq etməlidir. Nümayəndə sübut etməlidir ki, onun əqd bağlamağa və digər hüquqi hərəkətlər yerinə yetirməyə ixtiyarı və səlahiyyəti çatır. Bunun üçün nümayəndəyə müvafiq sənəd verilir ki, həmin sənəd nümayəndənin əqd bağlamaq və digər hüquqi hərəkətlər yerinə yetirmək hüququnu ifadə edir, təsdiqləyir. Bu cür sənəd mülki qanunvericilikdə etibarnamə adlanır.

Etibarnamə dedikdə, elə bir yazılı səlahiyyət (vəkalət) başa düşülür ki, bu səlahiyyət təmsil olunan adından üçüncü şəxslər qarşısında təmsil olunmaq üçün nümayəndəyə verilir. Nə vaxt ki etibarnamə verilmişdir, belə halda təmsil olunan **etibar edən**, nümayəndə isə **etibar edilən** kimi adla çağırılır.

Etibarnamənin əsas təyinatı üçüncü şəxs qarşısında etibar edilənin səlahiyyətini təsdiq etməkdən ibarətdir. O, üçüncü şəxs qarşısında məhz etibar edilənin səlahiyyətini **sübut etmək funksiyasını** yerinə yetirir. Etibarnamə əsasında üçüncü şəxs müəyyənləşdirir ki, nümayəndənin təmsil olunan adından və onun mənafeyi üçün əqd bağlamağa səlahiyyəti vardır. O, təmsil olunanla üçüncü şəxs arasında konkret hüquq münasibətinin yaranması üçün vacib zəmin rolunu oynayır.

Etibarnamə bir sıra xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər onun əsl mahiyyətinin müəyyənləşdirilməsində böyük rol oynayır.

Etibarnamə (daha doğrusu etibarnamə verilməsi), hər şeydən əvvəl, **öz hüquqi təbiətinə görə birtərəfli əqddir**. Bu, o deməkdir ki, etibarnamə üzrə səlahiyyətin verilməsi üçün, daha doğrusu, etibarnamənin bağlanması və hüquqi qüvvəyə malik olması üçün yalnız bir şəxsin — təmsil olunanın iradə ifadəsi kifayət edir. Nümayəndənin razılıq verməsinə ehtiyac yoxdur və bu, tələb olunmur. Belə ki, nümayəndəlik təmsil olunanla nümayəndənin **şəxsi-etimad münasibətlərinə** əsaslanır. Onlar arasında bağlanan müqavilə **fidusiar əqd** hesab olunur. Digər tərəfdən, etibarnamə verilməsi və bunun əsasında səlahiyyətin yaranması nümayəndənin şəxsi mülki hüquqlarına xələl gətirmir.

Əgər etibarnamənin verilməsi nümayəndənin iradəsindən və razılığından asılı deyilsə, **etibarnamənin, yəni orada ifadə olunmuş səlahiyyətin həyata keçirilməsi isə nümayəndənin iradəsindən asılıdır**. Nümayəndənin etibarnamədən istifadə və ya ondan imtina etmək hüququ vardır.

Etibarnamə **müddətli əqddir**. 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişiklik və əlavələr edilməsinə kimi onun qüvvədə olma müddəti üç ili ötə bilməzdi. O, həmişə üç ildən artıq olmayan müddətə verilirdi. İndi isə **etibarnamə istənilən müddətə verilə bilər** (MM-in 363-cü maddəsinin 1-ci bəndi). Məsələn, 4 il, 5 il və s. müddətlərə. Etibarnamədə müddət göstərilməyə də bi-

lər. Belə halda o, tərtib edildiyi gündən bir il ərzində qüvvəsini saxlayır. Bu müddət ötdükdə, etibarnamə öz hüquqi qüvvəsini itirir. Etibarnamənin tərtib edildiyi gün isə onun bağlandığı günü ifadə edir. Tərtib olunma (bağlanma) tarixi göstərilməyən etibarnamə puç əqd (mütləq etibarsız) əqddir (MM-in 363-cü maddəsi).

Etibarnamə əqd bağlanması güman və ehtimal edilən şəxsə — üçüncü şəxsə ünvanlanır. Buna görə də o, ya nümayəndə tərəfindən, ya da bilavasitə təmsil olunanın özü tərəfindən üçüncü şəxsə təqdim olunur. Qanun etibarnamənin təmsil olunanın bilavasitə özü tərəfindən üçüncü şəxsə təqdim edilməsinə yol verir (MM-in 362-ci maddəsinin 1-ci bəndi). Üçüncü şəxs etibarın məzmunu əsasında nümayəndənin səlahiyyət həcmini qiymətləndirir. Belə təsəvvür yaranır ki, **etibarnamə xarici nümayəndəlik münasibətini — nümayəndə ilə üçüncü şəxs arasında yaranan münasibəti qaydaya salır**.

Etibarnamə, bir qayda olaraq, təmsil olunanla nümayəndə arasında bağlanmış müqavilə əsasında verilir. Bu müqavilə ya şifahi, ya da yazılı formada ola bilər. Adətən, təmsil olunanla nümayəndə arasındakı münasibətlər **tapşırıq müqaviləsi ilə rəsmiləşdirilir**. Həmin müqavilə daxili nümayəndəlik münasibətini qaydaya salır. Beləliklə, könüllü (müqavilə) nümayəndəlikdə etibarnamənin verilməsi həmişə mübahisəsiz olaraq təmsil olunanla nümayəndə arasında müqavilənin bağlanmasını sübut edir və təsdiqləyir[1].

Etibarnamə **yazılı əqddir**. Bu, o deməkdir ki, o, istisnasız olaraq **şifahi formada bağlana bilməz**. Bu cəhəti ilə etibarnamə müqavilədən fərqlənir. Belə ki, müqavilə həm şifahi, həm də yazılı formada bağlana bilər.

Etibarnamə, bir qayda olaraq, tam fəaliyyət qabiliyyətli (əqd bağlamaq qabiliyyətli) şəxslər tərəfindən verilir. Bununla bərabər, qanunda nəzərdə tutulan hallarda, natamam fəaliyyət qabiliyyətli şəxslər də (14 yaşından 18 yaşınadək yetkinlik yaşına çatmayanlar) etibarnamə verə bilərlər. Bu kateqoriya şəxslər yalnız o hüquqlar barəsində etibarnamə verə bilərlər ki, onlar bu hüquqlar üzrə valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı olmadan müstəqil surətdə sərəncam verə bilsinlər. Həmin hüquqların dairəsi qanunda nəzərdə tutulmuşdur (MM-in 30-cu maddəsinin 2-ci bəndi). Məsələn, yetkinlik yaşına çatmayan şəxs özünün banka qoyduğu əmanət barəsində etibarnamə verə bilər. Qalan hallarda isə göstərilən şəxslər yalnız valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə etibarnamə verə bilərlər.

Etibarnamə, bir qayda olaraq, bir şəxsə verilir. Bununla belə, o, bir neçə şəxsə də verilə bilər. Məsələn, vətəndaş yaşayış evinin satılması barədə eyni vaxtda bir neçə şəxsə etibarnamə verir.

Etibar edən şəxs qismində, adətən, bir şəxs çıxış edir, yəni etibarnamə bir şəxs tərəfindən verilir. Bununla belə, etibarnamə bir neçə şəxs tərəfindən də verilə bilər. Belə halda etibar edən şəxs qismində eyni vaxtda bir neçə şəxs çıxış edir. Məsələn, ümumi paylı mülkiyyət hüququ əsasında əmlak dörd nəfər vətəndaşa məxsusdur. Onların hamısı həmin əmlakın satılması barədə verilən etibarnaməni imzalayırlar.

[1] Bu məsələ barədə müəlliflərin mövqeləri bir-birindən fərqlənir. Bu barədə dərsliyin II cildinin «Tapşırıq müqaviləsi» adlı fəslinə bax.

Etibarnaməni təkcə fiziki şəxslər yox, həm də hüquqi şəxslər verə bilərlər. Qeyri-kommersiya təşkilatları əqd bağlanması üçün etibarnamə verə bilərlər, bir şərtlə ki, bu, onun nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədinə zidd olmasın. Xüsusi hüquq qabiliyyətli bəzi kommersiya təşkilatları (məsələn, banklar, sığorta təşkilatları və s.) da əqd bağlamaq üçün etibarnamə vermək hüququna malikdirlər, amma bir şərtlə ki, bu, onların qanunda nəzərdə tutulan fəaliyyət məqsədlərinə uyğun gəlsin. Məsələn, bank ticarət əqdi bağlanması üçün etibarnamə verə bilməz.

Ümumi (universal) hüquq qabiliyyətli kommersiya təşkilatları istənilən əqdin bağlanması üçün etibarnamə verə bilərlər, amma bir şərtlə ki, bu, həmin təşkilatların nizamnaməsində qadağan edilməsin.

Etibarnamə təkcə fiziki şəxslərə verilmir. O, həm də hüquqi şəxslərə verilə bilər. Belə halda bundan öncə göstərdiyimiz şərtlər nəzərə alınır.

Etibarnamə **adlı sənəddir**. Bu, o deməkdir ki, etibarnamədə etibar edənin və etibar olunanın adı dəqiq olaraq göstərilməlidir.

2. Etibarnamənin növləri

Etibarnamə müxtəlif meyarlara görə təsnif edilir. Mülki hüquq elmində bu cür bir neçə meyar göstərilir.

Nümayəndəyə verilən səlahiyyətin həcminə və məzmununa görə etibarnamənin üç növü fərqləndirilir[1]:

- ümumi etibarnamə;
- xüsusi etibarnamə;
- birdəfəlik etibarnamə.

Ümumi etibarnamə odur ki, o, nümayəndəyə əhatə dairəsi geniş və müxtəlif olan əqdlərin bağlanmasına və digər hüquqi hərəkətlərin yerinə yetirilməsinə səlahiyyət verir. Ona **baş etibarnamə** də deyilir. Bu cür etibarnamə, adətən, təmsil olunanın əmlakının idarə olunması və ona sərəncam verilməsi üçün verilir. Uzun müddət xaricə gedən şəxslər məhz baş etibarnamə tərtib edirlər.

Baş (ümumi) etibarnamə imkan verir ki, nümayəndə istənilən üçüncü şəxs qarşısında nümayəndəlik funksiyasını həyata keçirsin, mümkün olan bütün əqdləri bağlasın və digər hüquqi hərəkətləri yerinə yetirsin. Onun ən geniş yayılmış növü hüquqi şəxs tərəfindən onun filialının müdirinin adına verilən etibarnamə hesab edilir.

Xüsusi etibarnamə odur ki, o, nümayəndəyə müəyyən sahədə və ya eyni növlü bir neçə hüquqi hərəkətin yerinə yetirilməsinə səlahiyyət verir. Məsələn,

[1] L.Ennekserus yazır ki, bir çox müəlliflər Almaniya Ticarət Qanunnaməsinə əsaslanaraq (§54) etibarnamənin üç növünü fərqləndirirlər: ümumi etibarnamə; müəyyən növ iş üçün verilən etibarnamə; xüsusi etibarnamə (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 254-255). Yaponiya mülki hüququnda etibarnamənin kart-blanş adlı xüsusi növü fərqləndirilir. Bu etibarnamədə kontragentin adları və etibarnamənin məzmununu göstərən qrafa boş saxlanılır, tamamlanmır. Hazırda etibarnamənin bu növündən ümumi yığıncaqda iştirak etməyən səhmdarlar öz səs hüququnu hayata keçirməkdə geniş istifadə edirlər (*Сакаэ Ватацума, Тору Арииэуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 125). Avstriya hüququna görə isə etibarnamə məhdud və ya qeyri-məhdud etibarnamə növündə ola bilər (MQ-nin 1007-ci maddəsi).

müəssisə nümayəndəyə xammal almaq və ya buraxılan məhsulları satmaq və yaxud məhkəmədə işləri aparmaq üçün xüsusi etibarnamə verir. Başqa bir misalda müəssisə (yük göndərən) ekspeditora nəqliyyatın bütün növləri ilə yük daşıma müqaviləsi bağlamaq barədə etibarnamə verir. Başqa bir misalda əmanətçi öz qardaşına əmanətə və onun faizinə sərəncam verilməsi barədə etibarnamə verir və s.

Birdəfəlik etibarnamə odur ki, o, nümayəndəyə yalnız konkret əqd bağlamaq və digər hüquqi hərəkəti yerinə yetirmək üçün səlahiyyət verir. Məsələn, poçtla göndərilmiş bağlamanı almaq, əşyanı satmaq, malları almaq, əmək haqqını almaq, müqaviləni imzalamaq, akt tərtib etmək və digər məqsədlər uçun verilən etibarnamələr birdəfəlik etibarnaməyə misaldır. İşçi noyabr ayının maaşını almaq üçün qardaşına etibarnamə verir.

Yaranma mənbəyinə görə etibarnamələrin iki növü vardır:

- əsas etibarnamə;
- törəmə etibarnamə.

Əsas etibarnamə dedikdə, hüquqi hərəkət etmək məqsədilə təmsil olunanın nümayəndəyə verdiyi etibarnamə başa düşülür. **Törəmə etibarnamə** isə odur ki, onu nümayəndə yenidən etibar etmək qaydasında başqa şəxsə verir, yəni etibar edilmiş şəxs başqa şəxsə etibar edir. Nümayəndə yalnız etibarnamədə göstərildikdə və nəzərdə tutulduqda başqa şəxsə etibarnamə verə bilər. Əgər bu, nəzərdə tutulmayıbsa, onun başqa şəxsə etibarnamə vermək hüququ yoxdur. Məsələn, vətəndaş nümayəndəyə mənzilini satmaq üçün etibarnamə verir. Etibarnamədə göstərilir ki, nümayəndə tapşırığın icrasını lazım gəldikdə başqa şəxsə tapşıra bilər. Nümayəndə xəstələnir və o, yenidən etibar etmək qaydasında başqa şəxsə etibarnamə verir. Bu, törəmə etibarnamədir.

Səlahiyyətin məhdud olması əlamətinə görə etibarnamənin iki növü fərqləndirilir:

- məhdud etibarnamə;
- qeyri-məhdud etibarnamə.

Nümayəndəyə yalnız bəzi hüquqi hərəkətlər etmək səlahiyyəti verən və bununla onun səlahiyyətini məhdudlaşdıran etibarnamə **məhdud etibarnamə** adlanır. Məsələn, xüsusi etibarnamə və ya birdəfəlik etibarnamə bu növ etibarnaməyə aiddir.

Qeyri-məhdud etibarnamə isə odur ki, bu etibarnamə nümayəndəyə istənilən hüquqi hərəkəti etmək səlahiyyəti verir. Baş (ümumi) etibarnamə bu kateqoriya etibarnaməyə aiddir. Yeri gəlmişkən, qeyd edək ki, Avstriya Mülki Qanunnaməsi etibarnamənin bu cür növlərini rəsmən tanıyır (§ 1007).

3. Etibarnamənin forması

Etibarnamə yazılı sənəddir. Buna görə də o, **şifahi formada ola bilməz**. Ümumi qaydaya görə, etibarnamənin etibarlı olması üçün onun **sadə yazılı formada** bağlanması tələb edilir. Bununla bərabər, etibarnamə notarial formada da ola bilər. Söhbət etibarnamənin notariat qaydasında təsdiqlənməsindən gedir. O etibarnamələr notariat qaydasında təsdiqlənir ki, həmin etibarnamələr **notarial forma tələb edən əqdlərin bağlanması üçün verilsin** (MM-in 362-ci maddəsinin 2-ci bəndi). Məsələn, vətəndaş yaşayış evinin satılması

üçün nümayəndəyə etibarnamə verir. Digər misalda ata torpaq sahəsinin bağışlanması barədə nümayəndəyə etibarnamə verir. Hər iki halda etibarnamə notariatda təsdiq olunmalıdır. Ona görə ki, daşınmaz əşyaların alqı-satqı müqaviləsi və ya bağışlama müqaviləsi notarial formalı əqdlərə aiddir.

Bununla bərabər, nümayəndənin yenidən etibar etmək qaydasında başqasına verdiyi etibarnamə də notariat qaydasında təsdiqlənirdi (MM-in 364-cü maddəsinin 3-cü bəndi). 24 iyul 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra bu kimi etibarnamələrin notariat qaydasında təsdiqlənməsi tələb edilmir. Qalan hallarda da etibarnamələrin notariat qaydasında təsdiqlənməsinə ehtiyac yoxdur və bu tələb edilmir. Məsələn, vətəndaş bağ evini kirayəyə vermək üçün qonşusuna etibarnamə verir. Belə halda, söz yox ki, etibarnamə notarial formada yox, sadə yazılı formada tərtib edilməlidir. Çünki qanun kirayə müqaviləsi üçün notarial forma nəzərdə tutmur.

Bununla bərabər, elə etibarnamələr var ki, bu etibarnamələr **notariat qaydasında təsdiqlənən etibarnamələrə** bərabər tutulur (MM-in 362-ci maddəsinin 2-ci bəndi). Bu cür etibarnamələrə aiddir:

- hospitallarda, sanatoriyalarda və digər hərbi-müalicə müəssisələrində müalicədə olan hərbi qulluqçuların və başqa şəxslərin həmin müəssisənin rəisi, onun tibbi hissə üzrə müavini, böyük və ya növbətçi həkim tərəfindən təsdiqlənmiş etibarnamələri;
- hərbi qulluqçuların etibarnamələri, hərbi hissələrin, birləşmələrin, idarələrin və hərbi təlim məktəblərinin yerləşdiyi, lakin notariat kontorlarının və notariat əməliyyatları aparan digər orqanların olmadığı məntəqələrdə isə həmçinin fəhlə və qulluqçuların, onların ailə üzvlərinin və hərbi qulluqçuların ailə üzvlərinin bu hissənin, birləşmənin, idarənin və ya məktəbin komandiri (rəisi) tərəfindən təsdiqlənmiş etibarnamələri;
- azadlıqdan məhrumetmə yerlərində olan şəxslərin müvafiq azadlıqdan məhrumetmə yerinin rəisi tərəfindən təsdiqlənmiş etibarnamələri;
- əhalinin sosial müdafiəsi müəssisələrində olan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərin həmin müəssisənin müdiriyyəti və ya müvafiq əhalinin sosial müdafiəsi orqanının rəhbəri (onun müavini) tərəfindən təsdiqlənmiş etibarnamələri.

«Sadələşdirilmiş» formalı etibarnamələr də mövcuddur. Bu cür etibarnamələrin notariat qaydasında təsdiqlənməsi tələb edilmir. Həmin etibarnamələri başqa orqan və təşkilatlar təsdiqləyir. Onlara aiddir: etibar edənin işlədiyi və ya təhsil aldığı təşkilatın müdiriyyəti; etibar edənin yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı (yerli icra hakimiyyət orqanı); etibar edənin müalicə olunduğu stasionar müalicə müəssisəsinin müdiriyyəti.

Göstərilən orqan, təşkilat və müəssisələr yalnız aşağıdakı hərəkətlərin yerinə yetirilməsi üçün verilən etibarnamələri təsdiq edə bilər:

- əmək haqqının və əmək münasibətləri ilə bağlı digər ödənişlərin alınması üçün verilən etibarnamələri;
- müəllif və ixtiraçıların haqlarının alınması üçün verilən etibarnamələri;
- pensiyaların, müavinətlərin və təqaüdlərin alınması üçün verilən etibarnamələri;
- fiziki şəxslərin banklardakı əmanətlərinin alınması üçün verilən etibarna-

mələri;

• poçt göndərmələrinin, o cümlədən pul və bağlamaların alınması üçün verilən etibarnamələri.

Bu cür etibarnamələr lazımi qaydada tərtib edildikdə və təsdiqləndikdə hüquqi əhəmiyyətə malik olur. Həmin **etibarnamələri qəbul etməməyə müvafiq orqanların (bankların, rabitə xidməti orqanlarının və s.) ixtiyarı çatmır**.

Əmanətçi banka qoyduğu əmanət barədə istədiyi şəxsə etibarnamə verə bilər. Bunun üçün o, şəxsi hesab vərəqinin arxasında etibarnamənin mətnini yazır, tarix qoyur və onu imzalayır. Bankın işçisi (nəzarətçi) isə etibarnaməni təsdiq edir. Bu cür təsdiq üçün haqq verilmir.

Hüquqi şəxsin adından verilən etibarnamələrin notariat qaydasında təsdiqlənməsi tələb edilmir. Amma bu cür etibarnamələr hüquqi şəxsin rəhbəri tərəfindən imzalanır. Etibarnaməni bəzi hallarda hüquqi şəxsin nizamnaməsi ilə buna vəkil edilmiş digər şəxs də imzalaya bilər. Bundan sonra etibarnaməyə hüquqi şəxsin möhürü vurulur (MM-in 362-ci maddəsinin 5-ci bəndi).

Əmtəələrin, materialların və başqa sərvətlərin, pul vəsaitlərinin qəbulu və verilməsi üçün tərtib olunan etibarnamələri hüquqi şəxsin rəhbəri ilə birlikdə baş mühasib və ya mühasibat xidmətinin rəhbəri də imza edir. Əgər həmin sənədlərdə baş mühasibin imzası olmadıqda, onlar etibarsız sayılır və icra üçün qəbul olunmur[1].

Etibarnamə müxtəlif şəkillərdə tərtib oluna bilər. Məsələn, məktub, teleqram, faks, müqavilənin bir hissəsi və digər şəkillərdə etibarnamə verilə bilər. Amma teleqrafla, habelə sənədin rabitə işçisi tərəfindən yola salındığı digər rabitə növləri ilə göndərilən etibarnamələr rabitə orqanları tərəfindən təsdiqlənir (MM-in 362-ci maddəsinin 6-cı bəndi). Məsələn, **vətəndaş teleqram şəklində başqa şəhərdə yaşayan şəxsə etibarnamə verdikdə, bunu rabitə orqanı təsdiqləyir**.

Bəzi hallarda etibarnamə rəsmi rabitə orqanının vasitəçiliyi olmadan faksimile və ya digər rabitə vasitəsilə nümayəndəyə çatdırılır. Belə halda üçüncü şəxslər həmin etibarnaməni hüquqi əhəmiyyətə malik olan sənəd kimi qəbul edə bilərlər. Bu sənəd etibarlı sayıla bilər (MM-in 362-ci maddəsinin 7-ci bəndi).

Bəzi yazılı sənədlər etibarnamə funksiyasını yerinə yetirir. Məsələn, hüquqi şəxsin filialının müdirinin və ya sığorta agentinin xidməti (qulluq) vəsiqəsi, sürücüyə verilən yol vərəqi və s. bu cür sənədlərə misal ola bilər.

Bir qayda olaraq, etibarnamə **xüsusi sənəd şəklində** tərtib edilir. Ona hamılıqla etibarnamə deyilir. Hansı şəkildə tərtib olunur-olunsun, etibarnamə hökmən onun etibarlı olması üçün lazım olan bütün rekvizitləri əks etdirməlidir.

Etibarnamədə, hər şeydən əvvəl, təmsil olunan (etibar edən) və nümayəndə (etibar edilən) haqqında rekvizitlər göstərilməlidir. Bu, etibarnamənin məcburi rekvizitlərindən biridir.

İkincisi, etibarnamədə **nümayəndənin səlahiyyəti** dəqiq olaraq müəyyən

[1] «Mühasibat uçotu haqqında» qanunun 10-cu maddəsinin 6-cı bəndi (AR QK, II cild, s. 441).

edilməlidir. Söhbət nümayəndəyə verilən səlahiyyətin həcmindən, xarakterindən və məzmunundan gedir. Bu da etibarnamənin məcburi rekvizitlərindən biri hesab olunur.

Üçüncüsü, **etibarnamənin tərtib olunduğu (əqdin bağlandığı) tarix** onun məcburi rekvizitlərindən biridir. Etibarnamədə hökmən onun tərtib olunduğu tarix dəqiq və aydın şəkildə göstərilməlidir. Tərtib edilmə tarixi göstərilməyən etibarnamə hüquqi əhəmiyyət kəsb etmir. O, **puç əqd (mütləq etibarsız əqd) hesab edilir.**

Dördüncüsü, **təmsil olunanın (etibar edənin) imzası** etibarnamənin məcburi rekvizitlərindən biridir. Etibarnamə təmsil olunan tərəfindən şəxsən imzalanmalıdır. Əgər o, fiziki qüsuruna, xəstəliyinə və ya digər hər hansı səbəbə görə etibarnaməni özü imzalaya bilmirsə, onun tapşırığı ilə başqa şəxs imzalayır. Hüquqi şəxsin adından verilən etibarnamənin məcburi rekviziti etibarnaməyə onun möhürünün vurulması hesab edilir.

4. Yenidən etibar etmə

Etibarnamənin verilməsi nümayəndəyə təkcə səlahiyyət vermir. O, həm də nümayəndənin üzərinə müəyyən vəzifə qoyur. Belə ki, etibarnamənin verilməsi ilə ona belə bir vəzifə həvalə edilir: **səlahiyyəti şəxsən həyata keçirmək**. Söhbət nümayəndənin ona tapşırılmış hərəkətləri şəxsən özünün yerinə yetirməsindən gedir.

Bununla belə, həyati halların gedişini qabaqcadan müəyyən etmək qeyri-mümkündür. Bu hallar son dərəcə dəyişkəndir. Əlbəttə bu və ya digər həyati halın dəyişməsi nəticəsində nümayəndə ona tapşırılmış hərəkətləri şəxsən icra etmək imkanından məhrum ola bilər. Təbii ki, nümayəndə bu cür məqamlarda ona verilmiş səlahiyyəti şəxsən həyata keçirməyə qadir olmur. Həmin hallar müxtəlif ola bilər: nümayəndənin xəstələnməsi, onun həlli təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edən məsələ ilə məşğul olması; yaranmış şərait və s. Bu cür məqamlarda etibar edilən ona tapşırılmış hərəkətlərin icrasını başqa şəxsə etibar edə bilər. Buna yenidən etibar etmə və ya etibar edilmiş etibaretmə deyilir. Yaponiya mülki hüququna görə yenidən etibaretmə dedikdə, nümayəndənin adından təmsil olunan şəxsin digər nümayəndəsinin təyin edilməsi başa düşülür.

Yenidən etibar etmə dedikdə, nümayəndə tərəfindən səlahiyyətin başqa şəxsə verilməsi başa düşülür. Bu isə mülki dövriyyə üçün xarakterik hal deyildir.

Yenidən etibar etmə nümayəndənin öz səlahiyyəti çərçivəsində təmsil olunanın adından, əsas etibarnamənin sərhədlərindən kənara çıxmadan başqa şəxsə etibarnamə verməsini nəzərdə tutur. Əgər səlahiyyət tam həcmdə verilərsə, buna **tam etibar etmə** deyilir. Ümumiyyətlə, etibar etmə qaydasında verilən etibarnamə onun verilməsi üçün əsas olmuş etibarnaməyə məzmunca uyğun olmalıdır. Əgər onlar arasında məzmun etibarilə ziddiyyət olarsa, həmin etibarnamə hüquqi əhəmiyyət kəsb etmir. Məsələn, əgər nümayəndəyə alqı-satqı müqaviləsi bağlamaq səlahiyyəti verilmişdirsə, o, yenidən etibar etmə qaydasında başqa şəxsə icarə müqaviləsi bağlamaq səlahiyyəti verə bilməz. Bununla belə, yenidən verilən etibarnamə səlahiyyətin həcminə görə əsas eti-

barnamə üzrə səlahiyyətin həcminə nisbətən məhdud ola bilər. **Buna qismən etibar etmə** deyilir.

Mülki qanunvericilik yenidən etibarnamə haqqında qaydanın tətbiq edilməsi üçün qətı olaraq iki alternativ şərt müəyyən edir. Yalnız bu iki şərtdən biri olduqda, nümayəndə yenidən etibar etmə qaydasında başqa şəxsə etibarnamə verə bilər.

Birinci şərt ondan ibarətdir ki, **nümayəndənin başqa şəxsə etibarnamə vermək hüququ əsas etibarnamədə nəzərdə tutulmalıdır**. Əgər bu şərt əsas etibarnamədə göstərilməyibsə, nümayəndə yenidən etibar etmə qaydasında etibarnamə verə bilməz. Bununla belə, təmsil olunan istənilən vaxt yenidən etibar etməyə icazə verə bilər. O, icazəni ya nümayəndənin xahişi və müraciəti əsasında, ya da öz təşəbbüsü ilə verir.

İkinci şərt ondan ibarətdir ki, nümayəndənin başqa şəxsə etibarnamə verməsi **etibarnaməni verənin mənafelərinin qorunması üçün yaranmış məcburi şəraitlə bağlı olmalıdır**[1]. Elə bir şərait yaranır ki, bu şərait etibarnaməni verənin mənafelərinin qorunması üçün nümayəndəni ona tapşırılmış hərəkətlərin icrasını başqa şəxsə etibar etməyə məcbur və vadar edir. Bu şəraitdə nümayəndə başqa şəxsə etibarnamə vermək üçün təmsil olunandan razılıq və icazə almır və başqa şəxsə etibarnamə verir. Məsələn, Bakıda yaşayan vətəndaş nümayəndəyə uzaq Moskva şəhərində yaşayış evi almaq barədə etibarnamə verir. Nümayəndə Moskvaya gəldiyi zaman bərk xəstələnir və xəstəxanaya düşür. Onun üzərində çətin cərrahiyyə əməliyyatı aparılması tələb edilir və lazım gəlir. Bu vaxt bazarda yaşayış evlərinin qiyməti kəskin surətdə aşağı düşür. Nümayəndə yaranmış bu şəraiti nəzərə alaraq, başqa şəxsə etibarnamə verir.

Yenidən etibarnamə nəticəsində yeni səlahiyyət yaranır. Onun hüquqi effekti də məhz bundan ibarətdir. Yeni səlahiyyət əsas etibarnaməyə əsaslanır, ondan törəyir. Buna görə də həmin səlahiyyəti ifadə edən yeni etibarnamə **törəmə etibarnamə** hesab edilir.

Yenidən etibar etmə nəticəsində **nümayəndəliyin subyekt tərkibi dəyişir**. Əvvəlki nümayəndə rolunda yeni nümayəndə çıxış edir. Bu isə, təbii ki, etibarnamə vermiş təmsil olunanın mənafeyinə toxunur. Ona görə də əvvəlki nümayəndənin üzərinə başqa şəxsə etibarnamə verməsi barədə təmsil olunana (etibar edənə) məlumat vermək vəzifəsi qoyulur. Bundan əlavə, o, səlahiyyətin verildiyi yeni nümayəndə haqqında (onun adı, atasının adı və familiyası, yaşayış yeri, peşəkar keyfiyyətləri və s. barədə) da o, təmsil olunana informasiya verməyə borcludur. Bu iki vəzifəni əvvəlki nümayəndə imkan yaranan kimi dərhal və ləngimədən icra etməlidir. Həmin vəzifələri yerinə yetirməməyə görə o, məsuliyyət daşıyır. Belə ki, əvvəlki nümayəndə yeni nümayəndənin

[1] Yaponiya sivilistika doktrinasında nümayəndənin nümayəndəliyi başqasına etibar etməsi məsələsinə münasibət birmənalı deyil. Professor S.Vaqasuma göstərir ki, etibarnamə əsasında hərəkət edən nümayəndə prinsip etibarilə yenidən etibar etmək hüququna malik deyil. Bu hüquqdan o, yalnız iki halda istifadə edə bilər: birincisi, o, qabaqcadan təmsil olunan şəxsdən razılıq aldıqda yenidən etibar edə bilər; ikincisi, öz nümayəndəlik funksiyasını şəxsən həyata keçirə bilmədiyi fovqəladə hallarda və yenidən etibaretmə üçün təmsil olunandan icazə almağa vaxt imkanı olmadığı məqamlarda nümayəndə yenidən etibar edə bilər (*Сакаэ Вагацума, Тору Ариидзуми* Гражданское право Японии. Книга 1. М., 1983, с. 123).

hərəkətlərinə görə cavabdehdir (MM-in 364-cü maddəsinin 2-ci bəndi).

Yeni nümayəndənin kimin adından çıxış etməsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, o, **əvvəlki nümayəndənin yox, təmsil olunanın nümayəndəsi** hesab edilir. Yaponiya mülki hüququ bu suala rəsmən cavab verərək göstərir ki, nümayəndəliyin yenidən etibar olunduğu şəxs nümayəndənin yox, təmsil olunan şəxsin nümayəndəsidir (MM-in 107-ci maddəsinin 1-ci bəndi)[1].

Səlahiyyətin əvvəlki nümayəndədən yeni nümayəndəyə verilməsi yeni etibarnamə (törəmə etibarnamə) tərtib olunması ilə həyata keçirilir. Belə halda **törəmə etibarnamə əsas etibarnamənin formasından asılı olmayaraq, hökmən notarial qaydasında təsdiqlənməli idi**. Yuxarıda qeyd etdiyimiz kimi, indi bu qayda qüvvədən düşmüşdür. **Sadələşdirilmiş formalı etibarnamələrin** də yenidən etibar olunmasının **notariat qaydasında təsdiqlənməsi tələb edilmir**. Bu cür etibarnamələrin yenidən etibar olunması əsas etibarnamələrin tərtib olunduğu formada rəsmiləşdirilir, yəni notarial formada olmur.

Yenidən etibar etmə qaydasında tərtib olunan etibarnamə əsas etibarnamədən törəmə etibarnamədir. Buna görə də onun qüvvədə olma müddəti əsas etibarnamənin qüvvədə olma müddətindən artıq ola bilməz (MM-in 364-cü maddəsinin 4-cü bəndi). Onun qüvvədə olma müddəti əsas etibarnamənin qüvvədə olma müddəti ilə məhdudlaşır.

5. Etibarnaməyə xitam verilməsi

Etibarnaməyə xitam verilməsi dedikdə, müəyyən hüquqi faktlar əsasında onun hüquqi cəhətdən qüvvədən düşməsi, yəni nümayəndəyə verilmiş səlahiyyətə xitam verilməsi başa düşülür. Bu faktların dairəsi kifayət qədər genişdir. Həmin faktlar mülki qanunvericiliklə müəyyənləşdirilir (MM-in 365-ci maddəsi).

Etibarnamənin müddətinin bitməsi ona xitam verilməsinə əsas olan hüquqi faktlardan biridir. Belə ki, etibarnamənin qüvvədə olma müddəti başa çatdıqda, ona xitam verilir.

Etibarnamədə nəzərdə tutulan hərəkətlərin həyata keçirilməsi etibarnaməyə xitam verilməsini şərtləndirən hüquqi faktlardan biri kimi çıxış edir[2]. Söhbət etibarnamə ilə nümayəndəyə verilmiş səlahiyyətin həyata keçirilməsindən gedir. Məsələn, vətəndaş etibarnamə ilə nümayəndəyə kirayə müqaviləsi bağlamağa səlahiyyət verir. Nümayəndə üçüncü şəxslə kirayə müqaviləsi bağlayır. Bununla etibarnamədə nəzərdə tutulan hərəkət həyata keçirilir. Hərəkət isə burada əqd bağlamaqdan ibarətdir. Beləliklə, əqdin bağlanması ilə etibarnaməyə xitam verilir.

Etibarnaməni vermiş şəxsin onu ləğv etməsini mülki qanunvericilik etibarnaməyə xitam verilməsinə səbəb olan hüquqi faktlardan biri kimi tanıyır.

[1] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 124.

[2] Sovet dövrünün mülki qanunvericiliyi belə hüquqi fakt nəzərdə tutmamışdı. Amma mülki hüquq elmində həmin fakt etibarnaməyə xitam verilməsinin əsaslarından biri kimi göstərilirdi. Belə təsəvvür yaranır ki, müasir mülki qanunvericilik mülki hüquq elminin mövqeyini nəzərə almışdır (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова* М., 1968, с. 278).

Etibar edən heç bir dəlil-səbəb və motiv gətirmədən istənilən vaxt birtərəfli qaydada etibarnaməni ləğv edə bilər. Bu, onunla izah edilir ki, etibarnamə verənlə nümayəndə arasında münasibətlər şəxsi-etimad (etibar) prinsipi əsasında qurulur və əqd kimi etibarnamə fidusiar xarakterə malikdir. Məhz bu səbəbdən **nümayəndənin etibarnamədə nəzərdə tutulan hərəkətin həyata keçirilməsindən birtərəfli qaydada imtina etmək hüququ vardır**. Bu isə öz növbəsində etibarnaməyə xitam verilməsinə səbəb olur. Deməli, nümayəndənın etibarnamədə nəzərdə tutulan hərəkətin həyata keçirilməsindən birtərəfli qaydada imtina etməsi etibarnaməyə xitam verilməsi əsaslarından biridir. Özü də təmsil olunanın etibarnaməni ləğv etmək hüququnu, habelə nümayəndənin imtina hüququnu istisna edən hər hansı saziş və razılaşma hüquqi əhəmiyyət kəsb etmir (MM-ın 365-ci maddəsinin 2-ci bəndi). Məsələn, etibarnamə verilən zaman təmsil olunanla nümayəndə öz aralarında belə saziş bağlayırlar ki, təmsil olunan istənilən vaxt etibarnaməni ləğv edə bilməz. Bu, etibarsız sazişdir.

Adından etibarnamə verilmiş hüquqi şəxsə, habelə adına etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi etibarnamənin xitam edilməsi əsaslarından biridir. Söhbət hüquqi şəxsə həm ləğv etmə yolu ilə, həm də yenidən təşkil etmə yolu xitam verilməsindən gedir. Hüquqi şəxslər yenidən təşkil olunarkən yalnız bir halda etibarnaməyə xitam verilməyə bilər. Belə ki, hüquqi şəxslər ayrılma yolu ilə yenidən təşkil edilərkən nümayəndəlik funksiyasının həyata keçirilməsi mümkündür.

Bundan əlavə, etibarnamə vermiş və ya etibarnamə verilmiş fiziki **şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəallyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması** hüquqi fakt kimi etibarnaməyə xitam verilməsinə səbəb olur.

6. Etibarnaməyə xitam verilməsinin nəticələri

Etibarnaməyə xitam verilməsi **müəyyən hüquqi nəticəyə** səbəb olur. Bu nəticə etibarnamə əsasında **nümayəndəyə verilmiş səlahiyyətə xitam verilməsindən** ibarətdir. Bu nəticənin yaranması üçün etibar edən və ya nümayəndə bəzi hərəkətləri yerinə yetirmək vəzifəsini daşıyır.

Məlumat vermək vəzifəsi etibarnamə vermiş şəxsin əsas vəzifəsidir. Bu vəzifəyə görə, o, nümayəndəni, yəni adına etibarnamə verilmiş şəxsi, habelə üçüncu şəxsi etibarnaməyə xitam verilməsi barədə xəbərdar etməlidir. Məlumat vermək vəzifəsini etibarnamə vermiş şəxsin hüquqi varisləri də daşıyırlar. Belə ki, adından etibarnamə verilmiş fiziki şəxs öldükdə və ya hüquqi şəxsə xitam verildikdə, onların hüquqi varisləri etibarnamə verilmiş şəxsi (nümayəndəni) və üçüncü şəxsi xəbərdar edirlər.

Etibarnamə, qeyd etdiyimiz kimi, mülki qanunvericilikdə nəzərdə tutulan hüquqi faktlardan birinin baş verdiyi andan xitam edilir. **Etibarnaməyə xitam verildikdən sonra nümayəndəlik səlahiyyətsiz nümayəndəlik hesab edilir**, yəni nümayəndənin səlahiyyətinə də xitam verilir. Amma bu qaydadan istisnaya yol verilir. Belə ki, nümayəndənin etibarnamənin xitam olmasını bildiyi və ya bilməli olduğu vaxta qədər etibarnaməni alan şəxsin hərəkətləri nəticəsində əmələ gələn hüquq və vəzifələr etibarnaməni vermiş şəxs və onun hüquq varisləri üçün üçüncü şəxslərlə münasibətlərdə öz qüvvəsini saxlayır (MM-in 366-cı maddəsinin 2-ci bəndi). Belə halda təmsil olunan (və ya onun hüquq varisləri) nümayəndə tərəfindən bütün icra edilənləri qəbul etməlidir. Məsələn, təmsil olunan mart ayının 1-də etibarnaməni ləğv edir və bununla etibarnaməyə xitam verilir. Lakin nümayəndənin bundan xəbəri olmur. O, mart ayının 2-də etibarnamədə nəzərdə tutulan əqdi üçüncü şəxslə bağlayır. Təmsil olunan (etibar edən) şəxs bu icranı qəbul etməlidir. Bu əqddən əmələ gələn hüquq və vəzifələr təmsil olunan üçün üçüncü şəxslə münasibətdə öz qüvvəsini saxlayır. Başqa bir misalda isə təmsil olunan iyul ayının 15-də ölür. Nümayəndənin bundan xəbəri olmur. O, iyul ayının 17-də üçüncü şəxslə etibarnamədə nəzərdə tutulan əqdi bağlayır. Bu əqddən əmələ gələn hüquq və vəzifələr ölənin vərəsələri üçün üçüncü şəxslə münasibətdə öz qüvvəsini saxlayır.

Bəzən üçüncü şəxs etibarnamənin qüvvəsinə xitam verildiyini bilir və bundan sonra nümayəndə ilə müvafiq əqd bağlayır. Bu əqd etibarsız hesab olunur.

Etibarnaməyə xitam verildiyi hallarda nümayəndə (və ya onun hüquq varisləri) üzərinə **dərhal etibarnaməni qaytarmaq vəzifəsi qoyulur**. Onlar etibarnamə xitam edildikdə, dərhal etibarnaməni qaytarmağa borcludurlar (MM-in 366-cı maddəsinin 3-cü bəndi).

Etibarnaməyə xitam verilməsinin doğurduğu nəticələrdən biri yenidən etibar etmə qaydasında verilən törəmə etibarnamənin taleyinə aiddir. Məlum məsələdir ki, törəmə etibarnamənin taleyi əsas etibarnamədən asılıdır. Ona görə də **əsas etibarnamənin xitam edilməsi törəmə etibarnamənin də xitam edilməsinə səbəb olur**. Başqa sözlə desək, əsas etibarnaməyə xitam verildikdə, törəmə etibarnamə də qüvvədən düşür (MM-in 366-cı maddəsinin 4-cü bəndi).

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Андреев В.К. Представительтсво в гражданском праве. Калинин. 1978.

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова.** М., 1998 (гл. 11, § 4).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 12).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 11).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 10).

Гражданское право. Учебник. Часть1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 11).

Невзгодина Е.Л. Представительство по советскому гражданскому праву. Томск. 1980.

Нерсесов Н.О. Представительство и ценные бумаги в гражданском праве. М., 2000.

Рясенцев В.А. Вопросы представительства в гражданском праве //

Советская юстиция. 1975. № 6.

Рясенцев В.А. Понятие и юридическая природа полномочия представителя в гражданском праве // Методические материалы ВЮЗИ. Вып. 2. 1946.

Рясенцев В.А. Основания представительства в советском гражданском праве // Уч. записки ВЮЗИ. Вып. 1. 1948.

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова**. М., 1985 (гл. 10).

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950. гл. 2, ч. 4

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983. гл. 7.

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München.1999.

Klünzinger E. Einführung in das bürgerliche Recht. München.1993.

Larenz K. Allgemeiner Teil des deutschen Bürgerlichen Rechts. München.1989.

Kaiser. Bürgerliches. Recht. Heidelberg: C.F. Müller. 1997.

XIV FƏSİL
MÜLKİ HÜQUQLARIN MÜDAFİƏSİ

§ 1. Mülki hüquqların müdafiəsi anlayışı, formaları və əsas cəhətləri

1. Mülki hüquqların qorunması

Hüquq ədəbiyyatı səhifələrində və mülki hüquq elmində (sivilistika doktrinasında) biz tez-tez «mülki hüquqların qorunması» termini ilə rastlaşırıq[1]. Bu terminlə hansı məna ifadə olunur? Hər şeydən əvvəl, dərhal onu qeyd etməliyik ki, «mülki hüquqların qorunması» anlayışı «mülki hüquqların müdafiəsi» anlayışı ilə üst-üstə düşmür. Bunlar həddən artıq, son dərəcə yaxın «qohumluq» münasibətində olsalar da, bir-birindən fərqli anlayışlardır. Amma «mülki hüquqların qorunması» anlayışının sinonimi kimi «mülki hüquqların mühafizəsi» anlayışı işlədilir. Bunlar mənaca üst-üstə düşür.

Mülki hüquqların qorunması anlayışı mülki hüquq elmində və qanunvericilikdə iki mənada işlədilir: geniş mənada; məhdud mənada.

Geniş mənada mülki hüquqların qorunması dedikdə, mülki hüquq normalarında nəzərdə tutulan bütün üsul və vasitələrin elə sistemi (məcmusu) başa düşülür ki, bu sistem cəmiyyətdə mülki xarakterli münasibətlərin maneəsiz və normal inkişafını təmin edir. Söhbət həmin üsul və vasitələrdən istifadə etməklə mülki hüquqların normal həyata keçirilməsinin təmin olunmasından gedir. Onlar xarakter və məzmun etibarilə bir neçə yerə bölünür[2]:

- hüquqi xarakterli üsul və vasitələr;
- iqtisadi xarakterli üsul və vasitələr;
- siyasi xarakterli üsul və vasitələr;
- təşkilati xarakterli üsul və vasitələr;
- digər üsul və vasitələr.

Göstərilən üsul və vasitələri birləşdirən cəhət ondan ibarətdir ki, onların hamısı subyektiv hüquqların həyata keçirilməsi üçün lazımi şərait yaratmağa yönəlir və səmtlənir. Məhz onların sayəsində bu hüquqların həyata keçirilməsinin normal gedişi təmin edilir.

Mülki-hüquqi xarakterli qoruma üsul və vasitələri özü iki növə bölünür. **Birinci növ üsul və vasitələr mülki hüquq pozuntusu törədilməyən hallarda işə düşür** və tətbiq edilir, yəni həmin üsul və vasitələrin tətbiqi mülki hüquq pozuntusu ilə bağlı deyil. Onların vasitəsi ilə mülki hüquq münasibətlərinin normal, pozulmamış vəziyyətdə inkişafı təmin olunur. Məsələn, müəyyən növ əmlakın hüquqi rejiminin tənzimlənməsi, mülki hüquq və fəaliyyət qabiliyyəti

[1] *Венедиктов А.В.* Гражданско-правовая охрана социалистической собственности в СССР. М., 1954, с. 58-78; *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 472-473; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 280.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 280.

barədə qayda müəyyənləşdirilməsi və s. bu qəbildən olan üsul və vasitələrə misal ola bilər.

İkinci növ üsul və vasitələrin isə tətbiqi mülki hüquq pozuntusu ilə və ya mübahisə edilən hüquqla bağlıdır. Əgər mülki hüquqlar pozularsa (yəni mülki hüquq pozuntusu törədilərsə) və ya mülki hüquqlar barədə mübahisə edilərsə, onda bu növ üsul və vasitələr işə düşür. Onların vasitəsilə pozulmuş mülki hüquq münasibətlərinin bərpası təmin edilir və ya mübahisə edilən hüquqlar tanınır. Məsələn, mülkiyyətçinin əşyası oğurlanır və bununla onun mülkiyyət hüququ (mülkiyyət hüquq münasibəti) pozulur. Mülkiyyətçi vindikasiya iddiası (bu iddia mülkiyyət hüququnun müdafiə üsullarından biridir) verməklə əşyanı onu oğurlayan şəxsdən geri alır və bununla pozulmuş hüquq bərpa olunur.

Məhdud mənada mülki hüquqların qorunması dedikdə, yalnız o üsul və vasitələr başa düşülür ki, onlar mülki hüquqlar pozulduğu və ya mübahisə olunduğu hallarda həmin hüquqların bərpa edilməsinə və ya tanınmasına yönəlir. Məsələn, vətəndaş özünə qaraj tikir və bu zaman öz qonşusunu köməyə çağırır. Qaraj tikilib qurtardıqdan sonra nainsaf qonşu iddia edir ki, qaraj guya ona məxsusdur. Vətəndaşla qonşu qaraj üzərində mülkiyyət hüququ barədə mübahisə edirlər. Vətəndaş məhkəməyə müraciət edir. Məhkəmə vətəndaşın qaraj üzərində mülkiyyət hüququnun tanınması barədə qərar qəbul edir. Belə halda hüququn tanınması kimi qoruma üsulundan istifadə olunur. Başqa bir misalda kirayəçinin təqsiri üzündən bağ evi yanır. Kirayəyə verən şəxs bağ evini bərpa etmək üçün iki ay təmir işləri gördürür. Kirayəçi həm real zərərin (təmirə çəkilən xərclərin) əvəzini, həm də əldən çıxmış faydanın əvəzini (iki aylıq kirayə haqqını) ödəyir. Beləliklə, zərərin əvəzini ödəmək üsulu ilə kirayəyə verənin pozulmuş hüquqları bərpa edilir. Hüquqların tanınması, zərərin əvəzini ödəmə kimi göstərdiyimiz və digər üsulların (vasitələrin) tətbiqi məhdud mənada mülki hüquqların qorunmasını ifadə edir. Bu üsul və vasitələr yalnız mülki hüquqlar (mənafelər) pozulduğu və ya mübahisə edildiyi hallarda işə düşür. Onlar mülki hüquqların bərpa edilməsinə və ya bu hüquqların tanınmasına, habelə qanunla qorunan mənafeyin müdafiə olunmasına yönəlir.

Terminoloji dolaşıqlıq və qarışıqlıq yaratmamaq üçün mülki hüquq elmində (sivilistika doktrinasında) və qanunvericilikdə məhdud mənada mülki hüquqların qorunması anlayışının əvəzinə mülki hüquqların müdafiəsi anlayışı işlədilir. Həmin anlayış mülki hüquqların müdafiəsi anlayışı ilə əhatə edilir. Buna görə də onlar mənaca üst-üstə düşən sinonim anlayışlardır.

Normal iqtisadi (əmlak) dövriyyə subyektlərin təkcə müəyyən mülki hüquqlara malik olmasını tələb etmir. O, həm də mülki hüquqların lazımınca qorunmasını, o cümlədən müdafiə edilməsini tələb edir.

Mülki hüquqların müdafiəsi sahələrarası anlayışdır. Belə ki, bu anlayışdan hüququn mülki hüquq sahəsindən əlavə, həm də mülki-prosessual hüquq sahəsində (mülki prosesdə) istifadə olunur. O, iki mənada işlədilir: maddi-hüquqi mənada, prosessual-hüquqi mənada. **Maddi-hüquqi mənada mülki hüquqların müdafiəsi** mülki hüququn anlayışı kimi çıxış edir. **Prosessual-hüquqi mənada** isə o özünü mülki-prosessual hüququn anlayışı kimi göstərir. O,

mülki hüququn anlayışı kimi mülki-hüquqi əhəmiyyət, mülki-prosessual hüququn anlayışı kimi isə mülki-prosessual hüquqi əhəmiyyət kəsb edir.

Mülki hüquqların müdafiəsi subyektin müdafiə hüququ anlayışı ilə sıx surətdə bağlıdır. **Müdafiə hüququ səlahiyyətli şəxsə verilən hüquqqoruyucu xarakterli elə bir hüquqi imkandır ki, bu hüquqi imkandan istifadə etməklə onun pozulmuş hüququ bərpa edilir və ya mübahisə edilən hüququ tanınır**. Bu cür hüquqi imkan olmazsa, söz yox ki, subyektiv mülki hüquqlar real əhəmiyyətə malik olmaz.

2. Müdafiə hüququ

Mülki hüquq elmində müdafiə hüququ müxtəlif aspektlərdən tədqiq edilir[1]. Onun məna və mahiyyətinin başa düşülməsi müəlliflər arasında mübahisəyə səbəb olmuşdur. Bu barədə iki əsas konsepsiya yaranmışdır.

Birinci konsepsiyaya görə, **müdafiə hüququ subyektiv mülki hüququn məzmununa daxil olan elementlərdən (tərkib hissələrindən) — hüquqi imkanlardan, yəni səlahiyyətlərdən biridir**. Bu baxımdan o, subyektiv mülki hüququn məcburi elementi kimi çıxış edir[2]. O, subyektiv mülki hüquq pozulduğu hallarda dövlət məcburetmə tədbirlərindən istifadə olunmasının tələb edilməsi imkanını ifadə edir.

İkinci konsepsiyaya görə, **müdafiə hüququ müstəqil subyektiv hüquqdur**[3]. Bu konsepsiyanı dəstəkləyən müəlliflər belə hesab edirlər ki, yalnız mülki hüquqlar pozulduğu və ya mülki hüquqlar mübahisə olunduğu anlarda müdafiə hüququ müstəqil subyektiv hüquq kimi çıxış edir. Belə hallarda qoruyucu xarakterli mülki hüquq münasibəti yaranır ki, həmin müdafiə hüququ bu münasibət çərçivəsində həyata keçirilir.

Bizim fikrimizcə, hər iki konsepsiya hüquqazidd olmayıb, həqiqətə uyğundur. Belə ki, müdafiə hüququ, birincisi, subyektiv mülki hüququn məzmununa daxil olan elementlərdən — səlahiyyətlərdən (hüquqi imkanlardan) biridir. Bunu heç kəs inkar edə və mübahisə predmetinə çevirə bilməz.

İkincisi, digər tərəfdən, müdafiə hüququnu müstəqil subyektiv hüquq hesab

---

[1] Vətəndaşların hüquqlarının müdafiəsi barədə bax: *Поленина С.В.* Права человека и их защита // Государство и право. 1996. № 10; *Лукашова Е.А.* Социальное государство и защита прав граждан в условиях рыночных отношений // Социальное государство и защита прав человека. М., 1994; *Колосова Н.М.* Конституционное право граждан на судебную защиту их прав и свобод в СНГ // Государство и право. 1996. № 12.

[2] bax: *Братусь С.Н.* Юридическая ответственность и законность. М., 1976, с. 73-74; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.П.Маслова и А.А.Пушкина*. Харьков. 1983, с. 248; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 222; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 253; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 409.

[3] bax: *Елисейкин П.Ф.* Правоохранительные нормы: понятие, виды, структуры // Защита субъективных прав и гражданское судопроизводство. Ярославль, 1977; *Крашенинников Е.А.* Структура субъективного права и право на защиту // Защита субъективных прав и гражданское судопроизводство. Ярославль, 1977; *Рамовская З.В.* Проблемы защиты в советском семейном праве. Автореф. дисс. доктора юрид. наук. Харков. 1987; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 281.

etmək üçün tutarlı əsaslar vardır. Bildiyimiz kimi, hər bir müstəqil subyektiv hüququn məzmunu bir neçə elementdən — imkanlardan (səlahiyyətdən) ibarətdir: səlahiyyətli şəxsin özünün müsbət hərəkətlər etmək səlahiyyəti (hüquqi imkanı); səlahiyyətli şəxsin borclu şəxsdən müəyyən davranışı tələb etmək səlahiyyəti (hüquqi imkanı). Müdafiə hüququnun məzmununa element kimi hər iki səlahiyyət (hüquqi imkan) daxildir.

Səlahiyyətli şəxsin özünün müsbət hərəkətlər etmək səlahiyyəti onda ifadə edilir ki, onun bilavasitə hüquq pozuntusu törədənə operativ təsir tədbirləri (məsələn, zəruri müdafiə, son zərurət tədbirləri və s.) tətbiq etmək imkanı vardır.

Səlahiyyətli şəxsin borclu şəxsdən müəyyən davranışı tələb etmək səlahiyyəti onda təzahür olunur ki, o, səlahiyyətli dövlət orqanlarına və ya digər orqanlara müraciət edərək, borclu şəxsi müəyyən davranışa məcbur etmək kimi tələb hüququna (imkanına) malikdir[1].

Göstərilən hər iki səlahiyyət (hüquqi imkan) müdafiə hüququnun məzmununa element kimi daxildir. Ona görə də müdafiə hüququ müstəqil subyektiv hüquq kimi çıxış edir.

Bəzən müdafiə hüququ funksiya kimi tədqiq edilir[2]. Belə ki, konkret pozuntunu aradan qaldırmaq, pozulmuş mənafeyi bərpa etmək və ya mübahisə edilən hüququ tanımaq üçün səlahiyyətli şəxs tərəfindən, habelə səlahiyyətli orqanlar tərəfindən mülki-hüquqi müdafiə üsulları tətbiq edilir. Bu isə onu ifadə edir ki, **müdafiə hüququ qoruyucu funksiya kimi çıxış edir.**

Subyektiv mülki hüquq kimi müdafiə hüququ dedikdə, pozulmuş hüquqların (mənafelərin) bərpası və ya mübahisə edilən hüquqların tanınması üzrə səlahiyyətli şəxsin mümkün olan davranış ölçüsü başa düşülür. O, mürəkkəb hüquqi anlayış olub, müəyyən məzmuna malikdir.

Müdafiə hüququnun məzmunu dedikdə, səlahiyyətli şəxsə verilən imkan başa düşülür. Bu hüquqi imkan səlahiyyət adlanır ki, biz bir az öncə bu barədə danışdıq. Həmin səlahiyyətlər subyektiv müdafiə hüququnun həyata keçirilməsini təmin edir.

Müdafiənin predmeti qismində, hər şeydən əvvəl, əsasən, **subyektiv mülki hüquqlar** çıxış edir. Səlahiyyətli şəxsin həm əşya, həm də öhdəlik hüquqları müdafiə oluna bilər. Əgər mülkiyyətçiyə ona məxsus olan əşyadan istifadə etməyə maneçilik törədilərsə, onda müdafiənin predmeti **subyektiv mülkiyyət (əşya) hüququndan** ibarətdir. Məsələn, hər hansı bir obyekt tikən tikinti təşkilatı heç bir əsas olmadan vətəndaşın yaşayış evinin girəcəyinə dəmir-beton məmulatları tökür (tikinti işi başqa sahədə aparılır, amma tikinti materialları vətəndaşın yaşayış evinin həyətinə tökülür).

Öhdəlik hüquq münasibətləri pozulduğu halda isə müdafiənin predmeti rolunda **öhdəlik hüquqları** çıxış edir. Məsələn, kirayə müqaviləsi üzrə kirayəçi aylıq kirayə haqqı ödəmir. Başqa bir misalda borc alan aldığı borcu qaytarmır.

[1] bax: *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972, с. 152.

[2] bax: *Илларионова Т.И.* Система гражданско-правовых охранительных мер. Томск. 1982, с. 56; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с 53

Müdafiənin predmeti **mübahisə edilən hüquqlar** da ola bilər. Belə ki, iki şəxs hər hansı hüquq haqqında mübahisə edirlər. Məsələn, iki nəfər qonşu tikili üzərində mülkiyyət hüququnun (və ya əsərə müəlliflik hüququnun) kimə məxsus olması barədə mübahisə edirlər. Bu halda müdafiənin predmeti kimi mübahisə edilən hüquqlar çıxış edir.

Müdafiənin predmeti həm də **səlahiyyətli şəxsin qanunla qorunan mənafeyi** ola bilər. Qanunla qorunan mənafe iki halda müdafiənin müstəqil predmeti kimi çıxış edir. Birinci hal hüquq pozuntusu nəticəsində subyektiv mülki nüququn xitam edilməsindən ibarətdir. Xitam olunmuş subyektiv mülki hüququn müdafiəsi məlum məsələdir ki, qeyri-mümkündür. Belə halda qanunla qorunan mənafe müdafiə edilir. Başqa sözlə desək, qanunla qorunan mənafe göstərilən məqamda müdafiənin müstəqil predmetinə çevrilir. Məsələn, əvəzsiz istifadə müqaviləsinə görə vətəndaş öz qonşusuna əşya verir. Qonşunun təqsiri üzündən əşya yanır. Vətəndaş əşyanın qaytarılmasının mümkün olmadığından ona dəymiş zərərin əvəzini ödəmək üçün qonşuya tələb irəli sürür. Belə halda subyektiv mülki hüquq yox, qanunla qorunan mənafe müdafiə olunur.

İkinci hal isə subyektin elə mənafeyə malik olmasından ibarətdir ki, bu mənafe subyektiv hüquqların vasitəsilə ifadə edilmir. Çox vaxt qanunla qorunan mənafe konkret subyektiv hüquqların vasitəsilə ifadə olunur. Məhz bu səbəbdən subyektiv hüququn müdafiəsi, eləcə də qanunla qorunan mənafeyin müdafiəsini təzahür və əks etdirir, yəni subyektiv hüququn müdafiəsi həm də qanunla qorunan mənafeyin müdafiəsi deməkdir. Məsələn, icarə müqaviləsi üzrə icarəçinin subyektiv hüququ icarəyə götürdüyü əşyaya sahiblik və ondan istifadə etmək hüququndan ibarətdir. Bu hüquq həm də onun əmlakdan istifadə etmək üzrə mənafeyini ifadə edir. Onda belə çıxır ki, subyektiv hüququn müdafiəsi eyni zamanda qanunla qorunan mənafeyin müdafiəsini şərtləndirir və onu ifadə edir.

Doğrudan da, hər bir subyektiv hüququn əsasında bu və ya digər mənafe durur. Məhz bu mənafeyi təmin etmək üçün səlahiyyətli şəxsə subyektiv hüquq verilir. Buna görə də subyektiv mülki hüquq və qanunla qorunan mənafe kimi iki anlayış bir-birinə çox yaxın olub, çox vaxt üst-üstə düşürlər. Bu səbəbdən hüquq ədəbiyyatı səhifələrində onlar fərqləndirilmir.

Amma elə mənafelər var ki, onlar subyektiv hüquqların vasitəsilə ifadə olunmur və müstəqil formada mövcud olur. Bu cür mənafelər pozulduqda isə onlar müdafiənin müstəqil predmeti kimi çıxış edir. Məsələn, şərəf və ləyaqət pozulduğu, əqdlər etibarsız sayıldığı və s. hallarda qanunla qorunan mənafe müdafiənin müstəqil predmetinə çevrilir.

3. Mülki hüquqların müdafiə formaları

Subyektiv mülki hüquqlar və qanunla qorunan mənafe qanunda nəzərdə tutulan qaydada müdafiə edilir. Bu qayda özündə üç əsas anlayışı birləşdirir:

- subyektiv mülki hüquqların müdafiə formaları anlayışını;
- subyektiv mülki hüquqların müdafiə üsulları anlayışını;
- subyektiv mülki hüquqların müdafiə vasitələri anlayışını.

Göstərilən anlayışlar bir-birilə sıx surətdə bağlıdır. Belə ki, mülki hüquqların

hər bir müdafiə üsulu mülki hüquqların müəyyən müdafiə formasında tətbiq edilir. Mülki hüquqların hər bir müdafiə formasına mülki hüquqların müəyyən müdafiə vasitəsi uyğun gəlir. Həmin anlayışlar nə qədər yaxın olsalar da, birbirindən fərqlənirlər.

Subyektiv mülki hüquqların müdafiə formaları dedikdə, elə təşkilati tədbirlər başa düşülür ki, bu tədbirlər subyektiv hüquqların və qanunla qorunan mənafeyin müdafiəsini təmin edir. Bu tədbirlər müəyyən prosessual və ya prosedura qaydasında həyata keçirilir.

Subyektiv mülki hüquqların müdafiə üsulları qanunda nəzərdə tutulan məcburi və hüquqqoruyucu xarakterli maddi-hüquqi tədbirlərdir. Bu üsulların vasitəsilə hüquq pozuntusu törədən şəxsə təsir göstərilir (bu üsulların anlayışı və siyahısı növbəti paraqrafda verilmişdir).

Subyektiv mülki hüquqların müdafiə vasitələri odur ki, subyektiv mülki hüquqlar və qanunla qorunan mənafe məhz bu vasitələrin köməyi ilə müdafiə olunur. Üç əsas müdafiə vasitəsi vardır: iddia; şikayət; ərizə.

İddia maddi-hüquqi mübahisə yarandıqda, bu mübahisənin araşdırılması və həlli, subyektiv hüququn və ya qanunla qorunan mənafeyin müdafiəsi üçün iddiaçının (subyektiv hüququn daşıyıcısının) xahişlə məhkəməyə müraciət etməsidir. Pozulmuş və yaxud mübahisəli hüquq və yaxud qanunla qorunan mənafe məhz hüquqi müdafiə vasitəsi kimi iddianın köməyi ilə müdafiə edilir. **Şikayət** dedikdə, səlahiyyətli orqanlara pozulmuş hüququn bərpası tələbi barədə edilən müraciət başa düşülür[1]. **Ərizə** isə şəxslərə məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciətdir[2].

Mülki hüquq elmində mülki hüquqların iki əsas müdafiə forması fərqləndirilir[3]:

- yurisdiksiya (latınca «juristictio» — məhkəmə icraatı, məhkəmənin həyata keçirilməsi)[4] forması;
- qeyri-yurisdiksiya forması.

Mülki hüquqların müdafiəsinin yurisdiksiya forması odur ki, bu forma pozulmuş hüquqların və ya mübahisə edilən hüquqların səlahiyyətli dövlət orqanlarının fəaliyyəti ilə müdafiə edilməsini nəzərdə tutur. Bu formanın mahiyyəti ondan ibarətdir ki, subyektiv mülki hüquqlar pozulduqda və ya hüquqlar barədə mübahisə yarandıqda, maraqlı şəxs hüquqi müdafiə vasitələrindən istifadə etməklə müdafiə olunmaq məqsədilə səlahiyyətli dövlət orqanlarına, məhkəməyə və ya qeyri-dövlət orqanına (münsiflər məhkəməsinə və s.) müraciət edir.

Mülki hüquqların müdafiəsinin yurisdiksiya forması müdafiənin hansı orqanlar tərəfindən və hansı əsaslarla həyata keçirilməsindən asılı olaraq iki qaydada həyata keçirilir:

[1] bax: «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» 10 iyun 1997-ci il tarixli qanunun 1-ci maddəsi // AR QK, III cild, s. 467.

[2] bax: Yenə orada.

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 282; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 411.

[4] Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.М.Петрова*. М., 1954, с. 827.

- ümumi qaydada mülki hüquqların müdafiəsi;
- xüsusi qaydada mülki hüquqların müdafiəsi.

Ümumi qaydada mülki hüquqların müdafiəsi odur ki, bu qayda mülki hüquqların məhkəmə tərəfindən müdafiə edilməsini nəzərdə tutur. **Mülki hüquqların məhkəmə müdafiəsi** dedikdə, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin mülki-hüquqi mübahisələrə baxıb həll etməsi başa düşülür. Buna **məhkəmə yurisdiksiya forması** deyilir. Məhkəmə müdafiə forması (qaydası) mülki hüquq üçün daha tipik və xarakterikdir. Ona görə ki, bu forma mülki hüququn əsas və fundamental prinsiplərindən olan mülki hüquq münasibəti iştirakçılarının hüquq bərabərliyi prinsipinə daha uyğun gəlir. Bundan əlavə, mülki qanunvericilikdə birbaşa mülki hüquqların məhkəmə müdafiəsi prinsipi formulə edilmişdir. Bu prinsipin mahiyyəti subyektin mülki hüquqları və qanunla qorunan mənafeyi pozulduqda, onun müdafiə üçün ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanlarına müraciət etməsindən ibarətdir. Bu orqanların pozulmuş hüquqları bərpa etmək və hüquq pozuntusunu aradan qaldırmaq üçün lazımi tədbirlər görmək hüququ vardır.

Məhkəmə forması mülki hüquqların müdafiəsinin ən universal yoludur[1]. Bu yol imkan verir ki, birtərəfli mövqedə dayanan, asılı olmayan və yalnız qanuna tabe olan məhkəmələr mülki-hüquqi mübahisələr barəsində ədalətli və düzgün qərar qəbul etsin. Yalnız məhkəmə müdafiəsinə arxalandığı təqdirdə, hüququn reallıq ehtimalı yəqinləşir[2].

Subyektiv mülki hüquqları müdafiə etməyə ixtiyarı çatan məhkəmələrin dairəsi kifayət qədər genişdir. **Ümumi yurisdiksiya məhkəmələri** mülki hüquqların məhkəmə müdafiəsini həyata keçirən əsas məhkəmələrdir. Ümumi yurisdiksiya məhkəmələri dedikdə, rayon (şəhər) məhkəmələri başa düşülür. Rayon (şəhər) məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş mülki-hüquqi mübahisə və işlərə baxır[3].

Yerli iqtisad məhkəmələri mülki hüquqların məhkəmə müdafiəsini həyata keçirən qurumlardan biridir. Bu məhkəmələr birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş iqtisadi mübahisələr haqqında işlərə baxır.

Yaxın vaxtlara kimi **beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair iqtisad məhkəmələri** mülki hüquqların müdafiə edilməsində müəyyən rol oynayırdı. Bu məhkəmələr birinci instansiya məhkəməsi kimi beynəlxalq müqavilələrdən irəli gələn iqtisadi mübahisələrə baxırdı. İndi onların fəaliyyəti dayandırılmışdır və buna görə də məhkəmə sisteminə daxil deyil.

Konstitusiya Məhkəməsi Konstitusiyanın aliliyinin təmin edilməsində böyük rol oynayır və ali Konstitusiya ədalət mühakiməsi orqanıdır. O, öz fəaliyyətində insan hüquqlarının, o cümlədən mülki hüquqların müdafiəsini həyata

[1] Vətəndaşların hüquqlarının müdafiə edilməsi məsələləri məhkəmə qərarlarında izah edilir (bax: постановления Пленума Верховного Суда РФ «О некоторых вопросах применения судами Конституции Российской Федерации при осуществлении правосудия» от 31 октября 1995 г. // ВВС РФ 1996. №1, с. 3).

[2] *Маркс К., Энгельс Ф.* Соч. Том 14, с. 684.

[3] bax: «Məhkəmələr və hakimlər haqqında» 10 iyun 1997-ci il tarixli qanunun 20-ci maddəsi // AR QK, III cild, s. 674.

keçirir. Belə ki, mülki hüquq subyektinin hüquqları qüvvədə olan normativ aktlarla pozula bilər. Normativ aktlar dedikdə, qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları başa düşülür. Mülki hüquq subyektinin hüquq və azadlıqlarının bələdiyyə və məhkəmə aktları ilə də pozulması mümkündür. Belə hallarda hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından, habelə bələdiyyə və məhkəmə aktlarından Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə şikayət verə bilər[1]. Konstitusiya Məhkəməsi həmin mülki-hüquqi məsələyə baxaraq, müvafiq qərar çıxarır.

Münsiflər məhkəməsi mülki-hüquqi mübahisələrə baxa bilər. Belə ki, tərəflər onlar arasında baş vermiş mülki-hüquqi mübahisəni baxılmaq üçün münsiflər məhkəməsinə verə bilər[2]. Münsiflər məhkəməsinə **arbitraj və ya arbitraj məhkəməsi də** deyilir; o, dövlət məhkəməsi sayılmır və qeyri-dövlət məhkəmə sisteminə daxildir. Bəzi ölkələrdə (məsələn, RF-də və s.) arbitraj təsərrüfat mübahisələrinə baxan dövlət məhkəməsi kimi tanınır.

Beynəlxalq ticarət arbitrajı (məhkəməsi) beynəlxalq ticarət və dəniz gəmiçiliyi münasibətlərindən irəli gələn mübahisələrə baxır. Arbitraj məhkəməsi təkbaşına arbitr və ya arbitrlər kollegiyasıdır[3].

Mülki hüquqların məhkəmə müdafiəsində **əsas hüquqi vasitə iddia sayılır**. Ona görə bu müdafiə forması çox vaxt iddia qaydasında müdafiə də adlanır. İddia pozulan və ya mübahisə edilən subyektiv mülki hüququn müdafiəsinin ən mükəmməl və effektiv vasitəsi hesab edilir. Subyektiv mülki hüquq pozulduğu və ya mübahisə olunduğu hallarda özünü həmin hüququn daşıyıcısı sayan şəxs qanunvericilikdə nəzərdə tutulan qaydada məhkəməyə müdafiə olunmaq üçün müraciət edir. Məhkəməyə edilən bu cür müraciətə iddia deyilir. Bu, **prosessual mənada iddia** adlanır.

İddia həm də maddi-hüquqi mənada işlədilir. **Maddi-hüquqi mənada iddia** dedikdə, iddiaçının (subyektiv maddi hüququn daşıyıcısının) cavabdehə (subyektiv vəzifənin daşıyıcısına) irəli sürdüyü maddi-hüquqi tələb başa düşülür. Məsələn, mülkiyyətçinin öz əşyasını həmin əşyanı qanunsuz saxlayan şəxsdən tələb etməsi maddi-hüquqi mənada iddianı ifadə edir.

Köhnə mülki-prosessual qanunvericilik bəzi kateqoriya işlərə (inzibati hüquq münasibətlərindən əmələ gələn işlərə) baxılmasında hüquqi vasitə kimi iddianı yox, şikayəti nəzərdə tuturdu. Mövcud qanunvericilik şikayəti bu cür işlər üzrə mülki hüquqların müdafiəsinin hüquqi vasitəsi kimi müəyyənləşdirmir. MPM-ə görə (24-cü fəsil) iddia inzibati (ümumi-hüquqi) münasibətlərdən əmələ gələn işlər üzrə icraat zamanı əsas hüquqi vasitə kimi çıxış edir. Ona görə də bu icraat xüsusi iddia icraatı adlanır. Bununla belə, məhkəmə yurisdiksiyasında şikayətdən hüquqi vasitə kimi istifadə oluna bilər. Belə ki, hər bir vətəndaş dövlət orqanlarının, yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin hüququ pozan qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət verə bilər[1].

Konstitusiya Məhkəməsinə iddia verilmir. Burada vətəndaşların pozulmuş hüquqlarının müdafiə edilməsinin əsas hüquqi vasitəsi **şikayətdir**.

Xüsusi qaydada mülki hüquqların müdafiəsi dedikdə, inzibati yurisdiksiya başa düşülür. **İnzibati yurisdiksiya** isə mülki hüquqların inzibati qaydada müdafiə edilməsi deməkdir. Bu cür yurisdiksiyanın mahiyyəti dövlət idarə orqanlarının və vəzifəli şəxslərin fərdi inzibati işlərin həll edilməsi və müvafiq hüquqi sanksiyaların inzibati qaydada (məhkəməyə müraciət etmədən) tətbiq edilməsi üzrə fəaliyyət göstərməsindən ibarətdir. Belə ki, mülki hüquqları pozulduqda, maraqlı şəxs yuxarı instansiyalı orqana və ya vəzifəli şəxsə müraciət edir.

Mülki hüquqların inzibati qaydada müdafiəsi mülki hüquq üçün xarakterik və tipik forma hesab edilmir. Ona görə ki, bu forma, mülki hüquq münasibətləri iştirakçılarının hüquq bərabərliyi kimi fundamental prinsipə uyğun gəlmir. Digər tərəfdən, inzibati qaydanın özü tabeçilik (asılı olmaq) münasibətlərinə əsaslanır. Bu isə mülki-hüquqi məsələnin barəsində ədalətli və düzgün qərar qəbul edilməsinə müəyyən dərəcədə şübhə yaradır. Bu halı nəzərə alaraq, mülki hüquq elmi birbaşa göstərir ki, mülki hüquqların inzibati qaydada müdafiəsi yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda həyata keçirilir. Deməli, inzibati yurisdiksiya formasından ümumi qaydadan yol verilən istisna hallarda istifadə olunur. Məsələn, sənaye mülkiyyəti obyekti (ixtira, faydalı model və sənaye nümunəsi) barəsində iddia sənədinin verilməsi, onun ekspertizası, patentin verilməsi və digər məsələlərlə bağlı mübahisələrə apellyasiya komissiyasında baxılır[2].

Mülki hüquqların inzibati qaydada müdafiəsi **şikayət kimi hüquqi vasitənin köməyi ilə** həyata keçirilir. Subyektiv mülki hüquq və ya qanunla qorunan mənafe pozulduqda, maraqlı şəxs şikayət ərizəsi ilə müvafiq səlahiyyətli dövlət orqanlarına müraciət edir. Həmin orqan müvafiq qərar qəbul edir.

Bəzi hallarda mülki hüquqların müdafiəsinin alternativ yurisdiksiya formasından istifadə oluna bilər. Bu forma yalnız o halda tətbiq edilə bilər ki, həmin forma mülki qanunvericilikdə birbaşa nəzərdə tutulsun. Əgər göstərilən forma qanunda göstərilməzsə, onun mülki hüquqların müdafiəsində tətbiqi istisna edilir, mümkün olmur.

Alternativ yurisdiksiya forması odur ki, qanun hüququ pozulmuş şəxsə öz hüquqlarını müdafiə etmək üçün mümkün olan iki alternativ müdafiə formasından birini seçməyə imkan verir. Belə halda şəxs öz istək və mülahizəsi ilə mülki hüquqların müdafiəsinin ya məhkəmə qaydasından (məhkəmə yurisdiksiyasından), ya da inzibati qaydasından (inzibati yurisdiksiyadan) istifadə edir. Məsələn, patentin etibarsız sayılmasına dair yaranan mübahisəyə apellyasiya

[1] bax: «Konstitusiya Məhkəməsi haqqında» 23 dekabr 2003-cü il tarixli qanunun 34-cü maddəsi // Məhkəmə hakimiyyəti (normativ aktlar toplusu). Bakı, 2008, s. 152.

[2] Yaxın vaxtlara kimi münsiflər məhkəməsinin fəaliyyəti müvafiq əsasnamə ilə nizama salınırdı. Bu əsasnamə qüvvədən düşmüş, yeni əsasnamə isə qəbul edilməmişdir.

[3] bax: «Beynəlxalq arbitraj haqqında» 18 noyabr 1999-cu il tarixli qanunun 2-ci maddəsi // AR QK. III xüsusi buraxılış, s. 279.

[1] «Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında» qanun (AR QK, III xüsusi buraxılış, s. 131).

[2] bax: «Patent haqqında» qanunun 5-ci maddəsi // AR QK, III cild, s. 782.

komissiyasında və ya məhkəmədə baxılır[1].

Qanunda nəzərdə tutulan hallarda mülki hüquqların müdafiəsi qarışıq formada həyata keçirilir. **Qarışıq müdafiə forması** odur ki, bu forma hüququ pozulmuş şəxsin əvvəlcə inzibati yurisdiksiyadan, sonra isə məhkəmə yurisdiksiyasından istifadə etməsini nəzərdə tutur. Buna görə də həmin forma bəzən **inzibati-məhkəmə qaydası** da adlandırılır. Bu formanın mahiyyəti ondan ibarətdir ki, hüququ pozulmuş şəxs əvvəlcə müvafiq səlahiyyətli dövlət orqanına müraciət edir və həmin orqanın çıxardığı qərardan, əgər o, razı qalmazsa, məhkəməyə şikayət verir. Məsələn, şəxs verilmiş patentə etiraz barədə apellyasiya komissiyasına müraciət edir. Əgər o, bu komissiyanın qərarından razı olmadıqda, məhkəməyə şikayət edir[2].

Qarışıq müdafiə formasının əsas xüsusiyyəti ondan ibarətdir ki, bu forma inzibati qaydada müdafiəni (inzibati yurisdiksiyanı) məhkəmə qaydasında müdafiənin (məhkəmə yurisdiksiyasının) tətbiq olunmasının ilkin, məcburi, zəruri və labüd şərti kimi nəzərdə tutur. Belə halda hüququ pozulmuş şəxs mülki-hüquqi məsələni həll etmək üçün əvvəlcə mülki hüquqların inzibati qaydada müdafiəsindən istifadə edir, yəni o, dövlət orqanına müraciət edir. Əgər o, bu orqanın qəbul etdiyi qərardan narazı qalarsa, məhkəməyə müraciət edir. Məsələn, torpaq mübahisələrinə öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları və ya bələdiyyələr baxırlar. Əgər onların qərarı ilə tərəflər razı olmadıqda, mübahisələrə müvafiq məhkəmədə baxılır[3].

Qeyri-yurisdiksiya müdafiə forması odur ki, bu forma şəxsə öz mülki hüquqlarını və qanunla qorunan mənafeyini müstəqil surətdə, dövlət və digər səlahiyyətli orqanlara kömək üçün müraciət olunmadan müdafiə etmək imkanı verir. Bu formanın mahiyyəti ondan ibarətdir ki, səlahiyyətli şəxs öz müstəqil hərəkətləri ilə dövlət və digər səlahiyyətli orqanlara müraciət etmədən öz mülki hüquqlarının və qanunla qorunan mənafeyinin müdafiə edilməsini həyata keçirir.

Mülki hüquqların qeyri-yurisdiksiya formasının aşağıdakı növləri fərqləndirilir:

- özünümüdafiə[4] və ya özünüqoruma;
- operativ təsir tədbirləri (ləngitmə hüququ).

Almaniya Mülki Qanunnaməsi subyektiv hüquqların normal həyata keçirilməsinə mane olan və ya təhlükə yaradan hallar olduqda, iki müdafiə formasından istifadə edilməsini nəzərdə tutur: məhkəmə müdafiəsi hüququnu həyata keçirən ədalət mühakiməsindən (**Justizeewahrumgsanspruch**); qanuni hüquqların özünümüdafiəsindən (**Selbstverdeidigung**)[1].

[1] bax: «Patent haqqında» qanunun 37-ci maddəsinin 3-cü hissəsi // AR QK, III cild, s. 804.

[2] bax: «Patent haqqında» qanunun 34-cü maddəsi // AR QK, III cild, s. 803.

[3] Torpaq Məcəlləsinin 103-cü maddəsinin 2-ci bəndi // AR QK, III xüsusi buraxılış, s. 829.

[4] Bəzi müəlliflər özünümüdafiəni mülki hüquqların müdafiə forması yox, müdafiə üsulu hesab edirlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 98; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой и др.* М., 1998, с. 57; Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 14). RF-in MM-i də belə mövqe tutur (12-ci maddə). Göstərilən mövqeni haqiqətə uyğun hesab etmək olmaz. Belə ki, nə qədər bir-birinə yaxın olsalar da, «müdafiə forması» və «müdafiə üsulu» kimi iki anlayışı eyniləşdirmək və bərabər tutmaq olmaz. Müdafiə forması prosessual və ya prosedura qaydasıdır. Müdafiə üsulu isə məcburi xarakterli maddi-hüquqi tədbirdir.

§ 2. Mülki hüquqların müdafiə üsulları

1. Mülki hüquqların müdafiə üsulunun anlayışı

«Mülki hüquqların müdafiə forması» və «mülki hüquqların müdafiə üsulu» anlayışları arasındakı münasibət fəlsəfi baxımdan forma və məzmun kateqoriyaları arasında əlaqə kimidir. Belə ki, mülki hüquqların müvafiq forması əgər formadırsa, mülki hüquqların müdafiə üsulu məzmundur. Bu iki anlayış forma və məzmun kimi bir-birilə sıx surətdə bağlıdır.

Mülki hüquqların müdafiə üsulları dedikdə, qanunda nəzərdə tutulan məcburi xarakterli elə maddi-hüquqi tədbirlər başa düşülür ki, bu tədbirlərin köməyilə pozulan mülki hüquqlar bərpa edilir və ya mübahisə edilən hüquqlar tanınır, həmçinin hüquq pozuntusu törədən şəxsə təsir göstərilir[2]. Bu üsulların əsas xüsusiyyəti onunla şərtlənir ki, onlar hüquqqoruyucu xarakterli tədbirlərdir. Bu tədbirlərin vasitəsilə subyektiv mülki hüquqlar müdafiə olunur, hüquqların pozulması aradan qaldırılır.

Mülki hüquqların müdafiə üsullarının əhatə dairəsi kifayət qədər genişdir. Köhnə mülki qanunvericilik bu üsulların təxmini və qəti olmayan siyahısını verirdi (1964-cü il MM-in 6-cı maddəsi). Həmin siyahıda nisbətən daha geniş yayılmış müdafiə üsulları göstərilirdi. RF-in müasir qanunvericiliyi köhnə qanunvericilik ənənələrinə sadiq qalaraq, mülki hüquqların müdafiə üsullarının siyahısını nəzərdə tutur (RF MM-in 12-ci maddəsi). Bunun isə müəyyən əhəmiyyəti vardır. Belə ki, həmin siyahı hüququ pozulmuş şəxsə öz hüquqlarını bərpa etmək üçün mümkün olan müdafiə üsulunu seçməyə imkan verir. Daha doğrusu, bu siyahı düzgün istiqamət götürməyə imkan verən vasitə rolunu oynayır.

Amma bizim ölkənin yeni Mülki Məcəlləsi köhnə qanunvericilikdən, habelə RF-in mövcud MM-dən fərqli olaraq, mülki hüquqların müdafiə üsullarının siyahısını vermir. Bu cür mövqe onunla izah edilir ki, **həmin üsulların məzmunu və tətbiq olunma qaydası mülki qanunvericiliyin ayrı-ayrı normalarında konkret olaraq göstərilir.** Belə ki, mülki hüquqların konkret müdafiə üsulları əqd institutuna, əşya hüququ və öhdəlik hüququ kimi yarımsahələrə aid olan normalarda nəzərdə tutulur. Buna əsaslanaraq mülki hüquqların müdafiə üsullarının təxmini siyahısını verə bilərik:

- hüquqların tanınması (MM-in 157-ci maddəsinin 1-ci bəndi);
- hüquqların pozulmasınadək mövcud olan ilkin vəziyyətin bərpa olunması (MM-in 157-ci maddəsinin 2-ci bəndi və 459-cu maddəsi);
- hüquqları pozan hərəkətlərin qarşısının alınması (MM-in 157-ci maddəsinin 4-cü bəndi);
- vəzifənin icrasının natura ilə müəyyən edilməsi (MM-in 450-ci maddəsi);

[1] *Jauering O.* Bürgerliches Gresetzbuch mit Erläuterungen. 1997; *А.Жалинский, А.Рорихт.* Введение в немецкое право. М., 2001, с. 309.

[2] Mülki hüquq elmində mülki hüquqların müdafiə üsullarına bu cür və ya buna oxşar qaydada doktrinal (elmi) anlayış verilir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 284; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 410).

• mülki hüquq münasibətinin xitam edilməsi (MM-in 556-cı maddəsinin 1-ci bəndi);

• mülki hüquq münasibətinin dəyişməsi (MM-in 529-cu maddəsinin 8-ci bəndi);

• hüququ pozmuş şəxsdən vurduğu zərərin əvəzinin alınması (MM-in 21-ci maddəsi);

• hüququ pozmuş şəxsdən dəbbə pulu (penya, cərimə) alınması (MM-in 462-ci-467-ci maddələri);

• dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının mülki qanunvericiliyə uyğun gəlməyən aktının məhkəmə tərəfindən etibarsız sayılması (MM-in 19-cu maddəsi);

• mübahisə edilən (nisbi etibarsız) əqdlərin etibarsız hesab edilməsi və onun etibarsızlığı nəticələrinin tətbiq olunması, puç (mütləq etibarsız) əqdlərin etibarsızlığı nəticələrinin tətbiq edilməsi;

• mənəvi zərərin (ziyanın) kompensasiya edilməsi (MM-in 23-cü maddəsinin 4-cü bəndi);

• qanunda nəzərdə tutulan digər üsullar.

Mülki hüquqların müdafiə üsulları mülki-hüquqi sanksiyalar (latınca «sanctio» — ciddi qərar)[1] anlayışı ilə əhatə olunur. **Mülki-hüquqi sanksiyalar** dedikdə, qanunda və ya müqavilədə nəzərdə tutulan elə müəyyən nəticələr başa düşülür ki, borclu öz vəzifəsini icra etmədikdə və ya lazımınca icra etmədikdə onun üçün bu cür nəticələr əmələ gəlir. Onlar iki yerə bölünür: müdafiə tədbirləri; məsuliyyət tədbirləri[2]. Bunlar bir-birindən tətbiq olunma əsaslarına, sosial təyinatına və yerinə yetirdikləri funksiyalara, həyata keçirilmə prinsiplərinə və digər cəhətlərə görə fərqlənir.

Müdafiə tədbirləri odur ki, onlar, birincisi, ya hüquqların pozulmasının qarşısının alınmasına və aradan qaldırılmasına, ikincisi, ya pozulmuş mənafeyin bərpa edilməsinə, üçüncüsü, ya da hüquq qaydasının müdafiə edilməsinə yönəlir. Bu cür tədbirlərin tətbiq edilməsi, bir qayda olaraq, **hüquq pozuntusu törədən şəxs üçün mənfi əmlak nəticəsi yaratmır.** Müdafiə tədbirləri həmişə bu şəxsin davranışının tənbeh edilməsi ilə bağlı olmur.

Məsuliyyət tədbirləri odur ki, bu tədbirlər hüquq pozuntusu törədən şəxs üçün əlavə yük və arzuolunmaz mənfi nəticələr əmələ gətirir. Bu yük və nəticələr hüquq pozuntusu törədən şəxsin üzərinə müəyyən **əlavə hüquqi vəzifə qoymaqda və ya onu müəyyən subyektiv mülki hüquqdan məhrum etmədə ifadə oluna bilər.** Məsuliyyət tədbirləri törədilmiş mülki hüquq pozuntusuna görə təqsirkar şəxsə tətbiq edilən tənbeh və cəza kimi özünü göstərir. Onlar həmişə bu şəxsin davranışının və hüquq pozuntusunun özünün tənbeh edilməsi ilə müşayiət olunur.

Mülki hüquqların müdafiə üsullarının göstərilən siyahısında **yalnız üç üsul (sanksiya) məsuliyyət tədbirlərinə aid edilir: zərərin əvəzinin ödənilməsi; dəbbə pulu (cərimə, penya) alınması; mənəvi zərərin kompensasiya edilməsi.** Həmin siyahıda göstərilən digər üsullar isə müdafiə tədbirlərinə şamil edilir. Deməli, gördüyümüz kimi, müdafiə üsulları (sanksiyalar) öz hüquqi təbiətinə görə eyni deyildir. Bu cəhət isə həmin üsulların (sanksiyaların) həyata keçirilmə imkanına mühüm dərəcədə təsir göstərir.

Məlum məsələdir ki, müvafiq hüquq pozulduğu halda, bütün müdafiə tədbirləri yox, yalnız bu hala uyğun olan konkret müdafiə üsulu seçilir. Özü də çox vaxt pozulmuş hüququn müdafiə üsulu xüsusi qanunla birbaşa müəyyən edilir. Məsələn, müəlliflik hüququnun sahibi müəlliflik hüquqlarını pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb edə bilər[1]. Bu halda hüquqları pozan hərəkətlərin qarşısını almaq kimi üsuldan istifadə edilir. Pozulmuş hüququn müdafiə üsulu birbaşa Mülki Məcəllədə də göstərilə bilər. Məsələn, mülkiyyət hüququ barədə mübahisə edildiyi halda hüququn tanınması kimi müdafiə üsulu tətbiq edilir (MM-in 157-ci maddəsinin 1-ci bəndi). Mülkiyyətçinin əmlakı özgə şəxsin qanunsuz sahibliyinə keçdikdə və bununla mülkiyyət hüququ pozulduğu halda isə hüququn pozulmasınadək olan ilkin vəziyyəti bərpa etmək kimi müdafiə üsulundan istifadə olunur (MM-in 157-ci maddəsinin 2-ci bəndi).

Əgər qanunun xüsusi normalarında pozulmuş hüququn konkret müdafiə üsulu göstərilməzsə, onda müvafiq hüquq pozuntusuna uyğun gələn müdafiə üsulu seçilir. Konkret müdafiə üsulunun seçilməsi və tətbiq olunma qaydası, əsasən, iki amildən asılıdır. Birinci amil **müdafiə olunan subyektiv hüququn məzmunundan** ibarətdir. Bu, konkret müdafiə üsulunun seçilməsinə mühüm dərəcədə təsir göstərir. Məsələn, öhdəlik hüquq münasibətləri üzrə tərəflərin əmlak xarakterli hüquqları pozulduqda, zərərin əvəzini ödəmə və dəbbə pulu (cərimə, penya) alınması kimi müdafiə üsulları seçilir. Şəxsi qeyri-əmlak hüquqları (məsələn, fiziki şəxsin şərəf və ləyaqəti və ya işgüzar nüfuzu və s.) pozulduğu halda isə mənəvi zərərin kompensasiyası və hüquqları pozan hərəkətlərin qarşısının alınması kimi müdafiə üsulları tətbiq edilir.

İkinci amil müdafiə olunan **subyektiv hüququn pozulmasının (hüquq pozuntusunun) xarakterindən** asılıdır. Belə ki, hüquq pozuntusu nəticəsində subyektiv hüququn mövcudluğuna son qoyulur və buna görə də hüququn pozulmasınadək olan ilkin vəziyyəti bərpa etmək mümkün olmur. Bu halda pozulmuş mülki hüquq zərərin əvəzini ödəmə, zərərin naturada ödənilməsi, dəbbə pulu (penya, cərimə) alınması və digər üsulların vasitəsilə müdafiə edilir. Məsələn, vətəndaş əşyanı öz qonşusuna əvəzsiz istifadəyə verir. Qonşunun təqsiri üzündən əşya yanır. Belə halda əşyanın özünü qaytarmaq mümkün olmadığına görə o, vətəndaşa dəyən zərərin əvəzini ödəyir.

2. Konkret müdafiə üsulları

Mülki hüquqların müdafiə üsulları bir-birindən yerinə yetirdiyi funksiyaya, sosial təyinatına, tətbiq olunma qaydasına və digər cəhətlərə görə fərqlənir. Bu üsulları bir-birindən ayırmağa imkan verən əlamətləri aydınlaşdırmaq üçün,

[1] bax: Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина и др.* М., 1985, с. 442.

[2] Sivilistika doktrinasında (mülki hüquq elmində) mülki hüquqların müdafiə üsullarının (mülki-hüquqi sanksiyaların) bu qaydada iki yerə bölünməsi kifayət qədər tutarlı dəlil və arqumentlərlə əsaslandırılmışdır (bax: *Красавчиков О.А.* Ответственность, меры защиты и санкции в советском гражданском праве // Сборник ученых трудов. Вып. № 39. Свердловск, 1975, с. 11-12).

[1] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 44-cü maddəsinin 1-ci bəndi // AR QK, III cild, s. 228.

habelə həmin üsulların əsl mahiyyətini müəyyənləşdirmək üçün onların hər birinə hüquqi xarakteristika verməyə çalışaq.

Hüquqların tanınması mülki hüquqların müdafiə üsulu kimi mühüm rol oynayır. Özü də dərhal qeyd etməliyik ki, şəxsin konkret subyektiv mülki hüququ hələlik birbaşa pozulmadığı hallarda bu üsuldan istifadə olunur, yəni həmin üsulun tətbiq edilməsi üçün şəxsin subyektiv mülki hüququnun birbaşa pozulması tələb olunmur. Bu üsuldan o halda istifadə edilir ki, şəxsin subyektiv hüququnun mövcudluğu digər maraqlı şəxs tərəfindən inkar edilir, ona şübhə ilə yanaşılır, bu hüquq mübahisə edilir. Məsələn, vətəndaş özünə bağ evi tikdirən zaman öz qonşusunu köməyə çağırır. Bağ evi tikilib hazır olduqda, qonşu mübahisə edir ki, həmin evə mülkiyyət hüququ ona məxsusdur. O, vətəndaşın mülkiyyət hüququnu inkar edir. Vətəndaş məhkəməyə müraciət edir. Məhkəmə vətəndaşın bağ evinə olan mülkiyyət hüququnun tanınması barədə qərar qəbul edir.

Hüquqların tanınması üsulu **yalnız məhkəmə yurisdiksiya formasında** həyata keçirilə bilər. Bu üsulun qeyri-yurisdiksiya formasında tətbiq edilməsi istisna olunur.

Hüquqların tanınması üsulu ilə, bir qayda olaraq, **mülkiyyət hüququ müdafiə edilir**. Bu üsul digər **mütləq hüquqların müdafiə edilməsində** də istifadə oluna bilər. Məsələn, iki şəxs müəyyən əsərə müəlliflik hüququ barədə mübahisə edirlər. Bununla belə, nisbi hüquqlar da hüquqların tanınması üsulu ilə müdafiə edilə bilər. Bu üsul həm müstəqil surətdə, həm də digər müdafiə üsulları ilə birlikdə tətbiq edilə bilər.

Hüquqların pozulmasınadək mövcud olan ilkin vəziyyətin bərpa edilməsi mülki hüquqların əsas müdafiə üsullarından biridir. Bu üsul o halda tətbiq olunur ki, bir tərəfin törətdiyi hüquq pozuntusu nəticəsində başqa şəxsin hüquqları və qanuni mənafeyi məhdudlaşır, onun əmlak vəziyyəti hüquqazidd olaraq dəyişir. Belə halda törədilən hüquq pozuntusu nəticəsində subyektiv mülki hüququn mövcudluğuna son qoyulmur və məhz bu səbəbdən həmin hüquq törədilmiş hüquq pozuntusunun nəticələrini aradan qaldırmaq yolu ilə real olaraq bərpa edilə bilər.

Göstərilən üsul **həm yurisdiksiya formasında, həm də qeyri-yurisdiksiya formasında** həyata keçirilə bilər. Bu üsuldan həm əşya (mülkiyyət) hüquqlarının, həm də öhdəlik hüquqlarının müdafiə olunmasında istifadə edilməsi istisna olunmur. Məsələn, hər hansı vətəndaş mülkiyyətçinin əşyasını oğurlayır və onun qanunsuz sahibi olur. Bunu bilən kimi mülkiyyətçi öz əşyasını həmin vətəndaşın qanunsuz sahibliyindən tələb edir. Vətəndaş tələbi yerinə yetirərək, əşyanı mülkiyyətçinin özünə qaytarır və mülkiyyət hüququnun pozulmasınadək mövcud olan ilkin vəziyyət bərpa olunur. Bu halda qeyri-yurisdiksiya formasında pozulmuş mülkiyyət hüququ bərpa olunur. Digər misalda satıcı alıcını aldadaraq, ona şəklin əsli (orijinalı) əvəzinə, yaxşı işlənilmiş surətini verir. Bunu bilən kimi alıcı şəklin surətini qaytarıb pulunu almaq istəyir. Amma satıcı onu götürmür. Alıcı məhkəməyə müraciət edir. Məhkəmənin müvafiq qərarı ilə alıcının ilkin vəziyyəti bərpa olunur, yəni onun satıcıya verdiyi pul özünə qaytarılır. Bu halda isə alıcının pozulmuş öhdəlik hüququ yurisdiksiya formasında göstərilən üsuldan istifadə olunmaqla müdafiə olunur.

Hüquqları pozan hərəkətlərin qarşısının alınması mülki hüquqların müdafiə üsullarından biridir. Bu üsuldan, əsasən, hüquqların uzun müddətə (davam edən müddətə) pozulması hallarında (uzun sürən və davam edən hüquq pozuntusu törədilən hallarda) istifadə olunur. Bunun nəticəsində hüququn həyata keçirilməsinə əngəl olan maneələr aradan qaldırılır ki, bu maneələri hüquq pozuntusu törədən şəxs yaradır. Həmin maneələr subyektiv hüququn mövcudluğuna son qoymasa da, bu hüquqdan normal istifadəyə mane olur. Belə halda hüququ pozulmuş şəxs bu maneələrin, yəni hüququ pozan hərəkətlərin aradan qaldırılmasını tələb edə bilər. Məsələn, təmir-tikinti təşkilatının işçiləri vətəndaşın yaşadığı evin həyətində müəyyən yeri qazırlar. İş qurtardıqdan sonra isə onlar qazdıqları yeri doldurmurlar. Bu isə vətəndaşın yaşayış evindən normal istifadə etməsinə mane olur, onun mülkiyyət hüququnu pozur. Vətəndaş tikinti təşkilatından tələb edir ki, o, hüquq pozuntusunu aradan qaldırsın.

Göstərilən üsul, adətən, müstəqil surətdə tətbiq edilir. Bununla belə, həmin üsuldan digər müdafiə üsulları ilə birlikdə də (məsələn, zərərin əvəzinin ödənilməsi, dəbbə pulu alınması) istifadə oluna bilər. Bu üsulun **həm yurisdiksiya, həm də qeyri-yurisdiksiya formasında** həyata keçirilməsi mümkündür.

Vəzifənin icrasının natura ilə müəyyən edilməsi əsas müdafiə üsullarından biri hesab edilir. Bu üsul vasitəsi ilə, bir qayda olaraq, öhdəlik hüquq münasibətlərindən (öhdəliklərdən) əmələ gələn hüquqlar müdafiə edilir. Həmin üsulun mahiyyəti ondan ibarətdir ki, öhdəlik hüquq münasibətində tərəf qismində çıxış edən borclu şəxs məhz həmin münasibətin məzmununda nəzərdə tutulan hərəkətləri etməklə öz vəzifəsini icra etməlidir, yəni real olaraq əşya verməli, iş görməli, xidmət göstərməli, pul ödəməli və digər hərəkətləri yerinə yetirməlidir. Buna görə də göstərilən üsula əsasən, vəzifənin naturada icrasının pul kompensasiyası ilə (zərərin əvəzinin ödənilməsi ilə) əvəz edilməsinə yol verilmir. Məsələn, kirayə müqaviləsinin müddəti başa çatdıqda, kirayəçi kirayəyə götürdüyü əşyanı naturada (həmin əşyanın özünü) kirayəyə verənə qaytarmaqla öz vəzifəsini icra etməlidir. Onun ixtiyarı yoxdur ki, əşyanın qiymətini ödəməklə öz vəzifəsini yerinə yetirsin. Ola bilər ki, vəzifənin naturada icrası obyektiv səbəblərdən mümkün olmasın. Məsələn, yuxarıdakı misalda kirayəyə götürülən əşyanın mövcudluğuna zəlzələ nəticəsində son qoyulur. Belə halda hüququ pozulmuş şəxs (kirayəyə verən) başqa müdafiə üsulu seçə bilər (məsələn, zərərin əvəzinin ödənilməsi formasında və s.).

Mülki hüquq münasibətinin xitam edilməsi xüsusi xarakterli müdafiə üsuludur. Bu üsul çox vaxt **yurisdiksiya formasında** həyata keçirilir. Bu, mülki hüquq münasibətinin məcburi surətdə və qaydada xitam olunması ilə bağlıdır. Amma həmin üsulun qeyri-yurisdiksiya formasında həyata keçirilməsi prinsip etibarilə mümkündür. Belə ki, hüququ pozulmuş şəxs özünün müstəqil hərəkətləri ilə həmin üsulu tətbiq edə bilər. Məsələn, renta ödəyicisi ömürlük renta müqaviləsini əhəmiyyətli dərəcədə pozduqda renta alan şəxs ömürlük renta müqaviləsini ləğv edə bilər (MM-in 879-cu maddəsinin 1-ci bəndi). Belə halda məhkəməyə müraciət edilməsi tələb edilmir.

Göstərilən üsulla hüquqlar o halda müdafiə edilir ki, müvafiq hüquq münasibətinə xitam verilməsinə əsas olan hüquqi fakt müəyyənləşdirilsin. Məsələn,

podratçının (tikinti təşkilatının) tikdiyi yaşayış evi zəlzələ nəticəsində dağılıb yerlə-yeksan olur. Buna görə o, öhdəliyi icra edə bilmir. Öhdəliyin icrasının bu cür mümkün olmamasına görə podratçı sifarişçi qarşısında məsuliyyət daşımır. Podrat müqaviləsi üzrə mülkü hüquq münasibətinə xitam verilir. Başqa misalda əşyanın keyfiyyətinə aid tələblər mühüm dərəcədə pozulduqda, alıcı alqı-satqı müqaviləsinin icrasından imtina edə və əşya üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər (MM-in 587-ci maddəsinin 2-ci bəndi). Daha bir misalda renta ödəyicisi öz vəzifələrini yerinə yetirmədikdə, renta alan renta müqaviləsini ləğv edə bilər (MM-in 869-cu maddəsinin 3-cü bəndi).

Mülki hüquq münasibətinin dəyişməsi də xüsusi xarakter daşıyan müdafiə üsulu sayılır. Bu üsul müvafiq hüquq münasibətinin dəyişməsinə əsas olan hüquqi fakt müəyyənləşdirilən hallarda tətbiq edilir. Məsələn, saxlamaya verilmiş əşya məhv olur. Məlum məsələdir ki, həmin əşyanın özünü qaytarmaq mümkün deyil. Belə halda tərəflər razılığa gəlirlər ki, saxlayan şəxs məhv olmuş əşyanın əvəzinə, ona qiymətcə bərabər tutulan başqa əşya versin.

Hüququ pozulmuş şəxsdən **dəbbə pulu (cərimə, penya) alınması** mülki hüquqları müdafiə etmək üçün tətbiq edilən nisbətən geniş yayılmış üsullardan biridir. Dəbbə pulu (cərimə, penya) müqavilə ilə müəyyənləşdirilən elə pul məbləğidir ki, bu məbləği öhdəliyi icra etmədiyi və ya lazımınca icra etmədiyi, o cümlədən icranı gecikdirdiyi üçün borclu şəxs səlahiyyətli şəxsə (kreditora) ödəyir. O, xüsusi məsuliyyət tədbiridir. Belə ki, **dəbbə pulu yalnız qanunda və ya müqavilədə nəzərdə tutulduğu halda tətbiq edilir**. Dəbbə pulu (cərimə, penya) əmələ gəlmə əsasına görə iki cür olur: qanundan əmələ gələn dəbbə pulu; müqavilədən əmələ gələn dəbbə pulu. **Qanundan əmələ gələn dəbbə pulu** onunla xarakterizə olunur ki, borclunun bu cür dəbbə pulunu ödəməsi birbaşa hüquq normaları ilə müəyyən edilir. **Müqavilədən əmələ gələn dəbbə pulunu** isə tərəflərin (müqavilə iştirakçılarının) özləri müəyyənləşdirirlər[1]. Məsələn, bankla kredit alan müəssisə kredit müqaviləsində belə bir şərt barədə razılığa gəlirlər ki, müəssisə kreditin qaytarılmasının hər gecikdirilən günü üçün kredit məbləğinin 0,5%-i həcmində penya (dəbbə pulu) ödəyəcəkdir.

Dəbbə pulunun (cərimə, penyanın) əsas cəhəti ondan ibarətdir ki, səlahiyyətli şəxsin (hüququ pozulan şəxsin) əmlak mənafeyi onun düşdüyü maddi (əmlak) itkinin pulla kompensasiya edilməsi ilə təmin olunur.

Zərərin əvəzini ödəmə ən universal və geniş yayılmış müdafiə üsuludur[2]. Əgər dəbbə pulu xüsusi məsuliyyət tədbiridirsə, zərərin əvəzini ödəmə ümumi məsuliyyət tədbiri hesab edilir. Buna görə də o, istənilən öhdəlik hüquq münasibəti pozulduğu halda tətbiq edilir. Bu məsuliyyət tədbirindən həm müqavilə, həm də müqavilədənkənar münasibətlər sahəsində hüquqlar pozulduğu məqamlarda istifadə oluna bilər.

Zərərin əvəzini ödəmə üsulu üçün hüquq pozuntusu törədən şəxsin hüququ pozulan şəxsə (zərərçəkənə) pul ödəməsi və ya digər əmlak verməsi xarakterikdir. Buna görə də bu üsul həmişə **əmlak (maddi) xarakteri** daşıyır.

Zərərin əvəzini ödəməklə hüquq pozuntusu törədən şəxs zərərçəkən şəxsin əmlak vəziyyətini öz ilkin vəziyyətinə (hüquq pozuntusu törədilənə kimi mövcud olan vəziyyətə) qaytarır. Buna görə də zərərin əvəzini ödəmə üsulu həmişə **kompensasiya xarakteri** daşıyır.

Zərərin əvəzini ödəmə üsulu o halda tətbiq edilir ki, şəxs törədilmiş hüquq pozuntusundan zərərə düşsün. **Zərər** dedikdə, hüquq pozuntusu nəticəsində hüququ pozulmuş şəxs (zərərçəkən) üçün mənfi nəticə yaranması başa düşülür. Bu nəticə isə real zərər və əldən çıxmış fayda adlı iki hissədən ibarətdir. Məsələn, vətəndaş taxtadan tikilmiş bağ evini kirayəyə götürür. Onun təqsiri üzündən həmin evin bir hissəsi yanır. Bağ evi iki ay təmir edilir. Belə halda kirayəçi bağ evinin təmirinə çəkilən xərcin (real zərərin) əvəzini, habelə iki aylıq kirayə haqqını (əldən çıxmış faydanı) ödəyir.

Zərərin əvəzi, o cümlədən dəbbə pulu (penya, cərimə) könüllü surətdə və ya məcburi qaydada (məhkəmə yolu ilə) ödənilə bilər.

Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının aktının etibarsız sayılması müdafiə üsulu kimi böyük rol oynayır. Belə ki, bəzən dövlət hakimiyyəti orqanı və ya yerli özünüidarə orqanı mülki qanunvericiliyə uyğun gəlməyən və ona zidd olan qeyri-normativ xarakterli akt qəbul edir. **Qeyri-normativ akt** dedikdə, dəfələrlə təkrar olunmaq üçün verilməyən, fərdi-bir-dəfəlik xarakter daşıyan, konkret şəxslərə (şəxslər qrupuna) ünvanlanan və ümumməcburi qayda (hüquq norması) müəyyənləşdirməyən akt başa düşülür. Həmin aktlar fiziki və ya hüquqi şəxslərin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozur. Belə halda hüququ pozulmuş şəxs həmin aktın etibarsız sayılması barədə məhkəməyə şikayət verə bilər (MM-in 19-cu maddəsi)[1]. Bu qayda Konstitusiyanın belə bir normasını inkişaf etdirir ki, hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər[2].

Məhkəmə qərarı qeyri-normativ aktın etibarsız hesab edilməsi üçün əsasdır. Məsələn, şəhər icra hakimiyyəti orqanı qanuni əsas olmadan vətəndaşa məxsus olan tikilinin məcburi surətdə alınması barədə qərar qəbul edir. Mülki qanunvericiliyin tələblərini pozan bu akt vətəndaşın şikayəti əsasında məhkə-

[1] Dəbbə pulu (penya, cərimə) barədə dərsliyin «Öhdəliklərin icrasının təmin edilməsi» fəslində ətraflı və geniş surətdə söhbət açılmışdır.

[2] Bu məsələ dərsliyin «Mülki-hüquqi məsuliyyət» adlı fəslində geniş şəkildə işıqlandırılmışdır.

[1] Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququ var ki, dövlət orqanlarının və ya yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin qərar və hərəkətləri (hərəkətsizliyi) nəticəsində onun hüquq və azadlıqları pozulduqda, məhkəməyə şikayət versin (bax: «Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında» 11 iyun 1999-cu il tarixli qanunun 1-ci və 2-ci maddələri // AR QK, III xüsusi buraxılış, s. 131).

[2] bax: Konstitusiyanın 60-cı maddəsinin 2-ci hissəsi (AR QK, II cild, s. 582). Vətəndaşın qanunvericilikdə nəzərdə tutulan qaydada məhkəmə şikayət vermək hüququ «Vətəndaşların müraciatlarına baxılması qaydası haqqında» qanunun 9-cu maddəsində də möhkəmləndirilmişdir (bax: AR QK, III cild, s. 469). Bundan əlavə, hüquqazidd hərəkətlərdən məhkəməyə edilmiş şikayətlərə baxılması məsələsinə Ali Məhkəmə Plenum qərarları xüsusi diqqət yetirir (Постановление Пленума ВС РФ от 21 декбаря 1993 г. № 10. действующем с изменениями и дополнениями, внесенными постановлением от 25 октября 1996 г.№ 10. «О рассмотрении судами жалоб на неправомерные действия, нарущающие права и свободы граждан» (Сборник постановлений Пленума Верховного Суда РФ за 1961-1996 гг. 1997).

mə tərəfindən etibarsız hesab edilir.

Məlum məsələdir ki, dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının mülki qanunvericiliyə zidd olan qeyri-normativ aktının qəbul edilməsi nəticəsində fiziki və hüquqi şəxsə zərər dəyə bilər. Bu zərərin əvəzini dövlət (Azərbaycan Respublikası) və ya bələdiyyə ödəməlidir (MM-in 1100-cü maddəsi).

Mübahisə edilən əqdlərin etibarsız hesab edilməsi və onların etibarsızlığı nəticələrinin tətbiq olunması, puç əqdlərin etibarsızlığı nəticələrinin tətbiq edilməsi kimi müdafiə üsulu hüquqi mahiyyətcə hüquqların pozulmasınadək mövcud olan ilkin vəziyyətin bərpa edilməsi üsulu ilə üst-üstə düşür. Bu üsulun tətbiqi nəticəsində əqd iştirakçılarından hər biri aldıqlarının hamısını digər tərəfə eyni ilə qaytarır (ikitərəfli restitusiya). Odur ki, həmin üsulun tətbiq edilməsi ilkin vəziyyətin bərpa edilməsinə səbəb olur. Buna görə də mülki hüquq elmində həmin üsul hüquqların pozulmasınadək mövcud olan vəziyyətin bərpa edilməsi üsulunun xüsusi halı hesab edilir[1].

Mənəvi ziyanın kompensasiya edilməsi mülki müdafiə üsullarından biridir. Mənəvi ziyan və ya mənəvi zərər qeyri-maddi, qeyri-əmlak zərəri hesab edilir. Mülki Məcəllə nəinki mənəvi zərərə (ziyana) leqal anlayış vermir, hətta bu anlayışın adını çəkmir, «mənəvi zərər» terminini işlətmir. Bu terminə biz yalnız xususi qanunlarda rast gəlirik[2]. Elə bu qanunların birində mənəvi ziyana anlayış verilir[3].

Şəxsin barəsində mənfi fikrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfi nəticələrə mənəvi ziyan deyilir. Bunu əhatəli, uğurlu və dolğun anlayış hesab etmək olmaz. Zənn edirik ki, RF-in Ali Məhkəmə Plenumunun qərarında mənəvi zərərə verilən anlayış daha uğurludur. **Mənəvi zərər** dedikdə, vətəndaşlara məxsus qeyri-maddi nemətlərə qəsd edən və ya vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarını və ya əmlak hüquqlarını pozan hərəkət (hərəkətsizlik) nəticəsində onlara verilən mənəvi-fiziki iztirab (sarsıntı, əzab-əziyyət) başa düşülür[4]. Bu iztirabın fiziki şəxsə vurduğu zərərin əvəzinin pulla ödənilməsi mənəvi ziyanın kompensasiya edilməsi üsulunun mahiyyətini təşkil edir.

Göstərilən üsuldan, bir qayda olaraq, şəxsi qeyri-əmlak hüquqları pozulduğu hallarda istifadə edilir. Digər subyektiv mülki hüquqlar pozulduğu zaman bu üsul yalnız o halda tətbiq edilə bilər ki, o, qanunda birbaşa nəzərdə tutulsun. Özü də həmin üsul yalnız fiziki şəxslərə tətbiq edilir. **Hüquqi şəxslərə münasibətdə mənəvi zərərin kompensasiya edilməsi üsulundan istifadə olunmur**. Ona görə ki, hüquqi şəxs psixoloji-fizioloji varlıq olmadığına görə ona fiziki-mənəvi iztirab formasında zərər vurulmur[1].

Beləliklə, subyektiv mülki hüquqlar qanunda nəzərdə tutulan bir sıra üsullarla müdafiə olunur. Mülki qanunvericilik bu üsulların siyahısını vermir. Bizim verdiyimiz siyahı isə **müdafiə üsullarının qeyri-qəti, dəqiq olmayan təxmini siyahısıdır**. Belə çıxır ki, şəxs qanunda göstərilən istənilən müdafiə üsulundan istifadə etməklə öz subyektiv mülki hüquqlarını müdafiə edə bilər. Amma tətbiq olunan bu üsullar həmişə istisnasız olaraq, qanuna, ictimai qaydaya və əxlaqa zidd olmamalıdır (MM-in 18-ci maddəsi). Digər tərəfdən bu üsullar qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilməlidir. Əsas və başlıca məsələ bundadır.

§ 3. Özünüqoruma (özünümüdafiə, Selbstverteidigung) mülki hüquqların qeyri-yurisdiksiya müdafiə forması kimi

1. Mülki hüquqda özünüqoruma (mülki-hüquqi özünümüdafiə) anlayışı

Özünüqoruma (özünümüdafiə) mülki hüquqların qeyri-yurisdiksiya müdafiə formalarından biridir. Bu forma onunla xarakterizə olunur ki, səlahiyyətli şəxs müstəqil hərəkətləri və şəxsi səyləri ilə subyektiv mülki hüquqlarını müdafiə edir. Özünüqoruma müdafiə forması **həm məhkəmə yurisdiksiyasından, həm də inzibati yurisdiksiyadan istifadə edilməsini istisna edir**. Belə ki, səlahiyyətli şəxs məhkəməyə və ya mülki hüquqların müdafiəsini həyata keçirən digər hər hansı orqana müraciət etmədən öz hüquqlarını müdafiə edir.

Özünüqoruma (özünümüdafiə) anlayışı müasir qanunvericiliyə, necə deyərlər, köhnə qanunvericilikdən «miras» qalmamışdır. Sovet qanunvericiliyi bu anlayışı, ümumiyyətlə, nəzərdə tutmurdu. Amma sovet dövrünün sivilistika elmi özünüqorumaya mülki hüquqların müdafiə forması kimi xüsusi əhəmiyyət verirdi[2]. Hüquq ədəbiyyatı səhifələrində onu xarakterizə edən əsas cəhətlərin müəyyənləşdirilməsinə xüsusi təşəbbüs göstərilirdi.

Bizim ölkənin, o cümlədən RF-in müasir qanunvericiliyinə özünüqoruma anlayışı Almaniya mülki qanunvericiliyindən keçmişdir. Belə ki, Almaniya Mülki Qanunnaməsinin «Ümumi hissə» adlı birinci kitabının 6-cı bölməsində ifadə olunan müvafiq normalar özünüqorumanın (özünümüdafiənin) tənzimlənməsinə həsr edilmişdir[3]. Qanunnamənin 227-ci, 228-ci və 229-cu paraqraflarında özünüqorumanı (Selbstverteidigung) nizama salan qaydalar ifadə olunmuşdur. Bu qaydalar həm RF-in qanunvericiliyi, həm də bizim ölkə qanunvericiliyi tərəfindən əsasən qəbul edilmişdir.

---

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 228.

[2] bax: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 12-ci maddəsi // AR QK, II cild, s. 556.

[3] bax: «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» qanunun 7-ci maddəsi // AR QK, III xüsusi buraxılış, s. 63.

[4] bax: Постановления Верховного Суда РФ от 20 декабря 1994 г. «Некоторые вопросы применения законодательства о компенсации морального вреда» (Бюллетень ВС РФ, 1995, № 3, с. 9).

[1] Mənəvi zərərin məna və mahiyyətinə dərsliyin «Şəxsi qeyri-əmlak hüququ» adlı fəslində geniş surətdə aydınlıq gətirildiyinə görə burada həmin məsələ barədə qısaca danışmağı lazım bildik.

[2] bax: *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972, с.152; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 98.

[3] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6; Германское право. Гражданское уложение. Часть 1. М., 1996; *Heinrichs H. // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München, 1999, s. 214.

Bizim ölkə qanunvericiliyi özünüqorumanın leqal anlayışını nəzərdə tutmur, ona hüquqi xarakteristika verilməsinə imkan verən əsas və başlıca əlamətləri müəyyənləşdirmir. Hüquq ədəbiyyatı səhifələrində özünüqorumanın doktrinal (elmi) tərifi barədə bir sıra təkliflərə rast gəlirik. Amma bunlar arasında V.P.Qribanovun formulə etdiyi anlayış nisbətən daha geniş yayılmışdır. Mülki hüquq elmində hal-hazırda müasir müəlliflər prinsip etibarilə bu anlayışdan istifadə edirlər[1].

Mülki hüquqların özünüqoruma müdafiə forması dedikdə, səlahiyyətli şəxsin öz şəxsi və ya əmlak hüquqlarının və yaxud mənafeyinin qorunmasına yönələn, qanunla qadağan edilməyən faktiki xarakterli hərəkətlər etməsi başa düşülür[2]. Özünüqorumaya Almaniya hüquq ədəbiyyatı səhifələrində də doktrinal anlayış verilir. L.Ennekserus yazır ki, özünüqoruma hücuma (qəsdə) qarşı mövcud vəziyyəti, habelə sahibliyi saxlamaqdır. Onun vasitəsilə yalnız mövcud vəziyyət müdafiə edilir[3].

Özünüqoruma bir neçə şərtə (tələbə) riayət edilməklə həyata keçirilə bilər. Bu şərtlər (tələblər) mülki hüquq elmində müəyyən edilmişdir. Əgər bu şərtlərə əməl olunmazsa, özünüqorumadan mülki hüquqların müdafiə forması kimi istifadə edilməsindən söhbət gedə bilməz.

Birincisi, **özünüqoruma yalnız qanunla qadağan edilməyən hərəkətlərin vasitəsilə həyata keçirilə bilər**. Bu müdafiə forması üçün «qanunla qadağan edilməyən hər şeyə icazə verilir» kimi məşhur və tanınmış prinsip başlıca rol oynayır və mühüm əhəmiyyət kəsb edir.

İkincisi, **özünüqoruma hərəkətləri qanuna, ictimai qaydaya və əxlaqa zidd olmamalı, adətən, hamılıqla qəbul edilən qaydalara uyğun gəlməlidir**. Məsələn, minik avtomobilində siqnal verən aparatın (siqnallaşdırmanın) yerləşdirilməsi kimi özünüqoruma hərəkəti cəmiyyətdə qəbul edilmiş adətdən irəli gəlir.

Üçüncüsü, özünüqoruma hərəkətləri **ətrafdakıların həyat və sağlamlığı üçün təhlükə törətməməli, digər şəxslərin hüquq və qanunla qorunan mənafeyinə xələl gətirməməli və onları məhdudlaşdırmamalıdır**. Məsələn, vətəndaş yaşayış evinin qapı və pəncərələrini elektrik cərəyanına birləşdirmək yolu ilə həmin evə olan mülkiyyət hüququnu qoruya bilməz. Başqa bir misalda bağ evinin sahibi bu evə olan mülkiyyət hüququnu heyvanxanadan kirayəyə götürdüyü vəhşi heyvanların vasitəsilə mühafizə edə bilməz və s.

Dördüncüsü, özünüqoruma səlahiyyətli şəxsin müdafiə etdiyi **hüquqların sərhədlərindən kənara çıxmamalı, mülki hüquq pozuntusuna mütənasib olmalıdır**. Məsələn, vətəndaş alma bağından meyvə oğurlayan şəxsi odlu silahdan atəş açmaqla yaralayır. Aydın məsələdir ki, vətəndaşın bu cür özünüqoruma hərəkəti hüquq pozuntusuna mütənasib deyildir. Bundan əlavə, özünüqoruma tədbirləri mümkün ola bilən hüquq pozuntusunun qarşısının alınması üçün zəruri hərəkətlərdən kənara çıxmamalıdır. Söz yox ki, vətəndaş öz qarajını zəhərli ilanların vasitəsilə qoruya bilməz. Şübhəsiz ki, vətəndaş bağ evinin yerləşdiyi sahənin ətrafına məftil çəpər çəkib, onu elektrik cərəyanına qoşmaqla həmin evi qoruya bilməz.

Özünüqoruma müdafiə formasından o halda istifadə olunur ki, səlahiyyətli şəxsin hüquqlarına və mənafeyinə qəsd edilsin və ya bu cür qəsd üçün real imkan (təhlükə) yaransın. Söhbət səlahiyyətli şəxsin mülki hüquqlarının və mənafeyinin pozulmasından və ya bu cür pozuntu üçün real imkan (təhlükə) yaranmasından gedir. Belə halda, şübhəsiz ki, həmin pozuntunu (pozuntu təhlükəsini) aradan qaldırmaq (qarşısını almaq) zərurəti yaranır. Lakin yaranmış vəziyyət həmin vaxt səlahiyyətli şəxsə imkan vermir ki, o, öz subyektiv mülki hüquqlarını müdafiə etmək üçün səlahiyyətli dövlət orqanlarına və digər orqanlara müraciət etsin. Bu cür vəziyyətdə səlahiyyətli şəxs, əlbəttə, öz hərəkətləri və şəxsi əşyaları ilə özünüqoruma kimi müdafiə formasını həyata keçirir. Bu işdə yoldaşların yardımından və digər vətəndaşların göstərdikləri köməkdən istifadə edilməsi mümkündür, bu hal istisna edilmir.

Özünümüdafiə yalnız səlahiyyətli şəxsin **faktiki xarakterli hərəkətləri** ilə həyata keçirilə bilər. Mülki hüquq və vəzifələr yaradan hüquqi xarakterli hərəkətlərin vasitəsi və köməyi özünüqorumadan müdafiə forması kimi istifadə edilməsi mümkün deyil[1]. Bu cür hərəkətlər, yəni hüquqi xarakterli hərəkətlər qeyri-yurisdiksiya formasının digər növü — operativ təsir tədbirləri tətbiq edilən zaman lazım olur[2].

Özünüqoruma ilə, bir qayda olaraq, əşya (mülkiyyət) hüquqları müdafiə edilir. Belə ki, mülkiyyətçinin və digər qanuni sahibin əşyanın qorunmasına və mühafizə edilməsinə yönələn faktiki hərəkətləri özünümüdafiə hesab edilir. Məsələn, vətəndaş qaraj tikdirir və minik avtomobilini orda saxlayır. Başqa bir misalda şəxs minik avtomobilinə siqnal verən aparat (siqnalizasiya ilə) bağlayır. Ev sahibi yayda istirahətə gedərkən evin qapısına siqnal verən aparatla qorunan qıfıl asır və s. Bu cür faktiki hərəkətlər özünüqoruma tədbirləri olub, mülkiyyət hüququnun müdafiə edilməsinə yönəlir.

Özünüqorumaya əsas və başlıca olaraq üç cür hərəkət aiddir:

- zəruri müdafiə vəziyyətində edilən hərəkətlər (zəruri müdafiə hərəkətləri);
- son zərurət vəziyyətində edilən hərəkətlər (son zərurət hərəkətləri);
- özünəyardım qaydasında edilən hərəkətlər (özünəyardım hərəkətləri).

Bu bölgü Almaniya qanunvericiliyinə və hüquq doktrinasına uyğun gəlir. Belə ki, bu ölkənin qanunvericiliyinə görə, özünüqoruma üç formanın vasitəsilə həyata keçirilir: mülki-hüquqi zəruri müdafiənin vasitəsilə (**Notwehr**); mülki-hüquqi son zərurətin vasitəsilə (**Notstand**); mülki-hüquqi özünəyardımın vasi-

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 223; Гражданское право. Учебник . Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 413; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 253;

[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 160.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 439.

[1] Məhz bu səbəbdən müəlliflərdən Y.Q.Basinin belə bir fikri ilə razılaşmaq olmaz ki, özünüqoruma səlahiyyətli şəxsin (maraqlı şəxsin) birtərəfli hərəkəti ilə həyata keçirilə bilər. Buradan belə çıxır ki, özünüqoruma hüquqi hərəkətlərlə də yerinə yetirilə bilər (bax: *Басин Ю.Г. Основы гражданского законодательства о защите субъективных гражданских прав // Проблемы применения Основ гражданского законодательство и Основ гражданского судопроизводства СССР и союзных республик*. Саратов. 1971, с. 36).

[2] Müəlliflərdən professor A.P.Sergeyev əsassız olaraq operativ təsir tədbirlərini özünüqorumaya aid edir. Bunlar qeyri-yurisdiksiya müdafiə formasının ayrı-ayrı növləridir (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 284).

təsilə (**Selbsthilfe**)[1].

2. Mülki hüquqda zəruri müdafiə (mülki-hüquqi zəruri müdafiə, Notwehr)

Hər şeydən əvvəl, qeyd edək ki, zəruri müdafiə **sahələrarası (qarışıq) hüquq institutudur**. Belə ki, bu institutа hüququn həm mülki, həm cinayət, həm də inzibati hüquq kimi sahələrində rast gəlirik[2]. Mülki hüquq, cinayət hüququ və inzibati hüquq institutu kimi zəruri müdafiə məzmunca kifayət qədər bir-birinə yaxındır. Həm mülki-hüquqi mənada, həm cinayət-hüquqi mənada, həm də inzibati-hüquqi mənada zəruri müdafiə vəziyyətində edilən hərəkət hüquqi məsuliyyəti — müvafiq olaraq mülki-hüquqi, cinayət-hüquqi və ya inzibati-hüquqi məsuliyyəti istisna edir. Başqa sözlə desək, zəruri müdafiə vəziyyətində edilən hərəkət şəxsin həm mülki-hüquqi, həm cinayət-hüquqi, həm də inzibati-hüquqi məsuliyyətdən azad edilməsinə səbəb olur. Amma aralarındakı yaxınlığa baxmayaraq, mülki-hüquqi mənada zəruri müdafiə özünəməxsus cəhətlərə malikdir.

Zəruri müdafiənin leqal anlayışı yeni mülki qanunvericilikdə formulə edilmişdir (MM-in 563-cü maddəsi). Köhnə qanunvericilik zəruri müdafiəyə anlayış vermirdi, onun əsas cəhətlərini müəyyənləşdirmirdi. Yeni mülki qanunvericiliyin zəruri müdafiəyə verdiyi anlayış onun başlıca və mühüm əlamətlərini müəyyənləşdirməyə imkan verir.

Mülki hüquqda zəruri müdafiə dedikdə, özünü müdafiə edən şəxsə və ya digər şəxslərə qarşı törədilən hüquqazidd real qəsdin dəf edilməsi üçün həyata keçirilən elə bir özünüqoruma (özünümüdafiə) hərəkəti başa düşülür ki, hüquqauyğun olduğuna görə bu hərəkətlə vurulmuş zərərin əvəzi ödənilmir. Bizim ölkə qanunvericiliyinin mülki-hüquqi zəruri müdafiəyə verdiyi leqal definisiya (tərif) olduğu kimi Almaniya mülki qanunvericiliyindən iqtibas olunmuşdur. Almaniya Mülki Qanunnaməsinin 227-ci paraqrafı zəruri müdafiənin anlayışını nəzərdə tutur[3]. Bu isə Almaniya Cinayət Qanunnaməsinin 53-cü paraqrafında zəruri müdafiəyə verilən anlayışa tam uyğun gəlir.

Zəruri müdafiə özünüqoruma üsulu (forması), zəruri müdafiə vəziyyətində edilən hərəkət isə özünüqoruma hərəkəti sayılır. Bu hərəkətlə vurulan zərərin əvəzi ödənilmir. Ona görə ki, həmin hərəkət hüquqazidd deyildir.

Hərəkətin hüquqazidd olmasını isbat edən əlamət və meyar barədə sivilistika elmində üç konsepsiya yaranmışdır. Birinci konsepsiyaya görə, hərəkətin hüquqazidd olmasını sübut edən əsas əlamət zərərçəkən şəxsin subyektiv hüququnun pozulmasından (zərər vurmaq faktından) ibarətdir[4]. İkinci konsepsiyaya görə, hərəkətin hüquqazidd olması zərərçəkən şəxsin subyektiv hüququnun pozulması kimi əlamətlə yox, obyektiv hüquq (qanun) normasının pozulması kimi meyarla müəyyənləşdirilir[1]. Üçüncü konsepsiyaya görə, hərəkətin hüquqazidd olması həm zərərçəkən şəxsin subyektiv hüququnun pozulması kimi, həm də obyektiv hüquq (qanun) normasının pozulması kimi iki meyarla sübut olunur[2].

Zənn edirik ki, axırıncı konsepsiya həqiqətə daha yaxındır. Mülki qanunvericilik də məhz bu konsepsiyanı nəzərə alaraq, rəsmən onu dəstəkləyir. Belə ki, mülki qanunvericiliyə görə, özünü müdafiə edən (özünü qoruyan) şəxsin zəruri müdafiə vəziyyətində etdiyi hərəkətlər zərərçəkən şəxsin subyektiv hüququnu pozsa da, obyektiv hüquq (qanun) normasını pozmadığı üçün hüquqazidd sayılmır. Obyektiv hüquq norması isə bundan ibarətdir: zəruri müdafiə vəziyyətində edilən hərəkət hüquqazidd deyildir və bu zaman vurulan zərərin əvəzi ödənilmir (MM-in 563-cü maddəsinin 1-ci bəndi).

Zəruri müdafiə vəziyyətində özünüqoruma hərəkətlərindən, bir qayda olaraq, **şəxsi qeyri-əmlak hüquqlarına qəsd edildiyi və bu hüquqlar pozulduğu hallarda istifadə olunur**. Bu hüquqların obyekti qismində şəxsi qeyri-maddi nemətlər çıxış edir. Məsələn, insanın həyatı və sağlamlığı bu qəbildən olan şəxsi qeyri-maddi nemətlərə misal ola bilər. Özünüqoruyan şəxs zəruri müdafiə hərəkətləri etməklə məhz qəsd törədən şəxsin həyatına və sağlamlığına zərər vurur.

Vətəndaşın həyat və ya sağlamlığına vurulmuş zərər vətəndaşın ölməsində və ya ona xəsarət yetirilməsində (şikəst olmasında) ifadə olunur. Bu zərərin əvəzi bütün hallarda naturada ödənilə və pulla kompensasiya edilə bilməz. Amma belə hallarda zərərçəkən şəxs əmlak (maddi) itkisinə düçar olur. Belə ki, xəsarət alması və ya şikəst olması nəticəsində vətəndaş müvəqqəti və ya həmişəlik əmək haqqından və digər qazancdan (gəlirdən) məhrum olur, habelə sağlamlığının pozulması ilə bağlı əlavə xərclər (məsələn, müalicəyə, əlavə qidalanmaya, dava-dərman alınmasına və s.) çəkir. Vətəndaşın ölməsi hallarında isə bu itkiyə ona yaxın olan şəxslər (ölənin uşaqları, ölənin himayəsində olan əmək qabiliyyəti olmayan şəxslər və s.) düçar olurlar, yəni həmin şəxslər vətəndaşın ölümü nəticəsində gəlir mənbəyindən və ya dolanacaq xərcləri almaqdan məhrum olurlar və bununla zərərə (maddi itkiyə) düşürlər. Əgər zərərvuran şəxs, yəni özünüqoruyan şəxs zəruri müdafiə vəziyyətində başqa şəxsin həyatına və ya sağlamlığına qəsd edərsə, göstərilən bu cür zərərin əvəzini ödəmir.

Amma özünüqoruyan şəxsin (zərərvuran şəxsin) əməlini zəruri müdafiə vəziyyətində edilən hərəkət hesab etmək üçün mülki qanunvericilik bir neçə şərtin olmasını tələb edir. Bu cür şərtləri iki yerə bölmək olar: **özünüqoruyan şəxsə yönələn qəsdə aid olan şərtlər**; **özünüqorumağa (özünümüdafiəyə) aid olan şərtlər**. Bu şərtlər birlikdə zəruri müdafiə vəziyyətində edilən hərəkətin hüquqauyğun olmasına dəlalət edir.

---

[1] *Шапп Ян.* Основы гражданского права Германии. Учебник. М., 1996; *А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. М., 2001, с. 307; *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

[2] CM-in 38-ci maddəsi, İXM-in 19-cu maddəsi zəruri müdafiəyə anlayış verir // Azərbaycan Respublikasının Macəllələr Külliyyatı, I xüsusi buraxılış, s. 88, 483.

[3] Германское право. Гражданское уложение. Часть 1. М., 1996.

[4] bax: *Смирнов В.Т., Собчак А.А.* Общее учение о деликтных обязательствах в советском гражданском праве. Л., 1983, с. 69.

[1] Гражданское право. Учебник. Часть 2. М., 1938, с. 390; Советское гражданское право. Учебник. М., 1950, с. 516.

[2] *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940, с. 140; Гражданское право России. Курс лекций. Часть 2 / Под ред. *О.Н.Садикова.* М., 1997, с. 638.

Özünüqoruyan şəxsə yönələn qəsdə aid olan şərtlər üç cürdür. **Birinci şərtə** görə, özünüqoruyan şəxsə yönələn **qəsd həqiqi olmalıdır**[1]. Qəsdin həqiqi olması onun xəyali yox, real olaraq mövcudluğunu ifadə edir. Özünüqoruyan şəxsin xəyalında və təsəvvüründə deyil, yalnız real gerçəklikdə obyektiv surətdə mövcud olan qəsd həqiqi qəsd hesab edilə bilər. Qəsdin xəyali olması özünü müdafiə edən şəxsin xəyalən onun mövcudluğunu yəqin və güman etməsini ifadə edir. Bu cür qəsd zəruri müdafiəyə yox, xəyali müdafiəyə gətirib çıxarır. **Xəyali müdafiə** obyektiv surətdə mövcud olmayan xəyali qəsdə qarşı müdafiədir. Bu cür müdafiə vəziyyətində edilən hərəkət hüquqazidd sayılır və həmin zaman vurulan zərərin əvəzi ödənilir, şəxs mülki-hüquqi məsuliyyətdən azad olunmur. Misala müraciət edək. Qaranlıq küçədə hərəkət edən şəxs hiss edir ki, onun arxasınca kimsə gəlir. O zənn edir ki, həmin şəxs onu döyüb, cibindəki pulları alacaqdır. Özünü müdafiə etmək üçün o, yerdən daş götürüb arxasınca gələn şəxsi vuraraq, ona xəsarət yetirir. Yetirilən xəsarət nəticəsində həmin şəxs işə çıxmır, əmək haqqından məhrum olur, sağlamlığının pozulması nəticəsində müalicəyə, dava-dərman alınmasına və s. xərclər çəkir və bununla əmlak (maddi) zərərinə düşür. Özünü müdafiə edən şəxs bu zərərin əvəzini ödəyəcəkdir. Ona görə ki, həmin zərər zəruri müdafiə vəziyyətində yox, xəyali müdafiə vəziyyətində vurulmuşdur.

İkinci şərtə görə, özünüqoruyan şəxsə edilən **qəsd mövcud (hazırda olan) qəsd olmalıdır. Mövcud (hazırda olan) qəsd** dedikdə, edilməsi başlanan, lakin başa çatmayan qəsd anlaşılır[2]. Buna görə də həmin şərtin olub-olmamasını müəyyənləşdirmək üçün qəsdin başlanğıc və axırıncı anlarını təyin etmək lazımdır. Qəsdin başlanma anı ilə zəruri müdafiə vəziyyəti yaranır. Məsələn, oğrunun özgəsinin cibinə girməsi ilə zəruri müdafiə vəziyyəti də meydana gəlir.

Real qəsd təhlükəsi olduqda və yarandıqda da zəruri müdafiə vəziyyəti əmələ gəlir. Elə bir vəziyyət yaranır ki, bu vəziyyətə əsasən, özünü müdafiə edən şəxsdə ona qarşı qəsdin dərhal həyata keçirilə biləcəyinə tam əminlik yaranır. Həmin şəxs onun qanunla qorunan mənafeyinin bilavasitə təhlükəyə məruz qaldığına tam əmin olur. Həmin vəziyyətdə bütün əlamətlərə görə real qəsd təhlükəsi o qədər aşkar və labüd xarakter daşıyır ki, qabağını alan müvafiq tədbirlərin görülməməsi şəxsi açıq-aşkar, birbaşa və mütləq təhlükə qarşısında qoymuş olur və onu bu tədbirlərə əl atmağa məcbur edir[3].

Bununla belə, **gələcəkdə gözlənilən qəsdlər zəruri müdafiə vəziyyəti yaratmır**. Təcrübədə elə hallara rast gəlirik ki, bəzi vətəndaşlar öz əmlaklarını qorumaq üçün fiziki şəxslərin həyat və ya sağlamlığına zərər vura biləcək müxtəlif alət və qurğular düzəldirlər (partlayıcı qurğular, yüksək gərginlikli cərəyanın çəkilməsi və s.). Çox vaxt bu alət və qurğular qəsd etməsi ehtimal olunan şəxsə yox, tamam kənar şəxslərə zərər vurur. Məsələn, şəxs minik

[1] L.Ennekserus yazır ki, şəxsə və ya onun hüquqi nemətlərinə zərər vurmaq və ya təhlükə yaratmaq qabiliyyətli qəsd olmalıdır (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 439).

[2] L.Ennekserus da eyni fikri söyləyir: qəsd başlanmalı və hələ tam sona çatmamalıdır (yenə orada, s. 442).

[3] bax: Судебная практика Верховного Суда СССР. 1945. Вып. VI. М., 1946, с. 5.

avtomobilini qorumaq üçün qarajın qapısına partlayıcı qurğu bağlayır. Həmin qarajın yanından təsadüfən ötüb keçən kənar şəxs bu cür «ixtiranın» qurbanı olur.

Üçüncü şərtə görə, **qəsd hüquqazidd olmalıdır**. Qəsd o halda hüquqazidd sayıla bilər ki, birincisi, o, özünü müdafiə edən şəxsin və yaxud üçüncü şəxsin subyektiv mülki hüquqlarının və ya qanunla qorunan mənafelərin pozulmasına yönəlsin, ikincisi, obyektiv hüquq normalarının (qanun normalarının) tələblərini pozsun[1]. Amma, şübhəsiz ki, bütün hüquqazidd hərəkətlər zəruri müdafiə tədbirlərinin tətbiq edilməsinə səbəb ola bilməz. Mülki qanunvericilik isə hansı hüquqazidd hərəkətlərin zəruri müdafiəyə əsas ola bilməsini müəyyənləşdirmir. Belə halda **cinayət hüququnun və qanunvericiliyinin müəyyən etdiyi qaydadan istifadə etmək lazımdır**. Bu qaydaya görə, **qəsd ictimai təhlükəli olmalıdır**. Belə ki, cinayət qanunu ilə qorunan mənafelərə, yəni şəxsiyyətin, cəmiyyətin və ya dövlətin mənafelərinə mühüm dərəcədə zərər vuran və ya zərər vura biləcək qəsd ictimai təhlükəli sayılır.

Çox vaxt zəruri müdafiə cinayət xarakterli, yəni cinayət cəzasına layiq olan qəsdlərə qarşı tətbiq edilir. Amma elə qəsdlər var ki, onlar cinayət cəzasına layiq deyil. Lakin bu cür qəsdlər hüquq-mühafizə mənafeləri üçün ciddi təhlükə yaratmaq xüsusiyyətinə malikdir. Buna misal olaraq anlaqsız şəxslərin və ya cinayət məsuliyyətinə cəlb edilməsi üçün cinayət qanununun müəyyənləşdirdiyi tələb olunan yaş həddinə çatmayan şəxslərin həyat və sağlamlığa etdikləri qəsdi göstərmək olar. Bu cür qəsdlərə qarşı da zəruri müdafiə hərəkətlərinin tətbiq edilməsi mümkündür[2]. Amma belə hallarda zəruri müdafiəni həyata keçirən şəxs bu hərəkətlərə xüsusi diqqət yetirməli, göstərilən vəziyyətdə mümkün qədər az zərər vurmağa və ya qəsddən yayınmağa çalışmalıdır[3]. Qalan hallarda cinayət cəzasına layiq görülməyən hüquq pozuntularına qarşı, həmin pozuntu mülki hüquq pozuntusunun əlamətlərinə uyğun gəlsə belə, zəruri müdafiəyə yol verilmir[4].

Yuxarıda qeyd etdik ki, özünüqoruyan şəxsin əməlini zəruri müdafiə vəziyyətində edilən hərəkət hesab etmək üçün təkcə qəsdə aid olan şərtlər kifayət etmir. Bunun üçün həm də **özünümüdafiəyə (özünüqorumağa) aid olan şərtlərin mövcudluğu** tələb edilir. Bu şərtlər beş cürdür.

Birincisi, özünüqoruma **yalnız özünü müdafiə edən şəxsin özünə və ya digər şəxslərə qarşı yönələn qəsdi dəf etmək məqsədilə həyata keçirilməlidir**. Bu, o deməkdir ki, prinsip və mahiyyət etibarilə zəruri müdafiə yolu

[1] Biz bundan öncə isbat etdik ki, əməlin hüquqazidd olması üçün hansı əlamətlər lazımdır. Buna görə hüquqazidd davranışı hüquq normasını pozan əməl sayan müəlliflərin mövqeyi birtərəfli olduğu üçün həqiqətə uyğun deyil (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 415).

[2] bax: Комментарий к Уголовному кодексу Российской Федерации / Под ред. *В.И.Радченко* и др. М., 1994. L.Ennekserus da analoji mövqedə durur. O göstərir ki, anlaqsız vəziyyətində olan şəxslərə, uşaqlara, ruhi xəstələrə, tam sərxoş halında olanlara qarşı zəruri müdafiəyə yol verilməsi mümkündür (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 440). L.Ennekserus bunu onunla izah edir ki, hücum edən şəxsin təqsir və ya qəsdinin, subyektiv hüquqauyğunsuzluğun olması tələb edilmir.

[3] *Naumov A.V.* Cinayət hüququ. Mühazirə kursu / Rus dilindən tərcümə. Bakı, 1998, s. 368.

[4] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 415.

ilə hüquqla qorunan istənilən hüququ və mənafeyi müdafiə etmək mümkündür.

İkinci şərt bundan ibarətdir ki, **zərər üçüncü şəxslərə yox, məhz bilavasitə qəsd edən şəxsə vurulmalıdır**. Əgər qəsd üçüncü şəxsə vurularsa, özünüqorumanın başqa forması olan son zərurət yarana bilər.

Üçüncü şərtə görə, özünü müdafiə edən şəxs **zəruri müdafiə vəziyyətini qəsdən yaratmamalıdır**. Məsələn, vətəndaş qısqanclıq zəminində qonşusundan intiqam almaq istəyir. Qonşu qaranlıq küçədən keçərkən, o, qəsdən zəruri müdafiə vəziyyəti yaradaraq, qonşuya ağır xəsarət yetirir. Əlbəttə, bu, zəruri müdafiə hesab edilmir.

Dördüncü şərtə görə, özünü müdafiə edən şəxs hüquqazidd hərəkətin qarşısını almaq üçün zəruri olan **ilkin şəraitin mövcudluğu barədə təqsirli şəkildə yanılmamalıdır**. Bu şəxs həmin şəraiti dərk etməli və dərk edə bilməli olduğu halda, o, qəsdən yanlışlığa və səhvə yol verərsə, zəruri müdafiədən söhbət gedə bilməz.

Beşinci şərtə görə, özünü müdafiə edən şəxs **zəruri müdafiə həddini təqsirli şəkildə aşmamalıdır**. Zəruri müdafiə həddini aşma dedikdə, özünüqoruyan şəxsin istifadə etdiyi müdafiə vasitələrinin qəsdin xarakterinə və təhlükəliliyinə məhz açıqdan-açığa uyğun gəlməməsi başa düşülür. Məsələn, kənd sakini ona məxsus olan bir baş qoyunu oğurlayan şəxsi odlu silahdan atəş açmaqla qətlə yetirir. Bu, zəruri müdafiə vəziyyətini aşmağı ifadə edir.

Zəruri müdafiə həddini aşmaq əlamətlərinin olub-olmaması haqqında məsələnin həlli zamanı məhkəmə praktikası müdafiə və qəsd vasitələrinin uyğun olması, yaxud olmaması, habelə müdafiə olunanı hədələyən təhlükənin xarakteri, qəsdin dəf edilməsi üzrə onun qüvvəsi və imkanları, habelə qəsd edənin və müdafiə olunanın real qüvvələr nisbətinə (qəsd edənlərin və müdafiə olunanların sayı, onların yaşı, fiziki inkişafı, silahın mövcudluğu, qəsdin yeri və vaxtı və s.) təsir göstərə biləcək digər hallar nəzərə alınır[1]. Zəruri müdafiə həddini aşmaya yol verilib-verilmədiyini müəyyən etmək üçün özünü müdafiə edən şəxsin psixi vəziyyətini nəzərə almaq da lazımdır.

Həm qəsdə aid olan şərtlər, həm də müdafiəyə şamil edilən şərtlər olduqda, özünüqoruyan şəxsin hərəkəti zəruri müdafiə vəziyyətini yaradır. Bu zaman o, vurulan zərərin əvəzini ödəmir. Məsələn, polis əməkdaşı P-yə axşam vaxtı ondan silahı almaq məqsədilə beş nəfər hücum edir. Xəbərdarlıq atəşi açdıqdan sonra o, hücum edənlərdən birini öldürür, digərini isə yaralayır. Bu halda məhkəmə P-nin hərəkətini zəruri müdafiə vəziyyətində edilən hərəkət hesab edir[2]. Buna görə də o, hücum edən şəxslərin həyat və sağlamlığına vurulan zərərin əvəzini ödəmir.

Bizim ölkə qanunvericiliyi Almaniya Mülki Qanunnaməsinə uyğun olaraq, mülki-hüquqi **zəruri müdafiənin xüsusi halını** nəzərdə tutur. Belə ki, hər bir sahibin qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı vardır (MM-in 164-cü maddəsinin 1-ci bəndi). Zəruri müdafiənin bu cür xüsusi halı Almaniya Mülki Qanunnaməsinin 859-cu paraqrafı ilə müəyyən edilir[1].

Zəruri müdafiə qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qanuni müdafiə deməkdir. İctimai təhlükəli qəsddən qorunmaq üçün bundan istifadə etmək hüququ hər bir şəxsə məxsusdur.

3. Mülki hüquqda son zərurət (mülki-hüquqi son zərurət, Notstand)

Son zərurət mülki hüquqların özünüqoruma (özünümüdafiə) formalarından (vasitələrindən) biridir. Zəruri müdafiə vəziyyətində olduğu kimi, son zərurət vəziyyətində edilən və ziyan vuran hərəkətlər zahirən hüquq pozuntusunun əlamətlərinə uyğun gəlsə də, mülki hüquq pozuntusu hesab edilmir. Belə ki, bu cür hərəkətlər hüquqazidd sayılmır və ona görə də həmin hərəkətlərlə vurulmuş zərərin əvəzi ödənilmir (MM-in 564-cü maddəsinin 1-ci bəndi). Zəruri müdafiə vəziyyətində olduğu kimi, son zərurət vəziyyətində edilən hərəkətlər əməlin mülki hüquq pozuntusu olmasını istisna edir, aradan qaldırır.

Mülki-hüquqi son zərurət konstruksiyası bizim ölkə qanunvericiliyinə Almaniya qanunvericiliyindən keçmişdir. Belə ki, Almaniya Mülki Qanunnaməsinin 228-ci paraqrafı son zərurət (Notstand) münasibətlərini tənzimləyir. Son zərurət anlayışı Almaniya Cinayət Qanunnaməsində də nəzərdə tutulmuşdur.

Son zərurət **qarışıq (sahələrarası) hüquq institutudur**. Bu instituta mülki hüquqdan savayı, cinayət və inzibati hüquq kimi sahələrdə də rast gəlmək mümkündür. CM-in 38-ci maddəsi, İXM-in 18-ci maddəsi son zərurəti tənzimləyir.

Mülki qanunvericiliyin son zərurətə verdiyi anlayışı əhatəli, tam, uğurlu və münasib definisiya hesab etmək olmaz. Buna görə də mülki hüquq elmində son zərurətə doktrinal (elmi) tərif verərkən cinayət qanunvericiliyinin nəzərdə tutduğu leqal anlayışdan istifadə etmək lazımdır. Şübhəsiz ki, cinayət-hüquqi son zərurətə verilən anlayış mülki hüquq tərəfindən olduğu kimi qəbul edilə bilməz. Belə ki, cinayət-hüquqi mənada son zərurət şəxsi cinayət məsuliyyətindən və cəzadan azad etməklə bağlıdır. Bu baxımdan cinayət hüququ belə bir suala cavab verməlidir: son zərurət vəziyyətində edilən hərəkət hansı halda əməlin kriminallığını aradan qaldırmalıdır? Mülki-hüquqi mənada son zərurət isə şəxsi mülki-hüquqi məsuliyyətdən və zərərin əvəzini ödəmək vəzifəsindən azad etməklə əlaqədardır. Bu baxımdan mülki hüquq belə bir suala cavab verməlidir: son zərurət hərəkəti hansı halda mülki hüquq pozuntusu sayılmır?

Son zərurət şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan real təhlükəni aradan qaldırmaq üçün qanunla qorunan başqa obyektlərə zərər vurmaq yolu ilə törətdiyi elə bir müdafiə hərəkətidir ki, bu hərəkət, əgər son zərurət vəziyyətində bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyildirsə və bu zaman son zərurət həddinin aşılmasına yol verilməmişdirsə, mülki hüquq pozuntusu sayılmır. Məsələn, dənizdə bir nəfər vətəndaş boğularkən başqa bir şəxs sahildəki qa-

[1] bax: *Naumov A.V.* Cinayət hüququ. Bakı. 1998, s. 378.
[2] bax: Бюллетень Верховного Суда РФ. 1998. № 1, с. 8-9.

[1] Германское право. Гражданское уложение. Часть 1. М., 1996; *Bassenge P.* // *Palandt* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999; s. 1046; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 413.

yıqdan istifadə etməklə onu xilas edir. Bu halda o, qayıqdakı üçüncü şəxsə məxsus olan qiymətli əşyaları dənizə atır. Son zərurət vəziyyətində edildiyinə görə üçüncü şəxsə vurulan əmlak (maddi) zərərinin əvəzi ödənilmir. Burada dənizdə çimən vətəndaşın boğulması real təhlükə (qarşısı alınmış ziyan) hesab edilir. Bu təhlükənin qarşısı özgə əmlakına zərər vurmaq yolu ilə aradan qaldırılır. Özgə əmlakına zərər vurmaq isə son zərurət vəziyyətində vurulmuş ziyandır.

Mülki-hüquqi son zərurətə Almaniya hüquq ədəbiyyatı səhifələrində də doktrinal anlayış verilir. Son zərurət dedikdə, elə bir çarəsiz və məcburi vəziyyət başa düşülür ki, bu vəziyyətdə şəxs vurula biləcək zərərin qarşısını almaq üçün lazım olan həddə özgə əşyasına təsir edir[1].

Son zərurət vəziyyətində qanunla qorunan iki mənafe toqquşur. Məhz bu səbəbdən L.Ennekserus göstərir ki, zəruri müdafiə vəziyyətindən fərqli olaraq, son zərurət halında söhbət hüquqauyğun mənafelərin kolliziyasından (toqquşmasından) gedir. Belə halda bu mənafelərdən birinə vurula biləcək zərərin qarşısı yalnız digər mənafeyə zərər vurmaqla alınır.

Son zərurət vəziyyətində edilən hərəkətin hüquqazidd (mülki hüquq pozuntusu) olmaması üçün müəyyən şərtlərin mövcudluğu tələb olunur. Bu şərtlər iki cür olur: baş verə biləcək təhlükəyə (vurula biləcək zərərə) aid şərtlər; bu təhlükədən müdafiə olunmağa aid olan şərtlər.

Təhlükəyə aid olan şərtlər aşağıdakılardır.

Birinci şərt ondan ibarətdir ki, son zərurət vəziyyətini yaradan və qorxu törədən **təhlükə mənbəyi mövcud olmalıdır**. Bu təhlükə mənbəyi müxtəlif ola bilər:

• şəxsin ictimai təhlükəli davranışı (məsələn, piyada yol hərəkəti qaydasını pozaraq, küçəni təyin olunmamış yerdən keçərkən onun avtomobilin altına düşmək təhlükəsi yaranır. Sürücü həmin piyadanı vurmamaq üçün başqa şəxsə, yəni üçüncü şəxsə məxsus olan avtomobili əzir);

• texnikanın, müxtəlif mexanizmlərin nasazlığı (məsələn, sərnişinlə dolu olan avtobusun əyləci tutmur. Sürücü sərnişinlərin həyatını xilas etmək üçün avtobusun hərəkət səmtini dəyişib, onu vətəndaşa məxsus yaşayış evinə yönəldir. Bunun nəticəsində evin bir hissəsi uçur);

• heyvanların hücum etməsi (məsələn, vətəndaş qonşuya məxsus olan qoçun azyaşlı uşağı vurduğu halda yerdən iri daş götürüb onun başına vurur. Bunun nəticəsində qoç ölür)[2];

• insanların həyatı, sağlamlığı və ya əmlakı üçün təhlükə yaradan təbii qüvvələrin fəaliyyəti (məsələn, zəlzələ, sel, tufan, qar uçqunu və s.). Məsələn, güclü yağan yağış nəticəsində çay aşıb-daşır. Sel kənd sakininin evini aparmaq təhlükəsi yaradır. Bunu görən ekskavatorçu qonşuya məxsus olan dəmir-beton məmulatları və tikinti materiallarını çaya tökərək, selin qarşısını alır;

[1] *Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 444.

[2] L.Ennekserus haqlı olaraq yazır ki, heyvanların hücumuna qarşı zəruri müdafiədən istifadə edilmir. Heyvanlar tərəfindən edilən hücuma qarşı müdafiə son zərurət haqqında qaydalarla (§228) tənzimlənir (*Эннекерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 440).

• insan orqanizmində baş verən fizioloji proseslər (məsələn, xəstəlik, aclıq). Meşədə azmış iki kənd sakini bir həftə ac qalırlar. Onlar birdən çobanın sürüsündən azmış iki qoyun görürlər. Qoyunları kəsib yeməklə həmin şəxslər aclıqdan xilas olurlar.

İkinci şərt ondan ibarətdir ki, **son zərurət vəziyyətini yaradan təhlükə mövcud olmalıdır**. Bu cəhəti ilə son zərurət zəruri müdafiəyə oxşayır. Məhz bu təhlükə hüquqla qorunan mənafelərin toqquşmasını yaratmaq qabiliyyətinə malikdir. Gələcəkdə baş verməsi gözlənilən təhlükə son zərurət vəziyyəti yarada bilməz. Sovuşmuş təhlükə də bu cür vəziyyət əmələ gətirmir.

Üçüncü şərt ondan ibarətdir ki, **son zərurət vəziyyətini yaradan təhlükə real (gerçək) olmalıdır**. Uydurma, xəyali, yəni şəxsin xəyalında mövcud olan təhlükə son zərurət vəziyyəti yaratmır.

Son zərurət vəziyyətinin yaranması üçün həm də müdafiəyə aid olan şərtlərin mövcudluğu gərəkdir. **Birinci şərtə görə**, son zərurət hərəkəti ilə **yalnız qanunla qorunan mənafeləri müdafiə etmək olar**. Söhbət şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyinin müdafiəsindən gedir.

İkinci şərtə görə, son zərurət zamanı zərər üçüncü şəxslərin, yaxud ictimai və ya dövlət mənafelərinə vurulur. Bu cəhəti ilə son zərurət zəruri müdafiədən fərqlənir. Belə ki, **zəruri müdafiə zamanı qəsd üçüncü şəxslərə yox, qəsd edənə vurulur**. Üçüncü şəxslər dedikdə, son zərurət vəziyyətini əmələ gətirən təhlükənin yaradılmasında təqsiri olmayan şəxslər başa düşülür.

Üçüncü şərtə görə, real təhlükənin qarşısını **həmin vəziyyətdə üçüncü şəxsə zərər vurmaqdan başqa digər vasitələrlə aradan qaldırmaq mümkün olmasın**. Ona görə də həmin vəziyyətə son zərurət deyilir. Burada üçüncü şəxsə zərər vurmaq yaranmış real təhlükənin (zərərin) qarşısını almağın yeganə yolu, çarəsi kimi çıxış edir. Əgər bu təhlükənin (zərərin) qarşısını başqa vasitələrlə almaq imkanı olarsa, belə halda son zərurət vəziyyətindən söhbət gedə bilməz.

Dördüncü şərtə görə, son zərurət həddini aşmağa yol verilməməlidir. Son zərurət həddini aşma dedikdə, baş vermiş təhlükənin xarakterinə və dərəcəsinə, habelə həmin təhlükənin aradan qaldırılması şəraitinə aşkar surətdə uyğun olmayan zərər vurulması və vurulmuş zərərin qarşısı alınmış zərərə bərabər və ya ondan artıq olması başa düşülür (CM-in 38-ci maddəsinin 2-ci bəndi). Əgər son zərurət vəziyyətində vurulmuş zərər qarşısı alınmış zərərdən çoxdursa, son zərurət vəziyyəti yaranmır və buna görə də zərər vurmuş şəxs onun əvəzini ödəyir (MM-in 564-cü maddəsinin 4-cü bəndi)[1].

Göstərilən bu şərt toqquşan mənafelərin — müdafiə edilən mənafeyin və zərər vurulan mənafeyin hər dəfə qiymətləndirilməsini, onların malik olduğu əhəmiyyətin müqayisə edilməsini tələb edir. Məlum məsələdir ki, insanın həyatı və sağlamlığı əmlak mənafeyindən daha mühümdür. Bu isə o deməkdir ki, əmlaka vurulan zərər insanın həyat və sağlamlığına vurulan zərərdən çox ola bilməz.

Göstərilən bütün şərtlərin hamısı olduqda, əməl son zərurət vəziyyətində

[1] Mülki qanunvericilik cinayət qanunvericiliyindən fərqli olaraq, vurulmuş zərərin qarşısı alınmış zərərə bərabər olmasını son zərurət həddini aşma saymır.

edilən hərəkət sayılır. Bu cür hərəkət isə əmələn mülki hüquq pozuntusu olmasını istisna edir.

Son zərurət vəziyyətində şəxs hər hansı özgə şəxsin mənafeyi üçün zərər vurur. Bəzən zərərin vurulduğu faktiki halları nəzərə almaqla zərərin əvəzini ödəmək vəzifəsi həmin özgə şəxsə həvalə edilə, onun üzərinə qoyula bilər (MM-in 564-cü maddəsinin 3-cü bəndi). Məsələn, yuxarıda çəkdiyimiz misalda selin istiqamətini dəyişmək üçün çaya atılan tikinti materiallarının (daşın, taxta-şalbanın və s.) və dəmir-beton məmulatların qiymətini yaşayış evinin sahibi (hansı ki, onun mənafeyi üçün zərər vurulmuşdur) ödəyə bilər.

4. Mülki hüquqda özünəyardım (mülki-hüquqi özünəyardım, Selbsthilfe)

Özünəyardım özünümüdafiə (özünüqoruma) formalarından biridir. Bu, bizim ölkə qanunvericiliyində yeni haldır. 1964-cü il MM-i özünəyardım anlayışını nəzərdə tutmurdu. Yeri gəlmişkən, qeyd edək ki, onu RF-in müasir MM-i də tanımır.

Özünəyardım anlayışının tarixi qədim Roma hüququ ilə bağlıdır. Roma hüququnun ilk inkişaf dövrlərində özünəyardım çox böyük əhəmiyyətə malik idi. Roma hüququ bir sıra özünəyardım tədbirlərindən istifadə olunmasına yol verirdi. Məsələn, mülkiyyətçi onun əlindən zorla alınmış əşyanı öz şəxsi səyi hesabına geri qaytara bilərdi. Şəxsin hər hansı bir tələbini öz-özünə təmin etmək hüququ vardı. İddianı təmin etmək üçün qaçıb aradan çıxmaq istəyən borclunun tutulub saxlanılmasına və onun özü ilə götürdüyü pul vəsaitinin üzərinə həbs qoyulmasına yol verilirdi[1].

Özünəyardım Almaniya hüququ·ıun da ilk inkişaf dövrlərində xüsusi rol oynayırdı. Həmin dövrlərdə özünəyardım vasitələri həddən ziyadə böyük əhəmiyyətə malik idi. Təcili müdaxilə edilmədən hüququn həyata keçirilməsi qeyri-mümkün olacağı və xeyli çətinləşəcəyi təhlükəsi yaranan hallarda və səlahiyyətli dövlət orqanlarının köməyi vaxtında yetişmədiyi məqamlarda bu cür vasitələrdən istifadə edilirdi. Roma və Almaniya hüquq sistemlərində məhz özünəyardım vasitələrindən hüquqların dövlət müdafiəsi (yurisdiksiya forması), xüsusən də məcburi icra forması inkişaf etmişdir. Sonralar Almaniya Mülki Qanunnaməsi qəbul edilərkən bu vasitələr haqqında əsas ideyalar nəzərə alındı. Həmin hüquqi sənədin 229-cu paraqrafı özünəyardımın (Selbsthilfe) məna və mahiyyətinin açıqlanmasına həsr edilən qaydalar müəyyən edir[2]. Bu qaydaları bizim ölkə qanunvericiliyi qəbul etmişdir (MM-in 565-ci maddəsi).

Almaniya sivilistika doktrinasında özünəyardımın elmi (doktrinal) anlayışı verilir. Bu anlayış onun əsas və başlıca cəhətlərini müəyyən etməyə imkan verir.

Özünəyardım dedikdə, tələbin (nəyisə tələb etmək hüququnun) şəxsi səy və güc hesabına təmin edilməsi və ya ödənilməsi başa düşülür[1]. Anlayışdan belə aydın olur ki, **özünəyardım yalnız faktiki hərəkətlərin vasitəsilə** həyata keçirilir. Bu hal özünümüdafiənin bütün formaları üçün ümumi cəhətdir. Digər tərəfdən, özünümüdafiənin zəruri müdafiə və son zərurət kimi formalarından fərqli olaraq, özünəyardım nəticəsində bir şəxsin digərinə olan tələbi ya təmin olunur, ya da ödənilir.

Almaniya sivilistika doktrinasında özünəyardımın hüquqi xarakterinə münasibət birmənalı deyildir. Bu barədə, əsasən, iki konsepsiya yaranmışdır. Həddən ziyadə geniş və üstün yayılmış konsepsiyaya görə, zəruri hallarda özünəyardım tələbin öz-özünə icrası kimi çıxış edir. Bu cür məqamlarda özünəyardım nəticəsində tələb öz-özünə təmin olunur.

Almaniya sivilistikasının tanınmış nümayəndələrindən olan L.Ennekserusun əsaslandırdığı konsepsiyaya görə, zəruri hallarda özünəyardıma tələbi özözünə təmin edən vasitə kimi baxmaq olmaz; ümumi qaydaya görə, o öz-özünə icra hesab edilə bilməz; özünəyardımı icra kimi qiymətləndirən müəlliflərin fikirləri düzgün deyildir. Müəllifin fikrincə, özünəyardım tətbiq edilən müvəqqəti xarakterli təminat vasitəsidir, tələbin məhkəmə qaydasında təmin və icra olunmasının ilkin mərhələsidir[2].

Bizim fikrimizcə, hər iki konsepsiya tərəfdarlarının mövqeyi həqiqətə uyğundur. Bununla biz «barışdırıcı mövqe» tuturuq. Məsələn, kirayənin predmeti olan əşyanı kirayəçi qaytarmır. Onun korlanmaq və xarab olmaq təhlükəsi yaranır. Belə halda kirayəyə verən əşyanı kirayəçinin əlindən alır. Bu baxımdan, məlum məsələdir ki, **özünəyardım hərəkəti tələbin öz-özünə icra vasitəsi kimi** çıxış edir.

İkinci halda borclu şəxsin (məsələn, borc pul alan şəxsin və s.) qaçıb gizlənməsinə şübhə yaranır. Bu halda səlahiyyətli şəxs (kreditor) həmin şəxsi tutur və dərhal müvafiq dövlət orqanına təhvil verir. Bundan sonra o, borcun alınması barədə iddia ilə məhkəməyə müraciət edir. Bu baxımdan, özünəyardım tədbiri **tələbin məhkəmə qaydasında təmin və icra edilməsi vasitəsi kimi** çıxış edir.

Özünəyardım vasitə və tədbirlərindən yalnız **müəyyən şərtlər** olduqda istifadə etmək olar[3]. Bu zəmin olmazsa, həmin vasitə və tədbirlərin tətbiq edilməsi istisna olunur. Azərbaycan Respublikasının mülki qanunvericiliyi özünəyardım vasitələrinin tətbiq olunmasının dəqiq şərtlərini müəyyən edir.

Özünəyardım vasitələrindən istifadə edilməsinə əsas olan birinci şərt **səlahiyyətli şəxsin borclu şəxsə mülki-hüquqi (xüsusi) xarakterli iddiaya (tələbə) malik olmasından** ibarətdir. İddia (tələb) dedikdə, Almaniya Mülki Qanunnaməsinin 194-cü paraqrafının 1-ci bəndində göstərildiyi kimi, başqa şəxsdən hərəkət və ya hərəkətsizliyi elə tələb etmək hüququ başa düşülür ki, bu

[1] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского.* М., 1999, с. 52.

[2] Германское право. Гражданское уложение. Часть 1. М., 1996; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 308

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 446.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 447.

[3] Özünəyardımın ilkin şərtləri barədə daha geniş məlumat almaq üçün bax: *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 214; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 447-448.

hüquq məhkəmə vasitəsilə həyata keçirilə bilər. O, Almaniya hüququnda «Anspruch»[1], Rusiya hüququnda isə «притязание»[2] anlayışı ilə əhatə olunur.

İddia (tələb), hər şeydən əvvəl, öhdəlik iddiası (tələbi) növündə ola bilər. Ona şəxsi iddia (tələb) da deyilir. Öhdəlik (şəxsi) iddiasının əsasını öhdəlik hüququ (öhdəlik hüquq münasibəti) təşkil edir. Bunlar, yəni öhdəlik iddiası və öhdəlik hüququ eynimənalı anlayışlardır. Bu növ iddiaya bir neçə misal çəkmək olar: alqı-satqı müqaviləsi üzrə alıcının əşyanın verilməsi barədə satıcıya olan iddiası; alqı-satqı müqaviləsi üzrə satıcının əşyanın pulunun ödənilməsi barədə alıcıya olan iddiası; kirayəyə verənin kirayə haqqının ödənilməsi barədə kirayəçiyə olan iddiası və s. Göründüyü kimi, öhdəlik iddiası konkret səlahiyyətli şəxslə konkret borclu şəxs arasında yaranır.

İddia əşya iddiası növündə də ola bilər. O, yalnız əşya hüququnun (əşya hüquq munasibətinin) məzmununu pozan şəxsin davranışı nəticəsində yaranır. Başqa sözlə desək, əşya hüququ pozulan kimi mütləq əşya iddiası da əmələ gəlir. Yalnız bu cür davranışla borclu şəxsi müəyyən etmək mümkün olur. Əşya iddiası da məhz mütləq (əşya) hüququ pozan şəxsə yönəlir. Bu növ iddiaya da misallar çəkə bilərik: sahibin əşyanın geri qaytarılması barədə vicdansız sahibə olan iddiası; mülkiyyətçinin əşyanın geri qaytarılması haqqında vicdansız əldə edənə olan iddiası[3] və s.

Özünəyardım vasitələrinin tətbiq olunmasına əsas olan ikinci şərt ondan ibarətdir ki, **təcili və təxirəsalınmaz müdaxilə edilmədən iddianın (tələbin) həyata keçirilməsinin qeyri-mümkün olacağına və ya xeyli çətinləşəcəyinə təhlükə yaransın**. Bu şərtə görə, vacib deyil ki, səlahiyyətli şəxsin iddiasına bərpaolunmaz dərəcədə zərər vurulacağına təhlükə yaransın. Məsələn, əsas deyil ki, mülkiyyətçinin əşyasının tam xarab edilmək, korlanmaq və ya məhv edilmək təhlükəsi əmələ gəlsin. Hüquqların müdafiəsi üçün, sadəcə olaraq, mühüm xarakterli istənilən hər hansı çətinliyin mövcudluğu kifayət edər və yeterlidir. Məhz bu halda özünəyardım tədbirinə əl atmaq üçün əsas yaranır. Məsələn, pul borc verən (səlahiyyətli şəxs) zənn edir ki, borc alan qaçıb aradan çıxa və gizlənə bilər. Məlum məsələdir ki, bu halda onun hüququnun mudafiə edilməsi (tələbin həyata keçirilməsi) çətinləşəcəkdir. Söz yox ki, belə məqamda özünəyardım vasitəsindən istifadə olunmağı şərtləndirən vəziyyət yaranır.

Özünəyardım vasitələrinin tətbiq olunmasına əsas olan üçüncü şərt ondan ibarətdir ki, **səlahiyyətli dövlət orqanlarından vaxtında müvafiq yardım və köməyin alınması qeyri-mümkün olsun və ya bu orqanların köməyi vaxtında yetişməsin**. Başqa sözlə desək, elə bir vəziyyətin yaranması gərəkdir ki, bu vəziyyətdə səlahiyyətli şəxs (kreditor) lazımi inzibati kömək alınmasını

[1] *Жалинский А., Рерихт А.* Введение в немецкое право. М., 2001, с. 306.

[2] «Притязание» sözü azərbaycan dilində «nəyə isə öz hüquqlarını irəli sürmək» mənasını bildirir (*С.И.Ожегов.* Словарь русского языка. М., 1988, с. 489).

[3] Bu cür əşya iddiasını öhdəlik iddiasına aid edən A.Rörixtin mövqeyi bizdə təəccüb doğurur (*А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. 2001, с. 306).

tələb edə bilməsin[1]. Məsələn, borclu əşyanı minik avtomobilinə qoşaraq, aradan çıxmaq istəyir. Belə halda, məlum məsələdir ki, səlahiyyətli şəxsin dövlət orqanlarından lazımi kömək alması qeyri-mümkündür.

Səlahiyyətli dövlət orqanlarının konkret dairəsini mülki qanunvericilik müəyyənləşdirmir. Bizim fikrimizcə, Almaniya sivilistika doktrinasında göstərildiyi kimi, bu cür dövlət orqanları rolunda polis, məhkəmə və digər inzibati qurumlar çıxış edə bilər[2].

Mülki qanunvericilik təkcə özünəyardımın şərtlərini müəyyənləşdirmir. O, həm də **özünəyardımın mümkün olan və yol verilən vasitələrini** nəzərdə tutur[3]. Göstərilən şərtlər mövcud olduqda, həmin vasitələrdən istifadə olunmağa imkan yaranır. Bu cür vasitələrə aiddir:

- əşyanı almaq;
- borclu şəxsi tutmaq;
- əşyanı məhv etmək və ya zədələmək;
- hər hansı hərəkətin edilməsinə borclu şəxsin göstərdiyi müqavimətin qarşısını almaq.

Göstərilən vasitələr **özünəyardımın həyata keçirilməsinin yollarıdır**. Yaranan hər bir konkret vəziyyət və hala uyğun gələn münasib özünəyardım vasitəsi seçilir.

Əşyanı almaq özünəyardımın əsas vasitələrindən biri hesab olunur. Bu üsulla həm öhdəlik, həm də əşya iddialan (tələbləri) ödənilə bilər. Məsələn, kirayəçi kirayə müqaviləsinin müddəti başa çatdıqda, əşyanı geri qaytarmır. Həmin əşyanın məhv olmaq və ya xarab olmaq, korlanmaq təhlükəsi yaranır. Bu təhlükənin qarşısını almaq üçün yaranmış vəziyyət məsələyə səlahiyyətli şəxsin (kirayəyə verənin) təxirəsalınmaz və təcili müdaxiləsini tələb edir. Kirayəyə verən güc tətbiq edərək, əşyanı geri alır. Bu halda öhdəlik iddiası təmin olunur. Başqa bir misalda vətəndaş sahibin iradəsi olmadan əşyanı onun əlindən alır. O, sahiblikdən məhrum olur. Belə halda sahibin vətəndaşa sahiblik iddiası yaranır. Bu iddianı ödəmək üçün sahib güc tətbiq etməklə zorla əşyanı vətəndaşın əlindən alır[4].

Göstərilən özünəyardım vasitəsi, bir qayda olaraq, geri alınmış əşyanın özünə yönələn iddiaların ödənilməsi üçün istifadə olunur. Bununla belə, pul tələbləri barədə iddia da bu vasitə hesabına təmin edilə bilər. Məsələn, yük

[1] Almaniya sivilistika doktrinası və mülki qanunvericiliyi üçüncü şərti «vaxtında inzibati kömək tələb edə bilməmək», «dövlət orqanlarından vaxtında kömək almağın qeyri-mümkünlüyü» kimi müəyyənləşdirir (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 447; *А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. 2001, с. 308). Amma bizim ölkə qanunvericiliyi «səlahiyyətli dövlət orqanlarının köməyinin vaxtında yetişməməsi» kimi şərt nəzərdə tutur. Zənn edirik ki, qanunverici Almaniya Mülki Qanunnaməsinin 229-cu paraqrafının müvafiq hissəsini olduğu kimi vermək istəməmişdir.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 447;

[3] Daha ətraflı məlumat almaq üçün bax: Kuhlenbeck. Selbsthilfe. 1907.

[4] Almaniya Mülki Qanunnaməsinin 859-cu paraqrafı (2-ci, 3-cü və 4-cü hissələri) və 860-cı paraqrafı sahibə və «sahibin qulluqçusu»na hüquq verir ki, sahib ondan alınmış əşyanı güc tətbiq etməklə geri alsın. Söhbət əşyanı almaq kimi özünəyardım vasitəsinin tətbiqindən gedir (*А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. М., 2001, с. 413; Германское право. Гражданское уложение. М., 1996. Часть 1).

sahibi daşıyıcıya təyinat yerinə çatdırılmış yükə görə daşıma haqqını ödəmir. Belə halda daşıyıcı pul öhdəliyini təmin etmək üçün yükü geri alır.

Borclu şəxsi tutmaq özünəyardım vasitələri arasında vacib rol oynayır. Borclu şəxs yalnız o halda tutula bilər ki, o, qaçıb gizlənməkdə şübhəli bilinsin, yəni onun qaçıb gizlənməsi ehtimal olunsun. Başqa hala görə, məsələn, iddianın təmin edilməsinə xidmət edən əşyanı satmağa görə şübhələnmək borclu şəxsi tutmaq üçün əsas ola bilməz.

Borclu şəxs tutulan kimi, dərhal da müvafiq dövlət orqanlarına təhvil verilməlidir. Hansı dövlət orqanına borclunun təhvil verilməsini mülki qanunvericilik müəyyənləşdirmir. Almaniya Mülki Qanunnaməsinə görə, borclu şəxs onun tutulduğu yerin aşağı instansiya məhkəməsinə təhvil verilir (§ 230). Bizim fikrimizcə, yaranmış vəziyyətdən asılı olaraq, borclu şəxs həm məhkəmə, həm də polis orqanlarına təhvil verilə bilər. İri məbləğdə borc pul alan şəxsin xarici ölkələrin birində qaçıb gizlənməsinə şübhə yaranır. Bu məqsədlə o, gecə vaxtı aeroportdan yola düşmək istərkən borc verən şəxs tərəfindən qəflətən yaxalanır. Məlum məsələdir ki, belə halda tutulan borclu şəxs polis orqanına təhvil veriləcəkdir.

Özünəyardımın vasitəsilə, bir qayda olaraq, pul tələbləri təmin olunur. Bununla belə, tələbin obyekti (predmeti) rolunda əşyalar da çıxış edə bilər. Bu cür tələblərə natural xarakterli tələblər deyilir. Məsələn, məzuniyyətə gedərkən vətəndaş öz zinət əşyalarını qonşuya saxlamağa verir. Məzuniyyətdən qayıtdıqdan sonra ona məlumat verilir ki, qonşu yaşamaq üçün uzaq xarici ölkələrdən birinə getməyə hazırlaşır. Bunu eşidən kimi vətəndaş hava limanına yollanır və gecə reysi ilə xarıcı ölkəyə uçmağa hazırlaşan qonşunu tutur və polis orqanına təhvil verir.

Almaniya sivilistika doktrinasında göstərilir ki, borclunu tutub saxlamaq kimi vasitənin əvəzinə digər vasitələrdən də istifadə oluna bilər: borclunu evdə bağlı qapılar altında saxlamaq (ev həbsi), borclunun paltarlarını götürmək; borclunun pasportunu əlindən almaq; borclunun yol biletini götürüb özündə saxlamaq və s[1].

Əşyanı məhv etmək və ya zədələmək özünəyardım vasitələrindən biridir (MM-ın 565-ci maddəsinin 1-ci bəndi). Söhbət borclu şəxsin əşyasından gedir. Məsələn, kirayəçi oz mınik avtomobilində kirayəyə götürdüyü evin müəyyən avadanlıq və predmetini aparmaq istədikdə səlahiyyətli şəxs (kirayəyə verən) həmin avtomobilin təkərlərini mismarla deşir.

Hər hansı hərəkətə göstərilən müqavimətin qarşısını almaq özünəyardım vasitəsi hesab edilir. Söhbət səlahiyyətli şəxsin yerinə yetirməli olduğu hərəkət barəsində borclu şəxsin müqavimətinin qarşısının alınmasından gedir. Məsələn, səlahiyyətli şəxsin əşyasını kirayəyə götürüb geri qaytarmaq istəməyən və onu öz evində gizlədən borclu şəxsi məcbur edirlər ki, o, evdə həmin əşyanın axtarılmasına müqavimət göstərməsin. Digər misalda vətəndaş qonşusunun xeyli torpaq sahəsini öz torpaq sahəsinə birləşdirərək barı vasitəsilə mərz çəkir. Barı sökülərkən və uçurularkən qonşunun müqavimət göstərməsinin qarşısı alınır. Daha digər misalda borclunu məcbur edirlər ki, o, kirayəyə götürülmüş evdən səlahiyyətli şəxsin öz əşyalarını aparmasına müqavimət göstərməsin.

Hüquq ədəbiyyatında həyət (gözətçi) itinin kömayindən istifadə etməklə özünəyardımın həyata keçirilməsinin mümkünlüyü göstərilir[1]. Bəzi hüquq sistemlərində, məsələn, Kaliforniya ştatının qanunvericiliyi özünəyardım tədbiri kimi silahdan istifadə etməyə (havaya güllə atmağa) icazə verir[2].

Beləliklə, qanunun nəzərdə tutduğu şərtlər mövcud olduqda özünəyardımın göstərilən vasitələrindən istifadə oluna bilər. Lakin həmin özünəyardım vasitələrinin mülki-hüquqi mənada əhəmiyyət kəsb etməsi və hüquqazidd əməl (mülki hüquq pozuntusu) sayılmaması üçün zəruridir ki, onlar qanunun müəyyənləşdirdiyi tələblərə uyğun surətdə həyata keçirilsin. Bu tələblərə **özünəyardımın tələbləri** deyilir[3].

Birinci tələb ondan ibarətdir ki, **özünəyardım vasitələri (hərəkətləri) lazımi hədləri, yəni özünəyardım hədlərini aşa bilməz** (MM-in 565-ci maddəsinin 2-ci bəndi). Özünəyardım hədləri dedikdə, müvafiq təhlükənin qarşısını almaq və ya onu dəf etmək üçün zəruri olan sərhədlər başa düşülür. Bir halda ki, təhlükənin qarşısını almaq və ya onu dəf etmək lazım gəlir, o halda da özünəyardım hərəkətlərindən istifadə etməyə yol verilir. Almaniya Mülki Qanunnaməsində göstərilir ki, özünəyardım təhlükənin aradan qaldırılması üçün lazım olan müddətdən çox davam edə bilməz (§ 230). Söhbət əşyanı almaq və borclu şəxsi tutub saxlamaq kimi özünəyardım vasitələrindən gedir[4]. Özünəyardım qaydasında edilən hərəkətlər **təhlükənin xarakterinə uyğun gəlməlidir**. Əgər uyğun gəlməzsə, bu, o deməkdir ki, həmin hərəkətlər təhlükənin qarşısını almaq və ya onu dəf etmək üçün zəruri olan hədləri aşmışdır. Bu isə mülki hüquq pozuntusu olub, özünəyardım tədbiri sayılmır.

Özünəyardım həddini aşmaq və ya aşmamaq kimi məsələni həll edərkən özünəyardım vasitəsilə təhlükənin uyğun olması, yaxud olmaması, təhlükənin xarakteri, səlahiyyətli şəxsin qüvvə və imkanları, habelə digər hallar nəzərə alınmalıdır.

İkinci tələbə görə, **təhlükə real və həqiqi olmalıdır**. Səlahiyyətli şəxsin (özünəyardım vasitəsindən istifadə edən şəxsin) xəyalında deyil, real gerçəklikdə obyektiv surətdə mövcud olan təhlükə həqiqi (real) təhlükə hesab edilir. Xəyali təhlükəyə qarşı özünəyardım **xəyali özünəyardım** adlanır. Bu cür özünəyardım obyektiv surətdə mövcud olmur. Məsələn, səlahiyyətli şəxs xəyalən düşünür ki, kirayəçi kirayəyə götürdüyü əşyanı qaytarmayacaqdır və bununla xəyali təhlükə yaradır. Bu cür xəyali təhlükənin qarşısını almaq üçün o, əşyanı kirayəçidən alır. Bu, xəyali özünəyardım hərəkətidir.

Xəyali özünəyardım hüquqazidd halın qarşısını almaq üçün zəruri olan ilkin

[1] *Эннекцорус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 448; *Heyer* Bürg. A., 19, s. 68

[1] *У.Маттеи, Е.А.Суханов.* Основные положения права собственности. М., 1999, с. 163.

[2] Соединенные Штаты Америки: Конституция и законодательные акты. Перевод с англ. М., 1993.

[3] Özünəyardımın şərtləri barədə daha geniş məlumat almaq üçün bax: *H.Heinrichs // Palandt.* Bürgerliches Gesetzbuch. Kommentar. München 1999. s. 214

[4] *А.Жилинский, А.Рёрихт.* Введение в немецкое право. М., 2001, с. 308.

şəraitin mövcudluğu barədə yanlış və səhv mülahizə ilə həyata keçirilən tədbir və hərəkətdir. Söhbət səlahiyyətli şəxsin yanlış və səhv mülahizə əsasında özünəyardım vasitəsindən istifadə etməsindən gedir. Belə ki, o, ilkin şəraitin mövcudluğu barədə səhvə və yanlışlığa yol verir. Bu isə səlahiyyətli şəxsin mülki-hüquqi məsuliyyətə cəlb edilməsinə səbəb olur. O, borclu tərəfə vurduğu ziyanın əvəzini ödəməlidir (MM-in 565-ci maddəsinin 5-ci bəndi). Özü də səlahiyyətli şəxsin ehtiyatsızlıqdan və ya qəsdən yanılmaya və səhvə yol verməsinin məsələyə dəxli yoxdur, yəni o, yanılmanın ehtiyatsızlıqdan və ya qəsdən irəli gəldiyindən asılı olmayaraq məsuliyyət daşıyır. Borc verən zənn edir ki, uzaq xarici ölkəyə məzuniyyətə gedən borc alan şəxs guya gizlənmək niyyətilə həmin ölkəyə uçur. Buna görə də o, borc alan şəxsi hava limanında tutur. Burada borc verən yanlış və səhv mülahizə əsasında özünəyardım vasitəsindən istifadə edir. Daha doğrusu, o, xəyali özünəyardım vəziyyəti yaradır.

Üçüncü tələbə görə, özünəyardım tədbirləri həyata keçirildikdən sonra **təsdiq olunmaq üçün səlahiyyətli dövlət orqanına bu barədə məlumat verilməlidir** (MM-in 565-ci maddəsinin 5-ci bəndi). Bu qaydanın əsas mahiyyəti ondan ibarətdir ki, vətəndaşlar öz hüquqlarını özünəyardım vasitələrinin köməyilə müdafiə edərkən cəmiyyətin dinc və asudə həyatını pozmağa yönələn zorakılıq hərəkətlərinə yol verməsinlər. Dövlət özünə rəva bilməz ki, vətəndaşlar əhatə dairəsi kifayət qədər geniş olan özünəyardım tədbirlərindən istifadə etməklə hüquqlarının müdafiəsini özləri həyata keçirsinlər. Axı, **güc və qüvvə tətbiq etməkdə dövlət inhisar hüququna malikdir**: mülki hüquqların həyata keçirilməsinin təmin edilməsi, güc və ya məcburetmə tətbiq olunması dövlətin inhisarındadır və bu məqsədlə dövlət mülki-prosessual qanunvericiliklə və b. tənzimlənən metodlardan istifadə edir (MM-in 561-ci maddəsi). Buna **dövlət hakimiyyətinin inhisarı** deyilir. Dövlətin bu cür hüquqa malik olması onunla şərtlənir ki, vətəndaşlar öz aralarında yaranmış mübahisəni fiziki güc və silahın köməyilə həll etməsinlər[1], özbaşınalığa, hərc-mərcliyə, xaosa yol verməsinlər. Məhz buna görə də həyata keçirilmiş özünəyardım tədbiri barədə dövlət orqanına məlumat verilməlidir. Bu məqsədlə səlahiyyətli şəxs müvafiq dövlət orqanına məlumat verir. Əgər həmin məlumat təsdiq olunarsa, özünəyardım tədbiri mülki hüquq pozuntusu sayılmır. Əgər müvafiq dövlət orqanı belə məlumatı yolverilməz və ya əsassız məlumat kimi rədd etdikdə, özünəyardım tədbiri mülki hüquq pozuntusu hesab edilir.

Azərbaycan Respublikasının mülki qanunvericiliyi bəzi kateqoriya şəxslərə xüsusi xarakterli özünəyardım hüququ verir. Bu hüquqdan istifadə etmək üçün sadaladığımız ümumi xarakterli şərtlər yox, başqa şərt əhəmiyyət kəsb edir. **Xüsusi xarakterli özünəyardım tədbirlərinə** aiddir:

[1] Belə yanaşmanın əsasını belə bir latın qaydası təşkil edir: «ne civev ad arma veniant», yəni vətəndaşların bir-birlərinə münasibətdə silahdan istifadə etməmələri üçün dövlət vicdansız sahibi də müdafiə edir (*Y.Məmmədov, E.A.Suxanov.* Основные положения права собственности. M., 1999, c. 162).

- sahibliyin müdafiəsi zamanı özünəyardım (MM-in 164-cü maddəsi)[1];
- qonşunun mülkiyyətinə ziyan vuran çıxıntılı budaqların və uzanan köklərin kəsilməsi (MM-in 174-cü maddəsi)[2].

Xüsusi xarakterli özünəyardım tədbirləri haqqında qaydalar Almaniya mülki qanunvericiliyindən götürülmüşdür[3]. Həmin qaydalar Mülki Qanunnamənin 859-cu, 860-cı və 910-cu paraqraflarında nəzərdə tutulmuşdur.

§ 4. Operativ təsir tədbirləri (ləngitmə hüququ)

1. Operativ təsir tədbirlərinin (ləngitmə hüququnun) anlayışı və əsas cəhətləri

Qeyri-yurisdiksiya müdafiə formalarından biri operativ təsir tədbirləri adlanır. Mülki hüquq elmində (sivilistika doktrinasında) müəlliflərdən bəziləri onları təşkilati tədbirlər, bəziləri operativ təsir tədbirləri, digərləri təşkilati sanksiyalar, dördüncü qrup müəlliflər isə operativ sanksıyalar adlandırırlar[4]. Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi həmin tədbirləri ləngitmə hüququ adı altında nəzərdə tutur (MM-in 562-ci maddəsi).

Ləngitmə hüququ bizim müasir ölkə qanunvericiliyi üçün novelladır. Əvvəlki dövrün qanunvericiliyi belə anlayış tanımırdı[5]. O, bizə Almaniya mülki qanunvericiliyindən keçmişdir. Özü də ləngitmə hərəkətlərini bizim ölkə qanunvericiliyi Almaniya qanunvericiliyi ilə eyni qaydada tənzimləyir.

Sivilistika elmində operativ təsir tədbirləri və ya ləngitmə hərəkətləri dedikdə, hüquqqoruyucu xarakterli elə hüquqi vasitələr başa düşülür ki,

[1] Azərbaycan Respublikası MM-nin 164-cü maddəsinin 1-ci bəndində göstərilir ki, hər bir sahibin özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı vardır. Bu norma Almaniya Mülki Qanunnaməsinin 859-cu paraqrafının 1-ci hissəsindən iqtibas olunmuşdur. Lakin bizim Mülki Məcəllə həmin paraqrafın «Sahibin özünəyardımı» adlı 2-4-cü hissələrini öz tərkibinə daxil etmir. Bu hissələrdə göstərilir ki, əgər pozuntu töredən şəxs yerindəcə yaxalanarsa və ya təqib nəticəsində tutularsa, sahib özbaşınalıq yolu ilə ondan alınmış daşınar əşyanı güc işlətməklə geri ala bilər. Zənnimizcə, bizim ölkə qanunvericiliyinin həmin göstərişi nəzərdə tutmamasına baxmayaraq, MM-in 164-cü maddəsinin 1-ci bəndində işlədilən «güc işlətmək» kimi ifadəni genişləndirici təfsir etməklə həm də «əşyanı güc işlətməklə geri almaq» mənasında, yəni özünəyardım tədbiri mənasında başa düşmək lazımdır. Xatırladaq ki, «güc işlətmək» xüsusi xarakterli mülki zəruri müdafiə hərəkətidir (Besitzwahr).

[2] Almaniya Mülki Qanunnaməsinə görə, şəxs özgə torpaq sahəsində ari beçəsini izləmək kimi xüsusi özünəyardım hüququna malikdir (§ 962). Bizim ölkədə ərçilik kimi təsərrüfat sahəsində belə halla rastlaşmaq mümkündür. Ona görə özünəyardım hüququnu nəzərdə tutan həmin normanın Azərbaycan Respublikasının MM-nə daxil etməyi məqsədəmüvafiq sayırıq.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. M., 1950, c. 449; *А.Жалинский, А.Рёрихт.* Введение в немецкое право. M., 2001, c. 449; *Palandt* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

[4] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. M., 1985. c.97; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслеева*. M., 1997, c. 223; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. M., 1998, c. 418; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. M., 1998, c. 284 и др.

[5] Amma buna baxmayaraq, sovet dövrünün mülki hüquq elmi bu məsələyə xüsusi diqqət yetirirdi (bax: *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. M., 1972, c. 152-166; Советское гражданское право. Учебник. Том 1/Под ред. *О.А.Красавчикова*. M., 1985. c. 97).

bu vasitələr mülki hüquq münasibəti iştirakçısı olan səlahiyyətli şəxs tərəfindən mülki hüquq və vəzifələri pozan şəxsə bilavasitə, hüquqları müdafiə etmək üçün səlahiyyətli dövlət orqanlarına müraciət etmədən tətbiq olunur[1]. Sonbət səlahiyyətli şəxsin borclu şəxs tərəfindən öhdəlik icra edilənədək öz öhdəliyinin icrasından imtina etməsindən gedir (MM-in 562-ci maddəsinin 1-ci bəndi)[2]. Bu tədbirlərin mahiyyəti ondan ibarətdir ki, onların tətbiqi (məsələn, əmlak təsir tədbirlərindən fərqli olaraq) hüquq pozuntusu törədən şəxsin əmlak vəziyyətinə birbaşa təsir göstərmir, yalnız onun əmlak mənafeyinə xələl gətirir. Həmin tədbirlərin əsas funksiyası mülki hüquq münasibəti iştirakçısı olan borclu şəxsə onun üzərinə düşən vəzifəni lazımınca icra etmək üçün təkan verməklə, onda meyl yaratmaqla bağlıdır (stimullaşdırmaq funksiyası).

Operativ təsir tədbirləri **hüquqi xarakter daşıyır**. Bu, o deməkdir ki, səlahiyyətli şəxs hüquq pozuntusu törədənə hüquqi vasitələr tətbiq edir. Həmin vasitələr, hər şeydən əvvəl, hüquq pozuntusu törədən şəxs üçün hüquq və vəzifələrin dəyişməsinə səbəb olur. Bu cəhəti ilə operativ təsir tədbirləri mülki hüquqların özünüqoruma (özünümüdafiə) müdafiə formasından fərqlənir. Belə ki, özünüqoruma hərəkətləri (tədbirləri) hüquqi yox, faktiki xarakter daşıyır.

Operativ təsir tədbirlərinə bir neçə misal çəkə bilərik. Məsələn, mal göndərmə müqaviləsinə görə satıcı (mal göndərən) birinci partiya malın pulu ödənilənə kimi alıcıya mal göndərmir. Başqa bir misalda mal göndərmə müqaviləsi üzrə satıcı (mal göndərən) malları göndərmədiyinə görə alıcı pul ödəməkdən imtina edir. Bu cür imtina operativ təsir tədbiri hesab edilir. Daha bir misalda daşıma müqaviləsi üzrə daşıyıcı yükün yük sahibinə verilməsini daşıma haqqı ödənilənə kimi ləngidir. Başqa bir misalda podratçı tikdiyi yaşayış evinin sifarişçiyə verilməsini podrat haqqı ödənilənə kimi ləngidir, təxirə salır.

Operativ təsir tədbirləri bir sıra cəhətlərlə xarakterizə olunur. Bu tədbirlərin birinci əsas cəhəti ondan ibarətdir ki, özünüqoruma tədbirləri kimi **həmin tədbirlərdən də istifadə edilməsinə qanun yol verir** (MM-in 562-ci maddəsi). Bu cür tədbirlərin subyekti rolunda hökmən mülki hüquq münasibətinin tərəflərindən (iştirakçılarından) biri çıxış edir. Belə ki, operativ təsir tədbirləri səlahiyyətli şəxs tərəfindən tətbiq edilir.

Operativ təsir tədbirlərinin ikinci əsas cəhəti ondan ibarətdir ki, bu tədbirlər **hüquqqoruyucu xarakter daşıyır**. Belə ki, bəzi hallarda mülki hüquq münasibətlərində borclu şəxs rolunda çıxış edən tərəf öz vəzifəsini lazımınca icra etmir və ya icra etmir və bununla o, mülki hüquq pozuntusuna yol verir. Məsələn, o, ödənişi vaxtında həyata keçirmir, nəzərdə tutulan bu və ya digər hərəkətləri etməkdən boyun qaçırır, malların göndərilməsi müddətlərini dəfələrlə pozur və s. Belə halda səlahiyyətli şəxs operativ təsir tədbirlərindən istifadə

[1] bax *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972. Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с 223. Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 418.

[2] Qanunvericilik qəh borclunun, qəh də səlahiyyətli şəxsin (kreditorun) imtina hüququna malik olmasından danışır. Bu, əbəs və yersizdir. Ona görə ki, operativ təsir tədbirləri və ya ləngitmə hərəkətləri, bir qayda olaraq, qarşılıqlı (ikitərəfli) huquq münasibətləri ilə bağlı olur. Bu münasibətlərdə isə səlahiyyətli şəxs eyni vaxtda borclu şəxsdir, borclu şəxs isə eyni zamanda səlahiyyətli şəxsdir

edir. Elə bil ki, bu tədbirlər borclu şəxsin törətdiyi mülki hüquq pozuntusuna görə verilən cavabdır.

Operativ təsir tədbirlərinin üçüncü cəhəti ondan ibarətdir ki, bu tədbirlər **vəzifələrin (öhdəliklərin) icrasının eyni bir vaxta düşməsi prinsipi ilə xarakterizə olunur**. Bu prinsipə görə, borclu şəxsin etdiyi hərəkətin (pul verməsinin, iş görməsinin, xidmət göstərməsinin, əmlak verməsinin və s.) müqabilində eyni zamanda səlahiyyətli şəxs müəyyən hərəkəti yerinə yetirmir. Məsələn, dəmir yolu daşıma haqqı ödənilənə kimi yük sahibinə yükü vermir. Podratçı (tikinti təşkilatı) podrat haqqı ödənilənə kimi tikilmiş yaşayış evini sifarişçiyə təhvil vermir. Alıcı mal göndərilənə kimi satıcıya (mal göndərənə) pul ödəmir. Belə təsəvvür yaranır ki, operativ təsir tədbirləri, bir qayda olaraq, ikitərəfli (qarşılıqlı) öhdəlik hüquq münasibətləri (öhdəliklər) ilə bağlıdır. Bu münasibətlərə görə tərəflərdən birinin digərinə hüququ və ya ödəniş müddəti çatmış tələbi olur. Bu tədbirlər həmin münasibətlərdə borclu şəxsin öz vəzifəsinin icrasının təmin edilməsi üsulu kimi, hüquqi təminatın bir növü kimi çıxış edir. Məsələn, saxlama (yuxarıdakı misalda dəmir yolunun daşıma haqqı ödənilənə kimi yükü saxlaması) mülki hüquq elmində operativ təsir tədbiri hesab edilmişdir[1]. Yeni mülki qanunvericilik onu öhdəlik hüquq münasibətinin icrasının təmin edilməsi üsulu kimi nəzərdə tutur və müəyyənləşdirir (MM-in 468-ci maddəsi). Deməli, bu, o deməkdir ki, **operativ təsir tədbirləri həm də öhdəliklərin icrasının təmin edilməsi üsulu kimi çıxış edir**[2].

Operativ təsir tədbirinin dördüncü cəhəti ondan ibarətdir ki, bu tədbir **birtərəfli aktdır**. Belə ki, səlahiyyətli şəxs bu tədbirləri birtərəfli qaydada, səlahiyyətli dövlət orqanlarına müraciət etmədən tətbiq edir.

Operativ təsir tədbirinin beşinci cəhəti ondan ibarətdir ki, adından göründüyü kimi, o, **operativ xarakterə malikdir**. Operativlik onu ifadə edir ki, birincisi, səlahiyyətli dövlət orqanlarına müraciət olunmadan bu tədbirlər səlahiyyətli şəxs tərəfindən tətbiq edilir; ikincisi, onlar hüquq pozuntusu törədən şəxsə tez təsir göstərir. Bu xüsusiyyət isə onların effektli tədbirlər olmasını şübut edir.

2. Operativ təsir tədbirlərinin növləri

Operativ təsir tədbirlərinin müxtəlif növləri vardır. Mülki qanunvericilikdə bu tədbirlərin bir neçə növü göstərilmişdir.

Saxlama operativ təsir tədbirlərinin növlərindən biridir. Bu tədbirə görə, səlahiyyətli şəxsdə borcluya verilməli olan əmlak olduqda, səlahiyyətli şəxs borclu tərəfindən müvafiq vəzifə icra edilənədək həmin əmlakı özündə saxlaya bilər (MM-in 468-ci maddəsinin 1-ci bəndi). O, bu yolla əmlakın borcluya

[1] Saxlama hüququ (jus retentionis) Roma hüququna məlum olan anlayışdır (bax: *Катков М.М.* Понятие права удержания в римском праве. Киев. 1910; *Удинцев В.А.* Понятие права удержания в римском праве. Киев. 1910). Bu anlayış bir sıra xarici ölkə qanunvericiliyinə məlumdur (bax: *Сарбаш С.В.* Права удержания как способ обеспечения и исполнения обязательств. М., 1998).

[2] Müəlliflərdən S.V.Sarbaş göstərir ki, yeni MM-də nəzərdə tutulana kimi saxlama haqlı olaraq operativ təsir tədbirlərinə aid edilirdi. Yeni MM onu öhdəliklərin icrasının təmin edilməsi usullarından biri sayır. Buna görə saxlamanı operativ təsir tədbirləri hesab etmək olmaz (bax: *Сарбаш С.В.* Права удержания как способ обеспечения и исполнения обязательств. М., 1998, с. 192-195). Belə mövqeyin heç bir əsası yoxdur.

verilməsini ləngidir. Odur ki, saxlama ləngitmə hərəkəti olub, onun bir növü sayılır. Məsələn, tikinti təşkilatı tikdiyi yaşayış evini podrat haqqı ödənilənə kimi sifarişçiyə vermir, özündə saxlayır. Deməli, saxlama qarşılıqlı əvəzin təmin edilməsi ilə bağlı olaraq tətbiq edilən operativ təsir tədbiridir.

İmtina aktları operativ təsir tədbirlərinin bir növüdür. Bu akta görə, səlahiyyətli şəxs öz kontragentinin xeyrinə müəyyən hərəkətləri yerinə yetirməkdən imtina edir və bununla o, həmin hərəkətlərin icrasını ləngidir. Bu hala misal olaraq qarşılıqlı (ikitərəfli) müqavilə iştirakçısının müqavilə bağlandıqdan sonra vəziyyətinin xeyli pisləşməsini göstərmək olar (MM-in 562-ci maddəsinin 2-ci bəndi). Vəziyyətin bu cür pisləşməsi nəticəsində öhdəliyin icrası üçün təhlükə yaranır. Belə halda qarşılıqlı müqaviləyə görə öhdəliyi birinci icra etməli olan şəxs kontragent (digər tərəf) öz öhdəliyini yerinə yetirənə və ya öz öhdəliyi üçün təminat verənə qədər öhdəliyin icrasından imtina edə bilər. Məsələn, sement müəssisəsi ilə dəmir-beton məmulatı müəssisəsi arasında mal göndərmə müqaviləsi bağlanır. Müqavilədə sement müəssisəsinin sement göndərməsindən sonra ona pul verilməsi nəzərdə tutulur. Müqavilə bağlandıqdan sonra məlum olur ki, müəssisənin maliyyə-iqtisadi vəziyyəti xeyli pisləşmişdir. Sement müəssisəsi belə halda müəssisənin pul ödəməsinə kimi ona sement göndərmir.

İmtina aktlarının bir sıra konkret halları mülki qanunvericilikdə nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, ləngitmə hərəkəti iki mənada işlədilir:

- məhdud mənada;
- geniş mənada.

Məhdud mənada ləngitmə dedikdə, imtina aktı başa düşülür; bu akta görə, səlahiyyətli şəxs (kreditor) onun barəsində borclu öhdəliyini icra edənədək öz öhdəliyinin icrasından imtina edir. Məsələn, saxlanc müqaviləsinə görə, əmlak haqqı ilə saxlanmağa verilir. Əmlakı saxlamaya verən şəxs (borclu şəxs) saxlama haqqını ödəyənə kimi səlahiyyətli şəxs (əmlakı saxlayan şəxs) həmin əmlakın verilməsindən imtina edir.

Geniş mənada ləngitmə dedikdə, həm saxlama, həm də imtina aktı başa düşülür. Bu mənada ləngitmə «operativ təsir tədbiri» anlayışı ilə əhatə olunur və onun hər iki növünü özündə birləşdirir. Ləngitmə qanununda ifadə olunan göstəriş əsasında yaranır. Məlum məsələdir ki, o, müqavilə yolu ilə müəyyənləşdirilə bilməz. Amma ləngitmə hərəkətindən istifadə olunması **birtərəfli** əqddir.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Братусь С.Н. Юридическая ответственность и законность. М., 1976.

Бутнев В.В. К понятию механизма защиты субъективных прав // Субъективное право. Проблемы осуществления и защиты. Владивосток. 1989.

Грибинов В.П. Пределы осуществления и защиты гражданских прав. М., 1972.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 13).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 12).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Маслаева**. М., 1997 (гл. 13, § 2).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И. Цыбуленко**. М., 1998 (гл. 12, § 3).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 4, § 2).

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950.

Шапп Ян. Основы гражданского права. Германии. Учебник. М., 1996.

А.Жалинский, А.Рёрихт. Введение в немецкое право. М., 2001.

H.Heinrichs // Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

Tuhr, Der Notstand im Zivilrecht. 1888.

Kuhlenbeck. Selbsthilfe. 1907.

XV FƏSİL
MÜLKİ HÜQUQLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏ MÜDAFİƏSİ MÜDDƏTLƏRİ

§ 1. Mülki hüquqda müddətlər, onların hesablanması və növləri. Müddətlərin əhəmiyyəti

1. Mülki hüquqda müddət anlayışı

Vaxt (zaman) **fəlsəfi anlayışdır**. O, materiyanın əsas mövcud olma formalarından biridir[1]. Vaxt (zaman) hərəkət edən materiyadan ayrılmazdır. Engels yazır ki, vaxt maddi proseslərdən, materiyadan təcrid edilmiş halda mövcud ola bilməz. Materiya məkana və vaxta görə hərəkət edir (V.İ.Lenin). Bununla bərabər, vaxt (zaman) **iqtisadi əhəmiyyəti olan kateqoriyadır**. K.Marksa görə, vaxta qənaət etmək qanunu bütün sosial-iqtisadi formasiyalarda qüvvədə olan birinci və əsas qanundur[2]. Bununla belə, vaxt (zaman) hüquqi rol oynayan kateqoriyadır.

Vaxt (zaman) kateqoriyası xüsusilə mülki hüquqda mühüm və vacib əhəmiyyətə malikdir. Mülki hüquqların həyata keçirilməsi və müdafiə edilməsi məhz bu kateqoriya ilə sıx surətdə bağlıdır. Mülki hüquq münasibətləri vaxta (zaman) görə mövcud olur. Mülki hüquqların mövcudluğu, pozulmuş hüquqların müdafiəsi, bir qayda olaraq, vaxt (zaman) kateqoriyası ilə məhdudlaşır. Mülki-hüquqi müqavilələr müəyyən vaxt dövründə qüvvədə olur. Mülki-hüquqi nəticələr (yetkinlik yaşına çatma, əldəetmə müddəti, qüvvədə olma müddəti, müddətin ötməsinə görə hüquqa xitam verilməsi və s.) məhz vaxtın keçməsi prosesi ilə bağlıdır. Deməli, vaxt (zaman) mülki-hüquqi əhəmiyyətə malik olan kateqoriyadır. Bu isə o deməkdir ki, fəlsəfi və iqtisadi kateqoriya olan vaxt həm də **hüquqi kateqoriya** hesab olunur.

Lakin vaxtın axım prosesi özlüyündə mülki hüquqi əhəmiyyət kəsb etmir. Yalnız müəyyən vaxt anının və ya vaxt dövrünün (kəsiyinin) mülki-hüquqi mənası və rolu vardır. Belə ki, mülki qanunvericilik məhz həmin vaxt anının çatması ilə və ya vaxt dövrünün (kəsiyinin) bitməsi ilə müəyyən hüquqi nəticənin əmələ gəlməsini, yəni mülki hüquq münasibətlərinin (mülki hüquq və vəzifələrin) yaranmasını, dəyişməsini və ya xitam olunmasını əlaqələndirir və bağlayır. Bu cür vaxt anı və ya vaxt dövrü (kəsiyi) mülki hüquqda müddət adlanır.

Mülki hüquqda müddət dedikdə, elə bir vaxt anı və ya vaxt dövrü (kəsiyi) başa düşülür ki, mülki qanunvericilik müəyyən hüquqi nəticənin əmələ gəlməsini həmin vaxt anının çatması ilə və ya vaxt dövrünün (kəsiyinin) bitməsi ilə əlaqələndirir. Başqa sözlə desək, mülki-hüquqi mənada müddət mülki hüquq münasibətlərinin (mülki hüquq və vəzifələrin) əmələ gəlməsinin, dəyişməsinin və ya xitamının bağlı olduğu müəyyən vaxt anı və ya vaxt dövrüdür (kəsiyidir). Madam ki, vaxt anının çatması və ya vaxt dövrünün bitməsi mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişməsinə və ya xitamına, yəni hüquqi nəticəyə səbəb olur, deməli, **müddət öz hüquqi təbiətinə görə hüquqi faktdır**. Məsələn, fiziki şəxs on səkkiz yaş həddinə çatır və bununla o, istənilən əqd bağlamaq hüququ əldə edir (vaxt anının çatması). Müəllifin ölümündən sonra qanunla müəyyənləşdirilmiş əlli illik vaxt dövrünün keçməsi ilə onun vərəsələrinin əsərdən istifadə üzrə müstəsna əmlak hüquqlarına (hüquq münasibətlərinə) xitam verilir (vaxt dövrünün bitməsi).

Almaniya hüquq ədəbiyyatında da müddətə anlayış verilməsinə rast gəlirik: vaxtın keçməsi odur ki, onunla müxtəlif qanuni nəticələrin əmələ gəlməsi əlaqələndirilir. Yaponiya mülki hüququna görə müddət bir vaxt anından digər vaxt anına kimi uzanan müəyyən vaxt dövrüdür.

Mülki hüquqda müddət anlayışı iki mənada işlədilir: müəyyən vaxt anı mənasında; müəyyən vaxt dövrü (kəsiyi) mənasında[1]. Bu anlayış həm birinci, həm də ikinci mənada istifadə olunaraq müəyyən hüquqi nəticənin yaranması ilə bağlı olur.

Mülki hüquqda müddətin hüquqi faktlar sistemində tutduğu yer bir neçə müddətdir ki, müəlliflər arasında mübahisə predmetinə çevrilmişdir. Bu barədə əsasən bir-birinə zidd olan iki fikir söylənilir.

Bir qrup müəlliflər göstərirlər ki, müddətin müəyyən və təyin edilməsi **iradəvi mənşəyə** malikdir. Ona görə ki, mülki hüquqda müddət qanunla, əqdlə və ya məhkəmə qərarı ilə müəyyən edilir. Müddətlərin çoxusu dayandırıla və ya bərpa edilə bilər ki, bu cəhət onların iradəvi təbiətli olmasını göstərir. Ona görə də müddətlərin əksəriyyəti ikili xarakterə malikdir. Belə ki, onlar mənşəyinə görə iradəvi olsalar da, vaxt axımının obyektiv prosesi ilə bağlıdır. Həmin müəlliflərin fikrincə, məhz bu səbəbdən müddət xüsusi kateqoriya hüquqi fakt olub, hüquqi faktların nə hadisə, nə də hərəkət növünə aid edilir. Daha sonra qeyd edilir ki, müddəti obyektiv kateqoriya olan vaxtdan fərqləndirmək lazımdır, çünki müddət qanunvericinin və ya hüquq münasibəti iştirakçılarının iradəsi ilə müəyyən edilir. Ona görə də o, hüquqi faktlar sistemində hadisə ilə hərəkət arasında aralıq (xüsusi) vəziyyəti tutur[2].

Anoloji mövqeni digər müəlliflər də tuturlar. Onların fikrincə, müddətin başlanğıc və sonunu insanlar özləri müəyyən edirlər, yəni o, iradəvi xarakter daşıyır. Müddətin axımı isə vaxt axımının obyektiv qanununa tabedir. Bu qanun isə insanın iradəsindən asılı deyildir. Hüquqi müddətlərin bu cür ikili təbiətə malik olması belə bir nəticə çıxarmağa imkan verir ki, onlar hüquqi faktların müstəqil

[1] Краткий философский словарь. М., 1952, с. 67.
[2] *Маркс К., Энгельс Ф.* Сочинения. Том 46, с. 117.

[1] Bu, ümumiyyətlə, «müddət» məfhumunun ifadə etdiyi iki mənaya uyğun gəlir: müəyyən vaxt dövrü (kəsiyi); müəyyən vaxt anı (*Ожегов С.И.* Словарь русского языка. М., 1988, с. 750). Almaniya hüquq ədəbiyyatı sahələrində də müddət iki mənada işlədilir: Fristen (vaxt dövrü); Termime, yəni vaxt anı mənasında (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 372).

[2] bax: *Грибанов В.П.* Сроки в гражданском праве. М., 1967, с. 9-10; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 248-249; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1993, с. 187; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 462. Vaxtilə müddətlərin hüquqi faktlar sistemində xüsusi kateqoriya olub, nə hadisəyə, nə də hərəkətə aid edilməsi barədə fikri səhvən bu sətirlərin müəllifi də dəstəkləmişdi (bax: *Allahverdiyev S.S.* Azərbaycan Respublikasının mülki hüququ. Mühazirə kursu. 1-ci hissə. Bakı. 1999, s. 626).

kateqoriyasıdır[1].

Digər qrup müəlliflər göstərirlər ki, müddət insanların iradəsi ilə müəyyən edilsə də, onun çatması və ya bitməsi obyektiv xarakter daşıyır. Müddətin çatması və ya bitməsi mütləq və labüd xarakter daşıyaraq, qanunvericinin və hüquq münasibəti iştirakçılarının iradəsi və düşüncəsindən asılı deyildir. Müddət obyektiv kateqoriyadır. Onun axımının qarşısını subyektlər ala bilməzlər. Müddətin yaxınlaşmasını nə dəyişdirmək, nə də ləğv etmək olar. Buna görə də müddəti hüquqi faktın hadisə və hərəkət kimi növləri ilə bərabər mövcud olan müstəqil növü hesab etmək olmaz. Hüquqi faktlar sistemində müddət hadisə kateqoriyasına aid edilir[2].

Bizim fikrimizcə, axırıncı qrup alimlərin mövqeyi həqiqətə daha yaxındır. Doğrudan da, mübahisəsiz olaraq, müddət hüquqi faktların hadisə kimi növünə daxildir. Daha konkret və dürüst söyləsək, o, **hadisənin nisbi hadisə kimi növünə aiddir**[3]. Ona görə ki, müddətdən danışanda, ümumiyyətlə, subyektlərin iradəsini inkar etmək olmaz. Nisbi hadisə odur ki, o, subyektlərin hərəkətləri nəticəsində yaransa da, bu hərəkətlərdən asılı olmayaraq inkişaf edir. Müddəti bu növ hadisəyə aid etmək üçün kifayət qədər əsaslar vardır.

Bununla belə, vaxtın keçməsi faktı, insanın bioloji ölüm vaxtı isə mütləq hadisə növünə şamil edilir. Məsələn, insanın bioloji ölümü ilə miras açılır. Cinayət əməli nəticəsində baş verən ölüm, insanın doğulması kimi vaxt müddəti nisbi hadisədir.

Müddətlərin mülki-hüquqi əhəmiyyətə malik olmasını nəzərə alaraq mülki qanunvericilik onların tənzimlənməsinə xüsusi diqqət yetirir. Belə ki, o, müddətlər barədə həm ümumi, həm də xüsusi qayda müəyyən edir. **Ümumi qayda** mülki hüquqla tənzimlənən bütün münasibətlərə şamil edilir. Bütün eyni tipli mülki hüquq münasibətləri üçün müəyyənləşdirilən həmin qayda MM-in 17-ci fəslinə daxil olan maddələrdə (367-371-ci maddələrdə) nəzərdə tutulmuşdur. **Xüsusi qayda** isə yalnız müvafiq müddət müəyyənləşdirilən münasibətlərə şamil edilir. Məsələn, podrat müqaviləsi üzrə iddia müddəti xüsusi qaydaya misal ola bilər (MM-in 776-cı maddəsi).

Müddətlərin qaydaya salınmasına və tənzimlənməsinə xarici ölkələrin qanunvericiliyi də mühüm əhəmiyyət verir. Məsələn, Almaniya Mülki Qanunnaməsinin birinci kitabının dördüncü bölməsi (§ 186-197 və s.), RF MM-in on birinci fəsli, Fransa Mülki Məcəlləsinin üçüncü kitabının 22-ci bölməsi və s. müddətlərin nizama salınmasına həsr edilmişdir[1]. Yaponiya MM-in 135-170-ci maddələri müddət üzrə münasibətləri tənzimləyir[2].

2. Müddətlərin hesablanması üsulu və qaydaları

Mülki hüquqda müddətlər müxtəlif üsullar əsasında müəyyən edilir. **Müddətlərin müəyyən edilmə üsulları** dedikdə, onların təyin olunduğu vasitə və qaydalar başa düşülür. Bu üsullar üç cürdür:

- təqvim tarixi ilə müddətin təyin edilmə üsulu;
- vaxt dövrünün (kəsiyinin) bitməsi ilə müddətin təyin edilmə üsulu;
- hökmən baş verməli olan hadisəni göstərməklə müddətin təyin edilmə üsulu.

Təqvim tarixi ilə müddət o halda təyin edilir ki, mülki hüquq və vəzifələrin əmələ gəlməsini, dəyişməsini və ya xitam olmasını müəyyən (dəqiq) vaxt anı ilə əlaqələndirmək lazım gəlsin (məsələn, 15 avqust 2009-cu il). Bu üsulla müddətin təyin edilməsi halına müqavilələrdə daha tez-tez rast gəlinir. Məhkəmə qərarlarında da bu üsuldan istifadə etməklə müddət təyin oluna bilər.

Təqvim tarixi üsulu ilə müddətlər müəyyən ayın, rübün konkret tarixi göstərilməklə də təyin edilə bilər. Məsələn, kommunal və rabitə xidmətinə görə, sığorta öhdəliyi və vergiyə və s. görə vaxtaşırı ödənişlər üçün müəyyən ayın konkret tarixi nəzərdə tutula bilər.

Bəzi hallarda bu və ya digər vəzifənin müəyyən təqvim tarixində icra edilməsi qanunvericiliklə müəyyənləşdirilir. Məsələn, mənzil qanunvericiliyində müəyyən ödənişlərin həyata keçirilməsinin konkret tarixi göstərilir. Başqa bir misalda qanun müəyyən edir ki, ömürlük renta hər təqvim ayının sonunda ödənilir (MM-in 878-ci maddəsi).

Vaxt dövrünün bitməsi üsulunun mahiyyəti ondan ibarətdir ki, bu üsula görə müddət, necə deyərlər, onun «uzunluğu»nun təyin edilməsi ilə müəyyənləşdirilir və illərlə, aylarla, həftələrlə, günlərlə və ya saatlarla hesablanır. Vaxt dövrü müəyyən vaxt kəsiyidir ki, bu kəsik həddində mülki hüquq və vəzifələr ya əmələ gəlir, ya mövcud olur, ya dəyişir, ya da xitam edilir.

Göstərilən üsulla müddətlərin təyin edilməsi həm qanunda, həm də müqavilədə nəzərdə tutula bilər. Məsələn, qanunda göstərilir ki, borc müqaviləsi üzrə faizlər müvafiq surətdə ilin sonunda ödənilməlidir (MM-in 741-ci maddəsi). Tərəflər bağladıqları borc müqaviləsində nəzərdə tuturlar ki, borc alan borcu üç aydan sonra qaytarmalıdır.

Bəzi hallarda müddət illərlə, aylarla və s. yox, rüblərlə, yarımilliklə, dekada (on günlük müddət) ilə, sutka ilə də müəyyənləşdirilə bilər. Məsələn, bank əmanətinə hesablanan faizlər əmanətçiyə hər rüb başa çatdıqdan sonra ödənilir (MM-in 949-cu maddəsinin 2-ci bəndi). Başqa bir misalda tərəflər əvəzsiz istifadə müqaviləsində göstərə bilərlər ki, əşya yarım il müddətinə istifadəyə verilir.

---

[1] bax: Гражданское право. Учебник / Под ред. *С.П.Гришаева*. М., 1999, с. 82.

[2] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 272; Советское гражданское право. Учебник . Том 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 241; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *Ю.Х.Калмыкова*. М., 1991, с. 192-193; Гражданское право. Учебник. Часть1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 273; Гражданское право. Учебник . Часть1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 211; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 254.

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 147.

[1] bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 3, 6; Комментарий к Гражданскому кодексу РФ / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 390.

[2] *Сакэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 145-159.

Hökmən baş verməli olan hadisəni göstərmək üsuluna görə mülki hüquq münasibəti iştirakçıları baş verməsinin dəqiq tarixi əvvəlcədən bilinməyən hər hansı hadisədən mülki hüquq və vəzifələrin əmələ gəlməsi, dəyişməsi və ya xitam olunması müddətini müəyyənləşdirmək üçün istifadə edirlər. Bu üsul su nəqliyyatı daşımalarında mühüm əhəmiyyət kəsb edir. Belə ki, şimal ölkələrində dəniz və çay yolu ilə yük daşıma münasibətləri üzrə tərəflərin hüquq və vəzifələrinin (yük daşıma münasibətlərinin) əmələ gəlməsi naviqasiya mövsümünün açılışı ilə bağlıdır. Naviqasiya mövsümü dəniz və çaylarda buzun əriməsi ilə başlayır. Onun müddəti ayrı-ayrı illərdə müxtəlif olur. Bu, bir qayda olaraq, təbii iqlim şəraitindən asılıdır. Başqa bir misalda ömürlük renta müqaviləsinin xitam olunmasını qanun renta alanın ölümü ilə əlaqələndirir (MM-in 877-ci maddəsinin 3-cü bəndi). Burada ölüm hökmən baş verməli olan hadisə kimi göstərilir.

Mülki qanunvericilik göstərilən üsullardan başqa, müddətin təyin olunmasının digər üsullarını da nəzərdə tutur. Məsələn, öhdəlik hüquq münasibətinin icrası tələb etmə anı ilə müəyyənləşdirilə bilər (MM-in 427-ci maddəsinin 4-cü bəndi). Belə hallarda **tələb etmə anı müddətin təyin edilmə üsulu kimi çıxış edir**. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, müvafiq öhdəlik hüquq münasibəti səlahiyyətli şəxs (kreditor) tələb etdiyi anda borclu şəxs tərəfindən icra edilir. Məsələn, vətəndaş tələbli əmanət növü üzrə bank əmanəti müqaviləsi bağlayır. Belə halda əmanət onun tələb etdiyi müddətdə bank tərəfindən geri qaytarılır (MM-in 947-ci maddəsi).

Müddətin axımının başlanğıcını müəyyən etməyin böyük praktiki əhəmiyyəti vardır. Belə ki, müddətin düzgün hesablanması və müddətin sonunun müəyyənləşdirilməsi məhz bundan asılıdır. Deməli, bundan həm də o hüquqi nəticə asılıdır ki, həmin nəticə bu və ya digər müddətin çatması və ya bitməsi ilə bağlı olaraq əmələ gəlir.

Mülki qanunvericilik **müddətin axımının başlanğıcını müəyyən etmək barədə ümumi qayda** nəzərdə tutur. Bu qaydaya görə vaxt dövrü ilə müəyyənləşdirilmiş müddətin axımı təqvim tarixindən və ya müddətin başlanması üçün müəyyənləşdirilmiş hadisənin baş verməsindən sonrakı gün başlayır (MM-in 368-ci maddəsi). Bu, onu ifadə edir ki, təqvim tarixi və ya hadisənin baş verməsi günü hesaba alınmır. Məsələn, şəxs mart ayının 1-də öz hüququnun pozulduğunu bilir. Belə halda iddia müddətinin (məhkəməyə müraciət etmək üçün nəzərdə tutulan müddətin) axımı mart ayının 2-dən başlayır. Başqa bir misalda vətəndaş may ayının 4-də ölür. Mirasın vərəsələr tərəfindən qəbul edilməsi üçün qanunun müəyyənləşdirdiyi üç aylıq müddətin axımı may ayının 5-dən başlayır. Daha başqa bir misalda naviqasiya dövrünün 10 apreldə açılması elan edilir. Belə halda müddətin axımı 11 apreldən başlayır.

Mülki qanunvericilik həm də **müddətin qurtarmasını (sonunu) təyin etmək haqqında qayda** müəyyən edir (MM-in 369-cu maddəsi). Məlumdur ki, müxtəlif ay və illər bərabər saylı günlərdən ibarət deyildir (məsələn, fevral ayı 28 gündən və ya 29 gündən, il 365 və ya 366 gündən ibarət ola bilər). Bundan əlavə, bazar və bayram günləri də vardır. Buna uyğun olaraq müəyyən edilir ki, illərlə hesablanan müddət müddətin sonuncu ilinin müvafiq ayında və günündə qurtarır. Məsələn, podratçının tikdiyi binaya aid tələb üzrə beş illik id-

dia müddətinin axımı 2002-ci ilin yanvar ayının 15-də başlayır. Həmin müddət 2007-ci ilin yanvar ayının 15-də bitir.

Aylarla hesablanan müddət müddətin sonuncu ayının müvafiq günündə qurtarır[1]. Bəzən bu müddətin qurtarması müvafiq günü olmayan aya düşür. Belə halda müddət həmin ayın sonuncu günü qurtarır. Məsələn, vətəndaş bir aylıq müddətə öz qonşusuna borc verir. Bu müddətin axımı yanvarın 31-dən başlayır. Həmin müddət fevral ayının 28-də (əgər il uzun ildirsə, 29-da) başa çatacaqdır. Əgər müddət yarım illə, rüblə hesablanarsa, onda aylarla hesablanan müddətlər üçün qaydalar tətbiq edilir.

Bəzi hallarda müddətin sonuncu günü istirahət və ya bayram, yəni qeyri-iş gününə düşür. Belə halda həmin gündən sonrakı iş günü müddətin qurtardığı gün sayılır. Yerinə yetirilməsi qeyri-iş gününə düşən hərəkət növbəti iş günündə icra edilməlidir (MM-in 370-ci maddəsi). Məsələn, borc alan aldığı krediti 28 mayda (bayram günündə) qaytarmalıdır. 28 maydan sonra gələn 29 may iş günündə o, bu hərəkəti yerinə yetirə bilər. Qeyri-iş günü olan ümumi istirahət gününə bəş günlük iş həftəsi üzrə şənbə və bazar günləri, altı günlük iş həftəsi üzrə isə yalnız bazar günü daxildir. Qeyri-iş günü sayılan bayram günləri (1 yanvar, 8 mart, Novruz bayramı, 28 may və s.) əmək qanunvericiliyi ilə müəyyən edilir. Matəm günü olan 20 yanvar da qeyri-iş gününə aiddir. Həftə ilə hesablanan müddət yeddi gündən ibarətdir. Həftənin axırıncı günü müddətin qurtardığı gün hesab olunur. Məsələn, qonşu vətəndaşdan may ayının 1-də (müqavilə bağlanan vaxt) bir həftəlik borc alır. O, may ayının 8-də borcu qaytarmalıdır.

Ayın birinci günü ayın başlanğıcı, on beşinci günü ayın ortası, sonuncu günü isə ayın axırı sayılır.

Mülki qanunvericilik **müddətin sonuncu günündə hərəkətlərin yerinə yetirilməsi haqqında xüsusi qayda** müəyyən edir (MM-in 371-ci maddəsi). Bu qaydaya görə, hər hansı hərəkətin yerinə yetirilməsi üçün müddət təyin edilmişdirsə, şəxs həmin hərəkəti müddətin sonuncu günündə saat iyirmi dördədək yerinə yetirə bilər. Həmin qayda o şəxslərə aiddir ki, onların iş rejimi vaxtı məhdud deyildir. İş rejimi vaxtı məhdud olan təşkilat, idarə və müəssisələrdə isə hüquqi əhəmiyyətə malik olan hərəkətlərin yerinə yetirilməsi müddət baxımından müəyyən xüsusiyyətlərlə şərtlənir. Bu idarə, təşkilat və müəssisələrdə elə qayda müəyyənləşdirilir ki, həmin qaydaya görə müvafiq hərəkətin edilməsi üçün nəzərdə tutulan müddət burada əməliyyatların dayandırıldığı saatda qurtarır. Məsələn, iş vaxtının saat 18.00-da qurtarmasına baxmayaraq, banklarda bəzi bank əməliyyatları saat 14.00-a kimi həyata keçirilir. Belə halda həmin əməliyyatlara aid olan hərəkətlər də yalnız saat 14.00-a kimi edilə bilər. Bəzi təşkilatlarda isə əməliyyatlar iş gününün axırına kimi, anbarın bağ-

[1] Yaponiya mülki hüququna görə, müddətlər iki üsulla hesablanır. Saatlarla, dəqiqələrlə, saniyələrlə müəyyənləşdirilən müddətlərin hesablanması müəyyən andan başlayır (Yaponiya MM-in 139-cu maddəsi). Belə hesablama təbii hesablama üsulu adlanır. Günlərlə, həftələrlə, aylarla və illərlə müəyyənləşdirilən müddətlər hesablanarkən bu üsuldan istifadə oluna bilər. Amma uzun vaxt dövrü, adətən, təqvim üzrə hesablanır. Bu, təqvim üzrə hesablama üsulu adlanır (*Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 146).

lanmasına kimi davam edir.

Bəzi hallarda elə vəziyyət yaranır ki, fiziki şəxsin müvafiq təşkilata gəlməsi mümkün olmur və ya fiziki şəxs özü bunu məqsədəuyğun hesab etmir. Belə vəziyyətdə o, müddətin axırıncı günündə saat iyirmi dördə qədər rabitə təşkilatına (poçta, teleqrafa və s.) yazılı ərizə, arayış və digər sənədlər, habelə bildirişlər təhvil verə bilər. Bu hal müvafiq sənədlərin vaxtında verilməsinə dəlalət edir, yəni onlar vaxtında verilmiş sayılır. Həmin sənədlərdə rabitə təşkilatının müvafiq qeydi olur. Bu sənədlər faktiki olaraq təşkilata müəyyən edilmiş müddət keçdikdən sonra daxil olur. Amma buna baxmayaraq, onlar vaxtında verilmiş sənədlərə bərabər tutulur.

3. Müddətin növləri

Mülki hüquq elmində müddətlər müxtəlif növlərə bölünür. Onlar cürbəcür meyar və əlamətlərə görə təsnif edilir.

Müəyyən edilmə əsasına görə mülki-hüquqi müddətlər üç yerə bölünür. Başqa sözlə desək, müddətin nəyin əsasında müəyyən edilməsindən asılı olaraq onların üç növü fərqləndirilir[1]:

- qanuni müddətlər;
- müqavilə müddətləri;
- məhkəmə müddətləri.

Qanuni müddətlər odur ki, bu müddətlər qanunlarda və ya digər normativ aktlarda nəzərdə tutulur. Bu müddətlərin «qanuni» adlanması digər müddət növlərinin qanunsuz hesab olunmasına dəlalət etmir. Həmin müddətlər ona görə «qanuni» adlanır ki, onlar mülki qanunvericilik aktları ilə müəyyən edilir. Məsələn, qanun binaya aid podrat müqaviləsi üzrə beş illik, yüklərin daşınması üzrə isə bir illik iddia müddəti nəzərdə tutur (MM-in 776-cı və 861-ci maddələri). Qanun vərəsələr tərəfindən mirasın qəbul edilməsi üçün üç aylıq müddət müəyyənləşdirir (MM-in 1246-cı maddəsi).

Digər müddət növlərinin qanuniliyinə kölgə və şübhə salmamaq üçün «qanuni müddət» terminin başqa terminlə əvəz olunmasını məqsədəmüvafiq hesab edirik. Hüquq ədəbiyyatı səhifələrində bəzi müəlliflər qanuni müddətləri **normativ müddətlər** anlayışı ilə əhatə edirlər[2]. Zənn edirik ki, bu, daha uğurlu və münasib termindir. Yaponiya mülki hüququnda isə onlar hüquq normaları ilə müəyyənləşdirilən müddətlər adlanır[3].

Qanuni müddətlər əsasən iki cəhəti ilə xarakterizə olunur: birincisi, bu

[1] bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 273; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 200; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 294-295; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 215. Qeyd etmək lazımdır ki, müddətin bu növləri Almaniya və Yaponiya mülki hüququna da məlumdur (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 372-373; *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 145).

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 252.

[3] *Сакаэ Вагацума, Тору Ариидзуми*. Гражданское право Японии. Книга 1. М., 1983, с. 145.

müddətlər, ümumi qaydaya görə tərəflərin sazişi ilə dəyişdirilə bilməz; ikincisi, bu müddətlər həm fiziki, həm də hüquqi şəxslər üçün, habelə məhkəmə orqanları üçün məcburidir.

Tərəflərin sazişi ilə müəyyən edilən müddətlərə **müqavilə müddətləri** deyilir. Bu müddətlər, adətən, konkret hüquqların həyata keçirilməsi və konkret vəzifələrin icra edilməsi məqsədi ilə təyin edilir. Müqavilə müddətlərinin köməyi ilə hüquq münasibətinin xüsusiyyəti nəzərə alınır, fərdi yanaşma tələb edən məsələlər həll edilir. Buna görə də həmin müddətlər tərəflərin sazişi ilə dəyişdirilə, uzadıla və ya qısaldıla bilər. Müqavilə müddətinə misal olaraq satıcının əşyanı alıcıya alqı-satqı müqaviləsində nəzərdə tutulan müddətdə verməsini göstərmək olar (MM-in 569-cu maddəsinin 1-ci bəndi). Başqa misalda müqavilə ilə iddia müddəti müəyyən edilir (MM-in 374-cü maddəsinin 1-ci bəndi). Müqavilə müddəti **əqdlə müəyyənləşdirilən müddət** də adlanır.

Məhkəmə müddətləri dedikdə, məhkəmələr tərəfindən müəyyənləşdirilən müddətlər başa düşülür. Bu müddətlər məhkəmələrin konkret mülki-hüquqi mübahisələrə baxması zamanı təyin edilir. Özü də həmin müddətlər mübahisə edən tərəflərin hər ikisi üçün məcburi olub, onların istək və mülahizəsi ilə dəyişdirilə bilməz. Məhkəmə müddətinə borc mübahisəsi üzrə borc alanın borcu qaytarmaq vəzifəsinin müəyyən müddətə təxirə salınmasını misal göstərmək olar.

Göstərilənlərdən savayı, müddət **işgüzar dövriyyə adətləri ilə də müəyyənləşdirilə bilər**. Məsələn, öhdəliyin icrası müddəti işgüzar dövriyyə adətlərindən irəli gələ bilər (MM-in 427-ci maddəsinin 4-cü bəndi).

Müddətin **öhdəliyin mahiyyəti əsasında da təyin edilməsi mümkündür**. Məsələn, öhdəliyin vaxtından əvvəl icrasına öhdəliyin mahiyyətindən irəli gəldikdə yol verilir (MM-in 428-ci maddəsinin 2-ci bəndi).

Müddət **inzibati qaydada** da müəyyən edilə bilər.

Hüquqi nəticəyə görə mülki-hüquqi müddətlərin üç növü fərqləndirilir[1]:

- hüquq yaradıcı müddət;
- hüquq dəyişdirici müddət;
- hüquq xitamedici müddət.

Hüquq yaradıcı müddət odur ki, o, mülki hüquq münasibətinin və ya ayrı-ayrı hüquq və vəzifələrin əmələ gəlməsinə səbəb olur. Məsələn, fiziki şəxs on səkkiz yaşına çatması ilə tam mülki fəaliyyət qabiliyyətinə malik olur və bu andan həmin şəxs istənilən əqd bağlamaq hüququ əldə edir, vurduğu zərərə görə tam məsuliyyət daşımağa borclu olur; şəxsin yaşayış yerində onun harada olması barədə beş il müddətində məlumatın olmaması maraqlı şəxslərə həmin şəxsin ölmüş elan edilməsi barədə məhkəməyə müraciət etmək hüququ verir (MM-in 41-ci maddəsi) və s.

Hüquq dəyişdirici müddət odur ki, onun çatması və ya bitməsi mülki hüquq və vəzifələrin dəyişməsinə səbəb olur. Məsələn, podrat müqaviləsi üzrə işin təsadüfən məhv olması və ya zədələnməsi risqi sifarişçiyə təhvil verildiyi

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 200; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 295; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 214.

müddətə kimi podratçının üzərinə düşür. Sifarişçi işin qəbul edilməsini gecikdirirsə, belə halda risq sifarişçinin üzərinə düşür (MM-in 772-ci maddəsi).

Hüquq xitamedici müddət odur ki, o, hüquq münasibətlərinə və ya ayrı-ayrı hüquq və vəzifələrə xitam verilməsinə səbəb olur. Məsələn, şəxsin on səkkiz yaşa çatması ilə onun üzərində təyin edilmiş himayəçiliyə xitam verilir. Əgər etibarnamənin müddəti bitərsə, ona xitam verilir (MM-in 365-ci maddəsi).

Təyin olunma xarakterinə görə müddətlərin aşağıdakı növləri vardır[1]:

- imperativ və dispozitiv müddətlər;
- mütləq müəyyən, nisbi müəyyən və qeyri-müəyyən müddətlər;
- ümumi və xüsusi müddətlər.

Tərəflərin razılığı və sazişi ilə dəyişdirilə bilməyən müddətlərə **imperativ müddətlər** deyilir. Bu cür müddətlər, adətən, qanunvericiliklə dəqiq olaraq müəyyənləşdirilir. Məsələn, mirasın qəbul edilmə müddəti imperativ müddət olub, tərəflərin razılaşması ilə dəyişdirilə bilməz (MM-in 1246-cı maddəsi). Əgər şəxs ona məxsus olmayan daşınar əmlaka beş il müddətində öz əmlakı kimi vicdanla sahiblik edərsə, onda o, bu əmlaka mülkiyyət hüququ əldə edir (MM-in 181-ci maddəsinin 4-cü bəndi). Burada beş illik müddət imperativ müddətdir.

Dispozitiv müddətlər odur ki, bu müddətlər tərəflərin razılığı və sazişi ilə dəyişdirilə bilər. Müqavilə müddətlərini bu növ müddətlərə misal göstərmək olar. Məsələn, podrat müqaviləsində tərəflər nəzərdə tutduqları işin təhvil verilmə müddətini razılaşmaqla dəyişdirirlər.

Bir sıra hallarda müddət qanunvericilikdə nəzərdə tutulur. Amma tərəflərə həmin müddəti dəyişdirmək hüququ verilir. Bu cür müddətlər dispozitiv müddətlər kateqoriyasına aid edilir. Məhz bu səbəbdən hüquq ədəbiyyatında həmin müddətlər öz xarakterinə görə **imperativ-dispozitiv müddətlər** adlanır[2]. Məsələn, iddia müddəti buna misaldır.

Mütləq müəyyən müddətlər odur ki, bu müddətlər mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişməsinin və ya xitamının bağlı olduğu vaxt anını və ya vaxt dövrünü dəqiq olaraq göstərir. Bu müddətlər onların «uzunluğunu» (yəni neçə aydan, ildən, həftədən, gündən ibarət olmasını) göstərməklə və ya onların başlanğıc və son anlarını dəqiq göstərməklə hesablanır. Məsələn, təqvim tarixi ilə və ya konkret vaxt dövrü ilə müəyyənləşdirilən müddətlər bu növ muddətlərə misal ola bilər. Bütün iddia müddətləri mütləq müəyyən müddət kateqoriyasına aiddir.

Nisbi müəyyən müddətlər odur ki, bu müddətlər hər hansı konkret vaxt dövrü və ya anı ilə bağlı olsalar da, nisbətən az dəqiqliyi ilə xarakterizə edilir. Məsələn, tikiliyə vərəsəlik hüququnun müddəti tərəflərin razılaşması ilə müəyyənləşdirilir, lakin doxsan doqquz ildən çox ola bilməz (MM-in 250-ci maddəsinin 3-cü bəndi). Bu müddətlər müvafiq konkret vəziyyətə uyğun gələn hər

[1] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 200-201; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 465; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с 295

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 200.

hansı təxmini meyarı göstərmək yolu ilə də müəyyənləşdirilə bilər. Bu baxımdan «zəruri olan müddət» (MM-in 409-cu maddəsinin 8-ci bəndi), «ağlabatan müddət» (MM-in 427-ci maddəsinin 2-ci bəndi), «tələb etmə anı ilə müəyyən edilən müddət» (MM-in 947-ci maddəsinin 1-ci bəndi), habelə «hökmən baş verməli olan hadisəni göstərməklə təyin edilən müddət» bu kateqoriya müddətlərə şamil edilir.

Qeyri-müəyyən müddətlər odur ki, bu müddətlər, ümumiyyətlə, müəyyənləşdirilmir. Bu növ müddətlər onların hesablanması və müəyyənləşdirilməsi üçün hər hansı təxmini meyardan və səmt göstərmək əlamətindən məhrumdur[1]. Məsələn, borc müqaviləsində pulun hansı müddətə verilməsi göstərilmir. İcarə müqaviləsində torpaq sahəsinin icarəyə verilmə müddəti nəzərdə tutulmur. Yaşayış evinin kirayə müqaviləsində evin hansı müddətə kirayəyə verilməsi müəyyənləşdirilmir. Bu cür müqavilələrə **müddətsiz müqavilələr** deyilir.

Mülki hüququn istənilən subyektinə və bütün eyni növlü hallara aid edilən və buna görə də ümumi əhəmiyyətə malik olan müddətlərə **ümumi müddətlər** deyilir. Bu müddətlər son, əsas müddətlərdir. Məsələn, ümumi iddia müddəti on il təşkil edir (MM-in 373-cü maddəsinin 1-ci bəndi).

Ümumi müddətləri konkretləşdirən, qanunvericilikdə və ya müqavilədə[2] birbaşa nəzərdə tutulan hallarda hüquqi əhəmiyyət kəsb edən müddətlərə **xüsusi müddətlər** deyilir. Onlar aralıq müddətlərdir. Məsələn, satıcının (mal göndərənin) mal göndərmə müqaviləsi üzrə malları bərabər partiyalarla aybaay göndərməsi xüsusi müddətə misal ola bilər (MM-in 629-cu maddəsinin 1-ci bəndi). Bu müddət mal göndərmə müqaviləsinin qüvvədə olma müddətini konkretləşdirir. Belə ki, müqavilədə bütün malların dekabr ayının 1-nə kimi göndərilməsi nəzərdə tutulsa, onda malın bir partiyası (hissəsi) sentyabrın 1-də, ikinci partiyası oktyabrın 1-də, üçüncü partiyası noyabrın 1-də, dördüncü partiyası isə dekabrın 1-də göndəriləcəkdir. Xüsusi müddətlər müqavilədə konkretləşdirilir. Onlar aylıq, dekada (on günlük) və digər rübdaxili müddətlər növündə ola bilər. Xüsusi müddətlər uzanan (davam edən) hüquq münasibətləri (mal göndərmə, podrat və s.) üçün xarakterikdir. Bu münasibətlərdə ümumi müddətlərlə bərabər, xüsusi müddətlər də müəyyən edilir.

Göstərilən meyar və əlamətlərdən savayı, mülki hüquq doktrinasında (sivilistika elmində) **müddətlər özlərinin təyinatına görə də təsnif edilir**. Bu meyara görə onların dörd növü fərqləndirilir:

- mülki hüquqlar yaradan müddətlər;
- mülki hüquqların həyata keçirilməsi müddətləri;
- mülki vəzifələrin icrası müddətləri;

[1] Məhz bu səbəbdən «ağlabatan müddət»i, «tələb etmə anı ilə müəyyənləşdirilən müddət»i qeyri-müəyyən müddətə aid edən müəlliflərin mövqeləri ilə razılaşmaq olmaz. Çünki bu müddətlər səmt göstərmək əlamətindən məhrum deyildir (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 465; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 201).

[2] Peterburq alimlərindən A.P.Serqeev isə xüsusi müddətin yalnız qanunda birbaşa nəzərdə tutulduğu haldad hüquqi qüvvəyə malik olmasını göstərir. Bu, dəqiq olmayan fikirdir. Xüsusi müddətlər müqavilədə də nəzərdə tutula bilər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 196).

• mülki hüquqların müdafiəsi müddətləri.

İndi də bu müddət növlərinin hər birinə qısaca hüquqi xarakteristika verək.

§ 2. Təyinatına görə mülki-hüquqi müddətlərin növləri

1. Mülki hüquqlar yaradan müddətlər. Mülki hüquqların həyata keçirilməsi müddətləri

Mülki hüquqlar yaradan müddətlər odur ki, bu müddətlərin təyinatı subyektiv mülki hüquqlar əmələ gətirməkdən ibarətdir. Bu qəbildən olan müddətlər hüquq yaradan hüquqi fakt rolunu oynayır. Elə bir fakt ki, bu fakt müəyyən mülki hüquqların əmələ gəlməsinin əsası kimi çıxış edir. Məsələn, fiziki şəxs on səkkiz yaşına çatması ilə tam mülki fəaliyyət qabiliyyəti əldə edir. Başqa bir misalda vətəndaş özünə məxsus olmayan daşınar əmlaka beş il öz əmlakı kimi vicdanla sahiblik edir. Beş il tamam olduqda o, həmin əmlak üzərində mülkiyyət hüququ əldə edir (MM-in 181-ci maddəsi 4-cü bənd). Almaniya və Yaponiya mülki hüququnda bu növ müddətlər əldə etmə müddəti adı altında nəzərdə tutulur. Almaniya mülki hüququna görə, əldə etmə müddəti **(Ersitzung)** və ya akvizitiv (latınca «acquisizia» — əldə etmək) müddət dedikdə, fasiləsiz sahiblik nəticəsində hüquq əldə edilməsi başa düşülür[1]. Yaponiya mülki hüququ da əldə etmə müddətinə anoloji anlayış verir[2].

Mülki hüquqların həyata keçirilməsi müddətləri odur ki, bu müddətlər ərzində səlahiyyətli şəxsin özü subyektiv hüququnun gerçəkləşdirilməsi üçün hər hansı hərəkət edə və ya borclu şəxsdən müəyyən hərəkətlərin edilməsini tələb edə bilər. Başqa sözlə desək, o, həmin müddət ərzində subyektiv mülki hüququn məzmununu təşkil edən elementləri — hüquqi imkanları (səlahiyyətləri) həyata keçirmək hüququna malikdir. Bu müddətlərin əsas təyinatı səlahiyyətli şəxsə ona məxsus olan subyektiv hüquqdan öz mənafeyini təmin etmək məqsədilə istifadə etməyə real imkan verməkdən ibarətdir. Onlar həm qanunvericiliklə, həm də tərəflərin sazişi ilə müəyyən edilə bilər.

Mülki hüquqların həyata keçirilməsi müddətləri bir neçə yarımnövə bölünür:

- mülki hüquqların mövcud olma müddətləri;
- preklyuziv müddətlər;
- qarantiya müddətləri;
- pretenziya müddətləri;
- yararlılıq müddətləri;
- xidmət müddətləri.

Mülki hüquqların mövcud olma müddətləri odur ki, bu müddət ərzində şəxsin subyektiv mülki hüquqları vaxta (zamana) görə qüvvədə olur. Bu müddətlərin əsas təyinatı və əhəmiyyəti ondan ibarətdir ki, onlar öz subyektiv hüquqlarını həyata keçirmək üçün səlahiyyətli şəxsə vaxt imkanı verir. Belə ki, bir sıra subyektiv mülki hüquqlar vaxt (zaman) kateqoriyası baxımından məhduddur, yəni bu hüquqlar bəzi hüquqlar kimi (məsələn, mülkiyyət hüququ kimi, əsərin müəllifi qismində tanınmaq hüququ kimi və s.) müddətsiz xarakter daşımır. Buna görə də həmin hüquqların qüvvədə olma müddəti ötüb keçdikdə, bu hüquqlar xitam edilir, səlahiyyətli şəxs isə onları həyata keçirmək imkanını itirir. Bu səbəbdən göstərilən növ müddətlər **mülki hüquqların ləğv olunma (xitam olunma) müddətləri** də adlanır. Məsələn, nümayəndə (etibar olunan) yalnız etibarnamənin qüvvədə olduğu müddətdə ondan istifadə edə bilər. Həmin müddət ötüb keçdikdən sonra o, həmin etibarnamədən istifadə etmək hüququnu itirir. Başqa bir misalda müəlliflik hüququ müəllifin bütün həyatı boyu və onun ölümündən sonra 50 il müddətində qüvvədə qalır[1]. Fonoqram istehsalçısının müvafiq hüquqları fonoqramın ilk dəfə dərc edildiyin tarixdən 50 il müddətində, efir yayımı (kabel televiziyası) təşkilatının bəzi hüquqları həmin təşkilatın verilişi birinci dəfə efir (kabel televiziyası) vasitəsi ilə həyata keçirildiyi tarixdən 50 il müddətində qüvvədə olur[2]. Patentlə verilən huquqi mühafizənin qüvvədə olma müddəti ixtira üçün 20 il, faydalı model və sənaye nümunəsi üçün 10 il müəyyənləşdirilir[3].

Mülki hüquqların mövcud olma müddətləri Almaniya mülki hüququnda ekstinktiv (latınca «extinctio» — ləğv etmə) müddətlər kimi tanınır. **Ekstinktiv müddətlər** odur ki, bu müddətlər ərzində hüquqlar fasiləsiz olaraq həyata keçirilmədikdə ləğv olunur[4]. Bu müddət növü Yaponiya mülki hüququna da məlumdur[5].

Azərbaycan Respublikasının mülki qanunvericiliyi öhdəlik (tələb) hüquqlarına münasibətdə iki cür ekstinktiv müddət müəyyən edir (MM-in 551-ci maddəsi): adi (ümumi) müddət; xüsusi müddət. Adi (ümumi) müddət 10 il müəyyən edilir. Bu, Yaponiya və Almaniya qanunvericiliyinə uyğundur. Xüsusi müddət isə iki cür olur: 5 illik müddət (kirayə haqqı, icarə haqqı və digər ödənişlər haqqında tələblər və s. üzrə); 30 illik müddət (məhkəmə qərarına əsasən əmələ gələn tələblər üzrə).

Mülkiyyət hüququ isə ekstinktiv müddətə malik deyil. Belə ki, mülkiyyət son müddət və ya müddətin axırı ideyasını tanımır və qəbul etmir. Müvəqqəti mülkiyyətin mövcudluğu mümkün deyildir.

Göstərilən növ müddətlərin əhəmiyyəti təkcə səlahiyyətli şəxsə öz subyektiv hüquqlarını həyata keçirməyə vaxt imkanı verməklə bitmir. Onlar həm də iqtisadi (əmlak) dövriyyədə qeyri-müəyyənliyi aradan qaldıraraq, sabitlik yaradır.

Preklyuziv müddətlər dedikdə, öz subyektiv hüquqlarını həyata keçirmədiyi və ya lazımınca həyata keçirmədiyi halda bu hüquqların xitam olunması hədəsi altında səlahiyyətli şəxsə ciddi olaraq verilən elə müəyyən vaxt başa düşülür ki, bu vaxt həmin şəxsə subyektiv hüquqları həyata keçirməyə imkan verir. Bunlar mülki hüquqların həyata keçirilməsinin xüsusi kateqoriya müd-

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 405.

[2] *Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 155.

[1] bax: «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» qanunun 25-ci maddəsi // AR QK, III cild, s. 217.

[2] bax: yenə həmin qanun, s. 224.

[3] bax: «Patent haqqında» qanunun 10-cu maddəsi // AR QK, III cild, s. 786.

[4] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 405.

[5] *Сакаэ Вагацума, Тору Арииздзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 138.

dətləri hesab olunur. Onlara mülki hüquq elmində xəbərdaredici müddətlər[1] və ya subyektiv hüquqların ləğv edilməsi müddətləri[2] də deyilir.

Hüquq ədəbiyyatı sahələrində biz bəzi müəlliflərin subyektiv hüquqların mövcud olma müddətlərini preklyuziv müddətlərlə eyniləşdirməsinin şahidi oluruq[3]. Bu cür mövqe, zənn edirik ki, həqiqətdən uzaqdır. Həmin müddət növləri, hər şeydən əvvəl, öz təyinatlarına görə bir-birindən fərqlənir. Yuxarıda qeyd etdiyimiz kimi, subyektiv hüquqların mövcud olma müddətlərinin əsas təyinatı öz hüquqlarını həyata keçirmək üçün səlahiyyətli şəxsi vaxt imkanı ilə təmin etməkdən ibarətdir. Preklyuziv müddətlərin təyinatı isə subyektiv mülki huquqlar həyata keçirilmədiyi halda və ya lazımınca həyata keçirilmədiyi halda, bu hüquqları vaxtından əvvəl xitam etməkdən ibarətdir. İkinci tərəfdən, preklyuziv müddətlərin pozulması və onlara əməl edilməməsi səlahiyyətli şəxsin malik olduğu subyektiv hüquqlara xitam verilməsinə səbəb olur. Belə ki, həmin müddətin ötürülməsi subyektiv hüququn xitam olunması üçün əsas olur və bu hüququ həyata keçirmək mümkün olmur. Subyektiv mülki hüquqların mövcud olma müddətinin ötürülməsi isə həmin hüquqların ləğv olunmasına və itirilməsinə səbəb olmur.

Preklyuziv müddətlər subyektiv hüquqlar həyata keçirilmədiyi və ya lazımınca həyata keçirilmədiyi halda bu hüquqların itirilməsi həddəsi ilə bağlıdır. Subyektiv hüquqların mövcud olma müddətləri isə bu cür hədə ilə əlaqədar deyildir.

Bununla belə, preklyuziv müddət, bir qayda olaraq, eyni zamanda subyektiv hüquqların mövcud olma müddəti deməkdir, bir şərtlə ki, həmin müddət ərzində subyektiv hüquq həyata keçirilsin.

Preklyuziv müddətlərin dairəsi bir o qədər də geniş deyildir. Mülki qanunvericilik onların bəzi hallarını nəzərdə tutur. Məsələn, miras vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay müddətində qəbul edilə bilər (MM-in 1246-cı maddəsi). Əgər vərəsə həmin müddəti ötürərsə, mirası qəbul etmək hüququnu həyata keçirməzsə, onda o, bu hüququ itirir. Digər bir misalda zaminlik münasibəti üzrə bir il müddətində kreditor zaminə qarşı iddia irəli sürə bilər (MM-in 477-ci maddəsinin 4-cü bəndi). Bu müddət ərzində kreditor zaminə qarşı iddia irəli sürməzsə, onun bu hüququna xitam verilir. Deməli, bu da preklyuziv müddətdir.

Preklyuziv müddətlər, mahiyyətcə, subyektiv hüquqların həyata keçirilməməsi və ya lazımınca həyata keçirilməməsi üçün müəyyənləşdirilən sanksiyadır. Bu sanksiyaya görə səlahiyyətli şəxs öz subyektiv mülki hüququnu vaxtından əvvəl itirir.

Pretenziya müddətləri (latınca «praetensio» — tələb) mülki hüquqların

[1] Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 297; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 446.

[2] Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 216.

[3] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 253; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 274.

həyata keçirilməsi müddətlərinin bir növüdür[1]. Bu müddətlər tərəflər arasında yaranan mübahisə və ixtilafların pretenziya qaydasında həll edilməsi üçün nəzərdə tutulan müddətlərdir. Başqa sözlə desək, pretenziya müddətləri subyektiv mülki hüquqların pozulması nəticəsində yaranmış **mübahisəni məhkəməyə verməzdən əvvəl onu səlahiyyətli və borclu şəxsin könüllü qaydada nizamlamaları** üçün müəyyənləşdirilir.

Yaranmış mübahisə və ixtilafların pretenziya qaydasında həll edilməsi bir sıra hallarla şərtlənir: məhkəmə işlərini azaltmaq; prosessual xərclərə yol verməmək; pozulmuş mülki hüquqların bərpasını tezləşdirmək. Bəzən mübahisələr tərəflər arasındakı anlaşılmazlıqdan, qanunu bilməməkdən əmələ gəlir. Borcunun öz vəzifəsini icra etməməsi üzrlü səbəblərlə bağlı ola bilər. Belə hallarda mübahisənin məhkəmə müdaxiləsi olmadan pretenziya qaydasında həll edilməsi lazım gəlir və zəruri olur. Bu qaydadan isə yalnız müəyyən müddətlərdə istifadə oluna bilər. Həmin müddətlər pretenziya müddətləri adlanır. Onlara **reklamasiya müddətləri** də deyilir[2].

Pretenziya (reklamasiya) müddətləri odur ki, bu müddət ərzində səlahiyyətli və borclu şəxs öz aralarında yaranmış mübahisəni könüllü qaydada məhkəmə müdaxiləsi olmadan nizama salır və həll edirlər. Bu məqsədlə səlahiyyətli şəxs pretenziya müddəti ərzində borclu şəxsə üzərinə götürdüyü öhdəliyi icra etmək haqqında yazılı formada tələb (pretenziya) verməli, borclu isə müəyyən edilmiş müddətdə ona cavab verməlidir. Borclu pretenziyanı təmin etməkdən imtina etdikdə və ya ondan nəzərdə tutulmuş müddətdə cavab alınmadıqda, səlahiyyətli şəxs iddia ilə məhkəməyə müraciət edir. Deməli, pretenziya müddətinə əməl edilməsi məhkəməyə iddia verilməsinin məcburi şərti kimi çıxış edir.

Bizim ölkənin yeni mülki qanunvericiliyi əvvəlki qanunvericilikdən fərqli olaraq mülki mübahisəni (təsərrüfat mübahisəsini) **məhkəməyə verməzdən qabaq məcburi pretenziya təqdim etmək qaydasından imtina etmişdir**[3]. Bu hal inkişaf etmiş və sivil xarici ölkələrin qanunvericilik ənənələrinə və beynəlxalq təcrübəyə uyğundur. Belə ki, məcburi pretenziya qaydası nə qabaqcıl və mütərəqqi ölkə qanunvericiliyinə, nə də beynəlxalq kommersiya dövriyyəsinə

[1] Bəzi müəlliflər pretenziya müddətini mülki hüquqların həyata keçirilməsi müddətlərinə aid edirlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 254; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 243; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1993, с. 189-191; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 296; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 201). Bəzi alimlər isə onu mülki hüquqların müdafiəsi müddətlərinə şamil edirlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 467; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 221).

[2] Reklamasiya (latınca «reclamatio» — bəyənmək) iki mənada işlədilir: etiraz, şikayət, protest mənasında; zərərin əvəzinin ödənilməsini tələb edən bildiriş mənasında (bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 599).

[3] Azərbaycan Respublikasının 1964-cü il Mülki Məcəlləsinin 6-cı maddəsində belə bir göstəriş ifadə edilmişdi ki, təşkilatlar arasındakı münasibətlərdən irəli gələn iddia verilməzdən qabaq pretenziya verilməsi məcburidir. Anoloji göstəriş indi qüvvədən düşmüş Azərbaycan Respublikasının Təsərrüfat-Prosessual Məcəlləsində də ifadə edilmişdi.

məlumdur. Bunu nəzərə alaraq Azərbaycan Respublikasının yeni mülki qanunvericiliyi pretenziya qaydasını, istisna hal kimi, yalnız daşıma öhdəlikləri sahəsində saxlamışdır. Məsələn, sərnişin müqavilədə nəzərdə tutulan daşımanın qurtarmasından ən geci bir ay keçənədək daşıyıcıya pretenziya verməlidir (MM-in 848-ci maddəsi). Yük daşıma müqaviləsi üzrə də yük göndərən istənilən vaxt öz pretenziyalarını irəli sürə bilər (MM-in 861-ci maddəsi).

Nəqliyyat qanunvericiliyində məcburi pretenziya qaydası birbaşa əks olunmuşdur. Bu qaydaya görə daşıyıcıya qarşı daşımadan törəyən iddianın məhkəməyə verilməsindən əvvəl qanunvericilikdə, ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrdə, nizamnamələrdə, digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada və müddətdə həmin daşıyıcıya tələb təqdim olunmalıdır[1]. Bir sıra beynəlxalq nəqliyyat sazişlərində də məcburi pretenziya prosedurası nəzərdə tutulmuşdur. Məsələn, MDB üzvü olan ölkələrdə beynəlxalq dəmiryolu daşımalarını tənzimləyən saziş (SMQS) məcburi pretenziya qaydası müəyyən edir. Bu qaydaya görə yük sahibinin daşıyıcıya verdiyi pretenziyaya verildiyi gündən 180 gün müddətinə baxılmalı və cavab verilməlidir. Azərbaycan Respublikası bu sazişdə iştirak edir.

Hava daşımaları barədə Varşava konvensiyası da məcburi pretenziya prosedurası müəyyən edir. Bu qaydaya görə, əgər yük sahibi 7 gün müddətində daşıyıcıya pretenziya verməsə o, iddia ilə məhkəməyə müraciət etmək hüququndan məhrum olur. Azərbaycan Respublikası bu konvensiyanın da üzvüdür. Azərbaycan Respublikası beynəlxalq avtomobil yük daşıma müqaviləsi barədə Cenevrə konvensiyasında da iştirak edir. Bu konvensiya isə qeyri-məcburi pretenziya prosedurası müəyyən edir. Belə ki, daşıyıcıya pretenziya vermək yük sahibi üçün məcburi deyildir. Əgər daşıyıcıya pretenziya verilməzsə, bu, zərərçəkmiş yük sahibini məhkəməyə iddia ilə müraciət etmək hüququndan məhrum etmir.

Bizim ölkənin yeni MM-in məcburi pretenziya qaydasından bəzi istisnalara yol verməklə, imtina etməsi mütərəqqi haldır. Pretenziya qaydasına əməl edilməməsi üzündən iddia vermək hüququnun itirilmək təhlükəsi, mahiyyətcə, pretenziya müddətlərini preklyuziv müddətlərə çevirir. Bu isə mülki hüquqların müstəqil, sərbəst həyata keçirilməsi prinsipinə ziddir[2].

Qarantiya müddətləri (fransızca «qarantie» — təminat)[3] odur ki, bu müddət ərzində borclu şəxs maldan (xidmətdən, işdən), adətən, təyinatına uyğun normal istifadə edilməsinə təminat və zəmanət verir və o, səlahiyyətli şəxs malda (xidmətdə, işdə) qüsur aşkar etdiyi halda, səlahiyyətli şəxsin tələbi ilə qüsuru əvəzsiz olaraq aradan qaldırır və ya malı (işi, xidməti) başqa malla

[1] bax: «Nəqliyyat haqqında» qanunun 19-cu maddəsi // AR QK, III xüsusi buraxılış, s. 136.
[2] bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 468.
[3] bax: Словарь иностранных слов / Под ред. *И.В.Лехина, Ф.Н.Петрова*. М., 1954, с. 153

əvəz edir, habelə müəyyən şərtlər olduqda vurulmuş zərərin əvəzini ödəyir[1]. Bu müddət ərzində borclu şəxs (kreditor) satılan malın, göstərilən xidmətin və ya görülən işin keyfiyyətli (normal) olmasına görə səlahiyyətli şəxs qarşısında cavab verir. Sivilistika elmində və mülki qanunvericilikdə qarantiya müddəti **təminat müddəti və ya zəmanət müddəti** adı altında da nəzərdə tutulur. Səlahiyyətli şəxs rolunda istehlakçı (alqı-satqı müqaviləsində alıcı, podrat müqaviləsində sifarişçi, daşıma müqaviləsində yük göndərən və s.), borclu şəxs qismində müxtəlif şəxslər (alqı-satqı müqaviləsində satıcı, podrat müqaviləsində podratçı, daşıma müqaviləsində daşıyıcı) çıxış edə bilərlər.

Qarantiya müddəti ərzində səlahiyyətli şəxs müəyyən qüsur aşkar etdikdə, borclu şəxsə bu qüsurların əvəzsiz olaraq aradan qaldırılması və ya malın (işin, xidmətin) başqası ilə əvəz edilməsi barədə pretenziya tələbi irəli sürür. Borclu şəxs aşkar edilmiş qüsurları öz hesabına aradan qaldırmalı və ya məhsulu (malı, işi, xidməti) başqası ilə əvəz etməlidir.

Bir qayda olaraq, səlahiyyətli şəxs məhsulu (malı, işi, xidməti), adətən, qəbul edəndə onun gizli qüsurlarını müəyyən edə bilmir. Bu qüsurlar yalnız istifadə, istismar, istehlak və emal prosesində özünü büruzə verir. Bax, qarantiya müddəti də səlahiyyətli şəxsi xətərsizləşdirmə məqsədi ilə müəyyən edilir[2].

Alqı-satqı müqaviləsi üzrə qarantiya müddətinin axımı əşyanın alıcıya verildiyi məqamdan başlanır (MM-in 583-cü maddəsinin 1-ci bəndi). Bu, dispozitiv normadır. Belə ki, alqı-satqı müqaviləsində başqa qayda da nəzərdə tutula bilər. Məsələn, müqavilədə göstərilə bilər ki, qarantiya müddətinin axımı məmulat istismara (istifadəyə) verildiyi andan hesablansın və s. Qanunvericilik aktında qarantiya müddətinin malın satıldığı gündən hesablanması haqqında göstərişə də rast gəlirik[3]. Podratçı podrat müqaviləsi üzrə qarantiya müddəti ilə öhdəlik götürə bilər (MM-in 774-cü maddəsi).

Xidmət və yararlılıq müddətləri qarantiya müddətinin yarımnövləri hesab

[1] Mülki hüquq elmində demək olar ki, müəlliflərin əksər çoxluğu qarantiya müddətini mülki hüquqların həyata keçirilməsi müddətinə şamil edirlər (bax: Советское гражданское право. Учебник. Том 1 / Под ред. *В.П.Грибанова, С.М.Корнеева*. М., 1979, с. 254; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.А.Рясенцева*. М., 1986, с. 243; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 296; Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 466; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 202; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой*. М., 1998, с. 253). Bununla belə, bu müddətin mülki hüquqların müdafiəsi müddətinə aid edilməsi barədə fikir də irəli sürülür (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 218).
[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 298; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 203.
[3] bax: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 6-cı maddəsinin 2-ci bəndi // AR QK, II cild, s. 549.

edilir[1]. Bəzən qarantiya müddətinin bu iki yarımnövünü əsassız olaraq qarışdırırlar. Onlar həm ümumi, həm də fərqli cəhətlərə malikdir. Xidmət və yararlılıq müddətlərini birləşdirən ümumi əlamət ondan ibarətdir ki, hər iki müddət maldan təhlükəsiz istifadə dövrünü müəyyən edir. Onlar arasında olan bir neçə fərqli cəhət isə həmin müddətləri bir-birindən ayırmağa imkan verir.

Birincisi, xidmət müddəti, bir qayda olaraq, nisbətən uzun müddət istifadə üçün nəzərdə tutulan və istehlak olunmayan mallar (məsələn, minik avtomobili və s.) üçün müəyyən edilir. Yararlılıq müddətinə gəldikdə isə, bu müddət tez xarab olan, korlanan və insanların sağlamlığına, həyatına və əmlakına, habelə ətraf mühitə təhlükə törədən ərzaq məhsulları, dərmanlar, ətriyyat-kosmetika vasitələri, kimya məhsulları və başqa mallar (işlər, xidmətlər) üçün müəyyən olunur.

İkincisi, xidmət müddəti istehlakçıya mal satıldığı gündən, bunu müəyyən etmək mümkün olmadığı halda isə malın hazırlandığı gündən hesablanır. Yararlılıq müddəti isə mal hazırlandığı gündən hesablanır.

Üçüncüsü, yararlılıq müddəti həmişə vaxt vahidi ilə, məsələn, dövrlə, tarixlə müəyyən edilir. Xidmət müddətinə gəldikdə isə, göstərmək lazımdır ki, bu müddət başqa ölçü vahidi ilə də hesablana bilər. Məsələn, avtomobilin xidmət müddəti qət etdiyi məsafə ilə (kilometrajla) müəyyən edilir.

Dördüncüsü, yararlılıq müddəti ötmüş malların satışı qadağandır[2]. Bu cür malları satmaq olmaz. Xidmət müddəti keçmiş mallar barəsində isə qanun bu cür qadağa müəyyən etmir.

Beləliklə, **xidmət müddəti** dedikdə, elə bir vaxt dövrü başa düşülür ki, bu dövr ərzində istehsalçı istehlak olunmayan malın təyinatı üzrə təhlükəsiz istifadə edilməsinə təminat verir. Müəyyən edilmiş vaxtdan artıq istifadə edilməsi istehlakçıların həyatı, sağlamlığı, onların əmlakı və ya ətraf mühit üçün təhlükə yaradan, xətər törədə və ya zərər vura bilən bütün məhsullara (mallara, işlərə, xidmətlərə) xidmət müddəti müəyyən edilməlidir. İstehsalçının borcudur ki, bu cür malların istismar təlimatlarında xidmət müddətini göstərsin.

Yararlılıq müddəti odur ki, bu müddət ötdükdən sonra istehlak olunan mal təyinatı üzrə istifadə edilməsi üçün yararsız olur və buna görə də onun satışı qadağan edilir. Müəyyən edilmiş vaxtdan artıq istifadə edilməsi istehlakçıların həyatına, sağlamlığına, onların əmlakına və ya ətraf mühitə təhlükə kəsb edən və ya zərər vura bilən mallar üçün də məcburi olaraq yararlılıq müddəti müəyyənləşdirilir. İcraçı (satıcı, xidmət göstərən və s.) bu kimi malların istismar təlimatlarında həmin müddəti mütləq göstərməlidir.

Mülki hüquqların həyata keçirilməsi müddətlərindən biri yük daşımalarında

[1] Qulluq (xidmət) müddəti, habelə yararlılıq müddəti qarantiya xarakterinə malikdir. Ona görə də onlar sivilistika elmində müstəqil müddət növləri kimi yox, qarantiya müddətinin yarımnövləri kimi nəzərdə tutulur (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 299; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каплина, А.И.Маслаева*. М., 1997, с. 203) Bəzi müəlliflər yararlılıq müddətini preklyuziv müddətin yarımnövü hesab edirlər (bax: Гражданское право. Учебник. Том 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 467)

[2] bax: «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunun 6-cı maddəsinin 2-ci bəndi // AR QK, II cild, s. 549.

yükün saxlanılması müddəti hesab edilir[1]. Bu, qarantiya xarakterli müddətdir. Həmin müddət ərzində yük göndərən tərəfindən yükləmə qaydalarına lazımınca əməl olunması şəraitində yükün keyfiyyətlə saxlanılmasına təminat verilir.

Göstərilən müddət növü, bir qayda olaraq, tez xarab olan və korlanan yüklər (məsələn, ərzaq məhsulları və s.) üçün müəyyən edilir. Bu müddət, adətən, yük göndərənin özü tərəfindən təyin edilir. Bəzi hallarda onu keyfiyyətə nəzarət edən orqan da müəyyənləşdirə bilər.

2. Mülki-hüquqi vəzifələrin icrası müddətləri

Mülki vəzifələrin icrası müddətləri təyinat kimi meyara görə müddətlərin bir növü hesab olunur. Bu müddət növü mülki hüquqların həyata keçirilməsi müddəti ilə sıx surətdə bağlıdır. Belə ki, bir şəxs tərəfindən mülki hüquqların həyata keçirilmə müddəti eyni zamanda digər şəxs tərəfindən mülki vəzifələrin icrası müddətinə uyğundur.

Mülki-hüquqi vəzifələrin icrası müddətləri odur ki, bu müddət ərzində borclu şəxs səlahiyyətli şəxsin mənafeyi üçün müəyyən hərəkətləri etməli və ya müəyyən hərəkətləri etməkdən çəkinməlidir. Bu müddət növü bütün mülki hüquq münasibətlərində geniş səviyyədə tətbiq edilir. Xüsusən onun təşkilatlar arasında yaranan müqavilə münasibətlərində rolu böyükdür. Belə ki, müəyyən bir təşkilatın öz vəzifəsini nəzərdə tutulan müddətdə icra etməməsi digər təşkilatın iş ahəngini pozur, boşdayanmaya və fasiləyə səbəb olur, qeyri-müntəzəmlik yaradır. Buna görə də öhdəlik hüquq münasibətinin, yəni öhdəliyin icrası müddətinin pozulmasına görə borclu şəxsə əmlak (maddi) məsuliyyət tədbiri növündə mülki-hüquqi sanksiya tətbiq edilir. Məsələn, öhdəliyin icrası müddətini gecikdirən borclu şəxs gecikdirmə nəticəsində səlahiyyətli şəxsə (kreditora) vurulmuş zərərin əvəzini ödəyir. Qanunda və ya müqavilədə nəzərdə tutulan hallarda isə ondan dəbbə pulu (cərimə, penya) alınır.

Mülki-hüquqi vəzifələrin icrası müddətinə dönmədən əməl etmək mühüm əhəmiyyətə malikdir. Belə ki, mülki vəzifələrin nəzərdə tutulan müddətdə yerinə yetirilməsi öhdəliklərin lazımınca icra prinsipinin (vicdanlılıq prinsipinin) əsas tələblərindən (şərtlərindən) biridir[2]. Bu tələbə (şərtə) görə öhdəlik şərtləndirilmiş vaxtda icra edilməlidir (MM-in 425-ci maddəsinin 1-ci bəndi).

Mülki-hüquqi vəzifələrin icrası müddəti müxtəlif əsaslar nəticəsində müəyyən edilir: qanun əsasında; inzibati akt əsasında; müqavilə əsasında; işgüzar dövriyyə adəti əsasında.

Göstərilən müddət növü iki cür olur: ümumi müddət; xüsusi (aralıq) müddət. **Ümumi müddət** mülki-hüquqi vəzifənin bütün icra dövrünü əhatə edən son müddətdir. Məsələn, podrat müqaviləsində yaşayış evinin bir il müddətinə tikilib sifarişçiyə təhvil verilməsi nəzərdə tutulur. Burada bir il müddəti ümumi müddətdir.

Xüsusi müddət ümumi müddəti konkretləşdirən aralıq müddətdir. Məsə-

[1] bax: *Смирнов В.Т.* Грузовые перевозки в прямом смешанном железнодорожно-водном сообщении. М., 1981, с. 95; Гражданское право. Учебник. Часть 1 / Под ред *А.Г.Каплина, А.И.Маслаева*. М., 1997, с. 203; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 299.

[2] Bu prinsip barədə dərsliyin «Öhdəliklərin icrası» adlı fəslinə bax.

lən, yuxarıdakı misalda tərəflər podrat müqaviləsində tikinti işinin ayrı-ayrı mərhələlərinin aybaay görülüb başa çatması barədə şərtləşirlər. Xüsusi müddətlər aylıq, on günlük (dekada) və s. olur. Bu müddətlər müqavilədə konkret olaraq göstərilir.

Borclu şəxs mülki vəzifələrin icrasının həm ümumi müddətinə, həm də xüsusi muddətinə əməl etməlidir. Məhz belə halda vəzifənin lazımınca icrasından söhbət gedə bilər.

Mülki hüquqların müdafiəsi müddəti təyinatına görə müddətlərin xüsusi əhəmiyyətə malik olan növü sayılır. Bu, onunla izah edilir ki, məhz həmin müddət ərzində pozulmuş hüquqların bərpa edilməsi üçün tələb irəli sürülür. İstənilən subyektiv mülki hüquq yalnız müdafiə olunduqda real əhəmiyyət kəsb edir. Bu cur mudafiə ancaq nəzərdə tutulan muddətdə həyata keçirilir ki, bu da mülki hüquqların müdafiəsi müddəti adlanır.

3. Müddətlərin mülki-hüquqi əhəmiyyəti

Müddətlər mülki hüquqda böyük əhəmiyyətə malik olan anlayışdır. Əmlak və qeyri-əmlak münasibətlərinin hüquqi tənzimlənməsində onlar mühüm rol oynayır. Bunların köməyi ilə mülki dövriyyə qaydaya salınır. Müddətlər ictimai münasibətlərin nizama salınmasında müəyyənlik əmələ gətirir, bu münasibətlərdə iştirak edən subyektlər arasında intizam şəraitinin yaradılmasına kömək göstərir.

Müddətlər sahibkarlıq (təsərrüfat) müqavilələrinə əməl olunmasında təkanverici vasitə kimi çıxış edir. Onların iqtisadi-təsərrüfat planlarının vaxtında yerinə yetirilməsində rolu böyükdür. Müddətlər subyektlərin hüquqlarının vaxtında müdafiə olunmasını təmin edir. Nə iayət, müddətlər konkret hərəkətlərin yerinə yetirilməsi, vəzifələrin icrası və hüquqların həyata keçirilməsi üçün zərurət yaradır.

Vaxt amilinin rolunu izah edərkən K.Marksın belə bir fikrini işlətmək yerinə düşərdi ki, bütün sosial-iqtisadi formasiyalarda vaxta qənaət etmək qanunu quvvədə olan birinci və ya əsas qanundur[1]. Onun fikrincə, vaxt kateqoriyası ictimai istehsalın vacib amilidir.

Vaxt amili xüsusilə nəqliyyat fəaliyyətində mühüm rol oynayır. İkinci elə bir iqtisadiyyat sahəsi tapmaq çətin olar ki, həmin sahədə vaxt nəqliyyat sferasındakı kimi böyük əhəmiyyətə malik olsun. Yüklərin daşınmasına sərf edilmiş vaxt nəinki nəqliyyatın səmərəli və keyfiyyətli işinə, hətta bütövlükdə ictimai istehsalın ahəngınə bilavasitə təsir göstərir. Onların təyinat yerinə vaxtında çatdırılması təkcə yük daşıma müqaviləsinin lazımınca icra edilməsinin vacib şərti hesab olunmur. Bu, həm də ölkə iqtisadiyyatı və təsərrüfatının lazım olan xammalla, tikinti materialları ilə, maşınlarla, avadanlıqlarla və s. təmin olunması üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir. Maddi nemətlərin bir yerdən başqa yerə daşınması ilə bağlı olan [illegible] təsərrüfat vəzifəsinin yerinə yetirilməsi nəqliyyat fəaliyyətində və işində vaxt amili ilə şərtlənir. Bu isə o deməkdir ki, ümumi təsərrüfat vəzifələri həmin amillə sıx surətdə bağlıdır.

[1] *Маркс К., Энгельс Ф.* Соч. Том 46, с. 117.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Грибанов В.П. Сроки в гражданском праве. М., 1967.

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К.Толстого**. М., 1998 (гл. 14).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 14).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 11).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И. Цыбуленко**. М., 1998 (гл. 12).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой** и др. М., 1998 (гл. 12).

Совичев Г.П. Сроки в транспортных обязательствах // Советское государство и право. 1997, № 4.

Эннекцерус Л. Курс германского гражданского права. М., 1950. Том 1. Полутом 2 (гл. 5).

Brox H. Allgemeiner Teil des Bürgerlichen Gesetzbuches. 1997.

Brehm W. Allgemeiner Teil des BGB. 1997.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983 (гл. 10).

XVI FƏSİL
MÜLKİ HÜQUQLARIN MÜDAFİƏ MÜDDƏTİ

§ 1. Mülki hüquqların müdafiə müddətinin anlayışı, əhəmiyyəti və növləri

1. Mülki hüquqların müdafiə müddətinin anlayışı. İddia müddəti və onun əhəmiyyəti

Mülki hüquqların müdafiə müddəti odur ki, bu müddət ərzində səlahiyyətli şəxs öz pozulmuş hüquqlarının məcburi qaydada həyata keçirilməsini müvafiq orqanlardan tələb edə bilər. Bu müddət öz hüquqlarını müdafiə etmək haqqında tələblə məhkəməyə müraciət olunması üçün səlahiyyətli şəxsə verilən vaxt dövrüdür. Belə ki, həmin vaxt dövründə hüququ pozulmuş tərəf öz hüququnu müdafiə etmək məqsədilə məhkəməyə müraciət edə bilər. Məhkəməyə müraciət etməyin və pozulmuş mülki hüquqların müdafiə olunmasının əsas hüquqi vasitəsi isə iddiadır. Buna görə də sivilistika elmində və mülki qanunvericilikdə mülki hüquqların müdafiə müddəti iddia müddəti adlanır[1].

İddia müddəti dedikdə, məhkəməyə iddia vermək yolu ilə pozulmuş hüququn müdafiəsi üçün qanunla müəyyənləşdirilən müddət başa düşülür. İddia müddətinin mahiyyəti ondan ibarətdir ki, bu müddət ərzində səlahiyyətli şəxs öz pozulmuş mülki hücuqunu iddia qaydasında məhkəmə icraatı vasitəsi ilə məcburi qaydada müdafiə etmək imkanına malik olur. Bu, hüququ pozulmuş həmin şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müəyyənləşdirilən müddətdir.

İddia müddətinin əsas və başlıca təyinatı hüququ pozulmuş səlahiyyətli şəxsə öz hüququnu məhkəmə qaydasında müdafiə etmək üçün vaxt müddəti verməkdən ibarətdir. Bu müddət buraxıldıqda və ötürüldükdə, həmin şəxs öz hüququnu məhkəmə qaydasında müdafiə edə bilmir. O, müdafiə hüququnu itirir və bu hüquqdan məhrum olur. Məsələn, yük daşımaları üçün qanun bir illik iddia müddəti nəzərdə tutur (MM-in 861-ci maddəsi). Bu müddət ötürüldükdə, yük sahibi (yük göndərən) daşıyıcıya hər hansı iddia vermək hüququnu itirir.

Hamımıza məlumdur ki, mülki hüquqlar təkcə məhkəmə yurisdiksiyası formasında yox, həm də inzibati yurisdiksiya formasında, habelə qeyri-yurisdiksiya formasında (özünüqoruma, özünəyardım, operativ sanksiya və s.) müdafiə edilir. Məhz bu səbəbdən mülki hüquqların müdafiə müddəti anlayışına iddia muddətindən savayı, mülki hüquqların inzibati yurisdiksiya və qeyri-yurisdiksiya qaydasında müdafiə müddətlərini də daxil etmək lazımdır. Mülki qanunvericilik bu cür müddətlərin konkret vaxt dövrünü nəzərdə tutmur. Özünüqorumanın (özünümüdafiənin) son zərurət və zəruri müdafiə kimi hərəkətləri, özünəyardım tədbirləri, habelə operativ sanksiyalar həyata keçirilərkən müdafiə müddətinin müəyyənləşdirilməsinə heç ehtiyac da yoxdur. Məlum məsələdir ki, qeyri-yurisdiksiya formasında müdafiə hərəkətlərinin yerinə yetirilməsi üçün konkret müddətin göstərilməsi məntiqsizlikdir. Çünki bu müdafiə hərəkətlərinin edilməsi müddəti təxirəsalınmaz tədbirlərin görülməsini tələb edən yaranmış konkret vəziyyətlə şərtlənir. Çox vaxt, bir qayda olaraq, müdafiə hərəkətləri dərhal, ləngimədən, təxirə salınmadan və yubadılmaya yol verilmədən həyata keçirilir. Məsələn, alıcı ona göndərilmiş malın pulunu ödəməkdən imtina etmək kimi operativ sanksıya (ləngitmə hərəkəti) tətbiq edir.

Beləliklə, göründüyü kimi, mülki hüquqların müdafiə müddəti anlayışı iddia müddəti anlayışından daha geniş və əhatəlidir. Amma iddia müddəti bu müddət növünün əsası və mərkəzi hissəsi hesab edilir. Ona görə ki, iddia müddəti birtərəfli mövqedə dayanan, müstəqil və yalnız qanuna tabe olan məhkəmənin həyata keçirdiyi müdafiə ilə bağlıdır.

İddia müddəti mülki hüququn ən vacib və mühüm institutlarından biridir. Bu institutun fəaliyyət göstərməsinin vacibliyi və zəruri olması bir sıra səbəblərlə bağlıdır. Daha doğrusu, mülki qanunvericiliyin həmin institutu xüsusi olaraq tənzimləməsi və bu məqsədlə ona ayrıca olaraq fəsil həsr etməsi (18-ci fəsil, 372-384-cü maddələr) bir neçə halla (səbəblə) izah edilir[1].

Birincisi, iddia müddəti **mülki (əmlak) dövriyyədə sabitliyin bərqərar olmasına kömək edən vasitədir**. Belə ki, o, bu dövriyyə iştirakçıları arasındakı qeyri-müəyyənliyin, qeyri-sabitliyin aradan qaldırılmasına səbəb olur. Əgər bu müddət olmasa, onda hüquq pozuntusu yaradan müvafiq hüquq münasibəti daimi mübahisə predmetinə çevrilərdi.

Mülki (əmlak) dövriyyə münasibətlərində qeyri-müəyyənlik mülki-hüquqi tənzimetmənin mahiyyətinə bütövlükdə ziddir. Mülki-hüquqi tənzimetmə mülki dövriyyə iştirakçılarının malik olduqları hüquq və vəzifələrin konkretləşməsini, habelə onlar arasında yaranan mülki hüquqi mübahisənin tezliklə həll edilməsini tələb edir. Bu hallar yalnız sabit mülki dövriyyədə ola bilər. Sabit mülki dövriyyənin mövcud olmasında iddia müddətinin rolu və əhəmiyyəti, şübhəsiz ki, böyükdür. Mülki hüquqların məcburi müdafiəsi üçün vaxt məhdudiyyətinin — iddia müddətinin olmaması dövriyyə iştirakçılarının hüquq və mənafelərinə xələl gətirərdi. İddia müddəti mülki dövriyyədə hərc-mərcliyin, xaotikliyin, qarmaqarışıqlığın və özbaşınalığın qarşısını alır.

İkincisi, iddia müddəti institutu məhkəmələrə imkan verir ki, onlar **mülki-hüquqi mübahisəni obyektiv həqiqət prinsipi əsasında həll etsinlər**. Belə

[1] Hüquq ədəbiyyatı sahələrində mülki hüquqların müdafiə müddəti daha geniş mənada işlədilir. Bəzi müəlliflər bu müddət növünə iddia müddətindən savayı, pretenziya müddətini, qarantiya müddətini, patentlə bağlı məsələ barəsində Apellyasiya Palatasına müraciət müddətini, inzibati qaydada evdən çıxarmaq üçün sanksiya alınması müddətini də daxil edirlər (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Масляева*. М., 1997, с. 204. Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.А.Цыбуленко*. М., 1998, с. 218. Гражданское право. Учебник. Часть 1 / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 467).

[1] Sivil və qabaqcıl xarici ölkə qanunvericiliyi də iddia müddətinin tənzimlənməsinə xüsusi diqqət yetirir. Məsələn, Almaniya Mülki Qanunnaməsinin birinci kitabının («Ümumi hissə»nin) beşinci bölməsi («İddia müddəti») iddia müddətinin reqlamentinə həsr edilmişdir (bax: Основные институты гражданского права зарубежных стран / Под ред. *В.В.Залесского*. М., 1999, с. 6; Правовые системы стран мира. Энциклопедический справочник / Под ред. *А.Я.Сухарева*. М., 2001, с. 161).

ki, məhkəmə tərəfindən mülki mübahisəyə baxılması həmişə iş üzrə obyektiv həqiqətin müəyyən edilməsi ilə bağlı olur. Obyektiv həqiqətin müəyyən edilməsi isə əldə edilmiş sübutların həqiqətə uyğun və etibarlı olmasını tələb edir. Məlum məsələdir ki, qeyri-müəyyən uzun müddətin ötməsi şəraitində sübutların itmək ehtimalı çoxalır, bu sübutların etibarlı olmasına şübhələr artır, onların həqiqi və tutarlı olmasını yoxlamaq çətinləşir və ya qeyri-mümkün olur, faktlar unudulur. Bu isə məhkəmə orqanlarının iş üzrə bütün faktiki halların müəyyənləşdirilməsi və üzə çıxarılması üzrə fəaliyyətini çətinləşdirir və mürəkkəb vəziyyətə salır. Söz yox ki, belə vəziyyətdə düzgün qərar qəbul edilməsindən söhbət gedə bilməz. İddia müddətinin müəyyənləşdirilməsi isə məhkəmə tərəfindən etibarlı sübutların toplanmasını, iş üzrə obyektiv həqiqətin aşkar edilməsini asanlaşdırır və bununla o, düzgün qərar qəbul edilməsinə kömək edir.

Üçüncüsü, iddia müddəti **mülki hüquq münasibəti iştirakçıları arasında nizam-intizam yaradır**, onların malik olduqları mülki hüquq və vəzifələrin fəal surətdə həyata keçirilməsinə təkan verir, mülki dövriyyədə müqavilə və təsərrüfat-maliyyə intizamının möhkəmləndirilməsinə yardım göstərir. Bu müddət öhdəliklərin icrası üzərində qarşılıqlı nəzarəti gücləndirir.

İddia müddəti institutunun mülki hüquqda malik olduğu əhəmiyyət də məhz bunlardan ibarətdir.

İddia müddəti Almaniya mülki hüququnda əsas anlayışlardan biri sayılır. İddia müddəti (**Verjahrung**) elə bir müddətdir ki, bu müddətin ötməsi nəticəsində tələb hüququnun (Anspruch) məcburi qaydada həyata keçirilməsi imkanı itir[1]. Bu institut Yaponiya mülki hüququna da məlumdur. Hüquq əldə etmək və ya hüquqi itirmək iddia müddətinin hüquqi nəticəsi hesab olunur[2].

2. İddia müddətinin növləri

İddia müddətinin iki növü fərqləndirilir (MM-in 373-cü maddəsi):

- ümumi iddia müddəti;
- xüsusi iddia müddəti.

Ümumi iddia müddəti odur ki, bu müddət, barəsində xüsusi müddət müəyyənləşdirilən, habelə haqqında, ümumiyyətlə, iddia müddəti tətbiq edilməyən hüquq münasibətləri və tələblər istisna olmaqla, bütün hüquq münasibətlərinə və tələblərə tətbiq edilir: ümumi iddia müddəti o hallarda tətbiq olunmur ki, müəyyən münasibətlər (tələblər) üçün xüsusi iddia müddəti müəyyənləşdirilməsin. Məsələn, mülkiyyətçi özgə şəxsin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edərkən ümumi iddia müddəti tətbiq olunur. **Ümumi iddia müddəti on il təşkil edir** (MM-in 373-cü maddəsinin 1-ci bəndi). Bizim ölkə qanunvericiliyinin on illik ümumi iddia müddəti müəyyən etməsi bəzi xarici ölkələrin qanunvericilik təcrübəsinə və ənənələrinə uyğundur. Məsələn, İsveçrə öhdəlik qanunu (127-ci maddə) 10 illik iddia müddəti nəzərdə tutur. Almaniya Mülki Qanunnaməsi ümumi iddia müddəti yox, normal iddia müddəti anlayışını işlədir. Normal iddia müddəti 30 il idi (§ 195)[3]; indi isə ümumi iddia müddəti

[1] *А.Жалинский, А.Рерихт.* Введение в немецкое право. М., 2001, с. 307.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 149.

[3] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950.

Almaniya qanunvericiliyinə görə üç il təşkil edir. Fransa MM-i 30 illik iddia müddəti nəzərdə tutur. Bu isə səlahiyyətli şəxsin mənafeyinə xidmət edir və mülki hüquqların müdafiəsinə daha çox təminat verir. Qeyd etmək lazımdır ki, köhnə qanunvericilik üç və bir illik ümumi iddia müddəti müəyyənləşdirmişdi. RF-in yeni MM-i üç illik ümumi iddia müddətini indi də saxlayır. Bizim ölkə qanunvericiliyinin müəyyənləşdirdiyi on illik iddia müddətini Almaniya qanunvericiliyinə uyğun olaraq **normal iddia müddəti** də adlandırmaq olar.

Xüsusi iddia müddəti odur ki, o, qanunda xüsusi olaraq göstərilən, ayrı-ayrı hüquq münasibətlərinə və ya müxtəlif hüquq münasibətlərindən irəli gələn müəyyən növ tələblərə tətbiq edilir. «Uzunluğu»na görə bu müddət növü üç cür olur:

- qısaldılmış xüsusi iddia müddəti;
- daha qısaldılmış xüsusi iddia müddəti;
- uzadılmış xüsusi iddia müddəti.

Qısaldılmış xüsusi iddia müddəti odur ki, o, özünün adından göründüyü kimi, ümumi müddətə nisbətən qısadır. Bu cür iddia müddətinin əsas təyinatı mülki-hüquqi mübahisəni düzgün həll etmək üçün tezliklə iddia verməyi stimullaşdırmaqdan ibarətdir. Qısaldılmış xüsusi iddia müddətinə aiddir:

- müqavilə tələbləri üzrə üç illik iddia müddəti (MM-in 373-cü maddəsinin 2-ci bəndi);
- daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə altı illik iddia müddəti (MM-in 373-cü maddəsinin 2-ci bəndi);
- podrat müqaviləsi üzrə beş illik iddia müddəti (binaya aid tələb üzrə) (MM-in 776-cı maddəsi);
- vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə üç illik iddia müddəti (MM-in 373-cü maddəsinin 3-cü bəndi).

Daha qısaldılmış xüsusi iddia müddəti odur ki, bu müddət qısaldılmış müddətlərə nisbətən qısa olub, xüsusi hallar üçün nəzərdə tutulur. Bu növ müddətlərə aiddir:

- podrat müqaviləsi üzrə bir illik iddia müddəti (MM-in 776-cı maddəsi);
- sahibliyin pozulması ilə bağlı bir illik iddia müddəti (MM-in 165-ci maddəsi).
- torpaq icarəsi müqaviləsi üzrə altı aylıq iddia müddəti (MM-in 715-ci maddəsi);
- yük daşıması müqaviləsi üzrə bir illik iddia müddəti (MM-in 861-ci maddəsi);
- vəsiyyətnamənin qüvvədən düşmüş sayılması barədə iki illik iddia müddəti (MM-in 1231-ci maddəsi) və s.

Göstərilən bölgü Almaniya hüquq doktrinasının verdiyi təsnifə uyğun gəlir. L.Ennekserus iddia müddətini üç növə bölür: normal iddia müddətinə (30 il — § 195); qısaldılmış iddia müddətinə (gündəlik dövriyyə əqdlərindən irəli gələn tələblər üzrə 2 il, bəzi hallarda isə 4 il — § 196 və yaxud kirayə və icarə haqqından, ödənilməmiş faizlərdən irəli gələn tələblər üzrə 4 il — § 197); daha qı-

saldılmış müddətlərə (xüsusi hallar üçün)[1]. Yaponiya mülki hüququnda 10 il, 20 il kimi iddia müddətlərinə rast gəlirik (MM-in 162-ci maddəsi). Bu ölkənin MM-i bütün hüquqlar üçün 10 illik iddia müddəti nəzərdə tutur[2].

Uzadılmış xüsusi iddia müddəti odur ki, o, ümumi iddia müddətinə nisbətən «uzundur». Əvvəlki dövrün qanunvericiliyi (1964-cü il MM-in 74-cü maddəsi) yalnız qısaldılmış xüsusi iddia müddətlərinin müəyyən edilməsinin mümkünlüyünü nəzərdə tuturdu. Məhz bu səbəbdən mülki hüquq elmində xüsusi iddia müddətləri qısaldılmış iddia müddətləri anlayışı ilə əhatə olunurdu[3]. Amma müasir qanunvericiliyə görə, bu cür əhatə olunmağın əsası yoxdur. Belə ki, həm bizim ölkə qanunvericiliyi, həm RF-in qanunvericiliyi uzadılmış xüsusi iddia müddətlərinin də müəyyənləşdirilməsinin mümkünlüyünü nəzərdə tutur[4]. Amma MM-də uzadılmış xüsusi iddia müddətinə rast gəlmirik. Bəzən məhkəmə qərarına əsasən əmələ gələn tələblər üzrə müəyyənləşdirilən 30 illik müddət (MM-in 551-ci maddəsinin 2-ci bəndinin 4-cü yarımbəndi) səhvən bu növ iddia müddəti hesab edilir. Onları bir-birilə qarışdırmaq olmaz. 30 illik müddət iddia müddəti yox, ekstinktiv (yəni mülki hüquqların mövcud olma və ya ləğv olunma) müddət sayılır.

İddia müddəti digər iddia müddəti növlərindən fərqlənir. Bununla belə, o, mülki hüquqların mövcud olma, preklyuziv və pretenziya kimi müddət növlərinə yaxındır. Bu müddət növlərini birləşdirən ümumi cəhət ondan ibarətdir ki, həmin müddətlərin ötməsi və keçməsi subyektiv hüququn əsasını təşkil edən hüquqi imkanların ləğv edilməsinə və qüvvədən düşməsinə səbəb olur. Onlar arasında müəyyən fərqli cəhətlər də vardır.

Mülki hüquqların mövcud olma müddətləri və preklyuziv müddətlər pozulmamış mülki hüquqların həyata keçirilmə müddətləridir. İddia müddətinə gəldikdə isə o, yalnız pozulmuş subyektiv hüquqlara şamil edilir.

İddia müddəti pretenziya müddətindən onunla fərqlənir ki, iddia müddəti ərzində pozulmuş hüquqlar məhkəmə orqanları tərəfindən məcburi qaydada müdafiə edilir. Pretenziya müddətində isə səlahiyyətli şəxsin pozulmuş hüquqları borclu şəxsin özü tərəfindən könüllü qaydada bərpa edilir.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 407, с. 412-417. Göründüyü kimi, əqdlərdən (müqavilələrdən) irəli gələn tələblər üzrə iddia müddəti qısaldılmış iddia müddətinə aid edilir. Amma Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 27 dekabr 2001-ci il tarixli qərarından görünür ki, müqavilə tələbləri bu növ müddətə şamil olunmur (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair qərar // KMM. 2002. №2, s. 5). Bu mövqe ilə çətin ki razılaşmaq olar.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 154, 155.

[3] bax: Советское гражданское право. Учебник. М., 1983, с. 93; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 279; Основы советского гражданского права. М., 1986, с. 83.

[4] Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 400. ст.196. Buna görə də xüsusi iddia müddətlərini qısaldılmış iddia müddətləri adlandıran müasir rus müəlliflərinin mövqeyi heç də dəqiq deyil (bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1996, с. 304).

3. Maddi və prosessual mənada iddia hüququ

İddia müddəti anlayışı iddia və iddia hüququ anlayışı ilə sıx surətdə bağlıdır. Şəxslərin şəxsi və əmlak hüquqlarının, habelə qanunla qorunan mənafelərinin məhkəmə müdafiəsi iddia vermək yolu ilə həyata keçirilir. Əgər şəxsin hər hansı mülki hüququ başqa şəxs tərəfindən pozularsa, maraqlı tərəf müdafiə üçün məhkəmə orqanlarına müraciət edə bilər. Belə ki, mülki-prosessual qanunvericiliyə görə, hər bir maraqlı şəxs pozulmuş və ya mübahisəli hüququn müdafiəsi üçün, yaxud qanunla qorunan mənafeyinin müdafiəsi üçün qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququna malikdir. Əgər o, həmin hüquqdan istifadə edib məhkəməyə müraciət edərsə, bu cür müraciət iddia adlanır.

İddia dedikdə, maraqlı şəxsin maddi-hüquqi mübahisənin araşdırılması və həlli, subyektiv hüququn və ya qanunla qorunan mənafeyin müdafiəsi üçün xahişlə məhkəməyə müraciət etməsi başa düşülür. İddia elə bir müdafiə vasitəsidir ki, bu vasitədən subyektiv hüquqlar pozulduqda və pozulma təhlükəsi yarandıqda, yəni maddi-hüquqi mübahisə yarandıqda istifadə olunur.

İddianın yaxından bağlı olduğu əsas anlayış iddia hüququdur. **İddia hüququ** pozulmuş və ya mübahisə edilən hüququ müdafiə etmək üçün məhkəməyə müraciət etmək imkanıdır. Bizim ölkənin bütün vətəndaşları və hüquqi şəxsləri, habelə xarici ölkə vətəndaşları, vətəndaşlığı olmayan şəxslər və əcnəbi hüquqi şəxsləri iddia hüququna malikdirlər[1].

İddia mürəkkəb hüquqi anlayışdır. O, ümumiləşdirilmiş xarakterə malik olmaqla, özündə iki əlaməti birləşdirir: maddi-hüquqi əlaməti; prosessual-hüquqi əlaməti. Vahid, amma mürəkkəb anlayış olan iddia elə bil ki, iki tərəfdən (maddi və prosessual tərəfdən) ibarətdir. Buna müvafiq olaraq iddia hüququ iki mənada başa düşülür:

- maddi mənada iddia hüququ;
- prosessual mənada iddia hüququ.

Maddi mənada iddia hüququ iddianın maddi tərəfinə, prosessual mənada iddia hüququ isə iddianın prosessual tərəfinə uyğundur. Bunlar həm də iddia hüququnun ibarət olduğu iki cür səlahiyyətə müvafiqdir: iddianın təmin olunması hüququna (maddi mənada iddia hüququ); iddia verilməsi hüququna (prosessual mənada iddia hüququ).

Maddi mənada iddia hüququ dedikdə, pozulmuş mülki subyektiv mülki hüquqların məhkəmə vasitəsilə məcburi qaydada həyata keçirilməsi imkanı başa düşülür. Söhbət pozulmuş və ya mübahisə edilən hüquqların həyata keçirilməsi haqqında iddiaçının cavabdehə yönəltdiyi maddi-hüquqi tələbin məhkəmə yolu ilə təmin edilmək imkanından gedir. Ona görə də maddi mənada iddia hüququ **iddianın təmin olunması hüququ** da adlandırılır.

İddiaçının cavabdehə yönəltdiyi maddi-hüquqi tələb **iddianın predmetini** təşkil edir. Çox vaxt iddianın obyektini iddianın predmeti ilə qarışdırırlar. Bunlar bir-birindən fərqlənən anlayışlardır. **İddianın obyekti** iddiaçının əldə etmə-

[1] İddia və iddia hüququ barədə bax: *М.А.Гурвич*. Право по иск. М., 1949; *А.А.Добровольский*. Исковая форма защиты права. М., 1965.

yə cəhd göstərdiyi maddi nemətə deyilir. Məsələn, konkret əmlak, pul, qiymətli kağız və s. iddianın obyekti ola bilər.

Maddi mənada iddia hüququndan şəxs ona məxsus olan maddi hüquq pozulduğu və bu hüququ müdafiə etmək üçün hüququ pozan şəxsə məcburiyyət tədbirinin tətbiq olunması lazım gəldiyi hallarda istifadə edir. Məcburiyyət tədbirləri qanunla mülki hüquqları müdafiə etməyə ixtiyarı çatan məhkəmə tərəfindən tətbiq olunur. İddiaçının tələbi ilə məcburiyyət tədbirinin tətbiq edilməsi həmişə yox, yalnız iddia müddəti çərçivəsində və hüdudlarında mümkündür. Məhz bu müddətin ötməsi hüququ pozan şəxsə məcburiyyət tədbirinin tətbiqini istisna, qeyri-mümkün edir. Buna **iddianın təmin olunmasından imtina** deyilir.

Beləliklə, maddi mənada iddia hüququ iddia müddəti ilə bağlıdır. Belə ki, bu müddətin ötməsi ilə subyektiv hüququn məcburi olaraq həyata keçirilməsi imkanı itir, yəni iddia müddətinin ötməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır (MM-in 375-ci maddəsinin 2-ci bəndi).

Prosessual mənada iddia hüququ dedikdə, pozulmuş və ya mübahisə edilən subyektiv hüququn müdafiəsi barədə tələblə məhkəməyə müraciət etmək hüququ başa düşülür. Söhbət məhkəmədən yaranmış mülki-hüquqi mübahisənin baxılmasını və həll edilməsini tələb etmək hüququndan gedir. Buna görə də həmin hüquq **iddia vermək hüququ** adlanır. Bu hüquqa iddia müddəti tətbiq edilmir və məhkəməyə iddia vermək hər hansı müddətlə məhdudlaşdırılmır. Belə ki, hüququn müdafiəsi haqqında tələb iddia müddətinin ötməsindən asılı olmayaraq, məhkəmə tərəfindən baxılmağa qəbul edilir (MM-in 375-ci maddəsi). İddia müddəti ötdükdən sonra da məhkəməyə iddia vermək olar. Məhkəmənin bu tələbə baxmaqdan imtina etməyə hüququ çatmır. **Maddi mənada iddia hüququ olmasa belə, məhkəmə iddianı hökmən qəbul etməli, mübahisəyə mahiyyətcə baxmalı və qərar çıxarmalıdır.** Ona görə ki, o, iddia müddətinin ötüb-ötməməsini, bu müddətin dayandırılmasını, kəsilməsini və ya bərpa edilməsini şərtləndirən halların olub-olmamasını məhz məhkəmə araşdırması nəticəsində müəyyənləşdirə bilər. Deməli, mülki qanunvericiliyə görə, iddia müddətinin ötməsi maraqlı tərəfi prosessual mənada iddia hüququndan məhrum etmir. Bu hüququn həyata keçirilməsinin şərt və qaydaları isə mülki-prosessual qanunvericiliklə müəyyən edilir. İddia müddətinin ötməsi maraqlı tərəfi maddi mənada iddia hüququndan da məhrum etmir[1]. O, yalnız həmin tərəfin irəli sürdüyü tələbin məhkəmə vasitəsilə məcburi qaydada həyata keçirilməsi imkanını aradan qaldırır və iddianın (tələbin) təmin edilməsindən imtinaya səbəb olur.

4. İddia müddəti haqqında qayda

24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsinə kimi iddia müddəti dəqiq olaraq yalnız qanunla müəyyənləşdirilirdi. Odur ki, tərəflər razılaşma əsasında bu müddəti dəyişdirə bilməzlər. Bu, o demək idi ki, **iddia müddəti imperativ xarakterə malikdi.**

Mülki qanunvericilik **iddia müddətinin imperativliyi haqqında qayda** müəyyən edirdi (MM-in 374-cü maddəsi). Bu qayda, hər şeydən əvvəl, **birincisi**, onda ifadə olunurdu ki, **iddia müddətləri və onların hesablanma qaydası yalnız qanun əsasında müəyyənləşdirilir** və mülki hüquq münasibəti iştirakçılarının razılaşması ilə bu müddətlərin dəyişdirilməsinə, yəni qısaldılmasına və ya uzadılmasına yol verilmirdi. Əgər iddia müddətləri və onların hesablanması qaydası iştirakçıların razılığı ilə dəyişdirilərsə, onda bu cür razılaşmanın hüquqi əhəmiyyəti olmurdu. Bu cür razılaşma etibarsız sayılırdı. Məsələn, qanunda yük daşıma müqaviləsi üçün bir illik iddia müddəti nəzərdə tutulmuşdur. Əgər daşıyıcı ilə yük göndərən həmin müddətin dəyişdirilərək iki illik iddia müddəti ilə əvəz olunması barədə razılığa gəlsələr, onda cür razılaşma hüquqi əhəmiyyəti olmayan hərəkət kimi etibarsız hesab ediləcəkdi.

24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsindən sonra vəziyyət tam dəyişmişdir. Belə ki, **indi tərəflər qanunda nəzərdə tutulan iddia müddətinin dəyişdirilməsi barədə öz aralarında razılığa gələ bilərlər;** belə razılaşma artıq etibarsız sayılmayacaqdır. Ona görə ki, Mülki Məcəllə subyektlərə qanunun müəyyənləşdirdiyi iddia müddətini uzatmağa və ya qısaltmağa icazə verir. Əgər subyektlər öz aralarında iddia müddətinin uzadılması və ya azaldılması barədə razılığa gəlməzlərsə, onda iddia müddəti Mülki Məcəllə ilə müəyyən edilir (MM-in 374-cü maddəsinin 1-ci bəndi). Bu, son zamanlar xarici ölkələrin qanunvericiliyində artan tendensiyaya uyğundur. Belə ki, xarici qanunvericilik tərəflərə onlara sərf edən iddia müddətləri müəyyənləşdirməkdə geniş hüquqlar verir. Məsələn, Almaniya hüququ iddia müddətinin tərəflərin razılığı ilə dəyişdirilməsinə (ya uzadılmasına, ya qısaldılmasına) yol verir (AMQ-nin 202-ci maddəsi). ABŞ Vahid Ticarət Məcəlləsi (2-725-ci maddə) müəyyən edir ki, tərəflər 4 illik iddia müddətini 1 ilə kimi azalda bilərlər. İddia müddətinin tərəflərin razılığı ilə dəyişdirilməsi tendensiyası İngiltərə hüququnda da müşahidə olunmaqdadır. Amma bəzi ölkələrdə (məsələn, İsveçrədə və s.) iddia müddətini tənzimləyən normalar imperativ xarakter daşıyır. Odur ki, tərəflər iddia müddətini dəyişdirə bilməzlər[1].

Qeyd etmək lazımdır ki, **iddia müddətinin axımının dayandırılması və kəsilməsi əsasları qanunla müəyyənləşdirilir.** Bu barədə mülki hüquq münasibəti iştirakçılarının sazişi hüquqi əhəmiyyət kəsb etmir. Bununla bərabər, yeni mülki qanunvericilik köhnə qanunvericilikdən fərqli olaraq, iddia müddətinin imperativliyini (məcburiliyini) istisna edən xüsusi norma müəyyən edir (MM-in 375-ci maddəsinin 2-ci bəndi). Bu xüsusi norma onu isbat edir ki, iddia müddəti barədə qayda tam yox, əsasən, imperativ xarakterə malikdir. Köhnə qanunvericiliyə görə, **iddia müddəti mübahisə edən tərəflərin (mülki hüquq münasibəti iştirakçılarının) bildirməsindən asılı olmayaraq, məhkəmə tərəfindən tətbiq olunurdu** (1964-cü il MM-nin 77-ci maddəsi), yəni iddia müddətinin tətbiq edilməsi məhkəmənin vəzifəsi sayılırdı. Belə ki, məhkəmə mübahisə edən tərəflərin bildirməsindən asılı olmayaraq, öz xüsusi təşəbbüsü ilə iddia müddətini tətbiq etməyə borclu idi. Bu vəzifəni icra etmək məqsədilə məhkəmə iddia müddətinin ötürülüb-ötürülməməsi məsələsini qəti olaraq mü-

[1] bax: Комментарий к Гражданскому кодексу РФ. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 403.

[1] bax: Гражданское и торговое право зарубежних государств. Учебник. Том 1/ Отв. ред. *Е.А. Васильев, А.С. Комаров*. М., 2004, с.303.

əyyənləşdirirdi. Əgər məhkəmə müəyyən etsə idi ki, iddia müddəti ötürülmüş və buraxılmışdır, onda o, iddiadan imtina edirdi. Beləliklə, köhnə qanunvericilik iddia müddətinin tətbiq edilməsinin məcburiliyi (imperativliyi) haqqında qayda nəzərdə tutmuşdu.

Kohnə qanunvericiliyin nəzərdə tutduğu bu qaydadan fərqli olaraq, yeni qanunvericilik iddia müddətinin tətbiq edilməsinin imperativliyini (məcburiliyini) istisna edən norma müəyyən edir. Bu normaya görə, **iddia müddəti məhkəmə tərəfindən yalnız mülki-hüquqi mübahisə üzrə müvafiq tərəfin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir**. Əgər müvafiq tərəf iddia müddətinin tətbiq edilməsi barədə ərizə verməzsə, onda məhkəmə iddia müddətinin keçməsindən asılı olmayaraq, işə mahiyyətcə baxır və mülki-hüquqi mübahisə barədə qərar qəbul edir. Belə halda **məhkəmənin öz xüsusi təşəbbüsü ilə iddia müddətini tətbiq etmək ixtiyarı** çatmır.

Bir sıra hallarda mülki-hüquqi mübahisə üzrə müvafiq tərəf (cavabdeh) müdafiə tədbiri kimi istinad edir və bildirir ki, iddiaçı iddia müddətini ötürmüşdür və buna görə də məhkəmə iddiadan imtina barədə qərar çıxarmalıdır. Özü də dərhal qeyd etməliyik ki, cavabdeh bu hüquqdan yalnız məhkəmə qərarı çıxarılanadək istifadə edə bilər. Məsələn, iddia ərizəsinə verilən etirazda, məhkəmə iclasında bu cür bildiriş (ərizə) ifadə oluna bilər[1]. Belə halda məhkəmə iddia müddətini tətbiq edir və əgər bu müddətin ötürülməsini müəyyənləşdirərsə, o, iddiaçının irəli sürdüyü iddiadan (tələbdən) imtina edir. Məsələn, daşıyıcı ilə yük göndərən arasında yükün itməsi barədə mübahisə yaranır. Yükün təyinat yerinə çatdırılmalı olduğu gündən bir il yarım keçdikdən sonra (bununla bir illik iddia müddəti ötürülür) yük göndərən iddia ilə məhkəməyə müraciət edir. Daşıyıcı bir illik iddia müddətinin ötürülməsinə görə iddiadan imtina edilməsi barədə ərizə vermir. Belə halda məhkəmə iddia müddətini tətbiq etməyərək, işə mahiyyətcə baxır və iddia müddətinin ötməsindən asılı olmayaraq, müvafiq qərar çıxarır.

Konkret işə baxan hakim cavabdehə izah etməyə borclu deyildir ki, cavabdeh iddia müddətinin ötürülməsinə görə iddiaçının irəli sürdüyü iddiadan imtina olunmasını tələb etsin. Cavabdehin də ixtiyarı yoxdur ki, məhkəmənin iddia müddətinin ötürülməsini elan etməməklə və bildirməməklə diqqətsizliyə yol verməsinə görə onun hərəkətlərindən şikayət versin.

Göstərilən xüsusi normanı genişləndirici təfsir etmək olmaz. Belə ki, mülki hüquq münasibəti üzrə tərəflər istənilən vaxt, məsələn, əqd bağlanan zaman mümkün ola bilən mübahisəyə iddia müddətinin tətbiq edilməməsi barədə razılığa gələ bilməzlər[2]. Bu razılıq qanuna zidd olduğuna görə etibarsız sayılacaqdır. **Yalnız artıq əmələ gəlmiş mübahisəyə iddia müddətinin tətbiq edilməməsi barədə bildiriş verilə bilər**. O mübahisəyə ki, həmin mübahisə baxılmaq və həll edilmək üçün məhkəməyə verilmişdir.

Beləliklə, iddia müddətinin tətbiqi mülki-hüquqi mübahisə üzrə tərəflərin öz istək və mülahizələrindən asılıdır. **Məhkəmənin bu tərəflərin bildirməsindən asılı olmayaraq, öz xüsusi təşəbbüsü ilə iddia müddətini tətbiq etmək hüququ yoxdur**. Bu isə onu ifadə edir ki, yeni mülki qanunvericiliyə görə, iddia müddətinin tətbiq edilməsi imperativ (məcburi) xarakter daşımır.

[1] bax: п.11 постановления Высшего Арбитражного суда РФ от 22 декабря 1992 г. // Хозяйство и право. 1993. № 3, с. 85.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998. с.303.

5. İddia müddətinin şamil edilmədiyi tələblər

Ümumi qayda belədir ki, iddia müddəti bütün mülki hüquq münasibətlərinə şamil edilir. Bununla bərabər, elə tələblər vardır ki, həmin tələblərə iddia müddəti aid olunmur. Mülki qanunvericilik bu tələblərin siyahısını verir. Lakin bu, qeyri-qəti, dəqiq olmayan və təxmini siyahıdır (MM-in 384-cü maddəsi). Ona görə ki, qanunda nəzərdə tutulan bəzi tələblərə iddia müddətinin şamil edilməməsi istisna olunmur, yəni bu, mümkündür.

İddia müddətinin şamil edilmədiyi tələblərə aiddir:

• **şəxsi qeyri-əmlak hüquqlarının və digər qeyri-maddi nemətlərin müdafiəsi haqqında tələblər**. Bu tələblərə, hər şeydən əvvəl, fiziki şəxsin şərəf və ləyaqəti, işgüzar nüfuzu və s. daxildir. Ümumi qaydaya görə, həmin tələblər vaxtla məhdudlaşmır və onların pozulması fasiləsiz olaraq davam edir;

• **əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələbləri**. İddia müddəti həm də əmanətlər üzrə faizlərin ödənilməsi üzrə tələblərə şamil olunmur;

• **fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər**. Fiziki şəxsin həyatına və ya sağlamlığına zərər vurulduğu hallarda, həmin şəxsin (zərərçəkənin) əmək qabiliyyətinin azalması və ya ölümü nəticəsində dəyən zərərin əvəzi aylıq ödənişlər yolu ilə ödənilir. Tələb gələcək müddət üçün ödənilir. Tələb irəli sürülməzdən əvvəlki müddət üçün də təmin oluna bilər. Bu müddət üç ildən çox ola bilməz, yəni tələb zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il keçdikdən (bitdikdən) sonra irəli sürülərsə, ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir. Məsələn, vətəndaşın sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan dörd il keçir və o, iddia irəli sürür. Belə halda zərərin əvəzini ödəmək tələbi yalnız ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir;

• **mülkiyyətçinin və ya digər sahibin** (əşyaya sahiblik edən, lakin mülkiyyətçi olmayan şəxs, məsələn, kirayəçi, daşıyıcı, girovsaxlayan və s.) **onun hüququnun hər cür pozulması hallarının aradan qaldırılması haqqında tələblər, əgər bu pozuntu halları sahiblikdən məhrum edilməklə bağlı olmasa**. Söhbət neqator iddia tələbinə iddia müddətinin tətbiq edilməməsindən gedir ki, bu iddia ilə mülkiyyət hüququ müdafiə olunur. Həmin növ iddia MM-in 157-ci maddəsinin 4-cü bəndində nəzərdə tutulmuş dur. Məsələn, vətəndaşa məxsus yaşayış evinin yaxınlığında obyekt tikən təşkilat həmin evin həyətinə dəmir-beton məmulatları tökür. Bununla sahiblikdən məhrum etmə ilə bağlı olmayan hüquq pozuntusuna yol verilir. Ev sahibi həmin pozuntunun aradan qaldırılmasını tələb edə bilər. Bu tələbə iddia müddəti şamil edilmir. Göründüyü kimi, burada hüquq pozuntuları uzanan və davam edən xarakterə malikdir. Bu cür pozuntu ilə bağlı olan tələblərə iddia müddəti tətbiq olunmur. Ümumiyyətlə, uzanan və davam edən hüquq pozuntularına iddia müddəti tətbiq olun-

mamalıdır[1];

• **dövlət[2] və ya bələdiyyə orqanının və ya onların vəzifəli şəxslərinin mülkiyyət hüquqlarını pozmuş aktının etibarsız sayılması haqqında mülkiyyətçinin tələbləri**. Bu aktlar, adətən, qeyri-normativ xarakterə malikdir. Əgər onlar şəxslərin mülkiyyət hüququnu pozarsa, həmin şəxs iddia ilə məhkəməyə müraciət edə bilər. Belə hallara da iddia müddəti şamil edilmir. Məsələn, şəhər icra hakimiyyətinin qərarı ilə vətəndaşa məxsus olan tikili heç bir əsas olmadan ondan alınır.

Bəzən iddia müddətinin tətbiq edilməsinin qeyri-mümkünlüyü hüquq münasibətinin özünün xarakterindən irəli gəlir. Məsələn, fiziki şəxsin ölmüş hesab edilməsi haqqında və ya onun qeyri-fəaliyyət qabiliyyətli sayılması barədə tələblərə, təbii ki, iddia müddəti şamil edilmir. Məlum məsələdir ki, bu cür tələblərə iddia müddəti şamil etmək məntiqsizlikdir.

§ 2. İddia müddəti axımının başlanması, kəsilməsi, bərpası və ötməsinin nəticələri

1. İddia müddəti axımının başlanması

İddia müddətini düzgün hesablamaq lazımdır. Bunun çox vacib və mühüm əhəmiyyəti vardır. İddia müddəti axımının başlanğıcı onun düzgün və dəqiq hesablanması üçün həlledici rol oynayır. Belə ki, bu məsələdə səhvə yol vermək hökmən süni surətdə iddia müddətinin qısaldılmasına və ya uzadılmasına səbəb olur.

İddia müddətinin axımı **iddia hüququ əmələ gələn gündən başlanır**. O gündən ki, həmin gün pozulmuş hüququn məcburi qaydada məhkəmə orqanlarının köməyi ilə həyata keçirilmək imkanı yaranır. İddia hüququnun əmələ gəldiyi gün isə **şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır** (MM-in 377-ci maddəsinin 1-ci bəndi). Deməli, şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya konkret hallar əsasında bunu bilməli olduğu gündən iddia müddətinin axımı başlanır.

Qanunun müəyyən etdiyi göstərişdən belə məlum olur ki, iddia müddəti axımının başlanğıcının təyin edilməsi və müəyyənləşdirilməsi iki anla bağlıdır:

• obyektiv anla;

• subyektiv anla.

Obyektiv an şəxsin öz subyektiv mülki hüququnun pozulduğu andır. **Subyektiv** an isə şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu andır.

Qanun iddia müddəti axımının başlanmasını obyektiv anla yox, subyektiv anla əlaqələndirir[1]. Məhz bu andan maddi mənada iddia hüququ əmələ gəlir. Prosessual mənada iddia hüququ, yəni iddia ilə məhkəməyə müraciət etmək imkanı isə hər hansı vaxtla (anla) məhdudlaşdırılmadan həmişə saxlanılır və mövcud olur[2].

Beləliklə, qanun maddi mənada iddianın əmələ gəlmə əsasına subyektiv xarakter verərək, bu əsası subyektiv anla bağlayır. Bu an şəxsin öz subyektiv hüququnun pozulmasını bilməsi, qavraması və dərk etməsi günüdür. Adətən, şəxs öz hüququnun pozulmasını elə həmin gün də bilir və bundan xəbər tutur. Məsələn, hər hansı fiziki şəxs müəyyən vətəndaşın hüququnu sentyabr ayının 10-da pozur. Vətəndaş elə həmin gündə, yəni sentyabr ayının 10-da öz hüququnun pozulmasını bilir. Bu cür hallarda obyektiv anla subyektiv an üst-üstə düşür.

Bəzi hallarda isə şəxsin öz hüququnun pozulması faktı ona elə həmin gün yox, xeyli müddət keçdikdən sonra məlum olur. Öz hüququnun pozulmasını bilmədən, əlbəttə, şəxs onun müdafiə edilməsi üçün tədbirlər görə bilməz. Məsələn, ev sahibi onun yaşadığı evdən müxtəlif əşyaların oğurlanmasını (sentyabrın 4-də) yalnız məzuniyyətdən qayıtdıqdan sonra (sentyabrın 30-da) bilir. İddia müddətinin axımı oğurluğun baş verdiyi gündən (sentyabrın 4-dən) yox, məhz bu gündən (sentyabrın 30-dan) başlayır. Bu cür hallarda isə obyektiv anla subyektiv an üst-üstə düşmür.

Bəzən şəxs diqqətsizliyə, səhlənkarlığa, biganəliyə, təsərrüfatsızlığa və digər səbəblərə görə öz hüququnun pozulmasından xəbəri olmur. Belə halda iddia müddətinin axımı hüququn pozulduğu gündən yox, şəxsin öz hüququnun pozulmasını bilməli olduğu gündən başlayır.

Amma iddia müddətinin hesablanması qaydası imperativ xarakter daşımır. Belə ki, tərəflər müqavilədə iddia müddətinin hesablanması qaydası haqqında başqa hal, yəni qanunda müəyyənləşdirilən dən fərqli qayda nəzərdə tuta bilərlər (MM-in 374-cü maddəsinin 1-ci bəndi). Məsələn, müqavilədə tərəflər müəyyənləşdirə bilərlər ki, iddia müddətinin axımı şəxsin subyektiv mülki hüququnun pozulduğu gündən hesablansın və s. Əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, iddia müddətinin hesablanma qaydası Mülki Məcəllə ilə müəyyənləşdirilir (MM-in 374-cü maddəsinin 1-ci bəndi). Yeri gəlmişkən, 24 iyun 2005-ci il tarixli qanunla MM-ə dəyişikliklər və əlavələr edilməsinə kimi iddia müddətinin hesablanma qaydası haqqında norma imperativ xarakter daşıyırdı.

Xarici ölkələrin müasir qanunvericiliyi həm operativ halı (tələbin əmələ gəlmə anını), həm də subyektiv halı (subyektin öz hüququnun pozulduğunu bilməsini) nəzərə alır. Kontinental hüquq sisteminə aid edilən ölkələrin qanunvericiliyinə görə, kreditorun tələbinin yarandığı andan ümumi iddia müddətinin axımı başlanır. ABŞ Vahid Ticarət Məcəlləsində (2-725-ci maddə) göstərilir ki,

---

[1] bax: *Толстой Ю.К.* Давность в Гражданском кодексе Российской Федерации // Правоведение. 1995. № 1; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 234.

[2] Qanunvericinin «bağlı» ifadəsi əvəzinə, «birləşdirilmiş» kəlməsi işlədir (384.0.4-cü maddə). Söhbət burada mülkiyyətçinin hüquqlarının sahiblikdən məhrum edilməklə bağlı olmayan pozuntulardan müdafiəsinə iddia müddətinin şamil edilməməsindən gedir.

[1] Bir çox xarici ölkələrin (məsələn, Almaniyanın, İsveçrənin və s.) qanunvericiliyində, habelə beynəlxalq ticarət dövriyyəsində iddia müddətinin başlanması anı subyektiv anla yox, obyektiv anla, yəni hüququn pozulduğu günlə müəyyən edilir.

[2] Hüquq doktrinasında göstərilir ki, subyektiv andan həm də prosessual mənada iddia hüququ əmələ gəlir. Bu fikir, əlbəttə, dəqiq söylənilməyib (bax: Гражданское право. Учебник. Том I / Под ред. *Е.А.Суханова*. М., 1998, с. 471).

alqı-satqı müqaviləsinin pozulduğu andan iddia müddəti hesablanır; zərərçəkən tərəfin pozuntu halını bilib-bilməməsinin məsələyə dəxli yoxdur[1].

Qanunun iddia müddətinin axımının başlanğıcını subyektiv anla əlaqələndirməsi **mülki hüquqların müdafiəsinə daha artıq təminat yaratmaq zərurəti ilə şərtlənir**. Bununla şəxsdən asılı olmayan səbəblərə görə iddia müddətinin ötməsi halının qarşısı alınır.

Öhdəlik hüquq münasibətlərində (öhdəliklərdə) iddia axımının başlanğıc anını təyin etmək haqqında qayda daha konkretdir. Bu qaydaya əsasən, icra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı **icra müddəti bitdikdə başlanır** (MM-ın 377-ci maddəsinin 2-ci bəndi). Məsələn, borc müqaviləsində borc alanın borcu sentyabr ayının 25-də qaytarması nəzərdə tutulur. O, həmin müddətdə borcu qaytarmır. Sentyabrın 26-dan iddia müddətinin axımı başlanır.

İcra müddəti müəyyənləşdirilməmiş və ya tələb etmək məqamı ilə müəyyənləşdirilmiş öhdəlik hüquq münasibətləri üçün isə başqa qayda tətbiq olunur. Bu qaydaya görə, iddia müddətinin axımı **kreditorun öhdəliyi icra etmək tələbini irəli sürmək hüququnun əmələ gəldiyi andan başlanır**. Əgər borcluya həmin tələbin icrası üçün yeddi günlük güzəştli müddət verilərsə (MM-ın 427-ci maddəsinin 4-cü bəndi), onda iddia müddəti göstərilən müddət bitdikdən sonra (kreditorun tələbi irəli sürməsinin səkkizinci günündə) hesablanmağa başlayır (MM-in 377-ci maddəsinin 3-cü bəndi). Məsələn, borc müqaviləsində borcun qaytarılması müddəti nəzərdə tutulmur. Sentyabr ayının 16-da borc verən borcun qaytarılmasını tələb edir. Borcluya borcun qaytarılması üçün yeddi günlük güzəştli müddət verilir. Sentyabrın 23-də güzəştli müddət bitir. Sentyabrın 24-dən iddia müddətinin axımı başlanır.

Reqres öhdəlik hüquq münasibətləri üzrə iddia müddəti axımının başlanğıcının müəyyən edilməsi barədə də qanun xüsusi qayda nəzərdə tutur (MM-in 377-ci maddəsinin 4-cü bəndi). Reqres öhdəlik hüquq münasibəti (reqres öhdəliyi) həmişə əsas öhdəlik adlı başqa öhdəliyin icrası əsasında yaranır. Özü də əsas öhdəlik üzrə borclu reqres öhdəlik üzrə kreditora çevrilir, üçüncü şəxs isə bu öhdəlikdə borclu şəxs qismində çıxış edir. Məsələn, müəssisənin sürücüsü öz əmək vəzifəsinin icrası zamanı nəqliyyat vasitəsini idarə edərkən vətəndaşın əmlakını zədələyərək, onu tam yararsız hala salır. Belə halda müəssisə ilə vətəndaş arasında zərər vurmaq nəticəsində öhdəlik hüquq münasibəti (delikt öhdəliyi) əmələ gəlir. Bu, əsas öhdəlikdir. Burada müəssisə borclu şəxs, vətəndaş isə kreditordur. Bu əsas öhdəliyə görə müəssisə vətəndaşın əmlakına vurulmuş zərərin əvəzini ödəyir, yəni əsas öhdəliyi icra edir. Bundan sonra müəssisə ödənilmiş əvəz miqdarında sürücüyə (üçüncü şəxsə) reqres (geriyə) tələb irəli sürür. Beləliklə, müəssisə ilə sürücü arasında reqres öhdəlik hüquq münasibəti (reqres öhdəliyi) yaranır. Bu öhdəliyə görə, sürücü müəssisəyə vətəndaşa ödənilmiş əvəz miqdarında pul ödəyir. Göründüyü kimi, reqres öhdəliyi əsas öhdəliyin icrası əsasında yaranır. Buna görə də mülki qanunvericilik həmin öhdəlik üzrə iddia müddəti axımının başlanmasını əsas öhdəliyin icrası ilə əlaqələndirir. Belə ki, **reqres öhdəliklər üzrə iddia müddətinin axımı əsas öhdəliyin icrası anından başlanır**. Məsələn, tutalım ki, əsas öhdəlik sentyabr ayının 5-də icra edilmişdir. Məhz sentyabrın 6-dan reqres öhdəlik üzrə iddia müddətinin axımı başlanacaq.

Adətən, mülkiyyət hüquq münasibətləri pozulduğu hallarda, hüququn pozulduğu günü təyin etmək çətinlik törətmir. Bununla belə, bəzən mülkiyyət hüququnu pozanın şəxsiyyəti məlum olmur. Məsələn, əmlakı hər hansı naməlum şəxs oğurlayır. Hüquq pozuntusu törədənin şəxsiyyəti məlum olmadığına görə məhkəməyə iddia vermək olmaz. Qanunvericiliyə görə, həmin şəxsin aşkar edilməsinə və müəyyənləşdirilməsinə sərf olunan vaxt isə iddia müddətinə hesablanır, onu, əlbəttə, qısaldır. Pozuntu törədən şəxs müəyyən edildikdə, əgər iddia müddəti ötmüş olsa belə, mülkiyyətçi məhkəməyə iddia verir. Göstərilən səbəbə görə iddia müddətinin ötürülməsi məhkəmə tərəfindən nəzərə alınır və pozulmuş hüquq müdafiə edilir.

Öhdəlik hüquq münasibətində şəxslərin dəyişməsi nə iddia müddətinə, nə də onun hesablanma qaydasına təsir göstərir. Belə ki, öhdəlikdə şəxslərin dəyişilməsi iddia müddətinin və onun hesablanması qaydasının dəyişilməsinə səbəb olmur (MM-in 378-ci maddəsi).

Öhdəlikdə şəxslərin dəyişməsi dedikdə, öhdəliyin özünün saxlanması şərti ilə kreditorun başqa kreditorla əvəz olunması (tələb hüququnun verilməsi, güzəşti) və ya borclu şəxsin başqası ilə əvəz olunması (borcun köçürülməsi) başa düşülür. Məsələn, vətəndaş öz qonşusundan borc pul alır (aprelin 15-də qaytarmaq şərti ilə). Fevral ayında o ölür. Borc hüquq münasibətində onun yerini vərəsəsi tutur. Vərəsə aprelin 15-də borcu qaytarmır. Aprelin 16-dan iddia müddətinin axımı başlanır, yəni öhdəlikdə borclunun dəyişməsi iddia müddətinin dəyişməsinə (qısaldılmasına və ya uzadılmasına) təsir göstərmir.

Almaniya mülki qanunvericiliyinə görə, iddia müddətinin axımının başlanması üçün tələb edilmir ki, şəxs iddia hüququnun əmələ gəlməsini bilsin[1]. Bu, o deməkdir ki, müvafiq hüquq pozulduğu andan (şəxsin öz hüququnun pozulduğunu bildiyi andan yox) iddia müddətinin axımı başlanır. Analoji göstərişi Yaponiya mülki hüququ da nəzərdə tutur[2].

2. İddia müddəti axımının dayandırılması

Vaxt fəlsəfi anlayışdır. O, materiyanın əsas mövcud olma formalarından biridir[3]. Vaxt obyektiv kateqoriyadır. Belə ki, o, obyektiv olaraq mövcuddur. Vaxtın mövcud olması bizim şüurumuzdan kənarda olub, ondan asılı deyildir. Buna görə də vaxt fasiləsiz xarakterə malikdir: onu ya dayandırmaq, ya kəsmək, ya da bərpa etmək olmaz.

Bununla bərabər, elə vaxt dövrləri vardır ki, onlar qanunda nəzərdə tutulan hallar mövcud olduqda, iddia müddətinə hesablana da bilər, hesablanmaya da. Söhbət iddia müddətinin axımına təsir göstərərək onu dayandıran, vaxtın-

[1] bax Гражданское и торговое право зарубежних государств. Учебник. Том 1/ Отв. ред. *Е.А. Васильев, А.С. Комаров*. М., 2004, с.301-302.

[1] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 412.

[2] *Сакаэ Вагацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 147.

[3] Краткий философский словарь / Под ред. *М.Розенталя, П.Юдина*. М., 1952, с. 67.

da iddia verilməsini çətinləşdirən hallardan gedir. Bu hallar iddia müddətinin fasiləsiz və arası kəsilməyən axımına təsir göstərir. Mülki qanunvericilik həmin halları nəzərə alır. Tərəflərin iradəsindən asılı olmayan göstərilən hallar obyektiv xarakter daşıyaraq, iddia müddəti axımının dayandırılmasına səbəb olur.

İddia müddəti axımının dayandırılması onu ifadə edir ki, iddia verilməsinə mane olan və qanunda nəzərdə tutulan obyektiv halın mövcud olduğu vaxt dövrü iddia müddətinə hesablanmır və həmin halın aradan qalxdığı gündən müddətin axımı davam edir. Pozulmuş hüququn vaxtında müdafiə edilməsinə əngəl olan həmin hallar **iddia müddəti axımının dayandırılmasının əsası** kimi çıxış edir.

Qarşısıalınmaz qüvvə iddia müddəti axımının dayandırılmasına səbəb olan əsaslardan biridir. Qarşısıalınmaz qüvvə dedikdə, fövqəladə və həmin şəraitdə qarşısı alına bilinməyən hal başa düşülür[1]. Həm dağıdıcı təbiət hadisələri və təbii fəlakət (məsələn, zəlzələ, qar uçqunu, yer sürüşməsi, daşqın və s.), həm nəqliyyatın, rabitənin, məhkəmənin və digər orqanların normal işini pozan ictimai hadisələr (kütləvi iğtişaşlar, tətil, vətəndaş müharibəsi, milli münaqişə, hərbi əməliyyatlar və s.), həm də öz xarakterinə görə müstəsna və qeyri-adi hallar (məsələn, epidemiya və s.) bu cür qüvvə rolunda çıxış edə bilər. Həmin hallar vaxtında iddia verilməsinə mane olur və onu qeyri-mümkün edir. Qarşısıalınmaz qüvvə bəzi xarici ölkə qanunvericiliyində və beynəlxalq kommersiya dövriyyəsində fors-major (fransızca «force majeure» — təbii hadisə)[2] anlayışı ilə əhatə edilir[3].

Qarşısıalınmaz qüvvə, əsasən, dağıdıcı xarakter daşıyır. O, iddianın əsaslandırılması üçün zəruri olan sənədlərin və digər materialların itirilməsinə səbəb ola bilər. Həmin sənəd və materialların bərpası üçün müəyyən vaxt dövrü lazımdır. Bütün bu dövr ərzində iddia müddətinin axımı dayandırılır.

İddiaçının və ya cavabdehin hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olması halı iddia müddəti axımının dayandırılmasına dəlalət edən əsaslardan biridir. Özü də dərhal qeyd etməliyik ki, əmin-amanlıq dövründə şəxsin ordu sıralarına hərbi xidmətə çağırılması iddia müddətinin dayandırılmasına səbəb ola bilməz. Ona görə ki, həqiqi hərbi xidmətdə olma şəxsi öz pozulmuş hüquqlarını şəxsən və ya nümayəndənin vasitəsilə müdafiə etmək imkanından məhrum etmir.

Hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olma onu ifadə etmir ki, hərbi vəziyyətə bütün silahlı qüvvələr keçirilməlidir. Burada söhbət yalnız iddiaçı və ya cavabdehin olduğu hərbi hissənin hərbi vəziyyətə keçirilməsindən gedir. Məsələn, «Dağlıq Qarabağ münaqişəsini» həll etmək üçün müvafiq hərbi hissə hərbi vəziyyətə keçirilir. İddiaçı və ya cavabdeh bizim ölkə xaricində sülhməramlı funksiya yerinə yetirən (məsələn, Əfqanıstanda antiterror əməliyyatlarında və s.) hərbi dəstənin tərkibində iştirak etdiyi hallarda da iddia

[1] Qarşısıalınmaz qüvvə anlayışının əsas cəhətləri və əlamətləri dərsliyin «Mülki-hüquqi məsuliyyət» adlı fəslində göstərilmişdir.

[2] bax: Словарь иностранных слов / Под ред. *А.Г.Спиркина*. М., 1985, с. 537.

[3] Beynəlxalq kommersiya təcrübəsində fors-major hesab edilən halların təxmini siyahısı verilmişdir: *Комаров А.С.* Ответственность в коммерческом обороте. М., 1991, с. 76-84.

müddətinin axımı dayandırılır.

Azərbaycan Respublikasında hərbi vəziyyətin tətbiq edilməsinin əsasları və qaydası müvafiq qanunla müəyyənləşdirilir[1]. Bu qanuna görə, hərbi vəziyyət prezidentin fərmanı ilə tətbiq edilir. Həmin fərman dərhal parlamentə təqdim olunur. Parlament 24 saat ərzində bu məsələyə dair qərar qəbul etməlidir.

İddia müddəti axımının dayandırılmasına səbəb olan əsaslardan biri **öhdəliklərin icrası üçün moratorium (möhlət) müəyyənləşdirilməsi** hesab edilir. Moratorium (latınca «moratorius» — yubadan, ləngidən) öhdəliklərin icrasının «dondurulmasını», təxirə salınmasını və yubadılmasını, ona möhlət verilməsini ifadə edir. O, müvafiq icra hakimiyyəti orqanı (AR Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Moratorium elan edilməsi müstəsna tədbirdir. O, nadir hallarda tətbiq olunur. Bu müstəsna tədbir növündən yalnız ölkədə yaranan müxtəlif obyektiv və fövqəladə hallarla bağlı olaraq istifadə edilir. Bu halların əmələ gəlməsinə isə hərbi vəziyyət, iqtisadi islahat, təbiət hadisələri, ictimai hadisələr, beynəlxalq vəziyyət, əlverişsiz iqlim şəraiti və digər amillər səbəb ola bilər. İnsan və ya heyvanların infeksiya xəstəliklərinə görə müəyyənləşdirilən karantin də moratorium elan edilməsinə əsas ola bilər. Məsələn, Böyük Vətən müharibəsi illərində işğaldan azad olunan rayonlarda yerləşən dövlət və kooperativ təşkilatlarının pul borclarının ödənilməsinə möhlət (moratorium) verilmişdi. Başqa bir misalda 80-90-cı illərdə əlverişsiz təbii iqlimə görə zərərə düşən kolxoz və sovxozlara onların SSRİ Dövlət Bankından aldıqları ssuda üzrə borcların qaytarılmasına on iki il müddətinə möhlət verilmişdi.

Moratoriumun iki növü fərqləndirilir: ümumi moratorium; qismən moratorium. **Ümumi moratorium** odur ki, o, ölkə üzrə bütün öhdəliklərə aid olur. **Qismən moratoriuma** gəldikdə isə o, yalnız öhdəliyin bu və ya digər növünə şamil edilir.

Moratoriumu qarşısıalınmaz qüvvələrdən fərqləndirmək lazımdır. Moratorium iddia verilməsinə hüquqi cəhətdən, qarşısıalınmaz qüvvə isə faktiki cəhətdən mane olur.

İddia müddətinin axımı **fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni təmsilçisi (nümayəndəsi) olmadığı halda da dayandırılır**. Söhbət on dörd yaşına kimi azyaşlılardan və mütləq qeyri-fəaliyyət qabiliyyətli şəxslərdən (ruhi xəstələrdən, ağlı zəif olanlardan) gedir[2]. Valideynlər azyaşlıların, qəyyumlar isə həmin şəxslərin qanuni nümayəndəsi (təmsilçisi) hesab edilirlər. Bu kateqoriya şəxslər tələb irəli sürərsə, iddia müddəti həmin şəxslər üçün qanuni nümayəndə təyin edilənədək dayandırılır. Nümayəndə təyin edilmədiyi hallarda isə, iddia müddəti həmin şəxslər tam fəaliyyət qabiliyyətli olanadək dayandırılmış sayılır.

Müvafiq münasibəti tənzimləyən qanunun və ya digər normativ hüquqi aktın qüvvəsinin dayandırılması iddia müddəti axımının dayandırılmasına

[1] bax: «Hərbi vəziyyət» haqqında 6 yanvar 1994-cü il tarixli qanun // AR QK, II cild, s. 112.

[2] İddia müddətinin dayandırılmasına səbəb olan bu əsas həm Almaniya MQ-də (§207), həm də Yaponiya MM-də (158-ci maddə) nəzərdə tutulmuşdur (*Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950; *Сакэ Ввгацума, Тору Ариидзуми.* Гражданское право Японии. Книга 1. М., 1983, с. 155).

səbəb olan əsaslardan biridir. Bu əsas bizim qanunvericilik üçün yenidir. Köhnə qanunvericilik bu cür əsas nəzərdə tutmamışdı.

Öz hüquqi təbiətinə görə həmin əsas moratoriuma oxşayır və ona yaxındır. Belə ki, göstərilən əsas moratorium kimi iddia irəli sürülməsi üçün hüquqi maneə və əngəl yaradır.

Normativ hüquqi aktın qüvvəsini yalnız buna səlahiyyəti çatan orqan dayandıra bilər. Burada söhbət normativ aktın qüvvəsinə xitam verilməsindən və onun ləğv edilməsindən getmir. Sadəcə olaraq, səlahiyyətli orqan özünün qərarı ilə normativ aktın qüvvəsini müəyyən müddətə, bir qayda olaraq, fövqəladə halın mövcud olması müddətinə qədər dayandırır. Madam ki, normativ aktın qüvvəsi dayandırılır, onda, təbii olaraq, bu akta istinad edən və əsaslanan tələb üçün də hüquqi əsas aradan qalxır.

Qanunda digər əsaslar da nəzərdə tutulur. Fiziki şəxslərin həyatına və ya sağlamlığına dəymiş zərərin əvəzinin ödənilməsi haqqında iddialar üzrə iddia müddəti axımının dayandırılması barədə mülki qanunvericilik xüsusi qayda müəyyən edir (MM-in 379-cu maddəsinin 2-ci bəndi). Bu qaydaya görə, həmin iddialar üzrə iddia müddətinin axımı pensiya və ya müavinət təyin edilənədək və ya təyin etməkdən imtina olunanadək dayandırılır[1].

Göstərilən bütün hallar (əsaslar) yalnız o halda dayandırıcı qüvvəyə malik olur ki, **həmin hallar iddia müddətinin son (axırıncı) altı ayı ərzində əmələ gəlsin və ya mövcud olmaqda davam etsin.** Əgər iddia müddəti altı aya bərabər və ya altı aydan az olarsa, onlar iddia müddəti ərzində əmələ gəlsin və ya mövcud olmaqda davam etsin.

Müddətin dayandırılmasına səbəb olan hal aradan qalxdığı və sona çatdığı gündən iddia müddətinin axımı davam edir. Özü də müddətin qalan hissəsi altı aya kimi uzadılır. Məsələn, konkret müqavilə tələbi üzrə üç illik iddia müddəti 15 yanvar 2001-ci ildən başlayır. Bu müddət 15 yanvar 2004-cü ildə bitir. Lakin 15 may 2003-cü ildə qarşısıalınmaz qüvvə (fövqəladə hal) yaranır və 15 oktyabr 2003-cü ilə kimi davam edir. Beləliklə, iddia müddəti 15 aprel 2004-cü ilə kimi, yəni altı ay uzadılır.

Əgər iddia müddəti altı aya bərabər və ya altı aydan az olduqda, dayandırıcı halın qüvvəsinə xitam verildikdən sonra iddia müddətinin qalan hissəsi iddia müddətinə qədər uzadılır. Məsələn, iki aylıq iddia müddəti fövqəladə hadisə nəticəsində dayandırılır. Bir ay on gündən sonra, yəni iddia müddətinin başa çatmasına iyirmi gün qalmış həmin hal aradan qalxır və sona çatır. Belə halda maraqlı tərəf iddia vermək üçün iki aylıq iddia müddəti tətbiq edə bilər. Bu müddət dayandırıcı halın qüvvəsi ləğv olunduğu vaxtdan hesablanır, yəni iddia müddətinin qalan hissəsi (20 gün) iddia müddətinə kimi (iki aya kimi) uzadılır.

Mülki qanunvericilik iddia müddətinin dayandırılmasına əsas olan digər hallar da nəzərdə tutur. **Nikahın mövcud olması** bu cür hallardan biridir[1]. Belə ki, nikahın mövcud olduğu dövrdə ərlə arvad arasındakı tələblər üzrə iddia müddətinin axımı dayandırılır (MM-in 379-cu maddəsinin 5-ci bəndi). **Uşaqlar on səkkiz yaşına çatanadək** onlarla valideynlər arasındakı tələblər üzrə də iddia müddətinin axımı dayandırılır. **Qəyyumluq (himayəçilik) dövrü** də qəyyumlarla (himayəçilərlə) qəyyumluqda (himayəçilikdə) olanlar arasındakı tələblər üzrə iddia müddəti axımının dayandırılmasına əsas olan hallardan biridir.

Cinayət işində irəli sürülmüş iddianın baxılmamış saxlanması iddia müddəti axımının dayandırılmasına səbəb olan əsaslardandır (MM-in 381-ci maddəsi). Bu, mahiyyətcə mübahisə üzrə qərar çıxarılmadan məhkəmə araşdırmasının bitməsinin xüsusi formasıdır. İddianın məhkəmə tərəfindən baxılmamış saxlanması müxtəlif hallarla şərtlənə bilər. Bu cür hallara misal olaraq göstərmək olar: iddiaçının məhkəmə iclasına gəlməməsi, bir şərtlə ki, iddiaçı işə onun iştirakı olmadan baxılması barədə ərizə verməsin; həmin işin (mübahisənin) başqa məhkəmənin icraatında olması; mübahisəyə baxılmasının nəzərdə tutulan qaydasına iddiaçının əməl etməməsi və s.

Cinayət işində irəli sürülmüş iddianı məhkəmə baxılmamış saxladıqda, iddia müddətinin axımı **məhkəmə hökmü qanuni qüvvəyə minəndək dayandırılır.** Bu zaman müddətin dayandırıldığı vaxt iddia müddətinə hesablanmır və daxil edilmir. Əgər göstərilən halda müddətin qalan hissəsi altı aydan az olduqda, altı aya qədər uzadılır.

3. İddia müddəti axımının kəsilməsi

İddia müddəti ərzində hüquqi əhəmiyyətə malik olan müxtəlif hərəkətlər edilə bilər. Bu hərəkətlər müxtəlif xarakterli hüquqi nəticənin yaranmasına səbəb olur. İddia müddəti axımının kəsilməsi bu hüquqi nəticələrdən biridir.

İddia müddəti axımının kəsilməsi onu ifadə edir ki, qanunda nəzərdə tutulan əsaslar mövcud olduqda iddia müddətinin axımına xitam verilir, son qoyulur və həmin əsaslar aradan qalxdıqda, iddia müddətinin axımı yenidən başlanır, təzələnir. Bu halda iddia müddətinin axımının yenidən başlanması ilə iddia müddəti tam həcmdə bərpa edilir. Bu cəhəti ilə iddia müddəti axımının kəsilməsi iddia müddəti axımının dayandırılmasından fərqlənir. Belə ki, iddia müddəti axımının dayandırılmasından fərqli olaraq, iddia müddəti axımının kəsilməsinə kimi ötmüş müddət, yeni iddia müddətinə daxil edilmir. Başqa sözlə, **iddia müddəti axımının kəsilməsinə səbəb olan halın (əsasın) yaranmasına kimi ötmüş müddət yeni iddia müddətinə hesablanmır.** Həmin əsas aradan qalxdıqda və sona yetdikdə iddia müddəti yenidən başlayır. Məsələn, fərz edək ki, hər hansı hüquq münasibəti üzrə iddia müddəti qanunla üç il müəyyən edilmişdir. Səlahiyyətli şəxs 2004-cü ilin oktyabr ayının 1-də öz hüqu-

[1] Bu, MM-in 384-cü maddəsində ifadə edilən belə bir göstərişə ziddir ki, fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir.

[1] İddia müddətinin dayandırılmasına səbəb olan bu cür əsası Almaniya Mülki Qanunnaməsinin 204-cü paraqrafı da nəzərdə tutur (Германское право. Гражданское уложение. Часть 1. М., 1996; *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 420). Bizim ölkə qanunvericiliyi göstərilən əsası olduğu kimi həmin paraqrafdan iqtibas etmişdir. Yaponiya MM-də isə iddia müddətinin dayandırılmasının həmin əsası müəyyən dəyişikliklə nəzərdə tutulur (159-cu maddə).

qunun pozulmasını bilir. Bu gündən iddia müddətinin axımı başlayır. Düz bir il keçəndən sonra, yəni 2005-ci ilin oktyabr ayının 1-də iddia müddəti axımının kəsilməsinə əsas olan hal baş verir. Bu hal iki aydan sonra aradan qalxır. Üç illik iddia müddəti yenidən başlayır. 2005-ci ilin oktyabr ayının 1-nə kimi ötmüş bir illik müddət yeni 3 illik iddia müddətinə daxil edilmir və hesablanmır, yəni nəzərə alınmır.

Bundan əlavə, iddia müddətinin axımı digər ikinci cəhəti ilə iddia müddəti axımının dayandırılmasından fərqlənir. Belə ki, dayandırma uzanan və davam edən vəziyyət kimi xarakterizə olunur. **İddia müddəti axımının kəsilməsi isə birdəfəlik iradəvi hərəkətlərdə ifadə olunur**[1]. Bu hərəkətlər iddia müddəti axımının kəsilməsinin əsası olub, spesifik xarakterə malikdir. Mülki qanunvericilik həmin hərəkətlərə aid edir (MM-in 380-ci maddəsinin 1-ci bəndi):

- müəyyənləşdirilmiş qaydada iddia irəli sürülməsini;
- borclu şəxsin borcu etiraf etməsini göstərən hərəkətlər etməsini.

İddianın irəli sürülməsi və ya iddianın verilməsi məhkəməyə yazılı formada iddia ərizəsi verilməsi ilə rəsmiləşdirilir. Yalnız mülki-prosessual qanunvericiliyin tələblərinə uyğun verilən iddia, iddia müddəti axımının kəsilməsi üçün əsas ola bilər. İddia, xüsusən, məhkəmə aidiyyəti, mübahisənin qabaqcadan məhkəmədənkənar yolla pretenziya vasitəsilə həll edilməsi, prosessual müddətlər və s. məsələlər barəsində qaydalara əməl olunmaqla verilməlidir. İrəli sürülmüş iddia, bir qayda olaraq, iddianın təmin olunması və ya iddiadan imtina olunması barədə qərar çıxarılmaqla qurtarır. İş üzrə məhkəmə icraatı zamanı iddia müddətinin axımı barədə məsələ diqqətdən yayınır, ortaya çıxmır. Çünki belə halda o, praktiki əhəmiyyətə və mənaya malik olmur.

İcraata qəbul edilmiş iş, bəzən qərar çıxarılması və mübahisənin həll edilməsi ilə qurtarmır. Belə ki, qanunda nəzərdə tutulan hallarda məhkəmə tərəfindən qəbul edilən iddia baxılmamış saxlanılır. Bu hallar MPM-in 259-cu maddəsində göstərilmişdir. **İddianın baxılmamış saxlanması** məhkəmə qərardadı ilə rəsmiləşdirilir. Belə hallarda iddia müddətinin axımı kəsilmir və onun axımı ümumi qaydada davam edir (MM-in 381-ci maddəsinin 1-ci bəndi). Belə ki, yaranan müvafiq mübahisə hələ məhkəmə tədqiqatının predmeti olmamışdır. Çünki işə mahiyyətcə baxılmasına mane olan hallar aşkar edilir (məsələn, lazım olan sənədlər çatışmır və s.). Göstərilən maneələr aradan qaldırıldıqdan sonra iddiaçı həmin iddianı ümumi qaydada verə bilər.

Məhkəmədə başlanmış iş üzrə icraat dayandırla bilər. **İcraatın dayandırılmasına səbəb olan hallar** mülki-prosessual qanunvericiliklə müəyyən edilir (MPM-in 254-cü maddəsi). Bu hallardan biri olduqda, məhkəmə iş üzrə icraatı

[1] Almaniya Mülki Qanunnaməsi iddia müddətinin axımının kəsilməsinin iki əsasını tanıyır: iddia verilməsini (§ 209, 1-ci bənd) və ya səlahiyyətli şəxsin iddianın verilməsinə bərabər tutulan hərəkətləri (§ 209, 2-ci bənd. Belə hərəkətlərə aiddir: xəbərdarlıq üçün ödəniş barədə əmri borcluya vermək; işin barışıqla qurtarması barədə ərizə vermək; müsabiqə idarəsinə ərizə vermək və s.); iddianın borclu şəxs tərəfindən etiraf edilməsi (§ 208). İddia müddətinin axımının kəsilməsinin əsaslarını Yaponiya MM-i də nəzərdə tutur: səlahiyyətli şəxsin özünün hüquqlarını təsdiq edən tələb irəli sürməsi (147-ci maddənin 1-ci bəndi); məhkəmə qaydasında iddia formasında tələb vermək (149-cu maddə); ödəniş barədə əmr vermək (150-ci maddə); barışıq sazişi üçün müraciət etmək (150-ci maddə); borcunun müflis elan edilməsi prosedurunda iştirak etmək (152-ci maddə); şəxsi tələb (153-cü maddə).

dayandırmalıdır. Bu, onun vəzifəsidir. Məsələn, tərəf (iddiaçı və ya cavabdeh) fəaliyyət qabiliyyətini itirərsə və ya onlardan biri silahlı qüvvələrin hərbi əməliyyatlarında olarsa və s. iş üzrə icraat dayandırılır. İş üzrə icraat hakimin təşəbbüsü ilə də dayandırıla bilər. Bu, məhkəmənin vəzifəsi yox, hüququdur. Tərəf hərbi xidmətdə və ya uzunmüddətli qulluq ezamiyyətində olduqda, məhkəmə həmin hüquqdan istifadə edə bilər. Bu hallarda iş üzrə icraatın dayandırılması iddia müddəti axımının kəsilməsinə təsir göstərmir. Çünki bu axım artıq iddianın verilməsi anından kəsilmişdir. İş üzə icraatın dayandırıldığı andan iddia müddətinin axımı yenidən başlayır.

Borclu şəxsin borcu etiraf etməsi iddia müddəti axımının kəsilməsinə dəlalət edən ikinci əsasdır. Köhnə qanunvericiliyə görə, bu cür əsas yalnız tərəflərdən biri və ya hər ikisi vətəndaş olan mübahisələr üzrə iddia müddəti axımının kəsilməsinə səbəb ola bilərdi (1964-cü il MM-nin 81-ci maddəsi). Mövcud qanunvericilik isə bu cür məhdudiyyət nəzərdə tutmur. Belə ki, həm borclu fiziki şəxsin, həm də borclu hüquqi şəxsin borcu etiraf etməsi iddia müddəti axımının kəsilməsi üçün əsasdır. Vacib və əsas odur ki, borclu şəxs borcu etiraf etməsini göstərən və təsdiqləyən hərəkətlər etsin. Burada borclunun şəxsiyyəti əhəmiyyət kəsb etmir.

Borclu şəxsin borcu etiraf etməsini göstərən və təsdiqləyən hərəkətləri müxtəlif formalarda ifadə oluna bilər. Bu formalara misal olaraq göstərmək olar: kreditor qarşısında borclu şəxsin bilavasitə, sözün əsl mənasında, borcu etiraf etməsi; başqa şəxs qarşısında borclu şəxsin borcu etiraf etməsi, bir şərtlə ki, bu kreditora məlum olsun; borcun qismən ödənilməsi; əsas borc üzrə faizin köçürülməsi; kreditora borcun etirafını nəzərdə tutan məktub, teleqram və digər yazılı sübutlar göndərmək; borcun ödənilməsi (öhdəliyin icrası) üçün möhlət verilməsi barədə kreditora müraciət etmək; borcun hissə-hissə ödənilməsi (öhdəliyinin hissə-hissə icra edilməsi) barədə kreditora xahiş etmək; qarşılıqlı tələblərin əvəzləşdirilməsi barədə kreditora təklif vermək və s. Özü də borcun əsasını və məbləğini dəqiq olaraq hökmən göstərmək lazım deyil və bu, tələb olunmur. **Kifayətdir ki, borc aydın şəkildə ifadə edilsin**. Bütün bu halların hamısında iddia müddətinin axımı hər dəfə borclu tərəfindən göstərilən hərəkətlərin edildiyi andan yenidən başlayır, təzələnir.

Borclu şəxsin borcu etiraf etməsini göstərən və təsdiqləyən hərəkətləri iddia müddətinin ötməsinə kimi edilməlidir. Əgər iddia müddəti ötərsə, onda borcun etirafı iddia müddəti axımının kəsilməsinə səbəb olmur. Bu, yalnız borclunun könüllü surətdə öhdəliyi icra etmək niyyətini bildirir. Axı, ötmüş iddia müddətinin axımı necə kəsilə bilər?

İddia müddəti axımını kəsən əsaslar qəti və dəqiq xarakterə malikdir. Ona görə də başqa hər hansı bir hal iddia müddəti axımının kəsilməsinə səbəb olan əsas kimi çıxış edə bilməz.

4. İddia müddəti axımının bərpa edilməsi

Bəzən müxtəlif üzrlü səbəblərə görə fiziki şəxs iddia müddətini ötürür. Bu cür hallarda onun pozulmuş hüquqlarının müdafiəsi mümkündürmü? Axı, iddia müddətinin ötməsi məhkəməyə əsas verir ki, o, iddiadan imtina barədə qərar çıxarsın. Mülki qanunvericilik bu suala cavab verərək göstərir ki, müəyyən

şərtlər (tələblər) əsasında iddia müddəti ötürüldüyü hallarda da pozulu... subyektiv hüquq müdafiə edilə bilər, yəni iddia təmin oluna bilər. Belə ha... müdafiə iddia müddətinin bərpası kimi tədbirin vasitəsilə həyata keçirilir. Bu... nunun nəzərdə tutduğu müstəsna xarakterli tədbirdir (MM-in 382-ci maddə...

İddia müddətinin bərpası dedikdə, məhkəmənin elə bir hərəkəti başa... şulur ki, bu hərəkət nəticəsində iddia müddətinin ötürülməsi səbəbi üzrlü... lır və fiziki şəxsin pozulmuş hüququ müdafiə edilir. Belə halda mübahi... baxan məhkəmə ötürülmüş iddia müddətini bərpa edir. İddia müddətini b... etmək, əgər bunun üçün zəruri şərtlər mövcud olarsa, məhkəmənin vəzi... dir. Belə ki, mülki qanunvericilikdə məhkəmənin ötürülmüş iddia müddətini bərpa edib, pozulmuş hüququ müdafiə etməyə borclu olması barədə birbaşa konkret göstəriş nəzərdə tutulmuşdur (MM-in 382-ci maddəsi). Özü də məhkəmənin vəzifəsidir ki, müddətin bərpa edilməsi haqqında normaları həm ümumi, həm də xüsusi iddia müddətlərinə tətbiq etsin.

Lakin məhkəmə yalnız müəyyən şərtlər (tələblər) əsasında ötürülmüş iddia müddətini bərpa edə bilər. Bu şərtlərə əməl edilməməsi iddia müddətinin bərpası kimi müstəsna xarakterli tədbirin hüquqi əhəmiyyətinin olmamasına dəlalət edir.

Birincisi, **iddia müddəti yalnız məhkəmə tərəfindən üzrlü sayılan səbəblərə görə buraxıldıqda bərpa edilə bilər**. Üzrlü səbəblər dedikdə, obyektiv xarakter daşıyan, yəni şəxsin iradəsindən asılı olmayaraq yaranan elə hallar başa düşülür ki, bu hallar vaxtında iddia verilməsinə mane olur. Mülki qanunvericilik həmin halların dəqiq və qəti yox, təxmini siyahısını verir. Özü də o, **göstərilən halları iddiaçının şəxsiyyəti ilə** bağlayır. Həmin hallara aiddir: iddiaçının ağır xəstələnməsi; iddiaçının köməksiz vəziyyətə düşməsi; iddiaçının savadsızlığı və s. Məhkəmə praktikası uzunmüddətli ezamiyyəti, cavabdehin yaşadığı ünvanın məlum olmamasını da üzrlü səbəblər hesab edir[2]. **Cavabdehin şəxsiyyəti ilə bağlı olan hallar iddia müddətinin bərpasına səbəb olan əsaslar kimi nəzərə alınmır**.

Bəzən iddia müddətinin ötürülməsində maraqlı şəxsin özü təqsirli bilinir. Belə ki, o, biganəliyi, səhlənkarlığı və diqqətsizliyi üzündən vaxtında iddia vermir və bununla iddia müddətini ötürür. Bu cür hallar, təbii ki, obyektiv xarakter daşımayan əsaslar olduğu üçün iddia müddətinin bərpa edilməsinə səbəb ola bilməz və onlar məhkəmə tərəfindən iddiadan imtina barədə qərar çıxarılmasına gətirib çıxarır.

İkincisi, iddia **müddəti yalnız o halda bərpa edilə bilər ki, pozulmuş mülki hüquqlar fiziki şəxsə məxsus olsun**. Başqa sözlə desək, iddiaçı rolunda yalnız fiziki şəxs çıxış etdiyi halda ötürülmüş iddia müddəti bərpa edilə bilər. Əgər iddia müddətini hüquqi şəxslər ötürərsə, onda ötürmənin üzrlü səbəblərlə bağlılığından asılı olmayaraq, iddia müddəti bərpa edilmir. Fərdi sahibkarların, yəni sahibkar statuslu fiziki şəxslərin (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin) ötürdükləri iddia müddətinin bərpa edilməsinə gəldikdə isə qeyd etməliyik ki, hüquq ədəbiyyatı səhifələrin...

[1] Belə tədbirin nəzərdə tutulmasına nə Almaniya, nə də Yaponiya qanunvericiliyində rast gəlirik. Bu ölkələrin qanunvericiliyi iddia müddətinin bərpası anlayışını tanımır.

[2] Советское гражданское право. Учебник / Ответст. ред. *О.Н.Садиков*. М., 1983, с. 98.

...bu məsələyə birmənalı münasibət bəslənilmir. Bir qrup müəlliflər göstərirlər ki, məhkəmə fərdi sahibkarların hüquqlarını müdafiə etmək üçün iddia müddətini bərpa etməyə haqlıdır[1]. Digər qrup müəlliflər belə hesab edirlər ki, fərdi sahibkarların iddia müddətinin bərpası barədə xahişi təmin oluna bilməz[2]. Üçüncü qrup müəlliflərin fikrincə isə fərdi sahibkarların ötürdükləri iddia müddəti onların həyata keçirdikləri sahibkarlıq fəaliyyətindən irəli gələn tələblə bağlı olarsa, onda ötürmənin səbəblərindən asılı olmayaraq, iddia müddəti bərpa edilmir[3]. Məhkəmə praktikası da məhz bu cür mövqedə dayanır[4].

Zənn edirik ki, axırıncı qrup alimlərin fikirləri həqiqətə daha uyğundur. Bu fikirdən belə çıxır ki, əgər fərdi sahibkarların irəli sürdükləri tələblər qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı olarsa, onda bu cür tələblər üzrə iddia müddəti bərpa edilə bilər. Yeri gəlmişkən qeyd edək ki, 1964-cü il Mülki Məcəlləsi bu cür məhdudiyyət nəzərdə tutmamışdı. Belə ki, həmin Məcəllə həm fiziki şəxslərin, həm də hüquqi şəxslərin hüquqları pozulduğu hallarda iddia müddətinin bərpa edilməsinə yol verirdi.

Üçüncüsü, ötürülmüş iddia müddəti yalnız o halda bərpa edilə bilər ki, **fiziki şəxsin iddia verməsinə mane olan üzrlü səbəblər iddia müddətinin son altı ayında, iddia müddəti altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində (yəni 6 ay ərzində) baş vermiş olsun**. Məsələn, iddiaçı üç illik iddia müddəti keçdikdən sonra xəstələnir. Ötürülmüş iddia müddəti belə halda bərpa, iddia tələbi isə təmin edilə bilməz.

İddia müddətinin ötürülməsinə əsas olan halın üzrlü səbəb olub-olmaması məsələsini məhkəmə həll edir. Məhkəmə bu məsələnin həll edilməsini iddia tələbinə baxılması ilə eyni vaxtda həyata keçirir. İddia müddəti bərpa olunduğu hallarda, məhkəmə öz qərarında onun ötürülmə səbəblərini və bərpa edilmə əsaslarını göstərməlidir[5]. İddia müddətini bərpa etdikdən sonra məhkəmə, cavabdehin iddiaçının iddia müddətini ötürməsi barədə bildiriş verməsinə baxmayaraq, iddia tələbinə (mülki-hüquqi mübahisəyə) baxır. Əgər cavabdeh iddia müddətinin tətbiqi barədə bildiriş verməsə, məhkəmə onda iddia müddətini tətbiq etməyə haqlı deyildir.

İddia müddətinin bərpası anlayışını iddia müddəti axımının dayandırılması və kəsilməsi kimi iki anlayışdan fərqləndirmək lazımdır. İddia müddəti axımının dayandırılması və kəsilməsi əsasları qanunda dəqiq olaraq göstərilir. İddia müddətinin bərpa edilməsi əsaslarının isə qanunda təxmini siyahısı verilir. Özü də bu əsasların üzrlü olması məhkəmə tərəfindən hər bir konkret hal nə-

[1] bax: Комментарий части первой Гражданского кодекса Российской Федерации. М., 1996, с. 267.

[2] bax: Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 309; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Калпина, А.И.Маслаева*. М., 1997, с. 213.

[3] bax: Комментарий к Гражданскому кодексу Российской Федерации. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1999, с. 410; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 230.

[4] bax: ч.2. п.12 постановления Пленумов ВС РФ и ВАС РФ от 28 февраля 1995 г. № 2/1. «О некоторых вопросах, связанных с введением в действие части первой Гражданского кодекса Российской Федерации» (Бюлленетъ ВС РФ. 1995. № 5).

[5] Бюллетень Верховного Суда РСФСР. 1981. № 5, с. 7.

zərə alınmaqla həll edilir.

5. İddia müddətinin ötürülməsinin nəticələri

İddia müddətinin ötməsi müəyyən hüquqi nəticələrə səbəb olur. Bu nəticələr üç cürdür.

İddia müddətinin ötürülməsinin **birinci hüquqi nəticəsi** ondan ibarətdir ki, o, maraqlı şəxsi (iddiaçını) öz **pozulmuş hüququnu məcburi qaydada məhkəmənin köməyi ilə bərpa etmək imkanından** məhrum edir. Belə ki, iddia müddətinin ötməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarmasına səbəb olur. Bununla maraqlı şəxs (iddiaçı) öz hüquq və mənafeyini müdafiə etmək üçün borcluya məcburetmə tədbirinin tətbiq olunmasını tələb etmək imkanını tamamilə itirir[1]. Bu isə o deməkdir ki, iddia müddətinin ötməsi maraqlı şəxsi maddi mənada iddia hüququndan məhrum edir, **bu hüququn itirilməsinə səbəb olur**. Başqa sözlə desək, əgər işə (mülki-hüquqi mübahisəyə), yəni iddia tələbinə baxarkən məhkəmə iddia müddətinin ötürülməsini müəyyənləşdirərsə, onda o, iddiadan imtina barəsində qərar çıxarır. Məsələn, borc müqaviləsinə görə, vətəndaş öz qonşusuna bir aylıq müddətə iki min manat məbləğində borc verir. Qonşu bir ay keçdikdən sonra borcu qaytarmır. O, vətəndaşın borcun qaytarılması barəsində tələblərinə əhəmiyyət vermir. Bu minvalla dörd il keçir. Vətəndaş iddia tələbi ilə məhkəməyə müraciət edir. Məhkəmə bu tələbə baxaraq müəyyən edir ki, vətəndaş müqavilə tələbləri üzrə qanunun nəzərdə tutduğu üç illik iddia müddətini üzrlü səbəblər olmadan ötürmüşdür. Buna görə də o, iddiadan imtina barədə qərar qəbul edir. Beləliklə, borc verən vətəndaş borcun alınmasını məcburi qaydada məhkəmənin köməyi ilə almaq imkanını (maddi mənada iddia hüququnu) itirir. Lakin iddia müddətinin ötürülməsi prosessual mənada iddia hüququnun itirilməsinə səbəb olmur. Çünki bu hüquqa iddia müddəti şamil edilmir.

İddia müddətinin ötürülməsi məhkəmə müdafiəsinin predmeti olan subyektiv mülki hüququn ləğv edilməsinə və xitam olunmasına səbəb olurmu? Bu, hüquq ədəbiyyatı sahiflərində geniş diskussiya doğuran məsələdir. Sivilistika doktrinasında (mülki hüquq elmində) həmin məsələyə cavab vermək üçün iki əsas konsepsiya irəli sürülmüşdür.

Birinci konsepsiya tərəfdarlarının mövqeyinə görə, iddia müddətinin ötməsi subyektiv hüququn özünün ləğv edilməsinə səbəb olur. Belə ki, bu hüququ məcburi qaydada həyata keçirmək qeyri-mümkündür[2].

[1] Almaniya Mülki Qanunnaməsinin 222-ci paraqrafında göstərilir: iddia müddətinin ötməsinə görə borclu şəxsin hüququ var ki, icradan imtina etsin (Германское право. Гражданское уложение. Часть 1. М., 1996).

[2] *Агарков М.М.* Обязательство по советскому гражданскому праву. М., 1940, с. 56; *Толстой Ю.К.* Содержание и гражданско-правовая защита собственности в СССР. Л., 1955, с. 159; *Гурвич М.А.* Пресекательные сроки в советском гражданском праве. М., 1961, с. 15, Гражданское право. Учебник. Том 1 / Под ред. *С.М.Корнеева, П.Е.Орловского*. М., 1969, с. 253; *Корнеев С.М.* Право государственной собственности. М., 1964, с. 75; *Иоффе О.С.* Советское гражданское право. М., 1967, с. 352; *Грибанов В.П.* Пределы осуществления и защиты гражданских прав. М., 1972, с. 252; *Ринг М.П.* Действия исковой давности // Советское государство и право. 1978. № 13, с. 5; Советское гражданское право. Учебник. Часть 1 / Под ред. *В.Т.Смирнова, Ю.К.Толстого, А.К.Юрченко*. Л., 1982, с. 207.

İkinci konsepsiya tərəfdarları belə hesab edirlər ki, iddia müddətinin ötürülməsi subyektiv mülki hüququn itirilməsinə səbəb olmur, bu hüquq mövcud olmaqda davam edir. Maraqlı şəxs borclu şəxsə belə halda məcburiyyət tədbiri tətbiq olunması imkanından məhrum olur[1].

Bizim fikrimizcə, ikinci konsepsiya tərəfdarlarının mövqeyi həqiqətə daha yaxındır. Məhkəmə praktikası da bu mövqedə dayanır[2]. Müasir müəlliflərin hamısı, istisnasız olaraq, həmin konsepsiyanı dəstəkləyirlər[3].

Doğrudan da, iddia müddətinin ötürülməsi iddia hüququnu itirən maraqlı şəxsə imkan vermir ki, o, öz pozulmuş subyektiv mülki hüququnu məcburi qaydada müdafiə etmək üçün məhkəmənin köməyindən istifadə etsin. **Subyektiv mülki hüquq ləğv edilmir, o mövcud olmaqda davam edir, lakin bu hüquq məhkəmə müdafiəsindən, iddia müdafiəsindən, bir sözlə, məcburi qaydada müdafiə olunmaqdan məhrum olur**. Məcburi qaydada həyata keçirilmək xüsusiyyətini itirən subyektiv mülki hüququn özü saxlanılır. Roma hüququnda bu cür hüquq mahiyyətcə «ius nudum» anlayışı ilə əhatə olunmuşdu. «Ius nudum» iddia müdafiəsindən, məcburi müdafiədən məhrum olan hüquq idi.

Subyektiv mülki hüququn saxlanılmasını, mövcud olmaqda davam etməsini və ləğv olunmamasını bir neçə əsasla təsdiqləmək olar. Birinci əsasa görə, məhkəmənin hüququ var ki, o, iddia müddəti üzrlü səbəblərə görə ötürüldüyü hallarda həmin müddəti bərpa və iddianı təmin etsin. Bununla məhkəmə pozulmuş subyektiv hüququ bərpa edir. Əgər həmin hüquq ləğv edilmiş olsaydı, bəs onu necə bərpa etmək olardı?

İkinci əsasa görə, iddia müddəti ötdükdən sonra borclu (cavabdeh) öz vəzifəsini könüllü surətdə icra edə bilər. Almaniya mülki hüquq ədəbiyyatında belə bir etika qaydası göstərilir: «Vicdanlı insan müddətin ötməsinə istinad

[1] bax: *Новицкий И.Б.* Сделки. Исковая давность. М., 1954, с. 223; *Черепахин Б.Б.* Спорные вопросы понятия и действия исковой давности // Советское государство и право. 1957. № 7, с. 64; *Кириллова М.Я.* Исковая давность. М., 1966, с. 24-26; *Лапиров-Скобло М.Я.* Исковая давност по имущественным спорам между хозяйственными организациями. М., 1961; *Гойворинский В.Н.* Советское гражданское право. Киев. 1977, с. 230; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.С.Иоффе* и др. Л., 1971, с. 221-222; *Тархов В.А.* Советское гражданское право. Саратов. 1978, с. 101; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *О.А.Красавчикова*. М., 1985, с. 289; Советское гражданское право. Учебник. Том 1 / Под ред. *Ю.Х.Калмыкова*. М., 1991, с. 211.

[2] bax: n. 12 postanavlenia Plenumov Verxovnoqo Suda RF i Vysşego Abitrajnoqo Suda ot 28 fevralya 1995 q. № 2/1 «O nekotoryx voprosax, svyazannyx s vvedeniem v deystvie qasti pervoy Qrajdanskoqo kodeksa Rossiyskoy Federacii» (Byulleten VS RF, 1995. № 5).

[3] Комментарий к Гражданскому кодексу Российской Федерации. М., 1995, с. 250; Комментарий части первой Гражданского кодекса Российской Федерации для предпринимателей. М., 1995, с. 221; Гражданское право России. Курс лекций. Часть 1 / Под ред. *О.Н.Садикова*. М., 1996, с. 167; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.Г.Каплина, А.И.Маслеева*. М., 1997, с. 206; Гражданское право. Учебник. Часть 1 / Под ред. *А.П.Сергеева, Ю.К.Толстого*. М., 1998, с. 320; Гражданское право. Учебник. Том 1 /Под ред. *Е.А.Суханова*. М., 1998, с. 474; Гражданское право. Учебник. Часть 1 / Под ред. *З.И.Цыбуленко*. М., 1998, с. 255; Гражданское право. Учебник. Часть 1 / Под ред. *Т.И.Илларионовой, Б.М.Гонгало, В.А.Плетневой*. М., 1998, с. 265.

edə bilməz»[1]. Digər tərəfdən, iddia müddətinin ötməsindən sonra öz vəzifəsini icra etmək borclunun könüllü işidir. Bu işi yerinə yetirərək, o, müvafiq vəzifəni icra edə bilər. Bununla iddiaçının pozulmuş subyektiv hüququ bərpa olunur. Bu, onu sübut edir ki, həmin hüquq ləğv edilməmişdir. L.Ennekserus haqlı olaraq yazır ki, iddia müddəti ötdükdən sonra **natural öhdəlik** yaranır və Almaniya Mülki Qanunnaməsi məsələni bu cür həll edir[2]. Bu öhdəlik Roma hüququna məlum idi. İddia müdafiəsindən məhrum olan natural öhdə (obligatio naturalis) üzrə icra edilmişi geri tələb etmək olmaz[3]. Bizim ölkə qa nunvericiliyinə görə də natural öhdəlik yaranır: əgər borclu şəxs bilsə ki, iddi müddəti ötmüşdür, icra etdiyini geri tələb edə bilməz (MM-in 383-cü madd si). Məsələn, vətəndaş aldığı borc pulu öz qonşusuna qaytarır. Bundan sonra vətəndaşa məlum olur ki, o, pulu iddia müddəti ötdükdən sonra qaytarmışdır. Vətəndaş verdiyi pulu qonşudan geri tələb etməyə haqlı deyildir.

İddia müddətinin ötürülməsinin **ikinci hüquqi nəticəsi iddiaçının cavabdehdə (borclu şəxsdə) qalan əmlakının hüquqi taleyi ilə bağlıdır**. Bu əmlak əşyadan və (və ya) puldan ibarət ola bilər.

Əgər mübahisənin predmeti daşınmaz əmlak olduqda, həmin əmlak «kitab müddəti» (bəzi Avropa ölkələrinin mülki hüquq elmində «kitab müddəti» mülkiyyət hüququnun əldə edilmə üsullarından biridir) haqqında qayda əsasında borclu fiziki və ya hüquqi şəxsin mülkiyyətinə keçir (MM-in 178-cu maddəsinin 5 və 6-cı bəndləri)[4]. Məsələ burasındadır ki, indiki MM-ə görə əldə etmə müddəti əsasında daşınmaz əmlaka mülkiyyət hüququ əldə etmək qeyri-mümkündür: amma belə halda daşınmaz əmlaka əldə etmə müddəti əsasında mülkiyyət hüququnun yaranmasını qanunverici nəzərdə tutmalıdır. Mübahisənin predmeti daşınar əşya olarsa, borclu şəxs həmin əşyaya sahibsiz əşya kimi mülkiyyət hüququ əldə edir (MM-in 184-cü maddəsi). Borclu şəxs daşınar əşyaya əldə etmə müddəti əsasında da mülkiyyət hüququ əldə edə bilər (MM-in 181-ci maddəsinin 4-cü bəndi).

Mübahisənin predmeti pul vəsaiti olduqda, əgər mübahisə fiziki şəxslər arasında yaranarsa, onda pul vəsaiti borcluda qalır. Mübahisə pul barədə müəssisələr arasında yarandığı hallarda isə, iddia müddəti keçmiş debitor borcları alınması mümkün olmayan ümidsiz borclar hesab edilir və silinir[5]. İddia müddəti keçmiş kreditor borc məbləğləri, qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, dövlət büdcəsinə köçürülür[6].

İddia müddətinin ötməsinin **üçüncü hüquqi nəticəsi** ondan ibarətdir ki, bu əlavə tələblər (girov, dəbbə pulu, saxlama, zaminlik, beh) üzrə də iddia müddətinin ötməsinə səbəb olur (MM-in 376-cı maddəsi). Bu, onunla izah edilir ki, əlavə tələb əsas tələbdən törəyir və onu təmin edir. Madam ki, **əsas tələb üzrə iddia müddəti keçmişsə, onda əlavə tələb üzrə iddia müddəti də avtomatik olaraq ötmüş hesab edilir**. Məsələn, borc müqaviləsində tərəflər borcun qaytarılmasını (əsas tələbi) təmin etmək üçün hər gecikdirilən gün üçün penya (dəbbə pulu), yəni əlavə tələb nəzərdə tuturlar. Əsas tələb (borc tələbi) üzrə iddia müddəti ötürsə, bu, avtomatik olaraq əlavə tələb (penya) üzrə də a müddətinin ötməsinə səbəb olur.

[1] *Palandt* Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999, s. 215.

[2] *Эннекцерус Л.* Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950, с. 429.

[3] Римское частное право. Учебник / Под ред. *И.Б.Новицкого, И.С.Перетерского*. М., 1999, с. 253-254.

[4] Sovet qanunvericiliyi əldəetmə müddəti haqqında qayda nəzərdə tutmamışdı. Bu qayda bizim ölkə qanunvericiliyində yeni haldır. Həmin qayda dolayı yolla onu isbat edir ki, iddia müddətinin ötürülməsi özlüyündə subyektiv hüququ xitam etmir.

[5] bax: «Mühasibat uçotu haqqında» qanunun 22-ci maddəsi // AR QK, II cild, s. 453.

[6] bax: Yenə orada, s. 454.

TÖVSİYƏ OLUNAN ƏLAVƏ ƏDƏBİYYAT

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.Г.Калпина, А.И.Масляева**. М., 1997 (гл. 12, § 2).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **А.П.Сергеева, Ю.К. Толстого**. М., 1998 (гл. 14, § 3).

Гражданское право. Учебник. Том 1 / Под ред. **Е.А.Суханова**. М., 1998 (гл. 14, § 2).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **З.И.Цыбуленко**. М., 1998 (гл. 11, § 5).

Гражданское право. Учебник. Часть 1 / Под ред. **Т.И.Илларионовой, Б.М.Гонгало, В.А. Плетневой**. М., 1998 (гл. 13).

Советское гражданское право. Учебник. Том 1 / Под ред. **О.А.Красавчикова**. М., 1985 (гл. 12).

Кириллова М.Я. Исковая давность. М., 1966.

Масевич М.Г. Исковая давности // Хозяйство и право. 1993. № 9.

Новицкий И.Б. Сделки. Исковая давность. М., 1954.

Брагинский М. Сделки. Представительство. Сроки. Исковая давности // Хозяйство и право. 1995. № 6.

Тимофеев В.В. О сроках исковая давности // Вестник ВАС РФ. 1995. № 4.

Толстой Ю.К. Исковая давность // Правоведение. 1992. № 4.

Фалькович М. Новое в законодательстве об исковой давности по спорам между предприятиями // Хозяйство и право. 1993. № 11.

Эннекцерус Л. Курс германского гражданского права. Том 1. Полутом 2. М., 1950 (§ 214-§ 218).

Palandt. Bürgerliches Gesetzbuch. Kommentar. München. 1999.

Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983 (гл. 11).

MÜNDƏRİCAT

İkinci nəşrə ön söz ... 3

I FƏSİL. MÜLKİ HÜQUQ VƏ XÜSUSİ HÜQUQ ... 7

§ 1. Mülki hüquq xüsusi hüququn bir sahəsi kimi ... 7

1. «Mülki hüquq» termininin tarixi mənbəyi ... 7
2. Ümumi və xüsusi hüquq ... 10
3. Xarici hüquq sistemlərində xüsusi hüquq ... 14
4. Sovet hüquq doktrinası və xüsusi hüquq konsepsiyası ... 19
5. Xüsusi hüquq sistemi ... 22
6. Xüsusi hüquq və təsərrüfat (sahibkarlıq) hüququ ... 28
7. Xüsusi hüququn əsas cəhətləri və prinsipləri ... 33
8. Mülki hüquq xüsusi hüququn əsası kimi ... 36

II FƏSİL. MÜLKİ HÜQUQ MÜSTƏQİL HÜQUQ SAHƏSİ KİMİ ... 38

§ 1. Mülki hüququn anlayışı, ümumi xarakteristikası və əsas cəhətləri ... 38

1. Mülki hüququn anlayışı. Obyektiv mənada mülki hüquq. Subyektiv mənada mülki hüquq ... 38
2. Mülki hüquq müstəqil hüquq sahəsi kimi. Mülki hüququn əsas xüsusiyyətləri ... 42

§ 2. Mülki hüququn predmeti ... 44

1. Mülki hüququn predmetinin anlayışı ... 44
2. Əmlak münasibətləri mülki hüququn predmetinin əsas tərkib hissəsi kimi ... 48
3. Əmlak münasibətləri ilə bağlı şəxsi qeyri-əmlak münasibətləri mülki hüququn predmetinin tərkib hissəsi kimi ... 61
4. Əmlak münasibətləri ilə bağlı olmayan şəxsi qeyri-əmlak münasibətləri ... 66

§ 3. Mülki hüququn metodu və funksiyaları ... 70

1. Mülki hüququn metodu ... 70
2. Mülki hüququn funksiyaları ... 75

§ 4. Mülki hüququn prinsipləri ... 81

1. Mülki hüququn prinsiplərinin anlayışı, əhəmiyyəti və sistemi ... 81
2. Mülki hüquq subyektlərinin hüquq bərabərliyi prinsipi ... 84
3. Mülki hüquq subyektlərinin iradə azadlığı və sərbəstliyi prinsipi ... 86
4. Mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi prinsipi ... 87
5. Mülkiyyət toxunulmazlığı prinsipi ... 89
6. Müqavilə azadlığı prinsipi ... 91
7. Xüsusi işlərə (şəxsi həyata) kimsənin özbaşına qarışmasının yolverilməzliyi prinsipi ... 94
8. Mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması prinsipi ... 96
9. Pozulmuş hüquqların bərpasının təmin edilməsi prinsipi ... 98
10. Mülki hüquqların məhkəmə müdafiəsi prinsipi ... 100
11. Hüquqdan sui-istifadənin qadağan edilməsi prinsipi ... 101
12. Malların, xidmətlərin və maliyyə vəsaitinin ölkə ərazisində sərbəst hərəkət etməsi prinsipi ... 103

§ 5. Mülki hüququn sistemi və quruluşu ... 105

1. Mülki hüququn sistemi anlayışı və əhəmiyyəti ... 105
2. Mülki hüququn ümumi hissəsi ... 108
3. Mülki hüququn xüsusi hissəsi ... 111
4. Mülki hüquq institutları və normaları ... 118

§ 6. Mülki hüquq və əlaqəli hüquq sahələri. Mülki hüququn hüquq sahələri sistemində yeri ... 123

1. Konstitusiya hüququ və mülki hüquq ... 123
2. Mülki hüquq və maliyyə hüququ ... 125
3. Mülki hüquq və inzibati hüquq ... 128
4. Mülki hüquq və əmək hüququ ... 130
5. Mülki hüquq və beynəlxalq xüsusi hüquq ... 134
6. Mülki hüquq və ailə hüququ ... 138

III FƏSİL. MÜLKİ HÜQUQUN MƏNBƏLƏRİ ... 146

§ 1. Mülki hüququn mənbələri anlayışı və növləri ... 146

1. Mülki hüququn mənbəyi anlayışı ... 146
2. Mülki hüququn mənbə növləri ... 148
3. Mülki qanunvericiliyin anlayışı və xüsusiyyətləri ... 156

§ 2. Mülki qanunvericiliyin tərkibi ... 159

1. Mülki qanunvericiliyin sistemi anlayışı ... 159
2. Qanunlar (qanunvericilik aktları) mülki qanunvericilik sisteminin əsas tərkib hissəsi (elementi) kimi ... 162
3. Mülki Məcəllə ... 166
4. Qanunqüvvəli normativ aktlar ... 172
5. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları ... 175
6. Keçmiş SSRİ normativ aktları mülki hüququn mənbəyi kimi ... 176

§ 3. Mülki hüququn digər mənbə növləri ... 179

1. Beynəlxalq müqavilələr mülki hüququn mənbəyi kimi ... 179
2. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları mülki hüququn mənbəyi kimi ... 181
3. Hüquqi adətlər mülki hüququn mənbə növlərindən biri kimi ... 183
4. Mülki hüquq və əxlaq normaları ... 185
5. Normativ xarakterli aktlar mülki hüququn mənbəyi kimi ... 188
6. Hüququn prinsipləri mülki hüququn mənbəyi kimi ... 189
7. Ali məhkəmə plenumu qərarlarının hüquqi təbiəti ... 190

§ 4. Mülki qanunvericiliyin hüquqi qüvvəsi ... 193

1. Mülki qanunvericiliyin qüvvəsi anlayışı və əhəmiyyəti ... 193
2. Mülki qanunvericiliyin predmetə görə hüquqi qüvvəsi ... 194
3. Mülki qanunvericiliyin zamana (vaxta, müddətə) görə qüvvəsi ... 195
4. Mülki qanunvericiliyin məkana görə qüvvəsi ... 201
5. Mülki qanunvericiliyin subyektlərə görə qüvvəsi ... 203

§ 5. Mülki hüquqda boşluq. Analogiyanın tətbiqi 204
1. Mülki hüquqda boşluq. Analogiyanın anlayışı 204
2. Qanunun analogiyası 207
3. Hüququn analogiyası 209
§ 6. Mülki qanunvericiliyin sistemləşdirilməsi 209
§ 7. Mülki hüquq normalarının təfsiri 213
1. Mülki hüquq normalarının təfsiri anlayışı 213
2. Mülki hüquq normalarının təfsirinin növləri 215
3. Mülki hüquq normalarının təfsir üsulları 217
IV FƏSİL. MÜLKİ HÜQUQ (SİVİLİSTİKA) ELMİ VƏ TƏDRİS KURSU 221
§ 1. Mülki hüquq (sivilistika) elmi 221
1. Mülki hüquq (sivilistika) elminin anlayışı və predmeti 221
2. Mülki hüquq elminin vəzifələri, sistemi və əhəmiyyəti 226
3. Mülki hüquq elminin digər hüquq elmləri ilə qarşılıqlı əlaqəsi 228
4. Sivilistika elminin inkişafı tarixindən 231
5. Sivilistika elminin metodu 238
§ 2. Mülki hüquq tədris fənni kimi 242
1. Tədris fənni kimi mülki hüququn anlayışı və predmeti 242
2. Mülki hüquq tədris kursunun sistemi 244
V FƏSİL. MÜLKİ HÜQUQ MÜNASİBƏTLƏRİ 246
§ 1. Mülki hüquq münasibətinin anlayışı və əsas xüsusiyyətləri 246
1. Mülki hüquq münasibətinin anlayışı 246
2. Mülki hüquq münasibətlərinin quruluşu 254
3. Mülki hüquq münasibətlərinin xüsusiyyətləri 258
§ 2. Mülki hüquq münasibətlərinin subyekt və obyektləri 260
1. Mülki hüquq münasibətlərinin subyektləri 260
2. Mülki hüquq münasibətlərinin subyekt tərkibinin dəyişməsi 264
3. Mülki hüquq münasibətlərinin obyektləri 267
§ 3. Mülki hüquq münasibətinin hüquqi məzmunu 271
1. Subyektiv mülki hüquq 271
2. Subyektiv mülki-hüquqi vəzifə 277
§ 4. Mülki hüquq münasibətlərinin növləri 280
1. Mülki hüquq münasibətlərinin təsnifi anlayışı və əhəmiyyəti 280
2. Əmlak və qeyri-əmlak mülki hüquq münasibətləri 281
3. Mütləq və nisbi hüquq munasibətləri 284
4. Əşya və öhdəlik mülki hüquq münasibətləri 286
5. Müddətli və müddətsiz mülki hüquq münasibətləri 290
6. Sadə və mürəkkəb mülki hüquq münasibətləri 291
7. Tənzimləyici və qoruyucu mülki hüquq münasibətləri 292
8. Birtərəfli və ikitərəfli (qarşılıqlı) hüquq münasibətləri 292
§ 5. Mülki hüquq münasibətlərinin yaranmasının zəmini 293
1. Mülki hüquq münasibətlərinin yaranmasının zəmini anlayışı 293
2. Mülki hüquq subyektliyi 294

3. Mülki-hüquqi faktlar 299
4. Hüquqi faktlar mülki hüquq münasibətlərinin hüquqi-faktiki əsası kimi 302
5. Mülki-hüquqi faktların təsnifi 304
VI FƏSİL. FİZİKİ ŞƏXSLƏR MÜLKİ HÜQUQUN SUBYEKTİ KİMİ 316
§ 1. Fiziki şəxslərin mülki hüquq subyektliyi. Mülki hüquq qabiliyyəti 316
1. Fiziki şəxs anlayışı 316
2. Fiziki şəxslərin mülki hüquq qabiliyyəti 320
3. Mülki hüquq qabiliyyətinin əsas xüsusiyyətləri 323
4. Mülki hüquq qabiliyyəti və subyektiv mülki hüquq 325
5. Mülki hüquq qabiliyyətinin məzmunu 328
6. Mülki hüquq qabiliyyətinin əmələ gəlməsi və xitam edilməsi 331
7. Xarici ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin mülki hüquq qabiliyyəti 334
§ 2. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyəti 336
1. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin anlayışı və əhəmiyyəti 336
2. Mülki hüquq qabiliyyəti ilə mülki fəaliyyət qabiliyyəti arasında fərqli cəhətlər 339
3. Mülki fəaliyyət qabiliyyətinin hüquqi məzmunu 339
4. Mülki fəaliyyət qabiliyyətinin məzmunu və fiziki şəxsin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qabiliyyəti 342
§ 3. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə differensiasiyası 345
1. Fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinin dərəcəsinə (həcminə) görə differensiasiyası anlayışı 345
2. Tam fəaliyyət qabiliyyəti olmayan fiziki şəxslər 347
3. Tam fəaliyyət qabiliyyəti olan fiziki şəxslər 348
4. Emansipasiya 350
5. Mülki yetkinlik yaşına çatmayan şəxsin nigaha girməsi 352
6. Nisbi mülki fəaliyyət qabiliyyətli fiziki şəxslər 354
7. Qismən mülki fəaliyyət qabiliyyəti olan şəxslər 361
8. Məhdud fəaliyyət qabiliyyətli şəxslər 364
9. Mütləq fəaliyyət qabiliyyəti olmayan şəxslər 367
§ 4. Qəyyumluq və himayəçilik 369
1. Qəyyumluq və himayəçiliyin anlayışı və məqsədi 369
2. Qəyyumluq və himayəçilik orqanları 374
3. Qəyyum və himayəçi təyin edilən şəxslər 376
4. Qəyumların (himayəçilərin) hüquq və vəzifələri 379
5. Qəyyumluqda (himayədə) olanın əmlakının etibarlı idarə olunması 383
6. Qəyyumluğa və himayəçiliyə xitam verilməsi 384
7. Qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından kənarlaşdırılması 386
8. Patronaj 387
§ 5. Fiziki şəxsin yaşayış yeri 389
1. Yaşayış yeri anlayışı 389

2. Yaşayış yerinin seçilməsi 393
3. Yaşayış yerinin hüquqi əhəmiyyəti 395
§ 6. Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi. Fiziki şəxsin ölmüş elan edilməsi 396
1. Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi 396
2. Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi 398
3. Fiziki şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsinin hüquqi nəticələri 400
4. Fiziki şəxsin ölmüş elan edilməsi 401
5. Fiziki şəxsin ölmüş elan edilməsinin hüquqi nəticələri 404
6. Ölmüş elan edilmiş şəxsin gəlməsinin hüquqi nəticələri 406
VII FƏSİL. HÜQUQİ ŞƏXSLƏR 409
§ 1. Hüquqi şəxsin anlayışı, əhəmiyyəti, funksiyaları, mahiyyəti və əlamətləri 409
1. Hüquqi şəxslərin yaranması 409
2. Hüquqi şəxs konstruksiyasının funksiyaları (vəzifələri) 412
3. Huquqi şəxslərin əlamətləri 414
A. Təşkilati vahidlik 416
B. Ayrıca əmlakı olma əlaməti 417
C. Müstəqil surətdə mülki (əmlak) dövriyyədə öz adından çıxış etmək əlaməti 420
Ç. Məhkəmədə iddiaçı və ya cavabdeh olmaq imkanı 421
4. Hüquqi şəxsin mahiyyəti barədə əsas nəzəriyyələr 423
5. Hüquqi şəxsin fərdiləşdirilməsi 431
§ 2. Hüquqi şəxsin hüquq subyektliyi 438
1. Hüquqi şəxsin hüquq subyektliyinin anlayışı və əsas cəhətləri 438
2. Hüquqi şəxslərin mülki hüquq qabiliyyəti 440
3. Hüquqi şəxslərin mülki fəaliyyət qabiliyyəti 446
4. Hüquqi şəxslərin delikt qabiliyyəti 450
5. Hüquqi şəxslərin transfəaliyyət və transdelikt qabiliyyəti 452
§ 3. Hüquqi şəxslərin yaradılması və ləğv edilməsi 453
1. Hüquqi şəxslərin yaradılması 453
2. Hüquqi şəxslərin dövlət qeydiyyatı 457
3. Hüquqi şəxslərə xitam verilməsi 464
4. Hüquqi şəxsin yenidən təşkili yolu ilə onun xitam edilməsi 465
5. Hüquqi şəxsin ləğvi 470
6. Hüquqi şəxsin ləğvi prosedurası 472
7. Hüquqi şəxsin müflis olma nəticəsində ləğv edilməsi 476
§ 4. Hüquqi şəxsin təsnifi 483
1. Hüquqi şəxsin təsnifinin əsasları 483
2. Hüquqi şəxslərin növləri 486
3. Təsərrüfat ortaqlıqları. Təsərrüfat cəmiyyətləri 492
4. Tam ortaqlıq 499
5. Kommandit ortaqlığı 510

6. Məhdud məsuliyyətli cəmiyyət 516
7. Əlavə məsuliyyətli cəmiyyət 531
8. Səhmdar cəmiyyəti 533
9.Törəmə və asılı təsərrüfat cəmiyyətləri 555
10. Kooperativ 560
§ 5. Qeyri-kommersiya təşkilatları 576
1. Qeyri-kommersiya təşkilatlarının qısa hüquqi xarakteristikası 576
2. İctimai birliklər 576
3. Fondlar 580
4. Hüquqi şəxslərin ittifaqları 583
§ 6. Hüquqi şəxslərin nümayəndəlikləri, filialları və idarələri 588
1. Hüquqi şəxsin nümayəndəliyi 588
2. Hüquqi şəxsin filialı 590
3. İdarə 592
VIII FƏSİL. DÖVLƏT MÜLKİ HÜQUQUN SUBYEKTİ KİMİ. MÜLKİ HÜQUQ MÜNASİBƏTLƏRİNİN İŞTİRAKÇISI KİMİ DÖVLƏTİN HÜQUQİ VƏZİYYƏTİ 596
§ 1. Dövlətin mülki hüquq subyektliyi və onun əsas cəhətləri 596
1. Dövlətin mülki hüquq subyektliyinin anlayışı və onun elementləri 596
2. Dövlətin mülki hüquq subyektliyinin əsas cəhətləri 600
§ 2. Dövlətin mülki hüquq münasibətlərində iştirakı 604
1. Dövlətin əşya hüquq münasibətlərində iştirakı 604
2. Dövlətin vərəsəlik hüquq münasibətlərində iştirakı 607
3. Dövlətin korporativ mülki hüquq münasibətlərində iştirakı 608
4. Dövlətin öhdəlik hüquq münasibətlərində iştirakı 609
5. Dövlətin əqli mülkiyyət hüquq münasibətlərində iştirakı 613
6. Dövlətin beynəlxalq (xarici) mülki dövriyyədə iştirakı 614
7. Dövlət immuniteti 617
IX FƏSİL. MÜLKİ HÜQUQUN SUBYEKTİ KİMİ YERLİ ÖZÜNÜİDARƏ ORQANLARININ HÜQUQİ VƏZİYYƏTİ 622
§ 1. Yerli özünüidarə orqanlarının mülki hüquq subyektliyi, onun əsas cəhətləri və elementləri 622
1. Yerli özünüidarə orqanlarının mülki hüquq subyektliyinin anlayışı və elementləri 622
2. Yerli özünüidarə orqanlarının (bələdiyyələrin) mülki hüquq subyektliyinin əsas cəhət və xüsusiyyətləri 624
§ 2. Bələdiyyələrin (yerli özünüidarə orqanlarının) mülki hüquq münasibətlərində iştirak formaları 625
1. Bələdiyyələr mülkiyyətçi statuslu qurum kimi 625
2. Bələdiyyələr əqd iştirakçısı kimi 626
3. Bələdiyyələr mülki hüquq məsuliyyətinin subyekti kimi 628

X FƏSİL. MÜLKİ HÜQUQ MÜNASİBƏTLƏRİNİN OBYEKTLƏRİ 63
§ 1. Mülki hüquq münasibətlərinin obyekti anlayışı, hüquqi təsnifi və əsas xüsusiyyətləri 63
1. Mülki hüquq münasibətlərinin obyekti anlayışı 630
2. Mülki hüquq münasibətləri obyektlərinin hüquqi təsnifi 632
§ 2. Əşya mülki hüquq münasibətlərinin obyekti kimi. Əşyaların hüquqi təsnifi 634
1. Mülki hüquqda əşyanın anlayışı 634
2. İstehsal vasitələri və istehlak predmetləri 637
3. Daşınmaz və daşınar əşyalar 638
4. Dövriyyə qabiliyyətli, məhdud dövriyyə qabiliyyətli və dövriyyə qabiliyyəti olmayan əşyalar 641
5. İstehlak olunan və istehlak olunmayan əşyalar 644
6. Bölünən və bölünməyən əşyalar 646
7. Sadə və mürəkkəb əşyalar 647
8. Əsas (baş) və yardımçı əşyalar 649
9. Fərdi-müəyyən və cinsi əlamətləri ilə təyin edilən əşyalar 650
10. Hüquqi cəhətdən əvəz edilən və əvəz edilməyən əşyalar 652
11. Cansız və canlı əşyalar 652
12. Bəhər verən əşyalar və bəhər 654
13. Müəssisə mülki hüquq münasibətlərinin obyekti kimi 656
14. Mülki hüquqda əmlak anlayışı 660
15. Pul mülki hüquq münasibətlərinin obyekti kimi 662
§ 3. Qiymətli kağızlar mülki hüquq münasibətlərinin obyekti kimi 665
1. Qiymətli kağızların hüquqi xa akteristikası 665
2. Qiymətli kağızların təsnifi 670
3. Qiymətli kağızların ayrı-ayrı növlərinin qısaca xarakteristikası 676
§ 4. Mülki hüquq münasibətlərinin digər obyektləri 686
1. Əqli mülkiyyət obyektləri 686
2. Şəxsi qeyri-maddi nemətlər 688
3. Hərəkətlər mülki hüquq münasibətlərinin obyekti kimi 688
XI FƏSİL. MÜLKİ HÜQUQDA ƏQDLƏR (MÜLKİ-HÜQUQİ ƏQDLƏR) 692
§ 1. Mülki-hüquqi əqdlərin anlayışı, əlamətləri, əhəmiyyəti, elementləri və əsas cəhətləri 692
1. Mülki-hüquqi əqdlərin anlayışı 692
2. Əqdin hüquqi əlamətləri 694
3. Əqdin elementləri 696
4. Əqdlərin əhəmiyyəti 702
§ 2. Əqdlərin hüquqi təsnifi 703
1. Əqdlərin növləri 703
2. Birtərəfli, ikitərəfli və çoxtərəfli əqdlər 704
3. Əvəzli və əvəzsiz əqdlər 708
4. Konsensual və real əqdlər 709
5. Kauzal və abstrakt (mücərrəd) əqdlər 710
6. Müddətli və müddətsiz əqdlər 713

7. Adi (şərtsiz) və şərti əqdlər 714
8. Əqdin digər növləri 720
9. Əqdin yönəldiyi hüquqi nəticədən asılı olaraq onun növləri 724
§ 3. Əqdin etibarlı olması şərtləri 725
1. Ümumi müddəalar 725
2. Əqdin subyekt tərkibinə aid edilən şərt 726
3. Əqdin məzmununa aid edilən şərt 727
4. İradə və iradəni ifadə etmənin vəhdətinə aid edilən şərt 728
5. Əqdin forması 730
6. Əqdin yazılı forması 732
7. Əqdin sadə yazılı forması 737
8. Əqdin notarial forması 738
9. Əqdlərdən əmələ gələn hüquqların dövlət qeydiyyatı 741
10. Əqdlərdə razılıq 744
§ 4. Əqdin etibarsızlığı. Etibarsız əqdlər və onların növləri 746
1. Əqdlərin etibarsızlığının anlayışı 746
2. Etibarsız əqdlərin təsnifi 748
§ 5. Əqdin elementinin qüsurlu olması meyarına görə etibarsız əqdlərin növləri 751
1. Subyekt tərkibi qüsurlu olan etibarsız əqdlər 751
2. İradəsi qüsurlu olan əqdlər 756
3. Forması qüsurlu olan əqdlər 766
4. Məzmunu qüsurlu olan əqdlər 768
§ 6. Puç (mütləq etibarsız) və mübahisə edilən (nisbi etibarsız) əqdlər 773
1. Puç (mütləq etibarsız) əqdlər 773
2. Mübahisə edilən (nisbi etibarsız) əqdlər 775
3. Qismən etibarsız əqdlər 779
4. Əqdin konversiyası 780
§ 7. Əqdin etibarsız hesab edilməsinin doğurduğu hüquqi nəticələr 781
1. Əmlak nəticələrinin növləri 781
2. İkitərəfli restitusiya 782
3. Birtərəfli restitusiya 783
4. Əqdin etibarsızlığının əlavə əmlak nəticəsi 784
XII FƏSİL. MÜLKİ HÜQUQLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏ VƏZİFƏLƏRİN İCRASI 787
§ 1. Mülki hüquqların həyata keçirilməsi, vəzifələrin icrası, onlar arasında qarşılıqlı əlaqə, həyata keçirilmə və icra üsulları 787
1. Mülki hüquqların həyata keçirilməsinin anlayışı 787
2. Subyektiv mülki hüquqi vəzifələrin icrasının anlayışı 789
3. Subyektiv mülki hüquqların həyata keçirilməsi ilə mülki vəzifələrin icra olunması arasında qarşılıqlı əlaqə 790
4. Mülki hüquqların həyata keçirilməsi şərtləri 791
5. Subyektiv mülki hüquqların həyata keçirilməsi üsulları 792
6. Mülki vəzifələrin icra üsulları 794
7. Mülki hüquqların həyata keçirilməsinin və mülki vəzifələrin icrası-

nın bəzi xüsusiyyətləri ... 796
§ 2. Mülki hüquqların həyata keçirilməsinin və mülki vəzifələrin icrasının prinsipləri ... 797
1. Mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının prinsiplərinin anlayışı ... 797
2. Qanunçuluq prinsipi ... 798
3. Vicdanlılıq və ağlabatanlılıq prinsipi ... 800
4. Sosial təyinata uyğunluq prinsipi ... 802
5. Tərəflərin qarşılıqlı əməkdaşlığı prinsipi ... 803
§ 3. Mülki hüquqların həyata keçirilməsinin və vəzifələrin icrasının hədləri. Hüquqdan sui-istifadə xüsusi xarakterli mülki hüquq pozuntusu kimi ... 804
1. Mülki hüquqların həyata keçirilməsinin hədləri anlayışı ... 804
2. Hüquqdan sui-istifadənin anlayışı ... 807
XIII FƏSİL. MÜLKİ HÜQUQDA NÜMAYƏNDƏLİK (TƏMSİLÇİLİK) ... 814
§ 1. Mülki-hüquqi nümayəndəliyin anlayışı, subyektləri, növləri və əhəmiyyəti ... 814
1. Nümayəndəliyin anlayışı ... 814
2. Nümayəndəliyin əhəmiyyəti ... 817
3. Nümayəndəlik münasibətinin elementləri və quruluşu ... 818
4. Nümayəndəlik və ona oxşar olan münasibətlər ... 822
5. Nümayəndənin səlahiyyəti ... 825
§ 2. Nümayəndəliyin əmələ gəlmə əsasları və növləri ... 828
1. Nümayəndəliyin əmələ gəlmə əsasları ... 828
2. Nümayəndəliyin növləri ... 829
§ 3. Etibarnamənin anlayışı, əsas xüsusiyyətləri forması və növləri ... 835
1. Etibarnamənin anlayışı ... 835
2. Etibarnamənin növləri ... 835
3. Etibarnamənin forması ... 838
4. Yenidən etibar etmə ... 841
5. Etibarnaməyə xitam verilməsi ... 843
6. Etibarnaməyə xitam verilməsinin nəticələri ... 844
XIV FƏSİL. MÜLKİ HÜQUQLARIN MÜDAFİƏSİ ... 847
§ 1. Mülki hüquqların müdafiəsi anlayışı, formaları və əsas cəhətləri ... 847
1. Mülki hüquqların qorunması ... 847
2. Müdafiə hüququ ... 849
3. Mülki hüquqların müdafiə formaları ... 851
§ 2. Mülki hüquqların müdafiə üsulları ... 857
1. Mülki hüquqların müdafiə üsulunun anlayışı ... 857
2. Konkret müdafiə üsulları ... 859
§ 3. Özünüqoruma (özünümüdafiə) mülki hüquqların qeyri-yurisdiksiya müdafiə forması kimi ... 865
1. Mülki hüquqda özünüqoruma (mülki-hüquqi özünümüdafiə) anlayışı ... 865

2. Mülki hüquqda zəruri müdafiə (mülki-hüquqi zəruri müdafiə) ... 868
3. Mülki hüquqda son zərurət (mülki-hüquqi son zərurət) ... 873
4. Mülki hüquqda özünəyardım (mülki-hüquqi özünəyardım) ... 876
§ 4. Operativ təsir tədbirləri (ləngitmə hüququ) ... 883
1. Operativ təsir tədbirlərinin (ləngitmə hüququnun) anlayışı və əsas cəhətləri ... 883
2. Operativ təsir tədbirlərinin növləri ... 885
XV FƏSİL. MÜLKİ HÜQUQLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏ MÜDAFİƏSİ MÜDDƏTLƏRİ ... 888
§ 1. Mülki hüquqda müddətlər, onların hesablanması və növləri. Müddətlərin əhəmiyyəti. ... 888
1. Mülki hüquqda müddət anlayışı ... 888
2. Müddətlərin hesablanması üsulu və qaydası ... 891
3. Müddətin növləri ... 894
§ 2. Təyinatına görə mülki-hüquqi müddətlərin növləri ... 898
1. Mülki hüquqlar yaradan müddətlər. Mülki hüquqların həyata keçirilməsi müddətləri ... 898
2. Mülki-hüquqi vəzifələrin icrası müddətləri ... 905
3. Müddətlərin mülki-hüquqi əhəmiyyəti ... 906
XVI FƏSİL. MÜLKİ HÜQUQLARIN MÜDAFİƏ MÜDDƏTİ ... 908
§ 1. Mülki hüquqların müdafiə müddətinin anlayışı, əhəmiyyəti və növləri ... 908
1. Mülki hüquqların müdafiə müddətinin anlayışı. İddia müddəti və onun əhəmiyyəti ... 908
2. İddia müddətinin növləri ... 910
3. Maddi və prosessual mənada iddia hüququ ... 913
4. İddia müddəti haqqında qayda ... 914
5. İddia müddətinin şamil edilmədiyi tələblər ... 917
§ 2. İddia müddəti axımının başlanması, kəsilməsi, bərpası və ötməsinin nəticələri ... 918
1. İddia müddəti axımının başlanması ... 918
2. İddia müddəti axımının dayandırılması ... 921
3. İddia müddəti axımının kəsilməsi ... 925
4. İddia müddəti axımının bərpa edilməsi ... 927
5. İddia müddətinin ötürülməsinin nəticələri ... 930

Prof. Sabir Allahverdiyev

AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ HÜQUQ KURSU

I cild
Ümumi hissə
II nəşr

(*15 noyabr 2008-ci il tarixədək olan əlavə və dəyişikliklərlə*)

Korrektor: ***Cəmilə Əhmədova***
Kompüter tərtibatçısı: ***Natiq Nəcəfov***
Operator: ***Afət Quliyeva***

«Digesta» nəşriyyatında yığılmışdır.
Çapa imzalanmışdır: 15 noyabr 2008-ci il
Formatı: 70x100 1 / 16
Mətbəə kağızı № 1
Fiziki çap vərəqi: 59
Tirajı: 300
Qiyməti: **25,00** manat

«Digesta» nəşriyyatı
Bakı, Mətbuat pr., 24
Tel.: 438-04-57

«Zərdabi LTD» MMC Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.